**Elşən Hacızadə**

# DÜNYA İQTİSADİYYATI VƏ AZƏRBAYCAN

**BAKI - 2018**

**Elmi məsləhətçi**

**Akademik Z.Ə.Səmədzadə**

**Rəyçilər**

**i.e.d, prof. A.M.Məhərrəmov**
**i.e.d, prof. H.B.Rüstəmbəyov**
**i.e.d, prof. İ.A.Kərimli**
**i.ü.f.d., dos. F.Ə.Rəhimli**
**i.ü.f.d., dos. E.R.Bağırzadə**

**Hacızadə E.M.**
Dünya iqtisadiyyatı və Azərbaycan. Dərslik. "Letterpress" nəşriyyat evi. Bakı: 2018, 912 s.

Dərslikdə dünya iqtisadiyyatının formalaşmasının və inkişafının nəzəri əsaslarının və praktiki məsələlərinin tədqiqi qloballaşma meyilləri, inkişafın tempi və proporsiyaları, kapitalın beynəlxalq hərəkəti, dünya əmtəə və xidmətlər bazarının xüsusiyyətləri və buradakı qiymətyaranma prosesləri, valyuta-maliyyə münasibətləri və digər aktual problemləri məcmusunda öz əksini tapmışdır. Dünya təsərrüfatının özəlliklərini xarakterizə edən çoxsaylı statistik və analitik materiallar dərsliyin mətninə daxil edilərək, ayrı-ayrı ölkələrdə təbii sərvətlər, elmi-texniki və insan potensialı, iqtisadiyyatın müasir vəziyyəti və trendləri, makroiqtisadi göstəricilərin müqayisəsi, baza və infrastruktur sahələrinin zəif və güclü tərəfləri, ekoloji problemlər, iqtisadi proseslərin dövlət tənzimlənməsinin forma və metodları, inteqrasiyanın dərinləşməsi və inkişafın strateji istiqamətləri haqqında məsələlər geniş elmi şərhdə verilmişdir. Dərsliyin spesifikliyi və mühüm cəhəti Azərbaycan Respublikasının beynəlxalq əmək bölgüsü sistemində yeri və rolu, onun dünya iqtisadiyyatına inteqrasiyasının dərinləşməsi perspektivlərinin təhlili və təqdimatı ilə bağlıdır.

Dərslik tələbələr, doktorantlar, müəllimlər, elmi işçilər, mütəxəssislər və həmçinin, dünya iqtisadiyyatının problemləri ilə maraqlananların istifadəsi üçün nəzərdə tutulur.

ISBN 978-9952-452-91-4

UOT 339.9 (075.8) - (479.24)

Azərbaycan İqtisadçılar İttifaqının 29.08.2018-ci il tarixli iclasının qərarı ilə (*protokol № 9*) təsdiq edilmişdir.

© E.Hacızadə, 2018

**Hacızadə Elşən Mahmud oğlu**

*iqtisad elmləri doktoru, professor*



***9 avqust 1961-ci ildə***
***Azərbaycan Respublikasının***
***Siyəzən şəhərində anadan olmuşdur.***
***207 elmi əsər (361,4 ç.v.), o cümlədən, 9 monoqrafiya,***
***1 dərslik, 3 tədris proqramı, 6 metodik vəsait, 12 broşur,***
***30-dək müxtəlif ictimai məzmunlu məqalənin müəllifidir.***
***Xarici dövlətlərdə keçirilən beynəlxalq konfrans, simpozium və***
***konqreslərdə 30-dan çox elmi məqalələrlə çıxış etmiş və əsərləri***
***bir sıra ölkələrin elmi nəşrlərində çap olunmuşdur.***
***Beynəlxalq Elmlər Akademiyasının akademikidir.***
***Beynəlxalq Nəqliyyat Akademiyasının akademikidir.***
***Rusiya Təbiət Elmləri Akademiyasının xarici üzvüdür.***
***Beynəlxalq İqtisadçılar İttifaqının üzvüdür.***

## MÜƏLLİFDƏN

Dərsliyin hazırlanmasına xüsusi dəstək verən Azərbaycan İqtisadçılar İttifaqına, onun sədri, çox hörmətli **akademik Ziyad Səmədzadəyə**, **professorlar Şəmsəddin Hacıyevə, İrşad Kərimliyə, Amil Məhərrəmova, Hacıağa Rüstəmbəyova, dosentlər Fikrət Rəhimliyə və Elşad Səmədzadəyə**, dəyərli məsələhətləri ilə zəruri metodiki yardım göstərən gənc alim, **dosent Elşən Bağırzadəyə**, həmçinin, redaktə, təshih və tərtibat işlərində öz köməklərini əsirgəməyən dostum, istedadlı jurnalist **Elşən Əliyevə** və gənc həmkarım **Samir Sultanova** xüsusi təşəkkür və ehtiramımı bildirirəm.

**E-mail:** elshan@hajizada.com; ehm@rambler.ru
**Website:** www.hajizada.com

*Şərəfli Hacı titulu*
*nəsilimizin soyadında əbədiləşmiş*
*babam Ağababa Xalıq oğlunun*
*əziz xatirəsinə ithaf edirəm.*

# MÜNDƏRİCAT

Giriş ....................................................................................................11

**I HİSSƏ. Dünya iqtisadiyyatının formalaşması və konseptual əsasları**

**I FƏSİL. "Dünya iqtisadiyyatı" kursuna giriş: dünya təsərrüfatının strukturu və məzmunu**

1.1. "Dünya iqtisadiyyatı" anlayışı ....................................................................18
1.2. "Dünya iqtisadiyyatı" fənninin predmeti, tədqiqat obyekti və əsas vəzifələri....................................................................................................21
1.3. İqtisadiyyatın səviyyələri və dünya iqtisadiyyatı ..........................................23
1.4. Dünya təsərrüfatının subyektləri ..................................................................25
1.5. "Dünya iqtisadiyyatı"nın strukturu ...............................................................28
1.6. İqtisadi nəzəriyyədə "Dünya iqtisadiyyatı"nın yeri və onun digər elmlərlə qarşılıqlı əlaqəsi ....................................................................................30
1.7. Dünya iqtisadiyyatının əsas göstəricilər sistemi ...........................................31
1.8. Beynəlxalq əmək bölgüsü dünya təsərrüfatının obyektiv əsası kimi .............33
1.9. Beynəlxalq ixtisaslaşma və beynəlxalq kooperasiya .....................................34
1.10. Dünya ölkələrinin təsnifat modelləri ..........................................................37
1.11. Beynəlxalq ticarət və dünya bazarı ............................................................42
1.12. Qloballaşma və regionlaşma .......................................................................44
1.13. Azərbaycanın dünya təsərrüfatında yeri......................................................47

**II FƏSİL. Dünya təsərrüfatının formalaşması və inkişaf mərhələləri**

2.1. Dünyanın yaranışı və bəşəriyyətin maddi mədəniyyətinin formalaşması ......59
2.2. Maddi istehsal sistemində köklü dəyişikliklər - Neolit inqilabı .....................60
2.3. Natural təsərrüfatçılıqdan əmtəə-pul münasibətlərinə keçid ..........................62
2.4. Asiya istehsal üsulu və təsərrüfatçılığın antik modeli ...................................63
2.5. Təsərrüfat həyatının paradiqmaları ..............................................................66
2.6. Neft sivilizasiyası ........................................................................................71
2.7. Konfessional iqtisadi sistemlər ....................................................................83
2.8. Dünya iqtisadiyyatının formalaşma mərhələləri ............................................85
2.9. Dünya bazarının təşəkkülü ...........................................................................87
2.10. Beynəlxalq əmək bölgüsünün genişlənməsi, Şərq və Qərbin iqtisadi inkişaf səviyyələri ..........................................................................................88
2.11. Kapitalizmin yaranışı və qlobal inkişafı .......................................................91
2.12. Müstəmləkəçilik sistemi və imperialist siyasət ............................................92
2.13. Dünyanın ərazi cəhətdən bölüşdürülməsinin başa çatması - müstəmləkə sisteminin dağılması ...........................................................................94
2.14. Beynəlxalq iqtisadi təşkilatların təşəkkülü ..................................................96
2.15. Qlobal iqtisadiyyatın formalaşması prosesi və beynəlxalq iqtisadi əlaqələrin dərinləşməsi ................................................................................98

2.16. Azərbaycanın milli iqtisadiyyatının inkişaf mərhələləri ..............................99
2.17. Azərbaycan iqtisadiyyatının formalaşmasında karbohidrogen resurslarının rolu və əhəmiyyəti ..........................................................................................105

**III FƏSİL. Qlobal iqtisadi sistemin əsas nəzəriyyə və konsepsiyaları**
3.1. Qlobal iqtisadi sistemin əsas nəzəriyyə və konsepsiyalarının təsnifatı ........134
3.2. "İmperializm" və "Neokolonializm" nəzəriyyəsi ........................................135
3.3. "Modernləşmə" nəzəriyyəsi və "Neoevolyusionizm" konsepsiyası ............136
3.4. "Asılılıq" nəzəriyyəsi və "Dünya-sistemlər" nəzəriyyəsi ............................138
3.5. "İndustrial cəmiyyət" nəzəriyyəsi və "Postindustrial cəmiyyət" konsepsiyası ...............................................................................................140
3.6. "İqtisadi artım mərhələləri" nəzəriyyəsi, "Qlobal qarşılıqlı asılılıq" və "Bərabər partnyorluq" konsepsiyaları ....................................................142
3.7. "Üç dünya" modeli və "Konvergensiya" nəzəriyyəsi ................................144
3.8. "Vahid sivilizasiya" və "Sivilizasiyaların toqquşması" nəzəriyyələri ..........146

**IV FƏSİL. Beynəlxalq əmək bölgüsü və dünya təsərrüfatında inteqrasiya prosesləri**
4.1. Beynəlxalq əmək bölgüsü və onun nəzəri müddəaları ................................151
4.2. Beynəlxalq ixtisaslaşmanın, iqtisadi əməkdaşlıq və kooperasiyanın dərinləşməsi .......................................................................................................154
4.3. Ölkələrin beynəlxalq əmək bölgüsündə iştirakına təsir edən amillər və onun inkişaf göstəriciləri.........................................................................................157
4.4. Dünya təsərrüfatının sahə quruluşu ...........................................................159
4.5. Dünya təsərrüfatı əlaqələrinin başlıca formaları..........................................161
4.6. Beynəlxalq iqtisadi inteqrasiyanın məqsədləri və onu təyin edən amillər ...165
4.7. Beynəlxalq iqtisadi inteqrasiyanın nəzəriyyələri .........................................167
4.8. Transmilliləşmə prosesi və transmilli şirkətlər ...........................................169
4.9. Azərbaycan beynəlxalq əmək bölgüsü sistemində: xarici iqtisadi inteqrasiyanın dərinləşməsi perspektivləri ...................................................171

**II HİSSƏ. Dünya iqtisadiyyatının təsnifat quruluşu və qlobal inkişaf problemləri**

**V FƏSİL. Dünya iqtisadiyyatının təsnifat quruluşu. Dünyanın kontinental və makroregional bölgüsü**
5.1. Əsas dövlət tipləri, dünya ölkələrinin təsnifat prinsipləri ............................178
5.2. İnkişaf etmiş ölkələrin əsas əlamətləri.........................................................182
5.3. İnkişaf etməkdə olan ölkələrin səciyyəvi xüsusiyyətləri .............................205
5.4. Keçid iqtisadiyyatı ölkələri ........................................................................209
5.5. Yeni sənaye ölkələri və onların beynəlxalq ixtisaslaşması ..........................211
5.6. Dünyanın kontinental və makroregional bölgüsü .......................................213
5.7. Avropanın kontinental ölkələri və makroregionları ....................................215

5.8. Asiyanın kontinental ölkələri və makroregionları ....................................229
5.9. Afrikanın kontinental ölkələri və makroregionları ....................................239
5.10. Amerikanın kontinental ölkələri və makroregionları ...............................248
5.11. Avstraliya və Okeaniyanın kontinental ölkələri və makroregionları .........253

**VI FƏSİL. Coğrafi yaxın və oxşar iqtisadiyyatlı ölkələr qrupları**
6.1. Ölkə qrupları və onların dünya iqtisadiyyatının inkişafındakı rolu ............262
6.2. Türkdilli dövlətlərin iqtisadi inteqrasiyası və Turan modeli........................270
6.3. Müstəqil Dövlətlər Birliyi ölkələri ...........................................................286
6.4. Baltikyanı region ölkələri .........................................................................294
6.5. Balkan regionu ölkələri ............................................................................297
6.6. Ərəb resurs iqtisadiyyatı və islam monarxiyaları .......................................306
6.7. Super nəhəng ölkələr: ÇXR və Hindistan ..................................................313
6.8. İnzibati-amirlik iqtisadiyyatlı ölkələr .......................................................323
6.9. Yoxsul və "intiharçı" ölkələr ...................................................................326
6.10. İqtisadiyyatları modernizə olunmuşlar, ada resurs iqtisadi sistemli və heç bir qrupda təmsil olunmayan ölkələr .......................................................333
6.11. Cənubi Qafqaz regionu ölkələri: Gürcüstan və Ermənistan iqtisadiyyatlarının xüsusiyyətləri ...........................................................338
6.12. Xəzər hövzəsi regionu ölkələrinin iqtisadiyyatlarının xüsusiyyətləri ........345
6.13. Azərbaycanın dünya dövlətləri təsnifatında mövqeyi ..............................371

**VII FƏSİL. Dünya təsərrüfatının resurs potensialı**
7.1. Dünya iqtisadiyyatında təbii-resurs potensialının xüsusiyyətləri ................377
7.2. Resurslar və ehtiyatlar kateqoriyası .........................................................382
7.3. Mineral-xammal və yanacaq resursları .....................................................385
7.4. Torpaq, meşə və su resursları ..................................................................396
7.5. Ölkələr üzrə təbii resursların yerləşməsi və istehlak dinamikası ................400
7.6. Təbii resurslardan rasional istifadə imkanları ...........................................402
7.7. Mineral xammalın dünya qiymətlərinin formalaşması xüsusiyyətləri .........404
7.8. Dünya əmək resurslarının kəmiyyət və keyfiyyət aspektləri ......................408
7.9. Dünya maliyyə resursları və onların yenidən bölgüsü mexanizmləri ..........413
7.10. Elmi-texniki potensial və elmi-texniki tərəqqi .........................................416
7.11. İntellektual kapital və dünyanın əsas elmi-texniki mərkəzləri ..................421
7.12. Azərbaycanın təbii resurs və elmi-texniki potensialı ................................423
**VIII FƏSİL. Makroiqtisadi göstəricilər və beynəlxalq müqayisə**
8.1. Ölkələrin iqtisadi inkişaf göstəriciləri .......................................................441
8.2. Mütləq göstəricilər: Ümumi Daxili Məhsul, Ümumi Milli Məhsul, Milli Gəlir .........................................................................................443
8.3. Struktur göstəricilər: iqtisadiyyatın müxtəlif sektorlarında məşğulluğun nisbəti, yanacaq-enerji balansının strukturu, nəqliyyat növləri üzrə daşımalar.....................................................................................445

8.4. Sosial göstəricilər: orta uzunömürlülük, insan inkişafı indeksi, savadlılıq faizi, informasiyalaşma səviyyəsi, korrupsiyanın yayılması və kölgə iqtisadiyyatı ........................................................................................461
8.5. "Paritet İstehlak Qabiliyyəti", "İqtisadi İnkişafın Səviyyəsi", "İqtisadi güc", "İqtisadi potensial" və "İqtisadi artım" anlayışlarının müqayisəsi .............471
8.6. Ölkənin dünya təsərrüfatında iştirakı göstəriciləri .....................................474
8.7. Qloballaşma indeksi və reytinqlər ............................................................475
8.8. Milli Hesablar Sistemi və tədiyə balansı ....................................................482
8.9. İqtisadiyyatın açıqlılıq meyarları və göstəriciləri .......................................484
8.10. Azərbaycanın nəqliyyat-kommunikasiya sistemləri ..................................487
8.11. Azərbaycanda informasiya cəmiyyəti .......................................................498

**IX FƏSİL. Dünya ölkələrinin sosial-iqtisadi inkişaf modelləri**
9.1."Sosial-iqtisadi inkişaf modeli" anlayışı .....................................................509
9.2. Ölkələrin sosial-iqtisadi inkişaf modelləri ..................................................510
9.3. Milli rəqabətqabiliyyətlilik ..........................................................................521
9.4. İqtisadi təhlükəsizlik ....................................................................................522
9.5. Makroiqtisadi inkişafın əsas modelləri .......................................................524
9.6. İdxalı əvəzləyən və ixrac yönümlü iqtisadi inkişaf modelləri ....................528
9.7. "Üçüncü yol" fenomeni və ya islam sosializasiyası ..................................531
9.8. İqtisadi inkişafın Azərbaycan modeli ..........................................................534

**X FƏSİL. İqtisadi inkişafın qlobal problemləri**
10.1. Qloballaşma prosesi. Qlobalistika elmi biliklər sahəsi kimi .....................539
10.2. Qloballaşmanın tələbləri, amilləri, hərəkətverici gücləri və ziddiyyətləri .541
10.3. Qlobal problemlər və onların ümumkonseptual qruplaşdırılması .............544
10.4. Qlobal kapitalist sisteminin çatışmazlıqları ..............................................547
10.5. "Bretton-Vuds" sistemi və müasir qlobal maliyyə arxitekturası ...............549
10.6. Qlobal inhisarlar və oliqopoliyalar təhlükəsi ............................................553
10.7. İstehlak problemi və onunla bağlı başlıca nəzəriyyə və kateqoriyalar ......556
10.8. Qlobal demoqrafik problem və onların səciyyəvi xüsusiyyətləri ..............558
10.9. Qlobal ərzaq problemi və ərzaq təhlükəsizliyinin təminatı yolları ............562
10.10. İnkişaf etməkdə olan ölkələrin sosial-iqtisadi gerilik problemi ...............571
10.11. Yoxsulluq və gender problemi .................................................................572
10.12. Xammalın tükənməsi problemi .................................................................577
10.13. Bəşəriyyətin enerjidaşıyıcılarla təchizatı və enerji təhlükəsizliyinin təminatı problemləri ..............................................................................579
10.14. Dünya bazarında neftin qiymətinin tənzimlənməsində Neft İxracatçısı Ölkələri Təşkilatının (*OPEK*) strategiyası ..............................................587
10.15. Nüvə energetikasının inkişaf problemləri və alternativ enerji mənbələrindən istifadə imkanları ...........................................................592
10.16. Təbiət-cəmiyyət qarşılıqlı münasibətləri və ekoloji vəziyyətin dəyərləndirilməsi ........................................................................................599

10.17. Qlobal ekoloji problemin mahiyyəti və səbəbləri ....................................604
10.18. Ekoloji iqtisadiyyat, dayanıqlı inkişaf konsepsiyası və qlobal ekoloji problemləri tənzimləyən beynəlxalq konvensiyalar ................................606
10.19. Dünya okeanı və ondan istifadənin qlobal problemləri ..........................613
10.20. Dünya okeanının beynəlxalq hüquq rejimi ............................................620
10.21. Kosmik məkanın mənimsənilməsi problemi ..........................................630
10.22. Azərbaycanda nüvə tədqiqatları və kosmik sənayenin inkişaf perspektivləri .......................................................................................639
10.23. İqtisadiyyatın militarizasiyası və qlobal hərbi problem ..........................645
10.24. "Soyuq müharibə" və onun siyasi-iqtisadi nəticələri ..............................653
10.25. Hərbi-siyasi ittifaqlar və hərbi güc nümayişinin yeni mərhələsi ............658
10.26. Beynəlxalq borc böhranı və borclar probleminin tənzimlənməsi ...........661
10.27. Qlobal problemlərin həlli yolları ...........................................................665
10.28. Azərbaycan-Ermənistan münaqişəsi - "Dağlıq Qarabağ" problemi .........666

**III HİSSƏ. Dünya bazarı və istehsal amillərinin beynəlxalq hərəkəti**

**XI FƏSİL. Dünya bazarı: mahiyyəti, təkamülü və inkişaf xüsusiyyətləri**
11.1. Bazar təsnifatlandırması və bazar fərqlilikləri .........................................694
11.2. Dünya bazarının mahiyyəti, strukturu və formalaşmasının əsas mərhələləri ..........................................................................................696
11.3. Dünya bazarının konyunkturası və dünya qiymətlərinin funksiyaları .......698
11.4. Dünya əmtəə və xidmətlər bazarı ............................................................700
11.5. Dünya xammal və enerjidaşıyıcılar bazarı ...............................................702
11.6. Dünya əmək bazarı .................................................................................717
11.7. İdxal və ixracın müasir təşkilatı formaları ...............................................720
11.8. Dünya bazarının tarazlığı və beynəlxalq rəqabət .....................................722
11.9. Azərbaycanın ixrac potensialı və dünya bazarında yeri ............................724

**XII FƏSİL. Beynəlxalq ticarətin ölkələrarası iqtisadi əlaqələr sistemində rolu**
12.1. Beynəlxalq ticarətin strukturu, formaları və ölkələrin dünya ticarətində iştirakı göstəriciləri .......................................................................736
12.2. Xidmətlər üzrə beynəlxalq ticarətin mahiyyəti və dinamikası ..................738
12.3. Elektron ticarət və onun dünya ticarət əlaqələrinin genişlənməsində rolu .........................................................................................................741
12.4. Beynəlxalq ticarət təşkilatları və onların mahiyyəti .................................743
12.5. Uruqvay raundu və Dünya Ticarət Təşkilatının təşəkkülü .........................746
12.6. Azərbaycanın Dünya Ticarət Təşkilatına inteqrasiyası .............................749

**XIII FƏSİL. İstehsal amillərinin beynəlxalq hərəkəti**
13.1. Dünya valyuta bazarı ..............................................................................754
13.2. Valyuta mübadilə kursu və valyuta əməliyyatları ....................................756
13.3. Qiymətli kağızlar bazarı və dünyanın əsas fond birjaları ..........................760

13.4. Beynəlxalq və regional kredit təşkilatları və qlobal maliyyə institutları ...764
13.5. Maliyyə bazarlarının qloballaşması və transmilli banklar ........................769
13.6. İslam iqtisadi sisteminin irəliləyişləri və islam bankçılığı ........................772
13.7. Dünya maliyyə böhranları ....................................................................774
13.8. Kapitalın beynəlxalq hərəkəti (*miqrasiyası*) .............................................778
13.9. Beynəlxalq investisiyalar ....................................................................781
13.10. Azad iqtisadi zonalar, onların yaranış səbəbləri və məqsədləri ...............785
13.11. "Vergi sığınacaqları": ofşor və onşor zonalar ..........................................791
13.12. İşçi qüvvəsinin beynəlxalq miqrasiyası .................................................797
13.13. Azərbaycanın xarici investisiya siyasəti, xarici borc problemi ...............801
13.14. Azərbaycanda miqrasiya proseslərinin tənzimlənməsi ...........................805

**IV HİSSƏ. Dünya iqtisadiyyatının inkişaf modelləri**

**XIV FƏSİL. Dünya iqtisadiyyatının beynəlxalq tənzimlənməsi**
14.1. Dünya təsərrüfat əlaqələrinin müasir dövlətlərarası tənzimləmə sistemi ...818
14.2. Beynəlxalq iqtisadi təşkilatlar və onların funksiyaları ..............................821
14.3. Beynəlxalq iqtisadi münasibətlərin tənzimlənməsində BMT-nin rolu .......825
14.4. Dünya ticarətini tənzimləyən beynəlxalq təşkilatlar və dövlətlərin ticarət siyasəti ....................................................................................................829
14.5. Dünya iqtisadiyyatının tənzimlənməsində beynəlxalq və regional inteqrasiya birlikləri ..................................................................................832
14.6. Dünya iqtisadiyyatının tənzimlənməsi mexanizmləri və yeni dünya qaydası ....................................................................................................846

**XV FƏSİL. Dünya iqtisadi artımı və qlobal sosial-iqtisadi inkişaf perspektivləri**
15.1. İnkişafın tsiklliyi və qlobal iqtisadiyyatın institutlar sisteminin perspektivləri ..........................................................................................857
15.2. Qloballaşmanın dərinləşməsi, regionalizm meyilləri və qlokalizasiya ......860
15.3. Qlobal modelləşdirmə və gələcəyə hesablanan proqnozlar .......................863
15.4. Urbanizasiya prosesləri və meqapolislərin yaranışı..................................868
15.5. Müsəlman dünyasında əhali artımı və onun dünya iqtisadiyyatına təsir effektivləri .............................................................................................875
15.6. Dünya iqtisadiyyatının inkişaf perspektivləri ...........................................879
15.7. Qədim və yeni İpək yolu: "Bir qurşaq, bir yol" strategiyası və Azərbaycan .............................................................................................883
15.8.Azərbaycanın rəqabətqabiliyyətliliyini artıran və dünya iqtisadiyyatının inkişafına töhfələr verən strateji təyinatları ................................................888
**Qaynaqlar** .......................................................................................895
**İxtisarla yazılmış sözlər** .....................................................................907
**Аннотация** .......................................................................................911
**Abstract** .........................................................................................911

# GİRİŞ

Xalqların və dövlətlərin həyatında, insanların taleyində, ümumən, bütün inkişaf proseslərində daim mühüm və həlledici rol oynayan elm və təhsilin yayılmasında və mənimsənilməsində müxtəlif sahələr üzrə bilikləri özündə sistemli şəkildə birləşdirən dərsliklərin əvəzsiz yeri vardır. Bəşəriyyətin tarixi göstərir ki, cəmiyyət inkişaf edib dəyişdikcə tədris vasitələrinə və dərsliklərə tələbat da baş verən dəyişikliklərə adekvat olur. Elmi biliklərin artması, fənlər sferasının genişlənməsi təkcə yeni dərsliklərin hazırlanmasını deyil, eyni zamanda, onların keyfiyyətinin yüksəldilməsi zərurətini də meydana çıxarır. Məhz buna görə də cəmiyyətin gələcəyi dərsliklərin say çoxluğu və keyfiyyətliliyindən əhəmiyyətli dərəcədə asılı olur. Çünki yaxşı dərslik yeni nəslə nəzəri və tətbiqi biliklər verməklə yanaşı, həm də elmi təfəkkür aşılayaraq sabaha inam yaradır.

Son onilliklərdə dünyamız xeyli təbəddulatlar yaşamış, cəmiyyətdə, iqtisadiyatda çoxsaylı köklü yeniləşmələr baş vermiş, sərhədlər, ideologiyalar, dövlət dilləri dəyişmiş, iqtisadi təməllər möhkəmlənmiş və genişlənmiş, beynəlxalq əlaqələrin səviyyəsi yüksəlmiş, qloballaşma çağrışları daha da dərinləşmişdir. Bütün bu hadisələr ayrı-ayrı ölkələrin iqtisadiyyatına və bütövlükdə dünya iqtisadiyyatında gedən proseslərə yeni baxış bucağından yanaşmanı şərtləndirir. Həmin hadisələrin akademik təhlili isə "Dünya iqtisadiyyatı" fənninin daim yeniləşən nəzəri və təcrübi biliklərinə əsaslanmalıdır.

Dünya iqtisadiyyatı müasir cəmiyyətin fəaliyyətini şərtləndirən, maddi təməldə müxtəlif millətləri və xalqları birləşdirməyə imkan verən, beynəlxalq əmək bölgüsünə əsaslanaraq ayrı-ayrı ölkələrin iqtisadi, elmi-texniki, istehsal, maliyyə-valyuta və pul-kredit əlaqələrini özündə ehtiva edən çoxfunksional bir sistemidir. Onun real inkişaf meyillərini və problemlərini dərk etmək biliyin praktiki funksiyası ilə sıx bağlıdır. Bu sahədə konkret önəmli rol isə dünya birliyinin iqtisadi həyatının əsas proses və hadisələrini öyrənərək izah edən "Dünya iqtisadiyyatı" fənninə məxsusdur.

Hər şeydən əvvəl diqqətdə saxlanılmalıdır ki, dünya iqtisadiyyatı elmi tədqiqat obyekti olaraq, digər elmlərlə yanaşı, insan cəmiyyətinin praktiki tələbatları ilə sıx rabitədə meydana gəlmiş və inkişaf etmişdir. O, ümumtəhsil və həm də fundamental iqtisadi fənnlər sırasına aid klassik bir elm kimi tələbələr tərəfindən əvvəllər mənimsənilmiş müvafiq iqtisad elmlərinə əsaslanır və həm də sonra öyrənilməsi vacib olan ixtisas fənləri və müqabil xüsusi kurslar üçün də baza rolunda çıxış edir. "Dünya iqtisadiyyatı" kursu təsərrüfat sahəsində dünyanın əsas inkişaf meyillərini başa düşməyə, onların xarakterini müəyyənləşdirməyə kömək edir. "Dünya iqtisadiyyatı" kursuna yiyələnmək beynəlxalq münasibətlərin əsas istiqamətlərinin, milli iqtisadi siyasətin və təsərrüfat subyektlərinin beynəlxalq strategiyasının dünya təsərrüfat həyatının gerçəkliklərinə uyğunluğunu dərk etməyə əsas yaradır.

Yeni tarixin mənzərəsinə nəzər yetirdikdə görərik ki, son onilliklərdə dünya təsərrüfatının sosial-iqtisadi siması xeyli dəyişmişdir. Dünya sosialist düşərgəsi dağılmış, soyuq müharibə sona çatmış, iki sistemin rəqabəti bitmiş, bir sıra ərazi-təsərrüfat quruluşları yeni tərəqqi yoluna qədəm qoyaraq industrial ölkələrin sosial-iqtisadi inkişaf səviyyəsinə çatmışlar. Baş verən bu hadisələr ölkələr və altsistemlər arasında iqtisadi qüvvələr konfiqurasiyasını əsaslı dəyişmiş,

dünya iqtisadiyyatında ikiqütblülüyü praktiki aradan qaldırmış və müəyyən qədər bu sferada ABŞ-ın hökmranlığına yol açmışdır. Bu zaman kəsiyində dünya iqtisadiyyatı nəinki sosial, həm də texnoloji cəhətdən dəyişmış, inteqrasiya prosesləri daha da dərinləşmişdir.

Qlobal çağrışlara uyğun olaraq, hazırda dünya iqtisadiyyatı növbəti yeni texnoloji dönüş zamanını yaşayır. ETT-nin təsiri altında dünya məhsuldar qüvvələrinin keyfiyyət dəyişiklikləri baş verir, iqtisadi proseslərdə internetin, informasiya texnologiyalarının geniş tətbiqi zaman amilinin əhəmiyyətini azaldır, məhsul istehsalının siması və xarakteri dəyişikliklərə uğrayır, dünya istehsalı əhali artımını üstələyir, informasiya inqilabı yeni mərhələyə qədəm qoyur.

Dünyanın müasir dinamik xüsusiyyətləri inkişaf etməkdə olan ölkələrdə baş verən proseslərlə daha sıx bağlıdır. Belə ki, son iki onillikdə sənaye ölkələri ilə inkişaf etməkdə olan ölkələrin iqtisadi inkişaf səviyyələrindəki fərq daha da artmışdır. Bu, həm də Qərbin sənayecə inkişaf etmiş ölkələrində inkişafın intensiv tipinin üstünlük əldə etməsi ilə bağlıdır.

Beynəlxalq əmək bölgüsünün genişlənməsi ayrı-ayrı ölkələrin milli təsərrüfatlarını daha sıx bağlayır, onların qarşılıqlı asılılığının və qarşılıqlı əlaqələrinin güclənməsi baş verir. Dünya təsərrüfatının beynəlmiləlləşməsi regional səviyyədə də inteqrasiya proseslərini sürətləndirir, yeni regional təsisatların yaranmasına gətirib çıxarır.

Qloballaşma proseslərinin dərinləşməsi ilə müşayiət olunan dünya iqtisadiyyatının strukturunda və fəaliyyətində baş verən bu köklü dəyişikliklərin əsasında həm də sahibkarlıq kapitalının beynəlxalq yerdəyişməsi dayanır. Bu yerdəyişmənin mühüm fenomenal nəticəsi olaraq təzahür edən TMŞ-lər və TMB-lər dünya iqtisadiyyatının strukturunu yaradan əsas amillərdən biri kimi çıxış edirlər. Onun təsiri ilə xarici ticarətin artımı istehsalın artımını xeyli qabaqlayır. İstehsal və ticarət isə, öz növbəsində, valyuta-kredit münasibətlərinin inkişafını üstələyir. Bu, həm də borc kapitalının dünya bazarının mərkəzi elementlərindən birinə çevrilməsi reallığından irəli gəlir. Belə ki, borc kapitalının genişlənən hərəkəti nəinki xarici iqtisadi fəaliyyəti maliyyələşdirir və eyni zamanda, ölkələrin daxili inkişafına da təkan verir. Statistika göstərir ki, sərhədləri aşan maliyyə vəsaitlərinin həcmi keçən orta müddət ərzində xeyli dərəcədə artmış və beynəlxalq kredit bazarlarının məcmu dövriyyəsi ÜDM-i bir neçə dəfə ötüb keçmişdir. Bütün bu proseslər isə, öz növbəsində, dünya iqtisadiyyatının beynəlmiləlləşməsini daha da sürətləndirir, iqtisadi münasibətlərin çevikliyini artırır. Lakin gerçəkləşən bu hadisələr fonunda çətinliklər, problemlər də yaşanır. Belə ki, son onilliklər həmçinin, dünya təsərrüfatının inkişaf səviyyəsi ilə insan inkişafı arasında ziddiyyətlərin artması ilə əlamətdardır. İstehsal vasitələrində inqilabi dəyişikliklər insanların durumunda müvafiq dəyişikliklərlə müşayiət olunmamışdır. Yenə də milyonlarla insan savadsız qalmaqda və özlərini yaradıcı qüvvə kimi hiss etməməkdədir. Digər tərəfdən, planetin insanların genişlənən əməli fəaliyyət meydanına çevrilməsi təbiət sistemlərinə yüklənməni daha da gücləndirmişdir. Ətraf mühitin çirkləndirilməsi, təbii resursların azalması təhlükəli şəkil alır. Nəticədə isə təbiət sistemi öz qüvvəsi hesabına yaşayış qabiliyyətini saxlamağa çətinlik çəkir. Dünya təsərrüfatının bu və digər problemləri, xüsusilə də iqtisadi artım, milli iqtisadiyyatların vəziyyəti beynəlxalq iqtisadi həyata ciddi təsir göstərir. Bu baxımdan gündəlikdə sabit iqtisadi inkişaf, ümumdünya təsərrüfat proseslərinin tənzimlənməsinə yeni yanaşmaların işlənib hazırlanması haqqında məsələ bütün kəskinliyi ilə durur.

Bütün bunlarla əlaqədar olaraq "Dünya iqtisadiyyatı" kursunun Azərbaycanda öyrənilməsi üzrə hazırlanmış bu dərslikdə ən aktual problemlər: dünya iqtisadiyyatının genezisi,

qanunauyğunluqları, müasir vəziyyəti və perspektivləri, ayrı-ayrı ölkələrin, altsistemlərin, istehsal amillərinin və dünya bazarlarının potensialı, artım, bölgü və inkişaf xüsusiyyətləri geniş aspektdə təhlil olunur. Burada qloballaşma meyilləri, kapitalın hərəkəti, qiymətyaranma prosesləri, valyuta-maliyyə münasibətləri, habelə dünya iqtisadiyyatının ən mühüm sıxıntıntıları: ərzaq, enerji, demoqrafik, ekoloji, dünya okeanından istifadə, kosmik məkanın mənimsənilməsi və hərbi-siyasi problemlərin həlli istiqamətləri, qlobal iqtisadiyyatın inkişaf modelləri və ssenariləri ilə bağlı məsələlər genişliklə öz əksini tapmışdır.

"Dünya iqtisadiyyatı" fənninin məqsədi, ilk olaraq, tələbələrə, onu öyrənənlərə dünya təsərrüfat əlaqələrinin məzmun və mahiyyətini, nəzəri-praktiki problemlərini, onların tədqiqat istiqamətlərini sərbəst qavramaq imkanı verməkdən ibarətdir. Bununla yanaşı, o, həmçinin, öyrənənləri ictimai inkişafın beynəlmiləlləşməsi və qloballaşması problemlərinin tədqiqində istifadə edilməsi mümkün olan əsas nəzəriyyələr və əlaqəli biliklərlə də silahlandırır.

"Dünya iqtisadiyyatı" ümumi iqtisadi nəzəriyyə ilə birlikdə müasir iqtisadçının hazırlığının təməlini təşkil edir. Milli iqtisadiyyatlar artıq çoxdan dünya təsərrüfatının bir hissəsinə çevrilmişlər. Hazırda hər hansı bir ölkə dünya təsərrüfat sisteminə nə qədər fəal daxil olmuşsa, onun qalan dünya ilə qarşılıqlı əlaqələrinin istiqaməti də bir o qədər dəqiqdir. Bu baxımdan, onun öz inkişafı da nə qədər dinamik və məhsuldardırsa, cəmiyyəti və vətəndaşlarının rifahı da bir o qədər yüksəkdir. Elə bu səbəbdən müasir iqtisadçı üçün dünya iqtisadiyyatının inkişaf xüsusiyyətlərini, bir sıra ölkələrin uğurlarının, digərlərinin isə böhranlı vəziyyətinin miqyasını bilmək çox vacib şərtdir.

Dərsliyin məzmununun əsasını mətn təşkil edir. Buna görə də dərsliyin mətnində hər bir mövzunun təqdimatında dünya iqtisadiyyatında baş verən mühüm yeniliklərə və dinamik meyillərə, müasir dəyişkənliklərlə bağlı hadisələrə, ümumilikdə hər bir konseptual məsələnin açılışı və analitik şərhinə geniş yer ayırmışdır. Burada həmçinin, dünyanın aparıcı beynəlxalq və regional təşkilatları və bu təşkilatlarda ayrılıqda təmsil olunan ölkələrin iqtisadiyyatları haqqında çoxsaylı statistik və təhlili materialları özündə birləşdirən ensiklopedik məlumatlar verilmişdir. Dünyanı əksər dövlətlərini və bir sıra asılı əraziləri əhatə edən oxşar kompozisiyalı bu məlumatlarda həmin ölkələrin ərazisi, əhalisi, makroiqtisadi göstəriciləri, təbii sərvətləri, iqtisadiyyatının əsas sektorları, baza və infrastruktur sahələrinin zəif və güclü tərəfləri, elmi-texniki potensialı, insan kapitalı və əmək resursları, ekoloji problemləri, iqtisadi proseslərin dövlət tənzimlənməsinin forma və metodları, sosial-iqtisadi inkişafın və geoiqtisadi siyasətin əsas hədəfləri və inteqrasiya proseslərinin dərinləşməsi üzrə müfəssəl bilgilər də öz əksinin tapmışdır. Eyni zamanda bu məlumatlarda həmin ölkələrin Azərbaycan Respublikası ilə iqtisadi əlaqələrini əks etdirən icmal informasiyalara da yer ayrılmışdır.

Dərslikdə dünya bazarlarının fəaliyyəti zamanı istifadə oluna bilən mühüm nəzəri alətlərin öyrənilməsinə böyük diqqət yetirilmişir. Belə yanaşma, xüsusi olaraq, beynəlxalq əmtəə və xidmətlər, valyuta, istehsal amilləri bazarlarının qarşılıqlı əlaqə və fəaliyyətinin səbəb və nəticələrinin dərindən dərk edilməsinə hədəflənmişdir. Bu baxımdan dərsliyin qayəsini dünya iqtisadiyyatının prinsipal məsələlərinin geniş işıqlandırılması ilə yanaşı, həm də təhlilin mühüm mexanizm və metodlarını mənimsəməklə peşəkar mütəxəsislər hazırlığını motivləşdirmə və onları gərəkli informasiyalarla silahlandırmaqla uyğun strategiyaların formalaşmasında və böhranlı vəziyyətlərdə düzgün və səriştəli qərarvermə kimi təyinatlar da genişləndirir.

Dərsliyin spesifikliyi onun hər bir struktur bölməsində dünya iqtisadiyyatı kontekstində

Azərbaycan iqtisadiyyatının reallıqlarını əks etdirən materialların verilməsidir. Belə ki, dərslikdə Azərbaycanın beynəlxalq əmək bölgüsü sistemində yeri və rolu, onun ayrı-ayrı ölkələrlə qarşılıqlı iqtisadi əlaqələrinin genişlənməsi və başlıca olaraq da, dünya iqtisadiyyatına inteqrasiyasının dərinləşməsi perspektivlərinə geniş məkan açılmışdır. Burada təqdim edilən bütün əsas mövzularla əlaqədar Azərbaycan gerçəklikləri, onun konkret geostrateji mövqeyi, təbii sərvətləri, iqtisadiyyatının strukturu və potensialı, inkişaf meyilləri və s. bu kimi mühüm təyinatları haqqında məlumatlar verilmiş, müqayisələr və müvafiq uzlaşmalar aparılmışdır. Azərbaycanın dünya ölkələri arasındakı reytinqi, onun göstəricilərinin beynəlxalq indekslərlə qiymətləndirilməsi, sosial-iqtisadi inkişafının meyilləri ilə bağlı təhlili məlumatlar da dərsliyin ana xəttini təşkil etmişdir.

Dərslik mövcud ali təhsil standartlarına uyğun, müvafiq metodoloji kompleksdə tərtib olunaraq, giriş, 4 hissə, 15 fəsil və 173 paraqrafdan ibarətdir. Burada bir fəsil və ya ayrıca bir və bir neçə paraqraf müvafiq tədris proqramlarının qurluşuna və fənnin öyrənilməsi üçün zəruri kredit saatlarının tələbinə uyğun olaraq, analoji dərs mövzusunun tam əhatə olunmasına hesablanmışdır.

Vəhdətlilik və sistemlilik prinsiplərinə uyğun olaraq dərsliyin birinci hissəsinə dünya iqtisadiyyatının mahiyyəti, strukruru və formalaşması amilləri, ikinci hissəsinə dünya iqtisadiyyatının təsnifat quruluşu və qlobal inkişaf problemləri, üçüncü hissəsinə dünya bazarı və istehsal amillərinin beynəlxalq hərəkəti və nəhayət, dördücü hissəsinə dünya iqtisadiyyatının inkişaf modellərini əhatə edən çoxsaylı mövzular daxil edilmişdir.

Birinci hissəni əhatə edən 4 fəsildə "Dünya iqtisadiyyatı" fənninin predmeti, tədqiqat obyekti, vəzifələri, strukturu, göstəricilər sistemi və əsas konsepsiyası, onun iqtisadi nəzəriyyədə yeri və digər elmlərlə qarşılıqlı əlaqəsi, dünya təsərrüfatının formalaşması və inkişaf mərhələləri, beynəlxalq əmək bölgüsü və dünya təsərrüfatında inteqrasiya proseslərini əhatə edən kompleks mövzular daxildir. Burada həmçinin, dünyanın yaranışı və bəşəriyyətin maddi mədəniyyətinin formalaşması, əmtəə-pul münasibətlərinə keçid, təsərrüfat həyatının paradiqmaları, neft sivilizasiyası, konfensional iqtisadi sistemlər, dünya iqtisadiyyatının əsas nəzəriyyə və konsepsiyaları, beynəlxalq əmək bölgüsünün müasir nəzəriyyəsi, dünya təsərrüfatının sahə quruluşu, beynəlxalq iqtisadi inteqrasiyanın məqsədləri və habelə Azərbaycan Respublikası ilə bağlı mövzular - Azərbaycanın dünya təsərrüfatında yeri, milli iqtisadiyyatın inkişaf mərhələləri və onun formalaşmasında karbohidrogen resurslarının rolu və əhəmiyyəti, hazırkı xarici iqtisadi inteqrasiyasının dərinləşməsi perspektivləri də təhlil obyektinə çevriilmişdir.

Dərsliyin 6 fəsli əhatə edən ən tutumlu ikinci hissəsində dünya iqtisadiyyatının təsnifat quruluşu, resurs potensialı, göstəricilərlər sistemi, coğrafi yaxın və oxşar iqtisadiyyatlı ölkələr qrupları və onların dünya iqtisadiyyatındakı rolu, ayrı-ayrı dövlətlərin sosial-iqtisadi inkişaf modelləri və iqtisadi inkişafın qlobal problemlərini xarakterizə edən geniş mövzulardan bəhs olunur. Burada əsas dövlət tipləri, dünyanın kontinental və makroregional bölgüsü, iqtisadiyyatların açıqlılıq meyarları, milli rəqabətqabiliyyətlilik və iqtisadi təhlükəsizlik məsələləri, qloballaşma prosesi, inkişaf etməkdə olan ölkələrin sosial-iqtisadi geriliyi, istehlak, demoqrafik, ərzaq, yoxsulluq, gender, xammalın tükənməsi, enerjidaşıyıcılarla təchizat, ekologiya, dünya okeanından istifadə, kosmik məkanın mənimsənilməsi və hərbi qlobal problemlərlə əlaqədar zəruri bilgilər verilir. Azərbaycanla bağlı daha geniş və əhatəli mövzular

da, əsasən, dərsliyin bu hissəsində təqdim olunur. Burada, konkret olaraq, Azərbaycanın dünya dövlətləri təsnifatında mövqeyi, onun təbii resurs və elmi-texniki potensiali, iqtisadiyyatının mühüm göstəriciləri, tədiyə balansı, nəqliyyat və kommunikasiya sistemləri, formalaşmaqda olan informasiya cəmiyyəti, yüksək texnologiyalar, xüsusən də, nüvə tədqiqatları, kosmik sənayenin inkişaf perspektivləri və ümumilkdə, iqtisadi inkişafın Azərbaycan modeli haqqında mövzulara geniş yer ayrılmışdır. Dərsliyin bu hissəsində, həmçinin, daha tutumlu analitik rakursda Azərbaycan-Ermənistan münaqişəsinin etimologiyası, erməni təcavüzkarlığının məqsədləri, Dağlıq Qarabağ probleminin detallı açılışı təqdim olunmuşdur.

Dərsliyin növbəti, 3-cü hissəsi 3 fəsildən ibarətdir ki, burada da, əsasən, dünya bazarının mahiyyəti, təkamülü, inkişaf xüsusiyyətləri, beynəlxalq ticarət və onun ölkələrarası iqtisadi əlaqələr sistemində rolu və daha geniş təsnifatda istehsal amillərinin beynəlxalq hərəkəti ilə bağlı kompleks mövzular öz əksini tapmışdır. Burada, həmçinin, beynəlxalq rəqabət və ticarət, ölkələrin dünya ticarətində iştirakı göstəriciləri, ticarət üzrə beynəlxalq təşkilatlar, qlobal maliyyə institutları, transmilli banklar, dünyanın əsas fond birjaları, qlobal maliyyə böhranları, islam iqtisadi sistemi və bankçılığı, kapitalın beynəlxalq hərəkəti və beynəlxalq investisiyalar, azad iqtisadi zonalar, işçi qüvvəsinin beynəlxalq miqrasiyası və müxtəlif dünya bazarlarında baş verən çoxsaylı hadisə və meyilləri səciyyələndirən mövzulara və informasiyalara da xüsusi yer ayrılmışdır. Azərbaycanla bağlı mövzuları isə onun ixrac potensialı, Dünya Ticarət Təşkilatına inteqrasiyası, xarici investisiya siyasəti, xarici borcları və miqrasiya proseslərinin tənzimlənməsi kimi məsələlərin işiqlandırılması təşkil edir.

Dərsliyin sonuncu, 4-cü hissəsi 2 fəsli əhatə edərək dünya iqtisadiyyatının beynəlxalq tənzimlənməsi, qlobal iqtisadi artım və sosial-iqtisadi inkişaf perspektivləri üzrə mövzulardan ibarətdir. Öyrənilən məsələlərə bir daha yekun vurulan, problemlərin həlli istiqamətləri işıqlandırılan bu yekun hissədə beynəlxalq iqtisadi təşkilatlar və onların funksiyaları, regional inteqrasiya birlikləri, beynəlxalq iqtisadi münasibətlərdə BMT-nin rolu, dünya iqtisadiyyatının tənzimlənməsi mexanizmləri, yeni dünya qaydası, qlobalaşmanın dərinləşməsi, regionalizm meyilləri və qloballaşdırma, qlobal modelləşdirmə və gələcəyə hesablanan proqnozlar, urbanizasiya prosesləri və meqapolislərin yaranması, dünya iqtisadiyyatının inkışaf perspektivləri ilə bağlı mövzular təqdim olunur.

Dərslikdə çoxsaylı illüstrasiyalardan istifadə olunmuş, müxtəlif şəkillər, sxemlər, cədvəllər və digər qrafik təsvir və əyani məlumatlar yerləşdirilmişdir. Burada, həmçinin, Azərbaycanın dünya ölkələri arasındakı reytinqinə, onun göstəricilərinin beynəlxalq indekslərlə qiymətləndirilməsinə xüsusi yer ayrılmışdır.

Dərsliyin “Qaynaqlar” bölməsində əksini tapan geniş informasiya mənbələri, ədəbiyyatlar və veb-saytlar onun mövzuları ilə adekvatlıq təşkil edir. Burada 258 ədəbiyyat və informasiya mənbəyindən istifadə olunmuşdur. Həmin mənbələrdə əks edilən informasiyalar və göstəricilər, tədqiq və təhlil metodikasına uyğun olaraq, elmi və məntiqi əsaslandırmalar, zəruri müqayisələr aparılmaqla dəqiqləşdirilərək mətnin ayrı-ayrı hissələrinə salınmışdır.

Dərslikdə kursu yetərincə mənimsəmək, biliklərin aktuallığını təmin etmək üçün fənn üzrə mütləq əksər mövzulara müraciət olunmuş və sahəni əhatə edən mümkün problem və sualların geniş spektri cavablandırılmışdır. Mətndə altından xətt çəkilməklə mövzu ilə əlaqəli əsas anlayış və terminlərə əksər hallarda ingilis və ya digər analoji xarici dillərdə etimologiyası göstərilməklə, ensiklopedik təyinatda açılış verilmiş və müvafiq fəslin sonunda “Əsas

anlayışlar" bölməsində lüğət formatında bir cümlə ilə onların yenidən lakonik izahı göstərilmişdir. Ümumilikdə dərslikdə "Əsas anlayışlar" bölməsini əhatə edən lüğət üzrə terminlərin sayı 1000-ə yaxındır. Bundan başqa, dərsliyin məlumat aparatını təşkil edərək mənimsənilməni artırmaq üçün buradakı mürəkkəb və tez-tez təkrarlanan söz birləşmələri, ifadə və anlayışlar qısaldılaraq abberiviatur və akronimlər şəklində verilmiş, "İxtisarla yazılmış sözlər" bölməsində onların açılışı göstərilmişdir. Bir cəhəti də vurğulamaq lazımdır ki, dərslikdə ayrı-ayrı termin və anyışların sinonimlərinə də rast gəlinir. Həm də dərsliyin oxunaqlılığına xidmət edən bu sinonimlər haqqında bir sıra hallarda əvvəlcədən məlumatlar verilmiş və onların mətndə paralel istifadəsi əsaslandırılmışdır.

Dərslikdə obyektiv reallıqlar və subyekiv yanaşmalardan irəli gələn bir sıra çatışmazlıqların, ziddiyyətli görünən məqamların olması da istisna edilmir. İstifadəçi burada "Dünya iqtisadiyyatı" fənni ilə bağlı bütün anlayış və istilahların yer aldığı qənaətinə gəlməməlidir. Həmçinin, təqdim olunanlar da ideallaşdırılmır. Problemlərə yanaşmalarda, mövzuların açılışnda, göstəricilər sistemində, metodoloji aparatda müəyyən alternativlər təklif edilə bilər. Optimallığı yüksəltmək üçün yeni səylər göstərilməli, daha geniş məlumat bazası təhlil olunmalı və qiymətləndirmələr təmin edilməlidir. Bütün bunlara baxmayaraq, ümüd edirik ki, müəllim və tələblərin istifadəsinə verilən bu dərslik müvafiq tədris prosesində istifadə ilə yanaşı, doktorantlar, elmi işçilər, iqtisadçılar, mütəxəssislər və həmçinin, dünya iqtisadiyyatının problemlərini öyrənən hər kəs üçün maraqlı olacaqdır.

Müəllif "Dünya iqtisadiyyatı və Azərbaycan" adlı  dərsliyin buraxılışına göstərdiyi xüsusi dəstəyə görə bir daha Azərbaycan İqtisadçılar İttifaqına dərin ehtiramını bildirir.

Dərsliyin elektron variantı müəllifə məxsus **www.hajizada.com** internet səhifəsində yerləşdirilmişdir.

*Və sonda...*

Rəqəmlərin və ölçülərin qeyri-adi xüsusiyyətlili haqqında çoxsaylı fikirlər və mülahizələr mövcuddur. İnsan həyatı ilə rəqəmlər arasındakı gizli bir əlaqənin olması barədə iddialar bəzən real faktlarda özünü büruzə verir. Digər tərəfdən bu da bir gerçəklikdir ki, rəqəmlər və ölçülər iqtisadi araşdırmaların əsasında dayanır. Nəticədə ölçüyə gəlmək, onu rəqəmlərin dili ilə ifadələndirmək elmi-tədqiqatın şərtidir. Hər rəqəm və ölçü bir sehrli simvollaşma gücünə malik olmaqla etalon daşıyıcıdır.

Hacızadələr ailəsi üçün 912 rəqəmi rəmzidir. Babaları Ağababa Xalıq oğlu (*1865-1925*) ilk oğul övladının dünya gəlişi münasibəti ilə 1912-ci ildə arzusunda olduğu Həcc ziyarətinə getmişdir. 1930-cu illərdə Azərbaycanda vətəndaş pasportları verilərkən onun dörd övladı öz atalarının **Hacı** titulu və **zadə**gan nəslinə mənsubluğu şərəfinə **Hacızadə** soyadını götürmüşlər.

Müəllif 10 il öncə bu əsəri yazmağa başlayarkən onun kitab kimi neçə səhifədən ibarət olacağı barədə düşünməmişdir. Lakin kitab üzərində iş tam başa çatdırlarkən məlum olmuşdur ki, onun səhifələrinin sayı 912-dir. Poliqrafiya ölçüləri əsasında müəyyənləşdirilən çap vərəqinin həcmi isə müəllifin hazırkı yaşını ifadə edən 57 rəqəmi ilə üst-üstə düşür...

# I HİSSƏ

# Dünya iqtisadiyyatının formalaşması və konseptual əsasları

# I FƏSİL

# "Dünya iqtisadiyyatı" kursuna giriş: dünya təsərrüfatının strukturu və məzmunu

## 1.1. "Dünya iqtisadiyyatı" anlayışı

Müasir dünyada heç bir dövlət dünya iqtisadiyyatına inteqrasiya olunmadan stabil və dinamik inkişaf edə bilməz. Dünya iqtisadiyyatına inteqrasiya səviyyəsi ilə ölkədaxili inkişaf səviyyəsi arasında birbaşa asılılıq daim özünü göstərməkdədir. Ölkə dünya iqtisadi məkanına nə qədər inteqrasiya olunmuşdursa, onun iqtisadi inkişaf səviyyəsi də bir o qədər yüksəlişlidir. Hər bir ölkədə istehsalçılar və istehlakçılar özlərinin dünya iqtisadiyyatına bağlılığını aydın hiss edirlər. Statistik məlumatlar bu gerçəkliyi daha dürüst və aydınlığı ilə göstərir.

<u>İstehsal</u> resursların hazır məhsula çevrilməsi, insan cəmiyyətinin mövcudluğu və inkişafı üçün zəruri həyati rifah məhsul və materiallarının yaradılması prosesidir. Ən müxtəlif formalarda (*natural kəndli təsərrüfatlarından iri seriyalı məhsul buraxan müasir emal sənayesi müəssisələrinə kimi*) reallaşdırılır. İstehsal prosesində istifadə olunan resurslar istehsal amilləri olaraq özündə əmək, kapital, torpaq və xammalı uzlaşdırır.

<u>İstehlak</u> (*consumption*) tələbatı ödəmək prosesində ictimai məhsuldan istifadə, təkrar istehsal prosesinin yekun mərhələsidir. İstehlak istehsal istehlakı və qeyri-istehsal istehlakına bölünür. Nemətlərin istehlakı növündən asılı olaraq əşya formasında maddi nemətlər istehlak və xidmətlərin istehlakı fərqləndirilir. İstehlak tələbatının ödənilməsi, üsuluna görə, fərdi və ya kollektiv olur. İstehlak istehsal, onun bölgüsü və mübadiləsi ilə üzvi surətdə bağlıdır.

Müasir dünyanın iqtisadi reallığı belədir ki, yaşadığımız zamanədə orta hesabla hər 5-6 əmtəə və xidmət istehlakçıya dünya ticarətinin vasitəsi ilə yetişir. Bütün bunlar isə bir daha onu göstərir ki, hər bir müasir ölkə üçün dünya iqtisadiyyatının əhəmiyyəti genişliklə artmaqda davam edir.

Dünya iqtisadiyyatını öyrənməzdən öncə müasir dünyanın qlobal mənzərəsini nəzərdən keçirmək və "dünya iqtisadiyyatı" anlayışının mahiyyətinə təyinat vermək gərəklidir.

**Müasir dünyanın qlobal mənzərəsi**

| | | |
|---|---|---|
| Yer kürəsinin əhalisi | 7,6 | milyard nəfər. |
| Yer kürəsinin ərazisi | 510,0 | milyon $km^2$. |
| Su səthi | 361,0 | milyon $km^2$. |
| Quru ərazi (*ümumi torpaq fondu*) | 149,0 | milyon $km^2$. |
| Kənd təsərrüfatına yararlı torpaq sahəsi | 51,0 | milyon $km^2$. |
| Meşə örtüyü | 40,0 | milyon $km^2$. |

Faktlar göstərir ki, dünya iqtisadiyyatının öyrənilməsi uzaq zamanlara gedib çıxır. Tarixi müxtəlif dönəmlərində bu anlayışa fərqli məzmun verilmişdir. Uzun zaman "mütləq üstünlüklər" nəzəriyyəsindən çıxış edərək "dünya iqtisadiyyatı" anlayışında iqtisadi sahədə bir-biri ilə bu və ya digər dərəcədə əlaqədə olan "milli iqtisadiyyatlar məbləği" fikri dominant mövqe tutmuşdur. Dünya iqtisadiyyatında baş verən dərin inteqrasiya və beynəlmiləlləşmə prosesləri onun paradiqmasını da təbəddülata uğratmışdır.

İnteqrasiya (*latınca - integratio - bərpa olunma, integrations - tam, vahid*) iqtisadi siyasətin milli və beynəlxalq səviyyədə koordinasiya edilmiş obyektiv prosesi kimi, azad ticarət, gömrük ittifaqı, ümumi bazarlar, iqtisadi ittifaq, maliyyə-iqtisadi ittifaq və siyasi ittifaq zəminində təsərrüfat həyatının beynəlmiləlləşməsinin iqtisadi formasını ehtiva edir.

Beynəlmiləlləşmə (*internationalization*) isə milli təsərrüfatların iqtisadi əlaqələrinin inkişaf prosesidir. Bu zaman ölkə iqtisadiyyatı dünya təsərrüfat prosesinin bir hissəsi olaraq çıxış edir və beynəlxalq əmək bölgüsü, istehsal, elmi-texniki ixtisaslaşma və kooperasiya əsasında bu əlaqəlilik daha da dərinləşir.

Dünya iqtisadiyyatı (*world economy*) müxtəlif dünya təsərrüfat əlaqə növləri ilə birləşən milli iqtisadiyyatlar məcmusu kimi anlaşılır. Bu təyinatı bir qədər də şaxələndirmək və ümumiləşdirmək olar: bu baxımdan dünya iqtisadiyyatı milli təsərrüfatlar və onlar arasında qarşılıqlı iqtisadi əlaqələr, həmçinin, milli və beynəlxalq səviyyədə fəaliyyət göstərən istehsal münasibətləri məcmusu kimi anlaşılır.

Bir sıra xarici iqtisadi ədəbiyyatlarda, xüsusən də, Rusiya Federasiyasında "dünya iqtisadiyyatı" anlayışı ilə yanaşı "dünya təsərrüfatı" anlayışından da istifadə olunur. Əslində, bu və ya digər ədəbiyyatlarda həmin anlayışları kəskin fərqləndirən izahlara rast gəlinmir. Tədqiqatçılar onları istifadə sahəsi təyinatlılığı baxımdan müəyyən aspektlərə nəzərən fərqləndirsələr də, ümumilikdə, bu fərqliliyin sərhədləri qəti təyin edilmir. Hər iki anlayış ingilis dilinə "world economy" kimi tərcümə olunur. Daha çox

istifadəsi rast gəlinən tədris profilli, rusdilli ədəbiyyatlarda "dünya təsərrüfatı" dünya ölkələrinin milli təsərrüfatlar sistemi olaraq beynəlxalq əmək bölgüsündə və müxtəlif qarşılıqlı iqtisadi əlaqələrdə birləşən qlobal miqyaslı təsərrüfat orqanizmi, beynəlxalq əmək bölgüsü əsasında yaranan, bir-birilə qarşılıqlı asılılıqda olan dünya təsərrüfatı əlaqələrinin müxtəlif növlərinin məcmusu, bir-biri ilə qarşılıqlı iqtisadi ələqələrdə olan müxtəlif milli təsərrüfatların yaratdığı qlobal təsərrüfat mexanizmi kimi səciyyələndirilir. Burada dünya təsərrüfatına əlahiddə siyasi, iqtisadi və tarixi kateqoriya kimi yanaşılır və dünya təsərrüfatı tarixi bəşəriyyətin tarixi, eyni zamanda, iqtisadi tarix olaraq göstərilir. Bir sıra tədqiqatçılar "dünya iqtisadiyyatı" ilə "dünya təsərrüfatı" anlayışlarını fərqləndirən cəhətləri önə çəkməyə çalışmışlar. Bu tədqiqatlarda dünya iqtisadi sisteminin ticarət və maliyyə münasibətləri ilə yanaşı, həm də kapital və işçi qüvvəsinin qeyri-bərabər bölgüsünü özündə ehtiva etdiyi göstərilir. Belə yanaşmada isə bir çox istiqamətlərdə beynəlxalq qarşılıqlı iqtisadi əlaqələri təyin edən istehsal amili diqqətdən yayınır. Daha çox marksist təmayüldən çıxış edən rus iqtisadçı alimi Yuri Vitalyeviç Şişkovun (1929-2013) konsepsiyasına görə, dünya təsərrüfatı milli təsərrüfatların bu və ya digər ölçüdə sığışdığı iqtisadi sistem olaraq istehsal gücləri, istehsal münasibətləri və müəyyən quruluşüstü aspektləri 3 səviyyəli mexanizmdə əhatə edir. Bu yanaşmada təsərrüfatın əsas tərkib hissələri maddi baza, mülkiyyətin müxtəlif formalarının reallaşması və təkraristehsal proseslərinin fəaliyyəti özünü əks etdirir. Bununla da dünya təsərrüfatı göstərilən aspektlər əhatəsində vahid tam sistem olaraq dəyərləndirilir. Dünya iqtisadiyyatına isə çoxsaylı daxili elementləri, iyerarxiyalığı və strukturluğu olan daha mürrəkkəb sistem kimi yanaşılır. Bu sistemin əsasını beynəlxalq və ayrı-ayrı ölkələrdə məhdud çərçivələrdə maddi və mənəvi nemətlərin milli istehsalı, onların bölgüsü, mübadiləsi və istehlakı təşkil edir. Dünya iqtisadiyyatı bir sistem olaraq müəyyən qaydalar istisnasında belə açıq beynəlxalq və özəl hüquq normalarına əsaslanmaqla uğurlu inkişaf edə bilər. Bu normaların təyinatı həm dövlətlər və həm də beynəlxalq hüquqa əsaslanaraq kollektiv nəzarət formasında qurula bilər. Bütün bunlara baxmayaraq, "dünya iqtisadiyyatı" və "dünya təsərrüfatı" anlayışları mövcud dərslikdə eyniləşdirilir və təkrarçılığın aradan qaldırılması, oxunaqlılığın səmərəliliyinin artırılması məqsədi ilə sinonim kimi istifadə edilir.

Şəkil 1-də "dünya iqtisadiyyatı" ilə "dünya təsərrüfatı" anlayışlarını eyniləşdirən və fərqləndirən cəhətlər verilmişdir:

Bir sıra termin-sinonimlər vardır ki, onlar da "dünya iqtisadiyyatı" anlayışını təyin edir. Bu sırada "qlobal iqtisadiyyat", "meqaiqtisadiyyat", "inter iqtisadiyat", "beynəlxalq iqtisadiyyat" və hətta "dünya bazarı" istilahları "dünya iqtisadiyyatı" anlayışı ilə uzlaşma tapır.

Dünya iqtisadiyyatı, bir sistem olaraq, həmçinin, müəyyən məqsədə malikdir. Onun fəaliyyəti bəşəri tələblərin ödənilməsinə istiqamətlənmişdir. Bu sistemin içərisində, həmçinin, ayrı-ayrı daxili sistemaltılar mövcuddur ki, onlar da müxtəlif sosial-iqtisadi şərtlərlə bütövlükdə ümumi sistemin məqsədini modifikasiya edirlər.

| Dünya iqtisadiyyatı | Dünya təsərrüfatı |
|---|---|
| Milli təsərrüfatlar və onlar arasında qarşılıqlı iqtisadi əlaqələr məcmusudur | *Dünya ölkələrinin milli təsərrüfatlar sistemi: beynəlxalq əmək bölgüsündə və müxtəlif qarşılıqlı iqtisadi əlaqələrdə birləşən qlobal miqyaslı təsərrüfat orqanizmidir* |
| Milli və beynəlxalq səviyyədə fəaliyyət göstərən istehsal münasibətləri məcmusudur | *Beynəlxalq Əmək Bölgüsü əsasında yaranan bir-birilə qarşılıqlı asılılıqda olan dünya təsərrüfatı əlaqələrinin müxtəlif növlərinin məcmusudur* |
| Dünya iqtisadi əlaqələrinin müxtəlif növlərini özündə birləşdirən milli təsərrüfatların məcmusudur | *Bir-biri ilə qarşılıqlı iqtisadi ələqələrdə olan müxtəlif milli təsərrüfatların yaratdığı qlobal təsərrüfat mexanizmidir* |
| Dünya ölkələri arasında qarşılıqlı əlaqələr sistemidir | *Siyasi, iqtisadi və tarixi kateqoriyadır* |
| Dünya birliyi ölkələrinin qarşılıqlı iqtisadi rabitə və hərəkətdə iqtisadiyyatıdır | *Dünya təsərrüfatı tarixi - bəşəriyyətin tarixi, eyni zamanda, iqtisadi tarixdir* |

**Şəkil 1. “Dünya iqtisadiyyatı” və “Dünya təsərrüfatı” anlayışları: eyniliklər və fərqlər**

## 1.2.“Dünya iqtisadiyyatı” fənninin predmeti, tədqiqat obyekti və əsas vəzifələri

“Dünya iqtisadiyyatı” makroiqtisadiyyat və mikroiqtisadiyyatla yanaşı, iqtisadi nəzəriyyənin tərkib hissələrindən biri olaraq dünya iqtisadiyyatının formalaşması və inkişafının ümumi qanunauyğunluqlarını, meyillərini və dünya təsərrüfat sistemində məhdud resurslardan istifadənin alternativ metodlarını öyrənir.

İqtisadi nəzəriyyə (*economic theory*) resursların məhdudluğu şəraitində insanların tələbatının maksimum ödənilməsinin seçim problemini öyrənən ictimai elmdir. Bir çox məktəb və istiqamətlərdən ibarətdir. Əsas vəzifəsi iqtisadi həyatda baş verən hadisələrin həqiqətlilik modellərinin köməyi ilə izahını vermək və onu real iqtisadiyyatda əks etdirməkdir. İqtisadi nəzəriyyə bir sıra bölmələrdən ibarətdir: iqtisad elminin metodologiyası, mikroiqtisadiyyat, makroiqtisadiyyat, beynəlxalq iqtisadiyyat, ekonometriya, oyunlar nəzəriyyəsi. Müasir iqtisadi nəzəriyyəyə bir sıra elmi məktəbləri və istiqamətləri aid etmək olar: monetarizm, yeni institusional iqtisadi nəzəriyyə, yeni keynsçilik, neyroiqtisadiyyat, yeni siyasi iqtisad, Avstriya məktəbi, iqtisadiyyat və hüquq.

“Dünya iqtisadiyyatı”nın predmetini milli iqtisadiyyatların qarşılıqlı əlaqəliliyinin iqtisadi qanunauyğunluqlarının öyrənilməsi təşkil edir. Bu predmet bütövlükdə dünya birliyi daxilində əmtəə axınlarının, xidmət və ödənişlərinin hərəkətini və bu hərəkətlərin ictimai rifaha təsirini təyin edən və nizamlayan iqtisadi siyasəti özündə birləşdirir.

“Dünya iqtisadiyyatı”nın tədqiqat obyektini beynəlxalq əmək bölgüsündə iştirak

edərək bir-biri ilə qarşılıqlı iqtisadi əlaqələrdə dövlətlər birliyində ehtiva olunan ümumdünya təsərrüfatı təşkil edir.

"Dünya iqtisadiyyatı"nın öyrənilməsində, müxtəlif dövrlərdə dünyanın iqtisadi vəziyyətinin müqayisə edilməsində ümumi elmi-tədqiqat metodlarından istifadə olunur. Bunların içərisində sistemli yanaşma, dialektik analiz-sintez, deduksiya-induksiya, abstraksiya, tarixi-məntiqi, ssenari, iqtisadi-riyazi modelləşdirmə və digər bu kimi metod və üsullar dominantlıq təşkil edir. Ölkələrarası müqayisələr aparmaq üçün burada statistik məlumatların toplanması və emalı mühüm əhəmiyyəti ilə fərqlənir. Dünya iqtisadiyyatının öyrənilməsi çərçivəsində eksperimental metodun tətbiqi isə, makroiqtisadiyyatda olduğu kimi, eksperimentin aparılması üçün yaradılacaq şəraitin mürəkkəbliyi nöqteyi-nəzərindən çətinlik törədir və bu baxımdan da həmin sferada ondan geniş istifadə edilmir.

"Dünya iqtisadiyyatı"nın vəzifəsini dünya təsərrüfatının bütövlüyünün mürəkkəbliyi və zidiyyətliliyi baxımından öyrənilməsi təşkil edir. Belə ki, dünya təsərrüfatının ayrı-ayrı hissələri bir-biri ilə, həmçinin, bütövlükdə sistemin özü ilə bu və ya digər dərəcədə qarşılıqlı əlaqədədir.

"Dünya iqtisadiyyatı"nın əsas funksiyalarına idrak, proqnoztik, praqmatik *(təcrübi)* və normativ funksiyalar daxildir ki, bunların da hər birinin dünya iqtisadiyyatında gedən proseslərin öyrənilməsində və müvafiq qərarların çıxarılmasında əhəmiyyəti mühümdür. "Sovet siyasi iqtisadı"nda buraya sovet sistemini kapitalizmdən fərqləndirmək üçün ideoloji funksiya da daxil edilmişdi. Belə oxşar funksionallığı Amerika alimləri də Amerika həyat tərzindəki çoxsaylı dövlət dəyərlərinin iqtisadi sistemin modelinə bağlılığından irəli gələrək bölüşmüşlər. Xüsusi funksiya keyfiyyətində isə bir çox alimlər makro və mikro subyektlərin dünya bazarında qarşılıqlı hərəkətləri çevrəsində xüsusi davranış prinsip və normalarına uyğun olaraq etik funksiyanı da önə çəkirlər.

Dünya iqtisadiyyatı mürəkkəb və hərəkətdə olan bir sistemdir. Onun səciyyəvi xüsusiyəti aşağıdakıları ehtiva edir:

***Bütövlük.*** Yetərli dayanıqlı səviyyədə sistemin bütün hissələrində iqtisadi qarşılıqlı hərəkətlilik. Yalnız belə şəraitdə sistemin daimi fəaliyyət göstərməsi, özünütənzimləməsi və inkişafı mümkündür.

***İyerarxiyalıq.*** Ölkələr arasında onların sosial-iqtisadi inkişaf səviyyələrinə uyğun olaraq müvafiq iyerarxiyalıq mövcuddur. İnkişaf etmiş ölkələr dünya bazarında dominant mövqelərinə görə dünya iqtisadiyyatı sisteminə daha çox təsiretmə gücünə malikdirlər.

***Özünü tənzimləmə və adaptasiya.*** Bazarın tələb və təklif mexanizmi, həmçinin, dövlət və dövlətlərarası tənzimləmənin köməyi ilə dünya iqtisadiyyatı özünütənzimləmə və adaptasiyanı gerçəkləşdirir. Müasir dünya iqtisadiyyatının inkişafının əsas meyilini dünya təsərrüfat əlaqələrinin qloballaşmasından irəli gələrək milli təsərrüfatların qarşılıqlı asılılıq və qarşılıqlı rabitəsinin güclənməsi təşkil edir.

Dünya iqtisadiyyatı daim inkişaf və dəyişmədədir. Son 30-40 ildə bu sferada çox dərin köklü dəyəşikliklər baş vermişdir. Xüsusən də, sahibkar kapitalın qlobal təsərrüfata inteqrasiyasının dərinləşməsi ilə onun beynəlmiləlləşməsi yeni mərhələyə qədəm qoymuşdur. TMŞ və TMB-lər dünya təsərrüfatında başlıca strukturyaradıcı amilə çevrilmişlər. Transmilli kapital məhsuldar qüvvələrin yerləşdirilməsində yetərli dərəcədə müqayisəli üstünlüklərdən istifadə edərək dövlət sərhədlərindən kənarda qlobal olaraq hərəkət edir. Beynəlxalq əmək bölgüsünün dərinləşməsi isə ayrı-ayrı ölkələrin milli təsərrüfatlarını daha sıx birləşdirir. Bu baxımdan da xarici iqtisadi sferada artım milli təsərrüfatlara nisbətdə daha sürətlə gedir.

Sahibkar (*ərəbcə - sahib + farsca kar, sahibkar, fransızca - entrepreneur - sahibkar, ingiliscə - businessman - işgüzar adam, sahibakarlıq fəaliyyəti ilə məşğul olan şəxs*) öz fəaliyyətini ticarət, istehsal və xidmət yaratma forması ilə mənfəətin əldə edilməsinə yönəldən şəxşdir. Sahibkar şahibkarlıq fəaliyyətini həyata keçirən şəxsdir. İlk dəfə elmi dövriyyəyə təxminən 1800-cü ildə fransalı iqtisadçı Jan-Batist Sey (*1767-1832*) tərəfindən çıxarılmışdır. O, sahibkara (*antpenpener*) - iqtisadi resursları kiçik məhsuldarlıq sferasından böyük məhsuldarlıq sferasına ötürən və bundan faydalanan şəxs kimi təyinat vermişdir. Sahibkarlıq (*ingiliscə - business - kommersiya fəaliyyəti*) əmtəə və xidmətlərin istehsalı və ya onların satışı əsasında sistematik mənəfəət əldə edilməsinə yönəlmiş iqtisadi fəaliyyətdir. Bu termin ilk dəfə Fransa əsilli irlandiyalı bankçı və iqtisadçı Riçard Kantilyon (*1680-1734*) tərəfindən XVIII əsrdə işlədilmişdir. İstehsal, kommersiya, maliyyə, məsləhət (konsaltinq) və s. növlərini fərqləndirirlər. Sahibkarlıq bazar iqtisadiyyatının, onun bütün institutlarına sirayət edən ən mühüm atributudur. Bu fəaliyyət hüquqi və ya fiziki şəxs tərəfindən həyata keçirilə bilər. Əksər ölkələrdə olduğu kimi, Azərbaycan Respublikasında da sahibkarlıq fəaliyyəti müvfiq qanunvericiliklə tənzimlənir və bu fəaliyyət növü ilə məşğul olmaq istəyən fiziki şəxsdən fərdi qaydada dövlət qeydiyyatına düşmək tələb edilir.

Regional səviyyədə dünya təsərrüfatına beynəlmiləlləşməsi də inteqrasiya proseslərində mühüm rol oynayır. Xarici iqtisadi fəaliyyətin maliyyələşdirilməsində ssuda kapitalı daha böyük inkişaf templəri ilə hərəkət edir. ETT məhsuldar qüvvələrin inkişafına təkan verir. Statistika göstərir ki, hazırda dünya istehsalı əhali artımını iki dəfə üstələyir. İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı, nanosənayenin təşəkkülü bu istiqamətdə yeni sıçrayışlı dəyişikliklərə rəvac verməkdədir. Bir sıra ölkələrdə postindustrial cəmiyyətdən informasiya cəmiyyətinə keçid dünya iqtisadiyyatında məhsul seqmentinin dəyişməsində əks olunur və təkrar istehsalın daha intensiv tipinin formalşmasına rəvac verir.

## 1.3. İqtisadiyyatın səviyyələri və dünya iqtisadiyyatı

İqtisadiyyat (*ingiliscə - economic - iqtisadiyyat, yunanca - oikonomike - ev təsərrüfatının idarə olunması sənəti, latınca - oikos - ev, təsərrüfat və nomos - qayda,*

*qanun, ümumilkdə təssərrüfatın aparılması qaydası, ərəbcə - tədbir*) təkrar istehsalın istehsal, bölgü, mübadilə, istehlak mərhələlərini özündə üzvi surətdə birləşdirən bir sistemdir. O praktiki təsərrüfatçılıq baxımından öz yaşayışını təmin etmək, zəruri tələbatlarını ödəmək üçün insanlar tərəfindən istifadə olunan vasitə, obyekt və proseslərin məcmusudur. İqtisadiyyat həm də təsərrüfat və onun insanlar tərəfindən aparılması, təsərrüfat proseslərinin qanunauyğunluqları, insanların əmtəə istehsalı və mübadiləsi prosesindəki münasibətləri haqqında elmdir. İqtisad elmində iqtisadi fəaliyyətin başlıca olaraq mikro-makroiqtisadi istehsal və dünya iqtisadiyyatı səviyyəsində təsnifatlandırılması qəbul edilmişdir. İqtisadiyyatın səviyyələrini səciyyələndirən bu təsnifatlandırmaya görə, mikroiqtisadiyyat *(yunanca* - microeconomics - *kiçik iqtisadiyyat*) iqtisad elminin bir bölməsi olaraq iqtisadiyyatın (*istehsal və xidmət*) müəssisə, şirkət səviyyəsində təşkili və idarə edilməsini öyrənir. Xarici iqtisadi ədəbiyyatlarda "mikroekonomika" adlanan "mikroiqtisadiyyat" termini qısa şərhdə müəssisələrin iqtisadiyyatı kimi də anlaşılır. Mikroiqtisadiyyat istehsal xərcləri, mənfəət, qiymət, əmək haqqı, tələb və təklif kimi iqtisadi amil və kateqoriyaları əhatə edir. Ayrıca iqtisadi subyektlərin fəaliyyəti ilə bağlı olan bu sferada idarəetmənin daha çevik formaları seçilir. Bununla belə ailələrin (*ev təsərrüfatları*) və ayrı-ayrı fərdlərin (individ) iqtisadiyyatları da mikroiqtisadi çərçivədə dövriyyə olunur.

Ölkə iqtisadiyyatını xarakterizə edən makroiqtisadiyyat (*yunanca* - macroeconomics - *böyük iqtisadiyyat*) səviyyəsində cəmiyyətin, ölkənin, milli iqtisadiyyatın, ən başlıca iqtisadi normaları dayanır. Xarici iqtisadi ədəbiyyatlarda "makroekonomika" adlanan makroiqtisadiyyat iqtisad elminin bir bölməsi olaraq bütövlükdə ölkə iqtisadiyyatının vəziyyəti öyrənilir. Buraya genişliklə ictimai məhsulun məcmusu, milli gəlirin kəmiyyəti, artımı və bölgüsü, sosial tələbatların ödənilmək səviyyəsi, inflyasiya, işsizlik, büdcə defisiti, iqtisadi artım, iqtisadiyyatın dövlət tənzimlənməsi kimi problemlərin öyrənilməsi daxildir. Makroiqtisadiyyatda bütün göstəricilər aqreqat formada ölçülür. Lakonik interpretasiyada makroiqtisadiyyat - milli iqtisadiyyatdır. Bu baxımdan milli iqtisadiyyatı (*national economy*) ölkənin və konkret dövlətin bütöv bir təsərrüfat, sosial və təşkilatı sistemi - iqtisadiyyatı kimi də xarakterizə etmək mümkündür. Elm olaraq milli iqtisadiyyat eyni mərhələdə istehsal, bölgü, mübadilə, istehlakı əhatə edən sosial-iqtisadi prosesləri müxtəlif subyekt və münasibətlərin idarəetmə təsiri baxımından öyrənir. Buraya, həmçinin, təbii-ekoloji, əmək, istehsal, elmi-texniki, texniki-texnoloji, informasiya və idarəetmə, maliyyə gücünü ehtiva edən iqtisadi potensial daxildir.

Milli iqtisadiyyatın tərkib hissəsi olaraq regional iqtisadiyyat və bələdiyyə iqtisadiyyatı çıxış edirlər. Regional iqtisadiyyat (*regional economy*) regional səviyyədə iqtisadi həyatın aspektlərini, istehsal güclərinin yerləşməsi və inkişafını, regionun idarəetmə sisteminin modelləşməsini, təsərrüfatın tənzimlənməsinin metod və mexanizmlərinin təkmilləşməsini tədqiq edən tətbiqi iqtisad elmidir. O, təbii-ekoloji şəraitlə uzlaşmada regionun sosial-iqtisadi proseslərini öyrənir.

Bələdiyyə iqtisadiyyatı (*municipal economy*) bələdiyyə təsisatları ərazisində istehsal, bölgü, mübadilə, maddi nemətlər və xidmətlər istehlakı porosesində yerli idarəetmə orqanlarının çıxış etdikləri iqtisadi münasibətlər sistemidir. Bələdiyyə iqtisadiyyatının əsasını bələdiyyələrə məxsus mülkiyyət, onların büdcə vəsaitləri və həmçinin, bələdiyyə təsisatlarının mülkiyyət hüquqları təşkil edir.

İqtisadiyyatın mikro-makroiqtisadi səviyyələrə bölünməsi xalis şərti xarakter daşıyır. Belə ki, çox zaman bu iki anlayışın sərhədlərinin biri-birindən ayırmaq çətinliyi yaranır. Bununla belə, onlar arasında çox sıx əlaqəlilik də mövcuddur. Əvvəla, makroiqtisadiyyat mikroiqtisadiyyatın öyrənilməsində nəzəri təməl olaraq çıxış edir. İkincisi isə, iqtisadiyyatın vəziyyəti, ilk növbədə, ayrı-ayrı müəsissə və şirkətlərin səmərəli fəaliyyətindən asılı olur. Bununla belə, makroiqtisadiyyat və mikroiqtisadiyyat arasında aralıq, orta bir səviyyə də mövcuddur. XX əsrin 80-ci illərində elmi dövriyyəyə həm iqtisad elminin ayrıca bölməsi kimi, həm də iqtisadiyyatın müqabil səviyyəsi olaraq mezoiqtisadiyyat (*yunanca - mesoeconomics - orta, aralıq iqtisadiyyat*) anlayışı da daxil olmuşdur. Xarici iqtisadi ədəbiyyatlarda "mezoekonomika" adlanan mezoiqtisadiyyat makroiqtisadiyyatın yarımsistemləri olmaqla bir-biri ilə üzvi bağlı sahələr komplekslərini (*aqrar-sənaye kompleksi, hərbi-sənaye kompleksi, ayrı-ayrı infrastruktur təsərrüfatlar və s.*) özündə birləşdirir.

İqtisadiyyatın üçüncü beynəlxalq səviyyəsi kimi dünya birliyi ölkələrinin qarşılıqlı iqtisadi rabitə və hərəkətini birləşdirən dünya iqtisadiyyatı çıxış edir. Dünya iqtisadiyyatı (*world economy*) dünya ölkələri arasında qarşılıqlı əlaqələr sistemi olaraq, dünya iqtisadi əlaqələrinin müxtəlif növlərini özündə birləşdirən milli təsərrüfatların məcmusu kimi şərh olunur. O, iqtisadiyyatın bütün səviyyələrini özündə birləşdirir. Dünya iqtisadiyyatının sinonimləri sırasında interiqtisadiyyat, meqaiqtisadiyyat və qlobal iqtisadiyyat istilahları da yer alır.

## 1.4. Dünya təsərrüfatının subyektləri

Dünya təsərrüfatında məqsədyönlü fəaliyyət subyektlər tərəfindən həyata keçirilir. Subyektlər istehsal amillərinin vəziyyəti və inkişafını, həmçinin, onların birləşmə üsullarını təyin edir. Dünya təsərrüfatının subyektləri zəruri kapitala sahib beynəlxalq hüquq və öhdəlikləri olan beynəlxalq təsərrüfat məkanında istehsal fəaliyyətini təşkil etmək bacarıqlı təsərrüfat vahidləridir.

Dünya iqtisadiyyatının subyektləri kimi milli dövlətlər, TMŞ-lər, regional iqtisadi inteqrasiya birlikləri və beynəlxalq iqtisadi təşkilatlar çıxış edirlər.

Dövlət (*state*) dünya təsərrüfatının əsas subyektidir. Dövlət hakim sinifin, əhali qrupunun maraqlarını ifadə edərək cəmiyyətin siyasi və iqtisadi formasıdır. Dövlət müvafiq ərazidə hüquqi qayda yaradan, suverenliyə, xüsusi idarəetmə aparatı və məcburetməyə malik hakim siyasi təşkilatdır. Hakim sinif, əhali qrupları öz maraqlarını dövlətin məqsədlərinə çevirirlər. Bu əsasda dövlət və təsərrüfat fəaliyyətinin qarşılıqlı

hərəkətləri baş verir. Dövlətin inkişafı milli təsərrüfatlarla sıx bağlıdır. İqtisadiyyatda dövlətin öz rolunu, ilk növbədə, şirkətlər üçün ölkə daxili və xaricində təminatlı bazarların yaradılmasında, kapital yığımında iştirakında, milli maraqlardan irəli gələrək, xüsusən də, ÜDM-in istehsalında daxili və xarici iqtisadi əlaqələrin tənzimləməsində göstərir. Bütün bunlara bilavasitə dövlət maliyyəsi vasitəsi ilə milli gəlirin təkrar bölgüsü əsasında nail olunur.

Dünya təsərrüfatının mühüm subyekti olaraq transmilli şirkətlər - TMŞ (*latınca - trans - dolayı, sərhəddən kənar, natio - irq, millət, corporatio - birlik*) və ya transmilli korporasiyalar - TMK (*transnational corporation - TNC*) milli çərçivədən çıxaraq öz baza ölkəsi hüdudlarından kənarda - digər ölkələrdə sahibkarlığı həyata keçirən, xaricdəki filialları və törəmə təşkilatları vasitəsi ilə dünya bazarında fəaliyyət göstərən xüsusi nəhəng beynəlxalq qurumlardırlar. Onlar digər təsərrüfatlaşan subyektlər və sistemaltıların vəziyyətləri üzərindən dünya təsərrüfatının funksionallığına müxtəlif istiqamətlərdə təsir göstərirlər.

TMŞ-lər bu təsiredici nüfuzları, çoxmilyardlıq investisiyalı qüdrətləri ilə qloballaşma prosesini stimullaşdırırlar. Hərtərəfli mühafizə sistemləri, yüksək maddi-texniki baza ilə təchiz edilmiş elmi-tədqiqat institutları, laboratoriyaları, konstruktor büroları TMŞ-nin artan potensialını, rəqabət qüdrətini təmin edir. Belə strateji istiqamət milli kapitalın fəaliyyətinin beynəlmiləlləşdirilməsi, transmilli kapitalın maraqlarının qloballaşması ilə əvəzlənməsini gerçəkləşdirir. Hazırda dünya təsərrüfatının mühüm mexanizmi kimi onlar ÜDM-in 25-30%-nə malik olmaqla beynəlmiləlləşmənin əsas hərəkətverici qüvvəsinin özəyində dayanırlar.

Regional iqtisadi inteqrasiya (*regional economic integration*) bir regiondakı ölkələrin iqtisadi resurslarının birləşdirilməsidir. Özünü müxtəlif tip və formalarda biruzə verir. Əsasən, iki tip - dövlətlərarası və özəl birbaşa kapital qoyuluşlarını ehtiva edən mikrosəviyyəli regional iqtisadi inteqrasiyanı fərqləndirlər. Regional iqtisadi inteqrasiya nümunəsi olaraq NAFTA və vahid kömrük tarifləri ittifaqına çevrilmiş Merkosur qruplaşması çıxış edir. Regional iqtisadi inteqrasiya, həmçinin, Asiyada, Afrika və Latın Amerikası ölkələrində, nisbətən güclü formada islam təşkilatlarına daxil olan ölkələr arasında da özünü göstərməkdədir. Sovet İttifaqının süqutundan sonra onun ərazisində yaranmış MDB regional qruplaşmanın yeni bir nümunəsidir.

Dünya təsərrüfatının mühüm subyektləri sırasına beynəlxalq iqtisadi təşkilatlar da qlobal əhəmiyyətliliyi ilə fərqlənirlər. Beynəlxalq iqtisadi təşkilat *(international economic organizations*) dünya iqtisadiyyatının subyektləri olub, beynəlxalq iqtisadi münasibətlər sferasında birgə qərarların hazırlanması, tənzimləmə və unifikasiya məqsədlərindən irəli gələrək beynəlxalq müqavilələr əsasında yaradılmış təsisatlardır. Dünya ticarətinin azad inkişafı və tənzimlənməsi aləti, həmçinin, onun iştirakçılarının qarşılıqlı əlaqəsini və onlar arasında münaqişələrin vaxtında xəbərdar edilməsini təmin edəcək beynəlxalq təşkilatın yaradılması ideyası II Dünya Müharibəsi başa çatdıqdan sonra meydana çıxmışdır.

Beynəlxalq iqtisadi təşkilatlar, istiqamətlərindən asılı olaraq, universal və ixtisaslaşmış təşkilatlara ayrılır.

Universal beynəlxalq iqtisadi təşkilatlara, əsasən, aiddir:

❒ Dünya Ticarət Təşkilatı;
❒ İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı;
❒ Asiya-Sakit Okean İqtisadi Əməkdaşlığı;
❒ Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyası;
❒ Beynəlxalq Ticarət Palatası;
❒ Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı;
❒ BMT-nin İqtisadi və Sosial Şurası;
❒ BMT-nin Avropa İqtisadi Komissiyası;
❒ BMT-nin Sənaye İnkişafı üzrə Təşkilatı.

İxtisaslaşmış beynəlxalq iqtisadi təşkilatlara fəaliyyət sferasına iqtisadi münasibətlərin müəyyən, daha dar dairəsi daxil olan əsas təşkilatlar aiddir:

❒ İntellektual Mülkiyyət üzrə Ümumdünya təşkilatı;
❒ Beynəlxalq İnvestisiyalar üzrə Məsləhət Xidməti;
❒ BMT-nin Beynəlxalq Ticarət Hüququ üzrə Komissiyası;
❒ Hava Nəqliyyatı Beynəlxalq Assosiasiyası;
❒ Beynəlxalq Dəniz Təşkilatı;
❒ Ümumdünya Gömrük Təşkilatı;
❒ Ümumdünya Turist Təşkilatı;
❒ Beynəlxalq Avtonəqliyyat İttifaqı;
❒ Beynəlxalq Qaz İttifaqı;
❒ Beynəlxalq Dəmiryol İttifaqı;
❒ Neft İxrac edən Ölkələr Təşkilatı;
❒ BMT Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı;
❒ Beynəlxalq Statistika İnstitutu.

Beynəlxalq iqtisadi təşkilatların xüsusi qrupuna, əsasən, aşağıdakı beynəlxalq maliyyə təşkilatları aid edilir:

❒ Beynəlxalq Valyuta Fondu;
❒ Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı;
❒ Beynəlxalq Hesablaşmalar Bankı;
❒ Avropa Yenidənqurma və İnkişaf Bankı;
❒ Avropa İnvestisiya Bankı;
❒ Asiya İnkişaf Bankı;
❒ Afrika İnkişaf Bankı;
❒ Ərəb Valyuta Fondu;
❒ İslam İnkişaf Bankı;
❒ İnter-Amerika İnkişaf Bankı;
❒ Qara dəniz Ticarət və İnkişaf Bankı;

❒ Avrasiya İnkişaf Bankı;
❒ Bank Nəzarəti üzrə Bazel komitəsi.

Beynəlxalq iqtisadi təşkilatlar sırasında daha ön daşıyıcı qismində Bretton-Vuds razılaşdırması əsasında yaradılmış, müvafiq olaraq, 1944 və 1945-ci ildə təsis edilmiş, mənzil-qərargahları Vaşinqtonda yerləşən Beynəlxalq Valyuta Fondu və Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı çıxış edirlər. BMT-nin ixtisaslaşdırılmış beynəlxalq valyuta-maliyyə təşkilatı BVF-nin əsas vəzifəsi beynəlxalq ticarətin və valyuta-maliyyə əməkdaşlığının inkişafına köməklik göstərmək, üzvlərinin tədiyə balanslarını müdafiə etmək, onların valyuta kurslarını tənzimləmək və həmçinin, dünya valyuta sisteminin sağlamlaşdırılması üzrə müvafiq islahatlar hazırlamaq təşkil edir. BVF öz üzvlərinə kredit resursları təqdim edir. BMT-nin ixtisaslaşdırılmış maliyyə təsisatı kimi Dünya Bankına daxil olan beynəlxalq kredit təşkilatı BYİB-nin əsas fəaliyyətini nisbətən aşağı faizlərlə (*illik 10%*) mənsub hökumətlərin zəmanətləri əsasında inkişaf etməkdə olan ölkələrin dövlət və özəl təşkilatlarına uzunmuddətli kreditlər vermək təşkil edir. Bankın üzvləri BVF-yə daxil ölkələr ola bilərlər.

## 1.5. "Dünya iqtisadiyyatı"nın strukturu

Dünya iqtisadiyyatı, sadəcə, milli təsərrüfatların qarşılıqlı rabitəli və hərkətli məcmusu deyil. O, müxtəlif qarşılıqlı rabitədə olan milli təsərrüfatları bütöv və vahid bir əsasda birləşdirən sistemdir.

Milli təsərrüfatlar dünya iqtisadiyyatının əsas konstruksiyası və başlanğıc struktur yaradan elementidir. Bu baxımdanda <u>dünya iqtisadiyyatının strukturu</u> dünya iqtisadi sisteminin nizamlanmış müxtəlif elementlərinin məcmusudur. Bu struktur elementlər aşağıdakılardır:

➢ milli təsərrüfatlar, onların sektorları, sahələri, müəssisələri və digər iqtisadi subyektləri;
➢ beynəlxalq iqtisadi münasibətlər;
➢ milli və beynəlxalq bazarlar və dünya bazarı;
➢ dövlətlərin ticarət-iqtisadi ittifaqları.

Dünya iqtisadiyyatının strukturu həmcins deyildir. Belə ki, bu sistemdəki milli təsərrüfatlar bir çox fərqliliklərə malikdirlər. Bu fərqliliklər aşağıdakı kimi dəyərləndirilir:

➢ iqtisadiyyatın miqyası və strukturu ilə;
➢ iqtisadi inkişafın templəri və səviyyəsi ilə;
➢ makroiqtisadi və sosial-iqtisadi moddellərlə;
➢ beynəlxalq iqtisadi münasibətlər sistemində iştirakının miqyasına, səviyyə və formasına görə, beynəlxalq əmək bölgüsündə roluna görə.

Dünya iqtisadiyyatı milli iqtisadiyyatlar, onların sektorları və sahələrinin bu və ya digər meyarlar əsasında qruplaşan müxtəlif sistemaltılar kimi təqdim olunur. Məhz buradan da milli iqtisadiyyatların çoxtərəfli təsnifatlılığı və dünya iqtisadiyyatının

çoxşaxəliliyi irəli çıxır. Bu baxımdan da dünya iqtisadiyyatı dünya ölkələrinin təsnifatlılığı ilə yanaşı sahə, təkraristehsal, ərazi, sosial və digər struktur komponentlərini əhatə edir.

İstehsal amillərinin yenidən yaranışı üçün istifadəsi təkrar istehsalı xarakterizə edir. Təkrar istehsal (*reproduction*) fasiləsiz davam (*dayanmayan, daim təkrarlanan*) edən istehsal prosesidir. Təkrar istehsal prosesində həyat vasitələri, onların istehsalçıları (*iştehlakçı və işçi qüvvəsi kimi insan*) və habelə istehsal münasibətləri bərpa olunur. Kəmiyyət baxımından təkrar istehsal, bir qayda olaraq, sadə (*dəyişməz həcmdə bərpa*) və geniş (*artan həcmdə bərpa*) təkrar istehsal kateqoriyalarına bölünür. Təkrar istehsal strukturunu istehsal və onun inkişafı, genişlənməsi və yenilənməsinə yönələn kapitalın strukturu əhatə edir.

Tarixən istehsal dövlət ərazisi çərçivəsində inkişaf etmişdir. Dünya miqyasında isə proses istehsalın beynəlmiləlləşməsi, istehsal gücləri və istehsal amillərinin dünyəviləşməsi fonunda irəliləyiş tapmışdır. Təsərrüfat həyatının bu hadisələri müxtəlif formalarda təzahür edir:

❑ beynəlxalq istehsalın inkişafı;
❑ kapital və texnologiyaların hərəkəti;
❑ əmtəə və xidmətlər mübadiləsi.

Dünya iqtisadiyyatının sahə strukturu ictimai əmək bölgüsü sistemində oxşar istehsal şərtlilikli təsərrüfat vahidlərinin həmcins keyfiyyətdə məcmusunu ifadə edir. Sahə strukturu aşağıdakı təsnifatlandırmaya malikdir:

I sahə - kənd təsərrüfatı və hasilat sənayesi;
II sahə - emal sənayesi və tikinti;
III sahə - xidmətlər sferası.

Dünya iqtisadiyyatı həm də sosial struktura malikdir. Bu struktur ölkələrin sosial sisteminin elementləri arasında dayanıqlı rabitəni və optimal gəlirlər bölgüsünü ehtiva edir.

Dünya iqtisadiyyatı mürəkkəb sosial-iqtisadi bir sistemdir. Bu sistem aşağıdakı sistemdaxili elementlərdən ibarətdir.

❒ aktorların (*iqtisadi fəaliyyətin birbaşa iştirakçıları*) iyerarxiyası (*hakimiyyət - elementlərin yüksəkdən aşağıya doğru düzülüşü*);
❒ çoxsəviyyəlilik;
❒ strukturluq;
❒ dünya iqtisadiyyatının səviyyələri - beynəlxalq və transmilli səviyyə.

Dünya iqtisadiyyatı heterogen (*qeyri-həmcinsli*) xarakterlidir.

Dünya iqtisadiyyatı mexanizmi dünya təsərrüfat əlaqələrinin reallaşmasını təmin edən komponentlərdən ibarətdir:

❑ iqtisadi alətlər sistemi;
❑ təşkilati tədbirlər;
❑ institutlar.

Dünya iqtisadiyyatını həm də G7 və G20 mərkəzində təmərküzləşən sənayecə inkişaf etmiş ölkələr və əyalətdə qeyri-bazar təsisatlı və virtual dövlətçiliyi tənəzüllü

ölkələr qismində də təqdim etmək olar. Bu baxımdan dünya iqtisadiyyatında mərkəz struktur təsnifatlılığı da yer alır.

Dünya təsərrüfatı qlobal sistem olaraq inkişaf edən dinamik tarixi bir kateqoriyadır. Onun təkamülü bir inkişaf mərhələsindən digərinə keçidini izah edən çoxsaylı konsepsiyaların yaranmasına zəmin olmuşdur. Dünya iqtisadiyyatına tarixən milli təsərrüfatların və ya müvafiq təyinatlı qrupların sistemi kimi baxıldığına görə bütün sahəvi konsepsiyaların mərkəzində də bu strukturlar dayanır.

## 1.6. İqtisadi nəzəriyyədə "Dünya iqtisadiyyatı"nın yeri və onun digər elmlərlə qarşılıqlı əlaqəsi

"Dünya iqtisadiyyatı" bazar iqtisadiyyatı nəzəriyyəsinin bir hissəsi kimi əmtəə və xidmətlərin mübadiləsi, istehsal əlaqələrinin hərəkət amilləri sahəsində müxtəlif ölkələr arasında qarşılıqlı təsərrüfat fəaliyyətlərinin qanunauyğunluqlarını öyrənərək təsərrüfat haqqında fundamental elm olan iqtisadi nəzəriyyəyə əsaslanır.

Ayrı-ayrı suveren dövlətlərin rezidentləri tərəfindən bağlanılan sövdələşmələrin öyrənilməsi baxımından "Dünya iqtisadiyyatı" fənninin predmeti iqtisadi nəzəriyyənin digər tərkib hissələrinin tədqiqat obyektləri ilə müqayisədə nisbi müstəqilliyə malikdir. Belə ki, "Dünya iqtisadiyyatı" tərəfindən öyrənilən problemlər həm də iqtisadi coğrafiya (*economic geography*), sosial coğrafiya (*social geography*), demoqrafiya (*demography*), ekologiya (*ecology*), politologiya (*political science*), regionalistika (*regional science*), qlobalistika (*global studies*) və s. bu kimi elm fənlərin də tədqiqat obyektini təşkil edir. Bu sırada dünya iqtisadiyyatı daha çox coğrafiya ilə əlaqələndirilir. Lakin burada özəl cəhətlərlə yanaşı fərqlilikləri çox asanlıqla sezmək mümkündür.

<u>Coğrafiya</u> (*yunanca - γεωγραφία - yerin təsviri, ingiliscə - geography - coğrafiya*) coğrafi qişanın strukturunu, fəaliyyət və təkamülünü, məkanda onun təbii və təbii-ictimai geosistem və komponentlərin ayrı-ayrı hissələrinin qarşılıqlı əlaqəliyini və bölgüsünü öyrənən təbiət və ictimai elmlər kompleksidir. Coğrafi tədqiqatlar cəmiyyətin ərazi təşkilinin, əhalinin və onun fəliyyətinin müxtəlif növlərinin yerləşməsi, təbii ehtiyatlardan səmərəli istifadə edilməsi, insanın yaşayış mühitinin saxlanılması, dayanıqlı inkişaf üçün ekoloji təhlükəsizlik əsaslarının yaradılması və habelə coğrafi proqnozların verilməsinin elmi əsaslandırılması məqsədi ilə aparılır. Coğrafiyanın tədqiqinin vacib predmeti olaraq insanla təbiətinin qarşılıqlı təsir prosesləri, coğrafi mühit komponentlərinin qanunauyğun yerləşməsi, qarşılıqlı əlaqəliliyi və onların lokal, regional, milli (dövlət), qitə, okean və qlobal səviyyələrdə uzlaşması çıxış edir. Coğrafiya qədim tarixə malikdir və o, ilk əvvəl Yer haqqında ensiklopedik elm olmuşdur. Sonradan iki əsas qola - fiziki coğrafiya və iqtisadi coğrafiyaya ayrılmışdır. Hazırda təbii (fiziki-coğrafi) və ictimai (sosial-iqtisadi) coğrafi elmləri fərqləndirirlər. Coğrafiya elmləri sisteminə həmçinin, əsas məqsədi təbiət obyektlərinin, hadisələrinin və cəmiyyətin məkanca yerləşməsini, uyğunlaşmasını, qarşılıqlı əlaqəsini, dəyişməsini

əks və tədqiq edən texniki elm - kartoqrafiya da daxil edilir. Coğrafiya ilə bağlı biliklərin öyrənilməsinin inkişaf mərhələləri qədim dünya, orta əsrlər, böyük coğrafi kəşflər və müasir coğrafi tədqiqatlar olaraq 4 əsas dövrü əhatə edir.

Bundan başqa, bir sıra xarici univesitetlərin "Dünya iqtisadiyyatı" fənni ilə bağlı dərslikləri həmin elmlərin müvafiq tədqiqat mövzularını da əhatə edir. Bütün bunlar isə onu göstərir ki, "Dünya iqtisadiyyatı" fənninin predmeti bölünməz olmasa da, qəti dayanıqlılıq əldə edə bilməmişdir. Onun strukturunda "beynəlxalq iqtisadi münasibətlər", "qlobal iqtisadi problemlər", "xarici iqtisadi fəaliyyət", "beynəlxalq vayuta-hesab münasibətləri", "dünya iqtisadiyyatının tarixi", "dünya iqtisadiyyatının təbii-resurs potensialı" və "dünya iqtisadiyyatının sahə quruluşu" kimi mühüm elmi tədqiqat bölmələri də yer alır. Bu baxımdan "Dünya iqtisadiyyatı" elm kimi vahid sistem olaraq dünya təsərrüfatının təşəkkülü, funksionallığı və inkişafının qanunauyğunluqlarını tədqiq edir, dünyanın təkraristehsal proseslərini, beynəlxalq ticarət və maliyyə münasibətlərini öyrənir, dünya birliyində insanların artan tələblərinin təmin olunması üçün dünya iqtisadi siyasətinin məqsədlərini formalaşdırır, məhdud milli resurslardan istifadənin səmərəliliyini artıran vasitə və metodları təyin edir.

"Dünya iqtisadiyyatı" iqtisadi nəzəriyyənin tərkib hissəsi olaraq digər elmlərlə mühüm qarşılıqlı əlaqəliyi vardır. "Dünya iqtisadiyyatı"nın öyrənilməsində prerekvizitlər (*prerequisite*) olaraq "Makroiqtisadiyyat", "Mikroiqtisadiyyat", "Statistika", "Dünya iqtasidiyyatının tarixi", korekvizitləri (*co-requisite*) kimi "Dünya ölkələrinin iqtisadi inkişaf modelləri", "Geoiqtisadiyyat", "Region ölkələri dünya iqtisadi sistemində", "Region ölkələrini iqtisadi inkişaf modelləri", "Ekologiya", postrekvizitləri (*postrequisite*) qismində isə "Beynəlxalq iqtisadi münasibətlər" çıxış edirlər.

Dünya iqtisadiyyatı daim inkişaf edir. Bu inkişaf problemlərlə yanaşı onun məzmun dəyişikliyində də əks olunur. Dünya iqtisadiyyatının inkişafı ilə bağlı dəyişikliklər iki amilin təsiri ilə baş verir:

1. İstənilən iqtisad elmində olduğu kimi, "Dünya iqtisadiyyatı"nda da yeni nəzəriyyələr yaranır.
2. Problemlər dairəsi daim dəyişir ki, öz növbəsində, bu da elmi-tədqiqat predmetinə çevrilir.

Müasir dünyada qloballaşma proseslərinin sürətlənən axını, informasiyalaşdırmanın genişlənməsi dünya təsərrüfatının inkişasfında köklü dəyişikliklərə rəvac verir. Bu aspektdə "Dünya iqtisadiyyatı" elm olaraq özünün inkişafının yeni mərhələsinə qədəm qoyur.

## 1.7. Dünya iqtisadiyyatının əsas göstəricilər sistemi

Dünyanın iqtisadi vəziyyətinin dinamikasının və dünya təsərrüfatlararası durumunun təhlili üçün bir sıra göstəricilərdən istifadə olunur. Bunlar arasında ən mühüm

göstərici olaraq istehsal və xidmət sferasının nəticəsini əks etdirən Ümümi Daxili Məhsul və maddi istehsalda yaradılan yeni dəyər - Milli Gəlir daha mühüm önəm daşıyır. ÜDM istehlak, investisiya, dövlət satınalmalarını (*idaxal-ixrac*) özündə birləşdirərək iqtisadi inkişaf səviyyəsini xarakterizə edən başlıca iqtisadi indikator kimi ay, rüb, əsasən də, bir il ərzində ölkədə istehsal olunan bütün son əmtəə və xidmətlərin məcmu bazar dəyərini ifadələndirir. Qlobal kontekstdə ÜDM il ərzində iqtisadiyyatda son məhsul - əmtəə və xidmətlər həcminin dəyərini göstərməklə həmin ölkənin dünya təsərrüfatlararası əlaqələr sistemində yerini, onun inkişaf etmiş və ya inkişaf etməkdə olan ölkələr kateqoriyasına aid olmasını təyin etməyə imkan yaradır. Milli Gəlir - əsas və əlavə əmək haqqı, istehlak kreditlərinin xalis faizləri, korporasiyaların mənfəəti, mülkiyyətçilərin xalis gəlirləri və mülkiyyətdən renta gəlirləri məcmusunu əks etdirir.

Milli Gəlir Ümümi Daxili Məhsula nisbətdə aşağıdakı düstur vasitəsi ilə də təyin edilir:

**MG = ÜDM – amortizasiya ayırmaları, vergilər və qeyri-istehsal xərcləri**

ÜDM-in konkret bir ölkədə milli valyutada daha dolğun hesablanması üçün valyutaların alıcılıq qabiliyyəti arasında müqayisə aparılır.

Dünya üzrə məcmu ÜDM ABŞ dolları əsasında hesablanır.

Bir sıra ölkələrdə, o cümlədən ABŞ-da mövcud ölkədə və onun xaricində öz daxili resursları hesabına il ərzində istehsal olunan bütün son hazır əmtəələrin (commodities) və xidmətlərin (services) dəyərinin məcmusunu ifadə edən ÜDM göstəricisindən istifadə edilir. Bir qayda olaraq, ÜDM və ÜMM ölçülərində fərqlər böyük əhəmiyyət kəsb etməyərək orta hesabla 1% həddində olur. Daha konkret bu fərqləri aşağıdakı düstur vasitəsi ilə daha aydın görmək olar:

**ÜMM = ÜDM + Δ**

Burada: Δ - (*vətəndaşların xaricdəki fəaliyyəti üzrə əldə etdikləri gəlirlər*)
çıxılsın (*ölkədən xarici vətəndaşların çıxardığı gəlirlər*)

Başqa sözlə, bu fərq xarici ölkələrlə hesablaşmalardakı saldonu əks etdirir.

ÜMM əgər ÜDM-i üstələyirsə, bu o deməkdir ki, mövcud ölkədə əhali xaricdən onların ölkələrində çalışan əcnəbilərin qazandıqlarından daha çox gəlir əldə edir.

Ayrı-ayrı milli təsərrüfatların iqtisadi inkişafının və dünya təsərrüfat əlaqələrinin müqayisəli təhlili üçün daha etibarlı göstəricilər sistemindən istifadə zərurəti mövcuddur. Bundan irəli gələrək dünya təcrübəsində Milli Hesablar Sistemindən istifadə olunur. Bu makroiqtisadi səviyyədə iqtisadiyyatın inkişafının qarşılıqlı göstəricilər sistemidir. MHS konsepsiyası müasir dünyada iqtisadçılar, siyasətçilər, dövlət xadimləri, sosioloqlar, maliyyəçilər və s. arasında universal iqtisadi-statistik dilə malik olan bir ünsiyyət vasitəsi olaraq da çıxış edir. BMT-nin beynəlxalq iqtisadi təşkilatları, BFV, BYİB və digərləri fəaliyyətlərində MHS göstəricilərindən genişliklə istifadə edir və bununla yanaşı onun inkişafına da töhfələrini verirlər. MHS bütövlükdə iqtisadi

proseslərə razılıqlı təsvir verərək onun ümumi xarakterinin daha üstün açılışını təmin edir. Beləliklə, dünya iqtisadiyyatının əsas göstəriciləri kimi Ümumi Daxili Məhsul, Ümumi Milli Məhsul və Milli Gəlir çıxış edir.

## 1.8. Beynəlxalq əmək bölgüsü dünya təsərrüfatının obyektiv əsası kimi

Beynəlxalq əmək bölgüsü müxtəlif ölkələrin müəssislərinin müəyyən əmtəə və xidmətlər istehsalı üzrə ixtisaslaşdıqları və sonradan bu əmtəə və xidmətlərlə mübadiləni həyata keçirdikləri, qarşılıqlı surətdə asılı olan istehsalın təşkili və ya üsulu olaraq insan cəmiyyətində ictimai bölgünün inkişafının qanunauyğun məntiqi nəticəsi kimi çıxış edir. Bu proses insan fəaliyyətinin müxtəlif növlərinin keyfiyyət differensasiyası ilə baş verir. Ölkədaxili əmək bölgüsünün (*division of labour*) inkişafı zəminində yaranan beynəlxalq əmək bölgüsü nəticəsində istehsalın təşkili və kapitalın hərəkəti beynəlxalq xarakter alır ki, bu da dünya iqtisadiyyatının obyektiv əsasını təşkil edir.

Beynəlxalq əmək bölgüsü (*international division of labor*) ictimai əmək bölgüsünün xüsusi növü olaraq, istehsalın beynəlxalq ixtisaslaşması və mübadiləsinə əsaslanmaqla hazırlanmasına daha ucuz resurslar və digərlərinə nisbətdə üstün şəraiti olan ayrı-ayrı əmtəə növləri istehsalı üzrə ölkələrin ixtisaslaşmasını ehtiva edir.

Beynəlxalq əmək bölgüsü istehsalın beynəlxalq ixtisaslaşması və mübadiləsinə əsaslanır. Təsərrüfatın beynəlmiləlləşməsi mübadilə sferasından başlanğıc almışdır. Dünya mübadilə ticarəti lokal beynəlxalq bazarların yaranışına gətirmişdir. Lokal sahələrarası ticarət mərkəzlərinin vahid dünya bazarına çevrilməsi ilkin kapital yığımı mərhələsində baş vermişdir.

Hər bir ölkə özünün iqtisadi maraqlarından irəli gələrək beynəlxalq əmək bölgüsündə iştirak edir ki, bu da bir sıra amillərlə bağlı olur. Ölkənin beynəlxalq əmək bölgüsündə iştirakını müəyyən edən amillər aşağıdakılardır:

1. Ölkələr arasındakı təbii-coğrafi fərqlər.
2. Ölkələriin sosial-iqtisadi xüsusiyyətləri.
3. Beynəlxalq amillər.

Ölkələr arasındakı təbii-coğrafi fərqləri ərazinin miqyası, əhalinin sayı, iqtisadi-coğrafi mövqe, təbii-iqlim şəraiti, təbii resurslar ehtiva edir.

Ölkələrin sosial-iqtisadi xüsusiyyətlərini onun dünya iqtisadiyyatındakı yeri, təsərrüfat ukladı, tarixi inkişafı, istehsal və xarici iqtisadi əlaqə ənənələrinin səciyyəvi cəhətləri, iqtisadiyyatın və elmi-texniki inkişafın mövcud səviyyəsi, institusional sistemi və s. birləşdirir.

Beynəlxalq amilləri ETT-nin dünya üzrə inkişaf səviyyəsi, dünya bazarı konyunkturası, beynəlxalq hesablaşmalar sisteminin səviyyəsi və ekoloji problemlərin güclənməsi əhatə edir.

Ölkənin beynəlxalq əmək bölgüsündə iştirakı bir sıra göstəricilərlə xarakterizə olunur. Məhsuldar qüvvələrin inkişaf səviyyəsi hər bir ölkənin beynəlxalq əmək bölgüsündə iştirakının intensivliyini təyin edən mühüm göstərici hesab olunur. Bununla belə, ölkənin beynəlxalq əmək bölgüsündə iştirakını digər başlıca göstəricilər də əsaslandırır ki, bunlar da aşğıdakılardır:

- ❑ ölkənin ixrac və idxal kvotası;
- ❑ ixracın artım tempinin ÜDM-in artım tempini və idxalın artım tempinin ÜDM-in artım tempini üstələməsi əmsalları;
- ❑ xarici ticarət kvotası və s.

XX əsrin sonlarında beynəlxalq əmək bölgüsünün dərinləşməsi prosesi daha da genişlənmişdir. Bu dərinləşməyə təsir edən amillər çoxalmışdır ki, bunlar da aşağıdakılardır:

- ❒ ölkələrin təbii-coğrafi və təbii resurs fərqliliyi;
- ❒ ETT, cəmiyyətin informasiyalaşdırılmasının artımı, nəqliyyatın inkişafı;
- ❒ iqtisadi inkişafın səviyyəsinin yüksəlişi;
- ❒ xarici iqtisadi əlaqələrin xarakteri;
- ❒ TMŞ-lərın iqtisadi ekspansiyası;
- ❒ Regional inteqrasiyanın genişlənməsi.

Müasir zaman reallıqları belədir ki, dünyada heç bir ölkə yalnız milli resurslarına istinadən özünü tam təmin etmək iqtidarında deyil. Digər tərəfdən, bir çox ölkələrdə bu və ya digər resurs bolluğu mövcüddur ki, bu da onların daxili tələbatlarını üstələyir. Bununla belə, iqtisadi səmərəlilik baxımından çoxsaylı müasir sənaye məhsullarını müxtəlif keyfiyyət və xərclər müqabilində istənilən və ya bir sıra ölkələrdə istehsal etmək mümkündür. Beynəlxalq əmək bölgüsünün belə vəziyyəti isə ictimai əmək bölgüsünün formalarından biri kimi çıxış edir.

## 1.9. Beynəlxalq ixtisaslaşma və beynəlxalq kooperasiya

Beynəlxalq ixtisaslaşma (international specialization) ölkənin müəyyən əmtəə və xidmətləri öz daxili tələbatından artıq istehsal etməklə onların dünya bazarlarında reallaşdırılması üzrə ixtisaslaşmasını ehtiva edir.

Beynəlxalq ixtisaslaşma iki aspektdə fəqləndirilir:

1. Beynəlxalq ərazi ixtisaslaşması - regional birliklərə inteqrasiya daxilində daxilində ixtisaslaşma;

2. Ölkənin istehsal ixtisaslaşması;

- ❒ predmetli - material formalı hazır məhsullar, nəqliyyat, maliyyə, sığorta, injinirinq və s.;
- ❒ detallara bölgü əsaslı - məmulatların hissə və komponentlərinin istehsalı;
- ❒ texnoloji və ya mərhələ üzrə - ayrı-ayrı əməliyyatların və ya ayrı-ayrı texnoloji proseslərin həyata keçirilməsi.

Beynəlxalq ixtisaslaşma səviyyəsi bir sıra əmsal göstəricilərlə müəyyən olunur. Burada, başlıca olaraq, nisbi ixrac ixtisaslaşması əmsalı və ölkənin istehsal sahələrində ixrac kvotası əmsalı mühüm yer tutur. İxrac olunan emal məhsulları çeşidində beynəlxalq ixtisaslaşma sahələrinin payı nə qədər yüksəkdirsə, bu həmin ölkənin beynəlxalq ixtisaslaşmada mütərəqqi rolunu ifadə edir. İxtisaslaşma ilkin məhsullar (*hasilat sənayesi, kənd təsərrüfatı*) sahəsini əhatə etdikdə isə bu ölkənin beynəlxalq ixtisaslaşmada passiv rolundan xəbər verir. Odur ki, beynəlxalq ixtisaslaşmada fəallığı üstün olaraq emal sektorunun məhsulları ifadə edir.

Beynəlxalq ixtisaslaşma bir neçə inkişaf mərhələsindən keçmişdir. Bütün tarixi inkişaf mərhələlərində beynəlxalq ixtisaslaşmaya ETT-nin təsiri ilə dinamizm, onun növlərinin, istiqamətlərinin dəyişkənliyi, yeni mürəkkəb formalara keçidi xas olmuşdur.

Beynəlxalq ixtisaslaşmaya əsaslanaraq beynəlxalq əmək bölgüsünün digər tərəfi və digər mühüm forması kimi beynəlxalq kooperasiya çıxış edir. Xüsusilə vurğulanmalıdır ki, beynəlxalq ixtisaslaşma iqtisadi kateqoriya kimi beynəlxalq əmək bölgüsünün bir tərəfi və eyni zamanda, onun başlıca təzahür formalarından biri olmaqla beynəlxalq kooperasiyaya nisbətdə daha geniş məna daşıyır.

Beynəlxalq kooperasiya (*international cooperation*) müxtəlif ölkələrin müəssisələrinin birgə fəaliyyətini əks etdirir. Bu zaman həmin müəssisələr müəyyən əmtəə və xidmətlərin işlənməsi, istehsalı və satışı istiqamətində özlərinin tam təsərrüfat müstəqilliyini saxlayırlar. İqtisadi təbiətinə görə beynəlxalq kooperasiya, istehsal gücü olaraq, əsas funksionallığı bir neçə ölkənin birlikdə daha yüksək məhsuldarlığla (productivity) yeni prinsipial məsələlərin həllinə yönəldilməsi ilə şərtlidir.

Beynəlxalq kooperasiyayanın ümumi obyektiv əsasını aşağıdakılar təşkil edir:

- ❖ istehsal güclərinin inkişafının artan səviyyəsi;
- ❖ istehsal güclərinin sahə, istehsal və müəssisə təsnifatının dərəcəsi.

Kooperasiya əlaqələrinin nizamlanmasında müştərək proqramların həyata keçirilməsi, müqavilə qaydasında ixtisaslaşma və müştərək müəssisələrin yaradılması kimi əsas metodlardan istifadə edilir.

ETT-nin təsiri beynəlxalq kooperasiyanın material əsasının inkişafına rəvac verərək beynəlxalq əmək bölgüsünün özünün xarakterinin dəyişkənliyinə səbəb olmuş və onun tərkib hissəsinə mühüm element kimi elmi daxil etmişdir.

Beynəlxalq əmək bölgüsündə əsas qanunlar sənaye inqilabları mərhələsində görkəmli ingilis siyasi-iqtisadçısı Adam Simit (*1723-1790*) tərəfindən formalaşdırılmışdır. O özünün 1776-cı ildə nəşr edilən "Xalqların Sərvəti" adlı əsərində "Mütləq üstünlüklər nəzəriyyəsi" (*absolute advantage theory*) ilə çıxış etmiş və göstərmişdir ki, xalqların sərvətinin əsasında əmək bölgüsü mühüm rol oynayır. Bir ölkə və ərazidə bir məhsulun (*əmtəə və xidmətlərin*) istehsalında digər ölkə və ərazidəkindən daha çox səmərəliliyə malikdir. Yəni o, eyni və ya daha az resursdan istifadə etməklə daha çox istehsal məhsulu verir. Belə halda digərinə görə daha ucuz məhsul istehsal edən ölkə həmin məhsul istehsalı üzrə ixtisaslaşacaqdır. Nəticədə ixtisaslaşma və ticarət ölkəyə

daha çox istehsal və istehlak imkanı verəcəkdir. Ona görə də əmək bölgüsü mövcud ölkənin malik olduğu mütləq üstünlüklər nəzərə alınmaqla həyata keçirilməlidir.

Əməyin beynəlxalq bölgüsü nəzəriyyəsinin inkişafında ingilis siyasi iqtisadının görkəmli nümayəndəsi David Rikardonun (*1772-1823*) 1817-ci ildə nəşr etdirdiyi "Siyasi iqtisadın və vergiləndirmənin prinsipləri" adlı kitabı da mühüm əhəmiyyət kəsb etmişdir. Onun irəli sürdüyü "Müqayisəli (*nisbi*) üstünlüklər nəzəriyyəsi"nə (*Theory of comparative advantage*) görə, bir ölkə bir məhsul istehsalında digər ölkədən daha çox səmərəliliyə malik deyildir. Lakin o, məhsulun istehsalını digər məhsulların istehsalı ilə müqayisə etdikdə, nisbi olaraq, daha səmərəli bir şəkildə həyata keçirir. Burada nəticə ondan ibarətdir ki, hər ölkə nisbi olaraq daha çox səmərəlilik əldə etdiyi məhsul istehsalı üzrə ixtisaslaşacaqdır. D.Rikardonun gəldiyi ümumi nəticə isə ondan ibarətdir ki, ixtisaslaşmanın əsasında bu və ya digər ölkənin başqa dövlətlərlə müqayisədə malik olduğu üstünlükləri dayanır. Bu üstünlüklər isə iki - mütləq və nisbi kateqoriyalarda təzahür edir. Konkret olaraq, ölkə üçün mütləq üstünlüklər onun təbii sərvətləri (*faydalı qazıntılar, iqlim şəraiti və s.*) və ya ərsəyə gətirdiyi istehsal potensialı (*müasir texnologiyalar, ixtisaslı işçi qüvvəsi və s.*) ilə bağlıdır. Beləliklə "Rikardo modeli"nə görə, mütləq üstünlüklər mənşə etibarı ilə təbii və ya alınmış səciyyə daşıyır. Nisbi üstünlüklər isə əmtəə və xidmətlərin bir ölkənin digərindən daha az məsrəflərlə istehsalını xarakterizə edir. Məhz nisbi üstünlüklər ticarətin faydalı olub-olmamasını müəyyənləşdirir.

XX əsrin əvvəllərində isveçli iqtisadçılar Hekşer Eli Filip (*1879-1952*) və Bertil Qotthard Olin (*1899-1979*) A.Smitin və D.Rikardonun mütləq və nisbi üstünlüklər nəzəriyyəsinin müddəalarına əsaslanan istehsal amillərinin müqayisəsi nəzəriyyəsini işləmişlər. Ötənlərdən fərqli olaraq, Hekşer-Olinin nəzəriyyəsinə (*Heckscher-Ohlin theory*) görə, hər bir ölkənin kapital və əmək amili ilə müəyyən dərəcədə bağlılığı vardır və bu hal beynəlxalq ticarətdə iştirakçıdan asılı olaraq həmin ölkələrdə qiymət nisbətində müxtəliflik törədir. Kapitalın qiyməti faiz dərəcəsində, əməyin qiyməti isə əmək haqqında əks olunur. Burada alınan nəticə ondan ibarətdir ki, əməyin və kapitalın müqayisəli qiymətlərinin səviyyəsi kapital artıqlığı olan ölkələrdə əmək ehtiyatları və kapital defisiti olanlara nisbətdə azdır. Öz növbəsində, bu hal eyni malın müqayisəli qiymətlərinin müxtəlifliyinə səbəb olur və hər bir ölkə nisbətən daha çox amillər tələb edən əmtəə istehsalını ixtisaslaşdırmağa çalışır. Beynəlxalq ticarətin təsiri altında dünya mal dövriyyəsində iştirak edən əmtəələrin müqayisəli qiymətləri eyniləşməyə meyil edirlər. Bu isə müxtəlif ölkələrdə həmin əmtəələrin yaradılmasında istifadə edilən istehsal amillərinin qiymət nisbətinin bərabərləşməsinə səbəb olur. Hekşer-Olin nəzəriyyəsinin postulatları əsasında bu qarşılıqlığı ABŞ iqtisadçısı Pol Samuelson (*1915-2009*) aşkarlamışdır. Onların adları altında təsdiqini almış Hekşer-Olin-Samuelson teoreminə (*theorem Heckscher-Ohlin-Samuelson*) görə, xarici ticarətə qoşulmadıqda əmək və kapitalın qiyməti hər ölkədə fərqlənəcək, izafi amilin qiyməti nisbətən kiçik, defisit amilin qiyməti nisbətən yüksək olacaqdır. Kapitaltutumlu əmtəə

ilə ölkənin ixtisaslaşması və beynəlxalq ticarətdə iştirakı ixracat sahəsində kapitalın axınına gətirir.

İstehsal amillərinin müqayisəsi nəzəriyyəsi empirik yoxlanışlar, konkret statistik məlumatlara əsaslanaraq təftişə məruz qalmışdır. İqtisadçı alimlər ayrı-ayrı ölkələrdə iqtisadiyyatın kapital və əmək bolluğu sahələrinin, onların idxal və ixrac strukturunun korrelyasiyalı asılılığının mövcudluğunu aydınlaşdırmağa səy etmişlər. Daha sanballı nəticəli təyinata isə, qeyd olunduğu kimi, amerikalı iqtisadçı Nobel mükafatı laureatı Vasili Vasilyeviç Leontyev (*1905-1999*) ölkəsinin II Dünya Müharibəsindən sonrakı ilk illərinin xarici ticarət strukturunu təhlil etməklə nail olmuşdur. İstehsal amillərinin (*faktorlarının*) müqayisəli nəzəriyyəsinin əksinə olaraq, aparılmış tədqiqat ABŞ-da idxalın ixracata nisbətdə 30% çox olaraq kapital tutumluluğunu aşkarlamışdır. Bu nəticə "Leontyev paradoksu" kimi məhşurdur. "Leontyev paradoksu" (*Leontiev's paradox*) bir neçə istiqamətdə şərh edilsə də, əsas fikir üstünlüyü ondan ibarətdir ki, ABŞ digər inkişaf etmiş ölkələrə nisbətdə elmtutumlu əmtəə istehsalında üstünlüklər qazanmış və bu səbəbdən də ixracatda daha çox ixtisaslı əmək tələbli, idxalda isə xammal xarakterli və böyük kapitaltutumlu xərcli əmtəələr çox olmuşdur. "Leontyev paradoksu" Hekşer-Olin nəzəriyyəsinin praktiki məqsədlərdə düzxəttli və sadələşmiş istifadəsindən artıq aludəçiliklə ifadədən çəkindirməyə xidmət edir.

Milli iqtisadiyyatın məhsullarının xarici ticarətdə iştirakını dəqiqləşdirən iqtisadçılar ticarət olunan və ticarət olunmayan əmtəə və xidmətlər konsepsiyasını yaratmışlar. Konsepsiyaya görə, beynəlxalq mübadilədə iştirak edən əmtəə və xidmətlər *ticari*, öz yerində beynəlxalq ticarətin obyekti olmayanlar isə *qeyri-ticari* adlanır. Praktikada əksər əmtəələr ticari əmtəə kateqoriyasına aiddir. Belə bölgü şərti xarakter daşıyır və elmi-texniki nailiyyətlər nəticəsində dəyişkənliyə məruz qala bilər. Polşa əsilli ingilis iqtisadçısı Tadüyeş Miekzislav Rıbçinski (*1923-1998*) Hekşer-Olinin istehsal amillərinin müqayisəsi nəzəriyyəsinin nəticələrini dəqiqləşdirərək öz adı ilə bağlı Rıbçinskiy teoremi (*Rybczynsk theorem*) ilə isbat etmişdir ki, dünya qiymətlərinin dəyişməzliyində və iqtisadiyyatın iki sektorunun mövcudluğu şəraitində bir izafi faktordan (*amildən*) istifadənin genişlənməsi digər əmtəənin istehsal və buraxılışının ixtisarına gətirir.

## 1.10. Dünya ölkələrinin təsnifat modelləri

Müasir dünyada, müxtəlif mənbələrə əsasən, müəyyən ərazidə məskunlaşmış, beynəlxalq hüququn subyekti kimi de-yuro və de-fakto qəbul edilmiş, dövləti rəsmiləşmiş, müstəqil və ya özünü idarə edən insan birlikləri 250-dən çox dövlətdə cəmləşmişdir. Bunlardan 193 dövlət BMT-nin üzvü, 2 ölkə - Müqəddəs Taxt-tac -Vatikan və Fələstin isə bu təşkilatda müşahidəçidir. Xüsusi statuslu dövlətə bənzər, çox kiçik ərazili, 104 dövlətlə diplomatik əlaqələri olan Malta ordeninin də BMT yanında müşahidəçi statusu vardır (*2018*).

Bundan başqa, müasir dünyanın siyasi xəritəsində bir sıra ölkə və ərazilər (*həmçinin, separatçı, münaqişəli, mübahisəli*) vardır ki, onlar BMT ilə münasibətdə aşağıdakı kimi təsnifatlandırılırlar:

I. BMT-yə daxil olmayan, lakin bir və ya bir neçə BMT üzvü olan dövlət tərəfindən tanınan 6 ölkə:

1. Abxaziya (*Gürcüstan*).
2. Cənubi Osetiya Respublikası (*Gürcüstan*).
3. Çin Respublikası (*Ümumi Çin*).
4. Kosovo Respublikası (*keçmiş Yuqoslaviyanın tərkibində olan Serbiyanın bir hissəsi*).
5. Sahara Ərəb Demokratik Respublikası (*İspaniyanın keçmiş müstəmləkəsi*).
6. Şimali Kipr Türk Respublikası (*Kipr Respublikası*).

II. BMT-nin üzvü olan ölkələr və BTM-nin özü tərəfindən tanınmayan və ya qismən tanınan ölkələr:

1. Donetsk Xalq Respublikası (*Ukrayna*).
2. Luqansk Xalq Respublikası(*Ukrayna*).
3. Dnestryanı Moldova Respublikası (*Moldova*).

III. Beynəlxalq müqavilələrdə qeydə alınmış 3 xüsusi ərazi:

1. Aland adaları (*Finlandiya*).
2. Honkonq - Syanqan (*ÇXR*).
3. Makao - Aomin (*ÇXR*).

IV. Daimi əhalisi olan 35 asılı ərazi:

1. Avstraliyanın 3 xarici ərazisi: Kokos (*Kilinq*) adaları, Norfolk adası və Milad adası.
2. Böyük Britaniyanın 3 "taxt-tac torpaqları" (*Crown Dependencies*): Gernsi, Cersi və Men adası.
3. Böyük Britaniyanın 10 dənizaşırı ərazisi: Angilya, Bermud adaları (*Bermud*), Britaniya Virciniya adaları, Cəbəllütariq, Kayman adaları, Montserrat, Pitkern adaları, Müqəddəs Yelena, Askenson və Tristan-da-Kunya adaları, Tyorks və Kaykos, Folklend (*Malvein*) adaları.
4. Danimarkanın 2 ərazisi (*muxtar regionu*): Qrenlandiya və Farer adaları.
5. Niderlandın 3 dənizaşırı (*muxtar*) ərazisi: Aruba, Kyurasao və Sint-Marten.
6. Yeni Zelandiya ilə azad assosiasiyada özünü idarə edən 2 törəmə dövlət: Kuk adaları və Niuye (*Savic*).
7. Yeni Zelandiyanın 1 asılı ərazisi: Tokelau.
8. ABŞ-ın 5 dənizaşırı ərazisi (*birləşməyən ərazilər*): Amerika Virciniya adaları, Ameroka Samoası, Quam, Puerto-Riko və Şimal marian adaları.
9. Fransanın 5 dənizaşırı birliyi: Sen-Bartelmi, Sen-Marten, Sen-Pyer və Mikelon, Uollis və Futuna və Fransız Polineziyası.
10. Fransanın xüsusi status ilə 1 xüsusi inzibati-ərazi törəməsi: Yeni Kaledoniya.

V. Müvafiq dövlətlərin ayrılmaz hissəsi sayılan, bununla belə, bəzən ayrıca hansınınsa ərazisi kateqoriyasına aid olan 8 dənizaşırı ərazi:

1. Niderlandın 3 xüsusi (*dənizaşırı*) icması: Boneyr, Saba və Estatius.

2. Fransanın 5 dənizaşırı departamenti və regionu: Qvadelupa, Mayotta, Martinika, Reyunyon və Fransa Qvianası.

Bu siyahıya aşağıdakılar daxil deyil:

1.Daimi əhalisi olmayan 20 müstəqil ərazi:

1.1. ABŞ-ın 9 xarici kiçik adası: Beyker adası, Carvis adası, Conston atoll, Kinqmen qayası, Miduey atoll, Navassa adası, Palmira atollu, Ueyk adası, Haulend adası (*bəzən 2 ərazi - Baxo-Nuevo və Serranilya bankalarının da adları göstərilir*).

1.2. Böyük Britaniyanın 3 dəniz ərazisi: Akrotari və Dekeliya, Hind okeanında Britaniya ərazisi, Cənubi Corciya və Cənub Sandviçev adaları.

1.3. Avstraliyanın 3 xarici ərazisi: Aşmor və Kartye adaları, Mərcan dənizi adaları, Herd adası və Makdonalds adaları.

1.4. Norveçin 3 asılı ərazisi: Buve adası, Şpisbergen, Yan-Mayen.

1.5. Fransanın xüsusi status olan 2 xüsusi dənizaşırı inzibati-ərazi törəməsi: Klipperton adası, Fransa Cənubu və Antarktika əraziləri.

Rəsmi dövlət olmayan və ya dövlətlərin torpaqları olmayan ərazilər tərəfindən tanınmayan digər ərazilər:

2. Müvafiq dövlətlərin ayrılmaz hissəsi hesab edilən, lakin ərazisi dövlətin əsas hissəsindən xeyli uzaq olan (*xüsusilə, dünyanın digər qitəsinə aid olan*) 6 dənizaşırı ərazisi:

2.1.ABŞ-ın dənizaşırı ştatı: Havay adaları.

2.2.İspaniyanın Afrikada 3 ərazisi: Kanar adaları, muxtar şəhərlər-yarımanklavlar Seyma və Melilya, həmçinin, İspaniyanın suveren ərazilərinə daxil olan digər kiçik adalar - continental Şimali Afrikada Aralıq dənizinin cənub sahilində, Mərakeşlə sərhəddə ispan əraziləri.

2.3. Portuqaliyanın 2 muxtar regionu: Azor adaları və Madeyra.

3. Bir neçə ölkənin iddia etdiyi 2 qrup adalar: Spratli və Parasel adaları.

4. Antarktikanın statusu Antarktika haqqında müqavilədə müəyyən edilmiş neytral ərazisi. Ərazinin bir hissəsinə 7 dövlətin 8 ərazi iddiası vardır. Argentina Antarktikası (*Argentina*), Avstraliyanın Antarktika ərazisi (*Avstraliya*), Çili Antarktikası (*Çili*), Adeli torpağı (*Fransa*), Britaniyanın Antarktika ərazisi (*Böyük Britaniya*), Rossa ərazisi (*Yeni Zelandiya*), Mod kraliçası torpağı və Birinci Pyotr adası (*Norveç*).

5. Azad Kəşmir - Pakistanın nəzarəti altında xüsusi ərazi. De-fakto Pakistanın bir hissəsidir, rəsmi olaraq, Pakistan tərəfindən özünü idarə edən ştat kimi tanınıb.

6. Somalilend - Afrikanın Somali yarımadasının şimalında yerləşən, faktiki olaraq, nəzarət edilməyən mərkəzi hakimiyyəti olub, nə BMT-nin hər hansı üzv ölkəsi, nə də qismən tanınmış üzvləri tərəfindən tanınmayan ölkə.

7. Mərkəzi hökumətlər tərəfindən nəzarət olunmayan ərazilər:

7.1. İraq - İraq Kürdüstanı.
7.2. Myanma - Va və Şan.
7.3. Pakistan - Vəziristan.
7.4. Hindistan - Xalistan.
7.5. Somali - Avdalend, Azaniya, Qalmuduq, Puntlend, Xatumo
8. Virtual dövlətlər:
8.1. Seborq knyazlığı (*İtaliya*). Kinyazlıq ərazisinin hüquqi cəhətdən İtaliyanın bir hissəsi olmadığını iddia edir. Seborq ilə İtaliya arasındakı münaqişə yalnız deklarativdir, belə ki, tərəflər arasında güc və ya məhkəmə toqquşması olmamışdır.
8.2. Silend - neytral sularda suveren dövlət kimi tanınan özünü idarə edən ərazi. Hazırda Böyük Britaniyanın suveren dəniz sularında yerləşən kimi hesab olunur, lakin Böyük Britaniya bu əraziyə iddialı deyil. Bəzi mənbələrə görə, dövlətlərin hüquq və öhdəlikləri haqqında Montevideo Konvensiyasında göstərilən bütün dövlətçilik meyarlarına cavab verir və tanınmamış dövlət sayılır.
8.3. Tavolar krallığı (*İtaliya*).
8.4. Molossiya - 1977-ci ildə təsis edilmiş qondarma dövlət-mikromillət. ABŞ-ın Nevada ştatındakı Deyton şəhəri yaxınlığında böyük olmayan ərazini əhatə edir.
Başqa dövlətlərin ərazisində yerləşən hərbi və hərbi-dəniz bazaları.
Yer kürəsinin bu ilk makrokosmik tərkib hissələri öz sahəsi, əhalisi, iqtisadi-mədəni inkişafı, etnik, milli xüsusiyyətləri və yerləşməsinə görə də müxtəlif çalarlıdırlar. Bundan başqa, obyektiv olaraq, bu dövlətlər tarixən təşəkkül tapmış onlara məxsus inkişaf xarakterinə, xüsusiyyətlərinə, ümumdünya tarixinin indiki mərhələsindəki və dünya təsərrüfat sistemindəki roluna, yerinə müvafiq olaraq da təsnifatlandırılmışlar. Ölkələrin təsnifat düzümü müxtəlifdir. BYİB və UNCTAD-a görə, ölkələrin reytinq düzümü, əsasən, bu dövlətlərdə heç bir göstərici ölkələrin tipoloji xüsusiyyətlərini ayrılıqda tam əks etdirə bilməz. Mükəmməl tipologiya göstəricilərin və onların unikal əlaqələndirilməsinin maksimal differensiayasını tələb edir. Çox məsələlər isə bu ölkələrdəki sivilizasiyanın dayanıqlılıq xüsusiyyətlərinin təsiri ilə xarakterizə edilir.
Ölkələrin iqtisadi inkişafı onların seçdiyi iqtisadi modellərdə də özünü büruzə verir. Dövlətin büdcəsinin, ticarət və tədiyə balansının formalaşması, partnyorluq, xarici ticarət əlaqələrinin tənzimlənməsi və digər bu kimi amillər dairəsinin əlaqələndirilməsi, iqtisadi inkişafın strategiya və taktikası dövlətin subyektiv seçimində əks olunur. İqtisadi model, yaxın müddətli məqsəd və gözlənilən inkişaf seçimindən asılı olaraq, hakimiyyət keçidləri ilə əlaqədar da müvafiq dəyişikliklərə məruz qalır. Model ölkə tempinin təkamülünə təsir etsə də, ondan asılılığı elə də ciddi deyildir.
Dünya iqtisadiyyatını təşkil edən ölkələrin təsnifatlandırılmasında, tarixən, ilk üsul olaraq metropoliyalara - müstəmləkələrə sahib dövlətlərə və tabelikdə olan ərazilərə ayırmışlar. Böyük coğrafi kəşflər zamanında ilk böyük metropoliyalar İspaniya və Portuqaliya, Niderland, Böyük Britaniya olmuşlar. Sonradan bu sıraya Fransa, AFR, ABŞ, Rusiya, Yaponiya qatılmışdır. Metropoliyalar arasında möhtəşəmliyi və daha geniş ərazisi ilə Böyük Britaniya fərqlənmişdir. Onun əhatə dairəsinə Kanada, Avstraliya,

Cənubi Afrika, Hindistan, Honkonq və s. torpaqlar daxil olmuşdur. Rusiya da müstəmləkələr qismində Orta Asiyanı, Qafqazı və digər əraziləri imperiyaya daxil etmişdi. Müstəmləkə sistemin dağılması prosesi, əsasən, II Dünya Müharibəsindən sonra baş vermişdir. Sovet İttifaqının çökməsi ilə isə ölkələr təsnifatında yeni bölgü meydana gəlmişdir.

Dövlətlər beynəlxalq əmək bölgüsündə oynadıqları rola, ölkənin ölçü parametrlərinə, siyasi sistem, inzibati-ərazi quruluşu, idarəetmə forması, iqtisadi inkişaf səviyyəsinə görə fərqlənirlər. Bununla yanaşı, dünya iqtisadiyyatında ölkələr tipologiyası iqtisadi inkişaf baxımdan industrial, keçid iqtisadiyyatı və inkişaf etməkdə olan ölkələr kimi də təsnifatlandırılır.

Qəbul olunmuş qaydaya görə, bütün ölkələr dünya iqtisadiyyatında və beynəlxalq münasibətlərdə mövqeyinə, əsasən, 3 qrupa bölünür.

1. İqtisadi inkişaf etmiş dövlətlər.
2. Orta inkişaf səviyyəli və aralıq qrup ölkələr.
3. Zəif inkişaf etmiş ölkələr (*BMT-nin adlanırdığı kimi "inkişaf etməkdə olan ölkələr"*).

Bu ölkələr iqtisadi parametrlərə görə də öz qrupları içərisində fərqli mövqe tuturlar. Birinci qrup ölkələr mühüm beynəlxalq, hərbi-siyasi, maliyyə-iqtisadi təşkilatlarda, o cümlədən, "Böyük yeddilər", "Böyük iyirmilik", İƏİT, Aİ, ATƏT, NATO və s. təşkilatlarda birləşmişlər.

BYİB-də ölkələr iqtisadi parametrlər baxımdan gəlirlər həcminə görə təsnifatlandırılır.

Ölkələrin təsnifatlandırılmasında onların açıqlığı və qapalılığı koteqoriyası da nəzərdən keçirilir. Dünya təsərrüfatının iki tipi kimi baxılan bu düzümdə ölkələrin açıq təsərrüfat və avtarkiya tipi fərqləndirilir

<u>Açıq iqtisadiyyat</u> (*open economy*) ölkə iqtisadiyyatının xarici dünya ilə sərbəst, azad və qarşılıqlı iqtisadi əlaqədə olduğu yüksək səviyyəli vəziyyətidir. Dünya ölkələrinin, demək olar ki, hamısı açıq iqtisadiyyata malikdir və onun inkişafı qloballaşma prosesi ilə daha da güclənmişdir. İqtisadiyyatın açıqlığı intəhasız deyildir. Ona görə də bu anlayışa mahiyyətcə yaxın olan müxtəlif yanaşmalar vardır.

<u>Avtarkiya</u> (*yunanca - autarkhia - özüidarəedən, özühakimiyyət*): Bu tip ölkə quruluşu öz gücünə istinadən iqtisadiyyat qurmaq üsulu ilə irəliləyir. Müasir iqtisadi leksikada avtarkiya daxilə orientasiya edilmiş iqtisadiyyat kimi anlaşılır. Bu isə ona mütləq suverenlikdə qapalı ölkə tipi təyinatı verir. Bununla yanaşı, avtarkiya anlayışının digər mənaları da vardır. O, bir nəfərin hakimiyyəti altında idarəetməni nəzərdə tutur. Məhz ingilis dilindədəki "autarchy" sözü avtokratiya kimi tərcümə edilərək bir nəfərin qeyri-məhdud və nəzarətsiz hakimiyyət sistemini səciyyələndirir. Müasir qloballaşma dövründə mütləq avtarkiya nəzəri təyinatda qalaraq praktiki çəhətdən mümkünsüz hesab edilir. Hətta çox zaman buna misal gətrilən KXDR də beynəlxalq ticarətdə iştirakını genişləndirir. Avtarkiyanın açıq iqtisadiyyatla müqayisə qeyri-effektivliyinin səbəbi ixtisaslaşma ilə bağlıdır. Reallıq belədir ki, əgər bir ölkə

bütün zəruri əmtəələri istehsal edirsə, bu zaman bir əmtəə istehsalı üzərində bütün səylərini cəmləşdirə bilməyəcəkdir ki, onun keyfiyyətini yaxşılaşdırsın və məhsuldarlığını artırsın.

Dünya təsərrüfatını təşkil edən dövlətlər sistemində bu və ya digər xüsusiyyətləri ilə xarakterizə olunan geniş olmayan ölkələr qrupunu fərqləndirirlər. Belə ki, müasir iqtisad elmində fərqləndirici xüsusiyyəti iqtisadi inkişafın çox yüksək templəri olan bir sıra "yeni industrial ölkələr"in mövcud olmasından danışılır.

## 1.11. Beynəlxalq ticarət və dünya bazarı

Beynəlxalq ticarət (*international trade*) dünyanın bütün ölkələrinin xarici ticarətindən qurulan beynəlxalq əmtəə-pul münasibətləri sistemidir. Beynəlxalq ticarət XVI-XVIII əsrlərdə dünya bazarının təşəkkülü prosesində meydana gəlmişdir. Onun inkişafı Yeni dövrün dünya iqtisadiyyatının ən mühüm inkişaf amillərindən biridir. "Beynəlxalq ticarət" terminini ilk dəfə XII əsrdə yaşamış italyalı iqtisadçı-alim, Antonio Marqaretti "İtaliyanın şimalında xalq kütlələri hakimiyyəti" adlı iqtisadi traktatında işlətmişdir.

Dünya ticarətinin strukturunun əsas hissəsini sənaye malları - 58%, xidmətlər - 22%, kənd təsərrüfatı malları - 10%, xammal - 10% təşkil edir. Ayrı-ayrı əmtəələrin strukturuna baxdıqda isə görərik ki, burada neft, neft məhsulları, avtomobil, avadanlıqlar başlıca yer tutur.

Dünya ÜDM-nin 60%-ə qədəri xidmətlərin payına düşür ki, onun da böyük hissəsi beynəlxalq ticarət predmeti deyildir (*təhsil, tibbi xidmət, dövlət idarəetməsi, topdan və pərakəndə ticarət*). Bunlar qeyri-ticari (*nontradable*) adlandırılan, yəni beynəlxalq ticarətdə iştirak etməyən xidmətlərdir. Xidmətlər çıxarılmış dünya ÜDM-də dünya ticarətində iştirak etməyən malların ixrac payı dünya ÜDM-nin ümumi həcmində olduğundan xeyli çoxdur.

XX əsrin ikinci yarısından başlayaraq beynəlxalq mübadilənin "partlayış xarakteri" aldığı vaxt dünya ticarəti yüksək sürətlə inkişaf edir. DTT müəyyən etmişdir ki, son onilliklərdə dünya ticarətinin həcmi bütün dünya istehsalından daha sürətlə artır. Belə ki, 1950-2000-ci illər ərzində dünya ticarəti 20 dəfə, istehsal isə 6 dəfə artmışdır.

Beynəlxalq ticarət ölkələrin, regionların, bütün dünya birliyinin iqtisadi inkişafında mühüm rol oynayır. Hazırda xarici ticarət iqtisadi artımın güclü amilinə çevrilmiş və ölkələrin beynəlxalq əmtəə mübadiləsindən asılılığı xeyli yüksəlmişdir. Hazırda beynəlxalq ticarətin artımına təsir edən müxtəlif amillər mövcuddur. Onlar arasında başlıca olanlar aşağıdakılardır:

- ❖ beynəlxalq əmək bölgüsünün inkişafı və istehsalın beynəlmiləlləşdirilməsi;
- ❖ ETT-nin inkişafı;
- ❖ TMŞ-lərın inkişaf səviyyəsi.

Müasir mərhələdə dünya ticarətinin strukturunda əsas xüsusiyyətlərdən biri beynəlxalq mübadilədə aralıq məhsulun sürətli artımıdır ki, (*yarımfabrikatlar, komplektləşdiricilər*) bu da xarici investisiyaların genişlənməsi və şirkətdaxili

beynəlxalq əməkdaşlığın inkişafı ilə əlaqədardır. İnkişaf etməkdə olan ölkələr enerji resurslarının təminatı və ucuz işçi qüvvəsinin mövcudluğu ilə bir qrup təşkil edərək dünya bazarında resurs və əməktutumlu məhsulların ixracını, o cümlədən müxtəlif mineral xammal, kənd təsərrüfatı malları, toxuculuq, tekstil, ayyaqabı və tikiş sənayesinin məhsullarını satırlar. Belə cəhət bu ölkələrin iqtisadiyyatının xammalyönümlü olması ilə şərtlənir və onları dünya liderlərindən daim geri salır. Xarici ticarət dövriyyəsinin əksər hissəsi inkişaf etmiş ölkələrin payına düşür.

Beynəlxalq ticarətin II Dünya Müharibəsindən sonrakı dövrdə liberallaşmasına 1947-ci ildə yaradılmnış Tarif və Ticarət üzrə Baş Saziş - GATT mühüm təsir etmişdir. 1 yanvar 1995-ci ildən, Uruqvay raundundan sonra GATT-ın əvəzinə Dünya Ticarət Təşkilatı - DTT işə başlamışdır. DTT beynəlxalq ticarət rejimində və beynəlxalq mübahisələrin həllində daha güclü təsir mexanizminə malikdir.

Ayrı-ayrı milli təsərrüfatların bir-bir ilə iqtisadi əlaqəsi dünya təsərrüfatında ehtiva olunur və onun inkişafının əsas xüsusiyyətləri, meyilləri ictimai istehsalın fəaliyyətinin obyektiv qanunauyğunluqları ilə müəyyənləşir. Bununla əlaqədar istehsal həcminin daha da artırılması, buraxılan məhsulun nomenklaturasının genişlənməsi inkişaf etmiş ölkələrdə beynəlxalq əmək bölgüsünü dərinləşdirir.

Dünya bazarı geniş anlayışa malikdir. Onu ticarət-iqtisadi münasibətlərlə bir-biri ilə bağlı olan ayrı-ayrı ölkələrin milli bazarlarının məcmusu, dünya təsərrüfatının subyektləri tərəfindən maddi nemətlərin ümumi tələb və təklifinin qlobal sistemi, əməyin coğrafi bölgüsünün amilli və nəticəsi kimi səciyyələndirmək olar.

Dünya bazarının mürəkkəbliyi və çoxsəviyyəliliyi onda çoxlu müxtəlif miqyaslı subyektlərin, milli və transmilli şirkətlərin, ayrı-ayrı ölkələrin, qrupların təsir sferası və spesifikliyi ilə müəyyən olunmuşdur. Məlum olduğu kimi, bazar mexanizminin əsas elementləri qiymət, tələb və təklifdir. İctimai tələbat səviyyəsini əks etdirən tələb kəmiyyəti əhalinin alıcılıq qabiliyyəti ilə məhdudlaşır. Təklif ictimai istehlakın dinamikasını göstərir və satılmaq üçün bazara daxil olan əmtəələrin (*bazar fondlarının*) cəmindən ibarətdir. Bazarda qiymətin hərəkəti son nəticədə əmək məhsuldarlığının, ictimai istehsalın həcminin və proporsiyasının dəyişməsini, pul gəliri dinamikasını əks etdirir. Bununla belə, bazarın formalaşması ictimai əmək bölgüsü və istehsalçıların təsərrüfat xüsusiyyətlərinin inkişafı və dərinləşməsi ilə üzvi sürətdə bağlı tarixi prosesdir.

Ölkələrin ərazisində yerləşmiş istehsal güclərinin və istehsalın müxtəlif amillərinin sayəsində şirkətlər dünya bazarının subyektinə çevrilirlər. Dünya bazarında aparıcı rolu xaricdə istehsalı olan TMŞ-lər və ayrı-ayrı ölkələr oynayırlar. Əmtəə və xidmətləri ixrac edərək şirkətlər xaricdən elə əmtəə və xidmətlərin daxil olmasını təmin edirlər ki, onların həmin ölkələrdə istehsalı səmərəlidir. Başqa sözlə, onların idxalı ixracatdan əldə edilən valyuta vəsaitlərinin hesabına mümkün olur. Əgər əmtəə və xidmətlərin ixracından daxilolmalar idxalı maliyyələşdirmirsə (*tədiyə balansının kəsiri zamanı*), bu fərq xarici kapitalın ölkəyə axını ilə ödənilə bilər.

Dünya bazarının fəaliyyətinin başlıca mexanizmi qiymətlərin qarşılıqlı münasibətin-

dədir ki, bu zaman beynəlxalq qiymətlər daxili milli bazara nisbətdə daha sərbəstdirlər. Lakin dünya bazarı heç də mütləq sərbəst ola bilməz. Belə ki, onun subyektləri, ayrı-ayrı ölkələr beynəlxalq mübadiləyə ciddi məhdudiyyətlər qoyurlar və bu məhdudiyyətlər, əsasən, həmin ölkələrdəki davamlı iqtisadi sabitliklə diqtə olunur. Belə vəziyyət həmin ölkələrin hökümətlərinin, ayrı-ayrı siyasi qüvvələrin və müəyyən dairələrin maraqlarından da asılıdır. Elə buna görə də gömrük rüsumları, qeyri-tarif maneələri, xarici kapitalın məhdudlaşdırılması, ixracata subsidiyaların ayrılması və s. tətbiq edilir.

Dünya bazarının əsas tərkib hissələri mal və xidmətlər bazarının, işçi qüvvəsi bazarının, kapital bazarının, xüsusən də, böyük rol oynayan valyuta bazarının qarşılıqlı münasibətlərindən asılıdır. Bunlar arasında XX əsrin səksəninci illərində fəallaşan maliyyə bazarı daha cəlbedicidir.

Dünya bazarının coğrafi seqmentləşməsi, bir tərəfdən, dünya iqtisadiyyatının üç əsas mərkəzi - ABŞ, Aİ və Yaponiya, digər tərəfdən, Cənub və Şimalın qarşılıqlı münasibətləri ilə müəyyənlişdirilir. Heç şübhəsiz ki, dünya bazarı dünya iqtisadiyyatının əyalətlərinin və yarıməyalətlərinin qarşılıqlı münasibətlərini də əhatə edir. Real proqnozlara görə, yaxın gələcəkdə Şərqi Asiyanın da dünya iqtisadiyyatına təsir gücü artacaq və o, dünya bazarının mühüm hissəsinə çevriləcəkdir.

## 1.12. Qloballaşma və regionlaşma

Bir neçə onillik bundan öncə beynəlxalq iqtisadi münasibətlərin xüsusi fazası kimi təşəkkül tapan qloballaşma hadisəsi yalnız XX əsrin 90-cı illərindən ictimaiyyətin diqqətini cəlb etməyə başlamışdır.

Qoballaşma, kürəsəlləşmə (*latınca - globus - kürə, ingiliscə - globalization - qloballaşma*) beynəlmiləlləşmənin yüksək fazası olmaqla dünya təsərrüfatının, əmtəə və xidmətlərin, kapital və işçi qüvvəsinin, biliyin təcəssümündə vahid bazara çevrilməsi prosesidir. Qoballaşmaya birölçülü olmayan, özünün konkret formasını daim dəyişən təzadlı proses kimi də yanaşılır.

Qloballaşma istənilən ölkənin milli təsərrüfatına əhəmiyyətli təsir göstərir. Onun texnoloji əsasını müasir kommunikasiya vasitələrinin reallaşdırdığı çox böyük sürətə malik informasiya mübadiləsi təşkil edir. İnternet texnologiyaları dünyanın istənilən guşəsindəki informasiya, ticarət, birja əməliyyatlarını hamı üçün əlçatan edir. Yer kürəsinin hər hansı bir ölkəsinin bazarında baş verən dəyişikliklər digərləri tərəfindən dərhal təhlil olunur və qiymətləndirilir. Bu hal xüsusən fond birjaları, valyuta və əmtəə bazarları və həmçinin, elmi kəşflər, nou-xaular sferası üçün səciyyəvidir.

Qloballaşmanın mənfi təsirləri iki müxtəlif prosesin - qloballaşma əleyhinə hərəkatın və regionlaşmanın yaranmasına səbəb olmuşdur. Buna görə də qloballaşmanın ayrı-ayrı ölkələrin iqtisadi təhlükəsizliyinə qarşı olan meyilini azaltmaq məqsədi ilə milli mənafelərə, dövlət maraqlarına uyğun tədbirlər həyata keçirilir, daha mühafizəli inkişaf strategiyası işlənib hazırlanır.

Ümummilli lider Heydər Əliyev 2000-ci il 29 dekabrda "Yeni Əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti"ndə qeyd etmişdir ki, "Dünya inkişafının indiki mərhələsinin başlıca meyilləri mədəni inteqrasiya və qloballaşmadır. Əgər bəşəriyyət XX əsri elmi inkişafın nailiyyətlərinin yaratdığı xoş ümidlərlə qarşılamışdısa, qloballaşma prosesi çox vaxt heç də nikbinlik doğurmur. Bu mürəkkəb və birmənalı qiymətləndirilməyən prosesin perspektivləri hamımızı düşündürür. Qloballaşma dövlətlərin sabit inkişafının, bütövlüyünün və idarəetmə sistemlərinin stabilliyinin təmin olunmasına, iqtisadi münasibətlərdə ayrı-seçkiliyin aradan qaldırılmasına, xalqların rifah halının yüksəldilməsinə kömək etməlidir. Sözsüz ki, beynəlxalq hüquq prinsipləri və normalarının aliliyi, dəyişikliklərin təkamül xarakteri, qarşılıqlı etimad və ümumbəşəri dəyərlərə sədaqətlə yanaşı, hər bir ölkənin səciyyəvi milli cəhətlərinin də nəzərə alınması bu prosesin müəyyənedici istiqamətləri olmalıdır. Təbii ki, qloballaşmanın bir çox ölkələr üçün yaratdığı problemlər bizi də düşündürür".

Qloballaşma ilə yanaşı regionlaşma da ciddiliyi ilə özünü göstərir. Bir sıra ölkələr qlobollaşma meyilindən mühafizə olunmaq istiqamətində regional əməkdaşlığı və inteqrasiyanı gücləndirir. Təbii olaraq, buna ənənəvi regional bağlılıq da təsir göstərir. Məşhur yapon iqtisadçısı Keniti Omaye (1941) "Milli dövlətin sonu" əsərində göstərir ki, regionlar ayrı-ayrı dövlətlərə mənsub olsalar da, bir-birləri ilə güclü bağlantıları vardır.

Qloballaşma və regionlaşmaya bir-birini tamamlayan və eyni zamanda, biri digərini rədd edən proseslər kimi də baxılır. Buna görə də onlar arasında münasibətləri diskutiv predmetli hesab edirlər. Eyni zamanda, qloballaşma və regionlaşma proseslərinə birləşmə və siyasi motivləşmə kimi də baxılır.

Qloballaşmanın təsirindən doğan dünya iqtisadiyyatının ümumi modernləşməyə doğru irəliləyişləri milli təsərrüfatların müxtəlif tipli regional ittifaqlara doğru istiqamətlənməsini stimullaşdırır. Bu meyillərin gerçək yəqinliyini də qloballaşma prosesinin tam başa çatmaması baxımından dolğunluğu ilə son dərəcə düzgün qiymətləndirmək çətindir. Həqiqət isə belədir ki, dünyanın əsas aparıcı regional qrupları məhz son 30-40 ilin yaranışlarıdır.

Qloballaşma və regionlaşma proseslərinə yalnız iqtisadi aspektlərdən deyil, bütün maddi və mənəvi mədəniyyətlərin məcmusu baxımından yanaşıldıqda görərik ki, qloballaşma, başlıca olaraq, innovativ yaranışlarda əks olunan mərkəzəqaçma potensiallığı ilə güc tapır. Regionlaşma isə müxtəlif səviyyələrdə miqyaslı inteqrasiya proseslərində ehtiva olunur. Regionlaşma (*regionalization*) vilayətlərin və ya dövlətlərin iqtisadi, siyasi və digər əlaqələrinin bir region təsisatı və ya dövlətlərin regional birliyinin yaradılması üzərində inkişafı və möhkəmləndirilməsi prosesi olaraq çıxış edir. Regionlaşma konkret təzahürdə yeni institusional formaların yaranışı və inkişafı əsasında hakimiyyət səlahiyyətləri və funksiyalarının milli səviyyədən regional səviyyə üzrə yenidən bölgüsünü ehtiva edir.

Çoxsaylı fərq spektrinə baxmayaraq regionlaşma və qloballaşma arasında oxşarlıq-

ları da ayırmaq mümkündür. Regionlaşma kimi, qloballaşma da mahiyyət etibarilə beynəlxalq aspektdə müxtəlif ərazi və dövlətlərin iqtisadi birliyinə meyillidir. Bu meyil isə, təbii olaraq obyektivdir, tarixi, sosial və iqtisadi cəhətdən əsaslandırılmışdır. Həm regionlaşma, həm də qloballaşma üçün yaxınlaşmanın müəyyənedici amili, mühərriki ticarət və iqtisadiyyatdır. Burada ticarət ekspansiyası qəti, zəruri tarixi amildir.

Regionlaşmanın qloballaşmadan fərqləri aşağıdakılardan ibarətdir:

❒ Regionlaşma, adətən, hüquqi əsaslara, beynəlxalq təsisat müqavilələrinə istinad edir. Prinsip etibarilə, müqavilə formasının özü tərəflərin bərabərliyini nəzərdə tutur. Regional birliklər idarəetmənin kollegiallığı və demokratikliyi üzərində qurulur. Hətta ən kiçik iştirakçı-dövlətlər beynəlmiləl quruculuq çərçivəsində kollektiv qərarların qəbul edilməsinə xeyli təsir göstərə bilər. Qloballaşmanı idarə olunan proses kimi nəzərdən keçirsək, o, nə hüquqi, nə də siyasi vasitələrlə idarə olunur. O, güc mərkəzləri tərəfindən diktə edilir. Bu gün qloballaşma və panamerikanizm ayrılmazdır.

❒ Adətən, regional yaxınlaşma və birləşmə ərazi, mədəniyyət, sosial və iqtisadi xüsusiyyətlərinə görə oxşar ölkələr arasında baş verir. Bu, xeyli dərəcədə uğurlu birləşməyə kömək edir. Qloballaşmanın orbitinə isə bütün parametrləri üzrə bir-birinə zidd ölkə və sosiumlar da daxildir. Onların arasında yeganə obyektiv əlaqə və maraq yalnız ticarətlə məhdudlaşır. Bununla belə, qloballaşmanın carçısı və lideri olan ABŞ Şimali Amerikada Kanada və Meksikanın iştirakı ilə özünün regional birliyini - NAFTA-nı yaradaraq, regionlaşmanın konyunktur faydalarından da imtina etmir.

❒ Regionlaşma polisentrikdir - iştirakçıların birləşmiş maraqları, adətən, az və ya çox dərəcədə bərabərqiymətlidir. Bütün tərəfdaşlar birləşmədən öz qazanc payını alır, hətta daha az inkişaf etmiş ərazilər də ümumi regional bazarın azadlıqlarından nisbətən çox fayda götürürlər. Qlobalizm monosentrikdir, həm də öz orbitinə yalnız inkişafına görə fərqlənən dövlətləri deyil, kəskin, bir-birinə tamamilə zidd, ən varlıdan tutmuş ən yoxsula qədər hər bir dövləti daxil edir. Qlobal ticarət ekspansiyası rəqabətin bərabər imkanlarına əsaslanaraq, güclü tərəfdaşların daha zəifləri bayağı istismar etməsinə gətirib çıxarır.

❒ Regionalizm, mahiyyətcə, ekstravert (*daxili mühitli*) və introvert (*xarici mühitli*) olaraq himayəçi - proteksiondur. Daxildə regional güzəşt və azadlıqlar yalnız iştirakçı ölkələr üçün nəzərdə tutulmuşdur. Autsayder ölkələr, faktiki olaraq, az və çox dərəcədə ayrı-seçkiliyə məruz qalır. Qlobalizm prinsipial surətdə qeyri-məhdud ekstravert liberallaşmışdır. Azad rəqabətin faydaları, rəsmi olaraq, hamıya, faktiki olaraq - güclülərə şamil edilir.

Qloballaşma qaçılmaz, labüd, obyektiv bir proses olsa da, bu gün məqsədyönlü sərbəst inkişaf vektoruna malik deyildir. Kortəbii, xaotik dinamikliyi ilə fərqlənən qloballaşmanın mərkəzləşmiş qaydada tənzimlənməsi, hələ ki, dünya ictimaiyyəti tərəfindən tələb olunmamışdır. Lakin bu nisbi xaotikliyi konsensusa gətirən lokal və

regional indikatorlar mövcuddur. Məhz müvafiq lokal və regional indikatorlar bu planetar hərəkatın hazırki məqamda qapalı tənzimləyiciləri funksiyasını yerinə yetirərək qloballaşdırma proseslərini stimullaşdırır, qlobal inteqrasiyaya nizami ahəng və düzüm gətirirlər.

## 1.13. Azərbaycanın dünya təsərrüfatında yeri

Gənc müstəqil dövlət olaraq Azərbaycanın dünya iqtisadiyyatında yeri möhkəmlənməkdə, rolu artmaqdadır. Azərbaycan rəsmən Azərbaycan Respublikası adlanaraq Asiya və Avropanın qovuşduğu Cənubi Qafqaz regionunda, Xəzər dənizi hövzəsində yerləşən dövlətdir. Ölkə $38^0$ və $42^0$ şimal en dairələri arasında və $44^0$ və $52^0$ şərq uzunluğunda coğrafi koordinatlarda yerləşərək şimaldan Rusiya (*sərhədin ümumi uzunluğu 390 km*) və Gürcüstan (*sərhədin ümumi uzunluğu 480 km*), qərbdən Ermənistan (*sərhədin ümumi uzunluğu 1007 km*) və Türkiyə (*sərhədin ümumi uzunluğu 15 km*), cənubdan isə İran (*sərhədin ümumi uzunluğu 765 km*) ilə həmsərhəddir. Azərbaycanın, Rusiya, İran da daxil olmaqla, Qazaxıstan və Türkmənistanla da Xəzər dəniz vasitəsi ilə sərhədləri vardır. Azərbaycanın anklavı olan Naxçıvan Muxtar Respublikası Ermənistanla şimal-şərqdə, İranla qərbdə və Türkiyə ilə şimal-qərbdə həmsərhəddir. Azərbaycanın sərhədlərinin ümumi uzunluğu 3482 kilometrdir. Bunun 825 kilometri su sərhəddidir. Sahil xəttinin uzunluğu isə 713 kilometrdir. Azərbaycan ərazisinin bir hissəsi Ermənistan Respublikası tərəfindən 1992-93-cü illərdə işğal edilmişdir, bu da ölkə ərazisinin 20%-ni təşkil edir.





Azərbaycan Respublikasının ərazisi - 86,6 min $km^2$ əhalisi - 10,0 milyon nəfərdir. 1 $km^2$-ə düşən əhalinin sıxlığı, 115 nəfərə bərabərdir. Əhalinin 54%-i kəndlərdə yaşayır, 60%-ə yaxını 30 yaş altındadır.




Azərbaycan Respublikasının paytaxtı Bakı şəhəridir. Bakı şəhəri 40° paralel üzərində, Xəzər dənizinin qərb sahilində yerləşir. Buradan şimal qütbünə qədər olan məsafə 5550 km, ekvatora qədər olan məsafə isə 4440 kilometrdir.

Müasir Azərbaycan dövləti 28 may 1918-ci ildə yaradılmış, müsəlman aləmində ilk parlamentli respublika

olan Azərbaycan Xalq Cümhuriyyətinin - Azərbaycan Demokratik Respublikasının (*Azerbaijan Democratic Republic*) varisidir.

1920-ci ildə Sovet Rusiyası tərəfindən işğal olunaraq, 1922-ci ilin 30 dekabrında keçmiş Rusiya imperiyasının əraziləri əhatəsindəki coğrafiyada yaradılan SSRİ dövlətinin tərkibinə müttəfiq respublika kimi daxil edilmişdir. 30 avqust 1991-ci ildə Azərbaycan Respublikasının Ali Soveti "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında" deklarasiya, 18 oktyabr 1991-ci ildə isə "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı qəbul etmişdir. "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktının qəbul edildiyi tarix müasir Azərbaycan dövlətinin müstəqilliyinin bərpası günü kimi qeyd olunur.

Azərbaycan dövləti, Konstitusiyaya görə, demokratik, hüquqi, dünyəvi, unitar respublikadır. Konstitusiya ilə müəyyən edilmiş bu unitarlıq spesifikliyə malikdir. Belə ki, Azərbaycan Respublikasının tərkibində Naxçıvan Muxtar Respublikası dövlət hakimiyyəti statusuna malikdir və Konstitusiyaya görə, Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində muxtar dövlətdir.

Ölkədə dövlət hakimiyyəti - hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkil edilmişdir: qanunvericilik hakimiyyətini Milli Məclis həyata keçirir, icra hakimiyyəti Prezidentə mənsubdur, məhkəmə hakimiyyətini həyata keçirən orqan isə Azərbaycan Respublikasının məhkəmələridir. Ölkənin siyasi sistemində yerli özünüidarə orqanları - bələdiyyələr mühüm yer tutur.



Azərbaycan dövləti, idarəetmə formasına görə, prezidentli respublikadır. Azərbaycan Respublikasının Prezidenti ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə 7 il müddətinə seçilir. 2003-cü ildən Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevdir (*1961*).

Azərbaycan Respublikasının dövlət rəmzləri Azərbaycan Respublikasının Dövlət Bayrağı, Azərbaycan Respublikasının Dövlət Gerbi və Azərbaycan Respublikasının Dövlət Himnidir.

Azərbaycan Respublikasının Dövlət Bayrağı bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir. Qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilmişdir. Bayrağın eninin uzunluğuna nisbəti 1:2-dir.

Azərbaycan Respublikasının valyutası - milli pul vahidi manatdır (*1992-ci il 15 avqust*). 1 manat 100 qəpiyə bərabərdir.

AZN-nin işarəsi: ₼

Azərbaycanın milli domeni - az, beynəlxalq telefon kodu: +994-dür.

Müasir Azərbaycan qədim tarix və mədəniyyət irsinə malik dünyəvi və unitar dövlət kimi, əsasən, türksoylu etnik azərbaycanlı çoxluğuna sahib ölkədir. Burada müxtəlif dini konfessiyalar fəaliyyət göstərir. Ən geniş yayılmış din islamdır. Azərbaycanlıların 96%-i müsəlmandır.

Azərbaycan Respublikası 2 mart 1992-ci ildən BMT-nin üzvüdür (*2012-2013-cü illərdə BMT Təhlükəsizlik Şurasının 10 qeyri-daimi üzvündən biri olmuşdur*).

Azərbaycan dünyadakı yeddi müstəqil türk dövlətindən biridir. Respublikanın 160 ölkə ilə diplomatik əlaqəsi vardır, 40-a yaxın beynəlxalq təşkilatın üzvüdür. Azərbaycan həmçinin, Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı - QİƏT, Demokratiya və İqtisadi İnkişaf Uğrunda Təşkilat - GUAM-ın və Kimyəvi Silahların Qadağası Təşkilatının təsisçilərindən biridir.

Azərbaycan Respublikasının ərazisi beş coğrafi vilayətə bölünür: onlardan dördü (*Böyük Qafqaz, Kiçik Qafqaz, Naxçıvan Muxtar Respublikası, Lənkəran*) dağlıq, biri isə (*Kür-Araz və ya Mərkəzi Aran*) ovalıqdır.

Azərbaycan paytaxt Bakıdan kənarda, ölkə 65 inzibati vahidə (*o cümlədən 56 rayon və 9 şəhər*) və Naxçıvan Muxtar Respublikasına (*7 rayon və paytaxt Naxçıvanla birlikdə 5 şəhər*) bölünür.

Azərbaycanın inzibati quruluşu və 2018-ci il üzrə inzibati ərazi vahidlərinin sayı aşağıdakı kimidir:

- ❒ Muxtar Respublika - 1;
- ❒ Rayonlar - 63 (*Naxçıvan MR-in 7 rayonu daxil*);
- ❒ Şəhərlər - 78 (*Bakı şəhəri 1 + rayon mərkəzləri 56 + rayonlarda əlavə şəhərlər 7 + ayrıca şəhərlər 9 + Naxçıvan 5 şəhər*);
- ❒ Şəhər rayonları - 14 (*Bakı 12 + Gəncə 2*);
- ❒ Qəsəbələr - 261;
- ❒ Kənd ərazi dairələri - 1726;
- ❒ Kənd yaşayış məntəqələri - 4248.

Bundan başqa Azərbaycanın Ermənistan ərazisində Kərki, Barxudarlı, Sofulu, Yuxarı Əskipara yaşayış məntəqələri kimi eksklavları var.

Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Azərbaycan dili İran İslam Respublikasında Cənubi Azərbaycanda yaşayan 35-40 milyon azərbaycanlının da ana dilidir. Rusiyada, Gürcüstanda, Türkiyədə, ABŞ-da, Avropada, Orta Asiya ölkələrində yüz minlərlə azərbaycanlı yaşayır. Ümumilikdə, yer kürəsində hazırda Azərbaycan dilində danışan 50 milyondan çox insan vardır.

Qədim Azərbaycan torpaqları İran və Rusiya arasındakı 1813-cü ildə Gülüstan, 1828-ci ildə Türkmənçay müqavilələri ilə, habelə Rusiya və SSRİ imperiyaları dövründə bölünmələrə, anneksiyalara məruz qalmışdır. Ermənistanın Azərbaycana 1988-ci ildən başlanan təcavüzü nəticəsində Dağlıq Qarabağ və ona bitişik 7 rayon




(*ümumilikdə 11 rayonu tamamilə, yaxud qismən işğal altında) hazırda işğal altındadır. Bu işğqal* nəticəsində 24 mindən çox adam qətlə yetirilmiş, 100 min nəfər yaralanmış və ya şikəst olmuş, 1 milyona yaxın azərbaycanlı əhalisi, onlardan təxminən 50 min nəfəri Dağlıq Qarabağdan öz daimi yaşayış yerlərini tərk etmişdir. 250 min azərbaycanlı isə etnik təmizlənməyə məruz qalaraq Ermənistandan çıxarılmışdır. Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi dövründə ən müdhiş hadisələrdən biri Xocalı şəhərində baş vermiş soyqırım olmuşdur. Xocalı faciəsi XX əsrin ən dəhşətli və qəddarcasına törədilmiş Xatın, Xirosima faciələri ilə eyni səviyyədə durur.

Hərbi təcavüz zamanı ələ keçirilmiş Azərbaycan ərazilərində yüzlər və minlərlə təhsil, səhiyyə, mədəniyyət müəssisəsi, kitabxanalar, tarixi abidələr və muzeylər dağıdılmışdır. Ermənistan Respublikası "Hərbi münaqişələr zamanı mədəni sərvətlərin qorunması haqqında" Haaqa Konvensiyasının və "Mədəni sərvətlərin qeyri-qanuni dövriyyəsi haqqında" Paris Konvensiyasının müddəalarını kobudcasına pozaraq Azərbaycanın mədəni sərvətlərini talamaqdadır. Təkcə muzeylərdən 40 mindən çox qiymətli əşya və nadir eksponat oğurlanmışdır. BMT-nin Təhlükəsizlik Şurası Ermənistanın işğalçı qüvvələrinin Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul etmişdir. Avropa Parlamenti və Avropa Şurası da bu cür qətnamələr qəbul etmişdir. Azərbaycan Respublikasının ərazi bütövlüyünün tanınmasına və işğal olunmuş Azərbaycan ərazilərinin qeyd-şərtsiz azad edilməsi tələblərinə baxmayaraq, Ermənistan Respublikası işğalçılıq siyasətini davam etdirir.

Azərbaycan ərazisinin 12,0%-ni meşələr, 4,5%-ni su hövzələri, 55,1%-ni becərilən torpaqlar (*29,2%-i otlaq və biçənəklər*), 28,4%-ni sair torpaqlar təşkil edir.

Ölkənin ən yüksək nöqtəsi Bazardüzü zirvəsidir (*4466 metr*), ən aşağı nöqtəsi Neftçala rayonu ərazisindədir (*28 metr*). Orta yüksəklik 657 metrdir. Əsas böyük adalar Pirallahı (*14,4 km$^2$*), Çilov (*11,5 km$^2$*), Xərə-Zirə (*3,5 km$^2$*), Böyük-Zirədir (*1,4 km$^2$*). Böyük göllər Sarısu (*67,0 km$^2$*), Ağgöl (*56,2 km$^2$*), Ağzıbirçala (*37,0 km$^2$*), əsas çaylar isə Kür (*1515 kilometr*), Araz (*1072 kilometr*), Qanıx (*413 kilometr*), Qabırrı (*389 kilometr*), Samurdur *(216 kilometr*). Azərbaycan iqlimi dünyadaki 11 iqlim qurşağından 9-na sahibdir. İllik orta temperatur 10° C-dir.

Azərbaycan iqtisadiyyatı sektorial bölgüdə sənaye, tikinti, kənd təssərrüfatı, ticarət, nəqliyyat və xidmət sahələrindən ibarətdir. 2017-ci ilin yekunlarına görə ölkə iqtisadiyyatında bu sahələrin ÜDM üzrə pay tutumu aşağıdakı kimi olmuşdur:

- Sənaye məhsulu istehsalı - 40,0%;
- kənd və meşə təsərrüfatı, balıqçılıq - 5,6%;
- tikinti - 9,5%;
- ticarət və pullu xidmət - 12,8%;
- nəqliyyat və anbar təssərrüfatı - 6,8%;
- informasiya və rabitə - 1,6%;
- digər sahələr - 16,4%;
- məhsula və idxala xalis vergilər - 7,3%.

Azərbaycan regionun lider ölkəsidir və Cənubi Qafqaz respublikalarının ÜDM-nin ¾ hissəsindən çoxuna sahibdir. Azərbaycan Respublikasının iqtisadi potensialını əks etdirən - ÜDM-in nominal həcmi 70,1 milyard manat (*nominal - 40,8 milyard ABŞ dolları, paritet istehlak qabiliyyətli - 107,5 milyard ABŞ dolları*), adambaşına düşən nominal ÜDM isə 7205 manat (*nominal - 4186 ABŞ dolları, paritet istehlak qabiliyyətli - 15 192 ABŞ dolları*) təkil edir. Orta illik inflyasiya səviyyəsi 4,9%, yoxsulluq səviyyəsi 5,4%, orta aylıq əmək haqqı 525 manatdır (*308,8 ABŞ dolları*). Ölkənin valyuta ehtiyatları 45 milyard ABŞ dollarına, xarici borcu isə ÜDM-in 20%-nə bərabərdir (*2017*).

2018-ci il üzrə Azərbaycan Respublikasının Dövlət Büdcəsinin gəlirləri 22,11 milyard manat (*təxminən 13,0 milyard ABŞ dolları*), xərcləri - 23,06 milyard manat (*təxminən 13,5 milyard ABŞ dolları*) təşkil edir.

Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra müxtəlif mülkiyyət formaları əsasında iqtisadi sistemin yaradılması, bazar iqtisadiyyatı prinsiplərinə əsaslanan rəqabət-qabiliyyətli milli iqtisadiyyatın qurulması və dünya iqtisadiyyatına səmərəli inteqrasiyası respublikada aparılan iqtisadi siyasətin başlıca istiqamətlərini təşkil etmişdir.



Azərbaycan iqtisadiyyatında onun milli sərvətləri olan karbohidrogen resursları mühüm yer tutur. Azərbaycan dünya tarixində dənizdə neft hasil edən ilk ölkədir. Dövlət müstəqilliyi bərpa edildikdən sonra ölkədə ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə milli neft strategiyası formalaşdırılmışdır. Bu strategiya inkişaf etmiş dünya ölkələrinin aparıcı neft şirkətlərinin Xəzərdəki “Azəri-Günəşli” və “Çıraq” yataqlarının işlənməsi üzrə Bakıda

1994-cü ilin 20 sentyabrda imzalanan "Əsrin müqaviləsi"ndən başlanğıc almışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin əzmkar fəaliyyəti ilə aparılan geniş miqyaslı islahatlar nəticəsində isə milli neft strategiyasının multiplikativ effektləri daha geniş möhtəşəmlik əldə etmiş, iqtisadi artımda mühüm rolu və əhəmiyyəti olan qeyri-neft sektoru formalaşdırılmış, ölkə neft-qaz sərvətlərinin insan kapitalına çevrilməsi mərhələsinə keçid etmişdir.

Neft-qaz sektorunda mövcud vəziyyətin respublika iqtisadiyyatına, onun tərəqqisinə təsiri miqyaslıdır. Gerçəklik ondan ibarətdir ki, neft-qaz sənayesi və onun qaynaqlandırdığı yancaq-enerji kompleksi iqtisadiyyatın bütün strukturunda hərəkətverici qüvvəyə malikdir. Neft-qaz sektoru milli və iqtisadi təhlükəsizliyin əsas qaynaq komponenti olmaqla ölkə büdcəsinin mühüm hissəsinin formalaşmasında iştirak edir. Müasir milli iqtisadiyyatın barometri və əsas indikator göstəricisi bu gün yetərli dərəcədə bu sahədəki inkişaf templəri ilə bağlıdır. Buradakı inkişaf meyilləri, sahənin ölkə iqtisadiyyatındakı müvazinətinin qorunması, heç şübhəsiz ki, qeyri-neft sektorunun da inkişafına güclü təkan verməkdədir. Azərbaycanın bol neft- qaz sərvətləri onun bir sıra ölkələrin enerji təhlükəsizliyinin təminatında əhəmiyyətini artırır. Bu gün bəzi Avropa ölkələrində Azərbaycan neftinin həcmi enerji balansının təxminən 40%-ni təşkil edir. Azərbaycan həm də Avropada etibarlı qaz təminatçısına çevrilmişdir.

Kənd təsərrüfatı Azərbaycanda bütün tarix boyu iqtisadiyyatın əsas sektorlarından olmuşdur. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra kənd təsərrüfatı böyük inkişaf yolu keçmişdir. Burada miqyaslı torpaq islahatı həyata keçirilmiş və ilk dəfə olaraq Azərbaycan kəndlisi özü torpaq sahibi olaraq fermerə, sahibkara çevrilmişdir. Ümummilli lider Heydər Əliyevin müəllifi olduğu torpaq islahatları Azərbaycana böyük uğurlar gətirmişdir. Prezident İlham Əliyev bu islahatları uğurla davam etdirərək ölkədə aqrar sahənin dinamik inkişafına nail olmuş, ərzaq təhlükəsizliyi problemi həll edilmişdir.

Azərbaycanda tikinti sektoru da uğurla inkişaf etməkdədir. Hazırda bu sektorda inkişaf meyilləri daha geniş sürət alır. Bu sektorun ÜDM-də payı hər il artır. Böyük tikinti-quruculuq işləri paytaxt Bakı ilə yanaşı ölkənin bütün regionlarında aparalır. Ölkədə nəqliyyat sektoru da böyük inkişaf templəri ilə irəliləyir. Özünün geosyasi mövqeyinə görə Azərbaycan tranzit məkanda yerləşir. Əlverişli coğrafi vəziyyəti ona həm özünün sahib olduğu zəngin karbohidrogen resurslarının və həm də qonşu Asiya ölkələri neftinin, neft-qaz məhsullarının Avropa bazarlarına daşınmasında çoxvektorlu logistik imkanlar yaradır. Azərbaycandan keçən TRACECA dəhlizi Avropa ilə Asiyanı birləşdirən ən qısa marşrut hesab edilir. Hazırda ölkənin enerji resurslarını müxtəlif istiqamətlərə nəql edən 7 neft və qaz kəməri mövcuddur.

Azərbaycanda nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi və nəqliyyat müstəqilliyinin genişləndirilməsi istiqamətində davamlı və məqsədyönlü iş aparılır. Ölkənin nəqliyyat sisteminin inkişafına çoxmilyardlı sərmayələr yatırılır, respublikada ən müasir beynəlxalq standartlara uyğun avtomobil yollarının inşası və modernləş-

dirilməsi həyata keçirilir. Dəniz donanmasının arsenalı yeniləşdirilir, milli gəmi istehsalı reallaşır, logistik infrastruktur təkmilləşir. Bununla yanaşı, Bakı şəhərinin Ələt qəsəbəsində Xəzərdə ən böyük beynəlxalq dəniz ticarət limanı kompleksi fəaliyyət göstərir və onun ərazisinin AİZ-ə çevrilməsi istiqamətində davamlı işlər aparılır. Hava gəmiləri parkı ən müasir təyyarələrlə təchiz edilir, yeni beynəlxalq aviareyslər açılır, ölkədə 10 aeroport, o cümlədən 6 beynəlxalq hava limanı fəaliyyət göstərir, Ölkənin dəmir yolu nəqliyyatı sistemi dövlət proqramları əsasında yenidən qurulur. Özünün tranzit imkanlarından çıxış edərək Azərbaycan mühüm regional nəqliyyat infrastrukturu layihələrinin təşəbbüsçüsü və stimullşadırıcısı kimi bu istiqamətdəki fəaliyyətini genişləndirir. Bunların içərisində müəllifi olduğu qlobal mahiyyətli nəhəng nəqliyyat şəbəkəsi - Azərbaycanla Türkiyəni, bütövlükdə isə Avropa ilə Asiyanı birləşdirən, müasir dünyanın 100 layihəsi siyahısına daxil olmuş Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin istismara verilməsi xüsusi strateji əhəmiyyət daşıyır. Azərbaycan artıq Xəzər dənizinin digər sahilində hasil olunan neftin daşınmasını təmin edəcək tranzit ölkəyə çevrilimişdir. Bundan başqa, o, öz tərəfdaşları ilə daha geniş formatda, enerji sektorunda dünyanın ən nəhəng "Cənub Qaz Dəhlizi" meqa layihəsini də reallaşdırmışdır.

Azərbaycanda yüksək texnologiyalar sferasında, xüsusən də, informasiya-kommunikasiya texnologiyaları sahəsində sürətli inkişaf müşahidə olunur. Hazırda ölkədə informasiya cəmiyyətinin bərqərar olması və bunun tərkib hissəsi kimi İKT-nin geniş tətbiq edilməsi istiqamətində sistemli fəaliyyət aparılır. Bünun üçün ölkədə artıq İKT sahəsində mühüm və əhəmiyyətli bir infrastruktur formalaşdırılmış, informasiya cəmiyyətinə keçid yeni fazaya qədəm qoymuşdur. Azərbaycan özünün birinci telekommunikasiya peyki "Azərspace-1"-in 2013-cü ildə orbitə buraxılışı ilə kosmik ölkələr sırasına daxil olmuşdur. Ölkdə peyk xidmətinin genişləndirilməsində Yer səthinin məsafədən müşahidə peyki - "Azersky"in orbitə çıxarılması isə yeni bir hadisəyə çevrilmişdir.

Yüksək texnologiyalarla bağlı strateji hədəflərə nail olmaq üçün ölkədə nüvə texnologiyalarından dinc məqsədlərlə istifadə üçün "Milli Nüvə Tədqiqatları Mərkəzi" QSC yaradılmış, Bakıda və Mingəçevirdə yüksək texnologiyalar parkları fəaliyyətə başlamışdır.

Azərbaycan getdikcə dünyada daha mühüm rol oynamaqdadır. Ölkə beynəlxalq aləmdə böyük nüfuz və çox güclü dəstək qazanmışdır. Azərbaycan müstəqillik qazandıqdan 20 il sonra - 2012-2013-cü illərdə BMT Təhlükəsizlik Şurasının 10 qeyri-daimi üzvündən bir olmuşdur. Hazırda kifayət dərəcədə maliyyə imkanları olan dövlətə çevrilmiş və donor ölkələr sırasına qatılmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkənin dünya iqtisadiyyatına genişlənən inteqrasiyası ilə bağlı demişdir: "Azərbaycan dünya iqtisadiyyatına sürətlə inteqrasiya edir, beynəlxalq iqtisadi əlaqələrini genişləndirir, qlobal enerji, nəqliyyat, infrastruktur layihələrində fəal iştirak edir və bunun nəticəsində regionun şübhəsiz lider dövlətinə çevrilir".

Ölkədə uğurlu xarici ticarət siyasəti həyata keçirilir. Bu siyasət ümummilli lider

Heydər Əliyevin "Bizim strateji vəzifəmiz Azərbaycanın iqtisadiyyatını dünya təsərrüfat əlaqələri sisteminə fəal surətdə inteqrasiya etmək, bütün dövlətlərlə qarşılıqlı faydalı olan iqtisadi münasibətlər qurmaqdır" fikrindən irəli gəlir. Buna görə də ölkədə aparılan xarici ticarət siyasətinin məqsədini Azərbaycanın dünya ölkələri ilə hərtərəfli iqtisadi əməkdaşlığının yaradılması və dünya iqtisadiyyatına səmərəli inteqrasiyası təşkil edir. Bu məqsəddən irəli gələrək ölkənin xarici ticarət siyasətinin başlıca vəzifələri kimi aşağıdakılar çıxış edir:

❖ ölkənin dünya əmtəə bazarında mövqeyinin möhkəmləndirilməsi, hazır məhsul və xidmətlərin ixracının genişləndirilməsi, yüksək texnoloji və elmtutumlu məhsulların ixracının dəstəklənməsi, neft və neft məhsullarının ixracının təkmilləşdirilməsi;
❖ idxalı əvəz edən yerli istehsalın inkişafı üçün əlverişli şəraitin yaradılması, idxalın əmtəə strukturunun təkmilləşdirilməsi, milli istehsalın genişləndirilməsi və rəqabət qabiliyyətinin yüksəldilməsi;
❖ səmərəli gömrük-tarif siyasətinin həyata keçirilməsi, malların idxalı və ixracı, valyuta gəlirlərinin və xərclərinin optimal nisbətinin təmin edilməsi.

Azərbaycan Respublikasının rezidentləri orta hesabla hər il dünyanın 150-dən çox ölkəsinin hüquqi və fiziki şəxsləri ilə ticarət əməliyyatları həyata keçirir, 100-dən çox ölkəyə əmtəə ixrac edir. 2017-ci il üzrə respublikanın ticarət dövriyyəsinin 54,0%-i Aİ ölkələri, 7,6%-i MDB-nin üzv dövlətləri, 38,4%-i isə dünyanın digər ölkələrinin payına düşmüşdür. Bu müddət ərzində xarici ticarət dövriyyəsinin həcmi, statistik məlumatlara əsasən, 22,6 milyard ABŞ dolları təşkil etmiş (*o cümlədən ixracın həcmi 13,8 milyard ABŞ dolları, idxalın həcmi 8,8 milyard ABŞ dolları*) və nəticədə 0,5 milyard ABŞ dolları həcmində müsbət saldo yaranmışdır.

Azərbaycanın xarici iqtisadi münasibətlərinin əsas xüsusiyyəti iqtisadi yönümlü beynəlxalq təşkilatlara inteqrasiya olunmaqdır. Hazırda Azərbaycanın əməkdaşlıq etdiyi əsas beynəlxalq iqtisadi təşkilatlar aşağıdakılardır:

❋ İslam Əməkdaşlıq Təşkilatı - 8 dekabr 1991-ci il;
❋ İqtisadi Əməkdaşlıq Təşkilatı - fevral 1992-ci il;
❋ Beynəlxalq Valyuta Fondu, Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı - 1992-ci il;
❋ Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı -1993-cü il;
❋ Müstəqil Dövlətlər Birliyi - 24 sentyabr 1993-cü il;
❋ Dünya Ticarət Təşkilatı (*müşahidəçi statusunda*) - 1993-cü il;
❋ Demokratiya və İqtisadi İnkişaf Uğrunda Təşkilat - 10 oktyabr 1997-ci il;
❋ Avropa Şurası - 25 yanvar 2001-ci il.

Azərbaycan Respublikasının ölkələrarası iqtisadi əlaqələr balansında məhsular çeşidi müxtəlifdir. Buraya statistik qruplaşma təsnifatı silsiləsində - mineral məhsullar (*neft və neft məhsulları, təbii qaz*), müxtəlif sənaye malları (*kimya, metallurgiya*), maşın və mexanizmlər, qiymətli metallar və onlardan hazırlanmış məmulatlar, hazır yeyinti

məhsulları (*alkoqollu və alkoqolsuz içkilər, sirkə, tütün*), heyvan və ya bitki mənşəli piylər və yağlar, balıq məhsulları, gön-dəri xammalı, xəz, toxuculuq materialları və məmulatları, incəsənət əsərləri və antikvariat daxildir. İxrac potensialını səciyyələndirən məhsullar içərisində elələri də vardır ki, təbii olaraq, onların analoqları - əksərən yüngül və yeyinti sənayesi malları, maşın və avadanlıqlar və yüksək texnoloji istehsal məhsulları milli bazarda məhsul çeşidi və keyfiyyətini artırmaq, istehlakçı tələblərini daha dolğun ödəmək şərtliliyi ilə həm də idxal edilir.

**Əsas anlayışlar:**

**1. İstehsal** - resursların hazır məhsula çevrilməsi, insan cəmiyyətinin mövcudluğu və inkişafı üçün zəruri həyati rifah məhsul və materiallarının yaradılması prosesidir.

**2. İstehlak** - tələbatı ödəmək prosesində ictimai məhsuldan istifadə, təkrar istehsal prosesinin yekun mərhələsidir.

**3. İnteqrasiya** - iqtisadi artım templərinin davamlılığı sayəsində əldə olunan resusurslardan maksimal dərəcədə effektli istifadəni təmin edən ölkələrin təsərrüfatlarının obyektiv birləşməsi prosesidir.

**4. Beynəlmiləlləşmə** - beynəlxalq əmək bölgüsü, istehsal, elmi-texniki ixtisaslaşma və kooperasiya əsasında dərinləşərək milli təsərrüfatların iqtisadi əlaqələrinin inkişaf etməsi prosesidir.

**5. Dünya iqtisadiyyatı** - dünya ölkələri arasında qarşılıqlı əlaqələr sistemi və həmin əlaqələrin müxtəlif növlərini özündə birləşdirən milli təsərrüfatlar məcmusudur.

**6. İqtisadi nəzəriyyə** - resursların məhdudluğu şəraitində insanların tələbatının maksimum ödənilməsinin seçim problemini öyrənən ictimai elmdir.

**7. Dünya iqtisadiyyatının predmetini** milli iqtisadiyyatların qarşılıqlı əlaqəliyinin iqtisadi qanunauyğunluqlarının öyrənilməsi təşkil edir.

**8. Dünya iqtisadiyyatının tədqiqat obyektini** beynəlxalq əmək bölgüsündə iştirak edərək bir-biri ilə qarşılıqlı iqtisadi əlaqələrdə dövlətlər birliyində ehtiva olunan ümümdünya təsərrüfatı təşkil edir.

**9. Dünya iqtisadiyyatının vəzifəsini** dünya təsərrüfatının bütövlüyünün mürəkkəbliyi və zidiyyətliyi baxımdan öyrənilməsi təşkil edir.

**10. Dünya iqtisadiyyatının əsas funksiyaları** - idrak, proqnoztik, praqmatik və normativ.

**11. Sahibkar** - öz fəaliyyətini ticarət, istehsal və xidmət yaratma forması ilə mənfəətin əldə edilməsinə yönəldən şəxşdir.

**12. Sahibkarlıq** - məhsul və xidmətlərin istehsalı və ya onların satışı əsasında sistematik mənəfəət əldə edilməsinə yönəlmiş iqtisadi fəaliyyətdir.

**13. İqtisadiyyat** - öz yaşayışını təmin etmək, zəruri tələbatlarını ödəmək üçün insanlar tərəfindən istifadə olunan vasitə, obyekt və proseslərin məcmusu, təkrar istehsalın istehsal, bölgü, mübadilə, istehlak mərhələlərini özündə üzvi surətdə birləşdirən bir sistem və həm də təsərrüfat və onun insanlar tərəfindən aparılması, təsərrüfat proseslərinin qanunauyğunluqları, insanların əmtəə istehsalı və mübadiləsi prosesindəki münasibətləri haqqında elmdir.

**14. Mikroiqtisadiyyat** - iqtisad elminin bir bölməsi olaraq iqtisadiyyatın müəssisə, şirkət səviyyəsində təşkili və idarə edilməsini öyrənir.

**15. Makroiqtisadiyyat** - iqtisad elminin bir bölməsi olaraq bütövlükdə ölkə iqtisadiyyatının vəziyyətini öyrənir.

**16. Milli iqtisadiyyat** - hər hansı bir ölkənin və konkret dövlətin təsərrüfatı, sosial və təşkilati sistemi, iqtisadiyyatıdır.

**17. Regional iqtisadiyyat** - regional səviyyədə iqtisadi həyatın aspektlərini, istehsal güclərinin yerləşməsi və inkişafını, regionun idarəetmə sisteminin modelləşməsini, təsərrüfatın tənzimlənməsinin metod və mexanizmlərinin təkmilləşməsini öyrənən tətbiqi iqtisad elmidir.

**18. Bələdiyyə iqtisadiyyatı** - bələdiyyə təsisatları ərazisində istehsal, bölgü, mübadilə, maddi nemətlər və xidmətlər istehlakı porosesində yerli idarəetmə orqanlarının çıxış etdikləri iqtisadi münasibətlər sistemidir.

**19. Mezoiqtisadiyyat** - makroiqtisadiyyatın yarımsistemləri olmaqla bir-biri ilə üzvi bağlı sahələr komplekslərini - aqrar-sənaye kompleksi, hərbi-sənaye kompleksi, ayrı-ayrı infrastruktur təsərrüfatlar və s.-ni özündə birləşdirir.

**20. Dünya iqtisadiyyatının subyektləri** - milli dövlətlər, TMŞ-lər, regional inteqriəolunmuş iqtisadi birliklər və beynəlxalq iqtisadi təşkilatlardır.

**21. Dövlət** - müvafiq ərazidə hüquqi qayda yaratmaqla, suverenliyə, xüsusi idarəetmə aparatı və məcburetməyə malik hakim siyasi təşkilatdır.

**22. Transmilli şirkətlər və ya transmilli korporasiyalar** milli çərçivədən çıxaraq öz baza ölkəsi hüdudlarından kənarda - digər ölkələrdə sahibkarlığı həyata keçirən, xaricdəki filialları və törəmə təşkilatları vasitəsi ilə dünya bazarında fəaliyyət göstərən nəhəng beynəlxalq qurumlardırlar.

**23. Regional iqtisadi inteqrasiya** - bir regiondakı ölkələrin iqtisadi resurslarının birləşdirilməsidir.

**24. Beynəlxalq iqtisadi təşkilat** - dünya iqtisadiyyatının subyektləri olub, beynəlxalq iqtisadi münasibətlər sferasında birgə qərarların hazırlanması, tənzimləmə və unifikasiya məqsədlərindən irəli gələrək beynəlxalq müqavilələr əsasında yaradılmış təsisatlardır.

**25. Dünya iqtisadiyyatının strukturu** - dünya iqtisadi sisteminin nizamlanmış müxtəlif elementlərinin məcmusunu ehtiva edir.

**26. Təkrar istehsal** - fasiləsiz davam edən, dayanmayan, daim təkrarlanan istehsal prosesidir.

**27. Coğrafiya** - Yer kürəsinin coğrafi qişasının strukturunu, fəaliyyət və təkamülünü, təbii və təbii-ictimai geosistem və komponentlərin ayrı-ayrı hissələrinin qarşılıqlı əlaqəliyini və bölgüsünü öyrənən təbiət və ictimai elmlər kompleksidir.

**28. "Dünya iqtisadiyyatı" iqtisadi nəzəriyyənin tərkib hissəsi olaraq digər elmlərlə qarşılıqlı əlaqəliliyi:** prerekvizitlər "Makroiqtisadiyyat", "Mikroiqtisadiyyat", "Statistika", "Dünya iqtisadiyyatının tarixi", korekvizitlər "Dünya ölkələrinin iqtisadi inkişaf modelləri", "Geoiqtisadiyyat", "Region ölkələri dünya iqtisadi sistemində", "Region ölkələrinin iqtisadi inkişaf modelləri", "Ekologiya", postrekvizitlər "Beynəlxalq iqtisadi münasibətlər".

**29. Dünya iqtisadiyyatının əsas göstəriciləri** - Ümümi Daxili Məhsul, Ümümi Milli Məhsul, Milli Gəlir.

**30. Beynəlxalq əmək bölgüsü** - ictimai əmək bölgüsünün xüsusi növü olaraq, istehsalın beynəlxalq ixtisaslaşması və mübadiləsinə əsaslanmaqla hazırlanmasına daha ucuz resurslar və digərlərinə nisbətdə üstün şəraiti olan ayrı-ayrı əmtəə növləri istehsalı üzrə ölkələrin ixtisaslaşmasını ehtiva edir.

**31. Beynəlxalq ixtisaslaşma** - ölkənin müəyyən əmtəə və xidmətləri öz daxili tələbatından artıq istehsal etməklə onları dünya bazarlarında reallaşdsırması üzrə ixtisaslaşmasını ehtiva edir.

**32. Beynəlxalq kooperasiya** - müəyyən əmtəə və xidmətlərin işlənməsi, istehsalı və satışı üzrə tam təsərrüfat müstəqilliyini saxlamaqla ölkələrin müəssisələrinin birgə fəaliyyətidir.

**33. Mütləq üstünlüklər nəzəriyyəsi** - bir ölkə bir əmtəə və xidmətin istehsalında digər ölkədən daha çox məhsuldarlığa malikdir.

**34. Müqayisəli üstünlüklər nəzəriyyəsi** - bir ölkə bir əmtəə və xidmətin istehsalında digər ölkədən daha çox məhsuldarlığa malik deyil, lakin bununla o, əmtəə və xidmətin istehsalını digər əmtəə və xidmətin istehsalı ilə müqayisədə, nisbi olaraq, daha səmərəliliklə həyata keçirir.

**35. Hekşer-Olinin nəzəriyyəsi** - hər bir ölkənin kapital və əmək amili ilə müəyyən dərəcədə bağlılığı vardır və bu hal beynəlxalq ticarətdə iştirakçıdan asılı olaraq həmin ölkələrdə qiymət nisbətində müxtəliflik törədir.

**36. Hekşer-Olin-Samuelson teoremi** - xarici ticarətə qoşulmadıqda əmək və kapitalın qiyməti hər ölkədə fərqlənəcək, izafi amilin qiyməti nisbətən kiçik, defisitli amil qiyməti nisbətən yüksək olacaqdır.

**37. "Leontyev paradoksu"** - xarici ticarət strukturunu təhlili əsasında istehsal amillərinin müqayisəli nəzəriyyəsinin əksinə olaraq ABŞ-da idxalın ixracata nisbətdə 30% çox kapital tutumluluğunu aşkarlamasını ifadə edən Amerika iqtisadçısı Vasili Leontyevin adi ilə bağlı nəzəriyyədir.

**38. Rıbçinskiy teoremi** - təklifin böyüməsi və istehsal amillərinin birindən istifadə həmin amildən daha intensiv istifadə edilən sahələrdə qeyri-proporsional olaraq istehsal və gəlirin böyük artımına, ondan az intensiv istifadə edilən sahələrdə isə istehsal və gəlirin məhdudlaşmasına gətirir.

**39. Açıq iqtisadiyyat** - ölkə iqtisadiyyatının xarici dünya ilə sərbəst, azad və qarşılıqlı iqtisadi əlaqədə olduğu yüksək səviyyəli vəziyyətidir.

**40. Avtarkiya** - öz gücünə istinadən iqtisadiyyat qurmaq üsullu qapalı ölkə tipidir.

**41. Beynəlxalq ticarət** - bütün dünya ölkələrinin xarici ticarətindən yaranan beynəlxalq əmtəə-pul münasibətləri sistemi.

**42. Qloballaşma, kürəsəlləşmə** - beynəlmiləlləşmənin yüksək fazası olmaqla dünya təsərrüfatının, əmtəə və xidmətlərin, kapital və işçi qüvvəsinin, biliyin təcəssümündə vahid bazara çevrilməsi prosesidir.

**43. Regionlaşma** - yeni institusional formaların yaranışı və inkişafı əsasında hakimiyyət səlahiyyətləri və funksiyalarının milli səviyyədən regional səviyyə üzrə yenidən bölgüsü prosesidir.

**44. Azərbaycan Respublikası** - Çənubi Qafqaz (*Azərbaycan, Gürcüstan, Ermənistan*) iqtisadiyyatının 75%-dən çoxuna sahibdir.

**45**. Azərbaycan Respublikasının iqtisadi potensialı - 2017-ci il ÜDM-in nominal həcmi 40,8 milyard ABŞ dolları, adambaşına düşən ÜDM isə 4186 ABŞ dollarıdır.

# II FƏSİL

# Dünya təsərrüfatının formalaşması və inkişaf mərhələləri

## 2.1. Dünyanın yaranışı və bəşəriyyətin maddi mədəniyyətinin formalaşması

Müasir elmi tədqiqatlarla dünyanın yaranışı 4,6 milyard yaşa, canlı orqanizmlərin yaranışının 3,5 milyard, insanın yaranışının isə 2 milyon ilə bərabər olduğu qənaətinə gəlinmişdir. Alimlər, xüsusən də, antropoloqlar və paleoqraflar arasında insanın yaranış tarixini qəti müəyyən edən konsepsiya formalaşmamışdır. Bioloqlar isə insana məməlilər sinfinin primatlar fəsiləsinin tipik bir növü kimi yanaşırlar. Erkən miosendə 11-12 milyon il bundan öncə ***Australiopithecusi***[1] homo cinslərindən ibarət olan antopoid xətt ayrılmışdır. Homoqominidlər ailəsinə mənsub ali primatların təkamülünün son həlqəsini təkşil edir və müvafiq proses nəticəsində müasir insanın formalaşması baş vermişdir. Bütün bunlara baxmayaraq dünyanın yaranışı, insan həyatının təkamül tarixlərini dəqiq və qəti müəyyən etmək, hələ ki, son təsdiqdə mütləq həllini tapmamışdır.

Elmi sferada Yer planetin təkamülünün geoloji eralara bölünməklə tədqiqini tapır. Burada həyatdan əvvəlki dövrə - ***azoy***, həyatın ilk yaranış dövrü - ***proterzoy***, qədim həyat dövrü - *paleazoy*, orta həyat dövrü - *mezazoy* və yeni həyat dövrü - *kaynazoy* olan təsnifatda yanaşılır. Bu təsnifat da öz-özlüyündə, obyektiv olaraq, struktur subtəsnifata məruz qalır. Geoloji elmi aləm, stratiqraflar, palentoloqlar, geofiziklər mütləq əksəriyyətlə fəaliyyətlərində bu konsepsiyanı əsas götürürlər.

Mövcud nəzəriyyəyə görə, insan yaranışı kaynazoy erasında baş vermişdir. İnsan evolyusiyasının tədqiqində antropoloji qalıqlar və sintetik analiz şüur təkamülünün aşağıdakı mərhələdə formalaşması qənaətini təqdim edir:

- ❖ avstralopitek;
- ❖ bacarıqlı insan;
- ❖ düz yerişli insan;

[1]Australiopithecusi (*Avstralopitek*) - latınca australis - "cənub" və yunanca - πίθηκος - "meymun".

❖ neandertal;
❖ ağıllı insan.

Burada şüur yüksəkliyli ilk insanların sosial-iqtisadi həyatının inkişaf pillələri ***paleolit***, ***mezolit*** və ***neolit*** olan üç ardıcıl mərhələdən keçən ***daş***, sonrakı məqamda ***misdaş - enolit, tunc*** və ***dəmir*** dövrlərində keçildiyinə yəqinlik verilir. Maldarlığın, əkinçiliyin inkişafı və dövlətin yaranması ilə isə bəşər tarixi yeni mərhələyə qədəm qoymuşdur. Bununla belə, indiki zamanda da daş, mis və dəmirlə bağı təsərrüfatçılıq prosesi səngiməmişdir, inkişafını daha təkmil istiqamətdə davam etdirməkdədir. Bu mütənasiblik aqrar sahədə, maldarlıq və əkinçiliyin inkişafında, o, cümlədən ibtidai insanların iqtisadi həyatlarında üstün olmuş digər predmetlər və ənənələr təsərrüfatında da dərinləşmiş və sürəkliliyini qoruyub saxlamışdır.

Məşhur ingilis təbiətşünası, təbii seçmə yolu ilə heyvan və bitki növlərinin təkamül təlimi və üzvü aləmin ***darvinizm*** adlanan inkişaf nəzəriyyəsinin banisi Çarlz Robert Darvin də (*1809-1882*) insanın təkamülünü bu oxşarlıq kontekstində tədqiq etmişdir. Ç.Darvin elmi biologiyanın yaranışında, idealizmə, teologiya və metafizikaya qarşı mübarizədə bütöv bir təlim yaratmışdır. Lakin darvinizm tam istiqlalda bütün planetin tarixi təkamül prosesinin əzəl və son təlimi kimi statusunu qoruya bilməmişdir. Əksər böyük dinlərini aspektində isə insan təkamülündə şüursuzluq, heyvani davranış obrazı yoxdur. İslam dini insan yaranışının əjdadımız Adəm peyğəmbər və onun zövcəsi Həvvanın simasında başqa planetdən - cənnətdən gəldiyinə təyinat verir. Bu gerçəklik darvinizmdən əvvəl və sonrakı tədqiqat sferasını da əhatə edir.

Qərb elmi 30 min il öncə insanların mağaralardan çıxdığını, əmək və ov alətləri yaratdığını səciyyələndirir. Bütün sonrakı proseslər isə qədim dünya tarixinə qədər əmək vasitələrini material əsası üzərində təsnifatla pərvəriş tapır. Sonrakı mərhələlər isə məlum sivilizasiyalara bağlanılır.

Tarixin bu baxışlar çərçivəsindən şərhində daha ümümi olan reallıqlar tam təyinatda əksini tapmamış, bəşər cəmiyyətinin təkamül prosesi sosial-iqtisadi amillər kontekstində ardıcıl və kompleks təhlil olunmamışdır.

## 2.2. Maddi istehsal sistemində köklü dəyişikliklər - Neolit inqilabı

B.e.ə. X-IX minilliklərdə bəşəriyyət "neolit" adını almış yeni daş dövrünə keçid etmişdir. Keyfiyyətcə yeni inkişaf mərhələsi olan Neolit dövrü hər şeydən əvvəl, daş emalı texnikasının xeyli təkmilləşməsi ilə xarakterizə edilir. Bu zaman daş emalı üzrə əməliyyatlar mürəkkəbləşmiş, dəlmə, cilalama, mişarlama və digər əməliyyatlar meydana gəlmişdir. Onlardan istifadəyə başlamaqla daş silah növlərinin, həmçinin, ağac və sümüyün tamamilə yeni ixtisaslaşdırılmış və yüksək məhsuldar növləri dövriyyəyə

çıxmışdır. Bu dövrdə parça və gil qabların istehsalı texnologiyası kəşf edilərək geniş tətbiqini tapmış, ibtidai nəqliyyat vasitələri olan kirşə, xizək, qayıq meydana gələrək təkmilləşdirilmiş, əmək məhsuldarlığı xeyli artmışdır. Mezolit dövründə yığıcılığın daha intensiv olmasına və ixtisaslaşmış ov üsullarının mənimsənilməsinə baxmayaraq, mövsümi, vaxtaşırı məskunlaşmış yerlərdə məişətin yaratdığı şərait onların imkanlarının tədricən tükənməsi ilə müşayiət olunurdu. Bu baxımdan da ovçuluq və yığıcılığın yerinə erkən əkinçilik gəlirdi. Əkinçiliyin yaranışı isə insanların daha çox oturaq həyat keçirməsinə və ərazi yaşayış birliklərin yaranmasına səbəb olurdu. Bütün bu və bununla bağlı dəyişikliklər, o cümlədən təcrübə və biliklər yığımı kimi mühüm amillər də Neolit inqilabı (*Neolithic revolution*) adını alan maddi istehsal sistemində köklü dəyişikliklərə səbəb oldu. Maddi istehsal sistemində bu inqilabın mahiyyətini mənimsənilən təsərrüfatdan istehsal edən təsərrüfata, yəni ovçuluq və yığımdan əkinçiliyə və maldarlığa keçid təşkil edir. Bu dövrdə insanlar artıq il ərzində fasiləsiz olaraq qidanı təmin edən çörək becərməyi, onları müntəzəm olaraq ətlə, süd və onun məhsulları ilə, dəri, yun və s. ilə təmin edən mal-qara yetişdirməyi öyrəndilər. Neolit inqilabı, tam mənada, insanın təsərrüfat həyatını köklü dəyişikliklərə uğratdı.

Müasir arxeoloji məlumatlara görə, müxtəlif dövrlərdə əkinçiliyin və maldarlığın ilk mənbələri oykumenin (*məskunlaşma*) aşağıdakı sahələrində yaranmışdır: Ön Asiya, Şimal-şərqi Afrika, Cənub-şərqi Asiya, Mərkəzi Amerika (*Mezoamerika*) və Cənubi Amerikanın And regionu. Bununla belə, "Neolit inqilabı"nın lideri Yaxın Şərq (*Ön Asiya*) məkanı olmuşdur. Bir sıra mədəni dənli bitkilər və tərəvəzlər, ev heyvanlarının çoxsaylı cinsləri məhz buradan meydana gəlmişdir. B.e.ə. X-VIII minilliklərdə bu bitkiləri artıq Kiçik Asiyada, İran yaylasının qərb yamaclarında və Fələstində becərirdilər. 4000 il ərzində əkinçilik Avropa, Asiya və Afrikanın bütün qərb hissəsində yayılmışdı. Maldarlıq isə iki min il sonra yaranmışdır. Bununla belə, ehtimal olunur ki, neolit zamanında əkinçilik heç də yeganə təsərrüfat forması olmamışdır. Təşəkkülünün erkən mərhələlərində o, ovçuluqla birləşmiş və maldarlığın inkişafına təkan vermişdir. Artıq b.e.ə. VII-VI əsrlərdə Orta Asiyada, Şimali Afrikada və Balkanlarda ərzaq verən, ət tədarük edən heyvanlar - xırdabuynuzlu mal-qara, donuz, keçi, qoyun və s. əhliləşdirilmişdir. Bir qədər sonra isə iribuynuzlu mal-qara, qoşqu heyvanları - ulaq, dəvə, şimal maralı, at əhliləşdirilmişdir ki, bunlar ilk maşınların meydana gəlməsinə qədər mexaniki qüvvənin əsas mənbələri olmuşlar. Bu zamanlar qəbilə icmasının həyatı davamlı təminatlılıq əldə etmiş və stabilllik qazanmış, insanlar təbii şəraitdən daha az asılı olmağı öyrənmiş, ictimai rifahlarını xeyli yüksəltmişlər. Neolit inqilabı həm də ictimai həyat sisteminin ardıcıl dəyişiklikləri zəncirinin ilk həlqəsi olmuşdur ki, bunların sayəsində də son nəticədə sivilizasiya, onunla birgə isə elm meydana çıxmışdır.

"Neolit inqilabı" anlayışını elmi dövriyyəyə ilk dəfə XX əsrin ortalarında Britaniya-Avstraliya marksist-tarixçisi Vir Qordon Çayld (*1892-1957*) gətirmişdir.

## 2.3. Natural təsərrüfatçılıqdan əmtəə-pul münasibətlərinə keçid

Tarixə iki əsas istehsal növü məlumdur: natural və əmtəə. Onlar bir-birinə birbaşa zidd olub, aşağıdakı meyarlar üzrə fərqlənirlər:

a) təsərrüfatın qapalılığı və ya şəffaflığı ilə;
b) ictimai əmək bölgüsünün inkişafı (və ya inkişaf etməməsi) ilə;
c) ictimai məhsulun forması ilə;
d) maddi nemət və xidmətlərin istehsalçıları ilə istehlakçıları arasında iqtisadi əlaqələrin növləri üzrə.

Tarixən, insanın cisminin məhsuldar qüvvələrin elementinə çevrilməsinin gedişində onun təbiətlə qarşılıqlı münasibətinin ilk üsulu natural təsərrüfat olmuşdur. Burada fəaliyyət mübadiləsi təbii əmək bölgüsü ilə müəyyən edilir və qəbilə icması çərçivəsi ilə məhdudlaşırdı. Qəbilə icması yaradılmış məhsulun eyni zamanda həm istehsalçısı və həm də istehlakçısı idi. Belə ki, natural təsərrüfatçılıq (*subsistence farming*) əmək məhsulları istehsalçısının öz tələbatının ödənilməsinə və təsərrüfatdaxili istehlaka xidmət edir. Burada istehlak çox vaxt istehsalla üst-üstə düşür ki, bu da onların əlaqə problemini son dərəcə sadələşdirir. Bu cür münasibətlər özləri üçün zəruri olan məhsullar hazırlayan qapalı ibtidai icmada hökmranlıq etmiş və əsasən, patriarxal kəndli təsərrüfatı (*peasant agriculture*), həmçinin, feodal malikanələri natural olmuşdur. Feodallar torpaq mülkiyyətçisi kimi ya birbaşa təhkimlilərin əməyini mənimsəmiş, yaxud da onlardan məhsul və ya pulla töycü almışlar.

Natural təsərrüfatı bir müddət onunla birlikdə mövcud olan əmtəə istehsalı əvəzlədi və əmtəə təsərrüfatına keçid iqtisadi sistem və iqtisadi subyektlərin yaranmasının tarixi prosesinə çevrildi.

<u>Əmtəə</u> (*commodity*) insanın istehlak tələblərini ödəmək qabiliyyətli və xüsusən, mübadilə üçün istehsal olunmuş əmək məhsuludur. Əmtəə satılmaq üçün istehsal olunan məhsuldur. Bu baxımdan iqtisadi düşüncədə şəxsi istehlak üçün istehsal edilən məhsul əmtəə hesab olunmur. Əmtəə mübadilə dəyərinə malik olur və onun faydalılığı istehlak dəyəri ilə ölçülür.

<u>Mübadilə dəyəri</u> (*exchange value*) əmtəə və ya xidmətlərin digər əmtəə və xidmətlərlə mübadiləsi qabiliyyətliliyidir.

<u>İstehlak dəyəri</u> (*use value*) əmtəənin faydalılığı, onun insan tələbatını ödəmək qabiliyyətliliyidir.

<u>Əmtəə istehsalı</u> (*commodity production*) şəxsi tələbatlarının ödənilməsi məqsədilə ayrı-ayrı istehsalçıların müəyyən fəaliyyət növlərində ixtisaslaşaraq mübadilə münasibətlərinə girdikləri və mübadilə edilən əmək məhsulunun əmtəəyə çevrildiyi cəmiyyətin iqtisadi həyatının təşkili üsuludur. İqtisadi ədəbiyyatlarada “təsərrüfatçılığın əmtəə istehsalı forması” (*economy: commodity*) kimi də adlanan əmtəə istehsalının əsasında ictimai əmək bölgüsü dayanır. Əmtəə istehsalı əməyin ölçülməsi və onun məcmu ictimai əməyə daxil edilməsi ilə şərtlənən, istehsalçılarla istehlakçılar arasında olan spesifik iqtisadi münasibətlər sistemidir.

Əmtəə münasibətləri feodal quruluşunun dağılması dövründə sürətlə yayılmağa başladı və kapitalizmin meydana gəlməsi üçün zəmin yaradaraq bu prosesə xeyli dərəcədə kömək göstərdi. Reallıq belədir ki, əmtəə istehsalı yalnız kapitalizmdə ümumi təsərrüfat forması olur. Ona görə ki, burada hər şey bazar üçün nəzərdə tutulur, hər şey - maddi nemətlərlə yanaşı mənəvi dəyərlər belə, alınır və satılır, işçi qüvvəsinin özü də alqı-satqı predmetinə çevrilir.

İctimai əmək bölgüsünün uzunmüddətli tarixi inkişafı nəticəsində əmtəə istehsalı meydana gəlir ki, bu zaman əmtəə mübadiləsi təsadüfi deyil, müntəzəm xarakter daşıyır. Əmtəənin (Ə) Ə - Ə düsturu ilə ifadə olunan sadə mübadiləsindən əmtəə mübadiləsinin pul (P) vasitəsilə - Ə - P - Ə düsturu ilə ifadə olunan əmtəə mübadiləsinə keçid baş verir.

Əmtəə-pul münasibətlərinin yaranması və inkişafını səciyyələndirən bu proses öz əksini dəyər formalarının inkişafında tapmışdır.

Əmtəə-pul münasibətləri (*commodity-money relations*) marksist siyasi iqtisadın termini olaraq bazar münasibətlərini əks etdirir. Əmtəə-pul münasibətləri istehsal prosesində və əmtəələrin reallaşması nəticəsində insanlar arasında baş verən ictimai münasibətlərdir. Bu münasibətlər icmalar arasında izafi məhsulun mübadiləsi əsasında yaranmışdır. Əmtəə-pul münasibətləri müxtəlif istehsal üsulları zamanı mövcud olub, həmin istehsal üsulunun istehsal münasibətlərini, ilk növbədə, mülkiyyət münasibətlərini özündə ehtiva edən münasibətlər sistemidir. Ona görə də, əmtəə-pul münasibətlərinin məzmunu və onu xarakterizə edən əlamətlərin məcmusu bir istehsal üsulundan digərinə keçdikdə dəyişməz qalmır. Onlar həm də eyni istehsal üsulu (*mode of production*) çərçivəsində dəyişir.

Beləliklə, birinci ictimai əmək bölgüsü - maldarlığın əkinçilikdən ayrılması icmalar arasında müntəzəm mübadiləni mümkün etmiş, ikinci - sənətkarlığın əkinçilik və maldarlıqdan ayrılması əmtəə istehsalının təşəkkülünə səbəb olmuş, üçüncü isə ticarətin ayrılması ilə əmtəə təsərrüfatının formalaşmasının başa çatmasına kömək etmişdir. O da vurğulanmalıdır ki, XX əsrdə dördüncü əmək bölgüsü nəticəsində isə qeyri-maddi istehsal sahəsi ayrılmışdır. Hazırda elmi-texniki inqilab yeni, beşinci böyük əmək bölgüsünə kömək edir ki, bunun da nəticəsində informasiya fəaliyyəti sferasının digər struktur sahələrdən ayrılması baş verir.

## 2.4. Asiya istehsal üsulu və təsərrüfatçılığın antik modeli

B.e.ə. IV minillikdə Qədim Şərqdə artıq quldarlıq quruluşu intisar mərhələsinə qədəm qoymuşdu. Bu cəmiyyət formasının yaranışı isə, öz növbəsində, natural təsərrüfatçılıqdan əmtəə-pul münasibətlərinə keçidə rəvac vermiş, icma, dövlət və şəxsi mülkiyyətin qarşılıqlı ünsiyyətini yeni inkişaf mərhələsinə yüksəltmişdi.

Qədim Şərqin quldarlıq cəmiyyəti antik quldarlıqdan köklü fərqlənirdi. Bu fərq üstün səciyyədə qulun cəmiyyətdə əsas istehsal gücünə malikliyi ilə daha qabarıq

təzahürlü olmuşdur. Belə ki, müvafiq sistem çərçivəsində kənd təsərrüfatı və əkinçilik, formal olsa da, azad insanlara məxsus idi. Digər nisbət isə torpağın şəxsi, dövlətin və ya dövlət-icmanın əlində qalması fərqində seçilirdi. Qədim Şərqdə dövlətin təsərrüfat həyatında, xüsusən də, əkinçilikdə irriqasiyanın tənzimlənməsində iştirakı klassik və spesifik istehsal üsulunun yaranışını təyinatlı etmişdir. Bu istehsal nümunəsi iqtisad elmi tarixinə “Asiya istehsal üsulu” (*Asiatic mode of production*) kimi daxil olmuşdur.

Asiya istehsal üsulunun ilk elmi şərhi alman iqtisadçısı, filosofu və sosioloqu Karl Henrix Marksın (*1818-1883*) və alman filosofu Fridrix Engelsin (*1820-1895*) yazışmalarında verilmişdir. Onun ayrı-ayrı cəhətlərinin təhlili isə K.Marksın məhşur “Kapital” əsərində əksini tapmışdır. XIX-XX əsrlərdə marksist ədəbiyyatlarda Asiya istehsal üsulunun tədqiq prosesi, xüsusən rus filosofu Georgi Valentinoviç Plexanovun (*1856-1918*) və rus-sovet siyasi dövlət xadimi, filosof Vladimir İliç Leninin (*1870-1924*) əsərlərində inkişaf etdirilmişdir.

Asiya istehsal üsulunun üstün tipik forması Qədim Misirdə təşəkkül tapmışdır. Nil çayı vadisində maldar və əkinçilərin məskunlaşması b.e.ə. VI-IV minilliklərə təsadüf edir. Asiya icmalarında təsərrüfat həyatının əsasını irriqasiya sistemlərinə əsaslanan suvarma təşkil etmişdir. Ona görə də burada təsərrüfat tipi torpaq və irriqasiya qurğuları üzərində mülkiyyətə əsaslanmışdır. Təsərrüfatlarda əlavə əmək resurslarına ehtiyac olmamışdır. İnsanlar kənd təsərrüfatı işlərini başa çatdırdıqdan sonra nəhəng tikinti işlərinə cəlb olunmuşlar. Möhtəşəm Misir ehramlarının, Mesopotamiya məbədlərinin və s. inşasında çalışmışlar. İzafi əmək resurslarının mövcudluğu şəraitində təsərrüfatçılıqda qul əməyindən istifadəyə ehtiyac olmamışdır. Burada qullar əsas təsərrüfat gücləri kimi çıxış etmirlər. Yəni onlar kənd təssərüfatı sistemində maddi rifahın yaradılması ilə məşğul deyildilər. Həmçinin, təsərrüfat həyatının digər sahələrində də azad insanlar məşğul olurdular. Beləliklə, Asiya istehsal üsulunun əsas əlamətlərini təsərrüfat həyatının nizamlanmasında dövlətin aparıcı rolu, şəxsi əmlakın toxunulmazlığı, ticarət məhdudluğu, xüsusi istismar üsulunun mövcudluğu kimi komponentlər təşkil edir. Bununla belə, qeyd olunmalıdır ki, Asiya istehsal üsulunun mahiyyəti fundamental kontekstdə tam açılmamış qalmaqdadır.

Qədim dünyada II minillikdə Avropa məkanında “despotlu” Asiya cəmiyyətindən demokratik hesab edilən və Asiya istehsal üsulundan fərqlənən təsərrüfatçılıq tipi yaranmışdır. “Antik istehsal üsulu” (*antique economy*) adlanan bu təsərrüfatçılıq tipi özündə həm dövlət və həm də şəxsi mülkiyyəti ehtiva etmişdir. “Antik istehsal üsulu” termini feodalizməqədərki istehsal üsulunu şərtləndirmək üçün K.Marks tərəfindən dövriyyəyə gətirilmişdir. Antik istehsal üsulu şəraitində torpaq mülkiyyətçiliyinin mərkəzi şəhər - polis hesab edilir. Ona görə də torpağa yalnız şəhərlilər sahib ola bilərdilər. Burada əsas iqtisadi prinsip kimi avtarkiya - özünütəminatlılıq çıxış etmişdir.

Antik istehsal üsulu əsas işçi qüvvəsi (*labor force*) kimi qul əməyinin tətbiqi üzərində qurulmuşdu. Antik sistem təsərrüfatları yeni qullarla təmin edən hərbi təşkilat formasına əsaslanırdı. Mahiyyətcə, o zamankı ordular muzdulardan ibarət olmuşdur.

Antik istehsal üsulunun məqsədini yalnız qul sahibləri deyil, həm də yığımı təmin edən əlavə məhsulun istehsalı təşkil edirdi. Məqsədə nail olmada isə əsas üsul qulların istismarı idi. Antik təsərrüfatçılığın dominantlıq dövrü b.e.ə. VI əsrdə Yunanıstanda və b.e.ə. III əsrdə Romada başlanmış və bizim eranın III-IV əsrlərinə qədər davam etmişdir. Bu dövrlərdə ölkə sakinlərinin əsas iqtisadi həyatı kənd təsərrüfatı ilə bağlı olmuş, insanlar buğda, arpa və digər taxıl məhsulları becərmişlər. Lakin burada məhsuldarlıq o qədər də yüksək olmamışdır. Tədricən taxılçılıqdan intensiv üzümçülüyə və bağçılığa keçid edilmişdir. Bu sahələrin inkişafı isə daha çox vəsait qoyuluşu, insan resursu və daha çox zaman tələb etmişdir. Onların uğurlu inkişafı isə, göründüyü kimi, əlavə işçi qüvvələrinin cəlb edilməsindən asılı olmuşdur. Əlavə və kütləvi işçi qüvvələri funksiyasını isə qullar yerinə yetirmişlər.

Beləliklə, qədim Yunanıstanda, aparıcı qədim Şərq ölkələrindən fərqli olaraq, iqtisadiyyatın yeni tipi meydana çıxmışdır. Bu tip - Antik istehsal üsulu natural təsərrüfatı saxlamaqla daha çox əmtəə tutumlu və intensiv xarakterli olmuşdur. O, təsərrüfatçılığın daha yüksək səviyyədə qurulmasını şərtləndirmiş, daha çox vəsait qoyuluşu tələb etmişdir. Antik istehsal üsulu yunan cəmiyyətinin mövcudluğu üçün əlverişli şərait yaratmış və onun mədəni inkişafına təkan vermişdir.

Qədim iqtisadi sistemlər spiralvari uzun dövrlər çərçivəsində irəliləmişlər. Bu irəliləyişlər yeni ideyalardan istifadədə, texnologiyaların təkmilləşdirilməsində özünü göstərirdi. Bizim günlərə qədər qorunub saxlanılmış nəhəng dövlət tikililərinin və dini abidələrin qalıqları o zamlardakı tikinti və tikinti texnikasının yüksək səviyyədə olduğunu sübut edir. Həmin dövrlərdə riyaziyyat, fizika və astronomiya sahəsindəki nailiyyətlər də böyük olmuş, bir çox ideyalar zamanın özünü belə qabaqlamışdır. Bu ideyaların bəzi təcrübi əhəmiyyətliləri isə qeyd edilən sosial-iqtisadi şərait və insan amili ilə bağlı səbəblərdən tətbiqini tapmırdı.

İkinci minilliyin əvvəllərində Şərq ölkələrində inkişafın səviyyəsi Qərbi Avropa ölkələrindən 1,5-2 dəfə yüksək olmuşdur. Bəzi qiymətləndirmələrə görə, XI əsrdə adambaşına ÜDM-in həcmi ÇXR-də 600-700 ABŞ dolları, Hindistanda 550-650 ABŞ dolları, Misirdə 470-530 ABŞ dolları (*1980-ci ilin nisbi qiymətləri ilə*) idi. Bu zamanlarda Şərqdə şəhər əhalisi də üstünlük təşkil edirdi. Çində və müsəlman dünyasında əhalinin 20%-i əhalisi 2 min nəfərdən çox olan şəhərlərdə yaşayırdı. Avropada isə bu rəqəm 11-13%-dən artıq deyildi. Sonrakı orta əsrlərdə də istehsalın inkişaf səviyyəsinə görə Şərq Qərbi üstələyirdi. XI əsrin sonu - XII əsrin əvvəllərində Çində İngiltərədə 1640-cı ildə və XVIII əsrin əvvəllərində bütün Avropada olduğundan 2,5-5 dəfə çox dəmir əridilirdi. Şərqin Qərb üzərində üstünlüyü xüsusilə məhsuldar qüvvələrin intellektual komponentləri səviyyəsində daha qabarıq nəzərə çarpırdı. O zaman Avropanın səviyyəsi b.e.ə. VIII əsr və eramızın II əsrində klassik Roma imperiyası dövründə olduğundan da aşağı idi.

## 2.5. Təsərrüfat həyatının paradiqmaları

İnsanın təsərrüfat həyatının inkişaf mərhələlərini səciyyələndirən nəzəri təsnifatlandırmalar içərisində paradiqmal bölgü daha geniş üstünlük əldə etmişdir.

Paradiqma (*yunanca - paradeigma - nümunə*) anlayışı özü-özlüyündə bütün elmi cəmiyyətlər tərəfindən eyni və ya digər zaman mərhələsində qəbul edilən və yeni elmi tədqiqatlara əsas və nümunə funksiyasında xidmət göstərən elmi nailiyyətlər məcmusunu ifadə edir. O, elmi inkişafın və elmi yaradıcılığın varisliyini təmin edir. "Paradiqma" anlayışı Amerika tarixçisi Tomas Samuel Kunun (*1922-1996*) 1962-ci ildə nəşr etdirdiyi "Elmi inqilabların strukturu" əsərindən götürülmüş və yayılmışdır.

Paradiqmal təsnifata görə, insanın təsərrüfat həyatının inkişaf mərhələləri formasiya və sivilizasiya paradiqması olaraq ikili yanaşmaya məruz qalır. Formasiya (latınca - formatio - yaranış, görünüş) ayrılıqda təyin olunmuş pillə, nəyinsə struktur tipi və ya inkişaf mərhələsi, baxışlar sistemini əks etdirir. Buradan da formasiya anlayışından cəmiyyətin inkişaf mərhələsi kimi istifadəsi götürülmüşdür.

Marksist yanaşma adlanan ictimai-iqtisadi formasiya (*ingiliscə - social and economic structure - sosial və iqtisadi formasiya*) XIX əsrin ortalarında gənc heygelçilərə və digər idealistlərə zidd olaraq K.Marks və F.Engels tərəfindən işlənmişdir. Bununla bərabər, K.Marks və F.Engels tarixin materialistcəsinə anlayış nəzəriyyəsini formalaşdıraraq müvafiq sistem əsasında ictimai münasibətlərin yeni konsepsiyasını yaratmışlar.

İctimai (*və ya sosial*) - iqtisadi formasiya nəzəriyyəsi həm də formasiya paradiqması (*formational paradigm*) anlayışında da ehtiva olunur.

Formasiya paradiqması özündə müvafiq struktur çərçivəsində maddi nemətlərin istehsal üsulunu, istehsal gücləri, istehsal vasitələri olan - bazisi və müvafiq siyasi oriyentasiya - ***üstqurumu*** birləşdirir. Mahiyyətcə, bu yanaşma beş ictimai-iqtisadi formasiyada təcəssüm olunur:

- ❖ ibtidai icma;
- ❖ quldarlıq;
- ❖ feodalizm;
- ❖ kapitalizm;
- ❖ kommunizm.

Çox zaman tarixi cəmiyyətə qədər də adlandırılan ibtidai icma quruluşu (*primitive society*) və ya cəmiyyəti bəşər tarixinin yazı mədəniyyətinin mənimsənilməsinə qədər dövrü əhatə edir. Burada "yazı mədəniyyəti" anlayışı özü də bir qədər mübahisəlidir. Belə ki, ayrı-ayrı xalqlar yazı mədəniyyətini müxtəlif zamanlarda mənimsəmişlər. Buna baxmayaraq yazı mədəniyyəti digər arxefaktlarla müqayisədə yazı mənbələrinə istinadən tarixin tədqiqini daha əlverişli və əlçatan edir. İbtidai icma quruluşu bəşər tarixinin ən erkən çağlarını əhatə edərək daş, sümük, ağac və s. alətlərdən istifadə əsasında ovçuluq, yığıcılıq, balıqçılıq üzərində qurulan ilk təsərrüfat həyatıdır. Zaman ölçüsündə ibtidai icma quruluşu təqribən bir milyon ili əhatə edir.

İbtidai icma quruluşunun dağılması nəticəsində quldarlıq quruluşu və ya cəmiyyəti yaranmışdır. Quldarlıq quruluşu (*slave-owning society*) istehsal vasitələrinə və məhdudiyyətsiz olaraq istehsal işçiləri kimi qullar üzərindəki şəxsi mülkiyyətə əsaslanır. Quldarlıq quruluşu insanın insan üzərindəki istismarı ilə formalaşan, quldarlar və qullara bölünən tarixə ilk sinifli cəmiyyət kimi daxil olmuşdur. Bununla belə, bu cəmiyyətdə quldarlar və qullardan başqa kəndlilər, sənətkarlar kimi kiçik istehsalçılar və tacirlər də yer alır. Quldarlıq quruluşu özü dörd mərhələdə təsnifatlandırılır:

1. İlkin mərhələ - torpaq üzərində icma mülkiyyətinin dağılması və antik istehsal üsulunun yaranışı;
2. Torpaqların kiçik hissələrə bölündüyü azad parsellyar mülkiyyətli kəndli təsərrüfatları və müstəqil sənətkarlığın mövcudiyyəti dövrü;
3. Quldarlığın istehsalın mənimsənilməsi və istehsal üsulunun təyin edilməsi mərhələsi;
4. İstehsalçı ilə iri torpaq sahibinin qarşılıqlı istehsal münasibətinin xüsusi forması olan kolonat (*colonate*) sistemin, onunla bağlı şəhər xaricində torpağa sahibliyin inkişafı və bunlardan irəli gələrək quldarlığın öz əzəli iqtisadi və sosial əhəmiyyətliliyini itirməsi mərhələsi.

Quldarlıq quruluşunun çiçəklənmə dövrünü b.e.ə. VI-V əsrlərdə Afinada və b.e.ə. II əsrin sonlarından başlayaraq II əsrə kimi Roma imperiyasında yaşamışdır. Sosial inqilabların gedişi ilə VI əsrdə quldarlıq quruluşu, əsasən, çökmüş və feodal münasibətlərin yaranışına yol açmışdır.

Torpaq üzərində, şərti olaraq, mülkiyyət formasını ehtiva edərək feodalizm (*latınca - feodum - feodal torpaq sahibliyi*) ictimai-iqtisadi formasiya kimi Avropada V əsrdən - 476-cı ildə Qərbi Roma imperiyasının süqutundan XVI əsrə kimi, təxminən, min il ərzində mövcud olmuşdur. Feodalizm (*feudalism*) quldarlıq quruluşunu əvəz edərək tarixdə aqrar xarakterli ikinci sinifli cəmiyyət kimi, üstün olaraq, kollektiv natural təsərrüfatçılığa əsaslanır. Bəşər cəmiyyətində feodalizm iqtisadi təyinatda kəndli və sənətkarların xırda istehsalı, feodalların (f*eodal sahibi - torpaq mülkiyyətçisi*) torpaq mülkiyyəti və xarici iqtisadi əlaqələr zərurəti təşkil edən natural təyinatlı təsərrüfat sistemi olaraq yaranmışdır.

Kapitalizm (*latınca - capitalis - başlıca, əsas, başçı*) feodalizmi əvəzləyən ictimai-iqtisadi formasiya olaraq istehsal vasitələri üzərində şəxsi mülkiyyətə və muzdlu əməyin istismarına əsaslanır. XVII əsrdə Qərbi Avropada yaranaraq sonradan Şimali Amerikaya keçmiş və digər regionlara yayılmışdır. M.Veber kapitalizmin protestantlığın yaranışı ilə formalaşdığını diqqətə çatdırır. Bu isə onun XVI əsrdən öncə yaranmadığını göstərir. Kapitalizm yalnız iqtisadiyyatın yeni tipini deyil, həm də yeni həyat və düşüncə tərzini formalaşdırmıdır.

Kommunizm (*latınca - commūnis - ümumi*) tam bərabərlik, istehsal vasitələri üzərində ictimai mülkiyyət üzərində qurulan hipotetik ictimai-iqtisadi cəmiyyət kimi

anlaşılır. "Hər kəsdən bacarığına görə, hər kəsə tələbatına görə" terzisi kommunizmin əsas prinsipidir. İkili fazanı (*mərhələni*) - "sosializm" və "kommunizm"i əhatə edir. Marksist tipli sosializm keçmiş SSRİ-də, bir sıra Şərqi Avropa ölkələrində mövcud olmuş, ÇXR, KXDR, Kuba və Vyetnamda hələ də yaşanmaqdadır. Kommunizm quruluşu bütövlükdə dünyada təcrübə olunmamış qalır.

Formasiya yanaşmasında hər bir cəmiyyət tipinin öz inkişafında bütün bu müvafiq pilələrdən keçid labüdlüyü şərtləndirilir. İctimai-iqtisadi formasiya kateqoriyalı paradiqma 70 ildən çox bir müddət ərzində SSRİ dövlətinin sistem prinsipləri çərçivəsində hakim mövqedə dayanmış, təkcə sovet cəmiyyəti nümunəsinin nəzəri və metodoloji aspektlərini deyil, həm də onun ideoloji keyfiyyətini tərənnüm etdirmişdir. Belə məqam isə, öz növbəsində, müvafiq ehkamlılıq oriyentasiyasını doğurtmuşdur. Bu və ya digər ziddiyyətli cəhətlərinə və görkəminə görə formasiya paradiqması daim tənqidlərə məruz qalmışdır. Belə tənqidlər daha çox şərqşünaslar tərəfindən ifadə olunmuşdur.

Tarixi təbəddülatlar yer üzünün böyük bir hissəsini əhatə edən sosialist ölkələri düşərgəsinin dağılması və nəhəng Sovet İttifaqının çökməsi ilə əlaqədar təsərrüfat həyatına baxışlar çevrəsində formasiya paradiqmasını bir qədər arxa plana çəkmiş və hazırda bu məkanda tədqiqat foksunda müvafiq yanaşmanı əsaslı olaraq svilizasiyalı yanaşma paradiqması əvəz etmişdir. Vurğulanmalıdır ki, bu yanaşmaların köklü fərqinə baxmayaraq onların ümumi olan simaları da sezilәndir. Belə ki, formasiya yanaşmasında sosializm və kapitalizm qarşıdurması hakim idisə, sivilizasiya paradiqmasında bu tarixi dilemma Qərb və Şərq spektrində "sivilizasiya" və "mədəniyyət" kateqoriyaları kontekstində dayanmaqdadır.

Sovet İttifaqının süqutu həm də iki fövqəldövlətin mövcudluğundan birqütblü "Pax Americana" sisteminə keçidlə əlamətdar olmuşdur. Bu reallıq da yanaşmalar əvəzliyində izsiz ötüşməmişdir.

"Sivilizasiya" (*latınca - civilis - mülki, dövlət*) anlayışı XVIII əsrdə "varvarlıq" anlayışına əks olaraq fransalı mütəfəkkirlər tərəfindən dövriyyəyə gətirilmişdir. Bu zaman düşüncə obyekti olaraq sivilizasiya ilk interpretasiyada qədim tarixin vəhşilik, varvarlıq mərhələsindən sonrakı - III dövrü ifadə edirdi. Onun nəzəri təəssüratları amerikalı arxeoloq və etnoqraf Levis Henri Morqanın (1818-1881) 1877-ci ildə yazdığı "Qədim cəmiyyət" kitabında daha dərin təzahürünü tapmışdır. Tədqiqata görə, burada vəhşilik dövründən varvarlıq dövrünə transformasiya baş vermiş və o, ovçuluq, yığıcılıq təsərrüfatının əkinçilik və maldarlıqla əvəzlənməsi və digər mənada, təbiətdən hazır həyati sərvətlərin götürülməsindən maddi sərvətlərin istehsalına keçidlə əlaqədar yaranmışdır. Sivilizasiya epoxasına keçid isə yazının yaranması, başqa sözlə, əldə olunmuş nailiyyətlərin növbəti nəslə ötürülməsi məqamından başlanğıc alır. Müvafiq çevrədə təqdim olunan sivilizasiya mərhələsini digər əlamətdar cəhətlərlə: metallurgiyanın, riyaziyyat və astronomiyanın, uzaq ticari rabitənin yaranışı, əmək bölgüsü, sosial stratifikasiya və şəhərlərin təşəkkülü, dövlətçiliyin, idarəetmənin formalaşması ilə də bağlayırlar.

Sivilizasiya tam ilkin anlayışda olmasa da, onun mahiyyət və məzmununu əks etdirən nəzəri baxışlar islam mütəfəkkirlərinin tədqiqatlarında da elmi forma almışdır.

Müasir zamanda “sivilizasiya” termini özünün ilkin mənasını, praktiki olaraq, itirmiş və hazırda yüksək tarixi və coğrafi mədəniyyətlər məcmusunu ifadə etməkdədir. Bu baxımdan yeni reallıqlardan çıxış edərək ismin tək halında “sivilizasiya” anlayışı ilə cəm hallı ***“sivilizasiyalar”*** məfhumlarını da fərqləndirmək gərəklidir.

Sivilizasiya cəmiyyəti primitivdən oturaq, şəhər və maarifli cəhətləri ilə fərqlənmişdir. Sonradan sivilizasiya haqqında müxtəlif sivilizasiyaların yaranışı ilə bağlı olaraq cəm halında danışmağa başlamışlar.

Paradiqma kimi sivilizasiya da “insan tarixi - sivilizasiyalar tarixidir” mahiyyəti ilə bağlanır. Sivilizasiya paradiqması (*civilizational paradigm*) bəşəri mədəni qrupların dil, tarix, din, ənənə, institutlar və insanların subyektiv özünüidentifikasiyasının ümumi obyektiv elementlərində təyinat tapır.

Sivilizasiyalar əbədi deyildir. Bununla belə, sivilizasiyalar dinamik, sürəkli yaşantıya malik olaraq yüksəliş və eniş, birləşmə və ayrılma, yoxolma tendensiyalarını yaşayırlar. Onların təkamül bazaları müxtəlif nəzəriyyələrdə müxtəlif cür təyinatlandırılır. Bununla belə, bu nəzəriyyənin hamısında sivilizasiyaların çətinliklər və konfliktlərdən keçdiyi, universal dövlətə doğru hərəkəti, enişə və dezinteqrasiyaya düçar olduğu göstərilir. Sivilizasiyalar siyasi deyil, mədəni dəyərlidir, buna görə də onlar bir yox, bir neçə siyasi vahidi birləşdirir.

Liberal dəyərləri prioritet qəbul edən müasir iqtisadi-demokratik sistemlər məhz sivilizasiyalı struktur nümunəli cəmiyyət quruculuğuna ehtiram nümayiş etdirirlər. Müvafiq sivilizasiyalı yanaşma cəmiyyətin inkişafını üç tipik formada təsnif etmişdir:

❖ ənənəvi;
❖ industrial;
❖ postindustrial.

Əsas resursları torpaq və təbii xammal olan, primitiv əl texnologiyası üzərində qurulan ənənəvi cəmiyyət (*traditional society*) kapitalizməqədərki dövrü əhatə edərək neolit epoxasındakı aqrar inqilablar zamanında yetişmişdir. Əl əməyini sıxışdıran maşın və mexanizmlərin əmələ gəlməsi, genişlənən və çoxçeşidli emal prosesi, texnoloji inqilablar kapital dünyasına hakim kəsilmiş yeni tipli industrial cəmiyyət ənənəvi ictimai quruluşu əvəz etmişdir. İndustrial cəmiyyət - sənaye cəmiyyəti (*ingiliscə - industrial society, almanca - industriegesellschaft - sənaye cəmiyyəti*) maşın istehsalının inkişafı və ona adekvat formalarda əməyin təşkilinin meydana gəlməsi, həmçinin, texniki-texnoloji tərəqqinin nailiyyətlərinin tətbiqi nəticəsində sənayeləşmə prosesində formalaşan cəmiyyət tipidir. Kütləvi, konveyer istehsalı, əməyin mexanikləşdirilməsi və avtomatlaşdırılması, mal və xidmətlər bazarının inkişafı, iqtisadi münasibətlərin humanistləşdirilməsi, idarəetmənin rolunun artması, vətəndaş cəmiyyətinin formalaşması ilə xarakterizə olunur. İqtisadiyyatın, istehsalın, istehlakın, məşğulluğun strukturuna böyük təsir göstərmişdir. Termin ilk dəfə fransalı filosof Anri Sen-Simonun (*1760-1825*) əsərlərində səslənmişdir. Çağdaş zamanda isə XX əsrin sonlarında

qloballaşma kontekstində formalaşan, mühüm mənəvi energetik resursu insan biliyi və informasiyada ehtivada bulunan yeni postindustrial cəmiyyət quruculuğu həyatımıza daxil olmuşdur. Postindustrial cəmiyyət (*post-industrial society*) industrial cəmiyyətdən sonrakı inkişaf mərhələsi olaraq bilik və informasiyaya əsaslanan və iqtisadiyyatın innovativ sektorunun və xidmət sferasının genişləndiyi, həmçinin, istehsalın müəyyən məhdudlaşdığı, deindustrializasiya, deurbanizasiya ilə müşayiət olunan yeni cəmiyyət tipidir. Obrazlı deyimdə bu cəmiyyət ABŞ mühəndisi, əməyin elmi təşkilinin və idarə edilməsinin banisi Frederik Uinslo Teylorun (*1856-1915*) əməyin təşkili formasını daha mülayim məşğulluğa çevirərək texniki dünyanı sosial dünya ilə əvəz etməyə istiqamət götürmüşdür.

Vurğulanmalıdır ki, industrialaqədər cəmiyyət üç mərhələli təsnifatı verilən iqtisadi sistemlərin ən davamlısıdır və onun tarixinin minlərlə il yaşı vardır. Bununla belə, yaşadığımız dövrdə Afrika, Latın Amerikası və Cənub-şərqi Asiya ölkələrinin əksəriyyəti hələ də bu inkişaf mərhələsində qalmaqdadır.

Elmdə qədim icmaları, xüsusən də, Şərqdəki ictimai və təsərrüfat quruluşunu öyrənmək üçün iqtisadi-antropoloji yanaşmadan istifadə olunur. İqtisadi-antropoloji yanaşmanın əsasını Asiya istehsal üsulu təşkil edir. İnsanların təsərrüfat həyatının formulə edilməsində yeni baxışlar şəbəkəsində iqtisadi-antropoloji yanaşma ilə eyni strukturda iqtisadi amillərə əsaslanan - iqtisadi, tarixi reallıqları əks etdirən - tarixi və dialektik təzahürü önə çəkən - proqressiv yanaşmalar tipologiyası da təsnifatlandırılır.

İqtisadi yanaşma iqtisadi-antropoloji yanaşmadan fərqlənir. Burada təhlil üçün müasir iqtisadi sistem götürülür. Ayrıca təyin olunmuş konsepsiya işlənir və bu konsepsiya əsasında retrospektiv baxış keçirilir. Bu zaman iqtisadi-antropoloji yanaşmada təhlil üçün əsas olaraq qədim icmalar götürülür və təhlil müasir qeyri-bazar iqtisadiyyatı ilə paralel aparılır.

İqtisadi yanaşma "plan-sosialist iqtisadiyyatı"nın normativ konsepsiyası inkar edildikdən sonra sovet iqtisadi sisteminin mahiyyəti və onun perspektivlərinin cavabını axtarmağa səfərbər olunmuşdur. Bu yanaşmanın içərisində bir neçə: "inzibati-amirlik" sistemi, "bürokratik bazar", "defisit iqtisadiyyatı" konsepsiyaları hazırlanmışdır. İnzibati-amirlik iqtisadiyyatının heç bir sferası defisitdən azad deyildir. Bu hal xronikidir və müvafiq xroniklilik daim müşahidə edilir. Ümumi xroniki intensiv defisit yaranan sistem isə defisit iqtisadiyyatı kimi də adlandırılır.

Tarixi yanaşma keçmiş təsərrüfat inkişafına uyğun olaraq formalaşmış konseptual baxışlara əsaslanır. Müvafiq analitikada gerçək tarixi mərhələlər araşdırılır.

Proqressiv yanaşmada, prinsipial olaraq, tarixi inkişafın birxətli tərəqqi ideyası dayanır. Bu yanaşmada cəmiyyətin inkişafı ictimai, tarixi tərəqqi nəzəriyyəsi işləməklə cəmiyyət və tarixin hər sonrakının əvvəlkindən yüksək (proqresiv) olması əsasında biri-birini əvəzləyən pilləsi, forması kimi öyrənilir.

İnsan cəmiyyətinin bütün yeni inkişaf mərhələləri texniki-texnoloji innovasiyaların yaranışı ilə xarakterikdir. Sənayecə inkişaf etmiş dövlətlərin təsərrüfatlarının tədqiqi

zamanı alimlər innovasiya proseslərinin gedişində uyğun dövriliyin mövcudluğunu aşkar etmişlər. Müvafiq tədqiqatlar nəticəsində müxtəlif hipotez-nəzəriyyələr meydana çıxmışdır.

## 2.6. Neft sivilizasiyası

Türk mənşəli isim adını daşıyan neft (*oil*) korbohidrogen (*hydrocarbons*) tərkibli, təbii aqreqat halı maye strukturlu üzvi maddə olan mühüm enerjidaşıyıcıdır. Qədim şumerlər onu "müqqəddəs su" -"esir" və ya "dağ yağı" - "şanan şadi", çinlilər "sziyu", assuriyalılar "naptu", ingiləslər "mineral yağ", farslar işıltı mənasını verən "nafta", slavyanlar hindavropa mənşəli yara, yerin qanı kimi interpretasiya olunan "rapas" sözündən çıxış edərək "ropanka" və ya "ropa", yunanlar "naphta", romalılar daş yağ mənasında "birumen" və ya "oleum perate" adlandırmışlar. Sonradan avropa məkanında bu söz "petrolium" kimi geniş yayılmış və nəhayət, qısa olaraq "oyl" isminə çevrilmişdir. Belə hesab edilir ki, sonuncular onu yunan daş sözü "petros"dan və latınca yağ sözü "oleum"dan götürmüşlər. Lakin bütün bu təqdimatlara baxmayaraq "neft" sözünün özgələşdirilməsi baş tutmamışdır. Bu reallıq isə, indiki görüntülərdəki kimi, onun Abşeron torpağında ilk olaraq ən qədim zamanlardan başlanğıc alan istismarı ilə bağlıdır.

Neft min illər öncədən insana məlum olsa da, sənaye epoxasına qədər onun miqyaslı istehlakını və axtarışını xüsusi maraq obyektinə çevirməmişdir. Qədim zamanlarda Misirdə, Hind və Çində, Farsiyada, Malay arxipelağı arealında mağaralarda, açıq çuxurlarda, palçıq vulkanlı ərazilərdə, mərcanlı zolaqlarda rast gəlinən neftin varlığı haqqında İncil hekayətlərində, "tarixin atası" adlandırılan məşhur antik yunan tarixçısi Herodotun (*b.e.ə. 484-425-cı illər*), qədim yunan yazıçısı və filosofu, ictimai xadim Plutraxın (*46-127*), digər alim və tarixçilərin əsərlərində məlumatlar əksini tapmışdır. Hələ 6 min il öncə Fərat və Dəclə çayları arasındakı torpaqlarda məskunlaşan şumerlərin qətran material - neft bitumu ilə təmasları olmuşdur. Antik dünyada "yunan atəşi" adlanan neftdən hərbi əməliyyatlarda, orta əsrlərdə isə məişətdə və şəhər təsərrüfatında, konkret olaraq, Sisiliyada çıraqların yandırılmasında, XVIII əsrdə Genuyada küçələrin işıqlandırılmasında istifadə olunmuşdur. Şimali Amerikada hindu qəbilələrinin dərin olmayan quyulardan çıxardıqları "şeneki", boylar ölkəsi Bohemiyada "kvirinus" adlanan neftli yağlar isə tətbiqini müalicəvi vasitə kimi təbabətdə tapmışlar. Qədim Azərbaycan ərazisində neft və qazın özbaşına yanması amilinə əsaslanaraq atəşpərəstlər məbədlər yaratmışlar. Bütün bu hadisələr neftin bəşəri sivilizasiyaya xidmət etməsindən xəbər versə də, onu əlahiddə bir sivilizasiya yaranışında təzahürə gətirməmişdir.

Neftlə bağlı ədəbiyyatlarda və ensiklopediyalarda onun yaratdığı əlahiddə sivilizasiyanın məkan və zaman tarixinin öncüllüyünü qəti əks etdirən məlumatlara rast gəlinmir. Lakin bunlara baxmayaraq neft sivilizasiyasının qlobal çevrədə geniş təşəkkü-

lünün XIX yüzilliklə bağlılığı yəqinlik doğuran bir gerçəklikdir. Məhz XIX əsrdə Avroatlantik məkanda cərəyan edən inqilabi texniki tərəqqi stimulları neft siviliza-siyasının industrial obrazda yaranışının attraktoruna çevrilmişdir.

Neftin özünün sənaye baxımından dəyərləndirilməsində isə, mühüm amil olaraq, 1826-cı ildə ABŞ-da duz axtarışı üçün qazılan quyunun neft verməsi hadisəsi göstərilir. Bu hadisəni də yalnızlıqda neft sivilizasiyasının başlanğıc məqamı kimi qiymətləndirmək olmaz. Duz əvəzinə neft kəşfi epopeyasından bir neçə onillik sonra neftin energetik gücünün dərk həlqəsinin genişlənməsi onun böyük axtarışını daha dərin mətləbli maraqlara cəlb etmişdir. 1859-cu ildə Qərbi Pensilvaniya düzündə amerikalı polkovnik Edvin Lorentayn Dreyk (*1819-1880*) artezian üsulu ilə qazma apararaq miqyaslı neft aşkarlamış və nəticəvi olaraq bu olay neft adlanan həyəcanda yeni sivilizasiya mərhələsinnin başlanğıc nöqtəsinə çevrilmişdir. Burada bir reallığı da nəzərə almaq lazımdır ki, dünyada mexaniki üsulla ilk neft quyusu (*oil well*) ABŞ-dan 13 il öncə 1846-cı ildə Bakıda qazılmışdır. Belə ki, 1846-cı ilin yanvarında Bakı neft və duz mədənlərinin direktoru, dağ mühəndisləri korpusunun podpolkovniki, rus alimi, geoloq Nikolay İvanoviç Voskoboynikovun (*1803-1846*) rəhbərliyi ilə Bibiheybət yatağında iki quyunun qazılmasına başlanılır. Onlardan biri 21 metr dərinlikdən neft verir və bununla da dünyada sənaye üsulu ilə neft hasilatının əsası qoyulur. Bu hadisə Qafqaz canişini knyaz Mixail Semyonoviç Vorontsovun (*1782-1856*) 1847-ci il 8-14 iyul tarixlərində imzaladığı hesabatlarda da dünyada ilk neft quyusunun Xəzər dənizinin sahilində qazılması faktı kimi təsdiqini tapmışdır. Bunlara baxmayaraq, rus neft tarixinin tədqiqat səhifələrində ABŞ-da baş vermiş neft quyusu qazması hadisəsinə paralel qeyd olunur ki, həmin ərəfədə Kuban çayı hövzəsində başqa bir polkovnik - Ardalion Nikolayeviç Novoselyevin (*1816-1878*) mexaniki qazdığı quyunun məhsul verməsi ölkədə neft erasının yaranışına gətirmişdir. Bununla belə, neft sivilizasiyasının industrial kaskadda hasilat-emal-istehlak kontekstində təşəkkülünə XIX əsrdə 1807-ci ildə fransalı ixtiraçı Fransua İsaak de Rivaz (*1752-1828*), 1826-cı ildə fransalı fizik və mühəndis, termodinamikanın atası Nikolya Karnonun (*1796-1832*), 1860-cı ildə onun həmvətəni Eten Lenuarın (*1822-1900*), 1876-cı ildə alman mühəndisləri Nikolaus Ottonun (*1832-1891*) və 1897-cı ildə Rudolf Dizelin (*1858-1913*) daxiliyanma mühərrikinin ixtirası və təkmilləşməsi, həmçinin məhsul assortimentinə genişlik gətirən krekinq prosesindəki nailiyyətlər, enerjitutumlu sənaye komplekslərinin yaranışı kimi elmi-mühəndislik təzahürləri rəvac vermişdir.

Bəşəriyyət həyatında misilsiz rol oynayan neft odlar yurdu Azərbaycanın hələ qədim dövrlərdən ən mühüm sərvətlərindən biri olmuşdur. Ümummilli lider Heydər Əliyev qeyd etmişdir ki, "Neftdən geniş istifadə olunması dünyada elmin, texnikanın, iqtisadiyyatın, xüsusilə sənaye istehsalının sürətli inkişafına güclü təkan verərək, insan həyatında köklü dəyişikliyin yaranmasına səbəb olmuşdur. Tarixə "Kerosin dövrü" kimi daxil olmuş XIX əsrin sonu - XX əsrin əvvəllərində neftdən alınan bu məhsul işıq mənbəyi idi. Sonralar qaz və elektrik vasitəsilə işıqlandırma üsulları meydana çıxsa

da, kerosin uzun illər başlıca işıqlandırma məhsulu olaraq qalmışdır. Daxiliyanma mühərrikinin kəşfi isə qeyd olunduğu kimi neftdən istifadədə yeni bir dövr açdı".

Tarixi mənbələr göstərir ki, bütün bü texniki yaranışlardan öncə, hələ XVII-XVIII əsrlərin qovuşuğunda Bakıda ilk olaraq neftçi peşəsinin formalaşdığı və bununla belə, neftin xalqın təsərrüfat həyatının ayrılmaz hissəsinə çevrildiyi gerçək bir yəqinlik olmuşdur. Sonrakı sivilizasia mərhələsi XIX yüzilliyin sonlarında isə neft hasilatı dünyanın müxtəlif guşələrində artıq təşəkkül tapmışdı. Bir sıra nüfuzlu statistik mənbələrdə sənayeləşən neft hasilatının XIX əsr palitrasında yataqların Bakıda 1821-ci ildə, Rumıniyada 1857-ci ildə, ABŞ-da 1859-cu ildə, Meksikada 1887-ci ildə, İndoneziyada 1893-cü ildə aşkarlanma və istismar düzümü göstərilir. Lakin o zamanlar dünyanın iki qütbündə - ABŞ-da Pensilvaniyada və Bakıda hasilat yüksək rentabelli silsilədə müşayiət olunaraq qlobal neft sənayesinin təmərküzləşməsi və inhisarlaşması prosesinə rəvac vermiş, ilk sahəvi sindikatları, biznes qaydalarını, qeyri-kommersiya yönümlü neft cəmiyyətlərini miqyaslılıqla ərsəyə gətirmişdir. Milli neft sənayesində sahibkar funksionallığına əsaslanan neft təsərrüfatçılığı forması yarım əsrə qədər davam etmiş və Azərbaycan Xalq Cümhuriyyəti (*1918-1920-ci illər*) mərhələsində də özəl biznes formatında qalmışdır.

Neft sivilizasiyasının həmin illərlə bağlı müqabil bir məqamının da xatırlanması iqtisadi tarix baxımından əhəmiyyət daşıyır. Belə ki, dünyada ilk neft tankeri, yükgötürmə qabiliyyəti 250 ton olan "Zaroastr" (*Zərdüşt*) 1878-ci ildə və dünyada ilk teploxod *("Vandal")* 1903-cü ildə Xəzərdə hərəkət etmişdir. O dövrlərdə Bakı limanından 40 ölkənin müxtəlif gəmiləri yük daşıyırdı. 1900-cü ildə Bakı limanı quru yük, neft məhsulları və sərnişin daşımalarına görə dünyada birinci yeri tuturdu. 1908-ci ildə isə artıq tutumu 6 min ton olan dəniz tankeri fəaliyyət göstərirdi. 1861-ci ildə Rusiyada bütün sərnişin və yük gəmilərinin 72,5%-i (*296 ədəd*) Xəzərdə işləyirdi. Bu illərdə təkcə dəniz vasitəsi ilə hər il 350 milyon puddan[2] çox neft məhsulları ixrac olunurdu. Ticarət əlaqələrinin genişlənməsi və texnoloji nailiyyətlər Bakı neftinin dünya bazarına çıxışına yeni texniki imkanlar verirdi. Artıq neft logistikasının dəmir yolu müstəvisində inkişafı reallaşmaqda idi. Bu prosesdə 1883-cü ildə Zaqafqaziya dəmir yolunun çəkilməsini xüsusi bir hadisə kimi qeyd etmək lazımdır. Bununla belə, 1888-ci ildə Sabunçu və Suraxanı mədənlərini birləşdirən dəmir yolu xətti işə salınmış, 1900-cu ildə isə Petrovsk-Dərbənd-Biləcəri dəmir yolunda ilk qatarlar hərəkətə gəlmişdir. Kerosinin uzaq məsafələrə boru vasitəsi ilə nəqli isə rus mühəndisi Vladimir Şuxovun (*1853-1939*) rəhbərliyi altında 1896-1906-cı illərdə ölkədə uzunluğu 833 km, boru diametri 200 mm olan Bakı-Batum ilk magistral neft kəməri çəkilişi ilə baş vermişdi. Kəmər 1907-ci ildə daimi istismara buraxılmış 1930-cu ildən isə xam neft daşınmasına xidmət etmişdir.

XX əsrin əvvəllərindən başlayaraq "mazut və benzin dövrü" kimi yadda qalan yeni sivilizasiya mərhələsində neftdən gəmi, parovoz və avtomobil kimi nəqliyyat vasitələri

[2]Metrik ölçü sistemi qəbul olunanadək Rusiyada çəki (*kütlə*) vahidi. 1 pud = 16,38 kq.

üçün istifadə edilməsi onun əhəmiyyətini daha da artırdı və I Dünya Müharibəsi illərində isə neft artıq strateji əhəmiyyətli məhsula çevrildi.

Neft sivilizasiyasının yaranışı və inkişaf prosesləri özünün böyük siyasi fəsadlara səbəb olan xassəsi ilə də yadda qalmışdır. XX əsrin əvvəllərindəki bolşevik inqilabları, 1905-ci ildəki rus-yapon müharibəsi, iki ardıcıl cahan savaşı, Yaxın Şərqin siyasi-seysmik zonaya çevrilisi hadisələri bu qəbildəndir. Bununla belə, qeyd olunmalıdır ki, 1905-ci il rus inqilabı planetin neft sənayesini ilk böhranlı məcraya salan hadisə olmuşdur. Bu ərəfədə Bakıda genişlənən neft işləri bir çox bolşevik liderlərinin inqilabçılar olaraq yetişmələrində, xüsusən, onların əsas liderlərindən olan İosif Stalinin (*1879-1953*) fəhlə kütləsinə rəhbərlik etməkdə təcrübə toplamasında mühüm rol oynamışdır.

Milli dövlətçiliyi qəsb edən bolşeviklər Azərbaycanda sovet hakimiyyəti qurmaqla yeni uzun bir tarixi mərhələnin əsasını qoymuşlar. Onlar neft sənayesini mərkəzi vahid struktur altında nəzarətə götürərək dünya tarixində ilk tam dövlət mülkiyyətli neft-qaz istehsalı kompleksi ("*Azərineft*") yaratmışlar. Sovet hakimiyyəti illərində Azərbaycanda neft hasilatı yeni tutumlu dinamik inkişaf trayektoriyasına çıxışmışdır. Bu dinamizm 1940-cı ildə dünya neft hasilatının mərkəzi Karib hövzəsindən Fars körfəzinə keçəndən sonra, II Dünya Müharibəsi bitənə qədər də davamlı olmuşdur. Ümumiyyətlə, Azərbaycan XX yüzilliyin ilk 30 ilində dünyada neft hasilatının adambaşı və ərazi vahidi üzrə təsnifat göstəricilərində tam mənada lider bir məkan olmuşdur. Bu liderlik ölkənin neft sərvətləri göstəriciləri əsasında hazırlanmış cədvəl 1-dən aydınlığı ilə sezilir.

Cədvəlin məlumatlarına istinad edilən retrospektiv təhlil göstərir ki, Azərbaycan XX əsrin iyirminci illərinin əvvəlinə qədər planetin ən varlı bir məmləkəti olmuşdur. 1940-cı ildə dünya neftinin 62%-ni ABŞ, 9%-ni İran, İraq və Ərəb yarımadası dövlətləri, 19%-ni digər ölkələr və qalan 10%-ni isə SSRİ-nin ¾ pay bölgüsü üstünlüyündə Azərbaycan verirdi.

Azərbaycan nefti, I Dünya Müharibəsində olduğu kimi, II Dünya Müharibəsində də hərbi texnikanın əsas yanacaq mənbəyinə çevrilmişdi. II Dünya Müharibəsi illərində hər dörd sovet tankı və təyyarəsindən üçü Bakı nefti ilə döyüşlərə yollanmışdır.

Müharibədən sonrakı ilk illərdə də ittifaq və dünya neft industriyasının klassik mənzərəsinin əsaslı dəyişkənliyinə baxmayaraq Azərbaycan nefti şöhrət çələngini əldən verməmişdir. Respublika neftçiləri 1948-ci ildə tarixdə ilk dəfə əfsanəvi "Neft daşları"nda açıq dənizdə neft hasilatını gerçəkləşdirən öncüllər sırasında olmuşlar. Bu isə neftin dənizdə qurulmuş polad platformalar üzərindən ilk çıxarış sisteminin yaranışı idi. Bununla belə qeyd olunmalıdır ki, Azərbaycanda neftin dənizdən çıxarılması tarixi daha irəlilərə gedir. Belə ki, iki əsr öncə Xəzərin Bibi-Heybət sahilində usta K.Səlimxanov neft hasilatı məqsədi ilə quyu inşa etmiş, bundan yüz il sonra isə 1904-cü ildə Pirallahı adası sahilində dəniz neftinin yeni axtarış işlərinə başlanılmışdır. Həmin ildən də rəsmi statistikada dənizdəki neftçıxarmanın uçotu başlanır və

| Ölkələr | **Adambaşına düşən hasilat** *(ton)* | | | **Ərazi vahidinə düşən neft hasilatı** *(min ton/min km$^2$ )* | | |
|---|---|---|---|---|---|---|
| | **1901** | **1920** | **1930** | **1901** | **1920** | **1930** |
| Azərbaycan | 3,944 | 1,35 | 4,120 | 94,25 | 33,33 | 118,39 |
| ABŞ | 0,121 | 0,539 | 0,975 | 3,14 | 6,09 | 12,78 |
| Meksika | 0 | 3,515 | 0,423 | 0,33 | 13,08 | 2,69 |
| Venesuela | 0 | 0,125 | 6,815 | x | 0,08 | 20,18 |
| Kolumbiya | 0,498 | x | x | x | x | x |
| Peru | 0,045 | 0,245 | 0,459 | 0,19 | 0,06 | 1,25 |
| İndoneziya | 0,017 | 0,076 | 0,116 | 0,17 | 1,89 | 3,41 |
| İran | 0 | 0,510 | 0,813 | - | 1,33 | 3,64 |
| Polşa | 0,103 | 0,061 | 0,039 | 4,47 | 2,24 | 1,92 |
| Rumıniya | 0,085 | 0,158 | 0,585 | 0,06 | 4,62 | 23,11 |
| Kanada | 0,038 | 0,003 | 0,019 | x | x | 0,02 |
| Argentina | 0 | 0,024 | 0,087 | x | 0,008 | 0,43 |
| Ekvador | 0 | 0 | 0,129 | x | x | 0,70 |
| Misir | 0,3 | 0 | 0 | 0,026 | x | 0,25 |
| Yaponiya | 0,004 | 0,005 | 0,005 | 0,01 | 0,02 | 0,81 |

**Cədvəl 1. XX yüzilliyin ilk 30 ilində dünyada neft hasilatının adambaşı və ərazi vahidi üzrə təsnifat göstəriciləri**

Azərbaycanın Xəzər şelfində hasilatın illik 8 min ton olduğu qeyd edilir. 1909-cu ildə isə dənizdə Bibi-Heybət buxtasında sahilin quruldulması zəminində ilk dəniz mədəninin yaradılmasına təşəbbüs göstərilir. Lakin geniş inşaat işləri 1922-ci ildə vüsət alır. Artıq 1930-cu illərdə Xəzər sahillərində neftin hasil edilməsi daha çox real xarakter almağa başlamışdır. 1939-cu ildə Pirallahı adasının şimal akvatoriyasında metal dirəklər üzərində ilk qazma qurğusu qurulmuşdur. Sovet statistikasının məlumatlarına görə, dünyada ilk dəfə olaraq trubinlə maili quyu 1941-ci ildə usta neftçi Ağa Nemətullanın iştirakı ilə bu buxtada qazılmışdır.

Uzun illər Azərbaycan neft sənayesində hasilat prosesləri intensiv və ekstensiv xarakterli olunmuş, ciddi ekoloji pozuntularla müşayiət edilərək sahəyə yönələn investisiya məhdudluğu və ləng texnoloji yeniləşmə nəticəsində artıq 1960-cı illərdən başlayaraq ehtiyatlar vaxtından əvvəl tükənmə mərhələsinə qədəm qoymuşdur. Digər tərəfdən Qərbi Sibirdə aşkarlanan nəhəng neft-qaz yataqları, oradakı hasilatın fontan xarakterliliyi və yüksək debitliliyi Azərbaycanın neft-qaz sənayesinin perspektivlərinə sovet hökumətinin marağını azaltmışdır. Bu və ya digər səbəblərdəndir ki, artıq 1970-ci illərin əvvəllərində Azərbaycan neftinin ölkə balansında payı 5%-ə enmişdir. 1980-

ci illərin yenidənqurma epoxasında və Sovet İttifaqının dağılması ərəfəsində kəskinləşən investisiya qıtlığı ilə əlaqədar Azərbaycan neft sənayesinin problemləri bir qədər də artmış, hasilat daha miqyaslı templərlə enməyə başlamış və bütünlükdə isə respublika iqtisadiyyatı dərin staqnasiyaya keçid etmişdir.

Azərbaycanın ən yeni neft tarixi dövlət müstəqilliyinin bərpası mərhələsindən başlanır. Bu tarixi yaranış mənbəyi Azərbaycan xalqının ümummilli lideri, milli düha Heydər Əliyevin əsasını qoyduğu və "Əsrin müqaviləsi" ilə reallaşan neft strategiyasından qaynaqlanmışdır. Bu strategiyanın fundamentallığının təminatında məxsusi üstün rolu və səyləri ilə fərqlənən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin əməli fəaliyyət və yaradıcılıq əzmindən qaynaqlanaraq ölkənin neft sektorunda, bütövlükdə dövlət quruculuğunda islahatlar prosesi daha möhtəşəm məzmun almışdır.

"Yeni Əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti"ndə ümummilli lider Heydər Əliyev qeyd etmişdir ki, "XX əsr bəşər tarixində nə qədər mühüm hadisələrlə zəngin olsa da, qətiyyətlə demək olar ki, bu əsri səciyyələndirən, onun simasını müəyyən edən başlıca cəhət elmi-texniki tərəqqinin misli görünməmiş böyük vüsət alması olmuşdur. XX əsrdə əldə edilmiş bütün elmi-texniki nailiyyətlərin təməlində isə məhz neft durur. Enerji mənbəyi, yanacaq məhsulu kimi nefti əvəz edə biləcək müxtəlif maddələr və üsullar tapmaq yolunda aparılan axtarışlarda bir çox uğurlar qazanılsa da, təbiətin bəşəriyyətə bəxş etdiyi bu olduqca əlverişli xammalın tam ekvivalenti hələ ki, tapılmamışdır. Neftin elmi-texniki tərəqqidə, dünya iqtisadiyyatının inkişafında oynadığı böyük rol XX əsrdə onu ayrı-ayrı ölkələrin daxili və xarici siyasətinin beynəlxalq siyasətin təsirli amillərindən birinə, mühüm coğrafi-siyasi və coğrafi-strateji amilə çevirdi. Neft mənbələri, neft bazarları uğrunda gedən kəskin mübarizə dünyada qüvvələr nisbətinin formalaşmasına, beynəlxalq siyasətin gedişinə öz güclü təsirini göstərdi. Tarixin belə bir təəssüf doğuran gerçəkliyi də var ki, bəzi neftçıxaran ölkələr bu qiymətli sərvətdən öz xalqlarının firavanlığı və tərəqqisi üçün istifadə etmək imkanından uzun illər ərzində məhrum olmuş, böyük dövlətlərin güclü təzyiqi nəticəsində müstəqil siyasət yeritmək imkanını itirmişlər. Həmin ölkələrin xalqları öz təbii sərvətlərinin tam sahibi olmaq uğrunda həmişə mübarizə aparmış və öz məqsədlərinin həyata keçirilməsinə bu və ya digər dərəcədə nail olmuşlar".

Reallığı əks etdirən tarixi faktlar bir daha onu göstərir ki, neft sivilizasiyasının təşəkkülündən bəri neft-qaz resursları potensialı dünya siyasətində başlıca strateji hərbi və diplomatik qüvvə, siyasi-iqtisadi strategiyanın formalaşması mənbəyi, milli gücün mühüm faktoru hesab edilməkdədir. Neft və qaz müasir zamanda da zəruri istehsal, iqtisadi-maliyyə resursu olmaqla sənaye potensialının əsas energetik komponentdir. Sosial qüdrəti, şəhəryaratma və aqlomerasiya effekti mühüm olan bu resursa istinadən, bəşər cəmiyyəti ayrılıqda və həmçinin iqtisadiyyatın bütün sahələrində özünü lazımi enerji, nəqliyyat xidməti ilə təmin etmiş olur. Obrazlı deylimdə neft-qaz kompleksi iqtisadiyyatın investisiya istiliyini təmin edən ən güclü və rahat sektor funksiyasını yerinə yetirir. Neft bənzərliyində dağ-mədən sənayesinin heç bir sahəsində analoji

yüksək inkişaf templəri müşahidə olunmamışdır. 1859-cu ildə dünyanın neftə olan tələbi min tonlarla ölçüldüyü halda, artıq XX əsrin əvvəllərində 40 milyon, XXI əsrin başlanğıcında isə 2,5 milyard tona bərabər olmuşdur. XX əsrin ilk ilində 21,2 milyard ton olmaqla dünya neft hasilatının 50%-dən çoxu Azərbaycanın payına düşmüşdür. Qlobal sənayeləşmənin sürət aldığı dövrlərdə - 1900-1970-ci illər kəsiyində hər 10 il ərzində dünya neft hasilat iki dəfə artmışdır. Tam bir əsr ötdükdən sonra XXI əsrin əvvəlində bu yüksəliş 158 dəfə artaraq 3,34 milyard tona çatmışdır. Bundan başqa 1900-cu ildə neftçıxaran ölkələrin sayı 13 idisə, hazırda bu say 100-ü ötüb keçmişdir.

Altı min illik tarixi olsa da, XIX əsrdə sənaye xarakteri almış neft məhz XX yüzillikdə yetərli bir yüksəliş yolu keçmişdir. Bu əsrdə dünya səthində 260 milyard ton neft kəşf edilmiş, yerin təkindən 121 milyard ton neft hasil olunmuşdur. Hazırda hasilat artımı templəri istehlak templərini üstələsə də, mövcud dünya neft ehtiyatlarının (*oil stocks*) istifadə müddəti 40 ildən bir qədər çox vaxta hesablanır. İndi hər gün planetimizdə 10,3 milyon ton neft hasil olunur. Neftin sənaye epoxasının ilk yarıməsrlik mərhələsinin hasilat tarixinə nəzər yetirdikdə görərik ki, böyük tərəqqi ilə müşayiət olunan bu illər ərzində 122 dəfədən çox artım qeydə alınmışdır. Neft hasilatının qərarlaşan göstəricilərinə istinadən XIX əsrdə dünyada 400 milyon ton neft hasil edilmişdir ki, bunun da 140-150 milyon tonu Azərbaycanın payına düşmüşdür. Sənayeləşən neft hasilatı dövrünə qədər isə ölkəmizdə təqribən 60-65 milyon neft çıxarıldığı təxmin edilir. Azərbaycanın neft tarixinin sonrakı mərhələlərində: 1872-1920-ci illərdə 237,4 milyon, 1921-1940-cı illərdə 243,0 milyon, 1941-1949-cu illərdə 128,8 milyon, 1950-1980-ci illərdə 543,2 milyon, 1981-1991-ci illərdə isə 126,6 milyon ton neft hasil edilmişdir. 1971-ci il martın 28-də Azərbaycanda 1 milyard ton neftin (*1871-ci ildən hesablanmaqla dənizdəki hasilatla birlikdə*) çıxarılmasına nail olunmuşdur. Bütünlükdə SSRİ zamanında (*1920-1991-ci ilər*) Azərbaycanda 1041,6 milyon neft çıxarılmışdır.

Tarixi faktlar bir daha göstərir ki, şərəfli yol qət edən Azərbaycan öz nefti ilə qlobal neft sivilizasiyasına önəmli töhfələr vermişdir. Bu töhfələri dünya neft sivilizasiyasının müasir dövrə qədər ən mühüm özəl və dünya hadisələri xronologiyasında aşağıdakı təqdimatda konkretləşdirmək olar[3]:

***Bizim eradan əvvəl V-III əsrlər:*** Neft haqqında ilk xatırlatmaların Bibliya yazılarında və antik yunan tarixçiləri Herodot və Plutraxın əsərlərində əks sədası;

***Bizim eradan əvvəl IV əsr:*** Makedoniyalı İsgəndərin Şərq yürüşündə qədim Azərbaycan ərazisində neftlə yanan çırağın ona təqdim olunması;

***Bizim eradan əvvəl III-II əsrlər:*** Hərbi döyüşlərdə "yunan atəşi" adlanan neftli məhsuldan istifadə;

***Bizim eradan əvvəl III əsr:*** yanar qazların yerin təkindən təbii çıxması hadisəsi ilə Azərbaycan ərazisinin atəşpərəstlik konfesiyasının əsas yayım arealına çevrilməsi və coğrafi təyinatlı "odlar yurdu" toponiminin yaranışı;

[3] Xoronologiyada qeyd edilənlərin əksəriyyəti aparılan təhlillərlə dərsliyin müxtəlif hissələrində ayrıca təsbit olunmuşdur.

***X-XII əsrlər**:* Ərəb və fars alimləri, şair və səyyahları İstaxri Əbu İshaq Əl-Farsi, Əhməd Əl-Belazuri, Əbdül Həsən Məsudi, İbn Misqəveyh, Əbu Dulaf, Yakut Əl-Xəmavi, Xarəzm salnaməçisi Məhəmməd ibn Nəcib Bəkran, Hülakilər dövrünün tarixçisi və coğrafiyaşünası Həmdullah Qəzvini, Azərbaycan coğrafiyaşünası Əbdülrəşid İbn Saleh Bakuvi və digərlərinin əsərlərində Azərbaycan ərazisində neftçıxarmanın intensiv mövcudluğu barədə qeydlər;

***1594-cü il:*** Balaxanı usta Allahyar Məhəmmədnur oğlunun inşa etdiyi quyunun 64 metrlik dəyrinliyə malikliyi faktı;

***1719-cu il:*** Rus çarı I Pyotrun Bakı və Şirvan neft mədənlərini ələ keçirmək məqsədlərini Şərq yürüşü planlarına daxil etməsi;

***1723-cü il:*** Bakı mədənlərinin Rusiyanın nəzarətinə keçməsi ilə dünyada neft uğrunda ilk dövlətlər arası mübarizənin başlanması;

***1729-cu il:*** Bakı neftinin geniş çeşiddə Peterburq apteklərində satışı;

***1729-cu il:*** Abşeronda neft quyularının xəritəsinin tərtib olunması;

***1733-cü il:*** Peterburq EA-nın akademiki S.Q.Qemelin qeydlərində Bakıda 52 neft quyusunun mövcudluq təəssüratları;

***1804-cü il:*** Xəzərin Bibi-Heybət sahilində neft quyusunun inşa edilməsi;

***1806-cı il:*** Bakıda neftçıxarmanın intensivləşməsi və onun hasilatının uçot-hesabat göstəricisinə çevrilməsi;

***1826-cı il:*** ABŞ-da düz axtarışına görə qazılan quyudan neft tapıntısı;

***1831-ci il:*** ABŞ-da Kanaua manufakturasında təbii qazdan ilk istifadə hadisəsi;

***1846-cı il:*** Bakıda dünyada ilk neft quyusunun mexaniki üsulla qazılışı;

***1848-ci il:*** Kanada Geoloji Xidmətinin direktoru Ser Uilyam Edmond Loqanın antiklinal strukturlardan neftin təbii çıxışına təsadüf etməsi ilə neft-qaz yataqlarının axtarış və kəşfiyyatının nəzəri (*antiklinal nəzəriy*yə) əsasının qoyulması;

***1854-cü il:*** Şüşə kolbalı məşhur “Vyana lampası”nın görünməsi;

***1857-ci il:*** Rumıniyada iri neft yatağının aşkarlanması;

***1859-cu il:*** ABŞ-da Qərbi Pensilvaniyada polkovnik E.Dreykin artezian üsullu quyu qazmada nəhəng neft yatağını aşkarlaması ilə dünyada ilk neft həyəcanının başlanğıcı;

***1865-ci il:*** ABŞ-da ilk neftnəqletmə kəmərinin inşası;

***1870-ci il:*** Amerikalı Con Rokfellerin dünyada ilk neft kompaniyası “Standart Oil”u yaratması;

***1871-ci il:*** ABŞ-da Pensilvaniyada ilk neft birjasının açılışı;

***1871-ci il:*** Azərbaycan neft istismarının geniş sənayeləşmə epoxasının başlanğıcı;

***1872-ci il:*** Neftin qiymətlərində ilk titrəyişlər, “Standart Oil” şirkətinin neft sənayesinin strateji seqmentlərini - emal və nəqliyyatı əlinə keçirməsi ilə inhisarçılığın genişlənməsi;

***1873-cü il:*** Norveçli iş adamları Nobellərin Bakıda neft işinin təşkilinə başlamaları;

***1876-cı il:*** Bakı mədənlərində dərinlik nasoslarının tətbiqi;

***1879-cu il:*** Nobellərin Bakıda 1879-cu ildə dünya neft tarixinə ilk şaquli inteqrasiyalı şirkət “Nobel qardaşları” kompaniyasının təsisi;

***1886-cı il:*** Rusiyada ilk dövri neft nəşrinin (*"Trudı Bakinskoqo Otdelenıə İmperatorskoqo Russkoqo Texniçeskoqo Obhestva"*) təşəkkülü;

***1887-ci il:*** Meksikada neft hasilatının başlanğıcı;

***1888-ci il:*** Sankt-Peterburqda neft istehsalını tərənnüm edən ilk Ümumrusiya sərgisinin açılışı;

***1890-cı il:*** "Royal Datç" şirkətinin təsis edilməsi;

***1890-cı il:*** Bakı tərsanələrində ilk neft tankerinin inşası;

***1892-ci il:*** "Şell" neft şirkətinin təsis edilməsi ilə kerosin bazarının oliqopolizasiyasının başlanması;

***1892-ci il:*** "Mureks" şirkətinə mənsub tankerin Bakı benzini ilə Suveyş kanalını keçərək Sinqapur və Bankonq limanlarına göndərişi;

***1892-ci il:*** Rusiya İmperiyasının maliyyə naziri İ.Vitte rəhbərliyi zamanında imperiya büdcəsinin mədaxil hissəsinə neft gəlirlərinin daxil edilməsinə başlanması;

***1893-cü il:*** İndoneziyada neft hasilatına başlanması;

***1898-ci il:*** Bakıda neft hasilatı həcminin ABŞ-ı ötməsi;

***1897-1906-cı illər***: Limanlararası ən uzun magistral olan "Bakı-Batumi" neft kəmərinin inşası və açılışı;

***1904-cü il:*** Pirallahı adası sahilində neft hasilatına başlanması;

***1904-cü il:*** Britaniya donanmasının daş kömürdən neft yanacaqlı sistemə keçidi;

***1907-ci il:*** ABŞ-ın Missuri ştatında avtomobillər üçün ilk yanacaqdoldurma stansiyasının açılışı;

***1908-ci il:*** İranda neft hasilatına başlanması;

***1909-cu il:*** İraqda neft hasilatına başlanması;

***1909-cu il:*** Bibi-Heybət buxtasında ilk dəniz mədənin yaradılması;

***1909-cu*** il: İngilis-Fars neft şirkətinin təsis edilməsi (*1954-cü ildə "Bitriş Petrolium");*

***1911-ci il:*** ABŞ Ali Məhkməsinin qərarı ilə "Standart Oil" kompaniyasının Standart Oil New Cersy (*hazırda Exxon*), Standart Oil Ohio (*hazırda BP America*), Standart Oil Indiana (*hazırda Amoco*), Standart Oil New York (*hazırda Mobil Gas*), Standart Oil Californiya (*hazırda Chevron*) və Standart Oil (*ConocoPhillips*) şirkətlərinə parçalanması;

***1911-ci il:*** İlk dəfə olaraq benzin tələbinin kerosini üstələməsi;

***1911-ci il:*** ABŞ-da Pensilvaniyada ilk dəfə svuruma metodu ilə layveriminin artırılmasının tətbiqi;

***1920-ci il:*** Rusiyada dünyada ilk dəfə olaraq neft sənayesinin milliləşdirilməsi və bu səbəblə də Qərbin rus neftinin alınmasını boykot etməsi;

***1920-ci il:*** İlk tam dövlət mülkiyyətli "Azərineft" neft şirkətinin təsisi;

***1926-cı il:*** İlk dəfə dünya neft ehtiyatlarının tükənməsi haqqında proqnozların dövriyyə çıxışı;

***1928-ci il:*** Dünyanın aparıcı nəhəng neft kompaniyalarının prezidentlərinin neft qiymətlərini sabitləşdirmək məqsədi ilə bir araya gəlməsi;

***1929-cu il:*** Azərbaycan Neft Sənayesi Elmi -Tədqiqat İnstitutunun təsisi;

***1930-cu il:*** Şərqi Texasda açılan nəhəng yatağın neftin qiymətinin aşağı düşməsinə və bununla da ilk dəfə neftin qiymətlərinin tənzimlənməsinə rəvac verməsi;

***1930-cu il:*** Moskvada İ.M.Qubkin adına neft-qaz institutunun açılışı;

***1934-cü il:*** Küveytdə neft hasilatının başlanğıcı;

***1938-ci il:*** Səudiyyə Ərəbistanında neft hasilatının başlanğıcı;

***1938-ci il:*** Meksikada neft sənayesinin milliləşdirilməsi;

***1939-cu il:*** Pirallahı adası sahilində açıq dənizdə metal dirəklər üzərində ilk qazma qurğusunun inşası;

***1941-ci il***: Bakıda Xəzərin Bayıl qəsəbəsi sahilində, o zaman İliç buxtası adlanan ərazidə dünyada ilk maili turbinli quyunun inşası;

***1941-ci il***: Azərbaycanda quru ərazilərdə pik hasilat - 23,451 milyon ton neft;

***1947-ci il:*** Meksika körfəzi şelfində neft yatağının aşkarlanması;

***1948-ci il:*** Neft daşlarında neft-qaz yataqlarının açılışı;

***1948-ci il:*** ABŞ-ın neft idxalçısına çevrilməsi;

***1950-ci il:*** Ərəb-Amerikan neft şirkəti "Aramko" Səudiyyə Ərəbistanıından Aralıq dənizinin Suriya və Livan sahillərinə yetişən nəhəng neft kəmərinin inşası;

***1950-ci il:*** İngilis-İran şirkətinin milliləşdirilməsi, Britaniyanın İran neftini boykot etməsi, müharibədən sonrakı ilk ***- Birinci neft böhranı***;

***1953-cü il:*** Səudiyyə Ərəbistanı ilə İraqın neft sənayesinin vəziyyəti haqqında informasiya mübadiləsi (*neft tarixində bu qəbildən dövlətlərarası ilk saziş*);

***1956-cı il:*** Neft daşımalarının mühüm arteriyası Suveyş kanalının bağlanması, ***İkinci neft böhranı***;

***1956-cı il:*** Əlcəzair və Nigeriyada neft hasilatının başlanğıcı;

***1959-cu il:*** Liviyada neft hasilatının başlanğıcı;

***1959-cu il:*** Avropa qaz sənayesinin təməlini qoyan dünya qaz nəhəngi "Qroningen" (*Niderland*) yatağının açılışı;

***1960-cı il:*** Qərbi Sibirdə ilk neft yatağı "Şaimsk"in açılışı;

***1960-cı il:*** OPEK-in təsis edilməsi;

***1964-cü il:*** Şimal dənizində axtarış-kəşfiyyat işlərinin başlanması;

***1964-cü il:*** Sıxılmış təbii qazın kontinentlərarası təchizatının müntəzəmləşməsi;

***1967-ci il:*** Ərəb-İsrail müharibəsi ilə "Aramco"nın ABŞ və Böyük Britaniyaya neft satışına embarqo qoyması, ***Üçüncü neft böhranı***;

***1969-cu il:*** Qərbi Sibirdə nəhəng "Samotlor" yatağının açılışı;

***1969-cu il:*** Şimal dənizində neft hasilatının başlanğıcı;

***1969-cu il:*** Liviyada neft sənayesinin milliləşdirilməsi;

***1971-ci il:*** Azərbaycanda 1 milyardıncı ton neftin çıxarılması;

***1973-cü il:*** 20 ildən sonra ilk dəfə yenidən neft tələbinin təklifi üstələməsi;

***1973-cü il:*** OPEK-in hasilatı azaldıb, neftin qiymətini 70% artıraraq İsraillə müharibədə Misir və Suriyanı dəstəkləməsi, ***Dördüncü neft böhranı***;

***1973-cü il:*** İxracat potensialı ildə 22 milyard $m^3$ olmaqla Qərbi Sibir qazının Avropaya nəqlini reallaşdıran nəhəng qaz kəmərinin inşası;

***1974-1976-cı*** illər: Səudiyyə Ərəbistanının "Aramco" şirkətinin mərhələli olaraq milliləşdirilməsi;

***1975-ci il:*** Küveytin "Gulf-BP" konsessiyasının milliləşdirilməsi;

***1976-cı il:*** Venesuelanın "Shell", "Exxon" və başqa xarici neft şirkətlərinin konsessiyasını milliləşdirməklə onları milli "Petroleos de Venesuela" şirkətinə qatması;

***1979-1981-ci illər:*** İran inqilabı, İran-İraq müharibəsi, ABŞ-da, Qərbi Avropada və Yaponiyada neft rezervləri yaradılması praktikasına keçid, neft qiymətinin bir barrelinin 40$-a yüksəlişi, ***Beşinci neft böhranı;***

***1982-ci il:*** OPEK-in ilk dəfə hasilata kvotalar tətbiq etməsi;

***1986-cı il:*** Dünya neft qiymətlərinin bir barrelinin 10$-a qədər enişi;

***1987-ci il:*** Başlıca Səudiyyə Ərəbistanı olmaqla OPEK ölkələrinin birgə səyləri ilə neft qiymətlərinin bərpası;

***1990-1991-ci illər:*** İraqın Kuveytə ihərbi müdaxiləsi, BMT-nin İraqa sanksiyalar tətbiq etməsi, ***Altıncı neft böhranı;***

***1991-ci il:*** SSRİ-nin süqutu;

***1993-1994-cü illər:*** Rusiyada neft kompleksinin özəlləşdirilməsinə başlanması;

***1993-cü il:*** Xəzərdə yeni neft bumunun başlanması;

***1994-cü il:*** "Əsrin müqaviləsi"nin imzalanması, "Bakı-Ceyhan" neft kəməri ideyasının yaranışı;

***1995-ci il:*** "Petro-Canada" şirkətinin özəlləşdirilməsi;

***1997-ci il:*** Kiotoda $CO_2$ emissiyasının azaldılması və neft-qaz istehsalına ekoloji pressinqin gücləndirilməsi üzrə beynəlxalq bəyannamənin imzalanması;

***1998-ci il:*** Dünya neft qiymətlərinin bir barrelinin yenidən 10$-a qədər enişi, kiçik neft kompaniyalarının iflası, nəhənglərin isə birləşməsi və ilk dəfə olaraq OPEK-in müstəqil neft ixracatçıları ilə hasilatın məhdudlaşdırılması üzrə sövdələşmələrə girməsi;

***2005-ci il:*** Heydər Əliyev adına Baku-Tbilisi-Ceyhan neft kəmərinin istismara başlanması;

***2008-ci il:*** Neftin qiymətinin 100 ABŞ dollarını keçməsi və ilin ortalarında "Brend" marklı neftin bir barelnin qiymətinin rekord həddə - 143,95 ABŞ dollarına çatması;

***2010-cu il:*** Azərbaycanda pik hasilat - 50,789 milyon ton neft;

***2010-cu il:*** Meksika körfəzində neft platformasında (*Deepwater Horizon*) dünya tarixində ən iri miqyaslı partlayış və yanğın;

***2014-2015-ci illər:*** Neftin qiymətinin kəskin - 50%-dən çox enməsi;

***2016-cı il:*** Neftin qiymətinin XXI üzrə ən aşağı həddə - bir barel 27,5 ABŞ dollarına düşməsi, ***Yeddinci neft böhranı;.***

***2017-ci il:*** "Əsrin müqavilə"sinin 2050-ci ildək uzadılması;

***2017-ci il:*** Azərbaycanda 2 milyardıncı ton neftin çıxarılması;

***2018-ci il:*** "Cənub Qaz Dəhlizi" layihəsinin reallaşması.

Xronoloji qeydlər və ondan irəli gələn digər müvafiq əsaslandırmalar göstərir ki, dünya neft sivilizasiyası ilə bağlı çoxsaylı qlobal səciyyəli hadisələr sırasında Azərbaycanı fərqləndirən, ona prioritetlik və liderlik verən tarixi məqamlar yetərincədir. Belə ki, neft svilizasiyanın ilkləri sırasında Azərbaycan coğrafi baxımdan neftin beşiyi olması, neftlə bağlı salnamə qeydləri, neftçi peşəsinin formalaşması, neft fontanı, neftin apteklərdə satışı, neft quyularının xəritələşdirilməsi, neft amili dövlətlərarası mübarizə amili kimi, mexaniki üsulla neft quyusu, neft işinin uçotu və hesabatlandırılması, neft biznesi və neft istehsalı qurumu, dərinlik nasoslarının tətbiqi, neft sənayesinin milliləşdirilməsi, dənizdə qazma, platforma və hasilat, fiskal mexanizm, mexaniki və turbinli maili üsullu qazma, şaquli inteqrasiya olunan şirkət, neft tankeri, limanlararası ilk neft nəql edən magistral kəmər aspektləri yer alır. Lakin bütün sadalananlar heç də Azərbaycanın qlobal neft sivilizasiyasında tutduğu mövqeyi, verdiyi töhfələr qammasını tamılıqla ifadə etmir. Bu sıraya dünya neft elmi və mühəndisliyinin inkişafında, geoloji-axtarış və kəşfiyyat sahəsində, həmçinin qazma və istismarda da əldə edilən elmi-texniki nailiyyətlər, istehsalın idarəetmə innovasiyaları və Azərbaycan neft sivilizasiyasının digər effektyaradıcı xüsusiyyət və məqamları da qatılır.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin "Yeni Əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti"ndə demişdir: "XX əsrdə Azərbaycanın neft hasilatı, o cümlədən Xəzər dənizində neftçıxarma sahəsindəki uğurları yüksək qiymətə layiqdir. Dünyada neft hasilatı sahəsində həyata keçirilmiş işlərin bir çoxu öz başlanğıcını Azərbaycandan götürmüşdür. Neçə-neçə qazma üsulları, neft texnologiyaları, dənizdə neft çıxarılması üçün yaradılmış nadir Neft Daşları şəhəri Azərbaycan mütəxəssislərini bu sahədə dünyada aparıcı mövqelərə çıxardı. Keçmiş SSRİ-nin yeni yaranan neft rayonlarının "İkinci Bakı", "Üçüncü Bakı" adlandırılması buna əyani sübutdur. Ölkəmizdə neftçıxarmanın inkişafı elmin kimya, neft kimyası, geologiya kimi, sənayenin neft maşınqayırması, neftayırma, boru-prokat istehsalı, kimya, neft kimyası kimi sahələrinin vüsət almasına təkan verdi. Azərbaycanda neftlə bağlı sahələr üzrə böyük alim və mütəxəssislər ordusu yarandı. Əvvəlki nəsillərin görkəmli nailiyyətlərini inkişaf etdirərək, müstəqil Azərbaycanın bu günü və sabahı üçün böyük tarixi əhəmiyyət kəsb edən neft strategiyasının hazırlanması və həyata keçirilməsi gələcək nəsillər üçün xoş güzəranın təməlini qoydu. Məhz 1994-cü ildə imzalanmış və "Əsrin müqaviləsi" adını almış saziş ilə XXI əsrdə Azərbaycanın dinamik inkişaf yolu müəyyən olunmuşdur".

Dünya energetikasının mühüm komponenti - neft-qaz resursları çağdaş zamanda bəşəri təsərrüfat həyatının substansiyasında dayanır. Bu gün dünya iqtisadiyyatının varlığını neft-qaz resursları olmadan təsəvvür etmək çətindir. Sənaye, kənd təsərrüfatı, nəqliyyat onların stimulları əsasında dövr edir, planetin elektrik stansiyalarının əsas hissəsi neft və qazla işləyir. Müasir zamanda bu resursların iqtisadi dövriyyədən çıxışı və ümumilikdə yoxluğu qlobal energetik aclıq təhlükəsi yaradar, nəqliyyat dayanar, təyyarələr uçmaz, meqapolislər zülmət və soyuğa qərq olar, neft tərkibli yolların asfaltı belə dağılar.

Çətin anlaşılandır ki, təxminən yüz il əvvəl neft kiçik qablarda anginaya (*boğaz limfaidlərinin iltihablı*) qarşı boğazı silmək üçün apteklərdə satılıb. Bu o məqamlar idi ki, dünya əhalisi sayca 1 milyard təşkil edirdi. İndi nefti milyon və milyard tonlarla istehsal edirlər. Proqnozlar belədir ki, dünyanın iqtisadi təkəri azı 30-40 il əsaslı olaraq yenə də neft-qaz resursları potensialına istinadən hərəkətə gələcəkdir.

Lakin bununla belə, müasir neft sənayesinin fəaliyyəti qədər neft erasının bitməsi problemi də əzm və düşüncələrə hakim kəsilmişdir. Tükənmə prosesi industrial dövlətlərin energetik siyasətində, milli təhlükəsizlik konsepsiyasında dərin əks olunmaqdadır. Müvafiq konseptual istiqamət Azərbaycan üçün də istinasızdır. Bu gün reallaşan, təkmilləşən milli neft strategiyası Prezident İlham Əliyevin əməli fəaliyyəti ilə ən geniş çevrədə qəti reallığa çevrilir. Neft-qaz sərvətlərinin insan kapitalına çevrilməsi prosesi vüsətlənir. Bu resurslar ölkə iqtisadiyyatının şaxələndirilməsində, qeyri-neft sektorunun inkişafında əvəzsiz kapital qaynağı olaraq çıxış edir. Milli neft strategiyasının həyata keçirilməsi nəticəsində əldə edilən gəlirlər bir sıra sosial layihələrin icrasına yönəldilir, hər bir vətəndaşın rifahının yüksəldilməsinə öz təsirini göstərir.

Hələ də yenilməz, dayanıqlıqlı təminata malik bəşəri neft sivilizasiyası, karbohidrogen erası davam edir. Neft-qaz sektoru ən öncül və bahalı texnologiyaların və innovasiyaların geniş tətbiq zonası statusunu özündə saxlayır. Azərbaycanın bu sivilizasiyanın ön sıralarında addımlamaq potensialı yenə də tükənməz olaraq qalır.

## 2.7. Konfessional iqtisadi sistemlər

Müasir dünya iqtisadiyyatına nəzər yetirdikdə görərik ki, istənilən iqtisadi modelin genetik kökləri və prinsipləri konfessial amillərdən azad deyildir. Belə ki, din bu və digər dərəcədə ayrı-ayrı dövlətlərin, regional coğrafi ərazilərin və xalqların təsərrüfat həyatının, iqtisadi strukturunun formalaşmasında rol oynamışdır. Tarixi aspektdən yanaşdıqda yəqinliklə görünür ki, elə qədim dövrlərdən xalqların təsərrüfat həyatlarında din aparıcı təsirliliyi ilə dominantlıq təşkil etmişdir. Bu təsirliliyi müxtəlif konfessiyaların ali dini kitablarından aydınlıqla sezmək mümkündür.

Konfessiya (*latınca* - confessi - *etiraf, tövbə və ya din*) müəyyən dini təlimlər daxilində xüsusi dindarlıq, eləcə də bu dindarlığa etiqad edən dindarlar birliyidir.

Qədim Fələstin torpaqlarında yaşayan xalqların formalaşan iqtisadi münasibətlər sisteminin motivlərinin İncildə, iudaizmə sitayişdə qədim yəhudilərin sosial-iqtisadi həyatında insan haqlarını tərənnüm edən təsərrüfat etikasının prinsiplərinin "Tövrat"da geniş səpkidə əksi faktı belə fikirlərə daha dərin əsaslılıq verir. Bu kanonlardan qaynaqlanaraq qədim yəhudilərin sosial və iqtisadi həyat tərzi və məxsusi təsərrüfat etikası ənənəsi formalaşmış, ticarət sferasında pullardan faizlər alınması əməliyyatlarının aparılması fərqli iudey faiz kapitalının yaranışını təmin etmişdir. "İncil"də göstərilir ki, geyim, mənzil, əmək, istirahət və yaşayış haqları ədaləti ehtiva edir. Bütün sərvətlər tanrıya məxsusdur. İnsan öz torpağının, mal-qarasının və əmlakının sahibi deyil, onu

idarə edəndir. Bununla belə, bu təsərrüfat sistemində, prinsipial olaraq, borcların dövri bağışlanması, qulların azad edilməsi, girov qoyulmuş torpaqların qaytarılması tələbli idi. Bu və ya digər müvafiq tələblərə riayət edərək təbii yolla varlanmış insanın sərvətləri ədalətli hesab olunurdu.

Avropa xalqlarının da iqtisadi dövlət modeli xristianlıq və onun təriqətləri zəminində nəzəri və empirik xarakter almışdır. Məhz xristianlıq dininin çevik şəkildə dövlətin siyasətinə qatılması yeni iqtisadi bazisi formalaşdırmışdır. Erkən xristian ədəbiyyatlarında sosial qeyri-bərabərlik, təsərrüfatsızlıq mənəvi mühakimə olunur, ədalətli cəmiyyət yaranışının qaçılmazlığı göstərilirdi. Bu baxımdan qeyd edilməlidir ki, xristianlığın ilkin çağlarının radikal anlarını utopizm baxışlı meyarlar əks etdirirdi**.** Bərabərlik hüququ ideyası ümumi əmək öhdəliyinin təsdiqliyi ilə bağlanır, əmək insanların həyati yaşayışının əsasında dayanırdı. Elə bu gerçək bilinən yanaşmadan da "bölgü əmək müqabilində aparılmalıdır" prinsipi formalaşmışdı. Katolik, provaslav, protestant kimi baş təriqətlərə bölünən böyük xristianlıq dini hər bir müvafiq cərəyana müqabil lokal və regional iqtisadi sistemin əsas komponentinə çevrilərək yeni tipik iqtisadi münasibətləri yaratmışdır. O, özünün industrial təsərrüfatçılıq obrazı ilə seçilərək fərqlənmişdir.

Qədim dünya xalqlarının daha çox məskun olduqları Asiyada əkinçiliyin vüsət aldığı zamanlarda ayrı-ayrı dini dünyagörüşlər, konfessional cərəyanlar dövlətin təsərrüfat həyatının davaranış normalarının ayrılmaz hissəsini təşkil etmişdir. Mərkəzi Asiyada geniş yayılan atəşpərəstlik - zərdüştlük dini burada mövcud dövlətlərin siyasi-iqtisadi və sosial sisteminin beşiyi başında dayanmışdır. Atəşpərəstliyin baş kitabı "Avesta"da iqtisadi etikanı tərənnümü geniş əksini tapmışdır.

Qədim Şərq mədəniyyəti ictimai hökmranlıqla yanaşı, həm də təbiət hakimiyyətindən, həyatın özünün sərt qanunlarından qurtulmaq istiqamətində daha radikal təlimlərin yaranışına zəmin olmuşdur. Təsadüfü deyil ki, bu təlimlər əksərən qədim hind torpağında təşəkkül tapmışdır. Təbii çoxmüxtəlifliklə yanaşı bol isti, fəsli dəyişən tropik leysanlar, cəngəllik yırtıcılarının və zəhərli ilanların geniş növlülüyü insanları təbiət qüdrətinin möhtəşəmliyi qarşısında sıxıntı və məyusluqlara düçar etmişdir. Belə reallıq təbiət qüvvələrinin tanrısal obrazlarının insan təxəyyülündə bütləşmiş yaranışının təcəssümünə gətirmişdir. Nəticəli olmaq etibarı ilə bu məkanda brahmanizm, buddizm, caynizm, induizm və digər bu kimi fəlsəfə və dünyagörüşü dini çərçivədə pərvəriş tapmışdır. Bu dini cərəyanlar tez bir zamanda bütün Cənubi Asiyada regionyaradıcı amilə çevrilərək bir çox etnosların birləşməsini təmin etmiş və yeni iqtisadi reallıqları dövriyyəyə gətirmişdir.

Böyük Çin vadisində də xalqların iqtisadi həyatında dini dünyagörüşün rolu və əhəmiyyəti yüksək olmuşdur. Tarixən, bir sıra ideoloji sistemlərin dəyişməsinə baxmayaraq qədim Çində erkən formalaşan dini cərəyanlar və təriqətlər daim möhtəşəm dövlətin iqtisadi siyasətinin prioritetlərini müəyyən etmişdir. Bir-biri ilə balanslaşaraq Çində müxtəlif dini-fəlsəfi cərəyanlar daosizm, konfutsianlıq, moizm, legizm iyerxial

paternalizmin ideoloji, fəlsəfi və nəhayət, iqtisadi təməlinə çevrilmişdir. B.e.ə. IV əsrdə legizmin "konstitusiyası" sayılan "Şan vilayətinin hakiminin kitabı" traktatında Çin dövlətçiliyinin siyasi-iqtisadi prinsiplərinin sosial tərənnümü əksini tapmışdır. Çin təsərrüfatçılığının iqtsadi formasının düzümündə buddizmin yetərli iştirakı da danılmazdır. Dini çoxsaylılığı ümumi iqtisadi, sosial və siyasi həyatda bərabərləşdirmək üçün qədim Tan imperiyası üç təlim padşahlığı elan olunmuşdur. Bu proses isə, öz növbəsində, onların böyük bir arealda - Koreya və Yaponiyada da yayılmasını şərtəldirmişdir.

Müsəlman dünyasnın da təsərrüfat sisteminin özəkləri, adekvat olaraq, islam dininin təməlləri üzərində qurulmuşdur. Belə adekvatlıq bu və ya digər çalarda buddizm, iudaizm və başqa irili-xırdalı dinlərin areal zonasında mövcud olsa da, islamda öz sosial, iqtisadi və hüquqi tutumluluğu ilə köklü fərqlənmişdir. Bu, ilk növbədə, islamın iqtisadi etikasının bəşəriliiliyindən irəli gəlmişdir. Müsəlman xalqların təsərrüfat həyatının və sosial mədəniyyətinin formalaşmasında islamın etik dünyagörüşü bütün çevrələrdə hakim olmuşdur. Daha gənc din olan islamın təsərrüfatçılıq prinsiplərinin mahiyyəti müqəddəs "Qurani-Kərim"də aydın və geniş şərhini tapmışdır. İslam iqtisadiyyatının praktiki müstəvidə gerçəkləşən mahiyyətini isə empirik materiallarda axtarmaq gərəklidir. "Qurani-Kərim"də təsbit edilən qaydalar şəriət toplumunda şərh olunaraq aydınlığını artırmışdır. Şəriət müsəlmanın hüquqlarının, sosial-iqtisadi həyatının normallaşması mexanizmi kimi islam dövlətlərinin konstitusiya dayaqlarını təşkil etmişdir.

Beləliklə, <u>konfessional iqtisadi sistemlər</u> iqtisadi modelin genetik kökləri və prinsiplərinin konfessional amillərlə bağlılığında ehtiva olunan iqtisadi sistemləri ehtiva edir.

### 2.8. Dünya iqtisadiyyatının formalaşma mərhələləri

Dünya iqtisadiyyatının təşəkkülü mürəkkəb və uzun tarixi yol keçmişdir. Bir sıra tədqiqatçılar onun yaranışını Roma imperiyası zamanları ilə bağlayır, digərləri isə qızıl, nəcib metallar, qullar, ədviyyatlar və s.-lə beynəlxalq ticarətin inkişafının sürətləndiyi XV-XVI əsrlərdəki böyük coğrafi kəşflər dövrünə aid edirlər. Lakin qeyd olunmalıdır ki, dünya təsərrüfatı bu dövrlərdə məhdud xarakterli olmuş və yanız tacir kapitalı sferasında görüntü vermişdir.

<u>Böyük coğrafi kəşflər</u> (*age of discovery*) Avropada böyük tələblə istifadə olunan malların və yeni ticarət partnyorlarının axtarışı ilə əlaqədar avropalıların XV əsrdən başlayaraq XVII əsrə kimi davam etmiş Afrika, Amerika, Asiya, Avstraliya və Okeaniyaya səyahətləri nəticəsində yeni dəniz marşrutlarının açılması və yeni torpaqların kəşfi üzrə bəşər tarixi mərhələsini əhatə edir.

Tarixi materialların tədqiqi göstərir ki, dünya iqtisadiyyatının təşəkkülünün ilkin mərhələsi sənaye çevrilişləri ilə bağlı feodal təsərrüfatı üzərində qələbədən, bununla da hakim kəsilən azad rəqabətdən başlanğıc götürür. XIX əsrin ortalarında kapitalist istehsalı dünyəvi xarakter alır və kapitalın təkrar istehsalı isə beynəlmiləlləşir. Dünya

iqtisadiyyatının formalaşmasına sonrakı mərhələdə inhisarların yaranışı, kapital ixracının genişlənməsi və dünya sosialist sisteminin təşəkkülü təkan vermişdir.

Şəkil 2-də dünya iqtisadiyyatının formalaşması mərhələlərinin təsnifatlandırılması öz əksini tapmışdır:

Dünya iqtisadiyyatının təşəkkülü prosesində sənaye (*industrial*) inqilablarının da əhəməyyəti böyük olmuşdur. İndustrial inqilablar (*industrial revolutions*) XVIII-XIX əsrlərdə əl əməyindən maşınlı, manufakturadan fabrik istehsalına keçidlə bağlı dünyanın aparıcı dövlətlərində müşahidə olunan böyük sənaye inqilabından başlanğıc alan inqilablar silsiləsidir. Birinci industrial inqilab cəmiyyətin aqrar iqtisadiyyatdan sənaye istehsalına keçidini təmin etmişdir. Bu inqilab sudan və buxar dartısından istifadə edərək əməyin mexanikləşdirilməsini, daxiliyanma mühərrikinin kəşfi ilə isə maşın istehsalını və karbohidrogen hasilatının sənayeləşməsini bərqərar edərək industriallaşmaya təkan vermişdir. İkinci industrial inqlab isə kütləvi istehsalın miqyaslarının artması və inkişafının genişləndirilməsi üçün elektrikdən istifadə etmişdir. Üçüncü industrial inqilab istehsalın avtomatlaşdırılması üçün elektronika və informasiya texnologiyalarından istifadəni təmin etmiş və hal-hazırda da bu proseslər davam etməkdədir. Dördüncü industrial inqilab rəqəmsal inqilab olaraq XX əsrin ortalarında üçüncünün əsasında təşəkkül tapmışdır. Onun xarakterik cəhətini maddi, rəqəmsal və bioloji dünyalar arasında ilkin sərhədlərin yuyulması əsasında

| Mərhələ | Davametmə | Xüsusiyyətlər |
|---|---|---|
| *I* | XV-XVII əsrlər | Dünya kapitalist bazarının təşəkkülü:<br>- böyük coğrafi kəşflər<br>- müstəmləkələrin yaranışı<br>- qiymətlər inqilabı<br>- manufakturalar dövrü |
| *II* | XVIII-XIX əsrlər | Dünya kapitalist bazarının formalaşması, beynəlxalq əmək bölgüsünün təşəkkülü və inkişafı:<br>- sənaye çevrilişi<br>- burjua inqilabı<br>- manufakturalardan fabrik sistemə keçid |
| *III* | XIX əsrin sonu - XX əsrin birinci yarısı | Beynəlxalq əmək bölgüsü sisteminin və bu əsasda dünya təsərrüfatının formalaşması:<br>- elktrotexniki inqilab<br>- daxil yanma mühərriki<br>- dünyanın iqtisadi cəhətdən bölüşdürülməsi<br>- inhisarçı kapitalizmə keçid |
| *IV* | XX əsrin 50-ci illərindən zəmanəmizə qədər | Beynəlxalq əmək bölgüsü sisteminin fəaliyyət göstərməsi, bütün ölkələrin bir-birindən qarşılıqlı iqtisadi asılılığının güclənməsi:<br>- elmi-texniki inqilab<br>- beynəlmiləlləşmə və inteqrasiya prosesləri |

**Şəkil 2. Dünya iqtisadiyyatının formalaşması mərhələləri**

texnologiyaların birləşməsi təşkil edir. Bu sonuncu industrial inqilab insan tələblərinin, məişət, əmək və asudə həyat da daxil olmaqla, xidmətində dayanaraq kiberfiziki sistemlərin istehsala kütləvi tətbiqi ilə bağlı proqnozlaşdırılan hadisələri əhatə edir. Dördüncü industrial inqilab daha açıq aspektdə istehsalın ultra avtomatlaşdırılması, robot texnikası və süni intelektin biznesdə, hökümətin işində və şəxsi həyatda geniş tətbiqi və həmçinin zaman və məsafədən asılı olmayaraq insanlar və maşınlar arasında mütləq əlaqələr deməkdir. Bu yeni industrial inqilabı çox zaman "Sənaye - 4.0" adlandırırlar.

Dünya iqtisadiyyatının formalaşması prosesi bitməmiş qalır. Mikro və makro müstəvidə təkrar istehsalın əsas parametrləri, əmək məhsuldarlığı, istehlak səviyyəsi, ÜDM-in sektorial strukturu, beynəlmiləlləşmənin dərəcəsi kimi amillərin yetərli genişlikdə olmaması bu prosesin tamamlanmadığına dəlalət edir. Yüksək effektivlik mənbəyi kimi qəbul edilmiş rəqabət və optimal təsərrüfatçılıq qərarlarının axtarışının hələ də müəssisə səviyyəsində qalması buna əlavə əsaslar yaradır.

## 2.9. Dünya bazarının təşəkkülü

Dünya bazarı beynəlxalq əmək bölgüsünə və istehsalın digər amillərinə əsaslanan ölkələr arasında dayanıqlı əmtəə-pul münasibətləri sferası kimi çıxış edir. Beynəlxalq əmək bölgüsü və beynəlxalq kooperasiya inkişaf edən daxili bazarların tədricən milli sərhədləri aşmaşı ilə dünya bazarının təşəkkülünə zəmin olmuşdur. Tarixi reallıq belədir ki, əmtəə təsərrüfatının yaranışının əmək bölgüsünə əsaslanan daxili bazarın sadə forması ən erkən mərhələdə Qədim Yunanıstanda, Çində, Misirdə, Babilistanda (*Mesopotamiya*), Həbəşistanda və Şimali Afrikada təşəkkül tapmışdır. Bazarlar meydana gəldikdən dərhal sonra, praktiki olaraq, əmək, kapital, pərakəndə, ticarət və s. kimi istiqamətlərdə ixtisaslaşmağa başlamışlar. Həmin bazarların bir hissəsi xarici alıcı tələbinin ödənilməsinə də yönəldilirdi. Qədim zamanlarda belə bazarlar içərisində qulların alqı-satqısını həyata keçirənlər xeyli geniş arealda yayılmışdı. Onların içərisində qul ticarəti mərkəzlərinə çevrilənlər də az deyildi. Belə mərkəzlər Avropanın iri şəhərlərində - Afina, Roma, Lion, Venesiya, sonradan Liverpul, Nant və digər yerlərdə mövcud olmuşdur.

Sonrakı zamanlarda manufaktura malların daha miqyaslı istehsalına şərait yarandığı XVI əsrdən başlayaraq XVIII əsrin ortalarına qədərki dövrlərdə dövlət, dövlətlərarası, regional və dünya səviyyəli bazarların genişlənməsi baş verdi. Avropa, Yaxın Şərq və Uzaq Şərqdə beynəlxalq bazarları təşəkkül tapdı. Böyük coğrafi kəşflər nəticəsində bazar beynəlmiləlləşməsi daha da genişləndi, mallar yeni açılan torpaqlara ixrac olunmağa başlandı.

XIX əsrin birinci yarısında iri fabrik-zavod sənayesi meydana gəldi. Bu yeni tipli istehsal təsisatlarının isə məhsullarının bütün dünyada satılması zərurəti yarandı. Gerçəkləşən belə vəziyyət isə ayrı-ayrı ölkələr arasında ticarətin vahid dünya bazarına

çevrilməsinə gətirib çıxardı. Bu əsrin sonunda dünya əmtəə bazarının inkişafı daha da vüsətləndi və beynəlxalq iqtisadi münasibətlərin intensivləşməsinə təkan verərək beynəlxalq əmtəə ticarəti çərçivəsindən kənara çıxması ilə müşayiət olundu. Beləliklə, ilkin kapital yığımı dövründə dövlətlərarası ticarətin lokal mərkəzləri böyüyərək vahid dünya bazarında birləşdi. Dünya bazarı XIX əsrin sonu - XX əsrin əvvəllərində qabaqcıl ölkələrdə əmtəə istehsalının yüksək inkişaf səviyyəsinə - maşınlarla idarə olunan istehsala çatdığı zamanlarda tam olaraq formalaşdı. Məhsuldar qüvvələrin inkişafı, maliyyə kapitalının (*financial capital*) həcminin artması isə bazar iqtisadiyyatı inkişafının dünya bazarından daha yüksək mərhələsinin - dünya təsərrüfatının meydana gəlməsinə səbəb oldu.

Dünya bazarı forma və məzmunca, klassik təyinatda olduğu kimi, müasir zamanda da dünya təsərrüfatının tələb və təklif sferasını, həmçinin, mal və xidmətlərin kommersiya mübadiləsini təmsil edən tərkib hissəsi kimi çıxış edir. Dünya bazarı bir-biri ilə beynəlxalq əmək bölgüsündə iştirakla əlaqədar dövlətlər, sahibkarlar, kommersiya təşkilatları, müxtəlif dövlətlərin firmaları arasında dayanıqlı əmtəə-pul münasibətləri sistemi olaraq daim inkişaf edir.

## 2.10. Beynəlxalq əmək bölgüsünün genişlənməsi, Şərq və Qərbin iqtisadi inkişaf səviyyələri

XV əsrin ikinci yarısından başlayaraq, bir sıra ölkələrdə, əsasən, iqlim şəraitinin yaxşılaşmasından irəli gələn iqtisadi yüksəliş başlandı. XIV əsrdə ixtira edilmiş odlu silah, ləng də olsa, daim təkmilləşdirilirdi. Dənizçilikdə baş verən dəyişikliklər ənənəvi gəmiçilikdə nəzərəçarpacaq üstünlükləri təmin etdi. XIV əsrdə İtaliyanın zəngin şəhərləri olan Venesiya, Genuya, Florensiya sənaye istehsalı və ticarət mərkəzlərinə çevrildi. Bazar və burjua münasibətlərinin ruşeymləri məhz bu ərazilərdə meydana gəldi.

Bazar münasibətlərinin inkişafında XV-XVII əsrlərin sonundakı böyük coğrafi kəşflər xüsusi rol oynamışdır. Əvvəllər məlum olmayan ölkə və qitələrin kəşf edilməsi, daimi ticarət yollarının qurulması ticarət kapitalının sürətli inkişafına kömək etdi. Şərq malları istehlakçıları onların Avropaya tədarükündə ərəb, türk, italyan inhisarlarından olan asılılıqdan qurtuluş yolları axtarmağa başladılar.

Böyük coğrafi kəşflər müstəmləkə hökmranlığı sisteminin də meydana gəlməsinə səbəb oldu. XVI əsrdə okeanın o tayında fəth edilmiş torpaqlarda Portuqaliya və İspaniyanın ilk müstəmləkə imperiyaları yarandı. Roma papasının təminatçılığı ilə dünyanın bölüşdürülməsi haqqında 1494-cü il müqaviləsinə görə, İspaniya və Portuqaliya meridian üzrə okeanın o tərəfindəki torpaqlarının bölgüsü xəttini müəyyən etdilər. Bu xətdən qərbdə olan bütün müstəmləkələr İspaniyanın, şərqdə olanlar Portuqaliyanın torpaqları elan edildi.

Dünyanın kəşfi və dəniz yollarının intensivləşdirilməsi Qərbi Avropanın inkişafına böyük təkan verdi. Şimal-qərbi Avropa ölkələrində quru daşımalarının həcmi iki dəfə,

dənizlə daşımaları 5-10 dəfə artdı. 1500-1700-cü illər ərzində xarici ticarətin həcmi 3-5 dəfə, o cümlədən Cənub və Şərq ölkələri ilə 15 dəfədən çox artdı. Lakin ticarət mübadiləsi ləngiyirdi. Bu ondan irəli gəlirdi ki, Asiya bazarlarında yerli mallarla rəqabətə davam gətirəcək Avropa malları yox idi. Şərq ölkələri işçi qüvvəsinin potensialına görə qərb ölkələrindən irəlidə idi. Demoqrafik amilin üstünlüyü fərdi sənətkarlığın son dərəcə yüksək səviyyəsinin inkişafına zəmin yaradırdı.

Böyük coğrafi kəşflər, müstəmləkə ekspansiyası beynəlxalq əmək bölgüsünə, dünya bazarının yaranmasına zəmin olaraq dünya təsərrüfat əlaqələrinin genişlənməsi və beynəlxalq kreditin yaranışı ilə müşayiət olunurdu. Belə ki, kəşf edilmiş torpaqlardan Avropaya külli miqdarda qızıl və gümüş gətirilmişdi. XVI əsrdə Avropada qızıl ehtiyatları təxminən 550 min kq-dan 1192 min kq-a qədər artmışdı. Belə vəziyyət kəskin qiymət yüksəlişinə, təzəcə yaranmış burjuaziyanın zənginləşməsinə və muzdlu işçi qüvvəsinin yoxsullaşmasına gətirib çıxardı. Pul rentası alan feodalların vəziyyəti pisləşdi ki, bu da onların sənaye fəaliyyətinə keçməsinə kömək etdi.

Burjuaziya (*fransızca* - bourgeoisie - *qalalı, istehkamlı, möhkəmləndirilmiş şəhər*) kapitalist cəmiyyətində hakim sinif, sosial sinfi kateqoriyadır. Burjuaziya pul, istehsal vasitələri, torpaq, patent və ya digər əmlaka sahib olmaqla, həmin mülkiyyətdən əldə edilən gəlir hesabına dolanır. Mülkiyyət ölçülərinə görə kiçik, orta və iri, təsərrüfat fəaliyyətinə görə aqrar, sənaye, ticarət, maliyyə burjuaziyasını fəqrləndirirlər. Anlayış, ilkin olaraq, şəhər əhalisi mənasında işlənmişdir. XVII-XVIII əsrlərdə isə, vətəndaşların təbəqələşməsi baxımından, xüsusən, tacirlərə, iri kapital sahiblərinə, muzdlu əməkdən istifadə edənlərə şamil edilmişdir.

Belə hesab edilir ki, Qərb nisbi inkişaf səviyyəsinə görə Şərq ölkələrini Lepanto yaxınlığında Müqəddəs liqa ilə Osmanlı imperiyası arasında osmanlıların məğlubiyyəti ilə bitən 1571-ci ildəki dəniz döyüşündən sonra qabaqlamağa başlamışdır. Başqa qiymətləndirmələrə görə, Qərbi Avropa Çinin səviyyəsini hələ XVI yüzilliyin başlanğıcında keçmişdir və elə o vaxtdan texnika və iqtisadiyyatın inkişafında qabaqcıl yer tutur. Belə ki, XVI əsr Qərbi Avropa üçün ilkin kapital yığımı dövrü kimi başlanmışdır. Həmin vaxt sənaye istehsalının inkişafında ciddi uğurlar əldə olunmuşdur. Bu yüksəliş başlanğıcını toxuculuq sahələrindən götürmüşdür. Ona görə ki, yun istehsalı öncə Florensiyada, sonra isə İngiltərədə əmək bölgüsünə və əl texnikasına əsaslanan manufakturalarda inkişaf etdirilirdi. Belə yaranış isə iş prosesini eynicinsli, avtomatik təkrar olunan sadə əməliyyatlara çevirməklə, emalatxanalarla müqayisədə, əmək məhsuldarlığının kəskin yüksəlişi ilə müşayiət olunurdu. Beləliklə, XVI əsr Şərq və Qərbin iqtisadi inkişaf səviyyələrinin eyniləşdiyi və Qərbin iqtisadi inkişafda Şərqi keçdiyi dövr hesab olunur.

İspan müstəmləkəçiləri Latın Amerikasını işğal etdikdən sonra yerli əhalini sərt istismar edir, bir sıra hallarda əhali tamamilə məhv olurdu. Buna daha qabar misal kimi ispan hökmranlığı zamanı Yamaykanın aborigen hindu əhalisinin tamamilə məhv edilməsini göstərmək olar. Hindu tayfalarını məhv edən müstəmləkəçilər işçi qüvvəsi üçün Afrikaya üz tutdular. Bu da XIV əsrdə Amerikada qul ticarətinə, beləliklə də, ka-

pitalist istehsalının başlanmasına zəmin yaradırdı. Belə ki, burada qullardan istifadə etməklə yeni plantasiya (*plantation*) təsərrüfatları formalaşdırılırdı. Bəzi qiymətləndirmələrə görə, 1870-ci ilə qədər Afrikadan Amerikaya 10 milyona qədər qul aparılmışdı. Amerikaya gətirilən hər qul qul ticarətçisinə 3000%-ə qədər mənfəət (*profit*) gətirirdi. Bundan başqa, Qərbin bir sıra ölkələri, xüsusilə, Britaniya, İspaniya, Fransa, Hollandiya üçün dəniz quldurluğu böyük gəlir mənbəyinə çevrilmişdi. Ayrı-ayrı hesablamalara görə, XVI əsrdə yeni torpaqların istismarından əldə edilən gəlirlər Qərbi Avropa ölkələrinin ümumi məhsulunun orta hesabla 1%-nə ekvivalent idi.

Kapitalın ilkin yığımı tədbirləri sırasında proteksionist siyasət böyük rol oynamışdır. Bu zamanlarda İngiltərə iqtisadi liberalizm doktrinasının ötürücüsü və ixracatçısı kimi çıxış etməkdə idi. O, ticarət hegemonluğuna azad bazarda həyata keçirdiyi əməliyyatlarla nail olmamışdı. İngilis dövlət və hərbi xadimi Oliver Kromvel (*1599-1658*) tərəfindən qəbul edilən, 1651-ci ildən 1849-cu ilə qədər mövcud olmuş "Naviqasiya aktı" yüklərin Asiyadan, Afrika və Amerikadan İngiltərəyə yalnız Böyük Britaniya təbəəsi olanların gəmiləri ilə və eyni zamanda, ekipajının azı ¾-nün də bu təbəəyə mənsublar tərəfindən daşınmasını şərtləndirirdi. Bu isə Böyük Britaniyanın rəqiblərinin hər cür mümkün vasitələrlə aradan qaldırılmasına, ilk növbədə, Hollandiyanın dənizdəki liderliyini təcrid olunmasını təmin edirdi. Böyük Britaniya ticarət inhisarı prinsipi XVII əsrdə meydana gəlmiş "Ost-İnd" (*Şərqi Hindistan*) şirkətinin fəaliyyətində də parlaq təzahür edirdi. Belə ki, bu şirkət 1813-cü ilə kimi Hindistan və Çinlə ticarətdə müstəsna hüquqlara malik olmuşdur. Şirkət XVIII əsrdə Hindistanda bir sıra torpaqları işğal edərək, ölkənin müxtəlif hissələrində vergi yığımı hüququnu özündə cəmləşdirmiş, apardığı soyğunçu ticarətlə böyük məbləğdə mənfəət əldə etmişdir.

XVI-XVII əsrlər istehsal xərclərinin artması ilə xarakterik olmuşdur. Hesablamalara görə, kapital qoyuluşları norması XI-XII əsrlərdə ÜDM-in 3-5%-dən yüksələrək XVI-XVIII əsrlərdə 5-7%-ə qalxmışdı. Əmək praktikasında da dəyişikliklər baş vermişdi. Bayram günlərinin sayı xeyli azalmış, bir məşğul işçinin işlədiyi saatların orta sayı artmışdı. Artıq XVIII əsrin sonunda iqtisadi inkişafın səviyyəsinə görə Qərb ölkələri Şərq ölkələrini 1,6-1,8 dəfə üstələməkdə idi. XIII-XIX əsrlər arasında urbanizasiya səviyyəsi fərqliliyinə görə Şərqin üstünlüyü nəzərə çarpaçaq dərəcədə azalmaqda idi.

XVIII əsrdə məhsuldar qüvvələrin inkişafında kəskin irəliləyiş baş verdi. Bu, Britaniyada istehsalın manufakturadan maşın texnikasına əsaslanan fabrik sisteminə keçidi - sənaye inqilabı ilə təmin olunmaqda idi. Həmin zamanlarda yaradılan ilk fabriklər pambıq parça sənayesi üzrə təşkil olunmuşdu. Sonradan sənaye inqilabı istehsalın müxtəlif sahələrini əhatə etdi. İstehsalın mexanikləşdirilməsi maşın hazırlanması üçün əsas sahə olan metallurgiyanın inkişafına təkan verdi. Sənaye inqilabının ən mühüm hissəsi 1784-cü ildə Şotland mühəndisi Ceyms Uatt (*1736-1819*) tərəfindən buxar maşınının ixtirası oldu ki, bu da sənayenin müxtəlif sahələrində və nəqliyyatda geniş tətbiqini tapdı. İqtisadiyyatın inkişafı enerji istehlakında da özünü göstərdi. Belə bir bənzətmə

var ki, kustar manufakturalı istehsalı maşınlı fabrik-zavod industriyası əvəz edən XIX əsrdə enerji istehlakı ötən XVIII əsrə ümumi nisbətdə 149 dəfədən çox artmışdır. Texniki dönüş təsərrüfatda ictimai münasibətlərin sərt şəkildə dağılmasına gətirib çıxardı. Cəmiyyətdə əsas yeri fabrikant, sənaye kapitalı tutdu. Xarici ticarət böyük sürətlə artmağa başladı. 1720-1820-ci illərdə dünya ixracının həcmi 2,4 dəfə yüksəldi.

Qərbi Avropa və Şimali Amerikanın qabaqlayan inkişaf sürətlərinin nəticələri Qərblə Şərqin qarşılıqlı münasibətlərində özünü göstərdi. XIX əsrdə Şərq artıq Qərbin təzyiqinə davam gətirə bilmirdi. Yeni ixtiralar dalğası ilə Avropa məhsulunun üstünlüyü XIX əsrin ortalarında daha aydınlığı ilə görünürdü.

## 2.11. Kapitalizmin yaranışı və qlobal inkişafı

Kapitalizmin meydana gəlməsinə feodalizm mühitində ictimai əmək bölgüsü və əmtəə təsərrüfatının inkişafı zəmin yaratmışdır. Bu proses nəticəsində cəmiyyətin bir qütbündə pul kapitalını və istehsal vasitələrini öz əllərində cəmləşdirmiş kapitalist sinfi, digərində isə istehsal vasitələrindən məhrum və buna görə də işçi qüvvəsini kapitalistlərə satmağa məcbur olan insan kütləsi dayanırdı.

Kapitalizm şəxsi mülkiyyət və azad rəqabətin hökm sürdüyü iqtisadi sistem mahiyyəti daşıyır. “Kapitalizm” termini digər iqtisadi termindən “kapital”dan başlanğıc alır. Əslində, onun ilk əlamətləri Qədim Romada müşahidə olunmuş və ticarətin, sənayeləşmənin (*industrialization*), bank işinin təşəkkülü ilə XV əsrdə daha geniş təzahürdə gerçəkliyə çevrilmişdir.

Kapitalist istehsalının başlanğıc nöqtəsi sadə kapitalist kooperasiyası, yəni kapitalistin nəzarəti altında ayrı-ayrı istehsal əməliyyatlarını yerinə yetirən insanların birgə əməyi olmuşdur. Burjuaziya cəmiyyətinin məhsuldar qüvvələrinin inkişafında iri addım XVI əsrin ortalarında manufakturanın meydana gəlməsi ilə atılmışdır.

Manufaktura (*latınca* - manus - *əl və* factura - *yığma, düzəltmə, istehsal*), əsasən, müzdlu işçilərin əl əməyinin tətbiq olunduğu və əmək bölgüsündən geniş istifadə edildiyi böyük müəssisədir. Manafakturaların yaranışı sənaye istehsalı prosesinin tarixi təşəkkülündə sadə kooperasiyadan sonrakı ikinci mərhələni əhatə edir. Onlar Qərbi Avropada XVI-XVIII əsrlərdə mövcud olmuşlar. Əmək alətlərinin və işçi qüvvəsinin dar ixtisaslaşdığı manufakturalar ictimai əmək bölgüsünün dərinləşməsinə təsir göstərərək maşın-fabrik istehsalına keçidə zəmin yaratmışdır.

Manufakturadan fabrik sisteminə keçid Böyük Britaniyada XVIII əsrin ikinci yarısında başlanmış və XIX əsrin ortalarında başa çatmış sənaye inqilabının gedişində həyata keçirilmişdir. Fabrik sisteminin meydana gəlməsi hökmran istehsal üsulu kimi kapitalizmin öz təsdiqini tapması, ona müvafiq maddi-texniki bazanın yaradılması demək idi. İstehsalın maşın mərhələsinə keçid məhsuldar qüvvələrin inkişafına, yeni sahələrin yaranmasına və təsərrüfat dövriyyəsinə yeni resursların cəlb edilməsinə, şəhər əhalisinin sürətli artımına və xarici ticarət əlaqələrinin fəallaşmasına kömək etdi.

Sonrakı mərhələdə inkişaf etmiş kapitalizmin sələfi, mahiyyəti kəndliləri, xırda sənətkarları soymaqdan və müstəmləkələrin işğalından ibarət olan kapitalın ilkin yığımı dövrü olmuşdur. İşçi qüvvəsinin əmtəəyə və istehsal vasitələrinin kapitala çevrilməsi sadə əmtəə istehsalından kapitalist istehsalına keçid demək idi. Kapitalın ilkin yığımı eyni zamanda daxili bazarın sürətlə genişlənməsi prosesi idi.

Beləliklə, kapitalizmin yaranışı - ictimai əmək bölgüsünün və əmtəə istehsalının inkişafı ilə feodalizmin dərinliklərindən başlanmış proses XVIII əsrdə manafkturalardan maşın-fabrik istehsalına keçidlə, əsasən, təşəkkül tapmışdır.

Kapitalizmin əsas əlamətləri kimi əmtəə-pul münasibətləri və istehsal vasitələri üzrərində şəxsi mülkiyyət hakimliyi, inkişaf etmiş ictimai əmək bölgüsü, istehsalın ictimailəşməsi, işçi qüvvəsinin əmtəəyə çevrilməsi, muzdlu işçilərin kapitalistlər tərəfindən istismarı kimi xüsusiyyətlər çıxış edir.

XIX əsrin sonu XX əsrin əvvəllərində kapitalizm öz inkişafının ən yüksək və son mərhələsinə - imperializmə, inhisarçı kapitalizmə qədəm qoydu. Müəyyən mərhələdə azad rəqabət kapitalın konsentrasiyasının və mərkəzləşdirilməsinin elə yüksək pilləsinə yüksəldi ki, bunun ardınca inhisarlar meydana gəldi.

İnhisarçı kapitalizm öz inkişaf prosesində dövlət-inhisarçı kapitalizmə keçir ki, bu da bürokratik üst təbəqəsi olan maliyyə oliqarxiyasının yetişməsi, ictimai həyatın bütün sahələrində dövlətin rolunun güclənməsi, iqtisadiyyatda dövlət sektorunun artması və kapitalizmin sosial-iqtisadi ziddiyyətlərinin mülayimləşdirilməsinə yönəldilmiş siyasətin fəallaşması ilə xarakterizə olunur. İmperializm, xüsusilə də, dövlət-inhisarçı mərhələdə burjuaziya demokratiyasının daha dərin böhranını, daxili və xarici siyasətdə mürtəce meyillərin və zorakılığın rolunun güclənməsini göstərir. O, militarizm və hərbi xərclərin artmasından, silahlı qarşıdurmalardan və təcavüzkar müharibələrə başlamaq meyillərindən ayrılmazdır.

Müasir kapitalizmin xüsusiyyəti ondan ibarətdir ki, o, dünyada yeni şəraitə uyğunlaşmağa məcburdur. Kapitalizm vaxtilə cəmiyyətin tarixi inkişafında mütərəqqi rol oynamışdır. O, insanlar arasında şəxsi asılılığa əsaslanan patriarxal və feodal münasibətləri dağıtmış, onları pul münasibətləri ilə əvəz etmişdir. Kapitalizm iri şəhərlər yaratmış, kənd əhalisi hesabına şəhər əhalisinin sayını kəskin artırmış, feodal parçalanmasına son qoymuşdur ki, bütün bunlar da burjua millətlərinin və mərkəzləşmiş dövlətlərin yaranmasına səbəb olmuş, ictimai əməyin məhsuldarlığını daha yüksək pilləyə qaldırmışdır.

## 2.12. Müstəmləkəçilik sistemi və imperialist siyasət

Müstəmləkəçilik sistemi və yaxud kolonializm (*latınca* - colonia - *yerləşmə, məskənsalma*) inkişaf etmiş ölkələr qrupunun, öz müstəmləklərinə münasibətdə dövlətlərin - metropoliyaların (*yunanca* - μητρόπολις - *"ana şəhər"*) XVI-XX əsrlərdə qalan dünya üzərində hökmranlığını ehtiva edir. Kolonial siyasət ölkələrin fəht olunmasına, xalqların hərbi, siyasi və iqtisadi metodlarla istismarına yönəlmişdir.

Kolonializm, müstəmləkəçilik (*colonialism*) digər dövlətlərə onların ölkə və xalqlarının mənafelərinə uyğun olmadan özlərinin iqtisadi rejimlərini zorla qəbul etdirməsinə, mənfəət əldə edilməsinə, sərvətlərinin alınmasına və ərazilərinin müstəmləkələşdirməsinə yönəldilmiş dövlət və iri korporasiyaların iqtisadi fəaliyyəti ilə bağlı ideoloji nəzəriyyə və praktikadır. Kolonializm sövqedici motivlərinin prinsipləri və üsulları, həyata keçirilməsi baxımından, müstəmləkə siyasətinin mahiyyətini əks etdirir. "Kolonializm" anlayışı tədricən tarixi xarakter alır.

Böyük coğrafi kəşflər, müstəmləkə ekspansiyaları beynəlxalq əmək bölgüsü, dünya bazarının inkişafı üçün zəmin yaradaraq iqtisadiyyatların inkişafına yeni imkanlar açdılar. Dənizçiliyin inkişafı dünyanın ayrı-ayrı hissələri arasında iqtisadi əlaqələr qurmağa imkan verdi. Müstəmləkə torpaqları isə Avropa ölkələrinin təsərrüfat periferiyaları kimi istifadə olunmağa başlandı və onlar beynəlxalq mübadilənin genişlənməsinin əsası oldular.

XIX əsrin ikinci yarısında müstəmləkələrin işğalı böyük miqyas aldı. 1914-cü ildə müstəmləkə torpaqlarının ərazisi 65 milyon $km^2$-dən artıq olub, əhalisi 523 milyon nəfər idi. İri müstəmləkə dövlətləri - Britaniya, Fransa, İspaniya, Portuqaliya, Niderland ilə yanaşı, Almaniya, ABŞ, Belçika, Yaponiya da iri müstəmləkə metropoliyalarına çevrildilər. Praktiki olaraq, bütün dünya bir qrup ölkə tərəfindən ərazi və siyasi cəhətdən bölüşdürülmüşdü. Münasibətlərin siyasi və hüquqi formaları - müxtəlif ara formalar vasitəsilə az və ya çox dərəcədə tam dövlət müstəqilliyindən başlayaraq tam siyasi tabeliyə qədər fərqli idi. Bu zaman müxtəlif üsul və metodlardan, o cümlədən sui-qəsdlərdən, pulla ələ almalardan, hərbi çevrilişlərdən, açıq müdaxilələrdən və təcavüzdən istifadə edilirdi.

XVI-XVIII əsrlərdə, sənaye inqilabından əvvəl müstəmləkə siyasəti, əsasən, yerli sərvətlərin, işçi qüvvəsinin talan edilməsindən ibarət olmuşdur. Müstəmləkələrlə qeyri-ekvivalent ticarət isə müstəsna olaraq istehlak xarakteri, primitiv xarakter daşıyırdı. Müstəmləkəçiliyin birinci dövrü üçün müstəmləkəçilərin hər hansı quruculuq fəaliyyətinin, demək olar ki, tamamilə olmaması səciyyəvi idi. Hətta irriqasiya quruculuğu belə yox idi. Kənd təsərrüfatı dağılırdı. Soyğunçuluğun nəticəsi olaraq aclıq və milyonlarla insanın ölümü baş alıb gedirdi. Britaniyanın "Ost-İnd" şirkətinin verdiyi məlumata görə, Benqaliyada XVIII əsrin 70-ci illərinin əvvəllərində 10 milyon nəfər və ya əhalinin üçdə bir hissəsi aclıqdan ölmüşdü.

Metropoliyalarla müstəmləkələr arasında müntəzəm iqtisadi əlaqələrin qurulması müstəmləkələrin istismarının təşkilati formalarının dəyişməsinə gətirib çıxardı. Müstəmləkələr birbaşa dövlət-metropoliya tərəfindən nəzarətə götürüldülər. Lakin sırf merkantil ənənələr XIX əsrin sonlarına qədər üstün olmuşdur. Maşın istehsalı inkişaf etdikcə metropoliyalar müstəmləkə torpaqlarını öz mallarının satış bazarlarına çevirirdilər.

Merkantilizm (*italyanca* - mercante - *tacir*) milli ticari kapitalın artımını təmin edərək xaricdən pul axınını şərtləndirən, güclü mərkəzi dövlət yaranışını ehtiva edən

iqtisadi təlimidir. Merkantalizm ölkədə qiymətli metalların yığımına nail olmaq vasitəsi kimi idxalın ixracı üstələməsi olan aktiv ticarət balanslı iqtisadi siyasəti, yüksək idxal rüsumları müəyyən etməklə, milli istehsalçılara subsidiyalar ayırmaqla təsərrüfat fəaliyyətinə dövlətin proteksionizm formasında fəal müdaxiləsinin zəruriliyini əsaslandırır. XVI-XVII əsrlərdə mövcud olmuşdur. Erkən və son merkantalizmə bölünür. Görkəmli nümayəndələri U.Stafford, A.Monkretyen, C.Kolber, T.Mandır.

XIX əsrin ortalarından başlayaraq Avropa ölkələrindən geniş miqyasda kapital ixracına başlandı. Böyük ölçüdə vəsait Şimali Amerika, Asiya, Okeaniya, Afrika ölkələrinə aparılırdı. Onun xeyli hissəsini infrastrukturun, hər şeydən əvvəl, dəmir yollarının inkişafını nəzərdə tutulan istiqrazlar təşkil edirdi. Kapital bazarının maraqlı cəhətlərindən biri də həmin dövrdə hökumət istiqrazlarının çox olması idi. Kapitalın yerdəyişməsinin güclənməsinə həmin dövrdə möhkəmlənmiş qızıl standart kömək etmişdir.

XIX və XX əsrlərin qovuşuğunda dünya ərazisinin qabaqcıl imperialist dövlətlər tərəfindən bölüşdürülməsi, əsasən, başa çatmışdı. Zəif inkişaf etmiş ölkələrin əksəriyyəti müstəmləkəyə çevrilmiş, yaxud iqtisadi, maliyyə və siyasi asılılıq toru ilə əhatə edilmişdi. Lakin dünyanın bu ərazi bölgüsü sonuncu deyildi.

Kapitalizmə inkişafın qeyri-bərabərliyi xasdır. Zaman keçdikcə imperialist dövlətlərin qüvvələrindəki nisbət dəyişir. Yeni qüvvələr nisbəti ilə müstəmləkələrin əvvəlki bölgüsü, imperialist nəzarəti sferaları arasında ziddiyyət yaranır ki, bu da dünyanın yenidən bölüşdürülməsi uğrunda mübarizəyə rəvac verir, imperializmin təbiətinə uyğun dağıdıcı hərbi münaqişələr, dünya müharibələri formasını alır.

İmperializm (*ingiliscə* - imperialism, *latınca* - imperium - *hakimiyyət, dominantlıq*) XIX əsrin sonu XX əsrin əvvəllərində kapitalizmin inkişafının ən yüksək və son mərhələyə - inhisarçı kapitalizmə keçidinin formasıdır. İmperializm həm də qeyri-bərabər hüquqlu münasibətlərin dəstəklənməsinə yönəlmiş dövlət siyasətini özündə əks etdirir. Xarici siyasətdə bu, ərazilərin tutulması, müstəmləkələrin formalaşdırılması, digər ölkələrə siyasi və iqtisadi nəzarətin həyata keçrilməsində özünü göstərir. Daxili siyasətdə sənaye-maliyyə inhisarları *(inhisarçı kapitalizm*) mühüm rol oynayır.

## 2.13. Dünyanın ərazi cəhətdən bölüşdürülməsinin başa çatması - müstəmləkə sisteminin dağılması

XIX-XX əsrlərdə dünyanın siyasi xəritəsi böyük dəyişikliklərə məruz qalmışdır. Bu dövrdə iri ölkələr dünyanı öz aralarında bölüşdürmək uğrunda çox ciddi-cəhdlə mübarizəyə qoşulmuşlar. 1870-cı illərdə Afrikanın 10%-i Qərbi Avropa ölkələrinə məxsus idisə, 1900-cü ildə bu istila bütün Afrikanı əhatə edərək artıq 90%-ə yüksəlmişdi. Eyni mənzərə, müəyyən fərqliliklərlə, Asiya, Amerika və Avstraliyaya da aid idi. Ümumilkdə isə XX əsrin əvvəllərində dünyanın bölüşdürülməsi sona çatmış və o bir sıra qüdrətli imperialist dövlətin təsiri altına keçmişdi. Bu zaman imperialist dövlətlərin müstəmləkə torpaqları 530 milyon nəfər əhalisi ilə 73 milyon km$^2$ ərazini

əhatə edirdi ki, bu da dünyanın quru sahəsinin 55%-nə və əhalinin 35%-nə bərabər idi. Dünyanın sonrakı bölgüsü isə yalnız zorakılıqla aparıla bilərdi.

Planetin siyasi xəritəsinin formalaşmasının ən yeni mərhələsi I Dünya Müharibəsiin başa çatması dövrünü əhatə edir. Birinci mərhələ adlanan bu dövrdə Rusiya imperiyasının çöküntüləri altında sosialist dövləti olan SSRİ-nin yaranması ən böyük hadisə kimi qiymətləndirilir. Bu dövr, həmçinin, Avropa da daxil olmaqla bütün dünyada ərazilərin nəzərəçarpan dəyişiklikləri ilə müşayiət olunmuş, Avstriya-Macarıstan imperiyası dağılmış, Finlandiya və Polşa suverenlik qazanmış, xorvatların, serblərin, slovenlərin və digərlərinin krallığı yaranmış, Böyük Britaniyanın, Fransanın, Belçikanın və Yaponiyanın müstəmləkə torpaqları genişlənmişdir. I Dünya Müharibəsi başa çatdıqdan sonra Almaniya və Türkiyənin keçmiş müstəmləkələri Atlanta ölkələri arasında Millətlər Liqasının mandatları üzrə bölüşdürüldü.

Britaniya müharibə zamanı ərəblərə verdiyi vədləri yerinə yetirərək, İraq və Trans-iordaniya (*indiki İordaniya*) krallıqlarını yaratdı, 1932-ci ildə isə İraq tam müstəqillik əldə etdi. Britaniya yəhudilər üçün də “milli ev” yaratmağı vəd vermişdi, lakin tezliklə ərəblər və yəhudilər qarşısında bir-birinin ziddinə olan öhdəliklərini yerinə yetirməkdə çətinliklərlə üzləşdi. Beləliklə, I Dünya Müharibəsi dünyanın ərazicə bölüşdürülməsində ilk möhtəşəm qlobal hadisə oldu. Buna baxmayaraq onun ağır olan nəticələri yeni siyasi hadisələrin də başlanğıcına zəmin yaratmaqda idi. Bu nəticələr bir çox hallarda özünün kövrəkliyini göstərdi və yeni Dünya Müharibəsinin yaranışını stimullaşdırdı.

Dünyanın ərazi cəhətdən bölüşdürülməsinin növbəti mərhələləri II Dünya Müharibəsindən sonra Şərqi Avropanın siyasi xəritəsində böyük dəyişikliklərlə xarakterizə olunan 1980-1990-cı illəri dövrüdür.

II Dünya Müharibəsindən sonra bu mərhələ təkcə Avropanın siyasi xəritəsində dəyişikliklərlə deyil, həm də müstəmləkə sisteminin dağılması ilə kəskin fərqlənmişdir. Bu dövrdə, həmçinin, Okeaniyada, Afrikada, Asiyada və Latın Amerikasında, xüsusən də, Karib regionunda çoxlu sayda müstəqil dövlətlərin yaranması baş verdi. Fransa Livandan və Suriyadan çıxmalı oldu, keçmiş italyan müstəmləkəsi olan Liviya əlahiddə krallığa çevrildi. Bu dövrdə Böyük Britaniya Fələstinə olan mandatından imtina edərək Avrop-ərəb probleminin həllini BMT-yə həvalə etməklə 1948-ci ildə qoşunlarını Yaxın Şərqdən çıxardı və beləliklə, yəhudi dövləti İsrailin yaranması mümkün oldu.

Yaponlar Hin-Çindən çıxdıqdan sonra milli-azadlıq qüvvələri Niderlanda mənsub Ost-hində hakimiyyəti ələ aldılar, Fransanın Hind-Çinində isə birləşmiş kommunistlər və millətçilər paytaxt Hanoyda Vyetnamın müstəqilliyini elan etdilər. Bu zaman hollandların silah gücünə keçmiş müstəmləkə üzərində nəzarəti qaytarmaq istəyi puça çıxdı və 1949-cu ildə onun yerində İndoneziya dövləti meydana gəldi. 1947-ci il avqustun 15-də Hindistan və Pakistan keçmiş imperiyanın sonradan adını dəyişmiş Britaniya Millətlər Birliyinin tərkibində müstəqil dövlətlər oldular.

Geri qalmış iqtisadiyyatın və tayfalararası ədavətin hökm sürdüyü Afrikada

müstəmləkə idarəetmə üsulu daha uzun müddət qala bilərdi. Bir çox müstəmləkələr hətta qanunauyğun coğrafi və ya etnik sərhədlərə malik deyildilər. Belə ki, 1880-ci illərdə "Afrika uğrunda mübarizə"də güclü rəqib dövlətlər nəticələr barədə heç düşünmədən, sadəcə, xəritədə bölücü xətləri çəkirdilər. II Dünya Müharibəsindən sonra qitənin 55 ərazisində və ona yaxın adada 200 milyon nəfərə qədər insan yaşayırdı. Qitədə formal müstəqil dövlətlər kimi öz hökumətləri və administrasiyaları olan Misir, Həbəşistan, Liberiya və Böyük Britaniya dominionu - Cənubi Afrika İttifaqı hesab edilirdi. Afrika torpaqlarının böyük hissəsi İngiltərə, Fransa, Belçika, Portuqaliya, İspaniya, İtaliya arasında bölüşdürülmüşdü.

1960-cı il tarixə "Afrika ili" kimi düşdü. Bu vaxt qitənin mərkəzi və qərb hissələrinin 17 ölkəsində müstəqillik elan edilmişdi. Burada yalnız bir müstəmləkə dövləti - Portuqaliya öz mövqelərini əldən vermək istəmirdi. Uzun müddət bu ölkə özünün Afrikadakı müstəmləkələri - Qvineya, Anqola və Mozambikdən möhkəm yapışmışdı. Lakin burada da üsyanlar alovlamaqda idi. 1974-cü ildə metropoliyalardakı müzəffər inqilablar Portuqaliyanın da buradakı müstəmləkəçilik siyasətini süquta uğratdı.

Bütövlükdə Afrikanın azad edilməsi prosesi isə 1975-ci ildə başa çatdı. Bu zaman bütün dünyada qalan mövcud müstəmləkələr Yer kürəsinin 1%-dən az olan ərazisini və 3,7% əhalisini əhatə edirdi. Ümumilikdə II Dünya Müharibəsindən sonra müstəmləkə əsarətindən 2 milyarddan çox insan azad olmuşdur.

Dünyanın siyasi xəritəsində bütün dünya birliyinin ictimai-siyasi və sosial-iqtisadi həyatına böyük təsir göstərən yeni dəyişikliklər kimi 1991-ci ildə SSRİ-nin, Yuqoslaviya Sosialist Federativ Respublikasının dağılmasını, iki alman dövləti - Almaniya Federativ Respublikası və Almaniya Demokratik Respublikasının birləşməsini və s. göstərmək olar.

Beləliklə, müstəmləkəçi ölkələrin II Dünya Müharibəsi ərəfəsindən başlayaraq əsarətdə saxladıqları ərazilərdən çıxışı ilə yeni süveren dövlətlərin yaranması prosesi, müstəmləkə sisteminin dağılması 1940-1990-cı illərdə, əsasən, sona yetdi.

## 2.14. Beynəlxalq iqtisadi təşkilatların təşəkkülü

II Dünya Müharibəsindən sonra dünyanın siyasi sistemində, həmçinin, dünya iqtisadiyyatında mühüm dəyişikliklər baş verməkdə idi. Bu zaman qlobal institusionalizm bütün sürəti ilə irəliləyir, fiziki ekspansiyalar iqtisadi enkspansiyalarla əvəz olunurdu. Bu dövrdə həmçinin, dünyanın aparıcı mərkəzlərində beynəlxalq iqtisadi təşkilatların yaranışı da baş verməkdə idi.

II Dünya Müharibəsindən sonra dünya ölkələri arasında qüvvələr nisbəti dəyişdi. Bu zaman dünya iqtisadiyyatında ABŞ-ın qəti hakim mövqedə qərarlaşmışdı. Yaranmış qüvvələr nisbətini möhkəmlətmək və sabitləşdirmək arzusu BMT, BVF, İƏİT, BYİB, GATT kimi beynəlxalq iqtisadi təşkilatların təşəkkülünə səbəb oldu. Bu təşkilatlar,

əsasən, ABŞ-ın təşəbbüsü və rəhbərliyi ilə liberal reseptlər üzrə və inkişaf etmiş ölkələrin maraqlarına uyğun beynəlxalq iqtisadi və maliyyə münasibətlərinin tənzimlənməsinin həyata keçirilməsinə xidmət zəminində yaradıldı.

1960-cı illərdə II Dünya Müharibəsində dağıdılmış Qərbi Avropanın bərpası başa çatdı. Yaponiyadakı elmi-texniki nailiyyətlər, ölkə iqtisadiyyatındakı şıçrayışlar burada fenomenal iqtisadi möcüzəyə çevrildi. Bu zaman keçmiş müstəmləkələrdə milli-azadlıq hərəkatları gücləndi və dünya çoxqütblü olmağa başladı. Keçən hadisələr fonunda İƏİT-in tərkibi genişləndi və ilk növbədə, inkişaf etməkdə olan, siyasi asılılıqdan azad olmuş ölkələrin maraqlarını müdafiə edən BMT-nin təsisatları: Ticarət və İnkişaf Konfransı - UNCTAD və Sənayenin İnkişafı Təşkilatı - UNIDO yarandı. Bütün bunlarla bərabər, bütün dünyada çoxsayı müstəqil QHT-lər təsis edildi.

1970-1980-ci illər inkişaf etmiş ölkələrdə enerji böhranı və ümumi iqtisadi böhranla xarakterizə olunur. 1975-ci ildə dünyada hakim mövqe tutan daha inkişaf etmiş qüvvələrin köməyi ilə beynəlxalq iqtisadi münasibətlərin kəskin problemlərinin tənzimlənməsi cəhdi kimi "Böyük yeddilik" - G7 yaradılır. Kapitalın transsərhəd hərəkətinin, o cümlədən inkişaf etməkdə olan ölkələrdə artması fonunda BYİB-nın strukturlarının inkişafı prosesi gedir. BVF-in kredit fəaliyyəti inkişaf edir. Beynəlxalq təşkilatlar ödəməmələr böhranının qarşısını almağa çalışır.

1990-cı illərdə keçmiş Qarşılıqlı İqtisadi Yardım Şurası - QİYŞ ölkələrinin dünya təsərrüfat sisteminə, beynəlxalq maliyyə-iqtisadi təşkilatlara fəal inteqrasiya prosesi başlanır ki, bu da postsovet məkanında bazar iqtisadiyyatına keçiddə liberal dəyişikliklərin bərpasını stimullaşdırır.

Beynəlxalq iqtisadi təşkilatlar beynəlxalq hüququn subyektləridir. Beynəlxalq təşkilatların yerinə yetirdiyi funksiyalar çoxsaylıdır və iştirakçı ölkələrin onların üzərinə hansı vəzifələri qoymasından asılıdırlar.

Müasir dünyada beynəlxalq iqtisadi və maliyyə təşkilatlarının rolu mühüm olduğu qədər onların etibarlılığı da yeni sınaqlar altındadır. XXI əsrdə baş verən iqtisadi və maliyyə böhranları bu beynəlxalq təsisatların şəmərəli funksionallığının bir da təftişinə gətirdi.

Bundan başqa, islam maliyyə təsisatlarının genişlənməsi və beynəlmiləlləşməsi prosesi, Şəri Asiyada güclü iqtisadi inkişaf, ÇXR-in əsrin ortalarında qlobal iqtisadiyyatı idarə etmək strategiyası yeni beynəlxalq iqtisadi təsisatlandırmalara təkan verməkdədir. Belə ki, bir sıra mühüm neft istehsalçıları olan müsəlman ölkələr neftdən əldə olunan gəlirlərdən daha səmərəli istifadə üçün İİB-nin valyutası, dinar çevrəsində vahid regional monetar ittifaqın yaradılması təşəbüssünü irəli sürməkdədirlər. Belə olan təqdirdə neftə yeni qiymət reytinqi gətirən müvafiq monitar ittifaq bütünlükdə "dollar-avro" inhisarında olan qlobal maliyyə arxitekturasını köklü təbəddülatlara uğradacaq, dünya iqtisadi sistemində oliqopolizasiyaya geniş meydan açacaqdır.

Müvafiq strategiyanın təməl daşını körfəz neftinin gəlirləri əsaslandırsa da, toplum yeni təsisatlar, maliyyə alətləri və iqtisadi mexanizmlər, gömrük preferensiyaları ilə

möhkəmlənməklə bütövlükdə iqtisadi və maliyyə sistemində köklü dəyişikliklərə vüsət verə bilər. Bundan başqa, ÇXR, Yaponiya və Koreya Respublikasında vahid valyuta "yapro"nun buraxılışı ideyasının qətiləşməsi yeni beynəlxalq iqtisadi və maliyyə təşkilatlarının yaranışını proqnozlaşdırmağa imkan verir.

## 2.15. Qlobal iqtisadiyyatın formalaşması prosesi və beynəlxalq iqtisadi əlaqələrin dərinləşməsi

Qloballaşmanın ilk təzahürləri hələ XX əsrin 30-cu illərində ABŞ-dan səmt alan böyük depressiya - dünya kapitalizminin böhranı ilə özünü büruzə vermişdir. Bu böhran planetin əksər hissəsini əhatə edərək beynəlxalq ticarəti sıxıntılara, ümumi proteksionizmi residivə - geri qayıtmaya məruz qoymuşdur.

II Dünya Müharibəsindən sonra qloballaşma daha sürətli templərlə irəliləməyə başlamışdır. Ona texnologiyalar sahəsindəki təkmilləşmələr daha geniş təkan vermiş, dəniz, dəmir yolu və hava nəqliyyatı daşımaları sürətlənmiş, beynəlxalq telefon rabitəsi daha girişli olmuşdur. DTT-nin sələfi GATT-ın 1947-ci ildə təsisatlandırılması beynəlxalq ticarətdə maneələrin aradan qaldırılmasında mühüm əhəmiyyət daşımışdır.

1971-ci ilin avqustunda ABŞ-ın valyuta sistemində bliskrik böhran dolların qızıl təmayüllü standartını laxladaraq, onu liberal suveren zolağa çıxarmış və bu olay əksər dünya ölkələrinin iqtisadiyyatına ciddi təsir göstərmişdir. Növbəti qlobal iqtisadi şok neft cəbhəsində 1973-1974-cü illər qiymət böhranı ilə əks-səda doğurmuşdur. Qiymət qalxmaları bir tərəfdən energetik aclıq, digər tərəfdən istehsalçıların izafi maliyyə resursları ilə silahlanmasına gətirib çıxarmışdır. 1982-ci ilin yeni qlobal şoku təkrarən neft ixracatçılarının davranışları ilə bağlı olmuşdur. Statistik tədqiqatlar göstərir ki, xarici kapitalın himayəsində və nəzarətində dünya istehsalının 1973-cü ildə 13,2%-i 1990-cı ildə 17,0%-i, 2000-ci ildə 22,0%-i olmuşdursa, bu göstəricinin 2020-ci ildə 30,0%-ə yüksələcəyi gözlənilir. DTT bəyan edir ki, son onilliklərdə dünya ticarət sistemi dünya istehsalından daha sürətlə inkişaf edir. Belə ki, 1950-2010-ci illərdə dünya ticarəti 20-22 dəfə, buna müqabil olaraq, dünya istehsalı 6-8% artmışdır.

1992-ci ildə Aİ-nin vahid iqtisadi məkana çevrilməsi qloballaşmanın yeni təzahürü kimi qiymətini almışdır. Bu əsasda Maastrixt sazişləri qlobal iqtisadiyyatın inkişafına yeni impuls vermişdir. <u>Maastrixt sazişi, Maastrixt meyarları</u> (*Maastricht treaty*) Aİ-nin yaranmasını əsaslandıran saziş kimi həmin ittifaqa daxil olmaq istəyən dövlətlər üçün yerinə yetirilməsi zəruri olan iqtisadi şərtlər kompleksini ifadə edir. Bu şərtlərə sazişin təsbit olunmuş tələblərində və onun protokollarında əksini tapmış aşağı inflyasiyaya nailolma, dövlət maliyyəsinin normallaşdırılması, dayanıqlı valyuta məzənnəsi və müvafiq kiçik faizlər aiddir. Maastrixt sazişi Aİ ölkələrinin vahid valyutaya - avroya keçidini tələb edir və ittifaqın üç əsas prinsipini - iqtisadi-sosial siyasət, beynəlxalq münasibətlər və təhlükəsizlik, və ədliyyə və daxili işlər - müəyyənləşdirir. Maastrixt sazişləri 7 fevral 1992-ci ildə Hollandiyanın Maastrixt şəhərində imzalanmışdır.

Qloballaşmanı irəlilədən nisbət kiçik inteqrasiya sistemi kimi ABŞ, Kanada və Meksikanı birləşdirən Şimali Amerika azad ticarət zonası çıxış edir. Qlobal iqtisadi inteqrasiyada əksər keçmiş sovet respublikalarının cəmləşdiyi MDB də iştirak edir.

İqtisadiyyatın qloballaşması dünya inkişafının mühüm qanunauyğunluqlarından biridir. Bu zaman sahəvi struktur, informasiya və texnologiyalar mübadiləsi, istehsal güclərinin coğrafi yerləşməsi dünya konyunkturası ilə təyin edilir. İqtisadi qalxınmalar və enmələr planetar miqyas alır. Ona görə də iqtisadiyyatın qloballaşması mürəkkəb və təzadlı proses kimi səciyyələndirilir.

Qloballaşmanın əsas formaları beynəlxalq kapital axının birbaşa investisiyalar formasında genişləndirilməsi, müəssisələrin alınmasının və birləşməsinin sayının artırılması müxtəlif formalarda, beynəlxalq əməkdaşlıq haqqında sazişlərin bağlanması, beynəlxalq podrat sisteminin inkişafı, qlobal nəqliyyat və kommunikasiyalar şəbəkəsinin yaranması və s.-də əks olunur. Qloballaşma ölkələr arasında rəqabətin güclənməsinə aparır. Bu rəqabət mübarizəsində nailiyyətin təmin olunması ölkələr və TMŞ-lər arasındakı ittifaqın nəticəsindən asılıdır. Birbaşa investisiyaların dünya iqtisadiyyatının mərkəzlərində (*ABŞ, Aİ, ÇXR və Yaponiya*) təmərküzləşməsi, eyni zamanda, inkişaf etməkdə olan dünyanın çox rayonlarının marginallaşmasının səmərəliliyini gücləndirir və nəticədə, investorlar cəlbedicilik qabilyyətini itirirlər. Beləliklə, milli kapitalın fəaliyyətinin beynəlmiləlləşməsinin yerini transmilli kapitalın maraqlarının qloballaşması tutmuşdur. Qloballaşma indiki məqamda iqtisadiyyatı, nəqliyyatı, rabitə və informasiya texnologiyalarını, ekologiyanı, siyasəti, mədəniyyəti əhatə etmişdir.

Beləliklə, XX əsrin ikinci yarısından başlayaraq XXI əsr ərəfəsinə kimi DTT-nin təşəkkülü, TMŞ-lərin yaranışı, onların təsir dairəsinin genişlənməsi, Aİ-nin vahid iqtisadi məkana çevrilməsi və ölkələrin iqtisadi inteqrasiya prosesnin dərinləşməsi ilə müşayiət olunan dünya iqtisadiyatının inkişafının yeni mərhələsi - <u>qlobal iqtisadiyyatın formalaşması</u> reallaşmışdır.

## 2.16. Azərbaycanın milli iqtisadiyyatının inkişaf mərhələləri

Azərbaycanın Asiya ilə Avropanı birləşdirən məkanda yerləşməsi, zəngin təbiəti, münbit torpaqları, əlverişli iqlim şəraiti, iqtisadi fəal əhalisi burada hələ ən qədim zamanlardan iqtisadiyyatın inkişafına mühüm təsir göstərmişdir. Azərbaycanda iqtisadiyyatın və sosial həyatın ən erkən çağları haqqında məlumatlar qədim yazılarda əksini tapmışdır. Bu coğrafiyanın atəşpərəstliyin mərkəzi nöqtələrindən olması xalqın iqtisadi həyatı ilə bağlı fikirləri b.e.ə. X-VII əsrlərdə zərdüştiliyin qanunlar toplusu olan "Avesta"da aramağa imkan verir. Sonrakı illərdə manihəçilik (*III əsr*), məzdəkçilik (*V-VI əsrlər*) və xürrəmilər (*VIII-X əsrlər*) kimi hərəkatlar Azərbaycanda iqtisadiyyat və iqtisadi davranışlarla əlaqədar hadisələri məzmunlu edir. III-VII əsrlərin iqtisadi həyatı ilə bağlı hadisələr ortaq türk qəhrəmanlıq dastanı "Dədə-Qorqud" eposunda dolğun əksini tapmışdır. Dastandan xalqın təsərrüfat həyatı, əmək bölgüsü və sənət ixtisaslaşması haqqında dəyərli bilgilər almaq mümkündür.

İslamın Azərbaycanda yayılması burada orta əsrlər təsərrüfat həyatına yeni məzmun gətirmiş və bütövlükdə iqtisadiyyatın inkişafına öz töhfələrini vermişdir. Elə bu zamanlardan başlayaraq bütün müsəlman Şərqində olduğu kimi, Azərbaycanda da əkinçilik, maldarlıq, ticarət və sənətkarlıq yüksək səviyyəyə qalxmış, əmtəə mübadiləsində, ticarət əməliyyatlarında pul dəyərindən və metal pullardan genişliklə istifadə edilmişdir. XVIII-XIX əsrlərdə baş verən qlobal iqtisadi-texniki irəliləyişlər Azərbaycanda da iqtisadiyyatın təkmil formada bərqərar olmasına zəmin yaratmışdır. Əkinçilik mədəniyyəti daha da inkişaf etmiş, kənd təsərrüfatı texnikası təkmilləşmiş, sənətkarlığın şaxələnməsi genişlənmiş, təsərrüfat həyatında neftdən istifadə imkanları artmışdır. Baş verən texniki inqilablar, kapitalizmin sürətli inkişafı isə XIX əsrin ortalarından neft hasilatının sənayeləşməsinə təkan vermişdir. Neft ixrac məhsuluna çevrilərək Azərbaycanın xarici iqtisadi əlaqələrinin genişlənməsinin təməlində dayanmış, yeni iqtisadi münasibətləri formalaşdıraraq məhsuldar qüvvələrin sürətli inkişafına təkan vermişdir. Neft sənayesinin inkişafı, həmçinin, yeni məzmunda özünün müvafiq infrastruktur kompleksinin yaranışına rəvac vermiş və iqtisadiyyatın digər sektorlarında yeni təsisatlandırmaların yaranışını sürətləndirmişdir. Neft sənayesi ilə yanaşı, yüngül, yeyinti və digər sənaye məhsullarının istehsalı da genişlənmişdir. Statistik məlumatlar göstərir ki, XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycanda neft hasilatının genişlənməsi ilə bağlı sənayenin ümumi inkişaf səviyyəsi çar Rusiyasının bir sıra rayonlarından daha üstün olmuşdur. Belə ki, həmin dövrdə bütün Cənubi Qafqazda mövcud sənaye müəssisələrinin 59%-i, istehsal olunan ümumi sənaye məhsulunun 94%-i Azərbaycana məxsus idi. Rusiya imperiyasında neftin 74,6%-i, pambıq lifinin 10%-i, tutulan balığın 9,0%-i, xam ipəyin 8,0%-i və elektrik enerjisinin 6,0%-i Azərbaycan payına düşürdü. Azərbaycanın çar Rusiyası əhalisinin 1,4%-nə, ərazisinin isə 0,5%-nə sahib olduğu nəzərə alındıqda bu effektlərin daha möhtəşəm olduğu daha da aydınlaşır.

Bakının mərkəz şəhərə çevrilməsi və sürətlə artan əhali sayı urbanizasiya effektivlikləri ilə müşayiət olunurdu. Bütövlükdə Abşeron məkanı Bakının ərzaqla təminatının ilk urbanizasiya həlqəsi rolunda çıxış edirdi. Neft sənayesinin inkişafı tikinti və nəqliyyatın inkişafında da köklü dəyişikliklər yaratmışdı. Bu illərdə Bakı şəhəri böyük tikinti meydanına çevrilmiş, Azərbaycanı dünyanın başqa əraziləri ilə birləşdirən bir neçə istiqamətdə dəmir yol xətləri istifadəyə verilmişdir. Gəmiçilik təsərrüfatı sürətlə inkişaf etməkdə idi. Nəqliyyat sektoru, üstün olaraq, bütövlükdə neft sənayesinin tələblərinə uyğun qurulur və inkişaf edirdi. XIX əsrin sonundan etibarən Bakı böyük dəmir yol qovşağı və Xəzər sahilində böyük limana sahib şəhər olmuşdu. Neft daşımalarının logistikasının təmin edilməsində dəmir yolları və dəniz nəqliyyatı ilə yanaşı həmin illərdə Bakı-Batum neft kəmərinin inşası da mühüm əhəmiyyət kəsb etdi.

XX əsrin əvvəllərində Azərbaycan neftin hasilatına görə dünya liderliyini ələ aldı. Azərbaycanın Avropa və Asiyanın digər çoxsaylı ölkələri ilə əmtəə mübadiləsi genişləndi. Yüksəliş templəri I Dünya Müharibəsi illərində səngimələrə məruz qaldı. Neft hasilatı endi, kənd təsərrüfatında geriləmələr yarandı, taxıl əkini və pambıq

sahələri azaldı. Tənəzüllü meyillər yeni templərdə bolşevik çevrilişindən sonra da özünü göstərdi.

Azərbaycan iqtisadiyyatının inkişafı onun SSRİ dövlətinin tərkibində olduğu dövrlərdə dinamik olmuşdur. Həmin illər ərzində iqtisadiyyatın əksər sahələrində sürətli inkişaf müşahidə olunmuş, respublikada güclü sənaye potensialı formalaşdırılmışdır. Xüsusilə vurğulanmalıdır ki, Azərbaycan II Dünya Müharibəsinə qədər və müharibə illərində SSRİ-nin əsas neft bazası olaraq qalmaqda idi.

II Dünya Müharibəsinə qədərki dövrdə Azərbaycanda iqtisadiyyata yönələn bütün kapital qoyuluşlarının 65%-i sənayenin payına düşürdü. Azərbaycan sonrakı illərdə bir sıra əsas sənaye məhsulları istehsalına görə keçmiş SSRİ sənayesində yüksək yerlərdə qərar tutmuşdu. Belə ki, 1980-ci illərin ortalarında ittifaq üzrə neft-mədən avadanlıqları istehsalının 70%-i, məişət kondisionerlərinin 95%-i, soyuducuların 5,7%-i, elektrik qaynaq avadanlıqlarının 10,5%-i, kauçuk sodanın 7,8%-i, şərab və şərab məhsullarının 30,0%-i, pambıq ipliyinin 9,6%-i, ipək xammalının 11,7%-i Azərbaycanın payına düşürdü. 1970-1980-ci illərdə Azərbaycanda yeni sənaye müəssisələrinin istifadəyə verilməsi, yeni maşın və avadanlıqların alınması bütövlükdə ittifaq dövlətinə nisbətən daha sürətlə həyata keçirilirdi.

Azərbaycan 1991-ci ildə dövlət müstəqilliyini bərpa etdikdən sonra, diktatura iqtisadiyyatından bazar iqtisadiyyatına, milliləşdirmədən özəlləşdirməyə, total rejimindən sərbəst, yeni dünyəvi iqtisadi münasibətlər sisteminə qədəm qoydu. İqtisadi sahədə öz suveren hüquqlarını gerçəkləşdirməyə və müstəqil siyasət aparmağa başladı. Bu siyasətin təməlində bazar iqtisadiyyatına keçid və dünya iqtisadiyyatına inteqrasiya dayanmışdı.

Özəlləşdirmə, privatizasiya (*latınca* - privatus - *şəxsi*) dövlət mülkiyyətinin şəxsi əllərə verilməsidir. Milliləşdirmə prosesinin əksidir.

Yeni iqtisadi dövr üç mərhələyə ayrılır. Birinci, 1991-1995-ci illəri əhatə edən iqtisadi xaos və ya tənəzzül dövrü, ikinci, 1996-2003-cü illər makroiqtisadi sabitlik və iqtisadi inkişaf dövrü və üçüncü, 2004-cü ildən başlayaraq hal-hazıra kimi davam edən sürətli dinamik inkişaf dövrü.

Müstəqillik illərində ilkin mərhələdə dövlət quruculuğunu həyata keçirməklə, liberal iqtisadi islahatlar aparmaq, yeni neft siyasətini müəyyənləşdirmək və reallaşdırmaq, əhalinin sosial ehtiyaclarının ödənilməsini təmin etmək, yeni bazar təsisatlı institutlar formalaşdırmaqdan ibarət olmuşdur.

Ümummilli lider Heydər Əliyevin apadığı siyasət nəticəsində 1994-cü il sentyabrın 20-də Bakıda, "Gülüstan" sarayında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə dünyanın 11 tanınmış neft şirkəti arasında "Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında" saziş - "Əsrin müqaviləsi" (*Contract of the Century*) imzalandı. Azərbaycan ilk dəfə dünyanın neft şirkətləri ilə belə böyük miqyaslı şaziş imzalamaqla Xəzər dənizində beynəlxalq əməkdaşlığın əsasını

qoymuşdur. Bu tarix kontrakt milli neft sənayesinin yeni mərhələsinin lokomotivi olaraq ardınca çoxsaylı müqavilələri çəkib gətirdi. Ümumiyyətlə, "Əsrin müqaviləsi" də daxil olmaqla Azərbaycan dünyanın 20-dən artıq ölkəsinin 30-dan çox şirkəti ilə neft və qaz yataqlarının birgə işlənməsinə dair 37 Hasilatın Pay Bölgüsü sazişi imzalamışdır. Bütün bunlarla əlaqədar ölkədə neft sənayesinin inkişafını sürətləndirmək üçün mühüm infarstruktur yaranışları və dəyişiklikləri aparılmışdır. Konkret olaraq, "Azəri Layt" (*ingiliscə* - Azeri Light - *Azəri yüngül nefti*) markalı yüksək dəyərli Azərbaycan neftinin dünya bazarlarına çıxışı üçün ilk logistik layihələr həyata keçirilmiş, daxili (*Səngəçal, Dübəndi*) və xarici (*Novorossiysk - Rusiya və Supsa - Gürcüstan*) neft terminalları yenidən qurulmuş, Bakı-Supsa - QİBK, Bakı-Novorossiysk neft kəmərləri işə salınmışdır. Bu ərəfədə neft tariximizdə daha bir əlamətdar hadisə isə 1999-cu ilin noyabr ayının 18-də İstanbulda Çırağan sarayında "Ankara bəyannaməsi"nə uyğun olaraq Bakı-Ceyhan marşrutu üzrə "Xam neftin Azərbaycan, Gürcüstan və Türkiyə ərazisi ilə nəql edilməsinə dair saziş"in imzalanması olmuşdur. Bunlarla yanaşı, neftlə bağlı planların reallaşması istiqamətində ölkədə digər irimiqyaslı layihələr də həyata keçirilmişdir. Belə ki, "Əsrin müqaviləsi" ilə başlanğıc alan investisiyalar axını neft-qaz kompleksinin infrastrukturunun yenidən qurulmasında xüsusi əhəmiyyət daşımış, Bakıətrafı ərazidə dünyada ən böyük neft-qaz terminalı - "Səngəçal" terminalı inşa edilmiş, digər bir terminal - "Dübəndi" terminalı yenidən qurulmuşdur. Xəzərin dərin qatlarında yeni quyuların inşası üçün "İstiqlal", "Dədə Qorqud", "Qurtuluş" və "Lider" adlı üzən dərin qazma qurğuları istismara verilmişdir. Bunların içərisində 2017-ci ildə istismara verilən, texnoloji keyfiyyətliliyi və qazma xüsusiyyətliyinə görə unikal olan Heydər Əliyev adına altıncı nəsil son model yarımdalma qazma qurğusu xüsusi ilə fərqlənir. Bundan başqa, H.Əliyev adına Bakı-Tbilisi-Ceyhan ixrac neft boru kəməri, habelə Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz" qaz-kondensat yatağının açılışı və istismarı ilə əlaqədar Bakı-Tbilisi-Ərzurum Boru Xətti - CQBK inşa olunmuş, geniş institusional islahatlar aparılmış, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti - SOCAR-ın strukturu yeni mobil düzümdə formalaşdırılmış və sosial-iqtisadi inkişafa əlavə stimullar verən yüksək investisiya təminatlı Azərbaycan Respublikası Dövlət Neft Fondu - ARDNF təsis edilmişdir. Bütün bunlar "Əsrin müqaviləsi" və sonrakı neft konratklarının reallaşması ilə bağlı milli neft strategiyasına çevrilən neft siyasətinin məqsəd və vəzifələrinin imperativlərini təşkil etmişdir. Hazırda Azərbaycanın neft sənayesinə yatırılan sərmayələrin həcmi 80 milyard ABŞ dollarını ötmüşdür. Azərbaycanın milli neft strategiyasının həyata keçirilməsi istiqamətində yeni bir mərhələ *2017-ci ildə Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" - AÇG yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş sazişin imzalanması olmuşdur.* Göründüyü kimi, bu strategiya formalaşdırılarkən yalnız lokal məzmun daşımamış, həm də regional və qlobal miqyasları hədəfə almışdır.

Terminal (*ingiliscə* - terminal - "*sonuncu*") hər hansı bir sistemin onun xarici mühitlə əlaqələndirməsini təmin edən sonuncu hissəsidir.

Neft terminalı (*oil terminal*) neft və neft məhsulları qəbul edən istehsalat kompleksi, nəhəng neft anbarıdır. Neft və neft məhsulları neft terminalına dəmir yolu, boru kəmərləri, su nəqliyyatı vasitəsi ilə daxil olur və oradan da müvafiq nəqliyyat vasitələri ilə istehlakçılara çatdırılır.

Neft sənayesində qazanılan nailiyyətlər bütövlükdə ölkə iqtisadiyyatının inkişafına təkan verdi. 1995-2003-cü illər ərzində ÜDM 90,0%, sənaye məhsulunun həcmi 25,2%, kənd təsərrüfatı istehsalının həcmi 53,9%, dövlət büdcəsinin gəlirləri 3 dəfə, ölkənin valyuta ehtiyatları 85 dəfə, xarici ticarət dövriyyəsi 4 dəfə artdı. İnflyasiya səviyyəsi 2-3%-ə qədər endirildi, orta aylıq əmək haqqı 5,6 dəfə artdı, bütün maliyyə mənbələri hesabına iqtisadiyyata yönəlmiş investisiyaların ümumi həcmi 20 milyard ABŞ dollarını keçdi.

Dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycanın xarici iqtisadi siyasətinin mühüm istiqamətlərindən biri beynəlxalq iqtisadi təşkilatlar, maliyyə-kredit qurumları ilə əlaqələrin yaradılması olmuşdur. Azərbaycan 1992-ci ildə BVF-yə, BYİB-yə, AYİB-ə, İİB-yə, 1999-cu ildə Asiya İnkişaf Bankına üzv qəbul olunmuşdur.

Respublikada iqtisadi artımın rekord göstəriciləri 2004-2010-cu illərə təsadüf etmişdir. Həmin dövrdə dünyada qlobal maliyyə böhranının baş verməsinə (*2008-2009-cu illər*) baxmayaraq, Azərbaycan iqtisadiyyatı irəliləmişdir. Bu dövr ərzində ÜDM təxminən 7 dəfə yüksəlmiş, neft hasilatı 3,3 dəfə, qaz hasilatı isə 5,1 dəfə artmışdır.

Statistik məlumatlar göstərir ki, Azərbaycanın yeni inkişaf mərhələsini əhatə edən dövrdə - 2003-2017-ci illərdə ölkədə ÜDM nominal ifadədə 9,8 dəfə, real həcmdə 3,2 dəfə artmışdır. Bu dövrdə ölkədə orta illik iqtisadi artım 9,4%, o cümlədən qeyri-neft sektorunda 8,2% təşkil etmişdir. 2003-2017-ci illərdə sənaye məhsulunun istehsalı 2,6 dəfə, qeyri-neft sektoru üzrə ÜDM 2,8 dəfə, qeyri-neft sənayesi 2,2 dəfə, kənd təsərrüfatı 1,7 dəfə artmışdır. Həmin dövrdə əsas kapitala yönəldilmiş investisiyalar 3 dəfə, əhalinin adambaşına düşən gəlirləri 7,2 dəfə, orta aylıq əmək haqqı 6,8 dəfə, onun real həcmi 2,4 dəfə, banklardakı əmanətləri 30 dəfə artmış, 1,9 milyondan çox yeni iş yeri açılmışdır. Dövlət Sosial Müdafiə Fondunun xərcləri 9 dəfə çoxalmış, yoxsulluq səviyyəsi 44,7%-dən 5,4%-ə enmiş, orta ömür uzunluğu 72,4 ildən 75,4 ilə yüksəlmişdir. Ölkənin strateji valyuta ehtiyatları 27 dəfədən çox artaraq, 45 milyard ABŞ dolları təşkil etmişdir. İqtisadiyyatın liberallaşdırılması və sahibkarlığın inkişaf etdirilməsi nəticəsində özəl sektorun rolu əhəmiyyətli dərəcədə artmış, ÜDM-də özəl bölmənin payı 2003-cü ildəki 74%-dən, 2017-ci ildə 84%-ə yüksəlmişdir. Neft kapitalı da daxil olmaqla Azərbaycana cəlb edilən xarici investisiyaların həcmi 2003-2017-ci illərdə 117,8 milyarda ABŞ dolları təşkil etmişdir. Bu illər ərzində iqtisadiyyata kredit qoyuluşlarının həcmi 670 milyon manatdan 11,7 milyard manata yüksəlmişdir. Ümumilikdə son 15 il ərzində dövlət büdcəsinin gəlirləri 16,7 dəfə artaraq, 2003-cü ildəki 1,2 milyard manatdan 2018-ci ildə 20,1 milyard manata çatmışdır. 2003-cü illə

müqayisədə 2018-ci ildə dövlət büdcəsi xərclərinin tərkib hissəsi olan dövlət əsaslı vəsait qoyuluşu xərcləri 55,5 dəfə artaraq, 86,9 milyon manatdan 4,8 milyard manata çatmışdır. Bu isə genişmiqyaslı infrastruktur layihələrinin maliyyələşdirilməsi deməkdir. Qeyri-neft sektorunun inkişafı büdcə gəlirlərinin formalaşmasına da öz təsirini göstərməkdədir. Belə ki, 2017-ci ildə dövlət büdcəsinin qeyri-neft sektoru üzrə gəlirləri 8,6 milyard manat olmuşdur ki, bu da 2003-cü illə müqayisədə 11,4 dəfə çoxdur.

Bütün bunlarla yanaşı son 15 ildə ölkədə 3100-dən çox məktəb tikilmişdir ki, bu da ümumi məktəb fondunun 80%-nə bərabərdir. Hazırda Azərbaycanda savadlılıq səviyyəsi 100%-ə yaxındır. Ölkədə təhsilin bütün formaları, o cümlədən inklüziv təhsil (*inclusive learning*) həyata keçirilir.

Bu müddət ərzində yenidən tikilən və ya təmir edilən tibb müəssiələrinin sayı 600-dən çoxdur. Son 15 ildə ölkədə həmçinin 15 min kilometr yol çəkilmiş, 1,5 milyona yaxın yeni iş yeri açılmışdır.

Son 15 il ərzində, ümumilikdə, Azərbaycana yatırılan sərmayələrin həcmi 230 milyard ABŞ dollarına bərabər olmuş və bu vəsaitlərin yarısını xarici, digər yarısını isə daxili investisiyalar təşkil etmişdir.

Dünya Bankının proqnozlara əsasən, Azərbaycanın Ümumi Daxili Məhsulu 2019-cu ildə 3,8%, 2020-ci ildə isə 3,2% artacaqdır. Ortamüddətli perspektivdə ölkə iqtisadiyyatının artım templəri qaz hasilatının genişlənməsi və "Cənub Qaz Dəhlizi" layihəsinin tam miqyaslı reallaşması ilə daha da sürətlənəcəkdir.

Azərbaycanın bu uğurları aparıcı dünya təşkilatları tərəfindən yüksək qiymətləndirilir. BMT İnkişaf Proqramının qlobal İnsan İnkişafı Hesabatına əsasən, Azərbaycan "orta insan inkişafı" ölkələri kateqoriyasından "yüksək insan inkişafı" kateqoriyasına daxil edilmişdir. "Doing Business" hesabatına əsasən, Azərbaycan 2017-ci ildə 190 ölkə arasında 57-ci pillədə, Davos Dünya İqtisadi Forumu reytinqində Azərbaycan 35-ci pillədə qərar tutmuşdur. Azərbaycanda inklüziv cəmiyyət (*inclusive society*) quruculuğu sahəsində də davamlı inkişaf prosesləri gedir. Təsadüfü deyil ki, 2018-ci ildə Azərbaycan mümkün 8 baldan 4,69 bal toplamaqla bu göstərici üzrə inkişaf etməkdə olan ölkələr arasında 3-cü yeri (*Litva və Macarıstandan sonra*) tutmuşdur. İnkişaf etmiş ölkələr sırasında isə İslandiya və Lüksemburqu 0,1 bal geridə qoymaqla 6,08 balla Norveç lider olmuşdur.

İnklüziv təhsil (*fransızca* - inclusif - *özünə daxiletmə, latınca* - include - *bağlayıram, qoşuram - ingiliscə* - inclusive learning - *inklüziv təhsil*) sağlamlıq imkanları məhdud və həmçinin belə məhdudiyyətləri olmayan şəxslər üçün müxtəlif növ əlavə təhsilin təşkilini, birgə tədris məşğələlərini, habelə asudə vaxtı özündə ehtiva edən birgə təhsil.

İnklüziv cəmiyyət (*latınca* - include - *bağlayıram, qoşuram, ingiliscə* - society - *cəmiyyət*) əlilliyi olan insanlar və sağlam vətəndaşlar üçün ictimai məkanları birləşdirən cəmiyyət. İnklyuziv etimologiyaca latın mənşəli "include"- "daxil edirəm" sözündən başlanğıc alır və hərfi tərcümədə mən (*biz*) sənləyəm (*sizinləyik*) mənasını ifadə edir. İnklyuziv cəmiyyət ayrı-seçkiliklə yol verməməyə hörmət edən, siyasətdə və yanaşmalarda diskriminasiyalarla fəal mübarizə aparan cəmiyyət tipidir.

İnklüziv İnkişaf İndeksi (*Inclusive Development Index, IDI*) özündə ölkənin iqtisadi tərəqqisini qiymətləndirən meyarları əks etdirən alternativ system olaraq Beynəlxalq İqtisadi Form tərəfindən işlənmiş indeksdir. Multiparametrik göstərici kimi İnklüziv İnkişaf İndeksi 3 qrupda (*hər birində 4 göstərici olan*) 12 indikatoru birləşdirir. Birinci artım və inkişaf (*əhatə edir - ÜDM artımını, məşğulluğu, əmək məhsularlığını, gözlənilən ömür müddətini*), ikinci inklüzivlik (*ev təsərrüfatlarının median - orta gəliri, yoxsulluq və qeyri-bərabərlik səviyyəsi*) və üçüncüsu nəsillərarası ədalət və davamlılıq (*qənaətcillik səviyyəsi, demoqrafik yük, dövlət borcu və ətraf mühitin çirklənməsi*). Belə yanaşma iqtisadi inkişafın mənzərəsini daha tam tərənnüm edir (*əgər onun məqsədi əmtəə və xidmətlərin istehsal artımı deyil, əhalinin həyat səviyyəsinin davamlı yüksəlişidirsə*). Ekspertlər Inklüziv İnkişaf İndeksini inqilabi adlandıraraq onu planetin baş makroiqtisadi göstəricisi - ÜDM-lə əvəzləmək niyyətindədirlər.

Beləliklə, Azərbaycanın milli iqtisadiyyatının inkişaf mərhələləri - qədim tarixi dövr, orta əsrlər dövrü, neftin sənayeləşmə mərhələsi, XIX əsrin ortalarından XX əsrin əvvəllərinə qədər neft sənayesi ilə bağlı yüksək inkişaf dövrü, Azərbaycan Xalq Cümhuriyyəti dövri (*1918-1920*), SSRİ mərhələsi və dövlət müstəqilliyinin bərpası ilə başlanan ən yeni tarixi mərhələyə təsnifatlandırılır.

Hazırda Azərbaycan iqtisadiyyatı dinamik, davamlı inkişaf yolundadır. Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi və möhtərəm Prezident İlham Əliyevin müasir dünyanın çağırışlarına uyğun olaraq daha da zənginləşdirdiyi uzunmüddətli sosial-iqtisadi inkişaf strategiyasının uğurla həyata keçirilməsi nəticəsində Azərbaycan iqtisadiyyatın bütün sahələrində mühüm nailiyyətlər əldə edir və ölkənin dirçəlişi yeni inkişaf mərhələsinə qədəm qoyur.

## 2.17. Azərbaycan iqtisadiyyatının formalaşmasında karbohidrogen resurslarının rolu və əhəmiyyəti

Hələ qədim zamanlardan Azərbaycan xalqının təsərrüfat və sosial həyatında neftdən istifadə mühüm rol oynamışdır. Burada min illər davam edən hasilat yalnız dünya iqtisadiyyatına deyil, həm də bütövlükdə neft təsərrüfatı salnaməsinə misilsiz töhfələr vermişdir. Belə ki, neft tarixi ilə bağlı elə bir yaranış tapmaq çətindir ki, orada Azərbaycanın adına rast gəlinməsin. Azərbaycanın "odlar yurdu" mənasını daşıyan adlanışı da, heç şübhəsiz ki, bu coğrafiyada yerin təkindən özbaşına çıxan təbii yanar qazların və enerji effektli mövcud neftli ərazilərin genişliyindən qaynaqlanmışdır. Hələ b.e.ə. VII-VI əsrlərdə Azərbaycanda, xüsusən, Abşeron torpağında neftdən istifadənin mövcudluğu haqqında dəyərli tarixi məlumatlar vardır. Əslində, qədim dünyanın məşhur tarixçisi Heredotun neft xatiratları da "zərdüştlük" dininin əsas mərkəzlərindən biri olan Abşeron (*Ateşibaquan*) ərazisi ilə bağlanılır. Makedoniyalı İsgəndərin Şərq yürüşündə neftlə yanan çıraqla tanışlıq məkanı da Azərbaycan ərazisini ehtiva edir. Azərbaycandan III-IV əsrlərdə İrana neft daşımaları ilə bağlı salnamələrdə ətraflı

məlumatlar yer almışdır. Bu məlumatlar bizanslı diplomat Prisk Pontiyskinin də (*V əsr*) xatiratlarında iz buraxmışdır. Bu həqiqətlər və orta əsrlərdə neftin daha genişliklə istifadə predmetinə çevrilməsi müsəlman Şərqinin görkəmli alimləri - fars əsilli ərəb coğrafiyaşünası İstaxri Əbu İshaq Əl-Farsi (*850-934*), ərəb tarixçisi, coğrafiyaşünas və səyyahı "Ərəb Heredotu" kimi də məşhur olan Əbdül Həsən Məsudi (*896-956*), islam filosofu, tarixçi, şair, tarixdə bəzən "Üçuncü müəllim" kimi də xatırlanan İbn Misqəveyh *(932-1030*), ərəb şairi və səyyahı Əbu Duləf (*X əsr*), ərəb tarixçiləri, coğrafiyaşünas və səyyahları olan Yakut Əl-Xəmavi (*1178-1229*) və Əhməd Əl-Belazuri (*XI əsr*), Xarəzm salnaməçisi Məhəmməd ibn Nəcib Bəkran (*XIII əsr*), Hülakilər dövrünün tarixçisi və coğrafiyaşünası Həmdullah Qəzvini (*1281-1350*), Azərbaycan coğrafiyaşünası Əbdülrəşid İbn Saleh Bakuvi (*1402-1473*) və digərlərinin əsərlərində əksini tapmışdır.

Qlobal neft tarixinin Azərbaycanla bağlılığını gücləndirən dəyərli məlumatlara italyalı səyyahlar Marko Polo (*1254-1324*), İosafat Barbaronun (*XV əsr*), fransalı missioner Jurden Katalini de Severakın (*XV əsr*) və digərlərinin yazılarında da genişliklə rast gəlinir. Çoxsaylı əlyazmalarda XVI əsrdə Bakı-Abşeron ərazisində 500-dən çox quyunun mövcudluğunu təsdiqləyən, hasil olunan neftin, karvanlardan savayı, hətta gəmilərlə daşınmasını diqqətə gətirən məlumatlar vardır. İngilis ticarət agenti Cefferi Dyuket (*XVI əsr*) Bakı səfərində burada qara yağ - "nafta"nın hasil edilməsinin və onun karvanlarla daşınmasının şahidi olduğunu diqqətə çəkir. Bu fikirlər bir daha XVI əsrin ikinci yarsında Bakıya səfər etmiş türk səyyahı Katib Çələbinin (*1608-1657*) qeydlərində eyniliklə əksini tapır. Bakının Balaxanı kəndindəki mədənlərdə aşkarlanan köhnə neft quyusu ətrafındakı daş kitabədə onun dərinliyinin 64 metr olduğu və 1594-cü ildə usta Allahyar Məhəmmədnur oğlu tərəfindən inşa edildiyi göstərilir. Bu isə o demək idi ki, artıq həmin zamanlarda neft quyusunun qazılması sənətkarlıq səviyyəsinə yüksəlmiş, neftin istehlakı isə intensiv xarakter almışdı. Bu zamanlarda neft tikintidə və bu çevrədən də fiskal mexanizm kimi xəzinədarlıqda tətbiqini tapmışdır. XIV əsrdə inşa edilən Bakı Cümə məscidinin minarəsinin divarlarında əks olunan yazılar bu mövcudluğa aydınlığı ilə görüntü verir.

XVII əsrdən başlayaraq neft artıq özünün əhəmiyyətini və şöhrətini daha da möhkəmləndirir. O, xarici ticarət əlaqələrinin genişlənməsində mühüm əmtəəyə çevrilir. Təbii ki, həmin zamanlarda neftin qlobal və regional çevrədə topdansatış bazarı da, alternativləri olmadan, Bakıda yerləşmişdi. Bu bazar öncə region ölkələrinin neftə yaranmış tələblərini ödəməkdə idi. Sonradan neft maraq dairəsini genişləndirərək, Hind-Çindən Avropanın Atlantik okean sərhədlərinə qədər ticarət zonasını əhatə etdi. Həmin illərdə alman alimi, səyyahı və diplomatı Adam Oleari (*1603-1671*) Danimarka krallığına yönələn hesabatlarında Abşeron ərazisində neftçıxarmanın vüsəti ilə bağlı məlumatlar yazmış, Səfəvi dövlətində İsveç səfirliyinin katibi Engelbert Kempfer (*1651-1716*) isə neftlə yanaşı, həm də Abşeronda təbii yolla yer üzərinə çıxan qazların yanmasına da diqqəti çəkmişdir.

Yanacaq və işıqlandırma keyfiyyətini aşaraq yeni mahiyyət kəsb edən neft rus çarı I Pyotrun (*1672-1725*) əzəmətinin yüksəlişində imperatorun və imperatorluğun strateji maraqlarında təcəssüm olunmaqda idi. Bu niyyətləri ifadə edərək 1719-cu ildə Bakı qalasının zəbt olunması planı hazırlanmışdır. Rus tacirlərinin Azərbaycan bazarlarında sıxışdırılması adı altında I Pyotr 1723-1792-illərdə "Fars yürüşü" istila planında komandan general M.T.Matyuşkinə (*1676-1737*) Bakı neftinin miqyası, zəfəranın miqdarı haqqında məlumatların və bu sərvətlərin Rusiyaya göndərilməsi təlimatını vermişdir. Bir neçə pud ağ neft əldə edən imperator sonradan Bakı mədənlərini idarə edən rus administrasiyasından daha 207 pud (*3,79 ton*) neft almışdır. Bakı və Şirvan mədənlərini ələ keçirən rusların bu ərazilərdə neftə tam sahib olmaq iddiaları bir neçə onillik sonralara təsadüf etmişdir. Əfqanların indiki İran ərazilərinə qəfil müdaxiləsi çarın planlarını pozmuş, qoşunlar təcili zəbt etdikləri torpaqlardan geri çəkilmişlər. Pyotrun ölümündən sonra öncə əldə edilmiş qalıq nefti xarici bazarlara çıxarılaraq, bir qədər də konkret olaraq, Hollandiya apteklərində satılmışdır. Bu illərdə Bakı mədənlərində hər il 4 tona qədər neft hasil olunmaqda idi.

1731-ci ildə Peterburq Elmlər Akademiyasının akademiki Samuel Qemelin (*1744-1774*) və 1773-cü ildə isə digər bir rusiyalı, həkim-səyyah İvan Lerxen (*1708-1780*) Azərbaycan səyahətlərində Bakıda 52 neft quyusunun mövcudluğu, bir neçə yeni quyunun qazılması və müxtəlif çeşiddə neft məhsullarından istifadə olunması təəssüratlarını qələmə alınmışlar. Bu da məlumdur ki, 1724-cü ildə Abşeronda neft quyularının xəritəsi tərtib olunmuşdur. Bütün faktlar, öz növbəsində, Azərbaycanda hələ iki-üç əsr öncə neftçıxarmanın, qazmanın və neftin emalının genişliklə tətbiq olunduğunu göstərir. Bakının neft mədənlərinin 1806-cı ildə, de-yuro isə 1813-cü ildən Rusiyanın inhisarına keçməsi ilə neft hasilatı uçot-hesabat göstəricisinə çevrilir. Belə ki, artıq 1806-ci ildə Bakıda 3930 ton qara və 41 ton ağ neftin hasil olunması haqqında uçota alınan məlumatlar vardır.

Milli neft iqtisadiyyatında sənayeləşmə erasına qədər tarixi bir reallıq da ondan ibarətdir ki, primitiv istehsal, kiçik normalı ehtiyaclardan yeni artım müstəvisinə keçiddə Azərbaycanın indiki ərazisi, o cümlədən, neftli sahə Abşeron torpağı Rusiyanın nəzarətinə keçmişdir. Rus istilasına qədər Azərbaycan neft mədənləri Bakı xanlığının sərəncamında olmuşdur. "Türkmənçay müqaviləsi" ilə vüsətlənən mərhələ isə Azərbaycanı Rusiyanın xammal bazasına çevirmək məqsədlərini praktiki təmin etmiş və neft quyuları imperiya xəzinəsinin mülkiyyətinə çevrilmişdir.

Bu ərəfədə Rusiyadan Azərbaycana ezam olunmuş mütəxəssislər yerli regionu öyrənir, onun iqtisadi potensialı və perspektivləri haqqında tədqiqatlar aparırdılar. İlk əvvəl rus kapitalına və yerli tacirlərin əmlakına istinad edən feodal ənənələrinə müvafiq kənd təsərrüfatı, balıqçılıq, sənətkarlıq və ticarət sərmayə obyekti seçilmişdi. Sonralar iqtisadi maraq və nəzarət sferası genişlənmiş, torpaqlar əksərən milliləşdirilmiş, neftçıxaranlara neftli ərazilər 4 illik müddətdə icarəyə verilmişdir. Tətbiq edilən intizam sistemi artan neft tələbatını ödəməkdə başlıca iqtisadi maneəyə çevrilmiş və imperiya

xəzinəsinə kapital axını üçün müvəffəq sayılmamışdır. Səbəb ondan ibarətdir ki, qısamüddətli kirayəçilik qazma və hasilat işində sərmayə qoyuluşuna, texniki təkmilləşməyə əngəllər törədirdi. Şərhi verilən tarixi hadisələr həm də XIX yüzilliyin ilk onilliklərinin bitməsi ərəfəsində Avroatlantik məkanda sivilizasiyanın industrial simasının təşəkkül tapma zamanlarına təsadüf etmişdir. Xüsusi olaraq vurğulanmalıdır ki, rus neft salnaməsinin müxtəlif baxış bucaqlarından yazılmasına baxmayaraq bütün istiqamətlərdə müvafiq tarixin Azərbaycanla bağlılığı mübahisəsiz qeyd olunur. Etiraf edilir ki, Rusiyanın neft ölkəsinə çevrilməsində Bakı rayonu: Balaxanı, Sabunçu-Ramana və Bibiheybət nəhəng neft yataqlarının (*oil field*) kəşfi başlıca mövqedə dayanmışdır. Bununla belə, dolğunluğu ilə etiraf edilməlidir ki, Azərbaycanın da neft sənayesinin tərəqqisi Rusiyada kapitalizmin inkişafı ilə sıx əlaqədar olmuşdur.

Dünyada mexaniki üsulla ilk neft quyusu 1846-cı ildə Bakıda Bibiheybətdə qazılmışdır. Bununla belə, qeyd olunmalıdır ki, mexaniki qazma ilə yanaşı hasilatda dərinlik nasoslarının tətbiq meydanı kimi Bakı fərqlənmişdir. Belə ki, nextçıxarmada istifadə olunan dərinlik nasosu da ABŞ-dan 15 il öncə ilk dəfə 1876-cı ildə Bakı mədənlərində sınaqdan çıxarılmışdır. Bundan başqa, 1859-cu ildə Bakıda ilk neftayırma zavodu tikilmiş, 1871-ci ildə ilk dəfə yatağın sənaye üsulu ilə işlənməsinə (*Balaxanı-Sabunçu-Ramanı*) başlanmış və 1878-ci ildə Balaxanı yatağı ilə Bakı neftayırma zavodu arasında 12 km uzunluqda ilk neft kəməri inşa olunmuşdur.

XIX əsrin ikinci yarısında Rusiya iqtisadiyyatında artıq yüksək inkişaf templəri sürət alırdı. Statistik məlumatlara əsasən, 1860-1900-cu illər ərzində burada sənaye mallarının istehsalı 7 dəfə artmışdır. Analoji artım müvafiq olaraq Almaniyada 5, İngiltərədə isə 2 dəfədən bir qədər çox olmuşdur. Canlanma və tərəqqi ölkə iqtisadiyyatının digər sahələrində də özünü biruzə vermişdir. Elə bu çağlarda Rusiya imperatorluğuna qatılmış ucqar Bakı regionunda neft fontanları yeni gerçəkliklər və sarsıntılar yaratmaqda idi. Neft kapitallaşaraq yeni maraqlar və tələblər doğurmuşdu. Getdikcə strateji əhəmiyyət kəsb edən neftə tələbin durmadan artması Rusiyada bu sahədə əsaslı islahatların aparılmasını gündəmə gətirdi. Rusiya hökuməti neft sənayesində sərmayə axınını gücləndirən, dirçəlişi təmin edən ardıcıl iqtisadi siyasi kurs qəbul etdi. Əsas strateji xətt kimi neft mədənlərinin özəlləşdirilməsi müəyyən olundu. Bu dövrlərdə neft sənayesinin inkişafına mövcud icarə sistemi ilə bağlı problemlər ciddi əngəllər törədirdi. Bunu nəzərə alaraq 1866-cı ildə Peterburqda neft işinin inkişafı məsələsini araşdırmaq məqsədilə müvafiq komissiya təşkil edildi. Uzun araşdırmalar, böyük hesablamalar 1872-ci ildə bu işdə məhdudlaşdırıcı amilə çevrilmiş iltizam sisteminin ləğvi ilə nəticələndi. Həmin ilin son günündə keçirilən hərraclarda neftli torpaq sahələri özəl əllərə verildi və neft işinə güclü investisiya axını, xüsusən də, xarici kapitalın cəlb edilməsi prosesi başlandı. Məhz 1872-ci il Azərbaycan neft tarixində geniş sənaye hasilatı erasının başlanğıcı hesab olunur.

Belə bir fakt maraq doğurmaya bilməz ki, 1872-ci ildə Rusiyada hasil olunan 27 min ton neftin 26 min tonunu Bakı, qalan hissəsini isə Qroznı və Krasnodar yataqları

vermişdi. Çar hökuməti dağ-mədən sənayesində təhkimçi əməyinin tətbiqini qadağan etdikdən sonra XIX əsrin 70-90-cı illərində Bakıda neft hasilatında ciddi yüksəlişlər əldə olundu və Bakıda neft bumu dairəsini daha da genişləndirdi. İnkişaf o qədər sürətlə gedirdi ki, artıq 1879-cu ildə Abşeronda əl ilə quyu qazılması tətbiq olunmurdu. Yeni iqtisadi imkanlar Azərbaycanda quyuların sayının 1872-1901-ci illərdə 1740-a çatmasına, orta quyu dərinliyinin yüzmetrləri aşan silsiləyə, hasilatın 62,3 mindən 10,7 milyon tona qədər yüksəlməsinə təkan vermişdir. Bu zaman kəşfiyyat-axtarış, işləmə və hasilat sferasında artıq spesifik şirkətlər təşəkkül tapmış, ilk dəfə olaraq azərbaycanlı sahibkarlar kapital dünyasında avtoritet zirvəyə yüksələrək xaricdə böyük daşınmaz əmlaka, dünya banklarında yetərli hesablara malik olan neftxudalara - iri neft boslarına çevrilmişlər. Neft sivilizasiya effekti yaradaraq milli burjuaziyanın formalaşmasına, ölkədə yüksək Avropa mədəniyyətinin qərarlaşmasına, iqtisadiyyatın, şəhər təsərrüfatının yenidən təşkilinə, aqrar sektorun, nəqliyyat və xidmət sahələrinin inkişafına təkan vermişdir.

Qeyd olunmalıdır ki, iltizam sistemin ləğvinin ilk illərində neft hasilatı, əksərən, milli sahibkarların əlində cəmləşmişdi. Bununla yanaşı, səhmdar əməkdaşlıq formasında işbirliyi də qurulmada idi. 1873-cü ildə Abşeronda 12 müxtəlif şirkət hasilatı təmin edirdi. Əsrin sonlarında analoji şirkətlərin sayı 61-ə çatmışdı. Norveçli iş adamları Nobellərin Azərbaycan neftinin istismarı ilə əlaqədar Bakıda 1879-cu ildə təşkil etdikləri "Nobel qardaşları" şirkəti isə komplekslilik baxımından xeyli fərqli statusda çıxış etmiş və dünya neft tarixinə ilk "şaquli inteqrasiyalı şirkət" kimi daxil olmuşdur. Lakin tarixi mənbələrdə Bakı milyonçusu Hacı Zeynalabdin Tağıyevin yaratdığı "H.Z.Tağiyev" şirkətinin fəaliyyəti bundan 7 il öncəyə (*1872*) təsadüf edir. "H.Z.Tağiyev" şirkəti korporativ model qurluşuna istinadən bütün neft əməliyyatlarını şəriksiz sərbəst yerinə yetirmişdir. Bu baxımdan da o, statusuna görə, "Nobel qardaşları" şirkətinin paradiqmal sələfi kimi çıxış edir.

Həmin ərəfədə neft sənayesinin inkişafına bir çox şirkətlər sərmayə qoyuluşunu gerçəkləşdirdi. Artıq XIX əsrin 80-ci illərində bu yanacaq növünə ehtiyac daha da artdı. Qeyd edilməlidir ki, sənayeləşmənin ilk onilliyində neftdən alınan mühüm yanacaq növü kerosin olmuş və o, dünya bazarının əsas əmtəəsi kimi hər iki ölkəni qızğın rəqabət savaşına çıxarmışdı. Bu arada Azərbaycan neft sənayesinə ingilis, fransız, alman kapitalının güclü axını Avropa bazarında ABŞ kerosininin sıxışdırılmasını stimullaşdırmaqda idi. Rusiya da bu hadisələr fonunda Azərbaycandakı təsisatlarını gücləndirir, neftdən daha çox iqtisadi-siyasi fayda götürməklə yanaşı, hasilatda texnoloji irəliləyişlərə nail olmağa çalışırdı. Statistika göstərir ki, Azərbaycanın neft sənayesində 1873-ci ildə 12, 1899-cu ildə 61, 1905-ci ildə 158, 1913-ci ildə isə artıq 182 neft hasil edən şirkət iştirak edirdi. Nobellərlə yanaşı, həmin illərdə parisli bankir Alfons Rotşild (*1827-1905*) də Bakının neft sənayesinə ciddi sərmayə qoyuluşunu həyata keçirirdi. Əsrin sonlarında isə Britaniya kapitalının Bakıya geniş axını başlandı. Bu dövrlərdə xarici şirkətlər arasında "Nobel Oyl" və "Şell" artıq neft hasilatının

60,2%-ni öz inhisarına almışdılar. Xarici kapitalın neft sənayesində geniş yer alması bir tərəfdən mənfəətli olsa da, digər tərəfdən müəyyən qısqanclıqlar doğururdu. Elə bu meyilləri nəzərə alaraq rus kimyaçısı Dimitriy Mendeleyev (*1834-1907*) 1881-ci ildə rus sahibkarlarına müraciətlə fransız, alman, isveç, ingilis və amerikalıları imperiya neftinin istismar edilməsinə buraxılmamasını tövsiyə etmişdi. Bu dövrlər həm də Bakı neftinin istismarı sahəsində əlverişli şərait yaranışı ilə fərqlənirdi. Belə ki, burada hər qazılan quyu fontanla nəticələnirdi. İşçi qüvvəsi də olduqca ucuz idi. Mövcud iqtisadi əlverişli mühüt bir çox xarici şirkətlərin və sahibkarların varlanmasını daha da artırırdı. Bu zənginləşmə prosesində Nobel şirkəti daha irəlidə gedirdi. Neft sənayesinin inkişafı 1880-ci illərdə Bakıda kerosin istehsalının artmasına səbəb oldu. Bu zaman aksiz vergisinin ləğvi Rusiya bazarında ABŞ kerosinini sıxışdırdı. 1883-cü ildə ABŞ-dan Rusiyaya kerosin gətirilməsi dayandırıldı. Bakı nefti İngiltərə və Almaniya bazarlarına çıxdı.

Neft sənayesi və onunla əlaqədər sahələrin inkişafı Bakının özünün güclü inkişafına səbəb olmuşdur. Şirvanşahların mərkəzi qədim Bakı XIX əsrin əvvələrində, Rusiya istilasının ilk illərində əhəmiyyətsiz şəhər hesab edilirdi. Şamaxı zəlzələsi quberniya mərkəzinin bu şəhərə köçürülməsi amilinə çevrildikdən sonra neft sənayesinin təşəkkülü onu əhəmiyyətini artırdı. XIX və XX əsrlərin qovuşuğunda Bakı Avropanın neft industriyasının mərkəzi şəhərinə çevrildi. Bu dövr ərazində neft sənayesi ilə bağlı infrastruktur tam təşəkkül tapmışdı, 1875-cı ildə isə Bakının neft sənayesinin cəmləşdiyi məşhur Qara şəhər meydana gəlmişdi.

Əhalinin artım sürətinə görə Bakı o dövrdə dünya şəhərləri içərisində birinci yeri tuturdu. Bakının özü və nefti ilə bağlı dövri nəşrlərdəki bir çox məqalə və yazılarda şəhərin sürətli inkişafı haqqında təəssürratlar diqqəti cəlb edir. Bu baxımdan bolşeviklərin rəhbəri V.Leninin "Neftin demək olar ki, hamısı Bakı quberniyasında hasil edilir, buna görə də Bakı şəhəri əhəmiyyətsiz bir şəhər ikən dönüb Rusiyada 112 min əhalisi olan birinci dərəcəli sənaye mərkəzinə çevrilmişdir" söyləməsi sürətli yüksəlişi təsdiq edən yetərli ifadədir.

Neft və qaz hasilatının artmasına iqtisadi münasibətlərin təkmilləşməsi də böyük təsir etmişdi. Artıq bu illərdə neft sənayesinin infrastrukturunun tam formalaşması reallaşmaqda idi. Bu zaman Bakıda çoxsaylı cəmiyyətlər, ittifaqlar, sindikatlar, müxtəlif zavodlar meydana gəlmişdi. Bunlardan 1874-cü ildə yaradılmış "Bakı Neft Cəmiyyəti" (*B.N.C*) xüsusi ilə fərqlənirdi. Onun ilkin əsas kapitalı 678550 manat idi və sonradan nizamnamə fondu bir neçə dəfə artırılmışdı. Cəmiyyətin Balaxanı, Sabunçu, Suraxanı, Ramana, Bibiheybət, Qaraçuxur, Bülbülə və Zığda neft mədənləri, 299 buruğu (*1914*), Zığ və Bakıda dəniz körpüləri, Suraxanıda neft emalı zavodu, neftvurma stansiyaları, emalatxanaları, neft, qaz kəmərləri və s. bu kimi çoxlu obyektləri var idi. "B.N.C." neft inhisarları qrupuna daxil idi və ona Rusiya-Asiya Bankı nəzarət edirdi.

Neft infrastrukturunun genişləndirilməsi, yeni mütərəqqi üsulların, texnologiyaların tətbiqi prosesləri artıq Azərbaycanda neft biznesinin formalaşdığını diqqətə gətirən əlamətlər və faktlar idi. Bu əsasda Bakıda neftin emalı ilə bağlı zavodların sayı art-

maqda davam edirdi. Bunlar arasında əsası 1871-ci ildə "Nobel qardaşları" şirkəti tərəfindən qoyulmuş ilk neftayırma və neft-kimya sənayesi müəssisəsində, 1884-cü ildə "Rus-Qafqaz Səhmdarları Cəmiyyəti" tərəfindən yaradılmış zavodda kerosin, mazut, qazolin, benzin, sürtkü yağları və s. neft məhsulları istehsal edilirdi.

Neft Bakını "Böyük İpək yolu"nun tranzit məkanlığı statusundan çıxararaq onun avtonom logistik imkanlarını qaynaqlandırmışdı. Neft sənayesinin sürətli inkişafı neft və ondan alınan məhsulları istehlak yerlərinə çatdırmaq üçün dəniz nəqliyyatını inkişaf etdirmək zərurəti yaratmışdı və Bakının neft daşınmasında əhəmiyyəti artmışıdı. Belə ki, 1859-cu ildə Bakı limanının inşası dəniz nəqliyyatında, xüsusən, neftdaşımada yeni perspektivlər açmışdı.

Hasilatın sürətli artımı nəticəsində neft bazarı və ona sahib olmaq uğrunda mübarizə vüsət aldı. XIX əsrin 90-cı illərində ABŞ-ın "Standart Oyl" şirkəti ilə Rusiyanın neft sənayeçilərinin dünya bazarının bölgüsü üzrə mübarizəsi kəskinləşirdi.

XIX əsrin sonunda Azərbaycanın neft potensialı daha da genişləndi. Bakıdan Rusiyadakı əsas istehlakçılar - Moskva, Sankt-Peterburqla yanaşı, Hindistan, Türkiyə, Misir, Çin, Yaponiya və hətta daha uzaqlara - Avstraliyaya da ixrac məhsulları göndərilməyə başlandı. Artıq 1894-cü ildə Azərbaycanda çıxarılan neftin miqdarı ABŞ-dakı səviyyəyə bərabər idi. 1901-ci ildə isə hasilatın həcminə görə Bakı Neft Rayonu liderliyi ələ alaraq dünyada birinci yerə çıxmışdı. Həmin ildə dünyada 20 milyon ton-dan bir qədər çox neft çıxarılmışdır ki, bunun da yarıdan çoxu Azərbaycanda, Abşeron yarımadasında hasil edilmişdir.

XIX əsrin əsrin axırlarında neft sənayesinin güclü inkişafı vaxtı Avropa və Rusiyada sənaye böhranı baş verdi. Baş verən böhran nəticəsində neft bazarının imkanları məhdudlaşdı. Bu da müəyyən qədər hasilatın azalmasına səbəb oldu. Yüksək mənfəət götürmək ehtirası neft yataqlarının vəhşicəsinə istismarı ilə nəticələndi. 1904-cü ildə İngiltərənin ağ neft tələbatının 71,1 %-ni Bakı reallaşdırırdı. 1881-ci ildə Bakıda 9,2 milyon, 1900-cu ildə isə 87,9 milyon manatlıq məhsul istehsal olunmuşdu ki, bu da bütün Qafqaz sənaye məhsulu dəyərinin $^{1}/_{3}$-ni təşkil edirdi. Lakin bütün bu keyfiyyətlər qeyd olunan 1900-1903-cü illər dünya iqtisadi böhranı ilə dəyişikliklərə uğradı. Böhranın ilk çağlarında Azərbaycan nefti bir neçə il əvvəl əldə etdiyi dünya neft hasilat birinciliyini yenidən ABŞ-a verdi. Bu proses əksər parametrlərdə düz 75 il ABŞ-ın dünya neft industriyasında ön cəbhədə duruşu mərhələsi ilə müşayiət olundu. O da qaçılmaz faktdır ki, XIX əsrin ortalarından II Dünya Müharibəsinin bitməsinə qədər dünya neft sənayesi ABŞ və Bakı nefti əsasında ikimərkəzli qütbdə inkişaf etmişdir.

XIX əsrin ikinci yarısında, xüsusilə, XX əsrin birinci onilliklərində, o cümlədən I Dünya Müharibəsinin sonunda da Bakı nefti uğrunda mübarizə Avropa dövlətlərin xarici siyasətinin əsas istiqamətlərindən birini təşkil edirdi. Məhz bu illər ərzində in-tensiv sürətlə artan neft hasilatı getdikcə daha çox siyasi xüsusiyyət daşıyırdı. Neft bazarı həm də Azərbaycanı siyasi çəkişmələrə sürəkləyirdi. Artıq 1917-1919-ci illərdə Azərbaycan Rusiyanın, Almaniya, İngiltərə, Türkiyə və Fransanın maraq dairələrinə

ciddi daxil olmuşdu. I Dünya Müharibəsi ərəfəsində Azərbaycanın neft sənayesi, demək olar ki, 3 nəhəng xarici inhisarçı şirkətin "Şell" "Nobel qardaşları" və "Oyl" ("*Raşen ceneral oyl korporeyşen" - İngiltərə*) əlində cəmlənmişdi. Bunlar arasında "Oyl" səhmdar cəmiyyəti kapitalın 50, hasilatın isə 40 faizinə sahib idi. Bakıda mövcud 20 nəhəng neft sənayesi şirkəti arasında azərbaycanlı sahibkarlar - Hacı Zeynalabdin Tağıyev (*1838-1924*), Musa Nağıyev (*1842-1919*) və Şəmsi Əsadullayevin (*1840-1913*) şirkətləri də xüsusi çəkiyə malik idilər. Ş.Əsədullayev neft ticarəti edən 4 nəhəng şirkətdən birinə sahib idi. Bu dörd şirkətə isə Rusiyada 400-dən çox irili-xırdalı neft terminalı məxsus idi. Bakı quberniyasında adambaşına istehsal edilən sənaye məhsulunun həcmi Tbilisi ilə müqayisədə 30 dəfə, İrəvan quberniyasına nisbətən isə 217 dəfə yüksək idi. Buranın hər 10 min sakinindən 530 nəfər, Tiflisdə 60 nəfər, İrəvanda isə cəmi 5 nəfər iri sənayedə işləyirdi. Bakını daxil etmədən belə, 1908-ci ildə Azərbaycanda 2450 fabrik-zavod müəssisəsində 22943 fəhlə çalışırdı. Tbilisi ilə birgə bütün Gürcüstanda isə 5304 fabrik-zavod müəssisəsi var idi və onlarda 17556 fəhlə işləyirdi. Həmin illərdə Bakıda bank kapitalı ilə neft kapitalının qovuşması prosesi gedirdi və 1913-cü ildə şəhərdə 15 iri bank fəaliyyət göstərirdi.

1910-1914-cü illərdə Azərbaycanın neft yataqlarını bölgüsü uğrunda ingilis, fransız və alman inhisarçıları arasında mübarizə daha da kəskinləşirdi. İngilis şirkəti "Oyl" "Nobel qardaşları" şirkətinin çoxlu səhmlərini alaraq onun payını bu bölgüdə azaltmağa cəhd edirdi. I Dünya Müharibəsi ərəfəsində Bakıda 112,6 milyonluq xarici səhmdar kapitalının 48,2%-i ingilislərin, 42,9%-i fransızların, 8,9%-i almanların əlində olmuşdur. O illərin statistikası göstərir ki, 1912-ci ildə Zaqafqaziya fabrik-sənaye məhsulunun 68,5%-i, 1915-ci ildə isə 88,6%-i təkcə Bakının payına düşmüşdür. Elə bu səbələrlə də o zaman çar Rusiyasının baş naziri Sergey Vitte (*1849-1915*) öncə maliyyə naziri olandan ölkə büdcəsini neft hesabına doldurmağa başlamışdı.

I Dünya Müharibəsinin başlanması neft işində də kəskinliyi ilə əks olundu. "Neft-güc" düsturu döyüş meydanlarında təsirini göstərdi. Yüksək mənfəət götürmək ehtirası neft yataqlarının vəhşicəsinə istismarı ilə nəticələndi. I Dünya Müharibəsi, Rusiyaya xarici hərbi müdaxilə, vətəndaş müharibəsi neft hasilatını Rusiyada 3,8 milyon tona, Azərbaycanda isə 2,9 milyon tona endirdi. Bu qəbildən bir tarixi faktı da vurğulamaq lazımdır ki, 1918-ci ildə Bakı neftini ələ keçirmək üçün Almaniya böyük təşəbbüslərə baş vururdu. Onlar əvvəlcə türk qoşunlarının Bakını almasını stimullaşdırmış, sonra isə türk ordusunun geri çağrılmasının neftlə əvəzləndirilməsini bolşeviklərin rəhbəri V.Leninlə sövdələşdirmişdilər. Lakin buna baxmayaraq, türklər soydaşlarının köməyinə gələrək Bakını ələ keçirdilər. Rusiyada vətəndaş müharibəsi illərində də bolşevik hakimləri ilə yanaşı çar generalları da Bakı neftinə sahib olmağın yeni planlarını cızmaqda idilər. Hələ bu müharibənin qızğın vaxtında çar Rusiyasının cənubdakı hərbi qüvvələrinin baş komandanı general A.Denikinin Ənzəlidə Qərb sahibkarları ilə neft müqavilələri bağlaması hadisəsi də baş vermişdi. Bütün bunlar isə bir daha o illərdə Bakının müstəsna əhəmiyyət daşıyan bir şəhərə çevrildiyini bəyan edirdi.

M.Ə.Rəsulzadənin "Bakısız Azərbaycan - başsız bədəndir" kəlamı də bu qüdrətdən yaranmış və bu gerçəkliyi ifadə etmişdir.

Oktyabr çevrilişindən sonra Rusiyanın bolşevik hökuməti Azərbaycan neftinə yenidən sahib olmaq planlarını reallaşdırmaqda idi. Neft uğrunda gedən mübarizədə Rusiya hər vəhclə təşəbbüsü ələ almaq istəyirdi. Elə bu səbəblərlə də 1919-cu ildə Moskva Sovetinin fövqəladə iclasında V.Lenin demişdi: "Bilirsiniz ki, Bakını ingilislər əlimizdən alıblar. Onlar Xəzər dənizində gəmilərin bir hissəsini ələ keçirərək və Qroznını zəbt edərək bizə neftdən istifadəyə mane olurlar. Yanacaqsız isə nə sənaye, nə də dəmiryolu işləyə bilər. Buna görə də bütün səylərimizi gücləndirməyə məcburuq".

XX əsrin ilk illərində iqtisadi gərginliklərlə də müşayiət olunan siyasi hadisələrin Azərbaycanın neft sənayesində əksi 1918-ci ildə apogeyə çataraq 1921-ci ilə qədər davam etmişdir. Əsasən, Azərbaycan Xalq Cümhuriyyəti dövrünü əhatə edən bu tarixi mərhələ dünyəvi hadisələrin mühüm tərkib hissəsi kimi, siyasi çaxnaşmalar, iqtisadi təzadlarla müşayiət olunmuşdur. Həmin qısa zaman ərzində ölkə rəhbərliyi iqtisadiyyatda, o cümlədən, neft hasilatında mühüm irəliləyişləri tam təmin etməyə müvəffəq olmamışdır. Bu dövr ərzində vətənsevər insanların tənəzzülə uğramış neft sənayesini dirçəltməyə yönəlmiş cəhdləri də səmərə verməmiş və milli sahibkarlar bolşevizm təzyiqlərindən çəkinərək müəyyən dərəcədə öz konsessiyalarından vaz keçmək məcburiyyətində qalmışlar. Nəhayət, rus-bolşevik qoşunlarının Bakını işğal edərək, Azərbaycanın müstəqil dövlətçiliyini süquta uğratması respublikanın həm siyasi, həm iqtisadi həyatında yeni, uzun bir mərhələnin əsasını qoymuşdur.

Sənayeləşmə erasından başlayaraq bolşevik istilalarını əhatə edən tarixi dövr ərzində Azərbaycanda neft hasilatının həcmini mümkün dəqiqliklə ifadə etmək çətindir. Bu tarixi dövr ilk mexaniki üsullu quyunun qazılmasından (*1847-ci il*) ADR-in süqutuna qədər (*1920-ci il*) 73 illik bir zamanı əhatə edir. Bu tarixin ilk 25 ili, yəni neft statistikasının nisbətən mükəmməlləşdiyi 1872-ci ilə qədəki dövrü ərzində hasilatın dəqiqləşməsi müəyyən hesablamalar tələb edir. Bir sıra tarixi mənbələrdə hasilatla bağlı göstəriciləri təhlil etdikdə bu dövrü əhatə edən hasilat həcminin 200-250 min ton arası tərəddüd etdiyini yəqinləşdirmək olar. Lakin 1872-1920-ci illər tarixi götürüldükdə həmin dövr ərzində Rusiyada hasil olunmuş 282,6 milyon ton neftin 84,0%-nin Azərbaycanda çıxarıldığını müəyyən etmiş olaraq. Bu hesablama cədvəl 2-nin məlumatlarına əsaslanır:

Rusiyada Oktyabr çevrilişi baş verdikdən və Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra respublikanın neft və qaz sənayesi yeni mərhələyə qədəm qoydu. Bolşevik hökuməti neft-qaz sənayesini bərpa və inkişaf etdirmək üçün mühüm tədbirlər planı işləyib hazırlayaraq onu ardıcılıqla həyata keçirməyə başladı. Azərbaycan İnqilab Komitəsi 1920-ci ilin 24 mayında neft sənayesini milliləşdirmək barədə dekret qəbul etdi. Milliləşdirilmiş neft sənayesini idarə etmək üçün Azərbaycan Neft Komitəsi yaradıldı. V.Lenin tərəfindən Azərbaycan neftinə rəhbərliyə təyin olunmuş A.Serebrovski respublikada neft sənayesinin milliləşdirilməsini təmin etdi.

Sovet hakimiyyətinin ilk dövrlərində, birinci beşiliklər epopeyasında neftin əksər hissəsinin Azərbaycanda çıxarılması regiona mərkəzi hökumətin diqqətini əhəmiyyətli dərəcədə artırmışdı. Bu illərdə geoloji-kəşfiyyat və axtarış işləri geniş vüsət almış, yeni neft yataqları kəşf edilmiş, yeni "neftçi" şəhər və qəsəbələri salınmış, neft sənayesi zavodlarının və yardımçı istehsal sahələrinin geniş infrastrukturu yaradılmışdı. Bunun nəticəsi idi ki, 1940-cı ildə SSRİ-də neft hasilatının ¾ hissəsi Azərbaycanın payına düşürdü.

II Dünya Müharibəsində faşistlər SSRİ-ni məğlub etmək planında Bakını və onun neftini ələ keçirməyi əsas məqsəd kimi qarşıya qoymuşdular. Müharibənin başlancığı

*(min ton)*

| **İllər** | **Rusiya** | **Azərbaycan** | **İllər** | **Rusiya** | **Azərbaycan** |
|---|---|---|---|---|---|
| **1872** | 27 | 26 | **1897** | 7566 | 6949 |
| **1873** | 68 | 66 | **1898** | 8635 | 8014 |
| **1874** | 106 | 82 | **1899** | 9264 | 8534 |
| **1875** | 153 | 105 | **1900** | 10684 | 9866 |
| **1876** | 213 | 183 | **1901** | 11987 | 10979 |
| **1877** | 276 | 248 | **1902** | 11621 | 10504 |
| **1878** | 358 | 329 | **1903** | 11099 | 9854 |
| **1879** | 431 | 395 | **1904** | 11665 | 10182 |
| **1880** | 382 | 343 | **1905** | 8310 | 6784 |
| **1881** | 701 | 656 | **1906** | 8885 | 7452 |
| **1882** | 830 | 818 | **1907** | 9760 | 7934 |
| **1883** | 1039 | 983 | **1908** | 10388 | 7815 |
| **1884** | 1533 | 1460 | **1909** | 11248 | 8303 |
| **1885** | 1966 | 1884 | **1910** | 11283 | 8232 |
| **1886** | 1936 | 1876 | **1911** | 10547 | 7537 |
| **1887** | 2405 | 2327 | **1912** | 10408 | 7799 |
| **1888** | 3074 | 2986 | **1913** | 10281 | 7669 |
| **1889** | 3349 | 3249 | **1914** | 10013 | 7101 |
| **1890** | 3864 | 3737 | **1915** | 10138 | 7481 |
| **1891** | 4610 | 4499 | **1916** | 10826 | 7894 |
| **1892** | 4775 | 4658 | **1917** | 8800 | 6646 |
| **1893** | 5620 | 5381 | **1918** | 4146 | 3435 |
| **1894** | 5040 | 4808 | **1919** | 4448 | 3739 |
| **1895** | 6935 | 6256 | **1920** | 3851 | 2915 |
| **1896** | 7115 | 6385 | **Cəmi** | 282 659 | 237 358 |

**Cədvəl 2. 1872-1920-ci illərdə Rusiya və Azərbaycanda neft hasilatı**

Azərbaycanın neft sənayesi qarşısında cəbhəni yanacaqla təmin etmək kimi ağır bir vəzifə qoydu. Neft sənayesi cəbhənin tələblərinə uyğun yenidən quruldu. 1941-ci ildə Azərbaycanda quruda zirvə nailiyyət - 23451 min ton neft hasil edildi. Ümumilikdə isə II Dünya Müharibəsində Azərbaycan neftinin hasilat həcmi 75 milyon tona bərabər olmuşdur. Bu o zaman SSRİ-də çıxarılan neftin 73,4%-ni təşkil edirdi.

Müharibədən sonrakı illərdə keçmiş SSRİ məkanında - Volqaboyunda, Uralda, Sibirdə nəhəng neft və qaz yataqlarının kəşfi, respublikada neftə olan tələbatı azaltdı, Azərbaycanı xüsusi diqqət sferasından çıxartdı. Xəzər dənizində kəşf edilən perspektivli neft-qaz yataqları hasilat balansını dənizin xeyrinə dəyişərək, quruda neftqazçıxarma sənayesinin problemlərini daha da dərinləşdirdi. 1950-1960-cı illərdə dənizdə sürətlə artan hasilat 1964-cü ildən quru sahələrindəki hasilatı arxada qoydu. 1950-ci illərdə Şirvan şəhərində (*keçmiş Əli-Bayramlı*) və Siyəzəndə neft yataqlarının kəşfi ilə əlaqədar quruda hasilatın müəyyən müddət enməsinin qarşısı alınsa da, bu proses uzun çəkmədi. 1960-1970-ci illərdə qurudakı neft və qaz hasilatında enmə prosesləri sürətləndi. 1970-1980-cı illərdə quruda hasilatın artırılması tədbirləri respublika hökuməti tərəfindən dəfələrlə müzakirə edilərək, ciddi nəzarətə alındı. Bununla yanaşı, respublikada neft və qaz hasılatının dəniz horizontlarında inkişafı məsələri önə çəkildi. Bu məqsədlə ilk olaraq 1970-ci ildə dəniz akvatoriyasında geoloji-kəşfiyyat, qazma, istismar işlərinin aparılmasını həyata keçirən "Xəzərdənizneft" İstehsalat Birliyi yaradıldı. Bu işlərin davamı olaraq 1970-1980-ci illərdə Azərbaycana 75 növdə və 400-dən çox ağır yükqaldıran kran gəmisi, boruçəkən, seysmik və digər növ gəmilər gətirildi və nəticədə, 1975-ci ildə neft və qazın ümumi hasilatı şərti yanacaq ekvivalentində 27,1 milyon tona yüksəldi. 1980-ci illərdə respublikaya gətirilən üzən qazma qurğularının sayı 11-ə çatdırıldı, Bakıda nəhəng Dərin Özüllər Zavodu (*indiki Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodu*) inşa olundu. Bütün bunlar isə öz növbəsində dənizin daha dərin sahələrində neft və qazla zəngin olan Azəri, Çıraq, Günəşli və s. kimi yataqların kəşfinə zəmin yaratdı.

1980-ci ildə quruda 4,8 milyon ton neft çıxarılmışdır ki, bu da 1950-ci il səviyyəsindən 8,5 milyon ton az idi. Həmin ildə dənizdə isə 8,2 milyon ton neft çıxarılmışdı ki, bu da 1970-ci il səviyyəsindən 0,5 milyon ton çox olmuşdur. 1985-ci ildən sonra SSRİ-nin sosial-iqtisadi həyatında gedən proseslər, təsərrüfat mexanizminin, iqtisadi həvəsləndirmənin təkmilləşdirilməsi, müəssisələrin müstəqilliyinin artırılması ilə bağlı həyata keçirilən tam olmayan tədbirlər də neft sənayesinin inkişafında sabitliyi təmin etməmiş, əksinə, onun problemlərini daha da dərinləşdirmişdi. 1990-cı ildə quruda 2,5 milyon ton, dənizdə 7,3 milyon ton neft istehsal edilmişdir ki, bu rəqəmlər də, müvafiq olaraq, 1980-cı il səviyyəsindən 2,3 milyon ton və 0,9 milyon ton az idi.

Azərbaycanın yanacaq sənayesinin tarixindən bəhs edərkən ayrıca onun qaz sənayesinin inkişaf tarixinə diqqət yetirmək lazımdır. Azərbaycanın ərazisində min illər öncə qazın çıxması hadisəsi müşahidə olunmuşdur. Atəşpərəstlərin qədim məskənlərindən birinin də Azərbaycan ərazisi olduğu artıq tarixi faktlarla sübut

olunmuşdur və şübhə doğurmur. Orta əsrlərdə Azərbaycana gələn hindistanlı tacirlər Suraxanıda təbii qaz çıxan yanar ərazidə atəşpərəstlik məbədi yaratmışlar ki, bu məbəd sonradan digər atəşpərəst zəvvarların müqəddəs ziyarət yerinə çevrilmişdir. Abşeronda Bibiheybət ərazisində XXİ əsrin axırı - XX ərin əvvəllərində uzun illər dəniz səthində təbii qazın çıxması ilə əlaqədar alışma, yanma hadisəsi müşahidə olunmuşdur. Abşeronda Məhəmmədli kəndinin ərazisində daim yanmaqda davam edən məhşur “Yanar dağ” səthi mövcuddur. Əvvəlki dövrlərdə bu yanacaq, enerji mənbəyinin əhəmiyyəti dərk edilməsə də, artıq XIX əsrin ortalarından təbii qazdan sənayedə, məişətdə istifadə olunmasına başlanmışdır. 1859-cu ildə Suraxanıda kiçik olmayan zavodda buxar əldə etmək üçün təbii qazdan yanacaq kimi istifadə olunmuşdur. 1902-ci ildə Suraxanıda qazılan quyu qaz fontanı yaratmış, sutkalıq debiti 57 min $m^3$ olan bu quyu ilk qaz nəqletmə sisteminin yaranmasına səbəb olmuşdur. 1920-1921-ci illərdə hasilatın artması ilə əlaqədar Azərbaycanda 34 milyon $m^3$ qaz hasil edilmişdi. 1931-ci ildə artıq yaşayış massivlərinin 90-95%-i Bakı şəhərində qaz ilə qızdırılırdı. Qaz sənayesinin sürətli inkişafı ilə əlaqədar artıq 1950-60-cı illərdə respublikanın, əsasən, sənaye, kommunal təsərrüfatı, elektrik stansiyaları bu enerji növündən istifadə sisteminə keçmiş və bu, iqtisadiyyatın bütün digər sahələrinin inkişafına öz təsirini göstərmişdir. 1969-cu ildə quruda rekord miqdarda - 12,9 milyard $m^3$ qaz hasil olunmuşdur.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra qaz infrastrukturu yenidən qurulmuş və hasilat yenidən sürətlə artmışdır. Respublikanın neft və qaz sərvətlərindən digər xalqlar və onların ayrı-ayrı nümayəndələri də az bəhrələnməmişlər. Azərbaycanın bu sərvətləri bir əsrdən artıq müddətdə və xüsusən, sovet hakimiyyəti dövründə qonşu respublikaların - Ermənistan, Gürcüstan və Rusiyanın enerji ehtiyatlarını təmin etmişdir.

Hazırda Azərbaycanın qaz potensialının flaqmanı olaraq “Şahdəniz” yatağı çıxış edir. “Şahdəniz” (*Shah Deniz*) Azərbaycan Respublikasına məxsus, Xəzər dənizinin şelfində, Bakı şəhərindən 70 km cənub-şərqdə, suyun dərinliyinin 50-500 metr arasında dəyişdiyi hissədə yerləşən iri qaz-kondensat yatağıdır. “Şahdəniz”in ehtiyatları 1,2 trilyon $m^3$ qaz və 240 milyon tondan artıq kondensat həcmində qiymətləndirilir və təbii resurs potensialına görə dünyanın dəniz akvatoriyalarında işlənilən ən iri qaz-kondensat yataqlarından biri hesab edilir. Yatağın kəşfiyyat işlərinin aparılması üçün qazılan quyu Xəzər dənizi üçün rekord - 7300 metrdən çox dərinliyə çatmışdır. “Şahdəniz” üzrə Hasilatın Pay Bölgüsü Sazişi 17 oktyabr 1996-cı ildə ratifikasiya olunmuşdur və müvafiq pay bölgüsündə onun tərəfdaşları - BP operator (*28,8%),* TPAO (*19%*), SOCAR (*16,7%*), Statoyl (*15,5%*), LUKOyl (*10%*), NICO (*10%*) şirkətləridir. Yatağın potensialı Azərbaycanın qaza olan daxili tələbatını tam ödəməyə və böyük həcmdə ixraca imkan verir. İstismarda olan “Şahdəniz-1” mərhələsinin hasilat gücü ildə 9 milyard $m^3$ təbii qaz təşkil edir. “Şahdəniz-2” və ya Yatağın Tammiqyaslı İşlənməsi Azərbaycan qazını Avropa və Türkiyəyə çatdıracaq nəhəng bir layihədir. “Faza-2” çərçivəsində onun illik

hasilatının minimum 16 milyard m$^3$-ə yüksəldilməsi nəzərdə tutulur. Layihə üzrə hasil ediləcək qaz Yunanıstan, İtaliya və Cənub-şərqi Avropaya TAP vasitəsi ilə çatdırılacaq və o, Avropa bazarlarının qaz təchizatını və qitənin enerji təhlükəsizliyini artıracaqdır. Azərbaycan Prezidenti İlham Əliyev qeyd etmişdir ki, "Əsrin kontraktı" XX əsrin müqaviləsi idisə, "Şahdəniz"i XXI əsrin müqaviləsi adlandırmaq olar".

İndi Azərbaycan özü heç bir kənar stimullar olmadan dəniz akvatoriyasında miqyaslı istismar işləri aparır. Buna misal olaraq "Ümid" qaz-kondensat yatağını göstərmək olar. Bu yatağı Azərbaycan neftçiləri aşkarlamışdır və SOCAR burada həm investordur, həm də operator funksiyasını yerinə yetirir. İlkin hesablamalara görə, yatağın çıxarıla bilən ehtiyatları 200 milyard m$^3$ qaz, 40 milyon ton kondensat həcmində qiymətləndirilir. Burada alınan nəticələr, eyni zamanda, Xəzərin Azərbaycan sektorunda məhsuldarlıq perspektivlərini yüksəltmiş, yeni lay və yataqların açılması ehtimalını artırmışdır. Belə ki, artıq "Umid" yatağı ilə bərabər, potensialı ondan iki dəfə çox olan "Babək" yatağının da (*400 milyard m$^3$ qaz, 80 milyon ton kondensat*) SOCAR tərəfindən müstəqil istismar ediləcəyi reallığa çevrilməkdədir. Burada xüsusi ilə vurğulanmalıdır ki, respublikada 2017-ci ildə dənizin 1000 metr dərinliyində qazma işlərinin aparılmasını və 12,2 min metr dərinliyə malik quyuların qazılmasını təmin edəcək ulu öndər Heydər Əliyevin adını daşıyan son nəsil yarımdalma qazma qurğusu istidadəyə verilmişdir. Ümumi uzunluğu 106,5, eni 69,5, hündürlüyü isə 130 metr olan bu qurğu müasir qazma işinin 4 dəfə daha sürətlə aparılmasını təmin edir. 160 nəfər işçi heyətli, ofis, istirahət və idman otaqları, yeməkxana, çamaşırxana, kinoteatr, kitabxana və konfrans zalı ilə təchiz olunmuş bu qazma kompleksi dünyada 1400 atmosfer sistemi texnologiyasına sahib olan ilk və yeganə qurğudur. Onun özünün çəkisi 26 min ton, yükgötürmə qabiliyyəti 5600, su tutumu isə 47500 tondur. "Heydər Əliyev" yarımdalma qazma qurğusu öncə perspektivli "Abşeron" qaz-kondensat yatağında işləyəcək. Bundan başqa, SOCAR ilə Fransanın "Total" şirkəti arasında imzalanmış müqavilə çərçivəsində Xəzərin Azərbaycan sektorunda "Abşeron" blokunda iri qaz yatağının kəşf edilməsi də ölkənin qaz potensialının artırılmasında mühüm əhəmiyyət daşıyır və yeni geosiyasi öhdəliklərin yaranışına rəvac verir. Burada qazma dərinliyi 7 min metrdən çoxdur. İlkin hesablamalara görə, "Abşeron" yatağında 350 milyard m$^3$ qaz və 45 milyon ton kondensat həcmində karbohidrogen ehtiyatlarının olduğu ehtimal edilir. Yataqdan miqyaslı məhsul alınması 2022-2025-ci illər üzrə proqnozlaşdırılır. Hazırda "Bp Azərbaycan" şirkəti ilə "Kaspian Geofizikal" müştərək müəssisəsi tərəfindən "Şəfəq-Asiman" (*proqnoz ehtiyatlar - 500 milyard m$^3$ qaz və 65 milyon ton kondensat*) və AFR-in RWE şirkəti ilə "Naxçıvan" (*proqnoz ehtiyatlar - 300 milyard m$^3$ qaz və 40 milyon ton kondensat*) perspektiv strukturlarında birgə geoloji-kəşfiyyat işləri aparılmaqdadır. Bundan başqa, "Azəri", "Çıraq" və "Günəşli" yatağının qaz ehtiyatları da 300 milyard m$^3$ həcmində dəyərləndirilir. Bütün bunlara əlbətdə geniş ixrac potensiallı "Şahdəniz" yatağının işlənməsi güc verir və son beş ildə ölkədə hər il orta hesabla 30 milyard m$^3$ həcmində qaz hasil olunur. Hazırda Azərbaycanda həmçinin qaz hidratları sahəsində də araşdırmalar aparılmaqdadır.

Neft-qaz resursları son iki əsrdə Azərbaycanın iqtisadiyyatında, onun sosial həyatında və mədəni inkişafında mühüm mərhələni formalaşdıraraq, həm də millimental dəyərlərdə öz dərin izini buraxmışdır. Respublikanın malik olduğu təbii sərvətlərin ən tutumlu hissəsini təşkil edən neft-qaz resursları üzərində qurulan sənaye potensialı indi də iqtisadiyyatımızın aparıcı sahəsi olaraq bitkin ənənədə qalmışdır. Bir geçəklikdir ki, Azərbaycanda dövlət müstəqilliyi bərpa edildikdən sonra keçid dövrünün tələblərinə ən davamlı sahə kimi məhz neft-qaz sektoru fərqlənmişdir. Bu, həm də ondan irəli gəlmişdir ki, bütün tarix ərzində ilk dəfə olaraq neft-qaz sərvətlərinin xalqa məxsusluğu təmin olunmuş və neft-qaz sənayesini milli dövlət mənafeləri baxımından inkişaf etdirilməsi üçün real əlverişli şərait yaranmışdır. Bununla yanaşı, yeni geosiyasi situasiya Azərbaycanın Xəzər sektorunda XX əsrin son onilliklərində aşkarlanmış nəhəng karbohidrogen yataqlarının beynəlxalq əməkdaşlıq çərçivəsində aktiv işlənməsinə də əsaslı zəmin olmuşdur. Bütün bu gerçəkliklər fonunda ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında ölkənin milli neft strategiyası formalaşdırılmışdır. Praktiki müstəvidə "Əsrin müqaviləsi"ndən start götürən milli neft strategiyası multipkativ effektdə Prezident İlham Əliyevin əzmkar fəaliyyəti ilə aparılan miqyaslı islahatlarla daha təkmil məcraya yönəlmiş, çoxsaylı beynəlxalq neft kontraktının bağlanışı ilə respublikaya nəhəng investisiya axınının gətrilməsini, transmilli neft-qaz ixrac boru kəmərlərinin inşasını, yeni yanacaq-enerji infrastrukturu quruculuğunu, sosial-iqtisadi inkişafa əlavə stimullar verən milli neft fondunun yaradılmasını təmin etmişdir. İndi bu sərvətlərdən daha səmərəli istifadə ümumi milli inkişaf strategiyasının ən mühüm prioritetlərindən birini təşkil edir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Yeni Əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciət"ində demişdir: "Azərbaycan xalqının da azadlıq və müstəqillik uğrunda mübarizəsində öz təbii sərvətlərinin sahibi olmaq arzusu əsas məqsədlərdən biri idi. Bu gün iftixar hissi ilə deyə bilərik ki, Azərbaycan xalqı uzun illər boyu ürəyində gəzdirdiyi arzusuna çatmışdır və öz təbii sərvətlərinin, o cümlədən neftinin tam sahibidir və ondan necə istifadə olunmasını sərbəst surətdə müəyyən edir. Müstəqil Azərbaycanın neft strategiyasını ardıcıl həyata keçirərək biz böyük uğurlara nail olmuşuq. Gələcəkdə isə bu uğurlar daha da artacaqdır. Azərbaycan artıq indi bölgənin coğrafi-siyasi mərkəzinə çevrilmişdir. Azərbaycanın bölgədəki və onun hüdudlarından kənardakı vəziyyətə təsiri getdikcə artmaqdadır. Təbii ki, neft özlüyündə bizim üçün heç də məqsəd deyildir. O, Azərbaycan Respublikasının müstəqilliyinin, iqtisadiyyatın digər sahələrinin inkişaf etdirilməsi, yeni sahələrin yaradılması, xalqın rifah halının yüksəldilməsi kimi ali məqsədlərimizin uğurla həyata keçirilməsi üçün güclü bir vasitədir, əlverişli bir mənbədir. Tam qətiyyətlə demək olar ki, bu vasitədən səmərəli və məqsədyönlü istifadə etməklə, bu mənbədən lazımınca bəhrələnməklə biz yaxın gələcəkdə Azərbaycanı ən yüksək həyat səviyyəli ölkələrdən birinə çevirə biləcəyik. Əslində, yüzilliyin son günlərində biz "Əsrin müqaviləsi"nin, neft strategiyamızın uğurlu olduğunun bir daha şahidi olduq. Əlbəttə ki, neft sahəsində

əldə edilən uğurlar ilk növbədə Azərbaycanda mövcud olan qüdrətli insan potensialı ilə bağlıdır. Məhz Azərbaycan xalqının intellektual və yaradıcı imkanları XX əsrdə, başa çatmaqda olan minillikdə dünya mədəniyyətində bir çox maddi və mənəvi sərvətlər bəxş etməsi üçün zəmin yaratdı".

Azərbaycan ərazisisinin $^2/_3$ hissəsi neft və qaz yataqları ilə də zəngindir. Ən çox neft və qaz yataqları Abşeron yarımadasında, Xəzər dənizinin şelf zonasında, Bakı və Abşeron arxipelaqlarında yerləşir. Bundan başqa, cənub-şərqi Şirvan, Mərkəzi Aran, Qobustan, Ceyrançöl, Acınohur, Siyəzən zonası da neftlə zəngindir. Hazırda ölkə ərazisində 8 neftli-qazlı (*Abşeron, Şamaxı-Qobustan, Aşağı Kür, Bakı arxipelağı, Gəncə, Yevlax-Ağcabədi, Quba-Xəzəryanı, Kür-Qabırrı çaylararası*) və 2 perspektivli (*Acınohur və Cəlilabad*) rayon mövcuddur. Azərbaycan ərazisində 2018-ci ilin əvvəlinə 81 neft-qaz yatağı aşkar edilmişdir ki, onların da 61-dən karbohidrogen hasil olunur. Hazırda SOCAR-ın istismar zonası 42-si quruda və 19-u Xəzər dənizində olmaqla 61 yataqdan ibarətdir. Bu yataqlarda 3-5 milyard ton neft, 3 trilyon $m^3$ həcmində qaz ehtiyatı mövcudluğu geoloji baxımından təsdiqlənmişdir. Ümumilikdə ölkənin təsdiq edilmiş, dəqiqləşdirilmiş neft ehtiyatları 1,5 milyard ton, proqnoz 2 milyard tondur. Təsdiq edilmiş qaz ehtiyatları 2,6 trilyon $m^3$, proqnoz ehtiyatlar təqribən 3-4 trilyon $m^3$-ə bərabərdir. Azərbaycan özünün qaz ehtiyatları ilə azı bir əsr özünün və regionun ehtiyaclarını ödəmək iqtidarındadır. Kəşf olunmuş neftin 24%-i, təbii qazın isə 15%-i qurunun payına düşür. Dənizdə karbohidrogen yataqlarının güman edilən sahəsi 21,4 min $km^2$, quru ərazilərində isə 43-45 min $km^2$-dir.

Statistik mənbələrdə neft sənayesinin təşəkkül tapdığı illərdən indiyədək Azərbaycanda 42 min, o cümlədən quru ərazilərdə 26 min quyunun qazıldığı göstərilir. Həmin quyulardan bu müddət ərzində 70%-dən çoxu, təqribən 30 mini ləğv edilmişdir.

"Əsrin müqaviləsi" həyata vəsiqə qazandıqdan sonra görülmüş möhtəşəm tədbirlər nəticəsində respublikada neft hasilatı ilə yanaşı qaz hasilatı da dinamik şəkildə yüksəlmiş, 2004-cü ildəki 5,0 milyard $m^3$-dən 2018-ci ildə 29,5 milyard $m^3$-ə çatmışdır. Hazırda bu hasilat əsasən 3 mənbədən - AÇG yataqlar blokundan hasil olunan səmt qazı, "Şahdəniz" yatağından hasil olunan qaz və SOCAR-ın müstəqil işlədiyi yataqlardan təmin olunur.

2017-cı ildə Azərbaycanda 38,7 milyon ton neft və 28,4 milyad $m^3$ qaz çıxarılmışdır. Vurğulanmalıdır ki, 2017-ci ilin 8 noyabrında Azərbaycanda 2-ci milyard ton neft hasil olunmuşdur. 2018-ci ilin əvvəlinə isə respublika üzrə istismarda olmuş yataqlardan işlənmənin əvvəlindən 2,01 milyard ton, o cümlədən dəniz yataqlarından 1,03 milyard ton neft-kondensat çıxarılmışdır.

Müstəqillik illərində (*1991-2017*) ölkə yataqlarından ümumilikdə 700 milyon ton neft (*460 milyon ton AÇG və "Şahdəniz" yataqları üzrə konsorsium tərəfindən, 240 milyon ton isə SOCAR*) və 800 milyard $m^3$-dən çox qaz hasil edilmişdir. Hesablamalara görə, dünya neft erasının bitməməsi fonunda Azərbaycanda 3-cü milyard ton neftin hasilatı 2060-cı illərə təsadüf edə bilər. 2 trilyon $m^3$ qazın isə daha tez - 2055-ci ildə hasilatı gözlənilləndir.

Qeyd olunmalıdır ki, hazırda Azərbaycan təbii qaz idxal edən ölkədən beynəlxalq miqyasda mühüm qaz ixracatçısına çevrilmişdir. Belə ki, Xəzər dənizinin Azərbaycan sektorunda hasil edilən təbii qaz Gürcüstan, Türkiyə, Rusiya, İran və Yunanıstana ixrac edilməkdədir.

Aşağıda Azərbaycanda 1988-2019-cu illərdə neft-qaz hasilatı və proqnozunu əks etdirən cədvəl verilmişdir:

| **İllər** | **Neft hasilatı** *(min ton)* | **Qaz hasilatı** *(milyon m$^3$)* | **İllər** | **Neft hasilatı** *(min ton)* | **Qaz hasilatı** *(milyon m$^3$)* |
|---|---|---|---|---|---|
| **1988** | 13 741 | 11 826 | **2004** | 15 549 | 4 995 |
| **1989** | 13 159 | 11 112 | **2005** | 22 214 | 5 732 |
| **1990** | 12 513 | 9 626 | **2006** | 32 268 | 9 076 |
| **1991** | 11 742 | 8 621 | **2007** | 42 598 | 16 850 |
| **1992** | 11 084 | 7 872 | **2008** | 44 514 | 23 399 |
| **1993** | 10 295 | 6 805 | **2009** | 50 416 | 23 597 |
| **1994** | 9 563 | 6 379 | **2010** | 50 838 | 26 312 |
| **1995** | 9 161 | 6 644 | **2011** | 45 626 | 25 728 |
| **1996** | 9 100 | 6 305 | **2012** | 43 375 | 26 796 |
| **1997** | 9 071 | 5 964 | **2013** | 43 457 | 29 245 |
| **1998** | 11 424 | 5 589 | **2014** | 42 076 | 29 555 |
| **1999** | 13 807 | 5 997 | **2015** | 41 628 | 29 175 |
| **2000** | 14 017 | 5 642 | **2016** | 41 050 | 29 331 |
| **2001** | 14 909 | 5 535 | **2017** | 38 688 | 28 596 |
| **2002** | 15 334 | 5 144 | **2018** | 37 952 | 29 800 |
| **2003** | 15 381 | 5 128 | **2019** | 38 000 | 36 000 |

**Cədvəl 3. Azərbaycanda 1988-2019-cu illərdə neft-qaz hasilatı və proqnozu**

Azərbaycanın neft sektorunda aparıcı funksiyanı Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (*ARDNŞ*) - SOCAR yerinə yetirir. Dünyanın ən böyük neft şirkətlərindən biri olaraq SOCAR-ın Azərbaycanda transmilliləşməni təmin edən şirkət kimi də potensialı daim artır. Şaquli inteqrasiya (*vertical integration*) olunan holdinq təyinatlı dövlət qurumu kimi SOCAR Azərbaycan Respublikasında bütövlüklə neft sənayesini axtarış-kəşfiyyat işindən başlayaraq, hasilat, emal, nəql, təchizat, satış və digər texnoloji proseslər də əhatə olunmaqla, məhsulun son istehlakçıya çatdırılmasına qədər istehsal-xidmət mərhələlərində idarəetməsini təmin edir. 50 mindən artıq işçi sayı ilə SOCAR respublikanın bütün ərazisində, o cümlədən quru və dəniz ərazilərində neft və qaz yataqlarının axtarışı, kəşfiyyatı və işlənməsi, neftin, qazın, qaz kondensatının hazırlanması, emalı və nəqli, həmçinin, onlardan alınan məhsulların

daxili və xarici bazarlarda satışı ilə məşğul olur və eyni zamanda, böyük həcmdə elmi-tədqiqat və layihə işlərini yerinə yetirir. Şirkət neft və qaz sənayesinin vahid kompleks kimi səmərəli fəaliyyətinin və inkişafının təmin edir, istehlakçıların enerjidaşıyıcılarına olan tələbatının etibarlı ödənişini reallaşdırır. Hüquqi şəxs olmaqla o, həmçinin, kommersiya fəaliyyəti ilə məşğuldur, hasil edilmiş bütün karbohidrogenlərə və onların emalından alınan neft və qaz məhsullarına münasibətdə sahibliyi həyata keçirir. SOCAR respublikanın neft və neft məhsullarına olan tələbatını ödəmək, daxili tələbdən artıq hissəni isə ixrac etmək imkanına malikdir. Bunu təmin etmək üçün SOCAR-da müvafiq istehsal gücləri, inkişaf etmiş xidmət sektoru, böyük elmi və texniki potensial mövcuddur.

SOCAR-ın təsərrüfat kompleksi də bir sıra iri təşkilatları özündə birləşdirir. Bu sırada bütün ölkənin əsas neft hasilatını təmin edən "Azneft" İstehsalat Birliyinin (*"Azneft" İB*) xüsusi yeri vardır. İB-nin tərkibində 12 müəssisə, o cümlədən 8 neftqazçıxarma idarəsi, Qaz Anbarları İstismarı İdarəsi (*aktiv həcmi 3 milyard $m^3$ olan iki yeraltı qazsaxlama anbarı*), Dalma Qurğularının Təmiri və Kirayəsi üzrə Eksperimental İstehsalat Müəssisəsi, Maddi Texniki Təchizat İdarəsi və Dalğıc və Qəzaxilasetmə İşləri İdarəsi fəaliyyət göstərir. "Azneft" İB-nin enerji gücü yalnız neftlə bağlı deyildir. Burada hasil edilən təbii qaz hazırda ölkənin bütün İES-lərinin yanacaq təminatını və əhalinin müvafiq istehlak tələblərini ödəmək imkanındadır. Birlik çıxarılan qazın əksər hissəsini təbii qaz yataqlarından hasil edir. Bununla belə, hasilat balansında səmt qazının həcmini də mümkün yetərli hesab etmək olar. Hasilat qazı Bakının Qaradağ ərazisində yerləşən Qaz Emalı Zavoduna (*əsasən dəniz yataqlarında çıxarılan*) və "Azəriqaz" İstehsalat Birliyinə (*"Azəriqaz" İB*) yönəldilir. Qaz Emalı Zavodunun əsas məqsədi təbii və səmt qazlarından metan-etan, propan-butan, qaz benzini və dizel yanacağı komponenti istehsal etmək olsa da, burada son zamanlar hər il orta hesabla səthi formada 4,2-4,7 milyard $m^3$ həcmdə qaz emal olunmaqdadır.

Azərbaycan Respublikası ərazisində təbii qazın qəbulu, paylanması (*163 qazpaylayıcı stansiya*) və satışını SOCAR-ın digər bir struktur bölməsi - "Azəriqaz" İstehsalat Birliyi həyata keçirir. Bu iri həcmli təşkilat ölkənin bütün regionlarını əhatə edən 2,1 milyon istehlakçını fasiləsiz və keyfiyyətli təbii qazla təmin edir.

Əməliyyat Şirkətləri, "Şahdəniz" və AÇG yataqlarından hasil olunan qazın qəbulu, SOCAR-a məxsus qaz həcmlərinin xarici bazarlarda satışının təmin edilməsi, bağlanmış müqavilələrinin yerinə yetirilməsi, dünyanın yanacaq-energetika bazarında Azərbaycanın rolunun artırılması, qaz idxal edən dövlətlərə etibarlı və sabit şəkildə qazın təchiz olunması, ixrac marşrutlarının diversifikasiyası və qaz tədarükünün coğrafi arealının genişləndirilməsi funksiyalarını isə Qaz İxrac İdarəsi təmin edir. Şirkətin qaznəqli sistemi hazırda ümumi uzunluğu 35 min km olan boru xəttlərindən ibarətdir.

Respublikanın bütün növ yanacaq və müəyyən sürtkü yağlarına olan tələbatının ödənilməsi hazırda Heydər Əliyev adına Bakı Neft Emalı Zavodu vasitəsi ilə həyata keçrilir. Burada 15 adda neft məhsulu, o cümlədən avtomobil benzinləri, aviasiya

kerosini, dizel yanacağı, mazut, neft koksu və s. istehsal olunur. Zavod ixrac potensiallıdır və respublikanın neft məhsullarına olan tələbatını əksərən ödəyir.

SOCAR-da istehsal tsiklinin digər bir hissəsi "Azərikimya" İstehsalat Birliyi (*"Azərikimya" İB*) ilə bağlıdır. Burada dünya bazarında böyük tələbat olan yüksək təzyiqli polietilen, izopropil spirti, propilen, ağır qətran, piroliz və poliefir qətranları, propilen oksidi, kaustik soda, sulfat və xlorid turşuları və s. istehsal olunur.

SOCAR-da qaz kimyası ilə bağlı yeni müəssisələr - Karbamid və Metanol zavodlarının fəaliyyəti reallaşmaqdadır. Sumqayıt şəhərində yerləşən Karbamid zavodu ammonyak, maye və dənəvər karbamid istehsalı sahələrini əhatə edir. İstehsal olunan karbamid məhsulu (*illik təxminən 650-660 min ton*) daxili tələbatı ödəməklə yanaşı, həm də Türkiyəyə və Qara Dəniz limanları vasitəsilə dünya bazarlarına ixrac edilir. Layihəyə həmçinin gündəlik 2000 ton karbamid istehsal edilməsi nəzərdə tutulan azot gübrəsi zavodu da daxildir ki, bu da respublikada kənd təsərrüfatının inkişafına mühüm dəstək olacaqdır. Bundan başqa, Sumqayıt kimya sənaye parkının sahəsində Azərbaycanın neftkimya sənayesində son 40 ildə reallaşan bu növ və miqyasda ilk beynəlxalq səviyyəli - SOCAR Polimer zavodu layihəsi də həyata keçirir. SOCAR Polimer kompleksinə illik gücü 120 min ton yüksək sıxlıqlı polietilen, 180 min ton polipropilen emalı zavodu və həmçinin digər köməkçi istehsal sahələri daxildir. Qeyd edilməlidir ki, bu zavod kompleksi ölkədə neftkimya sənayesinin artımını təmin edərək həm də onun plastik istehsalı bazarında yer tutmasına imkan yaradacaqdır. Polipropilen qablaşdırma materialları, tekstil, dəftərxana ləvazimatı, avtomobil hissələri, elektronika, elektrik cihazları və s. emalında istifadə olunan əsas məhsullardandır.

Metanol istehsalını isə Bakının Qaradağ rayonunda yerləşən "SOCAR Methanol" MMC həyata keçirir. 2013-cü ildə istismara verilmiş bu zavod Azərbaycanda qazı xammal qismində istifadə edən ilk müəssisədir. Qeyd olunmalıdır ki, metanol karbohidrogen oksidin və ya karbohidrogen iki oksidin hidrogenlə birləşməsindən yaranıb və XXI əsrin ən ekoloji təmiz yanacağı hesab edilir. Onun istehsalı zamanı nə atmosferə, nə də su hövzələrinə heç bir tullantı atılmır. Metanol etan/etilendən sonra ikinci ən mühüm aralıq kimyəvi maddədir. O, müxtəlif sahələrdə geniş məhsul çeşidi istehsalında əvəzsiz inqrediyentdir. Mebel sənayesində istifadə edilən laminat, süni dəri və toxuculuq məmulatları üçün sintetik liflərin və hətta sirkə turşusunun istehsalı xammalıdır. Onun benzinə əlavə edilməsi yanacağın tam yanmasına səbəb olur və nəticədə zərərli tullantılar azalır. Enerji mənbəyi olan metanolun yardımı ilə kompyuterlərin, mobil telefon batareyalarının və s.-in işini səmərəliliklə təmin etmək mümkündür. Zavodda istehsal olunan, təmizlik dərəcəsi 99,98% olan metil spirti "A" klass metanol hesab olunan məhsul dünyada ən təmiz metanol məhsulu sayılır ki, bunun da 95%-i ixraca yönəldilir. Metanolun xammal kimi istifadə ediləcəyi yeni istehsal sahələri işə salındıqdan sonra isə bu nisbət dəyişəcəkdir. Gələcəkdə Azərbaycanda metanol həm alternativ enerji mənbəyi kimi geniş tətbiqini tapacaq və həm də onun benzinə əlavə edilmək xüsusiyyətindən istifadə ediləcəkdir. Zavodun illik istehsal gücü 650-700 min tondur.

SOCAR-ın iri müəssisələrindən biri də Heydər Əliyev adına Bakı Dərin Özüllər

Zavodudur. Burada dərin dəniz özüllərinin layihələndirilməsi, hazırlanması, quraşdırılması, suya buraxılması, təyinat yerinə nəqli, “layihə nöqtəsinə” qoyulması, dayaqların bərkidilməsi və istismara buraxılması həyata keçirilir. Zavodda istehsal olunan məhsullar milli neft-qaz sektorunun iqtisadi potensialının artırılmasında xüsusi rol oynayır.

SOCAR-ın yeni və mühüm olan strukturlarından biri də müasir standartlara cavab verən, təməli 2010-cu ildə Bakıda Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qoyulan gəmiqayırma zavodudur. Burada Xəzərdə tələbat olan istənilən növ gəmilərin - anker, quru yük, yedək-təchizat, sərnişin, kran, dalğıc və s. tikintisi və təmiri reallaşdırılır. 2017-ci ildə zavoddan uzunluğu 155, eni 32 metr olan, 3,5 metr hündürlüyündə böyük dalğalarda fəaliyyət göstərməsi üçün dinamik mövqeləndirmə sisteminə, 600 metrədək sualtı əməliyyatlar aparmaq üçün 900 tonluq krana malik, məsafədən idarə edilən və digər bu kimi zəruri texnikalarla tam təchiz edilmiş “Xankəndi” sualtı tikinti gəmisi suya endirilmişdir. Bu gəminin inşası təkcə Azərbaycanın deyil, bütövlükdə Xəzərin gəmiçilik tarixində yeni eranın başlanğıcıdır.

Hazırda SOCAR-da daxili struktur təşkilatları ilə yanaşı onun təsisçiliyi ilə yaradılmış 37 birgə müəssisə, 7 alyans Azərbaycanda və dünyanın müxtəlif ölkələrində neft-qaz sənayesinin, demək olar ki, bütün sahələrində uğurla fəaliyyət göstərir. SOCAR və onun törəmə şirkətləri 18 hasilatın pay bölgüsü sazişi üzrə 15 ölkəni təmsil edən 25 şirkətlə əməkdaşlıq edir.

SOCAR Gürcüstan və Türkiyədə daha geniş aktivlərə malikdir. Belə ki, şirkət Gürcüstanım neft məhsullarının pərakəndə satış bazarının təqribən 25%-nə nəzarəti həyata keçirir. Hazırda burada “SOCAR” brendi ilə 114 yanacaqdoldurma məntəqəsi fəaliyyət göstərir. Gürcüstanın Qara dəniz sahilində yerləşən Kulevi terminalında (*Kulevi “Qara Dəniz Terminali” MMC*) çalışmalar SOCAR tərəfindən həyata keçirilir. İldə 10 milyon ton həcmində neftin və neft məhsullarının qəbulu, saxlanması və tankerlərə yüklənməsinə imkan verən bu terminal hazırda Azərbaycan və Mərkəzi Asiya ölkələrindən xam neft və neft məhsullarının dünya bazarına nəql edilməsində əhəmiyyətli rol oynayır. Ölkədə fəaliyyət göstərən “SOCAR Georgia Petroleum” MMC azərbaycanlıların kompakt yaşadığı bölgələrdə iri həcmli sosial layihələr reallaşdırır. Hazırda Gürcüstanın 30 regional qaz distribusiya şirkəti “SOCAR Georgia Gas” MMC tərəfindən idarə olunur. Azərbaycan Gürcüstanın qaz təchizatının 90%-ni təmin edir. Burada qısa müddət ərzində ümumi uzunluğu 4,7 min kilometrə yaxın qaz xətləri çəkilmiş, qazlaşdırma səviyyəsi qısa müddətdə 70%-ə çatdırılmış, 16 mindən çox abonent təbii qazla təmin edilmişdir Hazırda bu qaz şirkəti tərəfindən 2000 km-dən artıq qaz boru kəmərlərinin inşası, 150 min yeni abonentin qazla təmin edilməsi planı həyata keçirilir.

SOCAR-ın Türkiyədəki fəaliyyəti də tutumludur. Belə ki, ölkənin neft-kimya sektorunun yeganə istehsalçısı “Petkim” 2008-ci ildən SOCAR-ın idarəçiliyindədir. SOCAR-ın törəmə müəssisəsi olan “SOCAR Turkey Energy A.Ş.” bu holdinqə aid səhm paketinin 61,3%-lik hissəsinə sahibdir. Müasir zamanda “Petkim” Azərbaycanın Türkiyədəki ən böyük aktivi kimi çıxış edir və bu qurum ölkənin neft-kimya məhsulları

bazarında 30%-ə yaxın paya malikdir. SOCAR qarşıdakı illərdə həyata keçirəcəyi layihələr və qoyacağı investisiyalar hesabına həmin göstəricinin 40%-dən yuxarı qaldırılmasını nəzərdə tutur. Bunun üçün neft emalı, neft kimyası, enerji və logistika sahələrinin inkişaf perspektivlərini əhatə edən inteqrativ "Value-site 2023" layihəsi tətbiq olunur. Layihə illik gücü 10 milyon ton təşkil edəcək Star Neft Emalı Zavodunun inşasını, Egey bölgəsində ən böyük yük limanı olacaq (*1,5 milyon TEU həcmində konteyner terminalı*) Petkim Konteyner Limanının tikintisini və 51 MVt gücündə Külək Enerji Stansiyasının qurulmasını əhatə edir. 2023-cü ildən sonra "Petkim" yalnız Türkiyənin deyil, bütövlükdə regionun ən böyük neft-kimya, logistika və liman mərkəzinə çevriləcəkdir.

SOCAR həm də İtaliya, ABŞ, İsrail, Fransa, İndoneziya, İspaniya da daxil olmaqla 24 ölkəyə xam neft ixrac edir. Ümumiyyətlə isə Azərbaycandan dünyanın 33 ölkəsinə xam neft və neft məhsulları ixrac olunur.

SOCAR-ın İsveçrədə təsis etdiyi "SOCAR Trading S.A." şirkəti qısa müddətdə Avropada özünü tanıdaraq, Cenevrə, Sinqapur, Türkiyə, BƏƏ, Nigeriya, Vyetnamdakı bölmə və nümayəndəlikləri vasitəsilə Şərqi və Cənub-Qərbi Avropa, Şimali və Qərbi Afrika, Cənub-Şərqi Asiya və Aralıq dənizi hövzəsindəki bazarlarda möhkəmlənmişdir. Bu treydinq şirkəti SOCAR-ın və digər şirkətlərin neft və neft məhsullarının beynəlxalq bazarlarda satışını həyata keçirir, həmçinin üçüncü tərəflərin ticarət əlaqələrində vasitəçilik xidmətləri göstərir. BƏƏ-dəki Fucayra limanında terminal tikintisi də uğurla davam etdirilir.

Bunlardan savayı, SOCAR İşveçrə ("*SOCAR Trading*"), Ukrayna (*"SOCAR Energy Ukrayna*") və Rumuniyanın (*"SOCAR Petroleum SA Rumıniya"*) pərakəndə yanacaq satışı bazarlarına da daxil olmuşdur. İsveçrənin bir neçə şəhərində, o cümlədən Sürix və Cenevrə hava limanlarında ümumilikdə 170-dən artıq, Rumıniyada 37, Ukraynada isə 60 yanacaqdoldurma stansiyası var. SOCAR yanacaqdoldurma stansiyası hətta ərazisi 160 km$^2$ olan Avropanın "cırtdan" ölkəsi Lixtenşteyndə belə mövcuddur. Bütün bunlar iqtisadi effektləri ilə yanaşı həm də Azərbaycanın təbliği işinə də mühüm töhfə verir.

SOCAR Yunanıstanın təbii qaz nəqli sisteminin operatoru olan DESFA şirkətinin səhmlərinin 66%-nə sahib olmuşdur. Hazırda bu şirkət Yunanıstanda təbii qazın nəqlini və saxlanılmasını, eləcə də ölkənin qaz-nəql sisteminin inşasını, təminatını və istismarını həyata keçirir, bütün bölgələri təbii qazla təchiz edir. DESFA planlarında Yunanıstan-İtaliya və Yunanıstan-Türkiyə boru kəmərlərinin tikintisi də nəzərdə tutulur.

SOCAR 10-dan çox ölkədə nümayəndəliklərə malikdir. Böyük Britaniya, Almaniya, Avstriya, Gürcüstan, Türkiyə, Rumıniya, İsveçrə, Qazaxıstan, Ukrayna və İranda yaradılmış nümayəndəlikləri SOCAR-ın beynəlxalq əlaqələrinin təşkilində mühüm rol oynayır. Onun bu uğurlu xarici iqtisadi fəaliyyəti heç şübhəz ki, ölkədə iqtisadi artımın yüksəlişində əlavə stimullar yaradır.

SOCAR fond bazarına da çıxış etmişdir. Şirkət nominal dəyəri 1000 ABŞ dolları

olan, ümumilikdə 100 milyon ABŞ dollarına malik istiqraz paketinə malikdir. Vurğulanmalıdır ki, SOCAR istiqrazı, sahibinə istiqrazı emissiya edəndən (*emitent*) əvvəlcədən müəyyən edilmiş mərhələlərdə faiz gəlirini və istiqraz müddətinin sonunda qoyduğu ilkin vəsaiti almaq hüququnu verən investisiya qiymətli kağızıdır.

SOCAR-da həm quru, həm də dəniz neft yataqlarının kəşfiyyatı, işlənməsi və abadlaşdırılması ilə bağlı bütün məsələləri həll etmək qabiliyyətinə malik yüksək ixtisaslı mühəndis, texnik və fəhlə kadrları vardır. Burada hazırda 60 min nəfərə yaxın, o cümlədən 50 nəfər elmlər doktoru elmi dərəcəsinə malik işçi və mütəxəssis çalışır. Bu kütləvi ixtisaslı insan resurslarının ölkənin iqtisadi inkişafının irəliyə aparılmasında xidmətləri yüksəkdir. Onlar SOCAR bazasından olmaqla yanaşı, həm də əldə etikləri biçimli gəlirlər müqabilində ölkənin iqtisadi həyatında stimullaşdırıcı rol oynayır və iqtisadi artımın genişləndirilməsində əlahiddə iştirakçı kimi çıxış edirlər. Qeyd olunmalıdır ki, kapital həcminə görə SOCAR 2014-cü ildə dünyanın 68-ci ən böyük şirkəti olmuşdur. Onun mərkəzi ofisi Bakıda 2016-cı ildə istifadəyə verilmiş 200 metr hündürlüyü olan 40 mərtəbəli müasir memarlıq üslubunda inşa edilmiş binada yerləşir.

Milli neft-qaz sektorunda özəl pay bölgüsündə əsas fəaliyyət Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti - ABƏŞ tərəfindən həyata keçirilir. ABƏŞ 1994-cü ildə "Xəzərin Azərbaycan sektorunda neft yataqlarının müştərək işlədilməsi və istifadəyə verilməsi" haqqında SOCAR-ın (*10%-lik pay*) və dünyanın bir neçə böyük neft şirkətləri ilə imzalanmış müqavilənin payçıları adından onun şərtlərini həyata keçirmək məqsədilə yaradılmış konsorsium formalı əməliyyat şirkətidir.

ABƏŞ Böyük Britaniyanın "Britiş Petrolium" - BP neft şirkətinin operatorluğu ilə AÇG və "Şahdəniz" yataqlarında istismarı, habelə ABƏŞ QİBK, BTC və CQBK trans-milli kommunikasiya xətləri və digər infrastruktur obyektlərində müvafiq idarəetməni həyata keçirir. Bundan başqa milli neft-qaz sektorunun özəl sahəsinə müştərək fəaliyyətdə - Az ŞenqLi Oyl/Pirsaat, "Binəqədi Oyl Kompani", "Qobustan" ƏŞ, "Salyan Oyl" ƏM, "Qarasu" ƏŞ, "Suraxanı" ƏŞ, "Abşeron" ƏŞ və digər bu kimi şirkətlər də daxildir. Bütün bu potensial isə milli neft-qaz sektorunun tərkib hissəsi kimi ölkədə iqtisadi artımın təmin olunmasının ən tutumlu hissəsini təşkil edir.

Hazırda Azərbaycan nefti dünya bazarlarına üç istiqamətlə nəql olunur. Neftin nəqli üçün hər birinin ötürücülük gücü ildə 6 milyon ton təşkil edən 1997-ci ildə Rusiya istiqamətində Bakı-Novorossiysk (*ilkin neftin dünya bazarına çıxarılması üçün*), 1999-cu ildə isə Gürcüstan istiqamətində Bakı-Supsa - QİBK neft boru kəmərləri istifadəyə verilmişdir. Qeyd olunmalıdır ki, "Şərq-Qərb" enerji dəhlizinin gerçəkləşməsində QİBK neft kəməri mühüm yer tutur. 1999-cu ildən bu kəmər vasitəsilə 100 milyon tona yaxın Azərbaycan nefti nəql olunaraq dünya bazarlarına çatdırılmışdır.

Azərbaycanın neft nəqli sisteminin ən mühüm boru kəməri BTC-dır. Neftin etibarlı və fasiləsiz nəqlini təmin edən bu kəmər beynəlxalq enerji təhlükəsizliyinin əsas elementlərindən biri kimi Avrasiya regionunda ən iri və unikal mühəndis qurğularından hesab olunur. BTC vasitəsi ilə Azərbaycan neftindən başqa sutkada 40-50 min barel həcmində Türkmənistan nefti də nəql edilir.

Azərbaycan həmçinin ölkə xaricinə çıxacaq diversifikasiya olunmuş qaz kəmərləri şəbəkəsinə də malikdir. Konkret Azərbaycan qazı dörd istiqamətdə dünya bazarlarına çıxarılır. Bu kəmərlər sırasına, başlıca olaraq, müasir zamanda inşa edilmiş CQBK və əvvələr mövcud olmuş şimal, cənub və qərb istiqamətlərinə yönəlmiş magistral xətlər daxildir.

Azərbaycan özünün uğurlu milli neft strategiyasını həyata keçirərək Avropa İttifaqı ilə çox mühüm sənəd - "Cənub Qaz Dəhlizi haqqında Birgə Bəyannamə" imzalamışdır. "Cənub Qaz Dəhlizi" Aİ ölkələri üçün həyata keçirilən ən böyük infrastruktur layihəsidir.

Eyni zamanda qeyd olunmalıdır ki, 2011-ci ilin 12 senytabrında Brüsseldə keçirilən toplantıda Aİ Azərbaycan və Türkmənistanla Avropaya yeni qaz ehtiyatları çatdırmaq üçün nəzərdə tutullmuş "Cənub Qaz Dəhlizi"ndə əsas layihə kimi çıxış edən "Trans-Xəzər qaz kəməri" tikintisi ilə bağlı danışıqlara başlanmasına qərar vermişdir. Digər tərəfdən Azərbaycan, Gürcüstan və Rumıniya arasında (*Azerbaijan-Georgia-Romania Interconnector - AGRİ*) layihəsi üzrə "Qaz tədarükü sahəsində əməkdaşlıq haqqında" memorandumun imzalanması da Avropaya qaz tədarükü istiqamətində yeni imkanlar yaradır. Bu layihə Azərbaycan qazının boru vasitəsi ilə Qara dəniz sahillərinə - Kuleviyə nəqlini, orada xüsusi terminalda mayeləşdirilərək (*LNG*), tankerlərlə Rumıniyanın Konstansa limanına çatdırılmasını, sonra isə yenidən təbii qaz şəklində salınaraq ötürülməsini nəzərdə tutur. Bütün bu layihələrin həyata keçirilməsi ilə Azərbaycanın Avropa enerji məkanında generasiya imkanları daha fərqli məcraya yönələcəkdir. Bununla belə, Azərbaycan qazının uzunmüddətli sazişlər əsasında Aİ ölkələrinə tədarük olunması istiqamətində digər əlverişli variantlar da araşdırılır. Respublika həmçinin Aİ və digər regionlarla yeni, birbaşa enerji və nəqliyyat əlaqələri yaradan müasir İpək Yolunu - Cənub enerji dəhlizi strategiyasını dəstəkləyir. Hesab olunur ki, bu strategiya çərçivəsində yeni qaz təchizatı dəhlizinin açılması Avropa qaz bazarının sabitliyinə mühüm təsir göstərəcəkdir.

Azərbaycanın milli neft strategiyasının həyata keçirilməsi istiqamətində yeni bir mərhələ 2017-ci ilin sentyabrın 14-də Heydər Əliyev Mərkəzində Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" - AÇG yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş sazişin imzalanması olmuşdur. Bu Azərbaycan hökuməti və SOCAR "BP", "Chevron", "İNPEX", "Statoil", "ExxonMobil", "TP", "İTOCHU" və "ONGC Videsh" şirkətləri ilə "Azəri", "Çıraq" yataqları və "Günəşli" yatağının dərinsulu hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında dəyişdirilmiş və yenidən işlənmiş sazişdir. Sazişə əsasən, BP layihənin operatoru olaraq qalacaqdır. AÇQ layihəsi üzrə 2049-cu ilin sonunadək davam edəcək növbəti 32 il ərzində AÇG-nin Azərbaycana gətirdiyi iqtisadi mənfəət maksimuma çatdırılacaqdır. Həmin illər ərzində AÇG yatağına 40 milyard ABŞ dollardan artıq sərmayənin qoyulması potensialı var. İmzalanma mərasimində çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev söyləmişdir: "Müqavilənin ölkəmiz üçün böyük əhəmiyyəti

var. Bu yataqların işlənməsi 2050-ci ilə qədər uzadılır. Bu kontrakt Azərbaycan üçün daha əlverişli, daha yaxşı şərtlərlə imzalanır. Kontrakt imzalanandan sonra ölkəmizə xarici investorlar tərəfindən 3,6 milyard dollar bonus ödəniləcək. SOCAR-ın payı 11%-dən 25%-ə qaldırılır. Azərbaycana çatacaq mənfəət neftinin səviyyəsi 75% təşkil edəcəkdir. "Əsrin müqaviləsi" imzalanan zaman AÇG-də 511 milyon ton neft olduğu ehtimal edilirdi. Ancaq ehtiyatlar proqnozları üstələmişdir. İndiyədək həmin yataqlardan 460 milyon ton neft hasil edilmişdir. Hazırda "Azəri-Çıraq-Günəşli" yatağının qalıq çıxarıla bilən ehtiyatları 552 milyon ton neft və 184 milyard $m^3$ qaz həcmində dəyərləndirilir. Qeyd olunmalıdır ki, 20 il əvvəl - 7 noyabr 1997-ci ildə ilk platformadan - Çıraq-1-dən ilkin neftin hasil edilməsinə başlanılmışdır. Dünya bazarlarında 01.01.2017-ci il tarixinə qədər Azərbaycanın 246,2 mlyon tona qədər "mənfəət nefti" satılmışdır ki, bu rəqəm də ilbəil artmaqdadır.

Azərbaycanın enerji sektorunda baş verən və ölkə iqtisadiyyatının inkişafını qaynaqlandıran bütün bu sosial-iqtisadi effektlərin əsasında ulu öndər Heydər Əliyevin müəllifi olduğu, müasir dünya enerji təhlükəsizliyi sistemində çox mühüm əhəmiyyət daşıyan "Əsrin müqaviləsi" ilə başlanan uğurlu neft strategiyası dayanır. Ötən illər ərzində "Əsrin müqaviləsi" və digər kontrakt sahələrində dünya standartlarına uyğun ən yüksək texnika və texnologiyanın tətbiq olunması neft sənayesinin modernləşdirilməsi baxımından çox mühüm əhəmiyyət kəsb etmişdir. Artıq 18-ci ildir ki, Azərbaycan mənfəət neftindən gəlir əldə edir. 1999-cu ilədək neftin satışından əldə edilən gəlir sərmayə qoyuluşunun ödənilməsinə sərf edilirdisə, həmin ilin dekabrından Azərbaycanın mənfəət nefti xarici bazarlara çıxarılır. Bir xüsusi məqamı da neft gəlirlərinin akkumlyasiyası və istifadəsi ilə bağlıdır. Belə ki, Azərbaycan Respublikasının neft-qaz ehtiyatlarına dair sazişlərin həyata keçirilməsi ilə əlaqədar əldə olunan gəlirlərinin toplanmasını, səmərəli idarəedilməsini, gələcək nəsillər üçün saxlanmasını təmin edən xüsusi məqsədli dövlət qurumu ARDNF təsis edilmişdir. Konkret olaraq ARDNF-in daxilolmalarını neft-qaz sazişləri üzrə əsas gəlirlər - dövlətin payına düşən mənfəət nefti, bonuslar, akrhesabı ödənişlər, tranzit tarifləri üzrə ödənişlər, icarə ödənişləri və s. təşkil edir.

Azərbaycan Prezidenti İlham Əliyev demişdir: "İndi Azərbaycan öz hesabına yaşayan ölkələrdəndir. Ölkəmizin gələcək inkişafı üçün siyasi, iqtisadi və ya başqa maneə yoxdur. Ölkəmiz bundan sonra uğurla inkişaf edəcək. Bu potensialın formalaşmasında "Əsrin müqaviləsi"nin böyük rolu var. Biz müstəqil siyasət aparan, heç kimdən asılı olmayan ölkəyik. Bu, iqtisadi imkanlarımızdan qaynaqlanır. Bu imkanı da bizə "Əsrin müqaviləsi" yaratdı".

Hazırda ölkənin neft və qaz sektorunun perspektiv inkişafı "Azərbaycan Respublikasında neft və qaz sənayesinin (*kimya məhsulları daxil olmaqla*) inkişafına dair Strateji Yol Xəritəsi"nin prioritet hədəfləri əsasında aparılır. Bu mühüm dövlət sənədində 2025-ci ilədək və 2025-ci ildən sonrakı dövr üçün neft və qaz sektorunun əsas hədəfləri kimi bazis fəaliyyət seqmentləri axtarış-kəşfiyyat, işlənmə və hasilat (*uupstream*), xammalın nəqli və satışı (*midstream*), emal və emal məhsullarının satışı

(*downstream*) inkişaf etdirilməsi nəzərdə tutulmuşdur. Strateji Yol Xəritəsində həmçinin göstərilir ki, hazırda dünyada hasil edilən neftin təxminən 0,9%-i Azərbaycanın payına düşür. Azərbaycanda artıq 43 milyard barel neft ekvivalenti (*BNE*) olan karbohidrogen ehtiyatları kəşf edilmiş və bunlardan 20 milyard BNE artıq çıxarılmışdır.

***Əsas anlayışlar:***

**1. Dünyanın yaranışı** - müasir elmi tədqiqatlarla dünyanın 4,6 milyard yaşa, canlı orqanizmlərin yaranışının 3,5 milyard, insanın yaranışının isə 2 milyon ilə bərabər olduğu qənaətinə gəlinmişdir.

**2. Neolit inqilabı** - b.e.ə. X-III minillikləri əhatə edərək, ilk öncə Yaxın Şərqdə intişar tapan, insan cəmiyyətinin mənimsənilən təsərrüfatdan istehsal edən təsərrüfata - ovçuluq və yığımdan əkinçiliyə və maldarlığa keçidi ilə bağlı inkişaf mərhələsidir.

**3. Natural təsərrüfatçılıq** - əmək bölgüsünün zəif inkişafı, qapalı və məhdud xarakterliliyi ilə müşayiət olunan, maddi rifah və xidmətlərin istehsalının ictimai və ayrıca təsərrüfat vahidi daxilində istehlakına əsaslanan təsərrüfatçılıq formasıdır.

**4. Əmtəə** - insanın istehlak tələblərini ödəmək qabiliyyətli və xüsusən mübadilə üçün istehsal olunmuş əmək məhsuludur.

**5. Mübadilə dəyəri** - əmtəə və ya xidmətlərin digər əmtəə və xidmətlərlə mübadiləsi qabiliyyətliliyidir.

**6. İstehlak dəyəri** - əmtəənin faydalılığı, onun insan tələbatını ödəmək qabiliyyətliliyidir.

**7. Əmtəə istehsalı** - şəxsi tələbatının ödənilməsi məqsədilə ayrı-ayrı istehsalçıların müəyyən fəaliyyət növlərində ixtisaslaşaraq mübadilə münasibətlərinə girdikləri və mübadilə edilən əmək məhsulunun əmtəəyə çevrildiyi cəmiyyətin iqtisadi həyatının təşkili üsuludur.

**8. Əmtəə-pul münasibətləri** - marksist siyasi iqtisadının termini olaraq istehsal prosesində və əmtəələrin reallaşması nəticəsində insanlar arasında baş verən ictimai münasibətləri - bazar münasibətlərini əks etdirir.

**9. Asiya istehsal üsulu** - Qədim Şərqdə dövlətin təsərrüfat həyatında, xüsusən də, əkinçilikdə irriqasiyanın tənzimlənməsində iştirakı formasında yaranan, səxsi əmlak toxunulmazlığı, ticarət məhdudluğu kimi xüsusi istismar üsullu cəhətləri əhatə edən istehsal ukladıdır.

**10. Antik iqtisadiyyat** - Qədim Yunanıstan ərazisində müharibələrdə əsir götürülmüş xarici qulların əməyinə əsaslan təsərrüfatçılıq tipidir.

**11. Paradiqma** - bütün elmi cəmiyyətlər tərəfindən eyni və ya digər zaman mərhələsində qəbul edilən və yeni elmi tədqiqatlara əsas və nümunə funksiyasında xidmət göstərən elmi nailiyyətlər məcmusudur.

**12. Formasiya** - təyin olunmuş pillə, nəyinsə struktur tipi və ya inkişaf mərhələsi, baxışlar sistemidir.

**13. İctimai-iqtisadi formasiya (*Formasiya paradiqması*)** - əsasında beş ictimai-iqtisadi formasiya kateqoriyası - ibtidai icma, quldarlıq, feodalizm, kapitalizm və ikifazalı kommunizm dayanan, XIX əsrin ortalarında gənc hegelçilərə və digər idealistlərə zidd olaraq K.Marks və F.Engels tərəfindən işlənmiş nəzəriyyədir.

**14. İbtidai icma quruluşu** - bəşər tarixinin ən erkən çağlarını əhatə edərək daş, sümük, ağac və s. alətlərindən istifadə əsasında ovçuluq, yığıcılıq, balıqçılıq üzərində qurulan, təqribən bir milyon ili əhatə edən təsərrüfat həyatının ilk dövrüdür.

**15. Quldarlıq quruluşu** - istehsal vasitələri və məhdudiyyətsiz olaraq, istehsal işçiləri kimi qullar üzərində şəxsi mülkiyyətə əsaslanan marksist nəzəriyyəli bəşər cəmiyyəti dövrüdür.

**16. Feodalizm** - quldarlıq quruluşunu əvəz edərək aqrar xarakterli tarixdə ikinci sinif cəmiyyət kimi, üstün olaraq, kollektiv natural təsərrüfatçılığa əsaslanan marksist nəzəriyyəli bəşər cəmiyyət dövrüdür.

**17. Kapitalizm** - istehsal vasitələri üzərində şəxsi mülkiyyətə və muzdlu əməyin istismarına əsaslanan, feodalizmi əvəzləyən marksist nəzəriyyəli ictimai-iqtisadi formasiyadır.

**18. Kommunizm** - tam bərabərlik, istehsal vasitələri üzərində ictimai mülkiyyət üzərində qurulan hipotetik ictimai-iqtisadi cəmiyyət tipidir.

**19. Sivilizasiya -** XVIII əsrdə “varvarlıq” anlayışına əks olaraq fransalı mütəfəkkirlər tərəfindən yaradılmış, qədim tarixin vəhşilik, varvarlıq mərhələsindən sonrakı - III dövrü ifadə edən, cəmiyyətin maddi və mənəvi nailiyyətləri məcmusudur.

**20. Sivilizasiya paradiqması** - bəşəri mədəni qrupların dil, tarix, din, ənənə, institutlar və insanların subyektiv özünüidentifikasiyasının ümumi obyektiv elementlərində təyinat taparaq, üç tipik - ənənəvi, industrial, postindustrial tipdə yaşanan cəmiyyətin inkişafı formalarını ehtiva edir.

**21. Ənənəvi cəmiyyət** - neolit erasında aqrar inqilablar zamanında yetişərək cəmiyyətin kapitalizməqədərki inkişafı dövrünü əhatə edir.

**22. İndustrial cəmiyyət** - maşın istehsalının inkişafı və ona adekvat formalarda əməyin təşkilinin meydana gəlməsi, həmçinin, texniki-texnoloji tərəqqinin nailiyyətlərinin tətbiqi nəticəsində sənayeləşmə prosesində formalaşan cəmiyyət tipidir.

**23. Postindustrial cəmiyyət** - bilik və informasiyaya əsaslanaraq iqtisadiyyatın innovativ sektorunun və xidmət sferasının genişlənməsi ilə müşayiət olunan, cəmiyyətin və iqtisadiyyatın industrial cəmiyyətdən sonrakı inkişaf mərhələsi, yeni cəmiyyət tipidir.

**24. İqtisadi-antropoloji yanaşma** - cəmiyyətin inkişafına antropoloji, sosial və iqtisadi istiqamətləri əhatə edən çevrədən yanaşma prinsipidir.

**25. İqtisadi yanaşma** - cəmiyyətin inkişafının ayrıca təyin olunmuş konsepsiya əsasında retrospektiv baxış keçirməklə təhlili metodikasıdır.

**26. Tarixi yanaşma** - keçmiş təsərrüfat həyatını tarixi mərhələlərə ayırmaqla cəmiyyətin inkişafının konseptual baxışlar əsasında təhlilidir.

**27. Proqressiv yanaşma** - cəmiyyətin inkişafının ictimai, tarixi tərəqqi nəzəriyyəsi işləməklə cəmiyyət və tarixin hər sonrakının əvvəlkindən yüksək (*proqressiv*) olması əsasında biri-birini əvəzləyən pillə, forma kimi öyrənilməsi üsuludur.

**28. Neft** - korbohidrogen tərkibli, təbii aqreqat halı maye strukturlu olan üzvi maddə, enerjidaşıyıcıdır.

**29. Karbohidrogen** - neft, təbii və səmt qazları, daş kömür və s. kimi enerji daşıyıcıların mühüm tərkib hissəsini təşkil edən karbon və hidrogen atomlarından ibarət üzvü birləşmələrdir.

**30. Neft quyusu -** neft-qaz və kondensatın hasilatı üçün, əsasən, şaquli və ya maili lülə şəklində qazılan spesifik quyudur.

**31. Neft ehtiyatları -** təsbit edilmiş vaxt ərzində yatağın kəşf olunmuş hissəsindən reallaşmış hasilat miqdarını hesaba almayan, kommersiya baxımından çıxarılması mümkün sayılan karbohidrogenlərin həcmidir.

**32. Konfessiya -** müəyyən dini təlimlər daxilində xüsusi dindarlıq və ya bu sferadakı dindarlar birliyidir.

**33. Konfessional iqtisadi sistemlər** - iqtisadi modelin genetik kökləri və prinsiplərinin konfessional amillərlə bağlılığında ehtiva olunuan iqtisadi sistemlərdir.

**34. Böyük coğrafi kəşflər** - Avropada böyük tələblə istifadə olunan malların və yeni ticarət partnyorlarının axtarışı ilə əlaqədar avropalıların XV əsrdən başlayaraq XVII əsrə kimi davam etmiş, Afrika, Amerika, Asiya, Avstraliya və Okeaniyaya səyahətləri nəticəsində yeni dəniz marşrutlarının açılması və yeni torpaqların kəşfi üzrə bəşər tarixi mərhələsini əhatə edir.

**35. Dünya iqtisadiyyatının formalaşması mərhələləri** - dünya kapitalist bazarının təşəkkülü (*XV-XVII əsrlər*), dünya kapitalist bazarının formalaşması, beynəlxalq əmək bölgüsünün təşəkkülü və inkişafı (*XVIII-XIX əsrlər*), beynəlxalq əmək bölgüsü sisteminin və bu əsasda dünya təsərrüfatının formalaşması (*XIX əsrin sonu - XX əsrin birinci yarısı*) və beynəlxalq əmək bölgüsü sisteminin fəaliyyət göstərməsi, bütün ölkələrin biri-birindən qarşılıqlı iqtisadi asılılığının güclənməsi (*XX əsrin 50-ci illərindən zəmanəmizə qədər*) dövrlərini əhatə edir.

**36. İndustrial inqilablar** - XVIII-XIX əsrlərdə əl əməyindən maşınlı, manafakturadan fabrik istehsalına keçidlə bağlı dünyanın aparıcı dövlətlərində müşahidə olunan böyük sənaye inqilabından başlanğıc alan inqilablar silsiləsidir.

**37. Birinci industrial inqilab** - cəmiyyətin aqrar iqtisadiyyatdan sənaye istehsalına keçidini təmin etmiş inqilabdır.

**38. İkinci industrial inqlab** - kütləvi istehsalın miqyaslarının artması və inkişafının genişləndirilməsi üçün elektrikdən istifadə mərhələsinə keçidi təmin edən inqilabdır.

**39. Üçüncü industrial inqilab** - istehsalın avtomatlaşdırılması üçün elektronika və informasiya texnologiyalarından istifadəni təmin etmiş və hal hazırda da davam etməkdə olan inqilabdır.

**40. Dördüncü industrial inqilab** - rəqəmsal inqilab olaraq XX əsrin ortalarında üçüncü industrial inqilabın əsasında təşəkkül tapan, istehsalın ultra avtomatlaşdırılması, robot texnikası və süni intelektin biznesdə, hökümətin işində və şəxsi həyatda geniş tətbiqini, həmçinin zaman və məsafə asılı olmayaraq insanlar və maşınlar arasında mütləq əlaqələri təmin edən inqilabdır.

**41. Dünya bazarının təşəkkülü** - beynəlxalq əmək bölgüsünün və beynəlxalq kooperasiyanın dərinləşməsi ilə daxili bazarların inkişaf edərək tədricən milli sərhədləri aşmaşı nəticəsində yaranmışdır.

**42. Burjuaziya** - kapitalist cəmiyyətində hakim sinif, sosial sinfi kateqoriyadır.

**43. Şərq və Qərbin iqtisadi inkişaf səviyyələri** - XVI əsrdə eyniləşmiş və Qərb iqtisadi inkişafda Şərqi keçmişdir.

**44. Manufaktura** - Qərbi Avropada XVI-XVIII əsrlərdə mövcud olmuş, əsasən, muzdlu işçilərin əl əməyinin tətbiq olunduğu və əmək bölgüsündən geniş istifadə edildiyi böyük müəssisədir.

**45. Kapitalizmin yaranışı** - ictimai əmək bölgüsünün və əmtəə istehsalının inkişafı ilə feodalizmin dərinliklərindən başlanmış proses XVIII əsrdə manufakturlardan maşın-fabrik istehsalına keçidlə, əsasən, təşəkkül tapmışdır.

**46. Kapitalizmin əsas əlamətləri** - əmtəə-pul münasibətləri və istehsal vasitələri üzrərində şəxsi mülkiyyət hakimliyi, inkişaf etmiş ictimai əmək bölgüsü, istehsalın ictimailəşməsi, işçi qüvvəsinin əmtəəyə çevrilməsi, muzdlu işçilərin kapitalistlər tərəfindən istismarıdır.

**47. Müstəmləkəçilik sistemi** - metropoliyaların XVI-XX əsrlərdə qalan dünya üzərində hökmranlığını ehtiva edən müstəmləkəçilik sistemidir.

**48. Metropoliya** - öz müstəmləklərinə münasibətdə olan dövlətdir.

**49. Kolonial siyasət** - ölkələrin fəht olunması, xalqları hərbi, siyasi və iqtisadi metodlarla istismarına yönələn müstəmləkəçilik siyasətidir.

**50. Kolonializm** - digər dövlətlərə onların ölkə və xalqlarının mənafelərinə uyğun olmadan özlərinin iqtisadi rejimlərini zorla qəbul etdirməsinə, mənfəət əldə edilməsinə, sərvətlərinin alınmasına və ərazilərinin müstəmləkələşdirilməsinə yönəldilmiş, dövlət və iri korporasiyaların iqtisadi fəaliyyəti ilə bağlı ideoloji nəzəriyyə və praktikadır.

**51. Merkantilizm** - milli ticari kapitalın artımını təmin edərək xaricdən pul axınını şərtləndirən, güclü mərkəzi dövlət yaranışını ehtiva edən iqtisadi təlimidir.

**52. İmperializm** - XIX əsrin sonu - XX əsrin əvvəllərində kapitalizmin inkişafının ən yüksək və son mərhələyə - inhisarçı kapitalizmə keçidinin formasıdır.

**53. Dünyanın bölüşdürülməsinin sonu** - XIX əsrin sonu - XX əsrin əvvəlində dünyanın sənayecə inkişaf etmiş dövlətlər tərəfindən bölüşdürülməsinin tamamlanması mərhələsidir.

**54. Müstəmləkə sisteminin dağılması -** II Dünya Müharibəsi ərəfəsindən başlayaraq (*1940-1990-ci illər*) müstəmləkəçi ölkələrin müstəmləkə altında saxladıqlar ərazilərdən çıxışı ilə həmin ərazilərdə suveren dövlətlərin yaranması prosesidir.

**55. Beynəlxalq iqtisadi təşkilatların təşəkkülü** - II Dünya Müharibəsindən sonra dünyanın siyasi sisteminə, həmçinin, dünya iqtisadiyyatına mühüm dəyişikliklər gətirən qlobal təsisatların - BMT, BVF, İƏİT, BYİB, GATT və s. yaranışıdır.

**56. Maastrixt sazişi, Maastrixt meyarları** - Aİ-nin yaranmasını əsaslandıran saziş kimi həmin ittifaqa daxil olmaq istəyən dövlətlər üçün yerinə yetirilməsi zəruri olan iqtisadi şərtlər kompleksini ifadə edir.

**57. Qlobal iqtisadiyyatın formalaşması -** dünya iqtisadiyatının inkişafının XX əsrin ikinci yarısından başlayaraq XXI əsr ərəfəsinə kimi DTT-nin təşəkkülü, TMŞ-lərin yaranışı və onların təsir dairəsinin genişlənməsi, Aİ-nin vahid iqtisadi məkana çevrilməsi və ölkələrin iqtisadi inteqrasiya prosesnin dərinləşməsi ilə müşayiət olunan yeni mərhələsidir.

**58. Özəlləşdirmə, privatizasiya** - dövlət mülkiyyətinin şəxsi əllərə verilməsi, milliləşdirmə prosesinin əksidir.

**59. "Əsrin müqaviləsi" -** ümummilli lider Heydər Əliyev tərəfindən aparılan siyasət sayəsində 20 sentyabr 1994-cü ildə "Xəzərin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının işlənməsi və hasilatın pay bölgüsü" üzrə imzalanmış birinci beynəlxalq neft sazişidir.

**60. "Azəri Layt"** - Xəzər dənizinin Azərbaycana mənsub sektorunda "Azəri" və "Çıraq" yataqlarından hasil edilən neftin ticarət markasıdır.

**61. Terminal** - hər hansı bir sistemin onun xarici mühitlə əlaqələndirməsini təmin edən sonuncu hissəsidir.

**62. Neft terminalı** - neft və neft məhsulları qəbul edən istehsalat kompleksi, nəhəng neft anbarıdır.

**63. İnklüziv təhsil** - sağlamlıq imkanları məhdud və həmçinin belə məhdudiyyətləri olmayan şəxslər üçün müxtəlif növ əlavə təhsilin təşkilini, birgə tədris məşğələlərini, habelə asudə vaxtı özündə ehtiva edən birgə təhsildir.

**64. İnklüziv cəmiyyət -** ayrı-seçkiliklə yol verməməyə hörmət edən, siyasətdə və yanaşmalarda diskriminasiyalarla fəal mübarizə aparan cəmiyyət tipidir.

**65. İnklüziv İnkişaf İndeksi** - Beynəlxalq İqtisadi Form tərəfindən özündə ölkənin iqtisadi tərəqqisini qiymətləndirən meyarları əks etdirən alternative system olaraq işlənmiş indeksdir.

**66. Azərbaycanın milli iqtisadiyyatının inkişaf mərhələləri** - qədim tarixi dövr, orta əsrlər dövrü, neftin sənayeləşmə mərhələsi, XIX əsrin ortalarından XX əsrin əvvəllərinə qədər neft sənayesi ilə bağlı yüksək inkişaf dövrü, Azərbaycan Xalq Cümhuriyyəti dövri, SSRİ mərhələsi və dövlət müstəqilliyinin bərbası ilə başlanan ən yeni tarixi mərhələdir.

**67. Neft yataqları** - müəyyən bir ərazidə neftli hövzədir.

**68. Dünyada mexaniki üsulla ilk neft quyusu** - 1846-cı ildə, ABŞ-dan 13 il öncə Bakıda - Bibiheybətdə qazılmışdır.

**69. Bakı Neft Rayonunun liderliyi** - 1901-ci ildə 20 milyon tondan bir qədər çox neft hasilatı ilə Bakı Neft Rayonunun dünyada birinci yerə çıxması hadisəsidir.

**70. II Dünya Müharibəsində Azərbaycan nefti** - Azərbaycanda 1941-1945-ci illərdə keçmiş SSRİ dövlətinin cəbhədəki tələblərini ödəmək üçün rekord həcmdə - 75 milyon ton neft (*SSRİ-də hasil edilən neftin 73,4%-i*) hasil edilmişdir.

**71. "Şahdəniz"** Azərbaycan Respublikasına məxsus, Xəzər dənizinin şelfində Bakı şəhərindən 70 km cənub-şərqdə yerləşən nəhəg qaz-kondensat yatağıdır.

# III FƏSİL

# Qlobal iqtisadi sistemin əsas nəzəriyyə və konsepsiyaları

## 3.1. Qlobal iqtisadi sistemin əsas nəzəriyyə və konsepsiyalarının təsnifatı

Dünya iqtisadiyyatı elə qlobal iqtisadi orqanizmdir ki, burada planetin bütün ölkələrinin və xalqlarının qarşılıqlı əlaqəsi və qarşılıqlı asılılığı yaranmış və artmışdır. O, məhsuldar qüvvələrin güclənən beynəlmiləlləşməsi, çoxcəhətli beynəlxalq iqtisadi münasibətlər sisteminin yaranması, ölkələr arasında təsərrüfat mübadiləsini tənzimləyən millətlərarası mexanizmlərin formalaşması ilə xarakterizə olunur.

Dünya iqtisadiyyatı qlobal sistem kimi inkişaf edən və dinamik kateqoriya olmaqla təkamülü, bir fazadan digərinə keçidi ilə özünün müqabil nəzəri konsepsiyalarını formalaşdırmışdır.

Tarixən dünya iqtisadiyyatı milli təsərrüfatlar sistemi və ya onların müəyyən qrupları kimi nəzərdən keçirilmişdir. Ona görə də dünya sistemində milli təsərrüfatların vəziyyətinin təhlili bir çox nəzəriyyə və konsepsiyaların diqqət mərkəzində durur. Bu nəzəriyyə və konsepsiyaların ümumi mühakiməsi ondan ibarətdir ki, milli təsərrüfatlar dünyada qeyri-bərabər yer tutur.

<u>Nəzəriyyə</u> (*yunaca* - θεωρία - araşdırma, tədqiqat - *ingiliscə* - theory - *nəzəriyyə*) təlim, prinsip və ideyalar sistemi, elm və ya onun bölməsini təşkil edən ümumiləşdirilmiş müddəaların məcmusudur. Nəzəriyyə - sərhədlərində əvvəlki avtonomluğunu (*muxtariyyət, müstəqillik*) itirərək bütöv sistemin elementlərinə çevrilən ayrı-ayrı anlayışların, fərziyyələrin və qanunların dayandığı sintetik biliklərin informasiya modeli kimi çıxış edir. Nəzəriyyədə bir mülahizə praktiki əsasları və ya məntiqi nəticəli qaydaları olan digər mülahizədən çıxır. O, elmi metodlara uyğun olaraq formalaşır, işlənir və yoxlanılır. Nəzəriyyədən əvvəl təkrar təsdiqini tapmış hipoteza gəlir. Nəzəriyyə və nəzəriyyələr biri-biri ilə uzlaşaraq təlimə çevrilir. Proqnozlaşdırmaq qabiliyyəti nəzəri quruluşun mühüm nəticəsidir.

<u>Konsepsiya</u> (*latınca* - conceptio - *anlaşma, sistem*) islahatların, layihələrin, planların, proqramların həyata keçirilməsində hərəkət strategiyasını təyin edən başlıca

niyyət, təbiətdə və cəmiyyətdə proses və hadisələrə yönəlik baxışlar sistemidir. Konsepsiya bir-biri ilə bağlı və biri-birindən irəli gələn seçilmiş tapşırıqla bağlı kompleks baxışlar və həlli yolları sistemi kimi, həm də ümumi interpretasiyada hər hansı bir hadisənin, rəhbər ideyanın, əsas nəzər nöqtəsinin şərhini, habelə nəzəri quruluşunu müəyyən edən anlaşma üsulu, həmçinin, elmi, bədii, texniki, siyasi və digər növ fəaliyyətlərdə konstruktiv prinsip, aparıcı yanaşma olaraq da çıxış edir. Müxtəlif konsepsiyalara öz terminoloji aparatı uyğundur.

Qlobal iqtisadi sistemin əsas nəzəriyyə və konsepsiyaları olaraq aşağıdakılar çıxış edirlər:

- ❖ İmperializm və neokolonializm nəzəriyyəsi;
- ❖ Modernləşmə nəzəriyyəsi;
- ❖ Neoevolyusionizm (*neotəkamülçü konsepsiya*);
- ❖ Asılılıq nəzəriyyəsi;
- ❖ Dünya-sistemlər nəzəriyyəsi;
- ❖ İndustrial cəmiyyət nəzəriyyəsi;
- ❖ Postindustrial cəmiyyət konsepsiyası;
- ❖ İqtisadi artım mərhələləri nəzəriyyəsi;
- ❖ Qlobal qarşılıqlı asılılıq konsepsiyası;
- ❖ Bərabər partnyorluq konsepsiyası;
- ❖ Konvergensiya nəzəriyyəsi;
- ❖ Vahid sivilizasiya nəzəriyyəsi;
- ❖ Sivilizasiyaların toqquşması nəzəriyyəsi.

Bu və ya digər nəzəriyyə və konsepsiyaların meydana gəlməsi həmişə dünya iqtisadi praktikasının obyektiv şərtləri, tələbatları və maraqları ilə sıx bağlı olmuşdur. Həmin nəzəriyyə və konsepsiyalar dünya iqtisadiyyatının inkişaf mexanizmini səmərəli tənzimləməyə, onun daha praqmatik irəliləyişinə təkan və stimul verir.

## 3.2. "İmperializm" və "Neokolonializm" nəzəriyyəsi

İmperializm və neokolonializm nəzəriyyəsi (*Theory of imperialism and neocolonialism*) dünya strukturunu yeni bazarların, xammal mənbələrinin, kapital qoyuluşları sferasının fəth edilməsində aparıcı dövlətlərin mübarizəsi, onların siyasi və mədəni təsirinin güclənməsi kimi izah edir.

İmperializm dedikdə, inkişafın elə mərhələsi başa düşülür ki, bu zaman inhisarların və maliyyə kapitalının hökmranlığı formalaşmış və kapital ixracı çox böyük önəm almışdır. Buna müqabil olaraq, dünya beynəlxalq trestlər tərəfindən bölüşdürülməyə başlanmış və iri kapitalist ölkələri bütün dünyada ərazilərin bölüşdürülməsini bitirmişlər. İmperializm, həmçinin, kapitalizmin yüksək fazası kimi inhisarçı kapitalizmin təzahürü kimi ölkə və ya ölkələrin digər ölkələr üzərində siyasi və iqtisadi hökmranlığına yönəlmişdir.

İmperializm güc və ya iqtisadi istismarla xaricdən idarə edilən bir sistem olaraq nəzəri konsepsiyaya malikdir. Bu konsepsiyanın yaradıcıları avstriyalı siyasi xadim Otto Bayer (*1881-1938*), ingilis iqtisadçısı Con Atkinson Hobson (*1858-1940*), avstriyalı alman marksist Pudolf Hilferdinq (*1877-1941*) və rus siyasi xadimi Vladimir Lenin hesab olunurlar.

İmperializmin daha kəskin tənqidinə yönəlmiş marksist nəzəriyyəsi bir çox digər dünya nəzəriyyələrinə təsir göstərmişdir. Müstəmləkə imperiyaları dağıldıqdan sonra isə imperializm nəzəriyyəsinin populyarlığı azalmışdır. Bununla belə, əgər imperializm, sadəcə, müstəmləkə tabeli sistem olmayıb, kapitalın ekspansiyasının təzahürüdürsə, onda iqtisadi kapitalizmin bəzi formaları müstəmləkə imperiyaları dağıldıqdan sonra da mövcud ola bilər.

İmperializm nəzəriyyəsi ilə yanaşı neokolonializm nəzəriyyəsi də aktual olmuşdur. Neokolonializm kolonializm məfhumunun paronimi olaraq iqisadi ekspansiyanı təcəssüm etdirərək inkişaf etmiş dövlətlərin inkişaf etməkdə olan dövlətlərin işinə qarışmasını mənalandırır. Kolonializm isə müstəmləkəçilik kimi istismarçı dövlətlər tərəfindən sosial-iqtisadi cəhətdən zəif inkişaf etmiş dövlətlərin siyasi, iqtisadi və mənəvi əsarətə alınmasını ifadə edir.

"Neokolonializm" termini II Dünya Müharibəsindən sonra Afrika qitəsində müstəmləkələrin çökməsi ilə daha geniş intisar tapmışdır. Bir sıra keçmiş Afrika müstəmləkələrinin millətçi liderləri təsdiq edirdilər ki onların ölkələri keçmiş müstəmləkəçi dövlətlər tərəfindən yenə də kolonializmə məruz qalırlar. 1957-ci ildə müstəqillik qazanmış Qana Respublikasının başçısı Frensis Nvia Kofi Kvame Nkruma (*1909-1972*) belə siyasətin ilk tənqidçilərindən biri olaraq "neokolonializm" terminin geniş dövriyyə gətirilməsində və bu anlayışa klassik təyinatın verilməsində fərqlənmişdir. Bununla bərabər, neokolonializm nəzəriyyəçiləri də təsdiq edirlər ki, postkolonalist dövlətlərin şirkətləri hazırda da müstəmləkəçilik praktikasına oxşarlıqla bir sıra müvafiq ölkələrdə təbii resrusların istismarını həyata keçirirlər.

### 3.3. "Modernləşmə" nəzəriyyəsi və "Neoevolyusionizm" konsepsiyası

Fransız mənşəli istilah olaraq "modernləşmə" (*modernisation*) birbaşa tərcümədə "yeni", "müasir" anlayışlarını təcəssüm etdirir. Semantik baxımdan istilahın məna diapozonu daha geniş və əhatəlidir. Ümumi texniki kontekstdə modernləşmə təkmilləşmə, yeniləşmə, yaxşılaşma, yeni tələb və normalara, texniki şərtlərə və keyfiyyət göstəricilərinə müvafiq olaraq obyektdə uyğunlaşdırma aparma kimi keyfiyyətləri ehtiva edir. Tarixi yanaşma çevrəsində isə modernləşmə ənənəvi cəmiyyətdən modern cəmiyyətə, aqrardan industriala keçidin makroprosesliyini özündə cəmləşdirir.

Qlobal proses olaraq modernləşmə struktur-funksional differensiasiya və müvafiq inteqrasiya formalarının yaranışı ilə xarakterikdir. Texnoloji, fuksional və qlobal kateqoriyalara bölünən modernləşməyə sosioloji makronəzəriyyənin formasiya və sivilizasiya ilə yanaşı həm də üçüncü paradiqması kimi yanaşılır. Modernizasiya paradiqması

XX əsrin ortalarında Avropa müstəmləkəçi imperiyalarının dağılması və çoxsaylı yeni gənc dövlətlərin yaranışı nəticəsində formalaşmışdır.

Modernləşmə prosesinin öyrənilməsi və izahı ilə "Modernləşmə nəzəriyyəsi" məşğul olur. "Modernləşmə nəzəriyyəsi"nə (*Modernization theory*) görə modernləşmə sənayeləşmə, sekulyarizasiya (*dini təsirin azalması*), urbanizasiya, ümumi təhsil sisteminin və siyasi hakimiyyət nümayəndəliyinin yaranması, məkan və sosial mobilliyin güclənməsi kimi proseslər məcmusunda "ənənəvi bağlı cəmiyyət"dən "müasir açıq cəmiyyət"ə keçid məsələlərində ifadəsini tapır.

Maksimilian (*Maks*) Karl Emil Veber (*1864-1920*), Şmuel Noy Eyzenştadt (*1923-2010*) və Qunnar Myurdal (*1898-1987*) baxışları modernləşmə nəzəriyyələrinin metodoloji əsasları kimi görünür.

Modernləşmə nəzəriyyəsinə görə, insan cəmiyyətinin tarixində bütün mövcud olanlar ikiqütblüdür. Bu ondan irəli gəlir ki, "Modernləşmə nəzəriyyəsi"nin əsas kateqoriyalarını "ənənəviçilik" (*"ənənəvi cəmiyyət"*) və "müasirlik" (*"müasir cəmiyyət"*) təşkil edir. Burda proses ənənəviçilikdən müasirliyə doğru gedir.

Cəmiyyətin modernləşməsi qarşılıqlı rabitəli kompleks cəhətləri birləşdirir. Onun sisteminin struktur elementlərini iqtisadi, siyasi, sosial və mədəni modernləşmə təşkil edir. Bizim tədqiqat predmetimizin əsasında isə iqtisadi modernləşmə, onun nəzəri təfərrüatları və praktiki təyinatlarının müqayisəli təhlili dayanır.

Nəzəri müstəvidə iqtisadi modernləşmə əməyin differensasiyasının artımı, istehsalın texniki yeniləşməsinin genişlənməsi, elmin iqtisadi gücə çevrilməsi və idarəetmənin səmərəli inkişafı əsasında təkraristehsal prosesinin intensivləşməsini göstərir. Onun tərkib elementlərini insan gücünün bütün sferalarda cansız enerji mənbələri ilə əvəzlənməsi, ənənəvi mühitdən iqtisadi fəaliyyətin ayrılması, əmək alətlərinin mütərəqqi maşın və mexanizmlərlə əvəz olunması, iqtisadi vəzifələrin və iqtisadi fəaliyyət klasterlərinin istehsal, bölgü və istehlak dairəsində artan ixtisaslaşması və sənayeləşmənin yüksələn innovasiya genişliyi birləşdirir.

Qloballaşmanın dərinləşdiyi, əhatə dairəsinin genişləndiyi müasir mərhələdə modernləşmə iqtisadi forma və təsisatların yaranış amili olaraq çıxış edir. O, milli və transmilli müstəvidə bazar münasibətlərinin təkmilləşməsinə rəvac verir, elmi-texniki inqilabın vüsətlənməsində əks olunur. İqtisadi modernləşmə, həmçinin, iqtisadiyyatın və istehsal texnologiyasının idarəetmə metodlarının təkmilləşməsində əhəmiyyətli rol oynayaraq, bürokratik maneələri təcrid edir, daha mükəmməl menecment sisteminin yaranışına təkan verir.

Modernləşmənin üzvi və qeyri-üzvi adlandırılan iki tipini fərqləndirirlər. İlkin - üzvi modernləşmə daxili mədəni-mental dünyagörüşünə əsaslanaraq bu istiqamətdə yenilikçi olan ölkələrdə başlanmışdır. Onun yaranışını milli mərkəzi dövlətlərin, burjua münasibətlərinin, xüsusən də, kapitalist kooperasiyasının təşəkkülü, ilkin modern millətlərin formalaşması ilə bağlayırlar. Üzvi modernləşmənin yüksəlişi sənaye inqilablarından, irsi ənənəvi imtiyazların sıradan çıxmasından, bərabər vətəndaş

hüquqlarının tətbiqindən, demokratikləşmə, milli suveren dövlətlərin yaranışından qaynaqlanır. İkinci - qeyri-üzvi modernləşmə isə daha çox inkişaf etmiş ölkələrin çağırışlarına və eyni zamanda, öncül yaranışların, innovasiyaların tətbiq təsirlərinə müqabil olaraq baş verir. Onun əsas mexanizmini imitasiya prosesləri təşkil edir.

Digər spektrdə modernləşmənin endogen - məxsusi əsaslardan reallaşan (*Avropa, ABŞ və s.*), ekzogen öz bazasından deyil, digərlərindən əvəzləməklə həyata keçirilən (*imitasiya xüsuslu - əsasən, keçmiş müstəmləkə və yarımmüstəmləkə ölkələri*) və endo-ekzogen - qarışıq hər iki mənbədən (*Rusiya, Türkiyə, Yunanıstan və s.*) formalaşan tipləri də fərqləndirilir.

Modernləşmənin təşviqi tərəfləri ilə yanaşı, onun ziddiyyətli və tənqidi cəhətləri də qeyd edilməlidir. Belə ki, moderenləşmə, üstün olaraq, vesternləşmə (*Qərb dəyərlərinin yayılması*) trayektoriyası ilə istiqamətlərini tapır. Bu yol isə çox zaman xalqların köklü mədəniyyətlərinin dağılması ilə müşayiət olunur. Digər tərəfdən, modernləşmə Avropa mərkəzçiliyinin möhkəmlənməsinin stimullaşdırmasındakı rolu ilə də qınağa çəkilir.

Modernləşmə nəzəriyyəsini çox vaxt ənənəvi və müasir cəmiyyətlərin analizində tarixi yanaşmaya əsaslanan neoevolyusiya konsepsiyası ilə birləşdirirlər.

Neoevolyusionizm (*Neoevolutionism*) sosial-mədəni struktur differensiasiyası, sosial-mədəni funksiyaların ixtisaslaşması və bu struktur və funksiyaların təşkilatlanmanın yeni səviyyələrində inteqrasiyasını ehtiva edir. Evolyusionizmdən fərqli olaraq, neoevolyusionizm xətti ehkamı inkar edir və ənənəviçilikdən müasirliyə çoxsaylı yolların olduğunu təsdiqləyir. Evolyusionizm isə inkişaf və tərəqqi ideyalarının antropoloji şərhi, bütün mövcudiyyətin təkəmüllü inkişaf prosesini təcəssüm etdirir.

Neoevolyusionizmin (*neotəkamülçü konsepsiya*) əsas nümayəndələri amerikalı antropoloqlar Lesli Alvin Uayt (*1900-1975*), Julian Hayns Stuard (*1902-1972*), Britaniya tarixçisi Q.Çaylddır.

Modernləşmə və neoevolyusionizm XX əsrin birinci yarısında hakim mövqedə olmuşdur. Onların məntiqinə müvafiq olaraq, yeni millətlər avtomatik olaraq inkişaf etmiş ölkələrdə aparılan dəyişikliklərdən sonra bu ailəni tamamlayırlar. 1950-ci illərdən başlayaraq, Qərb alimləri tərəfindən təklif edilmiş modernləşmə sxemləri artan skeptisizm doğurmuşdur. Belə ki, bunlar azad olmuş və müstəmləkə ölkələrindəki gerçəkliklərlə kəskin ziddiyyət təşkil edirdilər. Asiya və Afrika ölkələrində antiimperialist mübarizə inkişaf etdikcə, 1960-cı illərdə başqa konsepsiyalar funksional ortodoksallığa meydan oxudu.

### 3.4. "Asılılıq" nəzəriyyəsi və "Dünya-sistemlər" nəzəriyyəsi

Asılılıq nəzəriyyəsi (*Dependency theory*) qlobal sistemin inkişafının XX əsrin 60-70-ci illərdə yaranmış daha təsirli nəzəriyyələrindən biri kimi çıxış edir. Asılılıq nəzəriyyəsi, daha dəqiq, aslılığın metanəzəriyyəsi kimi tanınır. Bu nəzəriyyənin əsasında Argentina iqtisadçı Raul Prebiş (*1901-1986*) dayanır.

Aslılığın metanəzəriyyəsi əsasını kapitalist sisteminin dünya miqyasında eyni zamanda həm inkişafa və həm də beynəlxalq, milli və lokal səviyyədə zəif inkişafa zəmin olması xüsusiyyətliliyi təşkil edir.

Nəzəriyyə üç istiqamətə bölünür:

1. İnkişafetməmə asılılığı;
2. İnkişafetmə asılılığı;
3. Təkraristehsal asılılığı.

Asılılıq nəzəriyyəsi tərəfdarları israr edirlər ki, kapitalist sistemi inkişaf etməkdə olan ölkələrin geriləməsinə fəal kömək edir və nə qədərki bu sistem mövcuddur, həqiqi inkişaf mümkün deyil. Bu nəzəriyyədə göstərirlər ki, metropoliya öz satellitlərinin - müstəmləkələrinin iqtisadi bolluğunu mənimsəyir və ondan öz inkişafı üçün istifadə edir. Satellitlər - müstəmləkələr isə zəif inkişaf edir, belə ki, metropoliya tərəfindən satellit-ölkə daxilində dəstəklənən cəmiyyətin qütbləşməsi və istismar ziddiyyətləri nəticəsində öz bolluğuna əli çatmır. Bu ziddiyyətlərin birliyi metropoliyaların inkişaf prosesini stimullaşdırır və satellitlərin - müstəmləkələrin "subinkişaf" prosesini şərtləndirir.

Asılılıq nəzəriyyəsi, əsasən, inkişaf strategiyalarını xaricdən subsidiya olunan kimi nəzərdən keçirir. Asılılığı aradan qaldırmaq üçün bu və ya digər təsərrüfat sektorunun ödədiyi qiymət uzunmüddətli planda özünü doğrultmur.

Asılılıq nəzəriyyəsi ilə paralel, lakin ondan ayrılıqda dünya-sistemlər nəzəriyyəsi adlanan konsepsiya çıxış edir.

Dünya-sistemlər nəzəriyyəsi (*World-systems theory*) amerikalı sosioloq İmmanuel Moris Vallerstayn (*1930*) tərəfindən irəli sürülmüşdür. Bu nəzəriyyə əmək bölgüsünün dinamik dəyişikliklərinə əsaslanaraq dünyanı üç hissəyə ayırır:

1. Mərkəz - Avropa sivilizasiyası ölkələri dünya təsərrüfatının nüvəsi (*iqtisadi ixtisaslaşmanın liderliyi*);
2. Əyalət - müəyyən istisnalar olmaqa qeyri-Avropa ölkələri (*siyasi və iqtisadi asılılar*);
3. Yarıməyalət - sosialist dövlətləri olan yarıməyalət ölkələr.

Dünya-sistemlər nəzəriyyəsində əsas yer ayrıca inkişaf etmiş ölkələr və sosialist dövlətləri olan yarıməyalət ölkələrə verilir (*İrlandiya, Portuqaliya, Balkan ölkələri və keçmiş SSRİ respublikaları*). Bununla belə, XX əsr bir sıra ölkələrin (*Yaponiya, ÇXR, Koreya Respublikası, Avstraliya, Braziliya*) simasında dünya təsərrüfatında mərkəz və əyalət arasında sərhəd yuyulmasını yaratmışdır.

Dünya-sistemlər nəzəriyyəsində dövlət müstəqilliyi haqqında müddəa vardır. Bu müddəaya görə, mərkəzlə periferiya arasında fərq dünya sisteminin əsas ziddiyyətini müəyyən edir.

Dünya-sistemlər nəzəriyyəsi həmçinin, Yeni Beynəlxalq Əmək Bölgüsü - YBƏB nəzəriyyəsi (*New International Division of Labour - NIDL*) ilə də sıx bağlıdır. Burada son onilliklər ərzində TMŞ-lərın qlobal istehsal strategiyasında dəyişikliklərin nəticələrinə xüsusi diqqət yetirilir. YBƏB tərəfdarları da dünya-sistemi mərkəzə, peri-

feriyaya və poluferiyaya bölürlər ki, bunlarda da əmək bölgüsünə TMŞ-lərin mənfəətinin maksimumlaşdırılması və qabaqcıl sənaye ölkələrinin problemlərinin həlli daxildir. Onlar inkişaf etməkdə olan ölkələrin indiki inkişaf perspektivlərini görmürlər, lakin müxtəlif ölkə qruplarının maraqlarının öyrənilməsinə diqqət yetirirlər.

### 3.5. "İndustrial cəmiyyət" nəzəriyyəsi və "Postindustrial cəmiyyət" konsepsiyası

Texnika və texnologiyaların inkişaf səviyyəsindən asılı olaraq iqtisadi sistemlərin bölgüsünü ABŞ iqtisadçıları Con Kennet Gelbreyt (*1908-2006*), Saymon Smit Kuznets (*1901-1985*), fransalı iqtisadçı və sosioloq Reymon Klod Ferdinand Aron (*1905-1983*) kimi tanınmış iqtisadçılar da həyata keçirmişlər. ABŞ sosioloqları Daniyel Bell (*1919-2011*) və Uolt Uitiman Rostou (*1916-2003*) iqtisadi sistemlərin təsnifatına xüsusi nəzəri dəyərlər gətirərək, onları industrialaqədər, industrial və postindustrial cəmiyyətlər kimi ayırmışlar. Hazırda iqtisadi sistemlərin cəmiyyət aspekti təsnifatında bu yanaşma daha geniş yayılmışdır.

İlkin iqtisadi sistem olaraq industrialaqədər cəmiyyət mərhələsini, həmçinin, ənənəvi və ya aqrar adlandırmaq da olar. Bu sistemdə, əvvələr qeyd olunduğu kimi, təsərrüfat fəaliyyətinin hasilat növləri - əkinçilik, balıqçılıq, faydalı qazıntıların çıxarılması üstünlük təşkil edir və burada əsas istehsalçı insan deyil, təbiətin özü götürülür. Ənənəvi və ya aqrar cəmiyyətdə əhalinin əksər hissəsinin (*təxminən 90%-i*) məşğulluğu kənd təsərrüfatı sferası ilə bağlıdır və buna görə də onun başlıca vəzifəsi, sadəcə, əhalini qidalandırmaq üçün yeyinti məhsullarının istehsalı olmuşdur.

Təsnifatı verilən iqtisadi sistemlərin ikinci mərhələsini təşkil edən industrial cəmiyyətdə zəruri malları istehsal etmək üçün bütün qüvvələr sənaye istehsalına yönəldilmişdir. Bu cəmiyyətin formalaşması, vurğulandığı kimi, iri maşın istehsalı, urbanizasiya (*əhalinin kəndlərdən şəhərlərə axını*), bazar iqtisadiyyatının bərqərar olması, sahibkarların (*burjuaziya*) və muzdlu işçilərin (*proletarlar*) sosial qruplarının meydana gəlməsi ilə sıx əlaqədardır.

<u>"İndustrial cəmiyyət" nəzəriyyəsi</u> (*Theory of industrial society*) tədqiqat obyekti maddi nemətlərin dəyərinə təbii sərvətlərin hasilatı, emalı və həmçinin, sənayenin daha çox töhfə verdiyi ictimai-iqtisadi inkişaf səviyyəsini xarakterizə edən cəmiyyət tipinin çıxış etdiyi nəzəriyyədir. İndustrial cəmiyyət nəzəriyyəsinə görə, texniki tərəqqi və geniş, maşınlı istehsal bütün ölkələrin inkişafının ümumi modeli olaraq sənaye cəmiyyətinin yaranışının əsasını təşkil edir. İndustrial cəmiyyət nəzəriyyəsinin banisi amerikalı iqtisadçı, sosioloq və biznes filosofu Piter Ferdinand Druker (*1909-2005*) hesab olunur. Nəzəriyyəyə görə, industrial cəmiyyətin yaranışı XX əsrdə korporasiyaların yüksəlişi ilə bağlıdır. Qeyd olunmalıdır ki, <u>korporasiya</u> (*latınca* - corpus - *bədən*, corporatio - *birlik*) eyni, vahid iqtisadi maraqlarla bağlı olan bir neçə iri müəssisə və ya digər təsərrüfat subyektlərinin birliyidir. O, səhmdar cəmiyyət formasında da olur və onu digər müvafiq birlik formalarından qərarların kollegial (*direktorlar şurası tərəfindən*) olaraq qəbul edilməsi fərqləndirir. Korporasiya inhisarçı birlik forması olaraq da çıxış edir.

Mövcud nəzəriyyəyə əsasən, XX əsrin sonunda industrial cəmiyyəti postindustrial cəmiyyət əvəzləyir. Bu yeni cəmiyyət tipi də özünəməxsus konsepsiyaya malikdir. "Postindustrial cəmiyyət" konsepsiyası (*Concept of a postindustrial society*) bilik və informasiyaya əsaslanaraq iqtisadiyyatın innovativ sektorunun və xidmət sferasının genişlənməsi, həmçinin, industrial cəmiyyətdən sonrakı inkişaf mərhələsinə keçidlə müşayiət olunan cəmiyyət tipi nəzəriyyəsini özündə ehtiva edir. Postindustrial cəmiyyət konsepsiyasının banisi amerikalı sosioloq və publisist D.Bell hesab edilir. Onun 1973-cü ildə nəşr edilmiş "Gələcək postindustrial cəmiyyət" kitabında postindustrial cəmiyyət konsepsiyasının geniş şərhi verilmiş ictimai istehsalın sektorları arasında münasibətlərin dəyişməsində əsas meyillər, xidmətlər iqtisadiyyatının yaranması, məhsuldar qüvvələrin sərbəst elementi kimi elmi biliyin formalaşması ətraflı təhlil olunmuşdur. Lakin "postindustrial cəmiyyət" termininin özü iyirminci yüzilliyin ortalarında Amerika kapitalizminin 1929-1933-cü illərdə Böyük Böhrana qədər mövcud olmuş industrial kapitalizmdən çox fərqləndiyi aydınlaşdıqda meydana gəlmişdir.

Postindustrial cəmiyyətinin dəyərli keyfiyyətləri işçinin təhsilinin səviyyəsi, peşəkarlığı, tədrisi mənimsəməsi qabiliyyəti və kreativliyi ilə ölçülür. Müasir zamanda xidmət sahəsinin payı ÜDM-in yarıdan çoxunu təşkil edən postindustrial ölkələr hesab olunurlar. Bu meyar altına ABŞ (*80%*), Aİ ölkələri (*70%-dən çox*), Yaponiya (*75%*), Kanada (*70%*) düşür.

Postindustrial cəmiyyətdə istehsal prioriteti ETT və əhalinin gəlir artımı nəticəsində xidmət sferasına keçid etmişdir.

Postindustrial cəmiyyətdə:

- ❖ informasiya və bilik resursa çevrilir;
- ❖ elmi işləmələr iqtisadiyyatın hərəkətverici qüvvəsi olur;
- ❖ daha çox işçinin təhsilinin keyfiyyət səviyyəsi, peşəkarlığı və kreativliyi qiymətləndirilir.

Postindustrial cəmiyyətdə milli informasiya resursları sərvətin çox böyük potensialı hesab olunur.

Burada postindustrial iqtisadiyyat (*postindustrial economy*) sənaye məşğulluq göstəricilərinə və milli məhsulda payına görə xidmət sferasından geridə qalır. Xidmət sferasında isə informasiya emalı üstünlük təşkil edir.

D.Belllə yanaşı postindustrial cəmiyyət konsepsiyasının nəzəri əsaslarının yaranışına tanınmış ABŞ futuroloqu, iqtisadçı və sosioloqu Elvin Toffler (*1928-2016*), ABŞ sosioloqu, məşhür siyasətçisi və görkəmli dövlət xadimi Zbiqnev Bzejinski (*1928-2017*) və digərləri böyük töhfələr vermişlər.

E.Toffler XX əsrin 80-ci illərində nəşr etdirdiyi "Üçüncü dalğa" kitabında insan cəmiyyətinin inkişaf tarixini üç dalğanın ardıcıl meydana gəlməsi və qarşılıqlı əlaqəsi kontekstində nəzərdən keçirir.

Birinci dalğa (*kənd təsərrüfatı sivilizasiyası*) - 10 min il əvvəl meydana gəlmiş və hazırda öz enerjisini itirən;

İkinci dalğa (*industrial sivilizasiya*) - 300 illik aktiv dövrünü başa vuran;

Üçüncü dalğa (*informasiya cəmiyyəti*) - XX əsrin 50-ci illərində meydana gəlmiş və hələ indi güclənməyə başlayan.

E.Toffler yeni sivilizasiyanın - üçüncü dalğanın təşəkkülünü və yaranmasını iqtisadiyyatın informasiya sektorunun kənd təsərrüfatı, sənaye və xidmətlər sahəsi kimi ənənəvi sektorlardan üstünlüyü ilə əlaqələndirir. Yeni cəmiyyətdə informasiya daha yüksək dəyərə malikdir və işləyən insanların yarıdan çoxu informasiya xidməti göstərməklə məşğuldur. Onun başlıca xüsusiyyətləri industrial cəmiyyət üçün ənənəvi olan eynitipli malların kütləvi mədəniyyəti, kütləvi istehsalı, cəmiyyətin və mədəniyyətin iyerarxik təşkilindən imtina, informasiya mübadiləsinin artırılması, istehsalla istehlakın yaxınlaşmasıdır. Beləliklə, E.Toffler belə nəticəyə gəlir ki, informasiya cəmiyyəti, inkişafında bilik amili və bilik sahəsi həlledici rol oynayan cəmiyyətdir.

Tanınmış siyasətçi Z.Bzejinskinin 1970-ci ildə nəşr etdirdiyi "İki əsr arasında. Texnotron eraya girişdə Amerikanın rolu" adlı kitabında bəşəriyyətin sosial inqilablarla deyil, ETT ilə yeni inkişaf mərhələsinə qədəm qoyması konstatasiya olunur. Z.Bzejinskinin texnotron nəzəriyyəsinə görə, bu keyfiyyət şıçrayışı təkamüllə alt hədd aqrardan sənaye vasitəsi ilə "texnotron era"ya daxil olur. Həlledici rol burada avtomatlara, kompüter və kibernetik sistemlərə məxsusdur. Başlıca funksiyanı isə elm yerinə yetirir. Bununla belə, Z.Bzejinski qeyd edir ki, dünyada inkişaf etmiş və etməmiş ölkələr arasında başlıca ziddiyyətlər qalacaqdır. Ona görə də antoqonizm və konfliktlərdən uzaq olan daimi vahid dünya birliyi yaratmaq üçün inkişaf etməmiş ölkələr arasında "texnotron era"ya yaxın olanlara güclü dəstək verilməlidir.

Bu gün postindustrial cəmiyyət paradiqması hərtərəfli olaraq informasiya cəmiyyəti kimi xarakterizə olunur. Belə təyinat yuxarıdakılara istinadən həm də onunla əsaslandırılır ki, bəşər cəmiyyətinin indiki inkişaf mərhələsində informasiya sosial tərəqqinin başlıca amilinə çevrilir və o, cəmiyyətin mövcudluğunu və inkişaf xarakterini bütün parametrlərdə təyin edir.

İnformasiya mübadiləsi və reallaşması informasiyanın özündən belə üstünlük qazanır. Bu reallıq isə bir daha onu göstərir ki, texnoloji determinizm konkretləşir və yerini informasiya determinizminə verir. Eyni zamanda, qeyd olunur ki, postindustrial nəzəriyyəyə yaxın konsepsiyalar olan "informasiya cəmiyyəti", "postiqtisadi cəmiyyət", "postmodernizm", "dördüncü formasiya cəmiyyəti", "istehsal prinsipinin elmi-informasiya mərhələsi" və digərlərində də informasiya determinizmi prioritet statusda çıxış edir.

## 3.6. "İqtisadi artım mərhələləri" nəzəriyyəsi, "Qlobal qarşılıqlı asılılıq" və "Bərabər partnyorluq" konsepsiyaları

"İqtisadi artım mərhələləri" nəzəriyyəsi və ya "Rostounun iqtisadi artım mərhələləri" (*Rostow's Stages of Economic Growth*) ABŞ sosioloqu Uolt Uitiman Rostounun ölkələrin mərhələli inkişafı ilə bağlı tədqiqatlarına əsaslanır.

Nəzəriyyədə iqtisadi inkişaf səviyyəsinə görə cəmiyyət bir neçə kateqoriyaya bölünür:

❖ ənənəvi cəmiyyət;
❖ keçid cəmiyyəti;
❖ inkişaf və irəliləyiş cəmiyyəti;
❖ bitkin və ya industrial cəmiyyət;
❖ yüksək kütləvi istehlak səviyyəli cəmiyyət.

"İqtisadi artım mərhələləri" nəzəriyyəsində yüksəliş mərhələsi dayanıqlı artıma mane olan köhnə ənənəvi dayaqların qəti aradan qaldırılması ilə xarakterizə edilir. Burada iqtisadi tərəqqi qüvvələri cəmiyyətdə hakim mövqeləri tutur. Əmanət və yığımların səviyyəsi milli gəlirin 5%-dən 10%-nə kimi qalxa bilir. Yeni sahələr sürətlə inkişaf edir. Kənd təsərrüfatında bazar münasibətləri təkmilləşir.

Yüksəlişdən sonra uzun müddət dayanıqlı artım dövrü və tsiklik tərəqqi - yetkinliyə keçid başlanır. O, təxminən 40 il davam edir. Bu zaman yüksəliş dövründə bir neçə sahəyə söykənən sənaye kompleksə çevrilir.

Yetkinlik iqtisadiyyatın ənənəvi sahələrdən yeni sahələrə keçmək, vəsait və resursların geniş spektrindən səmərəli istifadə etmək qabiliyyətli mərhələsi ilə müəyyən olunur. Yetkin cəmiyyət məhsul buraxılışının əhalinin artımından daim artıq olmasını təmin edir. Sonuncu mərhələ onunla xarakterikdir ki, burada əsas rolu uzunmüddətli istifadə predmetləri və xidmətləri oynamağa başlayır.

İndustrial cəmiyyətdə "İqtisadi artım mərhələləri" nəzəriyyəsi sosial tərəqqini natural təsərrüfatın və silki iyerarxiyanın hakim olduğu geridə qalmış aqrar ənənəvi cəmiyyətdən kütləvi bazar təsərrüfatlı inkişaf etmiş sənaye cəmiyyətinə keçidə gətirir. Tərəqqinin başlıca meyarı istehsalın əldə edilmiş səviyyəsidir.

"Qlobal qarşılıqlı asılılıq" termini XX əsrin 70-ci illərində amerikalı politoloq Stenli Hofman (*1928*) tərəfindən dövriyyəyə buraxılmış, onun nəzəri konsepsiyası isə Harvard Universitetinin professoru Piçard Kuper (*1938*) tərəfindən açılmışdır.

"Qlobal qarşılıqlı asılılıq" konsepsiyasına (*Concept of "global interconnection"*) görə, dünya iqtisadiyyatı beynəlmiləlləşən istehsala, elmi-texniki tərəqqiyə və struktur yenidənqurmasına differensial təsirə əsaslanan milli təsərrüfatlarla sıx qarşılıqlı əlaqədədir.

Qarşılıqlı asılılıq probleminə müxtəlif kəsişmələr səviyyəsində baxılır:

❖ qlobal;
❖ mərkəzlər və əyalətlərarası;
❖ sistemaltı daxili.

Qarşılıqlı asılılıq və tərəfdaşlıq problemi müxtəlif kəsişmə səviyyələrində - qlobal, mərkəzlər və periferiya arasında, sistemaltı nəzərdən keçirilir. Qarşılıqlı asılılığın artması ödəmə balansını daha tez-tez və güclü kənar təsirlərə məruz qoyur ki, nəticədə hökumətlər xarici tarazlığın qorunub saxlanması probleminə daha çox diqqət ayırmalı, dövlətlərin sərəncamında olan alətlər məcmusundan istifadəni koordinasiya etməlidirlər.

1970-ci illərin əvvəllərində "bərabər partnyorluq" konsepsiyası bərqərar olmuşdur. Bu konsepsiya Kandanın dövlət xadimi Lester Bouls Pirsonun (*1897-1972*) Qərb ölkələrinin inkişaf etməkdə olan ölkələrlə münasibətlərinin strategiyasının qiymətləndirilməsi üçün BYİB-nın himayəsi ilə hazırladığı məruzəsində az və ya çox dərəcədə tam ifadəsini tapmışdır.

"Bərabər partnyorluq" konsepsiyası (*"Equal Partnership" concept*) inkişaf etməkdə olan ölkələrin təsərrüfatlarının qarşılıqlı dəyişməsi və inteqrasiyası əsasında iqtisadiyyatların inkişafının sürətləndirilməsi və modernləşdirilməsi ilə onların xammal və ərzaq təchizatçısı rolundan bilavasitə geniş istehsal iştirakçısına çevrilməsini, bununla da "dünya cəmiyyətində" bərabər partnyorluğa keçidi ehtiva edir.

"Bərabər partnyorluq" konsepsiyası bərabər partnyorluq sisteminin yaranışının əsasında Qərb ölkələri ilə inkişaf etməkdə olan ölkələr arasındakı səviyyə fərqliliyinin aradan qaldırılmasının təbliğinə köklənmişdir.

Bu konsepsiya çox vaxt iqtisadi artım problemləri ilə əlaqələndirilir, bu zaman göstərilir ki, iqtisadiyyatın tarazlaşdırılmamış və rabitəsiz artımı dünyanın inkişafında kəskin problemlərə səbəb olur. Əsas çıxış yolu - dünya təsərrüfatının əlaqəli inkişafında, altsistemlərin və müxtəlif sosial-iqtisadi inkişaf səviyyəli ölkələrin qarşılıqlı asılılığı problemlərinin həllindədir.

Əlaqəli artımın təfsiri inkişafın əvvəlki konsepsiyasını - ənənəvi istehsaldan müasir istehsala keçid və sistemli qarşılıqlı təsir kimi industrial cəmiyyətin keyfiyyətcə başqa inkişafı hüdudlarında artımla əvəz etdi. Bu istiqamət Qərb ölkələrinin uzunmüddətli struktur yenidənqurmasının zəruriliyini, yüksək inkişaf etmiş ölkələrlə zəif ölkələr arasında fərqin azalmasını göstərir.

### 3.7. "Üç dünya" modeli və "Konvergensiya" nəzəriyyəsi

Beynəlxalq münasibətlərin müxtəlif siyasi-iqtisadi dünyadan ibarət olduğunu mülahizə edən bir sıra nəzəriyyələr mövcuddur. Bu sırada ÇXR-in yaradıcısı və ilk rəhbəri olmuş Mao Tszedun (*1893-1967*) və tanınmış fransalı demoqraf və iqtisadçı Alfred Sovi (*1898-1990*) tərəfindən işlənmiş nəzəriyyələri daha çox fərləndirirlər.

"Üç dünya" nəzəriyyəsi (*ingiliscə* - Three Worlds Theory, *çin dilində* -三個世界的理論) Çinin kommunist lideri Mao Tszedunun adı ilə bağlı, beynəlxalq münasibətlərin üç siyasi-iqtisadi dünyadan ibarət olduğunu təsdiqləyən nəzəriyyədir. Burada Birinci Dünya (*First World*) olaraq fövqəl dövlətlər - ABŞ (*imperializm*) və SSRİ (*sosial imperializm*), İkinci Dünya kimi (*Second World*) aralıq güclər (*Yaponiya, Avropa, Avstraliya və Kanada*) və Üçüncü Dünya (*Third World*) olaraq məzlum (*istismarda olan*) xalqlar - Yaponiya istisna olmaqla Asiya tam, bütün Afrika və Latın Amerikası götürülür. Nəzəriyyənin təməlində kommunist liderlər - keçmiş SSRİ dövlətinin başçıları olmuş Vladimir Leninin və İosif Stalinin imperializm və müstəmləkəçiliklə bağlı təlimləri dayanır. O zamankı ÇXR baş nazirinin müavini Den Syaopin (*1904-1997*) 1974-cü ildə BMT Baş Asambleyasının xammal materialları və inkişaf

problemlərinə həsr olunmuş xüsusi sesiyasındakı çıxışında Çinin kommunist olmayan ölkələrlə əməkdaşlığını əsaslandıraraq "Üç dünya" nəzəriyyəsini izah etmişdir. Mao Tszedun tərəfindən işlənmiş "Üç dünya" nəzəriyyəsini məşhur ictimai xadim fransalı demoqraf, aptropoloq, tarixçi və iqtisadçı Alfred Sovinin 1952-ci ildə təklif etdiyi analoji adlı "Üç dünya" modeli, üçölçülü model (*Three World Model*) ilə qarışdırmamalı... Belə ki, Qərb nəzəriyyəsindən fərli olaraq, Alfred Sovinin üçölçülü modeli Birinci Dünya kimi ABŞ və onun müttəfiqlərini, İkinci Dünya kimi SSRİ və onun müttəfiqlərini, Üçüncü Dünya kimi isə neytral və qoşulmayan ölkələri ehtiva edir. 1944-1985-ci illərdə sosialist Albaniyasının lideri olmuş Ənvər Xoca (*1908-1985*) hər iki nəzəriyyəyə və Sovet İttifaqı Kommunist Partiyasının mövqelərinə əks olan iki - kapitalist və kommunist dünyanın mövcudluğunu təsdiqləyən ideoloji alternativ formalaşdırmışdır. Mao nəzəriyyəsində o, Çinin fövqəldövlət olmağa səy etdiyini görmüş, belə yanaşma isə öz növbəsində çin-alban kommunist partiyaları arasında parçalanmaya gətirib çıxarmışdır. Sonradan "Üç dünya" modelinin davamı olan müxtəlif nəzəriyyələr də meydana gəlmişdir. Bunlar arasında "Dördüncü dünya" modeli daha çox populyarlıq qazanmışdır. "Dördüncü dünya" (*Forth World*) "Üç dünya" modelinin davamı olaraq, altəhali, qlobal cəmiyyətdən sosial qovulamlar, kənarlaşdırılanlar, köçəri, ovçu-yığıcı, çobanlıqla məşğul olan və bəzi təbii fermer xalqlar, müasir sənaye normaları hüdudlarından kənarda yaşayanlar, birinci dünya ölkələrində mövcud olan həyat səviyyəsinə görə üçüncü dünyaya aid əhali və ya inkişaf etməkdə olan ölkələrlə bağlı təyinatlarda istifadə olunan anlayışdır. Əvvəlki üç dünya kateqoriyasından fərqli olaraq milli dövlət statusu ilə təsnifatlandırılmır və məkanla məhdudlaşmır. "Dördüncü dünya" ən az inkişaf etmiş ölkələr kimi də səciyyələndirilir. Ən az inkişaf etmiş ölkələr (*Least Developed Countries*) ücüncü dünyadan ayrılaraq inkişaf etməkdə olmayan (*çox zaman vətəndaş müharibələri ilə əlaqədar*) bir sıra yoxsul ölkələrdir. Onlara aşağı həyat səviyyəsi, zəif iqtisadiyyat, insanlar və resursların təbii təsirlərə məruz qalması xasdır. Kateqoriya Afrika qitəsindəki əksər ölkələrə şamil olunur. İstilahdan BMT çərçivəsində rəsmi istifadə edilir. "Ən az inkişaf etmiş ölkələr qrupu" kateqoriyasına daxilolma onlara müəyyən imtiyazlar verir. Belə ki, həmin ölkələr inkişaf üçün güzəştli maliyyə yardımları alır, bazarlara preferensial (*xüsusi imtiyaz*) giriş əldə edir, BMT-nin müvafiq texniki yardım proqramlarından (*UNCTAD çərçivəsində belə ölkələr üçün xüsusi proqramlar fəaliyyət göstərir*) yararlanırlar.

"Konvergensiya" latın mənşəli (*converges*) istilah olaraq birbaşa tərcümədə "meyil edən", "yaxınlaşan" mənalarını verir. İqtisadiyyat sferasında konvergensiya müxtəlif iqtisadi sistemlərin yaxınlaşmasını, onlar arasında sərhədlərin yuyularaq sıradan çıxmasını və nəticədə vahid müstəvidə birləşməsini ifadələndirir. İstilah özü 1950-1960-cı illərdə biologiyadan iqtibas edilmişdir. Bu "əməliyyat" təsadüfi baş verməmişdir. Belə ki, 1958-ci ildə Qərb elmində sənayecə inkişaf etmiş kapitalist və sosialist ölkələrinin müştərək iqtisadi sistem zəminində birləşməsini əsaslandıran "vahid industrial cəmiyyət" adlı doktrina formalaşmışdı. 1960-cı ildə isə dünya tarixinin mərhələləri və əsas səviyyələrinin sosial-fəlsəfi izahına yönəlmiş "artım mərhələləri"

adlı digər bir nəzəriyyə meydana çıxmışdı. Bu konsepsiyalar daha bir ümumi olan yeni nəzəriyyənin formalaşmasına gətirmişdir. Belə ki, bir çox dünya alimləri o zaman kapitalizm və sosializmin qarşılıqlı təsir və qarşılıqlı əlaqəlilik prosesləri perspektivində yeni baxışları birləşdirən yaxınlaşma - konvergensiya adlanan müqabil nəzəriyyə yaratmışlar. Bu nəzəriyyənin yaradıcıları görkəmli institusionalizm nümayəndələri ABŞ alimi C.Gelbreyt, fransalı R.Aron, ingilis dövlət xadimi Con Streyçi (*1901-1963*), hollandiyalı Yan Tinbergen (*1903-1994*) və başqaları hesab olunurlar.

Mahiyyətcə, Konvergensiya nəzəriyyəsi (*Convergence theory*) SSRİ və ABŞ-ın bir-birinə qarşı hərəkəti ilə ümumiləşmiş iqtisadi modelin əldə edilməsinə yönələn nəzəriyyəni ehtiva edir. Belə ki, Sovet İttifaqı kapitalizmdən mənfəətçilik konsepsiyasını, kapitalist ölkələri, o cümlədən ABŞ isə SSRİ-dən dövlət planlaşdırılması təcrübəsini götürür. Nəticədə, təkamüllə iki müxtəlif siyasi sistemin yaxınlaşması əsasında strateji biçimli daha uğurlu iqtisadi model əldə olunur. Ona görə də konvergensiya fəlsəfəsi nə kapitalist və nə də sosialist olan "vahid industrial cəmiyyət" quruculuğu hipotezinə əsaslanır. Bir cəhəti də xüsusi ilə qeyd etmək lazımdır ki, konvergensiya nəzəriyyəsinın başlıca motivlərindən biri də, dünyanın parçalanmaması və istilik-nüvə konflikti təhlükəsinin qarşısının alınması olmuşdur.

Belə bir həqiqət mövcuddur ki, inkişaf etmiş ölkələrdə kapitalizmin postindustrial cəmiyyətə təkamüllü transformasiyası və müasir qarışıq iqtisadiyyat quruculuğu pozitiv təyinatda inkişaf tapmışdır. Postsovet düşərgəsində isə proseslər sistem qeyri-mükəmməlliyindən iqtisadi böhranlarla müşayiət olunaraq çoxlu neqativləri önə çıxarmışdır. Bununla da, 1980-ci illərdə konvergensiya nəzəriyyəsi əzəli aktuallığını itirmiş və iqtisadi fikir tarixinin predmetinə çevrilmişdir. Lakin digər bir gerçəklik də vardır: bu tarixi ərəfədə Çin iqtisadi modelinin atası Den Syaopin planlı iqtisadiyyat ilə bazar iqtisadiyyatını birləşdirən geniş miqyaslı iqtisadi islahatların təşəbbüskarı kimi çıxış etmiş və əməli fəaliyyəti ilə ölkəsini dünya bazarının bir hissəsinə çevirmişdir. Diqqətlə yanaşıldıqda aydın görünür ki, möcüzəyə çevrilən Çin iqtisadi modelinin uğur strategiyası konvergensiya nəzəriyyəsindən yetərincə qaynaqlanmışdır. Sovet İttifaqı isə bu fenomendən yararlana bilmədiyi üçün çökmüşdür.

Artıq qloballaşan dünyamızda iqtisadi konvergensiyaları şərtləndirən, qarışıq iqtisadiyyat sistemini mükəmməlləşdirən, regional birliklərdə adaptasiya olunan yeni meyillər güclənməkdədir. Təsadüfi deyil ki, hazırda "konvergensiya" istilahı inteqrrasiya poroseslərinin şərhi kimi dövriyyə olunur.

### 3.8. "Vahid sivilizasiya" və "Sivilizasiyaların toqquşması" nəzəriyyələri

"Vahid sivilizasiya" nəzəriyyəsi (*Theory of "Single civilization"*) yapon əsilli amerikalı filosof, siyasi iqtisadçı və Frensis Fukuyamanın (*1952*) "Tarixin sonu və sonuncu bəşər" kitabından (*1992*) çıxış edən nəzəriyyə kimi dövriyyəyə çıxmışdır.

“Vahid sivilizasiya” nəzəriyyəsinin əsasında dünya ölkələrinin vahid quruluşa - liberal demokratiyaya doğru tədricən irəliləməsi ideyası durur.

F.Fukuyama bəyan etmişdir ki, liberializmin heç bir həyatqabiliyyətli alternativi qalmamışdır, Qərb cəmiyyətinin liberial ideologiyası ideyalar döyüşündə bütün rəqiblərinə qalib gəlmişdir və bu tarixdə sonuncu ideologiyadır. Liberal demokratiyaların yayılması bütün dünyada bəşəriyyətin sosial mədəni təkamülünün son nöqtəsi kimi dəyərləndirilə və insan idarəetməsinin son forması ola bilər. Bütün ölkələr liberal demokratiyaya quruculuğuna nail olduqda, tarixin sonu yetişəcək.

“Vahid sivilizasiya” nəzəriyyəsi iqtisadiyyatın beynəlmiləlləşməsi qüvvələrinə, onun qloballaşmasına çevrilən və hər şeydən əvvəl, onun transmilliləşmə və inteqrasiyası vasitəsilə təzahür edən qüvvələrinə diqqət yetirir. Modernləşmə vesternizasiya - qərbləşmə (*yəni, başqa ölkələrin qərb mədəniyyətini təqlid etməsi*) ilə eynidir. Nəzəriyyənin siyasi və iqtisadi həyatda ölkələr arasında sosial-mədəni fərqlər doğuran dinin və millətçiliyin mühümlülüyünü etiraf etməsinə baxmayaraq, nəzərdə tutur ki, liberalizm möhkəmləndikcə bunlar ona mane olmayacaqdır.

F.Fukuyamanın “Tarixin sonu və sonuncu bəşər” əsəri dünyanın 20-dən artıq dilinə tərcümə edilmiş və elm aləmində, həmçinin, kütləvi informasiya vasitələrində geniş rezonans doğurmuşdur. Kitabın işıq üzü görməsi ilə baş verən çoxlu sayda hadisələrin onun irəli sürdüyü ideyanı şübhə altına qoymasına baxmayaraq, F.Fukuyama əvvəlki kimi “tarixin sonu” konsepsiyasının tərəfdarı idi. Bununla belə, bu hadisələr çevrəsində onun siyasi baxışları xeyli dəyişmişdi. Belə ki, karyerasının başlanğıcında möhkəm əmin olduğu Amerika siyasətində neokonservativ hərəkat haqqında baxışları yeni minilliyin başlanğıcında kəskin fərqlənirdi.

“<u>Sivilizasiyaların toqquşması” nəzəriyyəsi</u> (*Clash of Civilizations theory*) amerikalı sosioloq və politoloq Samuel Fillips Hantiqtonun (*1927-2008*) 1993-cü ildə nəşr etdirdiyi “Sivilizasiyaların toqquşması və dünya düzümünün yenidən qurulması” əsərində irəli sürdüyü hipotezə əsaslanır. Bu hipotezə görə, konfiliktlər mənbəyi ideologiya və iqtisadiyyatlarla deyil, başlıca olaraq mədəniyyətlərlə həllinə qovuşacaqdır.

S.Hantiqtonun təsnifatına görə sivilizasiyalar aşağıdakılardır:

- qərb;
- islam;
- iudey;
- çin;
- yapon;
- latınamerikan;
- bütpərəst;
- pravoslav;
- afrikan.

S.Hantiqton göstərir ki, getdikcə Qərbin rolu azalır, Asiya sivilizasiyalarının əhəmiyyəti isə artır. Sonda gələcək dünya - vahid sivilizasiya deyil, müxtəlif sivilizasiyaların məcmusu olacaqdır. Buradan belə bir nəticə hasil olunur ki, çoxqütblü

dünya nəinki siyasi və həm də iqtisadi cəhətdən güclənəcəkdir. Bundan başqa, bu nəzəriyyədə hər bir sivilizasiya daxilində (*ispan sivilizasiyasından başqa*) sivilizasiyalara başçılıq edəcək və ya artıq başçılıq edən əsas ölkələr seçilir. Ölkələr arasında və inteqrasiya birlikləri daxilində iqtisadi əlaqələrin möhkəmliyi və dayanıqlılığı onların eyni və ya müxtəlif sivilizasiyalara mənsub olub-olmamalarından asılıdır. Əgər onlar müxtəlif sivilizasiyalara mənsubdursa, bu, həmin sivilizasiyaların nə dərəcədə uyuşmasından asılı olacaq. Aİ daxilində uğurlu inteqrasiya, demək olar ki, bütün üzvlərin bir sivilizasiyaya mənsubluğuna əsaslanır.

Sivilizasiyalarla bağlı nəzəriyyələr imperiyaların çökməsi fonunda beynəlxalq münasibətlər üzrə ixtisaslaşmış ingilis tarixçisi Pauel Maykl Kennedinin (*1945*) tədqiqatlarında da yer alır. Onun 1987 ildə çapdan çıxmış “Qüdrətli dövlətlərin yüksəlməsi və çökməsi” kitabında imperiyaların çökməsi nəzəriyyəsi nəzərdən keçirilmişdir. Bu nəzəriyyəyə görə, keçmişdə və indi qüdrətli dövlətlərin çökməsi sivilizasiyaların üstün maraqlarının (*məsələn, əhalinin yaşayış keyfiyyətinin inkişafı üçün nəzərdə tutulan xərclərin zərərinə silahlanma*) saxlanması və müdafiəsinə yönələn xərclər üzrə aparılan yanlış iqtisadi siyasətlə bağlıdır. Belə siyasət imperiyaları tənəzzülə aparır.

P.Kennedi israr edir ki, 1500-ci ildən başlayaraq iri ölkələrin iqtisadi və hərbi gücü onların yüksəliş və çökmələrini kəskin korrelyasiya etmişdir. O, göstərir ki, strateji öhdəliyin genişlənməsi hərbi xərclərin artmasına gətirir ki, bu da son nəticədə ölkənin iqtisadi bazasını uzun müddətə zəiflədir.

“Sivilizasiyaların toqquşması” nəzəriyyəsi yenə də aktual olaraq qalır. Bu aktuallığı sivilizasiyaların üstün maraqlarının təmin edilməsi ilə bağlı aparılan dövlət siyasətləri irəlilədir.

***Əsas anlayışlar:***

**1**. **Nəzəriyyə** - təlim, prinsip və ideyalar sistemi, elm və ya onun bölməsini təşkil edən ümumiləşdirilmiş müddəaların məcmusudur.

**2. Konsepsiya** - bir-biri ilə bağlı və biri-birindən irəli gələn seçilmiş tapşırıqla bağlı kompleks baxışlar və həlli yolları sistemi, hər hansı bir hadisənin, rəhbər ideyanın, əsas nəzər nöqtəsinin şərhi, onun nəzəri quruluşunu müəyyən edən anlaşma üsulu və həmçinin, elmi, bədii, texniki, siyasi və digər növ fəaliyyətlərdə konstruktiv prinsip və aparıcı niyyətdir.

**3. Qlobal iqtisadi sistemin əsas nəzəriyyə və konsepsiyaları** - “İmperializm və neokolonializm” nəzəriyyəsi, “Modernləşmə nəzəriyyəsi”, “Neoevolyusiyonizm, “Asılılıq nəzəriyyəsi”, “İndustrial cəmiyyət nəzəriyyəsi”, “Dünya-sistemlər nəzəriyyəsi”, “İqtisadi artım mərhələləri nəzəriyyəsi”, “Qarşılıqlı asılılıq konsepsiyası”, “Bərabər partnyorluq konsepsiyası”, “Postindustrial cəmiyyət konsepsiyası”, “Konvergensiya nəzəriyyəsi”, “Vahid sivilizasiya nəzəriyyəsi”, “Sivilizasiyaların toqquşması nəzəriyyəsi”.

**4. İmperializm və neokolonializm nəzəriyyəsi** - dünyanın strukturunu yeni bazarların, xammal mənbələrinin, kapital qoyuluşları sferasının fəth edilməsi uğrunda aparıcı dövlətlərin mübarizəsi, onların siyasi və mədəni təsirinin güclənməsi kimi izah edən nəzəriyyədir.

**5. Modernləşmə nəzəriyyəsi -** sənayeləşmə, sekulyarizasiya (*dini təsirin azalması*), urbanizasiya, ümumi təhsil sisteminin və siyasi hakimiyyət nümayəndəliyinin yaranması, məkan və sosial mobilliyin güclənməsi kimi proseslər məcmusunda "ənənəvi bağlı cəmiyyət"dən "müasir açıq cəmiyyət"ə keçid məsələlərində ifadəsini tapan nəzəriyyədir.

**6. Neoevolyusiyonizm -** sosial-mədəni struktur differensiasiyası, sosial-mədəni funksiyaların ixtisaslaşması və bu struktur və funksiyaların təşkilatlanmanın yeni səviyyələrində inteqrasiyasını ehtiva edən konsepsiyadır.

**7. Asılılıq nəzəriyyəsi (*Aslılığın metanəzəriyyəsi*)** - əsasında kapitalist sisteminin dünya miqyasında eyni zamanda həm inkişafa və həm də beynəlxalq, milli və lokal səviyyədə zəif inkişafa zəmin olması xüsusiyyətliliyi dayanan qlobal sistemin inkişafı nəzəriyyəsidir.

**8. "Dünya-sistemlər" nəzəriyyəsi -** əmək bölgüsünün dinamik dəyişikliklərinə əsaslanaraq dünyanın mərkəzi (*dünyanın nüvəsi*), əyalət ölkələr və yarıməyalət ölkələr kimi üç hissəyə ayırılması üzərində qurulan nəzəriyyədir.

**9. "İndustrial cəmiyyət" nəzəriyyəsi -** ənənəvi ictimai quruluşu əvəz etmiş, əl əməyini sıxışdıran maşın-mexanizmlərin yaranışı, genişlənən və çoxçeşidli emal prosesi, texnoloji inqilablar və kapital dünyasının hakim kəsildiyi cəmiyyət tipi ilə bağlı nəzəriyyədir.

**10. Korporasiya** - eyni, vahid iqtisadi maraqlarla bağlı olan bir neçə iri müəssisə və ya digər təsərrüfat subyektlərinin birliyidir.

**11. "Postindustrial cəmiyyət" konsepsiyası -** bilik və informasiyaya əsaslanaraq iqtisadiyyatın innovativ sektorunun və xidmət sferasının genişlənməsi və industrial cəmiyyətdən sonrakı inkişaf mərhələsinə keçidlə müşayiət olunan cəmiyyət tipi konsepsiyasıdır.

**12. "İqtisadi artım mərhələləri" nəzəriyyəsi -** cəmiyyəti iqtisadi inkişaf səviyyəsinə görə ənənəvi, keçid, qalxınma və irəliləyiş, bitkin və ya industrial və yüksək kütləvi istehlak səviyyəli kateqoriyalara bölməklə öyrənən nəzəriyyədir.

**13. "Qlobal qarşılıqlı asılılıq" konsepsiyası -** dünya iqtisadiyyatını beynəlmiləlləşən istehsala, elmi-texniki tərəqqiyə və struktur yenidənqurmasına differensial təsirə əsaslanan milli təsərrüfatlarla sıx qarşılıqlı əlaqədə ehtiva edən konsepsiya.

**14. "Bərabər partnyorluq" konsepsiyası** - inkişaf etməkdə olan ölkələrin təsərrüfatlarının qarşılıqlı dəyişməsi və inteqrasiyası əsasında iqtisadiyyatların inkişafının sürətləndirilməsi və modernləşdirilməsi ilə onların xammal və ərzaq təchizatçısı rolundan bilavasitə geniş istehsal iştirakçısına çevrilməsini, bununla da "dünya cəmiyyətində" bərabər partnyorluğa keçidi ehtiva edən konsepsiyadır.

**15. "Üç dünya" nəzəriyyəsi** - beynəlxalq münasibətlərin üç siyasi-iqtisadi dünyadan ibarət olduğunu təsdiqləyən Çin kommunist lideri Mao Tszedunun adı ilə bağlı nəzəriyyədir.

**16. Birinci Dünya** - beynəlxalq münasibətlərin üç siyasi-iqtisadi dünyadan ibarət olduğunu təsdiqləyən Çin kommunist lideri Mao Tszedunun adı ilə bağlı nəzəriyyədə imperializm kimi ABŞ-ın, sosial imperializm kimi SSRİ-nin, fransalı iqtisadçı Alfred Sovi tərəfindən işlənmiş modeldə isə ABŞ və onun müttəfiqlərinin əhatə olunduğu kateqoriyadır.

**17. İkinci Dünya** - beynəlxalq münasibətlərin üç siyasi-iqtisadi dünyadan ibarət olduğunu təsdiqləyən Çin kommunist lideri Mao Tszedunun adı ilə bağlı nəzəriyyədə aralıq güclər olaraq Yaponiya, Avropa, Avstraliya və Kanada kimi ölkələrdən, fransalı iqtisadçısı Alfred Sovi tərəfindən işlənmiş modeldə isə SSRİ və onun müttəfiqlərindən ibarət kateqoriyadır.

**18. Üçüncü Dünya** - beynəlxalq münasibətlərin üç siyasi-iqtisadi dünyadan ibarət olduğunu təsdiqləyən Ççin kommunist lideri Mao Tszedunun adı ilə bağlı nəzəriyyədə məzlum xalqlar - Yaponiya istisna olmaqla, Asiya tam, bütün Afrika və Latın Amerikası ölkələrini, fransalı iqtisadçı Alderd Sovi tərəfindən işlənmiş modeldə isə neytral və qoşulmayan ölkələri ehtiva edən kateqoriyadır.

**19. "Üç dünya" modeli, üçölçülü model** - fransalı demoqraf və iqtisadçı Alfred Sovi tərəfindən 1952-ci ildə dövriyyə buraxılan - Birinci Dünya kimi ABŞ və onun müttəfiqlərini, İkinci Dünya kimi SSRİ və onun müttəfiqlərini Üçüncü Dünya kimi isə neytral və qoşulmayan ölkələri ehtiva edən təsnifatlandırıcı üçölçülü modeldir.

**20. Dördüncü dünya** - "Üç dünya" modelinin davamı olaraq, altəhali, qlobal cəmiyyətdən sosial qovulmalar, kənarlaşdırılanlar, köçəri, ovçu-yığıcı, çobanlıqla məşğul olan və bəzi təbii fermer xalqlar, müasir sənaye normaları hüdudlarından kənarda yaşayanlar, Birinci Dünya ölkələrində mövcud olan həyat səviyyəsinə görə Üçüncü Dünyaya aid əhali və ya inkişaf etməkdə olan ölkələrlə bağlı təyinatlarda istifadə olunan anlayışdır.

**21. Ən az İnkişaf etmiş ölkələr** - Üçüncü Dünyadan ayrılaraq aşağı həyat səviyyəsi, zəif iqtisadiyyat, insanlar və resursların təbii təsirlərə məruz qalması kimi amillərlə xarakterizə olunan, inkişafdan qalmış (*çox zaman vətəndaş müharibələri ilə əlaqədar*) bir sıra yoxsul ölkələrdir.

**22. Konvergensiya nəzəriyyəsi** - kapitalizm və sosializmi yeni baxışlarda yaxınlaşdıran, qarşılıqlı təsir və əlaqəlilik prosesləri perspektivində birləşdirən nəzəriyyədir.

**23. "Vahid sivilizasiya" nəzəriyyəsi** - əsasında dünya ölkələrinin vahid quruluşa - liberal demokratiyaya doğru tədricən irəliləməsi ideyası dayanan nəzəriyyədir.

**24. "Sivilizasiyaların toqquşması" nəzəriyyəsi** - sivilizasiyarın konfessiyalarla təsnifatlandırıldığı, konfiliktlərin ideologiya və iqtisadiyyatlarla deyil, başlıca olaraq, mədəniyyətlərlə öz həllinə qovuşacağının irəli sürüldüyü nəzəriyyədir.

# IV FƏSİL

# Beynəlxalq əmək bölgüsü və dünya təsərrüfatında inteqrasiya prosesləri

## 4.1. Beynəlxalq əmək bölgüsü və onun nəzəri müddəaları

Milli təsərrüfatlar dünya iqtisadiyyatında ölkələrin bir-biri ilə mübadilə etdiyi ayrı-ayrı məhsulların istehsalı üzrə ixtisaslaşmasını ehtiva edən beynəlxalq əmək bölgüsü əsasında birləşirlər. Belə ixtisaslaşma isə, öz növbəsində, ixraca yönəldilmiş sahələrin formalaşmasına gətirir.

Beynəlxalq əmək bölgüsünün aşağıdakı funksional növlərini ayırırlar:

1. Ümumi - maddi istehsalın iri sferaları arasında əmək bölgüsü (*sənaye, kənd təsərrüfatı, rabitə, ticarət və s.*);
2. Xüsusi, daha dərin əmək bölgüsü, maddi istehsalın iri sferaları daxilində sahələr və yarımsahələr üzrə (*məsələn, ağır və yüngül sənaye*), həmçinin, onların daxilində əmək bölgüsü;
3. Əməyin tək bölgüsü - bir müəssisə çərçivəsində əmək bölgüsü, bu zaman müəssisə geniş, bitmiş əmtəənin yaranma tsikli kimi başa düşülür.

Bundan başqa, ictimai əmək bölgüsünü təkcə funksional deyil, həm də ərazi əlamətinə görə qiymətləndirirlər. Burada aşağıdakı növlər ayrılır:

- ❖ əməyin regionlararası bölgüsü, yəni bir ölkənin regionları arasında; belə əmək bölgüsünü "dövlətdaxili əmək bölgüsü" adlandırmaq olar;
- ❖ beynəlxalq, yəni ölkələr arasında əmək bölgüsü.

Beynəlxalq iqtisadiyyatın meydana gəlməsinin və inkişafının səbəbi, eyni zamanda, şərti məhz beynəlxalq əmək bölgüsüdür.

Beynəlxalq əmək bölgüsü - beynəlxalq əmtəə, xidmətlər, biliklər mübadiləsinin obyektiv əsasıdır. O, həmçinin, dünyanın bütün ölkələrinin inkişaf səviyyəsindən və ictimai quruluşundan asılı olmayaraq onlar arasında istehsal, elmi-texniki, ticarət və başqa əməkdaşlıq formalarının inkişafının da təməlidir.

Müasir şəraitdə beynəlxalq əmək bölgüsü ölkələr daxilində əmək bölgüsünə və istehsalın ixtisaslaşmasına böyük təsir göstərir. Beynəlxalq əmək bölgüsü dünya

ölkələrində geniş təkraristehsal proseslərinin qarşılıqlı əlaqəsini təmin edərək sahəvi, ərazi və baş aspektlərdə müvafiq beynəlxalq proporsiyaları formalaşdırır.

Dünyanın bütün ölkələrində beynəlxalq əmək bölgüsünə olan başlıca sövqedici motiv, onların sosial və iqtisadi fərqlərindən asılı olmayaraq, iqtisadi fayda almağa olan cəhdləridir.

Beynəlxalq əmtəə və xidmətlər mübadiləsinin gedişi zamanı ölkələrə daxili xərclərin qənaəti ilə bağlı əlverişli şərait təmin edilir. Bu, bəzi mal və xidmətlərin milli istehsalından imtina əsasında həyata keçirilir və maddi sərvətlərə olan tələbatın ödənilməsi daha ucuz idxal hesabına baş verir.

Beynəlxalq əmək bölgüsündə iştirak üçün ümumbəşəri sövqedici əsaslara bütün bəşəriyyət qarşısında duran qlobal problemlərin həllinin zəruriliyini şamil edirlər.

Beləliklə, beynəlxalq əmək bölgüsü ölkələr arasında ayrı-ayrı ölkələrdə müəyyən məhsulun dayanıqlı konsentrasiyasını nəzərdə tutan ictimai ərazi bölgüsünün yüksək dərəcəsidir ki, bir sıra obyektiv səbəblər - tarixi, coğrafi, iqlim, iqtisadi səbəblər üzündən həmin məhsulları digər ölkələrə nisbətən daha effektiv istehsal edə bilir.

Beynəlxalq əmək bölgüsünün müasir nəzəriyyələri başlanğıclarını klassik siyasi iqtisaddan, A.Smitin və D.Rikardonun nəzəriyyələrindən götürür. Belə ki, vurğulandığı kimi, bu alimlər ilk olaraq mülahizə irəli sürmüşlər ki, ölkə üçün təkcə satış deyil, həm də malların xarici bazarlarda alışı, beynəlxalq əmək bölgüsündə iştirakı faydalı ola bilər. A.Smit özünün "Mütləq üstünlüklər" nəzəriyyəsi əsasında beynəlxalq əmək bölgüsünün faydasını sübut edirdi. Onun baxışlarını "Müqayisəli üstünlüklər" nəzəriyyəsinin müəllifi D.Rikardo tamamlamış və inkişaf etdirmişdir. İsveç iqtisadçıları E.Hekşer və B.Olin beynəlxalq əmtəə axınlarının istiqamətinin və strukturunun necə müəyyən edilməsi haqqında müasir təsəvvürləri işləyib hazırlamışlar. P.Samuelson Hekşer-Olinin iddialarının təsərrüfat praktikası üçün gerçək olduğu riyazi şəraiti aşkara çıxarmışdır. Qərbdə onların ümumi xidmətlərinə minnətdarlıq kimi bu modeli çox vaxt Hekşer-Olin-Samuelson modeli adlandırırlar. V.Leontyev Hekşer-Olin nəzəriyyəsini ABŞ-ın idxalı və ixracında əməyin və kapitalın tam sərfi hesabı əsasında yoxlamağa cəhd etmişdir. Nəzərdə tutulurdu ki, ABŞ kapitaltutumlu malları ixrac edir, əməktutumlu malları isə idxal edir. Nəticə əks oldu və Leontyev paradoksu adını aldı.

Müasir iqtisad elmi Hekşer-Olin nəzəriyyəsinin nəinki məziyyətlərini, həm də məhdudluğunu göstərir ki, bu nəzəriyyəyə aşağıdakı proseslər sığmır:

- ❖ yüksək inkişaf etmiş və əvvəllər zəif inkişaf etmiş ölkələrin sənayesində və ticarətində struktur dəyişikliklərinin yaxınlaşması;
- ❖ eyni yüksək gəlir səviyyəsi olan ölkələr arasında ticarətin xeyli və daim artan xüsusi çəkisi;
- ❖ dünya ticarətində oxşar sənaye mallarının qarşılıqlı tədarüklərinin yüksək xüsusi çəkisi.

Adı çəkilən hadisələr iqtisad elmi qarşısında Hekşir-Olin nəzəriyyəsinin əsas müddəalarının genişlənməsinin axtarışı və yenilənməsi vəzifəsini qoydu. Bu, bir

tərəfdən, nəzəriyyənin genişlənməsinə, istehsal amillərinin yeni tərifinə, digər tərəfdən isə, onun tamamilə inkarına və beynəlxalq əmək bölgüsünün effektivlik probleminə tamamilə yeni yanaşmaların meydana gəlməsinə səbəb oldu.

Beynəlxalq əmək bölgüsünün neoklassik nəzəriyyələri arasında qabaqcıl yeri Amerika və Avstriya iqtisadçısı Qotfrid Fon Haberlerin (*1900-1995*) "Alternativ xərclər" modeli tutur. Hər ölkə üçün o, həmin ölkənin bütün resurslardan və ən yaxşı texnologiyadan istifadə etməklə iki mal istehsal edə biləcəyini göstərən istehsal imkanları əyrilərini təklif edir. Bu baxışlara görə, ölkələr digər ölkələrlə müqayisədə daha yüksək texnologiyaya malik olduqları sahələrin məhsulunu ixrac edirlər. Sonra qabaqcıl texnologiya labüd olaraq dünyaya yayılır, fərqlər itir, ixrac aşağı düşür, bununla da dünya ticarətinin gələcək strukturunun dəyişməsinə səbəb olur.

Bütün bunlar bu və ya digər mənada məhsulun həyat dövrü və ya əmtəənin həyat tsikli ilə bağlıdır. Məhsulun həyat dövrü (*product life cycle*) hər hansı bir məhsulun cəmiyyət tərəfindən tələbinin müəyyən olunması anından onun istehlakı və utilizasiyası anınadək yerinə yetrilən proseslərin məcmusudur. Əsas mərhələləri layihələndirmə, istehsal, texniki istismar və utilizasiyadır. Yüksək istehlak xassələrinə malik və mürəkkəb elmtutumlu məhsullara aid edilir.

Beynəlxalq münasibətlər üzrə amerikalı professor Raymond Vernonun (*1913-1999*) "Əmtəənin həyat tsikli" nəzəriyyəsində iddia edilir ki, dünya ticarətində ölkənin uğurları daxili bazardan asılıdır. Bu nəzəriyyəyə görə, məhsulların bəzi növləri dörd mərhələdən - tətbiq, artım, yetkinlik, çökmə mərhələsindən ibarət tsikl keçir. Onların istehsalı isə beynəlxalq planda, tsiklin mərhələsindən asılı olaraq, yerini dəyişir. R.Vernon çoxlu sayda yeni və perspektiv malların istehsalında ABŞ-ın nəyə görə lider olduğunu izah etməyə çalışırdı. O, israr edirdi ki, milli bazarlarda belə mallara xarici bazarlardan əvvəl yaranmış tələbat ABŞ-ın texnoloji üstünlüklərinə səbəb olur. Amerika şirkətləri istehsalın inkişafı mərhələsində bu yenilikləri ixraca yönəldir, tələbat artdıqca isə həmin malların istehsalını xarici ölkələrdə təşkil edirlər. Yeni texnologiyaların yayılması ilə xarici şirkətlər, həmçinin, yeni malların istehsalını mənimsəyərək onları ABŞ-a gətrirlər.

"Əmtəənin tsikli" anlayışı milli və daxili bazarların qarşılıqlı əlaqəsini izah edən nəzəriyyənin əsasına çevrilmişdir.

Beynəlxalq əmək bölgüsünün effektivliyini və dünya ticarətinin strukturunu izah etməyə müstəqillik, qarşılıqlı asılılıq və asılılıq konsepsiyaları kömək edir.

Böyük iqtisadi müstəqillik bəzi malların, xidmətlərin və texnologiyaların olmaması deməkdir, ona görə də heç bir ölkə hazırda tam müstəqilliyə cəhd etmir.

Xarici ölkələrdə dəyişikliklərdən mühafizənin artmasını qarşılıqlı tələbatlar əsasında ticarət əlaqələrinin inkişafı ilə təmin etmək olar.

Beynəlxalq əmək bölgüsünün dərinləşməsi bütün nəzəriyyələrin həyat qabiliyyətini və onların daimi modifikasiyasının zəruriliyini, yeni tərəflərlə tamamlanmasını təsdiq edir ki, bu da ETT-nin obyektiv meyilləri və beynəlxalq iqtisadi münasibətlərin ümumi humanistləşməsi ilə əlaqədardır.

## 4.2. Beynəlxalq ixtisaslaşmanın, iqtisadi əməkdaşlıq və kooperasiyanın dərinləşməsi

Əmək bölgüsü bazasında dünya təsərrüfatına, dünya bazarına doğru meyillə yanaşı, mahiyyəti ayrı-ayrı ölkələrin hər hansı konkret mal və xidmətlər buraxılışında ixtisaslaşan beynəlxalq ixtisaslaşma davam edir. Bu, istehsal potensialının ənənələri, spesifikası və təbii resursların olub-olmaması ilə izah edilir.

İxtisaslaşma ayrı-ayrı ölkələrə mal buraxılışı üçün bəzi istehsalların yaradılmasına böyük pul resursları sərf etməmək üçün bunu xarici ticarət yolu il əldə etməyə imkan yaradır. Bu onunla əlaqədardır ki, hər hansı bir ölkə bu və ya digər yüksək keyfiyyətli malların istehsalında uzunmüddətli və peşəkar təcrübəyə malikdir ki, bu da həmin malları başqa ölkələrə ixrac etməyə imkan verir.

Beynəlxalq ixtisaslaşma sistemi XX əsrin əvvəllərindən mövcud olsa da, daha çox həmin əsrin ikinci yarısında inkişaf etmişdir. Buna, hər şeydən əvvəl, ayrı-ayrı ölkələrin iqtisadi və siyasi inkişafı, ETT, dünya bazarının sonrakı inkişafı, iqtisadiyyatların dövlət tənzimlənməsi siyasəti kömək etmişdir.

Beynəlxalq ixtisaslaşmanın gələcək inkişafı nəticəsində ölkələrin bölgüsü üç qrupda baş verdi:

I. Dünya bazarına emal sənayesinin məhsullarını istehsal edən ölkələr (*ABŞ, AFR, Böyük Britaniya, Fransa, Kanada, İtaliya, Yaponiya*);

II. Hasilat sənayesi məhsulları verən, neft və qazın, əsasən, sənaye cəhətdən inkişaf etmiş ölkələrə satışını təşkil edən ölkələr (*Yaxın Şərqin, Latın Amerikasının, Afrikanın neft çıxaran ölkələri. Afrika və Latın Amerikasının bir sıra ölkələri, həmçinin, sənaye cəhətdən inkişaf etmiş İsveç, Avstraliya, Kanada kimi böyük miqdarda müxtəlif mineral resurslar - kömür, qara və əlvan metallar, qızıl, gümüş və s. çıxaran və satan ölkələr*);

III. Kənd təsərrüfatı məhsullarının satışında ixtisaslaşan ölkələr (*Asiya, Afrika və Latın Amerikası ölkələri, həmçinin, sənaye cəhətdən inkişaf etmiş bir çox kapitalist ölkələri - ABŞ, Kanada, Qərbi Avropanın, demək olar ki, bütün ölkələri, Avstraliya, Yeni Zelandiya dünya bazarında müstəsna olaraq kənd təsərrüfatı məhsulları üzrə ixtisaslaşmışlar*).

Eyni zamanda, dördüncü ölkələr qrupu da mövcuddur ki, həm emal, həm hasilat sənayesi məhsulları, həm də kənd təsərrüfatı məhsulları istehsal edir. Bu, sənaye cəhətdən inkişaf etmiş Qərb ölkələridir (*ABŞ, AFR, Kanada, Böyük Britaniya, Fransa*).

1970-ci illərdən başlayaraq, beynəlxalq ixtisaslaşma sənaye cəhətdən inkişaf etmiş kapitalist ölkələrinin transmilli korporsiyalarının inkişafının təsiri altında müəyyən dəyişikliklərə məruz qaldı. Qazanc dalınca qaçmaq, aşağı istehsal xərcləri, daha ucuz işçi qüvvəsi sənaye ölkələrindən tutmuş inkişaf etməkdə olan ölkələrə qədər müxtəlif ölkələrdə TMŞ-lərin istehsal və xidmətlərinin inkişafına səbəb oldu.

Beləliklə, son 20-30 il ərzində TMŞ-lər beynəlxalq əmək bölgüsü funksiyasını və beynəlxalq ixtisaslaşmanı öz üzərlərinə götürmüşlər. Hazırda zahirən beynəlxalq əmək bölgüsünü və beynəlxalq ixtisaslaşmanı ölkələr və dövlətlər həyata keçirirlər. Mahiyyət etibarilə isə onu milli mənzil-qərargahları və öz ölkələri daxilində istehsalları olan, həmçinin, başqa ölkələrdə çox böyük istehsal, məişət, maliyyə, texniki potensiallara malik olan transmilli şirkətlər gerçəkləşdirir.

Beynəlxalq iqtisadi əməkdaşlıq (*International economic cooperation*) obyektiv proses olaraq ayrı-ayrı ölkələr və ölkə qrupları arasında çoxnövlü iqtisadi və elmi-texniki əlaqələrin inkişafında mühüm əhəmiyyət kəsb edir. Bu əməkdaşlıq bir sıra istiqamətlərdə əhatə olunmaqla tərəflərin müstəqilliyi, bərabərliyi, və qarşılıqlı faydalılığı prinsipləri əsasında qurularaq inkişaf edir. Ümumiyyətlə, beynəlxalq iqtisadi əməkdaşlıq aşağıdakıları birləşdirir:

- ❑ xarici ticarət (*xarici ticarət sövdələşmələri, idxal, ixrac*);
- ❑ beynəlxalq istehsal əməkdaşlığı (*beynəlxalq istehsal kooperasiyası*);
- ❑ investisiya sahəsində əməkdaşlıq;
- ❑ beynəlxalq elmi-texniki əməkdaşlıq;
- ❑ iqtisadi və texniki yardım;
- ❑ valyuta-maliyyə üzrə əməkdaşlıq.

Beynəlxalq iqtisadi əməkdaşlıqda kooperasiya əlaqələri də mühüm yer tutur. Beynəlxalq kooperasiya beynəlxalq əmək bölgüsünün başqa tərəfini və digər əsas formasını əks etdirən istehsal ixtisaslaşmasına əsaslanır. Beynəlxalq kooperasiya ilə müqayisədə beynəlxalq əmək bölgüsü daha geniş iqtisadi kateqoriyadır. Beynəlxalq kooperasiya və beynəlxalq ixtisaslaşma beynəlxalq əmək bölgüsünün yalnız forması deyildir. Onlar genişliklə beynəlxalq əmək bölgüsünün mahiyyətini müəyyən edən tərəflərdir.

Kooperasiya şəraitində beynəlxalq ticarət kooperasiya iştirakçıları arasında mal və xidmətlərin əvvəlcədən razılaşdırılmış tədarükünə gətirib çıxarır. Bu halda "ticarət artıq müstəqil müəssisələr arasında həyata keçirilən və onların qalıqlarına xidmət edən fəaliyyət kimi deyil, əhəmiyyətli və əhatəli ilkin şərtlər və istehsal prosesinin məqamı kimi çıxış edir".

İstehsalın beynəlxalq kooperasiyası müxtəlif ölkələrin müstəqil müəssisələri arasında dayanıqlı istehsal əlaqələri prosesidir. O, firmalara istehsala olan məsrəfləri azaltmağa, bununla da, müəssisələrin beynəlxalq kooperasiya şəraitində buraxdıqları məhsulun maya dəyərini aşağı salmağa, onun rəqabətqabiliyyətliliyini gücləndirməyə kömək edir. Ayrı-ayrı hallarda beynəlxalq kooperasiyası istehsalı, elmi-tədqiqat və konstruktor işlərini - ETTKİ, həmçinin, məhsulun satışını əhatə edərək, kompleks xarakter daşıyır.

Hazırda beynəlxalq kooperasiya tədarükləri industrial ölkələrin şirkətləri arasında əmtəə dövriyyəsinin 30%-dən çoxunu təşkil edir. Kooperasiya tədarükləri bir sıra

inkişaf etməkdə olan ölkələrin ayrı-ayrı sahələrində beynəlxalq istehsalın yüksək payı ilə mühüm rol oynayır. Onların sahədaxili ticarət əmsalı 0,15-ə bərabərdir.

Müəyyən münasibətlər sistemi kimi istehsalın beynəlxalq kooperasiyası spesifik tətbiq sahələri və əməkdaşlıq metodları ilə xarakterizə olunur.

İstehsalın beynəlxalq kooperasiyası özünün inkişaf etmiş formaları ilə kooperasiyanın müxtəlif sahələrini əhatə edir:

1. Beynəlxalq istehsal-texnoloji kooperasiya. Bu sferaya aşağıdakılar daxildir:

❒ lisenziyaların ötürülməsi və mülkiyyət hüquqlarından istifadə məsələləri;

❒ tikinti və quraşdırma işləri sahəsində, kooperasiya müəssisələrinin modernləşdirilməsində podrat kooperasiya;

❒ istehsalı idarəetmənin təkmiləşdirilməsi, istehsal proqramlarının standartlaşdırılması, unifikasiyası, sertifikatlaşdırılması və bölüşdürülməsi.

Hökumətin dəstəyi ilə ölkə daxilində bir şirkətin gücü çatmayan texniki cəhətdən mürəkkəb və bahalı layihələrin həyata keçirilməsini planlaşdıran kooperant-ölkələrin müştərək proqramlarının reallaşdırılmasının təşkilati forması olaraq beynəlxalq konsorsiumlar çıxış edirlər. Onlar aviasiyada, kosmik sənayedə, energetikada, beynəlxalq azad iqtisadi zonaların yaradılması işində və bəzi başqa fəaliyyət sahələrində meydana gəlir.

2. Kooperasiya məhsulunun realaşdırılması ilə bağlı ticarət-iqtisadi proseslər.

Bunlar, konkret olaraq, kooperantlarla partnyor ölkələrdəki üçüncü şəxslər arasında qarşılıqlı əlaqəli məhsullarla bağlı prosesləri əhatə edir.

3. Texnikaya satışdan sonrakı xidmət.

Bu xidmət satış sahəsində siyasət kimi satışdan sonrakı xidməti, fəaliyyət üzrə texniki tədrisi və s. əhatə edir.

Kooperasiya əlaqələrinin qurulması zamanı istifadə olunan üç əsas metod seçilir:

1. Müştərək proqramların həyata keçirilməsi.
2. Müqavilə qaydasında ixtisaslaşma.
3. Müştərək müəssisələrin yaradılması.

Müştərək proqramların həyata keçirilməsi, öz növbəsində, iki əsas formada: podrat istehsal kooperasiyası və müştərək istehsalda həyata keçirilir. Podrat istehsal kooperasiyası sifarişçinin tapşırığı ilə müəyyən işin icraçı tərəfindən yerinə yetirilməsini nəzərdə tutur. Podrat müqaviləsi iki tərəf arasında müddətlərlə, həcmlə, icranın keyfiyyəti ilə və s. şərtləndirilir.

Müqavilə ilə ixtisaslaşma istehsal kooperasiyası iştirakçıları arasında istehsal proqramlarının məhdudlaşdırılmasını nəzərdə tutur. Razılığa gələn tərəflər istehsalın təkrarlanmasını, bazarda öz aralarında rəqabəti birbaşa aradan qaldırmağa və ya azaltmağa çalışırlar.

Müştərək müəssisə isə bütün dünyada geniş yayılmış inteqrasiyalı kooperasiya metodur. Belə təşkilati formada ayrı-ayrı razılaşdırılmış məqsədlərin həyata keçirilməsi üçün bir neçə iştirakçının kapitalı birləşdirilir. Müştərək müəssisə sistemi bir çox inkişaf etmiş kapitalist ölkələrində xüsusən inkişaf etmişdir. Belə ki, 77% Amerika, 82% ingilis, 86% alman və 50%-dən artıq yapon birbaşa investisiyaları inkişaf etmiş

kapitalist ölkələrinin payına düşür. Beləliklə, məntiqi qanunauyğunluq belədir ki, ölkə nə qədər çox inkişaf etmişsə, o, beynəlxalq əmək bölgüsü sistemində və beynəlxalq iqtisadi münasibətlərdə daha qabaqcıl rol oynayır. İnkişaf etməkdə olan ölkələr isə periferik vəziyyətdə qalmalı olur, bu da onların sənaye cəhətdən inkişaf etmiş ölkələrdən geri düşməsi ilə xarakterikdir.

## 4.3. Ölkələrin beynəlxalq əmək bölgüsündə iştirakına təsir edən amillər və onun inkişaf göstəriciləri

Ölkələrin beynəlxalq əmək bölgüsündə iştirakına təsir edən amillər məcmusu mövcuddur. Bu amillər sırasına aşağıdakıları aid etmək olar:

1. Ölkənin daxili bazarının həcmi.
2. Ölkənin iqtisadi inkişafının səviyyəsi.
3. Ölkənin təbii resurslarla təminatı.
4. Ölkə iqtisadiyyatı strukturunda sənayenin baza sahələrinin (*energetika, hasilat sahələri, metallurgiya və s.*) xüsusi çəkisi.

Beynəlxalq əmək bölgüsünün inkişafında başlıca cəhət onunla bağlıdır ki, onun hər bir iştirakçısı bu bölgüdə iştirakından iqtisadi maraq, qazanc axtarır və onu tapır.

Əlverişli şərait beynəlxalq mübadilə prosesində hər bir ölkə beynəlxalq əmək bölgüsünün reallaşmasında müəyyən üstünlüklər əldə edir. Bu üstünlüklər ixrac edilən mal və xidmətlərin beynəlxalq və daxili qiyməti arasında fərqin alınması və daha ucuz idxal əsasında milli istehsaldan imtina etməklə daxili məsrəflərə qənaətə yaranan imkanla xarakterikdir.

İdxal, import (*ingiliscə* - import - *idxaletmə, latınca* - importare - *daxil edirəm*) xaricdən alınaraq ölkəyə gətirilən əmtəə və xidmətlərdir. “Görünən”, “görünməyən” və “kapital importu” adlanan üç böyük kateqoriyaya ayrılır. Görünən idxal real əmtəələrin hərəkəti kimi xaricdən alınan məhsulların ölkəyə gətirilməsi və daxili bazarda satılmasını ifadə edir. Görünməyən idxal isə xidmətlər sferasını ifadə edir. Buraya, konkret olaraq, ölkə vətəndaşlarına xarici şirkətlərin xidmətlər göstərməsi, xarici banklara pul qoyuluşları, xarici şirkətlərdən turist yollayışlarının alınması və digər xidmətlər aiddir. Kapital idxalına isə xarici investorların milli müəssisələrin səhmdarlarına çevirilməsi, onların müvafiq istiqamətli müxtəlif layihələrdə investisiya qoyuluşları ilə çıxış etmələri şamil olunur. Bütün import kateqoriyaları eksportla birlikdə ölkənin tədiyə balansını təşkil edirlər.

İxrac, eksport (*latınca* - exporto - *aparıram*) beynəlxalq ticarətin tərkib hissəsi olaraq əmtəələrin xaricə göndərişidir. Müasir dünyada eksport prosesi əmtəə ilə yanaşı kapital, investisiya, xidmət sferalarını da əhatə etmişdir. Eksporta, həmçinin, başqa ölkə vasitəsi ilə tranzitlə daşınan və digər ölkələrdən götürülərək üçüncü ölkələrdə satılan əmtəələr də (*reeksport*) aid edilir.

Dünya İqtisadi Forumu 2016-cı ilin yekununa görə dollar ekvivalentində ən çox ixrac edilən malların siyahısını və onların qlobal ixracda xüsusi çəkisini göstərən hesabat hazırlayıb. Həmin hesabata görə dünyada ən çox ixrac edilən əmtəələr cədvəl 4-də göstərilmişdir.

| № | Əmtəələr | **İxracın həcmi** *(milyard $)* | **Qlobal ixracda** xüsusi çəkisi (%) |
|---|---|---|---|
| 1 | Avtomobillər | 1350 | 4,9 |
| 2 | Təmizlənmiş neft | 825 | 3 |
| 3 | Mikroçiplər | 804 | 2,9 |
| 4 | Avtomobil ehtiyat hissələri | 685 | 2,5 |
| 5 | Kompüterlər | 614 | 2,2 |
| 6 | Farmasevtik mallar | 613 | 2,2 |
| 7 | Qızıl | 576 | 2,1 |
| 8 | Xam neft | 549 | 2 |
| 9 | Mobil telefonlar | 510 | 1,8 |
| 10 | Yayım təchizatı | 395 | 1,4 |
| 11 | Brilliant | 255 | 0,9 |
| 12 | Qaz | 254 | 0,9 |
| 13 | İnsan və heyvan qanı | 252 | 0,9 |
| 14 | Təyyarə | 234 | 0,9 |
| 15 | Yük avtomobilləri | 216 | 0,8 |
| 16 | Tibbi alətlər | 216 | 0,8 |
| 17 | İnsulin | 200 | 0,7 |
| 18 | Zinət əşyaları | 198 | 0,7 |

**Cədvəl 4. Dünyada ən çox ixrac edilən əmtəələr**

Hesabatda qeyd olunub ki, ABŞ avtomobil və təmizlənmiş neft başda olmaqla 18 əsas maldan 12-nin ən iri idxalçısıdır. Almaniya avtomobil, onların ehtiyat hissələri və farmasevtik mallarının əsas ixracaçılarındandır. İsveçrə isə qızılı ixrac və idxal edən ölkələr arasında ilk sırada qərarlaşıb. ÇXR, 18 əsas sadalanan maldan 5-nin əsas ixracatçısıdır. Bunlar  yayım təchizatı, mobil telefon, insulin, zinət əşyalarıdır. Bu ölkə xam neft, mikroçiplər və təyyarələrin əsas idxalçısıdır.

Beynəlxalq əmək bölgüsünün ölçülməsinin bir sıra göstəriciləri mövcuddur. Bunlara aşağıdakıları aid etmək olar:

- ❖ istehsal edilmiş məhsulun ümumi həcmində ixracın xüsusi çəkisi;
- ❖ ixracın ümumi dəyərində sahənin xüsusi çəkisi;
- ❖ ölkənin bütün sənayesinin artım sürəti ilə müqayisədə ixrac ixtisaslaşması sahələrinin artım sürəti.

Beynəlxalq əmək bölgüsünün regional səviyyədə inkişaf göstəriciləri sırasında aşağıdakılar seçilir:

- ❖ qarşılıqlı əlaqədə olan ölkələrdə ictimai istehsalın artımı ilə müqayisədə qarşılıqlı əmtəə mübadiləsinin artımının üstələməsi əmsalı;
- ❖ bu ölkələrin ictimai istehsalında qarşılıqlı əmtəə mübadiləsinin payı;

❖ ümumi xarici ticarət dövriyyəsinin artımı ilə müqayisədə qarşılıqlı əmtəə dövriyyəsinin artımının üstələmə əmsalı.

Bundan başqa bir sıra hallarda ixrac, idxal və buna müvafiq olaraq, xarici ticarət kvotalarıı, ayrı-ayrı mallar üzrə beynəlxalq ticarətdə ölkənin xüsusi çəkisi, adambaşına xarici ticarət dövriyyəsi və s. beynəlxalq əmək bölgüsünün əsas inkişaf göstəriciləri hesab olunurlar. Bununla belə, konkret təhlil prosesində bu və ya digər aspektdən asılı olaraq, ön plana bu və ya digər göstərici çıxa bilər.

Ayrılıqda götürülmüş bir ölkənin beynəlxalq əmək bölgüsündə iştirakını xarakterizə edən göstəricilərin təsnifatı aşağıdakı kimidir:

***A qrupu.*** İxrac-idxal əməliyyatları nəzərə alınmaqla beynəlxalq əmək bölgüsünün inkişaf səviyyəsi:

❒ ölkə ÜDM-ində onun ixrac kvotası;
❒ ixracın artımı sürətinin ÜDM-in artım sürətini üstələməsi əmsalı;
❒ ölkə ÜDM-ində idxal kvotası;
❒ idxalın artım sürətinin ÜDM-in artım sürətini üstələməsi əmsalı;
❒ xarici ticarət kvotası.

***B qrupu.*** Beynəlxalq regionun ixrac əməliyyatları nəzərə alınmaqla ayrı-ayrı ölkələrin xarici iqtisadi əlaqələri sistemində yeri:

❒ ölkə ixracının beynəlxalq regionda onun ümumi ixracında payı;
❒ ölkə ixracının artım sürətinin beynəlxalq regionda onun ümumi ixracının artım sürətini üstələməsi əmsalı;
❒ beynəlxalq regionun qarşılıqlı ixracında ayrıca götürülmüş ölkənin ixrac payı;
❒ ayrıca götürülmüş ölkənin ixracının beynəlxalq regiona artım tempinin həmin regionun bir qrup ölkəsinin qarşılıqlı ixracının artım sürətini üstələməsi əmsalı.

Ölkələrin beynəlxalq əmək bölgüsündə iştirakını xarakterizə etmək üçün istifadə olunan resursların nisbətindən asılı olaraq ictimai istehsalın təsnifləşdirilməsi qəbul edilmişdir. Bu sahələrin bu və ya digər ölkədə birləşməsi milli təsərrüfatların ixtisaslaşmasını xarakterizə edir.

## 4.4. Dünya təsərrüfatının sahə quruluşu

Dünya təsərrüfatının sahə quruluşu çoxaspektli bir sistemə malikdir. Mahiyyətcə, o, iqtisadiyyatın özünün strukturu ilə uzlaşmadadır. İqtisadiyyatı isə ən müxtəlif meyarlardan çıxış edərək strukturlaşdırmaq mümkündür. Bunun üçün strukturlaşmanın məqsədinə baxmaq gərəklidir. Belə ki, istənilən strukturlaşmanın məqsədini təsərrüfat sisteminin müxtəlif elementlərinin qarşılıqlı münasibəti təşkil edir. Bu baxımdan iqtisadiyyatın sahə quruluşuna tərif vermək mümkündür: "İqtisadiyyatın sahə quruluşu ictimai əmək bölgüsü sistemində xüsusi şərtlərlə xarakterizə olunan və geniş təkrar istehsal prosesində spesifik rol oynayan təsərrüfat vahidlərinin keyfiyyətcə eynicinsli qruplarının məcmusudur".

Dünya iqtisadiyyatının sahə quruluşu müxtəlif cür verilə bilər. Daha ənənəvi bölgü aşağıdakı kimidir:

1. Sənaye
2. Kənd təsərrüfatı (*aqrar-sənaye kompleksi - ASK*);
3. Tikinti
4. İstehsal infrastrukturu
5. Qeyri-istehsal infrastrukturu (*xidmətlər sferası*).

Bu təsnifat dünya iqtisadiyyatının struktur elementlərinin beynəlxalq formalaşma standartlarına əsaslanır. Yuxarıda adları çəkilən baza sahələrindən hər biri sonradan iriləşdirilmiş sahələrə, sahələrə və istehsal növlərinə bölünə bilər.

Sənaye (*ərəbcə* - صناعة - *iş, peşə, sənət*) maddi istehsalın aparıcı sahəsi, xammal və material hasilatı, emalı, əmək vasitələri, maşın və avadanlıqlar, enerji istehsalı müəssisələri (*fabrik, zavod, hövzə, şaxta, elektrik stansiyası və s.*) məcmusudur. İstehsal manufakturalarından yüksək mexanikləşdirmə və avtomatlaşdırma dərəcəsinə malikliyi ilə fərqlənir. Şərti olaraq, istehsal vasitələri istehsalı və istehlak predmetləri istehsalı sahələrinə bölünür. Hasilat və emaledici olaraq iki böyük sahə altında da qruplaşdırılır. Hasilat sənayesi dağ mədən, su elektrik stansiyaları, su kanallarını, meşə istismar təsərrüfatı, balıqtutma, dəniz məhsullarının istehsalını, emaledici sənayeyə isə metallurgiya, kimya, maşın və avadanlıqlar, tikinti materialları, ağac və kağız, yüngül və yeyinti sənaye məhsullarını, həmçinin sənaye məhsullarının təmiri ilə məşğul olan müəssisələri və istilik elektrik stansiyalarını əhatə edir. "Sənaye" anlayışının müxtəlif dillərdə müvafiq sinonimlərinə rast gəlinir. Ərəb etimologiyası kontekstində süni yaradılan, süni yolla istehsal edilən, təbii olmayan şeylər "sənaye" anlayışı bağlılığındadır. Avropa məkanında fəaliyyət, əməksevərlik, bacarıq mənalarını ifadə edən latın mənşəli "industriya" sözü onun əsas sinonimidir. Rus dilinin islahatçısı yazıçı Nikolay Karamzin (*1766-1826*) fransız sözü (*latından alınan*) "industriya"nı "promışlyat" - məşğul olmaq feli əsasında "promışlennost" sözü kimi tərcümə etmişdir. XX əsrin əvvələrinə kimi sənaye olaraq yalnız zavod və fabriklərdə böyük həcmdə xammalın emalı ilə onun keyfiyyətli məhsula çevrilməsini əks etdirən istehsal düşünülürdü. Lakin müasir zamanda qabaqcıl texnologiyaların etdiyi korrektələr əsasında yaxşı inkişaf etmiş istənilən fəaliyyət növü - turizm, moda, iaşə müəssisələri, texnologiyalar və s. sənaye olaraq adlandırılır. Sənaye istehsal formalarının inkişaf etdirilməsi, tətbiqi və onun genişləndirilməsi prosesi sənayeləşməni ehtiva edir. Sənaye cəmiyyətin, istehsalın, bütünlükdə iqtisadiyyatın maddi-texniki bazasının yaradılması və möhkəmləndirilməsində həlledici rol oynayır. O, iqtisadi tərəqqinin başlıca aparıcı sahəsi, real sektorun əsas seqmentini olaraq, cəmiyyətin sosial-iqtisadi inkişafını istiqamətləndirən maddi istehsalın sükançısı kimi çıxış edir. Hər bir ölkədə sənaye inkişafın əsas hərəkətverici qüvvə hesab olunaraq daim diqqət mərkəzində saxlanılır. Ölkə Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə 2014-cü il Azərbaycan Respublikasında "Sənaye ili" elan edilmişdir.

Sahəvi proporsiyalar ayrı-ayrı sahələrin xüsusi çəkilərinin nisbətidir. Onlarla iqtisadiyyatda sahəvi struktur irəliləyişlərinin xarakterini və meyillərini müəyyən etmək olar. İlkin xammal, yəni kənd təsərrüfatı və hasilat sənayesi malları istehsal edən

sahələrin xüsusi çəkisinin azalması meyili məlumdur və özünü göstərməkdədir. Nə vaxtsa bir çox ölkələrin ÜDM və ÜMM-də kənd təsərrüfatının payı üstünlük təşkil etmiş və hətta 60-80% həddində olmuşdur. Lakin hazırda inkişaf etmiş kapitalist ölkələrində bu göstərici 2-10% hüdudlarında tərəddüd edir. Konkret olaraq, aqrar sektorda mühüm irəliləyişləri təmin etmiş ABŞ-da kənd təsərrüfatının ÜMM-də payı 2% təşkil edir. Bununla belə, göstərilən həcmlər müqabilində ABŞ özünün 320 milyon əhalisinin və həm də xarici ölkələrdə yaşayan daha 100 milyon insanın müvafiq tələbatını ödəyir.

Dünya iqtisadiyyatının hazırkı inkişaf mərhələsində, həmçinin, hasilat sənayesinin də payı azalmaq üzrədir. Nəzərə alınmalıdır ki, kənd təsərrüfatı və hasilat sənayesi ilkin sahələr yaranan iqtisadi sektorlardır. İkinci sahələr isə ilkin xammaldan istifadə edən emal sənayesi, elektroenergetika və tikintidir. Statistikaya nəzər saldıqda görərir ki, həmçinin, onların da məcmu payı aşağı düşür. Lakin ilkin sektorun payı kimi dinamik enməyə məruz qalmır. Bu zaman təkcə elektroenergetikanın payı artır. Bütövlükdə isə, əsas kapitalist ölkələrinin ÜMM-nin sahəvi strukturunda ikinci sektorun payı 28-35% təşkil edir. Nəhayət, sahələrin qalan hissəsi üçüncü sektorun payına düşür ki, bura maliyyə, sığorta, təhsil, elm, mədəniyyət, səhiyyə, işgüzar və başqa xidmətlər daxil olmaqla nəqliyyat, ticarət, rabitə də aiddir. Bu sahələr qrupunun xüsusi çəkisi isə uzunmüddətli və dayanıqlı artım meyilinə malikdir.

Dünyanın qabaqcıl ölkələrinin iqtisadi inkişafının müasir mərhələsi təsərrüfat strukturunun geniş irəliləyişləri ilə xarakterizə olunur ki, bu da yeni sahələrarası və təkrar istehsal proporsiyalarına keçidin dönməzliyini şərtləndirir.

Təcrübə göstərir ki, iqtisadiyyatda yaranmış proporsiyalar iki istiqamət üzrə formalaşmışdır.

Birincisi, iqtisadiyyatın ənənəvi sahələrinin yenidənqurulması və modernləşdirilməsi;

İkincisi, elmtutumlu sahələr sektorunda buraxılan məhsulların nəslinin dəyişməsi. Bu zaman maddi istehsalın qabaqcıl sahəsi sənaye, hər şeydən əvvəl, maşınqayırma qalır. Burada isə ən yeni elmtutumlu sahələrin payı sürətlə artır.

Bütövlükdə, son onilliklərdə sənaye cəhətdən inkişaf etmiş ölkələrdə sahəvi irəliləyişlərin ümumi qanunauyğunluğu xammal sahələrinin və kənd təsərrüfatının xüsusi çəkilərinin xeyli azalmasından, sənayenin texniki modernləşdirilməsindən və xidmətlər sahəsinin sürətli artımından ibarətdir. Daha köklü dəyişikliklər yarımsahələr səviyyəsində baş verir ki, bu çərçivədə ən yüksək dinamika elmtutumlu istehsallara aiddir.

## 4.5. Dünya təsərrüfatı əlaqələrinin başlıca formaları

Dünya təsərrüfatı əlaqələrinin müasir mərhələsi inkişaf etmiş iqtisadi sistemlərdə istehsalın informasiya texnologiyalarının üstünlük təşkil etdiyi yeni texnoloji bazaya keçməsi ilə əlaqədar genişlənən asılılığın artması ilə xarakterizə olunur. Məhsuldar qüvvələrin yeni keyfiyyət vəziyyəti iki əsas formada: inteqrasiya (*milli təsərrüfatların*

*yaxınlaşması, qarşılıqlı uyğunlaşma*) və transmillilləşmədə (*millətlərarası istehsal komplekslərinin yaradılması*) təzahür edən təkrar istehsal proseslərinin beynəlmiləlləşməsini stimullaşdırmışdır.

İnteqrasiya müasir dünyada ölkələrinin iqtisadiyyatlarının obyektiv birləşmə prosesi olaraq milli təsərrüfatların beynəlmiləlləşməsi şərtliliyinə əsaslanır. Bu proses nəticəsində ölkə iqtisadiyyatı aktiv tempdə dünya təsərrüfatının bir hissəsinə çevrilir.

İnteqrasiyanın əsas əlamətləri kimi aşağıdakılar çıxış edir:

- ❖ milli istehsal proseslərinin qarşılıqlı əlaqəliliyi və üst-üstə düşməsi;
- ❖ üzv ölkələrin iqtisadiyyatlarında struktur dəyişiklikləri;
- ❖ zəruri və məqsədyönlü olaraq inteqrasiya proseslərinin tənzimlənməsi.

İnteqrasiya proseslərinin struktur səviyyəsi aşağıdakı kimin səciyyələndirilir:

- ❖ lokal - bir mikroiqtisadi vahid çərçivəsində istehsal prosesi mərhələləri;
- ❖ mikrosəviyyə - təsərrüfat vahidlərinin məcmusu çərçivəsində istehsal prosesi mərhələləri;
- ❖ regional (vilayət) - dövlətin müəyyən regionu daxilində təsərrüfat qarşılıqlı hərəkət edən subyektlərinin uzlaşması;
- ❖ milli - dövlət çərçivəsində bir sıra regional komplekslərin qarşılıqlı hərəkət edən sektorları;
- ❖ mezoregional - bir neçə sərhədyanı dövlət çərçivəsində regional komplekslərin qarşılıqlı hərəkət edən sektorları;
- ❖ makrosəviyyə - dünyanın müəyyən regionunda milli komplekslərin qarşılıqlı hərəkəti;
- ❖ meqasəviyyə - qlobal iqtisadi məkanlar miqyasında inteqrasiya.

İnteqrasiyanın beynəlmilləşməsi kimi beynəlxalq iqtisadi inteqrasiya çıxış edir. Beynəlxalq iqtisadi inteqrasiya (*International economic integration*) milli təsərrüfatlar arasında dərin dayanıqlı qarşılıqlı əlaqələrin inkişafı və beynəlxalq əmək bölgüsü əsasında ölkələrin təsərrüfat və siyasi cəhətdən birləşməsi prosesidir. Beynəlxalq iqtisadi inteqrasiya ayrı-ayrı ölkələrin iqtisadiyyatlarının müxtəlif səviyyələrdə və müxtəlif formalarda qarşılıqlı münasibətini əks etdirir.

Beynəlxalq inteqrasiyanın bəsit forması olaraq preferensial zona çıxış edir. Preferensial zona (*Preferential zone*) qarşılıqlı ticarət əsasında gətirilən əmtəələr üzrə gömrük rüsumlarının azaldılması və ya tətbiq edilməməsi ilə müşayiət olunan ölkələrarası inteqrasiyanı ifadə edir.

Beynəlxalq inteqrasiyanın sadə və daha yayılmış forması isə azad ticarət zonasıdır. Azad ticarət zonası (*free trade area*) beynəlxalq müqaviləyə uyğun yaradılır. Bu zaman üzv ölkələr arasında gömrük rüsumları, vergi və yığımları və qarşılıqlı ticarət zamanı kəmiyyət məhdudiyyətləri aradan götürülür.

Beynəlxalq inteqrasiyanın digər forması olaraq gömrük ittifaqı çıxış edir. Gömrük İttifaqı (*Customs Union*) dövlətlərarası sazişə uyğun olaraq iki və daha çox ölkə arasında vahid gömrük məkanı yarartmaqla gömrük sərhədləri və rüsumlarının aradan

qaldırlıldığı beynəlxalq inteqrasiya tipidir. Bu ittifaq zamanı, həmçinin, üçüncü ölkələr üçün vahid gömrük tarifi tətbiq edilir, üzv ölkələr özlərinin müvafiq koordinasiya strukturlarını yaradırlar. Gömrük İttifaqı, həmçinin, ümumi xarici ticarət siyasətinin aparıldığını nəzərdə tutan azad ticarət zonasında yüksək beynəlxalq inteqrasiya tipi olaraq daha geniş keyfiyyətliklərə malikdir.

Beynəlxalq inteqrasiyanın ilk, daha mürəkkəb forması kimi ümumi bazar çıxış edir. Ümumi bazar (*Common market*) öz iştirakçılarına qarşılıqlı ticarət və vahid xarici ticarət tarifi ilə yanaşı, həmçinin, kapitalın və işçi qüvvəsinin hərəkət azadlığ və iqtisadi siyasətin razılaşdırılmasının təmin edilməsi ilə xarakterikdir. Vahid bazarın fəaliyyəti zamanı sosial və regional inkişafa kömək ümumi fondları formalaşır, idarəetmə və nəzarətin üstmilli orqanları yaradılır, hüquqi sistem təkmilləşir. Başqa sözlə, vahid iqtisadi, hüquqi və informasiya məkanı yaradılır.

Beynəlxalq inteqrasiyanın yüksək formalarından birini iqtisadi ittifaq təşkil edir. İqtisadi ittifaq (*Economic union*) ticarət bloku olaraq gömrük ittifaqı, ümumi bazar inteqrasiyaları yanaşı, fiksal və monetar siyasətin harmonikləşməsi üzrə sazişləri də özündə əks etdirir. Beynəlxalaq inteqrasiyanın bu tipini Avropa İttifaqının vahid bazarı, Avropa İttifaqı ilə Monako arasında iqtisadi və valyuta ittifaqı, Karib Əməkdaşlığının Vahid Bazarı, Rusiya və Belarus dövlətlər ittifaqını göstərmək olar.

Dövlətlərarası iqtisadi inteqrasiyanın müasir ali forması kimi iqtisadi və valyuta ittifaqı çıxış edir. İqtisadi və valyuta ittifaqı (*Economic and monetary union*) kapitalın, işçi qüvvəsinin, əmtəə və xidmətlərin azad hərəkəti, ümumi iqtisadi, sosial, fiksial və monetar siyasətin aparılması ilə bütün göstərilən inteqrasiya formalarının birləşdirilməsidir. Bu ittifaq müasir zamanda yalnız Aİ-də mövcuddur.

Belynəlxalq iqtisadi inteqrasiya tam inteqrasiya (*full integration*) ilə yekunlaşa bilər. Belə birlik siyasi təsisatların da yaradılmasını, idarəetmənin üstdövlət orqanlarının qurulmasını, dövlət sərhədlərinin ləğv edilməsini və digər bu kimi vahid ümumilikləri şərtləndirir.

Ölkələr qarşılıqlı yaxınlaşmaya doğru hələ ilk addımlarını atarkən, aralarında preferensial ticarət müqavilələri bağlanır. Preferensial ticarət müqavilələri (*preferential trade agreement*) bu müqavilədə iştirak etməyən üçüncü ölkələr qarşısında müəyyən preferensiyalar (*üstünlüklər*) haqqında ölkələr arasında bağlanan müqavilədir. Həmin müqavilələr ya ikitərəfli əsasda ayrı-ayrı dövlətlər arasında, yaxud artıq mövcud inteqrasiyalı qruplaşma və ayrıca ölkə və ya ölkələr qrupu arasında imzalana bilər. Bu müqavilələrə müvafiq olaraq, ölkələr bir-birinə üçüncü ölkələrə təklif etdiklərindən daha əlverişli rejim təklif edir. Müqaviləni imzalayan ölkələrin milli gömrük tariflərinin qalmasını nəzərdə tutan preferensial müqavilələr inteqrasiya prosesinin ilkin deyil, hazırlıq mərhələsi kimi nəzərdən keçirilməlidir. Preferensial müqavilələrin idarə edilməsi üçün heç bir dövlətlərarası orqan yaradılmır.

İqtisadi inteqrasiya təsərrüfat fəaliyyətinin beynəlmiləlləşdirilməsi prosesi olmaqla ölkələr arasında əmək bölgüsünü dərinləşdirir, istehsalın inkişafına və səmərəliliyinin

artırılmasına şərait yaradır.

Müasir dünyada təsərrüfat həyatının beynəlmiləlləşməsinə baxmayaraq inteqrasiya prosesləri daha çox regional xarakter daşıyır. Bu baxımdan regional iqtisadi birliklərin dünya iqtisadiyyatında rolu və əhəmiyyəti artır. Müxtəlif tipdə onların sayı hazırda 30-u ötmüşdür. Regional iqtisadi birlik (*regional economic amalgamation*) beynəlxalq iqtisadi sferada tədricən təsərrüfatlarını yaxınlaşdırmaq və təsərrüfat mexanizlərini dəyişdirmək yolu ilə birləşməni qarşılarına məqsəd qoymuş dövlətlərarası iqtisadi təsisatdır. Belə birlikləri ərazi cəhətdən biri-birinə yaxın və təqribən, eyni sosial-iqtisadi inkişafa malik olan ölkələr yaradırlar.

İnteqrasiya bloku üzvləri, istehsal miqyasından asılı olaraq, həm daxili, həm də xarici qənaətlər əldə edə bilərlər. Bu, miqyas (*scale*) və onun yaratdığı effektlə bağlıdır. Daxildə şirkətlər istehsal həcmlərini artırmaqla məhsul xərclərini azalda bilər, xarici aspektdə isə bu, tarif və digər ticari baryerlərin azaldılması ilə reallaşa bilər. Miqyas effekti (*returns to scale, scale effect - miqyas effekti, miqyas qayıdır*) istehsal resursları həcmi ilə onlardan istehsal olunmuş məhsulun miqdarı arasında qarşılıqlı əlaqədir və ona uzunmüddətli mərhələdə baxılır. Miqyas effekti ilə bağlı xarakterik misal olaraq qənaətin əldə edilməsinin istehsalın kütləviliyinə bağlanması göstərilə bilər. İstehsalın miqyası nə qədər çoxdursa, digər bərabər şərtlərdə məhsul vahidinin maya dəyəri bir o qədər orta səviyyədən aşağıdır. İstehsalın genişləndirilməsi ilə məhsul vahidi üzrə xərclərin azaldılması miqyasda qənaət (*economies of scale*) adlanır. Miqyas effekti makroiqtisadi təhlilin mühüm kateqoriyası hesab olunur.

Miqyas effekti və rəqabət effekti (*effect of competition*) o zaman baş verir ki, ayrı-ayrı milli bazarlar vahid bazarda birləşirlər. Daha iri bazar inteqrasiya olunmuş ölkələrin şirkətlərinə fəaliyyətin miqyasından irəli gələrək müsbət effektlər almağa zəmin yaradır. İnhisarçı mövqeləri dağıdaraq, səmərəliliyi yüksəldir və onlar arasında daha sıx qarşılıqlı əlaqə, o cümlədən rəqabət münasibətləri formalaşdırır. Bununla belə miqyas qeyri-effekti barədə də düşünmək gərəklidir.

Miqyas qeyri-effekti (*diseconomies of scale*) miqyasın, fəaliyyət həcminin artması və genişlənməsi iqtisadi effektivliyin azalmasıdır. Miqyas qeyri-effekti məhsul həcminin müəyyən həddən çox buraxılması nəticəsində uzunmüddətli orta xərclərin artması ilə şərtlənir.

İnteqrasiya nəticəsində ticarətin əmtəə və coğrafiyasının struktur dəyişikliyi baş verir. Bu ticarət və allokasiya effekti ilə bağlıdır. Allokasiya (*latınca* - al - *yanında, ətrafında* + locatio - *yerləşmə, ingiliscə* - allokation - *bölgü*) 1) siyasi iqtisadda - verilmiş məqsədlərə uyğun olaraq məhdud (*qıt, cüzi*) resursların bölüşdürülməsi; 2) sosiologiyada - sistemin optimal fəaliyyət göstərməsi üçün onun müxtəlif sferalarına resursların (*kapital, kadrlar, təhsil, ixtisas və s.*) bölüşdürülməsinin makrosistemli mexanizmidir. Ticarət və allokasiya effekti (*effect of trade and allocation*) inteqrasiya nəticəsində ticarətin əmtəə və coğrafi strukturunun dəyişməsi ilə yaranan effektdir. İnteqresiya prosesində ticarət baryerlərinin aradan götürülməsi ilə bağlı olaraq ticarətin

coğrafi strukturu dəyişir. Həmin zaman partnyor ölkələrdən idxal ucuzlaşır və bu da, öz növbəsində, onların yerli və üçüncü ölkələrdən gələn məhsulları əvəzləməsi ilə nəticələnir. Eyni zamanda, burada həm də ticarətin genişlənməsi və oryentasiyasının yeniləşməsi baş verir.

İnteqrasiyanın başlıca stimullarını iqtisadiyyatın özündə axtarmaq gərəkdir. Hər bir ölkə öz coğrafi, iqlim və təbii sərvətləri baxımından fərqli səciyyə daşıyır. Bundan başqa, profesional vərdişlər, dövlətçilik və iqtisadi təcrübə kimi təməl komponentlər də ölkənin sosial-iqtisadi fəaliyyətinin mühüm göstəricilərinə təyinat verir.

Ənənəvi inteqrasiya nəzəriyyəsi isə bu və ya digər faktoral reallıqlarla yanaşı, başlıca olaraq, prosesin özünün iqtisadi amillərindən çıxış edir. Lakin unutmaq lazım deyil ki, inteqrasiya iqtisadi aspektli olduğu qədər də, siyasi prosesdir. Onun cəzbedici orbitinə keçməzdən öncə hər bir ölkə bu orbitdə nəyi qazanacağını və nəyi qurban verəcəyini ölçməyə məhkumdur. Bu yanaşma meyili isə dövləti istiqlalın təminatı - siyasi doktrina olaraq dövlətin şəxsiyyət, ictimai və dövlət təhlükəsizliyini xarici təcavüzlərdən, terrorizmdən müdafiə edən kompleks tədbirlər sistemi milli təhlükəsizlik və iqtisadi sistemin dinamik, balanslaşdırılmış və effektivli inkişafını təmin edərək sosial problemləri mülayimləşdirən, əhalinin həyat səviyyəsinin yaxşılaşmasını stimullaşdıran iqtisadi təhlükəsizik amillərinin təminatı ilə bağlanılır.

İnteqrasiya obyektiv bir prosesdir və onu heç kim təcrid etmək gücündə deyil. Müasir dünyanın siyasi obrazında avtarkiyalı, ən qapalı ölkə sayılan KXDR də özünəməxsus rejimini, cüzi də olsa, inteqrasiyanın köməyi ilə saxlayır.

## 4.6. Beynəlxalq iqtisadi inteqrasiyanın məqsədləri və onu təyin edən amillər

Beynəlxalq iqtisadi inteqrasiyanın məqsədləri inteqrasiyanın baş verdiyi formadan asılı olaraq konkretləşdirilir. Bununla belə, bir sıra mühüm aspektlər çevrəsində beynəlxalq iqtisadi inteqrasiyanın məqsədlərini ayırmaq mümkündür. Bunlar aşağıdakılardan ibarətdir:

- istehsal həcmlərinin artırılması və təhciz edilən əmtəə və xidmətlər nomenklaturasının genişləndirilməsi;
- iqtisadiyyatın üstünlüklərinin miqyaslı reallaşdırılması;
- əlverişli xarici iqtisadi mühitin formalaşdırılması;
- ticarət siyasəti məsələlərinin həlli;
- milli iqtisadiyyatların struktur yenidənqurmasına kömək;
- sənayenin, kənd təsərrüfatının və xidmətlər sferasının ayrıca sahələrinin dəstəklənməsi.

Hazırda inteqrasiyanın azad ticarət zonası və gömrük ittifaqı formaları daha geniş yayılmışdır. Bu sistemli inteqrasiyanın formalaşması zamanı üzv ölkələr bazarın genişlənməsinə və aralarında ticarət üçün əlverişli şərait yaradılmasına çalışırlar. Onlar bu zaman, həmçinin, bazara üçüncü ölkələrdən gələn rəqiblərin hərəkətinə mane olurlar.

Beynəlxalq iqtisadi inteqrasiyanın inkişafı iştirakçı tərəflər üçün müsbət effektlərlə

yanaşı həm də müəyyən neqativ nəticələrlə də müşayiət olunur. Belə ki, inteqrasiya bloklarının formalaşması onların iqtisadi potensialını xeyli gücləndirir, əmtəə dövriyyəsinin və kooperasiya-istehsal əlaqələrinin genişlənməsinə kömək edir. Bundan başqa, regional çərçivədə ölkələrin iqtisadi yaxınlığı ölkələrin firmaları - iqtisadi inteqrasiya iştirakçıları üçün əlverişli şərait yaradaraq, onları müəyyən dərəcədə üçüncü ölkələrin firmaları tərəfindən gözlənilən rəqabətdən qoruyur.

İnteqrasiya qarşılıqlı əlaqəsi onun iştirakçılarına daha kəskin sosial problemləri birgə həll etməyə, əmək bazarında vəziyyəti mülayimləşdirməyə, elmi-texniki siyasət yürütməyə imkan verir. Lakin milli təsərrüfatların qarşılıqlı əlaqəsi müxtəlif intensivlik dərəcəsi, müxtəlif miqyaslarla, ayrı-ayrı regionlarda daha dəqiq özünü göstərir.

Beynəlxalq iqtisadi inteqrasiyanın əsasında bir sıra obyektiv amillər durur ki, onların arasında aşağıdakılar mühüm yer tutur:

- ❖ təsərrüfat həyatının qloballaşması;
- ❖ beynəlxalq əmək bölgüsünün dərinləşməsi;
- ❖ xarakterinə görə ümumdünya elmi-texniki inqilabı;
- ❖ milli iqtisadiyyatların şəffaflığının yüksəldilməsi.

Dövlətlərarası iqtisadi inteqrasiyanın inkişafına bir sıra səbəblər kömək edir. Belə ki, inteqrasiya prosesləri iqtisadi inkişaf səviyyəsi təxminən eyni və eynicinsli təsərrüfat sistemlərinə malik olan ölkələr arasında daha məhsuldardır. Digər, bundan az əhəmiyyəti olmayan mühüm zəmin isə inteqrasiya edən və eyni regionda yerləşən, ümumi sərhədi olan ölkələrin yaxınlığıdır.

İnteqrasiyanın mümkünlüyü və məqsədyönlülüyü daha çox ölkələr arasında tarixən yaranmış və kifayət qədər möhkəm iqtisadi əlaqələrin olması ilə müəyyən edilir. Həlli ayrı-ayrılıqda deyil, birgə qüvvə ilə daha effektiv ola bilən iqtisadi maraqların və problemlərin ümumiliyi də böyük əhəmiyyət daşıyır. Aİ-də yaranmış daha inkişaf etmiş inteqrasiya forması buna misal ola bilər.

İnteqrasiya meyilləri postsovet məkanında aşağıdakı əsas amillər tərəfindən doğulur:

- ❑ qısa müddət ərzində tamamilə dəyişməsi mümkün olmayan əmək bölgüsü;
- ❑ bir çox xalqların uzun müddət bir dövlətin hüdudlarında birgə yaşaması;
- ❑ texnoloji qarşılıqlı asılılıq, vahid texniki normalar.

Keçmiş sovet respublikalarının inteqrasiyaya hazırlığı müxtəlif olmuşdur. Belə vəziyyət təkcə iqtisadi yox, həm də siyasi və hətta etnik amillərlə müəyyən edilirdi. Lap əvvəldən Baltikyanı ölkələr MDB-nin hər hansı strukturlarında iştirakın əleyhinə idilər. Keçmiş ittifaq ölkələri ilə iqtisadi əlaqələrin saxlanmasına və inkişaf etdirilməsinə maraq göstərsələr də, onlar üçün öz suverenliklərini möhkəmləndirmək və "Avropaya daxil olmaq" məqsəd ilə Rusiyadan və öz keçmişlərindən uzaqlaşmaq cəhdləri daha üstün olmuşdur. MDB çərçivəsində inteqrasiyaya ehtiyatlı münasibət Ukrayna, Gürcüstan, Türkmənistan və Özbəkistan tərəfdən, bir qədər müsbət münasibət Belarus, Ermənistan, Qırğızıstan və Qazaxıstan tərəfdən göstərilirdi. Buna görə də onlardan bir çoxu MDB-yə, hər şeydən əvvəl, "sivil ayrılma" mexanizmi kimi baxır və

öz müstəqilliklərini elə möhkəmləndirməyə cəhd edirdilər ki, qurulmuş əlaqələrin pozulmasından irəli gələn labüd itkilər daha minimal olsun. Dünya iqtisadiyyatının inkişafının gedişi ilə bağlı postsovet məkanında inteqrasiya və dezinteqrasiya proseslərinin qarşılıqlı əlaqəsinin son nəticəsi bir çox amillərdən asılı olacaqdır. Bu amillər sırasına islahatların nəticələri, iqtisadiyyatın vəziyyəti, MDB-yə üzv olan ölkələrin hakim dairələrinin siyasəti, xalqların bu yaxınlaşmanın mühümlüyünü dərk etməsi, üçüncü ölkələrin siyasəti və istər MDB çərçivəsində, istərsə də onun hüdudlarından kənarda bir çox başqa hallar daxil edilir. Bununla belə, burada iqtisadiyyatın və sistem islahatlarının inkişaf nəticələri, MDB-nin təbii inteqrasiya özəyi kimi Rusiya hökumətinin siyasəti əsas amil olacaqdır. Bir reallığı da nəzərdən qaçırmaq olmaz ki, bütün ölkələr yoxsul və geridə qalmış yox, zəngin və çiçəklənən ölkələrlə inteqrasiyaya çalışırlar.

Bu və ya digər inteqrasiya qrupunun yaradılmasının bütövlükdə iqtisadiyyatın maraqlarına nə dərəcədə müvafiq olduğunu qiymətləndirmək üçün bir sıra tədqiqatçılar və BYİB-nin mütəxəssisləri bir sıra meyarlar müəyyən etmişlər.

Beynəlxalq iqtisadiyyat çərçivəsində bütövlükdə inteqrasiya - azad ticarət yolunda addım və ya əksinə, ticarət axınları yolunda məhdudiyyət olması nöqteyi-nəzərindən qiymətləndirilməlidir. GATT/DTT-nin qaydalarına müvafiq olaraq, ən əlverişli rejimdən istisna (*GATT-ın XXIV maddəsi*) mövcuddur ki, bu da gömrük ittifaqlarının və azad ticarət zonalarının yaradılması imkanını nəzərdə tutur. Qaydalara müvafiq olaraq, inteqrasiya qruplaşmaları yaradılmazdan əvvəl kifayət qədər uzun müddət ərzində "keçid razılaşmaları"nın mövcud olması mümkündür ki, bunlar "düşünülmüş müddət"dən sonra, üzvlər arasında ticarət maneələrin aradan qaldırılması və bu maneələrin başqa ölkələrlə ticarətdə, heç olmazsa, artmayacağı şərti ilə gömrük ittifaqının və ya azad ticarət zonasının yaradılmasına səbəb olmalıdır.

## 4.7. Beynəlxalq iqtisadi inteqrasiyanın nəzəriyyələri

Beynəlxalq iqtisadi inteqrasiya nəzəriyyəsində hər şeydən əvvəl, inteqrasiya mexanizminin müxtəlif qiymətləri ilə fərqlənən bir sıra istiqamətlər seçilir. Buraya çeşidli istiqamətləri aid edirlər. Konkret olaraq isə beynəlxalq iqtisadi inteqrasiya nəzəriyyəsi (*İnternational economic integration theory*) neoliberalizm, korporasionalizm, strukturalizm, neokeynsçilik, dirijist və s. istiqamətləri əhatə edir.

Erkən neoliberalizm (*1950-1960-cı illər*) nümayəndələri - isveç iqtisadçısı Vilhelm Repke (*1899-1966*) və fransalı Alle Moris (*1911-2010*) tədqiqatlarında tam inteqrasiya bir neçə ölkə miqyasında fəaliyyəti kortəbii bazar qüvvələrinin hərəkəti və dövlətlərin iqtisadi siyasətindən, mövcud milli və beynəlxalq hüquqi aktlardan asılı olmayan azad rəqabət əsasında həyata keçirilən vahid bazar məkanının yaradılması kimi təqdim olunur. Dövlətin beynəlxalq münasibətlərə müdaxiləsi isə, onların fikrincə, inflyasiya, beynəlxalq ticarətin balansdan çıxması, ödənişlərin pozulması kimi neqativ hallara səbəb olur. Lakin beynəlxalq iqtisadi inteqrasiyanın inkişafı, dövlətlərin fəal iştirakı

ilə regional dövlətlərarası ittifaqların formalaşması erkən neoliberalların baxışlarının tutarlı olmadığını göstərdi. Gecikmiş neoliberalizmin nümayəndəsi, macar əsilli Amerika iqtisadçısı Balaşşa Bela (*1928-1991*) inteqrasiya problemini bir qədər başqa müstəvidə nəzərdən keçirirdi. O, inteqrasiyanın həm iqtisadi, həm də siyasi proseslər əsasında baş verən təkamülünə böyük diqqət yetirərək iqtisadi inteqrasiyanın dövlətin iqtisadi işlərdə daha intensiv iştirakına apardığını iddia edirdi. 1960-cı illərin ortalarında korporasionalizm istiqaməti meydana gəldi. Bu istiqamətin nümayəndələri - Amerika iqtisadçıları Sidney Veytraub (*1914-1983*) və Yujin Viktor Debes Rostou (*1913-2002*) inteqrasiyanın yeni qolunu aşkar etdilər. Onlar hesab edirdilər ki, bazar mexanizminin və dövlət tənzimlənməsinin əksinə olaraq, TMŞ-lərin fəaliyyəti beynəlxalq iqtisadiyyatın inteqrasiyasını, onun səmərəli və balanslaşdırılmış inkişafını təmin etməyə qadirdir.

Strukturalizmin nümayəndələri İsveç iqtisadçısı Q.Myurdal və başqaları inteqrasiya məkanında malların, kapitalın və işçi qüvvəsinin hərəkətinin tam liberallaşdırılması ideyasına tənqidi yanaşdılar. Onlar hesab edirdilər ki, bazar mexanizminin azad fəaliyyəti istehsalın yerləşdirilməsində və inkişafında müəyyən disproporsiyalara, gəlirlərdə qeyri-bərabərliyin dərinləşməsinə səbəb ola bilər. İqtisadi inteqrasiya onlar tərəfindən inteqrasiya edən ölkələrin iqtisadiyyatda struktur islahatlarının dərin prosesi kimi nəzərdən keçirilirdi ki, bunun nəticəsində keyfiyyətcə yeni inteqrə edilmiş məkan, daha mükəmməl təsərrüfat orqanizmi meydana gəlir. Onların fikrincə, inteqrasiyanın inkişaf qütbləri iri firmalar, sənaye şirkətləri, bütöv sənaye sahələridir.

1970-ci illərdə neokeynsçilik ideyaları geniş yayılmışdı. Onun nümayəndələri - Amerika iqtisadçısı Riçard Kuper (*1893-1947*) və başqaları hesab edirdilər ki, beynəlxalq iqtisadi əməkdaşlığın mərkəzi problemi geniş beynəlxalq iqtisadi qarşılıqlı təsirin çoxcəhətli faydalarını məhdudiyyətlərdən və eyni zamanda, hər bir ölkə üçün maksimum azadlıq dərəcəsini saxlamaqdan ibarətdir. Neokeynsçilər beynəlxalq inteqrasiyanın iki mümkün inkişaf variantını irəli sürmüşdülər:

Birincisi, sonradan milli azadlığı itirməklə, lakin iqtisadi məqsədlərin və siyasətin mütləq razılaşdırılması. İkincisi, daha çox milli muxtariyyət saxlanılmaq şərti ilə inteqrasiya. Bu variantlardan birinin təmiz halda veriləcəyini nəzərdə tutaraq, onların inteqrasiya edən tərəflərin daxili və xarici təsərrüfat siyasətinin razılaşdırılması yolu ilə optimal birləşməsini zəruri hesab edirdilər.

Neokeynsçilik istiqamətinin növlərindən biri də dirijizmdir. Onun nəzəriyyəçiləri də, həmçinin, inteqrasiya proseslərində bazar mexanizmini rədd edir və düşünürdülər ki, beynəlxalq iqtisadi strukturların yaradılması və fəaliyyəti inteqrasiya edən tərəflər arasında ümumi iqtisadi siyasət, sosial qanunvericiliyin razılaşdırılması, kredit siyasətinin koordinasiyası əsasında mümkündür. İqtisadi fikrin bu istiqaməti holland alim Y.Tinbergen tərəfindən təqdim edilmişdir. Beynəlxalq iqtisadi inteqrasiya nəzəriyyəsinin inkişafında başqa iqtisadçıların da böyük rolu olmuşdur.

Hazırda Aİ-nin genişlənməsi ilə əlaqədar olaraq ona yeni ölkələrin daxil olması hesabına Avropa inteqrasiyasının gələcək inkişafının dərinləşməsi yolu ilə bir sıra modellər işlənib hazırlanmışdır ki, onların arasında “pilləli inteqrasiya”, “konsentrik

dairələrin Avropası", "differensial inteqrasiya"modelləri fərqlənir. İlk iki modelin əsasında Aİ-də daha inkişaf etmiş ölkələrdən "özək" yaradılması ideyası durur ki, onun ətrafında daha dayaz inteqrasiyalı ölkələr "dairə"si formalaşır.

"Differensasiyalı inteqrasiya" modeli ondan irəli gəlir ki, Aİ-nin coğrafi genişlənməsi inteqrasiya konsepsiyasını dəyişməlidir və inteqrasiya proseslərinin müxtəlif ölkələr üzrə sürətinin differensiasiyasını nəzərdə tutur. "Pilləli inteqrasiya" kimi, "differensial inteqrasiya" da inteqrasiya proseslərinin dərinləşməsi məqsədini güdür, lakin bu zaman müqavilələrin bağlanması zəruriliyini və vaxt məhdudiyyətini istisna edir. Həmçinin, müxtəlif iştirakçılar tərkibi ilə "özək" yaradılması da nəzərdə tutulur.

## 4.8. Transmilliləşmə prosesi və transmilli şirkətlər

Transmilliləşmə (*transnationalization*) özəl firmaların səviyyəsində həyata keçirilən dövlətlərarası inteqrasiyanı əks etdirir. Bu zaman kapital izafi çoxluqlu ölkədən onun defisiti olan ölkəyə hərəkət edir. Özəl kapitalların beynəlxalq əlaqələri transmilli şirkətlərin - TMŞ fəaliyyətində öz təşkilati ifadəsini tapmışdır. Bunlara ana şirkətlərini və onların xarici filiallarını özünə daxil edən təsərrüfat strukturlarını şamil edirlər.

Transmilliləşmə kapitalın izafi olduğu ölkədən onun defistinin yaşandığı ölkəyə yerdəyişməsi ilə xarakterikdir. Bu zaman kapital defisiti olan ölkə digər istehsal amillərinin - torpaq (*land*), əmək (*labor*), faydalı qazıntılar (*useful resources*) izafiliyinə malikdir. Lakin kapital çatışmamazlığı ilə onlardan təkrar istehsal proseslərində səmərəli istifadə edə bilmir. Təsərrüfat həyatının transmilliləşməsi dünya iqtisadiyyatında transmilli şirkətlərin (*TMŞ*) və transmilli bankların (*TMB*) rolunun artmasında özünü göstərir.

Transmilliləşmə prosesi müasir dünya təsərrüfatının fenomeni kimi obyektiv əsaslara malikdir. Kapitalın transmilliləşməsi ilə sənaye şirkətləri, banklar, xidmət sferası kompaniyaları milli sərhədlərini aşaraq fəaliyyətlərini beynəlmiləlləşdirirlər. Kapitalın transmilliləşməsi prosesi üçün digər ölkələrin şirkətlərini öz kapitalı ilə inhisara almaq, müştərək müəssisə yaratmaq, xarici banklardan maliyyə vəsaitləri cəlb etmək və uzunmüddətli möhkəm əlaqələr yaratmaq xarakterikdir.

Transmilliləşmə prosesinində əhəmiyyətli rol TMŞ-lərin üzərinə düşür. TMŞ-lər bir neçə ölkədə fəaliyyət göstərən konqlamerant, çoxmilli, multinasional, transnasional, qlobal korporativ xüsusi nəhəng beynəlxalq iqtisadi qurumlardır. İlk TMŞ-lər XIX əsrin sonu - XX əsrin əvvələrində iri inhisarların kapital ixracı bazası əsasında xaricdə istehsal filiallarının yaradılması ilə təşəkkül tapmışdır. XX əsrin sonunda isə TMŞ-lər beynəlxalq iqtisadi münasibətlər sistemində daha mühüm rol oynamağa başlamışlar.

Transmilli strukturlar milli iqtisadiyyatları coğrafi əlamətə görə (*sərhədlərin ümumiliyi*) deyil, dərin təkrar istehsal əlaqələrinə görə birləşdirir. Milli trest və xeyli xarici aktivləri və özəl kapitalların birləşməsi əsasında yaranmış firmalararası ittifaqları olan konsern TMŞ-lər fərqləndirilirlər. Bunlara misal kimi Rusiyanın "LUKoyl", "Qazprom", "AvtoVAZ", "İnqosstrax" və digər TMŞ-ləri göstərmək olar. Dünyanın

bir çox ölkələrində onların artmasına təsərrüfat həyatının sürətli beynəlmiləlləşməsi və liberallaşdırılması, rabitə və informasiya vasitələrində köklü dəyişikliklər kömək edir ki, bunlar da ana şirkətlərin mənzil-qərargahlarına onların xarici ölkələrdəki filiallarına gündəlik nəzarət etməyə imkan verir. Hazırda TMŞ-lər dünya ÜDM-nin $^1/_5$ hssəsinə nəzarət edir, ana şirkətlər və onların xarici ölkələrdəki filialları arasında ticarətin üzərinə isə dünya ticarətinin $^1/_3$ hissəsi düşür.

Hazlırda TMŞ-lər dünya sənaye istehsalının 50%-ni təmin edirlər. Dünya ticarətinin 70%-i onların payına düşür ki, bu ticarətin də 40%-i TMŞ-lərin daxilində baş verir. Yəni bu ticarət bazar təzyiqi ilə yaranan bazar qiymətləri ilə deyil, ana korporasiyanın uzunmüddətli siyasətinin nəticəsi olan transfert qiymətlərlə (*firmadaxaili qiymətlərlər*) həyata keçirilir. İri TMŞ-lər bir sıra ölkələrin büdcələrindən belə nəhəng büdcəyə malik olurlar. Statistika göstərir ki, hazırda dünyada 30 min TMŞ və onların 300 min filialı fəaliyyət göstərir. Dünyanın 100 iri iqtisadiyyatının yarıdan çoxu TMŞ-lərə, qalanları isə ölkələrə məxsusdur.

TMŞ-lər qloballaşma prosesində mühüm rol oynayırlar. Belə ki, hazırda dünya bazarının inkişaf ssenarisi iki başlıca amildən - TMŞ-lərin dünya iqtisadiyyatına nəzarət səviyyəsindən və onların yarandığı ölkələr arasında əlaqənin intensivliyindən aslıdır.

TMŞ-lərin dünya elmi-tədqiqat və təcrübə-sınaq işləmələrindəki rolu olduqca yüksəkdir. Faiz ölçüsündə bu 80%-dən artıqdır. TMŞ-lər müasir zamanda həmçinin, qeydə alınmış patenlərin də 80%-nə sahibdirlər.

TMŞ-lər yalnız istehsal şirkətləri kimi deyil, həm də transmilli banklar, telekommunikasiya şirkətləri, auditor və sığorta kompaniyaları, invesitisiya və pensiya fondları qismində də fəaliyyət göstərirlər.

TMŞ-lərin strateji quruluş və missiyası belədir ki, bu şirkətlər hər hansı bir dövlətin ərazisində işləməklərinə baxmayaraq, investisiya qoyuluşları üzrə lazımi olan əsas mümkün texnologiyaları və xidmətləri, ilk növbədə, məxsus olduqları ana ölkələr və qismən də dayanıqlı müttəfiqləri və partnyorları vasitəsi ilə təmin edirlər.

Dünyanın liberal düzümündə TMŞ-lər və onları yaradan ölkələr arasında sıx əlaqələrin saxlandığı təqdirdə "İmperialist modelin" yaranması ehtimalı böyükdür. Bu cəhət inkişaf etmiş ölkələrin nisbətən zəif inkişaf etmiş ölkələrə TMŞ-lər vasitəsi ilə təsir etməsində özünü göstərir. Belə ki, TMŞ-lər yaradan ölkələrlə onlar arasındakı əlaqələrin zəifləcəyi təqdirdə dünyanın bölgüsündə nəhəng TMŞ-lərin birbaşa hakimlik modeli formalaşr. TMŞ-lərin öz ana ölkələri ilə rabitəsinin saxlanılması və eyni zamanda, dünya qaydalarının tənzimlənməsi perspektivində isə ölkələrin xarici iqtisadi əlaqələrdən maksimal mənfəət əldə etməsi neomerkantilist modeli gerçəkləşəcəkdir. Əgər dünya qaydalarının ümumi tənzimlənməsi reallığa çevrilirsə, TMŞ-lərin ana ölkələrlə əlaqəsi zəifləyə də bilər. Belə olan təqdirdə dünya iqtisadiyyatını koordinasiya edən "çoxmilli assosiasiyalar" qaydası yaranar ki, bu da dünya iqtisadiyyatının müvafiq beynəlxalq təşkilatlar tərəfindən səmərəli bazar mexanizmləri vasitəsilə tənzimlənməsini reallaşdırar.

Hazırda TMŞ-lərin nəhəng birliyi - "500-lər Klubu" dünya ÜDM istehsalının 25-28%-ni, ticarətin 55-60%-dən çoxunu nəzarətdə saxlayır. Müasir mərhələdə TMŞ-lərdə

ərazi diversifikasiyası güclü inkişaf etmiş çoxminli filiallar şəbəkəsi yaradılmış və onlar öz gəlirlərinin 70-80%-ni ana ölkələrdən kənarda əldə etməkdədirlər. Beləliklə, milli kapitalın fəaliyyətinin beynəlmiləlləşməsinin əvəzinə transmilli kapitalın maraqlarının qloballaşması gəlmişdir.

Bundan başqa, milli iqtisadiyyatla bağlı olmayan digər tipli xarici müəssisələr də mövcuddur. Bu sırada "Müstəqil sənayelər" adlanan kateqoriya fərqləndirilir. Müstəqil sənayelər, sərbəst sektorlar (*footloose industries*) azad sənaye üçün ümumi termin: tipik yerləşməyə malik olmayan və satış bazarları və ya istehsal amillərinin yerləşdiyi yerlərə meyil göstərməyən azad sənəye sahələridir. Onlar az işçi qüvvəsi və üstün ekoloji effektivliyə malikdirlər və istənilən müxtəlif məkanlarda yerləşə bilərlər.

## 4.9. Azərbaycan beynəlxalq əmək bölgüsü sistemində: xarici iqtisadi inteqrasiyanın dərinləşməsi perspektivləri

Azərbaycanın əlverişli coğrafi mövqeyi, Xəzərdə müvafiq sektorial sahəyə malikliyi, miqyaslı təbii sərvətləri, yeniləşən və genişlənən infrastruktur kompleksi və nəqliyyat-kommunikasiya sistemi, tranzit imkanlığı, artan insan kapitalı və digər iqtisadi resursları onun güclənən iqtisadi potensialının əsasında dayanır. Neft və qaz resurslarından səmərəli istifadə etməklə ölkədə avtonom fəaliyyətli məhsuldar və dayanıqlı qeyri-neft sektorunun formalaşdırılması, sənayeləşmənin genişlənməsi və modernləşdirilməsi, aqrar sahənin hərtərəfli stimullaşdırılması, infrastruktur yenidənqurması, regional bərabərsizliyin aradan qaldırılması, ixracın artırılması və diversifikasiyası, bununla da yüksək sosial təminatlı həyat səviyyəsinə nail olunması, müasir Azərbaycan iqtisadi siyasətinin əsas istiqamətlərini təşkil edir. Bütün bunlar isə ona çevik inkişaf strategiyalı optimal xarici iqtisadi siyasət aparmağa və beynəlxalq əmək bölgüsündə fəal iştirak etməyə geniş imkanlar yaradır.

Azərbaycanda 2009-cu ildən bazar iqtisadiyyatına keçid prosesinin başa çatması ölkənin sosial-iqtisadi inkişafını keyfiyyətcə yeni mərhələyə çıxarmışdır. Aparılan iqtisadi islahatlar nəticəsində qeyri-neft sektorunda artımlar neft sektorunu üstələyir. Sahibkarlığın davamlı inkişafı, biznes və investisiya mühitinin yaxşılaşdırılması ilə özəl sektorun ölkə iqtisadiyyatında payı 85%-ə qədər yüksəlmişdir.

Azərbaycanın iqtisadi qüdrəti və dünyada geosiyasi əhəmiyyəti artmaqda davam edir. Hazırda Azərbaycanın beynəlxalq əmək bölgüsü sistemində iştirakı xarici ticarət, iqtisadi, elmi-texniki əməkdaşlıq və ixtisaslaşmış müəssisələrarası istehsal kooperasiyasında çıxış edən xarici iqtisadi əlaqələrin bütün formalarından genişliklə istifadədə öz əksini tapır. Bu əlaqələrdə, ənənəvi olaraq, yenə də xarici ticarət əhəmiyyətli yeri tutur. Bu əhəmiyyətliliyi ölkənin ixrac potensialını səciyyələndirən neft-qaz, elektrik enerjisi, kimya, İKT və kənd təsərrüfatı məhsulları, metallurgiya və tikinti sənayesi malları, incəsənət əsərləri və antikvariat qaynaqlandırır.

Azərbaycanın xarici iqtisadi əlaqələr qurduğu ölkələrin coğrafiyası genişlənir, onun əmtəə strukturu təkmilləşir. Qətiyyətlə demək olar ki, hazırda respublikanın dünyanın əksər ölkələri ilə iqtisadi əlaqələri mövcuddur. Yeni tarixdə Azərbaycan hökuməti ilə

xarici dövlətlər arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında 50-yə yaxın saziş imzalanmışdır.

Azərbaycanın xarici iqtisadi inteqrasiyasının dərinləşməsində, təbii olaraq, qardaş Türkiyə ilə qarşılıqlı münasibətlər əhəmiyyətli səviyyədə qərar tutur. Qeyri-neft sektoruna birbaşa xarici sərmayələr üzrə ən böyük investor ölkə Türkiyədir. Bununla belə, artıq Azərbaycan da Türkiyənin iqtisadiyyatına böyük həcmli sərmayələr qoyur. Türkiyə ilə yanaşı Böyük Bitaniya, ABŞ və Yaponiya da Azərbaycana xarici investisiya qismində çoxmilyardlıq vəsait yatırmışlar. Hazırda ölkədə minlərlə xarici investisiyalı müəssisə fəaliyyət göstərir. Xarici şirkətlər, eyni zamanda, Azərbaycanda dövlət əsaslı vəsaiti hesabına həyata keçirilən infrastruktur və digər layihələrdə podratçı və subpodratçı qismində fəal iştirak edirlər.

Davamlı iqtisadi inkişaf, maliyyə imkanlarının artması, özəl sektorun inkişafı Azərbaycanın əmək bölgüsü sistemində əhəmiyyətini artıraraq onu həm də investisiya ixracatçısına çevirmişdir. Hazırda Türkiyə ilə yanaşı Gürcüstan, Rusiya, Monteneqro, Serbiya, İsveçrə və digər ölkələrə əhəmiyyətli həcmlərdə investisiyalar yatırılmışdır. Azərbaycan şirkətlərinin potensialı və peşəkarlığı da xeyli artmışdır. Bir sıra ölkələrdə, o cümlədən Avropada mühüm infrastruktur layihələrinin icrasında respublikanın özəl şirkətləri aktiv fəaliyyət göstərməyə başlamışdır. Bu işlərin aparılmasında Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu - AZPROMO-nun rolu böyükdür. Bu təsisat tərəfindən hər il xarici ölkələrdə Azərbaycanın investisiya mühitinin tanıdılması, xaricə ixracın təşviqi ilə əlaqədar çoxsaylı biznes forum, sərgi, konfrans və digər işgüzar tədbirlər həyata keçirilir.

Azərbaycan beynəlxalq təşkilatlar, o cümlədən BMT, Aİ, İƏT, MDB və digərləri ilə sıx əməkdaşlıq edir. Xarici ticarət əlaqələrində Aİ ölkələri xüsusi yer tutur və onların bu dövriyyədəki payı 40-45%-ə yaxındır. Bu sırada İtaliya ilə əmtəə dövriyyəsi ən yüksək pillədə qərar tutur.

Qeyri-neft ixracı üzrə Azərbaycanın əsas tərəfdaşı MDB ölkələri, xüsusilə də, Rusiyadır. Azərbaycanın qeyri-neft ixracının 40%-dən çoxu bu dövlətlərin payına düşür. Azərbaycan, Ermənistan istisna olmaqla, MDB-nin bütün üzv dövlətləri ilə sərbəst ticarət sazişləri imzalamışdır. Bununla yanaşı, Yaxın Şərq, Asiya, Amerika ölkələri ilə də əməkdaşlıq genişlənir və bu regionlarla iqtisadi əlaqələrin inkişaf etdirilməsi daim diqqət mərkəzində saxlanılır.

Çoxtərəfli beynəlxalq əlaqələr formatında Azərbaycan üçün əhəmiyyətli qurumlardan biri kimi Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası çıxış edir. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının üzv dövlətlərinin investisiyaları hesabına Azərbaycanda 3 minə yaxın müəssisə yaradılmışdır. Bu, ölkədə fəaliyyət göstərən xarici investisiyalı şirkətlərin orta hesabla 40%-i həcmindəddir. Eyni zamanda, bu dövlətlər Azərbaycanın qeyri-neft sektorunda ikinci böyük xarici investordur.

Beynəlxalq əmək bölgüsü sistemində möhkəmlənmək məqsədi ilə Azərbaycan beynəlxalq maliyyə institutları ilə də sıx əməkdaşlıq aparır. Nəqliyyat, su təchizatı, ka-

nalizasiya, enerji, kənd təsərrüfatı, maliyyə, ekologiya və digər sahələrdə iri tutumlu çoxsaylı layihələr icra olunur. Ölkənin kredit portfelində DB, Asiya İnkişaf Bankı, AYİB və İİB əhəmiyyətli paya malikdir.

Azərbaycan beynəlxalq donor təşkilatları ilə də fəal əməkdaşlığı davam etdirir. Həmin təşkilatlarla birlikdə idarəetmə, ədliyyə, kənd təsərrüfatı, regional inkişaf, nəqliyyat, su təchizatı və digər sahələrdə dəyəri milyonlarla ABŞ dolları həcmində ölçülən layihələri həyata keçirir.

Ölkənin iqtisadi təhlükəsizliyi, inkişaf perspektivləri indiki mərhələdə daha çox neft-qaz sənayesinə, onun potensial gücünə bağlıdır. Maliyyə riskinin nisbi mülayim məkanı kimi, böyük investisiya təminatlı energetika sektorunun özünün də müvafiq sahədə istəkləri olduqca yetərlidir. Vurğulandığı kimi, Azərbaycanın neft-qaz sektorunda aparıcı funksiyanı SOCAR yerinə yetirir. Bu nəhəng dövlət şirkəti müvafiq istehsal gücləri, inkişaf etmiş xidmət sektoru, böyük elmi və texniki potensialı ilə ölkə iqtisadiyyatına güc verir. O, ölkənin neft və neft məhsullarına olan tələbatını ödəməklə yanaşı özünün geniş ixrac potensialı ilə də fərqlənir. SOCAR Şimali Amerika, Asiya və Avstraliya regionları daxil olmaqla, bir sıra qeyri-ənənəvi istehlak bazarlarına Azərbaycan neftini çıxarır. Onun Aralıq dənizi bazarı hüdudlarından kənarda satılan həcmi son 10 il ərzində 3 dəfə artaraq 45%-ə qədər yüksəlmişdir. Asiya bazarlarına da təchiz olunan Azərbaycan nefti SOCAR-ın ümumi ixrac həcmlərinin 24%-ni təşkil etməkdədir.

Ölkədə enerji təhlükəsizliyi ilə bağlı problem tam həllini tapmış, iqtisadi təhlükəsizliyin digər substansiyaları üzrə təminatlar maksimallaşdırılmışdır. Son dövrlərdə müasir tipli 30-dan çox yeni elektrik stansiyası tikilib istifadəyə verilmiş, daxili qazlaşma səviyyəsi 95%-i ötmüşdür. Bununla belə, ölkədə alternativ və bərpa olunan enerji mənbələrinin istifadəsinin genişləndirilməsi üçün zəruri tədbirlər həyata keçirilməkdədir. İndi Azərbaycan enerji idxalçısı olan ölkədən, onun potensiallı ixracatçısına, eyni zamanda, Avropanın bir sıra ölkələrinin enerji təhlükəsizliyinin təminatının fəal iştirakçısına çevrilmişdir. Hər gün neft və qaz satışından ölkənin daxili valyuta bazarına böyük həcmdə pul vəsaiti daxil olur. Bunun nəticəsidir ki, Azərbaycanın valyuta ehtiyatları artaraq 45 milyard ABŞ dollarını ötüb keçmişdir. Hökumət xarici valyutanın alqı-satqısında inhisarçılıqdan imtina edərək bu funksiyanı özəl sektorla - kommersiya bankları ilə bölüşmüşdür. Maliyyə resurslarının artması konstruktiv borclanma siyasəti, böhranlara qarşı davamlılıq ölkənin uğurlu sosial-iqtisadi persvektivliyini əsaslandırır. Böyük təbii və insan resurslarına malik ölkədə pul-kredit siyasətinin təkmilləşdirilməsi, inhisar səviyyəsinin minimallaşdırılması, rəqabət qabiliyyətinin artırılması istiqamətində mühüm işlər həyata keçirilir.

Hazırda ölkədə yerli məhsulların xaricə, o cümlədən qeyri-ənənəvi bazarlara ixracının genişləndirilməsi məqsədilə zəruri tədbirlər görülür. Bu sırada dövlət dəstəyi ilə potensial ixrac ölkələrində logistik mərkəzlərin yaradılması üzrə işlər də əhəmiyyət daşıyır. Artıq Qazaxıstanın Aktau şəhərində logistik mərkəzin tikintisinə başlanmışdır.

Bununla yanaşı, qarşılıqlı investisiya fəaliyyətinin təşviq edilməsi istiqamətində işlər daha da gücləndirilir. Bu, ilk növbədə, investorlar üçün mühüm olan investisiyaların qarşılıqlı qorunmasını, təşviqini, eləcə də ikiqat vergitutmanın aradan qaldırılmasını nəzərdə tutan hüquq-müqavilə bazasının yaradılması işlərini əhatə edir. Paralel olaraq, prioritet istiqamətlərə, xüsusilə, sənaye parklarına, kənd təsərrüfatına, İKT, turizm və digər sahələrə xarici investisiyaların cəlb olunması və bu sahələrə yeni texnologiyaların və rəqabətqabiliyyətli idarəetmə sistemlərinin tətbiq edilməsi istiqamətində işlər aparılır.

Azərbaycan iqtisadi potensialını daim artırır. Bu istiqamətdə dövlət tərəfindən çoxsaylı proqramlar həyata keçirilir. Ölkənin perspektiv inkişaf hədəflərini və istiqamətlərini müəyyənləşdirmək, onların gerçəkləşdirilməsini təmin etmək məqsədilə dövlət başçısı tərəfindən "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri" adlı çoxşaxəli konseptual proqram reallaşdırılır.

İqtisadi həyatın beynəlmiləlləşməsi, Azərbaycanın müasir dünya ilə inteqrasiyasının bütün istiqamətləri yeni imkanlar açmaqla yanaşı, yeni problem və çətinliklər, bəzən isə təhlükələr yaratmaqdadır. Bu imkanlardan səmərəli istifadə edilməsi, mövcud problem və təhlükələrin vaxtında aşkara çıxarılıb öyrənilməsi və aradan qaldırılması həyati əhəmiyyət kəsb edən məsələlərdir. Bütün çətinliklərə baxmayaraq Azərbaycan xarici aləmlə öz inteqrasiyasını dərinləşdirir. Bu həm də ondan irəli gəlir ki, inteqrasiya prosesləri milli iqtisadiyyatın çoxşaxəli inkişafını təmin etmək üçün böyük üstünlüklər yaradır. Hazırda Azərbaycan, demək olar ki, bütün nüfuzlu beynəlxalq qurumlara inteqrasiya olunmuşdur. Ən böyük hədəf isə Aİ-yə tam bərabərhüquqlu üzvülükdür.

***Əsas anlayışlar:***

**1. Beynəlxalq əmək bölgüsü** - ayrı-ayrı ölkələrin müəyyən məhsul istehsalı üzrə ixtisaslaşmasını ehtiva edən ərazi ictimai əmək bölgüsünün ali formasıdır.

**2. Beynəlxalq əmək bölgüsünün müasir nəzəriyyələri** - beynəlxalq əmək bölgüsünün modernləşməsi və effektivliyi istiqmətində müstəqillik, asılılıq, qarşılıqlı asılılıq, alternativ xərclər və s. müvafiq mütərəqqi konsepsiyaları əhatə edir.

**3. Məhsulun həyat dövrü** - hər hansı bir məhsulun cəmiyyət tərəfindən tələbinin müəyyən olunması anından onun istehlakı və utilizasiyası anınadək yerinə yetirilən proseslərin məcmusudur.

**4. Beynəlxalq iqtisadi əməkdaşlıq** - tərəflərin müstəqilliyi, bərabərliyi və qarşılıqlı faydalılığı prinsipləri əsasında ayrı-ayrı ölkələr və ölkə qrupları arasında çoxnövlü iqtisadi və elmi-texniki əlaqələrin inkişafının obyektiv prosesi.

**5. Ölkələrin beynəlxalq əmək bölgüsündə iştirakına təsir edən amillər** - ölkənin daxili bazarının həcmi, ölkənin iqtisadi inkişaf səviyyəsi, ölkənin təbii resurslarla təminatlılığı, ölkə iqtisadiyyatı strukturunda sənayenin baza sahələrinin xüsusi çəkisidir.

**6. İdxal, import -** xaricdən alınaraq ölkəyə gətrilən əmtəə və xidmətlərdir.

**7. İxrac, eksport** - beynəlxalq ticarətin tərkib hissəsi olaraq əmtəələrin xaricə

göndərişidir.

**8. Beynəlxalq əmək bölgüsünün ölçülməsi göstəriciləri** - istehsal edilmiş məhsulun ümumi həcmində ixracın xüsusi çəkisi, ixracın ümumi dəyərində sahənin xüsusi çəkisi, ölkənin bütün sənayesinin artım sürəti ilə müqayisədə ixrac ixtisaslaşması sahələrinin artım sürətidir.

**9. Beynəlxalq əmək bölgüsündə ölkənin iştirakını xarakterizə edən göstəricilər** - A qrupu: ixrac-idxal əməliyyatları nəzərə alınmaqla beynəlxalq əmək bölgüsünün inkişaf səviyyəsi və B qrupu: beynəlxalq regionun ixrac əməliyyatları nəzərə alınmaqla ayrı-ayrı ölkələrin xarici iqtisadi əlaqələri sistemində yeridir.

**10. Dünya iqtisadiyyatının sahə quruluşu** - sənaye, kənd təsərrüfatı, tikinti, istehsal infrastrukturu və xidmətlər sferası - qeyri-istehsal infrastrukturundan ibarətdir.

**11. Sənaye** - maddi istehsalın aparıcı sahəsi, xammal və material hasilatı, emalı, əmək vasitələri, maşın və avadanlıqlar, enerji istehsalı müəssisələri məcmusudur.

**12. Beynəlxalq iqtisadi inteqrasiya** - milli təsərrüfatlar arasında dərin dayanıqlı qarşılıqlı əlaqələrin inkişafı və beynəlxalq əmək bölgüsü əsasında ölkələrin təsərrüfat və siyasi cəhətdən birləşməsi prosesidir.

**13. Preferensial zona** - qarşılıqlı ticarət əsasında gətirilən əmtəələr üzrə gömrük rüsumlarının azaldılması və ya tətbiq edilməməsi ilə müşayiət edilən ölkələrarası inteqrasiyanın bəsit formasıdır.

**14. Azad ticarət zonası** - beynəlxalq müqavilə əsasında üzv ölkələr arasında gömrük rüsumlarının, vergi və yığımların, həmçinin, qarşılıqlı ticarət zamanı kəmiyyət məhdudiyyətlərinin aradan götürüldüyü beynəlxalq inteqrasiya formasıdır.

**15. Gömrük İttifaqı -** dövlətlərarası sazişə uyğun olaraq iki və daha çox ölkə arasında gömrük sərhədləri və rüsumlarının aradan qaldırıldığı və üçüncü ölkələr üçün vahid gömrük tarifinin tətbiqi ilə ümumi xarici ticarət siyasətinin aparıldığını nəzərdə tutan azad ticarət zonasında yüksək olan beynəlxalq inteqrasiya tipidir.

**16. Ümumi bazar** - əmtəələrin, işlərin və xidmətlərin, eləcə də ümumi bazarın üzvü olan ölkələrin sərhədlərindən istehsal amillərinin - kapitalın, əmək resurslarının sərbəst hərəkətini nəzərdə tutan ölkələrin iqtisadi inteqrasiyasının formasıdır.

**17. İqtisadi ittifaq** ticarət bloku yaratmaqla gömrük ittifaqı, ümumi bazar inteqrasiyaları ilə yanaşı, həm də fiksal və monetar siyasətin harmonikləşməsi üzrə sazişləri özündə əks etdirən beynəlxalq inteqrasiya tipidir.

**18. İqtisadi və valyuta ittifaqı** - bütün mövcud beynəlxalq inteqrasiya formalarını birləşdirərək işçi qüvvəsinin, əmtəə və xidmətlərin azad hərəkəti, ümumi iqtisadi, sosial, fiksial və monetar siyasətin aparılması ilə xarakterik olan dövlətlərarası iqtisadi inteqrasiyanın ali formasıdır.

**19. Tam inteqrasiya** - siyasi təsisatların da yaradılması, idarəetmənin üstdövlət orqanlarının qurulması, dövlət sərhədlərinin ləğv edilməsi və digər bu kimi vahid ümumiliklərlə şərtlənən dövlətlərarası inteqrasiya tipidir.

**20. Regional iqtisadi birlik** - beynəlxalq iqtisadi sferada tədricən təsərrüfatlarını

yaxınlaşdırmaq və təsərrüfat mexanizlərini dəyişdirmək yolu ilə birləşməni qarşılarına məqsəd qoymuş dövlətlərarası iqtisadi təsisatdır.

**21. Miqyas effekti** - istehsal resursları həcmi ilə onlardan istehsal olunmuş məhsulun miqdarı arasında qarşılıqlı əlaqədir.

**22. Miqyas qeyri-effekti** - miqyasın, fəaliyyət həcminin artması və genişlənməsi iqtisadi effektivliyin azalmasıdır.

**23. Allokasiya** - siyasi iqtisadda - verilmiş məqsədlərə uyğun olaraq məhdud (*qıt, cüzi*) resursların bölüşdürülməsi, sosiologiyada - sistemin optimal fəaliyyət göstərməsi üçün onun müxtəlif sferalarına resursların (*kapital, kadrlar, təhsil, ixtisas və s.*) bölüşdürülməsinin makrosistemli mexanizmidir.

**24. Ticarət və allokasiya effekti** - inteqrasiya nəticəsində ticarətin əmtəə və coğrafi strukturun dəyişməsi ilə yaranan effektdir.

**25. Beynəlxalq iqtisadi inteqrasiyanın məqsədlərini** - istehsal həcmlərinin artırılması, təhciz edilən əmtəə və xidmətlər nomenklaturasının genişləndirilməsi, iqtisadiyyatın üstünlüklərinin miqyaslı reallaşdırılması, əlverişli xarici iqtisadi mühit formalaşdırılması, ticarət siyasəti məsələlərinin həlli, milli iqtisadiyyatların struktur yenidənqurmasına kömək göstərilməsi, sənayenin, kənd təsərrüfatının və xidmətlər sferasının ayrıca sahələrinin dəstəklənməsi kimi məqsədlər çevrəsi əhatə edir.

**26. Beynəlxalq iqtisadi inteqrasiyanın amilləri** - təsərrüfat həyatının qloballaşması, beynəlxalq əmək bölgüsünün dərinləşməsi, ümumdünya ETT, milli iqtisadiyyatların şəffaflığının yüksəldilməsindən ibarətdir.

**27. Beynəlxalq iqtisadi inteqrasiya nəzəriyyələri** - neoliberalizm, korporasionalizm, strukturalizm, neokeynsçilik, dirijist və s. istiqamətləri əhatə edir.

**28. Transmilliləşmə** - kapital izafi çoxluqlu ölkədən onun defisiti olan ölkəyə hərəkət etməsi ilə müşayiət olunan özəl firmaların səviyyəsində həyata keçirilən dövlətlərarası inteqrasiya formasıdır.

**29. Müstəqil sənayelər, sərbəst sektorlar** - tipik yerləşməyə malik olmayan və satış bazarları və ya istehsal amillərinin yerləşdiyi yerlərə meyil göstərməyən azad sənaye sahələridirlər.

**30. Azərbaycan iqtisadi siyasətinin əsas istiqamətləri** - neft və qaz resurslarından səmərəli istifadə etməklə ölkədə avtonom fəaliyyətli məhsuldar və dayanıqlı qeyri-neft sektorunun formalaşdırılması, sənayeləşmənin genişlənməsi və modernizasiyası, aqrar sahənin hərtərəfli stimullaşdırılması, infrastruktur yenidənqurması, regionlar arasında bərabərsizliyin aradan qaldırılması, ixrac potensialının artırılması və diversifikasiyası, bununla da yüksək sosial təminatlı həyat səviyyəsinə nail olunmasını ehtiva edir.

**31. Azərbaycanın beynəlxalq əmək bölgüsü sistemində iştirakı** - xarici ticarət, elmi-texniki, müştərək müəssisələrin yaradılması, beynəlxalq kooperasiyanın inkişafı, ayrı-ayrı ölkələrin, regionların enerji təhlükəsizliyinin möhkəmləndirilməsi, beynəlxalq nəqliyyat-kommunikasiyaların genişləndirilməsi, tranzit potensial, kapital qoyuluşları, mədəni əlaqələr və s. ilə təmin olunur.

# II HİSSƏ

# Dünya iqtisadiyyatının təsnifat quruluşu və qlobal inkişaf problemləri

# V FƏSİL

# Dünya iqtisadiyyatının təsnifat quruluşu. Dünyanın kontinental və makroregional bölgüsü

## 5.1. Əsas dövlət tipləri, dünya ölkələrinin təsnifat prinsipləri

Dövlətlər beynəlxalq əmək bölgüsündə oynadıqları rola görə müxtəlif qruplara ayrılırlar. Bu rol isə istənilən vəziyyətdə unikal ola bilər.

Dövlətlərin təsnifat əlamətlərinə görə bölgüsü, əsasən, 3 qrupu ehtiva edir:

- ❒ ölkənin ölçülərinə görə;
- ❒ siyasi sistemə görə;
- ❒ iqtisadi inkişaf səviyyəsinə görə.

Ölkənin ölçüləri, başlıca olaraq, onun ərazi sahəsi və əhali sayı ilə müəyyən olunur. Ərazi sahəsi 17 milyon km$^2$-dən (*Rusiya Federasiyası*) 0,44 km$^2$-ə qədər (*Vatikan*), əhali sayı 1,3 milyard nəfərdən (*ÇXR*) 1000 nəfərə (*Vatikan*) qədər dəyişir.

Ölkələr siyasi sistemə görə də fəqləndirilirlər. Bu sistemdə ölkə qruplaşmalarını aşağıdakı kimi xarakterizə etmək olar:

İnzibati-ərazi quruluşuna görə:

- ➢ unitar;
- ➢ federativ;
- ➢ konfederativ.

İdarəetmə formasına görə:

- ➢ respublika - prezident və parlament;
- ➢ monarxiya - məhdud və mütləq.

Siyasi rejiminə görə:

- ➢ demokratik;
- ➢ avtoritar;
- ➢ totalitar.

Dünya ölkələri tipoloji baxımdan təsnifata da məruz qalır. Bu təsnifat aşğıdakı kimi səciyyələndirilir:

"I dünya" - metropoliyalar - kapitalist dünyasının mərkəzləri (*Qərbi Avropa, ABŞ, Yaponiya*);

"II dünya" - "I dünya" ölkələrinə alternativ - keçmiş sosialist düşərgəsi ölkələri;

"III dünya" - inkişaf etməkdə olan ölkələr - müxtəlif səviyyəli kapitalist əyaləti ölkələri (*dünya əhalisinin 75%-inin bu qrupa aid olmasına baxmayaraq burada dünya resurs istehlakı 20% təşkil edir*).

"IV dünya" - Afrika və Asiyanın yoxsul ölkələri.

XX əsrin 50-ci illərindən başlayaraq SSRİ-nin dağılmasına qədər ölkələrin 3 əsas qrupunu ayırmaq qəbul edilmişdi:

1) kapitalist (*ABŞ, Kanada, Yaponiya, Qərbi Avropa ölkələri, Avstraliya, Yeni Zelandiya, CAR, İsrail*);

2) sosialist (*SSRİ, Şərqi Avropa ölkələri, Kuba, Vyetnam, Monqolustan, ÇXR, KXDR*);

3) inkişaf etməkdə olan (*bütün qalan ölkələr*), bunların arasında aşağıdakılar fərqləndirilirdi:

❖ tropik Afrikanın daha geridə qalmış ölkələri;
❖ tropik Afrikanın və Cənub-Şərqi Asiyanın daha inkişaf etmiş ölkələri;
❖ sənayenin yaradılmasına meyilləri müşahidə olunan Yaxın Şərq və Şimali Afrikanın bir sıra ölkələri, həmçinin, Malayziya və Şri Lanka;
❖ "orta inkişaf etmiş kapitalizm" ölkələri (Argentina, Braziliya, Meksika, Çili, Venesuela, Filippin, Hindistan).

Dünya iqtisadiyyatında ölkələr tipologiyası iqtisadi inkişaf baxımdan da təsnifatlandırılır. Bu təsnifatlandırma aşağıdakı üç qrup ölkələri əhatə edir:

İndustrial ölkələr (*industrial countries*) - Şimali Amerika, Qərbi Avropa, Sakit Okean hövzəsinin sənayecə inkişaf etmiş 25 ölkəsi;

Keçid iqtisadiyyatı ölkələri (*economies/countries in transition*) - Şərqi Avropa və keçmiş SSRİ ölkələri - 28 sayda;

İnkişaf etməkdə olan ölkələr (*developing countries*) - Asiya, Afrika, Latın Amerikası - 132 sayda.

İqtisadi ədəbiyyatlarda iqtisadi inkişaf səviyyəsinə görə ölkə qruplaşmasının aşğıdakı təsnifatına da rast gəlinir:

❑ inkişaf etmiş ölkələr;
❑ inkişaf etməkdə olan ölkələr;
❑ yüksək inkişaf etmişlər;
❑ zəif inkişaf etmişlər.

Təbii resursları ilə ticarət hesabına nisbətən iqtisadi əlverişliliyini saxlayan bir sıra ölkələri xüsusi qrupda ayırırlar. Əsasən, bu, neft ixracatçıları ölkələri təşkilatı - OPEK dövlətləri, həmçinin, iri neft və qaz ehtiyatlarına malik olan Bruneydir.

Bir sıra böyük olmayan dövlətlər xeyli rekreasiya potensialına, istirahət, turizm və s. üçün imkanlara malikdir. Bunlara Karib hövzəsinin bir sıra ölkələri, Monako, Kipr, qismən İsveçrə aiddir.

Təsnifatın müxtəlif tiplərində, həmçinin, aşağıdakıları ayırırlar:

- ❖ köçmə kapitalizm ölkələri;
- ❖ dualist iqtisadiyyatlı ölkələr (*Braziliya, Meksika, Hindistan*);
- ❖ Avropanın mikroölkələri;
- ❖ Şərqi Asiya "pələngləri";
- ❖ yalançı inkişaf etmiş ölkələr.

Nəhayət, ayrı-ayrı dövlətlər və ya onların qrupları bu sadalanan qruplaşmalardan heç birinə daxil olmaya bilərlər. Bu halın səbəbləri aşağıdakılar ola bilər:

- ❖ özünütəcrid - "dəmir pərdə" çəkilməsi;
- ❖ başqa ölkələr tərəfindən boykot edilməsi.

Heç bir meyar mütləq universal deyil. İnkişaf etmiş ölkələrlə inkişaf etməkdə olan ölkələr arasında problemlər sərhədi bütün göstəricilər üzrə qalır.

<u>İqtisadi inkişaf səviyyəsinə görə ölkə qruplaşması</u> göstəriciləri

- ❖ mütləq göstəricilər (*ÜDM, ÜMM, MG, Sənaye istehsalının həcmi*);
- ❖ struktur göstəricilər (*iqtisadiyyatın müxtəlif sektorlarında məşğulluğun nisbəti, YEB-in strukturu, ÜDM-də enerji tutumu, nəqliyyat növləri üzrə daşımalar*);
- ❖ sosial göstəricilər (*orta uzunömürlülük, insan inkişafının inteqral indeksi, savadlılıq faizi, korrupsiyanın yayılması və kölgə iqtisadiyyatı, informatizasiya səviyyəsi*).

DB ölkələri gəlirlər həcminə görə təsnifatlandırır. Bu təsnifatlandılırma əvvəlki ilin göstəriciləri üzrə adambaşına düşən ÜMG səviyyəsinin qiymətləndirilməsinə əsaslanır. Hər il 1 iyul tarixində elan edilən nəticələr bütün DB ölkələrini və əhali sayı 30 mindən çox digər ölkələri əhatə edir.

<u>DB-nin ölkələri gəlirlər həcminə görə təsnifatlandırması</u> müvafiq göstəricilər üzrə hər il dəyişməyə məruz qala bilən meyarlar (*adambaşına düşən ÜMG-nin minimal və maksimal səviyyəsi*) əsasında aşağıdakı kateqoriyalar üzrə aparılır:

1. Aşağı gəlirli ölkələr (*low income economies*);
2. Aşağı orta gəlirli ölkələr (*lower middle income economies*);
3. Yüksək orta gəlirli ölkələr (*upper middle income economies*);
4. Yüksək gəlirli ölkələr (*high income economies*).

Hazırda BMT-yə üzv ölkələr iki təsnifat üzrə qruplaşdırılır.

I təsnifat - bütün dünya ölkələri üç tipə bölünür:

1) iqtisadiyyatı yüksək inkişaf etmiş ölkələr;
2) inkişaf etməkdə olan ölkələr;
3) keçid iqtisadiyyatlı ölkələr (*planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına*).

Üçüncü tipə, faktiki olaraq, bazar iqtisadiyyatı quruculuğu üzrə iqtisadi islahatlar həyata keçirən keçmiş sosialist ölkələri aid edilir

II təsnifat - bütün dünya ölkələri iki böyük qrupa ayrılır:

1) iqtisadi cəhətdən inkişaf etmiş ölkələr;
2) inkişaf etməkdə olan ölkələr.

Bu bölgü zamanı bir-birindən çox fərqli müxtəlif dövlətlər bir ölkələr qrupunda birləşir. Ona görə də hər bir ölkə tipi daxilində daha xırda qrupları - yarımtipləri ayırırlar.

BMT iqtisadi cəhətdən inkişaf etmiş ölkələrə 60 dövləti aid edir: buraya bütün Avropa, ABŞ, Kanada, Yaponiya, Avstraliya, Yeni Zelandiya, CAR, İsrail daxildir. Bu ölkələr üçün, bir qayda olaraq, iqtisadiyyatın yüksək inkişafı, ÜDM-də emal sənayesi sahələrinin və xidmətlər sferasının üstünlüyü, əhalinin yüksək yaşayış səviyyəsi xarakterikdir. Buna baxmayaraq, həmin qrupa, həmçinin, Rusiya, Ukrayna, Belarus, Çexiya və başqaları daxildir.

Tərkib müxtəlifliyinin nəticəsi olaraq iqtisadi cəhətdən inkişaf etmiş ölkələr bir neçə yarımtipə bölünür:

1. Əsas ölkələr - ABŞ, Yaponiya, Fransa, AFR, İtaliya, Böyük Britaniya. Bu ölkələr dünyanın bütün sənaye məhsullarının 50%-dən çoxunu və kənd təsərrüfatı məhsullarının 25%-dən çoxunu verir. Əsas ölkələri Kanada da daxil olmaqla "Böyük yeddilik ölkələri" adlandırırlar.

2. Avropanın iqtisadi cəhətdən inkişaf etmiş ölkələri - İsveçrə, Belçika, Niderland, Avstriya, Skandinaviya ölkələri və s. Bu ölkələr üçün siyasi sabitlik, əhalinin yüksək yaşayış səviyyəsi, yüksək ÜDM, adambaşına hesabla ixracın və idxalın ən yüksək göstəriciləri xarakterikdir. Əsas ölkələrdən fərqli olaraq, bu ölkələr beynəlxalq əmək bölgüsündə daha dar ixtisaslaşmaya malikdir. Onların iqtisadiyyatı xeyli dərəcədə bank işi, turizm, vasitəçi ticarət və s.-dən əldə edilən gəlirlərdən asılıdır;

3. "Köçmə kapitalizm" ölkələri - Kanada, Avstraliya, Yeni Zelandiya, CAR - Böyük Britaniyanın keçmiş müstəmləkələri və İsrail dövləti. Bu ölkələrin xarakterik xüsusiyyəti (*İsraildən başqa*) xammal və kənd təsərrüfatı məhsullarının ixracında beynəlxalq ixtisaslaşmasının saxlanmasıdır. İnkişaf etməkdə olan ölkələrdən fərqli olaraq, bu aqrar-xammal ixtisaslaşması yüksək əmək məhsuldarlığına əsaslanır və inkişaf etmiş daxili iqtisadiyyatla uzlaşır.

BMT təsnifatına görə, inkişaf etməkdə olan ölkələrə bütün qalan dünya ölkələri şamil edir. Demək olar ki, onların hamısı Asiya, Afrika və Latın Amerikasında yerləşir. Dünya əhalisinin dörddə üç hissəsindən çoxu burada yaşayır və bu ölkələr Yer kürəsində quru sahənin yarıdan çoxunu əhatə edir.  Dünya emal sənayesinin 20%-ə qədəri, kənd təsərrüfatı məhsulları istehsalının isə 30%-i onların payına düşür.

İnkişaf etməkdə olan ölkələr üçün təsərrüfatın ixraca yönümlü olması səciyyəvidir ki, bu da həmin ölkələrin milli iqtisadiyyatlarını dünya bazarından asılı vəziyyətə salır; iqtisadiyyatın çoxukladlı olması; təsərrüfatın xüsusi ərazi strukturu, inkişaf etmiş ölkələrdən elmi-texnoloji asılılıq, kəskin sosial kontrastlar bu ölkələr üçün xarakterikdir. İnkişaf etməkdə olan ölkələr olduqca müxtəlifdir. Bu qrup ölkələr daxilində yarımtiplərin ayrılması üçün bir neçə yanaşma vardır.

Orta inkişaf səviyyəli ölkələr qrupuna isə Avropanın orta inkişaf etmiş ölkələri və keçid iqtisadiyyatlı ölkələri aid edilir:

1. Avropanın orta inkişaf etmiş ölkələri: Yunanıstan, İspaniya, Portuqaliya, İrlandiyadır. Əmək məhsuldarlığının inkişaf səviyyəsinə görə bu ölkələr müasir texniki tərəqqidən bir qədər geridədir.

2. Keçid iqtisadiyyatlı ölkələr: MDB ölkələri, Şərqi Avropa ölkələri, ÇXR-dir. Bu ölkələr iqtisadiyyatda mərkəzləşmiş planlaşdırma əvəzinə bazar münasibətlərinin inkişafına yönəldilmiş islahatlar həyata keçirir.

Hər hansı ölkənin bu tipologiyada yeri daimi deyil və vaxt keçdikcə dəyişə bilər.

BMT ekspertləri inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında həddi, adətən, ölkə üzrə adambaşına ildə 6 min ABŞ dolları meyarı ilə müəyyən edirlər. Lakin bu göstərici heç də həmişə ölkələri obyektiv təsnifləşdirməyə imkan vermir. BMT təsnifatı üzrə inkişaf etməkdə olan ölkələrə aid edilən dövlətlər bir sıra göstəricilərinə görə (*adambaşına ÜDM, qabaqcıl yüksək texnoloji sənaye sahələrinin inkişaf səviyyəsi*) iqtisadi cəhətdən inkişaf etmiş ölkələrə sıx yaxınlaşmış və hətta onları ötüb keçmişlər. Məsələn, 1997-ci ildə Sinqapur, Tayvan və Koreya Respublikası rəsmi olaraq inkişaf etməkdə olan ölkələr qrupundan inkişaf etmiş ölkələr qrupuna keçirilmişdir. Lakin bu zaman ölkənin sosial-iqtisadi və siyasi inkişafının digər göstəriciləri - təsərrüfatın sahəvi və ərazi strukturu, xarici kapitaldan asılılıq hələ də inkişaf etməkdə olan ölkələr üçün xarakterikdir.

ÜDM üzrə dünya ölkələri təsnifatının bu cür çətinliklərini nəzərə alaraq, hazırda ölkələrin sosial-iqtisadi inkişafı səviyyəsini müəyyən etmək üçün başqa, daha obyektiv meyarları ayırmağa cəhdlər edilir. Məsələn, insanların orta ömür müddəti, təhsil səviyyəsi, əhalinin orta gəlirlərinin real ölçüsü əsasında insan potensialının inkişaf indeksini (*İPİİ*) müəyyən edirlər. BMT ekspertləri bu meyarı tətbiq edərkən dünya ölkələrini yüksək, orta və aşağı İPİİ-si olan üç qrupa ayırırlar. Bu zaman daha inkişaf etmiş ölkələrin ilk onluğu illik adambaşına ÜDM-i nəzərə alınan ölkələrdən fərqli olur, Rusiya və MDB ölkələri isə ikinci qrupa düşür.

Keçmiş sosialist ölkələrinin ikiüzvlü tipologiyaya daxil edilməsi kifayət qədər mürəkkəbdir. Onların sosial-iqtisadi inkişafının səviyyələri müxtəlifdir: ölkələrin çoxu, məsələn, Şərqi Avropa, Baltik ölkələri, Rusiya və Ukrayna iqtisadi cəhətdən inkişaf etmiş ölkələrə aiddir, lakin digər ölkələr inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında ara yeri tutur. ÇXR də, həmçinin, müxtəlif meyarlara görə həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan dövlətlərə aid edilə bilər.

## 5.2. İnkişaf etmiş ölkələrin əsas əlamətləri

<u>İnkişaf etmiş ölkələr</u> (*developed countries*) dünya iqtisadiyyatında hakim mövqe tutan ölkələr qrupunu təmsil edir. Dünya əhalisinin 15-16%-i bu ölkələrdə yaşayır. Bu ölkələrdə dünya iqtisadi və elmi-texniki potensialının əsas hissəsi yaradılaraq qlobal ümumi məhsulun ¾ hissəsi istehsal edilir. İnkişaf etmiş ölkələri, həmçinin, sənaye ölkələri və ya sənaye cəhətdən inkişaf etmiş ölkələr də adlandırırlar.

BVF iqtisadi cəhətdən inkişaf etmiş ölkələrə regionlar üzrə aşağıdakı ölkələri aid edir:

❖ Avropa və Yaxın Şərq: Avstriya, Belçika, Böyük Britaniya, AFR, Danimarka, İsrail, İrlandiya, İslandiya, İspaniya, İtaliya, Kipr, Lüksemburq, Malta, Niderland, Norveç, Portuqaliya, Slovakiya, Sloveniya, Finlandiya, Fransa, Çexiya, İsveçrə və İsveç;

❖ Avstraliya, Okeaniya və Uzaq Şərq: Avstraliya, Yeni Zelandiya, Sinqapur. Koreya Respublikası və Yaponiya;

❖ Amerika: ABŞ və Kanada.

İnkişaf etmiş ölkələrin dünya iqtisadiyyatına təsiri olduqca böyükdür. Onlar iqtisadiyyatın vəziyyətini, onun strategiyasını və dəyişikliklərin xarakterini müəyyən edir. Dövlətinköməyi ilə inkişaf etmiş ölkələr dünyada ETT-nin ən yüksək sürətinə nail olmuşlar. Onlar daha iri elmi-texniki potensiala malikdir. Bu, inkişaf etmiş ölkələrin başlıca xüsusiyyətidir. İnkişaf etmiş ölkələrin əksəriyyətində elmi-tədqiqat işlərinə və tədqiqatların praktiki tətbiqinə olan bütün milli xərclərdə dövlətin payı $^1/_3$-dir. ETT-nin ən mühüm göstəricisi elmi-tədqiqat və təcrübə-konstruktor işlərinə ETTKİ olan məsrəflər hesab edilir. Bütün dünyada bu məsrəflərin mütləq əksəriyyətini - 90%-ə yaxın hissəsini inkişaf etmiş ölkələr həyata keçirir.

ETT inkişaf etmiş ölkələrin iqtisadiyyatını dəyişdirir. Onun strukturunda mütləq artımının saxlanması şərti ilə maddi istehsal sahələrinin payı azalır. Bunun nətəcəsidir ki, ÜDM-də sənaye, kənd təsərrüfatı, tikinti məhsullarının xüsusi çəkisi $^1/_3$-ə qədər, həmin sahələrdə məşğul olanların payı isə 40%-ə qədər aşağı düşmüşdür. Bununla yanaşı, həmin ölkələrdə xidmət sferasının genişlənməsi baş verir, resursların xidmətlər sferasına axını, təhsilin, səhiyyənin, sosial təminatın, təbiətin mühafizəsinin inkişafını sürətləndirir. Bu, həmçinin, turizmə, istirahətə, əyləncələrə xidmətlə bağlı işlərin həcminin sürətlə artmasına kömək edir.

İnkişaf etmiş ölkələr dünya iqtisadi əlaqələrin xarakterini müəyyən edir. Onların milli iqtisadiyyatları digər ölkələrdə qarşılıqlı əlaqədə olduqları iqtisadiyyatlara nisbətən daha açıqdır. Bu ölkələrin məcmu ÜDM-lərinin təxminən $^1/_5$ hissəsi xaricə ixrac edilir və o qədər həcmdə də xaricdən idxal olunur.

Cədvəl 5-də dünyanın bir sıra aparıcı iqtisadiyyata malik ölkələrində 2017-ci ildə və perspektiv 2030-cu ildə gözlənilən ÜDM haqqında məlumatlar əksini tapmışdır.

Böyük Britaniyanın İqtisadi və Biznes Araşdırmaları Mərkəzinin (*Centre for Economic & Business Research, CEBR*) hesabatda yer alan proqnozlara əsasən, 2032-ci ilə kimi inkişaf etməkdə olan ölkələrin dünya iqtisadiyyatında payı 56%-ə çatacaq, Avropa ölkələrinin dünya iqtisadiyyatında xüsusi çəkisi 13,8% geriləyəcək. İtaliya 2027-ci ildə TOP-10-u tərk edəcək. Neft hasil edən Yaxın Şərq ölkələri, o cümlədən Səudiyyə Ərəbistanı ciddi itkilərlə üzləşəcəkdir.

İnkişaf etmiş ölkələrədə ümümi cəhətlərlə yanaşı inkişaf meyilləri, iqtisadiyyatın sektorial bölgüsü, məhsul istehsalı üzrə beynəlxalq ixtisaslaşma parametrləri də müxtəlif səviyyədə olur ki, həmin səciyyəvi cəhətlər xüsusi ilə fərqləndirilir.

| ÜDM (PİQ) | | 2017 | ÜDM (PİQ) | | 2030 |
|---|---|---|---|---|---|
| Yeri | Ölkə | Milyard $ | Yeri | Ölkə | Milyard $ |
| 1 | ÇXR | 23 159 | 1 | ÇXR | 38 008 |
| 2 | ABŞ | 19 391 | 2 | ABŞ | 23 475 |
| 3 | Hindistan | 9 459 | 3 | Hindistan | 19 551 |
| 4 | Yaponiya | 5 429 | 4 | Yaponiya | 5 606 |
| 5 | AFR | 4 171 | 5 | İndoneziya | 5 424 |
| 6 | Rusiya | 4 008 | 6 | Rusiya | 4 736 |
| 7 | İndoneziya | 3 243 | 7 | AFR | 4 707 |
| 8 | Braziliya | 3 240 | 8 | Braziliya | 4 439 |
| 9 | Böyük Britaniya | 2 914 | 9 | Meksika | 3 661 |
| 10 | Fransa | 2 836 | 10 | Böyük Britaniya | 3 638 |
| 11 | Meksika | 2 458 | 11 | Fransa | 3 377 |
| 12 | İtaliya | 2 311 | 12 | Türkiyə | 2 996 |
| 13 | Türkiyə | 2 173 | 13 | Səudiyyə Ərəbistanı | 2 755 |
| 14 | Koreya Respublikası | 2 029 | 14 | Koreya Respublikası | 2 651 |
| 15 | İspaniya | 1 774 | 15 | İtaliya | 2 541 |
| 16 | Səudiyyə Ərəbistanı | 1 774 | 16 | İran | 2 354 |
| 17 | Kanada | 1 769 | 17 | İspaniya | 2 159 |
| 18 | İran | 1 645 | 18 | Kanada | 3 149 |
| 19 | Avstraliya | 1 246 | 19 | Misir | 2 049 |
| 20 | Tailand | 1 234 | 20 | Pakistan | 1 868 |

**Cədvəl 5. Dünyanın bir sıra aparıcı iqtisadiyyata malik ölkələrində 2017-ci ildə mövcud və 2030-cu ildə gözlənilən ÜDM**

**Amerika Birləşmiş Ştatları - ABŞ** (*United States of America, USA*). ABŞ Sakit və Atlantik okeanları sahillərində yerləşir. Ölkəyə mənsub Alyaska ştatının sahilini Şimal Buzlu okeanın suları yuyur. ABŞ dövlətçilik tarixi başlanğıcını 1776-cı ildən alır. Bunula belə, ABŞ-nın müstəqillik tarixi 3 sentyabr 1783-cü ildən başlanır. Ölkənin paytaxtı Vaşinqton şəhəri, rəsmi dili isə ingilis dilidir. Ölkə prezident respublikasıdır. ABŞ BMT-nin Təhlikəsizlik Şurasının daimi üzvüdür. Nüvə silahı arsenalına malikdir, NATO-nun əsas üzvlərindən biridir. G20 qrupunun da lider ölkələrindəndir. Ölkənin milli valyutası Amerika dollarıdır.



Ərazisi 9 833 517 km$^2$ (*dünyada 4-cü*), əhalisi 328,9 milyon nəfərdir (*dünyada 3-cü*).

İqtisadiyyatda xidmətlər 80,2%, sənaye 18,9%, kənd təsərrüfatı 0,9% paya malikdir. ÜDM 19,4 trilyon ABŞ dolları, adambaşına ÜDM 58,9 min ABŞ dollarıdır. İnflyasiya 2,1%, işsizlik səviyyəsi 4,4%, yoxsulluq səviyyəsi 15,1%-ə bərabərdir. Xarici borc 16,9 trilyon ABŞ dolları (*ÜDM-in 87,1%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 48,8%-nə bərabərdir (*2017*).

ABŞ dünya iqtisadiyyatında lider ölkədir. Ölkənin dünya səhnəsinə fəal daxil olması XX əsrin əvvəllərinə aid edilir. Burada iqtisadiyyatın sürətli inkişafına əlverişli coğrafi mövqe, təbii resursların zənginliyi, böyük daxili bazarın mövcudluğu, "beyin axını" siyasətinin aparılması, Avropadan gələn əhali və kapital axını, feodal mülkiyyətlərinin olmaması, boş torpaqların fermerlərə paylanması, inkişaf etmiş nəqliyyat-kommunikasiya infrastrukturu və digər bu kimi amillər təsir göstərmişdir. Bununla belə I və II dünya müharibələrindən əldə edilən imkanlar da ABŞ iqtisadiyyatının inkişafına təkan vermişdir. II Dünya Müharibəsindən sonra ABŞ-ın demək olar ki, kapitalist dünyasında rəqibi qalmamışdır. Belə ki, bu müharibədə Almaniya və Yaponiyanın iqtisadiyyatı dağıdılmış, qələbə qazanan dövlətlərin, Böyük Britaniya və Fransanın iqtisadiyyatı isə olduqca zəifləmişdir.

Ölkədə ən iri sənaye mərkəzi Kaliforniya ştatıdır. Kaliforniya ştatını, adətən, "dövlət daxilində dövlət" adlandırırlar. Sahəsinə görə bu ştat Yaponiyadan və Avropanın başlıca inkişaf etmiş ölkələrindən (*Fransa istisna olmaqla*) daha böyükdür. İstehsal həcminə görə Kaliforniya dünyada yalnız ABŞ-ın qalan ərazisindən, Yaponiya, ÇXR, AFR, Fransa və Böyük Britaniyadan geri qalır. Kaliforniya həm ölkənin hərbi sənayesinin başlıca bazasıdır, həm də ölkənin ixracatında birinci yeri tutur. ABŞ-ın xarici ticarətdən asılılığı Yaponiya və Qərbi Avropa ölkələrindən xeyli zəifdir, lakin bu asılılıq getdikcə artmaya meyillidir. Ölkənin ixracat strukturunda maşın və avadanlıqların xüsusi çəkisi 40% təşkil edir. İdxalatında mineral xammal və yanacaq, ümumi maşınqayırma məhsulları və nəqliyyat vasitələri daha çox paya malikdir.

ABŞ olduqca güclü inkişaf etmiş sənayesinin xammala və yanacağa olan tələbatını həm yerli resursların, həm də xarici ölkələrdən idxal hesabına təmin edir. Ölkə zəngin neft-qaz, daş və qonur kömür, dəmir, əlvan və nadir metal filizləri, uran, qeyri-filiz

qazıntıları ehtiyatlarına malikdir. Ölkənin neft ehtiyatları 5-7 milyard ton, qaz ehtiyatları 6-8 milyard $m^3$ həcmində hesablanır. Yeni neft yataqları Alyaskada kəşf edilmişdir ki, burada ehtiyatların $^1/_5$-i cəmləşmişdir. Ölkənin neft ehtiyatlarının yarıdan çoxu Meksika körfəzində, Sakit okeanın Kaliforniya və Şimal Buzlu okeanın Alyaska sahillərindədir. ABŞ dünya dağ-mədən sənayesinin $^1/_3$-ni verir. O dünyada ən çox elektrik enerjisi istehsal və istehlak edən ölkə olaraq qalır. Ölkədə elektrik enerjisinin 4,5 trilyon kvt-saata yaxın həcmindədir. Bunun 75%-i İES, 7%-i SES, 10%-i AES-lərin, qalanları isə digər alternativ mənbələrin payına düşür. ABŞ-da elektrik enerjisi güclərinin 80%-i şəxsi kapitalın inhisarındadır.

Son illərdə ölkədə neft hasilatı artmışdır. ABŞ Rusiya, Səudiyyə Ərəbistanı ilə yanaşı, neft hasilatına görə də dünya liderlərindən biridir. Ölkəyə həm də hər il 70 milyard dollarlıq neft idxal olunur ki, bu da xarici ticarətdə kəsrin 40%-i həcmindədir. ABŞ-ın Yaxın Şərq neftindən artan asılılığı getdikcə azalmaya meyillidir. Ölkədə qaz hasilatı yeni şist qazı yataqları hesabına xeyli artmışdır. Dünyanın iri neft-qaz inhisarçı şirkətləri "Eksson", "Mobil", "Teksako" bu ölkədədir.

ABŞ dünyanın ən güclü sənaye ölkəsidir. Burada sənaye məhsulları istehsalının 90%-ə qədəri emal sahənin payına düşür. Ölkədə iri neft-qaz emalı, metallurgiya kompleksləri fəaliyyət göstərir. ABŞ müxtəlif növ maşınqayırma məhsullarının istehsalına görə dünyada birinci yeri tutur. Ölkənin milli sənayesi sayılan avtomobil istehsalı sənayesi 26 ştatda inkişaf etmişdir. Avtomobil istehsalının 90%-dən artığı "General Motors", "Ford", və "Kraysler" şirkətlərinin əlində təmərküzləşmişdir. Sahə üzrə ikinci mərkəz Kaliforniya ştatıdır. Hərbi sənaye ilə sıx əlaqədə olan aviaraket-kosmik və elektron sənayesi sabit sürətlə inkişaf edir. Los-Anceles şəhəri ölkənin "aviaraket-kosmik paytaxtı" hesab olunur. Metal tutumlu zavod avadanlıqları, dəmiryol nəqliyyatı vasitələri, kənd təsərrüfatı maşınları və başqa maşınlar istehsal edən müəssisələrin əksəriyyəti Orta Qərb və Şimal Qərb regionunda, xüsusilə qara metallurgiya mərkəzləri yaxınlığında yerləşir. ABŞ-da digər yüksək səviyyədə inkişaf etmiş sahə kimya sənayesidir. ABŞ kimya sənayesinin həm istehsal həcminə, həm də buraxılan məhsulların müxtəlifliyinə görə dünyada birinci yerdədir. Bu sahə bir çox mərkəzlərlə təmsil olunur. Yüngül sənaye sahələri arasında toxuculuq, tikiş, gön-dəri-ayaqqabı və poliqrafiya daha yüksək inkişaf etmişdir. Toxuculuq sənayesi yüksək təmərküzləşməsi ilə fərqlənir. Ölkədə meyvə, tərəvəz konservi istehsalı da yüksək inkişaf etmişdir. Sahil regionlarında balıq sənayesi mühüm rol oynayır.

ABŞ-ın təbii şəraiti kənd təsərrüfatının inkişafı üçün olduqca əlverişlidir. Ölkə geniş torpaq sahələrinə və torpaq fondunun əlverişli strukturuna malikdir. Ölkənin materik ərazisinin 50%-i becərilmə üçün yararlı torpaq və otlaq sahələridir. Ölkənin şərq hissəsində əkin, qərb hissəsində isə otlaq sahələri üstünlük təşkil edir. Şərq hissəsinin bütün cənub hissəsi rütubətli subtropik, Floridanın ən ucqar cənub hissəsi və Havay adaları subtropik, qərbdə yerləşən Kaliforniya ştatının ərazisi isə quru subtropik iqlimə malikdir. Qalan ərazisinin iqlimi kontinentaldır. Kənd təsərrüfatında əmtəəlik məhsul

dəyərinin 70%-ə qədəri heyvandarlığın payına düşür. Hazırda əkinçilikdə istifadə olunan torpaq sahələrinin yarıdan çoxunda yem bitkiləri əkilir. Heyvandarlıqda həm südlük, həm də ətlik istiqamətli qaramal yetişdirilməsi üstünlük təşkil edir. Qoyun və donuz əti təsərrüfatları quş əti ilə rəqabətə davam gətirə bilmir. Belə ki, Amerika broylerləri ildə 3 milyard toyuq yetişdirir. Əkin sahəsinin ölçüsünə görə, əvvəllər olduğu kimi, başlıca yeri dənli bitkilər, xüsusilə buğda və qarğıdalı tutur. Qarğıdalı ABŞ-ın milli bitkisidir. Əkin sahələrinin $^{2}/_{3}$ hissəsini tutan bu bitkilər başlıca olaraq Mərkəzi və Böyük Düzənliklərdə yerləşir. Ölkənin cənubunda pambıq və çəltik yetişdirilir. Şəkər qamışı Meksika körfəzi sahilində və Havay adalarında, şəkər çuğunduru göllər ətrafı və dağlıq ştatlarda, tütün isə Virciniya və Kentukki ştatlarında yetişdirilir. Meyvə və tərəvəz yetişdirilməsinin günəşli Kaliforniyada olduqca böyük əhəmiyyəti var. Aralıq dənizi iqliminə malik olan Kaliforniyada qreypfrut, portağal, ərik, şaftalı, badam və digər subtropik bitkilərin böyük əkin sahələri yerləşir. Buradan ölkənin müxtəlif ştatlarına nəinki təzə meyvə, faraş tərəvəz, həm də meyvə konservləri, şirələri və s. daşınılır.

ABŞ-ın resursları arasında çaylar mühüm yer tutur və onlar ölkənin təsərrüfatında kompleks şəkildə istifadə olunur. Çaylar bir neçə qrupa, nəqliyyat üçün daha çox əhəmiyyəti olan çaylara (*Missisipi, Missuri, Ohayo, Hudzon*), hidroenerji mənbəyi kimi əhəmiyyəti olan daha böyük çaylara (*Kolumbiya, Kolorado*), su təchizatı və suvarma üçün istifadə olunan çaylara, həm də hələ bu vaxta qədər istifadə olunmayan çaylar (*Alyaskada Yukon çayı*) ayrılır. Ölkə ərazisinin 30%-i, əsas etibarilə təkrar salınmış meşələrlə tutulmuşdur. Oduncaq ehtiyatına görə qiymətli Oreqon şam ağacları ilə təmsil olunan şimal-qərb regionu fərqlənir. Xüsusilə, Alyaska və Kordilyer meşə örtüyü ilə zəngindir.

ABŞ dünyada turizm xidmətləri ixrac edən əsas ölkələrdən biridir. Turizm sənayesində 10 milyondan çox əhali çalışır və səhiyyədən sonra turizm ən çox əhalinin işlə təmin olunduğu sahədir. Ölkənin beynəlxalq turizmdə rolu II Dünya Müharibəsindən sonrakı illərdə artmağa başlamışdır. Ölkəyə turistlərin yarıdan çoxu istirahət, 25%-i isə iş məqsədi ilə gəlir. Burada turizm orta və kiçik sahibkarlar tərəfindən idarə olunur. Ölkədə belə şirkətlərin sayı bir milyondan çoxdur. ABŞ turizmə ən çox sərmayə qoyan ölkələr arasında AFR-dən sonra ikinci yeri tutur. Ölkədə turizm büdcəsinə də gəlir verən əsas ştatlar Kaliforniya və Floridadır. Havay adalarında isə gəlir mənbəyini yalnız turizm təşkil edir.

Ölkədə güclü nəqliyyat infrastrukturu mövcuddur. ABŞ müasir nəqliyyat növlərinin texniki təchizatına görə dünyada birinci yeri tutur. XX əsrin ortalarına qədər daxili yük və sərnişin daşınmasında dəmir yolları hakim mövqe tuturdu. Sonradan meydana gələn avtomobil, boru kəməri, təyyarələr dəmir yolları ilə rəqabət aparırlar. Ölkədə ən iri nəqliyyat qovşağı Çikaqo şəhəridir. Bu şəhərdə 30 dəmiryol, 9 avtomobil və 24 boru kəməri magistralı birləşir. Hər il 50 milyon sərnişin qəbul edən Oheyr aeroportu da bu şəhərdə yerləşir. Ölkədə xarici yük daşınmalarında dəniz nəqliyyatı mühüm rol oynayır.

ABŞ Azərbaycanın müstəqilliyini 25 dekabr 1991-ci ildə tanımış, ölkələr diplomatik münasibətləri 28 fevral 1992-ci ildə qurmuşlar. İki ölkə arasında geniş ticarət əlaqələri mövcuddur. ABŞ-la Azərbaycan arasında ticarət dövriyyəsi hər il orta hesabla 15-2,5 milyard ABŞ dolları təşkil edir. Ticarət dövriyyəsində Azərbaycandan ixrac (*əsasən, enerji məhsulları*) üstünlük təşkil edir. ABŞ-dan Azərbaycana, əsasən, sənaye və xidmət resursları idxal olunur.

**Yaponiya** (*yaponca* - 日本 nixon - *yapon*) Şərqi Asiyada, Sakit okeanda yerləşən ada dövləti. Yaponiyanın dövlətçilik tarixi III-IV əsrlərdən başlanır. Ölkənin paytaxtı



Tokio şəhəri, rəsmi dili isə yapon dilidir. Dövlət idarəçiliyi üsulu konstitusiyalı monarxiyadır. Ali hakimiyyət orqanı parlament, formal dövlət rəhbəri imperator, faktiki rəhbər baş nazirdir. Yaponiya G20 qrupuna daxildir. Milli valyutası yendir.

Ərazisi 377 915 $km^2$, əhalisi 126,2 milyon nəfərdir (*2018*).

Dörd (*Hokkaydo, Hönsü, Sikoku, Küsüböyük*) iri olmaqla - 6852 adanı birləşdirən arxipelaqda yerləşir. Ərazisinin böyüklüyünə görə Qərbi Avropa ölkələri - Fransa, İspaniya və İsveçdən geri qalır.

İqtisadiyyatda xidmətlər 69,3%, sənaye 29,7%, kənd təsərrüfatı 1,0% paya malikdir. ÜDM 4,9 trilyon ABŞ dolları, adambaşına ÜDM 35,8 min ABŞ dollarıdır. İnflyasiya 0,4%, işsizlik səviyyəsi 2,9%, yoxsulluq səviyyəsi 16,1%-ə bərabərdir. Xarici borc 3,6 trilyon ABŞ dolları (*ÜDM-in 73,6%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 53,7%-nə bərabərdir (*2017*).

XX əsrdə böyük məhrumiyyətlərə məruz qalmasına baxmayaraq Yaponiya dünyanın ən inkişaf etmiş ölkələri sırasına çıxmış, XXI əsrin ilk onilliyinə qədər iqtisadi potensialına görə yalnız ABŞ-dan geri qalmışdır. Yaponiyanın sürətli iqtisadi inkişafı bir sıra amillərlə izah edilir. Bu sırada əhalinin təhsil və mədəniyyətinin, əmək və icra intizamının yüksək səviyyəsi, ölkənin hərbi xərclərin az olması, ən mühüm xüsusi şirkətlərə dövlət tərəfindən yardım edilməsi, çoxsaylı kiçik müəssisələrin mövcudluğu (*belə müəssisələrdə əmək haqqı aşağı, iş günü daha uzun olur, məzuniyyət isə heç olmur*) öndə dayanır.

Əhalinin sayına görə Yaponiya dünyanın birinci on ölkəsi sırasına daxildir. Yerli əhalinin 99%-ni yaponlar təşkil edir. Milli azlıq təşkil edənlərə Hokkaydo adasında yaşayan aynlar, həm də böyük şəhərlərdə yaşayan çinlilər və koreyalılar aiddir. Bu yaxın vaxtlaradək Yaponiyada milli cəhətdən yekcins əhalinin təbii artım sürəti çox yüksək idi. Lakin sonradan aparılan demoqrafik siyasətin nəticəsində (*doğuma nəzarət*) əhalinin təbii artımı sürətlə aşağı düşmüşdür. Artıq orta məktəblərin yuxarı siniflərində ailə planlaşdırılmasının əsasları üzrə məşğələlər aparılır. Bunun nəticəsində Yaponiyada əhalinin artımı dayanmış və hal-hazırda əhali sürətlə azalmaqdadır. Demoqrafik siyasətə urbanizasiyanın yüksək səviyyəsi də xeyli təsir etmişdir. Yaponiya əhalisi ən sıx olan ölkələrdən biridir (*1 $km^2$-də 337 nəfər*). Lakin sakinlərinin $^{3}/_{4}$-dən çoxu şəhərlərdə məskunlaşdığından, kənd yerlərində sıxlıq əhəmiyyətli dərəcədə azdır.

Yaponiya urbanizasiya səviyyəsi yüksək olan ölkələr sırasına da daxildir. Paytaxt Tokio dünyanın ən nəhəng meqapolislərindəndir. Ölkədə əhalisi 50 min nəfərdən artıq olan yaşayış məntəqələri şəhər hesab olunur. Şəhərlərin böyük hissəsi Hönsü adasının şərq sahilində və Küsü adasının şimal hissəsində cəmlənmişdir. Kənd əhalisinin əksəriyyəti yığcam yaşayış məntəqələrində yaşayır. Kəndlər, adətən, çay vadiləri üzrə və yollar çəkilən aşağı dağ ətəklərində, bəzi hallarda isə yüksək dağ yamaclarında yerləşir.

Ölkənin coğrafi mövqeyi onun inkişaf yoluna ayrı-ayrı tarixi dövrlərdə müxtəlif cür təsir etmişdir. Belə ki, müstəmləkələr qazanmaq uğrunda bir-birilə mübarizə aparan ABŞ və Avropa ölkələrindən uzaqlığı ölkənin müstəqilliyini saxlamasına kömək etmişdir. Digər tərəfdən, Yaponiyanın xarici dünyadan təcrid olunması, dünya ticarət yollarından uzaqda qalması uzun müddət onun iqtisadiyyatının inkişafını ləngitmişdir. Müasir dövrdə zəngin təbii resurslara malik olan Asiya ölkələrinə, həmçinin, Rusiyaya, Avstraliyaya yaxınlığının və Sakit Okean yollarındakı əlverişli mövqeyin Yaponiya üçün olduqca böyük əhəmiyyət daşıyır. Ada mövqeyi dəniz təsərrüfatının inkişafına, daxili və xarici iqtisadi əlaqələrin xarakterinə təsir edir.

Yaponiya dağlıq ölkədir. Əhali və təsərrüfatın yerləşməsi üçün əlverişli ovalıqlar bütün ərazinin $^1/_3$-ni tutur. Ölkədə faydalı qazıntılar çox az miqdardadır. Buna görə də sənaye və energetika üstün olaraq xarici xammala əsaslanır. Ölkənin emaledici sənaye məhsullarının 20%-i, o cümlədən maşınqayırma məhsullarının 40%-i ixrac edilir. Yaponiyada illik neft idxalı orta hesabla 250 milyon ton, hasilat isə cüzi 0,8 milyon ton civarındadır. İstehlak olunan enerjinin 10%-i təbii qazın payına düşür ki, onun da əsası idxal olunan sıxılmış qaz hesabınadır. Elektrik enerjisi İES-lər əsas yer tutur. Bununla belə, burada SES-lər 9,5%, AES-lər 9%-lik paya malikdir. Ölkədə digər alternativ enerji mənlərindən də istifadə olunur və energetika təsərrüfatı qənaətcilliyi və enerji istifadəsinin həcminin azalması ilə fərqlənir.

Yaponiyada kənd təsərrüfatına yararlı torpaqlar ölkə ərazisinin 13%-ni təşkil edir. Bu ərazilərin yarısından çoxu düyüçülük üçün istifadə edilir. Bu ondan irəli gəlir ki, ölkənin əsas kənd təsərrüfatı məhsulunu düyü təşkil edir. Yaponiyaya intensiv təyinatlı kənd təsərrüfatı xasdır. Bu da ölkədə müvafiq ərazilərin məhdudluğu ilə bağlıdır. Ölkə qanunvericiliyinə görə, kənd təsərrüfatında məşğul əhali hamılıqla fermer adlandırılır. Onlar da iki yerə - öz tələbatları üçün istehsal edənlərə və məhsulu satışa çıxaranlara bölünürlər. Bundan başqa, ölkədə balıqçılıq və dəniz məhsullarının tədarükü geniş yayılmışdır. Beynəlxalq qanunvericiliyə görə, yapon balıqçıları yalnız yapon su ərazilərində və Sakit okeanda 370 km radiusda yapon iqtisadi zonasına daxil olan ərazidə ov edə bilərlər. Bununla belə, ölkə dünyada balıq və dəniz məhsullarının idxalına görə lider ölkələr sırasındadır.

Yaponiyada avtomobil sənayesi yüksək inkişaf yolu keçmiş, Avropa və ABŞ-ın məşhur avtomobil brendləri ilə davamlı rəqabət aparan səviyyəyə yüksəlmişdir. Burada gəmiqayırma sənayesi də öncül sahələrdən biridir. II Dünya Müharibəsindən sonra ölkədə gəmiqayırma sahəsində böyük təkmilləşdirmələr həyata keçirilmiş və Yaponiya bu sahədə dünya liderinə çevrilmişdir.

Yaponiyada təkmil nəqliyyat infrastrukturu mövcudddur. Avtomobil yolları şəbəkəsi son dərəcə müasir funksionallığı ilə fərqlənir. Dəmir yollarında sürətli qatarlar şütüyür. Yaponiyada 200-ə qərdər müxtəlif hava limanı fəaliyyət göstərir. Su nəqliyyatı da çox inkişaf etmiş səviyyədədir.

Yaponiyanın xarici iqtisadi əlaqələrinin coğrafiyası, əsasən, ABŞ, Qərbi Avropa və ASEAN ölkələri ilədir. Yapon ixracının 38%-i, idxalının 25%-i Cənub-Şərqi Asiya ölkələrinin payına düşür. Yapon iqtisadiyyatının azsaylı dayaqlarından biri emaledici sənayenin ixrac yönümüdür. Son onillikdə ÜDM-in real artımının orta hesabla $^{1}/_{3}$-i ixracatla təmin olunur.

Yaponiyada iqtisadi inkişafın təməlində elm və təhsil dayanır. Ölkədə həyata keçirilən proqramlara görə ETTKİ-yə böyük önəm verilir. Milli ETTKİ büdcəsi burada 130-150 milyard civarında tərəddüd edir. Tədqiqatlar sahəsində 700 mindən çox alim çalışır. Yaponiya fundamental elmi tədqiqatlar sahəsində də liderlik edir. Yaponiyanın Aerokosmik Tədqiqatlar Agentliyi raket və peyklərin fəzaya çıxışnı hazırlayır. Bu agentlik, Venera, Merkuri planetlərinin tədqiqini kosmik raketlərin köməyi ilə tədqiq edir.

Yaponiyada Nobel mükafatı almış alimlərini sayı onlarcadır. Təsadüfi deyildir ki, Yaponiya dünya bazarında özünün nüfuzlu şirkətləri - “Toyota Motoros”, “Masusita Elektrik”, “Soni Korporeyşen”, “Honda Motoros”, “Toşiba”, “Fucidisu” və digərləri ilə məhşurdur. Bununla belə, ölkədə 99% şirkətlər kiçik və orta biznesə aid edilir. Yaponiya yüksək texnologiyalar, biotəbabət, robot texnikası sahəsində çox böyük irəliləyişlərə nail olmuşdur.

Yaponiya Azərbaycan Respublikasının müstəqilliyini 28 dekabr 1991-ci ildə tanımışdır. Ölkələr arasında diplomatik münasibətlər 7 sentyabr 1992-ci ildə qurulmuşdur. İki ölkə arasında qarşılıqlı iqtisadi əlaqələr genişlənir. Azərbaycanla Yaponiya arasında iqtisadi əməkdaşlıq üzrə dövlət komissiyası və Yaponiya-Azərbaycan İqtisadi Komitəsi fəaliyyət göstərir. Yaponiyadan Azərbaycana ixracda maşınlar, nəqliyyat vasitələri, dəmir və polad, Azərbaycandan Yaponiyaya ixracda isə neft və neft məhsulları üstünlük təşkil edir. Ümumi ticarət dövriyyəsi 50 milyon ABŞ dolları həcmindədir.

**Almaniya Federativ Respublikası - AFR** (*almanca* - Bundesrepublik Deutschland - *Almaniya Federativ Respublikası*) Mərkəzi Avropada dövlət. AFR 1990-cı ilin 3



oktyabrında Almaniya Demokratik Respublikası ilə Almaniya Federativ Respublikasının birləşməsi ilə yaranmışdır. Paytaxtı Berlin şəhəri, rəsmi dili isə alman dilidir. Federativ quruluşludur və parlament respublikasıdır. AFR Aİ və NATO-nun üzvüdür. Ölkə Şengen və avro zonaya daxildir. G20 qrupunun üzvüdür. Valyutası avrodur.

Ərazisi 357 168 km$^2$, əhalisi 81,4 milyon nəfərdir (*2018*).

AFR Avropanın ən iri iqtisadiyyatına malikdir. İqtisadiyyatda xidmətlər 69,3%, sənaye 30,1%, kənd təsərrüfatı 0,6% paya malikdir. ÜDM 3,7 trilyon ABŞ dolları,

adambaşına ÜDM 41,9 min ABŞ dollarıdır. İnflyasiya 1,5%, işsizlik səviyyəsi 3,7%, yoxsulluq səviyyəsi 16,7%-ə bərabərdir. Xarici borc 5,4 trilyon ABŞ dolları (*ÜDM-in 146,4%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 56,3%-nə bərabərdir (*2017*).

AFR iqtisadiyyatı sosial-bazar iqtisadiyyatı prinsipi üzrə təşkil edilmiş, sosial balansla bazar azadlığının birləşməsi ilə xarakterizə olunan mühüm infrastruktur və ixtisaslı işçi qüvvəsinə malikdir. Alman informasiya və biotexnologiyaları, həmçinin, bərpa olunan enerji mənbələrindən istifadə üzrə texnologiyalar və ekoloji təmiz texnologiyalar dünyada qabaqcıl mövqeləri tutur.

Dünyanın bir çox inkişaf etmiş ölkələri ilə müqayisədə ölkədə ÜDM istehsalında böyük pay sənayeyə məxsusdur ki, bu da onun dünya iqtisadiyyatında müvafiq sahə üzrə dərin ixtisaslaşmasına gətirib çıxarmışdır. AFR-in sənayesi dünyanın bir çox hazır məhsul bazarlarında ölkənin liderliyini təmin edir. Ölkədə daha rəqabətqabiliyyətli sahələr aşağıdakılardır:

- ❒ avtomobil sənayesi;
- ❒ ümumi maşınqayırma (*dəzgahların, müxtəlif cihazların istehsalı*);
- ❒ nəqliyyat maşınqayırması (*vaqonqayırma, təyyarə istehsalı*);
- ❒ kimya, əczaçılıq və parfümeriya-kosmetika sənayesi;
- ❒ dəqiq mexanika və optika;
- ❒ qara metallurgiya;
- ❒ aviasiya və kosmik sənaye;
- ❒ informasiya və kommunikasiya texnikası istehsalı;
- ❒ gəmiqayırma.

Alman iqtisadiyyatında da, digər industrial Qərb ölkələrində olduğu kimi, struktur dəyişikləri baş verir. Bəzi ənənəvi sahələr, məsələn, poladəritmə və toxuculuq sənayesi son illər bəzi hallarda satış bazarlarının və rəqabətin aşağı əmək haqqı olan ölkələrdə satış bazarlarının yerdəyişməsi və ya əczaçılıq sənayesində olduğu kimi, birləşmələr və udulmalar nəticəsində xarici şirkətlərin mülkiyyətinə keçməsi nəticəsində öz mövqelərini itirmişdir.

İri alman konsernlərinin bütün dünya üzrə öz filialları, istehsal və elmi-tədqiqat müəssisələri vardır. Onların arasında məşhur “Volkswagen”, BMW, “Daimler” avtomobil, “Bayer”, BASF, “Henkel Group” kimya konsernləri, “Siemens” konqlomeratı, E.ON və RWE və ya “Bosch” enerji qrupu vardır.

Son vaxtlar iqtisadiyyatda sənayenin xüsusi çəkisi nəzərəçarpacaq dərəcədə azalmışdır. Alman iqtisadiyyatının sənayə dayaqlarından biri də diversifikasiyalı, çoxsahəli maşınqayırmadır. O, bir neçə hissədən ibarətdir ki, bunlardan daha çox inkişaf etmiş sahələr avtomobilqayırma, dəzgahqayırma, müəssisələr, hesablama texnikası, elektrotexnika üçün avadanlıq istehsalıdır. Ağır metaltutumlu maşınlar, kranlar, körpülər, dağ-şaxta və enerji avadanlıqları, ağır elektrotexnika, həmçinin, metallurgiya zavodları üçün avadanlıq istehsalı üzrə müəssisələrin böyük hissəsi Rurda

yerləşir. Minik və yük avtomobilləri istehsalı Baden-Vyürtemberq, Reytland-Pfalts, Aşağı Saksoniya, Gessen, Şimali Reyn-Vestfaliya, Bavariya və Saarda cəmləşib.

Avtomobilqayırma AFR iqtisadiyyatının ən mühüm sahələrindən sayılır. ÇXR, ABŞ və Yaponiyadan sonra AFR, ölçüsünə görə, dünyada avtomobil istehsalı üzrə dördüncüdür. Burada orta hesabla hər il 6 milyon və həmçinin, alman markası ilə xaricidə 5,5 milyon avtomobil istehsal olunur.

AFR-də qara metallurgiya artıq sənayenin qabaqcıl sahələrindən hesab edilmir, onun rəqabətqabiliyyətliliyi dünya standartları səviyyəsinə davam gətirmir. Hazırda bu sahə idxal olunan xammala əsaslanır ki, bu da başlıca metallurgiya mərkəzlərinin sahilyanı coğrafi mövqedə yerləşdirilməsini zəruri edir. Qara metallurgiyanın cəmləşdiyi əsas rayon - Rur daş kömür hövzəsi, Saabryuken və onun ətrafı, Bremen, Frankfurt-Mayn, Brandenburq, Zalsgitter və Osnabryukdur. 1970-ci illərdən başlayaraq Qərbi Almaniyanın polad konsernləri öz kommersiya fəaliyyətlərinin profilini diversifikasiya edir, polad istehsalından daha çox boru, maşın və avadanlıqlar, başqa polad məmulatlarının istehsalına keçirlər. Əlvan metallurgiya da qara, metallurgiya kimi, idxal olunan ilkin xammala və özünün əlvan metallar lomuna əsaslanır. Müvafiq olaraq, mərkəzlərin əksəriyyəti sahildə yerləşir. Onların arasında Qalleni, Raynfeldeni, Hamburqu, Rur sənaye rayonunu göstərmək olar. Qara misin əridilməsi qismən Hamburqda və Lyünendə, təmiz misin əridilməsi isə yenə həmin yerlərdə, həmçinin, Osnabryukda, Lyübekdə və Hettştiddə cəmləşmişdir.

AFR gəmiqayırma sahəsində də Avropanın ən qabaqcıl qüdrətli ölkələrindən biridir. Gəmiqayırma üçün müxtəlif maşınların buraxılışında bir milyondan artıq işçi məşğuldur. Yaxın komplektləşdirici sahələrin birbaşa tədarükləri AFR-in 350-400 müəssisəsi tərəfindən yerinə yetirilir və bu zaman komplektləşdiricilərin üçdə bir hissəsi ölkədə istifadə olunur.

Hərbi gəmiqayırma 2009-cu ildə sabit satışa nail olmuşdur və AFR-in öz Hərbi Hava Qüvvələrinin sifarişləri mövcud gücləri tam yükləmək iqtidarında olmadığından, ölkə gəmiqayırması ixracdan, xarici sifarişlərdən çox asılıdır. Bir sıra bu kateqoriyalı gəmilər, xüsusilə, sualtı gəmilər İsrailə II Dünya Müharibəsində yəhudi qətliamlarına görə kompensasiya kimi verilir.

Ölkənin ən böyük və güclü tərsanələri "Flensburger Şhiffbau-Gesellsşaft", "Thyssen Krupp Marine Systems", "Lürssen", "Aker Yards Germany" və "Meyer Neptun Group"dur.

AFR-də aviakosmik sənayenin ölkə iqtisadiyyatında qabaqcıl mövqe tutmamasına baxmayaraq, o, çox böyük strateji mövqeyə malikdir. Bu sahə ölkənin texnoloji mühərriki rolunu oynayır. Burada informasiya dövrünün yüksək texnologiyalarının, demək olar ki, bütün növləri birləşmişdir: elektronika, robot texnikası, ölçü və tənzimləyici texnika, həmçinin, idarəetmə və materiallar texnikası. Bu sahədə innovasiyalar kompüter istehsalının yüksəldilməsinə kömək etmişdir. Bundan başqa, innovasiyalar bir çox başqa sahələrdə də: məsələn, mobil rabitə sistemlərində, avto-

mobillərin naviqasiya sistemlərində, videokonfransların texniki təminatında və s. tətbiq olunur. 1990-cı illərdə bir qədər tənəzzüldən sonra AFR-də aviakosmik sənaye kəskin yüksəlmişdir. Hazırda onun dövriyyəsi 20 milyard avroya yaxındır. Burada məşğul olan əhalinin sayı isə 70 min nəfərdən çoxdur. Sahənin ümumi dövriyyəsində mülki aviasiyanın payı 68,3%, hərbi aviasiyanın payı 23,1%, kosmik sənayenin payı 8,6% təşkil edir. Məşhur aviasiya şirkətləri EADS və "Eurocopter"dir.

AFR inkişaf etmiş kimya sənayesinə malikdir. Ölkə hələ XIX əsrin sonlarında bu sahədə dünya lideri olmuşdur. İri müəssisələrin çoxu Reyn vadisində və onun qollarında yerləşdirilmişdir. Ən mühüm sənaye mərkəzləri Lüdviqshafen ("*BASF" konserni*), qərargahla və konsernin "Bayer" zavodu ilə Leverkuzen, Köln, Vesselinq, Dormagen, Marl, Gelzenkirhen və Krefelddir. Kimya sənayesi üzrə yüksək konsentrasiya olunan rayonlar, həmçinin, Reyn-Mayn aqlomerasiyasında meydana gəlmişdir. Əsas mərkəz Frankfurt-Mayn ("*Hoechst AG" konserni*) və Aşağı Elbadadır.

Kifayət qədər inkişaf etmiş yüngül sənayenin olmasına baxmayaraq, ölkə bu sahə üzrə miqyaslı məhsullar idxal edir. Ənənəvi olaraq, AFR-in toxuculuq rayonları Rur sənaye rayonudur ki, onun da Krefeld, Bergeşis, Landda, Münsterlandda mərkəzləri vardır, həmçinin, ölkənin cənub-şərqində - Auqsburq və Bavariyanın şimali-şərqi, həmçinin, Berlin də toxuculuq mərkəzi hesab olunur.

Şərabçılıq Reyn vadisində və onun qərbinə tərəf inkişaf etmişdir. Əsrin əvvəllərindən davam edən şərab istehlakı ona gətirib çıxarmışdır ki, şərabçılıq sahəsinə, onun keyfiyyətinin artımına qoyulan investisiyalar ölkədə şərabın həm kəmiyyət, həm də keyfiyyətinin yaxşılaşmasına çalışan istehsalçıların payına çoxlu miqdarda xərc qoymuş oldu. Xüsusilə də, qırmızı şərabın istehsalı üçün əkin sahələri durmadan genişlənir.

AFR hələ XIX əsrin sonlarından özünü iri elektrotexnika və elektron avadanlıq ixracatçısı kimi göstərmişdir. Bu sahədə "Siemens AG", "Hager", "Robert Bosch GmbH" və s. kimi TMŞ-lər bütün dünyada məşhurdur. Elektrotexnika sənayesinin əsas mərkəzləri Münhen, Ştutqart, Nürnberq, Erlangen, Frankfurt-Mayn və başqalarıdır. Elektrotexnika sənayesinin strukturunda çoxlu miqdarda əlvan metallar, poladın xüsusi növlərindən istifadə edən bahalı sənaye təyinatlı məhsul istehsalçısı, həm də uzunmüddətli istifadə üçün nəzərdə tutulmuş məişət malları istehsalçısı seçilir. AFR-də elektrotexnika sənayesinin sürətli inkişafı informasiya texnologiyalarının tətbiqi, atom sənayesinin yaranması və hərbi-sənaye kompleksinin sifarişləri ilə bağlıdır. Sahədə daha böyük TMŞ "Simens"dir. Elektrotexnika sənayesində Bavariya liderdir. Vurğulanmalıdır ki, elektrotexnika sənayesində elektron sənaye - müasir maşınqayırmanın ən elmtutumlu sahəsi sayılır. İstehsalın yerləşdirilməsinə müxtəlif səviyyələrdən olan ixtisaslı əmək resursları və elmi mərkəzlərin yaxınlığı böyük təsir göstərir.

AFR Avropanın inkişaf etmiş iri dövlətləri ilə yanaşı enerji resurslarının əsas istehlakçısıdır. Lakin coğrafi mövqeyi öz xammalının qıtlığını və idxalın zəruriliyini şərtləndirir. AFR hər hansı faydalı qazıntının böyük ehtiyatlarına malik deyil. Yeganə

istisna, bütün Mərkəzi-Avropa regionuna yayılan - həm daş (*Rur hövzəsi*), həm də boz kömürdür. Ən mühüm daş kömür hövzələri Reyn-Vestfal və Saar regionlarıdır. Burada daş kömürün işlənməmiş yataqları 24 milyard ton həcmində qiymətləndirilir. Ölkənin enerji mənbələrinə olan ehtiyaclarının 60%-ə qədəri idxal hesabına təmin edilir. Burada əsas enerji resursları tədarükçüsü kimi Rusiya Federasiyasının rolu böyükdür. AFR-in qaza olan ehtiyacının yalnız dörddə bir hissəsi öz resursları hesabına ödənilə bilər. Ölkədə 100 milyard $m^3$-dən çox təbii qaz ehtiyatları və cüzi neft ehtiyatları vardır. Budan başqa, ölkədə 7-22 trilyon $m^3$ arası şist qazı ehtiyatlarının olması da qeyd edilir. Elektrik stansiyaları neftlə işləyir və demək olar ki, tamamilə idxala əsaslanır. Əsas neft sənayesi mərkəzi Hamburq şəhəri sayılır. Xammal çatışmazlığı və ekoloji tələbləri nəzərə almaq zərurəti fonunda ölkədə enerjiyə qənaət və ondan səmərəli istifadə üzrə fəal addımlar atır. Burada bərpaolunan enerji mənblərindən istifadə yüksək hədli hesab olunur və bu sahə uzunmüddətli perspektivdə elektrik enerjisinə olan tələbatların beşdə bir hissəsini ödəməlidir.

Ölkənin böyük əraziləri kənd təsərrüfatı ilə məşğul olmaq üçün istifadə edilir. Buna baxmayaraq, kənd təsərrüfatında əmək qabiliyyətli əhalinin yalnız 1-2%-i məşğuldur. Kənd təsərrüfatı, əsasən, xırda ailə fermerliyinə əsaslanır. Mövsümi işçilərin əməyi geniş tətbiq edilir.

Yüksək məhsuldarlıq mexanikləşdirmə və müasir aqrosənaye texnologiyalarının tətbiqi hesabına əldə edilir. Kənd təsərrüfatında əmtəəlik məhsulun 70%-ə qədəri heyvandarlığın payına düşür. Kənd təsərrüfatı bütün əmtəəlik məhsulları $^2/_5$ hissəsini verir. Ölkənin südlə və mal əti ilə özünü təmin etməsi 100%-i ötür, donuz əti ilə təminat isə bir qədər az - 85% təşkil edir. Broyler istehsalı, yumurta, dana əti istehsalları, həmçinin, donuzçuluq iri heyvandarlıq təsərrüfatlarında cəmləşmişdir ki, bunların yerləşdirilməsi təbii amillərdən o qədər də asılı deyil. Aİ-də ümumi dən istehsalının $^1/_5$-i, çovdarın ¾-ü, yulafın $^2/_5$-si, arpanın ¼ hissəsi AFR-in payına düşür. Heyvandarlıq üçün yemin, xüsusilə də, alman xalqının ənənəvi içkisi olan pivə (*adambaşına ildə 145 litr*) istehsalında istifadə olunan arpanın istehsal həcmləri də böyükdür. Təbii yüksək məhsuldarlığı olan torpaqlarda arpa, qarğıdalı və şəkər çuğunduru becərilir. Daha az məhsuldar torpaqlarda çovdar, yulaf, kartof və təbii yem bitkiləri becərilir. Üzümçülük əmtəə məhsulu üzrə bir yerdə götürülmüş meyvəçilikdən və tərəvəzçilikdən də üstündür.

AFR 12 yanvar 1992-ci ildə Azərbaycanın müstəqilliyini tanımışdır. Azərbaycan ilə AFR arasında diplomatik münasibətlər 20 fevral 1992-ci ildə qurulmuşdur. AFR Azərbaycan iqtisadi əlaqələri yüksələn xəttlə inkişaf etməkdədir. Son illər xarici ticarət dövriyyəsi davamlı artaraq, 3 milyard ABŞ dollarına yaxınlaşmaqdadır. Bunun 1 milyard ABŞ dollarını AFR-dən idxal təşkil edir. Hazırda Azərbaycanda sənaye, xidmət, rabitə, ticarət, nəqliyyat, bank və sığorta, kənd təsərrüfatı, tikinti sahəsində alman kapitallı 150-dən çox şirkət, həmçinin, dünya nəhəgləri "Simens", "Ferrosstal", "İnterselek", "Mersedes Bens" kimi iri şirkətlər uğurlu biznes fəaliyyəti göstərirlər.

**Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı - Böyük Britaniya** (*ingiliscə* - United Kingdom of Great Britain and Northern Ireland - *Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı*, *qisaldılmış* - "United Kingdom" *"Birləşmiş Krallıq*) Şimal-Qərbi Avropada ada dövlət.



Vahid Böyük Britaniya Krallığı Şotlandiya və İngiltərəninin (*Uels daxil olmaqla*) birləşməsi ilə 1707-ci ildə yaranmışdır. 1800-cü ildə Böyük Britaniya Krallığı və İrlandiya Krallığı birləşərək Birləşmiş Britaniya və İrlandiya Krallığı adlı dövlət təsis etmişlər. 1922-ci ildə İrlandiya Azad Dövləti ondan ayrılmış və həmin ildən ölkə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı adlandırılmışdır.

Böyük Britaniya dünyanın iqtisadi cəhətdən qüdrətli ölkələrindən biridir. Ölkənin paytaxtı London şəhəri, rəsmi dili isə ingilis dilidir. Burda idarəetmə üsulu konstitusiya monarxiyası və parlament demokratiyası üzərində qurulmuşdur. Böyük Britaniya BMT-nin Təhlükəsizlik Şurasının 5 daimi üzvündən biridir. Nüvə silahı arsenalına malikdir, Aİ və NATO-nun üzvüdür, G20 qrupuna daxildir. Milli valyutası funt sterlinqdir.

Ərazisi 243 809 km$^2$, əhalisi 65,9 milyon nəfərdir (*2018*).

İqtisadiyyatda xidmətlər 80,4%, sənaye 19,0%, kənd təsərrüfatı 0,6% paya malikdir. ÜDM 2,9 trilyon ABŞ dolları, adambaşına ÜDM 43,7 min ABŞ dollarıdır. İnflyasiya 2,9%, işsizlik səviyyəsi 4,3%, yoxsulluq səviyyəsi 15,0%-ə bərabərdir. Xarici borc 8,5 trilyon ABŞ dolları (*ÜDM-in 293,0%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 50,8%-nə bərabərdir (*2017*).

İstehsalın əsas sahələri maşınqayırma, elektrik avadanlığı, elektronika, telekommunikasiya, metallurgiya, neft və kimya, ərzaq sənayesidir.

Maşınqayırma və nəqliyyat, sənaye malları və kimyəvi preparatlar ölkənin əsas ixrac maddələrini təşkil edir. Ölkənin ümumi ixracı 200 milyard ABŞ dollarından çoxdur. Əsas ixrac partnyorları ABŞ, AFR, Fransa, İrlandiya, Niderland, Belçika, İspaniya və İtaliyadır. İdxalın həcmi orta hesabla ölkədə milyard 300 milyard ABŞ dolları təşkil edir. Böyük Britaniyanın idxal üzrə əsas partnyorları AFR, ABŞ, ÇXR, Niderland, Fransa, Belçika, Norveç və İtaliyadır.

Böyük Britaniya, enerji ehtiyatlarına görə, Avropada birinci yeri tutur. Enerji balansında daş kömür 28%, neft 47%, təbii qaz 22% paya malikdir. Şimal dənizinin Britaniya sektorunda regionun neft ehtiyatlarının $^1/_3$-i - 4,5 milyard ton və dünya ehtiyatlarının 2%-i çəmləşib. Bununla belə, ABŞ, AFR və Niderlanddan ölkəyə həm də neft idxal olunur (*illik 50 milyon ton*). Dünyanın ən iri neft korporasiyalarından olan "British Petroleum" (*BP*) Böyük Britaniyaya məxsusdur. Ölkədə qaz hasilatı 1960-cı illərin ortalarında başlamışdır. Ölkənin Şimal dənizi zonasında kəşf olunmuş ehtiyatları 2 trilyon m$^3$ və çıxarılan ehtiyatlar isə 0,8 trilyon m$^3$ təşkil edir. Bunlara baxmayaraq, Böyük Britaniya öz ehtiyaclarının təminatı və daxili ehtiyatlarının qorunması üçün boru vasitəsilə Norveçdən təbii, Əlcəzair və Qətərdən isə sıxılmış qaz alır.

Bütün istehsal və istehlak sektorunun elektrik enerjisi ilə təmin edilməsi Böyük Bri-

taniya iqtisadiyyatının ciddi nailiyyətidir. Elekrik enerjisinin 86%-i İES-lərdə, 12%-i AES-lərdə və 2%-i SES-lərdə istehsal olunur. İES-lərin əksər hissəsi daş kömürlə işləyir, lakin son illər onların bir hissəsi neftə keçmişdir. Ən iri İES-lər Trent çayı sahilində və London ətrafında yerləşir.

Böyük Britaniyada daş kömür ehtiyatları da yetərlidir. Ölkədə müxtəlif həcmli faydalı qazıntılarla zəngindir. Böyük Britaniya həcminə görə dünyada kaolini (*farfor düzəltmək üçün ağ gil*) ikinci ixrac edən ölkə hesab olunur. Bu da ölkədə keramika sənayesi inkişafına zəmin olmuşdur. Burada dəmir, volfram, mis, qızıl, silisium hasil edilir. Ölkədə qara metallurgiya sənayesi yaxşı inkişaf etmişdir. Eyni zamanda, Böyük Britaniya əlvan metallurgiyası da Avropada ən irilərindən biridir. Bu sənaye sahəsi isə, əsasən, gəlmə xammal hesabına işləyir. İlkin emal metallarından ancaq alüminium və nikel istehsal edilir. Ölkənin qalay, qurğuşun, alüminium üzrə tələbatı daxili istehsal hesabına demək olar ki tamamilə, mis və sink üzrə isə yarıbayarı ödənilir. Əlvan metallar ixracı, dəyərinə görə, çuqun və polad ixracını əhəmiyyətli dərəcədə üstələmişdir. Böyük Britaniya, həmçinin, atom sənayesində, təyyarə istehsalında və elektronikada istifadə olunan uran, sirkonium, berilliuç, niobium, hermanium və s. kimi metalların əsas təchizatçılarından biridir. Ölkənin əlvan metallarının əsas alıcıları ABŞ və AFR-dir.

Böyük Britaniya sənayesinin ən iri sahələrindən biri də maşınqayırmadır. Sahənin payına emal sənayesinin 40% şərti təmiz məhsulu düşür. Bu sferda dəzgahqayırma, cihaz və traktor istehsalı mühüm yer tutur. Nəqliyyat maşınqayırması isə daha üstün mövqedə dayanır. Ölkə dünyada yük avtomobillərinin ixracında lider mövqelərə malikdir və əsas alıcıları ABŞ, Yeni Zelandiya, İran və CAR-dır. Bir neçə avtomobil şirkəti demək olar ki, bütün seriya üzrə minik və yük avtomobillərini istehsal edir. Bunlar "Britiş Leyland", beynəlxalq Amerika şirkəti "Kraysler U.K." zavodları və Amerikanın "Voksholl" və "Ford" kimi törəmə şirkətlərdir. Yüksək sinif maşınları buraxılmasında "Rolls-Roys" və "Bentli" şirkətləri dünyada üstün mövqelərini qoruyub saxlayırlar.

Böyük Britaniya təyyarə istehsalı sahəsində də öncül yerləi tutur. Bu sahədə ən iri dövlət şirkəti "Britiş eyrspeys"dir. Şirkət müxtəlif təyyarələrin, helikopterlərin, kosmik aparatların, raketlərin istehsalında ixtisaslaşmışdır. Helikopterlər digər böyük şirkət olan "Uestlend erkraft" tərəfindən istehsal edilir. Ölkədə demək olar ki, bütün təyyarə mühərriklərinin istehsalı Derbidə, Bristolda, Koventridə və eləcə də Şotlandiyada zavodları olan milliləşdirilmiş "Rolls-Roys" şirkətinin əlindədir. Mülki və hərbi texnika istehsalında Böyük Britaniya Qərbi Avropa və Amerika şirkətləri ilə geniş əməkdaşlıq edir.

Ölkənin elektrotexnika sənayesi artan və inkişaf edən istehsallara aiddir. Bu sfera, məşğulluq sayına görə, emal sənayesi sahələri sırasında ikinci yeri tutur. Elektrotexnikada bir neçə iri şirkətlər olan "Ceneral elektrik", "İnqliş elektrik" və "Assoşieyted elektrikal indastriz" dominant mövqedə dayanırlar. Ölkənin turbinlər və elektrik mühərrikləri istehsalında mövqeləri, əvvəlki kimi, indi də kifayət qədər güclüdür. Lakin hal-hazırda elektronika üstünlük təşkil edən mövqelərdədir. Hesablama texnikası istehsalı daha dinamik inkişaf edir. Bu sənaye sahəsində əsas mövqeləri Amerika

kapitalı, məişət elektronikası istehsalında isə yapon kapitalı tutur. Böyük Britaniya şirkətləri, ənənəvi olaraq, radioelektron avadanlığı - radarlar, radioötürücülər və rabitə vasitələri istehsalı sahəsində də güclüdür.

Böyük Britaniya kimya sənayesi də inkişaf etmiş sahələr sırasındadır. Əsas kimya məhsulunun $^1/_3$ hissəsi sulfat turşusu, metalların və qeyri metalların oksidləri aid olan qeyri-üzvi kimya preparatlarından ibarətdir. Çoxsaylı kimya məhsulları arasında sintetik liflər, müxtəlif növ plastik kütlələr, yeni boya maddələri, əczaçılıq məhsulları və yuyucu vasitələr istehsalı iri miqyasda olması ilə seçilir. Kimya sənayesində əczaçılıq və aqrokimya preparatları, aviasiaya, raket istehsalı və mikroelektronikada istifadə olunan konstruksiya plastmasları üzrə ixtisaslaşmalar getmişdir.

Böyük Britaniyada iqtisadiyyat üçün ənənəvi olan toxuculuq sahəsi də inkişaf etmişdir. Yüngül sənaye sahələri sırasında ölkənin sənaye istehsalının inkişafında, istehsalın mexanikləşdirilmiş üsulunun bütün dünyaya yayılmasında toxuculuq sahəsinin xüsusi rolu vardır. Ölkə toxucularının yun məhsulları xarici bazarlarda yüksək qiymətləndirilir.

Ölkənin emal sənayesi strukturunda daha çox kağız, poliqrafiya, yeyinti və tütün sənayesi də xüsusi çəkiyə malikdir. Son 50 ildə ədviyyat sənayesi Böyük Britaniya kapitalının əsas sahələrindən biri olmuşdur. “Klub 500”-ə daxil olan ən iri şirkətləri sırasına ölkənin 40 korporasiyası daxildir. Bu sahədə Böyük Britaniyanı “Yunilever”, “Dayedjeo” və “Kedbyuri Şvepps” olmaqla bir çox digər iri şirkətlər də təmsil edirlər. Qida konsentratları, qənnadı məhsulları, içkilər (*o cümlədən çay, Şotland viskisi və London cini*), tütün məhsulları dünya bazarında yüksək rəqabətə malikdir. İri müəssisələrin yerləşdirilməsi bazarlara, o cümlədən xarici bazarlara istiqamətlənmişdir.

Böyük Britaniyada xidmət sektorunun payına ölkənin ÜDM-nin təxminən $^2/_3$ hissəsi düşür. Bunun da əsas hissəni işgüzar və maliyyə xidmətləri təşkil edir. Dövlət xidmətlərinin payına 35%, ticarətin payına isə 19% düşür. Xidmət sektorunda mehmanxana xidmətləri bütün xidmətlər bazarının 5% həcminə malikdir. Böyük Britaniya mədəni asudə vaxt keçirmənin forması kimi müasir turizmin vətənidir. Ölkənin turizm sənayesində 2 milyondan çox insan çalışır və onun dünya turizmində payı 3,4% təşkil edir. Bu göstəriciyə görə Böyük Britaniya dünyada 7-ci yeri tutur. Gələnlərin ən çoxu ABŞ-dan, Fransadan, AFR-dən, İrlandiya Respublikasından, Niderlanddandır.

Böyük Britaniya inkişaf etmiş maliyyə sisteminə malikdır. Ölkə valyutası dayanıqlı stabilliyə malikdir. Qızıl valyuta ehtiyatları 100 milyard ABŞ dollarına yaxın həcmdə ölçülür. Ölkə bank, sığorta, broker, konsultasiya və eləcə də kompüter proqramlaşdırılması sahəsinin xidmət ixracının 10%-ni həyata keçirir.

Böyük Britaniyanın beynəlxalq iqtisadi münasibətlərdə aparıcı forması kapitalın dövriyyəsidir. Ölkə borc və sahibkar kapitalının ixrac və idxalında mühüm yer tutur. O, həcminə görə birbaşa kapital qoyuluşunda ikinci ixracatçıdır. Ölkə kapitalının qoyulduğu əsas obyektlər Şimali Amerika və Aİ ölkələridir. ABŞ-da Britaniya investisiyaları ən iriləridir, onlar qoyulmuş bütün xarici kapitalın həcmindən 18%-dən

çoxdur. ÇXR-də, Braziliyada, Bermud adalarında iri kapitallar toplanmışdır. Eyni zamanda, Böyük Britaniya xarici kapitalın qoyuluşunda ən iri obyektlərdən biridir (*dünya üzrə birbaşa xarici kapital yerləşdirilməsi həcminin 8% təşkil edir*).

Böyük Britaniya hazırda dünyada ən məhsuldar və ən çox mexanikləşdirilmiş kənd təsərrüfatına malikdir. O, kənd təsərrüfatı məhsulunun istehsalının həcminə görə, Aİ-də altıncı yeri tutur. Ölkənin kənd təsərrüfatı torpaqları 18,5 milyon hektardır və ölkə ərazisinin 77%-ni təşkil edir. Burada buğda, arpa, bitki yağı, şəkər çuğunduru, meyvə və tərəvəz, gül, kartof, donuz, mal, qoyun və quş əti, süd, yumurta istehsalı geniş ölçülərə malikdir. Kənd təsərrüfatı iri həcmdə dövlət dəstəyindən istifadə edir və büdcədən dotasiyalar alır. Bunula belə, Böyük Britaniya ehtiyacı olan çox ərzağı digər ölkələrdən gətirməyə məcburdur. O, kərə yağın $^{4}/_{5}$, şəkərin $^{2}/_{3}$, buğdanın $^{1}/_{2}$, mal əti və dana ətininin $^{1}/_{4}$ hissəsini idxal edir.

Böyük Britaniya dünya iqtisadiyyatında öncül yerini qoruyub saxlayır. Burada dünyanın ən mühüm əmtəə və fond birjaları - London Fond Birjası, London Metallar Birjası, Beynəxalq Neft Birjası, Baltika Birjası və s. yerləşir. Ölkə beynəlxalq iqtisadi və maliyyə təşkilatları ilə razılaşmalar çərçivəsində müxtəlif kollektiv qərarların qəbulunda həlledici rol oynayır. Böyük Britaniya çirkli pulların yuyulması ilə mübarizədə, 58 dövlətin iştirakçısı olan Maliyyə tədbirlərinin hazırlanması qrupunun (*Financial Action Task Force on Money Laundering - "FATF"*) fəaliyyətində fəal iştirak edir. Bir çox üstünlükləri ilə yanaşı, ölkənin dünya ticarətində xüsusi çəkisinin azalması meyili nəzərə çarpır.

Böyük Britaniya ilə Azərbaycanın münsabətləri tarixi hadisələrlə zəngindir. Belə ki, Böyük Britaniya 1918-ci ilin yanvar ayında öz hərbi ekspedisiyasını Azərbaycanın neft mədənlərinin birləşmiş qüvvələrin (*Almaniya və Osmanlı imperiyası*) təsiri altına düşməsinin qarşısını almaq məqsədilə Bağdaddan Bakıya göndərmişdi. "Dunsterforce" adlandırılan əməliyyata general Lioner Danstervil başçılıq edirdi. Dunsterforce Bakıya 1918-ci ilin avqust ayında çatmış və qısamüddətli gərgin döyüşlərin ardınca sentyabr ayında İrana geri qayıtmışdır. Osmanlı imperiyası və onu tərəfdaşları arasında Mudros sülh müqaviləsindən sonra ikinci britaniya döyüş bölməsi Osmanlı qoşunlarının Türkiyəyə geri dönməsinə əmin olmaq məqsədi ilə təkrar Bakıya gəlmiş və 1920-ci ilə qədər burada qalmışdır. Bu müddət ərzində Böyük Britaniya ilə Azərbaycan Xalq Cümhuriyyəti arasında mərkəzi Tiflisdə yerləşən Britaniyanın Qafqaz üzrə Ali Komissarı Oliver Uoldrop vasitəsilə de fakto diplomatik əlaqələr qurulmuşdur. Bu çətin dövrdə general Tompsonun başçılığı altında Britaniya hərbi missiyası Azərbaycanda stabilliyin əldə olunmasında mühüm rol oynamışdır.

Yeni tarixi mərhələdə Böyük Britaniya Azərbaycanın müstəqilliyini 31 dekabr 1991-ci ildə tanımış, 11 mart 1992-ci ildə iki ölkə arasında diplomatik əlaqələr qurulmuşdur. Hazırda Azərbaycan Respublikası ilə Böyük Britaniya arasında ticarət dövriyyəsinin həcmi 2 milyard ABŞ dolları həcmindəddir. Azərbaycan Böyük Britaniya ilə Xəzər dənizinin Azərbaycan sektorunda neft və təbii qazın hasil olunması və beynəlxalq

bazarlara nəql olunması sahəsində sıx əməkdaşlıq edir. Dünyanın aparıcı neft şirkətlərindən biri olan BP 1992-ci ildən etibarən Azərbaycanda fəaliyyət göstərir və "Əsrin Müqaviləsi" (*Azəri-Çıraq-Günəşli yataqları*) və "Şahdəniz" layihəsi kimi Hasilatın Pay Bölgüsünə dair imzalanmış əsas sazişlərin həyata keçirilməsində iştirak edir. BP şirkəti "Şahdəniz-2" layihəsi üzrə əsas texniki operator və aparıcı iştirakçı şirkətlərdəndir.

**Fransa Respublikası - Fransa** (*francızca* - République Française - *Fransa Respublikası*) Qərbi Avropada Atlantik okeanı sahilində yerləşən dövlət. Fransa dövlətçilik tarixi başlanğıcını 843-cü ildən alır. Bunula belə, Fransa dövlətinin müasir yaranış tarixi 1958-ci ildə qəbul olunmuş yeni konstitusiya ilə müəyyən edmişdir. Paytaxtı Paris şəhəri, rəsmi dili isə fransız dilidir. Unitar quruluşludur və prezident-parlament respublikasıdır. BMT-nin Təhlikəsizlik Şurasının daimi üzvüdür. Fransa həmçinin, Aİ və NATO-nun üzvüdür və nüvə silahı arsenalına malikdir. G20 qrupunun üzvüdür. Ölkə Şengen və avro zonaya daxildir. Valyutası avrodur.



Ərazisi 674 685 km$^2$, əhalisi 65,2 milyon nəfərdir (*2018*).

İqtisadiyyatda xidmətlər 78,9%, sənaye 19,5%, kənd təsərrüfatı 1,6% paya malikdir. ÜDM 2,6 trilyon ABŞ dolları, adambaşına ÜDM 39,1 min ABŞ dollarıdır. İnflyasiya 1,3%, işsizlik səviyyəsi 9,7%, yoxsulluq səviyyəsi 14,0%-ə bərabərdir. Xarici borc 5,7 trilyon ABŞ dolları (*ÜDM-in 219,2%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 47,1%-nə bərabərdir (*2017*).

Fransa yüksək inkişaf etmiş ölkədir, qüdrətli nüvə və kosmik dövlətidir. İqtisadiyyatın ümumi həcminə görə ölkə Aİ-də aparıcı yer tutur və sabit olaraq, dünyanın ilk onluğuna daxildir.

Fransanın iqtisadi siyasətinin ənənəvi xüsusiyyəti - xüsusilə, neft-qaz sənayesi, nəqliyyat kimi strateji vacib sahələrdə dövlət sektorunun böyük payının olmasıdır. Ölkədə planlaşdırma mövcuddur, lakin normativ deyil, indikativ xarakter daşıyır (*nəzərdə tutulan göstəricilər xüsusi özəl müəssisələr üçün normativ deyildir*). İqtisadiyyatda xarici kapitalın payı yüksəkdir (*sənayedə 40%-ə qədər, daşınmaz əmlakda təqribən 28%, ticarətdə - 20%, xidmət sahəsində - 9%*). Əməkqabiliyyətli əhalinin 20%-dən çoxu xarici kapitalı olan müəssisələrdə çalışır. Xarici kapitalı olan müəssisələrdə 20%-dən artıq yerli işçilər çalışırlar. Xarici kapitalın payı informatika və digər qabaqcıl texnologiyalar sahəsində xüsusilə yüksəkdir (*50% çox*).

Fransa əhəmiyyətli təbii sərvətlər ehtiyatına - dəmir filizi, uran, boksitl, kalium, daş kömür, daş duzlar, sink, mis, qurğuşun, nikel, neft, ağac ehtiyatlarına malikdir Ölkə əlvan metallurgiyanın inkişaf səviyyəsinə görə dünya reytinqlərində aparıcı yerlər tutur, poladəritmə sahəsində Qərbi Avropada üçüncü yerdədir. Maşınqayırma (*dünya istehsalının 2,6%-i*), kimya (*dünya ixracında dördüncü yer*), aviakosmik (*Fransa Avropa Kosmik Agentliyində aparıcı rol oynayır*), avtomobil (*avtomobil istehsalında dünyada onuncu yer*), yeyinti (*ixrac həcminə görə ABŞ-dan sonra dünyada ikinci yer*),

radioelektron, informatika, gəmiqayırma, elektrotexnika əsas sahələrdir. Ölkə nüvə energetikasının inkişafı sahəsində ən qabaqcıl yerlərdən birini tutur və burada elektrik enerjisi istehsalının 75%-dən çoxu AES-lərin payına düşür.

Maşınqayırma, o cümlədən elektrotexnika və elektron (*televizorlar, paltaryuyan maşınlar və digərləri*), aviasiya, gəmiqayırma (*tankerlər, dəniz bərələri*) və dəzgah istehsalı emal sənayesinin aparıcı sahələridir. Fransa dünyada ən iri kimya və neft-kimya məhsulları (*o cümlədən kaustik soda, sintetik kauçuk, plastik kütlə, mineral gübrələr, əczaçılıq məhsulları və digərləri*), qara və əlvan metal (*alüminium, qurğuşun və sink*) istehsalçısıdır. Fransız geyimləri, ayaqqabıları, zərgərlik məhsulları, ətriyyat və kosmetikaları dünya bazarında çox tanınmış məhsullardır.

Ölkədə kənd təsərrüfatının əsasını xüsusi mülkədarlıq təşkil edir. Lakin buna baxmayaraq, dövlət tərəfindən ən çox himayə edilən sahə kənd təsərrüfatıdır və onun payına ÜDM-in təqribən 4%-i və əmәkqabiliyyətli əhalinin 6%-i düşür. Ölkə Avropada ən iri kənd təsərrüfatı məhsulları istehsalçılarından biridir (*Aİ məhsulunun 25%-i*). İstehsal edilən məhsulun həcminə görə Fransa Qərbi Avropada 1-ci yeri,  dünyada ABŞ və Kanadadan sonra 3-cü yeri tutur. Ölkə, həmçinin, iribuynuzlu mal-qara, donuz, və quşların ümumi sayına, süd, yumurta, ət istehsalına görə dünyada aparıcı yer tutur. Ölkədə kənd təssərüfatı məhsulunun 50%-dən artıq hissəsini məhz heyvandarlıq (*maldarlıq*) təşkil edir. Burada məhsulun həlledici payını iri təsərrüfatlar verir (*20-100 hektar torpaq payı olan*). Bununla belə, kiçik və orta təsərrüfatlar sayca çoxluq təşkil edir. O, Avropada ən iri buğda, kərə yağı, mal əti, pendir (*400 növdən artıq*) istehsalçısıdır. Fransa məhsullarının, ənənəvi olaraq, yüksək keyfiyyətliliyi səbəbindən, ölkə fermerləri Avropada genetik dəyişdirilmiş məhsulların istehsalının əsas əleyhdarlarıdır. Fransa, həmçinin, ənənəvi şərabçılıq ölkəsidir. Bu baxımdan şərabların payı ixracda da çoxdur. Ölkə ilə şərab istehsalında yalnız İtaliya rəqabət aparır. Burada hər bir əyalətdə məxsusi üzüm növləri becərilir və öz orijinal şərab istehsal olunur. Şampan, anju, bordo şərabları xüsusilə məhşurdur. Digər məşhur içki növü konyakdır ki, bu da ölkənin Konyak şəhəri və onun məxsusi üzum növünün adı ilə bağlıdır. Normandiyada isə daha bir tünd içki növü olan kalvados geniş yayılmışdır.

Fransa Avropada ən inkişaf etmiş dəmiryol şəbəkəsinə malikdir. 1981-ci ildən şəhərlərin çoxları yüksək sürətli magistrallar şəbəkəsi ilə bir-birinə bağlıdır, La-Manş boğazının altından keçən tuneldə eyni dəmiryol qolu salınmışdır. Yerli və gecə qatarları, o cümlədən TGV (*“Trains à Grande Vitesse” - yüksək sürətli qatarlar*) paytaxtı ölkənin bütün iri şəhərləri və eləcə də qonşu Avropa ölkələri ilə birləşdirir. Bu qatarların hərəkət sürəti saatda 320 kilometrdir. Fransanın dəmiryol şəbəkəsi 29370 km təşkil edir və Qərbi Avropa ölkələri arasında ən uzun dəmiryol şəbəkəsidir. Dəmiryol əlaqəsi Andorradan başqa bütün ölkələr ilə mövcuddur. Fransada metro Parisdə, Lionda, Marseldə, Lilldə, Tuluzada, Renndə var. Metro sistemindən başqa, Parisdə metro sistemi və şəhərətrafı qatarlar şəbəkəsi ilə birləşən RER (*Reseau Express Regional*) şəbəkəsi də var. Ölkə ərazisində avtomobil yolları şəbəkəsi kifayət qədər sıxdır. Bu

yollarının ümumi uzunluğu 100 min km-i keçir. Fransanın əsas yolları aşağıdakı qruplara bölünürlər: Avtotraslar - yolun adı A hərfi və yolun nömrəsindən ibarətdir. İcazə verilən sürət 130 km/s-dır. Hər 50 km-dən bir yanacaqdoldurma məntəqəsinin, ayırıcı beton zolağın olması, işıqforların, piyada keçidlərinin olmaması məcburidir. Milli yollar - N prefiksi ilə qeyd olunur. İcazə verilən sürət - 90 km/s-dır (*ayrıcı beton zolağı olduğu halda - 110 km/s*). Departament yolları - D prefiksi ilə qeyd edilir. İcazə verilən sürət - 90 km/s-dır. Şəhərlərdə isə icazə verilən sürət - 50 km/s-dır. Təhlükəsizlik kəmərlərinin istifadəsi məcburidir. 10 yaşınadək uşaqlar xüsusi oturacaqlarda yerləşdirilməlidir.

Fransada 475 hava limanı var. Onlardan 295-də asfalt, yaxud beton qalxma-enmə zolağı, qalan 180-də torpaq qalxma-enmə zolağı var. Ölkənin ən iri hava limanı Paris şəhəri ətrafında yerləşən Ruassi-Şarl-de-Qoll hava limanıdır. Milli Fransa aviadaşıyıcısı "Air France", praktiki olaraq, bütün dünya ölkələrinə aviareyslər həyata keçirir. Fransa dünyada turistlərin ən çox gəldiyi ölkədir və Paris ən çox turist qəbul edən şəhərdir.

Fransada əhalinin sosial müdafiəsi dərəcəsi dünyada ən yüksək olanlardan biridir. ÜDM-in təqribən 30%-i sosial ehtiyaclara xərclənir.

Fransa Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biridir (*31 dekabr 1991-ci il*) və Bakıda öz səfirliyini 1992-ci ildə açmışdır. Fransa, məqsədi Ermənistan ilə Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllini axtarmaq olan, ATƏT-in Minsk qrupuna həmsədrlik edir. Fransa, həmçinin, Avropa qonşuluğu siyasəti çərçivəsində, Aİ və Azərbaycan arasında əməkdaşlıqda da fəal rol oynayır. Bu günə qədər iki ölkə arasında 50-dən çox sənəd imzalanmışdır ki, onun da yarıdan çoxunu iqtisadi sahədə ilə bağlıdır.

Azərbaycan - Qafqaz ölkələri içərisində Fransanın ən sıx iqtisadi əlaqə yaratdığı ölkədir, bu, xüsusilə, onun karbohidrogenlərlə təchizatı ilə əlaqədardır. Liviya neftinin Azərbaycan nefti ilə əvəz edilməsi nəticəsində son illərdə iqtisadi əlaqələrdə xüsusilə ciddi yüksəliş olmuşdur. İki ölkə arasında qarşılıqlı ticarət dövriyyəsi 2 milyard ABŞ dollarına yaxındır. İdxalla müqayisədə Azərbaycana ixrac daha çoxsahəlidir, əsasən, təchizat avadanlıqlarından (*50,6%*) informatika və elektronika avadalıqlarından, sənaye və ya kənd təsrrüfatı avadanlıqlarından, digər sənaye məhsullarından (*28,7%*), məsələn, kimya, kosmetika, metal məmulatlarından ibarətdir.

Fransa tərəfindən Azərbaycan iqtisadiyyatına çoxmilyardlıq investisiyalar yatırılmışdır ki, bunun da əsas hissəsi - 2 milyard ABŞ dollarından çoxu neft-qaz sektorununa yönəldilmişdir. Fransa, həmçinin, Azərbaycanın qeyri-neft sektoruna yatırdığı investisiyaya görə də 9-cu yerdədir. Azərbaycanda kənd təsərrüfatı, nəqliyyat, sənaye, tikinti, bank və digər sahələrdə 51 Fransa şirkəti fəaliyyət göstərir. Bu şirkətlər dövlət investisiyaları hesabına həyata keçirilən layihələrdə iştirak edirlər. Bu layihələrin ümumi dəyəri 1,8 milyard dollardır. Bunların arasında Azərbaycanın ilk telekommunikasiya peykinin hazırlanması, Bakıda bərk məişət tullantıları zavodunun inşası, Bakı Metropoliteninin inkişafında, eləcə də "Azərbaycan Hava Yolları" QSC-nin yeni təyyarələrinin

alınmasında, kənd təsərrüfatı sahəsində əməkdaşlıq və s. mühüm yer tutur.

**İtaliya Respublikası - İtaliya** (*italyanca* - Repubblica Italiana - *Respublika İtaliya*) Aropanın cənubunda, Aralıq dənizi bölgəsinin mərkəzində yerləşən dövlət. 1946-cı ilin 2 iyununda yaranmış İtaliya Respublikası dünyanın iqtisadi cəhətdən ən inkişaf etmiş ölkələrindən biridir. Paytaxtı Roma şəhəri, rəsmi dili italyan dilidir. İtaliya parlament respublikasıdır, Aİ və NATO-nun üzvüdür. Ölkə Şengen və avro zonaya daxildir, G20 qrupunun üzvüdür. Valyutası avrodur.



Ərazisi 301 340 $km^2$ əhalisi 59,9 milyon nəfərdir (*2018*).

İqtisadiyyatda xidmətlər 73,9%, sənaye 24,0%, kənd təsərrüfatı 2,1% paya malikdir. ÜDM 1,9 trilyon ABŞ dolları, adambaşına ÜDM 31,0 min ABŞ dollarıdır. İnflyasiya 0,8%, işsizlik səviyyəsi 11,3%, yoxsulluq səviyyəsi 29,9%-ə bərabərdir. Xarici borc 2,5 trilyon ABŞ dolları (*ÜDM-in 129,5%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 43,3%-nə bərabərdir (*2017*).

İtaliyada təbii resurslar azdır. Ərazinin böyük hissəsi kənd təsərrüfatı üçün yararsızdır, ölkə ərzaq idxalçısıdır. Az miqdarda hasilatı olan dəmir filizi, daş kömür və neft yataqları var. Təbii qazın kəşf edilmiş ehtiyatları, əsasən, Po çayı hövzəsində və Adriatik dənizindədir, son illərdə onun ehtiyatları artmışdır. Resurslar baxımından təbii qaz ölkənin ən mühüm sərvətlərindəndir.

İtaliya yüksək inkişaf etmiş aqrar-sənaye ölkəsidir. Sənayenin aparıcı sahələri maşınqayırma, metallurgiya, kimya və neft kimyası, yüngül və ədviyyat məhsulları sahələridir. İtaliya dünya bazarında ən iri avtomobil, velosiped və mopedlər, traktor, paltaryuyan maşın və soyuducular, radioelektronika malları, sənaye avadanlığı, polad boru, plastik kütlə və kimya lifləri, avtomobil şinləri və eləcə də hazır paltar və ayaqqabı, makaron, pendir, zeytun yağı, şərab, meyvə və tomat konservləri istehsalçıları və tədarükçüləri sırasına daxildir.

Ölkədə sement, güllərdən və meyvələrdən təbii cövhər və efir yağları, şüşədən və saxsıdan bədii məmulatlar, zərgərlik məhsulları istehsalı geniş yayılmışdır. Burada piritlər, civə filizi, təbii qaz, kalium duzları, dolomitlər, asbestin hasilatı həyata keçir-ilir.

İtaliya istehsalatda lazım olan xammal materiallarının çox hissəsini, enerjinin isə 80%-dən çoxunu idxal edir. Enerjinin 75% İES-lərdə istehsal olunur. Ölkənin energetik bazısının $^2/_3$ hissəsini neft təşkil edir. İtaliya həm də regionda AFR-dən sonra ən çox neft idxal edən ölkədir və bu toplumda Azərbaycan nefti əhəmiyyətli çəkiyə malikdir. Toskan arxipelaqının termal mənbələrindən, Alp dağlarının çaylarının enerjisindən də istifadə edilir.

Kənd təsərrüfatında bitkiçilik üstünlük təşkil edir. Becərilən əsas bitkilər buğda, qarğıdalı, düyü, şəkər çuğundurudur. İtaliya sitrusların (*ildə 3,3 milyon tondan artıq*), tomatların (*ildə 5,5 milyon tondan çox*), üzümün (*ildə təqribən 10 milyon ton; 90%-dən çox hissəsindən şərab hazırlanır*), zeytunun becərilməsində dünyada ən iri və Avropada qabaqcıl istehsalçıdır.

İtaliya inkişaf etmiş nəqliyyat infrastrukturuna malikdir. Burada yüklərin və sərnişinlərin daxili daşınmasında əsas rolu avtomobil nəqliyyatı oynayır, dəmir yolu isə bu sırada ikinci yerdədir. Dəmir yollarının elektrikləşdirilməsinin səviyyəsinə görə ölkə dünyada birinci yerlərdən birini tutur. Müasir şosse və dəmir yollarının sıx şəbəkəsi Şimali İtaliyanın şəhərlərini birləşdirir.

Ölkədə turizm güclü inkişaf etmişdir. İldə 50 milyondan artıq turist İtaliyaya axışır ki, bu da onun iqtisadi potensialının artmasına əlavə stimullar gətirir.

İtaliyanın müasir bank sistemi 1920-1930-cu illərdə formalaşmış və yüksək inkişaf səviyyəsinə malikdir. Hazırda Avropa Mərkəzi Bankları sisteminin yaradılması ilə əlaqədar İtaliya Bankı Avropa Mərkəzi Bankının siyasətini həyata keçirən təşkilat kimi çıxış edir. İtaliyada, həmçinin, kiçik və orta sahibkarlığın kreditləşməsi ilə məşğul olan xalq bankları adlanan çoxsaylı kooperativ banklar da mövcuddur. Bu banklar milli xalq bankları assosiasiyasında birləşir və onların fəaliyyəti İtaliyanın xalq bankları mərkəzi institutu tərəfindən koordinasiya edilir. Ölkədə, həmçinin, əmanət kassaları formasında banklar da geniş yayılmışdır. Onlar da İtaliyanın Əmanət Kassaları Assosiasiyasında birləşmişlər.

İtaliya Azərbaycanın müstəqilliyini 1 yanvar 1992-ci ildə tanımış, 8 may 1992-ci ildə iki ölkə arasında diplomatik əlaqələr yaradılmışdır. Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında əməkdaşlıq haqqında 30 sənəd imzalanmışdır. İki ölkə arasında ticarət dövriyyəsinin əsasını Azərbaycanın ixracatı təşkil edir. 2003-cü ildən bəri Azərbaycan ixracatının önəmli hissəsi İtaliyaya istiqamətlənmişdir. İtaliyadan Azərbaycana isə daha çox neft sektoru üçün borular, tütün, dəri məmulatlar və mebel ixrac edilir. 2017-ci il üzrə Azərbaycanın ixracın dəyərinin 20%-dən çoxu İtaliyaya payına düşmüşdür ki, həmin göstərici üzrə ölkə birinci yerdədir.

**Kanada** (*Canada*) Şimali Amerikada Sakit və Atlantik okeanları sahillərində yerləşən dövlət. Kanada dövlətçilik tarixi başlanğıcını 1867-ci ildən alır. Bununla belə, Kanada Birləşmiş Krallıqdan öz müstəqiliyinə sülh nəticəsində 1982-ci ildə qovuşmuşdur. Paytaxtı Ottava şəhəri, rəsmi dili isə ingilis və fransız dilləridir. İdarəetmə üsulu konstitusiya monarxiyası və parlament demokratiyası üzərində qurulmuşdur. Ölkə NATO-nun üzvüdür. G20 qrupuna daxildir. Milli valyutası Kanada dollarıdır.



Ərazisi 9 984 670 $km^2$ (*ərazisinin ölçüsünə görə Rusiyadan sonra dünyada ikinci yerdə*), əhalisi 37,1 milyon nəfərdir (*2018*).

İqtisadiyyatda xidmətlər 70,2%, sənaye 28,1%, kənd təsərrüfatı 1,7% paya malikdir. ÜDM 1,7 trilyon ABŞ dolları, adambaşına ÜDM 41,9 min ABŞ dollarıdır. İnflyasiya 1,7%, işsizlik səviyyəsi 6,4%, yoxsulluq səviyyəsi 9,4%-ə bərabərdir. Xarici borc 1,9 trilyon ABŞ dolları (*ÜDM-in 116,9%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 52,6%-nə bərabərdir (*2017*).

Ölkənin ərazisi Arktika buzlaqlarından başlamış çöllərə qədər uzanır. Relyefində düzənliklər üstünlük təşkil edir. Ərazinin $^1/_3$-dən çoxu iynəyarpaqlı meşələrlə örtülüdür.

Qərbdə Kordilyer dağ sistemi insanların təsərrüfat fəaliyyətini çətinləşdirir. Kanadanın ərazisi min illərlə müasir hindu və eskimosların soyları tərəfindən, 4 əsr öncə isə avropalılar tərəfindən məskunlaşmışdır. Müxtəlif ölkələrdən immiqrasiya prosesinin uzun müddət davam etməsi ölkə əhalisinin etnik tərkibinə ciddi təsir göstərmişdir. İndi ölkədə əhalinin böyük hissəsini ingilis mənşəli (*13 milyon nəfər*) və Kvebek vilayətində məskunlaşan fransız mənşəli kanadalılar *(9 milyon nəfər*) təşkil edir. Digər etnik qruplar - almanlar, italyanlar, ukraynalılar, ruslar və digərləri əhalinin 33%-ni, yerli əhali isə 1,3%-ni təşkil edir. Kanada çox sayda azərbaycanlı da yaşayır. Onların əksəriyyətini Sovet İttifaqı dağıldıqdan sonra Azərbaycandan gələnlər təşkil edir. Əhalinin 77,0%-i şəhərlərdə yaşayır. Böyük şəhərləri Monreal, Toronto və Vankuverdir.

Kanadanın sürətli inkişafına, ilk öncə, müstəmləkə asılılığınından tezliklə qurtulma, əhalinin sayının nisbətən az olması və buna müqabil böyük torpaq və mineral resurslarının mövcudluğu, işçi qüvvəsinin çatışmaması ilə əlaqədar texnikanın sürətli inkişafı, ölkəyə kütləvi mühacir və intensiv xarici kapital axını və digər bu kimi amillər təsir etmişdir. Müasir dövrdə Kanadanın iqtisadiyyatı ikili xarakter daşıyır. Bir tərəfdən, inkişaf etmiş ölkələr üçün səciyyəvi olan bütün əlamətlər Kanadaya da aiddir. Digər tərəfdən isə, müəyyən cəhətlər vardır ki, onu inkişaf etməkdə olan ölkəyə bənzədir. Burada ölkə iqtisadiyyatının, xüsusilə də, sənayenin xarici kapitaldan və ilk növbədə, ABŞ-ın inhisarçı şirkətlərindən aslılığı mövcuddur. Əslində isə, Kanadanın ABŞ iqtisadiyyatına bağlılığı şəksizdir. Bu səbəbdəndir ki, ABŞ-ın iqtisadiyyatında baş verən böhranlar Kanadanın iqtisadiyyatında dərin təsirlər yaradır. Reallıq belədir ki, dünyada bir-biri ilə ikitərəfli ticarət həcminə görə ABŞ və Kanada ilə rəqabətə girə biləcək başqa cüt ölkə yoxdur.

Kanada təbii sərvətlər - neft, qaz, daş kömür və digər mineral xammalarla zəngindir. Bunlarla yanaşı, ölkənin təbii sərvətlər silsiləsinə əlvan, nəcib və nadir metallar, dəmir filizi, uran, asbest və başqa minerallar daxildir. Enerji istehsalına görə Kanada dünya liderləri qrupuna daxildir. Adambaşına düşən elektrik enerjisi istehsalına görə ABŞ-ı da qabaqlayır. YEB-in 75%-i, maye və ya qaz yanacağının 10%-i daş kömürün, 15%-i isə atom və su enerjisinin hesabına təmin edilir. Ölkə subut olunmuş neft ehtiyatlarına görə 2-ci sırada qərar tutur. Burada gündəlik neft hasilatı 3,3 milyon barel təşkil edir. Neft ixracatına görə Kanada dünyada 4-ci sırada dayanır və onun əsas alıcısı ABŞ-dır. Qaz hasilatına görə isə ölkə dünyada 5-ci yeri tutur. Burada illik hasilat 150 milyard $m^3$-dən artıqdır (*2018*). Ölkənin şərq hissəsində neft idxal olunur. Bununla belə, Kanada özü də elektrik enerjisi, neft və qaz ixrac edir (*əsasən ABŞ-a*). Elektrik enerji istehsalının 60%-ni SES-lər verir. Ölkədə atom energetikası da inkişaf etdirilir.

Kanada ərazisinin cəmi 15%-ə qədər hissəsi kənd təsərrüfatına yararlıdır. Kənd təsərrüfatının inkişafı üçün daha əlverişli aqroiqlim şəraiti ölkənin cənubunda yerləşən düzənlik və yaylalardır. Burada mülayim kontinental iqlim hakimdir. Ölkədə çoxsahəli kənd təsərrüfatı texniki cəhətdən yaxşı təchiz olunmuşdur. Yüksək məhsuldarlığı və əmtəəliyi ilə fərqlənən kənd təsərrüfatı ixracat əhəmiyyətlidir. Əmtəəlik məhsulların

60,0%-ə qədərini verən heyvandarlıq kənd təsərrüfatının başlıca sahəsidir. Kanada taxıl istehsalına görə dünyada ilk sırada dayana ölkələrdəndir. Burada ildə 50-55 milyon tona yaxın taxıl (*o cümlədən 20-25 milyon ton buğda*) becərilir. İllik tələbatı isə 5 milyon tondur. Ölkə əhalinin adambaşına düşən buğda istehsalına görə birinci yeri tutur və dünyada buğda ixracatının $^1/_5$-ə qədəri Kanadanın payına düşür.

Kanadanın böyük əraziyə malik olması, sənaye və aqro kompleksin ixitisaslaşdırılmış sahələrinin ölkə ərazisi üzrə səpələnməsi iqtisadiyyatda nəqliyyatın rolunu artırmış və onun bütün növlərinin inkişafına təsir etmişdir. Ölkədə, həmçinin, boru kəməri və çay nəqliyyatı da yüksək inkişaf etmişdir. Burada Böyük Göllər və Müqəddəs Lavrenti çayı yükdaşınmada ölkənin nəqliyyat sistemini daha da əlverişli etmişdir.

Ölkədə istehsal edilən müxtəlif çeşidli məhsullar dünya bazarına çıxarılır. İxracatın $^2/_3$ hissəsindən çoxunu xammal, yarımfabrikat və ərzaq məhsulları təşkil edir. İdxalatda hazır sənaye məhsulları, boksit, pambıq, kauçuk, qəhvə, kakao üstünlük təşkil edir. Ölkənin xarici ticarət dövriyyəsinin 70%-i ABŞ-ın payına düşür. Kanadada, bütün inkişaf etmiş ölkələrdə olduğu kimi, sənayenin sahəvi strukturu da mürəkkəbdir. Emaledici sənayenin strukturunda metallurgiya və maşınqayırma hakim mövqe tutur. Qara metallurgiyanın başlıca mərkəzi Hamiltondur. Ucuz elektrik enerjisinə və zəngin yerli xammala (*boksit istisna olmaqla*) əsaslanan əlvan metallurgiya, xüsusilə, Qayana və Yamaykadan gətirilən boksit əsasında alüminium istehsalı sahəsi güclü inkişaf etmişdir. Qara metallurgiyadan fərqli olaraq bu sahə ixracat əhəmiyyəti daşıyır.

Kanadada təsərrüfatın ənənəvi sahəsi meşə tədarükü, ağac emalı və sellüloz-kağız sənayesidir. Kimya sənayesinin mühüm müəssisələri qərb əyalətlərinin iri və orta şəhərlərində yerləşir. İdxal xammala əsaslanan yüngül sənaye ölkənin tələbatının yalnız yarısını təmin edir və sahə müəssisələri bütün əyalətlərdə geniş yayılmışdır.

Kanada Azərbaycan Respublikasının müstəqilliyini 25 dekabr 1991-ci ildə tanımışdır. İki ölkə arasında diplomatik münasibətlər 10 avqust 1992-ci ildə qurulmuşdur. İki ölkə arasındakı ticarət dövriyyəsi 500 milyon ABŞ dolları həcmində hesablanır.

## 5.3. İnkişaf etməkdə olan ölkələrin səciyyəvi xüsusiyyətləri

<u>İnkişaf etməkdə olan ölkələr</u>ə (*developing countries*), bir qayda olaraq, demokratik hökumətlərinin, azad bazar iqtisadiyyatının, sənayeləşmənin, öz vətəndaşları üçün sosial proqramların və zəmanətlərin aşağı standartlığı kimi cəhətlərə malik dövlətləri aid edirlər. Lakin bu terminin yeganə qəbul edilmiş tərifi yoxdur və inkişaf etməkdə olan ölkələrin inkişaf səviyyəsi geniş mənada dəyişə bilər. Reallıq belədir ki, bu sırada olan bəzi ölkələr yaşayış səviyyəsinin orta standartlarına malikdir. "İnkişaf etməkdə olan ölkə" termini zəif inkişaf etmiş hər hansı ölkəyə tətbiq edilə bilər, belə ki, bir sıra ölkələrdə, praktiki olaraq, heç bir inkişaf getmir. Belə ölkələr daha az inkişaf etmiş və ya çox yoxsul dövlətlərdir.

İnkişaf etməkdə olan ölkələrə dünyanın bütün ölkələrinin $^4/_5$-ü daxildir. Yer kürəsi əhalisinin 77%-dən çoxu bu ölkələrdə yaşayır.

İnkişaf etməkdə olan ölkələrin iqtisadi vəziyyəti, onların problemləri bəşəriyyətin böyük hissəsinə bilavasitə təsir göstərir. Bu altsistemə, Yaponiya, Koreya Respublikası, Tayvan, Sinqapur və İsrail istisna olmaqla, bütün Asiya ölkələri, CAR istisna olmaqla, Afrikanın bütün ölkələri və demək olar ki, bütünlüklə Latın Amerikası ölkələri aiddir. Onları həddən artıq qarışıq görünüş, sosial və iqtisadi inkişafın müxtəlif şərait və səviyyələri xarakterizə edir. Bununla belə, bir sıra əlamətlər mövcuddur ki, inkişaf etməkdə olan ölkələri xüsusi dövlətlər qrupunda birləşdirir. Bu əlamətlərin ümumiliyi sosial, iqtisadi və tarixi köklərə malikdir.

İnkişaf etməkdə olan ölkələrin ayrıca dünya altsisteminə ayrılmasının ən mühüm meyarlarından biri onların zəif inkişafı və geriliyidir. Zəif inkişaf - müxtəlif müasir və ənənəvi tipli müxtəlif iqtisadi və qeyri-iqtisadi institutlardan, həmçinin, keçid ara institutlardan ibarət olan cəmiyyətin keyfiyyətcə eynicinsli və həmçinin, sistemin qaydada olmamasında özünü göstərir. Gerilik - bu ölkələrin təsərrüfatlarının istehsal amillərinin aşağı səviyyəli inkişafı ilə xarakterizə olunan vəziyyətini əks etdirir. İnkişaf etməkdə olan ölkələrin geriliyi onların sənaye cəhətdən inkişaf etmiş ölkələrdən asılılığını şərtləndirir.

İnkişaf etməkdə olan ölkələrin əsas əlamətlərini aşağıdakılar xüsusiyyətləndirir:

1. Bir çox inkişaf etməkdə olan ölkələrin müasir simasında onların müstəmləkə və yarımmüstəmləkə keçmişləri ilə bağlı tarixi inkişafının dərin izləri görünür. Bu dövlətlərin çoxu xalqların müstəqillik uğrunda milli-azadlıq mübarizəsi, ötən yüzilliyin 1950-1960-cı illərində imperializmin müstəmləkə sisteminin dağılması nəticəsində yaranmışdır. Latın Amerikasında ölkələrin rəsmi müstəqilliyi XIX əsrin birinci yarısında əldə edilmişdir.

2. İnkişaf etməkdə olan ölkələr altsistemində indiyə qədər müxtəlif cinsli məhsuldar qüvvələr - məhsuldar qüvvələrin industrialaqədərki və industrial tipləri birgə mövcuddur. Asiya, Afrika və Latın Amerikası ölkələrinin məhsuldar qüvvələri uzun tarixi dövr ərzində praktiki olaraq dəyişməmişdilər, istehsal prosesinin təkrarını əvvəlki həcmlərdə təmin edirdilər. Onlarda sosial-iqtisadi inkişaf ləng həyata keçir. Bu ölkələrdə bir sosial-iqtisadi struktur digərlərinin üzərinə yığılır.

3. Məhsuldar qüvvələrin müxtəlif növlüyü Asiya, Afrika və Latın Amerikası ölkələrinin sosial-iqtisadi quruluşunun çoxukladlılığını müəyyən etdi. Müstəmləkə dövründə Qərb kapitalının tətbiqi ənənəvi təkraristehsal prosesinin müəyyən dərəcədə dağılmasına səbəb oldu. Müstəmləkə və yarımmüstəmləkə ölkələrində əmtəə-kapitalist ukladı inkişaf etməyə başladı.

Qərb dövlətlərindən fərqli olaraq, inkişaf etməkdə olan ölkələr qəbilə quruluşuna yüksələn sosiallığın icma tipini hələ aradan qaldıra bilməmişlər. O, qohumluq, qonşuluq, qəbilə, tayfa və s.-yə əsaslanan sosial münasibətlərin, əlaqələrin şəxsi xarakteri ilə müəyyən edilir. Geriliyin və asılılığın aradan qaldırılması vəzifələri iqtisadi və sosial siyasətin ümumi istiqamətlərini yaradır, inkişaf etməkdə olan ölkələrin birliyinin başlanğıcını, məzmununu və hüdudlarını aşkara çıxarır.

Dünyanın inkişaf etməkdə olan ölkələri səciyyəvi xüsusiyyətləri ilə yanaşı spesifik cəhətləri ilə də fərqlənirlər.

**Portuqaliya Respublikası** (*portuqalca* - República Portuguesa - *Portuqaliya Respublikası*) Avropanın cənub-qərbində Priney yarımadasında yerləşən və Avropa qitəsinin ən qərb hissəsindəki ölkədir. Ölkə şimaldan və şərqdən İspaniya ilə, cənubdan və qərbdən də Atlantik okeanı ilə əhatə olunmuşdur. Atlantik okeanının şimal yarımkürədə yerləşən Azor və Madeyra ada qrupları muxtar vilayətlər kimi Portuqaliya Respublikasının tərkib hissəsidir. Portuqaliya dövlətinin müstəqillik tarixi 5 oktyabr 1143-cü ildə o zaman mövcud olmuş Leon Krallığından ayrılması ilə başlanılır. XV və XVI əsrlərdə Braziliya və Filippinlərə qədər uzanan Portiqaliya İmperiyası dünyanın qabaqcıl iqtisadi, siyasi və mədəni güclərindən biri olmuşdur. XX əsrdə imperiyanın ömrünü başa vurması ilə birlikdə Portuqaliya Avropaya üzünü çevirmiş və müasir dövrdə güclü demokratik sistemi ilə Aİ-nin bir hissəsini təşkil edir.



Paytaxtı Lissabon şəhəri, rəsmi dili portuqal və mirand (*regional dil*) dilləridir. Unitar quruluşludur və parlament respublikasıdır. Portuqaliya NATO-nun üzvüdür. Ölkə Şengen və avro zonaya daxildir. Valyutası avrodur.

Ərazisi 92 151 km$^2$, əhalisi 10,2 milyon nəfərdir (*2018*).

İqtisadiyyatda xidmətlər 75,7%, sənaye 22,1%, kənd təsərrüfatı 2,2% paya malikdir. ÜDM 199,0 milyard ABŞ dolları, adambaşına ÜDM 19,8 min ABŞ dollarıdır. İnflyasiya 0,7%, işsizlik səviyyəsi 9,0%, yoxsulluq səviyyəsi 19,7%-ə bərabərdir. Xarici borc 447,0 milyard ABŞ dolları (*ÜDM-in 224,0%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 51,3%-nə bərabərdir (*2017*).

Portuqaliya 1986-cı ildə Aİ-yə üzv olmuşdur. İttifaqa üzv olduqdan sonra bir sıra islahatlar həyata keçirərək çoxlu sayda dövlət müəssisələrini özəlləşdirmiş və iqtisadiyyatın mühüm sahələrini liberallaşdırmışdır.

Poptuqaliya sənaye-aqrar ölkədir. Ənənəvi olan mühüm sənaye sahələri toxuculuq (*pambıq və yun parça*), tikiş, şərabçılıq, zeytun yağı və balıq konservləri istehsalı, probka ağacının qabığının (*dünyada qabaqcıl yerlərdən birini tutur*) emalıdır. Qara və əlvan metallurgiya, maşınqayırma (*gəmiqayırma və gəmi təmiri, avtomobilquraşdırma, elektrotexnika*), kimya, neft emal edən və neft-kimya, sement istehsalı sənayeləri inkişaf etmişdir. Ölkədə piritlərin, volframın, uranın, qalayın, dəmir filizinin və daş kömürün hasilatı aparılır.

Kənd təsərrüfatında əkinçilik üstünlük təşkil edir. Becərilən torpaqların təxminən yarısını əkin yerləri - üzümçülük, meyvəçilik, zeytun ağacları tutur. Heyvandarlıqda iribuynuzlu mal-qara yetişdirmə, qoyunçuluq, donuzçuluq inkişaf etmişdir. İqtisadiyyatda balıqçılıq da mühüm yer tutur. Portuqaliya şərabları, xüsusilə də, "Porto" və "Madeyra" şərabları dünya miqyasında tanınır.

Portuqaliya inkişaf etmiş nəqliyyat və turizm infrastrukturuna malikdir. İllik turist

axını 10 milyon nəfər təşkil edir. Xüsusilə, ölkənin Alqarve və Madeyra regionlarında turizm əsas məşğuliyyət sahəsidir. Turizmdən önəmli miqyasda gəlir əldə etməsinə baxmayaraq Portuqaliya kənd təsərrüfatı və sənaye kimi sahələrdə, digər Avropa ölkələrinə nisbətən, aşağı məhsuldarlığa malikdir.

Ölkənin xarici ticarət dövriyyəsi də əhəmiyyətli dərəcədədir. Portuqaliya məhsulların böyük əksəriyyətini idxal edir. Xüsusilə, Cənubi Amerika ölkələrindən regiona meyvə və tərəvəz növləri idxal olunur. İxracı, əsasən, toxuculuq və tikiş məhsulları, qida məhsulları, probka, gəmi, elektrik avadanlığı, kimya məhsulları təşkil edir. Əsas xarici ticarət partnyorları Aİ ölkələridir.

Portuqaliya kapital bazarının inkişafına imkan yaratmağı öhdəsinə götürmüşdür. İqtisadi siyasət iqtisadiyyatın liberallaşdırılmasına və yeniləşdirilməsinə, dövlət şirkətlərinin özəlləşdirilməsinin davam edilməsinə, bank və telekommunikasiya sektorlarının strukturunda dəyişikliklərin aparılmasına istiqamətlənib.

Portuqaliya Azərbaycanın müstəqilliyini 7 yanvar 1992-ci il tarixində tanımışdır. İki ölkə arasında diplomatik əlaqələr 4 avqust 1992-ci ildə yaradılmışdır. Portuqaliya Azərbaycanla iqtisadi ələqələri genişlənir. Portuqaliyanın Azərbaycanın xarici ticarət dövriyyəsindəki payı 2%-ə bərabərdir.

**Macarıstan** (*macar dilində* - Magyarország - *Macarıstan*) Mərkəzi Avropada dövlət. Macarıstan Avstriya-Macarıstan imperiyası dağıldıqdan sonra 1918-ci ilin 17 oktyabrda yaranmışdır. Paytaxtı Budapeşt şəhəri, rəsmi dili macar dillidir. Unitar quruluşludur, parlament respublikasıdır. Macarıstan Aİ və NATO-nun üzvüdür. Şengen zonasına daxildir. Ölkənin pul vahidi fornitdir.



Ərazisi 93 036 $km^2$, əhalisi 9,7 milyon nəfərdir (2018)

İqtisadiyyatda xidmətlər 64,7%, sənaye 30,9%, kənd təsərrüfatı 4,4% paya malikdir. ÜDM 122,0 milyard ABŞ dolları, adambaşına ÜDM 12,8 min ABŞ dollarıdır. İnflyasiya 1,9%, işsizlik səviyyəsi 4,3%, yoxsulluq səviyyəsi 14,9%-ə bərabərdir. Xarici borc 148,0 milyard ABŞ dolları (*ÜDM-in 121,0%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 47,4%-nə bərabərdir (*2017*).

Macarıstan yüksək inkişaf etmiş kənd təsərrüfatı olan sənaye ölkəsidir. Burada, xüsusən, bağçılıq və üzümçülük yüksək inkişaf etmişdir. Sənaye sektorunda maşınqayırma, avtomobil istehsalı, rabitə vasitələri, ölçü cihazları, dəzgah istehsalı, kimya, əczaçılıq, metallurgiya (xüsusilə, boksit mədənləri bazasında alüminium), toxuculuq, yeyinti sənayesi mühüm yer tutur. Avtomobil komplektləri istehsal edən müəssisələr arasında Sekeşfehervar şəhərində Amerikanın "Ford" zavodu, Dyor şəhərində Macarıstanın "Raba" zavodu, Sekeşfehervar şəhərində Yaponiyanın "Denso" zavodu, yenə Sekeşfehervarda Amerikanın "Alkoa" və Dyor şəhərində Avstriyanın "Maqna Şteyr" zavodu fərqlənir.

Azərbaycan ilə Macarıstan arasında siyasi, iqtisadi və mədəni sahələrdə əlaqələr inkişaf edir, sənaye, energetika, nəqliyyat, kənd təsərrüfatı, rabitə və informasiya

texnologiyaları, əczaçılıq, ətraf mühit, turizm və digər sahələrdə uğurlu əməkdaşlıq həyata keçirilir, ticarət əlaqələri genişlənir. Bakıda Macarıstan Ticarət Evinin açılması ticarət əlaqələrinin genişlənməsinə əhəmiyyətli töhfədir. Hazırda ölkələr arasında ticarət dövriyyəsi 200 milyon ABŞ dolları həcmindəddir. Macarıstanın baş naziri Viktor Orban Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəsinə 2014-cü ildə səfəri zamanı Azərbaycanın uğurları ilə bağlı demişdir: "Bəzi ölkələr bu gün çətinliklər yaşayır, öz milli maraqlarını aydın şəkildə vurğulaya, milli təsisatları qura bilmir, bununla da dost və tərəfdaş ölkələrdən məhrum olurlar. Digər ölkələrdən yardım istəyən ölkələr də var. Xanımlar və cənablar, bu ölkələrin gələcəyi yoxdur. Bütün bəşəriyyət bu gün çox çətin və mürəkkəb dövr yaşayır. Münaqişə regionlarına diqqət yetirsəniz, bu gün bunları hesablamaq üçün əlimizdəki barmaqlar çatmaz. Bu gün xəbərlərə baxanda görürük ki, dünyanın müxtəlif yerlərində insanlar əzab-əziyyət, iztirab içindədirlər. Çünki bəzi dövlətlərdə səriştəli rəhbərlik yoxdur".

## 5.4. Keçid iqtisadiyyatı ölkələri

Keçid iqtisadiyyatı ölkələri (*economies in transition*) göstəricilərinə görə iqtisadi cəhətdən inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında keçid mövqeyi tutan müstəqil dövlətlər qrupudur. Keçid iqtisadiyyatı ölkələrinə aşağıdakı ölkələr aiddir:

Mərkəzi və Şərqi Avropanın keçmiş sosialist ölkələri: Albaniya, Bolqarıstan, Macarıstan, Polşa, Rumıniya, Slovakiya, Çexiya, Yuqoslaviya Sosialist Federativ Respublikasının varisləri - Bosniya və Herseqovina, Makedoniya Sloveniya, Xorvatiya, Serbiya, Montoneqro, Kosovo;

Keçmiş sovet respublikaları - indi MDB ölkələri: Azərbaycan, Ermənistan, Belarus, Qazaxıstan, Qırğızıstan, Moldova, Rusiya Federasiyası, Tacikistan, Türkmənistan, Özbəkistan, Ukrayna;

Keçmiş Baltikyanı respublikalar - Latviya, Litva, Estoniya və Gürcüstan.

Bu zaman nəzərə almaq lazımdır ki, adı çəkilən ölkələrin bir hissəsi 2004-cü və 2007-ci illərdə Aİ-nin tərkibinə keçmiş və bununla da onlar, de-yure olaraq inkişaf etmiş ölkələrə aid edilməyə başlanmışlar. Lakin həmin ölkələr, de-fakto olaraq, hələ də formalaşan bazar ölkələri kimi qalmaqdadırlar.

Bu sırada möhtəşəmliyi ilə fərqlənən ÇXR-in təsnifatı xüsusilə mürəkkəbdir. Belə ki, kapitalizm quruculuğu və bazar münasibətlərinin qurulması ÇXR-də Çin Kommunist Partiyasının rəhbərliyi altında baş verir. ÇXR iqtisadiyyatı planlı sosialist iqtisadiyyatının və azad sahibkarlığının simbiozudur. BVF ÇXR-i də Hindistan kimi inkişaf etməkdə olan Asiya ölkələrinə aid edir.

Mərkəzi və Şərqi Avropa ölkələri, Baltikyanı ölkələr və bəzi Balkan ölkələri üçün hələ çox illər öncədən daha yüksək sosial-iqtisadi inkişaf səviyyəsi xarakterik olmuşdur. Buna görə də həmin ölkələrdə islahatlar kökündən və uğurla aparılmış, Aİ-

yə daxil olmaq üçün böyük səy göstərilmişdir. Bu qrupda liderlər olara Çexiya və Sloveniya öndədir, autsayderlər isə Albaniya, Bolqarıstan və Rumıniya hesab olunurlar.

İnzibati-amirlik iqtisadiyyatından bazar iqtisadiyyatına keçid prosesində təxminən üç qrup ölkə formalaşmışdır ki, bunlar bir-birindən islahatların həyata keçirilməsinin başlanğıc imkanları, onların aparılmasının sürəti və keçirilmə xarakteri, əldə olan nəticələrlə fərqlənirlər:

Birinci ölkələr qrupunda Polşa, Macarıstan, Slovakiya, Çexiya, Sloveniya və Baltik ölkələri təmsil olunmuşlar. Bu ölkələr qrupu üçün planlı iqtisadiyyatın davamlı olmayan 40 ilə yaxın dövrü, həm də çox sərt şərtlənməyən variantı xarakterikdir. Həmin dövlətlər qrupunun başlanğıc imkanları yetərincə əlverişli olmuşdur. Sosial-iqtisadi inkişaf səviyyələrinə görə Mərkəzi və Şərqi Avropa ölkələrinin demək olar ki, hamısı orta inkişaf etmiş ölkələrə aiddir.

İkinci qrupa Rusiya, MDB-nin digər üzv ölkələri, həmçinin, Bolqarıstan, Rumıniya, keçmiş Yuqoslaviya, Albaniya, Monqolustan aiddir. İnzibati-amirlik sisteminin ən sərt variantda mövcudluğu keçmiş SSRİ üçün uzunmüddətli - 70 ildən artıq olmuşdur. Burada iqtisadiyyat istehsal vasitələrinin maksimum dövlətləşdirilməsi, təsərrüfat fəaliyyətinin ümumi nizamlanması, şəxsi təşəbbüslərin və xüsusi mülkiyyətin hər hansı cəhdlərinin yatırılması, təsərrüfat fəaliyyətinin inhisarlaşdırılmasının son həddi ilə səciyyəvi idi.

Üçüncü ölkələr qrupu Şərqi Asiya ölkələri - ÇXR və Vyetnamla təmsil olunur. Bu regionda planlı iqtisadiyyatın hökmranlığı 25-30 il davam etmişdir.

Hər üç qrupda bazar dəyişikliklərinin praktikası qeyd etməyə imkan verir ki, təsərrüfat həyatının dövlət nəzarətinin ləğv edilməsi, sahibkarlıq fəaliyyətinin inkişafı, “kiçik” özəlləşdirmə kontekstində liberallaşdırılması nisbətən yüngül keçir. Burada, həmçinin, qiymətlərin liberallaşdırılması, iqtisadiyyatın inhisarsızlaşdırılması və onun maliyyə sabitləşməsi geniş sosial narazılıqla qarşılaşır. İri təsərrüfat obyektlərinin səmərəli özəlləşdirilməsi və struktur disproporsiyalarının aradan qaldırılması da son dərəcə həlli çətin vəzifəyə çevrilir.

Hazırda keçmiş kommunist blokunun ölkələri demokratik dəyişikliklər yoluna çıxmışlar. Lakin Asiyanın bəzi ölkələrində kommunistlər hakimiyyətdə qalmışlar. İndi klassik sosialist ölkələrinə həm siyasi, həm də iqtisadi cəhətdən KXDR və Kuba aiddir. ÇXR-də və Vyetnamda hələ də kommunist partiyaları hakimiyyətdə qalmaqdadır, lakin iqtisadiyyatda istehsal vasitələrinə xüsusi mülkiyyət sektorunun böyük hissəsi iştirak edir. Buna bənzər vəziyyət Laosda da müşahidə edilir. Bundan başqa, bir neçə ölkə mahiyyət etibarilə sosialist ölkəsidir, lakin marksizm-leninizm modeli əvəzinə sosializm milli modelini sınaqdan keçirirlər. Həmin ölkələrə Boliviya, Nikaraqua və Venesuelanı aid etmək olar. Bu ölkələrin prezidentləri yerli kommunist partiyalarının rəhbərləridir, sosializmin bu forması isə XXI əsrin sosializmi adlanır.

## 5.5. Yeni sənaye ölkələri və onların beynəlxalq ixtisaslaşması

Yeni sənaye ölkələri, YSÖ (*Newly Industrializing Countries*) son onilliklər ərzində sosial-iqtisadi göstəricilərində keyfiyyət sıçrayışları baş verən inkişaf etməkdə olan ölkələr qrupudur. Bu ölkələrin iqtisadiyyatı qısa dövr ərzində inkişaf etməkdə olan ölkələr üçün tipik səciyyəvi ölkədən yüksək inkişaf etmiş ölkəyə keçid etmişdir.

Erkən yeni sənaye ölkələri:

"Birinci dalğa"nın YSÖ: Latın Amerikası ölkələri - Argentina, Braziliya, Meksika və "Dörd Asiya pələngi" adlandırılan Koreya Respublikası, Sinqapur, Tayvan və Honkonq.

Dörd Asiya Pələngi (*ingiliscə* - Four Asian tigers - *Dörd Asiya pələngi və ya* Asia's Four Little Dragons - *Asiyanın Dörd Kişik Əjdahası*) 1960-cı illərdən 1990-cı illərin qlobal maliyyə böhranına qədər çox yüksək iqtisadi inkişaf nümayiş etdirmiş Koreya Respublikası, Sinqapur, Honkonq (*Syanqan*) və Tayvanın qeyri-rəsmi adı. Həmin ölkələr müvafiq illər ərzində geniş həcmli yüksək texnologiyalar sənayesi qurmuş və sürətli sənayeləşməyə nail olmuşlar. Onlar bunu infrastrukturun iri həcmli investisiyalaşdırılması, intellektual mülkiyyətin, insan istedadı və dühasının hərtərəfli stimullaşdırılması ilə təmin etmişlər. Bu siyasət o qədər effektivli olmuşdur ki, nəticədə, həmin dövlətlər qabaqcıl və sənayecə inkişaf etmiş yüksək gəlirli ölkələrə çevrilmişlər. Bu 4 ölkənin hər biri yüksək texnologiyaların işlənməsi və tətbiqi ilə geniş rəqabətqabiliyyətliliyi əldə etmiş, özlərinin yüksək reytinqli universitetləri ilə təhsil sahəsində dünyanın qlobal mərkəzləri kimi məşhurlaşmışlar. Burda yuxarı sinf şagirdləri özlərinin təhsil göstəriciləri ilə dünyanın digər ölkələrini, stabil olaraq, qabaqlayırlar. Onlar beynəlxalq riyazi və elmi imtahanlarda, xüsusi olaraq, PİSA imtahanlarında ən yüksək nəticələr nümayiş etdirirlər.

Şagird Nailiyyətlərinin Beynəlxalq Qiymətləndirilməsi Proqramı, PISA (*Programme for International Student Assessment, PISA*) şagirdlərin təhsil nailiyyətlərinin qiymətləndirilməsi üzrə beynəlxalq proqramdır. Bununla bağlı asparalan testlə dünyanın müxtəlif ölkələrinin şagirdlərinin savadlılığı, onların biliklərinin təsrübədə tətbiqinin qiymətləndirilməsi müəyyən olunur. Üç ildə bir dəfə keçirilir. Testdə 15 yaşınadək yeniyetmələr iştirak edir. Təhsilin keyfiyyətinin monitorinqi üç əsas istiqamət - oxu savadı, riyazi savadlılıq və təbii elmi savadlılıq üzrə aparır. PISA proqramı üzrə şagirdlərin təhsil nailiyyətlərinin qiymətləndirilməsi İƏİT tərəfindən həyata keçirilir. Proqramın məqsədini 15 yaşlı şagirdlərin məktəbdə aldıqları bilik və təcrübənin insan fəaliyyətinin müxtəlif sahələrində və sosial münasibətlər sferasıda geniş həyat tapşırığı diapozonunda tətbiqetmə bacarığının qiymətləndirilməsi təşkil edir.

Ən yeni sənaye ölkələri:

- "İkinci dalğa" YSÖ: Malayziya, Tailand və Çili;
- "Üçüncü dalğa" YSÖ: İndoneziya və Türkiyə;
- "Dördüncü dalğa" YSÖ: Filippin və İran.

“Onbirlər” qrupundan perspektivli sənaye ölkələri: Nigeriya, Misir, Pakistan, Banqladeş və Vyetnam.

YSÖ-nün iki əsas: Asiya və Latın Amerikası modeli mövcuddur. Asiya modeli üçün daha çox xarici bazara oriyentasiyalı milli iqtisadiyyatın inkişafı xarakterikdir. Latın Amerikası modelinə isə idxalı əvəz edən oriyentasiyalı milli iqtisadiyyatın inkişafı xasdır.

Yeni və ən yeni sənaye ölkələrinin ümumi xüsusiyyətlərini aşağıdakılar səciyyələndirir:

- iqtisadi inkişafın ən yüksək sürətini nümayiş etdirirlər (Birinci dalğa YSÖ ildə 8%);
- qabaqcıl sahə - emal sənayesi;
- ixrac yönümlü iqtisadiyyat (*Asiya modeli*);
- fəal inteqrasiya (*LAİA, APEC, MERKOSUR*);
- qabaqcıl dünya ölkələrinin TMŞ-lərindən heç də geri qalmayan öz TMŞ-lərinin yaradılması;
- təhsilə böyük diqqət ayrılması;
- yüksək texnologiyalardan istifadə edilməsi;
- TMŞ-lər üçün işçi qüvvəsinin ucuzluğu, yetərli xammal resurslarının olması, bank və sığorta sektorlarının inkişafı ilə cəlbediciliyi;
- əsas vizit kartı - məişət texnikası və kompüter, geyim və ayaqqabı istehsalı.

Yeni sənaye ölkələri və onların beynəlxalq ixtisaslaşması prosesi davam edir və təkmilləşir.

**Koreya Respublikası** (*koreya dilində* - 대한민국 / 大韓民國 / Dae Han Min Quk - *Cənub Xan - Cənubi Koreya, ingiliscə* - Republic of Korea, South Korea - *Koreya Respublikası, Cənubi Koreya*) Şərqi Asiyada Koreya yarımadasında yerləşən dövlət.



Sərhəd qonşuları ÇXR, Yaponiya və KXDR-dir. 1945-ci ilin 15 avqustunda Yaponiya İmperiyasından müstəqilliyini bəyan etmişdir (*II Dünya Müharibəsindən sonra keşmiş SSRİ və ABŞ-ın hərbi qüvvələrinin işğalı ilə Şimali Koreya - Koreya Respublikası və Cənubi Koreya - KXDR-ə bölünmüşdür*). Paytaxtı Seul şəhəri, rəsmi dili koreya dilidir. Koreya Respublikası G20 qrupuna daxildir. Valyutası Cənubi Koreya vonudur.

Ərazisi 99 720 km², əhalisi 51,0 milyon nəfərdir (*2018*).

İqtisadiyyatda xidmətlər 59,0%, sənaye 38,8%, kənd təsərrüfatı 2,2% paya malikdir. ÜDM 1,5 trilyon ABŞ dolları, adambaşına ÜDM 27,5 min ABŞ dollarıdır. İnflyasiya 1,9%, işsizlik səviyyəsi 3,8%, yoxsulluq səviyyəsi 12,5%-ə bərabərdir. Xarici borc 376,9 milyard ABŞ dolları (*ÜDM-in 24,5%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 48,0%-nə bərabərdir (*2017*).

Koreya Respublikası o qədər də zəngin olmayan faydalı qazıntılara malikdir. Burada nisbətən daha çox qızıl, gümüş, volfranm, dəmir filizi, qurğuşun, sink və qrafit resursları mövcuddur.

Ölkə yüksək inkişaf etmiş sənaye və iqtisadiyyata malikdir. Koreya Respublikası

gəmiqayırma (*dünya bazarının 45%*), polad emalı, avtomobil, elektron və elektrotexnika istehsalına görə əsas yerlərdən birini tutur. Dünyada ən sürətli internet Koreya Respublikasındadır. Burada yüksək texnologiyalar, aerokosmik tədqiqatlar, robot texnikası, yüksək texnologiyalar böyük inkişaf potensialına malikdir. Bu nailiyyətlərin əldə edilməsində ölkənin qabaqcıl təhsil sistemi əhəmiyyəti rol oynayır. Ölkə ÜDM-nin 3%-i elmi tədqiqatlara yönəlir.

Sənayedə yeyinti, tekistil, neft-kimiya, metallurgiya, maşınqayırma, gəmiqayırma, abtomobil istehsalı qabaqcıl sahələrdəndir. Koreya Respublikasında nəqliyyat-telekommunikasiya infrastrukturu da geniş inkişaf etdirilmişdir. Ölkənin turuizm potensialı genişdir. Hər il bu sektorda əhəmiyyətli artım müşahidə olunur.

Koreya Respublikasında kənd təsərrüfatının inkişafına böyük diqqət yetirilir. Burada ən geniş yayılmış kənd təsərrüfatı məhsulu düyüdür. Ölkədə, həmçinin, həcmli meyvə-tərəvəz, heyvandarlıq məhsulları da yetişdirilir, məşə təsərrüfatı inkişaf etdirilir. Heyvandarlıq ölkənin kənd təsərrüfatında düyü istühsalından sonra ikinci yeri tutur. Ölkə iqtisadiyyatında balıqçılıq böyük əhəmiyyət daşıyır. Bu sektorda 140 mindən çox insan çalışır. Ölkədə yüz minə yaxın balıqçılıq gəmisi fəaliyyət göstərir.

Ölkədə enerji istehsal neftə əsaslanır. Bununla yanaşı, Koreya Respublikasında AES və SES-lər də fəaliyyət göstərir, alternativ enerji istehsalı sürətlə inkişaf etdirilir.

Koreya Respublikasının əsas ticarət partnyoru kimi ABŞ çıxış edir. Onun ticarət tərəfdaşları sırasında Koreya Respublikası 7-ci sırada qərar tutur. Ticarət sahəsində Aİ və Şərq ölkələrinin payı da yüksəkdir.

Koreya Respublikası ilə Azərbaycan arasında diplomatik əlaqələr 1992-ci ilin mart ayının 23-də qurulmuşdur. İki ölkə arasında ticarət dövriyyəsinin həcmi 650 milyon ABŞ dolları təşkil edir. Koreya Respublikası Azərbaycana, əsasən, avtomobil, plastik və elektron məhsullar, Azərbaycan isə Koreya Respublikasına neft, alüminium və mis məhsulları ixrac edir. Koreya Respublikasının şirkətləri 2008-ci ildən bəri Azərbaycana 150 milyon ABŞ dollarından çox investisiya yatırmışlar.

## 5.6. Dünyanın kontinental və makroregional bölgüsü

Dünyanın quru hissəsinin bölgüsündə "materik" və "kontinet" anlayışlarından geniş istifadə olunur. Bu anlayışların etimoloji uyğunsuzluqları olsa da (*materik ingiliscə* - mainland - *böyük ada, kontinet isə latınca* - continens - *birləşmə, bəndetmə, möhkəmləndirmə*), onlar bəzən eyni anlayış kimi ümumi və bəzən də ərazi bölgüsündə fərqli məna daşıyırlar. Belə ki, hər iki ifadədə dünya okeanından qalxmış yer qabığının nəhəng silsiləsi anlaşılır.

Materik Yer kürəsinin quru hissəsinin dəniz və okean suları ilə yuyulan geniş ərazisidir. Bu təyinatdan irəli gələrək Avrasiyanı Afrikadan Süveyş kanalı, Şimali Amerikanı Cənubi Amerikadan Panama kanalı ayırdığından materik sayı 6 (*Avrasiya,*

*Afrika, Şimali Amerika, Cənubi Amerika, Avstraliya və Antraktida*) olacaqdır. Geoloji baxımdan materik səpələnməmiş, daşınılmayan torpaqaltı yer təbəqəsidir. Arxeologiyada isə materik insan fəaliyyətinin qalıqlarını daşımayan mədənin qataltı torpaq təbəqəsi kimi analaşılır. Elmi əsaslandırmalara görə, öncə bir materik - Panqeya olmuşdur. Təxminən 150-220 milyon il öncə o, Lavraziya və Qondvana olmaqla iki hissəyə ayrılmışdır. Lavraziya Şimali Amerika, Avrasiya və Hindistanı, Qondvana isə bir materikdə Cənubi Amerika ilə Afrikanı, digər materikdə Avstraliya və Antraktidanı yaratmışdır. Sonradan Cənubi Amerika ilə Afrika biri-birindən ayırılmış, Cənubi Amerika Avstraliya və Antraktidaya qosulmuş, Avrasiyadan Qrenlandiya ayrılmış və həmçinin, Avrasiya Hindistanla toqquşmuşdur. Bundan sonra Avstraliya və Antraktida ayrılmış, Şimali Amerika Cənubi Amerika ilə birləşmişdir. Beləliklə də, dünyanın müasir materik bölgüsü formalaşmışdır. Bu proses çox ləng templərlə indi də davam etməkdədir.




Kontinent (*qitə*), materikdən fərqli olaraq, fasilələri olmayan, dənizlərlə ayrılmayan quru hissəsidir. Geologiyada kontinentləri çox zaman materiklər sahəsinə adaları əlavə etməklə də təyinat verirlər. Dünyada kontinental model yanaşmaları müxtəlifdir. Bunlar sırasında 4 kontinent - (*Avrasiya, Amerika, Avstraliya və Antraktida*), 5 kontinent - (*Afrika, Avrasiya, Amerika, Avstraliya və Antraktida*), 6 kontinent - (*Avropa, Asiya, Afrika, Amerika, Avstraliya və Antraktida*), yenə də 6 kontinent - (*Afrika, Avrasiya, Şimali Amerika, Cənubi Amerika, Avstraliya və Antraktida*) və 7 kontinent - (*Afrika, Avropa, Asiya, Şimali Amerika, Cənubi Amerika, Avstraliya və Antraktida*) modelləri fərqləndirilir. Bu təsnifatlandırmalar içərisində Avropa, Asiya, Afrika, Amerika, Avstraliya və Antraktida üzrə bölgü daha ümumi qəbulolunmuş hesab edilir.

Müasir kontinental model özü də daxili çevrədə makroregional struktur təsnifatlandırmaya məruz qalır. Makroregion (*macroregion*) dünya əhalisinin tarixən məkunlaşdığı kontinentlərin (*Antraktida istisna olmaqla*) inzibati, coğrafi, demoqrafik və digər prinsiplərlə regional ərazilərə bölünməsidir.

Dünyanın müasir siyasi xəritəsi də bu bölgü əsasında formalaşmışdır. Bu məntiqi reallıqdan irəli gələrək BMT katibliyi "Statistikada istifadə üçün ölkələrin və ya rayonların standart kodları" adlı sənəddə Afrika, Amerika, Asiya, Avropa və Okeaniya (*Avstraliya və Okeaniya*) olmaqla dünyanın 5 kontinental əraziyə və onların hər birinin müvafiq makroregional bölgüsü sistemini tətbiq etmişdir. Kontinentlərin makrocoğrafi regional bölgüsü aşağıdakı kimidir:

Makroregionlar:

1.Avropa:
- 1.1.Qərbi Avropa;
- 1.2.Şimali Avropa;
- 1.3.Cənubi Avropa;
- 1.4.Şərqi Avropa.

2.Asiya:
- 2.1.Qərbi Asiya;
- 2.2.Mərkəzi Asiya;
- 2.3.Cənubu Asiya;
- 2.4.Şərqi Asiya;
- 2.5.Cənub-Şərqi Asiya.

3.Afrika:
- 3.1.Şimali Afrika;
- 3.2.Qərbi Afrika;
- 3.3.Mərkəzi Afrika;
- 3.4.Şərqi Afrika;
- 3.5.Cənubi Afrika.

4.Amerika:
- 4.1.Şimali Amerika;
- 4.2.Mərkəzi Amerika;
- 4.3.Karib hövzəsi;
- 4.4.Cənubi Amerika.

5.Avstraliya və Okeaniya:
- 5.1.Avstraliya və Yeni Zelandiya;
- 5.2.Melaneziya;
- 5.3.Mikroneziya;
- 5.4.Polineziya.

Makroregional bölgü sistemi isə, öz növbəsində, ölkələr təsnifatında dünyanın müasir siyasi xəritəsini formalaşdırır.

## 5.7. Avropanın kontinental ölkələri və makroregionları

Avropa - Afrikanın şimalında, Asiyanın qərbində, Atlantik okeanın şərqində yerləşən qitədir. Sahəsi 10,8 milyon $km^2$-ə, əhali sayı isə 742,6 miyon nəfərə (*dünya əhalisinin 9,8%-i*) bərabərdir (*2018*).

Avropa Asiya ilə birlikdə Avrasiya adlanan materik yaradır.

Avropada ərazi bağlılığında 50-dən çox dövlət vardır ki, onların da əksəriyyəti BMT tərəfindən tanınmışdır. Bir sıra hallarda Rusiya, Qazaxıstan və Türkiyə də Avropa dövlətləri sırasına daxil edilir.

Avropanın asılı əraziləri:

❍ Aland adaları (*Finlandiya*) 
❍ Hernsi (*Böyük Britaniya*) 
❍ Cəbəlüttarix (*Böyük Britaniya*) 
❍ Cersi adası (*Böyük Britaniya*) 

❍ Men adası (*Böyük Britaniya*)
❍ Farer adaları (*Danimarka*)
❍ Şpisberqen (*Norveç*)
❍ Yan-Mayen (*Norveç*)

Avropada qismən tanınmış dini orden - Malta ordenidir

Aşağıda Avropa kontinenti makroregional və ölkələr təsnifatında verilmişdir:

| **Qərbi Avropa** | **Şərqi Avropa** | **Şimali Avropa** | **Cənubi Avropa** | **Qismən Avropada** |
|---|---|---|---|---|
| Avstriya | Belarus | Danimarka | Albaniya | Azərbaycan (*10-14%-lik ərazi ilə*) |
| Belçika | Bolqarıstan | İslandiya | Andorra | Gürcüstan (*5%-lik ərazi ilə*) |
| Böyük Britaniya | Macarıstan | Latviya | Bosniya və Hersoqovina | Qazaxıstan (*14%-lik ərazi ilə*) |
| AFR | Moldova | Litva | Vatikan | Rusiya (*23%-lik ərazi ilə*) |
| İrlandiya | Polşa | Norveç | Yunanıstan | Türkiyə (*3%-lik ərazi ilə*) |
| Lixtenşteyn | Rusiya | Finlandiya | İspaniya | |
| Luksenburq | Rumıniya | İsveç | İtaliya | |
| Monako | Slovakiya | Estoniya | Makedoniya | |
| Niderland | Ukrayna | | Malta | |
| Finlandiya | Çexiya | | Portuqaliya | |
| İsveçrə | | | San-Marino | |
| | | | Serbiya | |
| | | | Sloveniya | |
| | | | Xorvartiya | |
| | | | Montoneqro | |

**Şəkil 3. Avropa kontinentinin makroregional və ölkələr təsnifatı**

Avropa 4 makroregional hissəyə - Qərbi Avropa, Şərqi Avropa, Şimali Avropa və Cənubi Avropaya bölünür.

Qərbi Avropa - 8 ölkəni - AFR, Avstriya, Belçika, Luksenburq, Monako, Niderland, Fransa və İsveçrəni əhatə edir. Bu region üçün kapitalizmin bazar münasibətləri və məhsuldar qüvvələrin yüksək inkişafı xarakterikdir. Kapitalın miqyasiyası, xarici ticarət, işçi qüvvəsi, turizm, lisenziyalar mübadiləsi bu makroregionda ümumdünya əhəmiyyəti kəsb edir. Burada mineral ehtiyatlar müxtəlifdir. Daş kömür, neft və qaz hasil olunur. Makroregionun ən böyük iqtisadiyyata malik ölkələri AFR və Fransadır.

**Avstriya Respublikası - Avstriya** (*almanca* - Republik Österreich - *Avstriya Respublikası*) Mərkəzi Avropada dövlət. Avstriya Avstriya-Macarıstan imperiyası dağıldıqdan sonra 1918-ci ilin 17 oktyabrda yaranmışdır. Paytaxtı Vyana şəhəri, rəsmi dili alman və regional dillər: sloven (*Karintiya*), qradişansk-xorvat, macar (*Burgen-*



*land*) dilləridir. Federativ quruluşludur. Avstriya Aİ-nın üzvüdür, Şengen və avro zonaya daxildir, valyutası avrodur.

Ərazisi 83 879 $km^2$, əhalisi 8,6 milyon nəfərdir (*2018*).

İqtisadiyyatda xidmətlər 70,5%, sənaye 28,2%, kənd təsərrüfatı 1,3% paya malikdir. ÜDM 377,0 milyard ABŞ dolları, adambaşına ÜDM 44,5 min ABŞ dollarıdır. İnflyasiya 1,8%, işsizlik səviyyəsi 5,5%, yoxsulluq səviyyəsi 4,0%-ə bərabərdir. Xarici borc 638,3 milyard ABŞ dolları (*ÜDM-in 169,3%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 45,9%-nə bərabərdir (*2017*).

Avstriya Avropanın ən inkişaf etmiş ölkələrindən biridir. Ölkədə güclü sənaye, xüsusən də, kimya və neft-kimya, dəzgahqayırma, elektrotexnika, yüngül sənaye və ağac emalı inkişaf etmişdir. Yüngül sənayesinin əsasını toxuculuq, dəri-ayaqqabı və tikiş sənayesi təşkil edir. Ölkə, həmçinin, qara və əlvan metallurgiya istehsalı, elektrotexnika və elektron sənayesinin müasir sahələri üzrə də ixtisaslaşmışdır. Neft və qaz idxal edir. Sənaye istehsalının, həcminin, üçdə bir hissəsi iqtisadiyyatın dövlət sektorunun payına düşür. Ölkədə elmtutumlu texnologiyalar istehsalı, aerokosmik sənaye də inkişaf etmişdir.

Kənd təsərrüfatının əsasını südçülük yönümlü heyvandarlıq təşkil edir. Həmçinin, üzümçülük, dənli bitkilər istehsalı, donuzçuluq və meyvəçilik inkişaf etmişdir. Aİ-nin yeritdiyi qiymət və kvotalaşma siyasəti kənd təsərrüfatının ağır transformasiyasına səbəb olur ki, bu da Avstriya fermerləri tərəfindən əks hərəkətlər doğurur.

Quru yollar ölkəsi olan Avstriya başqa ölkələrə malları, əsasən, dəmir yolları ilə idxal və ixrac edərək ticarət mübadiləsi aparır. Beynəlxalq əhəmiyyətli Dunay çayı vasitəsilə ölkə dənizə çıxışlıdır. Çayda əsas limanları Lints və Vyanadır.

Avstriya inkişaf etmiş nəqliyyat və turizm infrastrukturuna malikdir. İllik turist axını 15 milyon nəfər təşkil edir.

Əmtəə dövriyyəsinin $^2/_3$ hissəsinə qədəri Aİ ölkələrinin üzərinə düşür. AFR Avstriyanın yeganə ticarət tərəfdaşıdır. Bununla yanaşı, ölkə İtaliya, Fransa, İsveçrə və Macarıstanla da sıx iqtisadi əlaqələr qurmuşdur. Avstriya ticarətində ixrac predmetləri ağır sənaye avadanlıqlarıdır. Buraya dəzgahlar, qara metallar, həmçinin, xalq istehlakı malları, dəftərxana malları və ərzaq məhsulları daxildir. Ölkə, əsasən, xalq istehlakı malları, həmçinin, hazır məhsullar idxal edir ki, bunların da payı bütün idxalın yarısı qədərdir.

Avstriya dünyanın ən sabit ölkələrindən biridir. Ölkədə iqtisadi siyasət isə balanslı büdcəyə yönəlmişdir. Liberallaşma və özəlləşdirmə vasitəsilə gələcəyin sosial sisteminin artım dinamikasının yüksəldilməsi və möhkəmləndirilməsi üçün çoxsaylı tədbirlər həyata keçirilir.

Azərbaycanla Avstriya arasında münasibətlər ilk dəfə XV əsrdə yaradılıb. Bu münasibətlərin əsası Ağqoyunlu dövlətinin banisi Uzun Həsən (*1423-1478*) tərəfindən qoyub. İki ölkə arasında fəal diplomatik münasibətlər Avstriya Azərbaycanın müstəqilliyini tanıdığı 1992-ci ildə qurulub. İki ölkə arasında möhkəm hüquqi baza yaradılıb.

Azərbaycanda yaradılmış əlverişli biznes və investisiya mühitindən yararlanan 50-dən çox Avstriya şirkəti iqtisadiyyatın müxtəlif sahələrində uğurla fəaliyyət göstərir. Hazırda ölkələr arasında ticarət dövriyyəsi 500 milyon ABŞ dollarını ötmüşdür.

**Belçika Krallığı - Belçika** (*niderland dilində* - Koninkrijk België, *fransızca* - Royaume de Belgique, *almanca* - Königreich Belgien - *Belçika Krallığı*) Qərbi Avropada dövlət. Şimalda Niderlandla, şərqdə AFR, şənub-şərqdə Lüksemburq və cənub-



qərbdə Fransa ilə həmsərhəddir. Şimal-qərbdə Şimal dənizinə çıxışı vardır. 1830-cu ildə müstəqilliyini bəyan etmiş, 1839-cu ildə Niderland tərəfindən tanınmışdır. Paytaxtı Brüssel şəhəri, rəsmi dilləri - niderland dili (*yalnız Flandriya və Brüsseldə*), fransız dili (*yalnız Valloniyada və Brüsseldə*) və alman dilidir (*yalnız almandilli birlik olan ərazidə*). Belçika konstitusiyalı parlament monarxiyasıdır, inzibati-ərazi quruluşu federasiyadır. Aİ-nın və NATO-nun üzvüdür, Şengen və avro zonaya daxildir. Valyutası avrodur. Ölkənin adı kelt tayfası etnoniminə görə "belgi" adlandırılmışdır.

Ərazisi 30 528 km², əhalisi 11,5 milyon nəfərdir (*2018*).

Belçika Avropada əhalinin ən az artdığı və əhali sıxlığının ən yüksək olduğu ölkələrindəndir. Burada yaşayan insanlar etnik baxımdan iki qrupa ayrılır. Şimalında flamandlar, cənubunda vallonlar yaşayır. Əhalinin böyük əksəriyyəti paytaxt Brüsseldə məskunlaşmışdır. Flamandlar german, vallonlar isə roman mənşəlidirlər. Əhalinin 58%-ni flamanlar, 31%-ni vallonlar, 11%-ni fransızlar və almanlar təşkil edir. Əhalinin 67%-i katoliklər, 6%-i müsəlmanlar və 27%-i dinsizlərdən ibarətdir.

İqtisadiyyatda xidmətlər 77,5%, sənaye 21,8%, kənd təsərrüfatı 0,7% paya malikdir. ÜDM 455,0 milyard ABŞ dolları, adambaşına ÜDM 41,3 min ABŞ dollarıdır. İnflyasiya 1,5%, işsizlik səviyyəsi 4,3%, yoxsulluq səviyyəsi 15,1%-ə bərabərdir. Xarici borc 1,3 trilyon ABŞ dolları (*ÜDM-in 280,0%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 46,3%-nə bərabərdir (*2017*).

Belçika iqtisadiyyatının quruluşu dünyanın ən qabaqcıl postindustrial dövlətləri üçün xarakterikdir. Burada iqtisadiyyatın mühüm xüsusiyyəti ondan ibarətdir ki, bank kapitalı qabaqcıl korporasiyaların aktivlərində üstünlük təşkil edir. Ölkə iqtisadiyyatında, xüsusilə də, nəqliyyatda, kommunal və yanacaq-energetika təsərrüfatında dövlət sektorunun xüsusi çəkisi böyükdür. Dövlət xərcləri ÜDM-in 50%-dən çoxuna bərabərdir.

Belçika iqtisadiyyatının mühüm sektoru sənayedir. Ölkə dünyanın ən qədim və qabaqcıl dəmir və polad sənayelərindən birinə malikdir. Burada hər il orta hesabla 11 milyon tona qədər polad istehsal olunur və onun ölkə ixracatında payı yüksəkdir. Belçika, həmçinin, rəngli metalların istehsalı və ixracı üzrə Aİ-də mühüm mövqe tutur. Burada ağır sənaye, metal tökmələr, sink və şüşə fabriklərinin geniş şəbəkəsi mövcuddur. Ən böyük şəhərlərindən biri olan Antverpen dünya almaz ticarətinin mərkəzidir. Belçika neft-kimya sənayesi üzrə də dünya liderlərindən sayılır. Ölkədə tekstil sənayesi inkişaf etmiş və onun məhsulları ixracda mühüm paya malikdir.

Belçikada kənd təsərrüfatına yararlı torpaqlar ölkə ərazisinin ¼ hissəsini təşkil edir. Ölkədə kənd təsərrüfatı yüksək intensivliyi ilə seçilsə də, iqtisadiyyatda o qədər də əhəmiyyətli rol oynamır. Geniş olaraq taxıl bitkiləri, şəkər çuğunduru, kartof əkilir. İri-buynuzlu malqara və donuzçuluq təsərrüfatları inkişaf etmişdir. Burada, həmçinin, ənənəvi olaraq pivə və pendir istehsalı geniş yayılmışdır.

Ölkədən avtomobillər, avtomobil hissələri, tibbi qarışıqlar, brilliant, üzvi kimya məhsulları, mineral yağlar, neft məhsulları ixrac edilir. İdxalda neft və xammal əksəriyyət təşkil edir.

Belçikada enerji, əksərən, AES-lərdə istehsal olunur. Ölkə inkişaf etmiş nəqliyyat infrastrukturuna malikdir. Avropa qitəsinin ilk dəmiryolu Belçikada salınmışdır. Burada dəmiryolları tam elektrikləşdirilmiş və bütün qonşu dövlətlərə çıxışları təmin edilmişdir. Ölkədən Şimal dənizinə çıxışı Reyn çayı vasitəsi ilə inkişaf etmiş su nəqliyyatı həyata keçirir. Paytaxt Brüsselin hava limanı da böyük beynəlxalq nəqliyyat qovşağı kimi fəaliyyət göstərir.

Belçikada təhsil çox inkişaf etmişdir. Gənclərin təhsilində kilsənin böyük rolu vardır. Ölkədə çoxdilli, yaxşı təhsilli və yüksək motivasiyalı işçi qüvvəsi vardır.

Belçika Azərbaycanın müstəqilliyini 31 dekabr 1991-ci ildə tanıyıb və 17 iyun 1992-ci ildə iki ölkə arasında diplomatik münasibətlər qurulub. Hazırda ölkələr arasında ticarət dövriyyəsi 50 milyon ABŞ dollarını ötmüşdür.

**İsveçrə Konfederasiyası - İsveçrə** (*almanca* - Schweizerische Eidgenossenschaft, fransızca - Confédération Suisse, *italyanca* - Confederazione Svizzera, *reto-roman dilində* - Confederaziun Svizra) Qərbi Avropada - Alp dağlarında dəniz sahili olmayan dövlət. Şimaldan AFR, qərbdən Fransa, cənubdan İtaliya, şərqdən Avstriya və Lixtenşteyn ilə həmsərhəddir. İsveçrə 1291-ci il avqustun 1-də müstəqilliyini elan etmiş, 1648-ci il oktyabrın 24-də tanınmışdır. 1848-ci ildən isə federasiyadır. Paytaxtı Bern şəhəri, rəsmi dilləri alman, fransız, italyan və retro-roman (*müvafiq dil daşıyıcıları ilə işgüzar söhbətlərdə*) dilləridir. Parlament respublikasıdır, inzibati-ərazi quruluşu federasiyadır. 1815-ci ildə Vyana konqresinin təminatları ilə İsveçrə neytral ölkə statusu almışdır. Şengen zonasına daxildir, milli valyutası isveçrə frankıdır.



Ərazisi 41 285 km², əhalisi 8,6 milyon nəfərdir (*2018*).

İqtisadiyyatda xidmətlər 73,7%, sənaye 25,6%, kənd təsərrüfatı 0,7% paya malikdir. ÜDM 671,0 milyard ABŞ dolları, adambaşına ÜDM 79,2 min ABŞ dollarıdır. İnflyasiya 0,7%, işsizlik səviyyəsi 4,8%, yoxsulluq səviyyəsi 6,6%-ə bərabərdir. Xarici borc 1,8 trilyon ABŞ dolları (*ÜDM-in 271,0%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 59,9%-nə bərabərdir (*2017*).

İsveçrə ən zəngin və ən inkişaf etmiş ölkələrdən biridir. Yüksək inkişaf etmiş sənaye ölkəsi olan İsveçrədə faydalı qazıntılar, demək olar ki, yox dərəcəsindədir. Buna baxmayaraq, uzun müddət siyasi və hərbi tərəfsizlik ənənəsinə malik olan bu ölkədə bankçılıq və maliyyə sektorlarına istinad edən çox güclü bir iqtisadiyyat qurulmuşdur.

Burada bank sektoru ÜDM-in 9%-ni təşkil edir. Dünya üzrə fiziki və hüquqi şəxslərin mülkiyyət və əmlakının idarə edilməsinin 35-40%-i İsveçrə banklarının üzərinə düşür. Onlar məhz sabit siyasi şərait, möhkəm valyuta və “bank sirri”nə riayət edilməsi sayəsində müştərilər arasında böyük nüfuza malikdir.

İsveçrə mühüm qlobal maliyyə mərkəzidir (*Sürix - Nyu-Yorkdan və Londondan sonra üçüncü dünya valyuta bazarıdır*). Ölkədə 4 minə qədər maliyyə institutu, o cümlədən xarici bankların çoxlu sayda filialları fəaliyyət göstərir. İsveçrə iri kapital ixracatçısı olmaqla, dünyada ABŞ, Yaponiya və AFR-dən sonra dördüncü yerdə qərarlaşmışdır. Xarici ölkələrə investisiya qoyuluşları ÜDM-in 29%-ni təşkil edir.

İsveçrə həm də yüksək ixtisaslı işçi qüvvəsi, etibarlı xidmətlər sahəsi ilə seçilir. O, iqtisadiyyatının rəqabətqabiliyyətliliyinin səviyyəsinə görə dünya ölkələrinin ilk onluğuna daxildir. Bütün bu müsbət göstəricilər ona bir sıra beynəlxalq təşkilatların məclislərinə sahiblik etmək imkanı yaratmışdır.

Ölkə sənayesində maşınqayırmanın və yüksək dəqiq mexanika inkişaf etmiş sahələrdəndir. Burada kimya sənayesi, əczaçılığın və bank sektorunun iri transmilli konsernləri çox səmərəli fəaliyyət göstərirlər. Sənayedə transmilli xarakterli iri birliklər - “Nestle” (*yeyinti məhsulları, dərman və kosmetika məmulatları, uşaq qidaları*), “Novartis” və “Hoffman-la-Roş” (*kimya məhsulları*), “Alüsüiss” (*alüminium*), İsveç-İsveçrə Asea Braun Boveri - ABB (*elektrotexnika və turbinqayırma*) konsernləri dünya bazarında uğurla rəqabət aparırlar. İsveçrəni həm də dünyanın saat fabriki adlandırırlar. Burada dünya şöhrətli “Rolex”, “Chopard”, “Breguet”, “Patek Philippe”, “Vacheron Constantin” və s. markaların saatları və zərgərlik məmulatları istehsal olunur. Ölkədə elektrik enerjisinin 42%-i AES-lərdə, 50%-i HES-lərdə, qalan 8%-i isə İES-lərdə idxal neftindən hasil olunur.

Kənd təsərrüfatında heyvandarlığa üstünlük verilir. Bu sahə yüksək məhsuldarlığı və yüksək əmək məhsuldarlığı ilə seçilir. Ölkədə xırda təsərrüfatlar da çoxdur. Bütövlükdə, İsveçrənin kənd təsərrüfatı əhalinin ərzaq məhsullarına olan tələbatının 56-57%-ni təmin edir.

İsveçrə həm də ənənəvi turizm ölkəsidir. O, inkişaf etmiş turizm infrastrukturuna malikdir. Milli gəlirin 15%-i məhz bu sahə hesabına daxil olur.

İsveçrə iqtisadiyyatı xarici ölkələrlə, ilk növbədə, Aİ ölkələri ilə sıx bağlıdır. Belə ki, onun ticarət dövriyyəsinin 80-85%-i bu ölkələrin üzərinə düşür.

Ölkə maşınlar, saatlar, toxuculuq məmulatları, tibb ləvazimatları, elektrik avadanlıqları, üzvi kimyəvi maddələr ixrac edir, elektron avadanlıqlar, qida məhsulları, polad və neft məhsullarını isə idxal edir.

İsveçrə Konfederasiyası Azərbaycanın müstəqilliyini 1991-ci ilin dekabr ayının 23-də tanımış, diplomatik münasibətlər 1992-ci ilin yanvar ayının 21-də qurulmuşdur. İki ölkə arasında 200 milyon ABŞ dolları üstələyən ticarət dövriyyəsi mövcuddur.

**Niderland Krallığı – Niderland** (*niderland dilində* - Koninkrijk der Nederlanden - *Niderland Krallığı*) Qərbi Avropada, Şimal dənizinin sahilində yerləşən, həmçinin,

Karib hövzəsində torpağa malik Aruba, Kürasao, Niderland və Sint-Marten olmaq üzrə dörd ölkədən ibarət dövlətdir. Müstəqillik tarixi 1581-ci ilin 26 iyulundan başlanır. Paytaxtı Amsterdam, hökumətin iqamətgahı - Haaqa şəhəridir. Rəsmi dili niderland, regional dil isə qərbi friz dilidir. Dövlət idarəçiliyi üsulu konstitusiyalı monarxiyadır. Niderland NATO və Aİ-nın üzvüdür, Şengen və avro zonaya daxildir, valyutası avrodur.



Ərazisi 41 543 $km^2$, əhalisi 17,1 milyon nəfərdir (*2018*).

İqtisadiyyatda xidmətlər 73,2%, sənaye 24,1%, kənd təsərrüfatı 2,7% paya malikdir. ÜDM 751,0 milyard ABŞ dolları, adambaşına ÜDM 45,3 min ABŞ dollarıdır. İnflyasiya 1,2%, işsizlik səviyyəsi 4,9%, yoxsulluq səviyyəsi 8,8%-ə bərabərdir. Xarici borc 4,5 trilyon ABŞ dolları (*ÜDM-in 600,0%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 46,6%-nə bərabərdir (*2017*).

"Niderland" sözünün yerli dildə mənası "alçaq ərazilər" deməkdir. Ölkə digər adla Hollandiya olaraq tanınır.

Ölkə zəngin təbii qaz yataqlarına malikdir. Burada, həmçinin, neft, torf, əhəng daşı, duz, qum hasil edilir.

Niderland müasir inkişaf etmiş postindustrial iqtisadiyyata malikdir. Burada maşınqayırma, gəmiqayırma, neft kimyası, qara metallurgiya, aviasiya, tekstil, mebel və sellüloz-kağız sənayesi iqtisadiyyatın başlıca sahələridir. Geyim və pivə istehsalına görə Niderland həm bölgədə və həm də geniş olaraq dünyada tanınır.

Ölkədə şəkər çuğunduru, tərəvəz, meyvə, taxıl, kartof, heyvandarlıq məhsulları yetişdirilir.

Niderlandda gəmiçilik, logistika geniş inkişaf etmişdir. Avropanın ən böyük liman şəhəri-yük terminalı Potterdam bu ölkədə yerləşir.

Ölkə həm də bölgənin mühüm maliyyə, biznes və bankçılıq ölkəsidir. Avropanın bir sıra TMŞ-lərinin qərargahları bu ölkədə yerləşir.

Niderlanddan maşın və avadanlıqlar, kimya sənayesi məhsulları, yanacaq, yeyinti məhsulları ixrac olunur. Əsas ixrac tərəfdaşları AFR, Belçika, Böyük Bvritaniya və Fransadır. Niderland, həmçinin, digər maşın və avadanlıqlar, yanacaq, geyim, habelə kimya sənayesi və yeyinti məhsulları idxal edir.

Niderland Krallığı Azərbaycanın müstəqilliyini 31 dekabr 1991-ci ildə tanımış, 1 aprel 1992-ci ildə iki ölkə arasında diplomatik münasibətlər qurulmuşdur. Hazırda iki ölkə arasında ticarət dövriyyəsi 300 milyon ABŞ dollarını ötmüşdür.

<u>Şərqi Avropa</u> - tam və ya qismən 10 ölkəni - Belarus, Bolqarıstan, Ukrayna, Qazaxıstan, Moldova, Polşa, Rusiya, Rumıniya, Çexiya və Slovakiyanı əhatə edir. Avropa və Asiyanın Böyük Qafqaz dağ silsiləsi xətti ilə ayrılması yanaşmasında bu əraziyə qismən Azərbaycan və Gürcüstan da daxil edilir. Şərqi Avropa makroregionu, əsasən, postsovet ölkələri qrupunu əhatə edir və burada uzun müddət planlı iqtisadiyyat mövcud olmuşdur. 1980-1990-ci illərdə sosialist düşərgəsinin dağılması ilə makroregion ölkələri bazar iqtisadiyyatına keçid edilmişdir. Hazırda Şərqi Avropa ölkələri

iqtisadiyyatlarını Qərbə inteqrasiya zəminində qururlar. İqtisadiyyatda dağ-mədən sənayesi, kənd təsərrüfatı və müxtəlif sənaye sahələri üstünlük təşkil edir. Turizm çox inkişaf etmişdir. Makroregionun yüksək inkişaf etmiş ölkələri sırasında Ukrayna, Polşa, Çexiya və Macarıstan xüsusi yer tuturlar.

Şimali Avropa - BMT-nin müvafiq bölgüsünə əsasən, makroregiona 10 ölkə - Böyük Brintaniya, İrlandiya, İslandiya, Danimarka, Finlandiya, Norveç, İsveç Latviya, Litva və Estoniya daxildir. İqtisadiyyatda əsas yeri inkişaf etmiş sənaye və kənd təsrrüfatı tutur. Makroregion zəngin təbii resurslara malikdir. Şimal dənizinin Böyük Britaniya və Norveçə məxsus sektorundakı şelfdə zəngin neft-qaz ehtiyatları vardır. Şimali Avropada nəqliyyat sistemi, xüsusən də, gəmiçilik yüksək inkişaf etmişdir. Avropanın ən böyük dəniz loqistik mərkəzi Danimarkanın Rotterdam şəhərində yerləşmişdir. Makroregionda böyük iqtisadiyyata malik ölkə Böyük Brintaniyadır.

Şimali Avropanın mühüm hissəsini Skandinaviya yarımadası və onu əhatə edən ölkələr tutur. Skandinaviya (*Danimarka və İsveç dillərində* - Skandinavien, *Norveç dilində* - Skandinavia - *Skandinaviya*) Skandinaviya və Yutlandiya yarımadalarını və ona yaxın adaları əhatə edən tarixi-mədəni regiondur. Ənənəvi olaraq, Skandinaviyaya üç ölkə - İsveç, Norveç və Danimarka daxildir. Bu ölkələrin hər üçündə "Skandinaviya" anlayışının şərhi də eynidir. Coğrafi mənada "Skandinaviya" anlayışı bəzən Skandinaviya yarımadası ilə sinonimdir. Skandinaviya geniş mənada "Şimali Avropa ölkələri" (*İsveç dilində* - Norden, *ingiliscə* - Nordic countries) anlayışı ilə yaxınlaşaraq, həmçinin, Finlandiya, İslandiya, Şimali Atlantika adalarını özünə daxil edir. Elmi ədəbiyyatda Skandinaviyanı və Finlandiyanı birləşdirən region Fennoskandiya adlanır.

**İsveç Krallığı - İsveç** (*isveç dilində* - Konungariket Sverige - *İsveç Krallığı*) - Avropanın şimalında Baltik dənizi sahilində, Skandinaviya yarımadasında yerləşən dövlətdir. Qərbdən Norveç, şimal-şərqdən Finlandiya ilə həmsərhəddir. Şərqdə Botnik körfəzi və Baltik dənizi, cənub-qərbdə Skagerrak, Balt və Öresund boğazlarına çıxır. Cənub-qərbdə Öresund körpüsü vasitəsilə Danimarka ilə quru nəqliyyat yollarına malikdir. İsveçin dövlətçilik ənənələri X əsrdən başlanğıc alır. Paytaxtı Stokholm şəhəri, rəsmi dili isə İsveç dillidir. Konstitusiyalı monarxiya dövlətidir. Aİ-nın üzvüdür. Şengen zonasına daxildir, milli valyutası şved kronasıdır.



Ərazisi 450 295 min km², əhalisi 10,1 milyon nəfərdir (*2018*).

İsveç, ərazisinə görə, Aİ-də üçüncü ən böyük dövlətdir. Ölkə ərazisinin 65%-i meşələrdən, 9%-i çay və göllərdən ibarətdir. Burda əhali sıxlığı aşağıdır və əhalinin 85%-i şəhərlərdə yaşayır.

İsveçin qədim müstəqillik ənənələri vardır. Ölkə öz müstəqilliyini hələ orta əsrlərdə əldə etmişdir. XVII əsrdə İsveç öz torpaqlarını genişləndirərək imperiya halına gətirmişdir. Lakin sonradan XVIII və XIX əsrlərdə İsveç öz ərazilərinin çox hissəsini itirmiş, ölkənin şərq torpaqlarının, demək olar, hamısı Rusiya tərəfindən işğal olunmuşdur. İsveçin daxil olduğu sonuncu müharibə 1814-cü ildə baş vermişdir, həmin

tarixdən bəri İsveç bütün müharibələrdə neytral mövqe tutmaqdadır. Hər iki Dünya Müharibəsində neytral mövqedə durması onun iqtisadi inkişafının davamlı olmasını təmin etmişdir.

İqtisadiyyatda xidmətlər 65,4%, sənaye 33,0%, kənd təsərrüfatı 1,6% paya malikdir. ÜDM 496,0 milyard ABŞ dolları, adambaşına ÜDM 51,2 min ABŞ dollarıdır. İnflyasiya 1,7%, işsizlik səviyyəsi 6,8%, yoxsulluq səviyyəsi 15,0%-ə bərabərdir. Xarici borc 938,7 milyard ABŞ dolları (*ÜDM-in 189,0%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 53,0%-nə bərabərdir (*2017*).

Ölkənin əsas təbii sərvətlərini meşə, su resursları və dəmir filizi ehtiyatları təşkil edir. İsveç ixrac yönümlü, kapitalizm ilə sosializmin qarışmasından ibarət, yaxşı təşkil olunmuş xarici və daxili kommunikasiyaları olan iqtisadiyyata malikdir. XX əsrin bir neçə onilliyi ərzində İsveç yoxsul aqrar ölkədən ən varlı və yüksək inkişaf etmiş sənaye dövlətinə çevrilmişdir. Daxili bazarın kiçik tutumlu olması səbəbindən iri İsveç şirkətləri ixraca istiqamətlənməyə məcbur olmuşlar. Bu erkən qloballaşma İsveç şirkətlərinə beynəlxalq rəqabətdə üstünlüklər vermişdir. Bunun nəticəsində İsveç iri multimilli konsernlərin və tanınmış ticarət markalarının sayına görə son dərəcə yüksək göstəricilərə malikdir. Bu çevrədə "Volvo", "Saab", "Erikson", "AstraZeneka", "Elektrolyuks", "İkea", "Hennes və Maurits", Hasselblad", "Sistemeyr" adları dünya brendləri sırasındadırlar.

İqtisadiyyatın başlıca məhsulları olaraq maşınlar, tibbi ləvazimatlar, ağac məhsulları, telekommunikasiyalar çıxış edir. Məhsulun təxminən 90%-i "Ericsson AB", "Alfa Laval Group", "IKEA" kimi xüsusi şirkətlər tərəfindən istehsal olunur ki, onların da təqribən yarısını maşınqayırma məhsulları təşkil edir. Xammal və zənginləşdirilmiş xammal materialları İsveç ixracının əhəmiyyətli hissəsini təşkil etməkdədir. Bununla belə, ölkə iqtisadiyyatında getdikcə informasiya texnologiyaları və biotibb kimi sənayelərin elmi tutumlu sahələri daha böyük yer tutmağa başlayır. Buna, xüsusən də, inkişaf etmiş infrastruktur və əhalinin yüksək ümumi təhsil səviyyəsi imkan verir. Son zamanlar dizayn, musiqi, rəssamlıq sənayesi, qastronomiya, media sahələri, reklam, turizm kimi sahələr əhəmiyyətli dərəcədə ixrac gəlirlərini gətirməyə başlamışdır.

İsveçin enerji istehsalı özəl şirkətlərin əlindədir. İstehsal olunan elektrik enerjisinin 44%-i SES-lərin, 47%-i isə AES-lərin payına düşür. Bununla yanaşı, burada bioyanacaq, torf və külək enerjisindən istifadə genişlənir. Bioyanacaqdan ancaq istixanalarda yaşayış sahələrini qızdırmaq üçün istifadə olunur. Ölkədə 2025-ci ilə kimi neft və neft məhsullarından istifadənin tamamilə dayandırılması nəzərdə tutulub.

İsveç dünyada ən yüksək həyat şəraitinə malik ölkələrdən biridir. Burada, ənənəvi olaraq, çox həcmli vergilər mövcuddur. Bu göstəriciyə görə İsveç dünyada Danimarkadan sonra ikinci yeri tutur.

İsveç Krallığı Azərbaycanın müstəqilliyini 1992-ci ilin yanvar ayının 16-da tanımış, diplomatik münasibətlər 1992-ci ilin may ayının 8-də qurulmuşdur. İki ölkə arasında ticarət dövriyyəsi orta hesabla illik 25-30 milyon ABŞ dolları həcmində tərəddüd edir.



**Norveç Krallığı - Norveç** (*Norveç dilində* - Kongeriket Norge, *bukmol dilində* - Kongeriket Noreg, *nyunorsk dilində* - Kongeriket Noreg) Şimalı Avropada, Skandinaviya yarımadasının qərb hissəsində və ona yaxın adalarda yerləşən dövlət. Norveç 7 iyun 1905-ci ildə müstəqilliyini elan etmiş, həmin il oktyabrın 26-da İsveç Norveçin müstəqilliyini tanımışdır. Paytaxtı Oslo şəhəri, rəsmi dili isə Norveç, bukmol və nyunorsk dillidir. Konstitusiyalı monarxiyalı dövlətdir. NATO-nun üzvüdür. Şengen zonasına daxildir, milli valyutası Norveç kronasıdır.

Ərazisi 385 203 $km^2$, əhalisi 5,4 milyon nəfərdir (*2018*). Əhalinin böyük əksəriyyəti - 79%-i norveçlilərdir. Ölkədə digər etnik qruplardan - saamilər, danimarkalılar, isveçlilər və finlər yaşayır. Saam dili yerli dil statusuna malikdir.

Qədim skandinav dillərində "şimala yol" mənasını verən Norveçə krallıq olaraq Arktikada yerləşən bir neçə ada, həmçinin, Svalbard (*Şpitsbergen adası və qonşu adalar*) və Yan Mayen adaları da daxildir. Norveç Krallığının Svalbard üzərindəki mülkiyyət hüququ Svalbard Sazişi əsasında razılaşdırılmışdır. Bu saziş Yan Mayen adasına şamil edilmir. Cənubi Atlantik Okeanında yerləşən Buve və I Pyotr adaları da Norveçin tabeliyindədir. Bununla belə, bu adalar krallığa məxsus deyildir. Norveçin Antraktidadakı "Şahzadə Mod Torpaqları"na da ərazi iddiaları vardır. Həmin adada Norveçin "Troll" tədqiqat stansiyası yerləşir.

İqtisadiyyatda xidmətlər 66,5%, sənaye 31,1%, kənd təsərrüfatı 2,4% paya malikdir. ÜDM 387,4 milyard ABŞ dolları, adambaşına ÜDM 70,4 min ABŞ dollarıdır. İnflyasiya 2,0%, işsizlik səviyyəsi 4,2%, yoxsulluq səviyyəsi 7,5%-ə bərabərdir. Xarici borc 623,2 milyard ABŞ dolları (*ÜDM-in 161,0%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 51,8%-nə bərabərdir (*2017*).

Norveç 2001-ci ildən etibarən hər il insan inkişafı göstəricisinə görə birinci yeri tutur. Rəy sorğularına görə, həmçinin, dünyanın ən sakit və sülhsevər ölkəsi hesab edilmişdir. Zəngin təbii ehtiyatlara, xüsusən də, neft-qaz resurslarına malik olan Norveç iqtisadi cəhətdən yüksək səviyyədə inkişaf etmiş sənaye ölkəsidir. Onun iqtisadiyyatı XX əsrin 50-60-cı illərindən yüksək sürətlə inkişaf etməyə başlamışdır. Ölkə iqtisadiyyatı azad bazar və dövlət tənzimlənməsinin sintezinin uğurlu nümunəsidir. Hökumət iqtisadiyyatın bütün mühüm sahələrinə, xüsusilə, neft sektoruna nəzarət edir. Norveç Şimali Avropada ən iri neft və qaz istehsalçısıdır. Burada neft sektoru büdcə daxilolmalarının 30%-ni təmin edir.

Neft-qaz hasilatı ilə yanaşı, ölkədə sənayenin mühüm sahələri yeyinti, sellüloz-kağız, metallurgiya, kimya, ağac emalı sənayesi və gəmiqayırmadır. 1960-cı ildə Norveçin ticarət donanması müharibədən əvvəlki illərə nisbətən 2 dəfə artmış və hazırda ABŞ və Böyük Britaniyadan sonra, tonnajına görə, dünyada üçüncü yeri tutmur. Ölkə həm də dünya bazarına böyük həcmdə balıq və balıq məhsulları çıxaran dövlətlər sırasındadır.

Kənd təsərrüfatında əsas bölmə heyvandarlıqdır. Ölkəyə lazım olan ərzaq məhsullarının yarıdan çoxu idxal edilir.

Norveç dağları fyordlar və buzlaqlardan meydana gəlmiş, əl dəyilməmiş gözəlliyə sahib bir ölkədir. Ölkənin cənubunda əkinçilik sahələri, möhtəşəm meşələr və çimərliklər geniş yer tutur. Bütün bunlar ölkədə turizmin inkişafına zəmin olur. Xarici turizmin mövsümiliyi özünü açıq şəkildə biruzə verir. Belə ki, turistlərin yarıdan çoxu ölkəyə yay mövsümündə gəlirlər. Hər il Norveçdə turizmdən bir neçə milyard ABŞ dolları həcmində gəlir əldə olunur.

Norveç Krallığı Azərbaycanın müstəqilliyini 1992-ci ilin yanvar ayının 2-də tanımış, diplomatik münasibətlər 1992-ci ilin iyul ayının 5-də qurulmuşdur. Ötən dövr ərzində Norveçlə və Azərbaycan arasında siyasi, iqtisadi və humanitar əməkdaşlıq sahələrində əlaqələrin inkişaf etdirilməsi üçün geniş imkanlar və hüquq-müqavilə bazası yaradılmışdır. Norveçə məxsus neft şirkəti olan “Statoyl” “Əsrin müqaviləsi”ndə pay almış və bununla da Azərbaycan-Norveç iqtisadi münasibətlərinin əsası qoyulmuşdur. Bu müqavilədə “Statoyl” şirkəti 8,71% pay almışdır və 2 il sonra “Şahdəniz” yatağının Hasilatın Pay Bölgüsü əsasında birgə işlənilməsində də 25,5% pay alaraq Azərbaycanla əməkdaşlığını daha da genişləndirmişdir. İki ölkə arasında ticarət dövriyyəsi, orta hesabla, illik 40-50 milyon ABŞ dolları həcmində tərəddüd edir.

**Danimarka Krallığı - Danimarka** (*Danimarka dilində* - Kongeriget Danmark - *Danimarka Krallığı*) Şimali Avropada dövlət. Danimarkanın dövlətçilik tarixi VIII əsrdən başlanır. Ölkənin paytaxtı Kopenhagen şəhəri, rəsmi dili Danimarka dilidir. Ölkədə idarəetmə üsulu konstitusiyalı monarxiya üzərində qurulmuşdur. Danimarka NATO-nun üzvüdür. Milli valyutası Danimarka kronudur.



Ərazisi 43 094 $km^2$, əhalisi 5,7 milyon nəfərdir (*2018*).

İqtisadiyyatda xidmətlər 75,2%, sənaye 23,7%, kənd təsərr6üfatı 1,1% paya malikdir. ÜDM 301,0 milyard ABŞ dolları, adambaşına ÜDM 53,8 min ABŞ dollarıdır. İnflyasiya 0,6%, işsizlik səviyyəsi 5,9%, yoxsulluq səviyyəsi 13,4%-ə bərabərdir. Xarici borc 491,6 milyard ABŞ dolları (*ÜDM-in 163,0%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 52,6%-nə bərabərdir (*2017*).

Təbii sərvətləri içərsində neft və qaz resursları mühüm yer tutur. Əhatəsində dənizlərin olması burada gəmiçiliyin və balıqçılığın inkişafına təkan vermişdir.

Danimarka yüksək ixtisaslı işçi qüvvəsi ilə də fərqlənir. Ölkəyə ərazisindən də böyük, dünyanın ən nəhəg adası Qrenladiya da məxsusdur.

Danimarka krallığının muxtar hissəsi olan ***Qrenlandiya*** adası buzlaqlarla əhatə olunmuşdur. Onun ərazisi 2 130 800 $km^2$, əhalisi isə 56,3 min nəfərdir (*2018*).

Qrenlandiyanın inzibati mərkəzi Nuuk şəhəridir, rəsmi dili isə Qqrenlandiya dilidir. Burada krallığı ali kommissar təmsil edir. ÜDM 2,3 milyard ABŞ dolları, adambaşına ÜDM isə 37,6 min ABŞ dollarıdır (*2017*). Ölkənin iqtisadi həyatı ümumi ərazisinin, təxminən, 15%-ni əhatə edən, əsasən, adanın çənub-qərbində yerləşən, materik buzundan azad, dar sahil zolağında cəmləşmişdir.



Qrenlandiyada kriolit, mərmər, qrafit və qonur kömür hasil edilir, sink və qurğuşun filizi çıxarılır və onlar ixracın ümumi həcminin 12%-ni təşkil edir. Burada həmçinin, uran yataqları aşkar edilmişdir. Qrenlandiyanın əsas ixrac mənbəyinin 85%-ni, emal edilmiş kiçik xərçənglər də (*krevetkalar*) daxil olmaqla, balıq məhsulları təşkil edir. Bu səbəbdən də iqtisadi fəal əhalinin çox hissəsi balıqçılıq və balıq emalı ilə məşğuldur. Bir neçə balıq konservi zavodu, balıq ovu üçün balaca gəmilər istehsal və təmir edən zavodlar, tor toxuyan və trikotaj fabrikləri fəaliyyət göstərirlər. Balıq ovu, əsasən, treskadan ibarət olaraq ildə 25-30 min ton təşkil edir, qurudulmuş və duzlanmış şəkildə ixrac edilir. İdxalda isə ərzaq məhsulları və çoxişlənən kütləvi istehlak malları, maşınlar və avadanlıq, nəqliyyat vasitələri üstünlük təşkil edir. Qrenlandiyada, həmçinin, ətyun qoyunçuluğu və maralçılıq inkişaf etmişdir. Qrenlandiya praktiki olaraq nəqliyyat infrastrukturuna malik deyildir. Buna görə də avtomobillə hərəkət yalnız müəyyən yaşayış məntəqəsi hüdudları və ətrafında mümkündür. Avtomobill yolları şəbəkəsinin və dəmir yollarının olmaması təbii iqlim şəraitindən irəli gəlir. Yaşayış məntəqələrinin biri-birindən uzaqda yerləşməsi bu reallığı bir qədər də əsaslı edir. Belə vəziyyətdən çıxışı itlərin köməyi ilə xizəklərdən istifadə təmin edir. Bunula yanaşı, məntəqələrarası rabitə hava nəqliyyatı vasitəsi ilə də həyata keçirilir. Adadakı Kanqerlussuak, Narsarsuak, Nuk kimi hava limanları böyük avialaynerləri qəbul etmək imkanındadır. Təyyarələr adadan Kopenhagena və İslandiyaya uçuşlar edir. Ölkə büdcəsinin gəlir hissəsinin təxminən yarısını Danimarkanın illik maliyyə dotasiyası təşkil edir.

Danimarka Krallığı Azərbaycanın müstəqilliyini 1991-ci ilin dekabr ayının 31-də tanımış, diplomatik münasibətlər 1992-ci ilin aprel ayının 2-də qurulmuşdur. Danimarka ilə Azərbaycan arasında iqtisadi, o cümlədən ticarət sahəsində əməkdaşlıq, hələ ki, yüksək səviyyədə deyildir. Azərbaycan Respublikasının Danimarka Krallığı ilə ticarət dövriyyəsinin həcmi 20 miyon ABŞ dollarına bərabərdir. Danimarkanın Azərbaycana ixrac etdiyi başlıca məhsullar pendir və kəsmik, kartof, dərman vasitələri və məişət soyuducularıdır.

**Finlandiya Respublikası - Finlandiya** (*fin dilində* - Suomen tasavalta, *İsveç dilində* - Republiken Finland) Avropanın şimalında Baltik dənizi sahilində, Skandinaviya yarımadasında yerləşən dövlətdir. Rusiya, Norveç, İsveç ilə həmsərhəddir. Finlandiya 9 dekabr 1917-ci ildə Sovet Rusiyasından ayrılmaqla müstəqilliyini elan etmişdir. Paytaxtı Helsinki şəhəri, rəsmi dili isə fin və İsveç dilləridir. Parlament respublikasıdır. Finlandiya Aİ-nın və üzvüdür, Şengen və avro zonaya daxildir. Valyutası avrodur.



Ərazisi 338 424 min km², əhalisi 5,6 milyon nəfərdir (*2018*). Əhalinin 93,4%-ni finlər, 5,7%-ni isveçlilər, 0,12%-ni qaraçılar, 0,4%-ni ruslar, 0,2%-ni saamlar təşkil edir.

İqtisadiyyatda xidmətlər 70,2%, sənaye 27,2%, kənd təsərrüfatı 2,6% paya malikdir. ÜDM 232,0 milyard ABŞ dolları, adambaşına ÜDM 43,2 min ABŞ dollarıdır. İnflya-

siya 0,7%, işsizlik səviyyəsi 8,7%, yoxsulluq səviyyəsi 6,0%-ə bərabərdir. Xarici borc 483,6 milyard ABŞ dolları (*ÜDM-in 208,0%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 48,1%-nə bərabərdir (*2017*).

Finlandiya Avropa məkanına daxil olan iqtisadi cəhətdən inkişaf etmiş tipik Aİ ölkəsidir. Ölkənin müqayisəli üstünlüyü burada siyasi sabitlik, iqtisadiyyatın şəffaflığı, inkişaf etmiş infrastruktur, telekommunikasiyaların etibarlılığı və həmçinin, müəsissələr, elmi-texniki mərkəzlər və universitetlər arasında yüksək səviyyəli qarşılıqlı əlaqələrin olması cəhətləri ilə bağlıdır. Bundan başqa Finlandiyanın rəqabətqabiliyyətliliyində yüksək təhsil səviyyəsi, yeni texnologiyaların mənimsənilməsi sürəti, biznes üçün əlverişli işgüzar mühit olması amillərinin də böyük rolu vardır.

Ölkə iqtisadiyyatında meşə təsərrüfatı, informasiya və telekommunikasiya, metallurgiya, energetika, biznes xidmətləri, səhiyyə, maşınqayırma, yeyinti və tikinti sahələri mühüm yer tutur. Meşələr Finlandiya təbii resurslarının özəyini təşkil edir. Ölkədə belə bir fikir hakimdir ki, "Finlandiya və onun iqtisadiyyatı hər şeyə görə meşə təsərrüfatına borcludur". "UPM-Kymmene" və "Stora Enso Fin" ağac emalı şirkətləri dünyada müvafiq sahədə öncül yerlərdən birini tuturlar. Bundan başqa, çox sayda tanınmış Fin şirkətləri, o cümlədən ölkə iqtisadiyyatının fəxri - "Nokia" şirkəti də 1865-ci ildə öz fəaliyyətini kiçik sellüloz zavodu qismində başlamışdır. Bu şirkət öz sellüloz müəssisələrini 1990-cı illərin əvvəlində telekommunikasiyaya üstünlük vermək qərarını qəbul etdikdən sonra satmış, TMŞ kimi müvafiq sahədə dünya liderlərindən birinə çevrilmişdir. Finladiya iqtisadiyyatında sənayeləşdirmə prosesi metallurgiyanın, kimyanın və energetikanın inkişafına əsaslanır. Enerji istehsalında nüvə energetikası əhəmiyyətli yer tutur. Bununla belə, ölkə yetərli dərəcədə enerji ehtiyatları idxal edir. Enerjidaşıyıcılarının yarıya qədəri sənayedə istifadə edilir.

Bütün şimal ölkələrində olduğu kimi, Finlandiyada da ÜDM-də vergilərin payı yüksəkdir. 2006-cı ildə bu rəqəm 44% təşkil etmişdir. Yüksək vergilər hesabına sosial proqramlar maliyyələşdirilir və əhalinin gəlirləri arasında fərq tarazlaşdırılır. Finlandiya yüksək səviyyədə rəqabətqabiliyyətli ölkədir. BMT-nin "Human development" məruzəsinə əsasən, Finlandiya yaşamaq üçün ən əlverişli 10 ölkə sırasındadır.

Finlandiya iqtisadiyyatında turizm də yüksək paya malikdir. Buraya hər il 10 milyona qədər turist gəlir. Ölkədə xüsusən qış turizmi inkişaf etmişdir.

Ölkədən, əsasən, maşın və avadanlıqlar, kimya məhsulları, ağac, kağız, sellüloz ixrac olunur. İdxalda isə ərzaq, neft və neft məhsulları, nəqliyyat avadanlığı, polad, maşın və avadanlıqlar, toxuculuq ipliyi və parça, taxıl üstünlük təşkil edir.

Finlandiya Respublikası Azərbaycanın müstəqilliyini 1991-ci ilin dekabrında tanımış, diplomatik münasibətlər 1992-ci ilin mart ayının 14-də qurulmuşdur. İki ölkə arasında ticarət dövriyyəsi, orta hesabla, illik 70 milyon ABŞ dolları həcmində tərəddüd edir.

Cənubi Avropa - 18 ölkəni - İtaliya, İspaniya, Portuqaliya, Andorra, Monako, Vatikan, San-Marino, Yunanıstan, Malta, Kipr, Şimali Kipr, Albaniya, Bosniya-Herseqo-

vina, Xorvatiya, Montoneqro və Serbiyanı əhatə edir. Buraya, həmçinin, Ukraynanın cənub hissəsi - Krım və Zaporojye vilayətləri ərazilərini, Türkiyənin Avropa hissəsini də daxil edirlər. Bunadan başqa, makroregional kvazidövlət olan Malta ordenini də buraya daxildir. İqtisadiyyatda əsas yeri dağ-mədən sənayesi, kənd təsərrüfatı, maşın və cihazqayırma istehsalı, yüngül və yeyinti sənayesi təşkil edir. Turizm çox inkişaf etmişdir. Belə ki, mühüm makroregion ölkəsi olan İspaniya turizm sahəsində dünyada ikinci yeri tutur. Turizmdən başqa əsas ixtisaslaşma sahəsi aqrar sektordur. Burada üzümçülük və şərabçılıq, sitrus bitkiləri əkini, meyvə və tərəvəz, xüsusən də, taxıl və taxıl bitkiləri istesalı yüksək inkişaf etmişdir. Aqrar sektorla yanaşı bir sıra iri şəhərlərdə sənayenin də inkişafı yüksəkdir. Regionun mühüm iqtisadi potensiallı aparıcı ölkələri İtaliya və İspaniyadır.

**İspaniya Krallığı - İspaniya** (*ispanca* - *España* - *İspaniya*) Cənub-şərqi Avropada və kiçik bir hissəsi Afrikada olan dövlət. 1469-cu ildə yaranmışdır. Paytaxtı Madrid



şəhəri, rəsmi dili ispan dilidir. Parlament-monarxiya quruluşludur. İspaniya Aİ-nin və NATO-nun üzvüdür. Ölkə Şengen və avro zonaya daxildir. Valyutası avrodur.

Ərazisi 505 990 km$^2$, əhalisi 45,9 milyon nəfərdir (*2018*).

İqtisadiyyatda xidmətlər 74,2%, sənaye 23,2%, kənd təsərrüfatı 2,6% paya malikdir. ÜDM 1,3 trilyon ABŞ dolları, adambaşına ÜDM 26,6 min ABŞ dollarıdır. İnflyasiya 0,9%, işsizlik səviyyəsi 17,4%, yoxsulluq səviyyəsi 21,1%-ə bərabərdir. Xarici borc 2,3 trilyon ABŞ dolları (*ÜDM-in 171,0%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 49,5%-nə bərabərdir (*2017*).

İspaniya Priney yarmadasının əksər hissəsini əhatə edir. Ərazinin 65%-i dəniz səviyyəsinden 500 metr hündürdə, o cümlədən 25%-i min metr hündürlükdə yerləşir. 17 müxtar birliyə və 2 muxtar şəhərə bölünür.

Ölkə təbii sərvətlərlə zəngindir. Burada metal ehtiyatları daha çoxdur. Sənaye əhəmiyyətli pirit, volfram, uran, qurğuşun, mis, titan, sink, qızıl, gümüş yataqlarına malikdir. Ölkədə dünya əhəmiyyətli nəhəng civə yataqları vardır. Daş və qonur kömür hasil edilir. Bütün bunlar ölkədə müvafiq dağ-mədən və metal sənayesinin inkişafına təkan vermişdir. Bununla belə, əksər faydalı qazıntı yataqları kəskin istismar olunmuşdur. Ölkədə hər il orta hesabla 30 milyon ton neft hasil olunur ki, bu da tələbatın 10%-ni ödəyə bilir.

Dünyanın əsas iqtisadiyyatları sırasında olan İspaniyada son illər sənaye və kənd təsərrüfatında mühüm uğurlar əldə edilmişdir. Maşınqayırma sənayesi, xüsusən də, gəmiqayırma və avtomobil istehsalı inkişaf etmiş sahələrdəndir. Ölkədə miqyaslı elektrotexnika sənayesi fəaliyyət göstərir. Kimya, yüngül, yeyinti və tikinti sənaye sahələri də iqtisadiyyatda aparıcı yerləri tuturlar. İstehsal sahələri, üstün olaraq, kiçik və orta tutumlu müəsissələrdə cəmləşmişlər. İspaniya iqtisadiyyatında kiçik və orta müəssisələrin payı Aİ-nin başqa ölkələrindən daha çoxdur. Ölkədə kiçik sahibkarlığın dəstəklənməsinə və inkişafına yönəldilmiş bir sıra proqramlar həyata keçirilir. İspaniya hökuməti elm tutumlu sahələrin inkişafına və elmi nailiyyətlərin çoxalmasına böyük diqqət ayırır.

Kənd təsərrüfatının əsasını əkinçilik təşkil edir. Həmçinin, dənli bitkilər - arpa, düyü, qarğıdalı əkilir, kartof, şəkər çuğunduru becərilir. Ölkədə meyvə və tərəvəzçilik də inkişaf etmişdir. İspaniya balıqçılıq və dəniz məhsullarının emalı üzrə dünyada 10 ölkədən biri hesab olunur. Burada hər il milyon tondan çox dəniz məhsulu emal olunur. Çeşidli diri balıq və konservlər ixraca yönəldilir.

İspaniyanın dəniz ölkəsi olması və böyük əraziliyi burada nəqliyyat infrastrukturunun inkişafına təkan vermişdir. Ölkənin bank-maliyyə sektoru da guclu inkişaf etmişdir. Tarixi yerləri, incəsənət dünyasında muzeyləri ilə məşhurluğu isə onun beynəlxalq turizm sahəsində böyük irəliləyişlərinə səbəb olmuşdur. İspaniya Avropa ölkələri arasında barların, restoranların və gecə klublarının sayına görə rekord göstəriciyə malikdir. Bütün bunlar onun dünyanın aparıcı turizm ölkələri sırasında öndə dayanmasına zəmin olmuşdur.

İspaniya Krallığı Azərbaycan Respublikasının müstəqilliyini 31 dekabr 1991-ci ildə tanımışdır. Ölkələr arasında diplomatik münasibətlər 11 fevral 1992-ci ildə qurulmuşdur. Hazırda ölkələr arasında ticarət dövriyyəsi 300 milyon ABŞ dollarını ötmüşdür.

### 5.8. Asiyanın kontinental ölkələri və makroregionları

Asiya - dünyanın ən böyük quru ərazi hissəsidir. Kontinent 55 ölkəni əhatə edir. Onlardan Fələstin dövləti, Şimali Kipr Türk Respublikası, Çin Respublikası (*Tayvan*), Abxaziya və Cənubi Osetiya qismən tanınmışlar. Ərazisi 44,6 milyon km$^2$, əhalisi 4,5 milyard nəfərdir ki, bu da dünya əhalisinin 49 müxtəlif ölkəsində yaşayan təxminən 60%-i deməkdir (*2018*).

Asiya - Qərbi Asiya, Mərkəzi Asiya, Cənubi Asiya, Şərqi Asiya və Cənub-Şərqi Asiya kimi makroregionlara bölünür.

Qərbi Asiya, bir sıra fərqli təsnifatlandırmaları nəzərə almadıqda, 23 ölkəni - Azərbaycan, Türkiyə, Şimali Kipr Türk Respublikası, Fələstin dövləti, Gürcüstan, Əfqanıstan, Ermənistan, Bəhreyn, Misirin Sinan yarımadası hissəsi, İsrail, İordaniya, İran, İraq, Yəmən, Qətər, Kipr, Küveyt, Livan, BƏƏ, Oman, Səudiyyə Ərəbistanı və Suriya əhatə edir. Makroregionun adlanışı ayrı-ayrı mənbələrdə fərqli qəbul edilir. Qərbi Asiya Cənub-Qərbi Asiya ilə birlikdə Ön Asiya regionu kimi də göstərilir. Fransızlar makroregionun cənub hissəsini tarixən Yaxın Şərq, ingilislər isə Orta Şərq adlandırmışlar. Bu baxımdan makroregionun müasir toponimikasında hər iki adlanma birgə və ayrılıqda qəbul edilir. Dünyanın bu makroregionu özünəməxsusluğu və təbii ehtiyatlarının zənginliyi ilə fərqlənir. İsrail istisna olmaqla, bütün ölkələr bir dinə - İslama sitayiş edirlər. Regionda 18 ərəb dövləti vardır ki, onlardan da 8-nin dövlət quruluşu monarxiya sistemlidir. Geoloji şəraiti, unikal neftliliyi ilə fərqlənən regionda dünya neft və qaz yataqları, demək olar ki, bütün ərazilərdə mövcuddur. Lakin bu ehtiyatların parametrik bölgüsü müxtəlifdir. Xüsusilə, Səudiyyə Ərəbistanı, Küveyt, İran, İraq, BƏƏ, Qətər dünya əhəmiyyətli ehtiyatlara malikdir. Bu region Avropanın,

Asiyanın və dünyanın digər iri dövlətlərinin enerji təminatçısı, nəhəng enerji generatoru rolunu oynayır. Hər gün yüzlərlə neft dolu iri tanker İran körfəzindən yüzminlərlə ton yanacaq daşıyır. Məlum olduğu kimi, Yaxın Şərq ölkələrinin neft ehtiyatları dünyanın digər ölkələrinin birgə malik olduğu neft ehtiyatlarından bir neçə dəfə artıqdır. Təkcə Fars körfəzində dünya ehtiyatlarının 65%-i toplanıb. Neft amili həm də regionda müəyyən dərəcədə də qeyri-stabilliyin amilinə çevrilmişdir. Məhz bu amillərə görə də yüksək inkişaf etmiş dövlətlərdə ali diplomatik məktəblərin məzunları arasında Yaxın Şərq üzrə mətəxəssislər yüksək səviyyəli hesab olunurlar. Hazırda region ölkələrinin iqtisadiyyatında mühüm dəyişikliklər baş verir. Burada xam neftin və qazın satışı ilə yanaşı neft məhsulları da ixracatda yer almaqdadır. Makroregionun ən böyük ölkələri Türkiyə, Səudiyyə Ərəbistanı və İrandır. Bu bölgədə müəyyən hərbi və iqtisadi inkişaf parametrləri ilə İsrail dövləti də fərqlənir.

**İran İslam Respublikası - İran** (*Cumhuriyye İslamiye İran - Islamic Republic of Iran*) Qərbi Asiyada dövlət. Şimalda Azərbaycan, Ermənistan və Türkmənistanla, şərqdə Əfqanıstan və Pakistanla, qərbdə İraq və Türkiyə ilə sərhəddir.



Şimaldan Xəzər dənizi ilə, cənubdan Fars körfəzi və Oman körfəzi ilə əhatə olunmuşdur. Dünyanın qədim ölkələrindən olan İranın (*ölkə 1935-ci ilə qədər Persiya adlandırılmışdır*) müasir dövlətçilik tarixi başlanğıcını 1 aprel 1979-ci ildən alır. Paytaxtı Tehran şəhəri, rəsmi dili fars dilidir. Ölkədə ali hakimiyyət dini liderə (*1989-cu ildən milliyətcə azərbaycan türkü, 1939-cu il təvəllüdlü - Seyid Əli Hüseyn Ayətulla Xameneyiyə*) və ya İcraedici Şuraya məxsusdur. Qanunverici hakimiyyət Məclisə məxsusdur. Müasir İran respublika (*prezident və parlamentin seçilməsi*) və teokratik idarə formasının qarışığıdır. Milli valyutası İran rialıdır.

Ərazisi 1 648 195 km$^2$, əhalisi 82,1 milyon nəfər (*2018*).

İran əhalisinin yarıya qədəri Azərbaycan türklərindən ibarətdir. Çoxmilyonlu Təbriz şəhərində əhalinin mütləq əksəriyyətini azərbaycanlılar təşkil edir. Əhalisinin sayı 16 milyon olan paytaxt Tehran dünyada azərbaycanlıların kompakt yaşadığı ən böyük şəhərdir. Burada da azərbaycanlıların sayı əhalinin yarısı qədərdir.

İqtisadiyyatda xidmətlər 54,3%, sənaye 35,9%, kənd təsərrüfatı 9,8% paya malikdir. ÜDM 374,0 milyard ABŞ dolları, adambaşına ÜDM 4683 ABŞ dollarıdır. İnflyasiya 9,4%, işsizlik səviyyəsi 13,1%, yoxsulluq səviyyəsi 18,7%-ə bərabərdir. Xarici borc 10,6 milyard ABŞ dolları (*ÜDM-in 2,8%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 37,1%-nə bərabərdir (*2017*).

İran qapalı həyata keçirdiyi nüvə proqramına görə bir sıra dövlətlər tərəfindən sanksiyalara məruz qalıb. Bu da ölkəyə yeni texnologiyaların daxil olmasında embarqolarla müşayiət edilir.

İran Orta Şərqdə nəhəng iqtisadiyyata malik ölkə kimi çıxış edir. O, Asiya regionunda, ÜDM-in həcminə görə, Çindən, Yaponiya, Hindistan, Türkiyə, İndoneziya və Koreya Respublikasıdan geri qalır. Ölkə təbii sərvətlərlə zəngindir. Neft-qaz sənayesi

İran iqtisadiyyatının başlıca sahəsidir və dövlətin gəlirlərinin 90%-ni verir. İran bütün dünyada təbii qaz ehtiyatının 16%-nə malik olmaqla (*33-35 milyard* $m^3$) bu göstərici üzrə yalnız Rusiya ilə birlikdə liderlik mövqeyində dayanır. Ölkədə sübut olunan neft ehtiyatı 21,8 milyard tona - dünya neft ehtiyatlarının təxminən 10%-ə qədərinə bərabərdir. Ölkənin əsas qaz yataqları Fars körfəzi şelfində, həmçinin, ölkənin şimal-şərqində yerləşir. Burada hər il 100 milyard $m^3$-dən çox qaz hasil olunur. Hazırda qaz ixracı, əsasən, Türkiyəyə yönəlmişdir. Bundan başqa, İran şimal regionlarını qazla təchiz etmək məqsədi ilə İraqdan qaz alır. Eyniliklə də bu məqsədlə Azərbaycanın blokadada olan Naxçıvan bölgəsinin qazla təminatı üçün onunla qaz mübadiləsi aparır.

Ölkədə çoxsaylı neft emalı və neft-kimya müəssisələri fəaliyyət göstərir. Lakin ölkə yanacaq məhsulları ilə hələ də özünü tam təmin edə bilmir. Böyük karbohidrogen ehtiyatlarına baxmayaraq burada, həmçinin, geniş həcmdə elektrik enerjisi defisiti mövcuddur. Ölkədə alternativ enerji mənbələrindən istifadə edilir. Ölkədə nüvə proqramı həyata keçirilir. Buşehr şəhərində Rusiya tərəfindən inşa edilən AES fəaliyyət göstərir.

Neft-qaz ehtiyatlarından başqa, İran daş kömür, mis, dəmir, manqanlı və sink-qurğuşun filizləri kimi təbii sərvətlərə malikdir. Ölkədə maşınqayırma, metallurgiya, qida və tekstil sənayesi inkişaf etmişdir. Metallurgiya yerli xammala əsaslanır. İsfahan şəhərində tam dövriyyəli qara metallurgiya müəssisəsi fəaliyyət göstərir. Əlvan metallurgiya zavodlarında, əsasən, mis və alüminium istehsal olunur. Maşınqayırma sənayesinin inkişafında AFR və Böyük Britaniyaya məxsus şirkətlər mühüm rol oynayırlar. Ölkədə xalçaların kustar üsulla istehsalı geniş yayılmışdır. Təbriz, İsfahan, Məşhəd şəhərlərində toxunan xalçalar, Şiraz, Tehran, İsfahanda hazırlanan bəzək əşyaları dünya bazarında yüksək qiymətləndirilir.

İran konstitutsiyasına əsasən, milli neft hasil edən müəssisə aksiyalarının xarici kompaniyalara satılması və ya onlara neft hasil etməyə icazə verilməsi qadağandır. Neft yataqlarının kəşfini İran Milli Neft Şirkəti aparır. 1990-cı illərin sonlarından başlayaraq neft sektoruna xarici investorlar - Fransa (“*Total” və “Elf Aquitaine”*), Malayziya (“*Petronas”*) İtaliya (*ENİ*), Çin (*Milli Neft Şirkəti*) gəlmişdir. Onlar, sazişə əsasən, “kompensasiya edilmiş kontraktlar” əsasında hasil edilmiş neftin bir hissəsini əldə edirlər, müddət bitdikdən sonra isə yataqları İran Milli Neft Şirkətinin nəzarətinə verirlər.

İran neft sənayesi ilə yanaşı yüksək inkişaf etmiş aqrar-sənaye ölkəsidir. Sənayenin inkişafı üçün ölkədə bir sıra imkanların olmasına baxmayaraq, onun artım sürəti sənaye məhsullarına olan tələbatı tam ödəyə bilmir. Ölkədə şimal-qərbdən cənub-şərq istiqamətində illik yağıntıların miqdarının azalması müşahidə edilir. Kənd təsərrüfatının inkişafı üçün ən əlverişli şərait Xəzərsahili bölgələrdə, xüsusilə, Azərbaycan ostanlarındadır. İran ərazisinin təxminən $^2/_3$ hissəsini tutan Dəşti-Kəvir və Dəşti-Lut kənd təsərrüfatına tamamilə yararsızdır. Kənd təsərrüfatı məhsullarının böyük hissəsini bitkiçilik verir. Dənli bitkilərin əkinləri üstünlük təşkil edir. Buğda və arpa ölkənin bütün əyalətlərində, çəltik isə, əsasən, Gilan və Mazandaran ostanlarında yetişdirilir. Ölkədə,

həmçinin, texniki bitkilər - şəkər çuğunduru, çay, tütün, pambıq yetişdirilir. İran dünya bazarına müxtəlif boyaq bitkiləri, həna və zəfəran çıxarır. Bağçılıq və üzümçülük burada qədim zamanlardan inkişaf etdirilir. Heyvandarlıq davar saxlanması üzrə ixtisaslaşmışdır. Qoyunçuluq Şərqi və Qərbi Azərbaycan, Xorasan, İsfahan, Fars, Mazandaran ostanlarında yayılmışdır.

Əsasən, neft və neft məhsulları, metal filizləri, kənd-təsərrüfatı məhsullarının ixracı üstünlük təşkil edir. Ölkəyə xaricdən ağır maşınqayırma və kimya sənayesi, maşın, dəmir, polad, tekstil malları, kağız idxal olunur. Əsas ticarət əməkdaşları Türkiyə, BƏƏ, AFR, Böyük Britaniya, İtaliya, Yaponiyadır. Ölkədə turizm sənayesi də inkişaf etdirilir. İslam dünyasının mühüm ziyarətgahları Məşhəd və Qum şərinə hər il yüz minlərlə zəvvar axışır. Ölkədə turizimdən əldə edilən gəlirlər bir neçə milyard ABŞ dolları təşkil edir. Bu göstəriciyə görə İran dünyada 60-70-ci yerləri tutur.

İran inkişaf etmiş nəqliyyat infrstrukturuna malikdir. Burada avtomobil yollarının ümumi uzunluğu 180 min, dəmir yolları xətlərinin uzunluğu 8400 km-dir. Ölkədə 300-dən çox aeroport fəliyyət göstərir. Ölkənin 6 böyük şəhərində metro tikintisi aparılır.

Azərbaycan-İran münasibətləri dərin tarixi köklərə malikdir. Bu xalqlar əsrlər boyu bərabər yaşamışlar. İran və Azərbaycan xalqları islam aləminə mənsub olan xalqlardır. Elmi, mənəvi, mədəni əlaqələr bu xalqları tarix boyu birləşdirmişdir. İranla Rusiya arasında bağlanan 1813-cü il Gülüstan, 1828-ci il Türkmənçay müqavilələrindən sonra Azərbaycan ikiyə bölünmüş və böyük bir hissəsi İranın tərkibinə qatılmışdır.

İran Azərbaycanın müstəqilliyini 25 dekabr 1991-ci ildə tanımışdır. İki ölkə arasında diplomatik münasibətlər 12 mart 1992-ci ildə yaradılmışdır. Azərbaycan-İran ikitərəfli münasibətlərində iqtisadi əlaqələrin xüsusi çəkisi var. 1992-ci ildən indiyədək ölkələr arasında imzalanan 100-ə yaxın sənədin əksəriyyəti iqtisadi münasibətləri əhatə edir. İran Azərbaycanın neft-qaz və neft-kimya sənayesində, bu məhsulların ixracında, sərmayə qoyuluşunda maraqlıdır. “Şahdəniz” üzrə Hasilatın Pay Bölgüsü sazişində İranın NICO şirkəti 10% paya malikdir. Ticarət, energetika, sənaye, tranzit və digər sahələrdə iki ölkə arasında mövcud iqtisadi münasibətlər bir-birini tamamlayır. 1993-cü ildən Bank Melli İranın Bakı filialı fəaliyyət göstərir. Azərbaycanda iqtisadiyyatın müxtəlif sahələrində İran investisiyalı 500-dən çox şirkət fəaliyyət göstərir və onlar tərəfindən Azərbaycan iqtisadiyyatına 2,7 milyard ABŞ dollarından artıq investisiya yatırılmışdır. İran Azərbaycanın mühüm ticarət tərəfdaşlarındandır. İki ölkə arasında ticarət dövriyyəsinin həcmi təxminən 500 milyon ABŞ dollarına bərabərdir.

**İsrail Dövləti - İsrail** (*State of Israel*) Cənub-Qərbi Asiyada dövlət. İsrail müstəqillik tarixi BMT Baş Assambleyasının qərarı ilə 14 may 1948-ci ildən başlanır.



Ölkənin iqtisadi və texnoloji mərkəzi Tel-Əviv olsa da, bütün dövlət orqanları paytaxt elan olunan Yerusəlimdə (*Qüds*) yerləşir. Rəsmi dilləri ərəb və ivrit dilləridir. Unitar quruluşludur və parlament respublikasıdır. Milli valyutası şekeldir.

Ərazisi 20 770 km$^2$, əhalisi 8,5 milyon nəfərdir (*2018*).

İqtisadiyyatda xidmətlər 69,7%, sənaye 27,8%, kənd təsərrüfatı 2,5% paya malikdir. ÜDM 299,0 milyard ABŞ dolları, adambaşına ÜDM 37,3 min ABŞ dollarıdır. İnflyasiya 0,2%, işsizlik səviyyəsi 4,3%, yoxsulluq səviyyəsi 22,0%-ə bərabərdir. Xarici borc 89,4 milyard ABŞ dolları (*ÜDM-in 29,8%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 47,3%-nə bərabərdir (*2017*).

Təbii resursların məhdud olmasına baxmayaraq, İsrail inkişaf etmiş bazar iqtisadiyyatına malikdir. Son illər Aralıq dənizinin sahilyanı şelfində əhəmiyyətli miqdarda qaz ehtiyatları aşkar edilmişdir. Ölkədə yüksək texnologiyalı sənaye, güclü müasir kənd təsərrüfatı inkişaf etmişdir. Ölkə kənd təsərrüfatı məhsulları ilə özünü təmin edir. İsrail, həmçinin, hərbi sənayenin xüsusi inkişaf etdiyi ölkələr sırasındadır. Dünya silah bazarında bir çox İsrail məhsulları geniş yer tutur. İqtisadiyyatın inkişafına baxmayaraq, ölkə büdcə kəsirini xaricdən cəlb olunan vəsaitlər hesabına ödəyir və bu vəsaitlər, əsasən, hərbi ehtiyaclara xərclənir. Borc məbləğinin təxminən yarısını ABŞ təqdim edir. Bununla yanaşı, ölkə qeyri-dost münasibətində olduğu qonşu islam dövlətləri ilə münasibətlərə görə hərbi proqramlar üçün iri həcmli məbləğlər ödəməli olur.

Azərbaycan dünya yəhudi elitasının diqqət mərkəzinə 1810-cu ildən düşməyə başlayıb. Həmin dövrdə ilk aşkenazilər Bakıda məskunlaşıblar. 1832-ci ildə isə yəhudilərin Bakıda ilk ibadət evləri inşa olunmuşdur. 1870-ci ildə Bakıda neft çıxarılmağa başlandıqdan sonra Azərbaycana yəhudi biznesi nümayəndələrinin axını başlanmışdır. İsrail 25 dekabr 1991-ci ildə Azərbaycanın müstəqilliyini tanımış və 6 aprel 1992-ci ildən iki ölkə arasında diplomatik əlaqələr qurulmuşdur. İsrail Azərbaycanın əsas ticarət tərəfdaşlarındadır. İki ölkə arasında ticarət dövriyyəsinin həcmi 4 milyard ABŞ dollara bərabərdir.

<u>Mərkəzi Asiya</u> - geniş ərazili bir makroregion olsa da, dünya okeanına birbaşa çıxış yoxdur. Coğrafi baxımdan makroregiona 5 ölkə - Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan, Tacikistan daxil edilir. UNESCO-nun təyinatında isə buraya Monqolustan, Qərbi Çin, Qərbi Hindistan, Pəncab və Kəşmir bölgələri, Şimali Pakistan, Şimal-şərqi İran və Əfqanıstan da əlavə olunur. Bu makroregionun təyinatında milli-etnik yanaşma metodundan da (*Şərqi türk xalqları, monqollar və tibetlər bölgüsü ilə*) istifadə olunur. Bu zaman Çinin Sinszyan vilayəti, cənubi Sibirin türkdilli xalqları, keçmiş 5 Orta Asiya respublikası və Şimali Əfqanıstan daxil edilir. İqtisadiyyatda əsas yeri təbii ehtiyatların istismarı, xüsusən də, Qazaxıstan, Türkmənistan və Özbəkistanda neft və qaz hasilatı tutur. Regionda həm də ənənəvi olaraq kənd təsərrüfatı inkişaf etmişdir. Bu sferada Qazaxıstan özunun taxıl istehsalı, Özbəkistan isə pambıqçılıq təsərrüfatları ilə fərqlənir. Makroregionun postsovet məkanı ərazisində maşın və cihazqayırma istehsalı, yüngül və yeyinti sənayesi sahələri də inkişaf etmişdir.

<u>Cənubi Asiya,</u> fiziki-coğrafi nöqteyi-nəzərdən, Hindistan yarımadasını, Dekan yaylasını, Hind-Qanq vadisini, Himalay dağlarını, Şiri-Lanka adasını və bir sıra digər yaxın adaları əhatə edir. Siyasi-coğrafi baxımdan isə, makroregiona 7 ölkə - Hindistan, Pakistan, Banqladeş, Şri-Lanka, Maldiv, Nepal və Butan daxildir. İqtisadiyyatda kənd

təsərrüfatı üstünlük təşkil edir. Makroregion mineral xammal ehtiyatları ilə o qədər də zəngin deyildir. Energetik resurslar isə, demək olar ki, tamamilə idxal edilir. Lakin buna baxmayaraq regionun ayrı-ayrı ölkələrində yetərli energetik ehtiyatlar mövcuddur. (*xüsusən Hindistan və Pakistanda*). Makroregionun ən böyük ölkələri Hindistan və Pakistandır. Hər iki dövlət nüvə silahı potensialına malikdir. Hindistan isə kosmik klubun üzvüdür.

**Pakistan İslam Respublikası - Pakistan** ( *İslami Cumhuriye Pakistan - Islamic Republic of Pakistan*) Cənubi Asiyada dövlət. Pakistanın dövlətçilik tarixi, Britaniya ilə Hindistanın bölünməsi, nəticəsində 14 avqust 1947-ci ildən başlanır. Paytaxtı İslamabad şəhəri, rəsmi dili urdu və ingilis dilləridir. Federativ respublikadır. Pəncab, Sind, Xeybər-Paxtunxva və Belucistandan ibarət 4 vilayəti özündə birləşdirir. Milli valyutası rupidir.



"Pakistan" adı etimoloji baxımdan "pakların, təmizlərin ölkəsi" mənasını verir. Ölkənin ərazisi 803 940 km$^2$, əhalisi 200,7 nəfər milyon nəfərdir (*2018*). Əhali sayına görə dünyada 6-cı yerdə, islam aləmində isə, İndoneziyadan sonra, 2-ci yerdədir.

İqtisadiyyatda xidmətlər 56,3%, sənaye 19,1%, kənd təsərrüfatı 24,6% paya malikdir. ÜDM 271,0 milyard ABŞ dolları, adambaşına ÜDM 1438 ABŞ dollarıdır. İnflyasiya 3,8%, işsizlik səviyyəsi 4,0%, yoxsulluq səviyyəsi 29,5%-ə bərabərdir. Xarici borc 82,9 milyard ABŞ dolları (*ÜDM-in 30,5%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 31,8%-nə bərabərdir (*2017*).

Pakistan təbii yeraltı sərvətlərlə o qədər də zəngin ölkə deyildir. Bununla belə, ölkədə müəyyən miqdara neft-qaz, dəmir filizi, daş kömür, xromit, əhəngdaşı, gips və s. mövcuddur. Pakistanın flora və faunası biomüxtəlifliyi ilə fərqlənir. Burada müxtəlif vəhşi heyvanlar, leopard, qara və boz ayı, Sibir dağkeçisi, maral və yüzlərlə növ quş vardır. Bəzi bölgələrdə mavi qoyun saxlanılır. Ölkə iqtisadiyyatında çaylar mühüm rol oynayır.

Pakistan əhalisinin əksəriyyəti əkinçiliklə məşğul olur. Əkili sahələrin təxminən 50%-i düyü və buğda tarlalarıdır. Digər əkinçilik sahələrini arpa, qarğıdalı, darı, pambıq təşkil edir. Ölkədə geniş həcmdə çay, tütün, şəkər qamışı, meyvə-tərəvəz yetişdirilir.

Pakistanda sənaye inkişaf etməkdədir. Burada böyük ixrac əhəmiyyətli tekstil sənayesi yaradılmışdır. Ölkədə pambıq məmulatları, yerli bitki lifi - cüt (*jute*) emalı yüksək səviyyədədir. Digər sənaye sahələrini isə əczaçılıq məhsulları, kağız, ağac emalı, sement, kauçuk, kimyəvi maddələr, gübrə, şəkər, siqaret və qida maddələri istehsalı təşkil edir. Sənayenin inkişafına yeni sahə - təbii qaz hasilatı mühüm təsir göstərmişdir.

Pakistanda ixracat həcmi, idxalatının üçdə ikisinə yaxınlaşmışdır. Ölkə daha çox Səudiyyə Ərəbistanı, Türkiyə, Yaponiya, ABŞ, Almaniya, İndoneziya və Küveyt ilə iqtisadi münasibətlər qurmuşdur. Pakistan xaricə pambıq və pambıq məmulatları, yunlu parçalar, düyü, kürk, dəri və kimyəvi maddələr ixrac edir. Son zamanlarda AT ölkələri, Körfəz ölkələri, ilə ticari münasibətləri artmışdır.

Ölkənin nəqliyyat sistemi daha çox avtomobil və dəmir yoluna əsaslanır. Ölkənin mühüm hava limanları Lahor, Revalpindi, Peşaver və Quruçu şəhərlərindədir. Quruçu, eyni zamanda, əhəmiyyətli bir liman şəhəridir.

Pakistan, atom reaktorlarına sahib ölkələrdən biridir. Ölkədə ilk nüvə reaktoru xarici kömək olmadan 1962-ci ildən fəaliyyət göstərməyə başlamışdır. Ölkə böyük hərbi gücə malikdir. Silahlı qüvvələr sayına görə Pakistan ordusu dünyada 6-ci yerdədir. Pakistan hazırda atom silahına malikdir.

Azərbaycan Pakistan münasibətlərinin tarixi çox qədimdir. Təxminən beş yüz il öncə Bakı hökmdarları o zaman Şərq və Qərbin qovuşuğunda, tarixi İpək yolunun üstündə yerləşən Azərbaycana səfər edən Multan tacirləri üçün Multan karvansarası inşa etdirmişdi. O vaxtlar Multandan olan tacirlər bu günədək adını qoruyub saxlamış karvansarada qalaraq, buranın əvəzolunmaz qonaqpərvərlik imkanlarından istifadə edirdilər. Multan karvansarası dəyərli mədəni və tarixi irs kimi Azərbaycan hökuməti tərəfindən mühafizə edilir. Pakistan 1991-ci ildə Azərbaycanın müstəqilliyini Türkiyə və Rumıniyadan sonra tanıyan üçüncü ölkə olmuşdur. Dağlıq Qarabağ məsələsində Pakistan Azərbaycanı dəstəkləməkdə və müdafiə etməkdə davam edir. BMT qətnaməsinə əsaslanaraq Azərbaycan Respublikası da Pakistanı Kəşmir probleminin həll edilməsində dəstəkləyir. Pakistan həm də, Azərbaycanın ərazilərini işğal etdiyi üçün, Ermənistanın dövlət müstəqilliyini tanımayan yeganə BMT üzvü və nüvə dövlətidir. Azərbaycanla Pakistanın böyük dostluq əlaqlərinə baxmayaraq iki ölkə arasında ticarət dövriyyəsi illik 12-15 milyon ABŞ dolları olmaqla o qədər də yüksək deyildir. Hazırda Azərbaycanda 130-a qədər Pakistan sərmayəli şirkət fəaliyyət göstərir.

Şərqi Asiya subtropik və tropik qurşaqlarda Sakit okean sahillərində yerləşən makroregion kimi 7 ölkəni - ÇXR, Çin Respublikası (*Tayvan*), Yaponiya, KXDR, Koreya Respublikası, Monqolustan və Rusiya Federasiyasının Uzaq Şərq regionunu əhatə edir. Makroregionun izafi təbii sərvətlərə malik olması barədə qəti fikir söyləmək çətindir. Bununla belə, bir sıra ölkələrdə daş kömür, neft və qazın mühüm ehtiyat potensialına malikliyi makroregionda dağ-mədən sənayesinin inkişafına öz təsirini göstərmişdir. Bu makroregionda ÜDM-in həcminə görə ABŞ-dan sonra 2-ci və 3-cü yerləri bölüşən ÇXR və Yaponiya, həmçinin, böyük innovativ tərəqqi yoluna qədəm qoymuş Koreya Respublikası güclü iqtisadiyyatları ilə fərqlənirlər. Bu baxımdan da makroregion çeşidli istehlak mallarının istehsalı, iqtisadiyyatın bütün sektorlarının mövcudluğu və yüksək inkişaf səviyyəsinə malikliyi diqqəti cəlb edir.

Cənub-Şərqi Asiya makroregionu kontinental və ÇXR, Hindistan və Avstraliya arasındakı ada əraziləri əhatə edir. Buraya Hind-Çin yarımadası, Malay arxipelağı və Asiya-Sakit okean Regionun bir hissəsi daxildir. Ümumən, 11 ölkəni əhatə edən makroregionun kontinental sahəsində 5 ölkə - Vyetnam, Kamboca, Laos, Myanma və Tailand, ada ərazidə də yenə də 5 ölkə - Bruney, Şərqi Timor, İndoneziya, Sinqapur və Filppin və 1 ölkə - Malakka yarımadasının cənub qutarcağı və Borneo adasının şimal hissəsinidə Malayziya yerləşir. Vyetnam, Kamboca və Laosu çox zaman Hind-Çin dövlətləri, ada ölkələrini isə Nusantra adlandırırlar. Region qərbdən şərqə 5,6 min km,

cənubdan şimala isə 3,2 min km uzanaraq 4,5 milyon $km^2$ ərazi çevrəsində dünyanın 600 milyondan çox əhalisinin (*dünya əhalisinin 8%-i*) cəm olduğu, ayrı-ayrı dillərdə danışan, müxtəlif dinlərə mənsub yüzlərlə xalqı birləşdirir. Makroregiondakı İndoneziyanın paytaxtı Cakarta şəhərinin yerləşdiyi Yava adasında dünyanın ən sıx məskun əhalisi (*ərazısi 132 min $km^2$, əhali sayı 140 milyon nəfər, orta sıxlıq isə 1060,6 nəfər*) yaşayır. Coğrafı və təbii şərait birliyi əsasında burada uzaq keçmişdən belə uzlaşan eynitipli təsərrüfat və mədəni-ideoloji kompleks formalaşmışdır. Bu cəhət əsas götürən çinlilər, makroregionun vahid mədəni icmaya malik olduğunu nəzərə alaraq, onu yığıcı əsaslı "kun lun" termini ilə adlandırmışlar. Hazırda makroregional əməkdaşlıq ASEAN təşkilatı vasitəsi ilə həyata keçirilir. Burada hər il 100 milyon ton neft hasil edilir. Ən iri neft istehsalçısı İndoneziya və Malayziyadır. Mühüm qaz istehsalçıları Malayziya və Bruneydir. Daş kömür, əsasən, Vyetnamda, İndoneziyada, Flippində, Tailandda və Myanmadadır. Elektrik enerjisi əksərən İES-lərdə maye yanacaqla istehsal edilir. Tailand, Vyetnam və Myanmada İES-lər daş kömür və neftlə işləyir. Flippində enerji istehsalının mühüm hissəsini, Laosda isə, demək olar ki, hamısını SES-lər verir. Makroregionun iqtisadiyyatında İndoneziya, Malayziya və Sinqapur mühüm rol oynayır. Perspektivdə böyük əhali tutumlu Vyetnam və Filippində davamlı inkişaf gözlənilir.

**İndoneziya Respublikası - İndoneziya** (*İndoneziya dilində* - Republik Indonesia - *İndoneziya Respublikası*) Cənub-şərqi Asiyada dövlət. Ən böyük adalar dövlətidir, Zond arxipelağında yerləşir. Papua Yeni Qvineya, Şərqi Timor, Malayziya, Sinqapur, Filippin, Avstraliya, Andaman və Nikobar adaları ilə qonşudur. 19 avqust 1945-cu ildə Niderlanddan ayrılaraq müstəqilliyini bəyan etmişdir. Paytaxtı Yava adasında yerləşən nəhəng meqapolis - Cakarta şəhəridir. Rəsmi dili İndoneziya dilidir. İndoneziya unitar dövlət və prezident respublikasıdır. G20 qrupuna daxildir. Valyutası İndoneziya rupisidir.



"İndoneziya" adını Hindistan - "İndiya" - latınca - "indus" toponiumundan alır. Yunan sözü - νῆσος - ada ilə birlikdə Hind adaları mənasını verir. Beynəlxalq aləmdə bu ad XVIII-XIX əsrlərdə formalaşmış və qətiləşmişdir. Buna baxmayaraq, Niderland kaloniyaçıları onu uzun müddət, müstəmləkçilik prinsiplərinə uyğun olaraq, Niderland-Ost-İndiya (*Niderland dilində* - Nederlandsch Oost Indië - *Niderlabnd-Şərqi-Hindistan*) adlandırmışlar.

Ərazisi 1 919 440 km², əhalisi 267,3 milyon nəfərdir (*2018*). Əhali sayına görə ÇXR, Hindistan və ABŞ-dan sonra dördüncü yeri tutur. Əhəmiyyətli etnomədiyyət müxtəlifliyi ilə fərqlənir. Əhalinin 90%-i islam dininə sitayiş edir. Burada 300-dən çox müxtəlif millət və etnos nümayəndəsi yaşıyır ki, onların da əksəriyyəti avstroneziya dil qurupuna mənsubdur.

İqtisadiyyatda xidmətlər 45,9%, sənaye 40,2%, kənd təsərrüfatı 13,9% paya malikdir. ÜDM 864,0 milyard ABŞ dolları, adambaşına ÜDM 3604 ABŞ dollarıdır. İnflyasiya 3,2%, işsizlik səviyyəsi 4,3%, yoxsulluq səviyyəsi 10,9%-ə bərabərdir. Xarici borc 335,2 milyard ABŞ dolları (*ÜDM-in 38,7%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 47,2%-nə bərabərdir (*2017*).

İndoneziya, 17804 adadan ibarət olmaqla, dünyada ən böyük arxipelaqdır. Bu adaların 6 minində məşkunlaşma vardır. Ərazisi fəal tektonikdir və burada 150-dən çox vulkan mövcuddur.

Ölkədə dəmir filizi, qalay, nikel, boksit, aliminiyum, manqan yataqları mövcuddur. Demək olar ki, İndoneziyanın hər yerində neft hasil olunur. Burada 50 ilə kifayət edəcək təbii qaz resursları da mövcuddur.

İndoneziya uzun müddət Niderlandın müstəmləkəsi olmuş və iqtisadiyyatı məhdud inkişaf etmişdir. Kalonializm zamanlarda burada aqrar təsərrüfat üstünlük təşkil etmişdir. Müasir İndoneziya bu gün artıq aqrar-sənaye ölkəsi olaraq dinamik inkişaf edir. Kənd təsərrüfatına ölkənin məşğul əhalisinin 38%-i cəlb olunmuşdur. Burada duyü, qarğıdalı, kokos, banan və müxtəlif yerli texniki kənd təsərrüfatı bitkiləri yetişdirilir. Tütünçülük geniş yayılmışdır. Maldarlıq nisbətən aşağı templidir. Ölkənin ərzaq təminatında balıqçılıq əhəmiyyətli rol oynayır. Bir sıra dəniz məhsullarının həcminə görə İndoneziya dünyada 3-cü yeri tutur. Ölkənin zəngin meşə ehtiyatları mövcuddur ki, bu da ağac emalı və mebel sənayesinin yüksək inkişaf etməsinə zəmin olmuşdur.

Sənayedə yeyinti, tekistil, kimya sahələri üstün mövqedə dayanır. Ölkədə maşın və avadanlıqlar, avtomobillər istehsal olunur. Tikinti sənayesi əhəmiyyətli mövqedə dayanır, mebel sənayesi inkişaf edir.

İndoneziyada elektrik enerjisinin 87%-dən çoxu İES-lərdə istehsal olunur. İndoneziyada bank-maliyyə sistemi lazımı səviyyədə inkişaf etmişdir. İndoneziya əhəmiyyətli nəqliyyat infrastrukturuna malikdir. Gözəl təbiət, mənzərəli yerlər burada turizmin inkişafına rəvac vermişdir.

Ölkədən neft-qaz, elektrik avadanlıqları, tekistil, ağac məmulatları, kauçuk ixrac olunur. İdxalda maşın və avadanlıqlar, neft və kimya məhsulları əksəriyyət təşkil edir.

İndoneziya Azərbaycanın müstəqilliyini 28 dekabr 1991-ci ildə tanımışdır. İki ölkə arasında diplomatik əlaqələr 24 sentyabr 1992-ci ildə qurulmuşdur. İndoneziya və Azərbaycan arasındakı ticari əlaqələr yüksək səviyyədədir. İndoneziya İtaliyadan sonra ikinci ölkədir ki, Azərbaycandan böyük miqdarda neft alır. Azərbaycan isə İndoneziyadan həcmli ərzaq məhsulları idxal edir. Hazırda ölkələr arasında ticarət dövriyyəsi 2-2,5 milyard ABŞ dolları həcmindədir.

**Malayziya** (*malay dilində* - Malaysia - *Malazaiya*) Cənub-şərqi Asiyada dövlət. Şimaldan Tailand və Sinqapur, cənubdan İndoneziya ilə qonşudur. Ölkənin qərbdən Andaman dənizinə, şərqdən isə Şimali Çin dənizinə çıxışı vardır. 1957-ci il avqustun 31-də Böyük Britaniyadan müstəqillik qazanmış və 1963-cü il sentyabrın 16-da Malayziya Federasiyası qurulmuşdur. Həmin vaxt Malayziya Sinqapur, Saravak və Sabahla birləşmiş, 1965-ci ildə Sinqapur federasiyadan ayrılmışdır. Paytaxtı Kuala-Lumpur şəhəri, rəsmi dili malay dilidir. İdarəetmə forması - parlament monarxiyası. Milli valyutası ringgitdir.



Ərazisi 329 758 km$^2$, əhalisi 31,7 milyon nəfərdir (*2018*).

Ölkə coğrafi baxımdan Qərbi Malayziya və Şərqi Malayziya olmaqla 2 bölgəyə, həmin bölgələr isə 10 ştata ayrılır.

İqtisadiyyatda xidmətlər 54,7%, sənaye 36,9%, kənd təsərrüfatı 8,4% paya malikdir. ÜDM 296,0 milyard ABŞ dolları, adambaşına ÜDM 9360 ABŞ dollarıdır. İnflyasiya 1,4%, işsizlik səviyyəsi 3,4%, yoxsulluq səviyyəsi 3,8%-ə bərabərdir. Xarici borc 202,5 milyard ABŞ dolları (*ÜDM-in 68,4%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 47,1%-nə bərabərdir (*2017*).

Özünün yüksək iqtisadi artım sürəti ilə fərqlənən Malayziya inkişaf etməkdə olan ölkə kimi YSÖ sinfinə aiddir. Onun təbii sərvətləri içərisində neft-qaz resursları, dəmir filizi, qalay ehtiyatları mühüm çəkiyə malikdir. Burada bir neçə milyard tona bərəbər neft-qaz ehtiyatları vardır. Paytaxt Kaula-Lumpurda əfsanəvi əkiz qüllələr inşa etmiş Malayziyanın dövlət neft şirkəti "Petronas" TMŞ kimi çıxış edir.

Ölkənin gəlirinin mühüm hissəsi sənayedə yaranır. Yüngül sənaye, neft-kauçuk, palma yağı istehsalı sənayenin əsas sahələridir. Malayziya, həmçinin, elektrotexnika, informasiya-kommunikasiya texnologiyalarının iri istehsalçısı və ixracatçısıdır. Ölkə elektron çiplərin və məişət kondisionerlərinin istehsalı üzrə dünyada birinci yeri tutur. Burada avtomobil və müdafiə sənayesi inkişaf edir. Malayziya, həmçinin, təbii resurslar və çeşidli kənd təsərrüfatı məhsulları ixrac edir. Həmin resurslar sırasında neft böyük rol oynayır. Ölkədəki ixtisaslı ucuz işçi qüvvəsi milli iqtisadiyyatın rəqabət qabiliyyətliyini artırır.

Malakka boğazından keçən mühüm dəniz yolu beynəlxalq ticarətə geniş şərait yaradır. Malayziya islam bankçılığının inkişaf etmiş dünya mərkəzidir.

Malayziya 31 dekabr 1991-ci ildə Azərbaycanın müstəqilliyini tanımış və 5 aprel 1993-cü ildə iki ölkə arasında diplomatik əlaqələr qurulmuşdur. Malayziya ilə Azərbaycan arasında 400-500 milyon ABŞ dollarına bərabər illik ticarət dövriyyəsi mövcuddur.

**Bruney Dərussalam Dövləti - Bruney** (*malayca* - Negara Brunei Darussalam - *Bruney Sülh Dövləti*) Cənub-şərqi Asiyada, Borneo adasının şimal-qərbində Cənubi Çin Dənizi sahillərində yerləşən dövlət. Yalnız Malayziya ilə həmsərhəddir. Bruneyin istiqlal tarixi 1 yanvar 1984-cü ildə Böyük Britaniyadan aldığı siyasi müstəqilliyi ilə başlanır. Paytaxtı Bandar-Səri-Bəgavan şəhəri, rəsmi dili malay dilidir. İslam monarxiyası ilə idarə olunur. Ölkə rəhbəri Bruney sultanı Hassanal Bolkiahdır və o dünyanın ən varlı adamları sırasındadır. Milli valyutası Bruney dollarıdır.



Bruney dövlət olaraq 1363-cü ildə islamı qəbul edən və onun ilk sultanı olan Avanq Alak Betatar - Məhəmməd Şah (*1363-1415*) tərəfindən yaradılmışdır.

Ərazisi 5 765 km$^2$, əhalisi 441 min nəfərdir (*2018*).

İqtisadiyyatda xidmətlər 42,3%, sənaye 56,5%, kənd təsərrüfatı 1,2% paya malikdir. ÜDM 12,9 milyard ABŞ dolları, adambaşına ÜDM 26,4 min ABŞ dollarıdır. Ölkənin xarici borcu yoxdur, burada inflyasiya da mövcud deyil, əksinə 0,2%-lik deflyasiya vardır. İşsizlik səviyyəsi 7,1%, yoxsulluq səviyyəsi 5,0%-ə bərabərdir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 46,1%-nə bərabərdir (*2017*).

XVI əsrdə Bruney Borneo adasının əhəmiyyətli hissəsinə və ətraf bir neçə adaya

malik olmaqla güclü bir feodal dövləti kimi çıxış etmişdir. İngilislərin XVIII əsrin əvvələrində bura intensiv gəlişləri ilə ölkə ərazilərinin bir hissəsini itirmiş, 1888-ci ildə Böyük Britaniyanın əyalətinə çevrilmişdir. II Dünya Müharibəsində isə yaponların nəzarətinə keçmişdir. Böyük Britaniya 1962-ci ildə bu əraziləri Malayziyaya verməyi planlaşdırmışdır. Lakin Bruney Xalq Partiyası qiyam qaldıraraq bu planları pozmuşdur. Qiyam ingilis silahlı qüvvələri tərəfindən qəddarcasına yatırılmışdır. Sonradan 1984-cü ildə Bruneyə tam müstəqillik verilmişdir.

Hazırda Bruney dünyanın ən varlı və təmin olunmuş ölkələrindən biridir. Bu, ölkənin sahib olduğu nəhəng neft-qaz ehtiyatları ilə bağlıdır. Ölkə iqtisadiyyatının əsasını da neft (*illik 10 milyon ton*) və qaz (*illik 12 milyard* $m^3$) hasilatı, həmçinin, neft və sıxılmış qaz emalı təşkil edir. Karbohidrogen məhsulları ixracın 90%-ni və valyuta daxilolmalarının 60%-ni əldə edir.

Bruneydə sellüloz-kağız sənayesi, mineral gübrələr, tikinti materialları istehsalı inkişaf etmişdir. Burada qarğıdalı, düyü, kokos, banan, batat, müxtəlif ədviyyat, kakao və kofe yetişdirilir, heyvandarlıq təsərrüfatları saxlanılır. Buna baxmayaraq, ölkə bir sıra ərzaq mallarını idxal edir. İdxalda, həmçinin, əhəmiyyətli dərəcədə istehlak və sənaye malları da vardır. Ölkədə iqtisadiyyatın diversifikasiyası aparılır, bank-maliyyə institutuları inkişaf etdirilir.

Bruneydə dəmir yolları yoxdur. Burada ictimai nəqliyyat, ümumiyyətlə, geniş yayılmamışdır. Bu, yerli əhalini ona ehtiyacının olmamasından irəli gəlmişdir. Belə ki, ölkədə hər bir ailə 3-4 avtomobilə malikdir. Şəhər avtobusları axşam saat 6-ya kimi işləyirlər, taksilər isə yalnız telefonla sifariş edilir. Ölkədə su nəqliyyatı daha çox inkişaf etmişdir. Kater taksilər geniş yayılmışdır. Ölkədə turizmin inkişafı üzrə proqramlar həyata keçirilir. Burda çoxsaylı turizm obyektləri mövcuddur.

Bruney ilə Azərbaycan arasında diplomatik əlaqələr 24 dekabr 1995-ci ildə yaradılmışdır. İki ölkə arasında ticarət dövriyyəsi təqribən 10 milyon ABŞ dolları təşkil edir.

### 5.9. Afrikanın kontinental ölkələri və makroregionları

Afrika - Avrasiyadan sonra ərazicə ikinci kontinentdir. Onun ərazisi adalarla birlikdə 30,2 milyon $km^2$-dir. Bu sahə dünya quru ərazisinin 20,4%-nə bərabərdir. Afrikada 1,3 milyard əhali yaşayır (*2018*). Kontinent 55 ölkəni əhatə edir ki, onlardan da 5-i tanınmamış, 5-i asılı ərazilədir (*adalar*). Afrika iqtisadiyyatı Avropa və Asiya ilə müqayisədə nisbətən geridə qalsa da, qitə özünün flora və faunası, zəngin təbii sərvətləri, bol enerji resursları ilə fərqlənir. Dağ-mədən sənayesində neft xüsusi rol oynayır. Burada 13 ölkə neft ehtiyatlarına malikdir. Ümumilikdə dünya neft hasilatında Afrikanın payı 10%-ə bərabərdir. Afrikada daş kömür ehtiyatları çox deyildir. Uran ehtiyatları isə böyük miqyaslıdır və müvafiq dünya ehtiyatlarının $^1/_3$-i bu qitədə cəmləşmişdir. Afrika qitəsinin bütün kontinental ölkələri, demək olar ki, Afrika İttifaqı adlanan təşkilatda birləşmişlər.

Afrika - Şimali Afrika, Qərbi Afrika, Mərkəzi Afrika, Şərqi Afrika və Cənubi Afrika kimi makroregionlara bölünür.

Şimali Afrika - 9 ölkəni - Misir, Əlcəzair, Liviya, Tunis, Mavritaniya, Mərakeş, Sudan Respublikası, Cənubi Sudan və İnspaniya ərazisi olan Qərbi Saxaranı əhatə edir. Bəzən Kanar adaları, Eriteriya, Həbəşistan və Madeyra da Şimali Afrikaya aid edilir. Ərazisi 10,0 milyon km$^2$-dən çoxdur ki, bunun da əksər hissəsini səhralar təşkil edir. Burada bir neçə ölkənin ərazisi 1 km$^2$-dən çoxdur. Makroregion əhalisinin 51%-i şəhərlərdə yaşayır. Bu göstərici Liviya üzrə 90% həddindədir. Makroregionda insan resursları və iqtisadi gücü ilə fərqlənən ölkə Misirdir. Ölkənin paytaxtı Qahirə şəhəri Afrika qitəsinin ən böyük meqapolisi sayılır. Burada 15 milyondan çox insan yaşayır. Makroregionun Avropaya yaxınlığı onun bu kontinentlə iqtisadi inteqrasiyasında mühüm rol oynayır. Bu baxımdan Tunis özünün diversifikasiya olunmuş və rəqabətqabiliyyətli iqtisadiyyatı ilə daha çox fərqlənir. Əlcəzair və Liviya mühüm karbohidrogen sərvətlərinə malikdirlər və bu əsasda da onların iqtisadi potensialı inkişaf edir. Əlcəzair Avropaya həm sıxılmış qaz satır, həm də boru vasitəsi ilə təbii qaz nəql edir. Liviya da makroregionun böyük qaz hasilatçısı hesab olunur. Mərakeş də gübrə istehsalı üçün fosforidlər hasil edən dağ-mədən sənayesinə malikdir. Makroregionun əhəmiyyətli sayda əhalisi kənd təsərrüfatında çalışır. Aİ-nin, xüsusən də, su resurslarının idarə edilməsi ilə bağlı AFR ilə texnoloji kooperasiya sayəsində aqrar sektorun inkişafına nail olunmuşdur. Bir sıra xarici şirkətlər makroregionda sənaye istehsalının genişləndirilməsinə davamlı sərmayələr yatırmaqdadırlar. Misir, Liviya və Tunis kimi ölkələrdə turizm inkişaf etmişdir. Regionda 2010-cu illərdə baş verən və "Ərəb baharı" adlandırılan siyasi çaxnaşmalar bu ölkələrdə inkişafı bir qədər səngitmişdir.

**Misir Ərəb Respublikası - Misir** (*Cümhuriyyət Misir əl-Ərəbi - Arab Republic of Egypt*) Şimali Afrikada və Asiyanın Sinan yarımadasında - iki materikdə yerləşən dövlət. Ölkə dövlətçilik tarixinin başlanğıcını eramızdan qabaq IV-III minillikdən alır. Misirin yeni müstəqillik tarixi 28 fevral 1922-ci ildən başlanır. Paytaxtı Qahirə şəhəri, rəsmi dili ərəb dilidir. Unitar quruluşludur, prezident-parlament respublikasıdır. Milli valyutası funtdur.



Ərazisi 1 001 450 km$^2$, əhalisi 97,4 milyon nəfərdir (*2018*).

İqtisadiyyatda xidmətlər 55,8%, sənaye 33,3%, kənd təsərrüfatı 11,9% paya malikdir. ÜDM 332,0 milyard ABŞ dolları, adambaşına ÜDM 3685 ABŞ dollarıdır. İnflyasiya 23,5%, işsizlik səviyyəsi 12,1%, yoxsulluq səviyyəsi 25,2%-ə bərabərdir. Xarici borc 67,3 milyard ABŞ dolları (*ÜDM-in 20,2%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 30,7%-nə bərabərdir (*2017*).

Misir, üç qitəni - Asiya, Afrika və Avropanı birləşdirən yolların kəsişdiyi mərkəz olaraq dünya sivilizasiyasının ən qədim ölkələrindən biridir. Hələ tarixin erkən çağlarında yalnız Nil çayı hövzəsi ətrafı Misir ölkəsi hesab olunurdu. Nil çayı qədim

zamanlardan başlayaraq Misirdə əkinçilik və heyvandarlıq üçün əlverişli imkanlar yaranmışdır. Bu gün də bu çayın ölkə iqtisadiyyatında rolu və əhəmiyyəti danılmazdır.

Misir 1517-ci ildən Osmanlı imperiyasının əyaləti olmuş, 1882-ci ildə isə ingilis qoşunları tərəfindən işğal edilmişdir. 1922-ci ildə baş vermiş milli azadlıq mübarizəsi nəticəsində Böyük Britaniya Misirə müstəqillik verməsinə baxmayaraq, faktiki olaraq, burada qoşunlarını, iqtisadi və siyasi nəzarətini qoruyub saxlamışdı. 23 iyul 1952-ci ildə Camal Əbdül Nasirin başçılıq etdiyi “Azad Zabitlər” partiyasının liderliyi ilə baş vermiş inqilab Misir xalqının milli azadlıq hərəkatının mühüm mərhələsidir. 18 iyun 1953-cü ildə Misir respublika elan olunmuş və 1956-cı ilin iyulunda ingilis qoşunları ölkədən çıxmışdır.

Misrin təbii sərvətləri sırasında neft-qaz, daş kömür, dəmir filizi mühüm yer tutur. Dünya fosfor ehtiyatlarının 5,2%-i burada cəmləşmişdir. Ölkədə böyük sement xammalı, əhəngdaşı ehtiyatları mövcuddur. Daş duz, soda, gips ehtiyatları da mövcuddur.

Misirdə uran, qızıl, mis, titan, alüminium xammalı, sink, qalay, molibden, volfram hasil edilir. İqtisadiyyatında qara və əlvan metallurgiya, maşınqayırma, dəzgahqayırma, avtomobil yığımı, aviayığım, gübrə, tikinti materialları, vaqon və gəmi istehsalı, neft emalı, neft kimyası, yüngül sənaye sahələri mühüm yer tutur. Emal sənayesi, xüsusən də, tekistil, toxuculuq sahələri inkişaf etmişdir. Bunlar üçün ölkədə zəruri olan xammal qaynaqları mövcuddur.

Kənd təsərrüfatında pambıq, düyü, qarğıdalı, taxıl, meyvə-tərəvəz, maldarlıq aparıcı sahələrdəndir. Pambıq istehsalına görə Misir dünyada 3% paya malikdir.

İxracatda neft və neft məhsulları, pambıq və tekstil əsas yeri tutur. Ölkə, əsasən, sənaye və ərzaq məhsulları, kimya və meşə materialları idxal edir.

Turizm ölkənin əsas gəlir mənbələrindən birini təşkil edir. Bu baxımdan burada turizmin inkişafı hərtərəfli təşviq edilir, dəstəklənir. İstirahət kompleksləri, turizm infrastrukturları modernləşdirilir. Dəniz sahilində yerləşən Şarm-əş-Şeyx, Hurqada kimi kurorort şəhərləri dünyada məşhurdur. Daha çox turizm səfərləri edilən yerlər isə dünyanın yeddi möcüzəsindən biri olan Misir ehramlarıdır.

Misir Azərbaycanın dövlət müstəqilliyini 26 dekabr 1991-ci ildə tanımış, 4 aprel 1992-ci ildə iki ölkə arasında diplomatik münasibətlərin yaradılması haqqında Protokol imzalanmışdır. Azərbaycanın Misirlə neft emalı sahəsində əməkdaşlığı vardır və ölkənin İsgəndəriyyə şəhəri yaxınlığında Midor zavoduna neft tədarük edir. Azərbaycandan Misirə, həmçinin, kimya və metallurgiya sənayesi məhsulları da ixrac olunur. Azərbaycana Misir məhsullarının tədarükündə isə, əsasən, tibbi ləvazimatlar yer alır. İki ölkə arasında ticarət dövriyyəsi 100 milyon ABŞ dollarını aşmışdır.



**Əlcəzair Xalq Demokratik Respublikası - Əlcəzair** (*People's Democratic Republic of Algeria*) Şimali Afrikada, Aralıq dənizinin cənub-qərbində yerləşən dövlətdir. Qərbdən Mərakeş, cənub-qərbdən Mavritaniya və Mali, cənub-şərqdən Niger, şərqdən Liviya və Tunislə həmsərhəddir. Dövlətçilik tarixi 5 iyul 1962-ci ildə

Fransadan müstəqilliyinin elan edilməsi ilə başlanmışdır. Paytaxtı Əlcəzair şəhəri, rəsmi dili ərəb dilidir. Parlament respublikasıdır. Milli valyutası Əlcəzair dinarıdır.

Ərazisi 2 381 740 km$^2$, əhalisi 41,9 milyon nəfərdir (*2018*). Nəhəng ərazisinin böyük hissəsi Saxara səhrasında yerləşir.

İqtisadiyyatda xidmətlər 50,7%, sənaye 36,1%, kənd təsərrüfatı 13,2% paya malikdir. ÜDM 165,0 milyard ABŞ dolları, adambaşına ÜDM 3944 ABŞ dollarıdır. İnflyasiya 3,0%, işsizlik səviyyəsi 10,0%, yoxsulluq səviyyəsi 23,0%-ə bərabərdir. Xarici borc 8,2 milyard ABŞ dolları (*ÜDM-in 5,0%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 28,2%-nə bərabərdir (*2017*).

Əlcəzair Afrika qitəsinin ən zəngin ölkələrindən biridir. Müasir milli iqtisadiyyatı, əsasən, karbohidrogen xammalı üzərində qurulmuşdur. OPEK üzvü olan ölkə neft ehtiyatlarına görə dünyada 14-cü, hasilatına görə 13-cü, ixracatına görə 9-cu yeri tutur. Dünya təbii qaz ehtiyatlarının həcminə və hasilatına görə 5-ci yeri, ixracatına görə 4-cü sıradadır. ÜDM-in 30%-i dövlət neft və qaz şirkəti "Sonatrach" tərəfindən təmin edilir. Ölkənin Aralıq dənizi sahillərində yerləşən iri qaz emalı zavodları vardır ki, buradan da hər il milyardlarla m$^3$ mayeləşdirilmiş təbii qaz Avropaya ixrac olunur. Hazırda Əlcəzair Afrikada ən iri maye təbii qaz istehsalçısı hesab olunur. Onun dünya maye qaz bazarında illik payı 8%-dir. Ölkədə karbohidrogen məhsulu ÜDM-in 30%-ni, büdcə gəlirinin 60%-ni və ixrac daxil olmalarının 95%-ni verir. Əlcəzair, həmçinin, dəmir, sink, qurğuşun, mis, arsen, civə, fosfat yataqları ilə zəngindir. Bundan başqa, ölkə iqtisadiyyatında kənd təsərrüfatı və dəniz məhsulları sənayesi də inkişaf etmişdir. Kənd təsərrüfatında buğda, yulaf, müxtəlif meyvələr, xüsusilə, sitrus bitkiləri və tərəvəz əsas yer tutur. Dənizə yaxın, əkinçiliyə yararlı sahələrdə zeytun kimi Aralıq dənizi iqlimi bitkiləri yetişir. Əlcəzair paxla istehsalı üzrə dünyada 1-ci, əncir üzrə 5-ci, xurma üzrə 6-cı, ərik üzrə 9-cu, badam üzrə 10-cu yerdə qərar tutur.

Əlcəzair Azərbaycanın dövlət müstəqilliyini 26 dekabr 1991-ci ildə tanımış, 22 aprel 1994-cü ildə iki ölkə arasında diplomatik münasibətlər qurulmuşdur. İki ölkə arasında əməkdaşlıq, əsasən, BMT və İKT çərçivəsində inkişaf etdirilməkdədir. Əlcəzairlə Azərbaycan arasında ticarət dövriyyəsi hələ ki, mövcud deyildir.

**Liviya Dövləti - Liviya** (*State of Libya*) Şimali Afrikanın şimal-qərb hissəsində yerləşən dövlət. Şimaldan Aralıq dənizi, şərqdən Misir, cənub-şərqdən Sudan,



cənubdan Çad və Niger, qərbdən isə Əlcəzair və Tunis ilə həmsərhəddir. İtaliya işğalının sona çatması ilə 10 fevral 1947-ci ildə müstəqilliyini elan etmiş, 1951-ci il dekabrın 24-də Fransa və Böyük Britaniya tərəfindən tanınmışdır. Parlament respublikasıdır. Paytaxtı Tripoli şəhəri, rəsmi dili ərəb dilidir. Milli valyutası Liviya dinarıdır.

Ərazisi 1 759 541 km$^2$, əhalisi 6,2 milyon nəfərdir (*2018*).

Ərazisinə görə Afrika qitəsində dördüncü, dünyada 16-cı sıradadır. Torpaqlarının 95%-ə qədəri səhra və ya quraq ərazidən ibarətdir. Şimalda Aralıq dənizi və cənubda

Ekvator Afrikası arasında bir qum dənizinə bənzəyən Böyük Səhra çölünün təxminən 1300 km uzunluğundakı böyük bir hissəsi Liviya torpaqlarının payına düşür.

İqtisadiyyatda xidmətlər 34,9%, sənaye 63,8%, kənd təsərrüfatı 1,3% paya malikdir. ÜDM 29,8 milyard ABŞ dolları, adambaşına ÜDM 5193 ABŞ dollarıdır. İnflyasiya 32,8%, işsizlik səviyyəsi 17,7%, yoxsulluq səviyyəsi 33,0%-ə bərabərdir. Xarici borc 3,5 milyard ABŞ dolları (*ÜDM-in 11,7%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 20,0%-nə bərabərdir (*2017*).

Liviya planlı iqtisadiyyatı olan sənaye ölkəsidir. OPEK üzvü olan ölkənin iqtisadiyyatı daha çox neft çıxarılmasından asılıdır. Liviya neft ehtiyatına görə dünyada 9-cu, istehsalına görə 17-cidir. Neft ölkə ÜDM-in yarısını təmin edir. Burada, həmçinin, avtomobil, dəniz, boru kəmərləri nəqliyyatı inkişaf etmişdir. Neft sənayesi ilə yanaşı, Liviya iqtisadiyyatının mühüm tərkib hissəsi kənd təsərrüfatıdır. Paytaxt Tripoli ətrafında bağçılıq yayılmışdır. Burada sitrus bitkiləri, zeytun, badam, xurma yetişdirilir.

Ölkədən neft və neft məhsulları ixrac olunur, ölkəyə ərzaq malları, maşınlar, toxuculuq məmulatları, nəqliyyat avadanlıqları idxal edilir.

Liviya Azərbaycanın dövlət müstəqilliyini 30 dekabr 1991-ci ildə tanımış, 16 mart 1992-ci ildə ölkələr arasında diplomatik münasibətlər qurulmuşdur. İki ölkə arasında ticarət dövriyyəsi 60-70 milyon ABŞ dolları arasında tərəddüd etmişdir.

Qərbi Afrika - Mərkəzi Saxaradan kontinentin Antaltik okeanı sahillərinə qədər olan sahəsini əhatə edir. Onun şərqdən təbii sərhədləri Kamerun dağlarına bağlanır. Burada 16 ölkə - Benin, Burkino-Faso, Qambiya, Qana, Qvineya, Qvineya-Bisau, Kabo-Verde, Kot-d-İvuar, Liberiya, Mavritaniya, Mali, Niger, Nigeriya, Seneqal, Serra-Leon və Toqo yerləşir. Bəzən makroregiona Şərqi Saxara və Çad da aid edilir. Qərbi Afrika bütün Afrika dillərinin əski daşıyıcısı olan region kimi də fərqləndirilir. Buna baxmayaraq, keçmiş Avropa kolonial sisteminə aid edilən bölgədə indi də fransız və ingilis dilli ölkələr arasında ziddiyyətlər qalmaqdadır. Burada, həmçinin, müvafiq mental dəyərlər və dünyagörüşləri də inkişafa təsir göstərir. Reallıq belədir ki, bölgə ölkələri biri-birinə inteqrasiyadan çəkinərək daha çox keçmiş metropoliyalarla əlaqələr saxlayırlar. Bunu nəzərə alaraq Qərbi Afrika Dövlətləri İqtisadi Cəmiyyəti - ECOWAS bu inteqrasiyanın dərinləşməsinə xidmət edir və Kot-d-İvuar, Liberiya və Serra-Leon kimi qaynar nöqtələrdə sülhə köməklik göstərir. Makroregionun sahil dövlətləri yoxsul ölkələr sinfinə aid edilirlər. Bir sıra sahilyanı dövlətlərdə ixraca yönələn kənd təsərrüfatı məhsulları istehsal edilsə də, böyük əksəriyyətlə makroregion ölkələri özünü təchizetmə ilə məşğuldurlar. Region iqtisadiyyatına nəqliyyat infrastrukturunun zəif olması da təsir göstərir. Burada dəmir yolları şəbəkəsi yetərincə inkişaf etməmişdir. Dəniz daşımalarında bir sıra - Dakar, Konahari, Abidcan, Akkra, Lome və Laqos kimi limanlar davamlı fəaliyyət göstərirlər. Makroregionun ən böyük iqtisadi potensiallı ölkəsi Nigeriyadır. Burada makregionun əhəmiyyətli neft və qaz resursları cəmləşmişdir.

**Nigeriya Federativ Respublikası - Nigeriya** (*ingiliscə* - Federal Republic of Nigeria - *Nigeriya Federativ Respublikası*) Qərbi Afrikada, Qvineya körfəzi sahilində



ölkə. Nigeriyanın müstəqillik tarixi 1 oktyabr 1960-cı ildən başlanır. Paytaxtı Abuja şəhəri, rəsmi dili isə ingilis dilidir. Federativ quruluşludur və prezident respublikasıdır. Milli valyutası nayradır.

Ərazisi 923 768 km$^2$, əhalisi 196,6 milyon nəfərdir (*2018*).

İqtisadiyyatda xidmətlər 60,1%, sənaye 18,3%, kənd təsərrüfatı 21,6% paya malikdir. ÜDM 494,0 milyard ABŞ dolları, adambaşına ÜDM 2211 ABŞ dollarıdır. İnflyasiya 16,3%, işsizlik səviyyəsi 7,0%, yoxsulluq səviyyəsi 70,0%-ə bərabərdir. Xarici borc 15,0 milyard ABŞ dolları (*ÜDM-in 3,0%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 30,5%-nə bərabərdir (*2017*).

Nigeriya uzun müddət siyasi qeyri-stabillikdən, korrupsiyadan, inkişaf etməmiş infrastrukturdan, iqtisadiyyatın pis idarə edilməsindən əziyyət çəkmişdir. Ölkənin keçmiş hərbi rəhbərləri iqtisadiyyatın diversifikasiyasına nail ola bilməmiş, onun neft asılılığından qurtarmamışlar. Nigeriya ənənəvi neft ölkəsidir və hazırda da əhəmiyyətli həcmdə neft ehtiyatlarına malikdir. Burada hələ 1901-ci ildə neft aşkar edilmişdir. Lakin hasilata 1956-cı ildə başlanılmışdır. 1971-ci ildən isə Nigeriya OPEK-in üzvüdür. Ölkə hazırda neft ixaracında ilk onluqda təmsil olunmuşdur. Bu gün neft Nigeriya iqtisadiyyatının əsasını təşkil edir. Ölkənin xarici valyuta gəlirlərinin 95%-i neft hesabına təmin olunur. Neftin büdcədəki payı 80%-ə bərabərdir. Hazırda ölkədə özəlləşdirmə prosesinə başlanılmışdır. Özəlləşdirmə müəyyən qədər neft sektorunu da əhatə etmişdir. Belə ki, artıq bir necə neft emalı zavodu özəl əllərə verilmişdir. Qeyd olunmalıdır ki, neftlə yanaşı ölkədə böyük qaz yataqları da aşkarlanmışdır və istismar edilməkdərir. Burada hər il orta hesabla 30 milyard m$^3$ qaz hasil edilir. Hazırda ölkədə qazlaşma sürətlə inkişaf etməkdədir. Neft və qazdan savayı daş kömür, sink, kolumbit hasil olunur, palma yağı, pambıq, rezin, ağac və tikinti materialları, alüminium, sement, kimya məhsulları və gübrə istehsal edilir, tekstil və yüngül sənaye, gön-dəri emalı sahələri fəaliyyət göstərir.

Kənd təssərüfatı ölkə iqtisadiyyatında mühüm rol oynayır. Burada kakao, qarğıdalı, düyü, araxis yetişdirilir, maldarlıq və balçılıq inkişaf etdirilir. İxracatda neftdən sonrakı yeri kakao və rezin məhsulları tutur. İdxalatda kimya, sənaye, istehlak və ərzaq məhsulları, həmçinin, nəqliyyat vasitələri geniş yer tuturlar.

Nigeriyada turizmin rolu da mühümdür. Belə ki, turizmdən əldə edilən gəlirlər büdcə daxil olmalarında əhəmiyyətli yer tutur. Ölkədə turizm üçün tropik meşələr, savvannalar, şəlalələr, çoxsaylı tarixi və mədəniyyət obyektləri mövcuddur. Bütün bunlarla yanaşı, ölkədə elekttrik enerjisi çatışmazlığı mövcuddur.

Nigeriya kino istehsalında dünya liderleri sırasındadır. Burada kino industriyası mənfəətli sahələrdəndir. Nigeriya, həmçinin, Afrika qitəsində CAR və Əlcəzairdən sonra özünün kosmik aparatına malik üçüncü ölkə olmuşdur.

Nigeriya Azərbaycanın müstəqilliyini 11 mart 1992-ci ildə tanımışdır. Həmin tarixdə ölkələr arasında diplomatik əlaqələr qurulmuşdur. Azərbaycan ilə bu ölkə arasında

əlaqələr, əsasən, BMT və digər beynəlxalq təşkilatlar çərçivəsində mövcuddur. İki ölkə arasında təmaslar, əsasən, Azərbaycanın və Nigeriyanın İran Respublikasındakı səfirlikləri vasitəsilə həyata keçirilir.

Mərkəzi Afrika - 9 ölkəni - Anqola, Qabon, Kamerun, Demokratik Konqo Respublikası, Konqo Respublikası, San-Tome və Prinsipi, MAR, Çad və Ekvatorial Qvineyanı əhatə edir. Makroregionda, həmçinin, Böyük Britaniyaya mənsub Müqqəddəs Yelena ada ərazisi də aiddir. Makroregion təbii sərvətlərlə zəngindir. Burada neft, qaz, almaz, dəmir, mis, qızıl, gümuş, boksit, uran, fosfor yataqları mövcuddur. Bir sıra təbii sərvətlər, xüsusən də, neft ixrac edilir. İqtisadiyyatda əsas rol kənd təsərrüfatına məxsusdur. Geniş həcmdə banan, qarğıdalı yetişdirilir. Meşə sənayesi, ağac emalı, yüngül sənaye sahələri inkişaf etdirilir. Lakin makroregionda ÜDM-in səviyyəsi aşağı olaraq qalır. Makroregion ölkələri MAR, Konqo, Qabon və Kamerun Afrikanın Gömrük və İqtisadi İttifaqı adlı təşkilatda birləşmişlər. Makroregionun müəyyən təbii resursları və ərazi potensialı ilə fərqlənən ölkələri Çad və Anqoladır.

Şərqi Afrika - Misir, Sudan Respublikası və Cənubi Sudan istisna olmaqla Nil çayından şərqdə yerləşən Afrika ölkələrini əhatə edir. Buraya 15 ölkə - Burundi, Cibuti, Keniya, Komor, Madaqaskar, Mavrikiya, Mozambik, Ryunon, Ruanda, Seyşel adaları, Somali, Tanzaniya, Uqanda, Eriteriya, Həbəşistan daxildir. Burada 4 dil qrupuna aid 200-dən çox xalq yaşayır. Makroregiondakı ölkələrin səhrədləri, bir çox Afrika ölkələrində olduğu kimi, müstəmləkəçi dövlətlər tərəfindən mədəni və etnik hüdudlar nəzərə alınmadan özbaşına təyin edilmişdir. Makroregion zəngin təbii sərvətlərə və dəniz resurslarına malikdir. İqtisadiyyatda aqrar sektor üstünlük təşkil edir. Bir sıra yüngül və yeyinti sənayesi sahələri inkişaf etmişdir. Burada, həmçinin, neft, qaz və digər faydalı qazıntılara əsaslanan dağ-mədən sənayesi də inkişaf etmişdir. Bununla belə, bir sıra ölklərdə aşağı yoxsulluq həddi mövcuddur. Keniya, Tanzaniya, Uqanda, Burundi və Ruanda Şərqi Afrika Cəmiyyəti adlı gömrük ittifaqı yaratmışlar. Bu bölgə bir çox antropoloqlar tərəfindən bəşəri yaranışın beşiyi olaraq qəbul edilir. Makroregionun aparıcı ölkələri sırasında Keniya, Tanzaniya və Madaqaskar nisbi əlverişli mövqedə dayanır.

**Keniya Respublikası - Keniya** (*suahili dilində* - Jamhuri ya Kenya, *ingiliscə* - Republic of Kenya - *Keniya Respublikası*) Şərqi Afrikada Hind Okeanı sahilində ölkə. Keniyanın dövlətçilik tarixi başlanğıcını VII-VIII əsrdən alır. Bununla belə, ölkənin yeni müstəqillik tarixi 12 dekabr 1963-cü ildə Böyük Britaniya müstəmləkəçiliyindən azad olunması ilə başlanır. Paytaxtı Nayrobi şəhəri, rəsmi dilləri isə suahili və ingilis dilləridir. Ölkə prezident respublikasıdır. Milli valyutası şillinqdir.



Ərazisi 582 650 km$^2$, əhalisi 49,7 milyon nəfərdir (*2018*).

İqtisadiyyatda xidmətlər 47,2%, sənaye 17,5%, kənd təsərrüfatı 35,3% paya malikdir. ÜDM 63,6 milyard ABŞ dolları, adambaşına ÜDM 1516 ABŞ dollarıdır. İnflyasiya 4,1%, işsizlik səviyyəsi 11,5%, yoxsulluq səviyyəsi 43,4%-ə bərabərdir.

Xarici borc 22,1 milyard ABŞ dolları (*ÜDM-in 34,7%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 39,9%-nə bərabərdir (*2017*).

Keniya Afrikanın ticarət və maliyyə mərkəzi kimi tanınır. Bununla belə, ölkə "Transparency İnternational" reytinqinə görə dünyanın ən korrupsiyalaşmış dövlətlərindən biridir.

Müxtəlif növ faydalı qazıntılar olan ölkədə mineral resurslar istehlakı o qədər də böyük deyildir. Belə ki, Keniyada təbii qazdan, ümumiyyətlə, istifadə olunmur. Bu səbəbdən təbii qaz idxal edilmir. Ölkədə neft yataqları, hələ ki, aşkarlanmamış qalır. Neft və neft məhsullarına olan tələbat idxal hesabına təmin olur.

Sənaye sahəsində istehlak malları, kənd təsərrüfatı məhsulları emalı əsas yer tutur. Burada müəyyən miqdarda sement istehsal edilir, gəmi təmiri emalatxanaları fəaliyyət göstərir. Ölkə həm də yeyitinti sənayesinə, toxuculuq, kimya, kağız, metal məmulatlar, spirtli içkilər, tekstil və poliqrafiya məhsulları istehsalına malikdir.

Keniya aqrar ölkədir. Bu baxımdan ölkədə iqtisadiyyatın digər sahələrinə nisbətdə aqrar sektor inkişaf etmişdir. Burada çay, kofe, qarğıdalı, taxıl, şəkər qamışı, müxtəlif növ meyvə və tərəvəz yetişdirilir. Quşçuluq, ət və südçülük üzrə heyvandarlıq təsərrüfatları mövcuddur.

Ölkə çay, meyvə-tərəvəz, balıq və sement ixrac edir, neft və neft məhsulları ilə yanaşı, dəzgahlar, avtomobillər, qara və əlvan metal prokatları, avadanlıqlar və dərman peraparatları idxal olunur.

Keniyanın vəhşi təbiəti bu ölkəyə bütün dünyadan turistlərin cəlb olunmasına zəmin yaradır. Burada şir, antilop ovuna, hipopatamların ailəvi çimməsinə, çəhrayı flaminqoların səpələndiyi böyük ərazilərə rast gəlmək olur. Ölkənin nəhəng əraziləri artıq neçə onillikdir ki, milli parklara çevrilmişlər. Ölkəyə bu əsrarəngiz mənzərələri, sönmüş vulkanları seyr edən ekstrim turizm həvəskarları daha çox gəlirlər.

Azərbaycan Respublikası ilə Keniya Respublikası arasında diplomatik əlaqələr 28 may 2004-cü ildə qurulmuşdur.

**Tanzaniya Birləşmiş Respublikası** (*suahili dilində* - Jamhuri ya Muungano wa Tanzania, *ingiliscə* - United Republic of Tanzania - *Tanzaniya Birləşmiş Respublikası*) Şərqi Afrikada Hind okeanı sahilində yerləşən dövlət. Tanzaniya dövlətçilik tarixi Tanqanika, Zənzibar və Pumbanın birləşməsi ilə 26 aprel 1964-cü ildən başlanır. Ölkənin paytaxtları Dodoma (*qanunverici paytaxt*) və Dar-Əs-Salam (*inzibati mərkəz*) şəhərləri, rəsmi dilləri suahili və ingilis dilləridir. Prezident respublikasıdır. Milli valyutası şillinqdir.



Ərazisi 945 203 km$^2$, əhalisi 58,5 milyon nəfərdir (*2018*).

İqtisadiyyatda xidmətlər 48,0%, sənaye 28,6%, kənd təsərrüfatı 23,4% paya malikdir. ÜDM 45,6 trilyon ABŞ dolları, adambaşına ÜDM 970 ABŞ dollarıdır. İnflyasiya 4,1%, işsizlik səviyyəsi 2,2%, yoxsulluq səviyyəsi 22,8%-ə bərabərdir. Xarici borc 15,8 trilyon ABŞ dolları (*ÜDM-in 34,6%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 42,5%-nə bərabərdir (*2017*).

Tanzaniyanın təbii sərvətləri sırasında qalay, fosfor, dəmir filizi, daş kömür, almaz, qızıl, nikel, qiymətli daşlar əsas yer tutur. Şelf ərazidə əhəmiyyətli təbii qaz ehtiyatları aşkar olunmuşdur. Ölkə mühüm hidroenerji potensialına malikdir. Bununla belə, Tanzaniya dünyanın yoxsul ölkələrindən biri olaraq qalır. Burada iqtisadiyyat əsaslı dərəcədə kənd təsərrüfatı yönümlüdür. Əhalinin 80%-dən çoxu aqrar sektorda çalışır. Kofe, çay, pambıq, tütün, qarğıdalı, taxıl, sizal, banan, qərənfil, hind qozu, müxtəlif növ meyvə-tərəvəz yetişdirilir, qoyun, keçi və digər buynuzlu malqara saxlanılır.

Ölkənin sənayesi kənd təsərrüfatı məhsullarının emalına əsaslanır. Bundan başqa, Keniyada dağ-mədən sənayesinə əsaslanan bir sıra emal müəssisələri də fəaliyyət göstərir. Ölkədə, həmçinin, yeyinti məhsulları, ayaqqabı və s. istehsal olunur.

İxracatda qızıl, kofe, hind qozu, pambıq mühüm yer tutur. İstehlak malları, yanacaq, maşın və nəqliyyat vasitələri isə idxal olunur.



**Madaqaskar Respublikası - Madaqaskar** (*malaq dilində* - Repoblikan'i Madagasikara, *fransızca* - République de Madagascar *Madaqaskar Respublikası*) Şərqi Afrikada, Hind okeanında ada dövlət. Madaqaskarın müstəqillik tarixi 26 iyun 1960-ci ildən başlanır. Paytaxtı Antananarivu şəhəri, rəsmi dilləri malaq və fransız dilləridir. Prezident respublikasıdır. Milli valyutası ariaridir.

Ərazisi 587 041 $km^2$, əhalisi 26,2 milyon nəfərdir (*2018*).

İqtisadiyyatda xidmətlər 60,3%, sənaye 16,0%, kənd təsərrüfatı 23,7% paya malikdir. ÜDM 9,7 milyard ABŞ dolları, adambaşına ÜDM 391 ABŞ dollarıdır. İnflyasiya 9,1%, işsizlik səviyyəsi 1,8%, yoxsulluq səviyyəsi 70,7%-ə bərabərdir. Xarici borc 3,9 milyard ABŞ dolları (*ÜDM-in 40,2%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 51,1%-nə bərabərdir (*2017*).

Madaqaskar iqtisadiyyatının əsas sahələri kənd təsərrüfatı, balıqçılıq və ədviyyat istehsalı ilə bağlıdır. Ölkə vanil və kofe istehsalı üzrə dünyada öncül yerlərdən birini tutur. Məşhur "Koka-Kola" şirkətinin təbii vanildən sintetik vanilə keçid etməsi Madaqaskar iqtisadiyyatına da müəyyən təsir etmişdir. Faydalı qazıntılardan daş kömür, ilmenit, və nikel üstünlük təşkil edir. Ölkənin cənubunda iri neft yataqları aşkarlanmışdır. ABŞ və Avropa ilə ticarətdə ölkədə azad ticarət zonaları yaradılmışdır.

Müasir zamanda ölkənin iqtisadiyyatı turizm, faydalı qazıntılar, kənd təsərrüfatı, tekstil və yüngül sənaye məhsullarının ixracı üzərində inkişaf edir. Ölkənin füsunkar təbiəti buraya bio-turizm axınını cəlbedici edir. Madaqaskarın flora və faunası 80% endemikdir və planetdəki biomüxtəlifliyin 5%-i bu ölkənin payına düşür.

Azərbaycan ilə Madaqaskar arasında diplomatik əlaqələr 1993-cü ilin may ayının 26-da qurulmuşdur.

Cənubi Afrika - 9 ölkəni - Botsvana, Lesoto, Namibiya, Svazilend, CAR, Zambiya, Zimbabve, Mayotta və Malavini əhatə edir. Region çox qiymətli təbii sərvətlərlə zəngindir ki, bunların arasında uran və almaz mühüm yer tutur. Burada, həmçinin, geniş həcmli mis, qızıl, gümüş, sink, qalay və volfram yataqları mövcuddur. Bunla

belə, əhalinin əksəriyyəti kənd təsərrüfatı ilə məşğuldur. Şəkər qamışı, pambıq, tütün, düyü, qarğıdalı əkinləri üstünlük təşkil edir. Makroregionda böyük miqdarda sitrus meyvələri, ananas, araxis, sorqa və s. yetişdirilir. Botsvana, 5 ölkə - Lesoto, Namibiya, Svazilend, CAR Cənubi Afrika Kömrük İttifaqında birləşmişlər. Burada ən böyük iqtisadi potensiallı ölkə CAR-dır. Zəngin təbii sərvətlərə malik Namibiya Respublikası bir çox sahələrdə iqtisadiyyatını CAR-la inteqrasiya edir.

## 5.10. Amerikanın kontinental ölkələri və makroregionları

Amerika - Şimali Amerika, Cənubi Amerika materiklərini və Qrenlandiyanı birləşdirən kontinentdir. "Amerika" sözündən çox zaman buradakı ən böyük iqtisadi və hərbi qüdrətli dövlət olan ABŞ-ın sinonimi kimi də istifadə olunur. Ərazisi 42,5 milyon km$^2$, əhalisi 1 milyard nəfərdir. 35 dövlət və 23 asılı ərazidən ibarətdir.

Amerika kontinentinə Şimali Amerika, Cənubi Amerika ilə yanaşı Mərkəzi Amerika və Karib hövzəsi makroregionları da daxildir.

Şimali Amerika - Böyük materik çərçivəsində 23 dövləti - Antiqua-Barbuda, Baham, Barbados, Beliz, Haiti, Qvatemala, Honduras, Qrenada, Dominika, Dominikan Respublikası, Kanada, Kosta-Rika, Kuba, Meksika Birləşmiş Ştatları, Nikaraqua, Panama, Salvador, Trinidad və Taboqo, Sent-Lyuis, Sent-Vinsent və Qrenadin, Sent-Kits və Nevis, ABŞ və Yamaykanı əhatə edir. Buraya həmçinin, 20 sayada asılı ərazilər: Amerikan Virgin adaları (*ABŞ*), Puerto-Riko (*ABŞ*), Navassa (*ABŞ*), Qrenlandiya (*Danimarka*), Aruba (*Niderland*), Boneyr, Sint-Estatuius və Saba (*Niderland*), Kyurasao (*Niderland*), Sint-Marten (*Niderland*), Anqiliya (*Böyük Britaniya*), Bermud (*Böyük Britaniya*), Britaniya Virqin adaları (*Böyük Britaniya*), Kayman adaları (*Böyük Britaniya*), Montserrat (*Böyük Britaniya*), Terks və Kaykos (*Böyük Britaniya*), Qvadelupa (*Fransa*), Klipperton (*Fransa*), Martinika (*Fransa*), Sen-Pyer və Mikelon (*Fransa*), Sen-Marten (*Fransa*) və Sen-Bartelmi (*Fransa*) daxildir. Böyük materik qismi ilə yanaşı Şimali Amerika 3 ölkəni - ABŞ, Kanada və Meksikanı əhatə edən makroregion kimi çıxış edir. Buraya Danimarkaya mənsub dünyanın ən nəhəng adası Qrenlandiya, Kanada Arktik arxipelağı, Vest-İndiya, Aleut adaları və s. də daxil edilir. Dünya iqtisadiyyatının lideri ABŞ dövləti, böyük yeddilərin üzvü Kanadanın bu məkanda yerləşməsi onu dünyanın ən öncül makroregionları sırasına qatır. Makroregion ölkələri bu və ya digər dərəcədə NAFTA və OAS-da təmsil olunmuşlar.

**Meksika Birləşmiş Ştatları - Meksika** (*ispanca* - Estados Unidos Mexicanos - *Birləşmiş Meksika Ştatları*) Şimali Amerikada Sakit okean və Antantik okendakı Karib



dənizi sahillərində yerləşən, ABŞ-la həmsərhəd dövlət. Meksika dövlətçilik tarixi başlanğıcını XII əsrdən alır. Bunula belə, uzun müddət İspaniyanın tərkibində olmuş ölkənin yeni müstəqillik tarixi 16 sentyabr 1810-ci ildən başlanır. Paytaxtı Mexiko şəhəri, rəsmi dili ispan dilidir. Prezident respublikasıdır. G20 qrupuna daxildir. Milli valyutası pesodur.

Ərazisi 1 972 550 km$^2$, əhalisi 132,1 milyon nəfərdir (*2018*).

İqtisadiyyatda xidmətlər 64,5%, sənaye 31,6%, kənd təsərrüfatı 3,9% paya malikdir. ÜDM 1,15 trilyon ABŞ dolları, adambaşına ÜDM 8555 ABŞ dollarıdır. İnflyasiya 5,3%, işsizlik səviyyəsi 3,5%, yoxsulluq səviyyəsi 46,2%-ə bərabərdir. Xarici borc 437,3 milyard ABŞ dolları (*ÜDM-in 38,0%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 41,3%-nə bərabərdir (*2017*).

Meksika aqrar-sənaye ölkəsidir. O, Latın Amerikasının inkişaf etmiş dövlətlərindən biridir. Ölkə böyük həcmdə neft və qaz ehtiyatlarına malikdir. Meksika neft hasilatına görə dünyada öncül yerlərdən birini tutur. Burada, həmçinin, miqyaslı olaraq dəmir filizi, mis, qızıl, sink, qurğuşun, civə, sürmə və qrafit də hasil olunur. Meksika həm də flyuorit istehsalı və satışına görə də dünyada aparıcı ölkələrdən hesab edilir. Sənaye sferasında qara və əlvan metallurgiya, maşınqayırma, kimya və neft kimyası, pambıq emalı və yeyinti sahələri daha çox inkişaf etmişdir. Bol neft sərvətlərinə malik ölkədə neft emalı sahəsi az inkişaf etdiyindən bir sıra neft məhsulları xaricdən idxal olunur.

Kənd təsərrüfatında taxıl, qarğıdalı, soya, düyü, pambıq, kofe, pomidor və digər tərəvəz növləri istehsalı üstünlük təşkil edir. Maldarlıq, quşçuluq, ağac emalı, balıqçılıq sahələri inkişaf etmişdir.

İxracatda sənaye malları, neft və neft məhsulları, gümüş, kofe, pambıq, meyvə və tərəvəz əsas yer tutur. Sənaye avadanlıqları, avtomobil hissələri və aviasiya texnikası idxal olunur.

Meksika Azərbaycanın dövlət müstəqilliyini 25 dekabr 1991-ci ildə tanıymışdır və iki dövlət arasında diplomatik münasibətlər 1992-ci il fevralın 10-da qurulmuşdur. İki ölkə arasında ticarət dövriyyəsi 8-9 milyon ABŞ dolları həcmindədir.

Mərkəzi Amerika - Şimali Amerika və Cənubi Amerika arasında yerləşən, coğrafi baxımdan Şimali Amerikaya aid makroregiondur. 6 ölkəni - Beliz, Qvatemala, Honduras, Kosta-Rika, Nikaraqua, Panama və Salvadoru əhatə edir. Burada ingilis dilli Beliz dövləti istisna olmaqla, hakim dil ispan dilidir. Bölgənin müasir əhalisi aborigen hindular, gəlmə avropalılar və onların gətirdikləri Afrika qulları kökənlidirlər. Mərkəzi Amerika özünü qızıl və gümüş filiz yataqları ilə məşhurdur. Burada civə, sürmə və digər faydalı qazıntılar da mövcuddur. Bölgədə yetərli termal su qaynaqları vardır. Makroregion da iqtisadi inkişaf modelləri ilə diqqəti cəlb edən ölkələr Nikaraqua və Panamadır. Makroregion ölkələri ticarət-iqtisadi ittifaq - Mərkəzi Amerika Ümumi Bazarı - MCCA-da əməkdaşlıq edirlər.

Karib hövzəsi - Şimali Amerikaya mənsub adalar qrupu ölkələrini təmsil edir. Konkret olaraq, Karib hövzəsi Cənubi Amerika ilə Şimali Amerika arasındakı Karib dənizinin ada ölkələridir. Buraya ümumi sahəsi 245 min km$^2$ olan Baham adaları və Böyük və Kiçik Antil adaları daxildir. Karib hövzəsi 11 əsas ölkəni - Antiqua-Barbuda, Baham, Barbados, Haiti, Qrenada, Dominika, Dominikan Respublikası, Kuba, Trinidad və Taboqo, Sent-Kits və Nevis, Sent-Lyuis, Yamayka və bir sıra asılı əraziləri: Amerikan Virgin adaları, Puerto-Riko, Aruba, Anqilya, Britaniya Virqin adaları, Kayman adaları, Montserrat, Terks və Kaykos, Martinika, Sen-Marten, Sen-Bartelmi

və s. əhatə edir. Karib hövzəsi makroregionun ikinci adı Vest-İndiyadır. Bu Xristofor Kolumbun 1492-ci ildə Avropadan gəmilərlə üzərək Atlantik okeanın o tayında kəşf etdiyi yeni ərazilərə verilən addan başlanğıc alır. O zamanlar burada köklü Karib qəbilələri və aravaklar yaşamışlar. Müstəmləkəçilər onların bir qismini Cənubi Amerikanın plantasiyalarında işləmək üçün özləri ilə aparmış, qalanları isə məhv olub getmişlər. Müasir zamanda Karib hövzəsi makroregionu ekzotik adalar silsiləsi kimi turistlərin diqqətini cəlb edir. Bu səbəbdəndir ki, ərazidə turizm infrastrukturu inkişaf etmiş və demək olar ki, bütün ölkələrin iqtisadiyyatlarında turizm industriyası hakim mövqedə dayanır. Regionda iqtisadiyyatları ilə Kuba və Yamayka diqqəti cəlb edir. Yamayka boksit istehsalına görə dünyada 3-cü yerdədir. Makroregion ölkələri bu və ya digər dərəcədə Karib Əməkdaşlığı - CARICOM ticarət-iqtisadi ittifaqda, Şərqi Karib Dövlətləri Təşkilatı - OECS iqtisadi və valyuta ittifaqında, çoxfunksiyalı təşkilat Latın Amerikası İqtisadi Sistemi - SELA-da təmsil olunmuşlar.

Cənubi Amerika - 12 dövləti - Argentina, Boliviya, Braziliya, Venesuela, Qayana, Kolumbiya, Paraqavay, Peru, Surinam, Uruqvay, Çili, Ekvador və 3 asılı ərazini - Böyük Britaniya ilə Argentina arasında mübahisəli ərazi olan Folklend adalarını, həmçinin, Böyük Britaniyaya mənsub Cənubi Corciya və Cənubi Sandviçev adalarını əhatə edir. Bununla belə, Cənubi Amerikaya makroregion ölkələrinə mənsub çoxsaylı adalar da daxildir. Buradakı Karib hövzəsi zonasındakı adalar, həmçinin, Şimali Amerikaya aid edilir. Karib dənizi ilə sərhəddə yerləşən Venesuela, Qayana, Kolumbiya, Surinam, Panama və Fransa Qvianası Karib Cənubi Amerikası kimi də məşhurdur. Region əhalisinin $^{2}/_{3}$-si ispandilli, qalanları isə, əsasən, portuqal dillidirlər. Bundan başqa, regionda fransız, ingilis, holland dillərinin də yetərli yeri vardır. Makroregionun dil xüsusiyyətlərinə nəzər yetirmə burada yaşayan xalqların müxtəlif dövrlərdə imperiyalar yaratmış və hazırda dünya iqtisadiyyatında mühüm yer tutan Fransa, Böyük Britaniya, Niderland, İspaniya və Portuqaliya ilə tarixi milli, etnik, siyasi, iqtisadi əlaqələr səbəbində izah olunur. Region mühüm neft-qaz yataqları ilə zəngindir. Burada 15-20 milyard ton neft ehtiyatı hesablanır. Ən nəhəng neft hövzəsi Cənubi Amerikadakı Marakaybo çökəkliyindədir ki, bura da, demək olar ki, tamamilə Venesuela ərazisinə aiddir. Digər iri neft-qaz yataqları Meksika körfəzində yerləşmişdir. Makroregionda daş kömür ehtiyatları 100 milyard tondan çox olsa da, hasilat xeyli az 35 milyon tondur. Region ölkələrinin iqtisadiyyatında karbohidrogen məhsullarının ixracı mühüm yer tutur. Burada varlı və kasıblar arasındakı iqtisadi fərqlər digər kontinetlərə nisbətdə daha kəskindir. Belə ki, Venesuela, Paraqavay, Boliviya və digərlərində 20% varlılar ölkənin 60% sərvətinə, 20% kasıblar isə 5% sərvətə sahibdirlər. Belə kəskin fərqlilik Cənubi Amerikanın bir sıra iri şəhərlərində, göydələnlərlə yoxsul məhəllələrinin yanaşı dayandığı sahələrdə daha genişdir. Makroregionun ən böyük iqtisadi potensiallı ölkələri Braziliya, Venesuela və Argentinadır. Makroregionun ayrı-ayrı ölkələri bu və ya digər dərəcədə regional əməkdaşlıq və ticarət üzrə təşkilat - Amerika İnteqrasiya Assosiasiyası - LAİA, vahid

kömrük tarifləri ittifaqı - Cənubi Amerika ölkələrinin ümumi bazarı - MERCOSUR, ticarət-iqtisadi ittifaqları Karib Əməkdaşlığı - CARICOM və Karib dövlətləri Assosiyasiyası - AISA, La-Plat qrupu, iqtisadi və valyuta ittifaqı - Şərqi-Karib Dövlətləri Təşkilatı - OECS, çoxfunksiyalı təşkilat Latın Amerikası İqtisadi Sistemi - SELA və s. regional təşkilatlarda təmsil olunmuşlar.



**Venesuela Bolivar Respublikası - Venesuela** (*ispanca* - República Bolivariana de Venezuela - *Venesuela Bolivar Respublikası*) Cənubi Amerika qitəsinin şimalında dövlət. Qərbdə və cənub-qərbdə Kolumbiya, cənub və cənub-şərqdə Braziliya, şərqdə Qvineya ilə həmsərhəddir. Şimal sahillərini Karib dənizi və Atlantik okeanı yuyur. Venesuelanın dövlətçilik tarixi 5 iyul 1811-ci ildən başlanır. Paytaxtı Karakas şəhəri, rəsmi dili ispan dilidir. Federativ quruluşludur. Milli valyutası bolivardır.

Ərazisi 916 445 $km^2$-dir. Karib dənizindəki 70-ə yaxın ada Venesuelaya aiddir. Əhalisi 32,4 milyon nəfərdir (*2018*).

İqtisadiyyatda xidmətlər 57,4%, sənaye 38,2%, kənd təsərrüfatı 4,4% paya malikdir. ÜDM 260,0 milyard ABŞ dolları, adambaşına ÜDM 9258 ABŞ dollarıdır. İnflyasiya 652,6%, işsizlik səviyyəsi 8,1%, yoxsulluq səviyyəsi 19,7%-ə bərabərdir. Xarici borc 110,8 milyard ABŞ dolları (*ÜDM-in 42,6%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 43,8%-nə bərabərdir (*2017*).

Venesuelanın təbii sərvətləri sırasında neft mühüm yer tutur. Hazırda neft ehtiyatlarına görə Venesuela dünya lideridir. Burada subut olunmuş neft ehtiyatları 42 milyard tondan çox hesablanır. Neft ölkənin büdcə daxilolmalarının yarıdan çoxunu təşkil edir. Onun ÜDM-də çəkisi 30%, ixracatda payı isə 80%-dən çoxdur. 2007-2008-ci illərdə ölkədə neft sənayesi, energetika, polad və sement istehsalı milliləşdirilmişdir. Ölkə iqtisadiyyatı vaxtilə mərhum prezident Uqo Çavesin (*1954-2013*) apardığı siyasətlə, “XXI əsr sosializmi” adlı proqramla irəlilədilir. Lakin buna baxmayaraq aparılan siyasət müxalifət tərəfindən ciddi etirazlarla qarşılanır.

Ölkədə nikel, qızıl, almaz da hasil olunur. Tikinti materialları, tekstil, yüngül sənaye, dəmir filizi hasilatı, polad və alüminum əritmə, avtomobillərin yığılması kimi sahələr inkişaf etdirilir.

Venesuelanın ərazisinin 25% kənd təsərrüfatına cəlb edilmiş və burada ölkənin işçi qüvvəsinin 13%-i çalışır. Qarğıdalı, şəkər qamışı, banan, düyü, kofe, müxtəlif meyvələr yetişdirilir. Ölkədə geniş ət, süd, yumurta istehsalı sahələri və inkişaf etmiş balıqçılıq təsərrüfatları mövcuddur.

Ölkədə neftdən başqa boksit, alüminium, kofe, daş kömür, nikel, zümrüd, banan və güllər ixrac olunur. İdxalatda sənaye məhsulları, nəqliyyat vasitələri, tikinti materialları əsas yer tutur.

Venesuela Azərbaycanın müstəqilliyini 1992-ci il yanvarın 9-da tanımışdır və ölkələr arasında diplomatik əlaqələr 1995-cü ilin may ayının 12-də qurulmuşdur. Venesuela ilə Azərbaycan arasında 8-10 milyon ABŞ dolları həcmində ticarət dövriyyəsi mövcuddur.

**Çili Respublikası -** Çili (*ispanca* - República de Chile - *Çili Respublikası*) Cənubi Amerikanın qərbində - şərqdən And dağları əhatəsində, qərbdən isə Sakit okean sahilində yerləşən dövlət. Şimalda Peru, şimal-şərqdə Boliviya, şərqdə Argentina ilə qonşudur. Çilinin dövlətçilik tarixi 18 sentyabr 1810-cu ildə İspaniyadan ayrılması ilə başlanır. Ölkənin paytaxtı Santyaqo şəhəri, rəsmi dili ispan dilidir. Prezident respublikasıdır. Milli valyutası çili pesosudur.

Ərazisi 756 950 km$^2$, əhalisi 18,5 milyon nəfərdir (*2018*). 15 inzibati bölgəyə ayrılmışdır. Əhalisinin 25%-ni avropalılar (*alman, ingilis və italyalılar*), 70%-ni metislər, 3-%-ni hindular təşkil edir.

Adı aymara dilində "dünyanın sonu" mənasını verən "*chill"i* sözündən qaynaqlanan ölkəni "Antraktidaya açılan darvaza" da adlandırırlar. Dünyanın ən cənub şəhəri Puerto-Uilyams, ən hündür dağ gölü - dəniz səviyyəsindən 4570 m hündürlükdə yerləşən Çunqara və 6064 m yüksəklidə daimi fəaliyyətdə olan Ualyatiri vulkanı Çili ərazisində yerləşir. Şərq-qərb məsafəsi çox az olsa da, bu iki uc arasında hündürlük fərqi böyükdür. Ölkə şimaldan cənuba çox fərqli iqlim, bitki örtüyü və coğrafi şəkillər göstərir. Bu baxımdan Çili bir çox qaynaqlarda təzadlar ölkəsi olaraq tanınır.

Çili Latın Amerikasının iqtisadi cəhətdən dinamik inkişaf edən ölkələrindəndir.

İqtisadiyyatda xidmətlər 64,3%, sənaye 31,4%, kənd təsərrüfatı 4,3% paya malikdir. ÜDM 243,0 milyard ABŞ dolları, adambaşına ÜDM 13,6 min ABŞ dollarıdır.



İnflyasiya 2,0%, işsizlik səviyyəsi 7,0%, yoxsulluq səviyyəsi 14,4%-ə bərabərdir. Xarici borc 173,9 milyard ABŞ dolları (*ÜDM-in 71,5%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 48,0%-nə bərabərdir (*2017*).

Ölkə faydalı qazıntıların zənginliyi ilə də fərqlənir. Çilini "mis krallığı" da adlandırırlar. Belə ki, Çili dünya üzrə mis çıxarılması və onun ixracı üzrə birinci yeri tutur. Əsasən, milli "Codelco" korporasiyası tərəfindən istehsal olunan mis dünya bazarının 34%-ni əhatə edir. Bundan başqa, Çilidə "Molymet" şirkəti tərəfindən molibden də çıxarılır ki, bu sahədə Çili dünyada 3-cü yeri tutur. Çili dünya bazarında ən böyük yod istehsalçısı olaraq da fərqlənir. Ölkədə, həmçinin, dəmir, nitratlar, qızıl, gümüş və litium da hasil olunur.

Çili kənd təsərrüfatının mühüm məhsulları buğda, qağıdalı, yulaf, kartof, raps və düyüdür. O, regionda üzüm, qarağat, gavalı, qurudulmuş alma, qızılbalıq, alabalıq və digər kənd təsərrüfatı məhsullarının başlıca istehsalçısıdır. Meyvələrdən üzüm, qarağat ixracı üzrə Cənub yarımkürəsində 1-ci, avakado ixracı üzrə 2-ci yeri tutur. Çilidə hər il 7-11 min tona qədər bal istehsal olunaraq, əsasən, AFR və ABŞ-a ixrac olunur.

Çili ilə Azərbaycan arasında diplomatik münasibətlər 3 noyabr 1994-cü ildə qurulmuşdur. Azərbaycan Respublikasının Milli Məclisində Azərbaycan-Çili parlamentlərarası əlaqələr üzrə işçi qrupu fəaliyyət göstərir.

## 5.11. Avstraliya və Okeaniyanın kontinental ölkələri və makroregionları

Avstraliya və Okeaniya - Avstraliya materiki, ətraf adalar və Okeaniyaya daxil adalardan və atollardan (*mərcan adaları*) ibərətdir. Avstraliya və Okeaniyanın ümumi ərazisi 8,5 milyon km$^2$, əhalisi 24,2 milyon nəfərdir. Makroregion 14 ölkəni - Avstraliya, Vanuatu, Kiribati, Marşal adaları, Mikroneziya, Nauru, Palau, Papau və Yeni Qvineya, Samoa, Salamon adaları, Tonqa, Tuvalu, Fidji və Yeni Zenlandiyanı əhatə edir. Makroregionun ən böyük iqtisadi potensiallı ölkələri Avstraliya və Yeni Zelandiyadır. Son onilliklər Avstraliyanın beynəlxalq əlaqələri ANZUS təşkilatı vasitəsilə ABŞ və Yeni Zelandiya ilə, ASEAN təşkilatı vasitəsilə Cənub-Şərqi Asiya ilə, Sakit okean adalarının forumu vasitəsilə Okeaniya ilə həyata keçirilir.

Avstraliya və Okeaniya Avstraliya və Yeni Zelandiya, Melaneziya, Mikroneziya və Polineziya kimi subregionlara bölünür.

Avstraliya və Okeaniya kontinetində iki ölkə Avstraliya və Yeni Zelandiyanın daxil olduğu ən böyük makroregion kimi Avstraliya və Yeni Zelandiya ərazisi çıxış edir.



**Avstraliya** (*latınca* - australis - *"cənub"*) materik Avstraliyanı, Tasman adalarını, Hind okeanına və Sakit okeana mənsub bir neçə ada ilə əhatə olunan, yüksək inkişaf etmiş və sürətli templərə malik ölkələrdən biridir. Rəsmi adı Avstraliya İttifaqı (*Commonwealth of Australia*). Paytaxtı Kamberra şəhəridir. Rəsmi dili Avstraliya-ingilis dili, milli valyutası Avstraliya dollarıdır *(AUD)*. Ölkə valyutası dünyada ilk plastik (*qeyri-kağız*) pul hesab olunur. Avstraliya G20 qrupuna daxildir.

Ərazisi 7 692 024 km$^2$, əhalisi 25,1 milyon nəfərdir (*2018*). Ərazisinə görə dünyanın 6-cı ölkəsidir. Bu ölkə, həmçinin, bir sıra ətraf ərazilərə də nəzarət edir. Onun Antraktida qitəsi üzərindəki suverenliyi əksər dövlətlər tərəfindən tanınmır. Avstraliya, həm də qitə olaraq, Yer planetinin quru hissəsinin 5%-ni tutmaqla dünyanın ən kiçik kontinentidir.

Ölkədə əhalinin sıxlığı çox aşağıdır (*1 km$^2$ 3 nəfər düşür*). Bununla belə, Avstraliya dünyanın ən çox şəhərlərə malik ölkələrindəndir. Burada urbanizasiya səviyyəsi çox yüksəkdir və əhalinin 85%-dən çoxu şəhərlərdə yaşayır.

Avstraliya 6 ştatdan: Viktoriya, Qərbi Avstraliya, Kvinslend, Yeni Cənubi Yels, Tasmaniya və Cənubi Avstraliyadan ibarətdir. Hər bir ştat və materik ərazi öz qanunverici orqanına malikdir.

Avropalılar Avstraliya materikini 1788-ci ildən mənimsəməyə başlamışlar. O zaman Yeni Cənubi Uels ştatı yaradılmış və bura Britaniya ərazisi elan olunmuşdur.

Dünyanın ən quraq materiki olaraq ərazisinin əksər hissəsinin yarımsəhra və səhralarla örtülməsinə baxmayaraq, Avstraliyada alp yaylalarından tropik cəngəlliklərə kimi müxtəlif landşaft növlərinə rast gəlinir. Burada ən çoxsaylı heyvan növləri - kisəlilər (*kenquru, koala, vombatlar*), yexidnalar, ördəkburunlar və digərləridir.

Quşlardan isə, əsasən, kakadu, emu və kukabarralara rast gəlinir. Avstraliya, həmçinin, dünyada ən çox zəhərli ilanlar olduğu yer sayılır. Buarada çoxlu sayda olan dinqo vəhşi itləri isə avstroneziyalılar tərəfindən b.e. 3 min il əvvəl materikə gətirilmişdir. Ölkədə bir çox bitki və heyvan növləri aborigenlərin və avropalıların ərazidə məskunlaşmasından sonra məhv edilmişdir.

Avstraliya sakinlərinin əksəriyyəti Böyük Britaniyadan və İrlandiyadan gəlmələrdir. II Dünya Müharibəsindən sonra və xüsusilə, 1960-cı illərdən savadlı və yaxşı planlaşdırılmış, fəal şəkildə yürüdülən immiqrantların cəlb edilməsi siyasəti nəticəsində immiqrasiya ölkədə güclənmiş 1945-ci ildən bəri vətəndaşlarının sayı iki dəfədən çox artmışdır. Müharibədən dərhal sonra ölkəyə gələnlər, əsasən, Böyük Britaniya, İrlandiya, İtaliya, Yunanıstan, Yeni Zelandiya və keçmiş Yuqoslaviya ölkələrini təmsil edirdilər. Son illərdə gəlmələrin strukturunda əsas yerləri Yaxın Şərqdən, Asiya ölkələrindən və Latın Amerikasından gələnlər tuturlar.

İqtisadiyyatda xidmətlər 70,3%, sənaye 26,1%, kənd təsərrüfatı 3,6% paya malikdir. ÜDM 1,4 trilyon ABŞ dolları, adambaşına ÜDM 51,9 min ABŞ dollarıdır. İnflyasiya 2,2%, işsizlik səviyyəsi 5,7%, yoxsulluq səviyyəsi 13,3%-ə bərabərdir. Xarici borc 1,5 trilyon ABŞ dolları (*ÜDM-in 107,8%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 51,4%-nə bərabərdir (*2017*).

Ölkə mühüm mineral ehtiyatlara malikdir. Onun təbii resurs potensialı ilə təminatlılığı orta dünya göstəricilərini 20 dəfə qabaqlayır. Dünya boksit ehtiyatlarının 30%-i burada cəmləşmişdir. Boksit ehtiyatlara görə Avstraliya dünya birincisidir və dünyada hasil edilən boksitin 40%-ni verir. Avstraliya, həmçinin, sirkoniya və uran ehtiyatlarına görə də dünya birincisidir. Ölkə mühüm kömür ehtiyatlarına malikdir. Burada yetərli həcmdə dəmir filizi, qızıl, almaz və manqan ehtiyatları vardır. Son 30-35 ildə Avstraliyada neft-qaz ehtiyatları da aşkar edilmiş və hazırda hasilat 30 milyon tona çatmışdır. Ölkədə aparıcı sahələrdən biri də kənd təsərrüfatıdır. Çox geniş əkin sahələri burada fermer və maldar təsərrüfatlarının inkişafına əlverişli zəmin yaradır.

İqtisadiyyata böyük həcmdə xarici investisiyalar yatırılır. Əsas xarici investor qismində ABŞ çıxış edir. Ölkə inkişaf etmiş müasir bank sisteminə malikdir. Avstraliya adambaşına düşən avtomobillərin sayına görə dünyada ikinci yerdədir. Hər adama düşən yolların uzunluğuna görə Avropa ölkələrini 3-4 dəfə, Asiya ölkələrini isə 7-9 dəfə üstələyir. Həmçinin, adambaşına benzin istifadəsinə görə Avstraliya dünyada üçüncü yerdədir.

Avstraliyanın yol sistemi 3 kateqoriyaya bölünür: federal yollar, ştat yolları və yerli yollar. Yol şəbəkəsi kifayət qədər inkişaf etmişdir, yolların ümumi uzunluğu 1 milyon km-ə yaxındır.

Ekoloji təhlükəsizliyə əsaslanaraq Avstraliya ərazisinə bir çox malların, bitkilərin, taxta məmulatlarının, xəz, dəri və s. malların gətirilməsi qadağandır. Bundan əlavə, Avstraliyanın materik ərazisindən Tasmaniya adasına gəlmiş insanlar da xüsusi ekoloji nəzarətdən keçirlər.

Ölkənin ali təhsil sistemi Britaniya təhsil sistemi üzərində qurulmuşdur və ona yüksək təhsil keyfiyyəti, tələbələrin müstəqilliyi və elmi tədqiqatlara yönəlilik xarakterikdir. Avstraliyada elmi tədqiqatlara hər il böyük məbləğdə dövlət vəsaiti ayrılır və bir çox avstraliyalı alim Nobel mükafatına layiq görülmüşdür.

Avstraliya azsaylı inkişaf etmiş kapitalist dünyası ölkələrinə aiddir ki, burada iqtisadiyyat tam olaraq "laissez-faire" - (*toxunmayın*) prinsipi ilə idarə olunur. Ölkədə ÜDM-in adambaşına düşən payı paritet istehlak qabiliyyəti ilə Böyük Britaniya, AFR və Fransa kimi yüksək inkişaf etmiş dövlətlərdən çoxdur.

Avstraliya İttifaqı Azərbaycan Respublikasının müstəqilliyini 26 dekabr 1991-ci ildə tanımışdır. İki dövlət arasında diplomatik münasibətlər 19 iyun 1992-ci ildə qurulmuşdur. Azərbaycandan Avstraliyaya xam neft ixrac edilir. Avstraliyadan isə kərə yağı idxal olunur. Ölkələr arasında ticarət dövriyyəsi təxminən 20 milyon ABŞ dolları həcmindədir.

**Yeni Zenlandiya** (*ingiliscə* - New Zealand - *Yeni Zenlandiya*) Sakit okeanın cənub şəqrində iki böyük ada - Şimal ada və Cənub ada yerləşir. Aralarında əsas adalar Stüart və Çatem olanmaqla çoxsaylı kiçik adalar da (*700-ə qədər*) vardır. Yerli sakinlər - maorilər Yeni Zelandiyanı Aotearoa adlandırırdılar, bu söz "uzun ağ bulud torpağı" kimi tərcümə olunur. Paytaxtı Vellinqton şəhəridir. Rəsmi dili ingilis və maori dilləri, milli valyutası Yeni Zellandiya dollarıdır.



Ərazisi 268 680 km$^2$, əhalisi 4,6 milyon nəfərdir (*2018*). Əhalinin əksər hissəsi Avropadan gəlmələrdir. Azlıq təşkil edən aborigen əhali isə maorilərdir.

Yeni Zenlandiyaya inkişaf etmiş bazar iqtisadiyyatı xasdır. İqtisadiyyatda xidmətlər 69,9%, sənaye 26,2%, kənd təsərrüfatı 3,9% paya malikdir. ÜDM 173,0 milyard ABŞ dolları, adambaşına ÜDM 38,3 min ABŞ dollarıdır. İnflyasiya 1,1%, işsizlik səviyyəsi 1,9%, yoxsulluq səviyyəsi 10,9%-ə bərabərdir. Xarici borc 186,2 milyard ABŞ dolları (*ÜDM-in 107,6%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 57,7%-nə bərabərdir (*2017*).

Yeni Zelandiya çox zəngin vəhşi təbiətə, unikal və nadir bitki, quş və həşərat növlərinə malikdir. Bunlardan ən tanınmışı qanadsız kividir, hətta yenizelandiyalıları bəzən bu cür adlandırırlar. Yeni Zelandiya meşələri - tropik meşələrdir (*qırmızı şam ağacı və s.*) və həmişəyaşıl ağac növlərindən ibarətdir. Ölkə, həmçinin, çiçəklənən güllərin və ağacların unikal növləri ilə zəngindir.

Böyük təbii sərvətlərə malik ölkədə neft və qaz, qızıl və gümüş, dəmir filizi, daş kömür, alüminium və digər əlvan metallar istehsalı geniş yayılmışdlır. Burada təsdiq olunmuş qızıl ehtiyatları 372 ton, gümüş ehtiyatları 308 ton həcmində hesablanır. Qaz ehtiyatlarının həcmi 68 milyard m$^3$-dir. Elektroenergetikada akitiv olaraq termal sulardan (*129 mənbə*) geniş istifadə edilir. Bununla yanaşı, ölkədə digər alternativ enerji mənbələrindən də istifadə inkişaf etdirilir.

Ölkədə biznes, investisiya mühiti olduqca əlverişlidir. Onun emal sənayesində kənd

təsərrüfatı məhsulları mühüm yer tutur. Ölkənin əsas dünya bazar mərkəzlərindən kənarda yerləşməsi burada uzun illər beynəlxalq əlaqələrin inkişafına təsir etmişdir. Ölkənin əsas ticarət partnyoru Avstraliya və ABŞ-dır. Buna görə də ölkə iqtisadiyyatı ixrac yönümlüdür. İxrac məhsulu ölkədəki istehsalın 20%-ni təşkil edir.

Yeni Zenlandiya özünün kənd təsərrüfatı ilə beynəlxalq aləmdə böyük nüfuza sahibdir. Burada heyvandarlıq, xüsusən də, qoyunçuluq (*40 milyon baş*) yüksək inkişaf etmişdir. Kənd təsərrüfatı dotasiyasız fəaliyyət göstərir və ölkə ixracatının əsas hissəsini təşkil edir. Ölkədə sənaye balıqçılığı inkişaf etmiş sahələrdəndir. Meşə sənayesi gəlirli sahələrdən hesab olunur.

İdxalda əsas yeri neft və yanacaq məhsulları tutur. Avtomobil, aviasiya texnikası və digər texniki məhsullar da idxal olunur.

Yeni Zenlandiya, həmçinin, inkişaf etmiş turizm industriyasına malikdir. Ölkənin məxsusi coğrafi mövqeyi, unikal təbiəti, bütün nəqliyyat növləri üzrə əlverişli nəqliyyat infrastrukturu sistemi, yüksək səviyyəli xidmətlər və başlıca olaraq, mükəmməl təşkilatçılıq turizmin inkişafında böyük rol oynayır. Hazırda ölkə ÜDM-də turizmin payı 10% həcmindədir.

Yeni Zelandiya və Azərbaycan Respublikası arasında diplomatik münasibətlər 1992-ci ilin sentyabr ayının 10-da qurulmuşdur. İki ölkə arasında 20 milyon ABŞ dolları həcminə bərabər ticarət dövriyyəsi vardır.

Melaneziya (*yunanca* - μέλας νῆσος - *qara adalar*) Avstraliyanın şimal-şərqində Sakit okeanda yerləşən 8 adalar qrupunu - Yeni Kaledoniya, Yeni Qivineya, Solomon adaları, Vanuatu, Fidci, Bismar Arxipelağı, Santa-Krus adası və Loyaltini əhatə edir. Melaneziya adaları materik və vulkanik mənşəlidir. Suyun dayaz hissələrində çoxsaylı mərcan rifləri mövcuddur. İqlimi ekvatorial, subekvatorial və tropikdir. Mərkəzi və cənub adalarda musson meşələri və savanlar geniş yayılmışdır. Heyvanat aləmi Avstraliyaya yaxındır. Ərazisi 940 000 $km^2$, ümumi əhalisi 10,5 milyon nəfərdir (*2018*). Köklü sakinlər qara dərili olaraq polineziya və mikroneziya dillərində danışırlar. Melaneziya makroregionu nikel, kobalt, xrom, manqan filizi, qızıl kimi faydalı qazıntlara malikdir. Yeni Kaledoniyadıkı nikel ehtiyatları dünya üzrə 20% həcmə malikdir. Mineral qazıntılar olduqca məhdur, neft ehtiyatları isə yox dərəcəsindədir. Burada iqtisadiyyat, başlıca olaraq, natural və ya kiçik əmtəəli kənd təsərrüfatına əsaslanaraq 65% əhalini təmin edir. Melaneziya adalarında qarğıdalı, kokos, şəkər qamışı, kakao və kofe becərilir. Kənd təsərrüfatı, meşə sənayesi və balıqçılıq inkişaf etmişdir. Digər iqtisadiyyat sahələri işərisində balıqçılıq, ofşor maliyyə xidmətləri və turizm yer alır. Fidci dövləti böyük meşə resurslarına malikdir. Bu ölkədən qənd ixrac edilir və turizmdən əhəmiyyətli gəlir əldə olunur. Makroregionda daxili bazara hesablanan kiçik yüngül sənaye sektoru fəaliyyət göstərir. İqtisadiyyatı idxal məhsulundan asılılıqləngidir.

Mikroneziya (*yunanca* - μικρός νῆσος - *kiçik adalar*) Okeaniyanın bir hissəsini əhatə edərək Marian, Karolin, Marşal, Hilbert və Nauru adalarından ibarətdir. Buraya, həmçinin, Ueyk atollu da daxil edilir. Mikroneziyada Nauru, Kiribati, Marşal adaları,

Mikroneziya Federativ Ştatı, Palau, Quam (*ABŞ*), Şimali Marian Adaları (*ABŞ*) dövlətləri və asılı əraziləri mövcuddur. Ərazisi 702 km$^2$, ümumi əhalisi 530 min nəfərdir (*2018*). Mikroneziyanın quru ərazisi çox kiçik və əhalisi az saydadır (*600 min nəfər*). Makroregionun təbii sərvətləri məhduddur. Müəyyən miqdarda fosfor ehtiyatları mövcuddur ki, ayrı-ayrı makroregion ölkələri onun cüzi ixracını aparır. Bir sıra ölkələr ABŞ-ın maliyyə yardımlarından asılıdırlar. Əsas gəlir mənbəyi balıqçılıq və qismən də, turizmdən əldə olunur. İxtisaslı işçi qüvvəsi çatışmır. Yerli əhalinin ənənəvi məşğuliyyəti balıqçılıq və əkinçilikdir. Burada kokos, banan, şəkər çuğunduru ilə yanaşı, pandanus, yamsa, batata, manioka, toro kimi məhsullar da yetişdirilir. Mikroneziya həm də böyük dəniz iqtisadi zonaları ilə zəngindir.

Polineziya (*yunanca* - πολύς νῆσος - *çoxlu adalar*) Sakit Okeanın mərkəzi və cənub hissələrində mindən çox adanın təmsil olduğu makroregion qismində çıxış edir. Köklü əhali polinezeylər adlanır. Bir çox oxşar - dil, din və mədəni cəhətlərə malik bu əhali tarixən gecələr üzmək və ulduzlarla istiqamətləri müəyyən etmək bacarıqları ilə təcrübəli dənizçilər kimi formalaşmışlar. Buraya əsas ölkə və ərazilər kimi - Samoa, Amerika Samoası, Havay adaları (*ABŞ*), Niue, Kuk adası, Tokelau, Pasxi adası, Pitkern adası, Tonqa, Tuvalu, Fransa Polineziyası, Tubuai, Markiz adaları, İctimai adalar, Tuamotu, Qambe adası, Uollis və Futuna, Rotuma, Norfolk adası və s. daxildir. Ərazisi 26 000 km$^2$, əhalisi 700 min nəfərdir (*2018*). Əhali iki qrupdan - aborigen okeaniyalılardan və immiqrantlardan ibarətdir. İqtisadiyyatın əsasını (*20%*) kənd təsərrüfatı, balıqçılıq, mirvari və fosforit hasilatı təşkil edir. Qalan hissə emal, ticarət və xidmətlərin payına düşür. Gəlirlərin mühüm hissəsini vanil və kopra ixracı təşkil edir. Polineziyanın iqtisadiyyatı Fransa kapitalının nəzarəti altındadır. Makroregionda turizmdən gəlir əldə olunur.

***Əsas anlayışlar:***

**1. Dövlətlərin təsnifat əlamətlərinə görə bölgüsü** - ölkənin ölçüləri, siyasi sistemi, iqtisadi inkişaf səviyyəsi və digər makro kəmiyyət və keyfiyyət göstəricilərinə görə təsnifatlandırılmasıdır.

**2. Ölkələrin siyasi sistemə görə fərqlilikləri** - inzibati-ərazi quruluşuna görə - unitar, federativ, konfederativ, idarəetmə formasına görə - respublika - prezident və parlament və monarxiya - məhdud və mütləq, siyasi rejiminə görə - demokratik, avtoritar, totalitar.

**3. Ölkələrin tipoloji baxımdan təsnifatı** - "I dünya" - metropoliyalar - kapitalist dünyasının mərkəzləri, "II dünya" keçmiş sosialist düşərgəsi ölkələri, "III dünya" - inkişaf etməkdə olan ölkələr - müxtəlif səviyyəli kapitalist əyaləti ölkələri, "IV dünya" - Afrika və Asiyanın yoxsul ölkələridir.

**4. Ölkələrin SSRİ-nin dağılmasına qədər 3 əsas qrupu** - kapitalist, sosialist və inkişaf etməkdə olan ölkələr.

**5. Ölkələr qrupunun iqtisadi inkişaf baxımdan təsnifatı -** industrial ölkələr, keçid iqtisadiyyatı ölkələri və inkişaf etməkdə olan ölkələr.

**6. İqtisadi inkişaf səviyyəsinə görə ölkə qruplaşması göstəriciləri** - mütləq göstəricilər (*ÜDM, ÜMM, MG, sənaye istehsalının həcmi*), struktur göstəriciləri (*iqtisadiyyatın müxtəlif sektorlarında məşğulluğun nisbəti, YEB-in strukturu, ÜDM-də enerji tutumu, nəqliyyat növləri üzrə daşımalar*) və sosial göstəricilər (*orta uzunömürlülük, insan inkişafı indeksi, savadlılıq faizi, korrupsiyanın yayılması və kölgə iqtisadiyyatı, informasiyalaşma səviyyəsi*).

**7. Dünya bankının ölkələri gəlirlər həcminə görə təsnifatlandırması** - 4 kateqoriya: aşağı gəlirli ölkələr, aşağı orta gəlirli ölkələr, yüksək orta gəlirli ölkələr və yüksək gəlirli ölkələr.

**8. İnkişaf etmiş ölkələr** - iri elmi-texniki potensiala malik, dünya iqtisadiyyatında hakim mövqe tutan - ABŞ, Yaponiya, AFR, Böyük Britaniya, Fransa, İtaliya və Kanadadan ibarət ölkələr qrupudur.

**9. İnkişaf etməkdə olan ölkələr** - kapital və istehsal vasitələri çatışmazlığı, sahibkarlıqda və texniki təcrübədə məhdudluq, geridə qalan texnologiyalar, əhalinin yüksək artımı, savadlılığın nisbi aşağı və işsilyin yüksək səviyyəliyi, məşğulluğun daha çox kənd təssərüfatında mövcudluğu ilə xarakterik olan ölkələr qrupudur.

**10. Keçid iqtisadiyyatı ölkələri** - göstəricilərinə görə iqtisadi cəhətdən inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında keçid mövqeyi tutan müstəqil dövlətlər qrupudur.

**11. Yeni sənaye ölkələri, YSÖ** - son onilliklər ərzində sosial-iqtisadi gəstəricilərində keyfiyyət sıçrayışları baş verən, inkişaf etməkdə olan ölkələr qrupudur.

**12. Dörd Asiya Pələngi** - 1960-cı illərdən 1990-cı illərin qlobal maliyyə böhranına qədər çox yüksək iqtisadi inkişaf nümayiş etdirmiş Koreya Respublikası, Sinqapur, Honkonq və Tayvan.

**13. Şagird Nailiyyətlərinin Beynəlxalq Qiymətləndirilməsi Proqramı, PISA** - şagirdlərin təhsil nailiyyətlərinin qiymətləndirilməsi üzrə beynəlxalq proqramdır.

**14. Materik** - Yer kürəsinin quru hissəsinin dəniz və okean suları ilə əhatə olunmuş geniş ərazisidir.

**15. Kontinent, qitə** - Yer kürəsi səthinin dənizlərlə ayrılmayan quru hissəsidir.

**16. Makroregion** - dünya əhalisinin tarixən məkunlaşdığı kontinentlərin (*Antraktida istisna olmaqla*) inzibati, coğrafi, demoqrafik və digər prinsiplərlə regional ərazilərə bölünməsidir.

**17. Makroregionlar:** Avropada - Qərbi Avropa, Şimali Avropa, Cənubi Avropa və Şərqi Avropa, Asiyada - Qərbi Asiya, Mərkəzi Asiya, Cənubi Asiya, Şərqi Asiya və Cənub-şərqi Asiya, Afrikada - Şimali Afrika, Qərbi Afrika, Mərkəzi Afrika, Şərqi Afrika və Cənubi Afrika, Amerikada - Şimali Amerika, Mərkəzi Amerika, Karib hövzəsi və Cənubi Amerika. Avstraliya və Okeaniyada Avstraliya və Yeni Zelandiya, Melaneziya, Mikroneziya və Polineziya.

**18. Avropa** - Qərbi Avropa, Şimali Avropa, Cənubi Avropa və Şərqi Avropa regionlarından ibarət, 50-dən çox dövləti birləşdirən kontinental regiondur.

**19. Avropanın asılı əraziləri** - Aland adaları (*Finlandiya*), Hernsi (*Böyük Britaniya*), Cəbəlüttarix (*Böyük Britaniya*), Cersi adası (*Böyük Britaniya*), Men adası (*Böyük Britaniya*), Farer adaları (*Danimarka*), Şpisbergen (*Norveç*) və Yan-Mayendən (*Norveç*) ibarətdir.

**20. Avropada qismən tanınmış dini orden** - Malta ordenidir.

**21. Qərbi Avropa** - Avropanın 8 ölkəsini - AFR, Avstriya, Belçika, Luksemburq, Monako, Niderland, Fransa və İsveçrəni əhatə edən makroregiondur.

**22. Şərqi Avropa** - Avropanın tam və ya qismən 10 ölkəsini - Belarus, Bolqarıstan, Ukrayna, Qazaxıstan, Moldova, Polşa, Rusiya, Rumıniya, Çexiya və Slovakiyanı, Avropa və Asiyanın Böyük Qafqaz dağ silsələsi xətti ilə ayrılması yanaşmasında Azərbaycan və Gürcüstanı da əhatə edən makroregiondur.

**23. Şimali Avropa** - BMT-nin müvafiq bölgüsünə əsasən, Avropanın 10 ölkəsini - Böyük Brintaniya, Danimarka, İrlandiya, İslandiya, Latviya, Litva, Estoniya, Norveç, Finlandiya və İsveçi əhatə edən makroregiondur.

**24. Cənubi Avropa** - 18 ölkəni - İtaliya, İspaniya, Portuqaliya, Andorra, Monako, Vatikan, San-Marino, Yunanıstan, Malta, Kipr, Şimali Kipr, Albaniya, Bosniya-Herseqovina, Xorvatiya, Monteneqro və Serbiyanı əhatə edən makroregiondur.

**25. Asiya** - Qərbi Asiya, Mərkəzi Asiya, Cənubi Asiya, Şərqi Asiya və Cənub-şərqi Asiya makroregionlarından ibarət 55 dövləti birləşdirən kontinental regiondur.

**26. Qərbi Asiya** - Azərbaycan, Türkiyə, Şimali Kipr Türk Respublikası, Fələstin dövləti, Gürcüstan, Əfqanıstan, Ermənistan, Bəhreyn, Misirin Sinan yarımadası hissəsi, İsrail, İordaniya, İran, İraq, Yəmən, Qətər, Kipr, Küveyt, Livan, BƏƏ, Oman, Səudiyyə Ərəbistanı və Suriyanı əhatə edən makroregiondur.

**27. Mərkəzi Asiya** - Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan, və Tacikistanı (*UNESCO-nun təyinatında isə buraya Monqolustan, Qərbi Çin, Qərbi Hindistan, Pəncab və Kəşmir bölgələri, Şimali Pakistan, Şimal-şərqi İran və Əfqanıstan da əlavə olunur*) əhatə edən makroregiondur.

**28. Cənubi Asiya** - Hindistan yarımadasını, Dekan yaylasını, Hind-Qanq vadisini, Himalay dağlarını, Şiri-Lanka adasını və bir sıra digər yaxın adaları və buraya daxil olan Hindistan, Pakistan, Banqladeş, Şri-Lanka, Maldiv, Nepal və Butanı əhatə edən makroregiondur.

**29. Şərqi Asiya** - CXR, Çin Respublikası (*Tayvan*), Yaponiya, KXDR, Koreya Respublikası, Monqolustan və Rusiya Federasiyasının Uzaq Şərq regionunu əhatə edən makroregiondur.

**30. Cənub-şərqi Asiya** - Hind-Çin yarımadası, Malay arxipelağqı və Asiya-Sakit okean regionunun bir hissəsinin daxil olduğu Vyetnam, Kamboca, Laos, Myanma, Tailand, Bruney, Şərqi Timor, İndoneziya, Sinqapur, Filippin və Malaziyanı əhatə edən makroregiondur.

**31. Afrika** - Şimali Afrika, Qərbi Afrika, Mərkəzi Afrika, Şərqi Afrika və Cənubi Afrika regionlarından ibarət, 55 dövləti birləşdirən kontinental regiondur.

**32. Şimali Afrika** - 9 ölkə - Əlcəzair, Misir, Liviya, Tunis, Mavritaniya, Mərakeş, Sudan Respublikası, Cənubi Sudan və İspaniya ərazisi Qərbi Saxaranı əhatə edən (*bəzən Kanar adaları, Eriteriya, Həbəşistan və Madeyra da buraya daxil edilir*) makroregiondur.

**33. Qərbi Afrika** - 16 ölkə - Benin, Burkino-Faso, Qambiya, Qana, Qvineya. Qvineya-Bisau, Kabo-Verde, Kot-d-İvuar, Liberiya, Mavritaniya, Mali, Niger, Nigeriya, Seneqal, Serra-Leon və Toqonu əhatə edən makroregiondur.

**34. Mərkəzi Afrika** - 9 ölkəni - Anqola, Qabon, Kamerun, Demokratik Konqo Respublikası, Konqo Respublikası, San-Tome və Prinsipi, MAR, Çad və Ekvatorial Qvineyanı əhatə edən makroregiondur.

**35. Şərqi Afrika** - Misir, Sudan Respublikası və Cənubi Sudan istisna olmaqla, Nil çayından şərqdə yerləşən 15 Afrika ölkəsini - Burundi, Cibuti, Keniya, Komor, Madaqaskar, Mavrikiya, Mozambik, Ryunon, Ruanda, Seyşel adaları, Somali, Tanzaniya, Uqanda, Eriteriya, Həbəşistanı əhatə edən makroregiondur.

**36. Cənubi Afrika** - 9 ölkəni - Bostvana, Lesoto, Nambiya, Svazilend, CAR Zambiya, Zimbabve, Mayotta və Maslavini əhatə edən makroregiondur.

**37. Amerika** - Şimali Amerika, Mərkəzi Amerika, Karib hövzəsi və Cənubi Amerika regionlarından ibarət, 36 dövləti və 17 asılı ərazini birləşdirən kontinental regiondur.

**38. Şimali Amerika** - böyük materik çərçivəsində 23 ölkəni - Antiqua-Barbuda, Baham, Barbados, Beliz, Haiti, Qvatemala, Honduras, Qrenada, Dominika, Dominikan Respublikası, Kanada, Kosta-Rika, Kuba, Meksika Birləşmiş Ştatları, Nikaraqua, Panama, Salvador, Trinidad və Tobaqo, Sent-Lyuis, Sent-Vinsent və Qrenadin, Sent-Kits və Nevis, ABŞ və Yamaykanı əhatə edən makroregiondur.

**39. Mərkəzi Amerika** - 6 ölkəni - Beliz, Qvatemala, Honduras, Kosta-Rika, Nikaraqua, Panama və Salvadoru əhatə edən makroregiondur.

**40. Karib hövzəsi** - 11 əsas ölkəni - Antiqua-Barbuda, Baham, Barbados, Haiti, Qrenada, Dominika, Dominikan Respublikası, Kuba, Trinidad və Tobaqo, Sent-Kits və Nevis, Sent-Lyuis, Yamayka və bir sıra asılı əraziləri əhatə edən makroregiondur.

**41. Cənubi Amerika** - 12 ölkəni - Argentina, Boliviya, Braziliya, Venesuela, Qayana, Kolumbiya, Paraqavay, Peru, Surinam, Uruqvay, Çili, Ekvador və Böyük Britaniya ilə Argentina arasında mübahisəli ərazi olan Folklend adalarını, həmçinin, Böyük Britaniyaya mənsub Cənubi Corciya və Cənubi Sandviç adalarını əhatə edən makroregiondur.

**42. Avstraliya və Okeaniya** - Avstraliya və Yeni Zelandiya, Melaneziya, Mikroneziya və Polineziya regionlarından ibarət, 14 dövləti birləşdirən kontinental regiondur.

**43. Avstraliya və Yeni Zelandiya** - Avstraliya və Okeaniyaya mənsub iki ölkə - Avstraliya və Yeni Zelandiyanın daxil olduğu makroregiondur.

**44. Melaneziya** - Avstraliyanının Şimal-şərqində, Sakit okeanda yerləşən 8 adalar qrupunu - Yeni Kaledoniya, Yeni Qivineya, Solomon adaları, Vanuatu, Fidci, Bismar Arxipelağı, Santa-Krus adası və Loyaltini əhatə edən makroregiondur.

**45. Mikroneziya** - Okeaniyanın bir hissəsini əhatə edərək Marian, Karolin, Marşall, Hilbert və Nauru adalarından ibarət makroregiondur.

**46. Polineziya** Sakit Okeanın mərkəzi və cənub hissələrində mindən çox adanın təmsil olduğu - əsas ölkə və ərazilər kimi - Samoa, Amerikan Samoası, Havay adaları (*ABŞ*), Niue, Kuk adası, Tokelau, Pasxi adası, Pitkern adası, Tonqa, Tuvalu, Fransa Polineziyası, Tubuai, Markiz adaları, İctimai adalar, Tuamotu, Qambe adası, Uollis və Futuna, Rotuma, Norfolk adası və s.-dən ibarət makroregiondur.

# VI FƏSİL

# Coğrafi yaxın və oxşar iqtisadiyyatlı ölkələr qrupları

## 6.1. Ölkə qrupları və onların dünya iqtisadiyyatının inkişafındakı rolu

Ölkə təsnifatlandırmaları ilə yanaşı, dünyada onların müəyyən qruplar daxilində bölgüsü də mövcuddur. Bu qruplar arasında siyasi-iqtisadi, hərbi və əhali potensialı ilə fərqlənən inkişaf etmiş ölkələrin beynəlxalq klubu "Böyük yeddilik" ön sırada dayanır. Bundan başqa, bu və ya digər məqsədlərdən irəli gələrək ölkələr "Böyük iyirmilik", İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, Dinamik inkişaf edən ölkələr qurupu, Tərəfsiz Dövlətlər Hərəkatı, "77 qrupu", "Onbirlər qrupu", D-8 İqtisadi Əməkdaşlıq Təşkilatı və digər qruplarda təmsil olunmuşlar.

"Böyük yeddilik" (*Group of seven, G7*) qrupuna ABŞ, Böyük Britaniya, AFR, Fransa, İtaliya, Yaponiya və Kanada daxildir. Üzv ölkələrin liderlərinin qeyri-rəsmi forumlarında Avropa Komissiyası da iştirak edir. "Böyük yeddilik" həmin qrupa daxil olan ölkələrin liderlərinin beynəlxalq aktual problemlərə yanaşmalarda razılaşmalarını həyata keçirən qeyri-rəsmi forum da adlandırırlar. "Böyük yeddilik" beynəlxalq təşkilat statusuna malik deyildir. O, beynəlxalq müqavilələr əsasında yaradılmamışdır, nizamnamə və katibliyi də yoxdur. Bu baxımdan burada qəbul etdilən qərarlar da mütləq gücə malik deyil. "Böyük yeddilik" öncə "Böyük altılıq" formatında fəaliyyət göstərmişdir. Onun ilk iclası ABŞ, Böyük Britaniya, AFR, Fransa, İtaliya və Yaponiyanın təmsilçiliyi ilə 1975-ci ilin 15-17 noyabrında Fransada maliyyə nazirləri səviyyəsində keçirilmişdir. 1976-ci ildə "Böyük altılıq"a ABŞ-la sıx siyasi-iqtisadi əməkdaşlıqda olan neytrallaşdırıcı və balanslaşdırıcı element funksiyalarını yerinə yetirən Kanada da cəlb edilmişdir. Beləliklə, "Böyük altılıq" "Böyük yeddilik"ə çevrilmişdir. Lakin Kanada, öz tarixi xüsusiyyətləri insan, sənaye potensialı və xarici iqtisadi əlaqələr kompleksinə görə, digər tip dövlətlərə aid olunur. Məsələn, "Beşyüzlər" klubunun kapital iştirakında altıların sonuncusu İtaliyadan 5-dəfə və eyni zamanda, müəyyən qədər də İsveç, İsveçrə, Avstraliya, Koreya Respublikasından da geri qalır. Sovet İttifaqının süqutundan sonra onun varisi rolunda çıxış edən Rusiya

dünya arenasına yeni keyfiyyətdə bazar prinsiplərini qəbul etmiş bir ölkə kimi daxil olmuş, ABŞ və Qərblə yaxınlaşma, iqtisadi əməkdaşlıq kursu götürmüşdür. Rusiyanın böyük iqtisadi potensialını, hərbi-siyasi çəkili dövlət olduğunu və digər bu kimi mühüm cəhətlərini də nəzərə alaraq "7-lər" kulubunun müəyyən işlərində onun iştirakı təmin edilmiş və beləliklə, "Böyük yeddilik", formal olaraq, "Böyük səkkizlik"ə (*Group of eight, G8*) - (*7+1*) çevrilmişdir. "Böyük səkkizlik" ölkələrinin iştirakı ilə hər il müvafiq toplantılar keçrilmiş, lakin 2014-cü ildə "Krım" böhranı ilə əlaqədar Rusiya qrupun fəaliyyətində iştirakdan xaric edilmişdir.

"Böyük iyirmilik" (*ingiliscə* - Group of Twenty Finance Ministers and Central Bank Governors, G20 - *maliyyə nazirləri və mərkəzi bank rəhbərlərinin iyirmilər qrupu*) adlanan bu qrup Aİ və 19 ölkə - ABŞ, Böyük Britaniya, Fransa, AFR, İtaliya, Yaponiya, Kanada, Rusiya, CXR, Hindistan, Türkiyə, Səudiyyə Ərəbistanı, CAR, İndoneziya, Avstraliya, Koreya Respublikası, Meksika, Brazilya və Argentinanı əhatə edərək, iqisadiyyatın və maliyyə siyasətinin mühüm məsələləri üzrə inkişaf etməkdə olan ölkələrlə dialoq aparmaq üçün həmin dövlətlərin maliyyə nazirlərinin təşəbbüsü ilə 1999-cu ilin 15-16 dekabrında Berlində təsis olunmuşdur. "Böyük iyirmilik" müasir dünya ÜDM-nin 85%-ni verir. Dünya əhalisin $^2/_3$-nin yaşadığı bu ölkələr coğrafiyası planetin bütün yaşıl kontinentlərini əhatə edir. Yarandığı gündən ara-sıra toplantılar keçirən "Böyük iyirmilik" dövlət başçıları səviyyəsində ilk sammitini müasir qlobal maliyyə böhranı ilə bağlı onun yaranış mərkəzi ABŞ-da, paytaxt Vaşinqtonda 15 noyabr 2008-ci ildə reallaşdırmışdır. G20 qlobal dünyanı narahat edən müxtəlif çağırışlara cavab vermək gücünə malik əlverişli platformadır. Birliyin 2015-ci ildə Türkiyənin Antalya şəhərində keçirilən sammitində xüsusi dəvətlə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də iştirak etmişdir.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, İƏİT (*Organisation for Economic Co-operation and Development, OECD*) mötəbər demokratiya və azad bazar iqtisadiyyatı prinsiplərini tanıyan inkişaf etmiş ölkələrin beynəlxalq iqtisadi təşkilatıdır. 1961-ci ildə təsis edilmişdir. Təşkilat 34 üzv ölkəni - ABŞ, AFR, Avstraliya, Avstriya, Belçika, Böyük Britaniya, Koreya Respublikası, Çexiya, Türkiyə, Danimarka, Finlandiya, Fransa, İrlandiya, İslandiya, İspaniya, İsveçrə, İsveç, İtaliya, İsrail, Kanada, Lüksemburq, Macarıstan, Meksika, Niderland, Norveç, Polşa, Portuqaliya, Slovakiya, Sloveniya, Yaponiya, Yeni Zelandiya, Yunanıstan, Çili və Estoniyanı birləşdirir. İƏİT 1948-ci ildə II Dünya Müharibəsindən sonra Qərbi Avropa iqtisadiyyatının bərpası üzrə "Marşall planı"nın həyata keçirilməsi üçün yaradılmış Avropa İqtisadi Əməkdaşlıq Təşkilatının davamçısıdır. İƏİT-in fəaliyyətinin məqsədi üzv ölkələrin sosial-iqtisadi inkişafına kömək göstərilməsi, daha effektiv iqtisadi siyasətin hazırlanmasıdır. Bu məqsədlərə nail olunması üzv ölkələrin makroiqtisadi siyasıtinin çoxtərəfli koordinasiyası əsasında qurulur. Burada bütün qərarlar konsensus əsasında qəbul edilir. Mənzil-qərargahı Fransanın paytaxtı Paris şəhərindədir.

Dinamik inkişaf edən ölkələr qrupu, BRICS (*ingiliscə* - BRICS - Brazil, Russia, India, China, South Africa - *sürətlə inkişaf etməkdə olan beş ölkə: Braziliya, Rusiya, Hindistan, ÇXR və Cənubi Afrika Respublikasının adlarının abberviaturası*) Braziliya, Rusiya, Hindistan, ÇXR və CAR-ın təmsil olunduğu dinamik inkişaf edən ölkələr qrupudur. BRICS abberiviaturasının ingilis transkripsiyasında "brick" - "kərpic" sözünə oxşarlığı onun həm də möhkəmlik simvolu kimi tərənnümünə imkan verir. Anlayış 2001-ci ildə maliyyə konqlomeratı "Qoldman Saks"qrupunun (*Goldman Sachs*) qlobal iqtisadi tədqiqat mərkəzinin rəhbəri Cim O`Nilin sürətlə inkişaf edən ölkələr dördlüyünü - Braziliya, Rusiya, Hindistan və ÇXR-i - BRİC adlandırmaq haqqındakı mülahizəsi ilə dövriyyəyə gəlmişdir. XXI əsrin ortalarında dünya iqtisadiyyatının vəziyyətinin proqnozuna həsr edilmiş "BRİC-lə birgə arzular" adlı məruzədə deyilirdi ki, dörd ölkə ən dinamik iqtisadiyyata sahiblik edəcək, bu zaman ÇXR və Hindistan ÜDM-in ölçüsünə görə qlobal liderlər üçlüyündə qərar tutacaq, Rusiya və Braziliya irəliyə ancaq ABŞ və Yaponiyanı buraxaraq, altılığa daxil olacaqdır. Bununla yanaşı, ABŞ-ın Kəşfiyyat üzrə Milli Şurasının "2025-ci ilin qlobal meyilləri: dəyişən dünya" başlıqlı məruzəsində də dünyanı gələcəkdə çoxqütblük gözlədiyi bildirilmiş və səhnədə ABŞ-la yanaşı ÇXR və Hindistanın da iqtisadi nəhənglər kimi çıxış edəcəyi göstərilmişdir. Burada, həmçinin, bildirilmişdir ki, Rusiya modernləşmə yoluna çıxa bilsə, o, dəfələrlə güclənəcəkdir. Bu çevrədə Braziliyanın perspektivləri isə daha şübhəli qiymətləndirilmiş və etiraf edilərək göstərilmişdir ki, 2040-2050-ci illərdə BRICS ölkələrində ÜDM "Böyük yeddilik"dəkindən çox olacaqdır. 2011-ci ildə CAR-ın BRIC-ə birləşməsi ilə əlaqədar olaraq, qrup BRICS adını almışdır. Bu ölkələr qrupunun iqtisadi potensialının strukturuna nəzər yetirdikdə görərik ki:

1. Braziliya kənd təsərrüfatı məhsulları ilə zəngindir.
2. Rusiya mineral resursların dünyada ən böyük ixracatçısıdır.
3. Hindistan ucuz intellektual resurslara malikdir. Bu, ölkənin çoxsaylı əhalisi onu perspektiv satış bazarına və dünya iqtisadiyyatı üçün böyük insan resursları ehtiyatına çevirir. Hökumətin son onilliklərdə səyi nəticəsində əhalinin təhsil səviyyəsi xeyli artmışdır ki, bu da Hindistana dünya informasiya texnologiyaları sənayesində mühüm yer tutmağa imkan vermişdir.
4. ÇXR ucuz əmək resurslarına sahibdir və dünya ixracında özünün sənaye məhsulları, ofis və telekommunikasiya avadanlıqları ilə qabaqcıl mövqelərə çıxmışdır. Toxuculuq kimi seriyalı sənaye məhsulunun dünya ixracında da ÇXR lider mövqe tutur.
5. CAR isə təbii resurslar baxımından əhəmiyyət daşıyır.

Dünyanın quru sahəsinin 26%-nin və əhalisinin 42%-nin yaşadığı ölkələrin yaratdığı bu təşkilat qlobal iqtisadiyyatın 20%-ni əlində cəmləşdirir. BRICS ölkələri arasında ümumi ticarət həcmi 6 trilyon ABŞ dollarından çoxdur. Bu da dünya ticarət həcminin təxminən 17%-i deməkdir. Braziliya, Rusiya, Hindistan və ÇXR dünya buğda istehsalının 40%-ə (*260 milyon ton*) yaxınını təmin edirlər. Burada, həmçinin, dünya

üzrə donuz ətinin 50%-i (*50 milyon ton*), quş ətinin 30%-i (*30 milyon tondan artıq*) və eyniliklə də mal ətinin 30%-i (*20 milyon tona qədər*) istehsal olunur. Perspektivdə ÇXR-in dünya bazarında sənaye malları, Hindistanın isə iri xidmətlər üzrə əsas tədarükçü olacağı gözlənilir. Bununla yanaşı, Rusiya və Braziliyanın ÇXR və Hindistan üçün əsas xammal tədarükçüləri kimi hakim mövqe tutacağı gözlənilir ki, nəticədə, həmin ölkələr də yüksək iqtisadi artıma nail olacaqlar.

Dünyada yeni güc mərkəzi formalaşdırmaq istəyən BRICS ölkələri qlobal iqtisadiyyatda DB və BVF-yə güclü rəqib olacaq, 100 milyard dollar büdcəyə malik, mərkəzi ÇXR-in paytaxtı Şanxay şəhərində yerləşəcək İnkişaf Bankı yaratmaqdadırlar. Bank əhatəsini genişləndirərək BRICS ölkələrindən başqa Meksika, Argentina və İndoneziya kimi sürətlə inkişaf etməkdə olan ölkələr üçün də açıq olacaqdır.

Hadisələr göstərir ki, yeni üzv ölkələr hesabına BRICS-in heyəti daha da genişlənəcəkdir. Bu sırada Türkiyə və İndoneziya daha şanslı görünürlər. Təşkilatın 2018-ci ildə Yohannesburqda keçirilən X sammitinə Türkiyənin dəvət edilməsi onun yaxın gələcəkdə bu ölkələr qrupuna qatılacağından xəbər verir. Belə olan təqdirdə təkilatın abbreviaturasının BRICST-ə çevriləcəyi bir reallıq olacaqdır.

**Cənubi Afrika Respublikası - CAR** (*ingiliscə* - Republic of South Africa - *Cənubi Afrika Respublikası*) Afrika qitəsinin cənubunda yerləşən dövlət. CAR dövlətçilik tarixi başlanğıcını 1910-ci ildən alır. Bunula belə, Cənubi Afrika İttifaqı Böyük Britaniyanın başçılıq etdiyi Millətlər Birliyindən çıxandan sonra ölkənin yeni müstəqillik tarixi 31 may 1961-ci ildən başlanır. Paytaxtı - Keyptaun (*qanunverici*), Petoriya (*inzibati*), Blumfonteyn (*məhkəmə*) şəhərləridir. Rəsmi dilləri ingilis, afrikaans, alman, ndbele, zulu, kosa, svati, şimali soto, qərbi soto, tsvana, tsonqa dilləridir. Unitar quruluşludur və parlament respublikasıdır. G20 qrupuna daxildir. Milli valyutası randır. Konfessial sistemi (*xristianlar, yerli dinlər, müsəlmanlar və ateistlər*) qarışıqdır.



Ərazisi 1 219 912 km$^2$, əhalisi 56,2 milyon nəfərdir (*2018*).

1994-cü ilə qədər ölkədə azlıq təşkil edən ağ irqin nümayəndələri tərəfindən idarə olunub. XX əsrdə uzun müddət ölkədə aparteidə qarşı (*vətəndaşların irqi mənsubiyyətinə görə rəsmi olaraq ayrı-ayrı yaşamasını tətbiq edən*) və demokratik prinsiplərin bütün etnik qruplara tətbiq edilməsi uğrunda mübarizə aparılmışdır. Bu mübarizənin ön sırasında 27 il həbsxana həyata keçirərək, nəhayət, 1994-1999-cu illərdə ölkə prezidenti seçilmiş, məşhur insan haqları carçısı, Nobel sülh mükafatı laureatı Nelson Mandela (*1918-2013*) olmuşdur.

CAR Afrika qitəsində iqtisadi cəhətdən ən inkişaf etmiş ölkə sayılır. İqtisadiyyatda xidmətlər 67,5%, sənaye 29,7%, kənd təsərrüfatı 2,8% paya malikdir. ÜDM 319,0 milyard ABŞ dolları, adambaşına ÜDM 5261 ABŞ dollarıdır. İnflyasiya 3,8%, işsizlik səviyyəsi 27,7%, yoxsulluq səviyyəsi 16,6%-ə bərabərdir. Xarici borc 173,3 milyard ABŞ dolları (*ÜDM-in 54,3%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 39,5%-nə bərabərdir (*2017*).

İqtisadiyyatda maliyyə və sənaye sektoru güclüdür. CAR faydalı qazıntıların aparıcı ixracatçısıdır. Bununla belə, valyuta gəlirlərinin əsas mənbəyi turizm sahəsidir. Kənd təsərrüfatı torpaqlarının böyük hissəsinə ağ irqin nümayəndələri sahibdir.

Azərbaycanla CAR arasında diplomatik əlaqələr 29 aprel 1992-ci ildə qurulmuşdur. 2011-ci ilin 16 avqust tarixindən Azərbaycan Respublikasının CAR-da səfirliyi fəaliyyət göstərir. İki ölkə arasında xarici ticarət dövriyyəsinin həcmi 70-80 milyon ABŞ dollarına bərabərdir.

**Braziliya Federativ Respublikası - Braziliya** (*portuqalca* - República Federativa do Brasil - *Braziliya Federativ Respublikası*) Cənubi Amerikanın ən böyük ölkəsi. Braziliya dövlətçilik tarixi başlanğıcını 7 sentyabr 1822-ci ildən alır. Bununla belə, Braziliyanın respublika tarixi 1889-cu ildən başlanır. Paytaxtı Braziliya şəhəri, rəsmi dili portuqal dilidir. Federativ quruluşludur. G20 qrupuna daxildir. Milli valyuta Braziliya realıdır.



Ərazisi 8 515 770 km$^2$, əhalisi 213,4 milyon nəfərdir (*2018*).

Coğrafi ərazisinə və əhali sayına görə Braziliya dünyada 5-ci yeri tutur. Ölkədə əhali artımı çox yüksəkdir. Əhali 4 etnik qrupda birləşir: Yerli qırmızıdərililər, kolonizator portuqaliyalılar, Afrika zənciləri və 1850-ci ildən bəri Avropa və digər məmləkətlərdən gələn immiqrantlar. Siyahıyaalma qeydlərinə görə, əhalinin 62%-i ağlar, 11%-i zəncilər, 27%-i qəhvəyi dərililərdən ibarətdir.

İqtisadiyyatda xidmətlər 72,8%, sənaye 21,0%, kənd təsərrüfatı 6,2% paya malikdir. ÜDM 2,1 trilyon ABŞ dolları, adambaşına ÜDM 8727 ABŞ dollarıdır. İnflyasiya 2,7%, işsizlik səviyyəsi 12,9%, yoxsulluq səviyyəsi 3,7%-ə bərabərdir. Xarici borc 556,4 milyard ABŞ dolları (*ÜDM-in 27,0%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 52,3%-nə bərabərdir (*2017*).

Braziliya flora və faunasının zənginliyin ilə fərqlənir. Ölkədən axan böyük Amazon çayı dünyanın ən geniş və çoxsulu çayıdır, həmçinin, nəqliyyat üçün əlverişlidir. Dənizə töküldüyü yerdə müxtəlif kanallar və bir çox adalar meydana gətirir. Ən böyük ada Marajo Adası olub, ərazisi 26 km$^2$dir.

Braziliya iqtisadiyyatı II Dünya Müharibəsindən sonra qısa bir durğunluq keçirməsinə baxmayaraq, sonradan böyük bir inkişaf göstərmişdir. Ölkə zəngin mədən yataqlarına, qızıl, almaz, dəmir ehtiyatlarına, geniş həcmli polad istehsalı sahəsinə, kağız, şüşə, təkər, plastik s. emal sektoruna malikdir.

Ölkədə rəqabətqabiliyyətli sərnişin təyyarələri istehsalı yaradılmışdır. Braziliya istehsalı olan kiçik və orta tutumlu "Embraer" adlı təyyarələrə indi dünyanın bir çox ölkəsində rast gəlmək mümkündür. Sənayedə elektrik və enerji ehtiyacını önləmək üçün SES-lərdən geniş istifadə olunur. Sənayesinin inkişafına baxmayaraq, Braziliya, ümumiyyətlə, əkinçilik ölkəsidir. Burada maldarlıq da yüksək inkişaf etmişdir. Braziliya dünyanın ən böyük qəhvə istehsalçısı və ixracatçısıdır. Braziliyada pambıq istehsalı da inkişaf etmişdir.

Qiymətli taxta-şalbanlıq ağaclar, düyü, paxla, pambıq, qəhvə, şəkər qamışı, kakao

və qarğıdalı ölkənin başlıca kənd təssərüfatı məhsullarıdır. Bununla belə, ölkədə müəyyən miqdar portağal, banan, yerfıstığı, tütün, lif və bəzi tərəvəzlər yetişdirilir. Braziliyada meşələrdəki araucaria ağaclarından taxta-şalban istehsalında geniş şəkildə istifadə edilir. İxracatda dəmir filizi, ayaqqabı, kofe, avtomil və təyyarələr mühüm yer tutur.

Braziliyada nəqliyyat sistemi inkişaf etdirilir, müasir hava limanları qurulur. Amazon çayı və qolları üzərində gəmiçilik təkmilləşdirilir.

Braziliyada idmanın müxtəlif növləri inkişaf etmişdir. Braziliyalılar xüsusilə futbolda dünyada söz sahibidir. Onlar 1958, 1962, 1970, 1994, 2002-ci illərdə Dünya Kubokunu qazanmışlar.

26 dekabr 1991-ci ildə Braziliya Azərbaycan Respublikasının müstəqilliyini tanımışdır. 21 oktyabr 1993-ci ildə ölkələrimiz arasında diplomatik əlaqələr qurulmuşdur. Azərbaycanla iqtisadi əlaqələri genişlənir. İki ölkə arasında xarici ticarət dövriyyəsinin həcmi 220-230 milyon ABŞ dollarına bərabərdir.

Tərəfsiz Dövlətlər Hərəkatı (*ingiliscə* - Non-Aligned Movement - NAM - *Bloklara Qoşulmamaq Hərəkatı*) hərbi bloklarda iştirak etməmək prinsipləri üzrə dünyanın 120 dövlətini (*53 ölkə Afrika, 37 Asiya, 26 Latın Amerikası, 3 Okeaniya və 1 Avropa*) birləşdirən beynəlxalq təşkilatdır. Qoşulmama Hərakatı adı ilə tanınır. Yaradılması ideyası İndoneziyada 1955-ci ildə Bandonq konfransında irəli sürülmüş, 1961-ci ildə Belqrad konfransında rəsmi təsis olunmuşdur. BMT-dən sonra dünyanın ikinci böyük təşkilatıdır. Azərbaycan 2019-2022-ci ildə Qoşulmama Hərəkatına ev sahibliyi edəcəkdir.

“77 qrupu” və ya “Yetmişyeddilər qrupu” (*Group of Seventy Seven, G-77*) - inkişaf etməkdə olan ölkələrin BMT və onun orqanları çərçivəsində fəaliyyət göstərən iri dövlətlərarası təşkilatıdır. Qruplaşmanın yaradılması qərarı 1964-cü ildə Asiya, Afrika və Latın Amerikasının inkişaf etməkdə olan ölkələrinin müşavirəsində qəbul edilmiş, həmin il iyunun 15-də Cenevrədə keçirilən UNCTAD birinci sessiyasında rəsmiləşdirilmişdir. Yarandığı zaman yeni təşkilatın üzv ölkələrinin sayı 77-yə bərabər olsa da, onların sayı BMT-nin tərkibinə yeni ölkələr daxil olduqca artmışdır. Qrupun ilk toplanısı 25 oktyabr 1967-ci ildə Əlcəzair şəhərində təşkil edilmişdir. “77-lər qrupu”nun fəaliyyətinin əsasını inkişaf etməkdə olan ölkələr arasında ticarət-iqtisadi, maliyyə və texniki əməkdaşlıq, həmçinin, BMT orqanlarının və onun çərçivəsində fəaliyyət göstərən konfrans və yığıncaqlarda, ölkələrin və onların əhalisinin ticarət, sənaye, kənd təsərrüfatı, təhsil, elm və texnika kimi sahələrini əhatə edən beynəlxalq sosial-iqtisadi münasibətlərin problemləri üzrə başqa beynəlxalq qurultay və forumlarda müştərək mövqelərinin hazırlanması, razılaşdırılması və koordinasiyası təşkil edir. “77-lər qrupu”na üzv ölkələrin “Cənub-Cənub” layihəsi çərçivəsində əməkdaşlığının məqsədi Cənub xalqlarının rifahını təmin etmək olub, qrupun bütün üzv ölkələrinin həmrəyliyinin və birliyinin möhkəmləndirilməsi və yardımı mexanizmidir, onların layihəyə sədaqətini və ümumi məqsədə nailolmanı

təmin edir. "Şimal-Cənub" istiqamətli danışıqların və dialoqun məqsədi inkişaf etməkdə olan və inkişaf etmiş ölkələrin qlobal tərəfdaşlığı əsasında bütün ölkələrin inkişafı məqsədilə əməkdaşlıqdır. Bu dialoq çərçivəsində "77-lər qrupu" inkişaf etmiş ölkələri inkişaf etməkdə olan ölkələrin qlobal problemləri və qlobal iqtisadi idarəetmə məsələləri üzrə böyük inteqrasiyaya və kooperasiyaya nail olmağa çağırır.



**Panama Respublikası - Panama** (*ispanca* - República de Panamá - *Panama Respublikası*) Mərkəzi Amerikada ölkə. Panama dövlətçilik tarixi başlanğıcını 1510-ci ildən alır. Bununla belə, uzun müddət Kolumbiyanın tərkibində olmuş ölkənin yeni müstəqillik tarixi 3 noyabr 1903-ci ildən başlanır. Paytaxtı Panama şəhəri, rəsmi dili ispan dilidir. Prezident respublikasıdır. Pul vahidləri balboa və dollardır.

Ərazisi 78 200 km$^2$, əhalisi 4,1 milyon nəfərdir (*2018*).

İqtisadiyyatda xidmətlər 77,9%, sənaye 18,7%, kənd təsərrüfatı 3,4% paya malikdir. ÜDM 52,1 milyard ABŞ dolları, adambaşına ÜDM 13,7 min ABŞ dollarıdır. İnflyasiya 0,6%, işsizlik səviyyəsi 5,6%, yoxsulluq səviyyəsi 23,0%-ə bərabərdir. Xarici borc 18,3 milyard ABŞ dolları (*ÜDM-in 35,1%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 39,8%-nə bərabərdir (*2017*).

Panama iqtisadiyyatı, başlıca olaraq, Cənubi Amerika və Şimali Amerikanı ayıran məşhur Panama kanalının istismarına, buradakı müqabil bank və şığorta sisteminə və turizmə əsaslanır. Bu sektorlar ölkə iqtisadiyyatının 30-40%-ni verir və burada məşğul əhalinin $^2/_3$ hissəsi cəmləşmişdir.

Sənaye sahələri olaraq tikinti materialları, pivə və qənd istehsalı çıxış edirlər. Kənd təsərrüfatı sahələrində maldarlıq üstünlük təşkil edir, banan, qarğıdalı, kofe, şəkər qamışı yetişdirilir.

Ölkə banan, krevetka, qənd, kofe, geyim ixrac edir, sənaye və kimya məhsulları, istehlak malları idxal edir.

Panama turizm cəlbediciliyi ilə də fərqlənir. ABŞ-ın "New York Time" qəzetinin 2012-ci il üçün "Dünyanın görməli yerləri" siyahısında Panama birinci yerdə qərar tutmuşdur.

Panama Azərbaycanın müstəqilliyini 1992-ci il yanvarın 3-də tanımışdır. İki ölkə arasında diplomatik əlaqələr 1995-ci ilin aprel ayının 6-da qurulmuşdur. Hələlik iki ölkə arasında səfirlik səviyyəsində rəsmi münasibətlər yaradılmamışdır. Lakin iqamətgahı başqa ölkədə olmaqla Azərbaycan Respublikasının Panama Respublikasında fövqəladə və səlahiyyətli səfiri var. Belə ki, Azərbaycan Respublikasının Meksika Birləşmiş Ştatlarındakı səfiri, həmçinin, Panama Respublikasında da akkreditə olunmuşdur. İki ölkə arasında illik xarici ticarət dövriyyəsi 15-16 milyon ABŞ dolları təşkil edir.



**Yamayka** (*ingilicə* - Jamaica - *Yamayka*) Mərkəzi Amerika, Karib dənizi sahillərində, Böyük Antillər adlanan adalarda yerləşən

ada dövləti. Yamayka dövlətçilik tarixi başlanğıcını 1509-cu ildən alır. Bunula belə, uzun müddət Böyük Britaniyanın tərkibində olmuş ölkənin yeni müstəqillik tarixi 6 avqust 1962-ci ildən başlanır. Paytaxtı Kinqston şəhəri, rəsmi dili ingilis dilidir. İdarəetmə üsulu konstitusiya monarxiyası üzərində qurulmuşdur. Milli valyutası Yamayka dollarıdır.

Ərazisi 10 991 $km^2$, əhalisi 2,8 milyon nəfərdir (*2018*).

İqtisadiyyatda xidmətlər 71,2%, sənaye 21,3%, kənd təsərrüfatı 6,0% paya malikdir. ÜDM 14,2 milyard ABŞ dolları, adambaşına ÜDM 4931 ABŞ dollarıdır. İnflyasiya 3,9%, işsizlik səviyyəsi 12,5%, yoxsulluq səviyyəsi 16,5%-ə bərabərdir. Xarici borc 13,9 milyard ABŞ dolları (*ÜDM-in 97,8%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 47,3%-nə bərabərdir (*2017*).

Sənayedə əsas yeri boksit istehsalı tutur. Kvars qumu, qızıl və gümüş hasil edilir. Kənd təsərrüfatı məhsulları emal edilir, rom içkisi və geyim paltarları istehsal olunur. Ölkədə şəkər qamışı, banan, kofe, sitrus meyvələri yetişdirilir. Quşçuluq və keçi təsərrüfatları mövcuddur. Dənizdən malyuskalar tutulur.

Boksit, alüminium, gil-torpaq, qənd, rom, kofe ixrac edilir. İdxalatda ərzaq və istehlak malları, tikinti materialları, yanacaq, nəqliyyat vasitələri üstünlük təşkil edir.

Yamayka Azərbaycanın dövlət müstəqilliyini 1992-ci il yanvarın 6-da tanımış və iki ölkə arasında diplomatik münasibətlər 1995-ci ildə qurulmuşdur. Azərbaycanla iqtisadi əlaqələri genişlənməkdədir.

Dünya ölkələrin iqtisadi parametrlər üzrə qruplaşmasında "Onbirlər qrupu"nun da yeri vardır. "Onbirlər qrupu" (*ingiliscə* - G-11, N-11, Next Eleven - *sonrakı on bir*) da "Qoldman Saks"ın analitiki Cim O` Nil tərəfindən BRICS ölkələr qrupu ilə yanaşı digər bir sistemdə verilmiş yüksək inkişaf templəri ilə irəliləyəcək 11 müasir dövlətin: Meksika, Nigeriya, Misir, Türkiyə, İran, Pakistan, Banqladeş, İndoneziya, Vyetnam, Koreya Respublikası və Filippinin ümumiləşmiş adıdır. Termin qrupun 15 dekabr 2005-ci ildə illik hesabatında həmin ölklərin XXI əsrin beynəlxalq iqtisadi münasibətlər sisteminin böyük lokomotivlərinə çevirəcəyi qənaəti ilə dövriyyəyə çıxarılmışdır. Bu qrupun ölkələri, əsasən, əvvəllər və hazırda sənayeləşmə həyata keçirən yeni sənaye ölkələri - YSÖ ilə kəsişir. Qrupun 7 ölkəsi: Türkiyə, Pakistan, Nigeriya, İndoneziya, Misir, İran və Banqladeş həm də islam dünyasının qabaqcıl ölkələri sırasında yer alırlar.

D-8 İqtisadi Əməkdaşlıq Təşkilatı (*D-8 Organization for Economic Cooperation*) Banqladeş, İndoneziya, İran, Malaziya, Misir, Nigeriya və Pakiştanı birləşdirən əməkdaşlıq təşkilatıdır. Islam Səkkizliyi və İnkişaf Əməkdaşlıq Konfransı kimi də tanınır. 22 oktyabr 1996-cı ildə o zamankı Türkiyə baş naziri Nəciməddin Ərbakanın (*1926-2011*) təşəbbüsü ilə yaradılmışdır. D-8 münaqişələr əvəzinə sülh, mübahisələr əvəzinə dialoq, istismar əvəzinə kooperasiyalar, ikili standartlar əvəzinə hüquq, zülm əvəzinə demokratiya və diskriminasiya əvəzinə hüquqi bərabərlik olan qarşılıqlı əlaqə prinsiplərinə əsaslanır. Təşkilatı idarəetmə Sammit, Şura və Kom-

missiyadan ibarətdir. Ali orqan Sammitdir və o, hər il toplanır. Şura üzv ölkələrin xarici işlər nazirlərindən ibarətdir. Komissiya təşkilatın icra orqanıdır. Buraya Komissiyanın işini yönləndirən kordinatorlar olaraq üzv ölkələrinin nümayəndələri daxildirlər. D-8 ölkələri arasında ticarət dövriyyəsi 2017-ci ildə 100 milyard ABŞ dolları təşkil edib. Bu rəqəmin gələcəkdə 500 milyard ABŞ dollarına çatdırılması hədəflənmişdir. Azərbaycan Respublikası təşkilatda müşadhidəçi üzv qismində çıxış edir.

### 6.2. Türkdilli dövlətlərin iqtisadi inteqrasiyası və Turan modeli

Qlobal iqtisadi potensial mərkəzinin Atlantik okeandan Sakit okeana keçməsi danılmaz həqiqətdir. Bu vəziyyət təbiəti ilə türk dünyasının geoiqtisadi əhəmiyyətini də artırmışdır. SSRİ-nin süqutu ilə dünya xəritəsində müstəqil türkdili dövlətlərin sayı 7-yə yüksəlmişdir. Əvvəllər yalnız Türkiyə Cümhuriyyəti və Şimalı Kipr Türk Respublikası müstəqil dövlət olmuşdur. İndi isə Türkiyə ilə yanaşı Azərbaycan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Türkmənistan da müstəqil dövlətlər kimi dünya birliyinin bərabərhüquqlu üzvləridir. Yeni situasiya təkcə türkdilli ölkələrin say artımı ilə deyil, həm də bir areal üzərində qurulan yüksək iqtisadi-siyasi potensiallı məkanın meydana gəlməsi ilə xarakterikdir. Əslində, bu coğrafiya çox uzaq olmayan keçmişdə türklərin qurduğu imperatorluqların və ayrı-ayrı dövlətlərinin ərazisi kimi Türküstan və ya Turan elləri olmuşdur. İndi də bu ərazilərdə türklər dominant xalq olaraq qalmaqdadırlar. Bu kontekstdə yaxın və orta tarixi müddətlərdə belə bir birliyin yenidən yaranışı heç də hipotetik görünməməlidir. Bu istiqamətdə, təsirli və təsirsiz olsa da, müəyyən addımlar atılmış və müvafiq təsisatlandırmalar həyata keçirilmişdir. Məhz bu gerçəkliklər Türkiyənin mərhum prezidenti Turqut Ozalın (*1927-1993*) "XXI əsr türk əsri olacaqdır" söyləməsinə əsaslar vermişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının 2013-ci ildə Azərbaycanın Qəbələ şəhərində keçirilən sammitində XXI əsrin türk dünyası ilə perspektiv bağlılığı haqqında demişdir: "Bizim türkdilli coğrafiyada inkişaf prosesi gedir. Bu, böyük sərvətdir. XXI əsr türk dünyasının əsri olmalıdır".

Türkdilli dövlətlərin daha sıx inteqrasiyası üçün kifayət qədər təməl qaynaqlar mövcuddur. Bu qaynaqları milli genetik birlik, mental dəyərlər bazasında qloballaşma və regionlaşma çağırışları daha da aktuallaşdırır.

Türkiyə, Azərbaycan, Türkmənistan, Qırğızıstan, Qazaxıstan, Özbəkistan və Şimalı Kipr Türk Respublikasının iqtisadi və demoqrafik potensialı bütövlükdə 4,7 milyon $km^2$-dən çox ərazi ilə dünyada 7-ci, 154,2 milyondan çox əhali ilə 9-cu, 1,2 trilyon ABŞ dolları dəyərində ümumi hasilatla 13-cü yerdədir. Bununla belə, vurğulanır ki, türk dünyası qlobal ölçüdə sahib olduğu coğrafi və demoqrafik potensialdan aşağı iqtisadi göstəriciyə malikdir.

Türkdilli dövlətlərin əsas iqtisadi göstəriciləri cədvəl 6-da öz əksini tapmışdır.

| **Ölkələr** | **Əhali** *(mln. nəfər)* | **Sahəsi** *(km²)* | **ÜDM** | | | |
|---|---|---|---|---|---|---|
| | | | **Ümumi** *(milyard $)* | | **Adambaşına** *($)* | |
| | | | **Nominal** | **Paritet** | **Nominal** | **Paritet** |
| **Azərbaycan Respublikası** | 10,0 | 86 600 | 40,8 | 107,5 | 4 186 | 15 192 |
| **Qazaxıstan Respublikası** | 18,4 | 2 724 | 184,0 | 478,0 | 7453 | 26 252 |
| **Qırğızıstan Respublikası** | 6,2 | 199 951 | 6,6 | 23,0 | 1073 | 3 667 |
| **Özbəkistan Respublikası** | 31,2 | 447 400 | 65,4 | 223,0 | 2 122 | 6 929 |
| **Türkiyə Respublikası** | 82,6 | 783 562 | 859,0 | 2173,0 | 10 743 | 26 893 |
| **Türkmənistan Respublikası** | 5,5 | 491 200 | 46,2 | 103,0 | 6 622 | 18 126 |
| **Şimalı Kipr Türk Respublikası** | 0,3 | 32 42 | 3,8 | 9,6 | 5 560 | 13 902 |
| **Cəmi** | 154,2 | 4736,9 | 1205,8 | 3 117,1 | x | x |

**Cədvəl 6. Türkdilli dövlətlərdə əsas iqtisadi göstəricilər (*2017-ci il*)**

Türkdilli dövlətlərin kompakt bir çoğrafiyada yerləşməsi, tarixi “İpək yolu”nun bu ərazilərdən keçməsi onların yeni böyük inteqrasiyasına növəti stimullar gətirir. Bu mənada Türkiyənin sabiq prezidenti Abdullah Gülün (*1950*) fikirləri çox böyük əhəmiyyət daşıyır. “Tarixə nəzər saldıqda türk dövlətlərinin güclü və təsirli olduğu dövrlərdə “İpək yolu”nun dünya ticarətinin ana xətti qismində çıxış etdiyi müşahidə edilir. Türk dünyası qlobal iqtisadiyyatdan və dünya ticarət yollarından kənarda qaldıqda isə siyasi və mədəniyyət sahəsinə təsiri azalmışdır. Bunları tarixi oxuyanlar bilirlər. Bu mənada “İpək yolu” türk dünyasının iqtisadi rifahının və siyasi təsirinin açarıdır. Ona görə “İpək yolu”nu yenidən bərpa etmək strateji bir prioritet olmalıdır”.

Türkdilli dövlətlər arasında ikitərəfli və çoxtərəfli əlaqələr daim inkişaf edir. Hazırda bu ölkələr arasında ticarət dövriyyəsi 12 milyard ABŞ dollarına bərabərdir. İkitərəfli çoxmilyardlı ticarət dövriyyəsində Türkiyə Respublikası liderlik edir. Azərbaycanın da türkdilli ölkələrlə ikitərəfli ticarət dövriyyəsi daim artmaqdadır.

Müşahidə və araşdırmalar belə bir qənaət yaradır ki, türk dünyası ölkələrinin enerji sektorunda əməkdaşlıq üçün imkanları daha çoxdur. Bu perspektivdə xüsusən Azərbaycan, Qazaxıstan, Türkmənistan və Özbəkistanın təbii enerji qaynaqları mühüm rol oynayır. Bu enerji sərvətlərinin istehlakçısı və tranzit ötrüçüləri kimi isə Türkiyə və Qırğızıstan çıxış edirlər. Bundan başqa, ölkələr arasında sənayenin müxtəlif sahələrini əhatə edən çeşidli əlaqələr də mövcuddur. Nəqliyyat-kommunikasiya əlaqlərini isə onların bir coğrafi məkan üzərində yerləşməsi daha şanslı edir. Bu baxımdan türkdilli dövlətlər QİƏT, İƏT, GUAM, İƏT, MDB və s. bu kimi regional birliklər və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq edirlər.

Türkdilli dövlətlər hər il özlərinin sammitlərini keçirir və yeni qurumlarını təsis edirlər. Hazırda Türk Şurası - Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Türkdilli Ölkələrin Parlament Assambleyası - TÜRKPA fəaliyyət göstərir. Türkdilli dövlətlərin təsis etdiyi Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı - TÜRKSOY artıq üçüncü onillikdir ki, türk xalqlarının mədəniyyətinin və incəsənətinin təbliğində mühüm rol oynayır. Bundan başqa, Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu, Türk Universitetləri Birliyi, Ortaq Terminologiya Komitəsi və s. bu kimi təsisatlar türk dünyasının mədəni inkişafında böyük əhəmiyyət daşıyır.

Türkdilli dövlətlər arasında ən sıx iqtisadi əməkdaşlıq Azərbaycanla Türkiyəyə məxsusdur. Bu əməkdaşlığın kökləri daha dərin və möhkəmdir. Belə ki, yer üzündə Azərbaycanla Türkiyə arasındakı dövlət və milli qardaşlığa paralel ola biləcək nümunələr, hələ ki, mövcud deyil. Bu gün ulu öndər Heydər Əliyevin "bir millət, iki dövlət" prinsipinə əsaslanan Azərbaycan-Türkiyə birliyinin yeni inkişaf müstəvisinə qaldırılması qardaş ölkələr arasında ən mühüm aktual məsələlərdən birinə çevrilmişdir. Bunun nəticəsidir ki, Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının qurulması prosesi həyata keçirilməkdədir. Bu Şuranın yaradılması ilə köklü vəhdətdən çıxış edən, eyni dildə danışan, müştərək tarixi və coğrafiyanı paylaşan xalqlar dərinləşən inteqrasiyadan faydalanaraq, davamlı rifahın təminatı üçün bütün sahələrdə birgə fəaliyyətlər aparacaq və daha uğurlu nəticələrə nail olacaqlar. Bu yaxınlığın potensialını davamlı generasiyada inkişaf etdirmək üçün mövcud inteqrasiyanın vahid iqtisadi şəbəkəliyə qədər dərinləşdirilməsi zəruridir. Belə dərinləşən inteqrasiyanın isə sosial-hüquqi vəhdətlik müstəvisində iqtisadiyyatların konvergensiyasını təmin edəcəyi düşünülür.

**Türkiyə Cümhuriyyəti** (*türkcə* - Türkiye Cumhuriyeti - *Türkiyə Cümhuriyyəti*) əsas olaraq Cənub-qərbi Asiyada və bir hissəsi Cənub-şərqi Avropada yerləşən dövlət. Türkiyə 29 oktyabr 1923-cü il ildə yaranmışdır. Paytaxtı Ankara şəhəri, rəsmi dili türk dilidir. Ölkə unitar quruluşludur və prezident respublikasıdır. Türkiyə NATO-nun üzvüdür. G20 qrupuna daxildir. Milli valyutası lirədir.



Ərazisi 783 562 km$^2$, əhalisi 82,6 milyon nəfər (*2018*).

Türkiyə Avropanın altıncı, islam dünyasının birinci, Rusiya nəzərə alınmazsa, regionun da birinci böyük iqtisadiyyatına malik ölkəsidir. Türk-islam dünyasında demokratik institutların inkişaf səviyyəsinə görə Türkiyə, həmçinin, birinci yerdə olan demokratik, dünyəvi, sosial və hüquqi bir dövlət kimi tanınır.

İqtisadiyyatda xidmətlər 61,5%, sənaye 31,8%, kənd təsərrüfatı 6,7% paya malikdir. ÜDM 859,0 milyard ABŞ dolları, adambaşına ÜDM 10,7 min ABŞ dollarıdır. İnflyasiya 10,2%, işsizlik səviyyəsi 11,3%, yoxsulluq səviyyəsi 21,9%-ə bərabərdir. Xarici borc 453,2 milyard ABŞ dolları (*ÜDM-in 52,7%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 37,9%-nə bərabərdir (*2017*).

Türkiyə iqtisadi baxımdan çox perspektivli bir ölkə olaraq qiymətləndirilir. İqtisadi rəqabətqabiliyyətliliyi ilə Türkiyə beynəlxalq əmək bölgüsündə yüksək dinamizm nümayiş etdirir.

Təbii resurs bazasının kifayətedici miqyaslarda olmaması və mənimsənilməsi burada idxal məhsuluna əsaslanan istehsal sahələrinin yaranışına rəvac vermişdir. Bu səbədən də ölkənin ixrac gücü artmışdır. Hazırda Türkiyənin ixrac məhsulları arasında hazır məhsullar, şüşə, keramika məmulatları üstünlük təşkil edir. Aİ ölkələrində ənənəvi olaraq satılan televizorların 40%-i Türkiyədə istehsal olunur. Buna baxmayaraq, ölkənin təbii sərvətlər arsenalında zəngin qara və qonur kömür, xromitlər, mis və dəmir filizi yataqları mövcuddur ki, onlar da müəyyən məqamlarda xarici ticarət dövriyyəsinin predmetinə çevrilirlər. Burada, həmçinin, qurğuşun, sink, kükürd və digər faydalı qazıntı məhsullarının ehtiyat həcmi də iqtisadi təyinatlıdır.

Neft-qaz ehtiyatları məhdud olan ölkədə hər il 20-25 milyon tona yaxın neft satın alınır. Yüksələn iqtisadi templər yaxın gələcəkdə burada neft idxalının iki dəfə yüksələcəyi proqnozunu verir. Bununla yanaşı, Türkiyənin təbii qaza olan ehtiyacı da artmaqdadır. Hazırda bu ehtiyaclar Azərbaycan, İran və Rusiya vasitəsi ilə təmin edilir. Türkiyə həm də enerjidaşıyıcılar bazarında regionda mühüm tranzit ölkə olaraq mövqelərini möhkəmləndirir. Ölkənin enerji təhlükəsizliyinin təminatında, İES və SES-lə yanaşı, yüksək seysmik zonada yerləşməsinə baxmayaraq, AES strategiyası da geniş yer alır. Hazırda Rusiya tərəfindən 2023-cü ildə istifadəyə verilməsi nəzərdə tutlan ölkənin cənubunda yerləşən "Ağquyu" nüvə stantasiyasının tikintisi aparılır.

Türkiyə son illər avtomobil istehsalında mühüm bir sıçrayış əldə etmişdir. Bunun ən başlıca səbəblərindən biri ölkənin avtomobil ixracında, əsasən, üzünü dünyanın ən iri avtomobil istehsalçılarının kəskin rəqabətdə olduğu bazarlara deyil, əski Osmanlı əraziləri olan Balkan ölkələri, Şimali Afrika ölkələri və Orta Şərqə çevirməsidir. Hazırda istehsal olunan avtomobillərin 70%-dən çoxu ixrac olunur.

Türkiyə inkişaf etmiş inşaat sektoruna malikdir və böyüklüyünə görə dünyada dördüncü yerdədir. Dünyanın ən böyük inşaat şirkətlərinin 20-dən çoxu bu ölkəyə mənsubdur. Bu şirkətlər hazırda, demək olar ki, dünyanın hər bölgəsində fəaliyyət göstərir.

Türkiyə iqtisadiyyatının ikinci əsas gəlir mənbəyi turizm sektorudur. 1980-ci illərdən sonra inkişaf etməyə başlayan bu sektorun böyük potensialını görən sərmayəçilər həmin müddət ərzində sahəyə böyük investisiya yatırmışlar. Hazırda Türkiyə illik 30 milyon xarici turist sayı və bundan əldə etdiyi 25 milyard ABŞ dollarından çox gəlir göstəricisi ilə bu sahədə dünyanın ilk 10 ölkəsi sırasındadır.

Aqrar sektorun da ölkə iqtisadiyyatında payı əhəmiyyətli hesab edilir. Ölkə ərazisinin $^1/_3$ hissəsi əkinçiliyə cəlb olunmuşdur. Bu göstəriciyə görə o, Avropada ikinci, Asiyada dördüncü yerdə qərar tutmuşdur. Ekstensiv templərlə inkişafda olan heyvandarlıq sahəsi aqrar sektorda ikinci pillədə durur. Ölkənin üç tərəfdən dənizlərlə əhatə olunması balıq sənayesinin tərəqqisinə təkan verir. Türkiyə meşə resursları sıradan da əlverişli coğrafiyaya malikdir. Ərazinin 26%-ni meşəli sahələr əhatə edir. Bu göstəriciyə görə o, Avropada Rusiya, İsveç və Finlandiyadan sonra dördüncü yerdə qərar tutur. Meşə, balıqçılıq təsərrüfatı ilə birlikdə aqrar sektor ölkə ÜDM-də 9% çəkiyə malikdir.

Türkiyənin nəqliyyat sistemi inkişaf etməkdədir. Ölkə əhalisinin 3%-i bu strukturda fəaliyyət göstərir. Burada, ənənəvi olaraq, gəmiçilik daha çox əhəmiyyət kəsb edir. Ölkənin dövlət dəmir yollarının uzunluğu 11 min km-ə yaxındır. O, Suriya, İran və Avropa ölkələrinə birbaşa çıxışa malikdir. Dəmir yollarında sürət qatarlarının sayı artır. Daşınmalarda avtomobil nəqliyyatı dominant mövqedə dayanır. Daxili yük dövriyyəsinin 70%-dən çoxu bu nəqliyyat sisteminin üzərinə düşür.

ETTKİ-nin ÜDM-də 0,5%-lik payına baxmayaraq, burada elmi-texnoloji irəliləyiş böyük sürət toplamaqdadır. Ölkənin hərbi-sənaye sistemi artıq əsaslı olaraq milli elmi təfəkkürün inhisarına keçməkdədir. Türkiyədə iqtisadi münasibətlərin inkişafının mühüm istiqamətlərindən biri kimi Aİ, ABŞ və Yaponiya ilə texnologiyalar mübadiləsi çıxış edir. Aİ ilə bağlanan gömrük sazişi ölkədə qiymət tənzimlənməsində mühüm təsirə malikdir.

Türkiyənin dünya iqtisadiyyatındakı yerini, geosiyasi mövqeyini və əhəmiyyətini nəhəng meqapolis kimi İstanbul amilini nəzərə almadan qiymətləndirmək çətindir. Avropa ilə Asiyanı, Qara, Mərmərə və Aralıq dənizlərini və dünya okeanını bir-birilə əlaqələndirən, eyni zamanda da bu istiqamətlərdəki bütün sosial, iqtisadi, mədəni və siyasi axınların mübadiləsini təmin edən mühüm bir coğrafi ərazidə yerləşən İstanbul dünyanın mərkəzidir. Rəsmi rəqəmlərə görə, 15 milyon insanın yaşadığı bu şəhər əhalisinin sayına görə dünyanın 100-dən çox, Aİ-nin isə 19 ölkəsindən (*Yunanıstan, Portuqaliya, Belçika, Çexiya, Macarıstan, İsveç, Avstriya, Bolqarıstan, Danimarka, Slovakiya, Finlandiya, İrlandiya və s.*) daha böyükdür. Eyni zamanda, bu göstəricisinə görə dünyanın 21-ci, Avropanın isə, Moskva və Parisdən sonra, 3-cü şəhəridir. Bununla yanaşı, İstanbul illik 200 milyard ABŞ dolları ÜDM göstəricisi ilə Aİ-nin 12 ölkəsindən daha böyük iqtisadiyyata malikdir. Türkiyənin müasir dövrdə həyata keçirəcəyi layıhələr içərsində "Yeni İstanbul" layihəsi möhtəşəmliyi ilə fərqlənir. Layıhənin reallaşması İstanbulun dünyanın mərkəzinə çevrilməsini hədəfiləyir. Burada əhalisi 7 milyona çatacaq yeni şəhərin salınması, Türkiyə Cümhuriyyətinin yaranmasının 95 illik yubileyi münasibəti ilə istifadəyə verilməsi planlaşdırılan dünyanın ən böyük hava limanı və 100 illik yubileyi münasibəti ilə istifadəyə verilməsi planlaşdırılan Qara dənizlı Mərmərə dənizini birləşdirəcək "İstanbul Kanalı"dır. Dünyanın ən böyük hava limanın inşasına 10,2 milyard ABŞ dolları həcmində investisiya qoyulub. Burada 225 min iş yeri olmaqla 350 şəhərə uçuşlar həyata keşiriləcək. Əsrin ən böyük layihəsi, investisiya dəyəri 20 milyard ABŞ dolları bərabər, uzunluğu 45 km, su yolunun eni 400-500 metr, dərinliyi 25 metr olacaq "İstanbul Kanalı"ı da nəhəngliyi ilə fərqlənərək Panama və Süveyş kanallarını kölgədə qoyacaqdır. İstanbulda nəqliyyatı və ətraf mühit təhlükələrini azaltmaq məqsədləri daşamaqla bu kanaldan hər gün orta hesabla 200-ə yaxın gəmi keçə biləcək və o, Türkiyənin Bosfor və Dardanel boğazları üzərində suverenitetini təmin "Montre boğazlar konvensiyası"ı istiqamətində yeni gerçəkliklər yaradacaqdır.

Türkiyə Respublikası yaranışının 100 illik dövrü ərzində beynəlxalq münasibətlər

sistemində mühüm statusa yüksəlmişdir. Bu Türkiyənin sahib olduğu mədəniyyət sistemi, geosiyasi mövqeyi və həm də artan iqtisadi potensialı ilə birbaşa əlaqəlidir.

Türkiyə inteqrasiyanın bütün sahə spektrlərində fəallıqla iştirak edir. O, BMT sisteminin qurucu üzvü kimi ən aparıcı beynəlxalq və regional təşkilatların nüfuzlu üzvlərindən biridır. Türkiyə, həmçinin, Avropa Şurasının üzvü, Aİ üzvlüyünə namizəd ölkədir. Türk dünyasının müxtəlif inteqrasiya qurumlarının, xüsusən də, İƏİT, İƏT, QİƏT, İƏT-in fəaliyyətini Türkiyəsiz təsəvvür etmək mümkün deyildir. Türkiyə NATO üzvü olaraq bu sistemdə ordu gücü ilə ABŞ-dan sonrakı yeri tutur. G20 silsiləsində 13-14-cü yerləri bölüşür. Türkiyə öz arealında və ondan kənarda neçə-neçə qlobal və regional təşkilatın üzvü kimi əhəmiyyətli fəaliyyət göstərir.

Türkiyə dövləti yarananda iqtisadi tənəzüllə qarşı-qarşıya idi. Getdikcə ölkənin siyasi müstəqilliyi möhkəmlənsə də, iqtisadi çətinliklər azalmırdı. 2002-ci ildən başlayaraq Ədalət və İnkişaf Partiyasının rəhbərliyi ilə AKP hökuməti ölkənin borc məngənəsindən çıxması üçün ciddi addımlar atmağa başladı. Hələ 2013-cü ildə hazırkı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan (*1954*) çıxşılarının birində ölkənin gəldiyi iqtisadi inkişafı belə izah etmişdi: “1961-ci ildən bu günə qədər BVF ilə 19 müqavilə imzalanıb. Ümumilikdə 56,5 milyard ABŞ dolları həcmində borc yaranmışdı. Türkiyə uzun müddətdən sonra BVF-yə olan borcunu ödədi. Artıq BVF-yə borclu olan ölkə yox, bu quruma borc verən ölkəyik. 81 vilayətimizə 12 il ərzində 676 milyard 700 milyon lirə sərmayə qoymuşuq. 79 il ərzində 6100 kilometr yol çəkilib. Ancaq biz 11 ildə 17 min kilometr yol çəkdik. Pulumuzdan 6 sıfırı atdıq. Milli tankımız “Altay”, milli gəmimiz “Milgem”, pilotsuz uçuş aparatımız ANKA, təlim təyyarəmiz “Hürquş”u hazırladıq. İndi dünyanın ən sürətlə inkişaf edən 20 ölkəsindən biriyik”. Rəcəb Tayyib Ərdoğanın rəhbərlik etdiyi Türkiyə başqalarının iradəsini həyata keçirən dövlətdən, başqalarına öz iradəsini qəbul etdirən bir dövlətə çevrilməkdədir. Həqiqətdə də müsar dövrdə Türkiyə regional gücdən qlobal gücə çevrilərək özünün “Şahlanış” zamanına qədəm qoymuşdur. “İnsanı yaşat ki dövlət yaşasın” anlayışının hakim kəsildiyi, borc alan dövlətdən borc verən dölətə keçin edən ölkənin valyuta ehtiyatları hazırda 120 milyard ABŞ dollarından çoxdur. İxracat 170 milyard ABŞ dolları təşkil edir. Ölkədə çoxsayı meqa layihələr həyata keçirilir, sürətli dəmir yolları çəkilir, yeni avtomobil yolları inşa edilir. Türkiyə hərbi sənayesini yenidən qurur, tanklar, təyyarələr, helikopterlər, insansız hava aparatları, müasir texnoloji sistemlər inşa edir. Bütün bu nailiyyətlər və reallaşdırılan yeni layihələr Türkiyənin uğurlu gələcəyinə və Cümhuriyyətinin 100 illiyidə onun 2023-cü ildə dünyanın iqtisadi cəhətdən ən inkişaf etmiş 10 dövlətindən biri olmasına hədəflənmişdir. Bu hədəflər yeni çoşqu və inkişafla istanbulun fəthinin 600 illiyi - 2053-cü il və Malazgird savaşının 1000 illiyi – 2071-ci illər ərəfəsində daha möhtəşəm olacaqdır.

Azərbaycan ilə Türkiyə arasında əlaqələrin böyük tarixi var. Ortaq kök, dil, din birliyi, oxşar mədəniyyət, adət və ənənələr bu əlaqələri dərinləşdirən amillər sırasındadır. Qardaş ölkələr tarixlərinin ən mürəkkəb dövrlərində bir-birinə dəstək olmuşlar. 1918-

ci ildə Nuru Paşanın (*1881-1949*) komandanlığı ilə Türk Qafqaz İslam Ordusunun Bakını xilas etməsi Azərbaycan üçün çox önəmli bir hadisə kimi tarixin yaddaşına yazılmışdır. Ümummilli lider Heydər Əliyevin dediyi kimi: "Türk ordusunun Azərbaycana, Bakıya gəlməsi, Azərbaycanı daşnakların təcavüzündən xilas etməsi hər bir azərbaycanlının qəlbində yaşayır. Azərbaycan xalqı həmin ağır dövrdə türk xalqının ona göstərdiyi köməyi heç vaxt unutmayacaqdır". Anadoluda Qazi Mustafa Kamal Atatürkün öndərliyi ilə aparılan milli mücadiləyə azərbaycanlılar maddi və mənəvi yardım göstərmişlər.

Azərbaycan 1991-ci ildə öz müstəqilliyini bərpa edəndən sonra 1991-ci il noyabrın 9-da onu tanıyan ilk dövlət Türkiyə olmuşdur. 1992-ci il yanvar ayının 14-də Azərbaycan-Türkiyə diplomatik əlaqələri yaradılmışdır. Hazırda da Türkiyə Azərbaycanın ən etibarlı siyasi müttəfiqi, bərabərhüquqlu iqtisadi tərəf-müqabilidir. Bunu Türkiyə Azərbaycan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının fəaliyyəti dolğunluğu ilə əks etdirir. "Türk petrolları" şirkətinin "Əsrin müqaviləsi"ndə təmsil olunması, nəhəg BTC, CQBK, TANAP, TAP, BTQ layihələri iqtisadi əməkdaşlığın yüksək təzahürünün nəticələridir. Həmin nəqliyyat kommunikasiyaları həm də yalnız iki dövlətin xidmətinə deyil, bütövlükdə Avropa və Asiya regionunun inteqrasiyasına hesablanmışdır. Burada Transxəzər karbohidrogen kommunikasiyalarının, həmçinin, Trans-Asiya-Avropa beynəlxalq fiber-optik rabitə xətti - TAE, Trans-Avrasiya Super İnformasiya Magistralı - TASİM, eləcə də Avropa-Yaxın Şərq informasiya magistralı - EPEG layihələrinin tam həyata keçirilməsi, türk dünyası ilə yanaşı, bütövlükdə qlobal inteqrasiyaya daha böyük effektivlər qatacaq və yeni geoiqtisadi regional situasiyanın yaranışına təkan vərəcəkdir. Reallıq belədir ki, Azərbaycanla Türkiyə arasında münasibətləri hökumətlər deyil, xalqlar müəyyən edir. İki ölkə arasında həm qarşılıqlı investisiyaların həyata keçirilməsi, həm də ticarət əlaqələrinin hazırkı 4-5 milyard ABŞ dollarından illik 15-20 milyard ABŞ dolları həcminə çıxarılması kimi hədəflər müəyyənləşdirilmişdir.

Türkiyə ilə Azərbaycan arasında iqtisadi əlaqələrə nəzər yetirdikdə bu əlaqələrin əsasında, üstün olaraq, ticarətin dayandığını görərik. Həmin əlaqələr Sovet İttifaqının dağılması ərəfəsində dövriyyə yığsa da, daha geniş potensialda Azərbaycanın dövlət müstəqilliyinin bərpası ilə irəliləyiş tapmışdır. Türkiyə ilə Azərbaycan arasında iqtisadi münasibətlər 1992-ci ilin noyabrında imzalanan ticari-iqtisadi sahədə əməkdaşlıq, investisiyaların təşviqi və qorunması haqqında sazişlər əsasında hüquqi müstəviyə keçmişdir. Bu məqamdan etibarən Türkiyə iş adamları Azərbaycana investisiyalar qoymağa başlamış və 1994-cü ildə ikiqat vergitutmanın aradan qaldırılması haqqında sazişin imzalanması ilə sərmayələrin həcmi artaraq genişlənmişdir. Hazırda iki ölkənin ticarət dövriyyəsinin həcmi 3,5 milyard ABŞ dollarını üstələmişdir. Ticarətdə ixrac çeşidi Türkiyənin xeyrinə olaraq 20 dəfəyə (*orta hesabla 2500 : 130*) yaxındır. Türkiyədən Azərbaycana idxalda ərzaq və kənd təsərrüfatı məhsulları, elektrik cihazları, neft-kimya məhsulları, müxtəlif maşınlar və avadanlıq, inşaat-tikinti

materialları, ipək, tekstil və trikotaj məhsulları, müxtəlif avtomobil hissələri, məişət avadanlıqları, metallurgiya məmulatları və mebel üstünlük təşkil edir. Azərbaycandan Türkiyəyə isə neft, neft məhsulları, pambıq mahlıcı, polietilen, şəkər çuğunduru və s. ixrac olunur. Bu ticarətdə əsas məhsul rolunda, təbii ki, neft və qaz çıxış edir.

Türkiyə Azərbaycanın enerji sektorunda TPAO şirkəti ilə güclü şəkildə iştirak edir. TPAO Azərbaycanda 3,5 milyard ABŞ dolları həcmində investisiyası ilə Türkiyə dövlət şirkətləri arasında xaricdə ən çox sərmayə qoyan şirkətə çevrilmişdir. TPAO-nun "Azəri-Günəşli" və "Çıraq" layihəsində 6,75%, "Şahdəniz" layihəsində 9%, "Alov" layihəsində isə 10% payı vardır. Həmçinin, BTC layihəsində 6,53%, CQBK layihəsində isə 9% paya malikdir. Türkiyənin Azərbaycanda bu və ya digər sahədə həyata keçirilən layihələrə yönəltdiyi investisiya qoyuluşlarının ümumi həcmi 6 milyard ABŞ dollarına bərabər tutulur. Qarşılıqlı olaraq Azərbaycan da Türkiyənin iqtisadiyyatına miqyaslı yatırımlar yönəltməyə nail olmuşdur. Belə ki, SOCAR çox geniş həcmli portfel investisiyaları əsasında Türkiyənin neft-kimya məhsulları bazarının mühüm hissəsinə nəzarət edən "Petkim Petrokimya Holding" AS-yə sahib olmuşdur.

Azərbaycanda Türkiyə sərmayəli şirkətlər daha çoxdur. Bu qurumlarda ümumilikdə 30 mindən çox işçi çalışır. Türkiyə şirkətləri sənaye, istehsal, telekommunikasiya, inşaat, qida, tekstil, təhsil, səhiyyə, bank və sığorta, nəqliyyat, avtomobil, neft sahələrində fəaliyyət göstərirlər.

Azərbaycanla Türkiyə arasında iqtisadi əlaqələrin inkişafında Azərbaycan Türkiyə İş Adamları Birliyi - ATİB mühüm rol oynayır. Onun 100-ə yaxın üzvü vardır. Bu şirkətlərin də yarıdan çoxu 100%-lik Türkiyə sərmayəsi ilə çalışır. Bununla belə, Azərbaycan iqtisadiyyatının müxtəlif sektorlarında bu təsisatda təmsil olunmayan türk şirkətləri də mövcuddur. Ümumiyyətlə, Azərbaycanda Türkiyə sərmayəsi ilə çalışan, müştərək müəssisə və təmsilçilik kimi fəaliyyət göstərən şirkətlərin sayının 1250 olduğu təxmin edilir. Bu isə Azərbaycanda çalışan xarici şirkətlərin orta hesabla 30%-nə bərabərdir.

Türkiyə və Azərbaycanda həyata keçirilən iqtisadi islahatların nəticələri burada yaxın və orta perspektivdə uğurların çox və davamlı olacağına əminlik yaradır. Azərbaycanın bol karbohidrogen ehtiyatları, onların izafi balans saldosu hələ bir neçə onillik Avropanın enerji təhlükəsizliyinin təminatındakı rolunu saxlayacaqdır. Türkiyənin daha üzunmüddətli strateji proqramlara malik olması, Aİ ilə tamhüquqlu inteqrasiya yaratmaq inadı və bu inadı reallaşdırmaq üçün əlverişli iqtisadi qaynaqlara, alət və mexanizlərə sahib çıxması strateji ambisiyaların gerçəkləşdirmək üçün mühüm əsaslardır. Bununla belə, hər iki dövlətin bir-birini tamamlayan iqtisadi qaynaqlara malikliyi, nəqliyyat kommunikasiyalarının diversifikasiya edilmiş sistemliliyi, başlıca olaraq da, genetik dəyərlərin vahid iqtisadi ukladda köklənməsi konvergensiya strategiyası üçün mühüm əsaslar yaradır.

Türkiyə ilə Azərbaycan əməkdaşlığı türkdilli ölkələr arasındakı əlaqələrə də ciddi təsir göstərir. Ümumiyyətlə, Türkiyə-Azərbaycan əlaqələri bütövlükdə türk dünyasının inteqrasiyasının dərinləşməsi və təkmilləşməsi istiqamətində xüsusi əhəmiyyət daşıyır.

Bütün bunlar isə özü-özlüyündə bir daha türkdilli dövlətlərin iqtisadi potensiallarının "Turan iqtisadi modeli"ndə birləşərək böyük regional gücə çevrilməsinə geniş imkanlar yaradır.

**Özbəkistan Respublikası - Özbəkistan** (*özbəkcə* - O'zbekiston Respublikasi - *Özbəkistan Respublikası*) Orta Asiyanın mərkəzi və şimal-qərb hissəsində yerləşən dövlət. Şimal-şərqdə Qırğızıstan, şimal və şimal-qərbdə Qazaxıstan, cənub-şərqdə Tacikistan, cənub və cənub-qərbdə isə Türkmənistan və Əfqanıstanla həmsərhəddir. Özbəkistan böyük bir tarixi olan qədim ölkədir. Onun ərazisində dövlət yaranışının



tarixi eramızdan əvvəl VIII-VII əsrlərə gedir. Bunula belə, SSRİ dövlətinin çökməsi ilə bağlı ölkənin yeni müstəqillik tarixi 31 avqust 1991-ci ildən başlanır. Paytaxtı Daşkənd şəhəri, rəsmi dili özbək dilidir. Prezident respublikasıdır. Özbəkistan NATO-nun üzvüdür. Milli valyutası özbək somudur.

Ərazisi 447 400 km$^2$, əhalisi 31,2 milyon nəfərdir (*2018*).

İqtisadiyyatda xidmətlər 47,1%, sənaye 34,4%, kənd təsərrüfatı 18,5% paya malikdir. ÜDM 65,4 milyard ABŞ dolları, adambaşına ÜDM 2122 ABŞ dollarıdır. İnflyasiya 14,4%, işsizlik səviyyəsi 7,2%, yoxsulluq səviyyəsi 14,0%-ə bərabərdir. Xarici borc 15,7 milyard ABŞ dolları (*ÜDM-in 24,0%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 58,0%-nə bərabərdir (*2017*).

Orta Asiyada Turan ovalığında yerləşərək Özbəkistan Amudərya və Sırdərya çayları arasındakı geniş Qızılqum səhrası ərazinin daha çox hissəsini tutur. Ölkə ərazisinin 70%-i səhra və yarımsəhralardan, qalan hissəsi dağarası vadilər (*Fərqanə, Çirçik*) və onları əhatə edən dağlardan (*Tyanşan, Pamir, Altay*) ibarətdir.

Dənizlərə və dünya okeanına çıxış olmayan Özbəkistan təbii sərvətlərlə zəngindir. Qızıl ehtiyatlarına görə ölkə dünyada 4-cü, hasilatına görə isə 7-ci yeri (*hər il orta hesabla 80 ton*) tutur. Molibden ehtiyatlarına görə dünyada 8-ci, mis ehtiyatlarına görə 10-cu, uran, həmçinin, təbii qaz ehtiyatlarına görə 12-ci yerdədir. Burada 40-a qədər yataqda uran ehtiyatları kəşf edilmişdir və bu ehtiyatlar ümumi olaraq 185,6 min ton həcmində hesablanır. Ölkə uran ixracına görə dünyada 3-cü yerdə qərarlaşmışdır. Buna baxmayaraq, Özbəkistanda AES-lər yoxdur.

Özbəkistanda, ümumən, 1800-dən çox yataqda 118 növü əhatə edən güclü mineral-xammal bazası yaradılmışdır ki, bu da ölkənin valyuta daxilolmalarının əsasını təşkil edir. Ekspert qiymətləndirilməsində bu 3,5 trilyon ABŞ dollarına bərabər kapitaldır.

Ölkədə hələ də toxunulmayan böyük həcmdə neft-qaz ehtiyatları mövcuddur. Burada geoloji qaz ehtiyatları 5 trilyon m$^3$ həcmində hesablanır ki, onlardan da 3,4 trilyon m$^3$ sübut olunmuş kateqoriyaya aid edilir. Hasil edilən qaz elektrik enerjisi istehsalının əsasını təşkil edir. Ölkənin qaz şirkəti hasilat göstəricilərinə (*ilik 60-70 milyard m$^3$*) görə dünyada 11-ci yeri tutur. Özbəkistanda geoloji neft ehtiyatları 5 milyard ton həcmində hesablanır ki, onlardan da 10%-dən çoxu subut olunmuş kateqoriyaya aiddir. Ölkədə hər il 3,5 milyon ton neft hasil olunur.

Özbəkistanda sənaye potensialı artırılır, yeni maşınqayırma, metallurgiya müəssisələri açılır. Burada kənd təsərrüfatı maşınları istehsal edilir, məşhur dünya brendlərinin (*"Daewoo" və "Chevrolet"*) lisenziyaları əsasında avtomobillər buraxılır. Bundan başqa, Özbəkistanda bütün mərkəzi Asiyada yeganə olan aviasiya zavodu fəaliyyət göstərir. Ölkədə kimya sənayesi inkişaf etmiş, azot gübrələri, kükürd turşusu, parafin istehsalı həyata keçirilir. Yüngül və yeyinti sənayesində zəruri olan məhsullar istehsal olunur və ixrac edilir.

ÜDM-in strukturunda kənd təsərrüfatının payı daha çoxdur. Özbəkistan suvarılan torpaqlara görə dünyada 11-ci yeri tutur. Ölkədə böyük həcmdə pambıq istehsal olunur. Burada hər il 6-7 milyon ton pambıq becərilir. Pambıq istehsalına görə Özbəkistan dünyada 5-ci, ixracına görə isə 2-ci yerdədir. Ölkənin kənd təsərrüfatında pambıqdan başqa meyvə-tərəvəz, taxıl, düyü, qarğıdalı yetişdirilir. Özbəkistanda inkişaf etmiş heyvandarlıq təsərrüfatları vardır. Burada xüsusi cins qaragül qoyunları yetişdirilir və ölkə qaragül dəri istehsalına görə dünyada ikinci yeri tutur.

Özbəkistan pambıq, qızıl, uran filizi, təbii qaz, mineral gübrələr, metal, avtomobil, tekstil, yeyinti sənayesi məmulatları ixrac edir və bir sıra sənaye məhsullarını ölkə xaricindən alır.

Ölkənin nəqliyyat infrastrukturu inkişaf etdirilir. Buradan dəmir yolları vasitəsi ilə Avropa ilə Asiya arasında mühüm yük daşımaları həyata keçirilir. Paytaxt Daşkən bütün regionun mühüm logistik mərkəzi hesab olunur. Burada, həmçinin, hələlik bütün regionda tək olan metro fəaliyyət göstərir.

Özbək mədəniyyəti Şərqin ən parlaq və orjinal nümunələrindən biri hesab olunur. Onun misilsiz musiqisi, rəsmləri, təsviri sənəti, özünəməxsus mətbəxi, geyim mədəniyyəti və memarlığı üstün fərqliliklərə malikdir. Özbəklər özlərinin klassik və könül oxşayan xalq mahnıları ilə məşhurdur. Ölkədə müxtəlif tarixi abidə, məscid və muzeylər var. Onların sırasında Səmərqənddəki Bibixanım məscidi (*Mərkəzi Asiyada yerləşən məscidlərdən ən böyüyü*), Uluqbəy rəsədxanası və mədrəsəsi, Şahi Zində məqbərəsi, Əmir Teymur (*1336-1405*) və onun nəslinin uyuduğu Qur-Əmir mavzoleyi, Ağ-Saray, Registan meydanı vardır ki, onlar da ölkənin turizm potensialında mümüm yer tuturlar. Ölkənin turizm cəlbediciliyini Orta Asiyanın müqəddəs şəhəri adlandırılan Buxaradakı 140-a yaxın memarlıq abidəsi, UNESCO-nun Ümumdünya Mədəni İrsinə daxil edilmiş qədim Xivədəki İçan-Qala və s. daha da artırır.

Azərbaycanla Özbəkistan arasında qarşılıqlı münasibətlərin tarixi uzaq əsrlərə gedib çıxır. Özbək və Azərbaycan xalqlarını yaxın milli adət və ənənələr, ümumi dil qrupu, mədəniyyət və din birləşdirir. Uzun illər ərzində hər iki dövlət SSRİ-nin müttəfiq respublikaları olmuşdur. XX əsrin 30-cu illərində kütləvi repressiyalar zamanı on minlərlə azərbaycanlı Özbəkistan torpağında sığınacaq tapmışdır. Bu gün 40 mindən çox azərbaycanlı Özbəkistan cəmiyyətinin sosial, ictimai, iqtisadi və digər sahələrində fəal iştirak edir. 1966-cı ilin aprelində dağıdıcı zəlzələdən sonra Daşkəndin bərpasında azərbaycanlılar yaxından iştirak etmişlər.

Azərbaycan ilə Özbəkistan arasında diplomatik əlaqələr 2 oktyabr 1995-ci ildə yaradılmışdır. 1996-cı ilin ortalarında Azərbaycan Respublikasının Özbəkistan Respublikasında, 1998-ci ilin may ayında Özbəkistan Respublikasının Azərbaycan Respublikasında səfirlikləri fəaliyyətə başlamışdır. Azərbaycanın Cənubi Qafqaz regionunda Özbəkistanın əsas tərəfdaşlarından biridir. Hər iki dövlət istər regional, istərsə də beynəlxalq xarakterli bir çox məsələlərdə oxşar mövqe tuturlar. Beynəlxalq təşkilatlar, o cümlədən BMT, İƏT, ECO, MDB və Türkdilli Dövlətlərin Başçılarının Forumu çərçivəsində iki ölkə arasında sıx əməkdaşlıq qurulmuşdur. Özbəkistan həmişə Dağlıq Qarabağ probleminin dinc, siyasi vasitələrlə həllinə tərəfdar çıxır. 14 mart 2008-ci il tarixində BMT Baş Assambleyasının 62-ci sessiyasında "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı qətnamə layihəsinə dair keçirilmiş səsvermədə Özbəkistan Respublikası sənədin lehinə səs vermişdir.

Görkəmli Azərbaycan və özbək klassikləri - Əlişir Nəvai, Mirzə Uluqbəy, Nizami Gəncəvi, Nəsirəddin Tusi, Məhəmməd Füzuli və bir çox başqalarının yaratdıqları əsərlər təkcə Şərq xalqlarının deyil, həm də bütün dünya sivilizasiyasının inciləri, dəyərli sərvətidir. Elə bunun nəticəsidir ki, Bakıda Əlişir Nəvainin, Daşkənddə isə Nizami Gəncəvinin abidələri ucaldılmışdır. Özbəkistan Dövlət Pedaqoji Universiteti Nizami Gəncəvi adınadır. Azərbaycanda isə bir qəsəbə Nəvainin adını daşıyır. Özbəkistanda yaşamış əslən azərbaycanlı olan şair Maqsud Şeyxzadənin əsərləri özbək ədəbiyyatının gözəl nümunələridir. Görkəmli Azərbaycan bəstəkarı Arif Məlikovun özbək yazıçısı Şərəf Rəşidovun əsəri əsasında yaratdığı "İki qəlbin dastanı baleti" dünya musiqi sənətinin incilərindən hesab olunur.

Özbəkistanla Azərbaycan arasında ticarət dövriyyəsinin həcmi 25 milyon ABŞ dollarından çoxdur. Qardaş ölkələrin real potensialını əks etdirməyən bu göstərici hər il artmağa meyillidir.

**Qırğızıstan Respublikası - Qırğızıstan** (*qırğızca* - Кыргыз Республикасы - *Qırğızıstan Respublikası*) Orta Asiyada dövlət. Qırğızıstan şimalda Qazaxıstan, qərbdə



Özbəkistan, cənub-qərbdə Tacikistan və cənub-şərqdə ÇXR-lə həmsərddir. Dənizə və Dünya okeanına çıxışı yoxdur. Dövlətçilik tarixi SSRİ dövlətinin çökməsi ilə bağlı 31 avqust 1991-ci ildən başlanır. Paytaxtı Bişkek şəhəri, dövlət dili qırğız, rəsmi dili isə rus dilidir. Ölkə parlament-prezident respublikasıdır. Milli valyutası qırğız somudur.

Ərazisi 199 951 km$^2$, əhalisi 6,2 milyon nəfərdir (*2018*). Ölkədə 20 mindən çox azərbaycanlı yaşayır.

İqtisadiyyatda xidmətlər 53,2%, sənaye 32,5%, kənd təsərrüfatı 14,3% paya malikdir. ÜDM 6,6 milyard ABŞ dolları, adambaşına ÜDM 1073 ABŞ dollarıdır. İnflyasiya 2,7%, işsizlik səviyyəsi 7,3%, yoxsulluq səviyyəsi 32,1%-ə bərabərdir. Xarici borc 7,8 milyard ABŞ dolları (*ÜDM-in 118,2%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 45,8%-nə bərabərdir (*2017*).

Qırğızıstan Respubliikası Mərkəzi Asiyada, okeanlardan uzaq, materik daxilində

yüksək dağlıq regionda - Tyanşan, Talas, Qırğız, Türküstan dağlarında yerləşir. Tanrı dağları ölkənin 80%-ini əhatə etdiyi üçün onu bəzən "Mərkəzi Asiyanın İsveçrəsi" də adlandırırlar. Ən uca zirvə Qələbə pikidir. (*7439 metr*). Dağlar arasında geniş İssıkkul, Narın, Talas vadiləri və Fərqanə çökəkliyinin Qırğızıstana aid olan cənub və şərq dağətəyi sahələri yerləşir. Ərazinin 95%-i dəniz səviyyəsindən 1000 metrdən yüksəkdə yerləşir. Respublikada 2 mindən artıq dağ gölü var. Bunlardan ən böyükləri İssıkkul, Songöl və Çatırgöldür. İssıkkul gölü Titikakadan sonra dünyanın ən hündür (*1600 m*) dağ gölüdür və fenomenal olaraq donmur.

Ölkədənin əsas təbii sərvətləri uran, sürmə və nadir metallardan ibarətdir. Ölkə sənayesi ÜDM-in 16%-ni əhatə edir. Onun da 40%-ni qızıl hasılatı verir. Qırğızıstanda hər il 20-23 ton qızıl hasil edilir ki, bu göstəriciyə görə ölkə MDB məkanında, Rusiya və Özbəkistandan sonra, 3-cü yerdədir. Bunadan başqa, ölkədə civə, sürmə, qalay, qurğuşun-sink filizləri çıxarılır. Sənaye sahələri metallurgiya, toxuculuq, yeyinti və yüngül sənaye sahələrini əhatə edir. Elektroenergetika, yüngül, yeyinti sənayeləri, həmçinin, əlvan metallurgiya və maşınqayırma sənayesi ixtisaslaşmış sahələrdir. Ölkədə tikinti materialları, yüngül (*pambıqtəmizləmə, dəri-ayaqqabı, toxuculuq*) və yeyinti (*ət, süd, dənüyütmə*) sənayesi də var. Enerji balansında daş kömür mühüm yer tutur. Burada cuzi miqdarda neft və qaz da hasil edilir. Orta Asiyada çıxarılan kömürün yarısı Qrığızıstanın payına düşür. Bununla yanaşı, Qırğızıstan hidroenerji potensialına görə regionda mühüm yerlərdən birini tutur. Elektrik enerjisi istehsalı ölkənin cənubunda Narın çayı üzərindəki SES-lər kaskadında cəmlənmişdir.

Qırğızıstan iqtisadiyyatına görə aqrar-sənaye ölkəsidir. Ölkənin kənd təsərrüfatı heyvandarlığa əsaslanır. Buna səbəb təbii yem bazasının geniş olmasıdır. Heyvandarlığın aparıcı sahələri zərifyunlu qoyunçuluq və atçılıqdır. İldə 15 min tondan (*dünyada üçüncü yer*) çox yun istehsal edilir. Qırğızıstanda əkin sahələri cəmi 1,4 milyon hektardır. Buna baxmayaraq, Qırğızstanda hər il on minlərlə ton pambıq, taxıl, tütün, üzüm, kartof, tərəvəz yetişdirilir. Qırğızıstan taxıla olan tələbatını ödəyir. Çu və Fərqanə vadilərində bağçılıq və üzümçülük inkişaf etmişdir. Ölkədə istehsal olunan kənd təsərrüfatı məhsullarının 88%-i özəl müəssisələrin payına düşür.

Ölkədən pambıq, elektrik enerjisi, ət, tütün, qızıl, civə, uran, sürmə, toxuculuq məmulatları, ayyaqabılar ixrac olunur. Neft-qaz, maşın və avadanlıqlarlar isə idxal edilir.

Ölkə ərazisi dəmir yolu nəqliyyatı ilə tam təmin olunmasa da, xarici iqtisadi əlaqələr, əsasən, dəmir yolu vasitəsi ilə həyata keçirilir. Əsas avtomobil yolları Bişkek-Oş, Bişkek-Balıqçı, Bişkek-Narın respublikanın ən mühüm sənaye və kənd təsərrüfatı rayonlarını birləşdirir. Təyyarə uçuşları 50-dən çox dövlətə reysləri olan "Kırqızstan aba jolloru" aviaşirkəti tərəfindən həyata keçirilir.

Mərkəzi Asiyanın füsunkar təbiət abidəsi olan İssıkkul gölü beynəlxalq əhəmiyyətli turizm, müalicə və istirahət mərkəzidir. Gölü dünya turizm mərkəzlərindən birinə çevirmək üçün dövlət proqramı həyata keçirilir.

Qırğızıstan Mərkəzi Asiyada DTT-yə daxil olan yeganə ölkədir. Ölkədə istehsal olunan əlvan metalların 40%-dən çoxu ixrac olunur. Qazaxıstan, Tacikistan, Özbəkistan,

ABŞ, Türkiyə, AFR, ÇXR, Rusiya, İsveçrə ilə ticarət əlaqələri var. Qırğızıstan bir sıra beynəlxalq və regional təşkilatların - BMT, MDB, Mərkəzi Asiya Əməkdaşlığı və s.-nin üzvüdür. Avrasiya İqtisadi İttifaqına üzv olmaq niyyətindədir.

Azərbaycan ilə Qırğızıstan arasında diplomatik əlaqələr 19 yanvar 1993-cü ildə yaradılmısdır. İki ölkə arasında münasibətlər keyfiyyətcə yeni mərhələyə qədəm qoyur. Azərbaycan Qırğızıstan iqtisadiyyatına sərmayələr yatırır.



Türk Şurası (*qazaxca* - Түрік Кеңесі, *qırğızca* - Түрк Кеңеш, *türkcə* - Türk Konseyi, *ingiliscə* - Turkic Council) türkdilli ölkələri birləşdirən beynəlxalq təşkilat. Türk Şurası 2009-cu il oktyabrın 3-də Azərbaycan Respublikasının Naxçıvan şəhərində təsis edilmişdir. Bişkekdə 25 avqust 2012-ci ildə Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyənin daxil olduğu Türkdilli Ölkələrin Əməkdaşlığı Birliyinin bayrağı qəbul edilmişdir. Bayraq üçün birlik dövlətlərinin bayraqlarının hərəsindən bir element (*Qırğızıstan - Günəş, Azərbaycan - ulduz, Türkiyə - aypara, Qazaxıstan - göy rəng*) götürülmüşdür. Türk Şurasının üç mərkəzi vardır: İstanbul, Bakı və Astana. İstanbul inzibati mərkəz, Bakı Parlament Assambleyasının, Astana isə Türk Akademiyasının mərkəzidir. Türk Şurasının strukturu: Baş katib, Dövlət Başçıları Şurası, Xarici Işlər Nazirləri Şurası, Böyük Məmurlar Komitəsi, Ağsaqqallar Şurası, Parlament Assambleyası, Türk Akademiyası, Türk Mədəniyyət və Sənətləri Ortaq İdarəsi - TÜRKSOY və Türk İş Şurası.

TÜRKPA

Türkdilli Ölkələrin Parlament Assambleyası, TÜRKPA Azərbaycan Respublikası, Qazaxıstan Respublikası, Qırğızıstan Respublikası və Türkiyə Respublikası Parlament Assambleyası 21 noyabr 2008-ci ildə Türkiyə Respublikasının İstanbul şəhərində təsis olunmuşdur. Katibliyi Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində yerləşir. TÜRKPA-nın əsas məqsədlərini dövlətlər arasında siyasi dialoqun daha da inkişaf etdirilməsinə kömək göstərmək, tarix, mədəniyyət və dil ümumiliyinə əsaslanaraq milli qanunvericiliklərin yaxınlaşdırılması və parlamentlərarası əməkdaşlığa dair digər məsələlərdə qarşılıqlı fəaliyyətin daha da sıxlaşdırılması təşkil edir.

Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı, TÜRKSOY (*türkcə* - Uluslararası Türk Kültürü Teşkilatı - *Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı*) Türkdilli ölkələrin mədəniyyət səylərini birləşdirən beynəlxalq təşkilatdır.

Üzv ölkələr və regionlar:

 Azərbaycan
 Türkiyə
 Qazaxıstan
 Özbəkistan
 Qırğızıstan
 Türkmənistan
 Şimali Kipr Türk Respublikası

 Tatarıstan (*RF*).
 Altay Respublikası (*RF*).
 Başqırdıstan (*RF*).
 Xakasiya (*RF*).
 Yakutiya (*RF*).
 Tıva (*RF*).
 Qaqauziya (*Moldova*).

Azərbaycan Türkiyə İş Adamları Birliyi, ATİB 2002-ci ildə təsis edilmiş Türk İş Adamları Dərnəyinin hüquqi varisidir. 17 aprel 2004-cü ildən ATİB-in missiyası Türkiyə və Azərbaycan iş adamlarını bir yerə toplayaraq, Azərbaycanın iqtisadi potensialından birlikdə istifadə etmək və bir sinerji yaratmaqdır.

"Cənub Qaz Dəhlizi" (*Southern Gas Corridor*) "Şahdəniz - 2" çərçivəsində hasil edilən qazın Xəzər dənizindən Avropaya - 3500 km məsafəyə nəqlini nəzərdə tutan nəhəng qaz boru xəttidir. Təməli 2014-cü ilin sentyabr ayında Bakıda qoyulmuşdur. Boru xəttinin əsas resurs bazası kimi "Şahdəniz" qaz yatağı çıxış edir. Layihə dəyəri 40 milyard ABŞ dollarından çox olan bu infrastruktur sistem 7 dövləti və 11 şirkəti özündə əhatə edərək, Xəzər regionundakı qaz təchizatını ilk dəfə olaraq Avropa bazarları ilə birləşdirmişdir. O, bir neçə komponentdən ibarətdir: "Şahdəniz" qaz yatağının işlənilməsi, Cənubi Qafqaz Boru Kəmərinin (*CQBK*) Azərbaycan və Gürcüstan ərazisi boyunca yeni paralel boru kəməri vasitəsilə genişləndirilməsi, qazın Türkiyə ərazisi boyunca - TANAP xətti və Yunanıstan, həmçinin, Albaniya ərazisindən keçməklə İtaliyaya TAP layihəsi ilə nəqli.



Trans-Anadolu Boru Kəməri, TANAP (*Trans-Anatolian Pipeline*) "Cənub Qaz Dəhlizi"nin önəmli hissəsi olaraq Azərbaycanın Xəzərdəki "Şahdəniz" qaz-kondensat yatağından və digər yataqlarından çıxarılan qazın Türkiyənin qərb sərhədlərinə qədər nəqlini reallaşdıran qaz boru xəttidir. Layihə üzrə saziş 2012-ci il iyunun 26-da İstanbulda imzalanmış, təməli isə 17 mart 2015-ci ildə Türkiyənin Qars şəhərində qoyulmuşdur. Burada SOCAR - 80%, Türkiyənin - BOTAŞ və TPAO şirkətləri isə birlikdə 20% paya malikdir. Ümumi uzunluğu 1850 km olan TANAP Faza-0 və Faza-1 hissə olaraq həyata keçirilir. Boru kəmərinin Faza-0 adlandırılan Gürcüstan-Türkiyə sərhəddi-Eskişəhər hissəsinin diametri 56 düym, uzunluğu 1340 km təşkil edir. Avropaya qaz veriləcək Faza-1 adlandırılan hissənin (*Eskişəhər-Ədirnə - Avropaya qədər olan hissə*) isə diametri 48 düym, uzunluğu 476 km-dir. 2018-ci ildə qazın nəqletmə gücü 16 milyard $m^3$, sonrakı mərhələdə - 2023-cü ildə 23 milyard $m^3$, 2026-cı ildə isə 31 milyard $m^3$ olacaqdır. İlkin mərhələdə nəqli nəzərdə tutulan 16 milyard $m^3$-in 10 milyard $m^3$-i TAP layihəsi üzrə boru xətti ilə Avropaya tranzit olunacaq, 6 milyard $m^3$-i isə Türkiyəyə çatacaqdır. Avropa üçün nəzərdə tutulan qaz Türkiyə-Bolqarıstan və ya Türkiyə-Yunanıstan



sərhədində təhvil veriləcəkdir. Növbəti mərhələlərdə Avropaya göndərilən qazın həcmi 20 milyard m$^3$-ə qədər artırılacaqdır. 12 iyun 2018-ci il tarixində Türkiyənin Eskişəhərində TANAP xəttinin Faza-0 hissəsi açılmışdır. Qazın Avropa üçün qəbulunu reallaşdıracaq Faza-1 hissəsi isə 2019-cu ildə hazır olacaqdır.




Trans-Adriatik Boru Kəməri, TAP (*Trans Adriatic Pipeline*) Azərbaycana məxsus "Şahdəniz" qaz-kondensat yatağının işlənməsi üzrə müvafiq konsorsium tərəfindən Azərbaycan qazının Yunanıstan, Albaniya və Adriatik dənizi vasitəsilə İtaliyanın cənubuna, oradan isə Qərbi Avropaya nəqli layihəsidir. TAP konsorsiumunda AFR-in E.ON şirkəti 15%, Swissotel EGL şirkəti 42,5% və Norveçin "Statoil" şirkəti - 42,5% paya malikdir. Layihə üzrə ildə orta hesabla 10 milyard m$^3$ təbii qazın (*20 milyard m$^3$-dək artırmaq imkanı ilə*) nəqli proqnozlaşdırılır. 17 may 2016-cı ildə Yunanıstanın Saloniki şəhərində TAP-ın təməlqoyma mərasimi olmuşdur. Vaxtilə "Cənub axını" layihəsi Aİ üçün prioritet layihə idi. O zaman "Nabucco" da eyni dərəcədə prioritet bir layihə hesab edilirdi. TAP layihəsi Cənub Qaz Dəhlizinin ayrılmaz hissəsi olaraq Bakıdan başlayıb İtaliyada başa çatan bir xəttdir. Onun bir neçə qolunun da olacağı gözlənilr. Bolqarıstan-Yunanıstan qaz birləşməsi bu qolun bir hissəsidir.



Trans-Asiya-Avropa, TAE (*Trans Asian Europe, TAE*) Trans-Asiya-Avropa - TAA beynəlxalq fiber-optik rabitə xəttidir. ÇXR-in Şanxay şəhərindən AFR-in Frankfurt şəhərinədək 27 min km olmaqla ÇXR, Pakistan, Əfqanıstan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Tacikistan, Türkmənistan, İran, Azərbaycan, Gürcüstan, Türkiyə, Ukrayna, Polşa, Belarus, Rumıniya, Macarıstan, Avstriya, Ermənistan və AFR-i əhatə edir. Azərbaycanda və Orta Asiya respublikalarında, o cümlədən Qırğızıstanda xəttin quru hissəsinin tikintisi 2000-ci ildə başa çatdırılmışdır. TAA layihəsinin Xəzəraltı hissəsinin tikintisi üçün Azərbaycanla Türkmənistan və Qazaxıstan arasında sualtı kabel çəkilməlidir. Xəzəraltı kabelin tikintisi həyata keçirildiyi təqdirdə bu xəttin üzərində BMT-nin qətnaməsi ilə qəbul edilmiş TASİM layihəsinin reallaşdırılması nəzərdə tutulur. Qeyd olunmalıdır ki, Orta Asiya respublikalarının Avropa ilə əlaqəsi İran üzərindən uzun marşrutla və lazımı keyfiyyət təmin olunmadan yaradılmışdır. Azərbaycanın Avropaya rabitəsi isə Türkiyə və Gürcüstan üzərindən həyata keçirilir.




Trans-Avrasiya Super İnformasiya Magistralı, TASIM (*Trans-Eurasian Information Super Highway, TASIM*) Qərbi Avropadan (*Frankfurt şəhərindən*) Şərqi Asiyaya (*Honqkonq*) qədər Avrasiya ölkələrinin əhatə edən transmilli fiber-optik xəttin çəkilməsi layihəsidir. Bu uzunmüddətli təşəbbüsün reallaşması iki mərhələdən ibarət olacaq. Birinci mərhələdə aparıcı region ölkələri və operatorlar Qərbi və Şərqi birləşdirən əsas internet şəbəkəsini yaradacaqlar. Bu şəbəkə TASİM-in kommersiya baxımından əlverişli və sürətlə artan beynəlxalq İP tranzit bazarının tələbatla-

rına cavab verən layihə olmasına imkan yaradacaq. İkinci mərhələdə TASİM qurulan tranzit infrastrukturundan istifadə edərək Mərkəzi Asiya daxil olmaqla, açıq dənizə çıxışı olmayan Avrasiya ölkələrini münasib qiymətə bağlantı ilə təmin edəcək. Bununla yanaşı, milli telekom infrastrukturu inkişafı planlarına uyğun olaraq yeni fiber-optik xətlər yaradılacaq, mövcud xətlər isə texnoloji baxımdan təkmilləşdirilərək TASİM şəbəkəsinə birləşdiriləcəkdir. Layihə təşəbbüsü 2008-ci ilin noyabr ayında XIV "Bakutel" Beynəlxalq Rabitə və İnformasiya Texnologiyaları sərgi-konfransı çərçivəsində Bakıda keçirilmiş nazirlər görüşü zamanı Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi (*indiki Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi*) tərəfindən irəli sürülmüş, həmin ayın 11-də TASİM layihəsinin yaradılmasına dair xüsusi "Bakı bəyannaməsi" qəbul edilmişdir. BMT Baş Assambleyasının 21 dekabr 2009-cu il keçirilmiş 64-cü sessiyasında layihəyə dair 30 ölkə tərəfindən həmmüəllif qismində dəstəklənən və konsensusla qətnamə qəbul edilmişdir. Avrasiya regionunda "rəqəmsal uçurum"un aradan qaldırılması üçün müvafiq telekommunikasiya infrastrukturunun inkişaf etdirilməsini, özəl və dövlət sektorları arasında əməkdaşlığın möhkəmləndirilməsini nəzərdə tutur. Vurğulamalıdır ki, TASİM layihəsinin tərkib hisssəsi olan Türkmənbaşı (*Türkmənistan*) - Siyəzən (*Azərbaycan*) dənizaltı fiber-optik kabel magistralının tikintisi problemi həllini gözləməkdədir.



Avropa-Yaxın Şərq İnformasiya Magistralı, EPEG (*Europe Persia Express Gateway, EPEG*) AFR-in Frankfurt şəhərinin Şərqi Avropadan keçməklə, Rusiya, Azərbaycan, İran və Fars körfəzi - Oman sultanlığının paytaxtı Maskat şəhərini birləşdirən böyük tutumlu rabitə kanalı konsorsiumu 10 min km məsafəni əhatə edir. Xəttin layihə üzrə buraxılış qabiliyyəti 3,2 Tbit/saniyəyə qədərdir.

Aşağıda TAA, TASİM və EPEG informasiya magistralı xətlərini səciyyələndirən şəkil verilmişdir.




**Şəkil 4. TAA, TASİM və EPEG informasiya magistralı xətləri**

## 6.3. Müstəqil Dövlətlər Birliyi ölkələri

Müstəqil Dövlətlər Birliyi, MDB (*Commonwealth of Independent States*), ilk olaraq, 3 dövlət - Rusiya, Ukrayna və Belarus tərəfindən 1991-ci ilin sonunda təsis edilmişdir. Sonralar Qazaxıstan, Qırğızıstan, Moldova, Tacikistan, Türkmənistan, Özbəkistan, Ermənistan MDB-yə qoşulmaq haqqında qərar vermişlər. Azərbaycan parlamenti MDB-yə qoşulmaq haqqında qərarı 1993-cü ilin sentyabrında ratifikasiya etmişdir. 1993-cü ilin oktyabrında MDB-yə üzv qəbul edilən Gürcüstan 2008-ci ilin avqust ayında, ərazisinə Rusiyanın hərbi müdaxiləsindən sonra həmin qurumun üzvlüyündən çıxmışdır. 2014-cü ilin martında Ukraynanın milli təhlükəsizlik və müdafiə şurası Krımın Rusiya birləşdirilməsi ilə əlaqədar MDB-də fəaliyyətinin dayandırılması haqqında qərar qəbul etmişdir. Türkmənistan isə 2005-ci ildən MDB-də müşahidəçi kimi (*assosiativ üzv*) fəaliyyət göstərməkdədir. Monqolustan və Əfqanıstan da MDB-nin fəaliyyətində müşahidəçi qismində iştirak edirlər. Mənzil-qərargahı Belarusun paytaxtı Minsk şəhərində yerləşir.

MDB fövqəlmilli səlahiyyətlərə malik deyil və daha çox birlik ölkələri arasında qarşılıqlı təsirin koordinasiyası sahəsində fəaliyyət göstərən təşkilatdır.

MDB-nin tərkibinə daxil olan dövlətlərin ümumi ərazisi (*Türkmənistan ərazisini nəzərə almadan*) - 21,1 milyon $km^2$ (*dünya ərazisinin 4,0%-i*), əhalisi 237,5 milyon nəfərdən artıq (*dünya əhalinin 3,1%-i*) olmuşdur (*2018*).

MDB bütün üzvlərinin suveren bərabərliyinə əsaslanır və ona üzv ölkələr beynəlxalq hüququn müstəqil subyektləridir.

Təşkilatın başlıca məqsədləri aşağıdakılardır:

❖ siyasi, iqtisadi, ekoloji, humanitar, mədəni və başqa sahələrdə əməkdaşlıq;
❖ ümumi iqtisadi məkan, dövlətlərarası kooperasiya və inteqrasiya çərçivəsində üzv dövlətlərin hərtərəfli inkişafı;
❖ insan hüquqlarının və azadlıqlarının təmin edilməsi;
❖ beynəlxalq sülh və təhlükəsizliyin təmin edilməsi sahəsində əməkdaşlıq, ümumi və tam tərksilaha nail olunması;
❖ qarşılıqlı hüquqi yardım;
❖ təşkilatın üzv dövlətləri arasında mübahisə və münaqişələrin sülh yolu ilə həlli.

MDB ölkələri böyük təbii və iqtisadi potensiala malikdir ki, bu da onlara rəqabət üstünlükləri verir və beynəlxalq əmək bölgüsündə layiqli yer tutmağa şərait yaradır. Təbii resurs ehtiyatlarının 25%-i, sənaye istehsalının 10%-i, elmi-texniki potensialın 12%-i, resursqoruyucu malların 10%-i bu ölkələrin sərəncamındadır. Bu sərvətlərdən dünya bazarında ən çox tələb olunan neft və təbii qaz, kömür, meşə məhsulları, əlvan və nadir metallar, kalium duzları və digər qazıntılar, həmçinin, şirin sular, əkinçilik və tikinti işləri üçün yararlı torpaq massivləridir.

BYİB-nin qiymətləndirməsinə görə, MDB nəqliyyat-kommunikasiya sistemlərinin

istismarından əldə edilən gəlir 100 milyard ABŞ dolları təşkil edə bilər. MDB ölkələrinin digər rəqib resursları - ucuz işçi qüvvəsi və enerji resurslarıdır ki, bunlar iqtisadiyyatın yüksəlməsi üçün mühüm potensial şəraiti təqdim edir. Burada dünya elektrik enerjisinin 10%-i istehsal edilir.

Lakin bu imkanlar son dərəcə səmərəsiz istifadə edilir ki, MDB ölkələrində ÜDM-in çox aşağı səviyyəsi - cəmi 1,4% olması buna sübutdur. Bu da MDB ölkələrinin beynəlxalq əmək bölgüsünə zəif cəlb edilməsindən irəli gələr.

MDB beynəlxalq inteqrasiya mallarının dünya ixracının 1,5%-i və kapital ixracının 1%-ni verir. Yüksək emal dərəcəli malların payı isə birlik üzrə olduqca aşağıdır. İxracın strukturunda xammal qrupu malları - neft və neft məhsulları, qaz, kimya və metallurgiya məhsulları üstünlük təşkil edir.

Bütün bunlar MDB ölkələrinin iqtisadiyyatlarının dayanıqlı inkişafına əlverişli şərait yaratmır. Xammala olan qiymətlər güclü tərəddüdlərə məruz qalır.

MDB təsis olunduqdan sonra onun sərhədləri daxilində birlik dövlətlərini təmisil edən bir sıra əlahiddə ittifaqlar da yaradılmışdır:

Avrasiya İqtisadi İttifaqı (*Eurasian Economic Union*) üzv-dövlətlər - Rusiya, Belarus, Qazaxıstan və Ermənistanın təmsil olunduğu, beynəlxalq hüquq subyektivliyinə malik, Avrasiya İqtisadi İttifaqı haqqında müqavilə ilə 2014-cü ildə təsis edilmiş beynəlxalq regional iqtisadi inteqrasiya təşkilatıdır. Milli iqtisadiyyatların hərtərəfli modernləşdirilməsi, kooperasiyası və rəqabətqabiliyyətliliyinin yüksəldilməsi və üzv-dövlətlərin sabit inkişafı və əhalilərinin yaşayış səviyyəsinin yüksəldilməsi üçün şərait təmin olunması məqsədilə yaradılmışdır İttifaq iqtisadiyyatın sahələrində malların, həmçinin, xidmətlərin, kapitalın və işçi qüvvəsinin hərəkət azadlığı, koordinasiya edilmiş, razılaşdırılmış və ya vahid siyasətin yeridilməsi təmin edilir. Avrasiya İqtisadi İttifaqının sələfi Rusiya, Belarus, Qazaxıstan, Qırğızıstan və Tacikistanı birləşdirən, 2001-2014-cü illərdə fəaliyyət göstərmiş Avrasiya İqtisadi Birliyi olmuşdur. Avrasiya İqtisadi İttifaqının Belarus, Qazaxıstan, Rusiya, Qırğızıstan və Ermənistanın birləşdiyi vahid gömrük ərazisində ticarət-iqtisadi inteqrasiya forması olan Gömrük İttifaqı vardır. Bu təşkilat 2010-cu ildə Rusiya, Belarus və Qazaxıstan tərəfindən imzalanmış vahid gömrük məkanının yaradılması haqqında dövlətlərarası müqavilə əsasında yaradılmışdır. İttifaq sərhədləri daxilində, xüsusi mühafizə, antidempinq və kompensasiya tədbirləri istisna olmaqla, iqtisadi xarakterli məhdudiyyətlərə yol verilmir və gömrük rüsumları tətbiq edilmir. Bununla belə, üzv dövlətlər üçüncü ölkələrlə ticarətdə digər tənzimləmə tədbirləri görür və vahid gömrük tarifləri tətbiq edir.

Rusiyanın və Belarusun İttifaq Dövləti - Rusiya Federasiyası ilə Belarus Respublikalarının arasında mərhələləri şəkildə təşkil edilən vahid siyasi, iqtisadi, hərbi, gömrük, valyuta, hüquq, humanitar, mədəni sahələri əhatə edən konfederativ ittifaqıdır.

MDB məkanında, həmçinin, beynəlxalq regional təşkilat kimi keçmiş SSRİ-nin 11

dövləti - Azərbaycan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan, Tacikistan, Rusiya, Ukrayna, Belarus, Moldova, Ermənistanın təmsil olunduğu 30 dekabr 1991-ci ildə dövlətlərarası "Mülki aviasiya və hava məkanından istifadə sahəsində saziş" əsasında təsis edilmiş Dövlətlərarası Aviasiya Komitəsi, DAK (*rusca* - Межгосуда́рственный авиацио́нный комите́т, МАК - *Dövlətlərarası Aviasiya Komitəsi, DAK*) da fəaliyyət göstərir. DAK müvafiq sahədə icra orqanı kimi hava gəmilərinin, aerodrom və aviaşirkətlərin sertifikatlaşdırılması ilə məşğul olur, hava nəqliyyatında qazaların tədqiqini aparır. Mənzil-qərargahı Rusiyanın paytaxtı Moskva şəhərində yerləşir. "Azərbaycan Respublikası Hökuməti ilə Aviasiya Hava Məkanından İstifadə üzrə Səlahiyyətli Nümayəndələrin Dövlətlərarası Şurası arasında onun Azərbaycan Respublikası ərazisində yerləşdirilməsi şərtləri haqqında" 6 noyabr 2014-cü il tarixində Bakı şəhərində Saziş imzalanmışdır.

Bundan başqa, bu sıraya MDB məkanında birliyə üzv olan 6 ölkə - Rusiya, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistanın iştirakı ilə hərbi-siyasi ittifaq - Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı - KTMT və həmçinin, indiki və keçmiş üzvlərdən - Azərbaycan, Ukrayna, Moldava və Gürcüstanın təmsil olunduğu Demokratiya və İqtisadi İnkişaf Uğrunda Təşkilatı - GUAM-ı da əlavə etmək olar.

**Rusiya Federasiyası - Rusiya** (*rusca* - Российская Федерация - *Rusiya Federasiyası*) Avropanın şərq, Asiyanın şimal hissəsində dövlət. Quruda 16 ölkə:



Norveç, Finlandiya, Estoniya, Latviya, Litva, Polşa, Belorus, Ukrayna, Gürcüstan, Azərbaycan, Qazaxıstan, ÇXR, Monqolustan, KXDR ilə, suda: Yaponiya və ABŞ ilə həmsərhəddir. Ölkənin şimal sahilləri Şimal Buzlu okeanının, şərq sahilləri Sakit okeanın, şimal-qərb və cənub-qərb sahilləri isə Atlantik okeanının dənizləri ilə əhatə olunmuşdur. Xəzər dənizi ölkənin cənubunda yerləşir. Rusiya dövlətçilik tarixi başlanğıcını 862-ci ildən alır. Rusiya Federasiyası Rusiya imperiyasının və SSRİ-nin varisi sayılır. Paytaxtı Moskva şəhəri, rəsmi dili rus dilidir. Federativ quruluşludur. BMT-nin Təhlikəsizlik Şurasının daimi üzvüdür. G20 qrupuna daxildir. Milli valyutası rubldır.

Ərazisi 17 098 246 $km^2$, əhalisi 146,4 milyon nəfərdir (*2018*). Buraya Ukraynadan ilhaq edilmiş Krım yarımadası və Sevastopol şəhəri əhalisinin sayı daxil edilməmişdir.

Rusiya ərazisinə görə dünyanın ən böyük dövlətidir (*quru səthinin* $^{1}/_{9}$*-i*). Ərazisinin $^{1}/_{4}$-i Avropanın, $^{3}/_{4}$-ü isə Asiyanın payına düşür. Bu reallıq Rusiyaya həm Avropa, həm də Asiya ölkəsi olmağa imkan verir. Ərazisinin $^{3}/_{4}$-ü düzənlik, 42%-i meşələrlə örtülü və 40%-i kənd təsərrüfatına yararlıdır. Əhali sayına görə isə 9-cu yerdə dayanır. Rusiya çoxmillətli ölkədir. Əhalinin milli tərkibinə görə birinci yerdə ruslar - 79,8%, ikinci yerdə tatarlar - 3,87%, üçüncü yerdə ukraynalılardır - 1,41%. Burada, həmçinin, ümumi sayı 20 milyona çatan türkdilli xalqlar: tatarlar, başqırdlar, çuvaşlar, azərbaycanlılar, saxalar, qumuqlar, qaraçay-balqarlar və digərilər vardır. Əhalinin böyük əksəriyyəti - 73,1%-i şəhərlərdə yaşayır.

İqtisadiyyatda xidmətlər 62,5%, sənaye 32,6%, kənd təsərrüfatı 4,9% paya malikdir. ÜDM 1,6 trilyon ABŞ dolları, adambaşına ÜDM 8928 ABŞ dollarıdır. İnflyasiya 2,4%, işsizlik səviyyəsi 5,2%, yoxsulluq səviyyəsi 13,3%-ə bərabərdir. Xarici borc 537,4 milyard ABŞ dolları (*ÜDM-in 34,0%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 52,3%-nə bərabərdir (*2017*).

Rusiya çox zəngin təbii resurslara malikdir. Burada dünya üzrə təsdiqlənmiş resursların 21%-i cəmləşmişdir. Ölkə neft və qazın hasilatında dünya lideridir. Burada sübut olunan neft ehtiyatı 11 milyard tondan çox, qaz ehtiyatları isə 20 trilyon $m^3$-ə qədər hesablanır. Ölkədə hər il orta hesabla 500 milyon ton neft, 600 milyard $m^3$ qaz hasil olunur ki, bunların da ixracından dövlət büdcəsinə milyardlarla dollar məbləğində vəsait daxil olur. Hazırda Rusiya Şimal Buzlu okeanın özünə məxsus dəniz akvatoriyasında aşkarlanmış iri neft yataqlarını istismar etmək niyyətindədir.

Ölkədə güclü qara və əlvan metallurgiya, kimya, maşınqayırma sənayesi yaradılmışdır. Yüngül və yeyinti sənayesi inkişaf etdirilmişdir. Meşə sənayesi ölkənin qədim və güclü inkişaf etmiş sahələrindəndir. Rusiya özünün hərbi-sənaye kompleksi və raket texnologiyası ilə olduqca güclüdür.

Ölkənin aqrar sektoru çoxsahəlidir. Burada kənd təsərrüfatı məhsullarının ümumi dəyərinin yarısı əkinçiliyin, yarısı isə heyvandarlığın payına düşür. Əkin yerlərinin 57%-ə qədərini taxıl bitkiləri tutur. Ölkədə həmçinin, geniş həcmdə texniki bitkilər: kətan, günəbaxan, şəkər çuğunduru, soya əkilir. Heyvandarlıq sahələri isə ölkənin bütün ərazilərini əhatə etmişdir. Şimalın tundra və meşə-tundra otlaqlarında maralçılıq, meşə-çöl və qismən də çöl zonalarında südlük və südlük-ətlik heyvandarlıq üstünlük təşkil edir. Daha quraq cənub rayonlarında ətlik-heyvandarlıq və qoyunçuluq təsərrüfatları yayılmışdır. İntensiv əkinçilik rayonlarında və şəhərlərin ətrafında donuzçuluq və quşçuluq kompleksləri, Sibirdə, Uzaq Şərq və şimalda xəz dərili heyvanlar saxlanılan təsərrüfatlar da vardır.

İxracatda əsas yeri xam neft və təbii qaz təşkil edir. Bundan başqa, hərbi məhsul, qara və əlvan metallar, digər istehsal malları da ixrac olunur.

Ölkədə bütün nəqliyyat növləri, dəmiryol, avtomobil, su, hava və boru-kəmər nəqliyyatı inkişaf etmişdir. Burada dəmir yollarının uzunluğu 120 min km-dən çoxdur. Volqa çayının imkanlarını genişləndirmək məqsədilə Rusiya ərazisində Volqa-Don, Moskva kanalı, Volqa-Baltik dənizçilik kanalı salınmışdır. Qara dəniz və Baltik dənizi, Şimal Buzlu Okeanı və Sakit Okean sahillərində iri liman şəhərləri yaradılmışdır. Ölkədə 232 hava limanı fəaliyyət göstərir ki, onlardan da 71-i beynəlxalq uçuşları həyata keçirir. Hazırda Rusiya dünyada ikinci yerdə duraraq, 62 min km magistral neft və 150 min km qaz boru kəmərlərini əhatə edən boru-kəmər nəqliyyat kommunikasiya şəbəkəsinə malikdir. Həmin kəmərlərlə ildə 300 milyon tondan artıq neft, 530 milyard $m^3$-dən artıq qaz nəql edilir. Son illərdə avtomobil və boru kəməri nəqliyyat növlərinin əhəmiyyəti xeyli artmışdır. Burada avtomobil yolların uzunluğu 1 milyon km-dən çoxdur.

Ölkənin təhsil sistemi kifayət qədər inkişaf etmişdir. Ali məktəblər özlərinin xüsusi

təhsil proqramları ilə fərqlənirlər. Rusiya həm də elm və mədəniyyətin yüksək inkişaf etdiyi ölkələr sırasındır. Hərbi və kosmik sənaye xüsusi ilə inkişaf etmişdir.

Rusiya ilə Azərbaycan arasında diplomatik münasibətlər 1992-ci ilin aprelin 4-də qurulmuşdur. İkitərəfli münasibətlərin müqavilə-hüquqi bazasını təşkil edən əsas sənəd Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında 1997-ci il iyulun 3-də imzalanmış dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilədir. Hazırda iki ölkə arasında müqavilə-hüquqi bazaya 110-a qədər dövlətlərarası, hökumətlərarası və regionlararası sazişlər daxildir. Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında ikitərəfli münasibətlərə dair konkret məsələlərin dövlət səviyyəsində həllini tənzimləyən işçi mexanizm İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyadır.

İki ölkə arasında ticarət dövriyyəsi 3 milyard ABŞ dolları həcmindədir. Rusiya ixracının əsasını maşınlar, avadanlıq və nəqliyyat vasitələri, ərzaq, ağac və sellüloz-kağız məmulatları, kimya sənayesi malları, elektrik enerjisi, qara və əlvan metallar, yayılmış metal təşkil edir. Azərbaycandan isə Rusiyaya ixracatın strukturunda elektrik enerjisi, təbii qaz, mineral məhsullar, ərzaq malları və kənd təsərrüfatı xammalı yer alır. Ərzaq malları və kənd təsərrüfatı xammalı qrupuna daxıl olanlar piy və yağlar, onların fraksiyaları, ağ qənd və təmiz saxaroza, meşə qozları, fermentləşdirilmiş qara çay, təzə meyvə və tərəvəzlər, çaxır-konyak məhsullarıdır. Hazırda Azərbaycan bazarında 200-ə qədəri 100% Rusiya kapitalı ilə, 300-dən çoxu müştərək müəssisə olmaqla 500-ə qədər Rusiya şirkəti fəaliyyət göstərir.

**Belarus Respublikası - Belarus** (*belarus dilində* - Рэспубліка Беларусь - *Belarus Respublikası*) Şərqi Avropada şərqdən Rusiya, cənubdan Ukrayna, qərbdən Polşa,



şimaldan Litva və Latviya ilə həmsərhəd dövlət. Belarus dövlətçilik tarixi başlanğıcını 25 mart 1918-ci ildən alır. SSRİ dövlətinin çökməsi ilə isə ölkə 26 dekabr 1991-ci ildə müstəqillik əldə etmişdir. Paytaxtı Minsk şəhəri, rəsmi dilləri belarus və rus dilləridir. Ölkə unitar quruluşludur və parlament respublikasıdır. Milli valyutası rubldur.

Ərazisi 207 600 km$^2$, əhalisi 9,5 milyon nəfərdir (*2018*).

Belarusların əcdadları şərqi slavyanlar hesab olunur. Onlar VI-VIII əsrlər arasında bu ərazidə məskunlaşmışlar. XVIII əsrdə həmin torpaqlar ilk dəfə “Belaya Rusiya” (*ağ rus*) adlanmağa başlanmışdır. Belarusun indiki adı da məhz bu mənbədən qaynaqlanır.

İqtisadiyyatda xidmətlər 51,1%, sənaye 40,6%, kənd təsərrüfatı 8,3% paya malikdir. ÜDM 56,3 milyard ABŞ dolları, adambaşına ÜDM 5143 ABŞ dollarıdır. İnflyasiya 5,4%, işsizlik səviyyəsi 0,5%, yoxsulluq səviyyəsi 5,7%-ə bərabərdir. Xarici borc 38,9 milyard ABŞ dolları (*ÜDM-in 69,0%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 46,1%-nə bərabərdir (*2017*).

Belarus öz iqtisadiyyatını sosial yönümlü bazar modeli prinsipləri əsasında irəlilədir. Burada dövlət mülkiyyəti dominantlıq təşkil edir. İqtisadiyyatda kiçik biznesin həcmi 20%-dən çox deyildir. Pərakəndə və topdansatış ticarətində, həmçinin, xidmətlər

sferasında özəl sektor üstündür. Ölkədə güclü energetika sistemi qurulmuşdur. Ölkənin əsas enerji ehtiyatlarını daş kömür və torf təşkil edir. Cüzi miqdarda neft-qaz ehtiyatları vardır. Bununla belə, Belarusun Rusiya və Ukraynadan enerji asılılığı mövcuddur. Belarusda maşınqayırma, kimya, dağ-mədən, meşə sənayesi, tikinti materialları istehsalı inkişaf etmiş sahələrdəndir. İxracatda neft məhsulları, kalium gübrəsi, maşınqayırma, kimya, metallurgiya və ərzaq məhsulları üstünlük təşkil edir.

Belarus dünyada daha çox aqrar dövlət kimi tanınır. Ölkədə maldarlıq, əkinçilik, bitkiçilik və aqrar texnika istehsalı inkişaf etmişdir. Ölkə bu sahədə daxili ehtiyaclarını ödəyir və qonşu dövlətlərə də yetərli miqdarda süd, süd məhsulları, tərəvəz ixrac edir.

Ölkənin nəqliyyat sisteminin əsasını dəmir və avtomobil yolları təşkil edir. Dəmir yollarının istismar uzunluğu 5512 km-dir. Avtomobil yollarının uzunluğu isə 300 km-ə qədərdir. Ölkədə su nəqliyyatı da inkişaf etmişdir. Belarus Avropanın dənizə çıxışı olmayan ən şimal ölkəsidir. Bu baxımda su nəqliyyatı çay nəqliyyatına əsaslanır. Burada 1500 km-dən çox su xətlərində, başlıca olaraq, Dnepr çayı hövzəsində daşımalar təşkil edilir. Ölkədə hava nəqliyyatı o qədər də inkişaf etməmişdir. Əsas hava limanı paytaxt Minskdədir.

Belarusda elm və təhsilə, səhiyyənin inkişafına xüsusi diqqət yetrilir. Ölkə Baloniya təhsil prosesində iştirak etmir.

Azərbaycanla Belarus arasında ticarət dövriyyəsi 250 milyon ABŞ dolları həcmindədir. Qarşılıqlı ticarətdə iki ölkənin 250-dən çox müəssisəsi iştirak edir və tədarüklər 300-dən çox mövqe üzrə həyata keçirilir. Ölkələr arasında əməkdaşlığın kooperasiya formaları da fəal inkişaf edir.



**Ukrayna** (*ukrayna dilində* - Україна - *Ukrayna*) Şərqi Avropada dövlət. Ukrayna Rusiya, Belarus, Polşa, Slovakiya, Macarıstan, Rumıniya və Moldova ilə həmsərhəddir. Cənub sərhədlərində Qara dəniz və Azov dənizi yerləşir. Ukrayna SSRİ dövlətinin çökməsi ilə bağlı ölkə 24 avqust 1991-ci ildən müstəqillik əldə etmişdir. Paytaxtı Kiev şəhəri, rəsmi dili ukrayna dilidir. Unitar quruluşludur və prezident-parlament respublikasıdır. Milli valyutası qrivendir.

Ərazisi 603 549 km$^2$, əhalisi 42,2 nəfərdir (*2018*).

İqtisadiyyatda xidmətlər 58,7%, sənaye 27,3%, kənd təsərrüfatı 14,0% paya malikdir. ÜDM 109,0 milyard ABŞ dolları, adambaşına ÜDM 2194 ABŞ dollarıdır. İnflyasiya 13,2%, işsizlik səviyyəsi 9,5%, yoxsulluq səviyyəsi 24,1%-ə bərabərdir. Xarici borc 114,8 milyard ABŞ dolları (*ÜDM-in 125,4%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 42,6%-nə bərabərdir (*2017*).

Ukrayna xammal resurslarına malik mühüm dövlətlərindən biridir. Bura tarixən daş kömür ehtiyatları ilə zəngin olmuşdur. Ölkənin energetika kompleksin də əsas yeri daş kömür tutur. Bununla yanaşı, ölkədə SES və AES-lər də fəaliyyət göstərirlər. Ölkədən elektrik enerjisi ixrac edilir (*illik 10 milyatd kVt/saat*). Ukrayna neft-qaz resurslarına da malikdir. Lakin öz enerji balansını tam təmin etmək üçün o, Rusiyadan hər il milyardlarla kubmetr qaz alır.

Ukrayna sənaye-aqrar ölkəsidir. Sənayedə qara metallurgiya, maşınqayırma, sahələri aparıcı mövqedə dayanır. Burada ÜDM-in yarısı ixrac məhsulu hesabına təmin edilir. İxracatda qara metallurgiya, elektrik avadanlığı, tekstil, ağac məmulatları mühüm yer tutur. Ölkə, başlıca olaraq, enerjidaşıyıcıları, maşın və avadanlıqlar, kimya sənayesi və neft məhsulları idxal edir.

Ölkədə bazar iqtisadiyyatı ilə bağlı xarakterik cəhətlərdən biri dövlətin aktiv roludur. Belə ki, dövlət orta hesabla 140 iri müəssisəyə sahibdir və iqtisadiyyatın müxtəlif sahələrində bir sıra əmtəələrə qiymət nəzarətini həyata keçirir.

Kənd təsərrüfatında taxılçılıq, şəkər çuğunduru, günəbaxan, kartof, meyvə-tərəvəz, ət və süd istehsalı, quşçuluq təsərrüfatları mühüm yer tutur.

Ölkədə nəqliyyat infrastrukturu da inkişaf etmişdir. Avtomobil, dəmir yolları, neft və qaz kəmərləri şəbəkəsi genişdir. Çay və dəniz nəqliyyatı yük və sərnişin daşımalarda mühüm yer tutur. Ölkənin böyük şəhərlərində beynəlxalq hava limanları fəaliyyət göstərir.

Xidmətlər sferasında bank sektoru əhəmiyyətli rol oynayır. Ölkədə turizmin inkişafı üçün böyük potensial mövcuddur. Qara dəniz, xüsusilə, Krım yarımadası, yüksək turist tələbatlılığı ilə seçilir. Karpat dağları ərazisi kurort və rekreasiya zonası kimi məşhurdur.

2014-cü ildə Ukraynaya mənsub Krım Muxtar Respublikası və əlahidə Sevastopol şəhəri Rusiya tərəfindən ilhaq edilmişdir. Bununla yanaşı, ölkənin cənub-şərqində Rusiya tərəfindən dəstəklənən separatçı və qondarma Donetsk Xalq Respublikası və Luqansk Xalq Respublikası Ukrayna Respublikasına qarşı terror-vətəndaş müharibəsi aparırlar.

Azərbaycanla Ukrayna arasında diplomatik münasibətlər 31 yanvar 1992-ci ildə qurulmuşdur. Lakin iki xalq arasında münasibətlər tarixən mövcud olmuşdur və uğurla da davam etməkdədir. Azərbaycan xalqını Ukrayna Respublikasının Krım yarımadasında yaşayan türkdilli xalq - Krım tatarları ilə daha sıx tellər bağlayır. Krım türklərindən olan İsmayıl Qaspıralı, Mustafa Krımoğlu və başqaları Azərbaycanda hörmətlə yad edilir. Ukraynalı ataman A.Qolovatı 1795-ci ildə Azərbaycanın cənub sərhədlərini qorumaq məqsədi ilə Azərbaycana gəlmiş və burada vəfat etmişdir. Onun məzarı, iki əsrdir ki, Azərbaycan xalqı tərifindən qorunur. Ukraynada təxminən 500 min azərbaycanlı yaşayır və ölkədə Azərbaycan diasporu fəaliyyət göstərir. Onlar ictimai-siyasi proseslərdə fəal iştirak edir və bir çox dövlət vəzifələrində təmsil olunurlar. Ukrayna MDB məkanında Azərbaycanın əsas strateji müttəfiqlərindən biridir. Azərbaycan və Ukrayna arasında iqtisadi səviyyədə də geniş əlaqələr var. Ölkələr regional birliklər GUAM və QDİƏT çərçivəsində sıx əməkdaşlıq edirlər. İki ölkə arasında 1 milyard ABŞ dollarına yaxın ticarət dövriyyəsi mövcuddur. Ukraynadan Azərbaycan Respublikasına, əsasən, hava və qaz kompressorları, ventilyasiya qurğuları, vakuum nasosları, neft-qaz kəməri boruları, təyyarələr və ucan aparatlar, onların hissələri, soyuducular, az qiymətli metallar və onlardan hazırlanan məmulatlar,

ərzaq məhsulları, spirtli və spirtsiz içkilər, sirkə, tütün və s. idxal edilir. Azərbaycan Respublikasından Ukraynaya isə yanacaq, benzin, neft məhsulları, fındıq, bitki mənşəli məhsullar, meyvə sirələri və s. ixrac olunur.

**Tacikistan Respublikası - Tacikistan** (*tacikcə* - Ҷумҳурии Тоҷикистон - *Tacikistan Cümhuriyyəti*) Mərkəzi Asiyada dövlət. ÇXR, Əfqanıstan, Özbəkistan, Qırğızıstanla həmsərhəddir. Tacikistan dövlətçilik tarixi başlanğıcını 892-ci ildən alır. Bunula belə, SSRİ dövlətinin çökməsi ilə bağlı ölkə 9 sentyabr 1991-ci ildən müstəqillik əldə etmişdir. Paytaxtı Düşənbə şəhəri, rəsmi dili tacik dilidir. Prezident respublikasıdır. Milli valyutası somonidir.



Ərazisi 143 100 km$^2$, əhalisi 9,1 milyon nəfərdir (*2018*).

Tacikistan aqrar-sənaye ölkəsidir. İqtisadi və turizm potensialına malik olmasına baxmayaraq dünyanın yoxsul ölkələri sırasında qalmaqdadır.

İqtisadiyyatda xidmətlər 45,9%, sənaye 25,5%, kənd təsərrüfatı 28,6% paya malikdir. ÜDM 7,9 milyard ABŞ dolları, adambaşına ÜDM 800 ABŞ dollarıdır. İnflyasiya 5,2%, işsizlik səviyyəsi 10,3%, yoxsulluq səviyyəsi 31,5%-ə bərabərdir. Xarici borc 5,8 milyard ABŞ dolları (*ÜDM-in 73,4%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 26,0%-nə bərabərdir (*2017*).

Tacikistanın ərazisi, əsasən, dağlıqdır. Şimalda Fərqanə vadisi, şimal-qərbdə və ölkənin mərkəzində Türküstan, Zərəfşan, Hissar, Alay, cənub-şərqdə Pamir dağları yerləşir. Tacikistanın zəngin alüminium, qızıl, gümüş və antimon yataqları var. Ölkədə strontium, duz, qurğuşun, sink, floraspar, sürmə və civə istehsal olunur. SSRİ dövründə burada uranium istehsal olunurdu, hazırda isə iqtisadi çətinliklərə görə bu istehsal dayandırılmışdır.

Tacikistanın böyük hidroresursları var. Bu, həm enerji istehsalında, həm də balıqçılığın inkişafında mühüm rol oynayır. Hidroenerji potensialına görə Tacikistan dünyada səkkizinci yerdədir. Burada dünyada ən hündür bənd - Nurek SES (*300 milyard kVt/saat*) yerləşir.Yanacaq sənayesinin əsasını kömürçıxarma təşkil edir və ölkədə neft və qaz hasilatı da genişlənir.

Tacikistanda kənd təsərrüfatı nisbətən zəif inkişaf etmişdir. Bu da yararlı torpaqların sahəsinin az olması, irriqasiya sistemlərinin inkişaf etdirilməməsi və digər texniki-iqtisadi çətinliklərlə bağlıdır. Ölkədə, əsasən, taxıl, pambıq, kartof, soğan, pomidor, meyvə və düyü becərilir. Qazaxıstan və Özbəkistandan üzüm idxal edilir.

Ölkə alüminium, pambıq, parça, bitki yağları, meyvələr ixrac edir, dəzgahlar, elektronika, avtomobillər və ərzaq malları idxal edir.

Tacikistanın nəqliyyat sistemi, əsasən, SSRİ dövründə qurulmuşdur. Bununla belə, müstəqillik illərində nəqliyyat infrastukturu inkişaf etdirilmişdir. Burada dəmir yollarının uzunluğu 1260,6 km təşkil edir. Ölkədə ölkənin daxili uçuşlarına xidmət edən 11 və beynəlxalq uçuşlar üzrə 4 aeroport fəaliyyət göstərir.

Ölkədə xidmət sferası genişləndirilir, turizm potensialı inkişaf etdirilir.

Azərbaycanla Tacikistan arasında diplomatik münasibətlər 29 may 1992-ci ildə yaradılmışdır. İki ölkə arasında iqtisadi sahədə möhkəm müqavilə-hüquq bazası mövcuddur və indiyədək 40-a yaxın sənəd imzalanmışdır. Azərbaycanla Tacikistan arasında 15-20 milyon ABŞ dolları həcmində ticarət dövriyyəsi vardır.

## 6.4. Baltikyanı region ölkələri

Baltikyanı və ya Baltik dənizi ölkələrinə Baltik dənizinə birbaşa çıxışı olan dövlətlər aiddir ki, bunun sayəsində onlardan istənilən ikisi digər dövlətlərin sərhədini keçməməklə birbaşa dəniz kommunikasiyaları əldə edir.

“Baltikyanı ölkələr” termini dövlətlərin siyasi, iqtisadi, mədəni fəallıq subyekti kimi çıxış etdiyini nəzərdə tutur. Lakin müasir dünyada artan qloballaşma və dövlətlərin millətlərarası proseslərə inteqrasiyası ilə mərkəzi hakimiyyət - regionlar şaquli xəttinin sərtliyi azalır, ayrı-ayrı regionlar daha çox müstəqillik əldə edirlər. Bunun sayəsində “Baltik regionu ölkələri” termininin aktuallığı azalır. O, daha inadla transsərhəd regionu kimi başa düşülən, müxtəlif dövlətlərin mikroregionlarından ibarət olan və bunun sayəsində dövlət sərhədləri ilə üst-üstə düşməyən “Baltik regionu” anlayışı tərəfindən sıxışdırılır.

Baltik regionu ölkələrinə aşağıdakı dövlətlər aiddir:

1.  Danimarka krallığı.
2.  İsveç krallığı.
3.  Latviya Respublikası.
4.  Litva Respublikası.
5.  Polşa Respublikası.
6.  Finlandiya Respublikası.
7.  Estoniya Respublikası.
8.  Almaniya Federativ Respublikası.
9.  Rusiya Federasiyası.

“Baltik regionu ölkələri” termininin daha geniş mənası çərçivəsində bura Belarus da aid edilir. Region ölkələri 1992-ci ildə Baltika Dənizi Dövlətlərinin Şurası - CBSS-də təmsil olunmuşlar.

**Litva Respublikası - Litva** (*litva dilində* - Lietuvos Respublika - *Litva Respublikası*) Şimali Avropada, Baltik dənizinin şərq sahilində dövlət. Şimalda Latviya,



cənub-şərqdə Belarus, cənub-qərbdə Polşa və Rusiyanın Kalininqrad bölgəsi ilə həmsərhəddir. Litva dövlətçilik tarixi başlanğıcını 16 fevral 1918-ci ildən alır. Bunula belə, SSRİ dövlətinin çökməsi ilə bağlı ölkə 6 sentyabr 1991-ci ildən müstəqillik əldə etmişdir. Paytaxtı Vilnüs şəhəri, rəsmi dili litva dilidir. Unitar quruluşludur və parlament respublikasıdır. Aİ və NATO-nun üzvüdür. Ölkə Şengen zonasına daxildir. Milli valyutası litdir.

Ərazisi 65 301 km$^2$, əhalisi 2,7 milyon nəfərdir (*2018*).

İqtisadiyyatda xidmətlər 68,3%, sənaye 28,4%, kənd təsərrüfatı 3,3% paya malikdir. ÜDM 41,4 milyard ABŞ dolları, adambaşına ÜDM 14,9 min ABŞ dollarıdır. İnflyasiya 2,7%, işsizlik səviyyəsi 7,1%, yoxsulluq səviyyəsi 22,2%-ə bərabərdir. Xarici borc 36,4 milyard ABŞ dolları (*ÜDM-in 87,9%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 54,3%-nə bərabərdir (*2017*).

SSRİ dövründə Litva iqtisadiyyatının kütləvi sənayeləşdirilməsinə başlanmışdır. Bu illərdə ölkədə SES, AES, Baltik dənizində Klaypeda iri dəniz limanı, çoxsaylı zavod və fabriklər tikilmişdir ki, bunlar da respublika iqtisadiyyatına əlavə stimullar gətirmişdir. SSRİ dağıldıqdan sonra bu ölkədə dayanıqlı iqtisadiyyat quruculuğu tədbirləri davam etdirilmiş və o, digər keçmiş müttəfiq respublikalar kimi Avropaya tam inteqrasiyalı kurs götürmüşdür. İnteqrasiya əlaqələri daha geniş spektrdə AFR-lə qurulmuşdur. Buna baxmayaraq, AFR Rusiya Federasiyasından sonra Litva mallarının həcminə görə ikinci bazar olaraq qalmaqdır.

Litva inkişaf etmiş emal sənayesinə malikdir. Burada maşınqayırma, dəzgahqayırma, dəqiq cihazqayırma, elektrotexniki məmulatlar, elektrik mühərrikləri, gəmiqayırma, televizorlar, soyuducular, velosiped, yengül və yeyinti sənayesi avadanlıqları istehsal olunur. Ölkədə kimya sənayesi də inkişaf etmişdir. Sulfat turşusu, azot gübrələri, plastmas, süni lif və s. istehsalı mövcuddur. Tikinti materialları, sement, linoleum, şüşə, ağac emalı məhsulları, trikotaj, toxuculuq, ayaqabı, kəhrəbadan məmulatlar  və yeyinti məhsulları istehsalı sahələri inkişaf etmişdir.

Ölkənin kənd təsərrüfatında aparıcı sahə heyvandarlıqdır. Arpa, buğda, şəkər çuğunduru, kartof, meyvə-tərəvəz yetişdirilir. Kənd təsərrüfatda əsas istehsal yükü fermer və ev təsərrüfatlarının üzərinə düşür.

Litvada enerji, əsasən, İES-lərdə istehsal olunur. Bu baxımdan, ölkə neft, qaz və daş kömür idxal edir. Ölkədə alternativ enerji mənbələrindən istifadə genişləndirilir.

Bank sistemi də inkişaf etmişdir. Litva Bankı Avropa mərkəzi banklar sisteminin üzvüdür və bank tənzimlənməsi sahəsində məsələlərin həllinin bir hissəsi Avropa Mərkəzi Bankı səviyyəsində qəbul olunur.

Ölkədə müqabil nəqliyyat infrastrukturu mövcuddur. Turizm potensialından istifadə olunur.

Azərbaycanla Litva arasında diplomatik münasibətlər 1995-ci ilin noyabrında yaradılmışdır. İki ölkə arasında 30 milyon ABŞ dolları həcmində ticarət dövriyyəsi vardır.



**Latviya Respublikası - Latviya** (*latışca* - Latvijas Republika - *Latviya Respublikası*) Şimali Avropada, Baltik dənizinin şərq sahilində dövlət. Şimalda Estoniya, şərqdə Rusiya, cənub-şərqdə Belarus və cənubda Litva ilə həmsərhəddir. Latviya dövlətçilik tarixi başlanğıcını Rusiya imperiyasından ayrıldığı 18 noyabr 1918-ci ildən alır. Sonradan SSRİ-yə daxil olmuş dövlət onun çökməsi ilə bağlı 21 avqust 1991-ci ildən yenidən müstəqillik əldə etmişdir. Paytaxtı Riqa şəhəri, rəsmi dili latış

dilidir. Unitar quruluşludur və parlament respublikasıdır. Aİ və NATO-nun üzvüdür. Ölkə Şengen zonasına daxildir. Milli valyutası latıdır.

Ərazisi 64 589 km$^2$, əhalisi 1,9 milyon nəfərdir (*2018*).

İqtisadiyyatda xidmətlər 75,2%, sənaye 21,6%, kənd təsərrüfatı 3,2% paya malikdir. ÜDM 27,0 milyard ABŞ dolları, adambaşına ÜDM 14,1 min ABŞ dollarıdır. İnflyasiya 2,2%, işsizlik səviyyəsi 9,1%, yoxsulluq səviyyəsi 25,5%-ə bərabərdir. Xarici borc 41,1 milyard ABŞ dolları (*ÜDM-in 152,2%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 52,1%-nə bərabərdir (*2017*).

Latviya dövlət müstəqilliyini bərpa etdikdən sonra Aİ ölkələri, xüsusən də, AFR, Böyük Britaniya və İsveç ilə ticarət əlaqələri qurmuşdur. Bununla belə, SSRİ dövlətində birlikdə olduğu Rusiya ilə də ənənəvi əlaqələri qalmadadır.

Latviyanı təbii sərvətlərinin əsasını torf və meşə-aqac ehtiyatları təşkil edir. Quruda və dəniz şelfində neft-qaz ehtiyatlarının olması ehtimal edilir. Ölkənin çaylarından elektrik enerjisi istehsalı üçün genişliklə istifadə olunur. Alternativ enerji mənbələrindən istifadə də genişləndirilir.

Latviya qeyri-metal sahələri, maşınqayırma, elektrik avadanlıqları, məişət cihazları, telefon, velisoped, moped, radio-televizor istehsalı üzrə ixtisaslaşmışdır. Hazırda ənənəvi sahələrdən - tramvay, vaqon, avtobus, elektrik qatarı, kənd təsərrüfatı maşınqayırması və balıqçılıq gəmiqayırması kimi sahələrdə istehsal aşağı düşmüşdür. Bununla belə, sement, şüşə və digər tikinti materialları istehsalı qaydaya salınmışdır. Kimya sənayesində sintetik liftlər, kimyəvi reagentlər, lak və boyalar istehsal olunur. Yüngül və yeyinti sənayesi inkişaf etdirilir. Latviya özünün dərman pereperatları və parfümeriyası ilə məşhurdur.

Ölkə ərazisinin 25%-i kənd təsərrüfatı təyinatlıdır. Bitkiçilik və heyvandarlıq inkişaf etdirilmişdir. Buğda, arpa, şəkər çuğunduru, meyvə və tərəvəz becərilir.

Latviya elektrik maşın və avadanlıqları, dəmir və polad, trikotaj və toxuculuq, ağac emalı məhsulları, dərman preparatları, parfümeriya ixrac edir.

İqtisadiyyatın əsas sahələrindən biri də yük tranzitidir ki, bu da ölkə büdcəsinin 30%-ni təmin edir. Paytaxt Riqanın dəmiz limanı Baltik dənizində ən mühüm logistik mərkəzlərdəndir.

Ölkədə çoxsaylı sanatoriya və pansionatlar fəaliyyət göstərir, turizm və kurort biznesi inkişaf etdirilir. Latviyada bank sistemi də inkişaf etdirilmişdir. Fəaliyyət göstərən bankların 70%-nə xarici kapital tərəfindən nəzarət olunur.

Latviyanın Azərbaycanla davamlı iqtisadi ələqələri vardır. İki ölkə arasında iqtisadi sahədə möhkəm hüquq bazası yaradılmış, 30-a yaxın sənəd imzalanmışdır. İllik ticarət dövriyyəsi 12-15 milyon ABŞ dolları təşkil edir.

**Estoniya Respublikası - Estoniya** (*eston dilində* - Eesti Vabariik - *Estoniya Respublikası*) Şimali Avropanın Baltik regionunda dövlət. Estoniya cənubda Latviya, şərqdə Rusiya ilə həmsərhəddir. Şimalda Fin körfəzi onu Finlandiyadan, Baltik dənizi isə İsveçdən ayırır. Estoniya dövlətçilik tarixi başlanğıcını Rusiya imperiyasından



ayrıldığı 24 fevral 1918-ci ildən alır. Sonradan SSRİ-yə daxil olmuş dövlət onun çökməsi ilə bağlı 20 avqust 1991-ci ildən yenidən müstəqillik əldə etmişdir. Paytaxtı Tallinn şəhəri, rəsmi dili eston dilidir. Unitar quruluşlu dövlətdir və parlament respublikasıdır. Aİ və NATO-nun üzvüdür. Ölkə Şengen və avrozonaya daxildir. Valyutası avrodur.

Ərazisi 45 227 km$^2$, əhalisi 1,3 milyon nəfər (*2018*).

İqtisadiyyatda xidmətlər 68,8%, sənaye 27,8%, kənd təsərrüfatı 3,4% paya malikdir. ÜDM 22,5 milyard ABŞ dolları, adambaşına ÜDM 17,6 min ABŞ dollarıdır. İnflyasiya 2,8%, işsizlik səviyyəsi 6,8%, yoxsulluq səviyyəsi 21,3%-ə bərabərdir. Xarici borc 20,5 milyard ABŞ dolları (*ÜDM-in 91,1%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 51,5%-nə bərabərdir (*2017*).

Estoniyada yanacaq, elektroenergetika, maşınqayırma, ağac emalı, sellüloz-kağız və kimya əsas sənaye sahələri aparıcı mövqedə dayanırlar. Estoniya Avropada ən nəhəng yanar şist və fosforit yataqlarına malikdir. Bu baxımdan ölkədə YEK-in əsasını da yanar şistlər təşkil edir və enerji istehsalında onun payı 90-95%-ə (*dünyada 3-cü*) bərabərdir. Belə vəziyyət onun həm də regional ekektrik enerjisi ixracatçısına çevirir. Yanar şistlər bolluğu burada kimya sənayesinin də inkişafında rol oynayır. Burada şistetik neft, azot gübrələri, müxtəlif boyalar, plastmas və s. istehsal olunur.

Kənd təsərrüfatının əsasını heyvandarlıq və bitkiçilik təşkil edir. Burada balıqçılıq sənayesi də davamlı inkişaf etdirilmişdir.

Ölkədə tikinti, rabitə və nəqliyyat sektoru da inkişaf etdirilir. Burada dəmir yolu xəttlərinin uzunluğu 1800 km-dən çoxdur və onlar tam səhmləşdirilmişdir. Avtomobil yollarının uzunluğu 42 min km təşkil edir ki, onların da 40%-i ictimai təyinatlıdır. Dəniz nəqliyyatı inkişaf etdirilmişdir. Paytaxt Tallinnin dəniz limanı ticarət gəmiçiliyi üçün daha geniş imkanlıdır. Bu baxımdan Estoniya bütün nəqliyyat növləri üzrə əlverişli tranzit məkanı rolunu ifa edir.

Estoniya özünün turizm potensialı ilə də fərqlənir. Ölkədə 1000-ə yaxın mehmanxana vardır. Səhiyyə turizmi burada çox inkişaf etmişdir. Sahə üzrə müxtəlif ixtisaslı personal fəaliyyət göstərir, xidmətlər keyfiyyətli və çox ucuz tərzdə həyata keçirilir. Səhiyyə turizminin əsas işhehlakçıları Finlandiyadan gələnlərdir. Ölkədə inkişaf etmiş təhsil sistemi mövcuddur.

Azərbaycanla Estoniya arasında diplomatik münasibətlər 20 iyun 1992-ci ildə yaradılmışdır. İki ölkə arasında ticarət dövriyyəsi 12-15 milyon ABŞ dolları təşkil edir.

## 6.5. Balkan regionu ölkələri

Balkan yarımadası Avropanın cənub-şərqində yerləşir. Sahəsi 505 min km$^2$-ə yaxındır. Cənub-qərbdən, cənubdan və cənub-şərqdən Aralıq dənizi, Adriatik dənizi, İon dənizi, Mərmərə dənizi, Egey dənizi və Qara dənizlə əhatə olunmuşdur.

Yarımadanın sahilləri parçalanmışdır. Relyefi daha çox dağlıqdır. Yarımadanın şimal sərhədi Dunay, Sava və Kupa çaylarından, sonuncunun mənbəyindən Kvarner boğazına qədər keçən şərti xətdir. Balkan yarımadasının ərazisi boyu Qərbi Avropanı Cənub-Qərbi Asiya (*Kiçik Asiya və Yaxın Şərq*) ilə birləşdirən mühüm nəqliyyat magistralları keçir.

Coğrafi cəhətdən Balkan regionu Avropanın ayrılmaz hissəsi, onun tarixi qurşağıdır. Bu da Balkan ölkələrinin birləşən Avropaya daxil olmasına təbii şərtlilik verir. Digər tərəfdən, Aİ və digər Avropa institutları da bu mürəkkəb regionun inkişaf etməkdə olan inteqrasiya proseslərinə daxil olmasında maraqlıdırlar.

Balkan regionu ölkələri qismən və ya tam olaraq aşağıdakı dövlətlərdən ibarətdir:

1. Albaniya.
2. Bolqarıstan.
3. Bosniya və Herseqovina.
4. Yunanıstan.
5. Makedoniya.
6. Monteneqro.
7. Serbiya.
8. Xorvatiya.
9. Sloveniya.
10. Rumıniya.
11. Türkiyə.
12. İtaliya.
13. Kosovo.

Bunlar arasında Yunanıstan, Sloveniya, Rumıniya, Xorvatiya, Bolqarıstan və İtaliya Aİ-nin üzvləridir. Türkiyə, Yunanıstan, Bolqarıstan, Rumıniya, Sloveniya və İtaliya NATO-ya daxildir.

**Yunanıstan Respublikası - Yunanıstan** (*yunanca* - Ελληνική Δημοκρατία - *Yunanıstan Respublikası*) Avropanın cənub-şərqində, Balkan yarımadasında dövlət.



Yunanıstan Osmanlı imperiyasından müstəqillik əldə edərək 25 mart 1821-ci ildə yaranmışdır. Paytaxtı Afina şəhəri, rəsmi dili isə yunan dilidir. Unitar quruluşludur və parlament respublikasıdır. Yunanıstan Aİ və NATO-nun üzvüdür. Şengen və avro zonaya daxildir. Valyutası avrodur.

Ərazisi 131 957 km$^2$, əhalisi 10,8 milyon nəfərdir (*2018*).

İqtisadiyyatda xidmətlər 80,0%, sənaye 16,0%, kənd təsərrüfatı 4,0% paya malikdir. ÜDM 195,0 milyard ABŞ dolları, adambaşına ÜDM 17,9 min ABŞ dollarıdır. İnflyasiya 0,2%, işsizlik səviyyəsi 21,4%, yoxsulluq səviyyəsi 36,0%-ə bərabərdir. Xarici borc 477,0 milyard ABŞ dolları (*ÜDM-in 244,6%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 44,1%-nə bərabərdir (*2017*).

Yunanıstan sənaye-aqrar ölkəsidir. Dövlət sektoru ÜDM-in təxminən yarısını təmin

edir. Ölkə, həmçinin, geniş yayılmış bank sisteminə malikdir. Sığorta şirkətləri geniş fəaliyyət göstərirlər. Ölkədə birja əməliyyatları yüksək sürətlə inkişaf edir. 2008-ci il dünya maliyyə böhranından sonra Yunanıstan çox dərin maliyyə-iqtisadi böhranla üzləşmişdir.

Ölkə sənayenin əsas sahələrini toxuculuq, mədən, kimya, neft-kimya, yeyinti, tütün, kağız, sement və metallurgiya təşkil edir. Ölkədə, həmçinin, elektrotexnika, maşınqayırmanın bəzi növləri, tikinti materialları istehsalı da inkişaf etmişdir. Daha çox inkişaf etmiş sahələr yüngül və yeyinti sənayesidir. Sənayedə iş qabiliyyətində olan əhalinin 21%-i məşğuldur. Ölkənin sənaye potensialı, əsasən, Afina və Saloniki rayonlarında cəmləşib. Qiymət dəyərində ifadədə burada təxminən sənaye məhsullarının 50%-i istehsal edilir. Ölkədə, həmçinin, boksitlərin, piritlərin, nikel filizinin, maqnezitlərin hasilatı aparılır. Naksos adasında dünyada ən iri sumbat yatağı var. Bununla belə, vurğulanmalıdır ki, sənayedə yüksək inhisarlaşma mövcuddur. Belə ki, ölkədə sənayenin bütün gəlirlərinin 50%-ni 200 şirkət əldə edir. Burada, eyni zamanda, çox sayda kiçik müəssisələr də vardır.

Yunanıstanın maye yanacağına olan tələbatının 95%-i idxal hesabına ödənilir. Eləcə də, yerli boz kömür ehtiyatlarından istifadə olunur. SES-lərdə bütün elektrik enerjisinin təxminən üçdə biri istehsal edilir, qalan istehsal isə İES-lərin payına düşür.

Kənd təsərrüfatı, əsasən, böyük olmayan xüsusi təsərrüfatlardan ibarətdir, iri fermer birlikləri isə az miqdardadır. İri kənd təsərrüfatı müəssisələrinin çox hissəsi Aİ-nin köməyi ilə yaradılmışdır. Bu baxımdan, ölkənin kənd təsərrüfatı sektorunun da əsas stimullaşdırıcısı Aİ-dir. Kənd təsərrüfatında ölkə iqtisadiyyatında məşğul olanların ümumi sayının 12%-i çalışır. Yunanıstanda geniş spektrdə tərəvəz, meyvə, heyvandarlıq və balıqçılıq məhsulları istehsal edilir. Meşə təsərrüfatı isə ikinci dərəcəli rol oynayır. Kənd təsərrüfatı istehsalı daha çox Makedoniyada və Peloponnesin ayrı-ayrı yerlərində inkişaf edib. Daha az inkişaf edən vilayətlər Fessaliya, Qərbi Peloponnes və Kritdir. Yunanıstanın yoxsul rayonları natural təsərrüfat, heyvandarlıq və kustar təsərrüfatlar üstünlük təşkil edən Egey və İonik dənizlərinin adaları, Epir, Frakiya və Şərqi Peloponnesdir. Bağçılıq və tərəvəzçilik təsərrüfatları da yaxşı inkişaf edib. Ölkədə zeytun, üzüm, yemiş, şaftalı, portağal, pomidor becərilir və bir sıra sitrus və bostan bitkiləri Aİ ölkələrinə ixrac edilir. Kənd təsərrüfatı malları ixracında şərab məhsulları da yer alır.

Ölkədə nəqliyyat infrastrukturu inkişaf etmişdir. Bütün daxili yük və sərnişin daşımalarının 60% avtomobil nəqliyyatının üzərinə düşür. Dəmir yolu nəqliyyatı isə bir qədər zəif inkişaf etmişdir. Ölkənin su nəqliyyatı potensialı yüksəkdir. Yunanıstan gəmilərinin sayına görə dünyada üçüncü ticarət donanmasına malikdir. Yunanıstan həm də dünyada ən iri mülki donanmaya sahib ölkə sayılır. Gəmiçilik Yunanıstan iqtisadiyyatının mühüm sahəsi kimi həm də valyuta daxilolmalarının əsas hissəsini təmin edir. Yunan gəmi sahiblərinin gəmiləri müxtəlif ölkələrin bayraqları altında qeydə alınırlar. Ölkənin əsas dəniz limanları: Pirey, Saloniki, Elevsin, Volosdur. Sahilboyu sularda balıqçılıq son dərəcədə mühüm əhəmiyyət daşıyır. Ölkədə 40-a hava limanı fəaliyyət göstərir ki, onlardan da 22-si beynəlxalq statusludur.

Ölkə maşın və avadanlıqlar, neft və neft məhsulları, mineral xammal, geniş istehlak malları, ərzaq idxal edir. Ölkənin əsas idxal partnyorları - İtaliya, AFR, ABŞ və Fransadır. İxrac məhsulları içərisində isə xammal - boksitlər, nikel, kalium-permanqanat, kənd təsərrüfatı malları - tütün, toxuculuq məhsulları, zeytun yağı, tərəvəz, meyvə, konservləşdirilmiş məhsullar, dənli bitkilər və s. mühüm yer tutur. Ölkənin əsas ixrac partnyorları AFR, İtaliya, Böyük Britaniyayadır. Ümumilikdə Yunanıstanın əmtəə dövriyyəsinin 60%-i Aİ ölkələrinin, 20%-i ərəb ölkələrinin payına düşür.

Yunanıstanda turizm də yüksək inkişaf xarakterinə malikdir. Hər il ölkə 18 milyon turist qəbul edir.

Ölkədə kölgə iqtisadiyyatının da həcmi böyük hesab edilir. Qiymətləndirilməyə görə kölgə bazar iqtisadiyyatı təxminən 20% təşkil edir. Yunanıstan üçün ən kəskin problem korrupsiya və iqtisadiyyatın kölgə sektorudur.

Hazırda Yunanıstan II Dünya Müharibəsindən sonra ən ağır və ən çətin iqtisadi böhran dövrünü yaşayır. Onun iqtisadiyyatı artıq altıncı ildir azalmaqdadır. Dünyanın 3 böyük reytinq agentliyi - "Fitch Ratings", "Moody's" və "Standard & Poor's" Yunanıstanın reytinqini ən aşağı səviyyəyə endirmişdir. Yunanıstan hökuməti borc öhdəliklərinin mübadiləsi üzrə sövdələşməyə özəl kreditorların əksəriyyətinin razılığını almışdır ki, bu da ölkəyə defoltdan yayınmaq imkanı vermişdir. Aİ-nin "zəif bəndi" sayılan Yunanıstan özəl və milli kreditorlar qarşısında yarım trilyon ABŞ dollarına yaxın dövlət borcu ilə Avropanın bütün vergi ödəyiciləri üçün ağır yükə çevrilmişdir. Hesablamalara görə, hər bir avropalı dolayı yolla Afinaya 535 avro kömək edir.

Yunanıstan Azərbaycanın müstəqilliyini 31 dekabr 1991-ci ildə tanımış, 2 aprel 1992-ci ildə iki ölkə arasında diplomatik əlaqələr yaradılmışdır. İki ölkə arasında ticarət dövriyyəsi təqribən 200 milyon ABŞ dolları təşkil edir. Bunun da əsas hissəsi Azərbaycandan Yunanıstana ixrac olunan neft məhsullarının payına düşür.

**Albaniya Respublikası** - **Albaniya** (*albanca* - Republika e Shqipërisë - *Albaniya Respublikası*) Cənub-şərqi Avropada Balkan yarımadasında yerləşən ölkə. Şimalda Monteneqro, şimal-şərqdə Kosova, şərqdə Makedoniya Respublikası və cənubda Yunanıstanla həmsərhəddir. Ölkənin qərbdə Adriatik dənizinə, cənub-qərbdə İon dənizinə çıxışı vardır. Albaniya uzun müddət Osmanlı imperiyasının tərkibində olmuş və 28 noyabr 1912-ci ildə müstəqillik əldə etmişdir. Paytaxtı Tirana şəhəri, rəsmi dili alban dilidir. Unitar quruluşludur və parlament respublikasıdır. NATO-nun üzvüdür. Milli valyutası lekdir.



Ərazisi 28 748 km$^2$, əhalisi 2,9 milyon nəfərdir (*2018*).

İqtisadiyyatda xidmətlər 53,7%, sənaye 23,7%, kənd təsərrüfatı 22,6% paya malikdir. ÜDM 11,4 milyard ABŞ dolları, adambaşına ÜDM 4203 ABŞ dollarıdır. İnflyasiya 2,0%, işsizlik səviyyəsi 13,9%, yoxsulluq səviyyəsi 14,3%-ə bərabərdir. Xarici borc 8,6 milyard ABŞ dolları (*ÜDM-in 75,4%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 48,5%-nə bərabərdir (*2017*).

Albaniya Avropada yoxsul ölkələrdən biridir. O uzun illər beynəlxalq təcriddə olmuşdur və inkişaf etmiş Qərbi Avropa ölkələri ilə davamlı ticarət-iqtisadi əlaqələr qura bilməmişdir. Belə vəziyyət Albaniya iqtisadiyyatının inkişafına da öz mənfi təsirini göstərmişdir. Müasir dövrdə enerjidaşıyıcılarının çatışmazlığı və infrastrukturun aşınması ölkə iqtisadiyyatının irəliləyişinə mane olur.

Albaniya sənayesində dağ-mədən, neft emalı, ağac emalı, metal emalı, metallurgiya, kimya, tekstil sahələri aparıcı mövqedə dayanır.

Kənd təsərrüfatında heyvandarlıqda (*iribuynuzlu mal-qara, qoyunçuluq*) taxılçılıq, sitrus meyvələri, üzümçülük sahələri inkişaf etmişdir.

Tekstil, ayaqqabı, asfalt, metal filizləri, tütün, meyvə-tərəz ixrac edilir, maşın və avadanlıqlar, ərzaq idxal olunur.

Albaniya Azərbaycanın müstəqilliyini 4 yanvar 1992-ci ildə tanımış, 23 sentyabr 1993-cü ildə ölkələr arasında diplomatik əlaqələr yaradılmışdır. Albaniya ilə Azərbaycanın arasında ticarət dövriyyəsi təqribən 1 milyon ABŞ dolları təşkil edir. Albaniya həm də TAP layıhəsində Azərbaycanın tərəfdaşıdır.

**Bosniya və Herseqovina** (*Bosniya və xorvat dilində* - Bosna i Hercegovina, BiH, *serbcə* - Босна и Херцеговина, БиХ - *Bosniya və Herseqovinaya*)



Avropanın cənubunda, Balkan yarımadasında dövlət. Qərbdə və şimalda Xorvatiya, şərqdə Serbiya, cənub-şərqdə Monteneqro ilə həmsərhəddir. Adriatik dənizinə böyük olmayan çıxışa malikdir. Bosniya və Herseqovina dövlətçilik tarixi Yuqoslaviya Federasiyasının dağılması ilə 5 aprel 1992-ci ildən başlanır. Paytaxtı Sarayevo şəhəri, rəsmi dilləri bosniya, xorvat və serb dilləridir. Federativ quruluşludur, parlament respublikasıdır. Milli valyutası konvertasiya olunan markadır.

Ərazisi 51 197 km$^2$, əhalisi 3,8 milyon nəfərdir (*2018*).

İqtisadiyyatda xidmətlər 65,4%, sənaye 26,8%, kənd təsərrüfatı 7,8% paya malikdir. ÜDM 16,3 milyard ABŞ dolları, adambaşına ÜDM 4308 ABŞ dollarıdır. İnflyasiya 1,1%, işsizlik səviyyəsi 25,6%, yoxsulluq səviyyəsi 17,2%-ə bərabərdir. Xarici borc 4,7 milyard ABŞ dolları (*ÜDM-in 28,8%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 39,7%-nə bərabərdir (*2017*).

Bosniya və Herseqovina iqtisadiyyatı keçmiş Yuqoslaviya Federasiyasına və sosialist düşərgəsi ölkələri ilə inteqrasiyaya bağlı olmuşdur. Yeni geosiyasi situasiyada isə ölkə dərinləşən bazar iqtisadiyyatı ilə özünün təsərrüfat həyatını yenidən qurur. Bosniya və Herseqovina iqtisadiyyatı metal ixracından, pul köçürmələri və xarici iqtisadi yardımlardan asılıdır. Hökumətin qeyri-təmərküzlük səviyyəsi iqtisadi siyasətin koordinasiya olunmasına və müvafiq islahatlar aparılmasına əngəllər törədir. Bu və ya digər səbəblər, yüksək burokratik sistem, seqmentli bazar buraya xarici sərmayə axınını məhdudlaşdırır.

Bosniya və Herseqovina ərazisində qonur kömür, lininit, dəmir filizi çıxarılır. İqtisadiyyatın ənənəvi sahələri ağac emalı və kimya sənayesidir. Köhnə istehsal sahələri modernləşdirilir və yenidən qurulur.

Kənd təsərrüfatında bitkiçilik və heyvandarlıq əsas sahələrdəndir. Taxıl, qarğıdalı, texniki bitkilər, tütün, şəkər çuğunduru becərilir, qoyun və keçi yetişdirilir. Bosniya və Herseqovina özünün atçılıq təsərrüfatları ilə məhşurdur.

Bosniya və Herseqovinanın Azərbaycanla dostluq əlaqələri genişdir. Bakı və Sarayevo 1972-ci ildən qardaşlaşmış şəhərlərdir. İki ölkə arasında iqtisadi və ticarət əlaqələri mövcuddur.

**Serbiya Respublikası - Serbiya** (*serb dilində* - Репу̀блика Ср̀бија - *Serbiya Respublikası*) cənub-şərqi Avropada, Balkan yarımadasının mərkəzi hissəsində və



qismən Pannon ovalığında yerləşən dövlət. Serbiyanın dənizə çıxışı yoxdur. Ölkə şimalda Macarıstan, şərqdə Bolqarıstan və Rumıniya, cənubda Makedoniya və şərqdə Xorvatiya, Bosniya və Monteneqro ilə həmsərhəddir. Serbiya uzun müddət Osmanlı imperiyasının tərkibində olmuş və 13 iyul 1878-ci ildə müstəqillik əldə etmişdir. Ölkənin yeni müstəqillik tarixi Yuqoslaviya Federasiyasının dağılması və onun tərkibindən Çernoqoriya Respublikasının (*Montoneqro*) çıxması ilə 5 iyun 2006-cı ildən başlanır. Paytaxtı Belqrad şəhəri, rəsmi dili serb dilidir. Unitar quruluşludur və parlament respublikasıdır. Milli valyutası serb dinarıdır.

Ərazisi 88 407 km$^2$, əhalisi 8,7 milyon nəfərdir (*2018*).

İqtisadiyyatda xidmətlər 49,1%, sənaye 41,1%, kənd təsərrüfatı 9,8% paya malikdir. ÜDM 37,2 milyard ABŞ dolları, adambaşına ÜDM 5356 ABŞ dollarıdır. İnflyasiya 1,4%, işsizlik səviyyəsi 14,1%, yoxsulluq səviyyəsi 8,9%-ə bərabərdir. Xarici borc 27,9 milyard ABŞ dolları (*ÜDM-in 75,0%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 33,6%-nə bərabərdir (*2017*).

Serbiya bazar iqtisadiyyatı kursunu götürsə də, burada keçid iqtisadiyyatı mərhələsi, hələ ki, tamamlanmamışdır. Ölkədə ticarətin liberallaşdırılması aparılmış, bir sıra müəssisələr restrukturizasiya olunmuş və özəlləşdirilmişdir. Bununla belə, iri elektroenergetika, telekommunikasiya, qaz və nəqliyyat şirkətləri hələ də dövlətin əlində qalmaqdadır.

Ölkənin təbii sərvətləri sırasında qonur kömür ehtiyatları mühüm yer tutur. Bundan başqa, Serbiyada neft-qaz, yanar şist və müxtəlif metal ehtiyatları da mövcuddur. Elektrik enerjisi İES və SES-lərdə istehsal olunur. İES-lər, əsasən, kömürlə işləyir. Ölkədə geotermal enerjidən də istifadə olunur. Sənayedə metallurgiya, maşınqayırma, kimya sahələri əsas yerləri tutur. Ölkədə yeyinti sənayesi də inkişaf etmişdir.

Serbiyanın ərazisində böyük miqdarda palıd və fıstıq meşələri vardır ki, bunlar da keyfiyyətli ağac məhulları tədarükü və istehsalında mühüm əhəmiyyətə malikdir. Serbiyanın münbit torpaqları ölkədə kənd təsərrüfatının inkişafında mühüm rol oynayır. Taxıl, qarğıdalı, günəbaxan və şəkər çuğunduru yetişdirilir. Ölkə çiyələk, gavalı, üzüm və digər meyvələrin mühüm ixracatçısıdır.

Beynəlxalq sanksiyalara baxmayaraq, ölkədə turizm inkişaf etdirilir. Sanksiyalar, həmçinin, Serbiyada nəqliyyat sisteminə də ciddi zərbə vurmuşdur.

Serbiyanın da daxil olduğu keçmiş Yuqoslaviya dövləti Azərbaycanın müstəqilliyini 31 dekabr 1991-ci ildə tanımış, Serbiya ilə Azərbaycan arasında 21 avqust 1997-ci ildə diplomatik əlaqələr yaradılmışdır. İki ölkə arasında ticarət dövriyyəsi təqribən 5-6 milyon ABŞ dolları təşkil edir.

**Sloveniya Respublikası - Sloveniya** (*sloven dilində* - Republika Slovenija - *Sloveniya Respublikası*) Mərkəzi Avropada, Balkan yarımadasının Alp dağları hissəsində yerləşən dövlət. Ölkənin Adriatik dənizinə çıxışı vardır. Ölkə qərbdə İtaliya, şimalda Avstriya, şimal-şərqdə Macarıstan, şərq və cənubda isə Xorvatiya ilə həmsərhəddir. Sloveniya dövlətçilik tarixi Yuqoslaviya Federasiyasının dağılması ilə 25 iyun 1991-ci ildən başlanır. Paytaxtı Lyublyana şəhəri, rəsmi dili sloven dilidir. Unitar quruluşludur və parlament respublikasıdır. Serbiya Aİ üzvüdür, Şengen zonasına və avrozonaya daxildir. Valyutası avrodur.



Ərazisi 20 253 km$^2$, əhalisi 2,1 milyon nəfərdir (*2018*).

İqtisadiyyatda xidmətlər 65,8%, sənaye 32,0%, kənd təsərrüfatı 2,3% paya malikdir. ÜDM 42,8 milyard ABŞ dolları, adambaşına ÜDM 21,3 min ABŞ dollarıdır. İnflyasiya 1,5%, işsizlik səviyyəsi 6,9%, yoxsulluq səviyyəsi 14,3%-ə bərabərdir. Xarici borc 49,9 milyard ABŞ dolları (*ÜDM-in 116,5%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 44,3%-nə bərabərdir (*2017*).

Ölkədə sənaye çox inkişaf etmişdir. Burada məşğul əhalinin 40%-dən çoxu çalışır. Metal emalı, dəzgahqayırma, avtomobil, tekstil, ağac emalı, mebel, kağız istehsalı və kimya aparıcı sənaye sahələrindədir. Yeyinti sənayesi, gön-dəri istehsalı sahələri də ölkə iqtisadiyyatında tutumlu çəkiyə malikdirlər.

Sloveniya iqtisadiyyatında energetika mühüm yer tutur. Enerjinin $^1/_3$-i sənaye sahəsində mənimsənilir. Ölkədə 73 SES fəaliyyət göstərir. Elektrik enerjisinin 70%-i bərabər olaraq AES və İES-lərin üzərinə düşür. İES-lər Rusiyadan alınan, beynəlxalq kəmərlər vasitəsi ilə ötürülən təbii qazla işləyir.

Sloveniya ərazisi kənd təsərrüfatı üçün əlverişli imkanlara malikdir. Ölkə ərazisinin 40%-i kənd təsərrüfatına yararlı hesab edilir. Burada ətçilik və südçülük heyvandarlığı inkişaf etmişdir. Ölkədə, həmçinin, taxıl, qarğıdalı və üzum əkilir. Sloveniya həm də meyvə-tərəvəz istehsal edən geniş bağçılıq təsərrüfatlarına malikdir.

Ölkənin ixrac potensialının 90%-ni sənaye malları təşkil edir. Nəqliyyat vasitələri (*yük maşınları və avtobuslar*), əczaçılıq sənayesi məhsulları, mebel, elektronika, tekstil, şinlər və kənd təsərrüfatı məhsulları ixrac edilir.

Sloveniyada tikinti sənayesi də inkişaf etdirilir.

Nəqliyyat sektorunun iqtisadiyyatda rolu artır. Burada nəqliyyatın bütün növləri inkişaf etmişdir və ölkə əlverişli nəqliyyat infrastrukturuna malikdir.

Sloveniya tarixi və memarlığı ilə də zəngin ölkədir. Bu cəhət turizmin inkişafına əlavə stimullar verir və ölkəyə trist axınını gücləndirir.

Sloveniya Azərbaycanın müstəqilliyini 1991-ci ilin dekabrında tanımış, 1993-cü

ilin fevralında isə ölkələr arasında diplomatik əlaqələr yaradılmışdır. İki ölkə arasında ticarət dövriyyəsi təqribən 15-16 milyon ABŞ dolları təşkil edir.

**Xorvatiya Respublikası - Xorvatiya** (*xorvatca* - Republika Hrvatska - *Xorvatiya Respublikası*) Mərkəzi Avropanın cənubunda, Balkan yarımadasının qərb hissəsində



yerləşən dövlət. Xorvatiya şimalda Sloveniya və Macarıstan, şimal-şərqdə Serbiya, şərqdə Bosniya və Hersoqovina, cənub-şərqdə Monteneqro ilə həmsərhəddir. Ölkənin cənubu Adriatik dənizinin sahilində yerləşir. Xorvatiya uzun müddət Yuqoslaviya Federasiyasının tərkibində olmuş və 25 iyun 1991-ci ildə müstəqillik əldə etmişdir. Paytaxtı Zaqreb şəhəri, rəsmi dili xorvat dilidir. Unitar quruluşludur və parlament respublikasıdır. Milli valyutası xorvat kunasıdır. Xorvatiya Aİ və NATO-nun üzvüdür.

Ərazisi 56 594 km$^2$, əhalisi 4,2 milyon nəfərdir (*2018*).

Keçmiş Yuqoslaviya Federasiyasının subyektləri sırasında Xorvatiya Sloveniyadan sonra ikinci inkişaf etmiş iqtisadiyyata malikdir. İqtisadiyyatda xidmətlər 69,5%, sənaye 26,5%, kənd təsərrüfatı 4,0% paya malikdir. ÜDM 48,7 milyard ABŞ dolları, adambaşına ÜDM 12,1 min ABŞ dollarıdır. İnflyasiya 1,1%, işsizlik səviyyəsi 10,8%, yoxsulluq səviyyəsi 19,5%-ə bərabərdir. Xarici borc 46,0 trilyon ABŞ dolları (*ÜDM-in 94,4%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 36,9%-nə bərabərdir (*2017*).

Xorvatiya böyük olmayan neft-və qaz sərvətlərinə malikdir. Bu ona neft emal etmək imkanı versə də, ölkə xaricdən müəyyən miqdarda yanacaq alır. Ölkədə daş və qonur kömür hasil edilir.

Enerji istehsalı həm İES-lərdə, həm də SES-lərdə aparılır.

Ölkədə gəmiqayırma və kimya sənayesi sahələri inkişaf etmişdir. Yeyinti məhsulları, dəmir və ağac emalı sənayesi ölkə iqtisadiyyatında əsas sahələrdəndir. Gəmi nəqliyyatı və turizm əhəmiyyətli gəlir qaynaqlarındandır. Paytaxt Zaqreb əhəmiyyətli sənaye mərkəzidir.

Kənd təsərrüfatı Xorvatiya iqtisadiyyatının əsas sahələrindən biridir. Yuqoslaviya Federasiyasının dağılması ilə ölkənin kənd təsərrüfatı da inkişafdan qalmışdır. Lakin görülən tədbirlər və aparılan islahatlar nəticəsində iqtisadiyyatın bu aparıcı sahəsi tezliklə bərpa olunmuşdur. Taxıl, qarğıdalı, şəkər çuğunduru, soya, kartof, yem bitkiləri əkilir. Üzümçülük inkişaf etmişdir. İri buynuzlu malqara yetişdirilir. Ölkədə balıq emal edən çoxsaylı fabriklər fəaliyyət göstərir.

İxracatda sənaye məhsullarının payı 90%-dən çoxdur. Burda, həmçinin, gəmilər kimya və ərzaq məhsulları da xüsusi yer tutur. İdxalda isə geniş istehlak malları, avadanlıqlar və yanacaq üstünlük təşkil edir.

Ölkədə xidmətlər sektoru aparıcı mövqedə dayanır. Burada əlverişli nəqliyyat infrastrukturu mövcuddur. Bank sektoru inkişaf etmişdir.

Xorvatiya turizm ölkəsidir, Adriatik dənizinin sahilləri, buradakı çoxsaylı adalar cəlbedici çimərlikləri ilə bütün Balkan yarımadasında ön sıradadır.

Xorvatiya Azərbaycanın müstəqilliyini 28 dekabr 1991-ci ildə tanımış, 26 yanvar

1995-cü ildə ölkələr arasında diplomatik əlaqələr yaradılmışdır. İki ölkə arasında ticarət dövriyyəsi təqribən 300-350 milyon ABŞ dolları təşkil edir.

**Monteneqro** (*monteneqro dilində* - Црна Гора, Crna Gora - *Monteneqro*) Cənubi Şərqi Avropada, Balkan yarımadasının Adriatik dənizi sahillərində yerləşən dövlət. Qərbdə Xorvatiya, şimal-şərqdə Bosniya və Herseqovina, şimal-qərbdə Serbiya və Kosovo, şərqdə isə Albaniya ilə həmsərhəddir.

Monteneqro dövlətçilik tarixi başlanğıcını XVIII əsrdən alır. Bununla belə, uzun müddət Osmanlı imperiyasının tərkibində olmuş ölkənin yeni müstəqillik tarixi Yuqoslaviya Federasiyasının süqutu, ondan ayrılan Serbiya və Çernoqoriya dövlətinin parçalanması ilə 3 iyul 2006-ci ildən başlanır. Paytaxtı Podqoritsa şəhəri, rəsmi dili monteneqro dilidir. Unitar quruluşludur və parlament respublikasıdır. Ölkə avro zonaya daxildir və valyutası avrodur.



Ərazisi 13 812 km$^2$, əhalisi 628 min nəfərdir (*2018*).

Monteneqro Yuqoslaviya Federasiyası tərkibində zəif inkişaf etmiş və daim mərkəzdən dotasiya alan bölgə kimi tanınmışdır. Müstəqillik əldə etdikdən sonra ölkənin iqtisadiyyatı şaxələndirilmiş, yeni istehsal və xidmət sahələri yaradılmışdır. İqtisadiyyatda xidmətlər 70,5%, sənaye 21,2%, kənd təsərrüfatı 8,3% paya malikdir. ÜDM 4,0 milyard ABŞ dolları, adambaşına ÜDM 6629 ABŞ dollarıdır. İnflyasiya 2,9%, işsizlik səviyyəsi 16,0%, yoxsulluq səviyyəsi 8,6%-ə bərabərdir. Xarici borc 2,6 milyard ABŞ dolları (*ÜDM-in 64,6%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 41,9%-nə bərabərdir (*2017*).

Monteoneqronun təbii sərvətləri içərsində baksit, dəmir filizi və daş kömür əhəmiyyətli yer tutur. Sənayedə qara metallurgiya, alüminium emalı, elektrotexnika sahələri aparıcı mövqedədir. Burada, həmçinin, gəmiqayırma, gəmi təmiri, yüngül və yeyinti sənayesi, ağac emalı sahələri də yüksək inkişaf etmişdir.

Ölkə kənd təssərrüfatı sahəsində də geniş imkanlara malikdir. Burada taxılçılıq, kartof, tütün, üzümçülük, və sitrus meyvəçiliyi inkişaf etmişdir. Monteneqro zeytun və əncir yetişdirməklə də məşhurdur. Ət və süd istehsal edən maldarlıq təsərrüfatları vardır.

Monteneqroda turizm sürətlə inkişaf etdirilir. Turizmin inkişafına Azərbaycan da sərmayə yatırır. Belə ki, SOCAR Adriatik dənizi sahilində yerləşən Monteneqro hərbi bazasını kurort məntəqəsinə çevirmək üçün 90 illik müqavilə imzalamışdır.

Azərbaycan Monteneqronun müstəqilliyini tanıyan ilk ölkələrdən biridir, 2008-ci ildə iki ölkə arasında strateji əməkdaşlıq haqqında bəyannamə imzalanmışdır. Monteneqro ilə Azərbaycan arasında iqtisadi əlaqələr genişlənir, ticarət dövriyyəsi artırılır.

**Kosovo Respublikası - Kosovo** (*albanca* - Republika e Kosovës, *serbcə* - Република Косово - *Kosova Respublikası*) Avropanın cənub-şərqində, Balkan yarımadasında yerləşən, qismən tanınmış dövlət. Kosova 17 fevral 2008-ci ildə Serbiyadan ayrılaraq müstəqilliyini elan etmişdir. Paytaxtı Priştina şəhəri, rəsmi dilləri alban və serb dilləridir. Unitar quruluşludur və parlament respublikasıdır. Ölkənin milli valyutası avrodur.



Ərazisi 10 887 km$^2$, əhalisi 1,8 milyon nəfərdir (*2018*).

Serbiya dövlətinin Konstitusiyasına görə, Kosovo onun tərkibində Kosovo və Metoxiya muxtar ölkəsidir (*serbcə* - Аутономна покрајина Косово и Метохија - *Kosovo və Metoxiya muxtar ölkəsi*, *qısaldılmış* - Космет - *Kosmet*). Faktiki olaraq isə ölkəyə Serbiya tərəfindən nəzərət edilmir və Kosovanın serb əhalisinin bir hissəsi də mərkəz Priştinaya tabelilik göstərmir.

Yuqoslaviyanın tərkibində olduğu zamanlarda Kosovo iqtisadiyyatının göstəriciləri fedarativ səviyyədən aşağı olmuşdur. Belə vəziyyət Yuqoslaviya Federasiyası dağıldıqdan sonra da onun inkişafına öz təsirini göstərmişdir. Lakin hazırda Kosovo iqtisadiyyatında müəyyən artım templəri əldə olunmuşdur.

İqtisadiyyatda xidmətlər 64,5%, sənaye 22,6%, kənd təsərrüfatı 12,9% paya malikdir. ÜDM 6,4 milyard ABŞ dolları, adambaşına ÜDM 10,4 min ABŞ dollarıdır. İnflyasiya 0,1%, işsizlik səviyyəsi 34,8%, yoxsulluq səviyyəsi 30,0%-ə bərabərdir. Xarici borc 2,4 milyard ABŞ dolları (*ÜDM-in 37,5%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 26,8%-nə bərabərdir (*2017*).

Kosovada iri həcmdə qurğuşun, sink, nikel, kobalt, boksit, maqnenizit ehtiyatları vardır. Ölkə, həmçinin, yetərli miqdarda indiy, kadmiy, germaniy, talliy və zeolit kimi nadir mineral ehtiyatlara da malikdir. Burada qızıl, gümüş, mis kimi metal resursları da mövcuddur.

Kosovnun liqnit (*qonur kömür*) ehtiyatları 15 milyard tondan çox hesablanır ki, bu da ölkəyə ondan, davamlı olaraq, 150-200 il ərzində faydalanmağa imkan yaradır. Ölkənin daş kömür ehtiyatları isə daha çox - 40 milyard ton həcmində hesablanır. Bununla belə, bir sıra mənbələr Kosovoda təbii sərvətlərin yetərincə tədqiq edilmədiyi qənaətindədirlər.

Kosovoda müasir ət emalı, ayaqqabı fabrikləri vardır ki, onların da məhsulları hazırda ixrac olunur.

Kosovonun müstəqilliyi Azərbaycan tərəfindən tanınmamışdır.

## 6.6. Ərəb resurs iqtisadiyyatı və islam monarxiyaları

Zəngin neft-qaz ehtiyatlarına malik ərəb dünyası ölkələri bu resurslardan istifadə əsasında müvafiq iqtisadi modellər qurmuşlar. Həmin ölkələr sırasında BƏƏ, Küveyt, Bəhreyn, Bruney, Qətər, Səudiyyə Ərəbistanı və Oman kimi islam monarxiyaları daha fərqli cəhətlərə malikdirlər. Həmin modellərin oxşar cəhətləri onları ərəb resurs iqtisadiyyatı adlandırılan müstəvidə birləşdirir. Belə sistemlilik neft və ya qaz sahəsindən əldə edilmiş vəsaitlər hesabına bir sıra müasir sənaye və xidmət sahələrinə, kənd təsərrüfatına dövlət nəzarəti ilə dövlətin birbaşa iştirakını uzlaşdırır. Bu sistemdə dövlət inkişafın başlıca hərəkətverici qüvvəsi, iqtisadi fəaliyyətin əsas subyekti olaraq çıxış edir. İnfrastruktur, sosial sfera, vətəndaşların maddi rifahı çox yüksək səviyyədə saxlanılır. Siyasi sistem son dərəcə mühafizəkar, partiarxal xarakter daşıyır. Mədəniyyət

sahəsində də ənənələr ciddi qorunur. Gündəlik həyatda ən müasir məişət texnikasından istifadə ilə patriarxallıq uzlaşır. Turizmə böyük əhəmiyyət verilir ki, bu da iqtisadiyyatın bu tipini öz coğrafi mövqeyindən istifadəyə əsaslanan daha bir iqtisadi sistemlə yaxınlaşdırır. Səudiyyə Ərəbistanından başqa bu ölkələrin hamısının həm ərazisinə, həm də əhali sayına görə böyük olmasına baxmayaraq, ÜDM hesablanarkən onların vəziyyəti, əsasən, daha uduşlu görünür. Yer kürəsi əhalisinin sayında 0,51%-ə qədər payla onlar dünya ÜDM-nin 0,9%-ni istehsal edirlər. Bu rəqəmlər göstərir ki, hətta bu qrupun hər hansı ölkəsinin ümumi xüsusiyyətləri üzrə onlar dünya liderlərindən nəzərəçarpacaq dərəcədə geri qalırlar. Qrupun daha böyük nailiyyətləri neft hasilatı, emalı və onun ixracı ilə bağlıdır. Neft çıxarılması və ixracı səviyyəsinə görə Səudiyyə Ərəbistanı dünyada lider mövqeyə malikdir. Bu göstəricilərə görə ilk onluqda BƏƏ və Küveyt də qərar tutmuşdur. Bəhreyn və BƏƏ həm də dünyanın iri maliyyə mərkəzləridir. Bundan başqa, bu ölkələrin əksəriyyəti ən müxtəlif sahələrdə güclü sosial proqramları ilə məşhurdur.

Bol neft sərvətlərinə malik ərəb resurs iqtisadiyyatı ölkələri əksərən OPEK kartelində birləşmişlər. Bu cəhət onlara müəyyən dərəcədə dünya iqtisadiyyatının gedişinə təsir etmək imkanı yaratmışdır. Həmin sindromik güc özünü 1973-cü il qlobal neft böhranında daha çox göstərmişdir. Bu böhrandan sonra Qərbin inkişaf etmiş dövlətləri neftin qiymətində reqressiyanın qarşısını almaq üçün kompleks tədbirlər həyata keçirdilər. Alternativ enerji mənbələrinə, qənaətedici texnologiyalara diqqətin artırılması neft sərvətlərinin tükənəcəyinə bir işarə oldu. Geoloji axtarış işləri göstərdi ki, regionda neft ehtiyatları yüksək olsa da, sonsuz deyildir.

Neft firavanlığının əbədi olmaması faktı qarşısında, hamıdan əvvəl, ən kiçik ərəb ölkəsi Bəhreyn qaldı. Lakin bu kiçik ölkə bunları sezirmiş kimi hələ öncədən qabaqlayıcı tədbirlər görməkdə idi. Belə ki, Bəhreyində neftdollarları (*oildollar*) "fontan vuranda", ölkə çoxsaylı aparıcı maliyyə, məşhur neft kompaniyaları və nüfuzlu beynəlxalq qurumlarla əməkdaşlıq əlaqələri yaratmışdı. Bu reallıq böyük istehsal və bazarın əlverişli nöqtələrinin birində yerləşən ölkənin ofşor zonaya, regionun maliyyə mərkəzinə çevrilməsində əhəmiyyətli amil olmuşdur. Liberal qanunlar qəbul etməklə Bəhreyin regionun qonşu mühafizəkar, qanunvericilikli ölkələrinin, xüsusən də, arxaik-ortotoksal orentasiyalı Səudiyyə Ərəbistanı kimi əzəmətli neft diyarının maliyyə "avanport"u qismində çıxış etmək imkanı qazanmışdır.

Bəhreynin fenomeni qonşu körfəz ölkələrinin postneft strategiyasının müəyyən edilməsində əhəmiyyətli örnək olmuşdur. Neftdən sonrakı aqibətini proqnoz edənlər perspektiv iqtisadi quruculuqda təsərrüfatın diversifikasiyası, miqyaslı maliyyə-investisiya fəaliyyəti, kapitalın xaricdə uzunmüddətli və ümidli yerləşdirilməsi, məşğulluğun əsas sferalarında kadrların milliləşdirilməsi istiqamətində təşəkkül tapan inkişaf ssenarisinə qərar vermişlər. İndi bu ölkələrdə qeyri-neft sektoru inkişaf edərək müvafiq yüksəliş tapmışdır. Qeyd olunan çətin iqlim şəraitinə baxmayaraq, region ölkələrində kənd təsərrüfatı yenidən qurulmuş, aqrar sektor rentabelli işləyərək daxili ehtiyacların

dolğun ödənilməsini təmin etmişdir. Belə ki, səhra şəraitinə baxmayaraq Səudiyyə Ərəbistan hazırda özünü taxılla təmin edir və hətta müəyyən qədər də ixrac prosesini həyata keçirir. İndi Küveyt, BƏƏ müxtəlif meyvə-tərəvəz, çiçək ixracatında da üstünlüklərə nail olmuşlar. Məşriqin neft bossları ilə yanaşı, "aqrar kralları" da beynəlxalq biznesdə möhtəşəmlik əldə etmişlər. İndi burada istehsal olunan kənd təsərrüfatı malları ən geniş çeşiddə xarici bazarlara çıxarılır. Küveytin səhləb çiçəyi Holland qızılgülünə Avropa marketlərində rəqib çıxır. Səudiyyə Ərəbistanı, BƏƏ meyvə-tərəvəz və digər kənd təsərrüfatı malları ilə Qafqazın ətəklərinə qədər bazara sahib çıxmaq niyyətlərini artıq gerçəkləşdirməkdədirlər. Bundan başqa, neft bolluğu həmin ölkələrdə biznesin ən qabaqcıl texnologiyalarına yiyələnməkdə yerli işbazlara kömək olmuşdur. İndi ərəb legionerləri Avroatlantik məkanda iri istehsal-xidmət maqnatlarına, neft bazarı ilə yanaşı əmtəə, maliyyə, fond bazarlarının fəal üzvlərinə, aparıcı beynəlxalq kompaniyaların səhmdarlarına çevrilmişlər. Bu ölkələr həm də çalışırlar ki, xam neftin və qazın ixracından neft, neft-qaz kimyasının məhsullarının ixracına keçsinlər. Hasil olunan neftin 90%-ni emal edən Küveytin neftayırma zavodları xam neftə nisbətdə daha çox neft məhsullarının ixracından gəlir əldə edirlər. Burada həm də müəyyən qədər yanacaq ixracını enerjitutumlu məhsullar, o cümlədən, əsasən, Avstraliyadan gətirilən alüminiumun əridilməsindən alınanlar əvəz edir. İndi neft emalı, neft-kimyası, enerjitutumlu metallurgiya kombinatları Səudiyyə Ərəbistanı, Bəhreyn, Oman və Qətərdə daha çox intişar tapır. Turizmin maliyyə sferasının inkişafından da gəlir əldə edilir. Regionda ofşor biznesi sürətli inkişafdadır. Küveyt Böyük Britaniyanın, Kanadanın, Yaponiyanın və bir çox digər Qərbi Avropa ölkələrinin TMŞ-lərinin həmsahibi kimi çıxış edir. Onun Qərbi Avropada minlərlə yanacaqdoldurma stansiyası, Danimarkada, Niderlandda və İtaliyada iri neftayırma zavodları, böyük hava limanlarında çoxsaylı aviayanacaq məntəqələri vardır. Bundan başqa, özünün dəniz donanmasında 30-a yaxın tankerə malik olan Küveyt həm də inkişaf etmiş kapitalist ölkələrində 100 milyardlarla sərmayə qoyuluşuna malikdir.

Lakin bütün bunlara baxmayaraq həmin ölkələrdə postneft iqtisadiyyatı hələ də geniş prospektə çıxış etməmiş və neftdən asılılıq yenə də izafi dərəcədə qalmaqdadır. Buna həmin ölkələrdə adambaşına düşən ÜDM-in Qərbin inkişaf etmiş ölkələri ilə müqayisəsi aydınlıq gətirir.

**Səudiyyə Ərəbistanı** (*Al-Mamlakah al-'Arabiyah as-Sa'udiyah - Kingdom of Saudi Arabia*) Asiya qitəsində, Ərəbistan yarımadasında dövlət. Şimaldan İraq, Küveyt, İordaniya, İsrail, cənubdan Yəmən, Oman, cənubi-şərqdən BƏƏ, qərbdən isə Misir ilə həmsərhəddir. Səudiyyə Ərəbistanı, həmçinin, ölkənin qərbində yerləşən Qırmızı dəniz vasitəsilə Cibuti, Sudan, Eritreya, şərqində yerləşən Fars körfəzi vasitəsi ilə İran və Bəhreynlə həmsərhəddir. Paytaxtı Ər-Riyad şəhəri, rəsmi dili ərəb dilidir. Ölkə mütləq teokratik monarxiyadır və burada seçkilər keçirilmir. G20 qrupuna daxildir. Milli valyutası səudiyyə rialıdır.



Ərazisi 2 149 690 $km^2$, əhalisi 33,7 milyon nəfərdir (*2018*).

Səudiyyə Ərəbistanın ərazisi 622-ci ildə yaradılmış Ərəb xilafətinə məxsus olmuş, XVI əsrdə isə Osmanlı imperiyasının tərkibinə qatılmışdır. Osmanlı imperiyası dağıldıqdan sonra bu ərazilərdə müstəqil Hicaz və Şammar krallıqları, Nəcd əmirliyi adlı dövlətlər mövcud olmuşdur. İndiki Səudiyyə Ərəbistanının müstəqillik tarixi isə 23 sentyabr 1932-ci ildən başlanır.

İqtisadiyyatda xidmətlər 53,2%, sənaye 44,2%, kənd təsərrüfatı 2,6% paya malikdir. ÜDM 652,0 milyard ABŞ dolları, adambaşına ÜDM 20,2 min ABŞ dollarıdır. İnflyasiya 2,8%, işsizlik səviyyəsi 5,7%, yoxsulluq səviyyəsi 12,7%-ə bərabərdir. Xarici borc 200,9 milyard ABŞ dolları (*ÜDM-in 30,8%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 36,6%-nə bərabərdir (*2017*).

Səudiyyə Ərəbistanı dünyada üç ölkədən biridir ki, (*İordaniya Haşimilər Krallığı və Lixtenşteyn knyazlığı*) hakim sülalənin (*Səudilər*) adını daşıyır.

Səudiyyə Ərəbistanı iqtisadiyyatı neft gəlirlərinə əsaslanır. 1930-cu illərdə burada neft aşkar edilmişdir. Buna görə də ABŞ inhisarları ölkədəki zəngin neft ehtiyatlarını istismar etmək üçün uzunmüddətli konsepsiyalar aldılar. Sonralar məşhur ARAMCO (*ingiliscə* - Arabian-American Oil Company - *Ərəb-Amerika Neft Şirkəti*) adlı beynəlxalq neft şirkəti (*hazırda Saudi Aramco*) yaradıldı. Çox qısa müddət ərzində vaxtilə yoxsul olan krallıq neft ixrac edən qüdrətli dövlətə çevrildi. ABŞ II Dünya Müharibəsindən sonra ölkənin mühüm strateji əhəmiyyətli rayonu olan Dahranda hərbi-hava bazası inşa etdi və 1950-ci ildə uzunluğu 1720 km olan və ildə 15-20 milyon ton ötürücülüyü olan transərəb neft kəmərinin çəkilməsinə nail oldu. 1970-ci illərdə müdhiş neft böhranı ilə bağlı qiymət artmaları Səudiyyə Ərəbistanının gəlirlərinin on dəfələrlə yüksəlməsi ilə müşayiət olundu və o, dünyanın inkişaf etməkdə olan ölkələrinin liderinə çevrildi. Bundan sonra ölkə iqtisadiyyatına böyük vəsait qoyuldu, neft sənayesi ilə yanaşı digər sənaye sahələri də təşəkkül tapdı.

Hazırda Səudiyyə Ərəbistanı OPEK təşkilatının aparıcı üzvüdür. Burada dünya neft ehtiyatlarının 25%-i cəmləşmişdir. Ölkə dünyada neft ixracına görə birinci yeri tutur. Neft gəlirləri ölkə büdcəsinin 75%-ni, ÜDM-in 45%-ni və ümumi ixracın 90%-ni təşkil edir. Ölkədə çalışan 5,5 milyon əcnəbi ölkə iqtisadiyyatı, xüsusən də, neft və xidmət sektorunda vacib rol oynayır. Hökumət iqtisadiyyatın neftdən asılılığının aradan qaldırılması və ölkə vətəndaşlarının məşğulluğunun artırılması məqsədilə özəl sektoru inkişaf etdirir, elektrik enerjisi, təbii qaz istehsalı, neft kimyası və informasiya-kommunikasiya texnologiyaları sahələrində özəl sektorun və xarici investorların iştirakını dəstəkləyir. Ölkədə təhsilin, peşə hazırlığı infrastrukturun inkişafına böyük vəsait ayrılır. Su çatışmazlığı kənd təsərrüfatının davamlı inkişafına mənfi təsir göstərir. Bu baxımdan ölkə ərazisinin yalnız 4,2%-i becərilir. Səudiyyə Ərəbistanı ildə 100 milyon $m^3$ şor suyu şirin suya çevirməklə dünyanın ən böyük su şirinləşdirmə gücünə malikdir. İrriqasiya məqsədilə ildə yerdən 9500 milyon $m^3$ su çıxarılır. Bunun hesabına ölkədə pomidor, yemiş, üzüm, soğan, kartof, arpa, əncir, ağ qarğıdalı, küncüt də yetişdirilir

və xaricə buğda ixrac olunur. Kənd təsərrüfatı kiçik miqyaslı bədəvi təsərrüfatı və iri miqyaslı mexanikləşdirilmiş kənd təsərrüfatı istiqamətində inkişaf etdirilir. Ölkədə qoyun, keçi və dəvə yetişdirilir, Qırmızı dəniz və İran körfəzində balıq ovlanır. Səudiyyə Ərəbistanı, həmçinin, geniş xurma ağacı meşələri massivinə malikdir.

İxracatda əsas yeri neft və neft məhsulları tutur, ölkə sənaye avadanlıqları, kimya məhsulları, avtomobillər və tekistil idxal edir.

Ölkədə dəmir yolları şəbəkəsi bir neçə yüz kilometri əhatə edir. Bu xətlər, əsasən, paytaxt Ər-Riyadı Fars körfəzindəki limanlarla birləşdirir. Bununla belə, ölkədə "Şimal-Cənub" adlı 2400 km uzunluğunda dəmir yolunun çəkilişi layihələndirilir. Həmçinin, Məkkə şəhəri ilə Mədinə şəhərini birləşdirəcək 440 km dəmir yolu xəttinin inşasına başlanılmışdır. Ölkədə avtomobil yollarının uzunluğu 222 min km-dən çoxdur. Burada 208 hava limanı vardır ki, onlardan 3-ü beynəlxalq statusludur. Ciddədəki hava limanı ən böyüyüdür və burada dünyanın ən nəhəng aeroportu tikilir.

Səudiyyə Ərəbistanında islam dünyasının iki Müqəddəs Ocağı Məkkə və Mədinə şəhərləri yerləşir. Hər il buraya on milyonlarla zəvvar və turist axışır. Buna görə də hər iki şəhərin infrastrukturu genişləndirilir. Məkkə şəhərindəki müqəddəs Kəbə kompleksi və Mədinədəki islam peyğəmbəri Həzrəti Məhəmmədin məqbərəsi və onun ətrafındakı ziyarətgahlar yenidən qurulur.

İslamın müqəddəs yerlərinin Səudiyyə Ərəbistanında yerləşməsi, hər il minlərlə azərbaycanlının bu yerləri ziyarət etməsi iki ölkə arasında münasibətlərin genişlənməsində mühüm rol oynayır. Bu, Azərbaycan xalqının İslam dinini qəbul etdiyi orta əsrlərdən bu günə qədər davam edir. Hələ orta əsrlər boyunca bir çox Azərbaycan şairləri ərəb dilində də böyük əsərlər yaratmışlar. Bu əsərlər dünya ədəbiyyatının inciləri olmaq etibarı ilə Azərbaycan və ərəb mədəniyyətinin inkişafında böyük rol oynamışdır. Səudiyyə Ərəbistanı Azərbaycanın müstəqilliyini 30 dekabr 1991-ci ildə tanımış, 24 fevral 1992-ci ildə ölkələr arasında diplomatik əlaqələr yaradılmışdır. Qaçqın və məcburi köçkün problemi ilə üzləşdiyi zaman Azərbaycan Səudiyyə Ərəbistanının köməyini yaxından hiss etmişdir. Səudiyyə Ərəbistanı "Əsrin müqaviləsi"ndə təmsil olunur. Hazırda bu müqavilədə ölkənin "Delta-Hess" şirkəti 2,72% paya malikdir. İki ölkə arasında ticarət dövriyyəsi təqribən 370-400 milyon ABŞ dolları təşkil edir.

**Birləşmiş Ərəb Əmirlikləri - BƏƏ** (*İmarat əl Ərəbiyyə əl Müttəşidə - United Arab Emirates*) Ərəbistan yarımadasının şərq hissəsində, Fars və Oman körfəzləri sahilində



yeləşən dövlət. Cənubda və qərbdə Səudiyyə Ərəbistanı, şimalda Qətər, cənub-qərbdə Omanla həmsərhəddir. Ölkənin müstəqillik tarixi 2 dekabr 1971-ci ildən başlanır. Paytaxtı Əbu-Dabi şəhəri, rəsmi dili ərəb dilidir. Federativ (*yeddi əmirlik - Abu-Dabi, Dubay, Şərca, Yəmən, Rəs-əl-Şeymə, Umm-əl-Qayveyn və Füceyrə*) monarxiya quruluşludur. Milli valyutası BƏƏ dirhəmidir.

Ərazisi 83 600 km$^2$, əhalisi 9,7 milyon nəfərdir (*2018*). BƏƏ-nin əksər ərazisi (*93%*)

Abu-Dabi və Dubay əmirliklərinə aiddir. Son onilliklərdə əhalinin sayı əcnəbilər hesabına xeyli artmışdır. Burada davamlı urbanizasiya prosesi gedir. Belə ki, hazırda ölkə əhalisinin 80,0%-i şəhərlərdə yaşayır. Abu-Dabi, Dubay, Şərca BƏƏ-nin ən böyük şəhərləridir.

İqtisadiyyatda xidmətlər 49,3%, sənaye 49,8%, kənd təsərrüfatı 0,9% paya malikdir. ÜDM 370,0 milyard ABŞ dolları, adambaşına ÜDM 37,7 min ABŞ dollarıdır. İnflyasiya 3,4%, işsizlik səviyyəsi 1,7%, yoxsulluq səviyyəsi 19,5%-ə bərabərdir. Xarici borc 220,4 milyard ABŞ dolları (*ÜDM-in 59,5%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 55,1%-nə bərabərdir (*2017*).

BƏƏ ərazisinin böyük hissəsini səhralar təşkil edir. Burada yerüstü su mənbələri və meşə massivləri yoxdur. Son illərdə suvarma üçün dəniz suyunu təmizləyən çoxsaylı qurğular inşa olunmuşdur. Son 20-30 il ərzində burada 100 milyondan çox ağac əkilmişdir.

Ölkədə qiymətli faydalı qazıntılar - neft, təbii qaz, dəmir filizi, daş duz, nikel və s. aşkar olunmuşdur. Aşkar edilmiş neft ehtiyatı 10 milyard ton hesablanır. Neft bolluğu ölkənin sürətli iqtisadi inkişafına təkan vermişdir.

BƏƏ iqtisadiyyatının əsasını reeksport, ticarət, neft-qaz hasilatı və ixracı təşkil edir. Dübay şəhəri ölkənin və bölgənin ən iri kommersiya mərkəzi hesab olunur. Ümumilkdə BƏƏ Uzaq Şərq və Avropa istehsalçıları arasında iqtisadi yolların yaxınlığında yerləşir. Buna, əsasən də, ölkədə çox sayda konteyner daşımalarını təmin edən dəniz limanları vardır. Bundan başqa, digər nəqliyyat vasitələri üzrə də ölkədə tranzit infrastruktur inkişaf etdirilmişdir. Avtomobil yoları genişliklə asfaltlanmışdır.

Son illər ÜDM-də neft və neft məhsullarının payı azalmaqdadır. Bu ölkədə iqtisadiyyatın digər sektorlarının inkişafı ilə əlaqədardır. Quraqlıq, isti iqlim, çayların olmaması kənd təsərrüfatının inkişafına öz mənfi təsirini göstərir. Lakin şirinləşdirilmiş sular hesabına bu sahə də inkişaf etdirilir. Ölkədə yetişdirilən moruq və digər kənd təsərrüfatı məhsulları hətta ixrac olunur.

Ölkədə turizm inkişaf etdirilir. Burada əsas turizm mərkəzi kimi Dübay şəhəri çıxış edir. Ölkəyə gələn turistlər isti dəniz sahillərində dinəclir, səhralara səfərlərə çıxırlar.

BƏƏ Azərbaycanın müstəqilliyini 26 dekabr 1991-ci ildə tanımış, 1 sentyabr 1992-ci ildə ölkələr arasında diplomatik əlaqələr yaradılmışdır. İki ölkə arasında ticarət dövriyyəsi təqribən 120-130 milyon ABŞ dollarına bərabərdir.

**Qətər Əmirliyi - Qətər** (*Devletü'l-Qətər - State of Qatar*) cənub-şərqi Asiyada, Ərəb yarımadasının şimal-şərq hissəsində, Qətər yarımadasında yerləşən dövlət. Qətər qurudan yalnız Səudiyyə Ərəbistanı ilə həmsərhəddir. Ölkənin digər tərəfləri Fars körfəzi ilə əhatə olunmuşdur. Fars körfəzi vasitəsi ilə simal-qərbdən Bəhreyn ilə qonşudur. Səudiyyə Ərəbistanı və BƏƏ ilə olan ərazi mübahisələrinə görə Qətər bəzi xəritələrdə BƏƏ ilə həmsərhəd kimi də göstərilir. Qətərin istiqlal tarixi 3 sentyabr 1971-ci ildə Böyük Britaniyadan aldığı siyasi müstəqilliyi ilə başlanır.



Paytaxtı Doha şəhəri, rəsmi dili ərəb dilidir. Ölkənin idarəetmə forması mütləq monarxiyadır. Milli valyutası Qətər rialıdır.

Ərazisi 11 586 km$^2$, əhalisi 2,6 milyon nəfərdir (*2018*). Ölkədə paytaxt Dohanın hüdudlarından kənarda, demək olar, heç nə yoxdur. Buna görə də, mahiyyət etibarı ilə, Qətər elə Dohadan ibarətdir. Şəhər özü isə çoxsaylı bir neçə mərtəbli evlərdən, seyrək məhəllələrdən və yeni çoxlu göydələnlərdən ibarətdir.

Qətər adambaşına gəlirə görə dünyanın ən zəngin ölkələrindən biridir.

İqtisadiyyatda xidmətlər 49,5%, sənaye 50,3%, kənd təsərrüfatı 0,2% paya malikdir. ÜDM 165,0 milyard ABŞ dolları, adambaşına ÜDM 60,8 min ABŞ dollarıdır. İnflyasiya 0,9%, işsizlik səviyyəsi 0,6%, yoxsulluq səviyyəsi 0,0%-ə bərabərdir. Xarici borc 159,2 milyard ABŞ dolları (*ÜDM-in 96,4%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 75,0%-nə bərabərdir (*2017*).

Qətər iqtisadiyyatının əsasını neft-qaz hasilatı təşkil edir. Bu sektor ÜDM-in 55%-dən çox hissəsini, ixracın 85%-ini, dövlət gəlirlərinin isə 70%-ni təmin edir. Ölkənin aşkar edilmiş neft ehtiyatları təxminən 2-3 milyard ton, təbii qaz ehtiyatları isə 18-20 trilyon m$^3$ təşkil edir. Bu isə o deməkdir ki, ölkə dünyada qaz ehtiyatlarının həcminə görə 3-cü yeri tutur. Burada hər il, stabil olaraq, 100 milyard m$^3$-dən çox təbii qaz hasil olunur. 2030-cu ildə bu göstəricinin 250 milyard m$^3$-i aşacağı gözlənilir. Neft gəlirləri böyük həcmdə və səmərəli şəkildə sosial sahəyə məsrəf olunur. Bundan yalnız Qətər vətəndaşları faydalana bilər.

Neft ehtiyatlarının kəşf edilməsindən əvvəl Qətər əhalisinin əksəriyyəti balıqçılıq və ovçuluqla məşğul olmuşdur. İndi isə neft-qaz resursları ixracından asılılığı aradan qaldırmaq üçün Qətər dövləti iqtisadiyyata iri həcmli xarici investisiyalar cəlb edir, infrastrukturun inkişafına böyük sərmayələr yatıraraq iqtisadiyyatın diversifikasiyasını təmin edir. Ölkənin körfəzə baxan hissəsində Ras Laffan adlı sənaye şəhəri qurulmuşdur. Neftin varlığı ölkədə gübrə və sement sənayesinin inkişafına təkan vermişdir. Son illərdə Qətərdə metallurgiya sənayesi sürətlə inkişaf etməkdədir. Ölkə alüminium istehsalına görə dünyada aparıcı yerlərdən birini tutur. Burada kənd təsərrüfatı təbii iqlim şəraitinə görə zəif inkişaf etmişdir və hazırda ölkə əhalisinin yalnız 10%-nin istehlakını təmin edir. Ölkədə tərəvəzçilik və bağçılıq təsərrüfatları fəaliyyət göstərir. Maldarlıqla köçəri və yarımköçəri tayfalar məşğul olur. Dəvə, qoyun və keçi yetişdirilir.

Ölkədə dəmir yolları yoxdur. Avtomobil yollarının ümumi uzunluğu 1230 km-dir. Qətər əhalisi, əsasən, şəxsi nəqliyyatdan istifadə edir. Gəlmələr isə baha olmayan taksi xidmətindən istifadə edə bilər.

Ölkədə turizm inkişaf etdirilir və bunun üçün müvafiq əlverişli infrastruktur imkanları mövcuddur.

Qətərlə Azərbaycan arasında diplomatik əlaqələr 1994-cü il sentyabr ayının 14-də qurulmuşdur.

## 6.7. Super nəhəng ölkələr: ÇXR və Hindistan

ÇXR və Hindistan dünya iqtisadiyyatında tam başqa təzahürlərdir. Onlar miqyaslı insan resurslarına malik olmaqla iqtisadi siyasətlərini həmin potensialdan səmərəliliklə istifadə yönəldən super nəhəng ölkələr kateqoriyasına malik dövlətlər kimi çıxış edirlər. Miqyaslı insan resursları bu ölkələrə nəhəng iqtisadi potensial yaratmaq imkanı verir. Buna görə də hər iki dövlət iqtisadi siyasətlərini bu potensialı səmərəliliklə reallaşdırmaq əsasında qururlar. ÜDM-in paritet istehlak qabiliyyəti səviyyəsi üzrə ÇXR dünyada 1-ci, Hindistan isə 3-cü yeri tutur. Bu ölkələr qüdrətli dövlətlərə çevrilərək, çox yaxın keçmişdə, həm nüvə klubuna, həm də kosmik kluba daxil olmuşlar. ÇXR həm də dünyanın idarəolunan kosmik gəmi buraxan üçüncü ölkəsinə çevrilmişdir. Bu iki nəhəngin iqtisadiyyatlarında qalan məsələlərdə oxşarlıqdan çox fərqlər mövcuddur, ona görə də onların potensialı ayrı-ayrılıqda nəzərdən keçirilməlidir.

**Çin Xalq Respublikası**, **ÇXR - Çin** (*çin dilində* - 中華人民共和國 - *Çin Xalq Respublikası*) Şərqi Asiyada dövlət. Çin 13 ölkə - Rusiya, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Əfqanıstan, Hindistan, Nepal, Butan, Myanma, Laos, Vyetnam, KXDR və Monqolustanla həmsərhəddir. Paytaxtı Pekin şəhəri, rəsmi dili çin dilidir. Ölkə konstitusiyasına görə Çin Xalq Respublikası xalqın demokratik diktaturasına əsaslanan sosialist dövlətidir. Çində sosializm qurulmuşdur və bütün hakimiyyət xalqa məxsusdur. Ölkə tipinə görə ÇXR mərkəzləşmiş unitar dövlət sisteminə aid edilir. ÇXR BMT-nin Təhlükəsizlik Şurasının daimi üzvüdür. G20 qrupuna daxildir. Milli valyutası yuandır.



ÇXR dünyada əhaliyə görə birinci, əraziyə görə isə üçüncü ölkədir. Əhalisi 1,39 milyard nəfər, ərazisi 9 598 962 km$^2$-dir (*2018*).

İqtisadiyyatda xidmətlər 52,2%, sənaye 39,6%, kənd təsərrüfatı 8,2% paya malikdir. ÜDM 12,0 trilyon ABŞ dolları, adambaşına ÜDM 8113 ABŞ dollarıdır. İnflyasiya 2,1%, işsizlik səviyyəsi 4,7%, yoxsulluq səviyyəsi 3,3%-ə bərabərdir. Xarici borc 1,7 trilyon ABŞ dolları (*ÜDM-in 14,2%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 57,6%-nə bərabərdir (*2017*).

Çin dünyada ən qədim sivilizasiyalardan biridir. Burada yazı mədəniyyətinin yaşı təqribən 4 min il hesablanır. Çin ərazisində quldarlıq quruluşu b.e.ə. XXI yüzillikdə Xia sülaləsinin qurulması ilə başlanır. Sonrakı dövrlərdə buradakı quldarlıq sistemi daha da genişlənmiş və güclənmişdir. B.e.ə. 770-221 Şərqi Cou dövründə quldarlıq tədricən feodalimzlə əvəz olunmağa başlanmışdır. B.e.ə. 221-ci ildə Çində ilk çoxetnik qruplu, mərkəzi feodal dövləti yaranmışdır. Burada feodal quruluş 2 min il - 1840-cı ildəki Tiryək müharibələri zamanına qədər davam etmişdir. Bu müharibələrin başlanması Çin tarixində böyük dəyişikliyə yol açmışdır. Belə ki, XIX əsrin əvvəllərindən etibarən İngiltərə Çinə qaçaqmalçılıq yolu ilə böyük miqdarlarda tiryək ixrac etmiş və ölkədən gümüş çıxarmışdır. Bu hadisələr Çinin iqtisadiyyatına zərər

vurmuş və ölkə İngiltərə ilə müharibələr aparmışdır. Məğlub olan Çin İngiltərə ilə müqavilə imzalayaraq yarıfeodal, yarımüstəmləkə bir dövlətə çevrilmişdir. XX əsrin əvvlərində Rusiyadakı inqilab və çevrilişlər Çində də marksizmin yayılmasına səbəb olmuşdur. 1921-ci ildə Çin Kommunist Partiyası qurulmuşdur. 1930-cu ildən Çin Kommunist Partiyasının rəhbəri seçilən Mao Tszedun sonradan Çin üçün öz adı ilə bağlı "maozim" adlı xüsusi kommunist ideologiyası hazırlamışdır. O, SSRİ dövlətinin köməyi ilə vətəndaş müharibəsində generalisimus Çan Kayşıyə (*1887-1975*) qalib gəldikdən və 1949-cü ildə Tayvanda Çin Respublikası yaradıldıqdan sonra, faktiki olaraq, ömrünün sonuna qədər ÇXR-ə rəhbərlik etmişdir. Vətəndaş müharibəsindən qalib çıxmış Çin Kommunist Partiyası 1 oktyabr 1949-cu ildə Çin Pespublikasının sələfi olaraq Çin Xalq Respublikası adlı dövlətin yaranmasını elan etmişdir. ÇXR ilə Tayvan hökuməti arasında müharibə 1950-ci ildə dayandırılmış və burada hazırda mövcud Çin Respublikası yaradılmışdır. Hər iki tərəf müasir dövrdə yenə də müharibə vəziyyətində qalmaqdadırlar.

1970-ci illərdə birpartiyalı sistemə malik hər iki ölkə - materikdə yerləşən ÇXR və adalarda yerləşən Çin Respublikası ciddi islahatlar yoluna qədəm qoymuşlar. Tayvan demokratik yenidənqurma, çoxpartiyalı sistem yaratmaqla iqtisadiyyatın liberallaşması yolunu seçmiş, ÇXR isə Kommunist Partiyasının diktaturasını möhkəmləndirmək, iqtisadiyyatı dövlətlətləşdirmək və "mədəni inqilab"ı həyata keçirmək yolunu tutmuşdur. Bununla belə, ÇXR 1978-ci ildə yeni islahatlara başlayaraq kommunist hakimiyyətini saxlamaqla iqtisadiyyatın liberalaşması kursunu götürmüşdür. 1997-ci ildə Böyük Britaniya ÇXR-ə Honkonq adasını, 1999-cu ildə isə Portuqaliya Makao adasını qaytarmışdır. Fərqli siyasi-iqtisadi quruluşa malik bu ölkələr ÇXR-in xüsusi inzibati rayonları kimi çıxış edirlər. Belə vəziyyət isə "bir ölkə - iki sistem", başqa sözlə, ÇXR də daxil, vahid Çin dövləti çərçivəsində iki müxtəlif iqtisadi və hüquqi dövlət statusunu təcəssüm etdirir.

Hazırda ÇXR yenə də Kommunist Partiyasının rəhbərliyi ilə sosial-iqtisadi xəttini müəyyənləşdirir və iqtisadi inkişafda davamlı uğurlar əldə edir. Tarixə nəzər saldıqda görərik ki, bu inkişaf heç də birdən-birə baş verməmişdir. Belə ki, ÇXR 1949-cu ildən sonra - sosializm quruculuğu illərində çətin və ziddiyyətli tarixi yol keçmişdir. Ayrı-ayrı dövrlərdə əldə edilən iqtisadi nailiyyətlər böhranla əvəz olunmuş və nəticədə əhalinin həyat səviyyəsi çox ləng yüksəlmişdir. 1960-70-ci illərdə əhalinin sürətli təbii artımı "demokrafik partlayışla" müşayiət olunmuşdur. Nəticədə əhalinin yaş tərkibi cavanlaşmış, əmək qabiliyyətlilərin sayı yarım milyard nəfəri ötmüş və onların sosial tələbatının təmin edilməsində ciddi problemlər yaranmışdır. Buna görə də ÇXR-də əhalinin təbii artımını məhdudlaşdıran fəal demoqrafik siyasət yürüdülməkdədir. Ölkə əhalisinin 90%-dən çoxu çinlilərdir. Burada əhalinin orta sıxlığı 1 km²-də 130 nəfərdir və məşkunlaşma olduqca qeyri-bərabərdir. Bu isə öz-özlüyündə böyük təsərrüfat çətinlikləri törədir. Belə ki, Şərqdə, xüsusilə, Böyük Çin düzənliyinin cənubunda əhalinin sıxlığı 1 km²-də 600 nəfərdən artıq olduğu halda, Tibet muxtar rayonunda

həmin göstərici 1-2 nəfər təşkil edir. ÇXR-də urbanizasiyanın səviyyəsi orta dünya göstəricisindən təxminən iki dəfə aşağıdır. Lakin dünyanın heç bir ölkəsində ÇXR-dəki qədər şəhərli yoxdur. Burada 500-dən çox iri şəhər vardır ki, onlardan 40-da milyondan çox əhali yaşayır. Şəhərlərin 90%-dən çoxu ölkənin şərq hissəsində yerləşir. Ən iri şəhərləri Şanxay, Pekin, Tyantszin və Şenyandır. Hazırda dünya əhalisinin hər beşindən biri ÇXR vətəndaşıdır.

ÇXR iqtisadi islahatlara Mao Tszedunun vəfatından sonra, 1970-ci illərin sonunda Şərqi Asiya modelinin bütün əsas metod və alətlərindən istifadə etməklə, yəni birbaşa təsərrüfatçılığın müasir dövlətə xas olmayan funksiyalarını dövlət orqanlarından alaraq məsuliyyəti və mülkiyyət hüquqlarını sürətlə yaranan özəl biznesə ötürməklə başlamışdır. ÇXR dövləti bunu tədricən, mülkiyyətin strukturunun transformasiyası prosesini daim dəyişib düzəltmək, onu özəl biznesə, iqtisadiyyatın prioritet sahələrinə stimullaşdırmaqla yönəltmək və nəzarətini saxlamaqla reallaşdırmışdır. Burada, həmçinin, paralel olaraq, xarici biznes tərəfindən azad iqtisadi zonalarda müasir sahələrin yaranması prosesi aparılmış və ÇXR-in bu iki iqtisadiyyatı, praktiki olaraq, uzun müddət kəsişməmişdi. Lakin bütün bunlara baxmalaraq, ÇXR-in iqtisadi nailiyyətləri onu müasir və inkişaf etmiş ölkəyə, hələ ki, çevirə bilməmişdir. Bunun da müxtəlif səbəbləri vardır. Birincisi, aparılan iqtisadi islahatlara baxmayaraq, ÇXR əvvəlki kimi inzibati-avtoritar dövlət olaraq qalır. Bu amil özü də paradoksaldır. Belə ki, Asiya və Latın Amerikasının yeni sənaye ölkələrinin təcrübəsi göstərir ki, inkişaf etmiş bazar iqtisadiyyatı hər hansı formada olan diktatura ilə pis uzlaşır. İkincisi, ÇXR dövləti ifrat dərəcədə bürokratlaşmış və korrupsiyalaşmışdır. Üçüncüsü, ölkənin sosial strukturu öz transformasiyasında sahəvi strukturun dəyişikliklərinə vaxtında cavab vermir. Bundan başqa, ÇXR həm də zəngin hesab edilməyən kəndli ölkəsi olaraq qalır.

ÇXR dünyada altıncı ixracatçıdır, onun dünya ixracında payı 7%-dir. Yüksək texnoloji məmulatlar ixracı sənaye məhsulları ixracının 23%-ni təşkil edir. ÇXR həm də dünyada birbaşa xarici investisiyalar qoyuluşunun ən iri obyektidir.

1980-ci illərin əvvəllərindən başlayaraq ÇXR iqtisadiyyatı, artım sürətinə görə, dünyanın ən böyük dövlətləri arasında ön yerlərdən birini tutur. Ölkə iqtisadiyyatının sürətli inkişafına, vurğulandığı kimi, burada həyata keçirilən islahatlar ciddi təsir etmişdir.

ÇXR özünün zəngin təbii ehtiyatları, faydalı qazıntıları ilə fərqlənir. Burada daş kömür ehtiyatları 1,5 trilyon ton, neft ehtiyatları 3-4 milyard ton, qaz ehtiyatları 200-250 milyard $m^3$ hesablanır. Bununla yanaşı, ölkədə təbii sərvətlərin intensiv kəşfiyyatı davam etdirilir. ÇXR-də YEK-də yanar şistlərdən də istifadə olunur, alternativ enerji mənbələrinin kəmiyyət və keyfiyyyət artımı təmin olunur. Enerji balansında daş kömürün 75%, neftin isə 20% payı vardır. 1990-cı illərdən başlayaraq nüvə enerjisindən aktiv istifadə olunur. ÇXR dünyada daş kömür hasilatı, polad, alüminium, sement, velosiped, tikiş və paltaryuyan maşınlar, pambıq parça istehsalına görə birinci yeri tutur.

Ölkə kənd tərrüfatının inkişaf səviyyəsinə əsaslanaraq ərzaq məhsullarına olan tələbatını təmin edir. Burada kənd təsərrüfatı üçün təbii şərait ilk əvvəl ölkənin relyef və iqlim xüsusiyyətləri ilə müəyyən olunur. Kənd təsərrüfatı məhsullarının 60%-i ölkənin şərqində istehsal edilir. Kənd təsərrüfatının başlıca sahəsi əkinçilikdir. Burada əkinçilik bir çox ərazilərdə süni suvarma tələb edir. Taxıl bitkiləri ümumi əkin sahələrinin 80%-dən çox hissəsini tutur. Çinlilərin qidasında mühüm rol oynayan çəltik, başlıca olaraq, ölkənin cənubunda və Yanszı vadisində yetişdirilir. ÇXR-də çəltik samanından yem kimi heyvandarlıq və quşçuluqda, kağız, həsir, ip və s. hazırlanmasında istifadə edilir. Su ilə örtülmüş çəltik sahələrində balıq da yetişdirilir. Yanszı çayı hövzəsində, ölkənin şimal-şərq hissəsində və Şandun yarımadasında baramaçılıq inkişaf etmişdir. Təbii şəraiti imkan verən hər yerdə kartof, batat, meyvə-tərəvəz və tütün becərilir. Kənd təsərrüfatında heyvandarlıq ikinci dərəcəli rol oynayır. Lakin mal-qaranın sayına görə ÇXR dünyada birinci yeri tutur. Ət məhsullarının 80%-dən çoxunu donuzçuluq verir. Ölkədə saxlanılan qaramaldan iş heyvanı kimi istifadə olunur.

ÇXR-in nəqliyyat infrastrukturu geniş inkişaf etmişdir. Yük və sərnişin daşınmasının təxminən yarısı dəmir yollarının payına düşür. Hökumət dəmir yollarının inşası və yenidən qurulmasına hər il 100 milyard ABŞ dollarına bərabər investisiyalar yatırır. ÇXR dünyanın ən böyük yüksək sürətli dəmir yolları şəbəkəsinə malik olması ilə də fərqlənir. Burada hər il yüz və hətta min kilometrləri aşan yeni dəmiryolu xətləri inşa edilir. Uzunluğu on min kilometrlərlə ölçülən yeni sürətli dəmiryolu xətləri Avropanı da üstələyir. Ölkənin dəmir yollarının ümumi uzunluğu 103,1 min km-dən çoxdur. Yükdaşımada avtomobil nəqliyyatının da xüsusi payı vardır. Burada avtomobil yollarının ümumi uzunluğu 4,5 milyon km təşkil edir. Yolların sıxlığı isə 454 km/1000 $km^2$-ə bərabərdir. Statistik məlumatlara görə, ölkədə bütün nəqliyyat növləri ilə il ərzində 45 milyard tondan çox yük və 25 milyard nəfərdən çox sərnişin daşınır. Ölkənin daxili su yollarının ümumi uzunluğu 126 min km, farvaterlərin uzunluğu 7,8 min km-dir. Burada su nəqliyyatı vasitələrinin sayı isə 180 minə yaxındır. ÇXR 23 ədəd əsas beynəlxalq, 18 ədəd isə ölkə əhəmiyyətli limana malikdir. Ölkənin dünya əhəmiyyətli ən iri liman şəhəri Şanxaydır. ÇXR-də 190 mülki hava limanı fəaliyyət göstərir. Müntəzəm hava xətlərinin ümumi uzunluğu 4,1 milyon km-dən çox, sayı isə 3 minə qədərdir. Burada qeydiyyatdan keçmiş hava nəqliyyatı parkının sayı 4 min ədəddən çoxdur. Ölkədə nəqliyyat sistemində boru kəmərləri də geniş tutuma malikdir. Bütün bu tərəqqi ilə yanaşı, ölkənin qərb rayonlarında yük heyvanlarından geniş istifadə edilir.

ÇXR dövlət büdcəsinin mühüm hissəsi hərbi xərclərə yönəldilir. Onun Vyetnam, Fillipin və Yaponiya ilə uzun müddət davam edən ərazi çəkişmələri vardır. Bundan əlavə, ÇXR Tayvanı öz ərazisi hesab edir və bu ölkə ilə sərhəddə Tayvana istiqamətləndirilmiş yüzlərlə raket yerləşdirmişdir. Buna baxmayaraq, rəsmi Pekin hamını əmin edir ki, qlobal hərbi liderliyə can atmır və hərbi büdcənin artırılması ordu qarşısında dayanan cari məsələləri həll etmək istəyilə bağlıdır. Ölkənin hərbi sənayesi, hərbi təyyarədaşıyan gəmi, stels texnologiyalı gözə görünməz hərbi təyyarələri, kosmik orbitdəki peykləri vurub sala bilən raketlərin istehsalı kimi istiqamətləri də əhatə edir.

ÇXR 27 dekabr 1991-ci ildə Azərbaycanın müstəqilliyini tanımışdır. İki ölkə arasında diplomatik münasibətlər 2 aprel 1992-ci ildə qurulmuşdur. Azərbaycan ÇXR-in Cənubi Qafqazdakı əsas iqtisadi və siyasi tərəfdaşı hesab olunur. ÇXR ilə Azərbaycan arasında energetika, kənd təsərrüfatı, nəqliyyat, yüngül sənaye və digər sahələrdə əməkdaşlıq getdikcə genişlənir. Çin Milli Neft Korporasiyası, ümumilikdə ÇXR şirkətləri Azərbaycanın karbohidrogen ehtiyatlarının işlənilməsində fəal iştirak edirlər. Ötən illər ərzində ÇXR şirkətləri tərəfindən Azərbaycanın neft sektoruna 500 milyon ABŞ dolları məbləğində sərmayə qoyulub. Hazırda Azərbaycanda 70-ə yaxın ÇXR kapitallı şirkət fəaliyyət göstərir. İki ölkə arasında ticarət dövriyyəsi təqribən 1,2-1,4 milyard ABŞ dollarına bərabərdir.

ÇXR-in "Böyük İpək yolu" layihəsində Azərbaycanın xüsusi yeri vardır. Azərbaycan ÇXR üçün Avropa (*"İpək Yolu"nun son nöqtəsi*) ilə Avrasiya arasında təbii körpü rolunu oynayır. Bu amil iki ölkə arasındakı münasibətlərin xarakterini müəyyən edir və ÇXR Azərbaycanla daha sıx əlaqələr qurulmasına çalışır. Pekinin Azərbaycana xoş münasibəti ÇXR 2008-ci ildə BMT-də erməni qüvvələrinin işğal edilmiş Azərbaycan ərazilərindən çıxardılması haqda qətnaməni dəstəkləməklə nümayiş etdirmişdir. ÇXR Azərbaycanla nəqliyyat sektorunda da əməkdaşlığa önəm verir. Bunun bariz nümunəsi olaraq Prezident İlham Əliyevin ÇXR-ə səfəri çərçivəsində Azərbaycanla Çin arasında "İpək Yolu İqtisadi Kəməri"nin yaradılmasının birgə təşviqinə dair Anlaşma" Memorandumu, "Nəqliyyat sahəsində əməkdaşlıq haqqında Anlaşma" Memorandumu, "Azərbaycan Dəmir Yolları" QSC ilə ÇXR-in Milli Dəmir Yolu Administrasiyası arasında dəmir yolu nəqliyyatı sahəsində əməkdaşlıq haqqında Saziş" imzalanması qeyd edilməlidir.



**Çin Respublikası** (*çin dilində* - 中華民國, 中华民国, *ingiliscə* - Republic of China - *Çin Respublikası*) Şərqi Asiyada qismən tanınan ada dövləti. Qeyri-rəsmi olaraq, yerləşdiyi Tayvan adasının adına uyğun olaraq Çin Respublikası Tayvan adlanır. Paytaxatı Taybey şəhəri, valyutası yeni Tayvan dollarıdır.

Ərazisi 35 980 km$^2$, əhalisinin sayı isə 23,6 milyon nəfərdir (*2018*).

İqtisadiyyatda xidmətlər 62,2%, sənaye 36,0%, kənd təsərrüfatı 1,8% paya malikdir. ÜDM 525,0 milyard ABŞ dolları, adambaşına ÜDM 22,4 min ABŞ dollarıdır. İnflyasiya 1,6%, işsizlik səviyyəsi 3,8%, yoxsulluq səviyyəsi 1,5%-ə bərabərdir. Xarici borc 170,1 milyard ABŞ dolları (*ÜDM-in 32,4%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 49,9%-nə bərabərdir (*2017*).

Çin Respublikası 1911-ci ildə yaradılmış və materik Çinin əhəmiyyətli hissəsinə və Monqolustana (*1917-1921-ci illərdə*) nəzarət etmişdir. II Dünya Müharibəsinin bitməsi ilə Çin Respublikasına Yaponiyaya məxsus Tayvan və Penhu adalar qrupu qaytarılmışdır. Əvvələr bütün Çinə nəzarət edən, geniş diplomatik tanınan, BMT-nin yaradıcılarından olan və BMT Təhlükəsizlik Şurasına daxil olan Çin Respublikası hazırda yalnız Tayvan adası və ona yaxın adalara sahibdir. 1971-ci ildə BMT Təhlükəsizlik Şurasında onu ÇXR əvəz etmişdir.

Çin Respublikası vətəndaş müharibəsindən sonra Tayvan adasında baza qurmuş və Taybey şəhərini müvəqqəti paytaxt elan etmişdir. Ölkənin konsitusiyasına görə, Çin Respublikası materik Çindən imtina etmir.

Çin Respublikası demokratiyaya əsaslanan yarımprezident idarəetmə sisteminə malikdir. Burada ümumxalq seçkisi ilə seçilən prezident həm dövlət başçısı və həm də qanunverici orqanın rəhbəridir.

Çin Respublikasının texnoloji sənayesi qlobal iqtisadiyyatda əhəmiyyətli rol oynayır.

**Honkonq** və ya **Honq Konq** (*ingiliscə* - Hong Kong Special Administrative Region - *Honq Konq Xüsusi Statuslu Region*) və ya Syanqan ÇXR-in xüsusi statusu olan bölgəsi. İngiltərə XVII əsrdə bölgəni ələ keçirmiş, 1997-ci il iyulun 1-də burda hakimiyyəti ÇXR-ə təhvil vermişdir. Rəsmi dili çin və ingilis dilləri, valyutası Honqkonq dollarıdır. Ölkənin paytaxtı yoxdur. "Bir ölkə - iki sistem" prinsipi ilə fəaliyyət göstərir.



Ərazisi 1 104 km², əhalisi 7,5 milyon nəfərdir (*2018*).

İqtisadiyyatda xidmətlər 92,7%, sənaye 7,2%, kənd təsərrüfatı 0,1% paya malikdir. ÜDM 309,0 milyard ABŞ dolları, adambaşına ÜDM 43,5 min ABŞ dollarıdır. İnflyasiya 2,6%, işsizlik səviyyəsi 3,2%, yoxsulluq səviyyəsi 19,6%-ə bərabərdir. Xarici borc 108,1 milyard ABŞ dolları (*ÜDM-in 34,9%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 52,8%-nə bərabərdir (*2017*).

Honkonq dünyada ən yüksək həyat şəraitinə malik beynəlxalq subyektlərdən biri kimi seçilir. Burada ticarət və logistika, maliyyə və biznes xidmətləri, həmçinin, turizm sektoru yüksək inkişaf etmişdir.

Honkonq 1950-ci illərdən başlayaraq özünün sürətli iqtisadi inkişafı ilə Asiyanın və bütövlükdə dünyanın ən iri ticarət və maliyyə mərkəzlərindən biri sırasına qatılmışdır. Buna həddindən artıq ucuz işçi qüvvəsinin mövcudluğu səbəb olmuşdur. Burada müqabil iqtisadiyyat və infrastruktur qurulmuş və o, qısa müddətdə milyardlarla dollar dəyərində sənaye malları ixrac edən bir ölkəyə çevrilmişdir.

Honkonq 1842-ci ildə Böyük Britaniya tərəfindən işğal olunmuş və 1997-ci ilə kimi onun müstəmləkəsi kimi qalmışdır. Həmin ildə ÇXR-ə verilən Honkonq Çin-Britaniya bəyannaməsinə və özünün əsas qanununa görə, 50 il ərzində əlahiddə hüquqlarla malik olacaqdır. Bu o, deməkdir ki, 2047-ci ilə kimi Honkonqu geniş muxtariyyət şəraitində elə honkonqlular özləri idarə edəcəklər. Bu müddət ərzində ÇXR dövləti ərazidə müdafiə və xarici siyasət məsələlərini öz üzərinə götürür. Honkonq isə qanunvericilik, polis qüvvələri, pul sistemi, rüsumlar, miqrasiya siyasəyi üzrə nəzarəti və həmçinin, beynəlxalq təşkilatlarda və tədbirlərdə nümayəndəliyini saxlayır.

**Makao Xüsusi İnzibati Rayonu - Maка́o** və ya **Aomın** (*portuqal dilində* - Macau - Makao*, çin dilində* - 澳門 - *Aomın*) ÇXR-in tərkibində xüsusi inzibati rayon, keçmiş Portuqaliya müstəmləkəsi. Rəsmi dili çin və portuqal dilləri, valyutası patakadır. Paytaxtı yoxdur. "Bir ölkə - iki sistem" prinsipi ilə fəaliyyət göstərir.



Ərazisi 27,2 km², əhalisi 621 min nəfərdir (*2018*).

İqtisadiyyatda xidmətlər 88,7%, sənaye 11,3%, kənd təsərrüfatı 0,0% paya malikdir. ÜDM 45,4 milyard ABŞ dolları, adambaşına ÜDM 67,1 min ABŞ dollarıdır. İnflyasiya 1,5%, işsizlik səviyyəsi 2,0%, yoxsulluq səviyyəsi 2,3%-ə bərabərdir. Xarici borcu yoxdur. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 64,4%-nə bərabərdir (*2017*).

Makao 442 il ərzində, 1557-ci ildən başlayaraq, Portuqaliyanın müstəmləkəsi olmuş və 1999-cu ilin 20 dekabrında xüsusi inzibati rayon kimi ÇXR-ə verilmişdir. Makao 50 il ərzində əlahiddə hüquqlarla malik olmaqla 2049-cu ilə qədər özünü idarə edəcəkdir. Bu müddət ərzində ÇXR dövləti ərazidə müdafiə və xarici siyasət məsələlərini öz üzərinə götürür. Makao isə qanunvericilik, polis qüvvələri, pul sisemi, rüsumlar, miqrasiya siyasəti üzrə nəzarəti və həmçinin, beynəlxalq təşkilatlarda və tədbirlərdə nümayəndəliyini saxlayır.

Makao açıq liman, nəhəng maliyyə mərkəzidir. O, özünün çoxsaylı kazinoları, oyun evləri, cıdır meydanları, gecə klubları ilə məşhurdur. Burada 70% gəlirlər də oyunlar biznesindən əldə olunur. Bununla yanaşı, Makao tekstil istehsal və ixrac edir ki, bu da xarici valyuta daxilolmalarının 25%-ni təmin edir. Burada, həmçinin, balıqçılıq və tütünçülük gəlir gətirən sahələrdəndir.

**Hindistan Respublikası - Hindistan** (*Republic of India*) Cənubi Asiyada dövlət. Hindistan qurudan 6 ölkə - Pakistan, ÇXR, Nepal, Butan, Banqladeş, Myanma ilə həmsərhəddir. Ölkənin Şri-Lanka, Maldiv adaları və İndoneziya ilə sudan qonşuluğu vardır. Mübahisəli olan Cammu və Kəşmirin isə Əfqanıstanla sərhədləri vardır. Paytaxtı Dehli şəhəri, rəsmi dili hind, ingilis və digər 21 dildir. Ölkə konstiusiyasına görə, Hindistan federativ parlament respublikasıdır. G20 qrupuna daxildir. Milli valyutası ruppidir.



Ərazisi 3 287 263 km², əhalisi 1,36 milyard nəfərdir (*2018*).

İqtisadiyyatda xidmətlər 48,9%, sənaye 32,2%, kənd təsərrüfatı 18,9% paya malikdir. ÜDM 2,6 trilyon ABŞ dolları, adambaşına ÜDM 1723 ABŞ dollarıdır. İnflyasiya 4,2%, işsizlik səviyyəsi 3,5%, yoxsulluq səviyyəsi 21,9%-ə bərabərdir. Xarici borc 513,4 milyard ABŞ dolları (*ÜDM-in 19,6%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 38,9%-nə bərabərdir (*2017*).

Əhali sayına görə ikinci, ərazi böyüklüyünə görə isə dünyanın yeddinci ölkəsidir. Hindistan dünyanın ən çoxmillətli dövlətidir. Burada hindli anlayışı müxtəlif dildə danışan bir neçə yüz xalq və tayfanın birliyi kimi başa düşülür. Hər bir ştatda yerli xalqların dilində yerli hökumətlərin qərarları, qəzetlər, jurnallar dərc edilir. Ölkədə əhali sürətlə artır.

Hesablamalara görə, əhalinin sabitləşməsi yalnız XXI əsrin ortalarında ola bilər. Burada 1881-ci ildən başlayaraq hər on ildən bir əhali siyahıya alınır. Əhalinin sürətlə artması iqtisadiyyatda əlavə çətinliklər yaradır və buna görə Hindistan ailə

planlaşdırması siyasətini həyata keçirən ilk dövlətlərdən biridir. Əhali ölkə ərazisi üzrə olduqca qeyri-bərabər yerləşmişdir. Hindistan əhali sayına görə ÇXR-dən sonra dünyada ikinci yeri tutmasına baxmayaraq burada urbanizasiya səviyyəsi aşağıdır. Belə ki, əhalinin çox hissəsi kəndlərdə yaşayır. Buna baxmayaraq, hazırda iqtisadi irəliləyişlərlə bağlı ölkədə urbanizasiya prosesləri də sürətlidir, iri və milyonçu şəhərlərin sayı sürətlə artır.

Hindistan iqtisadiyyatı daha çox ənənəvi xüsusiyyətləri ilə seçilir. Burada iqtisadiyyat üçün, sadəcə, çoxukladlılıq deyil, həm də bir-birindən təcrid edilmiş səviyyələrə bölgü xarakterikdir ki, bu da böyük sosial sarsıntılar olmadan modernləşməyə imkan verir. İngilis əsarəti bitidikdən sonra ölkə idxalı əvəzləyən moddellə inkişaf yoluna qədəm qoymuşdur. Bu model öz qüvvəsinə söykənməyi nəzərdə tutur və idxalçılara, xarici investorlara qarşı proteksionist siyasət yürüdülməsi ilə fərqlənir. Xüsusiyyətinə görə, həmin model sosial dəyişikliklər və sarsıntılar olmadan istehsalın və rifahın ləng artımını təmin edir. Bu templiliyi statistik müşahidələr də təsdiqləyir.

Böyük Britaniyanın müstəmləkəsi olan Hindistanda II Dünya Müharibəsi sonlarına yaxın milli-azadlıq hərəkatı genişləndi. Davamlı mübarizədən sonra 1947-ci ilin 15 avqustunda Hindistan Böyük Britaniyadan müstəqilliyini elan etdi. Onunla eyni vaxtda Pakistan dövləti də quruldu. Bu dövlətlərin bir-birinə qarşı olan ərazi iddiaları hər iki dövləti inkişafdan saxladı. Hindistan iddialarında SSRİ-yə, Pakistan isə Qərbin köməyinə arxalanırdı. 1948-ci ildə Kəşmir bölgəsinə sahibliklə bağlı Birinci Hindistan-Pakistan müharibəsi baş verdi. BMT Təhlükəsizlik Şurasının vasitəçiliyi ilə burada barışıq əldə edildi. Şimali-qərbi Kəşmir və ya Kəşmirin üçdə bir hissəsi (*Azad Kəşmir*) Pakistanın, qalan ərazisi isə Hindistanın nəzarəti altına düşdü. 1965-ci ildə Kəşmir Müəssislər Məclisinin qəbul etdiyi konstitusiya Kəşmiri Hindistan ittifaqının tərkib hissəsi elan etdi ki, bu da İkinci Hindistan-Pakistan müharibəsinə səbəb oldu. Bu dəfə SSRİ-nin fəal vasitəçiliyi ilə müharibə 1966-cı ildə dayandırıldı və Daşkənd bəyannaməsi imzalandı. Hindistanla Pakistan arasında dörd dəfə 1947, 1965, 1971 və 1999-cu illərdə müharibə və hərbi münaqişə olmuşdur. Hazırda Pakistan yenə də Kəşmir məsələsinin beynəlxalq səviyyədə həll olunmasına çalışır, onu Hindistanın tərkib hissəsi olaraq tanımır. Burada BMT-nin nəzarəti altında referendum keçirilməsi tələb edilir, Hindistan isə bununla razılaşmır.

Hindistanın ÇXR ilə də həll olunmayan ərazi mübahisələri var. Bununla əlaqəli 1962-ci ildə iki dövlət arasında uzun çəkməyən sərhəd müharibəsi də olmuşdur. Hindistan ərazisi ilə həmsərhəd olan Qərbi Pakistandan ayrılan Şərqi Pakistanda 1971-ci ildə geniş muxtariyyət uğrunda mübarizə başlanarkən Hindistan qoşunlarını Şərqi Pakistan ərazisinə yeritdi və burada müstəqil Banqladeş dövlətinin yaranmasına kömək etdi. Ərazi məsələləri ilə bağlı Hindistanın digər ciddi bir problemi də kommunist-naksalitlərlə (*maotzedunçuların əksəriyyət təşkil etdiyi qeyri-rəsmi kommunist yaraqlılar*) aparılan genişmiqyaslı partizan müharibəsidir. Onlar Andhiya-Paradeş,

Qərbi Benqaliya, Bihar, Carkhand, Orissa, Maxaraştra və Çhattisqarx ştatlarında bu və ya digər dərəcədə təxminən 200 milyon əhalinin yaşadığı əhəmiyyətli əraziyə nəzarət edirlər. Onlar bu mübarizədə əhalinin kasıb hissəsinin geniş dəstəyinə arxalanırlar. Nakalistlər rəsmi terroçu elan edilsələr də, onlarla mübarizəni polis qüvvələri aparır. Bu da o qədər təsirli olmur. Ölkənin hərbi qüvvələri öz xalqı ilə döyüşməmək andı içdikləri üçün bu müdaxilələrdən yayınırlar. 1980-ci illərdə Hindistanda sinqh (*Pəncabda yaranan din və onunla bağlı xalq*) fanatizmi tuğyan etdi. Müstəqil Sinqh dövləti yaratmaq uğrunda mübarizə aparan icma üzvləri mərkəzi hökümətə təzyiq vasitəsi olaraq terror kampaniyasına əl atdılar. Baş nazirlər İndira Qandi 1984-cü ildə, Raciv Qandi isə 1991-ci ildə bu terrorun qurbanı oldular. Cavab reaksiyası olaraq hinduslar da Hindus dövləti yaratmaq uğrunda mübarizəyə başladılar ki, bunlar da , öz növbəsində, siyasi böhranlarla müşayiət olundu.

1950-ci ildə Hindistan respublika elan olundu. Həmin il qəbul olunmuş konstitusiya Hindistanı 22 ştat və 9 müttəfiq ərazidən ibarət federativ respublika, idarə formasına görə parlanment respublikası kimi təsbit etdi. Ölkədə dövlətin müəyyən dərəcədə sabit demokratik inkişafı təmin edən əsasları yaradıldı, özəl və dövlət bölməsindən ibarət qarışıq iqtisadiyyat formalaşdırıldı. Bunların nəticəsində Hindistanda böyük sənaye potensialı meydana gəldi. 1970-ci illərdə aparılan "Yaşıl inqilab" ölkəni ərzaq taxılı ilə təmin etməyə imkan verdi. 1980-ci illərdə Hindistanda bazar islahatları keçirilməyə başlanıldı. 1991-ci ildə başlanan yeni islahatlar onu dünyada ən sürətlə inkişaf edən ölkələr sırasına çıxardı.

Hindistan iqtisadiyyatın inkişafı üçün kifayət qədər mineral ehtiyatlara malikdir. Burada 10 milyard tona yaxın kömür ehtiyatı vardır. Hər il ölkədə 300 milyon tondan çox kömür, 30-35 milyon ton neft hasil edilr. Dünya dəmir filizi ehtiyatının 25%-i, marqans filizi hasilatının 15%-i, slyudanın 60%-i Hindistanın payına düşür. Ölkədə böyük miqdarda boksid, mis, qızıl, gümüş, almaz, qurğuşun istehsal və ixrac olunur. ÜDM-in 18%-i emal sənayesini payına düşür. Parça, toxuculuq əczaçılıq, yeyinti, sellüloz-kağız, elektrotexnika sənayesi yüksək inkişaf etmişdir.

Ölkədə sənayeləşmənin inkişafı çoxsahəli təsərrüfat kompleksinin yaranmasına imkan verir. Burada ÜDM-in təqribən 25%-i dövlət bölməsində yaradılır. Müdafiə sənayesi, energetika, dəmiryolu, aviasiya, nəqliyyat, rabitə, metallurgiya və digər bu kimi sahələrin dövlət bölməsində xüsusi çəkisi daha çoxdur. Ölkə də qara metallurgiyanın və avtomobil sənayenin də payı yüksəlir. Burada hər il orta hesabla 10 milyon tondan çox polad, 700 min müxtəlif növ avtomobil istehsal olunur.

Kənd təsərrüfatının əsasını əkinçilik təşkil edir. Məşğul əhalinin 67,0%-i aqrar sektorda çalışır. Burada əldə olunan gəlirin 75%-i bitkiçiliyin payına düşür. Becərilən torpaq sahəsi 141 milyon hektardır ki, onun da 15 milyon hektarı ildə 2 dəfə əkilir. 84 milyon hektar sahə süni suvarma ilə becərilir. Hindistan çay, yer fındığı, şəkər qamışı, düyü, pambıq, kətan toxumu və gənəgərçək yağı istehsalında dünyada aparıcı yerlərdən birini tutur. Burada ədviyyat məhsulları, xüsusən də, bibər, darçın, raps, zəncəfil,

sarıkök, hil istehsalı çox geniş yayılmışdır. Ölkədə bütün meyvə və tərəvəz növləri yetişdirilir. Hindistan iribuynuzlu mal-qaranın sayına görə dünyada birinci yeri tutur. Belə ki, dünya üzrə cəmi camışların 57%-i, inəklərin 16%-i Hindistanın payına düşür. Ölkədə, həmçinin, 75 milyon ton süd istehsal edilir. Burada aparılan aqrar islahatlar torpaq mülkiyyətinin quruluşunu praktiki olaraq dəyişməmişdir, başlıca olaraq, icarədarları və muzdurları istismar etmək imkanını azaltmaqla məhdudlaşmışdır.

Hindistan ərazisinin 19,3%-i meşəlikdir. Ölkədə bu potensialdan da əhəmiyyətli dərəcədə istifadə olunur. Hindistan, həmçinin, balıqçılıq üzrə də dünyada aparıcı yerlərdən birini tutur. Balıqçılıq sənayesi məşğulluğun təminatında və xarici ticarətdə böyük rol oynayır. Hər il dənizdən və çaylardan milyonlarla ton balıq tutulur və ölkədən yarım milyon tona qədər dəniz məhsulu ixrac olunur.

Hindistan, həmçinin, bir sıra məhsullar da idxal edir. Dünya idxalında onun payı 1,1%-ə bərabərdir və o, dünya üzrə 22-ci idxalçıdır.

Hindistanda nəqliyyat sistemi də inkişaf etməkdədir. Burada dəmir yolunun ümumi uzunluğu 107 min km-ə bərabərdir ki, onun da $^{1}/_{3}$ hissəsi elektrikləşdirilmişdir. Hindistan, həmçinin, dünyada qabaqcıl avtomobil yolları şəbəkəsinə və böyük ticarət donanmasına malikdir. Burada 100-dən çox liman fəaliyyət göstərir. Ölkədə hava limanlarının sayı 400-ü ötmüşdür. Hindistanda poçt şəbəkəsi sistemi də yüksək səviyyədədir.

Hindistan iqtisadiyyatında turizm nəhəng bir sahə kimi fərqlənir. Ölkənin zəngin tarixi və mədəniyyəti, coğrafi müxtəlifliliyi burada beynəlxalq turizmi olduqca cəlbedici edir. Beynəlxalq turizmlə yanaşı, tibbi, idman və işgüzar turizm də təqdim olunur. Turizmdən büdcəyə hər il orta hesabla 120-130 milyon vəsait daxil olur. Bu sektorun ÜDM-də payı 6%-dən çoxdur. Turizm sahəsində iqtisadi aktiv əhalinin 8%-dən çoxu, təqribən 40 milyon insan çalışır.

Hindistanın böyük intellektual potensiala malikdir. Bu potensil ona 1974-cü ildə atom silahı əldə etməyə və onu nüvə klubunun üzvünə çevirməyə imkan verdi. Hindistan 1980-ci ildə öz raketdaşıyıcısı vasitəsilə kosmosa rabitə peykini buraxdı, 1990-cı illərdən etibarən ölkədə taktiki və ballistik raketlər hazırlanır. Hindistan, həmçinin, yüksək elektron texnologiyalara malik ölkələr sırasına daxildir. Burada elektron sənayesi və informasiya texnologiyası sahəsində 250 min nəfər adam çalışır. Müvafiq sahə üzrə göstəricilərə görə Hindistan dünyanın lider ölkələri sırasındadır. Ölkədən hər il dünya bazarlarına müxtəlif çeşidli telekommunikasiya, meterologiya və rabitə vasitələri göndərilir. Yüksək texnologiya məmulatları ümumi sənaye ixracının 5%-ni təşkil edir.

Bütün bunlara baxmayaraq, ölkədə əhalinin böyük əksəriyyəti hələ də yoxsulluq şəraitində yaşayır. Uşaq ölümü səviyyəsi (*infant mortality rate*) daha yüksəkdir. Hindistan bu göstəriciyə görə 56,29‰ əmsalla dünyada 132-ci yerdədir. Ölkədə yoxsulluğun azaldılması və həyatın keyfiyyətinin artırılması istiqamətində çoxsaylı tədbirlər həyata keçirilr. İqtisadiyyatın liberallaşdırılması, xarici kapitalın geniş cəlb edilməsi, özəlləşdirmə bu istiqamətdə başlıca meyillərdir.

1991-ci il dekabrın 26-da Hindistan Respublikası Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanımışdır. Azərbaycan Respublikası ilə Hindistan arasında

diplomatik əlaqələr 1992-ci il fevralın 28-də qurulmuşdur. Hindistanla Azərbaycan arasında geniş iqtisadi əlaqələr mövcuddur. Bu, neft-qaz, energetika, farmakologiya sahələrini, TRACECA və Şimal-Cənub nəqliyyat dəhlizi kimi regional layihələri əhatə edir. İki ölkə arasında ticarət dövriyyəsi təqribən 350-400 ABŞ dollarına bərabərdir.

## 6.8. İnzibati-amirlik iqtisadiyyatlı ölkələr

İnzibati-amirlik iqtisadiyyatı ölkələrində istehsal edilən əmətəə və xidmətlərin miqdarı və qiymətləri həmin ölkələrin hökumətləri tərifindən planlanlaşdırılır. Belə planlaşdırmanı həmin ölkələrin müvafiq dövlət qurumları həyata keçirirlər. Burada planlaşdırma direktiv xarakterlidir. Başqa cür desək, "plan-qanunudur" və mütləqi qaydada yerinə yetirlməlidir. Onu artıq yerinə yetirmək mükafatlandırılır, yerinə yetirməmək isə cəzalarla müşayiət edilir. İnzibati-amirlik iqtisadiyyatında bütün müəssisələr dövlətin mülkiyyəti hesab olunur. Dövlət səviyyəsində, praktiki olaraq, istehsalın bütün proporsiyaları, maddi rifah və resursların istehlak və bölgüsü planlaşdırılır.

İnzibati-amirlik iqtisadiyyatı kommunist siyasi sistemə malik dövlətlərə xasdır. Əvvələr bu sistemə keçmiş SSRİ, Mərkəzi və Şərqi Avropanın postsovet ölkələri və bu bloka daxil olan digərləri  aid edilirdi. Hazırda isə bu sistem KXDR və Kubada özünün ortodoksal formasında qalmaqdadır. Lakin 2010-cu ilin oktyabrında Kubada başlanan geniş miqyaslı islahatlar proqramı burada mərkəzi planlaşdırmadan imtinanı və özəl biznesə dönüşü nəzərdə tutur.

**Koreya Xalq Demokratik Respublikası - KXDR** (*koreya dilidə* -조선 민주주의 인민 공화국, 朝鮮民主主義人民共和國 - *Koreya Xalq Demokratik Respublikası*) Şimali Asiyada, Koreya yarımadasının və Karib dənizinin şimalında ada dövləti. Kütləvi informasiya vasitələrində ölkənin geniş yayılmış qeyri-rəsmi adı Şimali Koreyadır. Ölkə şimaldan ÇXR, şimal-şərqdən Rusiya, cənubdan Koreya Respublikası ilə həmsərhəddir. Qərbdən Sarı dəniz, şərqdən isə Yapon dənizi ilə əhatə olunmuşdur. KXDR-in dövlətçilik tarixi başlanğıcını 9 sentyabr 1948-ci ildən alır. Sosialist respublikasıdır. Paytaxtı Pxenyan şəhəri, rəsmi dili koreya dilidir. Milli valyutası vonadır.



Ərazisi 120 540 km$^2$, əhalisi 25,5 milyon nəfərdir (*2018*).

İqtisadiyyatda[4] xidmətlər 33,5%, sənaye 41,0%, kənd təsərrüfatı 25,5% paya malikdir. ÜDM 28,5 milyard ABŞ dolları, adambaşına ÜDM 1300 ABŞ dollarıdır. İnflyasiya 55,0%, işsizlik səviyyəsi 25,6%, yoxsulluq səviyyəsi 25,0%-ə bərabərdir. Xarici borc 5,0 milyard ABŞ dolları (*ÜDM-in 17,4%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 54,9%-nə bərabərdir (*2017*).

1945-ci ilə kimi Koreya Yaponiyanın müstəmləkəsi olmuşdur. II Dünya

[4] Qapalı ölkə olan KXDR-lə bağlı İnternet səhifələrində, beynəlxalq statistik nəşrlərdə hər il dəyişən makroiqtisadi göstəricilər barədə məlumatlar məhdudluq təşkil edir. Həmin göstəricilər ortalama yaxın qiymətləndirmədə təqdim olur.

Müharibəsindən sonra 38-ci paraleldən şimalda SSRİ-nin, cənubda isə ABŞ-ın nəzarətinə keçmişdir. SSRİ ilə ABŞ ölkənin birləşməsi istiqamətində razılığa gəlmədikləri üçün burada 1948-ci ildə bütün əraziyə iddalı olan şimalda sovet yönümlü, cənubda Amerika yönümlü iki müxtəlif quruluşlu dövlət formalaşmışdır. Koreya Respublikası özünü dövlət elan etdikdən sonra KXDR də xalq demokratik respublikası kimi yaranmışdır. Burada bütün hakimiyyət ölkədə vahid partiya olan Koreya Xalq Partiyasına məxsusdur. Yarandığı gündən ölkəni partiyanın rəhbəri kimi Kim soy adlı sülalə (*artıq üçüncü nəsil*) idarə edir.

Ölkənin rəsmi ideolgiyası "çuçxe" ideyasıdır. Bu ideologiya "öz gücünə istinad et" prinsipini rəhbər tutur. KXDR-in hazırkı konstitusiyası 27 dekabr 1972-ci ildə qəbul edilmiş və sonradan ona ayrı-ayrı illərdə bir sıra düzəlişlər edilmişdir. Konstitusiyaya görə, KXDR bütün koreya xalqının maraqlarını təmsil edən suveren sosialist dövlətidir. Burada hakimiyyət fəhlələrə, kəndlilərə, əməkçi intelektuallara, bütövlükdə xalqa məxsusdur.

1950-ci ildə iki Koreya dövləti arasında müharibə başlandı. KXDR Koreya Respublikasının sərhədlərini keçdi. Müharibə 3 il davam etdi və 2,5 milyon adam onun qurbanı oldu. Koreya Respublikasının tərəfində BMT bayrağı altında ABŞ, Böyük Britaniya və bir neçə başqa ölkə, KDXR-in tərəfində isə SSRİ-nin dəstəyi ilə ÇXR vuruşurdu. Koreya müharibəsi 1953-cü ildə atəşkəsin elan edilməsi ilə dayandırıldı.

KXDR zəngin təbii resurslara malikdır. Lakin qurduğu inzibati-amirlik sistemli iqtisadiyyat onun bu resurslardan səmərəliliklə istifadə etməsinə imkan yaratmır. Buna görə də ölkə adambaşına düşən ÜDM-ə görə dünyada 150-ci yerlərin birindədir.

KXDR sırf avtarkiyalı dövlətdir və özünü xarici aləmdən təcrid etmişdir. Buna baxmayarq, onun 100-ə qədər ölkə ilə ticarət əlaqələrinin mövcudluğu bildirilir. 1960-cı illərdən sonra ölkə öz iqtisadiyyatı barədə rəsmi statistika dərc etmir. Onun iqtisadi göstəriciləri, əsasən, xarici ekspertlərin qiymətləndirməsinə əsaslanır.

SSRİ dövləti ilə döstluğu zamanı KXDR-in iqtisadiyyatı onun köməyinə əsaslanırdı. SSRİ dövlətinin dağılması ilə ölkə iqtisadiyyatında neqativ meyillər yüksəlmiş, KXDR 1980-ci illərdə defoltla üzləşmiş, bu illərdə baş verən təbii fəlakətlər miqyaslı aclıqla müşayiət olunmuşdur. KXDR-də üzun müddət hökm sürən aclıq hər il 300 mindən 800 minə qədər insanın məhvinə səbəb olmuşdur və 1997-ci ildə özünün pik nöqtəsinə çatmışdır.

Ölkədə 2009-cu ildə aparılan pul islahatı planlı iqtisadiyyatın bir qədər möhkəmlənməsinə səbəb olmuşdur. Lakin digər məlumatlara görə, bu islahat KXDR-ə uğur gətirməmiş və ona rəhbərlik edənlər işdən qovulmuş, ya da edam edilmişlər. 2012-ci ilin avqustunda KXDR-in rəhbəri Kim Çen In ölkədə yeni iqtisadi islahatlara təkan verəcək fərman imzalamışdır. Yeni iqtisadi siyasətə görə, müəssisələr dövlətin sərt tənzimləməsi olmadan müstəqil işləmək imkanına malik olacaq və özləri əmtəələrinə qiymətlər qoyacaqlar.

KXDR-də böyük mis, sink, qurğuşun, nikel, volfram, molibden yataqları vardır. Bu

metalların ixracı ölkəyə xarici valyuta daxilolmalarını təmin edir. Ölkədə enerji istehsalı çayların əhəmiyyətli olan energetik (*təxminən 10 milyon kVt*) gücünə və antrasit ilə daş kömür yanacağına əsaslanır. SES-lərin enerji istehsalında payı 70%-ə bərabərdir. Ölkədə meşə, neft emalı, kimya, tekstil və yeyinti sənayesi inkişaf etdirilir, "Fiat" avtomobilləri yığılır, yolsuzluq və yük avtomobilləri buraxılır.

KXDR-in əsas ticarət tərəfdaşları Koreya Respublikası, ÇXR, Yaponiya, Rusiya və Aİ ölkələridir. Ticarət dövriyyəsi, 2002-ci ilin məlumatlarına, görə 2,4 milyard ABŞ dolları təşkil edir. ABŞ-ın qiymətləndirmələrinə görə, ölkənin xarici borcları onun ÜDM-ni üstələyir. Ölkədən dəniz məhsulları, tekstil, faydalı qazıntılar, maşın və avadanlıqlar, kimya məhsulları, elektrotexnika, jenşen, ənənəvi səhiyyə preparatları ixrac olunur.

Dağlıq əraziyə malik KXDR-də kənd təsərrüfatı torpaqları ölkə ərazisinin 20%-ni təşkil edir. Kənd təsərrüfatında əsas sahə bitkiçilikdir. Burada hər ölkə sakininə 0,12 hektar emal torpağı düşür ki, bu da əksər Avropa ölkələrində olduğundan 3-4 dəfə aşağıdır. Ölkədə taxıl, soya bitkiləri, pambıq, şəkər çuğunduru və tütün becərilir. Heyvandarlıq sahəsi iribuynuzlu mal-qara və donuzlardan ibarətdir. Ölkədə quşçuluq, balıqçılıq təsərrüfatları da vardır. Plantansiyalarda jenşen yetişdirilir, ipəkçilik inkişf etdirilir.

Ölkənin nəqliyyat sistemi yetərli inkişaf etmiş, lakin köhnəlmişdir. Avtomobil yollarının uzunluğu onminlərlə km hesablanır. KXDR-də dəmir yolu nəqliyyatı da geniş (*5235 km*) yayılmışdır. Bu yolların əksəriyyəti elektrikləşdirilmişdir. Böyük şəhərlərdə tramvay, trolleybus və metro işləyir. Yanacaq çatışmazlığı ilə əlaqədar avtobuslardan az istifadə edilir. Çaylardan əlavə nəqliyyat vasitəsi kimi də istifadə olunur. Ölkədə yetərli sayda su və hava limanları mövcuddur.

KXDR hökuməti tərəfindən uzun müddət aparılan təcridolunma siyasəti nətcəsində ölkədə turizm zəif inkişaf etmişdir. Xarici turistləri isə buraya təbii görməli yerlərlə yanaşı, həm də "neostalinçi atmosfer" də cəlb edir. Qapalı sistemin mövcudluğuna baxmayaraq, bəzi rəqəmlərə görə, burda xarici turistlərin illik sayı 100 minlərlə ölçülür.

KXDR hərbiləşdirilmiş bir ölkədir. Ölkədə orduda xidmət edənlərin sayı 1,2 milyon nəfər hesablanır ki, bu göstəriciyə görə, KXDR ÇXR, ABŞ və Hindistandan sonrakı yerdə gəlir. Burada çağrışçılar üzrə hərbi xidmət, qoşun növündən asılı olaraq, 3 ildən 12 ilə qədər çəkir. KXDR 2005-ci ildə açıq şəkildə özünün nüvə silahını yaratdığını bəyan etmişdir. Ölkədə 2006, 2009 və 2013-cü illərdə müvafiq nüvə sınaqları həyata keçirilmişdir. Müxtəlif qiymətləndirmələrdə sonuncu nüvə sınağı üzrə güc 6-7 kiloton təşkil etmişdir. KXDR, həmçinin, öz raketdaşıyıcısı ilə ilk peykini kosmosa çıxarmış və bununla dünyada 10-cu kosmik dövlət olmuşdur.

**Kuba Respublikası** - **Kuba** (*ispanca* - República de Cuba - *Kuba Respublikası*) Karib dənizinin şimalında ada dövləti. Ölkə Böyük Antil adalarından Kuba və Huventud adalarını, habelə çox sayda kiçik adaları əhatə edir. Şimali Amerikadan onu şimalda Florida boğazı, qərbdə Yukatan boğazı ayırır. Kuba dövlətçilik tarixi başlanğıcını 1511-

ci ildən alır. Bunula belə, uzun müddət İspaniyanın tərkibində olmuş ölkənin yeni müstəqillik tarixi 10 dekabr 1898-ci ildən başlanır. Paytaxtı Havana şəhəri, rəsmi dili ispan dilidir. Sosialist respublikasıdır. Milli valyutası pesodur.



Ərazisi 110 860 km$^2$, əhalisi 11,4 milyon nəfərdir (*2018*). İqtisadiyyatda xidmətlər 74,5%, sənaye 21,6%, kənd təsərrüfatı 3,9% paya malikdir. ÜDM 81,5 milyard ABŞ dolları, adambaşına ÜDM 11,9 min ABŞ dollarıdır. İnflyasiya 5,2%, işsizlik səviyyəsi 2,2%, yoxsulluq səviyyəsi 1,1%-ə bərabərdir. Xarici borc 26,3 milyard ABŞ dolları (*ÜDM-in 32,3%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 41,1%-nə bərabərdir (*2017*).

Kuba regionda təbii sərvətlərlə zəngin olan ölkələrdəndir. Nikel ehtiyatlarına görə üçüncü, hasilatına görə isə ikinci yeri tutur. Burada nəhəng kobalt ehtiyatları da mövcuddur və onun hasilatına görə ölkə dünyada beşinci yeri tutur. Kuba, həmçinin, iri mis, dəmir, marqans, fosforitlər, xromitlər, kaolinlər, asbest və daş duz yataqlarına malikdir. Dəniz şelfində aşkarlanan neft (*1 milyard tona yaxın*) və qaz (*300 milyard m$^3$*) yataqlarının istismarı həyata keçirilir. Ölkə iqtisadiyyatının əsas sahələrindən biri kimi qənd sənayesi (*illik 10 milyon tona yaxın*) çıxış edir.

Ölkədən qənd, nikel, tütün, sitrus meyvələri, kofe,dərman lavazimatı, məşhur Kuba siqarları, dəniz məhsulları ixrac olunur. Neft və kimya məhsulları, ərzaq, sənaye avadanlığı idxal edilir.

Kubada turizm sektoru inkişaf edir, bank sektoru möhkəmləndirilir, azad iqtisadi zonalar yaradılır. Burada bütün pillələrdə pulsuz təhsil həyata keçirilir. Ölkədə çoxsaylı elmi-tədqiqat institutları fəaliyyət göstərir. Kuba insan kapitalı inkişafı göstəricisinə görə Latın Amerikası ölkələri arasında ön sıralarda yer alır.

Kuba Azərbaycanın müstəqilliyini 1991-ci il dekabrın 26-da tanımış və iki ölkə arasında diplomatik münasibətlər 1992-ci il martın 27-də qurulmuşdur. İki ölkə arasında ticarət dövriyyəsi 8-10 milyon ABŞ dolları təşkil edir.

## 6.9. Yoxsul və "intiharçı ölkələr"

Yoxsul ölkələr reytinq cədvəlində 130-cı sıradan sonrakı yerləri tutan 60-dan çox dövləti əhatə edir. Lakin bu məcmu o qədər də eynicinsli deyildir. Onların arasında daha çox Asiya və Okeaniyada yerləşən ənənəvi iqtisadiyyatlı, Afrikadakı postmüstəmləkə iqtisadiyyatlı ölkələr və "intiharçı dövlətlər" təsnifatlandırılır. Bu qrup ölkələrin iqtisadiyyatlarının strukturu böyük müxtəlifliklə seçilir və yalnız bütün sahələrin aşağı effektivliyi ümumidir. Praktiki olaraq, bütün təsnifat ölkələri müstəmləkə asılılığı yaşamışlar. Bununla belə, yaşanan müvafiq dövrün iqtisadi nəticələri ayrı-ayrı ölkələrdə özünü müxtəlif cür təzahür etdirmişdir.

Ənənəvi iqtisadiyyatı olan ölkələrin xüsusiyyəti onların nisbi eynicinsliyidir. Bu ölkələr üçün aşağı effektivlik, istehsalın geriliyi və yüksək olmayan inkişaf sürəti

səciyyəvidir. Onların arasında, həmçinin, Asiya ölkələrini (*Banqladeş, Butan, Laos, Myanma, Nepal*) və ənənəvi iqtisadiyyatlı Okeaniya ada dövlətlərini (*Vanuatu, Papua-Yeni Qvineya, Solomon adaları, Kiribati*) ayırmaq olar.

Afrika iqtisadiyyatı, Avropanın qitəyə ekspansiyasına qədər, yığımdan və ovçuluqdan, toxa istifadə edən əkinçilik və icma maldarlığı kimi təsərrüfat ukladlarının yığımından ibarət olmuşdur. Həmçinin, praktiki olaraq, qitənin heç bir yerində hasilatla bağlı olmayan emal sənayesi də əhəmiyyətli inkişaf tapmamışdır. Kənd təsərrüfatının məhsuldarlığı hələ də aşağıdır. Buna əyani misal kimi göstərilir ki, Zambiyada kənd təsərrüfatında ölkə əhalisinin 85%-i məşğuldur, onların istehsal etdikləri məhsulların ÜDM-də payı isə 15%-ə bərabərdir. Belə vəziyyət urbanizasiya prosesi inkişaf edən, ixrac potensialı isə kifayət qədər aşağı olan ölkələrdə ərzaq böhranına gətirib çıxarır. Burada əhalinin kənd təsərrüfatından ayrılması aqrar sektorda nə əmtəə istehsalının və nə də onun məhsuldarlığının artması, eyni zamanda, ixracdan əldə edilən vəsaitlə kütləvi ərzaq məhsullarının alınması ilə də kompensasiya olunmur. Bunun nəticəsində qida məhsulları istehsalının səviyyəsini aşağı salan istənilən təbii və ya sosial hadisələr, həmçinin, quraqlıqlar, etnik münaqişələr, məhsul qıtlığı və s. kütləvi aclıq törədir.

Afrika sosiumunun gələcək inkişafının hansı yollarla getməsi barədə müxtəlif nöqteyi-nəzərlər mövcuddur. Bununla belə, daha çox iki fikir - panafrikanizm və sənayeləşmə ideyaları daha geniş yayılmışdır.

Panafrikan ideyası Afrika qitəsində hələ müstəmləkə dövründə yaranmışdır. İdeyanın məğzi ondan ibarətdir ki, Afrika ölkələri yoxsulluq və gerilikdən yalnız öz qüvvələrini birləşdirməklə qurtula bilərlər. Bu nəzəriyyə istiqamətində Afrikada çoxsaylı regional və ümumafrika təşkilat və inteqrasiya ittifaqları da yaradılmışdır. Panafrikan ideyasına, alternativ olaraq, məsuliyyət ideyası dayanır ki, onu da qitədəki indiki mövcud vəziyyət üçün keçmiş müstəmləkə dövlətləri öz üzərilərinə götürməlidir. Bu məsuliyyətin qəbul edilməsinin nəticəsi iqtisadi yardım və investisiyalar olacaq ki, bunlar da Afrika ölkələrinin iqtisadiyyatlarını modernləşdirməyə, gerilik və aclıq problemlərini həll etməyə imkan verəcəkdir. Göründüyü kimi, "panafrikanizm" Afrika qitəsində hələ müstəmləkə dövründə yaranmış, Afrika ölkələrinin yoxsulluq və gerilikdən yalnız öz qüvvələrini birləşdirməklə qurtula biləcəklərinə əsaslanan ideya-siyasi hərəkatdır.

Yoxsul ölkələr arasında 10 dövlətdən ibarət olan kifayət qədər böyük bir qrup da seçilir ki, onların yoxsulluq vəziyyəti iqtisadiyyatlarını dağıdan və pozan daimi daxili və ya xarici müharibələr nəticəsində daha da dərinləşir. Qeyd olunmalıdır ki, Asiyada və Latın Amerikasında uzun illər ərzində rəsmi hökumətlə müharibə aparan hərbi müxalifətin olması, lokal hərbi əməliyyatlarla müşayiət edilən dövlət çevrilişləri, sərhəd münaqişələri hələ də nadir hallar deyildir. Lakin belə dağıdıcı amillər məhdud xarakterli olub, iqtisadiyyatın tam deqradasiyasına gətirmir. Afrikada isə, fərqli olaraq, hərbi münaqişələrin milli təsərrüfata dağıdıcı təsirinin tamamilə başqa səviyyəsi müşahidə edilir. Problem ondan ibarətdir ki, Afrikanın siyasi həyatı üçün traybalizm

kimi hal, yəni siyasi və ictimai həyatda tayfa düşüncəsinin hökmranlığı xarakterikdir. Traybalizmin xüsusilə dərin kök saldığı yerlər, məsələn, Ruandada və ya müxtəlif siyasi partiyaların müxtəlif tayfa və tayfa ittifaqları tərəfindən dəstək aldığı yerlərdə, məsələn, Anqolada və ya yeganə qeyri-Afrika intiharçı ölkəsi olan Əfqanıstanda bütün dövlət və hərbi maşın siyasi xadimlər tərəfindən, ilk növbədə, öz tayfasının maraqlarına uyğun istifadə olunur. Ordu, polis və məmurlar korpusu məhz tayfa üzvlərindən və ya tayfa ittifaqından formalaşır, dövlətdə ən mühüm vəzifələrə isə onun başçısı ilə qohumluq və ya dostluq əlaqələrində olanlar təyin edilir. Gec və ya tez bu, tayfalararası qarşıdurmalara səbəb olur, nəticədə bir tayfa dövlətin bütün hərbi gücünü o birilərin üstünə tökür. Bu cür təzyiqin qurbanları isə silahlanmağa və öz ordusunu yaratmağa məcbur olurlar. Bütün bu permanent qarşıdurmaların nəticəsi onlarla və yüzlərlə insanın qətli, normal iqtisadiyyatın dağılması, nəhəng hərbi xərclər, bütöv ölkə və regionlar miqyasında aclıq və humanitar fəlakətlərlə müşayiət olunur. Belə münaqişələri qəti ləğv etmək yalnız tayfa düşüncəsinə qalib gələrək onu milli düşüncə ilə əvəzləməyə imkan verən "intiharçı ölkələr" cəmiyyətinin zəruri sosial yetkinlik əldə etməsi ilə mümkündür. Konkret olaraq, "intiharhçı ölkələr" - yoxsulluq vəziyyəti iqtisadiyyatlarını dağıdan və pozan daimi daxili və ya xarici müharibələr nəticəsində yoxsulluğu daha da dərinləşən ölkələr qrupudur.

**Nikaraqua Respublikası - Nikaraqua** (*ispanca* - República de Nicaragua - *Nikaraqua Respublikası*) Mərkəzi Amerikada dövlət. Nikaraquanın dövlətçilik tarixi başlanğıcını 1502-ci ildən alır. Bunula belə, uzun müddət İspaniyanın tərkibində olmuş ölkənin yeni müstəqillik tarixi 28 sentyabr 1821-ci ildən başlanır. Paytaxtı Manaqua şəhəri, rəsmi dili ispan dilidir. Prezident respublikasıdır. Milli valyutası kordobadır.



Ərazisi 129 494 $km^2$, əhalisi 6,3 milyon nəfərdir (*2018*).

İqtisadiyyatda xidmətlər 55,9%, sənaye 26,8%, kənd təsərrüfatı 17,3% paya malikdir. ÜDM 12,7 milyard ABŞ dolları, adambaşına ÜDM 2120 ABŞ dollarıdır. İnflyasiya 4,8%, işsizlik səviyyəsi 4,4%, yoxsulluq səviyyəsi 29,6%-ə bərabərdir. Xarici borc 11,4 milyard ABŞ dolları (*ÜDM-in 89,7%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 48,2%-nə bərabərdir (*2017*).

Nikaraqua Mərkəzi Amerikanın yoxsul ölkələrindən biridir. Burada hər iki nəfərdən biri yoxsulluq səviyyəsindədir. Bu göstəriciyə görə Nikaraquanı regionda yalnız Haiti və Honduras qabaqlayır.

Nikaraqua böyük ölçüdə kənd təsərrüfatına və xidmət sektorlarına əsaslanan və inkişaf etməkdə olan dövlətdir. Kənd təsərrüfatında banan, qəhvə, qarğıdalı, tütün, soya, şəkər qamışı, mal əti və tütün istehsalı mühüm yer tutur. Bununla belə, ölkədə ətlik-südlük malqara, quşçuluq təsərrüfatları çoxaldılır, dəniz məhsulları hasil edilir.

Sənaye kənd təsərrüfatı məhsullarının emalına əsaslanır. İçkilər, ayaqqabı istehsalı, ağac və neft məhsulları emalı sahələri mövcuddur. İqtisadiyyatın aparıcı sahələrini

bank sektoru, tikinti və yeyinti sənayesi, turizm, tekstil istehsalı təşkil edir. Ölkənin enerji istehsalının mütləq əksəriyyəti İES-lər hesabına təmin olunur.

Kofe, mal əti, süd məhsulları, krevetka və omar, qənd, araxis, tütün və qızıl ixrac edilir. İdaxalata əsas yeri istehlak və sənaye malları, neft məhsulları tutur.

Nikaraqua ilə Azərbaycan arasında diplomatik münasibətlər 1994-cü ildə yaradılmışdır.



**Laos Xalq Demokratik Respublikası, Laos -** (*laos dilində* - ສາທາລະນະລັດ ປະຊາທິປະໄຕ ປະຊາຊົນລາວ - *Laos Xalq Demokratik Respublikası*) Cənub-Şərqi Asiyada dövlət. Qərbdə Tailand, şərqdə Vyetnam, cənubda Kambodca, şimalda ÇXR və şimal-qərbdə Myanma ilə həmsərhəddir. Dövlətçilik tarixi 19 iyul 1949-cu ildən Fransadan müstəqilliyini elan etməklə başlanılır. Paytaxtı Vyentyan şəhəri, rəsmi dili laos dilidir. Ölkə sosialist quruluşlu, bir partiya sistemli parlamet respublikasıdır. Dövlət başçısı parlament tərəfindən seçilən prezidentdir. Milli valyutası kipdir (*laos kipi*).

Ərazisi 236 800 km$^2$, əhalisi 7,1 milyon nəfərdir (*2018*).

Laosın dənizə çıxışı yoxdur. Ölkə sıx meşələrlə əhatə olunmuşdur, landşaft yüksək olmayan dağlardan ibrətdir. İqlimi subekvatorial mussonludur.

İqtisadiyyatda xidmətlər 48,0%, sənaye 32,5%, kənd təsərrüfatı 19,5% paya malikdir. ÜDM 12,6 milyard ABŞ dolları, adambaşına ÜDM 1925 ABŞ dollarıdır. İnflyasiya 0,2%, işsizlik səviyyəsi 0,7%, yoxsulluq səviyyəsi 22,0%-ə bərabərdir. Xarici borc 13,7 milyard ABŞ dolları (*ÜDM-in 108,7%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 50,4%-nə bərabərdir (*2017*).

Laos iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir (*ÜDM-in 35%-i*). Bu sektorda işləyən əhalinin 80%-i çalışır. Şirin kartof, tərəvəz, qarğıdalı, qəhvə, şəkər çuğunduru, pambıq, tütün, çay, araxis, düyü becərilir, öküz, quş, donuz yetişdirilir. Sənayenin ÜDM-də payı 30%-dən çoxdur. Ölkədə mis, qalay, qızıl hasil edilir, kənd təsərrüfatı məhsulları və ağac emalı, həmçinin, geyim sənayesi və hidroenergetika sahələri fəaliyyət göstərirlər.

Burada 1986-cı ildə dövlətin iqtisadiyyat üzərindən nəzarəti zəifləməyə başlamış və şəxsi sahibkarlığa icazə verilmişdir. Bu da çox cüzi iqtisadi yüksəlişə səbəb olmuşdur. Buna səbəb həm də ölkədə infrastruktur kompleksinin zəif inkişaf etməsidir. Belə ki, Laosda dəmir yolları yoxdur, avtomobil yolları şəbəkəsi isə azdır.

Ölkədən, əsasən, qonşu ölkələrə ağac materiallar, qəhvə, eklektrik enerjisi, mis, qalay, qızıl ixrac edilir. Sənaye məhsulları, yanacaq, istehlak malları idxal olunur. Ölkədə qaçaqmalçılıq zəminində triyək ticarəti mövcuddur.

Loosda 2011-ci ildən ilk dəfə olaraq qiymətli kağızlar üzrə fond birjası fəaliyyətə başlamışdır.

Laos Azərbaycanın müstəqiliyini 1992-ci il yanvarın 2-də tanımışdır və iki ölkə arasında diplomatik əlaqələr qurulmuşdur.

**Müstəqil Dövlət Papua-Yeni Qvineya** (*ingiliscə* - Independent State of Papua New Guinea - *Müstəqil Dövlət Papua-Yeni Qvineya*) Okeaniyada, Sakit okeanın cənub-qərb hissəsində dövlət. Yeni Qvineya adası, Bismark arxipelaqının şərq, Solomon və digər



yanaşı adaların şimal hissəsində yerləşir. Dövlətçilik tarixi 16 sentyabr 1975-ci ildən Avstraliyadan müstəqilliyini elan etməklə başlanılır. Paytaxtı Port-Morsbi şəhəri, rəsmi dili ingilis, tok-pisin və xirimotu dilləridir. Ölkə konstitusiyalı monarxiya quruluşludur. Dövlət başçısı kraliça (*Böyük Britaniya*), rəhbəri general-qubernatordur. Qanunverci orqan milli parlamentdir. Milli valyuta kinidir.

Ərazisi 462 840 km$^2$, əhalisi 8,1 milyon nəfərdir (*2018*).

İqtisadiyyatda xidmətlər 35,0%, sənaye 42,9%, kənd təsərrüfatı 22,1% paya malikdir. ÜDM 21,2 milyard ABŞ dolları, adambaşına ÜDM 2528 ABŞ dollarıdır. İnflyasiya 5,1%, işsizlik səviyyəsi 2,7%, yoxsulluq səviyyəsi 37,0%-ə bərabərdir. Xarici borc 22,0 milyard ABŞ dolları (*ÜDM-in 103,7%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 45,4%-nə bərabərdir (*2017*).

Əhalinin 85%-i, ənənəvi olaraq, kənd təsərrüfatı işlərinə cəlb olunmuşdur. Ölkədə bu sektor qəhvə, kakao, kokos, çay, kartof, vanil, meyvə-tərəvəz istehsalı ilə fərqlənir. Papua-Yeni Qvineyada, həmçinin, dəniz məhsulları da hasil və istehsal olunur. Ölkədə quşçuluq və donuzçuluq təsərrüfatları mövcuddur.

İqtisadiyyat, üstün olaraq, xammal xarakterlidir. Ölkədə bir sıra sənaye əhəmiyyətli faydalı qazıntılar var. Burada coğrafi şəraitin mürəkkəbliyi və maliyyə çatışmazlığı ilə bağlı rentabelli istehsal çətinlikləri yaşanır. Mis, gümüş, qızıl, molibden, tellur, nikel, kobalt, neft-qaz, sement xammalı hasilatı aparılır.

Neft, qızıl, mis filizi, meşə materialları, palma yağı, qəhvə, kakao və dəniz məhsulları ixrac olunur. İdxalda nəqliyyat vasitələri, sənaye malları, ərzaq məhsulları və yanacaq mühüm yer tutur.

Bütün bunlarla yanaşı, Papua-Yeni Qvineyaya yüksək korrupsiya və kriminogen vəziyyət xasdır. Buradakı cinayətkarlığın yüksək səviyyəsi inkişafa çox mənfi təsir göstərir. Burada xüsusi submədəniyyəti səciyyələndirən sosial-kriminal fenomen reskolizm geniş yayılmışdır. Mahiyyətcə, reskolizm - qətllər, qarətlər, oğurluq, o cümlədən genişliklə insan oğurluqları törədən gənclər bandasıdır. Bu baxımdan, ölkədə polislər tərəfindən edilən işgəncə halları da yüksəkdir və belə vəziyyət ölkədə daim davam edən praktiki xarakter daşıyır.



**Əfqanıstan İslam Respublikası, Əfqanıstan** (Jomhūrī-ye Eslāmī-ye Afġānistān - Islamic Republic of Afghanistan) Asiyada dənizə çıxışı olmayan dövlət. Orta Asiyada yerləşməsinə baxmayaraq, etnik və mədəni əlaqələri nəzərə alınaraq, bəzi qaynaqlar tərəfindən Yaxın Şərq ölkəsi hesab edilir. Şərqdə və cənubda Pakistan, qərbdə İran, şimalda Türkmənistan, Özbəkistan və Tacikistan, şimali-şərqdə ÇXR və ən şərqi hissədə Hindistanla (*Hindistan, ÇXR və Pakistanla mübahisəli ərazı -*

*Cammu və Kəşmir*) həmsərhəddir. Dövlətçilik tarixi 19 avqust 1919-cu ildən Böyük Britaniyadan müstəqilliyini elan etməklə başlanılır. Paytaxtı Kabul şəhəri, rəsmi dil pustu və dari dilləridir. Əfqanıstan islam respublikasıdır. Dövlət başçısı prezidentdir. Milli valyutası əfqanidir.

Ərazisi 652 864 km$^2$, əhalisi 35,5 milyon nəfər (*2018*).

İqtisadiyyatda xidmətlər 56,0%, sənaye 22,0%, kənd təsərrüfatı 22,0% paya malikdir. ÜDM 19,7 milyard ABŞ dolları, adambaşına ÜDM 565 ABŞ dollarıdır. İnflyasiya 3,6%, işsizlik səviyyəsi 8,8%, yoxsulluq səviyyəsi 35,8%-ə bərabərdir. Xarici borc 1,2 milyard ABŞ dolları (*ÜDM-in 6,1%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 22,5%-nə bərabərdir (*2017*).

Şərqlə Qərb arasında yerləşən Əfqanıstan ticarət və miqrasiyanın mərkəzi hesab olunur. Onun Cənubi və Mərkəzi Asiya, digər tərəfdən, Yaxın Şərq arasındakı geosiyasi mövqeyi region ölkələri arasında siyasi, iqtisadi və mədəni əlaqələrdə mühüm rol oynayır. Əfqanıstan çoxmillətli ölkədir. Burada heç bir etnik qrup əksəriyyəti və ya çoxluğu (*yarıdan çox*) təşkil etmir, ölkədə yalnız qarşılıqlı nisbətdə üstünlüyə sahib beş böyük etnik qrup vardır. Əsas etnoslar, yalnız birinin sayı 1 milyondan çox olan, puştunlar, taciklər, özbəklər, həzaralar və türkmənlərdir.

Marksizm nəzəriyyəsinin yaradıcılarından biri, məşhur alman filosofu Fridrix Engels əfqanlar haqqında müvafiq məqaləsində yazır. "Əfqanlar - cəsur, enerjili və azadlıqsevər xalqdır. Onlar yalnız maldarlıq və ya əkinçiliklə məşğul olur, sənətkarlığa və ticarətə məhəl qoymadan, ondan hər cür yayınaraq, bunu hindlilərə və şəhərlərin başqa sakinlərinə həvalə edirlər. Onlar üçün müharibə yeknəsəq təsərrüfat işləri məşğuliyyətindən ayrılmaq üçün əyləncə və istirahətdir. Əfqanlar qəbilələrə bölünür və müxtəlif başçılar onlar üzərində bir feodal hökmranlığı həyata keçirirlər. Dövlət hakimiyyətinə cilovlanmayan nifrətləri və şəxsi müstəqilliyə sevgiləri əfqanların qüdrətli millət olmaına mane olur. Məhz bu kortəbiilik və davranışlarındakı qeyri-daimilik onları bir anın əhvalının təsirinə məruz qoyur və ehtiraslarını məharətlə coşduran siyasi intriqanlar tərəfindən çox asan ələ alınan təhlükəli qonşulara çevirir".

Əfqanıstan faydalı qazıntılarla zəngin bir ölkədir. Lakin ölkənin dağlıq landşaftı onların istiamarına müəyyən məhdudiyyətlər gətirir. Burada daş kömür, qiymətli metallar, beril filizi, kükürd, duz, mərmər, klazurit, barit, neft-qaz və digər yataqlar mövcuddur. Mis, dəmir, marqans filiz ehtiyatları kəşf edilmişdir. Kabul ətrafında Aynak mis yatağı (*2,3% tərkibli 240 milyon ton filiz*) bütün Avrasiya kontinentində və Hacıgeh dəmir filizi (*62-68% tərkibli 428 milyon ton filiz*) yatağı cənubi Asiya regionunda ən böyük hesab olunur. Bir müddət əvvəl Amerika geoloqlarının burada aşkarladığı nəhəng həcmdə dəmir, qızıl, mis, kobalt və molibden kimi faydalı qazıntıların yeni qlobal resurs potensialı bir trilyon dollara dəyərində qiymətləndirilir. Bütün bu potensial ehtiyatlara baxmayaraq, Əfqanıstan kasıb ölkə kimi xarici yardımlardan kəskin asılıdır.

Ölkədə əhalinin 78,0%-i kənd təsərrüfatında çalışır. Kənd təsərrüfatı əkinçilik və

heyvandarlıq məhsullarını əhatə edir, xaşxaş, buğda, meyvələr, fındıq yetişdirilir, yun və dəri istehsal olunur.

Sənaye paltar, sabun, mebel, ayaqqabı, gübrə, sement, əl işi xalçalar, təbii qaz, yağ, kömür, mis istehsalı sahələrini əhatə edir.

Nəqliyyat infrastrukturu zəif inkişaf etmişdir.

Ölkədən əsas region ölkələrinə xaşxaş, meyvə və fındıq, xalçalar, yun, qiymətli və yarımqiymətli daşlar ixrac olunur. Sənaye malları, istehlak məhsulları, tekstil, neft və neft məhsulları idxal olunur.

Əfqanıstan 1978-ci ildən müharibə içərsində yaşayır. Tez-tez baş verən çevrilişlər, xarici dövlətlərin hərbi müdaxiləsi ölkədə stabil dövlət quruculuğuna, davamlı iqtisadiyyatın yaranışına mane olur. Belə vəziyyət həm də, öz növbəsində, ölkədə cinayətkarlığın artırmasına, narkobiznesin çiçəklənməsinə səbəb olur. Bu haqda BMT-nin illik hesabatlarında göstərilir ki, XIX əsrdə, Çin istisna edilməklə, dünyada heç bir ölkədə müasir Əfqanıstandakı həcmdə narkotiklər istehsalı olmamışdır. NATO-nun rəhbərliyi ilə aparılan müharibə illərində burada narkotik istehsalı 40 dəfədən çox artmışdır. Ölkədəki "narkobaronlar"ın illik gəlirləri milyard ABŞ dolları ilə ölçülür. Avropaya daxili olan narkotiklərin 90%-nin Əfqanıstan mənşəli olduğu bildirilir.

Əfqanıstan Azərbaycanın müstəqilliyini 1991-ci il dekabırın 21-də tanımışdır və iki ölkə arasında diplomatik əlaqələr 1994-cü il noyabrın 16-da qurulmuşdur.

**Anqola Respublikası - Anqola** (*portuqalca - República de Angola - Respublika de Anqola*) Mərkəzi Afrikada, Atlantik okeanı sahilində dövlət. Anqolanın müstəqillik



tarixi Poruqaliya müstəmləkəsindən ayrılmaqla 11 noyabr 1975-ci ildən başlanır. Paytaxtı Luanda şəhəri, rəsmi dili portuqal dilidir. Ölkə prezident respublikasıdır. Milli valyutası kvanzadır.

Ərazisi 1 246 700 km$^2$, əhalisi 27,5 milyon nəfərdir (*2018*).

Anqolanın Konqo Respublikasının tərkibində Kabinda adlı liman anklavı vardır.

İqtisadiyyatda xidmətlər 28,4%, sənaye 61,4%, kənd təsərrüfatı 10,2% paya malikdir. ÜDM 103,0 milyard ABŞ dolları, adambaşına ÜDM 3502 ABŞ dollarıdır. İnflyasiya 20,9%, işsizlik səviyyəsi 8,2%, yoxsulluq səviyyəsi 40,5%-ə bərabərdir. Xarici borc 37,7 milyard ABŞ dolları (*ÜDM-in 36,6%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 45,5%-nə bərabərdir (*2017*).

Anqola əhəmiyyətli təbii resurslara malikdir. Faydalı resursları neft və almazdır. Burada dəmir filizi, mis, qızıl, fosfat, mərmər, boksit və uran hasil edilir. Ölkənin çox olmayan təbii qaz ehtiyatları 300 milyon m$^3$ həcmində hesablanır. Ölkənin hasilat sənayesinə yataqlar dərinliyi xasdır ki, bu da uyğun hasilat çətinlikləri yaradır. Ölkə iqtisadiyyatı neft sənayesinə və neft ixarıcına əsaslanır. ÜDM-də bu pay 85% təşkil edir.

Ölkə sənayesi, əsasən, neft təsərrüfatı üzərində qurulmuşdur. Burada çoxsaylı neft emal edən zaovodlar vardır. Hazırda ixrac üçün dəmir filizi və marqans hasilatı üzrə ölkədə miqyaslı hazırlıq işlər aparılır. Sement istehsalı, tekstil sənayesi, mərmər və

qranit emalı sahələri genişləndirilir. Ölkədə müəyyən ölkədaxili tələbatlı yeyinti sənayesi məhsulları istehsal olunur.

Kənd təsərrüfatında əhalinin 80%-i çalışır. Ölkədə heyvandarlıq təsərrüfatları mövcuddur, şəkər qamışı, banan, kofe, qarğıdalı, pambıq, tütün, manioka və müxtəlif tərəvəzlər yetişdirilir, balıqçılıq təsərrüfatları fəaliyyət göstərir. Bununla belə, ölkə istehlak etdiyi ərzağın 80%-ni idxaldan alır.

Ölkədə neftdən başqa almaz, kofe, pambıq, meşə materialları, aqava ağacından alınan sizal lifi və balıq ixrac olunur.

İdxalatda sənaye məhsulları, dərmanlar, ərzaq məhsulları və silah əsas yer tutur.

Anqola 1976-cı ildən BMT-nin, 1989-cu ildən BYİB-in, 1996-cı ildən DTT-nin, 1999-cu ildən Afrika İttifaqının üzvüdür.

Anqolada islam dini rəsmən qadağan olunmuş və islama aid hər şeyə qadağa qoyulmuşdur. Anqola Respublikasınən Prezidenti Joze Eduardu duş Santuş (*1942*) 1969-cu ildə Azərbaycan Dövlət Neft və Sənaye Universitetini bitirmişdir, 1979-cu ildən dövlət başçısıdır. Anoqola Respublikası 14 mart 2008-ci ildə BMT Baş Assambleyasının 62-ci sessiyasında "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı qətnamə layihəsinə dair keçirilmiş səsvermədə Azərbaycanın əlehinə səs verən azsaylı ölkələrdən olmuşdur.

## 6.10. İqtisadiyyatları modernizə olunmuşlar, ada resurs iqtisadi sistemli və heç bir qrupda təmsil olunmayan ölkələr

<u>İqtisadiyyatları modernizə olunmuş ölkələr</u> inkişaf etmiş ölkələrdən iqtisadi strukturunun daha aşağı effektivlik və məhsuldarlıq göstəriciləri ilə fərqlənirlər. Bu qrupun əksər ölkələrinə həm də, inkişaf etmiş ölkələrlə müqayisədə, kənd təsərrüfatı məhsullarının və hasilat sənayesinin ÜDM-də yüksək pay tutması xasdır. Bununla belə, həmin qrup ölkələrinin çoxu öz təsərrüfatını inkişaf etdirməkdə və təkmilləşdirməkdə davam edirlər.

İqtisadiyyatının quruluşu nöqteyi-nəzərdən bu qrup ölkələr kifayət qədər müxtəlif cinslidir. Burada üç əsas qruplaşma təsnifatlandırılır:

1. Keçid iqtisadiyyatlı Avropa ölkələri;
2. Latın Amerikasının yeni sənaye ölkələri;
3. Asiyanin "ikinci dalğa" yeni sənaye ölkələrinin bir hissəsi.

Keçid iqtisadiyyatlı Avropa ölkələri sırasında Bolqarıstan, Rumıniya və Makedoniya kimi ölkələr yer alır. Bu qrupa, həmçinin, özünün iqtisadi inkişafını uğurla davam etdirən Belarus da aid olunur.

Latın Amerikasının yeni sənaye ölkələri sırasına isə, əsasən, Çili, Argentina, Braziliya və Meksika kimi ölkələr mənsubdur. Buraya, həmçinin, yeni sənaye ölkələri olmayan, lakin kifayət qədər effektivli iqtisadiyyat yaratmış Uruqvay və Kosta-Rika da daxil edilir.

Asiyanin "ikinci dalğa" yeni sənaye ölkələrinin bir hissəsi kimi iqtisadiyyatları modernizə olunmuş ölkələr sırasında Malayziya və Tailand xüsusi yer tuturlar. Bu ölkələr yeni moderləşməyə bir qədər sonra qoşulsalar da, iqtisadiyyatlarında əhəmiyyətli irəliləyiş əldə etmişlər.

**Bolqarıstan Respublikası - Bolqarıstan** (*bolqarca* - Република България - *Bolqarıstan Respublikası*) Cənub-Şərqi Avropada, Balkan yarımadasının şərq hissəsində yerləşən dövlət. Bolqarıstan şimaldan Rumıniya, qərbdən Serbiya və Makedoniya, cənubdan Yunanıstan və Türkiyə ilə həmsərhəddir. Ölkənin dövlətçilik



tarixi başlanğıcını 681-ci ildən alır. Bunula belə, uzun müddət Osmanlı imperiyasının tərkibində olmuş ölkənin yeni müstəqillik tarixi 22 sentyabr 1908-ci ildən başlanır. Paytaxtı Sofiya şəhəri, rəsmi dili bolqar dilidir. Unitar quruluşludur və parlament respublikasıdır. Aİ və NATO-nun üzvüdür. Milli valyutası levdir.

Ərazisi 110 994 km$^2$, əhalisi 7,0 milyon nəfərdir (*2018*).

İqtisadiyyatda xidmətlər 67,7%, sənaye 28,0%, kənd təsərrüfatı 4,3% paya malikdir. ÜDM 50,2 milyard ABŞ dolları, adambaşına ÜDM 7369 ABŞ dollarıdır. İnflyasiya 2,2%, işsizlik səviyyəsi 6,3%, yoxsulluq səviyyəsi 22,0%-ə bərabərdir. Xarici borc 40,4 milyard ABŞ dolları (*ÜDM-in 80,4%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 36,9%-nə bərabərdir (*2017*).

Bolqarıstan inkişaf etmiş kənd təsərrüfatı olan sənaye ölkəsidir. XX əsrin sonunda, bir çox ölkələrdə olduğu kimi, Bolqarıstanda da xidmət sahəsi üstünlük təşkil etməyə başlamışdır.

Sosialist düşərgəsinin mövcudluğu vaxtında Bolqarıstan iqtisadiyyatı inkişaf etməkdə olmuşdur. Bu, ölkə iqtisadiyyatının daha çox QİYŞ təşkilatına bağlılığından irəli gəlmişdir. Sosialist düşərgəsinin dağılması, bu ərəfədə Yuqoslaviya və İraqa qarşı yönələn sanksiyalar ölkənin iqtisadiyyatında dərin iz qoydu. Bazar iqtisadiyyatı ilə irəliləyən Bolqarıstan aparılan iqtisadi islahatlar nəticəsində yalnız 2004-cü ildə 1989-cu il səviyyəsinə çata bildi. Bütün pozitiv meyillərə baxmayaraq, ölkədə istehsal infrastrukturları və avadanlıqlar kompleksi köhnəlmiş, yüksək təsərrüfatlararası borclar meydana gəlmişdir.

Ölkənin təbii sərvətlərini daş kömür, təbii qaz, dəmir filizi və qeyri-filiz ehtiyatları təşkil edir. Qara metallurgiya, maşınqayırma, ağac emalı, yüngül və yeyinti, həmçinin, kimya sənayesi inkişaf etmişdir. Bolqarıstan enerji resusursları məhdud olan ölkədir. Ölkədə elektrik enerjisinin mühüm hissəsi İES və AES-lərdə istehsal olunur. Kənd təsərrüfatı olduqca səmərəli və məhsuldardır. Üzümçülük və tütün istehsalı geniş yayılmışdır. Heyvandarlıq, meyvə-tərəvəz istehsalı da ölkənin kənd təsərrüfatında aparıcı sahələrdəndir. Kənd təsərrüfatı həm də ölkənin ixrac potensialının əsasını təşkil edir.

Bolqarıstanın iqtisadiyyatında nəqliyyat sistemi mühüm rola malikdir. Burada nəqliyyatın bütün növləri inkişaf etmişdir. Ölkədə istismarda olan 20 min km-ə yaxın avtomobil yolu mövcuddur. Dəmir yolu ən ucuz nəqliyyat vasitələrindən biridir. Burada

dəmir yollarının uzunluğu 7 min km-ə yaxındır və Ruminiya, Monteneqro, Makedoniya, Türkiyə və Yunanıstan ilə əlaqələri vardır. Ölkədə bir neçə beynəlxalq hava limanı fəaliyyət göstərir. Su nəqliyyat dövriyyəsində daha tutumlu yerə malikdir. Bolqarıstan magistral boru kəmərlərinin də geniş şəbəkəsinə malikdir.

Ölkə ÜDM-ində turizmin də payı yüksəkdir. Burada ilin bütün fəsilləri üçün turizm infrastrukturu mövcuddur. Ölkənin Qara dəniz sahilləri özünün cəlbedici çimərlik zonası kimi fərqlənir.

Bolqarıstan Azərbaycanın müstəqilliyini 14 yanvar 1992-ci ildə tanımış və iki ölkə arasında 5 iyun 1992-ci ildə diplomatik əlaqələr qurulmuşdur. Azərbaycanın Şəki və Bolqarıstanın Qabrovo şəhərləri qardaşlaşmışlar. Bolqarıstanla Azərbaycan iqtisadi partnyordurlar və o, TAP layihəsində Azərbaycanın tərəfdaşıdır. İki ölkə arasında ticarət dövriyyəsi təqribən 500 milyon ABŞ dolları təşkil edir.

**Makedoniya Respublikası - Makedoniya** (*makedonca* - Република Македонија - *Makedoniya Respublikası*) Cənub-şərqi Avropada, Balan yarımadasında dövlət. Ölkə şimalda Serbiya, qərbdə Albaniya, cənubda Yunanıstan, şərqdə Bolqarıstan ilə qonşudur. Makedoniyanın dövlətçilik tarixi Yuqoslaviya Federasiyasının dağılması ilə 8 sentyabr 1991-ci ildən başlanır. Paytaxtı Skopye şəhəri, rəsmi dili makedon dilidir. Unitar quruluşludur və parlament respublikasıdır. Milli valyutası Makedoniya dinarıdır.



Ərazisi 25 333 km$^2$, əhalisi 2,1 milyon nəfərdir (*2018*).

İqtisadiyyatda xidmətlər 60,0%, sənaye 30,0%, kənd təsərrüfatı 10,0% paya malikdir. ÜDM 10,1 milyard ABŞ dolları, adambaşına ÜDM 5263 ABŞ dollarıdır. İnflyasiya 23,0%, işsizlik səviyyəsi 1,6%, yoxsulluq səviyyəsi 21,5%-ə bərabərdir. Xarici borc 8,0 milyard ABŞ dolları (*ÜDM-in 79,2%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 45,2%-nə bərabərdir (*2017*).

Makedoniyanın dənizə çıxışı yoxdur. Onun iqtisadiyyatı uzun illər Yuqoslaviya Federasiyası ilə bağlı olmuşdur. Müstəqillik əldə etdikdən sonra keçmiş Yuqoslaviya Federasiyası dövlətləri ilə iqtisadi əlaqələri qura bilməməsi, adı və digər səbəblərlə Yunanıstan tərəfindən embarqoya məruz qalması, məhdud infrastruktur Makedoniyanın yeni iqtisadiyyat quruculuğuna manelər törətmişdir. Bazar iqtisadiyyatına keçidlə 2000-ci illərdə ölkədə bir sıra iqtisadi irəliləyişlərə nail olunmuşdur.

Makedoniya çox da geniş olmayan filiz və qeyri-filiz yataqlarına malikdir. Burada dəmir filizi, qurğuşun, sink, nikel, mis, qızıl, marqans, xromitlər, maqnezit, sürmə, kükürd, qonur kömür və s. tikinti materialları hasil edilir. Xarici xammalla əsaslanan kimya sənayesi Makedoniya iqtisadiyyatında əsas yerlərdən birini tutur. Bu sahənin inkişafı ölkəyə xarici investisiya axınlarını stimullaşdırır. Makedoniya iqtisadiyyatında sellüloz-kağız və tekistil sənayesi, gön-dəri istehsalı da mühüm rol oynayır.

Makedoniyanın əlverişli iqlim şəraiti burada buğda, qarğıdalı, düyü, tütün, pambıq, günəbaxan, müxtəlif meyvə-tərəvəzin becərilməsinə imkan verir. Ölkədə üzümçülük və şərabçılıq inkişaf etmişdir. Dağlıq regionlarda geniş otlaqların olması burada

heyvandarlığın inkişafına zəmin yaratmışdır. Ölkədə qoyun, keçi, iribuynuzlu mal-qara, quşçuluq və arıçılıq təsərrüfatları mövcuddur.

Makedoniya ərzaq məhsulları, tütün məmulatları, tekstil, müxtəlif sənaye malları, dəmir və polad ixrac edir. İdxalatda əsas yeri maşın və avadanlıqlar, kimya xammalı, yanacaq, yeyinti məhsulları tutur.

Ölkənin avtomobil yollarının uzunluğu 4,8 min km, dəmir yollarının uzunluğu isə 700 km təşkil edir. Magedoniyada 14 hava limanı fəaliyyət göstərir ki, onlardan da 2-si beynəlxalq təyinatlıdır.

Makedoniya Azərbaycanın müstəqilliyini 25 iyul 1995-ci ildə tanımış və iki ölkə arasında 28 iyun 1995-ci ildə diplomatik əlaqələr qurulmuşdur.



**Argentina Respublikası - Argentina** (*ispanca* - República Argentina - *Argentina Respublikası*) Argentina Cənubi Amerika qitəsinin cənubunda And dağları və Atlantik okeanı arasında yerləşir. Argentinanın dövlətçilik tarixi başlanğıcını 1535-ci ildən alır. Bunula belə, uzun müddət İspaniyanın tərkibində olmuş ölkənin yeni müstəqillik tarixi 9 iyul 1816-ci ildən başlanır. Paytaxtı Buenos -Ayres şəhəri, rəsmi dili ispan dilidir. Federativ quruluşludur. G20 qrupuna daxildir. Milli valyutası pesodur.

Ərazisi 2 780 400 km$^2$, əhalisi 44,7 milyon nəfərdir (*2018*).

İqtisadiyyatda xidmətlər 60,9%, sənaye 28,2%, kənd təsərrüfatı 10,9% paya malikdir. ÜDM 632,0 milyard ABŞ dolları, adambaşına ÜDM 12,5 min ABŞ dollarıdır. İnflyasiya 25,6%, işsizlik səviyyəsi 8,7%, yoxsulluq səviyyəsi 32,2%-ə bərabərdir. Xarici borc 363,1 milyard ABŞ dolları (*ÜDM-in 57,4%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 40,3%-nə bərabərdir (*2017*).

Ölkədə 1990-cı illərdən başlayaraq aktiv özəlləşdirmə siyasəti aparalır. Burada hətta metro da özəlləşdirilmişdir. Aparılan bu siyasət nəticəsində ölkənin daxili bazarı əhəmiyyətli dərəcədən genişləndirilmişdir. Ölkə iqtisadiyyatında emal sənayesi üstünlük təşkil edir. Burada ağır sənayenin payı daha çoxdur. Ənənəvi sahələrdən olan yüngül və yeyinti sənayesi, əvvəl kimi, yenə də ixrac potensiallıdır.

Argentina Latın Amerikasında neft hasilatında dördüncü yeri tutur. Neft hasilatı bütünlüklə ölkə tələblərini ödəyir. Bununla yanaşı, Argetina uran istehsalında dünyada on ölkədən biridir. Ölkədə nüvə enerjisi istehsalı üzrə elmi-tədqiqatlar aparılır.

Argentina bütün kontinetin ilk qara metallurgiya sənayesi kompleksinə malikdir. Xammal çatışmazlığı ilə əlaqədar bu sahə ölkədə ləng inkişaf etdirilir. Qara metallurgiya ilə yanaşı ölkədə əlvan metallurgiya da inkişaf etmişdir. Bu sferada qurğuşun, sink, mis, alüminium istehsalı daha geniş həcmlidir.

Başqa Latin Amerikası ölkələri ilə müqayisədə ölkənin kənd təsərrüfatı özünü ərzaqla tam təmin etməyə imkan verir və bir sıra ayrı-ayrı məhsullar da ixraca yönəldilir. Qeyd olunmalıdır ki, ölkənin kənd təsərrüfatında məşğul əhalinin yalnız 2%-i çalışır.

Argentina soya, neft, qaz, avtomobillər, qarğıdalı, taxil, ət ixrac edir. Özünə lazım olan bir sıra sənaye məhsullarını, kimyəvi preparatları, plastı və s.-ni isə idxal edir.

Ölkənin nəqliyyat sistemi nisbi inkişaf etmişdir. Böyük avtomobil və dəmir yolları şəbəkəsi mövcuddur.

Argentina 9 mart 1992-ci ildə Azərbaycanın müstəqilliyini tanımış və elə həmin vaxtdan etibarən iki ölkə arasında dostluq əlaqələrinin və əməkdaşlığın əsası qoyulmuşdur. İki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığa dair bir sıra sənədlər imzalanmışdır. Argentina Senatında Azərbaycanla dostluq qrupu yaradılmışdır. İki ölkə arasında ticarət dövriyyəsi təqribən 40-50 milyon ABŞ dolları təşkil edir.

Təsərrüfatçılığın ada resurs iqtisadi sistemli ölkələr qrupuna, əsasən, tropik zonanın ada dövlətlər aid olunur. Bu ölkələrin başlıca və haradasa yeganə sərvəti ilin hər vaxtı istirahət üçün imkanları təmin edən əlverişli iqlim şəraitidir. Bunların üzərinə yerli ekzotika və tez-tez "vergi cənnəti" statusu da əlavə edilir, yəni bu ərazilərdə qeydiyyatdan keçən firmalarda vergitutma minimal olur. Ərazinin rifahı burada fəaliyyət göstərən və qeydiyyatdan keçmiş xarici şirkətlərin, həmçinin, istirahət zamanı turistlərə xidmət və turistlərin çəkdiyi xərclər hesabına təmin edilir. Turizm biznesinin özü, əsasən, xarici şirkətlərlə inkişaf etdirilir. Yerli kadrlar isə daha çox muzdlu personal və şoularda artistlər kimi fəaliyyətlərə cəlb olunurlar. Bununla belə, yerli sakinlərin də turizm sənayesi və maliyyə sahəsindən daha dolğun bəhrələnməsi dövlətin düşünülmüş iqtisadi siyasətindən asılı olur. Ada model ölkələr qrupuna beş Karib hövzəsi dövləti - Antiqua və Barbuda, Baham Adaları, Barbados, Sent-Kits və Nevis, Qrenada, həmçinin, Hind okeanında Seyşel adaları daxildir. Bundan başqa, bir sıra Qərb ölkələrinin tərkibində kifayət qədər avtonomluqları olan Azor adaları (*Portuqaliya*), Havay adaları (*ABŞ*) və Kanar adaları (*İspaniya*) da bu qrupa aid olunur.

Yuxarıda adı çəkilən dövlət qruplarından başqa, 20-yə yaxın heç bir qrupda təmsil olunmayan ölkələr də mövcuddur ki, onların iqtisadiyyatlarını göstərilən növlərin hər hansı birinə aid etmək olmur. Çox vaxt bu ona görə baş verir ki, burada müxtəlif iqtisadiyyat tipi üçün xarakterik olan xüsusiyyətlər birləşir. Məsələn, bir sıra ada dövlətlər daha çoxsaylı qrupu təşkil edirlər ki, bunlar özündə ya o biri ölkələrə yetişməkdə olan ölkə tipi modelinin və yaxud da sənayeləşmənin Qərb tipi ilə gedən Trinidad, Tobaqo və Mavrikiya kimi ada dövlətlərin - yaxud da ənənəvi iqtisadiyyatlı ölkələrin - Haiti və Samoanın əlamətlərini birləşdirir. Digər tərəfdən, CAR, Türkiyə, Pakistan kimi dövlətlərdə qərbləşmə prosesi gedir və burada müvafiq olaraq afrikan və islam tipli ənənəvi iqtisadiyyat əlamətləri Qərb, ən başlıcası isə, liberal və idxalı əvəz edən iqtisadi modelin əlamətləri ilə birləşir. Nəhayət, Yəmən Ərəb Respublikası, Şimali Sudan və Cənubi Sudan, Kamboca kimi dövlətlər ənənəvi iqtisadiyyatlarını ərəb resurs iqtisadiyyatı və "intiharçı" ölkələrin əlamətləri ilə uzlaşdırırlar.

## 6.11. Cənubi Qafqaz regionu ölkələri: Gürcüstan və Ermənistan iqtisadiyyatlarının xüsusiyyətləri

Cənubi Qafqaz Avrasiya materikinə mənsub, daha çox dağlardan ibarət, qərbdən Qara dəniz, şərqdən Xəzər dənizi əhatəsində Qafqaz regionunun cənub hissəsini birləşdirən coğrafi ərazidir. Cənubi Qafqaz regionu ölkələri Azərbaycan, Gürcüstan və Ermənistan respublikalarından ibarətdir. Müasir siyasi nöqteyi-nəzərdən, Qafqazın ərazisi Samur çayının sağ sahili ilə Şimali Qafqaz - Rusiya Federasiyası və Cənubi Qafqaz - Azərbaycan, Gürcüstan və Ermənistan respublikaları arasında bölüşdürülmüşdür. Bununla belə, Türkiyə özünün şimal regionlarını Qafqaz regionuna aid edir.

Cənubi Qafqaz "Avropa-Asiya" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərini birləşdirən mühüm geostrateji region kimi də fərqlənir. Buradakı üç ölkənin - Azərbaycan, Gürcüstan və Ermənistanın inkişafının müasir mərhələsində çoxlu ümumi məqamlar vardır. Bu, hər şeydən əvvəl, həmin ölkələrin eyni müstəqillik tarixiləri və iqtisadi sistemlərini bazar münasibətləri zəminində qurması ilə bağlanılır. Bununla belə, hər üç ölkənin iqtisadi inkişafının xüsusiyyətlərində yetərli fəqlər də az deyildir.

**Gürcüstan** (*gürcücə* - საქართველო - *Sakartvelo*) Cənubi Qafqazda dövlət. Şimalda Rusiya Federasiyası, şərqdə Azərbaycan, cənubda Ermənistan və Türkiyə ilə



həmsərhəddir. Gürcüstan dövlətçilik tarixi başlanğıcını 681-ci ildən alır. Bunula belə, SSRİ dövlətinin çökməsi ilə bağlı ölkənin yeni müstəqillik tarixi 9 aprel 1991-ci ildən başlanır. Paytaxtı Tbilisi şəhəri, rəsmi dili gürcü dilidir. Unitar quruluşludur və parlament respublikasıdır. Ölkənin milli valyutası laridir.

Ərazisi 69 700 $km^2$ (*Cənubi Osetiya və Abxaziya çıxdıqda 57 200 $km^2$*), əhalisi 4,1 milyon (*Cənubi Osetiya və Abxaziya çıxdıqda 3,8 milyon nəfər*) nəfərdir. (*2018*). Əhalinin 300 minə yaxını azərbaycanlılardır (*6,7% - sayca ikinci xalq*).

Sovet İttifaqının dağılması ilə Gürcüstana Abxaziya və Cənubi Osetiya respublikalarının separatçılıqla ondan ayrılması kimi dövlət ərazi pozuntuzu problemi miras qalmışdır.

İqtisadiyyatda xidmətlər 66,2%, sənaye 23,3%, kənd təsərrüfatı 9,5% paya malikdir. ÜDM 14,0 milyard ABŞ dolları, adambaşına ÜDM 3842 ABŞ dollarıdır. İnflyasiya 2,8%, işsizlik səviyyəsi 11,6%, yoxsulluq səviyyəsi 9,2%-ə bərabərdir. Xarici borc 16,4 milyard ABŞ dolları (*ÜDM-in 117,1%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 52,6%-nə bərabərdir (*2017*).

Gürcüstan böyük mineral resurslara malik deyildir. Bununla belə, ölkədə marqans, mis, arsen, qurğuşun, sink və digər metal filizi yataqları mövcuddur. Gürcüstanın əsas enerji xammalı daş kömürdür. Burada daş kömürün kəşf edilmiş ehtiyatları 35 milyon ton, potensial ehtiyatlar isə 1 milyard tondan artıq hesablanır. Ölkə ərazisində, həmçinin, müəyyən miqdarda neft-qaz ehtiyatları da vardır. Burada neft yataqları,

əsasən, Kolxida düzənliyində və Kaxetiya regionunun cənub hissəsində, Azərbaycanla sərhəd ərazilərdə, daş kömür ehtiyatları isə qərb bölgəsində yerləşir. Gürcüstanın iqtisadiyyatı üçün ən mühüm təbii resurs kimi məşhur Tsxaltubo və Borjomi mineral suları yer tutur. Bundan başqa, ölkədə mühüm təbii tikinti materialı sərvətləri də mövcuddur ki, bu sırada betonit gili, əhəng daşı, dolomit, sement materialı daha tələb olunmuş miqdardadır.

SSRİ-nin tərkibində olduğu zamanlarda Gürcüstan iqtisadiyyatı sürətlə sənayeləşirdi. 1913 və 1975-ci illər arasında ölkənin milli gəliri, demək olar ki, 90 dəfə artmışdı. 1970-ci illərdə isə artıq respublikada adambaşına milli gəlir orta İttifaq səviyyəsinin ¾ hissəsi səviyyəsində idi. İttifaqın dağılması ərəfəsində - 1990-cı ildə xidmətlər sferasının payında məşğul əhalinin payı 40%, sənayedə isə 27% təşkil edirdi. Sovet dövründə Gürcüstan çuqun, kömür, polad borular, neft məhsulları, gübrələr, dəzgahlar, lokomotivlər istehsalında, təyyarə yığılmasında ixtisaslaşaraq, inkişaf etmiş sənayeyə malik idi. Bununla belə, SSRİ dövlətinin mövcudluğu vaxtı Gürcüstan iqtisadiyyatının mərkəzdən asılılığı xeyli böyük olmuşdur.

Sovet İttifaqı dağıldıqdan sonra Gürcüstan iqtisadiyyatı, praktiki olaraq, inkişafdan qalmışdı. Bir çox sahələrin istehsal gücləri yalnız 5-10% yüklənmiş və onların məhsullarının maya dəyərinin yüksək, tələbləri isə aşağı olmuşdur. Kənd təsərrüfatı istehsalı tamamilə ölkənin daxili tələbatlarına yönəldilmişdi. Belə vəziyyət formalaşmış təsərrüfat balansının pozulması ilə müşayiət olundu. Belə ki, ölkədə dənli bitkilərin, kartofun, tərəvəzin, heyvandarlıq məhsullarının payı artdı, yaşıl çay yarpağının yığımı 8 dəfə, üzüm 32, sitrus bitkilərinin yığımı 3,4 dəfə aşağı düşdü. Bununla belə, Gürcüstanda kənd təsərrüfatının “naturallaşdırılmasına” başlanıldı. Bu problemlərə maliyyə-kredit sisteminin böhranı, büdcə kəsiri, xarici borcun sürətli artımı, hiperinflyasiya da əlavə olundu. 1996-cı ildən Gürcüstanda iqtisadi yüksəliş başlanmışdır. Xarici maliyyələşmə iqtisadi artımın təmin edilməsində, həmçinin, dövlət iqtisadi siyasətinin və iqtisadiyyatın sahəvi quruluşunda formalaşmasında mühüm rol oynamışdır. 2003-cü ildən Gürcüstanda magistral boru kəmərlərinin tikintisi ilə əlaqədar olaraq iqtisadi artım sürətinin və xarici investisiyalar axınının xeyli artması baş vermişdir.

Hazırda Gürcüstanın mühüm sənaye sahələri yeyinti və yüngül sənaye, qara və əlvan metallurgiyadır. Çay, şərab, tütün, mineral sular, konservlər, yun, trikotaj, ayaqqabı, elektrovoz, avtomobil, dəzgah istehsalı sahələri fəaliyyət göstərir. Kənd təsərrüfatı, əksərən, həyətyanı sahələri əhatə edən ailə-fermer təsərrüfatlarına əsaslanır. Bu sektorda məşğul əhalinin yarsı çalışır və kənd təsərrüfatının ÜDM-də payı 12%-dən çox deyildir.

Ölkənin dəmir yolu xətlərinin uzunluğu 1600 km-dir. Əsasən, Azərbaycandan gələn yüklər və neft daşımaları həyata keçirilir. Ölkədə Qara dənizdə Batumi, Poti, Supsa, Kulevi limanları fəaliyyət göstərir.

Gürcüstanla Azərbaycan arasında diplomatik əlaqələr 1992-ci il noyabrın 18-də yaradılmışdır. Gürcüstanla Azərbaycanı BTC, QİBK, CQBK, BTQ və TRACECA kimi

qlobal enerji, nəqliyyat-kommunikasiya layihələri, GUAM, QDİƏT və digər qurumlar daxilində əməkdaşlıq və ikitərəfli strateji əlaqələr birləşdirir. Gürcüstan iqtisadiyyatının yüksəlişində Azərbaycan kapitalı da mühüm rol oynamışdır. Azərbaycandan dünya bazarlarına çıxarılan enerji resurlarından Gürcüstan çox dəyərli miqdarda tranzit haqqları alır. Bundan əlavə, Azərbaycan Gurcüstana əlverişli qiymətə təbii qaz satır. SOCAR Gürcüstanın regional qaz təchizatının 95%-ni, neft məhsullarının pərakəndə satış bazarının isə 25%-ni təmin edir. Hazırda burada “SOCAR” brendi ilə yüzdən artıq yanacaqdoldurma məntəqəsi fəaliyyət göstərir. Gürcüstanın Qara dəniz sahilində yerləşən Kulevi terminalında (*Kulevi “Qara Dəniz Terminalı” MMC*) çalışmalar SOCAR tərəfindən həyata keçirilir. Ölkədə fəaliyyət göstərən “SOCAR Georgia Petroleum” MMC azərbaycanlıların kompakt yaşadığı bölgələrdə iri həcmli sosial layihələr reallaşdırır. Hazırda Gürcüstanın 30 regional qaz distribusiya şirkəti SOCAR-a məxsus “SOCAR Georgia Gas” tərəfindən idarə olunur. Azərbaycan BTQ dəmir yolu xəttinin inşası üçün Gürcüstana 25 il müddətinə kiçik faiz dərəcəsi ilə 775 milyon ABŞ dolları kredit vermişdir.

**Ermənistan Respublikası**, **Ermənistan** (*erməniсə* - Հայաստանի Հանրապետություն - *Hayastan, Ermənistan Respublikası*) Cənubi Qafqazda dövlət.



Türkiyə, Gürcüstan, Azərbaycan və İran ilə həmsərhəddir. Azərbaycan torpaqlarını işğal etməsinə və digər səbəblərə görə Pakistan tərəfindən tanınmır. 28 may 1918-ci ildə əzəli Azərbaycan torpaqları əsasında yaradılmışdır. SSRİ dövlətinin çökməsi ilə bağlı Ermənistanın yeni müstəqillik tarixi 21 sentyabr 1991-ci ildən başlanır. Paytaxtı İrəvan şəhəri, rəsmi dili erməni dilidir. Unitar quruluşludur və parlament respublikasıdır. Milli valyutası dramdır.

Ərazisi 29 743 km$^2$, əhalisi 3,0 milyon nəfərdir (*2018*).

İqtisadiyyatda xidmətlər 54,5%, sənaye 27,8%, kənd təsərrüfatı 17,7% paya malikdir. ÜDM 10,5 milyard ABŞ dolları, adambaşına ÜDM 3511 ABŞ dollarıdır. İnflyasiya 3,7%, işsizlik səviyyəsi 18,2%, yoxsulluq səviyyəsi 32,0%-ə bərabərdir. Xarici borc 10,0 milyard ABŞ dolları (*ÜDM-in 95,2%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 50,0%-nə bərabərdir (*2017*).

Müstəqilliyini elan edənədək Ermənistanın kimya məhsulları, toxuculuq, elektronika, dəzgahlar və avadanlıqlar istehsalına əsaslanan sənayesi ÜDM-in 60%-ni təmin edirdi. Lakin bu sənaye sahələrinin əksəriyyəti xaricdən gələn xammaldan asılı idi. Kənd təsərrüfatının ÜDM-də payı isə 20% həcmində olmuşdur.

SSRİ-nin dağılması, Dağlıq Qarabağın işğalı Ermənistan iqtisadiyyatına əhəmiyyətli ziyan vurmuşdur. Qonşu Gürcüstanda baş verən müharibələr isə vəziyyətini bir qədər də ağırlaşdırdırmışdır.

Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi ilə başlanan hərbi təcavüzü nəticəsində Azərbaycan və Türkiyə sərhədləri, həmçinin, Azərbaycan ərazisindən keçən nəqliyyat marşrutları və boru kəmərləri bağlanmışdır. Belə vəziyyət, ilk növbədə,

Ermənistanı çətin iqtisadi duruma salmışdır. Belə ki, qapanan kommunikasiya xətləri öncə Ermənistanın özünü enerji resursları ilə iqtisadiyyatını mühüm olan idxal malları ilə təmin edirdi. Bununla yanaşı, 1989-cu ildə ekoloqlar Metsamor AES-in bağlanmasını təkid etdilər. Bütün bunlar Ermənistan iqtisadiyyatını son dərəcə çətin vəziyyətə saldı. Amerika Erməni Beynəlxalq Komitəsinin açıqlamasına görə, embarqo Ermənistan iqtisadiyyatına ildə 570-720 milyon ABŞ dolları ziyan vurur.

Ermənistan ÜDM-də artım son illərdə, xüsusən də, İranla münasibətlərin inkişaf etdirilməsi ilə başlamışdır. Bu əlaqələrin inkişafında Araz çayı üzərindən körpü tikintisi öz əhəmiyyətini göstərmişdir. Bununla belə, Ermənistan yerüstü əlaqələri olmayan özünün ən böyük tərəfdaşı Rusiyadan daim hərtərəfli yardım alır. Özünü yazıq qismində dünya ictimaiyyətinə təqdim edən ölkə hər il beynəlxalq maliyyə təşkilatlarından da xeyli miqdarda vəsait alır. Ermənistan iqtisadiyyatı çox böyük ölçüdə xaricdəki ermənilərin ölkəyə göndərdiyi yardımlardan və investisiyalardan asılıdır. ABŞ, Aİ, Rusiya hökumətləri, eləcə erməni diasporu hər il Ermənistana yüz milyonlarla dollar yardım edirlər. Təkcə ABŞ dövləti Ermənistana müstəqillik qazandıqdan indiyə kimi 2 milyard ABŞ dollarından çox yardım göstərmişdir.

Ermənistan təbii ehtiyatlardan filizlər nisbətən daha çoxdur. Burada müəyyən miqdar qurğuşun, qızıl, mis, molibden və sink ehtiyatları var. Alüminium, molibden və qızıl istehsalı aparılır. Təcavüzkar ölkə işğal etdiyi Azərbaycanın Kəlbəcər rayonu ərazisində qızıl və digər metallar hasil edir. Bununla yanaşı, Azərbaycanın işğal altında olan torpaqlarınının sərvətlərini də mənimsəyir. Ermənistanda brilliant daşların cilalanması həyata keçirilir. Almaz sənayesi Rusiyadan və başqa ölkələrdən idxal artan dövrdə inkişaf etməyə başlamışdır. Məhsullarının daha iri idxalçısı Belçikadır ki, onun bazarı Ermənistanın bütün ixrac gəlirlərinin 25%-ni təmin edir. Bunadan başqa, Ermənistanda metalkəsən dəzgahlar, press-formaverən avadanlıqlar, dəqiq cihazlar, sintetik rezin, şin, plastik kütlə, kimya lifləri, mineral gübrələr, elektrik mühərrikləri, alətlər, mikroelektronika, zərgərlik əşyaları, ipək parçalar, trikotaj, corab məmulatları, şərab-konyak, proqram təminatı buraxan müəssisələr də fəaliyyət göstərir.

Ermənistanın sübut olunmuş neft ehtiyatları yoxdur. Neftin böyük hissəsi Rusiyadan və İrandan idxal edilir. Ermənistanda 3 İES və bir neçə SES-də vardır ki, burada ölkə üzrə elektrik enerjisinin yarıdan çoxu istehsal olunur. Metsamor AES-in ölkənin elektrik enerjisi istehsalında payı 40%-dən çoxdur. Energetik kompleksi hidroenerjidən savayı tamamilə idxal xammalından asılıdır. Bununla belə, Ermənistanın apardığı təcavüzkar siyasət onu bölgədə həyata keçirilən bütün enerji və nəqliyyat dəhlizlərindən kənara salmışdır. Bu da onun özünün daha çox təcrid olunmasına gətirib çıxarmışdır.

Ölkə ərazisinin 45%-i kənd təsərrüfatı ehtiyaclarına ayrılır, həm də onların yalnız 25%-i becərilir. Otlaqlara 25% pay düşür. Burada əsas kənd təsərrüfatı bitkiləri kimi bostan bitkiləri, kartof, buğda, üzüm, meyvə, efirli bitkilər, şəkər çuğunduru, pambıq, tütün, çay istehsal olunur. Heyvandarlıq ət-süd maldarlığında ixtisaslaşır.

Yeni mərhələdə Ermənistan rəhbərliyi iqtisadiyyatda olan çətinliklərdən çıxış yolu

kimi ölkədəki sənaye müəssisələrini Rusiyaya təhvil verməklə həll etməyə çalışırdı. Rusiya isə bunun qarşılığında Ermənistanın dövlət borcunun bir hissəsini ləğv edirdi. Hazırda Ermənistanın Rusiyanın idarəçiliyinə verilmiş ən iri sənaye infrastruktur müəssisələri aşağıdakılardır:

1. Metsamor Atom Elektrik Stansiyası;
2. Ermənistan Dəmir Yolları Konserni;
3. Razdan İstilik Elektrik Stansiyası;
4. Ermənistanın qazpaylayıcı şəbəkəsi - ArmRosQazprom;
5. İrəvanda Mars Elektronika və Robot Zavodu.

Bundan başqa Ermənistanın Gümrü şəhərində Rusiyanın 5 min kontingentli hərbi bazası vardır. Həmçinin məhdud suverenliyə malik bu ölkənin ordusu Rusiya ilə müştərəkdir və sərhədləri də onun tərəfindən qorunur.

2008-ci ildə dünyada baş vermiş iqtisadi böhran Ermənistan iqtisadiyyatında da yeni dərin tənəzzül yaratdı və ölkədəki bir çox müəssisələr işini dayandırdı, Bu zaman Rusiya Ermənistanın ziyanla işləyən sənaye müəssisələrini borc əvəzində əldə etmək təkliflərindən imtina etdi. Nəticədə ölkədəki bir çox sənaye müəssisələri iflas etməyə başladı.

Ermənistanın apardığı təcavüzkar siyasət, ölkədə baş alıb gedən korrupsiya onun iqtisadiyyatının çökməsinə, nəqliyyat-kommunikasiya infrastrukturunun dağılmasına gətirib çıxarmışdır. Bu səbəbdən sərhədlərin bağlanması onun dəmir yolu xəttlərinin əhəmiyyətinə hədsiz dərəcədə aşağı salmışdır.

Müasir Ermənistanın ərazisində ilk qatar Rusiya imperiyasi zamanlarında - 1899-cü ildə Tiflis-Aleksandropol (*Tiflis: Gürcüstanın paytaxtı Tbilisi şəhəri, Aleksandropol: indiki Ermənistanın Gümri şəhəri*) dəmir yolu xəttinin açılışı ilə gəlmişdir. Sovet İttifaqı dönəmində buradakı dəmir yolları Zaqafqaziya və Azərbaycan dəmir yolları təsisatları tərəfindən idarə olunmuşdur. Yalnız SSRİ dağıldıqdan sonra Ermənistanda dəmir yolları üzrə təşkilat təsis olunmuşdur. Bir neçə il formal mövcudluqdan sonra zərərlə işləməsi ilə bu təşkilat 2008-ci ildə 30 il müddətinə (*20 il istisamardan sonra tərəflərin razılığı ilə daha 10 il müddətinə uzadılmaqla*) "Rusiya dəmir yolları" QSC-yə konsessiyaya verilmişdir. Əslində, burada heç bir gözlənilməz amil axtarmaq gərəkli deyildir. Göründüyü kimi, milli dəmir yolu hesab edilən təsisat, demək olar ki, heç zaman respublikaya aid müstəqil qurumlar tərəfindən idarə edilməmiş və milli dövlətin investisiyalarını da almamışdır. Tender şərtlərinə görə, idarəetməni alan və bu məqsədlə təsis edilən "Rusiya dəmir yolları" QSC-nin törəmə təşkilatı "Cənubi Qafqaz dəmir yolları" Qapalı Səhmdar Cəmiyyəti 570 milyon ABŞ dolları məbləğində investisiya layihəsi ilə burada infrastruktur modernizasiyasını reallaşdıracaqdır. Buna görə o, həm də "Ermənistan dəmir yolları" QSC-nin, pensiyaçılar istisna edilməklə, 4 mindən çox işçisini öz ştat cədvəlinə qəbul edərək onların əmək haqqını 20% artırmışdır. Hazırda Ermənistandakı dəmir yolu xətlərinin uzunluğu 1328,6 km-dir ki, bunun da 780 km-i (*yolun yalnız 2,6%-i iki xətlidir*) əsas yollardır. Lakin digər mənbələrdə bu 869 km

təsbit edilir. Bu yollarda orta hesabla 100-ə qədər elektrik və istilik lokomotivinin, 2 min ədəd yük vaqonunun və 150 sərnişin vaqonunun mövcudluğu qeyd edilir. “Cənubi Qafqaz dəmir yolları” QSC-nin istismar etdiyi xətlərin uzunluğı isə 726 km-ə bərabərdir ki, burada da 75 stansiya xidmətdədir. İllik daşma qabiliyyəti yük üzrə 50 milyon ton, sərnişin üzrə isə 5,5 milyon təşkil edir

Ermənistanın xaricə çıxışı olan başlıca dəmir yolu xətləri Azərbaycanla bağlıdır ki, bunlar da Ermənistanın Azərbaycana təcavüzü nəticəsində qapanmışdır. Erməni mənbələrində bu xətlərin bərpa perspektivinin olmadığı göstərilir. Azərbaycanda isə bu fikir bölüşülmür. Ermənistanın dəmir yolu xətlərinin Türkiyədə çıxışı da bu təcavüzün nəticəsi olaraq 1993-cü ildən bağlıdır. Erməni mənbələrində Azərbaycan istiqamətindən fərqli olaraq bu xəttin açılma perspektivliyi güman edilir. Bununla belə, Ermənistanın dəmir yolu ilə xaricə çıxışı yalnız Şimalda Gürcüstan vasitəsi ilə qalmışdır ki, bu xətlə də gediş-gəlıs intensivliyi olduqca zəifdir. Bu əlaqələrdə sərnişin daşımalarında Batumi ilə fəsli, Tbilisi ilə isə gündəlik olmayan daşımalar mövcuddur.

Ermənistan xaricə çıxış alternativliyini qazanmaq üçün, əsasən, iki istiqamətdə səy göstərir. İlk sırada 2007-ci ildə bəyənilmiş İran İslam Respublikası ilə Ermənistan-İran dəmiryolunun tikintisi layihəsidir. Orta hesabla 500 km uzunluğunda dəmir yolu xəttinin (*420 km Ermənistan, 80 km İran*) çəkiliş layihəsinin investisiya təminatı 2,0 milyard ABŞ dolları həcmində hesablanır. Ermənistan üçün İranla dəmiryolunun ən qısa və bənzəri olmayan əlaqəsi mövcud Naxçıvan istiqamətli xətlə mümkündür. Lakin təcavüzkar siyasət bu ölkəni özününəcridə sövq edir. Digər tərəfdən, bu layihənin reallaşması maliyyəsi Ermənistanın hazırkı dövlət büdcəsi bərabərindədir ki, bu da onun daxili potensialı xaricindədir. Eyni zamanda, pulların tapıldığı halda belə bu dəmiryolu, xəttini ən yaxşı halda, 5-7 ilə inşa etmək mümkün ola bilir. Burada iqtisadi amil də yaddan çıxarılmamalıdır. Belə ki, hazırda iki ölkə arasında ticarət dövriyyəsi orta hesabla 300-350 milyon ABŞ dolları təşkil edir və İran beynəlxalq birliyin embarqoları ilə üzləşən ölkələrin ön sırasındadır. Bu baxımdan, onun ixrac əlaqələri dəstək almır. Ticarət dövriyyəsinin strukturuna baxdıqda və həmçinin, bu sırada Ermənistanın istehsal və ixrac potensialı dövriyyəyə gətirildikdə isə səhnədən iqtisadi amilin çıxdığı aydınlığı ilə görünür.

Ermənistan dəmiryolu ilə Türkiyə səmtində xaricə çıxışında mövcud olmuş Qars-Gümrü dəmiryolu xətti dayanır. Bu dəmiryolu Rusiya-Türkiyə müharibəsində (*1878-1917-ci illər*) cəbhəni hərbi məhsulla təmin etmək məqsədi ilə ruslar tərəfindən inşa edilmişdir. Qars müqaviləsinə (*1922-ci il*) görə, dəmiryolunun əksər hissəsi Türkiyədə qalmışdır. Sonradan Türkiyə tərəfi dəmir yolunu rekonstruksiya edərək onun ölçülərini (*dəmiryolu izi*) 1520 mm-dən 1435 mm-ə dəyişmişdir.

Qars-Gümri dəmir yolu xəttinin uzunluğu 80 km-dir (*Qarsdan sərhəddə 66 km, Gümridən sərhəddə 14 km*). Dövlət sərhədi baxımından Gürcüstan sərhədindən Qarsa olan 76 km-dən 10 km azdır (*sərhəd dəmir yolu məntəqələri: Türkiyə - Akyaka, Ermənistan - Ahuryan*). Türkiyə-Ermənistan sərhədinin ümumi uzunluğu 325 km-dir

və iki ölkə arasındakı dəmir yolu keçidini Araz çayı üzərində uzunluğu 18 metr olan körpü ayırır. "Akyaka dəmiryolu sərhəd qapısı" öncə "Kızılçakçak qapısı" adlandırılmış və daha çox "Şərq qapısı" adı ilə tanınmaqdadır. Ermənistan tərəfi isə onu "Ahuryan qapısı" adlandırır.

Qars-Gümrü dəmiryolu xətti uzun illər bağlı olmuş və yalnız 11 oktyabr 1961-ci ildən SSRİ ilə Türkiyə arasında sazişə görə yenidən istifadəyə açılmışdır. SSRİ dövləti dağıldıqdan sonra Qara dənizə çıxışı olmayan Ermənistan 1992-ci il iyunun 25-də QDİƏT-ə müşahidəçi üzv kimi dəvət edilmiş və həmin il Qars-Gümrü dəmiryolu xətti yenidən açılmışdır. Azərbaycanın Kəlbəcər rayonunun işğalı ilə əlaqədar Türkiyə 5 aprel 1993-cü ildə Ermənistana keçən bütün humanitar yardımların dayandırıldığını, icazəsiz keçmək istəyən təyyarələri vuracaqlarını açıqlamış və bunun ardınca Ermənistanla arasındakı dəmiryolunu da bağlamışdır. Ərazidən axırıncı yük qatarı 6 iyul 1993-cü ildə keçmişdir.

Amerika Erməni Beynəlxalq Komitəsinin açıqlamasına görə, sərhəd qapıları açılacağı təqdirdə Ermənistanın nəqliyyat xərclərinin 30-50% azalacağı, ixracatın ikiqat artacağı, ÜDM-in 35% artacağı proqnozlaşdırılır. DB-nin məlumatlarına görə, sərhəd qapılarının açılması Ermənistana ümumilikdə 320,3-395,8 milyon ABŞ dolları fayda verə bilər. Lakin reallıq belədir ki, Ermənistanın apardığı təcavüzkar siyasət onu bölgədə həyata keçirilən bütün enerji və nəqliyyat dəhlizlərindən kənarda qoymuşdur. Bu da onun daha çox təcrid olunmasına gətirib çıxarmışdır.

Azərbaycan, Türkiyə və Gürcüstan bölgədə daha çox inkişaf etdikcə və böyüdükcə, Ermənistan bu proseslərdən daha çox kənarda qalmalı olur. Bütün bu amillər perspektivdə Ermənistanın məhdud suverenliyini də təhlükəli miqyasda Rusiyaya təhvil verməsi ilə sonunclanacaqdır. Onsuz da hazırda bu ölkənin iqtisadiyyatının əksər hissəsi bu və ya digər dərəcədə Rusiya dövləti və onun şirkətləri tərəfindən idarə olunur. Siyasi ssenari də Ermənistanın Rusiyanın Kaliningrad nümunəsində yeni bir quberniyasının olması xətti ilə irəliləyir. İstər tam əks ssenaridə, istərsə də pozitivliyin bütün hallarında Ermənistan üçün daha böyük iqtisadi perspektivlik bu ölkənin təcvüzkar siyasətdən, yanlış addım və amallardan çəkilməsi şəraitində Azərbaycanla qapadığı bütün kommunikasiyaların bərpası ilə mümkün olacaqdır.

Aşağıda Azərbaycan, Gürcüstan və Ermənistanın sosial-iqtisadi mövqelərini xarakterizə edən silsilə reytinq cədvəllər verilmişdir:

| **Ölkələr** | **Əhali** (*milyon nəfər*) | **Xüsusi çəkisi** (*%*) |
|---|---|---|
| **Azərbaycan** | **10** | **58,4%** |
| Gürcüstan | 4,1 | 24,0% |
| Ermənistan | 3 | 17,6% |
| ***Cəmi - Cənubi Qafqaz*** | **17,1** | **100,0%** |

**Cədvəl 7. Əhali sayına görə Azərbaycanın Cənubi Qafqaz ölkələri arasındakı reytinqi (*2018*)**

Göründüyü kimi, əhalisinin sayına görə Azərbaycan Cənubi Qafqaz ölkələri arasında birinci sırada dayanır. Belə ki, Azərbaycan əhalisinin sayı Gürcüstan və Ermənistan əhalisinin cəmindən də çoxdur və Cənubi Qafqazda yaşayan əhalinin *58,4%-i* Azərbaycan vətəndaşlarıdır.

| **Ölkələr** | **ÜDM** (*milyon $*) | | **Xüsusi çəkisi** (*%*) | | **Adambaşına ÜDM** (*min $*) | |
|---|---|---|---|---|---|---|
| | ***nominal*** | ***paritet*** | ***nominal*** | ***paritet*** | ***nominal*** | ***paritet*** |
| **Azərbaycan** | **40,8** | **107,5** | **62,5** | **61,3** | **4,2** | **15,2** |
| Gürcüstan | 14 | 39,7 | 21,5 | 22,6 | 3,8 | 10,7 |
| Ermənistan | 10,5 | 28,3 | 16 | 16,1 | 3,5 | 9,4 |
| ***Cəmi - Cənubi Qafqaz*** | **65,3** | **175,5** | **100** | **100** | **x** | **x** |

**Cədvəl 8. ÜDM göstəricisinə görə Azərbaycanın Cənubi Qafqaz ölkələri arasındakı reytinqi (*2017*)**

Cənubi Qafqaz bölgəsindəki ən böyük iqtisadiyyat Azərbaycana məxsusdur. ÜDM həcminə görə Azərbaycan Cənubi Qafqazda birinci sıradadır. Azərbaycanın ÜDM istehsalı Gürcüstan və Ermənistan ÜDM istehsallarının cəmindən orta hesabla 1,6 dəfə çoxdur. Eyni zamanda, adambaşına ÜDM istehsalı baxımından Azərbaycan Cənubi Qafqaz ölkələri arasında birinci sıradadır və bu göstəriciyə görə onun mövqeyi Ermənistan və Gürcüstanın müvafiq göstəricisindən orta hesabla 1,4 dəfə yüksəkdir. Azərbaycan, həmçinin, bu göstəricilər üzrə Cənubi Qafqaz ölkələrinin orta səviyyəsindən də yüksəkdə dayanır.

## 6.12. Xəzər hövzəsi regionu ölkələrinin iqtisadiyyatlarının xüsusiyyətləri

Xəzər hövzəsi regionu (*Caspian region*) ölkələri Xəzər dənizi sahillərində yerləşən 5 dövləti - Rusiya, Qazaxıstan, Türkmənistan, İran və Azərbaycanı əhatə edir. Bu region son illlər ərzində diplomatik təcrübədə Xəzər hövzəsi regionu kimi təsbitini tapır. Xəzər hövzəsi regionu vahid geosiyasi məkan kimi çıxış etmir. Belə ki, Xəzər dənizində Avropa və Asiyanın bir sıra müvafiq makroregionları qovuşurlar. Xəzər hövzəsi regionu Xəzər dənizi ilə bağlıdır. Buna görə də regionu təmsil edən ölkələrin iqtisadi xüsusiyyətlərini verməzdən öncə Xəzər dənizinin özü haqqında təsəvvürləri möhkəmləndirmək gərəklidir.

Avrasiya kontinentində - Avropa ilə Asiyanın qovuşduğu məkanda yerləşən Xəzər dünyada ən böyük qapalı su hövzəsidir. Ölçüsünə, geoloji xarakterinə və inkişaf

tarixinə görə dəniz hesab edilir. Tarixi mənbələrdə və ədəbiyyatlarda Xəzər dənizinin çoxsaylı adlarına - Kirkan, Gürgan, Kaspi, Abeskun, Xarəzm, Bakı, Dərbənd, Şirvan, Mazandaran, Şaray, Şi Hay, Xvalın və s. rast gəlinir. Bunlardan hazırda Xəzər və Kaspi adları daha çox işlədiləndir. Coğrafi parametrlərinə görə o, 37-47-ci şimal enlikləri və 47-55-ci şərq uzunluqları arasında mövqe tutur. Dəniz səviyyəsindən 28 metr aşağıda qərar tutan Xəzərin ümumi sahəsi təxminən 371 min $km^2$, uzunluğu (*şimaldan-cənuba*) 1205 km, eni isə (*qərbdən-şərqə*) 195 km-dən 435 km-dəkdir (*ortalama 310-320 km*). Suyunun ümumi həcmi 78,2 min $km^3$ olub, sahil xəttinin uzunluğu 6,5-6,7 min km, adalarla (*təxminən 200-dək*) birlikdə 7 min km-ə yaxındır. Burada ən dərin yer 1025 metr, orta dərinlik isə 208 metrdir. Relyefinə və hidroloji xüsusiyyətlərinə görə Xəzər dənizi Şimali Xəzər (*dərinliyi 25 m-dək*), Orta Xəzər (*Dərbənd çökəkliyində dərinliyi 788 m-dək*) və Cənubi Xəzər (*dərinliyi 1025 m-dək*) olmaqla üç hissəyə bölünür. Orta Xəzərin Şimali Xəzərlə təbii sərhədi Manqışlaq astanası, Cənubi Xəzərlə təbii sərhədi isə Abşeron astanası boyunca keçir. Tarixi, arxeoloji, geoloji araşdırmalar göstərir ki, Xəzər dənizi Üst Miosenə qədər Qara dənizlə əlaqədə olmuşdur. Sonra bu əlaqə kəsilmiş, Xəzər dənizi qapalı su hövzəsinə çevrilmişdir. Üst Pliosendə (*Akçaqıl əsrində*) okeanla yenidən birləşmişdir. Xəzərin Baltik dənizinə də çıxışları olmuşdur. Məşhur norveçli dəniz səyyahı, alim-antropoloq Tur Heyerdal (*1914-2002*) da Xəzər dənizinin Baltik dənizinə çıxışları ilə bağlı fikirlər səsləndirmişdir. Ümumiyyətlə, Xəzər dənizi qədim dövrdə okeanla birləşmiş, Aralıq, Qara və Azov dənizləri ilə birlikdə Para Tetis dənizinin tərkibində olmuşdur. Xəzər dənizinin əlahiddə su hövzəsi kimi yaşı 3-5 milyon il hesab edilir. Hazırda Xəzər dənizi Qara dənizlə süni yaradılmış Volqa-Don kanalı, Baltik dənizi ilə isə Volqa-Baltik su yolu vasitəsilə birləşmişdir.

Xəzərin suyu okean mənşəlidir. Unikal və zəngin bioloji variativliyə malik bu suyun orta duzluluğu okean suyunun orta duzluğundan təxminən 3 dəfə az - 12,85% (*promil*) təşkil edir. Aşağı duzluluq dənizin qapalı və çay axımlarının böyük olması ilə əlaqələndirilir. Xəzər suyunda okean sularına nisbətən karbonat və sulfatların miqdarı çox, xloridlərin miqdarı isə azdır.

Xəzər dənizinin iqlimi şimal hissədə kontenintal, mərkəzdə orta, çənubda subtropikdir. Qışda havanın temperaturu şimalda - 8... - 10, yayda cənubda + 26...+ 27 dərəcə dəyişir. Maksimal istilik + 44 dərəcə qeydə alınmışdır.

Dəniz suyunun səth temperaturu Şimali və Orta Xəzərdə 24-24°C, Cənubi Xəzərdə isə 25-28°C-yə bərabər olur. Yay mövsümündə dənizin orta hissəsində mənfi temperatur anomaliyaları da müşahidə edilir. Dənizin dayaz şimal hissəsi hər il donur. Sərt qışda Şimali Xəzərin bütün səthi, mülayim qışda isə 3 m izobata (*su hövzələrinin dərinliyinin bərabər ölçülü xətləri*) qədər olan əraziləri donur. Burada ən böyük buz qatı yanvar-fevral aylarında (*sərt qışda sal buzun qalınlığı 70-90 sm, mülayim qışda 35-40 sm*) müşahidə edilir. Cənubi Xəzərdə isə çox nadir hallarda buz yaranır. Dənizdə buzların yaşama müddəti - normal qış mövsümlərində Şimali Xəzərin dayaz sahil zonalarında 60-140 gün, açıq dəniz rayonlarında isə 10-40 gündür.

Xəzər həm də Yer kürəsinin küləkli və dalğalı dənizələrindən sayılır. Statistik

təqdimatlara görə, dənizdə ildə 250 gün qasırğalı külək müşahidə edilir. Burada ən böyük dalğalar 8 m-ə qədər yüksəlir.

Xəzərə 130-dan çox çay tökülür. Onlardan ən böyükləri sırasında Volqa, Kür, Emba, Ural, Terek, Sulak, Samur, Səfidrud və Kürkan çayları yer alır. Onlardan yalnız doqquzunun mənsəbi delta xarakterlidir. Volqa Xəzərə tökülən ən böyük çaydır və onun uzunluğu 3531 km, çoxillik orta axımı 251-254 km$^3$-dir. Xəzərin şərq sahillərində hidroqrafik şəbəkə yox dərəcəsindədir. Qazaxıstan ərazisindən Ural və Emba çayları, Türkmənistandan isə yeganə daimi su axarı Atrek çayı axır. Türkmənistan sahilində Xəzər dənizinin ən nəhəng körfəzi - Qaraboğazgöl yerləşir. Bu körfəz-göl xüsusi maraq kəsb edir. Sahəsi 25 min km$^2$-ə yaxın olan Qaraboğazgöl dənizin səviyyəsindən asılılıqda hüdudlarını dövri olaraq dəyişir və onu dənizlə eni 110-300 m və uzunluğu 8-10,5 km olan dar boğaz birləşdirir. Körfəzin səviyyəsi Xəzər dənizinin səviyyəsindən daim dəyişkən olaraq 2-6 metr aşağıdır. Belə vəziyyət isə dənizlə göl arasında unikal təmas - dünyada yeganə olan dəniz şəlaləsi yaratmışdır.

Xəzər dənizi və onun ətraf zonası təbii resurslar baxımından çox zəngindir. Dənizin özü də təkrarsız və qiymətsiz olan bioloji resurslarla möhtəşəmdir. Ümumilikdə, Xəzər dənizində 1809 növ və yarımnöv heyvan yaşayır. Burada yüzdən çox balıq növü - 45 mm uzunluqda olan hirkanobus xul balığından tutmuş uzunluğu bəzən 5-7 metrə çatan nəhəng bölgə (*huso huso*) balığına rast gəlinir. Xəzər həm də dünya ehtiyatı və genofondunun əsasını təşkil edən nərə (*acipenseridae*) balıqlarının (*dünya balıq hasilatının 90%-i*) cəmləşdiyi başlıca qlobal su hövzəsidir. Çapaq, siyənək, somğa, Dunay gümüşçəsi və s. balıqlar daxil olmaqla, ümumiyyətlə, burada 111 balıq növü mövcuddur. Xəzər dənizi həmçinin çəki, sudak kimi qiymətli şirin su balıqlarının ehtiyatına görə aparıcı yerlərdən birini tutur. Kütüm, kefal, leş, kilkə, karp, xanı, qızıl balıq, durna balığı və s. ölkədə balıqçılıq ticarətinin əsasını təşkil edir. Burada üçüncü dövr sarmat və pont dənizləri vaxtının faunası saxlanmışdır və Xəzər suitisi burada yeganə məməli su heyvanıdır. Onların populyasiyasını artırmaq üçün Azərbaycan Respublikası ərazisində Abşeron Milli Parkı yaradılmışdır.

Xəzər Avropa, Asiya və Yaxın Şərq arasında dəniz quşlarının köç etməsinin əsas marşrutlarından biridir. Onun sahilləri, körfəzləri, kiçik adaları, gölməçələri, bataqlıq sahələri buralarda daimi yaşayan, miqrasiya edən və qışlayan quşlar üçün olduqca əlverişlidir. Miqrasiya zamanı hər il regiondan 12 milyona qədər quş uçub keçir, 5 milyon quş isə burada qışlayır.

Xəzərin florası da zəngindir. Miosen dövründən məlum olan bu dəniz florası 755 növ və yarımnövdən ibarətdir ki, onun da 5 növü ali bitkilərdir. Çayların aşağı axarı və dənizin dayaz hissələri su bataqlıq quşları üçün qiymətli yem və yuvaqurma yerləridir. Ramsar konvensiyasına əsasən, onların mühafizəsi üçün Xəzərin sahil zonasında üç qoruq: Azərbaycanda - Qızılağac, Rusiyada - Həştərxan, Türkmənistanda - Xəzər qoruqları yaradılmışdır.

Xəzər dənizi özünün sahil zonasındakı təbii mühiti ilə də fərqlənir. Bol günəş radiasiyası, narın qumlu və bəzən meşə zolaqlı çimərliklər, ətraf ərazidəki mineral sular

və müalicəvi palçıqlar burada istirahət və rekreasiya üçün geniş imkanlar yaradaraq ona digər anoloji dənizlərlə müqayisədə bir sıra üstünlüklər gətirir.

Xəzər dənizinin dibində bol neft, qaz, kimyəvi xammal yataqları vardır. Burada Abşeron və Bakı arxipelaqları akvatoriyalarında tarixən neft və qaz resursları hasil olunmuşdur. İndi isə hasilat zonası bu və ya digər dərəcədə bütün digər Xəzəryanı ölkələri də əhatə edir. Burada ehtimal olunan ehtiyatlar 100 milyard barrel və ya 25-30 milyard ton miqyasında hesablanır ki, bu da Şimal dənizi və Fars körfəzi nisbətində aralıq bir göstəricidir. Bunlardan 10 milyard ton karbohidrogenin aşkarlanması isə artıq kəşfiyyat təsdiqini almışdır.

Region, həmçinin, digər mineral ehtiyatlardan tikinti daşları ilə, o cümlədən bəzək daşlarının qiymətli növləri və müxtəlif duzlarla zəngindir.

Xəzər həm də mühüm nəqliyyat-logistika əhəmiyyətinə malikdir. O, Qədim İpək yolunun əsas arteriyası üzərində qərar tutmuşdur. Dənizin şərq və qərbini bərə keçidləri birləşdirir. Xəzər dənizində, ümumilikdə, 12 böyük liman mövcuddur. Əsas limanları Bakı, Aktau, Türkmənbaşı, Həştərxan, Mahaçqala, Atırau, Bəndər-Ənzəli, Nouşəhrdir. Bu sırada ən böyük liman şəhəri regionun əsas logistik mərkəzi Bakıdır.

Bütün effektləri ilə yanaşı Xəzər dənizi həm də bir sıra problemlərin də əhatəsindədir. Bu sırada təbii, ekoloji və həmçinin hüquqi problemlər (*Xəzərin hüquqi statusu*) də mövcuddur.

Hazırda Xəzərdə çətin ekoloji durum yaşanır və bu dənizin şelf zonasının çirklənməsi ilə daha kəskindir. Bəzi yerlərdə ölü zonalar yaranmış və çirkləndiricilərin qiyməti normanı 10-20 dəfə ötmüşdür. Çirklənmə mənbələri olaraq ilk sırda Xəzərə axan çaylar dayanır. Onlar vasitəsi ilə Xəzərə ildə 75 milyon ton neft məhsulları gətirilir ki, bunun da əksər hissəsi (*95%*) Volqa çayının payına düşür. Bununla belə, Xəzərətrafı ölkələr arasında dənizin mühafizəsi üçün yekdil saziş olmadığından brakonyerlik vüsət almışıdır. Çirklənmənin və brakonyerliyin artması və həmçinin, Xəzər ətrafındakı balıqartırma zavodlarının əvvəlki güclə işləməməsi dənizdə bir çox növlərin, xüsusən də, nərə balığının ehtiyatının tükənməsi problemini yaratmışdır.




**Şəkil 5. Xəzər dənizində yerləşən limanlar**

Xəzər dənizi səviyyəsinin dəyişməsi də onun əsas problemləri sırasındadır. Belə ki, bu dəyişmə sahil zonasında sosial-iqtisadi və ekoloji çətinliklərlə müşayiət olunur. Bundan başqa, o da vurğulanmalıdır ki, Xəzər dənizi olduqca seysmoaktiv regionda yerləşmişdir. Burada tez-tez baş verən zəlzələlər təbii və sosioloji fəsadlara yol açır.

Danılmaz ekoloji problemlə yanaşı status problemi də kəskinliyi ilə fəqlənir. Əslində, bu problemlər yanaşı addımlayır. Belə ki, Xəzərdə başlıca ekoloji problemlərin həlli onun statusunun qəti müəyyən edilməsi ilə optimallaşacaqdır.

Xəzərin hüquqi problemlərinin əsasında onun satusu məsələsi dayanır. Əvvəllər iki dövlətin sərhədlərində yerləşən Xəzər 1991-ci ildə SSRİ-nin dağılması ilə hazırda beş müstəqil dövləti - Azərbaycan, Rusiya, Qazaxıstan, Türkmənistan və İranı əhatəsinə almışdır. Bu reallıq isə, öz növbəsində, onun statusu ilə bağlı yeni geosiyasi vəziyyət yaratmışdır. Xəzərətrafı ölkələrin mövqe müxtəlifliyindən problem hələ də həll olunmamış qalır. Bu gün Xəzər dənizi geosiyasətində əsas fikir ayrılığı onun hansı prinsiplə bölünməsidir. Xəzər dənizinin bölünməsi problemi (*the problem is the division of the Caspian Sea*) Xəzər dənizinin okean, göl və ya yeni prinsip üzrə bölünməsi ilə əlaqədar onun əlahiddə statusunun müəyyənləşdirilməsi problemidir.

Bu məsələnin nəzəri və təcrübi reallıqlar baxımından dəyələndirilməsinə ehtiyac vardır. Yəni əvvəlcə dəniz və gölün xüsusi cəhətləri, onların mahiyyətinin kəsişən məqamları və fərqlilikləri bir araya gətrilib qiymətləndirilməlidir. Enskilopedik və elmi ədəbiyyatlarda dəniz və gölün mahiyyəti ilə bağlı ümumiləşən xüsusiyyətlər yetərincədir. Belə ki, bu sferada dəniz dünya okeanın bir hissəsi, struktur vahidi olaraq dəyərləndirilir.

Dənizin (*sea*) əsas xüsusiyyəti iri ölçülü su hövzəsi kimi okeanın ucqarlarında yerləşməsi və okeanla bir və ya bir neçə boğazla birləşmiş olmasıdır. Dənizlər qismən quru və qismən də sualtı relyef yüksəklikləri (*astanalar*) ilə ayrılırlar. Onlar, başlıca olaraq, hidroloji rejiminə görə okeanın açıq hissəsindən fərqlənir. Dənizlərin yaranışı bütün hallarda təbiidir və bir qayda olaraq, onların suyu duzludur. Dənizlər həm də daxili, kənar, materiklərarası və adalararası kimi təsnifata da məruz qalırlar. Daxili dənizlər materikin quru hissəsinin üzərində yerləşir və bir qayda olaraq, onlar dünya okeanı ilə bir və ya bir neçə körfəz vasitəsi ilə birləşirlər. Kənar dənizlər daxili dənizlərdən materikin içərisində deyil, onun kənarında olması və okeanla birbaşa və ya adalarla birləşməsi xüsusiyyətinə görə fərqlənirlər. Materiklərarası dənizlər isə materiklər arasında yerləşir. Nəhəng adalar arasında qərar tutan dənizlər adalararası dənizlər adlandırılır. Dənizlər arasında materiklərlə birbaşa sahili olmayan, okean daxilində (*Atlantik okeanda Sarqas dənizi*) yerləşənlərə də rast gəlinir. Müvafiq ədəbiyyatlarda həm də dünya okeanından tam təcrid edilmiş nəhəng su hövzələrinin, təbii ki, göllərin dəniz adlandırılması təcrübəsi də yer alır. Bu sırada ən nəhəg su hövzəsi kimi Xəzər dənizi göstərilir.

Göl (*lake*) materikin quru hissəsi üzərində yerləşən, tam quru sahillərə malik qapalı və həmçinin, dənizlər və Dünya okeanı ilə bir başa əlaqəsi olmayan su hövzəsidir. Göllər geoloji baxımdan nisbətən yaxın keçmişdə, son bir neçə on min illər ərzində yaranmışlar. Bununla belə, təkrarolunmaz Baykal kimi bəzi göllərin yaşı milyon illərlə

hesablanır. Göllərin suyu, əsasən, şirin olsa da, şor sulu olanları da az deyildir. Gölləri, əsasən, tektonik, vulkanik, süni, şirin və düzlu olması əlamətlərinə görə fərqləndirirlər. Tektonik göllərin yaranışı tektonik plitələrin sınıqları ilə şərtlidir (*Baykal gölü*). Tektonik göllər sırasında reliktiv (*qalıq*) olanları da vardır. Belə göllərin hövzəsi əvvələr şor dəniz suyu ilə dolmuş, lakin atmosfer çöküntülərinin təsiri ilə şirin olmuşlar (*Ladoqa gölü*). Vulkanik göllər, mahiyyətcə, vulkan kraterinin su ilə dolması ilə bağlıdır. Buzlaqların yaratdığı göllər də mövcuddur. Göllər düz yataqları sahələrində yer altında da olurlar. Onlar, həmçinin, axını olanlar və axını olmayanlara da təsnifatlanırlar. Axını olanlardan çaylar başlanğıc alır. Axını olmayanların suyunda həll olunmuş duzların miqdarı çox olur. Duzlu göllərdə, bir qayda olaraq, duzluluq 47%-ə qədərdir. Bundan başqa, su elektrik stansiyaları, meliorasiya, irriqasiya, içməli su anbarı və s. kimi sünü yaradılmış göllər də vardır. Dünyanın ən böyük gölü Xəzər dənizidir. O, məhz böyük olduğu üçün dəniz adlanır. Onun sahəsi dünyadakı bütün göllərin ümumi sahəsinin 44%-nə bərabərdir.

Xəzərə dəniz və ya göl münasibətlərinin də tarixi qədimdir. Xəzər haqqında xatırlatmalara üç min il öncə zərdüştlüyün müqqədəs kitabı Avestada rast gəlinir. Belə xatırlatmalar, həmçinin, assuriyalıların gil kitabələrində (*b.e.ə. VIII-VII*) onun "Böyük Şərq Dənizi" kimi adlandırılması ilə də öz əksini tapmışdır.

Xəzərdən ilk dəfə antik yunan coğrafiyaşünası və tarixçisi Hekatey Miletli (*b.e.ə. 546-480-cı illər*) bəhs etmiş, onu okean körfəzi və Hirkan (*farsca - qurdlar ölkəsi*) dənizi adlandırmışdır. Hekateyin həmyerlisi, digər qədim yunan filosofu Anaksimandr Miletlinin (*b.e.ə. 610-575/540-ci illər*) məşhur dünya xəritəsini yenidən işləyərək orada Xəzəri əks etdirmişdir. Bu istiqamətdə tədqiqatları olan sovet tarixçisi Lev Yelnski (*1907-1979*) həmin yanaşmaları təhlil edərək belə nəticəyə gəlmişdir ki, Hekatey Aralıq dənizi istisna olmaqla bütün digərlərini, o cümlədən Xəzəri qapalı hesab etmişdir. Lakin tarixin atası adlandırılan məşhur antik yunan tarixçısi Herodot bir dəniz haqqında baxışın mexaniki olaraq digərinə tətbiq edilməsinə qarşı çıxmış və Xəzərin digər dənizlə əlaqəsi olmadığını göstərmişdir. Herodot tərtib etdiyi dünya xəritəsində bu reallığın təsbitini vermiş, Qırmızı və Ərəbistan dənizlərinin isə, sələflərindən fərqli olaraq, əlahiddə okeanla əlaqəliliyini göstərmişdir.

Fars şahı, Əhəminilər dövlətini b.e.ə. 522-486-cı illərdə idarə etmiş I Dara (*b.e.ə. 550-486*) Xəzər dənizini tədqiq etməyə göstəriş vermiş və aparılan araşdırmalarla onun qapalı dəniz olması müəyyən edilmişdir.

Antik dövrdə Xəzərin qapalı hövzə olmasını məşhur yunan filosofu Arisotel (*b.e.ə. 384-322*) də müdafiə etmişdir. O, həm də Xəzərin Qara dənizlə yeraltı əlaqəsinin olması fikrini irəli sürmüşdür.

Şərqə qlobal yürüş keçirən Makedoniyalı İsgəndəri (*b.e.ə. 356-323*) də Xəzərin okeanla əlaqəliliyi maraqlandırmış və o, dənizin tədqiqi ilə bağlı bir ekspedisiyanın təşkili üzrə qərar vermişdir. Lakin reallıqda bu ona müəyəssər olmamışdır. İsgəndərin ölümündən bir neçə onillik sonra onun mühafizəçisi, Ellin dövlətlərindən birinin çarı olmuş Selevek I Nikator (*b.e.ə. 358-281*) bu tədqiqatların əsaslı olaraq davam

etdirilməsi haqqında göstəriş vermişdir. B.e.ə. 285-282-ci illərdə makedoniyalı Patrokl da müvafiq tədqiqatlar aparmış və Xəzərin şimaldan boğaz vasitəsi ilə okeana qovuşması nəticəsinə gəlmişdir. Bu səhvi antik yunan riyaziyyatçısı, astronom, şair və coğrafiyaşünas Eratosfen Kirenski (*b.e.ə. 276-194-cı illər*) və antik yunan tarixçisi və coğrafiyaşünas Strabon (*b.e.ə. 64/63-24/24-cı illər*) təkrarlayaraq, özlərinin tərtib etdikləri dünya xəritəsində Xəzəri okean sahilində, onunla birbaşa əlaqəlikdə körfəz dəniz kimi təsvir etmişlər. Eyni baxışları erkən Roma coğrafiyaşünası Pomponiy Mela (*15-60*) da bölüşmüşdür. Bizim eranın əvvəlində yaşamış məşhur iskəndəriyyəli riyaziyyatçısı, astronom və coğrafiyaşünas Klavdiy Ptolomey (*100-170*) isə bütün bunlara zidd olaraq, Heredot kimi, Xəzəri qapalı su hövzəsi hesab etmişdir. Xəzəri heç zaman görməyən Klavdiy Ptolomey onu oval şəkilli təsvir edərək bu məsələdə okeanla əlaqəlik baxışına birdəfəlik son qoymuşdur.

Xəzər orta əsrlərdə Osmanlı imperiyasının maraqlarına da tuş gəlmişdir. Bu da təbii idi. Belə ki, XVI əsrin ortalarında Osmanlı dövləti Şimali Qafqaza soxulmağa çalışan Moskva knyazı IV İvanın cəhdlərinin qarşısını almaq, Həştərxan və Kazan xanlıqlarını bərpa etmək, Volqaboyunda möhkəmlənmək əzmində idi. Bunun üçün üç Osmanlı sultanının vəziri olmuş Sokullu Məmməd Paşa (*1505-1575*) Don və Volqa çayları arasında kanal çəkilməsi ilə Qara dənizlə Xəzərin birləşdirilməsi layihəsini planlaşdırmışdı. Lakin Osmanlı ordusunun 1569-cu ildə Volqaboyuna yürüşünün uğursuz olması bu planı gerçəkləşdirməyə imkan verməmişdir.

XVIII əsrin əvvəlindən başlayaraq Xəzər daha çox rus imperatorluğunun təsir dairəsinə düşməkdə idi. Bundan irəli gələrək Rusiya Xəzərin coğrafi öyrənilməsinə başlamışdı. Bu tədqiqatlar isə, əksərən, hərbi əməliyyatlarla müşayiət olunurdu. Rus çarı I Pyotr xəritə tərtib edilməklə məlumat almışdı ki, Amu-Dərya çayı Xəzərə axır və orada qızıl dolu mədənlər vardır. Bundan başqa, Xəzərdən keçməklə bu çay vasitəsi ilə Hindistana yetişmək mümkündür. Bütün bunları öyrənmək və qətiləşdirmək məqsədilə o, 1714-cü ildə müvafiq ekspedisiya da təşkil etmişdi. Yerli türkmənlərin məlumatlarından belə nəticəyə gəlinmişdi ki, Amu-Dərya, həqiqətən, əvvəllər Xəzərə qovuşmuş, lakin hazırda o, Aral dənizinə tökülməkdədir. I Pyotr bu məlumatlar əsasında elçisinə Xivə və Buxara xanları ilə danışıqlar aparmaqla ticarət və diplomatik münasibətlər qurmaq və həmçinin, ticarəti yüngülləşdirmək üçün Amu-Dəryanın yenidən köhnə yatağı üzrə Xəzərə yönəldilməsi imkanlarını araşdırmaq tapşırığı vermişdi. Bu ərəfədə Xəzərin daha dəqiq xəritələrinin hazırlanması üçün çar həm də bölgəyə yeni ekspedisiyalar göndərmiş və bunların nəticəsi olaraq, dənizin müvafiq xəritələri hazırlanmışdır.

Xəzər üzrə tədqiqatlar SSRİ dövründə daha geniş və mükəmməl xarakter almışdır. Məşhur rus neft geoloqu İ.M.Qubkin (*1871-1939*) və başqaları Sovet İttifaqının yaranışının ilk onilliyində Xəzərdə neft axtarışları ilə bağlı onun su balansının və dəniz səviyyəsinin dəyişkənliyinin öyrənilməsi üzrə tədqiqatlar yerinə yetirmişlər. Yaşadığımız müasir dövrdə isə Xəzərlə bağlı bütün lazımi əksər cizgilər məlum olmuş və onun kosmik şəkillər vasitəsi ilə dəqiq təsvirləri əldə edilmişdir.

Bütün bunları əsas götürərək dəniz və göl fərqliliklər üzrə təhlili qiymətləndirmələr əsasında aşağıdakı nəticəvi təyinatları müəyyən etmək olar:

I. Dənizlərin yaranışı həmişə təbii və qədimdir, göllər isə süni ola bilər.
II. Dənizlər Dünya okeanın bir hissəsidir, göllər isə materik sularına aiddir.
III. Dənizin quru sərhədləri açıq və qurudur, göllər isə həmişə quru ərazilərlə məh dudlaşır.
IV. Dənizlər ən kiçik istisnalarla bütün dünya göllərindən ölçü baxımından geniş sahəvidirlər.
V. Dənizin suyu şordur, göllər işə nadir hallarda duzlu olmalarına baxmayaraq mütləq əksəriyyətlə şirin suludurlar.

Müəyyən edilən bu təyinatı Xəzərə şamil etdikdə görərik ki, o, iki meyarda (*I və V*) qəti dəniz təyinatlıdır. İki meyar üzrə (*II və III*) isə qəti göldür. Bir meyar üzrə isə (*IV*) - ölçülərin nəhəngliyi baxımından ən iri sahəli və sututumlu nadir göldür. Bütün bu coğrafi əlamətlər üzrə müvafiq ümumiləşdirmələr apardıqda müəyyən etmək olar ki, Xəzərin dəniz və ya göl olması qəti təyinatlı deyildir. Buna görə də onun status məsələsinə tamılıqla coğrafi meyarlarla deyil, digər aspektlərdən də yanaşılmalıdır.

SSRİ-nin dağılması ilə Xəzərsahili dövlətlərin sayının ikidən beşə yüksəlməsi Xəzərin beynəlxalq-hüquqi statusuna (*the international legal status of the Caspian Sea*) yenidən baxılmasını zəruri etdi. Belə ki, yaranmış geosiyasi situasiya Xəzərdən istifadədə sahilyanı dövlətlərin hüquqlarının nədən ibarət olması, su səthi, dibi və orada olan təbii ehtiyatlar, bu ehtiyatlarını ölkələr arasında bölünüb-bölünməməsi və bütün bunların hansı əsasda həyata keçirilməsi kimi çoxsaylı mürəkkəb sualları qarşıya qoydu. Ümumiyyətlə isə bu məsələ tarixin bir çox dönəmlərində ara-sıra özünü biruzə vermişdir. Rus çarı I Pyotrun 1722-1723-cü illərdə "Fars yürüşü"ndə məsələ daha qabarıq xarakter almışdır. Bundan başlanğıc alaraq Xəzərdən istifadə hüquqi məsələsi bu və ya digər dərəcədə Rusiya ilə İran arasında bağlanmış ikitərəfli müqavilələrdə öz əksini tapmışdır. Onun ilkin müddəaları Peterburq (*1723*), Rəşt (*1731*), Gülüstan (*1813*) və Türkmənçay (*1828*) müqavilələri ilə tənzimlənmişdir. Lakin həmin sənədlərdə də hüquqi baxımdan "status" anlayışı olmamışdır. Bu müqavilələrə görə, Xəzərdə Rusiyaya böyük imtiyazlar verilir və hərbiləşmə baxımından o, tam olaraq çarlığın ixtiyarına keçir. Bütün bunlardan irəli gələrək də Xəzər "Rusiyadaxili su hövzəsi" statusu almışdır.

Xəzərdəki hüquqlar üzrə maraqlı xüsusi bir məqam Azərbaycanı iki hissəyə ayıran 1813-cü ilin 12 oktyabr tarixində Rusiya imperiyası ilə Qacar İran dövləti arasında imzalanmış bədnam Gülüstan müqaviləsinin şərtləri ilə bağlı olmuşdur. Gülüstan müqaviləsi (*Treaty of Gulistan*) imzalandığı yerin adı ilə (*Azərbaycan Respublikasının Goranboy rayonunun inzibati ərazi vahidində kənd*) tarixə daxil olmuşdur. Müqaviləyə əsasən, Şimali Azərbaycan xanlıqlarından İrəvan və Naxçıvanı çıxmaq şərtilə yerdə qalan bütün xanlıqlar (*Lənkəran, Şirvan, Quba, Bakı, Gəncə, Qarabağ, Şəki*) Rusiyaya verilmişdir. Müqavilənin şərtlərinə görə, həmçinin, Xəzər dənizi, ümumən, Rusiyanın daxili dənizi hesab edilmişdir. Xəzərə sahiblik məsələsi həmin müqavilənin beşinci

maddəsində təsbitini tapmışdır: "Rus ticarət gəmilərinə əvvəlki qayda üzrə Xəzər sahilləri yaxınlığında üzmək və onlara yan almaq hüququ verilir; həm də gəmi qəzası zamanı iranlılar tərəfindən dostluq köməyi edilməlidir. İran ticarət gəmilərinə də həmin bu hüquq - əvvəlki qayda üzrə Xəzər dənizində üzmək və Rusiya sahillərinə yan almaq ixtiyarı verilir, burada da gəmi qəzası zamanı, qarşılıqlı surətdə, iranlılara hər cür yardım göstərməlidir. Hərbi gəmilərə gəldikdə isə, müharibədən əvvəl, habelə sülh vaxtı və həmişə Rusiya hərbi bayrağı Xəzər dənizində tək mövcud olmuşdur. Həmin ehtiram daxilində, əvvəlki ixtiyar indi də yalnız Rusiya dövlətinə verilir ki, ondan başqa heç bir dövlətin hərbi bayrağı Xəzər dənizində ola bilməz". Bu bəndin müqavilədə əks olunmasının maraqlı tarixçəsi vardır. Belə ki, bu zaman qalib ruslar Xəzəryanı ölkələrə və Xəzərə tam nəzarət istəyindən irəli gələrək o zamankı İran dövlət başçısı Fətəli şah I Babaxana (*1797-1834*) Xəzərdə hərbi donanma saxlamaq hüququnun ancaq onlara (*ruslara*) məxsus olması tələbi ilə müraciət etmişlər. Bu tələbə münasibətdə şah baş vəzirə demişdir: "Şor sudur, nə faydası var, ver töksün atasının goruna! (*farsca - Abəki-şurəst, çi faidə darəd, vedəh birizəd bəgüri-pədarət*). Təxminən bir əsr sonra dahi Azərbaycan şairi Mirzə Ələkbər Sabir (*1862-1911*) "Ay alan, məmləkəti-Rey satıram!" satirik şeirində həmin əhvalatı parodiya edilmişdir. Dövlət başçısına yaraşmayan hərəkətin tənqid olunduğu həmin şerdə "...Babama vermədi əl "abəki-şur", Deyiləm naxələfü nabəşüur..." misraları vardır. M.Sabir " abəki-şur" (*şor su*) sözü ilə müasiri Məmmədəli şahın sələfi - babası Fətəli şahın Xəzərə münasibətinə işarə etmiş və strateji dövlət məsələlərinə yüngül münasibətin nümunəsi kimi onun nəvəsinin də babasından uzağa getmədiyini göstərmişdir.

Xəzərin hüquqi statusuna daha çox diqqət 1921-ci il fevralın 26-da Moskvada imzalanmış Rusiya-İran müqaviləsində verilmişdir. Bu müqavilənin 3-cü maddəsində göstərilir: "1881-ci ildə sərhəd komissiyası tərəfindən müəyyən edilmiş sərhəd xəttini hər iki yüksək səviyyədə danışıq aparan tərəflər İran və Rusiya arasında su sərhədi kimi qəbul etməyə razılaşır. Bu sərhəd qorunmalı və toxunulmazdır". Həmin müqavilədən irəli gələrək şərti təsbit edilən ayrıcı xətt Astara-Həsənqulu su sərhəddidir. Bununla yanaşı, Xəzərin Sovet-İran dənizi kimi göstərilməsi 1935-ci ildə İran-SSRİ arasında "Ticarət, dənizçilik və məskunlaşma haqqında" və 1940-cı ildə "Ticarət və dənizçilik haqqında" imzalanmış müqavilələrdə də bir daha vurğulanmışdır. Bütün bunlar, öz növbəsində, Xəzərin "Rusiyadaxili su hövzəsi" statusunu "Sovet-İran daxili su hövzəsi" statusuna çevirmişdir.

Belə bir reallıq vardır ki, Xəzərdə Sovet-İran sərhədləri SSRİ dövlətinin mövcudluğu dövründə heç bir zaman qəti və rəsmi müəyyən olunmamışdır. İki dövlət arasında 1954-cü ildə bağlanmış "Sərhədlərin nizamlanması haqqında Müqavilə"yə görə Xəzərin hər iki tərəfdən sərhədi müəyyən edilir. Lakin burada dənizin özündəki sərhədlə bağlı heç nə deyilmirdi. Bundan başqa, Sovet İttifaqı zamanında 1982-ci ildə qəbul olunmuş "SSRİ-nin dövlət sərhəddi haqqında qanun"da İranla SSRİ arasında sərhəd xətti Astara-Həsənqulu xətti üzrə müəyyən edilmiş və bu əyani olaraq bütün sovet xəritələrində öz əksini tapmışdır. Bir daha vurğulanmalıdır ki, Sovet-İran

yurisdiksiyasının bütün mövcudatı ərzində (*1921-1991*) Xəzərin bu bölgüsü, praktiki olaraq, dövlətlərin beynəlxalq ittifaqları tərəfindən tanınmış və beynəlxalq hüquq doktrinasında təsbitini tapmışdır.

Xəzərin SSRİ-yə məxsus hissəsinin sektorlara bölünməsi məsələsi isə 1970-ci ildə baş vermişdir. SSRİ-nin Neft Sənayesi Nazirliyi tərəfindən həyata keçirilən bölgüyə, əsasən, Xəzər dənizi, müvafiq olaraq, Rusiya (*16% - 60 min km*$^2$), Qazaxıstan (*29% - 105 min km*$^2$), Azərbaycan (*19% - 70 min km*$^2$), Türkmənistan (*22% - 80 min km*$^2$) habelə SSRİ-nin quru sərhədi ilə müəyyən edilən İran (*14% - 55 min km*$^2$) sektoruna bölünmüşdür. Bundan başqa, 18 yanvar 1991-ci ildə Azərbaycan SSR ilə SSRİ Neft və Qaz Sənayesi Nazirliyinin birgə qərarında da ona aid mövcud sektorda mineral ehtiyatların axtarışı və hasilatı və bu işlərə xarici şirkətlərin cəlb edilməsi kimi hüquqlar təsbit olunmuşdur. Həmin bölgü zamanı Xəzərin hüquqi, coğrafi vəziyyətindən irəli gələn, beynəlxalq-hüquqi təcrübədə hamı tərəfindən qəbul edilmiş orta xətt prinsipi əsas götürülmüşdür. SSRİ-nin süqutuna qədər Xəzərin hüquqi statusu bu razılaşmalarla tənzimlənmişdir. Hazırda da hüquqi statusu müəyyən edilmədiyindən, dəniz sərhədləri sahilyanı dövlətlər tərəfindən 1970-ci il sektorial bölgü üzrə qəbul olunur.

Yeni geosiyasi stuasiyada yaranmış mövcud durum sahilyanı ölkələri Xəzərin hüquqi statusu ilə bağlı hamı üçün məqbul olan mexanizmin axtaırışı məcburiyyətində qoydu. Bu istiqamətdə öncə üç yanaşma ortaya çıxdı:

1. Xəzərin orta xətt üzrə bərabər hissələrə bölünməsi.
2. Xəzərə dəniz statusu verilməsi ilə ona müvafiq beynəlxalq hüquq normalarının tətbiq edilməsi.
3. Xəzər unikal su hövzəsi (*beynəlxalq hüquqda "unikal qapalı su hövzəsinin hüquqi rejimi anlayışı" işlədilmir*) olması ilə status məsələsində qeyri-ənənəvi yanaşmaların tətbiq olunması.

Problem ətrafında 5 ölkə ilə yanaşı, Qərbin və ABŞ-ın da qoşulduğu geosiyasi mübarizə dayanır. Xəzərin geosiyasi əhəmiyyəti onun Avropa və Asiya arasında mühüm tranzit məkan, biomüxtəliflik diapazonu olmasında, dünya nərə balığı ehtiyatlarının mütləq əksəriyyətinin bu akvatoriyada cəmlənməsində və nəhayət, şelfində xüsusi böyük həcmli təsdiqlənmiş neft-qazın ehtiyatlarının mövcudluğundadır. Məhz bu resurların yeni geosiyasi situasiyada necə və kim tərəfindən istismarı məsələsinin kəskinləşməsi Xəzərin status məsələsininin də daha qabarıq şəkildə gündəmə gəlməsinə əlavə təkan vermişdir. Proses zirvə həddinə Azərbaycanın 1994-cü ildə "Əsrin müqaviləsi"ni imzalamağa və aparıcı Qərb şirkətləri ilə öz neft-qaz yataqlarının aktiv şəkildə istismarına hazırlaşmasında özünü biruzə vermişdir. Hadisələrin belə cərəyan etməsi, şübhəsiz ki, Rusiyanın "böyük enerji oyunu"ndan kənarda qalmasına aparırdı. Buna görə də Rusiya Azərbaycan, Qazaxıstan və Qərbə təzyiq üsulu kimi təcili şəkildə Xəzərin statusu problemini dövriyyəyə buraxaraq konkret addımlar atdı. O zaman Rusiya Xarici İşlər Nazirliyi bu işləri əngəlləmək məqsədi ilə 5 aprel 1994-cü il tarixdə Böyük Britaniyanın səfirinə göndərdiyi konfidensial notada dənizin hüquqi statusunun yoxluğuna və bununla da problemin

yoluna qoyulmadan neft-qaz ehtiyatlarının istismarının yolverilməzliyinə diqqət yönəltmişdi. Qətiyyətlə hesab ediləndir ki, məhz bu nota, faktiki olaraq, Xəzərin status məsələsində sərt və uzunmüddətli geosiyasi mübarizənin əsasını qoymuşdur. Həmin məsələdə, İranın da dəstəyi ilə, Xəzərdə resurslar, ekologiya və təhlükəsizlik məsələləri daha kəskinliyi ilə qaldırıldı. O da vurğulanmalıdır ki, Azərbaycan və Qazaxıstan, 1993-cü ildən başlayaraq, Xəzərin mineral ehtiyatlarının bölgüsündə vahid mövqe nümayiş etdirmişlər. Onların həmin dövrlərdəki diplomatik manevrləri, həmçinin, Rusiya və İran şirkətlərinin Xəzərdəki "neft biznesi"nə cəlb edilməsi problemin qismən yumşaldılmasına imkan vermişdir.

1992-ci ildən başlayaraq Xəzərsahili dövlətlər ikitərəfli və çoxtərəfli görüşlərdə Xəzərin hüquqi statusu məsələsi ilə bağlı müzakirələr aparırlar. Bu məqsədlə 1996-cı ildə sahilyanı 5 ölkənin xarici işlər nazirləri müavinləri səviyyəsində Xüsusi İşçi Qrupu yaradılmışdır. 25 ilədək müddəti əhatə edən bu danışıqların ilkin mərhələsi - 1991-1994-cü illər - problemin öyrənilməsi, ikitərəfli və çoxtərəfli görüşlərdə müzakirələrin aparılması ilə xarakterik olmuşdur. Sonrakı 1995-1998-ci illəri əhatə edən mərhələ məsələ ilə bağlı sahilyanı dövlətlərin mövqelərinin dəqiq müəyyənləşməsi və görüşlərin intensivləşməsi ilə səciyyəvidir. 1999-cu ildən başlanan mərhələ isə status məsələsində Rusiyanın mövqeyinin dəyişilməsi ilə diqqətə gəlmişdir. Danışıqlar, həmçinin, ikitərəfli formatda da aparılmış və nəticəvi olaraq 1998-ci ildə dənizin şimal hissəsinin dibinin bölünməsi haqda Rusiya ilə Qazaxıstan arasında saziş imzalanmış və analoji anlaşma 2001-ci ildə Azərbaycanla Qazaxıstan arasında əldə olunmuşdur. 2003-cü ildə isə Rusiya, Qazaxıstan və Azərbaycan arasında dənizin dibinin delimitasiyası (*həmsərhəd hissələrə aid fərqləndirici xətlərin kəsişmə nöqtəsi*) haqda saziş imzalanmışdır. Bu sənəd üçtərəfli formatda dəniz akvatoriyası ehtiyatlarının 60%-dən çoxunun hüquqi statusunu qanuniləşdirmiş oldu. Bununla yanaşı, həmin ildə "Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında" Çərçivə Sazişi də imzalanmışdır.

Vurğulanmalıdır ki, status məsələsinin həllində əsas rol Xəzəryanı ölkələrin başçılarının sammitlərinə ayrılmışdır. Ötən müddətdə 5 toplantı keçirilmişdir. İlk sammit 2002-ci ilin aprelində Türkmənistanın paytaxtı Aşqabad şəhərində baş tutmuşdur. Bu zaman Rusiya Xəzərin "bərabər uzaqlıqda orta xətt" formulu üzrə bölünməsi və sərhədlərinin müəyyən edilməsi təklifi ilə çıxış etdi. Həmin prinsipə görə, suyun səthi gəmiçilik üçün ümumi istifadədə qalır, dibi isə orta xətlərin köməyi ilə Rusiyaya 20%, Qazaxıstana 29,5%, Azərbaycana 21%, Türkmənistana 17%, İrana isə 12,5% verilir. Bu yanaşmaya Rusiya, Qazaxıstan və Azərbaycan razı olsalar da, İran və Türkmənistan əleyhinə idilər. Əksinə, İran dənizin 5 bərabər hissələrə bölünməsi təklifini irəli sürdü. Türkmənistanın Azərbaycanla iki ölkənin dəniz sərhədində yerləşən mübahisəli neft yataqları üzrə yaratdığı konflikt isə sammitin boşa çıxması olə nəticələndi. Burada verilən qərar yalnız növbəti toplantının İranın paytaxtı Tehranda keçirilməsi ilə bağlı oldu. 2007-ci ilin oktyabrında Tehranda keçirilən II sammitdə Xəzərin statusuna dair yalnız sahilyanı dövlətlərin dənizə və onun resurslarına

münasibətdə suveren hüquqlara malikliyi və bu istiqamətdə ümumi yanaşmaları əks etdirən bir konvensiyanın hazırlanması üzrə bəyannamə qəbul olundu.

Növbəti sammit 2010-cu ildə Azərbaycanın paytaxtı Bakı şəhərində keçirildi. Burada əsasında Xəzərdə təhlükəsizliyi, istisnasız olaraq, sahilyanı ölkələrin işi hesab edən "Xəzər beşliyi"nin birgə bəyanatı qəbul olundu. Qərara gəlindi ki, müvafiq qurumlar 3 ay ərzində milli dəniz zolağının eninin 24 dəniz mili olmasını razılaşdırsınlar.

IV sammit 2014-cü ildə Rusiyanın şimal Xəzər limanı olan Həştərxan şəhərində keçirilmişdir. Bu sammitdə dövlət başçıları 19 bənddən ibarət birgə memorandum qəbul etmişlər. Həmin sənəddə Xəzər akvatoriyasında digər dövlətlərin hərbi qüvvələrinin olmaması, sahilyanı ölkələrin bir-birilərinin suverenliyi və ərazi bütövlüyü, bərabərliyi, güc tətbiq eləməmək və güc tətbiqi ilə hədələməmək, habelə qarşılıqlı hörmət, əməkdaşlıq, tərəflərin daxili işlərinə qarışmamaq haqda çoxsaylı razılaşmalar vardır. Burada, həmçinin, deyilir ki, Xəzər "dinc məqsədlər" üçün istifadə edilməli, onun akvatoriyası "sülh, mehriban qonşuluq, dostluq və əməkdaşlıq zonası"na çevrilməli və tərəflər dənizlə bağlı bütün mübahisəli məsələləri dinc vasitələrlə həll etməlidirlər.

2018-ci il avqustun 12-də Qazaxıstanın Aktau şəhərində Xəzəryanı dövlətlərin dövlət başçılarının V Zirvə toplantısında Xəzərin özünəməxsus "Konstitusiyası" olan Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya imzalanmışdır. Konvensiya layihəsi isə yekun olaraq Xəzəryanı ölkələrin xarici işlər nazirlərinin rəhbərlərinin 4-5 dekabr 2017-ci il tarixində Moskvada keçirilən müşavirəsində razılaşdırılmışdır.

Xəzərin statusu məsələsində önəmli yer beynəlxalq hüquqa aiddir. Bu sırada 1982-ci ildə qəbul edilən konvensiya əhəmiyyət daşıyır. Bu konvensiya dənizlər və okeanlar üzrə hüququ tənzimləyir. Burada dəniz hövzəsi dövlətlərinin 200 millik zonada kəşfiyyatın tənzimlənməsi, su qatı, dəniz dibi yerin təkində cəmləşən canlı və cansız təbii ehtiyatların işlənməsi və saxlanmasında suveren hüquqlara malik olması təsbit edilir. Ona görə də buradakı hüquqları, birbaşa coğrafi təsnifata görə, göl olan Xəzərə aid etmək çətindir. Bu həm də Xəzərin qapalı su hövzəsi kimi dünya okeanına birbaşa çıxışının olmamasından irəli gəlir. Əgər bu tələblər əsasında Xəzərə dəniz statusu verilərsə, o zaman Volqa və Don çaylarının, Volqa-Don kanalının, Qara dənizin, Azov dənizinin statusuna da yenidən baxılmalı, sahilyanı ölkələr Xəzər dənizi vasitəsi ilə dünya okeanına çıxış üçün yeni səlahiyyətlər almalıdır. Digər tərəfdən o da nəzərə alınmalıdır ki, dövlətlər arasında sərhəd xətti qarşılıqlı razılaşmaya və beynəlxalq dəniz hüququna görə sərhədboyu axan çaylarda çayın, göl və dənizlərdə isə onların tən ortasından keçməlidir. Belə olan təqdirdə Xəzər dənizindəki sərhədlər dənizin tən ortasından keçən xətlə hüdudlanmalıdır. Həm də nəzərə alınmalıdır ki, bir qayda olaraq, çaylar üçün müəyyən, yəni ən dərin kanalın orta xətti - talveqdir (*almanca - talweg, tal - vadi və weg - yol, çayın, vadinin, yarğanın və digər bu kimi uzanan relyef formalarının ən aşağı dib hissələrini birləşdirən xətt*), göllər üçün isə sərhəd kimi orta və ya ekvidstansiya (*latınca - ekvi - bərabər. Bərabər uzaqlaşan, oriyentasiya*) xətti götürülür. Xüsusi hallarda bu, bəzən dəyişdirilə də bilər.

BMT-nin Dəniz Hüququ üzrə Konvensiyasının müvafiq tənzimləmədə qəti mükəmməlliyi haqqında fikir yürütmək çətindir. Həmçinin, o da göstərilməlidir ki, bu sferada müvafiq sərhədlərdən kənarda yerləşən ehtiyatların mənimsənilməsi üçün xüsusi orqanın yaradılması prosesi də hələ başa çatmamışdır. Lakin bu Konvensiya, pis və ya yaxşı olmasına baxmayaraq, dövlətlər tərifindən tanınır. Burada hətta dənizə heç bir təbii çıxışı olmayan ölkələrə də bir sıra müvafiq dəniz hüquqları, o cümlədən beynəlxlq dəniz dibi rayonunun ehtiyatlarından faydalanmaq hüququ verilir. Bu baxımdan Xəzər adi dəniz məkanı olaraq tanınsa, onda bu konvensiya birbaşa ona şamil olunacaqdır. Nəticədə hər bir Xəzər dövləti 12 mil[5] (*22,2 km*) olan məhəlli suları[6] (*kontenental şelf*) və 200 mil (*370,4 km*) müstəsna iqtisadi zona üzrə süveren hüquqlar qazanacaqdır. Xəzərin orta en kəsiyinin 200 mili aşmaması vəziyyətində müstəsna iqtisadi zona orta xətt prinsipi üzrə təyin olunacaqdır. Bu isə o deməkdir ki, Xəzərsahili dövlətlər və ondan kənar ölkələr müstəsna iqtisadi zonadan istifadə hüquqi əldə edəcəklər. Buraya isə gəmiçilik və uçuşlar, kabel və boru xətlərinin düzümü, elmi tədqiqatların aparılması və s. daxildir.

Göllər hüquqi baxımdan iqtisadi zona, şelf, məhəlli sular kateqoriyasına malik deyillər. Onlar daxili sulara aid edilir və beynəlxalq rejimlə tənzimlənməyərək sahilyanı dövlətlərin süveren əraziləri hesab olunurlar. Göllər bir neçə ölkəyə mənsub olduqda buradakı hüquqi rejim, müstəsna olaraq, qarşılıqlı razılaşmalarla sahilyanı dövlətlər tərəfindən qoyulur və müqavilələr əsasında tənzimlənir. Dünyada elə göllər də vardır ki, onların akvatoriyasından istifadə heç bir fərq qoymadan ümumi təyin olunmuşdur. Beləłəri sırasında Böyük göllər (*ABŞ-Kanada*), Çad (*Kamerun-Çad-Nigeriya və Niger*), Viktoriya (*Keniya-Uqanda-Tanzaniya*), Konstans (*Avstriya-Almaniya-İsveçrə*) və s. kimi sərhədyanı gölləri göstərmək olar.

Dəniz hüququnun fundamental prinsipi "gəmiçilik azadlığı" ilə bağlıdır. Belə azadlıq daxili dənizlərə tətbiq olunmur. Daxili dənizlərin və göllərin sahilyanı dövlətləri bu sularada başqa dövlətlərin gəmiçiliyinə icazə verməyə də bilərlər. Belə mövqelər hamılıqla qəbul olunmuşdur. Bundan başqa, müasir beynəlxalq hüquq dəniz dibi və buradakı ehtiyatlar üzərində müstəsna hüquqları da tanımışdır. Bu onunla bağlıdır ki, həmin ehtiyatları texnoloji baxımdan istismar etmək mümkün olmuşdur. Formalaşmış reallıq eyniylə daxili dənizlərə və göllərə də aid edilməlidir.

Tarixdən məlumdur ki, dünya okeanının təbii resurslarının bölgüsü müxtəlif mübahisələrə və münaqişlərə səbəb olmuşdur. Bunların içərisində Cənubi Çin dənizindəki Parasel adalarının ÇXR, Vyetnam və Tayvanın Spratli arxipelağının və müvafiq olaraq, onları əhatə edən suların kontinental şelfinin təbii ehtiyatlarından istifadə və nəzarətə sahiblik yenə də ÇXR, Vetnam və Filippin arasında, Egey dənizində şelfin bölgüsü (*hansı ki, burada xeyli miqdarda neft ehtiyatlarının olduğu güman edilir*) Türkiyə və Yunanıstan arasında müxtəlif mübahisələr doğurur. 1994-1995-ci illərdə Baltik dənizinin bölgüsündə Estoniya və Latviya arasında da müvafiq mübahisələr

[5] 1 dəniz mili = 1,852 km.

[6] bu sular sahilyanı dövlətlərin ərazisinin tərkib hissəsi olaraq qanunilәşdirilmişdir.

kəskinləşmişdir. Belə bir fakt maraq doğurmaya bilməz ki, XX əsrin 50-ci illərində nəhəng karbohidrogen ehtiyatlarının aşkarlandığı Şimal dənizinin bölgüsü ilə bağlı sahilyanı dövlətlər arasında nələr yaşanmışdır. 1959-cu ildə Niderlanda nəhəng "Qroningen" qaz yatağının aşkarlanması geoloqların Şimal dənizinin neft potensialı haqqında fikirlərinin dəyişməsi ilə müşayiət olundu. 1962-ci ildə "Phillips Petroleum" neft şirkəti Norveç hökumətinə müraciət edərək ona mənsub sahələrdən birində kəşfiyyat-axtarış işlərinin aparılması üzrə icazə istəmişdi. Bunun ardınca Novreç hökuməti ona mənsub kontenintal şelfdə təbii resursların kəşfiyyatı və hasilatı üzrə özünün suveren hüquqlarını bəyan edərək müvafiq qanunverici akt qəbul etmişdir. Bundan sonra, 1965-ci ildə Norveç öncə Böyük Britaniya ilə, sonra isə Danimarka ilə Şimal dənizinin orta xətt üzrə bölünməsi üzrə razılığa gəlmişdir. Bu isə həm də onu göstərir ki, ayrı-ayrı ölkələrə müştərək mənsub əksər çay və göllərlə yanaşı, hətta bir sıra dənizlərin belə bölünməsi məsələsi sahilyanı dövlətlər arasında, sahəvi beynəlxalq hüququn mövcudluğundan öncə, ikitərəfli və çoxtərəfli razılaşmalar yolu ilə həllini tapmışdır. Digər tərəfdən, reallıq belədir ki, sahilyanı dövlətlərin sərhəd xətləri tarixi amillər əsasında, ümumən, həllinə qovuşmuş və onların həmin müstəsna hüququ indiyədək hər hansı beynəlxalq məhkəmə çəkişmələrinin predmetinə çevrilməmişdir.

Bir neçə dövlətə mənsub iri su hövzələrinin müştərək işlənməsində ekoloji problemlərin həlli və tənzimlənməsi vacibdir. Dünya təcrübəsində belə hallar konvensiyalar, ikitərəfli və çoxtərəfli müqavilələrlə tənzimlənir. Belə müqavilələr sırasına ABŞ və Kanada arasındakı, Trinidad və Tobaqo və digər Karib ölkələri arasındakı müvafiq sazişləri və Dəniz mühitinin çirklənmədən qorunması haqqında 1978-ci il Küveyt regional Konvensiyasını misal göstərmək olar.

Ölkələr arasında şelfin bölgüsünün iki işçi varinatı vardır. Bu, su sərhədlərinin dənizin coğrafi mərkəzindən dövlətlərə aid sektorlar üzrə, tort kimi, radial (*latınca* - radius - *şua, radius*) prinsip üzrə bölünməsidir. Digər prinsip isə dənizin şaquli və üfüqi hissələri boyunca dövlətlərin quru sərhədlərinin kəsişən nöqtələrindən müəyyən edilən orta xəttə perpendikulyarların qurulmasını ehtiva edən mediana (*latınca* - mediāna - *orta*) prinsipidir. Belə prinsip Böyük göllər (*ABŞ-Kanada*) və Baltik dənizi şelfinin bölgüsündə istifadə olunmuşdur. Lakin bununla belə, status məsələsində hər bir dövlətin milli maraqlara uyğun məxsusi yanaşması vardır. Bu yanaşmalar içərsində təxminən üç əsrə bərabər müddət ərzində Xəzərin ən kiçik hissəsinə sahiblik və ondan daha məhdud istifadə imkanlığında olmuş İranın mövqeyi qeyri-münasibliyi ilə daha çox diqqəti cəlb edir. Belə ki, İran mövcud sektoral bölgü prinsipinə zidd bu istiqamətdə dünya praktikasında hələ indiyədək mövcud olmamış "bərabərlik", yəni "hərəyə 20 faiz" prinsipi ilə bölügü aparılması tələbində dayanır. Bu, dənizə müştərək sahiblik, yəni kondominium (*latınca - con - birgə və dominium - sahiblik, condominium - birgə sahiblik*) variantıdır. Xəzərin hüquqi statusu məsələsi ilə bağlı 1921, 1935 və 1940-cı illər Sovet-İran müqavilələrinində onun İran-rus (*sovet*) dənizi olması, burada başlıca olaraq sərbəst gəmiçilik (*dənizdə sərbəst və bərabər naviqasiya hüququ*) və balıqçılıq (*10 dəniz milli həddində öz sahil sularında müstəsna balıqtutma azadlığı*) məsələlərinin

yer almasını əsas götürən İran dənizin kondominium prinsiplərinə uyğun istifadəsinin zəruri olduğunu qeyd edir. Lakin bütün bu müqavilələrdə Xəzərin SSRİ və İranın birgə mülkiyyəti olması müddəasına və yaxud da dolayısı ilə bunun təsdiqinə rast gəlinmir. Burada, həmçinin, resurslar, dənizin dibi və səthindən istifadə, ekosistemin qorunması kimi ciddi məsələlərə də yer verilməmişdir. Digər tərəfdən reallıqda da Xəzərin istismarında kondominium prinsipi faktiki təsbitini tapmamışdır. Ümumiyyətlə, tarixdə heç vaxt göl və ya daxili dənizlərin kondominimumu olmamışdır. Lakin bu məsələdə bir beynəlxalq məhkəmə çəkişməsi yaddaşlarda qalmışdır. O, Fonseka körfəzi üzərində suverenliklə bağlı sahilyanı dövlətlər - Salvador, Honduras və Nikaraquanın mövqeyi ilə bağlı olmuşdur. Çıxarılan məhkəmə qərarına əsasən, körfəz tarixi boğaz statusuna malikdir və onun sahildən üç mildən kənarda olan suları bu üç dövlətin kondominimumuna məxsusdur. Burada məhkəmə belə bir fakta əsaslamışdır ki, Fonseka körfəzi uzun müddət bir dövlətə məxsus olmuş və üç sahilyanı dövlət müstəqil olandan sonra körfəz onların ümumi mülkiyyəti kimi nəzərdən keçirilməmişdir. İş üzrə gəmiçilik məsələsinə toxunan məhkəmə müəyyən etmişdir ki, körfəzin mürəkkəb coğrafiyası onun hər hansı formada bölünməsini praktiki çətin edir. Bu vəziyyətdə, ən azı, bu dövlətlərdən birinin açıq dənizə çıxışı qapanır. Xəzərdə situasiya isə tamamilə fərqlidir. Belə ki, o, heç zaman bir dövlətə məxsus olmamışdır.

SSRİ 1949-cu ildə Xəzərdəki neft ehtiyatlarının işlənməsinə İranla məsləhətləşmədən, onu iştirakı olmadan başlamışdır. Faktlar onu göstərir ki, İran tərəfi buna hər hansı bir formada etiraz bildirməmişdir. Bundan sonra vurğulanmalıdır ki, 1970-ci ildə SSRİ Neft Nazirliyinin qərarı ilə Xəzərin milli sektorlara bölünməsi həyata keçirilmiş və bununla İran tanış edilmiş və hətta, müvafiq bölgünün topoqrafik xəritəsi də Tehrana göndərilmişdir. Bu zaman da İran tərəfi belə bir bölgünün aparılmasına etiraz bildirməmişdir. Bunu onunla əsaslandırmaq olar ki, müvafiq Xəzər müqavilələrində onun enerji resusları və onların işlənməsi barədə heç nə öz əksini tapmamışdır. Digər tərəfdən, Sovet İttifaqının uzun illər Xəzər dənizində və əsas etibarilə Azərbaycana yaxın sahədə apardığı tədqiqat və istismar işləri 10 mildən artıq ərazini əhatə etmişdir. Bu zaman əldə olunan gəlirdən İrana ödənilməmiş və ya o, həmin fəaliyyətə hər hansı bir formada cəlb edilməmişdir. İran tərəfinin də bu fəaliyyətə bir etirazı olmamış və o, bundan gələn gəlirin bölünməsinə iddia etməmişdir. İran özü də yaxın sahədə birtərəfli fəaliyyətlər həyata keçirmişdir. Buna görə də Xəzərin hüquqi statusu müəyyən olunarkən sahilyanı dövlətlərin neft-qaz resuslarının istifadəsində yaranmış mövcud təcrübə və müvafiq beynəlxalq normalar əsas götürülməlidir. Bütün bunlar, öz növbəsində, elmi və siyasi əsası olamayan və dünya təcrübəsində heç vaxt tətbiq edilməyən kondominimum prinsipinin Xəzərdə tətbiqini bir daha mümkünsüz edir.

Azərbaycan Xəzərin daxili göl (*beynəlxalq sərhəd gölü*) olmasına əsaslanaraq sərhədlərinin delimitasiyasında ekvidstansiya prinsipi - dövlət ərazisinin bir hissəsi sayılmaqla dənizin orta xətt üzrə beş milli (*"milli sektor" anlayışı dənizin dibi kimi, səthini və hava məkanını ehtiva edir*) sektora bölünməsini təklif edir. Konkret olaraq, Azərbaycanın təklifində "sahil xəttinin davamı kimi orta xətt çəkilir və bu xəttin hər

bir nöqtəsi Xəzərin bitişik və ya əks tərəfində yerləşən dövlətlərin ilkin sahil xəttindən bərabər məsafədə olur" prinsipi göstərilir. Bu mövqe ölkənin Konstitusiyasında da birmənalı şəkildə təsbit edilmişdir. Belə ki, Konstitusiyanın 11-ci maddəsinə görə, Xəzər dənizinin (*gölünün*) Azərbaycan Respublikasına mənsub olan bölməsi (*konstitusiyaya görə, Azərbaycana mənsub milli sektor 25 millik - 45 km-lik zonadan xeyli çox sahəni əhatə edir*) Azərbaycan Respublikası ərazisinin tərkib hissəsidir. Bu reallıq isə Azərbaycana 19-20% akvatorial bölgüdə su səthi olaraq əlavə 70-74 min $km^2$ ərazi qatır. Nəticədə Azərbaycan ərazisi 160 min $km^2$ kimi yüksəlir. Burada bir məqam da qeyd olunmalıdır ki, hər bir ölkə kimi Azərbaycan da hava məkanına sahibdir. Bu məkanının sahəsi Xəzər dənizinin hissəsi də daxil olmaqla 168 min $km^2$-ə barabərdir. Vurğulanmalıdır ki, Azərbaycan hava məkanının istifadəsinə heç bir məhdudiyyət yoxdur. Bu məkandan, tranzit uçuşlar da daxil olmaqla, gün ərzində təxminən 400-450 uçuş həyata keçirilir. Azərbaycanın hava məkanı etibarlı şəkildə fasiləsiz qorunur və işğal altında olan ərazilərin də hava məkanına nəzarət edir. Bu səbəbdəndir ki, erməni tərəfi yenidənqurmasını həyata keçirdiyi Xocalı hava limanından təyyarə uçuşlarını həyata keçirə bilmir.

Xəzəryanı dövlətlərin müstəqillik statuslarını elan etməmişdən əvvəl onun bölgüsünün 1970-ci ildə qəbul olunmuş prinsipə əsasən milli sektorlar üzrə müəyyənləşdirməsi və bu su ərazilərin hazırda da "de fakto" varis dövlətlərə mənsubiyyətliyi Azərbaycanın mövqelərini bir daha gücləndirir. Hesab olunur ki, Xəzərin status probleminin həlli akvatoriyanın ekoloji tarazlığının qorunmasında yeni fiskal reallıqlara normativ düzüm verəcək, dənizin bioresurslarının mühafizəsini, ekoloji məsuliyyətin və təhlükəsizliyin möhkəmləndirilməsini iqtisadi əsaslarla zənginləşdirəcəkdir.

Tanınmış rus politoloqu Aleksandr Duqin (*1962*) özünün məşhur "Geosiyasətin əsasları" kitabında qeyd etmişdir ki, "SSRİ Xəzər neftinə xüsusi diqqət yetirməmiş, daha çox Şimali Avrasiyadakı yataqların işlənməsini inkişaf etdirməyə üstünlük vermişdir. Buna görə də hazırki nəzarət situasiyasında Xəzərin və Xəzər-Qara dəniz məkanı atlantizm və avrasiyaçılığın qlobal qarşıdurması məsələsinə çevrilmişdir"[7]. Şübhəsiz ki, Azərbaycan geopolitikasını onun Xəzərdəki zəngin korbohidrogen resursları, ümummilli lider Heydər Əliyevin "Əsrin kontraktı" ilə təməlini qoyduğu yeni neft strategiyası pozulmaz naxışlarla dəyişdirmişdir. Bölgüsü qızğın mübahisələr, müzakirələr mövzusu olan Xəzərdə Azərbaycanın hesablarının tarixi və real mövcudluğu bu gün onun mövqeylərini gücləndirən şərtlər sırasındadır. Azərbaycan geoloqları yeni neft axtarışında dənizə üz tutmasaydılar, Qara daşlarda qazılan ilk quyu fontan vurmasaydı, Neft daşları şəhərə çevrilməsəydi, bu yataqlardan milyon tonlarla neft hasil edilməsəydi, Xəzər faktoru ilə bağlı respublikamızla hesablaşmada əks tərəflər daha ciddi cəhdlər edərdilər. Məhz Xəzər neftinin Azərbaycan tərəfindən ilkin istismar edilməsi buradakı mövqeyimizi daha arqumentli etmişdir.

Qazaxıstan və Rusiya isə, beynəlxalq daxili dəniz olaraq, Xəzərin dibinin mediana

[7]Дугин А. Основы геополитики: Геополитические будуще России. Мыслитель пространством. М.: АРКТОГЕЯ-центр. 1999. с. 81.

boyunca sektorlara bölünməsini, su tutumunun isə ümumi istifadədə qalmasını, gəmiçilik üçün sərbəstliyini, balıqçılıq və ətraf mühitin qorunması üzrə razılaşdırılmış normaların tapılmasını istəyir. Dənizin dibinin bu cür bölünməsi müvafiq dövlətlərarası sazişlərdə əksini tapdığından Azərbaycan ümumən buna etiraz etmir.

Burada bir reallıq da ondan ibarətdir ki, üçtərəfli sazişinə əsasən, Rusiya və Azərbaycan hərəyə 19%, Qazaxıstana isə 29% olmaqla Xəzərin bərabərdayanma - ekvidstansiya prinsipinə əsaslanaraq onun dibinin bölgüsünü aparmışlar. Bu zaman Türkmənistan və İrana ümümilikdə 33%-lik hissə qalmışdır.

Türkmənistan Xəzərin cənub-şərqində olan neftli yataqlardan (*bloklar - 28, 29, 30, 31*) faydalanmaq üçün bu mövqelərə yaxınlaşma nümayiş etdirmişdir. Həmin blokların istismarı üçün Rusiyanın “İntera”, “Rosneft” və “Zarubejneft” şirkətlərinin iştirakı ilə “Zarit” adlı müştərək müəssisə təsis olunmuşdur. Türkmənistan hökuməti ilə müəssisə arasında İran və Türmənistan şirkətlərinə 10-15%-lik səhm verməklə Hasilatın Pay Bölgüsü üzrə sazişin imzalanması ərəfəsində İran bunlara etirazını bildirmiş və onu həmin blokların 20%-li kondominimum şərtli ərazisinə daxil olması ilə əsaslandırmışdır.

Xəzərin statusu ilə bağlı Rusiyanın Həştərxan şəhərində keçirilən sammitdə imzalanan memoranduma görə tərəflərin 15 dəniz mili həddində sahilyanı dəniz məkanı və ona bitişik 10 dəniz mili ərazidə su-bioloji resurslardan istifadə üzərində suverenliyi təsbit olunur. Yəni ölkələr 25 dəniz mili hüdudunda ehtiyatlardan istifadə hüququ alırlar. Bu hüdudlardan kənar su səthi ümumi istifadədir. Bunlardan əlavə, sənəddə “tərəflərin yeraltı və digər hüquqi fəaliyyət üçün suveren hüquqlarının reallaşması məqsədilə Xəzərin dibinin və ehtiyatlarının hamı tərəfindən qəbul edilmiş beynəlxalq hüquq normaları və prinsipləri əsasında bölünməsini” ehtiva olunur.

Bütün bunlara Xəzərsahili ölkələrin dövlət başçıları öz çıxışlarında, verdikləri bəyanatlarda bu və ya digər dərəcədə münasibət bildirmişlər.

Sammitdə çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev demişdir: “Xəzər dənizi nəqliyyat dəhlizlərinin inkişafı üzrə bir sıra beynəlxalq və regional layihələrdə əlaqələndirici elementdir. Biz Bakı Sammitində qəbul edilmiş uzlaşdırılmış qərara sadiqliyimizi təsdiqləyərək, sahilyanı dövlətin suverenliyinin şamil edildiyi su məkanı da daxil olmaqla, 25 dəniz mili ölçüsünü əsas götürərək milli zonanın eninin müvafiq şəkildə razılaşdırılmasına tərəfdarıq. Biz dənizin dibinin həmhüdud sahələrinin bölgüsündə əsas norma kimi hamılıqla tanınmış orta xətt prinsipini toxunulmaz hesab edir, dənizçilik, Xəzər dənizindən digər dənizlərə sərbəst gediş-gəliş və tranzit məsələlərinə böyük əhəmiyyət veririk”.

İran İslam Respublikasının Prezidenti Həsən Ruhani (*1948*) Xəzərin bioloji resurslarından istifadə ilə yanaşı, Xəzərətrafı ərazilərdə turizmin inkişafı, dəniz gəmiçiliyinin genişləndirilməsi və bütövlükdə Xəzər dənizinin imkanlarından istifadədə sahil ölkələrinin birgə investisiya qoyuluşunun əhəmiyyətinə diqqəti çəkmişdir.

Qazaxıstan Prezidenti Nursultan Nazarbayev (*1940*) Xəzəryanı ölkələrin bu sammitində mühüm irəliləyişə nail olunduğunu, nəqliyyat, dəmiryolu və digər sahələrdə birgə

layihələrin reallaşdırılmasının vacibliyini söyləyərək Xəzəryanı ölkələrin azad ticarət zonasının yaradılması təklifini irəli sürmüşdür.

Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov (*1957*) Xəzərdə nəqliyyat sahəsində əməkdaşlığın daha da genişləndirilməsi, burada regional logistika mərkəzinin yaradılması üçün əlverişli imkanların olduğunu diqqətə çatdırmışdır.

Sammitdə qəbul olunmuş bəyanatda, ilk dəfə olaraq, Xəzərin hüquqi statusu barədə gələcək razılaşmaların əksini tapdığnı bildərən Rusiya Prezidenti Vladimir Putin isə söyləmişdir: "Ən əsası, birgə siyasi bəyanat barədə razılığa gəlmişik və bu bəyanatda Xəzərdə beştərəfli əməkdaşlığın əsas prinsipləri qeyd olunub. Əldə olunmuş razılaşmalar bütün ölkələrin uzunmüddətli maraqlarına cavab verir".

Bununla belə, Həştərxan görüşü də Xəzərin əzəli sektorlara bölünmüş vəziyyətdə qalması ilə sonunclanmışdır. Xəzəryanı dövlətlər, əvvəl olduğu kimi, yenə də qərarları konsensus üzrə qəbul edəcəklər. Burada hər bir dövlətə məxsus 25 millik zona qərarı isə, əslində, uzun illər dənizdə əksər imtiyazlara və potensiala tək sahib olan Rusiyanın hüquqlarına daha çox məhdudiyyət gətirmişdir. Belə ki, bu dövlətin gəmiləri də Xəzərin istənilən sahilində lövbər sala bilməz. Eyni zamada, burada ekoloji mülahizələrlə kəmərlərin Xəzərin səthi ilə keçməsinin qarşısının alınması da mümkün olmamışdır. Bunun əvəzində belə razılığa gəlinmişdir ki, Xəzərədə hər hansı bir fəsadla mübarizə sahilyanı dövlətlər tərəfindən birgə aparılacaqdır.

Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi 2018-ci ildə imzalanmış Konvensiya ilə ümumən başa çatmışdır. Konvensiyanı Azərbaycan Prezidenti İ.Əliyev, İran Prezidenti H.Ruhani, Qazaxıstan Prezidenti N.Nazarbayev, Rusiya Prezidenti V.Putin və Türkmənistan Prezidenti Q.Berdiməhəmmədov imzalamışlar. Bundan əlavə, Xəzəryanı dövlətlərin müvafiq qurumlarının rəhbərləri tərəfindən bu Konvensiyadan irəli gələn digər mühüm sənədlər - Xəzər dənizində mütəşəkkil cinayətkarlığa qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında Protokol, Xəzəryanı dövlətlərin hökumətləri arasında ticari-iqtisadi əməkdaşlıq haqqında Saziş, Xəzəryanı dövlətlərin hökumətləri arasında nəqliyyat sahəsində əməkdaşlıq haqqında Saziş, Xəzər dənizində insidentlərin qarşısının alınması haqqında Saziş və sərhəd xidməti idarələrinin əməkdaşlığı və qarşılıqlı əlaqələri haqqında Protokol imzalanmışdır.

Konvensiyanın əhəmiyyətli tərəflərindən biri də ondan ibarətdir ki, sahilyanı ölkələr dənizin dibi ilə qaz və neft kəmərləri çəkə bilmək hüququ əldə edirlər. Belə halda kəmərin keçdiyi sektorlara sahib ölkələrin razılığı kifayət edir. Bununla da, Türkmənistan və Qazaxıstanın karbohidrogen ehtiyatlarının Azərbaycan vasitəsilə Türkiyə və Avropaya nəqli (*Trans-Xəzər Kəməri*) reallığa çevrilir. Eyni zamanda, Konvensiyaya əsasən 15 millik zona Xəzəryanı dövlətlərin ərazi suları hesab edilmiş, əlavə olaraq 10 millik zonada isə sərbəst balıqçılıq fəaliyyəti ilə məşğul olmaq hüququ rəsmiləşdirilmişdir. Bundan başqa, digər dövlətlərin hərbi gəmilərinin Xəzər dənizinə buraxılmamasına dair razılıq da əldə olunmuşdur.

Dünyadakı enerji resurslarının bölgüsünə nəzərə yetirdikdə Xəzər hövzəsi regionun artan potensialını görməmək mümkün deyildir. Burada çox mühüm qlobal səciyyəli neft və qaz ehtiyatları cəmləşmişdir. Bu baxımdan, müasir dövrdə region dövlətləri,

öz iqtisadi inkişafını Xəzər dənizinin neft-qaz potensialı ilə bağlayırlar.

ABŞ-ın Enerji İnformasiya İdarəsi özünün 2013-cü il hesabatında Xəzər dənizinin su sektorunda ümumi neft ehtiyatları 19,6 milyard barel, qaz ehtiyatları 106 trilyon kub fut, quru sektorunda isə, müvafiq olaraq, 28,6 milyard barel və 186 trilyon kub fut (*7 trilyon m³*) həcmində qiymətləndirilir. Bununla yanaşı, qeyd olunur ki, beş sahilyanı ölkənin Xəzər dənizinin su və quru sektorundakı ümumi neft ehtiyatları 48,2 milyard barel, qaz ehtiyatları isə 285 trilyon kub fut (*10,6 trilyon³*) həcmindədir.

Sənəddə Azərbaycanın Xəzər dənizinin su sektorundakı qaz ehtiyatlarının həcmi 1,5 trilyon $m^3$, Qazaxıstanın - 1,3 trilyon $m^3$, Rusiyanın - 0,5 trilyon $m^3$, Türkmənistanın - 0,3 trilyon $m^3$ kimi göstərilir. Hesabatda, həmçinin, bildirilir ki, Qazaxıstanın Xəzərin su sektorundakı neft ehtiyatları 15,8 milyard barel, Azərbaycanın isə 6,8 milyard barel təşkil edir. Hesabatda vurğulanır ki, İran istisna olmaqla, bütün digər sahilyanı dövlətlər Xəzərin su sektorundakı enerji ehtiyatlarının işlənməsindən mənfəət götürür. Sənədin sonunda qeyd olunur ki, bütün sahilyanı ölkələrin ümumi gündəlik neft hasilatı 945 min barel təşkil edir və bunun 890 min bareli (*94%*) Azərbaycanın payına düşür.

Vurğulanmalıdır ki, ehtiyatlar dinamik və onlar haqqında məlumatlar, üstün olaraq, konfedisialdır. Belə vəziyyət isə onun geoloji təyinatlarla yanaşı, digər amillər baxımdan daim dəyişməsini şərtləndirir. Bundan başqa, bu həcmlər ayrı-ayrı hesabatlar və mənbələrdə fərqli göstərilir. Lakin hər bir rəqəmin arxasınada ümumi reallıqları əks etdirən aydın görüntülər vardır.

O, da vurğulanmalıdır ki, Xəzərdəki karbohidrogen ehtiyatlarının mühüm hissəsi üç türkdilli dövlətə - Azərbaycan, Qazaxıstan və Türkmənistana məxsusdur. Bu sırada həmin resurslarının ən klassik istehsalçısı kimi Azərbaycan çıxış edir. Bütün bəşər tarixində və eyni zamanda, dənizdə də ilk neft hasilatı onun adı ilə bağlıdır.

Bütün bunlar bir daha onu əsaslandırır ki, Xəzər hövzəsi regionunun dövlətləri öz iqtisadi inkişafını bu və ya digər dərəcədə dənizin və ona bitişik zonanın neft-qaz potensialı ilə bağlayırlar. Bu da təbiidir. Xüsusən, üç müstəqil türkdilli dövlətin - Azərbaycan, Qazaxıstan və Türkmənistan öz iqtisadiyyatlarının şaxələndirilməsində bu resursların əhəmiyyətinə istinad edirlər. Lakin status məsələsinin açıq qalması bu məsələdə özünün çətinliklərini ortaya qoyur. Məsələ məhdudiyyətyaratma kəskinliyi ilə özünü daha çox regiondakı karbohidrogen ehtiyatlarını dünya bazarlarına çıxarılmasında göstərir. Buna baxmayaraq, Xəzərdən keçəcək bir çox neft-qaz kəmərlərinin layihəsi artıq hazırlanmışdır. Bu məqsədlə ABŞ türkmən qazının transxəzər marşutunun texniki iqtisadi əsaslandırılması üçün 750 min dollar məbləğində vəsait ayrıdığını bildirmişdir. Bu amil bir daha Xəzər bölgəsində proseslərin, üstün olaraq, onun karbohidrogen ehtiyatlarıyla bağlılıqda inkişaf etiyini və yaxın gələcəkdə buradan strateji neft və qaz kəmərlərinin keçəcəyinin yəqinliyini əsaslandırır.

Xəzərin enerji resusrlarının daşınmasında nəqliyyat arteriyaları mühüm əhəmiyyət daşıyır. Hazırda Xəzərin neft-qaz resurslarının dünya bazarına çıxışının BTC, Bakı-Novorossiysk, QİBK, Atasu-Alaşankoy (*Qazaxıstan-ÇXR*), Tengiz-Novorossiysk (*Xəzər Boru Konsorsiumu*), Atıray-Samara neft və Bakı-Tbilisi-Ərzurum qaz kəməri vasitəsi ilə təmin olunur. Mühüm neft-qaz arteriyaları sayılan bütün bu kəmərlər isə,

öz növbəsində, əsas istehlakçılara birbaşa yetişməyərək limanlarda tankerlər vasitəsi ilə ünvanlara çatdırılır. Burada əsas maneə isə Xəzərin dünya okeanına birbaşa çıxışının olmaması ilə bağlıdır.

Vurğulandığı kimi, qapalı su hövzəsi olan Xəzər dənizinin dünya okeanı ilə yalnız şimaldan Volqa çayı vasitəsi ilə əlaqəsi vardır. Burada əsas yeri Volqa-Don kanalı tutur. Kanal Xəzərə qovuşan Volqa çayı ilə Azov dənizinə tökülən Don çayını birləşdirir ki, buradan da Qara dəniz vasitəsi ilə dünya okeanına çıxış əldə edilir. Bundan başqa, Xəzər dənizi yenə də Volqa çayı vasitəsi ilə şimaldan Volqa-Baltik və Baltik-Ağ dəniz kanalları ilə də dünya okeanına qovuşa bilir. Lakin uzun sürən qış mövsümündə kanalın donması və eyni zamanda, okeana çıxışda çoxsaylı boğaz və aşırımların olması naviqasiya problemləri yaradır. Kanalın texniki göstəricilərinin adekvat olmaması, prosedur mürəkkəblikləri də əlavə çətinliklərə yol açır. Bundan başqa, qışda Xəzərin şimalı donduğundan Bakı-Həştərxan yolunda hərəkət kəsilir. Xəzərin Azərbaycan sahilində iri Kür çayında isə donma hadisəsinə, əsasən, rast gəlinmir. Çox uzun illər öncə Xəzər dənizindən Tiflis şəhərinə qədər üzən nəqliyyat vasitələri ilə getmək mümkün olmuşdur. XX əsrin ortalarından başlayaraq Kür çayında tikilən silsilə su anbarları burda gəmilərlə bağlı su nəqliyyatının hərəkətini məhdudlaşdırmışdır. Bununla bağlı o zamanlar Azərbaycanda mövcud olmuş çay nəqliyyat donanması da fəaliyyətini dayandırmışdır. Hazırda burada su nəqliyyatı lokal xarakterlidir və əsasən, katerlər vasitəsi ilə həyata keçirilir.

Sahilyanı dövlətlərlə isə əlaqələr Xəzərin limanları vasitəsi ilə və mümkün olduqca, quru yolları ilə qurulur. Quru yüklər, neft və neft məhsulları gəmilər və tankerlər vasitəsi ilə daşınır. Bakı (*Azərbaycan*), Aktau (*Qazaxıstan*) və Türkmənbaşı (*Türkmənistan*) limanlarında qatarların hərkətini təmin edən bərə keçidləri vardır.

Xəzirin yeni nəqliyyat marşrutlarında Azərbaycan ərazisindən keçəcək qlobal nəqliyyat xətti - Simal-Cənub dəhlizi də mühüm əhəmiyyət kəsb edəcəkdir. Hələlik layihələndirmə mərhələsinə daxil olmamış bu marşrut Rusiya və İran ərazisindən keçməklə Yaxın Şərqdən və Cənub-Şərqi Asiyadan Avropaya daşınan yükdaşımaları bir neçə dəfə artırma imkanında olacaqdır. Bu xətt Suveyş kanalı vasitəsi ilə Hindistandan Avropaya uzanan nəqliyyat keçidindən 3 dəfə qısadır. Dəmiryolu, su nəqliyyatı və avtomobil xətlərini ehtiva edən bu nəqliyyat marşrutunun işə düşəcəyi təqdirdə planetin cənubundan Avropaya hər il orta hesabla 15-20 milyon ton yükün daşınacağı gözlənilir. Həmin dəhlizin açılısı Fars körfəzi ərəb ölkələrinin Avropa ilə əlaqəsində nəqliyyat alternatvini təmin edərək zəvvarların islamın müqəddəs yerlərinə, xüsusən də, Məkkə və Mədinə şəhərlərinə səyahəti üçün əhəmiyyətli olacaq, ənənəvi marşrutlardan istifadə intensivliyini mülayimləşdirəcəkdir.

Xəzər hövzəsi regionunda digər bir mühüm ideya dənizin dəmir və avtomobil yolları ilə həlqəyə alınmasındadır. Bu həlqə, demək olar ki, reallaşmaqdadır. Onu qapayan əsas xətt isə İranın Rəşt şəhərindən Azərbaycanın Astara şəhərinə yönələn dəmir yolunun inşasının başa çatması olacaqdır.

Xəzərin sektorial bölgüsü tamamlandığı təqdirdə, Türkmənistan Azərbaycana yetişən Transxəzər qaz xətti layıhəsini reallaşdıra bilər. Azərbaycan tərəfi Türkmənistan

və Mərkəzi Asiya qazına öz kommunikasiya vasitələrini verə biləcəyini açıqlamışdır. O da faktdır ki, Türkmənistan Avropa üçün 10 milyard $m^3$ qaz ehtiyatı saxlayır. Türkmənistanın mövqeyi belədir ki, qazın Avropaya çıxması üçün lazım olan dənizin dibi ilə boru kəmərinin tikintisi yalnız Xəzəryanı ölkələrin razılığı ilə baş tuta bilər.

Xəzərin nəqliyyat problemləri sırasında, vurğulandığı kimi, onun dünya okeanına çıxışı məsələsi əsas yer tutur. Bu sırada Rusiya ərazisindəki şimal kanalları o qədər də əlverişliliyi təmin edə bilmir. Burada naviqasiya problemləri ilə yanaşı marşrut boyu bir neçə dövlət sərhəd keçidinin mövcudluğu da nəqliyyat çətinliklərinə və vaxt itkilərinə səbəb olur. Digər tərəfdən, Rusiya Xəzərin okeana yeganə çıxış yolundan siyasi-iqtisadi məqsədlərdə təzyiq vasitəsi kimi istifadə edir. Belə vəziyyət Azərbaycanla yanaşı bu kanaldan ənənəvi istifadə etmiş digər Xəzər hövzəsi ölkələrini də asılı vəziyyətə salır.

Problemin optimal vəziyyətə gətirilməsi istiqamətində daha bir alternativlik kimi İran İslam Respublikasının ərazisindən keçməklə Xəzər dənizinin Fars körfəzinə çıxışını təmin edən nəhəng kanalın çəkilişi çıxış edə bilər. Bu düşüncə o qədər də yeni deyildir. Əvvəllər də Xəzərin cənubdan okean sularına qovuşması istəkləri mövcud olmuş və hazırda da bu aktuallıq səngiməmişdir. Müasir ETT və innovasiyalar sahəsindəki nailiyyətlər, prinsipcə, müvafiq meyilin gerçəkləşməsinə imkanlar açır. Xəzər - Fars körfəzi kanalının, uzunluq parametrlərinə görə, Suveyş kanalından böyük olmasına baxmayaraq onun gerçəkləşməsini asanlaşdıran təbii-coğrafi mühit mövcuddur. Bu arealda İrana mənsub su nəqliyyatı imkanlı Qızılüzən və Qarun çaylarını dərinləşdirmək və həmin xətt boyunca yerləşən irili-xırdalı göllərin, çoxsaylı kiçik çayların, dərə və digər relyef yaranışlarının imkanlarından istifadə etməklə nəzərdə tutulan kanala buraxılış vermək mümkündür. Çoxmilyardlı valyuta resursu tələb etməsinə baxmayaraq, belə bir kanalın çəkilişi okean suları ilə birbaşa əlaqəsi olmayan üç Xəzər hövzəsi ölkəsini (*Azərbaycan, Qazaxıstan və Turkmənistan*) yeni geosiyasi situasiyada okeana çıxışının ümidli alternativliyini, habelə dünya iqtisadiyyatına dayanıqlı inteqrasiyasını daha dolğun təminatlı edəcəkdir.

Bundan başqa, Xəzərin dünya okeanına birləşməsi istiqamətində onu Qara dənizlə qovuşduracaq layihələr də yer alır. Burada fikirlər, əsasən, hər iki dənizi vaxtilə birləşdirilmiş Kuma - Manıç çökəkliyinin yenidən kanal halına salınması üzərində qurulur. Uzunluğu 500 kilometrə çatan çökəkliyin ən yüksək nöqtəsində çox xırda bir hissədə 20 metrdən bir az dərin kanal çəkməklə Xəzərlə Qara dənizi yenidən qovuşdurmaq mümkündür.

Həmin çökəklikdə 170-ə yaxın göl var ki, kanal çəkilərsə, bu göllər təbii yolla birləşəcək. Belə bir layihənin reallaşması bir çox dövlətlərin marağındadır. Xəzər və Azov-Qara dəniz hövzələri arasında yeni su dəhlizi, uzunluğu 1500 km olan Volqa-Don kanalının cənubundan keçərək, ondan min kilometrə qədər qısa ola bilər. Ora qiymətlə dəyəri 5 milyard ABŞ dollarına bərabər götürülən kanal şlüz sayına, yükgötürmə qabiliyyəti göstəricilərinə və daşınma müddətinin qısalığına görə də Volqa-Don kanalından üstün olacaqdır. Məsələ Türkiyədə də vaxtaşırı irəli sürülən təkliflər sırasında yer alıb. Burada məqsəd Bosfor boğazının yükünün azaldılması, Türkiyənin Xəzərə,

İranın isə Qara və Aralıq dənizlərinə, həmçinin, okeanlara çıxışını təmin etməkdir.

Xəzər-Qara dəniz kanalının inşası ideyası Qazaxıstan prezidenti Nursultan Nazarbayevin də çıxış və bəyanatlarında yer alıb: "Xəzəryanı region və Orta Asiyanın zəngin resurslarının daşınma ehtiyacı var. Biz müxtəlif marşrutlar axtaracağıq. Xəzər və Qara dənizləri arasında "Avrasiya" gəmiçilik kanalının tikintisi əlamətdar layihə ola bilər".

Bütün bu keyfiyyətlərlə yanaşı, bu layihədə müəyyən kəskin problemlərin yaranacağı ehtimalı da böyükdür. Belə olan halda Qara dənizlə Xəzər dənizinin səviyyəsi bərabərləşə bilər. Bu, baş verərsə, Xəzər sahilində yerləşən bir çox yaşayış məntəqələri, o cümlədən Qazaxıstanın Aktau, Türkmənistanın Türkmənbaşı, Rusiyanın Mahaçqala, Azərbaycanın paytaxtı Bakı kimi iri şəhərlərin su altında qalmaq ehtimalı yaranar. Sular Azərbaycan ərazisində Yevlağa, Mərkəzi Aran rayonlarına qədər gedib çıxa bilər. Burada digər əsas təhlükələrdən biri də dənizin ekosistemi ilə bağlıdır. Belə halda Xəzərə, onun fauna və florasına təsir göstərəcək çoxsaylı yad orqanizmlər daxil olacaqdır. Belə hallar Volqa-Don kanalı vasitəsi ilə də baş vermişdir. Digər tərəfdən, bu arealda artan gəmi sayı da ekoloji fəsadlar yaradacaqdır.

Xəzərin Kür və Araz çayları üzrə çətin olan Aralıq dənizi və Qara dəniz qovuşması ideyaları da nəzərdən keçiriləndir. Bütün bunlar bir daha zamanın sınağından keçməli və yeni geoiqtisadi əsaslandırmalarla möhkəmləndirilməlidir.

**Qazaxıstan Respublikası - Qazaxıstan** (*qazaxca* - Қазақстан - *Qazaxıstan*) Mərkəzi Asiyada dövlət. Qazaxıstan şimalda, şimal-şərqdə və şimal-qərbdə Rusiya ilə,



şərqdə ÇXR, cənubda isə Türkmənistan, Özbəkistan və Qırğızıstan ilə həmsərhəddir. Qərbdə Xəzər dənizi ilə hüdudlanır. Dövlətçilik tarixi başlanğıcını Qazax Xanlığından - 1465-ci ildən alır. Bununla belə, SSRİ dövlətinin çökməsi ilə bağlı ölkənin yeni müstəqillik tarixi 16 dekabr 1991-ci ildən başlanır. Paytaxtı Astana şəhəri, dövlət dili qazax, rəsmi dili isə rus dilidir. Unitar quruluşludur və prezident respublikasıdır. Milli valyutası təngədir.

Ərazisi 2 724 902 km$^2$, əhalisi 18,4 milyon nəfərdir (*2018*).

Qazaxıstan, sahəsinə görə, Mərkəzi Asiyada ən böyük əraziyə malikdir. Ölkədə 100 mindən çox azərbaycanlı yaşayır.

İqtisadiyyatda xidmətlər 60,8%, sənaye 34,4%, kənd təsərrüfatı 4,8% paya malikdir. ÜDM 156,2 milyard ABŞ dolları, adambaşına ÜDM 7453 ABŞ dollarıdır. İnflyasiya 7,3%, işsizlik səviyyəsi 5,0%, yoxsulluq səviyyəsi 2,7%-ə bərabərdir. Xarici borc 165,5 milyard ABŞ dolları (*ÜDM-in 106,0%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 49,7%-nə bərabərdir (*2017*).

Qazaxıstan çox zəngin təbii sərvətlərə malikdir. Burada kimya elementləri siyahısında 100-ə qədər element mövcuddur. Onlarada 70-nin kəşfiyyatı aparılmış, 60-nın isə istehsalı təşkil olunmuşdur. Ölkədə hazırda 500 yataqda 1225 növ mineral xammal mövcuddur. Qazaxıstan sink, volfram və barit ehtiyatlarına görə dünyada birinci, gümüş, qurğuşun və xromit ehtiyatlarına görə ikinci, mis və flyurit ehtiyatlarına görə üçüncü, molibden ehtiyatlarına görə dördüncü və qızıl ehtiyatlarına görə 6-ci yeri tutur.

Qazaxıstan zəngin neft-qaz ehtiyatlarına malikdir. Neft ehtiyatlarına görə MDB

məkanında yalnız Rusiyadan geri qalır. Ölkənin sübut edilmiş neft ehtiyatları dünya ehtiyatlarının 3,2%-ni təşkil edir. Burada aşkar edilmiş təbii qaz ehtiyatları isə 1,82 trilyon m³ həcmində hesablanır və bu, dünya ehtiyatlarının 1,7%-nə bərabərdir. Neftin proqnozlaşdırılan ehtiyatlarının yalnız Xəzər dənizinin Qazaxıstan sektoruna aid olan yerlərində 17 milyard tondan çox olduğu təxmin edilir. Burada Təkcə "Tengiz" yatağında 2-3 milyard tona qədər ehtiyatın olduğu güman edilir. "Kaşaqan" neft yatağının ölçüləri isə daha böyük - "Tengiz"ə nisbətdə iki dəfə yüksək ölçüdə qiymətləndirilir. Qazaxıstanda hər il 100 milyon tondan çox neft hasil olunur və yaxın illərdə isə 150 milyon tona qədər artacağı gözlənilir. Ölkə son 15-20 il ərzində neftdən çox böyük gəlirlər əldə etmişdir və bunun nəticəsində Qazaxıstan Asiyada ən yüksək həyat səviyyəsinə malik olan ölkələrdən birinə çevrilməkdədir.

Qazaxıstan, həmçinin, hazırda əlvan metallurgiya, kömürçıxarma, kimya, maşınqayırma, yüngül və yeyinti sənayesi olan bir ölkəyə çevrilmişdir. Burada kənd təsərrüfatı maşınları, elektrotexniki maşın və avadanlıqlar istehsal edən böyük müəssisələr fəaliyyət göstərir. Kimya sənayesində mineral gübrə istehsalı əsas yer tutur. Yanacaq sənayesində Karaqanda və Ekibastuz kömür hövzələrinin böyük əhəmiyyəti vardır. Burada kömürlə işləyən onlarla elektrik stansiyası vardır. Manqışlaq yarımadasında regionun ən böyük AES-i fəaliyyət göstərir.

Kənd təsərrüfatında buğda, qarğıdalı, pambıq və çəltik bitkiləri, həmçinin, qoyunçuluq başlıca sahələrdir. Əsasən, şimal hissələri əhatə edən əkin sahələrinin 70%-dən çoxunda dənli bitkilər - xüsusən də, yazlıq buğda, qarğıdalı, çəltik, darı əkilir. Ölkədə yetişdirilən buğdanın böyük hissəsi xarici ölkələrə ixrac olunur. Ölkənin cənubunda pambıq və çəltik becərilir. Heyvandarlığın əsas təsərrüfat sahələri şimal, mərkəz və şərq rayonlarındadır. Ölkədə 35 milyon davar, 8 milyon qaramal saxlanılır. Heyvandarlıq məhsullarının böyük hissəsi, xüsusən də, ət-süd məhsulları, yun xarici ölkələrə ixrac olunur.

Qazaxıstan inkişaf etmiş nəqliyyat infrastrukturuna malikdir. Burada dəmir yollarının uzunluğu 15 min km-i ötmüşdür. Həmin xətlər Arvopa ilə Asiya arasında və həmçinin, şimalla cənub arasında çox mühüm əhəmiyyət daşıyır. Nəqliyyat strategiyası çərçivəsində 2017-ci ildə ölkədə yeni 1400 km dəmiryolu xətti çəkiləcək, 2700 km xətt elektrikləşdiriləcəkdir.

Qazaxıstanın coğrafiyasında aviasiyanın əhəmiyyəti danılmazdır. Burada 22 iri hava limanı fəaliyyət göstərir ki, onlardan da 14-ü beynəlxalq statusludur. Ölkədə avtomobil yolları şəbəkəsi də inkişaf etdirilir. İndi ölkədə 3,5 miyondan çox avtomobil vardır.

Qazaxıstan 2050-ci ilə qədər olan dövr üçün inkişaf strategiyasını qəbul etmiş və bu dövrə qədər dünyanın ən çox inkişaf etmiş 30 ölkəsi sırasına daxil olmaq vəzifəsini qarşıya qoymuşdur. Bu, çox böyük, ambisiyalı hədəfdir. Lakin bunun üçün ölkə hər cür imkana malikdir. Hazırda ölkədə sürətli sənayeləşmə proqramı üzrə sistemli iş aparılır, maliyyə tutumu milyardlarla dollar təşkil edən yüzlərlə layihələr həyata keçirilir. Proqnozlara görə, 2020-ci ilə qədər Qazaxıstan ərazisindən tranzit daşımaların həcmi iki dəfə, 2050-ci ilə qədər 10 dəfə artacaq, ölkə ərazisi ilə yükdaşımaların həcmi ildə 50 milyon tona çatdırılacaqdır.

Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında diplomatik əlaqələr 30 avqust 1992-ci ildə yaradılmışdır. Azərbaycan və Qazaxıstan arasında iqtisadi əlaqələrin də böyük tarixi var. Azərbaycan neftçiləri Qazaxıstanın Manqışlaq, Quryev neft mədənlərində səmərəli fəaliyyət göstərmişlər. Azərbaycan və Qazaxıstan neftçiləri, alimləri, mühəndisləri Xəzər dənizi hövzəsində də əməkdaşlıq etmişlər və bu ənənə davam edir. Azərbaycan tərəfindən Qazaxıstanın Xəzər sahilində yerləşən Aktau şəhərində Logistik mərkəz yaradılır. Ölkələr arasında 500 milyon ABŞ dollarına bərabər ticarət dövriyyəsi vardır.

**Türkmənistan** (*türkməncə - Türkmenistan - Türkmənistan*) Orta Asiyada dövlət. Cənubdan Əfqanıstan və İranla, şimaldan Qazaxıstan və Özbəkistanla həmsərhəddir.



Qərb hissəsi Xəzər dənizi hüdudlarındadır. Ölkənin müstəqillik tarixi 27 oktyabr 1991-ci ildən başlanır. Paytaxtı Aşqabad şəhəri, dövlət dili türkmən dilidir (*türkmən dili türk dillərinin oğuz qrupuna aid edilir, bununla belə qıpçaq qrupuna aid edilən hissələr də vardır*). Ölkə prezident respublikasıdır və birpartiyalıdır. Milli valyutası türkmən manatdır.

Ərazisi 491 200 km$^2$, əhalisi 5,6 milyon nəfərdir (*2018*). Ölkədə 60 mindən çox azərbaycanlı yaşayır. Türkmənistan ərazisinin 375 min km$^2$-i səhra və yarımsəhradır. Burada münbit torpaqlar, tuğay meşələri, zəngin bitki örtüklü vahələr də mövcuddur. Ölkə ərazisi yeraltı sularla zəngindir. Türkmənistan ərazisində bitən saksaul kolu əhalinin istifadə etdiyi ən mühüm bitkidir.

İqtisadiyyatda xidmətlər 47,6%, sənaye 44,9%, kənd təsərrüfatı 7,5% paya malikdir. ÜDM 46,2 milyard ABŞ dolları, adambaşına ÜDM 6622 ABŞ dollarıdır. İnflyasiya 6,0%, işsizlik səviyyəsi 11,0%, yoxsulluq səviyyəsi 0,2%-ə bərabərdir. Xarici borc 0,5 milyard ABŞ dolları (*ÜDM-in 1,0%-i*) həcmindədir. Ölkədə iqtisadi aktiv əhali sayı ümumi əhali sayının 41,0%-nə bərabərdir (*2017*).

Türkmənistan 1995-ci ildə özünün daimi neytrallığını bəyan etmişdir. Belə ki, 12 dekabr 1995-ci ildə BMT Baş Assambleyası "Türkmənistanın daimi bitərəfliyi" haqqında yekdilliklə qətnamə qəbul etmişdir. Qətnamədə qeyd olunmuşdur ki, "Türkmənistanın daimi neytrallıq statutusu regionda sülh və təhlükəsizliyin möhkəmlənməsinə xidmət edəcəkdir". Məlum olduğu kimi, İsveçrə, Avstriya, İsveç, Malta və bəzi başqa ölkələr də bitərəflik xətti yeridirlər. Türkmənistanın bitərəflik statusunun keyfiyyətcə fərqi ondadır ki, o, ən yüksək səviyyədə - BMT Baş Assambleyası səviyyəsində 185 dövlət tərəfindən təsdiqlənmiş və tam legitimdir.

Türkmənistanın geosiyasi mövqeyi Avropa ölkələri ilə ÇXR və Hindistana gedən quru yollarının üzərində yerləşməsi baxımından əlverişlidir. Ölkə zəngin təbii qaz və neft ehtiyatlarına malikdir. Burada 144 neft və qaz yatağı aşkar edilmişdir. Onlardan yalnız 40 yataq istismar olunur. Türkmənistan qaz ehtiyatlarının həcminə görə dünyada 4-cü yeri tutur. Burada hər il 30-32 milyard m$^3$ qaz hasil olunur və onun böyük hissəsi qonşu ölkələrə və yaxın ölkələrə ixrac olunur. Ölkədə təbii qazı ixrac üçün hələlik yalnız bir Rusiya vasitəsi ilə bağlı boru kəməri mövcuddur. Bununla belə, ökədə İran

və Türkiyədən keçməklə Avropaya, Əfqanıstandan keçməklə Pakistan və Hindistana qaz ötürmək üçün boru kəməri marşrutları üzərində işlər aparılır.

Neft-qaz hasilatı da Türkmənistan iqtisadiyyatının əsasını təşkil edir. Ölkənin gəlirinin 60%-i bu sahələrin payına düşür. Hasil olunan neftin bir hissəsi Xəzər dənizi ilə Azərbaycandan tranzit olunur. Türkmənistanda kükürd, kalium, daş duz, bentonit gili, mirabilit və alunit yataqları mövcuddur. Ən böyük göl olan Sarıqamışdan yüksək keyfiyyətli xörək duzu yığılır. Kimya sənayesi üçün kifayət qədər yerli xammala malik ölkədə kükürd, kalium duzları, yod və digər müvafiq təyinatlı zavodlar fəaliyyət göstərir. Ölkənin elektrik enerjisinə olan tələbatı iri şəhərlərə yaxın tikilmiş İES-lər və İrandan alınan enerji hesabına təmin olunur.

Türkmənistanda əkinçilik üçün yararlı torpaqların yarısından, xüsusən də, Amudərya boyunca uzanan sahələrdə pambıqçılıqdan istifadə olunur. Burada yığılan pambığın 25%-i zərif liflidir. Ölkədə gələcəkdə pambıq istehsalını 3 milyon tona çatdırmaq nəzərdə tutulmuşdur. Suvarılan torpaqlardan taxıl əkinində, bağçılıqda və üzümçülükdə istifadə edilir. Amudərya çayının aşağı axarlarında çəltik becərilir. Vahələrdə əhali həm də baramaçılıqla məşğul olur. Bostan bitkiləri xüsusilə geniş yayılmışdır. Son illər şəkər çuğunduru əkinləri geniş vüsət almışdır. Kənd təsərrüfatının ikinci sahəsi heyvandarlıqdır. Burada xüsusi cins qaragül qoyunları, zərifyunlu qoyunlar və birhürgüclü dəvələr yetişdirilir. Ölkədə çeşidli xalçalar toxunur, pambıqtəmizləmə, pambıq-parça, ipək, qaragül dərisinin aşılanması və s. fabriklər fəaliyyət göstərir. Türkmənistan üçün daha xarakterik heyvan Axaltəkə atıdır. Axaltəkə vadisində eyniadlı at cinsinin yetişdirilməsinin tarixi 4000 ildən çoxdur. Xüsusi gözəlliyə malik bu cins atlar Türkmənistanın simvolu və ölkənin ön sırada dayanan brendidir.

Ölkənin mühüm tranzit mövqeyindən genişliklə istifadə olunur. Türkmənistanın neytral ölkə kimi mövqeyi ondan bir sıra regional nəqliyyat daşımalarında dolğun istifadə etməyə imkan vermir. Belə ki, regionda nəqliyyat keçidliyi ilə əhəmiyyətə malik ölkə TRACECA nəqliyyat dəhlizinin üzvü deyildir. Buna baxmayaraq, Türkmənistan cənub istiqamətdə nəqliyyat şəbəkəsini yaratmaq mövqeyi tutmuşdur. Təcən şəhərindən İranın Məşhəd şəhərinə çəkilən avtomobil yolu Mərkəzi Asiyanın digər respublikaları, xüsusən, Qazaxıstan və Özbəkistan üçün mühüm əhəmiyyət kəsb edir. Bakı ilə Türkmənbaşı şəhərləri arasında Xəzər dənizində gəmi-bərə işləyir. Ölkənin hələ SSRİ dövründən dəmiryolu ilə Özbəkistan və Tacikistana çıxışları mövcuddur. 2014-cü ildə Şimal-Cənub marşrutu üzrə Qazaxıstan və İranı birləşdirən uzunluğu 917,5 km olan beynəlxalq dəmir yolu xətti istismara verilmişdir. Hazırda Türkmənistan-Tacikistan-Əfqanıstan yeni dəmir yolu xəttinin inşası aparılır.

Türkmənistanda tikinti sektoru da inkişaf edir. Ölkə bütövlüklə tikinti meydanını xatırladır. Belə ki, ölkəyə daxil olan 20 milyard dollar xarici investisiyanın 83%-i tikintiyə yönəlmişdir. Dinamik inkişaf edən dövlət kimi Türkmənistan 50-dən çox ölkə ilə iqtisadi əlaqələr yaratmışdır. Burada dövlət siyasəti ölkənin innovasiya və sənaye baxımından inkişafına, ictimai rifahın təməlinə çevrilməli olan rəqabətədavamlı iqtisadiyyatın yaradılmasına yönəlmişdir. Bununla bağlı ölkədə iqtisadiyyatı dünya standartlarına uyğunlaşdırmaq, neytrallıq, qarşılıqlı faydalı əməkdaşlıq və humanizm

prinsiplərinə əsaslanan əlverişli beynəlxalq münasibətlər sisteminin yaradılması istiqamətində fəaliyyətlər göstərilir.

Türkmənistanda turizm sektoru, xüsusilə, müalicəvi turizm də sürətlə inkişaf edir. Bunun üçün Xəzər sahilində məşhur Avaza turizm zonası yaradılmışdır.

Vurğulanmalıdır ki, daimi bitərəflik kimi yüksək status aldıqdan sonra Türkmənistan BMT-nin işinə fəal şəkildə qoşulmuşdur. Bununla bağlı, Aşqabadda BMT-nin Mərkəzi Asiyada pereventiv diplomatiya üzrə Regional Mərkəzi yaradılmışdır və o, səmərəli fəaliyyət göstərir. Həmin təsisat BMT ilə Mərkəzi Asiyanın beş ölkəsi (*Türkmənistan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Özbəkistan*) arasında qarşılıqlı münasibətlərin daha aktual məsələləri üzrə konstruktiv dialoq üçün mühüm bir məkana çevrilmişdir. Su-energetika problemlərinin həlli, iqtisadi və sosial inkişaf, narkotrafiklə və terrorçuluqla mübarizə məsələləri buraya daxildir. BMT rəhbərliyinin fikrincə, Türkmənistan bu regional strukturun səmərəli fəaliyyəti üçün nümunəvi şərait yaratmışdır. Bununla da Aşqabad bütün Mərkəzi Asiyada real sülhyaratma mərkəzi olmuşdur.

BMT-nin Aşqabaddakı Regional Mərkəznin mühüm vəzifələrindən biri də BMT-nin Əfqanıstana Yardım Missiyasına dəstək verməkdir. Məhz bitərəf Türkmənistan sülhpərvər ölkə kimi əfqanlararası danışıqların keçirilməsi üçün öz paytaxtında yer ayırmış və bununla da Əfqanıstandakı daxili münaqişə meyilliyi sülh müstəvisinə keçirmişdir. Türkmənistan-Əfqanıstan əməkdaşlığının əhəmiyyəti bir sıra birgə infrastruktur layihələrində, Əfqanıstana son dərəcə güzəştli şərtlərlə elektrik enerjisinin verilməsində, humanitar münasibətlərin inkişafında və digər sahələrdə real şəkildə özünü göstərir.

Türkmənistanın enerji təhlükəsizliyinin möhkəmləndirilmsinə yönəlmiş konstruktiv təşəbbüsləri də dünya birliyinə yaxşı məlumdur. Belə ki, Türkmənistanın təşəbbüsü ilə BMT “Enerji daşıyıcılarının etibarlı və sabit tranziti, beynəlxalq əməkdaşlığın və dayanıqlı inkişafın təmin edilməsində onun rolu”, həmçinin, “Beynəlxalq əməkdaşlığın və davamlı inkişafın təmin edilməsində nəqliyyat-tranzit dəhlizlərinin rolu” barədə qətnamələr qəbul etmişdir. Türkmənistan, həmçinin, BMT-nin Energetika Şurasının yaradılması təklifini irəli sürmüş, BMT-nin enerji təhlükəsizliyi üzrə Konvensiyasının işlənməsi və qəbul edilməsi zəruriliyini əsaslandırmışdır. Öz növbəsində, dünya birliyi də Türkmənistanın enerji təşəbbüslərini dəyərləndirmiş və bu ölkə 2017-ci il üçün Enerji Xartiyası üzrə Konfransın sədri seçilmişdir.

Bir cəhət də nəzərdən qaçırılmamalıdır ki, Türkmənistan üçün “su diplomatiyası” da az əhəmiyyət kəsb etmir. Bu ölkə BMT-nin Su Strategiyasının işlənməsi təşəbbüsünü irəli sürmüşdür. Türkmənistan Aralətrafı mühüm problemlərin həlli üzrə də elmi cəhətdən əsaslandırılmış bir sıra təkliflərlə çıxış etmişdir. Dünya birliyi artıq Qaraqum səhrasının düz ortasında “Altın əsr” gölünün salınması üzrə həyata keçirilməsinə başlanılmış irimiqyaslı layihəyə maraq göstərir. Həmçinin, Türkmənistanın BMT-nin himayəsi altında ixtisaslaşmış strukturun - qlobal iqlim dəyişikliklərinin təsiri ilə Mərkəzi Asiyada iqlimin dəyişməsi ilə əlaqədar texnologiyalar üzrə Regional Mərkəzin yaradılması barədə təşəbbüsü xüsusilə əhəmiyyətlidir.

Yuxarıda göstərilənlər dünya birliyi tərəfindən layiqincə qiymətləndirilmişdir. BMT-

nin Baş Assambleyasının 2 fevral 2017-ci ildə keçirilmiş 71-ci sessiyasında 12 dekabrın Beynəlxalq Bitərəflik Günü kimi elan olunması barədə yekdilliklə qətnamə qəbul edilmişdir. Bu, müasir dünyada ilk konstruktiv çığıraçanı Türkmənistan olan daimi bitərəflik nəzəriyyə və təcrübəsinin dünya birliyi tərəfindən de-fakto və de-yure tanınmasının parlaq ifadəsi olmuşdur.

Azərbaycan və Türkmən xalqları eyni kökə, mədəniyyətə, qədim tarixi münasibətlərə və ənənələrə malikdirlər. Bu xalqları dil və din eyniliyi də birləşdirir. Orta Asiya xalqları içərisində milli mənsubiyyəti baxımından Azərbaycan xalqına ən yaxın olan xalqlardan biri türkmənlər hesab olunur. Hər iki xalq türklərin oğuz boyundandır. Azərbaycan Respublikası ilə Türkmənistan arasında diplomatik əlaqələr 1992-ci il iyunun 9-da qurulmuşdur. İki ölkə arasında 100 milyon ABŞ dolları həcmində ticarət dövriyyəsi yaranmışdır. Azərbaycan ilə Türkmənistan arasında əlaqələr həm də beynəlxalq təşkilatlar, xüsusən də, BMT, İƏT və MDB çərçivəsində inkişaf etdirilir. SSRİ dövlətinin mövcudluğu illərində Azərbaycan mütəxəssisləri Türkmənistanın neft sənayesinin formalaşmasında böyük rol oynamışlar. Bununla bağlı Türkmənistanda yerləşən bir çox təsisatlar Azərbaycan Respublikası tərəfindən idarə olunmuşdur. Hazırda bu münasibətlər yeni inkişaf mərhələsinə keçid etməkdədir.

## 6.13. Azərbaycanın dünya dövlətləri təsnifatında mövqeyi

Azərbaycanın dünya dövlətləri təsnifatında mövqeyini xarakterizə etmək üçün bir sıra aparıcı dünya təsisatlarının reytinqləri nəzərdə keçirilməlidir. Aparıcı qlobal reytinq təşkilatlarının hesabatlarında və milli statistik mənbələrdə Azərbaycan dünya iqtisadiyyatında mötədil və dinamik inkişafda olan ölkə kimi mövqe tutur. Onun iqtisadi potensialı əhali və ərazi parametrlərinədək bir sıra aqreqat indekslərdə də əhəmiyyətini nümayiş etdirir.

Dünya iqtisadiyyatı texnoloji inkişaf baxımdan çox ciddi mərhələlər qət etsə də, ökələrin iqtisadi inkişafında, onların dünyadakı iqtisadi və siyasi statusunun müəyyən olunmasında sahib olduqları insan sayı hələ də öz əhəmiyyətini qoruyub saxlayır.

Qitələrin bölünməsinin prinsipləri əsas götürüldükdə Azərbaycan çox az sayda transkontinental ölkələr siraslında yer alır. Onun ərazisinin $^{1}/_{16}$ hissəsi Avropanın hüdudlarına düşür. Azərbaycanın Avropaya düşən hissələri Qusar rayonu, Quba rayonunun ərazisinin çox hissəsi, Şabran və Xaçmazın ərazisinin bir hissəsi, Xızı rayonun ərazisinin yarıdan çoxu, Sumqayıt şəhəri, Novxanı qəsəbəsini əhatə edir. Qitənin sərhədləri Fatmayı ilə Mehdiabadın arasından keçir və buradan keçdikdən sonra Şüvəlanın ərazisinin də çox hissəsi Avropaya daxil olur. Azərbaycanda Avropanın sərhədinin hüdudları təxminən Abşeron rayonun Zirə qəsəbəsində tamamlanır. Zirənin yarısı Asiya, yarısı isə Avropa hüdudları içərisinə düşür. Bakı tam olaraq Avropanın hüdudlarına daxil edilmir. Lakin Bakıda Şüvəlan qəsəbəsinin çox hissəsi, Binəqədi rayonu, Mərdəkan qəsəbəsinin bir hissəsi Avropan hüdudlarında yer alır. Ümumilikdə, Bakının mərkəzi hissəsi Asiya, şimal-qərb hissəsi isə Avropa hesab olunur. Ümumilikdə isə Azərbaycan, ərazisinə görə, dünyada 111-ci yerdə qərar tutmuşdur. Əhalisi dünya

əhalisinin 0,14%-ni təşkil edir və bu göstəriciyə görə o, 91-ci sırada dayanır. Eyni zamanda Azərbaycan bu göstəricisi ilə Rusiya, Ukrayna, Özbəkistan, Qazaxıstan və Belarus (*ərazi ölçüləri istisna olmaqla*) istisna olmaqla, digər bütün keçmiş sovet respublikalarından, Rusiya, Türkiyə, İran və Qazaxıstan istisna olmaqla, bütün digər qonşularından öndədir.

BMT-nin, BYİB-nın, nüfuzlu beynəlxalq təsisatların, habelə ayrı-ayrı ölkələrin milli statistika xidmətlərinin hesabatlarında mühüm reytinq göstəriciləri üzrə Azərbaycan 200 ölkə sırasında mütləq əksər göstəricilər üzrə ilk yüzlüyə, 70% və 50% makrogöstəriciləri ilə, müvafiq olaraq, 50-70-ci sıralarda yer tutur. Ümumilikdə götürüldükdə isə bütün parametrlər üzrə Azərbaycanın dünya dövlətləri təsnifatında mövqeyi ortalamada 50-ci sırada dayanır. Elə makro göstəricilər var ki, Azərbaycan qəti 30-40-ci yerləri tutur. ÜDM göstəricilərinə baxdıqda Azərbaycan dünya dövlətləri təsnifatında 70-ci sıradadır. Bir sıra beynəlxalq təşkilatların, o cümlədən BYİB-nin reytinq düzümündə bu mövqe təsbit edilmişdir. Bu göstərici üzrə Azərbaycan Rusiya, Qazaxıstan və Ukrayna istisna olmaqla, digər MDB dövlətlərindən, həmçinin də Rusiya, Türkiyə, İran və Qazaxıstan istisna olmaqla, digər bütün qonşularından öndədir. BMT, BVF və DB hesablamarı üzrə ümumi ortalamada Azərbaycan adambaşına düşən ÜDM göstəricisinə görə də 70 ölkə sırasında qərar tutur. Bu göstəriciyə görə Azərbaycan Estoniya, Litva, Latviya, Rusiya və Qazaxıstan istisna olmaqla, digər bütün keçmiş sovet respublikalarından öndə dayanır. Vurğulandığı kimi Azərbaycan 2017-ci ildə "Doing Business" hesabatına əsasən 190 ölkə arasında 57-ci pillədə, Davos Dünya İqtisadi Forumu reytinqində isə 35-ci pillədə qərar tutub. Bu göstərici üzrə o, MDB ölkələri sırasında birinci yerdədir. Azərbaycan həmçinin Dünya İqtisadi Forumunun nüfuzlu indeksi sayılan "İnklüziv İnkişaf İndeksi" üzrə də ən yaxşı inkişaf etməkdə olan ölkələr sırasında üçüncü, MDB məkanında isə birinci yerdə qərar tutmuşdur.

ABŞ Mərkəzi Kəşfiyyat Agentliyinin (*CIA*) hər il yayınladığı "The World Factbook" nəşrinin və milli statistika xidmətlərinin hesabatlarına görə, Azərbaycan ixracat reytinqinə görə 60-cı sıralarda yer tutur. Bu göstəricisi üzrə də Azərbaycan Rusiya, Qazaxıstan və Ukrayna istisna olmaqla, digər keçmiş sovet respublikalarından, Rusiya, Türkiyə, İran və Qazaxıstan istisna olmaqla, bütün digər qonşularından öndədir.

Son illərin tədqiqat nəticələrinə görə, Azərbaycan biznes mühitinin yaxşılaşdırılması sahəsində dünyanın ən islahatçı ölkəsi kimi irəli çıxmışdır. O bu göstərici üzrə keçmiş sovet respublikaları olan Qazaxıstan, Rusiya və Ukrayna kimi ölkələrdən, həmçinin, qonşu Türkiyə və İrandan öndədir.

Azərbaycanın "İnsan İnkişafı İndeksi", "İqtisadi Azadlıq İndeksi", "Dünya İdarəetmə İndeksi" və "Həyat Keyfiyyəti Reytinqi" kimi göstəricilər sistemində reytinqi mötədildir.

Azərbaycan, həmçinin, "Cinni indeksi"nə görə keçmiş sovet respublikalarından Rusiya, Türkmənistan, Gürcüstan, Moldova, Ermənistan və Özbəkistandan, həmçinin, də Qazaxıstan istisna olmaqla, bütün qonşu ölkələrdən daha yaxşı vəziyyətdədir.

"Standard & Poor's", "Fitch", "Moody's" kimi təşkilatlar Azərbaycanın kredit reytinqini pozitiv qiymətləndirirlər.

KOF Qloballaşma İndeksi üzrə də Azərbaycan keçmiş sovet respublikalarından Qırğızıstan, Ermənistan, Belarus, Tacikistan, Özbəkistandan və Türkmənistandan, həmçinin, qonşu İrandan öndədir.

Maliyyə müstəqilliyini xarakterizə edən Dövlət Borcu Reytinqinə nəzər yetirdikdə görərik ki, Azərbaycan dövlət borclarının ÜDM-dəki payı göstəricisinə görə ən aşağı sıralarda yer alır. Bu göstərici üzrə Azərbaycan bütün keçmiş sovet respublikalarından, həmçinin, bütün qonşu ölkələrdən daha yaxşı mövqedə dayanır.

Görülən mötəbər işlərin nəticəsidir ki, BMT İnkişaf Proqramının qlobal İnsan İnkişafı Hesabatına əsasən Azərbaycan "orta insan inkişafı" ölkələri kateqoriyasından "yüksək insan inkişafı" kateqoriyasına daxil edilmişdir.

İndi ölkədə iqtisadi liberallaşmanın, struktur islahatlarının yeni mərhələsi başlanır. Bu mərhələdə əsas vəzifə səmərəli iqtisadiyyatın qurulmasından, daha sağlam iqtisadi bazaya əsaslanan təsirli sosial siyasətin həyata keçirilməsindən ibarət olacaqdır.

Bütün bunlar pozitiv inkişaf ssenarisində Azərbaycanın yaxın perspektivdə ən güclü 40-50 ölkə sırasında qərar tutmasına imkan yaradır. Bir sıra əsaslandırmalar isə 2050-ci il perspektivində Azərbaycanı 40-cı sıranı aşıb keçəcəyinə böyük ümidlər verir.

***Əsas anlayışlar:***

**1. "Böyük yeddilik"** - ABŞ, Böyük Britaniya, AFR, Fransa, İtaliya, Yaponiya və Kanadanın daxil olduğu aparıcı dövlətlər qrupudur.

**2. "Böyük səkkizlik"** - ABŞ, Böyük Britaniya, AFR, Fransa, İtaliya, Yaponiya və Kanadanın təmsil olunduğu "Böyük yeddilik"də Krım böhranından əvvəl Rusiyanın da iştirakçı olduğu aparıcı dövlətlər qrupudur.

**3. "Böyük iyirmilik"** - Avropa İttifaqı və 19 ölkə - ABŞ, Böyük Britaniya, Fransa, AFR, İtaliya, Yaponiya, Kanada, Rusiya, ÇXR, Hindistan, Türkiyə, Səudiyyə Ərəbistanı, CAR, İndoneziya, Avstraliya, Koreya Respublikası, Meksika, Brazilya və Argentinanı əhatə edən, ən böyük iqtisadiyyata malik aparıcı ölkələr klubudur.

**4. İqtisadi əməkdaşlıq və inkişaf təşkilatı, İƏİT** - mötəbər demokratiya və azad bazar iqtisadiyyatı prinsiplərini tanıyan inkişaf etmiş ölkələrin beynəlxalq iqtisadi təşkilatıdır.

**5. Dinamik İnkişaf Edən Ölkələr Qurupu, BRICS** - Braziliya, Rusiya, Hindistan, ÇXR və CAR-ın təmsil olunduğu dinamik inkişaf edən ölkələr qrupudur.

**6. Tərəfsiz Dövlətlər Hərəkatı** - hərbi bloklarda iştirak etməmək prinsipləri üzrə dünyanın 120 dövlətini birləşdirən beynəlxalq təşkilatdır.

**7. "Yetmişyeddilər qrupu"** - inkişaf etməkdə olan ölkələrin BMT və onun orqanları çərçivəsində fəaliyyət göstərən, 1964-cü ildə yaradılmış iri dövlətlərarası təşkilatıdır.

**8. "Onbirlər qrupu"** - "Qoldman Sak" qrupunun analitiki Cim O`Nil tərəfindən irəli sürülən, yüksək inkişaf templərinə malik 11 - Meksika, Nigeriya, Misir, Türkiyə, İran, Pakistan, Banqladeş, İndoneziya, Vyetnam, Koreya Respublikası və Filippin - dövlətin ümumiləşmiş adıdır.

**9. D-8 İqtisadi Əməkdaşlıq Təşkilatı** - özünəməxsus prinsiplərə malik 22 oktyabr

1996-cı ildə təsis edilmiş islam ölkələri onan Banqladeş, İndoneziya, İran, Malaziya, Misir, Nigeriya və Pakiştanı birləşdirən əməkdaşlıq təşkilatıdır.

**10. Türk Şurası** - Azərbaycan Respublikasının Naxçıvan şəhərində 2009-cu ildə təsis olunmuş, türkdilli ölkələri birləşdirən beynəlxalq təşkilatdır.

**11. Türkdilli Ölkələrin Parlament Assambleyası, TÜRKPA** - Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə respublikalarının parlament əməkdaşlığı təşkilatıdır.

**12. Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı, TÜRKSOY** - türkdilli ölkə və regionların - Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan, Şimali Kipr Türk Respublikası, Moldovadan - Qaqauz Muxtar Vilayəti, Rusiya Federasiyasından - Tatarıstan Respublikası, Altay Respublikası, Başqırdıstan Respublikası, Xakasiya Respublikası, Yakutiya Respublikası və Tıva Respublikasının mədəniyyət səylərini birləşdirən beynəlxalq təşkilatdır.

**13. Azərbaycan Türkiyə İş Adamları Birliyi, ATİB -** Missiyası Türkiyə və Azərbaycan iş adamlarını bir yerə toplayaraq, Azərbaycanın iqtisadi potensialdan birlikdə istifadə etmək və bir sinerji yaratmaqla bağlı olan, 2002-ci ildə təsis edilmiş Türk İş Adamları Dərnəyinin hüquqi varisi olan təşkilatdır.

**14. "Cənub Qaz Dəhlizi"** - "Şahdəniz-2" çərçivəsində hasil edilən qazın Xəzər dənizindən Avropaya nəqlini nəzərdə tutan nəhəng qaz boru xəttidir.

**15. Trans-Anadolu Boru Kəməri**, **TANAP** - "Cənub Qaz Dəhlizi"nin tərkib hissəsi olaraq Azərbaycanın Xəzərdəki qaz-kondensat "Şahdəniz" yatağı və ölkəyə məxsus digər yataqlarından çıxarılan qazın Türkiyə qərb sərhədlərinə qədər nəqlini reallaşdıran boru kəməridir.

**16. Trans-Adriatik Boru Kəməri, TAP** - Azərbaycana məxsus "Şahdəniz" qaz-kondensat yatağının işlənməsi üzrə müvafiq konsorsium tərəfindən Azərbaycan qazının Yunanıstan, Albaniya və Adriatik dənizi vasitəsilə İtaliyanın cənubuna, oradan isə Qərbi Avropaya nəqli layihəsidir.

**17. Trans-Asiya-Avropa, TAE** - ÇXR-in Şanxay şəhərindən AFR-in Frankfurt şəhərinədək 27 min km-i əhatə edən Avropa beynəlxalq fiber-optik rabitə xəttidir.

**18. Trans-Avrasiya Super İnformasiya Magistralı, TASIM** - Şərqi Asiyaya (*Honq Konq*) qədər Avrasiya ölkələrinin əhatə edən transmilli fiber-optik xətti layihəsidir.

**19. Avropa-Yaxın Şərq İnformasiya Magistralı**, **EPEG** - AFR-in Frankfurt şəhərini, Şərqi Avropadan keçməklə, Rusiya, Azərbaycan, İran və Fars körfəzi - Oman sultanlığının paytaxtı Maskat şəhəri ilə birləşdirən böyük tutumlu rabitə kanalı, konsorsiumdur.

**20. Müstəqil Dövlətlər Birliyi**, **MDB** - keçmiş SSRİ dövlətinin müttəfiq respublikaları olmuş - (*Baltikyanı ölkələr və Gürcüstan istisna olmaqla*) Azərbaycan, Rusiya, Ukrayna, Belarus, Moldova, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan, Tacikistan və Ermənistanın birliyindən ibarət regional təşkilatdır.

**21. Avrasiya İqtisadi İttifaqı -** Rusiya, Belarus, Qazaxıstan və Ermənistanın təmsil olunduğu, 2014-cü ildə təsis edilmiş beynəlxalq regional iqtisadi inteqrasiya təşkilatıdır.

**22. Rusiyanın və Belarusun İttifaq Dövləti** - Rusiya Federasiyası ilə Belarus Respublikasının arasında mərhələləri şəkildə təşkil edilən, vahid siyasi, iqtisadi, hərbi, gömrük, valyuta, hüquq, humanitar, mədəni sahələri əhatə edən konfederativ ittifaqdır.

**23. Dövlətlərarası Aviasiya Komitəsi, DAK** - keçmiş SSRİ-nin 11 dövlətinin - Azərbaycan, Qazaxıstan, Özbəkistan, Qırğızstan, Türkmənistan, Tacikistan, Rusiya, Ukrayna, Belarus, Moldova və Ermənistanın üzv olduğu, mülki aviasiya və hava məkanından istifadə sahəsində dövlət funksiyaları və səlahiyyətlərinin həvalə edildiyi icra orqanıdır.

**24. Baltik regionu ölkələri** - Baltik dənizi hövzəsində yerləşən Danimarka, İsveç, Estoniya, Latviya, Litva, Polşa, Finlandiya, AFR və Rusiyanın (*müəyyən yanaşmalarda Belarusun da*) daxil olduğu transsərhəd region ölkələridir.

**25. Balkan regionu ölkələri -** Balkan yarımadası və ona yaxın ərazidə yerləşən Albaniya, Bolqarıstan, Bosniya və Herseqovina, Yunanıstan, Makedoniya, Monteneqro, Serbiya, Xorvatiya, Sloveniya, Rumıniya, Türkiyə, İtaliya və Kosovonun daxil olduğu transsərhəd region ölkələridir.

**26. Ərəb resurs iqtisadiyyatı** - zəngin neft-qaz ehtiyatlarına malik ərəb dünyası ölkələri - Səudiyyə Ərəbistanı, BƏƏ, Küveyt və digər bu kimi islam monarxiyası dövlətlərində neft-qaz sferasında əldə edilmiş vəsaitlər hesabına bir sıra müasir sənaye, kənd təsərrüfatı və xidmət sahələrində dövlət nəzarəti ilə dövlətin birbaşa iştirakının uzlaşdırıldığı iqtisadi modeli ehtiva edir.

**27. Super nəhəng ölkələr** - miqyaslı insan resurslarına malik olmaqla iqtisadi siyasətlərini həmin potensialdan səmərəliliklə istifadəyə yönəldən ÇXR və Hindistanı ehtiva edir.

**28. İnzibati-amirlik iqtisadiyyatlı ölkələr** - iqtisadiyyatı, əsasən, kommunist siyasi sistemi üzərində quran, istehsal edilən əmtəə və xidmətlərin miqdarı və qiymətləri onların hökumətləri tərəfindən planlanlaşdırlan keçmiş SSRİ, Mərkəzi və Şərqi Avropanın postsovet ölkələri, Kuba və Koreya Xalq Demokratik Respublikası kimi dövlətləri ehtiva edir.

**29. Yoxsul ölkələr** - iqtisadi potensialına görə reytinq cədvəlində 130-cu sıradan sonrakı yerləri tutan, 60-dan çox dövləti əhatə edən ölkələr qrupudur.

**30. Panafrikanizm** - Afrika qitəsində hələ müstəmləkə dövründə yaranmış, Afrika ölkələri yoxsulluq və gerilikdən yalnız öz qüvvələrini birləşdirməklə qurtula bilmərinə əsaslan ideya-siyasi hərəkatdır.

**31. İntiharçı ölkələr** - yoxsulluq vəziyyəti iqtisadiyyatlarını dağıdan və pozan, daimi daxili və ya xarici müharibələr nəticəsində daha da dərinləşən yoxsul ölkələr (*Ruanda, Anqola, Əfqanıstan və s.*) qrupudur.

**32. İqtisadiyyatları modernizə olunmuş ölkələr** - inkişaf etmiş ölkələrdən iqtisadi strukturdakı daha aşağı effektivlik və məhsuldarlıqları, həmçinin, kənd təsərrüfatı məhsullarının və hasilat sənayesinin ÜDM-də yüksək payı ilə fəqlənən keçid iqtisadiyyatlı Avropa ölkələri, Latın Amerikasının yeni sənaye ölkələri və Asiyanın "ikinci dalğa" yeni sənaye ölkələrinin bir hissəsini əhatə edən dövlətləri ehtiva edir.

**33. Ada resurs iqtisadi sistemli ölkələr** - başlıca və haradasa yeganə sərvəti ilin

hər vaxtı istirahət üçün imkanları təmin edən əlverişli iqlim şəraitinə malik, əsasən, tropik zonanın ada dövlətləri (*Karib hövzəsi dövləti - Antiqua və Barbuda, Baham Adaları, Barbados, Sent-Kits və Nevis, Qrenada, həmçinin, Hind okeanında Seyşel adaları,* Azor adaları (*Portuqaliya*), Havay adaları (*ABŞ*) və Kanar adalarını (*İspaniya*)) ehtiva edir.

**34. Heç bir qrupda təmsil olunmayan ölkələr** - müxtəlif iqtisadiyyat tipi üçün xarakterik xüsusiyyətlərinə görə birləşən və mövcud iqtisadi modelli ölkə qruplarının heç birinə tam aid edilməyən 20-yə yaxın ölkəni ehtiva edir.

**35. Cənubi Qafqaz regionu ölkələri** - Qafqaz regionunun cənub hissəsi ərazisində yerləşən Azərbaycan, Gürcüstan və Ermənistan respublikalarını ehtiva edir.

**36. Xəzər hövzəsi regionu** - Xəzər dənizi sahilərində yerləşən 5 ölkə - Rusiya, Qazaxıstan, Türkmənistan, İran və Azərbaycanı əhatə edən coğrafi regiondur.

**37. Xəzər dənizinin bölünməsi problemi** - Xəzər dənizinin okean, göl və ya əlahiddə yeni prinsip üzrə bölünməsi ilə əlaqədar statusunun müyyənləşdirilməsi problemidir.

**38. Dəniz** - qismən quru və qismən də sualtı relyef yüksəklikləri (*astanalar*) ilə ayrılan dünya okeanının bir hissəsi olan iri su hövzələridir.

**39. Göl** - materikin quru hissəsi üzərində yerləşən, tam quru sahillərə malik qapalı və həmçinin, dənizlər və dünya okeanı ilə birbaşa əlaqəsi olmayan su hövzəsidir.

**40. Xəzərin beynəlxalq-hüquqi statusu** - 1991-ci ildə SSRİ dağıldıqdan sonra Xəzərsahili dövlətlərin sayının beşə yüksəlməsi (*Azərbaycan, Qazaxıstan, Türkmənistan, Rusiya və İran*) ilə əlaqədar yaranan yeni geosiyasi situasiyada onun akvatoriyası, su dibinin və sərvətlərinin həmin ölkələr arasında bölünməsi prinsipini və habelə naviqasiyası ilə bağlı beynəlxalq hüquqi rejimi ehtiva edən şərtlər sistemidir.

**41. Gülüstan müqaviləsi** - Rusiya imperiyası ilə İran (*Qacar dövləti*) arasında 12 oktyabr 1813-cü ildə imzalanmış tarixi Azərbaycan ərazilərini bu iki dövlət arasında bölən birinci müqavilədir.

**42. Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya** - Qazaxıstanın Aktau şəhərində 2018-ci ildə Xəzəryanı dövlətlərin dövlət başçılarının V Zirvə toplantısında imzalanmış Xəzərin özünəməxsus "Konstitusiyası" kimi təstiqini tapan Xəzər dənizinin hüquqi statusu üzrə Konvensiyadır.

**43. Azərbaycanın dünya dövlətləri təsnifatında mövqeyi** - BMT-nin, BYİB-nın, nüfuzlu beynəlxalq təsisatların mühüm reytinq göstəriciləri üzrə Azərbaycan dünya ölkələri sırasında mütləq əksər göstəricilər üzrə ilk yüzlüyə, 70% və 50% makro-göstəriciləri ilə, müvafiq olaraq, 50-70-ci sıralarda yer tutur.

# VII FƏSİL

# Dünya təsərrüfatının resurs potensialı

## 7.1. Dünya iqtisadiyyatında təbii-resurs potensialının xüsusiyyətləri

Dünya təsərrüfatının müasir inkişaf mərhələsi təbii resurslardan istehlakın artan miqyasları, təbiətin və cəmiyyətin qarşılıqlı münasibəti prosesinin kəskin mürəkkəbləşməsi, təbiətə texnogen təsir nəticəsində meydana çıxan spesifik təbii-antropogen proseslərin təzahür sferasının intensivləşməsi və genişlənməsi ilə fərqlənir. Dövlətlərin artan qarşılıqlı əlaqəsi və qarşılıqlı münasibətləri şəraitində dünya ictimai prosesi daha çox qlobal problemlərin bütün ölkələrin və xalqların maraqlarına və talelərinə toxunan, bütövlükdə bəşər sivilizasiyasının tərəqqisi üçün əhəmiyyəti olan ümumbəşəri problemlərin həllindən asılı olur.

Dünya iqtisadiyyatının əsas qlobal problemlərdən biri kimi xammal problemi çıxış edir. Milli iqtisadiyyatların və bütün dünya təsərrüfatının fəaliyyəti iqtisadi resurslara - istehsal amillərinə əsaslanır. Məcmu halda iqtisadi resurslar təbii, əmək, kapital, sahibkarlıq və elmi-texniki, informasiya biliklərində əks olunaraq milli iqtisadiyyatın və ya dünya regionlarının, yaxud da bütövlükdə dünya iqtisadiyyatının potensialını təşkil edir. Bununla əlaqədar olaraq, bütövlükdə dünyanın, ayrı-ayrı materiklərin və ölkələrin təbii-resurs potensialının öyrənilməsi, dəyərləndirilməsi, onların müasir dünya birliyinin müxtəlif sosial-iqtisadi strukturlarında yaranmış təsərrüfat istifadəsi sistemlərinin təhlili, təbii sərvətlərin regional və optimal mənimsənilməsi haqqında təsəvvürlərin işlənib hazırlanması böyük əhəmiyyət kəsb etməyə başlayır.

Təbii resurslar çoxnövlü, geniş spektrli olaraq iqtisadiyyatın inkişafı üçün zəruri şərtdir. Onlar canlı və cansız təbiət sistemini və obyektlər məcmusunu əhatə edirlər. Təbii resurslar (*natural resources*) istehsal güclərinin müasir inkişaf və öyrənilməsi səviyyəsində insan cəmiyyətinin tələblərinin ödənilməsi üçün istifadə olunan təbiətin cismləri və gücləridirlər. “Təbii resurs” anlayışının mənşəyini və iqtisadi əhəmiyyətini əks etdirən ikili xarakteri ilə əlaqədar onun xüsusi və coğrafi ədəbiyyatda bir neçə təsnifatı işlənib hazırlanmışdır və tətbiq olunmaqdadır.

Təbii resurslar anlayışının təbii şərtlər anlayışı ilə müəyyən tarixi qarşılıqlı əlaqəliliyi vardır. İstehsal güclərinin inkişafın üzrə təbii şərtlərin bir sıra elementləri, (*iqlim və*

*rekreasiya və s.*) eyni zamanda təbii resursların elemetlərini də təşkil edir. Bununla belə, vurğulanmalıdır ki, "təbii şərtlər" anlayışı genişliklə qanuniləşdirilməmişdir. Bu anlayış çox zaman bütün coğrafi ərazi, təbii resurslar və xüsusi təbii şərtləri əhatə edən coğrafi mühitin komponentləri məcmusu kimi şərh olunur. Təbii şərtlər zaman, iqtisadiyyatın səviyyəsi kimi bir sıra dəyişən xarakterli olsalar da, onlar daim insan fəaliyyəti ilə bağlıdır. Bu bağlılıq isə əhəmiyyətli dərəcədə insanın təsərrüfat fəaliyyəti və gerçək iqtisadi münasibətlərdə öz əksini tapır. Belə ki, bir sıra sosial-iqtisadi və təsərrüfat problemlərinin həlli əhəmiyyətli dərəcədə təbii şərtlərdən asılıdır.

Təbii resurslar torpaq və yerin təki, su və meşə, flora və fauna, enerji və mineral, iqlim və rekreasiya, məkan və zaman resursları məcmusunda təbii resurs potensialını ehtiva edir. Buraya hava məkanı da daxil edilir.

Təbii resurslar aşağıdakı kimi təsnifatlandırılır:

Mənşə ilə:

❒ təbii komponentli resurslar-torpaq, yerin təki, iqlim, su, bitki, heyvanat, mineral;
❒ təbii-ərazi kompleksləri resursları - dağ mədən, su təsərrüfatı, meşə təsərrüfatı, seliteb (*ictimai və yaşayış binalarının, yolların və küçələrin, habelə şəhər daxilində sahələrin, şəhər tipli qəsəbələrin tikintisi və salınması üçün torpaqlar*);

Təsərrüfat istifadəsinə görə:

❒ sənaye istehsalı resursları;
❒ kənd təsərrüfatı istehsalı resursları (*aqroiqlim, təsərrüfat təyinatlı torpaqlar, yem bazası - bitki resursları, suvarma təyinatlı sular, gölməçələr*);
❒ enerji resursları (*yanacaq faydalı qazıntılar, hidroenerji resursları, bioyanacaq, nüvə xammalı*);
❒ qeyri-enerji resursları (*mineral, su, torpaq, meşə, balıq*);

Tükənmə amilinə görə:

❒ tükənən;
❒ bərpa olunmayan (*mineral, torpaq resursları*);
❒ bərpa olunan (*bitki və heyvanat aləmi*);
❒ tam bərpa olunmayan - bərpa sürəti təsərrüfatda istehlakından aşağı səviyyədə (*əkinə yararlı torpaqlar, yetkin böyümə meşələri, regional su ehtiyatları*).

Dəyişdirilmə dərəcəsinə görə:

❒ əvəzolunmaz;
❒ dəyişdirilə bilən.

İstifadə meyarına görə:

❒ istehsal (*sənaye, kənd təsərrüfatı*);
❒ potensial-perspektivli;
❒ rekreasiya (*təbii komplekslər və onların komponentləri, tarixi-mədəni görməli yerlər, ərazilərin iqtisadi potensialı*).

Təbii resursların təsnifatlandırılmasında müəyyən paralelliklər olsa da burada genesiz əsaslı bölgü də hesaba alınır:

❒ litosfer (*faydalı qazıntılar, torpaq və əkin torpaqları*);
❒ hidrosfer (*buzlaqlar, quru ərazilərin suları, Dünya okeanı, axar suların, dəniz qabarma və çəkilmələrin enerjisi*);
❒ atmosfer (*iqlim, rekreasiya, külək enerjisi*).

Bütün bunlarla yanaşı dünya təcrübəsində təbii resurslar texniki və iqtisadi öyrəntili və girişli olmaqla da bir neçə kateqoriyaya bölünürlər:

❒ girişli və ya sübut olunmuş və ya real resurslar (*kəşfiyyatın və ya tədqiqatın müasir üsulları ilə aşkarlanmış, mənimsənilməsi texniki və iqtisadi rentabelli*);
❒ potensial və ya ümumi resurslar (*nəzəri hesablamalarla, kəşfiyyat müayinələri ilə təyin olunmuş*).

Resurs kateqoriyaları üzrə baza göstəricilərini əks etdirən məlumatlar şəkil 6, 7, 8 və 9-da verilmişdir.

| | |
|---|---|
| ***Neft*** | **Ehtiyatlar - 240 milyard ton.**<br>İllik məsrəf 4,3 milyard ton. Perspektivlik imkanları 45-50 il |
| ***Təbii qaz*** | **Ehtiyatlar - 187 trilyon m3.**<br>İllik məsrəf 3,7 trilyon m3. 50 illik perspektiv. |
| ***Daş kömür*** | **Ehtiyatlar - 892 milyard ton.**<br>İllik məsrəf 8,1 milyard ton. Mənimsəmə imkanlığı 110 ildən çox. |
| ***Yanar şistlər*** | **Ehtiyatlar - 40 trilyondan çox.**<br>Zəif istifadə olunur. Yüksək əmək tutumludur. |
| ***Torf*** | **Ehtiyatlar - 176 milyard ton.**<br>Ekoloji pozuntuluğuna görə məhdud perspektivlidir. |
| ***Çayların hidroenerjisi*** | **Ehtiyatlar - 150 milyard ton.**<br>Ekoloji problemliyə baxmayaraq aktiv istifadə olunur və perspektidlidir. |
| ***Atomun parçalanması və nüvə sintezi enerjisi*** | **Fiziki olaraq ehtiyatlar tükənməzdir.**<br>Ekoloji fəsadlı olmasına baxmayaraq inkişaf etməkdədir |
| ***Geotermal enerji*** | **Yetərli ehtiyatlıdır. Zəif istifadə olunur.** Perspektivlidir. |
| ***Dənizlərin qabarma və çəkilmələri, okean axınları enerjisi*** | **Yetərli ehtiyatlıdır. Zəif istifadə olunur.** Perspektivlidir. |
| ***Günəş radiasiyası*** | **Praktiki tükənməzdir. Məhdud istifadə olunur.** Perspektivlidir. |
| ***Külək enerjisi*** | **Yerli əhəmiyyətlidir və lokal keyfiyyətdə** perspektivlidir. |

**Şəkil 6. Enerji resursları**

Rekreasiya (*latınca* - recreatio - *bərpa*) yorğun və ya yorulmuş insanın özünü normal hiss etməsinin və iş qabiliyyətinin bərpasının təmin olunması məqsədli kompleks sağlamlaşdırma tədbirləridir. Rekreasiya anlayışı istrahətin bütün növlərini - sana-

toriya-kurort müalicəsini, turizm, həvəskar idman, rekreasiya balıqçılığı və s. əhatə edir. Bayramlar, tətillər, tədris prosesindəki fasilələr və əmək prosesində məsrəf olunmuş insan gücünün bərpası da rekreasiya anlayışı ilə ifadə olunur. Bir sıra ölkələrdə rekreasiya xidməti iqtisadiyyatın iri sahəsi olaraq çıxış edir.

| **Su resursları** | |
|---|---|
| *Okean və dəniz suları* | **Keyfiyyət miqdarı mahiyyətcə dəyişməsə də, bir qədər dayazlıqlarda turşulaşma getmişdir.**<br>Qlobal olaraq ağır metalların həcmi artmışdır. Hesab olunur ki, çirklənmə mümkün normaları aşmışdır. |
| *Göllər və su anbarları* | **Ehtiyatlar - 5000 $m^3$ su həcmindədir.**<br>Turşulaşma və çirklənmə müşahidə olunur. |
| *Axar sular - çaylar* | **Çox hallarda dərin antropogen transformasiya olunmuşdur.**<br>İntensiv istifadə edilir. |
| **Torpaq resursları** | |
| *Torpaqlar* | **Qlobal olaraq pozuntuludur, əkin sahələrinin 20%-i duzlaşmışdır.**<br>Ekstremal tənzimləmə tələb olunur. |
| *Relyefin geomorfoloji strukturu* | **Faydalı qazıntıların hasilatı və insanın təsərrüfat fəaliyyəti nəticəsində lokal dəyişmişdir.**<br>Diqqət tələb edir. |
| *Geomorfoloji dərin strukturlar* | **Yeraltı su sorumları su hövzələrinin doldurulması nəticəsində lokal dəyişmişdir.**<br>Diqqət tələb edir. |

**Şəkil 7. Su və torpaq resursları**

Rekreasiya resursları (*recreational resources*) insan mənəvi və fiziki gücünün, habelə onun əmək qabiliyyətinin bərpası və inkişafına təkan verəcək təbii, təbii-texniki və sosial-iqtisadi komplekslərinin və onların elementlərinin məcmusudur. Rekreasiya resursları insanların istirahətini dolğun təmin edir. Müasir və perspektiv strukturda rekreasiya tələbləri və texniki-iqtisadi imkanlardan bilavasitə kurort və turizm xidmətlərinin göstərilməsi üçün istifadə olunur. Təbii-rekreasiyon (*qoruqlar, yasaqlıqlar, milli parklar, şəhərətrafi yaşıl massivlər və s.*) və təbii-tarixi (*tarixi abidələr, arxeoloji, memarlıq, incəsənət*) növlərə ayrılır. Rekreasiya resurslarının tükənmə və itmə sürəti yüksəkdir və bu da özünə əlahiddə diqqət tələb edir.

İqlim resursları (*climate resource*) günəş, külək və atmosfer suları enerjisini özündə birləşdirən tükənməz təbii sərvətlər məcmusudur. İqlim resursları iqtisadiyyatın və sosial həyatın müxtəlif sahələrində iqlim elementlərinin istifadə olunan maddi və enerji miqdarını əks etdirir.

| Mineral resurslar | |
|---|---|
| **Metal filizlər, qeyri-metal faydalı qazıntılar** | **Müntəzəm olaraq tükənir.**<br>Tənzimləmə tələb edir. |
| **Bitki və heyvanat dünyasının resursları** | |
| ***Bitki biokütləsi*** | **Qlobal azalmışdır.**<br>Diqqət və tənzimləmə tələb edir. |
| ***Bitki örtüyünün təsərrüfat istehsalı*** | **Yalnız məhdud miqyaslarda artım mümkündür.** |
| ***Bitki aləminin genetik növ quruluşu*** | **10% bitkilərin məhv olması təhlükəsi vardır.**<br>Qorunma tələb edir. |
| ***Heyvanat aləminin biokütləsi*** | **Ümumiyyətlə stabildir.**<br>Diqqət və tənzimləmə tələb edir. |
| ***Heyvanat aləminin təsərrüfatlıq istehsalı*** | **İstənilən səviyyədən bir qədər azdır.**<br>Artım imkanlıdır (*xüsüsən lokal olaraq*). Perspektivlidir. |
| ***Heyvanat aləminin genetik növ quruluşu*** | **1000-dən çox iri və naməlum sayda kiçik heyvanın itməsi təhlükəsi.**<br>Labüd qorunma və himayəçilik ehtiyacındadır. |

**Şəkil 8. Mineral, bitki və heyvanat dünyasının resursları**

| İqlim və rekreasiya-tənəffüs resursları | |
|---|---|
| ***Təbii iqlim resursları*** | **Antropoloji amillərin təsiri altında kəskin dəyişmə təhlükəsinin mövcudluğu.**<br>Zəruri tənzimləmə ehtiyaclıdır. |
| ***Ümumi ekoloji balans resursları*** | **Tükənməyə yaxındır.**<br>Geomühitin dönməz dəyişkənlik təhlükəsi vardır. Zəruri diqqət və tənzimləmə üzrə təcili tədbirlər görülməsi ehtiyaclıdır. |
| ***Rekreasion resurslar*** | **Tükənmə və itmə sürəti yüksəkdir.**<br>Diqqət tələb edir. |
| **Məkan və zaman resursları** | |
| ***Ərazi, su, kosmik məkan resursları*** | **Qeyri-qənaətçilik, qeyri-səmərəlilik və çirklənmə müşahidə olunur.**<br>Artıq məskunlaşma və tullantıların yüksək konsentrasiyası mövcuddur.<br>Diqqət və tənzimləmə tələb olunur. |
| ***Zaman resursları*** | **Ən defisit resurslardan biridir.**<br>Bəşəriyyət hələ ki, sistemli resurs düşüncəsinə keçid etməmişdir.<br>Hər an və zaman vaxt çatışmazlığı mövcuddur. |

**Şəkil 9. İqlim və rekreasiya-tənəffüs, məkan və zaman resursları**

Məkan və zaman resursları (*resource spaces and time*) ərazi, su, yaxın kosmik məkan və zaman resurslarını əhatə edir. Məkan resurslarının istifadəsində qeyri-qənaətçilik, çirklənmə və qeyri-səmərəlilik müşahidə olunur. Artıq məskunlaşma və tullantıların yüksək konsentrasiyası mövcuddur. İstifadəsi diqqət və tənzimləmə tələb edir. Zaman resursları isə ən defisit resurslardan hesab olunur. Hər an və hər zaman zaman çatışmazlığı mövcuddur. Reallıq belədir ki, bəşəriyyət hələ də sistemli resurs düşüncəsinə keçid etməmişdir.

Dünya iqtisadiyyatının təkamülü prosesinin ayrı-ayrı mərhələlərində hər bir resursun rolu və istifadəsi müxtəlif olmuşdur. Sənayeləşmə dövrünədək torpaq, su, metal, tikinti materialları, flora və fauna əsas resurslar olmuşlar. Sənaye çevrilişi və iri maşınlı sənaye dövründə isə metal filizləri, daş kömür, neft, qaz və intellektual resurslar önə çıxmışlar. ETT isə bəşəriyyətin təbii resurs istehlakına olan tələbini son 50-60 il ərzində xeyli genişləndirmişdir. Müasir reallıqlar belədir ki, hər bir ölkədə təbii sərvətlərin rolu məxsus olduğu xammal bazasının vəziyyəti, iqtisadiyyatın inkişaf səviyyəsi, dünya inteqrasiya proseslərində iştirak dərəcəsi kimi amillər məcmusu ilə təyin olunur. İstifadəsi təmin olunan təbii resurslar ölkə iqtisadiyyatının təməlini təşkil edir və onun inkişafına mühüm təkan verir. Dövlətin mülkiyyətindəki bir sıra təbii resurslar pulsuz olaraq cəmiyyətin maraqları baxımından istifadə edilir. Özəl sektorda isə onların istifadəsi xüsusi vergilər, renta və digər ödənişlərlə müşaiyət olunaraq əlavə iqtisadi dividentlər yaradır. Burada bir cəhət də yaddan çıxarılmamalıdır ki, təbii resurslar sonsuz və əbədi deyildir. Onların ekoloji təsir xüsusiyyətliliyi isə bu sahədə idraklı tənzimləməni və səmərəli resursqoruyucu istifadəni şərtləndirir.

## 7.2. Resurslar və ehtiyatlar kateqoriyası

Təbii resurslar potensialı müxtəlif geoloji və iqtisadi yanaşmalarda əks olunaraq ehtiyatlar və resurslar kateqoriyasında təsnifatlandırılır. Bu təsnifatlandırma son dərəcə ümumi deyildir və bir çox ölkələrdə onlar müəyyən dərəcədə fərqliliklərə malikdirlər. Buna baxmayaraq, ehtiyatlar və resurslar kateqoriyası bölgüsündə ortaq cəhətlər də yetəricədir.

Sadə anlamda resurslar kateqoriya və ölçülərlə xarakterizə olunur, ehtiyatlar isə yüksək kateqoriyalı resursları bildirir. Geniş mənada geoloji və iqtisadi baxımdan ehtiyatlar və resurslar kateqoriyasını aşağıdakı əlamətlər üzrə fərqləndirirlər: Təbii sərvətləri semantik ifadə edən fransız sözü resurslar (*ressource*) tərcümədə "köməkçi vasitələr" kimi səciyyələndirilir. Onlar əmtəə və xidmətlər istehsalına sərf edilən imkan və vasitələri təcəssüm etdirərək təbii və iqtisadi kateqoriyalara təsnifatlandırılırlar. Bu təsnifatlandırmada ilk sırada dayanan təbii resurslar təssərüfat həyatınının əsasını, iqtisadiyyatın ilkin xammal bazasını təşkil edirlər.

Dağ-mədən sənayesi aspektində resurslar və ehtiyatlar kateqoriyası fərqləndirilir.

Burada resurslar qiymətləndirilərək yatağın kəşf olunmuş hissəsindən çıxarıla bilən məhsulun həcmi (*kəşf edilmiş resurslar*) ilə kəmiyyəti qiymətləndirilərək hələ aşkarlanmamış (*kəşf edilməmiş resurslar*) məhsulun həcmini ifadə edir.

Ehtiyatlar (*reserve*) isə yatağın kəşf olunmuş hissəsində reallaşmış hasilat miqdarını hesaba almayan, kommersiya baxımından çıxarılması mümkün sayılan məhsul həcmidir.

Faydalı qazıntılar dağ-mədən sənayesinin istehsal predmetləridir. Dağ-mədən sənayesi (*mining industry*) faydalı qazıntıların hasilatı və kəşfiyyatı, habelə yarımfabrikatların alınması və onların ilkin emalı ilə məşğul olan istehsal sahələrinin məcmusudur. Mineral enerji xammalının hasilatı (*neft sənayesi, qaz sənayesi, kömür sənayesi, torf sənayesi, şist sənayesi, uran sənayesi və geotermiya*), qara və aşqar metal filizləri hasilatı və emalı (*dəmir filizi sənayesi, manqan filizi sənayesi,xromit sənayesi, volfram sənayesi, molibden sənayesi, vanadium sənayesi*), əlvan metallurgiya üçün əlvan metal filizlərinin hasilatı və emalı (*alüminium sənayesi, mis sənayesi, nikel sənayesi, qalay sənayesi, qurğuşun sink sənayesi, sürmə sənayesi*), dağ-kimya xammalı sənayesi (*apatit, nafelin, kalium duzu, kükürd kolçedanı, bor filizi, fosfat xammalı, şoranı-ammonium nitrat hasilatı*), qeyri-filiz sənaye xammalı və tikinti materialları istehsalı xammalı (*kvars, qrafit, çöl şpatı, asbest, gips, gil, mergel, əhəngdaşı, təbaşir, qranit, dolomiti, kaolin*), qiymətli və bəzək daşlarının hasilatı (*almaz sənayesi, özürəngli daş xammalı*), hidromineral sənaye (*mineral yeraltı su*) qruplarına ayrılır. Dağ-mədən sənayesinin inkişafının əsasını təbii (*faydalı qazıntı yataqlarının mövcudluğu*) və sosial-iqtisadi amillər təşkil edir.

Ehtiyatlar kateqoriyası olduqca dinamik meyillidir və onun ölçüləri ETT nəticəsində təbəddülatlara uğrayır. Belə ki, dəmir, marqans, mis, kobalt və digər bu kimi mineral ehtiyatların əksəriyyəti okeanların dibində cəmləşmişdir. Onların səmərəli düzümdə çıxarılması texnoloji və iqtisadi amillərlə bağlıdır. Digər tərəfdən əksər inkişaf etməkdə olan ölkələrdə ehtiyatlar potensial zəif öyrənilmiş və hesablanılmışdır. Bu amil də perspektivdə daha optimal həllinə qovuşacaqdır.

Ehtiyatlarla bağlı ən sadə təsnifatda onlar geoloji tədqiq edilərək aşkarlanmış - geoloji ehtiyatlara və geoloji ehtiyatlardan hasilatı iqtisadi mümkün olan, çıxarıla bilən ehtiyatlara bölünürlər. Geniş təsnifatda ehtiyatlara geoloji öyrənilmiş və əsaslandırılmış, texniki və texnoloji səmərəli və iqtisadi məqsədəuyğun və ya səmərəli kateqoriyada baxılır.

Bütün bunlardan çıxış edərək ehtiyatları və resursları aşağıdakı bölgüdə səciyyələndirmək olar:

- ilkin, perspektiv və proqnozlaşdırılan;
- aktiv və çətin çıxarıla bilən;
- çıxarıla bilən məcmuda - çıxarılmış (*yığılmış hasilat*) və cari (*qalıq*);
- balans məcmuda - çıxarıla bilən (*rentabelli*) və ehtiyatda olan (*şərti rentabelli*);
- geoloji məcmuda - balans (*sənaye*) və balansarxası (*qeyri-sənaye*);

Ehtiyat və resursların kateqoriyalaşmasına müvafiq kodlaşdırmalar da tətbiq edilir:

Ehtiyatlar öyrənilmə dərəcəsinə görə dörd - A, B, C1, C2, resurslar isə üç - C3, D1, D2 kateqoriyalarına bölünür.

- A - öyrənilmiş - kəşfiyyat işləri ilə detallı olaraq öyrənilmiş, ölçüləri təyin edilmiş və hazırda sənayeləşmə altındakı ehtiyatlar;
- B - kəşfiyyatla öyrənilmiş, ölçüləri təyin edilmiş və təcrübi-istismar mərhələsində olan ehtiyatlar;
- C1 - geoloji və geofiziki göstəricilər əsasında təyin olunaraq testdən keçmiş kəşfiyyat altındakı yataqlarda olan ehitiyatlar;
- C2 - geoloji və geofiziki göstəricilər əsasında tədqiq edilmiş, kəşfiyyat altında olmayan yataqlardakı ehtiyatlar;
- C3 - dərin qazma üçün hazırlanan perspektiv ehtiyatlar;
- D1 - potensial: - nəhəng regional strukturlar sərhədlərində sənayecə dəyərləndirilmiş perspektiv ehtiyatlar;
- D2 - proqnoz: - nəhəng regional strukturlar sərhədlərində sənayecə hələ dəyərləndirilməmiş perspektiv ehtiyatlar.

Aşağıda bu təsnifatlandırma şəkil formatda əksini tapmışdır (*mühüm kateqoriyalar hərflər və indekslərlə göstərilir*):

| **Q** | **A** | **B** | **C1** | **C2** | **C3** | **D1** | **D2** |
|---|---|---|---|---|---|---|---|
| Yığılmış hasilat | Ehtiyatlar | Ehtiyatlar | Ehtiyatlar və ya resurslar | Ehtiyatlar və ya resurslar | Ehtiyatlar və ya resurslar | Resurslar | Resurslar |

**Şəkil 10. Ehtiyat və resursların kateqoriyası**

Bu təsnifatlandırmadan çıxış edərək:

**A+B+C1** və **C2** ***çıxarıla bilən*** ehtiyatlar;

**C3** ***perspektiv*** ehtiyatlar;

**D1+D2** ***proqnoz*** ehtiyatlar.

Təbii resurslar həmçinin, bərpaolunan və bərpaolunmayan təsnifata malikdir. Bərpaolunan resurslar aiddir - günəş enerjisi, külək enerjisi, torpaq, su, meşə və balıq. Bərpaolunmayan resurslara isə neft, qaz və digər faydalı qazıntıları aid etmək olar.

Vurğulanmalıdır ki, beynəxalq əmək bölgüsü sistemində, bir qayda olaraq, inkişaf etmiş ölkələr xammal resurslarının istehlakçısı, inkişaf etməkdə olan ölkələr isə onların istehsalçısı və ixracatçısı kimi çıxış edirlər.

## 7.3. Mineral-xammal və yanacaq resursları

Yerin təkindən müxtəlif faydalı qazıntılar çıxarılır. Faydalı qazıntılar (*fransızca* - mineraux utiles - *faydalı qazıntılar*) kimyəvi və fiziki xassələri onların material istehsalı sferasında (*xammal və yanacaq keyfiyyətində*) səmərəli istifadə olunmasına imkan verən, yer qabığının mineral və üzvi yaranışlarıdır. Onlar bərk (*daş kömür, qranit, mərmər, duz*), maye (*neft, mineral sular*) və qaz şəkilli (*yanar qazlar, helium, metan*) növlərə ayrılır. Dünyada hazırda 250-dən çox faydalı qazıntı və 200-qədər yarımqiymətli və qiymətli daş növü vardır. İnkişaf etməkdə olan ölkələrdə dünya qeyri-yanacaq mineral resurslarının 50%-i, neft ehtiyatlarının 65%-i, təbii qazın 50%-i, fosfatların, qalay və kobaltın 90%-i, mis və nikelin 50%-i cəmləşmişdir. Əhəmiyyətli diferensasiya nəzərə almaqla inkişaf etmiş ölkələr faydalı qazıntıların 30%-nə sahibdirlər.

Faydalı qazıntılar içərsində filiz və minerallar mühüm yer tuturlar. Filiz (*fransızca* - mineral - *filiz*) sənayedə istifadə edilməyə yararlı metal əsaslı və ya tərkibində müəyyən miqdarda metal birləşmələri olan təbii mineral xammaldır. Bəzən bir sıra qeyri-metallar (*asbest, barit, qrafit və s.*) da filiz adlandırılır. Zəngin və zənginləşmə tələb edən təsnifata malikdirlər. Minerallar (*latınca* - minera, minerale - *filiz, ingiliscə* - minerals - *minerallar*) eynicinsli kimyəvi tərkibli və kristal strukturlu təbii bərk cisimlərdir. Dağ süxurları, filizlər və meteoritlərin tərkib hissələridir. Minerallaın öyrənilməsi ilə mineralogiya elmi məşğul olur. Minerallar işərisində strateji mineralları ayırılar. Strateji minerallar (*strategic minerals*) əksəriyyəti xırda metallar olan müxtəlif mineral və elementlərin geniş kateqoriyasıdır. Strateji minerallar həm də "kritik minerallar" adı ilə məlumdurlar. Gündəlik həyat üçün çox dəyərli əhəmiyyətə malikdirlər. Onlar elektronikanın, bərpa olunan enerji mənbələrinin, tibb cihazlarının, hərbi texnikanın, kənd təsərrüffatı istehsalının və ümumi məişət əşyalarının mühüm komponentlərini təşkil edirlər. Aİ 41 müxtəlif mineral və metal üzrə qiymətləndirmə apararaq 14 kritik xammal müəyyən etmişdir. Bu mineralların stratejiliyi onların riskli təklif defisti, iqtisadi faydalılığının genişliyi və digər analoqlarına nisbətdə iqtisadiyyata təsirinin böyük olması ilə şərtlidir. Ümumilikdə minerallar mineral resurslar kimi təsnifatlandırılır. Mineral resurslar (*mineral resources*) adlandırırlar. Onlar yanacaq faydalı qazıntılar, filiz faydalı qazıntılar və qeyri-filiz faydalı qazıntılara təsnifatlandırılır. Mineral resurslar Yer kürəsində təbii, tektonik, faydalı qazıntıların geoloji dövrlərdə yaranma şərtləri və digər bu kimi proseslərlə əlqədər qeyri-bərabər bölgülü yerləşmə ilə xarakterikdir. Onlar bərpa olunmurlar, tükənən və məhduddurlar. Dərinləşən beynəlxalq əmək bölgüsü ilə minereal resurslar dünyəvi xarekter alır.

Müasir təsərrüfat 200 növədək mineral xammaldan istifadə edir. Onların təsnifatının yeganə ümumi qəbul edilmiş sistemi yoxdur. Hasil edilən xammalın fiziki və ya kimyəvi xassələrindən, iqtisadiyyatda tətbiq edildiyi sahəsindən, yerin təkində meydana gəldiyi xüsusiyyətlərdən asılı olaraq, faydalı qazıntılar qruplara ayrılır.

Faydalı qazıntıların geniş istifadə təsnifatı aşağıdakı kimidir:

- yanacaq-energetika xammalı (neft, kömür, qaz, uran);
- qara, aşqar və yüksək hərarətdə əriyən metallar (dəmir filizi, manqan, xrom, nikel, kobalt, volfram və s.);
- əlvan metallar (alüminium, mis, qurğuşun, sink, volfram filizi və s.);
- nəcib metallar (qızıl, gümüş, platin);
- kimya və aqronomiya xammalı (kalium duzları, fosforitlər, apatitlər və s.);
- texniki xammal (almazlar, asbest, qrafit və s.);
- aşqarlar və odadavamlı materiallar, sement xammalı.

Yanacaq-enerji xammalı kateqoriyasına enerji istehsalında istifadə olunan faydalı qazıntıları - neft, daş və boz kömür, yanacaq qazı, uran və bitum şistləri aid edilir.

Dünyada mineral yanacağın proqnoz edilən geoloji ehtiyatları 12,5 trilyon tondan artıq hesablanır. Bu resursların hasilatının müasir səviyyəsi ilə onlar min ilə kifayət edə bilər. Həmin ehtiyatlar kömür (*60%-ə qədər*), neft və qazdan (*27%*), həmçinin, şist və torfdan (*13%*) ibarətdir.

Ölkənin istehsal və istehlak ehtiyaclarını, həmçinin, ixracatını təmin etmək üçün malik olduğu müxtəlif növ yanacaq və enerjinin (*neftçıxarma, qaz, kömür, torf, şist sənayesi, atom, istilik və su elektrik stansiyalarının istehsal etdiyi elektrik enerjisi, həmçinin, yerli yanacaq növləri*) məcmusunu yanacaq-enerji resursları (*fuel-energy resource*) təşkil edir.

Yanacaq-enerji resursları arasında, ehtiyatlar baxımından, ***daş kömür*** dünyada ön sırada dayanır. Daş kömürün dünya ehtiyatları hazırda 10 trilyon tondan çox hesablanır ki, bunun da 1,8 trilyon tonu təsdiqini tapmış ehtiyatlar kateqoriyasına aid edilir. Hər il dünyada 3,5 milyard ton daş kömür, 1,5 milyard ton qonur kömür hasil edilməkdədir. Daş kömür sənayesində inkişaf meyilləri ayrı-ayrı ölkələrdə müxtəlifdir. 1950-1960-cı illərə qədər daş kömür sənayesi AFR, Fransa, Böyük Britaniya, ABŞ və Yaponiyada sənayenin əsasını təşkil etmiş və bu illərdə baş vermiş sahə strukturundakı böhranla, eyni zamanda neft-qaz sənayesində hasilatın artması ilə əlaqədar öz mövqeylərini itirmişdir. Hazırda inkişaf etmiş dövlətlərdə daş kömür hasilatı yeni texnologiyaların hesabına aşıq tipli karxanalarda və işçi qüvvəsinin ucuz olduğu ölkələrdə qalmaqdadır.

Hər il dünyada 60 ölkə tərəfindən 5 milyard ton daş kömür hasil olunur. Bu sahədə ilk on ölkə - ÇXR, Avstraliya, Rusiya, ABŞ, Hindistan, Polşa, Ukrayna, Kanada, Kolumbiya AFR, Böyük Britaniya bütün hasilatın 75%-nə sahibdirlər. Daş kömür neftçıxarma sahəsinə xas "üçüncü dünya" ölkələri tərəfindən deyil, üstün olaraq, sənayecə inkişaf etmiş ölkələrdə hasil olunur. Dünyada ən çox daş kömür hasil edən ölkə ÇXR-dir. Bu ölkədə illik hasilat 1,2 milyard ton təşkil edir.

Beynəlxalq ticarətə hasil edilən daş kömürün kiçik hissəsi - təxminən 10% daxil olur. Bu isə o deməkdir ki, daş kömürü hasil edən ölkələr onu üstün olaraq öz ehtiyacları üçün çıxarırlar. Uzun illər daş kömür ixracatına ABŞ başçılıq edib. 1980-ci illərdə isə onun Avstraliya qabaqlayıb. Kömür ixracatı iri quru yük daşıyan gəmilərin

meydana gəlməsinə əsas olub. Hazırda AFR, Böyük Britaniya kimi daş kömür ixracatçıları onun idxalçılarına çevrilmişlər. Daş kömrün ixracatı inkişaf etməkdə olan ölkələr, xüsusən də Hindistan, İndoneziya, Venesuella və Kolumbiya tərəfindən artmaqdadır. Yaponiya isə ən iri daş kömür hasilatçısıdır.

Ümumilikdə daş kömür ehtiyatları daha izafi və iri həcmliliyi ilə fərqlənir. Bu baxımdan da, onların təminatlılıq müddəti xeyli yüksəkdir. Hazırkı hasilat templəri ilə daş kömürün tükənmə müddəti orta hesabla 400 ilə bərabər tutulur.

Müasir dövrdə dünya enerjisini 40%-i ***neft*** hesabına təmin olunur. Neftli ərazilər 28 mindən çox yatağı əhatə edərək yer səthinin 45 milyon $km^2$ coğrafi landşaftına səpələnmişdir. Bu ərazilər ümumilikdə Yer kürəsi səthinin 9%-nə bərabərdir. Neft yataqlarının mühüm hissəsi bir sıra neftli regionlarda cəmləşmişdir. Bu sıraya Fars körfəzi, Şimali Afrika, Meksika körfəzi, Karib dənizi, Malay arixipelağı adaları və Yeni Qvineya, Qərbi Sibir, Şimali Alyaska, Saxalin adası və ona bitişik şelf əraziləri, Şimal dənizi və Xəzər dənizi aid edilir. Son illər Avstraliyada da xeyli miqdarda yeni neft-qaz resursları kəşf edilmişdir. Dünya neft ehtiyatlarının $^4/_5$ hissəsi inkişaf etməkdə olan ölkələrin payına düşür.

Dünyanın ən iri neft yatağı "Qafar" Səudiyyə Ərəbistanının ərazisində yerləşir. Bu yataqda dünya neftinin 7%-i hasil edilir və hasilatın yüz il davam edəcəyi proqnozlaşdırılır. Sonuncu nəhəng yataq - Meksikanın Kampeçe körfəzində yerləşən Kantarrel kompleksi 1976-cı ildə kəşf olunmuşdur. Bu tarixdən indiyədək belə miqyaslı yataqlar, hələ ki, bir daha aşkarlanmamışdır. Azərbaycanın Xəzər şelfindəki AÇG bloku da nəhəng yataqlar silsiləsinə daxil edilir.

XX əsrin 70-ci illərində müdhiş planetar neft böhranında dünya neft ehtiyatları 600 milyon barrel hesablanırdı. Dünya iqtisadi artımına qeyri-adekvat olan belə toplum yeni neftli yataqlarının kəşfini sürətləndirdi və 1980-ci illərdə ehtiyatlar kəskin artaraq 700 milyard barrel təşkil etdi. Əsrin sonunda isə dünya neft ehtiyatları bir trilyon barrellik həddi ötüb keçdi. Hesablamalara görə, hazırda dünya neft ehtiyatlarının maksimal potensialı 300-350 milyard ton təşkil edə bilər. İndiki zamanda isə kəşf olunmuş ehtiyatlar 240 milyard tona bərabərdir. Regional bölgüdə Yaxın Şərq ölkələri liderlik edir. Burada ehtiyatların həcmi 90 milyard ton hesablanır. Dünya neft ehtiyatlarının cəm olduğu ən böyük ölkə Venesuela, Səudiyyə Ərəbistanı, Rusiya, İran, Meksika, ÇXR, Norveç, Böyük Britaniya və İraqdır. Neft ehtiyatlarının adambaşına bölgüsündə BƏƏ, Küveyt, Qətər liderdirlər. Neft-qaz ehtiyatları hazırda quru yataqlarda istismar edilməklə yanaşı, həm də dənizdə hasil edilir. Dəniz şelfində indi 2 mindən çox neft-qaz yatağı aşkarlanmışdır. Yaxın Şərq ölkələri hər il 900-950 milyon ton neft çıxararaq hasilatda da liderlik edirlər.

Dünyada neft hasilatı hazırda, illik olaraq, 4,3 milyard tonu aşmışdır. Sutkalıq bölgüdə bu 75 milyon barelə bərabərdir. Hazırda planetin 80-dən çox ölkəsində neft hasil edilir. Lakin hasilat neftinin ¾ hissəsi bu sahədəki 15 aparıcı ölkənin üzərinə düşür. Dünyanın ən iri neft hasilatçısı Səudiyyə Ərəbistanı - 13,4%, Rusiya - 12,6%, ABŞ -

12,4%, Kanada - 5,0%, İraq - 5,0%, İran - 4,9%, ÇXR - 4,6%, BƏƏ - 4,2%, Küveyt - 3,5%, Braziliya - 3,1%, Meksika - 2,8%, Venesuela - 2,8%, Nigeriya - 2,3%, Anqoladır - 2,0% və Qərbi Avropada hər il 100 milyon ton olmaqla əsas istehsalçı ölkə Böyük Britaniyadır. Burada onu Şimal dənizindən çıxarırlar. Neft ehtiyatlarının adambaşına bölgüsündə BƏƏ, Küveyt, Qətər liderlik edirlər. Dünya neft hasilatında Fars körfəzi ölkələri, ehtiyatların bolluğu və yataqların nəhəngliyi baxımından, çevik iqtisadi göstəricilərə malikdirlər. Burada neftin hasilatı son dərəcə ucuz başa gəlir. Ən səmərəli neft şirkətləri belə digər regionlarda hasilatı ən azı 2-3 dəfə yüksək səviyyədə saxlayırlar.

Hazırda hasilat artımının tempi onun istehlak tələbi tempini üstələyir. Hər il dünya bazarında 2,1 milyard ton neft satışa çıxarılır ki, bunun da 60%-i OPEK-in nəzarətindədir. İnkişaf etməkdə olan ölkələr dünya bazarında neftin əsas təchizatçılarıdırlar. Bu ölkələr tərəfindən hər il satışa 1 milyard tondan çox xam neft və əhəmiyyətli dərəcədə neft məhsulları çıxarılır. Hazırda hələlik xam neft neft məhsullarından çox ixrac edilir. Lakin neft məhsullarının da ixracatda çəkisi hər il artmaqda davam edir. İri neft ixracatçıları olaraq Yaxın və Orta Şərq ölkələri çıxış edirlər. Onlar bu məhsulun təxminən $^2/_3$-də paya malikdirlər. Dünya neft ixracında lider ölkələr olaraq Səudiyyə Ərəbistanı, Rusiya, Norveç, İran, İraq, Venesuela, BƏƏ, Nigeriya və Meksika çıxış edirlər. Ən böyük istehlakçı ölkə isə ABŞ hesab olunur. Onun neft bazarının 60%-i idxal məhsuluna bağlıdır. Buraya hər gün 11 milyon barrel neft göndərilir. İnkişaf etmiş ölkələrdə neft rezervləri 4 milyard barrel hesablanır. İdxalın dayanacağı təqdirdə bu rezervlər 115 günə bəs edəcəkdir.

Neft ehtiyatlarına malik, onun hasilatını təmin edən ölkələrlə yanaşı, onun emalını reallaşdıran ölkələr də güclü mövqeyə malikdirlər. Neft emalında ABŞ, Yaponiya, AFR, İtaliya daha yüksək potensial nümayiş etdirirlər. Dünyanın ən iri neft emalı zavodları Qərbi Avropada cəmlənmişdir. İllik neft hasilatı son dərəcə zəif olan, hər il bir neçə milyon ton neft hasil edən Yaponiya dünyanın ən böyük neft ixracatçılarından sayılır. Bu ölkədə geniş intişar tapmış üzən dəniz neft anbarlarında ölkənin istehlak ehtiyatının yarısı cəmlənmişdir. Bu isə 100 milyon tondan çox neft deməkdir.

Artıq dünyada 1 trilyon barrelə yaxın neft istehsal edilmişdir. Dünyanın cari və kəşf olunmuş neft ehtiyatları ilə təminatı 45 il müddətinə müəyyən edilir. Bu göstərici, müvafiq olaraq, OPEK üzrə 85 il, Səudiyyə Ərəbistanı üçün 90 il, Kuveyt və BƏƏ üçün ayrılıqda 140 il müddətinə hesablanır.

Neftin mövcudluğundan asılı olmayaraq, hər bir ölkə energetik təhlükəsizliyində neft strategiyasına önəm verir. Yenə də mövcudluq fərqinə varmadan iqtisadi tutumlu hər hansı bir ölkə neftə olan tələblər müqabilində səviyyəli neft biznesinin inkişafını səylə müdafiə edir. İzafi ehtiyatlar iqtisadiyyatın strukturuna, təsərrüfat ukladına çox ciddi təsir edən amil kimi, həm də ölkənin iqtisadi inkişafının aparıcı qüvvəsi, investisiyaların təminatçısı rolunda çıxış edir, onu siyasi-iqtisadi maraqların cazibə məkanına çevirir.

***Təbii qaz*** energetik gücü, ekoloji üstünlüyü və bir sıra əsas texniki-iqtisadi imkanları ilə, digər təbii yanacaq resurslarına nisbətdə, fərqli mövqedədir. Yer üzündə təbii qaz

sərvətlərinin ən çox ehtiyat və hasilat payını sırf qaz yataqlarında olan resurlar təşkil edir. Bu sırada səmt qazının - neftli qazın da çəkisini qənaətbəxş hesab etmək olar. Neftli qazın əhəmiyyəti 1973-1974-cü illərin energetik böhranında daha çox sınandı. Bu vaxta qədər o, əksərən, məşəllərdə yandırılırdı. Bununla yanaşı, vurğulanmalıdır ki, qaz sənayesinin monoməhsullu çağları arxada qalmışdır. İndi təbii qazdan xeyli çeşiddə məhsul alınır. Qaz məhsulları polad, şüşə, yun, ipək, ağac və taxılı əvəz edir.

Son 20 il ərzində təbii qazın ehtiyatları 60-70% artaraq 187 trilyon $m^3$ təşkil etmişdir. Qaz ehtiyatlarına görə İran, Rusiya, Qətər, Türkmənistan, ABŞ, Səudiyyə Ərəbistanı, BƏƏ, Venesuela, Nigeriya və Əlcəzair lider ölkələr hesab olunurlar. Dünyanın hazırda qaz hasilatı həcmi 3,7 trilyon $m^3$ hesablanır. Geoloji hipotezlər təbii qaz perspektivinin daha ümüdlü olduğuna yəqinlik verir. Xüsusən, yerin daha dərin qatlarında, 10-12 kilometrlərdə böyük miqdarda qaz ehtiyatlarının mövcudluğu mübahisə doğurmur. Bu baxımdan təbii qaz istehlakına neftə nisbətdə böyük yüksəliş templəri xasdır.

Reallıq belədir ki, qaz sənayesi daha çox neft hasilatı sənayesinin inkişaf etdiyi ölkələrdə yaxşı inkişaf tapmışdır. Bununla belə, bu sahədə istisnalar da vardır. Belə ki, Kanada, Türkmənistan, Niderland, Özbəkistan neft hasilatı baxımından belə statusa malik deyildirlər.

Hər il təbii qaz industriyası və müvafiq olaraq, təbii qaz bazarı inkişafını sürətləndirir. Belə ki, dünyada hasil edilən qazın təxminən $^1/_6$ hissəsi beynəlxalq ticarətin məhsuluna çevrilir. Bu sırada əsas ixracatçılar olaraq Rusiya, Türkmənistan, Kanada, Əlcəzair, Niderland, Azərbaycan, İndoneziya çıxış edirlər. Əsas qaz idxalçıları isə Yaponiya, AFR, Fransa, İtaliya və ABŞ-dır. Vurğulanmalıdır ki, son 30 ildə sıxılmış qazın istehsalı ilə bağlı tam bir industriya fəaliyyət göstərir. Sıxılmış qaz istehsalının dünya enerji sistemində genişlənən istehlakı, təbii qazın iqtisadi və ekoloji özəllikləri və hasilat həcminin artması ilə şərtləndirilir. Onun orta illik istehsalı çağdaş zamanda 100-120 milyard $m^3$ həcmində tərəddüd edir. Liviya, Əlcazair, Nigeriya, Malaziya və İndoneziyanın yüksək ixracatlı təbii qaz potensialı ABŞ, Yaponiya, Qərbi Avropaya xeyli miqdarda xüsusi dəniz tankerləri vasitəsi ilə sıxılmış qaz axınını təmin edir.

Yaxın 20 ildə qaz istehlakının mühüm regionlarından biri kimi Asiya və Sakit okean regionları fərqlənəcəklər. Proqnozlar göstərir ki, ABŞ-da yaxın iki onillikdə enerji istehsalında təbii qaz daş kömürü sıxışdıraraq ümümi balansda 60%-lik paya malik olacaqdır. MDB məkanında isə son on ildə azalan qaz istehlakının 2020-ci il üçün 50% və ondan daha çox artacağı ehtimal olunur. 7-8%-lik yüksək illik artım Cənubi və Mərkəzi Amerikada da gözlənilir. Ümumilikdə, qaza olan tələb liberal iqtisadiyyat quran ölkələrdə nisbi yüksək artımla müşayiət olunacaqdır. Bu sektorda sürətlənən artım meyilləri daş kömürlə işləyən bir çox elektrik stansiyalarının və qismən neft-tutumlu nəhəng energetik qurğularının təbii qazla işləmə prosesinə qovuşmasını daha da genişləndirəcəkdir.

Təbii qaz sektorunda artım meyilləri avtonom enerji təchizat şəbəkələrinin işlənməsinə təkan verəcək, qənaət və səmərəlilik enerji itkiləri ilə mübarizədə yeni

texnologiyaların tətbiqini artıracaq, daha aztutumlu enerji sistemlərinin təşəkkülünü labüd edəcəkdir. Dünya qaz sənayesinin inkişaf ssenarisi planetin enerji sisteminin tərəqqisi ilə bağlılıqda onun strukturunun dəyişməsini, dövlətin qaz və enerji təchizatına müdaxiləsini artıracaq, tərəqqi templəri intellektual sistemlərin, kompüter, internet və qlobal naviqasiyanın inkişafı ilə müşayiət olunacaqdır. Təbii qazla bağlı qazmanın da genişlənməsi gözlənilir. Bu təminat üçün isə yeni qazma qurğuları və texnologiyalarının mənimsənilməsi gərəkdir. Qaz nəqli sistemində də yüksələn templər davam edəcəkdir. Qeyd etmək lazımdır ki, neft kəmərlərinin inşasına nisbətdə, tikiləcək qaz kəmərlərinin uzunluğu 3 dəfə çoxdur. Tərəqqi edən nəql sistemində Xəzər regionu boru kəmərlərinin aktiv inşası gözlənilən məkanlardan olaraq qalır. ETT-nin inkişafı qaz hasilatına və qaz sənayesinə güclü təsir etməkdədir. Artıq Şimal dənizində, Meksika körfəzində Cənub-Şərqi Asiya regionunda sualtı qaz yığımı sistemləri tikilir ki, bunun da gerçəkləşməsi çox uzaq olmayan keçmişdə mümkün deyildi. Eyni zamanda Şimali Afrikada və İspaniyada daha dərin sualtı qaz nəqletmə şəbəkəsi layihələndirilir. Avstraliya Koreya, Sinqapur, Yaponiya və digər Cənub-Şərqi Asiya ölkələrindən keçməklə nəhəng sualtı qazötrücü nəqletmə şəbəkəsinin yaradılması isə texniki və texnoloji həllini gözləməkdədir. Xəzər hövzəsi bölgəsində və Rusiyada qaz hasilatının artımı Avropa bazarı ilə yanaşı Asiya regionu üçün də yeni istehlak perspektivləri açır. Rusiyada mövcud izafi qazın yaxın zamanlarda şərq istiqamətdə Yamal-Koreya magistralı ilə ötürülməsi nəzərdə tutulur. Hesablamalar belədir ki, dünya qaz ehtiyatlarından istifadə 100 ildən çox çəkəcəydir.

***Yanar şistlərin*** dünya ehtiyatları 700-800 milyard ton hesablanır ki, bu da mövcud neft ehtiyatlarından 7-8 dəfə çoxdur. Yanar şistlərdən və digər süxurlardan süni neftin alınması təkamüllü olsa da, genişlənməkdə və artan dövriyyəsini yığmaqdadır. Dünyanın mühüm şist ehtiyatları Rusiya, ABŞ, AFR, ÇXR, Böyük Britaniya, Kanada və Misirdə, torf ehtiyatları Rusiya, Belarus, İrlandiya, AFR və Polşada çəmləşmişdir.

Enerjidaşıyıcılar olan bu təbii resurslar energetikanın əsasını təşkil edir və bu resursların müasir energetikanın inkişafında payı yüksəkdir. İnkişaf etmiş ölkələrdə bu pay 25-45% arası tərəddüd edir.

Energetika (*latınca* - energīa - *güc sözündən, ingiliscə* - energy, energetics, power - *güc*) insanın təsərrüfat-iqtisadi fəaliyyət sahəsi, bütün növ enerji resurslarının dəyişilməsi paylanması və istifadəsinə xidmət edən təbii böyük və süni altsistemlərin məcmusudur. Energetika istehsalat və digər obyektlərdən istifadə əsasında istehsal prosesində yaranan enerjinin ötürülməsi, paylanması, satışı və istehlakı üzrə kompleks iqtisadi münasibətləri ehtiva edir. Onun məqsədi istehsalı enerji ilə təmin etmək üçün ilkin, təbii enerjini ikinci mərhələ - elektrik və ya istilik enerjisinə çevirməkdən ibarətdir. Bu proses enerji resurslarının alınması, konsentrasiyası, enerji istehsalı və ötrülməsi kimi sahələri özündə birləşdirir. Energetikanın əsas mənbəyi (*enerji resursları*) olaraq yanacaq (*neft, təbii qaz, daş kömür, oduncaq, yanar şistlər, qaz hidratları*) və hidroenerji resursları təşkil edir. Enerji istehsalında əsas pay yanacaq

enerjisinin yanması ilə onun mexaniki və elektrik enerjisinə çevrilməsinin üzərinə düşür. Buraya daxiliyanma mühərrikləri, elektrik stansiyalarının trubinləri və s. aiddir. Bir sıra yanacaq enerji resursları qiymətli kimya xammalı kimi çıxış edir. Energetika sahəsində nüvə energetikası çox mühüm əhəmiyyət daşayır. Energetika həm də elektrik və istilik enerjisinin hasilatı, ötürülməsi və istehlakçılara satışını təmin edən sənayenin, genişlikdə isə iqtisadiyyatın bir sahəsi kimi çıxış edir. Ümumiyyətlə energetika iki nəhəng sahəni - müxtəlif yanacaq-enerji resurslarının hasilatı və emalı sahələrinin məsmusu olan yanacaq sənayesini (*fuel industry*) və elektroenergetikanı əhatə edir. İstənilən dövlətdə enerji istehsal güclərinin inkişafının əsasını təşkil edir.

Elektroenergetika (*ingiliscə* - electrical energy - *elektrik enerjisi*) elektrik enerjisinin istehsalı, ötrülməsi və satışı poseslərini özündə birləşdirən energetikanın mühüm sahəsi, altsistemidir. Ənənəvi və qeyri-ənənəvi sahələrə bölünür. Yanacaq sahələri ilə birlikdə yanacaq-enerji kompleksini yaradır. Elektroenergetika baza sahə olaraq iqtisadiyyatın, cəmiyyət həyatının digər sferalarının inkişafının bilavasitə zəruri şərtidir. Maşınqayırma ilə yanaşı o, qlobal iqtisadiyyatda özünəməxsus təməl təşkil edir. Elektrik enerjisi istehsalı ölkənin iqtisadi potensialının dolayı güc göstərici hesab olunur. Dünyanın 40% ilkin enerji resursları elektroenerji (*elektrik enerjisi*) istehsalına məsrəf olunur. Elektroenergetikanın vacib xüsusiyyəti kimi onun məhsulunun - yəni elektrik enerjisinin sonrakı istifadə üçün yığılmaması çıxış edir. Elektrik enerjisinin istehsalı elektrik stansiyasının özünün ehtiyacları və şəbəkədəki itkilər nəzərə almaqla hər zaman anında istehlak ölçülərinə uyğun olmaslıdır. Ona görə də, elektroenergetika sabitlik, qalıcılıq, fasiləsizlik və dərhal həyata keçirilmə xüsusiyyətliliyinə malikdir.

Elektroenergetika 1890-cı illərdən (*9 milyard kVt-saat elektrik enerjisi istehsalı*) inkişafa başlamışdır. Sahə üzrə böyük sıçrayış 1950-cı ildən başlanğıc almış, artıq 2017-cı ildə istehsal 24,8 trilyon kVt-saatı ötmüşdür. Hazırda ən çox elektrik enerjisi istehsalı ÇXR (*23%*) və ABŞ-ın (*18%*) payına düşür. Sonrakı yerləri Yaponiya, Rusiya və Hindistan paylaşır. Adambaşına düşən elektrik enerjisi istehsalına görə isə Norveç (*28 min kVt-saat*), Kanada (*19 min kVt-saat*) və İsveç (*17 min kVt-saat*) ön mövqeydə dayanırlar.

Hər bir ölkə mövcud resusurslarına və bu kimi imkanlarına müvafiq olaraq hər hansı bir elektrik stansiyası tipinə üstünlük verir. Norveçdə, CAR-da və Polşada əsasən daha çox SES-lər inşa olunur, Fransada AES-lər, ABŞ-da, Rusiyada İES-lər üstünlük təşkil edirlər. Elektroenergetika sahəsində dünya ixraçatçıları olaraq Rusiya, Ukrayna, Macarıstan, Fransa, idxalatçıları olaraq isə ABŞ, İtaliya, Niderland çıxış edirlər. Azərbaycan Respublikası da artan elektroenergetik gücünə əsaslanaraq hazırda Gürcüstana, Türkiyəyə və İrana elektrik enerjisi ixrac edir.

Hazırda hər il dünyada 110-120 milyard kVts elektrik enerjisinə ekvivalent 15-16 milyard ton şərti yanacaq müxtəlif növ enerji növlərinə çevrilir. Bu balansda karbohidrogen əsaslı resurslar yarıdan çox paya malikdir. Bununla belə, dünya əhalisinin $^1/_3$-nin elektrik enerjisinə çıxışı tamam yox, digər $^1/_3$-nin isə məhdud şəkildədir. Əlbəttə,

məhdudiyyətlər hər il azalmağa meyillidir. Digər tərəfdən isə, tələb yüksəlişləri mövcuddur. Proqnozlara görə, 2050-ci ildə elektrik enerjisinə olan tələbat 3 dəfə artacaqdır. Lakin istehlak artımı 2 dəfədən çox olmayacaqdır. Beynəlxalq Enerji Agentliyinin (*BEA*) məlumatlarına görə, 2030-cu ildə dünyada neft hasilatı aşağı düşəcəkdir. Bu isə onu göstərir ki, karbohidrogen erası yaxın 30-50 il ərzində əhəmiyyətini itirəcəkdir. Onu, başlıca olaraq, nüvə enerjisi əvəzləyəcəkdir.

Elektrik enerjisi istehsalında, əsasən, ənənəvi istilik və su elektrik stansiyalarından geniş istifadə olunur. Bununla belə, hazırda XX əsrin ortalarından dövriyyəyə qoşulan atom elektrik stansiyalarının da rolu artmaqdadır.

İstilik elektrik stansiyası, İES (*thermal-power plant, TPP*) elektrik generatorunun fırlanması ilə yanacağın kimyəvi enerjisini mexaniki enerji çevirməklə elektrik enerjisi hasil edən elektrik stansiyasıdır. İES-lərdə su yancağın yandırılması nəticəsində alınan istilik enerjisi vasitəsilə istilikdaşıyıcıya (*buxara*) çevrilir, o isə, öz növbəsində, enerjisini elektrik cərəyanı generatorununun rotorunu hərəkətə gətirən turbinə verir və elektrik enerjisi istehsal olunur. Hazırda İES-lərin 60%-i daş kömürlə işləyir ki, bu göstərici CAR-da 100%, Avstraliyada 75%, AFR-də və ABŞ-da isə 50%-dən çoxdur. Son illərdə İES-lərdə qaz resurslarından istifadə genişlənməkdədir.

Su elektrik stansiyası, SES (*hydroelectric power plant, HPP*) enerji mənbəyi keyfiyyətində su axının enerjisinin istifadə olunduğu, elektrik enerjisi hasil edən elektrik stansiyasıdır. SES-ləri, bir qayda olaraq, çaylarda bəndlər və su anbarları tikməklə inşa edirlər. Kiçik ölçülü stansiyalar süni su axınları olan kanallarda da qurulur. SES-lərdə elektrik enerjisinin davamlı olması üçün iki başlıca amilin - suyun ilboyu mövcudluğu təminatı və çayın mümkün dik yamaclardan axması zəruridir. Dünyada ən iri SES ÇXR-də Yansızı çayı üzərində inşa edilmişdir. Bu stansiyanın gücü 22,4 min MVt-dir. Parana çayı üzərində (*Braziliya - Paraqvay*) olan "İtaypu" SES-in gücü isə 18 min MVt-dır.

Atom elektrik stansiyası, AES (*nuclear power plant, NPP*) nüvə reaktorunda atom enerjisinin elektrik enerjisinə çevrilməsi ilə enerji hasil edən elektrik stansiyasıdır. AES qurğusu - nüvə reaktoru əslində İES tiplidir. Ənənəvi AES-lərin xammalını uran və plutonium təşkil edir. Uranın planetar ehtiyatları 1,5 milyon ton hesablanır və əsasən, Şimali Amerika, Avstraliya, Braziliya, Cənubi Afrikada və qismən də Rusiyada cəmləşmişdir. Bundan başqa, dünyada daha 0,9 milyon ton uran ehtiyatının mövcudluğu təxmin edilir.

Dünya yancaq resursları çevrəsində alternativ enerji mənbələrindən də geniş istifadə olunmaqdadır. Alternativ enerji mənbələri (*alternative energy sources*) kimi külək enerjisi (*wind energy*), günəş enerjisi (*solar energy*), alternativ hidroenerji (*alternative hydropower*) - qabarma və çəkilmə enerjisi (*energy of tides*), dalğa enerjisi (*wave energy*), yerin dərinliyinin istiliyi enerjisi (*thermal energy of the earth*), geotermal enerji (*geothermal energy*), hidrogen enerjisi (*hydrogen energy*), bioenerji (*bioenergy*), bölüşdürülmüş enerji istehsalı (*distributed power generation)* - daxili ehtiyaclar üçün

yaradılan elektrik enerjisinin qalıq hissəsinin ümumi xəttə verilməsi, kosmik enerji - fotoelektrik elementlərin Yer orbitindən mikrodalğa şüalanması formasında ötrürüldüyü enerji (*cosmic energy*) və s. qeyri-ənənəvi enerji mənbləri çıxış edirlər. Alternativ enerjidən geniş istifadə ABŞ, Hindistan, ÇXR və Qərbi Avropada (*Danimarka, AFR, Böyük Britaniya, Niderland*) geniş yayılmışdır. Araşdırmalar göstərir ki, alternativ və bərpa olunan enerji mənbələri sahəsinə yatırılan investisiyalar 7-8 il ərzində geri qayıdır.

Azərbaycan Respublikasında da son 10 il ərzində alternativ enerjidən istifadə vüsət almışdır. Belə ki, ölkə bərpa olunan və alternativ enerji potensialı ilə zəngindir. Bu məqsədlə respublikada "Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs fəaliyyət göstərir. Ölkədə yaxın 10-15 ildə bu enerji növünün payının 20%-ə yüksəldilməsi nəzərdə tutulmuşdur.

Dünya enerji agentliklərinin hesablamalarına görə 2022-2025-ci illərdə:

- ❖ alternativ enerji mənbələri umumi enerji istehlakının 5,8%-ni verəcək və onun payı ABŞ, Böyük Britaniya və digər inkişaf etmiş ölkələrdə 20% hədinə qalxacaq;
- ❖ bərpa olunan enerji mənbələri hesabına 2,8 milyon yeni iş yeri yaradılacaq və bu sahə ÜDM-də 1,1% artımı təmin edəcək.

Alternativ enerji mənbələrinin axtarışında bir sıra alimlər məhsuldar qatlarda neft veriminin artırılması üzərində baş sındırdıqları zamanda, digərləri yanar şistlərdən rentabelli yanacağın alınması istiqamətində tədqiqatlar aparırlar. Üçüncülər isə, "dədəbaba" qaydasında olduğu kimi, oduncaqdan səmərəliliklə istifadənin axtarış imkanlarını sınayırlar. Bunun üçün ABŞ alimləri tezbitən ağac növlərinin (*qızılağac, plantan*) yetişdirilməsinə üstünlük verirlər. Belə plantasiyalarda 1 hektardan 40 ton oduncaq almaq mümkündür. Ağacların kəsimindən sonra isə yerə tökülmüş yarpaqlar kübrə rolunu oynayır və 3-4 il ərzində həmin sahədə eyni məhsuldarlığı inkişaf etdirir. Ərazisi 125 $km^2$ olan sahə hesabına 80 minlik şəhər əhalisinin enerji tələbatını ödəmək mümkündür.

ABŞ alimlərinin digər bir qrupu isə tezyetişən qonur yosunlardan enerji alınması problemi ilə məşğuldur. Bu yosunlardan bakteriyaların köməyi ilə metan və ya neft xüsusiyyətli maddənin alınması təklif olunur. Hesablamalara görə, 40 min hektar okean sahəsində yaradılan analoji ferma 50 minlik şəhər əhalisininin enerji tələbatına müqabildir. Eyni fikirlə fransız alimləri də çıxış edirlər. Onlar bu məqsədlər üçün birhüceyrəli yosun - botriokokkidən istifadəni tövsiyə edirlər. Belə ki, botriokokkiləri şüşə bankalarda karbon qazı və mineral duzlarla yemləməklə müntəzəm olaraq karbohidrogen almaq mümkündür.

Belçikada isə artıq bir neçə onillikdir ki, enerji bahalığı kontekstində kağız, kardon qalıqları - maklaturadan istifadə olunur. Briket şəklinə salınan maklatura sobalarda 8 saat ərzində yanaraq yetərli istilik yaradır. Bununla belə o, tamamilə yanır və atmosferə sıfra bərabələşən miqdarda tullantı verir. Müvafiq oriyentsiya effektli hesab edilir. Belə ki, 1 kiloqram müqabil oduncaq, kalorilik baxımından, maye yanacaqdan 10 dəfə az dəyərlidir.

Təbii yanacaq doldurma stansiyaları Cənubi Amerika tropiklərində və Filippində aşkarlanmışdır. Bir sıra lian bitki növləri və tropik ağac olan Xanqa özündə yağlı maye saxlayır. O, heç emala verilmədən belə avtomobillərdə yanaraq benzindən də az toksiklik yaradır. Eyni məqsədlər üçün palma yağı da yararlı hesab edilir. Ondan asanlıqla qazoyl almaq mümkündür. AFR-in Şverborn məntəqəsində isə zibillikləri xüsusi qurğular vasitəsi ilə qapamaqla ondan metan alırlar. 1 kiloqram məişət tullantısı 200 litr qaz hasil edir. Hindistanın Kerala ştatında isə anoloji texnologiyanın xammalı kimi təzək çıxış edir. Xüsusi quyulara yığılan təzəyin ağzı möhkəm bağlanılaraq qıcqırma hesabına qaz hasil olunur. İndiki zamanda bu ölkədə müvafiq bioqaz sistemlərinin 53 modeli sınaqdan çıxarılmışdır.

Yanacağın məişət tullantılarından alınması prosesi də bir sıra ölkələrdə geniş sınanmaqdadır. Təcrübələr daha çox ABŞ və Böyük Britaniya labratoriyalarında test edilir. Fransada isə benzini qarğıdalının quru oduncağından alırlar. Ölkədə hazırda belə texnologiya ilə ildə 20 milyon ton benzinin alınması layihələri işlənilir.

Müasir energetikanın inkişafında təbii enerji resurslarının payı hələ də yüksək olaraq qalır. ABŞ, AFR, Fransa, Böyük Britaniya, İtaliya və Belçikada bu pay 40%, Yaponiyada 50%, inkişaf etmiş ölkələrdə isə 25%-dən artıqdır.

Sənaye energetikası, başlıca olaraq, mineral yanacaqlar (*fossil fuels*) neft, təbii qaz, daş kömür, nüvə enerjisi xammalı (*əsasən uran*) və bu enerji bazasında inkişaf tapır.

Aşağıdakı cədvəldə ilkin enerjinin mənbələrinin sənayedə istehlakının strukturu verilmişdir.

| **Enerjinin mənbəyi** | **Bütün dünya** | **Şimali Amerika** | **Qərbi Avropa** | **Latın Amerikası** | **Afrika** | **Avstraliya** | **MDB** |
|---|---|---|---|---|---|---|---|
| ***Neft*** | 40,2 | 38,4 | 45,6 | 62,6 | 44,7 | 35 | 32,1 |
| ***Daş kömür*** | 28 | 23,3 | 21,8 | 6,1 | 36 | 44,9 | 19,4 |
| ***Təbii qaz*** | 22,7 | 26,2 | 17,7 | 20,9 | 15,1 | 18,6 | 42,8 |
| ***Nüvə enerjisi*** | 6,6 | 8,7 | 12,4 | 0,9 | 1,1 | x | 4,2 |
| ***Hidroenerji*** | 2,5 | 2,4 | 2,5 | 9,5 | 3,1 | 1,5 | 1,5 |
| ***Ümumi*** | **100** | **100** | **100** | **100** | **100** | **100** | **100** |

**Cədvəl 9. Dünyanın ayrı-ayrı bölgələrində enerji mənbələrinin sənayedə istehsalının strukturu**

Cədvəldən göründüyü kimi, dünyanın ən böyük regionlarında əsas enerji mənbəyi neftdir və hər il onun xüsusi çəkisi bu bölgüdə artmaqdadır. Belə dinamizm həm də hər il yeni neft yataqlarının kəşfi ilə əlaqədardır.

***Metal filizləri.*** Hazırda insanlara məlum olan 110 kimyəvi elementdən 76-sı metaldan ibarətdir. Mis insanlara bəlli olan ilk metaldır. Təbiətdə olan ehtiyatlara və

xassələrinə görə dəmir digər metallar arasında xüsusi yer tutur. Ümumiyyətlə, müasir dünyada istehsal olunan metal əsaslı materialların təxminən 90-95%-i dəmir və onun ərintilərinin payına düşür. Metal filizlər və istehsal təyinatlı metal ehtiyatları əhatə edən metal filizi resursları (*metal resources*) üzrə dünya proqnozu təxminən 600 milyard tona, kəşf olunmuş ehtiyatlar isə 260 milyard tona çatır. Dünyada ən iri dəmir filizi yataqları Braziliyada, Avstraliyada, Kanadada, Rusiyada, ÇXR-də, ABŞ-da, Hindistanda, İsveçdədir. Dünyada dəmir filizinin illik hasilatı orta hesabla 0,9-1,0 milyard tondur. Bu xammal növü ilə dünya iqtisadiyyatının resurs təminatının 250 ilədək bəs edəcəyi proqnoz olunur.

Dünyada əksər sənaye sahələrinin mövcud olmasında qara metallurgiya məmulatları böyük əhəmiyyətə malikdir. Müasir dövrdə maşınqayırma (*nəqliyyat maşınqayırması və dəzgahqayırma*), gəmiqayırma, energetika, hərbi sənaye, tikinti sektoru kimi böyük əhəmiyyət kəsb edən sənaye sahələrinin qara metal məmulatları olmadan mövcudluğu mümkün deyil. Dünya iqtisadiyyatının indiki inkişaf mərhələsində qara metal məmulatları dünya üzrə geniş tələbata malik olan məhsuldur. Son statistikaya görə, hazırda dünya üzrə hər il 1,5 milyard ton polad istehsal olunur. Makroregional bölgüdə 954,1 milyon ton Asiyanın, 215,0 milyon ton Avropanın, 118,9 milyon ton Şimali Amerikanın, 112,4 milyon ton MDB-nin, 48,4 milyon ton Cənubi Amerikanın, 20,3 milyon ton Yaxın Şərqin, 14 milyon ton Afrikanın və 7,2 milyon tona kimi Avstraliya və Okeaniyanın payına düşür. Hazırda dünyada böyük həcmli polad məhsulları istehsal edən "Arcelor Mittal" (*Lüksemburq-Hindistan*), "Hebei Iron & Steel" (*CXR*), "Nippon Steel" (*Yaponiya*), POSCO (*Koreya Respublikası*) və s. kimi transmilli şirkətlər mövcuddur.

Əlvan metallar istehsalı üçün xammallar arasında birinci yerdə boksitlər durur. Onların proqnoz ehtiyatları 50 milyard ton, o cümlədən kəşf olunmuş ehtiyatları 20 milyard ton təşkil edir. Boksitlərin iri yataqları Avstraliyada, Qvineyada, Braziliyada, Venesuelada, Yamaykada cəmləşmişdir. Boksit hasilatı ildə 80 milyon tona çatır, deməli, onun indiki ehtiyatları 250 ilə bəs etməlidir.

Mis filizinin coğrafi ehtiyatları 860 milyon ton qiymətləndirilir, bunun da kəşf olunmuşu - 450 milyon tondur (*Hindistanda, Zimbabvedə, Zambiyada, Konqoda, ABŞ-da, Rusiyada, Kanadada*). Hasilatın indiki həcmi ilə hər il 8 milyon ton kəşf olunmuş mis filizi ehtiyatı təxminən 55 ilə kifayət edəcək. Boksitlərin böyük ehtiyatları (*alüminium sənayesi üçün əsas xammal*) Qvineyada (*dünya ehtiyatlarının 42%-i*), Avstraliyada (*18,5%*), Braziliyada (*6,3%*), Yamaykada (*4,7%*), Kamerunda (*3,8%*) və Hindistandadır (*2,8%*). Hasilatın miqyaslarına görə, birinci yeri Avstraliya tutur (*42,6 milyon ton*).

Dünyada qızıl çıxarılmasının ümumi həcmi 2200 ton təşkil edir. Qızıl çıxarılması üzrə dünyada birinci yeri CAR - 522 ton, ikinci yeri ABŞ - 329 ton tutur. ABŞ-da qədim və ən dərin qızıl mədəni - Blek-Hils dağlarında (*Cənubi Dakota*) Houmsteykdir. Burada 100 ildən artıqdır ki, qızıl hasilatı həyata keçirilir. Ekstraksiyanın müasir metodları

çoxsaylı və yoxsul yataqlardan qızıl çıxarılmasını rentabelli edir. Bu metalın illik dünya hasilatı nəticəsində onun məcmu kəmiyyəti 2%-dən az artır.

Gümüşün dünya resurslarının təxminən $^2/_3$ hissəsi polimetal mis, qurğuşun və sink filizləri ilə bağlıdır. Gümüş, əsasən, həm də qalenitdən (*qurğuşunun sulfidi*) çıxarılır. Yataqlar daha çox damarlıdır. Gümüşün iri istehsalçıları Meksika - 2323 ton, Peru - 1910 ton, ABŞ - 1550 ton, Kanada - 1207 ton və Çilidir - 1042 ton. Uranın kəşf edilmiş ehtiyatlarına daha çox malik olan ölkələr Avstraliya (*dünya ehtiyatlarının 20%-dən çoxu*), Qazaxıstan (*18%*), Kanada (*12%*), Özbəkistan (*7,5%*), Braziliya və Nigeriyadır (*hər biri 7%*).

Uranitin iri Şinkolobve yatağı Konqo Demokratik Respublikasında yerləşir. ÇXR, AFR və Çexiya da böyük uran ehtiyatlarına malikdir.

***Qeyri-metal faydalı qazıntılar***. Mühüm mineral resurslar içərsində qeyri-metal və ya qeyri-filiz resurslar əhəmiyyət daşayır. Qeyri-metal və ya qeyri-filiz resurslar (*non metallic mineral resources*) sənaye və tikintdə təbii halda və ya xammal kimi istifadə edilən resurslardır. Onlar minerallara və ya dağ suxurlarına aid edilir. Bu təyinatdan neft, daş kömür və digər yanar faydalı qazıntılar, həmçinin hidromineral faydalı qazıntılar - yeraltı sular çıxarılır. Qeyri-filiz resurslar, qeyri-metal faydalı qazıntılar olaraq, əsasən, kimya xammalı (*kükürd, fosforitlər, kalium duzu*) və tikinti materiallarını (*qum, gil, əhəng, çınqıl, yanğınadavamlı xammal*) əhatə edirlər. Qeyri-metal və ya qeyri-filiz resurslar silsiləsinə daxil olan xörək duzunu əhəmiyyəti ilə daha çox fərqlənir. Onu daş duz yataqlarından və yaxud duzlu göllərin və dənizlərin sularından suyun buxarlandırılması yolu ilə çıxarmaqla alırlar. Xörək duzunun dünya ehtiyatları, praktiki olaraq, tükənməzdir. Demək olar ki, hər bir ölkə ya daş duzun işlənməmiş yataqlarına, ya da duzlu suyun buxarlandırılması üzrə məqsədlərə malikdir. Xörək duzunun hədsiz mənbəyi isə dünya okeanının özüdür. Xörək duzunun hasilatı üzrə birinci yeri ABŞ (*21%*) tutur, sonra ÇXR (*14%*), Kanada və AFR (*hər biri - 6%*) gəlir. Fransada, Böyük Britaniyada, Avstraliyada və Polşada xeyli duz hasil edilir.

Qeyri-metal faydalı qazıntılar sırasında qiymətli daş olan almaz müstəsna dərəcədə yüksək möhkəmliyi sayəsində sənayedə mühüm rol oynayır. Texniki almazlar abraziv (*cilalayıcı*) material kimi istifadə olunur. Almazın dünya hasilatı 107,9 milyon karat (*200 mq*), o cümlədən texniki almaz 91,2 miyon karat (*84,5%*) və zərgərlik üçün 16,7 miyon karat (*15,5%*) təşkil edir. Avstraliyada və Anqolada zərgərlik üçün yararlı almazların payı 4-5%, Rusiyada 20%-ə qədər, Botsvanada 24-25%, CAR-da 35%, Anqolada və Mərkəzi Afrika Respublikasında 50-60%, Namibiyada 100%-dir.

## 7.4. Torpaq, meşə və su resursları

Yer kürəsi səthinin 510 milyon km$^2$ ümumi sahəsinin 149 milyon km$^2$-i quru hissəsinin, qalanı isə dəniz və okeanların payına düşür. Arktika və Antarktikanın buzlaqlarının quru sahəsi istisna edildikdə dünya torpaq fondunun ümumi sahəsi 134 milyon km$^2$-ə bərabər tutulur. Torpaqlar torpaq resursunun özəyidir. Torpaq resursları

(*land resources*) biloji məhsul istehsalının bazasını təşkil edən, insan yaşayışı və təsərrüfat fəaliyyəti üçün əlverişli olan yer qabığının əvəzolunmaz və məhdud resurslarıdır. Torpaq resursları ərazi ölçüləri, releyef keyfiyyəti, torpaq örtüyü və digər kompleks təbii şərtlərlə xarakterikdirlər. Dünya torpaq fondunun strukturunda emal edilmiş torpaqlara 11% (*şumlanmış yerlər, bağlar, üzümlüklər*), çəmənliklərə və otlaqlara 23%, meşələrə 30%, antropogen landşaftlara 3% (*yaşayış məntəqələri, sənaye zonaları, nəqliyyat xətləri*), az məhsuldar torpaqlara (*səhralar, bataqlıqlar və aşağı temperaturlu ekstremal ərazilər və dağlar*) 33% düşür. Ərzaq məhsulları istehsalı üçün istifadə olunan torpaqlara şumlanmış sahələr, çoxillik bitkilər, təbii çəmənlər və otlaqlar daxildir.

Torpaq resursları kənd təsərrüfatı istehsalının əsasını təşkil edir. Planetin torpaq fondunun yalnız $^{1}/_{3}$ hissəsi (*orta hesabla 4,8 milyard hektar*) kənd təsərrüfatı (*qida məhsulları və sənaye xammalının istehsalı*) üçün yararlı hesab edilir. Kənd təsərrüfatı torpaqları əkin sahəsi, çoxillik əkinlər (*meyvə bağları*), təbii çəmənliklər və otlaqlardan ibarətdir. Ayrı-ayrı ölkələrdə bu konfiqurasiya müxtəlif nisbətlidir. Hazırda dünya üzrə quru ərazilərin 11%-ni (*1,4 milyard hektar*) əkin sahələri təşkil edir, 24%-dən (*3,4 milyard hektar*) isə heyvandarlıq üçün istifadə olunur.

Geniş əkin sahələrinə malik ölkələr və adambaşına düşən əkin sahələri üzrə regionlar isə aşağıdakı cədvəldə verilmişdir:

| **Əkin sahələri** *(milyon hektar)* | | **Adambaşına düşən əkin sahələri** (*milyon hektar/adam*) | |
|---|---|---|---|
| **Ölkələr** | **Əkin sahəsi** | **Regionlar** | **Əkin sahəsi** |
| ABŞ | 187 | Avropa | 0,28 |
| Hindistan | 168 | Asiya | 0,15 |
| Rusiya | 132 | Afrika | 0,3 |
| Çin | 97 | Şimali Amerika | 0,65 |
| Kanada | 46 | Cənubi Amerika | 0,49 |
| x | x | Avstraliya | 1,87 |
| x | x | MDB | 0,81 |

**Cədvəl 10. Geniş əkin sahələrinə malik ölkələr və adambaşına düşən əkin sahələri üzrə regionlar**

Daha böyük tarla sahələri ilə ABŞ - 185 milyon hektar, Hindistan - 160 milyon hektar, ÇXR - 95 milyon hektar, Kanada - 46 milyon hektar, Qazaxıstan - 36 milyon hektar, Ukrayna - 34 milyon hektar olmaqla seçilir. Ümumi torpaq fondunda emal edilmiş torpaqların payı Hindistanda 57,1%, Polşada 46,9%, İtaliyada 40,3%, Fransada 35,3%,

AFR-də 33,9%, ABŞ-da 19,6%, ÇXR-də 10,3%, Rusiyada 7,8%, Avstraliyada 6%, Kanadada 4,9%, Misirdə 2,8% təşkil edir. Bu ölkələrdə də, bütövlükdə dünya üzrə olduğu kimi, kənd təsərrüfatının mənimsənilməsi üçün ehtiyatlar - meşələr və az məhsuldar torpaqlar çox az qalmışdır. Bununla yanaşı, bir çox ölkələrdə kənd təsərrüfatına yararlı sahələr sürətlə azalır, belə ki, tikinti və s. üçün ayrılır.

İnkişaf etmiş ölkələrdə kənd təsərrüfatı istehsalında məhsuldarlıq bir çox hallarda torpaqlardan ekstensiv istifadə əsasında reallaşır. Bununla belə, dünyanın əksər yerlərində kənd təsərrüfatı istehsalına yararlı torpaqlar istismar fondundadır.

Dünyada torpaqların pisləşməsi və ya deqradasiyası qeyd edilir. Belə ki, eroziya nəticəsində hər il kənd təsərrüfatı dövriyyəsində 6-7 milyon hektar torpaq azalır, bataqlıqlaşma və şoranlaşma isə daha 1,5 milyon hektar sahəni istismardan çıxarır. Dünyanın 60 ölkəsində əvvəllər istifadə olunan yararlı torpaqların səhralara çevrilməsi torpaq fonduna ciddi ziyan vurur. Bu da təxminən ABŞ və ÇXR kimi ölkələrin sahəsinə bərabər olub, 9 milyon $km^2$ sahəni əhatə edir. Kənd təsərrüfatına yararlı torpaqların deqradasiyası onların antropogen landşaftlara çevrilməsi səbəbindən də meydana çıxır.

Meşə resursları (*forest resources*) meşə sahəsi və daimi ağac ehtiyatları ölçüləri ilə xarakterizə olunan bioloji resursların əsas növlərindən biridir. Dünya meşə resursları, hər şeydən əvvəl, meşəlik, meşə sahəsi və oduncaq ehtiyatı göstəriciləri ilə xarakterizə olunur. Meşə sahəsi göstəricisi meşələrlə örtülmüş, o cümlədən əhalinin adambaşına ərazinin ölçüsünü ifadə edir. Dünyanın 4 milyard hektar və ya 40 milyon $km^2$-dən (*planetin quru ərazisinin təxminən 27%-i*) çox quru ərazisi meşələrin payına düşür və bu ehtiyatlar hər il orta göstəricidə təxminən 25 milyon hektar azalır. Meşəlik meşə sahələrinin ölkənin ümumi ərazisinə nisbətini göstərir. Oduncaq ehtiyatları, adətən, oduncaqların orta sayını (*kubmetrlə - $m^3$*) meşənin tutduğu 1 $m^2$ sahəyə vurmaqla müəyyən edilir. Daimi oduncaq ehtiyatları hazırda dünyada 330-370 milyard $m^3$-ə bərabərdir və bu göstərici hər il 5,5 milyard $m^3$ artır. Daha çox meşə ilə örtülmüş torpaq sahələri Rusiyada - 8,1 milyon $km^2$, Braziliyada - 3,2 milyon $km^2$, Kanadada - 2,6 milyon $km^2$ və ABŞ-da - 2,0 milyon $km^2$ təşkil edir. Oduncaq ehtiyatlarına görə Rusiya dünya üzrə birinci yeri tutur (*dünya ehtiyatlarının 22%-i*).

Yer kürəsində iki geniş meşə zolağını aydın sezmək olar. Bu şimalda üstünlük təşkil edən iynəyarpaqlı ağaclı və cənubda tropik (*inkişaf etməkdə olan ölkələrdə*) meşələrdir. Meşələrlə təminatlılıq böyük milli sərvətdir. Adambaşına düşən meşə resursuna görə Avstraliya 6,4 hektar/adam göstəricisi ilə daha əlverişli mövqe tutur. Sonrakı yerləri isə Şimali Amerika - 2,5, Cənubi Amerika - 2,2, Afrika - 1,3, Avropa - 0,3 və Asiya - 0,2 olmaqla bölüşürlər. MDB məkanı da bu göstərici üzrə 3,0 hektar/adam olmaqla öncül mövqe tutur. Son onilliklərdə inkişaf etmiş ölkələrdə turşulu yağışlar nəticəsində 30 milyon hektardan çox meşəlik ərazi sıradan çıxmaq vəziyyətinə düşmüşdür ki, bu da meşə resurslarının keyfiyyətində əks olunmaqdadır. Üçüncü ölkələrə də meşəsizləşmə amili ilə bağlı meşə resurslarının azalması xasdır. Həmin ölkələrdə hər il əkinçilik və otlaq üçün milyonlarla hektar meşə qırılmaqdadır. Bu sırada inkişaf etmiş

ölkələrə ixrac üçün qırılan qiymətli ağaclar da yer alır. Ağacların kütləvi qırılması həm də onların oduncaq qismində enerjidaşıyıcı kimi istifadəsi ilə də bağlıdır. Həmin ölkələrdə oduncağın enerjidaşıyıcısı kimi istifadə payı 70% təşkil edir. Bu tip ölkələrin əksəriyyətində yemək hazırlığı və evlərin qızdırılması, demək olar ki, əsasən, oduncaq hesabına həyata keçirilir. Meşələrin qırılması faciəvi fəsadlıdır. Belə ki, bu hal atmosferə oksigen buraxılışını kəskin azaldır, istixana effekti yaradaraq iqlim dəyişikliklərinə səbəb olur. Statistikaya görə, son iki yüz ildə yer üzərində meşə sahələri təxminən iki dəfə azalmışdır. Bu sferada daha çox Asiyanın tropik meşələri zərər çəkmişlər. Hələlik Rusiyanın Asiya hissəsinin, Kanadanın, Amazon və Konqo çaylarının hövzələrində yerləşən meşələr toxunmaz qalmışdır. Oduncağın nəhəng zahiri ehtiyatlarına baxmayaraq, hazırda meşə resurslarının ekstensiv istismarının imkanları tükənmək üzrədir. Ona görə də həm iqtisadiyyatın tələblərini, həm də təbiəti mühafizə üzrə tələbləri təmin etmək yalnız dünya təsərrüfatının meşə kompleksində resursqoruyucu texnologiyalara keçməklə mümkündür.

Su resursları (*water resources*) bütün hidrosfer sularını - okean və dənizlər, göllər, çaylar, torpaqaltı suları, atmosfer suları və buxarını, kanallar, su anbarlarının su kimi istifadə edilə bilən resurslarını əhatə edir. Yer kürəsində ümumi su ehtiyatları 1386 milyon km$^3$ təşkil edir. Həcmcə suların 96%-i dünya okeanının payına düşür. Yeraltı sular isə 2% həcmindədirlər. Bir qədər də - 2% su buzlaqların payına düşür. Yalnız 0,02% su materik (*çaylar, göllər, bataqlıqlar*) üstədir. Bütün suların həcmində şirin su payı isə 0,6% təşkil edir. Müasir dünyada hər il 3500 m$^3$ həcmində sirin su istehlak olunur. Bu hər bir dünya sakini üçün illik 500 m$^3$ su həcminə bərabərdir. Sulardan, xüsusi ilə də şirin sudan istifadə dünyanın kəskin qlobal problemləri sırasında yer alır. Hidrosferin ümumi həcminin 2,5%-i şirin (*şirin su maye, buxar və buz formalı olmasına baxmayaraq duzluluğu 0,1%-i keçməyən sudur*) sulardır. Bu hesabdan praktiki istifadə edilməyən qütb sularını çıxsaq, bəşəriyyətin sərəncamında yer üzərində olan suyun ümumi ölçüsünün 0,3%-i qalar. Dünya su istehlakı 5500 km$^3$ təşkil edir. Hazırda sudan istifadənin dünya üzrə həcmi planetin istifadə olunan su resurslarının ¼-nə yaxınlaşmışdır. Dünya əhalisinin 25%-i şirin su çatışmazlığı ilə qarşı-qarşıyadır. Planetin quru ərazisinin təxminən 60%-də şirin su yoxdur. Bundan başqa, 500 mindən çox insan su çatışmazılığı və suyun aşağı keyfiyyətliliyindən əziyyət çəkir. Şirin suyun əsas mənbəyi çaylardır. Onların illik resursları 47 min km$^3$-dir, lakin bunun yalnız yarısından da az hissəsini real istifadə etmək mümkündür. Şirin su, əsasən, sənayedə (*21%*) və kənd təsərrüfatında (*67%*) istifadə olunur. Müasir texnoloji irəliləyişlərə baxmayaraq dünya okeanının sularından kütləvi olaraq içmək və əkində istifadə etmək mümkün olmamışdır. Lakin suyun şirinləşdirilməsində ildən-ilə artan həcmləri də görməmək olmaz. Bütün bunlara baxmayaraq, dünya okeanının suları özündə əhəmiyyətli dərəcədə bioloji (*balıq, zoo və fitoplankton*), mineral xammal, enerji, nəqliyyat-kommunikasiya resurslarını cəmləşdirir. Bununla belə, okean suları oraya daxil olan tullantıları parçalayır və təmizləyir. Okeanların potensialından əhəmiyyətli istifadə

sferasında dəniz şelfi çıxış edir. Belə ki, hazırda hasil edilən neftin 30%-i şelf təynatlıdır. Həmin göstərici Avropa İttifaqında 90%, Avstraliyada isə 50% təşkil edir. Bununla belə, dünya üzrə hasil edilən nefin 85%-i şelfin 100 metr dərinliyindən çıxarılır. Şelfdən neft hasil edən ölkələrin sayı hazırda 60-dan çoxdur. Dünyada əsas su istehlakçısı kənd təsərrüfatıdır (*69%*), sonra sənaye (*21%*), kommunal təsərrüfat (*6%*) və su anbarları gəlir. Dünya kənd təsərrüfatında suya tələbin artmasına meyil qalmaqdadır. Hesab olunur ki, torpaqların emalı yox, məhz suyun çatışmazlığı bir çox inkişaf etmiş ölkələrdə ərzaq məhsullarının çatışmazlığının əsas səbəbidir. Belə ki, quraqlıq regionlarda 1 milyarddan artıq insan yaşayır.

## 7.5. Ölkələr üzrə təbii resursların yerləşməsi və istehlak dinamikası

Ölkələr arasında təbii resursların yerləşməsi və istehlakı son dərəcə qeyri-bərabər bölgüdədir. Təkcə 20-25 ölkə hər hansı mineral xammalın bir növünün dünya ehtiyatının 5%-dən çoxuna malikdir. Dünyanın yalnız bir neçə böyük ölkəsi (*Rusiya, ABŞ, Kanada, ÇXR, CAR və Avstraliya*) bu növlərin çoxuna sahibdir. Faktiki olaraq, heç bir ölkə müasir iqtisadiyyat üçün zəruri olan mineral xammalın bütün növlərinə malik deyil və onu idxal etmədən dolana bilməz. Məsələn, Rusiya öz mineral resurslarının müxtəlifliyi və böyük həcmdə olması ilə yanaşı, başqa ölkələrdən boksit, qalay, manqan idxal etməyə məcburdur. ABŞ öz mineral xammalı ilə tələbatını yalnız 22 növ üzrə təmin edir, halbuki uran, volfram, xrom, manqan kimi xammal idxaldan asılı vəziyyətdədir. Bütövlükdə ABŞ özünə vacib olan mineral xammalın 15-20%-ni idxal edir. Aİ-nin üzv ölkələri istehlak etdikləri mineral xammalın 70-80%-ni, Yaponiya 90-95%-ni idxal edir.

Çatışmayan resurslar daha çox inkişaf etməkdə olan ölkələrdən idxal edilir. Bu ölkələrdən nəhəng xammal axınları üç əsas emal mərkəzinə - Şimali Amerikaya, Qərbi Avropaya və Şərqi və Cənub-Şərqi Asiyaya hərəkət edir. Belə vəziyyət isə iki problemə zəmin olur. Belə ki, bir tərəfdən inkişaf etmiş ölkələrin xammal tədarükündən asılılığı yaranır, digər tərəfdən isə inkişaf etməkdə olan bir çox ölkələrdə ixrac məhsulundan asılılıq dərinləşir.

Müasir dünyada ayrı-ayrı ölkələrdə, təbii resursların mövcudluğundan asılı olmayaraq, onların istehlakında fərqlər dərinləşməkdədir. Belə ki, bir sıra qiymətləndirmələrə görə, dünya əhalisinin 4,5%-i yaşayan və planetin mineral resurslarının təxminən 20%-nin cəmləşdiyi ABŞ dünya təbii resurslarının 40%-ni, ilk növbədə yanacaq-xammal resurslarını (*ABŞ-ın dünya dağ-mədən sənayesi məhsulunun* $^{1}/_{3}$ *hissəsinə malikdir*) istehlak edir. İstehlak olunan resursların daha 30%-i Qərbi Avropa ölkələrinin payıma düşür. Kanadaya və Yaponiyada dünyanın təbii resursların 20%-i yerləşir və planet əhalisinin 9%-i yaşayır. Beləliklə, mineral resursların 40%-nə malik olan inkişaf etmiş ölkələr bu resursların təxminən 70%-ni istehlak edir. Dünya neft

hasilatında neft istehlakının xüsusi çəkisinin cəmi 12%-ə qədər olduğuna baxmayaraq, onun dünya istehlakının 25%-ə qədəri ABŞ-ın payına düşür. Eyni zamanda, dünya əhalisinin 60%-ə qədəri yaşayan və mineral resursların 35%-ə qədəri cəmləşən inkişaf etməkdə olam ölkələr (*ÇXR və Vyetnam daxil olmaqla*) bu resursların təxminən 16%-ni istehlak edir.

Bir cəhət də nəzərə alınmalıdır ki, 1990-cı illərdə neftə, qara və əlvan metallara dünya üzrə olan tələb, əsasən, Asiya və Latın Amerikasının yeni sənaye ölkələri hesabına artmışdır və nəticədə mineral xammal və yanacağın mühüm növlərinin istehlakında inkişaf etməkdə olan ölkələrin payı yüksəlmişdir.

Hazırda Rusiya da daxil olmaqla hasilat sənayesi olan, bütün inkişaf etmiş ölkələrdə daha nəhəng və iqtisadi effektivliyi ilə fərqlənən yataqların tükənməsi prosesi verir. Bu, ucuz istehsal imkanlarını məhdudlaşdırır. Belə olan şəraitdə xammalla təchizat problemi daha da çətinləşir Ona görə də müvafiq istiqamətdə işlər yalnız geoloji-kəşfiyyat işlərinin həcminin sürətlə artırılması ilə deyil, həm də material və enerjiyə qənaətlə həllini tapmalıdır. Təbii resursların tükənməsinə qarşı əks tədbirlər sırasında - bir çox xammal növlərinin, məsələn, metalların təkrar istehsalı, həmçinin, onların digər materiallarla (*plastik kütlə, keramika və s.*) əvəz edilməsini mühüm hesab olunur. Bundan irəli gələrək ABŞ-da və Qərbi Avropada təkrar xammaldan istifadənin ümumi dəyəri istehlak olunan ilkin resursların dəyərinin 15-20%-i qədər qiymətləndirilir.

Yerin təkində mineral resursların qeyri-bərabər yerləşməsi, həmçinin, ölkələrin torpaq və meşə resursları ilə fərqli təmin olunması beynəlxalq əmək bölgüsünün və bu əsasda beynəlxalq iqtisadi münasibətlər inkişafına təsir göstərir. Müasir reallıqlar belədir ki, dünya ticarətində yanacaq-xammal məhsullarının xüsusi çəkisinin azalması inkişaf etmiş ölkələrdə istehsalın material və enerjitutumunun aşağı düşməsi ilə əlaqədardır. Bununla belə, emal edilməmiş xammalın ixracının nisbətən azalması ilə yanaşı, yüksək keyfiyyətli xüsusi hazırlanmış xammal və yarımfabrikatların ixracı da üstün inkişaf etməyə başlayır. Ərzaq ixracının azalması isə əvvəllər taxıl idxal edən bir sıra iri region və ölkələrin, xüsusən də, Qərbi Avropa, ÇXR və Hindistan kənd təsərrüfatının inkişafı üzrə tədbirlərin həyata keçirilməsi, o cümlədən "Yaşıl inqilab" (*Green revolution*) nəticəsində özünü təmin etməsi səviyyəsinin yüksəlməsi ilə izah olunur. Bu çevrədən dünya ixracında bitki mənşəli xammalın payının aşağı düşməsi sintetik materialların, liflərin və plastik kütlələrin tətbiqi ilə əlaqədardır.

Təbii resurslar, faktiki olaraq, əsas təməl kimi inkişafa təsir edir. Lakin nəqliyyatın və məhsuldar qüvvələrin inkişafı nəticəsində təbii ehtiyatlar amilinin təsir dairəsi zəifləməkdir. Eyni iqtisadi məkanda təbii ehtiyatların mövcudluğu iqtisadiyyatın əlavə inkişafına səbəb olur. Bununla yanaşı, təbii ehtiyatların bol olduğu ölkələrdə çox hallarda onlardan israfçılıqla istifadə edilir. Əks qütbdə isə ETT-nin geniş inkişafı nəticəsində resurslardan səmərəli istifadədə yeni inkanları yaranmışdır. Yaponiya, Koreya Respublikası, İtaliya və digər bu kimi ölkələrdə əldə edilmiş iqtisadi tərəqqi buna parlaq misaldır.

## 7.6. Təbii resurslardan rasional istifadə imkanları

Təbii resursların məlum funksional formalarını dünya təcrübəsində təbiətdən istifadə adlandırırlar. Cəmiyyətin ərazi təşkilinin daha dar mövqeləri və tələblərindən irəli gələrək təcrübə təbiətdən istifadəni təsniflatlandırmağa imkan verir. Bu təsnifatlandırmada üç mövqenin ayrılması qəbul edilmişdir:

1) resurs istehlakı kateqoriyası ilə əlaqədar;
2) ətraf mühitin mühafizəsi ilə əlaqədar;
3) təbii resursların təkrar istehsalı ilə əlaqədar.

Birinci mövqeyə resurs hasilatı, yəni zəruri komponentlərin müəyyən edilməsi, tədqiqi, hazırlanması, çıxarılması daxil edilir. Bu mövqeyin mühüm elementi resurs istifadəsidir. İstehsal və istehlak tullantılarının formalaşması planında buraya ətraf təbii mühitin istifadəsi də daxil edilir.

İkinci mövqeyin tərkibi təmizləmə qurğularının formalaşan və istismar edilən sistemlərindən, tullantısız və az tullantılı texnologiyalardan, su istehlakının qapalı proseslərindən qurulur. Bu mövqeyin mühüm əlaməti müəyyən spesifik biogeosenozları saxlayan və sabitləşdirən müxtəlif növ qoruqların, sifariş yerlərinin formalaşmasını nəzərdə tutan ətraf mühitin mühafizəsidir.

Üçüncü mövqeyin strukturu bilavasitə bərpa olunan resursların təkrar istehsalı ilə, yəni süni biogeosenozların formalaşması, çoxsaylı effektiv və rasional istifadə üçün axınların təmizlənməsi, meşə əkinlərinin və meşə massivlərinin genişləndirilməsi və s. ilə bağlıdır. Bu mövqedə təbii resursların bərpası problemi mühümdür.

Təbiəti mühafizə sahəsində beynəlxalq təcrübə təbii resursları iki variantda nəzərdən keçirir. Birinci variantda onlar işlənmiş və ya istismar edilmiş və hazırda tullantı şəklində qeyd olunmuşlar. İkinci variantda isə onların tam məzmunlu mahiyyəti daha çox ehtiyatlar şəklində olan resurslarla əlaqələndirilir.

Təbii resursların istismarı və onların sənaye-istehsal fəaliyyəti burulğanına daxil olması iki tipə differensiasiya olunur:

1) təbii resurslardan ekstensiv istifadə;
2) təbii resurslardan intensiv istifadə.

Bazar iqtisadiyyatı şəraitində təbii resursların təsərrüfatda tətbiqi dərəcəsi, demək olar ki, artıq ən yüksək zirvəsinə çatmışdır ki, bu da hazırda müntəzəm olaraq ətraf mühitin strukturunu və balans formalaşmalarının tam mahiyyətini transformasiya edərək ətraf təbii mühitə böyük təsir göstərir. Təbii-resurs potensialının bəzi tərkib hissələrinin təsərrüfatda mənimsənilməsinin və istifadəsinin həcmi ehtiyatların sabitliyi şəraitində o qədər artmışdır ki, artıq indi dövlət və regional səviyyələrdə əhalinin litosferə təsirinin geoloji miqyasları haqqında tezis vurğulanır.

Hazırda alimlərin ekoloji-iqtisadi, iqtisadi-riyazi, ekoloji-demoqrafik və təbii mühitin tam mahiyyətində formalaşan məcmu effektini qiymətləndirməyə imkan verən

başqa modellərin işlənib hazırlanmasına yönəldilmiş böyük qüvvəsi tələb olunur. İndi nəinki təbii mühitin vəziyyətinin ekoloji-iqtisadi proqnozlaşdırma mexanizmi, həm də onun ayrı-ayrı konstruktiv elementləri yaxşı sazlanmalıdır.

Bazar iqtisadiyyatı şəraitində ən yeni texnologiyadan istifadə və bu işdə iqtisadi cəhətdən möhkəm dövlət qurumlarının yüksək inkişaf etmiş şirkətlərin qabaqcıl təcrübəsi əsasında təbii resurslara qənaət problemləri birinci dərəcəli problemlər hesab edilir. Bu dövrdə ikinci dərəcəli təbii resurslardan səmərəli istifadə zərurəti yetişmişdir. İctimai istehsalın effektivliyinin yüksəldilməsi problemləri, son nəticədə ətraf təbii mühitin çirkləndirilməsi səviyyəsinin xeyli azalmasına aparan sənaye-istehsal fəaliyyətində tərəqqi məhz bununla əlaqədardır.

Təbii resurslardan rasional istifadə - təbii resursların mühafizəsinin təminatı və təbii ekosistemlərdə tarazlığın qorunması məqsədi ilə istifadə olunmuş resururslarəın bərpasını əhatə edir.

Sivilizasiyanın müasir mərhələsində resurs təminatı ekstensiv və intensiv xarakterliliyini arxada qoyaraq, inkişafını qənaətcil istehlak tələbləri ilə reallaşdırır. Təbii resursların strukturu, öryənilmə səviyyəsi, təsərrüfat mənimsəmə istiqaməti, ölkə tipindən asılı olmayaraq, onun iqtisadi potensialına bilavasitə təsir edir. Bu baxımdan da, iqtisadi potensialı baza və infrastruktur sahələrinin inkişaf səviyyəsi, ETT və əmək ehtiyatları ilə yanaşı, həm də resurs qənaətçilliyi qaynaqlandırır.

İnfrastruktur (*latınca* - infra - *alt,* structura - *quruluş*) hər hansı bir problemin həllinin təminatında qarşılıqlı əlaqədə olan xidmətedici strukturlar kompleksi, alt struktur. İstehsal (*yollar, kanallar, nəqliyyat, rabitə, limanlar, terminallar, anbarlar, enerji və su təchizatı və s.*) və sosial (*elm, təhsil, səhiyyə və s.*) növləri fərqləndirilir. Bir sıra hallarda infrastruktur təsərrüfat sahələrini əhatə edən kompleks kimi də təyin edilir. Daha çox iqtisadi məzmun daşıdığına görə infrastruktura, üstün olaraq, məhz iqtisadi kateqoriya kimi yanaşılır. Anlayış olaraq ilk dəfə 1940-cı illərinin sonunda burjua siyasi iqtisad nəzəriyyəsində meydana çıxmış, 1955-ci ildə avstriyalı iqtisadçı Paul Narsis Rozeynşteyn-Rodan (*1902-1985*) tərəfindən elmi dövriyəyə gətirilmişdir.

Təbii resurslar ümümi ictimai məhsul yaradaraq ölkənin iqtisadi srtukturunu formalaşdırdığı kimi, dayanıqlı və səmərəli inkişaf zəminidə də resurs qənaətcilliyini əsaslandırır. İqtisadi amil olaraq resurs qənaətcilliyi isə ciddi təhlilolunma və situasiyanın qiymətləndirilməsini tələb edir. Yaddan çıxarılmamalıdır ki, resurlar məhdud xarakterliliyə malikdirlər. Bu cəhət isə, öz növbəsində, resurs qənaətçilliyi zərurətini yaradır. Bundan irəli gələrək müasir inkişaf tipli ölkələr resurs qənaətçilliyinin təkmilləşdirilməsi istiqamətli elmtutumlu texnologiyalı istehsalların stimullaşdırılması strategiyası reallaşdırırlar.

Resurs qənaətçilliyi "dayanıqlı inkişaf" konsepsiyası zəminində eyni ekosivil qənaətçilik tələblərini irəli sürür və müvafiq istiqamətdə biçimli strategiyanın formalaşdırılmasını şərtləndirir. Resur qənaətçilliyini əsas tutan "dayanıqlı inkişaf"a keçid çox mürəkkəb və geniş amilli proses olaraq biosferin inkişaf qanunlarına uyğun

ətraf mühitlə cəmiyyət arasında qarşılıqlı tarazlığı münasibətlər harmoniyasını tənzimləyir. Proses həm də ölkənin uzunmüddətli inkişafının kompleks daxili problemlərinə toxunur, onun strukturunu, investisiya siyasətini, təbii resursların təkrar istehsalını təyin edir. Buna görə də antropogen fəaliyyət nəticəsində təbii maddələr və enerji yaranışılarının idarə olunması təbii proseslər və mexanizmlərlə vasitəsi ilə reallaşdırılmalı, elmi və mühəndis-konstuksiyalı resursqoruyucu texnika və innovasiya əsaslı təkrar istehsala üstünlük verilməlidir. Bu strategiyada əsas məsələlərdən biri də istehsalda təbiət proseslərindən istifadə sferasında prinsipcə yeni texnlogiyaların yaradılması və mənimsənilməsi olmalıdır ki, nəticədə cəmiyyətlə təbiətin harmonikliyinin daha kamil formada uzlaşması təmin edilsin.

Dayanıqlı inkişafın təminatına çağrışlı olan iqtisadi modellər təbiətin tarazlığının qorunması və onun resurslarından istifadə ilə bağlı problemlərə baxışda bir sıra nəzəri və tətbiqi məsələlərin həllini tələb edir. Bu sırada təbiətdən səmərəli istifadə, resursqoruyuculuq maraqları və innovasiyaların tətbiqinin genişləndirilməsi daha çox üstünlük qazanır. Problemin həlli isə, özü-özlüyündə, renta münasibətləri sisteminin təhlilinin baxış müstəvisinə qaldırılmasını labüd edir.

## 7.7. Mineral xammalın dünya qiymətlərinin formalaşması xüsusiyyətləri

Mineral xammalın qiymətlərinin formalaşmasının xarakterik cəhəti renta münasibətlərinin mövcud olmasıdır. Bu müstəvidə də problemlər və mürəkkəbliklər yetərli sayılır. Belə ki, metodoloji nizamlama çətinliyi ilə seçilən renta münasibətləri iqtisad elminin və müvafiq təsərrüfat praktikasının ən dolaşıqlı və son dərəcə qeyri-təkmil sahələrindən biri kimi çıxış edir. Rentanın dəqiq ölçülərinin hesablanmasının kifayət qədər mürəkkəb iqtisadi məsələ olması da bu istiqamətdə yeni metodika və alqoritmlərin axtarışını daimi aktuallıqda saxlayır.

İqtisadi məzmun daşıyaraq təbii ehtiyatlarla bağlı əldə edilən gəlirlərdə ifadə olunan renta, məhdud ehtiyatlar kontekstində torpaqdan və digər təbii resurslardan istifadə haqqının qiymətini xarakterizə edir. Renta (*latınca* - reddita - *qayıdış*) - sahibinin sahibkarlıq fəaliyyəti göstərmədən, əlavə xərclər çəkmədən torpaq, əmlak və kapitalın istifadəsindən əldə etdiyi gəlirdir. Məhz torpağın, təbii resursların unikal təklifliliyi şərti, onların təsbit olunmuş miqdarı, renta tədiyələrini əmək haqqı, mənfəət və faizlərdən ayıran xüsusiyyətdir.

Təbiətin ödənişsiz sərvəti kimi torpağın istehsal xərcləri ilə ilk baxışda heç bir funksional əlaqəsi olmasa da, onun münbitliyinin və yeraltı potensial keyfiyyətinin doğurduğu renta fərdi istehsalçı üçün xərclər yaradır. İctimaiyyət üçün konkret olaraq xərc hesab edilməyən təbii renta istifadənin alternativ variantları müqabilində ödənişlərin xərcləri kimi çıxış edir. Təbii renta (*natural rent*) vaxtaşırı ödənilən təsbit

olunmamış pul məbləğlərindən əldə edilən gəlir üzrə və ya torpaq sahibinə icarədar tərəfindən məhsulun bir hissəsi üzrə verilən renta ödənişidir. Renta mükafat olmaqla xərclərin dəyəri ilə bazar qiymətləri arasında fərq kimi, böyük səylərin, ustalığın nəticəsi deyil, sadəcə, səxavətli irsiyyətdən qaynaq alır.

Torpaq, yerin təki və digər bu kimi resurslar üzərində inhisar zamanı bazar qiymətlərinin istehsal xərclərindən artıq hissəsi müqabilində fərq mütləq rentanı şərtləndirir. Mütləq renta (*absolute rent*) torpaq sahibinin icarədardan onun torpaq sahəsinin münbitliyi və yerləşməsindən asılı olmayaraq, yalnız torpaqdan istifadə hüququnu verməklə aldığı gəlirdir. Keyfiyyət, münbitlik və məhsuldarlıq şəraiti ortaya çıxdıqda isə differensial renta yaranır.

Differensial renta (*differential rent*) torpaq sahibinin icarədardan onun torpaq sahəsinin yüksək münbitliyi və yüksək əmək məhsuldarlığı ilə əlaqədar aldığı əlavə gəlirdir. Klassik mahiyyətdə təbii renta həmişə torpaq rentası kimi mövcud olur.

Torpaq rentası (*ground rent*) torpaq sahibinin icarədardan torpaq sahəsinin icarəsi üzrə aldığı gəlirdir. Bu əsnada da torpağın qiyməti kapitallaşmış rentaya bərabər nəzərdə tutulur. Daha çox ictimai və təbii şərtlərdən asılı olan torpaq rentasını hasiledici sənayedə dağ rentası əvəzləyir. Konkret olaraq, dağ-mədən rentası (*mining rent*) dağ-mədən sənayesində faydalı qazıntıların hasilatının geoloji və sosial-iqtisadi amilləri ilə şərtlənərək formalaşan təbii rentanın bir növüdür. Dağ-mədən sənayesində istehsalın qiyməti, bir qayda olaraq, həmin anda daha yüksək xərclərlə işləyən müəssisələrin istismarda olan ən pis yataqları ilə müəyyən edilir. Bu, digər istehsalçılara dağ rentası almağı təmin edir. Həmin xərclərin ölçüsünə təsir edən ən mühüm amillər hasilatın dağ-geoloji şəraiti, ilk növbədə filizdə olan faydalı komponentin tərkibi və yataqların əlyetərliliyidir. Uzunmüddətli planda daha zəif filizlərin istismarına keçid və uzaq rayonlarda yeni yataqların mənimsənilməsi heç də həmişə xərclərin kəskin yüksəlməsinə səbəb olmur. Vurğulanmalıdır ki, əslində, dağ rentası təbii rentanın bir çalarıdır və o yalnız dağ-mədən sənayesində faydalı qazıntıların hasilatının geoloji və sosial-iqtisadi amilləri ilə şərtlənərək formalaşır və eynən - mütləq renta və ikili təsnifatda differensial renta qismində sintez olunur. Üstün yataqların istismarı zamanı əlavə gəlir gətirən dağ rentası I differensial renta (*I differential rent*) adlanır. Differensial renta yatağın debiti - hasil edilən məhsul kəmiyyətinin vaxt vahidinə nisbəti və məhsulun daxili bazardakı satış qiyməti ilə müəyyən olunur. Debit nə qədər həcmlidirsə, I differensial dağ rentasının kütləsi də o qədər artıqdır. II differensial rentanın (*II differential rent*) formalaşmasında isə hasilat veriminin artırılmasını və faydalı qazıntıların tam çıxarışını təmin edən yüksək texnologiyalar iştirak edirlər. Başqa sözlə, II differensial renta təbii sərvət istifadəçilərinin innovasiyalar tətbiq etməklə hasilat texnologiyasının təsbit olunmuş orta səviyyəli istehsal xərclərinin azalmasını ifadə edir.

ETT, sosiumun inkişaf meyili, təbiətdən istifadədə antropogen fəaliyyətin optimal nizamlanması renta münasibətləri sferasına tam ekoloji təyinatlı yeni renta növünü elmi dövriyyəyə çıxarmışdır. Bu ekoloji rentadır (*ekorenta*). Ekoloji renta (*ecological*

*rent*) mahiyyətcə differensial rentaya oxşarlıqda təbii təsərrüfatlarda və təbiətin istismarı sahələrində daha effektli texnika və texnologiyaların tətbiqi nəticəsində yaranır. Onun əhatə dairəsinə, konkret olaraq, innovasiya texnologiyalarının geniş tətbiq edildiyi geoloji kəşfiyyat, meşə, su və kənd təsərrüfatları, təbiəttutumlu və materialtutumlu məhsulların istehsalı və emalı kompleksləri, təmizləyici qurğuların və energetika sistemlərinin tikintisi və digər bu kimi sahələr daxildir.

Ətraf mühitin çirklənməsinə normativdən yuxarı zərərin vurulması və təbii resursların müəyyən mənada qarət olunması nəticəsində qeyri-qanuni əlavə qazancın - mənfəətüstünün əldə edilməsi ilə antirenta (*anti-rent*) adlanan gəlir yaranır. Reallıq belədir ki, təbiətdən istifadədə ekoloji rentanı alan subyekt qismində ekoloji innovasiya fəaliyyətini həyata keçirənlər çıxış etməli, ekoloji antirentanı isə dövlət mənimsəməlidir.

Kənd təsərrüfatı, hasilat sənayesi və nəqliyyat sahələri ilə məhdudlaşan təbii rentadan fərqli olaraq, ekoloji renta iqtisadiyyatın istənilən sahəsində tətbiqini tapır. Ekoloji renta mütərəqqi xarakter daşıyır, o sahibkarları və müvafiq texnologiyalar yaradıcılarını daim noosfer iqtisadiyyatına aparan ekoloji innovasiyaların yaranışına səfərbər edir. Qeyd olunmalıdır ki, renta tipləri və onun iqtisadi reallaşma mexanizmləri müvafiq mərhələdə formalaşmış istehsal münasibətləri sistemindəki məhsuldar qüvvələrin inkişaf səviyyəsindən asılıdır. Onun optimal bölgüsünün nizamlanması isə yalnız mülkiyyət münasibətləri çərçivəsində, xüsusən də, şəxsi formalı müstəvidə imkanlıdır.

Bütün bunlar bir daha göstərir ki, iqtisadi sistemlərdə təbiətin diktəsi də şərti istirak edir. Bu şərtlilik isə, öz növbəsində, təbiətdən istifadədə neqativ təsirlərin məhdudlaşdırması və aradan qaldırması istiqamətində iqtisadi-ekoloji tədbirlərinin həyata keçirilməsini tələb edir. Bu baxımdan "təbii resurslar - faydalı məhsul - tullantılar" tsiklini ifadə edən təbiətdən iqtisadi istifadə prosesində əlahiddə olan ödəniş mənbəyi və xərclər də nəzərdə tutulmalıdır.

Mineral xammalın dünya qiymətlərinin formalaşması müəyyən bir tarixi yol keçmişdir. Öncə bazarlara nəzarət beynəlxalq şirkətlərə qiymətlərə nəzarəti təmin edirdi. İri şirkətlərin müəyyən etdiyi və dünya qiymətlərinin əsasını təşkil edən qiymətlər fəaliyyətdə olan texnologiyaların nisbətən uzun dövrləri ilə müəyyən olunurdu və xammala olan qiymətlərin nisbətləri xammal istehlakının durmadan genişlənməsinə planlaşdırılmışdı. Bu zaman qiymətlərin nisbətən sabit olması xeyli dərəcədə onların qarşılıqlı münasibətini təmin edirdi. Müstəmləkə sisteminin süqutundan sonra isə vəziyyət bazarların institusional strukturunun demokratikləşdirilməsi tərəfinə dəyişməyə başladı. Bu dəyişikliklər xammalın qiymətini daha hərəkətli edərək, onların dinamikasında öz əksini tapdı. Qiymətlər bazardakı vəziyyətə daha həssas, daha dəyişkən oldu. Əvvəlcə bu, əsas əlvan metalların qiymətlərinə toxundu. 1970-ci illərdə dünya qiymətləri sferası kəskin hadisələr yaşadı. Xammala olan qiymətlərin artımı miqyasına və əhatəsinə görə bütün bu cür halları üstələyib keçirdi. 1970-1980-ci illərdə xammalın dünya qiymətləri 7 dəfə, ərzağın qiymətləri 3,3 dəfə, emal sənayesinin

qiymətləri - 3 dəfə artmışdır. Xammalın dünya qiymətlərinin yüksəlməsinin mühüm iqtisadi səbəbi bir çox xammal mallarının təklifində yaranmış defisit, müxtəlif amillərin sıx qarışması olmuşdur. Bir çox növlər üzrə tsiklik və spekulyativ səbəblərlə şərtlənən qısamüddətli defisit meydana gəlmişdir. Xüsusilə də, ərəb ölkələrinin 1973-cü ildə İsrailin təcavüzünü dəstəkləyən ölkələrə neft tədarükünə embarqo tətbiq etməsi ABŞ və Böyük Britaniya neft şirkətlərinin enerji resurslarının çatışmaması və neft məhsullarına olan qiymətlərin kəskin artmasına nail olmaq üçün istifadə etməsinə səbəb oldu. Xammal qiymətlərinin qalxmasının başqa bir səbəbi valyuta sferasında inflyasiyanı gücləndirən böhran prosesləri oldu.

Sonradan bir çox ölkələr təkrar xammaldan istifadəni artırdılar. Bütün həyata keçirilmiş tədbirlər istehsalın material və enerjitutumunun xeyli aşağı düşməsinə səbəb oldu. Xüsusilə, 1972-1999-cu illərdə inkişaf etmiş ölkələrdə istehsalın enerjitutumu 45% azaldı. Alternativ enerji mənbələrindən və materiallarından istifadəyə xüsusi diqqət yetirməyə başladılar. Xammal qiymətləri aşağı düşdükdən sonra, 1980-ci illərin ortalarında qiymət proporsiyaları hazır malların xeyrinə kəskin dəyişdi. Sənaye mallarına olan qiymətlər xammalın qiymətlərini $^1/_3$ dəfə üstələməyə başladı. Əmtəə qiymətləri ilə neqativ meyillər xammal ixracatçıları üçün ticarət şərtlərini pisləşdirdi və gəlirlərin sabitləşməsi üzrə qüvvələri zəiflətdi.

Dünya qiymətlərinin dinamikasını və səviyyəsini müəyyən etmək üçün aşağıdakılardan istifadə edilir:

- məlumat qiymətləri - bunlara mətbuatda, ixrac preyskurantlarında dərc olunan topdan və ya xarici ticarət qiymətləri aiddir. Bir qayda olaraq, məlumat qiymətləri konkret sövdələr olmayıb, satıcılar tərəfindən soruşulan qiymətlərdir. Onlar artıq pul və ya endirimləri özünə daxil edən sövdələrin faktiki qiymətləri müəyyən etmək üçün oriyentir rolunu oynayır;
- birja kotirovkaları - birjada real sövdələri əks etdirir. Birjalarda spekulyativ əməliyyatlar geniş yayıldığından, birja kotirovkalarının dəyişiklikləri hər an üçün qiymətlərin həqiqi meyillərini və hərəkətini əks etdirə bilməz;
- beynəlxalq ticarətdə real sövdələrin qiymətləri - xarici ticarətin qiymətlərini əks etdirir və ayrı-ayrı ixrac və ya idxal mallarının dəyərinin onların miqdarına bölünməsi ilə hesablanır.

Müasir dövrdə bir sıra xammalların dünya qiymətləri müxtəlifliyi və çoxluğu ilə xarakterizə olunur. Bu onunla izah edilir ki, ümumi dünya bazarı çərçivəsində özünün qiymətqoyma spesifikasını qoruyub saxlayan ayrı-ayrı zonalar seçilir. Xammalın dünya qiymətlərinin çoxluğu bu qiymətləri ifadə etmək üçün müxtəlif valyutalardan istifadə hesabına güclənir. Ayrı-ayrı valyutaların qiymətdən düşməsinin qeyri-bərabər sürəti nəzərə alınmaqla, eyni xammalın dünya qiymətlərinin səviyyəsində və dinamikasında xeyli fərqlər meydana çıxa bilər.

## 7.8. Dünya əmək resurslarının kəmiyyət və keyfiyyət aspektləri

Əhalinin artım sürəti, onun yaş strukturu xeyli dərəcədə dünyanın əmək resurslarının kəmiyyət parametrlərini müəyyən edir ki, dünya iqtisadiyyatının inkişafı da bunlardan asılıdır. Əmək resursları (*workforce*) dedikdə, əhalinin əmək qabiliyyəti yaşında, faydalı fəaliyyəti həyata keçirmək üçün zəruri biliklərə malik olan hissəsi başa düşülür. Dünya əmək resurslarının əsas hissəsini iqtisadi fəal əhali təşkil edir. İqtisadi fəal əhali əhalinin işi olan və ya onun axtarışı ilə fəal məşğul hissəsidir. Buraya dünya əhalisinin yarıdan az hissəsi daxildir.

Dünya demoqrafik inkişafının müasir meyilləri şərqi, cənubi və cənub-şərqi Asiya ölkələrində əmək resurslarının əsas hissəsinin - 55%-nin cəmləşməsinə səbəb olur. Bazar iqtisadiyyatlı ölkələrin payına iqtisadi fəal əhalinin 16%-i düşür. Ölkədə iqtisadi fəal əhalinin böyük faiz də olması hələ onun milli iqtisadiyyatının çiçəklənməsinə zəmanət vermir.

İqtisadi fəal əhali kəmiyyət qiymətləndirməsindən əlavə keyfiyyət xüsusiyyətlərinə - təhsil səviyyəsi, məşğulluğun sahəvi quruluşu, fəhlə qüvvəsinin peşə-ixtisas strukturu və s. də malikdir. Qloballaşma və informasiyalaşdırma, yüksək texnologiyaların bənzərsiz surəti kadrların peşə hazırlığına, onların təhsil səviyyəsinə münasibətdə prinsipial cəhətdən başqa tələblər irəli sürür. Bilik milli iqtisadiyyatın mühərrikinə, informasiya cəmiyyətində onların ən vacib resursuna çevrilir.

Müasir zamanda işçi qüvvəsi, əmək bazarı, məşğulluq və miqrasiyaya dünya iqtisadiyyatında aktual səciyyə daşıyan problemlər kimi yanaşılır. İşsizliyin yüksək səviyyəsi qlobal sosial-iqtisadi problem olaraq daha kəskin çıxış edir. Bu problemlə tipindən, sosial və iqtisadi oriyentasiyasından asılı olmayaraq bütün ölkələr qarşılaşırlar. İşsizlik, məşğulluq təminatı bu sferada yaranmış bazar təsisatlarından keçir.

Məşğulluq (*employment*) əhalinin əmək fəaliyyətində iştirakını səciyyələndirən iqtisadi kateqoriyadır. Buraya təhsil, orduda xidmət, ev təsərrüfatının aparılması, uşaq və ahıllara baxmaq kimi fəaliyyətlər də daxildir. İnkişafcı (*orta*) məşğulluq, daimi məşğulluq, natamam məşğulluq, tənzimlənməyən məşğulluq, gizli məşğulluq, şərti məşğulluq və qismən məşğulluq növlərinə təsnifatlandırılır.

Məşqulluğun aşağıdakı göstəriciləri fərqləndirilir:

- ❖ ictimai istehsala əhalinin aktiv hissəsinin tam daxil edilməsi;
- ❖ iş yerlərinin və əmək ehtiyatlarının balanslaşdırılmış səviyyəsi;
- ❖ məşqulluğun əhalinin sosial-iqtisadi tələbləri ilə uzlaşması.

Mümkün məşğul əhali sayının ictimaiyyətin digər kontingentlərinə nisbəti hər faktiki işçi üzrə iqtisadi yüklənmə göstəricisi ilə müəyyən olunur. Məşğulluq amili əmək resursları ilə harmoniya təşkil edir. Əmək resursları zəruri fiziki inkişaf, bilik və praktiki səriştə ilə təsərrüfatda işləmək üçün ölkə əhalisinin əsas hissəsini təşkil edir. Buraya məşğul və həm də potensial işçi qrupları aid olunur.

Qeyri-istehsal sferasında məşğul əhalinin artımı, əmək məhsuldarlığı və ümumilikdə, sosial-iqtisadi tərəqqi ilə bağlıdır. Əmək məhsuldarlığı postindustrial cəmiyyət sferasına keçidin ilk indikatoru kimi çıxış etmişdir. Bu istiqamət inkişaf etmiş ölkələrdə, istehsal sferasında məşğulluğun azaldılması, onun yeni təyinatı, təşkilatlı sferalara keçidinə səbəb olmuşdur. İqtisadiyyatın sektorlara bölgüsü və onun yeni formalarda təzahürü müasir mərhələdə inkişaf etmiş ölkənin sosial gücünü, iqtisadi potensialını xarakterizə edən göstəriciyə çevrilmişdir. İnkişaf etməkdə olan ölkələrdə əhalinin əksər hissəsi istehsal sferasından kənarda fəaliyyət göstərir. Bu da müvafiq ölkənin inkişaf səviyyəsi və iqtisadi durumu ilə xarakterizə olunur.

Planetin sosial və professional strukturunda vətəndaşların məşğuliyyəti, onların sinfi və əmək bölgüsü də əsas şərtlərdəndir. BMT-nin və BƏT-in statistikasında cəmiyyətin sinfi strukturu aşağıdakı kimi göstərilir:

- ❖ sahibkarlar - istehsal vasitəsinə malik və geniş muzdlu əmək istifadəçiləri;
- ❖ kiçik mülkiyyətçilər - əsas istehsal fəaliyyətini ailə əməyi təşkil edir;
- ❖ mülkiyyətçilərin ailə üzvləri - təsbit edilməmiş əmək haqqı ilə işləyənlər;
- ❖ muzdlu əmək insanları - fəhlə və qulluqçular;
- ❖ istehsal koperativlərinin üzvləri;
- ❖ ictimai istehsalda yerləri təyin edilməmişlər - yarımişsizlər və s.

Dünyanın müxtəlif nöqtələrində istehsalın inkişaf spesifikası cəmiyyətin sinfi strukturunda əks olunur. Cəmiyyətin sinfi differensiasiyasının başlıca əlamətini mülkiyyətçilər və muzdlu əmək insanlarının nisbəti və eyni zamanda fəhlə və qulluqçuların dövlət və özəl sektorda bölgüsü ifadə edir.

İnsanların qeyri-istehsal sferasında fəaliyyət genişliyini maddi istehsal sferasında əmək məhsuldarlığının miqyası təyin edir. ABŞ-da və digər inkişaf etmiş ölkərdə maddi istehsal sferasında iqtisadi aktiv əhalinin yarıdan azı çalışır. İnkişaf etmiş ölkələrdə isə çox az saylı əhali qeyri-maddi istehsal sferasında çalışır.

İşçinin status yüksəlişinin təminatı istiqamətində mühüm addım olaraq gəlirlər sferasında islahatları dərinləşdirmək vacib amillərdən sayılır. Bu isə o deməkdir ki, əməyin ödəniş sistemi daim təkmilləşməli, onun ölçü və miqyası real insani yaşayışla dolğun adekvatlıq təşkil etməlidir. Bu strategiya isə daha dolğunluqla işçinin peşəkarlığı və şəxsi töhfəsində ehtiva olunan, ləyaqətli həyat səviyyəsinə təminat verən ödəniş ölçülərinin təyinatı, mərhələli olaraq büdcə sferasında işləyənlərin orta əmək haqqı ölçülərinin xalq təsərrüfatında çalışanlar səviyyəsinə qaldırılmasının təminatı, işçilərin qeyri-ödəniş qabiliyyətli işverənlərdən müdafiə edilməsi və vergi sisteminin iqtisadi reallıqlara uyğun mütəmmadi təkmilləşdirilməsi arqumentasiyası üzərində qurulmalı və təkmilləşməlidir.

İnkişaf etmiş ölkələrin işgüzar aləmində yüksək inkişaf etmiş yaradıcılıq qabiliyyətlərinə, yenilikçilik potensialına malik işçi qüvvəsi müasir rəqabət təsərrüfatının həlledici amillərindən birinə çevrilmişdir. İşçi qüvvəsinin keyfiyyəti bilavasitə şirkətlərin mənfəətində özünü göstərir, ona görə də inkişaf etmiş ölkələrdə əmək resurslarının

inkişafı üzrə dövlət siyasəti aparılır. Qabaqcıl Qərb ölkələrində ixtisasın yüksəldilməsinin ümummilli sistemləri işlənib hazırlanır. Yaponiyada, ABŞ-da və başqa ölkələrdə, işçi qüvvəsinin intellektual potensialının inkişafına hədəflənmiş "insanlara investisiyalar"la əlaqədar özəl biznesi dəstəkləyən qanunlar qəbul edilmişdir. İnkişaf etmiş ölkələrdə ixtisasın yüksəldilməsinin dövriliyi 3-5 il təşkil edir. İşçilərin təhsil səviyyəsi ilə ÜMM-in səviyyəsi arasında birbaşa asılılıq mövcuddur. Təhsilə olan məsrəflərin artması ÜMM-in artımının yarıdan çoxunu təmin edir. Ona görə də inkişaf etmiş ölkələrin firmaları işçi qüvvəsinin təhsilinə və təkrar təhsilinə çoxlu vəsait sərf edir.

Yüksək ixtisaslı əmək resursları inkişaf etməkdə olan ölkələr qrupunda da vardır. Bu ölkələr qrupunda əmək resurslarının keyfiyyəti bütövlükdə inkişaf etmiş dövlətlərdə olduğundan aşağıdır. Saxaradan, Cənubi və Qərbi Asiyadan cənubdakı ölkələrdə iş qabiliyyətli əhali arasında savadsızların xüsusi çəkisi çox böyükdür, bu da əmək məhsuldarlığının artımını ləngidir və iqtisadi inkişafa mənfi təsir göstərir.

Qlobal dünyanın bir çox məmləkətlərinin iqtisadi terminologiyalarında işçi qüvvəsi (*labour force*), əsasən, iqtisadi fəal əhali anlamını verir. Başqa sözlə, iqtisadi fəal əhali əmtəə və xidmətlərin istehsalı üçün işçi qüvvəsinin təminatının təklifidir. Məhz bu qrup məşğul və işsiz əhali hissəsini özündə cəm edir. Əmək ehtiyatlarını işçi qüvvəsinə nisbətdə daha dəqiq ölçmək olar. Vurğulanmalıdır ki, əmək ehtiyatları kateqoriyasına əlillər daxil deyildir. Əlillər əhalinin təxminən 10%-ni təşkil edirlər və onların 80%-i inkişaf etməkdə olan ölkələrin payına düşür.

Beynəxalq statistikada işçi qüvvəsi yaşı 15-dən 65-ə qədər əhali qrupuna aid edilir. Bu göstəricidən çıxış edərək müəyyən etmək olar ki, əhalinin 60%-dən çoxu iş qabiliyyətlidir. İşçi qüvvəsi göstəriciləri sırasında işçi qüvvəsi balansı da iştirak edir. İşçi qüvvəsi balansı müxtəlif təşkilatların, xalq təsərrüfatı sahələrinin işçi qüvvəsinə olan tələbatını və bu tələbatın ödənilməsi mənbələrini əks etdirən göstəricilər sistemidir.

Əksər ölkələrdə beynəlxalq statistik standartlara görə, əmək potensialında işləyənlərin sayı - "işçi qüvvəsi" (*iqtisadi fəal əhali*) və "işləmək istəyənlər" (*əmək birjalarında qeydiyyatdan keçənlər*) göstəricilərindən istifadə olunur. Müəyyən ölkələrdə belə uçot göstəriciləri aparılmadığı üçün müvafiq sistem müəyyənlik baxımından qüsurlu hesab edilir. Lakin bununla belə, inkişaf etmiş ölkələrdə işsizliyi, əsasən, "işçi qüvvəsi" arasındakı mövcud işsizliklə ölçürlər. Bir çox dövlətlərdə və beynəlxalq statistikada əmək potensialının hesablanmasında "işçi qüvvəsi" - işləyənlərin ümumi həcmi (*iqtisadi fəal əhali)* və işləmək arzusunda olanlardan (*işsizlərin əmək birjalarında qeydə alınmış hissə*si) istifadə olunur. Lakin qeyd etmək lazımdır ki, bu göstəricinin müəyyən qüsurlu cəhətləri vardır. Əksər ölkələrdə bu sahədə uçotun pis təşkili və ya heç olmaması onun həcmini, yükünü təyin etməyə çətinlik törədir. Bu, xüsusən, inkişaf etməkdə olan dövlətlərdə kənd təsərrüfatı sahəsində işsizlər kontingentini və qadınların sayını müəyyən etməyə əngəllər törədir.

BƏT-in məlumatlarına görə, faktiki iqtisadi fəal əhali aşağıdakı konfiqurasiyanı yaratmışdır:

- ➢ kənd təsərrüfatında və ona yaxın sahələrdə - 48%;
- ➢ sənaye və tikintidə - 16%;
- ➢ xidmət sektoru və məşğulluğun digər sferalarında - 36%.

İşçi qüvvəsinin təsnifatında olan fərqlər istehsalın yerləşdirilməsinə təsir edir. İstehsalın yerləşməsində isə bir sıra amillər mühüm rol oynayır.

Yerləşmə amilləri (*locational factors*) konkret istehsal sahələrinin yerini və təkmilləşdirilməsini irəlicədən müəyyən edən şarait və şərtlər məcmusudir. Yerləşmə amilləri təsərrüfat obyektinin, obyektlər qrupunun, sahələrin və ya ölkə və regionun təsərrüfatının konkret ərazi təşkili strukturunun daha səmərəli seçimdə yerləşməsi şərtlərinin məsmusu olaraq qəbul edilir. Anlayış elmi dövriyyəyə 1909-cu ildə alman iqtisadçısı Alfred Veberin (*1868-1958*) "Sənayenin yerləşməsi nəzəriyyəsi" adlı klassik tədqiqat işi ilə gətirilmişdir. Yerləşmə amillərində prinsipiallığı onun bölgüsü təşkil edir. Yerləşmə amilləri təbii və ictimai olmaqla iki qismə bölünür. Təbii amillər (*bütün təbii resursları əhatə edir*) mövcud coğrafiyada təbii ehtiyatları və təbii şəraiti şərtləndirilir. İctimai amillərdə (*əmək və informasiya resursları, maddiləşmiş kapital, elmi texniki nailiyyətlər və s.*) isə, əsasən, ictimai inkişafın qanunları əhəmiyyət daşıyır.

Mühüm əhəmiyyətini itirmiş istehsallar inkişaf etmiş ölkələrdən qeyri-ixtisaslı ucuz işçi qüvvəsinin payının yüksək olduğu üçüncü dünya ölkələrinə köçürülür. Dünya əmək ehtiyatlarının ən mühüm keyfiyyət xüsusiyyəti onların səmərəli istifadəsidir. Həmin xüsusiyyət iqtisadi fəal əhalinin bir hissəsinin mal və xidmətlərin istehsalında məşğul olmadığı sosial-iqtisadi hadisədən ibarət olan işsizliyin mövcudluğu ilə mürəkkəbləşir. BƏT metodologiyası üzrə işsizlər qisminə hal-hazırda işi olmayan, iş tapmağa cəhd göstərən və işə başlamağa hazır olan iş qabiliyyətli yaşda olan insanlar daxildir. İşsizliyin səviyyəsi işsizlərin sayının əhalinin iqtisadi fəal hissəsinə nisbəti kimi müəyyənləşdirilir. BƏT məlumatlarına əsasən, dünyada hazırda 4 milyarda yaxın işçi qüvvəsi vardır ki, bunların da 300 milyondan çoxu işsizdir. Bununla belə, inkişaf etməkdə olan dövlətlərdə 1 milyarda qədər əhali də qismən işsiz sayılır. İşsizlik hazırda Yaponiyada 2%, ABŞ-da 6%, Avropada 9%-dir. İşsizlikdən qurtulmaq üçün isə hər gün 150 min iş yerinin açılması gərəkdir.

İşsizlik (*unemployment*) əhalinin fəal əməkqabiliyyətli hissəsinin öz bacarığına uyğun iş tapmaması ilə bağlı yaranan sosial-iqtisadi vəziyyətdir. Əmək qabiliyyətli vətəndaşlar o zaman işsiz hesab edilirlər ki, onlar iş axtarmaqdan ötrü əmək birjalarında qeydiyyatdan keçmişlər, ancaq özlərinin təhsil, peşə və əmək bacarığına müqabil iş tapmaq imkanlarına real şəkildə malik deyillər. Əksər dünya ölkələrində işsizlər məşğul əhalinin orta hesabla 5%-ni təşkil edir.

İqtisadçılar işsizliyin mövcudluğunun çoxnövlüyünü diqqətə gətirirlər.

❖ friksion - insanların regionlarda fəsli yerdəyişməsini xarakterizə edir;

❖ intitusional - işçi qüvvəsi bazarının quruluş xüsusiyyətlərinə uyğun olaraq hüquqi normalardan törənən, ətalət zəifliyi və informasiya qıtlığı ilə əlaqədar transformasiya çətinliyi ilə yaranır;

❖ könüllü - könüllü olaraq işləmək istəməyənlərə aid edilir;

❖ texnoloji - müəyyən ölkələrdə elmi-texniki tərəqqi ilə yüksək gəlirlərin uzlaşması kombinasiyasında iş yerlərinin ixtisarı nəticəsində yaranan işsizlik;

❖ regional - coğrafi və təbii amillərin əlverişli olmadığı şəraitdə izafi işçi qüvvəsinin yaranması ilə baş verir;

❖ gizli - əmək mexanizmlərinin dərin deformasiyası, stimullaşdırmanın və məhsuldarlığın zəif olduğu ölkələrdə baş verir;

❖ struktur işsizlər - işçi qüvvəsinin tələb və təklif strukturunda qeyri-mütənasibliyi ifadə edir. İxtisas, demoqrafik, coğrafi və digər meyarlar struktur işsizliyinin əlamətləridir;

❖ tsiklli işsizlik - əməyə olan ümumi tələbin azaldılması və konyunktur təzahürlərdə özünü göstərir.

İşsizlik dünya iqtisadiyyatına öz potensial imkanlarını gerçəkləşdirməkdə mane olur. Əgər işsizliyin real səviyyəsi tam məşğulluq zamanı işsizlik səviyyəsindən 1% yüksək olursa, onda Amerika iqtisadçısı Artur Melvin Oukenin (*1928-1980*) adı ilə bağlı olan “Ouken qanunu”na uyğun olaraq ÜMM-in real həcmi potensial ÜMM-dən 2,5% geri qalır. Uzun müddət işsiz olanlara ümumi, peşə və ixtisas hazırlığı aşağı olan və tələb olunmayan insanlar aiddir. İşsizliyin daha yüksək səviyyəsi (*70%-dən 45%-ə qədər*) Burkino Fasoda - 70%, Cibutidə - 60%, Şərqi Timorun Kokoslar (*Kilinq*) adasında - 50%, Suriyada - 50%, Zambiyada - 50%, Seneqalda - 48% qeydə alınmışdır. Aşağı göstəricilər isə Kanadada - 6,4%, Danimarkada - 5,9%, Avstraliyada - 5,7%, Niderlandda - 4,9%, ABŞ-da - 4,4%, Böyük Britaniyada - 4,3% və Yaponiyadadır - 2,9%.

Dünyanın müxtəlif ölkələrində işsizliyə qarşı sosial-iqtisadi müdafiə siyasəti aparılır. Sənaye cəhətdən inkişaf etmiş ölkələr bu sahədə bir əsrdən artıq təcrübəyə malikdir. İşsizlərə maddi yardıma işsizliyə görə sığorta və sosial yardım daxildir. ÜDM-də işsizlikdən müdafiə sisteminə çəkilən xərclərin payı Fransada, AFR-də, İspaniyada 3-4%, İsveçdə, Belçikada, Danimarkada isə 4-7% təşkil edir. Burada əmək bazarının kifayət qədər sərt tənzimlənməsinə və işsizlərə nəzərəçarpacaq maddi yardım göstərilməsinə əsaslanan işsizlikdən müdafiənin sosial modeli həyata keçirilir. ABŞ-da işsizlikdən müdafiə sisteminə çəkilən xərclərin payı ÜDM-in 0,8%-ni təşkil edir. Onlar əmək bazarının tənzimlənməməsinə, maddi kompensasiyanın verilməsinin sərt şərtlərinə əsaslanan işsizliyə qarşı müdafiə sisteminin liberal modelini reallaşdırırlar. Burada daha ixtisaslı fəhlələr arasında işsizliyin səviyyəsi son dərəcə aşağıdır.

Yaxın perspektivdə məşğulluq siyasətinin aparılmasında tədris proqramlarının təkmilləşdirilməsinə və işçi qüvvəsinin yenidən hazırlanmasına, minimal əmək haqqı sistemində dəyişikliklərə xüsusi yer ayrılır. Minimal əmək haqqı bərabərşəkili əmək haqqı dərəcəsindən yüksək olan səviyyədə müəyyən edilir. Aşağı ixtisaslı işçi qüvvəsinin, hər şeydən əvvəl, gənclərin əmək bazarından sıxışdırılması kimi neqativ hallar da bununla bağlıdır. Məşğulluq probleminə iki müxtəlif yanaşma formalaşmışdır. Onlardan biri əmək bazarının özünütənzimləməsinə, digəri dövlətin məşğulluğa fəal

təsirinin zəruriliyinə əsaslanır. Üçüncü yanaşmaya görə, əmək bazarına həm kortəbii bazar qüvvələri, həm də dövlət tənzimlənməsi kimi təsir göstərilərsə, bu zaman məşğulluq problemi həll edilə bilər.

## 7.9. Dünya maliyyə resursları və onların yenidən bölgüsü mexanizmləri

Kapitalın dövr etməsi prosesində pul formasında kapital (*maliyyə aktivləri, maliyyə*) formalaşır ki, bu da maliyyə resursları deməkdir.

Kapital (*latınca* - capitalis - *başlıca, başlıca əmlak, başlıca məbləğ*) gələcəkdə mənfəət əldə etmədə istifadə üçün aktivlər məcmusudur. Riskli səciyyə daşıdıqda: Vençur kapitalı (*ingiliscə* - venture capital - *riskli kapital*) yeni, inkişaf yoluna qədəm qoyan və yaxud bazarda müvafiq yer tutmağa çalışan müəssisə və şirkətlərin maliyyələşdirilməsini əks etdirən yüksək risk dərəcəli investorlar kapitalıdır. Ümumilikdə elmi-texniki işləmələrin kommersiyalaşmasının sürətləndirilməsinə xidmət edir. Vençur kapitalı biznes sferasında 1950-60-cı illərdə ABŞ-da formalaşmış və növbəti onillikdə Avropaya yol açmışdır.

Dünya maliyyə resursları (*world financial resources*) dünyanın bütün ölkələrinin, beynəlxalq təşkilatların və beynəlxalq maliyyə mərkəzlərinin maliyyə resurslarının məcmusudur. Onlar beynəlxalq iqtisadi münasibətlərdə, yəni rezidentlərlə qeyri-rezidentlər arasında olan münasibətlərdə istifadə olunur.

Dünya maliyyə resursları mənbələri aşağıdakılardır:

- ❖ donor ölkələr - dünya maliyyə resurslarının üstün həcmi formalaşan, inkişaf etmiş iqtisadiyyatlara malik olan ölkələr;
- ❖ beynəlxalq təşkilatların fondları - maliyyə yardımı verilməsi üçün nəzərdə tutulur və bu ölkələrin hökumətlərinin üzvlük haqqından ibarətdir;
- ❖ dünya qızıl-valyuta ehtiyatlarının daha böyük payı ayrı-ayrı şəxslərin, şirkətlərin, təşkilatların və dünyanın inkişaf etmiş ölkələrin hökumətlərinin mülkiyyətidir.

Beynəlxalq maliyyə aktivləri (*international financial assets*) dünya maliyyə bazarında dövriyyədə olan və gələcəkdə pul gəlirləri əldə etmək üçün sahiblərinin qanuni tələblərini əks etdirən səhmlər, istiqrazlar, vekselləp, xəzinədarlıq öhdəlikləri şəklindəki spesifik qeyri-maddi aktivlərdir. Beynəlxalq maliyyə aktivlərinin köməyilə maliyyə ehtiyatlarının vəsaitlərin artıq olduğu ölkələrdən investisiyalara ehtiyacı olan ölkələrə və onların rezidentlərinə ötürülməsi həyata keçirilir. Müəyyən maliyyə aktivləri alaraq bazarın digər subyektlərinin fəaliyyətinə investisiya vəsaiti qoyan şəxslər və maliyyə aktivlərinin - səhmlərin, istiqrazların, depozitivlərin və s. sahibləri investorlar, azad maliyyə ehtiyatlarını istehsal və satış vasitəsilə maliyyə aktivləri investorlarına cəlb edənlər isə həmin aktivlərin emitentləri adlandırılır. Hər bir maliyyə aktivi investorun - aktiv sahibinin aktivi və həmin aktivi buraxan şəxsin öhdəliyi hesab olunur.

İnvestor (*ingiliscə* - investor - *əmanətçi, sərmayəçi*) öz vəsaitini, borc aldığı və ya cəlb etdiyi vəsaitləri investisiya layıhələrinə yönəldən fiziki və hüquqi şəxs. İnvestor

riskin minimallaşdırılmasında maraqlıdır. Strateji və portfel investorları fərqləndirilirlər.

Emitent (*ingiliscə* - issuer - *buraxan*) pul və qiymətli kagızlar buraxan, emissiya edən istənilən orqan və ya təşkilat (*dövlət bankı, maliyyə-kredit təşkilatı, müəssisə, şirkət*).

Hüquqi şəxs (*legal entity, juridical person*) xüsusiləşdirilmiş əmlaka və onlara öhdəlikləri əsasında cavabdehlik daşıyan, öz adından mülki hüquqlar əldə edə və həyata keçirə bilən, həmçinin, mülki öhdəliklərə malik, məhkəmədə iddiaçı və cavabdeh olan qanunvericiliklə müəyyən edilmiş qaydada qeydiyyata alınan təşkilatdır. Azərbaycan Respublikasının Mülkü Məcəlləsinə əsasən, "hüquqi şəxs qanunla müəyyənləşdirilən qaydada dövlət qeydiyyatından keçmiş, xüsusi yaradılmış elə bir qurumdur ki, mülkiyyətində ayrıca əmlakı vardır, öz öhdəlikləri üçün bu əmlakla cavabdehdir, öz adından əmlak və şəxsi qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək, vəzifələr daşımaq, məhkəmədə iddiaçı və ya cavabdeh olmaq hüququna malikdir. Hüquqi şəxsin müstəqil balansı olmalıdır".

Fiziki şəxs (*physical person*) iqtisadi fəaliyyətin tam hüquqlu subyekti kimi çıxış edən vətəndaş, insandır. Fiziki şəxslərə iqtisadiyyatda müstəqil fiqur keyfiyyətində çıxış edərək müəyyən təsərrüfat əməliyyatlarını aparmaq hüququna malik olanlar, digər şəxs və təşkilatlarla iqtisadi münasibətləri tənzimləyənlər, hüquqi şəxslərlə münasibətlər yaradan həmin ölkənin və həmçinin, xarici ölkənin vətəndaşı və vətəndaşlığı olmayanlar aid edilir. Fiziki şəxslər öz adlarından çıxış edir və hüquqi şəxslərdən fərqli olaraq, müəssisə və şirkət yaratmağa və onları qeydiyyatdan keçirməyə ehtiyac görmürlər.

Publik hüquqi şəxs (*ingiliscə* - public entity - *ictimai şəxs*) dövlət və bələdiyyə adından və ya onun özü tərəfindən yaradılan, ümumdövlət və ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olan, dövlət və ya bələdiyyə orqanı olmayan təşkilatdır. Publik hüquqi şəxs hüququ, ümumdövlət və ya ictimai maraqların təmin edilməsi ilə bağlı olan münasibətləri tənzimləyən hüquq normalarının məcmusu publik hüquqa əsaslanır. Doktrina olaraq iki əsr öncə Fransada inzibati dövlət quruculuğu çərçivəsində təşəkkül tapıb və XIX əsrin axırları və XIX əsrin əvvələrində bir sıra Avropa ölkələrində, xüsusən də, Almaniyada tətbiqini tapıb. Postsovet məkanında publik hüquqi şəxslərlə bağlı qanunlar Baltik ölkələri, Ukraynada, Moldovada və Gürcüstanda mövcuddur. 2015-ci ildə Azərbaycanda da publik hüquqi şəxslər haqqında qanun qəbul edilmişdir.

Dünya maliyyə bazarı (*global financial market*) dünya borc kapitalı bazarının bir hissəsi olaraq, müxtəlif ölkələrin kreditorları və borc alanlarının kapitala yönələn tələb və təklifin məcmusudur. Fond bazarı və ya qiymətli kağızlar bazarı dünya maliyyə bazarının seqmentlərindən biri kimi çıxış edir. Dünya maliyyə bazarı XIX əsrin sonuna kapital ixracının başlanması ilə inkişaf etmişdir. Müstəqil pul vəsaitlərinin bir yerə cəm olması və onların ayrı-ayrı sahələr, ölkələr və regionlar arasında dünya miqyasda yenidən paylaşdırılması və istehsalın inkişaf sürəti ilə effektivliyinin artırılması dünya maliyyə bazarının əsas funksiyalarını ehtiva edir. Dünya maliyyə bazarı ilkin və ikinci dərəcəli bazar növlərinə təsnifatlandırılır.

Dünya maliyyə bazarının gəlir əldə edilməsində etibarlılıqla fərqlənən maliyyə alətlərinin iki əsas kateqoriyası mövcuddur:

1. Mülkiyyət alətləri - müddətsiz alətlər olub, emitentin nizamnamə fondunda (*səhmdar cəmiyyət*) investorun pay iştirakını təsdiq edir. Yəni həmin investorla səhmdar cəmiyyətin digər iştirakçıları arasında ortaqlıq münasibətlərini xarakterizə edir, gəlir sahibinə dividend halında gəlir almaq hüququ, əmlak ləğv edilərsə, cəmiyyətə həmin əmlakın bir hissəsinə əmlak hüququ verir və s.

2. Borc alətləri - emitentlə investor arasında borc münasibətlərini göstərən və emitentə verilən borc üçün gəlirin ödənilməsi ilə bağlı təcili alətlərdir.

Törəmə alətlər (*derivativlər*) seçilir ki, onların buraxılışı və dövriyyəsi mexanizmi müəyyən maliyyə və maddi aktivlərin alqı-satqısından asılı olan maliyyə alətləridir. Törəmə maliyyə alətlərinə olan qiymətlər onların əsasına qoyulmuş və baza aktivləri (*qiymətli kağızlar, faiz dərəcələri, fond indeksləri, əmtəə resursları, qiymətli metallar, xarici valyuta və s.*) adlandırılan aktivlərin qiymətindən asılı olaraq müəyyən edilir.

Dünya maliyyə bazarının maliyyə alətləri gəlir hesablanması, mexanizmindən asılı olaraq, aşağıdakılara bölünür:

- təsbit edilmiş gəlirlə olan alətlər - təsbit edilmiş faiz ödənişləri ilə istiqrazlar, digər borc öhdəlikləri, həmçinin, dividend ödənilən imtiyazlı səhmlər;
- üzən gəlirli alətlər - növbəli faiz ödənişləri ilə borc öhdəlikləri və sadə səhmlər, belə ki, onların ardınca dividend ödənişləri bilərəkdən qeyri-müəyyən olur və firmanın hesabat dövrü ərzində əldə etdiyi mənfəətin ölçüsündən asılıdır.

Maliyyə resursları beynəlxalq iqtisadi münasibətlərin müxtəlif iştirakçıları arasında bölüşdürülərək, daha çox hərəkətdə olur. Bu bölgü mexanizmi, şərti olaraq, aşağıdakı sxemematik quruluşda təqdim olunur.




**Sxem 1. Dünya maliyyə resurslarının yenidən bölgüsü mexanizmi**

Sxemdən göründüyü kimi, dünya maliyyə resurslarının bir hissəsi qızıl-valyuta ehtiyatlarına düşür, bir hissəsi yardım şəklində güzəştli şərtlərlə xaricə verilir. Bununla belə, əsas hissə dünya maliyyə bazarında (*dünya kapital bazarlarında*) alınır və satılır

## 7.10. Elmi-texniki potensial və elmi-texniki tərəqqi

Dünyanın elm resurslarını (*scientific resources of the world*) elmi-texniki potensial və elm əhatə edir. Elmi resurslar bu və ya digər ölkənin elmi-tədqiqat, təcrübə-konstruktor işlərini həyata keçirmək imkanlarını müəyyənləşdirir. Elmi-tədqiqat, təcrübə-konstruktor işləri, ETTKİ - (*ingiliscə* - Research and Development, R&D - *Tədqiqat və İnkişaf*) yeni biliklərin alınmasına və yeni məmulat və ya texnologiyaların yaradılmasının praktiki tətbiqinə istiqamətlənmiş işlər məcmusudur. ETTKİ elmi-tədqiqat, təcrübə-konstruktur və texnoloji işləri əhatə edir. ETTKİ nəticələrinə sahib olmaq şirkətlərə texnoloji renta formasında əlavə mənfəət almağa imkan verir. O, kapital qoyuluşları üzrə orta mənfəətdən 2-3 dəfə artıq olur. TMŞ-lər ETTKİ-ni məhsulun yerli bazarın tələblərinə uyğunlaşması zərurətindən, sonra isə qəbul edən ölkələrin tədqiqat potensialından istifadə üçün xarici ölkələrə keçirirlər. İnkişaf etmiş ölkələrdə ÜDM-də ETTKİ xərclərinin xüsusi çəkisi 3-5% təşkil edir. Milli elmi xərclərin 20%-dən 50%-ə qədəri (*o cümlədən: ABŞ-da 28,6%-i, AFR-də 33,8%-i, İtaliyada 51,1%-i*) büdcə vəsaitləri hesabına maliyyələşdirilir. Dövlət vəsaitinin elmə ayrılan böyük hissəsini müdafiə tədqiqatlarının (*ABŞ 53,2%, Böyük Britaniya - 34,9%*) maliyyələşdirilməsi örtür.

Elmi resurslar elmi-texniki potensialın artması ilə müşayiət olunur. Elmi-texniki potensial (*scientific and technical potential*) hazır elmi kadrların, elmə və elmə xidmətə ayrılmış maliyyə resurslarının, ETTKİ təşkili sisteminin, maddi-texniki təminatın, elmi araşdırmaların prioritetliyini və elmi xidmətlərin məcmusunu ehtiva edir. Elmi-texniki potensial müasir dünya iqtisadiyyatınm resurs bazasının həlledici elementi və inkişaf amili olaraq çıxış edir. Elmi-texniki potensialın inkişafı, ondan səmərəli istifadə, ETT-nin sürətləndirilməsinin, tədqiqatların intensivləşdirilməsinin, elm-texnika-istehsal tsiklinin qısaldılmasının mühüm şərtidir.

Ölkənin elmi-texniki potensialını xarakterizə edən əsas göstəricilər aşağıdakılardır:

- ETTKİ-lərə çəkilən xərclərin ÜDM-də payı;
- əhalinin adambaşına hesabı ilə ETTKİ-yə çəkilən xərclər;
- dövlət büdcəsinin ümumi xərclərində büdcə təsisatlarının payı;
- elmdə və elmə xidmətdə məşğul olan mütəxəssislərin sayı;
- müqavilə üzrə xarici ölkələrdə işləyən və elmi məktəbləri olan elmi dərəcəli əməkdaşların sayı;
- sitatlar indeksi (*elmi əsərlərdə bu ölkədən olan tədqiqatçıların əsərlərinə istinadlar*);
- müxtəlif mənbələrdən alınmış qrantların sayı və ölçüsü;

- kapitaltutumlu məhsulların ÜDM-də payı;
- yüksək texnologiyalar bazarında ölkənin payı.

Tətbiqi tədqiqatlar, əsasən, sənayedə reallaşdırılır və özəl firmalar tərəfindən xüsusi tədqiqat institutlarında və laboratoriyalarda həyata keçirilir. XX əsrin axırlarına doğru sahibkarlıq sektoru tədqiqat işlərinə ümummilli xərclərin əksər hissəsini - AFR-də - 68%, Fransada - 61%, Yaponiyada - 72%, ABŞ-da - 74%-ni maliyyələşdirmişdir.

Elmi-texniki potensial yeni texnologiyaların, xüsusən də, yüksək texnologiyaların tətbiqi ilə yüksəliş tapır. Texnologiya (*yunanca* - techne - *sənət, ustalıq, bacarıq və logos - söz, təlim, oyrənmə*) iqtisadi resurslardan əmtəə və xidmətlərin istehsalı üçün istifadə olunan biliklər məsmusudur. Texnologiya maddənin enerjiyə çevrilməsi, informasiyanın hazırlanması, ötürülməsi, materialların emalı, hazır məhsulun yığılması, keyfiyyətə nəzarət, idarəetmə və s. bu kimi təyinatları ehtiva edir. Texnologiya həm daxili xassələrinin tərkibi, həm də onların təzahür formalarına görə spesifik əmtəədir. Bu əmtəənin əmək prosesi və onun nəticələri təkrar istehsal edilmir. Onun üçün hər hansı birbaşa təbii ölçü vasitəsi mövcud deyildir. Texnologiyaya yalnız keyfiyyət fərqi məxsusdur və o, öz məzmununa görə təkrarsızdır. Texnologiya istehsalçısı kəşfin və ya ixtiranın istifadəsində inhisar hüququna malikdir ki, buna adətən mühafizə sənədi - patent verilməsi ilə nail olunur.

Texnoloji proses dedikdə, maddi istehsal sahələrində xammal, material, yarımfabrikat, yaxud məmulat alınmasının, emalının və ya yenidən emalının üsul və vasitələrinin məcmusu nəzərdə tutulur. ETT-nin təsiri altında texnoloji proses daim təkmilləşdirilir, daha yaxşı son nəticələr verən yeniləri mənimsənilir. Çevik avtomatlaşdırılmış istehsallar və tullantısız texnologiyalar daha çox tətbiq edilir. Onlar istehsalatlar bir məmulatın emalından tezliklə digərinə keçməyə, eyni zamanda müxtəlif əməliyyatları yerinə yetirməyə imkan verir. Bu prosesdə resiklinq - təkrar emalın funksionallığı artır. Resiklinq, təkrar emal (*ingiliscə* - recycling - *təkrar emaletmə*) çıxdaşların, istehsal tullantılarının təkrar istifadəsi əsasında onların yenidən emal ilə dövriyyəyə qaytarılması və ya təhlükəsiz ləğvidir.

Tullantısız texnologiya zamanı texnoloji prosesdə xammal ehtiyatları - istehsal-istehlak-təkrar maddi ehtiyatlar tsiklində xammal və enerjidən daha səmərəli və kompleks istifadə olunur və ətraf mühitə zərərli təsir göstərilmir. Aztullantılı texnologiyanın tətbiqi çox vaxt tullantısız texnologiyaya keçidi qabaqlayır. Aztullantılı və tullantısız texnologiyanın mahiyyəti - itkilərin və tullantıların maksimum mümkün olan qədər və hətta tam aradan qaldırılmasından ibarətdir.

Yüksək texnologiyalar (*high technology*) müasir dünyanın daha üstün və mütərəqqi texnologiyalarıdır. Termin ilk dəfə 1958-ci ildə “atom enerjisi” üçün ABŞ-ın “New York Times” qəzetində istifadə edilib. Yüksək texnologiyalara sənayenin ən elmtutumlu sahələri aid edilir. Onlar, əsasən, beş prioritet istiqamətdə - texnoloji inkişaf, informasiya texnologiyaları, yeni materiallar əsasında istifadə edilən texnologiyalar, kosmik texnologiyalar, nüvə texnologiyalarını ehtiva edir. Bununla yanaşı yüksək

texnologiyalar, sosial texnologiyalar (*yeniliklərin yayım sistemi, kollektiv iş texnologiyaları və tədrisi*), inkişaf etmiş kompüter elektronikaları və s. daxil edilir. Yüksək texnologiyar və onlara müvafiq texnikalardan istifadəyə keçid elmi-texniki inqilabın müasir mərhələsinin mühüm bəndini təşkil edir.

Texnologiyalar arasında "yüksək texnologiya" sinfi yoxdur. Buna görə zamanı qabaqlayan texnologiyalar yüksək texnologiyalar hesab edilərək özündən əvvəlki texnologiyaları adi texnologiyalar sırasına sürüşdürür. Yüksək texnologiyaların tam tərsi sadə, ənənəvi və ya pre-mexaniki texnologiyaları özündə ehtiva edir və aşağı texnologiyalar hesab edilə bilər (*sayğac aşağı texnologiyalı hesablayıcı cihazdır*).

Texnologiya sektoru sənaye müəssisələrini onların texnoloji intensivliyi və istehsal edilən son məhsula görə təsnifatlaşdırır və bu səbəbdən yüksək texnologiyaların istehsal edildiyi sahələr aşağıdakılar kimi qruplaşdırılır:

- aerokosmika;
- təyyarə istehsalı və ya təyyarəqayırma;
- raketqayırma;
- avtomobil;
- süni intellekt;
- biotexnologiya;
- biometriya;
- gen mühəndisliyi və gen-terapiya;
- mikrobioloji sənaye;
- kompüter elmləri və informasiya texnologiyaları;
- telekommunikasiya;
- nanotexnologiya;
- nüvə fizikası;
- fotonika;
- robotlar;
- yarımkeçiricilər;
- elektronika;
- ötürücülər (*sensorlar*), detektorlar, elektron analizatorlar;
- tullantıların emalı;
- naviqasiya texnologiyaları;
- təhlükəsizlik sistemləri;
- gizli müşahidə sistemləri;
- müdafiə texnologiyaları və ikili təyinatlı texnologiyalar;
- sosial texnologiyalar;
- ekoloji təmiz texnologiyalar və alternativ energetika.

Texnologiyar və innovasiyalar Azərbaycan Respublikasında da inkişaf edir və dövlət tərəfindən hərtərəfli stimullaşdırılır. Bu məqsədlə, ölkədə dövlət tənzimlənməsini həyata keçirən mərkəzi icra orqanı Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və

Yüksək Texnologiyalar Nazirliyi yaradılmışdır. Nazirliyin Əsasnaməsinə müvafiq olaraq, yüksək texnologiyalar - telekommunikasiya, informasiya texnologiyaları, mikroelektronika, kosmik, nüvə, nano, bio və digər innovativ elmtutumlu texnologiyaları əhatə edir.

ABŞ dünyada ən böyük elmi-texniki potensiala malikdir. Burada elmdə və elmə xidmətdə məşğul olanların sayı 7,5 milyon nəfərdən çoxdur. ABŞ-ın elmtutumlu dünya istehsalındakı payı XX əsrin sonlarında təxminən 50% təşkil edirdi. Burada 180 nəfərdən artıq alim tədqiqatların müxtəlif sahələri üzrə Nobel mükafatı laureatıdır.

Qərbi Avropa ölkələrində yüksək texnologiyalar sahəsində tədqiqatlar üzrə ABŞ və Yaponiyadan xeyli dərəcədə gerilik müşahidə edilmişdir. Qərbi Avropa ölkələrinin elmi-texniki potensialı fundamental tədqiqatlara istiqamətləndirilmişdir. Yaponiya tətbiqi tədqiqatları daha fəal inkişaf etdirir.

İqtisadi cəhətdən inkişaf etmiş ölkələrin çoxundan fərqli olaraq, Rusiyada tədqiqat işlərinin başlıca mənbəyi dövlət büdcəsidir. Rusiya elmə Yaponiyadan 9,3 dəfə, AFR-dən 4,7 dəfə, Fransadan 2,8 dəfə az vəsait xərcləyir. ABŞ-da elmə çəkilən xərclər Rusiyadan 24 dəfə artıqdır.

Böyük şirkətlər elmi-tədqiqat işləri sahəsində xeyli üstünlüklərə malikdir. Uzunmüddətli fundamental axtarışla bağlı miqyaslı bahalı layihələr onlara açıqdır, bu da həmin şirkətlərə müxtəlif elmi fənlər üzrə alim və mütəxəssisləri birləşdirən çoxməqsədli elmi tədqiqatlar aparmağa imkan verir. Onlar bir və ya bir neçə kiçik layihənin paralel işlənməsini maliyyələşdirə bilir, bir tədqiqatın kommersiya uğurları isə müvəffəqiyyətsiz tədqiqatlardan gələn ziyanı kompensasiya edir. Elmi tədqiqatlar (*research studies*) yeni biliklərin alınması ilə bağlı öyrənmə, ekspriment, nəzəriyyənin öyrənilməsi və konseptuallaşdırılması prosesidir. Elmi tədqiqatlar praktiki problemlərin həll edilməsində mühüm rol oynayır və fundamental, tətbiqi, bir fənli, fənlərarası, kompleks, bir amilli və ya təhlili, tənqidi, axtarış, dəqiqləşdirici və səsləndirmə tədqiqatlarına, işləmələrə təsnifatlandırılır.

Dünya iqtisadiyyatının və beynəlxalq iqtisadi münasibətlərin formalaşması amili kimi elmi-texniki inqilab çıxış edir. Elmi-texniki inqilab, ETİ (*scientific and technical revolution*) elmin ictimai istehsalın aparıcı amilinə çevrilməsi əsasında məhsuldar qüvvələrin köklü keyfiyyətdə yenidən təşkilidir. ETİ XX əsrin ikinci yarısında cəmiyyətin inkişafında insanın, elm və texnikanın rolunun köklü keyfiyyətdə dəyişməsindən başlanğıc alır.

ETİ-nin aşağıdakı xüsusiyyətləri vardır:

- dünyanın bütün ölkələrini, onların qüvvələrini və resurslarını birləşdirir;
- ölkələrdə istehsalın artımına və deməli, bütövlükdə dünya iqtisadiyyatının iqtisadi və sosial səviyyəsinin artmasına kömək edir;
- avtomatik olaraq təsir etmir, ölkələrin fəal iştirakını tələb edir;
- həm ayrı-ayrı ölkələrin iqtisadiyyatında, həm də bütövlükdə dünya iqtisadiyyatında struktur irəliləyişlərinə səbəb olur;

➢ işləyənləri fəallaşdırır, belə ki, zəhmətkeşlərin intellektual səviyyəsi yüksəlir, seçim azadlığı və qərarlar qəbul edilməsi uçün imkan yaranır.

ETİ nailiyyətləri dünya təsərrüfatında TMŞ-lərin fəaliyyəti, dünya ticarətinin inkişafı, həmçinin, əmək resurslarında baş verən dəyişikliklər sayəsində yayılır.

Elmi-texniki potensialın inkişafı, ondan səmərəli istifadə, elmi-texniki tərəqqinin sürətləndirilməsinin, tədqiqatların intensivləşdirilməsinin, elm-texnika-istehsal tsiklinin qısaldılmasının mühüm şərtidir.

Elmi-texniki potensial müasir dünya iqtisadiyyatınm resurs bazasının həlledici elementi və inkişaf amilidir.

Elmi-texniki biliklərin yayılması iqtisadi artımın və istehsalın inkişafının mühüm məsələsidir. Hesab olunur ki, ölkələr eyni texnologiyalardan istifadə edə bilirsə, onların arasında iqtisadi artım sürətləri bərabərləşməyə başlayacaqdır. Elmi-texniki biliklər elmi-texniki tərəqqiyə vüsət verir. Elmi-texniki tərəqqi, ETT (*scientific and technical progress*) maddi istehsalın ehtiyacları, sosial tələblərin mürəkkəbliyi və artımı ilə şərtlənən elm və texnikanın qarşılıqlı əlaqəli təkamüllü inkişafıdır. ETT XVI-XVII əsrlərdə manufaktura istehsalının yaranışı ilə elmi nəzəriyyənin və texniki fəaliyyətin yaxınlaşmağa başladığı ərəfədə təşəkkül tapmışdır. ETT-nin yayılması nəzəri cəhətdən ümumi xarakter daşıyır. O, hazır məhsulla, patentlərin, lisenziyaların alınması ilə, birbaşa kapital qoyuluşlarının hərəkəti ilə, hiss olunan biliklərlə (*nou-hau*) xarici ticarət vasitəsilə həyata keçirilir. Hiss oluna bilən biliklərin ötürülməsinə yeni tədqiqat bacarıqları, texniki və təşkilati imkanlar daxildir. Lakin texnologiya ötürülmür, fiziki əmtəə kimi satılır.

ETT-nin sürətləndirilməsi, elm və texnika nailiyyətlərinin istehsalatda daha tez və səmərəli tətbiq edilməsi xeyli dərəcədə göstərilən təşkilatların düzgün qarşılıqlı əlaqəsindən, onların quruluşundan və idarə aidiyyətindən asılıdır. Yeni texnikanın yaradılması vahid bir prosesdir, bu proses onu yerinə yetirən bütün bölmələrin həm əlaqələndirmə, həm də təşkilati cəhətdən sıx əlaqədar olmasını tələb edir.

Son onilliklərdə ETT funksional yerdəyişmələri, əsasən, sahəvi və istehsal strukturu daxilində özünü göstərir. Bazarlarda yeni əmtəələr yox, yaxşılaşdırılmış mallar, yeni texnologiyalar deyil, yenilənmələr bazasında səmərələşdirilmiş əvvəllər mövcud olmuş məmulatlar üstünlük təşkil edir. 1970-ci illərin sonunda dünya bazarlarında meydana gəlmiş məhsulların 8%-i, prinsip etibarilə, öz xassələrinə görə, 12%-i isə hazırlanma texnologiyasına görə yeni olmuşdur.

ETT zəmanəmizdə qlobal əhəmiyyətli amilə çevrilmişdir. O, bir çox amillərlə dünya iqtisadiyyatının inkişafını, dünya bazarının genişlənməsini, ölkələr və regionlar arasında qarşılıqlı əlaqələrin dərinləşməsi və təkmilləşməsini müəyyən edir. ETT yeni yaranışlar və innovasiyalarla dünya bazarının təsərrüfat artımına və strukturuna təsir göstərərək onun pozitiv seqmentləşməsində və yeniləşməsində mühüm rol oynayır.

## 7.11. İntellektual kapital və dünyanın əsas elmi-texniki mərkəzləri

İşçilərin elmi və adi biliklərini, intellektual mülkiyyəti və qazanılmış təcrübəni, ünsiyyəti və təşkilat strukturunu, informasiya şəbəkəsini və firmanın imicini toplayan "kollektiv beyin" funksiyası ilə intellektual kapital çıxış edir. Məhz intellektual kapital sonralar bazarda başlıca rəqabət üstünlüyünə (*competitive advantage*) çevrilən istehsal texnologiyasının və onun məhsulunun yenilənməsinin sürətini və xüsusiyyətini müəyyənləşdirir. Geniş mənada intellektual kapital (*ingiliscə* - intellectual capital - *əqli sərvət*) insanların bilik, bacarıq, səriştə və peşəkarlıq təcrübəsində təcəssüm olunan kapital formasıdır. O, mənfəətin maksimallaşdırılması, digər iqtisadi və texniki nəticələrin əldə olunması məqsədi ilə qeyri-maddi aktivlərdən (*patent, proqram təminatında göstəricilər bazası, ticarət markaları və s.*) səmərəliliklə istifadə edilən konkret insanların (*insan avuarları*) bilik və məhsuldar təcrübəsidir. İntellektual kapital insan, təşkilat və istehlak kapitalından ibarətdir.

Faydanın maksimallaşdırılması (*utility maximization*) əldə olunan məlumatlaradan çıxış edərək fərdlərin və şirkətlərin faydalılığı və həmçinin, mənfəətin maksimallaşdırılmasını səciyyələndirən neoklassik iqtisadi nəzəriyyədə istiqamətdir.

İntellektual kapitalın daşıyıcıları kimi əhəmiyyətləri cəmiyyət üçün bazar şəraitində daha yaxşı qiymətləndirilən nadir və çətin əvəz edilən qabiliyyətlərə malik peşəkar insanların adını çəkmək olar. İntellektual kapital iqtisadi kateqoriya olaraq, kapitalın digər formaları kimi, yalnız bazar iqtisadiyyatında işgörmə qabiliyyəti təkcə dəyər yox, həm də əlavə dəyər gətirən mal qismində çıxış edir. Belə ki, bazar yalnız dəyəri olan şeyin qiymətini ödəyir.

Aşağıda intelektual kapitalı qrafik illüstrasiyada səciyyələndirən sxem verilmişdir:




**Sxem 2. İntellektual kapital: qrafik illüstrasiyada**

İntellektual kapitalın artan əhəmiyyəti təkcə ayrı-ayrı şirkət və təşkilatların rəhbərləri tərəfindən deyil, həm də dünyanın əksər ölkələrinin siyasətçiləri üçün də aydın görünür. Bu ölkə və regionlarda intellektual kapitalın inkişaf meyillərini qiymətləndirə bilən indikatorlara bağlı sferada daha çox diqqəti cəlb edir. Həmin qiymətləndirmələr isə gələcək iqtisadi artımın və sosial-iqtisadi inkişafın perspektivini aşkara çıxarmağa yardım edəcəkdir.

Dünya iqtisadiyyatının elm ehtiyatları çox az sayda ölkədə cəmləşmişdir. Dünyanın elmi-texniki ehtiyatlarının əsas həcmi isə İƏİT üzvü ölkələrində, ÇXR, Rusiya və Hindistanda toplaşmışdır.

İnkişaf etmiş ölkələrdə özəl şirkətlər ETTKİ-nin əsas investorları olmuşlar. Belə ki, hazırda özəl sektor ETTKİ-yə sərf edilən xərclərin Yaponiyada 70%-ni, ABŞ-da 68%-ni, Avropada isə 56%-ni təmin edir. Korporativ sektorda ETTKİ-yə mütləq xərclər üzrə liderlər isə ABŞ şirkətləridir, 2003-cü ildə "Ceneral motors" korporasiyası ETTKİ-yə 6,5 milyard ABŞ dolları, "Ford motors" korporasiyası 6,3 milyard ABŞ dolları, İBM korporasiyası isə 5,4 milyard dollar maliyyə vəsaiti xərcləmişdir. Bu xərclər növbəti son 10 ildə də daha dinamik olmuşdur. Statistika göstərir ki, müasir dövrdə ETTKİ-yə ayrılan maliyyə resurslarının yarıdan çoxu ABŞ-ın payına düşür. Qalan mərkəzlər kimi isə Qərbi Avropada, Yaponiyada və Rusiyada yerləşənləri qeyd etmək olar. İsveç, İsveçrə, Niderland kimi ölkələr də ETT-nin ayrı-ayrı, nisbətən dar istiqamətlərində liderlər sırasına daxil edilir. Bəzi yeni inkişaf etmiş ölkələr (*Koreya Respublikası*) və mühüm inkişaf etməkdə olan ölkələr (*Hindistan*) ayrı-ayrı istiqamətlərdə liderlər sırasında yer alırlar.

ABŞ ən iri elmi-texniki potensiala malik ölkə kimi özünün elmi mərkəzlərinin yüksək ixtisaslı alim və texniki təchizatı ilə dünya elmində qabaqcıl rolunu hazırda da təmin etməkdədir. Burada ETTKİ-lərin bir hissəsi olaraq fundamental tədqiqatların 60%-i ölkənin ali məktəblərində cəmləşmişdir. Onların arasında daha böyük həcmdə elmi tədqiqatlarla məşğul olan 20 aparıcı universitet (*Massaçusets Texnoloji İnstitutu, Stenford, Harvard, Priston universitetləri və s.*) seçilir.

Qərbi Avropa da dünyada ən başlıca elm mərkəzlərindən biridir. Burada elmi-texniki potensialın ABŞ ilə müqayisədə fərqləndirici xüsusiyyəti hərbi və kosmik tədqiqatların nisbi azsayılılığı ilə bağlıdır. Bununla belə, Qərbi Avropa ölkələrinin elmi-texniki potensialı xeyli dərəcədə fundamental tədqiqatlara istiqamətlənmişdir. Region ölkələri AES tikintisində, əczaçılıq preparatlarının istehsalında, rabitə texnikasında, nəqliyyat maşınqayırmasının bir sıra sahələrində qabaqcıl yerləri tutur. Eyni zamanda Qərb Avropanın inteqral sxemlər və yarımkeçiricilər istehsalında, mikroprosessorların, biomaterialların hazırlanmasında müəyyən geriləmələri vardır.

Sənaye robotlarının, tibb elektronikasının, informasiya sistemlərinin, inteqral sxemlərin, yeni metal və keramika, optik liflər, biotexnologiyaların buraxılışı kimi elm-tutumlu istehsallar yapon iqtisadiyyatının prioritet sahələrinə çevrilmişdir. Yaponiya mikroelektron komponentlər və elektron istehlak texnikasının ixracı üzrə qabaqcıl

yerləri tutur. Lakin yapon firmalarının elmtutumlu istehsalların inkiafında uğurlarına baxmayaraq, hələ də ABŞ texnologiyasından xeyli asılılıq qalmaqdadır.

Rusiya elmi dünyada aviasiya və kosmik texnika, atom energetikası, biomühəndislik əsasında biotexnologiya, keramika və çox möhkəm materiallar, zülal preparatları və komponentləri, süni intellekt sistemləri və virtual reallıq kimi istiqamətlər üzrə lider mövqeləri tutur. Rusiya uzun müddət maliyyə resursları çatışmadığından ETTKİ-nin bütün cəbhəsi boyu elmi tədqiqatlardan imtina etməyə məcbur olmuş və mühüm nöqtələrdə dəlib keçmə taktikasına üz tutmuşdur.

Elmi sahibkarlıqla birləşdirən, sürətlə inkişaf edən innovasiya biznesi də ETT-də mühüm əhəmiyyət kəsb etməyə başlayır. Ərazi elm-istehsal kompleksləri - texnoparklar, texnopolislər isə innovasiya biznesinin mərkəzlərinə çevrilir. Texnopark (*ingiliscə* - science park, technopark - *elm parkı, texnoprak*) innovasiyaların işlənməsi və kommersiyalaşdırılması üzrə əlverişli şərtlərin yaradılması məqsədilə elmi təşkilatların, ali məktəblərin və istehsal müəssisələrinin birləşdiyi ərazi kimi səciyyələndirilir. Texnopolis (*yunanca* - techne - *sənət və* polis - *şəhər*) isə innovasiya proseslərinin sürətləndirilməsi, texniki-texnoloji yeniliklərin tez və səmərəli tətbiqinə kömək məqsədi ilə yaradılan azad iqtisadi zona formalarından biri kimi çıxış edir. Texnopolisin nüvəsini regional mərkəzlər təşkil edir və onlar dövlət tərəfindən dəstəklənirlər. Texnopolislərdə prinsipcə yeni məmulat və texnologiyaların, materialların və malların, həmçinin, elmtutumlu məhsulların eskperimental, azseriyalı istehsalının işlənib hazırlanması həyata keçirilir.

## 7.12. Azərbaycanın təbii resurs və elmi-texniki potensialı

Azərbaycan da, təbii sərvətlər baxımdan, dünya miqyasında əlverişli mövqedə dayanır. Onun sahib olduğu zəngin təbii sərvətlər milli iqtisadiyyatın inkişafında xüsusi əhəmiyyət daşayır. Bununla belə, vurğulanmalıdır ki, ölkənin çox böyük həcmə malik təbii sərvətlərindən hələ də dolğun istifadə olunmamış və onların yetərli hissəsi istehsalın geniş xidmətinə çıxarılmamışdır. Mənimsənilməkdə olan təbii sərvətlər isə ölkənin müasir sosial-iqtisadi tərəqqisinə güc verir, onun davamlı inkişafını təmin edir. Məhz buna görə də Azərbaycanda təbii sərvətlərin rolu müstəsna dəyərləndirilir və onların qənaətcil və səmərəli istifadəsi dövlətin prioritetləri sırasında mühüm yer tutur. Müasir mərhələdə bu strateji xətt təbii sərvətlərdən səmərəli istifadə əsasında iqtisadi inkişafın əsas proqram və reqlamentasiya sənədi kimi çıxış edən Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sərəncamı ilə təsdiq olunmuş "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri" çərçivəsində reallaşdırılır.

Gənc müstəqil dövlət olaraq Azərbaycanın dünya iqtisadiyyatında yeri möhkəmlənməkdə, rolu artmaqdadır. Heç şübəsiz ki, bu strateji dönəmin formalaşması və inkişaf etdirilməsində ölkənin başlıca sərvəti Azərbaycan xalqından, dövlət, tarix, coğrafiya,

təbii resurslar, iqtisadi potensial və hərbi qüdrətindən güc alan, ümummilli lider Heydər Əliyevin təməlini qoyduğu və Prezident İlham Əliyevin inamla irəli apardığı konseptual əsaslı milli dövlətçilik siyasəti dayanır. Sahib olduğu zəngin neft və qaz resurslarından səmərəli istifadə etməklə ölkədə avtonom fəaliyyətli, məhsuldar və dayanıqlı qeyri-neft sektorunun formalaşdırılması, sənayeləşmənin genişlənməsi və modernləşdirilməsi, aqrar sahənin hərtərəfli stimullaşdırılması, infrastruktur yenidənqurması, regional bərabərsizliyin aradan qaldırılması, ixracın artırılması və diversifikasiyası, bununla da yüksək sosial təminatlı həyat səviyyəsinə nail olunması müasir Azərbaycan iqtisadi siyasətinin əsas istiqamətlərini təşkil edir. Bütün bunlar isə ona çevik inkişaf strategiyalı optimal xarici iqtisadi siyasət aparmağa və bununla da beynəlxalq əmək bölgüsündə fəal iştirak etməyə geniş imkanlar yaradır.

Azərbaycanın təbii resurs potensialının artırılmasında onun mövcud coğrafi sistemi və bol təbii sərvətləri xüsusi önəm daşıyır. Ölkə ərazisinin 12,0%-ni meşələr, 4,6%-ni su altında qalan torpaqlar, 55,1%-ni kənd təsərrüfatına yararlı torpaqlar, 28,3%-ni digər torpaqlar təşkil edir. Azərbaycanda torpaqların 25 tipi və 60 yarımtip formaları mövcuddur. Vahid torpaq fondunun sahəsi 8641,5 min hektardır və hazırda onun 77%-dən istifadə olunur. Azərbaycanda adambaşına 1,08 ha torpaq fondu, 0,2 ha əkin sahəsi, 0,6 ha yararlı torpaq sahəsi düşür. Ümumi sahəsi 989,4 min hektar olan Azərbaycan meşələrinin əksəriyyəti dağlıq ərazilərdə yerləşir və onların potensialından, əsasən, torpaq və su qoruyucu, əczaçılıq, sanitariya, rekreasiya keyfiyyətində istifadə olunur.

Azərbaycanın bütün quru ərazisini özündə birləşdirərək onun torpaq fondunu təşkil edən torpaq ehtiyatları - yaşayış məntəqələrinin, sənaye, kənd təsərrüfatı, nəqliyyat, rabitə, müdafiə və digər təyinatlı torpaqları, xüsusi qorunan əraziləri, su fondu və ehtiyat fondu torpaqları, əsrarəngiz meşələri milli iqtisadiyyatın inkişafının başlıca qaynaq mənbəyi rolunda çıxış edir. Məhz milli torpaq fondu iqtisadiyyatın bütün sahələrində ayrı-ayrılıqda əsas istehsal amili kimi mühüm iqtisadi funksiya daşıyaraq davamlı sosial effektlərin yaranışını təmin edir.

Azərbaycanın təbii sərvətləri sırasında onun su ehtiyatları mühüm əhəmiyyət kəsb edir. Respublikaya mənsub Xəzər dənizi akvatoriyası, Sarısu (*67,0 $km^2$*), Ağgöl (*56,2 $km^2$*), Ağzıbirçala (*37,0 $km^2$*) kimi böyük gölləri, Kür (*1515 metr*), Araz (*1072 metr*), Qanıx (*413 metr*), Qabırrı (*389 metr*) və Samur (*216 metr*) olmaqla əsas çayları onun başlıca su potensialını səciyyələndirir. Ölkənin ümumi yerüstü su ehtiyatları, hesablamalara görə, 28,1-31,7 $km^3$ arasında tərəddüd edir. Yerüstü su ehtiyatlarını irili-xırdalı 8550-dən artıq axar sudan ibarət çay sistemi (*ümumi uzunluğu 33665 km, su toplayıcı sahəsi 85600 $km^2$*), 450 göl (*ümumi sahəsi 395 $km^2$*), əsas 5 su anbarı və 9 sayda buzlaqlardan ibarətdir. İstifadəyə yararlı yeraltı suların illik ehtiyatları 9 $km^3$-dir. Respublika çaylarının hidroenerji ehtiyatları 37 milyard kVt təşkil edir ki, bu da Qafqazda, Gürcüstandan sonra, ikinci potensial olaraq qiymətləndirilir. Respublikanın su potensialını yeraltı şirin, müxtəlif kimyəvi tərkibli mineral, habelə termal və yodlu-bromlu sənaye su ehtiyatları zənginləşdirir. Azərbaycan Respublikasında 10-dan artıq mineral su tipi mövcuddur. İnsanların sağlamlığında müalicə əhəmiyyətinə görə

məxsusi yeri olan mineral su yataqları, əsasən, 200 qrupda cəmlənmiş və onların 1000-dən çox təbii çıxışları qeydə alınmışdır. Naxçıvanda - Sirab, Badamlı, Darıdağ, Vayxır, Şuşada - Turşsu və Şırlan, Siyəzəndə - Qalaaltı mineral su hövzələri daha məhşurdur. Kəlbəcərdə çıxan “İsti su” bulağı keyfiyyətcə Çexiyadakı məşhur “Karloviy Varı” mineral bulağından üstün hesab edilir. Bundan əlavə, Azərbaycanda çoxlu termal bulaqlar da mövcuddur ki, onların da potensialından həyatımızın müxtəlif sahələrində bu və ya digər dərəcədə istifadə olunur.

Azərbaycanın şirin su ehtiyatları ilə təminatı o qədər də yüksək hesab edilmir. Su çatışmazlığı, əsasən, düzən ərazilərdə hiss edilir. Problemin həlli müxtəlif yollarla həyata keçirilir. Burada sudan səmərəli istifadə, qapalı su dövriyyəsinə malik istehsala keçid, Xəzər suyunun şirinləşdirilməsi, yeraltı sulardan geniş istifadə, suvarma kanallarının təkmilləşdirilməsi kimi tədbirlər reallaşdırılır.

Azərbaycanın su sərvətləri haqqında təhlillər apararkən Avrasiya kontinentində - Avropa ilə Asiyanın qovuşduğu məkanda yerləşən dünyada ən böyük qapalı su hövzəsi Xəzər dənizinin potensialı, onun sərvətlərinin sosial-iqtisadi effektləri xüsusi nəzərə alınmalıdır. Belə ki, Azərbaycan Xəzərdə əhəmiyyətli ərazi və su potensialına malikdir. Onun Xəzər sahil xəttinin uzunluğu 955,08 km, sektoral sahəsi isə 70-74 min km$^2$-dir. Göründüyü kimi, bu nəhəng potensial müvafiq zəngin təbii sərvətlərlə daha da möhtəşəm olur. O da göstərilməlidir ki, Azərbaycan ənənəvi olaraq Xəzərdən neft və qaz çıxarır. Bununla yanaşı, o, burada özünün müvafiq təsərrüfat infrastrukturunu, balıq sənayesini formalaşdırmış və inkişaf etdirməkdədir. Dənizin Azərbaycan sahillərinin çox əhəmiyyətli təbii imkanlara malikliyindən irəli gələrək o, burada həmçinin müvafiq istehsal infrastrukturu, kənd təssərüfatı məhsullarının istehsalı, həmçinin sahil yaşayış, kurort, istirahət, turizm və çimərliklər zonası yaratmışdır. Xəzərin nəqliyyat-logistika potensialı Azərbaycana bu hövzədə regional mərkəz olan Bakı kimi möhtəşəm liman kompleksinin formalaşdırılması və genişləndirilməsi imkanı vermişdir. Azərbaycan Xəzərdə kabotaj daşımalarla yanaşı qonşuluq və Tarixi İpək yolu zəminində geniş multimodal daşımaları həyata keçirməkdədir. Xəzər dənizi Türkmənistan qazının tranziti üçün Transxəzər kimi layihənin gerçəkləşdirilməsinə və digər regional əməkdaşlıq əlaqələrinin dərinləşdirilməsinə də zəmin olur. Xəzərin geostrateji imkanları Azərbaycanın hərbi potensialını da gücləndirir.

Hazırda Xəzərdəki 200-dək adadan təxminən 50-nə (*Pirallahı, Tava, Səngi Muğan, Kürdaşı, Qarasu, Xərə Zirə, Böyük Zirə, Qum, Çilov, Gil, Sualtı adalar qövsü, Daş adalar qövsü, Qutan, Kicik Tava, Böyük Tava, Tavaaltı, Qu, Sarı, Urunus, Dardanel, Baburi, Koltiş, Yal, Xanlar, Karvansaray adaları*) sahib olan Azərbaycan onlardan səmərəli istifadəni artırmaqla öz ehtiyacları üçün dəniz suyunun şirinləşdirilməsi, ərazisindən alternativ enerji əldə edilməsi kimi faydalanmaqda, habelə burada geniş elmi-tədqiqat işləri həyata keçirməkdədir. Xəzərin bütün bu gerçək təbii potensialı Azərbaycanın sosial-iqtisadi həyyatında olduqca mühüm əhəmiyyət daşıyır. Buradakı iqtisadi effektlər (*karbohidrogen resursları, nəqliyyat-logistika, istehsal və sağlamlıq-istirahət infrastrukturu və digər*) təqribi hesablamalarda Azərbaycanda yaradılan

ÜDM-in yarıdan çoxunu özündə ehtiva edir. Bu effektlər buradakı birbaşa gəlirlərdən və həm də Xəzərin özünün müvafiq vergiqoyma obyekti kimi qazanc dividentlərindən formalaşır.

Azərbaycan dəyərli təbii sərvətləri kimi onun sosial-iqtisadi həyatında flora və faunası çox əhəmiyyətli imkanlar yaradır. Bu təbiət sistemində 125 fəsiləyə və 930 cinsə mənsub olan ali bitkilərin 4500 növü yayılmışdır. Həmin sistemə daxil olan bioloji ehtiyatların mühüm tərkib hissəsi - heyvanat aləmi də çoxmüxtəlifliyi ilə zəngindir. Bütün bu sərvətlər Xəzərin, çayların və su anbarlarının balıq ehtiyatları, çoxsaylı quş növləri, dağlıq ərazilərdə yayılan müxtəlif növ heyvan cinsləri, düzən ərazilərdəki çox qiymətli dəyəri olan sürünənlər və s. özündə ehtiva edir.

Azərbaycan mühüm iqlim ehtiyatlarına malikdir. O, dünyada mövcud 11 iqlim qurşağından 9-na sahibdir. Başqa sözlə, respublika ərazisində 2 iqlim növü (*9 iqlim tipi*) mövcuddur. Burada orta illik temperatur 10°C-yə bərabərdir. Belə vəziyyət onun difersifikasiyalı aqroiqlim ehtiyatlığını əlverişli təmin edir, düzən sahələrdən ildə iki dəfə məhsul yığımına, pambıq, çay, zeytun, sitrus meyvələri kimi istiyə tələbkar bitkilərin yetişdirilməsinə imkan verir. Əlverişli iqlim şəraiti həmçinin ixrac potensiallı kənd təsərrüfatı məhsulları, taxıl, üzüm, qoz-fındıq, çeşidli meyvə-tərəvəzlər yetişdirilməsinə də zəmin olur. Abşeronda, Kür-Araz, Samur-Dəvəçi, Lənkəran ovalıqlarında, Qanıx-Əyriçay çökəkliyində fəal temperaturların yüksək olması bitkiçiliyin inkişafına təkan verir, kənd təsərrüfatı məhsullarının keyfiyyətinin artmasına, meyvələrdə şəkərin səviyyəsinin qalxmasına müsbət təsir göstərir.

Ölkənin iqlim ehtiyatları onlardan kurort müalicəsi və istirahət üçün də əlverişli istifadə imkanları yaradır. Respublika ərazisində 12 mindən çox turizm-rekreasiya, balneoloji komplekslər mövcuddur. Başlıca kurortlar sırasında Abşeron (*Bilgəh, Buzovna, Zuğulba*), İstisu (*balneoterapevtik kurort*) və Lənkəran (*iqlim-balneoterapevtik dəniz sahili kurortu*) yer alırlar. Bu sıraya xüsusilə möcüzəvi müalicəvi əhəmiyyətli nefti ilə bütün dünyada məşhur olan Naftalan balneoterapevtik kurortu da qatılır. Günəşli çimərliklər, göllərinin müalicəvi palçıqları və suları zəngin - Abşeron, nadir meşə-dəniz kompleksi - Nabran-Yalama zonası, mülayim iqlimli, təmiz dağ havasına malik, qiymətli mədən suları zəngin - Şuşa-Turşsu zonası, İstisu kurortu, kükürdlü mədən suları və dəniz-dağ iqlimli - Lənkəran-Astara zonası, təbiətdə nadir tapılan mədən suyu və çox əlverişli iqlim şəraiti - Qalaaltı kurortu, müxtəlif tərkibli bol mədən suları və müalicəvi duz mağaraları ilə fərqlənən - Naxçıvan, yüksək turizm potensiallı Gəncə-Hacıkənd-Göygöl, Quba-Xaçmaz-Nabran, Zaqatala-Şəki zonaları və digərləri Azərbaycanın iqlim ehtiyatlarından istifadənin əyani təzhürü olaraq qiymətləndirilir.

Təbii rekreasiya ehtiyatları Böyük və Kiçik Qafqazda, Talış dağlarındakı dağ meşələrini, mineral bulaqları və qumlu dəniz sahillərini əhatə edir. Bu sərvətlərə həm də mədəni-tarixi obyektlər, müxtəlif qalalar, arxeoloji abidələr, müzeylər, Bakının "İçəri Şəhər" kompleksi, Qobustanın qədim qayaüstü rəsmləri və digərləri də qatılır ki, bu da ölkənin turizm potensialını daha da yüksəldir. Ümumiyyətlə, ölkədə çoxlu sayda

tarix və mədəniyyət abidəsinin qorunma sistemləri yaradılmışdır (*İçərişəhər, Çıraqqala, Qobustan, Keşişdağ, Xınalıq, Nardaran Qalası, Şuşa, Şəki, Lahıc, Zaqatala, Basqal, Gəncə, Qazaxın "Avey", Qəbələ, İlisu, Ordubadın "Gəmiqaya", Şərurun "Arpaçay", Ordubad, Culfanın "Gülüstan", Şabranın "Çıraqqala", "Şabran şəhəri", Hacıqabulun "Pir Hüseyn Xanəgahı" və s., dövlət mədəniyyət, etnoqrafiya qoruqları*). Bunlarla yanaşı, respublikanın meşə ehtiyatlarının xüsusi mühafizə olunan təbiət ərazilərinə aid edilən mühüm hissəsi - dövlət təbiət qoruqları və milli parkları (*respublika ərazisinin 3,1%-i*) da bu sıradan əhəmiyyət daşıyır. Qeyd olunmalıdır ki, hazırda respublika ərazisində 14 dövlət təbiət qoruğu (*Qızılağac, Zaqatala, Türyançay, Pirqulu, Şirvan, Bəsitçay, Qarayazı, İsmayıllı, Qaragöl, İlisu, Şahbuz, Eldar şamı, Palçıq vulkanları qrupu və Korçay*), 8 milli park (*Ordubad, Şirvan, Ağgöl, Hirkan, Altıağac, Abşeron, Şahdağ və Göygöl*) və 22 yasaqlıq (*Qarayazı, Şəki, Laçın, İsmayıllı, Qusar, Qızılca, Qubadlı, Zuvand, Şəmkir, Bərdə, Korçay, Bəndovan, Gil adası, Kiçik Qızılağac, Daşaltı, Qəbələ, Arazboyu, Qax, Ordubad, Hirkan və Zaqatala*) fəaliyyət göstərir ki, onların da turizm cəlbediciliyi geniş imkanlıdır. Bundan başqa, Azərbaycanın geniş çölləri, yüksək sıra dağları, su hövzələri ekoloji, kənd, mədəni və sosial turizm, uca dağ zirvələri (*alpinizm*), Xəzər və Xəzər sahilləri (*çimərlik idmanı*), meşə ətrafı yaşıllıqlar (*qolf*) idman, müvafiq ov sahələri və ovçuluq təsərrüfatları əraziləri ov turizmi, Qusar *("Şahdağ" Yay-Qış İstirahət Kompleksi*) və Qəbələ ("*Tufan" Dağ-Xizək Mərkəzi*) rayonlarında, habelə Lənkəran, Lerik və Yardımlıdakı müvafiq təbii şərait və şərtlər qış turizmi, həmçinin ümumilikdə kommersiya baxımından geniş potensiallıdır. Bütün bunlar ölkədə turizmin inkişafının əsas qaynaq mənbəyini təşkil edərək onun inkişafını stimullaşdırır. Azərbaycan iqtisadiyyatına yatırılan investisiyaların həcmində də hər il turizmin payı artır. Ölkədə turizm xüsusi proqramlar əsasında inkişaf etdirilir, onun infrastruktur kompleksi təkmilləşdirilir və genişləndirilir. 2011-ci il "Turizm ili" elan olunmuşdur. İndi ölkədə mehmanxanaların sayı 600-ə yaxınlaşmaqdadır, xaricdən turist axını isə orta illik hesabla 2,5-3,0 milyon təşkil edir.

Azərbaycanda turizmin inkişafında onun təbii sərvətlərindən qaynaqlanan, tarixi kökləri və özünəməxsusluğu ilə seçilən kulinariyası da əhəmiyyətini nümayiş etdirir. Yüksək dad-tam zənginlikləri ilə fərqli olan Azərbaycan xörəkləri bütün dünyada məşhurdur. Bütün bu keyfiyyətlərlə yanaşı, turizmin inkişafında mental dəyərlərin rolu əvəzedilməzdir. Belə ki, Azərbaycan insanının xarakterik xüsusiyyətləri arasında yer alan qonaqpərvərlik və tolerantlıq turizm üçün qaçılmaz fürsətdir. Göründüyü kimi, bütün bu gerçəkliklər həm də Azərbaycanın Dünya İqtisadi Forumunun "Turizmin rəqabətqabiliyyətliyi İndeksi" ilə irəliləməsində əsas amillər olaraq öz əksini tapır.

Azərbaycan təbii resurs potensialının mühüm bir hissəsini neft və qaz təşkil edir. Azərbaycan, perspektivlik baxımından, karbohidrogen təyinatlı enerji resurslarının bol olduğu dünya regionları sırasındadır. Burada karbohidrogen ehtiyatlarının kommulyativ həcmi, hesablamalara görə, 4-5 və hətta, proqnoz baxımından, 5-7 milyard ton təşkil edir. Bununla belə, neft-qaz resurslarından başqa respublikada digər təbii enerji

mənbələri də yetərli və perspektivlik baxımından, ümüdvericidir. Günəşli və küləkli ərazi ayrıca enerji mənbəyi kimi ölkədə alternativ enerji ehtiyatları yaratmağa geniş imkanlar açır. Çayların, termal suların ehtiyatlarından daha rasional istifadə etməklə bu potensial bir qədər də artır. Bərpa olunmayan təbii enerji resurslarının miqyaslılığı respublikanın daxili ehtiyaclarının XXI əsr boyunca tam və dolğun təchizatına əsas yaradaraq, davamlı iqtisadi inkişafın təmin olunmasında, ölkənin ixrac potensialının genişlənməsində əvəzsiz kapital, möhtəşəm investisiya qoyuluşları və həm də onların repatriasiyasının bazası rolunda çıxış edir.

Azərbaycan da təbii enerji sərvətlərindən səmərəli istifadə edərək özünün elektroenergetika sahəsindəki təhlükəsizliyini təmin etmişdir. Bunun nəticəsidir ki, son 20 il ərzində ölkənin elektrik enerjisi sistemi də daha da gücləndirilərək 7 min MVt-a yüksəldilmişdir. Hazırda Azərbaycanda elektrik enerjisi istehsalı orta hesabla illik 22-23 milyard kVts təşkil edir. Bunun 82-87%-ə qədəri İES-lərdə və digər bir hissəsi SES-lərdə istehsal olunur. Bu sıraya 2011-ci ildən başlayaraq, hazırda gücü 100 MVt-ı aşan alternativ enerji sistemi də qoşulmuşdur. Bununla belə, qeyd olunmalıdır ki, Azərbaycan, Ermənistan istisna olmaqla, elektrik enerjisinin bütün region dövlətlərinə ötürülməsi üzrə təminatlı infrastruktur imkanlarına malikdir. Azərbaycan artıq bir neçə ildir ki, Türkiyə, Rusiya, İran və Gürcüstanla elektrik enerjisi mübadiləsi aparır, həmçinin əlahiddə olaraq Türkiyə və İrana onun ixracını reallaşdırır.

Azərbaycan Respublikasında neft və qaz sənayesinin (*kimya məhsulları daxil olmaqla*) inkişafına dair Strateji Yol Xəritəsində bərpa olunan enerjidən istifadə səviyyəsinin artmasını nəzərə alaraq, daxili istehlakın 2015-ci ildən 2024-cü ilədək olan dövrdə illik 4% artacağı gözlənilir. Sənayedə istehlakın artımının illik 7% olacağı təqdirdə, bərpa olunan enerjidən istifadə nəzərə alınmadan daxili istehlakın 2015-ci ildən 2024-cü ilədək illik 5% artacağı proqnozlaşdırılır. Yüksək artım ssenarisində Azərbaycanda 2024-cü ildə təbii qazın daxili istehlakının 17,6 milyard $m^3$ təşkil edəcəyi proqnozlaşdırılır.

Azərbaycanın təbii sərvətləri faydalı qazıntı ehtiyatları və onların çeşidliyi baxımından da xüsusi əhəmiyyətli imkanlara malikdir. Bu o deməkdir ki, ölkənin mineral-xammal bazası təkcə karbohidrogen ehtiyatları ilə bitmir. Hesablamalara görə, Azərbaycan ərazisi 450-dən artıq qara, əlvan və nəcib metal filizləri, həmçinin qeyri-filiz xammalı, tikinti materialları və digər bu kimi ehtiyatlara malikdir.

Ölkə metal filizli yataqları zənginliyi ilə daha çox fərqlənir. Filiz şəklində çıxan faydalı qazıntılar dəmir, alüminium, xromit, qızıl, gümüş, mis, qurğuşun, sink, kobalt, civə, sürmə, molibden filizləri və digərləri əsasən respublikanın dağlıq hissələrində müxtəlif tip yataqlarda cəmləşmişlər. Ən iri dəmir filizi yatağı Daşkəsəndədir. Buradakı "Cənubi Daşkəsən" və "Dəmir" yataqları sənaye əhəmiyyəti kəsb edir. Qafqaz regionunun bu ən mühüm dəmir-filiz yatağının ehtiyatları 250 milyon ton hesablanır və ehtiyat həcminə görə o, dünya ölkələri arasında lider mövqedə dayanır. Respublikanın digər mühüm filiz yatağı isə ölkənin şimal-qərbində yerləşən Filizçay kolçedan-polimetal yatağıdır. Dünyanın ən iri yataqları sırasında yer alan və sinfinə görə

Avropada ən nəhəng hesab olunan Filizçayın dəqiq kəşfiyyatı başa çatdırılmış və sənaye ehtiyatları təsdiq edilmişdir. Yataq yeganə kompakt filiz kütləsindən ibarət olmaqla 95 milyon ton miqdarında filiz ehtiyatına malikdir.

Daşkəsən filiz rayonunda, həmçinin, sənaye əhəmiyyətli kobalt filizlərinin yığımları da mövcuddur. Burada kobalt filizləri həm müstəqil (*Yuxarı Daşkəsən yatağı*), həm də maqnetit filizləri ilə birgə əmələ gəlmişdir. Daşkəsəndəki Zəylik yatağında ehtiyatları 100 milyon tondan artıq hesablanan dünya əhəmiyyətli alunit ehtiyatları vardır ki, bu da həcminə görə Avropada ən böyük, dünyada isə Çindən sonra 2-ci yerdədir. Bundan başqa, Naxçıvanın qərb hissəsində (*Sədərək-Şərur rayonlarında*) digər alüminiumun xammalı olan boksit filizinin təzahürləri də mövcuddur.

Qızıl yataqları və təzahürləri, əsasən, Kiçik Qafqazın ərazisində (*Söyüdü, Qızılbulaq, Dağ Kəsəmən, Veynəli, Qoşa, Gədəbəy, Çovdar yataqlar*), Naxçıvanda (*Şəkərdərə, Pyəzbaşı, Ağyurt, Baskənd yataqları*) yayılmışdır. Həmin yataqlarda, həmçinin, sənaye əhəmiyyətli gümüş, mis və s. qarışıqlar da vardır. Hazırda qızılın çoxsaylı təzahürləri (*Tülallar, Kəpəz, Dabalt, Küngütçay, Kələki, Unus və s. yataqlar*) mövcuddur. Bundan başqa, Əlincəçay və Kürəkçay hövzəsində aşkar edilmiş səpinti qızıl yataqlarında qiymətləndirmə işləri aparılmış, onların ilkin ehtiyatları hesablanmış və sənaye əhəmiyyətliyi müəyyən olunmuşdur. Xromit yataqları və təzahürləri isə Kəlbəcər və Laçın rayonları ərazisində yerləşir (*Göydərə, Kazımbinəsi, İpək, Xatəvəng və s.*). Azərbaycan ərazisində, həmçinin, kiçik həcmli manqa yataqları və təzahürləri də mövcuddur. Bunlar Böyük Qafqazın Vəndam (*Mücü, Balakənçay*), Kiçik Qafqazın Somxeti-Ağdam (*Mollacəlilli, Daş Salahlı və s.*) və Araz (*Biçənək, Əlehi*) struktur-formasiya zonalarında mövcuddur.

Azərbaycan ərazisində mis filizləri mis-kolçedan və mis-porfir formasiyalıdır. Bu formasiyalı filizlərin mineral tərkibi, əsasən, pirit və xalkopiritdən ibarətdir. Çox vaxt filizin tərkibində həm də sfalerit və qalenitə də rast gəlir. Mis-porfir formasiyalı filizlərin tərkibində isə misdən əlavə molibden və az miqdarda qiymətli metallar olur. Azərbaycanda mis-porfir filizləşməsi daha geniş yayılmışdır. Respublikanın mis ehtiyatları əsasən Balakən-Zaqatala, Gədəbəy, Qarabağ və Ordubad filiz rayonlarında formalaşmışdır. Balakən-Zaqatala filiz rayonunda misin əsas ehtiyatları mis-kolçedan, kolçedan-polimetal tipli, Kiçik Qafqaz və Naxçıvan qırışıqlıq zonasının filiz rayonlarında isə əsasən mis-porfir, molibden-mis-porfir və qızıl-mis-kolçedan tipli yataq və təzahürlərdə cəmləşmişdir. Kiçik Qafqazda misin sənaye ehtiyatları Qaradağ mis-porfir yatağı ilə yanaşı Qarabağ filiz rayonunda yerləşən Qızılbulaq qızıllı mis-kolçedan yatağında və cüzi miqdarda Vejnəli qızıl yatağında təsdiq edilmişdir. Bunlardan başqa Azərbaycan ərazisində Xalxal mis-kolçedan, Göygöl, Ağrıdağ mis, Nəşirvaz, Kilit-Kətəm mis-kobalt, Nəzirvaz mis-polimetal təzahürləri, Daşkəsən filiz rayonunda mis-porfir və mis-kolçedan filizlərinə perspektivli sahələri (*Qoşqarçay və Qoşqardağ*) mövcuddur. Vurğulanmalıdır ki, uzun illər Naxçıvan ərazisində - Ordubad filiz rayonunda ehtiyatları təsdiq olunmuş Parağaçay mis-molibden yatağı əsasında eyniadlı

filiz-saflaşdırma mədəni fəaliyyət göstərmiş və Ermənistanın Azərbaycana təcavüzü nəticəsində yaranmış blokada şəraiti ilə onun fəaliyyəti tam dayandırılmışdır. Yüksək perspektivli hesab olunan Ordubad filiz rayonunda, həmçinin, son illərdə aparılmış axtarış işləri nəticəsində Parağaçay, Misdağ, Göydağ, Göygöl, Şəlalə, Diaxçay, Kotam-Kilit filiz sahələrində çoxsaylı mis-molibden təzahürləri də aşkar edilmişdir.

Ölkədə ehtiyatları təsdiq edilmiş qurğuşun və sink polimetal filiz ehtiyatları Filizçay, Kasdağ, Katex, Mehmanə və Gümüşlük yataqlarından ibarətdir. Kiçik Qafqazın Qazax filiz rayonunda Şəkərbəy, Naxçıvanın Ordubad filiz rayonunda Nəsirvaz-Ağdərə polimetal filiz yataqlarının qurğuşun ehtiyatları qiymətləndirilmiş və proqnoz resursları hesablanmışdır.

Civə filizi yataqları və təzahürləri Kiçik Qafqazın mərkəzi hissəsində geniş yayılmışdır. Ehtiyatı hesablanan buradakı ən böyük yataqlar - Ağyataq, Şorbulaq, Levçay (*Kəlbəcər rayonu*), Çilgəzçay və Narzanlıdır (*Laçın rayonu*). Bundan başqa, Naxçıvanda da 50-dən artıq civə yatağı aşkarlanmışdır.

Azərbaycanda volframın şeyelit mineralı şəklində kiçik təzahürləri Ordubad və Kəlbəcər rayonlarında Mehri-Ordubad, Dəlidağ qranitoid plutonlarının təmasında müşahidə olunmuşdur. Gümüşlü (*Naxçıvan*), Mehmanə (*Ağdərə*) və Filizçay (*Balakən*) yataqlarından polimetal çıxarılır. Ümumilikdə Azərbaycan hazırda 100 milyon tondan artıq yarımmetallara və zəngin nadir metal ehtiyatlarına malikdir. Burada bir məqamın da vurğulanmalıdır ki, respublika ərazisində nüvə xammal materialları *(uran, torium*) təbii ehtiyatlarının mövcudluğuna yönələn tədqiatlar da (*Şamaxı və Naxçıvan*) aparılmaqdadır.

Milli metallurgiya sənayesinin xammal bazasının əsasını təşkil edən qeyd olunan metal filiz ehtiyatları ölkənin rəqabətqabiliyyətli metallurgiya sənayesinin inkişafında mühüm əhəmiyyət kəsb edir. Mövcud qiymətli metal ehtiyatlarının istismarı ilə bağlı ölkədə 2009-cu ildən Azərbaycan Beynəlxalq Mədən Əməliyyatı Şirkəti Gədəbəy Saziş sahəsində (*Gədəbəy qızıl zavodu*) və Qoşa (*Tovuz rayonu*) Saziş sahəsində gızıl, gümüş və mis konsentratı hasilatını həyata keçirir. Qabaqcıl texnologiyaların tətbiq olunduğu bu şirkətdə hazırda 600 nəfərə yaxın işçi çalışır. İşini müasir texnoloji sxem üzərində quraraq 2016-cı ildə fəaliyyətə başlamış dövlətə məxsus "AzərGold" QSC-də (*Daşkəsən Çovdar qızıl zavodu*) qızıl hasilatı həyata keçirir. İşçi sayı 300 nəfəri aşmış Cəmiyyət hazırda Daşkəsən Çovdar yatağında qızıl hasilatını təmin edir, Filizçay qurupu yataqlarında (*burada həmçinin böyük həcmli mis, sink, qurğuşun və gızıl-gümüş ehtiyatları mövcudluğu təxmin edilir*) isə geoloji kəşfiyyat işləri aparır. Bu yataqların istismarı başlaması hazırda təkrarmetal xammalı ilə fəaliyyət göstərən "Bakı Mis İstehsalı Zavodu" MMC, "Gəncə Əlvan Metal Emalı" ASC və respublikanın digər əlvan metal emalı ilə məşğul olan müəssisələrinin də xammal təchizatında böyük əhəmiyyət daşıyacağı gözlənilir.

Ölkədə böyük həcmli dəmir filizi ehtiyatlarının mövcudluğu dəmir filizindən polad məmulatlarının istehsalına qədər istehsal zəncirini özündə birləşdirən kompleksin

yaradılmasının iqtisadi cəhətdən səmərəli olacağını deməyə əsas verir. Bu kompleksdə dəmir filizindən polad istehsalının təşkili, eyni zamanda, ölkədə yaradılmış müasir qara metallurgiya müəssisələrini yarımfabrikat idxalından tam, digər qara metal məmulatlarının idxalından isə əhəmiyyətli dərəcədə azad edə bilər. Bu məqsədlə hazırda "Daşkəsən Filizsaflaşdırma" ASC-nin fəaliyyətinin müasir texnologiyalar əsasında bərpası, dəmir filizindən birbaşa polad istehsalı sxeminin tətbiq edilməsi istiqamətində müvafiq işlər həyata keçirilir. Həmin kompleksin fəaliyyətə başlaması qara metal qırıntısından xammal kimi istifadə edən "Azərboru" ASC, "Baku Steel Company" MMC, "Bakı Poladtökmə" ASC, "Qaradağ Metal Konstruksiyaları Zavodu" MMC və digər bu kimi müəssisələrin daha etibarlı xammal bazasının yaranması deməkdir. Bundan başqa, həm də qeyd olunmalıdır ki, ölkədə gil torpaq və aluminium istehsalı üzrə böyük ənənəvi sənaye sahəsi mövcuddur. Belə ki, artıq 1960-cı illərdə Azərbaycanda gil-torpaq və ilkin alüminium istehsalına başlanılmışdır. Hazırda bu işlər yeni məcrada dövlətə məxsus "Azəralüminium" ASC-dən (*"Gəncə Gil-torpaq" İS*, *"Sumqayıt Alüminium" İS, "Daşkəsən Alunitmədən İdarəsi"*) və "DET AL" Alüminium MMC və həmçinin digər müvafiq alüminium emalı müəssisələri tərəfindən həyata keçirilir.

Azərbaycanın mineral xammal ehtiyatlarının ümumi balansında qeyri-filiz mənşəli faydalı qazıntılar da mühüm əhəmiyyət kəsb edirlər. Hazırda ölkədə tikinti sənayesinin mineral-xammal bazasını təşkil edən 300-dən artıq müxtəlif növ qeyri-filiz və tikinti materialı yataqları (*daşduz, gips, anhidrit, gəc, bentonit gilləri, tikinti materialları, pirit, barit, yarımqiymətli və rəngli daşlar, dolomit, islandiya şpatı və s.*) kəşf olunmuş və istismardadır. Naxçıvanda (*Nehrəm, Düzdağ, Pusyan*) əhəmiyyətli duz ehtiyatları cəmləşmişdir. Buradakı Nehrəm duz yatağının ehtiyatları daha çox - 1 milyard ton həcmində hesablanır. Azərbaycan Respublikasının Kiçik Qafqaz ərazisi böyük kükürd kolçedanı sərvətlərinə malikdir. Tovuz rayonundakı Ağdağ seolit yatağı və Goranboy rayonundakı Yuxarı Ağcakənd və Mənəş kəndləri sahəsində ehtiyatları 65-70 milyon ton hesablanan gips, anhidrit yataqları mövcuddur. Bentonit gillərinin yatağı və təzahürü Qobustan, Goranboy və Şəki rayonları ərazisində geniş yayılmışdır. Ən böyük bentonit gillərinin yatağı isə sənaye ehtiyatı 84,6 milyon ton olmaqla Qazax rayonunda (*Daş Salahlı*) aşkarlanmışdır. Bundan başqa, ölkədə sənaye ehtiyatları 295,8 milyon ton hesablanan mişar daşı yataqları (*Qaradağ, Güzdək, Dövlətyarlı, Dilağarda, Şahbulaq, Naftalan, Mərdəkan, Daş Salahlı, Zəyəm və s.*) və sənaye ehtiyatları 24,0 milyon ton təşkil edən üzlük daşı potensialı da mövcuddur.

Azərbaycanda, həmçinin, sement istehsalına yararlı (*Şahqaya əhəngdaşları, Qaradağ gil və s.*) xammal yataqları, kərpic, keramika və qazmada işlənilən çoxsaylı gil yataqları və təzahürləri də aşkarlanmış və istismar edilməkdədir. Siyəzən rayonu ərazisində isə ehtiyatı 8,3 min $m^3$ hesablanan flyus və karbid istehsalına yararlı əhəngdaşı yatağı müəyyən olunmuşdur. Qobustan, Abşeron, Tovuz əhəngdaşları, Şahtaxtı (*Naxçıvan*) və Kəlbəcər travertin daşları, Daşkəsən mərməri, Hacıvəlli kvarslı qumlarının da böyük təsərrüfat əhəmiyyəti vardır. Bir çox bölgələrdə geniş yayılan

müxtəlif növ qeyri-filizlərdən əhəngdaşı, gips, çınqıl, mərmər, travertin, gil, qum və s. ehtiyatlar mövcuddur. Daşkəsən rayonunun Çovdar kəndində isə neft sənayesində istifadə edilən barit çıxarılır.

Azərbaycanın təbii sərvətləri haqqında təhlil və qiymətləndirmələr apararkən onun ərazisinin 20%-nin Ermənistan tərəfindən işğal olunması faktı da yaddan çıxarılmamalıdır. Belə ki, işğal olunmuş ərazilərdə Azərbaycanın ölçüyəgəlməz qiymətləndirmədə təbii sərvətləri - obsidian və perlit ehtiyatlarının bütün ölkə üzrə hamısı, civə ehtiyatlarının mühüm hissəsi, tikinti və üzlük materiallarının 35-60%-i, meşə fondunun 23,8%-i (*280 min hektar*), su ehtiyatlarının 7,8%-i, 200 min hektar əkin sahəsi, 2 qoruq, 3 yasaqlıq, 3 iri su anbarı, 890 şəhər, kənd və qəsəbə, 800 km avtomobil yolu, 160 körpü, 2300 km su kəməri, 15 min km elektrik xətti və bu kimi böyük iqtisadi dəyərləri qalmışdır. İlkin hesablamalara görə, işğal nəticəsində Azərbaycan Respublikasına 60 milyard ABŞ dolları həcmində zərər dəymişdir. Ermənistan işğal etdiyi ərazilərdə bu resurslardan öz imkanları daxilində istifadə edir, Azərbaycanın təbii sərvətlərini mənimsəyir. Sirr deyil ki, təcavüzkar ölkə hazırda işğal etdiyi Kəlbəcər rayonu ərazisində qızıl və digər metallar hasilatını həyata keçirir. Ona görə də gerçəklikdə Azərbaycan hazırda mənsub olduğu təbii sərvətlərin yalnız 80%-dən istifadə edir.

Azərbaycanın metal və qeyri-metal filiz ehtiyatları onun sənayesinin inkişaf yüksəlişlərini təmin edir. Burada bütün sənaye sektorunu əhatə etməklə hər il 32-35 milyard manatlıq məhsul istehsal olunur. Sənayenin ÜDM-də payı da ilbəil artır və 2017-ci ildə bu göstərici 40,0% təşkil etmişdir. Sahə üzrə işləyən muzdlu işçilərin sayı isə 200 minə yaxındır. Göründüyü kimi, Azərbaycanın sərvətləri onun sənaye potensialının, bütünlükdə iqtisadiyyatının real sektorunun əsasında dayanaraq böyük sosial-iqtisadi effektlərin yaranışına təkan verir.

Azərbaycan geosiyasi mövqeyinə görə Şimal-Cənub, Şərq-Qərb nəqliyyat marşrutlarının kəsişdiyi məkanda yerləşir. Əlverişli coğrafi vəziyyəti ona həm özünün sahib olduğu zəngin karbohidrogen resurslarının və həm də qonşu Asiya ölkələri neftinin, neft-qaz məhsullarının Avropa bazarlarına daşınmasında çoxvektorlu nəqliyyat-logistik imkanlar yaradır. Bu da bənzərsiz bir təbii sərvətdir. Qeyd olunmalıdır ki, Azərbaycandan keçən Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizi Avropa ilə Asiyanı birləşdirən ən kiçik marşrut hesab olunur və beynəlxalq təşkilat statusunda formalaşmış TRACECA adlan qurumun mənzil-qərərgahı Bakıda yerləşir. Bütün bunlardan irəli gələrək Azərbaycanda nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi və nəqliyyat müstəqilliyinin genişləndirilməsi istiqamətində davamlı və məqsədyönlü iş aparılır. Ölkənin nəqliyyat sisteminin inkişafına çoxmilyardlı sərmayələr yatırılır, respublikada ən müasir beynəlxalq standartlara uyğun avtomobil yollarının inşası və modernləşdirilməsi həyata keçirilir. Dəniz donanmasının arsenalı yenilənir, gəmi istehsalı genişləndirilir, logistik infrastruktur təkmilləşir. Bununla yanaşı, Bakı şəhərinin Ələt qəsəbəsində Xəzərdə ən böyük beynəlxalq dəniz ticarət limanı kompleksi fəaliyyət göstərir və onun ərazisinin tam miqyaslı Azad İqtisadi Zona çevrilməsi istiqamətində

davamlı işlər aparılır. Bundan başqa, hava gəmiləri parkı da ən müasir təyyarələrlə təchiz olunur, yeni beynəlxalq aviareyslər açılır, əsas regional mərkəzlərdə 9 aeroport, o cümlədən 6 beynəlxalq hava limanı fəaliyyət göstərir, ölkənin dəmir yolu nəqliyyatı sistemi dövlət proqramları əsasında yenidən qurulur. Özünün tranzit imkanlarından çıxış edərək, Azərbaycan mühüm regional nəqliyyat infrastruktur layihələrinin təşəbbüsçüsü və stimullşadırıcısı kimi bu istiqamətdəki fəaliyyətini də genişləndirir. Azərbaycanla Türkiyəni, bütövlükdə isə Avropa ilə Asiyanı birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu xətti ilə artıq daşımalar həyata keçirilir, Şimal-Cənub dəhlizinin modernləşdirilməsi, dəmir yolunun Astara-Rəşt (*İran*) xəttinin inşaşı üzrə əməli işlər aparılır. Bütün bunlar isə nəqliyyat kontekstində Azərbaycanın geostrateji ərazisinin mühüm təbii sərvət kimi rolunu və əhəmiyyətini bir daha gücləndirir.

Azərbaycanın milli sərvətlərinin əsasında onun xalqı dayanır. İndi ölkə əhalisinin sayı 10 milyona çatmaqdadır. Təbii sərvətlərdən səmərəli istifadədə insan kapitalının rolu danılmazdır. Məhz buna görədir ki, Prezident İlham Əliyev elmin, təhsilin, informasiya kommunikasiya texnologiyaları - İKT və yüksək texnologiyaların inkişafını prioritet sahə elan etmişdir. Bütün bunlardan irəli gələrək neft kapitalının insan kapitalına, Azərbaycanın regionun güclü informasiya-kommunikasiya mərkəzinə çevrilməsi istiqamətində mühüm dövlət tədbirləri həyata keçirilir. Hazırda Azərbaycan İKT-nin əsas infrastruktur göstəricilərinə görə dünya üzrə orta səviyyəni keçmişdir və bu sahə, həmçinin, milli iqtisadiyyatın neft-qaz sənayesindən sonra ən sürətlə inkişaf edən ikinci sektoru kimi çıxış edir.

Respublikada İKT sahəsində geniş fəaliyyətlərə ümummilli lider Heydər Əliyev tərəfindən 2003-cü ildə qəbul edilən "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (*2003-2012-ci illər*)" ilə təkan verilmişdir. Əsas məqsədi İKT-dən geniş istifadə olunmaqla ölkənin demokratik inkişafına təkan vermək və informasiya cəmiyyətinə keçidi təmin etmək olan bu strategiya uğurla həyat keçirilmişdir. Müasir mərhələdə Prezident İlham Əliyevin imzaladığı çoxsaylı fərman və sərəncamlarla ölkədə İKT sahəsində mühüm və əhəmiyyətli bir infrastruktur formalaşdırılmış, informasiya cəmiyyətinə keçid yeni fazaya qədəm qoymuşdur. Bu məqsədlə ölkədə informasiya cəmiyyətininin inkişafı üzrə 2020-ci ili hədəf tutan yeni Milli Strategiya həyata keçirilməkdədir. Bundan başqa, sahənin yaxın və orta perspektivdə inkişafı məqsədi ilə "Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi"də genişliklə reallaşdırılmaqdadır.

Ölkədə, həmçinin, yüksək texnologiyalar sektoru da uğurla inkişaf etdirilir. Azərbaycan kosmik ölkələr klubunun üzvü kimi 2 telekommunikasiya və 1 Yerin optik müşahidə peykinə sahibdir. Bundan başqa, yüksək texnologiyalarla bağlı strateji hədəflərə nail olmaq üçün də ölkədə nüvə texnologiyalarından dinc məqsədlərlə istifadə üçün "Milli Nüvə Tədqiqatları Mərkəzi" QSC yaradılmış, Bakı və Mingəçevirdə yüksək texnologiyalar parkları fəaliyyətə başlamışdır.

Azərbaycan özünün geniş çevrədə təbii sərvətlərindən səmərəli istifadə etməklə in-

vestisiya fəallığını və ixrac potensialını artırır. Məhz belə strateji xətt onu investisiya iqliminə görə postsovet məkanında və regionda çox cəlbedici ölkə olaraq ön mövqeyə çıxarmışdır. Azərbaycan həm də adambaşına düşən xarici investisiyaların həcminə görə MDB məkanında və Şərqi Avropada aparıcı dövlətlər sırasında yer alaraq, özü artıq xaricə investisiya yatıran bir ölkəyə çevrilmişdir. Əlbəttə, ölkənin karbohidrogen ehtiyatları potensialı buradakı əlverişli investisiya mühitinin müqayisəli üstünlüklərini stimullaşdırmaqda davam edir. Bunun nəticəsidir ki, Azərbaycan iqtisadiyyatı son 10-15 il ərzində 3 dəfədən çox artmış və heç bir ölkədə buna oxşar nəticə müşahidə olunmamışdır.

Azərbaycan Respublikası əhalisinin sayı davamlı olaraq artır. Ölkədə hər il 100 mindən çox insan dünyaya gəlir və qızlar oğlanlara nisbətən daha az doğulur. Hazırda respublikada orta ömür yaşı 75-i keçmişdir. Ölkə əhalisinin 68%-i əmək qabiliyyətlidir.

Son illər Azərbaycanda aparılan uğurlu islahatlar, quruculuq işləri, iqtisadiyyatda baş verən irəliləyişlər, qeyri-neft sektorunun inkişafı müsbət nəticələrə gətirib çıxarmış, regionların sosial-iqtisadi inkişafı, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir.

Dövlət siyasətinin əsas istiqamətlərindən biri də elm, təhsil və mədəniyyət sahəsinə göstərilən qayğının ardıcıl davam etdirilməsi, elmi-texniki potensialın qorunub saxlanılması, elm və təhsil sahəsində yüksək ixtisaslı kadrların hazırlanması, onlara qayğı göstərilməsi, cəmiyyətdə elmi işçilərin nüfuzunun artırılması sahəsində bir sıra mühüm qərarların qəbul edilməsi olmuşdur. Prezident İlham Əliyevin 2009-cu il 21 oktyabr tarixli sərəncamı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun yaradılmışdır.

Azərbaycanın elmi-texniki potensialının əsasını elmi-texniki problemlərin həlli üçün ölkədə formalaşmış və inkişaf etməkdə olan elmi və texniki resurlar, müvafiq infra-struktur kompleksləri, elmi kadrlar, elm-təhsil və elmə xidmətə ayrılmış maliyyə vəsaitləri və ümumilikdə onlardan istifadə imkanları səviyyəsi ehtiva edir.

Azərbaycan Respublikasında elmin inkişafı dövlətin iqtisadi, siyasi, sosial, hüquqi, mənəvi, mədəni və milli təhlükəsizlik sahələrini əhatə edən siyasətinin prioritet istiqamətlərindən biridir. Hazırda beynəlxalq münasibətlərdə siyasi, iqtisadi, elmi-texniki, ekoloji və informasiya xarakterli amillərin müstəsna rol oynaması Azərbaycan Respublikasının milli maraqlarının ödənilməsində elmin inkişafına təkan vermişdir. Çünki dövlətin sosial-iqtisadi qüdrəti, ölkənin müdafiə qabiliyyəti və milli təhlükəsizliyi, cəmiyyətin mədəni-mənəvi tərəqqisi və xalqın rifahı elmin inkişaf səviyyəsi ilə birbaşa əlaqəlidir.

Azərbaycan Respublikasının elmi və elmi-texniki siyasətini həyata keçirən ali dövlət orqanı Azərbaycan Milli Elmlər Akademiyasıdır. AMEA respublikada elmin inkişafına birbaşa təsir göstərir və Azərbaycanda bütün elmi təşkilatların və ali məktəblərin elmi fəaliyyətini əlaqələndirir və istiqamətləndirir, respublikada elmin inkişafını təşkil və təmin edir. Onun əsas məqsədi təbiət, texnika, ictimai və humanitar elmlər sahəsində fundamental və tətbiqi tədqiqatlar aparmaqla yeni biliklər əldə edib, ölkənin sosial-

iqtisadi inkişafını sürətləndirməkdir. Hazırda AMEA-da elmi fəaliyyətin səmərəliliyinin daha da artırılması, ölkənin digər elm müəssisələrində və ali məktəblərində aparılan fundamental və tətbiqi araşdırmaların əlaqələndirilməsi, onların nəticələrinin sosial-iqtisadi və digər sahələrdə tətbiqinin təmin edilməsi, elmi kadrlardan düzgün istifadə edilməsi məqsədilə müəyyən tədbirlər görülür.

Azərbaycanda elmi-texniki potensialı sahəvi elmi-təqiqat institutları, elm mərkəzləri, müvafiq infrastruktur kompleksləri və başlıca olaraq onun elmi kadrlar gücləndirir. Ölkədə yüksək texnologiyaların inkişafı istiqamətində ardıcıl dövlət siyasəti reallaşdırılır. Yüksək texnologiyar, o cümlədən kosmik sənaye, nüvə enerjisi ilə bağlı tədqiqatlar, nanotexnologiyalar üzrə elmi müəssisələr, informasiya texnologiyaları kompleksləri inkişaf etdirilir. Bunun üçün ayrıca dövlət qurumu Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi müvafiq koordinasiyanı həyata keçirir. Ölkədə "Azərkosmos", Nüvə Tədqiqatları Mərkəzi kimi ixtisaslaşmış dövlət qurumları fəaliyyət göstərirlər. Elmi-texniki potensialın inkişafı və irəliləyişləri müvafiq dövlət proqramları əsasında həyata keçirilir.

Azərbaycan Respublikasında elmin inkişafını təmin edən ən mühüm sahələrdən biri də təhsil sferasıdır. Bu, xüsusən, təhsilin ali pillələrində özünü əks etdirir. Son illərdə respublikada ali təhsilin inkişafı sahəsində mühüm nailiyyətlər əldə olunmuş, Azərbaycan Boloniya sisteminə qoşulmuş, Avropa təhsil məkanına inteqrasiya istiqamətində əhəmiyyətli addımlar atılmışdır. Hazırda respublikada onlarla ali təhsil müəssisəsi fəaliyyət göstərir.

Azərbaycan Respublikasında intellektual kapitalın inkişafı insan kapitalının inkişafı üzərində qurulur. Bu əsas götürülərək ölkədə orta və ali təhsil müəssisələrinin maddi-texniki bazası möhkəmləndirilir, orta məktəblər üçün yeni binalar, ali məktəblərdə yeni korpuslar tikilir, laboratoriyalar zənginləşdirilir və yeniləri yaradılır. Bütün bunlar isə təhsilin keyfiyyətinin yüksəldilməsinə, işçi qüvvəsinin texniki bilik və vərdişlərinin artırılmasına, onların əməyinin səmərəliliyinin çoxalmasına əlverişli şərait yaradır.

***Əsas anlayışlar:***

**1. Təbii resurslar** - istehsal güclərinin müasir inkişaf və öyrənilməsi səviyyəsində insan cəmiyyətinin tələblərinin ödənilməsi üçün istifadə olunan təbiət cismləri və qüvvələridirlər.

**2. Rekreasiya** - yorğun və ya yorulmuş insanın özünü normal hiss etməsinin və iş qabiliyyətinin bərpasının təmin olunması məqsədli kompleks sağlamlaşdırma tədbirləridir.

**3. Rekreasiya resursları** - insan mənəvi və fiziki gücünün, habelə onun əmək qabiliyyətinin bərpası və inkişafına təkan verəcək təbii, təbii-texniki və sosial-iqtisadi komplekslərinin və onların elementlərinin məcmusudur.

**4. İqlim resursları** - günəş, külək və atmosfer suları enerjisini özündə birləşdirən tükənməz təbii sərvətlər məcmusudur.

**5. Məkan və zaman resursları** - ərazi, su, yaxın kosmik məkan və zaman resurslarını əhatə edir.

**6. Resurslar** - əmtəə və xidmətlər istehsalında məsrəf olunan imkan və vəsitələrdir.

**7. Ehtiyatlar** geoloji baxımdan yatağın kəşf olunmuş hissəsində reallaşmış hasilat miqdarını hesaba almayan, kommersiya baxımından çıxarılması mümkün sayılan məhsul həcmidir.

**8. Dağ-mədən sənayesi** - faydalı qazıntıların hasilatı və kəşfiyyatı, habelə yarımfabrikatların alınması və onların ilkin emalı ilə məşğul olan istehsal sahələrinin məcmusudur.

**9. Faydalı qazıntılar** - kimyəvi və fiziki xassələri onların maddi istehsal sferasında (*xammal və yanacaq keyfiyyətində*) səmərəli istifadə olunmasına imkan yaradan, yer qabığının mineral və üzvi yaranışlarıdır.

**10. Filiz** - sənayedə istifadə edilməyə yararlı metal əsaslı (*bəzən bir sıra qeyri-metallar - asbest, barit, qrafit və s.*) və ya tərkibində müəyyən miqdarda metal birləşmələri olan təbii mineral xammaldır.

**11. Minerallar** - dağ suxurları, filizlər və meteoritlərin tərkib hissələrini təşkil edən eynicinsli kimyəvi tərkibli və kristal strukturlu təbii bərk cismlərdir.

**12. Strateji minerallar** - əksəriyyəti xırda metallar olaraq elektronikanın, bərpa olunan enerji mənbələrinin, tibb cihazlarının, hərbi texnikanın, kənd təssərrüffatı istehsalının və ümumi məişət əşyalarının mühüm komponentlərini təşkil edən müxtəlif mineral və elementlərin geniş kateqoriyasıdır.

**13. Mineral resurslar** - yerin təkindən çıxarılan faydalı qazıntılar.

**14. Yanacaq-enerji resursları** - yanacaq keyfiyyətində istifadə olunan, tükənən mineral resurslar (*kömür, neft, qaz, yanar şistlər, torf, oduncaq, nüvə enerjisi*), istehsal enerjidaşıyıcıları (*emal yanacağı, istehlak və ehtiyat enerjisi və s.*) məcmusunu ehtiva edir.

**15. Energetika** - bütün növ enerji resurslarının dəyişilməsi, paylanması və istifadəsinə xidmət edən təbii böyük və süni altsistemlərin məcmusudur.

**16. Yanacaq sənayesi** - müxtəlif yanacaq-enerji resurslarının hasilatı və emalı sahələrinin məsmusudur.

**17. Elektroenergetika** - elektrik enerjisinin istehsalı, ötrülməsi və satışı poseslərini özündə birləşdirən energetikanın mühüm sahəsi, altsistemidir.

**18. İstilik elektrik stansiyası, İES** - elektrik generatorunun fırlanması ilə yanacağın kimyəvi enerjisini mexaniki enerji çevirməklə elektrik enerjisi hasil edən elektrik stansiyasıdır.

**19. Su elektrik stansiyası, SES** - enerji mənbəyi keyfiyyətində su axının enerjisinin istifadə olunduğu elektrik enerjisi hasil edən elektrik stansiyasıdır.

**20. Atom elektrik stansiyası, AES** - nüvə reaktorunda atom enerjisinin elektrik enerjisinə çevrilməsi ilə enerjisi hasil edən elektrik stansiyasıdır.

**21. Alternativ enerji mənbələri** - külək enerjisi, günəş enerjisi, alternativ hidroenerji (*qabarma və çəkilmə, dalğa*), yerin dərinliyinin istiliyi, geotermal enerji, hidrogen enerji, bioenerji, bölüşdürülmüş enerji istehsalı (*daxili ehtiyaclar üçün yaradılan elektrik enerjisinin qalıq hissəsinin ümumi xəttə verilməsi*) kosmik enerji (*fotoelektrik elementlərin Yer orbitindən mikrodalğa şüalanması formasında ötrürüldüyü enerji*) və s. qeyri-ənənəvi enerji mənbələridir.

**22. Metal filizi resursları -** metal filizlər və istehsal təyinatlı metal ehtiyatlardır.

**23. Qeyri-metal və ya qeyri-filiz resurslar** - minerallara və ya dağ süxurlarına aid edilərək sənaye və tikintdə təbii halda və ya xammal kimi istifadə olunan qeyri-metal faydalı qazıntılardır.

**24. Torpaq resursları** - biloji məhsul istehsalının bazasını təşkil edən, insan yaşayışı və təsərrüfat fəaliyyəti üçün əlverişli olan yer qabığının əvəzolunmaz və məhdud resurslardır.

**25. Meşə resursları** - meşə sahəsi (*hazırda dünyada 4 milyard hektar*) və daimi ağac ehtiyatları (*hazırda dünyada 350 milyard* $m^3$) ölçüləri ilə xarakterizə olunan bioloji resursların əsas növlərindən biridir.

**26. Su resursları** praktiki olaraq bütün hidrosfer suları - okean və dənizlər, göllər, çaylar, torpaqaltı sular, atmosfer suları və buxarı, kanallar, su anbarlarının su kimi istifadə edilə bilən resurslardır.

**27. Ölkələr arasında təbii resursların yerləşməsi və istehlakı** - son dərəcə qeyri-bərabər bölgüdədir.

**28. Təbii resurslardan rasional istifadə** - təbii resursların mühafizəsinin təminatı və təbii ekosistemlərdə tarazlığın qorunması məqsədi ilə istifadə olunmuş resururslarıın bərpasını əhatə edir.

**29. İnfrastruktur** - hər hansı bir problemin həllinin təminatında qarşılıqlı əlaqədə olan xidmətedici strukturlar kompleksi, alt struktur.

**30. Mineral xammalın qiymətlərinin formalaşmasının xarakterik cəhəti** renta münasibətlərinin mövcud olmasıdır.

**31. Renta** - sahibinin sahibkarlıq fəaliyyəti göstərmədən, əlavə xərclər çəkmədən torpaq, əmlak və kapitalın istifadəsindən əldə etdiyi gəlirdir.

**32. Təbii renta** - vaxtaşırı ödənilən, təsbit olunmamış pul məbləğlərindən əldə edilən gəlir üzrə və ya torpaq sahibinə icarədar tərəfindən məhsulun bir hissəsi üzrə verilən renta ödənişidir.

**33. Mütləq renta** - torpaq rentasının formalarından biri - torpaq sahibinin icarədardan, onun torpaq sahəsinin münbitliyi və yerləşməsindən asılı olmayaraq, yalnız torpaqdan istifadə hüququnu verməklə aldığı gəlirdir.

**34. Differensial renta** - torpaq rentasının formalarından biri - torpaq sahibinin icarədardan onun torpaq sahəsinin yüksək münbitliyi və yüksək əmək məhsuldarlığı ilə əlaqədar aldığı əlavə gəlir.

**35. Torpaq rentası** - torpaq sahibinin icarədardan torpaq sahəsinin icarəsi üzrə aldığı gəlir. Torpaq rentası, mütləq, differensial və inhisarçı formalarda olur.

**36. Dağ mədən rentası** - dağ-mədən sənayesində faydalı qazıntıların hasilatının geoloji və sosial-iqtisadi amilləri ilə şərtlənərək formalaşan təbii rentanın bir növüdür.

**37. I differensial renta** - üstün yataqların istismarı zamanı əlavə gəlir gətirən dağ rentasıdır.

**38. II differensial renta** – hasilat veriminin artırılmasını və faydalı qazıntıların tam çıxarışını təmin edən yüksək texnologiyaların iştirakı ilə əldə olunan rentadır.

**39. Ekoloji renta -** differensial rentaya oxşarlıqda təbii təsərrüfatlarda və təbiətin istismarı sahələrində daha effektli texnika və texnologiyaların tətbiqi nəticəsində yaranan rentadır.

**40. Antirenta** - ətraf mühitin çirklənməsinə normativdən yuxarı zərərin vurulması və təbii resursların müəyyən mənada qarət olunması nəticəsində qeyri-qanuni əlavə qazancın - mənfəətüstünun əldə edilməsi ilə yaranan gəlirdir.

**41. Əmək resursları** əhalinin əmək qabiliyyəti yaşında faydalı fəaliyyəti həyata keçirmək üçün zəruri biliklərə malik olan hissəsidir.

**42. Məşğulluq** - əhalinin əmək fəaliyyətində iştirakını səciyyələndirən iqtisadi kateqoriyadır.

**43. İşçi qüvvəsi, iqtisadi fəal əhali** - əhalinin işi olan və ya onun axtarışı ilə fəal məşğul olan (*işsizlər*) hissəsidir.

**44. Yerləşmə amilləri** - konkret istehsal sahələrinin yerini və təkmilləşdirilməsini öncədən müəyyən edən şərait və şərtlər məcmusiudur.

**45. İşsizlik** - əhalinin fəal əməkqabiliyyətli hissəsinin öz bacarığına uyğun iş tapmaması ilə bağlı yaranan sosial-iqtisadi vəziyyətdir.

**46. Kapital** - gələcəkdə mənfəət əldəetmədə istifadə üçün aktivlər məcmusudur.

**47. Vençur kapitalı** - inkişaf yoluna qədəm qoyan və yaxud bazarda müvafiq yer tutmağa çalışan yeni müəssisə və şirkətlərin maliyyələşdirilməsini əks etdirən yüksək risk dərəcəli investorlar kapitalıdır.

**48. Dünya maliyyə resursları** dünyanın bütün ölkələrinin, beynəlxalq təşkilatların və beynəlxalq maliyyə mərkəzlərinin maliyyə resurslarının məcmusudur.

**49. Beynəlxalq maliyyə aktivləri -** dünya maliyyə bazarında dövriyyədə olan və gələcəkdə pul gəlirləri əldə etmək üçün sahiblərinin qanuni tələblərini əks etdirən səhmlər, istiqrazlar, veksellər, xəzinədarlıq öhdəlikləri şəklindəki spesifik qeyri-maddi aktivlərdir.

**50. İnvestor** - özünün, borc aldıqılarının və ya cəlb edilmiş vəsaitlərini investisiya layihələrinə yönəldən fiziki və hüquqi şəxsdir.

**51. Emitent** - pul və qiymətli kağızlar buraxan, emmissiya edən istənilən orqan və ya təşkilatdır.

**52. Hüquqi şəxs** - xüsusiləşdirilmiş əmlaka və onlara öhdəlikləri əsasında cavabdehlik daşıyan, öz adından mülki hüquqlar əldə edə və həyata keçirə bilən və həmçinin, mülki öhdəliklərə malik, məhkəmədə iddiaçı və cavabdeh olan, qanunvericiliklə müəyyən edilmiş qaydada qeydiyyata alınan təşkilatdır.

**53. Fiziki şəxs** - iqtisadi fəaliyyətin tam hüquqlu subyekti kimi çıxış edən vətəndaş, insandır.

**54. Publik hüquqi şəxs** - dövlət və bələdiyyə adından və ya onun özü tərəfindən yaradılan, ümumdövlət və ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olan, dövlət və ya bələdiyyə orqanı olmayan təşkilatdır.

**55. Dünya maliyyə bazarı** - dünya borc kapitalı bazarının bir hissəsi olaraq, müxtəlif ölkələrin kreditorları və borc alanlarının kapitala yönələn tələb və təklifin məcmusudur.

**56. Dünya elm resursları** - elmi-texniki potensial və elmlə əhatə olunaraq bu və ya digər ölkədə elmi-tədqiqat, təcrübə-konstruktor işlərinin reallaşma imkanlarını əks etdirir.

**57. Elmi-tədqiqat, təcrübə-konstruktor işləri, ETTKİ** - yeni biliklərin alınmasına və yeni məmulat və ya texnologiyaların yaradılmasının praktiki tətbiqinə istiqamətlənmiş işlər məcmusudur.

**58. Elmi-texniki potensial** - hazır elmi kadrların, elmə və elmə xidmətə ayrılmış maliyyə resurslarının, ETTKİ təşkili sisteminin, maddi-texniki təminatın, elmi araşdırmaların prioritetliyinin və elmi xidmətlərin məcmusudur.

**59. Texnologiya** - iqtisadi resurslardan əmtəə və xidmətlərin istehsalı üçün istifadə olunan biliklər məsmusudur.

**60. Resiklinq, təkrar emal** - çıxdaşların, istehsal tullantılarının təkrar istifadəsi əsasında onların yenidən emalı ilə dövriyyəyə qaytarılması və ya təhlükəsiz ləğvidir.

**61. Yüksək texnologiyalar** - texnoloji inkişaf, informasiya texnologiyaları, yeni materiallar əsasında istifadə edilən texnologiyalar, kosmik texnologiyalar, nüvə texnologiyalarının ehtiva olunduğu, müasir dünyanın daha üstün və mütərəqqi texnologiyalarıdır.

**62. Elmi tədqiqatlar** - yeni biliklərin alınması ilə bağlı öyrənmə, ekspriment, nəzəriyyənin öyrənilməsi və konseptuallaşdırılması prosesidir.

**63. Elmi-texniki inqilab, ETİ** - elmin ictimai istehsalın aparıcı amilinə çevrilməsi əsasında məhsuldar qüvvələrin köklü keyfiyyətdə yenidən təşkilidir.

**64. Elmi-texniki tərəqqi, ETT** - maddi istehsalın ehtiyacları, sosial tələblərin mürəkkəbliyi və artımı ilə şərtlənən elm və texnikanın qarşılıqlı əlaqəli təkamülü, inkişafıdır.

**65. İntellektual kapital** - insanların bilik, bacarıq, səriştə və peşəkarlıq təcrübəsində təcəssüm olunan kapital formasıdır.

**66. Faydanın maksimallaşdırılması** - əldə olunan məlumatlaradan çıxış edərək fərdlərin və şirkətlərin faydalılığı və həmçinin, mənfəəti maksimallaşdırmasını səciyyələndirən neoklassik iqtisadi nəzəriyyədə istiqamətdir.

**67. Texnopark** - innovasiyaların işlənməsi və kommersiyalaşdırılması üzrə əlverişli şərtlərin yaradılması məqsədilə elmi təşkilatların, ali məktəblərin və istehsal müəssisələrinin birləşdiyi ərazidir.

**68. Texnopolis** - innovasiya proseslərinin sürətləndirilməsi, texniki-texnoloji yeniliklərin tez və səmərəli tətbiqinə kömək məqsədi ilə yaradılan azad iqtisadi zona formasıdır.

**69. Azərbaycanın təbii resurs potensialı** - neft və qaz, təbii alternativ enerji mənbələri, mineral, su, torpaq, bioloji ehtiyatlar, iqlim və rekreasiya, məkan və zaman resurslarından ibarətdir.

**70. Azərbaycanın elmi-texniki potensialı** - elmi-texniki problemlərin həlli üçün ölkədə formalaşmış və inkişaf etməkdə olan elmi və texniki resurları, müvafiq infrastruktur komplekslərini, elmi kadrları, elm-təhsil və elmə xidmətə ayrılmış maliyyə vəsaitlərini və ümumilikdə onlardan istifadə imkanları səviyyəsini ehtiva edir.

# VIII FƏSİL

# Makroiqtisadi göstəricilər və beynəlxalq müqayisə

## 8.1. Ölkələrin iqtisadi inkişaf göstəriciləri

Ölkələrin iqtisadi inkişaf göstəriciləri geniş spektrlidir. Onlar xarakterizə edilməmişdən öncə inkişafla bağlı təyinatlara nəzər yetirmək gərəklidir.

İnkişaf (*development*) irəliləyiş, təkamül, bir vəziyyətdən digərinə keçiddir. İnkişaf, həmçinin, çoxölçülü olaraq aşağıdan yuxarıya, sadədən mürəkkəbə hərəkət, vəziyyətin az qənaətbəxşlikdən çox qənaətbəxşliyə dəyişməsi, tələbatın ödənilməsinin sadələşdirilməsi prosesi kimi də şərhini tapır.

Qeyri-bərabər inkişaf (*uneven development*) ayrı-ayrı ölkə və regionların bəzi hissələrinin tərəqqi etməsi, digərlərinin staqnasiyaya uğraması və hətta geriləməsi ilə xarakterik olan iqtisadi və sosial inkişafın xüsusiyyətliliyidir. "Qarışıq və qeyri-bərabər inkişaf" ideyası inqilabdan əvvəlki Rusiyanın kapitalist inkişafının xüsusiyyətliliyinin təhlili ilə bağlı ilk dəfə aparıcı rus kommunist ideoloqları Lev Davidoviç Trotski (*1879-1940*) və Vladimir İliç Lenin tərəfindən işlədilmişdir.

Geriqalmışlıq (*underdevelopment*) iqtisadi inkişafın aşağı səviyyəsi, iqtisadi gerilikdir. Üstün olaraq, beynəlxalq inkişafa aid edilir.

İqtisadi inkişaf *(economic development*) geniş təkrar istehsal və iqtisadiyyatın, məhsuldar qüvvələrin, artım və inkişaf amillərinin, elmin, təhsilin, mədəniyyətin, əhalinin həyat səviyyəsinin və keyfiyyətinin, insan kapitalının tədricən keyfiyyət və struktur dəyişikliklərini əks etdirir.

İqtisadi inkişaf nəzəriyyəsinin əsaslarını XX əsrin əvvəllərində Avstriya və ABŞ iqtisadçısı Yozef Aloiz Şumpeter (*1883-1950*) qoymuşdur. Bu nəzəriyyəyə S.Kuznets, Fernand Brodel (*1902-1985*), Herhard Menş (*1937*), Teodor Şults (*1902-1998*), Herri Bekker (*1930-2014*), Maykl Porter (*1947*), Nikolay Kondratyev (*1892-1938*) və başqa alimlər öz töhfələrini vermişlər.

Y.Şumpeter 1911-ci ildə nəşr etdirdiyi "İqtisadi inkişaf nəzəriyyəsi" adlı fundamental əsərində, ilk dəfə olaraq, iqtisadiyyatın artımı və inkişafı arasında fərqləri göstərmiş,

müxtəlif növ innovasiyaların mahiyyətini müəyyən edərək onları təsnifatlandırmışdır. O, artım və inkişaf arasında fərqlərin izahını maraqlı mülahizə və misallarla təqdim etmişdir: "İstədiyiniz qədər poçt faytonunu sıraya düzün - bu zaman dəmir yolu ala bilməyəcəksiniz". Y.Şumpeterə görə, iqtisadi artım kəmiyyət dəyişiklikləridir - eyni əmtəə və xidmətlərin istehsalı və istehlakının zamanla bağlı artımıdır.

Cəmiyyətin iqtisadi inkişafı çoxplanlı proses olub, iqtisadi artımı, innovasiya iqtisadiyyatını və vençur biznesini, iqtisadiyyatda struktur irəliləyişləri, əmək məhsuldarlığının artımını və əhalinin həyat keyfiyyətini əhatə edir. İnkişaf proseslərinin effektivliyi əksərən iqtisadiyyatın dövlət tənzimlənməsinin, dövlətin özünün və onun institutlarının effektivliyi ilə müəyyən olunur.

Ölkənin iqtisadi inkişafının əsas göstəriciləri əhalinin həyat keyfiyyəti, iqtisadiyyatın rəqabətqabiliyyətliliyi, ÜDM, ÜMM, əhalinin adambaşına insan kapitalı və iqtisadi azadlıq indeksidir. İqtisadiyyatın artımının və inkişafının əsas hərəkətverici qüvvələri insan kapitalı və onun doğurduğu innovasiyalardır.

Burada bir məqama da diqqət yetirmək gərilikdir. Yəni "insan kapitalı" ilə "iqtisadi insan" anlayışlarının bir-birindən ayrılmasına baxılmalıdır.

<u>İnsan kapitalı</u> (*human capital*) insanın gələcək əmək gəlirlərinin çıxılmış dəyəridir. Bilik, ixtisas, səriştə, təhsil insan kapitalının indikatorlarıdır.

<u>İqtisadi insan</u> (*economic man*) maksimal fayda əldə etmək prinsipindən çıxış edərək özünün plan və hərəkətlərini quran insanı səmərəli düşünən subyekt kimi təqdim edən şərti ümumi anlayışdır.

İqtisadiyyatı artan və inkişaf etməkdə olan ölkələrin hamısı üçün ümumi olanlar - insan kapitalına olan yüksək investisiyalar və effektiv özünüistehsal hesabına onun dəyərinin və keyfiyyətinin artımı, korrupsiyanın aşağı səviyyəsi, effektiv idarəetmə, innovasiya sisteminin effektivliyi, iqtisadiyyatın rəqabətqabiliyyətliliyi, uzunmüddətli dövrdə ÜDM və ÜMG-in sabit artımı, əhalinin həyat keyfiyyətinin yüksəlməsidir.

İnkişaf səviyyəsinə görə ölkələri müqayisə etmək üçün aşağıdakı kompleks göstəricilərdən istifadə olunur:

- əhalinin adambaşına ÜDM və ÜMM;
- əhalinin həyat səviyyəsinin keyfiyyəti və səviyyəsi;
- iqtisadiyyatın rəqabətqabiliyyətliliyi;
- əmək məhsuldarlığı və iqtisadi effektivliyin digər göstəriciləri;
- insan kapitalının adambaşına dəyəri, onun keyfiyyəti və məhsuldarlığı;
- dünya iqtisadiyyatında quruculuq;
- korrupsiyanın səviyyəsi;
- qabaqcıl dünya reytinqlərində yer;
- maliyyə və iqtisadi reytinqlər, qabaqcıl dünya reytinq agentliklərinin qiymətləri;
- iqtisadiyyatın sahəvi quruluşu, xammal iqtisadiyyatının payı;
- adambaşına əsas məhsul növlərinin istehsalı.

Ölkə iqtisadiyyatının inkişafının və artımının sabitliyini və dayanıqlığını müəyyən

edən ən mühüm göstəriciləri inkişaf bazası insan kapitalının tərkib hissələrinə - tərbiyəyə, mədəniyyətə, təhsilə, elmə, əhalinin həyat keyfiyyətinə qoyulan investisiyalardır.

Hər bir ölkənin iqtisadi inkişafı təyin olunmuş hesabatlanmadan keçir. Bir çox ölkələr öz səviyyəsini ABŞ-la müqayisə etməyə meyillidirlər. Bu kimi müqayisələr təhlil qammasını tam ifadə etmədiyindən qüsurlu sayılır. Buna görə də ümumi təsbit olunmuş iqtisadi meyarlardan istifadə olunur.

## 8.2. Mütləq göstəricilər: Ümumi Daxili Məhsul, Ümumi Milli Məhsul, Milli Gəlir

Ölkənin iqtisadi inkişafını təyin edən mütləq göstəricilər qismində Ümumi Daxili Məhsul, Ümumi Milli Məhsul və Milli Gəlir ön mövqedə dayanır.

Ümumi Daxili Məhsul, ÜDM (*Gross Domestic Product*) ölkə rezidentlərinin müəyyən vaxt ərzində istehsal etdikləri son məhsulun dəyərini ifadə edir. Son mal və xidmətlər son istehlak, yığım və ixrac üçün istifadə olunan mal və xidmətlərdir. İstehsal prosesində ara mal və xidmətlərin (*xammal, materiallar, yanacaq, enerji, alətlər, toxumlar, yük nəqliyyatının, topdan ticarət, reklam agentliklərinin xidmətləri, binaların icarəsi üçün ödənişlər və s.*) dəyəri ÜDM-ə daxil edilmir. Əks halda təkrar hesab alınar. Belə ki, ara məhsulların dəyəri son mal və xidmətlərin dəyərinin tərkibinə daxildir.

ÜDM-in tərifində “ümumi” termini o deməkdir ki, ÜDM hesablanarkən əsas kapitalın (*fixed capital*) istehlakı dəyərdən çıxılmır. ÜDM daxili məhsuldur, ona görə ki, həmin ölkənin rezidentləri tərəfindən istehsal olunur.

Milli mənsubiyyətlərindən və vətəndaşlıqlarından asılı olmayaraq, iqtisadi maraq mərkəzinə malik olan və həmin ölkənin iqtisadi ərazisində fəaliyyət göstərən (*istehsal fəaliyyətilə məşğul olan, yaxud ölkədə ən azı bir il yaşayan*) iqtisadi vahidlər - müəssisələr, ev təsərrüfatları rezidentlər hesab olunurlar.

ÜDM-in ölçülməsinin üç üsulu vardır:

1. Əlavə dəyər üzrə (*istehsal metodu*);
2. Xərclər üzrə (*son istifadə metodu*);
3. Gəlirlər üzrə (*bölgü metodu*).

Dünya üzrə ÜDM il ərzində iqtisadiyyatda son məhsul - əmtəə və xidmətlər, həcminin, dəyərini göstərməklə həmin ölkənin dünya təsərrüfatlararası əlaqələr sistemində yerini, onun inkişaf etmiş və ya inkişaf etməkdə olan ölkələr kateqoriyasına aid olmasını təyin etməyə imkan yaradır. Dünya üzrə məcmu ÜDM ABŞ dolları əsasında hesablanır.

Son məhsul (*final product*) istehsal olunmuş, istehsalı bitmiş, son hazır məhsulun həcminin məcmusunun pulla ifadəsini səciyyələndirən ümumiləşdirilmiş iqtisadi göstəricidir. Materialların istehsal istehlakı çıxılmaqla məhsulun bir hissəsini təmsil edir.

Ümumi Milli Məhsul, ÜMM (*Gross-National Income*) dövlətdə müəyyən müddət

ərzində istehsal olunmuş mal və xidmətlərin bazar qiymətlərindən ibarətdir. ÜMM-in tərkibinə hər hansı illər ərzində ölkə ərazisində, həmin dövrdə o ölkənin vətəndaşlarının və təşkilatlarının sahib olduqları istehsal amillərinin köməyilə yaradılmış bütün istehsal vasitələrinin qiymətləri daxildir. Bundan başqa, bura həm də həmin ölkənin rezidentlərinin digər ölkələrin ərazisində istehsal amillərinin istifadə olunmasından əldə edilmiş gəlirlər də daxildir.

ÜMM təkcə müəyyən ölkənin ərazisində yox, həm də xaricdə yaradılır. Məsələn, Azərbaycan vətəndaşlarına məxsus olan, amma xarici ölkələrdən birində yerləşən hər hansı firma tərəfindən istehsal olunmuş məhsul Azərbaycanın ÜMM-nin tərkibinə daxil olacaqdır. Təcrübi təhlil üçün bəzən mülkiyyətçisinin kimliyindən asılı olmayaraq məhz müəyyən ölkənin ərazisində hansı həcmdə məhsul və xidmətin istehsal edildiyini bilmək vacibdir. Bi məqsədlə ÜMM - ÜDM modifikasiyasından istifadə olunur.

Bir qayda olaraq, ÜMM və ÜDM ölçülərində fərqlər böyük əhəmiyyət kəsb etməyərək orta hesabla 1% həddində olur. Daha konkret, bu fərqləri ÜMM = ÜDM + Δ (*ölkə xaricindəki fəaliyyətdən daxil olan ilk gəlirlər - ölkə daxilində investorların aldıqları ilkin gəlirlər*) düsturu ilə hesablanır. Başqa sözlə, bu fərq xarici ölkələrlə hesablaşmalardakı saldonu əks etdirir. ÜMM əgər ÜDM-i üstələyirsə, bu o deməkdir ki, mövcud ölkədə əhali xaricdən onların ölkələrində çalışan əcnəbilərin qazandıqlarından daha çox gəlir əldə edir.

ÜDM milli hesablar sistemi çərçivəsində digər makroiqtisadi göstəricilərlə: ÜMG, ümumi milli sərəncamında olan gəlirlər - ÜMSG, son istehlak, yığım, əmanət, xalis kreditləşmə və xalis borc göstəriciləri ilə qarşılıqlı əlaqədədir. Bu qarşılıqlı əlaqələrin tədqiqi adı çəkilən göstəricilərin analizin hansı aspektləri üçün istifadə edilməsi, iqtisadi prosesin daha dərindən öyrənilməsi üçün onların ÜDM-i necə tamamladığını dərk etmək çox mühümdür.

ÜMM-i hesablamaq üçün hesabın üç metodundan istifadə etmək qəbul edilmişdir: xərclər üzrə, gəlirlər üzrə və istehsal üzrə.

1. Xərclər üzrə hesablanmış ÜMM ölkə üçün müəyyən dövr ərzində yaranmış mal və xidmətlərin bütün kütləsinin şəxsi və məhsuldar istehlakına sərf edilmiş ümumi xərclərin məbləğini göstərir.

2. Gəlirlər üzrə hesablanmış ÜMM məhsulun bütün kütləsini yaratmış istehsal amilləri sahiblərinin ümumi gəlir məbləğini göstərir.

3. ÜMM-in hesablanmasının üçüncü metodu - istehsal üzrə hesablanmadır. Bu metod hər istehsalçının bütövlükdə milli istehsala verdiyi payı göstərir. Bu halda ÜMM əlavə dəyər üzrə hesablanır. Əlavə dəyər - məhsul istehsalı və ya xidmətlərin yerinə yetirilməsi üçün sərf edilmiş və alınmış xammal və materiallar çıxılmaqla firmanın məhsullarının (*xidmətlərin*) bazar qiymətidir.

ÜMM göstəricisi il ərzində istehsal edilmiş məhsulun həcmi haqqında dəqiq təsəvvür yaratmır. Belə ki, bura istehlak edilmiş kapitalın (*aşınmış maşın və avadanlıqlar*) əvəz edilməsi üçün zəruri olan amortizasiya xərcləri də daxildir. Ona

görə də, iqtisadiyyatda xalis milli gəlir - XMG göstəricisindən istifadə edilir ki, bu da ÜMM-dən istehlak edilmiş kapitala (*amortizasiya ayırmaları*) ayırmalar çıxılmaqla müəyyən edilir.

XMG = ÜMM - (*çıxılsın*) amortizasiya ayırmaları.

Milli Gəlir, MG (*national income*) ölkənin iqtisadi inkişafının ümumiləşdirici göstəricilərindən biri, maddi istehsalda yenidən yaradılmış dəyərdir. MG istehsalçılar tərəfindən istehsal və ya ehtiyatlar amili tədarükçülərinə ödənilir. Onların arasında əmək ehtiyatları başlıca rol oynayır, bunlara görə əhali əmək haqqı şəklində gəlir alır. MG-nin digər tərkib hissələri kapitala, rentaya və gəlirə görə faiz şəklində əldə olunan gəlirlərdir. Əhali baxımından MG ehtiyat tədarükçüləri tərəfindən cari istehsalda iştirakdan əldə etdikləri gəlirlərin cəmindən ibarətdir. Həmin ilin ÜMM-nin həcmində istehsalın gedişində alınmış əmək haqqının, renta ödənişlərinin, faiz və mənfəətin ümumi həcm göstəricisini müəyyən etmək üçün XMG-dən biznes üçün dolayı vergilər çıxılır:

MG = XMM - (*çıxılsın*) biznesə dolayı vergilər.

Beləliklə, milli gəlir millətin iqtisadi fəaliyyətinin fəallığının mühüm göstəricisidir və buna görə də, hazırda BMT-nin tövsiyəsi ilə onun haqqında statistik hesabat bütün ölkələrdə tətbiq edilməyə başlamışdır.

## 8.3. Struktur göstəricilər: iqtisadiyyatın müxtəlif sektorlarında məşğulluğun nisbəti, yanacaq-enerji balansının strukturu, nəqliyyat növləri üzrə daşımalar

Struktur göstəriciləri ilə bağlı mülahizələr öncəsi iqtisadiyyatın sektorial bölgüsü üzrə formalaşmış reallıqların bir daha nəzərdən keçirilməsi gərəkli hesab olunur. Elmi-nəzəri mənbələrdə iqtisadiyyatın sektorial bölgüsü - oxşar uzlaşan cəhətləri, iqtisadi məqsədləri, funksiyaları və davranışları ilə fərqlənən nəhəng əhəmiyyətli institusional vahidlər kimi göstərilir. Bu sahələr nəzəri və paraktiki planda başlıca təsnifatda biri digərinindən təsərrüfat formasına və məhsul istehsalı növlüyü əlamətlərinə görə də ayrılır.

Təsərrüfat forması baxımından iqtisadiyyat, əsasən, dövlət (*government sector*) və özəl (*private sector*) sektorlara bölünür. Məhsul növlüyü istehsalı kontekstində isə çoxsaylı variantlar müxtəlifliyinə baxmayaraq bu bölgüdə üçhədli klassik sektorial model (*ingiliscə - three-sector hypothesis - üç sektor haqqında hipoteza*) əsas götürülür. Birinci sektor (*primary sector*) xammalın hasilatı və onu yarımfabrikatlara çevirən emal sahələrini əhatə edir. Buraya aqrar-sənaye, hasilat və təbii xammalın ilkin emalı (*daş kömür, neft-qaz, metal filizləri və s.*) sahələri daxildir. İkinci sektora (*secondary sector*) hazır məhsul istehsal edən - emal sənayesi və tikinti müəssisələri aiddir. Bu sektor ümumən ölkə iqtisadiyyatının mühüm hissəsini təşkil etdiyindən onu həm də istehsal sektoru adlandırırlar. Məhz burada ÜDM-in gəlir və daxilolmalar artımının

əsas hissəsi formalaşır ki, bu da nəticə etibarı ilə həyat keyfiyyətini yüksəldən proqramların həyata keçirilməsinə təkan verir. Digər bir təsnifatda birinci və ikinci sektorlar birlikdə maddi nemətlər yaradan və onu istehsalçıya çatdıran insan fəaliyyəti növlərinin məcmusu kimi çıxış edən maddi istehsal sektoru adlandırılır. Üçüncü sektor (*tertiary sector*) xidmət sferası müəssisələrini əhatə edir. Buraya nəqliyyat, rabitə, ticarət, səhiyyə, turizm və s. aid olunur. Hazırda inkişaf etmiş ölkələrdə üçüncü sektorun ÜDM-dəki payının əhəmiyyətli artımı onu "servis iqtisadiyyatı" adlanan ayrıca bir iqtisadiyyat sahəsinə çevrilməsinə gətirib çıxarmışdır. Üçüncü sektor anlayışı fərqli bir müstəvidə daha çox sosial funksiyalar yerinə yetirən qeyri-hökumət təşkilatları sektoru kimi də anlaşılır.

İqtisadiyyatın çoxsaylı sektorial bölgüsündə real və maliyyə təsnifatlandırmasının da əhəmiyyəti böyükdür. Real sektor bilavasitə material istehsalını, əmtəə və xidmətləri əhatə edir. Məhz bu sektorda yüksək mənfəət yaranır və əsas budcə daxilolmaları təmin edilir. Maliyyə sektoru isə maliyyə-kredit qruplarını birləşdirir.

Real sektor (*real sector*) maliyyə xidmətləri istisna olmaqla bütün maddi və qeyri-maddi istehsal sahələri məcmusunu əhatə edir. Bu klassik təyinat iqtisad elmində hələ də dəyişilməmiş qalmaqdadır. Lakin onun əleyhdarları da çoxdur. Real sektorun sahəvi komplekslərə bölünməsində praktiki müstəvidəki yanaşmalar da müxtəlifdir. Ümumilikdə buraya - yanacaq-enerji kompleksi, aqrar-sənaye kompleksi, meşə sənayesi kompleksi, nəqliyyat kompleksi, tikinti, ticarət və iştimai iaşə, rabitə və telekommunikasiya, kimya, metallurgiya, yüngül sənaye və digərləri aid edilir. Statistik metodoloji təsnifatda real sektoru sənaye, kənd təsərrüfat, tikinti, ticarət, nəqliyyat və rabitə əhatə edir. Real sektorda yüksək mənfəət yaranır və o əsas budcə daxilolmalarını təmin edir.

Maliyyə sektoru (*financial sector*), üstün olaraq, uzunmüddətli və qısamüddətli kreditləşmə və borcalma ilə bağlı olan iqtisadiyyat sferasıdır. Maliyyə sektoruna banklar, müxtəlif kredit təşkilatları, sığorta kompaniyaları, pensiya fondları və müxtəlif maliyyə, menecer və konsultantları daxildir.

İqtisadi düşüncənin sistemləşdirilməsində bir sıra digər metodoloji yaranışlar da çıxış edirlər. Belə ki, müasir iqtisadi ədəbiyyatda dördüncü sektor və beşinci sektor anlayışlarına da rast gəlinir ki, bunlar da üçüncü sektorun sistem altı kimi çıxış edirlər. Dördüncü sektora (*quaternary sector*) da informasiya-kommunikasiya texnologiyaları sferasında ixtisaslaşan, həmçinin, qlobal marketinq, bank, maliyyə, bir sıra elm sahələri, konsaltinq və təhsil xidmətləri göstərən müəssisələr aid edilir. Bu sektoru həm də çox zaman informasiya sektoru adlandırırlar. İnformasiya sektoru müasir və gələcək iqtisadi inkişafın əsasında dayanır. Beşinci sektor (*quinary sector*) isə səhiyyə, mədəniyyət və elmi tədqiqatlar sahəsindəki ixtisaslaşmaları əhatə edir.

Ölkənin iqtisadi inkişafının müəyyən edilməsində mütləq göstəricilərlə yanaşı struktur göstəricilərdən də istifadə olunur. Struktur göstəricilər ökənin iqtisadi inkişafını müəyyən edən göstəriciləri - iqtisadiyyatın müxtəlif sektorlarında məşğulluğun nisbəti, yanacaq-enerji balansının strukturu, nəqliyyat növləri üzrə daşımalar və s.-ni ehtiva edir.

Əhalinin məşğulluğu məsələsi sosial-iqtisadi problemlərin ən mühümlərindən biridir. Məşğulluq insanların həm özləri və onların əmək fəaliyyəti, həm də maddi nemətlərin istehsalı, bölgüsü, mənimsənilməsi və istehlakı ilə ayrılmaz surətdə bağlıdır. Məşğulluğun, cəmiyyətin əmək potensialından istifadənin xüsusiyyətləri nəinki iqtisadi marağı əks etdirir, həm də dövlətin əmək sferasında siyasətini, insana cəmiyyətin əsas məhsuldar qüvvəsi və şəxsiyyət kimi münasibətini əks etdirən əsas göstəricilərdir.

Əhalinin məşğulluğunun kəmiyyət xarakteri üçün statistika tərəfindən xüsusi göstəricilər işlənib hazırlanmışdır. Onlar iki: mütləq və nisbi qruplara bölünür.

***Məşğulluğun mütləq göstəriciləri*** ölkənin iqtisadi potensialını, onun inkişaf imkanlarını əks etdirir. Ona görə ki, məşğul əhali istehsal prosesinin əsas elementini təşkil edir. İşçilər olmasa, vasitələr və predmetlər də ölüdür. Belə ki, bu halda onların birləşməsi qeyri-mümkün olur.

Əhalinin məşğulluğunun mütləq göstəricilərinə aşağıdakılar aiddir:

- ❖ iqtisadiyyatda məşğulların sayı;
- ❖ məşğulların iqtisadi sahələr üzrə bölgüsü (cinsinə, yaşına, təhsil səviyyəsinə və s. görə);
- ❖ iqtisadiyyatda məşğul olan əmək qabiliyyətli insanların sayı və s.

***Məşğulluğun nisbi göstəriciləri*** əhalinin və onun ayrı-ayrı qruplarının iqtisadiyyata cəlb edilməsi dərəcəsini xarakterizə edir. Onlar əhalinin məşğulluq əmsalı, əmək resurslarının məşğulluq əmsalı, əmək qabiliyyətli yaşında olan əhalinin məşğulluq əmsalı, əmək qabiliyyətli yaşda olan əmək qabiliyyətlilərin məşğulluq əmsalı və s.-ni əhatə edir.

Müasir cəmiyyət sənayedə, nəqliyyatda, xidmət sahələrində, ev təsərrüfatlarında ildən-ilə daha çox enerji istehlak edir, insanların enerjidən asılılığı artır. Neft, təbii qaz, habelə digər təbii enerji resurslarının tükənməz olmaması, enerji istehlakının artması ilə enerji resursların azalması arasında olan qarşılıqlı əlaqə siyasətçiləri, iqtisadçıları, statistikləri energetika sektorunda baş verən prosesləri diqqətlə izləməyə vadar edir. Dünya mütəxəssislərinin birmənalı rəyinə görə, bu və ya digər ölkənin energetika sektorunda baş verən hadisə və proseslərin izlənməsi və öyrənilməsi, bu sahədə düzgün qərarların, qısa və uzunmüddətli strategiyaların qəbul olunması, prioritet və perspektivlərin müəyyənləşdirilməsi, milli energetika ehtiyatlarının idarə olunmasına yönəldilmiş dövlət siyasətinin işlənib hazırlanması və həyata keçirilməsi üçün ən mühüm vasitə yanacaq-enerji balansıdır.

<u>Yanacaq-enerji balansı, YEB</u> (*fuel and energy balance*) bir-biri ilə əvəz oluna bilən yanacaq-enerji resurslarının məcmusunu əhatə edən kompleks material balansını ifadə edir. YEB növlər üzrə hasil və emal olunan yanacaq, istehsal edilən elektrik enerjisi, onların saxlanması, istehlakı, idxal və ixracının ümümilikdə mədaxil və məxaricinin uzlaşdığı ədədi sistemi olmaqla, həm də ölkənin enerji təhlükəsizliyinin mühüm təminat göstəricisi sənədidir. O, təsbit olunmuş dövr üçün enerji auditi, enerjitəchizat strukturlarının faktiki materialları və digər müvafiq informasiyalar əsasında analitik

cədvəl formasında hazırlanaraq enerji effektivliyinin tənzimləyici rolunda çıxış edir. Müxtəlif yanacaq növlərinin şərti-yanacağa çevrilərək və mümkün olduqca daha az detallaşma səviyyəsi ilə fərqlənən YEB vasitəsi ilə ölkənin yanacaq-enerji resurslarının yetərli olması və çatışmamazlığı müəyyən edilir və onların səmərəli istifadəsinin təhlili aparılır. İqtisadiyyatın normal fəaliyyəti və əhalinin müxtəlif növlü yanacaq-enerji resurslarının təchizatını təminatında yanacaq-enerji balansının əhəmiyyəti yüksəkdir.

Hazırda enerji balansları sahəsində dünyada Beynəlxalq Energetika Agentliyi və Avropa Statistika Bürosunun formatları olan 2 beynəlxalq standart mövcuddur.

Enerji resursları dünyanın geosiyasi prosesində mühüm təsirə malikdirlər. Bütün dövlətlər indiki və gələcək iqtisadiyyatlarını, karbohidrogen resursları, hasil edib-etməməsindən asılı olmayaraq, enerji strategiyası həyata keçirir, davamlı və uzunmüddətli YEB tərtib edirlər.

Statistik məlumatlara görə, 1910-cu ilin dünya yanacaq-enerji balansında daş kömür 65%, oduncaq 16%, bitki və heyvan mənşəli tullantılardan istifadə 16% idisə, bu pay neft üzrə cəmi 3% təşkil etmişdi. Balansda təbii qaz, demək olar ki, yox idi. XX əsrin 30-cu illərində vəziyyət bir qədər dəyişdi. Bu balansda daş kömürün payı 55%-ə endi, neftin payı 15%-ə, təbii qazın payı isə 3%-ə qalxdı. 1965-ci ildə qlobal YEB-ə yeni güc - nüvə enerjisi (*nuclear energy*) daxil oldu. Hazırda qlobal yanacaq-energetika balansında nüvə energetikası 6-7% həddindədir.

YEB strukturu ilə yanaşı ölkələrin enerji mənimsəmə imkanları ÜDM-də enerji tutumu (*enerji istehlakı*), ölkənin enerji təminatlılığı və digər makroiqtisadi göstəricilərlə də müəyyən olunur.

<u>Enerjitutumu, enerji istehlakı</u> (*ingiliscə* - energy-consumption - *enerji istehlakı*) məhsul istehsalı, işlərin yerinə yetirilməsi və xidmətlərin göstərilməsində enerji və ya yanacağın ölçü və hədlərini müəyyən edən göstəricidir. Ondan milli iqtisadiyyatlarda enerjieffektifliyinin qiymətləndirilməsində istifadə olunur.

<u>ÜDM-də enerjitutumu</u> (*energy intensity of GDP*) hər vahid yaradılan ÜDM-də yanacaq-enerji resurslarının məsrəfinin ifadə edən makroiqtisadi göstəricidir. ÜDM-də enerji tutumu hər hansı bir ölkənin iqtisadiyyatını xarakterizə edən fundomental göstəricilərdən hesab olunur. Müvafiq dövr ərzində ölkənin istehsal və qeyri-istehsal sahələrində məsrəf olunan yanacaq-enerji resurslarının ÜDM-ə nisbəti ilə müəyyən olunur. Məsrəf edilən yanacaq-enerji resurslarının həsmi, əsasən, neftə ekvivalent götürülən şərti yanacaq üzrə hesablanır. Coğrafi strukturda iqtisadiyyatlarında enerjitutumu böyük olanlar qismində xammal istehsalçısı ölkələri çıxış edirlər. İnkişaf etmiş ölkələrdə (*əsasən də, həmin resursaları idxal edənlər*) isə, bir qayda olaraq, bu resursların ÜDM-də payı daha az olur.

Nəqliyyatın inkişaf səviyyəsi ölkə və regionun, bütövlükdə cəmiyyət sivilizasiyasının inkişafı səviyyəsini müəyyən edən ən mühüm təyinatlardan biri kimi çıxış edir. Tarixə nəzər yetirdikdə görərik ki, bütün dövrlərdə cəmiyyətin transformasiyası nəqliyyat texnikasının, həm də bütövlükdə nəqliyyat sisteminin özünün dəyişməsi

ilə müşayiət olunmuşdur. Məhz nəqliyyat sahəsindəki əsaslı irəliləyişlər bu keçidlərin təmin olunmasında özünəməxsus rol oynamışlar. Yaşadığımız çağdaş sivilizasiyanı da iqtisadiyyatın texnoloji əsası kimi onun xammal, material, mallar mübadiləsini geniş miqyasda reallaşdıran inkişaf etmiş nəqliyyat sistemi olmadan təsəvvür etmək mümkün deyil. Birmənalı olaraq nəqliyyat əməliyyatları istənilən istehsal proseslərinin zəruri şərtidir və elə bu baxımdan da onu iqtisadiyyatın arteriyaları adlandırırlar.

Nəqliyyata həm geniş və həm də konkret tərif vermək mümkündür. Konkret olaraq, nəqliyyat (*latınca* - trans - *vasitəsi ilə və* portare - *aparmaq*) sərnişinlərin və yüklərin yerdəyişməsini və bu istiqamətdə texnoloji proseslər kompleksini həyata keçirən maddi istehsal sahəsi kimi iqtisadi infrastrukturun əsas komponentlərindən birini təşkil edir. O, iqtisadi artıma əhəmiyyətli dərəcədə təsir göstərərək, ticarətin genişləndirilməsinə, yaşayış səviyyəsinin yüksəldilməsinə, yüklərin ünvana yetişməsi və ya insanların iş, mənzil və ümumilikdə hər hansı bir təyinat yerinə çatdırma zamanını qısaltmaqla vaxt itkilərinin aradan qaldırılmasına, məhsuldarlığın yüksəldilməsinə kömək edir. Bu səbəbdən də nəqliyyatın inkişaf sürətinin iqtisadi artıma müvafiq olması əsaslıdır.

Nəqliyyat sosial-iqtisadi problemlərin həllində də mühüm rola malikdir. Nəqliyyat iki və daha çox ölkə arasında malların (*yüklərin*) və insanların (*sərnişinlərin*) yerdəyişməsini gerçəkləşdirməklə beynəlxalq əlaqələri təmin edir.

Nəqliyyat dövlətlər arasında maddi daşıyıcı fuksiyasini yerinə yetirməklə dünya iqtisadiyyatının mühüm tərkib hissəsi kimi çıxış edir. Dövlətlərin ixtisaslaşması, onların kompleks inkişafi nəqliyyat sistemi olmadan qeyri-mümkündür. Nəqliyyat amili istehsalın coğrafiyasına təsir göstərir və onu nəzərə almadan məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsinə nail olmaq imkan xaricində qalır.

Nəqliyyat sferasında inkişaf elm sahəsindəki tədqiqatların da özəyini təşkil edir. Yaşadığımız zamanda da bu və ya digər cəhətdən nəqliyyata aidiyyəti olmayan hər hansı bir tədqiqat sahəsi tapmaq çətindir. Reallıq belədir ki, xüsusi dinamik sistem kimi nəqliyyat həmişə müxtəlif elmlərin, o cümlədən fundamental elmi nailiyyət və kəşflərin ilk istehlakçılarından olmuşdur. Bir çox hallarda isə o, elm qarşısında birbaşa sifarişçi kimi çıxış etmiş və davamlı olaraq onun özünün inkişafını stimullaşdırmışdır.

XX əsrdə və xüsusilə də, onun ikinci yarısında dünyanın bütün qitələrində insan fəaliyyəti sahələrində nəhəng dəyişikliklər baş vermişdir. Əhalinin artımı, maddi resursların istehlakının artması, ETT, həmçinin, təbii-coğrafi, iqtisadi, siyasi, sosial və digər əsaslı amillər dünya nəqliyyatının həm kəmiyyət (*miqyas*), həm də keyfiyyət cəhətdən görünməmiş inkişafına səbəb olmuşdur. Baş verən keyfiyyət təzahürləri nəqliyyatın ənənəvi növlərinin köklü dəyişikliyə uğraması, yol şəbəkələrinin və yol nəqliyyatı vasitələri parkının artması və genişlənməsi ilə müşayiət olunmuşdur. Bu sferada, həmçinin, nəqliyyatın daşıma qabiliyyətinin - yükgötürmə qabiliyyəti bir neçə dəfə artması və onun hərəkətin sürəti yüksəlməsi də baş vermişdir. Artan bu keyfiyyət və kəmiyyət dəyişiklikləri, eyni zamanda, nəqliyyatın özünün problemlərini də qabardaraq, ön plana çıxmışdır. Bu problemlər daha çox şəhər təsərrüfatlarında və avtomobil-

qayırmanın sürətli inkişafı ilə bağlılıqda özünü biruzə vermişdir. Belə ki, dünyanın bir sıra regionlarında iri şəhərlərinin böyüməsi, meqapolislərin artması küçələrdə avtomobil tıxaclarının yaranışına gətirib çıxarmış, onların sürətini azaltmış. Eyni zamanda ekoloji vəziyyəti də kəskinləşdirmişdir.

Yükgötürmə qabiliyyəti (*carrying capacity*) ümumi leksikada daşıma və buraxılış qabiliyyəti, qaldırıcı gücdür. İqtisadiyyat, texnika və elmin ayrı-ayrı sahələrində müvafiq olaraq özəl mənaları ifadə edir.

Kommunikasiya sisteminə aid olaraq nəqliyyat maddi obyektlərin yerdəyişməsində ixtisaslaşır. Nəqliyyat təkrar istehsal prosesində resurslarının akkumlyasiyası, onların və hazır malların bazara girişinin təmin edilməsi funksiyalarını yerinə yetirərək istehsal ilə istehlak arasında zamanı və məkanı birləşdirir. Nəqliyyat milli və dünya iqtisadiyyatının həssas barometri, materialların istehlakçısı olaraq iqtisadiyyatin ayri-ayrı sahələrinin nə dərəcədə yüklənməsini müəyyən edir.

Nəqliyyat yüklərin daşınmasında və sərnişinlərin hərəkətində olan tələbatların ödənilməsinə kömək edən vasitə kimi meydana gəlmişdir və inkişaf edir.

Nəqliyyatın əsas növləri aşağıdakılardır:

- ❖ avtomobil nəqliyyatı;
- ❖ dəmiryol nəqliyyatı;
- ❖ su nəqliyyatı;
- ❖ hava nəqliyyatı;
- ❖ boru kəmərləri.

Statistika göstərir ki, müasir dünyada nəqliyyatın məşğulluq təminatı 100 milyondan artıq insanı cəmləşdirir. Dəniz yollarını nəzərə almadıqda dünya nəqliyyat şəbəkəsinin ümumi uzunluğu 50 milyon km-i ötür. Qlobal ÜDM-də nəqliyyatın payı 4-9% arasında tərəddüd edir. Bəzi ölkələrdə şirkətdaxili nəqliyyat daxil olmadan bu göstəricinin ÜDM-də payı10%-ə qalxır.

Hər il dünyada bütün nəqliyyat vasitələri ilə 100 milyard tondan artıq yük və 1 trilyondan artıq sərnişin daşınır. Bu daşınmalarda 650 miyondan çox avtomobil, 40 min gəmi, 10 min təyyarə, 200 min lokomotiv iştirak edir və onların kəmiyyət və ketfiyyəti hər il dəyişir. Nəqliyyatın bütün növlərinin inkişafına onun konteynerləşməsi (*ingiliscə* - contain - *tutum, ədədi olan, tək-tək)* yüklərin xüsusi metal qablarda - konteynerlərdə daşınması böyük təsir göstərmiş və nəticədə bu sektorda məhsuldarlıq 7-10 dəfə yüksəlmişdir.

Nəqliyyatın inkişaf göstəriciləri olaraq aşagıdakılar çıxış edir:

- ➢ ÜDM-lə yük dövriyyəsinin nisbəti;
- ➢ yükün çəkisi (*ton*) və yük dövriyyəsi (*ton/km*);
- ➢ tonlarla kilometraj, gəlirin artımına nisbətdə nəqliyyata olan tələbin elastikliyi.

Yüksək inkişaf etmiş ölkələrdə 1 dollar ÜDM-ə 2,5 ton/km yük daşınması düşür. Orta inkişaf səviyyəsi olan ölkələrdə isə bu göstərici 3 ton/km təşkil edir.

Daşımalarda nəqliyyat tarifləri və xərcləri xüsusi əhəmiyyət kəsb edir. Onlar

müxtəlif amillərin təsirinə məruz qalırlar. Nəqliyyat tariflər və xərclərinə daha çox onların zonalar üzrə qruplaşdırılması, yüklərin növ fərqliliyi, onların qablaşdırılması və saxlanılması tələbliliyi, logistik mükəmməllilik, yükləmə xüsusiyyətliliyi, daşınmanın ölçüsü, hərəkət sıxlığı, ofoşorluq, liman və yük terminallarının texniki və texnoloji səviyyəliyi, rəqabətlilik və marşrut seçimi kimi amillər təsir göstərir.

Nəqliyyatın tərkib hissəsi daşınmanın dəyərinin (*fraxtin*) daşınan yükə nisbəti kimi müəyyən edilir. Əgər daşınmaya çəkilən xərclərin dəyəri malın dəyərindən yüksəkdirsə, bu zaman həmin malın satışı qazanc gətirməyərək beynəlxalq ixtisaslaşmaya özünün nəzərəçarpacaq təsirini göstərəcəkdir.

Müasir dünya nəqliyyatı iki mühüm prinsipi rəhbər tutur: "qapıdan qapıya" - (*ingiliscə* - from door to door - *qapıdan qapıya*) sxemi üzrə yerdəyişmənin tam tsiklini və "düz vaxtında" (*just in time*) çatdırılmanın təmin olunmasını. Yəni, yüklər istehsalçının və ya yük sahibinin anbarının qapısından istehlakçının və ya yükü alanın anbarının qapısına qədər daşınır. Bu zaman yük sahibi, yükü alan daşınma prosesinin təşkilində iştirak etməyə də bilər. Onlar yalnız xərcləri ödəyirlər. Bu sxem sərnişindaşımalara da şamil olunur. Bütün bu proseslər təsbit edilmiş vaxt ərzində əlavə zaman itkisinə yol vermədən həyata keçirilməlidir. Göründüyü kimi, bu cür nəqliyyat prosesi ideal variant hesab edilir. Bu hədəfə yetişmək istəyənlər isə müasir nəqliyyat bazarında rəqabətqabiliyyətli olmalıdırlar. Təbii ki, nəqliyyat fəaliyyətində adıçəkilən prinsiplərin həyata keçirilməsi nəqliyyatın müasir texnikasını və infrastrukturunu, çox mühüm olan nəqliyyatda müasir daşınmaların və idarəetmənin təşkili formalarını tələb edir.

Nəqliyyat vasitələri əksərən daim qarşılıqlı əlaqədə olurlar. Onların qarşılıqlı əlaqəsi ondan ibarətdir ki, sərnişinlərin hərəkəti və ya yüklərin yerdəyişməsi üçün, bir qayda olaraq, bir növ nəqliyyat vasitəsi kifayət etmir. Nəqliyyat növləri arasında yüklərin daşınması bölüşdürülərkən iqtisadi qiymətin meyarı məhsulun bir məntəqədən digər məntəqəyə çatdırılması üçün ictimai əməyin minimum məsrəfi hesab edilir. Bu məsrəflərin pulla ifadəsi cari (*istismar*) xərclər, həmçinin, onlara bərabər edilən və daşınma prosesində olan maddi vəsaitlərdir. Nəqliyyatın müxtəlif növlərinin qarşılıqlı əlaqəsi onun ümumi daşınma prosesində sazlanmış və razılaşdırılmış işindən ibarətdir. Bu qarşılıqlı təsir bir çox hüquqi, iqtisadi, texniki, texnoloji, təşkilati və idarəetmə xarakterli şərtlərdən asılıdır.

Sənaye cəhətdən inkişaf etmiş ölkələrdə fraxt idxalın və ixracın (*ölkənin xarici ticarət dövriyyəsi*) dəyərinin 5%-ni, inkişaf etmiş ölkələrdə 10%-ni təşkil edir. Bu münasibətə ixrac qiymətlərinin dinamikası və daşınmanın dəyəri də təsir edir.

Yük və sərnişin daşınmalarının əsas kütləsi iki və daha çox nəqliyyat növünün iştirakı ilə həyata keçirilir. Məsələn, limanlara gələn yüklərin 80%-i dəmir yoluna (*çay nəqliyyatında 50%-i*) ötürülür. Boru kəmərləri ilə daxil olan neftin, praktiki olaraq, hamısı digər nəqliyyat növlərinə ötürülür, avtomobil isə bütün nəqliyyat növləri ilə əlaqəlidir, onun çəkisi xüsusilə sərnişin daşınmalarında böyükdür.

Dünya yük və sərnişin daşınmaları coğrafi cəhətdən olduqca qeyri-bərabər paylanmışdır. İnkişaf etmiş ölkələrin nəqliyyatı, bir qayda olaraq, yüksək texniki səviyyəlilik və müxtəlif yarımsahələrinin qarşılıqlı əlaqəliyi ilə seçilir. Dünya nəqliyyat şəbəkəsinin ümumi uzunluğunun, dünya yük dövriyyəsi və sərnişin dövriyyəsinin 70-80%-i bu ölkələrin payına düşür. Nəqliyyat şəbəkəsi ilə təminat, onun sıxlığı, əhalinin hərəkəti də bu ölkələrdə daha yüksəkdir.

Sənayecə inkişaf etmiş ölkələrdə hər bir sakinə 20-25 ton yük, dünya üzrə isə bütövlükdə 7 ton yük daşınır. Hər bir ton məkanca böyük yerdəyişmə - 900 ton/km yol tələb edir.

Avtomobillər, gəmilər, qatarlar və hava gəmiləri də daxil olan nəqliyyat sektoru mühüm enerji tutumlu sahə kimi də fərqlənir. Sektor ümumi enerji istehlakının orta hesabla 20%-ni mənimsəyir. Bu isə, praktiki olaraq, sutkada 44-45 milyon barel neftə ekvivalentdir. Dünyanın bütün yollarında nəqliyyat vasitələrinin 3%-ni hərəkətə gətirmək üçün bir milyon barel/sut neft ekvivalenti tələb olunur. Proqnoz hesablamalar göstərir ki, nəqliyyat sahəsi daha dinamik inkişaf edən sektorlardan biri olacaq və 2030-cu ildə onun enerji istehlak tələbləri 40% artaraq sutkada 62 milyon barel neft ekvivalentinə bərabər olacaqdır. Nəqliyyat sahəsi özünün enerji tələbatını həmin dövr ərzində 94% neft, 5% bioyanacaq və 1% təbii qaz hesabına ödəyəcəkdir.

Regional nəqliyyat sistemləri arasında yolların ümumi uzunluğuna görə dünya nəqliyyat şəbəkəsinin 30%-nə qədərinin cəmləşdiyi Şimali Amerika liderlik edir. Bu region yol şəbəkəsinin sıxlığı və hərəkətin tezliyinə görə seçilir. Dünya nəqliyyat şəbəkəsinin 10%-nə sahib MDB ölkələrinin vahid sistemi ümumi yük dövriyyəsi üzrə birinci yeri tutur. Dünyanın qalan regionlari - Afrika, Asiya və Latın Amerikasının inkişaf etməkdə olan ölkələrində nəqliyyat sistemləri formalaşma mərhələsindədirlər.

Nəqliyyat sferasında logistikanın əhəmiyyəti danılmazdır. Geniş mənada logistika (*latınca* - logos - *idrak, ağıl*) material təminatının bütün sferalarını (*qablaşdırma, hazır məhsul, istehlakçıya çatdırma və s.*) əhatə edən nəqliyyat, təchizat, ehtiyatlara nəzarət, informasiyaların işlənməsi sahəsində planlaşdırmanın tərkib hissəsi olan təlimdir. Logistik xərclər, logistik zəncir, logistik əməliyyat, informasiya axını logistikanın əsas tədqiqat obyektlərindəndir. Nəqliyyat logistikası isə daşınmaların optimal marşrut üzrə həyata keçirilməsinin təşkilatı sistemini ifadə edir. Bu fuksionallığı isə idarəetmə sistemi, qiymət siyasəti, sürücülər, yükləyicilər, nəqliyyat vasitələrinin, yol və marşrutların təsnifatlılığı, istehsal və istehlak xidmətlərinin məcmusu, bina və qurğular kimi subyekt və elemetləri əhatə edir. Nəqliyyat-logistik sistemin dəqiq və səmərəli fəaliyyəti üçün müvafiq infrastruktur olması zəruridir. Əmtəələrin yerdəyişməsi, qorunması, anbar təsərrüfatı və bütün bunları müşayiət edən informasiya axınları müvafiq texniki vasitələr tələb edir. Bütün bu vasitələr logistik infrastrukturu təyin edir, onların qarşılıqlı əlaqəsi isə müvafiq logistik sistemi formalaşdırır.

Logistik səmərəlilik indeksi (*Logistics performance index, LPI*) DB tərəfindən Finlandiyanın Turku Universiteti ilə birlikdə müxtəlif ölkələrdə logistikanın inkişaf

səviyyəsini qiymətləndirmək üçün hazırlanmış metodikadır. Konkret ölkədə logistikanın inkişafını, ticarət-logistik mühiti qiymətləndirmək və onun reytinqini təyin etmək üçün DB-nin ekspertləri tərəfindən 6 mühüm meyar götürülür. Buraya gömrük və sərhəd qeydiyyatının effektivliyi (*customs*), ticarət və nəqliyyat infrastrukturunun keyfiyyəti (*infrastructure*), rəqabətqabiliyyətli qiymətlərlə beynəlxalq daşınmalın təşkilinin sadələyi (*international shipments*), logistik xidmətlərin keyfiyyət və səriştəliyi (*logistics quality and competence*), daşınan yükləri izləmə imkanı (*tracking & tracing*) və yüklərin vaxtında çatdırılması (*timeliness*) daxildir. Həmin bu meyarlar əsasında inteqral (*bütöv, vahid*) "Logistik səmərəlilik indeksi" hazırlanır və ölkələrin reytinqi formasında dərc olunur. Hesabatlar iki ildən bir hazırlanır və indiyədək müvafiq reytinqlər 2007, 2010, 2012 və 2014-cü illər üzrə dərc edilmişdir.

İndeks beynəlxalq, milli və ya regional logistik operatorlar, yüklərin daşınmasını avtomobil, dəmir yolu, su və hava nəqliyyatı növləri vasitəsi ilə təşkil edən və müvafiq funksiyaları yerinə yetirən nəqliyyat-ekspeditor təşkilatları, anbar operatorları tərəfindən aparılan sorğular əsasında müəyyən edilir. Sorğularda əsas respondentlər qrupununu yüklərin ekspedisiyasını aparan və dünya üzrə bir sıra nəhəng logistika şirkətlərinin peşəkarları təşkil edirlər. Bu isə onu göstərir ki, indeks daha çox sənaye mallarının daşınması sahəsindəki işləri xarakterizə edir. Belə ki, nəqliyyat-ekspedisiya şirkətləri xammalın (*neft, dir filizi, daş kömür*) daşınması ilə geniş məşğul olmurlar.

DB-nin tədqiqatçıları özləri etiraf edirlər ki, onlar tərəfindən hazırlanmış logistika səmərəliliyini - LPİ-ni müəyyən edən metodika xalis elmi deyildir. Başqa sözlə, metodika elmi əsaslandırılmamışdır. Belə ki, tədqiqatlar üstün olaraq beynəlxalq (*trans-milli*) şirkətlərin sorğu nəticələrənə əsaslanır və burada logistik xidmət istehlakçıları ilə bağlı sorğular keçirilmir. Tədqiqatçılar hesabatlarında göstərirlər ki, LPİ indeksi əsasında qiymətləndirmə dünya özəl sektoru vasitəsi ilə ölkələrin bir-biri ilə ticarət əməliyyatları arasında bağlılığının baxış müstəvisində aparılır. Bu zaman hesabatlarda ayrıca götürülmüş ölkə səviyyəsində baş verən dəyişikliklər dolğun əksini tapa bilmir. Məsələn, ayrı-ayrı ölkələrin dənizə çıxışı, ərazi ölçüləri və s. bu kimi xüsusiyyətləri nəzərə alınmır. Bundan başqa, bir sıra ölkərdə logistika ilə bağlı müvafiq təyinatlı statistika aparılmır. Buna görə də müvafiq qiymətləndirmə logistik sahəsinin hərtərəfli tədqiqini əvəz etmir, onu tamalayır. Tədqiqatçılar göstərirlər ki, LPİ indeksi logistik inkişafdan geri qalanları və ondan irəli çıxanları müəyyən etməyə imkan verir.

Logistikanın inkişafı ilə bağlı DB tərəfindən təqdim edilən metodologiya ilə yanaşı bu sahədə digər işləmələr də mövcuddur. Bu sırada Böyük Britaniyanın "Transport Intelligence" tədqiqat institutu tərəfindən iqtisadiyyatları inkişaf etməkdə olan ölkələrdə logistika bazarının inkişafı üzrə hazırlanan "Təşəkkül tapan Bazar Logistik Səmərəlilik İndeksi" (*Emerging Market Logistics Index*) daha çox diqqəti cəlb edir. Bu indeks logistik bazarın xarici investorlar üçün cəlbedicilik dərəcəsini əks etdirir. İndeks üç aralıq göstərici - bazarın ölçüləri və dinamikası, bazar uyğunluğu və nəqliyyat kommunikasiyalarının inkişafı əsasında hesablanır.

Nəqliyyatın ayrı-ayrı növlərinin əhəmiyyətinə nəzər saldıqda görərik ki, burada hər bir subyektin özünə məxsus yeri vardır. Bu şəbəkədə 1 ton yükün miqdarına görə avtomobil nəqliyyatı birinci yerdə dayanir. İkinci yerdə - dəmiryol nəqliyyatı, üçüncü yerdə dəniz, dördüncü yerdə boru kəmərləri, beşinci yerdə daxili çay, altıncı yerdə aviasiya nəqliyyatı durur. Yük dövriyyəsinə görə 60%-lik payla birinci yeri dəniz nəqliyyatı tutur. Dəniz nəqliyyatı, həmçinin, yük dövriyyəsində məsafə uzaqlığı və gəmilərin böyük tutumu göstəriciləri ilə də fərqlənir ki, bu da bütövlükdə dəmiryol nəqliyyatından istifadədən iki dəfə az olan nəqliyyat xərclərini aşağı salır.

Nəqliyyat xərcləri *(transport costs*) nəqliyyat vasitələrinin köməyi ilə yüklərin, sərnişinlərin daşınması ilə bağlı xərclərdir.

Avtomobil nəqliyyatı (*automobile transport*) - hərəkət mənbəyi daxiliyanma mühərriki, hərəkətin isə təkərlərin köməyi ilə sərt örtüklü konstruksiya - yollarda (*həmçinin, yolsuz ərazidə*) həyata keçirilən nəqliyyat növüdür. Daşınan yüklərin növləri və miqdarı üzrə minik, yük, özüboşaldan, furqon avtomobilləri və s. seçilir. Avtomobil nəqliyyatı sərnişin (*dünya sərnişin dövriyyəsinin 80%-ni təmin edir*), həmçinin, yüklərin qısa və orta məsafələrə daşınmalarında qabaqcıl rol oynayır. Bununla belə, yüklərin uzaq məsafələrə, xüsusən də dövlətlərarası daşınmasında avtomobil nəqliyyatı xərclər baxımdan əhəmiyyəti artırır.

Magistral daşıma xərcləri (*line-haul costs*) malların avtomobil nəqliyyatı ilə uzaq məsafələrə (*əsasən beynəlxalq daşımalarda*) daşınması, yüklərin marşurut boyunca yerdəyişməsi xərcləridir.

Sərnişin daşımalarında minik avtomobilləri liderlik edirlər. Onların sərnişin daşınmasında xüsusi çəkisi hazırda 60%-dən yuxarıdır. Nəqliyyatın digər növləri arasında o, yollar şəbəkəsinin (*24 milyon km və ya dünya nəqliyyat xəttinin 70%-i*) uzunluğuna görə liderdir. Avtomobil nəqliyyatı xüsusilə qısa və orta məsafələrə böyük olmayan daşınmalarda ən mobil və ən rahat nəqliyyatdır. Daha çox qisa məsafələrə (*orta hesabla 25 km*) daşımalar üçün istifadə edilən avtomobil nəqliyyatı insanların yerdəyişməsində mühüm rol oynayır. Eyni zamanda o, ən bahalı və qeyri-ekoloji nəqliyyatdır. bu nəqliyyat növünün rahatlığı, ilk növbədə, ondan ibarətdir ki, avtomobil praktiki olaraq xüsusi yükdoldurma-yükboşaltma qurğuları tələb etmir və mobilliyi sayəsində yükləri bilavasitə sifarişçinin "qapısına" çatdırmağa imkan verir. XX əsrin əvvəllərindən inkişaf edən avtomobil nəqliyyatı sahəsində yük dövriyyəsi hər 15 ildən bir iki dəfə artır.

Dəmiryol nəqliyyatı (*ingiliscə* - trains - *qatarlar*) relslər üzərində hərəkəti təmin edən nəqliyyat növü və yol təsərrüfatıdır. Dartıcı qüvvəsinə görə: teplovoz, elektrovoz, müxtəlif tip yüklər üçün oriyentasiya olunan hərəkət qatarlarına görə (*sərnişin vaqonu, platforma, sisterna və s.*) fərqləndirilirlər. Dəmiryol nəqliyyatının başlıca funksiyası - kütləvi sənaye və kənd təsərrüfatı yüklərinin (*kömür, polad, taxıl və s.)* böyük məsafələrə daşınmasıdır. Fərqləndirici xüsusiyyəti, havadan və ilin fəslindən asılı olmayaraq, hərəkətin müntəzəmliyi, ekoloji təmizliyidir. Eyni zamanda, bu nəqliyyat

sferasında yüklərin daşınması üçün daha az insan resurslarından istifadə edilir. Cəmi iki nəfər kifayətdir ki, qatarları istənilən məntəqəyə çatdırsın. Bu sferada daşınmalarla məşğul olan bir nəfərə düşən daşınan yükün miqdarı avtomobil və ya gəmi nəqliyyatı ilə müqayisədə ölçüyə gəlməyəcək dərəcədə çoxdur (*ortatonnajli gəminin ekipaji 10 nəfərdən artıqdır, adətən 12-15 nəfər olur*). Bununla belə, dəmiryol nəqliyyatinda da çətinliklər mövcuddur. Belə ki, bu sistemdə xüsusi yolların tikintisinin zəruri olması, onların hazırlanması və tikintisinin baha başa gəlməsi, yükdoldurma-yükboşaltma, xidmət, təmir işləri üçün xüsusi bina və qurğuların tikilməsi müvafiq çətinlikləri təzahür etdirir. Dəmiryol nəqliyyatı yük dövriyyəsinə görə dəniz nəqliyyatından, sərnişin dövriyyəsinə görə isə avtomobil nəqliyyatından sonra ikinci yeridədir. Yollar şəbəkəsinin ümumi uzunluğuna görə yalnız avtomobil yollarından deyil, həm də hava nəqliyyatından geri qalır.

Dünya dəmiryol şəbəkəsi bütövlükdə XX əsrin əvvəlində qurulmuşdur və xətlərin hazırda uzunluğu 1,3 milyon km təşkil edir. Lakin onun yerləşdirilməsi qeyri-bərabərdir. Dəmir yollarının dünyanın 140 ölkəsində olmasına baxmayaraq, onların yarısından çoxu "ölkələrin ilk onluğu"nun: ABŞ, Rusiya, Kanada, Hindistan, ÇXR, Avstraliya, Argentina, Fransa, AFR və Braziliyanın üzərinə düşür. Xüsusilə də, şəbəkənin sıxlığına görə Avropa ölkələri seçilir. Şimali Amerika və Qərbi Avropa ölkələri dəmir yolları ilə həddən artıq dolmuş, bəzi Afrika və Asiya ölkələri isə ümumiyyətlə, dəmir yollarına malik deyildirlər. Bununla yanaşı, dəmir yolları şəbəkəsinin az və ya heç olmadığı nəhəng məkanlar da mövcuddur. İsveçrədə dəmir yollarının 100%-ə qədəri, İsveçdə 65%-i, İtaliyada, Avstriyada və İspaniyada 50%-dən çoxu, Rusiyada 43%-i elektrikləşdirilmişdir. Dünyada yük dövriyyəsinə görə lider mövqeləri ABŞ, ÇXR və Rusiya, sərnişin dövriyyəsinə görə Yaponiya - 395 milyard sərnişin/km, ÇXR - 354 milyard sərnişin/km, Hindistan - 320 milyard sərnişin/km, Rusiya - 192 milyard sərnişin/km, AFR - 60 milyard sərnişin/km tutur.

Ölkə və regionları arasında dəmiryol nəqliyyatında şəbəkənin uzunluğu, sıxlığı, yolların elektrikləşdirilməsi dərəcəsi və s. bu kimi göstəriciləri üzrə böyük fərqlər mövcuddur. Hazırda bütövlükdə dünyada, xüsusilə də, inkişaf etmiş ölkələrdə dəmir yolları şəbəkəsinin uzunluğunun azaldılması prosesləri gedir. Onların yenidən qurulması isə daha çox ayrı-ayrı inkişaf etməkdə olan ölkələrdə, xüsusən də, Rusiya, ÇXR və digərlərində aparılır.

Su nəqliyyatı (*water transport*) suyun səthi ilə (*çay, dəniz, qarışıq*) üzən nəqliyyat növlərindən istifadə edir. Bunlar enerji mənbəyinə görə fərqlənir: insanların əzələ qüvvəsi (*qalera - çoxavarlı gəmi, qayıq*), külək (*yelkənli gəmi*), daxiliyanma mühərriki (*buxar gəmisi - paroxod və s.*), parçalanmış atom enerjisi (*atom gəmisi - atomoxod*). Su nəqliyyatının əsas obyekti gəmidir. Gəmi yük və sərnişin daşımaq, təsərrüfat, elmi-tədqiqat, habelə hərbi məqsədlər üçün quraşdırılmış üzən qurğudur. Təyinatına görə gəmilər nəqliyyat, ov, sənaye-təsərrüfat, hərbi, elmi-tədqiqat, xidmət və s. növlərə bölünürlər. Onlar, həmçinin, üzmə sahələrinə, üzmə səviyyəsinə, hərəkətverici

qüvvəyə, yükqaldırma qabliyyətinə, tutumuna və s. əlamətlərinə görə qruplara ayrılır. Gəmilər yüklərin növləri və yerinə yetirdikləri vəzifələr üzrə ixtisaslaşaraq sərnişin gəmisi, tanker, quru yük gəmisi, konyetner daşıyan gəmi kateqoriyaları üzrə təsnifatlandırılırlar. Müxtəlif tip və siniflərə məxsus gəmilərdən istifadə istənilən yükləri istənilən məsafələrə daşımağa imkan verir. Burada xüsusilə çay-dəniz tipli gəmiləri qeyd olunur. Bu gəmilərin rahatlığı onların çay gəmilərindən dəniz gəmilərinə yüklənmə əməliyyatlarını aparmaqdan yan keçməyə imkan yaratması, nöqsanları isə çay/dəniz əvəzlənməsi zamanı kapitanları dəyişmək zərurəti (*çox az dəniz kapitanının çay kapitanı diplomu olur və əksinə*) və dəniz gəmiçiliyinin qanunlarına görə çay-dəniz tipli gəmilər dənizdə üzərkən sahildən 20 mil artıq uzaqlaşa bilməməsi ilə əlaqədardır.

Müasir dəniz nəqliyyatında tankerlərin, quru yük daşıyan gəmilərin rolu böyükdür. Tanker (*ingiliscə* - tanker - tank - *qutu, çən, sistern*) rezervuarlarla təchiz olunmuş maye, yarımmaye və səpələnən yükləri (*neft, benzin, spirt, sürtkü və qida yağları, şərab, maye qaz, yeyinti məhsulları və s.*) daşıyan iri ixtisaslaşmış gəmilərdir. Tankerlərin yükgötürmə qabliyyəti 600 min tona, subasımı isə 590 min tona qədər olur. Yük gəmilərinə (*dry-cargo-ship*) isə konteyner, treyler, lixterovoz, rolker, refrijerator və s. daxildir. Dəniz nəqliyyatında, həmçinin, yük-sərnişin, turist, texnika təyinatlı və s. gəmilərdən də istifadə edilir. Yük gəmiləri quruluşuna, texniki göstəricilərinə, yük-saxlama rejiminə, funksiyalarına və digər bu kimi əlamətlərinə görə də qruplaşdırılır. Açılıb bağlanan qabaq və arxa tərəfləri olan "Ro-Ro" (*ingiliscə rokler* - roll - *diyirlənən, Amerika təyinatında* - "*Ro-Ro*") təkər üzərində olan texnikalar (*avtomobillər, qatarlar*) üçün nəzərdə tutulan gəmilər dəmiryol qatarlarının və avtomobil karvanlarının dəniz daşınmasını təmin edirlər. Əsas rahatlıq ondan ibarətdir ki, yükdoldurma-yükboşaltma vaxtı minimuma endirilir. Avtomobillər və qatarlar özləri gəmiyə daxil olurlar. Bundan başqa, su nəqliyyatında atom buzqıran gəmiləri, qanadlı sualtı gəmilər, hava yastıqlı gəmilər, qabsız-tökülən yüklərin daşınması üçün gəmilər (*balkerlər*), yükləmə-boşaltma üsulu maili olan gəmilər (*rolkerlər*), lixterlər (*yastı dibi olan yelkənli gəmilər*), quru və maye yük daşıyan digər gəmilərdən geniş istifadə olunur.

Gəmiçilik dünya sənayesinin ən beynəlmiləlləşmiş sahəsi və ən təhlükəli fəaliyyət növlərindəndir. Gəmiçilik (*ingiliscə* - navigation - *naviqasiya, gəmiçilik*) sərnişin və yüklərin gəmilərlə daşınması üçün su yollarından istifadə edilən nəqliyyat növüdür. Bu sferada dəniz və çay gəmiçiliyi fərqləndirilir. Ən iri gəmi sahibləri kimi ÇXR və Koreya Respublikası çıxış edirlər. Su nəqliyyatında donanmanın kimə məxsus olması da dəyərləndirilir. Bunu müəyyən edən əsas təyinatlar olaraq kapital üzrə və qeydiyyat bayraqları üzrə göstəricilər çıxış edirlər. Təhkimli bayraq ölkələrinə (*Liberiya, Panama, Bermud adalari*) donanmanın 28%-i düşür. Onların arasında ixtisaslaşma mövcuddur: tanker donanması üzrə - Liberiya və Panama, konteyner donanması üzrə isə - Panama ixtisaslaşmışdır. Üstünlük Liberiya, Baham adaları və Panama şirkətlərinə verilir. Pahat bayraqlar altında ABŞ donanmasının 77%-i, Yaponiya donanmasının isə 60%-i hərəkət edir. Bu daha ucuz işçi qüvvəsindən istifadə etməklə daşımaların dəyərini aşağı salmaq

cəhdindən, daşıyıcı ölkələr tərəfindən daşınan məhsullara böyük vergi güzəştlərinin təqdim edilməsi imkanlarından irəli gəlir. Bununla belə, bu təcrübə başqa ölkələr üçün rəqabət narahatlıqları yaradır və azad dəniz zonalarının yaranması (*Böyük Britaniyada Men adaları*) ilə müşayiət olunur.

Dəniz nəqliyyatinin logistik mərkəzi kimi limanlar çıxış edirlər. Liman (*portus*) dənizin, gölün və çayın sahilində yerləşən, dalğalardan təbii və süni formada müdafiə olunan, gəmilərin dayandığı, xidmət göstərildiyi, yükləmə-boşaltma əməliyyatları aparıldığı, xüsusi texniki qurğularla təmin edilmiş su-quru ərazisidir. Onlar dəniz, xidmətedici və çay limanlarına bölünür, mülki, hərbi, sərnişin ümumi və ixtisaslaşdırılmış limanlar kimi fərqləndirilirlər. Limanların yük, yük buraxma və gəmi dövriyyələrinə görə də təsnifatlandırılırlar. Limanın yük dövriyyəsi il ərzində hər iki istiqamətdə limandan keçən yüklərin miqdarını, yükburaxma qabliyyəti il ərzində hər iki istiqamətdə limana daxil olduqdan sonra xüsusi rejimlərdə saxlanılan, emal edilən və buraxılan yüklərin miqdarını və limanın gəmi dövriyyəsi il ərzində hər iki istiqamətdə limandan keçən gəmilərin sayını ifadə edir. Sərnişin limanlarında yük əməliyyatları ikinci dərəcəli əhəmiyyət kəsb edir. Dəniz limanlarının xüsusi növü dəniz stansiyasıdır. Burada gəmilər yanacaq, su və ərzaqla təchiz edilir. Balıqçılıq limanları spesifik xarakter daşıyır və burada, həmçinin, balıqçılıq zavodları və sexləri fəaliyyət göstərir. Dəniz limanlarında nəqliyyatın əsas növləri - dəmiryolu, avtomobil, su və boru kəməri nəqliyyatı qovuşur və yüklər birindən digərinə ötürülür. Dünyada 200-dən artiq liman vardır ki, onlar arasında Rotterdam, Marsel, Antverpen, Osaka, Şanxay, Sinqapur ən iriləri hesab olunurlar. Dünya limanlarının 63%-i inkişaf etmiş sənaye ölkələrində cəmləşmişdir.

Müasir zamanda hava nəqliyyatında da böyük yüksəlişlər davam edir. Hava nəqliyyatı (*air transport*) sərnişinləri, poçt və yüklərin daşınmasını hava yollari ilə həyata keçirən nəqliyyat növü olaraq çıxış edir. Burada sərnişin axını genişlənir, yük dövriyyəsi isə hər 10 ildə iki dəfə artır. İndi yeni genişfuzelajlı təyyarələr - aerobuslar öz bortlarına 300-500 və daha çox sərnişin götürürlər. Hava nəqliyyatına sərnişin daşımada əsas rəqib olaraq dəmiryolu nəqliyyatı çıxış edir. Bununla belə, hava nəqliyyati ilə sərnişin daşımaları dəmiryolu daşımalarına sürətlə yaxınlaşır və yaxın perspektivdə onu ötəcəyi proqnoz olunur. Hazırda yükdaşımada hava nəqliyyatının payı 1% təşkil edir və bu pay hər il genişlənməyə məruz qalır. Hava nəqliyyatı ilə, əsasən, qiymətli və təcili yüklər daşınır. Hava nəqliyyatı aeroportlar vasitəsi ilə təmin olunur. Aeroport, hava limanı (*ingiliscə* - airport - *hava limanı*) aerovağzal kompleksi, aerodrom və s. müvafiq infrastrukturdan ibarət olub hava nəqliyyatı vasitələri ilə sərnişinləri, poçt və yüklərin daşınmasını təmin edən nəqliyyat müəssisəsidir. Dünyanın 14 mindən artıq aeroportundan 400-ü seçilir və sırada ən iriləri qismində Əl-Məktum (*Dubay - BƏƏ*), Xatsfild-Dekson (*Atlanta - ABŞ*), Oxara (*Çikaqo - ABŞ*), Hitrou (*London - Böyük Britaniya*), Xaneda (*Tokio - Yaponiya*), Los-Anjeles (*ABŞ*), Dallas (*ABŞ*), Şarl-de-Qoll (*Paris - Fransa*), n (*AFR*), Honk-Konq (*ÇXR*), Denver (*ABŞ*) və digərləri yer alır. İnkişaf etmiş sənaye ölkələrində dünya üzrə aeroportlan 60%-i cəmləşmişdir.

Boru nəqliyyatı (*pipeline transport*) boru kəmərləri vasitəsi ilə maye, qazvari və bərk materialların müəyyən məsafəyə ötrülməsini təmin edən nəqliyyat növüdür. Boru nəqliyyatı qeyri-adi nəqliyyat növü hesab edilir. Belə ki, bu nəqliyyat sistemində nəqliyyat vasitəsi tələb olunmur. Burada infrastruktur özü nəqliyyat vasitəsi rolunu həyata keçirir. Boru nəqliyyatı dəmiryolu və su nəqliyyatından daha ucuzdur və böyük saylı personal tələb etmir. Burada əsas nəql yükü tipi qismində maye (*neft və neft məhsulları*) və qazquruluşlu (*təbii qaz*) xammal və materiallar çıxış edir. Boru nəqliyyatı bu məhsulları böyük məsafələrə qısa xətlər vasitəsi ilə və itkisiz çatdırırlar. Borular torpağın altında, üstündə və estakadalarda quraşdırılır, nəqletmə prosesi nasos və kompresorların köməyi ilə reallaşdırılır. Buru nəqliyyatının gündəlik növü su və kanalizasiya xətləridir. Bundan başqa, boru nəqliyyatının qalaq yüklərinin su ilə qarışığı daşıyan ekspermental, ədədi yüklərin pnevmatik poçt və məişət tullantıları nəql edən növləri də mövcuddur.

Aşağıda dünya nəqliyyatınının 1950-2010-cu illərdə yük və sərnişin dövriyyəsi üzrə strukturunu əks etdirən cədvəl verilmişdir:

| **Yük dövriyyəsinin dəyişməsi** | | | | | | |
|---|---|---|---|---|---|---|
| **Nəqliyyat növləri** | **1950** | **1970** | **1980** | **1990** | **2000** | **2010** |
| Dəmir yolu nəqliyyatı | 30,8 | 18,9 | 14,5 | 15 | 15 | 15,1 |
| Avtomobil nəqliyyatı | 7,5 | 8 | 6,9 | 9,3 | 9,4 | 10,3 |
| Daxili su nəqliyyatı | 5,6 | 3 | 2,5 | 2,7 | 2,7 | 2,8 |
| Dəniz nəqliyyatı | 51,8 | 62,7 | 67,5 | 61,1 | 60,4 | 58,8 |
| Neft boru kəməri | 3,1 | 5 | 6 | 8,2 | 8,6 | 8,8 |
| Qaz kəməri | 1,1 | 2,3 | 2,5 | 3,6 | 3,8 | 4,1 |
| Hava nəqliyyatı | 0,1 | 0,1 | 0,1 | 0,1 | 0,1 | 0,1 |
| **Sərnişin dövriyyəsinin dəyişməsi** | | | | | | |
| Dəmir yolu nəqliyyatı | 25,6 | 15,2 | 11,8 | 10,2 | 10,2 | 10 |
| Avtomobil nəqliyyatı | 71,8 | 77,3 | 79 | 79,9 | 79 | 79 |
| Daxili su yolu nəqliyyatı | 0,6 | 0,5 | 0,4 | 0,4 | 0,4 | 0,4 |
| Dəniz nəqliyyatı | 0,8 | 0,3 | 0,3 | 0,3 | 0,3 | 0,3 |
| Hava nəqliyyatı | 1,2 | 6,7 | 8,5 | 9,2 | 10,1 | 10,3 |

**Cədvəl 11. Dünya nəqliyyatının 1950-2010-cu illərdə yük və sərnişin dövriyyəsi üzrə strukturu,** (*faizlə*)

Nəqliyyatın bu və ya digər əsas növləri ilə yanaşı digər klassik, əlahiddə və perspektiv növləri də fərqləndirilir ki, buraya da heyvanların belində daşıma, araba ilə daşıma, havada üzmə *(aeronavtika*), pnevmatik nəqliyyat, lift nəqliyyatı, eskalator, elavator, maqnitli sahə ilə hərəkət edən qatar (*maglev*), fərdi avtomat nəqliyyat, simli nəqliyyat və s. daxil edilir.

Heyvanlar üzərində daşıma nəqliyyatı yük heyvanlarını yəhərləməklə onların belində daşımanı təmin edən nəqliyyat növüdür. Bu nəqliyyat növündən yolsuz məkanlarda, avtomobil və arabaların keçə bilmədiyi və ya helikopterin enməyə çətinlik çəkdiyi sıx meşəli, dağ, bataqlıq ərazilərdən keçiddə istifadə olunur.

Araba nəqliyyatı (*cartage*) ən qədim nəqliyyat vasitələrindən olaraq müvafiq imkanlı heyvanların (*at, uzun qulaq, öküz, fil, dəvə, maral, lama, it və s.*) tək və çüt arabaya qaşulması, onların gücündən istifadəsi ilə həyata keçirilir. Araba ilə daşınma nəqliyyat növü XIX əsrin sonları və XX əsrin əvvələrinə kimi quruda əsas nəqliyyat növü olmuş, sonralar öz yerini dəmiryolu və avtomobil nəqliyyatina vermişdir.

Havada üzmə, aeronavtika (*yunanca* - aeronavtika - *havada üzən*) yer atmosferində, əsasən, havadan yüngül uçan aparatlarla (*hava şari, dirjabl*) idarə olunan və olunmayan nəqliyyat növüdür. Müasir dövrdə aviasiya və hava nəqliyyatı, faktiki olaraq, sinonim kimi işlənir. Bu ondan irəli gəlir ki, hazırda hava daşımaları, istisna olaraq, havadan ağır gəmilər vasitəsi ilə həyata keçirilir. İlk hava şarı 1709-cu ildə havaya buraxılmış və idərə edilməyən olunmuşdur. Sonralar aerostat (*yunanca* - aer - *hava və* statos - *dayanan, hərəkətsiz*) adlandırılan hava şarları ilk dəfə 1783-cü ildə Fransada Monqolfye qardaşları tərəfindən havaya qaldırılmışdır. Dirjabllar (*fransızca* - dirigeable - *idarə olunan*) ilk dəfə 1899-cu ildə parisdə havaya buraxılmış və idarəedilən uşan aparat kimi fəaliyyət göstərmişlər. İki cahan müharibələri arası dirjabllardan hərbi, mülkü, elmi və idman məqsədləri üçün geniş istifadə olunmuşdur. Dirjabllar müntəzəm olaraq Avropadan Amerikaya sərnişinlər daşımışlar. Dirjablların "qızıl əsr"i 1937-ci ildə alman sərnişin layneri "Hindenburq"un ABŞ-da enmə zamanı yanması ilə sona yetmişdir. XX əsrin sonunda dirjabllara yenidən maraq artmışdır. Bu, yanacaq qismində istifadə edilən partlayış təhlükəli hidrogen və ya bahalı inert heliumun əvəzinə onların qarışığının tətbiqi ilə baş vermişdir. Dirjabllar hərəkət sürətinə görə təyyarə və helikopterlərdən geri qalsalar da, onlar daha qənaətçildirlər. Hazırda onların əsas tətbiq sahəsi reklam və əyləncə sferası ilə məhdudlaşır.

Pnevmatik nəqliyyat (*yunanca* - πνεῦμα - *nəfəs, əsmə, üfürmə*) qalaq və parçalı formalı yüklərin hava və ya qaz vasitəsi ilə boru kəmərləri şəbəkəsində yerdəyişməsini təmin edən qurğu və sistemlər məcmusu, əsasən, sənayedə müvafiq sənaye nəqliyyatının bir növü olaraq və poçt (*pnevmatik poçt*) işində tətbiqini tapır. Pnevmatik nəqliyyatdan sənayenin bir çox sahələrindəki texnoloji proseslərdə - dağ-mədən, sement, metallurgiya, kimya və s. istifadə olunur. Pnevmatik poçt (*yunanca* - pneumatikós - *havalı*) pnevmatik nəqliyyatın ayrıca növü kimi boru kəmərlərində hava axınlari ilə sənədlərin, kiçik predmetlərin yerdəyişməsini təmin edir. Pnevmatik poçt

rabitə müəssisələrində, kitabxanalarda, banklarda sənədlərin, xəstəxanalarda dərmanların, həmçinin, digər müəsissələrdə detal və alətlərin göndərilməsində tətbiq olunur. İlk dəfə 1853-cü ildə London teleqrafında 100 metrlik məsafəyə təcrübələndirilən pnevmatik poçt hazırda da aktuallığını saxlayır.

Lift nəqliyyatı (*ingiliscə* - lift - *qaldırmaq*) kabinə və ya platformanın sərt istiqamətləndiricilər üzərində şaquli olaraq hərəkətini təmin edən, şaxtada quraşdırılan stansionar qaldırıcının funksiyasına əsaslanır. Bir bina və ya qurğu hüdudlarında insanların və yüklərin daşınması üçün quraşdırılır.

Eskalator (*ingiliscə* - escalator - *ilk mənbə, latınca* - scala - *pilləkən*) insanların bir səviyyədən digər səviyyəyə yerdəyişməsini təmin ediən maili pilləkən formalı qaldırıcı-nəqliyyat maşınıdır. Eskalatorlar, əsasən, metropoliten stansiyalarında, vağzallarda, iri ticarət obyektlərində yeraltı və yerüstü keçidlərdə quraşdırılır.

Elevator (*latinca* - elevator - *qaldirici*) yükləri üfuqi və ya maili istiqamətlərdə daşıyan fasiləsiz hərəkət maşınıdır. Qalaq yüklərin daşınması üçün çalov, detal, kisə, yeşik daşınması üçün rəfli və yedək formaları fərqləndirilir.

Maqlev - maqnit yastıqda qatar (*ingiliscə* - magnetic levitation - *maqnitli levitasiya*) elektromaqnit sahəsinin gücü ilə idarə olunaraq yol səthi üzərində hərəkət edən qatar. Ənənəvi qatarlardan fərqli olaraq, maqlev relslərə toxunmadan hərəkət edir. Monorels nəqliyyatına aid edilən, perspektiv üçün nəzərdə tutulan maqlev təyyarə sürəti ilə (*1000 km-ə qədər*) hərəkət etmək imkanına malikdir.

Fərdi avtomatik nəqliyyat (*personal rapid transit*) şəhər və şəhər ətrafında ayrılmış yol şəbəkəsi ilə avtomatik (*sürücüsüz*) hərəkət edərək sərnişinləri daşıyan nəqliyyat növü. Hazırda dünyada yeganə olaraq Londonun Hitrou aeroportunda 2010-cu ildən fəaliyyət göstərir.

Simli nəqliyyat - hündür dayaqlara döşənmiş sim tir üzərində hərəkət edən yolüstü nəqliyyat sistemi kimi çıxış edir. Simli nəqliyyat Rusiya mühəndisləri tərərəfindən ixtira edilmiş və hazırda ekspremental çərçivədən kənara çıxmamışdır. Sürəti 500 km/saat ölçüsündə proqnoz edilir.

Hazırda dünyada nəqliyyat şəbəkəsi özün keyfiyyət dəyişikliklərinin yeni mərhələsinə qədəm qoymuşdur. Belə ki, müasir mərhələdə elektrikləşdirilmiş dəmir yollarının, sərt örtüklü avtomobil magistrallarının, daha böyük diametrli boru kəmərlərinin uzunluğu artmaqdadır. Bundan başqa, nəqliyyat şəbəkəsinin keyfiyyətinin yüksəldilməsinin digər təzahürü dünya əhəmiyyətli nəqliyyat kommunikasiyalarının təkrarlanmasıdır. Yəni kanallara, digər yollara paralel olaraq boru kəmərlərinin, avtomobil magistrallarının çəkilməsi reallaşdırılmışdır. Buna əyani misal olaraq Süveyş kanalına və Panama kanalına paralel neft kəmərləri yaradılmasını, Cəbəllütariq boğazı boyunca Transpireney avtomobil magistralı və s. çəkilişini göstərmək olar. Bununla belə, konteyner sisteminin (*konteynerlərlə əsas yüklərin 40%-ə qədəri daşinir*) və Transsibir, Yaponiya - ABŞ-ın şərq sahili, Transamerika, Qərbi Avropa - Yaxın və Orta Şərq kimi dəniz nəqliyyatının marşrut dəmiryol vaqonları və avtoqatarlar-konteyner

daşıyanlarla kombinə olunan transkontinental konteyner "körpüləri"nin formalaşması, həmçinin, bir neçə dövlətin ərazisindən keçən yüklərin daşınması üçün nəqliyyat dəhlizlərinin - polimagistralların yaradılması (*Avropada doqquz, Rusiyada iki nəqliyyat dəhlizi ayrılmışdır: Berlin - Varşava - Minsk - Moskva - Nijni Novqorod, Helsinki - Sankt-Peterburq - Moskva - Kiyev - Odessa Novorissoysk və Həştərxana davam etməklə*) da nəqliyyat şəbəkəsinin yeni keyfiyyət yüksəlini təmin etmişdir.

Keyfiyyət effektləri ilə yanaşı, nəqliyyat neqativ təzahürlərdən də azad deyildir. Onun ətraf mühitə fəal mənfi təsiri vardır. Belə ki, istehsal fəaliyyətinin bütün məhsullarının atmosferə ümumi tullantılarında nəqliyyatın payı 40% təşkil edir. Nəqliyyat sferasında digər çətinliklər isə texnoloji tərəqqi və nəqliyyat təhlükəsizliyi ilə bağlıdır ki, bu sahədə də nailiyyətlər üçün çoxmilyardlı investisiyalar dövriyyəyə çıxarılır. Nəqliyyat qəzalarının, xüsusi ilə ölümlə nəticələnən halların aradan qaldırılması, vaxt itikilərin azaldılması, terror hərəkətlərinin tamamilə təcrid olunması, rahatlıq, komfort kimi problemlər bu sferada həllini gözləməkdədir. Bu sferada digər bir hal qlobal, regional və lokal aspektdə nəqliyyatın xüsusi çəkisindən istifadə, sərnişin və yük əmtəə dövriyyəsində eyni olmayan vəziyyətlərlə bağlıdır. Belə gerçəklik çoxsaylı tarixi, coğrafi, iqtisadi, sosial və başqa səbəbləri ehtiva etsə də, ETT-nin nailiyyətləri nəticəsində fərqlərin mülayimləşməsi ilə müşayiət olunur.

Dünya ölkələrinin əksəriyyətində ümumi daxili məhsulun artımı nəqliyyatın əsas fondlarının dəyərinin proporsional artması ilə müşayiət olunur. Ona görə də rasionallıq baxımından ölkə iqtisadiyyatının inkişafı ilə nəqliyyat sahəsi nəqliyyat xidmətlərinə olan tələbin dinamikasına müvafiq dəyişməlidir. Əks-əlaqə də mövcuddur, yəni nəqliyyat iqtisadi inkişafa "mühərrik" kimi olmasa da, iqtisadi fəallığın "təkərləri" kimi təsir edir. Bununla belə, müəyyən edilmişdir ki, yalnız nəqliyyat sahəsinə və ya bütöv infrastruktura qoyulan investisiyalar iqtisadi artıma zəmanət vermir. Uğur isə hər şeydən əvvəl, bütövlükdə dövlətin iqtisadi siyasətindən asılı olur.

## 8.4. Sosial göstəricilər: orta uzunömürlülük, insan inkişafı indeksi, savadlılıq faizi, informasiyalaşma səviyyəsi, korrupsiyanın yayılması və kölgə iqtisadiyyatı

Sosial göstəricilər sosial infrastruktur elementlərini əks etdirərək əhalinin həyat keyfiyyətinin yüksəlişi, rifahı və uzunömürlülük səviyyəsinin artımı, sağlam, aktiv yaradıcı nəslin formalaşması və təkrar istehsalı səciyyələndirir. Sosial göstəricilər həm də geniş çevrədə sosial siyasətin əsas məqsədlərində ifadə olunan insan inkişafı indeksi, savadlılıq faizi, informasiyaşdırma səviyyəsi, korrupsiyanın yayılması və kölgə iqtisadiyyatı kimi indikatorlarla da əks olunur.

Orta uzunömürlülük (*life expectancy*) və ya insanın gözlənilən uzunömürlülüyü ölkələrin əhalisinin ölüm səviyyəsini göstərən ən mühüm demoqrafik göstəricilərdəndir. XIX əsrdən başlayaraq, orta uzunömürlülük dünya üzrə daim artır,

xüsusilə bu, "qocalan" Qərb ölkələrinin timsalında daha qabarıq görünür. XX əsrin əvvəllərindən insanın orta uzunömürlülüyünə uşaq ölümlərinin aradan qaldırılması və təqaüd yaşda olan insanların yaşamasına kömək kimi amillər də təsir edir. Ötən yüzilliyin əvvəllərində orta uzunömürlülük dünya üzrə orta hesabla 30-45 yaşa bərabər idi. Hazırda isə insanın orta uzunömürlülüyü bütün dünya üzrə 67 ilə yüksəlmişdir. Müasir dövrdə maksimal ömür 85 il, minimal isə 25 il standart götürülür. Son zamanlar avropalının yaşayış davamiyyəti 80-nə yüksəlmişdir. ABŞ-da orta uzunömürlülük 77,85 ildir və bu ölkə həmin göstəriciyə görə 48-ci yerdədir. Yaponiya, İspaniya, Norveç və İsveçrə 83, İsveç, İtaliya, Avstraliya, Finlandiya və Fransa 82, Avstriya, Almaniya, Belçika, Böyük Britaniya, Yunanıstan 81, Danimarka 80 yaş olmaqla ən uzun ömürlülər ölkələrdirlər. Rusiyada uzunömürlülüyün səviyyəsi 71 ilə bərabərdir. Ən aşağı uzunömürlülük Cənubi Avrikadakı ölkə Svazilenddədir, burada orta ömür yaşı 32,63 ildir. Ümumiyyətlə, uzunömürlülük doğumla ölüm arasında interval olub, ölüm yaşına bərabərdir.

Müasir elmi ədəbiyyatda orta uzunömürlülük göstəricisi ilə yanaşı daha bir neçə uzunömürlülük anlayışından istifadə olunur:

- ehtimali, median (*latınca* - mediana - *orta*) uzunömürlülük - bir nəslin vəfat etmiş və hazırda yaşayan insanlarının tarazlığına düşən yaşdır, yəni bu yaşa çatmaq ehtimalı bu müddəti ötüb keçmək ehtimalına bərabərdir. O, ölüm qaydasına müvafiq olaraq yaşanan ömrün uzunluğu üzrə hər hansı X yaşa çatmış şəxslərin mediana bölgüsünə bərabərdir;
- normal, modal (*latınca* - modus - *ölçü, usul, tərz*) uzunömürlülük - bir yaşında vəfat edənlər nəzərə alınmadan maksimum ölüm düşən yaşdır. Bu kəmiyyət qoca yaşlarında daha tipik ölüm yaşını, yəni 1 yaşdan yuxarı insanların daha çox ehtimal olunan uzunömürlülüyü göstərir;
- təbii və ya bioloji uzunömürlülük - insana təbiət tərəfindən bəxş edilmiş müddətdir. Adətən, bu kəmiyyət 100-120 il müəyyən edilir;
- maksimum uzunömürlülük - insanın maksimum ölüm yaşı. Bəzi mənbələrə görə bu hədd 150 ili üstələyə bilir.

Uzunömürlülüyə sosial və siyasi kataklizmlər, əhalinin həyat səviyyəsi, cəmiyyətin təbəqələşməsi, xəstəliklər, doğumun aşağı düşməsi və ölümün səviyyəsi təsir edir. Ona görə də insan həyatının bütün sferalarında minimal sarsıntılarla zəngin ölkələrə uzunömürlülüyün yüksək səviyyəsi xasdır. Əksinə, zəif inkişaflı infrastrukturu, aşağı gəlirlilik, həmçinin, yaxşı inkişaf etməmiş səhiyyə sistemi olan ölkələr çox vaxt uzunömürlülüyün aşağı səviyyəsinə malik olurlar. Bir çox ölkələrdə qadınlar 3-5 il, bəzən isə 10 il kişilərdən artıq yaşayır və burada yalnız bəzi, çox aşağı həyat səviyyəsi olan ölkələr istisna təşkil edir. Alimlər hesab edirlər ki, inkişaf etmiş ölkələrdə orta uzunömürlülük yaxın zamanlarda 112 ilə çata bilər. Bunun üçün artıq hər cür şərait yaradılmışdır - müasir səhiyyə və gen mühəndisliyinin ən yeni nailiyyətləri lazım gəldikdə insan orqanizminin zəruri "təmirinə" imkan verəcək.

Sosial göstəricilər sisteminin önündə insan amili dayanır. Bu amil ilk öncə özünün say tərkibi, o cümlədən təbii artım, doğum, ölüm səviyyəsi və digər parametrlərlə xarakterikdir.

Doğum və ölüm göstəriciləri müvafiq əmsallar vasitəsi ilə təhlil edilir:

Təbii artım əmsalı - doğum və ölümün ümumi əmsallarının fərqidir və əhalinin hər 1000 nəfərinə hesablanır.

Doğum səviyyəsi (*birth rate*) və ölüm səviyyəsinin (*death rate*) ümumi əmsalları - təqvim ilində, müvafiq olaraq doğulanların (*diri*) və ölənlərin sayının əhalinin orta illik sayına nisbəti əhalinin hər 1000 nəfərinə hesablanır.

Nikah və boşanmaların ümumi əmsalları - təqvim ilində qeydə alınmış nikah və boşanmaların sayının əhalinin orta illik sayına nisbətdir və ümumi əmsallar kimi onlar da əhalinin hər 1000 nəfərinə hesablanır.

Ölümün səbəbləri üzrə ölüm əmsalı - göstərilən səbəblərdən ölənlərin sayının əhalinin orta illik sayına nisbətidir. Ölümün ümumi əmsallarından fərqli olaraq, o, əhalinin 1000 nəfərinə deyil, 100000 nəfərinə hesablanır.

Körpə ölümünün əmsalı - bir yaşadək ölənlərin sayının həmin ildə doğulanların ümumi sayına nisbətidir və hər 1000 diri doğulana hesablanır.

Sosial statistikanın ən sayılan və dəyərləndirilən göstəriciləri sırasında həyat səviyyəsini ölçü indikatorları mühüm əhəmiyyət kəsb edir.

Həyat səviyyəsi, rifah səviyyəsi (*level of living*) əhalinin zəruri maddi rifah və xidmətlərlə təminatı, onların istehlakının nail olunmuş həddi ilə xarakterikdir. Həyat səviyyəsi kontekstində sosial statistika aşağıdakı vəzifələri qarşıya məqsəd qoyur:

- ➢ əhalinin həyat səviyyəsini hərtərəfli xarakterizə edən göstəricilər sisteminin işlənməsi və təkmilləşdirilməsi;
- ➢ həyat səviyyəsini dinamikasının təhlili;
- ➢ həyat səviyyəsini dəyişkənliyinə təsir edən amillərin, qanunauyğunluğunun müəyyən olunması;
- ➢ əhalinin regionlar, sosial-demoqrafik qruplar üzrə həyat səviyyəsi differensasiyasının təhlili;
- ➢ əhalinin maddi rifah və xidmətlərlə təminatının rasional normalara müvafiqlinin qiymətləndirilməsi.

Tədqiqatlar müəyyənləşdirmişdir ki, müasir insan ona ayrılan həyat müddətində 22 min kilometr məsafə qət edir, 1,5 il avtomobil sükanı arxasında durur, telefonla 2,5 il danışır, 6 ay yuyunur, 41 milyon dəfə gözünü qırpır və 12 il tam olaraq televizorun qarşısında dayanır. Bu müddət ərzində 8 il işə gedir. Hər 10 nəfərdən yalnız 6-sı öz həyat yoldaşı ilə axıra qədər ömür sürmək imkanında olur.

Həyat səviyyəsi və ya rifah səviyyəsi həyat dəyəri və həyat keyfiyyəti kimi sosial indikatorları birləşdirir. Həyat dəyəri (*cost of living*) təsbit olunmuş zaman çərçivəsində rifah və xidmətlər istehlakının pulla qiymətləndirilməsi, həyat keyfiyyəti (*quality of life*) isə ümumi iqtisadi, hüquqi və sosial cəhətləri sintez edərək əhalinin öz həyatının

müxtəlif istehlak və maraqlar nöqteyi-nəzərindən təminatlığı və razılığı kimi anlaşılır. Həyat səviyyəsinin və onun keyfiyyətinin yüksəldilməsi iqtisadi artımla müəyyən edilir.

Həyat səviyyəsi bir sıra spesefik indikatorları birləşdirir və bu sıraya daha çox aşağıdakılar daxil edilir:

- firavanlıq - insan inkişafını hərtərəfli təmin edən nemətlərdən istifadəetmə;
- normal səviyyə - insanın fiziki və intelektual gücünün rasional, elmi əaslandırılmış normalarda bərpa edilməsi;
- əmək qabiliyyətinin və işçi qüvvənin təkrar istehsalının müvafiq kasıblıq həddində saxlanılması;
- yoxsulluq və səfalət - rifah və xidmətlərin minimal bioloji meyarlarında əks olunan insanın həyat qabiliyyətinin saxlanılması.

Həyat keyfiyyəti sosiologiyada, iqtisadiyyatda, siyasətdə, tibbdə və bəzi başqa sahələrdə istifadə olunan, insanların maddi və mədəni tələbatlarının ödənilməsinin keyfiyyətini ifadə edən anlayışdır. Həyatın keyfiyyəti sağlamlığın vəziyyətindən, sosiumdakı kommunikasiyalardan, psixoloji və sosial statusdan, fəaliyyət və seçim azadlığından, stresslərdən və həddən artıq qayğılardan, asudə vaxtın təşkilindən, təhsilin səviyyəsindən, mədəni irsə əlyetərlilikdən, sosial, psixoloji və peşə özünütəsdiqindən, kommunikasiyaların və qarşılıqlı münasibətlərin psixotipi və adekvatlığından asılıdır.

Ayrı-ayrı ölkələrdə həyat keyfiyyəti bir sıra beynəlxalq təşkilatlar tərəfindən hesablanır. Bu hesablamada İqtisadçı Kəşfiyyat Birliyi (*Economist Intelligence Unit*) tərəfindən tərtib edilən Həyat Keyfiyyəti İndeksi (*Quality - of - Life Index*) daha geniş yayılmışdır. Həyat Keyfiyyəti İndeksi subyektiv həyat məmnuniyyəti araşdırmalarının nəticələrini ölkələrin həyat keyfiyyətinin obyektiv determinantları ilə birləşdirən nadir metodologiyaya əsaslanır. Bu məqsədlə əhali arasında müvafiq sorğular keçirilir. Həyat keyfiyyətinin obyektiv determinantları kimi isə aşağıdakılar nəzərdə tutulur:

1. Maddi rifah (*Material wellbeing*): satınalma gücü paritetli adambaşına ÜDM. Mənbə İqtisadçı Kəşfiyyat Birliyidir (*EIU*).

2. Sağlamlıq (*Health*): doğulanda gözlənilən ömür müddəti. Mənbə ABŞ Statistika Bürosudur (*US Census Bureau*).

3. Siyasi stabillik və təhlükəsizlik (*Political stability and security*): siyasi stabillik və təhlükəsizlik reytinqi. Mənbə İqtisadçı Kəşfiyyat Birliyidir (*EIU*).

4. Ailə həyatı (*Family life*): Boşanmaların səviyyəsi (*hər 1000 nəfərə*). 5 ballıq sistemdə indeksə çevrilir. Mənbə BMT və Avromonitordur (*UN, Euromonitor*).

5. İcma həyatı (*Community life*): ölkədə ya dini xidmətlər, ya da həmkarlar təşkilatına üzvlük yüksək olarsa, 1 bal, əks təqdirdə, 0 bal verilir. Mənbə Beynəlxalq Əmək Təşkilatı və Dünya Dəyərlər Araşdırmasıdır (*ILO, World Values Survey*).

6. İqlim və coğrafiya (*Climate and geography*): isti və soyuq iqlimi fərqləndirmək üçün en dairəsi. Mənbə ABŞ Mərkəzi Kəşfiyyat Agentliyi (*CIA, World Factbook*).

7. İş təminatı (*Job security*): işsizlik səviyyəsi. Mənbə İqtisadçı Kəşfiyyat Birliyidir (*EIU*).

8. Siyasi azadlıq (*Political freedom*): siyasi və mülki azadlıqların orta qiyməti. 1 bal (*tamamilə azad*), 7 bal (*qeyri-azad*). Mənbə Azadlıq Evidir (*Freedom House*).

9. Gender bərabərliyi (*Gender equality*). Kişi və qadının orta məvaciblərinin nisbətini hesablamaqla ölçülür. Mənbə BMT İnkişaf Proqramı İnsan İnkişafı Hesabatıdır (*UNDP HDR*).

Müasir iqtisadi hesablamalarda ölkələrdə əhali gəlirləri konsentrasiyasından da istifadə olunur. Belə hesablamalarda məşhur İtalya iqtisadçısı, statistiki və demoqrafı Korrado Cinninin (*1884-1965*) adı ilə bağlı əmsal göstərici "Cinni əmsalı" daha çox dövriyyə edilir. Cinni əmsalı - indeksi (*Gini index*) ölkədə ailə gəlirlərinin bölgüsündəki bərabərsizliyin dərəcəsini təyin edir. Bu əmsal əsasında Amerika riyaziyyatçısı və iqtisadçısı Otto Maks Lorens (*1876-1959*) əhalinin sayının və bu saya uyğun gələn gəlirlərin kumulyativ bölgüsünun "Lorens əyrisi" (*Lorenz Curve*) adlanan qrafik illiustrasiyasını işləmişdir. əsasında işlənmişdir. Lorens əyrisi ailələr üzrə faktiki gəlir bölgüsünü bərabər bölgüdən ayırma təhlilində istifadə edilir. Ondan, həmçinin, iqtisadiyyatda məcmu gəlirlərin bölgüsünün təsvir edilməsi üçün də istifadə olunur. Lorens əyrisi qrafikində əhalinin əldə etdiyi gəlirlərin cəm halında faizi absis oxu üzərində, gəlirlərin cəm halında faizi isə ordinat oxu üzərində qurulur. Gəlirlərin qeyri-bərabərlik dərəcəsi ideal bərabərliyi işarə edən xətlə (*AB*) Lorens əyrisi arasında sahə ilə müəyyən olunur. Lorens əyrisi bərabər bölgü xəttindən nə qədər uzaqdırsa, gəlirlərin differensiasiyası bir o qədər çox olacaqdır. Əgər gəlirlər bərabər bölüşdürülərsə, bu zaman Lorens əyrisi düz xətt forması alır. Lorens əyrisi müxtəlif ölkələrdə və ya müxtəlif regionlarda müxtəlif dövrlər ərzində gəlirlərin bölgüsünün müqayisə edilməsi üçün istifadə oluna bilər. Bundan irəli gələrək "Cinni əmsalı", "Lorens əyrisi" (*S*) və ideal bərabərlik xətti ilə məhdudlaşan sahənin düz ideal bərabərlikdən aşağı olan (*SABC*) ümumi sahəyə nisbəti ilə müəyyən edilir və 0-1 intervalında gəlirlərin faktiki bölgüsünü mütləq bərabərlik və qeyri-bərabərlik bölgüsündən kənarlaşması göstəricisi kimi xarakterizə olunur. Əgər bütün vətəndaşların gəlirləri eynidirsə, "Cinni əmsalı" sıfıra bərabər olur. Güman edilsə ki, bütün gəlirlər bir adamın əlində cəmləşmişdir, onda bu göstərici vahidə bərabər olacaqdır. Əmsalın vahidə yaxınlığı müvafiq ölkədə gəlirlərin qeyri-bərabər bölgüsündən xəbər verir. Cinni əmsalı yalnız əhalinin gəlirlərini deyil, ölkənin və regionda cəmiyyətin öyrənilən hər hansı bir əlamət üzrə təbəqələşməsini xarakterizə edərək, həm də müxtəlif qrup işçilərin (*cins əlamətinə görə, məşğulluq xarakterinə görə və s.*) əmək haqlarının qeyri-bərabər bölgüsü dərəcəsinin müəyyənləşdirilməsi üçün istifadə olunur.

Alman iqtisadçısı və statistiki Ernest Engel (*1821-1896*) gəlirlər artımı ilə ərzaq xərclərinin azalması nisbəti üzrə təqdiqatları ilə məşhurdur. Onun adı ilə bağlı qanuna görə, gəlirlər artdıqca ərzaq xərcləri azalır, ikinci dərəcəli şeylərə - xidmətə olan xərclər artır. Daha konkret isə Enqel qanununa (*Engel's law*) görə, istehlakçıların davranışı onların aldıqları gəlirlərin ölçüləri ilə əlaqəlidir:

- əhali gəlirlərinin artım ölçüsü ilə rifah qeyri-proporsional olaraq yüksəlir;
- yemək xərcləri uzunmüddətli istifadə predmetlərinə, səyahət və əmanətlərə nisbətdə daha az artır;
- istehlak edilən yemək məhsullarının strukturu daha keyfiyyətli ərzaq məhsulları istehlakı ilə dəyişir.

Həyat vəziyyəti ilə bağlı digər bir hesablama kimi Həyat Bahalılığı Reytinqini (*Cost of Living Survey*) göstərmək olar. Həyat bahalılığının səviyyəsi dünyada ölkələr üzrə müxtəlif qurumlar tərəfindən ölçülür ki, bunlardan biri də konsaltinq, autsorsinq və investisiya xidmətləri göstərən "Mercer" şirkətidir. 20 minə yaxın əməkdaşı ilə dünyanın 180-dan çox şəhəri və 40-dan çox ölkəsindən müştərilərə xidmət göstərən şirkət, sifarişçilərin istəyilə bəzi sahələr üzrə araşdırmalar da aparır ki, bunlardan biri də hər il yayınlanan "Həyat Bahalılığı Araşdırması"dır (*Cost of Living Survey*). Bu araşdırmanın nəticələrindən hökumətlər və başlıca şirkətlər xarici ölkələrə göndərdikləri əməkdaşlarının satınalma gücünü qorumaq məqsədilə istifadə edirlər. "Həyat Bahalılığı Araşdırması" "Mercer" tərəfindən müəyyənləşdirilən əmtəə və xidmətlərin beynəlxalq səbəti (*ev kirayə haqqları da daxil olmaqla*) əsasında dünyanın müxtəlif şəhərlərinin həyat bahalılığı reytinqini tərtib edir ki (*hesablamalar mart ayı üzrə aparılır*), bu zamanda baza göstərici kimi əmtəə və xidmətlərin beynəlxalq səbətinin Nyu-York şəhəri üzrə dəyəri götürülür.

Müasir zamanda həyat səviyyəsini xarakterizə inteqrir göstərici qismində İnsan İnkişafı İndeksi (*Human Development Index, HDI*) çıxış edir. İnsan İnkişafı İndeksinin hesablanmasında gözlənilən orta ömür, əhalinin təhsil səviyyəsi, paritet istehlak qabiliyyətində milli valyutada ÜDM-in adambaşına düşən bölgüsü göstəriciləri şərtləndirilir. İnsan İnkişafı İndeksi 1990-cı ildə Pakistan iqtisadçısı Məhbub ül-Həq (*1934-1998*) tərəfindən işlənilmiş və 1993-cü ildən BMT-nin insan potensialının illik hesabatlarında istifadə olunur. İnsan İnkişafı İndeksi ölkələrdə insan inkişafının, başqa sözlə, insan rifahının vəziyyətini müqayisəli şəkildə qiymətləndirməyə imkan verən 4 göstərici - "doğulanda gözlənilən ömür müddəti" (*life expectancy at birth*), "təhsilin orta müddəti" (*mean years of schooling*), "gözlənilən təhsil müddəti" (*expected years of schooling*) və satınalma gücü paritetli "Adambaşına Ümumi Milli Gəlir" (*Gross national income per capita*) əsasında tərtib edilir. Bununla belə, Birləşmiş Millətlər Təşkilatı İnkişaf Proqramı (*UNDP*) hər il nəşr etdiyi "İnsan İnkişafı Hesabatı (*Human Development Report*) çərçivəsində İnsan İnkişafı İndeksinə əsaslanan İnsan İnkişafı Reytinqi (*Human Development Index Ranking*) hazırlayır.

Dünya akademik birliyinin təhsilin problem və inkişaf perspektivlərinə olan marağı elə sürətlə artır ki, genişlənən informasiya axınının emalı, ümumiləşdirilməsi və təhlili üzrə çətinliklər meydana çıxır. Beynəlxalq təhsil statistikasının məlumatları dünyanın əksər ölkələrində təhsilin səviyyəsinin gerçək mənzərəsini görmək imkanı yaradır. Bu rəqəmlər əsasında müxtəlif ölkələrin təhsil sisteminin müqayisəli təhlili milli təhsil sistemlərinin müsbət və mənfi məqamlarını qiymətləndirmək və təhsilin inkişafının ümumdünya ənənələrini müəyyənləşdirmək mümkündür.

Dünya ölkələrinin ali təhsil üzrə daha geniş məlumat bazası - Dünya Ali Təhsil Məlumat Bazası (*World Higher Education Database, WHED*) Ümumdünya Universitetlər Assosiasiyası (*International Association of Universities, IAU*) - tərəfindən yaradılmışdır. Bazada dünyanın formalaşmış təhsil sisteminə malik olan 180 ölkəsi üzrə məlumat vardır. Lakin həmin məlumatlar, əsasən, təsviri xüsusiyyətə malik olduqlarından ondan müxtəlif ölkələrin təhsil sistemlərinin müqayisəli statistik təhlilində yalnız əlavə məlumat mənbəyi kimi istifadə edilir. Buna görə də təhlil əsasında sistem yaradan beynəlxalq göstəricilər üzrə qruplaşdırılmış təhsil statistikası məlumatları dayanmalıdır. Onun qəbul edilmiş mənbələri aşağıdakılardır:

- UNESCO-nun Statistika İnstitutunun təhsil üzrə illik ümumdünya məruzələri (*Global Education Digest*);
- İƏİT ölkələri və onların tərəfdaşlarının təhsil üzrə illik hesabatları (*Education at a Glance - OECD Indicators*);
- BYİB-nın məruzələri.

Müxtəlif ölkələrin təhsil statistikasının məlumatlarını tutuşdurmaq üçün UNESCO-nun Baş konfransı tərəfindən 1997-ci ilin noyabrında təsdiq edilmiş Təhsilin Beynəlxalq Standart Təsnifatı - TBST istifadə edilir. TBST-1997 sxemi milli tədris proqramlarının təhsilin pillələrini müəyyən etmək üçün kateqoriyaların beynəlxalq-tutuşdurma yığımına köçürülməsi metodologiyası təqdim edir.

Ali təhsil sisteminin müxtəlif inkişaf aspektlərini nəzərdən keçirmək üçün bu sahədə daha irəli çəkilmiş ölkə qrupunu ayırmaq mühümdür. Təhsil sahəsində qabaqcıl ölkələri seçərkən üç əsas meyardan istifadə olunur:

1. Əhalinin ali təhsillə əhatə edilməsi səviyyəsi.
2. Ölkə əhalisinin təhsil potensialını xarakterizə edən təhsil indeksi.
3. Ölkədə ali təhsilin inkişaf miqyaslarını xarakterizə edən ali məktəb tələbələrinin sayı.

Əhalinin ali təhsillə əhatə səviyyəsi aşağıdakı iki göstərici nəzərə alınmaqla qiymətləndirilir:

- yaşlı əhali (25-64 yaş) sırasında ali təhsillilərin sayı (*payı*);
- ölkə əhalisi sırasında ali məktəb tələbələrinin sayı (*payı*).

<u>Təhsil indeksi</u> (*education index*) BMT tərəfindən işlənib hazırlanmış ümumi indeks - İnsan İnkişafı İndeksinin tərkib hissəsidir. Təhsil indeksi həm yaşlı əhalinin savadlılığının yüksəldilməsində, həm də ölkənin ibtidai, orta və ali təhsil müəssisələrinə qəbul olunanların ümumi göstəricilərinin artırılmasında nisbi uğurları ölçür. Bunun çəkisinin üçdə ikisi yaşlı əhalinin savadlılıq indeksinin və üçdə biri tədris müəssisələrinə qəbul olunanların ümumi göstəricisi indeksinin üzərinə düşür. Təhsil indeksi üzrə liderlər: Avstraliya, Danimarka, İrlandiya, İspaniya, Kanada, Yeni Zelandiya, Norveç, Finlandiya hesab olunurlar.

Böyük Britaniya sirkəti "Quacquarelli Symonds"un hər il tərtib etddiyi 3 min təhsil məktəbi siyahısında ABŞ və Böyük Britaniya universitetləri ön sıralarda yer alır. ABŞ-

ın Massaçusets Texnologiya İnstitutu bu sırada dünyanın ən yaxşı universiteti hesab olunur. ABŞ-ın Harvard Universiteti ikinci, Böyük Britaniyanın Kembric Universiteti üçüncü, London Universitet Kolleci dördüncü, İmperial Kollec beşinci və Oksford altıncı yerdədirlər. İlk onluqda növbəti yerləri ABŞ-dan Stanford, Yel, Çikaqo universitetləri, Kaliforniya Texniki Universiteti və Prinston Universiteti tutur. Moskvadakı Lomonosov adına Moskva Dövlət Universiteti 120-ci sıradadır Ümumilikdə 200 ali məktəb arasında 51 ABŞ, 29 Britaniya, 8 ÇXR, 13 AFR, 11 Hollandiya, 10 Avstraliya, 9 Yaponiya, 9 Kanada, 8 Koreya Respublikası, 7 İsveçrə, 6 Belçika, 5 Fransa, 3 Sinqapur, 2 İtaliya, 3 İspaniya, 2 Çexiya universiteti var. Azərbaycan ali təhsil məktəblərindən Xəzər və Bakı Dövlət Universitetləri 651-701-ci sırada yer alıb. Ermənistan və Gürcüstanın heç bir ali məktəbi 3 minlik siyahıya düşməyib. Türkiyədən 9 universitet 3 minlik siyahıdadır. Ölkənin Bilkent Universiteti və Orta Şərq Texniki Universiteti 431-ci yerdə qərar tuttmuşlar. İrandan Şərif Texnologiya Universiteti və Tehran Universiteti Azərbaycan ali məktəblərindən bir az öndə, 601-650-ci sıralarda yerləşir.

Sosial göstəricilər sferasında informasiyalaşdırma səviyyəsi mühüm yer tutur. Prosesin fövqündə informasiya təminatlılığı, informasiya anlayışının mahiyyəti dayanır. "İnformasiya" (*information*) anlayışının latınca "informati" sözündən yarandığı göstərilir. Materialist fəlsəfə nöqteyi-nəzərindən informasiya məlumatların (*məlumatvermənin*) köməyi ilə real dünyanın təsviri kimi nəzərdən keçirilərək dəyərləndirilir. Məlumatvermə isə informasiyanın nitq, mətn, şəkil, rəqəmsal göstərici, qrafik, cədvəl və s. təqdimatlar forması kimi səciyyələndirilir.

Çağdaş zamanda informasiya çox mühüm resurs kimi bəşər cəmiyyətinin əsas hərəkətverici qüvvələrindən biri hesab olunur. O, idrakımızdan asılı olmadan mövcuddur və bizim qavrayışda mütaliənin, siqnal formasında alınmanın, stimulların qarşılıqlı təsirinin nəticəsi kimi əksini tapır. İnformasiya çoxtəsvirlik vəziyyətində istənilən maddi obyektdə mövcuddur və bir obyektdən digərinə qarşılıqlı hərəkət prosesi ilə ötürülür. Maddi dünyada, canlı təbiətdə, bəşər cəmiyyətində baş verən informasiyalaşdırma prosesləri, demək olar ki, elmin bütün sferalarında nəzərə alınır və öyrənilir.

İnformasiyalaşdırmanın genişləndiyi çağdaş zamada onun milli maraqlar baxımından mühafizəsi də əhəmiyyət təşkil edir. Bu baxımdan informasiya təhlükəsizliyinin möhkəmləndirilməsi daha aktual xarakter alır. İnformasiya təhlükəsizliyi (*information security*) dövlətin informasiya resurslarının və informasiya sferasında şəxsiyyət və cəmiyyətin hüquqlarının qorunması vəziyyətidir. İnformasiya təhlükəsizliyi konfidensiallıq, bütövlük və informasiyaya giriş təmin edən proses kimi çıxış edir. İnformasiya təhlükəsizliyi ölkənin milli təhlükəsizliyinin ümumi sisteminin tərkib hissəsini təşkil edir.

Yaşadığımız müasir dövrdə cəmiyyətin bütün təbəqələrində geniş informasiyalaşdırma prosesləri gedir. Bu proseslər radiotexnikada, mikroprosessorların, hesablama texnikasının inkişafında və bir sıra sosial elm sahələrində informasiya texnologiyalarının

(*information technology*), informasiya-kommunikasiya texnologiyalarının - İKT (*information and communication technologies*) sürətli artımı ilə baş verən dijital (*rəqəmsal*) inqilabdan qaynaqlanır. Nəticədə isə texniki vasitə və metodları, yeni biliklərin istehsalı texnologiyaları və müvafiq infrastruktur sistemləri ilə bağlı tam bir sənaye şəbəkəsi - informasiya industriyası formalaşmışdır. Bundan irəli gələrək bir sıra müvafiq tənzimləyici qurumlar təşkilati islahatlar apararaq institusional struktur yenidənqurmasını gerçəkləşdirmişlər. İKT sektoru mültiplikativ effektivliyi ilə dünya ÜDM-ində mühüm pay yüksəlişləri əldə edir. Buradakı sürət hər beş ildə iki dəfə artan yüksəliş templəri ilə ölçülür. Digər tərəfdən, İKT-nin inkişafı vətəndaşlar, biznes və dövlət arasdındakı münasibətlər paradiqmasının dəyişkənliyinə, yeni idarəetmə mədəniyyəti və prosedurlarının yaranışına, ümumilikdə isə fərqli inzibatçı mentalitet formalaşmasına gətirib çıxarmaqdadır.

Yeni reallıqlar göstərir ki, müasir iqtisadiyyatın bütün sektorlarında olduğu kimi, İKT sektorunun da inkişafında İnternet mühüm rol oynayır.

İnternet (*Internet*) həcmli ixtisaslaşmış informasiya serverlərinə giriş imkanı verən və elektron poçtu təmin edən qlobal kompüter şəbəkəsidir. İnternetə giriş və onun servisi provayderlər tərəfindən təmin edilir.

Kompüterlə İnternet şəbəkəsinin imkanları birləşərək milli sərhədlərin əhəmiyyətini azaldır, zamanı və məkanı "sıxır", fərdləri qlobal ortaqlıqa birləşdirir. İnternetin özünün inkişaf etdirilməsi ilə bağlı bir sıra ölkələrdə çox mühüm irəliləyişlərə nail olunmuşdur. İnternetin tətbiqində 10 f.b. artım inkişaf etməkdə olan ölkələrin ÜDM-də 1% artma səbəb olur. Estoniya konstitusiyasında "İnternetdən pulsuz istifadə etmək bir vətəndaşlıq haqqıdır" maddəsi təsbit olunmuşdur. Ekspert hesablamalarına görə, yaxın 10 il ərzində Fransada İnternet iqtisadiyyatı yüz minlərlə yeni iş yerlərinin açılışını təmin edərək ÜDM artımı və bu çevrədə sahənin xüsusi çəksisini xeyli artıracaqdır. Müasir dünyanın inkişafında Wi-Fi infrastrukturunun bütün ölkəni əhatə etməsinin təminatının vacibliyi artır, İnternet tam bir iqtisadiyyat sahəsi kimi özünün artan gücünü təcəssüm etdirir.

Dövlət cəmiyyətin informasiya erasına keçidində ən başlıca liderdir. Bu məsələdə onun imkanları bənzərsizdir. Bu gerçəkliyin təmin edilməsində isə ən güclü mexanizm "Elektron hökumət" (*e-Government*) infrastrukturudur. Elektron hökumətə keçid İnternetdən başlayır. Belə yaranış isə offlayn (*ingiliscə* - off-line - *"şəbəkədən açılma"*) rejimindən fərqli olaraq, bundan üstün onlayn (*ingiliscə* - on-line - *"şəbəkəyə bağlanma"*) rejimində, yəni vətəndaşın istədiyi zamanda, forma və məkanda dövlət tərəfindən tədqim edilən xidmət və məlumatları almasını imkanlı edir.

Çağdaş zamanda "Elektron hökumət" dünya hökumətlərinin fəaliyyətini gücləndirərək onun səmərəliliyini artıran müasir mexanizmlərdən biri kimi çıxış etməkdədir. Bu istiqamətdəki inkişaf meyilləri həyatımızın bütün sahələrinə nüfuz edir. Elektron hökumət yeni institusional sistem olaraq "hökumət-vətəndaş", "hökumət-hökumət", "hökumət-biznes" əlaqələrinin yaradılmasına təkan verir.

“Elektron hökumət” təsisatlandırılmasında lider olan dövlətlərdən biri Koreya Respublikasında əhalinin mobil telefonların imkanlarından geniş yararlanması, xüsusən, IOS və “Android” əməliyyat sistemləri üçün mobil əlavələrdən geniş istifadə etməsi və bütün ölkə ərazisində İnternetə girişin asanlığı zəmin olmuşdur. “Bulud texnologiyaları”nın daha çox inkişaf etdiyi Sinqapurda isə hökumətin elektron xidmətlər şəbəkəsi “Sinqapur vətəndaşının portalı” vasitəsi ilə həyata keçirilir və burada müəllimlər üçün “bulud verilənlər” mərkəzi yaradılmışdır. Macarıstanda dövlət qulluqçularının vətəndaşlarla fasiləsiz ünsiyyətini təmin edən onlayn iş rejimli, “elektron demokratiya” adlı multifunksional xidməti fəaliyyət göstərir.

İnformasiya - biznes və hakimiyyət dairələri tərəfindən qərarlar qəbul olunarkən və ictimai rəy formalaşdırılararkən istifadə edilən resurs və ehtiyatdır. Bu baxımdan da, ölkələrdə cəmiyyətin informasiyalaşdırma səviyyəsi onun sosial göstəricilər sistemində mühüm rol oynayır.

Ölkələrin sosial göstəricilər sistemində korrupsiya və onun yayılması ilə bağlı vəziyyətlər də hesaba alınandır. Korrupsiya (*latınca* - corrumpere - *murdarlamaq, xarab etmək*) vəzifəli şəxs tərəfindən ona həvalə edilmiş hakimiyyət səlahiyyətindən və etibardan, müəyyən edilmiş qaydalara zidd olaraq, özünün şəxsi mənafeləri üçün istifadə etməsidir. Çox zaman termin olaraq bürokratik hakimiyyət və siyasi elitaya münasibətdə istifadə olunur. Bir sıra beynəlxalq təşkilatlar korrupsiya ilə bağlı müvafiq indekslər və reytinqlər işləyib hazırlayırlar. Beynəlxalq Şəffaflıq (*Transparency International*) təşkilatı dövlət sektorunda korrupsiyanın qavranılması üzrə ölkələrin reytinqini müəyyənləşdirmək məqsədilə, hər il Korrupsiya Qavrama İndeksi nəşr etdirir. Korrupsiya Qavrama İndeksi (*Corruption Perceptions Index, CPI*) müxtəlif ekspert qiymətləndirmələri və biznes aləmi üzrə rəy sorğuları əsasında tərtib edilir ki, bunlar da müstəqil və tanınmış təşkilatlar tərəfindən həyata keçirilir. Eyni zamanda hər ölkənin müvafiq indeksi tərtib edilən zaman ən azı 3 mənbədən istifadə edilir. Beynəlxalq Şəffaflıq təşkilatı 1999-cu ildən öz tədqiqatlarına Azərbaycanı da daxil etmişdir. 1999-cu ildə Azərbaycanın Korrupsiya Qavrama İndeksi 1,7 olduğu halda, bu göstərici 2010-cu ildə 2,4-ə çatmışdır.

Ölkə iqtisadiyyatına dair iqtisadi göstəriciləri nəzərdən keçirərkən ÜDM-də kölgə və yaxud gizli iqtisadiyyatın payı həmişə sual yaradır. ÜDM istehsalının həcmi məlum olarkən gizli iqtisadiyyat da nəzərə alınarsa, bunun əslində real olaraq, nə qədər təşkil etdiyi mübahisə doğurur.

Gizli iqtisadiyyatın (*hidden economy*) mahiyyəti ondan ibarətdir ki, iqtisadiyyatın bu sektorunda əldə olunan gəlirlər rəsmi uçotdan gizlədilir. Bunun isə üç səbəbi vardır:

1. Vergi yükünün ağırlığı;
2. Sahibkarın reputasiyasının və ya onun fəaliyyət sferasının normal qarşılanmaması;
3. Məmur himayəçiliyi.

Təcrübə göstərir ki, kölgə iqtisadiyyatının geniş vüsət almasında məmur himayəçiliyi daha irəlidə olan amillərdəndir. Çünki bu zaman gizli fəaliyyətin risk dərəcəsi az olur ki, bu da məmurun səlahiyyət səviyyəsi ilə ölçülür.

Gizli iqtisadiyyat fenomeni ilə bağlı çoxsaylı terminoloji təyinatlar mövcuddur. Bunlardan gizli (*hidden*), kölgə (*shadow*), qeyri-rəsmi (*unofficial*), qeyri-formal (*informal*), qara (*black*), yeraltı (*underground*), qeyri-leqal (*illegal*), nağd pul (*cash*), müşahidə edilməyən (*non-observed*), qeyri-müntəzəm (*irregular*), bəyan edilməyən (*unreported*), paralel (*parallel*), uçotdankənar (*unregistered*), boz (*grey*), qeydə alınmayan (*unrecorded*), ikinci (*second*), marjinal (*marginal*), alaqaranlıq (*twilight*), görünməyən (*invisible*), ay işığı (*moonlight*) və vergiləndirilə bilməyən (*untaxed*) iqtisadiyyat terminləri daha geniş yayılmışdır. “Gizli iqtisadiyyat” anlayışına vahid yanaşmanın formalaşdırılması ilə bağlı elmi axtarışlar ilkin əsasları 1980-cı illərdə ortaya çıxan və BMT-nin 1993-cu il Milli Hesablar Sistemi - MHS Konvensiyasının qəbul edilməsindən sonra daha da geniş yayılmağa başlayan makroiqtisadi yanaşma ilə yeni keyfiyyət mərhələsinə daxil olmuşdur. Belə ki, bu gün iqtisadi ədəbiyyatda ən geniş yayılmış yanaşma hesab olunan makroiqtisadi yanaşma, “gizli iqtisadiyyat” anlayışına milli gəlir statistikası, başqa sözlə, ÜDM hesablamaları çərçivəsində tərifin verilməsinə çalışır ki, bu da 2002-ci ildə BMT, BVF, BƏT, İƏİT və MDB tərəfindən nəşr edilən “Muşahidə edilməyən iqtisadiyyatın olçülməsi: Bələdçi kitab”da (*“Mavi kitab*”) gostərilən muvafiq anlayış və yanaşmalara əsaslanır. Bu yanaşma, “gizli iqtisadiyyat” anlayışını BMT-nin 1993-cu il Milli Hesablar Sistemi Konvensiyasına görə ÜDM gostəricisini hesablamaq məqsədilə qeydə alınmalı olan iqtisadi fəaliyyətlərin faktiki qeydə alınmamış hissəsi kimi qəbul edir.

## 8.5. “Paritet İstehlak Qabiliyyəti”, “İqtisadi inkişafın səviyyəsi”, “İqtisadi güc”, “İqtisadi potensial” və “İqtisadi artım” anlayışlarının müqayisəsi

Paritet - latınca bərabərlik deməkdir. <u>Paritet İstehlak Qabiliyyəti</u> (*purchasing power parity*) müxtəlif ölkələrin valyutalarının, pul vahidlərinin müqabil nisbəti olub, əsas əmtəə və malların alışı üzrə təyinat tapır. Paritet İstehlak Qabiliyyəti təyinatını nəzəri aspektdə İsveç iqtisadçısı Karl Qustav Kassel (*1866-1945*) və başqaları tərəfindən hazırlanmışdır. Bu nəzəriyyəyə müvafiq olaraq, valyuta kurslarının təbii qiyməti alıcılıq qabiliyyəti paritetinə uyğun olan qiymətdir. Əgər A valyutasının B valyutasına olan kursu paritet qiymətdən artıqdırsa, malları B ölkəsində alıb A ölkəsinə ixrac etmək xeyirli olur. Bu, A ölkəsində, B ölkəsində malların təklifini və A ölkəsinin valyuta təklifini artırır ki, nəticədə kurslar paritet münasibətə qayıdır.

Müxtəlif beynəlxalq təşkilatlar (*BYİB, Avrostat*) müxtəlif ölkələrin iqtisadi göstəricilərini vahid valyutada (*daha çox ABŞ dolları ilə*) dərc edərkən Paritet İstehlak Qabiliyyəti əsasında hesablanmış mübadilə kurslarından istifadə edirlər. Paritet İstehlak Qabiliyyətindən istifadənin populyar misalı ingilis həftəliyi olan “Ekonomist” (“*The Economist”*) tərəfindən müntəzəm hesablanan və dərc edilən “Biq-mak indeksi”dir.

Bu indeks müxtəlif ölkələrdə alternativ mübadilə kursu olub, "McDonalds" restoranlarında "Biq-mak" qiymətləri əsasında hesablanır. Daha bir, ondan heç də az məşhur olmayan indeks - "iPad indeksi" - müxtəlif ölkələrdə "Apple" firmasının populyar MP3-pleyerin qiymətləri əsasında Avstraliyanın "Commonwealth Securities" İnvestisiya Bankı tərəfindən hesablanır.

İqtisadi inkişafın səviyyəsi (*level of economic development*) ölkənin ictimai istehsalının inkişaf göstəriciləri aşağıdakı məlumatları ehtiva edir:

- məcmu ictimai məhsul haqqında;
- adambaşına milli gəlir haqqında;
- təbii resurslardan istifadə haqqında;
- istehsalın təşkili və effektivliyi haqqında.

Müxtəlif ölkələrin mövcudluğu və inkişafının tarixi və coğrafi şəraitinin müxtəlifliyi, onların sərəncamında olan maddi və maliyyə resurslarının birləşməsi onların iqtisadi inkişaf səviyyəsini hər hansı bir göstərici ilə qiymətləndirməyə imkan vermir. Bunun üçün bütöv göstəricilər sistemi mövcuddur ki, onların arasında, hər şeydən əvvəl, aşağıdakılar seçilir:

- real ÜDM-in ümumi həcmi;
- adambaşına ÜDM/ÜMM;
- iqtisadiyyatın sahəvi quruluşu;
- adambaşına əsas məhsul növlərinin istehsalı;
- əhalinin həyat səviyyəsi və keyfiyyəti;
- iqtisadi effektivlik göstəriciləri.

Əgər real ÜDM-in həcmi, başlıca olaraq, ölkənin iqtisadi potensialını xarakterizə edirsə, onda adambaşına ÜDM/ÜMM-in istehsalı iqtisadi inkişaf səviyyəsinin aparıcı göstəricisidir. Məsələn, adambaşına ÜDM-i alıcılıq qabiliyyəti pariteti üzrə hesablasaq, Lüksemburqda o, 38 min dollar təşkil edəcək ki, bu, ən yoxsul ölkə olan Həbəşistanda adambaşına ÜDM-dən 84 dəfə çoxdur və ABŞ-da olduğundan da artıqdır, halbuki ABŞ-ın və Lüksemburqun iqtisadi potensialları müqayisə ediləcək deyil. Bir sıra inkişaf etməkdə olan ölkələrdə adambaşına ÜDM göstəricisi kifayət qədər yüksəkdir, lakin o, iqtisadiyyatın müasir sahəvi strukturuna uyğun deyildir.

Vurğulanmalıdır ki, ölkənin iqtisadi inkişaf səviyyəsi tarixi anlayışdır. Milli iqtisadiyyatın və dünya birliyinin hər inkişaf mərhələsi bütövlükdə onun əsas göstəricilər tərkibinə bu və ya digər dəyişikliklər edir.

Hər hansı bir ölkənin iqtisadi qüdrətinin dəyərləndirilməsində müxtəlif göstəricilərdən istifadə olunur. Burada xüsusi olaraq "iqtisadi güc", "iqtisadi potensial" və "iqtisadi artım" kimi göstəricilər fərqləndirilir.

İqtisadi güc (*economic power*) diplomatik termin olaraq çıxış edir. İqtisadi aspekt də daxil olmaqla ümumilikdə onu dövlətin gücü anlayışı əvəz edir. Dövlətin gücü - dövlətin geosiyasi məqsədlərə nail olması üçün istifadə olunan əyani maddi və mənəvi imkanların məcmusudur. Bura hərbi-siyasi, hərbi, hərbi-iqtisadi, iqtisadi, demoqrafik,

enerji, texnoloji və informasiya gücü daxildir. Gücün hərbi növləri hərbi qüvvələrin sayını, nüvə və başqa silahın miqdarını və olmasını nəzərdə tutur. Dövlətin iqtisadi gücü - makroiqtisadi göstəricilərlə xarakterizə olunan, milli iqtisadiyyatın səviyyəsinə çatmış məcmudur. İqtisadi güc ümumi milli məhsulun, insan inkişafı indeksi, əhalinin sayı, onun alıcılıq qabiliyyəti və daxili istehlak bazarının tutumu göstəricilərində əks olunur. Dövlətin gücünün mühüm amili hərbi təhlükəsizliyi, enerji və başqa təbii resursların olmasını yüksəldən böyük ərazidir, strateji tranzitlikdir.

Ölkənin iqtisadi potensialı (*country's economic potential*) onlardan tam istifadə etdikdə maksimal ÜMM istehsal etməyə imkan verən ölkə resurslarıdır. Ölkənin iqtisadi potensialının tərkib hissələri onun təbii-resurs, istehsal, əmək, elmi-texniki, ixrac potensialıdır.

Təbii-resurs potensialı (*natural resource potential*) ölkənin artıq təsərrüfat dövriyyəsinə cəlb edilmiş, həmçinin, əldə olan texnologiyalar və sosial-iqtisadi münasibətlərlə əlyetərli olan təbii sərvətləri xarakterizə edir.

İstehsal potensialı (*productive potential*) maddi-əşya və əmək resurslarını yaradır. Bu istehsal vasitələridir (*binalar, qurğular, avadanlıqlar*), texnologiyalardır, fəhlə və mühəndis-texniki kadrlardır.

Əmək potensialı (*labor potential*) ölkənin, regionun və müəssisənin hazırda mövcud və gələcəkdə proqnozlaşdırılan əmək imkanlarını xarakterizə edir. Əmək potensialının həcmi və keyfiyyəti fəal əmək qabiliyyətli əhalinin sayı, onun təhsil və peşə-ixtisas səviyyəsi ilə müəyyən edilir.

İxrac potensialı (*export potential*) ölkənin özündə olan və ya istehsal etdiyi resursların, məhsulların ixracetmə imkanı, potensial qabiliyyəti ilə xarakterizə edilir.

İqtisadi potensial həm də cəmiyyətin qarşısında duran elmi-texniki inkişaf vəzifələrinin həlli üçün nəzərdə tutulan kadr, maddi-texniki, informasiya və təşkilati ehtiyatların məcmusunu xarakterizə edən elmi-texniki potensial da ehtiva edir. Elmi-texniki potensialın inkişafı, ondan səmərəli istifadə, ETT-nin sürətləndirilməsi, tədqiqatların intensivləşdirilməsi elm-texnika-istehsal tsiklinin qısaldılmasının, ümumildə iqtisadi effektliyin mühüm şərtidir.

İqtisadi potensial, həmçinin, iqtisadiyyatın inkişaf səviyyəsinin ümumi xarakteri kimi də nəzərdən keçirilə bilər. İqtisadi potensial anlayışına bütövlükdə, iqtisadi resurslar və iqtisadi nəticələr daxildir.

İqtisadi artım (*economic growth*) ÜMM-in dəyişmə dinamikası və ya müəyyən dövr üçün və ya əhalinin adambaşına düşən xalis milli gəlirini xarakterizə edən makroiqtisadi göstərici kimi nəzərdən keçirilir. Başqa sözlə, iqtisadi artım - həcmlərin mütləq dəyişməsini və ya bu dəyişikliklərin sürətinin faizlə ifadəsini müəyyən edən konkret rəqəmlərdir. İqtisadi artım ictimai məhsulun kəmiyyət və ya keyfiyyət təkmilləşməsinin dinamikasında və onun istehsal amillərində ifadə olunur. İqtisadi artım - ölkənin il ərzində ictimai istehsal sferası çərçivəsində istehsal olunan istehlak dəyərlərinin fiziki məcmularının uzunmüddətli artım meyillidir. Beləliklə, iqtisadi artımın izahında mütləq

bu anlayışın kəmiyyət və keyfiyyət tərəfləri iştirak edir. O, mürəkkəb və kompleks hal olaraq nəinki iqtisadi inkişafın meyarı, həm də təkcə iqtisadi deyil - sosial nəticələri xarakterizə edən çoxlu sayda kəmiyyət və keyfiyyət göstəricilərinə malik proses kimi təqdim edilə bilər.

İqtisadi artım amilləri aşağıdakılardır:

- təbii resursların miqdarı və keyfiyyəti;
- əmək resurslarının kəmiyyəti və keyfiyyəti - əmək məhsuldarlığı, təhsil və peşəkar hazırlıq;
- əsas kapitalın həcmi;
- yeni texnologiyalar.

İqtisadi artımın kəmiyyət qiymətindən başqa, onun ÜDM-in artım sürəti şəklində keyfiyyət qiyməti də zəruridir. Son illər artıq yüksək maddi rifah səviyyəsinə çatmış ölkələr üçün iqtisadi artımın arzuolunan olması haqqında ciddi şübhələr meydana çıxmışdır.

İqtisadi artım cəmiyyətin məqsədlərinin mühüm indikatoru kimi əmtəə və xidmətlərin təsbit olunmuş vaxt ərzində həcm yüksəlişidir. İqtisadi artımın keyfiyyət və templəri onun tipindən aslıdır. Burada ekstensiv və intensiv tiplər fərqləndirilir. Ekstensiv artım tempi resursların keyfiyyətini və texnoloji səviyyəni saxlamaqla istehsala əlavə resurslar cəlb edilməsi ilə xarakterikdir. İntensiv artım tipi məhsuldarlığın texnoloji təkmilləşməni və resurs keyfiyyətini artırmaqla təmin olunur. Hər iki tip eyni zamanda mövcud olaraq müxtəlif mərhələlərdə bir-birinə üstün gəlir.

## 8.6. Ölkənin dünya təsərrüfatında iştirakı göstəriciləri

Ölkənin dünya təsərrüfatı sistemində iştirakı, inteqrasiyasını bir sıra göstəricilər xarakterizə edir. Bu sırada ixrac, idxal və xarici ticarət kvotası, ölkənin xarici ticarət dövriyyəsi və onun dünya ticarət dövriyyəsində xüsusi çəkisi, adambaşına düşən xarici ticarət dövriyyəsi, kapitalın beynəlxalq miqrasiyası proseslərində ölkənin xüsusi çəkisi və digər bu kimi göstəricilər daha mühüm hesab olunur.

<u>Kvota</u> (*latınca* - quota - *hissə*) ümumi işin iştirakçılarının birinin üzərinə düşən pay, hissə və müəyyən müddət üçün tətbiq edilən (*malların idxalı, ixracı, istehsalı, satışı və istehlakı*) kəmiyyət məhdudiyyətləridir. Məhdudlaşdırıcı tədbirlər kvotalaşdırma adlandırılır.

<u>Kvotalaşdırma</u> (*latınca* - quota - *hissə*, qu-ots - *nə qədər*) dövlət orqanları tərəfindən xarici iqtisadi fəaliyyəti tənzimləmək məqsədi ilə müəyyən növ məhsulların ixrac və idxalının kəmiyyət baxımından məhdudlaşdırılmasıdır.

<u>İxrac kvotası</u> (*import quota*) məhsulun bu və ya digər növlərinə görə bütövlükdə iqtisadiyyatın və onun ayrı-ayrı sahələri üçün ixracın əhəmiyyətini xarakterizə edən

kəmiyyət göstəricisidir. İxrac kvotası faiz ölçüsündə müvafiq dövr ərzində ixracın dəyərinin ÜDM-in dəyərinə olan nisbəti kimi hesablanır.

İdxal kvotası (*import quota*) məhsulun müxtəlif növləri üzrə milli təsərrüfat və onun ayrı-ayrı sahələri üçün idxalın əhəmiyyətini xarakterizə edən kəmiyyət göstəricisidir. İdxal kvotası faiz ölçüsündə müvafiq dövr ərzində idxalın dəyərinin ÜDM-in dəyərinə olan nisbəti kimi hesablanır.

Xarici ticarət kvotası (*foreign trade quota*) iqtisadi inkişafın "açıqlığının" kompleks göstəricisi olaraq ölkənin ixrac və idxalın məcmu dəyərinin ÜDM-ə nisbətini əks etdirir. Xarici ticarət kvotası xarici ticarət dövriyyəsinin (*ixrac və idxalın məcmu dəyəri*) ÜDM-ə faiz nisbəti kimi müəyyən edilir. Xarici ticarət və ÜDM nisbəti xarici ticarət əlaqələrinin hansı ölçüdə həmin ölkənin iqtisadiyyatının stimullaşdırdığını göstərir. Bir qayda iolaraq təcrübə göstərir ki, xarici ticarət dövriyyəsi ÜDM-də 25%-lik paya malik olduqda iqtisadiyyata stimullaşdırıcı təsir edir.

Xarici ticarət dövriyyəsi (*foreign trade turnover*) müvafiq dövr ərzində ölkənin idxal və ixracının dəyərinin məcmusunu ifadə edir. İdxal və və ixracının dəyəri arasında fərq xarici ticarət dövriyyəsinin saldosunu ifadə edir. Ölkənin xarici ticarət dövriyyəsinin dünya ticarət dövriyyəsində xüsusi çəkisinin həcm artımı da həmin ölkənin dünya təsərrüfatında iştirakı göstəriciliyini yüksəldən amil kimi nəzərə alınır.

Xarici ticarət dövriyyəsinin adambaşına düşən həcmi (*foreign trade turnover per capital*) idxal və ixracının dəyərinin məcmusunun əhali sayına nisbəti ilə ölçülür.

## 8.7. Qloballaşma indeksi və reytinqlər

Qloballaşmanın sürətlə genişləndiyi bir dövrdə dünya ölkələri öz inkişaf səviyyələrini də bu axının pozitiv meyilləri üzərində qurmaq məcburiyyətində qalırlar. Bu çevrədən ölkələrin sosial-iqtisadi inkişafı bir çox müvafiq sahədə ixtisaslaşmış beynəlxalq təşkilatlardan tərəfindən qlobal indeks və reytinqlərlə dəyərləndirilir. Hazırda aşağıdakı beynəlxalq təşkilatlar və qurumların reytinq araşdırmaları daha öncül sayılır:

| № | Təşkilatın adı | Loqolar və yaranış tarixi | Nəşrin və məlumat bazasının adı |
|---|---|---|---|
| 1 | **İsveçrə İqtisad İnstitutu**<br>KOF Swiss Economic Institute<br>http://globalization.kof.ethz.ch | **2002** | **Qloballaşma İndeksi**<br>KOF Globalization Index |

| № | Təşkilatın adı | Loqolar və yaranış tarixi | Nəşrin və məlumat bazasının adı |
|---|---|---|---|
| 2 | **BMT (*İqtisadi və Sosial İşlər Departamentinin Əhali Artımı şöbəsi*)**<br>UN Department of Economic and Social Affairs Population Division<br>http://www.un.org | **1945** | **Dünya əhali artımının perspektivləri**<br>World Population Prospects |
| 3 | **BMT-nin İnkişaf Proqramı**<br>United Nations Development Programme (*UNDP*)<br>http://www.undp.org | UNDP **1965** | **İnsan İnkişafı İsabatı Human** Development Report |
| 4 | **Beynəlxalaq Valyuta Fondu - BMT-nin ixtisaslaşmış təsisatı**<br>International Monetary Fund<br>http://www.imf.org | INTERNATIONAL MONETARY FUND **1945** | **Dünyanın iqtisadi perspektivləri üzrə məlumat bazası**<br>World Economic Outlook Database |
| 5 | **İnkişaf etməkdə olan ölkələrə texniki və maliyyə yardımı göstərən beynəlxalq maliyyə təşkilatı, DB**<br>The World Bank<br>http://www.worldbank.org<br>http://www.doingbusiness.org | THE WORLD BANK **1945** | **Dünyanın inkişafı göstəricilərinin məlumat bazası**<br>World Development Indicators Database<br><br>**Biznesin aparılması hesabatı**<br>Doing Business Report |
| 6 | **ABŞ Mərkəzi Kəşfiyyat İdarəsi**<br>U.S. Central Intelligence Agency<br>https://www.cia.gov | **1947** | **Faktlar üzrə dünya kitabı**<br>The World Factbook |

| № | Təşkilatın adı | Loqolar və yaranış tarixi | Nəşrin və məlumat bazasının adı |
|---|---|---|---|
| 7 | **Dünya İqtisadi Forumu - Dünyanın mühüm problemlərinin müzakirəsi üçün təşkil edilmiş İsveç (*Davos*) qeyri-hökumət *(beynəlxalq status qazanmış)* təşkilatı**<br>World Economic Forum<br>http://www.weforum.org | **1971** | **Qlobal rəqabət qabiliyyətlilik hesabatı**<br>The Global Competitiveness Report |
| 8 | **"İrs" fondu. ABŞ-ın Strateji Tədqiqatlar İnstitutu**<br>Heritage Foundation<br>http://www.heritage.org | **1973** | **İqtisadi azadlıq indeksi**<br>Index of Economic Freedom |
| 9 | **İngiltərənin «Ekonomist» jurnalının analitik bölməsi** (*Tiraj 1 milyondan çox*)<br>The Economist Intelligence Unit<br>http://www.eiu.com | **1843** | **Həyat keyfiyyəti indeksi**<br>Quality of Life Index |
| 10 | **"Merser" - İnsan resursları və maliyyə xidmətləri üzrə konsaltinq kompaniyası** (*19 min işçi, 42 ölkədə filial*)<br>Mercer<br>http://www.mercer.com | **1975** | **Həyat Bahalılığı Reytinqi**<br>Cost of Living Survey |
| 11 | **Yeni dünya idarəetməsi forumu**<br>Forum for a new World Governance<br>http://www.world-governance.org | | **Dünya idarəetmə indeksi**<br>World Governance Index |
| 12 | **"Beynəlxalq şəffaflıq" təşkilatı - Korrupsiya ilə mübarizə və onun dünya üzrə səviyyəsini tədqiq edən beynəlxalq qeyri-hökumət təşkilatı - Berlin**<br>Transparency International<br>http://www.transparency.org | **1993** | **Korrupsiyanı qavrama indeksi**<br>Corruption Perceptions Index |

| № | Təşkilatın adı | Loqolar və yaranış tarixi | Nəşrin və məlumat bazasının adı |
|---|---|---|---|
| 13 | **İsveçrə Suveren Zənginlik Fondu İnstitutu**<br>The Sovereign Wealth Fund Institute - SWFI<br>http://www.swfinstitute.org | SWF Institute | **Müstəqil Fondların Linaburg-Maduell Şəffaflıq İndeksi**<br>The Linaburg-Maduell Transparency Index |
| 14 | **Maliyyə bazarında analitik tədqiqatlar aparan kompaniya (*ABŞ*)**<br>Standard & Poor's - S&P<br>http://www.standardandpoors.com | STANDARD &POOR'S<br>**1860** | **Kredit reytinqi**<br>Sovereign Ratings |
| 15 | **Xəzz üçün həll MMC - Reytinq təşkilatı kimi təsis edilən beynəlxalq korporasiya (*ABŞ*)**<br>Fitch Ratings LTD<br>http://www.fitchratings.com | FitchRatings<br>**1913** | **Kredit reytinqi**<br>Sovereign Ratings |
| 16 | **Con Mudus (1868-1958) tərəfindən təsis edilən, kredit reytinqləri verən, risklər üzrə tədqiqat və təhlillər aparan özəl şirkət (ABŞ)**<br>Moody's<br>http://www.moodys.com | HOME MOODY'S<br>**1900** | **Kredit reytinqi**<br>Sovereign Ratings |
| 17 | **"İnstitutional İnvestor" şirkəti - Biznes aləmini beynəlxalq maliyyə üzrə müxtəlif nəşrlərlə təmin edir, müstəqil borcların ödənilməməsi ehtimalı ilə bağlı ölkə kredit reytinqi verir.**<br>Institutional Investor<br>http://www.institutionalinvestor.com | Institutional Investor | **İnstitutional İnvestor Ölkə Kredit Reytinqi**<br>Country Credit Rating |

**Şəkil 11. Dünya ölkələrinin qlobal indeks və reytinqlərlə dəyərləndirən beynəlxalq təşkilatlar və qurumlar**

Ölkələrin qloballaşma prosesinə qoşulma Qloballaşma İndeksi (*Globalization Index, KOF*) ilə hesablanır. Qloballaşma indeksi iki ayrı mənbə - KOF İsveçrə İqtisad İnstitutu (*KOF Swiss Economic Institute*) və Xarici Siyasət Jurnalı (*Foreign Policy Magazine*) tərəfindən hazırlanmışdır. Ancaq bunlar arasında ən əhatəlisi və məşhur olanı KOF İscveçrə İqtisad İnstitutu tərəfindən hazırlanan KOF Qloballaşma İndeksidir (*KOF Globalization İndex*). KOF Qloballaşma İndeksi qloballaşmanın iqtisadi, siyasi və sosial aspektlərini əhatə etməklə aşağıdakı 3 alt-indeksdən ibarətdir:

1. İqtisadi qloballaşma: uzaq məsafələrə əmtəə, kapital və xidmət axınları, habelə bazar mübadilələrini ifadə edən informasiya və davranışlarla xarakterizə olunur.
2. Siyasi qloballaşma: hökumət siyasətlərinin yayılması ilə xarakterizə olunur.
3. Sosial qloballaşma: ideyalar, məlumatlar, formalar və insanların yayılması ilə xarakterizə olunur.

KOF Qloballaşma İndeksi həm yekun qloballaşma indeksi, həm də onun alt-indeksləri olan iqtisadi qloballaşma, siyasi qloballaşma və sosial qloballaşma indeksləri üzrə ölkələrin reytinqini müəyyən etməyə imkan verir. Bütün indekslər 1-100 bal arası sistemlə qiymətləndirilir. 100 bal ən yüksək qloballaşma, 1 bal isə ən zəif qloballaşma səviyyəsini ifadə edir.

Ölkələrin dünya çapında rolunu dəyərləndirən iqtisadi göstəricilər sırasında Rəqabətlilik Reytinqi də mühüm əhəmiyyət kəsb edir. Ölkələrin Rəqabətlilik Reytinqi Dünya İqtisadi Forumu (*World Economic Forum*) tərəfindən hər il yayınlanan "Qlobal Rəqabətlilik Hesabatı" (*The Global Competitiveness Report*) çərçivəsində hazırlanan Qlobal Rəqabətlilik İndeksinə əsaslanır. Qlobal Rəqabətlilik İndeksi (*Global Competitiveness Index*) ölkə iqtisadiyyatlarının əsas müqayisəli üstünlüklərinin və çatışmazlıqlarının müəyyən edilməsinə imkan verən 12 meyar - "instutlar" (*institutions*), "infrastrukur" (*infrastructure*), "makroiqtisadi mühit" (*macroeconomic environment*), "sağlamlıq və ibtidai təhsil" (*health and primary education*), "ali təhsil və peşə təhsili" (*higher education and training*), "əmtəə bazarının səmərəliliyi" (*goods market efficiency*), "əmək bazarının səmərəliliyi" (*labor market efficiency*), "maliyyə bazarının inkişafı" (*financial market development*), "texnoloji hazırlıq" (*technological readiness*), "bazarın miqyası" (*market size*), "biznesin inkişafı" (*business sophistication*), "innovasiya" (*innovation*) və hər meyar üzrə alt indekslər əsasında tərtib edilir. Bu indeks elə bir şəkildə tərtib edilir ki, həm Qlobal Rəqabətlilik İndeksi üzrə, həm də onun ayrı-ayrı meyarları və alt indeksləri üzrə ölkələrin reytinqini əldə etməyə imkan verir. Hesabatın, eyni zamanda da İndeksin hazırlanması zamanı ümumi statistik göstəricilərdən və hesabatın əhatə etdiyi ölkələrdə biznes fəaliyyəti ilə məşğul olan 13 min iş adamı arasında keçirilən sorğunun (*Executive Opinion Survey*) nəticələrindən istifadə edilir.

Qloballaşma reytinqləri sırasında Dünya İdarəetmə İndeksi Reytinqinə də önəm verilir. Dünya İdarəetmə İndeksi (*WGI-World Governance Index*) Yeni Dünya İdarəetmə Forumu (*FnWG-The Forum for a New World Governance*) tərəfindən

dünyada idarəetmənin mövcud səviyyəsini və təkamülünü qiymətləndirmək məqsədilə tərtib edilir. İndeks 5 əsas göstərici - "sülh və təhlükəsizlik" (*peace and security*), "qanunun aliliyi" (*rule of law*), "insan hüquqları və iştirakçılıq" (*human rights and participation*), "dayanıqlı inkişaf" (*sustainable development*), "insan inkişafı" (*human development*) və alt-göstəricilər əsasında formalaşdırılır. İndeksin hesablama metodu BMT-nin İnsan Hüquqları İndeksinin hesablanma metodu ilə oxşardır. Yekun göstərici 0 (*ən zəif*) və 1 (*ən yüksək*) bal ilə ifadə olunur. Dünya İdarəetmə İndeksi çərçivəsində, həmçinin, bu indeksi təşkil edən əsas göstəricilər üzrə də ölkənin reytinqi tərtib edilir. İndeksin hazırlanmasında istifadə olunan məlumatlar müxtəlif beynəlxalq təşkilatlar və bəzi transmilli konsaltinq şirkətlərinin hesabat və araşdırmalarından əldə edilir.

Müstəqil Fondların Linaburg-Maduell Şəffaflıq İndeksinin də (*The Linaburg-Maduell Transparency Index*) ölkələr reytinqinin ölçülməsində özünə məxsus yeri vardır. Bu indeks ölkələrdə müstəqil zənginlik fondlarının şəffaflıq reytinqini müəyyənləşdirən, İsveçrənin Suveren Zənginlik Fondu İnstitutuda (*The Sovereign Wealth Fund Institute*) Carl Linaburg və Maykl Maduell tərəfindən formalaşdırılmış reytinq göstəricisidir. Hazırda İnstitutun davam edən layihələrindən biridir. İndeks şəffaflığın müəyyən olunmasında hər biri 1 balla qiymətləndirilən 10 əsas prinsipə əsaslanır:

1. Fond yaranma səbəbi, zənginliyinin mənbəyi və hökumət mülkiyyətinin strukturu da daxil olmaqla tarixi reallıqlarını ictimaiyyətə təqdim edir.
2. Fond vaxtaşırı müstəqil auditordan keçmiş illik hesabatlar hazırlayaraq ictimaiyyətə təqdim edir.
3. Fond şirkət səhmlərinin mülkiyyət payları və səhmlərin yerləşmə coğrafiyasını ictimaiyyətə təqdim edir.
4. Fond məcmu portfel bazar dəyəri, gəlirləri və menecment kompensasiyasını ictimaiyyətə təqdim edir.
5. Fond etik standartlar, investisiya siyasətləri və təlimatların qüvvəyə minməsi haqqında məlumatları ictimaiyyətə təqdim edir.
6. Fond aydın strategiya və məqsədlərini ictimaiyyətə təqdim edir.
7. Fond, əgər uyğundursa, filiallarını və əlaqə vasitələrini eyniləşdirir.
8. Fond, əgər uyğundursa, xarici menecerləri eyniləşdirir.
9. Fond öz internet səhifəsini idarə edir.
10. Fond baş ofisin ünvanı, telefonu, faks kimi əlaqə vasitələrini ictimaiyyətə təqdim edir.

Linaburg-Maduell Şəffaflıq İndeksi ölkələrin müstəqil zənginlik fondlarının şəffaflıq səviyyəsini 10 ballıq sistem çərçivəsində qiymətləndir. 1 bal minimum səviyyəni, 10 bal isə maksimum səviyyəni göstərir. İnstitut bir fondun məqbul şəffaflıq səviyyəsində olması üçün ən azı 8 bal almasının zəruri olduğunu tövsiyyə edir. İndeks hər rüb üzrə ildə 4 dəfə tərtib edilir.

Ölkələrin maliyyə-iqtisadi qüdrəti bir sıra ixtisaslaşmış beynəlxalq təşkilatlar tərə-

findən hesabatlandırılan kredit reytinqləri ilə hesablanır. Ölkələrin müstəqil qiymətli kağızlar (*sovereign bonds*) üzrə uzunmüddətli xarici valyuta kredit reytinqləri, əsasən, üç agentlik - "Standard & Poor's", "Fitch", "Moody's" tərəfindən həyata keçirilir. "Standard & Poor's" (*S&P*) şirkətinin kredit reytinqləri (*Standard & Poor's" Financial Services LLC*) maliyyə xidmətləri göstərən "Standard & Poor's" agentliyi tərəfindən hazırlanan kredit reytinqləridir. "Standard & Poor's" valyuta ehtiyatları və qiymətli kağızlara dair maliyyə tədqiqatı və təhlilini həyata keçirən "McGraw-Hill" Şirkətlər Qrupunun bir bölməsidir və onun məhsullarına kredit reytinqləri, kapital araşdırması, indekslər, risk həlli yolları, qiymətləndirmələr və məlumat xidmətləri daxildir. 1860-cı ildə təsis olunan bu şirkətin baş ofisi ABŞ-ın Nyu-York şəhərindədir. "Standard & Poor's", "BBB-" və ondan yüksək kredit reytinqinə malik qiymətli kağızları investisiyaya münasib dərəcəyə (*investment grade*), "BB+" və ondan aşağı kredit reytinqinə malik qiymətli kağızları isə spekulyativ dərəcəyə (*speculative grade*) aid edir.

Fitç Reytinq LTD-nin kredit reytinqi (*Fitç Reytinq LTD*) beynəlxalq kredit bazarlarına kreditqabiliyyətliyi üzrə müstəqil və əsaslandırılmış qiymətləndirmələr təqdim edən Fitch Ratings LTD beynəlxalq agentliyini (*beynəlxalq kredit agentliklərinin "böyük üçlüyünə" daxildir*) kredit reytinqi. Fitch Ratings LTD 1913-cü ildə təsis olunmuşdur. Baş ofisləri ABŞ-ın Nyu-York şəhərində və Böyük Britaniyanın London şəhərində yerləşir. Agentliyin tətbiq etdiyi kredit reytinqləri uzunmüddətli və qısamüddətli olmaqla iki yerə bölünür. Fitch qiymətləndirmə metodologiyası "Standard & Poor's" qiymətləndirmə metodologiyası ilə oxşardır.

"Moody's" şirkətinin kredit reytinqləri (*Ratings agency "Moody's*) Moody's şirkəti tərəfindən standartlaşdırılmış reytinq əmsallarından istifadə etməklə borcalanların kredit qabiliyyətliliyini qiymətləndirən reytinq göstəricisidir. 1900-cu ildə Con Mudi tərəfindən təsis edilən "Moody's" şirkəti (*Moody's Investors Service*) özəl və dövlət təşkilatlarında maliyyə tədqiqatı və təhlillərini həyata keçirir. Dünya kredit reytinqi bazarının 40%-ni əhatə edən şirkət, həmçinin, standartlaşdırılmış reytinq əmsallarından istifadə etməklə borcalanların kredit qabiliyyətliliyini qiymətləndirir. "Moody's" də, digərləri kimi, kredit reytinqlərini investisiyaya münasib dərəcə (*investment grade*) və spekulyativ dərəcə (*speculative grade*) olmaqla iki qrupa ayırır.

"İnstitutional İnvestor" şirkətinin kredit reytinqi müstəqil borcların ödənilməməsi ehtimalı üzrə hüquqi şəxs "İnstitusional İnvestor" tərəfindən 100 ballıq sistem üzrə tərtib edilən ölkə kredit reytinqidir. İldə iki dəfə ekspert qiymətləndirmələrinə əsaslanan bu reytinq 0-100 ballıq sistem üzrə müəyyənləşdirilir. 0 bal borcun ödənilməmə ehtimalının ən yüksək, 100 bal isə ən aşağı olduğunu ifadə edir. "İnstitusional İnvestor", həmçinin, biznes aləmini beynəlxalq maliyyə üzrə müxtəlif nəşrlərlə təmin edir.

Dünya ölkələrinin sosial-iqtisadi durumu bir sıra monetar və fiskal parametrlər üzrə də reytinqləşdirilir. Bu sırada hər hansı bir dövlətin borcunu əks etdirən Xarici borc reytinqidir Dövlət Borcu Reytinqi bir qədər ön sırada dayanır. Dövlət Borcu Reytinqi (*State Debt Rating*) dövlət borcunun ÜDM-dəki payını əks etdirən reytinq

göstəricisidir. Dövlət borcu büdcə defisitini bağlamaq üçün dövətin maliyyə əvəzləmələrinin nəticəsi olaraq büdcə profisiti çıxılmaqla ötən illərin kəsrləri məbləğlərinin məcmusuna bərabərdir. Dövlət borcu göstərici ölkənin maliyyə müstəqilliyini xarakterizə edir.

Monetar və fiskal parametrlər göstəriciləri baxımından hər bir ölkənin Qızıl-Valyuta Ehtiyatları reytinqi də xüsusi əhəmiyyət daşıyır. Qızıl-Valyuta Ehtiyatları (*Foreign Exchange Reserve*) maliyyə-kredit tənzimlənməsini həyata keçirən dövlət orqanlarının nəzarətində olan və istənilən an tədiyə balansını defisitini maliyyələşdirmək, valyuta bazarlarına müdaxilə etmək, milli valyuta kursuna təsir göstərmək və digər bu kimi məqsədlərə xidmək üçün istifadə olunan bilən xarici valyuta və qızıl formasında kənar yüksək likvidli aktivlər. Qızıl-Valyuta Ehtiyatları qızıl külçə və sikkələrdə, xarici valyutada xarici banklardakı hesablarda və xarici banknot və sikkələrdə mərkəzi bankalara və xəzinədarlığa aid yüksək likvidli aktivlərdən ibarətdir.

Ölkələrin vergitutma baxımından reytinqi müəyyənləşdirilir. Bu müəyyənləşdirmədə ən etibarlı mənbələrdən biri DB tərəfindən hər il nəşr edilən "Biznes Etmək Hesabatı" (*Doing Business Report*) çərçivəsində tərtib olunan Vergitutma Reytinqidir (*Ranking Of Paying Taxes*) Hesabatdakı Vergitutma Reytinqi aşağıdakı üç əsas göstərici əsasında təyin olunur: 1) bir ildə vergi ödəmələrinin sayı (*Payments, number per year*): Orta hesabla ölkədə orta ölçülü bir firmanın bir ildə vergi ödəmələrinin sayını ifadə edir; 2) bir ildə vergi ödəmələrinə sərf olunan saatlar (*time, hours per year*): Orta hesabla ölkədə orta ölçülü bir firmanın bir ildə vergi ödəmələrinə sərf etdiyi saatları ifadə edir; 3) məcmu vergi dərəcəsi (*total tax rate, % of profit*): orta hesabla ölkədə orta ölçülü bir firmanın, sosial müdafiə ayırmaları da daxil olmaqla, ödədiyi bütün vergilərin mənfəətindəki payını ifadə edir.

### 8.8. Milli Hesablar Sistemi və tədiyə balansı

Milli Hesablar Sistemi, MHS (*System of National Accounts, SNA*) makroiqtisadi səviyyədə iqtisadiyyatın inkişafının qarşılıqlı göstəricilər sistemini əks etdirərək müasir dünyada iqtisadçılar, siyasətçilər, dövlət xadimləri, sosioloqlar, maliyyəçilər və s. arasında universal iqtisadi-statistik dilə malik olan bir ünsiyyət vasitəsi kimi də çıxış edir. BMT-nin beynəlxalq iqtisadi təşkilatları, BVF, BYIB və digərləri fəaliyyətlərində MHS göstəricilərindən genişliklə istifadə edir və onun inkişafına da töhfələr verirlər. MHS bütövlükdə iqtisadi proseslərə razılıqlı təsvir verərək onun ümumi xarakterinin daha üstün açılışını təmin edir.

MHS mühüm makroiqtisadi göstəriciləri: mal və xidmətlərin buraxılış həcmlərini, məcmu gəlirləri və xərcləri bir-birinə bağlayır. MHS-ə ölkənin milli iqtisadiyyatı ilə qalan dünya arasında əlaqələri əks etdirən xarici əməliyyatların hesabları daxildir.

MHS aşağıdakı bir neçə mühüm funksiyanı yerinə yetirir:

❑ müəyyən vaxt kəsiyində istehsal həcmlərinin ölçülməsi;

❑ iqtisadiyyatda mövcud meyillərin aşkar edilməsi;
❑ dövlətin iqtisadi siyasətinin təşkili.

MHS ilə əlaqədar olan göstəricilərə ÜDM, ÜMM, ümumi milli sərəncamda olan gəlir, son istehlak, ümumi yığım, milli yığım; təmiz kreditləşmə və təmiz borc, milli sərvət, xarici ticarət saldosu aiddir.

Dünyanın bir çox ölkələrində MHS iqtisadiyyatın tənzimlənməsi sahəsində siyasi qərarların təhlili və qəbul edilməsi üçün bütün səviyyələrdə hakimiyyət orqanları tərəfindən geniş istifadə olunur. MHS göstəricilərində dövlətin iqtisadi və sosial siyasətinin bütün yeni aspektləri öz əksini tapır.

MHS kəmiyyət qiymətləri almağa və onların əsasında təkrar istehsal proporsiyalarını, iqtisadiyyatın sahəvi və institusional strukturunu, investisiya mühiti və maliyyə vəziyyətini, əhalinin rihaf halının səviyyəsini, xarici aləmdən asılılığın dərəcəsini, iqtisadiyyatın inkişaf dinamikasını, dövlət siyasətinin və ya müxtəlif hadisələrin ayrı-ayrı institusional vahidlər qrupunun hərəkətinə təsirini və s. təhlil etməyə imkan verir. MHS məlumatları bazarın konyunkturunu qiymətləndirmək, özünün iqtisadi siyasətində strategiya və praktikanın hazırlanması üçün müxtəlif növ şirkətlər və korporasiyalar tərəfindən istifadə oluna bilər.

MHS praktikada Mərkəzi bankla generasiya edən tədiyə balansı, dövlət büdcəsi, maliyyə moderni kimi digər makroiqtisadi modellərlə sıx bağlıdır.

<u>Tədiyə balansı</u> və ya <u>ödəniş balansı</u> (*balance of payments*) dövlətin xarici iqtisadi əməliyyatlarının həcmini, strukturunu və xarakterinin kəmiyyət və keyfiyyət ifadəsini əks etdirir. Dünyada baş verən müxtəlif meyillər: beynəlxalq əmək bölgüsündə olan dəyişikliklər, istehsalın və kapitalın beynəlmiləlləşmə, milli iqtisadiyyatları gələcəkdə möhkəmləndirmək məqsədilə onların qoruyub saxlanması və xüsusiləşdirilməsi və s. ona təsir edir.

Tədiyə balansı, ehtiyat deyil, axın anlayışıdır və o İkili Qeydiyyat Sisteminə görə tutulur. Xarici aləm qarşısında alacaq hüququ doğuran əməliyyatlar *debet əməliyyatlardır* və əsasən, ölkəyə valyuta daxil olmasını təmin edir. Xarici aləm qarşısında borc doğuran əməliyyatlar *kredit əməliyyatlardır* və əsasən, ölkədən valyuta çıxışı yaradır.

Tədiyə balansı bütövlükdə həmişə rəsmi tarazlığa gətirilir və özündə bir sıra subhesabları birləşdirir. Ən çox yayılmış subhesab BMT tərəfindən qəbul olunmuş "Tədiyə balansı üzrə təlimat" əsasında BVF tərəfindən işlənib hazırlanmış balans tərtibetmə metodudur. Həmin metoda görə, balans iki böyük hissəyə ayrılır: cari əməliyyatlar hesabı və kapitalın hərəkəti hesabıdır.

Tədiyə balansının defisiti barədə danışarkən, tədiyə balansının cari əməliyyatları üzrə tədiyələr və daxilolmaların qeyri-balanslığı nəzərdə tutulur ki, bu zaman valyutada olan daxilolmalar ödəmələrdən azdır. Tədiyə balansının mənfi (*passiv*) saldosu meydana çıxır. Aktiv tədiyə balansında daxilolmalar, müvafiq olaraq cari əməliyyatlar üzrə olduğundan yüksəkdir. Tədiyə balansının müsbət (*aktiv*) saldosu yaranır. Bu halda ölkə müxtəlif formalarda kapitalın ixracı üçün öz müsbət qalığını istifadə edir. Əgər

bütövlükdə (*kapitalın hərəkəti hesabını nəzərə almaqla*) tədiyə balansı fəaliyyətsiz qalırsa, onda fəaliyyətsiz qalıq xarici valyuta ehtiyatları balansının maddələrini dəyişdirmək hesabına, balansın həmin maddəsi tükəndikdə isə xarici valyutanı bir-birinə verən beynəlxalq banklar tərəfindən beynəlxalq kreditlərlə istiqrazlar şəklində balanslaşdırılır. Bundan başqa, balansı tarazlığa gətirən tədiyə balansının "Boş yerlər və səhvlər" maddəsi mövcuddur.

Tədiyə balansı ilə yanaşı, hesab balansı da təhlil edilir ki, bu da ölkənin müəyyən tarix üçün xarici dövlətlər qarşısında tələb və öhdəliklərinin vəziyyətini xarakterizə edir.

Azərbaycan Respublikasının tədiyə balansının tərtibi müvafiq qanunvericilik əsasında həyata keçirilir və hər il Mərkəzi Bank tərəfindən hazırlanır. Banklardan avtomatik rejimdə yığılan və işlənilən hesabatlar ölkənin tədiyə balansının tamlığını və düzgünlüyünü təmin etmək üçün əsas informasiya mənbəyi kimi çıxış edir.

## 8.9. İqtisadiyyatın açıqlılıq meyarları və göstəriciləri

Açıq iqtisadiyyat (*open economy*) dünyanın bütün qalan hissəsi ilə qarşılıqlı fəaliyyətdə olan iqtisadiyyatdır. Bu mal və xidmətlər ticarəti, kapitalın hərəkəti, informasiyaların və texniki yeniliklərin ötürülməsi, işçi qüvvəsinin miqrasiyası deməkdir. Təsərrüfatların əksəriyyəti bu əlaqələrin bəzi formaları üçün nisbi açıqdır və yalnız bir neçə ölkədə iqtisadiyyat tamamilə açıqdır.

Açıq iqtisadiyyat modeli həm ölkə daxilində, həm də onun hüdudlarından kənarda iqtisadi fəaliyyətin azad olmasını nəzərdə tutur.

Açıq iqtisadiyyat iqtisadi münasibətlərin bütün subyektlərinin beynəlxalq mal, xidmətlər, kapitallar və digər istehsal amilləri beynəlxalq bazarında məhdudiyyətsiz əməliyyat həyata keçirə bilən iqtisadiyyatdır. Qapalı - avtarkiyalı iqtisadiyyatdan fərqli olaraq, burada xarici ticarət sövdələrinin azadlığı müşahidə edilir. Burada sərbəst valyuta kursu müəyyən olunur, tənzimlənmə prosesləri isə valyuta ehtiyatları və normativlər vasitəsilə baş verir.

Açıq iqtisadiyyat o deməkdir ki, bütün ölkələr beynəlxalq əmək bölgüsündə fəal iştirak edir. Burada mal və xidmətlərin böyük hissəsini ixrac və idxal edilir, ölkələr beynəlxalq maliyyə-iqtisadi münasibətlər sisteminə daxildirlər və beynəlxalq maliyyə bazarlarından kreditlər alır və verirlər.

Açıq iqtisadiyyatda xarici iqtisadi siyasətin spesifik xüsusiyyəti milli iqtisadiyyatın fəaliyyətinin daha çox səmərəliliyinə nail olmaq üçün xarici iqtisadi fəaliyyətin üstünlüklərindən maksimal istifadədir. Dünya təcrübəsi göstərir ki, qapalı iqtisadiyyatlı ölkələr bir qayda olaraq dünya iqtisadi əlaqələrində iştirak edən ölkələrdən daha yoxsul olurlar. Belə ki, birincilər yeni ideya və texnologiyalardan, xarici investisiyalardan, informasiyadan və s. təcrid olunmuşdur.

Açıq iqtisadiyyat xarici ticarət sahəsində dövlət inhisarını istisna edir və müştərək sahibkarlığın müxtəlif formalarından fəal istifadə, azad sahibkarlıq zonalarının təşkilini

tələb edir, həmçinin, xarici kapitalın, malların, texnologiyaların, informasiyanın və işçi qüvvəsinin axnı üçün daxili bazarın düşünülmüş əlyetərliliyini nəzərdə tutur. İqtisadiyyatın acıqlılıq dərəcəsi daha çox təbii resurslarla təmin edilmədən, əhalinin sayından, daxili bazarın tutumundan və əhalinin alıcılıq qabiliyyətindən asılıdır.

İqtisadiyyatın acıqlılığı dərəcəsi üzrə ölkələri aşağıdakı qruplara ayırmaq olar:

- ❑ nisbətən qapalı iqtisadiyyatlı ölkələr (*ixracın payı ÜDM-in 10%-dən azdır*);
- ❑ nisbətən açıq iqtisadiyyatlı ölkələr (*ixracın payı ÜDM-in 35%-dən çoxdur*);
- ❑ birinci iki qrup arasında yer alan ölkələr.

Göstərilən meyarlar əsas götürülərək, daha açıq iqtisadiyyatlı ölkələr sırasına Honkonq, Sinqapur, Yeni Zelandiya, İsveçrə, acıqlılığı daha az iqtisadiyyatlı ölkələr sırasına isə KXDR və Kuba daxil edilir. Lakin bununla belə, vurğulanmalıdır ki, ÜDM-də ixracın payı iqtisadi sistemin yeganə acıqlılıq indikatoru deyil.

İqtisadiyyatın acıqlılıq dərəcəsinin ölçülməsi üçün istifadə olunan göstəricilər kimi daha çox aşağıdakılar tətbiq edilir:

1. Ölkənin dünya ticarətində fəallığını xarakterizə edən göstəricilər. Buraya sahədaxil beynəlxalq ixtisaslaşma, idxal, ixrac, xarici ticarət kvotası, idxal və ixracın strukruru daxil edilir. Sahədaxili beynəlxalq ixtisaslaşma aşağıdakı xüsusi əmsal vasitəsi ilə hesablanır:

$$Ə_{SBİ} = 100 \times \frac{\text{İxrac - İdxal}}{\text{İxrac + İdxal}}$$

Bu göstərici -100-lə +100 arasında tərəddüd edir. Ən son nöqtələr arasında yerləşən göstəricilər ölkənin sahədaxili beynəlxalq ixtisaslaşmaya cəlb edilməsi dərəcəsini xarakterizə edirlər.

İdxal, ixrac və xarici ticarət kvotası optimallığı ölkənin dünya ticarətində fəallığını xarakterizə edən əsas göstəricilər olaraq açıq iqtisadiyyatın genişliyi ilə xarakterikdir.

İxracın strukturu ixrac olunan malların növləri və emal dərəcəsinə görə nisbəti və ya xüsusi çəkilərini ifadə edir. Belə ki, ölkə ixracında emal sahələrinin məhsulunun yüksək xüsusi çəkisi, bir qayda olaraq, məhsulları ixraca gedən sahələrin elmi-texniki və istehsal səviyyəsinə dəlalət edir.

İdxalın strukturu isə xüsusilə ölkəyə gətirilən xammalın və hazır son məhsulların həcmlərinin nisbəti. Bu göstərici ölkə iqtisadiyyatının xarici bazardan asılılığını və milli iqtisadiyyatın inkişaf səviyyəsini xarakterizə edir.

Ölkənin dünya ticarətində fəallığını xarakterizə edən göstəricilər sırasına ölkənin dünya ÜDM və ya ÜMM-in istehsalında payı ilə onun dünya ticarətində payının müqayisəli nisbəti də qatılır. Onların göstəricilərinin qiyməti yüksək olduqca, ölkə beynəlxalq iqtisadi münasibətlərə daha çox cəlb olunmuş hesab edilir.

2. Kapital ixracının göstəriciləri (*kapitalın beynəlxalq hərəkəti*):

- ❒ ölkənin xarici investisiyalarının (aktivlərinin) həcmi və onun ölkənin milli sərvətlərinə nisbəti. Bir qayda olaraq, iqtisadiyyatının açıqlığı yüksək olan ölkə başqa ölkələrin iqtisadiyyatlarına kapital qoymaq üçün daha böyük imkanlara malikdir;
- ❒ ölkənin xaricdə birbaşa xarici investisiyalarının həcminin ölkənin öz ərazisində olan birbaşa xarici investisiyalarının həcminə nisbəti. Bu nisbət beynəlxalq inteqrasiya proseslərinin inkişafını xarakterizə edir və kapitalın investisiyalaşdırılması subyektləri olan ölkələrin milli iqtisadiyyatlarının fəaliyyət effektivliyi və açıqlılığı səviyyəsi ilə sıx bağlıdır;
- ❒ ölkənin xarici borcunun həcmi və onun həmin ölkənin ÜDM və ya ÜMM-nə nisbəti.

Dünya ölkələrindəki iqtisadi azadlığın və biznesyaratma vəziyyətinin dəyərləndirilməsində iqtisadi azadlıq və biznes etmək asanlığı reytinqlərindən də genişliklə istifadə olunur.

<u>İqtisadi Azadlıq Reytinqi</u> (*Ranking of Index of Economic Freedom*) “The Wall Street Journal” və Vaşinqtonun bir nömrəli “beyin mərkəzi” hesab olunan “The Heritage Foundation” tərəfindən hər il birgə yayınlanan İqtisadi Azadlıq İndeksi (*Index of Economic Freedom*) adlı hesabatla dünya ictimaiyyətinə təqdim olunur. İkinci belə hesabat Kanadanın “Fraser İnstitute” adlı “beyin mərkəzi” tərəfindən yayınlansa da, hazırda bu sahədə ən nüfuzlu hesabat “Azadlıq İndeksi hesab olunur.

İqtisadi Azadlıq İndeksi ölkələrdə iqtisadi azadlıq səviyyəsini kompleks şəkildə qiymətləndirməyə imkan verən 10 komponent, başqa sözlə, alt indeks - “biznes azadlığı” (*business freedom*), “ticarət azadlığı” (*trade freedom*), “fiskal azadlıq” (*fiscal freedom*), “hökumət xərcləməsi” (*government spending*), “monetar azadlıq” (*monetary freedom*), “investisiya azadlığı” (*investment freedom*), “maliyyə azadlığı” (*financial freedom*), “mülkiyyət hüquqları” (*property rights*), “korrupsiyadan azadlıq” (*freedom from corruption*), “əmək azadlığı” (*labor freedom*) əsasında formalaşdırılır ki, bu da məşhur ingilis iqtisadçısı A.Smitin “Millətlərin zənginliyi” əsərində irəli sürdüyü klassik iqtisadi azadlıq nəzəriyyəsinə əsaslanır. İndeksin hazırlanması zamanı DB, BVF, İqtisadi Kəşfiyyat Birliyi kimi nüfuzlu beynəlxalq qurumların statistik məlumatlarından istifadə edilir. Hesabatda həm iqtisadi azadlıq üzrə, həm də onu təşkil edən ayrı-ayrı komponentlər üzrə ölkələrin reytinqini əldə etmək mümkündür.

<u>Biznes Etmək Asanlığı Reytinqi</u> (*Ease of Doing Business*) DB tərəfindən hər il yayınlanan “Biznes Etmək Hesabatı” çərçivəsində tərtib edilir. Biznes Etmək Asanlığı Reytinqi dünya ölkələrində işgüzar fəaliyyətin tənzimlənməsi və tənzimləmə sisteminin effektivliyini qiymətləndirməyə imkan verən 9 göstərici qrupu - “biznesə başlama” (*starting a business*), “inşaat lisenziyalarının verilməsi” (*dealing with construction permits*), “mülkiyyətin qeydiyyatı” (*registering property*), “kreditin əldə edilməsi” (*getting credit*), “investorların qorunması” (*protecting investors*), “vergitutma” (*paying taxes*), “beynəlxalq ticarət” (*trading across borders*), “müqavilələrin icrasının təmini”

(*enforcing contracts*) və "biznesin dayandırılması" (*closing a business*) üzrə formalaşdırılır. Hesabatda həm Biznes Etmək Asanlığı üzrə, həm də onu təşkil edən ayrı-ayrı göstəricilər qrupu üzrə ölkələrin reytinqini əldə etmək mümkündür. Hesabatın, eyni zamanda Biznes Etmək Asanlığı reytinqinin hazırlanması zamanı müxtəlif ölkələrdə fəaliyyət göstərən aparıcı beynəlxalq konsaltinq şirkətləri, banklar və dövlət qurumlarından əldə edilən müvafiq informasiyalardan istifadə edilir.

Bazar münasibətlərinin inkişaf etdiyi ölkələrdə iqtisadiyyatın açıqlılığı onun iqtisadi inkişafına təkan verən amil kimi dəyərləndirilir. Bu açıqlığın fövqündə həmin ölkədəki cəmiyyət formatı da əhəmiyyətini göstərir. İqtisadiyyatı açıq olan ölkələlərə, bir qayda olaraq, açıq cəmiyyət məkfurəsi xasdır ki, onun da xüsusi koseptual əsasları vardır. İlk dəfə "Açıq cəmiyyət" (*open society*) anlayışını 1932-ci ildə elmi dövriyyəyə fransalı filosof Anri Berqson (*1859-1941*) çıxarmışdır. Onun açıq cəmiyyət haqqındakı ideyaları XX əsrin ən nəhəng sosial mütəfəkkirlərindən olan Avstriya mənşəli ingilis filosofu Karl Raymund Popperin (*1902-1994*) "Açıq cəmiyyət və onun düşmənləri" kitabında daha radikal tərzdə inkişaf etdirilmişdir. K.Popper "açıq cəmiyyət" anlayışını totalitar cəmiyyətə antiteza olaraq qabartmışdır. Bu anlayış, həmçinin, siyasi və iqtisadi səciyyəvi "konstitusiya azadlıqları" prinsipinə də sosial ekvivalentdir. Digər tərəfdən müvafiq kitab II Dünya Müharibəsi illərində yazıldığına görə antifaşist xarakteri daşımışdır. K.Popperin tədqiqatları "Açıq cəmiyyət" nəzəriyyəsinin daha da inkişaf etməsinə zəmin yaratmış və bu arenanın yeni ideloq və təşviqatçılarını yetirmişdir. Müvafiq çevrədə London iqtisadi məktəbinin nümayəndəsi Fridrix fon Hayek (*1899-1992*) elmi çalışmaları ilə daha üstün fərqlənmişdir. Belə ki, çox zaman açıq cəmiyyət tipi onun "konstitusiya azadlığı" siyasi və iqtisadi anlayışına sosial ekvivalent olaraq da götürülür. Müasir mərhələdə açıq cəmiyyət konsepsiyasını məşhur maliyyəçi və filantrop Corc Soros (*1930*) daha müfəssəl inkişaf etdirmiş və bu diapazonda onun tərəfindən praktiki çevrədə Açıq Cəmiyyət İnstitutu - Soros fondu adlanan ayırca qlobal xeyriyyk təşkilatı yaradılmışdır.

## 8.10. Azərbaycanın nəqliyyat-kommunikasiya sistemləri

Azərbaycanın Şimal-Cənub, Şərq-Qərb nəqliyyat marşrutlarının kəsişdiyi məkanda yerləşməsi ona çoxvektorlu logistik imkanlar yaratmaqla nəqliyyat-kommunikasiya sisteminin inkişafını təmin edir. Azərbaycan həmişə dünyada baş verən nəqliyyatın texniki inqilablarının nəticələrini mənimsəyən ilklər sırasında olub və ölkədə nəqliyyat sistemin mənsub bütün aparıcı növlər təşəkkül tapab. Hazırda Azərbaycanın nəqliyyat-kommunikasiya sistemi əlverişli coğrafi məkan, inkişaf etmiş infrastrukrur, tranzit potensialı əhatəsində nəqliyyatın bütün əsas növlərini özündə birləşdirir. Ölkədə miqyaslı yük və sərnişin daşımalar həyata keçirilir. Statistikaya nəzər saldıqda görərik ki, 2017-ci ildə ölkədə bütün növ nəqliyyat vasitələri ilə 226,4 milyon ton yük, 2,0 milyard nəfər sərnişin daşınmış, yük dövriyyəsi 91,9 milyard ton/km, sərnişin dövriy-

yəsi isə 33,5 milyard sərnişin/km təşkil etmişdir. Yüklərin 14,4 milyon tonu dəmir yolu, 8,3 milyon tonu su, 144,8 milyon tonu avtomobil nəqliyyatı ilə daşınmış, 58,7 milyon tonu isə boru kəmərləri ilə nəql olunmuşdur. Dəniz limanlarında 10,8 milyon ton yükləmə-boşaltma işləri aparılmışdır. Həmin ildə Avropa-Qafqaz-Asiya - TRACECA nəqliyyat dəhlizi vasitəsi ilə 52,7 milyon ton yük daşınmışdır. Sərnişinlərin isə 1739,7 milyon nəfəri avtomobil, 2,4 milyon nəfəri dəmir yolu, 2,4 milyon nəfəri hava nəqliyyatı, 228,9 milyon nəfəri metro vasitəsilə daşınmışdır.

***Dəmir yolu nəqliyyatı.*** Azərbaycanda dəmir yolunun tikintisinin başlanması və onun sonrakı inkişafı neftin çıxarılması və emalı ilə sıx surətdə bağlı olmuşdur. Neftin daşınması uzun illər primitiv karvan üsulları ilə arabalarda yerləşdirilmiş taxta çəlləklərlə və tuluqlarla reallaşdırılırdı. Belə üsul baha başa gəlməsi ilə yanaşı neft işinin inkişaf etdirilməsinə də maneə yaradırdı. Bunun üçün də neft istehsalçıları böyük gəlirlər əldə edilməsi üçün dəmiryol xətlərinin çəkilişinə yüksək maraq göstərməyə başladılar. Beləliklə də, yaşadığımız coğrafiyada neft və onun sənaye istehsalı öncə Bakıda, sonra isə bütün Azərbaycanda dəmir relslər üzərində qurulan dəmir yolunun yaranmasına səbəb oldu. 1878-ci ildə dövlət fərmanına əsasən, Azərbaycanda ilk dəmir yolunun, uzunluğu 20 km olan Bakı-Suraxanı-Sabunçu xəttinin çəkilişinə başlanıldı və tikinti işləri 20 yanvar 1880-ci ildə başa çatdırıldı. Həmin gün, tarixə Azərbaycanda dəmir yolunun əsasının qoyulması kimi düşdü.

Azərbaycanda dəmir yolunun təşəkkülü ilə, dünyada ilk dəfə olaraq, neftin sisternlərdə daşınmasına başlanıldı. Artan neft gəlirləri bu nəqliyyat növünün ölkədə inkişafına yeni stimullar gətirdi. Sonrakı 20 il Azərbaycanda dəmiryol tikinitisinin yüksək inkişafı ilə qeyd olunmuşdur. 1883-cü ildə neftin Qara dəniz limanlarına çatdırılması üçün Bakı-Tiflis-Batumi, 1890-cı ildə isə Biləcəri-Dərbənd magistral xətləri çəkildi. 1900-cu ildə Dərbənd-Tixoretskaya xəttinin tikintisinin başa çatdırılmasından sonra Bakının dəmir yolları şimal istiqamətində ümumrusiya dəmir yolları şəbəkəsi ilə birləşdirildi. Beləliklə, 1901-ci ildə Azərbaycan daxilində uzunluğu 211 km olan Bakı-Dərbənd dəmiryolu istismara verildi. Bu da neftin qatarlarla Rusiyanın mərkəzi və qərb rayonlarına çatdırılmasına imkan yaratdı.

1925-ci ildə Ələt-Culfa yolunun Ələt-İmişli hissəsi, 1930-cu ilin mayında 283 km uzunluğunda Ələt-İmişli-Mincivan dəmiryolunun tikintisi başa çatdırıldı. 1936-cı ildə 39 km uzunluğunda Mincivan-Qafan dəmir yolu tikintisi istifadəyə verildi. II Dünya Müharibəsi illərində uzunluğu 445 km olan Ələt-Mincivan-Culfa, Osmanlı-Astara dəmir yolu və həmin dəmir yolundan uzunluğu 35 km olan Salyan-Neftçala köməkçi dəmir yolu istifadəyə verildi. 1963-65-ci illərdə Yevlax-Bərdə-Ağdam dəmir yolu tikildi və 1978-ci ildə 105 km qolla Xankəndinə qədər uzadıldı. 1985-ci ildə uzunluğu 162 km Yevlax-Şəki-Balakənd dəmir yolu istismara verildi.

XX əsrin əvvələrində elektrikləşmə sferasında baş verən inqilabi dəyişikliklər dəmir yolu şəbəkəsinə də təsir etfi. Elektrikləşdirilmə Sovet İttifaqının dəmir yollarında da tətbiqini tapdı. Bu iş ittifaqda 1926-cı ildə ilk dəfə olaraq Azərbaycanda, Bakı-Sabunçu

xəttində həyata keçirildi. II Dünya Müharibəsindən sonrakı illərdə, xüsusən də, 1960-70-ci illərdə keçmiş SSRİ-nin digər təsərrüfat sahələrində inkişafın sürətləndirilməsi ilə əlaqədar respublika dəmir yolunda başqa növ yüklərin daşınmasının həcmi də artdı.

Azərbaycanda dəmir yolu ilə yük göndərmənin maksimal həcmi 1987-ci ilə təsadüf edir və bu zaman 44,5 milyon ton yük, o cümlədən 12,9 milyon ton neft və neft məhsulları daşınmışdır. İllik sərnişindaşımanın həcmi isə 5-6 milyon sərnişin olmuşdur. Neft və neft məhsullarının ən yüksək daşınma həcmi 1970-ci ildə yerinə yetirilmişdir. 1980-ci illərin sonunda Azərbaycan dəmir yolunda yük dövriyyəsi 43 milyard ton-kilometrə çatmışdır.

Azərbaycanda dəmir yolunun ümumi açıq uzunluğu 4277,0 km, o cümlədən baş yolların açıq uzunluğu 2897,5 km, istismar uzunluğu 2066,0 km, stansiya və xüsusi yolların açıq uzunluğu isə 1219,1 km təşkil edir. Bütün yolların 802,3 km-i ikixətlidir. Yolun ümumi istismar uzunluğundan 1248,0 km (*60%*) elektrikləşdirilmiş, 818,0 km (*40%*) isə teplovoz dartısı ilə işləyir. Dəmir yolu xətlərinin yarısından çoxu, yəni 1527,7 km avtoblokirovka, 481,5 km mərkəzləşdirlmiş tənzimləmə ilə, qalanı isə yarımavtomatik blokirovka ilə təchiz edilmişdir. Yolun 170, o cümlədən 4 çeşidləmə, 2 sərnişin, 22 yük, 130 aralıq, 12 sahə stansiyası vardır. Bunlardan ikisi - Biləcəri və Şirvan iri avtomatlaşdırılmış təpə-çeşidləmə stansiyasıdır. 12 stansiya zəruri maşın və mexanizmlərlə təchiz edilmiş konteyner meydançalarına, 3 stansiya (*Keşlə, Gəncə və Xırdalan*) iri həcmli konteynerlərlə əməliyyatlar aparmaq qabiliyyətinə malikdirlər. Ölkədə dəmir yolunun istismarı "Azərbaycan Dəmir Yolları" QSC tərəfindən həyata keçirilir (*2017*).

Ermənistanın təcavüzü nəticəsində Azərbaycana məxsus dəmir yolunun 240,4 km sahəsi işğal altına düşmüş, bunun nəticəsində ərazidəki dəmir yolu infrastrukturu və hərəkət tərkibləri məhv edilmişdir. Mehri-Kərçivan sahəsində qatarların hərəkətinin dayandırılması ilə Naxçıvan Muxtar Respublikası ölkədən təcrid olunaraq blokadaya məruz qalmışdır.

Azərbaycana və respublikadan kənara dəmir yolu vasitəsi ilə çeşidli məhsullar daşınır. Dəmir yolu nəqliyyatı vasitəsi ilə Azərbaycandan ixrac olunan əsas mallar sırasında xam neft, neft məhsulları, kimya sənayesi məhsulları, pambıq mahlıcı, tütün və tütün məmulatları, qara metal və onlardan hazırlanan məmulatlar, alüminium və ondan hazırlanan məmulatlar, meyvə-tərəvəz, bitki və heyvan mənşəli yağlar, alkoqollu və alkoqolsuz içkilər və s. daxildir. İdxal olunan əsas mallar isə yeyinti məhsulları (*ət, süd, taxıl, un, şəkər, yağ*), maşın, mexanizm, elektrik cihazları, avadanlıqlar və onların hissələri, nəqliyyat vasitələri və onların hissələri, qara metallar və onlardan hazırlanan məmulatlar, oduncaq və ondan hazırlanan məmulatlar, neft qazı və digər qazaoxşar karbohidrogenlər, mebel və onun hissələri, əczaçılıq məhsulları və s.-dir.

Azərbaycan dəmir yolu sistemində 326 lokomotiv (*o cümlədən 199 teplovoz və 127 elektrovoz*), 18473 yük vaqonu, 669 sərnişin vaqonu, 13 depo istismardadır (*2017*).

Azərbaycan ərazisi üzrə dəmir yolu ilə təmin olunması hər 1000 $km^2$ 21,0 km təşkil

edir. MDB ölkələri ilə müqayisədə həmin göstəricilər, müvafiq olaraq, Ukraynada 37,6 km, Moldovada 43,1 km, Belarusiyada 26,5 km, Gürcüstanda 20,1 km, Rusiyada 5,0 km, Özbəkistanda 7,8 km, Qazaxıstanda 5,2 km, Qırğızstanda 1,8 km, Tacikstanda 3,2 km, Türkmənistanda 4,3 km təşkil edir. Baltikyani ölkələrdə - Litvada 30,8 km, Latviyada 37,3 km və Estoniyada isə 22,3 km-ə bərabərdir. Avropa ölkələrində isə hər 1000 $km^2$ əraziyə düşən dəmir yoluna görə ölkələri iki qrupa ayrlılır. I qurup ölkələrə hər 1000 $km^2$ 50 km-dən 100 km və çox dəmir yolu düşən (*Belçika 114 km, Çexiya 102,0 km, Macarıstan 83,5 km, AFR 86,1 km, Avstriya 75,5 km, Fransa 62,6 km, İtaliya 65,0 km, Danimarka 63,7 km, Böyük Britaniya 69,3 km*), II qrup ölkələrə isə hər 1000 $km^2$ əraziyə 20 km-dən 50 km-dək dəmir yolu düşür. Asiya ölkələrində, Yaponiyanı çıxmaq şərti ilə (*75,8 km*), dəmir yolunun iqtisadi göstəriciləri Avropadan xeyli geri qalır. Qalan bütün ölkələr ərazinin nəqliyyatla təmin olunmasına görə ikinci qrupa aid edilir (*Koreya Respublikası 31,4 km, ÇXR-də 5,5 km, İran 4,6 km, Hindistan 19,5 km, Vyetnam 7,6 km*). Ərazinin dəmir yolu ilə təminatında Amerikada aparıcı yeri ABŞ, Kanada və Meksika ölkələri tuturlar (*ABŞ 20,2 km, Kanadada 19,4 km, Meksikada isə 13,4*).

Dəmir yolunun əhali üzrə təminatında MDB ölkələri arsında kəskin fərq müşahidə edilmir. Qazaxıstanda hər 1000 nəfər əhaliyə 1,0 km, Rusiyada 0,6 km, Ukraynada 0,4 km, Belarusiyada 0,5 km, Özbəkistanda 0,2 km, Gürcüstanda 0,3 km, Moldavada 0,3 km, Qırğızıstanda 0,1 km tacik və Türkmənistanda 0,7 km təşkil edir.

Hazırda Azərbaycanın dəmir yolu nəqliyyatı sistemində Avropa ilə Asiya arasında daşımalarda yekun bənd - Bakı-Tbilisi-Qars dəmir yolu xəttinə yeni yüklərin cəlb edilməsi mühüm əhəmiyyət kəsb edir. Bu xəttin tarixi İpək Yolu üzərində qurulması region ölkələri üçün onun cəlbediciliyini artırır.

Bakı-Tbilisi-Qars dəmiryolu xətti, BTQ (*Baku-Tbilisi-Kars ramilway*) Azərbaycanın paytaxtı Bakı şəhərindən Gürcüstanın Tbilisi və Axalkalaki şəhərlərindən keçərək Türkiyənin Qars şəhərini birləşdirən dəmiryolu xəttidir. Təməli 2007-ci ilin 21 noyabrında Gürcüstanın Marabda kəndində qoyulmuş, açılışı 2017-ci ilin 30 oktyabrında Bakının Ələt qəsəbəsində olmuşdur. Gürcüstan ərazısində tikinti və reablitasiya işləri Azərbaycanın ayırdığı kretitlər hesabına təmin olunub. Uzunluğu 825,0 km (*Azərbaycan - 503,0 km, Gürcüstan - 244,5 km, Türkiyə - 77,5 km*). Dəmir yolu xətti layıhə üzrə tam işə düşdükdən sonra burada maksimal sürətin 120 km/s olacağı gözlənilir. BTQ ilə Bakıdan bir günə Qarsa və iki gün yarıma isə İstanbula getmək mümkündür. BTQ iqtisadi səmərəlilik, alternativ marşrut və dövriyyənin qısaldılması, sürət və vaxt tezliyi, etibarlılıq və təhlükəsizlik baxımından böyük əhəmiyyət kəsb edir. Gələcəkdə Avropa və Asiya ölkələrinə məxsus yüklərin bu dəmir yoluna cəlb edilməsi hər iki istiqamətdə konteyner və intermodal (*bir neçə nəqliyyat növündən istifadə etməklə yük daşıma*) daşımalarının həcmini artıracaqdır. Azərbaycanın BTQ-nin istismarı ilə bağlı ilk illərdə tranzitdən minimal illik gəliri 50 milyon ABŞ dolları təşkil edəcəkdir. Bu marşrut vasitəsi ilə istismarın birinci ilində 3-5, beşinci ilində 6-8 və səkkizinci ilindən başlayaraq 10 milyon tondan çox yükün və həmçinin, ilk zaman-

larda ildə 1 milyon sərnişinin daşınacağı gözlənilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev VI Qlobal Bakı Forumunun (*2018-ci il*) açılışında demişdir: "Bakı-Tbilisi-Qars üç ölkəni, ancaq əslində, qitələri birləşdirən dəmir yolu layihəsidir. Çünki bu dəmir yolu xətti Asiyadan Avropaya olan ən qısa marşrutdur. Onun sayəsində Asiyadan Avropaya və geriyə olan yük daşımaları üçün tələb olunan vaxt 30 gün deyil, iki həftəyə bərabər olacaq. Bakı-Tbilisi-Qars layihəsinin ötən ilin oktyabrında açılışı qlobal əhəmiyyət kəsb edən hadisədir".

***Avtomobil nəqliyyatı.*** Azərbaycanda avtomobil nəqliyyatının tarixi XX əsrin əvvəllərinə təsadüf edir. Bakı milyonçusu İsa bəy Əbdülsalam bəy oğlu Hacınski (*1861-1919*) Bakıya ilk avtomobil gətirən şəxs kimi tanınır. 1911-ci ildə Azərbaycanda cəmi 36 ədəd avtomobil olmuşdur. O zaman bərk örtüklü yolların uzunluğu 210 km təşkil edirdi. 1926-cı ildə isə artıq respublikada 896 ədəd avtomobil var idi. Ölkədə avtomobillərin sayı sovetlər dönəmində xeyli yüksəlmiş və Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra - 2000-ci illərdən başlayaraq daha çox sürətlə artmışdır. Bu, ölkədə uğurlu aparılan sosial-iqtisadi siyasətin nəticəsi olaraq onun artan iqtisadi potensialı ilə sıx əlaqədardır. Hazırda Azərbaycan Respublikasında avtomobillərin sayı 1,4 milyon yaxındır.

Azərbaycan hər 1000 nəfərə düşən minik avtomobili və hər 100 ailəyə düşən şəxsi minik avtomobillərinin say göstəricilərinə görə MDB və dünya ölkələri arasında orta sırada qərar tutur. Lakin son illərin artım tempi respublikanın bu sahədə də yetərli irəliləyiş əldə edəcəyini deməyə əsas verir.

BMT-nin məlumatlarına görə, avtomobilləşmə göstəricisinə görə ən yüksəkdə ABŞ durur. Burada hər 1000 nəfərə 800-ə yaxın avtomobil düşür. Sonrakı yerləri 686 sayla Lüksemburq, 641 sayla Malayziya, 619 sayla Avstraliya bölüşürlər. Onluq reytinqində bu göstərici üzrə İtaliya, Fransa, Kanada, Yeni Zelandiya da 550 avtomobil sayı ilə fərqlənirlər. Rusiyada isə bu göstərici 250 avtomobil təşkil edir. Avropada orta hədd 500 avtomobil hesab olunur. Ekspertlər hər 1000 nəfərə 800-850 avtomobil düşməsi halını optimal hesab edirlər.

***Su nəqliyyatı.*** Azərbaycanın Qafqazın iri çayları Kür və Araz əhatəsində, dünyanın ən böyük göl-dənizi Xəzərin sahilində yerləşməsi burada dəniz və çay nəqliyyatının inkişafına təkan vermişdir. Çox uzun illər öncə Xəzər dənizdən Tiflis şəhərinə qədər üzən nəqliyyat vasitələri ilə getmək mümkün olmuşdur. XX əsrin ortalarından başlayaraq Kür çayında tikilən silsilə su anbarları burda gəmilərlə bağlı su nəqliyyatın hərəkətini məhdudlaşdırmış və o zamanlar burada mövcud olmuş respublikanın çay nəqliyyat donanması da fəaliyyətini dayandırmışdır. İndi ölkədə çay nəqliyyatı ayrı-ayrı çaylarda məhdud lokal xarakterlidir və əsasən, katerlər vasitəsi ilə həyata keçirilir. Xəzərdə isə su nəqliyyatının tarixi çox qədimdir. Burada gəmi nəqliyyatının min illər mövcudluğuna Xəzərin Abşeron sahillərdə yerləşən qədim Qobustan yaşayış məskənindəki qayalarada gəmi şəkillərin olması bir daha əyani yəqinliklər gətirir. Məşhur Norveç dəniz səyyahı Tur Heyerdal dəfələrlə qoruqda olmuş və bu qamış

gəmilərin b.e.ə. VI minilliyə aid olması ilə bağlı rəyləri təsdiqləmişdir. O, min illər öncə Xəzər dənizinin Baltik dənizinə çıxışları və bir sıra digər mədəni və antropoloji amilləri əsas götürərək Azərbaycan xalqının köku ilə norveçlilərin bağlılığı fikrini irəli sürmüşdür. Bununla belə, Xəzərdə iri gəmilərin yaranması son iki yüz ilə təsadüf edir.

XIX əsrin 70-80-cı illərində Azərbaycanda neft sənayesinin inkişafı dəniz nəqliyyat vasitəsilə yük dövriyyəsinin sürətli inkişafına səbəb olmuşdur. Xəzərdə Azərbaycana məxsus dəniz gəmiçiliyinin rəsmi yaranma tarixi 1858-ci il may ayının 21-nə təsadüf edir. Məhz bu tarixdə Rusiya parlamentinin fərmanı ilə "Qafqaz və Merkuri" Səhmdar Dənizçilik Cəmiyyəti yaradılmışdır. O, illərdə məşhur olan cəmiyyətlərin Xəzər dənizində artıq 15 buxar gəmisi var idi. Bu zaman Xəzərdə təşəkkül tapan dəniz donanması Rusiya dəniz donanmasının daşıdığı yükün 40%-ə qədərini əlində cəm etmişdi. Sonrakı illərdə neftin tankerlərə daşınmasında onun payı daha da yüksəldi. Artıq bu illərdə Xəzərdə neftin, kerosinin daşınmasını təmin edən 176 gəmi var idi. Bununla belə, Xəzərdə həm də Rusiya Ticarət Dəniz Donanmasının strukturu kimi Bakı Ticarət Donanması fəaliyyət göstərirdi. Bu donanmanın potensialı sonralar Sovet İttifaqı zamanı yaradılmış Xəzər Dəniz Gəmiçiliyi və Xəzər Dəniz Neft Donanmasının əsas bazasını təşkil etmişdir. Qeyd olunmalıdır ki, Xəzərin Abşeron sahilində gəmi nəqliyyatı ilə neft daşımanın çoxəsrlik tarixinə və ilk neft tankerinin inşasının məhz Bakı tərsanələrində reallaşmasına baxmayaraq, respublikada müvafiq gəmi donanmasının yaradılması problemi uzun müddət gündəlikdə durmamışdır. Lakin əsrin 1930-40-cı illərində Azərbaycan geoloqları axtarış işlərində perspektivli obyekt kimi Xəzərin daha dərin qatlarını hədəfə gətirəndə məsələ daha aktual səciyyə almış və 1944-cü ildən Xəzər dənizində axtarış-kəşfiyyat və dəniz neft özüllərinin istifadəyə verilməsi üçün Dəniz Qazma Tresti və onun da nəzdində Dəniz Nəqliyyatı İdarəsi yaradılmışdır. 1949-cu ildə isə bu idarə neft donanmasına çevrildi. XXI əsrin əvvələrinə qədər bu donanma 300-ə qədər müxtəlif təyinatlı gəmiləri ilə, potensialına görə, dünyada 2-ci yerdə qərar tutmuşdur (*1-ci yerdə ABŞ-dır*).

XX əsrin əvvəllərində Azərbaycanda neft və neft məhsullarının təqribən 80%-i dəniz nəqliyyat vasitələri ilə daşınırdı. 1962-ci ildə Bakı və Krasnovodsk limanları arasında böyük gəmi-bərələr işləməyə başladı. Xəzər Dəniz Gəmiçiliyi 1992-ci ilə qədər SSRİ Dəniz Donanması Nazirliyinin tərkibindəki 17 gəmiçilik idarəsindən biri idi və ittifaq dağıldıqdan sonra 15 müttəfiq respublikadan 7-si SSRİ Dəniz Donanmasının varis oldu. Xəzərdə isə bu varislik yalnız Azərbaycana məxsus oldu. Dəniz gəmiçiliyi sahəsində yerli və beynəlxalq daşımaların səmərəliliyinin artırılması, ölkənin rəqabət qabiliyyətinin və tranzit potensialının gücləndirilməsi məqsədi ilə 2013-cü ildə Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Xəzər Dəniz Neft Donanması ləğv edilmiş və onların bazasında "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti yaradımışdır.

Azərbaycandan dəniz nəqliyyatı ilə daşınan yüklərin əksəriyyəti təxminən 11-12 min km məsafəni əhatə edən ÇXR-in Lyanyunqan limanından başlayaraq Avstriyanın paytaxtı Vyana şəhərinədək uzanan Avrasiya dəhlizinin payına düşür. Daşımalar Aktau-

Abşeron, Alaca-Abşeron, Alaca-Bakı, Okarem-Abşeron, Okarem-Bakı, Aktau-Bakı və Türkmənbaşı-Bakı marşrutları üzrə icra edilir. Gəmiçiliyin gəlirlərin 95%-dən çoxunu yükdaşımalardan, qalan hissəsini isə sərnişin daşımalarından və s. xidmətlərdən gələn gəlirlər təşkil edir. Gəmiçiliyin üzmə rayonları Volqo-Baltik və Volqa-Don gəmiçilik sistemlərindən keçməklə Baltik, Qara dəniz, Azov dənizi, Aralıq dənizi hövzələridir.

Azərbaycanda paytaxt Bakının Xəzər sahilində multimodal daşımaları həyata keçirən mühüm nəqliyyat kompleksi fəaliyyət göstərir. Bu kompleks 1902-ci ildə təsis edilmiş və indiyədək Xəzər dənizində mövcud limanların ən böyüyü və əhəmiyyətlisi kimi fərqlənən Bakı Beynəlxalq Dəniz Ticarət Limanının strukturuna daxildir. Hazırda bərə-terminal kompleksindən başqa onun strukturunda əsas yük, konteyner, neft və sərnişin daşıma terminalları və liman donanması da yer alır. Liman donanması nəqliyyat gəmilərinə xidmət göstərmək üçün nəzərdə tutulmuş və yedəkçiləri, bunker gəmilərini, işlənmiş suları yığan gəmiləri, neftyığan gəmiləri, losman və yanğınsöndürən katerləri, kran gəmisini özündə birləşdirən 20 gəmidən ibarətdir. Buraya, həmçinin, əhaliyə və şəhər qonaqlarına xidmət göstərən gəzinti katerləri də daxildir.

Bakı Beynəlxalq Dəniz Ticarət Limanı bütün il ərzində fəaliyyət göstərir və Avropa ilə Asiya arasındakı ticarətə böyük təkan verən, tarixi İpək Yolunun bərpası layihəsində körpü rolunu oynayır. Son on ildə Trans-Xəzər neft daşımalarının və neft avadanlığının Azərbaycana idxalının genişlənməsi fonunda limanın bir nəqliyyat qovşağı kimi əhəmiyyəti daha da artmışdır. Bundan başqa, Rusiyanın daxili su yollarında naviqasiya açıq olanda (*aprel-noyabr*) gəmilər Qərbi Avropa və Qara dəniz limanlarından Bakı limanına birbaşa reyslər edə bilərlər. Limanın dəmir yolu keçidini təmin edən bərə terminalı, əsasən, vaqon daşımaları üçün nəzərdə tutulsa da, burada avtomobillərin (*tirlərin*), sərnişinlərin daşınması mümkündür. Terminal 1963-cü ildən istismar olunur və onun layihə üzrə təyin olunmuş gücü ildə 112 min vaqon, yük dövriyyəsi 80 min vaqondur. Hazırda Xəzər dənizində yük dövriyyəsinin təqribən 42%-dən çoxu Bakı limanının payına düşür.

Azərbaycan Respublikasının ərazisindən Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizləri üzrə keçən tranzit və ölkə iqtisadiyyatı üçün tələb olunan yüklərin qəbul edilməsində və daşınmasında Bakının Ələt qəsəbəsinin ərazisində inşa olunmuş Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksi mühüm rol oynamaqdadır.

<u>Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı</u> (*New Baku International Sea Trade Port*) Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərinin Ələt qəsəbəsində Xəzər dənizi sahilində yerləşir. Şərq-Qərb (*İpək Yolu*) və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizləri üzərində qurulan, Xəzər dənizindəki mövcud limanların ən böyüyüdür. Avropa ilə Asiya arasındakı ticarətə böyük təkan verə liman quru yük, bərə, Ro-Ro və sərnişin terminallarına malikdir. İlkin mərhələdə yükaşırma imkanı 10 milyon tona qədər yük/167000 vaqon və 50 min TEU[8]-ya qədər konteyner/25000 vaqon hesablanır.

[8] Beynəlxalq Standartlaşdırma Təşkilatı - ISO standartlarına görə 20 futluq konteyner - TEU-nun uzunluğu 6,06 m, eni 2,44 m, hündürlüyü 2,59 m, daxili həcmi 33,2 m3, yükgötürmə qabiliyyəti 22 ton, boş çəkisi isə 2,3 tondur.

İkinci mərhələdə limanın yükaşırma gücü 17 milyon ton yük və 150 min konteynerə, üçüncü mərhələnin yekununda isə 25 milyon ton yük və 1 milyon konteynerə çatdırılacaqdır. Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin yaradılması BTQ dəmir yolu xətti vasitəsi ilə gözlənilən yük həcmlərinin təmin edilməsinə mühüm dəstək yaradır. Bu nəhəng limanı kompleksi həm də özünün ölkə və region iqtisadiyyatında xüsusi mövqeyə malik olması və nəqliyyat qovşağında önəmli yer tutması ilə fərqlənərək Azərbaycanın geostrateji əhəmiyyətinin yüksəlməsində daha bir mühüm amilə çevrilməkdədir. O, tam gücü işə düşdükdən sonra bitişik böyük ərazi ilə AİZ-ə çevriləcək, həmçinin, burada karbon tullantılarının həcmini azaldan müxtəlif təsirli texnologiyalar tətbiq etməklə "Yaşıl liman" strategiyası reallaşdırılacaqdır.

***Hava nəqliyyatı.*** Bir əsrdən çox əvvəl, 20 oktyabr 1910-cu il tarixində Bakı şəhərinin üzərindən ilk təyyarə uçmuşdur. Respublikada 1923-cü ildə "ZAKAVİA" Zaqafqaziya Mülki Aviasiya Səhmdar Cəmiyyətinin yaranmasından sonra hava nəqliyyatının inkişaf dövrü başlanmış və həmin ildə "Yunkers" təyyarəsində Bakı-Tiflis-Bakı marşrutu ilə uçuş həyata keçirilmişdir.

1931-ci ildə Bakıda ilk əsaslı hava limanının inşasına başlanmış və 1933-cü ildə Yevlaxda ikinci hərbi xarakterli hava limanı tikilmişdir. 1937-ci ildə isə Bakı-Moskva hava xətti üzrə uçuşlara başlanılmışdır. 2 iyun 1938-ci ildə Azərbaycanda ilk aviasiya qrupu yaradılmışdır və həmin tarix hazırda Azərbaycan Mülki Aviasiya Günü kimi qeyd olunur. II Dünya Müharibəsinə qədər respublikada sərnişin və poçt daşınması ilə yanaşı, tibbi yardım, kənd təsərrüfatında ziyanvericilərə qarşı mübarizə məqsədilə hava nəqliyyatından geniş istifadə edilmişdir. Azərbaycanın hava nəqliyyatında əsaslı dəyişikliklər ölkənin dövlət müstəqiliyinin bərpası ilə start götürmüşdür.

Hazırda Azərbaycan Respublikasında hava nəqliyyatında milli daşıyıcı funksiyalarını "Azərbaycan Hava Yolları" QSC həyata keçirir.

Son illərdə hava gəmiləri parkının tələbatına uyğun olaraq Azərbaycan Respublikası hava limanlarının infrastrukturu təkmilləşdirilmiş və müasirləşdirilmiş sərnişin və yük daşınmasında yeni "Boinq" təyyarələrindən istifadə olunmaqdadır. Hazırda ölkənin əsas regional mərkəzlərində - Naxçıvan, Gəncə, Lənkəran, Zaqatala və Qəbələdə beynəlxalq hava limanları mövcuddur. Təyyərə parkının sayı 40 ədəddən çoxdur. Bakı yaxınlığında Zabrat qəsəbəsində mühüm helikopter limanı fəaliyyət göstərir.

***Bakı Metropoliteni.*** Bakı Metropoliteni Azərbaycanın paytaxtı Bakı şəhərində yeraltı metropoliten xətlərini birləşdirən nəqliyyat sistemidir. 1967-ci ildən fəaliyyət göstərən metropoliten hazırda ümumi uzunluğu 40 km olan iki xəttdən və 26 stansiyadan ibarətdir. 2030-cı ilədək metro stansiyalarının sayının 73-ə çatdırılması nəzərdə tutulur. Paytaxt sərnişindaşımasının orta hesabla 25%-ni təşkil edən metropolitendə hər gün orta hesabla 600 min şərnişin daşınır. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 2014-cü ildə Bakı Metropoliteninin və "Azərtunelmetrotikinti" Səhmdar Cəmiyyətinin yenidən təşkili yolu ilə səhmləri dövlətə məxsus "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyəti yaradılmışdır.

***Boru kəmərləri nəqliyyatı***. Azərbaycanda boru kəmərləri nəqliyyatı ilə bu nəqliyyatın gündəlik növlərindən (*su və kanalizasiya*) başqa, əsasən, karbohidrogen məhsulları daşınır. Hazırda Azərbaycan nefti dünya bazarlarına Rusiya marşrutu Bakı-Novorossiysk, Gürcüstan marşrutu QİBK və Türkiyə marşrutu - Bakı-Tbilisi-Ceyhan olmaqla üç istiqamətlə nəql olunur. Azərbaycanın neft nəqli sisteminin başlıca arteriyası Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan ixrac neft boru kəməridir, BTC (*Baku-Tbilisi-Ceyhan pipeline*). Bu kəmərlə Azərbaycan neftinin Xəzər dənizindən Turkiyənin Ceyhan limanına, oradan Aralıq dənizi ilə Avropa bazarlarına nəqli həyata keçirilir. Bakı yaxınlığındakı Səngəçal terminalından başlayaraq uzunluğu 1768 km (*Azərbaycan - 443 km, Gürcüstan - 249 km, Türkiyə1076 km*) olan bu kəmər 2003-2005-ci illərdə inşa edilmişdir. Gündəlik ötürmə qabiliyyəti 1 milyon barel olan kəmərin diametri Azərbaycanda və Türkiyədə, əsasən, 42 düym, Gürcüstanda 46 düymdür. Diametr Türkiyədə Ceyhan dəniz terminalına enən axırıncı hissədə 34 düymədək azalır. Kəmərin neftlə doldurulmasına 2005-ci ildə başlanılmışdır. Neftin etibarlı və fasiləsiz nəqlini təmin edən BTC beynəlxalq enerji təhlükəsizliyinin əsas elementlərindən biri kimi Avrasiya regionunda ən iri və unikal mühəndis qurğularından hesab olunur. İllik ötürücülük qabiliyyəti 60 milyon tona çatdırılmış bu kəmər vasitəsi ilə Azərbaycan neftindən başqa Türkmənistan nefti də nəql olunur.

Qərb İxrac Boru Kəməri, QİBK - Bakı-Supsa (*Western Route Export Pipeline*) Xəzərin Azərbaycan sektorunda hasil edilən neftin Gürcüstandan keçməklə dünya bazarlarına nəqlini həyata keçirən boru xəttidir. Uzunluğu 833 km, boru diametri 530 mm və 8 obyekti olan olan kəmər Bakı yaxınlığındakı Səngəçal terminalından başlayaraq Gürcüstan sahilindəki Supsa terminalına qədər uzanır. 1997-1998-ci illər ərzində tikilmiş, xətt üzrə boruların doldurulmasına 1998-ci ildə başlanılmış, Supsada isə ilk neft 1999-cu il 17 apreldə gəmilərə yüklənmişdir. Kəmərin gəmiyükləmə qabiliyyəti 600 min bareldən 1 milyon barelə qədərdir. Hazırda kəmərin işçi heyəti Azərbaycan və Gürcüstan vətəndaşlarından ibarətdir.

Bakı-Novorossiysk kəməri (*Baku-Novorossiysk pipeline*) Xəzər neftini Rusiyanın Qara dənizdəki Novorossiysk terminalına daşınmasını həyata keçirən kəmərdir. Uzunluğu 1330 km, boru diametri 530 mm-dir. SOCAR kəmərin 231 km uzunluğunda olan Azərbaycan ərazisi ilə keçən hissəsinin operatorudur. Rusiya hissəsində işə operator "Tarnsneft" şirkətidir. Borunun neftlə doldurulmasına 1996-cı ilin oktyabrında başlanılmışdır. Kəmərin maksimum ötürmə qabiliyyəti gündə 5 milyon tondur.

Respublika xaricə çıxacaq diversifikasiya olunmuş qaz kəmərlərinə də malikdir. Belə ki, hazırda Azərbaycan qazı dörd istiqamətdə dünya bazarlarına çıxarılır. Bu kəmərlər sırasına başlıca olaraq müasir zamanda inşa edilmiş CQBK və əvvələr mövcud olmuş Şimal, Cənub və Qərb istiqamətlərinə yönəlmiş magistral xəttlər daxildir.

Cənubi Qafqaz Boru Kəməri, CQBK (*South Caucasus Pipeline*) Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Şahdəniz" yatağından çıxarılan qazın Gürcüstan və Türkiyəyə nəqli üçün inşa edilmiş qaz kəməridir. "Şahdəniz" Boru Kəməri kimi də

tanınır və bütövlükdə boru xətti Bakı-Tbilisi-Ərzurum kəməri adlanır. Uzunluğu 980 kilometr, boru diametri 42 düym olan və 20 milyard $m^3$-dək ötürmə gücünə malik kəmər Bakı yaxınlığındakı Səngəçal terminalından başlayaraq Gürcüstandan keçməklə Türkiyənin (*Azərbaycan hissəsi 443 km, Gürcüstan hissəsi 248 km, Türkiyə 289 km*) qazpaylama sistemi ilə birləşir. CQBK 2016-cı ildə istismara verilmiş və ətraf mühitə, həmçinin, sosial təsiri minimuma endirmək üçün BTC boru kəməri ilə eyni dəhlizdə inşa edilmişdir. CQBK-nın iki operatoru var. CQBK obyektlərinin tikintisi və istismarı üzrə məsul texniki operator - BP şirkəti və CQBK-nın kommersiya əməliyyatları üzrə məsul kommersiya operatoru - SOCAR-dır. CQBK-nın sərmayədarları qismində BP - 28,8%, SOCAR - 10%, "SGC Midstream" - 6,7%, "Petronas" - 15,5%, "LUKoil" - 10%, NİCO - 10% və TPAO - 19% şirkətləri çıxış edir. CQBK-in 29 may 2018-ci il tarixində Bakı şəhərində rəsmi açılışı olmuşdur.

Hazırda Azərbaycanın Xəzərdəki "Şahdəniz" qaz-kondensat yatağından və digər yataqlardan çıxarılan qazın Türkiyənin qərb sərhədlərinə qədər nəqlini reallaşdıran TANAP və onun davamı olan, Yunanıstan, Albaniya və Adriatik dənizi vasitəsilə İtaliyanın cənubuna, oradan isə Qərbi Avropaya qaz nəqli edəcək TAP layihəsinin icrası, perspektivdə isə Aİ-nin dəstəklədiyi, Azərbaycan və Türkmənistandan Avropaya yeni qaz ehtiyatları çatdırmaq üçün nəzərdə tutulmuş "Cənub" dəhlizində əsas layihəsi kimi çıxış edən "Trans-Xəzər qaz kəməri" layihəsi diqqət mərkəzindədir.

***Tranzit potensialı.*** Azərbaycanın əlverişli coğrafi mövqeyi, ona həm də Avrasiya kontinentində geniş imkanlı tranzit məkan funksiyasını yerinə yetirən bir ölkə siması verir. Reallıq belədir ki, Azərbaycan böyük bir makroregionda iki nəhəng nəqliyyat dəhlizinin kəsişdiyi ərazidə yerləşir. Bu nəqliyyat xətlərinin tam miqyaslı logistik sistemə çevrilməsi böyük regional və qlobal sosial-iqtisadi effektlər yaradaraq Azərbaycanın dövlət müstəqilliyinin gücləndirilməsində, iqtisadi qüdrətinin artırılmasında mühüm əhəmiyyət kəsb edəcəkdir.

Azərbaycandan keçən Sərq-Qərb dəhlizi - TRACECA (*ingiliscə* - Transport Corridor Europe-Caucasus-Asia - TRACECA - *Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi*) Avropa ilə Asiyanı birləşdirən ən kiçik marşrut hesab olunur. Bu marşrutla hər il milyonlarla ton yük daşınır. Tarixi İpək Yolunun cənub qolunun aktivləşdirilməsini nəzərdə tutan və mənzil-qərargahı Azərbaycanda - paytaxt Bakı yerləşən bu təsisatda 14 üzv dövlət: Azərbaycan, Türkiyə, İran, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Tacikistan, Ukrayna, Moldova, Rumıniya, Bolqarıstan, Gürcüstan, Əfqanıstan və Ermənistan təmsil olunmuşlar. Xüsusilə vurğulanmalıdır ki, ümummilli lider Heydər Əliyev tarixi İpək Yolunun bərpası strategiyasına xüsusi önəm vermiş və onun əsaslı reallaşdırılması üçün möhtəşəm təsisatlandırmanı təmin etmişdir. Onun təşəbbüsü ilə 7-8 sentyabr 1998-ci ildə Bakı şəhərində 9 ölkənin dövlət başçısı (*Azərbaycan, Bolqarıstan, Gürcüstan, Qırğızıstan, Moldova, Rumıniya, Türkiyə, Özbəkistan, Ukrayna*), 13 beynəlxalq təşkilat və 32 dövlətin nümayəndə heyətinin iştirak etdiyi tarixi İpək Yolunun bərpasına həsr olunmuş beynəlxalq konfrans keçirilmiş, Aİ-nin TRACECA Proqramı əsasında

"Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Saziş" imzalanmış və Bakı Bəyannaməsi qəbul edilmişdir. Marşrut üzrə yolların modernləşdirilməsi, infrastruktur şəbəkənin optimallaşdırılması şəraitində TRACECA-nın rolu daha da artacaq və onun infarstrukturundan sərnişin daşınmalarda da genişliklə istifadə olunacaqdır.




**Şəkil 12. TRACECA dəhlizinin xəritəsi**

Bununla belə, Azərbaycan üçün onun ərazisindən keçəcək digər bir qlobal nəqliyyat xətti - Cənub-Simal dəhlizi də çox mühüm əhəmiyyət kəsb edir. Bu marşrut qonşu Rusiya və İran ərazisindən keçməklə Yaxın Şərqdən və Cənub-Şərqi Asiyadan Avropaya daşınan yükdaşımaların sürətini bir neçə dəfə artıracaqdır. O, Süveyş kanalı vasitəsi ilə Hindistandan Avropaya uzanan nəqliyyat xəttindən 3 dəfə qısadır. Dəmir yolu, su nəqliyyatı və avtomobil xətlərinin ehtiva olunduğu bu nəqliyyat dəhlizi üzrə bütün zəruri infrastrukturun qurulması şəraitində planetin cənubundan Avropaya hər il orta hesabla 15-20 milyon ton yükün daşınacağı təxmin edilə bilər. Dəhlizin açılışı həm də sərnişin daşımalarda yeni alternativliklər yaradacaqdır. Burada daha çox zəvvarların islamın müqəddəs yerlərinə, xüsusən də, Məkkə və Mədinə şəhərlərinə səyahətinə yeni əlverişli imkanlar yaranacaq, ənənəvi marşrutlardan istifadə intensivliyi xeyli mülayimləşəcəkdir. Bu marşrutun gerçək daşımalar obyektinə çevrilməsi istiqamətində Azərbaycanın Astara şəhəri ilə İranın Ənzəli və Rəşt şəhərlərini birləşdirən 300 kilometrlik dəmir yolu xəttinin çəkilişi layihəsi əsas prioritet olaraq önə çəkilir.

Azərbaycanın nəqliyyat tranzit imkanları ənənəvi və həm də hazırda da üstün olaraq neft və neft-qaz məhsullarının daşınması ilə fərqlənmişdir. Özünün miqyaslı karbohidrogen resursları və eyni zamanda şərq və cənub cinahdakı ölkələrin müvafiq məhsulları qərb və şimal istiqamətində bu marşrutlar üzrə daşınmışlar. Sovet İttifaqının süqutu ərəfəsində Xəzərdə böyük miqyaslı karbohidrogen resurslarının aşkarlanması və yeni geosiyasi situasiyada istismarı planetin yanacaq-enerji balansında mühüm dəyişikliklərə səbəb oldu. Burada ehtimal edilən ehtiyatlar yüz milyard barellərlə ölçülür və bu amil Xəzərin yaxın onilliklərdə Avropanın ən böyük enerji təminatçısı rolunda qalmasına bir daha yəqinlik gətirir. Hazırda Xəzərin neft-qaz resurslarının Avropaya, oradan da dünya bazarlarına çıxışı Tengiz-Novorossiysk, Bakı-Novorossiysk, QİBK, BTC neft kəmərləri vasitəsi ilə təmin olunur. Mühüm neft arteriyaları sayılan bütün bu kəmərlər isə, öz növbəsində, əsas istehlakçılara birbaşa yetişməyərək limanlarda tankerlər vasitəsi ilə ünvanlara çatdırılır. Burada əsas maneə isə Xəzərin dünya okeanına birbaşa çıxışının olmaması ilə bağlıdır. Xəzər dənizinin dünya okeanı ilə əlaqəsi yalnız şimaldan Volqa çayı vasitəsi ilə mümkündür. Bu əlaqəni Azov dənizi ilə Volqa-Don kanalı və Baltika dənizi ilə isə Volqa-Baltika su yolu sistemi təmin edir. Uzun sürən qış mövsümündə bu su xətlərinin donması və eyni zamanda okeana çıxışda çoxsaylı boğaz və aşırımlardan keçməsi naviqasiya problemləri yaradır. Bununla belə, marşrut boyu bir neçə dövlət sərhəd keçidinin mövcudluğu da nəqliyyat çətinlikləri ilə qarşılaşması və müvafiq vaxt itkiləri ilə müşayiət olunur.

Problemin optimal vəziyyətə gətirilməsi istiqamətində daha bir alternativlik kimi İran İslam Respublikasının ərazisindən keçməklə Xəzər dənizinin Fars körfəzinə çıxışını təmin edən nəhəng kanalın çəkilişi çıxış edə bilər. Bu düşüncə o qədər də yeni deyildir. Əvvəllər də Xəzərin cənubdan okean sularına qovuşması istəkləri mövcud olmuş və hazırda da bu aktuallıq səngiməmişdir. Müasir ETT və innovasiyalar sahəsindəki nailiyyətlər, prinsipcə, müvafiq meyilin gerçəkliyinə mümkünatlar yaradır. Çoxmilyardlı valyuta resursu tələb etməsinə baxmayaraq, belə bir kanalın çəkilişi materik suları ilə birbaşa əlaqəsi olmayan üç Xəzər hövzəsi ölkəsinin yeni geosiyasi situasiyada okeana çıxışının ümidli alternativliyini, habelə dünya iqtisadiyyatına dayanıqlı inteqrasiyasını daha dolğun təminatlı edəcəkdir.

Göründüyü kimi, Azərbaycanın nəqliyyat müstəqilliyini gücləndirən, onun bölgədəki mühüm tranzit qovşağa çevirəcək imkanlar daha genişdir. Müasir məqamda bu sırada BTQ dəmir yolu xətti layihəsinin sosial-iqtisadi dəyəri daha mühümdür.

## 8.11. Azərbaycanda informasiya cəmiyyəti

Azərbaycanda hələ 1501-ci ildə Səfəvilər dövlətinin başçısı Şah İsmayıl Xətai tərəfindən poçtun dövlət səviyyəsində təşkil edilməsinin təməli qoyulmuşdur. Azərbaycanda ilk rabitə müəssisəsinin - poçtun yaranması XIX əsrin əvvəlinə aid edilir. Bakıda isə telefon rabitəsi dünyada telefon rabitəsinin tarixindən 5 il sonra 1881-ci

ildə yaradılmış, həmin il "Nobel qardaşları" cəmiyyəti tərəfindən ilk telefon xətti çəkilmişdir. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan bir neçə ay sonra ölkədə Poçt və Teleqraf Nazirliyi təşkil edilmiş və o, cümhuriyyətin süqutuna qədər fəaliyyət göstərmişdir. Hazırda ölkədə rabitə, inormasiya-texnologiyaları və yüksək texnologiyalar üzrə mərkəzi icra orqanı olaraq Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi fəaliyyət göstərir.

İKT-nin tətbiqinin səviyyəsi hər hansı bir ölkənin intellektual və elmi potensialının, dövlət idarəçiliyində şəffaflığın, demokratiyanın inkişafının əsas göstəricilərindəndir. Azərbaycan İKT-nin əsas infrastruktur göstəricilərinə görə dünya üzrə orta səviyyəni keçmişdir. Ölkədə ən müasir standartlara uyğun milli telekommunikasiya, poçt və teleradio infrastrukturu formalaşmış və inkişaf etmişdir. Hazırda Azərbaycanın İKT sektoru milli iqtisadiyyatın neft-qaz sənayesindən sonra ən sürətlə inkişaf edən ikinci sektorudur.

Ölkənin mobil və inormasiya-texnologiyaları sektoru tam özəl mülkiyyətə əsaslanır və bu sektorda hazırda 40 minə qədər insan məşğuldur. Həmçinin, bu sektorda yüksək orta aylıq əmək haqqı mövcuddur. Rabitə və yüksək texnologiyalar sahəsində respublikada nanotexnologiyalar üzrə müvafiq qurum fəaliyyət göstərir, kosmik sənayenin yaradılması və inkişafı üzrə müvafiq Dövlət Proqramı həyata keçirilir. Bu məqsədlə Azərbaycanda 2010-cu ildə "Azərkosmos" ASC təsis edilmiş və nizamnaməyə uyğun fəaliyyətini qurmuşdur. 2013-ci ildə Azərbaycanın ilk telekommunikasiya peyki "Azerspace-1" orbitə çıxarılmışdır. Telekommunikasiya peykinin Azərbaycanda yerdən idarə edilməsi və istismarının həyata keçirilməsi üçün nəzərdə tutulan Bakı şəhərində Əsas Yerüstü İdarəetmə Mərkəzi və Naxçıvan MR-də Ehtiyat Yerüstü İdarəetmə Mərkəzi istifadəyə verilmişdir. Peykdə yüzə yaxın televiziya kanalının, əsasən, xarici ölkələrin və müxtəlif rabitə kanallarının təşkili həyata keçirilir. Qeyd olunmalıdır ki, BMT-nin uyğun komitəsində Azərbaycan kosmik ölkələr sırasına qəbul olunmuş və kosmik fəzanın sülh məqsədlərlə istifadəsi üzrə müvafiq öhdəliklər götürmüşdür.

Ölkədə İKT infrastrukturunun inkişafı və genişləndirilməsi ilə yanaşı, İT istehsalına və tətbiqinə də xüsusi diqqət yetirilir. Bu sahədə inkişaf üçün ölkədə əlverişli biznes şərtləri və investisiya mühiti mövcuddur.

Azərbaycanda İKT-nın iqtisadi sektor kimi inkişafında ixrac potensialının genişləndirilməsi, sektora yeni investisiyaların cəlbi edilməsi və ölkəni regionun əsas informasiya xidmətləri ixracatçısına çevirilməsi üçün miqyaslı işlər aparılır. Bu məqsədlə kömək üçün həm də ölkədə İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondu fəaliyyət göstərir. Fond geniş olaraq ölkədə İKT sahəsində sahibkarlığın inkişafına və ona maliyyə dəstəyi göstərilməsinə, yerli və xarici investisiyaların cəlb edilməsinə, yeni texnologiyaların iqtisadiyyata inteqrasiyası, elmi-tədqiqat işlərinin və eyni zamanda innovasiyaların tətbiqinin genişləndirilməsi üzrə layihələrin dəstəklənməsinə xidmət edir. Bunlarla yanaşı, həmçinin, ölkədə müvafiq Yüksək Texnologiyalar Parkı fəaliyyət göstərir. Bu parkın fəaliyyətinin əsasını resurs

mərkəzlərinin yaradılması, kiçik və orta innovativ biznesin inkişafı, istehsal və ixrac imkanlarının artırılması, ölkəyə xarici şirkətlərin və investisiyaların cəlb edilməsi və İKT mütəxəssislərin hazırlanması kimi vacib layihələrin həyata keçirilməsi təşkil edir. Bundan başqa, kibertəhlükəsizlik sahəsində informasiya infrastrukturu subyektlərinin fəaliyyətinin koordinasiyası, mövcud və yarana biləcək elektron təhlükələr barədə ölkə səviyyəsində məlumatlandırma, əhalinin, özəl və digər qurumların kibertəhlükəsizlik sahəsində maarifləndirilməsi və onlara metodiki kömək göstərilməsi məqsədlərindən irəli gələrək respublikada Elektron Təhlükəsizlik Mərkəzi yaradılmışdır.

Azərbaycanda "Elektron hökumət" layihəsi də uğurla həyata keçirilir. Göstərilən xidmətlərin sayı artaraq genişlənir və keyfiyyəti yüksəlir. "Elektron hökumət" layihəsinin genişliklə reallaşdırılması, xüsusən də, dövlət orqanları əməkdaşlarının fəaliyyətinin əlaqələndirilməsini, nəzarət və qiymətləndirmənin aparılmasını, elektron xidmətlərin təşkili prosesinin sürətləndirilməsi və bu sahədə idarəetmənin təkmilləşdirilməsini təmin etmək üçün isə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi yaradılmışdır. Bu agentlik vasitəsi ilə dövlət orqanları tərəfindən vətəndaşlara göstərilən xidmətlərin həyata keçirilməsini təmin edən milli brend - Azərbaycan Xidmət və Qiymətləndirmə Şəbəkəsi - "ASAN xidmət" (*ingiliscə* - Azerbaijan Service and Assessment Network, ASAN - *Azərbaycan Xidmət və Qiymətləndirmə Şəbəkəsi, ASAN*) mərkəzləri yaradılaraq əhalinin istifadəsinə verilmişdir. ASAN xidmət "Elektron hökumət"lə qarşılıqlı əlaqə və fəaliyyətdə "bir qapı" prinsipli - yəni ayrı-ayrı dövlət qurumlarının müxtəlif xidmətlərindən bir mərkəzdə eyni məkanda və eyni vaxtda fiziki istifadə imkanlı təsisat olaraq çıxış edir. Agentliyin "Elektron hökumət"lə qarşılıqlı əlaqəsini onun elektron xidmətlər reyestrinin operatoru funksiyasının yerinə yetirilməsi daha da mükəmməlləşdirir. Bütün bunlar isə məsrəflərin azalmasına, yetərliklə vaxt itkisinin aradan qaldırılmasına, şəffaflığa və şəxsi rahatlığa şərait yaradaraq dövlət və vətəndaşların iqtisadi və hakimiyyət münasibətlərinin inkişafına təkan verir. O da vurğulanmalıdır ki, "ASAN xidmət" BMT tərəfindən yüksək mükafatla təltif edilmişdir.

Beləliklə, Azərbaycanda informasiya cəmiyyəti - milli strategiya, dövlət proqramları, "Elektron hökumət" institutu, yüksək texnologiyalar və milli brend "ASAN xidmət" əhatəsində formalaşdırılan infrastruktur üzrə müəyyənləşir.

***Əsas anlayışlar:***

**1. İnkişaf** - irəliləyiş, təkamül, bir vəziyyətdən digərinə keçid, aşağıdan yuxarıya, sadədən mürrəkkəbə hərəkət, vəziyyətin az qənaətbəxşlikdən, çox qənaətbəxşliyə dəyişməsi, tələbatın ödənilməsinin sadələşdirilməsi prosesidir.

**2. Qeyri-bərabər inkişaf** - ayrı-ayrı ölkə və regionların bəzi hissələrinin tərəqqi etməsi, digərlərinin staqnasiyaya uğraması və hətta geriləməsi ilə xarakterik olan iqtisadi və sosial inkişafın xüsusiyyətliliyidir.

**3. Geriqalmışlıq** - iqtisadi inkişafın aşağı səviyyəsi, iqtisadi gerilikdir. Üstün olaraq, beynəlxalq inkişafa aid edilir.

**4. İqtisadi inkişaf** - iqtisadiyyatın, məhsuldar qüvvələrin, artım və inkişaf amillərinin, elmin, təhsilin, mədəniyyətin, əhalinin həyat səviyyəsinin, insan kapitalının, keyfiyyət və struktur baxımından, tədricən müsbət dəyişikliklərini və təkrar istehsalın genişlənməsini əks etdirir.

**5. İnsan kapitalı** - insanın gələcək əmək gəlirlərinin çıxılmış dəyəridir.

**6. İqtisadi insan** - maksimal fayda əldə etmək prinsipindən çıxış edərək özünün plan və hərəkətlərini quran insanı səmərəli düşünən subyekt kimi təqdim edən ümumi şərti anlayışdır.

**7. Mütləq göstəricilər** - ölkənin iqtisadi inkişafını müəyyən edən Ümumi Daxili Məhsul, Ümumi Milli Məhsul, Milli Gəlir və s. əhatə edən makrogöstəriciləri ehtiva edir.

**8. Ümumi Daxili Məhsul, ÜDM** - istehlak, investisiya, dövlət satınalmalarını (*idaxal-ixrac*) özündə birləşdirərək iqtisadi inkişaf səviyyəsini xarakterizə edən başlıca iqtisadi indikator kimi ölkədə ay, rüb, əsasən də, bir il ərzində istehsal olunan bütün son əmtəə və xidmətlərin məcmu bazar dəyərini ifadə edən makroiqtisadi göstəricidir.

**9. Son məhsul** - istehsal olunmuş, istehsalı bitmiş, son hazır məhsulun həcminin məcmusunun pulla ifadəsini səciyyələndirən ümumiləşdirilmiş iqtisadi göstəricidir.

**10. Ümumi Milli Məhsul, ÜMM** - mövcud ölkədə və onun xaricində öz daxili resursları hesabına il ərzində istehsal olunan bütün son hazır əmtəələrin və xidmətlərin dəyərinin məcmusunu ifadə edən makroiqtisadi göstəricidir.

**11. Milli gəlir, MG** - istehsal üçün bütün material xərcləri çıxdıqdan sonra alınan məcmu ictimai məhsulun hissəsinin dəyəridir.

**12. Birinci sektor** - xammal hasilatını və onu yarımfabrikatlara çevirən emal sahələrini əhatə edir.

**13. İkinci sektor** (***istehsal sektoru***) - hazır məhsul istehsal edən - emal sənayesi və tikinti müəssisələrini əhatə edir və həm də istehsal sektoru adlandırılır.

**14. Maddi istehsal sektoru** - maddi nemətlər yaradan və onu istehsalçıya çatdıran insan fəaliyyəti növlərinin məcmusudur (*birinci və ikinci sektorlarən cəmi*)

**15. Üçüncü sektor** - xidmət sferası müəssisələrini əhatə edir.

**16. Real sektor** - maliyyə xidmətləri istisna olmaqla bütün maddi və qeyri-maddi istehsal sahələri məsmüsunu əhatə edən iqtisaiyyat sektorudur.

**17. Maliyyə sektoru** - üstün olaraq uzunmüddətli və qısamüddətli kreditləşmə və borc alma ilə bağlı olan iqtisadiyyat sferasıdır.

**18. Dördüncü sektor** - informasiya-kommunikasiya texnologiyaları sferasında ixtisaslaşan, həmçinin, qlobal marketinq, bank, maliyyə, bir sıra elm sahələri, konsaltinq və təhsil xidmətləri göstərən müəssisələri əhatə edir.

**19. Beşinci sektor** - səhiyyə, mədəniyyət və elmi tədqiqatlar sahəsindəki ixtisaslaşmaları əhatə edir.

**20. Struktur göstəricilər** - ölkənin iqtisadi inkişafını müəyyən edən göstəriciləri - iqtisadiyyatın müxtəlif sektorlarında məşğulluğun nisbəti, yanacaq-enerji balansının strukturu, nəqliyyat növləri üzrə daşımalar və s. ehtiva edir.

**21. Yanacaq-enerji balansı, YEB** - bir-biri ilə əvəz oluna bilən yanacaq-enerji resurslarının məcmusunu əhatə edən kompleks maddi balansdır.

**22. Enerjitutumu, enerji istehlakı** - məhsul istehsalı, işlərin yerinə yetirilməsi və xidmətlərin göstərilməsində enerji və ya yanacağın ölçü və hədlərini müəyyən edən göstəricidir.

**23. ÜDM-də enerjitutumu** - hər vahid yaradılan ÜDM-də yanacaq-enerji resurslarının məsrəfini ifadə edən makroiqtisadi göstəricidir.

**24. Nəqliyyat** - sərnişinlərin və yüklərin yerdəyişməsini və bu istiqamətdə texnoloji proseslər kompleksini həyata keçirən maddi istehsal sahəsi, iqtisadi infrastrukturun əsas komponentlərindən biridir.

**25. Yükgötürmə qabiliyyəti** - daşıma qabiliyyəti, buraxılış qabiliyyəti, qaldırıcı gücdür.

**26. Konteynerləşmə** - yüklərin xüsusi metal qablarda - konteynerlərdə daşınmasını əks etdirir.

**27. Logistika** - material təminatının bütün sferalarını (*qablaşdırma, hazır məhsul, istehlakçıya çatdırma və s.*) əhatə edən nəqliyyat, təchizat, ehtiyatlara nəzarət, informasiyaların işlənməsi sahəsində planlaşdırmanın tərkib hissəsi olan təlimdir.

**28. Logistik səmərəlilik indeksi** - Dünya Bankı tərəfindən Finlandiyanın Turku Universiteti ilə birlikdə müxtəlif ölkələrdə logistikanın inkişaf səviyyəsini qiymətləndirmək üçün hazırlanmış metodikadır.

**29. Təşəkkül tapan Bazar Logistik Səmərəlilik İndeksi** - iqtisadiyyatları inkişaf etməkdə olan ölkələrdə logistik bazarın xarici investorlar üçün cəlbedicilik dərəcəsini əks etdirən Böyük Britaniyanın "Transport Intelligence" tədqiqat institutu tərəfindən hazırlanan indeksdir.

**30. Nəqliyyat xərcləri** - nəqliyyat vasitələrinin köməyi ilə yüklərin, sərnişinlərin daşınması ilə bağlı xərclərdir.

**31. Avtomobil nəqliyyatı** - hərəkət mənbəyi daxiliyanma mühərriki olan, hərəkətin isə təkərlərin köməyi ilə sərt örtüklü konstruksiyada - yollarda (*həmçinin, yolsuz ərazidə*) həyata keçirildiyi nəqliyyat növüdür.

**32. Magistral daşıma xərcləri** - malların avtomobil nəqliyyatı ilə uzaq məsafələrə (*əsasən, beynəlxalq daşımalarda*) daşınması, yüklərin marşurut boyunca yerdəyişməsi xərcləridir.

**33. Dəmiryol nəqliyyatı** - relslər üzrə hərəkəti təmin edən nəqliyyat növü və yol təsərrüfatıdır.

**34. Su nəqliyyatı** - suyun səthi ilə (*çay, dəniz, qarışıq*) üzən nəqliyyat növlərindən istifadə olunmaqla su yolları xətləri ilə hərəkət edərək yük və sərnişin daşınmasının həyata keçirildiyi nəqliyyat növüdür.

**35. Gəmiçilik** - sərnişin və yüklərin gəmilərlə daşınması üçün su yollarından istifadə edilən nəqliyyat növüdür.

**36. Liman** - dənizin, gölün və çayın sahilində yerləşən, dalğalardan təbii və süni formada müdafiə olunan, gəmilərin dayandığı, xidmət göstərildiyi, yükləmə-boşaltma əməliyyatlarının aparıldığı, xüsusi texniki qurğularla təmin edilmiş su-quru ərazisidir.

**37. Hava nəqliyyatı -** sərnişin, poçt və yüklərin daşınmasını hava yolları ilə həyata keçirən nəqliyyat növüdür.

**38. Aeroport, hava limanı** - aerovağzal kompleksi, aerodrom və s. müvafiq infrastrukturdan ibarət olub hava nəqliyyatı vasitələri ilə sərnişin, poçt və yüklərin daşınmasını təmin edən nəqliyyat müəssisəsidir.

**39. Boru nəqliyyatı** - boru kəmərləri vasitəsilə maye, qazvari və bərk materialların müəyyən məsafəyə ötürülməsini təmin edən nəqliyyat növüdür.

**40. Heyvanlar üzərində daşıma nəqliyyatı** - yük heyvanlarını yəhərləməklə onların belində daşımanı təmin edən nəqliyyat növüdür.

**41. Araba nəqliyyatı** - heyvanları (*at, uzunqulaq, öküz, fil, dəvə, maral, lama, it və s.*) tək və çüt arabaya qosub onların gücündən istifadə etməklə həyata keçirilən nəqliyyat növüdür.

**42. Havada üzmə, aeronavtika -** yer atmosferində, əsasən, havada yüngül uçan aparatlarla (*hava şarı, dirjabl*) idarə olunan və olunmayan nəqliyyat növüdür.

**43. Pnevmatik nəqliyyat** - qalaq və parçalı formalı yüklərin hava və ya qaz vasitəsi ilə boru kəmərləri şəbəkəsində yerdəyişməsini müvafiq qurğu və sistemlərdə təmin edən nəqliyyat növüdür.

**44. Pnevmatik poçt -** boru kəmərlərində hava axınları ilə sənədlərin, kiçik predmetlərin yerdəyişməsini təmin edən pnevmatik nəqliyyatın ayrıca növüdür.

**45. Lift nəqliyyatı** - kabinə və ya platformanın sərt istiqamətləndiricilər üzərində şaquli olaraq hərəkətini təmin edən, şaxtada quraşdırılan stasionar qaldırıcının funksiyasına əsaslanan spesifik nəqliyyat növüdür.

**46. Eskalator** - insanların bir səviyyədən digər səviyyəyə yerdəyişməsini təmin ediən maili pilləkən formalı qaldırıcı nəqliyyat maşınıdır.

**47. Elevator -** yükləri üfüqi və ya maili istiqamətlərdə daşıyan fasiləsiz hərəkət maşınıdır.

**48. Maqlev - maqnit yastıqda qatar** - elektromaqnit sahəsinin gücü ilə idarə olunaraq yol səthi üzərində hərəkət edən qatardır.

**49. Fərdi avtomatik nəqliyyat** - şəhər və şəhər ətrafında ayrılmış yol şəbəkəsi ilə avtomatik (*sürücüsüz*) hərəkət edərək sərnişinləri daşıyan nəqliyyat növüdür.

**50. Simli nəqliyyat** - hündür dayaqlara döşənmiş sim - tir üzərində hərəkət edən yol üstü nəqliyyat sistemi növüdür.

**51. Sosial göstəricilər** - ökənin iqtisadi inkişafını təyin edən orta uzunömürlülük, insan inkişafı indeksi, savadlılıq faizi, informasiyalaşdırma səviyyəsi, korrupsiyanın yayılması, kölgə iqtisadiyyatı göstəricilərdir.

**52. Orta uzunömürlülük** - doğumla ölüm arasında interval olub, ölüm yaşına bərabər hesablanan demoqrafik göstəricidir.

**53. Ehtimali (*median*) uzunömürlülük** - bir nəslin vəfat etmiş və hazırda yaşayan insanlarının tarazlığına düşən yaşdır.

**54. Normal (*modal*) uzunömürlülük** - bir yaşında vəfat edənlər nəzərə alınmadan maksimum ölüm düşən yaşdır.

**55. Təbii (*bioloji*) uzunömürlülük** - insana təbiət tərəfindən bəxş edilmiş ömür müddətidir.

**56. Maksimum uzunömürlülük** - insanın maksimum ölüm yaşıdır.

**57. Doğum və ölüm göstəriciləri** - təbii artım əmsalı, doğum və ölüm səviyyəsinin ümumi əmsalları, ölümün səbəbləri üzrə ölüm əmsalı, körpə ölümünün əmsalı, nikah və boşanmaların ümumi əmsalları və s. vasitəsi ilə təhlil edilən göstəriciləri ehtiva edir.

**58. Həyat (*rifah*) səviyyəsi** - insanların maddi və mənəvi tələblərinin istifadə olunan vahid zaman çərçivəsində əmtəə və xidmətlər kütləsi ilə təminatlılıq səviyyəsini xarakterizə edir.

**59. Həyatın dəyəri** - insana, ailəyə zəruri olan əmtəələrin, həyat nemətlərinin, xidmətlərin mövcud qiymətlərlə hesablanmış və ya müvafiq vaxt çərçivəsində orta ev təsərrüfatında faktiki istehlak olunan xidmət və nemətlərin pul dəyəridir.

**60. Həyat keyfiyyəti** - maddi, sosial, demoqrafik və digər bu kimi həyat şərtlərinin və onların inkişaf səviyyəsinin məcmusudur.

**61. Həyat Keyfiyyəti İndeksi** - ayrı-ayrı ölkələrdə həyat məmnuniyyəti qiymətmətləndirilməsinin subyektiv araşdırmalarının nəticələrini həmin ölkənin həyat keyfiyyətinin obyektiv determinantları ilə birləşdirməklə hesablanan sosial əmsal göstəricisidir.

**62. Cinni əmsalı (*indeksi*)** - Lorens əyrisi əsasında hesablanaraq ölkədə ailə gəlirlərinin bölgüsündəki bərabərsizliyin dərəcəsini təyin edən əmsal göstəricidir.

**63. Lorens əyrisi** - ailələr üzrə faktiki gəlir bölgüsünü bərabər bölgüdən ayırmanın təhlilində istifadə olunan, müəyyən sahələrdə, cəmiyyətdə gəlir və sərvətlər bölgüsündəki bərabərsizlik dərəcəsini nümayiş etdirən qrafik təsvirdir.

**64. Engel qanunu** - "gəlir artıqca ərzaq xərcləri azalır, ikinci dərəcəli şeylərə - xidmətə olan xərclər artır" tezisində alman iqtisadçısı, statistiki Ernest Engelin adı ilə bağlı iqtisadi qanundur.

**65. Həyat Bahalılığı Reytinqi** - konsaltinq, autsorsinq və investisiya xidmətləri üzrə "Mercer" şirkəti tərəfindən müəyyənləşdirilən əmtəə və xidmətlərin beynəlxalq səbəti əsasında dünyanın müxtəlif şəhərlərinin həyat bahalılığını əks etdirən reytinq göstəricisidir.

**66. İnsan İnkişafı İndeksi** - ölkələrdə insan rifahının vəziyyətini müqayisəli şəkildə qiymətləndirməyə imkan verən gözlənilən orta ömür, əhalinin təhsil səviyyəsi, paritet istehlak qabiliyyətində milli valyutada ÜDM-in adambaşına düşən bölgüsü göstəricilərini şərtləndirən inteqral göstəricidir.

**67. İnsan İnkişafı Reytinqi** - BMT-nin İnkişaf Proqramının (*UNDP*) hər il nəşr etdiyi "İnsan İnkişafı Hesabatı" çərçivəsində tərtib edilən İnsan İnkişafı İndeksinə əsaslanan ölkələr üzrə reytinq göstəricisidir.

**68. Təhsil İndeksi** - ölkə əhalisinin təhsil potensialını yaşlı əhalinin savadlılıq səviyyəsi (*üçdə iki hissə*) ilə təhsil alanların (*üçdə bir hissə*) məcmu payının kombinasiyasında xarakterizə edən göstəricidir.

**69. İnformasiya** - hara çatdırılmasından asılı olmayaraq çoxşaxəli məlumatdır.

**70. İnformasiya təhlükəsizliyi** - dövlətin informasiya resurslarının və informasiya sferasında şəxsiyyət və cəmiyyətin hüquqlarının qorunması vəziyyətidir.

**71. İnformasiya texnologiyaları** - informasiya prosesləri zamanı, o cümlədən hesablama və rabitə texnikasının tətbiqi ilə istifadə edilən üsul və vasitələr sistemidir.

**72. İnformasiya-kommunikasiya texnologiyaları** - informasiyaların təsbit olunmasını, onun emalını və mübadiləsini təmin edən texnologiyalar məcmusudur.

**73. İnternet** - həcmli ixtisaslaşmış informasiya serverlərinə giriş imkanı verən və elektron poçtu təmin edən qlobal kompyuter şəbəkəsidir.

**74. Elektron hökumət** - konstitusiyalı dövlətdə dövlət xidmətlərinin təqdimatının avtomatlaşdırılması prosesidir.

**75. Korrupsiya** - təyin edilmiş qaydalara zidd olaraq, vəzifəli şəxs tərəfindən ona həvalə edilmiş hakimiyyət səlahiyyəti və etibardan özünün şəxsi mənafeləri üçün istifadə etməsidir.

**76. Korrupsiya Qavrama İndeksi** - Beynəlxalq Şəffaflıq təşkilatı tərəfindən hazırlanaraq hər il nəşr edilən dövlət sektorunda korrupsiyanın qavranılması üzrə ölkələrin reytinqini müəyyənləşdirən indeksdir.

**77. Gizli İqtisadiyyat -** dövlət nəzarəti və uçotundan kənarda olan dövlət və ictimaiyyətdən gizli saxlanılan iqtisadi fəaliyyətdir.

**78. Paritet İstehlak Qabiliyyəti** - müxtəlif ölkələrin valyutalarının, pul vahidlərinin müqabil nisbətidir.

**79. İqtisadi inkişafın səviyyəsi** - məcmu ictimai məhsul, adambaşına milli gəlir, təbii resurslardan istifadə, istehsalın təşkili və effektivliyi haqqında məlumatları özündə əks etdirən ölkənin ictimai istehsalın inkişaf göstəricisidir.

**80. İqtisadi güc** - ümumi milli məhsul, insan inkişafı indeksi, əhalinin sayı, onun alıcılıq qabiliyyəti və daxili istehlak bazarının tutumu kimi makroiqtisadi göstəricilərlə xarakterizə olunan dövlətin məcmu güc səviyyəsidir.

**81. Ölkənin iqtisadi potensialı** - təbii-resurs, istehsal, əmək, elmi-texniki, ixrac potensialında əhatə olunaraq maksimal ÜMM istehsal etməyə imkan verən ölkə resursları məcmusudur.

**82. Təbii-resurs potensialı** - ölkənin artıq təsərrüfat dövriyyəsinə cəlb edilmiş, həmçinin, əldə olan texnologiyalar və sosial-iqtisadi münasibətlərlə əlyetərli olan təbii sərvətləri xarakterizə edir.

**83. İstehsal potensialı -** istehsal vasitələridir (*binalar, qurğular, avadanlıqlar*), texnologiyalardır, fəhlə və mühəndis-texniki kadrları birləşdirən maddi-əşya və əmək resursları məcmusudur.

**84. Əmək potensialı** - əhalinin əməkqabiliyyəti kəmiyyəti, onun peşə-təhsil səviyyəsi və digər bu kimi xarakterik cəhətləri ilə səciyyələnərək ölkənin, regionun və müəssisənin hazırda mövcud və gələcəkdə proqnozlaşdırılan əmək imkanlarını ehtiva edir.

**85. İxrac potensialı** - ölkənin özündə olan və ya istehsal etdiyi resursların, məhsulların ixracetmə imkanı, potensial qabiliyyətidir.

**86. İqtisadi artım** - milli gəlir, ümümi daxili məhsul, ümumi milli məhsul kimi markroiqtisadi göstəricilərlə xarakterizə olunaraq ölkədə məcmu istehsal və istehlakın miqyaslarının artımını əks etdirir.

**87. Kvota -** ümumi işin iştirakçılarının birinin üzərinə düşən pay, hissə və müəyyən müddət üçün tətbiq edilən (*malların idxalı, ixracı, istehsalı, satışı və istehlakı*) kəmiyyət məhdudiyyətidir.

**88. Kvotalaşdırma -** dövlət orqanları tərəfindən xarici iqtisadi fəaliyyəti tənzimləmək məqsədi ilə müəyyən növ məhsulların ixrac və idxalının kəmiyyət baxımından məhdudlaşdırılmasıdır.

**89. İxrac kvotası** - faiz ölçüsündə müvafiq dövr ərzində ixracın dəyərinin ÜDM-in dəyərinə olan nisbətidir.

**90**. **İdxal kvotası** - faiz ölçüsündə müvafiq dövr ərzində idxalın dəyərinin ÜDM-in dəyərinə olan nisbətidir.

**91. Xarici ticarət kvotası** - xarici ticarət dövriyyəsinin (*ixrac və idxalın məcmu dəyəri*) ÜDM-ə faiz nisbətidir.

**92. Xarici ticarət dövriyyəsi** - müvafiq dövr ərzində ölkənin idxal və ixracının dəyərinin məsmusudur.

**93. Xarici ticarət dövriyyəsinin adambaşına düşən həcmi** - idxal və ixracının dəyərinin məsmusunun əhali sayına nisbətidir.

**94. Qloballaşma İndeksi** - iki ayrı mənbə - KOF İsveçrə İqtisad İnstitutu (*KOF Swiss Economic Institute*) və Xarici Siyasət Jurnalı (*Foreign Policy Magazine*) tərəfindən hazırlanmış, ölkələrin qloballaşma prosesinə qoşulma səviyyəsini ölçmək məqsədilə istifadə olunan qloballaşma indeksidir.

**95. Qlobal Rəqabətlilik İndeksi** - Dünya İqtisadi Forumu tərəfindən hər il yayınlanan "Qlobal Rəqabətlilik Hesabatı" çərçivəsində hazırlanan ölkə iqtisadiyyatlarının əsas müqayisəli üstünlüklərinin və çatışmazlıqlarının müəyyən edilməsinə imkan verən reytinq göstəricisidir.

**96. Dünya İdarəetmə İndeksi** - Yeni Dünya İdarəetmə Forumu tərəfindən dünyada idarəetmənin mövcud səviyyəsini və təkamülünü qiymətləndirmək məqsədilə tərtib edilən reytinq göstəricisidir.

**97. Müstəqil Fondların (*Linaburg-Maduell*) Şəffaflıq İndeksi** - İsveçrənin Suveren Zənginlik Fondu İnstitutuda Carl Linaburg və Maykl Maduell tərəfindən ölkələrdə müstəqil zənginlik fondlarının şəffaflıq reytinqini müəyyənləşdirən əmsal göstəricisidir.

**98. "Standard and Purs" (*S&P*) şirkətinin kredit reytinqləri** - maliyyə xidmətləri göstərən "Standard & Poor's" reytinq agentliyi tərəfindən hazırlanan kredit reytinqləridir.

**99. Fitç Reytinq LTD-nin kredit reytinqi** - beynəlxalq kredit bazarlarına kreditqabiliyyətliyi üzrə müstəqil və əsaslandırılmış qiymətləndirmələr təqdim edən beynəlxalq kredit reytinqi agentliyi Fitch Ratings LTD tərəfindən hazırlanan kredit reytinqidir.

**100. "Moody's" kredit reytinqi** - "Mudis" şirkəti tərəfindən standartlaşdırılmış reytinq əmsallarından istifadə etməklə borcalanların kredit qabiliyyətliliyini qiymətləndirən reytinq göstəricisidir.

**101. "İnstitutional İnvestor" şirkətinin kredit reytinqi** - müstəqil borcların ödənilməməsi ehtimalı üzrə "İnstitutional İnvestor" şirkəti tərəfindən 100 ballıq sistem üzrə tərtib edilən ölkə kredit reytinqidir.

**102. Dövlət Borcu Reytinqi** - dövlət borcunun ÜDM-dəki payını əks etdirən reytinq göstəricisidir.

**103. Qızıl-valyuta ehtiyatları** - qızıl külçə və sikkələrdə, xarici valyutada xarici banklardakı hesablarda və xarici banknot və sikkələrdə mərkəzi bankalara və xəzinədarlığa aid yüksək likvidli aktivlərdir.

**104. Vergitutma reytinqi** - Dünya Bankı tərəfindən hər il nəşr edilən "Biznes Etmək Hesabatı" (*Doing Business Report*) çərçivəsində tərtib olunan, vergilərin ödənilməsi ilə bağlı reytinq göstəricidir.

**105. Milli Hesablar Sistemi, MHS** - makroiqtisadi proseslərin təsviri və təhlilinin qarşılıqlı əlaqəli göstəricilər sistemidir.

**106. Tədiyə balansı** - müəyyən dövr ərzində rezidentlər və qeyri-rezidentlər arasında aparılmış bütün iqtisadi əməliyyatları əks etdirən cədvəl, statistik sistemdir.

**107. Azərbaycan Respublikasının tədiyə balansı** - hər il Mərkəzi Bank tərəfindən hazırlanaraq ölkə rezidentlərinin müəyyən bir dövr ərzində xarici ölkə rezidentlərilə həyata keçirdikləri bütün iqtisadi əməliyyatların nəticəsini göstərən sistemli bir qeydiyyat forması olaraq çıxış edir.

**108. İqtisadi Azadlıq Reytinqi -** "The Wall Street Journal" və Vaşinqtonun "İrs fondu" tərəfindən hər il birgə yayınlanan "İqtisadi Azadlıq İndeksi" adlı hesabatla təqdim edilən ölkələr üzrə reytinq göstəricisidir.

**109. Biznes Etmək Asanlığı Reytinqi** - Dünya Bankı tərəfindən hər il yayınlanan "Biznes Etmək Hesabatı" çərçivəsində tərtib edilən, ölkələr üzrə reytinq göstəricisidir.

**110. Açıq cəmiyyət -** dinamik sosial strukturlu müasir demokratik cəmiyyət tipidir.

**111. Azərbaycanın nəqliyyat-kommunikasiya sistemi** - əlverişli coğrafi məkan, inkişaf etmiş infrastrukrur, tranzit potensial əhatəsində nəqliyyatın bütün əsas növlərini özündə birləşdirir.

**112. Bakı-Tbilisi-Qars dəmiryolu xətti, BTQ -** uzunluğu 825,0 km olan, Azərbaycanın paytaxtı Bakı şəhərindən Gürcüstanın Tbilisi və Axalkalaki şəhərlərindən keçərək Türkiyənin Qars şəhərini birləşdirən dəmiryolu xəttidir.

**113. Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı** - Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərinin Ələt qəsəbəsində Şərq-Qərb (*İpək Yolu*) və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizləri üzərində qurulan, Xəzər dənizi sahilində yerləşən beynəlxalq dəniz ticarət limanıdır.

**114. Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan ixrac neft boru kəməri, BTC** - Azərbaycan neftinin Xəzər dənizindən Turkiyənin Ceyhan limanına, oradan Aralıq dənizi vasitəsilə Avropa bazarlarına nəqlini həyata keçirən kəmərdir.

**115. Qərb İxrac Boru Kəməri, QİBK - Bakı-Supsa** Xəzərin Azərbaycan sektorunda hasil edilən neftin Gürcüstanda Supsa terminalından keçməklə dünya bazarlarına nəqlini həyata keçirən boru xəttidir.

**116. Bakı-Novorossiysk kəməri** - Xəzər neftinin Rusiyanın Qara dənizdəki Novorossiysk terminalına daşınmasını həyata keçirən kəmərdir.

**117. Cənubi Qafqaz Boru Kəməri, CQBK** - Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Şahdəniz" yatağından çıxarılan qazın Gürcüstan və Türkiyəyə nəqli üçün inşa edilmiş qaz kəməridir.

**118. TRACECA** - 1993-cü ildə təsis edilmiş, qərargahı Bakı şəhərində yerləşən 14 üzv dövləti - Azərbaycan, Türkiyə, İran, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Tacikistan, Ukrayna, Moldova, Rumınya, Bolqarıstan, Gürcüstan, Əfqanıstan və Ermənistan əhatə edən, Avropa İttifaqının Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin təşkili proqramıdır.

**119. "ASAN-xidmət"** - Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi vasitəsi ilə dövlət orqanları tərəfindən vətəndaşlara göstərilən xidmətlərin həyata keçirilməsini təmin edən Azərbaycan Xidmət və Qiymətləndirmə Şəbəkəsidir.

**120. Azərbaycanda informasiya cəmiyyəti -** milli strategiya, dövlət proqramları, "Elektron hökumət" institutu, yüksək texnologiyalar və milli brend "ASAN xidmət" əhatəsində formalaşdırılan infrastruktur üzrə müəyyənləşir.

# IX FƏSİL

# Dünya ölkələrinin sosial-iqtisadi inkişaf modelləri

## 9.1. "Sosial-iqtisadi inkişaf modeli" anlayışı

Müasir iqtisadi ədəbiyyatda dünya ölkələrinin tipologiyası həmişə XX əsrin son onilliklərində ictimai-iqtisadi elmlər sistemində tətbiq olunan "iqtisadiyyat modeli" anlayışından irəli gələrək nəzərdən keçirilir. Ölkə modeli anlayışından yalnız o halda istifadə olunur ki, milli dövlətin sosial-iqtisadi və siyasi inkişafı uzun müddət ərzində onun əsasına qoyulmuş ən mühüm parametrlərin sabitliyini nümayiş etdirmiş olsun.

Model, nümunə, qeyri-real analoq predmetin, prosesin və hadisənin görnüşününü əks etdirərək nəzəri-tədqiqi və tətbiqi kateqoriyalara bölünür. Modellərin bölüşdürücü, adaptiv, immitasiyalı, mikroiqtisadi, matrissa, riyazi və qrafik formaları mövcuddur. Statitistik vəziyyəti xarakterizə edənlər statistik, inkişafı tərənnüm edənlər dinamik, bir və ya bir neçə riyazi ifadə ilə iqtisadi prosesi və hadisəni ifadə edənlər riyazi-iqtisadi modellər adlanır. Hər hansı bir ölkənin siyasi quruluşu və iqtisadi modeli, qanunvercilik bazası, bürokratiya və demokratiya, dövlətçilik ənənəsi milli təfəkkür, mərkəzləşmənin səviyyəsi, informasiya mühiti, biznes üçün şərait, bazarlar, gömrük-tarif və s. şərtlər də əhəmiyyətlik dərəcəsinə görə ilk yerlərdən birini tutur.

Ölkənin sosial-iqtisadi modeli və ya milli sosial-iqtisadi model - ölkədə iqtisadi və sosial münasibətlərin spesifikası olub, onu oxşar inkişaf səviyyəli ölkələrdən fərqləndirir. Dövlətin, sahibkarların və əhalinin bu ölkədə təsərrüfat həyatına və sosial sferaya yanaşmalarının spesifikasında təzahür edir.

Ölkənin sosial-iqtisadi modeli məzmununun qiymətləndirilməsi üzrə müvafiq meyarlar mövcuddur və onlar aşağıdakı kimi təsnifatlandırılır:

❖ hakimiyyət formalarının nisbəti;
❖ cəmiyyətin inkişaf səviyyəsi və bütövlükdə və onun ayrı-ayrı sahələrində bazar mühitinin təşkili formaları;
❖ dövlətin iqtisadiyyata təsiri sərhədləri və metodları;
❖ həyata keçirilən iqtisadi siyasətin məqsədi və metodları;

❖ iqtisadiyyatın maliyyələşdirilməsi mənbələri və miqyasları, onun innovasiyalılığı səviyyəsi, iqtisadiyyatın açıqlılıq dərəcəsi;
❖ xarici iqtisadi əlaqələrin dinamikası, strukturu və idarə edilməsi və s.

Bu meyarlar sırasına çox zaman makroiqtisadi göstəricilər də əlavə edilir.

Müasir dünyada iqtisadiyyatların bir neçə ölkə modellərini ayırmaq olar.

1. Liberal, neoliberal və ya özəl-korporativ. Anqlosakson ölkələri (*ABŞ, Böyük Britaniya, İrlandiya, Yeni Zelandiy*a) üçün səciyyəvi olan bu modelə bazar subyektlərinin maksimum azadlığının qanunvericiliklə təmin edilməsi, dövlət mülkiyyətinin və ÜDM-in quruluşunda dövlət büdcəsinin aşağı xüsusi çəkisi xarakterikdir. Modelin nöqsanları sırasında cəmiyyətin eynicinsli olmaması, vətəndaşların gəlirlərində xeyli differensiyallılıq, üstünlüklər sırasında isə inkişafın yüksək dinamikası, yeni iqtisadi şəraitə adaptasiyaya görə təsərrüfatın çevikliyi yer alır.

2. Liberal-islahatçı model. Liberal modelə yaxın olan, bu model kifayət qədər inkişaf etmiş dövlət sosial təminat sistemi ilə tənzimlənən bazar təsərrüfatını əks etdirir. Təsərrüfat mexanizminin bu modeli müəyyən fərqlərlə əmək haqqının böyük dayanıqlılığı qeyd olunan Şimal-Qərbi Avropa ölkələrində mövcuddur. Həmin ölkələrə kifayət qədər güclü həmkarlar hərəkatı və geniş əmək qanunvericiliyi xasdır. Liberal-islahatçı model həm də Reyn modeli adlandırılır.

3. Sosial bazar təsərrüfatı (*sosial yönümlü iqtisadiyyat*) modeli. Aİ üzvləri olan ölkələr, Kanada və İsrail üçün xarakterikdir. Bəzən onu sosial-demokratik (*sosial-liberal*) model adlandırırlar. Modelə vergilər sistemi vasitəsilə özəl sektorun gəlirlərinin bölgüsü xarakterikdir. Burada ÜDM-də dövlət büdcəsinin payı 50%-dən çoxdur, inkişaf etmiş sosial yardım, əmək münasibətlərinin tənzimlənməsi sistemləri müəssisələr səviyyəsində deyil, milli səviyyədə həyata keçirilir. Nöqsanlara, həmçinin, işsizliyin yüksək səviyyəsini, dövlət büdcəsinin kəsirini, dövlət vəsaitlərinin aşağı səmərəliliyini aid etmək lazımdır.

4. Korporativist model. Bu model dövlətin iştirakının intensiv formaları olan tənzimlənən bazar sistemi kimi çıxış edir. Bu model tipinin iki - iyerarxik və demokratik (*sosial-islahatçı*) yarımnövü vardır.

Müasir Aİ-də sosial modellərin konvergensiyası (*yaxınlaşması*) prosesi baş verir ki, bu zaman daha az inkişaf etmiş ölkələr öz göstəricilərini ittifaq üzrə orta səviyyəyə çatdırmağa cəhd edir və bir qədər uğurlular isə bəzi sosial ehtiyaclara çəkilən xərcləri azaltmağa çalışırlar.

## 9.2. Ölkələrin sosial-iqtisadi inkişaf modelləri

Ölkələrin ümumi sosial-iqtisadi model tipləri ilə yanaşı bir sıra dövlətlərə bu və ya digər dərəcədə daha spesefik olan sosial-iqtisadi inkişaf modeller xasdır. Nümunə yaradacaq belə sosial-iqtisadi inkişaf modellerinin bir hissəsi aşağıda şərhini tapmışdır:

<u>ABŞ-ın sosial-iqtisadi inkişaf modeli.</u> Sosial-iqtisadi inkişafın Amerika modeli biz-

nesin qloballaşması və informasiya inqilabı kimi prinsipial xüsusiyyətləri ilə xarakterizə olunur. Biznesin qloballaşması ölkənin və onun təsərrüfat subyektlərinin dünya iqtisadiyyatına inteqrasiyası deməkdir. Artıq indi iri Amerika korporasiyalarının yarıdan çoxu xarici ölkələrdə yaradılır.

İqtisadi həyatı sahibkar aktivliyinin hər tərəfli mükafatlandırılması üzərində qurulan ölkədə, aztəminatlı qruplar üçün müxtəlif güzəşt və yardımlar verən mümkün həyat səviyyəsi formalaşdırılmışdır. Şəxsi müvəffəqiyyət, yüksək əmək məhsuldarlığı təmayülü üzərində strukturlaşan iqtisadi modeldə sosial bərabərlik məsələsi ümumən nəzərdən keçirilmir. Burada dövlət stabil konyukturun və iqtisadi tarazlığın qorunmasında təsir gücünü nümayiş etdirir.

ABŞ dünyanın yeganə ölkəsidir ki, iqtisadiyyatı II Dünya Müharibəsindən xeyli möhkəmlənmiş çıxmışdır. Onun müharibədən sonrakı ilk illərdə dünya təsərrüfatında rəqiblərindən böyük fərqlə ayrılaraq lider mövqedə dayanması mübahisəsiz olmuşdur. Müharibə ABŞ-ı ciddi rəqiblərdən xilas etsə də, belə vəziyyət uzun sürməmişdir. Belə ki, Qərbi Avropanın iqtisadi yüksəlişi və Yaponiyanın sənaye sıçrayışı bu fərqliliyi əhəmiyyətli dərəcədə dəyişdirmişdir. Həmin ərəfədə ABŞ-ın kapitalist dünyasının ÜMM-də payı 1950-ci illərdəki 30%-dən, hazırda 20%-ə qədər, mal ixracında payı 45%-dən 12%-ə qədər aşağı düşmüşdür. Paralel sıçrayışlar fonunda amerikalılar kapital ixracı sahəsində də sıxışdırılmışlar. Belə ki, 1960-cı ildə kapital ixracatçısı olan əsas ölkələrin birbaşa xarici investisiyalarının 62%-dən çoxu ABŞ-ın payına düşdüyü halda, hazırda bu rəqəm 20%-dən az hesablanır. Lakin bununla belə, ABŞ dünyanın iqtisadi qüdrətli lideri kimi ənənəvi satusunu qoruyub saxlayır. İnformasiya inqilabı hazırda ölkə iqtisadiyyatının ikinci güclü artım mənbəyi kimi önə çıxır. Bu zəmində ölkədə əsl iqtisadi bum yaşanır. Əgər yaxın vaxtlara qədər ölkə iqtisadiyyatını irəliyə avtomobil və mənzil tikintisi aparırdısa, hazırda inkişaf lokomotivi kimi iqtisadi artımın təxmini qiymətlərlə dörddə üç hissəsini təmin edən informasiya texnologiyaları çıxış edir. Rəqəmsal texnologiyalar təkmilləşir, daim yeni şirkətlər meydana gəlir, yüksək tenologiyaları özündə birləşdirən yeni innovativ sənaye sahələri yaranır. Populyar "Business Week" jurnalının informasiya texnologiyaları sahəsində 100 şirkətin reytinqində 75 şirkətin və ilk iyirmilikdə isə 17 şirkətin ABŞ-ı təmsil etdiyi göstərilir. Bu isə o deməkdir ki, informatika və informasiya texnologiyaları sahəsində ABŞ-ın bənzəri yoxdur.

Amerika iqtisadiyyatının başlıca xüsusiyyəti ondan ibarət deyil ki, o, dünyada ən böyük istehsal potensialına malikdir və ən böyük həcmdə mal və xidmətlər istehsal edir. Bu xüsusiyyət onun ETT sahəsində liderliyi, onun nəticələrinin istehsala tətbiqi, öz kəşflərinin, ixtiralarının və ən yeni işlərinin lisenziyalarının ixracındadır. Belə strategiya başqa ölkələrin elm və texnika sahəsində ABŞ-dan asılılığı effektini yaradır. Dünya üzrə ETTKİ-lərə çəkilən xərclərin 40%-i ABŞ-ın payına düşür, müasir dünyada elmtutumlu məhsulların ixracının ümumi həcmində isə ABŞ-ın payı 20%-dən azdır.

<u>Yapon sosial-iqtisadi inkişaf modeli.</u> Yapon iqtisadiyyatının XX əsrin ikinci

yarısında qurulan təsərrüfat mexanizmində ehtiva olunan yüksək artım sürəti xüsiyyətlərinə malikliyinin özünəməxsusluğu onun ayrıca xüsusi model olmasını şərtləndirmişdir. Yaponiya hazırda inkişaf etmiş Qərb ölkələrindən fərqli olan, müasir sənayenin dualizmi ilə xarakterizə olunan sosial struktura malikdir. Burada məşğulluqda və emal sənayesinin istehsalında əsas yer kiçik və orta müəssisələrə məxsusdur.

İqtisadi quruluşun səsiyyəvi cəhəti ölkədə bütün işgüzar münasibətlər sistemini əhatə edən şirkətlərin şaquli inteqrasiyalığı və onların qruplaşması ilə bağlıdır. Burada iqtisadi qruplaşmaların yaradılmasının iki səviyyəsi və ya tipi ayırılır. Birincisi, bu Qərb ölkələrinin çoxu üçün ənənəvi olan kapitalla şəxsi birləşmənin bir-birinə keçməsinə (*qarışmasına*) əsaslanmasındadır. Yapon təsərrüfat sisteminin unikallığı "*kige sudan"* adlanan korporativ qruplarının olması ilə müəyyən edilir. Bu qrupun mərkəzini bəzən ticarət şirkəti ilə bir yerdə olan əsas bank təşkil edir. Sonrakı əlaqələr şaquli xətt üzrə qurulur. İkinci səviyyədə *keyretsu qrupları* yerləşir ki, bunlar iri şirkətlərin müxtəlif növ əlaqələrə əsaslanan xırda və orta şirkətlərlə birləşməsidir. Bu şirkətlər arasında baş firmalar tərəfindən müəyyən edilən istehsal şirkətləri əsas rol oynayır.

Yaponiya iqtisadi modelinin səciyyəvi xüsusiyyəti ümumi problemlərin həllində *dövlət aparatının və iri kapitalın birliyindən* ibarətdir. Burada indiyədək sənaye, ticarət, bank şirkətlərinin və hökumətin fəaliyyətinin yüksək səviyyəli əlaqəsi nəzərə çarpır. XX əsrin ikinci yarısında Yaponiyada *dövlət sahibkarlığı* o qədər də böyük yer tutmamışdır. Onun təsir dairəsinə 13 bank və bir sıra infrastruktur obyektləri daxildir. Ölkədə dövlət milli gəlirin az bir hissəsini - ÜDM-in 25-27%-ni təkrar bölüşdürür. Bununla yanaşı o, büdcə və pul-kredit alətləri vasitəsilə təsərrüfat proseslərinə güclü təsir göstərir.

Yaponiyada ümumdövlət, regional, məqsədli, sahəvi və firmadaxili *planlaşdırma* sistemindən geniş istifadə olunur. Ümumdövlət səviyyəsində iqtisadi və sosial inkişafın bütövlükdə cəmiyyət üçün əsas və arzu olunan hədəflərini bildirən planların, proqnozların, indikativ xarakterli proqramların bütöv bir sistemi işlənib hazırlanır. Özlərinin indikativliyinə baxmayaraq, plan və proqramlar maliyyə, hüquqi və təşkilati xarakterli vəsaitlərin geniş arsenalı ilə möhkəmləndirilirlər ki, bu da onların səmərəliliyini və satış qabiliyyətini xeyli dərəcədə təmin edir.

Yaponiyada emal sənayesinin 60%-dən artıq xırda və orta şirkətləri subpodrat münasibətlərlə əhatə olunmuşdur. Bu təcrübənin müstəsnalığı əlaqələrin uzunmüddətliyindədir. Bu reallıq isə onun vahid təşkilati xarakterini müəyyən edir. Burada bir çox iri sənaye şirkətləri vahid hüquqi şəxs kimi mövcud deyil. Qərb ölkələrinin "iki təbəqəli" strukturundan (*bazar - müəssisə*) fərqli olaraq, yapon iqtisadi sistemi üç təbəqəyə malikdir:

❖ bazar;
❖ müəssisə;
❖ müəssisələr qrupu.

İqtisadi mexanizmin yapon modelinin xarakterik xüsusiyyətlərindən biri işçi

qüvvəsinin milli ənənələrindən və xüsusiyyətlərindən istifadə etməkdir. Ölkədə uzun müddət ömürlük muzd prinsipi təbliğ olunurdu. Kadr piramidası qurmaq və məşğulluğu təmin etmək iqtidarında olan nəhəng şirkətlər, kiçik və orta şirkətlərdən fərqli olaraq, bu prinsipi həyata keçirmək üçün böyük imkanlara malik idilər. Əmək haqqının səviyyəsi iş stajından asılı olaraq müəyyən edilirdi. Həmin əmək haqqı orta yaşda daha sürətlə artırdı.

Gəlirlərin bölgüsünün yapon sistemi qabaqcıl ölkələr arasında böyük bərabərliklə seçilir. Buna ödənişdə və gəlir vergisinin mütərəqqi şkalasında, nəsildən vergidə böyük olmayan fərqlərlə nail olunur. Gəlir vergisinin ən yüksək dərəcəsi 50%-dir.

Əmək münasibətləri *"şirkət - bizim ümumi evimizdir"* fəlsəfəsinə istinadən qurulur. İşçi qüvvəsindən istifadə isə "insan potensialı" konsepsiyasına əsaslanır. Bu yanaşma zamanı təşkilatın və idarəetmənin əsasında özünüidarəedən kiçik qruplar dayanırlar. Onlar bütün müəssisələri üfqi və şaquli vəziyyətdə əhatə edirlər. Hər bir qrup elə şəraitə salınmışdır ki, onlar müəssisənin fəaliyyətinin təkmilləşməsini, avadanlıqların qənaətcilliklə istifadə üsullarının daimi axtarışlarını stimullaşdırırlar. Əgər bu qərarlar həmin qrupa toxunursa, qrup bütövlükdə firmaya və onun bölmələrinə aidiyyatı olan qərarların qəbul olunmasında iştirak edir.

Əmək münasibətlərində *qadın işçi qüvvəsi* özünəməxsus yer tutur. Bir çox şirkətlərin rəhbərlikləri qadın heyətini olduqca "məsrəfli material" kimi nəzərdən keçirir. Qadınlar, adətən, günhesabı və saathesabı istifadə olunur. Günhesabı işləyən qadınlar daha çox şirkətlərin administrasiyaları üçün özünəməxsus qapaq rolunu oynayırlar.

Yapon təsərrüfatı özünün xarici iqtisadi acıqlılığı ilə fərqlənməmişdir. İxrac kvotasının ölçüsünə, xarici kapitalın miqyasına görə o, *yarıaçıq iqtisadiyyata* adi edilə bilər. Xarici ölkələrdə ÜDM-in 10-14%-i reallaşdırılır. Sonuncu göstərici ABŞ-ın xarici ticarət kvotasına yaxındır, lakin Aİ ixrac kvotasının ölçüsündən 1,5 dəfə azdır.

Yaponiya uzun müddət öz mallarının rəqabətliliyinə görə dünya bazarlarında və bütövlükdə dünya təsərrüfatında qabaqcıl yer tutmuşdur. 1990-cı illərin sonunda o, 16-cı yerə düşdü ki, bu da daxili iqtisadiyyatın zəif inkişafını əks etdirirdi.

Texnologiyanın dünyadakı hərəkətində Yaponiya özünəməxsus yer tutur. Bu ölkə sənaye ölkələrindən bütün texnologiyanı idxal edir, demək olar ki, o qədərini də sənaye cəhətdən inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrə satır. Texnologiya ixracının ümumi həcminin 40%-i Asiya ölkələrinə aparılır. Yaponiya şirkətləri orta mürəkkəbliyə malik olan məhsulların istehsalını qonşu ölkələrə keçirərək, özləri diqqətlərini texnoloji cəhətdən mürəkkəb məhsulların işlənib hazırlanması və mənimsənilməsi üzərində cəmləşdirərək, Şərqi və Cənub-Şərqi Asiya ölkələri ilə elmi-texniki əməkdaşlığı və sənaye kooperasiyasını genişləndirirlər. Nəticədə dünyanın Asiya hissəsində qarşılıqlı elmi-texniki və sənaye qarşılıqlı əlaqəsinin yaponmərkəzli modelinin cizgiləri nəzərə çarpır.

Yaponiya kapitalının qoyulduğu əsas bazar Şimali Amerikadır ki, burada yüksək

texnologiyalar şirkətlərinin tətbiqi meyili görünməkdədir. Həmin şirkətlər Amerika təcrübəsindən istifadə etməyə və EHM, mobil rabitə, kompüter qrafikası kimi sahələrdə geriliyi aradan qaldırmağa çalışırlar. O da vurğulanmalıdır ki, Yaponiya xarici kapitalın yatırılması üçün iri obyekt deyil. Belə ki, burada orta hesabla xarici kapitallı şirkətlərin payına Yaponiyadakı ümumi satışların 1,0-1,5%-i, məşğulların 0,5-1,0%-i və idxalın 10-12%-i düşürür.

Qeyd edilməlidir ki, Yaponiya ilə müasir Koreya Respublikasının sosial-iqtisadi inkişaf modelin arasında çoxlu oxşarlıqlar nəzərə çarpır. Belə ki, milli özünüdərk, yüksək əməksevərlik əsasında səmərəli, qənaətli, dünya bazarında rəqabət göstərən mallar istehsalını təmin etmək hər iki ölkəni iqtisadi inkişafı missiyasının prioritetini təşkil edir. Dövlət iqtisadi modernləşdirmə proseslərində öz təsir gücünü daim göstərir. Həmçinin, bu ölkələr arasında iqtisadi model orientasiyasında oxşar cəhətlərlə yanaşı fərqli aspektlər də mövcuddur. Koreya Respublikası Yaponiyaya nisbətdə kiçik və orta biznesə edilən yüksək qayğı ilə fərqlənən cəhətlərə malikdir. Belə təmayül çox qısa müddət ərzində ölkədə orta sinfin formalaşmasına zəmin olmuşdur. Bununla belə, hər iki ölkədən dövlətin bazara güclü müdaxiləsi 1990-cı illərin sonunda Uzaq Şərq regionunu bürüyən məlum böhranlara səbəb olmuşdur.

Dünya iqtisadiyyatında Çin fenomeni - Çin sosial-iqtisadi inkişaf modeli. Dünya təcrübəsi göstərir ki, iqtisadi və siyasi islahatlar uzunmüddətli mürəkkəb bir proses kimi hər bir ölkənin həyatında özünəməxsusluğu ilə təcəssüm olunur. Bu baxımdan hələ də prosesin meyar və ölçülərini dolğunluğu ilə əks etdirən müqabil vahid konsepsiyanı formalaşdırmaq mümkün olmamışdır. Bu çətinliyi həm də ayrı-ayrı ölkələrdə baş verən bir sıra iqtisadi uğur fenomenləri və onunla bağlı bu sferada iqtisadi tsiklin başa çatmaması kimi amillər daha da mürəkkəbləşdirir. Belə fenomenlərdən biri də dünya iqtisadiyyatının son 30 ildə ən mühüm hadisələri sırasında yer alan ÇXR iqtisadiyyatının bənzərsiz inkişaf uğurları hesab olunur. Bu inkişaf Çin Kommunist Partiyasının görkəmli xadimi, inqilabçı, siyasətçi, islahatçı Den Syaopinin adı ilə bağlıdır.

Dağıdıcı sosial və siyasi çəkişmələrdən sonra ölkəyə rəhbərlik edən Den Syaopin "Çin xüsusiyyətliyi ilə sosializm" adı altında yeni sosialist təfəkkür formalaşdıraraq, geniş miqyaslı iqtisadi islahatların təşəbbüskarı kimi ölkəsini dünya bazarının bir hissəsinə çevirdi. ÇXR bununla da dünyada ən sürətli iqtisadi inkişafa malik bir ölkə imici qazandı. Bu iqtisadi inkişaf prosesi təkamüllü olmaqla, həm də o qədər sıçrayışlı və geniş səmərədə nəticəli idi ki, tezliklə onu "Çin iqtisadi möcüzəsi" adlandırdılar. "Çin iqtisadi möcüzəsi", əslində, planlı sosialist iqtisadiyyatı ilə bazar təmayüllü kapitalist iqtisadiyyatının optimal sintezindən irəli gəlir.

ÇXR dövləti özünü təmin edəcək qədər ilkin təbii-coğrafi şərtlərə malikdir. Ölkə ərazisində faydalı qazıntıların məlum olan 150 növünün, əslində, hamısı mövcuddur. Lakin ölkə əhalisinin sayını nəzərə alsaq, bir çinliyə yalnız 15,1 min dollarlıq təbii sərvət düşür. Bu, ümumdünya göstəricilərinin yalnız 58%-ni təşkil edir. Bununla belə,

ÇXR iqtisadiyyatının geniş material tutumluluğu da ekoloji fəsadlara səbəb olur. Mütəxəssislərin hesablamalarına görə, ölkədə çirkləndirici maddələrin ləğv edilməsi üçün böyük vəsaitlərin ayrılmasına ehtiyac getdikcə artır. Hökumət bu məsələni diqqət mərkəzində saxlayır və onun həlli üçün kompleks tədbirlər müəyyən edir. Bundan başqa, ölkənin artan, genişlənən iqtisadiyyatında neft sənayesi ilə də bağlı problemlər yaşanır. Paytaxt Pekini ən çox enerjidaşıyıcılarının idxalından asılılıq narahat edir. ÇXR-in neft şirkətləri karbohidrogen xammalı ehtiyatının azalması problemləri ilə artıq qarşılaşırlar. Ölkənin ən böyük neft yataqlarının cəmləşdiyi Dassində resurs potensialı 2,2 milyard tondan 500 milyon tona qədər azalmışdır. Ekspertlərin hesablamalarına görə, Dassin yataqlarında neft çıxarılması hər il 7%-ə qədər azalacaqdır. Ona görə də ÇXR hökuməti daim YEK göstəricilərinin yaxşılaşdırılmasına xüsusi diqqət yetirir və enerji resurslarından səmərəli istifadəni mühüm dövləti vəzifə kimi qarşıya qoyur. Bu məqsədlə ölkədə ÜDM-in hər min vahidinin enerji tutumunun azaldılması istiqamətində konkret tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

ÇXR-də aparılan iqtisadi islahatların səmərəli təcrübəsi dünya iqtisadi inkişafında yeni hadisədir. Ən nüfuzlu ekspertlər, dünya şöhrətli iqtisadçılar bu fikirlə razılaşırlar ki, nə BYİB və nə də BVF burada aparılan islahatlarda müəllif və məsləhətçi olmamışdır. Bu strategiyada çin xalqının mentaliteti, ona xas olan dinclik, zəhmətsevərlik, mütəşəkkillik və Qərbin qabaqcıl ölkələrində toplanmış təcrübədən biçimli və düzgün istifadə əsas rol oynamışdır.

Çini dünyanın kənarı hesab edirlər. Çinlilər isə dünyanın mərkəzində yaşadıqlarının ovqatındadırlar. Onlar tarixi keçmişləri, coğrafi şəraiti, təbii sərvətləri, mental xüsusiyyətləri, iqtisadi potensialı, dövlət quruculuğu uğurları, müdrik filosofları, dünya sivilizasiyasına verdiyi neçə-neçə orijinal innovasiya töhfələri ilə haqlı öyünməkdədirlər. Onlar 20 əsr bundan öncə Roma imperiyasından da güclü, lakin onun mövcudluğundan xəbərsiz uzaq Asiyada möhtəşəm imperatorluq yaratmaqla hələ qədim zamanlardan bəşər sivilizasiyasının inkişafında özünəməxsus rolu oynamışlar. Hələ bu zamanlardan bir millət olaraq təşəkkül tapan çinlilər yaranışları ilə bərabər dünyaya, varlığa, təbiətə baxışlarını təcəssüm etdirən "Çin ruhu" mental effektini də formalaşdırmışlar.

Hazırda dünya iqtisadiyyatı potensialında və iqtisadi artım templərində ikinci yerə qalxmış ÇXR-in yaxın və orta perspektivdə ABŞ-ı tam ötərək bu sahədə əsaslı dünya liderinə çevriləcəyi məsələsi hamını düşündürməkdədir. Hələ Çin Kommunist Partiyasının 2002-ci ildə keçirilən XVI qurultayında 2020-ci ilədək ölkədə ÜDM-in 4 dəfə artırılması məsələsi qarşıya qoyulmuşdur. Bu isə qeyri-şərtsiz Çinin yaxın gələcəkdə fövqəldövlətə çevriləcəyinə bir daha yəqinlik gətirir. Dünyanın beynəlxalq aparıcı korporasiyaları ÇXR-ə ən əlverişli perspektiv bir bazar olaraq yanaşırlar. O, xarici investisiya kapitalı müəssisələrinin sayı ilə də ABŞ-a yaxınlaşmışdır. ÇXR yalnız iqtisadiyyatda deyil, elm və innovasiya sferasında, hərbdə, təhsil və səhiyyə, idmanda və sosial-mədəni həyatın bütün digər sahələrində dünyanın ən qabaqcıl ölkələrindən

biridir. Bütün bunlar isə ÇXR-i yaxın 50 ildə dünya iqtisadiyyatının aparıcı və onu idarə edəcək bir ölkəyə çevriləcəyinə əsaslar yaradır.

Almaniya sosial-iqtisadi inkişaf modeli. Almaniyanın sosial-iqtisadi inkişaf modeli bir sıra üstünlükləri ilə fərqlənir. Bu vəziyyət onun iqtisadi sisteminin özəllikləri ilə bağlanılır. Belə ki, AFR-in iqtisadi sistemində bir neçə spesifik cəhət özünü göstərir. Bu iqtisadi model bazar qüvvələrinin xeyli azad hərəkətlərini nəzərdə tutur, lakin əsas vurğu sosial təminata edilir. Alman modeli iqtisadi artımla sərvətin bərabər bölgüsü arasında kompromisdir. Sistemin mərkəzində dövlətin sahibkarlıq fəaliyyəti durur ki, bu da cəmiyyətdə sosial rifahın bərabər bölgüsünü təmin edir. Həmkarlar ittifaqları ilə işəgötürənlər arasında sosial tərəfdaşlıq kifayət qədər möhkəm sosial əmin-amanlığı təmin edir. Sosial sığorta sistemlərində islahatlar və əmək bazarında struktur islahatlar işçi qüvvəsinə olan əlavə xərclərin aşağı salınmasına və iqtisadi artımın stimullaşdırılmasına yönəldilmişdir.

Ölkədə formalaşmış sosial bazar sistemi Adolf Hitler (*1889-1945*) hakimiyyəti (*1933-1945*) zamanı nəhəng konsernlərin ləğvi və bütün təsərrüfat sistemini təşkil edən iri, orta və kiçik müəssisələrin təşkili əsasında dayanıqlı inkişafı təmin edən təsərrüfat mexanizmini ifadə edir. Bununla belə, ölkədə daha çox kiçik və orta biznesin, fermer təsərrüfatlarının inkişafına üstünlük verilir. Burada bazar yüksək əmsallı təsərrüfat fəaliyyətini stimullaşdırır. Dövlət isə , öz növbəsində, aktiv olaraq qiymətlərə, rüsumlara, texniki normalar təsir mexanizmini saxlayır.

Bu modelin kökündə alman neoliberalizminin banisi Valter Oyken (*1891-1950*) konsepsiyasına əsaslanan postfaşist Almaniyasının praktik memar-konstruktoru Lüdviq Erhardın (*1897-1977*) islahatlar strategiyası dayanır. V.Oyken özünün 1940-cı ildə nəşr etdirdiyi "Milli iqtisadi nəzəriyyənin əsasları" əsərində alman sosioloqu, tarixçi, iqtisadçı və hüquqşünası M.Veberin "ideal tiplər" metodologiyasının bazası üzərində təsərrüfatın iki: "azad bazar" və "mərkəzi idarəçilik" tiplərinin mövcudluq vəziyyətini irəli sürmüşdü.

Birinci tip, V.Oykenə, görə azad qiymətlər mexanizmi ilə təqdim olunan bazar vasitəsi ilə idarə edilən daha mükəmməl iqtisadiyyatdır.

İkinci tip isə bazar mexanizmini təcrid edən, istisnalı olaraq, mütləq iqtisadi komandalı formadadır. Heç bir təsərrüfat tipi "xalis formada" mövcud ola bilməz. Onlar yalnız real iqtisadiyyatın təyinedici keyfiyyəti prinsipində çıxış edə bilərlər. İstənilən konkret təsərrüfat əmək bölgüsü, kredit, mənfəət, faiz, əmək haqqı kimi iqtisadi elementlər yığımından ibarətdir. Bununla belə, bu elementlər hər dəfə hakim mərkəzi, qeyri-mərkəzi prinsiplər və tarixi reallıqlar əsasında yeni səpkidə uzlaşırlar.

V.Oyken inhisarın cilovlanmasında baş problem olaraq dövlət tənzimlənməsinin sərt sisteminin aradan qaldırılmasını görürdü. Onun konsepsiyası azad və mütəşəkkil bazara hesablanmış yeni dünyagörüşün formalaşmasının güclü vasitəsinə çevrilmişdi. Bu konsepsiya vurğulandığı kimi, Lüdviq Erhardın (*1897-1977*) II Dünya Müharibəsindən məğlub çıxmış Almaniyanı böhrandan çıxarmağı iqtisadi siyasətinin ana xəttinə

çevrildi. Onun əməli fəaliyyəti və səyləri nəticəsində aparılan effektli iqtisadi siyasət artımın yüksək templərini və ***sosial bazar təsərrüfatı*** orientasiyasına keçidi təmin etdi. L.Erhardın təmayülündə bulunduğu sosial bazar təsərrüfatının fərqləndirici cəhətləri aşağıdakılardır:

Dövlətin sosial-iqtisadi həyatda xüsusi rolu. Təsərrüfat sisteminin əsasını azad bazar iqtisadiyyatı və rəqabətli bazar təşkil edir. Ancaq o, özbaşına təşəkkül tapmır. Onu dövlət yaradır. Dövlət davranış qaydalarını müəyyən edərək onu aktiv həyata keçirir və təsərrüfat-istehsal fəaliyyəti ilə məşğul olmur.

Dövlətin başlıca funksiyasını spesifik sosial siyasətin seçimi və reallaşdırması təşkil edir. Bu siyasət iqtisadi, sosial və siyasi qaydalığın təyinatına istiqamətlənmişdir. Sosial siyasət məşğulluğun təminatı, gəlirlər səviyyəsində regional müxtəlifliyin təcridi, tam sosial təminatlılıq, fəhlələrin müəssisələrin idarə olunmasında iştirak formasının təkmilləşdirilməsi ölçüsündə bərqərar olmalıdır.

Sistem düzümünün başlıca amili rəqabətin hərtərəfli inkişafıdır. Bunun üçün kiçik və orta biznesə kömək məqsədi ilə inhisarçılıqla zəruri mübarizə aparılmalıdır. Hər bir insana bacarığını və potensial imkanlarını açmağa şərait yaradılmalıdır. Rəqabət iqtisadi tərəqqini, məhsuldarlıq artımını, təsərrüfat müstəqilliyini təmin edən alətə çevrilməlidir.

L.Erhardın qənaətinə görə, "həqiqi yarış ən yaxşı əlverişli seçim prinsipini özündə ehtiva edir". Beləliklə, sosial bazar təsərrüfatının nəzəriyyəsi dəqiq qanunvericiliklə, əmək və sosial təminatlarla, ağıllı xarici iqtisadi siyasət aparmaqla şüurlu, konstruktiv konkret mexanizmlərini özündə birləşdirir.

Son vaxtlar Almaniya sosial-bazar təsərrüfatçılığı modelinin reallaşdırılmasında müəyyən çətinliklərlə üzləşmişdir. Sosial vəsaitlərin lazımi səviyyədə saxlanması üçün əhaliyə və şirkətlərə güclü fiskal təsir tətbiq edilir. Əhalinin qocalma səviyyəsinin yüksək olması da təqaüdçülərin sosial təminatına olan böyük xərcləri şərtləndirir. İşsizlər üçün ayrılan vəsaitlərin yüksək səviyyəsi çox vaxt cəmiyyətdə ələbaxımlılıq əhvalı doğurur.

AFR-in iqtisadi inkişaf yolunun bir xüsusiyyəti də ölkə iqtisadiyyatındakı bankların rolunun artması ilə xarakterizə olunan "Reyn kapitalizmi"dir. AFR-də banklar sənaye şirkətlərinin və xidmət sahələri şirkətlərinin iri səhmdarlarıdır, ona görə də onlar biznes-qərarların qəbul edilməsi prosesinə fəal müdaxilə edirlər. Beləliklə, AFR iqtisadiyyatında bankların mövqeyi onların biznesə real təsiri nəzərə alınmaqla dünyanın başqa ölkələrində olduğundan daha güclüdür. AFR iqtisadiyyatı üçün, həmçinin, industrializasiyanın yüksək dərəcəsi səciyyəvidir.

Tarixən yaranmış səbəblərdən Almaniya ərazisində qeyri-bərabər iqtisadi inkişaf müşahidə olunur. AFR-in şərqində iqtisadiyyatın inteqrasiyası və modernləşməsi çoxlu vaxt və maliyyə xərcləri tələb edən problem olaraq qalmaqda davam edir.

<u>Fransanın sosial-iqtisadi inkişaf modeli.</u> Fransa sosial-iqtisadi inkişaf modelini dirijist və ya etatist (*fransız dilində "etat" - dövlət*) adlandırmaq qəbul edilmişdir. Bu

modelin əsas əlaməti dövlətin iqtisadiyyata intensiv müdaxiləsidir. Dövlət eyni zamanda iri sahibkar kimi çıxış edir, iqtisadiyyatın inzibati tənzimlənməsini həyata keçirir və əhatəli sosial təminat sistemini maliyyələşdirir.

İqtisadiyyatın inzibati idarə edilməsi investisiya axınlarının həcmləri və quruluşu mərkəzləşmiş şəkildə müəyyən edilən beşillik indikativ planların köməyilə həyata keçirilirdi. Məsələn, birinci plan (*1947-1952-ci illər*) baza sahələrinin: kömür çıxarılması, elektroenergetika, metallurgiya, kənd təsərrüfatı, maşınqayırma və nəqliyyatın inkişaf prioritetini irəli sürürdü. İkinci plan (*1953-1957-ci illər*) iqtisadiyyatın ümumi bərabər inkişafını nəzərdə tuturdu. Üçüncü plana (*1958-1961-ci illər*) görə isə 4 il ərzində ÜDM-in artımını 20% təmin etmək lazım idi.

Ölkədə indikativ planların işlənib hazırlanması ilə Planlaşdırma Komissarlığı məşğul olurdu. Onun nəzdində fəaliyyət göstərən komissiyalara iri nazirliklərin məmurları, ekspertlər, həmçinin, iri müəssisələrin və sahibkarlar ittifaqlarının rəhbərləri daxil idi. Rəsmi olaraq bu planlar tövsiyə xarakteri daşıyır, lakin faktiki olaraq onların icrası həm dövlət, həm də özəl sektor üçün məcburi idi. II Dünya Müharibəsinin sonundan 40 il ərzində dövlət qiymətlər üzərində inzibati nəzarəti həyata keçirirdi ki, bu, qanunvericiliklə yalnız 1986-cı il dekabrın 1-də bəzi istisnalarla ləğv edildi. Dövlət tənzimlənməsi sahəsində elektrikə və qaza olan tariflər, dəmiryol nəqliyyatında və metroda yol haqqı, səhiyyə xidmətləri və azad peşə sahiblərinin xidmətləri üçün tariflər, mənzil haqqı və 80% kənd təsərrüfatı məhsullarının qiymətləri qalırdı.

Fransa iqtisadiyyatının etatik modeli bir sıra məziyyətlərə malikdir. Maliyyə resurslarının mərkəzləşmiş yenidən bölgüsü və dövlət investisiyaları üç onillik ərzində sürətli iqtisadi artımı təmin etmişdir.

İqtisadi artımın istiqamətlərini və proporsiyalarını müəyyən edən indikativ planlaşdırma Fransa ixracını və onun sənaye tərkib hissəsini xeyli artırmağa imkan vermişdir.

Fransa dövlət təsiri hesabına iqtisadiyyatın sabitləşməsi nümunələrindən biridir ki, bu da inkişaf etmiş ölkələr üçün kifayət qədər xarakterikdir. İqtisadi sistemin fəaliyyəti dövlətin təkrar istehsal prosesinə güclü təsiri altında baş verir. Dövlət ETTKİ-nin inkişafında fəal iştirak edir. Elmi-konstruktor işlərinin ümummilli təxsisatlarının yarıdan çoxu onun payına düşür. Dövlət həm də Fransa ilə digər qabaqcıl ölkələrin elmi-texniki potensialları arasında olan mövcud fərqi aradan qaldırmağa çalışır.

<u>İsveçin sosial-iqtisadi inkişaf modeli.</u> Milli gəlirin az təmin olunmuş əhali qrupları üzrə təkrar bölgüsünü gerçəkləşdirərək əmlak bərabərsizliyinin məhdudlaşmasına oriyentasiya edən ölkə özünün apardığı üstün sosial siyasəti ilə fərqlənir. Burada əsas fondların yalnız 4%-i dövlətin əlində cəmlənmişdir. Lakin bununla belə, dövlət xərclərinin səviyyəsi ÜDM-in yarısına bərabərdir və həmin xərclərin də yarısı sosial ehtiyaclara ödənilir. Belə vəziyyət fiziki şəxslərdən yüksək vergi yığımı hesabına reallaşır. Bu iqtisadi model "funksional sosiallaşma" adlanır. Ölkədə istehsal funksiyasının ağırlığı bazar rəqabəti əsasında fəaliyyət göstərən şəxsi müəssisələrin, yüksək həyat təminatı, məşğulluq, təhsil, sosial sığorta, elm və digər bu kimi infrastruktur elementləri isə dövlətin üzərinə düşür.

"İsveç modeli" termini İsveçin sosial-iqtisadi cəhətdən daha çox inkişaf etmiş dövlətlərdən biri kimi təşəkkül tapması ilə əlaqədar meydana gəlmişdir. Bu termin 1960-cı illərin sonunda, xarici müşahidəçilər İsveçdə cəmiyyətdə nisbi sosial münaqişəsizlik fonunda geniş islahatlar siyasəti ilə sürətli iqtisadi artımın uğurlu birliyini qeyd edərkən meydana gəlmişdir. Hazırda bu termin müxtəlif mənalarda istifadə edilir və ehtiva etdiyindən asılı olaraq müxtəlif məzmun daşıyır. Bəziləri İsveç iqtisadiyyatının bazar münasibətlərini və dövlət tənzimlənməsini, istehsal sahəsində üstün xüsusi mülkiyyəti və istehlakın ictimailəşdirilməsini birləşdirən qarışıq xarakterini qeyd edirlər.

İsveç modelinin müəyyən edilməsinin daha bir üsulu ondan irəli gəlir ki, ölkə siyasətində iki hakim məqsəd: tam məşğulluq və gəlirlərin bərabərləşdirilməsi aydın görünür ki, bu da iqtisadi siyasətin metodlarını müəyyən edir. Yüksək inkişaf etmiş bazarda fəal siyasət və müstəsna dərəcədə böyük dövlət sektoru bu siyasətin nəticələri kimi nəzərdən keçirilir. Məhz İsveçə xas olan spesifik amillər sırasına onun 1814-cü ildən dəyişməyən xarici siyasi neytrallığını, iki Dünya Müharibəsində iştirak etməməsini, hakimiyyətdə Sosial-Demokrat Fəhlə Partiyasının rekord müddət qalmasını, tarixən sülh yolu ilə yeni formasiyalara keçid ənənələrini, xüsusilə də, feodalizmdən kapitalizmə keçidi, iqtisadiyyatın uzunmüddətli əlverişli və sabit inkişaf şəraitini, fəhlə hərəkatında islahatçılığın hakimliyini, müxtəlif tərəflərin maraqlarının nəzərə alınması əsasında kompromislərin axtarılmasını və s. aid etmək lazımdır.

İsveç ənənələrinin ayrılmaz hissəsi sahibkarlıqdır. Hələ vikinqlər dövründən İsveçdə silah və cavahirat istehsalı üzrə müəssisələrin olduğu məlumdur. Dünyada ilk dəfə, 700 il bundan əvvəl əsası qoyulmuş "Strura Kopparberq" şirkəti İsveçdə yaradılmışdır və indiyə qədər ölkənin ən iri ixracatçılarından biridir.

İqtisadi sistemin uğurlu fəaliyyəti qiymətlərin dinamikasından, İsveç sənayesinin rəqabətqabiliyyətliliyindən və iqtisadi artımdan asılıdır. Burada mövcud olan iqtisadi sistem adətən qarışıq iqtisadiyyat kimi xarakterizə olunur. Onun əsasını dövlət tənzimlənməsindən fəal istifadə etməklə rəqabət əsaslı bazar münasibətləri təşkil edir ki, bu da İsveç modelinin iqtisadi bazisidir.

Qarışıq iqtisadiyyat dedikdə, İsveçin kapitalist bazar təsərrüfatında mülkiyyətin əsas formaları olan xüsusi, dövlət və kooperativ mülkiyyətlərinin birliyi, bir-birinə münasibəti və qarşılıqlı əlaqəsi başa düşülür. Bu formalardan hər biri iqtisadi və sosial qarşılıqlı əlaqələrin ümumi sistemində öz funksiyasını yerinə yetirir.

İsveç modeli belə bir müddəadan irəli gəlir ki, istehsalın deməkəzləşmiş bazar sistemi effektivdir, dövlət müəssisənin istehsal fəaliyyətinə müdaxilə etmir, əmək bazarında fəal siyasət isə bazar iqtisadiyyatının sosial xərclərini minimuma endirməlidir. Bunun mahiyyəti özəl sektorun istehsalının maksimal artımından və əhalinin yaşayış səviyyəsinin yüksəlməsi məqsədilə istehsalın əsaslarına təsir etmədən dövlətin vergi sistemi və dövlət sektoru vasitəsilə mənfəətin bir hissəsinin daha çox yenidən bölüşdürülməsindən ibarətdir. Bu zaman infrastruktur elementlərinə və kollektiv pul

fondlarına xüsusi diqqət yetirilir. Bütün bunlar isə İsveçdə milli gəlirin rekord səviyyələrə çatmış vergilər və dövlət xərcləri vasitəsilə bölgüsü, istehlakı və yenidən bölgüsündə dövlətin böyük roluna səbəb olmuşdur.

Türkiyənin sosial-iqtisadi inkişaf modeli. Sosial-iqtisadi inkişaf konsepsiyası baxımından Türkiyə reallıqları daha cəlbedicidir. Bu ondan irəli gəlir ki, müasir Türkiyə beynəlxalq münasibətlər sistemində üzünü Qərbə tutaraq, müstəqil siyasət yürütməyə çalışan, Qərblə islam dünyası arasında bir körpü rolunu oyanayan, həmçinin, də türk dünyası və islam dünyasının inteqrasiyasına çalışan mühüm bir dövlətdir. Türkiyə Respublikası yarandığı gündən qısa müddət ərzində çoxvektorlu siyasət yürütməyə başlamış və beynəlxalq qurumlarla əməkdaşlıq etmişdir. Soyuq müharibə dövründə daha çox Qərb blokuna yaxın olsa da, bu dövrün başa çatması ilə yenidən əvvəlki siyasətə qayıtmışdır.

Türkiyədə hazırda çox möhtəşəm proqramlar həyata keçirilir, uğurlu dövlət siyasəti yeridilir. Türkiyə maneələrə baxmayaraq Aİ-yə tam üzvlük istiqamətində fəal iş aparır. Hər kəs açıq şəkildə müşahidə edə bilər ki, türkiyəlilər avropalılardan ötrü heç də əldən getmirlər. Onlarda qədim imperiya təfəkküründən doğan haqlı bir qürur hissi var. Sadəcə, xalq hesab edir ki, Aİ dövlətin siyasətinin tərkib hissəsidir. Bu siyasət isə inkişaf etmiş Qərbin nailiyyətlərini bölüşməyə, Şərqin isə fəsadlarından sığortalanmağa imkan verir.

Müasir qlobal geosiyasi təbəddülatlar Türkiyənin ətraf ərazidə, Qafqaz və Balkanlarda yeni regional gücə çevrildiyini nümayiş etdirir. Bütün bu iqtisadi inkişaf templərinin əsasında isə, başlıca olaraq, ölkənin mental resursları dayanır. XX əsrin 80-90-cı illərindən islahatçı hökumətlər tərəfindən iqtisadiyyatın fundamental bazar əsaslarına keçməklə dünya iqtisadiyyatına inteqrasiya olunan açıq iqtisadi sistemə çevriliş strategiyalı liberal kurs qəbul edilməsi onu davamlı inkişaf zolağına çıxartmışdır. Dövlət müəssisələrinin genişmıqyaslı özəlləşdirilməsi, xarici ticarətin liberallaşdırılması, ixracatın stimullaşdırılması nəticəsində illik iqtisadi artım templəri bu mərhələdə 5-7% səviyyəsinə qalxmışdır. Ölkənin sonrakı mərhələlərdə iqtisadi irəliləyişləri davamlı olmuşdur. İndi Türkiyə qarşısında daha ambisiyalı iqtisadi prioritetlər dayanır. Türkiyə Respublikası Baş Nazirliyinin Dövlət Planlaşdırma Müstəşarlığının hazırladığı "Uzunmüddətli İnkişaf Strategiyası"nda (*2001-2023*) əks olunan bu hədəflər aşağıdakılardan ibarətdir:

- ❖ 2023-cü ildə ölkənin informasiya cəmiyyətinə tam şəkildə keçidinin təmin edilməsi və cəmiyyətin həyat keyfiyyətinin yüksəldilməsi;
- ❖ 2023-cü ildə 1,9 trilyon dollarlıq ÜDM istehsalı səviyyəsinə nail olmaqla, ölkənin dünyanın ilk 10 böyük iqtisadiyyatı sırasına daxil edilməsi;
- ❖ 2023-cü ildə ÜDM-nin strukturunda aqrar sektorun 5, sənayenin 30, xidmətin isə 65%-lik bir paya sahib olmasının təmin edilməsi;
- ❖ 2023-cü ildə ixracatın 500 milyard dollara çatdırılması;
- ❖ 2023-cü ildə şəhər əhalisinin xüsusi çəkisinin 90%-ə çatdırılması;

❖ 2023-cü ildə məktəbləşmə səviyyəsinin ibtidai və orta məktəbdə 100%-ə, ali təhsildə isə 50%-ə çatdırılması.

Hədəflər, proqnoz hesablamalar bəyan edir ki, 2023-cü ildə Türkiyə Avropada ikinci olmaqla, dünyanın 10 iqtisadi qüdrətli ölkəsindən birinə çevriləcəkdir. Bunun üçün Türkiyənin yetərli potensil və resursları vardır. Bu sırada onun insan kapitalının inkişafı ilə bağlı artan dəyəri xüsusi qiymətləndirilməlidir. Müəyyən qlobal güclər bütün bunların qarşısını almağa çalışmaqda olsalar da, bu iqtisadi sistem təyin etdiyi nizamlı inkişaf kursu ilə irəliləyəcəkdir.

### 9.3. Milli rəqabətqabiliyyətlilik

İqtisadiyyatın rəqabətqabiliyyətliliyi müasir zamanda ölkənin iqtisadi inkişaf strategiyasının işlənməsində əsas mərkəzi məsələlərin fövqündə dayanır. O, bazar iqtisadiyyatının başlıca cəhətlərindən biri kimi şəxsiyyətin yaradıcı azadlığını təmin edərək iqtisadiyyat sferalarında yeni rəqabətədavamlı əmtəə və xidmətlərin işlənməsində özünü reallaşdırma üçün şərait yaradır.

Rəqabətqabiliyyətlilik (*competitiveness*) - verilmiş şəraitdə təyin edilmiş obyekt və ya subyektlərin rəqiblərini ötüb keçmə qabiliyyətliliyidir. Rəqabət, bir tərəfdən, məhsulun keyfiyyəti, onun texniki səviyyəsi, istehlak xassələri ilə, digər tərəfdən isə, əmtənin satıcılarının təyin etdiyi qiymətlərlə müəyyən müəyyən edilir. Bundan başqa, rəqabətqabiliyyətliliyə istehsalçının imici, moda, reklam, bazrdakı vəziyyət, tələb tərəddüdü, satış və satışsonrası xidmətlər də təsir göstərir.

Qloballaşmanın dərinləşdiyi və iqtisadi problemlərin beynəlmiləlləşdiyi indiki şəraitdə milli rəqabətqabiliyyətlilik ön planda yer alır.

Milli rəqabətqabiliyyətlilik (*national competitiveness*) çoxmənalı termin kimi aşağıdakıları ehtiva edir:

❑ ölkənin ortamüddətli perspektivdə dayanıqlı iqtisadi artımının yüksək sürətinə nail olmaq qabiliyyəti;
❑ həmin ölkədə istehsal amillərinin məhsuldarlıq səviyyəsi;
❑ ölkənin bu və ya digər beynəlxalq bazarlarda uğurla rəqabət aparmaq qabiliyyəti.

İlk iki təyinat çərçivəsində milli rəqabətqabiliyyətliliyinin yüksəldilməsi həyat standartlarının artımı və iqtisadi artımın sürətlənməsi ilə eyniləşir. Ona görə də, milli rəqabətqabiliyyətlilik anlayışı iqtisadi nəzəriyyənin iqtisadi inkişaf nəzəriyyəsi və iqtisadi artım nəzəriyyəsi ilə, həmçinin, bu iki nəzəriyyəni inteqrasiya edən kapital nəzəriyyəsi ilə sıx bağlıdır. Bu səbəbdən milli rəqabətqabiliyyətliliyinin yüksəldilməsinə olan konkret yanaşmalar bu nəzəriyyələr çərçivəsində bu və ya digər elmi məktəblərin tərəfdarları (*hansı ki, "nəyin işlədiyi və nəyin işləmədiyi" suallarına cavab verirlər*) olmasından asılıdır. Bununla bərəbər, qeyd olunmalıdır ki, Ümumdünya İqtisadi Forumu və Menecmentin İnkişafı İnstitutunun baxışlarını əks etdirən "Perspektiv rəqabətqabiliyyətlilik indeksi" və "Rəqabətqabiliyyətliliyin ümumdünya

tablosu" göstəriciləri də rəqabətqabililiyyətlilik baxımından ölkələrin iqtisadi artımının hansı amillərlə təyin edilməsini şərtləndirir.

Üçüncü təyinat əsasında milli rəqabətqabiliyyətliliyinin yüksəldilməsi ənənəvi sənaye siyasəti, xüsusən də, konkret şirkətlərin (*və ya ixracatçıların*) və milli valyutanın aşağı kursunun saxlanması siyasətinin dəstəklənməsi ilə sıx bağlıdır.

İlk iki mənada rəqabətqabiliyyətliliyin yüksəldilməsi ilə üçüncü mənada olan rəqabətqabiliyyətliliyin yüksəldilməsi arasında ciddi fərq mövcuddur. Birinci iki mənada milli rəqabətqabiliyyətlilik ölkənin beynəlxalq ticarətdə iştirakının zəruriliyini nəzərdə tutmur. Belə ki, ölkədə biznes başqa ölkələrin şirkətləri ilə ticarət etmədən də çox məhsuldar ola bilər. Üçüncü tərif çərçivəsində isə rəqabətqabiliyyətlilik müstəsna olaraq beynəlxalq bazarda özünü göstərir.

Bütün bunlar onu göstərir ki, milli rəqabətqabiliyyətlilik özündə, tam olaraq dövlətlərin rəqabətqabiliyyətliliyini ehtiva edir. Bu baxımdan dövlətlərin rəqabətqabiliyyətliliyinin öyrənilməsinin müasir cəhdləri, hələ XVIII əsrdə Adam Smitin göstərdiyi kimi, "nə üçün bəzi dövlətlər zəngin və uğurlu, digərləri isə yoxsul və uğursuzdurlar" fikrini daha asanlıqla anlamağı imkan verir.

Beləliklə, ölkənin rəqabətqabiliyyətliliyi ölkənin başqa ölkələrlə müqayisədə nə qədər effektiv mal və xidmətlər istehsal etdiyini, bölüşdürdüyünü və satdığını, bu anlayışın ən geniş mənasında iqtisadi potensialını dönmədən yüksəltmək üçün özünün ixrac üstünlüklərindən nə dərəcədə düşünülmüş istifadə etdiyini əks etdirən nəticə göstəricisidir.

## 9.4. İqtisadi təhlükəsizlik

Milli iqtisadiyyatın dayanıqlı və dinamik inkişafı, onun daxili və dünya bazarlarında effektivliyi və rəqabətqabiliyyətliliyi ölkənin iqtisadi təhlükəsizliyi ilə sıx bağlıdır. Ölkənin "iqtisadi təhlükəsizliyi" anlayışı dövlətin müvafiq siyasi, hüquqi və milli təsərrüfat ənənələri və dəyərləri çərçivəsində iqtisadi institutlarının özünün mühüm subyektlərinin maraqlarını qoruma qabiliyyətini əks etdirir. Konkret olaraq, iqtisadi təhlükəsizlik (*economic security*) iqtisadi tələbatların səmərəli ödənilməsi, davamlı iqtisadi artım, dövlət sərvətləri və resurslarının istifadəsinə və hərəkətinə nəzarət və həmçinin, ölkənin iqtisadi maraqlarının milli və beynəlxalq səviyyələrdə qorunmasının təmin edilidiyi iqtisadiyyatın vəziyyətidir. İqtisadi təhlükəsizlik daxil və xarici təhlükələrdən ölkə təsərrüfatına düzəlməsi mümkün olmayan zərərin vurulmamasına yol verilməməni təmin edən dövlət tərəfindən yaradılan şərait kimi də anlaşılır. İqtisadi təhlükəsizlik ölkənin milli təhlükəsizliyinin ümumi sisteminin tərkib hissəsi, onun təməli və maddi əsasında dayanır. O, dövlətin, cəmiyyətin, iqtisadiyyatın həyatının, demək olar, bütün tərəflərini əhatə edir. İqtisadi təhlükəsizliyin obyekti qismində həm bütövlükdə götürülmüş iqtisadi sistem, həm də onun tərkib hissələri - təbii sərvətlər, istehsal və qeyri-istehsal fondları, daşınmaz əmlak, maliyyə ehtiyatları, insan

ehtiyatları, təsərrüfat strukturları, ailə, şəxsiyyət iştirak edir. İqtisadi təhlükəsizlik üçün təhlükə yaradanlar ölkənin təsərrüfatına mənfi təsir göstərən, şəxsiyyətin, cəmiyyətin və dövlətin iqtisadi maraqlarına toxunan hadisə və proseslərdir. Azərbaycan iqtisad elmi müstəvisində ilk dəfə ölkənin milli iqtisadi təhlükəsizlik konsepsiyasının əsasları 1994-cü ildə akademik Ziyad Səmədzadə (*1940*) tərəfindən işlənmişmişdir. İqtisadi təhlükəsizlik şirkət aspektində konfidensial iqtisadi informasiyanın sızmasının aradan qaldırılması, kommersiya sirrinin pozulması və iqtisadi diversiyanın həyata keçirilməsi kimi məqamları şərtləndirir.

İqtisadi təhlükəsizlik xarakterik göstəricilər sisteminə malikdir. Həmin göstəricilər bütövlükdə iqtisadi sistemin vəziyyətini, onun dayanıqlılığını və mobilliyini əks etdirir. Konkret olaraq, iqtisadi təhklükəsizliyin xarakterik göstəriciləri kimi aşağıdakılar ayrılır:

❒ iqtisadiyyatın strukturu;
❒ təsərrüfatın texniki bazasının vəziyyəti;
❒ iqtisadiyyatın açıqlığı;
❒ ÜDM-in artımı;
❒ milli rəqabətqabiliyyətlilik;
❒ inflyasiya templəri;
❒ işsizliyin səviyyəsi;
❒ əhalinin böyük hissəsinin yaşayışının səviyyəsi və keyfiyyəti;
❒ əhalinin əmlak təbəqələşməsi;
❒ ixracdan asılılıq;
❒ dövlətin daxili və xarici borcu;
❒ iqtisadiyyatın kriminallığı;
❒ ETTKİ xərcləri.

İqtisadi təhlükəsizlik, ənənəvi olaraq, həm də iqtisadi sistemin əhalinin həyat fəaliyyətinin normal şəraitini saxlamaq qabiliyyətini müəyyənləşdirən, iqtisadiyyatın inkişafını resurslarla təchiz edən və bütövlükdə milli-dövlət maraqlarının ardıcıl reallaşmasını təmin edən ən mühüm keyfiyyət xüsusiyyətləri kimi nəzərdən keçirilir.

İqtisadi təhlükəsizliyin milli-dövlət maraqları sistemi ilə sıx qarşılıqlı əlaqəsi mövcuddur. Dövlətin iqtisadi potensial problemləri və iqtisadi gücü, millətin genofondunun vəziyyəti, onun fiziki sağlamlığının və sosial-mədəni çiçəklənməsinin səbəbləri və şərtləri, ölkənin müasir dünyada geosiyasi və geoiqtisadi mövqeləri məhz milli-dövlət maraqları kateqoriyasından keçərək birləşir. Bu baxımdan da hər bir dövlət özünün iqtisadi təhlükəsizliyini təminetmə zorundadır və bu istiqamətdə müvafiq tədbirlər görməyə məhkumdur.

İqtisadi təhlükəsizliyin təmin edilməsi tədbirləri - təhlükəsizliyin daxili və xarici təhlükələrinin aradan qaldırılmasına yönəldilmiş üsulların, düşünülmüş hərəkətlərin məcmusudur.

Dünya təcrübəsinin göstərdiyi kimi, iqtisadi təhlükəsizliyin təmin olunması - ölkənin müstəqilliyinin qarantı, cəmiyyətin stabilliyinin və səmərəli həyat fəaliyyətinin

şərti və uğurudur. Bu onunla izah olunur ki, iqtisadiyyat cəmiyyətin, dövlətin və şəxsiyyətin fəaliyyətinin taleyüklü vacib tərəflərindən birini təşkil edir. Bu baxımdan da bütövlükdə milli təhlükəsizlik anlayışı özü iqtisadiyyatın yaşarılığını və onun mümkün daxili və xarici təhlükələr zamanı möhkəmliyini qiymətləndirmədən boş sözdən ibarət olacaqdır. Buna görə də iqtisadi təhlükəsizliyin təmini daim ən mühüm milli ptioritetlər sırasında olacaqdır.

## 9.5. Makroiqtisadi inkişafın əsas modelləri

Ölkələrin makroiqtisadi inkişafını bir sıra moddellər əks etdirir. Bu modellər elmi istiqamət, nəzəriyyə və praktiki təzhürlərə malik olmaqla, ümumən, aşağıdakıları səciyyələndir:

XX əsrin 30-cu illərində iqtisad elmində və təsərrüfat praktikasında yeni dövlətçilik - etatizm ideologiyası sürət götürdü. Etatizm (*fransızca* - etat - *dövlət*) cəmiyyətin iqtisadi həyatında dövlətin fəal iştirakı, siyasi-iqtisadi müstəvidə dövlətçilik anlamı kimi tətbiqini tapır. Termin olaraq etatizm ilk dəfə XIX əsrin sonunda İsveç Konfederasiyasının 1881 və 1887-ci illərdə prezidenti olmuş Nyuma Dro (*1844-1899*) tərəfindən elmi ədəbiyyata gətirilmişdir. İlk başlanğıcda dövlət mərkəziyyətçiliyi prinsipi mənasında, sonradan, imperializm dövründə burjua dövlətinin iqtisadi funksiyalarının güclənməsi ilə əlaqədar olaraq kapitalist ölkələrinin təsərrüfatının inkişafında dövlətin iqtisadi siyasətinin rolunu səciyyələndirən istilah kimi istifadə olunmuşdur.

Etatizm müəyyən zamanlarda bir çox ölkələrin bu və ya digər dərəcədə dövlət siyasətinin tərkib hissəsi olaraq çıxış etmişdir. Bu sırada Fransa və Türkiyə modelləri daha çox fərqləndirilir. Belə ki, etatizm siyasəti Türkiyəyə milli iqtisadiyyatın sürətli inkişafına imkan yaratmış və prinsip olaraq, 1937-ci ildə Türkiyə Cümhuriyyətinin Konstitusiyasına daxil edilmişdir. II Dünya Müharibəsindən sonra iri burjuaziyanın nüfuzunun güclənməsi ilə əlaqədar olaraq, Türkiyə hökuməti etatizm siyasətindən kənarlaşdı və etatizm doktrinası "qarışıq iqtisadiyyat" nəzəriyyəsindən sıxışdırıldı. 1960-cı illərdə isə burada "yeni etatizm" şüarı irəli sürüldü.

Etatizm cərəyanının genişmiqyaslı təşəkkülünə, əslində, iqtisadi böhranlar, "qaynar" və "soyuq" müharibələr səbəb olmuşdu. Belə cərəyan mütərəqqiliyi ilə yanaşı, öz növbəsində, bazar funksionallığını məhdudlaşdırdı, rəqabətin və təsərrüfatlaşan subyektlərin təşəbbüskarlığını azaltdı. Etatizm ideologiyasına reaksiyada ilk cərəyan olaraq neoliberalizm dayandı. Neoliberallar iqtisadi azadlıq və rəqabət prinsiplərinə sadiqlik nümayiş etdirdilər. Neoliberalizm yeni gənc iqtisadi tarixi məktəb, neoklassiklər və ənənəvi liberalizm ideya bazasının sintezində xalq təsərrüfatı haqqında məxsusi bir təlim yaratmağa cəhd etmişdir.

Mahiyyətcə neoliberalizm (*neoliberalism*) iqtisad elmində və praktiki təsərrüfat fəaliyyətində iqtisadiyyatın özünün tənzimlənməsi prinsipi ilə məhdud dövlət tənzimlənməsinin vəhtədi əsaslı iqtisadi inkişaf modelidir. Neoliberalizm istehsal

vasitələri üzərində şəxsi mülkiyyəti möhkəmləndirən fərdi azadlıq ideyalarını tərənnüm edən, iqtisadiyyatın özünü tənzimləməsi prinsipi ilə məhdud dövlət tənzimləməsinin vəhdətinə əsaslanan iqtisadi inkişaf modelidir. Neoklassiklərdən fərqli olaraq neoliberalizmdə marjinalizm mərkəzi yerdə dayanmır. O, yalnız nəzəri fənn və tədqiqat aləti kimi bu sferada iştirak edir.

Neoliberalizm öncə istehsal vasitələri üzərində şəxsi mülkiyyəti möhkəmləndirən fərdi azadlıq ideyalarını tərənnüm edir. O, bir tərəfdən, dövlətin iqtisadi həyata təsir strategiyası və taktikasını tərənnüm edir, digər tərəfdən isə, bazar iqtisadiyyatının əsaslarını onun dağıdıcı təsirindən aktiv müdafiəyə səsləyir. Bu isə o, deməkdir ki, neoliberallar məşhur ingilis iqtisadçısı Adam Smitdən başlanan iqtisadi azadlıq və rəqabət prinsiplərinə sədaqət göstərir və bazar iqtisadiyyatını digər məşhur ingilis iqtisadçısı Con Meynard Keynsdən (*1883-1946*) gələn dövlət tənzimlənməsi köməkliyini də müdafiə edirdilər.

Neoliberal missiya Avstriya iqtisadçısı F.Hayekin simasında London məktəbi, alman iqtisadçıları V.Oyken və L.Erhard baxışlarında Frayburq məktəbi və Ameika iqtisadçısı M.Fridmenin tədqiqatlarında Çikaqo məktəbinə təsnif olunmuşdur.

Müasir liberalları konseptual əsaslar deyil, metodoloji ümumiyyət birləşdirir. Onların bir qismi sağçı təmayüllü prizmadan mütləq azadlığın carçılarını, dövlət əlelhdarlarını, digərləri, solçular isə dövlətin iqtisadiyyatda iştirakçılıq zərurətini müdafiə edirlər.

London məktəbini təmsil edən F.Hayek çoxsayı dəyərli əsərlər müəllifi olaraq elm tarixində neoliberal baxışları təmsil edən məhşur iqtisadçı və filosof kimi daxil olmuşdur. İnsan azadlığı prioritetini F.Hayek başlıca prinsip kimi tərənnüm edir. Onun fikrincə, azadlıq fərdiyyəçiliyin inkişafına təkan verir. Fərdiyyəçilik isə Avropa sivilizasiyasının əsasıdır və o özünü sevmək, eqoizm deyildir. O, hər bir insanın dünyada özünü reallaşdırmasının mütləq prioritetidir. İndividualizm və ya fərdiyyətçiliyin (*latınca* - individuum - *bölünməz*) nəzəri əsasını şəxsiyyətin muxtariyyətinin və hüquqlarının tanınması təşkil edir.

F.Hayekin zənnicə, sosial düzüm şüurlu hərəkətin məhsulu ola bilməz. O, bazar tərəfindən şərtlənmiş təbii hərəkətlərin nəticəsidir. Liberal demokratik cəmiyyət intihasızlığını baxışlarında hədəf seçən F.Hayek dövlətin pulların buraxılış inhisarının da əleyhinə idi. O, əsərlərində emissiya funksiyasının rəqabət aparan özəl banklara verilməsini təkid edirdi. F.Hayek göstərirdi ki, mərkəzi emissiya bankı daim siyasi təsir və nəzarət çevrəsindədir. Bu məqam isə davamlı bazar təminatını əldə etməkdə dövriyyədə olan pulların tənzimlənməsini məhdudlaşdırır.

Neoliberalist missiyanın mühüm qollarından biri olaraq alman məktəbi fərqlənir. Alman neoliberalist məktəbinin fərqləndirici əsaslarında keynsçilik olduğundan daha çox dövlət tənzimlənməsi və bazar rəqabəti mexanizminin müdafiəsi dayanır. Bu məktəbin ən görkəmli nümayəndələri sırasında isə V.Oyken və postfaşist Almaniyasının praktik memarı L.Erhard durur.

Çikaqo məktəbi çərçivəsində ABŞ-da neoliberalizmin monetarizm (*ingiliscə* - monetarism - *pul, sikkə sözündən*) cərəyanı formalaşmışdır. Bu məktəbin mərkəzində pul kütləsi ilə istehsalın həcmi arasındakı rabitə problemi dayanır. Monetarizm, əslində, XX əsrin 50-ci illərində yaranmışdır. Bu keynsçi metodlarda qüsurların aydınlaşan görüntüləri vaxtlarına təsadüf etmişdir.

Keynsçilik məktəbinin təməl nöqtələrində məşğulluğun və iqtisadi artımın təminatı dayanırdısa, monetarizmdə, ilkin vəzifə olaraq, inflyasiyanın tənzimlənməsi prosesi qarşıya qoyulur. Belə reallıq isə iqtisadçılar arasında "Smitə doğru geriyə" şüarını yaratmış və populyarlaşdırmışdır. Bu həm də müdaxilə və tənzimlənmənin aktiv metodlarından imtina edərək yeni doktrina, *"*təklif iqtisadiyyatı*"* - monetarizmin dəstəklənməsi demək idi. Elə buna görə də elmdə "keynsçilik - inqilaba qarşı monetar əksinqilab" haqqında danışıqlar geniş təzahür etdi və nəticəvi olaraq, iqtisadi siyasətdə neokonservatizm qalib gəldi. Vurğulanmalıdır ki, keynsçilik (*keynesianism*) özü ABŞ-da "Böyük depressiya" üzrə iqtisadi nəzəriyyəyə reaksiya olaraq M.Keynsin başlıca "Məşğulluq, faiz və pulun ümumi nəzəriyyəsi" əsəri ilə yaranan makroiqtisadi axın olaraq çıxış edir. Keynsçilik iqtisadi inkişafın dövlət tənzimlənməsinin zəruriliyini əks etdirən iqtisadi model və nəzəriyyə kimi də anlaşılır. Keynsçilik modelinə bütün istiqamətlərdə investisiya və yığım arasında asılılıq xasdır. Təklif iqtisadiyyatı (*"supply-side economics"*) isə ölkənin istehsal potensialı probleminin öyrənən iqtisad elminin bölməsi - istehsal amilləri ehtiyatlarının genişləndirilməsi və bazarların elsatikliyinə nail olunması metodlarını ehtiva edir.

Monetarizmin banisi, amerikalı iqtisadçı, Çikaqo məktəbinin nümayəndəsi, Nobel mükafatı laureatı Milton Fridmen (*1912-2006*) "Tetçerizm" və "Reyqanomika"nın ideya ruhlandırıcısı hesab olunur. O, həm də ABŞ-da, Böyük Britaniyada, İsraildə, Çilidə və bir sıra digər ölkələrdə dövlətin sosial-iqtisadi tənzimləmə sisteminin "demontajına" yönələn praktiki proqramların müəllifidir. Onun "Pulun kəmiyyətli nəzəriyyəsi" və "Kapitalizm və azadlıq" əsərləri monetar fikrin təbliq konsepsiyasını təşkil edir. Vurğulanmalıdır ki, "tetçerizm" (*thatcherism*) Böyük Britaniyada Baş nazir Marqaret Tetçerin (*1925-2013*) rəhbərliyi ilə 1979-1990-ci illərdə aparılan, bazar mexanizmlərindən istifadədə korporatizmlə monetarizmin konsensusu əsasında keynisçi siyasi-iqtisadı əvəzləyən iqtisadi və sosial siyasəti ehtiva edir. Bu siyasət əvvələr milliləşdirilmiş iqtisadiyyatın sahələrinin və müəssisələrin özəlləşdirilməsi, maliyyə-iqtisadi sferada monetarizm, sosial proqramların bağlanması, təhsil və səhiyyənin sosial sferasının özəlləşdirilməsi ilə müşayiət olunmuşdur. Tetçerizm konsepsiyası neoliberalizm və "şok terapiyası"nın sosial-iqtisadi anlayış və kateqoriyaları ilə sıx əlaqədardır. Terminin müəllifi britaniya jurnalist xanım Beatris Kempell (*1947*) hesab olunur. Reyqanomika (*reaganomics*) isə əsasında təklif iqtisadiyyatı nəzəriyyəsi dayanan, inflyasiya və işsizlik səviyyəsinin azaldılmasına yönəlmiş, ABŞ prezidenti Ronald Reyqanın (*1911-2004*) başçılığı ilə Amerika hökuməti tərəfindən 1981-1989-cu illərdə aparılan iqtisadi kursdur. Praktiki olaraq,

aparılan siyasətin nəticələri əmtəə və xidmətlər tələbinin tənzimlənməsindən onların istehsalının stimullaşdırılmasına edilən aksentlə səciyyələndirilir. Başlıca müddəaları: sosial və yaşayış səviyyəsinin saxlanılması proqramları xərclərinin ixtisarı ilə iqtisadiyyata dövlət müdaxiləsi artımının məhdudlaşdırılması (*bu zaman müdafiə xərcləri məhdudlaşdırılmır*); hökumət xərcləri artımının səngidilməsi; vergilərin azaldılması; pul kütləsinin ixtisarı ilə inflyasiyanın azaldılması.

Monetarizmin başlıca postulatları aşağıdakılardır:

❒ bazar iqtisadiyyatına, stabilliyə can atan, özünü tənzimləyən dayanıqlılığa xasdır;
❒ pul amilləri prioritetlidirlər;
❒ tənzimləmə cari vəziyyətə deyil, uzunmüddətli tapşırıqlara istinad etməlidir;
❒ insanların davranış motivlərinin öyrənilməsi zəruridir.

Fridmen konsepsiyası pul kəmiyyətinə istinad edir. Monetaristlərin fikrincə, pullar başlıca funksiyada iqtisadi inkişafın mühüm stimulyatoru rolunda ifadə olunaraq onun maliyyə əsasını təşkil edir. Monetaristlər pul dövriyyəsini dolğun təhlil edərək təyinat vermişlər ki, inflasiyanın əsas səbəbi pul kütləsinin çoxluğundadır. Belə ki, dövriyyədə əmtəələr az, pul kütləsi isə çoxdur. İnflyasiyanı ikili formada fərqləndirən monetaristlər onu gözlənilən - *normal* və gözlənilməyən - *proqnozlaşdırılmayan* növlərə bölünürlər.

1970-ci illərinin sonunda 1980-ci illərinin əvvəllərində bir sıra ABŞ iqtisadçıları əsas struktur komponentləri təklif nəzəriyyəsi və monetarizm olaraq iqtisadi fikrin neoklassik sistem istiqamətlərindən biri kimi neokonservatizm (*neokonservatizm*) nəzəriyyəsini formalaşdırdılar. Dövlət funksionallığına xüsusi önəm verən neokonservatizm problematik mərkəzə bazar iqtisadiyyatının optimallaşması üçün antiinfilyasiya siyasətini və ETT-ni qoydu. İnsanın bazar iqtisadiyyatında rasional davranışı, azad rəqabət modeli neokonservatistlərin postulatlarına çevrildi. Praktiki çevrədə neokonservatorlar inkişaf etmiş ölkələrdə dövlət tənzimlənməsi sistemini dəyişməklə uğuru təstiqləyici nailiyyət əldə etdilər. 1980-ci illərdə bazarın yaradıcı potensialını mobilləşdirməklə, praktiki olaraq, bütün inkişaf etmiş dövlətlər neokonservatizm prinsiplərini rəhbər tutaraq yeni iqtisadi sistem formalaşdırdılar. Bu iqtisadi siyasət əsasında köhnə istehsal əsaslı olaraq yeni texnologiyalarla silahlandı. Qeyd olunmalıdır ki, 1980-cı illərdə ABŞ prezidenti olmuş R.Reyqan administrasiyasının iqtisadi təbəllüdatlar konsepsiyası neokonservatizm prinsiplərindən qaynaqlanmışdır.

Neokonservatizmin inkişaf tapdığı ölkələrlə yanaşı həmin məqamlarda Şərqi Avropa ölkələrində neoliberal əsaslara söykənən intensiv, xüsusən də, Polşada klassik formada "Şok terapiyası" - "Balseroviç planı" *(tanınmış polyak iqtisadçısı Leşek Balseroviç (1947) adı ilə bağlıdır*), Çin və Macarıstanda "qradualizm" adlanan təkamüllü sistemdə təzahür etmişdir. Radikal keçid tendensiyası "şok terapiyası" yönümdə Latın Amerikasında, MDB məkanında, o cümlədən, 1992-1993-cü illərdə Azərbaycanda da özünü göstərmişdir. Şok terapiyası - iqtisadiyyatı (*shock therapy*) ölkənin ən qısa müddətlərdə böhradan çıxarılmasına və dövlət iqtisadiyyatının sağlamlaşdırmasına yönələn iqtisadi nəzəriyyə, eyni zamanda həmin nəzəriyyə əsaslanan radikal iqtisadi islahatlar komp-

leksidir. Bu islahatlara qiymətlərin ani liberallaşdırılması, pul kütləsinin ixtisarı və zərərlə işləyən dövlət müəssissələrinin özəlləşdirilməsi aid edilir.

Qradualizm isə iqtisadi sistemin kataklizmlərsiz bir vəziyyətdən digərinə keçidini öyrənən elmi istiqamətdir (*iqtisadiyyatın öyrənilməsi üçün təkamüllü yanaşma təzahürü*). Qradualizm (*latınca* - gradatio - *tədrici dəyişiklik* - *ingiliscə* - gradualism - *pilləli*) iqtisadi trasformasiyanın iki başlıca konsepsiyasından biri kimi, "şok terapiyası" metodlarından fərqli olaraq, keçidin pilləli formasına əsaslanır. Siyasət olaraq qradualizm məcmu tələbin idarə edilməsi və məşğulluğa ziyan vurmama əsasında kifayət qədər uzunmuddətli zaman kəsiyində inflyasiyanın azaldılmasına yönəlmişdir.

İqtisad elmində XX əsr renessansları eyforik görünən nəzəriyyələrə də yol açdı. İngilis iqtisadçısı Lord Layonel Robbins (*1898-1984*) "İqtisadi fikir tarixində iqtisadi inkişaf nəzəriyyəsi" əsərində XX əsrin ortalarında tərəqqi edən "İqtisadi imperializm" konsepsiyasının irəliləyişlərini təmin etdi. İqtisadi imperializm (*economic imperialism*) metropoliyaların müstəmləkə iqtisadiyyatında və ya xarici və çoxmilli şirkətlərin siyasi müstəqil ölkələrin iqtisadiyyatında hökmranlığıdır. Təhlilin iqtisadi alətlərinin digər ictimai elmlərdə (*sosiologiya, politologiya, psixologiya, hüquq və s.*) tətbiqi ilə onun digər metodlardan üstünlüyünün bəyan edilməsinə əsaslanır. Müəyyən dəstək və inkişaf malik olaraq "İqtisadi imperializm" ayrı-ayrı iqtisadçı mütəfəkkirlər tərəfindən o qədər də alqışlanmamışdır. Bu münasibət onun metodik imkanlığının digər elmələrdən törəməsi olaraq birmənalı üstünlüyünün nümayişindən irəli gəlirdi. Bütün bunlara baxmayaraq həmin nəzəriyyə indi də açıq olaraq gündəmdə durur.

Bütün bunlarla yanaşı iqtisadi inkişafı səciyyələndirən və ümumilikdə iqtisadiyyatın inkişafına yönələn bir sıra modellər də mövcuddur. Onların əksəriyyəti neoklassiklərin əsas ideyalarından biri olan "neoklassik model"də cəm olunur. İqtisadiyyatın tənzimlənməsinin neoklassik modeli (*neoclassical model of economic regulation*) iqtisadi agentlər tərəfindən əldə olan informasiyalardan istifadə etməklə iqtisadi proseslərin proqnozlaşdırmasına və optimal qərarlar qəbul edilməsinə imkan yaradan tənzimləmə modelidir. Neoklassik model yalnız qəti rəqabəti şərtləndirir və istehsal amillərindən səmərəli istifadə kontekstində özünütənzimləmə mexanizmi kimi mükəmməl işləyir. Burada başlıca ideya kimi bazar sisteminin optimallığı önə çıxır. Neoklassik modelə monetarizm, təklif iqtisadiyyatı və rasional gözləmələr nəzəriyyəsi aid olunur. Bundan başqa bazar iqtisadiyyatının geniş yayıldığı məkanda makroiqtisadi inkişafa təkan verən bir sıra sosial təmayüllü modellər mövcuddur ki, bu sırada daha çox sosial-demokratik model, sosial təmayüllü model və liberal model fərqləndirilir.

### 9.6. İdxalı əvəzləyən və ixrac yönümlü iqtisadi inkişaf modelləri

İnkişaf etməkdə olan ölkələrdə müxtəlif iqtisadi modellər arasında idxalı əvəzləyən iqtisadi və ixrac yönümlü iqtisadi inkişaf modelləri daha çox fərqləndirilir.

İdxalı əvəzləyən model (*import substitution model*) milli sənayenin dünya bazarının

təsirindən müdafiəsi ilə əlaqədar sənaye məmulatlarının idxalının yerli istehsalla əvəzlənməsi kursuna əsaslanır. Bu model daxil bazarın təminatını milli istehsalın inkişafını yüksəldilməsi strategiyası üzərində qurularaq proteksionizmi və sərt milli valyuta kursunun dəstəklənməsini şərtləndirərək, tədiyə balansının strukturunun yaxşılaşmasına, daxili bazar tələbinin normallaşmasına, məşğulluğun təminatına, istehsal və elmi potensialın inkişafına zəmin olur. İdxalı əvəzləyən modelinin neqativ tərəfi isə özünütəcridlə bağlıdır. Belə ki, bu yönümdə aparılan siyasət zaman keçdikcə ölkəni dünya iqtisadiyyatında gedən meyillərdən kənar edir, sənayenin texnoloji silahlanmasını məhdudlaşdırır, rəqabətqabiliyyətliyi zəiflədir və resursların idarə edilməsində müəyyən qeyri-səmərəlilik yaradır. Daxili bazar doyumunu təmin etmək üçün hesablanan bu model istehsal məhsulunun rəqabətqabiliyyətli olmaması səbəbi ilə xarici bazarda da tələb edilmir. Bu baxımdan, dövlət çəkdiyi xərclərin ödənilməsi məcburiyyətində qalaraq onu reallaşdırır və ölkədə daha üstün keyfiyyətli idxal məhsullarına məhdudlaşdırmalar tətbiq edir. Belə situasiya isə, müvafiq olaraq, mənfəət və keyfiyyət baxımından nə milli məhsul istehsalçıları və nə də istehlakçıların mənafeləri ilə uzlaşır. Ölkədə subsidiya prosesi yaşanır, pulların yenidən bölgüsü daxili qiymətlərin saxlanmasına, sənayeyə güzəştli kreditlərin verilməsinə və borcların ödənilməsinə yönəldilir, yerli bazarlara ucuz və keyfiyyətsiz idxal məhsulu daxil olur. Bütün bunlarla yanaşı, qeyd olunmalıdır ki, idxalı əvəzləyən modelli strategiya sənayeləşmənin başlanğıc mərhələsinə təkan vermiş, inkişaf etməkdə olan ölkələrin təsərrüfat strukturunun diversifikasiyasına, bir çox mallar üzrə özünütəminə, yerli fəhlə və texniki kadrların formalaşmasına kömək etmişdir. Bir sıra Asiya ölkələri üçün bu mərhələ 1960-cı illərin sonunda, Afrika üçün 1970-ci illərin ortalarında başa çatmışdır Həmin kurs müəyyən ölkələrdə müvafiq aqrar dəyişikliklərlə də müşayiət olunmuşdur ki, bunlar da, öz növbəsində, kənd təsərrüfatının müasir sosial-iqtisadi təşkilat formalarına keçidi yolunda maneələri aradan qaldırmış və sənayeyə ucuz işçi qüvvəsi axınını təmin etmişdir.

İdxalın əvəzlənməsi istehsal təyinatlı məhsullara, yarımfabrikatlara, yardımçı materiallara əlavə tələbat doğurur və kapital məhdudluğu zamanı idxalın artmasına səbəb olur. Beynəlxalq əmək bölgüsündə artan iştirak strategiyası, xüsusilə, Şərqi Asiya ölkələrində “uçan qaz dəstəsi” və ya “məhsulun yetişən həyat tsikli” nəzəriyyəsini əsaslandırılmışdır. İdxalın artımının, istehsalın və ixracın ardıcıllığı və qarşılıqlı əlaqəsi yapon iqtisadçısı Kaname Akamatsu (*1896-1974*) tərəfindən 1943-cü ildə yapon sənayesində ticarət və istehsal haqqında məlumatların statistik tədqiqatında qeyd edilmişdir. 1973-cü ildə digər bir yapon iqttisadçısı Kiyesi Kodzima (*1915-2008*) K.Akamatsunun konsepsiyasını inkişaf etdirmiş, onu “məhsulun qaçdı-tutdu tsikli” (*“catching-up product cycle”*) adlandırmışdır.

<u>İxrac yönümlü model</u>ə (*export-oriented model*) əsaslanan siyasət isə xarici bazarlar üçün nəzərdə tutulan müəyyən növ sənaye məhsullarının istehsalını və xarici daxilolmaların həcmini artırmağa imkan verir. Mahiyyətcə, hərtərəfli olaraq, öz

məhsulun xaricə ixracını təşviq edən bu model xarici kapitalla fəal qarşılıqlı təsirə əsaslanaraq açıq tipli iqtisadiyyat formalaşdırır. O, həmçinin, zəruri infrastruktur sahələrinin yaradılmasını, xarici texnologiyaların cəlb edilməsini tələb edir. İxrac yönümlü modeldə istehsal prosesi, konyunkturaya uyğun olaraq, dünya bazarına rəqabətqabiliyyətli məhsulun çıxarılması üzərində qurulur. Hökumət ixracatçı müəssisələrə vergi və gömrük güzəştləri tətbiq etmək, kreditlər ayırmaq, aşağı valyuta kursunu dəstəkləmək və digər bu kimi iqtisadi stimullar verməklə ixrac potensiallı sahələrin inkişafı üçün əlverişli şərait yaradır.

Sosial-siyasi planda idxalın əvəzlənməsindən ixrac yönümlü iqtisadiyyata keçiddə üç qüvvə - milli burjuaziya, dövlət və xarici kapitalın kompromisi ifadə edilmişdir. Bununla belə, reallıqlar göstərmişdir ki, onlardan heç biri, müstəqil olaraq, təsərrüfatın yenidən qurulmasını həyata keçirə və müvafiq olaraq, inkişafın geniş sosial çağırışına cavab verə bilməzdi.

Milli iqtisadiyyatda ixracatçıların vəziyyətini dəyişmək cəhdləri, emal sənayesinin rəqabətqabiliyyətliliyini yüksəltmək əksər ölkələrdə məhdud effektli olmuşdur. Belə ki, ixrac əməliyyatları çox vaxt daxili bazara tədarüklərdən az mənfəətlidir. Bundan irəli gələrək tədarükçülər tez-tez xarici maliyyə mənbələrinə müraciət etməli olmuşlar. Ona görə də müxtəlif qrup ölkələrin sənaye siyasətində həm mərhələlərin məzmunu, həm də həyata keçirilməsi müddətlərinə görə böyük fərqlər olmuşdur.

İnkişaf etməkdə olan böyük ölkələrdə hazır məhsulların ixracı iqtisadi artımın hərəkətvericisi kimi məhduddur. Belə ki, hazır məhsulların ölkədən çıxarılmasının 1% artırılması ÜDM-in Tayvanda 0,15%, Hindistanda 0,08%, Braziliyada 0,01% artımını təmin edir. Buna görə də, böyük ölkələrdə ixracın artırılması iqtisadi artımın mənbəyindən daha çox disproporsiyanın aradan qaldırılması və texnoloji strukturun yaxşılaşdırılması vasitəsi kimi çıxış edir.

Vurğulanmalıdır ki, faydalı qazıntıların və kənd təsərrüfatı xammalının ixracına söykənən dövlətlər də uzun müddət ixracın əvəz olunması strategiyasına əməl edirdilər. Böyük xammal ehtiyatlarına malik olmayan və Qərbin maraqları dairəsinə düşməyən digər dövlətlər xarici kapitalın köməyi ilə beynəlxalq əmək bölgüsünə daxil ola bildilər ki, bu da müasir təsərrüfat mexanizminin formalaşdırılmasına və onların iqtisadi ehtiyatlarından daha tam istifadə edilməsinə yardım etdi. Bu, azsaylı ölkələr qrupunda özünü daha aydın büruzə verdi.

İxrac yönümlü modelinin mühüm üstün cəhət ondan ibarətdir ki, bu zaman ölkə dünya təsərrüfatına inteqrasiya olunur, dünya resursları və mütərəqqi texnologiyalarına giriş əldə edir. Bununla da o, digər sahələrin inkişafında multipkativ effektlər yaradan rəqabətqaliliyyətli istehsallar qurur. Nəticədə isə xəzinəyə əlavə valyuta axınını təmin edilərək milli iqtisadiyyatın digər sahələri investisiyalaşdırılır. Bu modelə uğurlu praktiki nümunə kimi Yaponiya, Koreya Respublikası, ÇXR, Çili, Malaziya, Tailand və Sinqapuru gətirmək olar. Bununla belə, xammal məhsulunda əks olunan ixrac yönümlü sənaye siyasəti aparanlar sırasında Meksika, Venesuela və bir sıra Afrika ölkələrinin

adları da çəkilməlidir. Xammal yönümlülük sistemi daimi xarakterli olmadığından iqtisadiyyatın inkişafında uzunmüddətli dayanıqlılığı təmin etmədə çətinlik yaradır. Təcrübə göstərir ki, ölkədə ixracatın əhəmiyyətli hissəsini xammal təşkil etdikdə və proses davamlı olduqda iqtisadiyyatda artım templəri azalır, emal sektorunda rəqabətqabiliyyətlilik məhdudlaşır və milli sənayenin strukturunda primitivləşmə baş verir. Başlıcası isə uzunmüddətli planda bilik və vərdişlərdə yadırğamalar yaşanır. Belə ki, bilik toplamanın intensiv prosesi, əsasən, emal sektorunda cərayan etdiyindən, onun inkişafdan qalması da son nəticədə insan kapitalı artımını məhdudlaşdırır. Bütün bu təzadlar isə ümumilikdə "Holland sindromu" adlanan iqtisadi təzahürün yaranışı ilə nəticələnə bilər. "Holland (*Niderland*) sindromu" digər ixrac mallarının reallaşmasına məhdudiyyətlər yaradan və ixrac məhsuluna nisbətdə yerli istehsallı məhsulun rəqabətqabiliyyətliyinin enməsinə aparan hər hansı bir əmtəə və ya əmtəələr qrupunun xalis ixracının artması ilə milli valyuta kursunu yüksəlməsini təcəssüm etdirən iqtisadi hadisədir. İqtisadi fenomen olaraq Hekşer-Olin nəzəriyyəsinə əsaslanır. Müxtəlif səviyyədə və müxtəlif illərdə bu sindrom Norveç, Böyük Britaniya, Meksikada və digər ölkələrdə özünü biruzə vermişdir. Hadisənin özəyində 1960-70-ci illərdə Şimal dənizində Niderlandın təbii qazın hasilatı ilə bağlı həyata keçirdiyi iqtisadi strategiyanın acı nəticələri dayanır. Belə ki, ölkədə təbii qaz bolluğu yeni iqtisadi situasiya yaradaraq onun geniş ixracına rəvac vermiş, nəticədə ölkə büdcəsi və iqtisadiyyatı əsaslı dərəcədə təbii qazın kapitalının inhisarına keçmişdir. Yerdəyişməyə məruz qalmış gəlir artımı nəticəsində ənənəvi ixracat yönümlü emal sənayesi sahələrində istehsalın məhdudlaşması və ölkədə çatışmayan əmtəələrin idxalının yüksəlişi baş vermişdir. Xarici bazarlardan aslılıq şəraitində dəyişən qiymət meyilləri isə ölkəni çətin staqnasiya vəziyyətinə salmış, əhalinin sosial vəziyyətini çətinləşdirərək gəlirlərinin aşağı düşməsi ilə müşayiət olunmuşdur. Bütün bunlarla yanaşı, vurğulanmalıdır ki, xammal ixracı heç də qorxulu məqam deyildir. Bu model də ölkə iqtisadiyyatının yüksəlişinə səbəb olur və ona tamamilə heç də pis baxılmamalıdır. Bir çox inkişaf etmiş ölkələr Kanada, Böyük Britaniya, Norveç və digərlərinin iqtisadiyyatlarında xammal ixracı əhəmiyyətli çəkiyə malikdir. Ona görə də bu stratyegiyada başlıca prinsip ondan ibarətdir ki, belə vəziyyətdən sui-istifadə edilməsinə yol verilməsin.

İxrac yönümlü model xarakterizə olunarkən o da qeyd edilməlidir ki, belə siyasətin uğuru ölkənin potensialı, resurslar bazası, təsərrüfat imkanları və digər bu kimi iqtisadi hazırlıq və instutisional struktur komponentlərinin mövcudluğu ilə bağlı olan məsələdir. Buna görə də hər bir ölkə sənaye siyasətinin formalaşdırılmasında bu amilləri nəzərdən keçirərək qərarlaşır.

### 9.7. "Üçüncü yol" fenomeni və ya islam sosializasiyası

Ölkələrin sosial-iqtisadi inkişaf modelləri kimi digər konsepsiyalar və ya tətbiqini tapmış sosial-iqtisadi sitemlər də dəyərləndirilə bilər. Bu sırada "üçüncü yol" fenomeni

və islam sosializasiyası özünün fərqli cəhətləri ilə diqqəti daha çox cəlb edir. Qloballaşmadan fərqli olaraq, "üçüncü yol" fenomeni nisbi gənc salnamə tarixinə malikdir. *"Üçüncü yol"* - mərkəzçilik (*third way - centrism*) ifratçı "solçular" və "sağçılar"dan yayınmada müxtəlif siyasi mövqeləri birləşdirən ümumi termindir. "Üçüncü yol" siyasətçilərinin əsas baxışları "sağçı" iqtisadiyyatı "solçular"ın sosial proqramları ilə birləşdirmək cəhdlərinə əsaslanır. Birincilər sırasında o, sosial-demokratik korporatizmdə, etatizmdə və keynsçilikdə, ikincilər sırasında isə neoliberallar, neokonservatorlar, tetçerizm və reyqanomika fenomenlərində təcəssüm olunur. İlkin yaranış mərhələsində o, sosialist və kapitalist təlimlərini bir araya gətirmək istəyində olanlara minnətdardır. Sonrakı inkişaf trayektoriyasında "üçüncü yol" Almaniyada təftişçilik, İngiltərədə fabinizm, Fransada sindikalist konsepsiyalarda təşəbbüs olunmuşdur.

"Üçüncü yol" konsepsiyası geniş intişar prosesini əsaslı olaraq II Dünya Müharibəsindən sonrakı illərdə əldə etmişdir. Bu zamanlar artıq Avropa sosial-demokratiyası, köklü olaraq, ictimai-siyasi, sosial-iqtisadi proqramlarda demokratik sosializm və qarışıq iqtisadiyyat mövqelərində və müəyyən qədər də kapitalist və sosialist konvergensiyasında ehtiva olunan inkişaf modelində çıxış etməyə başlamışdır.

Nailiyyətlərə baxmayaraq Avropa sosial bazar modeli XX əsrin səksəninci illərində öz potensialını gerçəkləşdirərək enişə məruz qaldı. Yeni dövriyyə toplayaraq müvafiq model ötən 1990-cı illərin ortalarında "kommunist alternativliyinin" tükənməsi şəraitində, qloballaşma kontekstində optimal funksional bazar sistemi xətt üzrə istiqamət götürdü. Bu zamanlardan etibarən "üçüncü yol", əsasən, milli və qlobal iqtisadiyyatın bazar sistemi çərçivəsində alternativlərin axtarışı kimi qavranılmağa başlanıldı.

"Üçüncü yol" fenomenin kökündə bir sıra islahatçı təlimlərin: etik, xristian sosializminin, daha yeni səpkidə ideyalı konstruksiyalar - kommunitarizm kimi cərəyanların dayandığı diqqətə gətirilir. Yeni interpretasiyada "üçüncü yol" inkişafın postindustrial mərhələsinə keçid edən dövlətlərdə daha çox müvəffəqiyyətlə irəliləməkdədir.

İlkin olaraq, bir sıra təşəbbüslərdə müstəqil "üçüncü yol" ideologiyasının kiçik işsizlik səviyyəli və yüksək sosial təbəqəli Amerika bazar iqtisadiyyatı modelinin, tarixi dövləti, rifah ənənələri və xroniki işsizlik stukturu olan kontenintal Avropa modeli ilə sintezinə əsaslan formatda reallaşdırılması nəzərdə tutulmuşdu. Sonradan Qərbi Avropanın bir sıra siyasətçiləri belə qənaətə gəldilər ki, "üçüncü yol" axtarışında ABŞ təcrübəsinin öyrənilməsi gərəkli deyil. Daha müqabil kapitalizmin anqlo-saks və reynalpik modelləridir və bu axtarışda həmin təcrübəyə istinad edilməlidir. Müvafiq yanaşmada "üçüncü yol" konsepsiyası liberal demokratiyanın baza dəyərlərinin qəbul etməklə sosial-demokrat ideologiyasının modernləşməsi prinsiplərini rəhbər tutur. Belə prinsipiallıq bir tərəfdən sol yükün əhəmiyyətli hissəsini atmağı, digər tərəfdən isə qloballaşan bazar iqtisadiyyatı çərçivəsində islahatlar aparmağı hədəfə çəkir. "Üçüncü yolun" əksər iddiaçıları da məhz bu istiqamətli inkişafı müdafiə edirlər. ABŞ və Böyük Britaniyada isə daha çox anqlo-saks bazar iqtisadiyyatı modelinin modernləş-

dirilməsinə, digərləri isə sosial bazar və keynsçilik ənənələrini birləşdirən kontinental Avropa modelinə üstünlük verirlər.

"Üçüncü yolun" digər variantlarında sosial-demokratiyanı əvəzləyən yeni post-sosial-demokratik sistem quruculuğuna keçid nəzərdə tutulur. Əslində "üçüncü yol" konsepsiyasının mahiyyəti açıq interpretasiyada yeni epoxial mərhələnin ictimai-siyasi və sosial-iqtisadi çərçivədə struktur düzümünün, stabil və dayanıqlı inkişafını təmin edən qlobal modelin axtarışı ideyası və reallaşmasının təminatı ilə bağlanılır. Bazar iqtisdiyyatı və demokratiyanı gerçək sınamışlar yəqinliklə bilirlər ki, bu modellər də tarixi tsiklliyə malikdirlər və onlar daim bütün tərəfləri qane edə bilməzlər. Yaşantısının bir neçə əsirlik tarixi ərzində liberal iqtisadiyyat dəfələrlə qlobal böhranlarla üzləşmiş, bir sıra məmləkətlər də isə geniş tətbiqə belə vəsiqə qazanmamışdır. Bu günkü reallıqlar isə daha dərinləşən qlobal axın proseslərini, təkmil və mükəmməl olaraq bəşəri sivilizasiyanı daha uzaqlara apara biləcək model istəyindədir. Bu istəyin enerji toplumu öz akkumlyatorlarını artıq yetərli gərginliklərlə təmin etmişdir.

Müasir mərhələdə dünya iqtisadiyyatı postindustrial mərhələdə irəliləməkdədir. Nəzərə alınmalıdır ki, industrial kapital industrialaqədərki kapitaldan fərqləndiyi kimi, postindutrial kapital da industrialdan fərqlənməlidir və gerçək olaraq da fərqlənəcəkdir. Lakin yeni epoxial mərhələnin konkret etik motivasiyası da formalaşmaya məhkumdur. İslama bağlı olanlar vurğulayırlar ki, postindustrial kapitalın etik və hüquqi prinsipləri məhz bu dini təməlin qaynaqlarına əsaslanmalıdır. Bu fikir əsaslı olaraq ondan irəli gəlir ki, dünyanın "yaddan çıxmış" Şərq qütbündə müsəlman qanun və ənənələrinə istinad edən, islam iqtisadiyyatı adlanan yeni ictimai-siyasi, sosial-iqtisadi bəşəri təsərrüfat sistemi formalaşımaqdadır. Aydınlıqla artıq hiss olunmaqdadır kı, çağdaş zamanda islam dünyasında tarixi revanşın ideoloji gücü yüksəliş mərhələsinə qədəm qoymuşdur. Bu ideoloji gücün fövqündə isə bəşəri sivilizasiyanın həyati tələbli yaranışlarının istinası deyil, onlardan istifadənin ən optimal etik normallarını birləşdirən islam sosializasiyasına əsaslanan təsərrüfatçılığının əxlaqi prinsipləri dayanmaqdadır. İslam sosializasiyası (*islamic socialization*) islamın iqtisadi qaydalar sistemi ilə sosial ədaləti balanslaşdırılan inkişaf modelidir. İslam iqtisadi qaydalar konsepsiyası insan hüquqları haqqında ümumiislam bəyannaməsində dolğunluğu ilə öz əksini tapmışdır.

Yeni təsərrüfat sisteminin təşəkkül aspektində ideoloji tələb heç də təsadüfü sayılmamalıdır. Buraya, ilk növbədə, çağdaş sivilizasiyanın sosial-iqtisadi potensial tükənişi, qloballaşma prosesi və antiqlobal müqavimət, demoqrafik situasiya, təbii resursların kolonial istismarının güclənməsi, regional bərabərsizlin dərinləşməsi, iqtisadi intervensiyalar, dini diskriminasiyalar, milli şüurun renesansı və yeni rəqabət mübarizəsi kimi amillər daxil edilir. Lakonik olaraq, islam ədalətli rəqabəti rəhbər tutaraq inhisara və istismara qadağa qoyur.

Qərb mədəniyyətinin mütərəqqi texnoloji və iqtisadi üstünlüyünü inkar etməyən müsəlmanlar kapitalizm və kommunizmin bəşər cəmiyyətinin inkişafını dalana

saldığını tez-tez vurğulayırlar. Onların qətiyyətincə, həqiqi inkişafa vahid olan düzgün istiqaməti yalnız islam verir. Elə buna görə də planet əhalisinin 25%-ni təşkil edən, 120-dən çox ölkədə, 28 islam dövlətində məskumlaşmış müsəlmanlar daha sivil sosial-iqtisadi normaları, mənəvi-əxlaqi təsərrüfatçılıq prinsiplərini bərqərar edəcək yeni islam intibahının astanasında olduğu qətiyyətindədirlər. Bu qətiyyət XXI əsrin bir nömrəli fövqəldövləti olmaq istəyi ilə çarpışan Çin xalqının milli şüuruna hakim kəsildiyi kimi, müsəlman xalqlarının da idrakında köklü qərar tutmuşdur. Əksər müsəlmanlar indi yeni sivilizasiyanın daşıyıcı olacaqları əzminə köklənmiş və sosiallaşan iqtisadiyyatın müsəlman intibahı çevrəsində təşəkkülündə israrlıdırlar. O da vurğulanmalıdır ki, bəzi siyasi dairələrdə hal-hazırda islam ölkələri arasında baş verən mübarizə, xristianlığın XVII əsrdəki "Otuzillik müharibə" zamanı ilə müqayisə edilir. Tarixçilər müasir Avropanın istinad nöqtəsini, dövlət və kilsənin ayrılmasının əsasını qoymuş Vestfal sülh müqaviləsi (*Müqəddəs Roma imperiyasında katolik və protestant knyazların rəqib kəsildiyi "Otuzillik müharibə"nin bitməsini şərtləndirən 15 may və 24 oktyabr 1648-ci ildə Osnabrük və Münsterdə imzalanan sülh müqavilələri*) hesab edirlər.

İslam sosializasiyasına əsaslanan islam iqtisadi modeli dolğun elmi-nəzəri aspektdə hazırda işlənmə prosesindədir. Burada müxtəlif yanaşmalar mövcud olsa da, əsas məqam islam sosializasiyasının müasir reallıqlarla uzlaşan inkişaf modelinin təkmilləşdirilməsi ilə bağlı olacaqdır.

## 9.8. İqtisadi inkişafın Azərbaycan modeli

Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra, həyatın bütün sahələrində suveren hüquqlarını gerçəkləşdirməyə və müstəqil siyasət aparmağa başlamışdır. Bu siyasət iqtisadi quruculuq sahəsində də əzəmətli olmuş, uğurlu nəticələrlə müşayiət edilmişdir. Onun başlıca istiqamətlərini müxtəlif mülkiyyət formaları əsasında yaradılan iqtisadi sistem, bazar iqtisadiyyatına keçid və dünya iqtisadiyyatına inteqrasiya təşkil etmişdir.

Dövlət müstəqilliyinin bərpasından sonra ötən çox qısa zaman kəsiyində ümummilli lideri Heydər Əliyevin uzaqgörən siyasəti və gərgin fəaliyyəti nəticəsində Azərbaycanın sosial-iqtisadi inkişafı və dünya sisteminə inteqrasiyası sahəsində çox böyük nailiyyətlər əldə olunmuşdur. Ən böyük nailiyyət isə ondan ibarətdir ki, bu dövrdə ölkəmizdə aparılan müstəqil dövlət quruculuğu prosesində iqtisadi islahatların və inkişafın mahiyyət etibarı ilə yeni bir modeli - Azərbaycan modeli yaranmışdır.

Azərbaycan modeli - təbii sərvətlərdən, iqtisadi potensialdan, insan kapitalından səmərəli istifadə etməklə dövlət proqramları ilə bazar iqtisadiyyatının tələblərinə uyğun iqtisadiyyatın şaxələndirilməsi, infrastruktur modernləşməsi, innovasiyaların tətbiqi əsasında davamlı sosial rifahı təmin edən iqtisadi inkişafın milli modelidir.

İqtisadiyyatın davamlı inkişafına əsaslanan yeni model azad bazar münasibətləri

çevrəsində sosial yönümlü bütöv iqtisadi sistemin, müstəqil iqtisadiyyatın formalaşmasını, mövcud təbii, iqtisadi, texniki-istehsal və elmi potensialın fəal surətdə təsərrüfat dövriyyəsinə cəlb olunmasını, milli iqtisadiyyatın dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyasını və ümumilikdə, ölkənin iqtisadi, siyasi, sosial, humanitar inkişaf yolunu ehtiva edir. Bundan irəli gələrək təkamüllü yol ilə davamlı sosial-iqtisadi inkişafa nail olmaq üçün yeni iqtisadi sistemə transformasiya və çoxmülkiyyətli iqtisadiyyatın formalaşmasını təmin olundu. Milli mənafelərə uyğun olaraq, qlobal çağrışlar, geosiyasi reallıqlar, ölkənin potensial imkanları, xarici dövlətlərlə qarşılıqlı siyasi-iqtisadi münasibətlər strategiyası və digər vacib amillər nəzərə alınmaqla ölkədə islahatlar platforması, inkişafın mükəmməl və özünü təsdiq edə biləcək istiqamətləri müəyyənləşdirildi. Azərbaycan hökuməti bərpa və dinamik inkişaf dövrünün tələblərinə uyğun qətiyyətli addımlar atdı. Özəlləşdirməni həyata keçirməklə iqtisadiyyatın strukturunda ciddi keyfiyyət dəyişikliklərinə nail olundu. Bununla da planlı iqtisadi sistemdən liberal bazar iqtisadiyyatına keçid üçün münbit şərait formalaşdı. Ölkədə çevik invesisiya siyasəti aparıldı, “Əsrin müqaviləsi” ilə yeni neft strategiyasının əsası qoyuldu, Azərbaycan öz maddi sərvətlərinə, neft-qaz ehtiyatlarına sahibliyini qətiyyətlə təsdiqlədi, dayanıqlı maliyyə sisteminə keçidə start verildi. “Əsrin müqaviləsi” ölkənin müstəqilliyinin, iqtisadi bünövrəsinin möhkəmlənməsi və Azərbaycanın dünyada analoqu olmayan templə davamlı inkişafı üçün dərin zəmin yaratmaqla yanaşı, respublikamızın qlobal layihələrdə iştirakına, Böyük İpək Yolunun bərpasına və trans-nəqliyyat dəhlizlərinin ölkənin ərazisindən keçməsinə zəmin yaratdı. Bu saziş Azərbaycanın enerji və iqtisadi təhlükəsizliyinin möhkəmlənməsi, güclü maliyyə ehtiyatlarının formalaşması, iqtisadiyyatın kapital resurslarına olan ehtiyacının ödənilməsi üçün möhkəm əsaslar demək idi.

İqtisadi-siyasi, sosial-humanitar bölmələri ilə bağlı bütün təfərrüatları özündə əks etdirən 1995-ci ildə qəbul olunan müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkədə müasir dünyəvi tələblərə cavab verən yeni qanunların qəbul olunmasına, konsepsiya və strategiya hazırlanmasına təkan verdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin elmə əsaslanan iqtisadi siyasəti respublikanın sosial-iqtisadi inkişafı proseslərinə yeni dinamizm gətirdi. Quruculuq işlərinin, islahatların proqramlar əsasında daha səmərəliliklə aparılmasına start verildi. Ölkədə iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişaflı daha da vüsətləndi. Kənd təsərrüfatı, sənaye, tikinti, nəqliyyat, rabitə sferalarında yeni inkişaf bazaları müəyyən edildi, yeni çoxsaylı müəsissələr, texnoparklar yaradıldı, istehsal və sosial infrastruktur yenidən quruldu, insan kapitalının inkişaf etdirilməsinə, yüksək texnologiyaları əhatə edən kosmik sənayə, nüvə tədqiqatları sahələrinin və həmçinin, hərbi-sənaye kompleksinin formalaşdırılmasına başlanıldı, yoxsulluq səviyyəsi minimallaşdırıldı, məşğulluq təminatı maksimallaşdırıldı. Sosial-iqtisadi inkişaf həyatın bütün sahələrini əhatə etdi. Aparılan məqsədyönlü tədbirlər sayəsində ölkə iqtisadiyyatı 15 il ərzində 3 dəfədən çox artdı. Azərbaycanın sosial-iqtisadi inkişafı sahəsindəki

uğurları şəffaflıq şəraitində beynəlxalq aləm tərəfindən təqdir olundu, ölkənin dünya arenasındakı siyasi nüfuzu daha sürətlə artdı. Dünyanın aparıcı beynəlxalq təşkilatları, qurumları və tanınmış siyasətçilər, iqtisadçılar Azərbaycanın reallaşdırdığı hərtərəfli islahatları inkişaf etməkdə olan ölkələr üçün nümunə kimi göstərirlər. Beynəlxalq reytinq mərkəzləri və nüfuzlu kütləvi informasiya vasitələri Azərbaycanın müxtəlif sahələrdəki uğurlarını yüksək qiymətləndirirlər. Əldə olunmuş bu nailiyyətlər bir daha təsdiq edir ki, Azərbaycan yeni çağırışları qarşılamağa hazırdır və bunun üçün adekvat inkişaf strategiyasına malikdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, "...bu gün Azərbaycan modeli var, biz səhv etmirik. Bu model var və bu model başqa tərəflər üçün də maraq doğurur. ...Davos Dünya İqtisadi Forumu çərçivəsində keçirdiyim çoxsaylı görüşlər, orada səslənən fikirlər bunu bir daha göstərir və Azərbaycanın inkişaf modelini yüksək qiymətləndirirlər".

***Əsas anlayışlar:***

**1. Ölkənin sosial-iqtisadi (*milli*) modeli** - bu və ya digər ölkənin müəyyən xarakterik cəhətlər dəstini, onu digərlərindən fərqləndirən iqtisadi və sosial həyatının təşkil formalarının məcmusunu ehtiva edir.

**2. ABŞ-ın sosial-iqtisadi inkişaf modeli -** səxsi müvəffəqiyyətin, sahibkar aktivliyinin hərtərəfli mükafatlandırılması, biznesin qloballaşması və informasiya inqilabı kimi prinsipial xüsusiyyətləri ilə xarakterizə olunur.

**3. Yapon sosial-iqtisadi inkişaf modeli -** ümumdövlət, regional, məqsədli, sahəvi və firmadaxili planlaşdırma sistemindən geniş istifadə etməklə milli özünüdərk, yüksək əməksevərlik əsasında səmərəli, qənaətli, dünya bazarında rəqabət apara bilən mallar istehsalını şərtləndirir.

**4. Çin sosial-iqtisadi inkişaf modeli -** planlı sosialist iqtisadiyyatı ilə bazar təmayüllü kapitalist iqtisadiyyatının optimal sintezinə əsaslanır.

**5. Almaniya sosial-iqtisadi inkişaf modeli** - bazar qüvvələrinin azad hərəkətlərinə və dövlətin sahibkarlıq fəaliyyətinə əsaslanaraq iqtisadi artımla cəmiyyətdə sosial rifahın bərabər bölgüsünü təmin edir.

**6. Fransanın sosial-iqtisadi inkişaf modeli -** dövlətin iqtisadiyyata intensiv müdaxiləsi, maliyyə resurslarının mərkəzləşdirlərək yenidən bölgüsü, əhatəli sosial təminat sisteminin formaslaşdırılması, iqtisadi artımın istiqamətlərini və proporsiyalarını müəyyən edən indikativ planlaşdırmanın aparılmasını əks etdirir.

**7. İsveçin sosial-iqtisadi inkişaf modeli** - sahibkarlığın hərtərəfli dəstəklənməsinə, istehsalın demərkəzləşmiş bazar sisteminə, tam məşğulluğa, fiziki şəxslərdən yüksək vergi yığımı hesabına milli gəlirin az təmin olunmuş əhali qrupları üzrə təkrar bölgüsünə, əmlak bərabərsizliyinin məhdudlaşmasına və ümumilikdə funksional sosiallaşmaya əsaslanır.

**8. Türkiyənin sosial-iqtisadi inkişaf modeli -** planlaşdırma və proqramlar əsasında difersifikasiya olunmuş davamı iqisadiyyat quruculuğuna, beynəlxalq əməkdaşlığın gücləndirilməsini, çoxvektorlu investisiya siyasətini və sosial rifahın yüksəldilməsini ehtiva edir.

**9. Rəqabətqabiliyyətlilik** - verilmiş şəraitdə təyin edilmiş obyekt və ya subyektlərin rəqiblərini ötüb keçmə qabiliyyətliliyidir.

**10. Milli rəqabətqabiliyyətlilik** - çoxmənalı termin kimi ölkənin ortamüddətli perspektivdə dayanıqlı iqtisadi artımın yüksək sürətinə nail olmaq qabiliyyəti, həmin ölkədə istehsal amillərinin məhsuldarlılıq səviyyəsi, həmçinin, ölkənin bu və ya digər beynəlxalq bazarlarda uğurla rəqabət aparmaq qabiliyyətini əks etdirir.

**11. İqtisadi təhlükəsizlik** - iqtisadi tələbatların səmərəli ödənilməsi, davamlı iqtisadi artım, dövlət sərvətləri və resurslarının istifadəsinə və hərəkətinə nəzarət və həmçinin, ölkənin iqtisadi maraqlarının milli və beynəlxalq səviyyələrdə qorunmasının təmin edildiyi vəziyyətdir.

**12. Etatizm** - cəmiyyətin iqtisadi həyatında dövlətin fəal iştirakını səciyyələndirən dünyagörüşü, ideologiyadır.

**13. Neoliberalizm** - istehsal vasitələri üzərində şəxsi mülkiyyəti möhkəmləndirən, fərdi azadlıq ideyalarını tərənnüm edən, iqtisadiyyatın özünü tənzimləməsi prinsipi ilə məhdud dövlət tənzimləməsinin vəhdətinə əsaslanan iqtisadi inkişaf modelidir.

**14. İndividualizm, fərdiyyətçilik** - nəzəri əsasını şəxsiyyətin muxtariyyəti və hüquqlarının tanınması təşkil edən, cəmiyyətə qarşı qoyulmuş ayrıca fərd mövqeyini şərtləndirən dünyagörüşü tipidir.

**15. Monetarizm** - iqtisadiyyatın inkişafında pulun kəmiyyətinin təyinedici amil olmasını şərtləndirən makroiqtisadi nəzəriyyədir.

**16. Keynsçilik** - ABŞ-da "Böyük depressiya" üzrə iqtisadi nəzəriyyəyə reaksiya olaraq M.Keynsin "Məşğulluq, faiz və pulun ümumi nəzəriyyəsi" əsəri ilə yaranan makroiqtisadi axındır.

**17. Təklif iqtisadiyyatı** - ölkənin istehsal potensialı probleminin öyrənən iqtisad elminin bölməsi - istehsal amilləri ehtiyatlarının genişləndirilməsi və bazarların elsatikliyinə nail olunması metodlarını ehtiva edir.

**18. Tetçerizm** - Böyük Britaniyada Baş nazir olmuş Marqaret Tetçerin rəhbərliyi ilə aparılan, bazar mexanizmlərindən istifadədə korporatizmlə monetarizmin konsensusu əsasında keynsçi siyasi-iqtisadi əvəzləyən iqtisadi və sosial siyasətdir.

**19. Reyqanomika** - əsasında "təklif iqtisadiyyatı" nəzəriyyəsinə dayanan, inflyasiya və işsizlik səviyyəsinin azaldılmasına yönəlmiş, ABŞ prezidenti olmuş Ronald Reyqanın başçılığı ilə Amerika hökuməti tərəfindən 1981-1989-cu illərdə aparılan iqtisadi siyasət kursdur.

**20. Neokonservatizm** - əsas struktur komponentləri təklif nəzəriyyəsi və monetarizm olaraq 1970-ci illərin sonu - 1980-ci illərin əvvəllərində formalaşmış iqtisadi fikrin neoklassik sistem istiqamətlərindən biridir.

**21. Şok terapiyası (*iqtisadiyyatı*)** - ani liberallaşdırma, pul kütləsinin ixtisarı və zərərlə işləyən dövlət müəssissələrinin özəlləşdirilməsi tədbirlərini özündə əks etdirən, ölkənin ən qısa müddətdə böhrandan çıxarılmasına və dövlət iqtisadiyyatının sağlamlaşdırılmasına yönələn iqtisadi nəzəriyyə və eyni zamanda həmin nəzəriyyəyə əsaslanan radikal iqtisadi islahatlar kompleksidir.

**22. Qradualizm -** iqtisadi sistemin katakilzmlərsiz bir vəziyyətdən digərinə keçidini öyrənən elmi istiqamətdir.

**23. "İqtisadi imperializm**" - metropoliyaların müstəmləkə iqtisadiyyatında və ya xarici və çoxmilli şirkətlərin siyasi müstəqil ölkələrin iqtisadiyyatında hökmranlığıdır.

**24. İqtisadiyyatın tənzimlənməsinin neoklassik modeli -** iqtisadi agentlər tərəfindən əldə olan informasiyalardan istifadə etməklə iqtisadi proseslərin proqnozlaşdırılmasına və optimal qərarlar qəbul edilməsinə imkan yaradan tənzimləmə modelidir.

**25. İdxalı əvəzləyən model** - milli sənayenin dünya bazarının təsirindən müdafiəsi ilə əlaqədar sənaye məmulatlarının idxalının yerli istehsalla əvəzlənməsi kursuna əsaslanan iqtisadi modeldir.

**26. İxrac yönümlü model -** konyunkturaya uyğun olaraq, istehsal prosesinin dünya bazarına rəqabətqabiliyyətli məhsulun çıxarılması üzərində qurulan inkişaf strategiyasına əsaslanan iqtisadi modeldir.

**27. Holland (*Niderland*) sindromu** - digər ixrac mallarının reallaşmasına məhdudiyyətlər yaradan və ixrac məhsuluna nisbətdə yerli istehsallı məhsulun rəqabətqabiliyyətliyinin enməsinə aparan hər hansı bir əmtəə və ya əmtəələr qrupunun xalis ixracının artması ilə milli valyuta kursunu yüksəlməsini təcəssüm etdirən iqtisadi hadisədir.

**28. "Üçüncü yol" (*mərkəzçilik*)** - "sağçı" iqtisadiyyatı "solçular"ın sosial proqramları ilə birləşdirmək cəhdlərinə əsaslanan iqtisadi modeldir.

**29. İslam sosializasiyası** - islamın iqtisadi qaydalar sistemi ilə sosial ədaləti balanslaşdıran inkişaf modelidir.

**30. Azərbaycan modeli** - təbii sərvətlərdən, iqtisadi potensialdan, insan kapitalından səmərəli istifadə etməklə dövlət proqramları ilə, bazar iqtisadiyyatının tələblərinə uyğun, iqtisadiyyatın şaxələndirilməsi, infrastruktur modernləşməsi, innovasiyaların tətbiqi əsasında davamlı sosial rifahı təmin edən iqtisadi inkişafın milli modelidir.

# X FƏSİL

# İqtisadi inkişafın qlobal problemləri

## 10.1. Qloballaşma prosesi. Qlobalistika elmi biliklər sahəsi kimi

Qloballaşma dünya iqtisadi, siyasi, mədəni və dini inteqrasiya ilə ümumiləşməni ehtiva edir. O, özünün müsbət və mənfi cəhətlərilə həyatımıza daxil olaraq, bütün keyfiyyət çalarları ilə cəmiyyətin geniş təbəqəsinə öz təsirini göstərir. Qloballaşdırmanın ilk təzahürləri 1930-cu illərdə ABŞ-dan səmt alan böyük depressiya-ümumdünya kapitalizminin böhranı ilə başlamışdır. Bu böhran planetin əksər hissəsini əhatə edərək beynəlxalq ticarəti sıxıntılara, ümumi proteksionizmi residivə - geriqayıtmaya məruz qoymuşdur. İkinci dəfə, 1971-ci ilin avqustunda ABŞ-ın valyuta sistemində bliskrik böhran dolların qızıl təmayüllü standartını laxladaraq əksər dünya ölkələrinin iqtisadiyyatına ciddi təsir göstərmişdir. Növbəti qlobal iqtisadi titrəyiş neft cəbhəsində 1973-1974-cü illər qiymət böhranı ilə əks-səda doğurmuşdur. Bütün bu proseslər davamlı olmuş və dünyəvi səciyyə daşıyaraq bütün ölkələrədə təsirli izlər qoymuşdur. Bütün bunlara baxmayaraq, beynəlxalq iqtisadi münasibətlərin xüsusi fazası kimi təşəkkül tapan qloballaşma hadisəsi yalnız 1990-cı illərindən başlayaraq ictimaiyyətin diqqətini cəlb etməyə başlamışdır.

Müasir iqtisadi ədəbiyyatlarda qloballaşmaya bərabərölçülü olmayan, özünün konkret formasını daim dəyişən təzadlı bir proses kimi yanaşılır. Qloballaşma prosesi ümumdünya iqtisadi, siyasi, mədəni, dini inteqrasiya və unifikasiya prosesidir. Onun məzmununu dünya bazarları sistemində beynəlxalq ticarətin genişlənməsi və korporativ iqtisadiyyatın transmilli tipinin kəskin oturuşması fonunda ölkə və regionların qarşılıqlı asılılığının real artımı təcəssüm etdirir. Digər tərəfdən, qloballaşmanın formalaşmasının tam başa çatmaması da diqqətə çəkilir.

Qloballaşma həyatımızın ən vacib sferalarına - iqtisadiyyata, siyasətə, ekologiyaya və təhlükəsizliyə nüfuz edərək çağdaş zamanın mühüm əlaməti kimi çıxış edir. Hər bir sfera özü-özlüyündə böyük ictimai-siyasi və sosial-iqtisadi əhəmiyyət daşıyır. Bütün bu sferalar nə qədər fərqli olsalar da, daim qarşılıqlı münasibətdə və vəhdətdədirlər. Bu qarşılıqlı əlaqəlik və vəhdətlilik isə sosial-iqtisadi tərəqqini təmin edərək həm də qloballaşmanı qaynaqlandırır, onun iqtisadiyyata təsirində müvafiq tənzimləyici rol oynayır.

Qloballaşmanı nəzəri və eynən də praktiki cəhətdən, iki qütbə ayırmaq olar. Bu qütbün bir tərəfini güclü iqtisadi dəyər, elmi-texnoloji inkişaf əks etdirirsə, digər tərəfində xidmət sferası, istehsal potensialı zəif və iqtisadi aktivliyi məhdud olan məkan dayanır. Bu fərqlilik inkişaf etmiş dövlətlər və inkişaf etməkdə olan dövlətlər qruplaşmasında açıq-aydın sezilir. Ona görə də ölkələr kontekstində qloballaşmanı "translyasiya edənlər" və "qəbul edənlər" qisminə ayırırlar. Faydalılıq cəhətdən qloballaşma hər iki qütbdə müsbət meyil yaradır. Lakin onu qəbul edənlər üçün prosesin həmişə müsbət nəticəli olmasını gözləmək çətindir. Belə ki, faktiki olaraq, dünya bazarının qloballaşması daha çox iqtisadi inkişaf etmiş dövlətlərin mənafelərinə xidmət edərək əks qütbdə olan zəif təsərrüfatlı ölkələrin yüksək tərəqqi əldə etməsinə mane olur. Bundan irəli gələrək qloballaşmaya dünyanın bir sıra regionlarında antiqlobal proteslər verilir. Milli məhsul istehsalına keyfiyyət və möhkəmlik gətirən vətənpərvər fərdiyyətçilərin simasında o, məhdudiyyətlərə və təcridə məruz qalır.

Qloballaşma proseslərinin inkişafını qaynaqlandıran şərait və şərtlər şəbəkəsi genişdir. Burada texnoloji tərəqqi, iqtisadiyyatın və ticarətin liberallaşması, possovet ölkələrində bazar transformasiyasının başa çatmaması, kütləvi informasiya vasitələrində ingilis dilinin ümümi ünsiyyət vasitəsi kimi çıxış etməsini, qlobal şirkətlərin yaranışı və s. amilləri səciyyələndirmək olar.

Qloballaşma prosesi tutumlu olaraq iqtisadiyyata təsir göstərir. Məhz iqtisadi sferada gedən qloballaşma hadisələri sivilizasiyanın inkişafında əhəmiyyətli rol oynayır. Bu proses özü-özlüyündə kortəbii, xaotik baş vermir. Bir sıra amillər vardır ki, onlar iqtisadiyyatın qloballaşması təmin edir.

Qloballaşma prosesi yaşadığımız sivilizasiya mərhələsində informasiya resurslarını ən mühüm sosial-inteqrir amilə çevrmiş, iqtisadiyyatda çox nəhəng çəkiyə malik olmaqla öncül mövqeyə çıxmışdır. Hazırda planetin informasiyalılıq səviyyəsi elm və texnikanın, enerji, teleradio-kommunikasiya və peyk rabitəsində ehtiva olunan yüksək texnologiyalarla müəyyən olunur

Qloballaşmanın texnoloji əsasını müasir kommunikasiya vasitələrinin reallaşdırdığı olduqca böyük sürətə malik informasiya mübadiləsi təşkil edir. İnternet texnologiyaları dünyanın istənilən nöqtəsindən informasiya, ticarət, birja əməliyyatlarını hamı üçün imkanlı edir. Yer kürəsini istənilən nöqtəsindəki bazarda baş verən dəyişikliklər müxtəlif ölkələrin təhlilçiləri tərəfindən dərhal qiymətləndirilir. Bu hal xüsusən fond birjaları, valyuta və əmttə bazarları və həmçinin, elmi kəşflər, nou-xaular sferası üçün xarakterikdir.

Beynəlmiləlləşmə prosesinin çağdaş mərhələsi kimi, qloballaşma yeni, qabaqcıl inkişafda təmsil olunaraq müasir məqamda ictimai varlığın ən dərin sahələrinə belə nüfuz etmiş, təhlil və tədqiq obyektinə, geniş müzakirələr mövzusuna çevrilərək həm də qlobalistik təlim kontekstində elmi məzmun almışdır. Qloballistika (*globalistics*) qlobal problemlərin mahiyyətini və ya ümumilikdə bəşəriyyətin, həmçinin, ayrıca insanın maraqlarına toxunan problemləri tədqiq edir. Onların qarşısının alınması

yollarının axtarışı istiqamətində elmi tədqiqatlar aparır. Vurğulanmalıdır ki, XX əsrin 60-cı illərində dövriyyə çıxan qlobalistika beynəlxalq münasibətlər və dünya siyasətində biliyin fənlərarası forması olaraq, hələ ki, öz predmetinin konturlarını qəti müəyyən etməmişdir.

## 10.2. Qloballaşmanın tələbləri, amilləri, hərəkətverici gücləri və ziddiyyətləri

Qloballaşmanın tələbləri sırasında, ümumi olaraq, daha çox qlobal yoxsulluğun və bərabərsizliyin azalmasına təminat verən ***dünya iqtisadi artımını dayanıqlı etmək*** manifesti dayanır. Qlobal artım, əsasən, industrial inkişaf etmiş ölkələr hesabına ərsəyə yetir. Bu vektorda özünün super valyutası, qlobal maliyyə təsisatları, hərbi və diplomatik gücü ilə üstün fərqlənən ABŞ ön cərgədə mövqe tutur. Bununla belə, dünya iqtisadi artımında Qərbi Avropa və Cənub-Şərqi Asiya regionunun da qlobal təsir imkanları nəzərə alınandır. Lakin bu dövlətlərin əhalisinin özünün də qloballaşmaya münasibətindən çox perspektiv məqamlar asılıdır. Ona görə də həmin ölkələrin hökumətləri öz əhalisini qloballaşmanın neqativ təsirlərindən qorumaq məqsədi ilə daha biçimli iqtisadi siyasət yeritməyə borcludurlar. Üçüncü ölkələr üçün biçimli iqtisadi siyasətin əsas komponentlərini isə BVF və BYİB-nın kreditvermə şərtlərindən irəli gələn "Liberallaşma", "Stabilləşmə" və "Özəlləşdirmə" blokunda, 10 maddə əksini tapan "Vaşinqton konsensusu" qaynaqlandırır. Bu adlanış isə ,öz növbəsində, onu göstərir ki, qloballaşmanın əsas meyili ABŞ-dan istiqamətləndirilir.

Qloballaşmanın digər tələbini ***ticarət və yardımlar*** ehtiva edir. Bu çağırış kənd təssərrüfatı məhsulu ticarətinin liberallaşdırılması və kütləvi subsidiyalar praktikasına son qoyulması ilə bağlıdır. Məhz ticarətin liberallaşması və ünvansız subsidiya strategiyası inkişaf etməkdə olan ölkələrin ixracat potensialını məhdudlaşdırır, infrasturktur təkmilliyinə, onun mobilləşməsinə təsir göstərir.

Qloballaşmanın növbəti tələbi ***dünya maliyyə sisteminin dayanıqlılığının artırılması*** ilə şərtlənir. Burada əsas həll ölçüsü kimi çevik valyuta kursu və güclü daxili siyasət götürülür. Əslində, bu tələb o qədər də məhdudlaşdırıcı görünmür. Onun liberal missiyası daha çox lokal təzahürlüdür. Lakin çevik valyuta kursu məsələsi isə bir qədər açıq qapılar çərçivəsində iqtisadi təhlükəsizlik üçün problemli ola bilər. Bu reallığa uyğun olaraq, ABŞ-ın Pensilvaniya Universitetinin professoru Nobel mükafatı laureatsı Lourens Robert Kleyn (*1920-2013*) "Qloballaşma: milli iqtisadiyyatlara çağırış" əsərində qeyd edir: "Bir sıra ölkələr iqtisadi inkişafın müxtəlif mərhələlərində olduqlarından industrial təsisatların xarakterliliyi və prioritetlər baxımından fərqlənirlər. Buna görə də onlar "açıq qapı siyasəti"ni birdən və bərabər ölçüdə aparmamalıdırlar. Bununla belə, qloballaşmanın gücünə sonsuz olaraq müqavimət də göstərilməməlidir. Vacibdir ki, prosesin idarə edilməsi mütəmadi olaraq öyrənilsin və iqtisadiyyat onun məcrasına yönəlsin".

Qloballaşma son nəticədə yenə də mühüm olaraq ***idarəetmənin yaxşılaşdırılması - menecmentin keyfiyyət artımı*** tələbi ilə çıxış edir. Qlobal axın özü ilə yeni menecment texnologiyaları gətirir və onu paylaşır. Vurğulanmalıdır ki, yeni idarəetmə texnologiyasının özünün də məxsusi tələbləri vardır. Bu tələblər isə qlobal eyniliklərlə təzahürlüdür. Burada geniş lokal təşəbbüsçülük bir qədər məhdud imkanlıdır.

Qloballaşmanın əsas hərəkətverici gücləri olaraq, kapitalın təmərküzləşməsi və mərkəzləşməsi, təsərrüfat həyatının beynəlmilləşməsi, ETT, internetin genişlənməsi, beynəlxalq təşkilatların fəaliyyəti, qlobal problemlərin kəskinləşməsi çıxış edir.

Qloballaşmanın səbəblərinin və hərəkətverici qüvvələrinin əsasında müasir həyatın qabaqcıl sahələrinə aid olan bir neçə amil durur. Qloballaşmanın amilləri aşağıdakıları ehtiva edir:

Birincisi, bu, ***iqtisadi amildir***. Öz fəaliyyətlərində dünya iqtisadi məkanını mənimsəyərək daha çox milli hüdudların çərçivəsindən çıxan kapitalın nəhəng konsentrasiyası və mərkəzləşdirilməsi, iri şirkətlərin və maliyyə qruplarının artımıdır.

İkincisi, ***siyasi amildir***. Dövlət sərhədləri tədricən öz mənasını itirir, daha şəffaf olur, hərəkət azadlığı üçün geniş imkanlar yaranır.

Üçüncüsü, ***beynəlxalq amildir***. Qloballaşmanın dinamikası iri beynəlxalq hadisələrin tarixləri ilə bağlıdır. Məsələn, qloballaşma proseslərini stimullaşdıran üç dövrün adını çəkirlər. Bu, hər şeydən əvvəl, 1985-ci ildə Lüksemburqda əmtəələrin, insanların, xidmətlərin, kapitalın beynəlxalq hərəkətində dörd azadlıq elan edən, 1987-ci ildən qüvvəyə minmiş Avropa aktını qəbul edən Avropa birlikləri konfransıdır. Sonra bu, 1986-cı ildə Punt-del-Estdə ticarətdə tariflərin bə digər məhdudiyyətlərin aşağı salınması haqqında Uruqvay danışıqları raundunu açan GATT konfransıdır. Nəhayət, bu, Almaniyanın birləşməsi və QİYŞ - Varşava paktının ləğvidir. "Soyuq müharibə"nin başa çatması və Şərqlə Qərb arasında ideoloji fikir ayrılıqlarının aradan qaldırılması proseslərini sürətləndirən səbəblər sırasında həm Almaniyanı və Avropanı parçalayan, həm də dünyanın digər hissələrinə toxunanları göstərmək olar.

Dördüncüsü, ***texniki amildir***. Nəqliyyat və rabitə vasitələri ideyaların, malların, maliyyə resurslarının sürətlə yayılması üçün bu vaxta qədər görünməmiş imkanlar açır.

Beşincisi, ***ictimai amildir***. Ənənələrin, sosial əlaqələrin və adətlərin rolunun zəifləməsi coğrafi, mənəvi və emosional mənada insanların mobilliyinə kömək edir.

Qloballaşmanın hərəkətverici gücləri biri-biri ilə münasibətdə təzadlıdır və bu vəziyyət qloballaşmanın ziddiyyətliliyini əks etdirir. Konkret olaraq, qloballaşmanın ziddiyyətləri onun hər bir hərəkətverici gücünun öz-özlüyündə təzadlılığı və ümumi birləşməni əldə etməyə qadir olmaması ilə bağlıdır. Belə ki, qlobal və milli (*fərdi*) ziddiyyətlər ölkələrin milli iqtisadi xüsusiyyətlərinin silinməsinə aparır. Digər tərəfdən, qloballaşma inkişaf etmiş ölkələrlə III dünya ölkələri arasında fərqliliyi genişləndirir. Qlobal axın neqativ təzahürlərində milli dövlətin inkişafını ləngidir, ictimai şüurda, iqtisadi və mədəni təfəkkürdə dəyişikliklərə rəvac verir, cəmiyyət adaptasiyası üçün çətinliklər, yeni sosial-iqtisadi problemlər yaradır. Qloballaşmaya antiqlobal müqavi-

mət amilləri kimi demoqrafik situasiyanın dəyişkənliyi, təbii resursların kolonial istismarının güclənməsi, regional bərabərsizliyin dərinləşməsi, iqtisadi intervensiyalar, konfessional diskriminasiyalar və milli şüurun renessans və yeni rəqabət mübarizəsini önə çıxarılır. Dövlətlər qloballaşmanın ölkələrin iqtisadi təhlükəsizliyə qarşı olan meyilini azaltmaq məqsədi ilə milli maraqlara uyğun tədbirlər həyata keçirir və daha mühafizəli inkişaf strategiyası işləyib hazırlayırlar.

Qloballaşmanın əsas ziddiyyətlərindən biri ondan ibarətdir ki, hələlik nəzərdən keçirilən qloballaşma prosesi qlobal, ümumdünya xarakteri almamışdır. İqtisadçıların fikrincə, inkişaf etməkdə olan dövlətlərin əhalisinin, demək olar, yarıdan çoxu beynəlxalq iqtisadi münasibətlərin intensivləşdirilməsinin toxunmadığı qapalı iqtisadiyyat daxilində yaşayır. Bundan başqa, XXI əsrin hüdudlarında təxminən bir milyard adamın yaşadığı, demək olar, beynəlxalq əmək bölgüsü sistemindən çıxarılmış onlarla dövlətdən ibarət çoxsaylı qrup ayrılmışdır. Həmin ölkələr üçün çox aşağı həyat səviyyəsi, xarici köməyin göstərilməsindən xroniki asılılıq, siyasi və sosial cəhətdən qeyri-sabitlik xarakterikdir.

Qloballaşmanın müasir problemləri hər şeydən əvvəl, sənaye cəhətdən inkişaf etmiş ölkələr arasında geniş intişar tapır, yalnız ikinci növbədə inkişaf etməkdə olan ölkələri əhatə edir. Dünya təsərrüfatı əlaqələrinin qloballaşması qeyd-şərtsiz ziddiyyətli proseslər kimi bütövlükdə özündə müsbət başlanğıclar daşıyır. Əsasən, məhz qloballaşmanın köməyilə bəşəriyyətin imkanları ölçüyəgəlməz dərəcədə artır, onun həyat fəaliyyətinin bütün cəhətləri daha tam nəzərə alınır, xalqların və dövlətlərin iqtisadi inkişafının, qarşılıqlı fəaliyyətinin yeni-yeni imkanları açılır. Məhz beynəlxalq əlaqələrin və dünya təsərrüfatları əlaqələrinin qloballaşması bəşəriyyətin qlobal problemlərinin həlli üçün ciddi potensial əsas yaradır. Bununla yanaşı, qloballaşma hələlik nadir və gərginləşən mənfi nəticələrə malikdir, həmin nəticələri bəzən hətta qloballaşmanın çağırışları kimi müəyyənləşdirirlər.

Qloballaşma prosesinin obyektiv xarakterini qəbul edən bir çox iqtisadçılar çox vaxt qeyd edirlər ki, bu proses bütün marağı olan tərəflərin razılaşdırılmış prinsipləri əsasında deyil, hər şeydən əvvəl, ABŞ-ın və onun müttəfiqlərinin reseptləri üzrə həyata keirilir. Bu zaman ABŞ-ın özünün uğurları üçün bütün dünyanın boynuna qoyduğu şərtlər inkişaf etməkdə olan ölkələrin və postsoaialist ölkələrin, həmçinin, sənaye cəhətdən inkişaf etmiş ölkələrin "qızıl milyard" adlandırılan hissəsinin əhalisinin maraqları arasında ziddiyyətli qarşıdurmaya səbəb olur. Buna sübut tez-tez rast gəlinən maliyyə böhranının, borcların kritik artımı və bir çox inkişaf etməkdə olan ölkələrin yoxsul vəziyyətidir.

Müasir tədqiqatlarda qloballaşma probleminə elmin müxtəlif sahələrinin alimləri diqqətlərini artırmaqdadırlar. Problem müxtəlif aspektlərdən xarakterizə edilsə də, burada əksər fikir ondan ibarətdir ki, qloballaşma müasir bəşər həyatının təkzibolunmaz amilidir və onunla hesablaşmaq gərəkdir.

## 10.3. Qlobal problemlər və onların ümumkonseptual qruplaşdırılması

Dünya siyasətinin formalaşmasında müasirliyin qlobal problemləri mühüm rol oynayır. Onlar bəşəriyyətin özünü vahid tam kimi dərk etməsinə və ümumi problemlərin birlikdə həllinə cəhd göstərməsinə rəvac verir.

"Qlobal problemlər" termini ümumi qəbul olunmuşdur. Bu problemlərin qloballığı onların hər yerdə olduğu səbəbindən deyil, hətta "insanın bioloji təbiətindən" də irəli gəlmir.

Dövrümüzün qlobal problemləri - Yer kürəsində yaranmış bütöv müasir qlobal şəraitin qanunauyğun nəticəsidir. Həmin problemlərin mənşəyini, mahiyyətini və həll edilməsi imkanlarını düzgün dərk etmək üçün onlardan əvvəlki ümumdünya-tarixi prosesin nəticəsini bütün obyektiv zidddiyyətləri ilə birlikdə görmək zəruridir.

Əvvəllər lokal və regional problemlər kimi mövcud olan bu problemlər müasir dövrdə planetar xarakter almağa başlamışdır. Beləliklə, qlobal problemlərin meydana gəlməsi vaxtı sənaye sivilizasiyasının inkişafının ən yüksək zirvəsinə çatdığı vaxtla üst-üstə düşür. Bu, təxminən XX əsrin ortalarında baş vermişdir. Bununla belə, həqiqətən, qlobal və ümumi problemlər arasında fərq mövcuddur. Qlobal problemlərin həll edilməməsi bəşəriyyəti qaçılmaz məhvə aparır, ümumi problemlər isə - hər yerdə olan problem xarakteri daşıyır və qlobal problemlərə qədər yetişə bilər. Ümumi problemlərə səhiyyə, təhsil, sosial müdafiə və s. problemləri adi etmək olar. Məsələn, bu gün dünyada insanlar terrorçuların əlindən, QİÇS, ebola və narkomaniyadan daha çox ürək-damar xəstəliklərindən dünyasını dəyişir.

Bir çox tədqiqatçılar bəşəriyyət qarşısında duran qlobal problemlərin siyahısını tərtib etməyə çalışır və müvafiq fərqləndirici meyarlar işləyib hazırlayırlar. Qloballığın meyarlar sistemi o deməkdir ki, qloballıq coğrafi məkan genişliyinin, ümumbəşəri mahiyyətin, ümumdünya tarixi aktuallığın, ümumplanetar kəskinliyin və təhlükənin, sosiotəbii və biososial universallıq və uyğunluğun vəhdətidir.

Qlobal problemlərin meyarlar kimi aşağıdakılar daha çox önə çəkilir:

- ❖ bu problem bu və ya digər dərəcədə bütün bəşəriyyətin, bütün xalqların və dövlətlərin maraqlarına toxunur;
- ❖ o, müasir sivilizasiyanın inkişafının obyektiv amilidir;
- ❖ son dərəcə kəskin xarakter alır və aradan qaldırılması üçün konstruktiv yollar tapılmazsa, sivilizasiyanın məhvi ilə nəticələnə bilər;
- ❖ həlli üçün bütün dövlətlərin və xalqların, bütün dünya birliyinin kollektiv qüvvəsini tələb edir.

Göstərilən meyarlardan istifadə edərək, qlobalist alimlər ümumbəşəri problemlər arasında üç əsas qrupu ayırırlar.

1. Beynəlxalq münasibətlər sahəsi ilə əlaqədar problemlər. Buraya hərb və sülh, etnosiyasi, inkişaf etməkdə olan dövlətlərin iqtisadi geriliyinin aradan qaldırılması, kos-

mosun və dünya okeanının sərvətlərinin dinc yolla mənimsənilməsi, beynəlxalq terrorizm problemləri aiddir.

2. Şəxsiyyət və cəmiyyət arasında qarşılıqlı münasibətlərlə əlaqədar problemlər. Buraya demoqrafik artım, aclıqla mübarizə, təhlükəli xəstəliklərin aradan qaldırılması, ETT-nin neqativ nəticələrinin qarşısının alınması, şəxsiyyətin mənəvi aləminin mühafizəsi və bəşəriyyətin mədəni rəngarəngliyinin saxlanması problemləri daxildir.

3. İnsan ilə təbiətin qarşılıqlı əlaqələrinin qlobal problemləri. Bunlara ekoloji, iqlim, enerji və xammal problemləri aiddir.

Göründüyü kimi, qlobal problemlər bəşəriyyətin problemlər məcmusu olub, sosial tərəqqi və sivilizasiyanın qorunub saxlanmasını əhatə edir. Bunları isə, konkret olaraq, aşağıdakı kimi təsnifatlandırmaq olar:

- ❑ dünya istilik-nüvə müharibəsinin qarşısının alınması və bütün xalqların inkişafı üçün sülh şəraitinin təmin edilməsi;
- ❑ ətraf mühitin, dünya okeanının və s.-nin fəlakətli dərəcədə çirkləndirilməsinin qarşısının alınması;
- ❑ inkişaf etməkdə olan ölkələrin inkişaf etmiş ölkələrdən geriliyinin (*iqtisadi səviyyə və əhalinin adambaşına gəlirləri*) və Yer kürəsində aclığın, yoxsulluğun və savadsızlığın aradan qaldırılması;
- ❑ bəşəriyyətin gələcək iqtisadi inkişafını təmin etmək üçün, ərzaq, sənaye xammalı və enerji mənbələri daxil olmaqla, həm bərpa olunan, həm də bərpa olunmayan zəruri təbii resurslarla təmin edilməsi;
- ❑ əhalinin sürətli artımının (*inkişaf etməkdə olan ölkələrdə "demoqrafik partlayış"*) dayandırılması və inkişaf etmiş ölkələrdə "depopulyasiya" təhlükəsinin aradan qaldırılması;
- ❑ elmi-texniki inqilabın mənfi nəticələrinin qarşısının alınması.

Müasir qlobal problemləri siyasi, iqtisadi, sosial və ekoloji mahiyyətdə ümumiləşdirərək aşağıdakı kimi təsnifatlandırmaq olar:

Siyasi - demilitarizasiya və konversiya, lokal müharibə və konfliktlər, beynəlxalq terrorizm, yoxsul ölkələr.

İqtisadi - transmilli kapital, iqtisadi müharibə və konfliktlər, inkişaf etmiş dövlətlərin güclənməsi, "Şimal-Cənub", beynəlxalq borc.

Sosial - gəlirlərin qeyri-bərabər bölgüsünün artması, işsizlik və yoxsulluq, xəstəliklər və narkomaniya ilə mübarizə, meqapolislər.

Ekoloji - resursların məhdudluğu, ərzaq, demoqrafik, tullantılar və çirklənmə, iqlim istiləşməsi, ozan qatı, dayanıqlı inkişaf.

Ümumkonseptual qruplaşdırmada qlobal inkişaf problemləri aşağıdakıları ifadə edir:

1. Birinci qrup*:* "Cəmiyyət - Cəmiyyət":

1.1. Nüvə müharibəsi və hərbi xərclər problemi;

1.2. Yeni beynəlxalq iqtisadi qaydaların formalaşdırılması problemi;

1.3. Qlobal inkişafın qeyri-bərabərliyi problemi;

1.4. Qlobal səviyyədə ETİ inkişafının tənzimlənməsi (*humanitar istiqamət*) problemi.

2. İkinci qrup: "İnsan - Təbiət":

2.1. Antpogen, yaxud qarışıq mənşəli fəlakətlərin (*torpağın eroziyası və s.*) qarşısının alınması problemi;

2.2. Təbii-xammal resurslarından rasional istifadə problemi;

2.3. Demoqrafik problem;

2.4. Ərzaq problemi;

2.5. Boş ərazilərin təsərrüfata optimal daxil edilməsi problemi;

2.6. Energetik böhranın qarşısının alınması problemi;

2.7. Ekoloji problem;

2.8. Dünya okeanının və kosmik məkanın mənimsənilməsi problemi.

3. Üçüncü qrup: "İnsan - Cəmiyyət":

3.1. ETT-dən antihumanitar istifadə təmayüllərinin aradan qaldırılması problemi;

3.2. Epidemik xəstəliklərin qarşısının alınması problemi;

3.3. Urbanizasiyanın neqativ meyillərinin aradan qaldırılması problemi;

3.4. Savadsızlıq və təhsilin inkişafı problemi;

3.5. İnsan haqları problemi.

Qlobal problemlərin kəskinləşməsində ETİ xüsusi yer tutur. Onun ətraf mühitə təsiri miqyaslarının bəşəriyyətin inkişaf tarixində misli yoxdur.

Bəşəriyyəti qlobal ziddiyyətlərə gətirən ən mühüm səbəb, birinci növbədə, nəhəng istehsal gücünün yığılmasıdır. O, təbiətə təzyiq göstərir, onun resurslarının tükənməsinə şərait yaradır. XX əsrin əvvəllərindən Yer kürəsinin əhalisi 3 dəfə, təsərrüfat fəaliyyətinin həcmi isə 20 dəfə artmışdır. Postindustrializmə keçid ictimai istehsalın məqsədli quruluşlarını dəyişmişdir. Maksimum qazanc dalınca qaçma, istehsalın intensiv inkişafına keçid struktur böhranlarla, inkişafın qeyri-bərabərliyi, münaqişələrin artması ilə müşayiət olunurdu. Buna insanın özünü bioloji varlıq kimi təhlükə altına qoyan hərbi işdə təkan da kömək edirdi.

Qlobalist alimlər göstrərirlər ki, dünya siyasətinin və beynəlxalq münasibətlərin formalaşmasında böyük rol oynamasına baxmayaraq BMT bir sıra qlobal problemlərin həllində çətinliklərlə üzləşir və onların bir çoxunu təkbaşına yerinə yetirmək iqtidarında deyildir. Buna görə də onlar bəşəri problemlərin həllində qlobal hakimiyyət strukturlarının yaradılmasını, dünya parlamentinin seçilməsi fikirlərini irəli sürürlər.

Effektiv qlobal idarəetmə üçün qlobal vətəndaş cəmiyyəti yaradan digər beynəlxalq təşkilatların fəal iştirakı tələb olunur. Qlobal vətəndaş cəmiyyəti dedikdə, milli mənsubiyyətindən və ya vətəndaşlığından asılı olmayaraq, ümumbəşəri dəyərləri ayıran insanların dünya birliyi başa düşülür. Qlobal vətəndaş cəmiyyətinin siyasi əsası qeyri-hökumət təşkilatlarının ekoloji, müharibə əleyhinə, mədəni, dini və s. qlobal hərəkatı təşkil edir. Bunlar dünya birliyində alternativ və ya qeyri-rəsmi ünsiyyət kanalları kimi xalqlar arasında qarşılıqlı etimadın qurulmasına kömək edir.

## 10.4. Qlobal kapitalist sisteminin çatışmazlıqları

Tarixən müəyyən istehsal üsulu olan kapitalizmin ən mühüm amilləri - əmək və kapitaldır. Kapitalist cəmiyyətinin ilk əsasını və tək mahiyyətini kapital səciyyələndirir və obyektiv, məntiqi olaraq, kapital dəyərin inkişafı kimi çıxış edir. K.Marks kapitalın meydana gəlməsinin, onun mahiyyətinin və strukturunun, qanunlarının və inkişaf hüdudlarının elmi nəzəriyyəsini yaratmışdır. K.Marks və onun ardıcıllarının yaratdığı nəzəriyyə marksizm nəzərriyyəsi kimi məşhurdur.

Marksizm (*ingiliscə* - marxism - *marksizm, marksçılıq*) alman iqtisadçı-filosofları K.Marks, F.Engels və onların ardıcılları tərəfindən işlənilən təlim, nəzəriyyə, metodoloji analiz və praktiki hərəkat üsuludur. İzafi dəyər konsepsiyası və tarixi materializm metodoloji prinsiplərinə əsaslanır. Marksizm iqtisadi-siyasi konsepsiyası XX əsrdə çox geniş məkanda inqilabi dəyişikliklərə səbəb olaraq miqyaslı ölkələr silsiləsinin konstitusion ideologiyasına çevrilmişdir.

K.Marksın tədqiqatları əsasında bəsər sivilizasiyanın kapitalist tipi son dərəcə geniş aspektdə tədqiq etmişdir. Kapitalizmin ziddiyyətliyi, onun istismar əlamətliliyi K.Marksın "Kapital" əsərində dolğunluğu ilə öz əksini tapmışdır. O, özünün bu məşhur əsərində marksist iqtisadi nəzəriyyənin əsas mərkəzi anlayışlarından biri olaraq geniş elmi rezonans doğuran izafi dəyər anlayışını dövriyyəyə daxil etmişdir. İzafi dəyər (*surplus value*) əmək prosesi nəticəsində yaranmış yeni dəyərlə onun yaradılmasına sərf edilən işçi qüvvəsinin dəyəri (*bir qayda olaraq, əmək haqqı formasında ifadəsini tapır*) arasındakı fərqdir. İzafi dəyər yalnız mənfəətin deyil, həm də bütün növ vergilərin, aksiz və rüsumların, renta və faizlərin əsasını təşkil edir. K.Marks göstərmişdir ki, kapitalist istehsal üsulunda izafi dəyər kapitalist tərəfindən mənfəət formasında mənimsənilir ki, bu da işçilərin istismarı kimi səciyyəsini tapır. İzafi və zəruri əmək arasındakı fərqi o istismar və ya izafi dəyər norması adlandırmışdır. İzafi dəyəri əlavə edilmiş dəyər və ya əlavə dəyərdən fərqləndirmək gərəklidir. Əlavə dəyər, əlavə edilmiş dəyər (*value added*) bilavasitə müəssisə və şirkətdə yaradılmış əmtəə və xidmətlərin dəyərinin bir hissəsidir. Əlavə dəyər istehsal prosesində yaradılmış məhsulun dəyərində mövcud müəssisə və ya şirkətin real payı kimi səciyyələndirilir. Müəssisə və şirkət tərəfindən yaradılmış əmtəə və xidmətlərin dəyəri ilə (*satışdan daxil olmalarla*) onlar tərəfindən digər kənar təşkilatlardan alınmış əmtəə və xidmətlərin dəyəri (*sərf edilən materiallar və digər xərclər*) arasındakı fərqlə hesablanır. Materiallar, əmək haqqı, mənfəət, renta və faizlər, amortizasiya və dolayısı vergilər əlavə dəyərin həcmini müəyyən edir.

İqtisadçıların birmənalı rəyinə görə, kapitalist sisteminin mahiyyətinin xarakterik cəhətlərinin K.Marks kimi miqyaslı və əhatəli elmi təhlilini aparan ikinci şəxs olmamışdır. Bununla belə, kapitalist sisteminin özəlliklərinin və inkişaf meyillərinin təhlili daim aktuallığını saxlamış və K.Marksdan sonra bir çox iqtisadçı, filosof və sosioloqlar və bu istiqamətdə fundamental tədqiqatlar aparmış, elmi işlər yerinə yetirmişlər. Bu

sırada qlobal kapitalist sisteminin çatışmazlıqları kontekstində dünya iqtisadiyyatının öyrənilməsi baxımından tanınmış milyonçu-biznesmen, məhşur filantrop, görkəmli iqtisadçı alim Corc Sorosun tədqiqaları daha çox maraq kəsb edəndir.

C.Soros özünün adı ilə bağlı "Corc Soros nəzəriyyəsi"ndə hesab edir ki, müasir kapitalizm qeyri-sabitliklə xarakterizə olunan sistem yaratmışdır. Vaxt keçdikcə maliyyə böhranları, baş verir ki, bunlar iqtisadi depressiyalarla nəticələnir. Azad bazar tərəfdarları bu sahədə hər hansı hökumət müdaxiləsinə qarşı çıxırlar. Belə ki, onlar hesab edirlər ki, iqtisadi mübarizədə bu neqativ hallar sistemi daxili qeyri-sabitliyi ilə deyil, onun bacarıqsız idarə edilməsi ilə izah olunmalıdır. Kapitalizmin doğurduğu bazar mexanizmləri və qeyri-sabitlik cəmiyyətin həyatının bütün sahələrinə nüfuz edir. Reklam, marketinq texnikası və hətta malın qablaşdırılması insanın davranışına və onu seçimə yönəltməyə təsir etmək üçün istifadə olunur. Bütün bu manipulyasiyalardan başını itirmiş insan yalnız uğur göstəricisi və dəyərin meyarı kimi pula oriyentasiya etməyə başlayır: bahadırsa - deməK ən yaxşısıdır. Bu şəraitdə uğura pərəstiş prinsiplərə inamı sıxışdırmış, cəmiyyət isə oriyentirlərini itirmişdir.

Sosial ədalət sahəsində azad bazar tərəfdarları sərvətlərin yenidən bölüşdürülməsinə qarşı durur. Belə ki, onlar burada sosial darvinizm prinsipinə etiqadda "ən qabiliyyətli sağ qalır" mövqeyindən çıxış edirlər. C.Soros yazır ki, bu prinsip sərvətin irsən keçdiyi şərtinə görə asan təkzib olunur. Bu isə, öz növbəsində, bazar iştirakçıları arasında bazarın yaratdığı bərabər imkanlar haqqında fərziyyəni təkzib edir. Onun fikrincə, qlobal kapitalizm problemlərdən uzaq deyil və onun nöqsanları beş əsas dərəcə üzrə qruplaşdırılır:

- ❑ gəlirlərin qeyri-bərabər bölüşdürülməsi;
- ❑ maliyyə sisteminin qeyri-sabitliyi;
- ❑ qlobal inhisarların və oliqopoliyaların yüksələn təhlükəsi;
- ❑ dövlətin ikili rolu;
- ❑ dəyərlər və sosial həmrəylik problemi.

Təbii ki, bu bölgü olduqca şərtidir. Belə ki, burada müxtəlif problemli sahələr arasında qarşılıqlı əlaqə və qarşılıqlı daxilolma mövcuddur.

C.Soros yazır ki, müasir qlobal kapitalist sisteminə sağ qalmaq üçün onun iştirakçılarının tələbatlarını və məqsədlərini yerinə yetirmək vacibdir. Bizim qlobal cəmiyyət müxtəlif adətlər, ənənələr və dinlər çoxluğundan qurulur. Onun üçün ümumi dəyərləri birləşdirən nə ola bilər?

Kapitalizmi bir daha tənqid edərək C.Soros həm də deyir ki, mən onun məhv edilməsini istəmirəm. O, bütün digər alternativlərdən üstündür. Əksinə, mən dünya kapitalist sisteminin özünüməhvinin qarşısını almaq niyyətindəyəm. Bunun üçün bizə daha çox açıq cəmiyyət konsepsiyası gərəkdir. Kapitalizm sistemi isə açıq cəmiyyətin təhrif olunmuş formasıdır. Bu prinsip, bizim qlobal cəmiyyətə xas çoxcəhətliyi tanıyaraq, zəruri institutların yaradılması üçün kifayət qədər konseptual bazadır. Mən başa düşürəm ki, universal prinsipin qəbul edilməsinə nail olmaq olduqca çətindir, lakin digər tərəfdən, məncə, onsuz da keçinmək mümkün deyil.

Beləliklə, qlobal kapitalist sisteminin çatışmazlıqları - gəlirlərin qeyri-bərabər bölüşdürülməsi, maliyyə sisteminin qeyri-sabitliyi, qlobal inhisarların və oliqopoliyaların yüksələn təhlükəsi, dövlətin ikili rolu, dəyərlər və sosial həmrəylik problemini əhatə edir.

## 10.5. "Bretton-Vuds" sistemi və müasir qlobal maliyyə arxitekturası

Müasir qlobal maliyyə arxitekturası "Bretton-Vuds" sistemindən (*Bretton-Woods system*) qaynaqlanır. Belə ki, indi də yaşanmaqda olan pul münasibətlərinin və ticari hesablamaların təşkilinin beynəlxalq sisteminin əsası 1944-cü ildə ABŞ-ın Bretton-Vuds kurort şəhərində qoyulmuşdur. Bu sistem BYİB və BVF kimi qlobal təsirli maliyyə təsisatlarını formalaşdırmış, nəticədə tələb və təklif əsasında qızıl devizli standartdan azad konvertasiyaya keçiddə ABŞ dollarını dünya super valyutası statusuna gətirmişdir. Elə bu zamandan etibarən qızıla konvertasiya olunan valyuta kimi dollar valyuta paritetlərinin bazasında beynəlxalq maliyyə hesablaşmaları, valyuta intervensiyaları və ehtiyat aktivlərinin üstün vasitəsinə çevrilir. ABŞ dolları üçün qızıl standart 35 ABŞ dolları = 1 troy unsiyası ekvivalentliyi təsdiqlənir. Bununla da, dünya qızıl ehtiyatlarının 70%-nə sahib olan ABŞ özünün köhnə rəqibi Böyük Britaniyanı sıxışdıraraq valyuta hegemonluğu qazanır və dollar beynəlxalq monetar sistemdə üstün universal standartlılıq əldə edir.

"Bretton-Vuds" sisteminin və ya "Bretton-Vuds" razılaşdırmalarının fövqündə beynəlxalq ticarət həcminin bərpası, kəskin artımı və təsbit olunmuş valyuta kursları şəbəkəsi əsasında tarazlı, stabil beynəlxalq mübadilə sisteminin qoyuluşu və xarici ticarət balansında müvəqqəti çətinliklərin aradan qaldırılmasında dövlətin sərəncamına resursların təqdim olunması kimi məqsədlər toplusu dayanır. "Bretton-Vuds" sistemi iştirakçı dövlətlərdə qızılda təsbit olunan əsas valyuta kursuna münasibətdə sərt mübadilə kurslarının qoyuluşu, valyuta intervensiyalarının köməyi ilə mərkəzi banklar tərəfindən milli valyuta kursunun əsas valyutaya nisbətdə *(+/-1%)* sabit saxlanılmasının dəstəklənməsi, valyuta kurslarının revalvasiya və ya devalvasiya vasitəsi ilə dəyişdirilməsi və bu sferada təşkilati strukturlar kimi BYİB və BVF-nin çıxış etməsi prinsiplərini rəhbər tutur. Burada BYİB və BVF qeyri-stabil valyutaların müdafiəsi məqsədindən irəli gələrək tədiyə balanslarının defisitinin bağlanılması üçün xarici valyutada kreditlər verir, iştirakçı dövlətlərdə işləmə və valyuta sistemi prinsiplərinə riayət olunması üzrə nəzarəti həyata keçirir və bununla da valyuta əməkdaşlığını təmin edir. BYİB əvvəlcə ümumilikdə Dünya Bankı funksiyalarını yerinə yetirmişdir. Dünya Bankı (*World Bank*) Bretton-Vuds razılaşması nəticəsində 1944-cü ilin 1 iyulunda beynəlxalq iqtisadi inkişaf məqsədləri üçün yaradılmış BMT-nin ixtisaslaşmış təsisatıdır. Qlobal iqtisadi inkişaf məqsədlərinə xidmət edən, maliyyə resurslarının bölgüsünü reallaşdıran ən böyük donor təşkilatlardan biri olan qurum 184

üzv ölkəni özündə birləşdirir. Dünya Bankının Prezidenti 5 il müddətə seçilir və o, ənənəyə uyğun olaraq ən iri səhmdar ölkənin vətəndaşı olmalıdır. Dünya Bankı inkişaf etməkdə olan ölkələrə çox aşağı faiz dərəcəsi ilə və ya faizsiz uzunmüddətli kreditlər və qrantlar verir. Dünya Bankı ilk əvvəl Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı adı ilə yaranmışdır. Fəaliyyət sahəsi genişləndikdən sonra Dünya Bankı Beynəlxalq Yenidənqurma və İnkişaf Bankını - BYİB, Beynəlxalq İnkişaf Assosiasiyasını - BİA əhatə edir. Dünya Bankı bu iki təşkilatla yanaşı Beynəlxalq Maliyyə Korporasiyası - İFC, Çoxtərəfli İnvestisiyalar üzrə Zəmanət Agentliyi - MİGA və İnvestisiya Mübahisələrinin Həlli üzrə Beynəlxalq Mərkəz - ICSID də daxil olduğu təsisatda Dünya Bankı Qrupunu yaradır. Baş qərargah ABŞ-ın paytaxtı Vaşinqtonda yerləşir.

Bütün bu təməl mükəmməliklərinə baxmayaraq, "Bretton-Vuds" sistemi irəliləyişləri zamanında bir sıra böhranlı vəziyyətlərlə də üz-üzə gəlmişdir. Keçilən tarixi dövr ərzində sistemin böhranını əsas mərhələləri kimi aşağıdakılar fərqləndirilir:

1. Qızılın ikili bazar təyinatlılığının qoyuluşu (*17 mart 1968-ci il*). Qızılın qiyməti özəl bazarlarda tələb və təklifə uğun olaraq sərbəst təyin edilir. Dollar dövriyyəsini saxlayan ölkələrdə isə mərkəzi banklar rəsmi sövdələşmələrdə 35 ABŞ dolları = 1 troy unsiyası kursunu saxlayırlar.

2. ABŞ prezidenti Riçard Nikson müvəqqəti olaraq rəsmi kursda mərkəzi banklar üçün dolların qızıla konvertasiyasına qadağa qoyur (*15 avqust 1971-ci il*).

3. Dolların qızıla devalvasiyasının 8% dəyişərək qızılın rəsmi qiymətinin artması və dolların qızıla mübadiləsinin bu kursunun bərpa olunmaması ilə 38 ABŞ dolları = 1 troy unsiyası vəziyyəti alması (*17 dekabr 1971-ci il*).

4. Dolların qızıla devalvasiyasının rəsmən 42,2 ABŞ dolları = 1 troy unsiyası vəziyyəti alması (*13 fevral 1973-cü il*).

5. Valyuta kursunun bazar qanuna tabe edilməsi (*16 mart 1973-cü il*). Bu zamanda etibarən valyuta kursları təsbit olunmur və tələb və təklifin təsiri ilə dəyişir. Bununla da sərt mübadilə kursları sistemi özünün mövcudluğuna son qoyur .

6. Yamayka beynəlxalq konfransında BFV-nun nizamnaməsinə dəyişiklik edilərək mübadilə kurslarının tərəddüdü ilə xarakterik olan sərbəst qarşılıqlı konvertasiya modeli əsaslı beynəlxalq valyuta sisteminin yenidən təşkili istiqamətində müvafiq razılaşma əldə olunur (*8 yanvar1976-cı il*). Yamayka valyuta sistemi dünyada hal-hazıra kimi fəaliyyət göstərir.

Bununla belə, qeyd olunmalıdır ki, "Bretton-Vuds" sistemində böhranlı vəziyyəti yaradan səbəblər daha geniş spektrli olmuşdur. Bu sırada başlıca məqam xaricdəki dolların qızıla kovertasiyasını ABŞ-ın qızıl ehtiyatları vasitəsi ilə təmin edə bilməməsindən irəli gələn çətinliklərlə bağlı olmuşdur. Belə ki, 1970-ci illərin başlanğıcında qızıl ehtiyatlarının yenidən bölgüsü Avropanın xeyrinə dəyişmişdir. Bu zaman isə beynəlxalq dövriyyədə, üstün olaraq, nağd və nağdsız ABŞ dolları iştirak edirdi. Digər tərəfdən, ümumdünya ticarətinin inkişaf templəri müqabilində qızıl hasilatının geniş həcmli olmaması vəziyyəti də beynəlxalq likvidliklə bağlı kəskin

problemlər doğurmuşdu. ABŞ-ın tədiyə balansında yaranan nəhəng defist, ehtiyat valyutası olaraq dollara etibarı azaltmış və onun dünya maliyyəsində dominant vəziyyətini mütləq itirilməsi ilə nəticələnmişdir. Bu situasiyada Qərbi Avropa və Yaponiya kimi yeni maliyyə mərkəzləri yaranmışdır kı, onların da milli valyutasından ehtiyat keyfiyyətində istifadə olunmağa başlanmışdır.

ABŞ-ın bu zaman dünya maliyyə sistemində məhdudlaşan dominanlılığının yaratdığı problemli vəziyyətin izahı "Triffin dilemması və ya parodoksu" adlanan baxışda özünün nəzəri izahını tapmışdır. Belə ki, Belçika əsilli amerikalı iqtisadçı Pobert Triffin (*1911-1993*) analitik olaraq təsdiqlədi ki, əsas valyuta emissiyası emitent ölkənin qızıl ehtiyatına adekvat olmalıdır. Əks halda qızılla təmin edilməmiş yüksək ölçülü emissiya həmin valyutanın qızıla olan dövriyyəsini sarsıdar və ona verilən etibarın böhranına gətirər. Bu təzadın digər interpretasiyasında - ölkələrin milli valyuta ehtiyatlarını formalaşdırmaqla onların mərkəzi banklarının lazımı səviyyədə dollarlarla təminatı üçün ABŞ-ın tədiyə balansında daim defisitin müşahidə edilməsi zəruridir. Tədiyə balansının defisiti isə ehtiyat aktivi keyfiyyətində dollara olan etibarı sarsıdır. Əksliyin qismən mülayimləşdirilməsi üçün isə əvəzləşmələr üzrə xüsusi hüquqlar adlanan süni ehtiyat vasitəsi təklif olunur. Bu mexanizm hazırda da fəaliyyət göstərir.

"Bretton-Vuds" sistemində böhranlı vəziyyətlərin yaranışının digər köklü səbəbləri də mövcuddur. Bunları aşağıdakı kimi təsnifləşdirmək olar:

1. İqisadiyyatda dayanıqlıqsızlıq və təzadlılıq. Belə ki, 1967-ci ildə maliyyə böhranının başlanması iqtisadi artımın aşağı düşməsi məqamı ilə üst-üstə düşür.

2. İnflyasiyanın qüvvətlənməsi dünya qiymətlərinə və şirkətlərin rəqabətqabiliyyətliliyinə təsir edərək "isti pullar"ın spekulyativ yerdəyişməsini stimullaşdırmışdır. Müxtəlif ölkələrdə inflyasiya templəri valyuta kursunu dinamikasına təsir etmiş, pulların ödəniş qabiliyyətliyinin azalması "kurslar kəsişməsi" üçün şərait yaratmışdır.

3. Milli tədiyə balanslarında qeyri-sabit vəziyyət. Bir sıra ölkələrdə - xüsusən ABŞ və Böyük Britaniyada xroniki olan defisit və digərlərində AFR və Yaponiyada profisit valyuta kurslarının tərəddüdünə kəskin təsir etmişdir.

4. Dünya arenasında baş verən dəyişikliklərlə "Bretton-Vuds" sisteminin özünün prinsiplərinin uzlaşmaması. Milli valyutadan istifadəyə əsaslanan sistemin dünya təsərrüfatının beynəlmiləşməməsi prosesi ilə ayaqlaşmaması. Bu təzad ABŞ və Böyük Britaniyanın iqtisadi mövqelərini zəiflətmiş və onlar özlərinin tədiyə balanslarının defisitini ehtiyat valyuta statusunda olan milli valyuta emisiyaları hesabına aparmışlar. Bu, xüsusən, inkişaf edən ölkələrin mənafeləri ilə ziddiyyət təşkil etmişdir.

5. Valyuta sferasında TMŞ-lərin rolu. Belə ki, TMŞ-lər müxtəlif valyutalarda kifayət qədər nəhəng qısamüddətli aktivlərə malikdirlər. Həmin aktivlər isə əhəmiyyətli dərəcədə onların fəaliyyət göstərdiyi ölkələrdə valyuta ehtiyalarını əhəmiyyətli dərəcədə artırır. Bu məbləğlər isə valyuta spekulyasiyalarında iştirakla milli nəzarətdən və mənfəət proqnozundan yayınaraq proseslərə geniş ölçüdə təsir imkanları əldə edirlər.

Bütün bunlar "Bretton-Vuds" sisteminə yenidən baxılması ehtiyacından xəbər verir. Mahiyyətcə, "Bretton-Vuds" sisteminin böhranlılığı beynəlxalq iqtisadi münasibətlərin beynəlmiləl xarakterindəki təzadlıqlardan və bu məqsədlər üçün qiymətdən düşmüş milli valyutalardan istifadə gercəkliklərindən irəli gəlir. Sistemin böhranlılığı "valyuta həyacanı" yaradaraq fond birjalarında fəsadlara səbəb olur, qiymətli kağızların kursunun aşağı düşməsinə gətirir, beynəlxalq valyuta likvidliyi problemini kəskinləşdirir. Buna görə də dünya maliyyə sistemi böhranları daha rasionallıqla təcrid edən, mükəmməl strukturlu və unversal məzmunlu yeni arxitektur düzüm tələb edir. Bu tələb XX əsrin sonlarında Cənub-şərqi Asiyada baş vermiş maliyyə böhranında daha da qüvvətlənərək aktuallığını artırdı. Elə bu ərəfədə "Böyük səkkizliklər"in - G8 - ABŞ, Böyük Britaniya, Fransa, AFR, İtaliya, Yaponiya, Kanada və Rusiyanın böhranın təsirini azaltmaq imkanlarının məhdud olduğu ortaya çıxdı. Hesablandı ki, qlobal maliyyənin səmərəli idarəetmə sisteminin funksionallığı böyük aktivli digər oyunçularsız mümkünsüzdür. Buna görə də XXI əsr astanasında yeni axtarışlar silsiləsində dünya iqtisadi nəhəglərinin yeni formatda konsolidasiyası ideyası reallaşdı.

Bir sıra maraqlı fikirlərin dövriyyəyə çıxışı ilə əlamətdar olan sammitdə beynəlxalq maliyyə institutlarının reformasiyası, yeni arbitraj institutlarının yaradılması, qlobol iqtisadi siyasətdə birgə fəaliyyət, müasir maliyyə texnologiyalarına əsaslanaraq riskləri maksimal şəffaf idarə etmək, müxtəlif ölkələrin nüfuzlu iqtisadçılarından ibarət maliyyə məşvərəti yaratmaq kimi təsisatlandırmaların aparılması ideyaları səsləndirilmişdir. Qlobal böhrandan çıxış yollarının arandığı forumda liderlər qərara gəldilər ki, onlar dünya iqtisadiyyatında daha konsolidəedilmiş idarəetmə və tənzimləmə sisteminin formalaşdırılması üçün müvafiq "nəzarət orqanları" təsis etməlidirlər. Bu təsisatlar qlobal maliyyə sistemində nəhəng tənzimləyicilər funksiyasını yerinə yetirməklə dünyanın aparıcı bankları və maliyyə qurumlarında yüksək etibarlılığı və stabilliyi təmin edəcəklər.

G20 ilk sammitinin iştirakçılarının dünya maliyyə böhranı ilə bağlı umumi fikri belə olmuşdur ki, BYİB və BVF sistemində mütləq hərtərəfli islahatlar aparılmalıdır. Daha çox ABŞ və Avropaya oriyentasiya olunun sistemdə qərar qəbulunda inkişaf etməkdə olan ölkələr də mühüm səs vermə imkanları əldə etməli, bu qurumların öhdəlik və məhsuliyyətləri yüksəldilməli və onlara müvafiq geniş nəzarət funksiyaları da verilməlidir.

Göründüyü kimi, müasir beynəlxalq siyasətin vəziyyəti heç də ürəkaçan deyildir. Bir tərəfdən, Amerikanın iqtisadi imicində zəifləmələr müşahidə olunsa da, digər tərəfdən, məlum deyil ki, bundan başqa "dünya oyunçularının" faydası nə olacaqdır. İndi Avropa dünya sistemində liderliyə can atır. ÇXR öndə olmaqla inkişaf etməkdə olan ölkələr maliyyə hakimiyyətinin elə yenidən bölgüsünü tələb edirlər ki, bu yalnız onların mövqeylərinin möhkəmlənməsinə xidmət edir. Bununla belə, ABŞ özü də bu tələblərə etiraz etmək vəziyyətini qoruyur. Amerika sovet iqtisadi sisteminin bənzəri deyil. Böhranlara baxmayaraq, onun iqtisadiyyatı möhkəmdir. Hər halda, o bu sarıdan

rəqibləri Avropa və ÇXR-dən zəif görünmür. Gerçək proqnozlar belədir ki, istənilən halda ABŞ özünün nəhəng iqtisadi dövlət statusunu saxlayacaqdır. Onun hərbi qüvvələri yenə də dünyada ən güclu olaraq qalır. Keçmişdə yaşandığı kimi, o, yenə də mühüm diplomatik və hərbi ittifaqların ön sırasında dayanır. Ona görə də ABŞ indiki və növbəti administrasiyası da "güclü dollar" siyasətini davam etdirəcəklər. Bunu onun kifayət qədər resurs potensialına malikliyi bir daha əsaslandırır.

## 10.6. Qlobal inhisarlar və oliqopoliyalar təhlükəsi

İnhisar bir şəxsə, müəyyən qrupa və ya dövlətə məxsus istehsal, sənət, ticarət və fəaliyyətin digər növlərinə müstəsna hüquq verir. "İnhisar" termini monopoliya (*yunanca* - monos - *vahid,* poleo - *satıram*) kimi də sinonimə malikdir və konkret olaraq, rəqabət meydanında təkhakimiyyətliliyi ifadə edir.

Bu tərifdən görünür ki, təbiəti etibarilə inhisar azad rəqabətin tam əksidir.

İnhisarın aşağıdakı xüsusiyyətlərini ayırmaq olar:

- əmtəənin bir satıcısı;
- bazara giriş üçün maneələr var, çıxış yoxdur;
- bir məhsul mövcuddur və onun differensiasiyası yoxdur;
- qiymətlərə nəzarətdə iştirak edən şirkətlər tam nəzarətə malikdirlər.

İqtisadiyyatı əhatə dərəcəsi nəzərə alınmaqla inhisarçı təşkilatların aşağıdakı növləri seçilir:

- ❑ müəyyən sahə miqyasında - təmiz inhisar: bir satıcı fəaliyyət göstərir, mümkün rəqiblər üçün bazara giriş bağlıdır, satıcı satış üçün özünün qoyduğu qiymət ilə nəzərdə tutulan malın miqdarına tam nəzarət edir.
- ❑ milli təsərrüfat miqyasında - mütləq inhisardır. o, dövlətin və ya onun təsərrüfat orqanlarının əlindədir.

Təmiz və mütləq inhisarlarda resursların, malların bir alıcısı mövcuddur.

Meydanagəlmə xarakteri və səbəblərindən asılı olaraq, inhisarların aşağıdakı növlərini fərqləndirirlər:

- Təbii inhisarlar. Bu cür inhisarlara mülkiyyətçilər və təsərrüfat təşkilatları malikdir ki, nadir və azad təkrar istehsal olmayan istehsal elementləri onların sərəncamındadır;
- Süni inhisarlar. Bu şərti ad altında inhisar qazancları əldə etmək üçün yaradılmış müəssisə birlikləri başa düşülür.

Təbii inhisar (*natural monopoly*) istehsal, əmtəə və xidmətlərin satışı üzrə rəsmi tanınan qaçılmaz inhisardır. Təbii inhisar, bir tərəfdən, müəllif hüququ və ya müəllifin qanunla inhisarçı olması, digər tərəfdən, dövlət maraqları çərçivəsində vahiq boru nəql sistemi, elektrik şəbəkəsi, dəmiryol magistralı sahələrində təzahür edir. O, həmçinin, ictimai təhlükəsizlik mülahizələri ilə dövlət inhisarı kimi də yarana bilər.

Süni inhisar (*artificial monopoly*) inhisarçı mənfəət əldə etmək üçün bilərəkdən bazarın strukturunu dəyişdirməyə yönəlmiş müəssələrin birləşməsi. Süni inhisarlar daha iri kapitaldan, çox yüksək səviyyəli texnologiyalardan, yaxşı qurulmuş reklam işindən istifadə edərək autsayderlərin xammal mənbələrinə və enerji daşıyıcılarına yetərliliyini məhdudlaşdırır, sahəvi bazara yeni firmaların girişi üçün maneələr yaradırlar. Süni inhisarlar fəaliyyətlərini kartel, sindikat, konsern və trestlər formasında qururlar.

Kartel (*fransızca* - cartel, *italyanca* - cartello - *kağız, sənəd*) şirkətlər arasında inhisarçı birləşmənin forması və ya sazişidır. Burada iştirakçılar istehsal vasitələrinə və istehsal məhsullarına olan mülkiyyətlərini saxlayır, yaradılmış məmulatların kvotası, hər birinin ümumi məhsul buraxılışında payı, satış qiymətləri, bazarların bölüşdürülməsi və s. barədə razılaşaraq məhsulları bazarda özləri satırlar.

Sindikat (*yunaca* - syndikos - *rabitəli hərəkət edən*) təsərrüfat fəaliyyəti aparan subyektlərin təmərküzləşmə məqsədi ilə birləşməsi. Sindikat iştirakçıları kommersiya müstəqilliyini itirərək istehsalat və hüquqi sərbəstliyini saxlayırlar. Burada, həmçinin, təsərrüfatçılığın maddi şərtlərinə olan mülkiyyət birlik iştirakçılarında qalır, hazır məhsul isə onların ümumi sərvəti kimi, bunun üçün yaradılmış kontor vasitəsilə satılır.

Konsern (*ingiliscə* - concern - *iştirak, maraq*) mülkiyyətin və nəzarətin vəhdəti ilə xarakterizə edilən müəssisə və təşkilatların birləşmə forması. Konsernə daxil olan müəssisələr sərbəst deyillər, onlara konsernə başçılıq edən baş təşkilat tərəfindən nəzarət olunur. Konsern ümumi iştirakçılıq sistemi ilə maliyyə resurslarını və istehsalı reallaşdıraraq iştirakçı tərəfləri "şaquli" və ya "üfüqi" formada birləşdirir. Şaquli birlik istehsal prosesi rabitəli xarakterlə bağlılıqda olan müəssisələr, üfüqi birlik isə qarşılıqlı əlaqəliliyi olmayan müxtəlif sahələrin, təşkilatların birləşməsidir. Konsern həm də, öz növbəsində, hüquqi şəxs olmaqla, səhmdar cəmiyyət, holdinq kimi şaquli və üfüqi inteqrasiya olunan qurumlara bölünür.

Trest (*ingiliscə* - trust - *etibar*) bu qrup sahibkarın istehsal vasitələrinə və hazır məhsula olan müştərək mülkiyyətinə əsaslanan inhisarçı birləşməsi formasıdır. Burada real hakimiyyət idarəetmə qurumunun və ya şirkətin rəhbərinin əlində cəmləşir. Trestlər daha çox XIX əsrdə geniş yayılmışdılar. ABŞ-da ilk trest 1879-cu ildə böyük neft maqnatı Rokfellerin yaratdığı "Standart Oyl" şirkəti olmuşdur.

İnhisarçılıq rəqabət bağlılığındadır. İnhisarçı rəqabət o zaman mövcuddur ki, oxşar məhsul satan çoxlu firmalar vardır və onlardan hər biri öz məhsuluna azalan əyri ilə qarşılaşır. İnhisarçılığın müasir mühüm iri formalarından biri kimi oliqopoliyalar çıxış edir. Oliqopoliya (*yunaca* - ὀλίγος - *azsaylı və* - πωλέω - *satıram, ingiliscə* - oligopoly) daha maraqlı və gələcəyi daha az təsəvvür edilən inhisar rəqabəti növlərindən biri kimi bazarda bir neçə iri şirkətin hökmran olduğu rəqabət vəziyyətini ifadə edir. O, mükəmməl rəqabətin bazar strukturu tipi kimi, bir qayda olaraq, şirkət sayının 3 və ondan çox olduğu halda əsaslıdır. Çoxsaylı şirkətlərin olmadığı və eyni zamanda, səmərəli istehsal üçün kifayət qədər nəhəng şirkətlərin təmsil edildiyi sahə təbii

oliqopoliyanı ifadələndirir. Oliqopoliya vəziyyətində satıcılar böyük alıcı kütləsi ilə ticarət aparır, qiymətqoyma siyasəti və marketinq strategiyasında bir-birinə qarşı çox həssas olurlar. Bununla belə, bazarların tənzimlənməsində daha çox paya sahib çıxan bir rəqabət modeli kimi oliqopoliyarın da təhlükəsi qaçılmazdır. Belə ki, oliqopolist rəqabət, əsas məqsədi inhisarçıda olduğu kimi məhsulun qiymətinin yüksəldilməsi və buraxılışının məhdudlaşdırılması olan saziş (*sövdələşmə*) doğura bilər. Əgər bu sazişdə rəsmi müqavilə mövcuddursa, bu, artıq karteldir.

Oliqopoliyanın özəl növü kimi duopoliya və oliqopsoniya çıxış edir. Duopoliya (*latınca* - duo - *iki və yunaca* - poles - *satıcı*) müəyyən əmtəə və ya xidmətlər üzrə bazarda iki istehsalçı və ya satıcının hökmran olduğu rəqabət vəziyyətidir. Duopoliya şəraitində alıcı sayı məhdudlaşdırılmır. Oliqopsoniya (*yunanca* - oligos - *azsaylı və* opsonia - *alış*) pay bölgüsü genişliyi bazar qiymətlərinin dəyişməsində əks olunan bir neçə alıcının iştirak etdiyi sahəvi bazar tipidir.

İnhisar bazarında digər məxsusi monopsoniya və duopsoniya kimi rəqabət növləri də vardır. Monopsoniya (*yunanca* - móno - *bir və* opsōnia - *alış, tədarük*) bir alıcıya qarşı çoxlu satıcının durması və ya ancaq bir istehlakçının bazarı formalı qeyri-təkmil rəqabət növüdür. Monopsoniya vəziyyətində qiyməti alıcı qoyur. Onun maraqlı cəhəti isə monopoliya ilə monopsoniyanın eyni vaxtda, eyni məkanda görünməsidir. Təcrübədə xalis monopoliya və xalis monopsoniya uzlaşması nadir hadisədir. Monopsoniyanın özəl növü kimi duopsoniya çıxış edir. İkitərəfli inhisarçılıq olaraq duopsoniya (*ingiliscə* - duopsony - *iki satıcı*) eyni məhsul üzrə çoxlu satıcının və bu məhsullar üzrə yalnız iki müstəqil alıcının olduğu bazar vəziyyətini ifadə edir.

İnhisarlaşma və onun qarşının alınması müvafiq qanunvericilik - antiinhisar qanunvericiliyi ilə tənzimlənir. İnhisarların fəaliyyətinin məhdudlaşdırılması, daxili bazarda rəqabətqabiliyyətli mühitin yaradılması istiqamətində dövlətin iqtisadi və qanunvericilik tədbirləri olaraq demonopolizasiya çıxış edir.

Demonopolizasiya (*demonopolization*) inhisarların fəaliyyətinin məhdudlaşdırılması, daxili bazarda rəqabətqabiliyyətli mühitin yaradılması istiqamətində dövlətin iqtisadi və qanunvericilik tədbirləridir.

Antiinhisar qanunvericiliyi (*antitrust legislation*) rəqabətə sövq edən, inhisarçı strukturların yaranmasına imkan verməyən və inhisarçı hərəkətləri məhdudlaşdıran qanunlar və digər dövlət aktlarında ehtiva olunur. Vurğulanmalıdır ki, obyektiv olaraq hər cür tənzimlənməyən bazarda hakim olan cəmləşməyə meyil sayəsində qlobal bazar vahid qlobal inhisarın qurulmasına ehtiyaclıdır. Onun rolunda, nə qədər paradoksal olsa da, daha çox kommersiya təşkilatı deyil, bütöv bir cəmiyyət - qloballaşmanın əsas mühərriki olmuş və bununla da bəşəriyyətə onun tərəfindən verilən faydaların baş alıcısı ABŞ çıxış edir.

## 10.7. İstehlak problemi və onunla bağlı başlıca nəzəriyyə və kateqoriyalar

İstehlak tələbin ödənilməsi prosesində məhsuldan istifadəni ehtiva edir. İqtisadiyyatda istehlakı rifah və xidmətlərin alınmasına bərabər tutulur. O, gəlirin əldə edilməsi və ya yığımın xərclənməsi nəticəsində mümkün olur. İstehlaka tələbin ödənilməsi prosesi olaraq baxılması iqtisadi nəzəriyyə postulatlarına əsaslanır. İnsana məhdud resurslar şəraitində, iqtisadi münasibətlər kontekstində yanaşan iqtisadi nəzəriyyə ilə bərabər istehlakla həm də iqtisadi sosiologiya məşğul olur. Dünya iqtisadiyyatında isə istehlak problemi qlobal iqtisadi artım və təbii resurslar məhdudluğu müstəvisində öz əksini tapır. Bir sıra iqtisadçılar dünya iqtisadiyyatının istehlak üzərində qurulduğunu iddia edir və bu baxımdan da qlobal iqtisadi problemlərin mərkəzi həlqəsində istehlak probleminin dayandığını əsaslandırırlar. Bunu dünya iqtisadiyyatının müasir inkişaf mərhələsində təbii resursların miqyaslı istehlakı, bundan irəli gələrək təbiətlə cəmiyyətin qarşılıqlı təsirinin mürəkkəbləşməsi ilə bağlayırlar. Belə vəziyyət davamlı inkişaf ssenarisini labüd edir. Burada, həmçinin, istehlakçılığın digər məsələlərinin həlli də aktuallıq əldə edir. Reallıq belədir ki, kapitalizmin inkişafı nəticəsində coşqun iqtisadi və texniki inkişafla müşaiyət edilən, gəlir artımını genişləndirən, istehlakın strukturunu əhəmiyyətli dərəcədə dəyişdirən, iş günü müddətini azaldaraq asudə vaxtı artıran, sinfi strukturu aradan qaldıran, istehlak fərdiləşdirməsini formalaşdıran istehlak cəmiyyəti yaranır.

İstehlak cəmiyyəti (*consumer society*) fərdi istehlak prinsipi əsasında təşkil edilmiş ictimai münasibətlər məcmusunu təyin edən anlayışdır. İlk dəfə neofreydçilik və freydmarkszimçilik nəzəriyyəsinin banisi alman sosioloqu, filosofi Erix Zeliqmann Fromm (*1900-1980*) tərəfindən dövriyyə daxil edilmişdir. İstehlak cəmiyyəti maddi nemətlərin kütləvi istehlakı və müvafiq dəyərlər sistemi və quruluşlarının formalaşması ilə xarakterizə olunur. İstehlak cəmiyyəti kooperasiya sferasında paycıların (*vətəndaşlar və hüquqi şəxslər*) ərazi əlamətlərinə görə könüllü birliyinə əsaslanan istehlak kooperativi növü kimi də məna daşıyır. O, həmçinin, konsyumerizm, istehlakçılıq kimi anlayışlarla da assosiasiya olunur.

İstehlakçı (*consumer*) öz istəklərini ödəmək üçün əmtəə və xidmətləri alan və ya istifadə edən fiziki və ya hüquqi şəxsdir.

Konsyumerizm, istehlakçılıq (*consumerism*) istehlakçıların hüquq və təsirinin genişlənməsi ilə bağlı, həmçinin, alıcıların satıcılara və əmtəə istehsalçılarına qarşı təşkilatlanmış hərəkatı, istehlakçıların cəmiyyətlərinin yaradılması.

İstehlak cəmiyyətinin dəyərlərini bölüşən insanların sayının artması, müasir bəşəriyyətin əsas cəhətlərindən biri kimi səciyyələndirilir. Bununla belə, sosioloqlar və ictimai xadimlər arasında onlara münasibət də eynicinsli deyil. Burada onları müdafiə edən və əks olan müxtəlif tezislərə rast gəlinir.

İstehlak cəmiyyətlərini müdafiəsi ilə bağlı bir sıra arqumentlər:

- ❒ istehlak ictimaiyyət üçün zəruri olan üzunmüddətli sosial stabilliyi bərqərar edən yaxşı və məsuliyyətli hökumətin yaranmasına zəmin olur;
- ❒ istehlak sosial gərginliyin azalmasına səbəb olur;
- ❒ istehlak cəmiyyətində istehsalçılar bütövlükdə tərəqqini təmin edən yeni əmtəə və xidmətlərin yaradılmasına və onların təkmilləşdirilməsində stimullar əldə edirlər;
- ❒ istehlakın davranış motivləri milli və dini xurafatçılığı, risklilik meyilini yumuşaldır, ekstremizmin azalmasına və dözümlülük artmasına səbəb olur;
- ❒ istehlak cəmiyyətinin üzvləri daha yüksək ekoloji standartlar və ekoloji təmiz məhsullar tələb edir və bu baxımdan da istehsalçılar onları yaratmağa məcbur olurlar;
- ❒ "üçüncü dünya" dünya ölkələrindən xammal və məhsulların istehlakı onların inkişafına kömək edir.

İstehlak cəmiyyətlərinə əks olan bir sıra arqumentlər:

- ❒ istehlak cəmiyyətləri insanı asılı, qeyri-müstəqil edir;
- ❒ istehlak fərdin əsas məqsədinə çevrilir, gərgin işlər, təhsil, ixtisasın artırılması isə kənar effektlərlərlə müşaiyət olunur;
- ❒ istehlak cəmiyyətinin əsasını təbii sərvətlər təşkil edir, lakin onların əksəriyyəti əvəzolunmazalara aiddirlər;
- ❒ istehlak cəmiyyəti yalnız inkişaf etmiş ölkələrdə mövcuddur, bu zaman üçüncü dünya ölkələrində isə xammal əlavələrindən istifadə olunur;
- ❒ istehlak cəmiyyətində proseslərinin sürətlənməsi təşviq olunur. O cümlədən burada mənfi və dağıdıcı proseslər də sürətlənir;
- ❒ istehlak cəmiyyətində ayrıca bir insanın məsuliyyəti azalır. Belə ki zavodların tullantıları ilə ətraf mühitin çirklənməsinə görə istehlakçı ilə deyil, bütünlüklə istehsalçı məsuliyyət daşıyır.

İstehlak hiss edilən, gecikdirilmiş və yetərsiz olmaqla bir sıra kateqoriyalarda əks olunur.

<u>Hiss edilən istehlak</u> (*conspicuous consumption*) öz sosial statusunun yüksəldilməsi məqsədi ilə vəsaitin xərclənməsidir, bədxərc istehlakdır.

<u>Gecikdirilmiş istehlak</u> (*ingiliscə* - delayed gratification *və ya* deferred gratification - *gecikmiş məmnunluq və ya təxirə salınmış məmnunluq, gecikdirilmiş istehlak*) dərhal olan mükafata tamah göstərməmək və daha sonrakını gözləmək qabiliyyətidir. Bir qayda olaraq, gecikdirilmiş və ya təxirə salınmış istehlak kiçik mükafata müqavimət göstərməklə bilavasitə sonradan daha böyük və ya daha mükkəmməlini almaqla bağlıdır. Əksər ədəbiyyatlarda istehlakın təxirə salınması bacarağına digər müxtəlif müsbət nəticələrin (*fiziki və psixoloji sağlamlıq, sosial səriştətəlik, təhsildə uğurlar daxil olmaqla*) əldə edilməsi olaraq baxılır.

<u>Yetərsiz istehlak</u> (*ingiliscə* - underconsumption - *kifayət etməyən istehlak*) qənaətbəxş olmayan və ya natamam istehlakdır. Yetərsiz istehlak XVI əsrin sonlarında

fransız merkantalistlərinin mətnlərindən çıxmış və müasir dövrdə iqtisadiyyata arxaik anlayışa çevrilmişdir.

Yetərsiz istehlakla bağlı məxsusi nəzəriyyə mövcuddur. Yetərsiz istehlak nəzəriyyəsi (*ingiliscə* - theory of shortage, the underconsumption theory - *kifayət etməyən istehlak nəzəriyyəsi, çatışmamazlıq nəzriyyəsi, qıtlıq nəzəriyyəsi*) iqtisadi böhranları tələbdən artıq (*izafi*) istehsal nəticəsində yaranması və onun şəxsi istehlakın yetərli olmayan ölçüsü ilə əlaqəliliyi baxımından izah edən konsepsiyadır. Yaradıcısı isveçrəli iqtisadçı və tarixçi Jan Şarl Leonar Simond de Sismondidir (*1773-1842*). J.Sismondi həm də siyasi iqtisadın banilərindən biri kimi də tanınır. O, böhranlara ümumi artıq istehsal olaraq yanaşmış, bununla belə, onları zəhmətkeşlərin yetərsiz istehlakının nəticəsi kimi görmüşdür. J.Sismondi göstərmişdir ki, iqtisadi böhranlar istehsalla istehlak arasında ziddiyyətin məhsuludur. İstehlak istehsalın labüd nəticəsi deyil, əksinə bazarları əmtəələrlə həddindən artıq dolduran kapitalist sisteminin qaçılmaz nəticəsidir. Yetərsiz istehlak nəzəriyyəsinin görkəmli nümayəndələri kimi "dövlət sosializmi" nəzəriyyəsinin banilərindən olan alman iqtisadçısı İohann Rodbertus-Yaqesov (*1805-1875*) və britaniya iqtisadçısı C.Hobson hesab olunurlar.

İstehlak cəmiyyəti ilə bağlı digər bir istilah da afflyuenzadır. Afflyuenza (*ingiliscə* - affluenza - *bolluq xəstəliyi*) insanın zəruri istehlak həcminin real çərçivəsindən çıxaraq öz istehlak səviyyəsini artırması üçün çox işləyərək daim borca girməsi ilə bağlı davranışıdır. Termin "influenza" - "bərkdən sıxmaq" və "affluence" - "sərvət" söz birləşmələrindən yaranmışdır. "Həddən artıq əmək sərfi epidemiyası" anlamını ifadə edir.

İstehlakın əmtəə və xidmətlərlə bağlılığı mühüm şərtlərdən biridir. Ona görə də istehlak prosesində bu kateqoriyalar xüsusən nəzərə alınandır.

Əmtəələşmə (*commodification*) bazarda satış üçün əmtəə və xidmətlərin istehsal həcminin artırılması prosesidir.

Əmtəə zəncirləri (*commodity chains*) müəyyən çeşidli əmtəələrin istehsalı və satışı üzrə təsərrüfat fəaliyyətinin inteqrasiya olunmuş növlərinin funksionl şəbəkəsidir. Xammalın emalı, istehsal tsiklinin aralıq mərhələləri və məhsulun bazarda meydana çıxması ilə bütün əmtəə yaranış və hərəkəti şəbəkəsini əhatə edir.

Dünya iqtisadiyyatında istehlakla bağlı problemlər, ilk öncə, ayrı-ayrı mühüm həyati əhəmiyyət daşıyan resursların istehlak artımı ilə səciyyəvidir. Burada ərzaq məhsullarından sonrası üstünlüyü enerji resursları ələ alır.

## 10.8. Qlobal demoqrafik problem və onların səciyyəvi xüsusiyyətləri

Müasir dövrdə dünya əhalisinin sürətli artımı demoqrafik problem yaradaraq həm ayrı-ayrı dövlətlərin həyatına, həm də bütövlükdə beynəlxalq münasibətlərə təsir göstərir. Demoqrafik problemlər elmi müstəvidə demoqrafiya (*yunanca* - demos - *xalq*

+ grapho - *yazıram*) əhali haqqında elm çərçivəsində öyrənilir. Buraya əhali sayı, doğum və ölüm göstəricilərinin dəyişməsi, miqrasiya, yaş strukturu, milli tərkib, əhalinin coğrafi yerləşməsi , onun sosial-iqtisadi, tarixi və digər amillərdən asılılığını kimi istiqamətlər daxildir. Demoqrafiya əhali nəzəriyyəsini, əhali siyasətini işləyib hazırlayır, ölkə, şəhər, vilayət, region və bütünlüklə Yer kürəsi əhalisinin dəyişməsi perspektivini verir. Onun bir çox ictimai elmlər: sosiologiya, siyasi iqtisad, tarix, hüquq, etnoqrafiya, sosial gigiyena, statistika və digərləri ilə sıx bağlılığı vardır.

Demoqrafik vəziyyətləri əks etdirən mülahizələrə 1662-ci ildə ingilis alimi Con Qrauntanın (*1620-1674*) əsərlərində rast gəlinmişdir. Lakin termin olaraq "demoqrafiya"nı elmi məzmunda ilk dəfə 1855-ci ildə fransalı alim Jan Klod Aşil Qiyar (*1799-1856*) dövriyyəyə çıxartmışdır. Bu baxımdan da o, demoqrafiya elminin Kolumbu sayılır.

Demoqrafiya ilə bağlı elmi-nəzəri araşdırmalar Avropa klassik iqtisad məktəbinin görkəmli nümayəndəsi, məşhur ingilis iqtisadçı-demoqrafı Tomas Robert Maltus (*1766-1834*) yaradıcılığında geniş əksini tapmışdır. Onun 1798-ci ildə yazdığı "Əhali artıqlığı prinsipinə dair esse" (*An essay on the principle of population*) əsəri "Əhali artıqlığı" qanununu (*ingiliscə* - law of populatio - *əhali haqqında qanun*) kimi şöhrət tapmışdır Qanuna əsasən, istehsal olunan qida məhsullarının sayı ədədi silsilə, əhali isə həndəsi silsilə ilə artır və buna görə də gec-tez qida məhsullarının məhdudluğu əhalinin artımını dayandıracaqdır. T.Maltusun fikrincə, bitki və heyvanat aləmində olduğu kimi, insan cəmiyyətində də öz sərəncamında olan qidanın kəmiyyətinə varmadan istifadəsini təmin etmək instinkti vardır. O, təsdiqləyirdi ki, əhali həndəsi (*1,2,4,8,16,32,64 və s.)* silsilə, yaşayış vasitələri isə ədədi (*1,2,3,4,5,6,7 və s.)* silsilə ilə tərəqqi edir və iki yüz ildən sonra bu nisbət 256-nın 9-a, üç yüz ildən sonra isə 1096-nın 13-ə ekvivalentində olacaqdır. Buradan daha bir fikir də hasil olunurdu ki, əgər əhali artıqlığı qanunu təbiidirsə, onda yoxsulluğu heç bir sistem bölgüsü xilas etməyəcəkdir. T.Maltusun əhali artıqlığı (*overpopulation*) ilə bağlı qanunu iqtisadi nəzəriyyədə maltusçululuq (*malthusianism)* adlandırılır. Nəzəriyyəyə görə, məhdudlaşma yoxdursa, əhali sayı həndəsi silsilə ilə, ərzaq məhsullarının sayı isə ədədi silsilə ilə artır. Nəticədə isə bu disproporsiya aclığa və sosial sarsıntılara - "maltus tələsi"nə gətirib çıxarır. XIX əsrin sonlarında həmin nəzəriyyədən irəli gələrək bir sıra alimlər tərəfindən doğumun məhdudlaşmasına yönəlmiş yeniləşmiş maltusçuluq - neomaltusçuluq (*neomalthusianism*) nəzəriyyəsi dövriyyəyə çıxış etmişdir.

Klassik demoqrafik nəzəri araşdırmalarda əhali artımının tsiklilik nəzəriyyəsi ilə məhşurlaşmış italyalı iqtisadçı, statistik və demoqrafi K.Cinninin yaradıcılığı da mühüm yer tutur. Bu nəzəriyyəyə görə, hər bir əhali qrupu iqtisadi inkişafla bağlı üç - sürətli artım, stasionar vəziyyətə qədər yavaşıma və ixtisarlaşma fazalarından keçir. Üçüncü fazaya keçiddə K.Cinni xarici iqtisadi amillərdən istifadəni məsləhət bilir. O, bu yanaşmanın normal iqtisadi inkişafı patoloji vəziyyətdən ayırmağa yardım etdiyi qənaətini bölüşür.

Demoqrafik problem (*demographic problem*) XX yüzilliyin ikinci yarısında "demoqrafık partlayış" - Yer kürəsi əhalisinin sürətli artımından doğmuşdur. Tibbin müasir vasitələrinin köməyi ilə uşaq ölümlərini azaltmaq, bəzi epidemiyaları aradan qaldırmaq mümkün olmuşdur. Yeni texnikanın köməyi ilə ərzaq məhsulları istehsalı artmışdır. Bu və digər dəyişikliklər isə doğumun və insanların orta uzun ömürlülüyünün artmasına səbəb olmuşdur.

Demoqrafiya özünəməxsus göstəricilər sisteminə malikdir. Bu sırada il ərzində 1000 nəfərə düşən doğulanların sayını səciyələndirən doğum əmsalı (*birth rate*) daha çox təcrübələndirilir. Müasir reallıq belədir ki, bir millətin 25 ildən çox yaşaması üçün doğum əmsalı 2,11 dən kiçik olmamalıdır. Bu əmsal bir sıra Avropa ölkələrində zəruri həddən aşağıdır. Belə ki, doğum əmsalı Fransada 1,8, Böyük Britaniyada 1,6, AFR və Yunanıstanda 1,3, İtaliya və İspaniyada 1,1-ə bərabədir.

Demoqrafik ölçmələrdə demoqrafik keçid və demoqrafik yükləmə əmsalından da istifadə olunur. Demoqrafik keçid (*demographic transition*) - doğum və ölüm göstəricilərinin sürətli aşağı düşməsi ilə nəsillərin dəyişməsini göstərir. O, ənənəvi cəmiyyətdən müasir cəmiyyətə keçid doğum göstəricilərinin ölüm göstəricilərini üstələməsi ilə xarakterikdir. Demoqrafik yükləmə əmsalı (*dependency ratio*) əhalinin yaşlı strukturunun ümumiləşdirilmiş keyfiyyət göstəricisi olmaqla cəmiyyətdəki qeyri-məhsuldar əhali yükünü göstərir. O, uşaqların və təqaüd yaşında olanların əmək qabiliyyətili əhali sayına nisbəti ilə hesablanır.

Demoqrafik ölçmələrdə digər göstəricilər əhalinin təkrar istehsalı, əhali sıxlığı ilə bağlıdır. Əhalinin təkrar istehsalı (*ingiliscə* - population replacement - *əhalinin dəyişməsi*) doğum, ölüm və miqrasiya nəticəsində əhalinin fasiləsiz yeniləşməsi proseslərinin məcmusudur. Əhali sıxlığı (*population density*) mövcud ərazidə əhali məskunlaşmasının sıxlığıdır. Əhalinin sayının ərazi sahəsinə nisbəti ilə ölçülür, 1 kvadratmetr və ya kvadratkilometrə düşən insan sayı ilə təyin edilir. Bundan başqa, demoqrafiq ölçmələrdə, həmçinin, cins və yaş heyəti də əhəmiyyət daşıyır və o, əhali piramidası adlanan qrafik təsvirlə səciyyəvidir. Əhali piramidası (*population pyramid*) əhalinin tərkibinin cins və yaş heyətinin xarakteristikası üçün istifadə olunan, onun yaşa və cinsə görə paylanmasının qrafik təsviridir.

Demoqrafik inkişafda fenomenal hadisə demoqrafik partlayışla bağlıdır. Demoqrafik partlayış (*population explosion*) təyin edilmiş ərazidə çox yüksək olan əhali artımını səciyyələndirir.

Dünya əhalisinin sivilizasiyanın ayrı-ayrı mərhələlərində say tərkibinə nəzər yetirdikdə 10 min il bundan öncə Yer kürəsində 5000 insan yaşadığı təxmin etmək olar. Bizim eranın əvvəllərində dünya əhalisi təqribən 150-200 milyon nəfərə çatmışdır. Eramızın 1000-ci ilinə yaxın isə bu say 300 milyon olmuşdur. Sonrakı mərhələlərdə isə Yer kürəsinin əhali sayı milyard nəfərlə ölçülmüş, 1850-ci ildə 1, 1930-cu ildə 2, 1960-cı ildə 3, 1976-cı ildə 4, 1987-ci ildə 5, 1999-cu ildə 6 və 2012-ci ildə 7 milyard olmuşdur. Bununla belə, tarix bəyan edir ki, dünya əhalisinin 2 milyard nəfər olması

üçün 4 milyon il keçmişsə, daha 2 milyard nəfər artım üçün 46 il, növbəti 2 milyard üçün isə 22 il lazım gəlmişdir. BMT-nin proqnozlarına görə, 2020-ci ildə dünya əhalisinin sayının 8 milyard nəfərə çatacağı gözlənir.

Bütün bəşəri tarix ərzində yaşamış insanların sayı 90 milyard hesablanır. 1950-ci ildə 80-dən artıq yaşı olanların sayı 1%, 65-dən çox olanların sayı 8%, 14 yaşa qədər olanların sayı 35% təşkil etmişdir.

Aşağıda regionlar üzrə dünya əhalisinin artım templərini xarakterizə edən cədvəl verilmişdir:

| **Dünya, regionlar** | **1955-1985-ci illər** | **1985-2000-ci illər** | **2020-2025-ci illər** (*proqnoz*) |
|---|---|---|---|
| Dünya | 1,9 | 1,6 | 1,2 |
| Avropa | 0,7 | 0,3 | 0,1 |
| Asiya | 2,1 | 1,6 | 1 |
| Afrika | 2,6 | 3,1 | 2,5 |
| Şimali Amerika | 1,3 | 0,8 | 0,6 |
| Cənubi Amerika | 2,6 | 2 | 1,4 |
| Avstraliya və Okeaniya | 1,9 | 1,4 | 0,9 |

**Cədvəl 12. Regionlar üzrə dünya əhalisinin artım templəri,** (*faizlə*)

Məhşur rus alimi Sergey Petroviç Kapitsa (*1928-2012*) planetin demoqrafik tarixi inkişaf ssenarisini tədqiq edərkən, son dörd minilliyin tərəqqi düzümünü ifadə edən dialektik sistem yaratmışdır. Onun qənaətincə, zamanla əhali kəmiyyəti arasında simmetrik riyazi uzlaşma mövcuddur və aşağıdakı kimidir:

1. Bizim eradan 2000 il əvvəl və eramızın V əsri (*Roma imperiyasının çökməsinə qədər*) əhatə olunan dövr 2500 il.
2. Orta əsrlər dövrü 1000 il.
3. Yeni tarix dövrü 300 il.
4. Ən yeni tarix zamanı 120 il.

Bölgüyə nəzər etdikdə görürük ki, hər növbəti mərhələ əvvəlkinə nisbətdə 2,5-3 dəfə kiçikdir və hər mərhələdə zaman ölçüsü gödəlməkdədir. Bu məntiqə görə, növbəti - V mərhələ 90 ildən artıq olmayacaqdır. Yeni zaman kəsiyini isə bəşəriyyətin milyon illik yaş durumu fonunda bir an kimi qiymətləndirmək olar. Alimin fikrincə, çağdaş nəsil bu zaman məqamının qatı ortasında qərar tutmuş və həmin dövrün orta hissəsi 2000-ci ilə təsadüf etmişdir.

Ayrı-ayrı ölkələrdə əhali milli tərkibini köklü - avtoxon və immiqrasiyadan yaranmış etnoslara bölürlər. Hazırda dünya əhalisinin 90%-i inkişaf etməkdə olan ölkələrin

payına düşür. Dünya əhalisinin 60%-dən çoxu sayı 100 milyondan çox 10 nəhəng ölkədə yaşayır: ən çoxsaylı əhalisi olanı ölkələr sırasında 1,4 milyard nəfərlə ÇXR və Hindistan irəlidədir. Sonrakı yerləri 325 milyon əhali ilə ABŞ, 263 milyon nəfərlə İndoneziya, 211 milyon nəfərlə Braziliya, 197,6 milyon nəfərlə Pakistan, 193 milyon nəfərlə Nigeriya, 169 milyon nəfərlə Banqladeş, 144 milyon nəfərlə Rusiya, 127,1 milyon nəfərlə Yaponiya bölüşürlər.

Dünyada əhali məskunlaşması bərabərölçülü deyildir və quru hissəsinin - Antarktida və əksər Qrenlandiya adası daxil olmaqla, təxminən 10%-i oykumenaya - (*yunanca* - oikumééē - *məşkun, yaşanılan yer*) Yer kürəsinin insan tərəfindən məskunlaşmış sahələrinə aiddir. Dünya əhalisinin təxminən 70%-i quru parçasının 8%-lik sahəsində cəmləşmiş, 60% əhali planetin şimal yarımkürəsində, 30% isə dəniz sahili ərazisində məskunlaşmışdır. Planetin quru hissəsinin yarısında 1 km$^2$-ə 1 adam, $^1/_4$ hissəsində 10 adam və qalan hissəsində isə 10 adamdan çox əhali düşür. Əhali sıxlığına görə isə 1 km$^2$-ə 50 adam düşməklə Mərkəzi Avropa, Şərqi Çin, Yaponiya, Cənubi Amerika əraziləri və Hind-Qanq, Nil çayları vadiləri fərqlənir. Dünya əhalisinin hazırda yarıdan bir qədər çoxu kənd ərazilərində yaşayır. Hazırda əhalinin məskunlaşma arealı dağlara tərəf genişlənməkdədir.

Demokrafik proseslərdə iri şəhərlərin rolu böyükdür. Buradakı əhali artımı effektləri urbanizasiya və aqlomerasiya dərəcələri ilə ölçülür. Proqnozlara görə, 2150-ci ildə yaşlı əhali sayı ümumi əhalinin 40%-ni təşkil edəcək və proses ölkələrin inkişaf konfiqurasiyasından asılı olmayaraq, müəyyən fərqlərlə hamı üçün eyni olacaqdır. XXI əsrin sonunda planetin əhali sayı 11-12 milyarda çatmaqla sabitləşmə əldə edəcəkdir. Demoqraflar hesab edirlər ki, bu sabitlik sürəkli olacaqdır.

İnkişaf etməkdə olan ölkələrdə əhalinin sürətli artımı bir sıra sosial-iqtisadi fəsadlar doğurur. Burada bəzi dövlətlərin milli sərhədlərində əhalinin sayı elə sürətlə artır ki, səmərəli təsərrüfatçılığa mane olan mütləq artıq əhali əlamətləri aşkara çıxır.

Demoqraf alimlər əhalinin sürətlə çoxaldığı ölkələrdə nəzarətsiz əhali artımı üçün dövlətin və hər bir insanın öz məsuliyyətini dərk etməsini formalaşdırmağa çalışırlar. Bunun üçün onlar doğumun məhdudlaşdırılmasına yönəldilmiş "ailə planlaşdırılması" proqramları işləyib hazırlayırlar.

## 10.9. Qlobal ərzaq problemi və ərzaq təhlükəsizliyinin təminatı yolları

Qlobal problemlər içərsində ərzaq problemi daha kəskinliyi ilə fərqlənir. Bu problem həm də özünün birbaşa insanla bağlı fizioloji və yaşam tələbləri baxımdan ön sıraya çıxır. Problemin etnogenezi bəşər sivilizasiyasının tarixi köklərinə qədər irəliləyir. Lakin o, son yüz ildə daha miqyaslı və qlobal xarakter daşımaqdadır.

Ərzaq istehsalı, bölgüsü, mübadiləsi və istehlakı qlobal təsərrüfat sisteminin funksionallığının mühüm tərkib hissəsi kimi çıxış edərək dünya siyasətinin prioritetləri

sırasında xüsusi yer tutur. Dünya təsərrüfat fəaliyyətinin əsas subyekti və obyekti olan insanın, işçi qüvvəsinin həyat fəaliyyəti birbaşa olaraq ərzaq təminatından asılıdır. Qlobal miqyasda ərzaq istehsalı və istehlakı arasında tarazlaşma meyilini stimullaşdırmaq imkanı hələ də məhdud olaraq qalır. Məsələ ondadır ki, inkişaf etmiş ölkələrdə ərzaq kompleksinin intensiv inkişafı əhalinin təbii artımının yavaşıması, ənənəvi və az məhsuldar təsərrüfatçılığın üstünlük təşkil etdiyi inkişaf edən ölkələrdə isə yüksək təbii artım səciyyəvidir.

Bəşər varlığının bütün mərhələlərində ərzaq təminatının əsas mənbəyi kimi kənd təsərrüfatı çıxış etmiş və etməkdədir. Hazırda planetin 20%-nin həyat fəaliyyəti kənd təsərrüfatı sferası ilə bağlıdır. İnkişaf etmiş ölkələrdə bu göstərici 5% olduğu halda inkişaf etməkdə olan ölkələrdə 50%-dən çoxdur. Ərzaq məhsulları içərisində insan qidasının əsasını (*50%*) taxıl təşkil edir və onun nisbəti heyvandarlıq məhsulları (*1 kq ət istehsalı üçün 7 kq taxıl tələb olunur*) hesabına dəyişir. Vurğulanmalıdır ki, XX əsrdə əkinçilik və heyvandarlıqda təşkilati, texniki və texnoloji yeniliklərin tətbiqi ilə bağlı nəhəng nailiyyətlər əldə olunmasına baxmayaraq, dünya əhalisinin ərzaq təminatlılığı problemi qəti həllini tapmamış qalmışdır. Yeni əsrdə planetin artan əhalisi ilə biosferin imkanları arasında disproporsiyaların dəyişməsi zəminində problem daha kəskin xarakter almışdır.

Kənd təsərrüfatı məhsulunun əsas mənbəyini torpaq resursları təşkil edir. Bu məqsədlər üçün nəhəng torpaq resursları Avstraliya, Şimali Amerika, və Yeni Zelandiya da daha çoxdur. Region və ölkələrdə kənd təsərrüfatında məşğul olanlara adekvat torpaq sahəsi düşür. Bu, dünya üzrə hazırda bir insan üçün 3,7 hektar torpaq sahəsinə bərabərdir. Həmin göstərici inkişaf etmiş ölkələrdə 2,2, Qərbi Avropda 12, Latın Amerikasında 13,8, Şimali Amerika 155 və izafi olaraq Avstraliya 671 hektardır.

Kənd təsərrüfatı əhalinin ərzaqla təminatına və bir sıra sənaye sahələri üçün xammalın alınmasına istiqamətlənmiş təsərrüfat sahəsidir. O, praktiki olaraq, bütün dünya ölkələrində iqtisadiyyatın çox mühüm sektoru kimi fəaliyyət göstərir. İqtisadi aktiv əhalinin 1,2 milyard nəfəri dünya kənd təsərrüfatı sistemində məşğuldur.

Dünya kənd təsərrüfatı sferasının intensifikasiyası amilləri kənd təsərrüfatında mühüm yeri əkin sahələri tutur. Hazırda bu göstərici dünya miqyasında adambaşına 0,24 hektar səviyyəsindədir. Hazırda dünya kənd təsərrüfatı intensifikasiyası prosesi gedir. Bu prosesin əsas amillərini kimyalaşma, suvarma sistemlərinin genişləndirilməsi və elmi seleksiya təşkil edir.

Proqnozlarına görə, yaxın illərdə inkişaf edən ölkələrdə potensial əkinə yararlı sahələrin 1970-ci ilə nisbətən 18%, onların potensial məhsuldarlığının isə 30% azalacağı gözlənir. Başqa sözlə, həmin ölkələrdə ekstensiv inkişaf imkanlarının deyil, daha çox, ekoloji böhran mühitində həmin imkanların reallaşdırılmasında ənənəvi təsərrüfatçılığın potensialının tükənməsi faktı ilə razılaşmaq lazım gəlir. Planetdə suvarmaya yararlı sahələr təqribən 1 milyard hektar təşkil edir. 2016-cı ilin olan məlumata görə, dünyada 230-240 milyon hektar torpaq sahəsi suvarılır ki, bu da ümumi əkin

sahələrinin 16%-indən bir qədər çoxunu təşkil edir. İrriqasiya sisteminə malik həmin sahələr bitkiçilik məhsullarının 30-35%-ini verir.

Ərzaq təchizatı ərzaq bazarının funksionalığından asılıdır. Bu bazar aşağıdakı sub bazarları əhatə edir:

1. Taxıl və taxıl məhsulları;
2. Ət və ət məhsulları;
3. Süd və süd məhsulları;
4. Balıq və balıq məhsulları;
5. Şəkər çuğunduru, şəkər və qənnadı məhsulları;
6. Kartof və kartof məhsulları;
7. Tərəvəz və tərəvəz məhsulları;
8. Meyvə və meyvə məhsulları;
9. Yumurta;
10. Toxum və yağ məhsulları;
11. Alkoqolsuz içkilər.

Dünya təsərrüfatının qloballaşması və beynəlxalq əmək bölgüsünün dərinləşməsi ümumilikdə beynəlxalq ticarətin inkişafını artırır. Lakin kənd təsərrüfatı xammalının və ərzaq məhsullarının beynəlxalq ticarətinin artım sürəti hazır sənaye məhsullarına nisbətən geri qalır. Ona görə də dünya ticarət dövriyyəsində aqrar sahədən olan məhsulların xüsusi çəkisi azalaraq cəmi ixracın 12%-ni təşkil etmişdir. Bu vəziyyət aqrar sahədən olan ixracın zəif artdığını göstərir. Real gerçəklikdə idxal və ixrac istər fiziki və istərsə də dəyər baxımından ardıcıl olaraq artır. Bütövlükdə kənd təsərrüfatı istehsalının həcminə və eləcə də ərzaqla təminolunma dərəcəsinə görə ayrı-ayrı ərazi və ölkələr bir-birindən kəskin fərqlənirlər. Lakin beynəlxalq ticarətin inkişafı nəticəsində dünya miqyasında bir ölkədə olan qıtlıq digər ölkələrdə olan artıq məhsullarla əvəz edilə bilir. Beləliklə, dövlətlər arasında ərzaq məhsullarının satışı həyata keçirilir.

Əhalinin həyat səviyyəsi "istehlak səbəti" və "yaşayış minimumu" göstəriciləri ilə təhlili təhlil olunur. <u>İstehlak səbəti</u> (*consumer basket*) bir il (*ay*) ərzində orta hesabla insanın və ya ailənin zəruri ehtiyaclar tələbini ödəyən əmtəə və xidmətlər çeşidini əks etdirir. Belə çeşid istehlak səbətinin mövcud qiymətlər üzrə dəyərindən irəli gələrək yaşayış minimumunun (*minimum istehlak büdcəsi*) hesablanmasında istifadə olunur. İstehlak səbəti, həmçinin, istehlakın real və hesablanan səviyyəsinin müqayisəsi bazası və valyutanın alıcılıq qabiliyyətinin təyin olunmasında əsas kimi də istifadə edilir. Bir qayda olaraq, minimum 2-3 ilə hesablanan istehlak səbəti Fransada - 250, ABŞ-da - 300, Böyük Britaniyada - 350, AFR-də - 475, İtaliyada - 530 ərzaq və xidmətdən ibarətdir.

<u>Yaşayış minimumu və ya minimum istehlak büdcəsi</u> (*subsistence level*) insanın, ailənin həyat fəaliyyətinin (*əsas fizioloji və sosial tələbləri*) saxlanılması üçün minimal zəruri olan rifah və həyat vasitələri çeşididir. İnkişaf etmiş ölkələrdə bir işləyən adam

üçün bu, büdcəyə, həmçinin, 18 $m^2$ olmaqla yaşayış sahəsi, illik 6,7 qida kalorili mərkəzi isitmə sistemi, aylıq 285 litr su, aylıq 10 $m^3$ qaz, aylıq 50 kv/saat elektrik enerjisi və illik - 600 gedişlik ictimai nəqliyyatdan istifadə daxil edilir.

Təsbit edilmiş vaxt ərzində müvafiq əmtəə və xidmətlər qrupunun orta səviyyəsinin nisbi dəyişilməsini İstehlak Qiymətləri İndeksi (*Consumer Price Index, CPI*) xarakterizə edir.

Qlobal ərzaq problemi ilə bağlı bu və ya digər ölkə üzrə tədqiqatlarda aclıq və yarıaclıq kimi göstəricilər də dəyərləndirilir.

Aclıq (*starvation*) orqanizmin, əsas fizioloji funksional tarazlığı - homeostazın saxlanılması üçün zəruri olan maddələrin kifayət etməyən axını ilə müşayiət edilən vəziyyətidir. Mütləq və nisbi, tam, natamam (*kəmiyyətcə qidalanmama*) və qismən (*keyfiyyətcə qidalanmama*) aclıq kateqioriyalarına bölünür. *Mütləq aclıq* orqanizmin həyatının saxlanılması üçün minimal qidanın çatışmazlığı və ya tamam olmaması ilə xarakterikdir. *Nisbi aclıq* gizli səciyyəvi mahiyyət daşıyan, xroniki olaraq keyfiyyətsiz və ya orqanizmin aktiv fəaliyyətini saxlamaq üçün zəruri vitaminləri çatışmayan ərzaq məhsulları ilə qidalanması nəticəsində təzahür edir. Qlobal miqyasda aclıq yemək rasionunda həyat üçün zəruri olan komponentlər çatışmamazlığında təyinat tapan sosial hadisə və problem kimi xarakterizə edilir. Aclıq sosial fəlakət təzahürlü kütləvi hal kimi ərazidə əhalinin qırılmasına səbəb olur. Zəruri qida qəbulundan 7 dəqiqə sonra aclıq vəziyyəti dəf edilir. İnsanlar öz əmək qabiliyyətlərini sabit saxlamaq üçün, elmi əsaslandırmalara görə, gün ərzində azı 2600 kilokalori (*1 qram suyu 1 dərəcə Selsi qızdırmaq üçün tələb olunan istilik enerjisi*) enerji ekvivalentində ərzaq qəbul etməlidir. FAO və DST-nin məlumatlarına görə, bir insanın qidalanma norması 2400-2500 kilokalori olmalıdır. Hesablamalara görə, aclıq 1800 kilokalori enişində baş verir. "Kritik aclıq vəziyyəti" 1000 kilokalori aşırımında təzahür edir. BMT-nin müvafiq 2015-ci il hesabatında Yer üzündə 795 milyon insanın aclıqdan əziyyət çəkdiyi bildirilir. Bu, planetdəki hər 9-cu şəxsin lazımı şəkildə qida tapa bilməməsi deməkdir. Hesabata əsasən, 1990-1992-ci illə müqayisədə aclıqdan əziyyət çəkənlərin sayı 216 milyon nəfər azalıb. Qeyd olunmalıdır ki, dünyada aclıq çəkənlərin əksəriyyəti (*65%*) inkişaf etməkdə olan ölkələrdə, o cümlədən Hindistan, ÇXR, Konqo, Banqladeş, İndoneziya, Pakistan və Efiyopiyada yaşayır. Bunun nəticəsidir ki, belə ölkələrdə son 10 il ərzində aclıqla bağlı 60-dan çox üsyan baş vermişdir.

Yarıaclıq (*malnutrition*) orqanizmin doyunca yeməmə və ya adekvat olmayan qidalanma ilə müşayiət olunan (*natamam - kəmiyyətcə qidalanmama və ya qismən - keyfiyyətcə qidalanmama*) vəziyyətidir. Yarıaclıq qidada vitamin A, yod, dəmir kimi mikroelementlər çatışmazlığından baş verir. Dünyanın böyük əhali təbəqəsi üçün adi vəziyyət hesab olunur. Qida zülalı *(zülallar maddələr mübadiləsini idarə edən fermentlərdir)* çatışmazlığını dünyada 3 milyarda yaxın insan hiss edir.

Cədvəl 13-də ayrı-ayrı dünya ölkələrində yarıaclıq göstəriciləri əks olunmuşdur.

| Ölkələr | Yarıaclıq keçirənlərin sayı (*milyon nəfər*) |
|---|---|
| ***Hindistan*** | 198 |
| ***ÇXR*** | 150 |
| ***Banqladeş*** | 43,1 |
| ***Konqo*** | 37 |
| ***Pakistan*** | 35,2 |
| ***Efiopiya*** | 31,5 |
| ***Tanzaniya*** | 16,1 |
| ***Filippin*** | 15,2 |
| ***Keniya*** | 9,7 |
| ***Sudan*** | 8,8 |
| ***KXDR*** | 7,9 |
| ***Kolumbiya*** | 5,9 |
| ***Anqola*** | 5 |

**Cədvəl 13. Ayrı-ayrı dünya ölkələrində yarıaclıq keçirənlərin sayı**

İnsanların zəruri aktiv həyat tərzi keçirmək üçün hər an kifayət edəcək həcmdə təhlükəli olmayan qida məhsullarına fiziki və iqtisadi giriş imkanlarına malik olduqları situasiya ərzaq təhlükəsizliyi (*food security*) ilə xarakterizə olunur. Ərzaq təhlükəsizliyi hər bir dövlətin aqrar və iqtisadi siyasətinin əsas məqsədlərindən birini təşkil edir. O, istənilən milli ərzaq təminatı sistemini ideal vəziyyətə gətirilməsini formalaşdırır. Ərzaq təhlükəsizliyi dünya, region, milli, yerli və ev təsərrüfatları səviyyəsində təyin edilir. Ərzaq təhlükəsizliyi təminatının əsas göstəricisi kimi dünya taxıl ehtiyatlarının keçicilik həcmi və adambaşına düşən taxıl istehsalı təşkil edir. Keçici taxıl ehtiyatlarının səviyyəsi bütün il ərzində istehlakın 17%-nə (*60 günlük istehlak*) bərabərdirsə, ərzaq təhlükəsizliyi dayanıqlı hesab olunur. Ərzaq təhlükəsizliyi təminatının adambaşına düşən taxıl istehsalı gəstəricisi dünya üzrə 327 kq təşlik edir. Bu göstərici inkişaf etmiş ölkələrdə 635, inkişaf etməkdə olan ölkələrdə isə 235 kq-yə bərabərdir.

Əhalinin ərzaq təhlükəsizliyi dövlətin aqrar və iqtisadi siyasətinin əsas məqsədlərindən biri kimi çıxış edir. O, istənilən milli ərzaq sisteminin ideal vəziyyətə gətirilməsinin hərəkət vektorunu formalaşdırır. Buna görə də ərzaq təhlükəsizliyinə nailolma fasiləsiz bir proses kimi daim cərəyan edərək, öz növbəsində, ölkədə aparılan ərzaq siyasətinin, o cümlədən aqrar strategiyasının reallaşmasının inkişaf prioritetlərini və icra mexanizmlərini dəyişikliklərə uğradır.

Əhalinin ərzaq təhlükəsizliyi, ilk növbədə, makroiqtisadi situasiya, ictimai istehsalın və əhali gəlirlərinin səmərəliliyi ilə dəyərləndirilir. Onun vəziyyəti bir sıra göstəricilərlə

xarakterizə edilir. Əgər əvvələr ərzaq təhlükəsizliyinin başlıca göstəriciləri kimi əhalinin adambaşına düşən orta gəlirləri, ərzaq taxılının keçici qalıqları, ərzaq resurslarında idxalın payı olmuşdursa, müasir zamanda bu meyarlar genişlənərək daha mürəkkəb xarakter almışdır. Buraya aşağıdakılar daxil edilir:

- ❖ ayrı-ayrı əhali qruplarının ümumi xərclərində ərzaq xərclərinin payının xüsusi çəkisi;
- ❖ ərzaqlara ərazi girişi imkanlılığı (*ölkənin müxtəlif regionlarında eyni əmtəələrin pərakəndə qiymət səviyyəsinin müqayisə edilməsi yolu ilə ölçülür*);
- ❖ ərzaq rahatlığı səviyyəsi (*ev təsərrüfatında itkiləri azaldan və iş vaxtına qənaət edən müasir ərzaq növlərinin istehlak payı*);
- ❖ məhsulun təbiiliyi və keyfiyyətliliyi səviyyəsi
- ❖ məhsulun keyfiyyətinin sağlamlığa və həyat sürəkliliyi vəziyyətinə təsiri (*həmçinin, 1995-ci ildən kütləvi kommersiya mənimsənilməsi başlamış mühəndis genetikası və biotexnoloji metodların köməyi ilə alınan məhsullar*);

Əhalinin ərzaq təhlükəsizliyinin müasir zamanda əsas meyarı həm də ümumi əsas ərzaq məhsulları həcminin 75-80%-nin milli əmtəə istehsalçıları tərəfindən yaradılması və əhalinin istehlak etdiyi bioloji mükəmməl məhsulun tövisiyə edilən kaloriliyinin sutkada 3300 Kkal-dan aşağı olması ilə xarakterikdir.

Əhalinin ərzaq təhlükəsizliyinin vəziyyəti ümumiləşdirilmiş qiymətləndirmədə aşağıdakı kimi təyin edilir:

- ❖ ərzaqlara yetişmənin fiziki imkanlılığı (*ölkənin bütün ərazisində zamanın hər anında və zəruri çeşiddə qida məhsullarının mövcudluğu*);
- ❖ ərzaqlara yetişmənin iqtisadi imkanlılığı (*qida məhsullarının son həddə minimal ölçüdə istehlakına imkan yaradan sosial statusundan və vətəndaşın yaşayış məkanından asılı olmadan gəlirlər səviyyəsi*);
- ❖ istehlak üçün ərzaq təhlükəsizliyi (*əhalinin sağlamlığına zərər vura biləcək keyfiyyətsiz qida məhsullarının istehsalı, reallaşması və istehlakının aradan qaldırılması*);

Ərzaq təhlükəsizliyi cəmiyyət həyatının bütün sahələrində əks olunaraq çox ölkələr üçün daha böyük ölçülü təhlükə kimi sürəkli qalmaqdadır. Məhz buna görə də əhalinin ərzaq təhlükəsizliyi problemi dünya birliyi tərəfindən daha yüksək səviyyədə diqqətdə saxlanılır, problem qobal və regional təsisatlarda daimi müzakirə predmetinə çevrilir. Dünya ərzaq təhlükəsizliyi konsepsiyası ilk dəfə 1973-cü ildə FAO tərəfindən irəli sürülmüşdür. Qlobal ərzaq təhlükəsizliyi (*global food security*) bütün dünya ölkələri üçün ərzaq malları bazarında qida məhsullarına çıxış stabilliyinin saxlanılması şərtliyini ehtiva edir. "Dünya ərzaq təhlükəsizliyinin Roma bəyyanaməsində" (*Roma 13 noyabr 1996-ci il*) hər bir insanın ərzaq təhlükəsizliyi hüququ hər bir dövlətin öhdəlikləri sırasına daxil edilmişdir. Dünya ölkələri üzrə ərzaq təhlükəsizliyi təminatı müvafiq "Ərzaq Təhlükəsizliyi İndeksi" üzrə hesablanır.

Ərzaq Təhlükəsizliyi İndeksi (*The Global Food Security Index*) qlobal tədqiqat

olaraq dünya ölkələrində ərzaq təhlükəsizliyi səviyyəsinin reytinqini müəyyən edir. İndeks Böyük Britaniyanın "Economist" jurnalının analitik bölməsinin "The Economist Intelligence Unit" tədqiqat kompaniyası tərəfindən Amerikanın trasmilli şirkəti "Dupon"nun dəstəyi ilə 2012-ci ildən, hər il olmaqla, həyata keçirilir. Burada ərzaq təhlükəsizliyi sahəsində dövlət siyasətinin və onun müvafiq sferadakı qurumlarının fəaliyyət effektivliyi ölçülür. Tədqiqatlatda dünya ölkələrinin ərzaq təhlükəsizliyi üzrə 3 əsas qrup göstəricisi: 1) Qida məhsullarına giriş imkanlılığı və onların istehlakı səviyyəsi; 2) Qida məhsullarının mövcudluğu və təminatlılığı; 3) Qida məhsullarının keyfiyyət və təhlükəsizliyi səviyyəsi təhlil olunur. Bu qrup göstəricilər özü-özlüyündə 28 alt göstəricini ehtiva edir. Reytinq 100-dən (*maksimal hədd - ərzaq təhlükəsizliyinin yüksək səviyyəsi*) 0-a (*minimal hədd*) kimi ballar üzrə qiymətləndirilir.

Qlobal ərzaq təhlükəsizliyi problemi çoxşaxəli və çoxplanlıdır. O, eyni zamanda təbii və sosial-iqtisadi motivlidir. Qlobal ərzaq təhlükəsizliyi probleminin kəskinləşməsində ərzaq çatışmazılığı dayansa da, onun digər qütbündə demoqrafik təbəddülatlar durur. Dünya əhalisi artır, ərzaq tələbləri də müvafiq olaraq yüksəlir. Bir sıra beynəlxalq ekspertlərin fikrincə, dünya əhalisinin illik 80 milyon artımında belə yaxın 20 il ərzində dünyanın ərzaq tələbi təmin olunacaqdır.

Qlobal ərzaq təhlükəsizliyinin təmin edilməsində müxtəlif yollar mövcuddur. Bunlar içərisində isə daha çox ekstensiv və intensiv üsullar önə çəkilir. Ekstensiv yol yeni kənd təsərrüfatı və balıq mədən komplekslərinin mənimsənilməsini ehtiva edir. Bunun üçün müvafiq texniki xərclər və rasional proqram işləmələri tələb olunur. İntensiv yol isə aqrotexniki mədəniyyətin inkişafı, yüksək məhsul verən bitki növlərinin, böyük məhsul verimli ev heyvanları və quş cinslərinin dövriyyəyə çıxarılması, mexanikləşmə, kimyalaşma, meliorasiya və s. kimi məhsuldarlıq artımı elementlərini birləşdirir. Hər iki üsul dünya ərzaq probleminin həllində və qlobal ərzaq təhlükəsizliyinin davamlı təmin edilməsi üçün olduqca zəruri hesab oluna bilər. Əslində, qlobal ərzaq təhlükəsizliyinin təmin edilməsində, hələ ki, bu üsullardan daha yaxşısı tapılmamışdır. Lakin bununla belə, hər iki istiqamətdə tədbirlərin həyata keçirilməsində problemlər mövcuddur. Ekstensiv strategiyada ərazi və torpaq problemi qarşıda durursa, intensiv istiqamətdə genetika və seleksiya, habelə aqrotexniki nailiyyətlər dayanır. Bu gün genetik modifikasiya olunmuş (*GMO*) ərzaq məhsullarından istifadə genişlənir. İlk dəfə transgen bitki ABŞ-ın "Monsanto" firmasında hazırlanmış və 1988-ci ildə transgen taxıl bitkisinin əkini həyata keçirilmişdir. 1993-cü ildən isə gen modifikasiyalı komponentləri olan ilk məhsullar bazara çıxarılmışdır. Bütün bunlar nəzərə alınaraq transgen məhsulların insana mənfi təsiri və onların iqtisadi səmərəliliyinin şübhəli olması barədə hələ 2000-ci ildə "Alimlərin dünya bəyanatı" və 84 ölkənin 828 mütəxəssisinin imzası ilə bütün ölkələrin hökumətlərinə "Alimlərin açıq məktubu" çap olunmuşdu. 2008-ci ildə isə 400 alimin, hökumətlərin, vətəndaş cəmiyyətlərinin və xüsusi sektorun nümayəndələrinin üçillik işinin nəticəsi barədə BMT-yə təqdim etdikləri hesabatda göstərilmişdir ki, GMO dünyanı aclıqdan və kənd təsərrüfatını böhrandan qurtarmağa kömək edə bilmir.

İnkişaf etmiş ölkələr öz təcrübələrinə istinadən yaxşı bilirlər ki, bir çox spesifik şərtləri ilə kənd təsərrüfatı iqtisadiyyatın digər sektorları ilə müqayisədə rəqabətqabiliyyətli deyildir. Elə buna görə də sahəyə dövlət dəstəyini daim artırırlar. Statistika göstərir ki, Avropada fermerlərə dəstək xərcləri istehsal məhsulunun maya dəyərinin 40%-ni təşkil edir. Konkret olaraq, aqrar sektora dövlət subsidiyalarının xüsusi çəkisi ABŞ-da 30%, Kanadada 45%, Yaponiyada 66%, İsveçdə 59%, Finlandiyada 71%, Norveçdə isə 77% təşkil edir. Qeyd olunmalıdır ki, bu ölkələrdə aqrar sektor yalnız subsidiyalarla deyil, həm də əhatəli institusional alət və mexanizmlərlə də dəstəklənir. Misal olaraq göstərmək olar ki, bu məqsədlə ABŞ-da kompensasiya ödənişləri və xarici ticarət astanaları sistemi yaradılmış, bu da, öz növbəsində, idxalı xeyli məhdudlaşdırmış, ixracı isə müvafiq olaraq stimullaşdırmışdır. Əhalinin ərzaq təhlükəsizliyinin təminatında Yaxın Şərqin böyük neft ixracatçısı ölkələri xüsusi strateji planlarla çıxış edirlər. Səudiyyə Ərəbistanı səhra şəraitinə baxmayaraq, özünü taxılla tam təmin edir və hətta müəyyən qədər də bu məhsul üzrə ixrac prosesini həyata keçirir. İndi Küveyt, BƏƏ müxtəlif növ meyvə-tərəvəz, gül ixracatında da üstünlüklərə nail olmuşlar. Bundan başqa, bir sıra dövlətlər ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi və təminatı məqsədi ilə ərzaq təhlükəsizliyi doktrinaları qəbul etmişlər. Rusiyada isə dövlət iqtisadi təhlükəsizlik strategiyası əsasında belə bir doktrina 2016-cı ilin yanvarında qəbul olunmuşdur. Bu doktrina ərzaq təhlükəsizliyinin təminatı sferasında, həmçinin, aqrar-sənaye və balıqçılıq təsərrüfatı komplekslərinin inkişafı istiqamətində müvafiq normativ-hüquqi aktların işlənməsi üçün baza rolunda çıxış edir. Sənəddə göstərilir ki, ölkənin ərzaq təhlükəsizliyi dövlətçilik və suverenliyin saxlanılması, demoqrafik siyasətin mühüm seqmenti, həyat təminatlığı sistemi, sağlamlığın qorunmasının zəruri şərti, fiziki aktivlik, uzunömürlülük və ölkə əhalisinin yüksək həyat keyfiyyətliliyi olan mühüm elemetlərini özündə birləşdirərək milli təhlükəsizliyin tərkib hissəsi kimi təyinat alır. Onun strateji məqsədini ölkə əhalisinin təhlükəsiz və keyfiyyətli kənd təsərrüfatı və balıq məhsulları, xammal və ərzaqla etibarlı təminatı təşkil edir. Doktrina həmçinin, bu məqsəddən irəli gələrək, müvafiq vəzifələri qarşıya qoyur və onların reallaşma mexanizmlərini təyin edir. Göründüyü kimi, müasir məqamında ərzaq təhlükəsizliyi dövlət və milli yaşamın və inkişafının əsasında dayanır.

Ərzaq məsələsinin işlənib hazırlanmasında beynəlxalq təşkilatların böyük rolu vardır. Bu sırada ən böyük beynəlxalq təşkilat BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, FAO (*Food and Agricultural Organization of the United Nations*) hesab edilir. FAO 1945-ci il 16 oktyabrda Kanadanın Kvebek şəhərində təsis olunmuşdur. Mənzil-qərargahı İtaliyanın paytaxtı Roma şəhərində yerləşir və onu 174 ölkə ilə Aİ təmsil edir. Təşkilatın ali orqanı iki ildən bir çağırılan konfransdır. FAO-nun devizi - "Aclıq olmadan dünya qurmağa kömək et"dir. Bu təşkilatın əsas funksiyaları aclığın ləğvi, qidalanmanın və həyat keyfiyyətinin yaxşılaşdırılması, ərzaq, kənd təsərrüfatı, meşəçilik və balıqçılıq məhsullarının istehsalı, emalı və bölgüsünün yaxşılaşdırılması və kənd təsərrüfatı rayonlarının inkişafına və kənd əhalisinin həyat şəraitinin yaxşılaş-

dırılmasına köməklik göstərilməsi ilə bağlıdır. Təşkilatın 5 ərazi (*Afrika, Asiya və Sakit okeanı, Avropa, Latın Amerikası: Karib hövzəsi və Yaxın Şərq*) şöbəsi vardır. Qeyd olunmalıdır ki, FAO-dan öncə bu istiqamətdə əsas təşkilat kimi 1974-cü ildə yaradılmış Ümumdünya Ərzaq Şurası fəaliyyət göstərmişdir. Təşkilatın 1996-ci ildə fəaliyyəti dayandırılmış və funksiyalırı FAO-ya keçirilmişdir.

Dünya ərzaq probleminin həllində BMT-nin ixtisaslaşmış təşkilatı kimi 1977-ci ildən fəaliyyətə başlamış Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fond (*International Fund for Agricultural Development, IFAD*) inkişaf etməkdə olan ölkələrin ərzaq vəziyyətinin yaxşılaşdırılmasına köməklik göstərməkdə mühüm əhəmiyyət daşıyır. Fondun ali məqsədi inkişaf etməkdə olan ölkələrdə kənd yoxsulluğunun ləğvidir. Mənzil-qərargahı İtaliyanın paytaxtı Roma şəhərində yerləşir.

Dünya Səhiyyə Təşkilatı, DST (*World Health Organization, WHO*) dünya əhalisinin sağlamlığı ilə əlaqədar problemlərin həllinə çalışan, səhiyyə təşkilatlarının beynəlxalq əlaqələrini təmin edən 1948-ci ildə BMT-nin İqtisadi sosial şurasının təşəbbüsü ilə yaradılmış ixtisaslaşmış qurumu. DST-də hazırda 194 dövlət təmsil olunmuşdur. Nizamnaməsinə görə, təşkilatın məqsədi bütün xalqların ən yüksək sağlamlıq səviyyəsinə nail olmaqdır (*sağlamlıq dedikdə tam fiziki, mənəvi və sosial rifahın məcmusu başa düşülür*). DST-nin məşğul olduğu bir sıra problemlər içərisində səhiyyə xidmətinin inkişafı, xəstəliyin profilaktikası və onunla mübarizə, səhiyyə üzrə geniş kadr ehtiyatının yaradılması, ətraf mühitin sağlamlaşdırılması mühüm yer tutur.

FAO və DST ərzaq mallarına vahid beynəlxalq standartların yaradılması üzrə birgə proqramın həyata keçirirlər. Bu məqsədlə 1963-cü ildə Kodeks Alimentarius (*latınca* - Codex Alimentarius - *Qida Kodeksi*) adlanan beynəlxalq kommissiya təşkil edilmişdir. Komissiya işində FAO komitələri tərəfindən qəbul edilmiş tövsiyələrə əsaslanır və onun əsas vəzifəsi standartların layihələrinin hazırlanması üzrə işləri koordinasiya etməkdir.

Ərzaq köməkliyi problemində əlahiddə ölkə kimi ABŞ böyük rol oynayır. 1960-cı illərin ortalarında cəmi ərzaq köməkliyinin 96%-i ABŞ-ın payına düşürdü. 1990-cı illərin əvvəllərində isə ABŞ-ın payı 40%-ə enmişdir. 1960-cı illərdə ABŞ tərəfindən daha çox köməklik Tunis, Filippin, Cənubi Vyetnam, Hindistan, Pakistan və Koreya Respublikasına göstərilmişdir. 1970-ci illərdə isə Misir və Çinə daha çox yardım verilmişdir. 1980-ci illərdə isə ərzaq köməkliyi məsələsində Qərbi Avropa dövlətlərinin rolu artmışdır.

FAO-nun rəyincə, yaxın yüz ildə dünyanın ərzaq təminatının 4 amil təhlükələndirə bilər:

❖ iqlim şəraitinin pisləşməsi;
❖ su və qazıntı məhsullu enerji resurlarının tükənməsi;
❖ torpaqların eroziyası;
❖ iqtisadi liberializm.

FAO-nun hesablamalarına görə əhalini ərzaq məhsulları ilə təmin etmək üçün 2025-

ci il istehsalın həcmi 2 dəfə artırılmalıdır. Bu isə o qədər də real deyildir. Müəyyən iqtisadi hesablamalar görə, 2030-cu ilədək ərzaq məhsulları istehsalı, zəif də olsa, artan istiqamətdə dəyişəcəkdir. Lakin hazırkı qida normaları və əhalinin artımı müqabilində dünya bazarında 500 milyon ton taxıl, 40 milyon ton ət, 70 milyon ton balıq və balıq məhsulları və bir sıra digər məhsullar çatışmayacaqdır.

### 10.10. İnkişaf etməkdə olan ölkələrin sosial-iqtisadi gerilik problemi

İnkişaf etməkdə olan ölkələrin sosial-iqtisadi gerilik problemi onların xarakterik cəhtlərindən irəli gəlir. İqtisadi inkişafın mütləq və nisbi aşağı göstəriciliyi, çoxukladlı xarakterliyi, texniki və texnoloji gerilik, ixrac potensialı xammal təyinatlılığı, kiçik əmtəəlikdən inhisarçılığa qədər istehsal təyinatlılığı, ekoloji mühitin aşağı səviyyəliyi, dünya təsərrüfatından asılılıq kimi xüsusiyyətlər inkişaf etməkdə olan ölkələrin sosial-iqtisadi gerilik problemini qabardır. Patriarxal mentalitet və korrupsiya şəbəkəsi, yüksək işsizlik, aşağı səviyyəli təhsil, yoxsulluq kimi cəhətlərin də bu sistemdə yetərli olması həmin ölkələri dayanıqlı inkişafdan geri salır. İnkişaf etməkdə olan ölkələrə müəyyən qədər köhnə düşüncəlilik xasdır və bu sistemdə bazar münasibətləri quruculuğu əksərən imitasiya xarakterlidir.

Uzun illərin statistikası göstərir ki, inkişaf etməkdə olan ölkələrdə, adətən, emal sənayesinin ÜDM-də payı 10%-i aşmır. Əsasən, resurs üzrə ixtisaslaşan bu ölkələrdə sənaye və bütövlükdə iqtisadiyyat qeyri-mütərəqqi quruluşludur və onların modernləşməyə hazırlığı məhdudur.

Buradakı iqtisadi geriliyi uzun müddət müstəmləkə və yarımmüstəmləkə sistemində yaşama (*əksər ölkələr 1960-cı illərdən başlayaraq müstəqillik əldə etmişlər*) tarixi amili də mürəkkəbləşdirir. İcmaların əqrabalıq sistemində qurulması, vətəndaş cəmiyyəti institutlarının olmaması kimi mental amillər, zəif sosial infrastruktur, demoqrafik partlayışın neqativ təzahürləri, məhdud həyat keyfiyyəti göstəriciliyi inkişaf etməkdə olan ölkələrin sosial-iqtisadi gerilik problemini daha da dərinləşdirir.

İnkişaf etməkdə olan ölkələrdə mövcud qlobal mənzərə nəzər yetirdikdə görərik ki, buradakı 5 milyard əhalidən:

- ❖ 1 milyarddan çox insan sağlam və fəal həyat tərzi sürmək üçün kifayət qədər ərzaq əldə edə bilmir;
- ❖ 1 milyarda yaxın əhali savadsızdır;
- ❖ 1 milyarddan çoxu təmiz içməli sudan, təxminən 2,5 milyard nəfəri isə əsas kanalizasiya qurğularından istifadə edə bilmir;
- ❖ hər il beş yaşınadək 11 milyon uşaq qarşısı alına bilən xəstəliklərdən tələf olur;
- ❖ 400 milyon uşaq məktəbə getmir.

Yaşadığımız müasir dünyanı varlı hesab etmək olar. İndi qlobal bəşəri gəlir 31 trilyon ABŞ dollarını aşmışdır. Gəlirlilik və yoxsulluq bölgüsündə bu reallığa nəzər

yetirdikdə görərik ki, dünyanın bir qütbündə orta statistik insan ildə 40 min ABŞ dolları qazanır, digər qütbündə isə 2,8 milyard insan il ərzində 700 ABŞ dollarından az gəlir əldə edir. Bunun nəticəsidir ki, inkişaf etməkdə olan ölkələrdə hər gün 40 mindən çox uşaq, hər dəqiqə doğum vaxtı bir qadın tələf olur. Yoxsulluq 400 milyon uşağın, əsasən, də qızların məktəbə getməsini məhdudlaşdırır. Orta hesabla 38 milyon insan HIV/AIDS-lə yaşayır. Bununla belə, bu ölkələrdə kontraseptiv vasitələrdən istifadə etmək niyyətində olan təxminən 120 milyon insan həmin vasitələri əldə etmək imkanına malik deyil.

Sosial-iqtisadi geriliyin aradan qaldırılması istiqamətində müxtəlif yollar aranır, konsepsiyalar işlənilir. Burada kompleks yanaşmada daha münasib istiqamət kimi ölkənin daxili resurs potensialına istinad edən səmərəli milli inkişaf strategiyalarının formalaşdırılması götürülür. Əlbəttə, strategiya formalaşdırmaq və onu təsbit edilən uğura çatdırmaq miqyaslı işdir. Bununla belə, oncə bir sıra müqəddəm resurslara malik olmaq və inteklektual potensialı inkişaf etdirmək gərəklidir. Bu strategiyada təsərrüfat həyatının liberallaşması və aqrar münasibətlərin effektli yenidən qurulması, davamlı təhsil islahatlarının aparılması, səhiyyə sisteminin yaxşılaşdırılması, bərabərsizliyin yumşaldılıması, səmərəli demoqrafik siyasətin formalaşdırılması, məşğulluq problem-inin həllinin stimullaşdırılması əsaslı sosial-iqtisadi siyasətin reallaşdırılması mühüm yer tutmalıdır.

## 10.11. Yoxsulluq və gender problemi

Sosial tərəqqi problemi ümumbəşəridir. Buna görə də sosial qayğını hədəf tutan məsələlər bir sıra nüfuzlu beynəlxalq təşkilatların, başlıca olaraq isə, BMT-nin fəaliyyət missiyasında əks olunur. Belə meyil daha çox özünü yoxsulluq probleminin ləğvində təzahür etdirir.

Yoxsulluq (*poverty*) fərdin və ya sosial qrupun təyin olunmuş minimal istehlak tələbləri çərçivəsində həyatının, əmək qabiliyyətinin saxlanılması və nəslinin davam etdirilməsinin iqtisadi vəziyyətidir. Yoxsulluq nisbi anlayışdır və müvafiq cəmiyyət içərisində ümumi həyat səviyyəsi standartından asılıdır.

İnkişaf etmiş ölkələrdə də xeyli insanın yoxsulluq içərisində yaşamasına baxma-yaraq kəskin yoxsulluq səviyyəli kontur əksərən inkişaf etməkdə olan ölkələrin payına düşür. Yoxsulluqla bağlı BMT-nin dərc etdirdiyi materillarda qeyd olunur ki, Yer üzərində 1,5 milyard insan gündə 1 dollardan az vəsaitlə dolanır, dünya əhalisinin yarıya qədəri isə dolanmaq üçün gündə 2 dollardan az vəsait sərf edir. Məhdud seçim imkanlarına malik olmaqla bu insanlar aclıq, xəstəliklər, savadsızlıq, işsizlik və ümid-sizlik qarşısında aciz olan həyat sürməyə məhkumdurlar. Çox zaman onlar ərzaq, təmiz içməli su, kanalizasiya, təhsil, səhiyyə və müasir enerji xidmətləri əldə etməyə belə çətinlik çəkirlər. İnkişaf etməkdə olan ölkələrdə yaşayan insanların 20%-ə yaxını nor-mal, sağlam və fəal həyat tərzi sürmək üçün kifayət qədər ərzaq əldə edə bilmir.

Yoxsulluq, işsizlik, iqtisadi və sosial qeyri-stabillik, ümidlərin puç olması, planların pozulması əhalinin marginallaşması prosesini intensivləşdirən amillər cərgəsini təşkil edir. Nəticəvi olaraq bu hal çoxluğu cəmiyyətin sosial pauperlər (*hər cür yaşayış vasitəsindən məhrum edilmiş yoxsul*) qatını qalınlaşdırır, ölçüləri bilinməyən "sosial dib" (*dilənçilər, kimsəsiz və evsiz-eşiksizlər, sahibsiz uşaqlar və asosial həyat tərzi sürənlər*) adlanan təbəqəni formalaşdırır və möhkəmləndirir. Bu insanlar sosial eks-klyuz vəziyyətində, sosial resurslardan və sosiumun dominant dəyərlərindən məhrum olunanlardır. Bununla belə, hər bir qrup əlahiddə olaraq öz spesifik səciyyəsini xarakterizə etdirir.

Orta səviyyəli yoxsulluq ehtiyac adlandırılır. Yoxsulların yüksək konsentrasiyalı, daha çox təmərküzləşdiyi ərazisi yoxsulluq zonası adlanır. Burada yoxsulluq əmsalı orta ölkə göstəricisindən də yüksək olur. Minimal gəlirin rəsmi təsbit olunmuş ölçüsü yoxsulluq astanasını ehtiva edir. Konkret olaraq, yoxsulluq asatanası bir adamın və ya ailənin müəyyən dövr ərzində fiziki yaşayış minimumunu təmin edə biləcək pul gəlirinin normativ səviyyəsinin göstəricisidir.

Yoxsullar arasında qadınların, ələlxüsus da, tək anaların artımı meyili yoxsulluğun feminizasiyası kimi dəyərləndirilir. Fizioloji minimumdan aşağı olan yoxsulluq, kasıblığın son aşağı həddi isə səfalətdir. Yoxsullaşma, səfalətə qədəmqoyma pauper-izasiyaya (*latınca* - pauper - *yoxsul, səfil*) səbəb olur. Vurğulanmalıdır ki, BYİB yox-sulluqla səfalət arasında 1 dollar fərq qoyur. İnsan gün ərzində 1 dollarla yaşayırsa səfil, 2 dollarla yaşayırsa, yoxsul hesab olunur.

Yoxsulluq üç əsas konsepsiya ilə müəyyən edilir:

- ❖ mütləq yoxsulluq;
- ❖ nisbi yoxsulluq;
- ❖ subyektiv yoxsulluq.

Mütləq yoxsulluq (*absolute poverty*) əsas istehlak tələbləri (*istehlak miniumumu*) və onların ödənilməsini təmin edən resurs ölçüləri ilə müəyyənləşir. O, bioloji varlığını qorumaq üçün fərdin yalniz minimal istehlak tələblərinin ödənildiyi ən aşağı yoxsulluq səviyyəsidir.

Nisbi yoxsulluq (*relative poverty*) bir qism insanların digərləri ilə müqayisədə pis olan maddi vəziyyəti. Nisbi yoxsulluq rifah göstəriciləri ilə konkret ölkədəki material təminatlılığı səviyyəsi nisbətində təyin olunur.

Subyektiv yoxsulluq (*subjective poverty*) əhalinin və insanın özü tərəfindən yox-sulluq vəziyyəti və həyat səviyyəsinin qiymətləndirilməsi. Bir qayda olaraq, subyektiv yosxulluğun təyinatı sorğu əsasında həyata keçirilir.

Bu üç konseptual təyinatdan irəli gələrək yoxsulluğun hüdudlarının müəyyən olunması üç praktiki formatı sintez edən metodologiya ilə hesablanır. Mütləq format gəlir və xərclərin yaşayış minimumuna uzlaşmasına, deprivasiyon yoxsulluğun cəmiyyətin istehlak tələblərinə uyğunluğuna və nəhayət, subyektiv format əhalinin pul resursları fonunda özlərinin hesablamalarına əsaslanır.

Bundan başqa, yoxsulluq kateqoriyaları "aktiv yoxsullar", ikiqat yoxsulluq, yeni yoxsullar və s. göstəricilərlədə ifadə olunur. "Aktiv yoxsullar" aşağı maddi imkana malik olaraq, bu vəziyyətdən çıxmaq üçün həyati güclərini səfərbər edənlər, ikiqat yoxsulluq vəsaitlərin qeyri-səmərəli məsrəfi nəticəsində əsas istehlak tələblərini ödəyə bilməyən ailə kateqoriyası və "yeni yoxsullar" özünün sosial, demoqrafik, peşə statusu və demoqrafik vəziyyəti ilə əvvələr heç bir aşağı təbəqəyə aid edilməyənlərdir.

Yeni sosial reallıqlar yoxsulluğu iki - «dayanıqlı» və «üzən» formatda təzahür etdirmişdir. Dayanıqlı yoxsulluq (*persistent povert*) daha radikal təbiətli olaraq, aşağı səviyyəli maddi təminatlıdır. Onun davamlı mövcudluğu sağlamlığın, peşəkarlığın pisləşməsinə və son olaraq fərdi deqredasiyaya aparır. Üzən yoxsulluq (*floating poverty*) şərti isə nisbət aşağı ağrılıdır. Bu onun epizodik təbiətindən irəli gəlir.

Gerçək olan məhdudiyyətlər təxirəsalınmaz qlobal miqyaslı tədbirlərin görülməsini şərtləndirir. Bu situasiyada dövlətlər, başlıca olaraq, donor və ehtiyaclı qruplarda təmsil edilirlər. Burada şərtlilik ondan ibarətdir ki, yaşayış minimumunu təmin edən resurslar maksimal olaraq ehtiyaclılara çatdırılmalıdır. Məlum həqiqət belədir ki, yaşayış minimumu təkcə insanın ləyaqətli həyat sürməsinin göstəricisi kimi deyil, həm də onun fizioloji mövcudluğunu əks etdirən reallıqdır.

Yoxsulluq problemlərinin həlli sivilizasiyanın çağdaş zamanında daha aktual əhəmiyyət kəsb edir. Artıq müvafiq sferanı tədqiq edən ayrıca təlimlər, uyğun indikatorlar sistemi formalaşmışdır. Bu sırada insanın bioloji və sosial tələbləri kontekstində minimal hüdudları müəyyən edən "yaşayış minimumu", "aztəminatlılıq səviyyəsi" kimi yoxsulluğu "işıqlandıran" kateqoriyalar geniş tətbiqini tapmışdır. Bu göstəricilər sisteminin təşəkkül məqamları XX əsrin əvvələrinə yönəlsə də, Sovet İttifaqında yalnız XX yüzilliyin 60-ci illərində dövriyyəyə çıxarılmışdır. Nəhayət ki, totalitar cəmiyyətdə bu sosial göstəricilərin mühümlüyü də anlaşılmışdır. 1965-ci ildə ilk dəfə yaşayış minimumu 40 rubl, minimum əmək haqqı isə 60 rubl həcmində müəyyən olunmuşdur.

Yoxsulluq səviyyəsi gəlirlərdən asılı olaraq dəyişir. Bu baxımdan da yoxsulluq səviyyəsi ilə gəlirlər arasında daimi uzlaşma rabitəsi yaşanır. Ölkələrdə yoxsulluq səviyyəsini təyin edən bir sıra əmsal göstəricilərdən istifadə olunur. Daha geniş yayılmış əmsal göstərici kimi yoxsulluq astanasının orta ölçülü dinamikasını xarakterizə edən statistik göstərici - Yoxsulluq İndeksindən (*Poverty Index*) istifadə olunur. Yoxsulluq İndeksi insanın həyat fəaliyyətinin saxlanılması üçün zəruri olan minimal rifah və həyat vasitələri çeşidi olan yaşayış minimumu, minimal gəlirin rəsmi təsbit olunmuş ölçüsü - yoxsulluq astanasını və ayrıca fərdin, ailənin yaşayış minimumunu təmin edən müvafiq zaman ərzində pul gəlirləri səviyyəsinin təyin olunmuş normativini ehtiva edir.

Yoxsulluğun ləğvi problemləri lokal çərçivələri aşaraq qlobal - ümumbəşəri səciyyə almışdır. İqtisadi inkişaf tapmış ölkələrdə yaxşı dərk olunur ki, əgər inkişaf etməkdə

olan dövlətlərdə yoxsulluq problemləri həlini tapmazsa, onların özlərinin pis aqibətə düçar olmaları reallığa çevriləcəkdir. Aclıq və səfalət milyon-milyon kütlənin nizamsız miqrasiyasına rəvac verəcək, əldə olunmuş sosial tarazlıq pozulacaqdır. Buna görə də müvafiq istiqamətdə təxirəsalınmaz tədbirlərə əl atılır, yoxsulluqla mübarizə ümumplanetar xarakter alır.

Bəşəri çətinliklərin məhdudlaşması istiqamətində əsrlərin və minilliklərin qovşağının ifadəsi olan 2000-ci ilin sentyabrında keçirilmiş Minillik Sammiti (*Millenium Summit*) yoxsulluq probleminin həllində daha qətiyyətli qərarları ilə fərqlənmişdir. Dünyanın 191 dövlətini təmsil edən 147 dövlət və hökumət başçısının iştirak etdiyi sammitdə yoxsulluğun ləğvi sahəsində konkret hədəfləri müəyyənləşdirən Minillik Bəyannaməsi qəbul olunmuşdur. Bu dövlətlər 2015-ci ilədək öz üzərlərinə aşağıdakı öhdəlikləri götürmüşlər:

❒ gündə bir dollardan az vəsait hesabına dolanan əhalinin payını yarıbayarı azaltmaq;
❒ aclıqdan əziyyət çəkən əhalinin payını yarıbayarı azaltmaq;
❒ təmiz və münasib içməli su əldə edə bilməyən əhalinin payını yarıbayarı azaltmaq;
❒ bütün oğlan və qızların icbari təhsili başa vurmasını təmin etmək;
❒ təhsil xidmətlərinin əldə olunmasında cinslərin bərabərliyini təmin etmək;
❒ ana ölümü əmsalını dörddə üç dəfə azaltmaq;
❒ beş yaşadək uşaqlar arasında ölüm səviyyəsini üçdə iki dəfə azaltmaq;
❒ HIV/AIDS, malyariya və digər təhlükəli xəstəliklərin qarşısını almaq və yayılma səviyyəsini aşağı salmaq;
❒ 2020-ci ilədək gecəqondularda yaşayan ən azı 100 milyon insanın həyat şəraitinin əhəmiyyətli dərəcədə yaxşılaşmasına nail olmaq.

Yoxsulluq və sosial çətinliklərlə bağlı problemlərin kəskinliyinə baxmayaraq BMT hesabatlarında irəliləyiş amillərinin mövcudluğu da diqqəti cəlb edir. Belə ki, artıq bütün dünya üzrə orta ömür uzunluğu artmış, körpə ölümü səviyyəsi hər min diri doğuşa 100 haldan 50 hala düşmüşdür. Pis qidalananların sayı təxminən 1 miyarddan 900 milyona enmiş, yaşlı əhalinin savadlılıq səviyyəsi də 60%-dən təxminən 80%-dək artmışdır. İnkişaf etməkdə olan ölkələrdə kontraseptiv vasitələrdən istifadə səviyyəsi isə təxminən 50%-ə çatmışdır. Ticarət və investisiyalar, həmçinin, maliyyə, idarəetmə, infrastruktur və hüquq sistemləri sahələrində islahatlar vasitəsilə dünya iqtisadiyyatına uğurla inteqrasiya olunmuş ölkələrdə 1990-ci illər ərzində adambaşına düşən gəlirin artımı ildə 5% təşkil etmişdir. Şərqi Asiyada yoxsulluq əmsalı 1990-cı ildə mövcud 28%-dən 2014-cü ildə 15%-ə enmişdir. Bununla belə, səhradan cənuba doğru yerləşən Afrika ölkələrində yoxsulluq əmsalı 48% təşkil edərək son 10 il ərzində dəyişməz qalmaqdadır.

ÇXR, Hindistan, Uqanda və Vyetnam kimi ölkələr qlobal yoxsulluq səviyyəsinin azaldılmasında aparıcı rol oynamışlar. XX əsrin sonlarında ÇXR kəskin yoxsulluq içərisində yaşayan əhalinin sayını 360 milyondan 210 milyonadək azaltmağa müvəffəq

olmuşdur. Uqandada yoxsulluq 40%, Vyetnamda isə yarıbayarı azalmışdır. İnkişaf etməkdə olan ölkələrin çoxu həm oğlanlar, həm də qızlar üçün ümumi ibtidai təhsili təmin etmiş və ya bunu reallaşdırmaq ərəfəsindədirlər.

Görülən tədbirlərin nəzərəçarpacaq səmərəsinə baxmayaraq daha miqyaslı işlərin yerinə yetirilməsi gündəmdə durur. Bu çox xalqların zərb məsəlində olduğu kimi, "fəqir qonşuya gündəlik azuqə verməkdənsə, onu bu azuqələri kifayət miqdarda sərbəst qazanmaq imkanları verən vasitələrlə təmin etmək daha səmərəlidir". Bu təfəkkürdən çıxış edərək böyük dövlətlər sosial ehtiyacların təmin edilməsində bölüşdürücü və təminatçı funksiyaları ilə yanaşı həmin dövlətlərdə mütərəqqi konseptual siyasətə əsaslanan təkmil sosial infrastruktur yaratmalıdırlar. Bu yaranışın əsas qayəsini isə avtonom fəaliyyət və siyasət təşkil etməlidir.

Tarixi təcrübə sübut edir ki, yoxsulluqla mübarizə, xüsusilə, gəlirlərin bölgüsündə müxtəlif sosial qrupların rolunun dəyişilməsinə iqtisadi münasibətlər sisteminin inkişafı kontekstindən kənarda baxıla bilməz. Əhalinin sosial müdafiəsi məsələləri dövlətin iqtisadi siyasətinin əsasını təşkil edir. Buna görə də müvafiq sahədə ardıcıl səmərəli iş aparılmışdır.

İnkişaf etməkdə olan ölkələrin sosial-iqtisadi gerilik problemi gender münasibətlərində də əksini tapır. Gender (*ingiliscə* - gender - *mənşə, cins*) sosial-mədəni aspektdə insanın cəmiyyətdə davranışını müəyyən edən anlayışdır. Bu davranış dostlara, həmkarlara, valideynlərə və s. münasibətlə müəyyən olunur.

Son on ildə gender bərabərliyində nailiyyətlərə doğru böyük irəliləyişlər baş versə də, gender ayrı-seçkiliyi, əvvəllər olduğu kimi, yenə də bütün dünyada bir çox sahələri əhatə edir. Ayrı-seçkiliyin xüsusiyyətləri və yayılması ölkədən-ölkəyə və regiondan-regiona keçdiyi halda nəzərəçarpacaq dərəcədə özünü biruzə verir. Resurslara çıxış və onların idarə edilməsi, iqtisadi imkanlar, hakimiyyət və maraqların təqdim edilməsi sahəsində gender ayrılıqları geniş yayılmışdır. Bu səbəbdən də gender bərabərliyinə nail olunması hər bir ölkənin inkişafının mərkəzi göstəricisinə çevrilir.

Müasir cəmiyyət qloballaşma prosesinin və onunla əlaqədar siyasi və sosial-iqtisadi nəticələrin inkişafı ilə bağlı gender bərabərsizliyi probleminə diqqəti gücləndirir. BMT bu problemi qlobal problemlər sırasına salır və dövlətlərə qeyri-bərabər dəyərlər və ikili standartları qoruyub saxlayan mövcud gender modellərini dəyişməyi tövsiyə edir. Hazırda hətta kişilərlə qadınlar arasında üç ölçüdə: reproduktiv sağlamlıqda, hüquq və imkanların genişlənməsində, həmçinin, əmək bazarında nailiyyətlər əldə etməyin mümkünlüyündə mövcud bərabərsizliyi əks etdirən inteqral göstərici də vardır. Gender Bərabərsizliyi İndeksi (*The Gender Inequality Index*) adlanan bu göstərici Cenevrədə 2010-cu ildə Ümumdünya İqtisadi Forumunun Katibliyi tərəfindən təqdim edilmiş və BMT-nin insanın inkişafı haqqında məruzələrində istifadə olunur.

Qloballaşma prosesi planetar, dövlətlərarası və dövlətlərdaxili səviyyələrdə ayrı-ayrı qrupların maraqlarını qarşılaşdırır və onun təsiri ilə bu proseslərin toxunduğu gender münasibətlərinin öyrənilməsi də aktuallığını artırır.

## 10.12. Xammalın tükənməsi problemi

Hazırda təbii mühit və onun təkrar istehsalı problemləri daha çox əhəmiyyət kəsb etməyə başlayır. Planetimizdə xammal resurslarından istifadə böyük sürətlə artır. Ona görə də müasir dünyada xammal resurslarının məhdudluğu ən aktual məsələlərdən birinə çevrilir. Cəmiyyətin tələbatlarının ödənilməsi bilavasitə rifahların yaradılmasından asılıdır. Rifahlar isə, öz növbəsində, istehsal üçün daha çox resurs tələb edir.

Xammal (*raw materials*) sonrakı emala yönəldilən faydalı qazıntılar və digər təbii resurslar, həmçinin, insanın təsirinə məruz qalmış əmək predmetləridir. İlkin olaraq, istehsalda genişliklə daha çox mineral xammaldan istifadə edilir. Mineral xammal sektoru sənaye istehsalı və energetikasının əsas bazasını təşkil edir və dünya iqtisadiyyatında aparıcı mövqedə durur.

Məlumdur ki, bir çox təbii resursların ehtiyatları artıq defisitdir. Bununla belə, bəzilərinin də böyük həcmdə qalması hələ onların tükənməz olması demək deyil. Aydındır ki, Yer kürəsinin əhalisi daim artdıqca xammal resurslar da məhdudlaşacaqdır, bütün tələbləri ödəmək üçün onlar kifayət etməyəcəkdir. Bunun üçün də bütövlükdə resurslardan istifadəni məhdudlaşdırmaq, müəyyən konservasiya aparmaq lazımdır, çünki gələcəkdə onların məhdudluğu problemi həlledilməz olub fəlakətlərə səbəb ola bilər. Belə ki, xammaldan səmərəsiz istifadə, dünya ölkələrinin müxtəlif regionları arasında resursların qeyri-bərabər bölünməsi, onların istehsalı və istehlakı gələcəkdə də artacaqdır.

Konservasiya (*latınca* - conservation, *ingiliscə* - conservation - *saxlanılma, qoruma*) 1) iqtisadi prosesin müvvəqqəti dayandırılmasıdır; 2) mövcud olanın qorunmasına istiqamətlənmiş siyasi hərəkət və ya inamdır; 3) İstismarın dayandırılmasıdır.

Burada, həmçinin, "icmaların faciəsi" adlanan fenomenal vəziyyət də yaddan çıxarılmamalıdır. İcmaların (*ortaqların*) faciəsi (*ingiliscə* - tragedy of the commons - *icmaların faciəsi*) ümumi olan nemətlərin istifadəsi üzrə ayrı-ayrı fərdlərin ziddiyyətli maraqları ilə bağlı hadisə fərqliliyi, vəziyyət növüdür. Burada əsas problem olaraq həmin nemətlərin tükənməsi çıxış edir və "faciə" onunla bağlıdır ki, iqtisadi resursa azad giriş ondan artıq dərəcədə istifadədə həmin resursun məhvinə və ya tükənməsinə səbəb olur. Termin ingilis yazıçısı Vilyam Forster Lloydın (*1794-1852*) Britaniya adalarında mal-qaranın ümumi torpaqda nizamlanmayan örüşünün nəticəsi üzrə irəli sürdüyü hipotetik nümunə ilə bağlı 1833-cü ildə qələmə aldığı pritçadan yaranmışdır. Konsepsiya yüz ildən də çox vaxt keçdikdən sonra 1968-ci ildə artıq məşkunlaşmanın qorxulu fəsadları barədə xəbərdarlıq edən amerikalı ekoloq və filosof Qarret Xardinin (*1915-2003*) elmi jurnal (*Science*) üçün yazdığı "İcma faciəsi" (*Tragedy of the commons*) məqaləsi ilə populyarlıq qazanmışdır. Termin daha çox dayanıqlı inkişafla bağlı istifadə edilir.

Resurs ehtiyatlarını qiymətləndirərkən vurğulandığı kimi, onların arasında iki - bərpa olunmayan və bərpa olunan böyük qrupları ayırırlar. Birincilər, praktiki olaraq,

yenidən əmələ gəlmir, onların miqdarı istifadə olunduqca daim azalır. Onlara Yer səthinin sahəsinin ölçüləri ilə məhdudlaşan torpaq resursları, mineral resurslar aiddir. Bərpa olunan resurslar ya özünübərpa qabiliyyətinə malikdir (*bioloji*), ya da daim dövran edərək, Yer kürəsinə kənardan daxil olur və fasiləsiz olaraq təkrar istifadə oluna bilir. Buna ən əyani misal sudur. Yəqin ki, bərpa olunan resurslar (*renewable resources*) da, bərpa olunmayan resurslar (*nonrenewable resources*) kimi tükənməz deyil, lakin onların bərpa olunan hissəsi daim istifadə oluna bilər. Enerji resurslarının əsas növü, hələ ki, mineral yanacaq - qaz, neft və kömür olaraq qalır. Təəssüf ki, bu enerji mənbələri bərpa olunan deyil və onların hasilatı indiki artım sürəti ilə orta hesabla 80-140 ildən sonra tükənə bilər. Bu mənbələrin payı "ağır" nüvə yanacağından - parçalanmış torium və uran izotoplarından istifadəyə əsaslanan atom energetikasının inkişafı hesabına aşağı düşməlidir. Lakin həmin resurslar da bərpa olunan deyildir. Hesablamalara görə, intensivləşən istismar nəticəsində uran da bir neçə onilliyə kifayət edə bilər.

Xammalla təminatlılıq bütün dünya üçün məhdud olduğu kimi, hər bir ölkə üçün eyni deyildir. Ən zəngin təbii resurslara malik olan ölkələr belə, bu və ya digər dərəcədə, daim müxtəlif xammal asılılığında olurlar. Statistika göstərir ki, ABŞ özünə lazım olan mineral xammalın 20%-ni, Qərbi Avropa ölkələri 70%-ə qədərini, Yaponiya isə 90%-dən çoxunu idxal edir.

<u>Qlobal xammal problemi</u> bəşəriyyətin xammalla təmin edilməsinin dünyəvi problemidir. XX əsrin ikinci yarsından sonra kəskinləşən bu problem aşağıdakı amillərdən irəli gəlir:

- ❖ işlənilən kömür, neft, dəmir filizi və başqa mədən yataqlarının tükənməsi;
- ❖ kəşf edilmiş neft və təbii qaz ehtiyatlarının məhdudluğu;
- ❖ faydalı qazıntıların əvvəlki ilə müqayisədə daha pis şəraitdə kəşfi və çıxarılması;
- ❖ faydalı qazıntıların çıxarılması ilə istehlakı rayonları arasında ərazi ayrılığının artması və s.

Müasir sivilizasiya istehsal və istehlak tullantılarının müvafiq artımı fonunda təbii resursların istehlakını daim genişləndirir. Məlum olduğu kimi, faydalı qazıntıların mövcud və perspektiv dünya ehtiyatlarının böyük hissəsi inkişaf etməkdə olan zonada cəmləşmişdir. Hazırda bazar iqtisadiyyatlı dövlətlər arasında ən mühüm xammal növlərinin ehtiyatlarına görə inkişaf etməkdə olan ölkələrin xüsusi çəkisi, qiymətlərə görə, 30-40%-dən (*dəmir filizi, molibden, uran və s.*) 60-90%-ə (*kobalt, neft, nikel, qalay, təbii qaz, fosfatlar və s.*) qədər təşkil edir.

Nəzərə almaq lazımdır ki, bir çox Yerin təki nisbətən az öyrənilmişdir. Elm və texnikanın nailiyyətlərindən istifadə, xüsusilə, kosmik geologiyadan istifadə Yer kürəsinin ərazisini tam öyrənməyə, mövcud yataqları daha yaxşı qiymətləndirməyə, yenilərinin kəşfini sürətləndirməyə imkan verərdi. Bu daha çox inkişaf etməkdə olan ölkələrdə Yerin təkinə aiddir.

Hazırda resursların bir çox növləri birinci kateqoriyadan ikinciyə keçir. İndi biz at-

mosfer oksigeninin ehtiyatlarının tükənməsinin mümkünlüyü barədə düşünürük, gələcəkdə isə bu məsələ günəş enerjisi resursları haqqında da meydana gələ bilər, halbuki onun axını hələ bizə, praktiki olaraq, tükənməz görünür. Bəşəriyyət, hələ ki, daha çox ənənəvi, məhdud resurslardan istifadə edir və yeni imkanlara müraciət etmir. Yaranmış vəziyyətin əsas səbəblərindən biri elm və texnikanın inkişafının kifayət etməyən səviyyəsidir. Yeni texnologiyaların tətbiqində zəif iqtisadi maraq köhnəlmiş metodların konservləşdirilməsinə səbəb olur. Bəşəriyyət elm və texnikanın ən yeni nailiyyətlərindən səmərəli istifadə əsasında "resurs defisiti"ni aradan qaldırmaq üçün tamamilə real potensial imkanlara malikdir.

Xammal probleminin həlli resursqoruyuculuğundan və əvvəllər aztapılan xammal və enerji mənbələrindən istifadəyə imkan verən yeni texnologiyaların axtarışından ibarətdir. Planetin təbii resurslarının gələcəyinə aid müxtəlif proqnozlar mövcuddur. Əlbəttə, onları çoxoriyentasiyalı kimi nəzərdən keçirmək lazım deyil. Lakin, şübhəsiz, ETT daha qənaətli, resursqoruyucu texnologiyaların axtarışı istiqamətində davam edəcək ki, bu da bir çox təbii istehsal mənbələrinə olan tələbatı azaltmağa imkan verəcək.

### 10.13. Bəşəriyyətin enerjidaşıyıcılarla təchizatı və enerji təhlükəsizliyinin təminatı problemləri

Enerji resursları həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan dünya ölkələrinin vətəndaşları qarşısında həyat keyfiyyətinin yaxşılaşması və imkanların genişlənməsi üçün son dərəcə mühüm əhəmiyyət kəsb edir. Ona görə də, bazar iqtisadiyyatının fundamental prinsiplərini əks etdirən qiymətlər üzrə effektiv, etibarlı və ekoloji cəhətdən təhlükəsiz enerji təchizatının təmin edilməsi ölkələrin və bütün bəşəriyyətin çağırışıdır.

Lokal enerji böhranları industrialaqədərki iqtisadiyyatda da (*məsələn, İngiltərədə XVIII əsrdə meşə resurslarının tükənməsi və kömürə keçidlə əlaqədar olaraq*) meydana gəlmişdir. Lakin qlobal problem kimi enerji resurslarının çatışmazlığı XX əsrin 70-ci illərində, neftin qiymətlərinin kəskin qalxması ilə (*1972-1981-ci illərdə 14,5 dəfə*) enerji böhranı zamanı özünü göstərdi ki, bu da dünya iqtisadiyyatı üçün ciddi çətinliklər yaratdı. O dövrdəki çətinliklərin bir çoxu aradan qaldırılsa da, yanacaq və enerji ilə təchizat problemi öz əhəmiyyətini bu gün də saxlamaqdadır.

Enerjidaşıyıcılar (*ingiliscə* - energy - *enerji*) neft, qaz, daş kömür, nüvə yanacağı (*uran filizi*), torf, yanar şistlər, oduncaq kimi yanacaq növlərinin ümumi adını ifadə edir. Enerjidaşıyıcılar üzvi yanacaq, elektrik enerjisi, enerjinin qeyri-ənənəvi və bərpaolunan növləri, təkrar enerji resurslarını əhatə edərək, həm də mexaniki iş, qızdırmaq, kimyəvi reaksiya aparmaq və ya fiziki prosesləri yerinə yetirmək üçün istehsal istifadəli maddə və ya hadisə kimi də dəyərləndirilir.

Enerjidaşıyıcıların istifadəsinin təkamülü aşağıdakı kimi olmuşdur:

➢ Qədim dünya - orta əsrlər oduncaq və biokütlədən (*biomass*) geniş istifadə mərhələsi.

➢ XVII-XIX əsrlər - ilk faydalı qazıntlar (*daş kömür, torf və digər yanar bərk maddələr xammalı*) zamanı;

➢ XIX-XX əsrlər - karbohidrogen erası (*neft sivilizasiyası, metan epoxası*);

➢ XXI əsr - nüvə və alternativ enerji mənbələrindən istifadə mərhələsi.

Tədqiqat araşdırmaları ilə müəyyən olunmuşdur ki, enerji amili bütün yaranışların fövqündə dayanaraq çeşidli müvafiq sivilizasiya paradiqmalarını ərsəyə yetirmişdir. Bu baxımdan bəşər sivilizasiyası daş, tunc, dəmir dövrlərinə bölündüyü kimi, oduncağın, biokütlənin, karbohidrogen resursları və nüvə sintezli enerji epoxolarına da təsnifləşdirilir.

Dünya enerjidaşıyıcılarının 90%-ə qədəri qazıntı yanacağına, o cümlədən, 64%-i karbohidrogen resurslarının payına düşür.

Enerjidaşıyıcıları fərqləndirən cəhətlər müxtəlifdir. Burada mühüm amil energetik güclə bağlıdır. Belə ki, enerjidaşıyıcılar daha çox özlərinin istiliktörətmə qabiliyyəti ilə fərqlənirlər.

Aşağıda əsas enerjidaşıyıcıların xarakterini əks etdirən cədvəl verilmişdir:

| № | **Enerjidaşıyıcının adı və qısa xüsusiyyəti** | **İstilik törətmə qabiliyyəti** (*kkal/kq*) |
|---|---|---|
| 1 | **Daş kömür**<br>Keyfiyyətinə, geoloji düzüm və yaranma mərhələlərinə görə müxtəlif növlüdür | **7750-8750** |
| 2 | **Ağac kömürü** - (*ağacın quru distiləsi*).<br>Daş kömürə nisbətdə fosfor və kükürd kimi zərərli maddələr azdır | **7000-8100** |
| 3 | **Neft**<br>Müstəsna əhəmiyyətlidir. Ondan yanacaq, sürtkü yağları, kimyəvi məhsullar alınır. | **10400-11000** |
| 4 | **Təbii qaz**<br>His vermir, tullantı yaratmır, atmosferi zəhərləmir, tamamilə yanır. Kimya sənayesi üçün də xammaldır. | **12000** |
| 5 | **Torf**<br>Koksla birgə emal edildikdə onun yanacaq keyfiyyəti artır. Ondan həm də qaz yanacağı alınır (*1 ton torf qaza çevrildikdə 220 kq neftə bərabər olur*). | **3000-3400** |
| 6 | **Yanar şistlər**<br>Tərkibində daş kömürdən daha çox uçucu maddələr var. Bu xüsusiyyətinə görə ondan qazlaşmada istifadə edilir. | **3800-4000** |

**Cədvəl 14. Əsas enerjidaşıyıcıların xüsusiyyəti**

XIX əsrin başlancığına qədər dünyada əsas enerji ehtiyatı oduncaq olmuşdur və daş kömürün kəşfi ilə əlaqədar bu yanacaq növü öz mövqeylərini itirmişdir. Daş kömürün

də enerji ehtiyatı kimi aparıcı mövqeyi uzun sürməmişdir. Lakin XİX əsrdə ABŞ-da, Azərbaycanda, Rumıniyada və sonradan planetin bir çox bölgələrində kəşf edilmiş neft-qaz yataqları texniki inqlablara səbəb olmuşdur. Dünya təsərrüfat sistemi sənayecə hazırda o qədər yüksək inkişaf etmişdir ki, indi onun nəhəng mühərrikinin inhisarına keçmişdir. Bununla belə, beynəlxalq aləmdə yanacaq ehtiyatları da bərabər paylanmamışdır. Zəmanəmizdə dünyanın şərti yanacaq ehtiyatları bölgüsündə daş kömür 60%, neft və təbii qaz isə 27%-lik mövqedədir. Bunlarla yanaşı, dünya təsərrüfatında hasilat və istismarda digər mənzərə formalaşmışdır. Burada daş kömürün xüsusi çəkisi 30% həndəvərində, neft və qazın isə 67%-dən çoxdur. Bu isə enerjidaşıyıcılar sırasında neft və qazın xüsusi yeri tutduğunu bir daha təsdiqləyərək onları digərlərindən fərqləndirir.

Neft yerin təkindən çıxarılan rəngsiz, qonur-qara, qonur-qırmızı, sarı-yaşıl, qəhvəyi çalarları olan müxtəlif konsistenli uçucu və qaz quruluşlu maddələri özündə əhatə edən karbohidrogen tərkibli, suda həll olmayan, yağlı, yanar mayedir. Elmi interpretasiyada neft, əsasən, beş mühüm kimyəvi tərkib komponenti: 84-87% karbon, 12-14% hidrogen, 0,05-0,35%, nadir hallarda 0,7% oksigen, 0,001-1,8% azot və 0,001-5,3% kükürd toplusundan ibarətdir. Molekulyar quruluşuna görə isə neft üç: parafinli, naftenli və aromatik sinfi təsnifatda vəhdət təşkil edir. Lakin neftdə əhəmiyyətli dərəcədə hər üç struktur elementi əhatə edən karbohidrogen qarışıqlı quruluş üstün mövqedə dayanır. Qaynama temperaturu +28 $^{0}$C-dən yuxarı, donma temperaturu -30-60 $^{\circ}$C-dən hesablanan neft sıxlığına görə yüngül (*850 kq/m$^3$*), orta (*851 kq/m$^3$-dən -885 kq/m$^3$-ə qədər*) və ağır (*885 kq/m$^{3-}$dən yüksək*) neft olmaqla da üç qrupa ayrılır. Dünya neft hasilatında bu konfiqurasiya, müvafiq olaraq, 60:30:10 faiz nisbətdədir.

Neftdən 560 adda müxtəlif məhsul alınır və onun keyfiyyəti qatılığı və tərkibindəki kükürdün miqdarı ilə ölçülür. Dünya təsərrüfatında neftin hasilat və istehlak rayonları arasında böyük ərazi ayrılığı yaranmışdır. Bu ərazilər müasir dünyada nəhəng "neft körpüləri" adlanan okean axınları ilə birləşir.

Neftin enerji tələbatlılığı artdıqca onun süni üsullarla alınması axtarışları da genişlənmişdir. Dünyada ilk dəfə sintetik neft problemi Almaniyada qabarmışdır. I Dünya Müharibəsi gedişində kayzer Almaniyası qlobal neft mənbələrindən ayrı düşmüşdü. Orduya isə küllü miqdarda neft lazım idi. Bu zamanlarda alman alimləri sintetik neft alınması istiqamətində tədqiqatlarını genişləndirirdilər. İlkin axtarışlar nəticəsində qonur kömürdən maye qazın alınması işi reallığa çevrildi. Müvafiq məqsədlər üçün geniş istehsal kompleksləri yaradıldı. Müharibə bitdikdən sonra isə xam neftin qiymət enmələri süni neft istehsalını arxa plana keçirdi. II Dünya Müharibəsi zamanı da lokal çərçivədə analoji problem yarandı və eyniliklə də müharibədən sonra əhəmiyyətini itirdi. Uzun müddət sintetik neft istehsalı, demək olar ki, tarixi səhnəni tərk etdi. Lakin enerji qıtlığı təhlükəsi ilə üzləşəcəyimiz perspektivləri yenidən sintetik neft emalı prosesini aktuallaşdırmışdır.

Müasir elmi-texnoloji tədqiqatlar göstərir ki, nefti elə havanın özündən də almaq mümkündür. Alimlər hesab edirlər ki, belə texnoloji strategiya atmosferdə izafi karbon

anhidridi yaratmaqla ekoloji gərginlik törədə bilər. Hazırda nəhəng miqdarda məsrəf olunan yanacaq hesabına hər il atmosferə milyardlarla ton karbon qazı buraxılır. Bunun isə yalnız 10%-i bitkilər tərəfindən udulur. Nəticədə atmosferdə korbon qazının konsentrasiyası kəskinliklə artır.

Sintetik neftin havadan fəsadsız alınması istiqamətində çıxış yolu kimi alimlər dondurulma mexanizmi təklif edirlər. Havanın dondurulmasının təqdim olunan texnoloji prosesi ilə karbon anhidridli ammoniumun alınması və onun sonrakı neft sintezi üçün materiala çevrilməsi nəzərdə tutulur. Lakin belə reaksiya miqyaslı enerji məsrəfləri tələb edir. Məsrəfliyi optimallaşdırmaq üçün nüvə reaktorlarında katalizatorların köməyi ilə 5000 $^{o}$C temperaturda əməliyyat aparılması gərəklidir. Belə əməliyyat nəticəsində karbon oksidi hidrogenlə sintezləşərək "hava nefti" yaradır.

Son 25 ildə enerji istehlakı 40% artmışdır. İnkişaf etmiş dövlətlərdə enerji istehlakı inkişaf etməkdə olan dövlətlərə nisbətdə xeyli dərəcədə yüksəkdir. İnkişaf etməkdə olan ölkələrdə nəhəng karbohidrogen yataqlarının aşkarlanması bu və ya digər səbəbdən həmin dövlətlərdə yanlış təəssüratlar yaradır. Bu hal, öz növbəsində, siyasi qeyri-stabilliyə səbəb olaraq dünya neft bazırına da təsir edir. Yatağın aşkarlanmasından ilk gəlirin əldə edilməsinə qədər azı 5-7 il vaxt tələb olunur. Əgər neft ölkəsinin əhalisi çoxdursa və neft onların əsas gəlir mənbəyidirsə, həmin ölkələrdə sindromlar labüddür. Belə ki, bu ölkələrdə neft gəlirlərinin mütləq əksəriyyəti zəif instusional duruma uyğun olaraq, əsasən, imtiyazlı təbəqənin əlində cəmləşərək korrupsiyaya səbəb olur, digər sahələrdə staqnasiya yaradır. Vətəndaşlar elə bilirlər ki, neft varsa, onlar varlı yaşayacaqlar. Buna görə də inkişaf etmiş dövlətlər, aparıcı qlobal neft kompaniyaları müvafiq ölklərdə enerji etibarlılığının sosial konsensa yönəldilməsinə daha çox maraq göstərməlidirlər.

XX əsrin ikinci yarsında planetin əksər sivilizasılı regionlarında təbii qazdan istifadə genişlənmiş, onun istehsalı tam sənayeləşmə mərhələsinə daxil olmuşdur. Təbii qaz kimya sənayesində geniş tətbiqini tapdıqca onun istilik, energetik primatı da mülayimləşmişdir. Lakin bununla belə, təbii qazın istehlakında energetik və kimyəvi müstəvidə paritetlik qəti müəyyən olunmamışdır. Ehtiyat potensialı və istehlak tələbləri müxtəlifliyinə baxmayaraq, XX əsr boyu təbii qazdan, əsasən, daha çox istilik və energetik təzahürdə istifadə olunmuşdur. Onun kimyəvi xammal imkanları isə müvafiq sənaye sahələrinin təşəkkül tapdığı ölkələrdə gerçəkləşmişdir. XXI əsrdə təbii qaz industrial cəmiyyətin əsas enerjidaşıyıcılar sırasına qətiyyətlə daxil olmuşdur. Yaşadığımız əsrdə təbii qazın dominant enerjidaşıya çevrilməsi bir çox amillərlə uzlaşdırılır. Bu prespektivi sivilizasiyalı yüksəliş gerçəkliyi, ətraf mühitin qorunmasına köklənən intizam məsuliyyəti, qazla işləyən mexanizlərdə tətbiq edilən texnoloji nailiyyətlər, informasiy mühitinin genişlənməsi, internet və elektron biznesin vüsəti və digər sosal-iqtisadi əhəmiyyət artımı daha ümidli edir. Elmi-texnoloji nailiyyətlər, artan ekoloji tələblər, iqtisadi transformasiya enerjidaşıyıcılar bazarında yeni meyillərin təzahürünə rəvac verir. Postneft epoxasında nüvə enerji sisteminə böyük keçiddə təbii qazın aralıq

mövqedə qərarlaşması nəzərə çarpır. Ekoloji intizamın güclənməsi, rentabellik aspektləri təbii qazın digər energetik resurslara zəfər çalmasını müşahidə etdirir. Qeyd olunmalıdır ki, təbii qaz yanacaq növü kimi ekoloji üstünlüyü ilə yanaşı, həm də əksər texniki-iqtisadi imkanları, energetik qüvvəsi ilə də digər karbohidrogen resurslarına nisbətdə fərqli mövqedədir. Yanarkən his verməməsi, tullantı yaratmaması, məşəlinin asanlıqla tənzim olunması, müxtəlif görüntü hallarına salınması və bu baxımdan da atmosferə, ətraf mühitə zərərlər gətirməməsinin minimallığı onun ekoloji aspektdə cəlbediciliyini artıran xüsüsiyyətidir. Rəngsiz və çox zaman da qoxusuz olan təbii qazın texniki-iqtisadi parametrləri müqayisəli təhlil obyektinə çevrildikdə ekoloji və energetik keyfiyyətlər ilə bərabər, bu, üstünlüyü işıqlandıran fiziki xüsusiyyətləri də önə çəkilir. Karbohidrogenli əqrabaları arasında ən yüksək istiliktörətmə qabilliyyətliliyilə fərqlənən təbii qazın müvafiq gücü torf və yanar şistlərdən 3-4 dəfə, oduncaq və daş kömürdən 1,5 dəfə, neftdən isə orta hesabla 1000 kilokalori artıq miqdarlıdır. Konkret olaraq, təbii qazın istiliktörətmə gücü orta göstəricidə 12000 kkal/kq hesablanır. Qazın 2000 dərəcə selsili yüksək istilikvermə qabilliyyəti onun keyfiyyətli energetik və texnoloji səmərəli yanacaq növü kimi geniş tətbiqini təmin etmişdir. Təbii qaz fiziki-kimyəvi spektrdə yanar qazlar silsiləsinə daxil olduğundan anoloqları kimi də adekvat cəhətlərə malikdir. Onun gizli, açıq xassələrinin öyrənilməsi də məhz bu kontekstdə aydın təzahürlü və geniş analitik imkanlıdır.

Planetimizdə neft-qaz hasilatı artmaya meyillidir 1960-cı ildə dünyada neft (*qaz kondensatı ilə birlikdə*) hasilatı 1053 milyon ton, təbii qaz hasilatı isə 454 milyard $m^3$ olmuşdursa, 1994-cü ildə müvafiq olaraq 3000 milyon ton və 2215 milyard $m^3$ təşkil etmişdir. Son illər dünyada 3,1-3,3 milyard ton arası neft və orta hesabla 2-2,4 trilyon $m^3$ qaz hasil olunur.

Dünya əhalisinin energetik tələbatı ilbəil yüksəlir. Proqnozlara görə, yaxın 20 il ərzində neftə olan ehtiyac 32% artacaqdır. Son 30 ildə dünya neft kompleksinin inkişafında mühüm amil dünya okeanında neft-qaz hasilatının genişlənən istismar tempidir. Dəniz yataqlarında hasilat 35 dövlətin akvatoriyasında aparılır. İndi 700-dən çox dəniz yatağında dünya neft hasilatının $^1/_3$-i təmin edilir. Bununla belə, enerjidaşıyıcılara dünyəvi tələbat 9 milyard ton neftə ekvivalentə yaxınlaşır ki, bunun da 90%-i mədən qazıntı ehtiyatlarının, o cümlədən $^2/_3$ hissəsi neft və qazın payına düşür. Planetin indiki potensial imkanları əsas verir ki, yaxın 50 il ərzində neftlə bağlı kataklizmlər baş verməyəcək, neft erası bitməyəcəkdir.

Dünya iqtisadi artımı müasir məqamda daha çox enerji resurslarının mənimsənilməsi ilə təmin olunur. Enerji istehlakında isə dünya nəqliyyat kompleksi birbaşa və dolayısı ilə ən aktiv tələbatçı və paylaşdırıcı qismində çıxış edir. Artan energetik tələblər digər maddi və mənəvi ehtiyaclar vəhdətində dünya nəqliyyat sferasının ayrı-ayrı sahələrində diversifikasiya və differensiasiyanı, struktur dəyişiklikləri, başlıca olaraq isə, əməyin coğrafi bölgüsünü təbəllüdatlara uğradır. Bir cəhəti də xüsusi olaraq vurğulamaq lazımdır ki, nəqliyyatla təsərrüfat həyatının digər sahələrinin energetik

istehlak payı yetərli fərqlidir. Belə ki, bütün avtomobillər elektrik stansiyalarında istehsal olunan enerjidən 2 dəfə çox resurs istehlak edir. Göründüyü kimi, bütün bunlar resursqoruyuculuq strategiyasını stimullaşdırır. Resursqoruyuculuqdan öncə resurstəminatlılıq şərtlidir. Resurstəminatlılıq, resursların ölçüləri və səmərəli istifadəsi sivilizasiyanın inkişaf səviyyəsini müəyyən edən mühüm göstəricidir.

Resurstəminatlılıq (*resourcing*) təbii resursların ölçüləri ilə onlardan istifadə ölçüsü arasındakı nisbəti ifadə edir və kifayət edəcək illər hesabı və yaxud da adambaşına düşən ehtiyat payı ilə ölçülür. Resursqoruyuculuq (*resourcefulness*) özü isə resurslardan səmərəli istifadəni, onların təminatlılığının ölçü sistemini ehtiva edir. O, təbii resursların həcmi ilə ondan istifadənin ölçüləri arasında nisbəti kimi, həmin resursun nə qədər bəs edəcəyi və ya onun ehtiyatının adambaşına bölgüsü hesabı ilə, illər üzrə təsbit olunur.

Enerjidaşıyıcılarla təminatlılıq dünyəvi miqyaslarda özünü büruzə verdiyindən o, müvafiq olaraq, qlobal xarakter alır. Bu baxımdan qlobal enerji problemi (*global energy problem*) bəşəriyyətin etibarlı enerji və yanacaq təminatı ilə (*enrjidaşıyıcılar*) bağlıdır.

Qlobal enerji probleminin həllində ekstensiv və intensiv olan yollar fərqləndirilir. Enerji probleminin ekstensiv həlli yolu gələcəkdə enerjidaşıyıcıların hasilatının genişləndirilməsi və enerji istehlakının mütləq artımını nəzərdə tutur. Bu yol müasir dünya iqtisadiyyatı üçün aktual olaraq qalır və hadisələrin bu səmtdə inkişafı enerji resurslarından daha səmərəli istifadə üsullarının axtarışına sövq edir. Bu əsasda, hər şeydən əvvəl, enerji məsrəfi vahidinə olan məhsul istehsalının artmasından ibarət olan enerji probleminin həllinin intensiv yolu impuls alır. Ümumi kontekstdə qlobal enerji probleminin həll yolları kimi elmi-texniki nailiyyətlərin inkişafının sürətləndirilməsi, innovasiyaların genişləndirilməsi, yeni texnologiyaların tətbiqi, dünya enerjidaşıyıcıları bazarının optimal tənzimlənməsi çıxış edirlər.

1970-ci illərin qlobal enerji böhranı enerjiqoruyucu texnologiyaların inkişafını və tətbiqini sürətləndirmişdir ki, bu da iqtisadiyyatın struktur yenidənqurulmasına təkan vermişdir. Hazırda isə bəşəriyyət artıq, praktiki olaraq, məhdudlaşan üzvi təbii resurslara əsaslanan energetikadan tükənməz əsaslı energetikaya (*nüvə enerjisi, günəş radiasiyası, yerin istiliyi və s.*) keçid dövrünə qədəm qoymuşdur. Bu dövr üçün enerjiqoruyucu texnologiyaların inkişafı və bütün dünyada enerjiyə qənaət daha geniş miqyas almışdır. Həmçinin, belə, vəziyyət bir çox ölkələr üçün enerjidaşıyıcılardan istifadənin effektivliyini yüksəltməyin güclü stimulu olmuşdur. Enerjidaşıyıcılardan istifadənin effektivliyinin yüksəldilməsinin mühüm ehtiyatı aparat və avadanlıqların fəaliyyətinin texnoloji proseslərinin təkmilləşdirilməsidir. Bu istiqamətin kapitaltutumlu olmasına baxmayaraq, buradakı məsrəflər yanacaq və enerji hasilatının (*istehsalının*) ekvivalent yüksəldilməsi üçün sərf olunan xərclərdən 2-3 dəfə azdır. Bu sahədə əsas səylər mühərriklərin təkmilləşdirilməsinə və yanacaqdan istifadənin bütün prosesinə yönəldilmişdir. Vurğulanmalıdır ki, enerjiqoruyuculuq, enerji qənaətcilliyi (*energy saving*) yanacaq-enerji resurslarının səmərəli istifadəsi və qənaətli məsrəf

olunması istiqamətində kompleks təşkilati, hüquqi, istehsal, elmi, iqtisadi, texniki və digər tədbirlərin reallaşmasıdır. Bundan başqa, enerjinin qənaətcillik sistemi təsərrüfat dövriyyəsinə bərpaolunan enerji mənbələrinin daxil olmasını tədbirləri ilə də şərtlidir. Enerjiqoruyuculuq həm də təbii resursların mühafizəsində vacib dövlət tapşırığıdır. O, enerjidaşıyıcıların tariflərinin artımı və enerji məsrəflərinə uçot vasitələri üzrə nəzarətdən irəli gələrək onların buraxılışına kvotaların tətbiqi ilə də bağlı müxtəlif enerji növlərinin istehlakının məhdudlaşdırılmasını ehtiva edir.

Müasir mərhələdə və gələcəkdə də uzun illər boyu qlobal enerji probleminin həlli iqtisadiyyatın enerji tutumunun aşağı düşməsi dərəcəsindən, yəni istehsal ÜDM-nə sərf edilən enerji vahidindən asılı olacaqdır. Beləliklə, qlobal enerji böhranı öz əvvəlki anlamında dünya üçün mütləq resurs çatışmazlığı təhlükəsi kimi mövcud deyildir. Bununla belə, enerji resursları ilə təchizat problemi modifikasiyalı şəkildə qalmaqdadır.

İstənilən ölkə enerji təhlükəsizliyi problemi ilə qarşılaşa bilər. Elə buna görə də müasir dünyada iqtisadiyyatın yanacaq-enerji resursları ilə təchizatı və enerji effektliliyi hər bir dövlətin inkişaf səviyyəsinin mühüm indikator göstəricilərindən hesab edilir. Enerji təhlükəsizliyi (*energy security*) normal şəraitdə və həmçinin, fövqəladə hallarda ölkə və region əhalisinin, vətəndaşlarının, dövlət və iqtisadiyyatın müqabil keyfiyyətli, iqtisadi girişli yanacaq-enerji resursları təminatı defisitindən qorunması, eyni zamanda, enerji və yanacaq təchizatının stabilliyinin pozulması təhlükələrindən mühafizəsi vəziyyətini ehtiva edir. Enerji təhlükəsizliyi, həmçinin, mövcud iqtisadi şərait tələbində sərəncamda zəruri kəmiyyət və keyfiyyətdə enerji olması vəziyyətli inam, vətəndaşın, cəmiyyətin və dövlətin mühüm "enerji maraqlarını" daxili və xarici təhlükələrdən müdafiəsi vəziyyəti kimi də qiymətləndirilir.

Dünyada enerji təhlükəsizliyi probleminin dərki ilk dəfə Ərəb-İsrail konflikti ilə əlaqədar dünya neft qiymətlərinin kəskin artması fonunda baş vermişdir. Neftin təchizatının tam olaraq dayandırılması Qərb ölkələrində enerji təhlükəsizliyinin təminatı üzrə tədbirlərin görülməsinə səbəb olmuşdur.

Energetikanın texniki təyinatlı olması reallığından irəli gələrək enerji təhlükəsizliyi həmin sistemin texniki təhlükəsizlik xassəsi kimi də dəyərləndirilir. Bu yanaşma da kənara qoyulmadan vurğulanmalıdır ki, enerji təhlükəsizliyi önəm daşıdığı dərin əhəmiyyəti ilə fərqli olan mühüm təməllərə əsaslanır. O, etibarlılıq anlamından da yüksəkdə dayanaraq son məqsəddə vətəndaşı, cəmiyyəti və dövləti yanacaq-enerji resursları çatışmazlığından qoruyan təyinatı ilə iqtisadi, siyasi və həmçinin də, fəlsəfi kateqoriya statusu alır. Beləliklə, enerji təhlükəsizliyi texnoloji, iqtisadi, siyasi və fəlsəfi mahiyyət daşıyır. Lakin bütün bunlarla yanaşı o, müasir sivilizasiyada, üstün olaraq, iqtisadi kateqoriya kimi dəyərini artırır. Elə bu baxımdan da enerji təhlükəsizliyi anlayışının interpretasiyası iqtisadi təməl üzərində qurulmalıdır.

İqtisadi mahiyyət kəsb etdiyindən, enerji təhlükəsizliyi ölçüləbiləndir. Enerji təhlükəsizliyinin əsas göstəricisi kimi ölkənin enerji resursları ilə təminatlılığı çıxış edir. Ölkənin enerji resursları ilə təminatlılığı həmin ölkədə enerji istehsalı həcmlərinin

istehlak enerji həcmlərinə nisbətini əks etdirən müvafiq əmsal vasitəsi ilə hesablanır. Enerji resursları ilə təminatlılıq əmsalı vahiddən yüksəkdirsə, ölkənin enerji təhlükəsizliyi bərqərar olunmuş hesab edilir. Vahiddən kiçik konfiqurasiyalar disbalanslılıq vəziyyətindən xəbər verir. Lakin bu təyinat da ideal hesab edilməməlidir. Çünki ölkənin enerji təhlükəsizliyini yalnız bir mənbə ilə, ümumi olan elektrik və istilik enerjisinin istehsal və istehlakı ilə bağlamaq da düzgün olmaz. Güclü, davamlı, təminatlı iqtisadiyyatın enerji istehsalı ilə yanaşı dolğun və çeşidli digər yanacaq-enerji resurslarına da daha geniş tələbi vardır. Bu tələblər isə hər yerdə yüksək olsa da, çox az ölkələrdə daxili təbii resurslar təklifi ilə uzlaşır. Reallıq belədir ki, yanacaq-enerji resurslarının mövcudluğu və istisnasına baxmayaraq hər bir ölkə özünün enerji təhlükəsizliyinin təminatı, iqtisadiyyatının yaşaması üçün müvafiq enerji strategiyası işləməli və onu ardıcıl reallaşdırmalıdır.

Enerji strategiyası (*energy strategy*) zəruri enerji resursları və mümkün müvafiq potensial imkanlar müqabilində enerji siyasətinin konkretləşməsi və onun reallaşmasına nailolmanın işçi sənədi fopmatında təşkili metodlarının və dəqiq təyinatlı fəaliyyət mexanizmlərinin məcmusudur. Struktur kompozisiyada strategiya plan, idarəetmə sənədləri, qrafiklər, büdcə və digər bu kimi zəruri elementləri özündə birləşdirən modernləşdirmə və köklü yenidənqurmanın fəaliyyət proqramını əks etdirir.

Enerji strstegiyasınının əsasını yanacaq-enerji balansları təşkil edir. Enerji strstegiyasınının reallaşma obyekti kimi yanacaq-enerji kompleksi çıxış edir. Yanacaq-enerji kompleksi, YEK (*fuel and energy complex*) enerji resurslarının hasilatı və onların müxtəlif enerji növlərinə çevrilməsini reallaşdıran istehsal və xidmət sahələri məcmusudur. Enerji sistemi kimi anlayışla üst-üstə düşən YEK-ə karbohidrogenlər hasilatı (*neft və qaz sənayesi*), emalı, daş kömür və torf sənayesi, elektroenergetika və onunla bağlı saxlama, nəqletmə, təchizat infrastrukturu daxildir. Bir sıra ölkələrdə YEK-in əsas hissəsi dövlətə məxsusdur. Əksər ölkələrdə isə qarışıq kapital YEK-də əsas rol oynayır. Mühüm sosial-iqtisadi multiplikator rolunu ifadə edən, yüksək investisiya tələbliliyi ilə fərqlənən YEK-in hər bir ölkənin enerji təhlükəsizliyinin əsasında dayanan makroiqtisadi göstəricilərin formalaşmasında, sosial rifahın səviyyəsinin yüksəldilməsində əhəmiyyəti daim genişlənir. Hazırda dünya iqtisadiyyatında YEK-in investisiya tələbləri 1 trilyon ABŞ dolları həddindədir.

Enerji strategiyası yeni institusional yaranış deyildir. Planetin iqtisadiyyatı enerji təməlində sistemləşdiyi zamanlardan anoloji strategiyalar silsiləvi olaraq müxtəlif ölkələrdə intişar tapmış, təbəddulatlara uğrayaraq yeni keyfiyyət və məzmun almışdır. Qlobal axının gücləndiyi müasir zamanda isə hər bir ölkə enerji resurslarının mövcudluq diapazonunun fərqinə varmadan özünün enerji təhlükəsizliyini təmin etmək məqsədi ilə məxsusi enerji strategiyası formalaşdırmağa məhkumdur.

Enerji strategiyasının optimal forması Rusiyada, Ukraynada, Türkiyədə, ÇXR-də və digər ölkələrdə həyata keçirilməkdədir. Avropa məkanında isə enerji strategiyası 50-dən çox ölkənin təmsil olunduğu "Enerji Xartiyasında" birləşir. Bununla belə,

hazırda Aİ ölkələrinin enerji təhlükəsizliyinin daha dolğun təminatı “Avropa üçün təhlükəsiz, rəqabətqabiliyyətli və enerji girişli Yaşıl Kitab”, “Enerji siyasətinin Brüssel konsepsiyası”, “Enerji NATO-su” və s. bu kimi enerji strategiyalı proqram layihə və sənədlərdə inkişafını tapır. Enerji strategiyası regional kontekstdə ŞƏT ölkələrinin də assosiativ maraqlarının özəyində yer almışdır.

## 10.14. Dünya bazarında neftin qiymətinin tənzimlənməsində Neft İxracatçısı Ölkələri Təşkilatının (*OPEK*) strategiyası

Hazırda neft amili dünya iqtisadiyyatında ən mühüm amillərdən sayılır. Neft amili qlobal enerjidaşıyıcılar probleminin də özəyini təşkil edir. Bu baxımdan hasil ediləcək neftin miqdarı, qiyməti dünya iqtisadiyyatına mühüm təsir etdiyindən ona çox ciddi yanaşılır. Bəzən bu məsələlərdə razılaşmamalar böyük, qlobal konfliktlərə çevrilmək dərəcəsinə çatır. Onu da vurğulamaq lazımdır ki, çox vaxt neft hasilatında aparıcı rola malik olan ölkələr neftin istehsalı və qiyməti məsələsində vahid bir mövqədən çıxış edirlər. Neftin əsas istehlakçıları olan Qərb ölkələri neft hasilatında mühüm rol oynayan, əsasən, Şərq ölkələrinin bu cür mövqeyini sarsıtmaq, təsir dairəsini azaltmaq üçün müxtəlif metodlardan, təzyiq üsullarından istifadə edirlər.

İri neft şirkətləri və digər TMŞ-lər dünya neft iqtisadiyyatını müəyyən qədər inhisarda saxlamaqla ayrı-ayrı ölkə və regionlarda müvafiq təsir gücünə malikdilər. Bu tarixən belə olmuşdur. Ötən əsrin əvvəllərində Bakıda mövcud bir çox xarici şirkətlər də bu mövqedən öz təsirlərini göstərmişlər.

Dünya iqtisadiyyatında neftlə bağlı məsələlərin tənzimlənməsi məsələsi XX əsrin 20-30-cu illərində daha aktual əhəmiyyət kəsb etmişdir. Bu baxımdan ilk olaraq 1933-cü ildə Böyük Britaniyanın paytaxtı London şəhərində neft sektorunu dünyada təmsil edən beynəlxalq qeyri-hökumət təşkilatı Dünya Neft Şurası təsis edilmişdir. Dünya Neft Şurası (*World Petroleum Council, WPC*) enerji sahəsində elmi yeniliklərin tətbiqi, texnologiya və informasiya mübadiləsi istiqamətlərində fəaliyyət göstərir və dünyanın neft ehtiyatlarından davamlı, həmçinin hamının rifahına xidmət edəcək şəkildə istifadə olunması məsələlərinə ciddi önəm verən beynəlxalq təsisatdır. Bu təşkilat 65 üzv ölkəni və dünyanın ən nüfuzlu milli neft şirkətlərini, həmçinin tanınmış müvafiq sahəvi agentliklərini özündə birləşdirərək dünyada neft-qaz istehsalçıları və istehlakçılarının 96%-ni əhatə edir. Qərarları beynəlxalq platforma kimi qəbul olunur. Dünya Neft Şurası Dünya Neft Konqresinin əsas təşkilatçısıdır. 2005-ci ildə təsis edilmiş “Azərbaycan Milli Neft Komitəsi” həmin il Yohannesburqda keçirilən Konqresdə Dünya Neft Şurasına üzv seçilmişdir. Mənzil-qərargahı Böyük Britaniyanın paytaxtı London şəhərində yerləşir.

Dünya Neft Konqresi (*World Petroleum Congress, WPC*) neft və qaz sənayesində aparıcı oyunçular üçün qlobal görüş yeri, o cümlədən istehlakçılar, istehsalçılar, hökumət üzvləri, energetika və maliyyə sektoru nümayəndələrinin, elm adamlarının

dünya enerjisinin gələcəyini müzakirə edə biləcəyi bir platformadır. Əsas məqsədi neft və qaz sənayesi sahəsində elmi-texniki və iqtisadi informasiyanın mübadiləsi və tərəqqi üçün əməkdaşlığa kömək təşkil edir. Üç ildən bir keçirilir. Əsas təşkilatçısı 1933-cü ildə yaradılmış Dünya Neft Şurasıdır.

1970-ci illərin əvvəlinə kimi kapitalist aləminin neft sənayesində Beynəlxalq Neft Karteli - əsas mövqe tutmuşdu. Beynəlxalq Neft Karteli (*İnternational Oil Cartel*) xammal mənbələri və satış bazarlarının bölüşdürülməsi, maksimal gəlir əldə etmək üçün orada inhisar qiymətlərinin qoyulması məqsədi ilə yeddi nəhəng beynəlxalaq neft kompaniyasının təşkil etdiyi qapalı birlikdir. Beynəlxalq Neft Karteli XX əsrin 20-30-cu illərində neftin satışı bazarında rəqabət kəskinliyinin artığı dövrdə yaranmışdır. Birlik iştirakçıları (*ABŞ, İngiltərə, Niderland, və Fransanın iri neft şirkətləri*) öz miqyasına və təsir dairəsinə görə 1954-cü ildə İranın cənubunda neftin kəşfiyyatı, hasilatı, emalı və satışı proseslərinə nəzarət məqsədi ilə Beynəlxalq Neft Konsorsiumu təsis etmişlər. Beynəlxalq Neft Konsorsiumu, BNK (*International Petroleum Consorcium, İPC*) fərqlənmişdi. BNK 1973-cü ilin ortalarına qədər İranda hasil edilən neftin 90%-nə bu konsorsium nəzarət etmişdir. Mövcud sazişə əsasən, həmin ildən konsorsiumun İran ərazisindəki bütün təşkilatları onun sərəncamına keçmişdir. 1979-cu ildə İran inqilabı ilə əlaqədər fəaliyyəti dayandırılmışdır. Beynəlxalq Neft Kartelində ABŞ-ın neft inhisarları hegemonluq etmişlər. Lakin müstəqil inkişaf yoluna qədəm qoymuş neft ixrac edən ölkələr öz milli mənafelərini üstün tutan yeni siyasət yeridərək gərgin mübarizə şəraitində neft inhisarlarının fəaliyyət dairəsini məhdudlaşdırmağa nail oldular. Onların yaratdıqları 1960-cı və 1968-ci illərdə müvafiq olaraq yaratdıqları Neft İxrac Edən Ölkələr Təşkilatı və Neft İxrac Edən Ərəb Ölkələri Təşkilatı 1970-ci illərin əvvəlində neft inhisarlarına qarşı güclü qüvvəyə çevrildi. Sonrakı illərdə Beynəlxalq Neft Kartelinin, demək olar ki, bütün konsessiyaları milliləşdirildi. Bununla belə, OPEK-in yaranışında əsas səbəblərdən biri kimi 1950-ci illərin sonunda ABŞ-ın dünya neft industriyasında 85 illik liderliyinin sona yetməsi ilə keçmiş SSRİ dövlətinin dünya neft bazarında aparıcılıq iddia və imkanlarının qarşısının alınması göstərilir. Yəni OPEK özünün səmərəli fəaliyyəti ilə SSRİ-nin neft bazarlarına diqtə etməsinin və bu istiqamətdə möhkəmlənməsinin qarşısını aldı. Sonradan nəhəng dövlətin özünün enerji siyasətində buraxdığı səhvlər onun dünya neft bazarındakı mövqeyinin itirilməsi, növbəti mərhələdə isə ölkənin dağılması ilə nəticələndi.

Neft İxrac Edən Ərəb Ölkələri Təşkilatı, OAPEK (*Organization of Arab Petroleum Exporting Countries*) neftin qiymətini stabil saxlamaq, dünya neft qiymətlərinə nəzarət etmək üçün bir sıra neft hasilatçısı olan ərəb dövlətləri tərəfində təsis edilmiş karteldir. OAPEK daimi fəaliyyət göstərən beynəlxalq təşkilatdır. Burada 11 dövlət: Əlcəzair, Bəhreyn, Misir, İraq, Küveyt, Liviya, Qətər, Səudiyyə Ərəbistanı, Suriya, Tunis və Birləşmiş Ərəb Əmirlikləri təmsil olunmuşlar.

Neft İxrac Edən Ölkələr Təşkilatı, OPEK (*Organization of the Petroleum Exporting Countries*) dövlətlərarası iqtisadi-siyasi təşkilat kimi 1960-cı ildə Bağdada təsis

olunmuş və 1965-ci ildə Karakasda nizamnaməsi qəbul edilmişdir. OPEK-in məqsədini təşkilat üzvi ölkələrin neft siyasətinin unifikasiyası, səmərəli istehsal və ticarətin təşkili, dünya neft qiymətlərinin tənzimlənməsi, ekoloji missiya və s. təşkil edir. Hazırda OPEK-ə 12 dövlət: Əlcəzair, Venesuela, Qabon, İndoneziya, İraq, İran, Qətər, Küveyt, Liviya, Nigeriya, BƏƏ və Səudiyyə Ərəbistanı daxildir. Digər ölkələrin assosiativ üzvlüyü OPEK nizamnaməsində əksini tapmışdır. Təşkilatın iqamətgahı Vyanadadır. OPEK-in nizamnaməsinə uyğun olaraq, burada rəhbər orqanlar Konfrans və İcra Komitəsi, onların çağırılma dövrləri arasındakı müddətdə isə daimi orqan olan və Baş katib tərəfindən rəhbərlik edilən Katiblikdir. Üzv ölkələrinin təmsilçilərindən ibarət Konfrans təşkilatın ən ali orqanı hesab edilir. Təmsilçi bir və ya daha çox, həmçinin, təmsilçi kimi nümayəndələr, müşahidəçi və məsləhətverici üzvləri də ola bilər. Üzvlərin ¾-ü iştirak etdikdə Konfrans baş tutmuş hesab edilir. Hər bir tam üzv ölkənin Konfransda bir səsvermə hüququ var. Konfransda qərarlar, prosedur qaydalar istisna olmaqla, bütün üzv ölkələrin tam razılığı əsasında qəbul edilir. Qəbul edilən qərarlar ya ümumi toplantıların yekunundan 30 gün sonra və yaxud da üzv ölkələrin bu qərara tam hazır olduqlarını Baş katibliyə bildirməsindən sonra qüvvəyə minir. Tam üzv ölkə Konfransda iştirak etmədikdə Katiblik 10 gün ərzində həmin ölkəni qəbul edilmiş qərarla tanış etməlidir. Konfrans, adəti üzrə, təşkilatın qərargah-ofisində təşkil edilməlidir. Lakin təcrübədə görünmişdir ki, Konfrans hər hansı bir üzv ölkə, yaxud başqa bir münasib yerdə də keçirilə bilər. Konfrans ilkin toplantıda təşkilata rəhbərlik üçün bir prezident və bir vitse-prezident seçməlidir. Vitse-prezident təşkilat prezidentinin iştirak edə bilmədiyi vaxtda onun məsuliyyətinin daşıyıcısıdır. Prezident Konfrans görüşlərinə bilavasitə rəhbərlik edir və bu vəzifə növbəti görüşədək davam edir. Baş katib Konfrans katibi kimi də fəaliyyət göstərir. Burada idarəetmə Şurası üzv ölkələrin nümayəndələrdən ibarət olub Konfrans tərəfindən təsdiq edilir. Təşkilatın hər bir üzvü İdarəetmə Şurasının toplantılarında iştirak etməlidir. Belə ki, bu yığıncaqlar üzvlərin $^{2}/_{3}$-nin iştirakı ilə baş tutmuş hesab olunur. Hər hansı bir səbəb üzündən nümayəndə iştirak etmədikdə öz yerinə vəkil təyin edə bilər. Hər bir nümayəndənin bir səs hüququ var. Bu səs hüququ İdarəetmə Şurasının qərarlarının verilməsində irəli sürülür. İdarəetmə Şurasının hər nümayəndəsi illik təyin olunur. İdarəetmə Şurası hər il ən azı iki dəfə toplanır. İdarəetmə Şurasının sədri bir illiyə seçilir. Onun müavini isə sədr iştirak etmədikdə məsuliyyətdən mükəlləf hesab edilir. Katiblik İdarəetmə Şurasının nəzarəti altında təşkilatın idarəetmə funksiyasını yerinə yetirir. Katiblik Baş katib və işçi qurupundan ibarət olur. Katib təşkilatın rəsmi təmsilçisi hesab olunur. Baş katib Katibliyin rəhbəri vəzifəsini daşıyır və İdarəetmə Şurasının istiqaməti əsasında təşkilatın işlərini həyata keçirir. Baş Katib Konfrans tərəfindən 3 illiyə təyin olunur.

OPEK öz fəaliyyətində barabərlik və suverenlik prinsiplərini rəhbər tutur. Təşkilatın Nizamnaməsində "əgər inhisarçılar OPEK-in bir, və ya bir neçə üzvünə qarşı müəyyən sanksiyalar tətbiq etsə, onda digər üzv olan ölkələr ixracın və ya qiymətlərin artırılması formalarında üstünlükdən istifadə edə bilməz".

OPEK ölkələrinin iqtisadi inkişaf səviyyəsi və neft ixracı imkanı müxtəlifdir. Bəzi dövlətlərin (*Səudiyyə Ərəbistanı, Küveyt və BƏƏ*) neft ixracı potensialı daha güclüdür. Lakin əldə etdikləri vəsaiti milli təsərrüfatın intensiv inkişafına yönəltməkdə bu ölkələrin iqtisadi hazırlığı zəifdir. Buna görə də onlar "artıq" vəsaiti Qərb dövlətlərinin banklarında yerləşdirmək məcburiyyətindədirlər. Belə vəziyyət müəyyən dərəcədə OPEK ölkələrinin mövqeyini zəiflədir, dünya kapital bazarında onları asılı vəziyyətə salır, Qərb dövlətlərinin onlara təzyiq göstərməsinə imkan verir və əslində, onlar öz əmanətlərinə nəzarəti itirirlər. Lakin, bununla belə, OPEK-in əhəmiyyətini itirməsinə sevinmək vaxtsız və sadəlövlük olardı.

Böyük və uzun sürən təhlükə bu kartelə texnoloji inqilabdan gəlmiş və neft biznesini dəyişiklərə məruz qoymuşdur. Hələ 1972-ci ildə "Roma klubu" o zaman dəbdə olan apokalipsisli siqnalla xəbərdar etmişdir ki, dünya neft ehtiyatları azalaraq bir nəslin ömrü qədər qalmışdır. Hazırda dünya neft ehtiyatlarını 75%-i OPEK öləkələrinin payına düşür ki, bunun da 77 ilə bəs edəcəyi güman olunur. OPEK ölkələrində kəşfiyyat dərəcəsi OPEK üzvü olmayan ölkələrə nisbətdə yüksəkdir.

OPEK-in dünya iqtisadiyyatındakı yeri və rolu, həmçinin, dünya neft bazarına təsiri dünya ictimaiyyəti tərəfindən birmənalı olaraq qəbul edilmişdir. Bu təşkilatı təmsil edən ölkələrdə bol ehtiyatlar onun uzunmüddətli bir beynəlxalq təsisat kimi yaşamasına əsas verir.

Aşağıda OPEK ölkələrinin neft ehtiyatlarını əks etdirən cədvəl verilmişdir:

| **№** | **Ölkələr** | **Ehtiyatın həcmi** | |
|---|---|---|---|
| | | **milyard barel** | **milyard ton** |
| 1 | Venesuela | 302,809 | 42,04 |
| 2 | Səudiyyə Ərəbistanı | 266,26 | 37,27 |
| 3 | İran | 155,6 | 21,78 |
| 4 | İraq | 147,223 | 20,61 |
| 5 | Küveyt | 101,5 | 14,21 |
| 6 | BƏƏ | 97,8 | 13,69 |
| 7 | Liviya | 48,363 | 6,77 |
| 8 | Nigeriya | 37,062 | 5,18 |
| 9 | Qatar | 25,244 | 3,53 |
| 10 | Əlcəzair | 12,2 | 1,7 |
| 11 | Anqola | 8,273 | 1,15 |
| 12 | Ekvador | 8,273 | 1,15 |

**Cədvəl 15. 2018-ci il üzrə OPEK ölkələrinin neft ehtiyatları**

Hazırda dünya neft hasilatının yarısı OPEK ölkələrinin payına düşür. İqtisadi nəzəriyyədə bazardakı subyektin bazar payının 33%-dən artıq olduğu halda onun

inhisarçı sayıldığını nəzərə alsaq, OPEK-in dünya neft bazarlarında inhisarçı mövqe tutduğunun şahidi olarıq. Belə vəziyyət OPEK-in kartel təsisatlı funksionallığını daha da artırır.

OPEK-in dünya neft bazarındakı yeri və rolu onun dünya neft bazarına çıxardığı xam neftin miqdarı və qiymətlərə təsir imkanları ilə müəyyən olunur. Təşkilat tərəfindən dünya bazarlarında neftin qiymətinin sabit saxlanılması məqsədilə hasilat kvotası müəyyənləşdirilir. Daha sonra müəyyən olunmuş ümumi kvota ölkələr arasında bölüşdürülür və hər bir ölkəyə təyin olunmuş kvotaya riayət olunmasına nəzarət edilir.

OPEK ölkələrinin dünya neft bazarında bu qədər aktiv rol oynaması onların dünya təsrrüfat sistemində əhəmiyyətini günü-gündən artırır. Belə ki, bu ölkələrin istehsal etdikləri enerji məhsulları inkişaf etmiş və sənayeləşmiş ölkələrin iqtisadiyyatının fasiləsiz inkişafına şərait yaradır.

Hazırda OPEK ölkələrinin neftinin əsas alıcıları Asiya və Sakit okean regionları (*Yaponiya*), Şimali Amerika ölkələri (*xüsusilə də ABŞ*), Qərbi Avropa (*AFR, Fransa, Böyük Britaniya*) ölkələridir. Belə ki, Venesuela neftinin əsas alıcıları Cənubi Amerika ölkələri, Əlcəzair, Nigeriya, Anqola neftinin alıcıları isə Qərbi Avropa və Şimali Amerika ölkələridir. Fars körfəzinin OPEK ölkələri isə demək olar ki, dünyanın yarısından çoxunu neftlə təchiz edir. Asiya və Sakit okean regionu, xüsusilə Yaponiya, Avstraliya, Koreya Respublikası, Sinqapur, Tailand, həmçinin, Qərbi Avropanın bəzi ölkələri, ABŞ istehlak etdiyi neftin böyük qismini bu regiondan alır.

Neft və qiymət məsələsi bir çox ağır fəsadlara yol açır. Qiymət qalxmaları və enişləri ayrı-ayrı ölkələrin təsərrüfat həyatında əks olunur. Ölkələr borclar məngənəsinə düşür, defolt və staqnasiya vəziyyətləri yaşayırlar. Bu meyil özü-özlüyündə bütövlükdə dünya iqtisadiyyatına təsir göstərir. C.Soros özünün "Maliyyənin əlkimyası" əsərində neftin qiymətinin sabitləşdirilməsi, neft istehsalçıları və istehlakçılarının borclar probleminin həlli məqsədilə OPEK əvəzində yeni bir qurumun yaradılmasını təklif edir. Yeni təşkilat OPEK-in əsas funksiyaları - qiymətlərin təsbiti, kvotaların təyinatı ilə yanaşı, bufer ehtiyatının yaradılmasını da nəzərdə tutur. C.Sorosun sxeminə görə, istehsal və istehlak kvotaları yaradılmalı və bu kvotaların cəmi cari istehlak tələbindən çox olmalı, artıq hissə isə bufer ehtiyatına çevrilməlidir. Bufer ehtiyatı xüsusi fond kimi ayrıca saxlanmalıdır. Əlbəttə, neftin Yerin təkini tərk etdikdən sonra onun "nəqd" şəkildə saxlanması çətin və çoxlu xərc tələb edən prosesdir. Onun yerin altında saxlanması daha səmərəlidir. Digər tərəfdən, təklif olunan sxemə görə, bufer nefti əslində, kağız nefti olaraq qalacaqdır. İstehsal və istehlak tələbləri fərqinə uyğun olaraq, tədiyə ödənişləri birbaşa ölkələrə deyil, BVF-nin qapalı-deponent hesablarına köçürülməlidir.

Dünyada neftin qiymətini son dərəcə ciddi inhisarda saxlayan tənzimləyici mərkəzi təşkilat yoxdur. Neftin qiymətinin aşağı düşməsinə tarixi proseslərin, iqtisadi maraqların, siyasi gerçəkliklərin təsiri böyükdür. Şübhəsiz ki, bu təsirin nüfuz dairəsi uzun müddət səngiməyəcəkdir. Bununla belə, qiymət məsələsində OPEK, hələ ki, yetərli söz sahibi hesab edilir və bu təşkilat müasir dünya neft bazarlarının bir nömrəli

oyuncusudur. Qiymətin mülayimləşdirilməsi, tarazlıq halına gətirilməsi heç də hamının mənafelərinə uyğun gəlmir. Bu prosesdə ixracatçı dövlətləri ümumi məqsədləri ifadə etməkdə o qədər də yekdil hesab etmək olmaz.

## 10.15. Nüvə energetikasının inkişaf problemləri və alternativ enerji mənbələrindən istifadə imkanları

İlk nüvə reaktoru Enriko Ferminın (*1901-1954*) rəhbərliyi ilə 1942-ci ildə Çikaqoda yaradılmışdır. İtaliyadan ABŞ-a mühacirət edən E.Fermi ilk uran-qrafit tipli nüvə reaktorunu inşa etmiş (*45 ton təbii urandan və 450 ton qrafitdən ibarət*) və onda müvafiq nüvə reaksiyasını həyata keçirmişdir. E.Fermi ilə yanaşı, bu sahədə həm birlikdə və həm də ayrı-ayrılıqda çoxsaylı elmi simalar fəaliyyət göstərmiş, XX əsrin böyük tarixi dönüş reallığını bəşəriyyətin ümumi xidmət və istifadəsinə təqdim etmişlər. Atom enerjisinə əsaslanan ilk sənaye əhəmiyyətli enerji qurğusu isə 1954-cü ildə keçmiş SSRİ-nin Obninsk şəhərində 5 MVt gücündə AES-in istifadəyə verilməsi ilə təşəkkül tapmışdır. İkinci sənaye əhəmiyyətli 46 MVt gücündə AES 1956-cı ildə Böyük Britaniyada, növbəti ildə isə ABŞ-da 60 MVt gücündə AES fəaliyyətə başlamış və bununla da atom enerjisindən dinc məqsədlər üçün istifadənin əsası qoyulmuşdur. Artıq XX əsrin 80-ci illərində dünyada reaktorların sayı artaraq 300-ü ötmüş və ümumi gücü 200 min MVt-ni haqlamışdır. Hazırda isə 33 ölkədə ümumi gücü 375 min MVt olan 442 nüvə reaktoru fəaliyyət göstərir. Burada istehsal olunan elektrik enerjisinin həcmi 2018-ci ildə 3000 milyard kVt-saata yaxın olmuşdur.

AES nüvə enerjisini elektrik enerjisinə çevirən mürəkkəb qurğudur. AES-lər bir, iki və üç dövrəli (*konturlu*) olur. İş prinspinə görə AES-ləri istilik elektrik stansiyalarına aid etmək olar. Stansiyada yüksək temperaturlu buxar karbohidrogenlərin yandırılmasından deyil, idarə olunan nüvə reaksiyası zamanı ayrılan istiliyin hesabına əldə edilir. Bu qurğuda istilikayırıcının, istilikdaşıyıcının, turbin və elektrik cərəyanı generatorunun ümumi işi nəticəsində elektrik enerjisi istehsal edilir.

AES sistemi bir çox ölkələrin enerji balansının əsas hissəsini təşkil edir. Belə ki, hazırda Fransa elektrik enerjisi istehsalında, demək olar ki, neftdən istifadə olunmur. Burada AES-lər ölkə elektrik enerjisinin 77,7%-ni verir. AES strategiyasına Litva liderlik edir. Enerji istehsalında AES-lərin pay əhəmiyyətinə görə üstün olaraq Ukrayna - 45%, AFR - 32%, Yaponiya - 25%, Böyük Britaniya - 23,7%, ABŞ - 19,3% və Rusiya - 16,5% fərqlənirlər. Yeni irəliləyiş templəri əldə edən ÇXR-də isə bu pay hələlik 2,2% təşkil edir. Kəskin enerji qıtlığı keçirən Ermənistanda bu pay bir AES hesabına 35% həcmindədir.

Nüvə enerjisi istehsalının təhlükəli fəsadları ilə yanaşı, xeyli bənsərsiz üstünlükləri də vardır. Belə ki, nüvə reaktorları, faktiki olaraq "istixana" qazları buraxmır, nəfəsimizi daraldan kül və his yaratmır, göllərə, çaylara və meşələrə kəskin zərər yetirən "turşu yağışları" - qazları ayırmır. Bir qram uran təxminən 3 ton daş kömürün verdiyi enerji

qədər qüdrətə malikdir. Əgər dünya AES-lərini daş kömürlə işləyən stansiyalar əvəz etsə, onda 600 milyon ton əlavə daş kömür lazım olacaq və ətraf mühit 2 milyard ton karbon qazı, 30 milyon ton azot oksidi, 50 milyon ton kükürd və 4 milyon ton uçan kül alacaqdır. AES-lərin istismarı hər il 400 milyon ton neftə qənaət etməyə imkan verir.

AES-lərin üzvi yanacaqlı elektrik stansiyalarından əsas üstünlüyü onun yanacaq istehsal edən müəssisədən asılı olmadan uzun müddət müstəqil işləyə bilməsidir. Ümumi çəkisi 41 ton olan 54 istilikayırıcı elementdən ibarət nüvə yanacağı ilə yüklənmiş 1000 MVt gücündə su-sulu energetik reaktoru 1-1,5 il ərzində heç bir yanacaq yükləmədən davamlı enerji istehsal edə bilir. Üzvi yanacaqla işləyən stansiyalara isə daimi böyük miqdarda yanacaq daşınması zərurəti var. Nüvə yanacağının enerji ekvivalenti üzvi yanacaqlara nisbətən müqayisə edilməyəcək dərəcədə çoxdur. Bir sra ölkələrdə AES-lərdə enerji istehsalı üzvi yanacaqla işləyən stansiyalara nisbətən ucuz başa gəlir. AES-lərin ən böyük üstünlüyü isə onun ekoloji cəhətdən daha təmiz olmasıdır. Müqayisə üçün qeyd etmək lazımdır ki, il ərzində 1000 MVt gücündə daş kömürlə işləyən İES 164 min ton, mazutla işləyən İES 121 min ton, qazla işləyən İES 12 ton müxtəlif tərkibli zəhərli və parnik effekti yaradan maddələri birbaşa atmosferə buraxır. Təkcə ABŞ-da il ərzində AES-lər təqribən 5 mln ton kükürd qazının, 2 mln ton azot oksidlərin, 164 mln ton karbon qazının ətraf mühitə atılmasının qarşısını alır.

Göstərilən maddələr AES-lərin fəaliyyəti zamanı, sadəcə olaraq, yaranmır. Stansiya yaxınlığında radiasiya fonu normal təbii fondan çox da yüksək olmur. Digər tərəfdən, Yerin dərinliyindən hasil edilən üzvi yanacaqlarda da təbii radioaktiv izotoplar olduğundan onların yandırılması zamanı həmin hissəciklər birbaşa atmosferə atılır. 1000 MVt gücündə İES il ərzində yanacağı oksidləşdirmək üçün 8 milyon ton oksigen istifadə edirsə, nüvə reaktoru, ümumiyyətlə, oksigen sərf etmir. Hazırda ümumi gücü ~ 375 min MVt olan nüvə reaktorları ildə təqribən 3 milyard ton oksigenə qənaət edir. Nəzərə almaq lazımdır ki, qlobal istiləşmənin əsas səbəbi istilik maşınlarının atmosferə buraxdığı istixana effekti yaradan qazlardır ($CO_2$ *və s.*).

AES-lərdən həm də suyun şirinləşdirilməsi üçün istifadə olunur. Araşdırmalar göstərir ki, planet əhalisinin 30%-nin şirin su ilə təchizatı normal səviyyədə deyildir. Bir sıra ölkələrdə şirin su problemi mühüm bioloji-sosial məsələ olaraq qalmaqdadır. Suyun şirinləşdirilməsi və nəqli prosesi yetərli olaraq enerjitutumludur. Bu sahədə konkret tədqiqatlar aparan mütəxəssislər hesab edirlər ki, yaxın gələcəkdə praktiki variant olaraq suyun şirinləşdirilməsi prosesində nüvə enerjisi daha dolğun çıxış edəcəkdir.

Böyük uran filizi ehtiyatlarının mövcudluğu, əsas enerji mənbəyi olan neft, qaz və daş kömür ehtiyatlarının tükənən mənbələr olması nüvə enerigetikasına böyük gələcək vəd edir. Bu baxımdan elektrik enerjisinin generasiyası üçün nüvə reaktorlarından istifadə qlobal istiləşmənin və iqlim dəyişmələrinin qarşısını almaqda əhəmiyyətini yüksəldir. Bir cəhəti də xüsusi vurğulamaq lazımdır ki, üzvi yanacaq növləri ətraf mühitin korlanması zəminində “gizli” subsidiyalar məsrəf edirlər. Nüvə energetikası isə dayanıqlı inkişaf üçün dövlət subsidiyaları tələbli deyildir. Nüvə sənayesi yeganə

sahədir ki, öz tullantılarına görə bütün məsuliyyəti öz üzərinə götürür və onlarla bağlı məsrəfləri öncədən məhsul xərclərinin üzərinə qoyur. Nüvə enerjisi bütün enerji mənbələrinin vergiqoyması, tullantılara görə cərimələnməsi və sosial amillərə uyğun olaraq, ədalətli bərabərlilik şəraitində daha rəqabətqabiliyyətliliyi ilə də fərqlənmə imkanına malikdir. Nüvə yanacağının qiyməti daim sabitdir və istehsal xərcləri konfiqurasiyasında yüksək mövqedə dayanmır. Nüvə enerjisi tullantıları da nisbətən az həcm tutur və onun lokallaşması imkanları da genişdir.

Nüvə enerjisindən istifadə edilməyə başlandıqdan bəri AES-lər və digər nüvə qurğularında ətraf mühitə radioaktiv maddələrin sızması ilə nəticələnən bir sra qəzalar baş vermişdir. Nüvə enerjisi müəssisələrində baş verən qəzaları 7 ballıq şkala üzrə qiymətləndirir.

Atom enerjisindən dinc məqsədlər üçün istifadəyə başlandıqdan sonra görülən bütün təhlükəsizlik tədbirlərinə baxmayaraq sahə üzrə ümumilikdə 100-dən çox qəza hadisəsi baş versə də, ətraf mühitə vurduğu zərərə görə 5 hadisə xüsusi fərqlənir:

1. Keçmiş SSRİ-nin qapalı "Çelyabinsk - 40" şəhəri (*indiki Ozersk*) yaxınlığında 1957-ci ildə "Mayak" kimya kombinatında baş verən qəza Şərqi Uralda böyük ərazini radioaktiv çirklənməyə məruz qoymuşdur. Soyutma sisteminin sıradan çıxması nəticəsidə təqribən yüksək radioaktivliyə malik 80 $m^3$ nüvə tullantısı olan 300 $m^3$ həcimli anbar partlamış atmosferə təqribən 20 milyon küri radiyasiya atılmışdır. Maye və bərk aerozollardan ibarət olan radioaktiv bulud küləyin istiqaməti boyu ümumilikdə 23 min $km^2$ ərazini radioaktiv hissəciklərlə çirkləndirmişdir. Qəzanın nəticələrinin aradan qaldırılmasında yüzminlərlə hərbi və mülki şəxs iştirak etmiş və onlar əhəmiyyətli dərəcədə şüalanmaya məruz qalmışlar. Hazırda təqribən uzunluğu 300 km, eni 5-10 km olam "Şərqi Ural radioaktiv ərazisi" qoruq elan edilmiş, yüksək radioaktiv fon olan bu ərazidə hər hansı kənd təsərrüfatı fəaliyyəti qadağan olunmuşdur.

2. ABŞ tarixində 1979-cu ildə "Tri-Mayl Aylend" AES-də baş verən qəza Çernobl AES-də baş verən qəzaya qədər dünya nüvə energetikasında ən böyük qəza hesab olunurdu. Elektrik gücü 900 MVt olan PWR tipli reaktorda texniki qüsurlar, istismar və təmir prosedurlarında buraxılmış səhvlər nəticəsində aktiv zona ciddi zədələnmiş, nüvə yanacağının bir hissəsi əriyərək reaktorun dibinə çökmüşdür. Qəza nəticəsində atmosferə atılan təsirsiz qazların radioaktivliyi təqribən 2-13 milyon küri olsa da, yod-131 kimi təhlükəli izotopun atmosferə sızması çox cüzi olmuşdur. Stansiyanın ərazisi birinci konturdan axan radioaktiv su ilə çirklənmişdir. Stansiya ətrafından əhalinin köçürülməsinə ehtiyac olmasa da, burada 8 kilometrlik ərazini azyaşlı uşaqların və hamilə qadınların müvəqqəti tərk etməsi tövsiyə edilmişdir. Qəzanın nəticələrinin aradan qaldırılması 1993-cü ildə başa çatdırılmış və buna təqribən 1 milyard dollar vəsait sərf edilmişdir.

3. Keçmiş SSRİ-də (*Ukrayna SSR*) Çernobl AES-in 4-cü enerji blokunda 1986-cı ildə baş verən qəza, ətraf mühitə dəyən zərərə, insan itkisinə və iqtisadi təsirinə görə, nüvə energetikası tarıxində ən böyük qəzadır. Qəzaya qədər Çernobl AES-də hər birinin

elektrik gücü 1000 MVt, istilik gücü 3200 MVt olan РБМК 1000 tipli 4 reaktor fəaliyyət göstərirdi və əlavə olaraq, 2 analoji reaktorun tikintisi həyata keçirilirdi. Stansiya keçmiş SSRİ-də ən böyük AES idi. Qəza zamanı 4-cü enerji blokunun reaktorunda 200 tona qədər nüvə yanacağı ($UO_2$) olmuşdur ki, bu yanacaqdan 5-30%-ə qədəri ətraf mühitə yayılmışdır. Partlayış şəklində baş verən qəzada reaktor tamamilə dağılmış ətraf mühitə böyük miqdarda radioaktiv maddə yayılmışdır. Qəza nəticəsində ilk 3 ay müddətinda 31 nəfər həyatını itirmiş, 134 nəfər ağır şüa xəstəliyinə tutulmuş bunların böyük əksəriyyəti sonradan vəfat etmişdir. Stansiyanın ətafındakı 30 kilometrlik ərazidən 115 min nəfər köçürülmüş, 600 min nəfər qəzanın nəticələrinin aradan qaldırılmasında iştirak etmişdir ki, bu da onların sağlamlığına ciddi zərər vurmuşdur. Tamamilə dağılmış reaktordan qalxan radioaktiv bulud Avropanın böyük ərazilərinə külli miqdarda radioaktiv maddə, o cümlədən uran, plutonium-239, yod-131, sezium-134, sezium-137, stronsium-90 və s. radioaktiv izotopları yaymışdır. Ən çox zərər çəkən ərazilər isə Belarus, Ukrayna və Rusiyanın Çernobl AES-ə yaxın əraziləri olmuşdur. Bu ərazilərə yayılmış, yarımparçalanma müddəti 8 gündən 24 min ilə qədər olan radioaktiv maddələr adı çəkilən ölkələrdə xeyli ərazini uzun müddət insanların yaşaması üçün tamamilə yarasız etmişdir.

4. Yaponiyanın Tokaymura nüvə müəssisəsində (*JCO kompaniyası*) 1999-cu il baş verən qəza o vaxta qədər Yaponiya nüvə energetikası sənayesində baş verən ən ciddi insident hesab edilməkdə idi. Qəza baş verən müəssisə AES-lər üçün nüvə yanacağı hazırlamaq məqsədi ilə zənginləşdirilmiş heksafülorid urandan ($UF_6$) dioksid uranın ($UO_2$) emalı sahəsində fəaliyyət göstərirdi. Personalın səhvi nəticəsində durulducu çənə nəzərdə tutulandan 7 dəfə artıq 18% zənginləşdirilmiş uranilnitrat $UO_2(NO_3)_2$ yüklənmiş, nəticədə çəndəki maddədə böhran kütləsi alınaraq zəncirvari nüvə reaksiyası başlamışdır. Partlayış baş verməsə də, ətraf mühitə müəyyən qədər radioaktiv təsirsiz qazlar və yod-131 izotopu yayılmışdır. Məhlulla işləyən iki nəfər yüksək miqdarda şüalanmaya məruz qalmış və həyatlarını itirmişlər. Ümumilikdə 667 nəfər (*xilasedicilər və yanğınsöndürənlərdə daxil olmaqla*) müəyyən qədər şüalanmamaya məruz qalmışdır.

5. Yaponiyada Fukusima-1 AES-də baş verən qəza nüvə energetikası tarixində son böyük ciddi qəza hesab olunur. Qəzaya qədər ümumi gücü 4,7 HVt olan 6 reaktorlu Fukusima-1 stansiyası dünyadakı ən güclü 25 AES-dən biri idi və burada əlavə 2 reaktorun tikintisi planlaşdırılırdı. 11 mart 2011-ci ildə Sakit okeanda 9 ballıq zəlzələnin təsirindən yaranan sunami Yaponiyanın şərq sahillərində böyük dağıntılar törətməklə yanaşı Fukusima-1 AES-in kənar enerji təminatını və ehtiyat dizel elektrik stansiyasını sıradan çıxarmışdır. Zəlzələ zamanı qəza mühafizə sisteminin avtomatik işə düşməsi nəticəsində AES-də fəaliyyətdə olan reaktorlarda nüvə reaksiyası dayansa da, elektrik enerjisi təchizatı kəsildiyindən 1-ci, 2-ci və 3-cü reaktorlarda qəza soyutma sistemlərinin normal iş rejimi pozulmuşdur. Lakin nüvə reaksiyası dayandıqdan sonra belə reaktorda müəyyən müddət istilik ayrıldığndan reaktorda istilikayırıcı elementlərin

ərimәsinin, aktiv zonada yüksәk temperatur nәticәsindә su molekullarının parçalanması nәticәsindә hidrogen qazının әmәlә gәlmәsinin qarşısının alınması üçün onun soyudulması sisteminin çalışması vacibdir (*hidrogen qazı partlayış törәdәrәk reaktoru tamamilә dağıda bilәr*). Nәticәdә reaktorlarda qәza baş vermiş vә әtraf mühitә xeyli miqdarda radioaktiv maddә yayılmışdır. Ümumiyyәtlә, Fukusima-1 AES-dә baş verәn qәza bir neçә reaktorun eyni zamanda qәzaya uğradığı ilk hadisәdir vә әtraf mühitә vurduğu zәrәrә görә Çernobl AES qәzasından sonra әn böyük qәzadır. Belә ki, qәza külli miqdarda iqtisadi zәrәrә sәbәb olmuş, stansiya әtrafındakı radioaktiv maddәlәrlә çirklәnmiş 30 kilometrlik mәsafәdә bütün әhali köçürülmüşdür. Eyni zamanda qәzanın ilkin nәticәlәrinin aradan qaldırılması zamanı radioaktiv maddәlәrlә çirklәnmiş min tonlarla suyun Sakit okeana axıdılması zәrurәti yaranmışdır ki, bu da onun bioloji alәmi üçün ciddi tәhlükә yaratmışdır.

ABŞ-da 2001-ci ilin sentyabrında baş vermiş böyük terror hücumundan sonra nüvә reaktoru operatorları vә müvafiq hökumәtlәr nüvә qurğularının mühafizәsini daha da güclәndirmişlәr. Hazırda bir sıra sәnaye ölkәlәrindә "yaşıllar" AES strategiyasına qarşı çıxsalar da, proses irәlilәyişini davam etdirir. Belә ki, İsveçrәdә 2003-cü ildә keçirilәn referendum AES-lәrin bağlanmasına "yox" dedi. İsveçdә dә әhalinin 80%-i AES-lәrin istismarının davam etdirilmәsini vә genişlәndirilmәsini istәyir. Araşdırmalar göstәrir ki, ABŞ әhalisinin $^{2}/_{3}$ hissәsi atom enerjisini müdafiә edir, yaponların isә $^{1}/_{4}$-i onun möhtәşәmliyinә rәğbәt göstәrir. Bununla yanaşı, son zamanların elmi tәdqiqatları da atom enerjisi spektrindә ümidverici effektli keçidi tәmin edәrәk onun yeni sivilizasiyanın әn başlıca enerji mәnbәyinә çevrilәcәyinә yәqinlik gәtirmişdir.

Nüvә energetikası dünya iqtisadiyyatının qlobal problemlәri sırasında qalmaqda davam edir. Nüvә tәhlükәsizliyi mәsәlәsi nüvә silahının vә müvafiq energetik sahәnin yarınışını ilә eyni vaxtda beynәlxalq mühafizәyә götürülmüş vә konkret olaraq, 1957-ci ildә atom enerjisindәn dinc mәqsәdlәr üçün istifadә istiqamәtindә әmәkdaşlığın inkişafı missiyasını daşıyan AEBA tәsis edilmişdir. Atom Enerjisi üzrә Beynәlxalq Agentlik, AEBA (*International Atomic Energy Agency, IAEA*) atom enerjisindәn dinc mәqsәdlәrlә istifadә edilmәsi sahәsindә әmәkdaşlığın inkişafı üzrә beynәlxalq tәsisatdır. 1957-ci ildә yaradılmışdır. Әsas vәzifәsi ayrı-ayrı ölkәlәrdә nüvә enerjisindәn dinc mәqsәdlәrlә istifadәnin hәrbi mәqsәdlәrә yönәlmәmәsini tәstiqlәmәkdir. Dövlәt belә bir sazişi imzalamaqla müvafiq tәdqiqatların hәrbi istiqamәt almamasına tәminat verir. Bununla belә, AEBA sırf texniki orqandır. O bu vә ya digәr ölkәnin müvafiq sahәdәki fәaliyyәtinә siyasi qiymәt verә bilmәz. Mәnzil-qәrargahı Avstriyanın paytaxtı Vyana şәhәrindәdir.

Nüvә tәhlükәsizliyi ilә bağlı son üç ildә artıq iki beynәlxalq sammit keçirilmişdir. 2012-ci ilin mart ayında Koreya Respublikasının paytaxtı Seul şәhәrindә keçirilәn Nüvә Tәhlükәsizliyi Sammitindә Azәrbaycan Respublikasının Prezidenti İlham Әliyev çıxışında bildirmişdir ki, "Azәrbaycan nüvә tәhlükәsizliyini tәmin edәn norma vә standartların formalaşdırılması işindә AEBA-nın oynadığı rolu vacib hesab edir.

Ölkəmiz nüvə təhlükəsizliyinin müxtəlif aspektləri ilə bağlı Agentliklə uğurlu əməkdaşlıq qurmuşdur". Prezident İlham Əliyev, həmçinin, qeyd etmişdir ki, "Azərbaycan coğrafi şəraitini və ətraf mühit üçün baş verə biləcək transsərhəd fəsadları nəzərə alaraq, mülki məqsədlər üçün nüvə qurğularının təhlükəsizliyini və etibarlılığını möhkəmləndirmək məqsədilə göstərilən səyləri tam dəstəkləyir. Azərbaycan Ermənistanda 1976-cı ildə fəaliyyətə başlamış və hazırda köhnəlmiş Metsamor AES-dən olduqca narahatdır. Metsamor stansiyası bütöv region və yaxınlıqda olan qonşular üçün potensial fəlakət mənbəyidir. Belə ki, son illərini yaşayan reaktor soyudulması üçün zəruri olan su resurslarının çatışmadığı yüksək dərəcəli seysmik zonada yerləşir. Aİ Şərqi Avropa və keçmiş Sovet İttifaqında tikilmiş 66 sovet reaktoru arasında Metsamor reaktorunu "ən köhnəlmiş və ən etibarsız" hesab etmişdir. Bununla belə, biz nüvə enerjisi qurğusunu tikməyi arzulayan tərəfə səlahiyyətləri verəcək regional nüvə təhlükəsizliyini və etibarlılığını müəyyənləşdirən rejimlərin tətbiq edilməsini təklif edirik. Bu halda öz qonşularından razılığın alınması, həmin sahələrin etibarlılığı və təhlükəsizliyi barədə məlumatların şəffaf şəkildə mübadiləsi, yoxlamaların qəbulu və risklərə görə kompensasiyanın ödənilməsi kimi prosedurlar nəzərdə tutula bilər".

Bütün bunlar bir daha onu göstərir ki, nüvə energetikası problemi getdikcə beynəlxalq ictimayətin daha çox diqqət və tələbləri sırasında möhkəmlənir və bu sahədə inkişaf meyilləri ekosivil və modern texnoloji aspektlərdə irəliləyiş tapır. Azərbaycanın da bu dəyərlərdən faydalanması üçün mühüm zərurətlər və imkanlar görünür.

Beləliklə, idarəolunan istilik-nüvə reaksiyasının həyata keçirilməsi üçün əsas şərt əvvəlcə milyonlarla dərəcə temperatura qədər qızdırılmış plazmanın əldə edilməsi sonra reaksiyanın baş verməsi üçün həmin plazmanın müəyyən zaman kəsiyində qorunub saxlanılmasıdır. Lakin belə yüksək temperaturlu plazma ilə təmasda ola bilən bir maddə mövcud deyil. Bu problemin aradan qaldırılması üçün plazmanı reaksiya zonasında maqnit sahəsi ilə termoizolyasiya etmək nəzərdə tutulur.

İstilik-nüvə enerjisinin alınması prosesində çətin tədqiqatlara əsasən müəyyən edilmişdir ki, müvafiq layihələri heç bir dövlət təkbaşına yerinə yetirə bilməz və burada hökmən ümumi səylər, birgə elmi-texniki və maliyyə potensialı ortaya qoyulmalıdır. Buna görə də hazırda istilik-nüvə energetikası sferasında "Beynəlxalq Eksperimental İstilik-nüvə Reaktoru", İTER (*International Thermonuclear Experimental Reactor*) layihəsi üzrə fəaliyyət reallaşmaqdadır. İTER tapşırığı istilik-nüvə reaktorunun kommersiya məqsədləri ilə istifadəsi imkanlarının nümayişi və bu istiqamətdə qarşılanacaq fiziki və texnoloji problemlərin həlli ilə bağlıdır. Layihə iştirakçısı dövlətlər kimi Aİ ölkələri (*tam vahid kimi*), ABŞ, Yaponiya, Koreya Respublikası, ÇXR, Hindistan, Rusiya və Qazaxıstan təmsil olunmuşlar. Reaktorun layihələndirilməsi tam başa çatdırılmış, Fransada Kadaraş məntəqəsində təyin olunmuş tədqiqat mərkəzinin tikintisinə start verilmişdir. Çoxmilyardlı layihənin 2020-ci ildə sınanması gözlənilir. Bu sahədə aparılan elmi tədqiqatlarda irəliləyişlər əldə edilsə də, daimi yeni texniki problemlər qarşıya çıxır. İlk sənaye əhəmiyyətli idarəolunan istilik-nüvə reaktorunun

yaradılması təqribən 2040-cı ildən sonraya proqnozlaşdırılır. İlk baxışda İTER akronimi layihənin abberiviaturasını əks etdirsə də, o, əslində, latın mənşəli “iter” – “yol” sözünü əks etdirir.

Enerji təminatında ənənəvi energetik mənbələrlə (*biokütlə, oduncaq*, *neft, qaz, daş kömür, yanar şist, torf, nüvə* ) yanaşı, yeni enerji alternativlərinin rolu artmaqdadır. Bununla belə, enerji istehsalının optimallaşdırılması istiqamətində geniş miqyaslı elmi-tədqiqat işlərinin aparılmasına baxmayaraq energetikanın yeni inkişaf mərhələsində təbii enerji resurslarının payı yenə də yüksək olaraq qalmaqdadır. Hazırda elektrik enerjisinin 60%-indən çoxu İES-lərdə (*ABŞ, Rusiya, ÇXR 70-80%*), 20%-indən çoxu SES-lər-də, 17% AES-lərdə (*Fransa və Belçika 60%, İsveç və İsveçrə 40-45%*), qalan hissəsi isə alternativ enerji mənbələrində istehsal edilir. Lakin karbohidrogen resurslarının tükənməsi prosesi davam edir və bu da qeyri-ənənəvi enerjidaşıyıcıların axtarışı prosesinin sürətlənməsinə təkan verir. Günəş, termal, külək enerjisindən istifadədə yeni texnologiyaların tətbiqi genişlənir, okean sularının qabarma və çəkilməsindən daha sərfəli enerji alınması imkanlarının açılması yüksələn perspektivli müstəviyə keçid edir. Artan istehlak tələbləri, ekoloji şüurun yüksəliş meyili, hətta bir sıra neft mədənlərinin enerji fermalarına transformasiyasını və buradan etonol alınmasının sürətlənən perspektivinin geniş xarakter alacağına stimullar gətirir. Bununla belə, yeni karbohidrogen resurslarının, xüsusən də, bitumlaşmış qum daşı, okean dibində kristallaşan hidrat hasilatının səmərəli məcraya yönələcəyi inadlı görünüş alır. Bu baxımdan, hidrat qazların tapıntısı böyük maraq doğurur. Hazırda qaz hidratlarının mümkün ehtiyatları 100 min terafut $m^3$-ə ($T=10^{12}$) qədər hesablanır. Bu nəhənglik daha çox akademik maraqlar doğurusa da, onunla bağlı tədqiqatlar ilbəil yüksəlişə məruz qalır. Lakin onun hasilatının əlverişli iqtisadi həlli tapılarsa bu, ehtiyatların yüzdə biri belə dünya enerji balansına əsaslı təsir edəcəkdir. Bununla belə, hazırda təbii qazın digər alternativinə - şist qazına maraq daha çox artır. <u>Şist qazı</u> (*ingiliscə* - shale gas - *şist qazı, qaya qaz*) yanar şistlərdən hasil edilən, üstün olaraq, metandan ibarət təbii qazdır. Şist yataqlarında ilk qaz buruğu 1821-ci ildə ABŞ-da “təbii qazın atası” sayılan Vilyam Hart tərəfindən qazılmışdır. Onun miqyaslı istehsalı isə 2000-ci illərin əvvələrində “Devon Energy” şirkəti tərəfindən ABŞ-da Barnett (*Texas*) yatağında başlanmışdır ki, bu hadisə də mətbuat tərəfindən “qaz inqilabı” adlandırılmışdır. Hazırda dünyada şist qazının ehtiyatları 200 trilyon $m^3$ hesablanır. Hasilat çətinlikləri, texnoji problemlər onun maya dəyərinin təbii qazdan artıq olması ilə müşayiət edilir.

Bütün bunlarla yanaşı, hazırda tədqiqatlar bərpa olunan enerji mənbələrindən səmərəli istifadə perspektivliyinə yönəlmişdir. Lakin müvafiq istiqamətdə texnoloji, rentabellilik və s. bu kimi bir sıra spesifik problemlər hələ də qalmaqdadır. Belə ki, çaylar və termal enerji mənbələri planetin fasiləsiz enerji təminatına o qədər də adekvat deyildir. Bir sıra mülahizələrə görə, artan su anbarları Yer kürəsinin hərəkət ritminə təsirir göstərərək planetar təhlükə yaradır. Külək enerjisinin (*külək vasitəsilə pər rotoru*

*hərəkətə gətirilərək elektrik cərəyanının yaranmasına səbəb olur*) ənənəvi enerji mənbələrinə nisbətdə coğrafi, güc və iqtisadi rəqabətqabiliyyətliliyi, hələ ki, üstünlük ala bilmir. Günəş enerjisi (*günəş enerjisinin fotoelementlər vasitəsilə birbaşa elektrik enerjisinə çevrilməsi*) ilə bağlı da, hələ ki, çoxsaylı problemlər mövcuddur.

Alternativ enerji mənbələrinin axtarışı və ram edilməsi ilə yanaşı, mövcud resursların səmərəli istifadəsi və istismarı sahəsində də tədqiqatlar davam etdirilir. Son zamanlar neft və qazın alternativi kimi, ekoloji baxımdan üstün hesab edilən etanoldan geniş istifadə edilir. Etanol adi şərab spirtidir ($C_2H_5OH$). Onu istənilən şəkər tutumlu xammaldan - şəkər qamışı və çuğunduru, oduncaq, qarğıdalı, buğda, arpa və digər bu kimi bitkilərdən almaq mümkündür. Bir ton qarğıdalıdan 400 litrdən artıq etanol alınır. Hazırda dünyanın bir çox ölkələrində etanol istehsalı avtomobil yanacağı sferasına daxil olmuş və proses yeni hibrid yanacaqlı avtomobillər nəslini ərsəyə gətirmişdir. Bu məqsədlə dünyada əsasəndə nəhəng şəkər qamışı plantasiyaları olan Cənubi Amerika ölkələrində minlərlə xüsusi etanol satışı ilə məşğul olan yanacaqdoldurma məntəqələri fəaliyyət göstərir (*məs,. Braziliyada avtomobillərin təqribən 40%-i etanolla işləyir*). Lakin yeyinti məhsullarından yanacaq kimi istifadə edilməsinin dünyada ərzaq qıtlığına səbəb ola biləcəyi ehtimalının mövcudluğundan bu məsələyə mütəxəsislər ehtiyatla yanaşırlar.

Enerji ilə bağlı reallıqlara nəzər yetirdikdə görərik ki, bütün avtomobillər elektrik stansiyalarında istehsal olunan enerjidən iki dəfə çox enerji istehlak edirlər. Bir stəkan suda bir çəllək benzini əvəz edəcək qədər enerji toplusu vardır. Bir ton qarğıdalıdan 410 litr etanol almaq olar. Tez yetişən ağac plantasiyalarından isə hər hektardan il ərzində 40 ton oduncaq almaq mümkündür və 125 $km^2$-lik belə ərazi 80 min əhalisi olan şəhərin enerji təchizatını ödəmək imkanlıdır.

Analitik şərhi verilən bu perspektiv enerji alternativləri göstərir ki, bəşər sivilizasiyasının enerji təhlükəsizliyi heç də ümidsiz deyildir və bu istiqamətdə elmi-tədqiqatlar daha geniş vüsət alır, miqyaslı investisiya layihələri həyata keçirilir. Dünya energetikasının aparıcı dövlətləri əlverişli və rentabelli enerji növü olaraq nüvə enerjisinindən istifadəni optimallaşdırır və investisiyaların önəmli hissəsi problemin ən səmərəli elmi həllinə yönəldilir.

## 10.16. Təbiət-cəmiyyət qarşılıqlı münasibətləri və ekoloji vəziyyətin dəyərləndirilməsi

Təbiət anlayışı mikrodünyanı təmsil edən elementar hissəciklərdən başlayaraq özünün məkan miqyası ilə bizi heyran edən kosmik obyektlərdə qurtaran saysız-hesabsız hadisə və predmetlərdə ehtiva olunur. Məkan, zaman və genetik ölçü prizmasında isə təbiət özünün fundamental əsasına əbədi və ilk özülü - qeyri-üzvi tərkibli cansız və həmçinin də, onun məhsulu canlı təbiəti də daxil edir. Bununla belə, bəşəri sivilizasiya üçün təbiət görünüşü hələlik məlum kainatın həyat mövcudluğu çox incə və zərif canlı

qatı biosferası olan Yer planeti ilə məhdudlaşıb. Bütün kainatı və yaranışları əhatə edərək təbiət anlayışı özünün müvafiq praktiki mahiyyəti və forma çoxmüxtəlifliyində materiya anlayışı ilə üst-üstə düşür. Lakin təbiətin bu sayaq təsfir və şərhi zamanı təbiətlilik sosial aspekti üstələyərək aradakı sərhədləri silir, nəticədə əsas fəlsəfi problem - təbiət və insan, təbiət və cəmiyyət münasibətləri problemi məntiqi mənasını itirir. Ona görə də "təbiət" anlayışına insanın və insan cəmiyyətinin mövcudluğunun bütün məcmui təbii şərtləri kimi baxılmalıdır. Belə yanaşma isə insan və cəmiyyətin tarixən dəyişilən sistemində təbiətin rolunu və yerini daha aydın səciyyələndirir. Bütün bunlardan çıxış edərək təbiətə (*yunanca* - φύσις, *latınca* - natura, *ingiliscə* - nature - *təbiət*) yer üzündə təbii şərtlər (*yer səthi, bitki aləmi, iqlim*) məcmusu, üzvi və qeyri-üzvi dünya, insanın fəaliyyəti ilə əlaqədar olmayan yer üzündəki bütün mövcudatı əks etdirən tərif vermək olar.

Cəmiyyət (*society*) isə daimi münasibətlərdən əlaqədər bir-biri ilə bağlı insanlar qrupu və ya vahid siyasi hakimiyyətə tabe olan və dominant mədəniyyətli ümumi coğrafiya və ya sosial əraziyə malik böyük sosial qrupdur. Cəmiyyət təbiətin davamıdır. Məhz buna görə də təbiət özünün bir hissəsi və məhsulu olan insan tərəfindən, daha konkret isə cəmiyyət təbiətin materialı və onun qanunları əsasında qurulur. Lakin təbiətin xüsusi bir hissəsi olan cəmiyyət spesifikliyini təbiət və mədəniyyət arasındakı münasibətdən qaynaqlandırır. Bu konfiqurasiyada təbiət natura anlamında məxsusi qanunları və əsasları olan obyektiv reallığın insan tərəfindən toxunulmaz bir hissəsi kimi qəbul edilir.

Təbiətin və cəmiyyətin qarşılıqlı əlaqə və təsiri geosfera (*əsasən litosfer, hidrosfer və atmosferdsən ibarət bütün planeti əhatə edən konsentrik çoxqatlı səth*) və biosferanı (*həyatın mövcudatlığı zonaları*) əhatə edən ətraf mühitlə realizə olunur.

Vurğulanmalıdır ki, Yer əhatə edən hava təbəqəsi, atmosfer hissəsi (*yunanca* - ἀτμός - *buxar, və* σφαῖρα - *sfera*) 5 qatdan - troposfer, stratosfer, mezosfer, termosfer və ekzosferdən ibarətdir. Troposfer atmosferin alt qatı olub, orta qalınlığı 11 km, ekvatorda 17-18 km, mülayim enliklərdə 10-11 km, qütblərdə 7-8 km-dir. Stratosfer troposferin üzərində yerləşmiş və qalınlığı 55 km-ə qədərdir. Mezosfer stratosferin üstündə 55-80 km arasında yerləşmişdir. Termosfer (*bub qat bəzən ionosfer adlandırılır*) mezosferin üzərində 80 km-dən 800-1000 km arasında yerləşən Günəşin zərərli rentgen şüalarını udaraq, onların yerə düşməsinin qarşısını alan atmosfer qatıdır. Ekzosfer ən üst təbəqə olub, 3000 km-ə qədər davam edir. Atmosf Yer kürəsi ilə birlikdə fırlanır və onun qalınlığı təxminən 3 min km-dir. Atmosfer olmasaydı Günəş şüaları səpələnməz, səs yayılmazdı. Atomosfer, həmçinin, kosmosdan gələn meteoritləri öz havası ilə sürtərək alışıb yandırır və onların əksəriyyətinin Yerə çatmasını təmin edir. Atmosfer də çirklənməyə məruz qalır və bu çirklənmə iki - təbii (*vulkan püskürməsi, meşə yanğınları*) və insanın təsərrüfat fəaliyyəti nəticəsində baş verir.

Ətraf mühit (*environment*) bəşəriyyətin fəaliyyət və yaşayış mühiti, insanı əhatə edən təbiət və onun tərəfindən yaradılan maddi (*süni-texnogen*) dünyadır. Ətraf mühit

ümumiləşdirilmiş anlayış olaraq hər hansı bir ərazinin təbii şərtlərini və ekoloji vəziyyətini xarakterizə edir. Beynəlxalq müqavilələrdə bəzən ətraf mühit ətraf təbii mühit termini ilə əvəz olunur.

Təbii mühit (*natural environment*) ətraf mühitin bir hissəsi olaraq insanın, bitki, heyvan və başqa canlı orqanizmlərin yaşadığı mühiti əhatə edir.

İnsanın yaşayış mühitinə təsiri böyükdür. Bu təsir "ekoloji ayaq izi" anlayışını dövriyyəyə gətirmişdir. Ekoloji ayaq izi (*ecological footprint*) insanın yaşayış mühitinə təsiri ölçüsüdür. İstehsal üçün zəruri istehlak edilən ekoloji resurslar və sərf olunan tullantılar üzrə müvafiq ətraf ərazi ölçülərinin hesablanmasında istifadə olunur.

Bəşəri sivilizasiyanın ilk çağlarında ibtidai insanın tələbləri müqabilində istifadə edə biləcəyi təbii sərvət və qüvvələr toplumu çox məhdud idi. Bu toplum çeşidini isə barmaqla saymaq olardı. Hazırda isə bəşəri tələblər spektri o qədər genişlənmişdir ki, onun nomenklaturu bir neçə kitab cildinə belə sığmaz. Bunu demək kifayətdir ki, təkcə bir insanın müasir tələbini ödəmək üçün hər gün yer qatından 20 ton faydalı qazıntı çıxarılır. İnsanların sağlamlığına və əhvali-ruhiyyəsinə kosmik amillər, qravitasiya, atmosfer təzyiqi, günəşin aktivliyi və digər təbii enerji axınlarının ciddi təsiri var. Müvafiq təsirlər sferası sivilizasiyanın ilk çağlarında belə insanlara məlum idi. Bu baxımdan antik cəmiyyət fəlsəfəsində və mədəniyyətində əsas aparıcı ideya kosmosentrizm olmuşdur. Təbiətlə razılaşdırılmış həyat sistemi ideal seçilən bu dünyagörüşdə kainat, onun strukturu və harmoniyası xaosa qarşı qoyulurdu. Ona görə də təbiəti dərk etmək, onun sirlərini qavramaq varlığın ən vacib həyatı məsələlərdən biri hesab olunurdu. Orta əsrlərdə təbiətə yanaşma tərzində, onun dərk edilməsində cəsarətli dəyişikliklər baş verdi. Təbiətin ram edilməsində, ondan dolğun istifadədə yeni reallıqlar təzahür etdi. Bu təbəllüdatlar islam fəlsəfəsində, Şərq intibahında, sonralar isə Avropa renessansında cərəyan olundu. Sənayeləşmənin yaranışı isə təbiətin qiymətləndirilməsində yeni bir epoxial mərhələnin başlanğıcına çevrildi. Yeni mərhələni obrazlı formatda primitiv-istehlak tsikli kimi dəyərləndirmək olar. Belə ki, bu zaman çevrəsində təbiətə əvəzində heç nə vermədən ondan hər şey götürülən intəhasız sərvətlər anbarı, bərpaolunma və yenidənyaranış obyekti kimi baxılırdı. Kapital dünyasından qaynaqlanaraq genişlənən elmi, texniki-texnoloji nailiyyətlər təbiəti fəthetmədə antroposnetrizm ideyası təməlində insanın güclü və təbiət üzərində üstünlüyü illyuziyasını yaratdı. Bununla da, insanın təbiətdən daha da uzaqlaşması meyili yarandı. Beləliklə də, sientist-texnokratik formulunda təbiətə yanaşmada onunla sıx bağlı olan insanın birtərəfli-sosiologizator konsepsiyası meydana çıxdı. Nəticədə cəmiyyət-təbiət sistemində ekoloji böhran adlanan çətin situasiya yarandı. Bu formul XX əsrin ortalarına qədər təbiətlə cəmiyyətin qarşılıqlı əlaqələrinə, praktiki olaraq, uyğun idi. Məhz bu hüdud təbiətə yeni yanaşmanın formalaşmasının başlanğıcına çevrildi.

İndiyədək təbiət-cəmiyyət sistemində münasibətlər təhlilində cəmiyyətin təbiətdən asılılığına, onların qarşılıqlı üzvi əlaqəliliyinin aşkar edilməsinə xüsusi diqqət verilirdi.

Aydın idi ki, cəmiyyət təbiətlə maddələr mübadiləsi aparmadan inkişaf edə bilməz. Cəmiyyət təbiətə sosio-texnosfera vasitəsi ilə təsir edir. Sosio-texnosfera dedikdə bütöv cəmiyyəti yox, onun təbiətə təsir amili kimi çıxış edən müvafiq görüntüləri nəzərdə tutulur. Buraya hər şeydən əvvəl material-istehsal sistemləri, insanların ətraf mühitə təsir göstərən qeyri-istehsal fəaliyyət növləri, mədəniləşdirilmiş biosenozlar və insan tərəfindən təbii şəraitin modifikasiyası aiddir. Lakonik interpretasiyada sosio-texnosfera "ikinci təbiət" deməkdir.

Genişlənən müasir antropogen fəaliyyət bütün ekosferanı təsir altında saxlamaqdır. Ekosfera (*ecosphere*) troposferi - atmosferin alt qatını (*8-16 km qatı*), bütün hidrosferi - su qatını və litosferi - yerin qalın qatının yuxarı hissəni əhatə edən canlı orqanizmlərin ətraf mühitlə qarşılıqlı əlaqəsi məkanıdır. Ekosferaya çox zaman biosfera anlayışının sinonimi kimi də baxılır.

Qiymətləndirməyə görə, kənd təsərrüfatına yararlı bütün torpaqların 70%-i, meşələrin 50%-i, içməli suyun 1-%-i, sənaye balıqlarının 70%-i istifadə altındadır. Son yüz ildə cəmiyyətin enerji resursları min dəfə, əmtəə və xidmətlər istehsalı isə həcmcə hər 15 ildə ikiqat artmışdır.

Hələ 40-50 il öncə üfüqdə görünən elektrik xətləri və sobaların ərşə çıxan boruları inkişafın simvoluna çevrilmişdi. Biz yeni müəssisələr tikintisini irəliyə addım kimi qəbul edirdik. Bu gün isə fərqli olaraq bu yaranışlara daha çox ətraf mühitin çirklənməsi və bəzən də insan həyatı üçün təhlükə mənbəyi kimi də baxılır. Havaya karbon tərkibli maddələr buraxılışının, istixana effektinin təsir gücü yüksəlişi ilə ozon ekranının qatları daralır və nəticədə ültrabənövşəyi şuaların təhlükəsi artır, atmosferin deformasiya prosesi daha da dərinləşir. Dünya okeanına hər il 50 min ton pestisid və 5 min ton civə tökülür. Bu gün yer üzərindəki çayların 30%-i çirklənmiş, dünya okeanın üst qatının $^{1}/_{5}$ hissəsi neft örtüyünə bürünmüşdür. Yeraltı sular da aktiv çirklənməkdədir. Yer üzünün 2 milyard sakini çirklənmiş sudan istifadə edir və bu da inkişaf etmiş ölkələrdə 80% xəstəliklərə müşayiət olunur. Ümumilkdə isə dünya əhalisinin 40%-i içməli su sarıdan problemlərlə üzləşir. Planetin ciyərlər funksiyasını yerinə yetirən meşələrin son 30 ildə 30%-i qırılmış və hər dəqiqə meşə sahələri 1 hektar azalmaya məruz qalır. Yaranış tarixi boyu 20 milyon km$^2$-dən artıq torpaq resursu məhv olmuşdur. Eroziya (*latınca* - erosio - *ayırma*) dağ suxurlarını, bütövlükdə quru səthini aşındıran, dağıdan, bütün təbii proseslərin (*su, külək, buzlaq, qaravitasiya və s.*) məcmusu prosesi yenə də meyillidir və onillik tsiklərdə torpağın üst qatından 1%-i mütəmmadi itir, torpaqlardan düzgün istifadə edilmədiyi halda hər il 6 milyon hektar ərazi səhraya çevrilir və hər 10 il ərzində isə məhsuldar torpaqların 7%-i istifadədən çıxır. Bütün geoloji zaman ərzində eroziya sürəti torpaq yaranışı prosesinin sürətini aşmış və torpaq qatında 15-25 sm qalınlıqlı çürüntü təbəqəsi yaratmış, bütün yaranış tarixi boyu 20 milyon km$^2$-dən artıq torpaq resursları məhv olmuşdur. Hər il yerin təkindən 80 milyard ton filiz və qeyri-filiz hasil edilir ki, onun da yalnız 3-4%-indən səmərəli istifadə olunur və qalan 96-97%-i təbiətə zəhərli maddələr qismində tullanılır. Bunlar azmış kimi, kosmik fəzada da 50 mindən çox irili-xırdalı obyektlər yığıntısı mövcuddur.

Təbiətdə baş verən bu dəyişiklər insan sağlamlığına təsir etməyə bilməz. Ona görədir ki, son vaxtlar "sivilizasiya xəstəliyi" deyilən allergiya, toksik şüalanma, xərçəng, nəfəs borusunun tutulması, ürək-damar xəstəlikləri geniş yayılmışdır. Bütün bunlar ekoloji fəsadlarla müşayiət olunaraq təbiətin tarazlığını pozur.

Yaşadığımız məkanda ekologiyanın son bir neçə onillikdə meydanı genişlənsə də, elmi sferada onun ilk görüntüləri XIX yüzillikdə təzahür etmişdir. Yunan mənşəli ev, yaşayış yeri və bu kimi analoji anlamları ifadələndirən "ekos" - "ekologiya" (*yunanca* - οικος - *ev, yaşayış məskəni və* λόγος - *təlim, elm*) məfhumunu ilk dəfə klassik darvinizm nümayəndəsi Ernest Hekkel 1866-cı ildə elmi dövriyyəyə buraxmışdır. Öncə bitkilərin, canlı orqanizmlərin həyat birliklərinin, ətraf mühit problemlərini tədqiqat predmeti seçən ekologiya, karbohidrogen erasının XX əsrdə yüksəliş tapan templəri və bu əsnada insanın təbiətə təsirinin artması fonunda ekosistemin və biosferin bütün qatlarını inhisara alan çağdaş bir elmə çevrilmişdir.

Ekosistem, ekoloji sistem (*yunaca* - οἶκος - *ev, yaşayış yeri*, və σύστημα - *sistem*) bir-biri ilə maddələr və enerji mübadiləsi aparan canlı orqanizmlər (*biosenoz*) və onların yaşayış mühitini (*biotop*) əhatə edən təbiət kompleksidir. Anlayış kimi müxtəlif ölçü və mürrəkkəblikdə olan təbiət obyektlərinə (*okean, gölməçə, meşə və ya ayırca ağac növlü meşə zolağı*) tətbiq olunur. Termin olaraq ilk dəfə 1935-ci ildə dünyanın ilk ekoloqlarından sayılan ingilis biotaniki Artur Tensli (*1871-1955*) tərəfindən dövriyyə çıxarılmışdır. Vurğulanmalıdır ki, planetin bütün ekosistemi həm də unikal hadisə olan fotosintezdən asılıdır.

Fotosintez (*yunanca* - φῶς - *işıq. və* σύνθεσις - *birləşmə, bağlantı*) işıq enerjisi hesabına karbon dioksidli havadan qazı və sudan fotosintetk piqmentlərin (*bitkilərdən - xlorofil, bakteriyalardan bakterioxlorofil və bakteriorodopsin*) udulması ilə üzvi maddələrin yaranması hadisəsidir. Fotosintez etmək qabiliyyəti yaşıl bitkilərin əsas xüsusiyyətlərindən biridir. Belə ki, yaşıl bitkilər və həmçinin, bəzi mikroorqanizmlər günəş şüaları enerjisini üzvi maddələr şəklində kimyəvi enerjiyə çevirilər. Fotosintez zamanı işıqda üzvi maddə yaranması ilə bərabər, həm də ətraf mühitdə oksigen xaric edilir. Fotosintez yeganə bioloji prosesdir ki, proses ərzində özündən ayrılan sərbəst kimyəvi enerji yer üzünün canlılarını təmin edir. Fotosintez hadisəsi nəticəsində hər il yer üzündə atmosferindən 300 milyard ton karbon qazı ($CO_2$) və hər il atmosferə 200 milyard ton sərbəst oksigen ($O_2$) daxil olur.

Ekologiya XX əsrin 70-ci illərində Avroatlantik məkanda sənaye yenidənqurması epoxası ərəfəsində predmet spektrini genişləndirərək daha dolğun bəşəri və sosial mahiyyət kəsb etmişdir. Onu, termin olaraq, ilk dəfə sovet məkanında ədəbiyyata məşhur qırğız yazıçısı Çingiz Aytmatov (*1928-2008*) gətirmişdir. 1980-ci illərdə qələmə aldığı "Ölüm kötüyü" romanında görkəmli yazıçı genişlənən təsərrüfatçılıqla əlaqədar çobanların yeni otlaqlar axtararaq, əvvələr insan ayağının dəymədiyi dağlıq ərazilərə qalxmasına, bununla da həmin yerlərdəki canavarların öz daimi yaşayış areallarından sıxışdırılaraq, qeyri-münasib və sərt iqlimli zirvələrdə məskən salmağa məcbur

olunmasına diqqəti cəlb etmişdir. Münasib olmayan belə yerdəyişmə isə, öz növbəsində, canavarların populyasiyasına təsir etmiş və həmin ərazilərdə qərarlaşmış ənənəvi ekoloji tarazlıq pozulmuşdur.

Müasir ətraf mühitin qorunması konsepsiyası dövlətin ekoloji siyasətindən aslıdır. Ətraf mühitin çirklənməsi, zərərləşmiş ərazilərin bərpası böyük xərclər tələb edir və bu xərclər əksərən kompensasiya ödənişləri hesabına gerçəkləşdirilir. Belə bərpa prinsipi isə profilaktik və yetərli maliyyə imkanlı olmur.

### 10.17. Qlobal ekoloji problemin mahiyyəti və səbəbləri

Qlobal ekoloji problem ətraf mühitin qorunmasında cəmiyyətlə təbiətin qarşılıqlı təsirini əhatə edir. Qlobal ekoloji problem (*global environmental problem*) təbiət-cəmiyyət qarşılıqlı münasibətləri sistemində meydana çıxan, planetar səciyyə daşıyan və həll edilməsi zəruri, təxirəsalınmaz, kəskin və mürəkkəb olan ekoloji problemlərin məcmusudur.

Əsas qlobal ekoloji problemlər sırasında aşağıdakılar yer alır:

❍ təbii ehtiyatların tükənməsi təhlükəsi;
❍ ətraf mühitin çirklənməsi;
❍ təbii mühitin mühafizəsinin pozulması;
❍ əhalinin yaşayış vasitələri ilə təmin olunmasının pisləşməsi.

Bir ölkənin gücü dairəsində olmayan, ümumbəşəri məzmun daşıyan qlobal ekoloji problemlərin həlli bütün dünya ölkələri və beynəlxalq təşkilatların birgə səylərini tələb edir. Ekoloji problemin özəyində ekoloji təhlükəsizlik dayanır. Ekoloji təhlükəsizlik (*environmental security*) ekoloji təhlükəli təbii və antropogen amillərin ətraf mühitə və insana neqtiv təsirinin mümkün qəbul edilə bilən həddi. Ekoloji təhlükəsizlik ölkənin milli təhlükəsizliyinin ümumi sisteminin tərkib hissəsi kimi çıxış edir.

Ekoloji problemlərin qlobal xarakter alması XX əsrin II yarısında ortaya çıxan ETT ilə bağlıdır. Belə ki, ETT-nin inkişafı təbii resursların intensiv istifadəsinə aparır, nəticədə ətraf mühitə zərərli təsir yüksəlir və təbiətin tarazlığı pozulur. Məhsuldar qüvvələrin inkişafı, ETT-nin genişlənməsi insanın təbiətə industrial müdaxiləsini intensivləşdirmiş və bütünlükdə planeti praktiki olaraq öz fəaliyyəti inhisarına almışdır. Sivilizasiyanın indiki mərhələsində bütün bərpaolunan resurslardan istifadə edilir və bu istifadə dərəcəsi onların yeniləşmə balansına yaxınlaşır.

Qlobal ekoloji problemin bir sıra amil və səbəblər nəticəsində kəskinləşir. Bu kəskinləşmənin səbəbləri aşağıdakılardır:

❒ məişət tullantılarının vaxtında məhv edilməməsi;
❒ atmosferə zəhərli qazların buraxılması;
❒ kanalizasiya və çirkab suların yetərincə təmizlənməməsi;
❒ sənaye müəssisələri və radioloji stansiyalar;
❒ okean və dənizlərdə gəmilərin qəzaya uğraması;

❒ meşə yanğınları, tufan və daşqınlar, flora və fauna xəstəlikləri;
❒ eroziya proseslərinin güclənməsi, çölləşmənin sürətlənməsi;
❒ müharibələr, kütləvi qırğın silahlarının sınağı;
❒ qlobal istiləşmə;
❒ brakonyerlik.

Çölləşmə (*ingiliscə* - desertification - *çölləşmə, səhralaşma*) insan fəaliyyəti (*antropogen səbəbləri*) və təbii amil və proseslər nəticəsində Yer kürəsinin quraq və yarıquraq sahələrində torpaqların deqradasiyaya uğramasıdır.

Meşəsizləşdirmə (*ingiliscə* - deforestation - *meşələrin qırılması*) meşələrin ağac örtüyü olmayan boş yerə, otlağa, şəhər və meydan sahələrinə, həmçinin, digər torpaq ərazilərinə çevrilməsi prosesidir. Əsas səbəb qırmaq və ya yandırmaqla meşə sahələri digər məqsədlər, xüsusən də kənd təsərrüfatının istifadəsinə verilməsi və ya meşə materialı əldə etməklə onun yetərli olmayan və yetərsiz bərpasının həyata keçirilməməsidir. Bunlarla yanaşı meşə sahələri təbii hadisələr, iqlim dəyişmələri, qasırğa, xəstəliklər, yanğın, subasma və antropogen amillə bağlı yaranan fəsadlar nəticəsində də meşəsizləşdirməyə məruz qalır.

Nüvə enerjisinin törətdiyi radioaktiv çirklənmə ətraf mühitə təsir edən mühüm amillərdən hesab edilir. AES-lərin istismarı dünya miqyasında hər il 400 milyon ton neft və ya 600 milyon ton daş kömür qənaətinə səbəb olar. AES-lərin istismarı dayanarsa, ətraf mühitə əlavə olaraq 2 milyard ton karbon qazı, 30 milyon tondan çox azot oksidi, 50 milyon ton kükürd və 4 milyon ton kül buraxılmış olar.

Qlobal ekoloji problemə ayrı-ayrı tədqiqatçılar və təşkilatlar tərəfində müxtəlif yanaşmalar mövcuddur. Ekoloji pessimizm cərəyanının nümayəndələri (*C.Forrestr, D.Medouz, R.Xeyl-Broner, A.Erlix və s.*) bəşəriyyət qarşısında dayanan qlobal problemlərin (*mineral resursların tükənməsi, ətraf mühitin çirklənməsi, ərzaq təminatı və s.*) həllinin əhali artımını dayandırmadan mümkünsüz olacağını hesab edirlər. Texnoloji evdemonizm elmi-texniki optimizm cərəyanının nümayəndələri (*D.Bell, Q.Kan, E.Toffler, B.Judenel, J.Furastye, O.Flemheym, K.Frimen, D.Qabor və s.*) müasir dünyanın bütün qlobal problemləri, o cümlədən ekoloji problemlərin ETT-nin tərəfindən həllinə qovuşacağı qənaətindədilər.

Ekoloji problemin tənzimlənməsi üçün müxtəlif konsepsiyalar və təkliflər irəli sürülür. Bunlar içərisində aşağıdakı tənzimləmə tədbirləri daha ümümi hesab edilir:
❒ ətraf mühitin mühafizəsinin kompleks proqramlarının qəbulu;
❒ ətraf mühitin çirklənməsinin prinsip və normalarının təsbiti;
❒ texnologiyaların ekoloji təmizlik dərəcələrinin müəyyən edilməsi;
❒ ekoloji zərərlərin müəyyənləşdirilməsi, iqtisadi sanksiyaların tətbiqi;
❒ tullantılardan istifadə rejimlərinin müəyyən olunması;
❒ ekoloji nəzarət və qiymətləndirilmə monitorinqinin aparılması;
❒ ekoloji reqlamentasiya aparılması, ekoloji vergilər tətbiqi;
❒ ekoloji təmiz məhsul istehsalı, istehlakı və yoxsulluqla mübarizə;
❒ beynəlxalq təsisatlandırmaların genişləndirilməsi və ekoloji qloballaşma.

Qlobal ekoloji problemlərin həllində bəşəriyyətin bərpaolunan enerji mənbələrindən istifadəyə keçidi mühüm şərtləndirilir. Həmçinin, dünya iqtisadiyyatının xammal bazası da köklü dəyişdirilməsi, avtomobillər hidrogenlə işləyən mühərriklərlə, gələcəkdə isə digər ekoloji enerji mənbələri ilə təchiz olunması vacibdir. Hər şeydən əvvəl cəmiyyətin təbiətə olan münasibətini kökündən dəyişmək gərəklidir. Bunun üçün ekologiyalaşmış istehsalın texnoloji üsulunu formalaşdırmaq lazımdır. İnsanın fəaliyyəti nəticəsində təbii maddələr və enerji yaranışlarının idarəolunması məhz, təbii proseslər və mexanizmlər vasitəsi ilə reallaşmalıdır. Bundan başqa, yeni elmi və mühəndis-konstuksiyalı, resursqoruyucu texnika və texnologiya əsaslı təkrar istehsala üstünlük verilməlidir. Nəhayət əsas məsələlərdən biri də istehsalda təbiət proseslərindən istifadəni təmin edən prinsipcə yeni texnologiyalar yaradılmalı, mənimsənilməlidir ki, cəmiyyətlə təbiətin harmonikliyi əldə olunsun. Həmçinin, iqtisadiyyatın bütün sektorlarının tam ekologizasiyası ilə yanaşı, təbiətlə cəmiyyət arasında optimal əlaqəliyin təminatına məsul olan vacib şəbəkə və mexanizmlər yaradılmasına da nail olunmalıdır. Bütün bu gerçəkliklər isə kosmik və geoloji güc ahəngdə biosferin şüur sferası olan noosferaya keçidin labüdlüyünü şərtləndirmişdir. Noosfera (*yunanca* - νόος *və* σφαῖρα - *kürə*) ağıl sferası; sərhədlərində insanın şüurlu fəaliyyətinin inkişafın təyinedici amili kimi dayandığı cəmiyyətlə təbiətin qarşılıqlı təsir sferasıdır. Noosfera təşəkkülü təbiət proseslərinə dərin təsirdə cəmiyyətin inkişafı ilə bağlı gözləntili olan biosferanın yeni ali təkamül mərhələsidir. Elmi termin kimi noosfera ötən 1920-ci illərində fransalı alim Eduard Lerua (*1870-1954*) tərəfindən döriyyəyə buraxılmış və fransalı filosof Teyyar de Şarden (*1881-1955*) və rus alimi Vladimir Vernadski (*1863-1945*) tərəfindən mahiyyət həlqəsini genişləndirmişdir.

## 10.18. Ekoloji iqtisadiyyat, dayanıqlı inkişaf konsepsiyası və qlobal ekoloji problemləri tənzimləyən beynəlxalq konvensiyalar

Bəşəri sivilizasiyanın müasir mərhələsində insan sosiumunun inkişafı, idrakı, mədəni dəyərlərin yüksəlişi sosial və ekoloji aspekti önə çıxarır. Hər şeyin insanın tələblərinin dolğun təmin olunmasına, onun yaşayışının yüngülləşməsinə xidmət etməsi düşüncələrə hakim kəsilmişdir. Bu baxımdan elmlərin ekologizasiyası prosesində sosiologiyanın ekologiya ilə çarpazlaşması prosesi baş vermiş və sosial ekologiya adlanan yeni elm sahəsi formalaşmışdır. Daha çox antropoloji məqamları hədəf götürən sosial ekologiya (*social ecology*) cəmiyyətin coğrafi, sosial və mədəni mühitlə münasibətlərinin tədqiqi ilə məşğul olan elmi təlimdir. O, cəmiyyət-təbiət sistemində insan cəmiyyətinin ətraf mühitlə qarşılıqlı hərəkət və qarşılıqlı rabitədə münasibətlərini öyrənir.

Ekoloji problemlərin artan təsir gücü əksər elmlərin tədqiqat sferasına daxil olmuş və eyniliklə də iqtisadiyyatın ekologizasiyasına gətirmişdir. Ekoloji iqtisadiyyat (*economic ecology*) iqtisadiyyatın ekoloji məhdudlaşmalarla inkişafına əsaslanan, iqtisadi

inkişafın qənaətli, ekoloji müqabilli və daha optimal təminantlılıqda ehtiva olunan "iqtisadi cəmiyyət" axtarışını hədəf seçən elm sahəsidir. Onun mahiyyətini mənşəcə təsərrüfat fəaliyyətinin ətraf mühitə təsirinin qiymətləndirilməsinin uzlaşması ilə bağlılıqda, ənənəvi neoklassik və resurs iqtisadiyyatının sintezi təşkil edir.

Ekoloji iqtisadiyyatın əsasını üç konsepsiya formalaşdırır:

❖ ekoloji-iqtisadi sistemin emal bacarığı;
❖ ekosistemin aparıcılıq qabiliyyətliliyi;
❖ entropiya (*yunanca* - ἐντροπία- *dönüş*).

Ekoloji iqtisadiyyat yoxsulluq, aclıq və epidemiyanın problemlərini daha effektli həll etmək iqtidarındadır. Onun inkişaf nəticələri sənayenin yeni sahələrinin açılmasına, insanlar daha çox bərpaolunan enerji mənbələrindən istifadə sistemlərinə keçidinə təkan verəcək və yeni peşələrin yaranacağını labüd edəcəkdir. Belə ki, geotermal enerji mənbələrinin axtarışını həyata keçirən geotermal-geoloq, külək və günəş enerjisinin elektrik enerjisinə çevrilməsi sistemində ixtisaslaşan mühəndis, suyu maksimal dərəcədə istifadəetmə mütəxəssisi, hidroloq, ekoloji iqtisadçı və digər bu kimi ekoloji təyinatlı yeni peşə formaları yaranacaqdır. Biologiyanın geniş inkişaf edəcəyi ilə bağlı çox uzaq olmayan gələcəkdə neftqazçıxarma mədənlərinin kənd təsərrüfatı, balıqçılıq təsərrüfatının isə balıqçılıq fermaları ilə əvəzlənməsi reallaşacaqdır. Mümkün istifadə imkanları yarandıqca batareya və əzələ ilə işləyən yeni ictimai nəqliyyat növlərinin yaranışı, meqopolislərin tədricən itəcəyi də bu perspektivdə ehtimal ediləndir.

Ekosivil cəmiyyət quruculuğunda müxtəlif konsepsiyalar mövcuddur. Bunlardan ən önəmlisi Davamlı İnkişaf Konsepsiyasıdır. Belə ki, konsepsiyanın hələ də alternativi yoxdur. Ətraf mühitə minimal zərərlə optimal inkişafa nailolma Davamlı İnkişaf Konsepsiyasının təməlini təşkil edir. Dayanıqlı İnkişaf Konsepsiyası (*The Concept of Sustainable Development*) bütün insanların bərabər səviyyədə ən zəruri tələbatlarının ödənilməsinə əsaslanan, hazırki dövrdə bütün tələbatları ödəməklə yanaşı, həmçinin, gələcək nəsillərin də tələbatlarını ödəmək qabiliyyəti və istəyində təhlükəsizliyini təminatlandıran yeni sosial-iqtisadi paradiqmadır. Konsepsiya görə gələcək nəsillərə əlavə xərclər qalmır, təkrar istehsal daim genişlənir, xarici effektlər minimuma enir. Davamlı İnkişaf Konsepsiyasının əsasını ekoloji, iqtisadi və sosial tapşırıqların harmoniyasında mərkəzləşən triada təşkil edir. Beynəlxalq arenada "Dayanıqlı inkişaf" anlayışı Təbiəti beynəlxalq mühafizə ittifaqının, Dünya təbiət fondunun və BMT-nin ətraf mühitin mühafizəsi ilə ixtisaslaşdırılmış təşkilatı - UNEP-in 1980-ci ildə birgə hazırladıqları təbiəti mühafizənin beynəlxalq strategiya sənədlərində əksini tapmışdır. Birləşmiş Millətlər Ətraf Mühit Proqramı, UNEP (*The United Nations Environment Programme*) konkret olaraq üzv dövlətlərin ətraf mühitlə bağlı fəaliyyətini koordinasiya edir, inkişaf etmiş ölkələrin ətraf mühit siyasətlərinin və təcrübələrinin implementasiyasını (*icrasını*) həyata keçirir. Təşkilat 1972-ci ilin iyununda "Birləşmiş Millətlərin İnsan Mühiti konfransı"ndan sonra yaradılmışdır. Mənzil-qərargahı Keniyanın paytaxtı Nayrobi şəhərində yerləşir. Bundan başqa, UNEP-in ayrı-ayrı ölkələrdə 6 regional və digər müxtəlif ofisləri də vardır.

BMT-nin təşəbbüsü ilə 1992-ci ildə Brazilyanın Rio-de-Janeyro şəhərində ətraf mühitə zərər vermədən iqtisadiyyatın irəliləyişinə, kasıb və varlı ölkələr arasında fərqin azaldılması ilə bütün sferalarda partnyorluq münasibətlərinin genişlənməsinə nailolmanı hədəf seçən "Yer problemləri üzrə yüksək səviyyəli görüş" adlı beynəlxalq konfrans keçirilmiş, 179 dövlət başçısı BMT-nin dayanıqlı inkişafa aid komissiyasını yaradaraq planetin mühüm iqtisadi və ekoloji problemləri sahəsində beş əhəmiyyətli saziş imzalamış, sosial tərəqqinin ən ümdə prinsiplərində əks olunan "XXI əsrin gündəliyi" adlı qərardat qəbul etmişlər. 2002-ci ildə yerinə yetirilmiş işlərin yekunu və gənc nəslin qarşıdakı mərhələdə müvafiq məsələlərin həllində vəzifələrinin təyinatı məqsədli CAR-da Yohannesburq şəhərində "Rio+10" adlı eyni məzmunlu yeni ümumdünya sammiti keçirilmişdir. Daha 10 il ötdükdən sonra 2012-ci ildə yenidən Rio-de-Janeyrada "Rio+20" konfransı keçirilmişdir. Bu konfransda ölkə liderləri özəl sektorun minlərlə nümayəndələri, elmi-təqiqat təşkilatları və digər qruplarla birlikdə yoxsulluq səviyyəsini azaldan, sosial ədalətin inkişafına təsir edən və ətraf mühitin qorunmasını təmin edən amilləri nəzərə alacaq strategiya işləmişlər.

Dayanıqlı inkişaf məsələri Minilliyin Bəyannaməsinə qoşulmuş Azərbaycan Respublikası üçün də aktual səciyyə daşıyır. Ölkədə bu istiqamətdə mühüm addımlar atılır, kompleks tədbirlər həyata keçirilir. Azərbaycan BMT-nin üzvü olan dövlətlərin 2015-ci ilin 25-27 sentyabr tarixlərində keçirilən Dayanıqlı İnkişaf Sammitində 2016-2030-cu illər üçün təsdiqlənmiş Dayanıqlı İnkişaf Məqsədlərinə qoşulmuşdur. Qarşıya qoyulmuş məqsəd və hədəflər dayanıqlı inkişafın iqtisadi, sosial və ekoloji aspektlərini əhatə etməklə, Minilliyin İnkişaf Məqsədlərinə əsaslanır və növbəti inkişaf istiqamətlərini müəyyənləşdirir. Dayanıqlı İnkişaf Məqsədlərinin icrasının institusional və siyasi baxımdan kompleks yanaşma tələb etdiyini nəzərə alaraq, Azərbaycanda daha dayanıqlı, əhatəli və şaxələndirilmiş iqtisadiyyatın inkişaf etdirilməsi, sosial sahələrin tarazlı inkişafının təmin edilməsi üçün səmərəli milli icra mexanizminin formalaşdırılması xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan, Azərbaycan Respublikası Prezidentinin 6 oktyabr 2016-cı il tarıxlı Fərmanı ilə Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradılmışdır. Həmin fərmanda göstərilir ki, yaradılan şuranın əsas məqsədi 2030-cu ilədək Azərbaycan üçün əhəmiyyət kəsb edən, qlobal məqsəd və hədəflərə uyğun milli prioritetləri və onlara dair göstəriciləri müəyyən etməkdən, ölkədə sosial-iqtisadi sahələri əhatə edən dövlət proqramlarının və strategiyaların Dayanıqlı İnkişaf Məqsədləri ilə uzlaşdırılmasını təmin etməkdən, habelə Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması ilə əlaqədar illik hesabat hazırlamaqdan ibarətdir.

Məlumdur ki, karbon qazı atmosferdə, istixanalarda, oranjereyalarda olduğu kimi günəşin şüa enerjisini buraxır və bunun əksinə olaraq, Yerin istilik şüasını saxlayır. Nəticədə "İstixana effekti" adlanan hadisə baş verir. "İstixana effekti" (*greenhouse effect*) qazların qızması ilə atmosferdə yaranan istilik enerjisi nəticəsində planetin yuxarı qatlarında temperaturun yüksəlməsi hadisəsidir. Bununla karbon dioksidinin atmos-

ferdə qalması prosesi artır. Bu meşələrin yanğını, qırılması, sənayenin ətraf mühiti çirkləndirməsi ilə daha da qabarıqlaşır.

Yer üzündə canlıları günəşin ulturabənövşiyi şüalarından müdafiə edən və iqlim şəraitinə təsir göstərən atmosferin mühüm hissəsi ozon qatı (*ozone layer*) hesab olunur. Ozon qatının pozulmasına, deşilməsinə azot turşusu, ağır metallar, o cümlədən xlor, ftor və brom ciddi təsir edir. 1978-ci ildə Antarktidanın üzərində iri ozon dəliyinin olması müşahidə edilmişdir. Son illər peyklər vasitəsi ilə belə dəliklər Arktikada, ABŞ-da Avropada və Rusiya üzərində görünmüşdür. 1995-ci ildə Şərqi Sibirdə rekord ölçüdə, sonradan isə 1996-cı ilin sonunda Antarktida üzərində ən nəhəng ozon dəliyi müşahidə olunmuşdur. Bu aspektdə sivilizasiyanın perspektivləri o qədərdə ürəkaçan deyildir. Bütün bunlar, öz növbəsində, dünyada qlobal istiləşməyə, iqlim dəyişikliklərinə gətirir. Göründüyü kimi zərərli qazların iqlimə təsiri böyükdür. Təkəmüllü olan belə təsir qlobal istiləşməyə səbəb olur. Qlobal istiləşmə (*global warming*) XX və XXI əsrlərdə Yerin və Dünya okeanının atmosferinin orta illik temperaturunun tədricən artması prosesidir. BMT iqlimin dəyişməsi üzrə dövlətlərarası ekspertlər qrupunun “Böyük səkkizlik” ölkələrinin milli elmlər akademiyaları ilə razılaşdırılmış mövqeyi ondan ibarətdir ki, Yer üzrə orta temperatur sənaye inqilabı başladığı vaxtdan (*XVIII əsrin ikinci yarısından*) 0,7C yüksəlmiş, və “son 50 il ərzində müşahidə olunan ən böyük istilik payı insanın fəaliyyəti, ilk növbədə istixana effekti doğuran $CO_2$ - karbon və $CH_4$ - metan qazlarının tullantılarından meydana gəlmişdir. BMT iqlimin dəyişməsi üzrə dövlətlərarası ekspertlər qrupunun iqlim modelləri üzrə hesabatından alınan qiymətlər deyir ki, XXII əsrin əvvəllərinə Yer səthinin orta temperaturu 1,8 dəfə artaraq 3,4C-yə çata, bununla da ayrı-ayrı regionlarda temperatur da bir qədər aşağı düşə bilər. Eyni zamanda dünya okeanının səviyyəsinin yüksəlməsi ilə qlobal temperaturun yüksəlməsi atmosfer yağıntılarının miqdarında və bölgüsündə dəyişikliklərin yaranması ilə müşayiət olunar. Nəticədə təbiət kataklizmləri: daşqınlar, quraqlıqlar, qasırğalar və s. sürətlənə bilər. İstiləşmə çox ehtimal ki, belə halların tezliyini və miqyasını artırmalıdır.

Qlobal temperaturların yüksəlməsinin mümkün nəticəsi zəif inkişaf etmiş Afrika, Asiya və Latın Amerikası ölkələrində kənd təsərrüfatı bitkilərinin məhsul yığımının aşağı düşməsi və inkişaf etmiş ölkələrdə məhsul yığımının (*karbon qazının konsentrasiyasının artması və vegetasiya dövrlərinin uzadılması hesabına*) artması ilə də bağlanılır.

İqlimin istiləşməsi bir çox növlərin areallarının qütb zonalarına yerdəyişməsi, həmçinin, azlıq təşkil edən növlərin və mövcudluğu təhlükə altında olan sahilyanı zona və adalarda yaşayanların ölüb yox olması ehtimalını artıra bilər.

Bir sıra tədqiqatçılar belə hesab edirlər ki, qlobal istiləşmə əfsanədən başqa bir şey deyildir. Bir qismi tərəfindən isə insanın bu prosesə təsiri ehtimalını rədd olunur. Bu sırada elələri də vardır ki, istiləşmə faktını təkzib etmir, onun antropogen xarakterini qəbul edirlər. Lakin bununla belə, onlar iqlimə təsirlərin üstün təhlükəlisinin istixana qazlarını çoxaldan sənaye tullantıları amilə ilə razılaşmırlar.

Atmosferin iqlim rejiminin pozulması yer qabığının tektonik tarazlığını deformasiyaya uğradaraq zəlzələlər, vulkan püskürmələrinin baş verməsinə, tufanlar, daşqınlar, çovğunlar, quraqlıqlar və başqa analoji fəsadların yaranmasına səbəb olur. ABŞ-da, Aİ-də və Yaponiyanın iqlimin tədqiqinə iri miqyaslı vəsaitlər ayırılırmışdır. Bütün bu proseslər planetin flora və faunasına, başlıca olaraq isə təbiətin əsas elementi, dünyanın əşrəfi olan insana təsir etməyə bilməz. Bütün bunlardan irəli gələrək tanınmış amerikan ekoloqu Lister Rassel Braun (*1934*) dünya qlobal yenidənqurmaya ehtiyaclıdır və ətraf mühiti qoruyan "ekoloji iqtisadiyyat" yaratmaq zəruridir fikri ilə çıxış etmişdir. Onun zənnincə, asta da olsa, bəşəriyyət özünü məhvə aparır. Ətraf mühitə planetar miqyasda ən çox neft-qaz, daş kömür və avtomobil nəqliyyatından istifadə təsir göstərir. Məhz buna görə də gec-tez bəşəriyyət iqtisadiyyatın əsasını dəyişmək zorunda qalacaqdır. 1985-ci ildə "Ozon qatının qorunması haqqında Vyana Konvensiyası", 1987-ci ildə "Ozon qatını dağıdan maddələr haqqında Monreal Protokolu" ozon dağıdıcı maddələrin istehsalını və tətbiqini qadağan etmişdir.

Bəşəriyyətin davamlı sivil yaşayışı üçün dünyanın iqtisadi inkişaf strategiyasının dəyişkənliyi labüddür. İqtisadiyyatın ətraf mühitə ciddi təsiri danılmaz faktdır. Bununla belə, iqtisadi quruculuq təbiət təmasları ilə qarşılıqlı münasibətdə tərəqqi edir.

Hal-hazırda təbiətin və iqlimin iqtisadi həyata təsir meyili müxtəlif cür dəyərləndirilir. Yaponiyanın Kioto şəhərində 1997-ci ildə qəbul edilən protokola - iqlim dəyişiklikləri haqqında BMT-nin çərçivə sənədinə görə (*192 ölkə tərəfindən imzalanmış*) sənayecə inkişaf etmiş ölkələr 2008-2012-ci illərdə istixana qazlarının - $CO_2$ emissiyasının orta hesabla 1990-cı ilə nisbətdə 5% azaldılmasını təmin etməli idilər. Lakin bu protokolu imzalayan bir qism ölkələr müəyyən mülahizələrlə müvafiq öhdəliklərin yerinə yetirilməsini təmin etməmişlər. Sonradan "Kioto protokolu" (*UNFCC*) üzrə bir sıra konfranslar keçirilmiş və müvafiq qərarlar qəbul edilmişdir. Bu istiqamətdə 192 ölkənin iştirakı ilə 2009-cu ildə Danimarkanın paytaxtı Kopenhagendə keçirilən beynəlxalq iqlim dəyişiklikləri konfransı "Kioto protokolu"nun yeniləşməsi, konkret sənəd qəbulu ilə deyil, ayrı-ayrı ölkələrin bəyanatları ilə başa çatmışdır.

İqlim dəyişmələri ilə bağlı fikrlər müxtəlifdir. Bu dəyişmələrin, həqiqətən də, baş verdiyini iddia edən alimlərin fikrinə əsasən, problemin kökündə Yer kürəsinin karbon-dioksid (*$CO_2$*) və digər istilik effekti yaradan qazların udulması potensialı durur. Belə ki, itilikxanalar kimi, atmosferdəki qazlar da günəşdən gələn istiliyi tutub saxlayaraq planetimizdə bizim yaşamağımız üçün zəruri istiliyi yaradır. Hesablamalar göstərir ki, atmosferdə bu qazlar olmasaydı, bu zaman Yer kürəsində orta illik temperatur təxminən -19° C olmuş olardı. Elə buna görə həmin qazlar "istilikxana" qazları adlandırılırlar. $CO_2$ və digər qazlar atmosferin üst qatlarında günəşdən gələn istiliyi tutub saxlamaqla bizi hədsiz istilikdən mühafizə edərək bir növ görünməz mühafizə zolağı yaradırlar. Beləliklə onlar dünyada insanların normal yaşaması və fəaliyyət göstərməsi üçün zəruri temperaturun formalaşdırılmasında müstəsna rol oynayırlar.

Atmosferə $CO_2$ müxtəlif mənbələrdən - kənd təsərrüfatı, landşaftdan istifadədə olan dəyişikliklər, sənaye, tullantılar, energetika və s.-dən daxil olur. XX əsrin ortalarından başlayaraq sənayenin sürətli inkişafı və enerji əldə etmək məqsədilə üzvi maddələrin yandırılması nəticəsində atmosferdə istilikxana qazlarının sayı kəskin artmışdır. Belə vəziyyət isə günəş istiliyinin atmosferdə daha çox miqdarda saxlanması ilə müşaiyət olunmuşdur. Atmosferdə olan əsas istixana qazları su buxarı - $H_2O$, karbon qazı - $CO_2$, metan - $CH_4$ və ozondur - $O_3$ hesab olunur. İstixana effektində su buxarının həcmi 36%-dən 75%-ə kimi dəyişir. Bu sırada karbon qazı 9-26%, metan 4-9%, ozon isə 2-7% pay təşkil edir. Su buxarı atmosferə təbii şəkildə, karbon, metan və ozon isə həm təbii və həm də insan fəaliyyəti nəticəsində daxil olur. Məlumatlara görə sənaye dövrünü əhatə edən son 250 ildə atmosferdə olan karbon qazının miqdarı 28%, metanın miqdarı isə 60% artmışdır.

Son bir neçə onillik ərzində ekoloji aspektin önəmliliyi planetar xarakter alaraq ölkələrin dövlət siyasətində əksini tapmış, müxtəlif lokal, regional və qlobal ekoloji təsisatların formalaşmasına zəmin olmuşdur. Müasir dünyada ətraf mühitin dağıdılmasına qarşı mübarizə, həmçinin, insanla təbiət arasında qarşılıqlı münasibətlərdə daha çox harmoniyanın əldə olunmasına səy göstərən "Yaşıllar hərəkatı" adlanan çoxsaylı müvafiq qruplar, qeyri-hökumət və siyası təşkilatlar fəaliyyət göstərirlər. "Yaşıllar hərəkatı"nın ümumi emblemini şərtləndirən yaşıl rəng - təbiətin, ümid və yeniləşmənin simvolunu təcəssüm etdirir. Bununla belə, dünyada ekoloji problemləri tədqiq edən, tənzimləyən bir sıra beynəlxalq təsisatlar da mövcuddur. Onlar aşağıdakılardır:

| Təsisat | Missiya | Emblem |
|---|---|---|
| **UNEP** - BMT-nin Ekoloji İnkişaf Proqramı | BMT səviyyəsində ekoloji problemlər | |
| **GREENPEACE** - Beynəlxalq Təbiəti Mühafizə Təşkilatı | Aktiv metodlarla ətraf mühitin mühafizəsi | |
| **BWW** - Vəhşi Təbiətin Müdafiəsi Fondu | Nadir və nəsli kəsilməkdə olan vəhşi heyvanların müdafiəsi | |
| **EUROPEAN ENVIRONMENTAL AGENCY** - Avropa Ekoloji Agentliyi | Birləşmiş Avropanın ekoloji problemlərinin tədqiqi | |

| Təsisat | Missiya | Emblem |
|---|---|---|
| **UNITED NATIONS DIVISION FOR SUSTAINABLE DEVELOPMENT** - BMT-nin dayanıqlı inkişaf üzrə bölməsi | Dayanıqlı inkişaf məsələləri | |
| **INTERNATIONAL CONFERENCE ON FINANCING FOR DEVELOP-MENT** - İnkişafın maliyyələşdirilməsi üzrə beynəlxalq konfrans | Dayanıqlı inkişafın maliyyələşdirilməsi | |
| **WORLD BUSINESS COUNCIL FOR SUSTAINABLE DEVELOPMENT** - Dayanıqlı İnkişaf Üzrə Dünya Işgüzar Şurası | Dayanıqlı inkişafa nail olmanın iqtisadi mexanizmləri | |
| **UNITED NATIONS FORUM OF FORESTS** - Meşələrdən davamlı rejimdə istifadə edilməsi üzrə forum | Meşələrin müdafiəsi və bərpası | |
| **HELCOM** - Helsinki komissiyası | Baltik dənizi regionunda su mühitinin qorunması | |
| **TEIA** - Transsərhəd Ekoloji İnformasiya Agentliyi | Ətraf mühitin vəziyyəti və vətəndaşların təbiətin mühafizəsində iştirakı | |

**Şəkil 13. Ekoloji problemləri tənzimləyən beynəlxalq təsisatlar**

Vurğulanmalıdır ki, bəşər cəmiyyətinin uzun tarixi inkişaf mərhələsində onun təsərrüfat fəaliyyətindən yaranan zərər yüksək olmamamışdır. Ümumilikdə təbiət özü pozulmuş tarazlığı düzəltmişdir. Bununla belə, bəşər övladı hələ də fəaliyyətinə rəğmən mütəşəkkil özünüqoruma sistemi icad edə bilməmişdir. ETT müqabilində bəşəriyyətin planetimizə təsirini daha da artırmışdır. Əvvəllər mənimsənilməsi mümkün olmayan coğrafi əraziləri insan təsərrüfatı qəsb etmiş və bu fəaliyyət indi kosmik fazaya da çıxış tapmışdır. Elm və texnikanın inkişafı biosferə daha güclü və intensiv təsir etməkdədir. Bu baxımdan təbii və sosial-humanitar vəhdəti ifadə edən antrokosmik biosferin yeni keyfiyyətli, canlı və ağıllı mərhələyə - neosferaya keçidi cəmiyyətin təbiətə daha dərin təsirində xüsusi reallıq kimi çıxış edir. Təbii sərvətlərdən istifadədə sürətli inkişaf templəri ekoloji tarazlığın pozuntulu təzahürlərini artıraraq təbiətin özünütənzimləmə

və təmizləmə xassəsinin məhdudlaşmasında əks olunur. Texnoloji inqilablar cəmiyyətin rifahının yüksəlişinə əsaslı təsir etdiyi qədər də, müəyyən nisbətdə ətraf mühitin çirklənməsində mənfi meyilli amilə çevrilmişdir. Müasir mərhələdə ekologiya sahəsində "Ətraf təbii mühitə zərər" (*ƏTMZ*) adlı geniş yayılmış bir anlayış dövriyyədədir. Planetin hazırkı düzümündə pataloji halların 95%-i ƏTMZ ilə bağlıdır. Bununla belə, ekoloji təhlükəsizlik insan fəaliyyətinin bütün sferalarına sirayət edən problem kimi ciddi nəzarətə alınmışdır. Məhsuldar qüvvələrin sürətli inkişafının təbiətə nüfuz aspekti dünyanın bütün məmləkətlərində ekoloji təhlükəsizlik indikatorlarının işlənib hazırlanmasında təcəssüm olunmaqdadır. Yaşadığımız entropiya qanunlarının hakim olduğu çağdaş zamanda sərvətlərin mütəmadi seyrəkləşməsi, tükənməsi bizi təbiətlə daha rasional ünsiyyətə, onun nemətlərindən səmərəli istifadə etməyə səfərbər edir.

Erkən zamanların təbiətə məsuliyyətsiz yanaşmasını elmi əsaslanmış tənzimləmə, qlobal münasibətlər mexanizmləri əvəz etmişdir. İnsanın əvvəllər təbiətlə əlaqələri kortəbii mahiyyət daşıyırdısa, indiki elmi-texniki inqilablar epoxasında təbii resursların məhdudluğunun dərki kontekstində bu münasibətlər daha ehtiyatlı, qayğılı məzmun almış, formalaşma sisteminin dinamik tarazlığının qorunmasında möhkəm ifadəsini tapmışdır. Mümkün planetar ekoloji böhranın dərki, atropogen fəaliyyət təzadları, texnogen və mutagen təzahürlər texnosfera ilə insanın qarşılıqlı təmasının harmonik vəziyyətə gətirilməsini şərtləndirir.

## 10.19. Dünya okeanı və ondan istifadənin qlobal problemləri

Okean (*yunanca* - okeanos - *okean*) materiklərarası ərazidə yerləşən, su dövriyyəsi sisteminə və digər səciyyəvi xüsiyyətləri özündə ehtiva edən, dünya okeanın tərkib hissəsi olan nəhəng su obyektidir. Dünyada 361,23 milyon km$^2$ əraziyə malik 32 dənizi əhatə edən 4 okean - Sakit okean (*ərazisi 178,70 milyon km$^2$ olmaqla 10 dənizi əhatə edir*), Atlantik okean (*ərazisi 91,66 milyon km$^2$ olmaqla 18 dənizi əhatə edir*), Hind okeanı (*ərazisi 76,17 milyon km$^2$ olmaqla 4 dənizi əhatə edir*) və Şimal Buzlu okean (*ərazisi 14,70 milyon km$^2$ olmaqla 10 dənizi əhatə edir*) vardır ki, onlar da birlikdə dünya okeanı adlanır. Dünya okeanı daxil olmaqla hidrosferdəki suyun həcmi 1386 milyon km$^3$-dir, o cümlədən okeanın həcmi 1338 milyon km$^3$-dir. Belə bir bənzətmə var - dünyanın bütün dağları, dərələri bir bilyard şarı kimi hamar olsaydı, okean onu tam əhatə edə bilərdi və yer üzünü 2600 metr qalınlığında su tutardı. İnsan bədəninin ümumi kütləsinin $^2/_3$-si sudur. Yer kürəsi səthinin də $^2/_3$-si, dəqiq desək, 70,8%-i su ilə örtülmüşdür.

Dünya okeanında orta dərinlik təqribən 3700 metr, maksimal dərinlik isə 11022 metrdir (*Sakit okean, Marian çökəkliyi*).

Okean mineral ehtiyatlar mənbəyidir və insanın istifadə etdiyi əksər elementlərlə duz, fosfat gübrələri, dəmir, manqan və s.-lə zəngindir.

Okean sularının tərkibində kimyəvi elementlərin 82-si (*daha çox - 8 element - xlor, natrium, kalium, kükürd, kalsium, brom, bor və maqnezium*) bu və ya digər dərəcədə mövcuddur. Okeanda olan bu elementlərin əksəriyyəti canlıların həyatında və bioloji fəaliyyətində əvəzsiz rol oynayır. Okean dibi - rutil, dirxon, qalay, mis, dəmir, qızıl, nikel, mirvari və.s faydalı qazıntılarla daha zəngindir. Okeandan alınan mineral xammal dəyərinin 90%-dən çoxunu neft və qaz verir. Dünya okeanında neftin geoloji ehtiyatları 280 milyard ton, təbii qaz ehtiyatları 140 trilyon $m^3$-dur. Bundan başqa, okeanda dalğaların gücündən, qabarma və çəkilmələrdən də enerji alınır. Okeanda - 10 mindən çox bitki, 160 minə qədər heyvanat aləmi (*bunlardan 16 minə qədər balıq*) mövcuddur.

Dünya okeanında orta temperatur mühüm əhəmiyyət kəsb edir. Burada orta temperatur 1$^o$C aşağı düşərsə, dünya okeanında dəniz səviyyəsi 2 metr aşağı düşəcək. Okean çöküntülərindəki dəniz orqanizmlərini öyrənilməsi göstərir ki, keçmişdə okeanın orta temperatur 5$^o$C-dək dəyişmişdir.

Okean Yer atmosferindən ildə 300 milyard ton karbon qazını sovurub özündə həll edir və əvəzində atmosferə canlılar üçün əvəzolunmaz 200 milyard ton oksigen qaytarır.

Okeanın duz tərkiblidir və bu tərkib əsas etibarilə hər yerdə eynidir. Okeanın duzluluq dərəcəsi promil ilə müəyyənlişdirilir. Onun sularının 1000 qramından 34 qramı duzdur. Bununla belə, dünya okeanının ayrı-ayrı hövzələrində duzluluq dərəcəsi müxtəlif ola bilər. Konkret olaraq, Atlantik okeanının duzluluğu Sakit okeanınkından xeyli çoxdur. Bu okeanın özündə də duzluluq müxtəlifdir. Belə ki, okeanın şimalında suyun duzluğu daha artıqdır. Digər tərəfdən Sakit okeanın Panama körfəzində suyun səthinin duzluğu daha azdır. Bu həm də ondan irəli gəlir ki, Şimal, və Cənub yarımkürəsinin 20-30-cu paralellərində buxarlanma yağıntıdan çox olur və və bu da yarımkürələrin həmin paralellərdəki mərkəzi sularının duzluğunu okeanın başqa sularından yüksək edir. Okean hövzələrinin birində suyun tərkibində duzun miqdarı dəyişərsə, həmin hövzədə dəniz səviyyəsi dəyişikliyə məruz qalar və eyniliklə duzun miqdarı çox olan hövzələrdə dəniz səviyyəsi aşağı düşəcəkdir.

Dünya okeanına yağıntıların və küləklərin də təsiri mühümdür. Əslində burada küləklərsiz və yağıntılarsız keçinmək mümkün deyildir. Okeanlarda yağıntının ən böyük həddi ekvator və ekvatordan 10-cu paralelə qədər olan əraziyə düşür. Yağıntının 50-60-cı paralellər arasında miqdarı isə qeyd edilən 20-30-cu paralellərdəkinin əksinə olaraq buxarlanmanın miqdarını üstələyir. Bu paralellərin arasında yağıntı və buxarlanma miqdarının eyni olduğu (*P-E=0*) zolaq yerləşir. Bu, məhşur 40-cı paraleldir. Bu paralel onunla fərqlənir ki, Yerin hər iki yarımkürəsindəki okeanlarda ekvatorial zolaqdan qütbə axan isti su axının çoxu bu paraleldə ən yüksək həddə qalxır. Eyni zamanda, atmosferin də tropik zolaqdan qalxmış isti su buxarını qütbə tərəf qovan isti küləkləri də öz maksimal həddinə 40-cı paraleldı çatır və burada akvatorial ərazidə Yerə gələn və əks olunan günəş şüalarının miqdarı bərabər olur.

Okeanların tropik enliliklərində bütün il boyu nisbətən dayanıqlı olan hava axınları passatların (*ispanca* - viento de pasada - *hərəkətə keçidə əlverişli şərait yaradan külək*)

rolu çox əhəmiyyətli sayılır. Passatlar Atlantikadan Sakit okeana hər saniyədə təxminən yarım milyon $m^3$ buxarlanmış şirin su daşıyır. Bu "nasos"un daşıdğı su birləşmiş qablar qanununa görə geri qayıtmalıdır. Amma "nasos" elə sürətlə işləyir ki, suları geri qaytarmaqla məşğul olan cərəyanlar çatdıra bilmir. Ona görə də Panama kanalının Sakit okean tərəfində suyun səviyyəsi kanalın Atlantik tərəfindəki suyun səviyyəsindən həmişə 30 sm yüksək olur.

Dünya okeanında cərəyanlar adlan bir sıra nəhəng su axınları mövcuddur ki, onlarda buradakı tarazlığın mövcudatında müstəsna əhəmiyyət daşıyırlar. Atlantik okeanda - Qolfstrim, Şimali Atlantik, Sakit okealarnda Kurosio, Şərqi Avstraliya, Cənub okean sualarında Antarktika sirkumpolyar cərəyanı, Hind okeanında - İynə burnu və Somali sərhəd cərəyanları da mühüm önəm daşıyırlar.

Qolfstrim (*ingiliscə* - gulf stream - *körfəzdən axın*) Atlantik okeanda isti su axını, nəhəng okean cərəyanıdır. Ekvatordan Şimal qütbünə tərəf saniyədə 48-50 milyon $m^3$ həcmində su daşıyır ki, bu da bütün dünya çaylarının birlikdə suyundan 20 dəfə çoxdur. Onun istilik gücü 1,4 x 1015 vattdır kı, bu da bir milyon AES gücünə malikdir. Qolfstrim Avropanın Atlantik sahillərinə yumşaq iqlim gətirir, onun hesabına Norveç limanları və Rusiyanın şimalda yerləşən əsas nəhəng Murmansk limanı donmurlar.

Antarktika Sirkumpolyar Cərəyanı (*Antarctic Circumpolar Current*) Cənub yarımkürəsində eni 1000 km, uzunluğu 30000 km olan su axını kimi dünya okeanının ən nəhəng, ən güclü cərəyanıdır. Bu cərəyan Qolfstrimdən üç dəfə güclü olub həm səth suları, həm də okeanın dərin və dib sularını eyni vaxtda hərəkətə gətirən, Atlantik, Hind və Sakit okeanlarının su kütlələrini birləşdirib qarışdıran nəhəng kanaldır.

Cərənyanlarla bağlı aparılan tədqiqatlar göstərir ki, dünya okeanında digər su axınları heç də zəif deyildir. Məsələn, Hind okeanında aparılan tədqiqatlar göstərmişdir ki, buradakı Somali cərəyanı öz dinamikası və gücünə gorə Qolfstrimdən heç də geri qalmır.

Dünya okeanının bəşəri ehtiyacların təmin olunmasında rolu əvəzolunmazdır. Dünya okeanı, ilk növbədə, təbii resurslar, mineral sərvətlər, bərpa edilən enerji ehtiyatları dəryası, əvəzolunmaz qida mənbəyi, sərfəli nəqliyyat-gəmiçilik məkanı, mədəni və rekreasiya-turizm obyektidir. Bununla belə, dünya okeanının təhlükə altında olması da birmənalıdır. Onun sularının çirklənməsi ilə bağlı problem bəşəriyyət qarşısında duran ən mühüm problemlərdən biridir. Bu baxımdan da dünya okeanı problemi (*Problems of the World Ocean*) onun məkanlarının və resurslarının qorunması və səmərəli istifadəsini əks etdirən qlobal problemi kimi dəyərləndirilir. Hazırda dünya okeanı qapalı ekoloji sistem kimi bir neçə dəfə güclənən antropogen yüklənməyə çətinliklə davam gətirir və onun məhvi üçün real təhlükə yaranır. Ona görə də, dünya okeanının qlobal problemi - hər şeydən əvvəl, onun yaşaması problemidir. Məşhur Norveç səyahətçisi Tur Heyerdalın dediyi kimi, "ölü okean - ölü planetdir".

Dünya okeanının əhəmiyyəti danılmazdır və bu əhəmiyyətliliyin qorunması çox vacib bəşəri problemdir. Həmin əhəmiyyətlilik geniş aspektdə ilk öncə aşağıdakılarla xarakterizə olunur:

❑ Dünya okeanı çox sərfəli nəqliyyat məkanıdır və o mühüm nəqliyyat arteriyası kimi ölkələrarası nəqliyyat-iqtisadi əlaqələrdə böyük rol oynayır. Belə ki, dünya üzrə yüklərin yarıdan çoxu okeanlar və dənizlərlə daşınır və hazırda dünya yük dövriyyəsinin 70%-dən çoxu onun üzərinə düşür. Bundan başqa, ölkələrin hərbi və mülki dəniz donanması da (*dəniz aviasiyası*) dəniz nəqliyyatının başlıca elementləri sırasındadır. Vurğulanmalıdır ki, XX əsrin ikinci yarısında istehsal və istehlak rayonları arasındakı coğrafi ayrılıq, xammal və yanacağın tədarükünün iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdən asılılığının artması dəniz nəqliyyatının gur inkişafına səbəb oldu. Lakin 1980-ci illərdən başlayaraq, dəniz nəqliyyatının yük dövriyyəsinin artması dayandı. Hazırda dəniz ticarət gəmiçiliyi ildə orta hesabla 100 milyard dollar gəlir gətirir.

❑ Dünya okeanı təbii resurslar dəryası, əvəzolunmaz qida mənbəyidir. Ta qədimdən bəşəriyyət onun bioloji resurslarından istifadə etmiş və insanlar ondan həmişə asılı olmuş və olacaqlar. Hazırda dünyada işlədilən heyvan mənşəli zülalların 12-15%-i okean və dəniz mənşəlidir. Vurğulanmalıdır ki, insanların dənizlə bağlı ən qədim peşəsi balıqçılıq olmuşdur. Aparılan aerxeoloji qazıntılar da təsdiq edir ki, qədim insanlar, əsasən, çayların, dəniz və okeanların sahillərində məskunlaşmış, qidalanmada balıçılıq məhsullardan geniş istifadə etmişlər. İndi də dünya dəniz məhsullarının əsas hissəsi balıqdır (*85%-ə qədər*). XX əsr ərzində balıq tutulmasının həcmi durmadan artmışdır. Hazırda bu həcm, orta hesabla ildə 125 milyon tondan artıqdır. Dünya üzrə balıq tutulması sahəsində ÇXR (*37 milyon tona qədər, lakin bu göstəricinin yarısı şirin suda yaşayan balıqlara aiddir*) liderlik edir. Sonrakı yerləri Peru (*10 milyon tona qədər*), Çili, Yaponiya, ABŞ tutur. Rusiya bu sırada 8-ci yerdədir (*4 milyon tondan bir qədər çox*). Balıq ovunun gələcək artımı gözlənilmir, belə ki, bu hal okeanın bioresurslarının bərpa olunmayan dağılmasına gətirib çıxara bilər. Son 100 ildə dünya okeanında 2,1 milyondan artıq balina ovlanmışdır. Balina ovu sənayesinin tənzimlənməsi və məhdudlaşdırılması üçün 1964-cü ildə Beynəlxalq balina ovlayan komissiya yaradılmışdır ki, bura 20 ölkənin nümayəndələri daxildir. Beynəlxalq müqavilənin qəbul etdiyi qaydalara görə, balinaların bəzi növlərinin ovlanmasına qadağa qoyulub.

❑ Bioloji resurslarla yanaşı, dünya okeanı nəhəng mineral sərvətlərlə də zəngindir. Onların arasında daha mühümü neft və təbii qazdır ki, onların hasilatı dünya okeanı şelfində son onilliklər ərzində daha sürətlə artmışdır; artıq bu gün onların hasilatı ildə 200 milyard dollardan artıq məhsul verəcəkdir.

❑ Dünya okeanı - bərpa edilən enerji resurslarının nəhəng mənbəyidir, lakin okeanın enerjisi, hələ ki, çox az dərəcədə insana xidmət edir. Eyni zamanda dəniz qabarmalarının, cərəyanlarının, dalğalarının, qradiyentlərinin istifadəsi demək olar ki, ətraf mühitə zərər yetirmir. Bununla belə, okean enerjisinin böyük hissəsi idarəedilməzdir. Buradakı tükənməz enerji mənbəyi olaraq istilik-nüvə sintezində tətbiq edilən ağır hidrogen (*deyteriya*) çıxış edir. Belə ki, 1 litr dəniz suyunda olan deyterin miqdarı 120 litr benzinin verdiyi enerjiyə bərabərdir.

❑ Dünya okeanının digər toxunulmayan xəzinəsi riflər - gənc sualtı qaya zonalarıdır. Burada buraxılan mantiya maddəsi ilə əlaqədə suyun temperaturu 50-60°C-yə qədər, onun duzluluğu isə 260% yüksəlir. Nəticədə əmələ gəlmiş isti duzlu suda qiymətli metallar olur və suyun dibində nadir metalların sulfidli filizləri formalaşır ki, bəzən onların cəmləşməsi dəmir-manqan konkresiyalarda olduğundan 10 dəfə çoxdur.

❑ Okean resurslarının fəal mənimsənilməsinin nəticəsi okean mühitinə güclənən "demoqrafik təzyiq" olmuşdur. Əhali daha çox sahilyanı zonalara tərəf yerini dəyişir. Belə ki, hazırda 100 kilometrlik sahilyanı zolaqda 3 milyard nəfər, yəni Yer kürəsi əhalisinin 40%-i yaşayır. Bu rəqəmə bütün dünyadan gələn müvəqqəti rekreantları (*səyahətdə və dincəlməkdə olanlar*) və kruiz laynerlərinin sərnişinlərini də əlavə etsək, "dəniz sakinləri"nin sayı nəzərəçarpacaq dərəcədə artacaqdır. Burada bir fakt da maraq doğurmaya bilməz ki, təkcə dəniz turizmi 50 milyard dollar gəlir gətirir. Bu da çox eyniliklə dəniz balıqçılığının verdiyi gəlirə bərabərdir. O, da vurğulanmalıdır ki, dənizə yaxın ərazilərdə urbanizasiya olunmuş ərazilərin sahəsi daxili rayonlarda olduğundan çoxdur. Bu sənaye sahələrinin liman rayonlarına doğru coğrafi yerdəyişməsi ilə güclü liman-sənaye komplekslərinin formalaşmasının qlobal proseslərindən irəli gəlmişdir.

❑ Dünya okeanı müasir zamanda həm də hərbiləşmə zonlarından biri olaraq çıxış edir. Hazırda o, hərbi hücumların əsas potensial teatrı və start meydanı kimi nəzərdən keçirilir. Yerdə bazası olan azhərəkətli raketlərdən fərqli olaraq, dəniz bazaları olan silahlar coğrafi və strateji nöqteyi-nəzərdən maksimum mobilliyi təmin edir. Məlumdur ki, yalnız beş qüdrətli dəniz dövləti özünün suüstü və sualtı gəmilərində Yer üzərində bütün canlıları məhv etməyə qadir olan 15 min nüvə hərbi ehtiyatına malikdir. Ona görə də, okean dünya ölkələrinin əksəriyyətinin geosiyasi maraqlarının ən mühüm mərkəzinə çevrilmişdir.

Bu problemlərin hamısı həm də müasir dövrün nəhəng qlobal problemi - ekoloji problemin meydana gəlməsinə kömək edir. Bununla belə, okean ekoloji tarazlığın qorunmasında və bu istiqamətdə yaranacaq problemlərin həllində özünəməxsus rol oynayır. Onun bir sıra qlobal funksiyaları vardır. Belə ki, okean atmosferdə əsas biogen elementlərin (*oksigen və hidrogen*) saxlanmasının başlıca tənzimləyicisi, insanın həyat fəaliyyətinin bir çox məhsullarının akkumulyatoru və assenizatoru fuksiyasını yerinə yetirir. O, geniş mənada Yer kürəsinin rütubət dövriyyəsinin və istilik rejiminin, həmçinin, onun atmosferinin sirkulyasiyasının baş tənzimləyicisidir. Okean atmosferi təbii və antropogen mənşəli zərərli məhsullardan təmizləyən nəhəng filtr kimi də çıxış edir. Bütün bunlar okeanların bəşəri problemlərin həllindəki rolunu müəyyən edir, onların həyat üçün müstəsna əhəmiyyətini bir daha əsaslandırır.

Beləliklə, dünya okeanından səmərəli istifadə, su resurslarının mühafizəsi təbiəti mühafizənin qlobal səciyyə daşıyaraq kompleks dünya probleminin hissələrindən birini təşkil edir. Konkret olaraq, dünya okeanından istifadənin qlobal problemləri kimi aşağıdakılar ayrılır:

1. Nəqliyyat - gəmiçilik;

2. Neft-qaz hasılatı;
3. Balıqçılıq;
4. Təbi resurslar;
5. Dəniz ekologiyası;
6. Hərbi və hüquqi.

İnsan fəaliyyəti bəzi daha fəal olan akvatoriyalarda okeanın öz-özünə təmizlənməsi çətinləşmişdir. Belə ki, onun özünütəmizləməsi də tükənməz deyildir. Neftlə, neft məhsulları, radioaktiv maddələr, sənaye və məişət axar suları, kimyəvi gübrələrin tullantıları (*pestisidlərlə*) və digər tullantılarla çirklənmələr daha təhlükəlidir.

İnsan həyat fəaliyyətinin məhsulları və bir sıra istehsalların tullantıları olan üzvi birləşmələr su obyektlərinə çirkab sular və ya filtrasiya nəticəsində süxurlar vasitəsilə düşür. Onların çürüməsi aerob mikroorqanizmlərinin fəaliyyəti nəticəsində həyata keçirilir.

Sənaye və məişət axar suları çirklənmənin ən kütləvi növlərindəndir. Güclü çirklənməyə xüsusilə sənayenin kimya, toxuculuq, metallurgiya sahələri səbəb olur. Fekal axınların, xüsusən də, orada sidik cövhərinin və patogen mikrobların yüksək tərkibinə görə neqativ təsiri böyükdür. Çürümə zamanı ayrılan ammiak suda zülalları həll edən qələvi mühiti yaradır, bununla da orqanizmlərin kütləvi məhvini doğurur. Digər üzvi çirkləndiricilər fenollar, onların hallogen tərkibli birləşmələridir ki, onlar yapışqan, kütləvi maddələr, koks istehsalı müəssisələrindən axıdılaraq su obyektlərinə tökülür. Bu birləşmələrin dağılması müddəti orta hesabla 7 gün təşkil edir. Müxtəlif kimya texnologiyalarında geniş istifadə olunan üzvi həlledicilər son dərəcə təhlükəlidir. Onların su mühitində çürüməsi iki gündən artıq çəkir.

Son vaxtlar hidroüsulla kömür hasilatı nəticəsində su hövzələri şaxta suları ilə güclü çirklənir. Bu zaman kömürün böyük sayda xırda hissəcikləri işlənmiş sularla çıxır. Pestisidlər kənd təsərrüfatı rayonlarından atmosferdən axar sularla birgə dəniz suyuna düşür. Tozlandırılan pestisidlərin 50%-ə qədəri heç vaxt bitkilərə çatmayaraq, küləklə yayılır. Antarktikanın qar örtüyünün analizi göstərir ki, onun səthinə min tonlarla pestisid çökmüşdür.

Hesablamalara görə, dünya okeanına hər il orta hesabla 10-17 milyon ton neft və neft məhsulları tökülür. Burada hər şeydən əvvəl, onun tankerlərlə daşınması ilə bağlı itkiləri qeyd etmək lazımdır. Neft boşaldıqdan sonra tankerə lazım olan dayanıqlılığı vermək üçün onun tanklarını ballast su ilə doldururlar. Ballast suyunun neftin qalıqları ilə birgə çox vaxt açıq dənizə axıdılması həyata keçirilir. Az sayda tankerlər xüsusi olaraq ballast sular üçün nəzərdə tutulmuş çənlərə (*rezervuarlara*) malikdir ki, bunlara heç vaxt neft doldurulmur. Sisternlər və neft tökülən qablar yuyulduqdan sonra dənizə xeyli miqdarda neft axıdılır. Hesablanmışdır ki, bütün daşınan yüklərdən neft və neft məhsullarının 1%-i dənizə tökülür. Məsələn, su tonnajı 30.000 tona qədər olan neft gəmisi hər reysdə dənizə 300 tona qədər mazut axıdır. İldə 500 milyon ton neft daşınarkən mazut itkisi 5 milyon ton və ya sutkada 13700 ton təşkil edir. Neft

məhsullarının böyük miqdarı ondan istifadə zamanı dünya okeanına düşür. Təkcə elə gəmilərin dizel mühərrikləri dənizə 2 milyon ton ağır neft məhsulları (*sürtük yağları, yanmamış yanacaq*) axıdır. Dənizdə qazıma, neftin yerli rezervuarlara yığılması və magistral neft kəmərləri üzrə vurulması zamanı da böyük itkilərə yol verilir. Buradan neft çıxarılması genişləndikcə onun tankerlərlə daşınması da artır, və deməli, qəza hallarının sayı da artır. Son illər neft daşıyan iri tankerlərin sayı artmışdır. Bundan başqa, dəniz səthindəndən neftin yüngül fraksiyaları da buxarlanaraq atmosferə düşür. Beləliklə, dünya okeanına ümumi həcmdən 10% neft və neft məhsulları daxil olur.

Dünya okeanının ekoloji fonunu çətinləşdirən digər bir səbəb də radioktiv çöküntülərlə bağlıdır. Radioaktiv çöküntülər dünya okeanına nüvə sınaqları nəticəsində atmosferdən, atom sənayesi müəssisələrindən və AES-lərdən radioaktiv suların və maddələrin tullanması ilə düşür. Bir çox ölkələrdə AES-lərin tullantıları çaylara və dənizlərin sahil sularına tökülür. Atom mühərriki ilə işləyən gəmilərin qəzaya uğraması nəticəsində də okeana radioaktiv tullantılar tökülür. Bundan başqa, texnoloji olaraq sualtı atom gəmilərində bir il ərzində 400 litrdən 600 litrə qədər suların filtri üçün istifadə edilən çirklənmiş qatran yaranır. Atmosferin yüksək qatlarına düşən radioaktiv hissəciklər sonradan, nüvə partlayışlarından bir neçə ay sonra "radioaktiv yağışlar" şəklində, bəzən sınaq yerindən minlərlə kilometr uzaqlarda düşə bilər. Radioaktiv maddələrin dağılmaya və parçalanmaya qarşı davamlılığı böyük məsafələrdən dəniz cərəyanları ilə balıqların, planktonun, başqa heyvanların və bitki orqanizmlərinin yoluxmasına kömək edir. Bir sıra hallarda, müasir elmin böyük nailiyyətlərinə baxmayaraq, hazırda kimya, həmçinin, radioaktiv çirklənmənin müəyyən növlərini ləğv etmək mümkün deyildir.

Dünya okeanı sularının təmizlənməsi müxtəlif metodlar vasitəsi ilə həyata keçirilir. Bu metodlar aşağıdakı kimi təsnifatlandırılır:

- ❖ sahənin lokallaşdırılması (*məhdudlaşdırılması*);
- ❖ lokallaşdırılmış sahələrdə yandırılma;
- ❖ xüsusi tərkiblə emal edilmiş qumun köməyi ilə yox edilməsi;
- ❖ neftin saman, ələnmiş taxta, emulsiyalar, disperqatorlarla, gipsin köməyi ilə udulması;
- ❖ karbohidrogenləri karbon qazı və suya qədər parçalamaq qabiliyyətində olan mikroorqanizmlərdən istifadə;
- ❖ dənizin səthindən nefti yığmaq üçün qurğularla təchiz edilmiş xüsusi gəmilərdən istifadə edilməsi.

Qəza nəticəsində neft və neft məhsulları ilə çirklənmənin qarşısının alınması üçün xüsusi gəmilər hazırlanır. Onlar təyyarə ilə tankerlərin qəza yerlərinə çatdırılır. Belə gəmilərdən hər biri 1,5 min l neftli-sulu qarışıq sovura bilir və buradan neftin 90%-ni ayıraraq sonradan sahilə yedəklənən xüsusi üzən qablara boşaldır.

Çirklənmələr bütün planetdə iqlim və hava rejimi üçün çox mühüm olan bütün bu xüsusiyyətləri xeyli dəyişə bilər. Adətən, milli maraqlar "bütün bəşəriyyətin ümumi

sərvəti"ndən daha çox mühafizə olunur və beynəlxalq əməkdaşlıq güclənmədikcə, okean çirkli axar suların, bərk tullantıların, radioaktiv maddələrin və sivilizasiyanın digər tullantılarını qəbul edəcək.

## 10.20. Dünya okeanının beynəlxalq hüquq rejimi

Okean və dənizlərdə təhlükəsizliyi artırmanın təminatında bütün dünya dənizçilik subyektləri tərəfindən, bir qayda olaraq, əməl edilən beynəlxalq tənzimləmə aktlarının formalaşdırılması mühüm əhəmiyyət kəsb etmişdir. Bu məqsədlə XIX əsrin ortalarından başlayaraq bir sıra razılaşmalar qəbul olunmuşdur ki, bunlarda müasir beynəlxalq dəniz hüququnun formalaşmasına zəmin yaratmışdır. Belə ki, əvvəllər dənizlərdə müvafiq tənzimləmələr ənənələr üzərində qurulmuşdu. Bütün bunların beynəlxalq miqyasda tənzimlənməsi isə XX əsrdə baş vermişdir.

Dəniz hüququ ilə ticarət və hərbi dənizçiliyin, balıqçılığın və dəniz ovçuluğunun həyata keçirilməsi, dənizlərin bioloji və mineral ehtiyatlarının hasilatı, elmi tədqiqatlar aparılması zamanı əmələ gələn münasibətlərin normaları müəyyən olunur. Bu sfera milli, beynəlxalq, ümumi və beynəlxalq xüsusi dənizçilik hüququ kimi sahələri əhatə edir. Beynəlxalq dəniz hüququnun subyektləri dövlət və beynəlxalq QHT-lərdir.

Dünya okeanının hüquqi rejiminə dünya okeanı ilə bağlı təsərrüfat fəaliyyətinin aşağıdakı 6 ən iri sahəsinin hüquqi cəhətdən tənzimlənməsi aid olunur:

1. Okean akvatoriyalarının beynəlxalq-hüquqi rejimi;
2. Ticarət gəmiçiliyinin beynəlxalq-hüquqi rejimi;
3. Hərbi dənizçiliyin beynəlxalq-hüquqi rejimi;
4. Okeanın dibinin beynəlxalq-hüquqi rejimi;
5. Okeanın təkinin beynəlxalq-hüquqi rejimi;

Okean mühitinin beynəlxalq-hüquqi rejimi.

Beynəlxalq-hüquqi rejim bütün dövlətlərin, o cümlədən daxili kontinental (*dəniz sahili olmayan*) ölkələrin də hüquqlarını, vəzifələrini və məsuliyyətini müəyyən edir. Okeanların və dənizlərin hüquqi rejimi beynəlxalq konvensiyalar, ikitərəfli müqavilələr, həmçinin, milli qanunvericiliklə formalaşır.

Beynəlxalq-hüquqi baxımdan bütün dəniz və okeanlar aşağıdakı iki növə ayrılır:

1. Ayrı-ayrı dövlətlərin suverenliyi altında olan və onların ərazisini təşkil edən məkanlar;
2. Heç bir dövlətin suverenliyi altında olmayan məkanlar.

Dünya okeanında hüquq rejimini tənzimləyən bir sıra konvensiyalar və ixtisaslaşmış beynəlxalq təşkilatlar vardır ki onlar, əsasən, aşağıdakılardır:

❖ Beynəlxalq Dəniz Komitəsi;
❖ Beynəlxalq Dəniz Təşkilatı;
❖ Hökumətlərarası Okeanoqrafiya Komissiyası;
❖ Dənizin tədqiq edilməsi üzrə Beynəlxalq Şura;

❖ Beynəlxalq dəniz peyk rabitəsi təşkilatı;
❖ Dəniz hüququ üzrə BMT-nin konvensiyası.

Beynəlxalq Dəniz Komitəsi (*Comité Maritime International*) dəniz və ticarət hüququ normalarının, dənizçilik ənənələri və təcrübəsinin unifikasiyası sahəsində beynəlxalq qeyri-hökumət təşkilatıdır. 1897-ci ildə Beynəlxalq Hüquq Assosiasiyası tərəfindən təsis olunmuş, mənzil-qərargahı Belçikanın Antverpen şəhərindədir.

Beynəlxalq Dəniz Təşkilatı, IMO (*International Maritime Organization, IMO*) okean və dənizlərdə beynəlxalq ticarət gəmiçiliyi ilə bağlı texniki məsələr üzrə əməkdaşlığı tənzimləyən ilk qlobal təsisat olaraq 1959-cu ildə yaradılmışdır. Beynəlxalq Dəniz Təşkilatı BMT-yə bağlı olan ixtisaslaşmış qurum olaraq 166 üzv dövlətdən və 3 ortaq üzv ölkədən - (*Honkonq, ÇXR 1967*), (*ÇXR, Makao, 1990*), (*Farer adaları, Danimarka, 2002*) ibarətdir və mərkəzi qərargahı Londonda yerləşir. Onun əsas orqanları sırasına Ümumi Yığıncaq, Şura, Katiblik, Dəniz Təhlükəsizliyi Komitəsi - MSC, Dəniz Ekologiyasını Qoruma Komitəsi - MEPC, Hüquq Komitəsi - LEG, Texniki Əməkdaşlıq Komitəsi - TC və Asanlaşdırma Komitəsi - FAL daxildir. IMO-nun məqsədi gəmiçilik sektoruna təsir göstərən bütün texniki məsələlərlə bağlı olaraq, beynəlxalq ticarətlə məşğul ölkələrin qanunvericilik və icra fəaliyyəti baxımından hökumətləri arasında əməkdaşlığı təmin etmək, dənizdə təhlükəsizlik, naviqasiya intensivliyi ilə gəmilərdən törəyən dəniz çirklənməsinin qarşısını almaq, nəzarət məsələlərində ən yüksək səviyyədə icra standartlarının ümumi qəbulunu təşviq etmək və asanlaşdırmaqdan ibarətdir.

Hökumətlərarası Okeanoqrafiya Komissiyası, IOK (*Intergovernmental Oceanographic Commission*) dəniz və okeanlar üzrə elmi-tədqiqatların inkişafına kömək məqdsədi ilə 1960-ci ildə UNESCO çərçivəsində yaradılmış beynəlxalq təşkilatdır. Əsas vəzifələri beynəlxalq əməkdaşlıq tərəfindən həlli tələb olunan problemləri müəyyən etmək, beynəlxalq ekspedisiyalar təşkil etmək, okeanoqrafik məlumatların mübadiləsinə kömək etmək, dəniz elmləri sahəsində kadr hazırlığı aparmaq və s.-dən ibarətdir. İOK yüzə qədər üzv ölkəni birləşdirir. Mərkəzi qərərgahı Fransanın paytaxtlı Paris şəhərindədir.

Dənizin tədqiq edilməsi üzrə Beynəlxalq Şura (*International Council for the Exploration of the Sea*) Atlantik okeanda və onu əhatə edən dənizlərdə balıqçılıq təsərrüfatları, okeanoqrafik tədqiqatları koordinasiya etmək və onlardan səmərəli istifadə üçün təkliflər hazırlamaq təyinatlı beynəlxalq şura. 1902-ci ildə təsis edilmiş, 1964-cü ildə yeniləşmiş və 2002-ci ildə yüz illiyi ilə əlaqədar "Kopenhagen bəyanaməsi" kimi təsdiq edilmişdir. Mənzil-qərargahı Danimarkanın paytaxtı Kopenhagen şəhərində yerləşir.

Beynəlxalq Dəniz Peyk Rabitəsi Təşkilatı (*International Maritime Satellite Organization, INMARSAT*) kommersiya əsasında peyk rabitəsi və müvafiq avadanlıqların

köməyi ilə dəniz rabitəsini yaxşılaşdıran , gəmilərin işinin və idarə edilməsinin səmərəliliyini artıran, dənizdə fəlakətlər zamanı məlumatverməni və bununla da insan həyatının mühafizəsini təmin edən beynəlxalq hökumətlərarası təşkilatdır. İNMARSAT 1976-cı ildə təsis edilmiş və 1979-cu ildən fəaliyyət göstərir. Mərkəzi qərərgahı Böyük Britaniyanın paytaxtı paytaxtlı London şəhərindədir.

Dəniz hüququ üzrə BMT-nin Konvensiyası (*United Nations Convention on the Law of the Sea*) dünya okeanının mənimsənilməsi, məkanından və təbii resurslarından istifadənin, praktiki olaraq, bütün aspektlərini ehtiva edən hərtərəfli beynəlxalq müqavilə, BMT konvensiyasıdır. Yamaykanın Monteqo-Bey şəhərində 1982-ci ilin dekabrında imzalanmış və 1994-cü ilin noyabrında qüvvəyə minmişdir. 320 maddə və 9 əlavədən ibarətdir. Aİ və daha 160-a qədər ölkə konvensiyanı imzalamışdır. Dəniz hüququ üzrə BMT-nin konvensiyası 1958-ci il Cenevrə dəniz konvensiyası üzrə üzv dövlətlərarası münasibətlərdə üstün gücə malikdir. Konvensiya beynəlxalq-hüquqi institutların: ərazi dəniz və bitişik zona; beynəlxalq gəmiçilikdə istifadə olunan boğazlar; arxipelaq sular; xüsusi iqtisadi zona; kontenintal şelf; açıq dəniz və dəniz dibi beynəlxalq rayonu üzrə normativ tənzimlənməsini həyata keçirir.

Dünya okeanı akvatoriyasının (*latınca* - aqua - *su, və* territorium - *ərazi: su səthinin yuxarı hissəsi*) təxminən 40%-ni ayrı-ayrı ölkələrin yurisdiksiyasında olan sular - dəniz iqtisadi zonaları təşkil edir. Dəniz iqtisadi zonası (*maritime economic zone*) dənizdə və ona bitişik quru ərazidə dövlətin iqtisadi fəaliyyət apardığı rayondur. Dəniz iqtisadi zonası ərazi sularının başlanğıcından, onlarının eninin ölçüldüyü xəttdən hesablanır və eni 200 dəniz milidir. Bu zonalar dövlətin iqtisadi maraqlarının qorunması, resursların saxlanılması və onlardan optimal istifadə üçün təyin edilir. BMT-nin Dəniz hüququ Konvensiyasına görə, dəniz iqtisadi zonaları bir neçə kiçik zonaya ayırılır:

- daxili dəniz suları - başlanğıc xəttədən yaxın sahilə qədər su məkanı;
- ərazi dənizi (*territorial*) suları - sahildən eni 12 dəniz mili (*22,2 km*) qədər su məkanı;
- bitişik zona - territorial sular sərhədindən sonra - 12 millik zona.
- müstəsna iqtisadi zona - ölkə sərhəd xəttindən dənizin içinə doğru 200 millik - (*370,4 km*) ən geniş su məkanı.
- neytral sular - dəniz iqtisadi zonaları ərazisinə düşməyən su zonası.

Daxili dəniz suları (*ingiliscə* - internal waters - *daxili sular*) dövlətin tam suverenliyi altında olur və onun ərazisinin bir hissəsini təşkil edən su məkanıdır. Dəniz hüququ üzrə BMT-nin konvensiyasına görə, daxili dəniz sularına - liman suları (*ən qabağa çıxan daimi liman qurğularını birləşdirən xəttə qədər*); eyni dövlətin quru ərazisi ilə tam əhatə olunmuş dəniz, habelə bütün sahil bir dövlətə məxsus olan dəniz; sahilləri eyni dövlətə məxsus olan və eni 24 dəniz milindən artıq olmayan buxtalar, liman və körfəzlər; tarixi körfəzlər (*məsələn, Rusiyada Böyük Pyotr, Kanadada Hudzon,*

*Norveçdə Varanğerford körfəzləri və s.*) daxildir. Vurğulanmalıdır ki, daxili dəniz sularının hüquqi rejimi, əsas etibarilə, müvafiq dövlətin milli qanunvericiliyi ilə müəyyən olunur. Həmin sularda dövlətin icazəsi olmadan hər hansı təsərrüfat fəaliyyəti ilə məşğul olmaq və tədqiqatlar aparmaq əcnəbilərə qadağandır. Əcnəbi gəmiləri daxili dəniz sularına müvafiq icazədən sonra girə bilərlər. Dövlətin açıq elan etdiyi limanlara əcnəbi qeyri-hərbi gəmiləri sərbəst surətdə daxil olmaq hüququna malikdirlər. Hərbi gəmilər isə yalnız sahilyanı dövlətin qabaqcadan icazəsi və ya dəvəti ilə bu ərazilərə girə bilərlər. Bununla belə, fövqəlada hallarda gəmilərin girişinə icazəsiz yol verilir. Limanda yerləşən əcnəbi hərbi gəmilər sahilyanı dövlətin qanun və qaydalarına riayət etməyə borcludur. Dövlətin qanun və qaydalarını pozduğuna görə onlara daxili suları tərk etmək tələbi irəli sürülə bilər.

Ərazi dənizi, ərazi suları (*ingiliscə* - territorial sea - *ərazi dənizi*) sahilyanı dövlətin quru ərazisinə və daxili sularına bitişik və onun tam suverenliyi altında olan dəniz zolağıdır. Bu suverenlik dənizinin səthinə və dibinə, habelə onun üzərindəki hava məkanına şamil olunur. BMT-nin Dəniz hüququ Konvensiyası territorial sulara sahib dövlətin suverenliyini yalnız "azad keçid" anlayışı ilə məhdudlaşdırır. Yəni hansısa boğaz ölkənin 12 millik iqtisadi zonasına daxil olsa da, həmin ölkələrin gəmilərinin boğazdan keçməsinə qadağa qoya bilməz. Məsələn, Qara dənizdəki Bosfor boğazı İstanbul şəhərinin içindən keçir. Türkiyə dövlətinin bu boğazın suları və təki üzərində müstəsna hüququ var. Lakin başqa dövlətlərə məxsus gəmilərin bu boğazdan dinc gediş-gəlişinə Türkiyə qadağa qoya bilməz. Vurğulanmalıdır ki, dəniz sahili olan dövlətin suveren ərazisinin tərkibinə daxili sular və ərazi dənizi daxildir. Tamamilə bir və ya bir neçə arxipelaqdan ibarət olan dövlətlərin ərazisinə arxipelaqın içindəki adaların arasında yerləşən müvafiq arxipelaq suları da aid edilir.

Bitişik zona (*ingiliscə* - adjacent zone, contiguous zone - *bitişik zona*) eni 12 dəniz milindən artıq olmayan açıq dənizin bir hissəsidir və sahilyanı dövlətin suverenliyi altında deyildir. Bu zona əcnəbi gəmiləri tərəfindən gömrük, vergi, sanitar və miqrasiya qaydalarına əməl olunmasına nəzarət həyata keçirmək məqsədilə sahilyanı dövlətin müəyyən etdiyi, onun ərazi dənizinə bitişik açıq dəniz rayonudur. Bitişik zonanın sahibi bu sularda qaçaqmalçılıqla (*contrabanda*) məşğul olan nəqliyyat vasitələrini həbs edə bilər. Eyni zamanda bu sularda balıq ovu üçün lisenziya vermək hüququ da həmin dövlətə məxsusdur. Territorial sularla bitişik zonanın bir yerdə eni 24 mildir. Bu, sahil xəttindən dənizə tərəf 44,4 km uzanan bir zonadır.

Konrtabanda, qaçaqmal (*italyanca* - contrabando - *hökumət göstərişinə zidd*) sərhəddən əmtəələrin və digər qiymətlilərin qanunsuz keçirilməsidir. Sərhəddən qeyri-qanuni keçirilən əmtəənin özü də kontrabanda adlanır.

Müstəsna iqtisadi zona (*exclusive economic zone*) ərazi dənizinin hüdudlarından kənarda yerləşən və ona bitişik olan, eni 200 mildən artıq olmayan açıq dəniz rayonudur. Müstəsna iqtisadi zonada sahiyani dövlət həmin zonadakı sularda, onları əhatə edən dəniz dibi və təkində canlı və cansız bütün təbii resursların kəşfiyyatı, işlənməsi və saxlanması sahəsində müstəsna hüquqa malikdir. Xarici dövlətlərin müvafiq fəaliy-

yətlərdə iştirakı yalnız sahiyani dövlətlə razılaşma əsasında reallaşdırıla bilər. Sahiyani dövlət, həmçinin, bu zonada iqtisadi məqsədlərlə süni adalar və qurğular yarada bilər, elmi tədqiqatlar apara bilər. Dəniz mühitinin qorunub saxlanması da sahiyani dövlətin səlahiyyətlərinə aiddir. Müstəsna iqtisadi zonada sahiyanı dövlətin hüquq və qanuni mənafelərini nəzərə almaqla bütün dövlətlər açıq dənizin məlum azadlıqlarından - gəmiçilik, uçuş, sualtı boru və kabel çəkmək və s.-dən istifadə edirlər.

Dünya okeanının iqtisadi zonaların ərazisinə düşməyən, 200 millik zondan kənarda olan akvatoriyası neytral sular (*neutral water*) adlanır. Neytral sular dünya okeanı akvatoriyasının təxminən 60%-nı təşkil edir və bütün dünya ölkələrinin balıqçıları və dəniz nəqliyyatı üçün açıqdır.

Dəniz iqtisadi zonaları haqqında qəbul edilmiş konvensiyanın tarixi kökləri II Dünya Müharibəsindən sonra neftin və neft məhsullarının strateji xarakter almasından qaynaqlanır. 1945-1953-cü illərdə ABŞ prezidenti olmuş Harri Trumen (*1884-1972*) dənizlərin akvatoriyasında böyük neft ehtiyatlarının yerləşdiyini əsas götürərək verdiyi bəyanatlarda, birtərəfli qaydada, ölkəsinin şelfin bütün mineral ehtiyatlarının istismarı və sahilyanı balıq ovu zolağı iddiasını elan etmişdi. XX əsrin 50-ci illərində sahilyanı “200 millik zolaq” anlayışı əksər ölkələr tərəfindən artıq irəli sürülmüşdü. Bütün bunlar isə, öz növbəsində, gəmiçiliyin, balıqçılığın inkişafı ilə paralel hüquqi hərc-mərcliyin artması ölkələr arasında ümumi bir qaydanın bərqərar olmasına ehtiyac yaratmışdı. Bundan irəli gələrək ərazi, kontinental, neytral zonalar, habelə balıqçılıq və okeanın canlı ehtiyatlarını mühafizəsi kimi anlayışlara münasibət bilidirən BMT 1958-ci ildə dəniz hüququ üzrə Baş konfransını çağırdı. Eyniliklə həmin məsələlər növbəti - 1960-cı il konfransının da gündəliyinə daxil edildi. 1967-ci ildə Malta dövləti dərin suların təkindəki faydalı qazıntılı yataqlarında istismar işləri aparmağın hüquqi mənsubiyyəti ilə bağlı məsələ qaldılırdı. 1970-ci ildə BMT “Milli yurisdiksiya hüdudlarından kənardakı okean və dənizlərin təki və təkindəki sərvətlərə sahiblik prinsipləri” haqda bəyannamə elan etdi. Sonrakı 12 il ərzində dünyanın, demək olar ki, bütün ölkələrin mütəxəssisləri bu məsələləri işləyib hazırlamaqla məşğul oldular. Nəhayət, 1982-ci ildə dünyanın əksər ölkələrinin təsdiq və qəbul etdiyi müqavilə meydana çıxdı. Bunları nəzərə alaraq, BMT-nin Dəniz hüququ üzrə Konvensiyası əsasında Beynəlxalq Dəniz dibi Təşkilatı, ISA (*International Seabed Authority*) milli yurisdiksiya sərhədləri kənarında, dəniz dibinin beynəlxalq rayonunda mineral resursların kəşfiyyatı və işlənməsinin təşkili və nəzarəti üzrə hökumətlərarası təşkilat təsis etmişdir. Təşkilatı 36 nəfərdən ibarət şura idarə edir. Onlardan dördü - çıxarılacaq metalları ən çox istehlak edən ölkələrin, dördü - həmin metalları quruda ən çox istehsal edən ölkələrinin, dördü - okean və dənizlərin təkinin mənimsənilməsində daha çox nailiyyət qazanmış ölkələrin nümayəndələridirlər. Qalan 24 nəfər isə şura üzvlüyünə nümayəndələri inkişaf etməkdə olan ölkələr verə bilərlər. ISA neytral sulardakı mineralların hasilat məsələlərinə nəzarət etmək, burada kəşfiyyat və istismarla məşğul olmaq niyyətinə olan şirkətlərə lisenziya vermək hüququna malikdir. ISA, həmçinin, neytral

sulardan hasil olunacaq məhsulun dəyərinin bir hissəsinin inkişaf etməkdə olan ölkələrin hesabına keçirilməsini tələb edir. Bu konvensiya, prinsip etibarilə, dünya hüquq praktikasında inqilab hesab olunur. Buradakı müddəaların yalnız okeana aid məsələləri əhatə etməsinə baxmayaraq o, ilk ümümdünya konstitusiyası kimi qiymətləndirilir. Mənzil qərərgahı Yamaykanın paytaxtı Kinqston şəhərində yerləşir.

Beynəlxalq dəniz Konvensiyasında "kontinental şelf" anlayışından istifadə olunur. Ümumi təyinatda şelf (*ingiliscə* - shelf - *rəf*) materikin onunla bir geoloji quruluşda olan quruya bitişik sualtı kənarını ifadələndirir. Şelfin sərhədləri ərizisini dəniz və ya okeanların sahili ilə dəniz dibi yamacının kəskin mailləşən hissəsinin üst qatı təşkil edir. Həmin ərazı 100-200 metr və bəzən də 500-1000 metr uzunluqda ola bilir. Qlobal miqyasda şelfin ümumi ərazisi 32 milyon km$^2$-ə bərabərdir. Kontinental şelf (*continental shelf*) isə beynəlxalq hüquqla müəyyən olunmuş həddə sahil xəttdən başlamış açıq dənizə doğru ərazini əhatə edən dəniz dibi və habelə onun təkidir. Kontinental şelf sahilyanı dövlətin quru ərazisinin dənizin dibi ilə uzanan təbii davamı olaraq çox zaman 200 dəniz mili həddində müəyyən olunur. Sahiyanı dövlət təbii sərvətlərin kəşfiyatı və istisması məqsədilə kontinental şelf üzərində suveren hüquqlar həyata keçirir.

Açıq dəniz (*open sea*) dünya okeanının heç bir dövlətin yurisdiksiyasına aid olmayan və bütün dövlətlərin istifadəsi üçün açıq olan su hissəsidir. Dəniz və okeanların dibi xüsusi hüquqi statusa malik olduğuna görə açıq dəniz anlayışına daxil deyildir. Beynəlxalq qanunvericiliyə görə, hər hansı bir dövlət açıq dənizin bu və ya digər hissəsini öz suverenliyinə tabe etdirə bilməz. Açıq dənizin hüquqi rejiminə beynəlxalq hüquq normalarının tələblərini və başqa dövlətlərin maraqlarını nəzərə almaqla gəmiçilik, uçuş, balıqçılıq, elmi tədqiqatlar aparmaq, süni adalar və qurğular yaratmaq, sualtı boru kəmərləri və kabel çəkilişi azadlıqları daxildir.

Qapalı dəniz (*enclosed sea*) bir neçə dövlətin sahilini yuyan və coğrafi vəziyyətinə görə digər dənizə tranzit keçid kimi istifadə edilməyən dənizdir. Sahilyanı olmayan dövlətlərin hərbi gəmilərinin qapalı dənizlərə buraxılışı məhduddur. Beynəlxalq dəniz Konvensiyasına görə sahilyanı dövlətlər qapalı və yarımqapalı dənizlərin canlı ehtiyatların idarə olumasında, dəniz mühitinin mühafizəsində və elmi tədqiqatların aparılmasında üstün hüquqlara malikdirlər. Qapalı dənizlərdə sahilyanı dövlətlər dənizlərin ekologiyası, balıqçılıq rejimi, ekologiya və digər məsələləri, müvafiq olaraq, ikitərəfli və çoxtərəfli müqavilələr əsasında nizama salırlar. Qapalı dənizlər kimi nümunə olaraq Qara dənizi və Baltik dənizini göstərmək olar.

Beynəlxalq dəniz dibi rayonu (*international seabed area*) dəniz və okeanların dövlətlərin yurisdiksiyasından kənarda, milli şelflər sərhədlərində yerləşən dəniz dibi və onun təki hissəsidir. Beynəlxalq dəniz dibi rayonu xüsusi hüquqi tənzimləmə rejiminə malikdir və Beynəlxalq dəniz Konvensiyasına görə, rayon ərizisində yerləşən ehtiyatlar bəşəriyyətin ümumi irsi elan olunmuşdur.

Beynəlxalq boğazlar (*international straits*) dəniz və okean sularını birləşdirən və bütün dövlətlər tərəfindən bərabər əsasda beynəlxalq gəmiçilik və hava naviqasiyası üçün istifadə edilən təbii dəniz keçidləridir. Açıq dənizin hissələrini birləşdirən

boğazlarda gəmiçilik və uçuş azadlıqları mövcuddur. Ərazi beynəlxalq boğazlarla bağlı olan dövlətlərdə isə *tranzit keçid hüququ* tətbiq edilir. Bu zaman gəmiçilik və uçuş azadlığı yalnız boğazdan fasiləsiz və tez tranzit məqsədi üçün həyata keçirilir. Beynəlxalq dəniz Konvensiyasına görə, müvafiq hüquqi rejimi qüvvədə olan müqavilələrlə tənzimlənən beynəlxalq boğazlara şamil olunmur. Buraya Qara dəniz, Baltik dənizi boğazları, Cənubu Amerikadakı Magellan boğazı və həmçinin də Pa-de-Kale, La-Manş, Cəbəllütariq, Sinqapur, Hörmüz və digərləri aid edilir.

Qara dəniz boğazlarının hüquqi rejimi - "Boğazların statusu haqqında" Montre Konvensiyası (*Montreux Convention Regarding the Regime of the Straits*) ilə müəyyən olunmuşdur. Bu beynəlxalq konvensiya ilə Qara dənizdən Aralıq dənizinə keçiddə Türkiyəyə mənsub İstanbul-Bosfor və Çanqalla-Dardanel boğqazları üzərində onun suverenliyini təmin edilir. İsveçrənin Montre şəhərində 1936-cı ilin 22 iyunundan 21 iyuluna kimi keçirilən konfransda qəbul olunmuşdur. 1923-cü il Lozanna müqaviləsi ilə birlikdə imzalanan "Boğazların Sözləşməsi"nin yerinə keçmişdir. Konvensiyaya görə, bu boğazlar bütün dövlətlərin ticarət gəmiləri üçün açıqdır. Türkiyə müharibədə iştirak etdiyi zamanada isə düşmən tərəfin gəmilərinin, həmçinin, digər müharibə edən ayrı-ayrı dövlətlərinin hərbi gəmilərinin bu boğazlardan üzüb keçməsi qadağan olunur. Qara dəniz sahilində yerləşməyən dövlətlərin hərbi gəmilərinin dinc vaxtı üzüb keçməsi üçün də bir sıra məhdudiyyətlər nəzərdə tutulmuşdur.

Beynəlxalq kanallar, beynəlxalq dəniz kanalları (*international channels*) dəniz və okeanları birləşdirən və beynəlxalq gəmiçilikdə istifadə olunan hidrotexniki qurğulardır. Beynəlxalq kanallar su nəqliyyatı yollarının qısaldılması üçün inşa olunurlar. Onlar bir dövlətin çay, göl və digər daxili su hövzələrini birləşdirən milli kanallardan fərqlənərək süni gəmi yolları olmaqla mənsub dövlətin razılığı ilə onun ərazisində çəkilirlər. Bu zaman həmin dövlət ərazisinin müvafiq hissəsinin fiziki coğrafi və hüquqi statusunun dəyişdirilməsinə və yaranmış kanaldan sərbəst gəmiçiliyin təmin edilməsinə razılıq verməlidir. İstifadəçi ölkələr isə kanal sahibi dövlətin müvafiq istiqamətdəki qanun və qaydalarına əməl etməlidirlər. Bütün bu məsələlər xüsusi beynəlxalq saziş və konvensiyalarla reqlamentləşdirilir. Hazırda belə beynəlxalq statuslu gəmi keçidli süni su yollarına Süveyş, Panama, Kil və Korinif kanalları aid edilir. Beynəlxalq kanalların qlobal xarakteriliyini ilk öncə onların coğrafi yerləşməsi şərtləndirir. Belə ki, Süveyş kanalı Aralıq dənizi ilə Hind okeanına çıxışla Qırmızı dənizi, Panama kanalı Atlantik və Sakit okeanları, Kil kanalı Baltik dənizi ilə Atlantik okeanına çıxışla Şimal dənizini, Korinif kanalı isə Egey, İon və Adriatik dənizlərini birləşdirir. Bu sırada qlobal əhəmiyyətliliyi baxımından dünyanın dəniz nəqliyyatı yollarını xeyli qısaltmış Süveyş və Panama kanalları daha böyük üstünlüklərə malikdirlər. Beynəlxalq kanallar beynəlxalq gəmiçilik üçün istifadə olunan beynəlxalq boğazlardan bir sıra cəhətləri ilə fəqlənirlər. Bu fərq ilk əvvəl kanalın bir dövlət ərazisində yerləşərək ona mənsubluğundan irəli gəlir. Beynəlxalq boğazlar isə təbii hadisələrin nəticəsidir və onlar beynəlxalq dəniz hüququ normaları ilə tənzimlənir.

Süveyş kanalı (*Kanat əl-Süvəys - Suez canal*) Sinay yarımadasının qərbində Misir Ərəb Respublikasının ərazisində, Aralıq dənizi ilə Hind okeanına çıxışla Qırmızı dənizi əlaqələndirən beynəlxalq əhəmiyyətli şlüzsüz süni su kanalıdır. Adı Süveyş bərzəxindən (*bərzəx - coğrafi termin, iki quru parçasını birləşdirən dar, ensiz keçid*) qaynaqlanmışdır. Təməli Osmanlı imperiyası zamanında atılmış, Böyük Biritaniya tərəfindən gəmiçilik üçün 17 noyabr 1869-cu ildə açılmışdır. Fransalı diplomat və mühəndis Ferdinand de Lessepsin (*1805-1894*) rəhbərliyi altında yaranmış səhmdar cəmiyyət tərəfindən 1859-1869-cu illər arasında inşa edilmişdir. Uzunluğu 193,3 km (*inşa edildikdə 163 km*), eni 313 metr, dərinliyi 24 metrdir. Baş limanları Porto-Səid və Süveyş şəhərləridir. Əsas qərargahı ərazidəki Timsah gölündə iri sənaye şəhəri olan İsmayilədə yerləşir. Keçid müddəti 11-16 saatdır. İl ərzində kanaldan 18-20 min gəmi keçir və illik istismar gəlirləri 4-5 milyard ABŞ dolları həcmində tərəddüd edir. Bu gəlirlər Misirin turizm sahəsindən əldə etdiyi gəlirlərin yarısına bərabər olmaq ikici sırada durur. Kanal zonası Afrika qitəsi ilə Avrasiya materiki arasında şərti sərhəddir. Hind okeanında Afrika qitəsini dolanmaqla Atlantik okeandan Aralıq dənizinə keçid edən 8 min kilometrili təbii su marşrutundan 50 dəfəyədək qısadır. Afrika qitəsində yerləşməsinə baxmayaraq Asiya və Avropa iqtisadi əlaqələrində mühüm rol oynayır. Dünya dəniz nəqliyyatının 8%-i bu kanal vasitəsilə həyata keçirilir. 1888-ci il 17-29 oktyabrda İstanbulda keçirilən konfransda kanal haqqında beynəlxalq konvensiya qəbul olunmuşdur. 1956-cı il 26 iyun tarixində Misir prezidentinin dekreti əsasında milliləşdirilmişdir.

BMT Təlükəsizlik Şurası 13 oktyabr 1956-ci ilədə Misrin kanal üzərində suverenliyini və "bütün bayraqlar altında üzən gəmilərin keçməsi əsasında" onun istismarı hüququnu təsdiqləmişdir. İsrailin 1967-ci ildə ərəb dövlətlərinə hərbi hücumu nəticəsində kanal bir neçə il fəaliyyətin dayandırmışdır. Hazırda beynəlxalq gəmiçilik üçün açıqdır. 2015-ci ilin 6 avqustunda ikitərəfli hərəkəti təşkil etmək məqsədi ilə inşa edilən 2-ci kanal istismara verilmişdir.

Panama kanalı (*Panama canal*) Sakit okeanda Panama körfəzini Atlantik okeanda Karib dənizini birləşdirən, Şimali və Cənubi Amerikanın şərti şərhədləri qovşağında, Panama dövləti ərazisində yerləşən beynəlxalq gəmiçilik kanalıdır. Kanalı adı Panama dövləti və onun paytaxtı Panama şəhəri ilə bağlıdır. İnşaat işləri 1881-ci ildə ABŞ tərəfindən aparılmış və kanal 15 avqust 1914-cü ildən istifadəyə verilmişdir. Rəsmi olaraq isə 1920-ci ildə açılmışdır. Uzunluğu 81,6 km (*ondan 65,2 km quru ərazidə, 16,4 km Panama və Limon buxtalarının dibi ilə*), ümumi eni 150 metr, dərinliyi 12 metrdir. Böyük mühəndislik xariqəsi olan Panama kanalının tikintisi bəşəriyyət tərəfindən indiyə qədər yerinə yetirilən ən nəhəng və mürəkkəb layihələrdən biri olmuşdur. Onun yaranışı bütün dünyada, xüsusən də, Qərb yarımkürəsində gəmiçiliyin və bütövlükdə iqtisadiyyatın inkişafına güclü təsir göstərmişdir. Kanalın istifadəyə verilməsi Panama xalqının rifah səviyyəsinin əhəmiyyətli dərəcədə yüksəlməsinə səbəb olmuşdur. Onun inşası ilə Nyu-Yorkdan San-Fransiskoya olan 22,5 km yol 9,5 min km-ə

qədər qısalmışdır. Kanal ən müxtəlif gəmilərin keçidini təmin edir. Buradan keçə bilən maksimal ölçülü gəmilər "Panamaks" adlanmaqla faktiki gəmiqayırmada standarta çevrlimişdir. Panama kanalı dəniz səviyyəsində 28 metr yüksəklikdə yerləşir. Kanala daxil olan gəmilər üçün sular artırılır və gəmilər su ilə birlikdə yüksəyə qalxaraq texonoloji mexanizmə uyğun digər tərəfdə enişlə keçid edirlər. Panama kanalıdan gəmilərin yürüşü losman xidməti vasitəsi ilə həyata keçirilir. Bir gəminin orta keçid müddəti 9 saat təşkil edir. Minimal keçid isə 2 dəfədən də azdır. Kanalın buraxılış qabliyyəti sutka üzrə 48 gəmidir. İllik orta keçid 14 min gəmi, orta yükkeçirmə qabiliyyəti isə 280 milyon tondur (*dünya okeanı ilə yük daşımaların 5%-i*). Hazırda kanal artıq yüklənmiş vəziyyətə gəlmişdir. Buna görə də orada keçidlər hərraclarda satılır. Bir gəminin kanalda keçidi 400 min ABŞ dollarına kimi yüksələ bilir. Bundan çıxış edərək, həm də kanala alternativ olaraq Nikaraqua ərazisində yeni gəmiçilik kanalının inşası həyata keçirilir. Panama kanalından gəmilərin keçidi ilk olaraq 1901-ci ildə ABŞ və Böyük Britaniya arasındakı müqavilə əsasında tənzimlənmiş. 1903-cü ildə isə bu tənzimləmə ABŞ və Panama arasında imzalanmış müqavilə üzrə aparılmışdır. Bu müqavilələr o qədər də hüquqi əsaslı olmamış və hazırda idarəetmə 1977-ci ildə ABŞ və Panama arasında imzalanmış Panama kanalı haqqında, həmçinin Daimi neytrallıq və Panama kanalının istismar haqqında müqavilələr əsasında aparılır. Hər iki müqavilə 1 oktyabr 1979-cu ildə qüvvəyə minmişdir. 2000-ci ilin 1 yanvar tarixindən kanal və onun qurğuları Panama dövlətinin suverenliyinə keçmişdir. Daimi neytrallıq və Panama kanalının istismarı haqqında müqaviləyə əsasən, bərabərlik və bayraq diskrinimasiyasına yol verilmədən kanaldan gəmilərin azad keçidi təmin olunur.

Nikaraqua kanalı (*Nicaraguan canal*) Nikaraqua dövləti ətrazisindən keçməklə Atlantik okeanla (*Karib dənizi*) Sakit okeanı birləşdirəcək gəmi keçidi kanalı layihəsidir. Tam adı "Nikaraqua Böyük Transokean kanalı (*ispanca* - Gran Canal Interoceanico por Nicaragua - *Nikaraqua Böyük Transokean kanalı*). Nikaraqua dövləti həmin kanal layihəsini Panama kanalına alternativ olaraq hazırlamışdır. Lahiyə dəyəri 40-50 milyard ABŞ dolları həcmində olan kanalın tikintisini öz partnyorları ilə birlikdə qərargahı Honkonqda yerləşən özəl transmilli şirkət "HKND-Group" həyata keçirir. Kanalın istismara verilməsi 2019-cu il üçün, tikintisinin tam başa çatması isə 2029-cu ilə nəzərdə tutulmuşdur. Uzunluğu 278 km (*o cümlədən Nikaraqua gölləri üzrə 105 km*), eni 230-530 metr, dərinliyi 26-30 metr, gəmi keçidi müddəti 30 saat olacaq kanaldan il ərzində 5 mindən çox gəminin keçidi reallaşacaqdır.

Kil kanalı (*almanca* - Nord-Ostsee-Kanal - *Kanal Nord-Ostzee - ingiliscə* - Kiel canal - *Kil kanalı*) AFR ərazisində Baltik dənizi ilə Atlantik okeanına çıxışla Şimal dənizini birləşdirən, gəmiçilik üçün nəzərdə tutulan beynəlxalq su kanalıdır. Tikintisi 8 il davam etmiş və naviqasiya üçün 20 iyun 1895-ci ildə açılmışdır. 1919-ci ildə Versal sülh müqaviləsinə, əsasən, beynəlxalq rejimli azad fəaliyyətə keçmişdir. 1948-ci ilə kimi Kayzer Vilhelm Kanalı (*almanca* - Kaiser-Wilhelm-Kanal - *Kayzer Vilhelm Kanalı*) kimi tanınmışdır. Sonradan Kil şəhərinin şərəfinə adlandırılmışdır. Kanalın

hüquqi rejimi birtərəfli qaydada AFR tərəfindən həyata keçirilir. Uzunluğu 98,7 km, eni 100-dən çox, dərinliyi 11-dir. Avropada ən yüklü gəmi kanalı hesab olunur. Gün ərzində kanaldan orta hesabla 250 gəmi keçir. Bu kanal Baltik və Şimal dənizlərini ayıran Yuland yarımadası ətrafı su yollarından 519 km olmaqla bir sutkalıq vaxt qənaətinə imkan verir və həmçinin, dəniz qasırğqalarından yan keçməyə şərait yaradır. Kanalın açılışı, faktiki olaraq, Yuland yarımadasını adaya çevirmişdir.

Korinif kanalı (*yunanca* - Διώρυγα Κορίνθου - *ingiliscə* - Corinthian canal - *Korinif kanalı*) Yunanıstan dövləti ərazisində Egey dənizində Saronikos körfəzi ilə İon dənizində Kornif körfəzini birləşdirən şlüzsiz beynəlxalaq gəmi keçidi kanalıdır. Kornif şəhərinin şərəfinə adlandırılmış bu kanal Peloponnes yarmadası ilə Yunanıstanın mərkəzi hissəsi arasında qazılmış, onun inşası 1881-1893-cü illərdə aparılmış və 1893-cü ildə istismara verilmişdir. Uzunluğu 6,4 km, eni 24,6 metr, dərinliyi 21 metrdir. Kanalın qazılmış divarları təbii əhəng mənşəlidir və hündürlüyü 76 metrdir. Onun istismara verilməsi 400 km-ə qədər məsafənin qısaldımasına imkan yaratmışdır. Buradan il ərzində 11 min gəmi keçir. Üzərində 7 avtomobil və bir dəmir yolu körpüsü inşa olunmuşdur. Kanalın hüquqi rejimi Yunanıstan və onun bir sıra digər dövlətlərlə imzaladığı beynəlxalq müqavilələr əsasında həyata keçirilir. Hazırda kanal yeni böyük qabaritli gəmilərin keçidinə imkan vermədiyi üçün özünün əzəli iqtisadi əhəmiyyətini itirmişdir. Müasir dövrdə kanal daha çox turist qayıq və gəmilərinə, xüsusən də, kruiz laynerlərinə xidmət göstərir. İri həmcli gəmilər təhlükəsizlik baxımından yedəkçi gəmilər vasitəsi ilə kanaldan keçirilir.

Müasir dünyada dəniz hüququ sferasında beynəlxalq hüquq, həmçinin, digər saziş və konvensiyalarla da tənzimlənir:

- ❖ Açıq dəniz haqqında Cenevrə Konvensiyası (*1958-ci il*);
- ❖ Antraktida haqqında Müqavilə (*1959-cu il*);
- ❖ Gəmilərin dənizdə toqquşmasını xəbərdar edən beynəlxalq qaydalar haqqında Konvensiya (*1972-ci il*);
- ❖ Tullantıların və digər maddələrin suya batırılması yolu ilə dəniz çirklənməsinin qarşısının alınması haqqında Saziş (*1972-ci il*);
- ❖ Təhlükəsiz konteynerlər haqqında beynəlxalq Saziş (*1972-ci il*);
- ❖ Diplomlu dənizçilərin hazırlanması və növbəçəkmə haqqında beynəlxalq Konvensiya (*1972-ci il*);
- ❖ Qara dənizin çirklənməsində qorunması haqqında Konvensiya (*1972-ci il*);
- ❖ Baltik dənizində balıqçılıq və canlı ehtiyatların mühafizəsi haqqında Konvensiya (*1972-ci il*);
- ❖ Dənizlərin gəmilər tərəfindən çirkləndirilməsi əleyhinə beynəlxalq Saziş (*MARPOL-1973-cü il*);
- ❖ Dənizdə insan həyatını qoruyan beynəlxalq Konvensiya (*1974-cü il*);
- ❖ Heyvanların beynəlxalq nəqliyyat zamanı qorunmasına dair Avropa Konvensiyası (*1975-ci il*);

- ❖ Dənizdə qarşıdurma əleyhinə beynəlxalq Saziş (*1978-ci il*);
- ❖ Dənizdə axtarış və xilasetməyə dair beynəlxalq Konvensiya (*1979-cu il*);
- ❖ Antraktidanın canlı dəniz resurslarının mühafizəsi Konvensiyası (*1980-cı il)*;
- ❖ Avropanın yabanı həyat və həyat mühitlərini qoruma Konvensiyası (*1984-cü il*);
- ❖ Neft çirklənməsinə qarşı hazırolma, müdaxilə və əməkdaşlıq haqqında beynəlxalq Saziş (*1990-cı il*);
- ❖ Neft çirklənməsindən doğan zərərin ödənilməsi məqsədilə beynəlxalq fondun qurulması ilə bağlı beynəlxalq sazişin Protokolu (*1992-ci il*);
- ❖ Təhlükəli və zərərli maddələrin dəniz yolu ilə daşınmasında baş verən ziyanlarla bağlı təzminat və maliyyə məsuliyyəti haqqında beynəlxalq Saziş (*1996-cı il*);
- ❖ Bioloji müxtəliflik Konvensiyası (*1996-cı il*);
- ❖ Avropa-Qafqaz-Asiya nəqliyyat koridoru üzərində beynəlxalq daşınmanın inkişaf etdirilməsi haqqında çoxtərəfli Əsas Saziş (*2001-ci il*);
- ❖ Gəmi bunkerlərindən irəli gələn neft çirklənməsi ilə bağlı hüquqi məsuliyyət haqqında beynəlxalq Saziş (*2001-ci il*);
- ❖ Gəmi personalının tibbi müayinəsi ilə bağlı Konvensiya (*2003-cü il*);
- ❖ Gəmi sərnişin və personalının sağlamlığının qorunması və tibbi yardımına dair Konvensiya (*2003-cü il*);
- ❖ Liman fəaliyyətində sağlamlıq və təhlükəsizlik üzrə Konvensiya (*2003-cü il*);
- ❖ Gəmilərdə iş qəzalarının qarşısının alınmasına dair Konvensiya (*2003-cü il)*;
- ❖ Xəzər dənizinin dəniz mühitinin mühafizəsi haqqında Konvensiya (*2003-cü il*) və s.

Bunlardan başqa, dəniz hüququnda bir sıra dövlətlərarası ikitərəfli və çoxtərəfli lokal müqavilələr də mövcuddur.

### 10.21. Kosmik məkanın mənimsənilməsi problemi

Kosmos, kosmik məkan (*yunanca* - κόσμος - *qayda, nizam, gözəllik*) Yer atmosferi sərhədlərindən kənar kainatın nisbi boş hissələrini ehtiva edən intəhasız səma məkanıdır. Yerlə kosmos arasında sərt və dəqiq sərhəd yoxdur. Buna baxmayaraq, aviasiya və kosmonavtikaya kömək məqsədi və 1905-ci ildə idman təşkilatı kimi təsis olunmuş, mənzil-qərargahı İsveçin Lozanna şəhərində yerləşən Beynəlxalq Aviasiya Federasiyası (*fransızca* - Fédération Aéronautique Internationale, FAI - *Beynəlxalq Aviasiya Federasiyası*) işçi sərhəd keyfiyyətində atmosferlə kosmos arasında yüksəkliyi 100 km təyin etmişdir. Bu ondan irəli gəlir ki, uçuş aparatı bu hündürlükdə birinci kosmik sürətə malik olaraq orbital mahiyyət daşısın və aerodinamik gücün təsirinə istinadən uça bilsin. Avia və kosmik uçuşlar arasında klassik fərq suborbital kosmik gəmilər və orbital təyyarələrin inkişafı ilə aradan qalxa bilər.

Kosmosun yaranması haqda bir sıra nəzəriyyələr mövcuddur. Bunlar arasında "Böyük partlayış" nəzəriyyəsi daha çox dövriyyədə olandır. "Böyük partlayış" (*Big bang*) nəzəriyyəsi kainatın təqribən 13,7 milyard il əvvəl yarandığını göstərir.

Nəzəriyyə kainatın ilkin halının sinqulyarlıq nöqtəsi adlanan bir nöqtə olduğuna əsaslanır. Bu nöqtədə kainatın sonsuz dərəcədə kütləyə və sıxlığa malik olan, bütün maddə və enerjisinin cəmləşdiyi zənn edilir.

Kosmik məkanda çox az sıxlıqda bir sıra hissəciklər, əsasən, hidrogen, elektromaqnit şüalanma və ulduzlararası maddələr mövcuddur. İnsan kosmosdan asılıdır. Onun sağlamlığına və əhval-ruhiyyəsinə kosmik amillər - qravitasiya, atmosfer təzyiqi, günəşin aktivliyi və digər təbii enerji axınlarının ciddi təsiri vardır. Həmin təsirlər hələ insanlara sivilizasiyanın ilk çağlarında məlum olmuşdur. Elə bu baxımdan antik cəmiyyət mədəniyyəti və fəlsəfəsində də əsas aparıcı ideya kosmosentrizm olmuşdur. Təbiətlə razılaşdırılmış həyat sistemi ideal seçən bu dünyagörüşündə kainat, onun strukturu və harmoniyası xaosa qarşı qoyulurdu.

Kosmos bəşər sivilizasiyasının davamlılığını təmin edən bitməz, tükənməz məkan olaraq həm də geniş resurslar mənbəyi, material yaranışları və elmi-tədqiqatları əhatə edən bəşəriyyətin gələcək nəsillərinin yayılması meydanıdır. Müasir zamanda kosmosun öyrənilməsi kosmonavtika ilə bağlıdır.

Kosmonavtika (*yunanca* - κόσμος - kainat, və ναυτική - *gəmiçilik, gəmi sürmə sənəti*) avtomat və pilotlaşdırılmış (*insanlı*) kosmik aparatların köməyi ilə Yer atmosferindən kənar kosmik məkanın tədqiqi və öyrənilməsi üzrə naviqasiya nəzəriyyəsi və təcrübəsidir. Kosmonavtika kosmik uçuşların elm və texnologiyası olmaqla müasir elm və texnikanın əsas qaynaq elementi və dünyəvi tərəqqinin başlıca stimul mənbəyidir. O, elektronikanın, maşınqayırmanın, materialşünaslığın, hesablama texnikasının, energetikanın və xalq təsərrüfatının bir çox başqa sahələrinin inkişafına rəvac verir. Kosmonavtika milli və dünya iqtisadiyyatını özünün qanun və inkişaf meyillərinə bağlayan təbii funksional bir sahəsinə çevirmişdir. O, öz sahəsi ilə yanaşı iqtisadi inkişafa da aktivlik gətirir. Kosmonavtika sahəsində mühüm amil kimi kosmik fəaliyyətin inteqrasiyası və kommersiyalaşması çıxış edir.

Kosmonavtika ilə yanaşı müvafiq sahəvi tədqiqatlar kosmologiya elmi çevrəsində də aparılır. Kosmologiya (*yunanca* - kosmos - *kainat*, logos - *elm*) kainatın vahid bir sistem kimi, yaranması və təkamülü haqqında elmdir. Kosmologiya qravitasiya, elektrik sahəsi, kvant, nisbilik və digər fizika nəzəriyyələrinin bazasında qurulmuş müşahidə faktlara və nəzəriyyə nəticələrinə əsaslanır.

Elmi planda bəşəriyyət kosmik raket texnikasının köməyi ilə kosmosda prinsipial olan aşağıdakı məsələlərə cavab axtarışına səy edir:

❒ kainatın quruluşu və təkamülü;
❒ Günəş sisteminin yaranışı;
❒ həyatın yaranış və inkişaf yolları.

Bəşəriyyətin kosmosun mənimsənilməsi istiqamətində yaxın perspektivlərdəki fəaliyyəti Ayın, Günəş sistemi planetlərinin və planetlərarası məkanın müxtəlif sahələrinin öyrənilməsi ilə bağlıdır.

Kosmosa uçuş kosmosun müasir mərhələdə mənimsənilməsi raket-kosmik

texnikanın köməyi ilə baş verir. Dünya fəzasına uçuşu həyata keçirmək üçün öncə raket hərəkəti prinsipi praktikasından istifadə edilməlidir. Raketin hərəkəti ona raketdən atılan hissəciklər selinin reaksiyası nəticəsində itələmə qüvvələrinin təsiri altında baş verir. Kosmik məkana yüklərin daşınmasında daşıyıcı raketdən istifadə olunur. Daşıyıcı raket (*ingiliscə* - booster - *daşıyıcı raket*) kosmik məkana faydalı yüklərin (*kosmik aparatlar, texniki qurğular, əşyalar, maddə və materiallar*) qaldırılması üçün istifadə olunan çoxpilləli ballistik raketdir. Daşıyıcı raketlər Yer üzərində 200 kilometr mümkün minimal radiusu olan hündürlüyə dairəvi orbitlərə qaldırılan faydalı yüklərə görə təsnifatlanırlar.

Kosmosun öyrənilməsi müvafiq kosmik aparatlar vasitəsi ilə həyata keçirilir. Kosmik aparatlardan istifadə istiqamətləri aşağıdakılardır:

❒ peyk kəşfiyyatı;
❒ ballistik raketlərin uzaq məsafədən aşkarlanması;
❒ naviqasiya rabitəsi;
❒ əkspeyk silahlar və s.

Kosmik sistemlərin təsərrüfat komplekslərinə inteqrasiyası əsas üç istiqamətdə inkişaf edir:

1. Kosmik informasiya kompleksləri - metrologiya, naviqasiya, təbii resurslar, ətraf mühitin mühafizəsi üzrə istifadə və nəzarət sistemləri;
2. Kosmik elmi sistemlər -  elmi-layihə tədqiqatları və təbii eksperimentlər;
3. Kosmik sənayeləşmə - farmakoloji (*dərman*) preparatların, elektrotexnika, radiotexnika aparatlarının istehsalı, Ay və asteroidlərin resurslarının işlənməsi və s.

İnsanın kosmosa çıxışı XX əsrin ikinci yarısından sonra başlanmışdır. Onun fəth olunmasının ilkin mərhələsi güclü rəqabət və yarışma əsaslı olmuşdur. 1950-ci illərdən başlayaraq bu rəqabət kəskin olaraq ABŞ və SSRİ arasında davam etmişdir.

Tarixə nəzər saldıqda görərik ki, I Dünya Müharibəsindən sonra Versal müqaviləsinə əsasən, Almaniyaya uzaqhədəfli artilleriyadan istifadə etmək qadağan olunmuşdu. Buna görə də reyxsver (*Almaniya silahlı qüvvələri*) komandanlığı raket silahına maraq göstərməyə başlamışdı. 1920-ci il illərdən başlayaraq alman mühəndisləri raketlərlə bağlı müxtəlif ekspermentlər keçirirdilər. Alman konstruktor Verner fon Braunun (*1912-1977*) rəhbərliyi ilə hazırlanan və 1942-ci ilin martında fəzaya göndərilən “Fau-2”, başqa adı “A-4” (*almanca* - “V-2” - “Vergeltungswaffe-2”, *cavab silahı;* “A-4” - “Aggregat-4”, *aqreqat*) balistik raketi dünyada suborbital uçuş trayektoriyasında ən uca kosmik hüdürlüyü keçən ilk aparat olmuşdur. İnsanın konstruksiya etdiyi ilk uzunmənzilli ballistik raket olan “Fau-2“ 1944-cu ildə atmosferin sərhədlərində 188 km hündürlüyə çatmış və II Dünya Müharibəsiin sonunda alman ordusu Vermaxtın silah arsenalına daxil edilmişdir. “Fau-2“nin kostruksiyasını öyrənərək bir qədər sonra onun əsasında amerikalıların yaratdığı raket isə daha uzun mənzilə qalxa bilmişdir. Bunlara baxmayaraq, bəşər sivilizasiyasının kosmik erası 1957-ci il oktyabrın 4-də SSRİ-də hazırlanan süni peykin kosmosa çıxarıldığı tarixdən hesablanır. 1961-ci il

aprelin 12-də isə SSRİ-nin "Vostok" gəmisində Yuri Alekseyiviç Qaqarinin (*1934-1968*) simasında kosmosa insanın ilk uçuşu həyata keçirilmişdir. Ay səthinə enməklə ilk kosmik uçuşu 1969-cu il iyulun 21-də ABŞ-ın "Apollon" kosmik gəmisində Amerika astronavtları Neyl Alden Armstronq (*1930-2012*), Edvin Yujin Oldrin (*1930*) yerinə yetirmişlər. Bundan öncə isə SSRİ-də hazırlanan "Luna-2" və "Luna-9" peykləri, müvafiq olaraq, 1959-cu ildə Aya sərt və 1966-ci ildə yumuşaq eniş etmişlər. XX əsrin sonlarında - soyuq müharibədən sonra kosmik fəaliyyət beynəlxalq əməkdaşlıq üzrə inkişaf etməyə başlamışdır. SSRİ ilə ABŞ arasında kosmik uçuşlarla bağlı əməkdaşlıq hələ soyuq müharibə illərində başlanmışdır. Həmin ölkələrin kosmonavt və astronavtları 1975-ci ildə, "Soyuz"-"Apollon" proqramına (*Apollo-Soyuz Test Project - ASTP*) uyğun olaraq, kosmosa birgə eksperimental uçuş reallaşdırmışlar. Uçuş 15 iyul 1975-ci il saat $15^{20}$-də SSRİ-də - Qazaxıstanda yerləşən Baykonur kosmodromundan "Soyuz-19" kosmik gəmisi və 15 iyul 1975-ci il saat $22^{50}$-də ABŞ-ın Kanaveral kosmodromundan "Apollon" kosmik gəmisi ilə həyata keçirilmişdir. Kosmik gəmilər 19 iyul 1975-ci ildə fəzada birləşmiş və birgə 46 saat 35 dəqiqə uçuş reallaşdırmışlar.

Kosmosun mənimsənilməsi, kosmik fəzanın daşıyıcı raket aparatları ilə fəthini tarixi aşağıdakı kimidir:

- ❒ Almaniyanın "Fau-2" raketinin 1942-ci ilin martında atmosferin sərhədlərinə çatmışdır;
- ❒ SSRİ-nin Kapustin Yar poliqonundan 22 iyul 1951-ci ildə buraxılan daşıyıcı raketlə Dezik və Slıqan adlı itlərin 110 km hüdürlüyə qalxaraq geriyə salamat dönməsi kosmosda Yer planetinin ilk canlılarının olması hadisəsi kimi yadda qalmışdır;
- ❒ SSRİ tərəfindən 4 oktyabr 1957-ci il Yerin ilk süni peykinin buraxılışı həyata keçirilmişdir;
- ❒ SSRİ-nin "Sputnik-2" gəmisində 3 noyabr 1957-ci ildə orbitə ilk canlı - Layka adlı it çıxarılmış və o geriyə salamat qayıtmamışdır;
- ❒ ABŞ 1 fevral 1958-ci ildə "Eksploper-1" süni peykini kosmasa çıxartmışdır;
- ❒ 2 yanvar 1959-cu ildə SSRİ-nin "Luna-1" avtomat stansiyası ikinci kosmik sürət alaraq yerdən 113000 km aralıqda Ay səthinin kənarından 5500 km məsafədən keçmişdir;
- ❒ SSRİ-nin "Sputnik-5" gəmisində 19 avqust 1960-ci ildə orbitə çıxardığı Belka və Strelka itləri salamat yerə qayıtmışlar;
- ❒ ABŞ 1961-ci ildə ilk dəfə kosmosa Hem adlı şimpaneze göndərmiş və o, yerə salamat qayıtmışdır.
- ❒ SSRİ kosmonavtı olaraq ilk insan "Vostok-1" gəmisində 12 aprel 1961-ci ildə kosmosa üçüş etmişdir;
- ❒ ABŞ astronavtının 5 may 1961-ci ildə kosmosa ilk uçuşu reallaşmışdır;
- ❒ SSRİ kosmonavtı 18 mart 1965-ci ildə açıq kosmik fəzaya ilk çıxış etmişdir;

- Fransa 26 noyabr 1965-ci ildə “Diamant-A” adlı daşıyıcı raketi ilə özünün “Asteriks” adlı ilk peykini kosmosa göndərmişdir;
- SSRİ tərəfindən 3 fevral 1966-cı ildə göndərilən kosmik aparat Aya enmişdir;
- SSRİ-nin “Zond-5” aparatında 1968-ci ildə iki Orta Asiya tısbağası Ay ətrafında dövrə vurmuşlar;
- ABŞ astronavtları 21 iyun 1969-cu ildə Aya enmişlər;
- Yaponiya 11 fevral 1970-ci ildə “Lambda” adlı daşıyıcı raketi ilə özünün “Osumi” adlı ilk peykini kosmosa göndərmişdir. Yaponiya hazırda özünün raketlərini, peyklərini, avtomat planetlərarası stansiyalarını hazırlayır və beynəlxalq kosmik stansiya layihəsində iştirak edir. İqtisadi qüdrətli ölkənin maliyyə çətinlikləri müvafiq proqramların tam miqyaslı həyata keçirilməsində manelər yaradır;
- ÇXR 24 aprel 1970-ci ildə “Böyük səyahət” adlı daşıyıcı raketi ilə özünün “Dunfan Xun-1” adlı ilk peykini kosmosa göndərmişdir. 15 oktyabr 2003-cü ildə “Şençjou-5” gəmisi ilə ilk ÇXR kosmonavtı Yan Livey (1965) kosmosda olmuşdur. 24 oktyabr 2007-ci ildə ÇXR “Çane-1” adlı peykini Aya göndərmişdir;
- SSRİ 15 dekabr 1970-ci ildə ilk orbital (*“Salyut-1”*) stansiyanın buraxılışını həyata keçirmişdir;
- ABŞ fəzaya 13 mart 1971-ci ildə Günəş sistemini tərk edən (*“Pioner-10”*) kosmik aparat göndərmişdir;
- Böyük Britaniya 28 oktyabr 1971-ci ildə “Blek Erro” adlı daşıyıcı raketi ilə özünün “Prospero X-3” adlı ilk peykini kosmosa göndərmişdir. Bundan sonra o, müstəqil kosmik proqramın həyata keçirilməsindən imtina etmişdir;
- ABŞ 13 noyabr 1971-ci ildə Marsın ilk süni peykinin (*“Mariner-9” stansiyası*) buraxılışını həyata keçirmişdir;
- Aİ 24 dekabr 1979-cu ildə “Arian-1” adlı raketi ilə “Çat-1” adlı ilk peykini kosmosa göndərmişdir;
- Hindistan 18 iyul 1980-ci ildə SLV adlı daşıyıcı raketi ilə özünün “Roxini-1” adlı ilk peykini kosmosa göndərmişdir. 22 oktyabar 2008-ci ildə isə özünün Ay poqramı ilə “Çandrayan-1” gəmisini Aya yollamışdır;
- ABŞ 12 aprel 1981-ci ildə orbitə təkrar istifadə olunan kosmik gəmi (*“Kolumbiya”*) göndərmişdir;
- İsrail 19 sentyabr 1988-ci ildə “Şavit” adlı daşıyıcı raketi ilə özünün “Ofek” adlı ilk peykini kosmosa göndərmişdir;
- Ukrayna 31 avqust 1995-ci ildə “Siklon-3” adlı daşıyıcı raketi ilə Rusiyanın Plesetsk kosmodromundan özünün “Siç-1” adlı ilk peykini kosmosa göndərmişdir. Ukraynaya Rusiya ilə bərabər kosmik uçuşlar SSRİ-dən miras qalmışdır;
- ABŞ tərəfindən 24 iyun 2000-ci ildə “433 Eros” asteroidinin süni peyki buraxılmışdır;
- ABŞ tərəfindən 30 iyun 2004-cü ildə Saturnun ilk peykinin buraxılışı həyata keçirilmişdir;

- ABŞ tərəfindən 15 yanvar 2006-cı ildə "Vild-2" kometasının qalıqlarının Yerə daşınması reallaşdırılmışdır;
- İran 2 fevral 2009-cu ildə "Şəfir-2" adlı daşıyıcı raketi ilə özünün "Ümid" adlı ilk peykini kosmosa göndərmişdir;
- KXDR 12 dekabr 2012-ci ildə "Inxa-3" adlı raketi ilə özünün "Kvanmyonson-3" adlı ilk peykini kosmosa göndərmiş və bununla da 10-cu kosmik dövlət olmuşdur;
- Koreya Respublikası 30 yanvar 2013-cü ildə "Naro-1" adlı daşıyıcı raketi ilə özünün STSAT-2C adlı ilk peykini kosmosa göndərmişdir. Hələ 2002-ci ildə ölkədə kosmosa kiçik peyklər aparacaq KSLV-1 adlı raket hazırlanmışdır;
- ABŞ kosmik aparatı "Kriositi" 6 avqust 2012-ci ildə Marsdakı Heyla kraterinə enmişdir;
- Hindistana mənsub raketdə "Manqalyan" kosmik aparatı 5 noyabr 2013-cü ildə Marsa göndərilmişdir;
- Yeni Zellandiya 25 may 2017-ci ildə "Electron" adlı daşıyıcı raketi kosmosa göndərmişdir.

Braziliya da 1994-cü ildən başlayaraq kiçik uğurlarla kosmik proqram həyata keçirir. Yaxın perspektivdə özünün daşıyıcı raketini hazırlamaqla Rumıniya, İndoneziya, Argentina, Türkiyə, Pakistan, Qazaxıstan, Avstraliya, CAR, Çin Respublikası kosmosa uçuş həyata keçirməyi planlaşdırırlar.

Vurğulanmalıdır ki, hazırda fəzada ABŞ - 576, ÇXR - 181 və Rusiya - 140 kosmik aparata malikdir.

Kosmik fəaliyyət bir sıra beynəlmiləlləşmiş təsisatlar və milli agentliklər tərəfindən həyata keçirilir və tənzimlənir ki, bunlar da aşağıdakılardır:

- ABŞ-ın Aeronavtika və Kosmosdan istifadə Agentliyi (*NASA*) - 1958-ci il;
- Avropa Kosmik Agentliyi (*EKA*) - 1964-cü il;
- Hindistan kosmik tədqiqatlar təşkilatı - 1969-cu il;
- Koreya[9] Kosmik Texnologiyalar Komitəsi - 1980-ci il;
- Kanada Kosmik Agentliyi - 1989-cu il;
- Rusiya Federal Kosmik Agentliyi - 1990-cı il;
- Çin Kosmik Agentliyi - 1993-cü il;
- Ukrayna Milli Kosmik Agentliyi - 1996-cı il;
- Braziliya Kosmik Agentliyi - 1994-cü il;
- Yaponiya Aerokosmik Tədqiqatlar Agentliyi (*JAXA*) - 2003-cü il.

Hazırda Yer orbitində 50-dən çox ölkənin süni peyki vardır. Bu sıraya 2012-ci ildən Azərbaycan Respublikası da qatılmış və müvafiq işləri həyata keçirmək üçün ölkədə "Azərkosmos" ACS yaradılmışdır.

Yerin süni peykləri Yer ətrafındakı orbitlərə buraxılmış kosmik aparatlardır. Onlar gövdələrində yerləşdirilən cihazlardan asılı olaraq müxtəlif funksiyaları - Yerin monito-

[9] Koreya Xalq Demokratik Respublikası.

rinqini, elmi-tədqiqat işlərində gərəkli olan elmi ölçmələri, informasiyanın retranslyasiyasını, bütün növ nəqliyyat vasitələrinin naviqasiyasını, geofiziki, meteoroloji, rabitə, hərbi təyinatlı məsələlərin həllini və s. həyata keçirirlər. Onların vasitəsi ilə iqtisadiyyatın bir sıra mühüm məsələri həllini tapır.

Kosmosa süni peyk buraxılışında 13 ölkə özünün raket daşıyıcılarından istifadə etmiş və onlardan 10-u hazırda da bunu həyata keçirmək iqtidarındadır. Bu ölkələr 1975-ci ildə kosmosun tədqiqi məqsədi ilə təsis olunmuş, mənzil-qərərgahı Fransanın paytaxtı Paris şəhərində yerləşən beynəlxalq təşkilat - Avropa Kosmik Agentliyi, ESA (*European Space Agency, ESA*) tərəfindən "kosmik ölkələr" və ya "kosmik klub"un üzvləri adlandırılırlar. Beləliklə, hazırda böyük kosmik klubun 10 üzvü vardır: Rusiya, ABŞ, Fransa, Yaponiya, ÇXR, Böyük Britaniya, Hindistan, İsrail və İran.

Kosmosa raket buraxılışı texnologiyalarını mənimsəyən və pilotlu kosmik uçuşlar həyata keçirən ABŞ, Rusiya və ÇXR isə "kosmik super ölkələr" kimi fərqləndirilirlər.

Artıq yaşadığımız zamanda kosmik beynəlxalq layihələrdə turizm təşəkkül tapmış, pilotlaşmış kosmonavtika yenidən Aya və uzaq Marsın fəth olunmasına istiqamətlənmişdir. 1958-ci ildə yaradılmış ABŞ-ın mülki kosmik proqramlarını həyata keçirən icraedici dövlət agentliyi - NASA (*National Aeronautics and Space Administration*) hazırda Aya eniş etmək üçün "Ares" adlanan daşıyıcı raket nəsil üzərində iş aparır. Proqram əsasında ABŞ həm də Ayda müvafiq Ay bazasının yaradılmasını nəzərdə tutur. Eyni zamanda NASA proqram üzrə 2030-cu ildə Marsa insanların göndərilməsini də planlaşdırır. NASA tərəfindən əldə edilən videomateriallar və təsvirlər ictimailəşdirilərək dərc olunur.

Hazırda həyatımızı hər an dəyişən hava məlumatları olmadan təsəvvür etmək çətindir. Günəş şüalanması atmosferin müxtəlif qatlarına təsirini göstərir və bu təsir hava dəyişikliklərini qaynaqlandırır. Dünyada baş verən tufanlar hər il iqtisadiyyata milyardlarla dollar zərər vurur. Bunun üçün də mütəmadi olaraq kosmosdan hava haqqında meteoroloji məlumatlar alınır və müvafiq hava proqnozları hazırlanır. Müasir dünyada havanı sistematik müşahidə etmək üçün 10 mindən çox meteoroloji məntəqə mövcudur və onlar Yer səthinin yalnız 20%-nə sistematik nəzarət edirlər. Kosmosdan isə hava proqnozlarının alınması üçün kosmik aparat və qurğulardan istifadə olunur.

Yer kürəsini kosmosdan öyrənmək, onun şəklini çəkmək üçün hazırda çoxsaylı peyklərin, uçuş aparat və stansiyalarının köməyindən istifadə edilir. Kosmik şəkilçəkmə bir sıra məsələlərin həll edilməsi, xüsusən də, təbii ehtiyatların axtarışı və tektonik, morfoloji strukturaların öyrənilməsi, sürüşmələrin, sahil xətlərinin, yarğanlarının dinamikasının aşkar edilməsi, relyeflə çöküntü tipləri arasındakı əlaqələrin müəyyənləşdirilməsi, dəmir və şosse yollarının, kanallarının, boru kəmərlərinin, elektrik xətlərinin tikintisində mühəndis-geoloji axtarışların daha da təkmilləşdirilməsi və s. üçün dəyərli informasiyalar verə bilər.

Kosmosun sənaye mənimsənilməsi də mühüm əhəmiyyət daşıyır. Kosmosun sənaye mənimsənilməsi kosmik sistemlərin təsərrüfatı komplekslərində tətbiqini əhatə edir və müvafiq inteqrasiya ilə reallaşır.

Müasir gerçəkliklər, acı olsa da, kosmosun militarizasiyasını da əhatə edir. Bir çox inkişaf etmiş ölkələr hərbi kosmik fəaliyyət göstərirlər. Hərbi kosmik fəaliyyət də, əsasən, kosmik aparatlar vasitəsi ilə həyata keçirilir. Kosmosun hərbi proqramlardan imtina edilməsini nəzərdə tutan dinc mənimsənilməsi elmin və texnikanın, istehsalın və idarəetmənin ən yeni nailiyyətlərindən istifadəyə əsaslanır. O artıq Yer və onun resursları haqqında nəhəng kosmik informasiyanı təmin edir. Gələcək kosmik sənayenin, kosmik texnologiyanın, kosmik enerji resurslarının tətbiqinin cizgiləri daha aydın görünməyə başlayır.

Kosmos - insan üçün yeni, hələ ki, məskun edilməmiş mühitdir. Çox da uzaq olmayan zamana qədər alimlər hesab edirdilər ki, yaxın kosmosun fəthi havaya, iqlimə, Yer kürəsində və digər həyat şəraitinə heç bir təsir göstərmir. Bu baxımdan da, heç təəccüblü deyil ki, kosmosun mənimsənilməsi ekologiyaya nəzər yetirilmədən həyata keçirilirdi. Lakin problemin dərki və xüsusən də, son onilliklərdə fəzada ozon dəliklərinin meydana gəlməsi alimləri daha ciddi düşünməyə vadar etdi. Müşahidə və tədqiqatlar göstərdi ki, yerətrafı kosmik məkanın mühafizəsi və səmərəli istifadəsi probleminin daha miqyaslıdır və ozon qatının saxlanması onun yalnız kiçik bir hissəsidir. Belə ki, insanın kosmosu fəth etməsi istəyi ilə fəzada - yerətrafı məkanda kosmik aparatların qırıqları ilə çirklənməsi problemi meydana çıxmışdır. Araşdırmalar göstərir ki, kosmik fəzada da 10-15 min iri və 40 min xırda obyektlər yığıntısı mövcuddur. Hesab olunur ki, 200 ildən sonra atmosfer hüdudları və ondan kənarda özüçoxalmanın zəncirvari reaksiyası baş verəcək və nəticədə fəzada xeyli tullantı buludları yaranaraq optik görünüşü pisləşdirəcəkdir. Kosmik tullantı (*space debris*) işlək olmayan, fəaliyyət göstərməyən və heç zaman faydalı məqsədlərə xidmət etməyəcək, bununla belə fəaliyyətdə olan süni kosmik aparatlar, xüsusən də pilotlu kosmik gəmilər üçün təhlükəli təsir amili olan kosmosdakı bütün süni obyektlər və onların fraqmentləridir. Miqdarı məlum olmayan, müşahidə olunan və müşahidə olunmayan kosmik tullantıları fərqləndirirlər. Kosmik tullantı orbital stansiyaların və kosmik aparatların işləməsi prosesində və onların sonrakı bilərəkdən yox edilməsi nəticəsində meydana çıxır. Bura həmçinin, kosmik aparatların konstruksiyasının ayrılan elementləri də daxildir. Kosmik tullatıların həcmi 3 min tondan çox hesablanır, bu da 200 km-dən yüksəkdə bütün üst atmosferin kütləsinin 1%-ə qədərini təşkil edir. Artıq kosmik texnikanın yaradıcıları özlərinin yaratdıqları xoşagəlməz hadisələri nəzərə almağa məcburdurlar. Kosmik tullantı təkcə kosmonavtlar və kosmik texnika üçün deyil, həm də yer əhalisi üçün təhlükə daşıyır. Mütəxəssislər hesablamışlar ki, kosmik aparatların planetin səthinə çatmış 150 qırığından biri böyük ehtimalla insanı ciddi yaralaya və hətta məhv edə bilər. Belə hal isə, öz növbəsində, kosmosdan istifadənin məhdudlaşmasına səbəb olacaqdır Beləliklə də, kosmosun mənimsənilməsi prosesində

meydana çıxan ən mühüm problemlərdən biri ətraf mühitə və Yerətrafı məkana antropogen təsirin yol verilən sərhədlərinin spesifik amillərinin müəyyən edilməsindən ibarətdir. Ona görə də onun ekologiya (*kosmik ekologiya*) nöqteyi-nəzərdən təsirinin nəticələrinin öyrənilməsi olduqca vacibdir.

Bütün bu və ya digər amillər kosmosun mənimsənilməsinin qlobal səciyyə daşıdığını bir daha bəyan edir. Onun mənimsənilməsi isə böyük xərclər bahasına başa gəlir. Bu istiqamətdə ayrı-ayrı ölkələrdəki büdcələr 1 milyondan 1 milyard dollara qədər dəyişir. Bu istiqamətdə ən böyük büdcə təsisatları ABŞ dolları 50 milyarddan çox olaraq ABŞ-a məxsudur. Təqribən ABŞ dolları 10 milyardlıq büdcə ilə ikinci yeri Aİ tutur. Sonrakı yerləri 2-4 milyard ABŞ dolları olmaqla Yaponiya, Rusiya və ÇXR bölüşürlər.

Müasir kosmik fəliyyət, vurğulandığı kimi, beynəlmiləl xarakter daşıyır. Bu sırada 20 noyabr 1998-ci ildən istismar olunan, çoxməqsədli kompleks kosmik tədqiqatların aparılması üçün istifadə edilən pilotlu orbital stansiya - Beynəlxalq Kosmik Stansiya, BKS (*International Space Station, ISS*) universal hesab olunur. Beynəlxalq Kosmik Stansiya 15 ölkə - Belçika, Braziliya, AFR, Danimarka, İspaniya, İtaliya, Kanada, Niderland, Norveç, Rusiya, ABŞ, Fransa, İsveç, İsveçrə və Yaponiyanın təmsil olunduğu beynəlxalq layihədir. O, ABŞ və Rusiyada yerləşən müvafiq mərkəzlər tərəfindən idarə edilir və hər gün informasiya mübadiləsini reallaşdırır. Stansiyanın fəaliyyətdə əsas məqsədlərdən biri də ekspermentlər və tədqiqatların aparılmasıdır. Bu ekspermentlər kosmik uçuş zamanı mikroqravitasiya, vakuum, kosmik şüalanma və digər sahələri əhatə edir. Tədqiqatlar sferasına isə biologiya, fizika, astronomiya, kosmologiya və meteorologiya daxildir.

Kosmos fəaliyyətinin tənzimlənməsində kosmos hüququ çox mühüm rola malikdir. Kosmik hüquq (*space law*) kosmik məkanın istifadəsi və tədqiqi üzrə kosmik fəaliyyətin həyata keçirilməsi ilə bağlı dövlətlər və beynəlxalq hüququn subyektləri digər arasında münasibətləri tənzimləyən beynəlxalq hüquq normaları məcmusudur. Kosmik hüquq nüvə və digər kütləvi qırğın silahlarının kosmik məkanda yerləşdirilməsini qadağan edərək, kosmik cismlərdə tam demilitarizasiyasını nəzərdə tutur. Beynəlxalq kosmik hüququ BMT-nin Baş Assambleyasının bəşəriyyətin kosmik məkandandakı maraqlarını ifadə edən müvafiq 13 dekabr 1958-ci il qətnaməsindən başlanğıc alır. Beynəlxalq kosmik hüququnun obyektini dəniz səviyyəsindən 100 km yüksəklikdə olan kosmik məkan, Günəş sisteminin planetləri, Ay, süni kosmik qurğu və aparatlar və onların tərkib hissələri, kosmik ekipajlar, göydən endirilmiş materiallar və s. əhatə edir. Təbii mənşəli göy cisimlərindən (*Ay, planetlər, asteroidlər və s. kimi*) fərqli olaraq, kosmik obyektlər kimi beynəlxalq kosmik hüquqda insan tərəfindən yaradılmış Yerin süni peykləri, avtomat və idarəedilən gəmi və stansiyalar, daşıyıcı raketlər və s. anlaşılır. Beynəlxalq kosmik hüquq kosmik obyektlərlə bağlı, onların buraxılması və ya kosmik məkanda (*o cümlədən göy cisimlərində*) qurulması anından fəaliyyətlərini tənzimləyir. Bu ana qədər onların yaradılması və buraxılışa hazırlıq fəaliyyəti əgər dövlətlərarası xüsusi saziş yoxdursa, dövlətdaxili hüquq sahəsindədir. Kosmik obyekt Yer kürəsinə qayıtdıqdan sonra, bir qayda olaraq yenə də milli hüquq

təsiri altına düşür. Lakin onun start götürdüyü dövlətin ərazisi hüdudlarından kənarda oturması halında dövlətlər arasında münasibətlər beynəlxalq kosmik hüquq normaları ilə tənzimlənir.

Beynəlxalq kosmik hüquq beynəlxalq müqavilə təyinatlıdır və 1966-ci ilin 19 dekabrında BMT-nin Baş Assambleyasının 21-ci sessiyasında bəyənilərək 1967-ci ildə depozit dövlətlər arasında Moskva, Vaşinqton və Londonda bağlanan və hazırda qüvvədə olan müqavilə normaları üzrə təsbit olunmuşdur. Müqavilədə Beynəlxalq Kosmos hüququnun prinsipləri nəzərdə tutulmuşdur. Həmin prinsiplər aşağıdakılardır:

- ❖ suveren bərabərlik;
- ❖ güc tətbiq etməmə və güc təhlükəsi;
- ❖ beynəlxalq mübahisələrin sülh yolu ilə həlli;
- ❖ əməkdaşlıq;
- ❖ beynəlxalq öhdəlikərin ləyaqətli yerinə yetirilməsi;
- ❖ beynəlxalq hüquqi məsuliyyət;
- ❖ ətraf mühitin mühafizəsi.

Kosmik məkan hər hansı dövlətin yurisdiksiyası altında deyildir. Bu, təmiz halda beynəlxalq mühafizə obyektidir. Kosmik məkanın hüquqi vəziyyəti göy cisimləri də daxil olmaqla, hər şeydən əvvəl hər hansı dövlətin suverenliyinə mənsub olmadığı ilə müəyyən edilir. Bu məkan bütün dövlətlər tərəfindən tədqiq və istifadəsi üçün açıq və ya azaddır.

Kosmos qlobal mühit, bəşəriyyətin ümumi sərvətidir. İndi, kosmik proqramların xeyli mürəkkəbləşdiyi bir vaxtda onların yerinə yetirilməsi bir çox ölkələrin və xalqların texniki, iqtisadi, intellektual qüvvələrinin cəmləşməsini tələb edir. Ona görə də kosmosun mənimsənilməsi beynəlxalq, qlobal problemlərdən birinə çevrilmişdir.

Beləliklə kosmik məkanın mənimsənilməsi problemi raket-kosmik fəaliyyətın ətraf mühitə təsir göstərərək atmosferin çirklənməsi, ekoloji vəziyyəti çətinləşməsi, texnogen fəlakətlərin yaranması ilə müşayiət oluna bilən təhlükələr məcmusudur. Onun dinc məqsədli mənimsənilməsi üçün hərbi proqramlardan imtina etmək, kosmik ekologiyanı inkişaf etdirmək, ayrı-ayrı dövlətlərin, beynəlxalq təsisatların birgə texniki, iqtisadi və intelektual səylərini artırmaq, ETT-nin ən son nailiyyətləri əsasında fəaliyyət planları həyata keçirilməlidir.

## 10.22. Azərbaycanda nüvə tədqiqatları və kosmik sənayenin inkişaf perspektivləri

Nüvə enerjisi və texnologiyaları hazırda dünyanın enerji təminatında alternativ enerji mənbələrindən biri kimi geniş tətbiqini tapır. Proses eyniliklə Azərbaycanda da vüsət alır. Respublikada nüvə enerjisinin dinc məqsədlərlə istifadəsinin əsası XX əsrin 70-ci illərində ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. Belə ki, nüvə enerjisinin dinc məqsədlərlə istifadəsi sahəsində elmi araşdırmalar aparmaq məqsədi ilə AMEA-nın Radiasiya Tədqiqatları Sektoru, Fizika İnstitutunda nüvə fizikası laboratoriyası,

radioaktiv tullantıların basdırılması və uzunmüddətli saxlanılması üçün "İzotop" Xüsusi Kombinatı yaradılmışdır. Azərbaycan alimləri nüvə çevrilmələri, nüvə reaktoru fizikası, radiasiya materialşünaslığı, atom-hidrogen energetikası kimi aktual elmi istiqamətlərdə İ.V.Kurçatov adına Atom Enerjisi İnstitutu, M.Lomonosov adına Moskva Dövlət Universiteti, Dubna Beynəlxalq Nüvə Tədqiqatları Mərkəzi və digər aparıcı elmi qurumlarla birgə elmi-tədqiqat işləri aparmış və müəyyən təcrübə toplamışlar. Belə bir fakt da maraq doğurmaya bilməz ki, Azərbaycan SSRİ-nin tərkibində olduğu zamanlarda bir çox azərbaycanlılar respublikadan kənarda ittifaqın müvafiq elmi-tədqiqat institutları və digər müvafiq təşkilarlarında çalışmışlar. Bu sırada dünya şöhrətli tədqiqatçı, kimya elmləri doktoru, professor Abbas Abbasəli oğlu Çayxorski (*1917-2008*) daha irəlilərə gedərək 1969-1981-ci illərdə möhtəşəm dövlətin - SSRİ-nin nüvə reaktorlarının qəbulu üzrə Dövlət Komissiyasının sədri olmuşdur. A.Çayxorski 1917-ci ildə indiki Ermənistanın Basarkeçər qəzasının Çaxırlı kəndində anadan olmuşdur. Onun ailəsi Qərbi Azərbaycanda 1918-ci ildə ermənilər tərəfindən öz doğma yurdlarından çıxarılması ilə əlaqədar əvvəlcə Ağdama, oradan da Ağdaşa köç etmişdir. Ağdaşda orta məktəbi bitirdikdən sonra əvvəlcə Bakıda texnikumda sonra isə 1939-cu ildən Bakı Dövlət Universitetinin kimya fakültəsində təhsil almışdır. II Dünya Müharibəsinin başlanması ilə əlaqədar o universitetdə təhsilini buraxmış 2 ay Bakı artilleriya məktəbində oxuyaraq cəbhəyə göndərilmişdir. Müharibədən sonra Bakıya dönən A.Çayxorski universitetdə təhsilini davam etdirmiş və onu təhsil əlaçısı kimi SSRİ Xalq Komissarları Sovetinin qərarı ilə Leninqrad Universitetinin kimya fakültəsinin 4-cü kursuna, yenicə açılmış radiokimya bölməsinə keçirmişlər. O, 1947-ci ildə Rusiyanın Çelyabinsk şəhərində təşkil olunmuş Atom mərkəzinə işləməyə göndərilir və burada SSRİ-nin nüvə bombası və AES yaradıcısı olan məşhur alim İqor Vasilyeviç Kurçatovla (*1903-1960*) birlikdə fəaliyyət göstərir və buradan da elmdə və vəzifədə irəliləyərək, 1969-cu ildə atom enerjisindən dinc məqsədlərlə istifadə üzrə SSRİ Dövlət Komissiyasının rəhbəri təyin olunur.

A.Çayxorski neptunium elementinin kimyası sahəsində dünya şöhrətli tədqiqatçıdır. Onun 1970-ci ildə hazırladığı elementlərin dövri sistemi cədvəli (*Mendeleyev cədvəlinin modifikasiyası*) SSRİ-də radiokimya sahəsində müəllimlərin ixtisasını artırmaq fakültələrinin tədris proqramına salınmışdı. SSRİ-nin süqutundan sonra o, 1997-ci ildə - 80 yaşında həyat yoldaşı ilə birlikdə yaşamaq üçün ABŞ-a, oğlunun yanına köçmüşdür. Ömrünün son illərində dəfələrlə Bakıya gəlmiş, AMEA-nın fəxri doktoru seçilmiş, məqalələri respublikanın elmi mətbuatında dərc olunmuşdur.

"Çayxorski" soyadının yaranmasının maraqlı tarixçəsi var. Çar Rusiyası dövründə zadəganlar özlərinə doğulduğu yerlə səslənən soyad götürürdülər. A.Çayxorskinin ulu babası inanclı adam olduğundan soyad kimi "Çaxırlı" yox, "Çayxorlu" (*"çay xoşlayan"*) soyadını seçmişdir. O, həm də liberal baxışları ilə əlaqədar çar III Aleksandr tərəfindən Polşaya sürgün olunmuş və burada həmin soyad polyak sayağı - "Çayxorski" formasına düşmüşdür.

A.Çayxorski 91 yaşında - 2008-ci ildə, ABŞ-ın Nevada ştatının Rino şəhərində vəfat etmişdir.

Azərbaycanda nüvə sahəsində ötən illərdə aparılan araşdırmalar sırf elmi-nəzəri xarakter daşımışdır. Mövcud maddi-texniki bazanın zəifliyi və tədqiqat nüvə reaktorunun olmaması səbəbindən burada nüvə texnologiyalarının müasir tələblərə uyğun inkişafına nail olunmamışdır. Müasir reallıqlar, Azərbaycanın artan iqtisadi qüdrəti göstərir ki, nüvə texnologiyalarının inkişafı və bu sahədə kadr hazırlığı üçün ölkədə tədqiqat nüvə reaktorunun olması zəruridir. Vurğulanmalıdır ki, hazırda dünyada 250-yə yaxın tədqiqat nüvə reaktoru fəaliyyəti göstərir ki, bunlardan 88-i inkişaf etməkdə olan ölkələrdə (*Əlcəzair, Banqladeş, Kolumbiya, Qana, Yamayka, Liviya, Mərakeş, Tayland, Vyetnam və başqaları*) qurulmuşdur. Ən çox tədqiqat nüvə reaktoru Rusiyada - 49, ABŞ-da - 41, Yaponiyada - 15, Fransada - 12 və AFR-də - 11 fəaliyyət göstərir. Bütün bunlardan irəli gələrək nüvə texnologiyalarından dinc məqsədlərlə istifadə üçün 2014-cü ildə respublikada "Milli Nüvə Tədqiqatları Mərkəzi" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" ölkə prezidenti müvafiq sərəncam imzalamışdır. Cəmiyyətin əsas məqsədini nüvə elmləri, nüvə texnologiyaları və nüvə energetikası sahəsində kompleks tədbirlərin həyata keçirilməsi, nüvə texnologiyalarının müasir dövrün tələblərinə və milli mənafelərə uyğun dinc məqsədlərlə inkişaf etdirilməsi və ondan istifadənin təmin olunması, nüvə elmləri və texnologiyaları sahəsinin maddi-texniki bazasının yaxşılaşdırılması, elmi tədqiqatların genişləndirilməsi və yüksək ixtisaslı kadr potensialının gücləndirilməsi məsələlərini əhatə edir. Təsisatın hərtərəfli fəaliyyətini təmin etmək üçün ölkədə gücü 20 MVt olan tədqiqat nüvə reaktorunun qurulması istiqamətində işlər aparılır.

Azərbaycanda astronomiya elminin tarixi qədimdir. Bu elmin hələ orta əsrlərdən nə qədər inkişaf etdiyini dahi Azərbaycan şairi Nizami Gəncəvinin (*1141-1209*) əsərlərindən aydınlıqla görmək mümkündür. Bununla belə, bir qədər sonra astronomiya elminin bu məkanda Azərbaycan alim Mühəmməd Nəsirəddin Tusinin (*1201-1274*) XIII əsrdə yaratdığı məşhur Marağa rəsədxanası ilə daha daha da şöhrət tapdığının şahidi oluruq. Qısa müddətə dünyanın astronomiya mərkəzinə çevrilən rəsədxanada astronomiyaya dair 100-dən çox əsər hazırlanmışdır ki, bunlardan da 30-u şəxsən N.Tusinin özünə məxsus olmuşdur. Marağa rəsədxanasının çox zəngin kitabxanası vardı. Rəsədxanada sistematik astronomik müşahidələr aparılmış və bu müşahidələr əsasında müasir dövrdə də elmi mahiyyətini itirməyən məşhur "Elxan cədvəlləri" tərtib olunmuşdu. Rəsadxanaya rəhbərlik edən zəmanəsinin tələblərinə görə astronom, riyaziyyatçı, filosof və ümumiyyətlə ensiklopedik biliklər sahibliyinə yetişmiş dahi Azərbaycan alimi N.Tusi burada ulduzların dəqiq qlobusunu yaratmışdı. Ümumiyyətlə tarixə nəzər yetirdikdə ayrı-ayrı Azərbaycan alim və mütəfəkkirlərinin, şair və ədəbiyyatçılarının əsərlərində astronomik biliklərlə hər zaman geniş yer verildiyi məlumdur. Lakin bu istiqamətdə daha əlamətdar mərhələ XX əsrdə milli astronomiyanın daha geniş praktiki məzmun alması ilə bağlıdır. Belə ki, 1927-ci ildən

Azərbaycanda astronomiya ekspedisiyları fəaliyyətə başlamış, bir sıra rayonlarını tədqiqatlar apararaq respublikada rəsədxana tikilməsi üçün ərazilər müəyyən etmişlər. Alternativlik baxımdan astrofizika müşahidələri üçün yaxşı keyfiyyətli ən müvafiq ərazilər kimi Şusa və Şamaxı rayonları seçilmişdir. Sonda paytaxt Bakıya daha yaxın Şamaxı rayonun Pirqulu ərazisininə üstünlük verilməsini tövsiyə etmişdir. Rəsədxananın yaradılması ilə əlaqədar layihələrin işlənməsinə 1954-cü ildən başlanılmış və astrofizika rəsədxananın tikintisinə 1958-ci ilin sonunda başlamışdır. Hazırda bu təsisat AMEA-nın nəzdində Nəsirəddin Tusinin adını daşıyan Şamaxı Astrofizika Rəsədxanası - ŞAR kimi fəaliyyət göstərir. ŞAR-ın rəsmi yaranma tarixi 13 yanvar 1960-ci ildən götürülür. Burada qurulan teleskop o zaman SSRİ ərzazisində və ümumilikdə Avropada ən güclü olmuşdur. 1959-cu ilin payızında ŞAR üçün nəzərdə tutulan teleskop Moskvaya gətiriləndə o zaman SSRİ-də elm sahəsinə nəzarət edən Anastas Mikoyan (*1895-1978*) teleskopun Ermənistandakı Bürəkan rəsədxanasına, oradakı köhnə teleskopun isə Azərbaycana göndərilməsi barədə göstəriş vermişdi. Həmin illərdə AMEA-nın perzidenti olmuş Yusif Heydər oğlı Məmmədəliyev (*1905-1961*) bu xəbəri eşidən kimi Moskvaya getmiş daha imtiyazlı, vəzifəli şəxslərlə əlaqə yaradaraq, həmin teleskopun Azərbaycana gətirilməsinə nail olmuşdur. Bu, diametri 2 metr olan “Ulduz” teleskopu almanların məşhur ”Karl Zeys” optik firmasının məhsulu kimi dünyadakı müvafiq tipli 4 qurğudan (*AFR, Bolqarıstan, Çexiya, Azərbaycan*) biridir. Bu teleskopları güzgüsünün şəffaflığı, effektliliyi, səthinin cilalanması və güzgünün içərisində hava boşluğunun az olması fərqləndirir. Güzgünün qalınlığı 40 sm, çəkisi 3 ton yarımdır. Ümumən çəkisi 85 tona bərabər bu teleskop dünya oxuna paralel və ona perpendikulyar fırlana bilir. Müşahidə aparmaq üçün teleskop kümbəzin açılan hissəsindən yuxarı tuşlanır. İndiyə qədər bu teleskop vasitəsilə astronomiyaya məlum olmayan neçə-neçə elmi nəticələr əldə olunub. Bir fakt da qeyd olunmalıdır ki, ŞAR teleskopların sayına görə dünya rəsədxanalarının içərisində birincilərdəndir.

ŞAR-ın əsas fəaliyyət istiqamətləri:

❒ Ulduzlarda qeyri-stasionar proseslərin kompleks tədqiqi;
❒ Günəş sistemi cisimlərinin fizika və dinamikası;
❒ Günəş fizikası, Günəş-Yer əlaqələri.

ŞAR fəaliyyət göstərdiyi dövrdə minlərlə səma cisiminin xassələrini öyrənmiş, bir sıra kosmik proqramlarda iştirak etmişdir. Rəsədxana əməkdaşlarının aldıqları elmi nəticələr dünya alimləri tərəfindən yüksək qiymətləndirilmiş və 20-yə qədər əməkdaş bir sıra nüfuzlu elmi təşkilatlara üzv seçilmişdir. Marsda və Ayda bir sıra krater ŞAR əməkdaşlarının adını daşıyır. Bu sırada Azərbaycan astrofiziki Nadir Baba oğlu İbrahimovun (*1932-1977*) adı öndədir. Belə ki, 1982-ci ilin avqust ayında Beynəlxalq Astronomiya İttifaqı dünyada ilk dəfə Mars planetində qeyri-üzvi birləşmələrin əsasını təşkil edən molekulların mövcudluğunun kəşfinə görə Mars planeti səthində krateri “Nadir İbrahimov” adlandırılıb. Ümumiyyətlə, səmada Azərbaycanla bağlı 11 ad vardır ki, bunlar “Azərbaycan”, “Şamaxı Astrofizika Rəsədxanası” “Nizami”, “Tusi”,

"Cavid", "Maqomayev", "Sorin" (*Azərbaycan astronomu Nikolay Sorin*) "Əyyub Quliyev" kimi asteroidlər və həmçinin, Marsda (*"Nadir İbrahimov" və "Quba"*) və Ayda (*"Nizami Gəncəvi"*) üç kraterdir. 2002-ci ildə ŞAR-ın keçmiş Batabat Bölməsinin və Ağdərə Astronomiya Stansiyasının bazası əsasında Naxçıvan Muxtar Resbublikası ərazisində Azərbaycanın hündür yerlərindən birində yerləşən Batabat Astrofizika Rəsədxanası təşkil edilmişdir. Bundan başqa, ŞAR-ın təşəbbüsü ilə 2009-cu ildə respublikada yenidən Azərbaycan Astronomiya Cəmiyyəti yaradılmışdır.

Azərbaycanda yeni mərhələdə kosmosla bağlı daha miqyaslı fundamental elmi araşdırmalar sferasında 1975-ci ildə Bakıda Təbii Ehtiyatların Kosmik Tədqiqi Elmi Mərkəzinin *("Kaspi")* yaradılması ilə də bağlı olmuşdur. Həmin mərkəz Qafqaz-Xəzər regionunda kosmik ölçmələrdən istifadə etməklə təbii ehtiyatları öyrənməkdən və bu məqsədlə müvafiq nəzarət-ölçü cihazları hazırlamaqla məşğul olmuşdur. Öz laborotoriyalarına və konstruktor bürosuna malik olan bu mərkəz tezliklə kosmik tədqiqatlar sahəsində əhəmiyyətli mövqe tutmuş və 1978-ci ildə onun bazasında Təbii Ehtiyatların Kosmik Tədqiqi İnstitutu yaradılmışdır. 1982-ci ildə isə bu institutun əsasında təsis olunan Kosmik Tədqiqatlar Elm-İstehsalat Birliyi daha geniş miqyasda fəaliyyətə başlamışdır. Bu təsisat 2007-ci ildən Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyinin nəzdində Milli Aerokosmik Agentlik kimi fəaliyyət göstərir. Bütün bu işlərin fövqündə dayanan ümummilli lider Heydər Əliyevin xidmətləri əvəzedilməzdir. Həmin illərdə Azərbaycana rəhbərlik etmiş Heydər Əliyev bütün bu fəaliyyətlərin səmərəli reallaşmasında qətiyyətli addımlar atmışdır.

Kosmik Tədqiqatlar Elm-İstehsalat Birliyinin və onun sələfi olmuş müvafiq qurumların yaradıcısı görkəmli alim, Azərbaycanda kosmonavtika elminin əsas simalarından biri, texnika elmləri doktoru, professor, Beynəlxalq Mühəndislik Akademiyasının həqiqi üzvü (*akademik*) Tofiq Kazım oğlu İsmayılov (*1933-1991*) olmuşdur.

T.İsmayılov Azərbaycan Respublikası kosmonavtika federasiyasının sədri, Beynəlxalq Astronomik İttifaqın, SSRİ Elmlər Akademiyası Astrosovetinin (*astronomiya şurası*), SSRİ Elmlər Akademiyası kosmik vasitələrlə təbii sərvətlərin öyrənilməsi bürosunun, SSRİ Baş Kosmos İdarəsinin Elmi-Texniki Şurasının, SSRİ Elmlər Akademiyası Elmi Şurasının və Dövlət Elm və Texnika Komitəsinin üzvü olmuş, Bakıda Kosmik Tədqiqatlar Elm-İstehsalat Birliyinin baş direktoru və baş konstruktoru vəzifələrini daşımışdır. T.İsmayılov Azərbaycan Respublikasının ilk dövlət katibi olaraq şərəfli missiyanı yerinə yetirmiş, 1990-cı ilin 20 yanvar hadisələrindən sonra SSRİ Xalq Deputatları Qurultayında tribunaya qalxaraq 20 yanvarda Bakıda baş vermiş qanlı cinayətin baiskarlarını lənətləmiş, hamıya bu qırğında həlak olmuş günahsız insanların xatirəsini yad etmək üçün ayağa qalxmağı təklif etmiş, bununla da bu cinayətin baiskarı SSRİ prezidenti Mixail Sergeyeviç Qorbaçovu (*1931*) da ayağa qalxmağa, günahsız şəhidlərin ruhunu yad etməyə məcbur etmişdir. T.İsmayılov 1991-ci il noyabr ayının 20-də Qarabağın Qarakənd kəndi üzərində erməni quldurları tərəfindən vurulan "Mİ-8" hərbi vertolyotunda faciəli şəkildə həlak olmuşdur.

Kosmik elm və texnikanın praktiki tədqiqat sferası sahəsində azərbaycanlı Kərim Abbas-Əli oğlu Kərimovun (*1917-2003*) xidmətləri böyük olmuşdur. O, 1945-ci ildən SSRİ Müdafiə Nazirliyi sistemində raket texnologiyaları üzrə konstruktor büroları və zavodlarında çalışmış, 1946-cı ildən başlayaraq ballistik raketlərin radioölçmə sistemlərinin yaradılması istiqamətində işlər aparmışdır. K.Kərimovun araşdırmaları nəticəsində yaradılan raketlərin daxili parametrlərinə nəzarət edən "Don" radioölçmə sisteminin elmi-texniki göstəriciləri sonradan kosmik sənayedə tətbiq olunmağa başlanmışdır. Bu nailiyyətinə görə o, 1950-ci ildə SSRİ Dövlət mükafatına layiq görülmüşdür. SSRİ-nin nəhəng Baykonur kosmodromunun əsası qoyulan gündən isə K.Kərimov Kosmik Gəmilər üzrə Dövlət Komissiyasının tərkibinə daxil edilmişdir. Kosmik aparatların yaradılmasında, dünyada ilk dəfə insanın kosmosa göndərilməsində onun da rolu az olmamışdır. Nəticədə ilk kosmonavt Yuri Qaqarinin tarixi uçuşu uğurla başa çatdıqdan sonra K.Kərimov SSRİ-nin ən yüksək ordeni - Lenin ordeni ilə təltif edilmişdir.

K.Kərimov 1965-ci ildə Kosmik Vasitələr İdarəsinin rəisi vəzifəsinə təyinat almışdır. Onun rəhbərlik etdiyi idarəyə bütün konstruktor büroları və zavodlar tabe idilər. Təşkilatın əsas məqsədi isə Günəş sisteminin planetləri və avtomatik qurğulara Ay səthinin quruluşunu öyrənməkdən ibarət olmuşdur. Həmin ildə K.Kərimov SSRİ Ümumi Maşınqayırma Nazirliyinə ezam olunmuşdur.

K.Kərimovun istedadını və təşkilatçılıq qabiliyyətini yüksək qiymətləndirən məşhur sovet konstruktoru Serqey Pavloviç Korolyov (*1907-1966*) 1966-cı ildə təkidlə onun Kosmik Gəmilər üzrə Dövlət Komissiyasının sədri təyin edilməsinə nail olmuşdur. K.Kərimov bu vəzifədə 25 il çalışmış, kosmik uçuşlarla bağlı bütün sistemlərin hazırlığının yoxlanmasına, uçuşun başlanmasına icazə verməsinə məsul şəxs kimi rəhbərlik etmişdir. Kosmik uşuşları yerinə yetirib geri dönən uçuş heyətlərinin hesabatlarını qəbul etmiş və sovet qanunlarına uyğun olaraq, televiziya reportajlarına düşməyən ali vəzifəli şəxs olmuşdur. K.Kərimov əsas vəzifəsi ilə paralel olaraq 1974-cü ildə Mərkəzi Elmi-Tədqiqat Maşınqayırma İnstitutu direktorunun birinci müavini kimi elmi-təşkilatçılıq fəaliyyəti göstərmişdir. O dövrdə sovet kosmonavtikasının fəxri sayılan, alim-mühəndis zehninin qələbəsi kimi qəbul edilən kosmik aparatlar K.Kərimovun fəal iştirakı və birbaşa rəhbərliyi ilə yaradılmışdır. Bunlar sırasında yeni nəsil "Soyuz" kosmik gəmiləri, "Salyut" orbital stansiyası, sonradan isə çoxmodullu "Mir" stansiyası olmuşdur. 1991-ci ildə istefaya çıxan K.Kərimov ömrünün sonunadək Uçuşları İdarəetmə Mərkəzinin məsləhətçisi vəzifəsində çalışmışdır. İstehsalat-təşkilat və elmi fəaliyyətinə görə general-leytenant K.Kərimov SSRİ-nin alı mükafatları - Sosialist Əməyi Qəhrəmanı, Lenin və SSRİ Dövlət mükafatları laureatı adına layiq görülmüş, Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif edilmiş, AMEA-nın fəxri üzvü seçilmişdir. K.Kərimov 2003-cü ildə Moskva şəhərində vəfat etmiş və orada dəfn olunmuşdur.

Hazırda Azərbaycanda kosmik fəaliyyət və kosmik sənayenin yaradılması

istiqamətində çox mühüm işlər aparılır. Müvafiq qanunvericilik aktları hazırlanır. Artıq "Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramı" reallaşdırılmışdır. Ölkənin telekommunikasiya peyklərinin orbitə çıxarılması, idarə olunması və istismarı işlərinin həyata keçirilməsini təmin etmək məqsədilə bütün səhmləri tamamilə dövlətə məxsus olon "Azərkosmos" Açıq Səhmdar Cəmiyyəti təsis olunmuşdur. "Azərkosmos" ASC peyk rabitəsi əsasında teleradio yayım və telekommunikasiya xidmətlərinin göstərilməsi, hökumət və korporativ müştərilərin tələblərinə cavab verən yüksək dayanıqlı, keyfiyyətli rabitə platformalarının təmin edilməsi istiqamətində iş aparır. "Azərkosmos" ASC Azərbaycanda, həmçinin, Qafqazda ilk peyk operatorudur. Cəmiyyət tərəfindən peyklərin idarəolunması üçün Bakının Pirəküşkül qəsəbəsində Əsas Yerüstü İdarəetmə Mərkəzi və Naxçıvan MR-də Ehtiyat Yerüstü İdarəetmə Mərkəzi qurulmuşdur. Bunun nəticəsində 2013-cü ilin 8 fevralında Cənubi Amerikada, Fransanın inzibati idarəçiliyində olan Fransa Qvianasındakı Kuru kosmodromundan - Qviana Kosmik Mərkəzindən üzərində üçrəngli Azərbaycan bayrağı olan "Ariane-5" daşıyıcı raketi ilə Azərbaycanın birinci telekommunikasiya peyki "Azərspace-1" orbitə buraxılmışdır. Bununla da BMT-nin müvafiq komitəsində Azərbaycan kosmik ölkələr sırasına qəbul olunmuş və kosmik fəzanın sülh məqsədlərlə istifadəsi üzrə öhdəliklər götürmüşdür. Faydalı yük üzrə 36 fəal transponderlə təchiz olunan və təqribən 3,2 ton çəkisi olan "Azərspace-1" peyki 46 dərəcə Şərq uzunluq dairəsində geostasionar orbitdə yerləşərək, Avropa, Afrika, Mərkəzi Asiya, Qafqaz ölkələri və Yaxın Şərq regionunu əhatə etmişdir. Orbitdə istismar müddəti ən azı 15 il təşkil edəcək "Azərspace-1" peyki internet, teleradio yayımı və telekommunikasiya xidmətlərinin göstərilməsi, eləcə də korporativ və hökumət müştərilərinin tələblərinə cavab verən keyfiyyətli və dayanıqlı rabitə platformalarının təmin edilməsi üçün nəzərdə tutulmuşdur. Bu peyk hazırda Mərkəzi Asiya, Avropa və Afrikanın 50-dən artıq ölkəsini birləşdirən kosmik məkanda əsas rol oynayır. Bundan sonra 2014-cü ildə Yer səthinin yaxın məsafədən müşahidəsini təmin edən "Azersky"adlı peyk də orbitə çıxarılmışdır. 2018-ci ilin sonunda isə "Azərspace-2" ikinci telekommunikasiya peyki orbitə çıxarılması gözlənilir. Bunlar ölkəni daha etibarlı peyk rabitəsi ilə təmin edərək müvafiq istiqamətdə yeni texnologiyaların tətbiqinə sürət verəcək, milli radio və televiziya proqramlarının peykdən paket yayımını genişləndirəcək respublikanın informasiya təhlükəsizliyinin gücləndirilməsinə daha səmərəli xidmət göstərəcəkdir. Aşağıorbitli peyklərin orbitə çıxarılması isə respublikada ətraf mühitin mühafizəsi, kənd təsərrüfatı, topoqrafiya və kartoqrafiya, eləcə də milli təhlükəsizlik sahəsində fəaliyyəti daha səmərəli edəcəkdir.

## 10.23. İqtisadiyyatın militarizasiyası və qlobal hərbi problem

Xarici mümkün müdaxilədən müdafiə dövlətin ən mühüm funksiyalarındandır. Bu funksiyalar məcmusu hər hansı bir dövlətin varlığını təmin edən mühüm prioritet milli

təhlükəsizlikdən keçir. Milli təhlükəsizlik (*national security*) dövlətin daxili və xarici təhlükələrdən qorunma səviyyəsini, kənardan mənfi təsirlərə müqavimət dayanıqlığını, ölkənin mövcudluğu üçün cəmiyyətin və onun vətəndaşlarının stabil inkişafını təmin edən daxili və xarici şərtlər məcmusunu xarakterizə edir.

Milli təhlükəsizliyin əsas tərkib hissələri aşağıdakılardır:

- ❒ Dövlət təhlükəsizliyi - dövlətin daxili və xarici təhlükələrdən qorunma səviyyəsi;
- ❒ İctimai təhlükəsizlik - şəxsiyyətin, cəmiyyətin və dövlətin daxili ümumi təhlükəli xarakterli hadisələrdən qorunması səviyyəsi;
- ❒ İqtisadi təhlükəsizlik - iqtisadi tələbatların effektiv ödənilməsi, milli və beynəlxalq səviyyələrdə ölkənin iqtisadi maraqlarının qorunması;
- ❒ Enerji təhlükəsizliyi - əhalinin, dövlət və iqtisadiyyatın müqabil keyfiyyətli və iqtisadi girişli yanacaq-enerji resursları təminatı defisitindən qorunması;
- ❒ Texnogen təhlükəsizlik - əhalinin, istehsal heyətinin, iqtisadiyyatın və ətraf mühitin təhlükəli texnogen xarakterli hadisələrdən qorunması vəziyyəti;
- ❒ Ərzaq təhlükəsizliyi - insanların yetərli həcmdə təhlükəli olmayan qida məhsullarını fiziki və iqtisadi baxımdan əldə etmək imkanlılığının təminatı;
- ❒ İnformasiya təhlükəsizliyi - dövlətin informasiya resurslarının və informasiya sferasında şəxsiyyət və cəmiyyətin hüquqlarının qorunması vəziyyəti;
- ❒ Ekoloji təhlükəsizlik - ekoloji təhlükəli təbii və antropogen amillərin ətraf mühitə və insana neqtiv təsirinin mümkün qəbul edilə bilən həddi.

Dünya siyasətinin ən mühüm problemi müharibə və sülh problemidir. XX əsrin əvvəllərinə qədər müharibələr lokal xarakter daşıyırdısa, XX əsrdə silahlı toqquşmalar daha çox beynəlmiləlləşmə kimi təhlükəli meyil almağa başlamışdı. Belə ki, XVII əsrdə müharibələrin gedişində Avropa ərazisində 3,3 milyon nəfər, XVIII əsrdə 5,64 milyon nəfər, 1801-1914-cü illərdə 5,7 milyon nəfər həlak olmuşdur. Daha ağır nəticələr isə XX yüzilliyin iki dünya müharibəsi dövründə baş vermişdir. Bu müharibələr 73 milyondan artıq insan həyatı aparmışdır.

I və II dünya müharibələrinin nəticələri haqqında məlumatlar cədvəl 16-da verilmişdir.

II Dünya Müharibəsindən sonra 200-dən çox lokal və regional münaqişə baş vermiş və burada təxminən 20 milyon nəfər insan həlak olmuşdur.

Hazırkı beynəlxalq münasibətlər təcrübəsində hərbi gücün tətbiqi bütün bəşəriyyəti fəlakətlə üz-üzə qoya bilər. Dünya birliyi hərbi münaqişələrin qarşısını rüşeymdə almağa böyük diqqət yetirir. Müasir dünya təcrübəsinə beynəlxalq təhlükəsizliyin təmin edilməsinin üç əsas üsulu məlumdur:

- ➢ təzyiqin müxtəlif formaları vasitəsilə mümkün təcavüzün qarşısının alınması (*iqtisadi, siyasi, psixoloji və s.*);
- ➢ təcavüzkarın ona qarşı konkret praktiki hərəkətlərin tətbiqi ilə cəzalandırılması.

Xarici müdaxilədən müdafiə, milli və dövlət süverenliyinin ərazi ekspansiyaları ilə möhkəmləndirilməsi hərbi-sənaye istehsalının və hərbi xərclərin artımı ilə müşayiət

| Göstəricilər | I dünya müharibəsi | II dünya müharibəsi |
|---|---|---|
| Davametmə müddəti (*il, ay*) | 4 il, 3,5 ay | 6 il |
| İştirakçı dövlətlərin sayı | 30-dan çox | 60-dan çox |
| İştirakçı dövlətlərin ümumi aktiv əhalisi (*nəfər*) | 1 milyard | 1,7 milyard |
| Hərbi əməliyyatların sahəsi (*milyon km²*) | 4-dən çox | 22-dən çox |
| Səfərbər olunmuş hərbi qüvvələr (*milyon nəfər*) | 70-dən çox | 110-dan çox |
| Həlak olanların sayı (*milyon nəfər*) | 13,6 | 60-dan çox |
| Yaralılar və əlillər (*nəfər*) | 20-dən çox | 90-dan çox |
| Maddi zərər (*milyard ABŞ dolları*) | 360 | 4000 |
| Təyyarələrin sayı (*min ədəd*) | 181,9 | 667 |
| Tankların sayı (*min ədəd*) | 9,2 | 282 |
| Artilleriya qurğuları və minomyotların sayı (*min ədəd*) | 168,9 | 2527 |

**Cədvəl 16. I və II Dünya müharibələri**

olunaraq dünya iqtisadiyyatının militarizasiyasını genişləndirir. Militarizasiya (*latınca* - militaris - *hərbi*) dövlət orqanlarının iqtisadiyyat sferasında, siyasət və sosiumda dövlətin hərbi gücünün artmasına yönəlmiş hərəkətlər məcmusunu ifadə edir. İqtisadiyyatın militarizasiyası hərbi sektorun milli təsərrüfatın digər sektorlarına nisbətdə genişlənərək digər sahələrə zərəri ilə irəliləyiş tapır.

İqtisadiyyatın militarizasiyasının startistikası göstərir ki, ayrı-ayrı ölkələrdə silahlanmsı prosesi vüsətlə davam edir. Hazırda dünya əhalisinin 25 milyondan çoxu dinc məhsuldar əməkdən kənarda qalaraq hərbi işlərə cəlb olunmuşdur. Bundan da artıq əhali isə müvafiq hərbi qüvvələrin xidmətinə səfərbər edilmişlər. İqtisadiyyatın militarizasiyası problemi inkişaf etməkdə olan ölkələrdə kəskindir və o, hərbi sənayesi olan ölkələrdə silah ticarəti hesabına daha da artır. Bütün bunlar dünyanın hərbi-siyasi probleminin qlobal xarakterliyində təzahür olunur.

Hərbi ehtiyacların ödənilməsinə yönəlmiş - hərbi texnika, silah, hərbi texniki-ləvazimat və digər müvafiq təyinatlı məhsullar, həmçinin, müdafiə məqsədləri üçün yerinə yetirilən elmi-texniki və s. işlər - hərbi məhsul (*military products*) adlanır. Hərbi məhsul istehsal vasitələri istehsalı və insanların zəruri tələblərinin ödənişinə xidmət göstərmir və dövlət tərəfindən hərbi ehtiyaclara məsrəf olunun xərclər sosial və iqtisadi rifah hesab olunmurlar. Bununla belə, keynsçi yanaşmada təyinatından asılı olmayaraq iqtisadiyyatın hər hansı sahəsində investisiya aktivliyinin, məşğulluğun gücləndirilməsi

milli gəlir səviyyəsində dövlət xərclərinin stimullaşdırılması effekti ilə müşayiət olunur. Sənaye üsullu hərbi məhsul bir qayda olaraq Hərbi-Sənaye Kompleksinə, HSK (*Military-Industrial Complex*) mənsub istehsal qurumlarında hazırlanır. HSK - dövlətin və onun hərbi strukturlarının müvafiq tələblərinin ödənilməsinə yönəlmiş hərbi və xüsusi texnikanın hazırlanmasını həyata keçirən elmi-tədqiqat və istehsal müəssisələri məcmusudur. HSK-nin nüvəsini hərbi-sənaye konsernləri təşkil edirlər ki, onlar da fəaliyyətlərində hərbi məhsul tələbinin davamlı artmasında maraqlıdırlar. HSK hərbi-siyasi, hərbi-iqtisadi qərarların qəbul edilməsinə ümumilikdə isə geosiyasi situasiyaya təsir göstərir. HSK-nin sinonimi kimi Müdafiə Sənayesi Kompleksi ifadəsi də işlənilir.

Dünya silah ticarəti, dünya silah və hərbi texnika bazarı (*world market for arms and military equipment*) vasitəsi ilə həyata keçirilir. Dünya silah və hərbi texnika bazarı dünya əmtəə bazarının tərkib hissəsi olaraq dünya əmtəə dövriyyəsində mühüm rol oynayır. Bu bazarda mühüm satıcılar (*85%*) qismində "böyük yeddilik" ölkələri və Rusiya çıxış edirlər. Əsas alıcılar isə daxildə repressiyalar həyata keçirən avtoritar və diktatura rejimləri olan ölkələrdir (*Sudan, Birma, Konqo Respublikası, Kolumbiya, Filippin, İran və s.*). Dünya silah bazarının lideri ABŞ hesab olunur. Silah istehsalı dövriyyəsi orta illik 40-50 milyard dollardan çox "Boeing" korporasiyası (*müasir qırıcı və bombardmançı təyyarələr, peyk və peyk sistemləri, elektron sistemlər, hərbi hava qüvvələrində müdafiə sistemləri*) dünyada silah istehsalında ön mövqedə dayanır. Dünyanın mühüm silah istehsalçıları sırasında raket ("*Patriot"*) üzrə illik dövriyyəsi 40 milyard dollara yaxın "Lockheed Martin" və aviadaşıyıcı gəmilər, submarina və hərbi gəmilər üzrə 30 milyard dollarlıq dövriyyəsi olan "Northrop Grumman" şirkətləri yer alırlar. Müasir hərb sistemində hərbi-dəniz qüvvələrinin mühüm yeri vardır. Donanmalar sualtı və suüstü gəmilərlə yanaşı, nəhəng aviadaşıyıcı hərbi gəmiləri ilə də qüdrətlidirlər. Belə gəmilər 1492-ci ildə Amerikanı kəşf etmiş Xristafor Kolumbun (*1451-1506*) İspaniyadan çıxaraq Atlantik okeanı keçmiş karavella adlanan yelkənli "Santa-Mariya", "Pinta" və "Ninya" gəmilərindən müqayisəedilməz dərəcədə fərqlənirilər. Ancaq mahiyyət ondan ibarətdir ki, ABŞ-da X.Kolumbun gəlişindən 500 il sonra "Enterprayz" adlı gəmi yaradılmışdlır. Həmin gəmi üzən hərbi aerodrom olmaqla uzunluğu 342,3 m, su tutumu 87 min tondur. Gəminin göyərtəsindən 15 saniyəlik intervalla 25 dəqiqə ərzində 100 qırıcı qalxa bilər. Burada eyni zamanda 4600 hərbiçi çalışır. 50 ildən çox istismarda olmasına baxmayaraq "Enterprayz" yenə də hərbi növbədədir.

Hərbi xərclər dövlətin müdafiəsi, hərbi qüvvələrin saxlanılmasının hazırkı faktiki xərcləri olaraq, əsasən, dövlət büdcəsi hesabına formalaşdırılır. Hərbi xərclər ölçülərinə görə mülki xərcləri üstələyərək iqtisadi inkişafa ciddi təsir edir. 2016-cı ildə dünyada hərbi xərclər 1,7 trilyon dollar təşkil edib.

İsveçin paytaxtı Stokholmda yerləşən Dünya Problemlərini Araşdırma üzrə Stokholm İnstitutu - SİPRİ-nin (*ingiliscə* - Stockholm International Peace Research Institute, SIPRI - *Dünya Problemlərini Araşdırma üzrə Stokholm İnstitutu, SİPRİ*)

hazırladığı hesabata əsasən, hərbi xərclər dünya ÜDM-nin 2,3%-ni təşkil edir. 2015-ci ildə də dünyada ən böyük xərclərə ABŞ sahibdir. Onun payına dünyanın hərbi xərclərinin 36%-i düşür. Ondan sonrakı yerləri isə ÇXR, Səudiyyə Ərəbistanı və Rusiya tutur. Ən çox hərbi xərclər sırasında 22,6 milyard ABŞ dolları həcmi ilə Türkiyə 15-ci yerdədir. Dünyada hərbi xərclərini 2014-cü ildən sonra ən çox artıran ölkə Ukraynadır - 20%. Bu siyahıda 17%-lə ikinci yerdə Səudiyyə Ərəbistanı gəlir. Böyük hərbi xərclər 60 milyon ABŞ dolları həcmində Böyük Britaniya, Fransa, və Yaponiyaya, 50 miyon ABŞ dolları həcmində AFR və Səudiyyə Ərəbistanına, 40 milyon ABŞ dolları həcmində Hindistan və İtaliyaya məxsusdur. NATO-nun xərcləri isə 850 milyard ABŞ dolları təşkil edir.

Dünya silah ixracına da 33% payla ABŞ liderlik edir. İkinci yerdə isə 25% payla Rusiya gəlir. Silah ixrac edənlərin ilk onluğuna ÇXR (*5,9%*), Fransa (*5,6%*), AFR (*4,7%*), Böyük Britaniya (*4,5%*), İspaniya (*3,5%*), İtaliya (*2,7%*), Ukrayna (*2,6%*) və Niderland (*2%*) daxildir.

Silah idxalında isə 14% payla Hindistan liderdir. Sonrakı yerləri Səudiyyə Ərəbistanı (*7%*), ÇXR (*4,7%*), BƏƏ (*4,6%*), Avstraliya (*3,6%*), Türkiyə (*3,4%*), Pakistan (*3,3%*), Vyetnam (*2,9%*), ABŞ (*2,9%*) və Koreya Respublikası (*2,6%*) tutur.

Silahlarla bağlı statistikanın digər məlumatlarına nəzər yetirdikdə görərik ki, hər il dünyada orta hesabla 8-9 milyon kiçik və yüngül silah, 12 milyarda yaxın patron istehsal olunur, silah və hərbi texnika istehsalı büdcəsi isə 1 trilyon dollara yaxınlaşır. Hazırda dünyada hər 10 adama 1 tapança düşür və hər gün odlu silahdan istifadəyə görə 1000 insan məhv olur.

Böyük Britaniyanın paytaxtı Londonda yerləşən Beynəlxalq Strateji Araşdırmalar İnstitutunun hesabatında (The International Institute for Strategic Studies, IISS) ordu sayı üzrə 10 ölkənin adı qeyd olunub (ABŞ dolları ilə):

1. ÇXR - 2,4 milyon;
2. ABŞ - 1,5 milyon;
3. Hindistan - 1,3 milyon;
4. KXDR - 1,2 milyon;
5. Rusiya - 900 min;
6. Türkiyə - 789 min (NATO-da ABŞ-dan sonra ikinci);
7. Koreya Respublikası - 665 min;
8. Pakistan - 590 min;
9. Vyetnam - 485 min;
10. İran - 460 min.

Bununla belə, müvafiq reytinq qurumları bir çox parametrləri nəzərə almaqla dünyanın ən güclü 5 ordusu sırasında müasir hərbi silaha və məntiqi sistemlərə sahib ABŞ-a yer verirlər. İkinci yeri qlobal diametrdə mübarizələrdə iştirak etmək üçün kifayət qədər gücə sahib Çin Xalq Azadlıq Ordusu, üçüncü yeri Hindistan, dördüncü yeri Rusiya, beşinci yeri Böyük Britaniya tutur. Əlbəttə, bu son dərəcə dəqiqləşdirilməmiş və dəyişən reytinqdir.

Hərbi statistika saytı - “Qlobal Fire Power” dünyanın ən güclü ordularının ilk onluğunda ABŞ, Rusiya, ÇXR, Hindistan, Fransa, Böyük Britaniya, Yaponiya, Türkiyə, AFR və İtaliyanı göstərir. Bu kimi digər hərbi-statistik məlumatlarda canlı və texniki qüvvə sayı, eləcə də müdafiə xərcləri baxımından ən güclü 5 türk ordusu haqqında yazılara da rast gəlinir.

1. Türkiyə: aktiv əsgər sayı 650 min, ehtiyatda 380 min nəfər. Ölkənin 3752 tankı, 1020 hərbi təyyarəsi, 194 döyüş gəmisi var. Müdafiə xərcləri 18,5 milyard ABŞ dollardır.

2. Özbəkistan: aktiv əsgər sayı 65 min, ehtiyatda 20 min nəfər. Ölkənin 420 tankı, 166 hərbi təyyarəsi var. Müdafiə xərci 2,7 milyard ABŞ dollardır.

3. Qazaxıstan: aktiv əsgər sayı 110 min, ehtiyatda 378 min nəfər. Ölkənin 300 tankı, 244 hərbi təyyarəsi, 15 döyüş gəmisi var. Müdafiə xərcləri 2,5 milyard ABŞ dollardır.

4. Türkmənistan: aktiv əsgər sayı 22 min, ehtiyatda 35 min nəfər. Ölkənin 712 tankı, 64 hərbi təyyarəsi, 4 döyüş gəmisi var. Müdafiə xərcləri 200 milyon ABŞ dollardır.

5. Azərbaycan: aktiv əsgər sayı 70 min, ehtiyata 300 min nəfər. Azərbaycanın 314 tankı, 121 hərbi təyyarəsi və 47 döyüş gəmisi var. Müdafiə xərcləri 3,2 milyard milyard ABŞ dollardır.

Qlobal Atəş Gücü şirkəti (*Qlobal Fire Power*) 2017-ci ildə dünyanın ən güclü orduları siyahısında Azərbaycana 58-cı yeri verməklə onu Cənubi Qafqazda ən güclü ordu kimi qiymətləndirmişdir. Həmin siyahıya görə, Azərbaycan postsovet məkanı ölkələri arasında beşinci yeri tutmuşdur. Bu siyahıda Ukrayna 30-cü, Özbəkistan 48-ci, Belarus 49-cu, Qazaxıstan 55-ci, Gürcüstan isə 82-ci, Ermənistan 93-cü yerdədir. Şirkətin reytinq cədvəlində ilk onluqda ABŞ, Rusiya, Çin, Hindistan, Fransa, Britaniya, Yaponiya, Türkiyə, Almaniya və Misir öz yerlərini qoruyub. Azərbaycanın müttəfiqləri sayılan Pakistan və İsrail 13 və 15-ci, cənub qonşumuz İran isə 21-ci yeri tutmuşdur.

Hərbi güc baxımından ərazilərimizi işğal altında saxlayan Ermənistanı Azərbaycandan fərqləndirirlər. Bir sıra hesabatlarda hərbi güc baxımından Azərbaycan Ermənistanı xeyli geridə qoyur. Belə ki, Azərbaycanda əsgər sayının 130 min, Ermənistanda isə 60 min olduğu göstərilir. Bu müstəvidə Azərbaycanın əhali sayının çoxluğu nəzərə alındıqda onun ehtiyat qüvvələrinin sayının Ermənistanı qat-qat üstələyəcəyi şübhə doğurmur. Digər tərəfdən, o da faktır ki, Ermənistandakı demoqrafik vəziyyət ona şəxsi heyəti normal komplektləşdirməyə imkan vermir. Buna görə də Ermənistanda sovet dövründən qalma 2 illik çağırış müddətini aşağı endirə bilmir. Azərbaycanda isə bu müddət 1,5 ildir. Bununla belə, Azərbaycanda əhali sayı artır, Ermənistanda isə depopulyasiya sürətlənir və hər il burada 80-90 min əhali azalır. Azərbaycanda əks proseslər gedir və ölkənin əhali sayı 10 milyon nəfəri aşmaq üzrədir. Burada bir məqam da vurğulanmalıdır ki, Ermənistan ordusunun silahlarının əksəriyyəti Rusiya istehsalıdır. Azərbaycan isə dünyanın mühüm silah istehsalçılarının arsenalına malikdir. Bundan başqa, Azərbaycanda müdafiə sənayesi yaradılmışdır və burada da 1000-dən çox adda hərbi təyinatlı məhsul istehsal olunur. Həmin məhsullar beynəlxalq standartlara

uyğundur və bir sıra göstəricilər üzrə ölkəni idxaldan asılılığı azaldır və həmçinin yaxşı ixrac potensialı yaradır. Belə ki, Azərbaycan silah ixrac edən ölkəyə çevrilir.

Azərbaycanın tankları, BTR-ləri və hərbi təyyərələri Ermənistandan 3 dəfə çoxdur və burada döyüş helikopterlərinin və müasir pilotsuz uçuş aparatlarının sayı da xeyli üstündür. Bir çox xarici mənbələrdə Azərbaycanın 700 BMP və BBM-yə, 440 tanka (*T-90SA və T-72*), 14 qırıcı və 30 nəqliyyat-döyüş təyyarəsinə, 40 hərbi (*o cümlədən 19 hücum xarakterli*) vertolyota (*Mi-8/17 Mi-24/35 MİQ-29 Su-25*) malik olduğu haqqında təxminlər var. Ermənistanda isə 200 tank, (*əsasən, T-72*) 240 BMP və BTR, 240 artilleriya, 15 ədəd Su-25 tipli qırıcı təyyarə, 10-a yaxın bombardmançı təyyarə, eynilə onun qədər də Mi-8/17 tipli zirehli vertolyotun olduğu göstərilir. Azərbaycan, həmçinin, özünün raket qurğularının, artilleriya arsenalının müasirliyi, uzaq hədəfliliyi keyfiyyəti və kəmiyyəti ilə də Ermənistanı qabaqlayır.

Burada Ermənistandan fərqli Azərbaycanın dəniz ölkəsi olması və Hərbi Dəniz Qüvvələrinə malikliyidir ki, bu da onun hərbi qüdrətini xeyli yüksəldir. Bu müqayisədə xüsusi bir məqam da vurğulanmalıdır ki, Ermənistanda Azərbaycandan fərqli olaraq digər bir dövlətin hərbi bazası yerləşir. Müvafiq hesabatlarda göstərilir ki, Rusiyanın Ermənistanın Gümrü şəhərində yerləşən (*müqaviləyə görə 2044-cü ilə qədər*) 102 saylı hərbi bazasından 5 min nəfərlik şəxsi heyəti, 74 tankı, 201 döyüş maşını, 84 artilleriya qurğusu (*8 minaatan, 8 çoxlüləli reaktiv artilleriya qurğusu, 68 özüyeriyən və qoşqulu top*), 18 ədəd MİG-29 təyyarəsi olan 1 döyüş eskadronu, S-300V raketdən müdafiə sistemləri ilə təchiz edilmiş 2 raket batareyası, SA-6 ilə təchiz edilmiş 1 raket batareyası vardır. Nəzərə alındıqda ki, Ermənistanın Rusiya ilə hərbi ittifaqı var və konsprativ saxlanılsa da, Qarabağ döyüşlərində bu amil həllədici rol oynamışdır, əlbəttə, onda Azərbaycan üçün belə vəziyyət əlavə təhdid mənbəyi rolunda çıxış edə bilər.

Ümumilikdə Şimali Qafqaz regionunda Erministan ordusu bir sıra parametrlərdə NATO-ya geniş inteqrasiya kursu götürmüş Gürcüstandan da geridə qalır. Statistika göstərir ki, Gürcüstan ÜDM-in 5,6%-i, Ermənistan 4,2%-i, Azərbaycan isə 3,4%-i qədər silah alınmasına vəsait xərcləyir. Bütün bu müqayisələrdə xüsususi ilə vurğulanmalıdır ki, Azərbaycan özünün hərbi gücünü 2016-ci ildə məşhur "Aprel döyüşündə" bir daha göstərdi. Azərbaycan ordusunun həmlələri nəticəsində düşmən tərəfi sarsıdıcı zərbələrlə ağır itkilərə məruz qaldı. Bu döyüş həm də 1993-ci ildə Ermənistan Respublikası Silahlı Qüvvələri tərəfindən işğal edimiş və Azərbaycan ordusunun 1994-cü ilin əvvəlində keçirdiyi Horadiz əməliyyatı zamanı azad olunmuş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin təhlükəsizliyinin təmin edilməsi və buraya sakinlərin qayıtması hadisəsi ilə də yaddaşlarda qalmışdır. Belə ki, 2016-cı ilin 2 aprelində Cocuq Mərcanlıda yerləşən Lələ təpə yüksəkliyi başda olmaqla erməni ordusu həmin ərazilərdən tam qovulmuş və kənd bütünlüklə Azərbaycan Silahlı Qüvvələrinin nəzarətinə keçmişdir. Prezident İlham Əliyevi kəndin bərpası ilə bağlı 2017-ci il yanvarında müvafiq Sərəncam imzalanmış və qısa bir müddətdə bu ərazilər minalardan təmizlənmiş və yaşayış üçün əlverişli vəziyyətə gətirilmişdir. Burada başlanan böyük

tikinti-quruculuq işləri sayəsində kəndə yüzlərlə ailə qayıtmış və Cocuq Mərcanlı özünü yeni həyat və inkişaf mərhələsinə qədəm qoymuşdur. Burada həm də Prezident İlham Əliyevin tapşırığına, əsasən, Şuşa məscidinin bənzəri olan məscid inşa edilmişdir. Bununla həm də dünyaya bir daha bəyan edilmişdir ki, islam aləminin bir parçası olan Azərbaycan öz tarixi keçmişinə daim sadiqdir. Böyük Qayıdışın başlanğıcı kimi Cocuq Mərcanlının bərpası ilə bağlı dövlət səviyyəsində həyata keçirilən bu miqyaslı tədbirlər bir daha təsdiqləyir ki, işğal altındakı torpaqların azad olunması uğrunda xalqımız mübarizəsini sona çatdıracaqdır.

Qlobal iqtisadiyyatın hərbi probleminə nəzər yetirdikdə görərik ki, hazırda dünyada raket-nüvə, kimyəvi, bakterioloji, bioloji silah ehtiyatlarının toplanması mövcud müdafiə tələblərini qat-qat üstələyir. Belə ki, kütləvi qırğın silahlarının artımı elə bir səviyyəyə qalxmışdır ki, o artıq özünün əsas - düşməni zərəsizləşdirmək məqsədlərinə cavab verməyərək dünyanın sonrakı mövcudluğunu şübhə altına alır. Bu baxımdan nüvə silahı arsenalı bəşəriyyətin mövcudluğu üçün daha böyük təhlükə yaradır. Nüvəsiz, zorakılıq olmayan sülhə nailolma fövqəladə əhəmiyyətli və çətin vəzifədir. Onun həllini tapmaq yalnız bütün dövlətlərin və xalqların, planetin bütün insanlarının birgə qüvvəsi ilə mümkündür. Nüvə silahı dövründə müharibə xarici siyasətin aləti ola bilməz. Bütün aparılan səylərə baxmayaraq dünyada dövlətlər və hərbi bloklar arasında üstün olaraq nüvə və nüvə-istilik silahlarından istifadə əsaslı hərbi münaqişə - nüvə müharibəsi təhlükəsi hələ də kəskin problem olaraq qalır. Hazırda bu istiqamədə mühüm beynəlxalq sənəd kimi BMT-nin 1968-ci il “Nüvə silahının yayılmaması müqaviləsi” çıxış edir. Müqavilə görə, nüvə dövlətləri  - 1967-ci ilin 1 yanvarına qədər nüvə silahını yaratmış və sınaqdan keçirmiş ölkələr - SSRİ, ABŞ, Böyük Britaniya, Fransa və ÇXR hesab olunurlar. Lakin müasir nüvə klubunun üzvlər siyahısı daha genişdir. Buraya nüvə silahı sınağı keçirmiş - 1974-cü ildə Hindistan, 1998-ci ildə Pakistan, 2006-cı ildə KXDR də daxildir. Rəsmi elan olunmasa da, İsrail dövləti nüvə silahına malikdir. Bu istiqamətdə beynəlxalq qınaq meydanına çəkilmiş İran dövlətinin də adı çəkilir.

Nüvə silahları icad edildikdən sonra müharibə zamanı onu praktiki tətbiq edən ölkə ABŞ olmuşdur. 1945-ci ilin avqustunda ABŞ Yaponiyanın Naqasaki və Xirosima şərlərini atom silahı ilə bombalamışdır. Bu zamanda başlayaraq dünya dövlətləri və beynəlxalq ictimaiyyət nüvə müharibəsi təhlükəsinin aradan qaldırılması uğrunda mübarizə aparır. Bu mübarizədə bir sıra beynəlxalq, iki və çoxtərəfli saziş və konvensiyalar qəbul olunmuş və imzalanmışdır ki, onlarada aşağıdakılardır:

- ❖ Strateji və hücum silahlarının məhdudlaşdırılması sahəsində SSRİ ilə ABŞ arasında 26 may 1972-ci ildə imzalanmış müvəqqəti saziş;
- ❖ Strateji və hücum silahlarının məhdudlaşdırılması sahəsində SSRİ ilə ABŞ arasında 18 iyun 1978-ci ildə imzalanmış müvəqqəti saziş;
- ❖ Nüvə müharibəsinin qarşısının alınması bəyannaməsi 9 dekabr 1981-ci ildə BMT Baş Assambleyasının 36-cı sessiyasının qətnaməsi;

- ❖ ABŞ-la Rusiya arasında strateji və hücum silahlarının azaldılması və məhdudlaşması haqqında 30-31 iyul 1991-ci il Praqa sazişi;
- ❖ ABŞ-la Rusiya arasında strateji və hücum silahlarının azaldılması və məhdudlaşması haqqında 9 aprel 2010-ci il Praqa sazişi.

Qlobal hərbi problemin aradan qaldırılması uğrunda səylər davam etsə dünyanın ayrı-ayrı yerlərində müharibə ocaqları qalmaqda davam edir. Bu isə iqtisadiyyatın hələ də militarizasiyasının davam etməsinə əlavə stimullar verir.

### 10.24. "Soyuq müharibə" və onun siyasi-iqtisadi nəticələri

Hərbi gücün nümayişinin yeni mərhələsi II Dünya Müharibəsindən başlanğıc alır. Bu müharibədə ittifaqda olmuşlar, əks cəbhədə dayanmışlar müharibədən sonra yenidən mövqe dəyişiklikləri edərək yeni cəbhələşmələr, qütbləşmələr yaratmışlar. Xüsusən də, 1940-cı illərdən 1990-cı illərin başlanğıcına qədər SSRİ və onun müttəfiqləri ilə ABŞ və onun müttəfiqləri arasında qlobal, geosiyasi, iqtisadi və ideoloji cəbhələşmə olan "soyuq müharibə" dövründə daha kəskin xarakter almışdır. "Soyuq müharibə" (*cold war*) SSRİ dövləti ilə onun müttəfiqləri və ABŞ dövləti ilə onun müttəfiqləri arasında 5 mart 1946-cı ildən 26 dekabr 1991-ci ilə kimi davam etmiş qlobal geosiyasi, hərbi, iqtisadi və ideoloji cəhbələşmə olmuşdur. Burada "müharibə" sözü şərtidir. Belə ki, birbaşa düşüncədə ölkələr arasında müharibə olmamışdır. "Soyuq müharibə"nin əsasında ictimai quruluşların müxtəlifliyi təşkil edən ideoloji amil dayanırdı. Kapitalist və sosialist modelləri arasındakı dərin ziddiyyətlər bu müharibənin əsasını təşkil edirdi. Bu zaman iki fövqəl dövlət dünya düzümünü öz ideologiyalarına uyğun qurmaq istəyirdilər. "Soyuq müharibə" ifadəsini ilk dəfə ingilis yazıçısı və publisisti Corc Oruel (*1903-1950*) 19 oktyabr 1945-ci ildə Böyük Britaniyanın həftəlik məcmuəsi "Tribun"da "Sən və atom bombası" məqaləsində işlətmişdir. Rəsmi olaraq isə bu ifadə ilk dəfə ABŞ prezidenti Harri Trumenin (*1884-1972*) məsləhətçisi Bernard Baruxun (*1870-1965*) 1947-ci il 16 apreldə Cənubi Karolina ştatında Nümayəndələr Palatası qarşısındakı çıxışında istifadə olunmuşdur. Soyuq müharibə fövqəldövlətlər arasında qütbləşməyə gətirmiş və bipolyarlıq yaratmışdır. "Soyuq müharibə" fövqəldövlətlər arasında qütbləşməyə gətirmiş və bipolyarlıq yaratmışdır. Bipolyarlıq (*ingiliscə* - bipolarity - *iki qütblülük*) dünya gücləri balansı sistemində iki və daha artıq güc mərkəzinin mövcudluğu ilə xarakterizə olunan beynəlxalq münasibətlər sisteminin xassəsi kimi anlaşılır. 1946-1991-ci ilər SSRİ və ABŞ münasibətləri bipolyarlığın nümunəsidir.

Qərb burjua demokratiyası, marksistlər isə kommunist ideolgiyasının dünyaya sahib çıxacağı iddiasında idilər. Ona görə də tərəflər bir-birinə qarşı ideoloji mübarizəyə və ideoloji təxribata müstəsna əhəmiyyət verirdilər. Bundan irəli gələrək ABŞ Konqresi 1951-ci ildə sosialist ölkələrində, xüsusən, SSRİ-də ideoloji-siyasi təxribat üçün 100 milyon dollar vəsait ayırmışdı. Statistika göstərir ki, bütün soyuq müharibə dövründə

ideoloji təxribat məqsədilə tərəflər milyardlarla dollar vəsait məsrəf etmişlər. Bununla belə, onlar siyasi və iqtisadi çəkişmələrdə sürətlə silahlanmaya daha geniş yer verirdilər. Belə ki, 1945-ci ildə atom silahını praktiki istifadə edən və 1952-ci ildə istilik-nüvə hidrogen bombasını yaradan ABŞ digər hərbi texnika və silah istehsalı istiqamətində səylərini genişləndirmişdi. O, 1950-60-cı illərdə kontinentlərarası strateji bombardmançılar donanması və ilk raketdaşıyıcı sualtı qayıqları, nüvə bombasına malik zərbəvurucu atom aviadaşıyıcısı yaratmağa nail oldu. Uzaqhədəfli raketlər istehsalını geciklədirərək bu sahədə SSRİ-ni qabaqladı. Onlar 1960-1980-cı illərdə "Perşinq" və uzaqmənzilli raketlər, neytron döyüş vasitələri yaratdılar. Silahlanma rəqabəti bununla bitmədi. ABŞ 1982-1983-cü illərdə geniş silahlanma proqramı qəbul etdi. 1981-1989-cu illərdə ABŞ prezidenti olmuş Ronald Reyqan (*1911-2004*) tərəfindən 23 mart 1983-cü ildə elmi-tədqiqat və sınaq-təcrübə işləri üzrə bəyan edilmiş "Strateji müdafiə təşəbbüsü" (*strategic defense initiative*) adlanan uzunmüddətli proqram qəbul olundu. Bu proqramda qitələrlərarası ballistik raketlərin, raketdaşıyıcı sualtı qayıqların istehsalının genişləndirilməsi və s. yüksək müdafiə təyinatlı strateji məsələlər yer almışdı. Onun başlıca məqsədini kosmik elementlər əsaslı, kosmosdan yerüstü və dəniz hədəflərinin mümkün məhvini istisna edən və ya məhdudlaşdıran geniş miqyaslı raketəqarşı müdafiə sisteminin hazırlanması ilə bağlı elmi-texniki ehtiyatın yaradılması təşkil etmişdir.

Bu ərəfədə okeanın digər tayında - SSRİ-də də güclü silahlanma prosesləri gedirdi. Belə ki, burada əvvəllər 1949-cu ildə atom silahı, 1953-cü ildə hidrogen bombası sınaqdan keçirilmiş, 1957-ci ildə qitələrarası raketlər yaradılmışdı. Vurğulanmalıdır ki, SSRİ-nin 1977-ci ildə hazırladığı SS-20 adlanan ortamənzilli raketlər ABŞ-ın "Perşinq-2" raketindən dəfələrlə üstün olmuş və bir sıra mühüm silahların gücünə və sayına görə SSRİ ABŞ-ı arxada qoymuşdur.

Soyuq müharibə illərində dünyanı nüfuz dairəsinə bölmək uğrunda savaş yalnız hərbi xərclərin artırılması və silah icadetmə sferasında getmirdi. Avropada və Asiyada möhkəmlənmək uğrunda geniş mübarizə aparılırdı. SSRİ 1945-1948-ci illərdə Avropada bir milyon km$^2$ ərazini, 92 milyon əhalini öz nüfuz dairəsinə sala bilmişdi. Bununla belə, o həm də Bosfor və Dardanel boğazlarına nəzarəti gücləndirməyə çalışırdı. Buna cavab olaraq ABŞ 1947-ci il martın 12-də ABŞ prezidenti Trümenin irəli sürdüyü "Trümen doktrinası" hazırladı. Həmin doktrinaya görə, ABŞ Türkiyə və Yunanıstanı SSRİ-nin nüfuz dairəsindən uzaqlaşdırmaq üçün onlara 400 milyon dollar yardım etdi. Bundan başqa, ABŞ 1947-ci il iyununda müharibədə zərər çəkmiş Avropa ölkələrinə iqtisadi yardım göstərməyi nəzərdə tutan "Marşall planı" hazırladı. Həmin plana görə, ABŞ 1948-1951-ci illərdə 16 ölkəyə 17 milyard dollar vəsait ayırdı. Bu yardımdan SSRİ-nin nüfuz dairəsində olan Mərkəzi və Cənub-şərqi Avropa ölkələri yararlana bilmədilər.

Həmin dövrdə qütbləşən tərəflərin səyləri ilə müxtəlif hərbi, siyasi və iqtisadi qurumlar, Avropanın qərbində 1948-ci ildə Qərb İttifaqı (*1955-ci ildən Qərbi Avropa*

*İttifaqı*), 1957-ci ildə Avropa İqtisadi Birliyi (*Aİ-nin sələfi*), Şərqində isə SSRİ-nin başçılığı ilə sosialist ölkələrinin daxil olduğu Qarşılıqlı İqtisadi Yardım Şurası, QİYŞ (*The Council for Mutual Economic Assistance*) yaradılmışdı. Keçmiş SSRİ və Çexoslovakiya, Bolqarıstan, Macarıstan, Polşa və Rumıniyanın iqtisadi məşvərət üzrə nümayəndələrinin qərarı ilə 5 yanvar 1949-cu ildə təsis edilmiş QİYŞ 1949-1991-ci illərdə hökumətlərarası iqtisadi təşkilat kimi fəaliyyət göstərmiş və mənzil-qərargahı SSRİ-nin paytaxtı Moskva şəhərində yerləşmişdir. Hərbi ittifaqlar kimi isə Şimali Atlantika Müqaviləsi Təşkilatı - NATO, Sakit okean Təhlükəsizlik Paktı - ANZUS, Cənub-Şərqi Asiya ölkələri ittifaqı - SEATO, Bağdad paktı yaradılmışdı. Həmin hərbi bloklarda Avropanın, Yaxın Şərqin və Asiyanın 25 dövləti təmsil olunmuşdu. Digər qütbdə isə hərbi blok - 1955-ci ildə SSRİ tərəfindən Varşava Müqaviləsi ölkələri hərbi alyansı olmuşdur.



Soyuq müharibə qarşıdurmalardan da yan keçməmişdir. Həmin illərdə Yaxın Şərqdə, Hindistanla Pakistan arasında və digər Hind-Çin ərizilərində münaqişələr olmuş, ÇXR-də, Vyetnamda, Koreyada və Yunanıstanda vətəndaş müharibələri, keçmiş Çexoslovakiya dövlətində, Polşada, Macarıstanda, keçmiş Almaniya Demokratik Respublikasında isə sovetlərə qarşı itaətsizliklər baş vermişdir.

1953-cü ildə SSRİ-nin rəhbəri İ.Stalinin ölümündən sonra soyuq müharibədə müəyyən yumşalmalar başlandı. 1955-ci ildə SSRİ, ABŞ, Böyük Britaniya və Fransanın Avstriya ilə sülh imzalamaları Şərq ilə Qərb arasında gərginliyin azalmasında mühüm hadisə oldu. Lakin 1960-cı illərin əvvəllərindən yenidən gərginliklər yarandı. Belə ki, 1961-ci ilin avqustunda "Berlin böhranı" baş verdi və Berlinin qərbi ilə şərqi arasında daş divar çəkildi. 1962-ci ilin yayında SSRİ Amerika qitəsində strateji müttəfiqi Kubada gizli olaraq ortamənzilli raketlər yerləşdirdi. Cavab olaraq ABŞ da Kuba sahillərinə 200-ə qədər hərbi gəmi göndərdi. Karib böhranı adlan gərginlik 1962-ci ilin noyabrında dinc yolla həllini tapdı.

Soyuq müharibə dövründə yumşalmanın yeni dalğası 1960-70-cı illəri əhatə etmişdir. 1972-ci ilin mayında ABŞ prezidenti Riçarad Milxauz Nikson (*1913-1994*) Moskvaya rəsmi səfərə gəldi və SSRİ ilə ABŞ arasında qarşılıqlı əlaqələrin əsasları sənədi və həmçinin, 5 il müddəti nəzərdə tutan strateji silahların məhdudlaşdırılması - SSM-1 müqaviləsi imzalandı. 1974-cü ilin noyabrında SSRİ-nin Vladivostok şəhərində ABŞ prezidenti Cerald Rudolf Fordla (*1913-2006*) SSRİ rəhbəri Leonid İliç Brejnevin (*1906-1982*) görüşündə SSM-2 barədə razılıq əldə olundu. Lakin 1979-cu ilin iyulunda SSRİ-nin Əfqanıstana hərbi müdaxiləsi ilə müqavilə bir qədər gec imzalandı.

Soyuq müharibə illərdə mühüm hadisə 1975-ci il avqustun 1-də Finlandiyanın paytaxtı Helsinki şəhərində ABŞ, Kanada və 35 Avropa dövlətinin Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi - ATƏM-in (*hazırda ATƏT*) yekun aktının imzalanması olmuşdur. Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, ATƏT (*Organization for Security and Co-operation in Europe, OSCE*) Finlandiyanın paytaxtı

Helsinkidə xarici işlər nazirlərinin 3-7 iyul 1973-cü il tarixlərində keçirilmiş müşavirəsi ilə başlamış prosesin davamı olaraq yaranmış regional təşkilat. 30 iyul - 1 avqust 1975-ci il tarixlərində yenidən Helsinkidə keçirilmiş müşavirədə Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri Helsinki müqaviləsi adlanan Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin Yekun aktını imzalamışlar. Bu müqavilə dövlətlər arasında qarşılıqlı münasibətlərində suverenlik, zor işlətməmək, sərhədlərin toxunulmazlığı, ərazi bütövlüyü, mübahisəli məsələlərin dinc yolla nizama salınması, bir-birinin daxili işlərinə qarışmamaq, insan hüquqlarına və azadlıqlarına hörmət, bərabərlik və xalqların öz müqəddəratını təyin etmək hüququ, beynəlxalq müqavilə öhdəliklərinin vicdanla yerinə yetirilməsi kimi prinsipləri rəhbər tutur. ATƏT 1995-ci il yanvarın 1-dək Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi, ATƏM (*Conference for Security and Cooperation in Europe, CSCE*) adlanmışdır. Hazırda 56 üzv və 11 tərəfdaş dövlətlə dünyanın ən böyük regional təşkilatıdır.

İki ölkə arasında növbəti gərginlik 1970-ci illərin ikinci yarısında SSRİ-nin Şərqi Avropada orta mənzilli raketlər yerləşdirilməsi ilə baş verdi ki, bu da çox sərt reaksiya ilə qarşılandı. NATO həmin raketləri çıxarmağı tələb etdi və əks halda Qərbi Avropada həmin növdən olan amerikan raketlərinin yerləşdiriləcəyi bildirildi. Bu ərəfədə SSRİ-nin Əfqanıstana təcavüzü qütüblər arasında yeni bir gərginliyə meydan açdı. Vurğulandığı kimi 1983-cü ildə ABŞ "Ulduz müharibəsi" adlandırılan "strateji müdafiə təşəbbüsü" proqramını elan etdi və Avropada orta mənzilli amerikan raketləri yerləşdirildi. Buna cavab olaraq SSRİ strateji silahları məhdudlaşdırmaq barədə danışıqları kəsdi. ABŞ perzidenti Ronald Reyqan SSRİ-ni "Şər imperiyası" elan edərək onu iqtisadi cəhətdən zəiflətməyi ABŞ-ın əsas məqsədi olduğunu bildirirdi. Onun başçılıq etdiyi hökumət 1985-ci ildə inkişaf etməkdə olan ölkələrlə münasibətdə ABŞ-ın siyasətini hüququ cəhətdən əsaslandıran "Reyqan doktrinası"nı irəli sürdü. "Reyqan doktrinası" (*Reagan Doctrine*) ABŞ prezidenti Ronald Reyqan adminstrasiyasının səyi ilə üçüncü dünya ölkələrdə - Asiya, Afrika və Mərkəzi Amerikada sovet, kommunist və antiamerika təmayüllünün hökm sürdüyü ölkələrdə rejimlərin çökdürülməsi üzrə hərəkatların müdafiə edilməsinə yönəlmiş ABŞ-ın xarici siyasətinin on "prezident doktrinasından" biri olmuşdur.

1985-ci ildə SSRİ-də hakimiyyətə gələn M.Qorbaçovun dövründə ABŞ-la SSRİ arasındakı münasibətlərdə mülayimləşmə başladı. Onun ABŞ prezidenti R.Reyqanla çoxsaylı görüşlərindəki danışıqlar 1987-ci ilin dekabrın 7-8-də Vaşinqtonda iki dövlət arasında nüvə silahlarının ləğv edilməsini nəzərdə tutan "Qısa mənzilli raketlərin məhv edilməsi haqqında" sazişin imzalanmasına gətirdi.

1988-ci ildə ABŞ prezidenti Corc Qerbert Uoker Buş (*1924*) oldu və o xarici siyasətdə o, SSRİ ilə danışıqları davam etdirdi. Onun M.Qarboçovla 1989-cu ilin dekabrında Malta adasındakı görüşü SSRİ-nin dağılması, Almaniyanın birləşdirilməsi, Avropadakı sosialist dövlətlərin əvvəlki quruluşa qayıtması və dünya xəritəsində yeni

geosiyasi dəyişikliklərin əmələ gəlməsi istiqamətində mühüm hadisəyə çevrildi. Bununla da Sosialist düşərgəsi ölklərinin kommunist ideolji sistemləri dağıldı, Yuqaslaviya və SSRİ dövləti parçalandı.

Bütün bunları ümumiləndirərək göstərilməlidir ki, "Soyuq müharibə" müəyyən inkişaf mərhələlərindən keçmişdir:

❖ 1947-1953-cü illər - ilk qarşıdurma dövrü;
❖ 1953-1959-cu illər - yumşalmanın başlanması;
❖ 1960-1969-cu illər - "Soyuq müharibə"nin yenidən kəskinləşməsi;
❖ 1969-1979-cu illər yumşalmanın yeni dalğası;
❖ 1979-1985-ci illər - axırıncı tutaşma;
❖ 1985-1991-ci illər - "Soyuq müharibə"nin sona yetməsi.

Sosialist düşərgəsinin, SSRİ dövlətinin süqutu dünyanın iki qutblüyünün sona yetdiyi və ABŞ-ın timsalında birqütüblülük fonu yaratdısa da, əslində sürətlə dəyişən hadisələrə ayrı-ayrı iri dövlətlərdə baş verən meyillər belə reallığın tamamlanmadığını, əksinə ÇXR-in fövqəl dövlətə çevrilməsi ilə dünyanın quruluş sistemində eyni hərbi, iqtisadi və siyasi gücə malik azı üç dövlətin mövcudluğunu ifadə edən multipolyarlığın (*ingiliscə* - multipolarity - *çoxpolyarlıq*) yaranışı görüntünusün bəyan etməkdədir. Bütün bunlar böyük dövlətlər tərəfindən dünyanın yenidən bölüşdürülməsi uğurda mübarizəni bitmədiyini göstərir. Yeni bölüşmələr isə müasir geosiyasi münasibətlər sistemində daha çox iqtisadi müstəvidə, iqtisadi ekspansiya ilə müşayiət olunur.

Geosiyasi münasibətlər sistemi geosiyasətlə bağlıdır. Geosiyasət (*yunanca* - γη - *torpaq* + πολιτική - *dövət və ictimai işlər*) məkana nəzarət, müxtəlif ölkələrin və dövlətlərarası birliklərin (*güc mərkəzlərinin*) təsir sahələrinin bölgüsü və yenidənbölgüsü ilə bağlı elmdir. İctimai-coğrafiya elmləri sahəsinə aiddir və siyasi coğrafiyanın hissəsi deyildir. Ənənəvi olaraq "geosiyasət" terminindən, əsasən, coğrafi amillərin siyasətə təsiri baxımından istifadə olunur. Müasir geosiyasi münasibətlər sistemində BMT Təhlükəsizlik Şurasının üzvləri ABŞ, Rusiya, Fransa, Böyük Britaniya, ÇXR, həmçinin, Aİ, G7, G20 əsas fiqurantlara çevrilmişlər.

Yeni geosiyasi münasibətlər dövlətlərarası birliklərin rolunun artması və birliklər vasitəsi ilə qlobal siyasətin axınını tənzimlənməsi üzərində irəliləyiş tapır və aşağıdakı meyilləri ehtiva edir:

❖ ABŞ-ın geostrateji siyasəti - dünyanın xüsusi hərbi və iqtisadi əhəmiyyət kəsb edən bir sıra regionlarında özünün hökmranlığını bərqərar etmək;
❖ Rusiyanın yeni imperialist siyasəti;
❖ NATO-nun genişlənməsi;
❖ Avropanın dünyanın "yeni qaydalılıq" daşıyıcısı rolu;
❖ ABŞ-Yaponiya alyansı;
❖ ÇXR-in spesifik inkişaf təmayülü və onun dünya qütbləşməsinə təsiri;
❖ Panislamçılıq və islam fundamentalizmi;
❖ Böyük Turan ideyası;
❖ Yaxın və Orta Şərq;

❖ Ərəb ittifaqı;
❖ Beynəlxalq terrorizm.

Müasir hərbi münaqişələri separatizm və terrorizm meyilləri və hadisələri də qaynaqlandırır. Separatizm (*latınca* - separatus, *fransızca* - separatisme - *ayrıca*) ayrılmaya, özünütəcridə səy, yeni dövlət təsisatı yartmaq, geniş suverenlik və ya müxtariyyət əldə etmək üçün dövlətdən ayrılma hərəkatıdır. Milli-azadlıq hərəkatından fərqli olaraq separatizm subyektiv xarakterlidir və o, dövlətin ərazi bütövlüyü, sərhədlər toxunulmazlığı kimi beynəlxalaq suverenlik pirinsiplərinin pozulmasına yönəlmişdir. Terror (*latınca* - terror - *qorxu, vəhşət*) dinc əhalini, məhvetməyə qədər, fiziki zorakılıqla ifadə olunan qorxutmadır. Terrorizm (*latınca* - terror, *ingiliscə* - terrorism - *qorxu, vəhşət*) terrorçuların öz qeyri-insani məqsədlərinə nail olmaq üçün istifadə etdikləri siyasi təcavüzün xüsusi forma və vasitələr məcmusu, terror siyasəti və taktikasıdır. Terrorizm subyektlərini ayrıca şəxşlər və QHT-lər və yaxud ayrı-ayrı şəxşlər timsalında ictimaiyyət təşkil edir. Dünyada sülhün davamlı təmin edilməsi üçün separatizm və terrorun dayandırılması zəruridir.

## 10.25. Hərbi-siyasi ittifaqlar və hərbi güc nümayişinin yeni mərhələsi

II Dünya Müharibəsinin nəticələri dünyada bir sıra hərbi ittifaqların yaradılmasına rəvac vermişdir. İlk belə hərbi alyans 1949-cu ildə ABŞ, Böyük Britaniya, Fransa, İtaliya, Belçika, Danimarka, İslandiya, Kanada, Lüksemburq, Niderland, Norveç və Portuqaliyanın birgə təsis etdiyi Şimali Atlantika Müqaviləsi Təşkilatı - NATO oldu. Şimali Atlantika Müqaviləsi Təşkilatı, NATO (*North Atlantic Treaty Organization*) müasir dünyanın ən möhtəşəm hərbi ittifaqı olaraq sülhün qorunmasını, azadlıqların



müdafiəsini siyasi həmrəylik yolu ilə təmin edən, üzvlərinə qarşı yönəlmiş istənilən təcavüz formalarının dəf olunmasını, zərurət yarandıqda isə hərbi gücdən istifadə edilməsini nəzərdə tutan müstəqil dövlətlərin alyansıdır. Alyansın yaranması 1948-ci ilin martın 17-də Brüssel sazişinin imzalanması ilə başlanmışdır. Bu sazişdə Qərbi Avropanın 5 ölkəsi ümumi müdafiə sistemini yaratmaq və ölkələr arasında qarşılıqlı əlaqələri möhkəmləndirmək istəklərini təsdiq etdilər.

NATO-nun hazırda 28 üzvü vardır: ABŞ, Albaniya, AFR, Belçika, Böyük Britaniya, Bolqarıstan, Çexiya, Danimarka, Estoniya, Fransa, İspaniya, İtaliya, İslandiya, Kanada, Latviya, Litva, Lüksemburq, Macarıstan, Niderland, Norveç, Polşa, Portuqaliya, Rumıniya, Slovakiya, Sloveniya, Türkiyə, Xorvatiya və Yunanıstan. Rəsmi dil indgilis və fransız dilləridir. Mənzil-qərargahı Belçikanın paytaxtı Brüssel şəhərindədir. NATO-nun Avropada ittifaq komandanlığı çərçivəsində iki regional komandası var:

1. Şimali Avropanın ittifaq qüvvələri: Belçika, AFR, Böyük Britaniya, Danimarka, Lüksemburq, Niderland, Norveç, Polşa və Çexiya - mənzil-qərargahı Niderlandın Brunsame şəhərində yerləşir.

2. Cənubi Avropanın ittifaq qüvvələri: İspaniya, Türkiyə, İtaliya, Macarıstan, və Yunanıstan - mənzil-qərargahı İtaliyanın Neapol şəhərində yerləşir.

NATO-nun 5 ali komanda qərargahı vardır: Şərqi Atlantika, Qərbi Atlantika, Cənubi Atlantika, Zərbə Donanması, Sualtı gəmilərin ittifaq komandanlığı.

Azərbaycan Respublikası da NATO ilə tərəfdaşlıq aparır və bu tərəfdaşlıq onun Avroatlantik strukturlara inteqrasiyasına xidmət edir. Azərbaycanla NATO arasında təmaslar tarixi onun bir sıra Mərkəzi və Şərqi Avropa dövlətləri ilə birlikdə NATO-nun yeni yaradılmış məşvərətçi forumu - Şimali Atlantika Əməkdaşlıq Şurasına (*1997-ci ildən Avro-Atlantik Tərəfdaşlıq Şurası*) qoşulduğu 1992-ci ilin mart ayından başlanğıc alır.

Azərbaycanın ilə NATO arasında tərəfdaşlığın əsası ümummilli lider Heydər Əliyevin 4 may 1994-cü ildə Sülh Naminə Tərəfdaşlıq (*SNT*) Çərçivə Sənədinin imzalanması ilə qoyulmuşdur. Azərbaycan Avroatlantik məkanda təhlükəsizliyin bölünməzliyi prinsipindən çıxış edərək, BMT Təhlükəsizlik Şurasının qətnamələri ilə sanksiyalaşdırılmış, NATO-nun rəhbərlik etdiyi sülhü dəstəkləmə əməliyyatlarında (*faktiki olaraq 1999-2008-ci illərdə NATO-nun Serbiyanın Kosovo əyalətindəki əməliyyatında - KFOR və 2003-cü ildən başlayaraq NATO-nun Əfqanıstandakı əməliyyatında - ISAF*) iştirak edir.

Növbəti belə ittifaq 1951-ci ildə üç ölkənin ABŞ, Avstraliya və Yeni Zelandiyanın təsis etdiyi Sakit okean Təhlükəsizlik Paktı, ANZUS (*Security Treaty - Australia, New Zealand, United States, ANZUS*) olmuşdur. ANZUS abberiviaturu üç təsisçi ölkənin adlarının baş hərifləri əsasında formalaşdırılmışdır. Bu təşkilat Sakit okean rayonunda "kollektiv müdafiə səylərinin koordinasiyası" məqsədi ilə ABŞ-ın təşəbbüsü əsasında yaradılmışdır. 1978-ci ildə hərbi blokun nüfuz sferasına Hind okeanı da daxil edilmişdir. İlk olaraq ANZUS Cənub-Şərqi Asiya və Sakit okean regionunda milli-azadlıq hərəkatlarına, həmçinin, SSRİ-yə və onun Cənub-şərqi Asiyadakı müttəfiqlərinə qarşı yönəlmişdir. ANZUS üzvləri Koreya və Vyetnam müharibələrində birgə iştirak etmiş, Kambodca və Laosun daxili işlərinə qarışmışlar. Son vaxtlar hərbi blokdan ABŞ-ın regionda beynəlxalq terrorizmlə mübarizəsi üçün istifadə olunur. Bu blok üzvləri, həmçinin, İrak və Əfqanıstan kampaniyalarında da iştirak etmişlər. Hərbi ittifaqın mənzil-qəragahı yoxdur.

Hərbi ittifaqlar içərisində öz dövrlərində sosialist dünyasında Varşava paktı, kapitalist düşərgəsində SEATO və SENTO kimi hərbi-siyasi bloklar da az əhəmiyyət daşımamışlar.




Varşava müqaviləsi (*Warsaw Pact*) 14 may 1955-ci ildə Polşanın paytaxtı Varşava şəhərində keçmiş SSRİ, Albaniya (*1962-ci ildən fəaliyyətini dayandırmışdır*), Bolqarıstan, Macarıstan, keçmiş Almaniya Demokratik Respublikası (*1990-ci ildə AFR-lə birləşdikdən sonra müqavilədən çıxmışdır*), Polşa, Rumıniya və keçmiş Çexoslovakiya dövlətləri arasında dostluq, əməkdaşlıq və qarşılıqlı yardım

üzrə bağlanmış müqavilə olmuşdur. Varşava müqaviləsinin məqsədi olaraq üzv dövlətlərin təhlükəsizliyinin təmin olunması və Avropada sülhün müdafiəsi bəyan edilmişdir. Üzv ölkələr müqavilə əsasında ali orqan olaraq Siyasi Məşvərət Komitəsi və hərbi qüvvələrin birgə komandanlığını yaratmışlar. SSRİ-nin süqutu, sosalist düşərgəsi ölkələrində demokratikləşməyə keçid ilə əlaqədar 1 iyul 1991-ci ildə Varşava müqaviləsi ölkələrinin ittifaqı dağılmışdır. Mənzil-qərargahı SSRİ-nin paytaxtı Moskva şəhərində yerləşmişdir. Hazırda SSRİ-nin sələfi olmuş Rusiyadan başqa bütün üzv ölkələr, həmçinin, keçmiş SSRİ-nin 3 respublikası - Litva, Latviya və Estoniya da NATO-ya üzv qəbul edilmişlər.

Cənub-şərqi Asiya ölkələri ittifaqı, SEATO (*South-East Asia Treaty Organization*) 8 sentyabr 1954-cü ildə ABŞ, Böyük Britaniya, Fransa, Yeni Zelandiya, Avstraliya, Filippin, Tailand və Pakistanın təmsilçiliyi ilə yaradılmış Asiya-Sakit okean regionu ölkələrinin hərbi siyasi blokudur. Manila bloku (*Manila Pact*) da adlandırılan bu ittifaq 1955-1977-ci ildə mövcud olnmuşdur. Devizi birlik, sülh və tərəqqi olan SEATO müvafiq hərbi təlimlər aparmış, mənzil-qərargahı Tailandın paytaxtı Bankoqda yerləşmişdir.



1955-ci ildə Böyük Britaniya, Fransa, Türkiyə, İran, Pakistan və İraqın təmsilçiliyi ilə Bağdad paktı yardılmışdır. Hərbi ittifaq 1959-cu ildən adını dəyişərək Mərkəzi Müqavilə Təşkilatı, SENTO (*Central Treaty Organization, CENTO*) kimi fəaliyyət göstərmişdir. Yaxın və Orta Şərqdə Böyük Britaniya, ABŞ və Türkiyənin təşəbüssü ilə yaradılmış bu hərbi-siyasi qruplaşmaya rəsmi olaraq 1955-ci ilin aprelində Böyük Britaniya və Türkiyə, 1959-cu ilin martına kimi İraq, 1955-ci ilin noyabrından 1979-cu il martınadək İran və 1955-ci il sentyabrından 1979-cu il martına kimi Pakistan dövlətləri daxil olmuşlar. ABŞ formal olaraq SENTO üzvü olmamış, lakin 1956-1957-ci illərdə təşkilatın hərbi komitələrində təmsil edilmişdir. Təşkilatın mənzil-qərargahı Türkiyənin paytaxtı Ankara şəhərində yerləşmiş və o, 1979-cu ildə buraxılmışdır.



SSRİ-nin süqutundan sonra Rusiya keçmiş müttəfiq dövlətlərdə hərbi iştirakını saxlamaq və digər geosiyasi məqsədlər üçün 1992-ci ilin 15 mayında Daşkənddə MDB-yə üzv olan 6 ölkə - Rusiya, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistanın iştirakı ilə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı, KTMT (*Collective Security Treaty Organization, CSTO*) adlanan hərbi-siyasi ittifaq yaradılmasına nail olmuşdur. KTMT üzv ölkələrin təhlükəsizliyini təmin edən kollektiv hərbi qurum kimi nəzərdə tutulur və təşkilatın məqsədini üzv dövlətə hücüm zamanı təcavüzün birgə dəf edilməsi təşkil edir. Quruma sonradan Azərbaycan (*24 sentyabr 1993-cü il*), Gürcüstan (*9 dekabr 1993-cü il*) və Belarus (*31 dekabr 1993-cü il*) müşahidəçi qismində qoşulmuş, digər MDB üzvləri - Ukrayna, Moldova və Türkmənistan isə ümumiyyətlə



bu qurumda iştirakdan imtina etmişlər. Bir qədər sonra, KTMT-in prinsipləri, məramı və şərtləri Azərbaycan və Gürcüstanı qane etmədiyindən, hər iki ölkə bu təşkilatla əməkdaşlıqdan imtina etmiş və 1999-cu ildən qurumda müşahidəçi qismindəki iştiraklarını da dayandırmışlar. Eyni addımı az sonra Özbəkistan da atmış, sonradan yenidən KTMT-yə qayıtmış və 19 dekabr 2012-ci ildən yenidən üzvlüyünü dayandırmışdır. Hazıda KTMT-nin üvləri 6 keçmiş SSRİ dövləti - Rusiya, Belarus, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Tacikistandır. Müqavilə hər 5 ildən bir avtomatik uzadılır. KTMT çərçivəsində birgə hərbi təlimlər keçirilsə də, bir dəfə də olsun hər hansı hərbi əməliyyatlarda iştirak etməmiş yeganə hərbi-siyasi təşkilat olaraq qalır.

Müasir dünyada ayrı-ayrı dövlətlər arasında ikitərəfli hərbi ittifaqlar da mövcuddur. Lakin iki hərbi ittifaq - NATO və KTMT daha çox ölkələri birləşdirir və əraziləri əhatə edir. Hazırda beynəlxalq terrorizmlə mübarizə sferasında müsəlman dövlətlərinin hərbi birləşməsi olacaq "İslam NATO-su" adlanan ideya irəli sürülür. Onun müəllifinin Səudiyyə Ərəbistanı olduğu və həmin alyansda öncə 39 dövlətin yer alacağı göstərilir. Bu ideya uğurla reallaşarsa, dünyada hərbi və siyasi qüvvələr nisbətin xeyli dəyişə bilər.

## 10.26. Beynəlxalq borc böhranı və borclar probleminin tənzimlənməsi

Qlobal iqtisadi sistemin fəaliyyətində ciddi problemlərdən biri beynəlxalq borc böhranı və beynəlxalq borcların artımıdır. Beynəlxalq borc böhranı (*international debt crisis*) maliyyə böhranının növlərindən biri olaraq daxili və ya xarici borcun kəskinləşməsi ilə bağlı problemdir. Beynəlxalq borc böhranın yaranmasını izah etmək asan deyildir. Burada daxili və xarici olan çoxsaylı amillər mövcuddur ki, onların təsir dərəcəsini müəyyən edən sistemləşdirmənin aparılması, müvafiq metodoloji təyinatların verilməsi mürəkkəb elmi məsələlərdən biri kimi qalmaqdadır. Bununla belə, beynəlxalq borc böhranı artan xarici borcla bağlıdır və ümumi səbəblər kimi, əsasən, büdcə defisiti, öz vəsitlərinin çatışmamazlığı, kapitalın sızması, düzgün olmayan daxili və xarici siyasət göstərilir. Daha bir reallıq ondan ibarətdir ki, ölkələrin apardıqları daxili iqtisadi siyasət xarici amillərin təsirindən öndədir. Lakin bu da son deyildir. Dünya iqtisadiyyatına inteqrasiya olunan ölkə istər-istəməz qlobal sarsıntılardan bu ya digər müddətlərdə zərbə alacaqdır. Bu zərbənin isə yumuşaq və sərtliyi yenə də həmin ölkədəki iqtisadi siyasətlə bağlı olacaqdır.

Vurğulanmalıdır ki, daha müdhiş qlobal xarici borc böhranı 1982-ci ilin avqustunda, Latın Amerikasının bir neçə ölkəsinin xarici kommersiya banklarına olan borclarını ödəmək qabiliyyətində olmadıqlarını və borclar üzrə ödənişlərin bir hissəsini saxladıqlarını bəyan etdikləri zaman başlanmışdır. Bu böhran sürətlə çoxlu sayda dövlətə yayılmış və regional hadisədən dünya hadisəsinə çevrilmişdir. Baş vermiş böhran borclu ölkələrin iqtisadi inkişafına çox mənfi təsir göstərmiş, yaranmış borc yükü iqtisadi artımıləngitmiş, faiz dərəcələrinin artmasına səbəb olmuş, dövlətləri xarici və daxili

kəsirləri maliyyələşdirmək üçün ssuda kapitalından istifadəyə məcbur etmişdir. Nəticədə böhrana düçar olmuş ölkələr iqtisadi inkişaf səviyyəsinə görə daha 10 il geriyə düşmüşlər. Bütün bunlar dünya üzrə beynəlxalq borclar problemi kəskinləşdirərək qlobal xarakter alır.

Beynəlxalq borc problemi ayrı-ayrı ölkələrin xarici kreditorlara, digər dövlətlərin vətəndaşlarına, şirkət və təşkilatlarına qaytarılacaq borcunun artması ilə müşayiət olunaraq dünya iqtisadiyyatının inkişafına təsir göstərən qlobal iqtisadi sistemin funksionallığının ciddi problemlərindən biridir.

Hər bir dövlətin mövcud maliyyə vəsaiti ilə onun xərcləri arasında müəyyən dövr ərzində fərq əmələ gələ bilər. Bu fərq həm müsbət, həm də mənfi ola bilər. Belə ki, müsbət fərq olduqda həmin vəsait dövlətin ehtiyatına keçir. Bu fərq mənfi olduqda isə hər hansı bir mənbə balansına ödənilməlidir. Həmin mənbənin tapılması, bu fərqin bağlanması prosesi və sonradan borcun qaytarılması borclanma kimi anlaşılır. Borclanma dövlətə gəlir gətirir, həm də dövlət xərclərini artırır. Dövləti borclanmaya sövq edən əsas səbəb dövlətin ən vacib xərclərini tam maliyyələşdirmək məcburiyyətidir.

Borclar problemin özəyində dövlətin daxili və xari borcunun yüksəkliyi dayanır. Dövlət borcu (*government debt*) büdcə kəsirinin doğurduğu problem kimi dövlətin mövcud olduğu müddət ərzində yığılıb qalmış dövlət büdcələrinin, onun defisitinin ödənilməmiş məbləğidir. Dövlət borcu müvafiq xərclərin maliyyələşdirilməsi üçün dövlət zəmanəti ilə alınan və dövlətin öhdəliyi əsasında müəyyən edilmiş müddətlərdə qaytarılması nəzərdə tutulan maliyyə vəsaitidir. Dövlət borcu daxili və xarici borclara təsnifatlandırılır. Dövlət borcunun daha obyektiv müqayisəsi üçün onun ÜDM-də faiz nisbəti götürülür. Şərti olaraq dövlət borcu aşağı və biçimli (*orta*) müəyyən edilir. BYİB aşağı səviyyə kimi ÜDM-ə nisbətdə onu 18%-ə qədər, orta səviyyə kimi isə 18-30% arası qiymətləndirir. İqtisadi təhlükəsizlik baxımından xarici borc üzrə kritik hədd 40% hesab olunur. Lakin belə nisbətlər heç də həmişə reallığı əks etdirmir. Belə ki, ÜDM hər il hesablanır. Borc isə daha üzunmüddətləri əhatə edir. Bir çox iqtisadi qüdrətli dövlətlər ÜDM-ə yaxın və ondan çox olan borclara malikdirlər. Belə ki, Fransa və AFR-də bu 80-85%, ABŞ və İtaliyada 110-120% nisbətindədir.

Dövlət borcuna münasibət, nə qədər ümumi olsa da, hər dövlətin özünəməxsus təyinatları vardır. Azərbaycan Respublikasında dövlət borcu "Dövlət borcu haqqında Azərbaycan Respublikasının Qanunu" ilə tənzimlənir. Bu Qanunda dövlət borcu Azərbaycan Respublikası adından bağlanmış müqavilələrin öhdəlikləri üzrə ödənilməli olan borc kimi təsbitini tapmışdır. Burada daxili dövlət borcu kimi Azərbaycan Respublikası adından Azərbaycan Respublikasının rezidentləri ilə bağlanmış müqavilələrin öhdəlikləri üzrə borc, xarici dövlət borcu kimi isə Azərbaycan Respublikası adından Azərbaycan Respublikasının qeyri-rezidentləri ilə bağlanmış müqavilələrin öhdəlikləri üzrə borc göstərilmişdir. Həmin qanuna görə, dövlət borcalmaları ölkənin sosial-iqtisadi inkişafına yönəldilmiş proqramların həyata keçirilməsini təmin etmək, dövlət büdcəsinin kəsirini örtmək, dövlət investisiyalarını maliyyələşdirmək və

Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilən digər məsələlərin həlli məqsədi ilə həyata keçirilir.

Dövlət borcunun artmasının bilavasitə nəticəsi bu borcun idarə edilməsi sisteminin təşkilidir. Dövlət borcunun idarə edilməsi dövlətin bazarda ssuda kapitallarının konyunkturunun öyrənilməsi, yeni istiqrazların buraxılması və onun şərtlərinin işlənib hazırlanması, əvvəllər buraxılmış istiqrazlarla bağlı faizlərin ödənilməsi, istiqrazların konversiyalarının və konsolidasiyalarının keçirilməsi, dövlət krediti üzrə faiz dərəcələrinin müəyyən edilməsi tədbirlərin keçirilməsi, həmçinin, əvvəllər buraxılmış vaxtı keçmiş istiqrazların ödənilməsi ilə əlaqədar hərəkətlərinin məcmusu başa düşülür. Borcun vaxtında ödənilməsi mənbələri kimi dövlət büdcəsi, ixracdan daxil olmaların bir hissəsinin satışı çıxış edirlər. Azərbaycan Respublikası qanunvericiliyinə görə dövlət zəmanəti üzrə borc öhdəliklərinin yerinə yetirilməsini təmin etmək üçün Azərbaycan Respublikasının dövlət büdcəsinin tərkibində məqsədli büdcə fondu - Təminat Fondu yaradılır.

<u>Dövlət daxili borcu</u> (*internal national debt*) müəssisə və əhalinin vəsaitlərini cəlb etməklə dövlət proqramları və sifarişlərinin yerinə yetrilməsi, dövriyyəyə kağız pulların, dövlət istiqrazları və digər qiymətli kağızların buraxılış üzrə onlara ödənilməsi ilə əlaqədar yaranmış dövlətin borcudur.

<u>Dövlət xarici borcu</u> (*external public debt*) təsbit olunmuş vaxt ərzində hökumətin xarici kreditorlara, digər ölkələrin vətəndaşlarına, şirkət və təşkilatlarına qaytarılacaq borcunun pul ifadəsində məcmu öhdəliyidir. Dövlət xarici borcunun mövcudluğu ölkə iqtisadiyyatında yaradılmış məhsulun müvafiq hissəsinin borc ödənişi qismində xarici kreditorlara verilməsi ilə müşayiət olunur. Belə borcun artması ölkənin beynəlxalq aləmdə nüfuzunun aşağı düşməsi, əhalinin isə hökumətə olan inamının azlmasına səbəb olur. Dövlət xarici borcunda hökumətin kreditorları kimi xarici dövlətlər, əcnəbi hüquqi şəxslər, beynəlxalq maliyyə institutları (*BVF, onunla bağlı Paris klubu, London klubu, BYİB*) çıxış edirlər. Dövlət xarici borcu göstəricisi onun ÜDM-də faiz nisbəti və bu borcun adambaşına düşən məbləği ilə müəyyən olunur.

Xarici borclar baxımından daha çox inkişaf etməkdə olan ölkələr əziyyət çəkirlər. Onlar əksərən BVF-in üzvü olmasına və onun yardımlarından istifadə etməsinə baxmayaraq xarici borcun ödənilməsi ilə əlaqədar daimi çətinliklərə məruz qalırlar. Bu ölkələrdə köhnə borcların ödənilməsi xeyli dərəcədə yeni kreditlər alması ilə həllini tapır. Bu zaman texniki kreditdən də istifadə olunur. <u>Texniki kredit</u> (*technical credit*) müəyyən növ əmtəələrin alınması üçün təqdim olunan dövlətlərarası pul kreditidir. Texniki kredit əmtəələrin əks təchizatı ilə və ya dövlət borcu rəsmiləşdirməklə ödənilə bilər. Texniki kreditdən, həmçinin, əvvəlki borc üzrə cərimə sanksiyalarından yan keçmək üçün faiz ödənişi üzrə borc kimi də istifadə olunur.

Borc böhranının tənzimlənməsi və beynəlxalq borc probleminin həlli mürəkkəb proseslərdən biridir. Bu prosesdə kreditor-ölkələrin və borcluların hökumətləri, BVF, BYİB və iri özəl banklar iştirak edirlər. Ayrı-ayrı ölkələrin borclar probleminin həllində, borcların restruktizasiyasında Paris və London beynəlxalq kredit klubları əhəmiyyət

daşıyırlar. Beynəlxalq maliyyə birlikləri kimi çıxış edən bu klublar kəskin maliyyə çətinliklərinə məruz qalmış bütün dünya ölkələri ilə geniş əməkdaşlıq edirlər.

Paris klubu (*fransızca - Club de Paris*) üçücü ölkələrin borclarına münasibətdə iştirakçı dövlətlərinin maliyyə siyasətini koordinasiya edən inkişaf etmiş ölkələrin qeyri-rəsmi hökumətlərarası birliyidir. Daimi üzləri 19 ölkə - Avstraliya, Avstriya, Böyük Britaniya, AFR, Danimarka, İrlandiya Niderland, Belçika, Finlandiya, ABŞ, Fransa, Yaponiya, Norveç, İsveç, İsveçrə, İspaniya, İtaliya, Kanada və Rusiyadır. Birlik 1956-ci ildə Argentinanın öz kreditorları ilə Parisdə görüşünə razılıq verməsi ilə Fransanın təşəbbüsü əsasında yaranmışdır. Paris klubunun hazırda əsas məqsədi inkişaf etməkdə olan ölkələrin borclarının restrukturizasiyasıdır. Paris klubunun spesifikası - onun qeyri-rəsmi xarakteridir. Bu təşkilat borclu ölkələrin ödəmə qabiliyyətliliyinin olmaması problemlərini müzakirə etmək üçün yaradılmışdır. Belə ki, ödəmə qabiliyyətinin olmaması ilə qarşılaşan kreditor ölkələr klub çərçivəsində görüşür, borclularla birlikdə borc problemlərinin həlli yollarını axtarırlar. Borclu ölkələrin nümayəndə heyətindən başqa görüşdə maraqlı kreditor ölkələrin, BVF və UNCTAD-ın nümayəndələri iştirak edirlər. Klub dövlət borclarının və dövlət təşkilatlarının zəmanət verdiyi borcların təmin edilməsi şərtlərini müəyyən edir. İlk belə görüşlər Avropanın müxtəlif ölkələrində aparılmış və 1970-ci illərdən isə yalnız Parisdə keçirilir. Klubun tərkibi dəyişkəndir - hər bir görüş bir üzv-dövlətə həsr olunur. Hazırda klub çox fəal təşkilata çevrilmişdir, onun işi yüksək qiymətləndirilir. Klub BVF ilə sıx əlaqədə hərəkət edir və həm kreditor ölkələr, həm də borclu ölkələr arasında böyük nüfuza malikdir.

London klubu (*London Club*) xarici borcluların borclar məsələlərinin bu klub üzvləri qarşısında tənzimlənməsi həyata keçirən bank-kreditorların qeyri-rəsmi təşkilatıdır. London klubunun üzvləri müxtəlif ölkələrdən olan 1000-ə qədər bankdır. Klubun ilk yığıncaqı 1976-cı ildə Zairin özəl kreditorlar qarşısında borcu məsələsinə baxılması üçün keçrilmişdir. London klubunda bank-kreditorların maraqlarını Bank Məsləhət Komitəsi təmsil edir və burada həmin ölkənin borcunun maksimum hissəsi düşən banklar iştirak edir. Borclu ölkə ilə komitə arasında bağlanmış müqavilə borclunun 90-95% ödənilməmiş öhdəlikləri düşən bankların dəstəyini almalıdır və yalnız bundan sonra həmin müqavilə rəsmi olaraq imzalana bilər. Borcun tənzimlənməsi proseduruna hazırlıq işləri daxildir ki, bura borcun tənzimlənməsi strategiyasının işlənib hazırlanması aiddir. Sonra borclu ölkə öz baş kreditorları ilə rəhbər komitənin yaradılması məqsədilə məsləhətləşmələr keçirir. Adətən, borclu ölkə Bank Məsləhət Komitəsi tərkibində irəli sürdüyü iş şəraitinə anlaşma ilə yanaşan və ölkənin borc öhdəlikləri olan coğrafi regionlarını təmsil edən bankları seçir.

London klubunun fəaliyyəti, məqsədlərinə görə, Paris klubunun fəaliyyətinə oxşardır. Lakin burada fərq ondan ibarətdir ki, Paris klubu kreditor dövlətləri kreditor ölkələrin mərkəzi banklarının və maliyyə nazirlərinin nümayəndələri kimi birləşdirir, London klubu idə qeyri-dövlət, kommersiya banklarını ehtiva edir.

## 10.27. Qlobal problemlərin həlli yolları

Bəşəriyyətin inkişafının qlobal problemləri bir-birindən ayrı mövcud deyildir. Əksinə, onlar vahid şəkildə və qarşılıqlı əlaqədə fəaliyyət göstərir, bu da həll prosesinə əsaslı şəkildə yeni konseptual yanaşmalar tələb edir.

Qlobal problemlərin qarşısında bir sıra maneələr yaranır. Bu manelərin aradan qaldırılması bəşəriyyət qarşısında çox mühüm məsələ kimi durur. Dünya xalqları tərəfindən qlobal problemlərin həlli üçün görülən tədbirlərin qarşısı çox vaxt iqtisadi və siyasi silahlanma ilə, regional, siyasi və hərbi münaqişələrlə alınır. Bir sıra hallarda bəzi qlobal problemlərin həyata keçirilməsi nəzərdə tutulan problemlərin ehtiyatla təmin edilməsi ilə qarşılaşır. Ayrı-ayrı qlobal problemlər dünya xalqlarının sosial-iqtisadi şəraitindəki mövcud olan ziddiyyətlərdən ziyan çəkir.

Qlobal problemlərin genişmiqyaslılığı və kəskinliyi bütün dünya ölkələri hökumətlərinin, siyasi partiyalarının, ictimai hərəkatların səy göstərməsini və konstruktiv və qətiyyətli fəaliyyətini tələb edir. Məhz bütün ölkələrin və xalqların yaşarı olmaq və inkişaf etmək naminə yaradıcı qarşılıqlı fəaliyyəti birinci dərəcəli vəzifə olmalıdır.

Müasir zamanda qlobal problemlərin həlli yolları üçün iki real mövqe vardır. Onlardan biri yüksək inkişaf etmiş dövlətlərin mövqeyidir. O, aşağıdakı məqamlardan ibarətdir:

- ❒ qlobal problemlərin həlli elə formalarda olmalıdır ki, inkişaf etmiş ölkələrin maraqlarına toxunmasın, onların bundan maksimum mənfəət əldə edilməsinə kömək etsin;
- ❒ ehtiyatlarla təminat probleminin həlli başqa ölkələrin xammal və enerjidaşıyıcılar ehtiyatları hesabına olmalıdır və məhz bu yolla inkişaf etmiş ölkələrin iqtisadiyyatlarının aqrar-xammal kompleksləri üçün əlavə kimi onların birtərəfli inkişafını saxlamaq mümkündür;
- ❒ inkişaf etməkdə olan ölkələrdə ərzaq probleminin həlli elə həcm və formada ehtiva olunan müvafiq yardımlara istinad etməlidir ki, onların siyasi strukturlarına təzyiq göstərmək imkanı yaratsınlar;
- ❒ ekoloji problemlər, zəif inkişaf etmiş ölkələr də daxil olmaqla, bütün bəşəriyyət tərəfindən həll olunmalıdır.

İkinci mövqe bəşəriyyətin texniki və intellektual imkanlarını həyat təminatı problemlərinin həllinə yönəltməyi nəzərdə tutan yeni siyasi təfəkkürün reallıqlarına əsaslanır. Planetimizin bütün xalqlarının rəhbər tutmalı olduqları meyarlar bütün xalqların maraqlarının, onların arzu və iradələrinin, indiki və gələcək nəsillərin tələbatlarının ədalətli və humanist əsaslarla nəzərə alınmasını ehtiva edir. Bununla yanaşı, Yer təbiətinin birliyi onun ehtiyatlarından ekoloji fəlakətləri istisna edən ağıllı istifadəni nəzərdə tutan ümumbəşəri yanaşma tələbini önə çıxarır. Bu məqsədə çatmaq üçün əsas şərt silahlanmanı dayandırmaqdan, hərbi xərcləri mülki istehsala, Yer kürəsi

miqyasında təbii mühitin sağlamlaşdırılmasına yönəltməkdən ibarətdir. Digər bir şərt olaraq isə hərtərəfli əməkdaşlıq, maraqların qarşılıqlı şəkildə nəzərə alınması, elmin inkişafı və onun nailiyyətləri ilə bütün xalqların zənginləşdirilməsi çıxış edir. Elə buna görə də bütün bəşəriyyətin dövlətlərin siyasətini, həyat təcrübəsini yenidən dərk etməsi, mövcud ehtiyat imkanlarını bir daha qiymətləndirməsi vacidir. Bununla bərabər, Yer üzünün bütün sakinləri "insan-cəmiyyət-təbiət" sistemində öz rolunu və gələcək həyat təminatı perspektivlərini yeni reallıqlar tələblərindən irəli gələrək daha dolğun dərk etməlidir. Belə pozitivlik ən müxtəlif səviyyələrdə beynəlxalq əməkdaşlığın genişləndirilməsi, birgə səmərəli səylər əsasında mümkündür.

Qlobal problemlərin həllində xüsusi rol beynəlxalq təşkilatlara, ilk növbədə, BMT-yə məxsusdur. BMT sülhün qorunub saxlanması, beynəlxalq təhlükəsizliyin möhkəmləndirilməsi və tərksilah məsələlərinin həll olunması ilə yanaşı, qlobal problemlərin - ətraf mühitin mühafizəsi, ərzaq probleminin və s.-nin həlli üçün zəruri olan beynəlxalq mühitin yaradılmasına yardım göstərir. BMT-də ətraf mühitin mühafizəsi ilə ixtisaslaşdırılmış təşkilat - UNEP, ərzaq problemləri ilə BMT nəzdində xüsusi təşkilat - FAO, Ümumdünya Ərzaq Şurası, BMT nəzdində İqtisadi və Sosial Şura və onun regional komissiyaları və digər təşkilatlar məşğul olurlar. Enerji probleminin həllində beynəlxalq təşkilatlar da mühüm rol oynayır. Onların arasında BMT nəzdində fəaliyyət göstərən AEBA və başqa təşkilatları göstərmək olar. Müasir dünyanın bu və ya digər problemlərinin həlli ilə məşğul olan və ya buna kömək edən bir sıra beynəlxalq təşkilatlar və ictimai hərəkatlar mövcuddur.

Qlobal problemlərin analizi bəşəriyyətin dünyanın tərəqqisinin yalnız yeni siyasi təfəkkür və bütün dünya ölkələrinin səy və vasitələrinin birləşdirilməsi əsasında mümkün olduğu xəttə yaxınlaşdığını göstərir. Yeni siyasi təfəkkür yalnız xalqların və dövlətlərin mövcudluğuna yeni baxış deyildir. Bu, bəşəriyyətin və Yer kürəsinin özünün mövcudluğuna yeni baxışdır.

### 10.28. Azərbaycan-Ermənistan münaqişəsi – "Dağlıq Qarabağ" problemi

SSRİ dövlətinin rəhbəri M.Qorbaçovun 1985-ci ildən başlayaraq apardığı "yenidənqurma" adlanan siyasət Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətində ermənilərin separatçı hərəkətlərinin güclənməsinə rəvac verdi. Artıq 1988-ci ildən başlayaraq bu hərəkətlər intensiv xarakter aldı və Qarabağ münaqisəsi adlanan hərbi-siyasi vəziyyətə yol açdı. Qarabağ münaqişəsi - Ermənistan SSR Ali Sovetinin beynəlxalq hüququn əsas norma və prinsiplərini pozaraq 1989-cu il dekabrın 1-də "Ermənistan SSR-in və Dağlıq Qarabağın yenidən birləşməsi haqqında" qonşu dövlətin ərazi bütövlüyünə qarşı iddialarının rəsmən elan etməsi qərarı ilə Azərbaycan və Ermənistan arasında yaranan etnosiyasi münaqişədir. Qarabağ münaqişəsinin tarixi ermənilərin Qafqaza köçdüyü zamanlardan başlanğıc alır.

1988-ci ildə alovlanan münaqişə bir müddətdən sonra vilayətin separatçı-terrorçu qruplaşmaları və Ermənistan silahlı qüvvələri tərəfindən Dağlıq Qarabağın ələ

keçirilməsi uğrunda hərbi əməliyyatlar silsəsinə keçid aldı və Qarabağ müharibəsi başlandı. Qarabağ müharibəsi Azərbaycan Respublikasının Dağlıq Qarabağ ərazisi üstündə Ermənistanla Azərbaycan arasında 1991-1994-cü illərdə baş vermiş şiddətli hərbi ixtilafdır. Müharibə 1988-ci ildən başlayaraq Ermənistan SSR-in Azərbaycan SSR-ə qarşı irəli sürdüyü ərazi iddialarına əsaslanan Qarabağ münaqişəsinin davamı olmuşdur. Hərbi əməliyyatlar 1994-cü ilin may ayında Azərbaycan və Ermənistan arasında imzalanmış atəşkəslə başa çatmışdır. İxtilafın nəticəsində 30 minə yaxın insan həlak olmuş, Azərbaycanın Dağlıq Qarabağ ərazisi və ətrafında yerləşən 7 inzibati rayonu Ermənistan silahlı qüvvələrinin işğalına məruz qalmışdır.

Ermənistanın Azərbaycana qarşı apardığı hərbi əməliyyatlarda SSRİ Silahlı Qüvvələrinin Ermənistan və Dağlıq Qarabağda yerləşən hissələri də iştirak edirdilər. Öncə Dağlıq Qarabağın azərbaycanlı yaşayış məskənlərinin işğalına başlandı. 1992-ci il yanvarın 15-də Kərkicahan, fevralın 10-da Malıbəyli, Quşçular, Qaradağlı kəndləri işğal olundu. Erməni və sovet hərbi birləşmələri 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda azərbaycanlılara qarşı dəhşətli soyqırımı törətdilər. Bu, II Dünya Müharibəsində faşizmin törətdiyi dəhşətli qırğınlardan sonra, müasir dövrdə erməni separatçıları-terrorçuları ilə birlikdə Ermənistan hərbi qüvvələrinin insanlığa qarşı törətdiyi ən kütləvi və ən dəhşətli soyqırım hadisəsi olmuşdur. Barbarlıq aktı və faşizm təcəssümü nəticəsində Xocalı şəhərinin 613 dinc sakini, o cümlədən 106 qadın və 63 uşaq ermənilər tərəfindən qətlə yetirilmiş, 100-dən artıq insan itkin düşmüşdür. XX əsrin sonunda baş verən ən böyük bəşəri faciələrdən biri kimi Xocalı hadisəsinin müxtəlif ölkələrin parlamentləri indinin özündə də müzakirəsini davam etdirir və onun məhz soyqırımı aktı kimi tanınması haqqında qətnamələr qəbul edirlər.

Dağlıq Qarabağda başlanan faciəvi hadisələr Xocalı soyqırımı ilə tamamlanmadı. Erməni hərbi birləşmələri 1992-ci ilin mayında havadarlarının güclü dəstəyi ilə gözlənilməz müharibəyə hazırlığı zəif olan Azərbaycanda yaranmış hakimiyyət boşluğundan istifadə edərək Şuşanı da ələ keçirdilər və bununla da, faktiki olaraq, bütün Dağlıq Qarabağın ərazisini işğal etdilər. Növbəti qısa mərhələdə Laçın, 1993-cü ilin aprelində Kəlbəcər işğal olundu. Bütün bunlar Azərbaycanda dərin siyasi böhran yaratdı və 1993-ci ilin iyununda xalqın tələbi ilə Heydər Əliyev Azərbycana rəhbərliyə gətirildi. Bu arada Ermənistan Azərbaycana qarşı müharibəni davam etdirərək 1993-cü ilin iyul-oktyabr ayları arasında Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarını işğal altına aldı. Bütün bunlarla bağlı BMT Təhlükəsizlik Şurası erməni silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərini tərk etməsi haqqında 4 qətnamə (*822, 853, 874, 884 saylı*) qəbul etmişdir. Lakin erməni işğalçıları bu qətnamələri yerinə yetirməmişlər.

Müdhiş hadisələrlə bağlı ümummilli lider Heydər Əliyev 1993-cü ilin noyabrın 2-də televiziya və radio ilə xalqa müraciət etdi. Ölkədə ciddi hərbi-təşkilati tədbirlər həyata keçirilməyə başlanıldı və görülən işlər nəticəsində Azərbaycan xalqının işğalçılara qarşı ədalətli mübarizəsində dönüş yaradılması mümkün oldu. Belə ki, həmin ilin noyabrında Ermənistan silahlı qüvvələrinin Beyləqan istiqamətindəki hücumu dayandırıldı. 1994-

cü il yanvarında Füzuli rayonunda strateji əhəmiyyətli Horadiz qəsəbəsi və ətraf 22 kənd düşməndən təmizləndi, Cəbrayıl rayonu ərazisinin bir hissəsi, Kəlbəcər rayonunda Bozlu, Təkəqaya, Babaşlar, Qanlıkənd, Çəpli, Susuzluq, Qasımbinəsi, Yanşaqbinə, Yanşaq, Bağırsaq, Qamışlı, Bağırlı yaşayış məntəqələri düşməndən azad edildi, Çiçəkli dağı və bir sıra strateji yüksəkliklər ələ keçirildi, Kəlbəcər-Laçın yolunun tunelə qədərki hissəsi nəzarət altına alındı. Bu döyüşlərdə düşmən 4 min əsgər və zabit, 50 zirehli texnika, 15 artilleriya qurğusu və s. itirdi. Azərbaycanın müharibədə dönüş yaratmaq, işğal olunmuş torpaqlarını azad etmək sahəsində əldə etdiyi uğurlar Ermənistanla yanaşı onu müdafiə edən qüvvələri də ciddi təşvişə saldı. Bundan irəli gələrək Ermənistanın himayəçilərinin onu hərbi cəhətdən möhkəmləndirməsi, müasir silahlarla təmin edərək bölgədə irticaçı qüvvəyə çevirməsi xətti daha da gücləndi. Belə bir şəraitdə 1994-cü il mayın 8-də tərəflər arasında atəşkəslə bağlı Qırğızıstanın paytaxtı Bişkek şəhərində "Bişkek protokolu" imzalandı və Azərbaycanın düşmən üzərində hərbi uğurları sayəsində mayın 12-də cəbhədə atəşkəsə nail olundu.

Rəsmi məlumata görə, müharibədə 24 mindən çox azərbaycanlı şəhid olmuş, 100 min nəfər yaralanmış, 50 min nəfər əlil olmuş, erməni işğalçıları tərəfindən 4852 nəfər azərbaycanlı, o cümlədən 323 qadın, 54 uşaq və 410 qoca əsir və girov götürülmüşdür. Dağlıq Qarabağ ərazisində 50 minədək azərbaycanlının yaşadığı 2 şəhər, 1 qəsəbə, 53 kənd tutulmuş, 700 mindən artıq insan isə Azərbaycanın Dağlıq Qarabağ ətrafındakı 7 rayonundan təcavüz nəticəsində çıxarılmışdır. Bundan başqa, 250 min azərbaycanlı etnik təmizlənməyə məruz qalaraq Ermənistandan çıxarılmışdır. Ümumi qaçqın və məcburi köçkün sayı isə bir milyonu ötmüşdür.

Ermənilər işğal etdikləri torpaqları vandalizm taktikasına əl atmışlar. Bu işğal zamanı Ermənistan silahlı qüvvələri Azərbaycan sərhədlərinin 360 km-lik sahəsində irəli soxularaq 20%-dək Azərbaycan torpaqlarını zəbt etmiş, Füzuli rayonundakı Horadiz qəsəbəsindən Zəngilanadək 198 km-lik Azərbaycan-İran sərhədini nəzarət altına almışlar. Ümumilikdə Dağlıq Qarabağdan kənarda aparılan işğallarla birlikdə Azərbaycanın 890 şəhər, kənd və qəsəbəsi ermənilərin əlinə keçmiş, 150 min yaşayış evi, 7 min ictimai bina, 693 ümumtəhsil məktəbi, 927 kitabxana, 6 dövlət teatrı və konsert studiyası, 695 səhiyyə obyekti, 800 km avtomobil yolu, 160 körpü, 2300 km su kəməri, 15 min elektrik xətti, 280 min hektar meşə, 200 min hektar əkin sahəsi, 464 tarixi abidə və muzey dağıdılaraq viran qoyulmuşdur. İlkin hesablamalara görə, Azərbaycan Respublikasına 60 milyard ABŞ dolları həcmində zərər dəymişdir. Bundan başqa, Azərbaycanın çox mühüm təbii sərvətləri, o cümlədən civə, obsidian və perlit ehtiyatlarının hamısı, tikinti və üzlük materiallarının 35-60%-i, meşə fondunun 23,8%-i, su ehtiyatlarının 7,8%-i, 2 qoruq və 3 yasaqlıq, 3 iri su anbarı və s. işğal ərazisində qalmışdır.

Atəşkəsdən sonra Qarabağda ən şiddətli döyüşlər 2016-cı il aprelin 1-dən 5-dək baş vermişdir. Bu döyüşlər zamanı işğalçı qüvvələrə qarşı əkshəmlə əməliyyatı həyata keçirən Azərbaycan Ordusu Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəklikləri və Cəbrayıl rayonu ərazisində Lələtəpə yüksəliyini düşməndən azad etmişlər. Bu qələbə

nəticəsində Azərbaycan işğal alqındakı torpaqların 800 hektarını öz nəzarətinə götürməyə nail olmuş, Cəbrayıl rayonunda təhlükəsizliyi tam təmin edilən Cocuq Mərcanlı kəndi bərpa olunmuş, uzun müddət müvəqqəti köçkünlük şəraitində yaşayan kənd sakinləri öz doğma yurdlarına qayıtmışlar.

Dağlıq Qarabağ Azərbaycanın əzəli coğrafi ərazisidir. O, tarixin müxtəlif dönəmlərində erkən sivilizasiyalardan başlamış Azərbaycan türklərinin kompakt yaşadığı ərazi kimi Qafqaz Albaniyasının (*Arranın*), Qarabağ xanlığının, Azərbaycan Xalq Cümhuriyyətinin, Azərbaycan Sovet Respublikasının tərkib hissəsi olmuş və hazırda da hüquqi baxımdan Azərbaycan Respublikasının ayrılmaz hissəsidir. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra BMT-yə Dağlıq Qarabağla birgə üzv olmuş və ərazi bütövlüyü beynəlxalq ictimaiyyət tərəfindən tanınır.

Dağlıq Qarabağın tarixi-coğrafi özəlliklərinə baxdıqda görürük ki, bu ərazi Azərbaycanın mərkəzi hissəsində yerləşir. Sovet hakimiyyəti dövründə burada 4,4 min $km^2$ (*Azərbaycanın ümumi ərazisinin 5,1%-i*) ərazidə mərkəzi Xankədi şəhəri olmaqla Əsgəran, Hadrut, Ağdərə, Xocavənd və Şuşa inzibati rayonlarının daxil olduğu Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılmışdır. 1970-ci ildə aparılmış siyahıya əsasən, Dağlıq Qarabağ Muxtar Vilayətinin 150313 nəfər əhalisi olmuşdur.

Qarabağın adı da Azərbaycan dilində və həmçinin, digər türk dillərində "qara" və "bağ" sözlərinin sintezidir. "Qarabağ" sözü ilk mənbələrdə hələ 1300 il bundan əvvəl işlənmişdir. Bu söz rəng mənasını ifadə etsə də, "bahalı", "sıx", "möhtəşəm" "böyük" və digər analoji sinonimlərə də malikdir. Elə bu baxımdan da "Qarabağ" termini "qara bağ", yəni "böyük bağ" "möhtəşəm" və s. mənası kəsb edir. Ancaq burada təbii bir reallıq da yaddan çıxarmamalıdır. Fakt ondan ibarətdir ki, bu ərazidə torpaqlar münbit və qara rənglidir. Füsünkar təbiəti, zəngin flora və faunası onu Azərbaycanın cənnət guşəsinə çevirmişdir.

Qarabağ ərazisində dünyada insanların ən qədim yaşayış məskəni olan Azıx mağarası yerləşir. Burada 1968-ci ildə Azıx adamı - azıxantrop adlandırılan insanın çənə sümüyü tapılmışdır. Azıx adamının 350-400 min il əvvəl yaşadığı güman olunur. Bu amil digərləri ilə birlikdə Azərbaycanın, o cümlədən Qarabağın, Aralıq dənizi hövzəsi və Şərqi Afrika ilə birlikdə insanlığın ilk məskənlərindən biri olduğunu sübut edir.

Eneolit (*b.e.ə. VI-IV minilliklər*), tunc və ilk dəmir dövrlərində (*b.e.ə. IV minilliyin sonu - I minilliyin əvvəli*) Qarabağın həyatında böyük dəyişikliklər baş vermiş və son tunc və ilk dəmir dövrü (*b.e.ə. XIII-VII əsrlər*) Xocalı-Gədəbəy mədəniyyəti adı almışdır.

B.e.ə. IX-VI əsrlərdə Azərbaycanın cənubunda qüdrətli Manna dövləti yaranmışdır. Həmin dövrdə, nəinki Qarabağda, ümumiyyətlə, Cənubi Qafqazda erməni etnosu yaşamamışdır. Makedoniyalı İsgəndər Əhəmənilər dövlətini dağıtdıqdan, həmçinin, onun özünün ölmü ilə qurduğu dövlətin parçalanmasından sonra Azərbaycanın şimalında siyasi proseslər yeni mərhələyə qədəm qoymuşdur. Bu zaman Azərbaycanın cənubunda Atropatena, şimalında isə Albaniya dövlətləri yaranmışdır. B.e.ə. IV əsrdə və sonralar Azərbaycan dövləti olan Atropatenaya Qarabağ ərazisinə daxil olan torpaqlar aid idi. Atropatena ilə eyni zamanda yaranmış 1200 ilə yaxın dövr ərzində VIII

əsrlərə kimi mövcud olmuş Albaniya dövləti də sərhədlərini genişləndirərək bütün Qarabağ ərazisini əhatə etmişdir.

Qarabağın tarixində əsas dəyişikliklər VII əsrdə ərəb xilafətinin işğalları və bunun nəticəsində Albaniya dövlətinin süqutu ilə baş vermişdir. Bu işğallara kimi Qarabağın tarixi əhalisi etnik baxımdan Azərbaycan-Albaniya kökündən olmuşdur. Ərəb xilafəti zamanı Arsax adlanan bu bölgədə əhalinin əvvəlcə qriqorianlaşdırılması və ardınca da erməniləşdirilməsinə başlanılmışdır. Ərəb xilafəti parçalandıqdan sonra Albaniyanın həmin ərazisində Sünik və Arsax-Xaçın knyazlıqları yaranmışdır. XII əsrin sonlarına yaxın Sünik padşahlığı dağılmış və buradakı hakim sülalənin kökü 1166-cı ildən knyaz Qriqorun və Sumbatın ölümü ilə kəsilmişdir. XII əsrin sonu - XIII əsrin əvvəllərində Arsax ərazisində təşəkkül tapan Xaçın knyazlığı isə Albaniyanın bir hissəsi olmuşdur. Bu isə onu göstərir ki, Ərəb xilafəti dağılarkən onun ərazisində dirçələn yerli dövlətlər içərisində heç bir erməni dövləti olmamışdır. Bu, həm də Azərbaycandan və Gürcüstandan fərqli olaraq, Cənubi Qafqazda ermənilərin dövlətçilik tarixinə malik olmadıqlarını bir daha sübut edir.

Qarabağ digər Azərbaycan torpaqları kimi monqolların bu ərazilərə ikinci yürüşü zamanı (*1231-1239*) Ali monqol xaqanlığının (*1239-1256*), sonra isə Hülakülər (*Elxanilər*) dövlətinin (*1256-1357*) tərkibinə daxil omuşdur. Həmin dövrdə ərazinin “Qarabağ” adlanışı artıq bu coğrafiyaya hakim kəsilmişdir.

XV əsrdə isə Qarabağ Azərbaycan Qaraqoyunlu (*1410-1467*) və Ağqoyunlu (*1468-1501*) dövlətlərinin tərkibində olmuşdur. XV əsrdə keçmiş alban hakimi Həsən Cəlalın (*1215-1261*) nəsli (*Cəlalilər*) Qaraqoyunlu Cahan şahdan (*1397-1467*) “məlik” - knyaz titulu almış və sonradan Cəlalilər nəslinin mülkü beş alban feodal knyazlıqları - məliklərinə (*Gülüstan, Ceraberd, Xaçın, Vərəndə, Dizaq*) parçalanmışdır.

1501-ci ildə Səfəvi dövlətinin yaranması ilə bütün Azərbaycan torpaqlarının mərkəzləşdirilməsinə başlanılmış və XVI əsrin ortalarında bu proses başa çatmışdır. Səfəvilər Azərbaycanda 4 bəylərbəylik yaratmışdılar ki, onlardan biri də Qarabağ və ya Gəncə bəylərbəyliyi olmuşdur. Səfəvi dövlətinin zəifləməsindən sonra Azərbaycan torpaqları İran, Rusiya və Osmanlı dövlətləri arasında müharibələr meydanına çevrilmişdir. Sonuncu Səfəvi hökmdarı III Abbası devirərək hakimiyyətə gələn Nadir şah Əfşar (*1736-1747*) onu qanuni hökmdar kimi tanımaqdan imtina edən Gəncə-Qarabağ bəylərbəyliyinin türk-müsəlman əhalisinə qarşı ağır cəza tədbirləri həyata keçirmişdir ki, bu amil də Qarabağın alban məliklərinin mövqeyini gücləndirmiş, onların separatizminə təkan vermişdir. Nadirin ölümü ilə onun dövləti parçalanmış və Azərbaycanda yerli dövlətlər - xanlıqlar, o cümlədən keçmiş Gəncə-Qarabağ əyalətinin ərazisində Gəncə və Qarabağ xanlıqları yaranmışdır. Qarabağ 17 sayda - Sisyan, Dəmirçi-Aslanlı, Künara, Bərgüşad, Bahabyurd, Kəbirli, Talış, Cavanşir, Xaçın, Çiləbird, Xırdapara Dizax, Otuziki, İyirmidörd, Qaraçorlu, Vərənd, Dizax və Açantürk mahallarına bölünmüşdür: Bunlardan 12 iki mahalın əhalisi, bir neçə kənd istisna olmaqla, bütünlükdə azərbaycanlılardan ibarət olmuşdur. Xəmsə adlandırılan Dizax, Vərənd, Çiləbird, Xaçın və Talış məliklərinin əhalisinin isə bir hissəsi xristian idi.

Qarabağ xanlığının banisi Pənahəli xan Cavanşir (*1693-1758*) olmuşdur. Onun hakimiyyəti gücləndikcə pərakəndəlik tərəfdarı olan məliklərin pozuculuq fəaliyyətləri də artırdı. Bu pozuçuluq fəaliyyətinə 1783-cü ildən Pənahəli xanın varisi İbrahim xanın dövründə Rusiya dövləti də qarışmağa başladı. Cənubi Qafqazı işğal etməyə səy göstərən Rusiya Azərbaycan ərazisində həmin məliklərin köməyi ilə "xristian dövləti" yaratmağa çalışırdı. Rus knyazı Qriqori Aleksandroviç Potyomkinin (*1739-1791*) 19 may 1783-də rus çarı I Yekaterinaya (*1664-1727*) yazdığı məktubda fürsət tapan kimi Qarabağı ermənilərin idarəsinə vermək və beləcə Asiyada bir xristian dövləti qurmaq ideyasından bəhs olunurdu.

Apardığı işğalçı siyasəti ilə Rusiya 1801-ci ildə Gürcüstanı özünə birləşdirdi. 1803-cü ildə isə Azərbaycanın Car-Balakən camaatlığını və 1804-cü ildə Gəncə xanlığını işğal etdi. Qarabağ hökmdarı İbrahim xan belə bir vəziyyətdə Rusiya qoşunlarının komandanı Pavel Dimitriyeviç Sisianovla (*1754-1806*) Kürəkçayda müqavilə bağladı. Kürəkçay müqaviləsinə əsasən, Qarabağ xanlığı məhz müsəlman - Azərbaycan torpağı kimi Rusiyaya ilhaq olundu. Tarixi reallığı əks etdirən Kürəkçay müqaviləsi, eyni zamanda, Qarabağın, o cümlədən bu diyarın dağlıq hissəsinin Azərbaycan xalqına məxsus olduğunu sübut edən ən mötəbər sənəddir.

Qarabağın tarixən Azərbaycana məxsus olduğunu və burada ən qədim zamanlardan başlayaraq müxtəlif türk etnoslarının yaşadığını Azərbaycan və ümumtürk şifahi xalq ədəbiyyatının möhtəşəm abidəsi olan "Kitabi-Dədə Qorqud" dastanı da sübut edir. "Dədə Qorqud" dastanı VI-VII əsrlərdə, Qarabağ da daxil olmaqla, bütün Azərbaycan torpaqlarında, o cümlədən, ermənilərin indi Sevan adlandırdıqları Göyçə gölü hövzəsində yayılmışdı. Bundan başqa, ermənilərin Dağlıq Qarabağa köçməsini əks etdirən saysız artefaktlar, sənəd və sübutlar var. Bunlar içərisində Tərtər rayonunun Şıxarx qəsəbəsində ermənilərin İranın Marağa regionundan Qarabağa gəlməsini əks etdirən və özləri tərifindən 1978-ci ildə bu hadisələrin 150 illiyi münasibəti ilə ucaltdıqları abidə olmuşdur. Abidədə daş üzərində ermənicə "Marağa -150" yazılmışdır. Ermənilər bu utandırıcı faktı aradan götürmək məqsədi ilə onu Qarabağın işğalı ərəfəsində, 1991-ci ildə sökmüşlər.

Rus işğalının sonrakı dövrlərində - 1846-cı il inzibati-ərazi bölgüsü zamanı Şuşa qəzası yeni yaradılmış Şamaxı quberniyasının (*1859-cu ildən Bakı*) tabeliyində olmuşdur. 1867-ci ildə Yelizavetpol (*Gəncə*) quberniyası yaradıldıqda isə Şuşa qəzası onun tərkibinə verilmiş və ərazisi üç - Zəngəzur, Cavanşir və Cəbrayıl qəzalarına bölünmüş və Şuşa qəzası vahid inzibati-siyasi idarəsini itirmişdir. Belə bir inzibati-ərazi bölgüsü ermənilərin idarə sistemində daha geniş təmsil edilməsinə hərtərəfli imkanlar yaradılması üçün xüsusi məqsədlə həyata keçirilmişdir. 1826-1828-ci illərdəki rus-fars müharibəsinin bitməsi ilə əlaqədar Rusiya imperiyası ilə İran arasında 1828-ci ilin 10 fevralında Təbriz yaxınlıqındakı Türkmənçay kəndində imzalanmış müqavilədən sonra bu hal daha müntəzəm və məqsədyönlü xarakter almış və ermənilərin İrandan Şimali Azərbaycana köçürülməsi həmin müqavilənin XV maddəsi ilə təsdiq olunmuşdur. Türkmənçay müqaviləsinə (*Treaty of Turkmenchay*) əsasən,

Azərbaycanın Araz çayından şimaldakı bütün əraziləri Rusiyaya, cənubdakı əraziləri isə İrana verilmişdir.

1828-1829-cu illərdəki rus-türk müharibəsinin bitməsi ilə əlaqədar Rusiya və Osman imperiyaları arasında 1829-cu ilin 2 sentyabrında osmanlıların Ədirnə (*yunanca* - Adrianopol - *Ədirnə*) şəhərində imzalanmış Ədirnə müqaviləsi ilə Osmanlı imperiyasından da ermənilərin yenicə işğal olunmuş Şimali Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirilməyə başlanmışdır.

Ermənilərin köçürülməsinin əsas istiqamətlərindən biri Qarabağ ərazisi olmuşdur. Bu anlaşma ilə 84 min erməni Qarabağ və ətraf ərazilərə köçürülmüşdür. Bu ərəfədə qeyri-rəsmi erməni köçkünləri ilə birlikdə bütün köçkünlərin sayı 200 mini ötmüşdur. XIX əsrin 30-cu illərindən sonra da ermənilərin kütləvi sürətdə Şimali Azərbaycan torpaqlarına, o cümlədən Qarabağa köçürülməsi davam etdirilirdi. Rus qafqazşünası Nikolay Nikolayeviç Şavrov (*1858-1915*) 1911-ci ildə yazırdı: "Zaqafqaziyadakı 1,3 milyon erməninin 1 milyondan çoxu gəlmədir". Bunlara baxmayaraq, 1832-ci ildə Qarabağın 64,4%-i Azərbaycan türkü, 4,8%-i erməni idi. Köçürülüb gətirilən ermənilərin Qarabağın dağlıq hissəsində - onlarla eyni dindən olan yerli əhalinin (*qriqorianlaşmış və erməniləşmiş albanların*) yaşadığı ərazidə məskunlaşdırılması daha geniş hal almışdı. Aparılan siyasət nəticəsindədə, XX əsrin ortalarından başlayaraq ermənilər sayca Dağlıq Qarabağda üstünlük təşkil etməyə başladılar. 1990-cı ildə burada əhali sayı 185 minə çatmışdı. Əhali tərkibi ermənilərdən (*76%*), azərbaycanlılardan (*23%*), kürdlərdən və ruslardan ibarət idi.

Bu torpaqlara köçüb gəlmiş ermənilər havadarlarının dəstiyi ilə çox keçmədən Azərbaycan torpaqlarında "Böyük Ermənistan" ideyasının reallaşdırılması uğrunda açıq mübarizəyə başladılar. Həmin ideyanın əsas tərkib hissələrindən biri də Qarabağ, İrəvan, Naxçıvan və digər Azərbaycan torpaqlarının yerli - azərbaycanlı əhalisini məhv etmək və onların yaşadıqları torpaqları ələ keçirməkdən ibarət olmuşdu. Ermənilərin 1890-cı illərdən başlayaraq Osmanlı dövlətinə qarşı qaldırdıqları xəyanətkar qiyamlar uğursuzluğa düçar olduqdan sonra bu mübarizənin mərkəzi Şimali Azərbaycana keçdi.

Ermənilər 1905-ci ildən başlayaraq Azərbaycan xalqına qarşı kütləvi soyqırımları törətdilər. Onların azərbaycanlılara qarşı soyqırım siyasəti Qarabağda daha faciəli şəkil aldı. Sonrakı dövrdə - 1915-ci ildə Osmanlı dövlətinə qarşı qaldırdıqları yeni qiyamlarda uğursuzluğa düçar olan ermənilər əsas qüvvələrini Cənubi Qafqazda cəmləşdirərək və rus çarizmin himayəsinə sığınaraq, azərbaycanlılara qarşı soyqırımlarını davam etdirməyə başladılar. Əvvəlcə çar hökumətinin devrilməsi (*1917, fevral*), sonra isə Rusiyada bolşeviklərin hakimiyyəti ələ alması ilə (*1917, oktyabr*) Zaqafqaziyada yaranan anarxiya şəraitində - uzun tarixi dövr ərzində Rusiya ordusunda xidmət edən erməni silahlı dəstələri daşnak-bolşevik güruhu ilə azərbaycanlılara qarşı soyqırımının yeni, daha dəhşətli dövrünü başladılar. 1918-ci ilin martında Bakıda başlanan və bütün Azərbaycanı əhatə edən yeni kütləvi soyqırımları Azərbaycan xalqına çox ağır zərbə vurdu.

Təxminən 120 ilədək davam edən Rusiya əsarətindən sonra 1918-ci iln mayın 28-də Azərbaycan xalqı Şimali Azərbaycanda yeni müstəqil dövlətini yaratdı. Təbii olaraq, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağ da Azərbaycan Xalq Cümhuriyyətinin ərazisinə daxil oldu. Lakin bu zaman yenicə elan olunmuş Ermənistan (*Ararat*) Respublikası Qarabağa heç bir əsası olmayan iddia irəli sürdü. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti bu iddianı rədd etdi. Bununla da, ermənilər Qarabağı ələ keçirmək üçün əvvəllər başladıqları soyqırımlarını Azərbaycan Xalq Cümhuriyyəti dövründə də davam etdirdilər.

Bu dövrdə Şuşa qəzası və Qarabağın siyasi mərkəzi olan Şuşa şəhərində ermənilərin vəhşilikləri daha amansız şəkil almışdı. Şuşada ermənilərin ən xəyanətkar silahlı qiyamlarından biri 1920-ci il martın 22-də Novruz bayramı günü baş vermişdir. Bu separatçı qiyam Azərbaycanı işğal etməyə hazırlaşan bolşeviklərin sifarişi ilə qaldırılmışdı. Görülən hərbi-siyasi tədbirlər nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti Qarabağda öz suveren hüquqlarını bərpa etdi. Az sonra Azərbaycan Xalq Cümhuriyyəti bolşevik Rusiyasından gələn XI Qırmızı Ordunun tərəfindən devrildi və şimali Azərbaycanda sovet hakimiyyəti quruldu. Bununla, Qarabağ ətrafındakı hadisələrin yeni mərhələsi başlandı.

1923-cü ilin 7 iyulunda bolşeviklər Dağlıq Qarabağda yaşayan azərbaycanlıların rəyi nəzərə alınmadan Azərbaycanın ərazisində Dağlıq Qarabağ Muxtar Vilayəti yaratdılar. Elmi araşdırmalar göstərir ki, Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisi real tarixi əks etdirən elmi-coğrafi prinsiplər əsasında deyil, xüsusi məqsəd güdən volyuntarist yanaşma əsasında formalaşdırılmışdır.

Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinə göstərdiyi xüsusi qayğı, bu diyarın sovet hakimiyyəti illlərində sosial-siyasi və iqtisadi inkişafı üçün müstəsna şərait yaratdı. Vilayət Statistika İdarəsinin Stepanakertdə (*Xankəndi*) nəşr etdirdiyi statistik məcmuələrdə göstərilir ki, 1987-ci ildə hər 10 min nəfərdən sənayedə çalışanların sayı respublika üzrə 686, Naxçıvan MSSR üzrə 387 olduğu halda, Dağlıq Qarabağ Muxtar Vilayətində 657 olmuşdu. Adambaşına düşən ümumi kənd təsərrüfatı məhsulları, müvafiq olaraq, 588, 501 və 692 idi və s. Sosial inkişafa dair göstəricilərə gəldikdə isə bu rəqəmlər nəinki Azərbaycan SSR, hətta Ermənistan SSR və bütövlükdə SSRİ üzrə rəqəmlərdən də xeyli yüksək olmuşdur. Hər 10 min nəfərə xəstəxana çarpayısı ilə təminat Ermənistan SSR-də 86,2, Azərbaycan SSR-də 97,7 olduğu halda, Dağlıq Qarabağ Muxtar Vilayətində 101,7 idi.

O da vurğulanmalıdır ki, vilayətin mövcudluğunun bütün tarixi ərzində ermənilər Dağlıq Qarabağı Ermənistana birləşdirməyə ardıcıl səy və cəhdlər göstərmişlər. Belə cəhdlərdən biri də 1945-ci ilin payızında Ermənistan partiya rəhbəri Qriqori Artyomoviç Arutyunovun (*1900-1957*) əhalisinin əksəriyyəti ermənilərdən ibarət olduğu üçün Dağlıq Qarabağ ərazisinin Ermənistana verilməsi ilə bağlı Moskvaya - ittifaq hökumətinə müraciət etməsidir. Həmin müraciət Azərbaycan Respublikasının rəhbəri Mircəfər Bağırova (*1896-1953*) onun rəyini öyrənmək üçün göndərilir. Q.Arutyunovun məktub-layihəsindəki dəlilləri alt-üst edən M.C.Bağırov bildirir ki, belə olan təqdirdə

vilayətin Şuşa rayonu istisna olunmaqla ərazisinin Ermənistana verilməsinə etiraz edilmir. Amma bu arqumentə-amilə əsaslanaraq azərbaycanlıların yaşadığı Ermənistan SSR-nin Vedi, Qarabağlar və Yexeqnadzor rayonları, habelə, Gürcüstan və Dağıstandakı Azərbaycan torpaqları geri qaytarılsın. 1965-ci ildə yenidən Dağlıq Qarabağın Ermənistana ilhaq edilməsi barədə 45 min nəfərin imzaladığı petisiya Moskvaya təqdim edilmiş və bu iddialar da təmin olunmamışdır.

1984-cü ildə İrəvanda erməni yazıçısı Zori Balayanın (*1935*) "Ocaq" adlı kitabının çap edilməsi, onun Qarabağın tarixinə və müasir dövrünə dair məqsədyönlü təhrifləri, millətçi-separatçı çağırışları bu çevrədə olan ehtirasları yenidən qızışdırmışdır. 1987-ci ilin noyabrında SSRİ rəhbəri M.Qorbaçovun komandasına daxil olan erməni, SSRİ Elmlər Akademiyasının akademiki Abel Qezeviç Aqanbekyan (*1932*) Parisdə Dağlıq Qarabağ barədə sovet rəhbərliyinə təklif verildiyini, yenidənqurma və demokratiya şəraitində bu problemin həllini tapacağına ümid etdiyini bildirmişdir. Bundan sonra əvvəllər gizli iş aparan erməni "Qarabağ Komitəsi", onun Dağlıq Qarabağ Muxtar Vilayətindəki separatçı-terrorçu təşkilatı "Krunk" (*Durna*) "Miatsum" (*Birləşmə*) hərəkatı adı altında açıq fəaliyyətə başlamışdır. Bu hərəkat Ermənistan, Dağlıq Qarabağ Muxtar Vilayəti, Moskva rəhbərliyi, SSRİ və dünya ermənilərinin potensialına arxalanırdı.

Hadisələr 1988-ci ilin fevralından daha aqressiv məcraya yönəldi və fevralın 20-də Dağlıq Qarabağ Muxtar Vilayəti Sovetinin sessiyası vilayətin statusuna baxılması haqqında Azərbaycan SSRİ Ali Sovetinə müraciət etdi. Azərbaycan tərəfi erməni separatçılarının və onların müdafiəçilərinin yeni taktikası qarşısında hazırlıqsız idi. Elə həmin gündə hadisələri şiddləndirmək üçün erməni separatçı-terrorçuları Əsgəran rayonunda iki azərbaycanlı gəncin qətlə yetirdilər.

Separatçı-terrorçu erməni vəhşiliklərinin baş alıb getdiyini SSRİ rəhbərliyi real qiymətləndirmədə maraqlı deyildi. Bununla bağlı çıxarılan qərarlar da hadisələrdə separatçılıq aktı olmasını ört-basdır etməyə yönəlirdi. Belə bir dəstək erməni separatçılarını daha da ruhlandırır, onların təcavüzkarlığını daha da artırırdı. Nəticədə Moskva Dağlıq Qarabağın Azərbaycanın tərkibindən çıxarmaq istiqamətində daha bir addım ataraq 1989-cu il yanvarın 12-də vilayətdə xüsusi idarəçilik formasının tətbiqi haqqında qərar qəbul etdi. Bu məqsədlə yaradılmış Xüsusi İdarə Komitəsi Dağlıq Qarabağı Azərbaycandan alınıb Ermənistana verilməsini təmin etməli idi. Lakin bunu başa düşən Azərbaycan xalqının demokratik mübarizəsi nəticəsində noyabrın 28-də Xüsusi İdarə Komitəsi ləğv edildi. Ancaq bunun əvəzində yeni bir qurum - Təşkilat Komitəsi yaradıldı. Ermənistan SSR bu vəziyyətdən istifadə edərək dekabrın 1-də Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında antikonstitusion qərar qəbul etdi. Bu, Ermənistan tərəfindən Azərbaycan SSR-in ərazi bütövlüyünə qarşı açıq hüquqi müdaxilə aktı idi. SSRİ rəhbərliyi, gözlənildiyi kimi, bu kobud müdaxilə faktına da biganəlik göstərdi.

1991-ci il avqustun 30-da Azərbaycan SSRİ Ali Soveti dövlət müstəqilliyinin bərpa edilməsi haqqında bəyanat qəbul etdi, oktyabrın 18-də isə "Dövlət müstəqilliyi haqqın-

da Konstitusiya Aktı" qəbul olundu. Dağlıq Qarabağın erməni separatçıları da yaranmış vəziyyətdən istifadə edərək separatçı siyasi təşkilatlanmanı davam etdirirdilər. Onlar 1991-ci ilin sentyabrında bu bölgəyə heç bir dəxli olmayan Şaumyan rayonu Xalq Deputatları Soveti ilə birgə sessiya keçirərək "Dağlıq Qarabağ Respublikası" adlanan oyuncaq qurumun yaradıldığını elan etdilər. Hadisələri daha da şiddətləndirmək məqsədi ilə 1991-ci il noyabrın 20-də Martuninin azərbaycanlılar yaşayan kəndlərinə uçan nümayəndə heyətini aparan vertolyot Qarəkənd üzərində ermənilər tərəfindən vuruldu.

Azərbaycan Respublikası 1991-ci ilin noyabr ayının 26-da Dağlıq Qarabağ Muxtar Vilayətinin statusu ləğv etdi. Stepanakert, Mardakert, Martuni şəhərlərinin tarixi adları qaytarılaraq Stepanakert Xankəndi, Mardakert Ağdərə, Martuni Xocavənd adlandırıldı. Əsgəran və Hadrut rayonları ləğv olundu, Xocalı şəhəri mərkəz olmaqla Xocalı və Xocavənd rayonları yaradıldı. Bu hadisələrin ardınca ermənilər Dağlıq Qarabağda azərbaycanlıların etnik təmizlənməsini həyata keçirərək müharibəyə başladılar. Hazırda keçmiş Dağlıq Qarabağ və onun ətrafında daha 7 rayon tam və ya qismən erməni işğalı altındadır.

Aşağıda rayonların işğal tarixi və bu zamanı mövcud əhali sayı göstərilmişdir:

1. Laçın - 18 may 1992-ci il - əhali sayı 71 min nəfər;
2. Kəlbəcər -2 aprel 2 1993-cü il - əhali sayı 74 min nəfər;
3. Ağdam - 23 iyul 1993-cü il - əhali sayı 166 min nəfər;
4. Füzuli - 23 avqust 1993-cü il - əhali sayı 146 min nəfər;
5. Cəbrayıl - 23 avqust 1993-cü il - əhali sayı 66 min nəfər;
6. Qubadlı - 31 avqust 1993-cü il - əhali sayı 38 min nəfər;
7. Zəngilan - 29 oktyabr 1993-cü il - əhali sayı 40 min nəfər.

Azərbaycanın apardığı məqsədyönlü siyasət nəticəsində Dağlıq Qarabağ məsələsi beynəlxalq aləmdə daim diqqət mərkəzində saxlanılır.

Erməni millətçiləri əsrlər boyu türklərə, eləcə də azərbaycanlılara qarşı daim düşmənçilik münasibəti bəsləmişlər. Ermənilər Azərbaycanlılara qarşı tarixən mütəmadi olaraq çoxsaylı terror hərəkətləri həyata keçirmişlər. Bunun üçün müvafiq terror təşkilatları da yaratmışlar. Erməni terrorizmi - erməni millətçilərinin həyata keçirdikləri terror aktlarıdır. Termin rəsmi olaraq ABŞ-da 1982-ci ilin avqustda ABŞ Dövlət Departamentinin aylıq büllütenində işlənmişdir. Erməni terrorizmi həmişə antitürk və antiazərbaycan xarakteri daşımışdır. Beynəlxalq terrorizmin tərkib hissəsi olan erməni terrorunun tarixi yüz ildən çox dövrü əhatə edir. Belə ki, "Böyük Ermənistan" dövlətinin yaradılmasını qarşısına məqsəd qoymuş radikal erməni təşkilatları 1887-ci ildə yaradılmış "Armenakan", sonradan "Hnçak" və "Daşnaksütyun" partiyaları bu planı həyata keçirmək üçün siyasi terror aksiyalarından geniş istifadə edilməsini proqram sənədlərində başlıca vasitə kimi nəzərdə tutmuşlar. Erməni terrorizmi bir sıra terror aktlarını özlərinin yaratdıqları ASALA terror təşkilatları vasitəsi ilə həyata keçirmişlər. ASALA (*ingiliscə* - Armenian Secret Army for the Liberation of Armenia, ASALA - *"Ermənistanın Azadlığı uğrunda Gizli Erməni Ordusu"*) adlanan 1975-ci ildə yaradılmış erməni terror təşkilatıdır. Terror təşkilati müstəqil

Ermənistan dövlətinin qurulması və 1915-ci ildə baş verdiyi iddia edilən "erməni soyqırımının" dünya ölkələri tərəfindən tanınması üçün çalışır. ASALA, əsasən, Türkiyə və Azərbaycan vətəndaşlarına qarşı terror aktları həyata keçirir. Təşkilatın qərargahı Beyrutda, təlim-məşq bazaları isə Suriyada yerləşir.

Qarabağ münaqişəsi və ətraf dövrdə ermənilərin azərbaycanlılara qarşı törətdikləri terror aktları aşağıdakılardır:

Sərnişin avtobuslarında törədilən terror aktları:

1. 16 sentyabr 1989-cu il - Tbilisi-Bakı marşrutu ilə hərəkət edən sərnişin avtobusu partladılmış, 5 nəfər həlak olmuş, 25 nəfər yaralanmışdır.

2. 13 fevral 1990-cı il Yevlax-Laçın avtomagistralının 105-ci kilometrində Şuşa-Bakı marşrutu ilə hərəkət edən avtobus partladılmışdır, 13 nəfər azərbaycanlı yaralanmışdır.

3. 11 iyul 1990-cı il tarixdə Tərtərdən Kəlbəcərə sərnişin aparan avtobus və digər maşınlardan ibarət avtomobil karvanına qarşı terror aksiyası keçirilmiş, nəticədə 1 qadın, 7 kişi qətlə yetirilmiş, 23 nəfər isə ağır yaralanmışdır.

4. 10 avqust 1990-cı ildə "Şamxor-Gəncə" avtomobil yolunda Xanlar rayonunun Nadel kəndi yaxınlığında "LAZ" markalı 43-80 AQF nömrəli avtobus partladılmışdır, nəticədə 17 nəfər həlak olmuşb, 16 nəfər yaralanmışdır.

5. 10 avqust 1990-cı il – Tbilisi-Ağdam marşrutu ilə hərəkət edən sərnişin avtobusu partladılmış, 20 nəfər həlak olmuş, 30 nəfər yaralanmışdır.

6. 30 noyabr 1990-cı ildə Əsgəran rayonundakı "Ağa körpüsü" adlanan ərazidə DİN əməkdaşlarını Şuşadan Xankəndi aeroportuna aparan avtobus ermənilər tərəfindən partladılmış, nəticədə 2 polis işçisi yaralanmışdır.

7. 14 mart 1991-ci ildə "Ağdam-Şuşa" marşrutu üzrə hərəkət edən avtobus partladılmış, 3 nəfər həlak olmuş, 4 nəfər yaralanmışdır.

8. 8 sentyabr 1991-ci ildə Ağdam-Qaradağlı marşrutu ilə işləyən avtobusun partladılması nəticəsindən 6 nəfər qətlə yetirilmiş, 36 nəfər yaralanmışdır.

Sərnişin və yük qatarlarında törədilən terror aktları:

1. 24 mart 1990-ci ildə "Noraşen-Bakı" yolunun 364-cü km-də dəmir yolu partladılmış, nəticədə teplovoz və 3 vaqon, 150 metrdən çox dəmir yolu xətti yararsız hala düşmüşdür.

2. 30 may 1991-ci ildə Dağıstan Respublikasının Xasavyurt stansiyası yaxınlığında Moskva-Bakı sərnişin qatarı partladılmış, 11 nəfər həlak olmuş, 22 nəfər yaralanmışdır.

3. 31 iyun 1991-ci ildə Dağıstan Respublikasının Temirtau stansiyasının yaxınlığında Moskva-Bakı sərnişin qatarı partladılmış, 16 nəfər həlak olmuş, 20 nəfər yaralanmışdır.

4. 30 may 1991-ci ildə Dağıstanın Xasavyurt stansiyası yaxınlığında "Moskva-Bakı" sərnişin qatarı partladılmış, 11 nəfər həlak olmuş, 22 nəfər ağır yaralanmışdır.

5. 28 fevral 1993-cü il - Dağıstan Respublikası ərazisində, Qudermes stansiyası yaxınlığında "Kislovodsk-Bakı" sərnişin qatarı partladılmış, 11 nəfər həlak olmuş, 18 nəfər yaralanmışdır.

6. 2 iyun 1993-cü ildə Bakı Dəmiryol Vağzalında ehtiyat yolda dayanan sərnişin qatarının vaqonu partladılmışdır. Həlak olan və yaralanan yoxdur.

7. 1 fevral 1994-cü ildə Bakı Dəmiryol Vağzalında Kislovodsk-Bakı sərnişin qatarında terror aktı törədilmiş, 3 nəfər həlak olmuş, 20 nəfər yaralanmışdır.

8. 9 fevral 1994-cü ildə Xudat stansiyası yaxınlığında ehtiyat yolda dayanan yük vaqonu partladılmışdır.

9. 13 aprel 1994-cü ildə Dağıstan Respublikasının Daqestanskie Oqni stansiyasının yaxınlığında Moskva-Bakı sərnişin qatarı partladılmış, 6 nəfər həlak olmuş, 3 nəfər yaralanmışdır.

Hava nəqliyyatında törədilmiş terror aktları:

1. 20 noyabr 1991-ci il Xocavənd rayonunun Qarakənd kəndi yaxınlığında erməni terrorçuları tərəfindən Mİ-8 tipli vertolyot vurulmuşdur. Nəticədə Xankəndinə sülhməramlı missiya ilə səfər edən 22 nəfər - Azərbaycan Respublikasının Dövlət katibi T.İsmayılov, Baş nazirin müavini Z.Hacıyev, Dövlət müşaviri M.Əsədov, Baş Prokuror İ.Qayıbov, millət vəkilləri V.Cəfərov və V.Məmmədov, Azərbaycan Respublikasının Prezident Aparatının şöbə müdiri O.Mirzəyev, Meliorasiya və su təsərrüfat nazirinin birinci müavini Q.Namazəliyev, Dağlıq Qarabağ Muxtar Vilayətinin prokuroru İ.Plavski, Dağlıq Qarabaq Muxtar Vilayətinin təhlükəsizlik İdarəsinin şöbə rəisi S.İvanov, Daxili İşlər İdarəsinin rəisi V.Kovalyov, Fövqəladə vəziyyət rayonunun komendantı N.Cinkin, Azərbaycan Respublikasının Dövlət katibinin köməkçisi R.Məmmədov, Azərbaycan Respublikası Dövlət Teleradio Şirkətinin əməkdaşları, A.Mustafayev, A.Hüseynzadə və F.Şahbazov, Rusiya Federasiyasından olan müşahidəçilər general-mayor M.Lukaşov və podpolkovnik V.Koçarov, Qazaxıstan Respublikasının Daxili İşlər Nazirinin birinci müavini S.Serikov və 3 nəfər ekipaj üzvü həlak olmuşlar.

2. 28 yanvar 1992-ci il Şuşa şəhəri yaxınlığında Ağdam-Şuşa marşrutu ilə sərnişin daşıyan mülki vertolyot erməni terrorçuları tərəfindən vurulmuş, əksəriyyəti qadın və uşaq olan 41 nəfər sərnişin və 3 ekipaj üzvü həlak olmuşdur.

3. 18 mart 1994-cü ildə Xankəndi şəhəri yaxınlığında erməni terrorçuları tərəfindən İran Hərbi Hava Qüvvələrinə məxsus Herkules tipli təyyarə vurulmuş, 34 nəfər həlak olmuşdur.

Bakı metropolitenində törədilən terror aktları:

1. 19 mart 1994-cü ildə Bakı metropoliteninin “20 Yanvar” stansiyasında elektrik qatarında törədilmiş terror aktı nəticəsində 14 nəfər həlak olmuş, 49 nəfər müxtəlif dərəcəli bədən xəsarəti almışdır.

2. 3 iyul 1994-cü ildə Bakı metropoliteninin “28 May” – “Gənclik” stansiyaları arasında elektrik qatarında törədilən partlayış nəticəsində 13 nəfər həlak olmuş, 42 nəfər müxtəlif dərəcəli bədən xəsarəti almışdır.

Statistik rəqəmlərə görə, bütün bu dövr ərzində ermənilər tərəfindən mülki şəxslərə və hərbçilərə qarşı 338 terror aktı törədilmişdir. Bu zaman həlak olanların sayı 881

nəfər, yaralananların sayı isə 1239 nəfər olmuşdur.

Dağlıq Qarabağla bağlı mülahizələrə baxılarkən Azərbaycanın çoxəsrlik multikulturalizm ənənələrinə malikliyi, ksenofobiyadan uzaqlığı, çoxmədəniyyətli və tolerant ölkə olaraq bütün dünyada tanınması kimi möhtəşəm dəyərlər də qiymətləndirilməlidir.

***Əsas anlayışlar:***

**1. Qloballaşma prosesi** - ümumdünya iqtisadi, siyasi, mədəni, dini inteqrasiya və unifikasiya prosesidir.

**2. Qloballistika** - qlobal problemlərin mahiyyətinin aşkarlanması və ya ümumilikdə bəşəriyyətin, həmçinin, ayrıca insanın maraqlarına toxunan problemlərin qarşısının alınması yollarının axtarışı istiqamətində elmi tədqiqatlar məcmusudur.

**3. Qloballaşmanın tələblərini** dünya iqtisadi artımını dayanıqlı etmək, ticarəti genişləndirmək, yardımları optimallaşdırmaq, dünya maliyyə sisteminin gücləndirmək, idarəetmənin keyfiyyətinin yüksəltmək və yaxşılaşdırmaq təşkil edir.

**4. Qloballaşmanın əsas hərəkətverici gücləri** - kapitalın təmərküzləşməsi və mərkəzləşməsini, təsərrüfat həyatının beynəlmilləşməsini, ETT, internetin genişlənməsini, beynəlxalq təşkilatların fəaliyyətini, qlobal problemlərin kəskinləşməsini ehtiva edir.

**5. Qloballaşmanın amilləri** - iqtisadi, siyasi, beynəlxalq, texniki, ictimai amillər şəbəkəsini əhatə edir.

**6. Qloballaşmanın ziddiyyətləri** - qloballaşmanın hər bir hərəkətverici gücü öz-özlüyündə ziddiyyətlidir və ümumi birləşməni əldə etməyə qadir deyildir.

**7. Qlobal problemlər -** sosial tərəqqi və sivilizasiyanın qorunub saxlanmasını əhatə edən bəşəriyyətin problemlər məcmusudur.

**8. Marksizm** - alman iqtisadçı-filosofları K.Marks, F.Engels və onların ardıcılları tərəfindən işlənilən təlim, nəzəriyyə, metodoloji analiz və praktiki hərəkat üsuludur.

**9. İzafi dəyər** - işçinin əməyi ilə yaradılmış dəyərin onun buna görə aldığı ödənişin və ya əmək haqqının dəyərini üstələməsidir.

**10. Əlavə dəyər, əlavə edilmiş dəyər** - bilavasitə müəssisə və şirkətdə istehsal prosesində yaradılmış məhsulun dəyərində onların real payıdır.

**11. Corc Soros nəzəriyyəsi** - kapitalizmin qeyri-sabitliklə xarakterizə olunan sisteminin qlobal cəmiyyətə xas çoxcəhətli müvafiq zəruri institutları özündə birləşdirən açıq cəmiyyət konsepsiyası ilə zənginləşdirilməsini ehtiva edən nəzəriyyədir.

**12. Qlobal kapitalist sisteminin çatışmazlıqları** - gəlirlərin qeyri-bərabər bölüşdürülməsi, maliyyə sisteminin qeyri-sabitliyi, qlobal inhisarların və oliqopoliyaların yüksələn təhlükəsi, dövlətin ikili rolu, dəyərlər və sosial həmrəylik problemidir.

**13. Bretton-Vuds sistemi** - beynəlxalq pul münasibətlərinin ticarət hesablaşma-

larının beynəlxalq sistemidir.

**14. Dünya Bankı** - Bretton-Vuds razılaşması nəticəsində 1944-cü ilin 1 iyulunda beynəlxalq iqtisadi inkişaf məqsədləri üçün yaradılmış Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı və Beynəlxalq İnkişaf Assosiasiyasını əhatə edən BMT-nin ixtisaslaşmış təsisatıdır.

**15. İnhisar (*monopoliya*)** - rəqabət meydanında təkhakimiyyətlikdir.

**16. Təbii inhisar -** istehsal, əmtəə və xidmətlərin satışı üzrə rəsmi tanınan qaçılmaz inhisardır.

**17. Süni inhisar** - inhisahçı mənfəət əldə etmək üçün bilərəkdən bazarın strukturunu dəyişdirməyə yönəlmiş müəssələrin birləşməsini ehtiva edən inhisardır.

**18. Kartel** - istehsal vasitələrinə və istehsal məhsullarına olan mülkiyyətlərini saxlamaqla, yaradılmış məmulatların kvotası, hər birinin ümumi məhsul buraxılışında payı, satış qiymətləri, bazarların bölüşdürülməsi və s. barədə razılaşadırmaqla məhsulları bazarda özlərinin satması ilə müşayiət olunan şirkətlər arasında inhisarçı birləşmənin forması və ya sazişidır.

**19. Sindikat** - kommersiya müstəqilliyini itirərək istehsalat və hüquqi sərbəstliyini saxlamaqla təsərrüfat fəaliyyəti aparan subyektlərin təmərküzləşmə məqsədi ilə birləşməsidir.

**20. Konsern** - mülkiyyətin və nəzarətin vəhdəti ilə xarakterizə edilən müəssisə və təşkilatların birləşmə formasıdır.

**21. Trest** - bu qrup sahibkarın istehsal vasitələrinə və hazır məhsula olan müştərək mülkiyyətinə əsaslanan inhisarçı birləşmə formasıdır.

**22. Oliqopoliya** - inhisar rəqabəti növlərindən biri kimi, bazarda 3 və ondan çox iri şirkətin hökmran olduğu rəqabət vəziyyətini ifadə edir.

**23. Duopoliya** - müəyyən əmtəə və ya xidmətlər üzrə çoxsaylı alıcılar şəraitində bazarda iki istehsalçı və ya satıcının hökmran olduğu rəqabət vəziyyətidir.

**24. Oliqopsoniya** - pay bölgüsü genişliyi bazar qiymətlərinin dəyişməsində əks olunan bir neçə alıcının iştirak etdiyi sahəvi bazar tipidir.

**25. Monopsoniya** bir alıcıya qarşı çoxlu satıcının durması və ya ancaq bir istehlakçının bazarı formalı qeyri-təkmil rəqabət növüdür.

**26. Duopsoniya** - iki tərəfli inhisarçılıq olaraq eyni məhsul üzrə çoxlu satıcının və bu məhsullar üzrə yalnız iki müstəqil alıcının olduğu bazar vəziyyətidir.

**27. Demonopolizasiya** - inhisarların fəaliyyətinin məhdudlaşdırılması, daxili bazarda rəqabətqabiliyyətli mühitin yaradılması istiqamətində dövlətin iqtisadi və qanunvericilik tədbirləridir.

**28. Antiinhisar qanunvericiliyi** - rəqabətə sövq edən, inhisarçı strukturların yaranmasına imkan verməyən və inhisarçı hərəkətləri məhdudlaşdıran qanunlar və digər dövlət aktlarını ehtiva edir.

**29. İstehlak cəmiyyəti** - fərdi istehlak prinsipi əsasında təşkil edilmiş ictimai münasibətlər məcmusunu təyin edən anlayışdır. İlk dəfə neofreydçilik və freydmarkszimçilik nəzəriyyəsinin banisi alman sosioloqu, filosofi Erix Zeliqmann Fromm

(*1900-1980*) tərəfindən dövriyyə daxil edilmişdir.

**30. İstehlakçı** - öz istəklərini ödəmək üçün əmtəə və xidmətləri alan və ya istifadə edən fiziki və ya hüquqi şəxsdir.

**31. İstehlakçılıq, konsyumerizm** istehlakçıların hüquqlarının müdafiəsi hərəkatı və ya istehlakın xarakteridir.

**32. Hiss edilən istehlak** - öz sosial statusunun yüksəldilməsi məqsədi ilə vəsaitin xərclənməsidir, bədxərc istehlakdır.

**33. Gecikdirilmiş istehlak** - dərhal olan mükafata tamah göstərməmək və daha sonrakını gözləmək qabiliyyətidir.

**34. Yetərsiz istehlak** - qənaətbəxş olmayan və ya natamam istehlakdır.

**35. Yetərsiz istehlak nəzəriyyəsi** - iqtisadi böhranları tələbdən artıq istehsal nəticəsində yaranması və onun şəxsi istehlakın yetərli olmayan ölçüsü ilə əlaqəliliyi baxımından izah edən konsepsiyadır.

**36. Afflyuenza** - insanın zəruri istehlak həcminin real çərçivəsindən çıxaraq öz istehlak səviyyəsini artırması üçün çox işləyərək daim borca girməsi ilə bağlı davranışıdır. Termin influenza - bərkdən sıxmaq və affluence sərvət söz birləşmələrindən yaranmışdır. Həddən artıq əmək sərfi “epidemiyası” anlamını ifadə edir.

**37. Əmtəələşmə -** bazarda satış üçün əmtəə və xidmətlərin istehsal həcminin artırılması prosesi.

**38. Əmtəə zəncirləri** - müəyyən çeşidli əmtəələrin istehsalı və satışı üzrə təsərrüfat fəaliyyətinin inteqrasiya olunmuş növlərinin funksionl şəbəkəsidir.

**39. Demoqrafiya** - əhali, əhalinin say tərkibində dəyişikliklər, doğum və ölüm, miqrasiya, cinsi struktur, milli tərkib, coğrafi yerləşmə haqqında elmdir.

**40. “Əhali artıqlığı” qanunu** - ingilis iqtisadçısı və demoqrafı Tomas Maltusun istehsal olunan qida məhsullarının sayının ədədi silsilə, əhalinin isə həndəsi silsilə ilə artmasından irəli gələrək yaranacaq məhsul məhdudluğunun əhalinin artımının dayanmasına səbəb olacağı haqqında nəzəriyyəsidir.

**41. Maltusçululuq** - ingilis iqtisadçısı və demoqrafı Tomas Maltusun əhali artıqlığı ilə bağlı nəzəriyyəsidir.

**42. Neomaltusçuluq** - ingilis iqtisadçısı və demoqrafı T.Maltusun əhali artıqlığı nəzəriyyəsindən çıxış edərək bir sıra alimlər tərəfindən doğumun məhdudlaşmasına yönəlmiş yeniləşmiş maltusçuluq nəzəriyyəsidir.

**43. Demoqrafik problem** - XX əsrin ikinci yarısında “demoqrafık partlayış” - Yer kürəsi əhalisinin sürətli artımından yaranan ümümbəşəri qlobal problemdir.

**44. Doğum əmsalı** - il ərzində 1000 nəfərə düşən doğulanların sayıdır.

**45. Demoqrafik keçid** - doğum və ölüm göstəricilərinin sürətli aşağı düşməsi ilə nəsillərin dəyişməsidir.

**46. Demoqrafik yükləmə əmsalı** - cəmiyyətdəki qeyri-məhsuldar əhali yükünü göstərən - uşaqların və pensiya yaşında olanların əmək qabiliyyətli əhali sayına nisbəti ilə hesablanan əhalinin yaşlı strukturunun ümumiləşdirilmiş keyfiyyət göstəricisidir.

**47. Əhalinin təkrar istehsalı** - doğum, ölüm və miqrasiya nəticəsində əhalinin fasiləsiz yeniləşməsinin proseslər məcmusudur.

**48. Əhali sıxlığı** - əhali məskunlaşmasının sıxlığı olaraq mövcud ərazidə 1 kvadrat metrə və ya kvadrat kilometrə düşən insan sayı ölçüsüdür.

**49. Əhali piramidası** - əhalinin tərkibinin cins və yaş heyətinin xarakteristikası üçün istifadə olunan onun yaşa və cinsə görə paylanmasının qrafik təsviridir.

**50. Demoqrafik partlayış** - müəyyən ərazidə ölümün azalması və doğumun kəskin artması ilə müşayiət edilən çox yüksək əhali artımını ehtiva edən demoqrafik vəziyyətdir.

**51. Oykumena (*ekumena*)** - Yer kürəsinin insan tərəfindən məskunlaşmış sahələridir.

**52. İstehlak səbəti** - bir il (*ay*) ərzində orta hesabla insanın və ya ailənin zəruri ehtiyaclar tələbini ödəyən əmtəə və xidmətlər çeşidini əks etdirir.

**53. Yaşayış minimumu və ya minimum istehlak büdcəsi** - insanın, ailənin həyat fəaliyyətinin saxlanılması üçün minimal zəruri olan rifah və həyat vasitələri çeşididir.

**54. İstehlak qiymətləri indeksi** - təsbit edilmiş vaxt ərzində müvafiq əmtəə və xidmətlər qrupunun orta səviyyəsinin nisbi dəyişilməsinin ölçülməsi üçün istifadə olunan qiymət indeksi növlərindən biridir.

**55. Aclıq** - orqanizmin, əsas fizioloji funksional tarazlığı - homeostazın saxlanılması üçün zəruri olan maddələrin kifayət etməyən axını ilə müşayiət edilən vəziyyətidir.

**56. Yarıaclıq** - orqanizmin doyunca yeməmə və ya adekvat olmayan qidalanma ilə müşayiət olunan (*natamam - kəmiyyətcə qidalanmama və ya qismən - keyfiyyətcə qidalanmama*) vəziyyətidir.

**57. Ərzaq təhlükəsizliyi** - insanların zəruri aktiv həyat tərzi keçirmək üçün hər an kifayət edəcək həcmdə təhlükəli olmayan qida məhsullarına fiziki və iqtisadi giriş imkanlarına malik olduqları situasiyadır.

**58. Qlobal ərzaq təhlükəsizliyi** - bütün dünya ölkələri üçün ərzaq malları bazarında qida məhsullarına çıxış stabilliyinin saxlanılması şərtliyini ehtiva edir.

**59. Ərzaq təhlükəsizliyi indeksi** - Böyük Britaniyanın "Economist" jurnalının analitik bölməsinin "The Economist Intelligence Unit" tədqiqat kompaniyası tərəfindən Amerikanın trasmilli şirkəti "Dupon"nun dəstəyi ilə 2012-ci ildən, hər il olmaqla, həyata keçirilən qlobal tədqiqat olaraq dünya ölkələrində ərzaq təhlükəsizliyi səviyyəsinin reytinqini müəyyən edən indeksdir.

**60. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı - FAO** - dünyada ərzaq və kənd təsərrüfatı məhsulları məsələsi ilə məşğul olan BMT-nin xüsusi qurumudur.

**61. Kənd Təsərrüfatının İnkişafi üzrə Beynəlxalq Fond** - inkişaf etməkdə olan ölkələrin ərzaq vəziyyətinin yaxşılaşdırılmasına köməklik göstərən BMT-nin ixtisaslaşmış təşkilatıdır.

**62. Dünya Səhiyyə Təşkilatı, DST** - dünya əhalisinin sağlamlığı ilə əlaqədar problemlərin həllinə çalışan, səhiyyə təşkilatlarının beynəlxalq əlaqələrini təmin edən BMT-nin səhiyyə məsələləri üzrə ixtisaslaşmış qurumudur.

**63. Kodeks Alimentarius** - ərzaq mallarına vahid beynəlxalq standartların yaradılması üzrə FAO və DST tərəfindən 1963-cü ildə təsis edilmiş birgə proqram

əsaslı beynəlxalq komissiyadır.

**64. İnkişaf etməkdə olan ölkələrin sosial-iqtisadi gerilik problemi** iqtisadi inkişafın aşağı göstəriciliyi, çoxukladlılıq, texniki və texnoloji gerilik, ixrac potensialı xammal təyinatlılığı, korrupsiya şəbəkəsi, yüksək işsizlik, aşağı səviyyəli təhsil, yoxsulluq ekoloji mühitin aşağı səviyyəliyi, dünya təsərrüfatından asılılıq kimi xüsusiyyətlərlə xarakterikdir.

**65. Yoxsulluq** - insanların minimal pul, təhsil, hakimiyyət və nüfuza malik sosial və iqtisadi vəziyyətidir.

**66. Ehtiyac** - yoxsulluğun orta səviyyəsidir.

**67. Yoxsulluq zonası** - yoxsulların daha çox təmərküzləşdiyi ərazi. Burada yoxsulluq əmsalı orta ölkə göstəricisindən də yüksəkdir.

**68. Yoxsulluq astanası** - minimal gəlirin rəsmi təsbit olunmuş ölçüsüdür.

**69. Yoxsulluğun feminizasiyası** - yoxsullar arasında qadınların, ələlxsus da tək anaların artımı meyilidir.

**70. Səfalət** - fizioloji minimumdan aşağı olan yoxsulluq, kasıblığın son aşağı həddidir.

**71. Pauperizasiya** - yoxsullaşma, səfalətə qədəm qoymadır.

**72. Mütləq yoxsulluq** - bioloji varlığını qorumaq üçün fərdin yalnız minimal istehlak tələblərinin ödənildiyi ən aşağı yoxsulluq səviyyəsidir.

**73. Nisbi yoxsulluq** - bir qism insanların digərləri ilə müqayisədə pis olan maddi vəziyyətidir.

**74. Subyektiv yoxsulluq** - sorğu əsasında əhalinin və insanın özü tərəfindən yoxsulluq vəziyyəti və həyat səviyyəsinin qiymətləndirilməsidir.

**75. "Aktiv yoxsullar"** - aşağı maddi imkana malik olaraq, bu vəziyyətdən çıxmaq üçün həyati güclərini səfərbər edən yoxsullar təbəqəsidir.

**76. İkiqat yoxsulluq** - vəsaitlərin qeyri-səmərəli məsrəfi nəticəsində əsas istehlak tələblərinin ödəyə bilməyən ailə kateqoriyasıdır.

**77. "Yeni yoxsullar"** - özünün sosial, demoqrafik, peşə statusu və demoqrafik vəziyyəti ilə əvvələr heç bir aşağı təbəqəyə aid edilməyən yoxsullar təbəqəsidir.

**78. Dayanıqlı yoxsulluq** - irsən keçən daha aşağı səviyyəli maddi təminatlı yoxsulluqdur.

**79. Üzən yoxsulluq** - nisbət aşağı ağrılı, epizodik xarakterli yoxsulluqdur.

**80. Yoxsulluq indeksi** - yoxsulluq astanasının orta ölçülü dinamikasını xarakterizə edən statistik göstəricidir.

**81. Gender** - sosial-mədəni aspektdə insanın cəmiyyətdə dostlara, həmkarlara, valideynlərə və s. münasibətdə davranışını müəyyən edən anlayışdır.

**82. Gender Bərabərsizliyi İndeksi** - kişilərlə qadınlar arasında üç ölçüdə: reproduktiv sağlamlıqda, hüquq və imkanların genişlənməsində, həmçinin, əmək bazarında nailiyyətlər əldə etməyin mümkünlüyündə mövcud bərabərsizliyi əks etdirən inteqral göstəricidir.

**83. Xammal -** sonrakı emala yönəldilən faydalı qazıntılar və digər təbii resurslar, həmçinin, insanın təsirinə məruz qalmış əmək predmetləridir.

**84. Konservasiya** - mövcud olanın qorunmasına istiqamətlənmiş siyasi hərəkət və ya inam, həmçinin, iqtisadi prosesin müvvəqqəti dayandırılmasıdır.

**85. İcmaların (*ortaqların*) faciəsi** - ümumi olan iqtisadi resursa azad girişlə ondan artıq dərəcədə istifadənin həmin resursun məhvinə və ya tükənməsinə səbəb olmasını şərtləndirən hadisə və vəziyyətdir.

**86. Qlobal xammal problemi** - bəşəriyyətin xammalla təmin edilməsinin qlobal problemidir.

**87. Enerjidaşıyıcılar** - eneji yaratma imkanlı neft, qaz, daş kömür, nüvə yanacağı (*uran filizi*), torf, yanar şistlər, oduncaq kimi yanacaq növlərinin ümumi adını ifadə edir.

**88. Resurstəminatlılıq** - təbii resursların ölçüləri ilə onlardan istifadə ölçüsü arasındakı nisbəti ifadə edir və kifayət edəcək illər hesabı və yaxud da adambaşına düşən ehtiyat payı ilə ölçülür.

**89. Resursqoruyuculuq** - resurslardan səmərəli istifadəni və onların təminatlılığının ölçü sistemini ehtiva edir.

**90. Qlobal enerji problemi** - bəşəriyyətin etibarlı enerji və yanacaq təminatı ilə (*enrjidaşıyıcılar*) bağlı dünyəvi problemi ehtiva edir.

**91. Enerji probleminin ekstensiv həlli yolu** - gələcəkdə enerjidaşıyıcıların hasilatının genişləndirilməsi və enerji istehlakının mütləq artımını nəzərdə tutur.

**92. Enerji probleminin həllinin intensiv yolu** - hər şeydən əvvəl enerji məsrəfi vahidinə olan məhsul istehsalının artmasından ibarətdir.

**93. Enerjiqoruyuculuq, enerji qənaətcilliyi** - yanacaq-enerji resurslarının səmərəli istifadəsi və qənaətli məsrəf olunması istiqamətində kompleks təşkilati, hüquqi, istehsal, elmi, iqtisadi, texniki və digər tədbirlərin reallaşmasını ehtiva edir.

**94. Enerji təhlükəsizliyi** - normal şəraitdə və həmçinin, fövqəladə hallarda ölkə və region əhalisinin, vətəndaşlarının, dövlət və iqtisadiyyatın müqabil keyfiyyətli, iqtisadi girişli yanacaq-enerji resursları təminatı defisitindən qorunması, eyni zamanda, enerji və yanacaq təchizatının stabilliyinin pozulması təhlükələrindən mühafizəsi vəziyyətini ifadə edir.

**95. Enerji resursları ilə təminatlılıq əmsalı** - ölkədə enerji istehslı həcimlərinin istehlak enerji həcmlərinə nisbətini əks etdirir.

**96. Enerji strategiyası** - zəruri enerji resursları və mümkün müvafiq potensial imkanlar müqabilində enerji siyasətinin konkretləşməsi və onun reallaşmasına nailolmanın işçi sənədi formatında təşkili metodlarının və dəqiq təyinatlı fəaliyyət mexanizmlərinin məcmusudur.

**97. Yanacaq-enerji kompleksi - YEK** - enerji resurslarının hasilatı və onların müxtəlif enerji növlərinə çevrilməsini reallaşdıran istehsal və xidmət sahələri məcmusudur.

**98. Dünya Neft Şurası** - neft sektorunu dünyada təmsil edən 1933-cü ildə təsis edilmiş beynəlxalq qeyri-hökumət təşkilatıdır.

**99. Dünya Neft Konqresi** - neft və qaz sənayesində aparıcı oyunçular üçün qlobal görüş yeri, o cümlədən istehlakçılar, istehsalçılar, hökumət üzvləri, energetika və maliyyə sektoru nümayəndələrinin, elm adamlarının dünya enerjisinin gələcəyini müzakirə edə biləcəyi bir platformadır.

**100. Beynəlxalq Neft Karteli** - XX əsrin 20-30-cu illərində neftin satışı bazarında rəqabət kəskinliyinin artığı dövrdə xammal mənbələri və satış bazarlarının bölüşdürülməsi, maksimal gəlir əldə etmək üçün orada inhisar qiymətlərinin qoyulması məqsədi ilə yeddi nəhəng beynəlxalq neft kompaniyasının təşkil etdiyi qapalı birlikdir.

**101**. **Beynəlxalq Neft Konsorsiumu, BNK** - İranın cənubunda neftin kəşfiyyatı, hasilatı, emalı və satışı proseslərinə nəzarət məqsədi ilə ABŞ, İngiltərə, Niderland və Fransanın iri neft şirkətlərinin təşkil etdikləri və 1954-1979-cu illərdə fəaliyyət göstərmiş neft konsorsimudur.

**102. Neft İxrac Edən Ərəb Ölkələri Təşkilatı, OAPEK** - neftin qiymətini stabil saxlamaq, dünya neft qiymətlərinə nəzarət etmək üçün neft hasilatçısı olan 11 ərəb dövlətinin təmsil olunduğu karteldir.

**103. Neft İxrac Edən Təşkilat, OPEK** - neft siyasətinin unifikasiyasını, səmərəli istehsal və ticarətin təşkilini, dünya neft qiymətlərinin tənzimlənməsini, ekoloji missiya və s. həyata keçirən 1960-cı ildə Bağdadda təsis edilmiş, 12 ölkənin təmsil olunduğu dövlətlərarası iqtisadi-siyasi təşkilatdır, karteldir.

**104. Atom Enerjisi üzrə Beynəlxalq Agentlik, AEBA** - atom enerjisindən dinc məqsədlərlə istifadə edilməsi sahəsində əməkdaşlığın inkişafı üzrə beynəlxalq təsisatdır.

**105. Nüvə sintezi** - çox yüksək üstün temperaturda nəhəng enerji kütləsinin alınması ilə müşayiət edilən kiçik atom nüvələrinin daha ağır nüvlələrə birləşməsi reaksiyasıdır.

**106. Beynəlxalq Eksperimental İstilik-Nüvə Reaktoru, İTER** - istilik-nüvə reaktorunun kommersiya məqsədləri ilə istifadəsi imkanlarının nümayişi və bu istiqamətdə qarşılanacaq fiziki və texnoloji problemlərin həlli ilə bağlı beynəlxalq eksperimental istilik-nüvə reaktoru layihəsidir.

**107. Şist qazı** - yanar şistlərdən hasil edilən, üstün olaraq, metaldan ibarət təbii qazdır.

**108. Təbiət** - yer üzündə təbii şərtlər (*yer səthi, bitki aləmi, iqlim*) məcmusu, üzvi və qeyri-üzvi dünya, insanın fəaliyyəti ilə əlaqədar olmayan yer üzündəki bütün mövcudatı əks etdirir.

**109. Cəmiyyət** - daimi münasibətlərlə əlaqədər bir-biri ilə bağlı insanlar qrupu və ya vahid siyasi hakimiyyətə tabe olan və dominant mədəniyyətli ümumi coğrafiya və ya sosial əraziyə malikliyində böyük sosial qrupdur.

**110. Təbiətin və cəmiyyətin qarşılıqlı əlaqə və təsiri** - geosfera və biosferanı əhatə edən ətraf mühitlə realizə olunur.

**111. Ətraf mühit -** bəşəriyyətin fəaliyyət və yaşayış mühiti, insanı əhatə edən təbii və onun tərəfindən yaradılan maddi-süni-texnogen dünyadır.

**112. Təbii mühit** - ətraf mühitin bir hissəsi olaraq insanın, bitki, heyvan və başqa canlı orqanizmlərin yaşadığı mühiti əhatə edir.

**113. Ekoloji ayaq izi** - insanın yaşayış mühitinə təsiri ölçüsüdür.

**114. Ekosfera** - canlı orqanizmlərin ətraf mühitlə qarşılıqlı əlaqəsi məkanı olaraq troposferi - atmosfetin alt qatı, bütün hidrosfer - su qatı və litosferin - yerin qalın qatının yuxarı hissənin əhatə edir.

**115. Eroziya** - dağ suxurlarını, bütövlükdə quru səthini aşındıran, dağıdan, bütün təbii proseslərin (*su, külək, buzlaq, qravitasiya və s.*) məcmusu prosesidir.

**116. Ekologiya** - orqanizmlərin həyat tərzini və orqanizmdən yüksək canlı sistemləri öz aralarında və ətraf mühitin cansız komponentləri ilə qarşılıqlı əlaqədə öyrənən elmdir.

**117. Ekosistem, ekoloji sistem** - bir-biri ilə maddələr və enerji mübadiləsi aparan canlı orqanizmlər və onların yaşayış mühitini əhatə edən təbiət kompleksidir.

**118. Fotosintez** - işıq enerjisi hesabına karbon dioksidli havadan qazın və sudan fotosintetk piqmentlərin udulması ilə üzvi maddələrin yaranması hadisəsidir.

**119. Qlobal ekoloji problem** təbiət-cəmiyyət qarşılıqlı münasibətləri sistemində meydana çıxan, planetar səciyyə daşıyan və həll edilməsi zəruri, təxirəsalınmaz, kəskin və mürəkkəb olan ekoloji problemlərin məcmusudur.

**120**. **Ekoloji təhlükəsizlik** - ekoloji təhlükəli təbii və antropogen amillərin ətraf mühitə və insana neqativ təsirinin mümkün qəbul edilə bilən həddidir.

**121. Çölləşmə** - insan fəaliyyəti (*antropogen səbəbləri*) və təbii amil və proseslər nəticəsində Yer kürəsinin quraq və yarıquraq sahələrində torpaqların deqradasiyaya uğramasıdır.

**122. Meşəsizləşdirmə** - meşələrin ağac örtüyü olmayan boş yerə, otlağa, şəhər və meydan sahələrinə, həmçinin, digər torpaq ərazilərinə çevrilməsi prosesidir.

**123. Noosfera** - ağıl sferası; sərhədlərində insanın şüurlu fəaliyyətinin inkişafının təyinedici amili kimi dayandığı cəmiyyətlə təbiətin qarşılıqlı təsir sferasıdır.

**124. Sosial ekologiya** - cəmiyyətin coğrafi, sosial və mədəni mühitlə münasibətlərinin tədqiqi ilə məşğul olan elmi təlimdir.

**125. Ekoloji iqtisadiyyat** - iqtisadiyyatın ekoloji məhdudlaşmalarla inkişafına əsaslanan, iqtisadi inkişafın qənaətli, ekoloji müqabilli və daha optimal təminantlılıqda ehtiva olunan "iqtisadi cəmiyyət" axtarışını hədəf seçən elm sahəsidir.

**126. Dayanıqlı İnkişaf Konsepsiyası** - bütün insanların bərabər səviyyədə ən zəruri tələbatlarının ödənilməsinə əsaslanan, hazırki dövrdə bütün tələbatları ödəməklə yanaşı, həmçinin, gələcək nəsillərin də tələbatlarını ödəmək qabiliyyəti və istəyində təhlükəsizliyini təminatlandıran yeni sosial- iqtisadi paradiqmadır.

**127. Birləşmiş Millətlər Ətraf Mühit Proqramı, UNEP** - üzv dövlətlərin ətraf mühitlə bağlı fəaliyyətini koordinasiya edən, inkişaf etmiş ölkələrin ətraf mühit

siyasətlərinin və təcrübələrinin implementasiyasını həyata keçirən BMT-nin ixtisaslaşmış təşkilatıdır.

**128. "İstixana effekti"** - qazların qızması ilə atmosferdə yaranan istilik enerjisi nəticəsində planetin yuxarı qatlarında temperaturun yüksəlməsi hadisəsidir.

**129. Qlobal istiləşmə** - XX və XXI əsrlərdə Yerin və dünya okeanının atmosferinin orta illik temperaturunun tədricən artması prosesidir.

**130. Okean** - materiklərarası ərazidə yerləşən, su dövriyyəsi sistemini və digər səciyyəvi xüsiyyətləri özündə ehtiva edən, dünya okeanının tərkib hissəsi olan nəhəng su obyektidir.

**131. Passatlar -** okeanların tropik enliliklərində il boyu nisbətən dayanıqlı olan hava axınlarıdır.

**132. Qolfstrim** - Atlantik okeanda isti su axını, nəhəng okean cərəyanıdır.

**133. Antarktika sirkumpolyar cərəyanı** - Cənub yarımkürəsində su axını kimi dünya okeanının ən nəhəng, ən güclü cərəyanıdır.

**134. Dünya okeanın bəşəri ehtiyacların təmin olunmasında rolu** - dünya okeanı təbii resurslar, mineral sərvətlər,bərpa edilən enerji ehtiyatları dəryası, əvəzolunmaz qida mənbəyi, sərfəli nəqliyyat-gəmiçilik məkanı, mədəni və rekreasiya-turizm obyektidir.

**135. Dünya okeanı problemi** - onun məkanlarının, resurslarının qorunması və səmərəli istifadəsini əks etdirən qlobal problemdir.

**136. Beynəlxalq Dəniz Komitəsi** - dəniz və ticarət hüququ normalarının, dənizçilik ənənələri və təcrübəsinin unifikasiyası sahəsində beynəlxalq qeyri-hökumət təşkilatıdır.

**137. Beynəlxalq Dəniz Təşkilatı, IMO** - okean və dənizlərdə beynəlxalq ticarət gəmiçiliyi ilə bağlı texniki məsələr üzrə əməkdaşlığı tənzimləyən ilk qlobal təsisatdır.

**138. Hökumətlərarası Okeanoqrafiya Komissiyası, İOK** - dəniz və okeanlar üzrə elmi-tədqiqatların inkişafına kömək məqdsədi ilə 1960-ci ildə UNESCO çərçivəsində yaradılmış beynəlxalaq təşkilatdır.

**139. Dənizin tədqiq edilməsi üzrə Beynəlxalq Şura** - Atlantik okeanda və onu əhatə edən dənizlərdə balıqçılıq təsərrüfatları, okeanoqrafik tədqiqatları koordinasiya etmək və onlardan səmərəli istifadə üçün təkliflər hazırlamaq təyinatlı beynəlxalq şuradır.

**140. Beynəlxalq dəniz peyk rabitəsi təşkilatı** - kommersiya əsasında peyk rabitəsi və müvafiq avadanlıqların köməyi ilə dəniz rabitəsini yaxşılaşdıran, gəmilərin işinin və idarəedilməsinin səmərəliyini artıran, dənizdə fəlakətlər zamanı məlumatverməni və bununla da insan həyatının mühafizəsini təmin edən beynəlxalq hökumətlərarası təşkilatdır.

**141. Dəniz hüququ üzrə BMT-nin Konvensiyası** - dünya okeanının mənimsənilməsi, məkanından və təbii resurslarından istifadənin, praktiki olaraq, bütün aspektlərini ehtiva edən hərtərəfli beynəlxalq müqavilədir.

**142. Akvatoriya** - su səthinin yuxarı hissəsinin adıdır.

**143. Dəniz iqtisadi zonası** - dənizdə və ona bitişik quru ərazidə dövlətin iqtisadi fəaliyyət apardığı rayondur.

**144. Daxili dəniz suları** - dövlətin tam suverenliyi altında olur və onun ərazisinin bir hissəsini təşkil edən su məkanıdır.

**145. Ərazi dənizi, (*ərazi suları*)** - sahilyanı dövlətin quru ərazisinə və daxili sularına bitişik və onun tam suverenliyi altında olan dəniz zolağıdır.

**146. Bitişik zona** - eni 12 dəniz milindən artıq olmayan açıq dənizin bir hissəsidir və sahilyanı dövlətin suverenliyi altında deyildir.

**147. Konrtabanda, qaçaqmal** - sərhəddən əmtəələrin və digər qiymətlilərin qanunsuz keçirilməsidir.

**148. Müstəsna iqtisadi zona** - ərazi dənizinin hüdudlarından kənarda yerləşən və ona bitişik olan, eni 200 mildən artıq olmayan açıq dəniz rayonudur.

**149. Neytral sular** - dünya okeanının iqtisadi zonaların ərazisinə düşməyən, 200 millik zondan kənarda olan akvatoriyasıdır.

**150. Beynəlxalq Dəniz dibi Təşkilatı, İSA** - Dəniz hüququ üzrə BMT-nin Konvensiyası əsasında milli yurisdiksiya sərhədləri kənarında dəniz dibinin beynəlxalq rayonunda mineral resursların kəşfiyyatı və işlənməsinin təşkili və nəzarəti üzrə hökumətlərarası təşkilatdır.

**151. Şelf** - materikin onunla bir geoloji quruluşda olan quruya bitişik sualtı kənarıdır.

**152. Kontinental şelf** - beynəlxalq hüquqla müəyyən olunmuş həddi sahil xəttdən başlamış açıq dənizə doğru ərazini əhatə edən dəniz dibi və habelə onun təkidir.

**153. Açıq dəniz** - dünya okeanının heç bir dövlətin yurisdiksiyasına aid olmayan və bütün dövlətlərin istifadəsi üçün açıq olan su hissəsidir.

**154. Qapalı dəniz** - bir neçə dövlətin sahilini yuyan və coğrafi vəziyyətinə görə digər dənizə tranzit keçid kimi istifadə edilməyən dənizdir.

**155. Beynəlxalq dəniz dibi rayonu** - dəniz və okeanların dövlətlərin yurisdiksiyasından kənarda, milli şelflər sərhədlərində yerləşən dəniz dibi və onun təki hissəsidir.

**156. Beynəlxalq boğazlar** - dəniz və okean sularını birləşdirən və bütün dövlətlər tərəfindən bərabər əsasda beynəlxalq gəmiçilik və hava naviqasiyası üçün istifadə edilən təbii dəniz keçidləridir.

**157. "Boğazların statusu haqqında" Montre Konvensiyası** - Qara dənizdən Aralıq dənizinə keçiddə Türkiyəyə mənsub İstanbul-Bosfor- və Çanqalla-Dardanel boğqazları üzərində onun suverenliyini təmin edən, 1936-cı ildə İsveçrənin Montre şəhərində keçirilən konfransda qəbul olunmuş beynəlxalq konvensiyadır.

**158. Beynəlxalq kanallar** - dəniz və okeanları birləşdirən və beynəlxalq gəmiçilikdə istifadə olunan hidrotexniki qurğulardır.

**159. Süveyş kanalı** - Sinay yarımadasının qərbində Misir Ərəb Respublikasının ərazisində Aralıq dənizi ilə Hind okeanına çıxışla Qırmızı dənizi əlaqələndirən beynəlxalq əhəmiyyətli süni su kanalıdır.

**160. Panama kanalı** - Şimali və Cənubi Amerika qitələrini ayıraraq Panama dövləti

ərazisindən keçərək Atlantik və Sakit okeanları birləşdirən beynəlxalq əhəmiyyətli dəniz yolu kanalıdır.

**161. Nikaraqua kanalı** - Nikaraqua dövləti ətrazisindən keçməklə Atlantik okeanla Sakit okeanı birləşdirəcək, Panama kanalına alternativ olan gəmi keçidi kanalı layihəsidir.

**162. Kil kanalı** - AFR ərazisində Baltik dənizi ilə Atlantik okeanına çıxışla Şimal dənizini birləşdirən, gəmiçilik üçün nəzərdə tutulan beynəlxalq su kanalıdır.

**163. Korinif kanalı** - Yunanıstan ərazisində açılmış, Egey dənizindəki Saronikos körfəzi ilə İon dənizindədəki Kornif körfəzini birləşdirən şlüzsiz beynəlxalq gəmi keçidi kanalıdır.

**164. Kosmos (*kosmik məkan*)** - Yer atmosferi sərhədlərindən kənar kainatın nisbi boş hissələrini ehtiva edən intəhasız səma məkanıdır.

**165. Beynəlxalq Aviasiya Federasiyası** - aviasiya və kosmonavtikaya kömək məqsədi daşıyan beynəlxalq təşkilatdır.

**166. Kosmonavtika** - avtomat və pilotlaşdırılmış (*insanlı*) kosmik aparatların köməyi ilə Yer atmosferindən kənarda kosmik məkanın tədqiqi və öyrənilməsi üzrə naviqasiya nəzəriyyəsi və təcrübəsidir.

**167. Kosmologiya** - kainatın vahid bir sistem kimi yaranması və təkamülü haqqında elmdir. Kosmologiya qravitasiya, elektrik sahəsi, kvant, nisbilik və digər fizika nəzəriyyələrinin bazasında qurulmuş müşahidə faktlarına və nəzəriyyə nəticələrinə əsaslanır.

**168. Daşıyıcı raket -** kosmik məkana faydalı yüklər - kosmik aparatlar, texniki qurğular, əşyalar, maddə və materialların qaldırılması funksiyalarını yerinə yetirən çoxpilləli raketdir.

**169. Avropa Kosmik Agentliyi, ESA** - əsasən, Avropa ölkələrini təmsil edən, kosmosu tədqiq etmək üçün təsis edilmiş beynəlxalq təşkilatdır.

**170. "Kosmik ölkələr" və ya "kosmik klub**" - kosmosa süni peyk buraxılışında özünün daşıyıcı raketlərindən istifadə etmiş, Avropa Kosmik Agentliyi tərəfindən müəyyənləşdirilmiş ölkələr qrupudır.

**171. NASA** - ABŞ-ın federal hökumətinə aid və birbaşa ABŞ vitse-prezidentinə tabe olan, ölkənin mülki kosmik proqramına məsul təsisatdır.

**172. Kosmik tullantı** - işlək olmayan, fəaliyyət göstərməyən və heç zaman faydalı məqsədlərə xidmət etməyəcək, bununla belə fəaliyyətdə olan süni kosmik aparatlar, xüsusən də, pilotlu kosmik gəmilər üçün təhlükəli təsir amili olan kosmosdakı bütün süni obyektlər və onların fraqmentləridir.

**173. Beynəlxalq kosmik stansiya, BKS** - çoxməqsədli kompleks kosmik tədqiqatların aparılması üçün istifadə edilən pilotlu orbital stansiyadır.

**174. Kosmik hüquq** - kosmik məkanın istifadəsi və tədqiqi üzrə kosmik fəaliyyətin həyata keçirilməsi ilə bağlı dövlətlər və beynəlxalq hüququn subyektləri digər arasında münasibətləri tənzimləyən beynəlxalq hüquq normaları məcmusudur.

**175. Kosmik məkanın mənimsənilməsi problemi** - raket-kosmik fəaliyyətlə bağlı ətraf mühitə təsir göstərərək atmosferin çirklənməsi, ekoloji vəziyyətin çətinləşməsi,

texnogen fəlakətlərin yaranması ilə müşayiət oluna bilən təhlükələr məcmusudur.

**176. "Milli Nüvə Tədqiqatlari Mərkəzi" Qapalı Səhmdar Cəmiyyəti -** nüvə texnologiyalarını milli mənafelərə və müasir dövrün tələblərinə uyğun dinc məqsədlərlə inkişaf etdirilməsi və ondan istifadənin təmin olunması, nüvə elmləri, nüvə texnologiyaları və nüvə energetikası sahəsində kompleks tədbirlərin həyata keçirilməsi, müvafiq sahədə yüksəkixtisaslı kadr potensialının gücləndirilməsi məsələləri ilə məşğul olan dövlət təsisatıdır.

**177. "Azərkosmos" Açıq Səhmdar Cəmiyyəti -** Azərbaycan Respublikasının telekommunikasiya peyklərinin orbitə çıxarılması, idarə olunması və istismarı işlərinin həyata keçirilməsini təmin edən, səhmləri tamamilə dövlətə məxsus olan səhmdar cəmiyyətdir.

**178. "Azərspace-1"** - internet, teleradio yayımı və digər telekommunikasiya xidmətlərinin göstərilməsini və dayanıqlı rabitə platformalarının təmin edilməsi üzrə Azərbaycan Respublikasının ilk telekommunikasiya peykidir.

**179. "Azərspace-2"** - internet, teleradio yayımı və digər telekommunikasiya xidmətlərinin göstərilməsi və dayanıqlı rabitə platformalarının təmin edilməsi üzrə Azərbaycan Respublikasının ikinci telekommunikasiya peykidir.

**180. Milli təhlükəsizlik** - dövlətin daxili və xarici təhlükələrdən qorunma səviyyəsini, kənardan mənfi təsirlərə müqavimət dayanıqlılığını, ölkənin mövcudluğu üçün cəmiyyətin və onun vətəndaşlarının stabil inkişafını təmin edən daxili və xarici şərtlər məcmusunu xarakterizə edir.

**181. Dövlət təhlükəsizliyi** - dövlətin daxili və xarici təhlükələrdən qorunması səviyyəsidir.

**182. İctimai təhlükəsizlik** - şəxsiyyətin, cəmiyyətin və dövlətin daxili ümumi təhlükəli xarakterli hadisələrdən qorunması səviyyəsidir.

**183. Texnogen təhlükəsizlik** - əhalinin, istehsal heyətinin, iqtisadiyyatın və ətraf mühitin təhlükəli texnogen xarakterli hadisələrdən qorunması vəziyyətidir.

**184. Militarizasiya** - dövlət orqanlarının iqtisadiyyat sferasında, siyasət və sosiumda dövlətin hərbi gücünün artmasına yönəlmiş hərəkətlər məcmusunudur.

**185. Hərbi məhsul** hərbi ehtiyacların ödənilməsinə yönəlmiş - hərbi texnika, silah, hərbi texniki-ləvazimat və digər müvafiq təyinatlı məhsullar, həmçinin, müdafiə məqsədləri üçün yerinə yetrilən elmi-texniki və s. işləri ehtiva edir.

**186. Hərbi-Sənaye Kompleksi, HSK** - dövlətin və onun hərbi strukturlarının müvafiq tələblərinin ödənilməsinə yönəlmiş hərbi və xüsusi texnikanın hazırlanmasını həyata keçirən elmi-tədqiqat və istehsal müəssisələri məcmusudur.

**187. Dünya silah ticarəti, dünya silah və hərbi texnika bazarı** - dünya əmtəə bazarının tərkib hissəsi olaraq silahların və hərbi texnikanın satışının reallaşdırıldığı beynəlxalq bazardır.

**188. Soyuq müharibə** - SSRİ dövləti ilə onun müttəfiqləri və ABŞ dövləti ilə onun müttəfiqləri arasında 5 mart 1946-cı ildən 26 dekabr 1991-ci ilə kimi davam etmiş qlobal geosiyasi, hərbi, iqtisadi və ideoloji cəhbələşmə olmuşdur.

**189. Bipolyarlıq** - dünya gücləri balansı sistemində iki və daha artıq güc mərkəzinin mövcudluğu ilə xarakterizə olunan beynəlxalq münasibətlər sisteminin xassəsidir.

**190. "Strateji müdafiə təşəbbüsü"** - 1981-1989-cu illərdə ABŞ prezidenti olmuş Ronald Reyqan tərəfindən 23 mart 1983-cü ildə elmi-tədqiqat və sınaq-təcrübə işlərinin aparılması üzrə bəyan edilmiş uzunmüddətli proqramdır.

**191. Qarşılıqlı İqtisadi Yardım Şurası**, **QİYŞ** - keçmiş SSRİ və Çexoslovakiya, Bolqarıstan, Macarıstan, Polşa və Ruminiyanın iqtisadi məşvərət üzrə nümayəndələrinin qərarı ilə 1949-cu ildə təsis edilmiş, 1949-1991-ci illərdə fəaliyyət göstərmiş hökumətlərarası iqtisadi təşkilat olmuşdur.

**192. Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı**, **ATƏT** - məqsədi regionda münaqişələrin yaranmasının qarşısının alınması, böhran vəziyyətlərinin nizama salınması və münaqişələrin nəticələrinin aradan qaldırılmasına yönələn, Avropa, Mərkəzi Asiya və Şimali Amerikanın 56 dövlətinin daxil olduğu təhlükəsizlik üzrə ən böyük regional təşkilatdır.

**193. "Reyqan doktrinası"** - ABŞ prezidenti Ronald Reyqan adminstrasiyasının səyi ilə üçüncü dünya ölkələrində - Asiya, Afrika və Mərkəzi Amerikada sovet, kommunist və antiamerika təmayülünün hökm sürdüyü ölkələrdə rejimlərin çökdürülməsi üzrə hərəkatların müdafiə edilməsinə yönəlmiş, ABŞ-ın xarici siyasətinin on "prezident doktrinasından" biri olmuşdur.

**194. Multipolyarliq** - dünyanın quruluş sistemində eyni hərbi, iqtisadi və siyasi gücə malik azı üç dövlətin iştirakı ilə xarakterizə olunan beynəlxalq münasibətlər sisteminin xassəsidir.

**195. Geosiyasət** - məkana nəzarət, müxtəlif ölkələrin və dövlətlərarası birliklərin təsir sahələrinin bölgüsü və yenidənbölgüsü ilə bağlı elmdir.

**196. Separatizm** - ayrılmaya, özünütəcridə səy, yeni dövlət təsisatı yaratmaq, geniş suverenlik və ya müxtariyyət əldə etmək üçün dövlətdən ayrılma hərəkatıdır.

**197. Terror** - dinc əhalini, məhvetməyə qədər fiziki zorakalıqda ifadə olunan, qorxutmadır.

**198. Terrorizm -** mahiyyətində qorxu məqsədli zorakılıq dayanan ideoloji motivləşmiş güc tətbiqli siyasi mübarizə variantlarından biridir.

**199. Şimali Atlantika Müqaviləsi Təşkilatı**, **NATO -** əsasını istənilən üzv dövlətlərə hücüm halında kollektiv müdafiə müqaviləsi təşkil edən bir sıra Avropa ölkələri, ABŞ və Kanadanın da daxil olduğu hərbi ittifaqdır.

**200. Sakit Okean Təhlükəsizlik Paktı, ANZUS** - ABŞ-ın təşəbbüsü əsasında Sakit okean rayonunda "kollektiv müdafiə səylərinin koordinasiyası" məqsədi ilə ABŞ, Avstraliya və Yeni Zelandiya tərəfindən 1951-ci ildə təsis olunmuş hərbi blokdur.

**201. Varşava müqaviləsi** - 14 may 1955-ci ildə Polşanın paytaxtı Varşava şəhərində keçmiş SSRİ, Albaniya, Bolqarıstan, Macarıstan, keçmiş Almaniya Demokratik Respublikası, Polşa, Rumıniya və keçmiş Çexoslovakiya dövlətləri arasında dostluq, əməkdaşlıq və qarşılıqlı yardım üzrə bağlanmış müqavilə olmuşdur.

**202. Cənub-şərqi Asiya Ölkələri İttifaqı, SEATO** - 8 sentyabr 1954-cü ildə ABŞ, Böyük Britaniya, Fransa, Yeni Zelandiya, Avstraliya, Filippin, Tailand və Pakistanın təmsilçiliyi ilə yaradılmış, 1955-1977-ci illərdə mövcud olnmuş Asiya-Sakit okean regionu ölkələrinin hərbi siyasi blokudur.

**203. Mərkəzi Müqavilə Təşkilatı, SENTO** - Yaxın və Orta Şərqdə Böyük Britaniya, ABŞ və Türkiyənin təşəbüssü ilə yaradılmış, 1955-1970-ci illərdə mövcud olmuş hərbi-siyasi qruplaşmadır.

**204. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı, KTMT -** məqsədi hücüma məruz qalan üzv dövlətə təcavüzün birgə dəf edilməsi olan, Rusiya, Belarus, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Tacikistanın daxil olduğu təşkilatdır.

**205. "İslam NATO-su"** - beynəlxalq terrorizmlə mübarizə sferasında müsəlman dövlətlərinin hərbi birləşməsi kimi Səudiyyə Ərəbistanı tərəfindən irəli sürülən ideya.

**206. Beynəlxalq borc böhranı** - maliyyə böhranının növlərindən biri olaraq daxili və ya xarici borcun kəskinləşməsi ilə bağlı problemdir.

**207. Beynəlxalq borclar problemi** - ayrı-ayrı ölkələrin xarici kreditorlara, digər dövlətlərin vətəndaşlarına, şirkət və təşkilatlarına qaytarılacaq borcunun artması ilə müşayiət olunaraq dünya iqtisadiyyatın inkişafına təsir göstərən qlobal iqtisadi sistemin funksionallığının ciddi problemlərindən biridir.

**208. Dövlət borcu** - büdcə kəsirinin doğurduğu problem kimi dövlətin mövcud olduğu müddət ərzində yığılıb qalmış dövlət büdcələrinin, onun defisitinin ödənilməmiş məbləğidir.

**209. Dövlət daxili borcu** - müəssisə və əhalinin vəsaitlərini cəlb etməklə dövlət proqramları və sifarişlərinin yerinə yetrilməsi, dövriyyəyə kağız pulların, dövlət istiqrazları və digər qiymətli kağızların buraxılış üzrə onlara ödənilməsi ilə əlaqədar yaranmış dövlətin borcudur.

**210. Dövlət xarici borcu -** təsbit olunmuş vaxt ərzində hökumətin xarici kreditorlara, digər ölkələrin vətəndaşlarına, şirkət və təşkilatlarına qaytarılacaq borcunun pul ifadəsində məcmu öhdəliyidir.

**211. Texniki kredit** - müəyyən növ əmtəələrin alınması üçün təqdim olunan dövlətlərarası pul kreditidir.

**212. Paris klubu** - üçüncü ölkələrin borclarına münasibətdə iştirakçı dövlətlərin maliyyə siyasətini koordinasiya edən, inkişaf etmiş ölkələrin qeyri-rəsmi hökumətlərarası birliyidir.

**213. London klubu** - xarici borcluların borc məsələlərinin bu klub üzvləri qarşısında tənzimlənməsini həyata keçirən bank-kreditorların qeyri-rəsmi təşkilatıdır.

**214. Qlobal problemlərin həlli yolları** - iki real-inkişaf etmiş dövlətlərin kompleks tədbirləri nəzərdə tutan və bəşəriyyətin texniki və intellektual imkanları müqabilində yeni siyasi təfəkkürün reallıqlarına əsaslanan mövqelərdən ibarətdir.

**215. Qarabağ münaqişəsi** - Ermənistan SSR Ali Sovetinin beynəlxalq hüququn əsas norma və prinsiplərini pozaraq 1989-cu il dekabrın 1-də "Ermənistan SSR-in və

Dağlıq Qarabağın yenidən birləşməsi haqqında" qonşu dövlətin ərazi bütövlüyünə qarşı iddialarını rəsmən elan etməsi qərarı ilə Azərbaycan və Ermənistan arasında yaranan etnosiyasi münaqişədir.

**216. Qarabağ müharibəsi -** Azərbaycan Respublikasının Dağlıq Qarabağ ərazisi üstündə Ermənistanla Azərbaycan arasında 1991-1994-cü illərdə baş vermiş şiddətli hərbi ixtilafdır.

**217. "Marağa-150" abidəsi** - Azərbaycan Respublikasının Tərtər rayonunun Şıxarx qəsəbəsində İranın Marağa regionundan ilk 200 erməni ailəsinin köçürülməsinin 150 illiyi münasibəti ilə 1978-ci ildə qoyulmuş abidədir.

**218. Türkmənçay müqaviləsi** - İkinci Rusiya-İran müharibəsi nəticəsində 1828-ci il 10 fevralda Rusiya ilə İran arasında Təbriz yaxınlığındakı Türkmənçay kəndində bağlanmış müqavilədir.

**219. Ədirnə müqaviləsi** - 1828-1829-cu illərdəki rus-türk müharibəsinin bitməsi ilə əlaqədar Rusiya və Osmanlı imperiyaları arasında 1829-cu ilin 2 sentyabrında Osmanlının Ədirnə şəhərində imzalanmış sülh müqaviləsidir.

**220. Erməni terrorizmi** - erməni millətçilərinin həyata keçirdikləri terror aktlarıdır.

**221. ASALA** - "Ermənistanın Azadlığı uğrunda Gizli Erməni Ordusu" adlanan 1975-ci ildə yaradılmış erməni terror təşkilatıdır.

# III HİSSƏ

# Dünya bazarı və istehsal amillərinin beynəlxalq hərəkəti

# XI FƏSİL

# Dünya bazarı: mahiyyəti, təkamülü və inkişaf xüsusiyyətləri

## 11.1. Bazar təsnifatlandırması və bazar fərqlilikləri

Bazar (*market*) ayrı-ayrı əmtəələr və xidmətlər üzrə satıcılarla alıcıların birgə fəaliyyəti mexanizmi olmaqla iqtisadi münasibətlərdə tələblə-təklifin məcmusu, hər hansı əmtəə üzrə bir qrup adamın sövdələşməsi ilə baş verən sıx fəaliyyət münasibətləri və əmtəə və əmtəə-pul mübadiləsi formasıdır. Bazar alıcı ilə satıcıların görüşdüyü ticarət məkanı olmaqlan üç əsas elementin - tələb, təklif və qiymətin qarşılıqlı təsiri nəticəsində fəaliyyət göstərir.

İqtisadi nəzəriyyədə bazar mübadilə prosesi kimi geniş təkrar istehsalın dörd mərhələsindən birini təşkil edir. Mübadilə mərhələsi beynəlxalq əmək bölgüsünün və ixtisaslaşmanın nəticəsi olaraq əmtəə-pul münasibətlərində təzahür edir. Bazar iqtisadi mahiyyətdə əmtəə mübadiləsi sferasında fəaliyyət göstərərək, həm də sosial-siyasi, ideoloji və fəlsəfi kateqoriya kimi çıxış edir. Bu baxımdan bazar təkrar istehsalın tənzimləyicisi olaraq siyasi, iqtisadi, sosial, ideoloji və digər şərt və şəraitdən asılı olur. Bazarda fərdi əmək ictimai xarakter alır.

Aşağıdakı bazar fərqlilikləri vardır:
- ❖ əmtəələr və xidmətlər bazarı;
- ❖ istehsal vasitələri bazarı;
- ❖ işçi qüvvəsi bazarı;
- ❖ elmi-texniki işləmələr, innovasiya və patent bazarı;
- ❖ valyuta, maliyyə-qiymətli kağızlar bazarı;
- ❖ mənzil bazarı;
- ❖ informasiya məhsulları bazarı.

Bazarları coğrafi vəziyyətinə görə də fərqləndirirlər. Coğrafi baxımdan bazarlar aşağıdakı kimi təsnifatlandırılır:
- ❖ müvazinətli bazar;
- ❖ əmtəə artıqlığı olan bazar;

❖ defisitli bazar;
❖ azad rəqabətli bazar;
❖ inhisarçı bazar;
❖ qarışıq və oliqopolik bazar;
❖ geniş çeşidli əmtəələr bazarı;
❖ qarışıq əmtəələr bazarı;
❖ topdansatış və pərakəndə satış bazarı.

Bazarlar, rəqabətin səviyyəsinə görə, mükəmməl bazar və qeyri-mükəmməl bazarlara bölünür. Mükəmməl rəqabət (*perfect competition*) müstəqil satıcı və alıcıların çoxluğu ilə fərqlənərək bazara azad daxilolma, ondan çıxma və məhsul haqqında informasiyalara bərabər giriş imkanlarına malik olan ideal bazar vəziyyətidir. Mükəmməl rəqabət şəraitdə hər hansı sahibkar və hər hansı bir ayrıca alıcı qiymət təyin etmə imkanına malik deyildir. Qeyri-mükəmməl rəqabət (*imperfect competition*) ayrıca istehsalçıların özlərinin istehsal etdikləri məhsulun qiymətlərinə nəzarət imkanlarına malik olduqları bazar vəziyyətidir. Qeyri-mükəmməl bazar şəraitində bazara azad daxilolma, ondan çıxma və məhsul haqqında informasiyalara giriş imkanları məhdudlaşır.

Mükəmməl bazar (*perfect market*) eynicinsli əmtəələri vahid şərtlər altında reallaşdırıldığı mükəmməl rəqabətin tələblərinə cavab verən bazardır. Mükəmməl bazar satıcı və alıcıların çoxluğu ilə fərqləndirilir. Bu zaman onların heç biri və heç bir qurupu bazar proseslərinə, əsasən də, qiymətlərə təsir göstərmək qabliyyətində olmurlar. Belə bazarda bütün satıcılar tərəfindən xüsusi əmtəə nişanları və markalarını əks etdirməyən, özünəməxsus, identik standartlaşmış əmtə və xidmətlər təklif olunur. Burada bütün maddi, maliyyə və digər resurslar tam çevikdir və bütün alıcılar və satıcılar bazar haqqında tam informasiyaya (*qiymət, əmtəə, tələb, təklif və s.*) malikdirlər.

Qeyri-mükəmməl bazar (*imperfect market*) eynicinsli əmtəələri müxtəlif şərtlər altında reallaşdırıldığı bazar. Qeyri-mükəmməl bazar inhisarçı rəqabətli, oliqopolik, xalis inhisarçı rəqabətli bazar növlərini əhatə edir.

İnhisarçı rəqabətli bazar (*market monopolistic competitıon*) vahid pərakəndə qiymətlərlə deyil, geniş qiymət diapazonunda sövdələşmə aparılan alıcı və satıcılar bazarı. Bu bazarda əhəmiyyətli dərəcədə qeyri-qiymət rəqabəti fəaliyyət göstərir.

Oliqopolik bazar (*oligopolistic market*) bir neçə iri şirkətin standartlaşmış və differensasiya olunmuş əmtəələri satışını reallaşdırdığı bazar tipi. Əsas əlaməti bazarda hakim satıcılar sayının məhdudluğu və azlıq təşkil etməsidir.

Xalis inhisarçı bazar (*absolutely monopolized market*) əmtəəni yalnız bir satıcı satır və burda şərt inhisar mövcuddur.

Bazar milli bazar, regional bazar və dünya bazarı kimi növlərə malikdir:

Milli bazar (*national market*) dövlətin inzibati sərhədləri ilə məhdudlaşan bazardır. Milli bazarları, həmçinin, daxili bazarlar da adlandırırlar.

Regional bazar (*regional market*) iqtisadi münasibətlərin xüsusi forma və şərtlərini ehtiva edərək dərinləşən əmək bölgüsü ilə bağlı olan bir qrup dövlətin formalaşdırdığı bazarlardır.

Dünya bazarı (*world market*) bir-biri ilə beynəlxalq əmək bölgüsündə iştirakla əlaqədar dövlətlər, sahibkarlar, kommersiya təşkilatları, müxtəlif dövlətlərin firmaları arasında dayanıqlı əmtəə-pul münasibətləri sistemi kimi tələb və təklif sferasını, əmtəə və xidmətlərin kommersiya mübadiləsini özündə birləşdirən milli bazarların məcmusu, dünya təsərrüfatının tərkib hissəsidir.

Bazarın təşkilatı seqmentlərindən biri kimi birjalar çıxış edirlər. Birja (*latınca* - bursa, *hollandca* - beurs, *almanca* - börse, *fransızca* - bourse, *italyanca* - bórsa, *ispanca* - bolsa, *ingiliscə* - exchange - *pul qabı, pul kisəsi*) əmtəələrin alqı-satqı prosesi ilə məşğul olan bazarın təşkilatı formasıdır. Bununla belə, birja bazarın digər növlərindən fərqli olan bəzi xüsusiyyətlərə malikdir. Məsələn, birjada alqı-satqı əməliyyatları bilavasitə istehsalçı və istehlakçı arasında deyil, öz əlində hər hansı bir əmtəəyə olan tələb və təklifi mərkəzləşdirilmiş vasitəçilər - ticarət agentləri, dəllallar vasitəsilə həyata keçirilir. Birjalar digər bazar növlərindən, məsələn, yarmarkalardan və hərraclardan fərqli olaraq daim fəaliyyət göstərir, konkret iş yeri və iş saatı vardır. Birjalarda alqı-satqı əməliyyatları brokerlər və dilerlər tərəfindən həyata keçirilir. Birjanın əmtəə, fond, valyuta və əmək növlərini fərqləndirirlər. Birja kommersiya müəssisəsi deyil. Onun əsas vəzifəsi yüksək mənfəət əldə etməkdə yox, müvəqqəti olaraq azad pul vəsaitlərinin valyuta satışı və ya xarici valyutada qiymətli kağızlar və valyuta kursunun müəyyən edilməsi, yəni onun bazar dəyəri vasitəsilə cəmləşməsidir.

## 11.2. Dünya bazarının mahiyyəti, strukturu və formalaşmasının əsas mərhələləri

Qloballaşma şəraitində dünya təsərrüfat əlaqələlərinin genişlənməsi və dərinləşməsi ilə bazarlar özlərinin milli və ərazi sərhədlərini itirərək bütün ölkələrin iştirak etdiyi dünya bazarına çevrilirlər. Dünya təsərrüfatının subyektləri tərəfindən maddi nemətlərin ümumi tələb və təklifin qlobal sistemi, əməyin coğrafi bölgüsünün amilli və nəticəsi olaraq dünya bazarı müxtəlif bazar növlərini - xidmət, maliyyə, resurs, əmək, ticarət, kapital, informasiya, işçi qüvvəsi və s. özündə birləşdirir. Dünya bazarının ayrı-ayrı sahələr üzrə fəaliyyəti beynəlxalq sazişlərlə tənzimlənir. Hər bir məhsul bazarında (*product market*) bazis qiymətlərin tanındığı müvafiq əmtəə ticarəti üzrə müvafiq ticarət mərkəzləri - "əsas bazarlar" formalaşır. Ticarətin təşkili baxımından bazarlar, əmtəə birjaları, hərraclar, ticarət sövdələşmələri, beynəlxalq sərgi və yarmarkalar növlərinə təsnifatlandırılır.

Dünya bazarının funksiyalarına aşağıdakılar aid edilir:

- ❑ indikativ - milli iqtisadiyyatın vəziyyəti və onun əsas elementləri haqqında istehsalçıların və istehlakçıların məlumatlandırılması;
- ❑ kommunikativ - bazar subyektləri arasında əlaqələrin təmin edilməsi;
- ❑ tənzimləyici - dünya bazar qiymətlərinin nizamlanması;
- ❑ sanasionativ - rəqabət mübarizəsi prosesinin sağlamlaşdırılması.

İstehsalın artımı dünya bazarının tutumunun genişlənməsi ilə müşayiət olunur.

Dünya bazarının tutumu təyin olunmuş qiymətlər müqabilində əmtəə və xidmətlərin mümkün həcmini ehtiva edir. Bu tutum pulla, aparıcı dünya ölkələrinin valyutası ilə hesablanır. Ayrı-ayrı hallarda dünya bazarının tutumu natural formada da hesablana bilər. Bu hesablama, bir qayda olaraq, aşağıdakı düsturla həyata keçirilir:

$$\mathbf{DB_h = Ə_k \times Ə_q}$$

Burada $\mathbf{DB_h}$ - dünya bazarının tutumu;
$\mathbf{Ə_k}$ - əmtəələrin kəmiyyəti;
$\mathbf{Ə_q}$ - əmtəələrin qiyməti.

Aralıq məhsullar uzunmüddətli perspektivdə dünya bazarında son istehlak məhsullarına nisbətdə daha sürətlə artır. Bu ETT-nin inkişafı ilə əlaqədar texnoloji xətdə aralıq həlqələrin çoxalması, detal və əməliyyatlar üzrə ixtisaslaşma və kooperasiyanın güclənməsi səbəbi ilə baş verir.

Dünya bazarının tutumu dünya ÜDM-nin həcmi ilə müqayisə oluna bilər. Lakin burada aralıq məhsulları satıldığından bünya bazarının tutumu daha da genişlənir. Belə vəziyyəti iki cəhət şərtləndirir:

1. Dünya məhsullarının yarısından çoxunu təşkil edən xidmətlərin (*mənzil, kommunal, daxili nəqliyyat, ticarət və məişət, rabitə və s.*) böyük hissəsi beynəlxalq dövriyyəyə cəlb olunmur. Bu səbəblərə görə dünya ticarətinin 80%-ni əmtəə və 20%-ni xidmət ticarəti təşkil edir. Lakin bu konfiqurasiya ÜDM-də 65:35 nisbətindədir.

2. Beynəlxalq ticarət dövriyyəsinə real sektorun, o cümlədən sənaye və kənd təsərrüfatı məhsullarının ancaq bir hissəsi cəlb olunur. Əsas hissə isə ölkə daxilində realizə edilir.

Beynəlxalq ticarətin inkişafına detal və predmet ixtisaslaşması çox güclü təsir edir. Çünki, ümumiyyətlə, gəlirin artması istehlakın nomenklaturunu genişləndirir və mürəkkəb məhsula olan tələb artır.

Dünya bazarı, strukturca, müxtəlif bazarları birləşdirir. Onun strukturuna aşağıdakı bazarlar daxildir:

- dünya əmtəə və xidmətlər bazarı;
- dünya kapital bazarı;
- dünya işçi qüvvəsi bazarı;
- dünya maliyyə-kredit bazarı;
- dünya qiymətli kağızlar bazarı;
- informasiya texnologiyaları bazarı və s.

Dünya bazarının formalaşması üç mərhələdən keçmişdir:

1. Sənayeyə qədər;
2. Sənayeləşmə;
3. Postsənaye (*sənayedən sonrakı*).

Dünya bazarının formalaşmasının ***ilkin mərhələsi*** iqtisadiyyatın təbii resurslara əsaslanmaqla, üstün olaraq, kənd təsərrüfatı üzrə inkişaf etdiyi dövrü əhatə edir. Əhalinin, əsasən, kəndlərdə yaşadığı və istehsal prosesində primitiv texnologiyaların tətbiq edildiyi həmin dövrdə ölkələr arasında xarici ticarət əlaqələri zəif inkişaf etmiş və bu səbəbdən də dünya bazarı yüksək təşəkkül tapmamışdır. Bu dövr həm də klassik bazar (*classical market*) mərhələsi adlanır.

Dünya bazarının formalaşmasının ***ikinci mərhələsi*** sənayeləşmə və onun vüsətlənməsi nəticəsində formalaşmışdır. Bu zaman dünya ölkələrində mövcud sosial, iqtisadi, siyasi və mədəni həyatı dəyişmiş və sürətlə genişlənən istehsal milli hüdudları aşaraq beynəlxalq dövriyyəyə cəlb olunmuşdur. Məhz bu mərhələdə dünya bazarı tam təşəkkül tapmışdır. Bu dövrü eyni zamanda inhisarçı bazar (*monopolized market*) mərhələsi adlandırırlar.

Dünya bazarının formalaşmasının ***üçüncü mərhələsi*** 1960-70-ci illərdə ETT və 1980-ci illərdə liberallaşma və qloballaşma prosesləri nəticəsində dünya təsərrüfatında yeni reallıqların yaranışı ilə təşəkkül tapmışdır. Bu zaman yeni gerçəkliklər dünya bazarını bir-birilə informasiya texnologiyaları şəbəkəsi ilə əlaqəyə gətirən milli bazarların qlobal şəbəkəsinə çevirmişdir. Dünya bazarının çağdaş dövrü həm də müasir bazar (*current market*) mərhələsi adlanır.

Dünya bazarını tam formalaşdıran reallıqlar aşağıdakılardır:
- ❖ sənaye cəmiyyətindən informasiya cəmiyyətinə keçid;
- ❖ fordçu istehsal sistemindən çevik, elastik (flexible) istehsala keçid;
- ❖ milli dövlətlər sistemli dünyadan qloballaşmış dünyaya keçid;
- ❖ modernist fəlsəfi düşüncədən postmodernist fəlsəfi düşüncəyə keçid.

Dövlət sərhədləri və iqtisadi amilləri aradan götürən iqtisadi əlaqələrin qloballaşması, dünya təsərrüfatında milli iqtisadiyyatların ixtisaslaşmasının və kooperasiyalaşmasının dialektik prosesi olan beynəlxalq əmək bölgüsü, bazar tipli iqtisadi sistemə malik ölkələr arasında əlaqələrin və münasibətlərin işləmə sahəsinin eyniləşdirilməsi, beynəlxalq iqtisadi münasibətlər mexanizmi və infrastrukturunun inkişafı XX əsrdə dünya bazarının formalaşmasının əsas amilləri olmuşdur.

### 11.3. Dünya bazarının konyunkturası və dünya qiymətlərinin funksiyaları

Dünya təsərrüfatının müasir coğrafiyası əhəmiyyətli dərəcədə dünya bazarında reallaşan beynəlxalq əmək bölgüsünün düzümündə təsbit olunmuşdur. Burada da qiymətlər, başlıca olaraq, tələb və təklif əsasında formalaşır. Bununla belə, dünya bazarının başlıca fəaliyyət mexanizmini qiymətlərin daxili milli bazara nisbətdə yüksək və azad olmasını fərqləndirən xüsusiyyəti təşkil edir. Bu isə o demək deyil ki, dünya bazarı tam sərbəst fəaliyyət obyektidir. Belə ki, onu təmsil edən ölkələr burada ciddi məhdudiyyətləri qaydalaşdırmaq imkanına malikdirlər. Həmin imkanlar isə izafi ölçüdə daha güclü siyasi-iqtisadi potensiala malik ölkələrə, birliklərə xasdır.

Son dövrdə dünya bazarında xarici ticarətin tənzimlənməsində başlıca meyil liberallaşmada əksini tapır. Uzumüddətli planda məhz azad beynəlxalq ticarət iştirakçı olan dövlətlərə daha geniş səmərəlilik gətirir. Eyni zamanda indiki mərhələdə beynəlxalq ticarətin liberallaşmasında proteksionizmin əks-təsiri güclənməkdədir. Gömrük üsullarının orta səviyyəsinin azaldılması fonunda neoproteksionizmin ölçüləri, xüsusən də, subsidiya ixracatının, sərt texniki standartlar, normalar və s. yeni tələb və tədbirlərin tətbiqi genişlənir.

Dünya bazarında kəskin rəqabət mübarizəsi dünya bazar konyunkturasından asılılıqda, ekvivalentli olmayan mübadilə əsasında qiymətlərin kortəbii surətdə qalxıb-enməsi ilə baş verir. <u>Dünya bazar konyunkturası</u> (*latınca* - conjuncture - *fərz, təxmin, təklif, vəziyyət*) burada mövcud əmtəə və xidmətlər nomenklaturasını və dünya bazar qiymətlərini xarakterizə edir.

Bazarın konyunkturası istehsal, tələb və təklif, ticarət-iqtisadi göstəricilər, qiymətlər kimi tsiklik və qeyri-tsiklik amillərin təsiri altında dəyişir. Bu baxımdan da dünya bazarında qiymət yaranışlarının təhlilində müxtəlif yanaşmalar mövcuddur. Belə ki, “tələb və təklif nəzəriyyəsi”nin tərəfdarları güman edirlər ki, dünya bazarında qiymət, tələb və təklifin qarşılıqlı təsiri nəticəsində formalaşır.

“Əmək-dəyər nəzəriyyəsi”nin tərəfdarları isə qiymətlərin yaranışı əsasında dünya miqyasında canlı və maddiləşmiş əməyin zəruri ictimai xərclərinin dayandığını (*istehsalın beynəlmiləl qiyməti = istehsal xərcləri + orta mənfəət*) irəli sürürlər.

Ümumilikdə qiymətlərlərə təsir edən amillər aşağıdakı təsnifat üzrə qruplaşdırılır:

- ❖ ümumiqtisadi (*iqtisadi tsikl, inflyasiya, tələb və təkliflə başlı ümumi vəziyyət*);
- ❖ birbaşa iqtisadi amillər (*xərclər, mənfəət, vergi, istehlak xassələri, keyfiyyət, çeçid və s.*);
- ❖ spesifik (*fəsillə bağlı, təminatlar, servis*);
- ❖ xarici iqtisadi (*siyasi, hərbi*).

Dünya bazarı tətbiq olunan qiymətlərin çoxluğu ilə xarakterterizə olunur ki, bu da müxtəlif kommersiya və ticari-siyasi amillərin fəaliyyəti ilə bağlıdır.

Dünya qiymətləri formalaşmasının əsasında beynəlxalq dəyər dayanır. Dünya qiymətləri dünya əmtəə bazarlarında, dünya ticarətinin əsas mərkəzlərində bağlanan iri idxal-ixrac əməliyyatları üzrə formalaşan qiymətlərdir. Dünya ticarətinin iştirakçısı daxili bazara nisbətən daha çox rəqiblə üzləşir və daha kəskin rəqabət mühitində fəaliyyət göstərir. O, daim öz istehsal xərclərini həm daxili qiymətlərlə və həm də dünya qiymətlərilə müqayisə etməli, alıcı kütləsinin artımını nəzərə almalıdır.

<u>Dünya qiymətlərinin funksiyaları</u> bir-birilə qarşılıqlı asılılıqda olan indikativ, kommunikativ, distributiv, stimullaşdırıcı və tənzimləyici seqmentlərtdən ibarətdir. İndikativ funksiya konkret zaman müddətində iqtisadi vəziyyəti qiymətləndirməyə imkan verir, kommunikativ bazar subyektləri arasında əlaqəni həyata keçirir, həmin distributiv subyektlər arasında gəlirlərin bölgüsünə şərait yaradır. Stimullaşdırıcı funksiya dövlətlərin və ya şirkətlərin ixrac-idxal siyasətlərində dəyişikliklərə, tənzimləyici funk-

siya isə məhsulları istehlakçıların tələblərinə cavab verməyən şirkətlərin bazardan getməsinə səbəb olur.

Müasir beynəlxalq ticarət praktikasında qiymətlərin iki əsas növü tətbiq olunur:

1. Hesablaşma qiymətləri - ixracatçı şirkətlərin müxtəlif metodlardan istifadə etməklə əmtəələrin konkret növləri üçün fərdi surətdə müəyyən etdiyi qiymətlər.

2. Dərc edilən qiymətlər - xüsusi informasiya mənbələrində əks olunan qiymətlər.

Dərc edilən qiymətləri aşağıdakı növlərə bölünür:

- birja qiymətləri - beynəlxalq birjalarda bağlanan sazişlərin real qiymətləri.
- hərrac qiymətləri - beynəlxalq auksionlarda həyata keçirilən sazişlər üzrə real qiymətlər.
- sorğu qiymətləri - xüsusi iqtisadi qəzet və jurnallarda, bülletenlərdə, firma kataloqlarında və preyskurantlarda müntəzəm dərc edilən daxili və xarici ticarət üzrə qiymətlər.
- faktiki əməliyyatlar üzrə qiymətlər - çox nadir hallarda dərc olunduğundan dünya qiymətlərinin vacib mənbəsi kimi çıxış etmir.

İri firmaların təklif etdikləri qiymətlər - böyük firmaların potensialına arxalanan qiymətlər.

Ənənəvi olaraq, dünya bazar qiymətləri aşağıdakıları əhatə edir:

- sərbəst dönərli və ya dönərsiz valyutada ödəmə ilə həyata keçirilən adi kommersiya sazişləri üzrə qiymətlər;
- klirinq sazişləri üzrə qiymətlər;
- dövlət yardımı çərçivəsində reallaşan proqramlar üzrə qiymətlər və s.

Dünya bazarında qiymətlərin səviyyəsinə bir sıra amillər təsir göstərir ki, bunlar içərisində ümumiqtisadi, konkret, spesifik, xüsusi və xarici amillər daha çox fərqləndirilir. İqtisadi tsikl, məcmu tələb və təklif, inflyasiya və digər bu kimi amillər ümumiqtisadi amilləri səciyyələndirir. Konkret iqtisadi amillər xərclər, mənfəət, vergi və yığımlar, istehlak xüsusiyyətləri, əvəzedici əmtəələri nəzərə almaqla əmtəəyə olan tələb və təklifi əhatə edir. Mövsümilik, istismar xərcləri, zəmanət və xidmət şərtləri spesifik, dövlət tənzimlənməsi, valyuta məzənnəsi xüsusi, siyasi, hərbi, dini, etnik isə xarici amilləri etiva edir.

## 11.4. Dünya əmtəə və xidmətlər bazarı

Dünya bazarında istehlak malları ilə ticarət material formada və qeyri-maddi əmtəələrin alış-verişi isə qeyri-maddi formada aparılır. Bunlar, müvafiq olaraq, əmtəə və xidmətlər bazarında reallaşdırılır. Dünya əmtəə və xidmətlər bazarı bir sıra məxsusi və fərqli xüsusiyətləri özündə birləşdirir. Başlıca olaraq, bu xüsusiyyətlər ondan ibarətdir ki, əmtəə və xidmətlərin alqı-satqısı müxtəlif dövlətlərin rezidentləri tərəfindən həyata keçirilir. Belə ki, əmtəə və xidmətlər istehsalçıdan istehlakçıya keçərək, suveren dövlətlərin sərhədlərini aşır. Sonuncular, öz xarici iqtisadi siyasətini,

xarici ticarətin reallaşmasını müxtəlif alətlərin, o cümlədən gömrük rüsumları, kəmiyyət məhdudiyyətləri, malların bu və ya digər standartlara uyğunluğu və s. köməyilə həyata keçirərək, həm coğrafi istiqamət və həm də sahə mənsubiyyəti və intensivlilik nöqteyi-nəzərdən əmtəə axınlarına böyük təsir göstərir.

Əmtəə və xidmətlərlə beynəlxalq ticarət beynəlxalq iqtisadi münasibətlərin tarixən ilk və qədim forması olmuşdur. O, istehsalın, məşğulluğun, burada iştirak edən hər bir ölkənin qiymətlərinin səviyyəsinə böyük təsir göstərir. Müasir qloballaşma şəraitində ayrı-ayrı ölkələrin milli bazar iqtisadiyyatları təcrid olunmuş halda deyil, daim bir-biri ilə sıx əlaqədə inkişaf edirlər.

Dünya bazarının tərkibində dünya əmtəə bazarı xüsusi yer tutur ki, onun üçün inkişafın tsikliyi xarakterikdir. Dünya əmtəə bazarı (*world goods market*) ölkələr arasında əmtəələrin alqı-satqısı ilə bağlı iqtisadi münasibətlər sistemi, dünya bazarının tərkib hissəsidir. Dünya əmtəə bazarı daim inkişafda və genişlənmə meyilindədir. Dünya xidmət bazarı (*ingilscə* - world service market - *dünya xidmətlər bazarı*) xidmətlər, texnologiyalar, ideya və informasiya mübadiləsi ilə bağlı dünya bazarının tərkib hissəsidir. Hazırda dünya xidmətlər bazarında istiqamətlər genişlənir. Buraya nəqliyyat, bank, sığorta, konsaltinq, elektron ticarət, lizinq və s. xidmətlər daxildir. Dünya xidmətlər bazarının spesifik sahəsini turizm təşkil edir. Xidmətlərin əksəriyyəti ölkə daxilində qaldığında onun dünya bazarındakı payı mütənasib dəyişmir. Buna baxamayaraq, son 20 ildə dünya xidmət bazarında xidmət ixracının payı 2 dəfə yüksələrək 20% həddinə çatmışdır.

Daxili bazarda satılan heç də bütün əmtəə və xidmətlərin hamısı dünya bazarında satıla bilməz. Belə bölgü BMT tərəfindən hazırlanmış iqtisadi fəaliyyət növlərinin məlumat təsnifatı - Sahələrin beynəlxalq standart təsnifatı (*International Standard Industrial Classification, ISIC*) əsasında həyata keçirilir. Bu təsnifat makroiqtisadi miqyasda iqtisadi təhlil və qərarların qəbulu üçün informasiyaların yığımı, emalı və saxlanılması mexanizmini təmin edir. Əsas tətbiq sahəsi iqtisadi statistika ilə məhdulaşdırılsa da, təsnifatdan inzibati məqsədlər üçün geniş istifadə olunur. Təsnifatla aşağıdakılar fərqləndirilir:

A. Ticari mallar - xarici bazarlarda satılan mallardır:
- kənd təsərrüfatı, ovçuluq, meşə təsərrüfatı və balıqçılıq (*məhsulları*);
- hasilat sənayesi məhsulları;
- emal sənayesi məhsulları.

B. Qeyri-ticari mallar - xarici ölkələrdə satılmayan, istehsal olunduğu ölkədə satılan mallardır:
- kommunal xidmətlər və tikinti;
- topdan və pərakəndə ticarət, restoranlar və mehmanxanalar;
- daşınma, saxlanma və rabitə, maliyyə vasitəçiliyi;
- müdafiə və icbari sosial xidmətlər;
- təhsil, səhiyyə və ictimai işlər;
- digər kommunal, sosial və şəxsi xidmətlərə bölürlər.

BMT-nin təklif etdiyi təsnifat onun müəyyən şərtiliyini təsdiq edir. Həqiqətdə də, bir çox qeyri-ticari mallar, mahiyyətcə, burada təsbit olunduğu kimi deylidir. Məsələn, silahlanma beynəlxalq ticarətin mühüm obyektidir. Xarici dövlətlərə təhsil xidmətləri olduqca fəal təklif olunur, sənaye və digər obyektlərin tikintisi aparılır, beynəlxalq nəqliyyat inkişaf edir və s. Əgər ölkə ticari malların geniş spektrinə malikdirsə, bu ona çevik və effektiv xarici ticarət siyasəti yürütməyə, lazım olduqda müvafiq malların satışı ilə həm daxili bazarda, həm də dünya bazarında manevrlər həyata keçirməyə imkan verir.

Dünya əmtəə bazarının əsas seqmentlərindən biri dünya ərzaq bazarıdır. Dünya ərzaq bazarı (*world food market*) kənd təsərrüfatı, aqrobiznes (*agribusiness*) və qida məhsullarının (*ərzaq malları*) mübadiləsi ilə bağlı iqtisadi münasibətləri əks etdirir. Vurğulanmalıdır ki, ərzaq malları əhalinin həyat təminatının əsasını təşkil edən xüsusi növ mallardır. Onlar ilkin həyat zərurəti olmaqla, eyni zamanda, doldurulduqca, onlara olan tələb aşağı düşür və istehlakçı başqa növ mallara, xüsusilə yaşayış və uzunmüddətli istifadə predmetlerinə keçir.

Dünya ərzaq məhsullarının ixracı son 50 ildə hər il orta hesabla 7-8% artaraq, 500 milyard dollara yüksəlmişdir. Lakin bütövlükdə dünya əmtəə ixracında ərzaq bazarının payı 21%-dən 7,4%-ə qədər azalmışdır.

Ərzaq bazarının spesifikasından danışarkən, ilk növbədə, bu bazarda alıcı ilə satıcının qarşılıqlı münasibətləri və qarşılıqlı əlaqəsinin xüsusiyyətini qeyd etmək lazımdır. Belə ki, alıcı ərzağın istehlakını hər hansı başqa malın alqısında olduğu kimi uzun müddətə təxirə sala bilməz. Həmçinin, istehsalçı da əksər hallarda istehsal həcmini operativ olaraq istədiyi qədər artıra bilməz. Bunun nəticəsidir ki, ərzaq bazarı tamamilə özünütənzimləmə iqtidarında deyildir və daim xarici qüvvənin müdaxiləsini tələb edir.

Uzunmüddətli dövrdə istehsalın və beynəlxalq ticarətin əhalinin artım sürətini qabaqlaması mümkün deyil. Belə ki, ərzağa tələb adambaşına gəlirdən daha çox adamların sayından asılıdır. Engel qanununa görə, ərzağa tələb və ya ailə büdcəsində ərzaq xərcləri adambaşına gəlir artdıqca azalır. ETT-nin kənd təsərrüfatında tətbiqi ilə inkişaf etməkdə olan ölkələrdə də ərzağa tələbin çox hissəsinin daxili istehsalla təminatı artır. Uzunmüddətli dövrdə ərzağın ixrac qiyməti ümumi ixrac qiymətindən daha az artır.

Dünya əmtəə və xidmətlər bazarı və onun sistemaltıları daim inkişaf edir. Hazırda dünya bazarı şəraitində daha çox maşınqayırma, elektron sənayesi, texniologiyalar, patentlər, lisenziyalar alqı-satqısı həyata keçirilir. Müasir bazarlar daha çox tənzimləmələr əldə edir. Bu tənzimləmıədə DTT, BFF, BYİB, OPEK, TMŞ-lər və digər beynəlxalq və iri regional təşkilatlar fəallıq göstərirlər.

## 11.5. Dünya xammal və enerjidaşıyıcılar bazarı

Yerin təkində mineral ehtiyatlarının qeyri-bərabər yerləşməsi, ölkələrin torpaq və meşə ehtiyatlarının müxtəlif ölçülüyü əməyin beynəlxalq bölgüsünə və bu əsasda beynəlxalq iqtisadi münasibətlərin inkişafına rəvac verir. İnkişaf etmiş ölkələrin

təsərrüfatlarının resurs və material tutumunun aşağı düşməsi və digər tərəfdən həmin ölkələrin bəzilərində (*ABŞ, Kanada, Avstraliya, Norveç*) onlara məxsus faydalı qazıntılar hasilatının inkişaf etməsi nəticəsində Qərb ölkələrinin inkişaf etməkdə olan ölkələrdən idxal asılılığı xeyli zəifləmişdir. Eyni zamanda bir sıra inkişaf etməkdə olan ölkələrin (*Cənubi-şərqi Asiyanın bir sıra ölkələri, Hindistan, Pakistan*) özlərinin sənayeləşdirilməsi burada xammal və yanacaq sərfinin xeyli dərəcədə yüksəlməsinə, bununla da həmin ölkələrdən xammal ixracının azalmasına və həmin malların idxalının artmasına gətirib çıxarmaqdadır.

Bütün bunlar dünya xammal və enerjidaşıyıcılar bazarının genişlənnməsi və ticarət sövdələşmələrinin yüksəlməsi fonunda baş verir.

<u>Dünya xammal bazarı</u> (*ingiliscə* - international raw materials market - *beynəlxalq xammal materialları bazarı*) emala yönəldilən faydalı qazıntıların və digər təbii resursların, həmçinin, insanın təsirinə məruz qalmış əmək predmetlərinin alqı-satqısının həyata keçirildiyi beynəlxalq bazarlardır. Dünya xammal bazarı enerjidaşıyıcıları istisna olmaqla hasilat sənayesinin, kənd təsərrüfatının (*ərazaq bazarı*) məhsullarını əhatə edir. Son 50 ildə bu bazarda artım sürəti 6-7% olmaqla 15 dəfə yüksəlmişdir. Həmin dövrdə ümumi ixracda onun payı isə 18,8%-dən 5%-ə enmişdir. Bunun əsas səbəbi isə bütövlükdə istehsalın material tutumunun aşağı düşməsidir. Bundan başqa, burada natural materialların və ya məhsulların sintetik materiallarla qismən əvəzlənməsinin effektliyi, xammalın qiymətlərinin artması intensivliyinin ümumi əmtəə istehsalının qiymətinin artması intensivliyindən az olması, az material tutumlu sahələrin üstün inkişafı və s.-dir.

<u>Dünya enerjidaşıyıcılar bazarı</u> (*world energy market*) neft, qaz, daş kömür, oduncaq, torf, nüvə yanacağı və s. enerjidaşılıcıların ticarətinin aparıldığı beynəlxalq bazarlardır. Dünya enerjidaşıylıcılar bazarı son 50 ildə təxminən 45 dəfə artmışdır. Müasir forma və funksianallıqda dünya enerjidaşıyıcılar bazarı yaranışı bir anda baş verməmişdir. Oduncaq və onun oxşarlarının satışı üzərində təşəkkül tapan enerjidaşıyıcılar bazarı min illər lokal səciyyə daşımış və artan bəşəri istehlak tələblərindən qaynaqlanaraq, yalnız XX əsərdə özünün müsir struktur formasını almışdır. Sivilizasiyanın inkişafı daim enerji təminatında olmuş və tarixin müxtəlif mərhələrində insanın təsərrüfat həyatı və iqtisadi sistemlər məxsusi enerji növləri istehlak etmişlər.

Enerji istehlakının tarixi ilə bağlı ümumiləşdirilmiş reallıqlar belərdir ki, bəşəriyyətin enerji istehlakı bütün sivilizasiya ərzində 5 mərhələdən keçmişdir. Bu mərhələlər aşağıdakıları əhatə edir:

1. Su çarxının yaranması;
2. Maşın istehsalına keçid;
3. Elektroenerjinin sənaye istifadəsi;
4. Daxiliyanma mühərrikinin yaranması;
5. Nüvə enerjisinin mənimsənilməsi və nəhəng enerji sistemlərinin yaradılması.

Məhz sonuncu mərhələ müasir dünya enerjidaşıyıcılar bazarının mühüm təşəkkülü

bazası kimi çıxış edir. Hazırda bu bazar dünya neft bazarı, dünya qaz bazarı, dünya daş kömür bazarı, beynəlxalq elektroenerji bazarları və dünya nüvə yanacağı bazarını ehtiva edir.

Dünya enerjidaşıyıcılar bazarının sxematik quruluşu aşağıdakı kimidir:




**Sxem 3. Dünya enerjidaşıyıcı bazarının sxematik quruluşu**

Dünya neft bazarı (*world oil market)* xam neftin ticarətinin reallaşdırıldığı beynəlxalaq bazarlardır. Dünya neft bazarı "fiziki" (*nağd neft ilə ticarət*) və "maliyyə" (*neft kontaktları ilə ticarət*) neft bazarlarından ibarətdir. Müasir zamanda "fiziki" neft bazarını "maliyyə" neft bazarı üstələmişdir. Dunya neft bazarının real fəaliyyət sistemi aparıcı neft birjaları, əsasən, üç qlobal birja - Avropada IPE, Amerikada NYMEX və Asiyada SGX vasitəsi ilə həyata keçirilir. Neftin satışı prosesi 24 saatlıq iş rejimi ilə fəaliyyət göstərən bu birjaların ticarət zallarında dünyanın müxtəlif ərazilərindən zəruri informasiyaların kompüter ekranlarına gətirillməsi ilə treyderlərlə alıcıların birbaşa qarşılıqlı təması sistemində reallaşdırılır. Vaxt rejimi ilə bağlı buradakı məxsusi özəllik ondan ibarətdir ki, Sinqapur birjasında iş günü bitdikdə London birjası fəaliyyətə başlayır, burada iş bitkikdən sonra Nyu-York birjasında satış həyata keçirilir. Məhz belə bir reallıq neft bazarının fiziki işlənməsindən, maliyyə-müqavilə iş sisteminə keçidinə rəvac vermişdir.

Müasir dünyada neft bazarı formatında əlahiddə dünya qaz bazarı mövcüd deyildir. Belə bazarlar beynəlxalq təbii qaz bazarları qismində daha çox regional səciyyə daşıyırlar. Dünya qaz bazarı (*world gas market*) təbii ticarətinin həyata keçirilməsi ilə bağlı formalaşmış beynəlxalq və regional bazarlardır. Müasir dünyada üç regional qaz bazarı mövcuddur:

1. Avropa qaz bazarı;
2. Şərqi Asiya qaz bazarı;
3. Şimali Amerika qaz bazarı.

Təbii qazın dünyəvi bazarının formalaşması çoxsaylı və çoxistiqamətli magistral boru xəttlərinin çəkilişini tələb edir. Bununla belə, dünya qaz bazarının magistral xətlər

şəbəkəsində formalaşması prosesi özü də qaz sferasında baş verən dəyişikliklərdən də asılıdır. Əlbəttə təbii qazın ticari nəqli bu enerji daşıyıcısının qaz formasında olması vəziyyətində səmərəlidir. Lakin yollar okeana yetişdikdə belə nəql imkansız olur. Əgər qaz (*metan qazı*) 162 dərəcə selsi soyudularsa, o, maye halına keçəcəkdir. Bu vəziyyətdə qazın həcmi 600 dəfə kiçilir və onun takerlerdə daşınması imkanı yaranır. Bir belə daşınma ABŞ-ın sutkalıq qaz istehlakının 5%-i həcminə ekvivalentdir. Qazın maye halına salınması və yenidən əvvəlki vəziyyətə qaytarılması ayrıca maye qaz ticarəti şəbəkəsini yaratmışdır. İndi bu vəziyyət qlobal miqyas almaqdadır və proses təbii qazın maye formalı beynəlxalq bazarlarının təşəkkülü və genişlənməsinə aparır. Bütün bunlarla yanaşı qeyd olunmalıdır ki, beynəlxalq qaz ixracında ölkələr arasında müvafiq təşkilatlanma mövcuddur. Bu dünyada təbii qazın ixracı üzrə lider ölkələrin birliyi olan Qaz İxrac edən Ölkələr Forumudur (*Gas Exporting Countries Forum, GECF*). OPEK anologiyasına görə bu forumu bəzən "Qaz OPEK"-i də adlandırırlar. Buna baxmayaraq heç də onun bütün üzvləri bu əsasda müvafiq kartel yaradılmasını təşəbbüsü ilə çıxış etmirlər. 2001-ci ildə İranın paytaxtı Tehran şəhərində yaradılıb, 2008-ci ildə Moskva şəhərində hüquqi olaraq təsis edilib. Forumun 12 əsas (*Əlcəzair, Boliviya, Misir, Ekvatorial Qvineya, İran, Liviya, Nigeriya, Qətər, Rusiya, Trinidad və Tobaqo, Venesuela və BƏƏ*) və 7 müşahidəçi (*Qazaxıstan, Hollandiya, Norveç, İraq, Oman, Peru və Azərbaycan*) üzvü var. Foruma üzv ölkələrdə dünyanın qaz ehtiyatlarının 73%-i, hasilatının 42%-i, boru kəmərləri ilə ticarətin 38%-i, sıxılmış qaz (*LNG*) istehsalının 85%-i cəmləşir. Forumun əsas məqsədi üzv ölkələrin təbii qaz ehtiyatları

| **№** | **Üzv ölkələr** | **Ehtiyatlar** (*trilyon m³*) | **№** | **Müşahidəçi ölkələr** | **Ehtiyatlar** (*trilyon m³*) |
|---|---|---|---|---|---|
| **1** | İran | 34,6 | **1** | İraq | 3,6 |
| **2** | Rusiya | 32,6 | **2** | Azərbaycan | 2,6 |
| **3** | Qətər | 24,5 | **3** | Norveç | 1,9 |
| **4** | BƏƏ | 6,1 | **4** | Qazaxıstan | 1,5 |
| **5** | Venesuela | 5,6 | **5** | Hollandiya | 1,0 |
| **6** | Nigeriya | 5,1 | **6** | Oman | 0,7 |
| **7** | Əlcəzair | 4,5 | **7** | Peru | 0,4 |
| **8** | Misir | 1,9 | | | |
| **9** | Liviya | 1,5 | | | |
| **10** | Boliviya | 0,3 | | | |
| **11** | Trinado Tabaqo | 0,3 | | | |
| **12** | Ekvatorial Qvineya | - | | | |
| Cəmi | | 117 | Cəmi | | 11,7 |

**Cədvəl 17. Qaz İxrac edən Ölkələr Forumu ölkələrində qaz ehtiyatları**

üzərində suveren hüquqlarının müdafiəsi imkanlarının sərbəst planlaşdırılması, ekoloji nəticələri nəzərə alan davamlı və effektiv inkişafın təmin edilməsidir. Bu prosesdə dünya qaz hasilatında müşahidə olunan tendensiyalar tələb və təklifin cari və gözlənilən balansı, qaz sənayesində yeni texnologiyalar və digər qlobal problemlərin təhlili forumun fəaliyyətinin əsas istiqamətlərini təşkil edir. 2015-ci ildə Tehranda keçirilən 3-cü sammitdə Azərbaycan Qaz İxrac edən Ölkələr Forumuna müşahidəçi qismində qəbul olunmuşdur. Azərbaycanın Foruma qoşulması tranzit və ixrac qaz kəmərlərinin tikilməsi, dayanıqlı qaz hasilatının tənzimlənməsi, Xəzəryanı ölkələrin qaz kəmərlərinin bir-biri ilə əlaqələndirilməsinin öyrənilməsi, Xəzəryanı ölkələrin enerji təhlükəsizliyinin təmin edilməsində yeni innovasiyaların tətbiqi, bazar şəraitinin yaradılması baxımından mühüm əhəmiyyət daşıyır. Mənzil-qərargahı Qətərin paytaxtı Doha şəhərində yerləşir.

Qlobal daş kömür bazarı enerjidaşıyıcılar sferasında daha əzəli təşəkkül tapan təsisatlardandır. Beynəlxalq daş kömür bazarı (*international coal market*) daş kömürün ticarətinin aparıldığı regional bazarlar məcmusudur. Hazırda bir-biri ilə qarşılıqlı əlaqədə iki ayrıca energetik kömür (*elektrik enerjisi istehsalı üçün*) və kokslaşan kömür (*polad istehsalı üçün*) bazarları fəaliyyət göstərir. Regional seqmentləşmə baxımından kömür satışı iki - Avroatlantik (*ABŞ, Latın Amerikası, CAR, Polşa, Rusiya*) və Asiya-Sakit Okean (*Avstraliya, İndoneziya, ÇXR, CAR, Kanada*) bazarlarında realaşdırılır. Müəyyən ölkələr hər iki istiqamətdə ticarət aparır və bazarın əsas fiqurantları kimi çıxış edirlər. Daş kömürlə ticarətin böyük hissəsi spot təchizatlar formasında uzunmüddətli kontraktlar vasitəsi ilə həyata keçirilir. Beynəlxalq birjalarda dünya kömür hasilatının 20%-i, əsasən də, energetik kömür və yüksək keyfiyyətli kokslaşan kömürün ticarəti həyata keçirilir. Ucuz qonur kömürlə bağlı beynəlxalq ticarət ümumən aparılmır. Regional birliklər və korporasiyalar tərəfindən tənzimlənən bu bazar XX əsrin ortalarında dünya iqtisadiyyatında daha təsirli gücünə malik idi. Neft və qaz resurslarının genişlənən bazar imkanları daş kömür ticarətini bir qədər zəiflətsə də, onun iqtisadi əhəmiyyətini tam sarsıda bilməmişdir. Artan texniki-texnoloji nailiyyətlər və tələb imkanlılığının yetərli səviyyədə qalması onun əmtəəlik çeşidi keyfiyyətini yüksəlməsi ilə müşayiət olunmuşdur. Ona görə də ənənəvi enerjidaşıyıcı kimi daş kömür özünün gərəklilik sferasını daim qorumuş və müəyyən regional arealda hətta irəliləyişlər belə əldə etmişdir.

Dünyada vahid qlobal elektroenerji bazarı da mövcud deyildir. Beynəlxalq elektroenergetika bazarı (*international electricity market*) elektrik enerjisinin alqı-satqısının həyata keçirildiyi regional bazarlar məcmusudur. Burada da sistem regional xarakterlidir. Hazırda planetdə istehsal olunan elektrik enerjisinin yalnız 4-5%-i beynəlxalq (*regional*) bazarlara çıxarılır. İndi dünyada ildə 10 milyard kVts-dan çox elektrik enerjisi ixrac edən bir neçə aparıcı ölkə vardır (*Kanada, Paraqvay, Rusiya, Fransa*). Bununla belə, dünyanın bir çox məntəqələrində qonşu və region dövlətləri arasında elektrik enerjisi ticarəti və mübadiləsi həyata keçirilir.

Dünya nüvə yanacağı bazarı (*world nuclear fuel market*) dünya bazarının sektoru olaraq, nüvə yanacağı və onunla bağlı istehsalçıların, treyderlərin (*vasitəçilərin*) və istehlakçıların birliyidir. Burada əmtəələr (*nüvə yanacağı və onun komponentləri, nüvə və qeyri-nüvə tsiklləri üzrə maşınqayırma məmulatları*) və xidmətlər (*uranın zənginləşdirilməsi, nüvə tullantılarının utililləşdirilməsi*) ticarəti reallaşdırılır və nüvə silahı məqsədi yaradılması üçün materiallar satılmır. Beynəlxalq tənzimləmə subyekti olan bazarın qeyri-stabilliyi yüksək olmur və burada spekulativ sövdələşmələr faktiki mövcud deyildir. Dünya nüvə yanacağı bazarı regional və reaktorlar tipinə görə fərqləndirilir. Bazarın ən böyük regional seqmenti kimi Şimali Amerika (*ABŞ, Kanada, Meksika*) və Qərbi Avropa (*Fransa, AFR, Böyük Britaniya, Belçika, Finlandiya, Niderland, İspaniya, İsveç, İsveçrə*) çıxış edirlər. Bu çevrədə 100-dən çox reaktor istismar edilir. Prespektivdə nəhəng regional seqment kimi Asiya regionun (*Hindistan, ÇXR, Yaponiya. Pakistan, Koreya Respublikası, Tayvan*) çıxış edəcəyi gözlənilir ki, burada da istismar edilən reaktorların sayının 2030-cu ildə 300-ə çatacağı proqnoz olunur. Nüvə yanacağı üzrə qlobal təchizatçı qrupları qismində Fransa və AFR şirkəti (*AREVA*) - 31%, ABŞ və Yapon şirkəti (*Toshiba-Westinghouse Electric Company*) - 26%, Yapon nüvə yanacağı şirkəti (*Japan Nuclear Fuel Limited*) - 17% və Rusiyanın nüvə şirkəti (*ТК "ТВЭЛ"*) - 17% çıxış edirlər. Dünya nüvə yanacağı bazarı həm milli və həm də beynəlxalq səviyyədə ciddi hüquqi tənzimlənir və nəzarət olunur. Buna görə də burada istənilən səviyyədə yeni fəaliyyətə başlayan investora, praktiki olaraq, yer yoxdur.

Bütün bazar sferasında olduğu kimi, neft bazarında da qiymətin formalaşması mühüm olaraq tələb və təklif üzərində qurulur. Bununla belə, beynəlxalq enerjidaşıyıcılar bazarı qiymətqoymada fərqli cəhətləri ilə zəngin olan sahələrdəndir. Burada da ən geniş yayılmış arayış, faktiki, ticari, birja, təklif edilən, hesablanmış qiymətqoyma formaları mövcuddur. Ümumi qiymətqoyma formaları ilə yanaşı, enerjidaşıyıcılar bazarında əlahiddə olan bir sıra qiymətyaratma mexanizmləri də tətbiqini tapır. Belə ki, xarici ticarətdə neft kommersiya sövdələşməsi predmetinə çevrildikdə preyskurant və standartlara müvafiq olaraq onun qiymətlərində tərəfləri qane edən müxtəlif əlahiddə cəhətlərin də tətbiqi istisna olunmur. Bu hal həm ayrı-ayrı enerjidaşıyıcıların özlərinin spesefik cəhətlərindən və həm də enerji resurslarının müəyyən dərəcədə bir-birini əvəz etmək qabiliyyətli xüsusiyyətliliyindən irəli gəlir. Əlbəttə, belə əlamətlilik, öz növbəsində, dünya bazarının müxtəlif sektorlarında qiymət yaranışlarında mühüm təsir göstərir. Bununla belə, enerjidaşıyıcılar mühüm strateji məhsul olduğundan və bu resurslar təbii halda planetdə qeyri-bərabər yerləşdiyindən onların qiymət dəyişkənliyində xarici siyasi amillərin təsiri də əhəmiyyətli rol oynayır.

Enerjidaşıyıcılar bazarındakı əsas funksionallığın və spesifikliyin daha aydın analitik şərhinin verilməsi üçün beynəlxalq neft bazarlarındakı ticarət prosedurlarına baxılması daha məqsədəuyğundur. Bu seçim həm də ondan irəli gəlir ki, neft ticarəti dünya enerji bazarları sferasında daha böyük genişiklə qloballaşmışdır.

Dünya neft bazarında qiymətlərin bir sıra növləri vardır:

1. OPEK üzvü olan ölkələrin hökumətləri tərəfindən müəyyən edilən rəsmi satış qiymətləri.

2. OPEK-ə daxil olmayan ixracatçıların rəsmi satış qiymətləri. Bu qiymətlər həmin ölkələr tərəfindən OPEK-in qiymət səviyyəsindən, bazarın vəziyyətindən, hasilat xərclərindən və s. asılı olaraq müəyyən olunur.

3. Müxtəlif düsturlara görə hesablanan qiymətlər, o cümlədən "net-bek" qiymətləri.

4. Azad bazarda fəaliyyət göstərən və tələb-təklif nisbətinin təsiri altında formalaşan birdəfəlik sövdələşmə qiymətləri.

5. Birja sövdələşmə qiymətləri. Bu qiymətlər neft birjalarında birdəfəlik sövdələşmə qiymətləri, bazarın inkişaf proqnozları, alver əməliyyatları kimi amillər nəzərə alınmaqla müəyyən edilir. Bu da qısamüddətli dövrdə bazar vəziyyətinin indikatoru sayılır.

6. Neft məhsullarının növbəti reallaşması ilə birlikdə idxal ölkələrində neft emalına kontraktların qiymətləri.

7. Əmtəə mübadiləsi razılaşmalarının qiymətləri.

Müsair dünya neft bazarında qiymətlərlə bağlı iri beynəlxalq neft karteli OPEK mühüm təsir gücünə malikdir. Kartelin qiymətin formalaşmasında apadığı siyasət əksər hallarda neft bazarındakı fundamental faktları qabaqlayır. 1970-çi illərdə OPEK Qərb siyasətçiləri üçün ciddi qorxu mənbəyi idi. O vaxt bu təşkilat qiymətləri 4 dəfə artırmaq, ABŞ-a qarşı embarqolar tətbiq etmək imkanında idi. Bununla belə, OPEK neft ixracatını məhdudlaşdırmaqla bir çox ölkələrin iqtisadiyyatına ciddi təsir göstərər, orada inflyasiya tuğyanı yarada, fond birjalarında məzənnələri endirə bilərdi. Lakin vəziyyət indi bir qədər dəyişmişdir. Belə ki, bir çox hallarda dünya neft qiymətinin tənzimlənməsində OPEK-in əsas söz sahibi olmasını söymək çətinləşmişdir. Son onilliklərin təcrübəsi göstərir ki, böhranlı anlarda OPEK-i təmsil edən ölkələr götürdükləri öhdəlikləri tam həcmdə yerinə yetirməyə həmişə müvəffəq olmurlar. Buradakı tənzim mexanizmi o qədər də universal deyildir. Bu reallıq onu göstərir ki, beynəlxalq aləmdə neftin qiymətini tam tənzimləyən və koordinasiya edən vahid bir təşkilat yoxdur və qiyməti məsələsində yalnız bir qrup istehsalçı ölkələr güc sahibləri deyildirlər. Gerçəklik isə belədir ki, neftin qiyməti iki mühüm vəziyyətdən - satış bazarındakı meyillərdən və istehsal xərcləri parametrindən asılıdır. Bununla yanaşı, qiymət prosesinə digər iqtisadi və siyasi amillərdə təsir göstərir. Bu amillərin sırasında obyektiv olanlar daha çox üstünlük təşkil edir. Vurğulanmalıdır ki, neft satışını həyata keçirən beynəlxalq birjaları "neft səbəti" adlanan keyfiyyət toplumunu müxtəlif çeşidlərdən yaradırlar. Lakin burada OPEK səbəti dominant rola malikdir. OPEK neft səbəti (*OPEC Reference Basket*) OPEK karteli ölkələri tərəfindən xam neftin orta qiymətini hesablamaq üçün dünya bazarına çıxarılan ayrı-ayrı neft markalarından tərtib edilən şərti qarışıqdır. Rəsmi olaraq 1 yanvar 1987-ci ildən dövriyyəyə çıxarılmışdır.

Qlobal neft birjalarında ticarət prosesi 10 əsas ümumtanınmış neft markası üzrə qurulmuşdur. Qiymətin formalaşmasında "etalon" (*benchmark*) adı daşıyan Amerikadakı

NYMEX birjasının reallaşdırdığı orta Qərbi-Texas - "U.S West Texas İntermediate" (*WTI*) və Avropada IPE birjasında Şimal dəniz çeşidi - "Brent" fərqli dəyər və əhəmiyyəti ilə ön sırada qərar tutur. Hər iki marka Asiyada da SGX birjasında kotirovka olunur və eyni zamanda və burada ayrıca "Dubay" qarışıq marker növünün satışı da reallaşdırılır.

Nyu-York Əmtəə Birjası, NYMEX (*New York Mercantile Exchange*) neft fyuçersi kontraktlarının ticarəti üzrə ixtisaslaşmış Amerika fyuçers birjasıdır. 1882-ci ildə ABŞ-ın Nyu-York şəhərində təsis olunmuşdur. Neft fyuçersi kontraktlarının ticarəti üzrə dünya birincisidir.

Beynəlxalq Neft Birjası, IPE (*International Petroleum Exchange*) neft və digər enerjidaşıyıcılarının fyuçers və opision kontraktlarının ticarəti üzrə ixtisaslaşmış beynəlxalq birjadır. 1980-ci ildə Böyük Britaniyanın paytaxtı London şəhərində təsis olunmuşdur.

Sinqapur Birjası, SGX (*Singapore Exchange*) fond və valyuta ticarəti həyata keçirən beynəlxalq birjadır. 1999-cu ildə Sinqapur Fond Birjası və Sinqabur valyuta Birjasının birləşməsi əsasında təsis olunmuşdur. Birjada ticarət yalnız elektron formada aparılır.

Digər neft çeşidləri isə bu iki markaya - WTI və "Brent"ə uyğun təyin edilmiş diskont nisbətində satılır. WTI çeşidi çox yüngül və az kükürdlüdür. Buna görə də "WTI" və həmçinin, "Brent" də yüngül Əlcəzair nefti Saharan - "Brend" və yüksək kükürdlü ağır Fateh - "Dubay" neftindən daha bahadır.

Qərbi-Texas nefti, WTI (*ingiliscə* - West Texas Intermediate, WTI - *Qərbi Texas Aralıq*) ABŞ-ın Texas ştatında hasil edilən neftin markası. WTI nefti Layt Svit (*ingiliscə* - Texas light sweet - *Texas yüngül - şirin*) - Texas yüngül nefti adı ilə də məşhurdur. Bu tip neftdən, əsasən, benzin almaq üçün istifadə olunur. ABŞ və ÇXR-də böyük tələbə malikdir.

"Brent" nefti (*ingiliscə* - Brent Crude - *xam brent*) Şimal dənizində hasil edilən neft çeşidlərinin etalon markasıdır. Çeşidin adı 1970-ci ildə Şimal dənizində aşkarlanmış yatağın adından götürülmüşdür. "Brent" adlanışı Broom, Rannoch, Etive, Ness və Tarbert horizontlarının baş həriflərindən formalaşdırılmışdır. Yüngül və azkükürdlür və müvafiq göstəricilərinə görə WTI-ni üstələyir. Bütün dünya neft çeşidlərinin 40%-i bu marka əsasında qiymətləndirildiyindən "etalon" adlanır. Lakin o, son illər WTI ilə eyni qiymətə reallaşdırılır. Yaranan qiymət fərqləri isə nəql xərclərindən irəli gəlir. Əsasən, Şimal-qərbi Avropada emal edilir və əlverişli qiymət konyunkturasında ABŞ və Aralıq dənizi hövzəsində emal üçün göndərilir.

Dünya neft ticarəti arsenalında OPEK neft səbətindən başqa digər əlahiddə tanınmış irili-xırdalı çeşid və növlər də mövcuddur ki, onlar aparıcı birjalardakı qiymətləndirmələrdə iştirak etmirlər. Misal üçün, dünya neftinin 7%-nin hasil olunduğu Səudiyyə Ərəbistanının "Qafar" yatağının "yüngül ərəb nefti" adlanan çeşidi qiymətyaratmada marker nümunəsi titulu qazanmamışdır. "Layt" markasından olan Azərbaycan nefti isə dünya bazarlarına xüsusi "Azərlayt" adı ilə çıxarılır. "Azəri layt" neft markası Azərbaycana mənsub Xəzər dənizi sektorunda "Azəri" və "Çıraq" yataqlarından hasil

edilən neftin ticarət markasıdır. 1997-ci ildə sertifikatlaşdırılmışdır və ilk dəfə 1999-cu ildən Bakı-Supsa - QİBK kəmərinin işə düşməsi ilə əlaqədar dünya bazarına çıxarılmışdır. "Azəri layt" yüksək keyfiyyətli xam neft hesab edilir, 35°-5,5° qatılığa malikdir, tərkibində kükürd 0,14%-dir ki, bu da onun yüngül, qatışıqsız neft olmasını təmin edir. "Azəri layt", əsasən, dünya bazarlarında "Brent" keyfiyyət dərəcəsi ilə satılır.

Rusiyanın dünya neft bazarına inteqrasiyası, əsasən, "Yurlas" (*"Urlas" - Ural neft qarışığı*) və Sibir (*"Siberian Light" - duru Sibir*) neft qatışığları hesabına reallaşır. Rusiyanın neft ticarətində miqyaslılıq baxımından "Urlas" əsas funksiyanı yerinə yetirir. O, "Brent"in qiymətləri çevrəsində ondan 0,5-1% arası aşağı fərqlə satışa çıxarılır. Burada digər bir məqam isə ondan ibarərdir ki, İraqın "Kərkük" markalı nefti keyfiyyət baxımından Rusiyanın "Yurlas" nefti ilə paralellik təşkil edir. Bundan irəli gələrək, ekspertlər İraq neftinin ixrac potensialının artması ssenarisində Rusiya neftinin qiymət məzənnəsinin enəcəyinin proqnozunu verirlər.

Neft satışa çıxarılarkən sıxlıq amili ilə yanaşı tərkibindəki kükürdün miqyasına görə də çeşidləmə bölgüsünə məruz qalır. Kükürdlü neft aşağı qiymətləndirilir və onun emalı prosesi müəyyən mürəkkəbliklərlə müşayiət edilir. Məhz, kükürdlülük amilini nəzərə alaraq, emal müəssisələri azkükürdlü (*0,60%*), kükürdlü (*0,61%-dən - 1,80%-ə qədər*), yüksək kükürdlü (*1,80%-dən yüksək*) standarlaşmada xam neftin qəbulunu reallaşdırırlar.

Neftin çeşid müxtəlifliyi bir reallıqdır. Çeşidlənmə isə ilkin mənbəyini neft yatağının coğrafiyasından alır. Hər bir yataqda ayr-ayrı keyfiyyətdə neftin mövcudluğundan asılı olmayaraq, əmtəəyə çevrilmə perspektivində zəruri markalanmaya məruz qalır. Burada bir problem də ortaya çıxır. Belə ki, neft əksər hallarda alternativi olmayan kəmərlərlə nəql edilərək satışa çıxarılır. Bu və ya digər səbəblərlə bağlı isə aparıcı neft kompaniyaları bazar tələblərindən çıxış edərək istismar zonasının genişliyinə və yataqlar kateqoriyası amilinə nəzərən hasil etdikləri xam nefti "Neftin keyfiyyət bankı" adlanan sistemdən keçirilirlər. <u>Neftin keyfiyyət bankı</u> (*oil quality bank*) neftin qarışdırılması nəticəsində onun istehlak dəyərinin dəyişməsinin əvəzlənməsi metododikasıdır. Neftin keyfiyyət bankı hasiledici şirkətlərin çıxardıqları neftin keyfiyyəti üzrə gəlirləri differensasiya edir. Dünya təcrübəsində "Neftin keyfiyyət bankı" geniş tətbiq edilən prosedurlardandır. Şirkət kəmərə nə qədər aşağı keyfiyyətli ağır neft daxil edirsə, o qədər də yüksək keyfiyyətli istehsalçılara kompensasiyalar ödəyir. Kompensasiyalar isə aşağı keyfiyyətli neft təhvil verən təchizatçılardan müamilələr formasında alınaraq ödənilir. Beynəlxalq təcrübədə bu bankın alternativi kimi "betçinq" (*ingiliscə* - batching - *qruplaşdırma*, *dozalaşdırma*) adlanan təsisat da çıxış edir. Başqa sözlə, "betçinq" eyni kəmərlə ardıcıl olaraq müxtəlif keyfiyyətli neft və hətta neft məhsullarının nəqlini gerçəkləşdirir. İstənilən növ məhsul nəql edən Amerika "Williams" kompaniyasının sərəncamında eyni zamanda 30-dan çox müxtəlif maye partiyası olur və onlar qatışdırmadan ilkin keyfiyyətdə tələb olunan ünvanlara çatdırılır. Göründüyü kimi, "Neftin keyfiyyət bankı" qiymət yaranışda əhəmiyyətli rol oynayır.

Bazar sferasındakı fəaliyyət şirkətləri müvafiq qiymət siyasəti aparmağa, çevik konyunktur strategiya qurmağa kökləyir. Belə ki, bazar kortəbii şəkildə fəth olunmur. Qiymət taktikasında bazar fiqurantlarını öyrənmək, marketoloji tədqiqatlar aparmaq, tiracı optimallaşdırma və ən əsası isə rəqabətədavamlı, alıcı tələbinə uyğun keyfiyyət və standartlı məhsul buraxlışını təmin etmək mühüm əhəmiyyət daşıyır. Müvafiq tələblər xam neft istehsalçıları üçün də eyni mahiyyət kəsb edir. Neft diskont meyilli əmtəə olduğundan, onun qiymət təyinatı da mühüm olaraq fiskal yanaşmadan asılı olur. Bu əlamətliliyi nəzərə alaraq inkişaf etmiş ölkələrdə neftin qiymət mexanizminin qurulmasında rentaya, vergi münasibətlərinə son dərəcə önəm verilir.

Bazar konyunkturasına müvafiq olaraq, neft marker indikatorunda hər gün mühüm dünya birjalarının ticarət zallarında treyderlərlə alıcıların birbaşa qarşılıqlı təmasında qiymət təyinatını tapır. Ticarət əməliyyatlarında elektron sistemlərdən aktiv istifadə edilir. Birja əmtəəsi olduğu üçün neft də satışa çıxarılarkən həm keyfiyyətlilik baxımından və həm də satış-ölçü parametrliyi nöqteyi-nəzərindən standartlaşdırılır. Dünya ticarətində neft barel[10] ölçüsü ilə satışa çıxarılır. Neft-satış standartı isə 1 lot - 1000 barel həcmində götürülür. Neftin qiymət təyinatında birja katirovkası mühüm rolu var. O, qeydə alınmış birja kursudur və birja bülütenlərində çap edilir.

Birjalarda neftin satışı kontraktlar üzrə həyata keçirilir. Burada ticarət müştəri tələblərinə uyğun olaraq cari - spot və gələcək təhcizatlara oriyentasiya edilən fyuçers sövdələşmələri əsasında aparılır. Neftin fiziki təcizatı isə birja kontraktları üzrə çox az aparılır. Bu, ümümi ticarətin 1 faizini təşkil edir. Spot sazişi (*ingiliscə* - spot - *nağd, dərhal ödənilməli olan*) təcili təchizat və ödəniş tələbi ilə nağd əmtəənin və valyutanın satışı üzrə birja və ya birjadankənar sövdələşmədir. Spot şəraitində valyuta sövdələşməsi bir gün ərzində təmin olunur. Fyuçers sazişi (*ingilscə* - futures contract - *gələcək sazişi*) əmtəənin, səhmin, valyutanın alqı-satqısı üzrə hazırkı qiymətdə və gələcək dövrdə çatdırılmasının təsbit olunduğu birja müqaviləsi növüdür. Fyuçers ticarəti neft sövdələrinin əksəriyyətini əhatə edir və burada diskont həcmi hər barel üzrə cari qiymətlərə uyğun olaraq dəyişir. Fyuçerslər faktiki alışa bir ay qalmış hərəkətini dayandırır. Bir qayda olaraq, bu, ayın 15-nə qədər olur. Bir gün ərzində Londonda (*IPE*) orta hesabla 70 minə qədər (*sutkalıq neft hasilatına bərabər*), Nyu-Yorkda (*NYMEX*) 150 mindən çox (*sutkalıq neft hasilatından 2 dəfə çox*) fyuçer müqaviləsi bağlanılır.

Bazarda vaxta görə qiyməti xarakterizə edən volatillik adlı statistik göstərici tətbiqini tapır. Volatillik (*ingiliscə* - volatility - *dəyişkənlik*) zamana görə qiymət dəyişkənliyini xarakterizə edən maliyyə statistik göstərisidir. Ondan maliyyə riskininin idarə edilməsində bir iqtisadi alət kimi istifadə olunur. Əsasən, illik orta volatillik hesablanır. Mütləq ölçüdə (*100 ABŞ dolları ± 5 ABŞ dolları*) və ya nisbi ölçüdə ilkin dəyərindən (*100% ± 5%*) kəmiyyəti ilə hesablanır. Tarixi gözlənilən və tarixi gözlənilməyən volatillik fərqləndirilir. NYMEX və İPE birjalarında xam neft kontraktının bazis bəndi bir barel qiymətində - 1 sentə bərabərdir. Bu minimal mümkün qiymət

[10] 1 barel orta hesabla 159 litr

dəyişikliyidir. Onun dəyəri 10 ABŞ dolları qiymətində təyin edilir. Beləliklə, bir neft kontraktının nominal dəyəri (*birja indeksi - SL*) cari katirovkanın sentdə 10 dollara vurulmuş məbləğidir.

Neftin qiyməti məsələsində özünəməxsus mənfi və yaxud da məqbul cəhətlər var. Neftin qiymətinin qalxması və enməsi prosesində, bir tərəfdən, neft ixrac edən ölkələr ağır, başqa bir tərəfdən isə, idxalçı ölkələr nisbətən yaxşı vəziyyətlə qarşılaşırlar. Hasil ediləcək neftin miqdarı, qiyməti dünya iqtisadiyyatına mühüm təsir etdiyindən bu amilə ciddi yanaşılır. Bəzən bu məsələlərdə razılaşmamalar böyük, qlobal konfliktlərə çevrilmək dərəcəsinə çatır. Təcrübə göstərir ki, neft bazarında satıcılar, adətən, nəhəng və qüdrətli dövlətlər olmurlar. Bu reallıq bir qədər də ondan irləli gəlir ki, dünyanın əksər iri neft ehtiyatları üçüncü ölkələrin ərazilərində cəmləşmişdir. Həmin ölkələr daim xarici bazarın "qiymət stressi" ilə üzləşir, iqtisadi hazırlıqlarının zəifliyindən nefti xammal şəklində satmaq problemindən qurtula bilmirlər. Bu səbəblərlə də bir sıra Latın Amerikası və Afrika ölkələri hər gün hesablarına neft satışdan daxilolmaları gözləmək adəti ilə iqtisadiyyatlarını tənzimləyirlər. Nəticədə neft likvid dəyərindən də aşağı qiymətləndirilir və qeyri-paritet barter sövdələşmələrini stimullaşdırır. Sonda bu vəziyyət də müəyyən dərəcədə bazar konyunkturasına öz təsirini göstərir, qiymət enişləri yaradır.

Ümumiyyətlə, neft bazarında qiymətlər dövri tsiklli xarakter daşıyır. Qiymətin aşağı düşməsinin gercək təsir amilləri isə situasiyalardan qaynaqlanır. Müasir məqamda daha fərqli neft sənayesində qiymətlərin aşağı düşməsinin əsas amilləri aşağıdakılarla bağlanılır:

- ❑ neftin kəşfiyyatı və hasilatında texnoloji xərcləri azaldan ETT intensivliyi;
- ❑ neft bazarının restruktizasiyası - şirkətlərin birləşməsi və udulması;
- ❑ investisiya rejimlərinin liberallaşması - neft vergilərinin azaldılması, investor hüquqlarının genişləndirilməsi.

Neftin qiyməti digər xammal növlərinə nisbətdə daha çox dəyişikliklərə məruz qalır və ayrı-ayrı hallarda qiymətin tərəddüdü prosesi, hətta bir neçə il davam edə bilər. Bu hal, üstün olaraq, əmtəə bazarındakı məhsul izafiliyi və çatışmazlığı ilə əlaqələndirilir. Məhsul izafiliyi və çatışmazlığı isə o qədər də iqtisadi faktorların təsiri ilə baş vermir. Burada vurğulandığı kimi, siyasi amillər də əhəmiyyət daşıyır. Qiymət qalxmaları və enişləri istehsalçılar və istehlakçıların davranışları ilə də tərəddüd edir. Belə ki, neftin əsas istehlakçıları - ABŞ, Qərb ölkələri, Yaponiya və ÇXR neft hasilatında mühüm rol oynayan, əsasən, Şərq ölkələrinin təsir dairəsini azaltmaq üçün müəyyən üsullardan istifadə edirlər. Bunun üçün müxtəlif alyanslar və ittifaqlar yaradır, enerji təsisatlandırmalarını genişləndirirlər. Bu təsisatlardan biri kimi Avropa Enerji Xartiyasını göstərmək olar.

<u>Avropa Enerji Xartiyası</u> (*European Energy Charter*), əsasən, istehsalçılarla ikinci eşalonda olan istehlakçılar arasında müqavilə olaraq enerjidaşıyıçılarının satışı sahəsində niyyət bəyənnaməsidir. 1991-ci ilin dekabr ayında Niderlandın paytaxtı

Haaqa şəhərində 54 ölkənin işrirakı ilə qəbul olunmuş və siyasi bəyanat olaraq 1998-ci ildə qüvvəyə minmişdir. Hazırda Xartiyaya Azərbaycan da daxil olmaqla 67 ölkə və iki beynəlxalq təşkilat qoşulmuşdur. Burada OPEK ölkələri iştirak etmirlər. Avropa Energetika Xartiyasi siyasi bəyannamə olduğundan onun normaları deklarativ xarakter daşıyır və heç bir huquqi öhdəlik yaratmır. O, etibarlı və dayanıqlı iqtisadi inkişaf əsasında energetika sahəsində ümumi maraqları nəzərə almaqla, beynəlxalq əməkdaşlığın bazasını təşkil edən prinsipləri müəyyən edir. Avropa Enerji Xartiyasi əsasında Energetika Xartiyası Müqaviləsi hazırlanmışdır. Energetika Xartiyası Müqavilasi mövcud beynəlxalq hüquq çərçivəsində energetikaya xarici sərmayələrin qoyuluşunun təşviqi və qorunması, energetika materiallarının sərbəst ticarəti, boru kəmərləri və energetika şəbəkələri vasitəsilə enerjinin sərbəst tranziti, enerjinin dövrü zamanı ətraf mühitə mənfi təsirin azaldılması məsələlərini, o cümlədən dövlətlərarası və ya sərmayəçi ilə dövlət arasında mübahisələrin həlli mexanizmlərini tənzimləyir. Müqavilə enerji əməkdaşlığı üzrə hökumətlərarası sazişdir və Avropa Energetika Xartiyasından fərqli olaraq Sazişi imzalamış tərəflər arasında hüquq və öhdəliklər yaradır. Müqaviləyə görə, istehsalçı ölkələr istehlakçı ölkələrdə baş verəcək enerji böharında çatışmayan hissənin konpensasiyasını həyata keçirməlidirlər.

Avropa Enerji Xartiyası enerji sektorunda hökumətlərarası əməkdaşlığın yeganə sazişi kimi çıxış edir. O, axtarış-kəşfiyyat işlərindən son istehlaka qədər bütün enerji istehsal-satış həlqəsini, energetika məhsullarını və onunla bağlı energetika avadanlıqlarını əhatə edir. Onun əsas məqsədi üzv hökumətlərin energetika sahəsində investisiya və ticarət risklərini minimuma endirmək üçün vahid qaydalar məkanı yaratmaqla energetika məsələləri ilə bağlı bütün hüquqi normaları möhkəmləndirməkdən ibarətidir.

Avropa Energetika Xartiyasi coğrafi baxımdan Avstraliya, Şimali va Cənubi Amerika, Afrika, Avrasiya və digər dovlətləri əhatə etdiyindən yeni "Beynalxalq Enerji Xartiyasi üzrə Nazirlər Konfransınının (*Haaqa II*) Yekun Sənədi"nin imzalanması zərurəti yaranmışdır. Bu məqsədlə 2015-ci ilin may ayında BMT-nin üzv dövlətlərinin yarıdan çoxunun iştirakı ilə Beynəlxalq Energetika Xartiyasi üzrə Nazirlər Konfransı ("*Haaqa II*") keçirilmiş və həmin Konfransda qeyd olunan Yekun Sənədi 70-dan artıq dövlət imzalamışdır.

Bundan başqa, enerji sahəsində nəhəng beynəlxalq qeyri-kommersiya enerji təşkilatı olan Dünya Enerji Şurası (*World Energy Council, WEC*) da fəaliyyət göstərir. BMT-də akkreditə olunan bu qurum enerji problemləri ilə məşğuldur və öz sıralarında dünyanın 100-ə yaxın ölkəsindən 3000-dən çox dövlət təşkilatını və özəl təşkilatı birləşdirir. Dünya Enerji Şurası tərəfindən hər il Energetika Trilemmasının[2] İndeksi dərc olunur.

Energetika Trilemmasının İndeksi (*Energy Trilemma Index*) müxtəlif ölkələrdə enerji sistemlərinin səmərəliliyinin qiymətləndirən indeksdir. Bu indeks ölkənin davamlı enerji sistemi ilə təminetmə qabiliyyətini üç ölçüdə - enerji təhlükəsizliyi (*daxili enerji istehsalını və idxal enerjini, həmçinin cari və gələcək enerji tələbatını etibarlı*

*enerji infrastrukturu ilə səmərəli idarəetmə*), enerji bərabərliyi (*geniş ictimaiyyət asan və ucuz enerji təminatına giriş əldə edə bilər*) və ekoloji dayanıqlılıq (*enerjieffektivliyi tələb və təklifin, bərpa olunan enerji və aşağıkarbonlı mənbələrin işlənməsinin tərəfindədir*) prinsipləri üzrə qiymətləndirir. Dünya Enerji Şurasının 2017-ci il üçün tərtib etdiyi müvafiq indeksdə Danimarka 125 ölkə arasında dünya ölkələri arasında birinci (*enerji təhlükəsizliyi üzrə birinci, enerji bərabərliyində 12-ci, ekoloji dayanıqlılıqda 4-cü yerdə*) yerdədir. Azərbaycan reytinqdə Cənubi Koreya, Avstraliya, Çin, Rusiya Federasiyası kimi ölkələri geridə qoyaraq Yaponiyadan sonrakı 31-ci yerdə (*enerji təhlükəsizliyi və enerji bərabərliyi üzrə 44-cü, ekoloji davamlılıq üzrə 19-cu pillədə*) qərarlaşmışdır.

Xam neftin müasir bazar konyunkturu, sistem və prosedur özəllikləri birdən-birə yaranmamış və hazırkı hala gəlib yetişməmişdir. Bu struktur formatı uzun bir tarixi yol keçərək, özünün oyun qaydalarını formalaşdırmış və manevr imkanlarını genişləndirmişdir. Bu baxımdan da son bir əsrdə neftin qiymət tərəddüdünü qaynaqlandıran hadisələrin də təhlil edilməsi, elmi dəyərləndirilməsi mühüm hesab edilməlidir. Tarixi qaynaqlar, statistik məlumatlar göstərir ki, XX əsrin əksər hissəsində neft sənayesinin məhsulunun qiymətləri ABŞ-ın nəzarəti altında sərt təmzimlənmişdir. II Dünya Müharibəsindən sonrakı dövrdə (*1947-1997-ci illər*) neftin bir barelinin qiyməti 19,27 ABŞ dolları olmuşdur. Bu arada, 1948-1970-ci illərdə neftin qiyməti 2,5-3,0 ABŞ dolları diapozonda tərərddüd etmiş, 1958-1972-ci illər kəsiyində yenə də o, sabit orta qiymətdə - 1 barel 3 ABŞ dollarına satılmışdır. İnflyasiya nəzərə aldındıqda bu rəqəmlər 14-16 ABŞ dolları miqyasında hesablanır. Göründüyü kimi, xam neftin qiyməti 20 ildən çox bir müddət ərzində demək olar ki, tam dəyişməz qalmış və dünya iqtisadiyyatının stabil və davamlı inkişafında dəyərli xidmət göstərmişdir. 1973-1974-ci illərdə vurğulandığı kimi, Yaxın Şərqdəki hərbi münaqişə neftin qiymətlərinə sarsıdıcı zərbə vurmuş, qısa bir müddət ərzində qiymətlər dörd dəfə artaraq, 12 ABŞ dollarına yüksəlmişdir. Bu illərdə neftin qiymətindəki kəskin artım qlobal miyqaslı rezonanslar doğurdu. Bu böhrandan sonra istehlakçılar daha dəqiq dərk etməyə başladılar ki, neftin qiymətinin idarə edilməsi çox mürəkkəb fazaya daxil olmuşdur və o daha güclü iqtisadi və siyasi silaha çevrilmişdir. Görülən tədbirlər nəticəsində qiymətlərin nəzarətə götürülməsi baş versə də, bu uzunmüddətli olmadı və sonrakı yaxın dövrdə, 1974-1978 illər arasında qiymətlər yenidən artaraq 1 barel üzrə 12-14 ABŞ dolları təşkil etdi.

1979-1980-cı illərdə İran və İraq müharibəsi ilə bağlı hadisələr yenidən neftin qiymətinin dəyişikliyində əks olunmuşdur. Bu müharibənin də qiymət dəyişikliyinə əsaslı təsirini araşdırılması üzrə aparılan təhlili göstərir ki, həmin ölkələrdə neft hasilatı həqiqətən aşağı düşmüş və bunun nəticəsində qiymət artımı baş vermişdir. İran və İraqın neft potensialının ixrac miqyaslılığı isə, təbii ki, dünya neft bazarına sirayət etmiş və qiymət artımlarını stiumullaşdıraraq 1981-ci ildə 1 barel nefti 31 ABŞ dollarına yüksəltmişdir.

1980-ci illərin yüksək qiymət tərəddüdləri enerji sektorunda bir sıra mühüm dəyişiklilərin yaranışına da səbəb olmuşdur. Bunun nəticəsində evlərin istilik qoruyuculuğunda tamamilə yeni texnologiya yaranmış, sənaye müəssisələrinin elekrtik enerjisi istifadəsində səmərərəlik artmış, avtomobil istehsalçıları daha qənaətcil yanacaq istehlakı edən avtomobillər buraxmışdılar. Bütün bu amillər ümumi dünya iqtisadi resessiyası ilə birlikdə xam neftin qiymətinin aşağı düşməsinə gətirmişdir. Lakin bu qiymət enişləri öz-özlüyündə xam neftə olan tələbin artması ilə müşayiət edilməmişdir. Yeni istehlak meyilinə nəzərən 1982-1985-ci illərdə OPEK qiymətləri hasilata aşağı kvotaları tətbiq etməklə sabitləşdirməyi qarşısına məqsəd qoymuşdur. Lakin bu cəhdlər bir neçə dəfə uğursuzluğa düçar olmuşdur. Belə ki, OPEK üzvü ölkələrinin bir hissəsi kvotalarda nəzər tutulduğundan daha çox neft hasil etmişlər. Həmin müddət ərzində Səudiyyə Ərəbistanı bütün OPEK ölkələri üçün neft hasilatı həcmlərinin tənzimləyicisi funksiyasını yerinə yetirərək, özünü hasilat normasının kəskin azaltmış, qiymətin aşağı düşməsində (*1 barel 10 ABŞ dolları*) çox mühüm və əsaslı rol oynamışdır. Bu təsir o qədər güclü rezonas yaratmışdır ki, Sovet İttifaqı kimi fövqəldövlət belə iqtisadi sarsılmış və sonradan onun çökməsində bu amilin də həlledici olduğu yəqin edilmişdir. Növbəti mərhələdə Səudiyyə Ərəbistanının bu strategiyada olan mühüm təsiri azalmış və OPEK ölkələrinin 1988-ci ilin sonunda əldə etdiyi razılığa, əsasən, neftin qiymətinin artırılmasına start verilmiş və həmin ildə artıq neft bazarlara satışa 1 barel 18 ABŞ dolları olmaqla çıxarılmışdır.

1990-cı ildə İraqın Küveytə hücumu zamanı neftin qiymətləri yenidən artmağa başlamışdır. Müharibə bitdikdən sonra isə qiymətlər yenidən mütəmaddi olaraq yüksəlmiş, 1994-cü ildə apogeye çataraq, yenidən aşağı enməyə başlamışdır. İnflyasiya nəzərə alındıqda bu qiymətlərin özünün 1973-cü ildəki səviyyəsinə çatmamadığı müəyyən olunur. XX əsrin sonlarından başlayaraq neftin qiymət tsikli yenidən dəyişdi və qiymətlər artmağa istiqamət götürdü. 1990-1997-ci illərdə Amerika iqtisadiyyatının möhkəmlənməsi ilə baş verən iqtisadi yüksəlişlər qiymətlərin yenidə artmasına səbəb oldu. Bu tsikl 1997-ci il Asiya maliyyə böhranı nəticəsidə qapandı və qiymətlər 30 ABŞ dollarına endi. Sonradan qiymət resessiyası dəyişərək aramla artmış və əsrin sonuna qədər orta sabit həddə tərəddüt etmişdir.

İdxalçı ölkələri 2000-2004-cü illər bazar meyilləri daim həyəcanlı vəziyyətdə saxlasa da, bu müddət ərzində neftin qiymətləri 25-30 ABŞ dolları arası tərəddüt etmişdir. Bununla belə, 2005-ci ildən başlayaraq neftin qiymətində, demək olar ki, dönüşsüz bir artım, baş vermişdir. Bu dinamizm 2008-ci ilin ortalarına qədər davam etmiş, neftin qiyməti rekord səviyyəyə qalxmış, 1 barel 150 ABŞ dolları həddini aşmış və yaranan ümümdünya maliyyə börhanı ilə bu dinamika sürətli reqressiya ilə əvəz olunmuşdur.

1900-2018-ci illərdə dünyada neftin orta nominal qiymətlərini xarakterizə edən məlumatlar cədvəl 18-də öz əksini tapmışdır.

*($/barel)*

| İllər | Qiymətlər | İllər | Qiymətlər | İllər | Qiymətlər | İllər | Qiymətlər |
|---|---|---|---|---|---|---|---|
| ***1900*** | 1,19 | ***1930*** | 1,19 | ***1960*** | 1,9 | ***1990*** | 23,84 |
| ***1901*** | 0,96 | ***1931*** | 0,65 | ***1961*** | 1,8 | ***1991*** | 20,05 |
| ***1902*** | 0,8 | ***1932*** | 0,87 | ***1962*** | 1,8 | ***1992*** | 19,37 |
| ***1903*** | 0,94 | ***1933*** | 0,67 | ***1963*** | 1,8 | ***1993*** | 17,07 |
| ***1904*** | 0,86 | ***1934*** | 1 | ***1964*** | 1,8 | ***1994*** | 15,98 |
| ***1905*** | 0,62 | ***1935*** | 0,97 | ***1965*** | 1,8 | ***1994*** | 15,98 |
| ***1906*** | 0,73 | ***1936*** | 1,09 | ***1966*** | 1,8 | ***1995*** | 17,18 |
| ***1907*** | 0,72 | ***1937*** | 1,18 | ***1967*** | 1,8 | ***1996*** | 20,8 |
| ***1908*** | 0,72 | ***1938*** | 1,13 | ***1968*** | 1,8 | ***1997*** | 19,3 |
| ***1909*** | 0,7 | ***1939*** | 1,02 | ***1969*** | 1,8 | ***1998*** | 13,11 |
| ***1910*** | 0,61 | ***1940*** | 1,02 | ***1970*** | 1,8 | ***1999*** | 18,25 |
| ***1911*** | 0,61 | ***1941*** | 1,14 | ***1971*** | 2,24 | ***2000*** | 28,98 |
| ***1912*** | 0,74 | ***1942*** | 1,19 | ***1972*** | 2,48 | ***2001*** | 24,77 |
| ***1913*** | 0,95 | ***1943*** | 1,2 | ***1973*** | 3,29 | ***2002*** | 25,99 |
| ***1914*** | 0,81 | ***1944*** | 1,21 | ***1974*** | 11,58 | ***2003*** | 28,2 |
| ***1915*** | 0,64 | ***1945*** | 1,05 | ***1975*** | 11,53 | ***2004*** | 27 |
| ***1916*** | 1,1 | ***1946*** | 1,12 | ***1976*** | 12,38 | ***2005*** | 56,7 |
| ***1917*** | 1,56 | ***1947*** | 1,9 | ***1977*** | 13,3 | ***2006*** | 59,73 |
| ***1918*** | 1,98 | ***1948*** | 1,99 | ***1978*** | 13,6 | ***2007*** | 87,21 |
| ***1919*** | 2,01 | ***1949*** | 1,78 | ***1979*** | 30,03 | ***2008*** | 145 |
| ***1920*** | 3,07 | ***1950*** | 1,71 | ***1980*** | 35,69 | ***2009*** | 67 |
| ***1921*** | 1,73 | ***1951*** | 1,71 | ***1981*** | 34,28 | ***2010*** | 84,9 |
| ***1922*** | 1,61 | ***1952*** | 1,71 | ***1982*** | 31,76 | ***2011*** | 115,2 |
| ***1923*** | 1,34 | ***1953*** | 1,93 | ***1983*** | 28,77 | ***2012*** | 113,3 |
| ***1924*** | 1,43 | ***1954*** | 1,93 | ***1984*** | 28,66 | ***2013*** | 108,7 |
| ***1925*** | 1,68 | ***1955*** | 1,93 | ***1985*** | 27,51 | ***2014*** | 106,5 |
| ***1926*** | 1,88 | ***1956*** | 1,93 | ***1986*** | 14,38 | ***2015*** | 53,17 |
| ***1927*** | 1,3 | ***1957*** | 1,9 | ***1987*** | 18,42 | ***2016*** | 49,8 |
| ***1928*** | 1,17 | ***1958*** | 2,08 | ***1988*** | 14,96 | ***2017*** | 54 |
| ***1929*** | 1,27 | ***1959*** | 2,08 | ***1989*** | 18,2 | **2018** *(proqnoz)* | 80 |

**Cədvəl 18. 1900-2018-ci illərdə dünyada neftin orta nominal qiymətləri**

Son 118 il ərzində neftin qiymət dəyişkənliklərinin dövrü aşağıdakı düzümdə qərarlaşır:

1. Neftin 1 barel = 1 ABŞ dolları mərhələsi (*1900-1920-ci illər*);
2. Neftin 1 barel = 2-3 ABŞ dolları mərhələsi (*1921-1973-ci illər*);
3. Ərəb embarqosu mərhələsi, 1 barel = 12-13 ABŞ dolları (*1973-1974-ci illər*);

4. Azenerjitutumlu texnologiyalara keçid mərhələsi, 1 barel = 11-30 ABŞ dolları (*1974-1980-ci illər*);

5. Postindustrial təşəkkül mərhələsi, 1 barel = 1 ABŞ dolları (*1981-2005-ci illər*);

6. Kəskin qiymət sıçrayışları mərhələsi, 1 barel = 1 ABŞ dolları (*2005-2008-ci illər*);

7. 2008-2013-cü illər qlobal maliyyə böhranı mərhələsi;

8. 2014-cü ildən Rusiya-Ukrayna münaqişəsi ilə başlanan yeni mərhələ;

9. 2015-2018-ci illər kəskinləşən Suriya böhranı - neftin yeni qalxınma mərhələsi.

Bununla belə, vurğulanmalıdır ki, son bir əsrdə dünya iqtisadiyyatı müxtəlif mərhələli labüd inflyasiya dəhlizlərindən keçmiş və bu müddət ərzində dolların paritet istehlak qabiliyyəti də yetərli dərəcədə dəyişikliklərə uğramışdır. Bu isə o deməkdir ki, bir əsrlik iqtisadi tiskldə neftin qiymət dəyişkənliklərinə qəti və dolğun təyinat vermək çətindir.

## 11.6. Dünya əmək bazarı

Bazar münasibətlərinin genişlənməsi dünya iqtisadiyyatında struktur təkmilləşmələrini, sosial-iqtisadi irəliləyişləri stimullaşdırsa da, bir sıra sahələrdə problemli məsələlərin yaranmasına da səbəb olur. Bu sırada işsizlik, miqrasiya, işçi qüvvəsi və onun bazar quruluşu ilə bağlı problemlər çoxsaylı sosial, iqtisadi və siyasi gərginliklərlə müşayiət olunaraq, dünya iqtsadiyyatında daha kəskinliyi ilə müşahidə edilir. Bu neqativ təzahür dövlətlər, dünya birliyi, qanunverici təşkilatlarla yanaşı, elmi ictimaiyyətin də diqqət mərkəzində yer alır.

"Əmək bazarı" və "işçi qüvvəsi bazarı" iqtisadi ədəbiyyatda sinonim anlayışlar kimi işlədilirlər. K.Marks nəzəriyyəsinə nəzər yetirdikdə görərik ki, əmtəə kimi işçi qüvvəsi çıxış edir. Təcrübədə isə məhz əmək alqı-satqı predmetinə çevrilir. Belə ki, işə götürəni onun tələb olunan əmək kəmiyyətini təmin etmək üçün işçi sayı maraqlandırır. Muzdlu işçi üçünsə alacağı əmək haqqını onun əmək kəmiyyəti təyin edir.

Əmək bazarı, işçi qüvvəsi bazarı (*labor market*) işçi qüvvəsinin tələb və təklifinin formalaşması sferasıdır. Əmək bazarı vasitəsi ilə müəyyən müddət üçün işçi qüvvəsi satılır.

Əmək bazarı haqqında mülahizələr apararkən, ilk növbədə, əməyin özünün nəzəri təyinatını göstərmək lazımdır. Sosial-fəlsəfi interpretasiyada əmək tərkib hissəsində yaradıcılıq, ictimaiyyətin, insanın tarixən yaranmış və qurulmuş tələblərinin təmin olunması, təbii və sosial güclərin mənimsənilməsində məqsədyönlü fəaliyyətdir. Əmək, mahiyyətcə, ustalıq məsuliyyətdə ifadə olunan nəticələrin keyfiyyəti, fəaliyyət şəraiti, ümumiyyətlə isə istehsalı təmin edən bütün vasitələr əhatəsində pərvəriş tapır və 5 əsas istehsal amilindən biri kimi dəyərləndirir. Əmək prosesi özündə insanın məqsədəuyğun fəaliyyətindən, əməyin istiqamət predmetindən və əmək vasitəsindən ibarət olan üç əsas amili ehtiva edir.

Əmək potensiallılıq baxımından hesablanmaya məruz qalır. Əmək potensialının hesablanması metodikasında əmək resursları insanların sayı, əmək qabiliyyətində olanlar, böyük və kiçik yaşlı işçilər aid edilir. Sosial və peşə strukturuna görə BMT-nin, BƏT-in statistikasında və digər beynəlxalq təşkilatlarda ictimai sinfi struktur sahibkarlar, kiçik mülkiyyətçilər, təsbit olunmamış əmək haqqı ilə işləyən ailə üzvləri, muzdlu işçilər, istehsal kooperativlərinin üzvləri, ictimai istehsal sistemində yerləri müəyyən olunmamış şəxslər kimi təsnifləndirilir.

Əmək prosesində əməyin reduksiyası da az əhəmiyyət daşımır. Əməyin reduksiyası bilavasitə ictimai əmək şəraitində planauyğun prosesdir və o, mürəkkəb əməyin sadə əməyə çevrilməsi ilə xarakterizə olunur. Tətbiqi menecmentin banilərindən biri, "ABŞ avtomobil sənayesinin atası" adını qazanmış Henri Fordun (*1863-1947*) yaratdığı konveyer sistemi əmək məhsuldarlığının artmasına və məhsulun maya dəyərinin aşağı düşməsinə səbəb olmuşdur. O özünün "Mənim həyatım, mənim nailiyyətlərim", "Bu gün və sabah" əsərlərində əməyin intensivliyinin görünməmiş dərəcədə artmasına, onun avtomatizminə gətirib çıxaran "fordizm" adlanan yeni bir nəzəriyyənin əsasını qoymuşdur. Fordizm (*fordism*) kütləvi fasiləsiz istehsalın təşkili ilə bağlı unifikasiya olunmuş, konveyerli quraşdırma prinsiplərinə əsaslanan, kiçik istehsal xərcləri müqabilində böyük əmək məhsuldarlığı ilə müşayiət edilən istehsalın axınlı təşkili sistemidir. İntensiv əməyi mexanikləşdirmə, onu hər cür mükafatlandırma, industriyanın yüksək ixtisaslı generallarla təminatı fordizmin əsas idarəetmə meyarlarındandır. Öz sələfləri kimi H.Ford da elmi biliklərin istehsalın təşkilində və idarəetmədə geniş tətbiqinin carçılarından olmuşdur. Müasir idaretmə elminin formalaşmasında praktiki təşkilatçılarla yanaşı elmi analitiklər Frenk Banker Gilbret (*1868-1924*), Harrinqton Emerson (*1853-1931*), Piter Ferdinand Druker və digərləri əzəmətli elmi tədqiqatlar aparmışlar. Müasir dövrdə iqtisadi istehsal sistemində yeni paradiqma - "postfordizm" əhəmiyyətini artırmaqdadır. Postfordizm (*ingiliscə* - postpordism - *fordçuluqdan sonra*) "fordsizmi" əvəzləyərək geniş çeşidli əmtəələrin kiçik seriyalı buraxılışına əsaslanan və istehlakçı tələblərini nəzərə alaraq daim modifikasiya olunan iqtisadi istehsalın təşkilinin yeni sistemidir. Daha çox XX əsrin sonlarında iqtisadi inkişaf etmiş ölkələrdə dominantlıq qazanmışdır. Qloballaşma və postindustrial cəmiyyət quruculuğu ilə bilavasitə bağlıdır. Kiçik seriyalı istehsal, məhsul və ixtisasların dar ixtisaslaşması, vüsətli qənaət (*economies of scope*), yeni informasiya texnologiyaları, xidmət sferasının çiçəklənməsi və "ağ yaxalıqlar", həmçinin, işçi qüvvəsinin feminizasiyası ilə xarakteriktir.

Əmək bazarı iqtisadi sferada və ictimai-siyasi həyatda mühüm əhəmiyyət daşıyan, spesifik əmtəə olan işçi qüvvəsinin alqı-satqısının iqtisadi sistemini təşkil edir. Bütün əmtəələr kimi, əmək bazarı da tələb və təklif üzərində qurulur. Onun əsas əmtəəsi kimi işçi qüvvəsi çıxış edir. Qlobal dünyanın bir çox ölkəsinin iqtisadi terminologiyasında işçi qüvvəsi, əsasən, iqtisadi aktiv əhali anlamını verir.

Əmək bazarında iş qüvvəsinin dəyəri qiymətləndirilir, əməyin şəraiti, əmək haqqının kəmiyyəti, təhsil almaq imkanları, məşğulluğun təminatı və s. müəyyənləşdirilir. Bununla belə, əmək bazarı spesifik infrastruktura malikdir. Bu infrastrukturu əmək

bazarının daha üstün səmərəli funksionallığını təmin edən normativ-hüquqi mühit təcəssüm etdirir.

Əmək bazarının infrastrukturuna aşağıdakılar daxil edilir:

❖ dövlət təsisatları;
❖ məşğulluğa yardım edən qeyri-dövlət təşkilatları;
❖ şirkət və müəsissələrin personalının idarə edilməsinin kadrlar xidməti;
❖ ictimai fond və təşkilatlar.

Əmək bazarı daxili və xarici, həmçinin, açıq və bağlılıq meyarları ilə də fərqləndirilməklə yanaşı, müvafiq subyektlərə və komponentlərə malikdir. Onun subyektləri kimi aşağıdakılar çıxış edirlər:

❖ işə götürənlər və onların nümayəndələri - ittifaqlar;
❖ işçilər və onların nümayəndələri - həmkarlar ittifaqları;
❖ dövlət və onun orqanları - əmək, sosial müdafiə və digər funksional mərkəzi icra orqanları, əmək və məşğulluqla bağlı departamentlər və s.

Əmək bazarının əsas komponentlərini isə aşağıdakılar ifadə edir:

❖ işçi qüvvəsinə tələb və təklif;
❖ işçi qüvvəsinin dəyəri;
❖ işçi qüvvəsinin qiyməti;
❖ iş təqdim edənlər, işə qəbul olunanlar və muzdlu işçilər arasında rəqabət.

Əmək bazarı müasir dövrdə milli sərhədləri aşaraq qloballaşır və bu sferada dünya əmək bazarı qismində fəaliyyət göstərir. Dünya əmək bazarı (*international labor market*) əmək üzrə tələb və təklifin qarşılıqlı təsirini dövlətlərarası səviyyədə təmin edən iqtisadi mexanizm, norma və institutlar sistemidir. O, əmək miqrasiyasının varlığı formasıdır. Dünya əmək və ya işçi qüvvəsinin bazarı milli sərhədləri keçən müxtəlif istiqamətlərə yönəlmiş əmək ehtiyatları axınlarını əhatə edir. O, işçi qüvvəsinin milli və regional bazarlarını birləşdirir. Dünya əmək bazarı milli bazarların nəinki sadəcə məcmusu, həm də istehsalın güclənən beynəlmiləlləşməsi prosesləri və xalqlar arasında ünsiyyətin artdığı şəraitdə bazarın yeni keyfiyyətli inkişafıdır. Milli bazarlar getdikcə öz qapalılıqlarını və fərdiliklərini itirirlər. Onların arasında işçi qüvvəsinin transmilli axınları və yerdəyişmələri meydana çıxır ki, bu da daimi və müntəzəm xarakter alır.

AFR, Fransa, Böyük Britaniya, İsveçrə, Belçika, İsveç və Niderland kimi Aİ ölkələri işçi qüvvəsinin əsas tələb bazarları kimi çıxış edirlər. Təklif bazarlarını isə, əsasən, inkişaf etməkdə olan ölkələr təmin edirlər. Bu funksionalıq BMT tərəfindən aparılan tədqiqatlarda genişliklə öz əksini tapır. Bununla belə, "beyin axını" müasir dünya işçi qüvvəsi bazarının əsas seqmentini təşkil edir. Bu əmtəə isə daha çox inkişaf etməkdə olan ölkələrdən inkişaf etmiş ölkələrə doğru axın etsə də, böyük prorosiyalarda hər iki qrup ölkələr daxilində yerdəyişmələrə məruz qalır.

İnsanların fəaliyyət mövcudluğunu xarakterizə edən meyarlardan biri də onların "özfəaliyyət" və "qəyyumluqda olan" kateqoriyalarına bölünməsidir. Bu meyara görə, əgər pensiyaçının əmək haqqı pensiyasının məbləğini üstələyirsə, o, şəxsi fəaliyyət,

əksinədirsə, qəyyumluqda olanlar qisminə aid edilir. Şəxsi fəaliyyətlə məşğul olan əksər əhali aktiv faydalı əməklə ictimai istehsalda iştirak edir. Spesifik olan digər aktiv əhali qrupu - psevdoəmək kateqoriyası da mövcuddur. Buraya rantyelər, professional cinayətkarlar, lümpenlər, dilənçilər, türkəçarələr, falçılar, sutenyorlar və onlarla bağlı olanlar kimi neqativ peşə sahibləri də aid edilir.

İşçi qüvvəsinin əsas dünya bazarları və onların müqayisəli xarakteristikası onu göstərir ki, bu bazarlarda işçi qüvvəsinin seqmentləşmə meyili artır. Alıcı və satıcılar işçi qüvvəsinin rəqabətlilik imkanı, peşəkarlığı və sosial dayanıqlılığı amillərini əsas götürərək bazar konyunkturasının inkişaf meyilləni gücləndirir, qaydalar sistemini, idarəetmə və tənzimləmə aparatını təkmilləşdirirlər. Əmək bazarındakı rəqabət peşəkar işçi qüvvəsini formalaşdıraraq əmək bölgüsünün yeni xarakterini stimullaşdırır. Burada vacib şərt olaraq həm qlobal və həm də lokal kontekstdə əmək təklifinin yeni sferalarını yaratmaq zəmnində bazar həcminin genişləndirilməsi, iqtisadiyyatın struktur yenidənqurmasını, səmərəli investisiya proqramlarının hazırlanmasını, gizli işsizliyin, əmək bazarında qeyri-formal münasibətlərin ləğvini təmin etmək durur. Bununla belə, məşğulluqla bağlı siyasətin özünün də daha aktiv formaya keçidi şərtləndirilməlidir.

## 11.7. İdxal və ixracın müasir təşkilatı formaları

İdxal və ixracın müasir təşkilatı formaları çoxşaxəli və müxtəlifdir. Müasir zamanda beynəlxalq ticarət idxal və ixracın aşağıdakı təşkilati formalarından istifadə edir:

***Hazır məhsul ticarəti:***

Hazır məhsul - son istehlak üçün nəzərdə tutulmuş məhsuldur. Hazır məhsul ticarəti bilavasitə istehsalçılarla istehlakçılar arasında və ya vasitəçilərin köməyilə müqavilələrin imzalanması yolu ilə həyata keçirilir. Bu zaman vasitəçilərin satışdanqabaqkı servis xidməti və satışdanqabaqkı işlər, maşın-texniki mallar üçün isə texniki xidmət də istisna olunmur. Satışdanqabaqkı servis xidməti malların texniki xüsusiyyətlərini dəyişmir - bu, daşınmadan sonra malların yenidən işə salınması, onlara əmtəə görünüşünün verilməsi üzrə işlər kompleksidir.

***Məhsulların hissə-hissə ticarəti:***

Məhsulun hissə-hissə ixracı onun rəqabətqabiliyyətliliyinin yüksəldilməsi, həmçinin, bu və ya digər məmulatları hazır halda idxal etməyə qadağa qoymuş ölkələrin bazarlarına daxil olması, öz ölkəsində analoji məhsulun qorunması və ya analoji sahələrin yaradılmasının stimullaşdırılması üçün tətbiq edilir.

***Komplekt avadanlıqla ticarət:***

Sənaye müəssisəsinin vahid bitmiş texnoloji kompleksini təmsil edən avadanlıq komplekt avadanlıq hesab edilir. Onun zəruri elementi obyektlərin "açar təhvili" tikintisidir ki, bu da müəssisələrin layihələndirilməsini, qurulmasını, avadanlıqla təchiz

edilməsini, yerli iş heyətinin tədrisini, obyektin zəmanətli müqavilə ilə müəyyən müddət ərzində istismarının təmin edilməsini nəzərdə tutur.

***Xammal əmtəələri ilə ticarət:***

"Xammal əmtəələri" mineral xammal, onun emalı və zənginləşdirilməsi məhsulları, bitki və heyvan mənşəli kənd təsərrüfatı xammalı və onun emal məhsulları, kimyəvi və ərzaq mallarını ehtiva edir. Xammal malları ilə ticarət aşağıdakı vasitələr ilə həyata keçirilir:

1. Bazarın stabilləşməsi və alverin aşağı salınması məqsədilə xammal ticarətinin tənzimlənməsi üçün tətbiq olunan beynəlxalq əmtəə müqavilələri. Bu müqavilələrə taxıl, taxıl-paxla, qəhvə, kətan və yun qırıntıları və s. aid olur.

2. Birja ticarəti. Birjalar daim fəaliyyət göstərən bazarlar olub, burada eynicinsli malların iri partiyalarla ticarəti həyata keçirilir. Birjada sövdələr malların standart mövqelərinə görə aparılır. Bu, birjada mala baxmadan və hələlik mövcud olmayan mal üzrə əməliyyatlar belə həyata keçirməyə imkan verir.

3. Hərrac ticarəti. Hərraclar ilin müəyyən dövrü üçün müəyyən malların satışında ixtisaslaşan ticarətdir. Burada əsas mərhələni hərracçının müştərilərlə həyata keçirdiyi hərrac təşkil edir.

Beynəlxalq hərraclar alqı-satqı müqavilələrinin bağlanmasının elə metodudur ki, bu zaman alıcı satıcılar üçün mala müsabiqə elan edir və aldığı təklifləri tutuşdurduqdan sonra mal üçün daha sərfəli şərait təklif edən satıcılarla müqavilə imzalayır.

***Kooperasiya məhsulu ilə ticarət:***

Kooperasiya məhsulu ilə ticarət kooperasiya əsasında hər hansı bir münasibətlər obyekti ilə müştərək hazırlanan məhsulla ticarəti əks etdirir. Burada aşağıdakılar ayrılır:

1. İstehsal kooperasiyası - bu zaman kooperasiya edilən məhsulun hissələri və detalları bazar üçün deyil, konkret sifarişçilərin tapşırığı ilə hazırlanır.

2. Satış kooperasiyası - buraxılan məhsulun satışı üzrə müştərək müəssisə təşkil edən azad istehsalçıların əməkdaşlığıdır.

3. Kompensasiya - əvəzetmə əməliyyatları xarici müəssisələrlə kooperasiya əməkdaşlığının istiqamətlərindən biri olub, verilən krediti qaytarmaq üçün onların maliyyə köməyilə yaranmış, xarici müəssisədə istehsal edilmiş məhsulun alqışı haqqında müqavilədir.

***Müqabil ticarət:***

Müqabil ticarətdə vahid sənədlərdə (*müqavilə və sazişlərdə*) ixracatçıların və idxalçıların tam və ya qismən mal mübadiləsi aparmaq üçün sərt öhdəlikləri öz ifadəsini tapır. Müqabil ticarətni barter sazişi, köhnəlmiş məhsulun alınması, təchiz edilmiş əmtəələrin dəyəri hesabına əmtəələrin müqabil alışı və s. əhatə edir.

***Maşın və avadanlıqların icarəsi:***

Maşın və avadanlıqların icarəsi mülkiyyətçi tərəfindən məhsulun müəyyən müddətə müəyyən mükafat müqabilində istehlakçıya verilməsini nəzərdə tutur.

Şirkətin beynəlxalq bazarda iştirakının beş formasını ayırırlar. Bunlar dolayı ixrac,

birbaşa ixrac, texnologiyaların beynəlxalq ötürülməsi, müştərək sahibkarlıq fəaliyyəti və birbaşa investisiyalar qoyuluşu olaraq aşağıdakı geniş təsnifatlanmaya məruz qalır.

1. Dolayı ixrac: ixrac üçün birdəfəlik kontaktlardan başlayaraq, şirkət yeni tərəfdaşlar axtarır, bazarın etimadını qazanır və uzunmüddətli müqavilələrin bağlanmasına can atır.
2. Dünya bazarında müştərək çıxışlar, birbaşa ixrac: bir sıra hallarda konsorsiumlar meydana gəlir.
3. Texnologiyaların beynəlxalq ötürülməsi: lisenziyalaşdırma.
4. Müştərək sahibkarlıq fəaliyyəti: müəssisələrin yaradılması.
5. Birbaşa investisiyalar qoyuluşu.

Şirkətin beynəlxalq bazarda iştirakının bu formaları, həmçinin, ekspansiya prosesinin gedişində də ehtiva olunur. Ekspansiya dedikdə, malların və xidmətlərin başqa dövlətlərin ərazisində yayılması başa düşülür.

## 11.8. Dünya bazarının tarazlığı və beynəlxalq rəqabət

İqtisadi sistemdə tarazlıq elə vəziyyət hesab olunur ki, bu zaman həmin sistemin hər bir iştirakçısı öz davranışını dəyişmək istəmir. Bazarda tarazlıq o halda başlayır ki, bütün satıcılar və alıcılar almaq və ya satmaq istədikləri qədər nemət almaq və ya satmaq imkanındadır.

Bazar tarazlığı (*market equilibrium*) izafi tələb və həm də izafi təklifin olmadığı, mövcud bazar qiymətlərində alıcıların zəruri olan hər bir şeyi ala biləcəyi və satıcıların gətirdikləri hər bir şeyi sata biləcəyi bazar situasiyasıdır. Digər şərhdə bazarda tarazlıq elə bir şəraiti ehtiva edir ki, bu zaman satıcılar satışa alıcıların aldığı qədər, yəni tələbin həcminin təklifin həcminə bərabər olduğu qədər nemət təklif etmiş olsunlar. Satıcılar və alıcılar, qiymətindən asılı olaraq, müxtəlif miqdarda nemət satmaq və ya almaq istədiklərindən bazarın tarazlığı üçün elə qiymətin müəyyən edilməsi lazımdır ki, bu zaman tələblə təklifin həcmləri üst-üstə düşsün. Başqa sözlə, qiymət tələb və təklifin həcmlərini bərabərləşdirir.

Tələb və təklifin həcmlərinin üst-üstə düşməsini doğuran qiymət tarazlıq qiyməti (*equilibrium price*), həmin qiymət müqabilində tələb və təklifin həcmləri isə tələb və təklifin bərabərçəkili həcmləri adlandırılır. Tarazlıq şəraitində bazarın təmizlənməsi baş verir ki, bu zaman bazarda nə satılmamış nemət və nə də ödənilməyən tələb qalır. Yəni müəyyən edilmiş qiymətə nemət almaq istəyən alıcıların olmaması və eyni zamanda satıcıların olmaması səbəbindən də bunun edilə bilməməsidir.

Beləliklə, hər hansı nemətlər bazarında tarazlıq tapmaq üçün müəyyən etmək lazımdır ki, bu bazarda hansı qiymət tələbin həcminə müvafiq olan təklif həcmi doğuracaq və bu qiymət ilə satıcılar alıcıların aparmaq istədiyi qədər istehsal etdikləri nemətlər gətirəcəklər. Belə qiymət tarazlıq qiyməti adlanır, ona uyğun tələb və təklifin həcmi

isə tələb və təklifin tarazlıq həcmləri olacaqdır.

Dünya bazarı ölkələr tərəfindən ixrac və idxal edilən mallara tələb və təklifin beynəlxalq balansı sahəsi olaraq da çıxış edir. İxracın ölçüləri malın artıq təklifinin, idxalın ölçüləri mallara artıq tələbinin ölçüləri ilə müəyyən olunur. Artıq təklifin və artıq tələbin olması faktı beynəlxalq bazarda müxtəlif ölkələrdə eyni mallara olan tarazlı daxili qiymətlərin müqayisə edilməsi prosesində müəyyən edilir. Beynəlxalq ticarətin həyata keçirildiyi qiymət ölkələrdə ticarətin başlanmasına qədər tarazlığın minimal və maksimal daxili qiymətləri arasında olur. Dünya qiymətinin dəyişməsi, bir tərəfdən, dünya bazarında ixrac və idxal edilən malların miqdarına, digər tərəfdən, idxal və ixrac edilən malların miqdarının dəyişməsi dünya qiymətinin dəyişməsinə gətirib çıxarır.

Hazırda daha çox ölkə öz milli məhsulu ilə dünya bazarına daxil olmağa və uğurla rəqabət aparmağa çalışır. Bu prosesdə dünya bazarında ticarət edən ölkələrin sayı artır və beynəlxalq rəqabət genişlənir. Beynəlxalq rəqabət (*international competition*) dünya bazarında iqtisadi nemətlərin daha əlverişli şərtlərlə istehsal və reallaşdırması sahəsində milli və transmilli iqtisadi subyektlərin rəqabətidir. O, müxtəlif ölkələrin istehsalçıların arasında özlərinin dünya bazarına daha çox əmtəə və xidmətlərin çıxarılması və ya onlar üzərində nəzarətin gücləndirilməsinin iqtisadi mübarizəsini əks etdirir. Beynəlxalq rəqabət sahələrdaxili və sahələrarası rəqabəti birləşdirir, müxtəlif ölkələr arasında əmtəə və kapitalın hərəkətinə kömək edir və dünya bazarı ilə dünya iqtisadiyyatının balanslaşdırılmış inkişafına yardımçı olur. Daim aktuallığını artıran beynəlxalq rəqabət problemi hər bir ölkənin hökumətini və sənaye dairələrini narahat edir. Ona görə də onlar bu istiqamətdə müvafiq strategiyalar formalaşdırırlar.

Beynəlxalq bazarda ölkələr deyil, şirkətlər rəqabət aparırlar. Bu şirkətlərin fəaliyyəti bazasında xarici iqtisadi strategiya əvvəlcə sahədə, sonra isə bütövlükdə ölkədə formalaşır. Müasir mərhələdə şirkətin rəqabət imkanları baza ölkənin hüdudları ilə məhdudlaşmır.

Rəqabətin əsas vahidi sahədir. Başqa cür mal və ya xidmətlər istehsal edənlər və birbaşa öz aralarında rəqabət aparanların rəqiblər qrupudurlar.

Rəqabət strategiyasının seçilməsini iki başlıca məqam müəyyən edir. Birincisi, bu, şirkətin fəaliyyət göstərdiyi sahənin strukturudur. İkincisi, şirkətin sahənin hüdudlarında tutduğu yerdir. Ölkə o zaman uğur qazanır ki, mövcud şərait hər hansı sahə və ya onun seqmenti üçün ən yaxşı strategiyanın həyata keçirilməsinə əlverişlilik yaradır. Bu baxımdan da həmin ölkədə yaxşı işləyən strategiya rəqabət üstünlüyünə gətirməlidir.

Ölkə elə sahələrdə uğurlar qazanır ki, onun milli baza kimi üstünlükləri başqa ölkələrdə də tutumlu olsun və onun apardığı təkmilləşmələrin və yeniliklərin tətbiqi də beynəlxalq tələbləri üstələsin. Burada beynəlxalq uğur qazanmaq üçün, həmçinin, o da vacibdir ki, şirkətlər daxili bazardakı liderliyini beynəlxalq bazardakı liderliyə çevirmiş olsunlar.

İqtisadi ədəbiyyatda ölkənin rəqabətqabiliyyətliliyini müəyyən etmək üçün 340-dan

artıq göstəricidən və 100-dən artıq iqtisadçı-ekspertin qiymətindən istifadə olunduğu əksini tapmışdır. Belə təhlildə məlumatlar aşağıda sadalanan 10 amildə qruplaşdırılır:

1. İqtisadi potensial və iqtisadiyyatın artım sürəti;
2. Sənaye istehsalının effektivliyi;
3. Elmin və texnikanın inkişaf səviyyəsi, elmi-texniki nailiyyətlərin mənimsənilməsi sürəti;
4. Beynəlxalq əmək bölgüsündə iştirak;
5. Daxili bazarın dinamikliyi və tutumu;
6. Maliyyə sisteminin çevikliyi;
7. İqtisadiyyatın dövlət tənzimlənməsinin təsiri;
8. Əmək resurslarının ixtisaslaşması səviyyəsi;
9. Əmək resursları ilə təmin edilməsi;
10. Sosial-iqtisadi və siyasətdaxili vəziyyət.

Ənənəvi rəqabətqabiliyyətliliyə ABŞ, Yaponiya, AFR, İsveçrə malikdir. Bu zaman ekspertlər nəinki bu ölkələrin yuxarıda göstərilən amillərlə xarakterizə olunan rəqabətqabiliyyətliliyinin güclü ümumiqtisadi bazisini, həm də onların rəqabətqabiliyyətliliyinin ondan az önəmi olmayan struktur aspektini də qeyd edirlər. Bu məqam həmin ölkələrin həmişə iqtisadi artım sürətini gücləndirmək, məşğulluğu və vətəndaşlarının gəlirlərini artırmaq imkanına malikliyi ilə izah olunur.

Son 10-15 il ərzində YSÖ-dən, ilk növbədə, Tayvan, Koreya Respublikası, Sinqapur, Braziliya kimi ölkələrin şirkətləri tərəfindən qlobal sahələrdə rəqabət fenomeni meydana çıxmışdır. Ənənəvi olaraq, YSÖ-yə məxsus şirkətləri ucuz işçi qüvvəsi və ya təbii resurslar əsasında (*toxuculuq, yüngül sənaye, oyuncaqlar, plastik kütlədən olan məmulatlar*) rəqabət aparmışlar. Bu, yenə də davam etməkdədir. Lakin YSÖ rəqabəti gəmiqayırma, televizorlar, polad, sintetik liflər istehsalı kimi kapitaltutumlu sahələrə artan təsir göstərməkdədir. Gələcəkdə isə, çox güman ki, belə təsir avtomobil istehsalını da əhatə edəcəkdir.

Beləliklə də, beynəlxalq bazarda qlobal miqyasda rəqabət aparmağa hazır olan daha çox şirkət meydana çıxır və yaranmış yeni meyillər beynəlxalq rəqabəti daha da gücləndirir.

## 11.9. Azərbaycanın ixrac potensialı və dünya bazarında yeri

Mövcud istehsal resursları və məhsullarının ixracat imkanlılığı ilə xarakterik olan ixrac potensialı hər bir ölkə üçün mühüm iqtisadi əhəmiyyət kəsb edir. Bu potensialın reallaşması isə ölkələrarası iqtisadi əlaqələrin yaradılması, genişləndirilməsi və gerçəkləşdirilməsi ilə bağlıdır. Dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikasında da, sosial-iqtisadi inkişafın bütün sahələrində olduğu kimi, xarici-iqtisadi əməkdaşlıq istiqamətində də geniş təşəbbüslər və əməli fəaliyyətlər həyata keçirilir. Bunun nəticəsidir ki, Azərbaycan BMT-də təmsil olunan dünya ölkələrinin dörddə üçü ilə iqtisadi əlaqələr qurmuşdur və qarşılıqlı faydalı əməkdaşlıq şəraitində

münasibətlərini inkişaf etdirir. Azərbaycanın ixrac potensialı hər il artır, onun dünya bazarlarına çıxış imkanları genişlənir.

Azərbaycan Respublikasında əsas əmtəə ixracı resursu kimi neft, neft məhsulları və təbii qaz çıxış edir. Bu məhsulların ixracı tarixinin dərin kökləri vardır. Təbii qaz istisna olmaqla neft və onun emal məhsulu ağ neftin ətraf regional əraziyə və Avropa ölkələrinə kütləvi ixracı hələ 140-150 il bundan əvvəl başlanmışdır. Bu strateji məhsulların ixracı Azərbaycanın SSRİ dövlətinin tərkibində olduğu 70 il ərzində də davamlı olmuşdur. O zamanlar Azərbaycanın təbii qazının nəqli SSRİ sərhədlərini aşmasa da, qonşu Gürcüstanın və Ermənistanın yanacaq-enerji balansının təminatında respublikadan göndərilən bu məhsullar əsaslı rol oynamışdır.

Məlumdur ki, xam neft və qazın geniş proporsiyalarda ixracı müvafiq nəql infrastrukturunun formalaşmasını şərtləndiririr. Bu baxımdan Azərbaycanda yetərli neft-qaz ixrac boru kəmərləri mövcuddur. Bunların bir qismi çar Rusiyası və SSRİ dövləti zamanında inşa edilsə də, Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra bağlanmış beynəlxalq neft kontraktları çərçivəsində müvafiq nəql infrastrukturu yenidən qurulmuş, modernləşdirilərək daha da genişləndirilmişdir. Bununla belə, Azərbaycanda indi neft ixracının marşrut alternativliyi də tam təminatını tapmışdır. Bu, Prezident İlham Əliyevin bəyan etdiyi kimi, ondan irəli gəlir ki, "enerji və daşımalar Avropanın və dünyanın siyasi gündəliyində duran əsas məsələlərdən birinə çevrilmişdir" Bakı-Novorossiysk, QİBK və BTC neft kəmərləri bu gün dominant olan əsas ixrac resursu "Azərilayt" markalı nefti dünya bazarlarına çıxarır.

Ölkənin ixrac potensialını neft amili prizmasından dəyərləndirərkən yaddan çıxarılmamalıdır ki, burada çeşidli neft məsullarının da rolu əhəmiyyətlidir. Bu məhsullar sırasına avtomobil benzini, dizel və reaktiv mühərrik yanacağı, neft koksu, soba mazutu, nafta, sürtkü yağları, maye qaz və s. daxil edilir. Şübhəsiz ki, həmin məhsullar konkret istehlakçı tələbləri baxımından daha strateji hesab olunur və xam neftdən daha yüksək qiymətə satılır. Hər bir ölkədə bu məhsullara böyük ehtiyac vardır. Hazırda respublikada da bu məhsular üzrə ixrac potensialını genişləndirir. Həmin məhsullar yaxın dövlətlərlə yanaşı, regiondan çox uzaqda yerləşən ölkələrə də ixrac olunur. Bundan başqa, Azərbaycanın ixrac potensialında təbii qazın da həcmi ilbəil artır. Hazırda bu ixrac illik buraxılış gücü 30 milyard $m^3$ olan CQBK və digər magistral kəmərlər vasitəsi ilə reallaşdırılır. Növbəti mərhələdə isə "Şahdəniz" qaz-kondensat yatağının tammiqyaslı işlənilməsi ilə bu ixrac potensialı daha da artacaqdır.

İxracat potensialının reallaşmasında beynəlxalq və regional birliklər də əhəmiyyətli rol oynayırlar. Bu baxımdan, Azərbaycan regional əməkdaşlıq çərçivəsindəki fəaliyyətlərini genişləndirir. Bu fəaliyyətlər həm beynəlxalq və regional təşkilatlarla münasibətlər üzrə götürülmüş öhdəliklərdən irəli gəlir, həm də həmin təşkilatlara daxil olan ölkələrlə birbaşa əlaqələr formasında gerçəkləşir.

Azərbaycan Respublikasında ölkə qrupları üzrə ixracın strukturuna nəzər yetirdikdə görürük ki, burada MDB çərçivəsində iqtisadi əməkdaşlıq üstünlük təşkil edir. Bu da

təbiidir. SSRİ dövlətinin tərkibində bir olmuş, iqtisadi əlaqələr yaratmış ölkələrlə əməkdaşlığın davam etdirilməsi və genişləndirilməsi üçün, vurğulandığı kimi, tarixi zəmin mövcuddur. Respublikanın ixracat potensialının, əsasən, bu məkanda reallaşması da məntiqi görünməlidir.

Azərbaycanın Aİ və MDB ölkələri ilə yanaşı mühüm iqtisadi tərəfdaşlıq etdiyi regional ölkələr qrupu - Ukrayna, Gürcüstan və Moldovanın və özünün də təmsil olunduğu GUAM-dır. Respublikada bu qurumda təmsil olunan ölkələrlə iqtisadi münasibətlərə böyük önəm verilir. Ekspertlər yaxın zamanlarda qrup ölkələrinin sayının artacağını və burada təsisatlandırmaların dərinləşəcəyini əsaslandırırlar. Azərbaycan GUAM təşkilatı yarandığı andan idiyədək strateji müttəfiqləri sayılan həmin ölkələrlə xarici ticarət əlaqələrini 10 dəfədən çox genişləndirmişdir. Hazırda bu ölkələrlə xarici ticarət əlaqələrinin xüsusi çəkisi respublikanın xarici ticarət balansında 5%-dən çoxdur və onun hər il artacağı proqnoz olunur.

Azərbaycan QİƏT, İƏT və İƏT çərçivəsində də iqtisadi əməkdaşlığını artırır, ticarət əlaqələrini genişləndirir. Belə ki, son 10 il ərzində bu təşkilatlarla daxil olan ölkələrlə xarici ticarət əlaqələri ümumilikdə 5-7 dəfədən çox artmışdır.

Xarici ticarət sferasında dinamizm MAAT, bir qədər uzaqda olan APEC və ASEAN dövlətləri ilə də genişlənməkdədir. Bura da da son 10 il ərzində yüksəliş templəri qeyd olunmuşdur. Bu isə bir daha onu göstərir ki, Azərbaycanın ixrac potensilının reallaşdırılması üçün ən uzaq məkanlarda belə bazarlar mövcuddur. Həmin bazarlara daxil olmaq qədər, orada rəqabətə davam gətirmək də çətindir. Ona görə də respublikanın ixracat potensiallı təşkilatları yaxın və uzaq bazarların öyrənilməsi, buradakı rəqabət səviyyəsini bilmələri üçün marketinq xidmətlərini möhkəmləndirməli və bu istiqamətdəki marketoloji tədqiqatları genişləndirməlidirlər.

Dünyanın daha yüksək iqtisadi potensiallı ölkələrini birləşdirən İƏİT ilə əlaqələr daha mühüm iqtisadi əhəmiyyət kəsb edir. Bu ölkələr qrupu DTT-nin prinsipləri ilə fəaliyyət göstərir və müvafiq istiqamətdə yetərli keyfiyyət üstünlükləri əldə edir. Hazırda Azərbaycanın bu təşkilatı təmsil edən əsas ölkələrlə ticarət dövriyyəsi ən yüksək çəkiyə malikdir. Tədqiqatlar göstərir ki, İƏİT-lə əməkdaşlıq istiqamətində Azərbaycan fəaliyyətlərini genişləndirməli və başlıca olaraq, dünya ticarətinin 96%-ni reallaşdıran DTT-nin tam hüquqlu üzvünə çevrilməlidir. Bunun üçün isə milli qanunvericilik səviyyəsində nəzərdə tutulan əsaslı dəyişiklər aparılmalı, ölkənin daxili və xarici iqtisadi maraqlarına toxunan yeni qanunlar qəbul olunmalıdır.

Azərbaycanın ixrac potensialını artıran əsas iqtisadi komponentlər sırasında ölkədə geniş həcmli metallurgiya sənayesinin yaradılması da vardır. Bunun üçün respublikada təbii xammala əsaslanan regional istehsal infrastrukturları yaradılmışdır. SSRİ-nin süqutu ilə bağlı bu müəssisələrin əksəriyyəti fəaliyyətlərini dayandırmışdır. 2004-cü ildən isə bu istiqamətdə yeni fəaliyyətlərə başlanılmışdır. Ölkədə həm yerli xammala əsaslanan və həm də xaricdən gətirilən boksitə əsaslanan alüminium istehsalı müəssisələri şəbəkəsi yaradılmışdır. Bu yüksək enerjitutumlu müəssisələr artıq ilkin

alüminum məhsulunun ixracına başlamışlar. Yaxın gələcəkdə isə bu sənaye sahəsinin digər istehsal müəssisələri də fəaliyyətə başlayacaqlar. Bununla da ölkədən alüminum ixracı ilkin məhsul şəklində deyil, konstruksiyalar, məmulatlar və s. hazır məhsul formasında reallaşacaqdır. Buna Azərbaycanın ixrac potensiallı filiz ehtiyatları və bu istiqamətdə genişlənən sənaye sahələri imkan verir. Ölkədə metallurgiyaya əsaslanan dağ-mədən sənayesinin inkişafında Qafqazın ən iri polimetal yatağı Filizçayın miqyaslı istismarına başlanması mühüm iqtisadi əhəmiyyətli olacaqdır. Burada xeyli miqdarda qızıl, gümüş, mis, sink və qurğuşun ehtiyatı cəmləşmişdir ki, onlar da indiki qiymətlər və valyuta kursu ilə 30-40 milyard ABŞ dolları miqdarında qiymətləndirilir. Bu həcm aydınlığı ilə onu göstərir ki, yatağın genişmiqyaslı istismarına başlanılması ilə Azərbaycan yeni ixrac potensiallı daha bir təbii resursla dünya bazarına daxil olacaqdır. Bununla belə, respublikada ümumi resurs toplumu Filizçaydan heç də geri qalmayan digər filiz yataqları mövcuddur. Bunların bir qismi Ermənistanın təcavüzü nəticəsində işğal altında qalsa da, Azərbaycan gec-tez öz ərazi bütövlüyünü tam bərpa edərək bu potensialdan dolğunluqla ixracda istifadə edəcəkdir.

İxrac istiqamətində Azərbaycanın potensialını perspektivdə artıracaq ən mühüm sahələrdən biri də kənd təsərrüfatı olacaqdır. İndi respublikada aparılan aqrar islahatlar yeni mərhələyə qədəm qoymuşdur. Dövlət bu sahənin genişmiqyaslı investisiyalaşdırılmasını həyata keçirir. Vurğulanmalıdır ki, Azərbaycanda geniş torpaq islahatları keçirilmiş, əkinə yararlı bütün torpaqlar kəndlilərə verilmişdir. Bu isə respublikada aqrar sektorun bütünlükə özəl əllərdə olması deməkdir. Lakin buna baxmayaraq ölkə rəhbərliyi aqrar sektorun inkişafını dövlət proqramları çərçivəsində və sahənin ünvanlı subsidiyalaşdırılması kontekstində reallaşdırır. Münbit torpaqlar, əlverişli iqlim şəraiti imkan yaradır ki, Azərbaycanda kənd təsərrüfatı daha yüksək templərlə inkişaf etsin, Rusiya və Avropanın kənd təsərrüfatı məhsulları bazarında daha da möhkəmlənsin.

Azərbaycanın ixrac potensialını artıran əsas mühüm şərtlərdən biri də onun ərazi koordinatları ilə bağlıdır. Belə ki, əlverişli tranzit potensialı imkan vermişdir ki, Böyük İpək Yolunun mühüm tərkib hissəsi olan BTQ-nin çəkilişi həyata keçirilsin. Hazırda isə Trans-Avropa və Trans-Asiya dəmir yolu şəbəkələrinin birləşməsində çatışmayan bağlantı olan bu dəmir yolu xətti tranzit fuksionallığı ilə yanaşı ölkənin ixrac potensialının diversikasiyasında mühüm rol oynamaqdadır.

Azərbaycan eyni zamanda ixrac potensialını genişləndirmək və həm də tranzit imkanlarından daha dolğun faydalanmaq istiqamətində Yaxın Şərq və Cənub-şərqi Asiya ilə Avropanı yeni nəqliyyat sistemində birləşdirəcək Şimal-Cənub marşrutunun da reallaşması sferasında fəaliyyət göstərir. Bütün bunlar isə ölkənin ixrac potensialının səmərəli reallaşdırılması, mühüm ticarət və istehlak bazarlarına nəql yaxınlığının təminatında mühüm əhəmiyyət daşıyacaqdır.

"Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi (*International transport corridor North-South - NS*) Şimali Avropa ilə Cənub-şərqi Asiyanı birləşdirən, Finlandiya, Baltika ölkələri ilə Hindistanı Rusiya, Azərbaycan və İran vasitəsi ilə nəqliyyat əlaqəsini

təmin edən beynəlxalq dəhlizidir. "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi haqqında Razılaşma Rusiya Federasiyası, İran İslam Respublikası və Hindistan arasında 12 sentyabr 2000-ci ildə Sankt-Peterburq şəhərində bağlanıb. Daxili prosedurlardan keçdikdən sonra Razılaşma 21 may 2002-ci il tarixdən qüvvəyə minmiş və 2005-ci ilin sentyabrında Azərbaycan Respublikası "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi haqqında" Sazişə qoşulmuşdur. Dəhliz üzrə marşrut Rusiyanın Sankt-Peterburq şəhərindən Hindistanın Mumbay (*Bombey*) liman şəhərinə kimi 7,2 min km yolu əhatə edir. Yaxın illərdə bu marşrut Şimali Avropanı Hindistan və Fars körfəzi ölkələri əhatəsinə alaraq İran, Azərbaycan və Rusiyanın dəmir yollarını birləşdirəcəkdir. O, həmçinin, Xəzər dənizi ətrafında dəmir yolu həlqəsinin çəkilməsi layihəsinin reallaşmasında da son vəzifələrdən biri olacaqdır. Dəhliz tam gücü ilə fəaliyyət göstərəcəyi halda Avropa ölkələrinin, Rusiyanın, Orta Asiya və Qafqaz regionunun Fars körfəzi və Hindistana çıxışına, Xəzəryanı ölkələrin Qara dəniz limanları ilə ticarət əlaqələrinin intensivləşdirilməsinə şərait yaradaraq Avropa - Cənubi Asiya - Yaxın Şərq arasında dəmir yolu daşımalarını səmərəli təmin edəcəkdir.

Qeyd olunmalıdır ki, Orta Asiyanın Avropa ilə cari ticarət dövriyyəsi 40 milyon tona yaxındır və 2020-ci ildə bu göstəricinin 56 milyon tondan artıq olacağı proqnozlaşdırılır. Bundan əlavə, Şimal-Cənub dəhlizi boyunca Rusiya və İran arasında illik ticarət dövriyyəsi (*əsasən, Xəzər dənizi üzərindən*) 4 milyon ton, İranla Qara dəniz hövzəsi ölkələri arasında 2,3 milyon tondur. Bundan başqa, Şimal-Cənub dəhlizi boyunca daşınan yüklərin böyük hissəsini quru yüklər təşkil edir və Rusiya ilə İran arasında yükdaşımaların 82%-i, İranla Qara dəniz regionu arasındakı ticarətin isə 85%-i quru yüklərdən ibarətdir. Konteyner yükdaşımaları Rusiya ilə İran arasındakı ticarət həcminin 16%-ni (*2%-i maye yük olmaqla*) təşkil etdiyi halda, maye yüklərin daşınması İranla Qara dəniz regionu arasındakı daşımaların 13%-ni, konteyner daşımaları isə 2%-ni təşkil edir. Bu qeyri-tarazlıq göstərir ki, biristiqamətli daşımaların digər yarısı dəniz daşımalarının payına düşür.

Layinənin reallaşdırılmasının sürətləndirilməsi hazırkı məqamda daha aktual xarakter almışdır. Buna görə də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin Azərbaycan Respublikasının ərazisindən keçən hissəsində işlərin sürətləndirilməsi haqqında" 7 dekabr 2015-ci ildə Sərəncam imzalamışdır. Sərəncamın reallaşması istiqamətində işlər, demək olar ki, başa çatmış. Azərbaycan Şimal-Cənub dəhlizinin dəmir yolu xəttinin Astara çayı üzərindən keçərək İrana qədər uzadılmasını  təmin etmişdir. Onun tam istismara verilməsi üçün isə yalnız İran ərazisində Astara-Rəşt dəmiryolu xətti inşa olunmalıdır.

Proqnozlara görə, layihənin həyata keçirilməsi ilə Asiyadan Avropaya və əks istiqamətdə on milyon tonlarla (*ilkin mərhələdə ildə 2 milyon ton*) yük daşınacaq, həmçinin, region ölkələri arasında əmtəə dövriyyəsi xeyli artacaq və Azərbaycan bu istiqamətdə uğurlu tranzit-tarif strategiyası aparmaqla ilkin mərhələdə hər il 40-60 milyon ABŞ dolları qazanc əldə edəcəkdir. Hazırda müvafiq istiqamətdə yüklərin əksər hissəsi dəniz vasitəsilə (*Həştərxan, Olya və Mahaçqala, İran tərəfində isə Ənzəli, Əmirabad və*

*Nouşəhr limanları vasitəsilə*) göndərilir. Burada çatdırılma müddəti 45-60 gün çəkir. Azərbaycanın içindən Şimal-Cənub dəhlizi vasitəsilə çatdırılma 14-20 gün çəkəcək və nəticədə daşıma müddəti 2-3 dəfə azaldılacaqdır. Qeyd olunmalıdır ki, dəniz daşınmaları hava-iqlim şəraitindən çox asılıdır. Burada ildə azı 100 günə qədər çətin naviqasiya mövcud olur. Həmçinin, bundan başqa, Rusiyanın Həştərxan və Olya limanları qışda donur. Buradakı nəqliyyat infrastrukturu da adekvat hesab edilmir. Digər tərəfdən, marşrutun və limanların yüklənməsi Xəzərin ekologiyasına mənfi təsir göstərir.

Bu xəttin tezliklə tam işə düşməsi hələ 2007-ci ildən planlaşdırılan İran-Ermənistan dəmir yolunun tikintisi layihəsini də arxa plana atacaq, onun perspektivsizliyinə yeni bir zəmin olacaqdır. Bu xətt, həmçinin, vurğulandığı kimi, Ermənistandan yan keçməklə Naxçıvanla yeni dəmir yolu əlaqəsinə mümkünlük gətirəcəkdir. Belə ki, gələcəkdə bu marşrutu İran dəmir yolları şəbəkəsi ilə Culfada Naxçıvanla birləşdirmək mümkün olacaqdır.




**Şəkil 14. Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi**

Bir cəhət də vurğulanmalıdır ki, Şimal-Cənub marşurutunu şərq qolu (*Şərq marşrutu*) hazırda işlək vəziyyətə gətrilmişdir və Azərbaycandan keçən qərb qoluna rəqib alternativdir. Burada köhnə uzun marşrutlu xətt Qazaxıstan, Özbəkistan, Türkmənistandan keçərək Tejen (*Türkmənistan*) - Sərəxs (*İran*) keçidi ilə İranın dəmir yolu şəbəkəsini birləşdirir. Yeni 2014-cü ildə istifadəyə verilən xətt isə Qazaxıstanın Bolaşak stansiyasından Türkmənistanın Uzen, Kızılkaya-Bereket-Etrek, Qorqan keçidi ilə İranın Məşhəd şəhəri dəmir yolu ilə birləşir. Yeni dəmir yolunun uzunluğu 699 km-dir və onun çəkilməsinə 1 milyard 260 milyon ABŞ dolları həcmində vəsait xərclənmişdir.

Bu xətlə ilkin mərhələdə ildə 3-4 milyon ton, gələcəkdə isə 13-14 milyon ton yük daşınması nəzərdə tutulmuşdur.

Hesablamalar göstərir ki, Şimal-Cənub marşrutunun işə düşməsi ilə Cənubi-şərqi Asiyadan Avropaya daşımalar orta hesabla 10-15% ucuzlaşacaq, yüklərin Süveyş kanalı vasitəsilə daşınmasından 800 km daha az məsafə qət olunacaqdır. Bütün bunlar nəticədə həm də yüklərin daha etibarlı yolla daşınması, daşıma müddətinin isə 20 gün azalması ilə müşayiət olunacaqdır.

Müqayisə üçün qeyd olunmalıdır ki, Sankt Peterburq-Astara marşrutu Sankt Peterburq-Sərxas marşrutundan 1055 km qısadır. Bu marşrut, həmçinin, qısalığı ilə Sankt Peterburq-Qorqan marşrutunu da geridə qoyur. Bundan başqa, Sankt Peterburq-Qorqan marşrutunun Qorqan-Etrek hissəsi dağ massivindən keçir və kəsikdə say baxımından istənilən normada vaqon daşıması imkansızdır. Bütün bunlar isə Şimal-Cənub dəmiryolu dəhlizinin qərb marşutunun iqtisadi cəhətdən əlverişliliyinə bir daha yəqinlik gətirir.

Burada həm də vurğulanmalıdır ki, Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsində göstərilir ki, hər iki dəhlizin potensialından maksimum istifadənin təmin edilməsi, eyni zamanda, logistika sahəsində infrastrukturun və digər işlərin yenidən qurulması və ya optimallaşdırılması nəticəsində 2020-ci ildə Azərbaycanın real ÜDM-i 400 milyon manat birbaşa və 205 milyon manat dolayı olmaqla, ümumilikdə 605 milyon manat artacaq, bilavasitə bu sahədə 10900 olmaqla, ümumilikdə 18900 yeni iş yeri yaradılacaqdır.

Azərbaycanın ixrac potensialı iqtisadi, elmi-texniki əməkdaşlıq və ixtisaslaşmış müəssisələrarası istehsalın kooperasiyası formalarında da inkişaf edir. Artıq Azərbaycan borc alan ölkədən borc verən ölkəyə çevrilmişdir. Danılmaz faktır ki, Azərbaycan dövlət müstəqilliyinin ilk illərində repatriasiya imkanlı nəhəng neft resurslarına arxalanaraq geniş həcmdə xarici investisiyalardan istifadə etmişdir. İndi isə ölkənin artan iqtisadi potensialı xarici investisiyalardan istifadəni miniuma edirmişdir. Artıq 10 ildən çoxdur ki, ölkədə həyata keçirilən həcmli layihələr daxili investisiyalar hesabına reallaşdırılır. Azərbaycan xarici iqtisadi əlaqələrində kapital ixarıcı alətindən istifadə edir. Bunun bariz nümunəsi ki, BTQ-nin inşasında Gürcüstanın payının Azərbaycan tərəfindən kreditləşdirilməsidir. Bundan başqa, xarici iqtisadi əlaqələr sferasında kapital ixarıcı həm dövlət müəssisələri, həm də özəl müəssisələr çərçivəsində genişləndirilir. Bu sırada Azərbaycanın baş neft şirkəti olan SOCAR daha üstün fərqlənir. Bu şirkət Türkiyənin əsas neft-kimya kompleksinə nəzarət edən məşhur "Petkim" şirkətinin səhmlərinin yarısına sahib çıxmışdır. Hazırda SOCAR Türkiyədə, Gürcüstanda və Ukraynada və bir sıra Şərqi Avropa ölkələrində çoxsaylı yanacaq doldurma stasiyalarına malik olmaqla həmin ölkələrdə neft emalı zavodları inşa etmək istiqamətində əməli işlər həyata keçirir. Bundan başqa, SOCAR-ın Avropa, Asiya və Afrikanın (*Burkina-Faso, Kod-d`İvuar, Benin və s.*) bir sıra ölkələrində qaz-nəqliyyat sistemlərinin inkişafına investisiyalara dair planları vardır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev elmin, təhsilin, yüksək texnologiyaların inkişafını prioritet məsələ elan etmişdir. Buna görə də neft kapitalının

insan kapitalına, Azərbaycanın regionun güclü informasiya-kommunikasiya mərkəzinə çevrilməsi istiqamətində mühüm dövlət tədbirləri həyata keçirilir. Ölkədə yüksək texnologiya məhsulları sənayesi formalaşdırılır və inkişaf etdirilir. Həm müdafiə sənayesi kontektində, həm də mülkü sənaye sferasında İKT-nin inkişaf etdirilməsi və onun ölkənin mühüm ixras resursuna çevrilməsi tədbirləri genişləndirilir. Bu tədbirlərin səmərəliliyini artırılması isə xarici iqtisadi əməkdaşlığın dərinləşdirilməsi ilə mümkün olacaqdır. Respublikanın hazırda artan iqtisadi qüdrəti imkan vermişdir ki, elmi-texniki əməkdaşlıq istiqamətində də ixrac potensialını gerçəkləşdirsin. Bu istiqamətdə Türkiyə, Rusiya, ABŞ və Qərbi Avropa ölkələri ilə münasibətlər inkişaf etdirilir. Həyata keçirilən əməkdaşlıq proqramları ilə Azərbaycan bu ölkələrlə yanacaq-enerji kompleksi, nəqliyyat və rabitə, aerokosmik sahədə birgə fəaliyyət göstərir.

Azərbaycanda ayrı-ayrı təsərrüfat subyektləri ixtisaslaşmış müəssisələrarası istehsal kooperasiyası formasında da əlaqələrini genişləndirirlər. Bu prosesin vüsətlənməsdi və daha da davamlı olması üçün ölkədə kifayət qədər iqtisadi güc və potensial vardır.

Dövriyyədəki mövcud hazırkı potensialı, şübhəsiz ki, başlıca olaraq, ölkənin miqyaslı neft-qaz resursları qaynaqlandırır. Məlumdur ki, müasir dünya iqtisadiyyatı enerji resursları istehlakına əsaslanır. Azərbaycan da bu resursların bol cəmləşdiyi məkanlar sırasındadır. Bununla belə, yaddan çıxarılmamalıdır ki, neft və qaz tükənən resurslar kateqoriyasına aid edilir və təbii ki, bu baxımdan onların mövcudluğu da əbədi hesab edilə bilinməz. Elə buna görə də neft və qaz resurslarına respublikanın ixrac potensialının daimi başlıca ixtisaslaşmış sahəsi kimi baxılmamalıdır. Xammalla dünya bazarında daim irəliləyiş tapmaq olmaz. Hər şeydən əvvəl, həm də ona görə ki, dövlətlərarası iqtisadi əlaqələrdə ixtisaslaşmanın xammal təmayüllülüyü ölkəni xarici bazarlardakı konyunktur meyillərdən asılı edir, onun beynəlxalq əmək bölgüsündəki rolunu məhdudlaşdırır. Vəziyyətdən çıxış yolunda diversifikasiya olunan qərabətqabiliyyətli məhsul istehsalını təmin edilməsi dayanır. Bu isə uzunmüddətli, coxlu səylər, istehsal və instusional dəyişiklər tələb edən bir işdir. Lakin respublikanın bol neft-qaz ehtiyatları və bu sektorda bağlanan beynəlxalq kontraktlar göstərir ki, neft üzrə yaxın 15-20 il, təbii qaz üzrə isə 50-70 il ərzində Azərbaycanda ixrac potensialının əhəmiyyətli hissəsini məhz bu məhsullar tutacaqdır.

Ölkədə neft oriyentasiyalı ixrac strategiyasından bu məhsulların xam şəkildə ixracının minimuma endirilməsi, neft-qaz resursları üstün olaraq emal, kimya sənayesi məhsulları və elektrik enerjisi istehsalına yönəldilməsi qeyri-neft yönümlü sənaye siyasəti və ixrac strategiyası həyata keçirilir. Bu strategiyada İKT ilə yanaşı əsas yerlərdən biri də aqrar sektora verilir. Kənd təsərrüfatı mütəxəssislərinin hesablamalarına görə, respublikada aqrar sektora yatırılan hər bir dolların 2-3, geniş səmərəlilikdə isə 4 və daha çox gəlir gətirməsi mümkündür. Buna, vurğulandığı kimi, Azərbaycanın cografi mövqeyi, əlverişli təbii və iqlim şəraiti imkan yaradır. Respublikanın elə regionları vardır ki, bəzi kənd təsərrüfatı məhsulları üzrə orada təbii şəraitdən irəli gələn vegetasiya dövrünün kiçikliyi ilə ildə iki dəfə məhsul almaq mümkündür. Azərbaycan

aqrar sektorda ixrac potensialını artırmaq üçün həm də kifayət qədər insan resurslarına malikdir. Belə ki, ölkə əhalisinin yarısına qədəri kənd təsərrüfatı məhsulları istehsalı sferasında cəmləşmişdir. Hesablamalar belədir ki, Azərbaycanın kənd təsərrüfatına yararlı torpaqları - elmli, yüksək texnologiyalı aqrotexniki qulluqda 50-60 milyonluq əhalini qidalandırmaq imkanındadır.

Qeyri-neft yönümlü ixrac strategiyasında respublikada dağ-mədən sənayesinin potensialı, bununla da metallurgiyanın inkişaf etdirilməsi əlverişli və perspektivlidir. Bunu bir daha Azərbaycanın sübut olunmuş filiz ehtiyatları potensialı əsaslandırır.

Müasir qlobal dünyada ixrac sferasında İKT dominantlığı ələ alır. Ənənəvi yüksək texnologiyaları olmayan ölkələr belə İKT industriyasından bəhrələnmə istiqamətində fəaliyyət göstərirlər. İqtisadiyyatın bu sahəsi Azərbaycanda da inkişafdadır. Buna görə də qeyri-neft yönümlü ixrac strategiyasında respublikada İKT industriyasının inkişafı da prioritet hesab edilir. Bu perspektivliyə respublikada dövlətin əsaslı stimullaşdırdığı müdafiə sənayesi dəstək olur.

Respublikanın ixracat potensialının genişləndirilməsi, onun dünya bazarında yerinin möhkəmləndirilməsində orta müddətli perspektiv üçün bütün tip - istehsal, sosial, bazar və işgüzar infrastrukturların inkişafına nail olunması mühüm strateji əhəmiyyət kəsb edir. Əlverişli biznes mühitinin yaradılması, investisiya mübadiləsinin genişləndirilməsi, zəruri milli məhsul istehsalı xərclərinin idxal və ixrac məhsulu xərclərindən minimum fərqliliyinin təminatı - xarici ticarətin iqtisadi effektivliyinin artırılması, ETTKİ-yə ixrac subsidiyalarının verilməsi, müəssisələr alyansı sferasında müvafiq "İxrac fondları"nın yaradılması və bununla da ixrac resursları palitrasınının daha da genişləndirməsi bu istiqmətdə səmərəliliyin yüksəlişi ilə müşayiət olunacaqdır. Bütün bunlar Azərbaycanın ixrac potensialının artmasında və onun dünya bazarında yerinin möhkəmlənməsində əhəmiyyət daşıyacaqdır. Beləliklə, Azərbaycanın dünya bazarında müqayisəli üstünlüklərini ixrac potensiallı enerjisidaşıyıcı sərvətlərinə və onların rəqabət imkanlı infrastruktur kommunikasıyalarına malikliyi, həmçinin, iqtisadiyyatının diversifikasiyasında artan istehsal və ixrac gücü şərtləndirir.

*Əsas anlayışlar:*

**1. Bazar** - ayrı-ayrı əmtəələr və xidmətlər üzrə satıcılarla alıcıların birgə fəaliyyət mexanizmi olmaqla iqtisadi münasibətlərdə tələblə-təklifin məcmusu, hər hansı əmtəə üzrə bir qrup adamın sövdələşməsi ilə baş verən sıx fəaliyyət münasibətləri, əmtəə və əmtəə-pul mübadiləsi formasıdır.

**2. Mükəmməl rəqabət** - müstəqil satıcı və alıcıların çoxluğu ilə fərqlənərək bazara azad daxilolma, ondan çıxma və məhsul haqqında informasiyalara bərabər giriş imkanlarına malik olan ideal bazar vəziyyətidir.

**3. Qeyri-mükəmməl rəqabət** - ayrıca istehsalçıların özlərinin istehsal etdikləri məhsulun qiymətlərinə nəzarət imkanlarına malik olduqları bazar vəziyyətidir.

**4. Mükəmməl bazar** - eynicinsli əmtəələrin vahid şərtlər altında reallaşdırıldığı, mükəmməl rəqabətin tələblərinə cavab verən bazardır.

**5. Qeyri-mükəmməl bazar** - eynicinsli əmtəələrin müxtəlif şərtlər altında reallaşdırıldığı bazardır.

**6. İnhisarçı rəqabətli bazar -** vahid pərakəndə qiymətlərlə deyil, geniş qiymət diapazonunda sövdələşmə aparılan alıcı və satıcılar bazarıdır.

**7. Oliqopolik bazar** - bir neçə iri şirkətin standartlaşmış və differensasiya olunmuş əmtəələrin satışını reallaşdırdığı bazar tipidir.

**8. Xalis inhisarçı bazar -** əmtəəni yalnız bir satıcı satır və burada sərt inhisar mövcuddur.

**9. Milli bazar** - dövlətin inzibati sərhədləri ilə məhdudlaşan bazardır.

**10. Regional bazar** - iqtisadi münasibətlərin xüsusi forma və şərtlərini ehtiva edən, dərinləşən əmək bölgüsü ilə bağlı olan bir qrup dövlətin formalaşdırdığı bazardır.

**11. Dünya bazarı** - bir-biri ilə beynəlxalq əmək bölgüsündə iştirakla əlaqədar dövlətlər, sahibkarlar, kommersiya təşkilatları, müxtəlif dövlətlərin firmaları arasında dayanıqlı əmtəə-pul münasibətləri sistemi kimi tələb və təklif sferasını, əmtəə və xidmətlərin kommersiya mübadiləsini özündə birləşdirən milli bazarların məcmusu, dünya təsərrüfatının tərkib hissəsidir.

**12. Birja** - əmtəələrin alqı-satqı prosesi ilə məşğul olan bazarın təşkilat formasıdır.

**13. Dünya bazarının funksiyaları** - indikativ, kommunikativ, tənzimləyici və sanasionativ funksiyaları əhatə edir.

**14. Dünya bazarının tutumu** - təyin olunmuş qiymətlər müqabilində əmtəə və xidmətlərin mümkün həcmini ehtiva edir.

**15. Dünya bazarının strukturu -** dünya əmtəə və xidmətlər bazarı, dünya kapital bazarı, dünya işçi qüvvəsi bazarı, dünya maliyyə-kredit bazarı, dünya qiymətli kağızlar bazarı, informasiya texnologiyaları bazarı və s.-ni əhatə edir.

**16. Dünya bazarının formalaşması** - sənayeyəqədər, sənayeləşmə və postsənaye mərhələlərini əhatə edir.

**17. Klassik bazar mərhələsi** - iqtisadiyyatın təbii resurslara əsaslanmaqla, üstün olaraq, kənd təsərrüfatı üzrə inkişaf etdiyi dövrü əhatə edən dünya bazarının formalaşmasının ilkin mərhələsidir.

**18. İnhisarçı bazar mərhələsi** - sənayeləşmə və onun vüsətlənməsi nəticəsində dünya bazarının formalaşmasının ikinci mərhələsidir.

**19. Müasir bazar mərhələsi** - dünya bazarını bir-birilə informasiya texnologiyaları şəbəkəsi ilə əlaqəyə gətirən milli bazarların qlobal şəbəkəsinə çevirildiyi dünya bazarının formalaşmasının üçüncü mərhələsidir.

**20. Dünya bazarının konyunkturası** - dünya bazarında satış şərtləri, qiymətin, tələb və təklifin səviyyəsi və bu göstəricilərin dəyişmə meyilidir.

**21. Dünya qiymətlərinin funksiyaları** - bir-birilə qarşılıqlı asılılıqda olan indikativ, kommunikativ, distribütiv, stimullaşdırıcı və tənzimləyici funksiyalardan ibarətdir.

**22. Dünya əmtəə bazarı** - ölkələr arasında əmtəələrin alqı-satqısı ilə bağlı iqtisadi münasibətlər sistemi, dünya bazarının tərkib hissəsidir.

**23. Dünya xidmət bazarı** - xidmətlər, texnologiyalar, ideya və informasiya mübadiləsi ilə bağlı dünya bazarının tərkib hissəsidir.

**24. Sahələrin beynəlxalq standart təsnifatı** - BMT tərəfindən hazırlanmış iqtisadi fəaliyyət növlərinin məlumat təsnifatıdır.

**25. Dünya ərzaq bazarı** - kənd təsərrüfatı, aqrobiznes və qida məhsullarının (*ərzaq malları*) mübadiləsi ilə bağlı əmtəə bazarının əsas seqmentlərindən biridir.

**26. Dünya xammal bazarı** - emala yönəldilən faydalı qazıntıların və digər təbii resursların, həmçinin, insan təsirinə məruz qalmış əmək predmetlərinin alqı-satqısının həyata keçirildiyi beynəlxalq bazarlardır.

**27. Dünya enerjidaşıyıcılar bazarı** - neft, qaz, daş kömür, oduncaq, torf, nüvə yanacağı və s. enerjidaşıyıcıların ticarətinin aparıldığı beynəlxalq bazarlardır.

**28. Dünya neft bazarı -** xam neftin ticarətinin reallaşdırıldığı beynəlxalq bazarlardır.

**29. Dünya qaz bazarı** - təbii qaz ticarətinin həyata keçirilməsi ilə bağlı formalaşmış beynəlxalq və regional bazarlardır.

**30. Qaz İxrac edən Ölkələr Forumu** - 2001-ci ildə təsis edilmiş təbii qazın ixracı üzrə lider ölkələrin birliyidir.

**31. Beynəlxalq daş kömür bazarı** - daş kömürün ticarətinin aparıldığı regional bazarlar məcmusudur.

**32. Beynəlxalq elektroenergetika bazarı** - elektrik enerjisinin alqı-satqısının həyata keçirildiyi regional bazarlar məcmusudur.

**33. Dünya nüvə yanacağı bazarı** - dünya bazarının sektoru olaraq, nüvə yanacağı və onunla bağlı istehsalçıların, vasitəçilərin və istehlakçıların birliyidir.

**34. OPEK neft səbəti** - OPEK karteli ölkələri tərrəfindən xam neftin orta qiymətini hesablamaq üçün dünya bazarına çıxarılan ayrı-ayrı neft markalarından tərtib edilən şərti qarışıqdır.

**35. Nyu-York əmtəə birjası, NYMEX** - neft fyuçersi kontraktlarının ticarəti üzrə ixtisaslaşmış Amerika fyuçers birjasıdır.

**36. Beynəlxalq neft birjası, IPE** - neft və digər enerjidaşıyıcıların fyuçers və opision kontraktlarının ticarəti üzrə ixtisaslaşmış beynəlxalq birjasıdır.

**37. Sinqapur birjası, SGX** - fond və valyuta ticarəti həyata keçirən beynəlxalq birjadır.

**38. Qərbi Texas nefti, WTI** - ABŞ-ın Texas ştatında hasil edilən neftin markasıdır.

**39. Brent nefti** - Şimal dənizində hasil edilən neft çeşidinin etalon markasıdır.

**40. Neftin keyfiyyət bankı** - neftin qarışdırılması nəticəsində onun istehlak dəyərinin dəyişməsinin əvəzlənməsi metododikasıdır.

**41. Spot sazişi** - təcili təchizat və ödəniş tələbi ilə nağd əmtəənin və valyutanın satışı üzrə birja və ya birjadankənar sövdələşmədir.

**42. Fyuçers sazişi** - əmtəənin, səhmin, valyutanın alı-satqısı üzrə hazırkı qiymətdə və gələcək dövrdə çatırılmasının təsbit olunduğu birja müqaviləsi növüdür.

**43. Volatillik** - zamana görə qiymət dəyişkənliyini xarakterizə edən maliyyə-statistik göstəricidir.

**44. Avropa Enerji Xartiyası** - əsasən, istehsalçılarla ikinci eşalonda olan istehlakçılar arasında müqavilə olaraq enerjidaşıyıcıların satışı sahəsində niyyət bəyannaməsidir.

**45. Dünya Enerji Şurası** - BMT-də akkreditə olunmuş enerji problemləri ilə məşğul nəhəng beynəlxalq qeyri-kommersiya enerji təşkilatıdır.

**46. Trilemma** - üç rəydən yalnız birinin qəbul edilməsi lazım olan təklifdir.

**47. Energetika Trilemmasinin İndeksi** - müxtəlif ölkələrdə enerji sistemlərinin səmərəliliyinin qiymətləndirilməsi üçün Dünya Enerji Şurası (*WEC*) tərəfindən hər il dərc edilən indeksdir.

**48. Əmək bazarı, işçi qüvvəsi bazarı** - işçi qüvvəsinin tələb və təklifinin formalaşması sferasıdır.

**49. Fordizm** - ABŞ avtomobil sənayesinin lideri Henri Fordun kütləvi fasiləsiz istehsalın təşkili ilə bağlı unifikasiya olunmuş, konveyerli quraşdırma prinsiplərinə əsaslanan, kiçik istehsal xərcləri müqabilində böyük əmək məhsuldarlığı ilə müşayiət edilən istehsalın axınlı təşkili sistemidir.

**50. Postfordizm** - "fordizmi" əvəzləyərək geniş çeşidli əmtəələrin kiçik seriyalı buraxılışına əsaslanan və istehlakçı tələblərini nəzərə alaraq daim modifikasiya olunan iqtisadi istehsalın təşkilinin yeni sistemidir.

**51. Dünya əmək bazarı** - əmək üzrə tələb və təklifin qarşılıqlı təsirini dövlətlərarası səviyyədə təmin edən iqtisadi mexanizm, norma və institutlar sistemidir.

**52. İdxal və ixracın müasir təşkilat formaları** - hazır məhsul ticarəti, məhsulların hissə-hissə ticarəti, komplekt avadanlıqla ticarət, xammal əmtəələri ilə ticarət, kooperasiya məhsulu ilə ticarət, müqabil ticarət, maşın və avadanlıqların icarəsi formalarını əhatə edir.

**53. Bazar tarazlığı** - izafi tələb və həm də izafi təklifin olmadığı, mövcud bazar qiymətlərində alıcıların zəruri olan hər bir şeyi ala biləcəyi və satıcıların gətirdikləri hər bir şeyi sata biləcəyi bazar situasiyasıdır.

**54. Tarazlıq qiyməti** - müvafiq əmtəə üzrə tələb və təklifin tarazlığına nail olmaqla bazarda həmin əmtəənin təyin edilmiş qiymətidir.

**55. Beynəlxalq rəqabət** - dünya bazarında iqtisadi nemətlərin daha əlverişli şərtlərlə istehsal və reallaşdırılması sahəsində milli və transmilli iqtisadi subyektlərin rəqabətidir.

**56. Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi** - Şimali Avropa ilə Cənub-şərqi Asiyanı birləşdirən, Finlandiya, Baltika ölkələri ilə Hindistanın Rusiya, Azərbaycan və İran vasitəsi ilə nəqliyyat əlaqəsini təmin edən beynəlxalq dəhlizdir.

**57. Azərbaycanın ixrac potensialının** özəyində enerjidaşıyıcılar, ayrı-ayrı sənaye və kənd təsərrüfatı məhsulları dayanaraq iqtisadi, elmi-texniki əməkdaşlıq və ixtisaslaşmış müəssisələrarası istehsalın kooperasiyası formalarında inkişaf edir.

**58. Azərbaycanın dünya bazarında müqayisəli üstünlüklərini** ixrac potensiallı enerjisidaşıyıcılar sərvətlərinə və onların rəqabət imkanlı infrastruktur kommunikasiyalarına malikliyi, həmçinin, iqtisadiyyatının diversifikasiyasında artan istehsal və ixrac gücü şərtləndirir.

# XII FƏSİL

# Beynəlxalq ticarətin ölkələrarası iqtisadi əlaqələr sistemində rolu

## 12.1. Beynəlxalq ticarətin strukturu, formaları və ölkələrin dünya ticarətində iştirakı göstəriciləri

Beynəlxalq ticarət beynəlxalq iqtisadi münasibətlərin daha inkişaf etmiş və yayılmış formasıdır. O, dünya ölkələrinin müasir xarici siyasət maraqlarının və problemlərinin arasında əsas yer tutur. Ona görə də beynəlxalq ticarətin mahiyyəti, inkişaf dinamikasının və strukturunun öyrənilməsi dövlətin xarici siyasətinin və onun inkişaf proqramlarının müəyyən edilməsi üçün mühüm hesab edilir. Burada, həmçinin, ölkələrin beynəlxalq ticarətdə iştirakı göstəricilərindən dolğunluqla istifadə edilməsi və işlərin bu göstəricilərin daim yaxşılaşdırılması istiqamətində qurulması da vacib şərtlidir.

Beynəlxalq ticarət dövlətin nəyi istehsal etməsinin faydalı olduğunu və istehsal edilmiş məhsulu hansı şəraitdə mübadilə etdiyini müəyyən edir. Müasir şəraitdə beynəlxalq ticarətdə dünya təsərrüfatının bütün subyektləri iştirak edir. Onun əsasında beynəlxalq əmək bölgüsü durur. Məhsuldar qüvvələrin bütün elementlərinin keyfiyyət dəyişikliklərini və dünya əmtəə axınlarının coğrafi və əmtəə strukturunda irəliləyişləri sürətləndirən ETİ ona dərin təsir göstərir.

Beynəlxalq ticarətin strukturu (*patterns of international trade*) əmtəələrin idxal və ixracını ehtiva edir. Onlar arasında nisbətlər isə ticarət balansı adlandırılır. Dünya ticarətinin əmtəə strukturu ETİ-nin təsiri, beynəlxalq əmək bölgüsünün dərinləşməsi ilə dəyişir. Hazırda beynəlxalq ticarətdə emal sənayesinin məhsulları daha böyük əhəmiyyətə malikdir. Dünya ticarət dövriyyəsinin ¾ hissəsi məhz bu sektorun payına düşür. Ümumi ticarətdə maşınlar, avadanlıqlar, nəqliyyat vasitələri, kimya məhsulları, xüsusilə də, elmtutumlu malların payı sürətlə artır. Bu çevrədə ərzaq, xammal və yanacağın payı da təxminən 25% təşkil edir. Bununla belə, dünya ərzaq ticarətində ona olan tələbin nisbətən aşağı düşməsi müşahidə olunur. Bu, müəyyən dərəcədə sənaye cəhətdən inkişaf etmiş ölkələrdə istehsalın genişlənməsi ilə bağlıdır.

Beynəlxalq ticarət həm də ən azı üç - təşkilati-texniki, təşkilati-bazar və sosial-iqtisadi aspektdə nəzərdən keçirilə bilən mürəkkəb iqtisadi kateqoriya olaraq çıxış edir.

Təşkilati-texniki aspekt dövlətin rəsmi milli təsərrüfatları (*dövlətlər*) arasında mal və xidmətlərin fiziki mübadiləsini öyrənir. Beynəlxalq ticarətin təşkilati-bazar aspekti isə iki qarşılıqlı əmtəə (*və ya xidmətlər*) axınında - dünya ixracında və dünya idxalında maddiləşən dünya tələb və təklifinin məcmusu kimi müəyyən olunur. Bu zaman dünya məcmu tələbi istehlakçıların ölkə daxilində və ölkə hüdudlarından kənarda mövcud olan qiymətlərin səviyyəsində kollektiv şəkildə əldə etməyə hazır olduqları malların istehsal həcmi, məcmu təklif isə - istehsalçıların mövcud qiymətlər səviyyəsində bazarda təklif etməyə hazır olduqları malların istehsal həcmi kimi başa düşülür. Beynəlxalq ticarətin sosial-iqtisadi aspekti mal və xidmətlər prosesində və onların mübadiləsində dövlətlər arasında meydana gələn ictimai-iqtisadi münasibətlərin xüsusi tipi kimi nəzərdən keçirilir. Bu münasibətlərin dünya iqtisadiyyatında xüsusi əhəmiyyət kəsb edən bir sıra əlamətləri vardır.

Beynəlxalq ticarətin formaları (*forms of international trade*) beynəlxalq mübadilənin mövcudluğunun və məzmununun ifadə olunması üsuludur. Beynəlxalq ticarətin formalarına idxal/yenidən idxal, ixrac/yenidən ixrac, beynəlxalq birjalar, beynəlxalq hərraclar, beynəlxalq sövdələşmələr/tenderlər və beynəlxalq lizinq aid edilir.

Müasir dünyada beynəlxalq ticarətin ümumi forması olaraq topdansatış ticarəti daha geniş yayılmışdır. İnkişaf etmiş bazar iqtisadiyyatı ölkələrində topdansatış ticarəti ilə, bir qayda olaraq, müstəqil şirkətlər məşğul olurlar. Lakin topdan ticarətə bir sıra sənaye şirkətləri də daxil olmaqla öz ticarət aparatlarını yaratmışlar. ABŞ-da topdansatış ticarəti şirkətləri kimi müxtəlif müştərilərə informasiya xidməti göstərən topdansatış kontorları və topdansatış bazaları, AFR-də isə iri şirkətlərdəki xüsusi tədarük şöbələri, xüsusi satış büroları və bölmələri, topdansatış anbarları çıxış edirlər. Bu ticarətdə mühüm ölçü də universal və ixtisaslaşdırılmış topdansatış şirkətlərinin nisbətidir.

Topdansatış ticarətdə əmtəə birjaları xüsusi yer tutur. İnkişaf etmiş ölkələrin birjalarında real əmtəə, demək olar ki, qalmamışdır. Lakin ayrı-ayrı dövrlərdə bazarın başqa təşkilat formaları olmadıqda real əmtəə birjaları nəzərəçarpacaq rol oynaya bilirlər. Real əmtəə birjasının əmtəə hüquq bazarına və ya fyuçers birjasına çevrilməsi ilə əlaqədar olaraq birja institutu hələ də beynəlxalq ticarət üçün öz əhəmiyyətini itirməmişdir.

İstehsalçı ilə istehlakçı arasında ən yaxşı əlaqə axtarışı vasitəsi yarmarkalar və sərgilərdir. Yarmarka (*polyakca* - jarmark, *almanca* - jahrmarkt - *hər il düzənlənən bazar*) müxtəlif məhsulların müntəzəm olaraq satışı üçün təyin edilmiş müvəqqəti ticarət sahəsi, ticarət subyektir. Yarmarkalarda, bir qayda olaraq, kənd təsərrüfatı məhsullarının satışı üstünlük təşkil edir. Tematik yarmarkalarda istehsalçılar öz mallarını sərgi meydanlarında nümayiş etdirə, istehlakçılar isə ona lazım olan malı yerindəcə seçə, ala və sifariş edə bilirlər. Yarmarka geniş sərgidir, burada mal və xidmətlər təklif edilən stendlər mövzu, sahə, təyinat və s. üzrə bölüşdürülmüşdür.

Fransada çoxsaylı sahəvi sərgilər çox vaxt özlərinin yarmarka əraziləri olmayan,

ticarət-sənaye palatasına məxsus təşkilatçı cəmiyyətlər tərəfindən təşkil olunur. İtaliyanın yarmarka təsərrüfatında 200-250 milyon avroluq illik dövriyyəsinə görə rəqibi olmayan, xarici ölkələrdə 20 nümayəndəliyə malik Milan yarmarkası ən iri yarmarka şirkəti kimi çıxış edir. O, başlıca olaraq, sərgi pavilyonlarını icarəyə verir, lakin bununla belə təşkilatçı kimi də fəaliyyət göstərir. Ümumiyyətlə, İtaliyada xarici ticarətinin 30%-dən çoxu yarmarkalar vasitəsilə, o cümlədən 18%-i məhz Milan yarmarkasında həyata keçirilir. Böyük Britaniya yarmarkalarında, ölkə hüdudlarından kənarda da fəaliyyət göstərən, "Rid" və "Blenheym" kimi iki iri  şirkət fəaliyyət göstərir ki, onların illik dövriyyəsi 350 milyon avrodan 400 milyon avro arasında tərəddüd edir. Lakin bu şirkətlər öz dövriyyələrinin böyük hissəsini Böyük Britaniya hüdudlarından kənarda alırlar. AFR-də də yarmarkalar bütövlükdə Avropada qabaqcıl yer tuturlar. Son vaxtlar daha iritutumlu Berlin yarmarkasının illik dövriyyəsi artmış və artıq 200 milyon avronu keçmişdir.

Yarmarkaların rolu gələcəkdə də azalmayacaq, əksinə, artacaq. Beynəlxalq əmək bölgüsünün inkişafı Avropada azad əmtəə mübadiləsi sayəsində daha çox dərinləşəcək. Bəzi istisnalar olmaqla, Avropa yarmarkalarının qonaqları və iştirakçıları üçün heç bir maneə və məhdudiyyətlər qoyulmur.

Dünya ticarəti özünə məxsus göstəricilər sisteminə malikdir. Ölkələrin dünya ticarətində iştirakı göstəriciləri, əsasən, aşağıdakıları əhatə edir:

❍ beynəlxalq ticarətin həcmləri;
❍ bütövlükdə artım templəri;
❍ istehsal artımının sürəti;
❍ ötən illərdə dünya ticarətinin artım sürəti.

Beynəlxalq ticarət həcmləri göstəricisi baza ili göstəricisinə nisbəti ilə müəyyən edilir. Onun köməyi ilə müəyyən dövr ərzində dəyişikliklərin faizlə nisbətini beynəlxalq ticarətin həcmlərində xarakterizə etmək olar. Beynəlxalq ticarətin həcmlərinin artım tempinin istehsal artımı sürətinə aid edilməsi beynəlxalq ticarətin dinamikasının təsviri üçün mühüm olan bir neçə xüsusiyyətin müəyyən edilməsi üçün başlanğıc nöqtədir. Birincisi, bu göstərici ölkədə istehsalın məhsuldarlığını, yəni ölkənin müəyyən vaxt ərzində dünya bazarına təqdim edə biləcəyi mal və xidmətlərin miqdarını xarakterizə edir. İkincisi, onun köməyi ilə bütövlükdə beynəlxalq ticarət mövqeyindən dövlətlərin məhsuldar qüvvələrinin inkişaf səviyyəsini qiymətləndirmək olar. Baza ili kimi həmişə cari ildən əvvəlki il götürülür.

## 12.2. Xidmətlər üzrə beynəlxalq ticarətin mahiyyəti və dinamikası

Maliyyə-valyuta sferası da daxil olmaqla dünya iqtisadiyyatının qloballaşması və elmi-texniki inqilab xidmətlərlə bağlı beynəlxalq ticarət fenomeninin yaranışına diqqəti cəlb etmişdir. Uzun müddət xidmətlər təklifi mallarla ənənəvi ticarətin hər hansı əlavəsi

kimi qəbul olunmuşdur. Lakin 1980-ci illərin əvvəllərində bir sıra ölkələrdə meydana çıxan milli təqdiqatlar, birmənalı olaraq, iqtisadiyyatın xidmətlər sferasında (*bank, sığorta işi, daşınmalar, turizm, telekommunikasiyalar*) artan müstəqil yolunu və onun əhəmiyyətli ixrac potensiallığını təsdiq etmişlər. Qiymətləndirmələrə görə, hazırda dəyərlə ifadədə dünya ticarətinin 20%-i və istehsalın 60%-i xidmət sahələrinin üzərinə düşür.

Müasir zamanda milli iqtisadiyyatın və bütövlükdə dünya təsərrüfatının inkişafına daha güclü təsir göstərən xidmətlərin beynəlxalq ticarəti sürətlə genişlənir və bununla da bütün ölkələrin sosial həyatında artan əhəmiyyət kəsb etməyə başlayır. Bu proses həm də ETT-nin artan tələblərinin və əmək bölgüsünün getdikcə dərinləşməsinin obyektiv nəticəsidir.

Mallardan fərqli olaraq, xidmətlər, əsasən, saxlanmır, eyni zamanda istehsal və istehlak olunur. Bununla əlaqədar xarici ölkələrdə bilavasitə xidmət istehsalçılarının və ya xidmətlərin istehsal edildiyi ölkədə xarici istehlakçıların olması tələb edilir. Mallarla əməliyyatlardan fərqli olaraq onlar gömrük nəzarətinə məruz qalmır.

Xidmətlər kapitaltutumlu və elmtutumlu, sənaye xarakterli və ya şəxsi tələbatları ödəyə bilən, icraçılardan ixtisas səviyyəsi tələb etməyən və ya çox yüksək ixtisas səviyyəsi tələb edən ola bilər. Mallardan fərqli olaraq, xidmətlərin heç də bütün növləri, məsələn, kommunal xidmətlər beynəlxalq dövriyyəyə cəlb olunmamışdır. Xidmətlər sahəsi, bir qayda olaraq, dövlət tərəfindən maddi istehsal sahəsinə nisbətən xarici rəqabətdən daha artıq dərəcədə müdafiə edilmişdir.

Son illər xidmətlərin dünya ticarətinin diqqətlə, ətraflı öyrənilməsi problemi getdikcə kəskinləşir. Reallıq ondan ibarətdir ki, dünya iqtisadiyyatının bu sahəsi indiyə kimi fundamentallıqla öyrənilməmiş, dünyanın aparıcı alimləri ona kifayət qədər diqqət yetirməmiş və praktiki olaraq, xidmətlər zəruri genişliklə tədqiq edilməmişdir. Bu səbəbdən daim artan dünya xidmətlər mübadiləsi miqyasına baxmayaraq, hələ də xidmətlərin dəqiq tərifi mövcud deyildir. Ayrı-ayrı xidmət növlərinin hüdudları dürüst müəyyən olunmamışdır, xidmət sahələrinin mükəmməl tənzimlənmə sistemi yoxdur. Bununla belə, xidmətlərə aşağıdakı ümumiləşdirilmiş tərifi vermək mümkündür. Xidmətlər (*services*) qeyri-maddi formada iqtisadi fəaliyyət olub, bilavasitə cəmiyyət üzvlərinin şəxsi tələbatlarını, ev təsərrüfatlarının, müxtəlif növ müəssisələrin, birliklərin, təşkilatların tələbatlarını, ictimai tələbatları və ya bütövlükdə cəmiyyətin tələbatlarını ödəyir. "Xidmətlər üzrə beynəlxalq ticarət" termini bir çox xidmət növlərinin mübadiləsini əhatə edir ki, bunların hər biri konkret xüsusiyyətlərə malikdir. Lakin xidmətlər üzrə beynəlxalq ticarətin çoxtərəfliyinə baxmayaraq, xidmətlər mübadiləsində beynəlxalq ticarətin bu sahəsi üçün xarakterik olan bir sıra ümumi qanunauyğunluqlar və meyillər nəzərdən keçirilir.

Müasir inkişaf etmiş iqtisadiyyatda xidmətlərin növlərini müxtəlif struktur və funksionallıq baxımından bu və ya digər dərəcədə eynicinsli bölmələrdə qruplaşdırmaq olar:

1. Nəqliyyat:

- sərnişin (*bütün növ nəqliyyat vasitələri ilə sərnişinlərin daşınması və müvafiq xidmətlərin göstərilməsi*);
- yük (*yüklərin beynəlxalq daşınması*).

2. Rabitə (*rezidentlər və qeyri-rezidentlər arasında poçt, kuryer, telefon və başqa əlaqələr*)

3. Tikinti.

4. Maliyyə xidmətləri.

5. Bank.

6. Sığorta.

7. Logistika.

8. Kompüter və informasiya xidmətləri (*kompüter proqramları sahəsində məsləhətlər, kompüterlərə xidmət və s.*).

9. Royalti və lisenziya ödənişləri.

10. Hökumət xidmətləri (*malların səfirliyə, konsulluğa tədarükü, sülhün qorunması üzrə beynəlxalq təşkilatların göstərdiyi xidmətlər*).

11. Şəxsi, mədəni, rekreasiya xidmətləri:

- audiovizual (*filmlərin, proqramların, disklərin və s. istehsalı*);
- digər (*sərgilərin nümayişi, tədbirlərin keçirilməsi*).

12. Səfərlər:

- işgüzar (*iş üçün səyahət edən qeyri-rezidentlər tərəfindən alınan mal və xidmətlər, ezamiyyətlər*);
- şəxsi (*turizm və s*).

13. Digər biznes-xidmətlər:

- vasitəçilik xidmətləri;
- lizinq;
- digər, işgüzar, peşəkar və texniki xidmətlər (*hüquqi, idarəetmə, mühasibat, reklam, layihələndirmə, kartoqrafiya üzrə xidmətlər və s.*).

Beynəlxalq ticarətdə mallar və xidmətlər bir-biri ilə sıx qarşılıqlı əlaqədə və qarşılıqlı münasibətdədirlər və xidmətlərin DTT dairəsinə daxil edilməsinin əsas səbəblərindən biri də budur.

Xidmətlərin bir çox növləri əmtəə mübadiləsinin müəyyən inkişaf pilləsində beynəlxalq ticarətin müstəqil sektorlarına ayrılmışdır. Belə ki, beynəlxalq nəqliyyat, bank işi və sığorta, logistika və bir çox başqa xidmətlər sahələri meydana gəlmişdir. Lakin, bununla belə, onlar əmtəə ticarəti ilə sıx əlaqələrini qoruyub saxlamışlar. Əmtəələrlə hər hansı xarici ticarət əməliyyatı nəqliyyat, telekommunikasiya, bank xidmətləri, sığorta, elektron saxlanma sistemləri və informasiyanın emalı və bir çox başqa sahələrdən istifadə etmədən qeyri-mümkündür.

Milli iqtisadiyyatın xidmətlər ticarətindən asılılığı həmin ölkədə ÜDM-də xidmətlər ticarətinin xüsusi çəkisini göstərir. XXI əsrin ilk onilliyinin ortalarında onun ölçüsü

Böyük Britaniya, Fransa, Finlandiya, İsveçrə, İsveç üçün 10-15%, ABŞ, Kanada, AFR, CAR, Avstraliya, Yaponiya üçün 5-10% hüdudlarında tərəddüd edirdi.

Ölkə iqtisadiyyatlarında xidmətlərin rolu həm də mal ixracı payının ölkələrin ÜDM-də xidmətlərin ixracının payına nisbəti kimi hesablanmış indeksin köməyi ilə qiymətləndirilir. Ticarətdə xidmətlər ixracının payının müəyyən edilməsi əyani olaraq netto-ixracatçı ölkələri və xidmət idxalçılarını göstərir. Belə ki, dünya xidmətlər ticarətinin ən iri iştirakçısı olan AFR-in xidmətlər balansının mənfi saldosu onun üçün uzun illər ərzində çox böyük problemdir.

Xarici ticarət kvotası (*ÜDM-də xidmətlər ticarətinin xidmətlər sahəsindəki payına nisbəti*), həmçinin, ölkənin adambaşına hesabına xidmətlər ticarətinin göstəricisi xidmətlər sahəsində ölkənin xarici iqtisadi əlaqələrində iqtisadiyyatının açıqlılıq dərəcəsini göstərir.

Xidmətlərin ticarətində ölkələrin nisbi ixrac ixtisaslaşması əmsalı kifayət qədər informativdir, o, ölkənin ümumi ixracında onun xidmətlər ixracının dünya xidmətlər ixracındakı payına nisbəti kimi hesablanır. O, xidmətlər ixracında ölkələrin ixtisaslaşması dərəcəsini müəyyən etməyə imkan verir.

Hazırda DTT-də ölkələrin xarici tərəfdaşlar üçün milli bazara liberal çıxış rejimi ilə icazə verdikləri xidmət sahələrinin siyahısı təkmilləşdirilir. DTT təsnifatına görə, dünya üzrə 12 sahədən daha "açıq" olanlara turizm aiddir. Bundan başqa, bir çox ölkələr hesab edirlər ki, işgüzar və maliyyə xidmətləri bazarının liberallaşması müsbət effekt gətirə bilər. Xidmət bazarlarının liberallaşmasında gələcəkdə ixracın genişləndirilməsinə cəhd edən inkişaf etmiş ölkələr maraqlıdır.

## 12.3. Elektron ticarət və onun dünya ticarət əlaqələrinin genişlənməsində rolu

Elektron ticarət əksər dünya ölkələrində olduğu kimi, eyniliklə, adi dünya ticarətinin amilləri - iqtisadi artım, beynəlxalq əmək bölgüsünün dərinləşməsi, ixtisaslaşmanın və kooperasiyanın genişlənməsi fonunda inkişaf tapır. Bunlarla yanaşı, biznesin bu sahəsində yüksək artım templəri əhəmiyyətli dərəcədə spesifik amillərlə də şərtləndirilir. Elektron ticarət dünya ticarət əlaqələrinin genişlənməsində rolu daim artır.

Elektron ticarətlə ənənəvi kommersiya ticarəti arasında fərqlər coğrafi zaman və müəyyən dərəcədə də dil maneələrinin olmaması ilə səciyyələndirilir. Belə fərqlilik isə , öz növbəsində, mal və xidmətləri yeni satış bazarlarına hərəkət etdirməyə imkan verir. Elektron ticarət (*e-commerce*) termini 1990-cı illərin ortalarında, malların beynəlxalq alqı-satqı sövdələrinin qlobal kompüter şəbəkəsi - İnternet vasitəsilə həyata keçirilməsi imkanının açılması ilə bağlı meydana gəlmişdir. Elə İnternet şəbəkəsi vasitəsilə ticarət əməliyyatlarının inkişafının ilk illərində müvafiq terminologiyanın dəqiqləşdirilməsinə tələbat yaranmışdır. Getdikcə beynəlmiləşən, qlobalaşan elektron ticarətin artıq 2000-ci ildə İƏİT çərçivəsində ilk tərifi formalaşdırılmışdır. Bu tərifə

görə, “elektron ticarət” anlayışına qarşılıqlı əlaqəli kompüterlər şəbəkəsi vasitəsi ilə həyata keçirilən maddi əmtəə və xidmətlərin alqı-satqı sövdələşmələrinin məcmusu və bu sövdələşmələrdə başlıca əlamət olaraq sifariş aktının elektron vasitələrlə qeydiyyatının aparılması təyinatı verilmişdir. Sonradan, 2004-cü ildə İƏİT-in bir qrup eksperti “elektron ticarət”in tərifini kompüter və telekommunikasiya texnikası vasitələrindən istifadə əsasında həyata keçirilən hər hansı kommersiya sövdələrinin məcmusu kimi müəyyən etmişlər.

İnternet şəbəkəsi vasitəsi ilə həyata keçirilən iqtisadi fəaliyyət sintetik formatda doktrinal (*elmi*) tərif tələb edir. Müvafiq tərifin formalaşdırılması isə digər anlayışlarla inteqrativ aspektdə mümkündür. Bundan irəli gələrək iqtisadçılar “elektron kommersiya” anlayışını daha çox “məlumatların elektron mübadiləsi”, “pul vəsaitlərinin elektron köçürülməsi” və həmçinin, “elektron ticarət” kimi terminlərin vasitəsi ilə açırlar. Metodiki və praktiki işlərdə “elektron kommersiya”, adətən, elektron kommunikasiya vasitələrinin köməyi ilə mövcud partnyor əlaqələri bazasında əmtəə və xidmətlər mübadiləsinin iqtisadi prosesi kimi müəyyən olunur. Elektron kommersiya və ya biznesin elektron formatda aparılması işgüzar fəaliyyət sahəsi olub, elektron sənəd dövriyyəsini, ödənişlərin elektron sistemini və elektron ticarəti ehtiva edir. Bu zaman məlumatların (*electronic data interchange, EDI*) elektron mübadiləsi dedikdə, bir qayda olaraq, müxtəlif şirkətlərin standartlaşdırılmış formada kompüter proqramları arasında alqı üçün sifarişlər, birja kotirovkaları, müxtəlif mallara fakturalar və hesab-fakturalar kimi işçi sənədləri ilə elektron mübadiləsi anlaşılır.

Pul vəsaitlərinin elektron köçürməsi (*electronic funds transfer, EFT*) dedikdə, banklar arasında qorunan şəxsi şəbəkələr və ya İnternet şəbəkəsi ilə elektron ödənişləri və pul köçürülməsini və ya terminaldan, telefondan və ya maqnit daşıyıcısından (*plyonka və ya disketdən*) götürülən, istifadəçinin hesabının debet və ya kreditləşməsinə aid təlimatların və ya səlahiyyətlərin maliyyə müəssisəsinə verilməsi ilə həyata keçirilən pul köçürmələrini və yaxud elektron sənəd dövriyyəsi vasitələrindən istifadə etməklə pulların bir bank hesabından digərinə köçürülməsini optimallaşdıran sistem başa düşülür.

Beləliklə, elektron ticarət (*e-commerce*) İnteret şəbəkəsində kompüterlərin vasitəsilə əmtəə alıcısı və satıcısı arasında aparılan ticarəti olaraq anlaşılır. Faktiki elektron ticarətin predmeti hər hansı məhsul - əmtəə, xidmət, daşınmaz əmlak, bank məhsulu və s. ola bilər. Müasir zamanda elektron ticarətin əsas məhsulları qismində ərzaq malları, sənaye malları və informasiya məhsulları çıxış edirlər.

Beynəlxalq səviyyədə İnternet şəbəkəsi vasitəsilə kommersiya əməliyyatlarının reallaşması sferasında da çətinliklər mövcuddur. Bu, vergitutmanın müxtəlif sistemlərindən, gömrük rüsumlarından və yığımlarından istifadə, elektron ticarət proseslərinin unifikasiyalı beynəlxalq hüquqi tənzimlənməsinin olmaması kimi amillərlə izah olunur. Hüquqi xarakterli problemlərin aradan qaldırılması məqsədilə 1996-cı ildə BMT-nin hüquq və beynəlxalq ticarət komissiyası - UNSİTRAL

çərçivəsində dünya bazarında elektron işgüzar əməliyyatların liberallaşdırılmasına yönəldilmiş "Elektron kommersiya haqqında" tipoloji qanun işlənib hazırlanmışdır. İnternet şəbəkəsində baş tutan sövdələrdən vergitutma məsələləri isə hələlik qanunvericiliklə tənzimlənmədən və dövlətlərin nəzarəti zonasından kənardadır. Belə ki, İnternet şəbəkəsində məkan-zaman bağlılığı olan bəzi hüquqi kateqoriyaların, məsələn, "daimi nümayəndəlik" və "malların, işlərin və xidmətlərin satışı" anlayışlarının tətbiqi qeyri-mümkündür.

ABŞ hökuməti bütün ölkələrdə gömrük rüsumlarının və tariflərinin ləğv edilməsinin fəal tərəfdarı kimi çıxış edir. İƏİT və DTT-nin üzv ölkələri də daxil olmaqla bir çox başqa ölkələr elektron ticarətin yeni vergitutma formalarından, o cümlədən gömrük tariflərindən azad olması fikrinin tərəfdarları kimi ABŞ-la birləşmişlər. Belə bir fikir də formalaşmışdır ki, ticarət tariflərinin azaldılması və ya ləğv edilməsi beynəlxalq ticarətin inkişafına və bütün ölkələr üçün fayda verəcəyinə yalnız kömək edəcəkdir. Bütün bunlarla yanaşı, inkişaf etməkdə olan ölkələrin həmfikir olduqları bir əks nöqteyi-nəzər də mövcuddur. Bu ölkələr hesab edirlər ki, onlar dünya bazarlarında rəqabətqabiliyyətli olana qədər azad ticarətə icazə verilərsə, sənayelərinə zərər dəyəcək.

Bir cəhət xüsusilə vurğulanmalıdır ki, DTT çərçivəsində elektron ticarət məsələləri üzrə razılaşdırılmış mövqe hələ də formalaşmamışdır. Belə vəziyyət isə, öz növbəsində, DTT-də elektron sövdələrə gömrük rüsumlarının moratoriumunun tətbiqinə səbəb olmuşdur. Eyni zamanda, DTT çərçivəsində beynəlxalq elektron ticarətin stimullaşdırılması məqsədilə və bu sahədə beynəlxalq sövdələrin qeydiyyatının çətinliyi nəzərə alınaraq elektron ticarət sövdələrinə yeni vergilərin tətbiq olunmayacağı barədə qərarlar qəbul edilmişdir. Beynəlxalq kommersiya təcrübəsinə ölkələr arasında mal mübadiləsinin yeni intensivləşdirmə alətlərinin geniş tətbiqi iqtisadiyyatın səmərəliliyinin yüksəldilməsinə və sürətli sənaye artımı üçün şəraitin formalaşmasına imkan yaradır.

### 12.4. Beynəlxalq ticarət təşkilatları və onların mahiyyəti

Dünya iqtisadiyyatının inkişafında beynəlxalq təşkilatların əhəmiyyətinin artması beynəlxalq hüququn fəaliyyətinin xarakterik cəhətidir. Bütövlükdə dünya iqtisadi sistemində olduğu kimi, beynəlxalq ticarətin daha effektiv tənzimlənməsi problemi II Dünya Müharibəsindən sonra kəskinləşmişdir. İqtisadi ziddiyyətlər müharibəni doğuran əsas səbəblərdən olmuşdur. Bu zaman Avropanın iqtisadi bərpası kimi mürəkkəb vəzifəni həll etmək vacib idi. Dövlətlərin qüvvələrini birləşdirmək üçün BVF, BYİB kimi təşkilatlar kompleksi yaradıldı. 1947-ci ildə beynəlxalq ticarət sahəsində əsas akt - Tariflər və Ticarət üzrə Baş Saziş (*General Agreement on Tariffs and Trade GATT*) qəbul edildi. Bu müqavilə ticarətin çoxtərəfli tənzimlənməsinin və bununla da beynəlxalq ticarət hüququnun əsasını təşkil etdi. GATT-ın əsas məqsədini beynəlxalq ticarətdə baryerlərin azaldılması təşkil etmişdir. Buna tarif baryerlərin azaldılması, idxal kvotasının kəmiyyət məhdudlaşdırılması və müxtəlif əlavə sazişlərlə

ticarətin subsidiyalaşdırılması ilə nail olunmuşdur. O, BMT sistemi ilə rəsmi müqavilə əsasında hökumətlərarası müəssisələrə aid olmuşdur. Bu təşkilatda 1994-ci ilə kimi 123 ölkə təmsil olunmuşdur. GATT 50 il hazırda mövcud DTT-nin funksiyalarını yerinə yetirmişdir və hüquqi cəhətdən onun davamçısıdır. GATT çərçivəsində DTT yaradılması haqqında çoxtərəfli danışıqların Uruqvay raundunun yekununda əldə edilmiş müqaviləyə uyğun olaraq meydana gəlmişdir. 150-yə qədər dövləti və dünya ticarət dövriyyəsinin 95%-dən çoxunu əhatə edən DTT 1995-ci il yanvarın 1-dən fəaliyyətə başlamışdır.

Müasir zamanda beynəlxalq ticarət təşkilatları olaraq BMT-nin Ticarət və İnkişaf Konfransı - UNCTAD, BMT-nin Beynəlxalq Ticarət Kommisiyası - UNSİTRAL, Beynəlxalq Ticarət Palatası - ICC, Beynəlxalq əmtəə təşkilatları, OPEK karteli və digər ticarət yönümlü beynəlxalq təsisatlar çıxış edirlər.

BMT-nin Ticarət və İnkişaf Konfransı, UNCTAD (*United Nations Conference for Trading and Development*) BMT-nin Baş Assambleyasının beynəlxalq ticarət təşkilatı olmayan orqandır. 1964-cü ildə yaradılmışdır, 168 üzv ölkəni əhatə edir. UNCTAD-ın əsas vəzifələri beynəlxalq ticarətin, dövlətlər arasında bərabərhüquqlu qarşılıqlı faydalı əməkdaşlığın inkişafına köməkdən, beynəlxalq iqtisadi münasibətlərin fəaliyyəti üzrə müxtəlif tövsiyələrin işlənib hazırlanmasından ibarətdir. Təşkilatın rəhbərliyi altında çoxtərəfli müqavilələr, konvensiyalar hazırlanır və onun ali orqanı olan Ticarət və inkişaf üzrə Konfrans və Şura çərçivəsində altı komitə fəaliyyət göstərir. UNCTAD-da işin qrup halında prinsipi qəbul edilmiş, üzv dövlətlər sosial-iqtisadi və coğrafi prinsip üzrə dörd qrupa bölünmüşlər. UNCTAD-ın qərarları qətnamə, bəyanat və s. forma alır və tövsiyə xarakteri daşıyır.

BMT-nin Beynəlxalq Ticarət Komissiyası, UNSİTRAL (*United Nations Commission on International Trade Law, UNCITRAL*) beynəlxalq ticarət hüququnun inkişafına kömək məqsədilə yaradılmış BMT Baş Assambleyasının yardımçı orqanıdır. 1966-cı ildə təsis edilmişdir, 1968-ci il yanvarın 1-dən fəaliyyət göstərir, hüquqi aktların testlərinin qəbul edilməsi haqqında məsələni nəzərdən keçirən ölkələrə və beynəlxalq ticarət hüququ sahəsində mütəxəssislərin hazırlanmasına yardım edir. UNSİTRAL kommersiya sövdələri üçün müasir, ədalətli və razılaşdırılmış qaydalar işləyib hazırlayır və buraya aşağıdakılar aiddir:

❍ bütün dünyada qəbul edilmiş konvensiyalar, tipoloji qanun və qaydalar;
❍ böyük praktiki əhəmiyyəti olan hüquqi və qanunverici əsasnamələr və tövsiyələr;
❍ kommersiya hüququnun oxşar normalarını qüvvəyə mindirən presedent hüququ və qanunvericilik aktları haqqında yenilənən informasiya;
❍ hüquq islahatı layihələrinin həyata keçirilməsinə texniki dəstək;
❍ oxşar kommersiya hüququ üzrə regional və milli seminarlar.

UNSİTRAL öz işini bir ildən bir növbə ilə Nyu-Yorkda BMT-nin mərkəzi idarələrində və Vyanada Vyana beynəlxalq mərkəzində illik sessiyalarda yerinə yetirir. Onun tərkibinə Baş Assambleya tərəfindən seçilən 60 üzv dövlət daxildir. UNSİTRAL-

ın tərkibinə dünyanın müxtəlif coğrafi regionlarının və onların əsas iqtisadi və hüquqi sistemlərinin nümayəndəlikləri daxildir. Üzvlər altı il müddətinə seçilir və onların yarısının səlahiyyəti müddəti hər üç ildən bir bitir. UNSİTRAL-ın katibliyi BMT-nin Hüquqi Məsələlər İdarəsinin Beynəlxalq Ticarət Hüququ Sektorudur. Katiblik Avstriyanın paytaxtı Vyana şəhərində yerləşir.

Beynəlxalq Ticarət Palatası (*International Chamber of Commerce, ICC*) 1919-cu ildə yaradılmış və hazırda dünyanın 140 ölkəsindən minlərlə müəssisə, assosiasiya və şirkəti birləşdirən, biznes qarşısında duran ən aktual problemlərin həllinə kömək edən müstəqil beynəlxalq qeyri-kommersiya təşkilatıdır. Təşkilatın mənzil-qərargahı Parisdə yerləşir. Beynəlxalq Ticarət Palatası BMT, DTT, BYİB və digər təşkilatlarla sıx qarşılıqlı əlaqədə olub, onlar üçün kollektiv məsləhət orqanı funksiyalarını yerinə yetirir. ICC-nin əsas məqsədi beynəlxalq biznesin aparılması etikasının yüksək standartlarına hörmətin yüksəldilməsindən ibarətdir. ICC-nin fəaliyyəti daha aktual məsələlərin həllinə yönəldilmişdir ki, bunların sırasında biznesin aparılmasının unifikasiya edilmiş qaydalarının, standartlarının işlənib hazırlanması və beynəlxalq ticarətin liberallaşdırılması ilə əlaqədar məsələlərin həlli yer alır. ICC-nin bütün dünya üzrə qəbul edilmiş siyasi bəyanatlarının hazırlanması və unifikasiyalı standartların, məcəllələrin, qaydaların və biznesin aparılmasının digər mexanizmlərinin işlənib hazırlanması ilə sahəvi əlamətlərinə görə yaradılan və biznesin bütün sahələrini əhatə edən 16 daimi fəaliyyət göstərən komissiya və məsləhət qrupları məşğul olur. ICC-nin sənədləri arasında "ICC unifikasiyalı ticarət terminləri" - "İnkoterms", "Sənəd akkreditivləri üçün unifikasiyalı qaydalar və adətlər" - "UCP 600", "ICC-nin arbitraj reqlamenti", tipoloji beynəlxalq kontraktlar və bir çox başqaları yer alır. ICC-nin beynəlxalq və milli konfrans və seminarların keçirilməsi də daxil olan və hər il yenilənən proqramı ekspert qiymətlərinin geniş auditoriyaya çatdırılmasının ən mühüm kanalıdır. ICC konfransları dünyanın müxtəlif ölkələrində onun milli komitələrinin fəal iştirakı ilə keçirilir. ICC, həmçinin, hər iki ildən bir biznes üçün qlobal miqyaslı hadisə olan ümumdünya konqresləri keçirir ki, burada yaxın illərdə müəssisə və şirkətlərin qarşılaşa biləcəyi beynəlxalq problemlər müzakirə edilir, bu problemlərin həllinin strategiyası işlənib hazırlanır. Konqreslər ICC milli komitələrinin dəvəti ilə dünyanın müxtəlif ölkələrində reallaşdırılır. ICC nəzdində 1923-cü ildə yaradılmış və arbitrajın beynəlxalq kommersiya mübahisələrinin həllinin daha effektiv yolları kimi dünya tərəfindən qəbul edilməsinin təminində böyük rol oynamış Beynəlxalq Arbitraj Məhkəməsi fəaliyyət göstərir. Bundan başqa ICC yanında 1981-ci ildə yaradılmış Beynəlxalq Dəniz Bürosu ixtisaslaşmış bölməsi də vardır. Beynəlxalq Dəniz Bürosu bütün növ dəniz cinayətləri, həmçinin, xidməti vəzifədən sui-istifadə ilə mübarizənin koordinasiya mərkəzidir.

Dünya əmtəə bazarlarının tənzimlənməsində beynəlxalq əmtəə təşkilatları adlandırılan hökumətlərarası təşkilatlarda da fəaliyyət göstərirlər. Buraya aşağıdakılar daxil edilidir:

❒ beynəlxalq təşkilatlar;
❒ beynəlxalq şuralar;
❒ beynəlxalq məsləhət komitələri;
❒ beynəlxalq tədqiqat qrupları.

Beynəlxalq əmtəə təşkilatlarının fəaliyyəti müəyyən dərəcədə bir sıra xammal istehsalçısı olan ölkələrin birtərəfli hərəkətləri üçün imkanları məhdudlaşdırır, kartel tipli ixracatçıların beynəlxalq birliklərinin yaradılmasına mane olur.

Beynəlxalq ticarət təşkilatları sırasına OPEK də qatılır. Vurğulandığı kimi 1960-cı ildən könüllü hökumətlərarası iqtisadi təşkilat - beynəlxalq neft karteli kimi fəaliyyət göstərən OPEK neft istehsalının həcminə kvotalar müəyyənləşdirməklə dünya ticarətində mühüm rol oynayır.

## 12.5. Uruqvay raundu və Dünya Ticarət Təşkilatının təşəkkülü

XX əsrin ikinci yarısından dünya iqtisadiyyatının inkişafında baş verən bir çox proseslər beynəlxalq ticarət sferasında daha ciddi tənzimləmələri meydana çıxarmışdır. 1970-ci illərdən isə bu sahədə ümumi hüquqi məkanın formalaşmasının daha intensiv prosesi başlamışdır. Buna xeyli dərəcədə GATT çərçivəsində həyata keçirilən və xarici ticarətin tənzimlənməsinin milli sistemlərinin uyğunluğuna, beynəlxalq əmtəə mübadiləsində bir çox maneələrin aradan qaldırılmasına, daha təkmil və müasir beynəlxalq ticarət sisteminin formalaşmasına yönəldilmiş fəaliyyət kömək etmişdir.

GATT beynəlxalq ticarət münasibətlərində normal iqlim gözləntisi mexanizmi olaraq özü də yeni təkmilləşmələri tələb etmişdir. Belə təkmilləşmələr çoxtərəfli ticarət danışıqlarının "Uruqvay raundu"nda (*Uruguay round*) yeni istitusional yaranışlara gətirmişdir. 1986-cı ilin sentyabrında Uruqvayın kurort şəhəri Punta-del Estedə başlanan GATT üzrə çoxtərəfli danışıqlar 1994-cü ildə 111 üzv ölkə tərəfindən beynəlxalq ticarətin istiqamətləndirilməsi, tənzimlənməsi və liberalaşdırılması sahəsində 50-dən çox sənəd (*saziş, qərar, razılaşma, protokol, bəyannamə və s.*) qəbul edilməsi ilə müşayiət olunmuşdur. Keçirilən bu raundun xüsusiyyəti həm də ondan ibarət olmuşdur ki, tarixdə ilk dəfə GATT-ın gündəliyinə bu təşkilatın fəaliyyətinə bilavasitə aid olmayan məsələlər salınmışdır. Həmin məsələlər çevrəsinə kənd təsərrüfatında proteksionizmin məhdudlaşdırılması, xidmətlər ticarətinin (*o cümlədən bank, sığorta, nəqliyyat, tikinti, kompüter xidmətləri*), həmçinin, intellektual mülkiyyətin, ticarətlə bağlı investisiyaların qorunması məsələlərini aid etmək olar. Bundan başqa, raundun gündəliyinə GATT-ın mexanizminin təkmilləşdirilməsi və dünya ticarətinin inkişaf mərhələsinə adaptasiyası məsələləri də daxil edilmişdir. Burada qəbul edilən ən mühüm sənəd isə Dünya Ticarət Təşkilatının - DTT-nin yaradılması olmuşdur. Bu isə GATT-ın fəaliyyət sahəsini genişləndirərək, mahiyyət etibarilə, onu mövcud beynəlxalq ticarət sisteminin harmonizasiyası üzrə ümumdünya iqtisadi təşkilata çevirmişdir. Keçirilən bu raundda həm də GATT-ın əlavələr və

dəqiqləşmələrlə DTT-nin hüquqi əsaslarını yaradan ümumi sənədlər paketinə daxil edilməsi və ona GATT-1994 adı verilməsi qərara alınmışdır. Burada digər razılaşdırılmış sənədlər isə, başlıca olaraq, üç məsələni - bazarlara girişin genişləndirilməsini, iqtisadi münasibətlərin yeni sferalarının tənzimlənməsini və onun mexanizmlərinin təkmilləşdirilməsini əhatə etmişlər.

Uruqvay raundunun yekunları ilə 1995-ci il yanvarın 1-dən GATT Dünya Ticarət Təşkilatına, DTT-yə (*World Trade Organization, WTO*) çevrilmişdir. DTT-nin məqsədi beynəlxalq ticarətin liberallaşdırılması və ona dayanıqlı əsas verilməsi dir ki, bununla da iqtisadi artım və insanların maddi rifahının yüksəldilməsi təmin edilir. Bu, qismən üzv ölkələr arasında qayda və müqavilələrin işlənib hazırlanması və qurulması, qismən də mal və xidmətlər ticarətinin gələcək liberallaşdırılmasına yönəldilmiş danışıqlar əsasında əldə olunur. DTT mal və xidmətlərin beynəlxalq ticarəti sahəsində gələcək danışıqlar üçün əsas yaradır.

DTT-nin məqsədinə aşağıdakılar vasitəsilə nail olunur:

- ticarət sazişlərinin idarə olunması;
- ticarət danışıqları üçün forum;
- ticarət mübahisələrinin həlli;
- milli ticarət siyasətlərinin nəzərdən keçirilməsi;
- texniki yardım və treninq proqramları vasitəsilə inkişaf edən ölkələrə ticarət siyasəti məsələlərində dəstək;
- digər beynəlxalq təşkilatlarla əməkdaşlıq.

DTT-nin hüquq norma və müddəalarını əks etdirən nizamnaməsi yoxdur. DTT-nin hüquqi əsasını GATT-ın 1994-cü il redaksiyası (*GATT-1994*), buraya daxil olan bir sıra yeni müqavilə, saziş və qərarlar, həmçinin, xidmətlər ticarəti üzrə baş saziş (*GATS*) və əqli mülkiyyət hüquqlarının ticarət aspektləri üzrə saziş (*TRİPS*) təşkil edir.

Xidmətlər Ticarəti üzrə Baş Saziş (*General Agreement on Trade in Services, GATS*) Uruqvay raundunun ən mühüm yekun sənədlərindən biri olaraq xidmətlər ticarəti üzrə ilk çoxtərəfli dövlətlərarası müqavilədir. GATS-ın predmetini mərkəzi, regional və yerli hakimiyyət orqanları, həmçinin, hökumətin yurisdiksiyası ilə reallaşan qeyri-hökumət müəssisələri tərəfindən həyata keçirilən xidmətlər ticarətinə təsir göstərən tədbirlər əhatə edir. GATS xidmətlər ticarətini tənzimləyən çoxtərəfli hüquqi sistemin əsasını təşkil edən prinsiplərdən ibarətdir. O, 29 maddədən ibarət altı bölməni - “İdarəetmə dairəsi və terminlər”, “Ümumi öhdəliklər və intizam”, “Xüsusi öhdəliklər”, “Xidmətlər mübadiləsinin mütərəqqi liberallaşması”, “Prosedur müddəalar” və “Yekun müddəalar”ı əhatə edir. GATS-ın tərkib hissəsi ayrı-ayrı xidmət növlərinə aid olan əlavələrdir. GATS-ın əsas müddəaları daha çox GATT-ı xatırladır və buraya milli rejim (*xarici xidmət tədarükçüləri və xidmətlərin özü də milli xidmətlər rejimindən istifadə etməlidir*); daha çox əlverişli şərait rejimi (*hamı üçün eyni rejimi nəzərdə tutan və*

*müqavilə iştirakçıları arasında hər hansı ayrı-seçkiliyin olmaması*); aşkarlıq (*xidmətlər ticarətinin tənzimlənməsinə aid olan bütün informasiya, qanunlar, inzibati sərəncamlar dərc olunmalıdır*); bütün xidmətlər ticarəti çərçivəsində danışıqlar yolu ilə tədricən liberallaşma daxildir. GATS müqavilə iştirakçılarının üzərlərinə götürdükləri iki qrup - bütün xidmətlər növünə aid olan ümumi (*üfüqi*) və xidmətləri istehsal və tədarük edən ayrı-ayrı sahələr üçün konkret öhdəlikləri nəzərdə tutur. Bazarlara çıxış üzrə ayrı-ayrı ölkələrin öhdəlikləri onların öhdəliklərinin siyahılarında cəmlənir. Bu siyahılar hər bir ölkənin hüquqi öhdəlikləridir. Onlar dörd növ xidmət tədarükünü hər biri üçün hüquqi meydan yaradır. Bu siyahılar ölkənin DTT-yə birləşməsi haqqında protokolun bir hissəsidir.

Əqli Mülkiyyət Hüquqlarının Ticarət Aspektləri üzrə Saziş (*Agreement on Trade-Related Aspects of Intellectual Property Rights, TRİPS*) əqli mülkiyyət hüquqlarının qorunması standartlarını və onların hüquqi tətbiqi qaydasını müəyyən edən DTT-nin təsis edilməsi haqqında Sazişlə yaradılan müqavilədir. Əqli Mülkiyyət Hüquqlarının Ticarət Aspektləri üzrə Saziş DTT-nin üç əsas hüquqi alətlərindən birinə aiddir və onun başlıca vəzifəsi DTT-nin əqli mülkiyyət hüquqlarının ticarəti sahəsində mübahisəli məsələlərinin həllinə kömək və müvafiq sahədəki fəaliyyətlərə nəzarət etməkdir. Bu mexanizmlər sanksiyaların tətbiq imkanını təminetmənin repressalii *(beynəlxalq hüquqda bir ölkə tərəfindən digər ölkənin hüquqa zidd hərəkətlərinə cavab olaraq məcburi siyasi və iqtasadi xarakterli ölçülərin tətbiqi)* yolunu nəzərdə tutur.

DTT daim fəaliyyət göstərən beynəlxalq təşkilatdır və GATT-dan fərqli olaraq BMT sisteminin ixtisaslaşmış təsisatıdır. Belə ki, GATT-ın ixtisaslaşmış təsisat kimi rəsmi statusu olmamışdır. Bununla belə, GATT DTT-in bölməsi olaraq qalır. Lakin DTT-nin səlahiyyətləri daha genişdir. Buraya intellektual mülkiyyət hüququnun (*intellectual property rights*) müdafiəsi, investisiya, xidmət-ticarət, bank, sığorta fəaliyyəti, o cümlədən nəqliyyat əməliyyatları da daxil olmuşdur.

DTT bir təşkilatdır və eyni zamanda o, hüquqi sənədlər kompleksidir. Başqa sözlə, mal və xidmətlər beynəlxalq ticarəti sahəsində hökumətlərin hüquq və öhdəliklərini müəyyən edən çoxtərəfli ticarət müqaviləsidir.

DTT-nin 160 üzvü vardır. Üzvlük barədə danışıqlar isə 30-a yaxın ölkə ilə davam etdirilir. DTT-nin ən yüksək qərar qəbuledici orqanı, ən azı, iki ildə bir dəfə yığışan Nazirlər Konfransıdır. Qərarlar, adətən, bütün üzvlərin razılığı ilə konsensus əsasında qəbul olunur. Səslərin əksəriyyəti ilə də qərar qəbulu mümkündür, lakin bu DTT-də indiyədək heç vaxt baş verməyib. DTT-nin qərarları bütün üzv ölkələrdə ölkə parlamentləri tərəfindən ratifikasiya olunur. DTT üzvlərinin dörddə üç hissəsindən çoxu inkişaf etməkdə olan və ya zəif inkişaf etmiş ölkələrdir.

DTT-nin ticarət mübahisələrinin həlli "Mübahisələrin Həlli üzrə Anlaşma" çərçivəsində aparılır. Ölkələr özlərinin sazişlərlə çərçivələnən hüquqlarının pozulduğu qənaətinə gəldikdə mübahisə predmetini DTT-yə ünvanlayırlar.

DTT-nin Katibliyi İsveçrənin Cenevrə şəhərində yerləşir, 630 nəfərə qədər işçiyə

malikdir və baş direktor tərəfindən idarə olunur. İllik büdcəsi təxminən 169 milyon İsveçrə frankı təşkil edir. Katibliyin əsas işi müxtəlif şura və komitələrə, habelə Nazirlər Konfransına texniki dəstək göstərmək, inkişaf edən ölkələrə texniki yardımı göstərmək, dünya ticarətini təhlil etmək, DTT-nin işləri barədə məlumatları ictimaiyyətə və mediaya çatdırmaqdır. Bununla yanaşı, Katiblik mübahisələrin həlli prosesində bəzi formalarda hüquqi dəstək göstərir və DTT-yə üzv olmaq niyyətində olan hökumətlərə məsləhət xidmətlərini göstərir.

## 12.6. Azərbaycanın Dünya Ticarət Təşkilatına inteqrasiyası

Dünya ticarətinin 97%-ni reallaşdıran DTT-yə üzvlük hər bir ölkə üçün prioritet məsələ, dərinləşən, təkmilləşən inteqrasiya məsələsi və qloballaşmadan səmərəli faydalanma amilidir. Bu prinsipiallıq Azərbaycan üçün də əhəmiyyətsiz deyildir. Ona görə də DTT-yə qəbul oriyentasiyasında Azərbaycan Respublikası da səylərini artırır və bu istiqamətdə əməli fəaliyyətini davam etdirir. Tarixə nəzər saldıqda görərik ki Azərbaycan DTT-yə üzvlüklə bağlı təmasları dövlət müstəqilliyinin ilk çağlarına gedir. Məsələ ilə bağlı rəsmi müraciət isə 1997-ci ildə edilmişdir. Lakin bir məqam nəzərdən qaçırılmamalıdır ki, DTT-yə qəbul məsələsi asan başa gələn sadə prossedur deyildir. Bu kompleksli tədbirlərin həyata keçirilməsi, götürülən öhdəliklər, inteqrasiya ilə bağlı çoxsaylı fəaliyyətlərin reallaşdırılması, müvafiq sahə üzrə normativ-hüquqi bazanın uyğunlaşdırılması deməkdir. DTT-yə qəbul məsələsində daha çox qanunvericiliyin təkmilləşdirilməsi və digər şərt və tələbləri nəzərdə tutduğundan buradakı inteqrasiya prosesi 3 ildən 15 ilədək vaxt resursu ilə ölçülür.

Azərbaycanın DTT-yə üzvlük məsələsinin qazancları və itkiləri müxtəlif aspektlərdən qiymətləndirilə bilər. Burada ilk üstünlük üzv ölkələrdə qiymət mexanizminin DTT şərtlərinə və eləcə də beynəlxalq standartlara uyğunlaşmasıdır. İkinci uyğun üstünlük başqa ölkələrin bazarlarına girişin əldə edilməsi ilə şərtlidir. Belə ki, DTT şərtlərinə uyğun olaraq, üzv ölkələr digər üzv ölkələrdən idxal etdikləri mallara aşağı gömrük tarifi tətbiq etməlidir. Daha bir üstünlük isə ticarət mübahisələrinə dair DTT üzvlüyünün təklif etdiyi həll mexanizmlərindən istifadə imkanıdır. Faktiki müstəvidə isə DTT-yə qəbul ölkənin ticarət siyasətini proqnozlaşdırmağa imkan verəcək, şəffaflıq artacaq, beynəlxalq ticarət partnyorlarını çoxaldacaqdır. Proseslər həm də intitusional yenilməyə, yeni islahatlar dalğasının yaranışına, ölkənin regionlarının inkişafına təsir göstərəcəkdir. Bu pozitivlik isə heç də bir anda baş verməyəcəkdir. Bütün bunlarla yanaşı, DTT-yə üzvlük məsələsində bir sıra görünən və görünməyən aspektlər ciddi təhlil edilməlidir.

DTT-yə qəbul zamanı Azərbaycanın ən önəmli sahələrindən biri də kənd təsərrüfatıdır. Belə ki, Azərbaycan əhalisinin yarısı kənd yerlərində yaşayır və ənənəvi olaraq da, kənd təsərrüfatı milli iqtisadiyyatın mühüm sahəsi kimi ölkənin ərzaq təhlükəsizliyinin əsasını təşkil edir. Aqrar sektor regional iqtisadiyyatın inkişafında,

məşğulluğun təminatında, sosial rifahın yaxşılaşdırılmasında imkanlarını daim genişləndirir. Bununla belə, vurğulanmalıdır ki, aqrar sektorda məsələlər iqtisadiyyatın başqa sektorlarına nisbətən daha mürəkkəb hesab edilir və Azərbaycanda bu sahədə təbii olan bir sıra problemlər hələ də həllini tapmamış qalır. Bu sırada, ilk növbədə, aqrar menecmentin təkmilləşdirilməsi, daha çoxsayda iri təsərrüfatların yaradılması, kooperasiyanın inkişafı, infrastruktur və texnoloji modernləşdirmənin aparılması kimi vacib məsələlərin tam həllini tapması dayanır. Buna görə də DTT-yə üzvlük məsələsində kənd təsərrüfatı məhsulları üzrə idxal rüsumlarının saxlanılması, daxili bazarın konyunkturuna uyğun tənzimlənməsi, milli məhsulların rəqabətqabiliyyətliliyinin artırılması və təsbit edilən müddətlər ərzində subsidiyalaşdırılması, kooperasiyanın davamlı stimullaşdırılmasının təmin edilməsi və yeni mütərəqqi təsərrüfatçılıq formalarının genişləndirilməsi əsas şərtlərdəndir. Həmçinin, DTT-yə qazanclı və səmərəli qoşulma ölkədə bazar təsisatlarının daha da dərinləşməsini, bütövlükdə aqrar sahənin davamlı inkişaf konsepsiyasının hazırlanmasını tələb edir.

DTT-yə üzvlük məsələsində Azərbaycan üçün bu sırada divedendli sahə neft sektorudur. Belə ki, bol neft resurslarına malikdir. DTT-nin şərtlərində isə bu sahə ilə bağlı, hələ ki, xüsusi sərtləri yoxdur. Məsələ ondadır ki, beynəlxalq ticarətdə DTT və OPEK arasında qeyri-rəsmi bir razılaşma söhbət predmetidir. Bu baxımdan, faktiki olaraq, Azərbaycanın üzvlüyü məsələsində neft sektoru ilə bağlı şərtlər müzakirə olunmur. Bununla belə, Səudiyyə Ərəbistanının DTT-yə üzvlüyündən sonra bu istiqamətdə yeni yanaşmaların olacağı istisna deyildir.

DTT-yə üzvlük məsələsində sənaye sferasında, maliyyə, bank, sığorta və digər xidmət sektorlarında təkmilləşmələrin aparılması vacibdir. Burada, həmçinin, biznes strukturları, QHT-lər və müvafiq elmi-tədqiqat müəssisələrinin də fəaliyyətinin gücləndirilməsi məsələsi zəruri hesab olunur.

Beləliklə, <u>Azərbaycanın DTT-yə üzvlükdə qazancları</u> respublikanın ticarət siyasətini daha biçimli proqnozlaşdırması, ticarət mübahisələrində daha səmərəli həll mexanizmlərindən istifadə imkanlarının genişlənməsi, beynəlxalq ticarət partnyorlarının çoxalması, digər ölkə bazarlarına girişin əldə edilməsi, üzv dövlətlərlə qiymət mexanizminin DTT şərtlərinə, eləcə də beynəlxalq standartlara uyğunlaşması kimi yeni dəyərlərə girişlə bağlı olacaqdır.

<u>Azərbaycanın DTT-yə üzvlük məsələsində sıxıntılar</u>, neqativ təzahürlər isə daxil bazarlarda bir sıra məhsul çeşidlərinin itirilməsi ola bilər. Belə ki, bir sıra xarici əmtəələr rəqabət zəifliyi, bu və ya digər iqtisadi və siyasi amillərlə bağlılıqda Azərbaycan bazarını zəbt edə bilər.

DTT-yə üzvlük məsələsində ölkənin çətinliklərə məruz qalacağı məsələlərdən biri bu sahədə işləyən mütəxəssislərin, xüsusi ilə beynəlxalq hüqüq ekspertlərinin və diplomatların hazırlanması məsələsidir. Bundan öncə isə ikitərəfli və çoxtərəfli danışıqların aparılması prosesində də peşəkar, yüksək səviyyəli, təcrübəli olan mütəxəssislər gərəklidir. Belə ki, bu inteqrasiya çoxsaylı hüquqi aktlarla tənzimlənir.

Konyunktur məqamların, gözlənilməz situasiyaların qarşısının alınmasında effektiv fəaliyyətin qurulması, sanksiyalara cavablarda operativliyin təminatı kimi çətin məsələlər müvafiq peşəkar korpusun olmasını tələb edir. Böyük və nəhəng dövlətçilik tarixinə malik Rusiyada bu barədə açıq etiraf edilir ki, ölkədə DTT ilə münasibətlərdə 300-dən çox yüksək ixtisaslı mütəxəssisə - hüquqşünans, iqtisadçı, diplomat və s. ehtiyac vardır. Onların səviyyəli hazırlanması isə vaxt, maliyyə və digər resurslarla bağlıdır.

Bütün bunlara baxmayaraq, DTT-yə üzvlük məsələsi daha optimal qərar qəbuletmədə yenə də dərin təhlil olunmalıdır. Bunun dolğun cavabı isə ölkədə aparılan sosial-iqtisadi siyasətlə əsaslıdır. Azərbaycan Respublikası Prezidenti İlham Əliyev bu barədə demişdir "Bilirsiniz ki, biz hələ Dünya Ticarət Təşkilatına üzv olmamışıq, baxmayaraq bizi böyük təkidlə oraya dəvət edirlər. Demək olar, bu məsələ Azərbaycan qarşısında mütəmadi qaydada qaldırılır ki, nə üçün Azərbaycan Dünya Ticarət Təşkilatına üzv olmur? Bunun səbəbləri vardır və səbəblərdən ən birincisi yerli istehsalçının müdafiəsidir, Azərbaycan bazarının qorunmasıdır. Biz, ilk növbədə, öz fermerlərimizə, şirkətlərimizə şərait yaratmalıyıq. Yoxsa biz öz bazarımızı, necə deyərlər, açsaq və buraya keyfiyyətsiz, ucuz xarici məhsullar sərbəst şəkildə buraxılsa, o zaman yerli istehsal öləcəkdir, kəndli zərər çəkəcəkdir. Ona görə, biz buna getmirik. Mən bu gün də demək istəyirəm ki, Dünya Ticarət Təşkilatına üzv olacağıq, ancaq nə vaxt, onu biz bilirik. O vaxt ki, Azərbaycanda həm kənd təsərrüfatında, həm sənaye sahəsində ixracyönümlü məhsullar üstünlük təşkil edəcəkdir, o vaxt biz Dünya Ticarət Təşkilatına üzv olacağıq və baxarıq, görərik, o vaxt bizi belə təkidlə oraya dəvət edəcəklər, yoxsa yox. Çünki Azərbaycan bazarı dinamik bazardır, böyüyən bazardır. Azərbaycan zəngin ölkəyə çevrilir, əhali artır. Əlbəttə ki, bu bazara, necə deyərlər, sərbəst gəlmək üçün böyük səylər göstərilir. Bir daha demək istəyirəm ki, yerli istehsalın gücləndirilməsi, idxaldan asılılığımızın azaldılması, ixracyönümlü məhsulların yetişdirilməsi prioritet məsələdir. Bu məsələlərin həllinə bütün dövlət qurumları kömək göstərməlidir.

Bütün bunlar onu göstərir ki, Azərbaycanın DTT-yə üzvolma prosesi çərçivəsində ikitərəfli və çoxtərəfli danışıqlar davam etməkdədir. Bu danışıqlar prosesində onun əsas məqsədi daxili bazarın qorunması, milli istehsalçı və istehlakçıların mənafelərinin maksimum səviyyədə təmin edilməsidir.

***Əsas anlayışlar:***

**1. Beynəlxalq ticarətin strukturu** - əmtəələrin idxal və ixracını ehtiva edir, onlar arasında nisbət "ticarət balansı" adlandırılır.

**2. Beynəlxalq ticarətin formaları** - idxal/yenidən idxal, ixrac/yenidən ixrac, beynəlxalq birjalar, beynəlxalq hərraclar, beynəlxalaq sövdələşmələr/tenderlər və beynəlxalq lizinqi ehtiva edən beynəlxalq müvadilənin mövcudluğunun və məzmununun ifadə olunması üsuludur.

**3. Yarmarka** - müxtəlif məhsulların müntəzəm olaraq satışı üçün təyin edilmiş müvəqqəti ticarət sahəsi, ticarət subyektir.

**4. Ölkələrin dünya ticarətində iştirakı göstəriciləri** - əsasən, beynəlxalq ticarətin həcmləri, bütövlükdə artım templəri, istehsal artımının artım sürəti və ötən illərdə dünya ticarətinin artım sürətini əhatə edir.

**5. Xidmətlər** - qeyri-maddi iqtisadi fəaliyyət olub, bilavasitə cəmiyyət üzvlərinin şəxsi tələbatlarını, ev təsərrüfatlarının, müxtəlif növ müəssisələrin, birliklərin, təşkilatların tələbatlarını, ictimai tələbatları və ya bütövlükdə cəmiyyətin tələbatlarını ödəyir.

**6. Xidmətlər üzrə beynəlxalq ticarət** - xidmətlər mübadiləsinin aparıldığı beynəlxalq ticarət sahəsidir.

**7. Xidmətlərin növləri** nəqliyyat, rabitə, tikinti, maliyyə, bank, sığorta, logistika, kompüter və informasiya, royalti və lisenziya ödənişləri, hökumət, səfərlər, şəxsi, mədəni, rekreasiya və biznes xidmətlərini əhatə edir.

**8. Elektron ticarət** - elektron informasiya sistemlərindən istifadə edilməklə malların alqı-satqısı, xidmətlərin göstərilməsi və işlərin görülməsi üzrə həyata keçirilən fəaliyyət növüdür.

**9. Tariflər və Ticarət üzrə Baş Saziş, GATT** - II Dünya Müharibəsindən sonra iqtisadiyyatın bərpası məqsədi ilə 1947-ci ildə bağlanmış beynəlxalq müqavilə olaraq DTT-nin sələfidir.

**10. Beynəlxalq ticarət təşkilatları** - BMT-nin Ticarət və İnkişaf Konfransı - UNCTAD, BMT-nin Beynəlxalq Ticarət Kommisiyası - UNSİTRAL, Beynəlxalq Ticarət Palatası - ICC, Beynəlxalq əmtəə təşkilatları, OPEK karteli və digər ticarət yönümlü beynəlxalq təsisatları əhatə edir.

**11. BMT-nin Ticarət və İnkişaf Konfransı, UNCTAD** - vəzifəsi beynəlxalq ticarətin, dövlətlər arasında bərabərhüquqlu qarşılıqlı faydalı əməkdaşlığın inkişafına kömək, beynəlxalq iqtisadi münasibətlərin fəaliyyəti üzrə müxtəlif tövsiyələrin işlənib hazırlanmasından ibarət olan BMT-nin Baş Assambleyasının beynəlxalq ticarət təşkilatı olmayan orqandır.

**12. BMT-nin Beynəlxalq Ticarət Kommisiyası, UNSİTRAL** - beynəlxalq ticarət hüququnun inkişafına kömək məqsədilə yaradılmış BMT Baş Assambleyasının yardımçı orqanıdır.

**13. Beynəlxalq Ticarət Palatası, ICC -** 1919-cu ildə yaradılmış, hazırda dünyanın 140 ölkəsindən minlərlə müəssisə, assosiasiya və şirkəti birləşdirən, biznes qarşısında duran ən aktual problemlərin həllinə kömək edən müstəqil beynəlxalq qeyri-kommersiya təşkilatıdır.

**14. Uruqvay raundu** - Tariflər və Ticarət üzrə Baş Saziş, GATT-ın himayəsi ilə keçirilən, 1986-cı ildə Uruqvayın kurort şəhəri Punta-del Estedə başlanan və 1994-cü ildə DTT yaradılması ilə yekunlaşan son çoxtərəfli ticarət danışıqlarıdır.

**15. Dünya Ticarət Təşkilatı** - 1995-ci ildə Tariflər və Ticarət üzrə Baş Sazişin varisi kimi yaradılmış, millətlər arasında ticarətin qlobal qaydalarını müəyyənləşdirən beynəlxalq təşkilatdır.

**16. Xidmətlər Ticarəti üzrə Baş Saziş, GATS** - Tariflər və Ticarət üzrə Baş Saziş, **GATT** üzrə keçirilən Uruqvay raundunun ən mühüm yekun sənədlərindən biri olaraq xidmətlər ticarəti üzrə ilk çoxtərəfli dövlətlərarası müqavilədir.

**17. Əqli Mülkiyyət Hüquqlarının Ticarət Aspektləri üzrə Saziş, TRİPS** - əqli mülkiyyət hüquqlarının qorunması standartlarını və onların hüquqi tətbiqi qaydasını müəyyən edən, DTT-nin təsis edilməsi haqqında Sazişlə yaradılan müqavilədir.

**18. Azərbaycanın DTT-yə üzvlükdə qazancları** - respublikanın ticarət siyasətini daha biçimli proqnozlaşdırması, ticarət mübahisələrində daha səmərəli həll mexanizmlərindən istifadə imkanlarının genişlənməsi, beynəlxalq ticarət partnyorlarının çoxalması, digər ölkə bazarlarına girişin əldə edilməsi, üzv dövlətlərlə qiymət mexanizminin DTT şərtlərinə, eləcə də beynəlxalq standartlara uyğunlaşması kimi yeni dəyərlərlərə girişlə bağlı olacaqdır.

**19. Azərbaycanın DTT-yə üzvlükdə sıxıntıları** - başqa ölkələrin daxili bazara qeyri-adekvat girişi ilə rəqabət üstünlüyü əldə etməsi və digər iqtisadi, hüquqi, siyasi amillərlə bağlıdır.

# XIII FƏSİL

# İstehsal amillərinin beynəlxalq hərəkəti

## 13.1. Dünya valyuta bazarı

Hər bir dövlət özünün milli pul vahidinə malik olur. Onunla çox şey almaq mümkündür. Lakin bu, mümkünat konkret dövlətə aiddir. Digər dövlətlərdə isə hər hansı əmtəə və xidmətin alınması üçün həmin ölkənin pul vahidini əldə etmək lazım gəlir. Həmin pullar valyuta adlandırılır.

Valyuta (*italyanca* - valuta - *dəyər, ingiliscə* Currency - *valyuta*) hər hansı bir dövlətdə istifadə olunan pul vahididir (*milli valyuta*). "Valyuta" termini, həmçinin, beynəlxalq hesablaşmalarda istifadə edilən, xarici dövlətlərə məxsus pul nişanları, veksellər, çeklər, banknotlar şəklində kredit və pul sənədlərinə şamil edilir. Valyutalar işlənmə qaydasından asılı olaraq tam çevrilən, qismən çevrilən və çevrilməz valyutalara ayrılır. Avro, ABŞ dolları supervalyuta hesab olunur.

Hər hansı dövlətin iqtisadiyyatı inkişaf etmiş maliyyə bazarı olmadan mövcud ola bilməz. Valyuta bazarı maliyyə bazarının tərkib hissəsidir. Valyuta bazarı (*ingiliscə* - foreign exchange market və ya currency market - *valyuta bazarı*) xarici valyuta ilə alqı-satqı əməliyyatlarının və xarici valyutada qiymətli kağızlar üzrə əməliyyatların, həmçinin, valyuta kapitalının investisiyalaşdırılması üzrə əməliyyatların həyata keçirilməsində təzahür edən iqtisadi münasibətlər sahəsidir. Valyuta bazarında alıcının simasında tələb satıcının simasında təkliflə qarşılaşır. Valyuta bazarı, bir tərəfdən, banklar, brokerlər və digər maliyyə institutları arasında xarici valyuta alqı-satqısı zamanı vasitəçi kimi çıxış edən xüsusi mexanizmdir. Digər tərəfdən isə o, banklar və müştərilər arasında münasibətlərə xidmət edir. Valyuta bazarlarının iştirakçıları valyuta ilə əməliyyatlar həyata keçirən kommersiya və mərkəzi banklar, hökumət vahidləri, broker təşkilatları, maliyyə institutları, sənaye-ticarət firmaları və fiziki şəxslərdir. İngilisdilli mühitdə valyuta bazarı, adətən, Foreks adlanır. Geniş mənada Foreks (*ingiliscə* - Forex, *bəzən* FX, FOReign Exchange - *xarici mübadilə*) sərbəst qiymətlərlə valyuta mübadiləsinin banklararası bazarıdır. Buna görə də, bir qayda olaraq, "Foreks bazarı" (*Forex market, FX-market*) uzlaşdırılmasından istifadə edilir. "Foreks" anlayışı bütün valyuta əməliyyatlarının məcmusunda deyil, valyutanın qarşılıqlı dəyişdirilməsi

təyinatında tətbiqini tapır.

Valyuta bazarı aşağıdakı əsas funksiyaları yerinə yetirir:

❒ beynəlxalq mal, xidmətlər və kapitalların dövriyyəsinə xidmət;
❒ valyutaya olan tələb və təklif əsasında valyuta kursunun formalaşması;
❒ valyuta və kredit risklərindən hedcinq (*sığortalama*);
❒ pul-kredit siyasətinin aparılması (*mərkəzi banklar, FES, xəzinədarlıqlar*);
❒ müxtəlif borc öhdəlikləri üzrə (*kommersiya bankları, müəssisələr*) valyuta kurslarının fərqi və faiz dərəcələri şəklində mənfəət əldə edilməsi.

Valyuta bazarlarını aşağıdakı bir sıra əlamətlər üzrə təsnifatlandırmaq olar:

❒ yayılma sahəsinə (*yayılma dərəcəsinə və ya əhatə dairəsinə görə*) görə (*beynəlxalq maliyyə mərkəzləri və daxili valyuta bazarları*);
❒ valyuta məhdudiyyətlərinə görə;
❒ valyuta resurslarının növlərinə görə;
❒ mütəşəkkillik dərəcəsinə görə.

Beynəlxalq sövdələşmələrin aparıldığı valyuta bazarı dünya və ya beynəlxalq valyuta bazarı və bazarları (*international currency markets*) adlanır. Dünya valyuta bazarı (*world currency market*) beynəlxalq tədiyə dövriyyəsində geniş istifadə edilən valyuta əməliyyatlarının həyata keçirildiyi regional və daxili valyuta bazarlarının qarşılıqlı hərəkətdə olduğu dünya bazarıdır. Buraya dünyanın müxtəlif regionlarında və ya beynəlxalq ticarət mərkəzlərində lokallaşmış ayrı-ayrı bazarlar daxildir. Valyuta bazarında xarici ticarət hesabları, kapitalın miqrasiyası, turizm, həmçinin, valyuta risklərinin sığortalanması və intervensiya tədbirlərinin aparılması ilə bağlı geniş əməliyyatlar həyata keçirilir. Dünya valyuta bazarı qlobal miqyasda beynəlxalq ticarətin və xarici valyutaların mübadiləsinin həyata keçirildiyi ən böyük maliyyə bazarıdır. Bu bazarda hər gün yüz milyardlarla dollar məbləğində sövdələşmə baş verir.

Mütəşəkkillik baxımından valyuta bazarı birja və birjadankənar olur. Birja valyuta bazarı (*foreign exchange market*) maliyyə bazarının sektoru kimi tələb və təklif əsasında xarici valyutada alqı-satqının həyata keçirildiyi birjadır. Valyuta birjası (*currency exchange*) valyuta kursu əsasında bir-birindən fərqli iki pul vahidinin mübadiləsinin həyata keçirildiyi birjadır. Valyuta birjasında həm azad, həm də rəsmi valyuta kursu fəaliyyət göstərir. Rəsmi valyuta kursu əsasında dövlətin bütün valyuta əməliyyatları aparılır. Bu kurs həm də valyuta birjalarının iş saatından kənar vaxt ərzində də həyata keçirilən bütün valyuta əməliyyatları üçün əsas meyar hesab edilir.

Valyuta bazarları birjadankənar formada da çıxış edir. Birjadankənar valyuta bazarı (*off-floor foreign exchange market*) telefon, telefaks, kompüter şəbəkəsi vasitəsi ilə aparıla bilən, valyuta birjasının üzvləri və ya üzvləri olmayan dilerlər tərəfindən təşkil olunan valyuta bazarıdır. Buna həm də valyuta dilinqi (*ForEx DEALING*) də deyilir. Birjadankənar valyuta bazarının üstünlükləri valyuta mübadiləsi əməliyyatlarında aşağı xərclər və valyuta birjalarından fərqli olaraq hesablaşmaların daha sürətlə aparılmasıdır.

Valyuta bazarlarını təsnifatlandıranda onları avrovalyuta, avroistiqraz, avrokredit, avrodeopozit, həmçinin, "qara" və "boz" bazarlara da ayırırlar. Avrovalyuta (*eurocurrency*) bankların başqa ölkələrdə, əsasən də, Avropa ölkələrində yerləşdirilmiş və həmin ölkənin valyutası ilə ifadə edilən pul vəsaitləridir. Məsələn, Yaponiya bankının Avropa bankına yapon iyeni ilə qoyduğu əmanət həmin banka avroiyenlə kredit vermək imkanı yaradır.

Təcili ticarət son illər maliyyə bazarlarının inkişafının çox mühüm seqmentidir. Təcili bazarların sürətli inkişafına malların qiymətlərinin və maliyyə alətlərinin mövcud dəyişkənliyi kömək edir. Təcili bazarların forvard müqavilələri bazarı, fyuçerslər və opsionlar bazarlarını ıəhatə edir.

Dünya valyuta bazarında ticarət sövdələşmələrinin əsas iştirakçıları kimi bir çox hallarda bazar prosesində diler funksiyasını yerinə yetirən iri kommersiya bankları çıxış edirlər. Bu şəkildə onlar iki və daha artıq valyutanın mövqeyini saxlayır, yəni bu valyutalarda ifadə edilmiş qoyuluşlara malikdirlər. Bəzən kommersiya bankları broker rolunda çıxış edirlər. Belə olduqda, onlar müəyyən valyutaların "mövqeyini saxlamır", yalnız satıcıları və alıcıları bir araya gətirir.

Beynəlxalq (*dünya*) valyuta bazarları Qərbi Avropanın, ABŞ-ın, Yaxın Şərqin, Şərqi Asiyanın əsas maliyyə mərkəzlərində cəmləşmişdir. Daha iri mərkəzlər Londonda, Nyu-Yorkda, Frankfurt-Maynda, Parisdə, Sürixdə, Tokioda, Sinqapurda və s. yerləşir. Bəzi qiymətləndirmələrə görə, illik dövriyyənin $^1/_3$-dən yarısına qədəri London bazarının üzərinə düşür. O, tədricən Nyu-York bazarına çatır.

Dünya valyuta bazarında onun iştirakçıları üçün beynəlxalq telekommunikasiya şəbəkəsi misilsiz əhəmiyyət daşıyır. Mövcud şəbəkənin müasir genişliyi maliyyə bazarı iştirakçılarının bütün dünya üzrə 24 saat ərzində əməliyyatlar aparmasını təmin edir. Burada xüsusi yeri 1977-ci ildən fəaliyyət göstərən ümumdünya banklarası maliyyə telekommunikasiya şəbəkəsi SWİFT tutur. Onun müasir xidmətlər şəbəkəsi 4000 minə qədər həm də bank olmayan təşkilatları - broker, diler, klirinq, sığorta və digər firmaları əhatə edir. Hazırda dünyada hər gün 1,5 trilyon dollar həcmində valyutadəyişimə əməliyyatı həyata keçirilir ki, bunların da 90%-i ticarət və maliyyə qoyuluşları ilə əlaqədar deyildir.

## 13.2. Valyuta mübadilə kursu və valyuta əməliyyatları

Xarici valyuta bazarında brokerlər və dilerlər, demək olar ki, valyuta mübadilə kurslarında istənilən dəyişiklik haqqında fasiləsiz, dərhal informasiyaya malik olurlar. Bu bilgilərə tələbatı o qədər də operativ olmayan digər təsərrüfat agentləri müvafiq informasiyanı gündəlik qəzetlərin maliyyə xronikası bölməsindən ala bilərlər.

Məzənnə, kurs (*latınca* - cursus - *qaçış*) aksiyalar, istiqraz vərəqələri və başqa qiymətli kağızların alış və satış qiymətidir.

Valyuta məzənnəsi, kursu (*iexchange rate*) bir ölkənin pul vahidinin digər ölkənin

pul vahidində, həmçinin, qiymətli metallar və qiymətli kağızlarda ifadəsinin qiymətidir (*katirovka*). "Valyuta mübadiləsi" anlayışı onun konvertirliyi (*konvertasiya*) xassəsi ilə bağlıdır.

Konvertasiya (*latınca* - converto - *dəyişirəm, çevirirəm*) pul vəsaitlərinin və qiymətli kağızların, bir milli valyutanın digər milli valyutaya mövcud məzənnə və ya təyin olunmuş şkala əsasında mübadiləsidir.

Valyutanin konvertasiyalığı (*ingiliscə* - currency convertibility - *valyuta dönməsi*) bir ölkənin pul vahidlərinin beynəlxalq tanınmış ödəmə vasitələri əsasında digər ölkənin valyutası ilə azad mübadiləsidir.

Broker (*ingilis və fransızca* - brocour - *vasitəçi, kiçik ticarətçi*) əmtəə, qiymətli kağızlar və valyuta birjasında vasitəçilik edən şəxsdir. Broker ona almaq və satmaq tapşırığı verənin adından və onun hesabına fəaliyyət göstərir, vasitəçiliyə görə müəyyən gəlir əldə edir. Diler (*ingiliscə* - dealer - *ticarət aparan, agent*) isə sadə agent-vasitəçi (*broker*) keyfiyyətində deyil, öz adından və öz şəxsi hesabından (*iş üçün öz pul vəsaitlərini qoyan qitmətli kağız, valyuta, qiymətli metallar alış-verişini həyata keçirən*) birja əməliyyatları keçirən, fond birjasının agenti olan ayrıca şəxs və ya firmadır. Əgər broker alqı-satqıda yalnız vasitəçilik edir və buna görə gəlir əldə edirsə, diler həm də sonradan daha baha qiymətə satmaq məqsədilə qiymətli kağızlar alır. Diler digər mənada malları topdan alaraq onun pərakəndə və ya kiçik partiyalarla satışını reallaşdıran biznes iştirakçısı, fiziki və hüquqi şəxs də ola bilər. Bir qayda olaraq, dilerlər istehsalçı firmanın agenti olmaqla diler şəbəkəsinin iştirakçıları rolunda çıxış edirlər. Dilerlər bir-birilə, brokerlərlə, bilavasitə alıcı və ya satıcılarla sövdələşmələrə girə bilərlər. Bəzi hallarda ayrı-ayrı kommersiya bankları da diler kimi çıxış edirlər.

Valyuta kurslarının çoxu 2 əvvəlki iş gününə verilir. Bu kurslar, adətən, 2 üsulla təqdim olunur:

1) 1 vahid xarici valyuta almaq üçün zəruri olan dollar sayı;
2) 1 ABŞ dolları almaq üçün lazım olan xarici valyuta vahidlərinin sayı.

Valyutaların əksəriyyəti üçün yalnız bir kurs - kassa (*xəzinə*) əməliyyatları üzrə mübadilə kursu aparılır. O, 48 saatdan çox olmayan dövr ərzində bağlanacaq ticarət sövdələri üçün yararlıdır. Bundan başqa, xarici valyutaların böyük əksəriyyəti üçün həm də təcili əməliyyatlar üzrə mübadilə kursları keçirilir. Təcili sövdə və ya forvard sövdələşmələri (*ingiliscə* - forward transaction - *forvard, ötür əməliyyat*) satılan məhsulun qiymətini sövdələşmə anında təyin etməklə, onun gələcəkdə müəyyən tarixdə alıcıya çatdırılması barədə satıcı ilə alıcının razılığa gəldikləri nağd hesablı təcili sövdələşmədir. Kassa əməliyyatları üzrə mübadilə kurslarının və təcili əməliyyatlar üzrə mübadilə kurslarının hesablanmasında fərq istənilən seçilmiş anda müqayisə edilən ölkələrdə bazar faiz normaları arasında mövcud fərqi əks etdirir.

Valyuta bazarında müvafiq bazar seqmentləri ilə birləşdirilmiş, məzmununa görə müxtəlif olan əməliyyatlar həyata keçirilir. Banklararası valyuta bazarının əsas seqmentləri kassa bazarı (*cari kursla sövdələr bazarı və ya teleqraf köçürmələri bazarı,*

*buna Qərb ədəbiyyatında "spot" bazarı da deyirlər*) və təcili bazardır (*və ya müddətli əməliyyatlar bazarı*).

Nağd bazar valyuta bazarının bir hissəsi olub, fasiləsiz fəaliyyət göstərir. Bu o deməkdir ki, onun iştirakçıları valyutanı bütün iş vaxtı ərzində ala və ya sata bilər.

İstənilən valyutanın ABŞ dollarına məzənnəsi "spot" bazarında müəyyən edilir. Bununla belə, vurğulanmalıdır ki, müəyyən anda başqa valyutalar arasında birbaşa münasibət olmaya bilər.

Valyuta əməliyyatlarının fasiləsiz xarakterinə və valyuta kurslarının daim müəyyən edilməsinə baxmayaraq, bəzi maliyyə mərkəzlərində "fiksinq" adlanan prosedur mövcuddur ki, onun davamiyyəti müxtəlif ölkələrdə müxtəlifdir. Fiksinq (*ingiliscə* - fixing - *möhkəmləndirmək, təyin etmək*) birjada mövcud, təyin edilmiş zamanda əmtəənin qiyməti və qiymət kotirovkası, müxtəlif növ valyutaların rəsmi müəyyən edilməsi prosesidir. Fiksinq xarici valyuta ilə birja ticarətinin aparılması metodikasını özündə ehtiva edir.

Satıcının kursu ilə alıcının kursu arasında olan fərq "spred" və ya "marja" adlanaraq bankın bu kotirovkalardan valyuta əməliyyatları apararkən istifadə zamanı əldə etdiyi gəliri ifadə edir. Bu rəsmi valyuta kotirovkası kommersiya banklarının müştərilərinə valyuta bazarının konyunkturundan daha yaxşı baş aşmağa və banklara olan sərəncamlarını daha dəqiq ifadə etməyə imkan verir.

"Spred" və ya "marja" anlayışlarının iqtisadi ədəbiyyatlarda daha konkret tərifi vardır:

Spred (*ingiliscə* - spread - *yayılma*, *ümumi fərq*) açıq bazarlarda ticarəti aparılan müxtəlif analoji məhsulların qiymət fərqidir.

Marja (*faransızca* - marge - *hüdud, səhifədən sonra*) malların qiyməti, qiymətli kağızların kursu və s. göstəriciləri arasındakı fərq. Ticarət təcrübəsində marja, adətən, malların alınma qiyməti ilə satılma qiyməti arasındakı fərq kimi nəzərə alınır. Mahiyyətcə, "marja" sözünə yaxın olanlar - "fərq", mənfəət", depozit"dir.

Hər hansı valyutanın kursu (*bir qayda olaraq, ABŞ dollarına*) vergüldən sonra dörd işarədən ibarət rəqəmlə, yəni vahidin on minlərlə payı ilə ifadə edilir. Bununla əlaqədar olaraq, dilerlərin peşəkar terminologiyasında "pip", yəni valyuta kursunun 1/10000 ifadə edən "bənd" anlayışından istifadə olunur. Məsələn, fransız frankının ABŞ dollarına olan kursunu 5,5950-5,5958 rəqəmləri ilə ifadə etmək olar ki, burada birinci ifadə alqı kursuna, ikinci isə satqı kursuna müvafiqdir.

Hökumət xarici valyuta bazarlarında dollar alaraq və ya sataraq, valyutanın mübadilə kursunu manipulyasiya edə bilər. Xarici valyuta bazarlarında intervensiya Açıq Bazar Federal Komitəsinin nəzarəti ilə Nyu-York Federal Ehtiyatlar Bankının xarici əməliyyatlar üzrə rəisinin rəhbərliyi ilə həyata keçirilir. ABŞ-ın Federal Ehtiyatlar Sisteminin praktiki həyatına daxil olan valyuta intervensiyasının hərəkətlərinin xarakteri və zamanının müəyyən edilməsində Dövlət Xəzinədarlığı aparıcı rol oynayır.

Valyuta kursunun dəyişməsi beynəlxalq ticarətə (*mal axınlarının həcminə və istiqamətinə*) və ölkənin ödəmə balansına bilavasitə təsir edir.

Valyuta kursunun formalaşmasın aşağıdakı bir sıra amillərin təsiri altında baş verir:
- inflyasiyanın sürəti;
- alıcılıq balansının vəziyyəti;
- müxtəlif ölkələrdə faiz dərəcələrinin fərqi;
- valyuta bazarlarının fəaliyyəti və spekulyativ valyuta əməliyyatları;
- beynəlxalq hesablarda avrobazarda müəyyən valyutadan istifadə dərəcəsi;
- valyutaların kurs münasibətinə, həmçinin, beynəlxalq ödənişlərin sürətlənməsi və ya ləngiməsi də təsir edir;
- milli və dünya bazarlarında etibar dərəcəsi
- valyuta siyasəti.

Kotirovka (*fransızca* - coter - *nömrələmə, nişanlama*) alqı və ya satqı etməyə hazır olan satıcı və ya alıcının elan etdiyi (*oferta təklif edilir*) malın qiymətidir (*kurs, faiz dərəcəsi*). Fond birjalarında kotirovka qiymətli kağızların kursunun müəyyən edilməsi, mal birjalarında mallara qiymət qoyulması və onların birja bülletenlərində dərc olunmasıdır. Bəzən kotirovka alqı və satqının ofertinin qiyməti deyil, yalnız bağlanmış sövdənin qiyməti hesab edilir. Birjalarda qiyməti xüsusi kotirovka komissiyası (*komitəsi*) qeydiyyatdan keçirir. Adətən, birja sessiyasının açılış və bağlanış qiymətləri, günün maksimal və minimal qiymətləri dərc edilir. Belə dərcləri "rəsmi kotirovka" adlandırırlar. Kotirovkalar hərracda bazarın konyunkturunu, tələb və təklifin nisbətini əks etdirir. Birbaşa və əks (*dolayı*) kotirovka növləri fərqləndirilir. Birbaşa kotirovka ticarət obyekti vahidinin qiymətini ifadə edir və ona çox hallarda rast gəlinir. Məsələn, 1 litr benzinin qiyməti 1,20 ABŞ dollarıdır. Çox vaxt kotirovkanın yazılışı kəsr şəklində olur: 1,20 dollar/1 litr benzin. Surətdə ödənişin qiyməti və valyuta, məxrəcdə - ölçü və malın adı göstərilir. Əks (*dolayı*) kotirovka - bir pul vahidinə nə qədər mal almaq mümkün olduğunu göstərir. Məsələn, 1 dollara 0,8333 litr benzin almaq olar. Bu kotirovkanın qısa ifadəsi belə olacaq: 0,8333 litr benzin/dollar. Surətdə malın həcmi, ölçüsü, adı, məxrəcdə - ödənişin valyutası göstərilir. Çox hallarda əks kotirovkaya valyuta mübadiləsi əməliyyatlarında rast gəlinir. Ənənəvi olaraq bir çox ölkələrin mübadilə məntəqələrində 1 dollar almaq üçün nə qədər milli valyuta gərək olduğu göstərilir.

Valyuta əməliyyatları sferasında faiz dərəcələrinin pariteti adlan nəzəri müddəadan istifadə olunur. Faiz dərəcələrinin pariteti (*interest-rate parity*) forvard mübadilə kursu ilə spot kursu arasındakı fərqin müvafiq ölkədə faiz dərəcəsi ilə daxili faiz dərəcəsinin fərqinə bərabər olduğunu bildirən nəzəri müddəadır. Faiz dərəcəsi paritetinin əsas şərti ondan ibarətdir ki, müxtəlif valyutalara qoyuluşlardan heçləşdirilmiş gəlirlilik, faiz dərəcəsi səviyyəsindən asılı olaraq, eyni olmalıdır.

Faiz dərəcəsinin paritetinin iki versiyası mövcuddur:

1. Faiz dərəcəsinin örtülü pariteti;
2. Faiz dərəcəsinin örtülü olmayan pariteti.

Faiz dərəcəsinin paritetini faiz dərəcələri ilə valyuta kursları arasında qarşılıqlı münasibət quran fundamental bərabərliyə aid etmək olar.

## 13.3. Qiymətli kağızlar bazarı və dünyanın əsas fond birjaları

Fond (*fransızca* - fond, *latınca* - fondus - *əsas, təməl*) pul və maddi vəsaitlərin müəyyən məqsədlər üçün bir yerə cəmləndiyi yer (*pensiya fondu, neft fondu*), müəyyən fəaliyyət növlərinə, sosial qruplara yardım göstərmək üçün yaradılan təşkilatdır (*xeyriyyə, elm, mədəniyyət fondları*). Fondların alqı-satqısı müvafiq fond və ya qiymətli kağızlar bazarında həyata keçirilir.

Fond bazarı, qiymətli kağızlar bazarı (*ingiliscə* - stock market - *fond bazarı*) səhmlərin, istiqrazların, çeklərin, akkreditivlərin, veksellərin və digər pul öhdəliklərini yerinə yetirən bilən qiymətli kağızların sərbəst alqı-satqısının aparıldığı bazarlardır. Fond bazarı maliyyə bazarının tərkib hissəsidir. Ümumi formada fond bazarı onun iştirakçıları arasında qiymətli kağızların buraxılması və dövriyyəsi ilə əlaqədar iqtisadi münasibətlərin məcmusunu ifadələndirir.

Qiymətli kağızlar listinq prosesindən keçirlər. Qiymətli kağızların sənədləri ekspertizadan keçdikdən və qiymətli kağız birinci və ya ikinci səviyyə kotirovka vərəqinə daxil olduqdan sonra onlar listinq prosesini keçmiş hesab edilir. Listinq (*ingiliscə* - list - *siyahı*) qiymətli kağızların birja siyahısına (*birja hərraclarına buraxılmış qiymətli kağızların siyahısı*) daxil edilməsi, qiymətli kağızların birja tərəfindən müəyyən edilmiş şərt və qaydalara uyğunluğuna nəzarətin həyata keçirilməsi prosedurlarının məcmusudur.

Qiymətli kağızlar bazarlarının təsnifatları qiymətli kağızların təsnifatı ilə çox oxşardır. Onları aşağıdakı kimi fərqləndirirlər:

- ❒ beynəlxalq və milli qiymətli kağızlar bazarları;
- ❒ regional qiymətli kağızlar bazarları;
- ❒ konkret növ qiymətli kağızlar bazarları (*səhmlər, istiqrazlar və s.*);
- ❒ dövlət və korporativ (*qeyri-dövlət*) qiymətli kağızlar bazarları;
- ❒ ilkin və törəmə qiymətli kağızlar bazarları.

Qiymətli kağızlar bazarının, kapitalda olduğu kimi, pula əsaslanan hissəsində o, fond bazarı adlanır. Fond bazarı qiymətli kağızlar bazarının böyük hissəsini yaradır. Qiymətli kağızlar bazarının mühüm hissəsi pul bazarıdır ki, burada qısamüddətli borc öhdəlikləri, əsasən də, xəzinədarlıq veksellləri (*biletləri*) dövriyyədə olur.

Pul bazarı (*money market*) pul vəsaitlərinin bir il müddətinə alqı-satqısının, krediti və borc almasının təqdimatının həyata keçirildiyi iqtisadi münasibətlər sistemi, bazarıdır. Pul vəsaitlərinin bir il müddətindən artıq alqı-satqısının, krediti və borc almasının təqdimatının həyata keçirildiyi iqtisadi münasibətlər sistemi isə Kapital bazarı (*capital market*) adlanır. Pul bazarı bazar iştirakçılarının mal almaq və xidmətləri ödəmək üçün kreditlərə və borclara olan cari (*qısamüddətli*) tələbatlarını ödəməyə xidmət edir. Pul bazarında sövdələrin böyük hissəsini valyutaların alqı-satqısı üzrə sövdələr təşkil edir. Dünya kapital bazarının əsas subyektləri özəl biznes, dövlətlər, həmçinin, beynəlxalq maliyyə təşkilatlarıdır (*DB, BVF*). Bütün bu və ya digər əlamətlər pul və kapital bazarlarını (*capital markets*) fərqləndirir:

| Meyarlar | Dünya pul bazarı | Dünya kapital bazarı |
|---|---|---|
| 1. Kapitalın ixracı forması | Pul şəklində (*depozitlər*), yəni beynəlxalq alıcılıq və ödəniş qabiliyyətli vasitə | Özüartan dəyər şəklində - bank kreditləri və borcları |
| 2. Kreditlərin müddətləri | Qısamüddətli xarakter (*1 ilə qədər*) | Ortamüddətli və uzunmüddətli xarakter (*1 ildən artıq*) |
| 3. Kreditlərin məqsədi | Dövriyyə vəsaitlərinin tamamlanması üçün | Əsas kapitalın tamamlanması üçün |
| 4. Kreditin tətbiqi sahəsi | Dövriyyə sahəsinə - beynəlxalq ticarətə xidmət | Geniş istehsal prosesinə xidmət - tikinti, yenidənqurma |

**Şəkil 15. Dünya pul bazarının və dünya kapital bazarının fərqləri**

Fond bazarlarının beynəlmiləşməsi forması kimi beynəlxalq fond bazarı çıxış edir. Beynəlxalq fond bazarı (*international stock market*) ayrı-ayrı ölkələrin fond bazarlarının bir araya gələrək vahid birləşmiş sistem yaratmaqla, qiymətli kağızlarla müxtəlif əməliyyatların keçirildiyi beynəlxalq bazarlardır. Beynəlxalq fond bazarı dünya kapital bazarının tərkib elementi olaraq pul bazarı ilə birlikdə qlobal maliyyə sisteminin təşkil edir. Beynəlxalq fond bazarı həm də milli fond bazarlarının üstqurumu kimi ikinci maliyyə resursları bazarı olaraq çıxış edir. Əgər milli fond bazarlarında maliyyə sövdələrinin subyektləri həmin ölkənin hüquqi və fiziki şəxsləridirsə, beynəlxalq fond bazarı müxtəlif ölkələrin hüquqi və fiziki şəxsləridir. Bu vəziyyətin mühüm əhəmiyyəti vardır. Belə ki, borclularla kreditorlar arasında bağlanmış sövdələr pul-kredit resurslarının bir valyutadan digərinə transformasiyasını nəzərdə tutur. Beynəlxalq fond bazarının formalaşması ETT, onun doğurduğu yeni nəhəng kapital-tutumlu layihələrlə, həmçinin, onun həyata keçirilməsi üçün güclü maliyyə vəsaitləri mənbələri axtarıb tapmaq zərurəti ilə bağlıdır.

Beynəlxalq fond bazarının formalaşmasına və onun coğrafi sərhədlərinin genişlənməsinə kömək edən bir sıra amillər mövcuddur. Onlara aşağıdakılar aiddir:

❒ iqtisadiyyatın milli və xarici sektorları arasında artan qarşılıqlı əlaqə;

❒ dövlət tərəfindən pul və kapital axınlarının, valyuta kurslarının, bir sıra hallarda isə əmək resurslarının miqrasiyasının yenidən tənzimlənməsi;

❒ ticarət əməliyyatlarında yeniliklərin tətbiqi, beynəlxalq ticarət və fond birjalarının rolunun və əhəmiyyətinin artması, ödəmə hesablarının təkmilləşdirilməsi;

❒ EHM bazasında banklararası telekommunikasiyaların inkişafı, maliyyə aktivlərinin elektron köçürülməsi.

Beynəlxalq fond bazarı öz strukturuna görə həm də müxtəlif maliyyə-kredit institutlarının məcmusudur ki, beynəlxalq iqtisadi institutlar sahəsində kapitalın

yerdəyişməsi onların vasitəsilə həyata keçirilir. Buraya TMŞ-lər, TMB-lər, beynəlxalq fond birjaları və maliyyə-kredit institutları, dövlət agentlikləri, müxtəlif maliyyə vasitəçiləri (*broker-diler təşkilatları*) daxildir.

Qiymətli kağızların alqı-satqısının fond birjalarında həyata keçirilir. Fond birjası (*stock exchange*) mütəşəkkil, müəyyən yerdə yerləşdirilmiş, müəyyən edilmiş qaydalarla müntəzəm fəaliyyət göstərən qiymətli kağızlar bazarıdır. Fond birjalarının əsas vəzifəsi qiymətli kağızların normal tədavülü təmin emək, məzənnəni müəyyənləşdirmək və onun aşkarlamaq, qiymətli kağızlar bazarının iştirakçılarına lazımi şərait yaratmaqdan və müvafiq fəaliyyətləri tənzimləməkdən ibarətdir. Fond birjasında qiymətli kağızların alqı-satqısı onlara olan tələb və təklifin təsiri altında tez-tez dəyişən birja kursu əsasında həyata keçirilir.

Fond birjaları müvafiq assosiasiyalar, birliklər və federasiyalar yaradırlar. Bunların içərisində Fond Birjalarının Beynəlxalq Federasiyası mühüm yer tutur. Fond Birjalarının Beynəlxalq Federasiyası, IFSE (*International Federation of Stock Exchanges*) səhmdarlarının bərabər hüquqlarını və qiymətli kağızlar bazarının strukturunun koordinasiyasını təmin edən beynəlxalq təşkilatdır. Əsas vəzifəsi fond bazarına təsir göstərən siyasəti formalaşdırmaqdan, qiymətli kağızlar ticarətini, birja işinin texnika və texnologiyasını tənzimləməkdən ibarətdir. Mənzil-qərargahı Parisdədir.

Beynəlxalq fond bazarı kapitalın kütləvi ixracı, hər şeydən əvvəl, əsas transmilli korporasiyaların və bankların yerləşdiyi ölkələrdən ixracı nəticəsində formalaşmışdır. O, iqtisadi artımın dünya prosesini sürətləndirən və iqtisadiyyatın müxtəlif subyektlər üçün azad kapitalın beynəlxalq bazarına girişi asanlandıran amildir. Beynəlxalq fond bazarının iştirakçılarının dairəsi daim genişlənir, onlara daha çoxlu sayda milli maliyyə-kredit institutları, BMT, ATƏT təşkilatları və s. qoşulur. Beynəlxalq fond bazarı hazırda dövlətlərin, onların iqtisadiyyatlarının yaxınlaşmasında, yeni dünya ictimai-iqtisadi qaydalarına keçiddə mühüm rol oynayır.

Bütün dünyada 200-dən çox fond birjası vardır ki, onlardan ən iriləri ABŞ-da, Böyük Britaniyada, AFR-də və Yaponiyada yerləşir. Fond birjalarının meydana gəlməsi formalaşmış və inkişaf etmiş ticarət-istehlak və ya sənaye strukturunun olması ilə şərtləndirilir. Ona görə də ən məşhur və iri birjalar hələ orta əsrlərdə inkişaf etmiş və öz potensialını qoruyub saxlamış ölkələrdə yerləşir.

ABŞ-ın ən iri fond bazarları aşağıdakılar sayılır: “Qiymətli Kağızlar üzrə Milli Dilerlərin Avtomatik Kotirovka Sistemi” - NASDAQ, Amerika Fond Birjası - AMEX və Nyu-York Fond Birjası - NYSE. Amerika fond bazarı artıq uzun müddətdir ki, qiymətli kağızların dünya dövriyyəsində ilk mövqeləri tutur.

Qiymətli Kağızlar üzrə Milli Dilerlərin Avtomatik Kotirovka Sistemi, NASDAQ (*National Association of Securities Dealers Automated Quotation System, NASDAQ*) yüksək texnoloji şirkətlərin səhmləri üzrə ixtisaslaşmış Amerika birjadankənar bazarıdır. 1971-ci ilin 5 fevarlında təsis edilmişdir. Kompüterlərdən istifadə əsasında bazar iştirakçıları sistemini əhatə edən bu birjadankənar bazarda 3200-dən çox şirkətin səhmləri ilə ticarət aparılır. ABŞ-ın Nyu-Yok şəhərində yerləşir.

Amerika Fond Birjası, AMEX (*American Stock Exchange, AMEX*) təkrar dərəcəli qiymətli kağızların ticarəti üzrə sövdələşmələrin aparıldığı ABŞ birjasıdır. 1911-ci ildə yaranmışdır. Amerika Fond Birjası opision və fyuserslərin inkişaf etmiş bazarı kimi çıxış edir. ABŞ-ın Nyu-Yok şəhərində yerləşir.

Nyu-York Fond Birjası, NYSE (*New York Stock Exchange, NYSE*) səhmlər və digər qiymətli kağızlar üzrə ticarətin reallaşdırıldığı ABŞ-ın baş fond birjasıdır. Birja 1792-ci ildə Nyu-York brokerləri arasında bağlanmış sazişlə fəaliyyətə başlamışdır. Burada 3500-dən çox şirkətin qiymətli kağızlarının ticarəti aparılır. ABŞ-ın Nyu-Yok şəhərində yerləşir.

Böyük Britaniya ərazisində 22 fond birjası vardır ki, onlardan ən iriləri Birmingem, Qlazqo, Liverpul və London birjaları hesab olunurlar. London Fond Birjası, LSE (*London Stock Exchange, LSE*) Böyük Britaniyanın və bütövlükdə Avropanın ən iri və qədim birjasıdır. Əsası rəsmən 1801-ci ildə qoyulsa da, başlanğıc fəaliyyət tarixi 1570-ci ilə "Kral birjası" yaranışına gedib çıxır. Birjada kotirovka edilən qiymətli kağızlar əsas və alternativ olaraq iki bazara bölünür. Səhmlərin əsas bazarında iri emitentlərin listinqin sərt tələblərinə cavab verən qiymətli kağızları da dövr edir. Alternativ səhm bazarı bir qədər yumşaq normalarla xarakterizə edilərək innovasiya texnologiyalarında ixtisaslaşan gənc şirkətlərin qiymətli kağızları ilə ticarət üçün meydan rolunu oynayır. Birjada hərraca çıxarılan səhmlərin 50%-dən çoxu xarici emitentlərə məxsusdur ki, bu da London Fond Birjasını beynəlxalq birjalar sinfinə aid etməyə imkan verir. Birjanın rəsmi adı Böyük Britaniya Birləşmiş Krallığının və İrlandiya Respublikasının Beynəlxalq Fond Birjasıdır. Böyük Britaniyanın paytaxtı London şəhərində yerləşir.

AFR ərazisində 7 fond birjası yerləşir: Frankfurt, Düsseldorf, Hamburq, Münhen, Ştutqart, Bremen və Hannover. Frankfurt Fond Birjası, FWB ən iri alman fond birjasıdır. (*Frankfurter Wertpapierbörse, FWB*). Bu, qiymətli kağızlarla əməliyyatların aparıldığı Almaniyanın ən qədim və ən böyük fond birjasıdır. Birjada ilk əməliyyatlar 1820-ci ildə aparılsa da, mövcudluq tarixi 1585-ci ildən hesablanır. Birjanın əsas emitentləri kimi Almaniya bankları çıxış edir və burada qiymətli kağızların dövriyyəsi bütün AFR fond bazarının dövriyyəsinin 90%-ni təşkil edir. Frankfurt Fond Birjası Avropada London Fond Birjasından sonra böyüklüyünə görə ikincidir. AFR-in Frakfurt şəhərində yerləşir.

Yaponiyada Tokio, Naqoya, Kioto, Osaka, Xirosima, Koba, Niiqata, Fukuoka və Sapporo şəhərlərində yerləşən 9 fond birjası vardır. Tokio Fond Birjası - TSE Yaponiyanın əsas fond bazarıdır və hazırda kapitallaşma həcminə görə dünya reytinqində ikinci yeri tutur.

Tokio Fond Birjası, TSE (*yaponca* -東京証券取引, *ingiliscə - Tokyo Stock Exchange, TSE*) qiymətli kağızlarla ticarət əməliyyatlarının aparıldığı Asiyanın ən böyük fond birjasıdır. 1878-ci ildə yaradılmışdır. Tokio Fond Birjası Asiya və Okeaniya (*Asian and Oceanian Stock Exchanges Federation, AOSEF*) fond birjalarının tərkibinə daxildir ki, o, həmin regionda vahid informasiya məkanı yaradılması məqsədilə 19 fond

birjasını (*bunların sırasında Bombey, Şanxay, Honkonq, Hindistan və digər iri birjalar vardır*) birləşdirir. Birja Yaponiyanın qiymətli kağızlar dövriyyəsinin 80%-ni özündə cəmləşdirir və dünyanın ən nüfuzlu ticarət meydanlarından biri sayılır. Yaponiyanın paytaxtı Tokio şəhərində yerləşir.

## 13.4. Beynəlxalq və regional kredit təşkilatları və qlobal maliyyə insititutları

Kredit (*latınca* - creditum - *o inanır, o borc verir*) faiz ödəmək şərtilə pul və ya əmtəə formasında verilən borcdur. Kreditin hərəkəti zamanı kreditorla borc alan arasında müəyyən iqtisadi münasibətlər baş verir. Kreditin iki növünü: qısamüddətli və uzunmüddətli növlərini fərqləndirirlər. Kreditin dövlət, kommersiya, veksel, istehlak, ipoteka, kommunal, kənd təsərrüfatı və beynəlxalq formaları vardır. Müasir dünyada kredit borc kapitalının hərəkətinin bir forması və biznesin inkişaf stimuludur. Bazar iqtisadiyyatında bütün təsərrüfat fəaliyyəti kredit sistemi üzərində qurulur.

Beynəlxalq kredit (*international credit*) qaytarılma, təxirə salınmama, faiz təminatlı və ödənişli şərtliliklərinə əsaslanan valyuta və əmtəə resurslarının təqdimatı ilə bağlı beynəlxalq münasibətlər sahəsində borc kapitalının hərəkətidir. Beynəlxalq kreditin mənbələri dövlətin pul yığımları, özəl sektorun pul əmanətləri və dövriyyə prosesində müvəqqəti olaraq müəssisələrin pul formasın da azad edilən kapitalının bir hissədir.

Beynəlxalq (*dünya*) kredit bazarı (*international credit market, world credit market*) qəbul olunmuş kreditləşmə prinsiplərinə əsaslanaraq müvafiq bazar subyektləri arasında borc kapitalının hərəkətinin həyata keçirildiyi maliyyə bazar sferasıdır. Dünya maliyyə bazarı daha çox qiymətli kağızların emissiyası və alqı-satqısı həyata keçirilən borc kapitalı bazarının bir hissəsidir. Beynəlxalq kredit bazarı strukturunda beynəlxalq borc qiymətli kağızlar bazarını və beynəlxalq bank kreditləri bazarını və onun əsas seqmenti olan avrobazarı ayırırlar. Borc qiymətli kağızlar bazarı qiymətli kağızların emissiyası, alqı-satqısı həyata keçirilən ssuda kapitalları bazarının bir hissəsi, beynəlxalq bank kreditləri bazarı isə fərdi, unifikasiya olunmamış borc öhdəlikləri bazarıdır. Nəzəriyyəçilər eyni zamanda, ənənəvi olaraq, qısamüddətli ssuda kapitalını (*pul bazarı*) və orta və uzunmüddətli kapitalı (*kapital bazarı*) fərqləndirirlər. Kredit bazarının operatorları olaraq DB, korporativ borclular, banklar və dövlət maliyyə institutları çıxış edirlər.

Dünyada borc kapitalı ilə bağlı bir sıra beynəlxalq maliyyə mərkəzləri mövcuddur. Beynəlxalq maliyyə mərkəzləri (*intrernational financial centres*) yüksək təmərküzləşmə ilə xarakterik olaraq, güclü kompüter rabitə sistemi, maliyyə-kredit əməliyyatları aparmaq üçün liberal valyuta və vergi rejimlərinə malik ssuda kapitalı bazarının beynəlxalq mərkəzləridir. Bu sıraya, ilk növbədə, Nyu-York, London, Paris, Tokio, Frankfurt, Sürix, Honkonq və Sinqapur daxildirlər.

II Dünya Müharibəsindən sonra dünya təsərrüfatında əməkdaşlığın inkişafı, onun

bütövlüyünün təmin edilməsi və sabitləşdirilməsi məqsədilə beynəlxalq valyuta-kredit və maliyyə təşkilatları yaradılmışdır. Onların arasında beynəlxalq konfransın iştirakçı-ölkələrinin Bretton-Vuds müqaviləsi əsasında yaradılmış BVF və Dünya Bankı Qrupu qabaqcıl yerləri tuturlar.

Beynəlxalq Valyuta Fondu, BVF (*International Monetary Fund, İMF*) üzv-dövlətlər arasında valyuta-kredit münasibətlərini tənzimləmək və ödəmə balansı defisiti ilə meydana gələn valyuta çətinlikləri olduqda onlara xarici valyutada qısa və ortamüddətli kreditlərin verilməsi yolu ilə maliyyə yardımı göstərmək üçün nəzərdə tutulmuş hökumətlərarası təşkilatdır. BMT-nin ixtisaslaşdırılmış müəssisəsi statusuna malik olan BVF, praktiki olaraq, dünya valyuta sisteminin institusional əsasıdır. O, 1944-cü il iyulun 1-dən 22-nə qədər keçirilən Beynəlxalq Bretton-Vuds Konfransında təsis edilmiş və praktiki olaraq, fəaliyyətə 1947-ci il martın 1-də başlamışdır. Konfrans BVF haqqında müqavilələr maddələrini qəbul etmiş, bu onun Nizamnaməsinə çevrilmiş və 1945-ci il dekabrın 27-də qüvvəyə minmişdir. BVF-nin əsas vəzifəsi beynəlxalq ticarətin və valyuta-maliyyə əməkdaşlığının inkişafına köməklik göstərmək, üzvlərinin tədiyə balanslarını müdafiə etmək, onların valyuta kurslarını tənzimləmək və həmçinin, dünya valyuta sisteminin sağlamlaşdırılması üzrə müvafiq islahatlar hazırlamaqdır. BVF öz üzvlərinə kredit resursları təqdim edir.

Dünya Bankı Qrupu (*World Bank Group*) inkişaf etməkdə olan ölkələrə maliyyə yardımı və texniki yardımlar göstərən hökumətlərarası beynəlxalq maliyyə təşkilatıdır. Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı - BYİB, Beynəlxalq İnkişaf Assosiasiyası - BİA, Beynəlxalq Maliyyə Korporasiyası - İFC, Çoxtərəfli İnvestisiyalar üzrə Zəmanət Agentliyi, MİGA və İnvestisiya Mübahisələrinin Həlli üzrə Beynəlxalq Mərkəz - ICSID-ni özündə birləşdirir.

BVF və DB qrupu ümumi cəhətlərə malikdir. Onlar eyni ilə səhmdar şirkət kimi təşkil olunmuşlar. Ona görə də kapitala ödəmələrin payı ölkənin onların fəaliyyətinə təsir imkanını müəyyən edir. “Ölçülmüş” səslər prinsipi hər bir üzv-ölkənin səs sayını müəyyənləşdirir. BVF üzvlərinin sayının 14%-ni inkişaf etmiş ölkələr (*onların sayı 24-dür*) təşkil edir. Onlar ümumən 60% səsə malikdirlər, o cümlədən 17% - ABŞ, 26,2% - Aİ. ABŞ DB-də bütün səslərin 17%-nə, yəni 140 inkişaf etməkdə olan ölkənin məcmu səsinə malikdir. BVF və BYİB-in resurslarının formalaşması fərqlidir. BVF-yə üzv-ölkələrin kvotaları tam ödənilir (*25%-ə qədəri - SDR və sərbəst dönərli valyuta ilə, 75%-i milli valyuta ilə*). BYİB-nin kapitalına ödəmələr abunə kapitalının yalnız 7%-i ölçüsündə ödənilir, 93% isə dünya bazarlarında bankın istiqrazlarının emissiyasını təmin etmək üçün istifadə olunan zəmanət fondu kimi xidmət edir. Kvotaların ölçüsü ölkənin dünya iqtisadiyyatında və ticarətində payı nəzərə alınmaqla müəyyən edilir. BYİB-in və BVF-in fəaliyyəti qarşılıqlı

uzlaşdırılmışdır, onlar bir-birini tamamlayırlar. Bundan əlavə, yalnız BVF-yə üzv olanlar BYİB-in üzvü ola bilər. BVF-in və DB qrupunun mənzil-qərargahı Vaşinqtonda - onların kapitallarında daha çox kvotası olan ölkədə yerləşir.

Beynəlxalq İnkişaf Assosiasiyası, IDA (*International Development Association, IDA*) Dünya Bankı Qrupuna daxil olan beynəlxalq kredit təşkilatıdır. 1960-cı ildə yaradılmışdır. İDA daha az inkişaf etmiş BYİB üzv ölkələrinə yalnız 3-4% inzibati xərclərin örtülməsi üçün komissiya çıxmaqla 35-40 il müddətinə faizsiz güzəştli kreditlər verir. Bu kreditlərin məqsədi inkişaf etmiş ölkələrdən yoxsul ölkələrə malların ixracını həvəsləndirməkdir. BİA fəaliyyətinin spesifikası BYİB ilə fəaliyyətin koordinasiyası və layihələrin müştərək kreditləşməsidir və onun strukturu BYİB-in strukturunu analoqudur. BYİB-in prezidenti eyni zamanda BİA-nın da prezidentidir.

Beynəlxalq Maliyyə Korporasiyası, IFC (*International Finance Corporation, IFC*) Dünya Bankı Qrupuna daxil olan özəl sektorun inkişafı vasitəsilə iqtisadi artımın təmin edilməsinə yönəlmiş beynəlxalq maliyyə institutudur. 1956-cı ildə yaradılmışdır. İFC öz xidmətlərini bazar şərtləri əsasında həyata keçirir və hökumət təminatlarını qəbul etmir. O, daha rentabelli müəssisələrə 15 ilə qədər müddətə (*orta hesabla üç ildən yeddi ilə qədər*) kreditlər verir, uzunmüddətli borclar, məsləhət xidmətləri, riskin idarə olunması, zəmanətlər təqdim etməklə inkişafda olan ölkələrdə özəl sektorun irəliləyişinə şərait yaradır. IFC kreditlərinin spesifikası, BYİB-dən fərqli olaraq, hökumət zəmanətlərinin tələb edilməməsindən ibarətdir.

Çoxtərəfli İnvestisiyalar üzrə Zəmanət Agentliyi, MIGA (*Multilateral Investment Guarantee Agency, MIGA*) inkişaf etməkdə olan ölkələrə birbaşa investisiyaların yönəldilməsinə, siyasi, qeyri-kommersiya risklərindən sığortalanmasına (*on beş ildən iyirmi ilə qədər*) kömək edən, özəl investorlara təminatlar verən, məsləhət və informasiya xidmətləri göstərən Dünya Bankı Qrupuna daxil olan beynəlxalq təsisatdır. 1988-ci ildə yaradılmışdır. MİGA-nın üzvləri yalnız BYİB-in üzvləri ola bilir.

İnvestisiya Mübahisələrinin Həlli üzrə Beynəlxalq Mərkəz, ICSID (*International Centre for Settlement of Investment Disputes, ICSID*) beynəlxalq investisiya mübahisələrində tərəflərin barışması və arbitraj prosedurları üçün hüquqi imkanların təmin edilməsi məqsədi ilə yaradılmış, Dünya Bankı Qrupuna daxil olan beynəlxalq təsisatdır. 1966- cı ildə təsis olunmuşdur. Ayrı-ayrı şəxslər tərəfindən yatırılan investisiyalarla bağlı xarici iqtisadi maneələrin

aradan qaldırmasına çalışır, dövlətlərarası və ayrı-ayrı investorlar arasında (*beynəlxalq investisiya arbitrajı*) mübahisələrin tənzimlənməsi zamanı nüfuzlu beynəlxalq arbitraj müəssisəsi funksiyasını yerinə yetirir. Mərkəzə seçilən Sədr və Baş katib rəhbərlik edir.

Beynəlxalq maliyyə institutları qismində Avropada fəaliyyət göstərən təsisatların da rolu böyükdür. Bu sırada Avropa Yenidənqurma və İnkişaf Bankı - AYİB, Avropa Valyuta Fondu, Avropa Valyuta Əməkdaşlıq Fondu və Aİ çərçivəsində fəaliyyət göstərin digər təsisatlar mühüm əhəmiyyət daşıyırlar.

Avropa Yenidənqurma və İnkişaf Bankı, AYİB (*European Bank for Reconstruction and Development, EBRD*) Mərkəzi Avropa və Mərkəzi Asiya ölkələrinə kömək məqsədilə 1991-ci ildə 61 ölkənin və 2 beynəlxalq təşkilatın dəstəyi ilə yaradılmış bankdır. Başlıca məqsədi keçmiş SSRİ dövlətlərində, Mərkəzi və Şəqri Avropa ölkələrində bazar iqtisadiyyatına keçidə kömək etməkdir. AYİB yalnız müəyyən hüdudlarda layihələri kreditləşdirir. AYİB-in resursları BYİB-lə eyni qaydada formalaşır. Lakin AYİB-də ödənilmiş səhmdar kapitalın payı yüksəkdir (*7%-lə müqayisədə 30%-dir*). Ödənilməmiş səhmlər lazım gəldikdə tələb oluna bilər, lakin adətən dünya kredit bazarında borc vəsaitlər cəlb olunduqda zəmanət kimi istifadə olunurlar. AYİB istehsalın kreditləşməsində (*layihə maliyyələşdirilməsi də daxil olmaqla*), yenidənqurmaya və infrastrukturun (*ekoloji proqramlar da daxil olmaqla*) inkişafına texniki köməkdə, səhmdar kapitala investisiyalar qoymaqda ixtisaslaşmışdır. Mənzil-qərargahı Böyük Britaniyanın paytaxtı London şəhərində yerləşir.

Avropa Valyuta Sistemi (*European Monetary System, EMS*) ölkələr arasında iqtisadi münasibətləri yüngülləşdirən, onların iqtisadiyyatlarını inteqrasiya edən, valyuta sabitliyi yaradan, Aİ-nin bir sıra ölkələri tərəfindən qəbul edilən valyuta münasibətləri və valyuta mübadiləsinin təşkili formasıdır. 1979-cu ildən fəaliyyət göstərir.

Avropa Valyuta Fondu, EMF (*European Monetary Fund, EMF*) Avropa ölkələrinin beynəlxalq valyuta-maliyyə təşkilatının yaradılması layihəsi 1981-ci ildə işlənib hazırlanmışdır. Perspektivdə EMF Avropa Valyuta Sistemi mərkəzi banklarının borclarının tənzimlənməsi üçün hesablama mərkəzi funksiyasını yerinə yetirəcək.

Avropa Sosial Fondu, ESF (*European Social Fund, ESF*) 1959-cü ildə təsis olunmuş, 1971-ci ilin islahatı nəticəsində fəaliyyəti daha dəqiq prioritetlərlə müəyyənləşdirilmiş, məşğulluq problemlərinin həllində iştirak edən Avropa İttifaqı fondu. Avropa Sosial Fondu peşə təhsilinin inkişafı, məşğulluq proqramlarının maliyyələşdirilməsi, geri qalan sahələrin inkişafı, immiqrantların və qadınların işə düzəldilməsinə kömək etmək üçün subsidiyalar verir. Yaşı 25-ə qədər olan gənclərin işə düzəldilməsi üzrə proqramların maliyyələşdirilməsinə xüsusi diqqət yetirir.

Avropa Valyuta Əməkdaşlıq Fondu, EMCF (*European Monetary Cooperation Fund, EMCF*) Aİ çərçivəsində valyuta inteqrasiyasını və ittifaq ölkələrinin tədiyə balanslarında və hesablarında defisitin ödənilməsini təmin etmək məqsədi ilə yaradılmışdır. 1973-cü ildən fəaliyyət göstərir.

Qərbi Avropa inteqrasiyasının regional valyuta-kredit və maliyyə təşkilatları onun institusional strukturunun tərkib hissəsini təmsil edir. Onlar Aİ ilə əlaqədə inkişaf etməkdə olan ölkələr üçün razılaşdırılmış siyasət yeridilməsi üzrə 1993-cü il Maastrixt müqaviləsinə əsasən, inteqrasiyanın möhkəmləndirilməsi və iqtisadi, valyuta və siyasi ittifaqın - Aİ-nin yaradılması məqsədini güdür.

Aİ-nin əsas regional təşkilatlarına aşağıdakılar aiddir:

Avropa İnvestisiya Bankı, EIB (*European Investment Bank, EIB*) Aİ ölkələrinin inkişafına kömək məqsədi ilə özəl şirkətlərə və dövlət təşkilatlarına uzunmüddətli borcların verilməsi məqsədi ilə təsis olunmuş bankdır. 1958-ci ildə yaradılmışdır. Mənzil-qərargahı Lüksemburqun paytaxtı Luksemburq şəhərində yerləşir.

Avropa İnkişaf Fondu, EDF (*European Development Fund, EDF*) inkişaf etməkdə olan ölkələrə infrastrukturun inkişafı ilə bağlı konkret layihələrə subsidiya və kreditlər təqdim edən 1958-ci ildə yaradılmış və Aİ tərəfindən idarə edilən fonddur.

Avropa Regional İnkişaf Fondu, ERDF (*European Regional Development Fund, ERDF*) Aİ-nin iqtisadi gerilikləri olan ayrı-ayrı regionlarının (*əyalət və depresiyalı*) inkişafındakı disprororsiyaların azaldılması məqsədi ilə aparılan regional siyasətə maliyyə dəstəkli fonddur. 1975-ci ildə yaradılmışdır.

Avropa Kənd Təsərrüfatına Rəhbərlik və Zəmanət Fondu, EAGGF/FEOGA (*European Agricultural Guidance and Guarantee Fund, EAGGF/FEOGA*) Aİ-nin kənd təsərrüfatı ilə bağlı siyasətinin dəstəklənməsi, Avropada ümumi aqrar bazar - "Yaşıl Avropa"nın yaradılması və inkişafına kömək edilməsi məqsədi ilə 1969-cu ildə yaradılan fonddur.

Avropa Valyuta İnstitutu, EMI (*European Monetary Institute, EMI*) Aİ üzv ölkələrinin mərkəzi banklarının rəhbərləri heyətində üstmilli əməkdaşlıq orqanı olan beynəlxalq bank təsisatıdır. 1973-cü ildə yaradılmış Avropa Valyuta Əməkdaşlığı Fondunu əvəz edərək 1994-cü ildə fəaliyyətə başlamışdır. Mənzil-qəragahı AFR-in Frankfurt şəhərində yerləşir.

Beynəlxalq və regional maliyyə təşkilatlarının dünyada spektri genişdir. Bu sırada ayrı-ayrı kontinentlərdə mövcud iri bank təsisatlarının rolu daim artır. İnkişaf etməkdə olan ölkələrlə əməkdaşlığı genişləndirmək, müvafiq spesifik problemləri həll etmək üçün 1960-cı illərdə Asiyada, Afrikada, Latın Amerikasında çoxsaylı regional inkişaf bankları (*regional development banks*) təsis olunmuşdur. Belə banklar sırasında 1959-cu ildə yaradılmış, mənzil-qərərgahı ABŞ-ın paytaxtı Vaşinqton şəhərində yerləşən İnter-Amerika İnkişaf Bankı (*Inter-American Development Bank, İADB*), 1963-cü ildə yaradılmış, mənzil-qərərgahı Kot-d'İvuarun Abican şəhərində yerləşən Afrika İnkişaf Bankı (*African Development Bank, AfDB*) və 1965-ci ildə yaradılmış, mənzil-qərargahı Filippinin paytaxtı Manila şəhərinə yerləşən Asiya İnkişaf Bankı (*Asian Development Bank, ADB*) xüsusi əhəmiyyət daşıyırlar. Bu banklar müvafiq regionların inkişaf layihələrinin regional birliklərin uzunmüddətli kreditləşdirməsi kimi vahid məqsədə xidmət edirlər. Regional inkişaf banklarında resursların formalaşmasının, sosial fond-

lara borc vəsaitlərinin cəlb edilməsinin eyni prinsipi müəyyən edilmişdir və burada DB qrupu nümunəsi üzrə kredit siyasəti yeridilir. Bununla belə, regionlar inkişaf banklarının fəaliyyətində fərqlər də mövcuddur. Regional inkişaf bankları üç qitə - Latın Amerikası, Asiya və Afrika ölkələrinin iqtisadi, mədəni inkişafının müxtəlif səviyyələri, tarixi ənənələri ilə müəyyən edilir.

Beynəlxalq valyuta-kredit təşkilatları arasında Beynəlxalq Hesablar Bankı xüsusi yer tutur. Beynəlxalq Hesablar Bankı, BIS (*Bank for International Settlements, BIS*) Haaqa konvensiyasında baxılan Yunqa planına (*Young Plan*), əsasən, nəzərdə tutularaq Böyük Britaniya, Fransa, AFR, Belçika, İtaliya, Yaponiyanın özəl bankları və "Morqanlar" bankir evi başda olmaqla ABŞ-ın üç özəl bankı tərəfindən 1930-cu ildə təsis edilmiş beynəlxalq valyuta-kredit təşkilatıdır. Mənzil-qəragahı İsveçrənin Bazel şəhərində yerləşir.

Dünyanın iri ölkələrində bank sistemlərinin və bütövlükdə dünya bank sisteminin dayanıqlılığının yüksəldilməsi zərurəti qabaqcıl sənaye ölkələrinin mərkəzi bankları və nəzarət orqanları tərəfindən Bazel komitəsi adlandırılan və bu ölkələrin nümayəndələrindən ibarət olan qurumun yaradılmasına səbəb omuşdur. Bazel sazişləri (*ingiliscə* - Basel capital accords - *kapital haqqında Bazel sazışləri*) Avropada müasir bank fəaliyyətinin tənzimlənməsini əsaslandıran sənədlər toplusudur. "Kapitallar haqqında Bazel sazişləri" kapitalların birinci və ikinci səviyyəli kapitallara bölgüsündən ibarətdir. Sonralar Avropa Komissiyasının Direktivi "üçüncü səviyyə kapital" anlayışını tətbiq etmişdir. Bank kapitalının yeni beynəlxalq hesablaşma qaydaları - "Bazel II" 2007-ci ildə qüvvəyə minmişdir.

Bank Nəzarəti üzrə Bazel Komitəsi (*Basel Committee on Banking Supervision, BCDS*) Beynəlxalq Hesablar Bankı nəzdində bank fəaliyyəti standartlarının işlənməsi üzrə ildə dörd dəfə çağırılan mərkəzi bank nümayədələrinin birliyidir. Hazırda komitəyə Argentina, Avstraliya, Belçika, Braziliya, Böyük Britaniya, AFR, Honqhonq, Hindistan, İndoneziya, İspaniya, İtaliya, Kanada, ÇXR, Koreya Respublikası, Lüksemburq, Meksika, Niderland, Rusiya, Səudiyyə Ərəbistanı, Sinqapur, CAR, İsveç, İsveçrə, ABŞ, Türkiyə, Fransa və Yaponiyanın mərkəzi banklarının nümayəndələri daxildirlər. BNBK-in tövsiyələr həyata keçirmək səlahiyyəti yoxdur, halbuki üzv-dövlətlərin (*və başqaları*) çoxu Komitənin siyasətini həyata keçirməyə meyillidir. Bu o deməkdir ki, tövsiyələr komitənin məsləhəti ilə deyil, milli qanun və qərarlar vasitəsilə həyata keçir. BNBK - qısa Bazel Komitəsini İsveçrədəki Bazel şəhərinin şərəfinə belə adlandırırlar. Mənzil-qəragahı İsveçrənin Bazel şəhərində yerləşir.

### 13.5. Maliyyə bazarlarının qloballaşması və transmilli banklar

Maliyyə bazarlarının qloballaşması (*globalization of financial markets*) müəssisə-rezident üçün daxili və milli bazarın başlıca əhəmiyyət kəsb etməsinin itirilməsi və fəaliyyətinin daha öz ölkəsinə yönəldilməməsi və bununla bütün dünya üçün xarakterik

olan tələblərə və səviyyəyə uyğun istehsal prosesinin təmin edilməsini şərtləndirən dünya bazar iqtisadiyyatının obyektiv və təbii inkişafı prosesidir. Maliyyə bazarlarının qloballaşması prosesi milli maliyyə bazarlarının inteqrasiyasının davamını, kapitallaşmanın yüksəlməsini, maliyyə resurslarının daha yaxşı akkumulyasiyasını və yenidən bölüşdürülməsini nəzərdə tutur. Maliyyə bazarlarının qloballaşması prosesi XX əsrdə, ilk transmilli şirkətlər və korporasiyalar meydana çıxan vaxt başlanmışdır. Əvvəlcə milli pul birlikləri əmələ gəlmişdi ki, bu da Asiyada işçi qüvvəsinin ucuz olması və Asiya ölkələrinə investisiya pul axınlarının aktivləşməsi ilə şərtlənir. Bu zaman vəsaitlər Şərqə yönəldilir və oradan da əmtəə-material dəyərləri formasında Qərbə qayıdırdı. Bu proses, öz növbəsində, transmilli şirkətlərin və investisiyaların maraqlarını maksimum müdafiə etmək üçün milli kapitalın qarşılıqlı inteqrasiyasına təkan verirdi. Maliyyə bazarlarının qloballaşmasına kapitallaşmanın güclənməsi özünə xeyli miqdarda vəsaitlərin yenidən bölüşdürülməsini daxil edirdi. Bununla da pul axınlarının həcmi artır, yeni idarəetmə portfelləri yaradılır, kapitala nəzarət üzrə mübarizə kəskinləşirdi.

Maliyyə axınının artması daha yeni və müasir portfel idarəetməsi nəzəriyyələrinin meydana gəlməsinə, innovasiyaların, kapitala çıxış üçün rəqabətin artmasına, yeni informasiya texnologiyalarının və onunla bağlı qərarların meydana gəlməsinə səbəb olur.

Maliyyə bazarlarının qloballaşmasının başlıca məqsədi maliyyə resurslarının həm daxili bazardan dünya bazarına, həm də əks istiqamətdə yerdəyişmə azadlığı verilməsidir. Bazarların qloballaşması daha effektiv biznes-qərarların axtarışına gətirir, investisiya axını məhsuldarlığın daha çox və məsrəflərin aşağı olduğu yerli bazara yönəldilir. Zaman keçdikcə isə dünya çapında vəziyyət eyniləşməlidir. Lakin bu, uzun prosesdir və indiki nəsil onun yalnız başlanğıc mərhələsindədir.

Bazarların qloballaşması hər şeydə təzahür edir və artıq hər bir insana toxunmuşdur. Bazarların qloballaşması dərinləşdikcə o, tədricən makroiqtisadi siyasətin standartlaşmasına və unifikasiyasına, vergi, antiinhisar və aqrar siyasətin tələblərinin universallaşmasına gətirəcəkdir. Standartlar bütün dünya üçün insan fəaliyyətinin bütün sahələrində vahid olacaq, hətta din və mədəniyyət kimi mühafizəkar sahələrə də toxunacaqdır.

Reallıq belədir ki, maliyyə bazarlarının qloballaşması dünya və daxili kapitallar arasında maneələri aradan qaldırır, pul vəsaitlərinin heç bir məhdudiyyət qoyulmadan planetimizin hüdudlarında yerdəyişməsinə imkan verir, investisiya qoyuluşlarına, borclara, kreditləşməyə və s. şərait yaradır. Artıq bu gün beynəlxalq kapitalın hərəkəti real əmtəə dövriyyəsini 50 dəfə üstələyir. Tədricən bu fərqlər silinəcək, dünya isə vahid simaya düşəcəkdir. Buna müqavimət göstərmək də tələb olunmur. Belə ki, qloballaşma prosesi obyektivdir. Lakin bununla belə, hardasa unikallığın saxlanılmasına da dəyər.

Transmilli bank, TMB (*transnational bank*) ssuda kapitalının beynəlxalq hərəkətində vasitəçi rolunu yerinə yetirən iri universal banklardır. TMB xarici müəssisələr şəbəkəsinə istinadda dövlətin dəstəyi ilə dünya bazarında valyuta və kredit əməliyyatlarına nəzarət edir. Əsas müştəriləri beynəlxalq təşkilatlar, TMŞ-lər transmilli

korporasiyalar, xarici nümayəndəliklər və dövlət institutlarıdır. TMB-lər fəaliyyətinin başlıca prinsipi və məqsədi - istənilən vəsaiti daha rahat və ucuz olan yerdə səfərbər etmək və ondan istifadənin daha çox qazanc verə biləcəyi yerə yönəltməkdir. İri TMB-lərə AFR-in Döyce bankı (*Deutsche Bank*), İsveçrə Ittifaq Bankı (*UBS*), ABŞ-ın Sitiqrup (*Citigroup*) və Amerika bankı (*Bank of America*), Yaponiyanın Tokio-Mitsubişi bankı (*Bank of Tokyo-Mitsubishi*) və başqaları aid edilir.

TMB-lərin güclənməsi və bank və sənaye kapitalının konsolidasiyası prosesində onların rolunun yüksəlməsi son vaxtlar dünya iqtisadiyyatında daha əlamətdar məqamlardandır. Transmilli kapitalın maraqları müəyyən milli dövlətlərin maraqları ilə üst-üstə düşəndə TMB-lar onların dünya bazarında böyük, hətta həlledici rəqabət üstünlüklərini belə təmin edir.

Bank gücünün konsentrasiyası prosesi TMB-ləri universal bank komplekslərinə çevirmişdir. Onların daxilndə tədricən kommersiya, investisiya bankları, sığorta və digər maliyyə müəssisələri arasında olan sərhədlər silinir.

TMB-lər müxtəlif valyutalarda nəhəng pul vəsaitləri səfərbər edir, istənilən müddətə kreditlər verir, beynəlxalq səviyyədə qiymətli kağızlarla əməliyyatlar həyata keçirir, istehsalın və xarici ticarətin maliyyələşdirilməsinin müxtəlif formalarını tətbiq edir, miqyasına görə əvvəllər görünməmiş etibarlı əməliyyatları inkişaf etdirirlər.

Dünya valyuta sisteminin qeyri-sabit, müxtəlif valyutaların kəskin qiymətdən düşdüyü zaman iri banklar öz resurslarının tarazlığını izləməyə məcburdurlar. Buna görə bankın resursları bir bölmədən digərinə ötürülür və eyni zamanda bir valyutadan digərinə köçürülür. Belə manevretmələr TMB-lərə nəinki öz vəsaitlərini qiymətdən düşməkdən qorumağa, həm də əlverişli valyuta əməliyyatları həyata keçirməyə imkan verir.

TMB-lərin fəaliyyəti həm bu bankların vətənində, həm də TMB-nin fəaliyyət göstərdiyi ölkələrin ərazilərində ciddi tənzimlənir. Eyni zamanda, beynəlxalq bank işinin derequlyasiya (*tənzimlənmənin məhdudlaşması və ləğvi*) meyili də artmaqdadır. Lakin hazırda daha çox ölkələr dünya təsərrüfatı miqyasında fəaliyyət göstərən bütün TMŞ-lərin vahid qaydalara tabe olmasının zəruriliyini qəbul edir.

Derequlyasiya (*ingiliscə* - deregulation - *tənzimləməni ləğv etmə*) maliyyə bazarlarında azad rəqabəti təmin edən tədbirlərin ləğv olunmasıdır.

Bir sıra banklar likvidlik böhranı adlanan vəziyyətlə qarşılaşırlar. Likvidlik böhranı (*liquidity crisis*) müəssisələrin, şirkətlərin, bankların aktivlərinin bazar qiymətinə yaxın qiymətə tez satış qabiliyyətinin, həmçinin, öz öhdəliklərini və təqdim olunan qanuni pul tələblərini vaxtında ödəmək qabiliyyətinin olmaması vəziyyətidir. Likvidlik böhranı ilə müflisləşmə arasında fərqlər mövcuddur. Belə ki, səhmdarlar vəsait cəlb edilməsi zamanı əlavə xərclərin olması haqqında qərarlar qəbul edərkən likvidlik böhranının qarşısı alına bilər, bu da, adətən, bankın bazar mövqelərini gücləndirir. Müxtəlif vaxtlarda dünyanın bir çox iri bankları, o cümlədən ABŞ-ın Fanni Mey (*Fannie Mae*), Freddi Mak (*Freddie Mac*) və Leman Brazas (*Lehman Brothers*) bankları da likvidlik böhranına məruz qalmışlar, sonuncu isə üstəlik, iflasa da uğramışdır.

## 13.6. İslam iqtisadi sisteminin irəliləyişləri və islam bankçılığı

İqtisadi inkişafın tarixi göstərir ki, hər bir sivilizasiya mərhələsinin iqtisadi əsasını mədəni, dini ənənələrdən qaynaqlanan kapital tipi təmin edir. Belə ki, ticarətin inkişafı üçün vacib olan kapital əməliyyatları - pullardan istifadə etdiklərinə görə digər din daşıyıcılarından alınan faizlər iudey faiz kapitalının yaranışına səbəb olmuşdur. İndustrial mərhələdə isə xristian etikası tələbləri əsasında öz sələfini heç də tam inkar etməyən sənaye protestant kapitalı yaranmışdır. Bunlardan fərqli olaraq islam təsərrüfat etikası sosial paylaşma və hamıya mümkün differensial yetişən kapital üzərində qurulmuşdur. Bu gerçəkliyə baxmayaraq bir sıra Qərb tədqiqatçıları göstərirlər ki, konfessional iqtisadiyyat mümkünsüz bir şeydir. Məhz buna görə də əlahiddə islam iqtisadiyyatı da mövcud deyil. İslam tipli iqtisadiyyatlarda da bazis olaraq ümumi ənənəvi iqtisadi qanunlar başlıca rol oynayırlar. Fərqilik isə yalnız etika aspektindədir. Bir sıra fundamental amillər və dəlillər var ki, bu fikri köklü şəkildə heçə endirir. Əvvəla, tarixi faktlar göstərir ki, bütün sivilizasiyalaşan makrotəsərrüfat sistemlərinin yaranışında konfessional amil önəm daşımışdır. Hətta ev təsərrüfatları səviyyəsində belə oxşarlıqlara baxmayaraq, köklü fərqliliklər daim mövcud olmuşdur. Bu gün də yaşadıqları coğrafiyadan asılı olmayaraq insanların təsərrüfat alətlərində, məişət cihazlarında köklü fərqlilik yoxdur. Lakin yanaşma, davranış və iqtisadi münasibətlər çevrəsində onlardan istifadə müxtəlifliyi vardır.

<u>İslam iqtisadiyyatı</u> (*islamic economics*) islamın ictimai və əxlaq normaları ilə müəyyən olunan, insanın fərdi azadlıqılarının pozulmasına yol verməyən, sələmçiliyi qəti istisna edən iqtisadi inkişaf təyinatlı təsərrüfatçılıq sistemidir. İslama dini inancın bölünməzliyi və sosial qaydalılıq xarakterikdir. Bu məqam isə, öz növbəsində, mövcud Qərb iqtisadi modellərinin adekvat istifadəsini imkansız edir. İslam iqtisadiyyatı modeli "Qurani-Kərim"də əsasını tapan prinsiplərdən qaynaqlanır. İqtisadi münasibətlərin qətiyyətli və dayanıqlı tənzimlənməsi islam qanunvericiliyinin mühüm əlamətdar cəhətlərindən biridir. Burada insan Allaha məxsus təbii resursların müvəqqəti sahibi, istifadəçisi və istehlakçısı kimi çıxış edir. Sosial-iqtisadi prosesləri nəzarətdə saxlayan dövlət isə təbii sərvətlərin satışından əldə edilən gəlirləri öz vətəndaşları arasında bərabər bölür. Ticarət azad, inhisar və təsadüfi situasiyadan gəlir əldə etmək qadağandır. İslam iqtisadiyyatının fundamental fərqləndirici mühüm cəhətlərindən birini də faizsiz maliyyə sisteminə maliklik canlandırır. "Qurani-Kərim"də buyurulur ki, bütün müsəlmanlar qardaşdırlar. Buna görə də onlar arasında istismar ola bilməz. Faiz isə birbaşa istismardır. Onun tətbiqi ilə insanların likvid vəsaitləri əlindən alınır, əmlakı mənimsənilir.

İslam iqtisadiyyatı ilə islam maliyyəsinin də qırılmaz vəhdəti vardır. <u>İslam maliyyə sistemi</u> (*islamic financial system*) sələmsiz, faizsiz kreditvermə sistemli, fyuçers sövdələşmələrinin istisnası zəminli, islam qaydalarına uyğun təşkil edilən və reallaşdırılan maliyyə sistemi formasıdır. Zəkat və ianə sisteminə əsaslanan islam maliyyəsi "əməklə əldə olunan mülkiyyət" ideyasını irəli sürməklə dövlət, kooperativ və xüsusi

bölmənin balanslaşdırılmış qarşılıqlı fəaliyyət sistemi üzərində pərvəriş tapır. Bu maliyyə konsepsiyasında ənənəvi müsəlman vergiləri islam iqtisadi sisteminin bir hissəsi elan olunur. İlk cərgəyə kapitalı deyil, sahibkar keyfiyyətini çıxaran islam maliyyə-iqtisadi sistemi layihənin reallaşması zamanı mümkün zərərləri investorun üzərinə qoyaraq mənfəəti biznes tərəfdaşları arasında keyfiyyət müstəvisində bölüşdürür. Bu prinsipiallıq islamın gözlənilməz riskə davam verən asimmetrik informasiyaya qadağa qoymasına əsaslanır. Lakin bununla belə, o, riski heç də mühakimə etmir.

İslama sosialist sisteminin eqalitarizmi də (*bərabərlilik*) yaddır. Burada fərdin işgüzar uğuru dəstəklənir və mükafatlandırılır. İslam maliyyəsi və onun konfessional bank sistemi də məhz bu cəhəti ilə fərqlənir. İqtisadi sferada ədalət prinsiplərini uca tutan islam biznesinin təşkili formaca müştərək sahibkar partnyorluğuna istinad edir. Bu çevrədə islam bank sistemi aparıcı mövqedə dayanaraq biznes işini və səmərəli sahibkar fəaliyyətini tənzimləyir.

Müasir zamanda nəzəri konstruksiya kimi yanaşılan islam iqtisadiyyatı bir sıra müsəlman dövlətlərinin iqtisadi modellərində də əksini taparaq möhrəmlənməkdədir. Onun müasir iqtisadi konsepsiyasının əsasları XX əsrin ikinci yarısında təşəkkül tapmış və həmin dövrdən başlayaraq bu prinsiplər əsasında işləyən ilk tipik banklar formalaşmışlar.

<u>İslam bankçılığı</u> (*islamic banking*) bank işinin islam qaydalarına uyğun aparılması usuludur. İslam bankçılığının mahiyyətində sələm, faiz, və parazitizmdən (*özgə hesabına yaşama*) imtina dayanır. Hazırda dünyanın 100-ə qədər ölkəsində islam bankları, 500-ə qədər islam maliyyə institutu böyük səmərəliklə fəaliyyət göstərir. Onların aktivlərinin məcmusu artıq trilyon dollarla ölçülür. İslam bankçılığının səciyyəvi xüsüsiyyəti onun depozit cəlbetmə prosesi və faizli kreditvermə sisteminin olmaması, həmçinin fyuçers sövdələşmələrinin aparılmaması ilə bağlıdır. Qeyd edilməlidir ki, oxşar təzahürlü proses qismən yapon bank sistemində də mövcuddur. Belə ki, ölkənin Mərkəzi Bankı kommersiya banklarını sıfır faiz altında refinansə edir. Bununla belə, bu gerçəklik heç də islam bankçılığı ilə tam üst-üstə düşmür.

İslam bank modeli özünün köklü fərqliliyi ilə orijinaldır. Ciddi təməlçilik əsasları onların üstün cəhətləri sırasındadır. Ona görə də liberal iqtisadiyyatın yaratdığı böhranlar zamanı özlərinin spekulyativ əməliyyatlardan kənarlıqları, faizsiz borc sistemliyi və qeyri-müəyyənlikləri təcrid edən funksionallıqları ilə islam bankları yüksək dayanıqlıq nümayiş etdirirlər. Ona görə də dünyada iqtisadiyyatın sosiallaşmasının alternativləri sırasında yeni dövriyyə və güc toplumu əldə etmiş islam iqtisadiyyatına ehtiram artır. Belə münasibət yenə də onunla əsaslandırılır ki, əksər müasir iqtisadi modellər, əslində, yəhudi-xristian məfkurəsi zəminində formalaşmışdır və onların sosial bazası qloballaşmanın genişlənməsi ilə inflyasiyaya məruz qalmaqdadır. Təkmilləşmənin dərinləşməsinə baxmayaraq böhranyaradıcı xüsusiyyətliliyindən qurtulmamışdır və bununla yanaşı, onların real sosial paritetliyi dolğun təmin etmə imkanları da tükənməkdədir. Buna alternativ olan islam iqtisadi sisteminin fundamental

özəllikləri isə belədir ki, iqtisadiyyatın lokal və qlobal sərhədlərdə olmasına baxmayaraq, o, insanların əsas istehlak tələblərini ödəməklə, onların həyat səviyyəsinin yüksəlişini daim ön sıraya çəkir. İctimai əhəmiyyətli iqtisadi institutları idarə etmək, kapitalist sistemindən fərqli olaraq, onların tamhüquqlu şəxsi əllərə keçməsinə yol verməmək və bundan əmələ gələn gəlirləri yenidən fərdi bölgüdə vətəndaşların istifadəsinə yönəltməklə sosial sıxıntılığa, yoxsulluğa sipər çəkir. Səmərəli iqtisadi balans siyasətinin reallaşdırılması ilə isə o, cəmiyyətdə sinfi yaranışın və ictimai subyektlərarası qeyri-proporsionallığın əmələ gəlməsinin qarşısını alır. İslam iqtisadi sistemi həm də inhisarçılığı qətiyyətlə rədd edərək özünün sərvətlərinin, torpaq resurslarının istəfadəsi üçün diskriminasiyaya yol vermədən hamıya bərabər imkanlar yaradır. Burada dövlət aparatı iqtisadi layihələrin təkmilləşməsi, istehsalın artımı istiqamətində fəal iş aparır. Bütün bunlar isə bir daha böhranlarsız dayanıqlı dünya iqtisadi artımına keçidi təmin edəcək yeni qlobal maliyyə arxitekturasının islam iqtisadi təməlində qurulmasına möhkəm əsaslar yaradır.

Azərbaycanda da islam iqtisadiyyatı ilə bağlı çoxsaylı tədqiqatlar yerinə yetrilmişdir. Ölkədə islam iqtisadiyyatının ilk dəfə ayrıca nəzəri formatda, kompleks şəkildə tədqiqini professor Hacı Məhəmməd Həsən Xanlar oğlu Meybullayev (*1948-2013*) reallaşdırmışdır. Onun geniş həcmli "İslam iqtisadiyyatı" adlanan monoqrafiyası bütünlüklə islami təsərrüfat həyatının müasir elmi şərhinə həsr olunmuşdur. Bu əsər orjinallığı və islam iqtisadiyyatının bütün elmi çevrədə təhlili ilə bütün arealda üstün mövqedə dayanır. Bununla belə, qeyd olunmalıdır ki, islam iqtisadiyyatının elmi tədqiqi hələ də tələbli fundamentallığı ilə öz araşdırıcılarını gözləyir. Hesaba gətirilir ki, yeni qlobal islam intibahı ərəfəsində müvafiq konfessional iqtisadiyyatın tədqiqat sferası ən geniş üfüqlərdə təcəssümünü tapacaqdır.

## 13.7. Dünya maliyyə böhranları

İqtisadiyyatda böhranlar, səviyyə və dərəcəsindən asılı olaraq, depressiya, resessiya, staqnasiya, yavaşıma formalarında təzahür edir. Qlobal miqyasda isə onlar, əsasən, iqtisadi, maliyyə, maliyyə-iqtisadi xarakterli olurlar. İqtisadi xarakterli böhran iqtisadiyyatın kəskin pisləşməsi, istehsalın enişi, dayanıqlığının itirilməsi, tələb və təklif tarazlığının pozulması, kütləfi iflaslar, işsizliyin artması, həyat səviyyəsinin aşağı düşməsi ilə müşayiət olunur. Maliyyə böhranları isə dövlət maliyyə, pul sistemini əhatə edərək büdcə gəlirləri və xərcləri arasında yaranan kəskin uyğunsuzluqla xarakterizə olunur ki, bu da valyuta kursunun enməsi, iqtisadi subyektlərin qarşılıqlı ödəniş stabilliyinin pozulması, inflyasiyanın yaranışı və digər bu kimi mənfi hallara gətirir. Təcrübə göstərir ki, hansı sferada yaranmasından asılı olmayaraq, böhran halı sərtləşdikdə, genişlənib maliyyə-iqtisadi xarakter alır. İqtisadiyyatın inteqrasiyası fonunda baş verən böhranlar isə qarşılıqlı əlaqəlilik səviyyəsinidən asılılıqda "domino prinsipi"ndə olduğu kimi hamını aşırır.

Dünya maliyyə böhranı (*global financial crisis*) milli vayutanın və qiymətli kağızların qeyri-stabil kursu, infilyasiya və bütövlükdə həyat səviyyəsinin aşağı düşməsi ilə müşayiət olunaraq bir neçə dövlətin maliyyə sisteminin eyni zamanda pozulması və ya çökməsi vəziyyətidir. Dünya maliyyə böhranları yaranış xarakterinə görə valyuta-maliyyə və maliyyə-iqtisadi kateqoriyalara təsnifatlandırılırlar. Valyuta-maliyyə böhranlarının yaranışı iqtisadiyyatın uğurlu inkişaf etməməsi səbəbindən xarici invenstorların məyusluğu nəticəsində portfel infestisiyalarının məhdudlaşması və bununla da milli valyuta bazarlarında məzənnə qeyri-stabilliyinin baş verməsi ilə şərtlidir. Maliyyə-iqtisadi böhranlar isə real sektorda kəskin strurktur disbalanslığı və istehsalın əhəmiyyətli dərəcədə aşağı düşməsi ilə bağlı özündə maliyyə qeyri-stabilliyini əks etdirərək daha dərin xarakterlidir.

Dünya iqtisadiyyatının min illik tarixinə nəzər yetirdikdə ayrı-ayrı ölkələrdə iqtisadi böhranların yaşandığını görərik. Lakin onların regional və dünyəvi xarakter alması mərhələsi son iki yüz ili əhatə edir. İqtisadi nəzəriyyədə qlobal böhranlar mərhələsinin 1825-ci ildə Böyük Britaniyada baş vermiş böhrandan başlanğıc aldığı göstərilir. Böyük Britaniyadan Latın Amerikasına axan maliyyə kapitalının artması XIX əsrin 20-ci illərinin əvvəllərində burada bir neçə ölkənin müstəqillik qazanmasına səbəb olmuşdu. Müstəqilliyin əldə edilməsi qızıl və gümüş mədənlərinin maliyyələşdirilməsini bir qədər də genişləndirmiş və yaranan ixrac gərginliyi ilə birlikdə dövlət borcunun artmasına səbəb olmuşdur. Belə situasiyada özü-özlüyündə iqtisadiyyatların birlikdə böhran mərhələsinə keçməsinə rəvac vermişdir. 1836-1838-ci illərdə baş vermiş iqtisadi böhran dalğası da Böyük Britaniya, ABŞ və bir qədər də Fransanı əhatə etməklə qlobal xarakterli olmuşdur. İngilis bankının qızıl ehtiyatlarının azalmasına rəğmən uçot stavkalarının yüksəlməsi və eyni zamanda ABŞ-ın pambıq plantasiyalarında artım meyilləri ilə ölkəyə artan xarici kapital axını böhrana səbəb olmuşdur. Bununla da Böyük Britaniyanın fond bazarı süqut etmiş və bank çaxnaşması ABŞ-a keçərək buradakı bir sıra pambıq layihələrinin reallaşmasına mane olmuş və ölkənin hesab-ödəniş sistemini sarsıtmışdı. 1847-ci il iqtisadi böhranı isə ABŞ-ı da əhatə etməklə, demək olar ki, bütün Avropaya yayılmışdı. Bu böhran əhatə dairəsinə görə ümümdünya kateqoriyasına yaxın bilinən ilk iqtisadi böhran kimi tarixdə yer almışdır. 1857-ci ildə Avroatlantik məkanı daha bir böhran bürüdü. Ona Amerikanın dəmiryolu şirkətlərində kütləvi iflas və bununla da səhmlər bazarında yaranan çaxnaşma səbəb olmuşdu. Nəticədə fond bazarı və bank sistemi sarsılmış və bu sarsıntı Böyük Britaniyaya keçərək, oradan bütün Avropaya və hətta Latın Amerikası ölkələrinə belə yayılmışdı. Böhran zamanı ABŞ-da pambıq istehlakı 27%, Fransada 13%, azalmış, Böyük Britaniyada gəmiqayırma sənayesində istehsal 26% aşağı enmişdi. Bu böhrandan çuqun istehsalı daha çox ziyana məruz qalmışdı. Belə ki, böhran nəticəsində ABŞ-da çuqun istehsalı 20%, Fransada 13%, Rusiyada 17% azalmışdı. 1866-cı ildə baş verən böhran nisbətən kiçik areallı olsa da, kəskinliyi ilə daha çox Böyük Britaniya iqtisadiyyatına zərər vurmuşdur.

Növbəti böhran 1873-cü Avstriya və Almaniyada yaranmış, Böyük Britaniyanı da ağuşuna alaraq 1878-ci ilə qədər davam etməklə tarixdə ilk ən sürəkli və miqyaslı qlobal maliyyə böhranı kimi qeydə alınmışdır. Böhranın səbəbləri sırasında Böyük Britaniya tərəfindən stimullaşdırılaraq Latın Amerikasında kredit bazarında sürətlə genişlənən canlanma, AFR və Avstriya daşınmaz əmlak bazarında spekulyativ yüksəliş dayanırdı. Belə vəziyyət isə Vyana, Sürix və Amsterdam fond bazarlarının süqutlarına gətirərək ABŞ-da bank həyəcanına, Nyu-York fond birjasında səhmlərin qiymətlərinin kəskin aşağı düşməsinə səbəb olmuşdu. 1882-ci ildə baş verən iqtisadi böhran, üstün olaraq, ABŞ və Fransanı, bundan 8 il sonra - 1890-cı ildə baş verən böhran isə daha genişliklə Almaniya, ABŞ və Fransanı əhatə etmişdir. 1900-1903-cü illərdə tuğyan edən böhran kapitalizmdən azad rəqabətə keçid - imperializm epoxasının ilk iqtisadi böhranı kimi yadda qalmışdır. Böhrandan, xüsusi olaraq, ABŞ və Almaniya, nisbətən az isə Böyük Britaniya və Fransa zərər çəkmişlər. Bu ərəfədə Rusiya imperiyası da çətin iqtisadi vəziyyətə düşmüşdür.

1914-cü ildə Birinci Dünya müharibəsinin başlanması ilə ABŞ, Böyük Britaniya, Almaniya və Fransa hökumətlərinin xarici emitent kağızlarını hərbi əməliyyatları maliyyələşdirmək məqsədi ilə kütləvi satışa çıxarması beynəlxalq maliyyə böhranı yaratdı. Digərlərindən fərqli olaraq, bu böhran mərkəzdən əyalətlərə yayılma ilə xarakterik idi. Növbəti qlobal iqtisadi böhran 1920-1922-ci illərdə müharibədən sonra deflyasiya - milli valyutanın alıcılıq qabiliyyətinin artması və resessiya - istehsalın aşağı düşməısi ilə başlandı. Onun təsiri ilə Danimarka, İtaliya, Finlandiya, Niderland, Norveç, ABŞ və Böyük Britaniyadakı bank və valyuta sistemi də böhranlı vəziyyətə düşdü. "Böyük depressiya" (*Great Depression*) adlanan, 1929-cu ilin 24 oktyabrında Nyu-York Fond Birjasında səhmlərin qiymətinin kəskin aşağı düşməsi hadisəsi ilə başlanan böhran dünya tarixinin ən müdhiş qlobal böhranı hesab edilir. Böhran 1933-cü ilə qədər kəskin davam etmiş və onun nəticəsində ABŞ-da sənaye istehsalı 46%, Almaniyada 41%, Fransada 32%, Böyük Britaniyada 24% aşağı düşmüş və 32 inkişaf etmiş ölkədə işsizlərin sayı 30 milyona qalxmışdı.

Dünya iqtisadiyyatı II Dünya Müharibəsi dövründə də əziyyətli məqamlarını yaşamışdır. Müharibə bir çox ölkələrin iqtisadiyyatını viran qoysa da, qələbə üçün bütün mümkün məntəqələrdə istehsal davam etmiş, inkişaf meyilləri yaşanmışdır. Ona görə də iqtisadiyyat tarixində II Dünya Müharibəsinə əlahiddə bir mövzu olaraq baxılır.

II Dünya Müharibəsindən sonra ABŞ, Böyük Britaniya, Kanada, Belçika, Niderland və digər kapitalist ölkələrini əhatə edən növbəti qlobal iqtisadi böhran 1957-58-cı ilə təsadüf etmişdir. Onun nəticəsində inkişaf etmiş ölkələrdə sənaye istehsalı 4% geriləmiş, işsizlərin sayı 10 milyon nəfərə çatmışdır. 1973-cü ilin sonunda ABŞ-da baş vermiş iqtisadi böhran özünün əhatə dairəsi, davamlılığı, dərinliyi və dağıdıcı gücü ilə 1929-1933-cü illər böhranına daha yaxın idi. O, Misir və Suriyanın İsraillə müharibəsi nətisəsində baş vermiş enerji böhranından qaynaqlanmışdı. OPEK ölkələrinin neftin qiymətlərini 5 dəfə artırması dünya pulu rolunu oynayan dolların devalvasiyasına

zəmin yaradaraq ABŞ-ın kredit-bank sistemini iflas dalğasına bürümüşdü. Böhran yaşantısının bütün dövrü ərzində sənaye istehsalı ABŞ-da 13%, Yaponiyada 20%, Böyük Britaniyada 10%, Fransada 13%, İtaliyada 14%, AFR-də 22% azalmışdı. Bu çox dərin fəsadlı böhrandan heç 5 il keçməmiş ABŞ iqtisadiyyatı yenidən iqtisadi böhran məngənəsinə düşdü.

Yeni beşillik fasilədən sonra 1987-ci ildə daha bir qlobal böhran yaşandı. Bu böhran sənaye enişlərindən asılı olmayan unikal maliyyə - birja böhranı kimi də səciyyələndirilirdi. 1990-91-ci illərdə ABŞ-da yaranaraq Kanada, Böyük Britaniyaya və Yaponiyaya keçid edən böhran isə resessiya xarakterli olaraq yenidən valyuta-maliyyə problemlərinin kəskinləşməsi ilə nəticələndi. 1994-95-ci illərdə Meksikada yaranmış böhran qlobal səciyyə daşımış və bir çox ölkələri özünün əhatə dairəsinə salmışdır. 1997-ci ildə investorların Çənub-Şərqi Asiya ölkələrindən gedişi ilə baş vermiş Asiya böhranı isə yaxın tarixin miqyaslı böhranları sırasındadır. Onun nəticəsində dünya ÜDM-i 2 trilyon dollar azalmışdır. Asiya böhranı ilə yanaşı 1997-ci ildə Rusiyada da iqtisadi böhran tuğyan etmişdir. Bu böhran müasir Rusiya tarixində ən ağır fəsadlı iqtisadi böhranlardan biri olmuşdur.

Müasir qlobal iqtisadi böhranlar tarixini 2008-2013-cü illər böhranı qapayır. İqtisadiyyatın qloballaşan erasının ilk maliyyə böhranı kimi səciyyələndirilən bu maliyyə kateqoriyalı qlobal böhran özünün təsir effekti ilə daha fərqli görünür. O, siyasi, iqtisadi sistem fərqinə varmadan, demək olar ki, bütün dünya ölkələrinə sirayət etmişdir. ABŞ iqtisadiyyatının ipoteka sektorunda investorların məsuliyyətsiz davranışı nəticəsində yaranmış disbalans 2008-ci ildə böhran yaradaraq bütün dünya iqtisadiyyatına nüfuz etdi. Geniş mənada yaşanan qlobal maliyyə böhranı sekyuritizasiyanın - qiymətli kagızlar bazarının genişlənməsi, onun substandart ipoteka kreditlərini əhatəsinə alması hadisəsindən irəli gəlmişdir. Belə ki, son zamanlar bu sektorda real aktivlər kimi alınıb satılan bir sıra opsion və fyuçerslərin ümumi real aktivlərlə bağlılığı o qədər də ciddi əsasda olmamışdır. Onların əksər hissəsi, əslində, borc öhdəlikli maliyyə aktiviləri kimi çıxış etmişlər.

Böhranı yaradan digər bir səbəb isə ABŞ-da dollarının emissiyası ilə bağlanılır. Belə ki, dünya ÜDM-nin 20%-i yaradılan ölkədə əmtəə və xidmətlər istehlak olunandan 2 dəfə az istehsal edillmişdir. Bu isə o deməkdir ki, son zamanlar ABŞ dolları, praktiki olaraq, heç nə ilə təmin edilməmişdir. Digər bir oxşar fikrə görə isə böhran bir neçə amilin uzlaşması nəticəsində baş vermışdir. Bunlardan birinci nəhəng riskləri uçotdan kənar edən aşağı səviyyəli tənzimləmədir. İkincisi isə son illərdə maliyyə əməliyyatlarının miqyası ilə aktivlərin fundamental dəyəri və artan kredit tələbləri ilə onların ödəmə mənbələri arasında yaranan kəskin fərqlərlə bağlı olmuşdur. Burada həmçinin, bir mərkəzin, praktiki olaraq, məhdudiyyətsiz və nəzarətsiz pul çapı ilə nemətlər istehlak etməsi, digərinin isə bahalı olmayan əmtəələr istehsalı ilə digər dövlət tərəfindən buraxılan pulları yığıb saxlaması da təsirli rol oynamışdır. Bu böhrandan çıxışda ilk tədbirləri ABŞ dövləti görmüşdür. O, bir sıra şirkətlərə güzəştli kreditlər

vermək, digərlərini dövlət inhisarına keçirməklə prosesin lokallaşmasına nail olmuşdur. Bununla yanaşı, eyni vəziyyəıə düşmüş bir sıra ölkələrdə də mühüm tədbirlər görülmşdür. Daha mühüm tədbirlərin həyata keçirilməsi isə böyük iyirmilik - G20 ölkələri üzərinə düşmüşdür. Böhranla əlaqədar ilk sammitini keçirən dövlətlər beynəlxalq maliyyə institutlarının reformasiyası, yeni arbitraj institutlarının yaradılması, qlobal iqtisadi siyasətdə birgə fəaliyyət, müasir maliyyə texnologiyalarına əsaslanaraq riskləri maksimal şəffaf idarə etmək, müxtəlif ölkələrin nüfuzlu iqtisadçılarından ibarət maliyyə məşvərəti yaratmaq kimi təsisatlandırmaların aparılması ideyaları ilə çıxış etmişlər.

Beləliklə, statistika son iki yüz ildə dünyada 20-yə yaxın qlobal böhran baş verdiyini göstərir. Bu isə o deməkdir ki, bazar iqtisadiyyatı, orta hesabla, hər 10 ildən bir qlobal sarsıntı yaşamışdır. Onların orta hesabla 3-4 illik yaşam mərhələsi isə göstərir ki, son iki yüz ildə bəşəriyyət öz həyatının 60-80 ilini - $^{1}/_{3}$ hissəsindən çoxunu böhran vəziyyətində keçirmişdir. İndi də bu proses davam edir.

Sonuncu maliyyə böhranı həm də onu göstərmişdir ki, mükəmməl maliyyə arxitekturasının qurulması üçün dünya iqtisadiyyatında daha konsolidə olunmuş idarəetmə və tənzimləmə sistemi yaradılmalı və müvafiq "nəzarət orqanları" təsis olunmalıdır. Lakin problemin həlli bütün yanaşmalar çevrəsində yenə də ABŞ-ın liderlilik iddiasında olduğu yeni "Bretton-Vuds" tipli strukturların yaranışlarına əsaslanacaqdır. Digər tərəfdən, dünya iqtisadiyyatının yeni qlobal oyunçusu ÇXR-in də təsir imkanları yaddan çıxarılmamalıdır. Belə ki, 2020-ci ilədək ÜDM-i 4 dəfə artırmaq məqsədini qarşıya qoymaqla, ÇXR həm də yaxın 50 ildə dünya iqtisadiyyatının aparıcısı və onu idarə edəcək bir ölkə olmaq şansındadır. Belə perspektiv isə ona dünyanın maliyyə sistemini də nəzarətə götürmək imkanı verir. Lakin bütün bu meyillərlə yanaşı dünyada islam iqtisadiyyatı da öz təsisatlarını genişləndirir, yeni-yeni ölkələr fəth edir. Bu sferada olan çoxsaylı materialların təhlili göstərir ki, dünyanın yeni maliyyə arxitekturasının qurulmasında islam iqtisadiyyatı dominantlığı ələ almaqdadır.

## 13.8. Kapitalın beynəlxalq hərəkəti (*miqrasiyası*)

Müasir dünyada bütün növ mallar, həmçinin, bütün istehsal amilləri tipləri yaratmaq və təkmilləşdirmək ayrılıqda heç bir, hətta ən inkişaf etmiş ölkəyə belə nəsib olmamışdır. Dünya iqtisadiyyatı elə bir mexanizmdir ki, bütün ölkələr məqsədlərinə və maraqlarına nail olmaq üçün mal və istehsal amillərinin effektiv mübadiləsini təmin edirlər. Bu proses kapital miqrasiyasını stimullaşdır.

Kapitalın beynəlxalq hərəkəti, miqrasiyası (*international migration of capital*) kapitalın idxal, ixrac və onun xaricində fəaliyyətinin də daxil olduğu ölkələrarası hərəkətidir. Kapitalin beynəlxalq hərəkəti kapitalın pul və ya əmtəə formasında daha səmərəli istifadəsi, başqa ölkələrdə mülkiyyətin əldə edilməsi, habelə pulların yüksək gəlir gətirməyə vəd edən istehsal obyektlərinə, binaların, qurğuların, qiymətli kağızların

alınmasına yönəldilməsi məqsədi ilə xaricə daşınması və xaricdə yerləşdirilməsi ilə baş verir. Kapitalın beynəlxalq hərəkəti iqtisadi şəraitin, miqyasın, forma və mexanizmin dəyişməsindən asılı olur. O, hər şeydən əvvəl kapitalın beynəlxalq transfertinin dünya iqtisadiyyatına köməyində təzahür edir. Bu onunla əlaqədardır ki, kapital və ya kapitaltutumlu əmtəə ilə təmin edilən hər hansı ölkə xarici ölkədə investisiya qoyuluşları vasitəsilə istehsal qura bilər. Buradan xarici ticarətdə olduğundan daha böyük iqtisadi effekt əldə etmək olar. Kapitalın beynəlxalq hərəkəti proseslərində ölkənin xüsusi çəkisi (*kapitalın ixracı-idxalı)* həmin ölkənin dünya təsərrüfatı sisteminə inteqrasiyası göstərici kimi də qiymətləndirilir. Kapitalın beynəlxalq hərəkətində müvafiq pul və karital bazarlarının rolu böyükdür. Pul bazarı ilə kapital bazarı maliyyə bazarının tərkib hissələridir.

Kapital xarici ölkələrdə aşağıdakı formalarda idxal və ixrac edilir:

1. Kapitalın özəl və ya dövlət təşkilatları və şirkətləri tərəfindən ixrac edilməsindən asılı olaraq ***özəl və ya dövlət kapitalı formasında***. Beynəlxalq təşkilatlar xətti ilə kapitalın hərəkəti çox vaxt müstəqil formaya keçir.

2. ***Pul və əmtəə formasında***. Belə ki, kapitalın ixracı xarici ölkəyə orada yaradılan və ya malı alan firmanın nizamnamə kapitalına qoyuluş kimi ixrac edilən maşın və avadanlıqlar, patentlər, nou-hau və həmçinin əmtəə kreditləri ola bilər.

3. ***Qısamüddətli və uzumüddətli formalarda***. Bu forma aşağıdakı sxematik quruluşda verilmişdir:




**Sxem 4. Kapitalın idxalı və ixracının uzunmüddətli və qısamüddətli təsnifatlandırılması**

4. Kreditləşmə məqsədlərindən irəli gələrək ***birbaşa, portfel və suda investisiyaları formasında***. Birbaşa xarici investisiyalar kapitalın uzunmüddətli iqtisadi maraq əldə

etmək məqsədilə onun yatırıldığı ölkədə (*resipient-ölkə*) qoyuluşu olub, investorun kapitalın yerləşdirilməsi obyektinə nəzarətini təmin edir. Portfel investisiyalar isə investisiya obyektinə birbaşa nəzarət etməyə imkan vermir. Belə halda investor səhm sahibi olmaqla mənfəət dividenti əldə edir. Ssuda forması isə bir şəxs tərəfindən pul və maddi qiymətlilərin digər şəxsə müəyyən edilmiş müddətdə faiz ilə qaytarılmaqla borc şəklində verilməsini əks etdirir.

5. ***Qeyri-leqal və firmadaxili kapital formasında***. Qeyri-leqal kapital milli və beynəlxalq hüquqdan yan keçən kapitalın miqrasiyasıdır. Firmadaxili kapital bir korporasiyaya məxsus olub müxtəlif ölkələrdə yerləşən filiallar və törəmə firmalar (*banklar*) arasında köçürülən kapitaldır.

Xarici ölkələrdə fəaliyyətdə olan xarici kapitalın ölçüsü böyükdür.

Müasir şəraitdə kapitalın dünyada hərəkəti istehsalın beynəlmiləlləşməsinin güclənməsi, iqtisadi artım sürətinin və məşğulluq səviyyəsinin artması, qabaqcıl sənaye sahələrinin inkişafı amili kimi xidmət edir və maliyyə bazarlarını dünya təsərrüfatının inkişafının mühüm stimuluna çevirir.

Kapitalın beynəlxalq hərəkəti proseslərində ölkənin xüsusi çəkisi (*kapitalın ixracı-idxalı)* həmin ölkənin dünya təsərrüfatı sistemində inteqrasiyası göstərici kimi də qiymətini alır. Nəzəriyyə olaraq, o, beynəlxalq ticarətin neoklassik nəzəriyyəsi, kapital ixracının marksist nəzəriyyəsi və beynəlxalq korporasiyanın inkişaf konsepsiyası çərçivəsində inkişaf edir.

Kapitalın beynəlxalq hərəkəti beynəlxalq iqtisadi münasibətlərdə qabaqcıl yer tutur və dünya iqtisadiyyatının artımını təmin edir, beynəlxalq əmək bölgüsünü və beynəlxalq əməkdaşlığı dərinləşdirir, ölkələr arasında, o cümlədən beynəlxalq korporasiyaların qarşılıqlı əmtəə dövriyyəsinin həcmini yüksəldərək dünya ticarətinin inkişafını stimullaşdırır.

Kapital ixracının əsas səbəbi və zəmini həmin ölkədə nisbətən artıq kapitalın olmasıdır. Dünya təsərrüfatının müxtəlif sahələrində kapitala tələb və təklif arasında uyğunsuzluq meydana gəlir və daha çox sahibkarlıq mənfəəti və ya faizi əldə etmək məqsədilə o, xaricə ötürülür.

Kapital ixracının səbəbləri, həmçinin, aşağıdakılar ola bilər:

❒ qəbul edən ölkənin yerli bazarını inhisarlaşdırmaq imkanının olması;
❒ kapital qəbul edən ölkələrdə daha ucuz xammal və işçi qüvvəsinin olması;
❒ resipiyent ölkədə sabit siyasi şərait;
❒ donor ölkə ilə müqayisədə daha aşağı ekoloji standartlar;
❒ qəbul edən ölkədə əlverişli “investisiya iqlimi”nin olması;

Kapitalın beynəlxalq hərəkəti ixracatçı və idxalatçı ölkələr üçün müxtəlif nəticələr verə bilər. Belə ki, məsələn, kapitalın xarici ölkələrə ixracı adekvat xarici investisiyalar cəlb olunmadan onların iqtisadi inkişafının ləngiməsinə gətirib çıxarar, məşğulluğun səviyyəsinə və ödəmə balansının vəziyyətinə mənfi təsir göstərə bilər.

Kapitalı idxal edən ölkələr yeni iş yerləri yaratmaq, yeni texnologiyalar, effektiv

menecment əldə etmək, bununla da ölkədə ETT-ni sürətləndirmək və iqtisadi artımı təmin etmək, ödəmə balansını yaxşılaşdırmaq imkanına malikdir. Bu zaman, həmçinin, kapital idxalının neqativ nəticələri də istisna edilmir. Belə ki, nəzarətsiz idxal milli istehsalçını işindən məhrum edə bilər və bazara həyat tsikli ötmüş mallar düşər. Ssuda kapitalının idxalı ölkənin xarici borcunu artırır. Xarici kapital axını yerli kapitalı əvəzləyərək, və ya onun hərəkətsizliyindən istifadə edərək, yerli biznesi mənfəət gətirən sahələrdən sıxışdıra bilər, bu isə , öz növbəsində, onun iqtisadiyyatına təhlükə və ixracatçı-ölkədən siyasi asılılığa zəmin yaradar.

Kapitalın beynəlxalq hərəkətinin müsbət və mənfi nəticələri kifayət qədər şərti xarakter daşıyır və burada çoxsaylı istisnalar nəzərə almır. Bununla belə, kapitalın beynəlxalq hərəkəti bütövlükdə dünya iqtisadiyyatının inkişafında stimullaşdırıcı rol oynayır.

Kapitalin beynəlxalq hərəkəti ilə bağlı müvafiq model və konsepsiyalar mövcuddur:

Kapitalın beynəlxalq hərəkətinə dair Nurkse modeli (*the model international capital movements Nurks*e) kapitalın beynəlxalq hərəkətinin texniki kəşflər, beynəlxalq ticarətin inkişafı və kapital təklifinin artımı ilə bağlanıldığı modeldir. Eston əsilli amerikalı iqtisadçısı Raqnar Nurksenin (*1907-1959*) adı ilə bağlıdır.

Kapitalın beynəlxalq hərəkətinin tənzimlənməsinə dair İverson konsepsiyası (*concept of international capital movements Iverson*) kapitalın beynəlxalq hərəkətinin mahiyyət və mexanizmininin real və bərabərləşdirən olmaqla məhdudlaşdırılmasına yönəlmiş konsepsiyadır. Konsepsiyaya görə, kapitalın real hərəkəti müxtəlif ölkələrdə amillərinin bərabər olmayan son məhsuldarlıq səviyyəsi ilə əlaqəlidir. Danimarka iqtisadçısı Karl Lonqbottom İversonun (*1899-1978*) adı ilə bağlıdır.

## 13.9. Beynəlxalq investisiyalar

Təsərrüfat həyatının mühüm qaynaq elementi, investisiya sabaha atılan addım kimi, istehsalın yüksəlişi və genişlənməsinə yönələn şəraitin təşkilində əksini tapır. İnvestisiya (*latınca* - investment - *geyindirmək*) real məhsuldar aktivlərin artırılması prosesi, pulların daha böyük pullar əldə edilməsi məqsədi ilə istifadəsidir. İnvestisiyalar müxtəlif təsnifatlandırmalara məruz qalırlar. İnvestisiya müəyyən istehsal fəaliyyəti ərzində gəlirin istehlak üçün yığılmış və istifadə olunmamış hissəsidir ki, o, yenidən istehsalata yönəldiləcək və bu proses çox sayda təkrarlanacaqdır. Ümumi kontekstdə investisiyalar müasir iqtisadiyyatın ayrılmaz tərkib hissəsi olaraq gəlir əldə etmək məqsədilə iqtisadiyyata uzunmüddətli kapital qoyuluşlarını xarakterizə edir. İnvestisiyalaşma obyektlər üzrə real (*real kapitalın müxtəlif formalarda birbaşa alışı*), maliyyə (*kapitalın maliyyə aktivləri vasitəsi ilə dolayı alışı*) və spekulyativ investisiyalara (*kapitalın müstəsna olaraq mümkün qiymət dəyişiklikləri naminə alınması*) təsnifatlandırılır. İnvestisyalaşmanın əsas məqsədləri baxımından birbaşa, portfel, real, qeyri-maliyyə, intelektual investisiyalara, müddətlilik baxımdan isə

qısamüddətli, ortamüddətli və uzunmüddətli investisiyalara bölünür. Bundan başqa, investisiyalar mülkiyyət formasına görə özəl, dövlət, xarici və qarışıq, uçot dəyərləndirilməsi formasına görə isə ümumi və xalis investisiyalara da təsnifatlandırılırlar. Növ təsnifatı baxımından investisiyalar riskli, vençur kapitallı, müəyyən tənzimlənən vaxt kəsiyindən sonra qoyuluşlara, xüsusən də, sosial istiqamətdə gəlir gətirən annuitet kateqoriyalara bölünür. İnvestisiya səmərəliliyi aparılan müvafiq siyasətdən asılıdır. Bu siyasət - investisiya siyasəti iqtisadiyyatın səmərəliliyindən asılı olan məhsulun ən böyük artımını və gəlirini təmin edən kapital qoyuluşunun yüksək proritet sahələrini müəyyən edir.

Beynəlxalq investisiyalar (*ingiliscə* - overseas investment - *xarici investisiyalar*) bir ölkənin dövləti, sahibkarları və ya fiziki şəxsləri tərəfindən digər ölkənin iqtisadiyyatına yatrılan sərmayələr olaraq beynəlxalq maliyyə kapitalının hərəkət formasıdır. Əsasən, iki - birbaşa investisiyalar və portfel investisiyalar növləri fərqləndirilir. Beynəlxalq investisiyalar iqtisadiyyatın artımı və inkişafı məqsədilə maddi və maliyyə resurslarının hərəkətini və birləşməsi prosesini əhatə edən geniş tutumlu anlayışdır. Beynəlxalq investisiyalar, həmçinin, vəsaitin başqa ölkələrin emitetnlərinin xarici valyutada nominasiya edilmiş qiymətli kağızlarına qoyulması, xarici valyuta ilə əldə edilmiş maliyyə alətləridir.

Birbaşa xarici investisiyalar (*foreign direct investment, FDI*) kapitalın qoyulduğu ölkədə (*resipiyent-ölkə*) uzunmüddətli iqtisadi maraq əldə etmək məqsədilə qoyulan kapitaldır. Birbaşa xarici investisiyalar, praktiki olaraq, tamamilə özəl sahibkarlıq kapitalının ixracı ilə bağlıdır. Bu zaman bir ölkənin sahibkar kapitalının digər ölkədə daşınmaz əmlaka, sənaye və xidmətlər sferasına uzunmüddətli sərnmayə qoyuluşu həyata keçirilir, eyni zamanda xarici ölkədə milli firmanın filialının yaradılması və ya xarici şirkətin səhm paketinin əldə edilməsi halları da baş verir. Belə hal investora müəssisəni idarə etmək və onun işinə nəzarəti həyata keçirmək imkanı verir. Beynəlxalq statistikada bu, müştərək və ya səhmdar kapitalın azı 25%-nə sahiblikliklə xarakterikdir. Sahibkar kapitalın qalan hissəsi yalnız mənfəət əldə etmək məqsədi daşıyırsa, bu, beynəlxalq kredit kimi, "portfel investisiyası" adlanır.

Portfel investisiyalar (*portfolio investment*) gəlir götürmək üçün bir investorun iqtisadi fəaliyyətə yönəltyi, ona mənsub porfel formalaşdıran qiymətli kağızların məcmusudur. Portfel investisiyalar investora sərmayə qoyulan obyektə birbaşa nəzarət etməyə imkan vermir. Belə halda investor səhm sahibi olmaqla mənfəət dividendi əldə edir.

Portfel xarici investisiyalar (*foreign portfolio investments, FPI*) kapitalın xarici qiymətli kağızlara (*sırf maliyyə əməliyyatı*) qoyuluşudur. Bu, investora investisiya obyektinə nəzarət hüququ vermir. Belə halda investor səhm sahibi olmaqla dividend əldə edir. Portfel xarici investisiyaları milli valyutada ifadə edilmiş sırf maliyyə aktivləri olaraq iqtisadi agentin portfelinin diversifikasiyasına səbəb olur, investisiya riskini aşağı salır. Onlar daha çox özəl sahibkarlıq kapitalına əsaslanır, baxmayaraq ki, dövlət də öz qiymətli kağızlarını buraxır və xarici qiymətli kağızları alır.

Beynəlxalq investisiyalar spektrində qeyri-maliyyə və intellektual investisiyalar da yer alır:

Qeyri-maliyyə investisiyalar (*non-financial investments*) hüquq əldəetmə, lisenziyalar, nou-hau və ya əmlakla bağlı investisiyalar.

İntelektual investisiyalar (*intellectual investments*) intelektual məhsulun yaradılmasına (*insan kapitalının inkişafına, bilik, bacarıq, istedad, elm, təhsil, ixtisas artırma, hərtərəfli mobillik, azadlıq, fiziki və psixi sağlanmlıq, mənəvi sərvət*) yönəlik investisiyalar.

Mülkiyyət hüququnun və gəlir əldəetmənin xarakterindən asılı olmayaraq iqtisadi sərhədlərdə qoyuluşlar sahibkar və ssuda kapitalına bölünür. Sahibkarlıq kapitalı (*enterprise capital*) mənfəət almaq məqsədi ilə istehsala birbaşa və ya dolayısı ilə qoyulan pul vəsaitidir. Sahibkarlıq kapitalının hərəkəti ayrı-ayrı şəxslər, dövlət müəssisələri və ya dövlət, vəsaitləri xarici ölkələrə yatıranda xarici investisiyalar yolu ilə həyata keçirilir. Ssuda (*qədim rus sözü* - съсудити - *təltifetmə, təyinetmə*) bir şəxs tərəfindən pul və maddi qiymətlilərin digər şəxsə müəyyən edilmiş müddətdə faiz ilə qaytarılmaqla borc şəklində verilməsidir. Ssuda kapitalı (*loan capital*) xarici ölkələrdə kapitaldan istifadədən ssuda faizi almaq məqsədilə istehsala birbaşa və ya dolayısı ilə qoyulan pul vəsaitləridir. Ssuda kapitalının hərəkəti dövlət və ya özəl mənbələrdən beynəlxalq kredit şəklində həyata keçirilir. Sahibkar kapitalın beynəlxalq hərəkəti əmtəə və pul formasında törəmə təşkilatların, filialların, müştərək müəssisələrin timsalında daha uzunmüddətli investisiyaları əks etdirir. Burada investor öz kapital qoyuluşlarına nizamnamə kapitalına yönəltməklə gəlir şəklində mübadilə olunan sahibkar mənfəəti əldə edir. Ssuda kapitalının beynəlxalq dövriyyəsində isə mülkiyyətin bu sayaq mübadiləsi, əsasən, baş vermir. Bununla belə, kredit şərtlərindən asılı olaraq ssuda alıcısı müəyyən kredit istifadəçisi çərçivəsinə salına bilər. İstənilən halda ssuda borcu istifadəçiyə təcili qaytarma və faizlər müqabilli şərtlərdə əks olunur.

Mənşəyinə görə kapital rəsmi və özəl kapitala bölünür.

Rəsmi (*dövlət*) kapitalı (*official capital*) dövlət büdcəsindən hökumətin, həmçinin, hökumətlərarası təşkilatların qərarı ilə xaricdə hərəkətdə olan karitalıdır. Borclar, ssudalar və xarici yardım şəklində hərəkət edir.

Özəl (*qeyri-dövlət*) kapitalı (*private capital*) özəl şirkətlərin, bankların və digər qeyri-dövlət təşkilatlarının onların rəhbər orqanları və birliklərinin qərarı ilə xarici ölkələrə yerləşdirilən vəsaitləridir. Bu kapitalın mənbəyi özəl şirkətlərin dövlət büdcəsi ilə əlaqəsi olmayan vəsaitləridir. Özəl kapital xarici istehsal yaradılmasına qoyulan investisiyalar, banklararası ixrac kreditləri ola bilər.

Uzunmüddətli kapital (*long-term capital*) kapitalın 5 ildən artıq qoyuluşudur. Sahibkarlıq kapitalının birbaşa və portfel investisiyaları formasında olan bütün qoyuluşları, adətən, uzunmüddətli olur.

Ortamüddətli kapital (*medium-term capital*) kapitalın 1 ildən 5 ilə qədər və ya təyinatlılıq baxımdan nisbət qısa və daha çox müddətləri əhatə edən sərmayə qoyuluşlarıdır.

Qısamüddətli kapital (*short term capital*) kapitalın 1 ilə qədər müddətə qoyulmasıdır. Belə sərmayələr qısamüddətli tələblərin bağlanması üçün əlavə vəsaitlərin qısa zaman kəsiyində səfərbərliyini xarakterizə edir.

Kapital, həmçinin, qeyri-leqal və firmadaxili formalara da ayrılır:

Qeyri-leqal kapital (*illegal capital*) kapitalın milli və beynəlxalq hüquqdan yan keçən miqrasiyasıdır.

Firmadaxili kapital (*intercompany capital*) müxtəlif ölkələrdə yerləşən və bir korporasiyaya mənsub olan filiallarlar və törəmə şirkətlər (*banklar*) arasında köçürülən kapitaldır.

İnvestisiya prosesinin əsas iştirakçıları müxtəlif icra hakimiyyətləri orqanlarının timsalında dövlət, korporasiyalar və ayrı-ayrı şəxslərdir. Öz istehlakçılarının tələbatlarını ödəmək üçün dövlətlər və korporasiyalar tez-tez qısamüddətli və uzunmüddətli qiymətli kağızlar buraxırlar. İnvestisiya prosesinin iştirakçıları həm istehlak, həm də investisiya təklifi tərəfində ola bilər. İnvestisiyaların ölçüsü investisiya prosesi iştirakçılarının istəklərindən asılı olaraq müəyyən edilir. Beləliklə, investisiya prosesinin iştirakçıları bu gün həmin vəsaitlərdən imtina edərək, onları gələcəkdə istehlakı təmin etməyə yönəldirlər.

İnvestisiyalar multiplikator effektlidir. Multiplikator makroiqtisadi anlamda milli gəlirlə daha çox bağlı olan vurğu, əmsal olmaqla yanaşı, gəlirin yüksəlişi ilə onu bəhrələndirən artım arasında münasibəti əks etdirir. Qeyd etmək lazımdır ki, neokeynsçilər multiplikator konsepsiyasını investisiya artımının gəlir artımından asılılığını göstərən akselerator - sürətləndirici nəzəriyyəsi ilə dolğunlaşdırmışlar. Akselerator nəzəriyyəsi ilə təsdiq olunmuşdur ki, investisiya mübadiləsi istehsalın həcmi mübadiləsinə bərabərdir və akselerasiya investisiya nəticəsində istehsal gücünün artıb-azalmasını ifadə edir. İnvestisiya prosesində multiplikator effekti sahələrarası rabitəliyə istinad edir. Multiplikatorun köməyi ilə iqtisadi təsir gücünü və vaxtını müəyyənləşdirmək və səmərəli olmayan investisiyalardan imtina etmək mümkündür. Bununla yanaşı, multiplikator effekti növbəti investisiyaların lokomotivi kimi də çıxış edir.

İnvestisiya proseslərində "suvaq" adlanan fenomen yaşanır. Bu, əlin suvağa batması ilə onun bulaşması obrazında məzmun alır. İnvestisiya layihəsi qəbul edilmişsə, denonsasiyaya varmaq, sonradan ondan imtina etmək, geri çəkilmək daha bir faydasızlıq gətirir. Əlbəttə, suvağa ilişib qalmaq, batmaq da yaxşı əlamət deyil. Alınmış əmlakı satışa qoymaqla bir növ dezinvestisiya ilə ondan müəyyən dərəcədə qurtulmaq da olar. Amma bu proses "əyləc" effektində təcəssüm olunaraq maddi ziyanla, zərərin ödənilməsində kompensasiya - indeminitet labüdlüyü ilə yanaşı, mənəvi imic zərərlərinə də gətirər. Bu isə investisiya layihəsinin qəbulu və reallaşmasından öncə onun səmərəliliyini, məqsədəmüvafiqliyini son dərəcə ciddi nəzərdən keçirməyi şərtləndirir.

İnvestisiyalaşma prosesində yaradılan şərait ("*investisiya iqlimi*") çox mühüm əhəmiyyət daşıyır. İnvestisiya iqliminə aşağıdakı parametrlər daxil edilir:

❒ iqtisadi şərait: iqtisadiyyatın ümumi vəziyyəti (*yüksəliş, tənəzzül, durğunluq*),

ölkənin valyuta, maliyyə və kredit sistemlərində vəziyyət, gömrük rejimi və işçi qüvvəsindən istifadə şərtləri, ölkədə vergi səviyyəsi;

❒ xarici investisiyalar haqqında dövlətin siyasəti: beynəlxalq müqavilələrə riayət edilməsi, dövlət institutlarının möhkəmliyi, hakimiyyətin davamlılığı.

Hazırda beynəlxalq investisiyalar geniş yayılmışdır. Onlar investorun milli bazarı ilə müqayisədə digər milli bazarlarda aktivlərin daha yüksək qiymət artımı hesabına, həmçinin, investorun valyutasına görə investisiya valyutaları kursunun artımı hüsabına kapitalın qoyuluşunun daha yüksək gəlirliliyini almağa imkan verir.

Beynəlxalq investisiyalar müvafiq müqavilələrin predmetinə çevrilirlər. Bu sırada daha çox ikitərəfli investisiya sazişlərinə üstünlük verilir.

İkitərəfli investisiya sazişi (*Bilateral Investment Treaty - BİT*) iki ölkə arasında həmin ölkələrdə xarici investisiyaları həyata keçirmək üçün müəyən edilmiş qaydalar haqqında ikitərəfli investisiya müqaviləsidir. İkitərəfli İnvestisiya Sazişlərinin əksəriyyəti, əsasən, bir investor dövlətin (*investisiya ixracatçısı*) digərində investisiyaların qorunması təminatlılığı üzərində qurulur. Dünyada ilk İkitərəfli İnvestisiya Sazişi 25 noyabr 1959-cu ildə Pakistan və AFR arasında imzalanmışdır. Müasir dünyada 2500-dən çox İkitərəfli İnvestisiya Sazişi mövcuddur ki, burada da əksər ölkələr iştirakçıdırlar.

## 13.10. Azad iqtisadi zonalar, onların yaranış səbəbləri və məqsədləri

İqtisadi inkişafın davamlı təmin olunmasında milli dövlət ərazisinin məhdud hissəsini təşkil edərək, xüsusi iqtisadi şərt və şərait imkanlarına malik Azad İqtisadi Zonalar arealı üstün səmərəliliyi ilə fərqlənir. Azad İqtisadi Zonalar, AİZ (*Free Economic Zones, FEZs*) milli və xarici sahibkarlar üçün güzəştli iqtisadi şərtli məhdud ərazidir. AİZ digər ərazilərlə müqayisədə xüsusi hüquqi qüvvəyə və güzəştlər sisteminə malikdir. Həmin sistemi gömrük, icarə, valyuta, viza, əmək rejimi, vergi, normativ-hüquqi və s. kimi elementlər əhatə edir.

Son onilliklərdə AİZ-lərin inkişafı dünya iqtisadiyyatında nəzərəçarpan hadisələrdən biri kimi qiymətləndirilir. Təcrübə göstərir ki, dövlətlərin beynəlxalq təsərrüfata səmərəli inteqrasiyası, ölkənin və onun regionları qarşısında duran aktual sosial-iqtisadi problemlərin həlli üçün müvafiq iqtisadi zonaların təşkili mühüm rol oynamaqdadır. Bu əhəmiyyətli funksionallıq hazırda planetdə məşğulluq şəbəkəsi 100 milyona yaxın insanı əhatə edərək 120 ölkədə və 25-dən çox çeşiddə fəaliyyət göstərən 5 minə qədər AİZ-in simasında daha da dolğunlaşmış və genişlənmişdir. İndi onların ixrac əməliyyatlarının ümumi dəyəri bir neçə trilyon ABŞ dollar məbləğində hesablanır. AİZ-lər yeni-yeni coğrafiyalar fəth edir, qlobal iqtisadi artımı stimullaşdırır və daha çox məşğulluq təminatı verirlər.

İnvestisiyaların mobilləşməsini, iqtisadi inteqrasiya proseslərinin dərinləşməsini

stimullaşdıran AİZ-lərin beynəlxalq səviyyədə rəsmi tanınması 1973-cü il Kioto konvensiyasının qərarında əksini tapmişdır. Burada göstərilir ki, "azad iqtisadi zona dövlətin elə bir ərazisidir ki, idaxal hüququna və müvafiq vergilərə münasibətdə buraya gətirilən əmtəələr gömrük sərhədlərindən kənardadır və kömrük nəzarətinə məruz qalmırlar". Başqa sözlə, AİZ-lər anklav ərazi təcəssümünü ifadə edir və "gömrük eksteritoriyalı" vəziyyət prinsipi ilə fəaliyyət göstərirlər.

AİZ-lər ümumi sosial-iqtisadi, elmi-texniki və texnoloji problemlərin həlli, industrial inkişafın investisiyalaşması, iqtisadi inteqrasiyanın, xarici ticarətin genişləndirilməsi, beynəlxaq əmtəə dövriyyəsinin aktivləşməsi və digər bu kimi əhəmiyyət daşıyan məqsədlər üçün təşkil olunuraq, dünya təsərrüfatında iqtisadi artımın sürətlənməsini və beynəlxalq əmtəə dövriyyəsinin aktivləşməsini səmərəliliklə təmin edirlər. Onların spesifik xüsusiyyətləri sırasında təşəkkül şərtləri də mühüm səsiyyələndirilir. Belə ki, təsisatlandırmada nəqliyyat-kommunikasiya imkanlarının genişliyi, bazarlara münasibətdə əlverişli coğrafı mövqe və infrastruktur imkanlığı, mineral-xammal resurslarına maliklik, inkişaf etmiş istehsal potensialı kimi bir sıra mühüm spesifik tələblər prioritet olaraq əsaslandırılır. Daha geniş çərçivədə bu hədəf və tələblər aşağıdakıları əhatə edir:

❖ məşğulluğun təmin edilməsi;
❖ xarici investisiyaların cəlb olunması və mobilləşməsi;
❖ xarici bazarlara çıxarıla biləcək məhsul istehsalının mənimsənilməsi;
❖ müvafiq zonanın mövcud resurslarından daha dolğun istifadə olunması;
❖ ekoloji mühiti sağlamlaşdırılması;
❖ iqtisadi artımın sürətləndirilməsi;
❖ xarici əmtəə dövriyyəsinin aktivləşdirilməsi;
❖ iqtisadi inteqrasiyanın dərinləşdirilməsi;
❖ innovasiya, qabaqcıl istehsal və menecment texnologiyalarının cəlb olunması.

AİZ-lərə çağdaş zamanda dünyanın əksər ölkələrində rast gəlinir. Avtarkiyalı iqtisadi sistemə malik qonşu İran İslam Respublikasında, kommunist rejimli Çin Xalq Respublikasında, Latın Amerikasının əksər ölkələrində AİZ-lər təşəkkül taparaq tərəqqi edir. Bir çox ölkələr məhz AİZ-lərin inteqrasiya effektinə istinadən onların milli iqtisadiyyatda formalaşdırılmasını və genişləndirilməsini şərtləndirirlər. AİZ-lərin inkişaf məsələsi MDB ölkələri liderlərinin müxtəlif sammitlərində də diqqət mərkəzində olmuş, nəticədə AİZ-lərin formalarından biri olan "Azad ticarət zonaların yaradılması haqqında" saziş imzalanmışdır.

AİZ-lərə məxsus dünya ölkələrinin qanunvericiliyi müvafiq təsərrüfat subyektlərinin fəaliyyətini bir sıra tənzimləmə elementləri əhatə edir. Buraya idxal-ixrac əməliyyatlarının gömrük tənzimlənməsi, vergiqoyma, lisenziyalaşdırma, vizalaşdırma, bank və sığorta fəaliyyəti, əmlak və girov munasibətləri, zonanın idarə edilməsi və AİZ-lərə məxsus digər sresifik məsələlər daxildir.

AİZ-ləri, şərti olaraq, aşağıdakı çoxsaylı spesifik növlərə təsnif edirlər:

❑ güzəştli gömrük rüsumu strategiyasında ifadə olunan (*azad ticarət zonaları, valyuta portları və rüsumsuz anbarlar*);

❑ milli və xarici kapitalın güzəştli vergi və gömrük strategiyasında ifadə olunan (*eksport sənaye zonaları və istehsal zonaları*);

❑ güzəştli rejimli əməliyyatlara əsaslan xidmət təyinatlı (*bank zonaları və sığorta zonaları*);

❑ yeni texnoloji nailiyyətləri gerçəkləşdirən (*texnopolislər və texnoloji zonalar*);

❑ kompleksli və çoxfunksiyalı (*azad şəhərlər və azad zonalar*).

AİZ-lərin nəzərdən keçrilən növ təsnifatında güzəştli gömrük rüsumu strategiyasında ifadə olunan zonalar fərqli mahiyyət daşıyır. Burada, xüsusi olaraq, azad ticarət zonalarına diqqət yetirməyə ehtiyacı vardır. Belə ki, azad ticarət zonaları inteqrasiyanın ilk pilləsində qərar tutur. Beynəlxalq müqavilə əsasında üzv ölkələr arasında gömrük rüsumlarının, vergi və yığımların, qarşılıqlı ticarət zamanı kəmiyyət məhdudiyyətlərinin aradan götürüldüyü beynəlxalq inteqrasiya forması olan azad ticarət zonasında sərhəd ticarəti əməliyyatları aparılır. Belə ki, regional ölkələr qrupu inteqrasiya və qarşılıqlı faydalı əməkdaşlığı ifadə edən azad ticarət zonaları yaradır və burada gömrüksüz ticarət təşkil edirlər. Bu cür əməkdaşlıq müvafiq ticari infrastrukturun yaranmasını genişləndirir. Güzəştli gömrük rüsumu strategiyasında ifadə olunan zonalar içərisində valyuta portları və rüsumsuz anbarlar da əhəmiyyəti ilə fərqlənir. Bu bazar seqmentlərindən AİZ-lər fəaliyyət göstərən şirkətlər faydalanaraq biznes dairəsini genişləndirirlər.

Biznes (*business*) gəlir götürməyə yönəldilmiş iqtisadi fəaliyyətdir. Nəzəri və praktiki təsnifatda biznes miqyasına görə kiçik, orta və böyük fəaliyyət qruplarına ayrılır. Hər bir biznes qrupu öz maraqlarından çıxış edərək müvafiq iqtisadi davranış münasibətləri və strategiya əsasında fəaliyyətini tənzimləyir. Böyük biznes dövlətin iqtisadi və texniki gücünü nümayiş etdirir. Orta biznes daxili iqtisadi konyunkturadan asılı olaraq qrup daxilində rəqabətə istinad edən prinsiplər əsasında təşəkkül tapır. Kiçik biznes isə, əsasən, daxili bazara köklənən əmtəə və xidmətləri reallaşdırır. Biznes istehsal, kommersiya və maliyyə növlərinə də ayrılır. Riskli səciyyə daşıdıqda: Vençur biznesi (*ingiliscə* - venture business - *müəssisə biznesi, vençur biznesi, riskli biznes*) riskli elmi-texniki və texnoloji biznesdir. Vençur biznesi elmlə istehsalat arasında çatışmayan həlqə olaraq iqtisadi inkişafın tələbi kimi tətbiq üçün elmdən başlanğıc alaraq dövriyyəyə daxil olmuşdur.

Müasir dünyada öz bizneslərini reallaşdıran şirkətlər müxtəlif bazar təziyiqlərinə məruz qalırlar. O, şirkətlər fəaliyyətlərini davam etdirərək uğur qazanırlar ki, kiçik əməliyyat xərcləri ilə yüksək keyfiyyətli əmtəə və xidmətlər istehsalını saxlamaqla öz bizneslərini daha səmərəli üsullar üzərində qurmağı bacarırlar. Müasir iqtisadiyyatda biznesin təşkilinin belə üstün formalarından biri kimi autsorsinq çıxış edir. Autsorsinq (*ingiliscə* - outsorting, out - *kənar*, sorting - *çeşidləmə*) şirkətin qeyri-effektli və ya az

effektivli prosesini və ya fəaliyyət növünün daha üstün keyfiyyət göstəricilərinə malik olan digər təssərüfat subyektinə verməsidır. Bu mənada biznes-sistemin bölgü funksionallığı autsorsinqin prinsipi belədir: "Özümə onu saxlayıram ki, onu digərlərindən yaxşı edirəm. Kənar icraçıya isə məndən yaxşı bacardığını verirəm". Özünün məxsusi növləri ilə fərqlənən autsorsinqi, formalaşan təsnifata görə, informasiya texnologiyaları, istehsal və biznes proseslərinin autsorsinqinə ayırırlar. Təcrübi reallıqlara görə autsorsinq prosesi sxematik olaraq elə informasiya texnologiyalarının autsorsinqindən başlanır və sonrakı tiplərə keçid alır. İnformasiya texnologiyalarının autsorsinqi ixtisaslaşmış müvafiq kompaniyalara tam və ya qismən informasiya infrastrukturunun verilməsi ilə müşayiət olunur. İstehsal autsorsinqi kompaniyalara yeni məhsul və xidmətlərini hazırlanması üzərində səfərbər olmağa, özünün çevikliyini artırmağa, yenidənqurma işləri apramağa imkan verir. Müasir istehsal daha çevik və mobil inkişaf trayektoriyasına keçid alır. Məhsulun çeşidlənməsi prosesləri istehlak tələbləri ilə əlaqədar daha keyfiyyətli yüksəliş əldə edir. Bu isə həm yeni ixtisaslaşma və standarlaşmada təyinat tapır və öz növbəsində, istehsal autsorsinqinin tətbiqini stimullaşdırır.

Biznes-proseslərin autsorsinqi isə kompaniya üçün başlıca biznesyaradıcı olmayan ayrı-ayrı biznes-proseslərin kənar təşkilata verilməsini ehtiva edir. Buraya personalın idarə edilməsi, mühasibat uçotu, marketinq, reklam işi, logistik fəaliyyət və s.-ni daxil etmək olar.

Son onillikdə bütün dünyada informasiya texnologiyalarının sıçrayışlı inkişafı ilə əlaqədar olaraq autsorsinqin də tətbiq sferası genişlənmişdir. Bununla belə, autsorsinq uğuru ilə bağlı fikirlər də birmənalı deyildir. Belə ki, autsorsinqi tətbiq etmiş təşkilatın mühüm istehsal və menecment funksiyalarını digər kompaniyalara verilməsi idarəetmə təcrübəsinin itirilməsi, mühüm informasiyaların sızması, öhdəliklərin yerinə yetrilməməsi və s. bu kimi riskli əlamətlərlə müşayiət oluna bilər. Lakin buna baxmayaraq təcrübə göstərir ki, müvafiq iqtisadi məqsədyönlülük bütün bu riskli amilləri mümkün həddə təcrid edir. Buna misal olaraq qeyd edilməlidir ki, "natural təsərrüfat"çılığın parlaq tərəfdarlarından olan ABŞ avtomobil sənayesinin lideri Henri Ford XX əsrin 20-ci illərində bütün istehsalı özünə məxsus olan zavodlarda cəmləşdirmişdi. Yeni reallıqlar isə zamanın biznes tələbinə cavab verən digər şərtləri diqtə etdi. Gerçəkləşən iqtisadi məqsədyönlülük nəticəsində artıq əsrin sonlarında "Ford" şirkətində komplektləşdirici məmulatların 70%-indən çoxu ixtisaslaşdırılmış digər podratçı müəssisələrin istehsal sferasına daxil oldu. Bu nümunə bir daha onu göstərir ki, autsorsinq prosesi böyük istehsal-xidmət yönümlü biznes sferasında sınanmaqla yanaşı, həm də hazırkı və perspektiv inkişafda optimal effektlər yaratmaq qabiliyyətlidir.

AİZ-lər qrupunda milli və xarici kapitalın güzəştli vergi və gömrük rüsumu strategiyasında ifadə olunan zonalarında biznes səmərəsi yüksək qiymətləndirilir. Daha çox istehsal və sənaye funksiyalı belə zonalarda biznes fəaliyyəti üçün geniş imkanlar açılır. İxrac sənaye zonaları biznes fəaliyyətinin mühüm iqtisadi komponentini təşkil edir.

Güzəştli rejimli əməliyyatlara əsaslan xidmət təyinatlı AİZ-lər isə bank və sığorta zonaları əhəmiyyəti daşıyırlar. Bu şəbəkədə qurulan bank və sığorta kompaniyaları çoxlu imtiyazlar əldə edərək azad vergi sistemili fəaliyyət təşkil edirlər.

Yeni texnoloji nailiyyətləri gerçəkləşdirən AİZ-lər içərsində isə texnopolislər fərqlənirlər. İnnovasiya prosesinin genişləndirilməsinə xidmət edən texnopolislər yeni yaranışların daşıyıcılarına çevrilirlər. Texnopolislər sahibkarlıqla yanaşı, dövlət biznesində də öz işıqlı gücünü nümayiş etdirirlər. Məlum faktdır ki, müəssisə və şirkətlər rəqabətqabiliyyətliliyi inkişaf etdirmək üçün innovasiya fəaliyyətinə üstünlük verirlər. Bunu yeniləşməni fəaliyyət leytmotivinə çevirmiş firmalara şamil etmək olar. İnnovasiya bir sistem olaraq AİZ-lərin mühüm elementidir. Bazar iqtisadiyyatında rəqabət mübarizəsinin üsullarından birinə çevrilən innovasiyanın başlıca nəticəsi əmək məhsuldarlığını artırmaq və mənfəəti yüksəltməkdən ibarətdir. Lazımi zaman kəsiyində mütərəqqi texnologiyaları tətbiq etməklə irəliləyişlərə nail olanlar bazar rəqabətindən qalib çıxırlar. İnnovasiya zamanı yeni tələb formalaşır və bunun müqabilində alıcılar mənəvi cəhətdən köhnəlmiş malları almaq istəmirlər. Məhsulun əmtəə növünün yaxşılaşdırılması üzərində aparılan işlər dinamik keyfiyyət yaradır, əmtəə imicini daimi dəyişən və inkişaf edən məcraya yönəldir. İnnovasiyalar çağdaş zamanda reputasiyalı təşkilatın fəaliyyət missiyasının leytmotivinə çevrilmişdir. Bununla belə, innovasiyalı tərəqqi təkcə firma reytinqi hədəfi deyil, o, başlıca olaraq, dayanıqlı inkişafın mühafizəsində, bazar konyunkturunun fəth edilməsində daim təkmilləşən, sadiq və çevik təşkilati bir alətidir. İnnovasiya fəaliyyəti elmi-texniki və intellektual potensialı səfərbər edərək daha optimal və davamlı səmərəliliyi təmin edən tədbirlər sistemidir.

AİZ-lərin ən prinsipal görüntülü xüsusiyyətlərinə aşağıdakılar aid edilir:

I. Müxtəlif imtiyaz və stimulların tətbiqi;

- xarici ticari (*idxal-ixrac rüsumlarının azaldılması və ya ləğvi, xarici ticari əməliyyatlarının qaydalarının sadələşdirilməsi*);
- fiskal - vergi stimullaşdırması ilə bağlı guzəştlər;
- maliyyə - subsidiyaların müxtəlif formaları;
- administrativ - müəssisələrin qeydiyyat prosedurunun, vətəndaşların viza rejiminin sadələşdirilməsi.

AİZ-lərdə mənfəət normasında güzəşt 30-35%, bəzən orta hesabla 40% nəzərdə tutulur. Kapital qoyuluşunun burada özünütəminat muddəti gödəlir. AİZ-lər üçün bu müddət 3-3,5 ildən çox olmur.

II. Geniş iqtisadi spektrdə müstəqil qərarvermə hüququ;

III. Lokal və nisbətən sadə idarəetmə sistemi;

IV. Mərkəzi dovlət hakimiyyət strukturları tərəfindən hərtərəfli dəstək.

AİZ-lərin spesifik xüsusiyyətləri sırasında yaranış şərtləri də vacibdir. Belə ki, burada AİZ-lərin yaranması sferasında bir sıra tələblər formalaşmışdır. Bu tələblər arasında mühüm olanlar aşağıdakılardır:

❍nəqliyyat və kommunikasiya imkanlarının genişliyi;

- ❍ bazarlara münasibətdə əlverişli coğrafı mövqe;
- ❍ inkişaf etmiş istehsal potensialı;
- ❍ münbit istehsal infrastrukturu və sosial infrastruktur;
- ❍ mineral xammal resursları potensialına maliklik.

AİZ-lərin funksional cəhətləri kimi iqtisadi artımın sürətlənməsi, beynəlxaq əmtəə dövriyyəsinin aktivləşməsi, investisiyaların mobilləşməsi və iqtisadi inteqrasiya proseslərinin dərinləşməsi çıxış edir.

Öz fəaliyyətlərində imtiyazlı şəraiti qenişləndirmək məqsədilə beynəlxalq korporasiyalar AİZ-lər şəbəkəsindən istifadə edərək yüksək mənfəət əldə etməyə nail olurlar. Bu nailolma cəhətini və cəhdini də AİZ-lərin tipik xüsusiyyəti kimi qiymətləndirirlər.

Şəkil 16-da AİZ-lərin növlərini, tipik ölçülərini və imtiyazlar sistemini əks etdirən məlumatlar verilmişdir.

AİZ-lər yaranış strategiyasında məxsusi konseptual yanaşma sisteminə də malikdirlər. Praktiki və nəzəri prinsiplər çərçivəsində AİZ-lərin yaradılmasında əsas iki - ərazi və funksional konseptual yanaşma mövcuddur. Ərazi sistemində müəssisə - rezident təsərrüfat fəaliyyətində imtiyazlı rejim əldə edir. İkinci yanaşmada isə imtiyazlı rejim sahibkar fəaliyyətinin müəyyən növünə şamil olunur. Birinci yanaşma sistemində AİZ-lər bir sıra inkişaf etməkdə olan ölkələrə, xüsusən də, ÇXR və Braziliyaya aiddir. “Dəqiq”lər adlanan ikincilərə isə ayrı-ayrı ofşor firmalar aid edilir.

İnkişaf etmiş ölkələrdə AİZ-lərın fəaliyyətində mühüm aspekt kimi onların dünya və daxili bazara işləməsi önəm daşıyır. Bu ölkələrdə AİZ-lərin inkişaf strategiyası bir sıra spesifik cəhətləri ilə fərqlənir və aşağıdakı şəbəkəni əhatə edir:

1. İstehsal ixrac zonaları (*burada ölkəyə cəlb edilmiş xarici kapital elmi-texnoloji, infarmativ və industrial inkişafa yönəlir*);
2. Təsərrüfatçılığın xüsusi rejimi (*burada xarici sahibkarlar üçün daha guzəştli və geniş liberial mühit formalaşdırılır*);
3. Funksionallıq və diversifikasiya (*funksionallıq prosesində fəaliyyət kompeksliyi inkişaf edir, ticarət-sənaye diversifikasiyası genişlənir*).

<u>Diversifikasiya</u> (*latınca* - diversificatio - *dəyişkənlik, müxtəliflik, fəaliyyət*) obyektlərin bölünməsi və məhsul nomenklaturunun genişləndirilməsi, istehsalın bir-biri ilə əlaqəsi olmayan növlərinin eyni zamanda inkişafını ehtiva edir.

Azad İqtisadi Zona effekti təsərrüfatçılığın diversifikasiyasında da əhəmiyyətini nümayiş etdirir. Əmtəə çeşidinin artmasını sürətləndirir. AİZ-lərin yaranışında bütün bu spesifik xüsusiyyətlər bir amala xidmət edir. Bu amalın fövqündə isə biznes fəaliyyətinin genişləndirilməsi, sahibkarlığın inkişaf missiyası dayanır. Münbit biznes infrastrukturunun formalaşması AİZ-lərin yaradılmasıdan kənarda qala bilməz.

AİZ-lərin səmərəsi daim kapital artımı təmin edən səciyyəlidir. Məhz buna görə də bazar iqtisadiyyatının sistem əsası kimi qəbul edən ölkələr AİZ-lər yaratmadan səmərəli inkişaf trayektoriyasına çıxa bilməzlər.

| AİZ-lərin növləri | Ölçülər (km$^2$) | Gömrük sərhədləri | İmtiyazlar bazası | Regional əhatə dairəsi |
|---|---|---|---|---|
| **Azad Ticarət Zonası** | 3-5- qədər | mütləq | gömrük | **İnkişaf etmiş ölkələrdə nəhəng nəqliyyat qovşaqları** |
| **Sənaye-istehsal** | | | | |
| **“dəqiq”** | 1-2-yə qədər | yoxdur | gömrük | **Braziliya, Puerto-Riko, Meksika, Filippin, Karib hövzəsi** |
| **Sənaye parkları** | 0,1-0,5<br>1-20 | mütləq deyil | gömrük | **Meksika** |
| **Sənaye-istehsal** | 1-4 | mütləqdir | gömrük | ***ABŞ*** |
| **Kiçik biznes zonaları** | 0,01-3 | yoxdur | maliyyə, vergi | **Yaxın Şərq, Hindistan, Argentina, Fransa** |
| **Elmi-istehsal** | 2-20 | mütləq deyil | vergi | **Cənub-Şərqi Asiya** |
| **Ofşor maliyyə mərkəzləri** | 0,05-0,1 | yoxdur | vergi | **Honkonq, Sinqapur, Karib hövzəsi** |
| **Kompleks** | | | | |
| **Xüsusi iqtisadi** | 16-330 | mütləq | vergi, gömrük, maliyyə | **ÇXR** |
| **“Manaus” formatlı xüsusi rejimli ərazi** | 220000 /10000 qədər imtiyazlanır | zona hissəsi üçün mütləq | vergi, gömrük, maliyyə | **Braziliya** *“Manaus”,* **Argentina** *“Yanar torpaq”* |
| **Mühüm iqtisadi zonalar** | ərazi-inzibati sərhədlərdə (şəhər, rayon) | mühüm iqtisadi, lokal zonalar üçün mütləq | vergi, gömrük, maliyyə | **Rusiya** *(Kaliningrad vilayəti)* |

**Şəkil 16. Azad İqtisadi Zonaların növləri, tipik ölçülər və imtiyazlar sistemi**

## 13.11. “Vergi sığınacaq”ları: ofşor və onşor zonalar

AİZ sinfinin xüsusi bölümü olaraq daha geniş vergi imtiyazlı ofşor və onşor zonaları fərqləndirilir. Bu sırada daha geniş coğrafiyada ofşor sistemi üstünlük qazanır. O, müasir dövürdə ən geniş iqtisadi sərhədləri belə aşmış və beynəlxalq biznes fəaliyyətinin əsas funksional sistem elementinə çevrilmişdir.

Beynəlxalq biznes (*international business*) - beynələxalq kapitil əsasında müxtəlif ölkələrin şirkətlərinin birgə iştirak etdiyi sahibkarılıq fəaliyyətidir. Beynəlxalq biznes gəlir əldə etmək məqsədi ilə xarici şirkətlər tərəfindən başqa ölkənin ərazisində aparılan ticarət-investisiya əməliyyatlarını özündə ehtiva edir.

İnhisarçı üstünlük nəzəriyyəsi (*theory of monopolistic ad*vantages) beynəlxalq biznesdə xarici parametrlərə köklənmiş şirkətlərin nə üçün yerli rəqiblərlə rəqabət apara bilməsini izah edən yanaşmadır. Kanada iqtisadçısı Stiven Herbert Haymerin (*1939-1974*) ingilis iqtisadçısı Çarliz Pur Kindilberger (*1910-2003*) və onların tərəfdarlarının adları ilə bağlıdır. S.Haymer və onun ardıcılları birbaşa xarici investisiyaları qeyri-mükəmməl rəqabətlə əlaqələndirmişlər.

Ofşor zona (*ingiliscə* - of/off - *ordan,* schore - *sahil, tam mənada sahildənkənar*) sahibkarlıq fəaliyyəti, bir qayda olaraq, dövlətin hududlarından kənarda həyata keçirilən qeyri-rezident kompaniya üçün xüsusi imtiyazlı qeydiyyat, lisenziyalaşdırma, vergiqoyma rejiminin hakim olduğu ərazi və ya onun hissəsidir. Bir sıra ölkələrdə ofşor zonanın təyinatı üçün "vergi sığınacağı", "vergi körfəzi" və ya "vergi cənnəti" kimi terminlərdən də istifadə olunur. Termin II Dünya Müharibəsindən sonra Qərbi Avropa ölkələrinə ABŞ-ın "Marşall" planı üzrə yadımı nəticəsində yaranmışdır. Bu plana görə, ABŞ-la aktiv əməkdaşlıq edən ölkələrə yardım edilmiş, istehsal etdikləri mallar dollar hesabı ilə alınmış və onların büdcə təsisatları subsidiyalar, istiqrazlar vasitəsi ilə müdafiə olunmuşdur. Müasir zamanda "ofşor zona" terminindən, həmçinin, azad iqtisadi və maliyyə zonaları, kontinental şelfdə neft-qaz hasilatını reallaşdıran kompaniyalar mənasında da istifadə olunur.

Ofşor vergi planlaşdırılmasının ən məhşur və səmərəli metodlarından biri sayılır. Bir çox ölkələrdə bu metodun əsasını qeyri-rezident kompaniyaları tam və ya qismən vergidən azadetmə mexanizmi təşkil edir. Ofşor zonada fəaliyyət göstərən müəssisə və ya biznes qurumu müvafiq saziş əsasında mənfəətdən vergi ödəməyə öhdəli deyildir. Bu vergi növünü, adətən, qeydiyyat rüsumları əvəz edir. Belə firmaların qeydiyyat prosseduru da çox asandır və istək olduqda hətta sənədləşmədə sahibkarın anonimliyi qorunur.

Ofşor zonada kapital ixracı məhdudiyyətləri yoxdur və burada yalnız vergi güzəştləri hakimdir. Ofşorun ümümi və əlahiddə normativ-hüquqi bazası vardır. Çalar müxtəlifliyinə baxmayaraq müasir zamanda əksər ofşor ərazilərə ingilis qanunverici sistemi və ya onun nümunəsi əsaslı normativ hüqüqi müstəvi hakimdir.

Ofşor kompaniya qeydiyyatdan keçdiyi ölkədə təsərrüfat fəaliyyətini reallaşdırmır, onun sahibləri isə həmin ölkə üçün qeyri-rezidentlər hesab olunurlar. Bu kompaniyalar, praktiki olaraq, istənilən təşkilati-hüquqi - ümumi (*tam*), partnyorluq (*yoldaşlıq*), məhdud (*komandit*), açıq və qapalı tipli səhmdar cəmiyyət, şəxsi kompaniya və korporasiya formasında yaradıla bilərlər.

Beynəlxalq sahibkarlıq kompaniya və korporasiyası məhdud məsuliyyətli formatda ofşor biznesdə ən geniş yayılmış təşkilati-hüquqi formalardandır. Bu cərgədə, demək

olar ki, "fərdi təşkilat" yaradılması imkanları sınanmır. Ofşor kompaniyalar sırasında son zamanlar daha çox məhdud məsuliyyətli komaniyanın hibrid partnyorluq forması geniş intişar tapmışdır. Məhdud Məsuliyyətli Kompaniya, LLC (*Limited Liability Company, LLC*) bir və ya bir neçə hüquqi və, və ya fiziki şəxslər tərəfindən təsis edilən, nizamnamə kapitalı müvafiq paylara bölünən təsərrüfat cəmiyyətidir. LLC iştirakçıları onun öhdəlikləri üzrə və öz iştirakçılarının üçüncü şəxslər qarşısında öhdəliklərinə görə məsuliyyət daşımırlar. LLC təsisçinin gəlirindən vergitutmanın partnyoluq və səhmdarların məhdud mülkiyyət məsuliyyəti prinsiplərinə əsaslanır və cəmiyyətin fəaliyyəti ilə bağlı zərər üçün qoyduqları mayanın dəyəri həddində riskə malikdirlər. Praktiki olaraq, yalnız ofşor zonada təsadüf edilən beynəlxalq sahibkarlığın digər hüquqi-təşkilati forması - Beynəlxalq Biznes Kompaniyası, IBC (*International Business Company, IBC*) geniş yayılan fəaliyyət mexanizmlərindəndir. O, təsisçinin məhdud məsuliyyəti və buraxılan səhmlərdən vergi tutulması forması ilə fərqlənir. İBS sahibləri ölkənin qeyri-rezidentləri, qeydiyyatı və gəlirləri ölkə yuristidsiyasından kənarda olan hüquqi və, və ya fiziki şəxslərinin birliyi kimi əlverşili vergiqoyma rejimində çalışan kompaniya və ya korporasiyalardır. Bu kompaniyalar hər il qeydiyyat orqanlarına rüsum ödəyərək, sadələşdirilmiş hesabat aparırlar. Burada maliyyə hesabatlarının təqdimatı tələb edilmir, illik yığıncaqlar isə dünyanın istənilən nöqtəsində aparıla bılər.

Ofşor zonaların areal genişliyinə "İkili vergitutmadan təcrid sazişi" institutu təsir göstərir. Bu prinsip mövcud sazişlərə gəlmiş vətəndaşların yalnız gəlir yaratdıqları ölkələrdə vergiyə cəlb olunması huququnu təsbit edir. İkili vergitutmadan yayınmanın iki - İƏİT və BMT modelləri vardır. İƏİT modelində rezidentlik prinsipi dominantdır. Burada mənfəət repatriasiyasında (*aktivlərin, kapital və dividendlərin investorun gəldiyi ölkəyə qaytarılması*) aşağı vergi stavkaları təsbit edilir və gəlir rezidentə mənsud ərazidə tutulur. Alternativ BMT modeli kimi ərazi prinsipi çıxış edir. Yəni gəlir vergiyə onun yarandığı ölkədə cəlb olunur. Bu sistemdə isə repatriasiya dərəcələri, bir qayda olaraq, yüksək həddə nəzərdə tutulur.

Praktiki olaraq, bütün Avroatlantik məkanın nəhəng bankları öz müştəriləri üçün ofşor strukturlar yaratmışlar. ABŞ, Kanada və Böyük Britaniya bankları xarici trast fəaliyyəti həyata keçirmək məqsədi ilə ofşor filiallar açmışlar. Hətta Vatikan dövləti belə özünün rəsmi bankı (*"Instituto per le Opere di Religione"*) vasitəsi ilə ofşor əməliyyatlar reallaşdırmaqdadır.

Bir qayda olaraq, ofşor zonada öz ölkələrindəki vergi təzyiqindən çəkinən firmalar toplaşırlar. Bu zonalar qeyri-qanuni, kölgə iqtisadiyyatında peşəkarlaşanlar üçün də əlverişli məkandır. Nəhəng pulların, müasir statistikaya görə isə 3 triliyon ABŞ dolları məbləğində kapitalın dövr elədiyi ofşor zonalarda "çirkli pullar"ın yuyulmasının qarşısını almaq məqsədi ilə ayrı-ayrı dövlət, beynəlxalq iqtisadi və maliyyə qurumları müvafiq tədbir və sanksiyalar həyata keçirirlər. Bu çevrədə "zərərli vergi metodları"na qarşı mübarizə ən məhsuldar fəaliyyəti İƏİT reallaşdırır. Onun qara siyahısına "vergi

sığınağı" olan 35 ofşor ərazinin adı salınmışdır. Bir sıra ofşor yurisdiksiyalar yalnız İƏTT sistemində deyil, bu məqsədlə əlahiddə yaradılmış Pulların Yuyulması ilə Mübarizədə Maliyyə Tədbirlərinin İşlənilməsi Qrupu, FATF (*Financial Action Task Force on Money Launderin - FATF*) siyahısında da yer tutmuşlar. FATF cinayət yolu ilə əldə edilmiş gəlirlərin yuyulması və maliyyə terroruna qarşı mübarizə sferasında dünya standartlarının işlənməsi və həmçinin, milli sistemlərin bu standartlara uyğunluğunun qiymətləndirilməsi üzrə hökumətlərarası təşkilatdır. FATF mandatının reallaşmasında əsas alət müvafiq mübarizə standartları sferasında 5 il ərzində orta hesabla bir dəfə təftiş edilən 40 tövsiyədir. Monako, Marşall adaları, Nauru kimi ofşorluqların adı hər iki sıyahıya daxil edilmişdir. Ofşorluqlar onlara tətbiq edilən bu diskriminasiyalara cavab olaraq öz müqabil assosiasiyalarını yaratmışlar. Bunlardan biri də - Beynəlxalq Vergi və İnvestisiya Təşkilatı, ITIO (*International Tax and Investment Organisation - ITIO*) qurumudur. ITIO inkişaf etməkdə olan kiçik ölkələrin maliyyə və vergiqoyma sferasında maraqlarının müdafiəsi səylərinin birləşdirilməsi üzrə yaradılmış beynəlxalq təşkilatdır. 2001-ci ildə 13 ofşor zonan yurisdiksiyası tərəfindən İƏİT-in onlara qarşı başladığı "ziyanverici" vergi siyasəti kopmaniyasına görə təsis edilmişdir. Hazırda İTİO-ya 17 inkişaf etməkdə olan dövlət və ərazi - Angiliya, Antiqua və Barbuda, Baham adaları, Barbados, Beliz, Britaniya Vircin adaları, Vanuatu, Qərbi Samoa, Kayman adaları, Labuan, Panama, Kuk adası, Men adası, Sent-Kitts və Nevis, Sent Lüsiya, Sent Vinsent və Qrenadin, Terks və Kaykos daxildir. İTİO hələ də müvafiq sahədə o qədər də nüfuz sahibinə çevrilməmişdir.

Vergi rəqabəti ilə mübarizəyə dünyanın iki yüzdən çox tanınmış iqtisadçısı da qoşulmuşdur. Onların arasında Nobel laureatları M.Fridmen və C.Byukenenin də adlarına rast gəlinir.

Müasir zamanda ofşor biznesi iki - hüquqi və fiziki şəxs oriyentasiyasında cərəyan edir. Ofşorlar özünümaliyyələşdirmədə, tədiyyə stabilliyində, qiymətlərin tənzimlənməsində, keptiv (*firmadaxili*), sığorta, müəllif hüquqlarının satışında, lizinq, trast əməliyyatlarında, maliyyə bazarlarında investisiya və ticari fəaliyyətdə, sadəcə olaraq, bank seyfi formatında çox əlverişli və səmərəli alət rolunu ifa edirlər.

Ofşor zonalar hüquqi baxımadan, praktiki olaraq, üç qrupa - yüzfaizlik ofşorlar, vergi güzəştli ölkələr və inzibati-ərazi yaranışlarına ayrılırlar.

Yüzfaizlik ofşor zonalar "vergi körfəzləri" və "vergi sığınacaqları" formatı ilə məhşurdular. Vergi güzəştli ölkələr sırası müəyyən güzəşt rejimlərinin tətbiqi ilə fərqlənirlər. İnzibati-ərazi yaranışlarında isə məxsusi ofşor rejimi bərqərardır. Müqabil sistem, üstün olaraq, federal quruluşlu ölkələrə - daha çox ABŞ, Rusiya, Kanada və Böyük Britaniyaya xasdır. Ofşor yaranışlar postsovet məkanını da fəth etməkdədir. Bu sırada Rusiya Federasiyası ilə yanaşı Baltikyanı ölkələr fərqlənirlər.

Aşağıda dünyanın tanınmış ofşor zonalarının təsnifatı verilmişdir.

| № | Ofşor zona | Ofşorluğun göstəriciləri |
|---|---|---|
| 1. | ***Seyşel adaları*** | Ofşorluğun ən münbit məkanları sırasındadır. Burada qeydiyyat prosesi sadəliyi ilə fərqlənir. Vergi və hesab sistemi yoxdur. Konfidensiallıq tam təmin olunmuşdur. |
| 2. | ***Cəbəllütariq*** | Böyük Britaniya. Güzəştli vergi. |
| 3. | ***Dominika*** | İnkişaf edən ofşor mərkəz. Vergilərdən tam azad. |
| 4. | ***Panama*** | Vergilərdən tam azad. |
| 5. | ***Beliz*** | Vergilərdən tam azad. |
| 6. | ***Vircin adaları*** | Böyük Britaniya. Vergilərdən tam azad. |
| 7. | ***Men adası*** | Böyük Britaniya. Avropa biznesi üçün maraqlı yurisdiksiya. Vergilərdən tam azad. |
| 8. | ***Mavriki*** | Hind okeanında ofşor zona. Vergilərdən tam azad. |
| 9. | ***Baham adaları*** | Vergilərdən tam azad. |
| 10. | ***Sent-Kits və Nevis*** | Karib hövzəsində ofşor zona. Elastik və aydın qanunvericilik. Vergilərdən tam azad. |
| 11. | ***Cersi və Qrensi adaları*** | Böyük Britaniya. Vergilərdən tam azad. |
| 12. | ***Terksi və Kaikos adaları*** | Böyük Britaniya. Vergilərdən tam azad. |
| 13. | ***Honkonq*** | ÇXR-in prefekturasında. Vergilərdən tam azad. |
| 14. | ***Kayman adaları*** | Böyük Britaniya. Ofşor maliyyə mərkəzi. Valyuta nəzarəti yoxdur. Vergilərdən tam azad. |
| 15. | ***Bəhreyn*** | Vergilərdən tam azad. |
| 16. | ***Sinqapur*** | Vergilərdən tam azad. |
| 17. | ***Panama*** | Vergilərdən tam azad. |
| 18 | ***Atil adaları*** | Niderlanda məxsudur.<br>Vergilərdən tam azad. |
| 19. | ***Lixtenşteyn*** | Güzəştli vergi. |
| 20. | ***Lüksemburq*** | Güzəştli vergi. |

| № | Ofşor zona | Ofşorluğun göstəriciləri |
|---|---|---|
| 21. | ***Kipr*** | Güzəştli vergi. |
| 22. | ***İsveçrə*** | Güzəştli vergi. |
| 23. | ***ABŞ, Delever ştatı*** | Güzəştli vergi sistemi və asan qeydiyyat proseduru. ABŞ-dan kənar biznes fəaliyyətində şirkət vergilərdən tam azad olunur. |
| 24. | ***ABŞ, Nevada ştatı*** | Güzəştli vergi. |
| 25 | ***Böyük Britaniya*** | Ofşor və onşor sxem üzrə biznes fəaliyyətinin qeydiyyat məkanı. |

**Şəkil 17. Dünyanın tanınmış ofşor zonaları**

FATF və İƏTT-nin ofşorluq istiqamətində yaratdıqları məhdudiyyətlər beynəlxalq orbitdə fəaliyyət göstərən bir sıra biznesmenlərin vergi güzəşti təqdim edən digər ərazilərə üz tutmasına səbəb olur. Bu kontekstdə vergidən tam deyil, qismən azad olma və ya müvafiq vergi güzəştli şərtləri ehtiva edən onşor (*ingiliscə* - onshore - *"sahil hüdüdlarında"*) ölkələr seçimə məruz qalır. Bununla belə, bu tipik formatda onşor ölkələrdə vegi yükünün ağırlığı nəzərə çarpa bilər. Əgər səmərəli fəaliyyət və düzgün sənədləşmə aparılarsa, bu yükü kifayət qədər azaltmaq mümkündür. Onşor ölkələrdə kompaniya haqqında informasiyalar, bir qayda olaraq, açıq səciyyə daşıyır. Burada vergi və rusümların mütəmadi ödənişi, direktor və səhmdarların qeydiyyatı tələb edilir.

Təcrübədə ofşor və onşor sərhədləri yuyulmuş obraz görüntülüdür. Bir tərəfdən, beynəlxalq ictimaiyyətin təzyiqləri ilə ofşor qanunvericiliyi sərtləşdirilir, digər tərəfdən, Avropanın onşor ölkələri vergiqoymada onşor fəaliyyəti rəqabət kürsüsünə çıxararaq biznesi cəlbedən qanunvericilik kursu ilə təkmilləşdirirlər.

Müasir dövrdə "ofşor" termini kontinental şelfdə neft-qaz hasilatında da geniş istifadə olunur. Xəzərin Azərbaycan sektorunda "Əsrin müqaviləsi" çərçivəsində hasilat və işləmələri həyata keçirən ABƏŞ də ofşor təyinatlı orqandır. Onun ofşorluğunu təkcə Azərbaycandan aldığı imtiyazlar deyil, həm də bir şirkət olaraq müvafiq AİZ-də qeydiyyatdan keçməsi müəyyənləşdirir. İqtisadçılar isə daha geniş düşüncədə, bizim şərh etdiyimiz kimi, ofşor terminini AİZ-lər kontektsində istifadə edirlər.

AİZ-lər qrupunda digər mühüm tipik forma körfəz-vergi zonasıdır. Mahiyyətcə, bir-birinə oxşasalar da, körfəz-vergi zonası ofşor zonadan fərqlənir. Əsas fəaliyyət məramı vergi və digər güzəştlər verməklə xarici ssuda kapitalının cəlb edilməsi funksiyasında ifadə tapır. Bu funksionallıq ofşor zonadakı məqsədlərlə üst-üstə düşsə də, fərq diapazonu seziləndir. Belə ki, ofşor zonadan fərqli olaraq, körfəz-vergi zonasında güzəştlər yerli kompaniyalara da verilir. Burada kiçildilmiş vergi güzəştləri spesifik funksiyalarda bir neçə vergi növünə aid edilir. Belə ki, Lüksemburqda yumşaldılmış vergi rejimi yalnız banklara şamil olunur. İsveçrə və Lixteynşteyndə holdinq, ticari və vasitəçi firmalara verilir. Dünyada 70-dək körfəz-vergi zonaları fəaliyyət göstərir.

## 13.12. İşçi qüvvəsinin beynəlxalq miqrasiyası

İşçi qüvvəsinin xarakterik cəhəti onun miqrasiyasıdır. Miqrasiya (*latınca* - migratio - *köçmə, yerləşmə*) insanların bu və ya digər səbəblərdən yaşayış yerini dəyişərək bir yerdən başqa yerə köçməsi prosesidir. Öz ölkəsindən getmə emiqrasiya, əks proses isə immiqrasiya adlanır. "Emiqrasiya" və "imiqrasiya" anlayışları "miqrasiya" anlayışının paronimləri kimi çıxış etsələr də, birmənalı olan konkret interpretasiyaya malik deyillər.

Miqrasiyanı daxili və xarici növlərə təsnifatlandırırlar. Miqrasiyanın səbəbləri müxtəlifdir və o, əksər hallarda iqtisadi vəziyyətlə bağlıdır. Daxili miqrasiyaya bir ölkə hüdudlarında inzibati və ya iqtisadi coğrafi rayonlar, yaşayış məntəqələri və s. arasında hərəkətlər aiddir. Onun səbəbləri isə iş axtarışı, yaşayış şəraitinin yaxşılaşdırılması, həyat səviyyəsinin yüksəldilməsi, dəyişdirilməsi və digər bu kimi vəziyyətlərlə bağlıdır. Beynəlxalq miqrasiyanın başlıca səbəbi iqtisadi təyinatlıdır. Ayrı-ayrı ölkələrdə əmək haqlarının səviyyələrində olan fərq, bu və ya digər peşə üzrə mütəxəssis çatışmazlığı miqrant axınını stimullaşdırır. O, öz növbəsində, qitələrarası (*məsələn, XIX-XX əsrlərdə avropalıların okeanın o biri tayına kütləvi hərəkəti*) və qitədaxili (*məsələn, Avropa ölkələrindən - İtaliyadan, İspaniyadan başqalarına - Almaniyaya, Fransaya və s. müasir miqrasiya*) miqrasiyaya bölünür.

Xarici miqrasiyalar üçün işçi qüvvəsinin tərkibində yüksək ixtisaslı mütəxəssislərin artan xüsusi çəkisinin olması xarakterikdir. Bu isə, öz növbəsində, zəka axını ilə xarakterikdir.

Zəka axını (*brain drain*) mütəxəssislərin, alimlərin və ixtisaslı fəhlələrin siyasi, iqtisadi, dini və ya bu kimi başqa səbəblərdən ölkədən və ya regiondan miqrasiya prosesidir. "Zəka axını" terminindən II Dünya Müharibəsi zamanı və ondan sonra alim və mühəndislər arasında miqrasiya proseslərini təsvir etmək üçün Britaniya Kral Cəmiyyəti tərəfindən istifadə edilmişdir. Hazırda bu hal daha çox inkişaf etməkdə olan ölkələr üçün, xüsusilə də, Afrikada keçmiş Avropa müstəmləkələri, Karib adaları, həmçinin, Şərqi Avropanın keçmiş sosialist ölkələri üçün səciyyəvidir. Miqrasiyanın bu formasının əsası 1930-cu illərdə, ABŞ nasist Almaniyasından qaçqın alimləri seçmək imkanı əldə edəndə qoyulmuşdur. Müasir mərhələdə Şərqi Avropa ölkələrindən yüksək ixtisaslı mütəxəssislərin miqrasiyasının əsas istiqamətləri ABŞ-a, Kanadaya və Qərbi Avropanın bir sıra ölkələrinədir.

Zaman əlamətlərinə görə miqrasiyanı daimi (*qayıdış olmayan*), müvəqqəti, mövsümi və ya mütərəddid miqrasiyaya ayırırlar. Qayıdışsız miqrasiya daimi yaşayış yerinin dəyişməsi ilə bağlıdır. Belə miqrasiyaya misal kənddən şəhərə miqrasiya ola bilər. Müvəqqəti miqrasiya hər hansı kifayət qədər uzunmüddətli, lakin məhdud, çox vaxt əvvəlcədən müəyyən edilmiş müddətə, adətən, məskunlaşma yerindəki işlə əlaqədar olaraq köçməni nəzərdə tutur. Mövsümi miqrasiya insanların ilin müəyyən dövrlərində illik hərəkətini, məsələn, məhsul yığımı dövründə kənd təsərrüfatında işçi qüvvəsi lazım olan yerlərə, yayda - kurort rayonlarına və s. getməsini nəzərdə tutur.

Mütərəddid miqrasiya - öz yaşadığı məntəqənin hüdudlarından kənarda iş yerinə və ya təhsil aldığı yerə müntəzəm səfərlərdir.

Miqrasiyaların səbəblər üzrə təsnifatının mühüm əhəmiyyəti vardır. Əhalinin miqrasiyasının başlıca səbəbləri arasında çətinliklə bölünən (*azad kənd təsərrüfatı torpaqları, iş, daha yüksək gəlir axtarışı ilə hərəkət, həyat tərzinin dəyişdirilməsi - kənddən şəhərə gəlmək, daha yüksək sosial status almaq və s. məqsədilə hərəkət*) iqtisadi və sosial səbəbləri qeyd etmək lazımdır. Həmçinin, siyasi (*irqi, dini təzyiqlərdən*), hərbi (*təxliyyə, deportasiya*) və digər səbəblər də az rol oynamır.

Reallaşma formalarına görə, miqrasiya dövlət və ya ictimai orqanların iştirakı və iqtisadi köməyi ilə həyata keçirilən ***ictimai-mütəşəkkil*,** miqrantların öz qüvvə və vəsaitləri hesabına, hər hansı müəssisnin maddi və mütəşəkkil köməyi olmadan həyata keçirilən ***qeyri-mütəşəkkil*** miqrasiyaya ayrılır.

İnsanların öz qərarları ilə və ya bundan asılı olmayaraq, hərəkəti könüllü və məcburi olaraq iki yerə bölünür. Məcburi miqrasiya insanların onlardan asılı olmayan səbəblər üzündən hərəkətidir. Məcburi miqrasiya zamanı insanın sosial inteqrasiyası ciddi pozulur, o, sosial əlaqələri ağrılı surətdə kəsərək və belə əlaqələri süni surətdə yeni yerləşdiyi yerdə quraraq bir mühitdən digər mühitə hərəkət edir. Məcburi miqrasiyada qaçqın və məcburi köçkün anlayışları fərqləndirilir:

Qaçqın (*refugee*) irqi, milli, etnik mənsubiyyətinə, dini etiqadına, vətəndaşlığına, müəyyən sosial qrupa mənsub olmasına və ya siyasi əqidəsinə görə təqiblərin qurbanı olmaqdan əsaslı qorxduğu üçün vətəndaşı olduğu ölkədən kənarda qalan və həmin qorxu üzündən bu ölkənin himayəsindən istifadə edə bilməyən və ya istifadə etmək istəməyən və yaxud müəyyən vətəndaşlığı olmadığı halda öz daimi yaşadığı ölkəsindən kənarda qalan, həmin qorxu üzündən oraya qayıda bilməyən və ya qayıtmaq istəməyən şəxsdir. Qaçqın statusu BMT-nin 1951-ci ildə qəbul edilmiş və 1967-ci ildə müvafiq dəyişikliklərə məruz qalmış Konvensiyası ilə təsbit olunmuşdur.

Məcburi köçkün (*forced settler, forced migrant*) vətəndaşa və ya onun ailə üzvlərinə qarşı zorakılıq və ya başqa formalarda təqib, eləcə də təqibə məruz qalmaq kimi real təhlükə səbəbindən yaşayış yerini tərk edən şəxs. Anlayış hər bir ölkə qanunverciyi üzrə müxtəlif analogiyalarda təsbit olunur. Azərbaycan Respublikası qanunvericiliyinə görə, "məcburi köçkünlər xarici hərbi təcavüz, müəyyən ərazilərin işğalı və ya mütəmadi atəş altında saxlanması nəticəsində Azərbaycan Respublikası ərazisindən daimi yaşayış yerlərini tərk etməyə məcbur olub ölkə hüdudlarında başqa yerə köçmüş şəxslərdir".

Miqrasiya güclü potensial olaraq pozitiv və neqativ fəsadlar törədə bilər. Böyük şəffaflıq tələb edən bu sfera alternativ axtarışlar və cəmiyyətin diqqəti tələb edir. Ona görə də qloballaşma sferasında olan hər bir ölkədə miqrasiyanın tənzimlənməsinə milli iqtisadi təhlükəsizlik konsepsiyasının prioriteti kimi baxılmalıdır. Miqrasiya hər il artaraq fenomenal xarakter alır. İnkişaf etməkdə olan ölkələrdə əhali artımı və məhdud iqtisadi durum və həmçinin, qloballaşma amilləri qastarbayterlərin (*almanca* - gast+arbeiter - *qonaq işçi - zəif inkişaf etmiş ölkədən yüksək inkişaf etmiş ölkələrə fəhlə axını*

- *fəhlə immiqrant*) axınını gücləndirir. Belə ki, bu ölkələrdə bir milyarda qədər işsiz və qismən işsiz mövcuddur. Bu sayın 2025-ci ildə 2,5 milyarda yüksələcəyi təxmin edilir. İşsizlikdən qurtulmaq üçün isə hər gün 150-200 min iş yerinin açılması gərəkdir. Hazırda dunyada hər 35 nəfərdən biri beynəlxalq miqrantdır. Bu isə 175 mln. nəfər, yəni dunya əhalisinin 2,9%-i deməkdir.

Beynəlxalq əmək bazarının dövlət tənzimlənməsi işçi qüvvəsini qəbul edən və ixrac edən ölkələrin milli qanunvericiliyi, həmçinin, onlar arasında dövlətlərarası və idarələrarası müqavilələr əsasında reallaşır. Tənzimlənmə büdcədən maliyyələşən, xarici işçi qüvvəsinin axınının məhdudlaşdırılmasına və ya mühacirlərin reemiqrasiyasının (*vətənlərinə dönməsini*) stimullaşdırılmasına yönəldilmiş proqramların qəbul edilməsi vasitəsilə həyata keçirilir. Qəbul edən ölkələrin əksəriyyəti immiqrasiyanı tənzimləyərkən selektiv yanaşmadan istifadə edir. Arzuolunmaz mühacirlərin ələnməsi ixtisasa, təhsilə, yaşa, səhhətə olan tələblər, həmçinin, kəmiyyət və coğrafi kvotalaşma, gəliş üçün birbaşa və dolayı qadağalar, müvəqqəti və başqa məhdudiyyətlər əsasında gerçəkləşdirilir. Reemiqrasiyanın stimullaşdırılması ölkədən gedən mühacirlərə maddi kompensasiya verilməsi, iş yerlərinin yaradılması, miqrantların peşə hazırlığı, kütləvi emiqrasiya ölkələrinə iqtisadi yardımlar yolu ilə həyata keçirilir.

Miqrasiya proseslərinin beynəlxalq səviyyədə ölçülərini, xüsusiyyətlərini və nəticələrini hələ bu yaxınlara qədər hiss etməyən dünya birliyi miqrasiya axınlarının kəskin vəziyyətlərinin həlli və kollektiv tənzimlənməsi üzrə bir çox ölkələrin qüvvələrinin koordinasiyası zərurəyi ilə qarşılaşmışdır. Tənzimlənmənin təşkilati, normativ-hüquqi və maliyyə mexanizmləri dünya birliyinə tədricən əhalinin beynəlxalq miqrasiyası sahəsində kəskinliyi zəiflətməyə və miqrasiya axınlarını normallaşdırmağa imkan yaradır. BMT-nin Əhali üzrə komissiyası bir hissəsi əhalinin miqrasiyası sahəsində milli proqramların subsidiyalaşdırılması üçün istifadə olunan müvafiq fonda malikdir. BƏT-innın fəaliyyəti bu məqsədlərdən biri kimi əhalinin miqrasiyasının tənzimlənməsini nəzərdə tutur. DST qəbul etdiyi bir sıra beynəlxalq müqavilələr zəhmətkeş-mühacirlərin fiziki vəziyyətinə dair xüsusi normalardan ibarətdir. BMT-nin ixtisaslaşmış qrupuna DST-dən başqa UNESCO, BƏT, UNICEF daxildir.

UNESCO-nun konvensiyalarında zəhmətkeş-miqrantlar və onların ailə üzvlərinin təhsilinin yaxşılaşmasına yönəldilmiş müddəalar vardır. Elm, Təhsil və Mədəniyyət üzrə Birləşmiş Millətlər Təşkilatı, UNESCO (*United Nations Educational, Scientific and Cultural Organization. UNESCO*) BMT-nin elm, təhsil və mədəniyyət məsələləri üzrə təşkilatıdır. 1945-ci il 16 noyabrda təsis edilmişdir. UNESCO-nun bəyan etdiyi əsas məqsədlər təhsil, elm və mədəniyyət sahəsində dövlətlər və xalqlar arasında əməkdaşlığın genişlənməsi hesabına sülhün və təhlükəsizliyin möhkəmləndirilməsinə kömək, irqi, cinsi, dil və ya dini mənsubiyyətinə fərq qoyulmadan ədalət və qanunvericiliyə riayət edilməsinin, BMT-nin Nizamnaməsində elan edilən insan hüquqlarına və azadlıqlarına hörmətin təmin

edilməsidir. 1972-ci ildə UNESCO tərəfindən "Ümumdünya Mədəni və Təbii İrsin Qorunması haqqında Konvensiya" qəbul edilmişdir. Hazırda təşkilatın 195 üzv-dövləti və 8 üzv-əməkdaşı, yəni xarici siyasət üçün məsuliyyət daşımayan əraziləri vardır. Təşkilatın tərkibinə dünyanın müxtəlif yerlərindən 60-dan artıq büro və bölmə daxildir. Mənzil-qərargahı Fransanın paytaxtı Paris şəhərində yerləşir.

Beynəlxalq miqrasiya proseslərinin tənzimlənməsində BMT-nin xüsusi təsisatı statusu olan Beynəlxalq Əmək Təşkilatı, BƏT (*International Labour Organization, ILO*) qabaqcıl rol oynayır. BƏT 1919-cu ildə Versal sülh müqaviləsinə əsasən, Millətlər Liqası çərçivəsində, əmək qanunvericiliyi və əmək şəraitinin yaxşılaşdırılması məsələləri üzrə konvensiyaların və tövsiyələrin işlənibh azırlanması üçün beynəlxalq komissiya kimi yaradılmışdır. BƏT-in sənədləri minimal əmək haqqının səviyyəsində də mühacirlərin gəldikləri ölkə vətəndaşları ilə bərabərliyini elan edir, bu, hansı ölkələrdə qanunvericiliklə nəzərdə tutulmuşdursa, mühacirlər əmək haqqının ölçüsünün müəyyən edilməsi prosedurlarında da iştirak etmək hüququna malikdirlər. Bu zaman zəhmətkeşlərə - mühacirlərə əmək haqqının müntəzəm və nağd pulla verilməməsi şərt kəsilir. Beynəlxalq standartlarla zəhmətkeş-mühacirlər üçün, həmçinin, gəldikləri ölkədə təhsil almaq və ya ixtisasını artırmaq da nəzərdə tutulur. Məsələn, BƏT-in mühacirlər üçün tövsiyələrində qəbul edən ölkənin vətəndaşları ilə bir təhsil almaq şərti də vardır. Hazırda 185 dövlət BƏT-in iştirakçısıdır. Mənzil-qərargahı İsveçrənin Cenevrə şəhərində yerləşir. Azərbaycan Respublikası 12 may 1992-ci ildə bu təşkilata üzv olmuş, onun 57 Konvensiyasına qoşularaq burada təsbit olunmuş prinsip və normaları qəbul etmişdir.

Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu, UNICEF (*United Nations International Children's Emergency Fund*) uşaq hüquqlarının qorunması məqsədli BMT təşkilatıdır. 1954-cü ildə təsis edilmişdir. UNICEF-in yardımları uşaqlara yardım proqram və planlarının hazırlanmasının dəstəklənməsi, bu proqramların həyata keçirilm əsi üçün material və avadanlıqların verilməsi və inkişaf etməkdə olan ölkələrin özündə Fond heyətinin hazırlanması üçün lazımı vəsait və kadrların ayrılmasını əhatə edən üç formada həyata keçirilir. Uşaq və körpələrin problemlərini ön plana çəkən universal qurumlardan biri kimi UNICEF tamamilə könüllü yardımlar hesabına fəaliyyət göstərir. Bütün yardımların 30%-dən çoxu uşaq sağlamlığının qorunmasına (*vaksinlər, uşaq qidası, və s. alınmasına*) məsrəf edilir. UNICEF-in mənzil-qərargahları ABŞ-da Nyu-York şəhərində, Danimarkada Kopenhagen şəhərində və İtaliyada Florensiya şəhərində. regional şöbəsi isə İsveçrənin Cenevrə şəhərində fəaliyyət göstərir.

Beynəlxalq Miqrasiya Təşkilatı, IOM (*International Organization for Migration, IOM*) miqrasiya sahəsində aparıcı beynəlxalq hökumətlərarası təşkilatdır. 1951-ci ildə

təsis edilmişdir. IOM-un məqsədi qaydaya salınmış və planlı beynəlxalq miqrasiyanın, onun təşkilinin, göstərilən məsələlər üzrə təcrübə və informasiya mübadiləsinin təmin edilməsidir. Hazırda 101 dövlət IOM-un üzvüdür və daha 30 ölkənin isə müşahidəçi statusu vardır. Məznil-qərargahı İsveçrənin Cenevrə şəhərində yerləşir. IOM öz fəaliyyətində belə bir prinsipi rəhbər tutur ki, humanist və nizamlı miqrasiya bütövlükdə mühacirlərin və cəmiyyətin maraqlarına cavab verir. IOM beynəlxalq birlikdə öz tərəfdaşları ilə miqrasiyanın aktual məsələlərinin həllinə kömək etmək, miqrasiya sahəsində problemlərin dərk edilməsini yaxşılaşdırmaq, miqrasiyanın köməyi ilə sosial və iqtisadi inkişafı dəstəkləmək, mühacirlərin şərəfini və rifahını təsdiqləmək kimi fəliyyətləri həyata keçirir. IOM-un fəaliyyətinin əsas istiqamətləri sırasında ölkələrin spesifik ehtiyacları nəzərə alınmaqla əhalinin nizamlı miqrasiyasını, vətənini məcburən tərk etmiş mühacirlərin mütəşəkkil hərəkətini, hökumət və qeyri-hökumət təşkilatları üçün təcrübə və informasiya mübadiləsini təmin etmək, qeyri-leqal miqrasiyanın qarşısını almaq, dövlətlərin iqtisadi, sosial və mədəni inkişafı məqsədilə ixtisaslı insan resurslarını bölüşdürmək kimi funksiyalar durur.

Qərbi Avropada miqrant hüquqlarının təminatı və müdafiəsi ilə əlaqədar fəaliyyətlərlə Avropada Miqrasiya üzrə Hökumətlərarası Komitə, ICEM (*Intergovernmental Committee for European Migration, ICEM*) məşğul olur. ICEM 1951-ci ildə ildə təsis edilmişdir. Hökumətlərarası təşkilatın ilk adı "Miqrantların Avropada hərəkəti üzrə müvəqqəti hökumətlərarası komitə" olmuşdur. II Dünya müharibəsinin gedişində təşkilat ilkin yaşayış yerindən məcburən köçmüş şəxslərə kömək etmişdir. Sonralar təşkilatın proqramları bütün dünya üzrə miqrantların problemlərini əhatə etməyə başlamış və 1989-cu ildə o, miqrasiya üzrə beynəlxalq təşkilata çevrilmişdir.

## 13.13. Azərbaycanın xarici investisiya siyasəti, xarici borc problemi

Azərbaycan iqtisadiyyatına investisiyaların cəlb edilməsi dövlət siyasətinin ən aparıcı istiqamətlərindən biri kimi qiymətləndirilir. Aparılan investisiya siyasəti Azərbaycan iqtisadiyyatı ilə dünya iqtisadiyyatı arasında daha səmərəli inteqrasiyanı təmin edir. Azərbaycana xarici investisiya axını əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan milli neft strategiyasından başlanğıc alır. Bu siyasət nəticəsində Azərbaycanın neft sektoruna irimiqyaslı - çoxmilyardlıq sərmayə qoyulmuşdur. Buraya axın edən xarici investisiyar multiplikativ effekt yaradaraq digər sektorlarda da sürətli inkişafı təmin etmişdir.

Neft amili makroiqtisadi parametrlərin formalaşmasında mühüm rol oynayır və ölkənin iqtisadi inkişafına həlledici təsir göstərir. Belə bir şəraitdə qeyri-neft sektorunun inkişaf potensialının tam reallaşması zərurəti meydana çıxır ki, bu da uzunmüddətli

dövrdə ölkə iqtisadiyyatının kompleks inkişafı nəticəsində onun xarici amillərin mənfi təsirlərindən etibarlı qorunmasını təmin edən mexnizmlərin yaradılmasını əhatə edir. Bu baxımdan iqtisadiyyatda sahələrarası disproporsiyaların dərinləşməsinə yol verilməməsinə yönəlmiş iqtisadi siyasət tədbirləri sahəsində dünya təcrübəsindən milli xüsusiyyətlər çərçivəsində istifadə etməklə ölkənin davamlı iqtisadi inkişafının təmin olunması müasir dövrün obyektiv reallığı kimi xarakterizə olunmaqdadır.

Azərbaycan Respublikası investisiya iqliminə görə postsovet məkanında və regionda çox cəlbedici ölkəyə çevrilmişdir. İnvestisiya mühitinin yaxşılaşdırılması üçün görülən çox mühüm işlərin, bu sahədə yaradılan əlverişli şəraitin nəticəsidir ki, xarici investorların Azərbaycana marağı son illər daha da artmış və ölkədə inteqrasiya prosesləri xeyli fəallaşmışdır. Hazırda adambaşına düşən xarici investisiyaların həcminə görə Azərbaycan MDB məkanında və Şərqi Avropada aparıcı dövlətlər sırasında yer alaraq artıq özü xaricə investisiya yatıran bir ölkəyə çevrilmişdir. Əlbətdə ölkənin karbohidrogen ehtiyat potensialı buradakı əlverişli investisiya mühitinin müqayisəli üstünlüklərini stimullaşdırmaqda davam etdirir. Respublikanın artan beynəlxalq nüfuzu, xarici investorla işləməkdə böyük məhsuldar təcrübə, inkişaf etmiş infrastruktur özəllikləri, insan kapitalının, təhsil və səhiyyənin səviyyəsi bu üstünlükləri daha da genişləndirir. Bununla bərəbər, iqtisadiyyata investisiyaların cəlb olunması məqsədilə ölkədə açıq qapı siyasəti aparılır.

Ölkədə investisiya mühitinin əlverişliliyinin daha da artırılması, sahibkarlığın inkişafının sürətləndirilməsi, biznesə başlama prosedurlarının sadələşdirilməsi məqsədilə sahibkarlıq fəaliyyətinin təşkili 3 günlük təsistlandırma əsasında “bir pəncərə” prinsipi ilə aparılır.

Azərbaycan Respublikasında xarici investisiyalarla yanaşı daxili investisiya prosesini gücləndirən bir sıra təsisatlar yaradılmışdır. Bu təsisatlar sırasında 30 mart 2006-cı ildə yaradılmış “Azərbaycan İnvestisiya Şirkəti” Açıq Səhmdar Cəmiyyətinin (*Azerbaijan Investment Company AİC*) əhəmiyyəti böyükdür. Bu şirkət ölkədə qeyri-neft sahələrində fəaliyyət göstərən kommersiya təşkilatlarına müddətli sərmayələr qoyulması məqsədi daşıyır.

Bununla yanaşı, regionların və bütövlükdə ölkə iqtisadiyyatının inkişafı ilə bağlı sahibkarlara güzəştli kreditlərin verilməsində Sahibkarlığa Kömək Milli Fondu, Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi, İnformasiya Texnologiyarı Fondu və digər analoji fondlar mühüm rol oynayır.

Sahibkarlığa Kömək Milli Fondu (*National Fund for Entrepreneurship Support*) Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzdində sahibkarlığın inkişafına köməklik göstərən, dövlət tərəfindən yaradılmış fonddur. 1981-ci ildə ildə təsis edilmişdir. Fondun məqsədi ölkədə sahibkarlığın inkişafı və əhalinin işgüzarlıq fəaliyyətinin artırılması sahəsində tədbirlərdə iştirak etmək, onlara maliyyə dəstəyi göstərməkdən ibarətdir.

Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi (*State Agency for Agricultural Credits*) Azərbaycan Respublikasında aqrar bölmədə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxslərə dövlət dəstəyi məqsədilə kreditlərin cəlb edilməsini və təyinatı üzrə istifadəsini təmin edən icra hakimiyyəti orqanıdır. 2004-cü ildə təsis edilmişdir. Agentlik Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi nəzdində fəaliyyət göstərir.

İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondu, İTİDF (*Azerbaijan State Fund for Development of Information Technologies*) informasiya-kommunikasiya texnologiyaları sahəsində dövlət siyasətinin həyata keçirilməsinə yardım etmək, sahibkarlıq fəaliyyətini dəstəkləmək, innovasiya və elmi-tədqiqat layihələrini stimullaşdırmaq, müasir infrastrukturun inkişafına təkan vermək, kiçik və orta sahibkarlıq subyektlərinə maliyyə dəstəyi göstərmək və müvafiq sahəyə yerli və xarici investisiyaları cəlb etmək təyinatlıdır. 2012-ci ildə ildə Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyaları Nazirliyinin tabeliyində təsis edilmiş dövlət fondudur.

Azərbycanda invesiya qoyuluşlarının həyata keçirilməsinə nəhəng milli təsisat kimi ARDNF çıxış edir. Bu fond tərəfindən müəyyən layihələrin həyata keçirilməsi üçün dövlət büdcəsinə hər il milyardlarla manat həcmində transfertlər edilir və ya birbaşa investisiyalar yatırılır. Azərbaycan Respublikası Dövlət Neft Fondu, ARDNF (*State Oil Fund of the Republic of Azerbaijan, SOFAZ*) neft və qaz ehtiyatlarına dair sazişlərin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının əldə etdiyi gəlirlərin toplanmasını, səmərəli idarə edilməsini, gələcək nəsillər üçün saxlanmasını təmin edən xüsusi məqsədli dövlət qurumudur. 29 dekabr 1999-cu ildə təsis edilmişdir. ARDNF-in yaradılması fəlsəfəsinin əsasını Azərbaycan xalqına Allah tərəfindən bəxş edilmiş neft sərvətlərinin nəsillər arasında ədalətli bölüşdürülməsinin təmin edilməsi təşkil edir. ARDNF-in missiyası tükənən təbii sərvətlərdən əldə olunan gəlirlərin toplanması və Azərbaycan xalqının bugünkü və gələcək nəsillərinin daimi gəlir mənbəyinə çevrilməsi, ümummilli əhəmiyyətli layihələrin birbaşa maliyyələşdirilməsi və təbii sərvətlərin birgə istimarına dair beynəlxalq statuslu müqavilələrdə təmsilçiliyin təmin edilməsindən ibarətdir.

Sosial sahənin və insan kapitalının inkişafı sahəsində ümümmili lider Heydər Əliyev adını daşıyan fondun rolu da xüsusi dəyərləndirməlidir. Heydər Əliyev Fondu (*The Heydar Aliyev Foundation*) Azərbaycan tarixinə müstəqil dövlət qurucusu kimi daxil olmuş ummilli lider Heydər Əliyevin xatirəsinə xalqın ehtiramını ifadə etmək arzusundan, onun zəngin mənəvi irsini qoruyub saxlamaq, azərbaycançılıq fəlsəfəsinin respublika üçün əhəmiyyətini vurğulamaq, milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq zərurətindən irəli gələrək yaradılmışdır.

2004-cü ildən fəaliyyətə başlamış Heydər Əliyev Fondu təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya, ekologiya, sosial və digər sahələrdə müxtəlif layihələr həyata keçirərək yeni cəmiyyət quruculuğunda fəal iştirak edir, ölkənin sosial-iqtisadi inkişafına öz töhfəsini verir. Heydər Əliyev Fondunun rəhbəri Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevadır.

Yerli istehsalın inkişafı ilə ölkənin ixrac qabiliyyətinin artırılmasını və investisiyaların cəlb edilməsini həvəsləndirmək məqsədilə ölkədə 2003-cü ildə yaradılmış Azərbaycan İxracın və İnvestisiyaların Təşviqi Fondu, AZPROMO (*Azerbaijani Export and Investment Promotion Foundation*) da əhəmiyyətini nümayiş edtdirir. Fond investorlar, yerli istehsalçılar və hökumət arasında körpü rolunu oynamaqla dövlət-özəl sektor dialoqunda əhəmiyyətli işlər görür, yerli sahibkarların istehsal etdiyi məhsulların ixrac potensialının artırılmasında, investisiya imkanlarının genişləndirilməsində, potensial tərəfdaşların tapılmasında və birgə əməkdaşlıq layihələrinin həyata keçirilməsində, iş adamlarının ixracla bağlı biliklərinin artırılmasında sahibkarlara yaxından dəstək göstərir.

Bundan başqa, Azərbaycan Respublikasında investisiya prosesinə birbaşa və dolayısı ilə yardım edən digər milli fondların da əhəmiyyəti yüksək dəyərləndirilir. Bu sırada Azərbaycan İpoteka Fondu, Azərbaycan Əmanətlərinin Siğortalanmasi Fondu və digər bu kimi təsistlar mühüm rol oynayırlar.

Dünyada xarici investisiyalara tələbatın artığı məqamda Azərbaycan çox dəqiq və düşünülmüş siyasət aparır. Artıq ölkənin qeyri-neft sektorunda infrastruktur yenidən qurululmuş və burada davamlı artım templəri təmin edilmişdir. Bu sektora yönəldilən investisiyalar ölkədə elmtutumlu və yüksək texnologiyalı, rəqabətədavamlı və ixracyönümlü, dünya standartlarına cavab verən sənaye məhsullarının istehsal edilməsinə imkan verir. Hazırda Azərbaycan artıq dünya birliyində investor ölkə olaraq tanınır və xarici maliyyə qurumlarına donor kimi vəsait ayırır. Eyni zamanda, investisiya portfelini və investisiyaların coğrafiyasını genişləndirərək Gürcüstan, Rusiya, Ukrayna, Moldova, Fransa, Böyük Britaniya, Rumıniya, Yunanıstan, Balkan ölkələri və digər dövlətlərə böyük həcmlərdə sərmayələr yönəldir. Bu sırada ən önəmli yeri isə Türkiyə tutur. Azərbaycanın Türkiyə iqtisadiyyatına yönəltiyi investisiyalar on milyard dollar həcmində ölçülür və bu göstəriciyə görə ölkə investorlar arasında liderdir.

Bununla belə, Azərbaycan, ilk növbədə, investisiyalarını daxili iqtisadiyyata yönəldir. Bunu nəticəsidir ki, Azərbaycan iqtisadiyyatı son 10-12 ildə 3-4 dəfə artmışdır və buna oxşar nəticə digər ölkələrdə müşahidə olunmamışdır.

Azərbaycan xarici borc məsələsində mötədil mövqeyə malikdir. Bu borc ÜDM-in 7-8%-i həcmindədir. Müqayisə üçün qeyd olunmalıdır ki, bir sıra inkişaf etmiş ölkələrdə xarici borcun həcmi 100 və daha çox faizlə ölçülülür.

Müasir məqamda ölkələrin xarici borc baxımdan orta mövqedə olmasını dəqiq dəyərləndirən mütləq göstərici yoxdur. Bununla belə, 70%-lik xarici borc həddi ölkənin

maliyyə vəziyyətinin yaxşı olması kimi qiymətləndirilə bilər. Azərbaycan iqtisadi və təbii ehtiyatlar potensialı onun yaxın 10-20 il ərzində xarici borc problemi ilə üzləşməyəcəyi proqnozunu ümidli edir. Azərbaycan xarici borclarının həcmini, yəni dövlət və özəl sektorun qeyri-rezidentlərə xarici valyuta ilə ödəməli olduğu borcların məcmusunu ifadələndirən Xarici Borc Reytinqi üzrə dünyada mötədil mövqedə dayanır. Hazırda isə Azərbaycan istənilən vaxt xarici borcu tamamilə qaytarmaq iqtidarındadır. Lakin müəyyən iqtisadi və maliyyə məsələləri mövcuddur ki, belə vəziyyəti diktə etmir.

## 13.14. Azərbaycanda miqrasiya proseslərinin tənzimlənməsi

Azərbaycanın əlverişli geosiyasi mövqeyi, ölkədə bazar münasibətlərinin inkişafı istiqamətində aparılan iqtisadi islahatlar, milli neft strategiyası əsasında dünyanın aparıcı şirkətləri ilə bağlanmış müqavilələr üzrə möhtəşəm quruculuq işlərinin reallaşması, tarixi İpək Yolunun bərpası respublikada miqrasiya axınlarının artmasına səbəb olmuşdur. Bu baxımdan, ölkədə milli manafelərə və beynəlxalq normalara uyğun miqrasiya proseslərinin idarə edilməsi sisteminin təkmilləşdirilməsi və inkişafı çox mühüm məqsəd olaraq qarşıda durur. Bundan irəli gələrək Azərbaycan Respublikasında miqrasiya siyasəti müvafiq dövlət proqramı və konsepsiyası əsasında həyata keçirilir.

Azərbaycanda milli təhlükəsizliyin strateji hədəflərindən biri kimi miqrasiya istiqamətində qabaqcıl dünya təcrübəsinə əsaslanan qanunvericiliyin formalaşdırrılması və Miqrasiya Məcəlləsi formatında inkişafı üzrə mühüm işlər görülür, institusional təsisatlandırmalar genişləndirilir. Ölkədə miqrasiya proseslərinin bir mərkəzdən idarə və koordinasiyasını təmin edən Dövlət Miqrasiya Xidməti yaradılmışdır. Dövlət Miqrasiya Xidməti miqrasiya proseslərinin təhlili, proqnozlaşdırılması, monitorinqin təşkili, vahid sahəvi informasiya sisteminin yaradılması, miqrasiya sferasında beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi, əcnəbi və vətəndaşlığı olmayan şəxslərə müvəqqəti və daimi yaşamaq üçün icazənin verilməsi, immiqrant statusunun verilməsi, Azərbaycana gələn əcnəbi və vətəndaşlığı olmayan şəxslərin ölkədə müvəqqəti olma müddətlərinin uzadılması ilə bağlı qərarın verilməsi, o cümlədən vətəndaşlıq, qaçqın statusunun müəyyənləşdirilməsi kimi məsələləri tənzimləyir. Fəaliyyətini insan və vətəndaş hüquq və azadlıqlarına hörmət, qanunçuluq və humanizm prinsipləri əsasında quraraq ölkədə olan qanunsuz miqrantlarla bağlı araşdırma, təhlil və təftiş işləri apararaq onların ölkə ərazisindən çıxarılması işinə də ciddi nəzarət edir.

Azərbaycan ərazisində kəskin miqrasiya prosesləri XIX əsr Rusiya-İran müharibələrinin nəticələrindən başlanğıc alır. Belə ki, Rusiyanın Azərbaycan ərazilərini işğal etməsi ilə bir sıra tarixi ərazilərə ermənilərin köçürülməsi həyata keçirilmiş və bu da, müəyyən dərəcədə, azərbaycanlıların da miqrasiyasına təkan verimdır. Son bir əsrdə isə Azərbaycanda miqrasiya şəraiti I və II dünya müharibələrinin, həmçinin, Ermənistanın şovinist, etnik təmizləmə siyasətinin təsiri altında daha da

kəskinləşmişdir. Statistika göstərir ki, 1913-1920-ci illər arasında Azərbaycan əhalisinin sayı müharibə və soyqırımı fəlakəti nəticəsində 16,6% azalaraq 2 milyon 339 min nəfərdən 1 milyon 952 min nəfərə düşmüşdür. 1948-1953-cü illər arasında Ermənistan ərazisindən 150 min nəfərdən çox azərbaycanlı öz əzəli tarixi torpaqlarından zorla qovularaq deportasiya edilmişdir.

Azərbaycanda da müxtəlif xususiyyətli miqrasiya tiplərini ozundə birləşdirən daxili və xarici miqrasiya axınları movcuddur. Daxili miqrasiya məcburi və sosial-iqtisadi miqrasiya formasında təzahür edir. Hazırda ölkədaxili məcburi miqrasiyanın əsas subyektini Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ munaqişəsi nəticəsində Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş Dağlıq Qarabağı və ətraf rayonları, habelə Ermənistan Respublikası ilə həmsərhəd rayonların həyat ucun təhlukəli yaşayış məntəqələrini tərk etmiş məcburi kockunlər təşkil edir. Belə ki, işğal nəticəsində Dağlıq Qarabağdan 60 min və onun ətrafındakı 7 rayondan isə 600 mindən cox azərbaycanlı oz daimi yaşayış yerini itirmişdir. Burdan başqa, respublikanın Ermənistanla həmsərhəd olan Naxçıvan Muxtar Respublikasının, Ağstafa, Qazax, Tovuz, Ağcabədi, Gədəbəy, Goranboy və Tərtər rayonlarının sərhədyanı yaşayış məntəqələrindən 100 min nəfərədək azərbaycanlı da hərbi təcavuzə məruz qaldıqlarına gorə oz daimi yaşayış yerlərini məcburən tərk etmişlər.

Ermənistanın təcavüzü nəticəsində Daqlıq Qarabağı və ətraf rayonları məcburi tərk etmiş şəxslərlə yanaşı, Azərbaycanda daxili miqrantlar sırasına Xəzər dənizinin səviyyəsinin dəyişməsi, torpaq sürüşmələri, sel və digər təbii fəlakətlərlə, habelə meliorasiya işlərinin həyata kecirilməsi ucun lazımi vəsait və texnikanın olmaması uzundən torpağın şoranlaşması ilə əlaqədar yaşayış yerlərini dəyişməyə məcbur olan ekoloji miqrantlar, eləcə də kənd rayonlarından iş yeri tapmaq məqsədilə iri şəhərlərə, xususilə Bakıya və Abşeron yarımadasına gələn əmək qabiliyyətli əhali - sosial-iqtisadi miqrantlar da daxil edilirlər.

Azərbaycanda xarici miqrasiyanın subyektini emiqrasiya və immiqrasiya nəticəsində meydana çıxan qaçqınlar, "qaçqın" statusu almaq niyyətində olan və sığınacaq axtaran şəxslər, qaçqınlara oxşar vəziyyətdə olan miqrantlar, əməkçi miqrantlar, tranzit miqrantlar, qeyri-qanuni miqrantlar kateqoriyaları təşkil edir.

Azərbaycan keçmiş sovet respublikaları arasında qaçqın problemi ilə üzləşən ilk ölkə olmuşdur. Belə ki, 1988-1992-ci illərdə Ermənistanın planlı şəkildə həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində tarixən həmin ərazidə yaşamış 250 min azərbaycanlı son nəfərinədək öz doğma yurdlarından zorla qovularaq Azərbaycana pənah gətirmişlər. Bundan başqa, əvvəllər Gürcüstandan deportasiya olunaraq Orta Asiya respublikalarında yerləşdirilmiş, 1990-cı ildə orada baş vermiş milli münaqişə zəminində didərgin salınmış 50 min məshəti türkü də Azərbaycanda qaçqın kimi məskunlaşmışdır. Eyni zamanda Azərbaycanda İrandan, Rusiyadan, Əfqanıstandan və İraqdan olan 10 mindən çox qacqın statusu almaq niyyətli və sığınacaq axtaran şəxs vardır. Ölkə ərazisində muvafiq qanunvericiliyin tələblərinə uyğun olmadan işləyən

və ya qalan əcnəbilər - qeyri-qanuni miqrantlar da mövcuddur. Ümumilikdə xarici miqrasiyada əmək miqrasiyasının xususi cəkisi daha coxdur. Olkə iqtisadiyyatı inkişaf etdikcə daxili əmək bazarında iştirak edən əcnəbilərin sayı artmışdır.

Əks istiqamətdə isə hadisələr, əsasən, 1994-cu ildən başlanmışdır. Belə ki, həmin dövrdə olkə iqtisadiyyatına xarici investisiya axınının başlanması Azərbaycana xarici işci quvvəsinin gəlməsi ilə, yeni iqtisadi sistemə kecid və ərazilərin 20%-nin işğalından doğan səbəblər nəticəsində Azərbaycan vətəndaşlarının xarici olkələrə işləməyə getməsi ilə müşayiət olunmuşdur.

Azərbaycanın qanunvericiliyinə əsasən, hər bir şəxsin qanuni olaraq olkədən getməsi və olkəyə gəlməsi ucun butun zəruri şərait yaradılmışdır. Qeyd olunmalıdır ki, mustəqilliyə qədər Azərbaycan iqtisadiyyatı digər sovet respublikalarının iqtisadiyyatı ilə sıx əlaqədə olduğundan emiqrasiya sahəsində ölkənin əsas tərəf-muqabilləri kecmiş ittifaq respublikaları, xususilə də, Rusiya, Ukrayna və Qazaxıstan olmuşdur. Bununla bərabər, Turkiyə, AFR, Niderland, Polşa, Kanada, İsrail və digər xarici ölkələrə gedənlər də vardır.

Azərbaycanda miqrasiya proseslərinin tənzimlənməsinin, konseptual olaraq, əsas məqsədini ölkənin milli təhlükəsizliyinin və sabit sosial-iqtisadi, demoqrafik inkişafının təminatı, əmək ehtiyatlarından səmərəli istifadə, ölkə ərazisində əhalinin rasional yerləşdirilməsi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması, qacqın və məcburi köçkünlərin oz doğma yurdlarına təhlukəsiz şəraitdə və ləyaqətlə qayıtması, beynəlxalq standartlara uyğun sığınacaq ucun milli muraciət sisteminin yaradılması, miqrantların intellektual və əmək potensialından istifadə, idarə olunmayan miqrasiya proseslərinin neqativ təsirinin aradan qaldırılması, insan ticarəti də daxil olmaqla, qeyri-qanuni miqrasiyanın qarşısının alınması, gozlənilməz kutləvi miqrasiyaya səbəb ola biləcək amillərin oyrənilməsi və onların optimal həlli üçün vaxtında kompleks tədbirlərin hazırlanması kimi prioritetlər təşkil edir.

***Əsas anlayışlar:***

**1. Valyuta** - hər bir dövlətdə istifadə olunan pul vahididir (*milli valyuta*).

**2. Valyuta bazarı** - xarici valyuta ilə alqı-satqı əməliyyatlarının və xarici valyutada qiymətli kağızlar üzrə əməliyyatların, həmçinin, valyuta kapitalının investisiyalaşdırılması üzrə əməliyyatların həyata keçirilməsində təzahür edən iqtisadi münasibətlər sahəsidir.

**3. Foreks** - sərbəst qiymətlərlə valyuta mübadiləsinin banklararası bazarıdır.

**4. Dünya valyuta bazarı** - beynəlxalq tədiyə dövriyyəsində geniş istifadə edilən valyuta əməliyyatlarının həyata keçirildiyi regional və daxili valyuta bazarlarının qarşılıqlı hərəkətdə olduğu dünya bazarıdır.

**5. Birja valyuta bazarı** - tələb və təklif əsasında xarici valyutada alqı-satqının həyata keçirildiyi birjadır.

**6. Valyuta birjası** - valyuta və qiymətli kağızların ticarətini təşkil edən birjadır.

**7. Birjadankənar valyuta bazarı** - telefon, telefaks, kompüter şəbəkəsi vasitəsi ilə apara bilən valyuta birjasının üzvləri və ya üzvləri olmayan dilerlər tərəfindən təşkil olunan valyuta bazarıdır.

**8. Avrovalyuta** - bankların başqa ölkələrdə, əsasən də, Avropa ölkələrində yerləşdirilmiş və həmin ölkənin valyutası ilə ifadə edilən pul vəsaitləridir.

**9. Məzənnə, kurs** - aksiyalar, istiqraz vərəqələri və başqa qiymətli kağızların alış və satış qiymətidir.

**10. Valyuta məzənnəsi (*kursu*)** - bir ölkənin pul vahidinin digər ölkənin pul vahidində, həmçinin, qiymətli metallar və qiymətli kağızlarda ifadəsinin qiymətidir (*kotirovka*).

**11. Konvertasiya** - pul vəsaitlərinin və qiymətli kağızların, bir milli valyutanın digər milli valyutaya mövcud məzənnə və ya təyin olunmuş şkala əsasında mübadiləsidir.

**12. Valyutanın konvertasiyalığı** - bir ölkənin pul vahidlərinin beynəlxalq tanınmış ödəmə vasitələri əsasında digər ölkənin valyutası ilə azad mübadiləsidir.

**13. Broker** - əmtəə, qiymətli kağızlar və valyuta birjasında vasitəçilik edən şəxsdir.

**14. Diler** - sadə agent-vasitəçi (*broker*) keyfiyyətində deyil, öz adından və öz şəxsi hesabından (*iş üçün öz pul vəsaitlərini qoyan qiymətli kağız, valyuta, qiymətli metallar alış-verişini həyata keçirən*) birja əməliyyatları keçirən, fond birjasının agenti olan ayrıca şəxs və ya firmadır.

**15. Forvard sövdələşmələri** (*təcili sövdə*) - satılan məhsulun qiymətini sövdələşmə anında təyin etməklə, onun gələcəkdə müəyyən tarixdə alıcıya çatdırlması barədə satıcı ilə alıcının razılığa gəldikləri nağd hesablı təcili sövdələşməsidir.

**16. Fiksinq** - birjada mövcud, təyin edilmiş zamanda əmtəənin qiyməti və qiymət kotirovkası, müxtəlif növ valyutaların rəsmi müəyyən edilməsi prosesidir.

**17. Spred** - açıq bazarlarda ticarət edilən müxtəlif analoji məhsulların qiymət fərqidır.

**18. Marja** - malların qiməti, qiymətli kağızların kursu və s. göstəriciləri arasındakı fərqdir.

**19. Kotirovka** - alqı və ya satqı etməyə hazır olan satıcı və ya alıcının elan etdiyi (*oferta təklif edilir*) malın qiymətidir (*kurs, faiz dərəcəsi*).

**20. Faiz dərəcələrinin pariteti** - forvard mübadilə kursu ilə spot kursu arasındakı fərqin müvafiq ölkədə faiz dərəcəsi ilə daxili faiz dərəcəsinin fərqinə bərabər olduğunu bildirən nəzəri müddəadır.

**21. Fond** - pul və maddi vəsaitlərin müəyyən məqsədlər üçün bir yerə cəmləndiyi yer (*pensiya fondu, neft fondu*), müəyyən fəaliyyət növlərinə, sosial qruplara yardım göstərmək üçün yaradılan təşkilatdır (*xeyriyyə, elm, mədəniyyət fondları*).

**22. Fond bazarı, qiymətli kağızlar bazarı** - səhmlərin, istiqrazların, çeklərin, akkreditivlərin, veksellərin və digər pul öhdəliklərini yerinə yetirən bilən qiymətli kağızların sərbəst alqı-satqısının aparıldığı bazarlardır.

**23. Listinq** - qiymətli kağızların birja siyahısına (*birja hərraclarına buraxılmış qiymətli kağızların siyahısı*) daxil edilməsi, qiymətli kağızların birja tərəfindən müəyyən edilmiş şərt və qaydalara uyğunluğuna nəzarətin həyata keçirilməsi prosedurlarının məcmusudur.

**24. Pul bazarı** - pul vəsaitlərinin bir il müddətinə alqı-satqısının, kreditin və borc alınmasının həyata keçirildiyi iqtisadi münasibətlər sistemidir.

**25. Kapital bazarı** - pul vəsaitlərinin bir il müddətində artıq alqı-satqısının, krediti və borc alınmasının həyata keçirildiyi iqtisadi münasibətlər sistemidir.

**26. Beynəlxalq fond bazarı** - ayrı-ayrı ölkələrin fond bazarlarının bir araya gələrək vahid birləşmiş sistem yaratmaqla, qiymətli kağızlarla müxtəlif əməliyyatların keçirildiyi beynıəlxalq bazarlardır.

**27. Fond birjası** - qiymətli kağızların alqı-satqısının həyata keçirildiyi bazardır.

**28. Fond Birjalarının Beynəlxalq Federasiyası, IFSE** - səhmdarlarının bərabər hüquqlarını və qiymətli kağızlar bazarının strukturunun koordinasiyasını təmin edən beynəlxalq təşkilatdır.

**29. Qiymətli Kağızlar üzrə Milli Dilerlərin Avtomatik Kotirovka Sistemi, NASDAQ** - yüksək texnoloji şirkətlərin səhmləri üzrə ixtisaslaşmış Amerika birjadankənar bazarıdır.

**30. Amerika Fond Birjası, AMEX** - təkrar dərəcəli qiymətli kağızların ticarəti üzrə sövdələşmələrin aparıldığı ABŞ, Nyu-York birjasıdır.

**31. Nyu-York Fond Birjası, NYSE** - səhmlər və digər qiymətli kağızlar üzrə ticarətin reallaşdırıldığı ABŞ-in baş fond birjasıdır.

**32. London Fond Birjası, LSE** - qiymətli kağızlarla əməliyyatların aparıldığı Avropanın ən qədim və ən böyük fond birjasıdır.

**33. Frankfurt Fond Birjası, FWB** - qiymətli kağızlarla əməliyyatların aparıldığı AFR-in ən qədim və ən böyük fond birjasıdır.

**34. Tokio Fond Birjası, TSE** - qiymətli kağızlarla ticarət əməliyyatların aparıldığı Yaponiyanın ən böyük fond birjasıdır.

**35. Kredit** - faiz ödəmək şərtilə pul və ya əmtəə formasında verilən borcdur.

**36. Beynəlxalq kredit** - qaytarılma, tərxirə salınmama, faiz təminatlı və ödənişli şərtliliklərinə əsaslanan valyuta və əmtəə resurslarının təqdimatı ilə bağlı beynəlxalq münasibətlər sahəsində borc kapitalının hərəkətidir.

**37. Beynəlxalq (*dünya*) kredit bazarı** - qəbul olunmuş kreditləşmə prinsiplərinə əsaslanaraq müvafiq bazar subyektləri arasında borc kapitalının hərəkətinin həyata keçirildiyi maliyyə bazar sferasıdır.

**38. Beynəlxalq maliyyə mərkəzləri** - yüksək təmərküzləşmə ilə xarakterik olaraq, güclü kompyuter rabitə sistemi, maliyyə-kredit əməliyyatları apamaq üçün liberal valyuta və vergi rejimlərinə malik Nyu-York, London, Paris, Tokio, Frankfurt, Syurix, Honkonq və Sinqapur da yerləşən ssuda kapitalı bazarının beynəlxalq mərkəzləridir.

**39. Beynəlxalq Valyuta Fondu, BFV** - Bretton-Vuds razılaşdırması əsasında 1944-cü ildə təsis edilmiş, BMT-nin ixtisaslaşdırılmış maliyyə təsisatıdır.

**40. Dünya Bankı Qrupu** - inkişaf etməkdə olan ölkələrə maliyyə-texniki yardımlar göstərən hökumətlərarası beynəlxalq maliyyə təşkilatıdır.

**41. Beynəlxalq İnkişaf Assosiasiyası, IDA** - Dünya Bankı Qrupuna daxil olan, 1960-cı ildə yaradılmış beynəlxalq kredit təşkilatıdır.

**42. Beynəlxalq Maliyyə Korporasiyası, IFC** - Dünya Bankı Qrupuna daxil olan, 1956-ci ildə yaradılmış, özəl sektorun inkişafı vasitəsilə iqtisadi artımın təmin edilməsinə yönəlmiş beynəlxalq maliyyə institutudur.

**43. Çoxtərəfli İnvestisiyalar üzrə Zəmanət Agentliyi, MIGA** - inkişaf etməkdə olan ölkələrə birbaşa investisiyaların yönəldilməsinə, siyasi, qeyri-kommersiya risklərindən sığortalanmasına (*on beş ildən iyirmi ilə qədər*) kömək edən, özəl investorlara təminatlar verən, məsləhət və informasiya xidmətləri göstərən 1988-ci ildə yaradılmış Dünya Bankı Qrupuna daxil olan beynəlxalq təsisatdır.

**44. İnvestisiya Mübahisələrinin Həlli üzrə Beynəlxalq Mərkəz, ICSID** - beynəlxalq investisiya mübahisələrində tərəflərin barışması və arbitraj prosedurları üçün hüquqi imkanların təmin edilməsi məqsədi ilə 1966-cı ildə yaradılmış Dünya Bankı Qrupuna daxil olan beynəlxalq təsisatdır.

**45. Avropa Yenidənqurma və İnkişaf Bankı, AYİB** - Mərkəzi Avropa və Mərkəzi Asiya ölkələrinə kömək məqsədilə 1991-ci ildə 61 ölkənin və 2 beynəlxalq təşkilatın dəstəyi ilə yaradılmış bankdır.

**46. Avropa Valyuta Sistemi** - ölkələr arasında iqtisadi münasibətləri yüngülləşdirən, onların iqtisadiyyatlarını inteqrasiya edən, valyuta sabitliyi yaradan, Avropa İttifaqının bir sıra ölkələri tərəfindən qəbul edilən valyuta münasibətləri və valyuta mübadiləsinin təşkili formasıdır.

**47. Avropa Valyuta Fondu, EMF** - Avropa ölkələrinin beynəlxalq valyuta-maliyyə təşkilatının yaradılması layihəsi 1981-ci ildə işlənib hazırlanmışdır.

**48. Avropa Sosial Fondu, ESF** - 1959-cü ildə təsis olunmuş, 1971-ci ilin islahatı nəticəsində fəaliyyəti daha dəqiq prioritetlərlə müəyyənləşdirilmiş, məşğulluq problemlərinin həllində iştirak edən Avropa İttifaqı fondudur.

**49. Avropa Valyuta Əməkdaşlıq Fondu, EMCF** - Aİ çərçivəsində valyuta inteqrasiyasını və ittifaq ölkələrinin tədiyə balanslarında və hesablarında defisitin ödənilməsini təmin etmək məqsədi ilə 1973-cü ildən fəaliyyət göstərən fonddur.

**50. Avropa İnvestisiya Bankı, EIB** - Aİ ölkələrinin inkişafına kömək məqsədi ilə özəl şirkətlərə və dövlət təşkilatlarına uzunmüddətli borcların verilməsi məqsədi ilə 1958-ci ildə təsis olunmuş bankdır.

**51. Avropa İnkişaf Fondu, EDF** - inkişaf etməkdə olan ölkələrə infrastrukturun inkişafı ilə bağlı konkret layihələrə subsidiya və kreditlər təqdim edən 1958-ci ildə yaradılmış və Aİ tərəfindən idarə edilən fonddur.

**52. Avropa Regional İnkişaf Fondu, ERDF** - Aİ-nin iqtisadi gerilikləri olan ayrı-ayrı regionlarının (*əyalət və depresiyalı*) inkişafındakı disproporsiyaların azaldılması məqsədi ilə aparılan regional siyasətə maliyyə dəstəkli 1975-ci ildə yaradılmış fonddur.

**53. Avropa Kənd Təsərrüfatına Rəhbərlik və Zəmanət Fondu, EAGGF/FEOGA** - Aİ-nin kənd təsərrüfatı ilə bağlı siyasətini dəstəklənməsi, Avropada ümumi aqrar bazar -"Yaşıl Avropa"nın yaradılması və inkişafına kömək edilməsi məqsədi ilə 1969-cu ildə yaradılan fonddur.

**54. Avropa Valyuta İnstitutu, EMI** - sələfi 1973-cü ildə yaradılmış Avropa Valyuta Əməkdaşlığı Fondu olan Aİ üzv ölkələrinin mərkəzi banklarının rəhbərləri heyətində üstmilli əməkdaşlıq orqanı olan beynəlxalq bank təsisatıdır.

**55. Regional inkişaf bankları** - Asiyada, Afrikada, Latın Amerikasının inkişaf etməkdə olan ölkələrində əməkdaşlığını genişləndirmək, müvafiq spesifik problemləri həll etmək üçün 1960-cı illərdə təsis olunmuş iri regional banklardır.

**56. Beynəlxalq Hesablar Bankı, BIS** - Haaqa konvensiyasında baxılan Yunqa planına əsasən nəzərdə tutularaq Böyük Britaniya, Fransa, AFR, Belçika, İtaliya, Yaponiyanın özəl bankları və Morqanlar bankir evi başda olmaqla ABŞ-ın üç özəl bankı tərəfindən 1930-cu ildə təsis edilmiş beynəlxalq valyuta-kredit təşkilatıdır.

**57. Bazel sazişləri** - Avropada müasir bank fəaliyyətinin tənzimlənməsini əsaslandıran sənədlər toplusudur.

**58. Bank Nəzarəti üzrə Bazel Komitəsi** - Beynəlxalq Hesablar Bankı nəzdində bank fəaliyyəti standartlarının işlənməsi üzrə ildə dörd dəfə çağırılan mərkəzi bank nümayədələrinin birliyidir.

**59. Maliyyə bazarlarının qloballaşması** - müəssisə-rezident üçün daxili və milli bazarın başlıca əhəmiyyət kəsb etməsinin itirilməsi və fəaliyyətinin daha öz ölkəsinə yönəldilməməsi və bununla bütün dünya üçün xarakterik olan tələblərə və səviyyəyə uyğun istehsal prosesinin təmin edilməsini şərtləndirən dünya bazar iqtisadiyyatının obyektiv və təbii inkişafı prosesidir.

**60. Transmilli bank, TMB** - ssuda kapitalının beynəlxalq hərəkətində vasitəçi rolunu yerinə yetirən iri universal banklardır.

**61. Derequlyasiya** - maliyyə bazarlarında azad rəqabəti təmin edən tədbirlərin ləğv olunması.

**62. Likvidlik böhranı -** müəssisələrin, şirkətlərin, bankların aktivlərinin bazar qiymətinə yaxın qiymətə tez satış qabiliyyətinin, həmçinin, öz öhdəliklərini və təqdim olunan qanuni pul tələblərini vaxtında ödəmək qabiliyyətinin olmaması vəziyyətidir.

**63. İslam iqtisadiyyatı** - islamın ictimai və əxlaq normaları ilə müəyyən olunan, insanın fərdi azadlıqılarının pozulmasına yol verməyən, sələmçiliyi qəti istisna edən iqtisadi inkişafi təyinatlı təsərrüfatçılıq sistemidir.

**64. İslam maliyyə sistemi** - sələmsiz, faizsiz kreditvermə sistemli, fyuçers sövdələşmələrinin istisnası zəminli islam qaydalarına uyğun təşkil edilən və reallaşdıralan maliyyə sistemi formasıdır.

**65. İslam bankçılığı** - sələm, faiz, və prazitizmi (*özgə hesabına yaşamanı*) istisnasız edən bank işinin islam qaydalarına uyğun aparılması üsuludur.

**66. Dünya maliyyə böhranı** - milli vayutanın və qiymətli kağızların qeyri-stabil kursu, infilyasiya və bütövlükdə həyat səviyyəsinin aşağı düşməsi ilə müşayiət olunaraq bir neçə dövlətin maliyyə sisteminin eyni zamanda pozulması və ya çökməsi vəziyyətidir.

**67. Böyük depressiya** - 1929-cu ilin 24 oktyabrında Nyu-York fond birjasında səhmlərin kəskin aşağı düşməsi hadisəsi ilə başlamış və 1939-cu ilə kimi davam etmiş dünya iqtisadi böhranıdır.

**68. Kapitalın beynəlxalq hərəkəti (*miqrasiyası*)** - kapitalın idxal, ixrac və onun xaricində fəaliyyətinin də daxil olduğu ölkələrarası hərəkətidir.

**69. Kapitalın beynəlxalq hərəkətinə dair Nurkse modeli** - kapitalın beynəlxalq hərəkətinin texniki kəşflər, beynəlxalq ticarətin inkişafı və kapital təklifinin artımı ilə bağlanıldığı modeldir.

**70. Kapitalın beynəlxalq hərəkətinin tənzimlənməsinə dair inenson konsepsiyasi** - kapitalın beynəlxalq hərəkətinin mahiyyət və mexanizmininin real və bərabərləşdirən olmaqla məhdudlaşdırılmasəna yönəlmiş konsepsiyadır. Konsepsiyaya görə kapitalın real hərəkəti müxtəlif ölkələrdə amillərinin bərabər olmayan son məhsuldarlıq səviyyəsi ilə əlaqəlidir.

**71. İnvestisiya** - real məhsuldar aktivlərin artırılması prosesi, pulların daha böyük pullar əldə edilməsi məqsədi ilə istifadəsidir.

**72. Beynəlxalq investisiyalar** - bir ölkənin dövləti, sahibkarları və ya fiziki şəxsləri tərəfindən digər ölkənin iqtisadiyyatına yatrılan sərmayələr olaraq beynəlxalq maliyyə kapitalının hərəkət formasıdır.

**73. Birbaşa xarici investisiyalar** - kapitalın qoyulduğu ölkədə (*resipiyent-ölkə*) uzunmüddətli iqtisadi maraq əldə etmək məqsədilə qoyulan kapitaldır.

**74. Portfel investisiyalar** - gəlir götürmək üçün bir investorun iqtisadi fəaliyyətə yönəltyi, ona mənsub porfel formalaşdıran qiymətli kağızların məcmusudur.

**75. Portfel xarici investisiyalar** - kapitalın xarici qiymətli kağızlara (*sırf maliyyə əməliyyatı*) qoyuluşudur.

**76. Qeyri-maliyyə investisiyalar** - hüquq əldəetmə, lisenziyalar, nou-hau və ya əmlakla bağlı investisiyalar.

**77. İntellektual investisiyalar** - intellektual məhsulun yaradılmasına (*insan kapitalının inkişafina, bilik, bacarıq, istedad, elm, təhsil, ixtisas artırma, hərtərəfli mobillik, azadlıq, fiziki və psixi sağlanmlıq, mənəvi sərvət*) yönəlik investisiyalar.

**78. Sahibkarlıq kapitalı** - mənfəət almaq məqsədi ilə istehsala birbaşa və ya dolayısı ilə qoyulan pul vəsaitidir. Sahibkarlıq kapitalının hərəkəti ayrı-ayrı şəxslər, dövlət müəssisələri və ya dövlət, vəsaitləri xarici ölkələrə yatıranda xarici investisiyalar yolu ilə həyata keçirilir.

**79. Ssuda** - bir şəxs tərəfindən pul və maddi qiymətlilərin digər şəxsə müəyyən edilmiş müddətdə faiz ilə qaytarılmaqla borc şəklində verilməsidir.

**80. Ssuda kapitalı** - xarici ölkələrdə kapitaldan istifadədən ssuda faizi almaq məqsədilə istehsala birbaşa və ya dolayısı ilə qoyulan pul vəsaitləridir.

**81. Rəsmi (*dövlət*) kapitalı** - dövlət büdcəsindən hökumətin, həmçinin, hökumətlərarası təşkilatların qərarı ilə borclar, ssudalar və xarici yardım şəklində xaricdə hərəkətdə olan karitalıdır.

**82. Özəl (*qeyri-dövlət*) kapital** - özəl şirkətlərin, bankların və digər qeyri-dövlət təşkilatlarının onların rəhbər orqanları və birliklərinin qərarı ilə xarici ölkələrdə yerləşdirilən vəsaitləridir.

**83. Uzunmüddətli kapital** - kapitalın 5 ildən artıq qoyuluşu. Sahibkarlıq kapitalının birbaşa və portfel investisiyaları formasında olan bütün qoyuluşları, adətən, uzunmüddətli olur.

**84. Ortamüddətli kapital** - kapitalın 1 ildən 5 ilə qədər və ya təyinatlılıq baxımından nisbət qlısa və daha çox müddətləri əhatə edən sərmayə qoyluşlarıdır.

**85. Qısamüddətli kapital** - kapitalın 1 ilə qədər müddətə qoyulmasıdır.

**86. Qeyri-leqal kapital** - kapitalın milli və beynəlxalq hüquqdan yan keçən miqrasiyasıdır.

**87. Firmadaxili kapital** - müxtəlif ölkələrdə yerləşən və bir korporasiyaya mənsub olan filiallar və törəmə şirkətlər (*banklar*) arasında köçürülən kapitaldır.

**88. İkitərəfli investisiya sazişi** - iki ölkə arasında həmin ölkələrdə xarici investisiyaları həyata keçirmək üçün müəyən edilmiş qaydalar haqqında ikitərəfli investisiya müqaviləsidir.

**89. Azad İqtisadi Zona** - milli və xarici sahibkarlar üçün güzəştli iqtisadi şərtli məhdud ərazidir.

**90. Biznes** - gəlir götürməyə yönəldilmiş iqtisadi fəaliyyətdir.

**91. Vençur biznesi** - riskli elmi-texniki və texnoloji biznesdir.

**92. Autsorsinq** - şirkətin qeyri-effektiv və ya az effektivli prosesini və ya fəaliyyət növünün daha üstün keyfiyyət göstəricilərinə malik olan digər təssərüfat subyektinə verməsidir.

**93. Diversifikasiya** - obyektlərin bölünməsi və məhsul nomenklaturunun genişləndirilməsi, istehsalın bir-biri ilə əlaqəsi olmayan növlərinin eyni zamanda inkişafını ehtiva edir.

**94. Beynəlxalq biznes** - beynəlxalq kapital əsasında müxtəlif ölkələrin şirkətlərinin birgə iştirak etdiyi sahibkarılıq fəaliyyətidir.

**95. İnhisarçı üstünlük nəzəriyyəs**i - beynəlxalq biznesdə xarici parametrlərə köklənmiş şirkətlərin nə üçün yerli rəqiblərlə rəqabət apara bilməsini izah edən yanaşmadır.

**96. Ofşor zona** - sahibkarlıq fəaliyyəti, bir qayda olaraq, həmin dövlətin hüdudlarından kənarda həyata keçirilən qeyri-rezident kompaniya üçün xüsusi imtiyazlı qeydiyyat, lisenziyalaşdırma, vergiqoyma rejiminin hakim olduğu dövlətin ərazisi və ya onun hissəsidir.

**97. Məhdud Məsuliyyətli Kompaniya, LLC** - bir və ya bir neçə hüquqi və, və ya fiziki şəxs tərəfindən təsis edilən, nizamnamə kapitalı müvafiq paylara bölünən təsərrüfat cəmiyyətidir.

**98. Beynəlxalq Biznes Kompaniyası, IBC** - sahibləri ölkənin qeyri-rezidentləri, qeydiyyatı və gəlirləri ölkə yurisdiksiyasından kənarda olan hüquqi və, və ya fiziki şəxslərinin birliyi kimi əlverşili vergiqoyma rejimimdə çalışan kompaniya və ya korporasiyalardır.

**99. Pulların Yuyulması ilə Mübarizədə Maliyyə Tədbirlərinin İşlənilməsi Qrupu, FATF** - cinayət yolu ilə əldə edilmiş gəlirlərin yuyulması və maliyyə terroruna qarşı mübarizə sferasında dünya standartlarının işlənməsi və həmçinin, milli sistemlərin bu standartlara uyğunluğunun qiymətləndirilməsi üzrə hökumətlərarası təşkilatdır.

**100. Beynəlxalq Vergi və İnvestisiya Təşkilatı**, **ITIO** - inkişaf etməkdə olan kiçik ölkələrin maliyyə və vergiqoyma sferasında maraqlarının müdafiəsi səylərinin birləşdirilməsi üzrə yaradılmış beynəlxalq təşkilatdır.

**101. Onşor** - ikili vergiqoymaya məruz qalmamaq üçün tamvergili ərazidə qeydiyyata alınan kompaniyalardır.

**102. Miqrasiya** - insanların bu və ya digər səbəblərdən yaşayış yerini dəyişərək bir yerdən başqa yerə köçməsi prosesidir.

**103. Zəka axını** - mütəxəssislərin, alimlərin və ixtisaslı fəhlələrin siyasi, iqtisadi, dini və ya bu kimi başqa səbəblərdən ölkədən və ya regiondan miqrasiyası prosesidir.

**104. Qaçqın** - irqi, milli, etnik mənsubiyyətinə, dini etiqadına, vətəndaşlığına, müəyyən sosial qrupa mənsub olmasına və ya siyasi əqidəsinə görə təqiblərin qurbanı olmaqdan əsaslı qorxduğu üçün vətəndaşı olduğu ölkədən kənarda qalan və həmin qorxu üzündən bu ölkənin himayəsindən istifadə edə bilməyən və ya istifadə etmək istəməyən və yaxud müəyyən vətəndaşlığı olmadığı halda öz daimi yaşadığı ölkəsindən kənarda qalan, həmin qorxu üzündən oraya qayıda bilməyən və ya qayıtmaq istəməyən şəxsdir.

**105. Məcburi köçkün** - vətəndaşa və ya onun ailə üzvlərinə qarşı zorakılıq və ya başqa formalarda təqib, eləcə də təqibə məruz qalmaq kimi real təhlükə səbəbindən yaşayış yerini tərk edən şəxsdir.

**106. Qastarbayter** - zəif inkişaf etmiş ölkədən sənayecə inkişaf etmiş ölkəyə cəlb olunmuş əcnəbi fəhlə.

**107. Elm, Təhsil və Mədəniyyət üzrə Birləşmiş Millətlər Təşkilatı, UNESCO -** BMT-nin elm, təhsil və mədəniyyət məsələləri üzrə təşkilatıdır.

**108. Beynəlxalq Əmək Təşkilatı**, **BƏT** - Əmək münasibətlərini tənzimləyən BMT-nin ixtisaslaşmış qurumudur.

**109. Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu, UNICEF** - uşaq hüquqlarının qorunması məqsədil ilə 1954-ci ildə təsis edilmiş BMT təşkilatıdır.

**110. Beynəlxalq Miqrasiya Təşkilatı, IOM** - 1951-ci ildə təsis edilmiş, miqrasiya sahəsində aparıcı beynəlxalq hökumətlərarası təşkilatdır.

**111. Avropada Miqrasiya üzrə Hökumətlərarası Komitə**, **ICEM** - Qərbi Avropada miqrant hüquqlarının təminatı və müdafiəsi ilə əlaqədar fəaliyyət göstərən 1951-ci ildə ildə təsis edilmiş hökumətlərarası təşkilatdır.

**112. "Azərbaycan İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyəti** - 2006-cı ildə təsis edilmiş, Azərbaycanın qeyri-neft sahələrində fəaliyyət göstərən kommersiya təşkilatlarına müddətli sərmayələr qoyulması məqsədli dövlət investisiya şirkətidir.

**113. Sahibkarlığa Kömək Milli Fondu** - Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi nəzdində sahibkarlığın inkişafına köməklik göstərən 1992-ci ildə dövlət tərəfindən yaradılmış fondur.

**114. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi** - Azərbaycan Respublikasında aqrar bölmədə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxslərə dövlət dəstəyi məqsədilə kreditlərin cəlb edilməsini və təyinatı üzrə istifadəsini təmin edən icra hakimiyyəti orqanıdır.

**115. İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondu, İTİDF** - informasiya-kommunikasiya texnologiyaları sahəsində dövlət siyasətinin həyata keçirilməsinə yardım etmək, sahibkarlıq fəaliyyətini dəstəkləmək, innovasiya və elmi-tədqiqat layihələrini stimullaşdırmaq, müasir infrastrukturun inkişafına təkan vermək və müvafiq sahəyə yerli və xarici investisiyaları cəlb etmək təyinatlı Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyaları Nazirliyinin tabeliyində dövlət fondudur.

**116. Azərbaycan Respublikasi Dövlət Neft Fondu, ARDNF** - neft və qaz ehtiyatlarına dair sazişlərin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının əldə etdiyi gəlirlərin toplanmasını, səmərəli idarə edilməsini, gələcək nəsillər üçün saxlanmasını təmin edən xüsusi məqsədli dövlət qurumudur.

**117. Heydər Əliyev Fondu** - Azərbaycan tarixinə müstəqil dövlət qurucusu kimi daxil olmuş ummilli lider Heydər Əliyevin xatirəsinə xalqın ehtiramını ifadə etmək arzusundan, onun zəngin mənəvi irsini əks etdirmək, azərbaycançılıq fəlsəfəsinin respublika üçün əhəmiyyətini vurğulamaq, milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq zərurətindən irəli gələrək 2004-cü ildə yaradılmışdır.

**118. Azərbaycan İxracın və İnvestisiyaların Təşviqi Fondu, AZPROMO** - Azərbaycan Respublikasında yerli istehsalın inkişafı ilə ölkənin ixrac qabiliyyətinin artırılmasını və investisiyaların cəlb edilməsini stimullaşdıran fonddur.

**119. Azərbaycanda daxili miqrantlar** - Ermənistanın təcavüzü nəticəsində Dağlıq Qarabağ və ona bitişik əraziləri məcburi tərk etmişlər, Xəzər dənizinin səviyyəsinin dəyişməsi, torpaq sürüşmələri, sel və digər təbii fəlakətlərlə, habelə torpağın şoranlaşması ilə əlaqədar yaşayış yerlərini dəyişməyə məcbur olan ekoloji miqrantlar, eləcə də kənd rayonlarından iş yeri tapmaq məqsədilə iri şəhərlərə, xususilə, Bakıya və Abşeron yarımadasına gələn əmək qabiliyyətli əhali - sosial-iqtisadi miqrantlar daxildir.

**120. Azərbaycanda xarici miqrasiyanın subyektini** - emiqrasiya və immiqrasiya formalarında baş verən qacqınlar, "qacqın" statusu almaq niyyətində olan və sığınacaq axtaran şəxslər, qacqınlara oxşar vəziyyətdə olan miqrantlar, əməkci miqrantlar, tranzit miqrantlar, qeyri-qanuni miqrantlar kateqoriyaları təşkil edir.

**121. Azərbaycanda miqrasiya proseslərinin tənzimlənməsinin** - əsas məqsədini ölkənin milli təhlukəsizliyinin və sabit sosial-iqtisadi, demoqrafik inkişafının təminatı, əmək ehtiyatlarından səmərəli istifadə, qacqın və məcburi köckünlərin oz doğma yurdlarına təhlükəsiz şəraitdə və ləyaqətlə qayıtmasına nail olmaq və digər miqrasiya problemlərinin optimal həlli üçün vaxtında kompleks tədbirlərin hazırlanması kimi prioritetlər təşkil edir.

# IV HİSSƏ

# Dünya iqtisadiyyatının inkişaf modelləri

# XIV FƏSİL

# Dünya iqtisadiyyatının beynəlxalq tənzimlənməsi

## 14.1. Dünya təsərrüfat əlaqələrinin müasir dövlətlərarası tənzimləmə sistemi

Dünya iqtisadiyyatında təsərrüfat həyatının beynəlmiləlləşməsi, ölkələr arasında qarşılıqlı asılılığın artması, qlobal problemlərin meydana gəlməsi və kəskinləşməsi ölkələrin birgə qüvvələri ilə beynəlxalq iqtisadi münasibətlərin məqsədyönlü tənzimlənməsinin zəruriliyini obyektiv olaraq müəyyən etmişdir. Dünya təsərrüfatının ayrı-ayrı sahələrinin dövlətlərarası çoxtərəfli tənzimlənməsi hələ II Dünya Müharibəsinə qədərki dövrdə təşəkkül tapmışdır. Lakin dünya iqtisadiyyatında o, yalnız müharibədən sonrakı illərdə ciddi amilə çevrimişdir.

Beynəlxalq münasibətlərin dövlətlərarası tənzimlənməsi - dünya təsərrüfatı əlaqələri sahəsində müxtəlif ölkələr tərəfindən könüllü qəbul edilmiş öhdəliklərin və ümumi qaydaların məcmusudur.

Dünya təsərrüfatının II Dünya Müharibəsindən sonrakı inkişaf tarixi təsdiq edir ki, beynəlxalq iqtisadi münasibətlərin dövlətlərarası tənzimlənməsi sisteminin yaranması və inkişafının başlıca səbəbləri aşağıdakı proseslər olmuşdur:

Birincisi, bu, gömrük tariflərinin aşağı salınması yolu ilə beynəlxalq ticarətin liberallaşdırılması zərurətidir. Belə ki, II Dünya Müharibəsinin dağıtdığı Avropa iqtisadiyyatı sürətli bərpa tələb edirdi. Bu, xarici ticarət əlaqələrinin fəallaşdırılmasını nəzərdə tutur, kapitalın azad hərəkətini dəstəkləyir, beynəlxalq hesablaşmalar sisteminin nizama salınmasını əsaslandırırdı. Bu amil, öz növbəsində, Bretton-Vud konfransının qərarlarını və GATT, BVF, BYİB kimi beynəlxalq təşkilatların yaranmasını müəyyən etdi. Sonradan aydın oldu ki, azad beynəlxalq ticarət davamlı artıma aparır, texnologiyaları bütün dünya üzrə yerləşdirir, əmək məhsuldarlığının yüksəldilməsinə sövq edir, müəssisələr üçün tutumlu dünya bazarlarını açır.

İkincisi, imperializmin müstəmləkə sisteminin iflası və azadlığa çıxmış ölkələrin iqtisadi inkişafının təmin edilməsidir. Buradakı tələblər sırası 1960-1970-ci illərdə

dünya təsərrüfat münasibətlərinin yenidən qurulması, yeni iqtisadi qaydaların yaranması, o cümlədən: daha yüksək qiymətlər səviyyəsində xammal bazarlarının sabitləşməsi, sənaye cəhətdən inkişaf etmiş ölkələrdə proteksionizmin aradan qaldırılması, texnologiyaların ötürülməsinin güzəştli şərtləri, maliyyə yardımının artması və s.-ni əhatə etmişdir. Nəticədə əvvəllər yaradılmış beynəlxalq təşkilatlar - GATT, BVF, BYİB sənaye ölkələrinin timsalında tərkiblərinin eynicinsliyini itirdilər. Bura Asiyanın, Afrikanın və Latın Amerikasının azad olmuş ölkələri daxil edildi və bir sıra yeni iqtisadi təşkilatlar, o cümlədən BMT-nin UNCTAD-ı yaradıldı.

Üçüncüsü, neft ixracatçıları ölkələrinin hərəkətləri ilə ilə daha da kəskinləşmiş 1970-ci və 1980-ci illərin ərzaq böhranları, iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə struktur böhranlar sonuncuların OPEK ölkələrinə razılaşdırılmış mövqe işlənib hazırlanmasının və milli iqtisadiyyatların struktur yenidən qurulması prosesində qüvvələri birləşdirməyin zəruriliyini göstərdi.

Dördüncüsü, dünya iqtisadiyyatının qloballaşması, ölkələrin qarşılıqlı əlaqələrinin və qarşılıqlı asılılığının güclənməsi, milli iqtisadiyyatların dünya təsərrüfatında baş verən dəyişikliklərə uyğunlaşmasının zəruriliyi qabaqcıl sənaye ölkələrinin iqtisadi siyasətinin koordinasiyasını, milli siyasətlərin beynəlxalq sabitliyə uyğunluğunu təmin edən əməkdaşlıq və müqavilələrin müxtəlif metodlarının işlənib hazırlanmasını tələb edirdi. Dünyanın qabaqcıl ölkələrinin iqtisadi siyasətinin koordinasiyası məqsədilə 1961-ci ildə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı - İƏİT yaradı. Onun praktikasına “böyük yeddilik” ölkələrinin yüksək səviyyədə müntəzəm müşavirələri daxil edildi.

Beşincisi, fəaliyyəti milli sərhədlər çərçivəsindən kənara çıxan TMŞ-lərin gücünün artmasıdır ki, bu, çox hallarda həm baza ölkələrdə, həm də qəbul edən ölkələrdə milli iqtisadiyyatların inkişaf maraqları ilə ziddiyyət təşkil edir. Dünya birliyi onların fəaliyyətini tənzimləmək üçün yeni forma və metodlar axtarırdı. Bunun üçün, ilk növbədə, BMT-də TMŞ-lər üzrə komissiya yaradıldı.

Altıncısı, regional iqtisadi inteqrasiya proseslərinin intensiv inkişafı regional tənzimləmə strukturlarının yaradılması yolu ilə dövlətlərarası tənzimləmənin məzmununu dərinləşdirmiş və formalarını müxtəlif etmişdir. Bu, Avropa iqtisadi məkanında özünü daha parlaq şəkildə büruzə vermişdir.

Yeddincisi, dünya kapitalist təsərrüfatının və sosialist təsərrüfatının 45 illik qarşıdurması sonuncunun dağılması kimi dünya təsərrüfat münasibətlərinin dövlətlərarası tənzimlənməsi sisteminin fəaliyyəti prosesi kimi öz düzəlişlərini etdi. Birincisi növbədə, ikili təyinatlı (*mülki və hərbi*) malların və qabaqcıl texnologiyaların sosialist və sosialist oriyentasiyalı inkişaf etməkdə olan ölkələrə satışını məhdudlaşdıran İxrac Nəzarəti üzrə Koordinasiya Komitəsi yaradıldı. Sosialist ölkələrinin xarici iqtisadi əlaqələrinin koordinatoru kimi isə QİYŞ çıxış edirdi. Keçmiş sosialist ölkələrinin iqtisadiyyatın planlı inkişafından imtina etməsi və bazar münasibətlərinə keçməsi, QİYŞ-in dağılması onların dünya və regional səviyyəli bir çox tənzimləmə strukturlarına - GATT, DTT, BVF, DB, Aİ institutları və s.-yə daxil edilməsinə səbəb oldu.

Səkkizinci, müxtəlif ölkələrin hüquqi şəxsləri arasında iqtisadi münasibətlərin intensiv inkişafı, o cümlədən milli qanunvericiliklərin razılaşdırılmadığı şəraitdə və müxtəlif ölkələrin hökumətləri tərəfindən xarici iqtisadi əlaqələrin tənzimlənməsinin üsul və metodları arasında fərqlərin olması qarşılıqlı əlaqədə olan iqtisadi subyektlər arasında ciddi mübahisələr doğururdu.

Nəhayət, bəşər sivilizasiyasının ətraf mühitin mühafizəsi, nüvə müharibəsi təhlükəsi, demoqrafik, ərzaq, xammal və s. kimi qlobal inkişaf problemlərinin kəskinləşməsi də FAO, AEBA, DST və s. kimi beynəlxalq iqtisadi münasibətlərin dövlətlərarası tənzimlənməsi sistemi elementlərinin yaradılmasında mühüm şərt olmuşdur.

Dünya iqtisadiyyatında dünya təsərrüfat əlaqələrinin müasir dövlətlərarası tənzimlənməsi sisteminə aşağıdakı kimi sxematik təyinat verilir:




**Sxem 5. Dünya iqtisadiyyatında dünya təsərrüfat əlaqələrinin beynəlxalq tənzimlənməsi sistemi**

Üstmilli tənzimlənmənin müasir təcrübədə istifadə olunan subyektləri və alətləri aşağıdakılardır:

***Beynəlxalq konfrans*** - iştirak edən dövlətlərin qarşıya qoyulmuş vəzifələri müzakirə və razılaşdırılmış qərarlar qəbul etməsi üçün yaradılmış müvəqqəti orqandır.

***Daimi beynəlxalq orqanlar*** - dövlətlərin qarşılıqlı əlaqələrinin məhdud səlahiyyətə malik, sadələşdirilmiş təşkilati strukturu olan orqanlarıdır. Bu orqanların əsasını üzv dövlətlər arasında olan müqavilə təşkil edir.

***Beynəlxalq qarışıq komissiyalar*** - ikitərəfli və daha geniş müqavilələr əsasında yaranır və bu, müqavilələrin həyata keçirilməsinə yardım edir.

***Beynəlxalq təşkilat*** - ona beynəlxalq təşkilat statusu verən üzv dövlətlərin müqaviləsi ilə təsis edimiş, onun iştirakçıları ilə razılaşdırılmış məqsədləri, səlahiyyətli orqanları və digər atributları - nizamnamə, üzvlük qaydası və s. olan təşkilatdır.

Dünya təsərrüfat əlaqələrinin müasir dövlətlərarası tənzimləmə sistemi daim inkişafda və təkmilləşmədədir. Beynəlxalq təşkilatlar, regional təsisatlar, çoxtərəfli münasibətlər sisteminin genişlənməsi bu əlaqələrin dərinləşməsində mühüm rol oynamaqdadır.

## 14.2. Beynəlxalq təşkilatlar və onların funksiyaları

Qlobal və regional miqyasda siyasi-iqtisadi münasibətlər sisteminin inkişafından danışarkən dövlətlərarası əməkdaşlığın ən mühüm təşkilatı formalarından biri olan beynəlxalq təşkilatlar fenomenini diqqətdən qaçırmaq olmaz. Müasir dünyanın hazırkı inkişaf çağında bu və ya digər beynəlxalq təşkilatın fəaliyyətində iştirak etməyən bir ölkə tapmaq çətindir. Bu əlaqələr daim genişlənir və mütəşəkilləşir. Beynəlxalq təşkilatlar qlobal, hər şeyi əhatə edən, dünya iqtisadiyyatına və siyasətinə çoxtərəfli təsir göstərən təzahürdür. Beynəlxalq təşkilat (*international organization*) müəyyən məqsədləri həyata keçirmək üçün beynəlxalq saziş əsasında yaradılmış, daimi fəaliyyət göstərən, müvafiq orqanlar sisteminə malik olan dövlətlərarası və ya qeyri-dövlət xarakterli birliklərdir. Beynəlxalq təşkilatlar beynəlxalq hüququn törəmə subyekti olduğundan onların beynəlxalq-hüquqi subyektliyi funksional xarakter daşıyır, beynəlxalq hökumətlərarası (*dövlətlərarası*) və qeyri-hökumət (*qeyri-dövlət, ictimai*) təşkilatlara bölünür.

Ümumi konteksdə beynəlxalq təşkilatların təşəkkül tarixini qədim dövr, orta əsrlər və XX əsr olmaqla üç mərhələyə bölmək olar. Hüquqi fenomen kimi ilk beynəlxalq təşkilatlar hələ XIX əsrin ortalarında meydana gəlmişdir. Bunların içərisində ilk olaraq 1815-ci ildə "Reyn çayında gəmiçilik üzrə Mərkəzi komissiya", 1864-ci ildə "Torpağın ölçülməsi üzrə Beynəlxalq İttifaq", 1865-ci ildə "Dünya Teleqraf İttifaqı", 1874-cü ildə "Ümumi Poçt İttifaqı", 1875-ci ildə "Beynəlxalq ölçü və çəki komitəsi". 1883-ci ildə "Sənaye mülkiyyətinin mühafizəsi üzrə Beynəlxalq İttifaq", 1886-cı ildə "Ədəbi və bədii mülkiyyətin mühafizəsi üzrə Beynəlxalq İttifaq", 1890-cı ildə "Gömrük

tariflərinin nəşri üzrə Beynəlxalq İttifaq", "Kölәlik əleyhinə Beynəlxalq İttifaq" və "Dəmiryol mal daşımaları üzrə Beynəlxalq İttifaqı"n yaradılmasını göstərmək olar. Hazırda 4 mindən artıq beynəlxalq təşkilat vardır ki, bunların 300-dən çoxu hökumətlərarasıdır. Onların mərkəzində BMT durur.

Beynəlxalq təşkilatın fəaliyyətinin əsas fazaları müzakirələrdən, qərarların qəbul edilməsindən və onun icrasına nəzarət olunmasından ibarətdir. Buradan da beynəlxalq təşkilatın tənzimləmə, normayaratma və məcəlləşdirmə, informasiyavermə, nəzarətetmə və operativ kimi başlıca funksiyaları önə çıxır.

***Tənzimləmə-normayaratma funksiyası*** daha önəmlidir və üzv dövlətlərin məqsədlərini, prinsiplərini, davranış qaydalarını müəyyən edən qərarların qəbul edilməsindən ibarətdir. Bu cür qərarlar yalnız mənəvi-siyasi mütləq qüvvəyə malikdir. Lakin onların dövlətlərarası münasibətlərə və beynəlxalq hüquqa təsirini də lazımınca qiymətləndirmək lazımdır. Belə ki, istənilən dövlət beynəlxalq təşkilatın qərarına qarşı çətin duruş gətirə bilər.

***Normayaratma funksiyası*** beynəlxalq hüquq normalarının yaradılması və BMT-nin Nizamnaməsinə uyğun beynəlxalq məcəlləşdirməni ehtiva edir.

***İnformasiyavermə funksiyası*** təşkilatın məqsəd və fəaliyyətinə aid sənədlərin nəşrini, mühüm beynəlxalq məsələlərə dair xüsusi materiallar hazırlanmasını və digər informasiyavermə funksiyasını yerinə yetirir.

***Nəzarətetmə funksiyaları*** dövlətlərin beynəlxalq hüquq normalarına, həmçinin, qətnamələrinə uyğun davranışına nəzarətin həyata keçirilməsindən ibarətdir. Bu məqsədlə təşkilatlar müvafiq informasiyanı toplamaq, təhlilini aparmaq, onu müzakirə etmək və qətnamələrdə öz rəylərini ifadələndirmək hüququna malikdir. Bir çox hallarda dövlətlər müntəzəm olaraq müvafiq sahədə təşkilatın norma və ya aktlarının yerinə yetirilməsi haqqında məruzələr də təqdim etməlidir.

***Operativ funksiyalar*** beynəlxalq təşkilatların öz qüvvəsi ilə məqsədlərə nail olmasından ibarətdir. Çox hallarda təşkilat gerçəkliyə suveren üzv dövlətlər vasitəsilə təsir edir. Bununla belə, birbaşa fəaliyyətin də rolu tədricən artmaqdadır. Təşkilatlar iqtisadi, elmi-texniki və başqa yardımlar edir, məsləhət xidmətləri göstərirlər.

Beynəlxalq təşkilatlar, fəaliyyət istiqamətindən asılı olaraq, universal və xüsusiləşdirilmiş təsnifatlandırmaya malikdirlər. Onlar çoxtərəfli dövlətlərarası əlaqələr institutu kimi iştirakçılarının koordinasiya etdikləri məqsədləri, səlahiyyətləri və digər spesifik siyasi-təşkilati normaları ehtiva edirlər.

Beynəlxalq təşkilatları, bir sıra müvafiq meyarlara görə, aşağıdakı kimi təsnifatlandırırlar.

1. Üzv dövlətlərin əhatə dairəsinə görə:

1) universal təşkilatlar (*BMT və onun təsistları*);

2) regional təşkilatlar (*Aİ, İƏT və s*).

Üzvlər dairəsindən asılı olaraq burada təşkilatları ümumi və ya məhdud tərkiblilərə ayırırlar. Ümumi və ya universal beynəlxalq iqtisadi təşkilatlarda, potensial olaraq, bütün dövlətlərin iştirakı nəzərdə tutulmuşdur. Baxmayaraq ki, hətta bu gün BMT-də

bəzi ölkələr müxtəlif səbəblərdən iştirak etmirlər. Məhdud tərkibli beynəlxalq təşkilatlar regional ola bilər. Yəni yalnız müəyyən coğrafi rayonun dövlətləri üçün açıq ola bilər - məsələn, MDB, Afrika Birliyi Təşkilatı, Ərəb Dövlətləri Liqası, QAS, Avropa Şurası.

2. Səlahiyyətlərinə görə:

1) ümumi səlahiyyətlilər (*BMT, ATƏT və s.*);

2) xüsusi səlahiyyətlilər (*BƏT, DTT və s.*).

Birinci halda səlahiyyət əməkdaşlığın hər hansı bir sferası ilə məhdudlaşmamışdır. Buna misal BMT-dir ki, praktiki olaraq, burada istənilən beynəlxalq problem nəzərdən keçirilə bilir. Onun ixtisaslaşmış müəssisələrinin səlahiyyətinə aid olan konkret məsələlər istisna təşkil edir. Bu geniş səlahiyyət icbari qərarlar qəbul edə bilməyən, bu səbəbdən də müzakirələr və tövsiyələr qəbul etməklə kifayətlənən universal təşkilatların səlahiyyətlərində özünü göstərməyə bilməz. Sülhün təmin edilməsi naminə yalnız müəyyən hallarda hüquqi cəhətdən icbari qərarlar qəbul edə bilən BMT Təhlükəsizlik Şurası üçün istisna vardır.

3. Təşkilata daxilolma qaydasına görə:

1) açıq təşkilatlar (*hər bir dövlət üzv ola bilər*);

2) qapalı təşkilatlar (*təşkilata üzvlük təsisçi dövlətlərin dəvəti ilə həyata keçirilir - NATO*).

4. Beynəlxalq təşkilata dövlətlərin ötürdüyü səlahiyyətin həcminə görə ayırırlar:

- ❑ ***koordinasiya funksiyalarını yerinə yetirən hökumətlərarası təşkilatlar.*** Bu təşkilatlarda yenidən bölüşdürülmüş səlahiyyət dövlət və təşkilat üçün müştərək qalır;
- ❑ ***ayrı-ayrı üstmilli funksiyaları yerinə yetirən beynəlxalq təşkilatlar.*** Bu təşkilatlar bir sıra məsələlər üzrə və bu məsələlərin həllində üzv dövlətlərin funksiyalarını məhdudlaşdıran müstəsna səlahiyyətlərə malikdir. Bunlara misal üzv ölkələr üçün valyuta-kredit sahəsində BVF-nin və DB-nin qərarlarının icrasının məcburiliyi ola bilər;
- ❑ ***üstmilli təşkilatlar.*** Bunlar üzv dövlətlər üçün vacib olan qaydaların formalaşması və nəzarət mexanizmləri, iştirakçıları bu qaydalara riayət etməyə məcbur etmək üçün yaradılmışdır. Bu funksiyalar Aİ-nin üstmilli orqanlarına - Avropa Şurasına, Avropa Parlamentinə və s. verilmişdir.

Beynəlxalq təşkilatlar təşkilati əlamətinə görə təsnifatlandırılırlar:

- ➢ BMT sisteminin beynəlxalq iqtisadi təşkilatları;
- ➢ BMT sisteminə daxil olmayan beynəlxalq iqtisadi təşkilatlar;
- ➢ regional iqtisadi təşkilatlar.

6. Beynəlxalq tənzimlənmə sahəsindən asılı olaraq, beynəlxalq təşkilatlar aşağıdakı kimi təsnifatlandırırlar:

- ❑ iqtisadi və sənaye əməkdaşlığı və dünya iqtisadiyyatı sahələrini tənzimləyən beynəlxalq iqtisadi təşkilatlar (*UNİDO, Turizm üzrə Dünya Təşkilatı, Beynəlxalq Dəniz Təşkilatı və s.*);

- ❑ dünya ticarətini tənzimləyən beynəlxalq iqtisadi təşkilatlar (*DTT, UNCTAD, ərzaq və xammal malları ixracatçı və idxalçı ölkələrinin beynəlxalq təşkilatları*);
- ❑ beynəlxalq valyuta-kredit və maliyyə təşkilatları (*BVF, DB-nin institutları*);
- ❑ sahibkarlıq fəaliyyətini tənzimləyən beynəlxalq və regional təşkilatlar (*BMT-nin komissiyası və s.*);
- ❑ beynəlxalq qeyri-hökumət təşkilatları və dünya təsərrüfat əlaqələrinin inkişafına kömək edən birliklər (*beynəlxalq sahibkarlar ittifaqları, ticarət palataları, sahəvi assosiasiyalar və federasiyalar*).

Beynəlxalq təşkilatların üzvləri suveren dövlətlərin orqanları deyil, yalnız suveren dövlətlərin özləridir. Dövlətin ayrı-ayrı hissələri də beynəlxalq təşkilatın üzvü ola bilməz. Bütün üzvlər təşkilatın orqanlarının işində iştirak edir, büdcəsinə üzvlük haqqı verir (*qeyri-bərabər payda*) və onun fəaliyyəti üçün məsuliyyət daşıyırlar. Məsələn, BMT-nin malıyyələşməsində ABŞ-ın payına bütün xərclərin 25%-i, Yaponiyaya 19,9%-i, AFR-ə 9,8%-i, Fransaya 6,5%-i, İtaliyaya 5,4%-i, Böyük Britaniyaya 5,1%-i, İspaniyaya 2,6%-i düşür. Qalan ölkələrin payı isə 25,7% təşkil edir. BVF-də borc kapitalının formalaşmasında da anoloji vəziyyət mövcuddur. Təcrübədə isə belə vəziyyət çox zaman təşkilatın iqtisadi cəhətdən daha çox inkişaf etmiş üzvlərinin daha zəif üzvlərə öz iradəsini zorla qəbul etdirməsinə gətirib çıxarır.

II Dünya Müharibəsindən sonra müstəmləkə ölkələri beynəlxalq təşkilatların üzvlərinin üzərinə qoyulan tələblərə cavab vermir, təşkilatların fəaliyyətində maraqlı deyildilər. Ona görə də problemin həlli üçün ***assosiasiyalı üzvlük*** tətbiq olunmağa başlandı. Assosiasiyalı üzvlük tam üzvlükdən səsvermədə iştirak etmək və icra orqanlarına seçilmək hüquqlarının olmaması ilə fərqlənir. Hazırda assosiasiyalı üzvlük sistemindən tam üzvlüyün bu və ya digər səbəblərdən müvəqqəti və ya daimiliyi qeyri-mümkün olduqda istifadə edilir. Belə ki, Mərkəzi və Şərqi Avropanın bir çox ölkələri Avropa Şurasında assosiasiyalı üzvlük mərhələsindən keçmişlər.

Beynəlxalq təşkilatlarda, həmçinin, ***müşahidəçi statusu*** mövcuddur. O, üzv olmayan dövlətlərə və ya təşkilatın orqanına daxil edilməyən üzv dövlətlərə verilir. İsveçrə müşahidəçilər tərəfindən BMT Baş Assambleyasının bir çox sessiyalarında təmsil olunmuşdur. BMT üzvlərinin çoxu öz müşahidəçilərini Təhlükəsizlik Şurasının yığıncaqlarına göndərir. Müşahidəçi statusu BMT tərəfindən bir sıra milli-azadlıq hərəkatlarına verilmişdir. Çox vaxt ixtisaslaşdırılmış müəssisələr və regional təşkilatlar öz müşahidəçilərini BMT orqanlarına göndərirlər. Onlar əsas iclaslarda iştirak etmək və sənədlər almaq hüququna malikdirlər. Çox zaman QHT-lərə müşahidəçi statusuna yaxın olan məsləhətçi statusu verilir. Bu praktika BMT-nin İqtisadi və Sosial Şurası üçün tipikdir. Üzvlük təşkilatın ləğv edilməsi və ya üzv dövlətin özünün ləğvi ilə dayandırılır. Üzvlük hüquq ötürülməsi qaydası ilə ötürülmür. Rusiya SSRİ-nin yerini hüquqi varis kimi deyil, SSRİ-nin davamçısı olan dövlət kimi tutmuşdur.

## 14.3. Beynəlxalq iqtisadi münasibətlərin tənzimlənməsində BMT-nin rolu

Dövlətlərarası tənzimlənmə sistemində 1945-ci il oktyabrın 24-də yaradılmış Birləşmiş Millətlər Təşkilatı, BMT (*United Nations Organization, UNO*) mühüm rol oynayır. BMT-nin əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir.

Hazırda 193 ölkə bu təşkilatın üzvüdür. Müstəqil dövlətlərdən yalnız Vatikan BMT-nin üzvü deyil. BMT-nin qərargahı ABŞ-ın Nyu-York şəhərindədir.

BMT həm üzvlüyə və həm də səlahiyyətində olan problemlərə görə universal beynəlxalq təşkilatdır.

- beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və bu məqsədlə sülhə təhlükənin aradan qaldırılması və zorakılıq aktlarının yatırılması, sülhün başqa yollarla pozulmasına qarşı effektiv kollektiv tədbirlər görmək, sülhün pozulmasına səbəb olacaq beynəlxalq mübahisələri ədalət və beynəlxalq hüquq prinsiplərinə müvafiq olaraq həll etmək;
- millətlər arasında xalqların bərabərliyi və özünü təyin etməsi prinsiplərinə hörmət əsasında dostluq münasibətlərini inkişaf etdirmək, həmçinin, ümumi sülhü möhkəmləndirmək üçün başqa müvafiq tədbirlər görmək;
- iqtisadi, sosial, mədəni və humanitar xarakterli beynəlxalq problemlərin həllində və insan hüquqlarına, irqindən, cinsindən, dilindən və dinindən asılı olmayaraq hər kəsin əsas azadlıqlarına dəstək və hörmətin inkişafına çoxtərəfli əməkdaşlıq həyata keçirmək;
- bu ümumi məqsədlərə nail olmaqda millətlərin hərəkətlərinin razılaşdırılması üçün mərkəz olmaq.

Göstərilən məqsədlərə nail olmaq üçün təşkilat və onun üzvləri aşağıdakı prinsiplər əsasında hərəkət edir:

- üzvlərin hamısı üçün suveren bərabərlik;
- nizamnamə ilə bağlı üzərinə götürdükləri öhdəliklərin vicdanla yerinə yetirilməsi;
- beynəlxalq münasibətlərin sülh vasitəsi ilə həll edilməsi;
- ölkələr arasında beynəlxalq münasibətlərdə hər hansı dövlətin həm ərazi bütövlüyü və ya siyasi müstəqilliyinə qarşı, həm də BMT-nin məqsədlərinə uyğun olmayan başqa yolla güc təhlükəsi və ya onun tətbiq edilməsindən çəkinmək;
- Təşkilata nizamnaməyə müvafiq etdiyi bütün hərəkətlərdə hərtərəfli kömək göstərilməsi, BMT-nin preventiv (*qoruyucu*) və ya məcburi xarakterli təsir göstərdiyi hər hansı dövlətə yardım etməkdən çəkinmək;

- BMT-nin üzvü olmayan dövlətlərin bu prinsiplər əsasında hərəkətinin təmin edilməsi;
- hər hansı dövlətin daxili səlahiyyətinə aid olan işlərə qarışmamaq;
- insanların əsas hüquq və azadlıqlarına hörmət etmək;

Nizamnaməyə görə, BMT-nin baş orqanları aşağıdakılardır: Baş Assambleya, Katiblik, Təhlükəsizlik Şurası, Beynəlxalq Ədalət Məhkəməsi, İqtisadi və Sosial Şura, Qəyyumluq Şurası:

***1. Baş Assambleya:***

- Baş komitələr;
- Daimi və prosedur komitələr;
- Baş Assambleyanın başqa yardımçı orqanları;
- İxtisaslaşmış orqanlar;
- Muxtar təşkilatlar.

Baş Assambleya BMT-nin qanunverici orqanıdır. O, hazırda hər bir sessiyada iştirak etməli olan və 5-dən çox nümayəndəsi olmayan üzv dövlətlərdən ibarətdir. Baş Assambleya, həmçinin, Təhlükəsizlik Şurasının rəyi ilə növbəti 5 il müddətində fəaliyyət göstərəcək Baş Katibi təyin etmək üçün də məsuliyyət daşıyır.

***2. Katiblik:*** Katibliyə BMT Təhlükəsizlik Şurasının tövsiyəsi ilə 5 il müddətinə Baş Assambleya tərəfindən seçilən Baş Katib rəhbərlik edir. Onun 2 dəfə seçilmək hüququ vardır. Katiblik sülhməramlı missiyalar, beynəlxalq münaqişə vasitəçiliyi, iqtisadi, mədəni, insan hüquqları və ya sosial istiqamətlər kimi BMT-nin digər bölmələri tərəfindən hazırlanmış proqramları həyata keçirir. O həmçinin, çıxış və sənəd tərcümələri, BMT-nin xəbər və məlumat buraxılışları və həmçinin, beynəlxalq konfrans koordinasiyaları kimi inzibati tapşırıqları yerinə yetirir. Katibliyin təxminən 9 min işçi heyəti vardır.

***3. Təhlükəsizlik Şurası:***

- Sülhün qorunması üzrə BMT əməliyyatları;
- Hərbi-qərargah komitəsi;
- Yardımçı orqanlar (*daimi komitələr, müvəqqəti orqanlar*).

BMT-nin Təhlükəsizlik Şurası təşkilatda daimi fəaliyyət göstərən mühüm orqandır. Nizamnaməyə görə, Təhlükəsizlik Şurası beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. Şuranın 15 üzvü vardır ki, onlarda 5-i - ABŞ, ÇXR, Rusiya, Böyük Britaniya, Fransa daimi üzvlərdir. 10 qeyri-daimi üzv isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü bir səsə malikdir. Prosedur məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. Bununla belə, daim üzvlərin qərarlara veto qoymaq hüququ vardır. Azərbaycan Respublikası 24 oktyabr 2011-ci ildə ilk dəfə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmişdir.

***4. Beynəlxalq Ədalət Məhkəməsi:*** BMT-nin hüquqi bölməsi kimi, onun nizamnaməsinə uyğun olaraq, əsası 1945-ci ildə Niderlandın Haaqa şəhərində qoyulmuşdur. BMT Nizamnaməsini imzalamış bütün dövlətlər Beynəlxalq Ədalət

Məhkəməsinin üzvləridir. Onun yurisdiksiyası, siyasi münaqişələr istisna olmaqla, beynəlxalq münaqişələrə qədər sahələri əhatə edir. Beynəlxalq Ədalət Məhkəməsi beynəlxalq məhkəmələrin davamlı təkamülünün sonuncu mərhələsidir və onun məsuliyyət dairəsinə konkret mövzular üzrə rəylərin verilməsi, məhkəmə işinin idarə edilməsi və beynəlxalq hüquqi normaların aydınlaşdırılması daxildir.

***5. İqtisadi və Sosial Şura:***

- ❖ funksional komissiyalar;
- ❖ beş regional komissiya;
- ❖ daimi komitələr, daimi ekspert orqanlar;
- ❖ müvəqqəti komitələr;
- ❖ Dünya Ticarət Təşkilatı - DTT;
- ❖ 17 ixtisaslaşmış müəssisə: (*Dünya Meteoroloji Təşkilatı, Dünya Səhiyyə Təşkilatı, Dünya İntellektual Mülkiyyət Təşkilatı, Dünya Poçt İttifaqı, Beynəlxalq İnkişaf Assosiasiyası, Beynəlxalq Dəniz Təşkilatı, Beynəlxalq Mülki Aviasiya Təşkilatı, Beynəlxalq Əmək Təşkilatı, Beynəlxalq Maliiyə Korporasiyası, Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı, Beynəlxalq Valyuta Fondu, Beynəlxalq Elektrik Rabitəsi İttifaqı, Beynəlxalq Kənd Təsərrüfatının İnkişaf Fondu*, *BMT-nin Təhsil, Elm və Mədəniyyət məsələləri üzrə təşkilat*, *BMT-nin Sənayenin İnkişafı Təşkilatı, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Dünya Turizm Təşkilatı*).

İqtisadi və Sosial Şura Baş Assambleyaya insan hüquqları məsələləri ilə bağlı məsləhətlər verir, İnsan Hüquqları Komissiyası tərəfindən təqdim edilmiş hesabatları nəzərdən keçirir və düzəliş edilmiş variantı Baş Assambleyaya təqdim edir. İqtisadi və Sosial Şura hər biri 3 il müddətində fəaliyyət göstərən 54 üzvdən ibarətdir. Bu üzvlər ildə iki dəfə toplaşırlar. Bundan başqa, İqtisadi və Sosial Şura İnsan Hüquqları Komissiyası, İnsan Hüquqlarının Müdafiəsi və Təşviqi üzrə alt komitə, Qadınların Statusu üzrə Komissiya və Cinayət qarşısının alınması və Cinayət Ədliyyə Komissiyası kimi bir sıra komitə və komissiyaya, eləcə də Beynəlxalq Əmək Təşkilatı, Dünya Səhiyyə Təşkilatı kimi BMT-nin ixtisaslaşdırılmış qurumlarına nəzarəti həyata keçirir.

***6. Qəyyumluq şurası:*** Bu şura ilkin olaraq BMT Xartiyasının 75-ci maddəsinə, əsasən, beynəlxalq hamilik sistemi çərçivəsində “asılı ərazilər”ə sədrlik etmək üçün yaradılmışdır. Lakin şuranın hədəfləri və vəzifələri geniş miqyasda yerinə yetirildiyindən onlar artıq köhnəlmiş hesab olunur. Hazırda isə Hamilik Şurası yalnız zərurət yarandıqda toplaşır.

Bütün bu təşkilatlar beynəlxalq iqtisadi münasibətlərin tənzimlənməsinə öz töhfəsini verir. Niderlandın Haaqa şəhərində yerləşən Beynəlxalq Məhkəmədən başqa, onlara hamılıqla ABŞ-ın Nyu-York şəhərində BMT-nin mərkəzi idarələrində yerləşirlər.

BMT-nin beynəlxalq iqtisadi infrastrukturun formalaşmasında rolunun unikallığı qlobal idarəetmə sahəsində mühüm ictimai əhəmiyyəti olan funksiyaların yerinə yetirilmsindən ibarətdir. Tənzimləmə obyektləri beynəlxalq səviyyədə olan çoxsaylı

əlaqələr və münasibətlərdir ki, onların sabitliyi lazımi kimi qəbul edilir. BMT çərçivəsində qəbul edilmiş və qüvvədə olan normalar, qaydalar və rejimlər həyata keçirilən əməliyyatlar üçün qanunla müəyyən edilmiş tələblərə riayət olunmanı təmin edir, xarici iqtisadi münasibətlərin ümumi standartlarını təyin edir, mülkiyyət hüquqlarını qoruyurlar.

BMT-nin bir çox ixtisaslaşdırılmış müəssisələri iqtisadi siyasət tədbirlərinin inkişafında və unifikasiyasında fəal rol oynayırlar. Onlar beynəlxalq bazarların və infrastrukturun vəziyyətinin təhlilini aparır, xüsusi kommersiya hüququnun qayda və prosedurlarının razılaşdırılmasına kömək edirlər.

BMT-nin və beynəlxalq biznesin tənzimlənmə normativlərinə məsul agentliklərin nizamlayıcı funksiyaları arasında daha mühüm olanlar aşağıdakılardır:

- ❖ dövlət yurisdiksiyası (*Baş Assambleya*) sahələri haqqında müqavilələrin həyata keçirilməsi. Bu, hər hansı bir ölkənin bu və ya digər torpaq və ya su ərazisi, həmçinin, hava məkanına malik olması səlahiyyətinin olub-olmamasını müəyyən etməyə (*məsələn, daşınma və ya faydalı qazıntıların çıxarılması şərtlərini müəyyən etməyə*) kömək edir;
- ❖ intellektual mülkiyyət hüququ haqqında razılaşmaların həyata keçirilməsi (*Dünya İntellektual Mülkiyyət Təşkilatı*);
- ❖ iqtisadi terminlərin, ölçü sistemləri və göstəricilərin unifikasiyası (*UNSİTRAL və başqaları*);
- ❖ beynəlxalq kommersiya fəaliyyətinin qaydalarının işlənib hazırlanması və razılaşdırılması (*UNSİTRAL, UNCTAD*);
- ❖ dünya bazarlarında təqdim edilən mal və xidmətlərə dəyən zərərin aradan qaldırılması və xərclərin kompensasiyasının təmin edilməsi (*UNSİTRAL, Beynəlxalq Mülki Aviasiya Təşkilatı, Beynəlxalq Dəniz Təşkilatı, Beynəlxalq Elektrik Rabitəsi İttifaqı, Dünya Poçt İttifaqı*);
- ❖ iqtisadi cinayətlərlə mübarizə (*BMT-nin Cinayətlərin aradan qaldırılması və ədliyyə komissiyası*);
- ❖ beynəlxalq sazişlərin (*UNSİTRAL, UNCTAD, DB*) bağlanmasına kömək edən dürüst iqtisadi informasiyanın toplanması, təhlili və yayılması, ölkələrə və şirkətlərə bazarların qiymətləndirməsində, resurslarının və imkanlarının tutuşdurulmasında və xarici iqtisadi strategiyaların işlənməsində kömək edir.

BMT-nin ixtisaslaşdırılmış təsisatları tənzimləyici funksiyalarla yanaşı, dünya iqtisadiyyatı problemlərini beynəlxalq ekspert məsləhətləri və hökumətlərlə razılaşdırmaqla uzunmüddətli strategiyalar və alətlər hazırlayır və dünya birliyinə onların həlli yollarını təklif edir.

İnkişaf etməkdə olan ölkələrdə investisiya məsələləri, kiçik və orta biznesin inkişafı hazırda çox aktual məsələlərdir. O, iqtisadi inkişaf sahəsində mandatı olan hər bir BMT təsisatına toxunur. Bunların arasında qabaqcılları UNİDO və BMT-nin İnkişaf Proqramıdır.

BMT-nin ticarət və inkişaf konfransı - UNCTAD təşkilat sistemində beynəlxalq ticarət, maliyyə, investisiyalar və texnologiyalar sahəsində məsələlərin həllində mühüm rol oynayır, xüsusilə də, inkişaf etməkdə olan ölkələrə müəssisələrin yaradılmasında və sahibkarlığın inkişafında kömək edir. BMT-nin UNESCO, UNICEF və Qaçqınlar üzrə Ali Komissarlığı kimi təşkilatları da inkişaf, humanitar yardım və insan hüquqlarının müdafiəsi sahələrində ixtisaslaşmış orqanlar kimi mühüm fəaliyyətlər həyata keçirirlər.

BMT-də bir sıra departament və şöbələr də fəaliyyət göstərir. Bunların içərsində xüsusu funksionallığı ilə BMT-nin Statistika şöbəsi və BMT-nin İqtisadi və Sosial Məsələlər Departamenti fərqlənir.

BMT-nin Statistika şöbəsi (*United Nations Statistics Division - UNStat*) Birləşmiş Millətlər Təşkilatının Katibliyi çərçivəsində qlobal statistika sistemində məlumatların yığımı və təhlili funksiyasını həyata keçirməklə BMT-nin fəaliyyəti və əlaqələndirilməsi üzrə mərkəzi mexanizm qismində çıxış edən təsisatdır. BMT-nin İqtisadi və Sosial Məsələlər Departamentinin (*United Nations Department of Economic and Social Affairs - UN DESA*) tabeliyindədir. Şöbə BMT-nin 1946-cı ildə təsis edilmiş Statistika komissiyasının kurasiyasındadır. Həmin komissiya BMT-nin üzv ölkələrinin baş statistiklərini birləşdirir və qlobal statistika sisteminin ali orqanı olaraq beynəlxalq statistika fəaliyyətinin koordinasiyası üzrə qərarlar qəbul edir. BMT-nin Statistika şöbəsi qlobal statistika informasiyalarını toplayır, yayır, statistik fəaliyyətin standart və normalarını işləyir, həmçinin, milli statistika sistemlərinin möhkəmləndirilməsi üzrə ölkələrin səylərini müdafiə edir. Şöbə mütəmadi olaraq statistik məlumatları əks etdirən "İllik statistik icmal" və "Dünya statistika məcmuəsi" buraxır və eyni zamanda, statistika məsələləri və statistik metodlar haqqında kitablar nəşr etdirir, müvafiq məruzələr hazırlayır.

BMT-nin İqtisadi və Sosial Məsələlər Departamenti (*United Nations Department of Economic and Social Affairs - UN DESA*) BMT-nin üzvü dövlətlərinin müvafiq üzvlük ödənişləri hesabına maliyyələşdirilən BMT Katibliyinin tərkib hissəsi olan təsisatdır. İqtisadi, sosial və ekoloji sferalarda mühüm həyati əhəmiyyətə daşayan qlobal strategiyaların milli səviyyədə konkret hərəkətlər sisteminə çevrilməsini təmin edən funksiyaları yerinə yetirir.

## 14.4. Dünya ticarətini tənzimləyən beynəlxalq təşkilatlar və dövlətlərin ticarət siyasəti

Dövlətlərarası səviyyədə beynəlxalq ticarətin tənzimlənməsi kompromislər əsasında müxtəlif ölkələrin hökumətləri tərəfindən müştərək qəbul olunaraq onların maraqlarını əks etdirən iqtisadi siyasət və təcrübə sahəsində tövsiyələrdən, razılaşdırılmış qarşılıqlı öhdəliklərdən, hüquqi əsasnamələr, normalar və prosedurlardan ibarətdir.

- marağı olan dövlətlər tərəfindən ən mühüm prinsip və normalar da daxil olmaqla ticarət-iqtisadi münasibətlərin hüquqi-razılaşdırılmış bazasının yaradılması;
- milli səviyyədə ticarət-siyasi vasitələr kompleksinin dünya təsərrüfat əlaqələrinə

təsiri, ticarət siyasətinin çərçivələrinin və ayrı-ayrı alətlərindən istifadə imkanlarının müəyyən edilməsi;

- iştirakçı ölkələr, onların birlikləri və qruplaşmaları arasında razılıqların əldə olunmasına və meydana çıxan mübahisəli problemlərin həllinə kömək edən beynəlxalq institutların formalaşması və gələcək inkişafı;
- informasiya və ticarət-iqtisadi əlaqələrin təşkili təcrübəsi ilə mübadilə.

Dünya ticarətinin tənzimlənməsi müasir zamanda çox aktual səciyyə daşıyır və bu tənzimlənmə yalnız ayrı-ayrı dövlətlər tərəfindən deyil, həm də onların yaratdıqları müvafiq beynəlxalq təsisatlar tərəfindən reallaşdırılır. Belə təşkilatların sayı çoxdur.

Dünya ticarətini tənzimləyən beynəlxalq təşkilatları həll edilən vəzifələrin miqyaslılığı və profili meyarı üzrə şərti olaraq iki qrupa bölmək olar:

1) bütövlükdə dünya ticarəti ilə məşğul olan beynəlxalq təşkilatlar;

2) bir-biri ilə bağlı bir və ya bir neçə malların ticarəti məsələləri ilə məşğul olan beynəlxalq təşkilatlar.

Birinci qrupa daxildir:

1.Ticarət və Tariflər üzrə Baş Saziş - GATT;
2.Dünya Ticarət Təşkilatı - WTO;
3.Xidmətlər Ticarəti üzrə Baş Saziş - GATS;
4.BMT-nin Ticarət və İnkişaf Konfransı - UNCTAD;
5.BMT-nin Beynəlxalq Ticarət Hüququ Komissiyası - UNSİTRAL;
6.Beynəlxalq Ticarət Palatası - ICC.

Beynəlxalq ticarətin ayrı-ayrı malların tənzimlənməsi üzrə ixtisaslaşan ikinci qrup təşkilatlar:

1.Neft İxrac edən Ölkələrin Təşkilatı - OPEK;
2.Beynəlxalq Metal İstehsalçıları və İxracatçıları Təşkilatı;
3.Dəmir Filizi İxrac edən Ölkələr Assosiasiyası;
4.Mis İxrac edən Ölkələrin Təşkilatı;
5.Avropa Kömür və Polad Təşkilatı;
6.BKK - Beynəlxalq Kakao Təşkilatı
7.Beynəlxalq Qəhvə Təşkilatı;
8.Beynəlxalq Natural Kauçuk Təşkilatı;
9.Beynəlxalq Şəkər Təşkilatı və s..

Dünya ticarəti inkişaf etdikcə bu prosesdə dövlətlərin iştirakı məsələsi daha da aktuallaşır. Hazırda dövlətin dünya ticarətinə münasibətinin iki konsepsiyası proteksionizm və fritrederlik formalaşmışdır.

Proteksionizm (*latınca* - protectio - *himayəçilik, müdafiə*) iqtisadi himayəçilik, milli biznesin xarici bazarlarda genişlənməsi şəraitinin yaradılması, xarici malın birbaşa və vasitəli məhdudlaşdırılmasının müxtəlif formalarından istifadə edilməklə milli iqtisadiyyatın sahələrini xarici rəqabətlərdən mühafizə məqsədi ilə aparılan siyasətdir. Konkret anlamda proteksionizm (*protectionism*) milli bazarın xarici rəqabətdən gömrük tarifləri və qeyri-tarif tənziməmə metodlarından istifadə yolu ilə müdafiəsi siyasətidir.

Xarici ticarətdə proteksionizm ideyası merkantilistlər tərəfindən hələ XV-XVII əsrlərdə formalaşmışdır.

Fritreyderlik (*ingiliscə* - free trade - *azad ticarət*) azad ticarət və təsərrüfat həyatına dövlətin müdaxilə etməməsini təşviq edən iqtisadi cərəyandır. Fritrederlik dövlətin xarici ticarətə bilavasitə müdaxiləsinə yol verməyən və bununla da tələb və təklifin sərbəst qüvvələrinin təsiri ilə inkişaf etməyə imkan yaradan ənənəvi azad ticarət siyasətidir. Bu siyasət ticarətlə məşğul olan hər bir ölkədə buraxılan məhsulun həcmini maksimuma çatdırmağa imkan yaratmaqla istənilən ölkənin maraqlarına cavab verir. Azad ticarət konsepsiyası olan fritrederlik sənaye inqilabı dövründə geniş yayılmışdır. Bu konsepsiyaya görə, dövlət daxili bazarı xarici malların, kapitanın və işçi qüvvəsinin üzünə açaraq, xarici ticarətin liberallaşdırılması siyasətini yeridir.

Real həyatda dövlət özünün xarici siyasətində həm proteksionizm, həm də fritrederlik elementləri yaratmağa məcburdur. Reallıq belədir ki, müasir dövlət xarici ticarət sahəsində öz siyasət konsepsiyasını nəinki bəyan etməli, həm də müxtəlif alətlərdən istifadə əsasında onun reallaşması tədbirlərini qəti həyata keçirməlidir. Bir qayda olaraq, bu siyasət konsepsiyasını iki qrupa bölürlər.

Birinci qrup - gömrük rüsumları. Gömrük rüsümü (*customs duties*) idxal və ya ixrac zamanı malların gömrük sərhədindən keçirilməsi zamanı gömrük orqanları tərəfindən tutulan məcburi ödəmədir.

Gömrük rüsumunun ödənişi idxal və ya ixracın ayrılmaz şərtidir və dövlət tədbirləri ilə məsburi ödənilir. Gömrük rüsumları idxal (*fiskal və proteksionist*), ixrac və həmçinin, tranzit ola bilər. Onlar vergi funksiyasını yerinə yetirir və dərəcələri milli səviyyədə müəyyən olunur. Gömrük rüsumları əmtəə təsnifləşdiriciləri əsasında qurulur ki, bunlar əmtəələri sahədən və emal dərəcəsindən asılı olaraq qruplaşdırır. Onlardan hər biri həm də çoxmənalı rəqəmli kodlara malikdirlər. Gömrük rüsumları, demək olar ki, həmişə ticarət edən ölkələrdə rifah səviyyəsini aşağı salır. Belə ki, istehlakçı bu zaman qiymətlərin yüksəlməsi və bazarın inhisarlaşdırılması meyili ilə qarşılaşır. İdxal mallarına olan qiymətlərin qalxması yerli mallara tələbi də məhdudlaşdırır. Bundan başqa, yüksək idxal rüsumları tətbiq edən ölkə onun ixrac məhsulları daxil olan dövlətin cavab reaksiyasında itirir. Əgər ölkə bu və ya digər malın iri istehsalçısıdırsa, bu malın dünya qiymətlərinə təsir etmək iqtidarındadırsa, onda tariflərin elə səviyyəsini tapmaq olar ki, ona təmiz uduş gətirmiş olsun.

Tarif (*təyin etmə, müəyyənləşdirmə*, *ingiliscə* - tariff - *tarif*) şirkətlər, təşkilatlar və təsisatlar tərəfindən müxtəlif istehsal və qeyri-istehsal xidmətlərinin ödəniş (*tədiyə*) dərəcələri sistemidir. Tariflər kateqoriyasına, həmçinin, əməyin ödəniş dərəcələri sistemi də aid edilir. Beynəlxalq ticarətdə idxal və ixrac tarifləri gömrük tarifi adlanır.

Gömrük rüsumları ümümilkdə gömrük tariflərində ehtiva olunur. Gömrük tarifləri (*customs tariff*) idxal və ya ixrac edilən əmtəələrin gömrük rusumları dərəcələrinin məsmusunu ifadə edir. Gömrük tarifləri beynəlxalq ticarət sahəsində reallaşdırılan ölkə iqtisadiyyatının gömrük tənzimlənməsi siyasətinin klassik aləti olaraq çıxış edir.

Dövlət tənzimlənməsi alətlərinin ikinci qrupu - qeyri-tarif məhdudiyyətləridir.

Qeyri-tarif məhdudiyyətləri (*non-tariff restrictions*) xarici ticarətin tənzimlənməsi aləti olaraq gömrük-tarif siyasəti çərçivəsindən kənara çıxan iqtisadi və inzibatı tədbirlər məsmusudur. Qeyri-tarif məhdudiyyətləri qeyri-tarif maneləri və qeyri-tarif baryerləri (*nontariff barriers*) də adlanır. Bu məhdudiyyətlərə idxala inzibati qadağa, kəmiyyət məhdudiyyətləri (*kvotalaşma*), səhyyə, təhlükəsizlik, ekoloji standartların tətbiqi, minimal qiymətin müəyyən edilməsi, malların çəkilib qablaşdırılması və markalanması qaydalarının tətbiqi və s. aiddir.

Bazar iqtisadiyyatlı ölkələr üçün ixrac rüsumları xarakterik deyil. Onlar hər hansı malın ixracını az qazanclı edir ki, bu da istehsalçıların və ixracatçıların gəlirlərini aşağı salır. Lakin bununla belə, ixrac rüsumları daxili qiymətlərin aşağı düşməsinə təsir edir ki, bu da, öz növbəsində, istehlakçılar üçün əhəmiyyətli və xeyirlidir. Bununla belə, həm idxal, həm də ixrac rüsumları bütövlükdə ölkənin dövriyyə qabiliyyətliliyi və milli təhlükəsizliyin təmin edilməsi maraqları ilə özünü doğrulda bilər. Beləliklə, dövlət bir ölkədən başqa ölkəyə əmtəə axınlarının həcminin tənzimlənməsinin müxtəlif çeşidli alətlərindən istifadə edərək ümumi iqtisadi siyasətdə müəyyən nəticələrə nail olur.

## 14.5. Dünya iqtisadiyyatının tənzimlənməsində beynəlxalq və regional inteqrasiya birlikləri

Dünya iqtisadiyyatının tənzimlənməsində beynəlxalq valyuta-kredit və maliyyə təşkilatları əhəmiyyət daşıyırlar. Beynəlxalq valyuta-maliyyə münasibətlərinin üstmilli tənzimlənməsi institutları arasında Beynəlxalq Valyuta Fondu və Dünya Bankının müəssisələri qabaqcıl yer tutur.

BVF kredit imkanlarını genişləndirmək məqsədilə xüsusi fondların yaradılması mexanizmləri həyata keçirir ki, bunlar öz məqsədləri, şərtləri və kreditin dəyəri ilə bir-birindən fərqlənir. Onların arasında aşağıdakıları göstərmək olar:

1. Kompensasiya və Gözlənilməz Kreditləşmə Fondu, CCFF (*Compensatory and Contingency Financing Facility, CCFF*) tədiyə balansının defisiti xarici səbəblərlə şərtli olan BVF üzv ölkələrinin kreditləşdirilməsi üçün nəzərdə tutulmuş fonddur.

2. Bufer (*ehtiyat*) Kreditləşmə Fondu, BSFF (*Buffer Stock Financing Facility, BSFF*) beynəlxalq müqavilələrə müvafiq olaraq bufer ehtiyatların yaradılmasında iştirak edən ölkələrin tədiyə balansının pisləşməsi ilə əlaqədar onlara kömək üçün yaradılan BVF fondudur.

3. Xarici Borcun Azaldılması və Xidməti üzrə Fond, DDSR (*Fund Support for Debt and Debt Service Reduction, DDSR*) BVF-in 1980-ci illərdə inkişaf etməkdə olan ölkələrin borc böhranının tənzimlənməsi məqsədi ilə yaradılan maliyyə yardımı fondudur.

4. Struktur İslahatlara Dəstək Fondu, SRF (*Supplemental Reserve Facility, SRF*)

bazar iqtisadiyyatına keçidi radikal iqtisadi və siyasi islahatlar yolu ilə həyata keçirən ölkələrə yönəldilən BVF fondudur.

Hazırda fəaliyyət göstərən dörd xüsusi fonddan başqa, BVF müntəzəm olaraq beynəlxalq valyuta münasibətlərinin kəskin problemlərini həll etmək məqsədilə müvəqqəti kredit fondları yaradır.

Dünya iqtisadiyyatının valyuta-kredit və maliyyə tənzimlənməsində bir-biri ilə sıx əlaqədə olan dörd maliyyə institutunu - Beynəlxalq Yenidənqurma və İnkişaf Bankını, Beynəlxalq İnkişaf Assosiasiyasını, Beynəlxalq Maliyyə Korporasiyasını və Çoxtərəfli İnvestisiyalar üzrə Zəmanət Agentliyini birləşdirən beynəlxalq qlobal kredit təşkilatı - Dünya Bankının rolu böyükdür. İnkişaf etməkdə olan ölkələrin iqtisadiyyatlarının kreditləşdirilməsi üçün nəzərdə tutulmuş bu bank, kommersiya banklarından fərqli olaraq, həmin ölkələrə texniki kömək göstərir və kreditlərdən daha səmərəli istifadəyə dair məsləhətlər verir. Bununla da o, inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatına yönələn kapital qoyuluşlarına hər cür köməklik göstərmiş olur. Onun oxşar mühüm maliyyə institutları BYİB və BİA da inkişaf layihələrini maliyyələşdirilməsində əhəmiyyət daşıyır. Vurğulanmalıdır ki, onlar arasında başlıca fərq kreditləşmə şəraitində maliyyə vəsaitlərinin formalaşması qaydasında və inkişaf etməkdə olan ölkələrə borcların verilməsi şərtlərindədir. BMT-nin ixtisaslaşdırılmış müəssisəsi statusuna malik olan IFC isə istehsal sahəsində sahibkarlığın dəstəklənməsi yolu ilə üzv ölkələrin iqtisadi artımına kömək göstərir, bununla da BYİB-in fəaliyyətini tamamlayır. Maliyyə cəhətdən müstəqil və ixtisaslaşdırılmış müəssisə olan DB-nin filialı kimi XX əsrin sonlarından fəaliyyət göstərməyə başlayan MİGA üzv dövlətlərdə, xüsusən də, inkişaf etməkdə olan ölkələrdə istehsal məqsədlərinə investisiyaların dəstəklənməsini təmin edir.

Dünya iqtisadiyyatının tənzimlənməsində beynəlxalq iqtisadi qeyri-hökumət və dövlətlərarası təşkilatların da rolu böyükdür:

Üçtərəfli komissiya (*trilateral commission*) dünya problemlərinin həlli axtarışı və müzakirəsi məqsədli Şimali Amerika, Qərbi Avropa və Asiyanın (*Yaponiya və Koreya Respublikasının timsalında*) nümayəndələrindən ibarət beynəlxalq təşkilatdır. 1973-cü ildə ABŞ-ın "Çeyz Manhetten bank"ın rəhbərliyinin təşəbbüsü ilə təsis edilimişdir. ABŞ, Qərbi Avropa və Yaponiyadan ən iri beynəlxalq korporasiyaların, siyasi elitaların və qabaqcıl iqtisadçıların üç yüzə qədər nümayəndəsini birləşdirən Üçtərəfli komissiya inkişaf etmiş ölkələr qarşısında duran iqtisadi və siyasi problemlərin təhlil edildiyi məruzələr hazırlayır, müxtəlif ölkələrin sahibkarları arasında əməkdaşlığın inkişafına kömək göstərir. ABŞ-ın Nyu-York, Fransanın Parıs və Yaponiyanın Tokio şəhərlərində mənzil-qərargahları var.

Dəyirmi masa, KO (*Roundtable KO*) qlobal problemlərin həllində biznesin rolunun yüksəldilməsi, beynəlxalq işgüzar əməkdaşlığın inkişafına və ölkələrarası iqtisadi əlaqələrin liberallaşmasına kömək, biznesin dünyada iqtisadi və sosial sabitliyinə olan məsuliyyətinin yüksəlməsi kimi məqsədləri ehtiva edən, ABŞ-ın, Qərbi Avropanın və

Yaponiyanın qabaqcıl sahibkarlarını birləşdirən qeyri-hökumət təşkilatıdır. 1986-cı ildə Niderlandın “Filips Elektroniks” şirkəti rəhbərliyinin təşəbbüsü ilə təsis edilmişdir.

Beynəlxalq Maliyyə İnstitutu, IIF (*Institute of International Finance, IIF*) banklararası elmi-tədqiqat, məsləhət və informasiya mərkəzidir. 1983-cü ildə təsis edilmişdir. Dünyanın 50 ölkəsindən 270 bank, broker şirkəti, investisiya fondları və digər maliyyə müəssisələrinin sahibkarlarını birləşdirir. Beynəlxalq Maliyyə İnstitutu, mahiyyəti etibarilə, peşəkar assosiasiya olub, iki əsas vəzifənin - maliyyə xidmətlərinin yüksək keyfiyyətinin və üzvlərinin peşəkar davranışının təmin edilməsinə istiqamətlənmişdir.

Dünya iqtisadiyyatının tənzimlənməsində ixtisaslaşmış beynəlxalq iqtisadi təşkilatlar kimi BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı - FAO və Sənaye İnkişafı Təşkilatı - UNİDO mühüm rola malikdirlər.

BMT-nin Sənaye İnkişafı Təşkilatı, UNIDO (*United Nations Industrial Development Organization, UNIDO*) inkişaf etməkdə olan ölkələrdə sənayeləşmənin sürətlənməsinə, sənayenin inkişafına və müvafiq sahədə yeni beynəlxalq iqtisadi qaydaların yaradılması kömək edən BMT-nin ixtisaslaşmış təşkilatıdır. 1966-cı ildə təsis edilmiş, 1985-ci ildə BMT-nin ixtisaslaşmış təsisatı statusunu almışdır. Təşkilatın üzvləri 171 dövlətdir. UNİDO-nun məqsədləri çevrəsində BMT sistemində sənaye əməkdaşlığı sahəsində koordinasiya rolunun həyata keçirilməsi, üzv ölkələrin sənaye inkişafına və əməkdaşlığına yardım, inkişaf etməkdə olan ölkələrə və keçid iqtisadiyyatlı ölkələrinə sənayenin restrukturizasiyası və özəlləşdirilməsində kömək göstərilməsi kimi missiyaları dayanır. UNİDO-nun maliyyə resursları mənbələri üzvölkələrin üzvlük haqları, BMT sisteminin başqa beynəlxalq təşkilatlarının yardım layihələrinin icrası üçün komissiya haqları və donor-ölkələrin əlavə könüllü ödəmələridir. Təşkilatın mərkəzi təsisatları Avstriyanın paytaxtı Vyana şəhərində yerləşir.

İslam Əməkdaşlıq Təşkilatı, İƏT (*Organisation of Islamic Cooperation, OIC*) İslam dünyası ölkələrinin beynəlxalq təşkilatıdır. İƏT 2011-ci ilə qədər İslam Konfransı Təşkilatı kimi fəaliyyət göstərmişdir. 1969-cu ildə Mərakeşin paytaxtı Rabat şəhərində müsəlman ölkələrinin dövlət və hökumət başçılarının konfransında yaradılmışdır. İƏT 60-a yaxın dövləti özündə birləşdirir. Bəzi ölkələrin müsəlman icmalarının, habelə bir sıra beynəlxalq təşkilatların nümayəndələri İƏT yanında müşahidəçi statusuna malikdirlər. İƏT BMT ilə sıx əməkdaşlıq edir və 1975-ci ildən BMT yanında müşahidəçi statusu almışdır. 1972-ci ildə qəbul edilmiş Nizamnaməsinə görə, təşkilatın ali orqanı dövlət və hökumət başçılarının konfransıdır. İƏT-in siyasi orqanı xarici işlər nazirləri konfransı, icraçı orqanı isə Baş katiblikdir. Baş katibliyin tərkibində bir sıra şöbələr, o cümlədə sosial-istisadi, elm və

texnika, Asiya, Afrika və həmçinin, beynəlxalq məsələlər, informasiya, insan hüquqları və azsaylı dini icma məsələləri, müsəlmanların qeyri-hökumət təşkilatları məsələləri şöbələri və başqa şöbələr işləyir. İƏT yanında onun konfranslarının qərarları ilə yaradılmış bir sıra tam müstəqil təşkilatlar fəaliyyət göstərir. Baş katibliyin iqamətgahı, Qüds İsrail işğalından azad edilənədək, müvəqqəti olaraq Səudiyyə Ərəbistanın Ciddə şəhərində yerləşir.

Beynəlxalq Enerji Agentliyi, BEA (*International Energy Agency, IEA*) İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (*İƏİT*) çərçivəsində muxtar beynəlxalq orqandır. Təşkilat 29 üzv ölkəni - ABŞ, AFR, Avstraliya, Avstriya, Belçika, Böyük Britaniya, Koreya Respublikası, Çexiya, Türkiyə, Danimarka, Finlandi ya, Fransa, İrlandiya, İspaniya, İsveçrə, İsveç, İtaliya, Kanada, Lüksemburq, Macarıstan, Niderland, Norveç, Polşa, Portuqaliya, Slovakiya, Yaponiya, Yeni Zelandiya, Yunanıstan və Estoniyanı birləşdirir. 1974-cü ildə Parisdə yaradılmışdır. Təşkilatın başlıca məqsədi enerji resursları və enerji xidmətlərinin tələb və təklifinin dünya strukturunun təkmulləşdirilməsi sahələrində beynəlxalq əməkdaşlığa köməkdir. Reallıqda təşkilat enerji resurslarını idxal edən ölkələrin maraqlarını qoruyur. Sistemin əsas prinsipi tədarüklə bağlı ciddi boşdayanmalar olduqda təşkilatın iştirakçıları arasında mövcud neft ehtiyatlarının yenidən bölüşdürülməsidir. BEA-nın iştirakçı ölkələri, həmçinin, enerji siyasətinin başqa aspektlərini də koordinasiya etmək barədə razılığa gəlmişlər. Təşkilatın illik ümumenerji və sahəvi hesabatları da geniş yayılmışdır. Mənzil-qərargahı Fransanın paytaxtı Paris şəhərindədir.

Asiya-Sakit okean İqtisadi Əməkdaşlığı, APEC (*Asian-Pacific Economic Cooperation, APEC*) regional ticarət, investisiya axınlarının asanlaşdırılması və liberallaşdırılması sahəsində Asiya-Sakit okean regionun 21 dövlətinin - Avstraliya, Buruney, Kanada, İndoneziya, Yaponiya, Koreya Respublikası, Malaziya, Yeni Zellandiya, Filippin, Sinqapur, Tailand, ABŞ, ÇXR, Honkonq, Tayvan, Meksika, Papua - Yeni Qvineya, Çili, Peru, Rusiya və Vyetnamın təmsil olunduğu hökumətlərarası forumudur. ASİƏ-nin məqsədi Asiya-Sakit okean regionunda dirçəlişin, iqtisadi artımın və regional əməkdaşlığın möhkəmləndirilməsidir. 1989-cu ildə Avstraliyanın təşəbbüsü ilə 12 dövlət tərəfindən təsis edilmişdir. Daimi mənzil-qərgahı yoxdur.

Dünya iqtisadiyyatının tənzimlənməsində aparıcı regional təşkilatların da rolu qiymətləndirilməlidir. Dünyanın ayrı-ayrı kontinentlərində yerləşmələrinə baxmayaraq bu təşkilatlar ümumilkdə dünya iqtisadiyatı əlaqlərində əhəmiyyət daşıyırlar. Onlar arasında daha mühümləri kimi isə aşağıdakılar çıxış edirlər:

Avropa-Asiya regionunda ən böyük dünya iqtisadi inteqrasiya birliyi Aİ-dir. Bu ittifaq coğrafiyasına görə yalnız Avropa sərhədlərini əhatə edir.

Avropa Şurası (*European Council*) Avropa bütün ölkələrinin (*47 ölkə*) təmsil

olunduğu yeganə panavropa təşkilatıdır. Avropa Şurasının məqsədləri insan hüquqları, vətəndaşlıq, beynəlxalq mülki hüquq, ətraf mühitin və mədəni irsin qorunması, milli azlıqların hüquqlarının müdafiəsi və s. kimi sferalarda Avropa ölkələrinin qanunvericilik bazaları arasında ziddiyətlətlərin arada qaldırılması proqramlarıdır.

Avropa İttifaqı, Aİ (*European Union, EU*) Avropanın 27 dövlətinin - Avstriya, AFR, İtaliya, Fransa, Belçika, Yunanıstan, Danimarka, İrlandiya, İspaniya, İsveç, Polşa, Portuqaliya, Ruminiya, Finlandiya, Niderland, Çexiya, Xorvatiya, Lüksemburq, Latviya, Litva, Estoniya, Macarıstan, Bolqarıstan, Malta, Sloveniya, Slovakiya və Kipr Rüspublikasının təmsil olunduğu siyasi və iqtisadi birlikdir. Aİ həm beynəlxalq təşkilatlara, həm də federativ dövlətə xas əlamətləri birləşdirir (*2016-cı ilə qədər Böyük Britaniya da Aİ-nin üzvü olmuşdur*).

Aİ-nin sələfi Avropa İqtisadi Birliyi olmuşdur. Avropa İqtisadi Birliyi, AİB (*European Economic Community, EEC*) 1957-1993-cü illərdə mövcud olmuş 12 Qərbi Avropa ölkəsi - AFR, İtaliya, Böyük Britaniya, Yunanıstan, Danimarka, İrlandiya, İspaniya, Portuqaliya, Niderland, Belçika, Lüksemburq və Fransanın iqtisadiyyatlarını inteqrasıya edən və iqtisadi ittifaqda birləşən ümumi bazar olmuşdur. AİB-nin məqsədini əvvəlcə Gömrük İttifaqı və müştərək bazar, daha sonra da bir çox milli siyasətin koordinasiyası və müştərək siyasətlər ilə iqtisadi birliyə nail olmaq təşkil etmişdir. 1993-cü ildə Maastrixt sazişi qüvvəyə mindikdən sonra AİB Avropa İttifaqı adlandırılmışdır.

Aİ üzv ölkələrin siyasətlərinin koordinasiyası uçün tədbirlər həyata keçirir. Burada həmcinin mudafiə və vahid xarici siyasət sahələrini koordinasiya uçün müvafiq tendensiyalar da mövcuddur. Bəzi məsələlər ittifaqın ümumi institutları, bəziləri isə üzv dövlətlərin nümayəndələrinin razılaşması ilə qəbul olunur. İttifaq tədricən iqtisadi təşkilatdan fövqəlmilli təşkilata təkamül edir. Hazırda Aİ dünyada ikinci böyük ÜDM-ə malikdir və bu göstərici 2017-ci il üzrə 17,1 trilyon ABŞ dolları təşkil edir. Təşkilatın mənzil-qərargahı Belçikanın paytaxtı Brüssel şəhərində yerləşir.

2016-cı ildə Böyük Britaniyada Aİ-dən çıxma üzrə referendum keçirilmişdir. Bu referendumda seçicilərin 52%-i çıxmağa, 48%-i isə Aİ-də qalmağa səs vermişlər. Böyük Britaniyanın Aİ-dən çıxması "Breksit" terminini dövriyyə gətirmişdir. "Breksit" (*ingilscə* - Brexit - *ölkənin qısaldılmış adı* - Britain və Exit - *çıxış sözlərinin uzlaşmasında*) konservativ müxalifətin və bir sıra ayrı-ayrı milliyətçi və avroskeptik yanaşmalı şəxslərin Böyük Britaniyanın Aİ-dən çıxmaq üzrə qarşıya qoyduqları siyası məqsəddir. Ölkənin Avropa İttifaqından tam çıxışı prosesinin 5-8 il çəkəcəyi proqnoz edilir. Bir sıra ekspert qiymətləndirmələrində Böyük Britaniyanın Aİ-dən çıxmasının iqtisadi nəticələrinin çox böyük olacağı qeyd edilir. Prosesin nəticələrinin Avropanın və hətta dünyanın belə siyasi, iqtisadi, ictimai xəritəsini dəyişdirəcək təsirdə olacağı, həmçinin, Aİ-də müvafiq "domino" effekti yaradacağı ehtimalı da böyük sayılır.

Avropa ölkələri mühüm iqtisadi və siyasi xarakter daşayan müxtəlif beynəlxalq

təşkilatların üzvləridirlər. Bu ölkələr həm də daxili kontinental birliklər də formalaşdırmışlar. Avro ölkələrinin, xüsusən də əksər Aİ dövlətlərinin ərazilərində kontenental inteqrasiyanın genişləşdirlməsi və azad hərəkətin təmini üçün Şengen zonası adlanan ərazidə gömrük-sərhəd nəzarəti sistemi aradan qaldırılmışdır.

Şengen zonası (*Schengen area*) bir sıra Avropa dövlətlərinin ərazilərində gömrük-sərhəd nəzarətinin sadələşdirildiyi və insanların azad hərəkət etdiyi zonadır. Hazırda bu zona 26 Avropa dövlətini - Avstriya, AFR, İtaliya, Fransa, Belçika, Yunanıstan, Danimarka, İspaniya, İslandiya, İsveç, Polşa, Portuqaliya, Norveç, Finlandiya, Niderland, Çexiya, Lixtinşteyn, Lüksemburq, Latviya, Litva, Estoniya, Macarıstan, Malta, Sloveniya, Slovakiya və İsveçrənin əhatə edir. Aİ üzv ölkələrindən Böyük Britaniya, İrlandiya, Ruminiya, Bolqarıstan, Xorvatiya və Kipr Respublikası Şengen zonasına daxil deyildilər. İslandiya, Lixtinşteyn, Norveç və İsveçrə kimi Aİ-nin üzvü olmayan ölkələr isə bu zonaya daxildirlər. Şengen zonası 14 iyun 1985-ci ildə 5 Avropa ölkəsi - Belçika, Niderland, Lüksemburq, Fransa AFR arasında Lüksemburqun Şengen şəhərində gömrük-sərhəd nəzarətinin ləğv olunması haqqında imzalanmış "Şengen razılaşması"na əsaslanır. Bu razılaşma 26 mart 1995-ci il tarixindən qüvvəyə minmişdir. Bununla da Şengen zonası ölkələri arasında sərhəd yoxlama məntəqələri ləğv olunmuş və Şengen vizası almış turist və qonaqların zona daxilində sərbəst hərəkəti təmin edilmişdir.

Avropa cərçivəsində, həmçinin, Aİ-nin valyutası avronun (*euro*) tətbiq edilidiyi müvafiq avrozona da fəaliyyət göstərir. Avrozona (*Eurozone*) Aİ-nin rəsmi valyutası avronun tətbiqi ilə bağlı, milli valyutası avro olan 19 dövləti - Avstriya, AFR, İtaliya (*Kampione-d-İtaliya istisna olmaqla*), Fransa (*Yeni Kaledoniya, Fransız Polineziyası, Uollis və Futuna istisna olmaqla*), Belçika, Yunanıstan, İrlandiya, İspaniya, Portuqaliya, Finlandiya, Niderland (*Aruba, Kyupasao, Sint-marten, Niderlan Karibi istisna olmaqla*), Lüksemburq, Latviya, Litva, Estoniya, Malta, Sloveniya, Slovakiya və Kipr Rüspublikasını (*Şimali Türk Kipr Respublikası istisna olmaqla*) birləşdirən valyuta birliyidir. Bu dövlətlər avro və avro sentləri buraxmaq hüququna malikdirlər. Avrozona dövlətlərinin pul-kredit siyasətinə Avropa Mərkəzi Bankı cavabdehdir.

Avropa cərçivəsində, həmçinin, aşağıdakı birləşmələr mövcuddur:

Şimal Şurası (*Nordic Council*) 1952-ci ildə təsis edilmiş, 1971-ci ildə isə Şimal Nazirlər Şurası yaradılmışdır. Üzvləri, əsasən, Skandinaviya ölkələri olan İsveç, Norveç, Finlandiya, İslandiya, Danimarkadır. Buraya, həmçinin, muxtar ərazilər: Qrenlandiya (*Danimarka*). Şimal Şurası Şimali Avropa ölkələrinin parlamentləri və hökumətləri arasında əməkdaşlığın koordinasiyasını həyata keçirir.

Azad Ticarət üzrə Avropa Assosiasiyası, EFTA (*European Free Trade Association, EFTA*) Avropa iqtisadi birliyinə əks olaraq 1960-cı ildə Böyük Britaniyanın təşəbbüsü ilə yaradılmış, bir sıra Avropa ölkələrinin daxil olduğu regional icarət-iqtisadi qruplaşmadır. Hazırda

yalnız İslandiya, Lixtenşteyn, Norveç və İsveçrə EFTA-nın üzvüdür. Məznil-qərargahı İsveçrənin Cenevrə şəhərində yerləşir.

Mərkəzi Avropa Azad Ticarət Assosiasiyası, CEFTA (*Central Europe Free Trade Association, CEFTA*) Aİ üzvü olmayan ölkələr arasında 21 dekabr 1992-ci ildə imzalanmış Vışeqradsk (*Macarıstanın şəhəri*) razılaşmasının varisi olan beynəlxalq təşkilatdır. Hal-hazırda bu təşkilatın üzvləri Albaniya, Bosniya və Herseqovina, Makedoniya, Moldova, Monteneqro, Serbiya və Kosovo Respublikasıdır.

Benilüks (*Benelux - Belçika, Niderland və Lüksemburqun adlarından yaranan akronium*) Belçika, Niderlandland və Lüksemburqun təmsil olunduğu siyasi, iqtisadi və gömrük ittifaqıdır. 3 fevral 1958-ci ildə təsis olunmuşdur. İttifaq hər üç dövlətin nümayəndələrinin daxil olduğu parlamentə və məhkəməyə malikdir. Mənzil-qərərgahı Belçikanın paytaxtı Brüssel şəhərində yerləşir.

Arktika Şurası (*Arctic Council*) şimal qütb zonasının unikal təbiətinin müdafiəsi məqsədi ilə Finlandiyanın təşəbbüsü ilə 1989-cu ildə yaradılmış beynəlxalq təşkilatdır. Arktika Şurasına səkkiz qütb ölkəsi - Danimarka, Finlandiya, İslandiya, Kanada, Norveç, Rusiya, İsveç və ABŞ daxildir. Müşahidəçi ölkələr - Böyük Britaniya, Fransa, AFR, Niderland, Polşa və İspaniyadır. Mənzil-qərərgahı Norveçin Tromsye şəhərində yerləşir.

Baltika Assambleyası (*Baltic Assembly*) 1991-ci ildə əsası qoyulmuş, Estoniyanın, Latviyanın və Litvanın parlamentləri arasında əməkdaşlıq üzrə məsləhətçi orqandır. Şura fəaliyyətləri əlaqələndirir, üç ölkənin parlamentlərinə məsləhətlətlərini verir, qətnamələr, qərarlar və tövsiyələr şəklində razılaşdırılmış mövqeləri bəyan edir. Mənzil-qərərgahı Latviyanın paytaxtı Riqa şəhərində yerləşir.

Baltik Dənizi Dövlətlərinin Şurası (*Council of the Baltic Sea States, CBSS*) Baltika regionunda əməkdaşlığı koordinasiya etmək üçün 1992-ci ildə Kopenhagendə Baltik dənizi ölkələrinin xarici işlər nazirlərinin konfransında təsis edilmişdir. Şuraya 11 ölkə - AFR, Danimarka, Latviya, Litva, Norveç, Polşa, Rusiya, Finlandiya, İsveç, Estoniya, İslandiya və həmçinin, Avropa Cəmiyyətləri Komissiyası daxil olmuşlar. Mənzil-qərərgahı İsveçin paytaxtı Stokholm şəhərində yerləşir.

Barents-Avroarktik Bölgəsi Şurası (*Barents Euro-Arctic Council, BEAC*) 1993-cü ildə təsis edilmiş regional əməkdaşlıq forumudur. Şuraya Danimarka, İslandiya, Norveç, Rusiya, Finlandiya, İsveç və həmçinin, Avropa Cəmiyyətləri Komissiyası daimi üzvlər kimi daxil olmuşlar. Doqquz ölkə - Böyük Britaniya, AFR, İtaliya, Kanada, Niderland, Polşa, Fransa, ABŞ, və Yaponiya şurada müşahidəçi statusuna malikdirlər.

Bununla belə, regionda yalnız Avropa və Asiya sərhədlərini və eyniliklə də Avrasiya ölkələri birliyi çərçivəsində inteqrasiyanı iqtisadi və digər sahələrdə təmin edən çoxsaylı beynəlxalq və regional təsisatlar da mövcuddur. Bu sırada MDB, NATO, ATƏT, QİƏT, AİƏT, GUAM, ŞƏT, Şimal Şurası, CEFTA, Benilüks, Demokratiya və İqtisadi İnkişaf Uğrunda Təşkilat, Avrasiya İqtisadi İttifaqı, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı, Arktika Şurası, Baltik Şurası Baltika Dənizi Dövlətlərinin Şurası, Barens-Avroarktik bölgəsi şurası, Rusiya və Belarusun ittifaq dövləti və s. fərqlənirlər.

Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, QİƏT (*Organization of Black Sea Economic Cooperation, BSEC*) Qara dəniz ətrafı və Cənubi Balkan regionunun 12 dövlətini - Türkiyə, Azərbaycan, Albaniya, Bolqarıstan, Yunanıstan, Gürcüstan, Moldova, Rusiya, Serbiya, Rumıniya, Ukrayna və Ermənistanı birləşdirən hökumətlərarası təşkilatdır. 1999-cu ildə 1992-ci ildən fəaliyyət göstərən "Qara dəniz İqtisadi Əməkdaşlığı" təşkilatı bazası əsasında yaradılmışdır. Məqsədi iştirakçı ölkələrin daha sıx iqtisadi əməkdaşlığı, malların, kapitalın, xidmətlərin və işçi qüvvəsinin azad hərəkəti və bu ölkələrin iqtisadiyyatlarının dünya iqtisadiyyatı sisteminə inteqrasiyasıdır. 1990-cı ildə Türkiyə prezidenti Turqut Ozal SSRİ, Türkiyə, Rumıniya və Bolqarıstanın iştirakı ilə "Qara dəniz çiçəklənmə və əməkdaşlıq zonası"nın yaradılması təşəbbüsü ilə çıxış etmişdir. Birinci sənəd imzalanarkən SSRİ yox olduğundan regionun geosiyasi xəritəsi kökündən dəyişmişdir. Təşkilatın nəzdində Qara dəniz Ticarət və İnkişaf Bankı təsis olunmuşdur. Şərti olaraq QİƏT-in strukturu dörd tərkib hissədən ibarətdir: hökumətlərarası (*xarici işlər nazirlər şurasının sammit və sessiyaları*); sahibkarlıq (*QİƏT-nin İşgüzar Şurası - sahibkarlıq təşəbbüslərinin koordinasiya orqanı*); maliyyə (*Qara Dəniz Ticarət və İnkişaf Bankı*); akademik (*Qara dəniz hövzəsi dövlətlərinin vahid regional akademik şəbəkəsi formalaşır ki, onun da analoji Avropa şəbəkələrinə inteqrasiyası nəzərdə tutulur*). Təşkilatın mənzil-qərargahı Türkiyənin İstanbul şəhərində yerləşir.

Avrasiya İqtisadi Əməkdaşlıq Təşkilatı, EECO (*Eurasian Economic Cooperation Organization, EECO*) Avrasiya qitəsində iqtisadi sahədə müxtəlif maraqlı tərəflərin qarşılıqlı münasibətləri və əməkdaşlığı məsələləri ilə məşğul olan beynəlxalq iqtisadi, qeyri-hökumət təşkilatıdır. 2012-ci il noyabrın 9-da Sürix şəhərində (*Sürix Konfederasiyası*) Avrasiya İqtisadi Əməkdaşlıq Təşkilatının təsis edilməsi haqqında Konvensiya (*Sürix Konvensiyası*) imzalanmışdır. Konvensiyanın ideologiyasına EECO-ya Əməyin Beynəlxalq Təşkili prinsipi və normalarına əsaslanan, EECO-nun sosial tərəfdaşlıq orqanlarında iştirakını, işəgötürənlər, işçilərin nümayəndələri və dövlət hakimiyyəti orqanları arasında münasibətlərin inkişafını tənzimləyən sosial-əmək müqavilələrinin və bununla bağlı iqtisadi münasibətləri hazırlanmasında iştirakı nəzərdə tutan Avrasiya İşəgötürənlər Birliyinin statusunu verən prinsiplər qoyulmuşdur. Təşkilatın mənzil-qərargahı İsveçrə Konfederasiyasının Sürix şəhərində yerləşir.

Trans-Sakit Okean Tərəfdaşlığı, TPP (*Trans-Pacific Partnership, TPP*) tarif baryerlərini məhdudlaşdıran və üzv dövlətlərdə müvafiq sahələr (*əmək hüququ, ekologiya, intellektual mülkiyyət və s.*) üzrə daxili qaydaları tənzimləyən Asiya-Sakit okean regionun 12 ölkəsini - ABŞ, Kanada, Meksika, Peru, Çili, Yaponiya, Malaziya, Bruney, Sinqapur, Vyetnam, Avstraliya və Yeni Zelladiyanı əhatə edən ticarət sazişidir. 2015-ci ilin 5 oktyabırında bağlanılmışdır. Asiya-Sakit Okean regionuna dünya iqtisadiyyatının 40% və Sakit okean ölkələri ticarətinin üçdə bir hissəsi düşür. Trans-Sakit okean Tərəfdaşlığı çərçivəsində azad ticarət zonasının yaradılması planlaşdırılır. Mənzil-qərərgahı Yeni Zelandiyanın Vellinqton şəhərində yerləşir.

İqtisadi Əməkdaşlıq Təşkilatı, ECO (*Economic Cooperation Organization, ECO*) Orta Asiya və Yaxın Şərq ölkələri - Pakistan, Türkiyə, İran, Azərbaycan, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Əfqanıstanın regional iqtisadi əməkdaşlığı üzrə birləşdiyi hökumətlərarası təşkilatdır. 1985-ci ildə təsis olunmuş və 1977-ci ildə Pakistan, Türkiyə və İran arasında İzmir müqaviləsi əsasında yaradılmış Regional əməkdaşlıq təşkilatının varisidir. ECO BMT Nizamnaməsinə uyğun xüsusi təşkilat kimi üzv ölkələrin ticarətinin inkişafının və investisiya imkanlarının yaxşılaşması yollarının müzakirəsi üçün platforma keyfiyyətində çıxış edir. Məqsədi Aİ-yə bənzər vahid mal və xidmətlər bazarının yaradılmasından ibarətdir. ECO-nun katibliyi Tehranda, iqtisadi bürosu Türkiyədə, elmi bürosu Pakistanda yerləşir.

Demokratiya və İqtisadi İnkişaf Uğrunda Təşkilat, GUAM (*Organization for Democracy and Economic Development, GUAM*) 1997-ci ildə dörd ölkə - Gürcüstan, Ukrayna, Azərbaycan, Moldova tərəfindən yaradılmış dövlətlərarası regional təşkilatdır. Adı üzv ölkələrin adlarının ingilis dilindəki baş hərflərindən əmələ gəlir. 1999-cu ilin aprelindən 2006-cı ilə qədər Özbəkistan da bu təşkilatın üzvü olmuşdur. Həmin vaxt təşkilat QUUAM adlanırdı. GUAM dövlətləri ərazilərində mövcud olan münaqişələrin həlli məqsədilə bir sıra tədbirlər görməkdədirlər. Qərargahı Ukraynanın paytaxtı Kiyev şəhərində yerləşir.

Şanxay Əməkdaşlıq Təşkilatı, ŞƏT (*Shanghai Cooperation Organization, SCO*) üzvləri Qazaxıstan, Qırğızıstan, Rusiya, Tacikistan, Özbəkistan, Çin olan beynəlxalq regional əməkdaşlıq təşkilatıdır. 2001-ci ildə təsis edilmişdir. 2015-ci ilin 10 iyulunda Başqırdıstanın paytaxtı Ufa şəhərində (*Rusiya Federasiyası*) keçirilən zirvə toplantısında Hindistan və Pakistanın da bu sıraya qoşulması ilə ŞƏT dünyada ən böyük təşkilatlardan birinə çevrilmişdir. ŞƏT-in üzv dövlətlərinin ümumi sahəsi 34 milyon km$^2$-ə qədərdir ki, bu

da Avrasiya ərazisinin $^{3}/_{5}$ hissəsini təşkil edir, Bu ərazidə Yer kürəsi əhalisinin təxminən yarısı - 3,4 milyard nəfər insan yaşayır. Əfqanıstan, İran, Monqolustan və Belarus ŞƏT yanında müşahidəçi dövlətlərdir. Azərbaycan ŞƏT-də tərəfdaş ölkə statusu ilə çıxış edir. Həmin statusa Türkiyə, Şiri-Lanka, Komboca, Nepal və Ermənistan da malikdir. SİT ticarət-iqtisadi məsələlərlə məşğul olur, kollektiv təhlükəsizliklə bağlı funksiya yerinə yetirir. Lakin o, hərbi blok (*NATO kimi*) və ya təhlükəsizlik üzrə müntəzəm müşavirə (*ASEAN Regional Forumu*) olmayaraq aralıq mövqe tutur. Təşkilatın başlıca vəzifələri kimi iştirakçı dövlətləri birləşdirən geniş məkanda sabitliyin möhkəmləndirilməsi, terrorizmlə, separatizmlə, ekstremizmlə, narkotrafiklə mübarizə, iqtisadi əməkdaşlığın, energetik tərəfdaşlığın, elmi və mədəni qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi bəyan edilmişdir. ŞƏT-in ilk sənədi "Terrorizm, separatizm və ekstremizmlə mübarizə haqqında Konvensiya" (*2001*) olmuşdur. Təşkilatın nəzdində mənzil-qərargahı Özbəkistanın paytaxtı Daşkənd şəhərində yerləşən regional antiterror struktur (*RATS*) yaradılmışdır. ŞƏT-in rəsmi dili rus və çin dilləridir. Mənzil-qərargahı ÇXR-in paytaxtı Pekin şəhərində yerləşir.

Bütün bunlardan başaqa Avrasiya regionunda bir sıra irili-xırdalı regional iqtisadi təşkilatlar - Macarıstan, Polşa, Rumıniya, Slovakiya, Sloveniya və Çexiyanın təmsil olunduğu, 1992-ci ildə təsis edilmiş Azad ticarət haqqında Mərkəzi Avropa sazişi, Latviya, Litva və Estoniya təmsil olunduğu, 1993-cü ildə təsis edilmiş Baltika Azad Ticarət Zonası, Banqladeş, Hindistan, Koreya Respublikası, Laos və Şiri-Lankanın təmsil olunduğu, 1993-cü ildə təsis edilmiş Ticarət Zonası Haqqında Banqhok sazışı və digər bu kimi birlik və ittifaqlar da mövcuddur.

Amerika regionunda:

<u>Amerika Dövlətləri Təşkilatı, OAS</u> (*Organization of American States, OAS*) 1889-cu ildən mövcud olan Panamerikan təşkilatı bazası əsasında yaradılmış, əsas məqsədi müvafiq dövlətlərarası iqtisadi, hüquqi, sosial və mədəni münasibətlər təşkil edən dövlətlər arası regional təşkilat. 1948-ci ildə təsis olunmuşdur. OAS reallıqda həm də qərb yarımkürəsində təhlükəsizliyin təminatı və hərbi əməkdaşlıq istiqamətlərində işini davam etdirir. OAS-da 35 üzv dövlət - Antiqua-Barbuda, Argentina, Baham adaları, Barbados, Beliz, Boliviya, Braziliya, Venusuela, Haiti, Qayana, Qvatemala, Honduras, Qrenada, Dominika, Dominikan Respublikası, Kanada, Kolumbiya, Kosta-Rika, Kuba, Meksika Birləşmiş Ştatları, Nikaraqua, Panama, Öraqvay, Peru, Salvador, Sent-Vinsent və Qrenadin, Sent-Kits və Nevis, Sent-Lüis, ABŞ, Surinam, Trinidad və Taboqo, Uruqvay, Çili, Ekvador və Yamaykanı təmsil olunmuşdur. Mənzil-qərargahı ABŞ-ın paytaxtı Vaşinqtonda yerləşir.



Regionda 1960-cı ildə Latın Amerikan Azad Ticarət Assosiasiyası təşkil edilmişdir. Assosiasiya qarşısına ümumi regional bazarın formalaşması məqsədini qoysa da bu işdə əsaslı nailiyyətlər əldə olunmamışdır. Təşkilat 1980-ci ildə Latın Amerikan İnteqrasiya Assosiasiyasına çevrilmişdir.

Latın Amerikan İnteqrasiya Assosiasiyasına, ALADI/LAIA (*Latin American Integration Association, ALADI/LAIA*) regional iqtisadi əməkdaşlığın və ticarətin inkişafı, regional bazarın formalaşması məqsədli 11 ölkəni - Argentina, Boliviya, Braziliya, Venesuela, Kolumbiya, Meksika, Paraqvay, Uruqvay, Peru, Ekvador və Çilini əhatə edən dövlətlərarası regional birlikdir. Hüquqi əsasını 1980-ci il "Montevideo Müqaviləsi" təşkil edir. ALADI-nin mənzil-qərargahı Uruqvayın paytaxtı Montevideo şəhərində yerləşir.

Latın Amerikan İqtisadi Sistemi, SELA (*Sistema Economico Latinoamericano, SELA*) inkişaf planlarının koordinasiyası, inteqrasiya proseslərinin, iqtisadi layihələrin və tədqiqatların həyata keçirilməsinə kömək, iştirakçılar arasında informasiya mübadiləsi və məsləhətləşmələr aparma üzrə 26 Latın Amerikası ölkəsi - Argentina, Barbados, Boliviya, Braziliya, Venusuella, Haiti, Qayana, Qvatemala, Honduras, Qrenada, Dominikan Respublikası, Kolumbiya, Kosta-Rika, Kuba, Meksika Birləşmiş Ştatları, Nikaraqua, Panama, Paraqvay, Peru, Salvador, Surinam, Trinidad və Taboqo, Uruqvay, Çili, Ekvador və Yamaykanı əhatə edən dövlətlərarası regional iqtisadi təşkilat. 1975-ci ildə təsis edilmişdir. Mənzil qərargahı Venusuellanın paytaxtı Karakas şəhərində yerləşir.

Bu regionda Azad Ticarət Haqqında Şimalı Amerika sazişi adlı regional təşkilat da öncül səciyyə daşıyır. Azad Ticarət Haqqında Şimali Amerika Sazişi, NAFTA (*North American Free Trade Agreement, NAFTA*) Kanda, ABŞ və Meksika Birləşmiş Ştatları arasında azad ticarət üzrə bağlanmış saşış üzrə yardılan dövlətlərarası regional birlikdir. 1992-ci ildə təsis edilmişdir. NAFTA daimi mənzil-qərargaha malik deyil.



Regionda, həmçinin, 1991-ci ildə yaradılmış və vahid kömrük tarifləri ittifaqına çevrilmiş Cənubi Amerika ölkələrinin ümumi bazarı - MERCOSUR qruplaşması da güc toplamaqdadır. Cənubi Amerika ölkələrinin ümumi bazarı, MERCOSUR (*ispanca - Mercado Comu'n del Cono Sur. ingiliscə - Southern Common Market*) Argentina, Braziliya, Uruqvay, Paraqvay və Venesuela arasında regional ümumi bazarı ehtiva edən iqtisadi və siyasi saziş əsasında yaradılmış regional təşkilatdlır. Mənzil-qərargahı Uruqvayın paytaxtı Montevideo şəhərində yerləşir.

Karib Ölkələri Assosiasiyası (*Association of Caribbean States, ACS*) iqtisadi inteqrasiya, ticarətin və investisiyaların liberallaşması, ictimai sahədə və mədəni əlaqələrdə əməkdaşlıq, ətraf mühitin qorunması kimi məqsəd və vəzifələri ehtiva edən 25 ölkə - Baham adaları, Barbados, Beliz, Kolumbiya, Boliviya, Kosta-Rika, Kuba, Dominik, Dominikan Respublikası, Salvador, Qrenada, Qvatemala, Qayana, Haiti, Honduras, Yamayka, Meksika Birləşmiş Ştatları, Nikaraqua, Panama, Sent-Kist

və Nevis, Sent-Lüis, Sent-Vinsent və Qrenadin, Surinam, Trinidad və Tobaqo, Venesuela və 14 asılı ərazi və koloniyanı birləşdirən hökumətlərarası iqtisadi təşkilatdır. 1995-ci ildə təsis olunmuşdur.

Amazon paktı, ACTO (*ingiliscə - The Amazon Cooperation Treaty Organizatio, ACTO - Amazon Müqaviləsi Əməkdaşlığı Təşkilatı, AMƏT, portuqal dilində - Organização do Tratado de Cooperação Amazônica*) Amazon çayı və onun hövzəsində təbii sərvətlərdən səmərəli istifadə və buradakı irsin qorunması sahəsində 8 cənubi Amerika ölkəsi Boliviya, Braziliya, Venesuela, Qayana, Kolumbiya, Peru, Surinam və Ekvadorun təmsil olunduğu beynəlxalq regional təşkilatdır. 1998-ci ildə yenidən təsis edilmişdir. Mənzil-qərargahı Perunun paytaxtı Lima şəhərindədir.

Mərkəzi Amerika Ümumi Bazarı, MCCA (*ispanca - Mercado Común Centroamericano, MCCA, ingiliscə - The Central American Common Market, CACM - Mərkəzi Amerika Ümumi Bazarı*) Qvatemala, Honduras, Kosta-Rika, Nikaraqua və Salvadorun təmsil olunduğu ticarət-iqtisadi ittifaqıdır. 1969-cu ildə Honduras və Salvador arasında "futbol mühasribələri" ilə dağılmış və 1991-ci ildə yenidən bərpa olunmuşdur.

La-Plat qrupu (*ispanca - Organization de la Cuenca de la Plata, ingiliscə - Organization of the River Plate Basin - River Pleyr Hövzəsi Təşkilatı*) Cənubi Amerikada Argentina, Braziliya, Boliviya, Paraqvay və Uruqvayın təmsil olunduğu ticarət-iqtisadi ittifaqdır. 1969-cu ildə təsis edilmişdir. Mənzil-qərargahı Argentinanın paytaxtı Buenos-Ayres şəhərində yerləşir.

And Subregional İnteqrasiya Sazişi, AISA (*ispanca - Acuerdo de Integración Subregional Andino -Acuerdo de Cartagena, AİSA, ingiliscə - Andean Subregional Integration Agreement - Cartagena Agreement - And Subregional İnteqrasiya Sazişi - Kartaxen Sazişi*) Cənubi Amerikada Boliviya, Kolumbiya, Ekvador, Çili və Perunun təmsil olunduğu And qrupu kimi də tanınan ticarət-iqtisadi ittifaqdır. 1969-cu ildə təsis edilmişdir. Mənzil-qərargahı Perunun paytaxtı Lima şəhərindədir.

Karib Birliyi, CARICOM (*Caribbean Community*) Cənubi Amerika ölkələri - Antiqua və Barbuda, Baham adaları, Barbados, Beliz, Dominika, Qrenada, Qayana, Haiti, Yamayka, Montserrat, Sent-Kist və Nevis, Sent-Lüis, Sent-Vinsent, Trinidad və Tobaqo və Surinamın təmsil olunduğu ticarət-iqtisadi ittifaqdır. 1973-cü ildə təsis edilmişdir. Mənzil-qərargahı Qayananın paytaxtı Corctaun şəhərindədir.

Şərqi-Karib Dövlətləri Təşkilatı, OECS (*Organisation of Eastern Caribbean States, OECS*) Karib hövzəsi ölkələri - Antiqua və Barbuda, Baham adaları, Barbados, Beliz, Dominika, Qrenada, Montserrat, Sent-Kist və Nevia, Sent-Lüis, Sent-Vinsent və Qrenadinin təmsil olunduğu iqtisadi və valyuta ittifaqıdır. 1981-ci ildə təsis edilmişdir. İnzibati mərkəzi Sent-Lüis adasında yerləşir.

Amerika regiounundа, həmçinin, sərhədlə bağlı bir sıra ölkələr müvafiq azad iqtisadi zonlar yaratmaqla da əməkdaşlıq edirlər.

Asiyada və Afrika kontinentlərində dövlətlaarası regional qruplaşmaların hüquqi müqaviləşməsi daha sonrakı dövrlərə təsadüf edir. Onların inteqrasiyalaşma istiqamətdə nailiyyətləri daha nisbi səciyyə daşıyır. Bu, həmin ölkələrin əksəriyyətinin iqtisadi geriliyi və onlar arasındakı münasibətlərin gərginliyi ilə izah olunur.




Cənubi Asiya Regional Əməkdaşlıq Assosiasiyası, SAARC (*South Asian Association for Regional Cooperation, SAARC*) Cənubi Asiyanın 8 ölkəsi Pakistan, Banqladeş, Əfqanıstan, Hindistan, Nepal, Butan, Maldiv və Şri-Lankanın təmsil olunduğu sosial-iqtisadi sferada çoxcəhətli əməkdaşlığına yardım göstərən beynəlxalq təşkilatdır. 1985-ci ildə təsis edilmişdir. Mənzil-qərargahı Nepalın paytaxtı Katmandu şəhərində yerləşir.



Cənub-Şərqi Asiya dövlətləri Assosiasiyası, ASEAN (*Association of Southeast Asian Nations, ASEAN*) Cənub-Şərqi Asiyada 10 ölkə - Bruney, Vyetnam, İndoneziya, Kambodca, Laos, Malaziya, Myamma, Sinqapur, Tailand və Filipinin təmsil olunduğu siyasi, iqtisadi və mədəni əlaqəli regional dövlətlərarası təşkilatdır. 1967-ci ildə təsis edilmişdir. Mənzil-qərargahı İndoneziyanın paytaxtı Cakarta şəhərində yerləşir.

Afrika regionunda:



Afrika İttifaqı, AU (*African Union, AU*) Afrika qitəsində 54 dövlətinin əhatə olunduğu ən böyük Afrika beynəlxalq siyası regional təşkilatıdır. 1963-cü ildə təsis edilmişdir. 2002-ci ilə kimi Afrika Vahidliyi Təşkilatı adlandırılmışdır. Mənzil-qərargahı Efiopiyanın paytaxtı Ədis-Əbəbə şəhərində yerləşir.

Mərkəzi Afrika Ölkələrinin İqtisadi Birliyi, CEEAC (*fransızca - Communauté économique des États de l'Afrique centrale, CEEAC, ingiliscə - Economic Community of Central African States, ECCAS - Mərkəzi Afrika ölkələrinin İqtisadi Birliyi, MAÖİB*) Mərkəzi Afrikanın 6 dövlətinin - Anqola, Burundi, Kamerun, Konqo Respublikası, Konqo Demokrartik Respublikası, Qabon, Çad, San-Tome və Prinsipi, MAR və Ekvotorial Qvineyanın təmsil olunduğu regional ticarı-iqtisadi ittifaqdır. 1994-cü ildə Mərkəzi Afrikanın Kömrük və İqtisadi İttifaqı - UDEAC - (*fransızca - Union Douanière et Économique de l'Afrique Centrale, UDEAC - Mərkəzi Afrikanın Kömrük və İqtisadi İttifaqı, MAGİİ*) bazasında təsis edilmişdir.




Qərbi Afrika İqtisadi və Valyuta İttifaqı, UEMOA (*fransızca - Union économique et monétaire ouest-africaine, UEMOA, ingiliscə - The West African Economic and Monetary Union, WAEMU*) Qərbi Afrikanın 8 dövləti - Benin, Burkina Faso, Kot-dİvuar, Qvineya-Bisau, Mali, Niger, Seneqal və Toqonun təmsil olunduğu regional ticarət-iqtisadi ittifaqdır. 1994-cü ildə təsis edilmişdir.



Qərbi Afrika Dövlətləri İqtisadi Cəmiyyəti, ECOWAS (*ingiliscə - The Economic Community of West African States, ECOWAS, fransızca - Communauté Économique des États de l'Afrique de l'Ouest, CEDEAO*) Qərbi Afrikanın 15 dövləti - Benin, Burkina Faso, Qambiya, Qana, Qvineya, Qvineya-Bisau, Kot-dİvuar, Kabo-Verde, Liberiya, Mali, Niger, Nigeriya, Seneqal, Serra Leone və Toqonun təmsil olunduğu hərbi funksiyalar da daşayın regional iqtisadi ittifaqdır. 1975-ci ildə təsis edilmişdir. ECOMOG adlı kollektiv hərbi qüvvələrə malikdir. Mənzil-qərargahı Nigeriyanın paytaxtı Abuca şəhərində yerləşir.

Şərqi Afrika Birliyi, EAC (*The East African Community, EAC*) Şərqi Afrikanın 5 dövləti - Brundi, Keniya, Ruanda, Tanzaniya və Uqandanın təmsil olunduğu hökumətlərarası regional təşkilatdır. 1967-ci ildə təsis edilmişdir. Mənzil-qərargahı Tanzaniyanın Aruşa şəhərində yerləşir.

Ərəb Məğribi İttifaqı, AMU (*Arab Maghreb Union, AMU*) Şimali Afrikada siyasi və iqtisadi birliyin möhkəmləndirilməsi, iqtisadi ikişafın, təmin edilməsi, regional əmtəələrin rəqabətqabiliyyətliyinin artırılmasına istiqamətlənmiş Əlcəzair, Liviya, Mavritaniya, Mərakeş və Tunisin təmsil olunduğu panərəb regional təsisatdır. 1989-cu ildə yaradılmışdır. Mənzil qərargahı Mərakeşin paytaxtı Pabat şəhərində yerləşir.

Fars Körfəzi Ərəb Dövlətlərinin Əməkdaşlıq Şurası, CCASG (*ingiliscə - Cooperation Council for the Arab States of the Gulf, CCASG*) Bəxreyn, Qətər, Küveyt, BƏƏ, Oman və Səudiyyə Ərəbistanının təmsil olunduğu qapalı beynəlxalq regional təşkilat. 1981-ci ildə təsis edilmişdir. Mənzil-qərgarı Səudiyyə Ərəbistanın paytaxtı Ər-Riyad şəhərində yerləşir. Təşkilatın rəsmi adında "fars" sözü yoxdur. Bu, ərəb dövlətlərinin həmin körfəzi "Ərəb" körfəzi adlandırmağa üstünlük verməleri ilə bağlıdır.

Regionda digər irili-xırdalı beynəlxalq və regional əməkdaşlıq təsisatlandırmaları da mövcuddur. Bu sırada əksərən Afrikanın və Yaxın Şərq dövlətlərinin təmsil olunduğu Neft İxrac edən Ölkələr Təşkilatı - OPEK və müvafiq tıəyinatlı ərəb birliyi Neft İxrac Edən Ərəb Ölkələri Təşkilatı - OAPEK xüsusi əhəmiyyətə malidirlər.

Avsraliya və Okeaniyaki inteqrasiya birliklərinin dünya iqtisadiyatının inkişafındakı rolu da yüksək dəyərləndirilir. Bu inteqrasiyada, əsasən, iqtisadi təyinatlı olmasa da ANZUS təşkilatı, həmçinin, ASEAN və Sakit okean adalarının forumu vasitəsilə ilə həyata keçirilir.

Bundan başqa, regionda bir slra digər beynəlxalq və regional əməkdaşlıq təşkilatları da fəaliyyət göstərirlər. Bunlar arasında iqtisadi inteqrasiya sahəsində 1983-cü ildə təsis edilmiş Avstraliya-Yeni Zelandiya ticarət əməkdaşlığı təşkilatı fərqli əhəmiyyət kəsb edir.

Müəyyən ictimai siyasi-iqtisadi proseslər ölkələrin, inteqrasiya birliklərin süqutuna gətirmiş və gətirməkdədir. Ölkələrdə ayrı-ayrı siyasi partiyaların hakimiyyətə gəlməsi və dövlətin maraqlarının dəyişməsi zamanı müəyyən ittifaqların parçalanması prosesi

də qaçılmaz olur. Buna misal olaraq son onilliklərdə BƏƏ (*Misir və Suriyanın parçalanması*), Malaziya və Sinqapur Federasiyasının, Yuqoslaviya və SSRİ-nin dağılması misal ola bilər.

Müasir dünyada inteqrasiyanın mühüm perspektivli regionlarından biri kimi Asiya-Sakit okean hövzəsi çıxış edir. Avrasiya məkanında sosialist düşərgəsi ölkələrinin transformasiyası və SSRİ dövlətinin süqutundan sonra yeni yaranmış MDB, QİƏT, GUAM, ŞƏT kimi təşkilatlar müəyyən irəliləyişlər əldə etmək niyyətindədirlər. Hələ möhkəmlənməyən bu birliklərin strukturunda müxtəlif institutların yaranması gerçəkləşsə də, buradakı ayrı-ayrı ölkələrdə iqtisadi və siyasi sabitlik hələ də qəti bərqərar olunmamış qalır. Bir sıra ölkələr isə tarnsformasiya böhranından belə tam çıxa bilməmişlər.

## 14.6. Dünya iqtisadiyyatının tənzimlənməsi mexanizmləri və yeni dünya qaydası

Qloballaşmanın davamlı artdığı, dövlətlərin iqtisadiyyatlarının inteqrasiyasının daha da genişləndiyi müasir dövrdə beynəlxalq iqtisadi mübahisələr problemi xüsusi əhəmiyyət kəsb etməyə başlamışdır. Belə bir vəziyyətdə hər hansı iqtisadi mübahisə qlobal iqtisadi sistemin sabitliyinin pozlmasına gətirərsə, onda dünya dövlətləri, xüsusən də, inkişaf etmiş ölkələr bu mübahisələrin "iqtisadi müharibələr" kimi iqtisadi siyasət vasitələrindən istifadədən imtinada etmə əsasında sülh yolu ilə həllinə səfərbər olmalıdırlar. Müasir tarixi reallıqlar göstərir ki, son bir neçə onillik ərzində dövlətlər arasında iqtisadi mübahisələrin sayı xeyli dərəcə də artmışdır.

Dünya iqtisadiyyatının tənzimlənməsi mexanizmləri beynəlxalq müstəvidə öncə şirkətlər arasında və ya onlarla dövlətlər və həmçinin, ayrı-ayrı dövlətlərin özləri arasında bir-biri ilə ikitərəfli, çoxtərəfli müqavilələr üzrə razılaşma şərtlərinə əsaslanınir. Daha ümumi olan məsələlər isə müəyyən dərəcədə beynəlxalq təşkilatda götürülən öhdəliklər üzrə tənzimlənməyə məruz qalır. Beynəlxalq iqtisadi təşkilatlar tərəfindən bir sıra təmziləyici funksiyaların səmərəliliklə həyata keçirilməsi onların nüfuzunun yüksəlməsi, bütövlükdə isə beynəlxalq iqtisadi münasibətlərin inkişafının stimullaşdırılması ilə müşayiət olunur. Beynəlxalq təşkilatların iqtisadi mübahisələrin dinc yolla tənzimlənməsi prosesində rolunun yüksəlməsi həm də dövlətlər tərəfindən onlara olan etimad artırır. Bununla yanaşı, o da vurğulanmalıdır ki, müasir dövrdə yüksək üstmillilik dərəcəsi əldə edən beynəlxalq iqtisadi təşkilatlar beynəlxalq iqtisadi mübahisələrin tənzimlənməsini imperativ normalar vasitəsilə həyata keçirirlər. Beynəlxalq mübahislərin həlli zamanı beynəlxalq iqtisadi təşkilatların rolunun güclənməsinə kömək edən mühüm amil ondan ibarətdir ki, belə təşkilatın iştirakı iqtisadi cəhətdən inkişaf etmiş dövlətlərin daha az inkişaf etmiş dövlətlərə təzyiq göstərməsi imkanını məhdudlaşdırır. Məsələn, DTT kimi beynəlxalq iqtisadi təşkilatın yalnız iştirakı daha zəif dövlətə qarşı iqtisadi təzyiqin qarşısını ala və hər hansı dövlətin

iradəsinin boynuna qoyulmasından qoruya bilər. Bununla belə, iqtisadi mübahisələrin ədalətli həllinə kifayət qədər müstəqillik dərəcəsinə malik müvafiq məhkəmə mexanizminin mövcudluğu ilə nail olmaq mümkündür. Bu səbəbdən də, iqtisadi mübahisələrin həllində daimi fəaliyyət göstərən yeni beynəlxalq məhkəmə təsisatlarının yaradılması ehtiyac daha da artır.

Hazırda DTT-də beynəlxalq iqtisadi mübahisələrə, GATT-ın neqativ və pozitiv təcrübəsi nəzərə alınmaqla, danışıqların Uruqvay raundu prosesində mübahisələrin həlli qaydaları və prosedurları haqqında işlənib hazırlanmış sazişə əsasən baxılır. BVF və BYİB çərçivəsində fəaliyyət göstərən mübahisələrin həlli mexanizmləri, bəzi fərqlərə baxmayaraq, xeyli dərəcədə oxşardır. Beynəlxalq iqtisadi mübahisələrin həlli, mövcud dünyəvi mexanizmlərin bəzi çatışmazlıqlarına baxmayaraq, beynəlxalq iqtisadi təşkilatlar çərçivəsində daha perspektivli hesab edilməkdədir.

1970-ci illərin sonunda "yeni dünya qaydası" anlayışı geniş yayılmağa başladı. Məhz bu zaman beynəlxalq sistemin sabitliyini kəskin aşağı salmış valyuta-maliyyə və enerji böhranları, demoqrafik partlayış, üçüncü dünyada ərzaq mallarının defisiti və digər proseslərlə bağlı nüfuzlu qeyri-hökumət təşkilatları (*Roma klubu, Bəşəriyyətin Öyrənilməsi üzrə Şura və başqaları*) riyazi modelləşdirmə metodundan istifadə edərək, mövcüd dünya qaydasını həm ayrı-ayrı fərdlər, həm də dövlətlər üçün ədalətli qaydaya transformasiya etməyin zəruri olduğu qənaətinə gəldilər. Bu transformasiyanın başlıca məqsədi "dünyanın bütün vətəndaşları üçün layiqli həyat və rifaha nail olunma"da görünürdü.

Beləliklə dünya iqtisadiyyatının tənzimlənməsi mexanizmləri olaraq ikitərəfli, çoxtərəfli müqavilələr və beynəlxalq təşkilatlarda üzvlülük əsasında götürülən öhdəliklərə şirkətlərin, dövlətlərin və beynəlxalq təşkilatların müvafiq hərəkətləri çıxış edirlər.

Yeni dünya qaydası (*ingiliscə* - New World Order, *latınca* - Novus ordo mundi - *Yeni dünya qaydası*) dünya qaydası üzrə hazırkı müxtəlif hadisələr və gələcək proqnozlara bağlı siyasətədə tətbiq edilən təyinatlardır. Yeni dünya qaydası ümumi qəbulolunmuş mahiyyətə malik deyildir.

Dünyanın qaydasını dövlətlərarası elə quruluş kimi müəyyən etmək olar ki, o, dünya siyasəti subyektlərinin əsas ehtiyaclarını təhlükəsiz durumda və öz maraqlarının həyata keçirilməsində təmin edə bilsin.

Dünya qaydasının maili, şaquli və funksional olan əsas ölçüləri vardır. Maili ölçü dünya siyasətinin əsas iştirakçı subyektləri, şaquli ölçü güclü və zəif iştirakçı subyektlər arasında münasibətləri ifadə edir. Funksional ölçünün əsasını isə iştirakçı subyektlərin diplomatiyası və strategiyası kimi amillərdə ehtiva olunan, onların arasındakı iqtisadi qarşılıqlı əlaqələr, mənəvi dəyərlər, liderlərin siyasi ambisiyaları və iş adamlarının transmilli birlikləri, alimlərin və mütəxəssislərin assosiasiyaları və s. təşkil edir. Göstərilən amillərdən hər biri beynəlxalq münasibətlərdə stabillik və qeyri-sabitlik rolunu oynaya bilər.

Dünya tarixinin geosiyasi məzmunu iki tip sivilizasiya - Quru və Dəniz sivilizasiyalarının duelidir. Dəniz sivilizasiyası (*atlantizm*) tarixən özünün daha mükəmməl ifadəsini ABŞ və NATO ölkələri ətrafında qruplaşan müasir Qərbin strukturunda tapmışdır. Quru sivilizasiyası isə Rusiya-Avrasiya ilə və "yerin özəyi" kontinental məkanları ilə tədricən eyniləşmişdir. Bu duelin zamanca sonuncu mərhələsi Şərq bloku ilə Qərb bloku qarşıdurması formasında, iki qüdrətli dövlət - ABŞ-la SSRİ arasında keçmişdir. Bu qarşıdurmada SSRİ Avrasiya, ABŞ isə atlantist qütb rolunu oynamışdır. SSRİ-nin suqutu bütün Quru sivilizasiyasının geosiyasi məğlubiyyəti olmuş və ondan sonra qurulan dünya birqütblü və amerikan konsentrasiyalı kimi məzmun kəsb etmişdir. Bu, Dəniz sivilizasiyası - atlantizmin qalib gəldiyi dünyadır. Bu isə o deməkdir ki, yaranan planetar gerçəkliyin arxitekturası - "yeni dünya qaydası" Qərb və ABŞ-ın diktə etdiyi prinsiplər üzərində qurulacaqdır. Gələcəkdə isə bir qədər də konkret - ABŞ-ın hökmranlığına əsaslanan və müstəqil Avrasiyanın dirçəlişinə yol verilməyən birqütblü dünya nəzərdə tutulur. Ancaq bunlar nə qədər tutarlı nəzəri-təcrübi reallıqlara, artan güc potensialına əsaslansa da, hələ də həllini gözləməkdədir.

Dünyanın yaxınlaşan geosiyasi mənzərəsinin digər mühüm meyili dünyanın Qərbin rəhbərliyi ilə universallaşması - "mondializasiya", unifikasiyaya, dövlətlər, xalqlar, mədəniyyətlər arasında sərhədlərin yuyulmasına səyi təşkil edir. Mondializm (*latinca* - mundus, *fransızca* - monde - *dünyəvi*) dünya hökuməti qurulması layihəsi, müxtəlif mədəniyyətlər və şəxsiyyətlərə hörmət əsasında federativ strukturlar və dövlət qanunlarından üstün təyinatları hədəfləyərək yer üzərində əhalinin həmrəyliyini ifadə edən hərəkatdır. "Mondialism" fransız sözü "mondialisme" sözünün ingilis variantıdır. Bəzən mondializm anlayışı qloballaşma ilə səhv salınır.

Dövlətlər və millətlər kimi ənənəvi törəmələrin dağılmasına paralel olaraq yeni birlik formaları - mikromillətçilik, etnizm, neotraybalizm və s.-nin təşkili planlaşdırılır. Mondializasiya prosesi əsas geosiyasi meyillər (*atlantizmin dominasiyası*) qaldıqda belə neytral və öz-özünə, təbii əmələ gələn deyil, vahid beynəlxalq qüdrətli dövlət tərəfindən sponsorlaşdırılan və hamilik edilən olacaqdır. Bu Vahid Dünya elə qurulur ki, bir qədər lokal şəraitə adaptasiya olunaraq müvafiq əsas sosial-iqtisadi dəyərlərin yığımı ilə ABŞ-ın böyüdülmüş proyeksiyası olsun.

Növbəti mühüm geosiyasi meyil "varlı Şimal" (*atlantizm qütbü*) və "yoxsul Cənub" (*atlantizmin periferiyası*) arasında inkişaf etməkdə olan differensiasiyadır. Bu nisbət çox müxtəlifdir. Bununla belə, onun mahiyyəti dünyanın atlantist təşkili nemətləri və xərcləri arasında balansın əks proporsiyalarına gəlib çıxır.

XXI əsrin geosiyasi meyillərindən biri də məkanın virtuallaşmasıdır. Bu meyil planetar məkanın keyfiyyət dəyişməsidir ki, o da, öz növbəsində, nəqliyyat vasitələri və telekommunikasiyalar ilə paralel inkişaf etməklə ilkin formalardan yeni həyat modusuna keçir. Dünyanın real coğrafi və geosiyasi məkanı sanki virtual səviyyədə, informasiya sistemləri və şəbəkələri səviyyəsində təkrar olunur.

XXI əsrin əsas trendləri sənaye və texnoloji, resurslar, demoqrafik, ekoloji və elmi olmaqla istiqamətləndirilir.

Sənaye və texnoloji trendlər yeni səviyyəli texnologiyalaşdırma və beynəlxalq əmək bölgüsünün yeni modelinin ehtiva edir. Proqnozlar belədir ki, ETT-nin sürətlənməsi daha çox "innovasiyalar" rejimində deyil, "optimallaşma" rejimində keçəcəkdir. Bununla belə, nəticədə onun sürəti artacaq, vektor istiqaməri isə müstəsna olaraq qısamüddətli praktiki qazanc baxımından müəyyən ediləcəkdir.

Resurslar sahəsində əsas trendlər onların böyük hissəsinin daha inkişaf etmiş geoiqtisadi zona periferiyasında - "yoxsul Cənub" və Avrasiya ölkələrində yerləşməsi və onların bölgüsü ilə bağlıdır. Dünya miqyasında "varlı Şimal"ın maraqlarında resursların bölgüsünə nəzarətin qurulması "yeni dünya qaydası"nın əsas məqsədlərindəndir. Təbii resurslar xəritəsi atlantizmin əsas geosiyasi və geoiqtisadi istiqamətlərinin ifadəsi üçün baza oriyentiridir. Bu istiqamətlər, yerləşdiyi regiondan asılı olmayaraq, ərazilərə, faydalı qazıntılara birbaşa nəzarətə yönəldilmişdir.

Demoqrafik trendləri demoqrafik artım, artıq əhali problemi, resurs, yaşayış üçün məkan defisitini, ekologiya və s. problemlər doğurur. Bu problemin yaxın gələcəkdə fəlakət xarakteri alacağı ehtimal edilir. "Varlı Şimal"ın tərkibinə daxil olan və Avrasiya sektorundakı daha çox Avropaya aid bəzi ölkələrdə əhalinin artımı sıfır və ya mənfi göstəricili olacaqdır. Sakit okean hövzəsi və "yoxsul Cənub" ölkələrində isə əksinə, demoqrafik partlayış baş verir və verəcəkdir.

Ekoloji trendlər Yer kürəsinin yaşayış mühitinin kəskin pisləşməsi və ekoloji fəlakətin artan təhlükəsi ilə bağlıdır ki, bu da, öz növbəsində, ekoloji amili ən böyük geosiyasi və iqtisadi meyillərlə yanaşı nəzərə almağa vadar edir.

Elmi trendlər - yeni zaman ərzində elmin inkişafı daha çox ayrı-ayrı fənlərin differensiasiyası, ixtisaslaşmış elm sahələrinin müxtəlif sistemlərə ayrılması yolu ilə getmişdir. Hazırda bu proses kritik həddə çatmış və bir-birinə zidd meyillər yaratmış, müxtəlif elmlər yeni fənlərarası komplekslərdə birləşmiş, elmi yanaşmalar nəinki təbii-elmi və humanitar sahələr çərçivəsində ayrı-ayrılıqda kəsişmiş və həm də dəqiq və humanitar elmləri ümumi sintezdə birləşdirmək cəhdləri də yaranmışdır.

Yeni dünya qaydası Avrasiya məkanında Rusiyanın timsalında məxsusi geosiyasi səviyyə tapmaqdadır. Bu atlantist modelinin qloballaşmasına, Qərbin rəhbərliyi ilə "vahid dünya" yaradılmasına Rusiya Avrasiya layihəsinin irəli sürülməsi ilə verilən cavabdır. Avrasiya inteqrasiyasının minimal miqyası və ya onun birinci mərhələsi MDB ölkələrinin ümumi strateji konstruksiyada, geosiyasi maraqların vahidliyi və strateji və sivilizasiya taleyinin ümumiliyi düşüncəsi ilə birləşən strateji ittifaq olmalıdır. Lakin Rusiyanın Ukraynanın ayrılmaz hissə olan Krımı özünə ilhaq etməsi ilə əlaqədar ABŞ və Avropa ölkələrinin tətbiq etikləri sanksiyalar fonunda bu trendin perspektivliyi çətinliklərlə qarşılaşmaqdadır.

Gələcək dünyanın simasını müəyyən edəcək əsas trendlər yüksək dərəcədə həyəcanlıdır. Bu, bütün strateji, siyasi, iqtisadi və sosial səviyyələrdə və bütün planetdə total həyata keçmiş Qərb dəyərlər sisteminin hökmranlıq etdiyi, baş rolu Qərbin oliqarxiyası, maliyyə və analitik elitaları, həmçinin, dünyanın başqa regionlarında

onların təsirinin bələdçilərinin oynadığı "dünya hakimiyyəti" tərəfindən idarə olunan "yeni dünya qaydası"dır.

Atlantist futuroloqların etiraf etdikləri kimi, "dünyanın yeni qaydası"nın qurulması "tarixin sonu", bəşəriyyətin tarixi məzmununu təşkil edən varlığın bütün əsas formalarının, o cümlədən Qərbin özünün tarixinin son, posttarix fazasına keçməsinə qədər rədd edilməsi və aradan qaldırılması deməkdir. "Yeni dünya qaydası" bu situasiyada diktatura, müstəmləkə hökmranlığının, əsarət, istismar, dominasiyanın yeni forması kimi görünə bilər. Zor və qorxu üzərində qurulmuş əvvəlki beynəlxalq qayda qlobal miqyasda dağılsa da, eyni zamanda onun norma və qaydaları xüsusilə regional səviyyələrdə hələ də fəaliyyətdədir. Belə vəziyyət isə bu və ya digər meyillərin qayıtmayacağı haqqında nəticə çıxarmağa imkan vermir.

***Əsas anlayışlar:***

**1. Beynəlxalq münasibətlərin dövlətlərarası tənzimlənməsi** - dünya təsərrüfatı əlaqələri sahəsində müxtəlif ölkələr tərəfindən könüllü qəbul edilmiş öhdəliklərin və ümumi qaydaların məcmusudur.

**2. Dünya təsərrüfat əlaqələrinin müasir dövlətlərarası tənzimləmə sistemi** - obyektlər olaraq beynəlxalq mal və xidmətlər ticarəti, texnologiyaların ötürülməsi, kapitalın və işçi qüvvəsinin miqrasiyası, daşınmalar, hesablaşmalar, subyektlər olaraq beynəlxalq konfrans və müşavirələr, daimi orqanlar, qarışıq komissiyalar, təşkilatlar və müvafiq alətlər şəbəkəsini ehtiva edir.

**3. Beynəlxalq təşkilat** - saziş əsasında yaradılmış dövlətlərarası və ya qeyri-dövlət xarakterli birliklərdir.

**4. Birləşmiş Millətlər Təşkilatı, BMT** - 1945-ci ildə təsis edilmiş, əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdən ibarət olan ən böyük dövlətlərarası beynəlxalq təşkilatdir.

**5. BMT-nin Statistika şöbəsi** - Birləşmiş Millətlər Təşkilatının Katibliyi çərçivəsində qlobal statistika sistemində məlumatların yığımı və təhlili funksiyasını həyata keçirməklə BMT-nin fəaliyyəti və əlaqələndirilməsini üzrə mərkəzi mexanizm qismində çıxış edən təsisatıdır.

**6. BMT-nin İqtisadi və Sosial Məsələlər Departamenti** - Birləşmiş Millətlər Təşkilatının üzvü dövlətlərinin müvafiq üzvlük ödənişləri hesabına maliyyələşdirilən BMT Katibliyinin tərkib hissəsi olan təsisatdır.

**7. Dünya ticarətinin tənzimlənməsi** - dünya ticarətini ayrı-ayrı dövlətlər və onların yaratdıqları müvafiq beynəlxalq təsisatlar tərəfindən reallaşdırılan tənzimləmədir.

**8. Proteksionizm** - iqtisadi himayəçilik, milli biznesin xarici bazarlarda genişlənməsi şəraitinin yaradılması, xarici malın birbaşa və vasitəli məhdudlaşdırılmasının müxtəlif formalarından istifadə edilməklə milli iqtisadiyyatın sahələrini xarici rəqabətlərdən mühafizə məqsədi ilə aparılan siyasətdir.

**9. Fritreyderlik** - azad ticarət və təsərrüfat həyatına dövlətin müdaxilə etməməsini təşviq edən iqtisadi cərəyandır.

**10. Gömrük rüsumu** - əmtəə idxalı və ya ixracı zamanı gömrük sərhədindən keçirilən mallara görə gömrük orqanları tərəfindən tutulan məcburi ödəmədir.

**11. Tarif** - şirkətlər, təşkilatlar və təsisatlar tərəfindən müxtəlif istehsal və qeyri-istehsal xidmətlərinin ödəniş (*tədiyə*) dərəcələri sistemidir.

**12. Gömrük tarifi** - idxal və ya ixrac edilən əmtəələrin gömrük rusumları dərəcələrinin məsmusunu ifadə edir.

**13. Qeyri-tarif məhdudiyyətləri** - xarici ticarətiin tənzimlənməsi aləti olaraq gömrük-tarif siyasəti çərçivəsindən kənara çıxan iqtisadi və inzibatı tədbirlər məsmusudur.

**14. Kompensasiya və Gözlənilməz Kreditləşmə Fondu, CCFF** - tədiyə balansının defisiti xarici səblərlə şərtli olan Beynəlxalaq Valyuta Fondu üzv ölkələrinin kreditləşdirilməsi üçün nəzərdə tutulmuş yardım mexanizmidir.

**15. Bufer (*ehtiyat*) Kreditləşmə Fondu, BSFF** - beynəlxalq müqavilələrə müvafiq olaraq bufer ehtiyatların yaradılmasında iştirak edən ölkələrin tədiyə balansının pisləşməsi ilə əlaqədar onlara kömək üçün yaradılan Beynəlxalaq Valyuta Fondu mexanizmidir.

**16. Xarici Borcun Azaldılması və Xidməti üzrə Fond, DDSR** - Beynəlxalaq Valyuta Fondunun 1980-ci illərdə inkişaf etməkdə olan ölkələrin borc böhranının tənzimlənməsi məqsədi ilə yaradılan maliyyə yardımı mexanizmidir.

**17. Struktur İslahatlara Dəstək Fondu, SRF** - bazar iqtisadiyyatına radikal iqtisadi və siyasi islahatlar yolu ilə keçən ölkələrə yönəldilən Beynəlxalaq Valyuta Fondu mexanizmidir.

**18. Üçtərəfli komissiya** - dünya problemlərinin həlli axtarışı və müzakirəsi məqsədli Şimali Amerika, Qərbi Avropa və Asiyanın (*Yaponiya və Koreya Respublikasının timsalında*) nümayəndələrindən ibarət 1973-cü ildə təsis olunmuş beynəlxalq təşkilatdır.

**19. Dəyirmi masa, KO** - qlobal problemlərin həllində biznesin rolunun yüksəldilməsi, beynəlxalq işgüzar əməkdaşlığın inkişafına və ölkələrarası iqtisadi əlaqələrin liberallaşmasına kömək, biznesin dünyada iqtisadi və sosial sabitliyə olan məsuliyyətinin yüksəldilməsi kimi məqsədləri ehtiva edən, 1986-cı ildə təsis olunmuş, ABŞ-ın, Qərbi Avropanın və Yaponiyanın qabaqcıl sahibkarlarını birləşdirən qeyri-hökumət təşkilatıdır.

**20. Beynəlxalq Maliyyə İnstitutu, IIF** - dünyanın 50 ölkəsindən 270 bank, broker şirkəti, investisiya fondları və digər maliyyə müəssisəsinin sahibkarlarını birləşdirən, 1983-cü ildə təsis edilmiş banklararası elmi-tədqiqat, məsləhət və informasiya mərkəzidir.

**21. BMT-nin Sənaye İnkişafı Təşkilatı, UNIDO** - BMT-nin inkişaf etməkdə olan ölkələrdə sənayeləşmənin sürətlənməsinə, sənayenin inkişafına və müvafiq sahədə yeni beynəlxalq iqtisadi qaydaların yaradılması kömək edən ixtisaslaşmış təşkilatıdır.

**22. İslam Əməkdaşlıq Təşkilatı, İƏT** - İslam dünyası ölkələrinin beynəlxalq təşkilatıdır.

**23. Beynəlxalq Enerji Agentliyi, BEA** - İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (*İƏİT*) çərçivəsində muxtar beynəlxalq orqandır.

**24. Asiya-Sakit okean İqtisadi Əməkdaşlığı, APEC** - regional ticarət, investisiya axınlarının asanlaşdırılması və liberallaşdırılması sahəsində Asiya-Sakit okean regionun 21 dövlətinin - Avstraliya, Buruney, Kanada, İndoneziya, Yaponiya, Koreya Respublikası, Malaziya, Yeni Zellandiya, Filippin, Sinqapur, Tailand, ABŞ, ÇXR, Honkonq, Tayvan, Meksika, Papua - Yeni Qvineya, Çili, Peru, Rusiya və Vyetnamın təmsil olunduğu hökumətlərarası forumudur.

**25. Avropa Şurası** - Avropanın bütün ölkələrinin (*47 ölkə*) təmsil olunduğu yeganə panavropa təşkilatıdır.

**26. Avropa İttifaqı, Aİ** - 27 Avropa dövlətinin - Avstriya, AFR, İtaliya, Fransa, Belçika, Yunanıstan, Danimarka, İrlandiya, İspaniya, İsveç, Polşa, Portuqaliya, Ruminiya, Finlandiya, Niderland, Çexiya, Xorvatiya, Lüksemburq, Latviya, Litva, Estoniya, Macarıstan, Bolqarıstan, Malta, Sloveniya, Slovakiya və Kipr Rüspublikasının fövqəlmilli birləşdiyi ittifaqdır.

**27. Avropa İqtisadi Birliyi, AİB** - 1957-1993-cü illərdə mövcud olmuş 12 Qərbi Avropa ölkəsi - AFR, İtaliya, Böyük Britaniya, Yunanıstan, Danimarka, İrlandiya, İspaniya, Portuqaliya, Niderland, Belçika, Lüksemburq və Fransanın iqtisadiyyatlarını inteqrasıya edən və iqtisadi ittifaqda birləşən ümumi bazardır.

**28. “Breksit”** - konservativ müxalifətin və bir sıra ayrı-ayrı milliyətçi və avroskeptik yanaşmalı şəxslərin Böyük Britaniyanın Aİ-dən çıxması üzrə qarşıya qoyduqları siyası məqsəddir.

**29. Şengen zonası** - 26 Avropa dövləti - Avstriya, AFR, İtaliya, Fransa, Belçika, Yunanıstan, Danimarka, İspaniya, İslandiya, İsveç, Polşa, Portuqaliya, Norveç, Finlandiya, Niderland, Çexiya, Lixtenşteyn, Lüksemburq, Latviya, Litva, Estoniya, Macarıstan, Malta, Sloveniya, Slovakiya və İsveçrənin ərazilərində gömrük-sərhəd nəzarətinin sadələşdirildiyi və insanların azad hərəkət etdiyi zonadır.

**30. Avrozona** - Aİ-nin rəsmi valyutası avronun tətbiqi ilə bağlı, milli valyutası avro olan 19 dövləti - Avstriya, AFR, İtaliya (*Kampione-d-İtaliya istisna olmaqla*), Fransa (*Yeni Kaledoniya, Fransız Polineziyası, Uollis və Futuna istisna olmaqla*), Belçika, Yunanıstan, İrlandiya, İspaniya, Portuqaliya, Finlandiya, Niderland (*Aruba, Kyupasao, Sint-marten, Niderlan Karibi istisna olmaqla*), Lüksemburq, Latviya, Litva, Estoniya, Malta, Sloveniya, Slovakiya və Kipr Rüspublikasını (*Şimali Türk Kipr Respublikası istisna olmaqla*) birləşdirən valyuta birliyidir.

**31. Şimal Şurası** - 1952-ci ildə təsis edilmiş, üzvləri, əsasən, Skandinaviya ölkələri - İsveç, Norveç, Finlandiya, İslandiya, Danimarka, müxtar ərazilər - Qrenlandiya (*Danimarka*) olan, Şimali Avropa ölkələrinin parlamentləri və hökumətləri arasında əməkdaşlığın koordinasiyasını həyata keçirən təşkilatdır.

**32. Azad Ticarət üzrə Avropa Assosiasiyası, EFTA** - Avropa iqtisadi birliyinə əks olaraq 1960-ci ildə Böyük Britaniyanın təşəbbüsü ilə yaradılmış, bir sıra Avropa ölkələrinin daxil olduğu regional ticarət-iqtisadi qruplaşmadır.

**33. Mərkəzi Avropa Azad Ticarət Assosiasiyası, CEFTA** - Avropa İttifaqı üzvləri olmayan ölkələr Albaniya, Bosniya və Herseqovina, Makedoniya, Moldova, Monteneqro, Serbiya arasında 21 dekabr 1992-ci ildə imzalanmış Vışeqradsk (*Macarıstanın şəhəri*) razılaşmasının varisi olan beynəlxalq təşkilatdır.

**34. Benilüks -** 1958-ci ilin 3 fevralında yaradılmış, Belçikanın, Niderlandın və Lüksemburqun siyasi, iqtisadi və gömrük ittifaqıdır.

**35. Arktika Şurası** - Şimal qütb zonasının unikal təbiətinin müdafiəsi məqsədi ilə Finlandiyanın təşəbbüsü ilə 1989-cu ildə yaradılmış və Danimarka, Finlandiya, İslandiya, Kanada, Norveç, Rusiya, İsveç və ABŞ-ın üzv olduğu (*müşahidəçi ölkələr - Böyük Britaniya, Fransa, AFR, Niderland, Polşa, İspaniya*) beynəlxalq təşkilatdır.

**36. Baltika Assambleyası** - 1991-ci ildə əsasını qoyulmuş, Estoniyanın, Latviyanın və Litvanın parlamentləri arasında əməkdaşlıq üzrə məsləhətçi orqandır.

**37. Baltik Dənizi Dövlətlərinin Şurası** - 1992-ci ildə Kopenhagendə Baltika dənizi ölkələrinin xarici işlər nazirlərinin konfransında təsis edilmiş, AFR, Danimarka, Latviya, Litva, Norveç, Polşa, Rusiya, Finlandiya, İsveç, Estoniya və həmçinin, Avropa Cəmiyyətləri Komissiyasının daxil olduğu şuradır.

**38. Barens-Avroarktik bölgəsi Şurası** - 1993-cü ildə təsis edilmiş, Danimarka, İslandiya, Norveç, Rusiya, Finlandiya, İsveç və həmçinin, Avropa Cəmiyyətləri Komissiyasının (*Böyük Britaniya, AFR, İtaliya, Kanada, Niderland, Polşa, Fransa, ABŞ, və Yaponiya müşahidəçi statusunda*) daxil olduğu regional əməkdaşlıq forumudur.

**39. Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, QİƏT** - Qara dəniz ətrafı və Cənubi Balkan regionunun 12 dövlətini - Türkiyə, Azərbaycan, Albaniya, Bolqarıstan, Yunanıstan, Gürcüstan, Moldova, Rusiya, Serbiya, Rumıniya, Ukrayna və Ermənistanı birləşdirən hökumətlərarası təşkilatdır.

**40. Avrasiya İqtisadi Əməkdaşlıq Təşkilatı, EECO** - Avrasiya qitəsində iqtisadi sahədə müxtəlif maraqlı tərəflərin qarşılıqlı münasibətləri və əməkdaşlığı məsələləri ilə məşğul olan beynəlxalq iqtisadi, qeyri-hökumət təşkilatıdır.

**41. Trans-Sakit okean Tərəfdaşlığı**, **TPP** - tarif baryerlərini məhdudlaşdıran və üzv dövlətlərdə müvafiq sahələr (*əmək hüququ, ekologiya, intellektual mülkiyyət və s.*) üzrə daxili qaydaları tənzimləyən Asiya-Sakit okean regionun 12 ölkəsini - ABŞ, Kanada, Meksika, Peru, Çili, Yaponiya, Malaziya, Bruney, Sinqapur, Vyetnam, Avstraliya və Yeni Zelandiyanı əhatə edən, . 2015-ci ilin 5 oktyabırında bağlanılmış ticarət sazişidirdır.

**42. İqtisadi Əməkdaşlıq Təşkilatı, ECO** - Orta Asiya və Yaxın Şərq ölkələri - Pakistan, Türkiyə, İran, Azərbaycan, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Əfqanıstanın regional iqtisadi əməkdaşlığı üzrə hökumətlərarası təşkilatdır.

**43. Demokratiya və İqtisadi İnkişaf Uğrunda Təşkilat, GUAM -** 1997-ci ildə dörd ölkə - Gürcüstan, Ukrayna, Azərbaycan, Moldova tərəfindən yaradılmış dövlətlərarası regional təşkilatdır.

**44. Şanxay Əməkdaşlıq Təşkilatı, ŞƏT** - üzvləri Qazaxıstan, Qırğızıstan, Rusiya, Tacikistan, Özbəkistan, ÇXR olan beynəlxalq regional əməkdaşlıq təşkilatıdır.

**45. Amerika Dövlətləri Təşkilatı, OAS** - 1889-cu ildən mövcud olan Panamerikan təşkilatı bazası əsasında 1948-ci ildə yaradılmış, əsas məqsədi müvafiq dövlətləarası iqtisadi, hüquqi, sosial və mədəni münasibətlər təşkil edən dövlətlərarası regional təşkilatdır.

**46. Latın Amerikan İnteqrasiya Assosiasiyası, ALADI/LAIA** - regional iqtisadi əməkdaşlığın və ticarətin inkişafı, regional bazarın formalaşması məqsədli 11 ölkəni - Argentina, Boliviya, Braziliya, Venesuela, Kolumbiya, Meksika, Paraqvay, Uruqvay, Peru, Ekvador və Çilini əhatə edən dövlətlərarası regional birlikdir.

**47. Latın Amerikan İqtisadi Sistemi, SELA** - inkişaf planlarının koordinasiyası, inteqrasiya proseslərinin, iqtisadi layihələrin və tədqiqatların həyata keçirilməsinə kömək, iştirakçılar arasında informasiya mübadiləsi və məsləhətləşmələr aparma üzrə 26 Latın Amerikası ölkəsi - Argentina, Barbados, Boliviya, Braziliya, Venesuela, Haiti, Qayana, Qvatemala, Honduras, Qrenada, Dominikan Respublikası, Kolumbiya, Kosta-Rika, Kuba, Meksika Birləşmiş Ştatları, Nikaraqua, Panama, Paraqvay, Peru, Salvador, Surinam, Trinidad və Taboqo, Uruqvay, Çili, Ekvador və Yamaykanı əhatə edən dövlətlərarası regional iqtisadi təşkilatdır.

**48. Azad Ticarət Haqqında Şimalı Amerika Sazişi, NAFTA** - Kanada, ABŞ və Meksika Birləşmiş Ştatları arasında azad ticarət üzrə bağlanmış saşış üzrə 1992-ci ildə yardılan dövlətlərarası regional birlikdir.

**49. Cənubi Amerika ölkələrinin ümumi bazarı, MERCOSUR** - Argentina, Braziliya, Uruqvay, Paraqvay və Venesuela arasında regional ümumi bazarı ehtiva edən iqtisadi və siyasi saziş üzrə 1991-ci ildən yaradılmış regional təşkilat.

**50. Karib Ölkələri Assosiyasiyası** - iqtisadi inteqrasiya, ticarətin və investisiyaların liberallaşması, ictimai sahədə və mədəni əlaqələrsdə əməkdaşlıq, ətraf mühitin qorunması kimi məqsəd və vəzifələri ehtiva edən 25 ölkə - Baham adaları, Barbados, Beliz, Kolumbiya, Boliviya, Kosta-Rika, Kuba, Dominik, Dominikan Respublikası, Salvador, Qrenada, Qvatemala, Qayana, Haiti, Honduras, Yamayka, Meksika Birləşmiş Ştatları, Nikaraqua, Panama, Sent-Kist və Nevis, Sent-Lüis, Sent-Vinsent və Qrenadin, Surinam, Trinidad və Tobaqo, Venesuela və 14 asılı ərazi və koloniyanı birləşdirən hökumətlərarası iqtisadi təşkilatdır.

**51. Amazon paktı, ACTO** - Amazon çayı və onun hövzəsində təbii sərvətlərdən səmərəli istifadə və buradakı irsin qorunması sahəsində 8 cənubi Amerika ölkəsi Boliviya, Braziliya, Venesuela, Qayana, Kolumbiya, Peru, Suriam və Ekvadorun təmsil olunduğu 1998-ci ildə yenidən təsis edilmiş beynəlxalq regional təşkilatdır.

**52. Mərkəzi Amerika Ümumi Bazarı, MCCA** - Qvatemala, Qonduras, Kosta-Rika, Nikaraqua və Salvadorun təmsil olunduğu 1960-cı ildə təsis edilmiş mərkəzi amerika ticarət-iqtisadi ittifaqıdır.

**53. La-Plat qrupu** - La-Plat çayı hövzəsi ölkələri - Argentina, Braziliya, Boliviya, Paraqvay və Uruqvayın təmsil olunduğu 1969-cu ildə təsis edilmiş subregional iqtisadi qrupdur.

**54. And Subregional İnteqrasiya Sazişi**, **AISA** - And qrupu kimi də tanınan Boliviya, Kolumbiya, Çili, Ekvador və Perunun təmsil olunduğu, 1969-cu ildə təsis edilmiş ticarət-iqtisadi ittifaqdır.

**55. Karib Birliyi**, **CARICOM** - Antiqua və Barbuda, Baham adaları, Barbados, Beliz, Dominika, Qrenada, Qayana, Haiti, Yamayka, Montserrat. Sent-Kist və Nevis, Sent-Lüis, Sent-Vinsent, Trinidad və Tobaqo və Surinamın təmsil olunduğu, 1973-cü ildə təsis olunmuş ticarət-iqtisadi ittifaqdır.

**56. Şərqi Karib Dövlətləri Təşkilatı**, **OECS** - Karib hövzəsi ölkələri - Antiqua və Barbuda, Baham adaları, Barbados, Beliz, Dominika, Qrenada, Montserrat, Sent-Kist və Nevia, Sent-Lyusiya, Sent-Vinsent və Qrenadinin təmsil olunduğu iqtisadi və valyuta ittifaqıdır.

**57. Cənubi Asiya Regional Əməkdaşlıq Assosiasiyası, SAARC** - Cənubi Asiyanın 8 ölkəsi - Pakistan, Banqladeş, Əfqanıstan, Hindistan, Nepal, Butan, Maldiv və Şri-Lankanın təmsil olunduğu, sosial-iqtisadi sferada çoxcəhətli əməkdaşlığına yardım göstərən beynəlxalq təşkilatdır.

**58. Cənub-Şərqi Asiya dövlətləri Assosiasiyası, ASEAN** - Cənub-Şərqi Asiyada 10 ölkə - Bruney, Vyetnam, İndoneziya, Kambodca, Laos, Malaziya, Myamma, Sinqapur, Tailand və Filipinin təmsil olunduğu, siyasi, iqtisadi və mədəni birlikli 1967-ci ildə təsis edilmiş regional dövlətlərarası təşkilatdır.

**59. Afrika İttifaqı, AU** - Afrika 54 dövlətinin əhatə olunduğu 2002-ci ildə Afrika Vahidliyi Təşkilatının varisi kimi təsis olunmuş ən böyük Afrika beynəlxalq siyası regional təşkilatıdır.

**60. Mərkəzi Afrika Ölkələrinin İqtisadi Birliyi, CEEAC** - Mərkəzi Afrikanın 6 dövlətinin - Anqola, Burundi, Kamerun, Konqo Respublikası, Konqo Demokrartik Respublikası, Qabon, Çad, San-Tome və Prinsipi, MAR və Ekvotorial Qvineyanın təmsil olunduğu regional ticarı-iqtisadi ittifaqdır.

**61. Qərbi Afrika İqtisadi və Valyuta İttifaqı, UEMOA** - Qərbi Afrikanın 8 dövləti - Benin, Burkina Faso, Kot-dİvuar, Qvineya-Bisau, Mali, Niger, Seneqal və Toqonun təmsil olunduğu, 1994-cü ildə təsis edilmiş regional ticarət-iqtisadi ittifaqdır.

**62. Qərbi Afrika Dövlətləri İqtisadi Cəmiyyəti, ECOWAS** - Qərbi Afrikanın 15 dövləti - Benin, Burkina Faso, Qambiya, Qana, Qvineya, Qvineya-Bisau, Kot-dİvuar, Kabo-Verde, Liberiya, Mali, Niger, Nigeriya, Seneqal, Serra Leone və Toqonun təmsil olunduğu hərbi funksiyalar da daşıyan, 1975-ci ildə təsis edilmiş regional iqtisadi ittifaqdır.

**63. Şərqi Afrika Birliyi, EAC** - Şərqi Afrikanın 5 dövləti - Brundi, Keniya, Ruanda, Tanzaniya və Uqandanın təmsil olunduğu, 1967-ci ildə təsis edilmiş hökumətlərarası regional təşkilatdır.

**64. Ərəb Məğribi İttifaqı, AMU** - Şimali Afrikada siyasi və iqtisadi birliyin möhkəmləndirilməsi, iqtisadi ikişafın təmin edilməsi, regional əmtəələrin rəqabətqabiliyyətliyinin artırılmasına istiqamətlənmiş, 1989-cu ildə yaradılmış, Əlcəzair, Liviya, Mavritaniya, Marakko və Tunisin təmsil olunduğu panərəb regional təsisatdır.

**65. Fars Körfəzi Ərəb Dövlətlərinin Əməkdaşlıq Şurası - CCASG** - Bəhreyn, Qətər, Küveyt, BƏƏ, Oman və Səudiyyə Ərəbistanının təmsil olunduğu, 1981-ci ildə təsis edilmiş qapalı beynəlxalq regional təşkilatdir.

**66. Dünya iqtisadiyyatının tənzimlənməsi mexanizmləri** - beynəlxalq müstəvidə şirkətlər, dövlətlər və həmçinin, ayrı-ayrı dövlətlərin özləri arasında ikitərəfli, çoxtərəfli müqavilələr üzrə razılaşma şərtlərinə əsaslanan mexanizmlər məsmusudur.

**67. Yeni dünya qaydası** - dünya qaydası üzrə hazırkı müxtəlif hadisələr və gələcək proqnozlara bağlı siyasətədə tətbiq edilən təyinatlardır.

**68. Mondializm** - dünya hökuməti qurulması layihəsi, müxtəlif mədəniyyətlər və şəxsiyyətlərə hörmət əsasında federativ strukturlar və dövlət qanunlarından üstün təyinatları hədəfləyərək Yer üzərində əhalinin həmrəyliyini ifadə edən hərəkatdır.

# XV FƏSİL

# Dünya iqtisadi artımı və qlobal sosial-iqtisadi inkişaf perspektivləri

## 15.1. İnkişafın tsiklliyi və qlobal iqtisadiyyatın institutlar sisteminin perspektivləri

Uzun illər ayrıca götürülmüş hər bir ölkənin, eləcə də dünya iqtisadiyyatında bütöv ölkə qrupları və bloklarının iqtisadiyyatının sahəvi strukturu, proporsiyaların xeyli dəyişilməsinə baxmayaraq, az-çox sabit qalmışdır. Tarixə nəzər saldıqda görürük ki, XVIII-XIX əsrlərin sənaye çevrilişlərinə qədər dünya təsərrüfatında bütövlüklə aqrar struktur hökmranlıq etmiş, bu zaman kənd təsərrüfatı və ona yaxın sahələr əsas maddi rifah mənbəyi olmuşdur. XIX əsrin ikinci və XX əsrin birinci yarısında isə iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə sənayenin aparıcı rolu ilə təsərrüfatın industrial quruluşu yaranmışdır. Lakin hazırda dünyanın qabaqcıl ölkələrinin iqtisadi inkişafının müasir mərhələsi sahələrarası proporsiyaların böyük irəliləyişləri ilə xarakterizə olunur. Buna, ilk növbədə, enerjidaşıyıcıların və xammalın bahalaşması ilə müşayiət edilərək sənaye və tikintinin bütün sahələrində istehsal xərclərinin artmasına səbəb olan 1970-ci illərin enerji və xammal böhranları təsir etmişdir. Həmin böhranlar, digər tərəfdən, bazar iqtisadiyyatlı ölkələrin texnoloji inqilabın yeni mərhələsinə daxil olmasını stimullaşdırmış, fərqli texnoloji proseslərə, texnikanın yeni növləri və nümunələrinə keçidə zəmin yaratmışdır. Dünya bu mərhələdə qlobal təsərrüfatın proporsiyalarına çox böyük təsir göstərmiş və indi də göstərməkdə olan ETİ-nin yeni dövrünə qədəm qoymuşdur. ETİ-nin təsiri ilə prinsipial yeni postindustrial və ya informasiya adlanan struktur formalaşmağa başlanmışdır. Bütün bunlardan doğan proporsiya dəyişiklikləri iqtisadiyyatda iki istiqamət üzrə getmişdir:

- ❑ yeni elm tutumlu sahələr sektorunda buraxılan məhsul nəsillərinin bir-birini əvəz etməsinin sürətlənməsi;
- ❑ iqtisadiyyatın ənənəvi olan qabaqcıl sahələrinin yenidən qurulması və modernləşdirilməsi.

Beləliklə, <u>dünya iqtisadiyyatının inkişafının tsiklliyi</u> XVIII əsrdən başlayaraq XIX

əsrin sənaye çevrilişlərinə qədər aqrar struktur, XIX əsrin ikinci və XX əsrin birinci yarısında iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə sənayenin aparıcı rolu və 1980-ci illərdə postindistrual inkişafla bağlı olmuşdur.

Dünya iqtisadiyyatının inkişafının tsiklliyi ilə əlaqədar bir sıra nəzriyyə və konsepsiyalar işlənilmişdir. Bu sırda rus sovet iqtisadçısı Nikolay Dimitriyeviç Kondratyevin (*1892-1938*) adı ilə bağlı "Böyük tsikllər" və ya "Uzun dalğalar" adlanan nəzəriyyə daha geniş elmi populyarlıq qazanmışdır. <u>Kondratyev dalğaları/tsiklləri</u> (*ingiliscə* - Kondratiev cycles - *Kondratyev tsiklləri*) N.Kondratyevin adı ilə bağlı dünya iqtisadiyyatında elmi-texniki tərəqqinin tsiklliyini (*iqtisadiyyatın yüksəliş və enmələrinin əvəzlənməsi mərhələləri*) səciyyələndirən texniki-iqtisadi inkişafın uzunmüddətli (*təxminən 55 il*) dalğavari dövriliyidir. N.Kondratyev riyazi metodların tətbiqi ilə fundamental qanunauyğunluqlar taparaq müəyyən etmişdir ki, bazar tsikllərinin inkişafında dalğavarilik xarakterikdir. O, ayrı-ayrı ölkələrin çoxsaylı statistik məlumatlarını təhlil etmiş, özünün "Dünya təsərrüfatı onun indiki və müharibədən sonrakı konyunkturası" (*1922*) və "İqtisadi konyunkturanın böyük silsilələri" (*1925*) məruzəsində müxtəlif sənaye dövrləri haqqında ideyaları inkişaf etdirərək müvafiq model işləyib hazırlamış, bununla da "Böyük tsikllər" nəzəriyyəsinin müəllifi kimi tanınmışdır. Həmin tskilləri alim ayrı-ayrı zaman nisbətlərinə bölərək, müvafiq olaraq, fəsli - bir ildən az, qısa - 3-3,5 il, orta silsilə - 7-11 il və böyük silsilələr - 48-55 il kimi təsnifatlandırmışdır. Y.Şumpeter "Böyük tsikllər" nəzəriyyəsini yüksək qiymətləndirmiş və bununlada dövriyyəyə "Kondratyev tskillər"i anlayışını daxil etmişdir. Həmin nəzəriyyəni sonradan ingilis iqtisadçısı Koin Qrant Klark (*1905-1989*) və amerikalı iqtisadçılar Uesli Kler Mitçela (*1974-1948*) və Artur Frenk Berns (*1904-1987*) inkişaf etdirmişlər. Nəzəriyyəyə görə, tsikllər 50-60 illik dövrü əhatə edərək hər biri 25-30 illik artıq dövr-fazaya bölünərək "kapital açlığı" və "kapital döyümü" mərhələləri olan enmə və yüksəlişlə xarakterizə olunurlar. İlk növbədə, "kapital aclığı" dövrü iqtisadi templərin inkişafı, investisiya qoyuluşları ilə müşahidə olunur. Sonradan investisiya tələbi azaldıqca o öz yerini "kapital doyumu" dövrünə verir ki, bu da templərin aşağı düşməsi işsizliyin artması, kapital idxalının azalması ilə nəticələnir. K.Klark bu iki fazanın qovşağında əmtəə qiymətlərinin tərəddüdünün baş verdiyini qeyd edir. "Böyük tsikllər" nəzəriyyəsinin nümayəndələri dünya iqtisadiyyatının XX əsrin ikinci yarısından indiyə qədər iki böyük silsilədə olduğunu qeyd edirlər. Başqa bir fikirdə müvafiq dövr ərzində, mübahisəli olsa da, dünya iqtisadiyyatının 4 uzun "Kondratyev tsikli"ndən keçdiyi fərz olunur. Bir çox tədqiqatçılar müasir zamanda dünya təsərrüfatında aparıcı mərkəzin beşinci "kondratyev tsikli"nə qədəm qoyduğunu qeyd edirlər. Yeni dövrə keçid robotların, mühəndis dühasının nailiyyətlərinin və makroproseslərin geniş tətbiqi ilə izah edilir. "Böyük tsikllər" nəzəriyyəsi mövcudluğunun bütün zamanlarında aktiv tədqiq olunur. Lakin indiyə qədər alim-iqtisadçılar cəmiyyətində onun praktiki tətbiqi üzrə geniş konsensusa gəlinməmişdir. Eyni zamanda vurğulanmalıdır ki, mövcud nəzəriyyə ilə yanaşı, böyük dövr ərzində

sənayenin və ümumi təsərrüfatın yerləşməsində "məhsul-istehsal silsiləsi" nəzəriyyəsi də elmdə geniş yer almışdır.

Müasir dünya iqtisadiyyatında xarakterik struktur dəyişiklikləri aşağıdakılarla bağlanılır:

1.Qeyri-istehsal sahəsi (*xidmətlər sahəsi*) sürətlə inkişaf edir.

2.Resurstutumlu baza sahələrdən elmtutumlu sahələrə keçid baş verir.

3.ÜDM-də kənd təsərrüfatının payı azalır və səmərəliliyi isə artır.

4.Maddi istehsal sahəsində emal sahələri sənaye strukturunda əsas olur.

5.Yanacaq və xammaldan daha qənaətli və səmərəli istifadə sayəsində dünya təsərrüfatının bütün yarımsistemlərində hasilat sənayesinin payı daim aşağı düşür.

6.Xarici ticarətin strukturunda dəyişikliklərlə bağlı emal sənayesi məhsullarının payı artır.

Hazırda dünya və situasiya, dünya iqtisadiyyatının özünün maraqlarına xidmət edən institutlarında yaranmış sistemdən daha tez dəyişir. Bu, ilk növbədə, qeyri-rəsmi strukturların sayının artmasında, onların fəaliyyətinin fəallaşmasında təzahür edir. Lakin qeyri-rəsmi qurumların statusu həm də onların həllinin icrasının məcburi olmamasına, beləliklə də onların gözlənilən təqdimatda yerinə yetrilməməsinə zəmin yaradır. Hələlik dünya hüquq məkanında bu kimi kolliziyaların qalması isə müasirliyin ən mürəkkəb qlobal problemlərini həll etmək qabiliyyətində olan, ideal stasionar institusional qurumların yeni modellərinin axtarışlarını zəruri və davamlı edəcəkdir. Dünya iqtisadi məqsədlərini vahid kimi formalaşdıra biləcək hakimiyyət orqanının yaradılması zərurəti onunla izah edilir ki, qloballaşma böhran inkişafının aradan qaldırılması üzrə milli dövlətlərin və DTT, BVF, DB və s. tipli beynəlxalq təşkilatların qüvvələrini təcrid edən güclü muxtar ətalət qüvvələri doğurmuşdur.

"Dünya", "paralel" və ya "qlobal" hökumətin yaradılması ideyası heç də yeni deyildir. Müxtəlif vaxtlarda müvafiq strukturların yaranışı irəli sürülmüşdür. Bu problemin yeni həllinin axtarılmasının zəruriliyi iqtisadi birliyi mahiyyəti "global governance, not global government" (*"qlobal hökumətsiz qlobal idarəetmə"*) şüarı olan ideyaya gətirir. Hazırda "qlobal hökumətsiz qlobal idarəetmə" ideyası hələ dəqiq cizgilər almamışdır. Belə ki, ən azı nəzəri səviyyədə belə sonrakı dərindən işlənməni tələb edir.

Mövcud beynəlxalq maliyyə sistemi ciddi narahatlıq doğurur. ABŞ, əksinə, yeni maliyyə və ya kredit strukturlarının yaradılmasının məqsədyönlü olmadığını hesab edir. Orada belə fikirdədirlər ki, BVF-in kredit resurslarını artırmaq və ona böhrandan əvvəlki mərhələdə ölkələrə yardımlar etmək səlahiyyəti vermək zəruridir.

Maliyyə sahəsində dünya problemlərinin həllinə digər bir yanaşma maliyyə strukturlarına hazırda mövcud olan nəzarəti sisteminin köklü surətdə təkmilləşdirilməsinə yönəldilmişdir. Onun mahiyyəti "Əsas beynəlxalq təsisatlara və bazarlara nəzarət Şurası" adlı beynəlxalq orqanın yaradılmasındadır. Şuranın səlahiyyətinə təkcə beynəlxalq təşkilatların kredit fəaliyyətinə nəzarət etmək deyil, həmçinin, kommersiya banklarının, sığorta şirkətlərinin və qiymətli kağızlarla, onların tənzimlənməsi ilə

məşğul olan strukturların fəaliyyətinə nəzarətin də daxil edilməsi nəzərdə tutulur.

Daha dar istiqamətli və müstəsna olaraq beynəlxalq bank kreditlərinə toxunan təşəbbüs "BVF ilə assosiasiya olunan təsisat" kimi Beynəlxalq Kreditlərin Sığortalanması Korporasiyasının yaradılması təklifindən ibarətdir.

Dünya iqtisadiyyatının institusional formalaşması prosesi həm praktikada, həm də yeni ideya və layihələrin işlənib hazırlanması şəklində davam edir. Lakin o, hələ də başa çatmaqdan, məntiqi sona yetməkdən çox uzaqdır. Belə vəziyyət mövcud beynəlxalq institutlar kompleksinin səmərəli və bununla bərabər tam və qarşılıqlı əlaqəli elementlər məcmusunun olmaması ilə xarakterizə olunur. Məqsədə nailolma dünya iqtisadiyyatının hələlik instituallaşma prosesi ilə əhatə olunmayan sahələrinin tənzimlənməsi üçün bir sıra institutların yaradılmasını tələb edir. Bu vəzifənin uğurla həll edilməsinin zəmini bütün formada kommunikasiyaların inkişafı və təbii idarəetmə sistemləri - mədəniyyətlərin, dillərin, bazarların, mentalitetlərin, hüququn sürətli diffuziyası ilə bağlıdır.

Beləliklə dünya iqtisadiyyatının instututlar sisteminin perspektivləri qeyri-rəsmi strukturların sayının artımı və fəaliyyət fəallaşması, yeni iqtisadi-maliyyə mexanizmləri və idarəetmə sistemləri yaranması çağrışları ilə bağlıdır. Həmin institutların təkmilləşməsi də bir reallıqdır. Onun üçün də dünya birliyı bu təkmiləşməni daim diqqətdə saxlamalıdır.

## 15.2. Qloballaşmanın dərinləşməsi, regionalizm meyilləri və qlokalizasiya

Qloballaşma beynəlxalq münasibətlərin regionlaşması, dövlətin funksiyalarının bir hissəsinin beynəlxalq və ya submilli səviyyəyə verilməsi ilə müşayiət olunur. Qloballaşma ilə regional inteqrasiya proseslərinin nisbəti kifayət qədər mürəkkəb və ziddiyyətlidir. Bütövlükdə, qloballaşma nəzərəçarpacaq şəkildə regional inteqrasiyanı stimullaşdırır. Lakin bununla belə, regionlaşma qloballaşmanın "ərazi forması" kimi də qəbul edilməməlidir. Bu proseslərin xarici tərəflərində hakimiyyətin diffuziyası, dövlətin rolunun dəyişməsi, sərhədlər açılışlı və s. bu kimi ümumi olan çox şeyin mövcudluğuna baxmayaraq onların təbiəti əsaslı şəkildə müxtəlifdir.

Regionlar beynəlxalq münasibətlərin müstəqil subyekti olaraq ictimai münasibətləri qloballaşmanın neqativ çağırışlarından qorumağa kömək edirlər. İnkişaf etməkdə olan ölkələrin bir çoxu qlobal rəqabətə qarşıdurma cəhdini regionlaşmada görürlər. Bu zaman qloballaşma şəraitində selektiv proteksionizm - milli maraqların qorunması ilə xarici dünyaya açıqlığı özündə əks etdirən dünya təsərrüfatına mərhələli inteqrasiya xüsusi aktuallıq kəsb etməyə başlayır.

Qloballaşma prosesləri ilə paralel inkişaf edən, həm də ona qarşı duran regionalizm tez-tez dövlətlərin iqtisadi inteqrasiyasında, bu sferada bloklaşmaların yaranmasında təzahür edir.

Regionalizm (*regionalism*) iqtisadi, sosial, siyası və digər problemlərin həllinə baxılmasına bu və ya digər regionun istehlakçıları maraqlarından yanaşmadır. Regionalizm regionlaşmadan fərqləndirilir. Regionlaşma hakimiyyət səlahiyyətləri və funksiyalarının milli səviyyədən regional səviyyə üzrə yeni institusional formaların yaranışı və inkişafı əsasında yenidən bölgüsünü ehtiva edir. Regionalizm regional elitanın və siyasi partiyaların xüsusi bir strategiyası olaraq çıxış edir. İstənilən regionalizm regionlaşma doğura bilməz. Regionalizmdə hadisələr aşağıdan - regionlardan qaynaqlanır, regionlaşmada isə əksinə, yuxarıdan - mili səviyyədə baş verir. Regionalizm və regionlaşma hər ikisi mərkəzçiliyin, mərkəzləşmənin unifikasiyanın antonimləridir.

Regionalizm iqtisadi inteqrasiyanın dərinləşdirirlməsi və bloklaşmaların yaranışı ilə müşayiət olunur. İqtisadi inteqrasiya bloklarının yaradılmasına səbəb aşağıdakılar ola bilər:

❒ inteqrasiya edən ölkələrin iqtisadi inkişafının oxşarlığı;
❒ dövlətlərin ərazi yaxınlığı;
❒ iqtisadi, ərazi və digər problemlərin ümumiliyi;
❒ nümayiş effekti;
❒ domino effekti (*blokdan kənarda qalan ölkələr zəif inkişaf edir, onlar bloka daxil olmağa səy göstərirlər*);
❒ hegemon dövlətlə qarşıdurma.

Hazırda dünyada 200-dən artıq regional xarakterli inteqrasiya modeli mövcuddur. Bütün mövcud regional inteqrasiya qurumlarında iqtisadi əlaqələr qüvvəsi müxtəlifdir. Burada kapital bazarlarının, mal və xidmətlərin, həmçinin, əmək resurslarının inteqrasiyasının faktiki səviyyəsi də fərqlidir. Həmçinin, bir çox ölkələr eyni zamanda bir neçə regional qruplaşmanın üzvü olurlar.

Avrasiya qitəsində bəşər tarixində ilk dəfə Avropada kapitalizmi doğuran düşüncə və kapitalın görüşü baş vermişdir. Bu da, öz növbəsində, inteqrasiya proseslərinə, qlobal və regional ikişafa təkan vermişdir. Müasir dövrdə də qlobal və regional çağrışlara stimullar verən, Planet əhalisinin 75%-nin yaşadığı, qlobal ÜMM-nin 60%-dən çoxunun istehsal edildiyi və dünya enerji ehtiyatlarının 80%-nin cəmləşdiyi Avrasiya qitəsi sanbalı ilə fərlənir. Burada dünyanın üç iqtisadi və texnoloji inkişaf mərkəzindən ikisi - Qərbi Avropada və Asiya-Sakit Okean regionu yerləşir. Bütün bunlara görə də Avrasiyaya nəzarət məsələsi klassik geosiyasi nəzəriyyə və konsepsiyaların əksəriyyətinin mühüm problemdir.

Regionallaşma aspektində Qərb intellektual düşüncəsinə görə Avropa Birləşmiş Ştatları - ümumi "Avropa evi"nin yaradılması ideyası iqtisadi gücünə görə ABŞ ilə müqayisədə son dərəcə dəyərlidir. Bu ideyanın əsasında başlanğıcını Amerika inqilabından götürmüş atlantik model durur. Avropa regionlaşması vətəndaş cəmiyyətiin dövlətin himayəsindən azad olmasını nəzərdə tutan "atlantik" federalizm prinsiplərinə əsaslanır. Avropa regionlaşmasının mahiyyəti üstmilli birliklərdən Avropa regionlarına mərhələli keçiddən ibarətdir. Bu prosesdə Avropa Şurası gələcək vətəndaş cəmiyyətinin

təməlini qoyaraq, Aİ-dən irəlidə gedir. Beləliklə, bu kontekstdə regionlaşmanın mahiyyəti "Regionlar Avropası" ifadəsi ilə inteqrasiyadan ibarətdir. Avropa regionlaşmasının əsasında ictimai münasibətlərdə istənilən icmanın hüquq və maraqları qarşısında şəxsiyyətin hüquq və maraqlarının prioritet təşkil etdiyini nəzərdə tutan subsidiarlılıq nəzəriyyəsi durur.

Regionalistikanın universal nəzəriyyəsi mövcud deyil. Yuxarıda sadalanan yanaşmalar müəyyən sivilizasiyaların sərhədlərində meydana gəlmişdir. Bu təlimləri Şərq sivilizasiyalarına yaymaq da düzgün olmazdı. Belə ki, Şərqdə regionalistikaya başqa yanaşma mövcuddur. Çin ənənəsinə görə, o, Böyük Çin qaydası fəlsəfəsindən irəli gəlib dövlətin insan üzərində prioritet olması, selektiv (*seçicili*) yad maddi nailiyyətlərin varisliyindən ibarətdir. Çin o qədər özünü qane edəndir ki, burada üstdövlət regional qruplaşmalar beynəlxalq münasibətlərdə o qədər də rol oynamır. Lakin bu çevrdə bir istisna vardır. Bu, bütün dünyanın etnik çinlilərini birləşdirən Böyük Çindir. Ehtimal ki, bu etnik superqruplaşma Aİ və ABŞ-a qarşı duracaq. Qərbdə yayılmış "mərkəz-əyalət" nəzəriyyəsindən fərqli olaraq, Çin ənənəsi üç hissəli regional "mərkəz-əyalət-sərhəd" modelini ayırır. Sərhəd regionlarda, xüsusilə də sahilyanı bölgədə başqa xalqlarla dialoq üçün mədəni-genetik açıqlıq kodu formalaşır. Müasir Çinin ətrafa mərhələli açıqlığı bu təsəvvürlərdən başlanmışdır. Sahilyanı əyalətlərdə açıq iqtisadiyyatın lokomotiv zonaları yaradılmışdır.

Qloballaşma və regionlaşma münasibətləri diskutiv predmetlidir. Bir qism tədqiqatçılar onların bir-birlərinin möhkəmləndirdikləri, digərləri isə bu fenomenlərin təzadlı olduğu qənatindədirlər. Qloballaşma və regionlaşma proseslərinə birləşmə və siyasi motivləşmə kimi də baxılır. Onların qarşılıqlı şərtliliyi "qlokalizasiya" neologizmi yaratmışdır. Əslində, dəqiq interpretasiyada ambivalent strukturlu "qolkalizasiya" termini "qlobal" və "lokal" antonimlərin sintezinin ifadəsidir. Qlokalizasiya qlobal, lokal və ya regional olan siyasi-iqisadi, sosial-mədəni maraq və təməyüllərin uzlaşmasını kimi dövlət tənzimlənməsindən çox submilli və üstmilli səviyyələrlə asılılıqda cərəyan edir.

Qlokalizasiya ilə yanaşı planetdə modern konsepsiya formatında postsivilizasiyalı inqilabi meyil - mondializiasion proseslər də sürət toplayır. Mondializasiya bir tərəfdən sivilizasiya moderninin davamı, digər tərəfdən milli dövlətin baza formasının ayıran və dağıdan müasir dünya sistemli planetar dualiz kimi çıxış edir. Ənənəviçiliyə əks qütbdə dayanan mondializmin məqsədlərini qlobal ideoloji məkfurədə: irqi, milli, dini təsnifat olmayan və sonda hətta cinsi bölgüyə belə etiraz edən prinsiplər üzərində qurur. Lakin nə qloballaşmaya və nə də mondilizmz vesternizasiya təşviqi kimi baxılmamlı. Burada üstün olaraq sosial və mədəni çoxnövlülüyün sintenizində daha çox yeni translokal, qlakolikazision kefiyyətlərə istinad etməlidir.

Sosial-texniki tərəqqi məhz inkişaf edən qlolakalizasiyadır. Ümumdünya siyasəti qlokalizasiya prosesində dövlətlərarası sistemdən daxiliqlobal şəbəkəyə transformasiya olunur. Qlokalizasiya şəbəkəsində çevik kommunikasiyalı rabitə ən böyükdən son

kiçiyə, BMT-dən aula, səhradan vahəyə, dəyradan gölməçəyə nüfuz edən vektorial xətt üzərində qurulmuşdur. Elə bu baxımdan "qlobal brendlər" işləyən marketoloqlar multmilli və postmodern situasiyada öz kompaniyalarının iflas riskini artırmaq müstəvisində hərəkət etmək məcburiyyətində qalırlar. Qlokalizasiya isə belə şəraitdə brendinq strategiyasını dəyişərək istehlakçının mədəni xüsusiyyətlərinin maksimal nəzərə alınmasını şərtləndirir.

Məntiq və əyani tarixilik inkişafın şüurlu təkamülünə, yəni regionalizmin leyhinədir. Buna baxmayaraq, tarixi kataklizmlər tarixin üstün dinc gedişini dəfələrlə dağıtmışdır. İnqilabi sıçrayışlar isə, tarixin sübut etdiyi kimi, çox zaman başladığı ilə də nəticələnir.

### 15.3. Qlobal modelləşdirmə və gələcəyə hesablanan proqnozlar

Qlobal problemlərin meydana gəlməsi ilə bir çox elmlərdə gələcəyə, inkişaf perspektivlərinə yüksək maraq görünməkdədir. Bu gələcək bütün - lokal, ölkə, subregional, regional və qlobal səviyyələrdə tədqiq edilir. Burada daha çox qlobal proqnozlar maraq doğurur. Bundan irələ gələrək, yeni fənlərarası istiqamət - müasir, xüsusilə də bəşəriyyətin inkişafinin gələcək meyillərinin təhlili ilə məşğul olan qlobal proqnozlaşma formalaşmağa başlamışdır və təkmilləşməkdədir. O, lap başlanğıcdan qlobal modelləşdirmə formasını almış və dünya inkişafinin mürəkkəb çoxamilli proseslərinin riyazi modellərinin quruluşunda öz ifadəsini tapmışdır. Zaman keçdikcə onlar müəyyən strukturlaşmaya məruz qalmışdır. Qlobal modelləşdirmə (*global modelling*) bütün dünyanı əhatə edən daha üstün miqyaslı sosial, iqtisadi və ekoloji proseslərin işlənməsinə həsr eduilmiş tədqiqat sahəsidir. Qlobal modelləşdirmə qlobal inkişafın modelləşdirilməsi kimi də anlaşılır.

Qlobal modellərdə, istisnasiz olaraq, bütün dünyaya aid edilmədə bir-biri ilə əlaqədə iqtisadi, demoqrafik, ekoloji, sosial, siyasi amillər nəzərə alınmalıdır. Modelləşməyə sistemli yanaşma xasdır. Sistemli yanaşma (*almanca* - system methode - *sistem metodu*) mürəkkəb obyektə çoxsaylı elementlərin bütövlüyü, onlar arasında əlaqəlilik və münasibətlər məsmusu kimi baxılmasını şərtləndirən elmi-tədqiqat metodologiyası istiqamətidir. Sistemli yanaşma obyekti bir sistem (*yunanca* - sysntema - *bütöv, hissələrdən alinmiş, birləşmə*) olaraq tədqiq etməyə yönəlmişdir. Dünyəvi iqtisadi proseslərə sistemli yanaşma qarşılıqlı rabitəli və qarşılıqlı təsirli elementlər məcmusunda ehtiva olunur. Qlobal inkişaf problemlərinin həllinin baza şərtləri olaraq elmi-texniki və sosial-siyasi aspektlər çixiş edir. Bu problemlərin həlli istiqamətində sistemli yanaşma elemetləri kimi texnokratik, fəlsəfi, eksiztensial (*mövcudluq*) və mədəni yanaşmaları ayırmaq olar. Sistemli yanaşma qlobal inkişaf problerini model aspektə baxılmasını şərtləndirir.

Model (*fransızca* - modèle, *latınca* - modulus - *ölçü, nümunə*) orijinal obyekt və hadisənin bir sıra mühüm xassələrini saxlamaqla material və ya fikri təqdim edilən obyekt və hadisədir. Onun natural, elmi, kompüter, imitasiya, statistik, cədvəl, ier-

arxiya, qrafik, şəbəkə-informasiya, obyekt-oriyentasiya kimi formaları fərqləndirilir. Tip və təyinat bölgüsündə isə dərk edilən, praqmatik, instrumental, reqressiya və struktur modellər yer alır. Dərk edilən model biliklərin təşkilati forması və təqdimatı, köhnə və yeni biliklərin birləşdirilməsi vasitəsi olaraq mövcud və reallıqa yaxın olan və nəzəri əsaslı, praqmatk model təcrübi hərəkətlərin təşkili vasitəsi, sistemin idarə edilməsinin işçi təqdimatı, təcrübi-tətbiqi, mövcud olmayan, arzu edilən modeldir. İnstrumental model tədqiqat düzümünün modeli olaraq dərk edilən və ya praqmatik modellərdən istifadə təyinatlı modeldir. Reqressiya modeli statistik yoxlanış modelidir. Bu yoxlanışdan sonra modelin qəbul olunub olunmamasına baxılır. Struktur model çoxsaylı göstəricilər tipi və onlar arasında rabitəni ehtiva edən struktur formaya malikdir və iyerarxik, şəbəkə, relyasion (*münasaibət*) növlərə ayrılır.

Modelləşmə real mövcud predmet və hadisələrin model quruluşda tərtibatı ilə öyrənilməsini əks etdirir. Model yanaşmada dünya iqtisadiyyatını mürəkkəb kibernetik sistem kimi də dəyərləndirmək mümkündür. Kibernetik sistem (*cybernetic system*) informasiyanı yaddaşlara salan, emal və mübadilə edən elementlər sistemi adlanan çoxsaylı qarşılıqlı obyektlərdir. Onun özünütəşkil və özünətəlim kimi xassələri vardır. Kibernetikaya onun strukturuna daxil edilən elementlərin təbiətindən asılı olmayan sistem kimi yanaşılır. Temperatur tənzimləyicisi, insan beyni, iqtisadiyyat, cəmiyyət kibernetika kimi anlaşıla bilər. Əlahiddə olaraq kibernetika (*yunanca* - κυβερνητική/kybernetike - *idarəetmə sənəti*) idarətmə prosesinin ümumi qanunayğunluqları, informasiyaların müxtəlif sistemlərə (*maşınlara, canlı orqanizmlərə və ya cəmiyyətə*) ötürülməsini tədqiq edən elm kimi səciyyələndirilir. Kibernetika termini elmi dövriyyəyə alman əsilli ABŞ riyaziyyatçısı və filosofu Nobert Vinner (*1894-1964*) çıxartmışdır.

Bəşəriyyətin gələcəyi çoxsaylı proseslərlə təyin olunur. Bunların bəzisi nəzarət edilə bilən, bəzisi isə nəzəratdən kənar ola bilir. Bu proseslər biri-biri ilə o qədər qarşılıqlı münasibət və asılılıqdadırlar kı, onları məcmu halında yalnız riyazi hesablamaslar və modelləşmələr vasitəsi ilə proqnozlaşdırmaq mümkündür.

Bəşəriyyətin gələcəyinin proqnozlaşdırılması üçün ilk elmi təşkilatlar ABŞ-da hələ XX əsrin 40-cı illərində yaradılmışdı. 1946-ci ildə tanınmış sahibkarlar qrupu Kaliforniyada Stenford Universitetinin alimləri ilə əməkdaşliq edərək, Stenford tədqiqat institutunun əsasını qoydular. İki ildən sonra burada - Kaliforniyada Santa-Monikada daha bir “beyin tresti” - “Rend korporeyşn” meydana gəldi. 1956-ci ildə isə anoloji məqsədlər üçün “Sistem development korporeyşn” kopporasiyası yaradıldı. On il sonra - 1966-ci ildə Vaşinqtonda “Gələcək Dünyanın Öyrənilməsi Cəmiyyəti”nin əsası qoyuldu. Artıq XX əsrin 60-ci illərində ABŞ-da 15 bu kimi iri institut və təşkilat mövcud idi. Sonralar, 1960-70-ci illərdə tam başqa, daha pessimist planda proqnostik tədqiqatlar meydana gəldi. Onların adları: “Qarşıda uçurum” (*A.Peççei*), “Futuroşok” (*E.Toffler*), “Planet təhlükə altında” (*R.Folk*) və s. də bunu təsdiq edirdi. Məşhur amerika alimi E.Tofflerin bu sahədə 1970-ci ildə nəşr edildiyi kitab əsl bestsellerə çevrilmişdir. Buradan dövriyyəyə çıxarılan “futuroşok” termini - yəni insanın gələcəklə

görüşündən şok müvafiq təyinatlarda ümumi isimə çevrildi. Proqnostik xarakter daşıyan və böyük rezonansa səbəb olmuş belə əsərlərin siyahısına German Kan və Entoni Vinerin "2000-ci il" kitabını da əlavə etmək lazımdır. Onlar öz hesablamalarının əsası kimi adambaşına ÜDM göstəricisini (*1965-ci il səviyyəsində*) götürmüşlər. Gəldikləri nəticə isə ondan ibarət olmuşdur ki, Qərbi Avropa ölkələrinə o dövrki ABŞ-ın səviyyəsinə nail olmaq üçün 10-20 il, SSRİ-yə 30 il, ÇXR-ə 100 ildən artıq, Hindistana 120, İndoneziyaya demək olar ki, 600 il vaxt lazımdır.

Dünyanın gələcəyinə hesablanan modellər işərisində Amerika mühəndisi, sistem dinamikası nəzəriyyəçisi Jey Rayt Forresterin (*1918-2016*) rəhbərliyi ilə hazırlanmış bəşəriyyətin inkişafının biosfera ilə qarşılıqlı əlaqliliyi ssenarisində World-1 (*Dünya-1*), World-2 (*Dünya-2*) modelləri daha məhşurdur. Sonradan onun tövsiyələri ilə özünün gənc assissenti olmuş ABŞ-ın Massaçusets Texnoloji Universitetində professor Denis Medouz (*1941*) World-3 (*Dünya-3*) modelini işləmişdir. Bu alimlərin tədqiqatlarının nəticələri final hadisələrə - dünyanın sonunu gedib çıxdıqından o zamanlar geniş rezonans doğuraraq sensasiyaya səbəb olmuşdur. Müəlliflər dəfələrlə qeyd etmişlər ki, bu ssenari yalnız döğru olmayan seçimdə neqativ proqnozludur.

Qlobal modelləşmədə dönüş nöqtəsi Roma Klubunun ümumdünya sisteminin inkişafının proqnozlaşdırılması və modelləşdirilməsi ilə bağlı genişləndirilən hesabatlandırmalarında öz əksini tapdı. Roma Klubu (*Club of Rome*) 1968-ci ildə Romada görkəmli ictimai xadim, "Fiat" konserninin rəhbəri və sonradan onun ilk prezidenti olmuş Aurelio Peççi (*1908-1984*) və İƏİT-in elm məsələləri üzrə baş direktoru Aleksandr Kinqin (*1909-2007*) təşəbbüsü ilə on ölkənin nümayəndələri tərəfindən yaradılmışdir. Roma Klubunun məqsədi dünya resurslarının fiziki məhdudluğu ilə bağlı yaranan çətinliklərin elmi təhlilini aparmaq, ümumbəşəri kritik situasiyalarda "həyəcan təbili" səsləndirmək, "işlərin idrakli gedişinə" nail olmada ictimaiyyətə "qlobal tarazlığın" əldə edilməsində ölçü və tədbirləri gerçəkləşdirmək yollarını göstərmək və habelə ümumilikdə problemin həllində müvafiq metodika verməkdir. Siyasi doktrinalar formalaşdırmayan elm, təhsil, ətraf mühit və iqtisadiyyatla bağlı aktual məsələlər üzrə dialoqa çağırış edən Roma Klubu bəşəriyyət qarşısında dayanan çətin problemlərin aşkarlanması və həlli strategiyasını işləmək missiyasını həyata keçirir. Klubun ştatı və rəsmi büdcəsi yoxdur. Fəaliyyəti 12 nəfərdən ibarət İcraiyyə Komitəsi tərəfindən koordinasiya olunur. Klubu həqiqi, fəxri və assosiasiativ üzvlər təmsil edirlər. Üzvlər arasında inkişaf etmiş ölkələrin elm və siyasət xadimləri üstünlük təşkil edir. "Qlobal düşün, lokal hərəkət et", "Yarı xərclərlə ikiqat verim" kimi prinsiplərə sahib Roma Klubun fəaliyyətinin əsas "məhsulu" onun prioritet qlobal problemlərə və bu problemlərin həlli yollarına həsr edilmiş məruzələridir. Klubun sifarişi ilə görkəmli alimlər 35-dən artiq məruzə hazırlamışlar. Mənzil-qərargahı Fransanın paytaxtı Paris şəhərində yerləşir.

Ümumilikdə Roma Klubunun ümumbəşəri problemlərlə bağlı dövri olaraq hazırladığı əsas məruzələr şəkil 18-də öz əksini tapmışdır.

| İllər | Nəzəriyyənin adı | Müəlliflər |
|---|---|---|
| *1972* | Artım hədləri | Denis Medouz və başqaları |
| *1974* | Bəşəriyyətin təkrar dayanışı | Mixaylo Mesaroviç, Eduvard Pestel |
| *1975* | Beynəlxalq düzülüşə yenidən baxılma | Yan Tinberqen |
| *1976* | İsrafçılıq əsrinin arxasında | Denis Qarbor və başqaları |
| *1977* | Bəşəriyyət üçün məqsədlər | Rvin Laslo və başqaları |
| *1978* | Enerji: əks hesab | Terri de Monbrial |
| *1979* | Tədrisin sərhədləri yoxdur | C.Botkin, E.Elmancara, M.Malisa |
| *1980* | Üçüncü dünya:dünyanın dörddə biridir | Morris Herne |
| *1980* | Sərvət və rifah haqqında dialoq | Orio Ciriani |
| *1980* | Gələcəyə aparan marşrutlar | Boqdan Qavrilişin |
| *1981* | Şimal və Cənub əməkdaşlığının imperativləri | Jan Sen-Jur |
| *1982* | Mikroelektronika və cəmiyyət | Q.Friddixs, A.Şaff |
| *1984* | Üçüncü dünya özünü yedizdirməyə qadirdir | Rene Lenuar |
| *1986* | Okeanların gələcəyi | Elizabet Mann-Borqeze |
| *1988* | Ayağı yalınların inqilabı | Bertran Şneyder |
| *1989* | Təyinolunmanın hədləri | Orio Ciriani, Valter Stahel |
| *1989* | Artım hədləri arxasında | Eduard Pestel |
| *1989* | Səhralaşmanın sərhədləri | Orio Ciriani, Valter Stahel |
| *1989* | Afrika, qalib gəlmiş aclıq | Aklilu Lemma,Pentti Malaska |
| *1991* | Birinci qlobal inqilab | Aleksandr Kinq, Bertran Şnayder |
| *1994* | İdarəetmə bacarığı | İyezekiil Dror |
| *1995* | Qalmaqal və rüsvayçılıq: yoxsulluq və inkişafetməmə | Bertran Şnayder |
| *1995* | Təbiəti diqqətə almaq lazımdır: milli gəlirə və həyata köməyə görə | Van Diren |
| *1997* | Faktor dörd: sərvətlərin ikiqat artımı, resursların ikiqat qənaəti | E.Vayszekker, E.Lovinis, L.Lavinis. |
| *1997* | Sosial vəhdətin sərhədləri: plyurialist cəmiyyətdə konfliktlər və anlaşmalar | Berqer Peter |
| *1998* | Məşğulluq dilemması və işin gələcəyi | Ciarini Orio, Lidtke Patrik |
| *1998* | Okean dövrü: qlobal resurslar kimi dənizlərin idarə edilməsi | Elizabet Mann-Borqeze |
| *1998* | Şəbəkə: yeni media həyatımızı necə dəyişir | Sebrian Xuan Luiz |
| *2000* | İnsan qalib gəlir | Mon Reynhard |
| *2002* | Düşünməyə vadar etmə sənəti | Frederik Fester |

| İllər | Nəzəriyyənin adı | Müəlliflər |
|---|---|---|
| ***2003*** | Tədris və işin ikiqat həlqəsi | Orio Carini, Mirça Malisa |
| ***2004*** | Artım hədləri - 30 ildən sonra | Denis Medouza və başqaları |
| ***2005*** | Özəlləşdirmənin sərhədləri | Ernst Vayszekker və başqaları |
| ***2006*** | İnsanın İnkişafı nəzəriyyəsi haqqında esse:Demoqrafik inqilab və informasiya cəmiyyəti | Sergey Kapissa |
| ***2009*** | Mavi iqtisadiyyat: 10 il, 100 innovasiya, 100 milyonluq iş yeri | Gunter Pauli |
| ***2010*** | Faktor beş: resursların səmərəliliyinin artırılması yolu ilə qlobal iqtisadiyyatın transformasiyası | Ernst Vayszekker, Charli Harqroves, Maykl Smit, Şeril Desha, Piter Earthscan |
| ***2012*** | Təbiətin dağılması: Planet sərhədlərinin inkarı | Anders Viykman, Johan Rockström |
| ***2012*** | 2052: Yaxın 40 il üçün qlobal proqnoz | Yorgen Randers |
| ***2014*** | Hasil edilmişlər: Faydalı qazıntıların hasilatı planeti necə talayır | Ugo Bardi |
| ***2015*** | Tarixi dəyişdirməklə, gələcəyi dəyişirik: Canlı Yer üçün canlı bir iqtisadiyyat | David Korten |

**Şəkil 18. Roma Klubunun məruzələri**

Roma Klubu tərəfindən hazırlanaraq sosial qlobal problemlərə və ətraf mühitin problemlərinə həsr edilmiş məruzələr qlobalistikanın inkişafinda və qlobal problem-2lərin praktiki həllində mühüm rol oynaya bilməmişdir. Lakin onlar "bəşəriyyətin sosial xəstəlikləri"nin dərk edilməsinə mühüm töhfə vermişlər.

1972-ci ildə amerikalı alim, biofizik xanım Donella Medouz (*1941-2001*), onun həyat yoldaşı professor Denis Medouz, norveçli professor Yorqen Randes (*1945*) və amerkalı mühəndis Vilyam Berensin (*1906-1977*) Roma Klubu üçün hazırladığı "Artım hədləri" adlanan məruzədə ümumi qəbul olunmuş "qlobal problem" anlayışı dövriyyəyə gəldi. Əslində, məruzədə irəli sürülən ideyalar, başlıca, olaraq amerikalı kibernetika professoru C.Forresterin "Dünya dinamikası" kitabından qaynaqlanmışdı. Bu əsərində C.Forrester bəşəriyyətin XXI əsrin əvvələrində təbii resursların tükənməsi, ətraf mühitin çirklənməsi, demoqrafik partlayışlar kimi qlobal fəlakətlərlə üzləşəcəyini bildirmiş, bununla da T.Maltusun "əhali artıqlığı nəzəriyyəsi"nə əsasən XX əsrin sonunda dünya əhalisinin 4,5 milyard nəfərlə məhdudlaşdırılmasının zəruriliyi fikri ilə çıxış etmişdir. Vurğulanmalıdır ki, məhz Roma Klubu üçün ilk olan bu prezentasiya məruzəsinə təşəkkür kimi beynəlxalq səviyyədə müasir texnoloji sivilizasiyanın mövcudluğu və inkişaf məsələləri zəminində bəşəriyyətin qlobal problemlər konsepsiyası ümumi qəbul edilmiş oldu.

Sonradan tanınmış iqtisadçı alim V.Leontyevin başçılığı ilə BMT-nin ekspertlər qrupu bu ideyalara tənqidi yanaşaraq "Dünya iqtisadiyyatının gələcəyi" adlı yeni layihə işləmişlər. V.Leontyev təsdiqləmişdir ki, əhali artımı eksponensial proses və partlayış deyildir. V.Leontyevin fikrincə, 2025-ci ilə qədər artım proqressiv olacaq və üçüncü dünya ölkələrində sabitləşmə 2075-ci ildə yaranacaqdır. Bu layıhə əsasında V.Leontyevin "məsrəf-buraxılış" modeli qət olunan iqtisadi yolu qiymətləndirməyə və onun inkişafını proqnozlaşdırmağa, iqtisadiyyatın alternativ vəziyyətini layihələşdirməyə imkan verir. "Dünya iqtisadiyyatının gələcəyi" layihəsinin əsasında dayanmış və onun köməyi ilə 1980-2000-ci illər üçün dünya inkişafının ssenarisi təhlil olunmuşdur. V.Leontyev öz iqtisadi modelini hazırlayarkən hər əmtəə bir bölmədə istehsal olunur, bir-biri ilə əlaqəli məhsullar istehsal edilmir, istehlakçı sahənin xərcləri onun öz buraxılışı ilə müəyyən olunur kimi məhdudiyyət şərtlərini irəli sürürdü. V.Leontyev 1973-cü ildə "Məsrəf-buraxılış" modelinin inkişafına və onun vacib iqtisadi problemlərinin tətbiqinə görə Nobel mükafatı almışdır.

Qlobal inkişafın proqnozlaşdırılması macar alimi, sosioloq Ervin Laslo (*1932*) Roma Klubu üçün 1977-ci ildə hazırladığı "Qlobal məqsədlər və dünyəvi həmrəylik" məruzəsində "insan faktoru" primatını önə çəkmişdir. Bununla o, çətinlikləri insan xaricində deyil, onun daxilində axtarmağa üstünlük vermişdir. E.Laslonun fikrincə, insanların müvafiq psixi keyfiyyətlərinin inkişafı sivilizasiyanın material şəraitini köklü dəyişikliklərə uğradacaq, "psixologizm və subyektivizm", "elm və dində liderlik" inkişaf ssenarisini "həqiqət yoluna" çıxaracaqdır. İnsan faktoru problemi sonradan, 1990-cı ildə BMT tərəfindən önə çəkilmişdir.

Qlobal inkişafın proqnozlaşdırılması alman alimi və siyasətçisi Ernest Ulrix Vayszekker (*1939*), amerikalı alim Emori Blok Lovinis (*1947*), amerikalı vəkil L.Hanter Lovinis (*1950*) tərəfindən hazırlanaraq Roma Klubunun qəbul etdiyi, 1997-ci ildə dövriyyəyə buraxılan, "Faktor dörd" adlanan məruzə: "Xərclər yarı - verim ikiqat" prinsipli "Faktor dörd" anlamı resurslardan rasional istifadədə uğurlu həll metodikasıdır.

Proqnoz modellərin böyük əhəmiyyətinə baxmayaraq, onların hamısının bir sıra nöqsanları vardır. Burada aydın surətdə ictimai inkişafin məqsədləri ifadə olunmayıb, təbii sistemlərin durumu haqqında informasiya defisiti hiss edilir və onların təyinatına dair dəqiq tövsiyə və hesablamalar da yoxdur.

### 15.4. Urbanizasiya prosesləri və meqapolislərin yaranışı

Urbanizasiya (*latınca* - urbanus - *şəhər*) cəmiyyətin inkişafında şəhərlərin rolunun artması prosesi olaraq kənd əhalisinin şəhərə axınını ifadə edir. Termini olaraq ilk dəfə xarici ədəbiyyatda 1867-ci ildə İspaniyada meydana gəlmişdir. Urbanizasiya əhalinin sosial-peşə, demoqrafik strukturunu, həyat tərzini, mədəniyyətini, məhsuldar qüvvələrin yerləşdirilməsini, məskunlaşması məsələlərini özündə birləşdirir. Əhali

sayının və şəhərlərin ölçülərinin ekstensiv artması ilə müşayiət olunan urbanizasiya prosesinin əksi ruralizasiyadır. Ruralizasiya (*latınca* - ruralis - *kəndə aid*) iqtisadi, ilk növbədə isə ərzaq təminatı vəziyyətinin pisləşməsi ilə əlaqədar əhalinin şəhərdən kənd yerlərinə axınıdır. Bəzi hallarda ruralizasiya ekoloji (*ekoməskunlaşma*) və dini-sentimental (*icma ideologiyası*) motivlərlə də müşayiət olunur. Urbanizasiyanın digər bir əks prosesi də konturbanizasiyadır. Kontrurbanizasiya, dezurbanizasiya (*ingiliscə* - counter-urbanisation - *əks urbanizasiya*) şəhər əhalisinin artımının məhdudlaşdırmasına istiqamətlənmiş nəzəri konsepsiya və təcrübi tədbirdir. Şəhər əhalisinin artımının məhdudlaşdırması miqrasiya axınlarının yenidə bölgüsü, iqtisadiyyatın sahələrinin rasional yerləşdirilməsi, inzibati funksiyaların digər şəhərlərə köçürülməsi ilə mümkündür. Bir sıra ölkələrdə bu nəzəriyyə paytaxtların digər ayrıca rayonlara köçürülməsi ilə reallaşdırlmışdır. Praktiki olaraq deurbanizasiya prosesləri XX əsrin sonunda ABŞ-da və qismən Avropada başlanmışdır.

Urbanizasiyanın ilkin şərtləri - sənayenin inkişafı, mədəni və siyasi funksiyaların genişlənməsi, əməyin ərazi bölgüsünün dərinləşməsi ilə səciyyəvidir. O, şəhər əhalisinin təbii artımı, kənd yaşayış məntəqələrinin şəhərə qovuşması, geniş şəhərətrafı ərazilərin yaranması, kənd ərazilərindən şəhərə miqrasiya və s. cəhətlərlə xarakterikdir.

Urbanizasiya prosesi 3500 il əvvəl Dəclə və Fərat çayları, bir qədər sonra isə Nil çaylarının vadilərində başlanmışdır. Şəhərlər ticarətin inkişaf etdirilməsi və sakinlərin hücumlardan müdafiə yeri kimi meydana gəlirdi. Sənaye inqilabının başlanması ilə urbanizasiya prosesi partlayış xarakteri almışdır. Hazırda urbanizasiya prosesləri Asiya, Latın Amerikası və Afrikada daha surətli tempdədir.

Urbanizasiyanın növbəti mərhələsi suburbanizasiya adlanır. Belə ki, insanların artan rifahı onlara şəhər ətrafında "kənd yaşayış tipli" evlərin tikilməsinə imkan yaradır və onlar kəndlilərə çevrilmədən praktiki olaraq şəhərdə işləməyə davam edirlər. Konkret anlamda suburbanizasiya (*latınca* - sub - *altında, ətrafında və* urbanus - *şəhər, ingiliscə* - suburbanization - *suburbanizasiya*) mərkəz-şəhərlərdən, həmçinin, kənd yerlərindən əhalinin şəhərətrafı zonalara köçməsi ilə əlaqədar həmin şəhərətrafı zonaların artması və inkişafı prosesidir. Şəhərətrafı qəsəbələrin və peyk-şəhərlərin artması bir qayda olaraq mərkəz-şəhərlərin artmasından daha tez baş verir. Suburbanizasiya XX əsrin 50-ci illərində inkişaf etməyə başlamışdır. Onu, xüsusilə böyük şəhərlərdə həddən artıq əhalinin və bütün fəaliyyət növləri ilə məşğul insanların cəmləşməsi nəticəsində yaşayış şəraitinin pisləşməsi (*o cümlədən ekoloji şərait*) doğurmuşdur. Prosesə, həmçinin, avtomobilləşmənin artımı da təsir göstərmişdir. Suburbanizasiya şəhər aqlomerasiyalarının meydana gəlməsinə səbəb olur.

Kompakt yerləşmə mənasını ifadələndirən aqlomerasiya (*latınca* - agglomerare - *birləşdirmək, yığmaq*) iri şəhərlərdə yaşayış məntəqələrinin intensiv əlaqəliliklə ictimai, istehsal, əmək, mədəni-məişət, rekreasiya və digər təsistlar sistemində təmərküzləşməsidir. Termin daha çox şəhər məskunlaşma tipinə *(şəhər aqlomerasiyası)* aid edilir. Aqlomerasiya monosentrik və polisentrik olmaqla fərqəndirilir. Monosentrik aqlo-

merasiya bir iri şəhər-nüvə ətrafında meydana gəlir. Polisentrik aqlomerasiya (*konurbanizasiya*) isə bir neçə bərabər güclü mərkəz şəhərdən ibarət aqlomerasiyadır.

İstehsalın ərazi təşkili və əhali məskunlaşması nöqteyi-nəzərindən aqlomerasiyaların real sərhədlərinin müəyyən edilməsi meyarlarının seçilməsi məsələsi xüsusi aktuallıq kəsb edir. Aqlomerasiyaya özünəməxsus effektiflik xasıdır. Aqlomerasiya effekti (*ingiliscə* - agglomeration economies - *aqlomerasiya iqtisadiyyatı*) şəhərlərdə və aqlomerasiya zonasında istehsalın və digər iqtisadi obyektlərin ərazi konsentrasiyasından iqtisadi faydalanmadır. Aqlomerasiya effekti həm də onu ehtiva edir ki, ərazidəki obyektlərin kompakt, biri-biri ilə uzlaşmada yerləşməsi onların izoləedilmiş yerləşməsindən səmərəlidir. Aqlomerasiya effekti mühüm iqtisadi əhəmiyyət kəsb etdiyindən təcrübi reallıqlardan irəli gələrək onun nəzəri əsasları təkmilləşir. Burada çoxsaylı klassik və yeni nəzəri araşdırmalar genişliklə təhlil olunur.

Urbanizasiyanın genişlənməsi müvafiq effektlər yardır. Urbanizasiya effekti (*urbanization effect*) bir şirkətin istehsal xərclərinin şəhər ərazisində məcmu istehsal həcminin artması ilə əlaqədar aşağı düşməsi vəziyyətində yaranan istehsalın konsentrasiyası ilə bağlı effektdir. Urbanizasiyadan qənaət (*urbanization economies*) yaşayış məntəqəsinin sayının artırılması nəticəsində əmələ gələn və ayrıca bir insan üçün hər hansı bir xidmətin dəyərini azaltmağa imkan verən xərclərin azaldılması və ya mənfəət alınması ilə müşayiət edilən aqlomerasiyadan yaranan qənaət növüdür. İri urbanizasiyadan əraziləri ilə bağlıdır. Lakin ölçülər bu sferada tək müəyyənedici amil deyildir. Burada sahələr müxtəlifliyi daha əhəmiyyətli rol oynayır.

BMT-nin məlumatına görə, müasir dünyanın daha urbanizasiyalı dövlətləri Sinqapur və Honkonq (*ÇXR-inn özünüidarəedən ərazi statusu olan bir hissəsi*) olmuşdur ki, burada şəhərlilər əhalinin 100%-ni təşkil edirlər. Bu sırada 98%-lə üçüncü yeri Belçika tutur. Bir qədər az urbanizasiya olmuşlar sırasında isə ilk üçlükdə Ruanda (*şəhərlərdə əhalinin 7%-i*), Burundi (*10%*) və Nepal (*13%*) yer alır. Son 20-25 il ərzində şəhər əhalisi daha sürətlə BƏƏ-də, Tanzaniya və Mozambikdə artmışdır.

Hazırda dünyanın hər ikinci sakini şəhərdə yaşayır, Avropada şəhər əhalisi 70% təşkil edir. Dünya enerji istehlakının 75%-i iri şəhərlərin üzərinə düşür. İqlim dəyişmələri, resurs çatışmazlığı, əhalinin artması və daim güclənən urbanizasiya artıq indi bütün dünyada şəhərlər üçün ciddi problemlər yaradır. Cədvəl 19-da son iki əsrdən çox dövrdə dünyada şəhər əhalisinin artım sayı öz əksini tapmışdır.

Dünyada elə bir vahid meyar yoxdur ki, hər hansı yaşayış məntəqəsinə şəhər statusu verilməsini müəyyən etsin. Bir sıra ölkələrdə əhalinin 2 min nəfərdən artıq, bəzilərində 30 mindən çox olması bunu imkanlı edir. Danimarkada əhalisi 250 nəfər, ABŞ-da 2,5 min, Yanponiyada 39 min nəfərdən az olmayan yaşayış məntəqəsi şəhər hesab olunur.

İlk şəhərlərin harada meydana gəlməsi indiyə qədər məlum deyil. Çox ehtimal ki, onlar 5-7 min il əvvəl qədim Şumerdə və Hindistanda yaranmışdır. Əhalisi 1 miyon nəfərdən çox olan ilk şəhər isə Roma olmuşdur. Bu, eramızdan əvvəl V əsrdə baş vermişdir. Tarixçilərin çoxu bu fikirdədir ki, o zaman bəşəriyyətin sayı 170 milyon nəfər əhatəsində olmuşdur. İndiyə qədər şəhərlərdə istifadə edilən texnologiyalar,

| İllər | Şəhər əhalisinin sayı (*milyon nəfər*) | Bütün əhali sayında payı (%) |
|---|---|---|
| ***1800*** | 29 | 3 |
| ***1850*** | 61 | 6 |
| ***1900*** | 220 | 13 |
| ***1950*** | 740 | 29 |
| ***1970*** | 1350 | 36 |
| ***1990*** | 2280 | 43 |
| ***2000*** | 3030 | 50 |
| ***2010*** | 3610 | 52 |
| **2030** (*proqnoz*) | 4980 | 61 |

**Cədvəl 19. Dünya urbanizasiya prosesinin dinamikası**

mərkəzləşdirilmiş su təchizatı sistemləri və kanalizasiyalar, yol hərəkətinin tənzimlənməsi, aztəminatlı vətəndaşlar üçün yaşayış yerlərinin subsidiyalarla təmin edilməsi təcrübəsi məhz Romada yaranmışdır. Bununla belə, Roma İmperiyasının süqutundan sonra dünyada milyonçu-şəhərlər XVIII əsrə qədər olmamışdır. Böyük fasilədən sonra ikinci milyonçu-şəhər 1775-ci ildə İndiki ÇXR-in paytaxtı Pekin olmuşdur. Tezliklə bu siyahıya ABŞ-ın Nyu-York və Böyük Britaniyanın London şəhərləri də daxil oldular. O zaman nəhəng çəhərlər olduqca qeyri-adi hal idi. Belə ki, XIX əsrin əvvəllərində dünya əhalisinin yalnız 4%-i şəhərlərdə yaşayırdı. Şəhərlərin böyüməsi, milyonçu-şəhərlərin artmasına, urbanizasiya prosesinə Sənaye İnqilabı təkan vermişdir. Həmin dövrdə şəhərlərdə çoxsaylı sənaye müəssisələri yaradılırdı ki, bura, əsasən, kəndlilər və ya mühacirlərdən ibarət muzdlu işçilər cəlb olunurdu. 1900-cü ildə artıq Yer kürəsinin 14%-i şəhərli idi, 12 şəhərin əhalisi 1 milyon nəfərdən çox idi. 1950-ci ildə isə planetin əhalisinin 30%-i şəhərlərdə yaşayırdı. Bu zaman dünyada artıq 83 milyonçu-şəhər vardı.

Artıq bir neçə onilliklərdir ki, yeni unikal bir fenomen müşahidə edilir. Planetin əhalisinin artımı ilə yanaşı, ayrı-ayrı iri şəhərlər və onların aqlomerasiyaları daha da genişlənərək yaxınlıqlarındakı yaşayış məntəqələrini udaraq böyüyürlər. On milyonlarla insanların yaşadığı nəhəng aqlomerasiyalar meqapolislər əmələ gətirir.

Meqalopolis (*yunanca* - μεγάλου, - μέγας - *böyük* + πολης - *şəhər*) çoxlu sayda şəhər aqlomerasiyalarının artması nəticəsində yaranan daha iri məskunlaşma formasıdır. Termin Arkadiya bölgəsinin 36 yaşayış məntəqəsinin birləşməsi nəticəsində meydana gəlmiş qədim yunan şəhəri olan Meqalopolun adından götürülmüşdür. Meqalopolisin əsas cəhətləri kimi, bir qayda olaraq, avtomobil və dəmir yolları boyunca uzanan tikililərin xətti xarakterliliyi və onları formalaşdıran aqlomerasiyaların

bir-birinə yaxın yerləşmiş iri şəhər-mərkəzlərinin qarşılıqlı əlaqəsi ilə şərtlənən ümumi polisentrik quruluşu çıxış edir.

Bütün meqapolisləri şərti olaraq üç arxetipə - inkişaf etməkdə olan, keçid mərhələsində olan və yetkin meqapolislərə bölmək olar. İnkişaf etməkdə olan meqapolislərə həm miqrasiya hesabına, həm də şəhəri əhatə edən vahid infrastruktur və xidmətlər şəbəkəsi ilə əhatə olunmayan yerlərin birləşməsi kimi təbii səbəblər üzündən yüksək inkişaf sürəti ilə xarakterizə olunan şəhərlər aid edilmişdir. Keçid mərhələsində olan meqapolislər - artım proseslərini daha səmərəli idarə etməyə imkan verən mexanizmləri olan şəhərlərdir. Onlar bir qayda olaraq, illik artım sürətinin yavaşıması ilə xarakterizə edilir. Burada əhalinin sayının davam edən artımı, əsasən, miqrasiya ilə bağlıdır. Yetkin meqapolislər isə həm inkişaf etməkdə olan meqapolislərlə, həm də keçid mərhələsində olan meqapolislərlə müqayisədə daha zəif artım sürəti ilə seçilirlər. Burada artım sürəti orta hesabla ildə 1%-ə qədər təşkil edir.

Meqapolislərin hər üç əsas tipi müxtəlif çətinliklərlə qarşılaşır. Lakin burada bütün problemlər bu və ya digər dərəcədə tələbin təklif üzərində artım sürətinin yüksək olması ilə bağlıdır. Enerji sahəsində mütəxəssislərin fikrincə, keçid dövründə olan və artıq formalaşmış meqapolislərin bu sahədə ən mühüm problemi texniki və ya mənəvi köhnəlmiş infrastrukturdur. Növbəti mühüm problemlər səmərəlilik və ondan bir qədər geridə qalan güc çatıçmazlığıdır.

Dünyanın ən iri meqapolisləri ərazisinə və əhalisinin sayına görə fərqlənirlər. Ərazisinə görə dünyanın ən böyük şəhərləri aşağıdakıları hesab etmək olar:

1. Xulun - Buir (*ÇXR-in şəhər dairəsi*) 263,9 min km².
2. Altamira (*Braziliyada bələdiyyə*) 159,7 min km².
3. Kalqurli-Boulder (*Qərbi Avstraliyada ştat*) 95,6 min km².

Bir-biri ilə birləşmiş şəhərləri ayırmaq praktiki cəhətdən mümkün deyil. Tam bir bütövlük təşkil edən bu şəhərləri yalnız inzibati bölgü məhdudlaşdırır. Belə ki, məsələn, Tokio ilə Osaka şəhərləri arasında böyük olmayan sahədə Yaponiya əhalisinin yarısı yaşayır. Ona görə də müxtəlif mənbələrdə əhali haqqında məlumatlar bir-birindən fərqlidir.

Hər hansı şəhərin dünyada ən böyük şəhər olması məsələsi ictimai fikri daim narahat etmişdir. Problem ondadır ki, eyni zamanda bütün dəqiq və aktual məlumatları toplamaq praktiki olaraq mümkün deyil. Birincisi, şəhər sakinlərinin sayı müxtəlif ölkələrdə müxtəlif illərdə aparılan siyahıyaalma məlumatları ilə müəyyən edilir. Bu bir, bəzən də on illik fərqlər bölgünü xeyli dəyişdirə bilir. İkincisi, çox vaxt məlumatlar əvvəlki məlumatlardan götürülür, üzərinə hansısa rəqəmlər gəlir və yeni məlumatlar ən sonuncular kimi verilir. Burada həmdə onların nə dərəcədə dəqiq olması məlum deyildir. Üçüncüsü, şəhər əhalisinin, xüsusilə də nəhəng şəhərin əhalisini hesablamaq olduqca çətindir. Lokal səbəblərdən məlumatların bir hissəsi yuvarlaqlaşdırır, haradasa artıq yazılır və haradasa azaldılır. Məsələn, fərziyyəyə görə şəhərin bir milyon əhalisi varsa, o, büdcədən daha çox pul alır və ya əhalinin sayı beş mindən azdırsa, bu o qədər də

şəhər deyil və vergiləri aşağıdır. Dördüncüsü, kağız üzərində şəhər əhalisinin sayı bir milyon, faktiki olaraq isə iki milyon ola bilər. Siyahıyaalmada iştirak etməyən qonaqların, mühacirlərin sayı ağlasığmaz dərəcədə ola bilər. Beşincisi, siyahıyaalma üçün vahid standart yoxdur. Bəzi ölkələrdə onu bir cür, digərlərində başqa cür aparırlar. Haradasa şəhərə əsaslanır, haradasa əyalət və ya müəyyən region olub-olmamasından asılı olmayaraq bir yerə yığırlar. Nəhayət, daha mühümi və ən böyük fikir ayrılığı şəhər anlayışının sərhədləri və şəhərətrafı qəsəbələrin ona daxil edilməsi ilə yaranır. Bu məsələ bir neçə qonşu şəhər birlikdə götürülüb bir şəhər hesab edilərkən aqlomerasiya anlayışına toxunur.

Əgər şəhər əhalisinin sayını şəhərətrafı qəsəbələr və peyk-şəhərlərlə birlikdə götürsək, hazırda dünyanın ən böyük şəhərləri cədvəl 20-də göstərildiyi kimi olacaq.

BMT-nin İqtisadi və Sosial Məsələlər Departamentinin son əhali hesabatında 7,6 milyard nəfər dünya əhalisinin 55%-inin şəhərlərdə yaşadığı göstərilir. Burada XXI əsrin ortalarına qədər Yer kürəsində əhalinin sayının 9,8 milyard nəfərə, şəhər əhalisi üzrə müvafiq göstəricinin isə 68%-ə (*6,7 milyard nəfərə*) yüksələcəyi qeyd olunmuşdur. BMT sıralamasında hazırda dünyanın ən nəhəng şəhəri 37 milyon insanın yaşadığı Yaponiya paytaxtı Tokiodur. Əhali sayına görə ikinci yerdə Hindistanın paytaxtı Dehli - 29 milyon, ücüncü ÇXR-in Şanxay şəhəri - 26 milyon dördüncü və beşinci yerlərdə 22 milyon olmaqla Meksikanın paytaxtı Mexiko və Braziliyanın San-Paulu şəhərləridir.

Yaxın onilliklərdə iri şəhərlərin artımı və kiçik şəhərlərin yavaş-yavaş azalması da gözlənilir. Bu meyil prinsipial texniki irəliləyişlərin və sənayenin struktur yenidənqurulmasının nəticəsidir.

İri şəhərlər acgözlüklə təbii resursları, ərzaq məhsullarını istehlak edir, suyu çirkləndirir, kənd yerlərindən insanların artan miqrasiyası üçün şərait yaradırlar. Şəhərlə kənd, şəhər sakinləri ilə kəndlilər arasında münaqişələr yaranır. İri şəhər təbii mühitinin bir çox komponentlərini xeyli dəyişir. Dünyanın ən iri şəhərləri - Mexiko, Tokio, Nyu-York və başqaları ekologiyanın çox kəskin problemlərini doğurmuşlar. İri şəhər infrastrukturu ətraf mühitin 50 km radiusunda atmosferin, hidrosferin, litosferin çirklənməsinə və həmçinin, də şəhərlərin enerji sahələri 1-8 km-ə qədər məsafəyə mənfi təsir göstərir.

Son onilliklərdə şəhərlərin sürətli artımını elmi ədəbiyyatda "urbanist inqilab" adlandırmaq qəbul edilmişdir. Müasir demoqrafiya meyilləri artıq indi bütün dünyanın şəhərlilərinin $^2/_3$ hissəsinin inkişaf etməkdə olan ölkələrdə cəmləşməsinə kömək edir. Hər il həmin ölkələrdə 65 milyon nəfər yeni şəhər əhalisinə çevrilir. Bundan irəli gələrək 2025-ci ildə inkişaf etməkdə olan dövlətlərdə urbanizasiyanın səviyyəsinin 80%-dən yüksək olacağı ehtimal olunur.

BMT-nin məlumatlarına görə, 2050-ci ildə şəhər əhalisi 6 milyard nəfərə çatacaq ki, bu da Yer kürəsi əhalisinin ümumi sayının üçdə iki hissəsinə bərabərdir. Əhalisinin sayı 10 milyon nəfərdən çox olan Asiya meqapolisləri xüsusilə artacaqdır. Proqnozlara görə, 2030-cu ildə Çində əhalinin 60%-nin iri şəhərlərdə yaşayacağı gözlənilir. Ona görə də, müasir inkişaf zamanında Avropada və ümumilikdə bütün dünyada şəhərlərin

| № | Şəhər | Əhali (*milyon nəfər*) | Sahə (*min km²*) | Əhalinin sıxığı (*adam/ km²*) | Ölkə |
|---|---|---|---|---|---|
| 1 | Çunsin | 49,2 | 82,4 | 600 | ÇXR |
| 2 | Şanxay | 24,2 | 6,3 | 3809 | ÇXR |
| 3 | Qaraçi | 23,5 | 3,5 | 663 | Pakistan |
| 4 | Pekin | 21,5 | 16,4 | 1311 | ÇXR |
| 5 | Dehli | 16,3 | 1,5 | 7846 | Hindistan |
| 6 | Laqos | 15,1 | 1,0 | 17068 | Nigeriya |
| 7 | İstanbul | 13,8 | 5,5 | 6467 | Türkiyə |
| 8 | Tokio | 13,7 | 2,2 | 6273 | Yaponiya |
| 9 | Quançjou | 13,1 | 3,8 | 3305 | ÇXR |
| 10 | Mumbay | 12,5 | 0,6 | 20680 | Hindistan |
| 11 | Moskva | 12,4 | 2,6 | 4814 | Rusiya |
| 12 | Dakka | 12,1 | 0,8 | 14763 | Banqladeş |
| 13 | Qahirə | 11,9 | 3,1 | 3864 | Misir |
| 14 | San-Palu | 11,9 | 1,5 | 7762 | Braziliya |
| 15 | Laxor | 10,3 | 1,8 | 3566 | Pakistan |
| 16 | Şençjen | 10,5 | 2,0 | 5255 | ÇXR |
| 17 | Seul | 10,3 | 0,6 | 17164 | Cənubi Koreya |
| 18 | Cakarta | 10 | 0,6 | 15040 | İndoneziya |
| 19 | Kinşasa | 9,7 | 1,1 | 8710 | Konqo |
| 20 | Tyanszin | 9,3 | 4,1 | 2314 | ÇXR |
| 21 | Mexiko | 8,9 | 1,5 | 5974 | Meksika |
| 22 | Lima | 8,7 | 2,7 | 3253 | Peru |
| 23 | Banqalor | 8,4 | 0,7 | 11876 | Hindistan |
| 24 | London | 8,4 | 1,6 | 5354 | Böyük Britaniya |
| 25 | Nyu-York | 8,4 | 0,7 | 10724 | ABŞ |
| 26 | Banqkok | 8,3 | 1,6 | 5280 | Tailand |
| 27 | Donquan | 8,2 | 2,5 | 3329 | ÇXR |
| 28 | Tehran | 8,2 | 0,7 | 11886 | İran |
| 29 | Əhmədabad | 8 | 0,5 | 11727 | Hindistan |
| 30 | Baqota | 7,8 | 0,9 | 9052 | Kolumbiya |

**Cədvəl 20. Nəhəng şəhərlər (*2018-ci il qiymətləndirməsi*)**

modernləşdirilməsi və infrastrukturun saxlanması tədbirləri daha böyük əhəmiyyət kəsb etməyə başlayır.

## 15.5. Müsəlman dünyasında əhali artımı və onun dünya iqtisadiyyatına təsir effektivləri

Müasari zamanda müsəlman dünyasında əhali artımı ilə bağlı mühüm demoqrafik hadisələr baş verir. Ayrı-ayrı ölkələrdə bu, hətta demoqrafik partlayışlarla müşayiət olunur. Artan əhalı sayı isə istər-istəməz həm ölkə daxildə və həm də digər ölkələrə miqrasiya keyfiyyətində iqtisadiyyatlara təsir edir. Ümumilkdə isə bu demorafik trasformasiyalar dünyanın digər qütbündəki analoji konfensial azalmalarla birlikdə balans dəyişiklikləri yaradaraq qlobal iqtisadiyatın inkişafında yeni meyillər formalaşdırır. Avroatlantik məkanda müsəlman dünyasındakı demoqrafik dəyişikliklər ciddi hesaba alınır və istiqamətdə geniş araşdırmalar aparılır. Belə son geniş tədqiqatlardan biri - 2011-ci ilin yanvarında dərc olunan Amerikanın “Pew Research Center” elmi-tədqiqat mərkəzinin “Planetin müsəlman əhalisinin gələcəyi” adlı məruzəyə çıxarılan əsəri maraq doğurur. Tədqiqatın çevrəsi 1990-2030-cu illəri əhatə edərək dünyanın bütün dövlətlərinə və regionlarına aid olunur. Araşdırmaların nəticələrinə görə, tədqiq edilən bu 40 il ərzində dünyadakı müsəlmanların sayı iki dəfə artacaq və 1990-cı ildəki 1,1 milyard nəfərdən 2030-cu ildə 2,2 milyard nəfərə çatacaqdır. Məruzədə yalnız müsəlman əhalisinin demoqrafik mənzərəsi və gələcək dinamikası haqqında qiymət və proqnozlar verməsinə baxmayaraq, burada faktiki olaraq həm də Qərbdə planetin müsəlman əhalisinin artımı ilə bağlı həyəcan əks etdirilir.

SSRİ dağıldıqdan sonra ABŞ və Qərb üçün bir nömrəli təhlükə bütövlükdə Çin kommunizmi deyil, İslam olması təsəvvür edilir. Bundan irəli gələrək hazırda Qərbin informasiya məkanında “islam fundamentalizmi”, “islam terrorizmi” fikirləri özünün mənfi mənasında hakim mövqe tutur. Faktlar belədir ki, iki əvvəlki onillikdə ABŞ-ın, onun müttəfiqləri və tərəfdaş-dövlətlərinin keçirdiyi ciddi hərbi kampaniyalar üstün olaraq məhz İslam dünyasına aiddir. İraq və Əfqanıstan müharibələri, Somalidə hərbi kampaniya bunlara misaldır. Bu dövrdə Qərb də, öz növbəsində, özünə edilən hücumları (*2004-cü il martın 11-də Madriddə partlayış, 2005-ci il iyulun 7-də və 21-də London metrosunda partlayışlar, ABŞ-da 2001-ci ilin 11 sentyabr hadisələri, Fransada 10 yanvar 2015-ci ildə müqqəddəs islam peyğənbəri Məhəmmədin (s) karikaturalarının hazırlanması və dərc edilməsi ilə bağlı hadisələr və s.*) məhz İslam dünyası ilə bağlayır. Elə indinin özündə də Qərbə hərb nöqteyi-nəzərdən özünə İslam dünyasında xüsusi çəkisi olan İranı təhlükə mənbəyi kimi görür. Buraya artıq sonrakı mərhələdə İraq və Suriyada aparılan müharibədə yeni bir dövlətin - İraq və Şam İslam Dövlətinin yaranışı ilə bağlı məqamları da aid etmək olar.

Soyuq müharibə başa çatdıqdan sonra ABŞ-ın və Avropanın postsovet məkanında

demokratiyanın möhkəmlənməsinə istiqamətlənmiş qüvvələrini hesaba almasaq, ABŞ və onun müttəfiqlərinin demokratiyanın ixracı çevrəsində tutduqları hədəflər yenə də müsəlman dünyası ilə bağlı olmuşdur. Xronoloji baxımdan bunu aşağıdakı təqdimatdan görmək olur:

❒ 1998-ci ilin may ayında ABŞ-ın təzyiqi ilə ən çox müsəlman əhalisi olan İndoneziyanın prezidenti 1967-ci ildən ölkəyə başçılıq edən Hacı Məhəmməd Suxarto (*1921-2008*) istefa verdi. Hökumət dəyişəndən sonra 2004-cü ildə İndoneziyada ilk birbaşa prezident seçkiləri başlandı;

❒ 2002-ci ilin noyabr ayında Türkiyədə baş tutmuş parlament seçkilərindən sonra hakimiyyətə "Ədalət və inkişaf" mötədil islam partiyası gəldi. Bəzi qiymətlərə görə, bu, radikal islamın qarşısını almaq üçün Amerikanın müəyyən etdiyi ssenari üzrə baş vermişdir;

❒ 2003-cü ilin martında başlanan ikinci İraq müharibəsi nəticəsində 1979-cu ildən ölkəni idarə edən Səddam Hüseyn (*1937-2006*) hakimiyyətdən getdi;

❒ 2008-ci ilin avqust ayında ABŞ-ın təzyiqi ilə 1999-cu ildən Pakistana rəhbərlik etmiş general Pərviz Müşərrəf (*1943*) məcburi olaraq istefa verdi;

❒ 2009-cu ilin iyununda İranda baş tutmuş prezident seçkilərindən sonra bu ölkədə genişmiqyaslı həyəcanlar baş verdi ki, İran hökuməti ABŞ-ı və onun müttəfiqlərinin xüsusi xidmətlərini həmin hadisələrdə ittiham etdi;

❒ 2011-ci ilin yanvarında Cənubi Sudanda baş tutmuş referendumda müsəlman Şimalından (*hökumətə 1989-cu ildən Ömər Həsən Əhməd əl-Bəşir rəhbərlik etmişdir*) ABŞ-ın birbaşa köməyi ilə xristian Cənubu ayrıldı və rəsmi müstəqilliyini bəyan etdi;

❒ 2011-ci ilin yanvarında ölkəni bürüyən həyəcan dalğaları nəticəsində Tunisə 1987-ci ildən başçılıq etmiş Zine əl Abidin Ben Əli (*1936*) hakimiyyəti qoyub qaçdı;

❒ 2011-ci ilin yanvar-fevral aylarında xalq həyəcanları nəticəsində Misiri 1981-ci ildən idarə edən Hüsnü Mübarək (*1928*) istefa verdi. ABŞ və Avropa ölkələri "Ərəb baharı" adlanan Tunis və Misir hadisələrində həyəcanlara yardım etdiklərini gizlətmirdilər.

Bu xronologiya yenə də İraq və Suriyada aparılan müharibə gedişində formalaşan İraq və Şam İslam Dövlətinin yaranış məqamlarli ilə zənginləşdirilməlidir.

Məruzədə tədqiqat müəlliflərinin cavab verməyə çalışdıqları əsas sual bundan ibarət idi ki, planetin müsəlman əhalisi hansı sürətlə artır və bunun nəticəsi kimi, 2030-cu ildə Qərb, o cümlədən "öz evində" hansı demoqrafik nisbətlə qarşılaşacaq? Bu suallar çevrəsində məruzəyə həm də müsəlman əhalisinin artım meyili ilə bağlı proqnozlarda göstərilir ki, 2010-cu ildə 72 ölkə bir milyon və ondan artıq müsəlman əhalisinə malik idisə, 2030-cu ildə belə ölkələrin sayı 79-a çatacaqdır. Eyni zamanda, 2010-cu ildə dünyada əhalisinin çoxu müsəlman olan 49 ölkə vardısa, 2030-cu ildə bu sıraya 50-ci olaraq Nigeriya da qatılacaqdır. 2010-2030-cu illərdə sünnülərlə şiələr arasında nisbət də demək olar ki, dəyişməyəcəkdir. Ümumilikdə isə hesablanır ki, əgər 1990-cı ildə müsəlmanlar planetin bütün əhalisinin 19,9%-ni təşkil edirdisə, 2010-cu ildə həmin

nisbət 23,4%-ə çatmış və 2030-cu ildə 2,2 milyard nəfər olmaqla 26,4% təşkil edəcəkdir. Bu isə o deməkdir ki, 2030-cu ildə planetin hər dördüncü sakini müsəlman olacaqdır. Tədqiqata görə müsəlman əhalinin artımının iki səbəbini qeyd edir - yüksək doğum və müsəlmanların ömür müddətinin artması.

Aşağıda adıçəkilən məruzəyə əsasən, bir sıra ölkələrdə müsəlman əhalinin payı verilmişdir:

| **Ölkə** | **1990-cı il** | | **2010-cu il** | | **2030-cu il** *(proqnoz)* | |
|---|---|---|---|---|---|---|
| | **Müsəlmanların sayı** (*min nəfər*) | **Əhalinin ümumi sayında** (*%*) | **Müsəlmanların sayı** (*min nəfər*) | **Əhalinin ümumi sayında** (*%*) | **Müsəlmanların sayı** (*min nəfər*) | **Əhalinin ümumi sayında** (*%*) |
| ***Gürcüstan*** | 625 | 11,5 | 442 | 10,5 | 433 | 11,5 |
| ***Azərbaycan*** | 5 635 | 78,1 | 8,795 | 98,4 | 10,162 | 98,4 |
| ***İran*** | 56 506 | 99,6 | 74,819 | 99,7 | 89,626 | 99,7 |
| ***Türkiyə*** | 55 121 | 98,3 | 74,66 | 98,6 | 89,127 | 98,6 |
| ***Rusiya*** | 13 634 | 9,2 | 16,379 | 11,7 | 18,556 | 14,4 |
| ***ABŞ*** | 1 529 | 0,6 | 2,595 | 0,8 | 6,216 | 1,7 |
| ***Fransa*** | 568 | 1 | 4,704 | 7,5 | 6,86 | 10,3 |
| ***AFR*** | 2 506 | 3,2 | 4,119 | 5 | 5,545 | 7,1 |
| ***B.Britaniya*** | 1 172 | 2 | 2,869 | 4,6 | 5,567 | 8,2 |
| ***ÇXR*** | 16 839 | 1,5 | 23,308 | 1,8 | 23,949 | 2,1 |
| ***Hindistan*** | 100 873 | 11,7 | 177,285 | 14,6 | 236,182 | 15,9 |
| ***İsrail*** | 634 | 14,1 | 1,287 | 17,7 | 2,135 | 23,2 |
| ***Yunanıstan*** | 254 | 2,5 | 527 | 4,7 | 772 | 6,9 |

**Cədvəl 21. 1990-2030-cu illər arası bir sıra ölkələrdə müsəlman əhalinin pay nisbəti**

Bir sıra Avropa ölkələrində doğumun aşağı düşməsi müsəlman mühacirlərin sayının artması burada konfesiallıq baxımdan demoqrafik dəyişiklikləri dərinləşdirir. Əhalinin dini baxımdan nisbət dəyişikliyində müsəlmanların həmin ölkələrdə aparıcı dinlər tərəfindən çətin assimliasiya olmaları kimi amillər də rol oynayır. Faktlar göstərir ki, AFR-də islama etiqad edən müsəlmanlar hətta ikinci və üçüncü nəsildə belə alman cəmiyyətinə inteqrasiya olunmurlar. Bundan irəli gələrək 2010-cu il oktyabrın 16-da AFR-in kansleri (*2005-ci ildən*) Angela Merkel (*1954*) doğma Xristian-demokratik partiyanın gənclər qanadı qarşısında çıxış edərkən demişdir ki, ölkədə on illərlə aparılan

multimədənilik siyasəti iflasa uğramışdır və mühacirlərin sayı alman iqtisadiyyatının tərəqqisini ləngidir. Multimədəniliyin süqutundan danışan A.Merkel alternativ kimi heç bir təklif verməmişdir. Bu boşluğu Böyük Britaniyanın baş naziri olmuş (*2010-2016*) Devid Kemeron (*1966*) doldurmuşdur. Münhendə təhlükəsizlik məsələləri üzrə keçirilən beynəlxalq forumda D.Kemeron bildirmişdir ki, "Multimədənilik siyasəti özünü doğrultmadı, güc liberalizminin vaxtı yetişmişdir".

Müsəlman dünyasında əhali artımı qarşısıalınmaz bir prosesdir. Bu Qərbdə çox yaxşı dərk edilir. Bütün səylərə baxmayaraq bu balans dəyişir. Sivilizasiyanın indiki inkişaf etmiş mərhələsində yaxsı dərk edilir ki, ksenofobiya, islamafobiya keçərli deyildir. Qərb öz tolerantlıq dəyərlərini qorumalı və multikulturaklizmi dəstkləməlidir.

Ksenofobiya (*yunanca* - ξένος - *əcnəbi* + φόβος - *qorxu*) insanın əcnəbilərdən, tanımadığlarından, adət etmədikləri və özündən fərqli olan insanlardan qorxması və ya nifrətidir.

İslamaofobiya (*ingiliscə* - islamophobia - *islamdan qorxu və ona nifrət*) islama və onunla bağlı ictimai hadisələrə ümumiləşdirilmiş halda müxtəlif neqativ formalarda reaksiya, ksenofobiyanın növü.

Tolerantlıq (*latınca* - tolerantia - *dözümlülük*) dünyagöprüşləri, inacları, baxışları, dəyərələri, əqidələri. davranışları ilə fərqlənən digər insanlara qarşı dözümlülükdür. Tolerantlıq vicdanla bağlı olaraq insan hüquq və azadlıqları təsdiqi, plüralizm və demokratiya əsasında formalaşır və ona həm də irqçilik, ksenofobiya, dini dözümsüzlük, terror və ekstremizmin qəbul edilməməsi kimi cəhətlər xarakterikdir.

Multikulturalizm (*multiculturalism*) ayrıca götürülmş bir ölkədə və ümumən dünyada mədəni müxtəlifliyin qorunması və inkişafına yönəlmiş siyasət və belə siyasəti əsaslandıran nəzəriyyə və ideologiyadır. Siyasi liberializimdən fərqli olaraq multikultiralizm kollektiv subyektlərin - etnik və mədəni qrupların huquqlarının tanınması və önə çəkilməsidir. Multikulturalizm özünütəcridetmə, ksenofobiya və dini, milli zəmində toqquşma alternatividir.

2011-ci il oktyabrın 10-11-də Bakıda keçirilən I Beynəlxalq Humanitar Forumda Azərbaycan Respublikasının Prezidenti İlaham Əliyev multikulturalizmlə bağlı demişdir: "Forumun mövzularından biri də məhz multikulturalizmdir. Bu, təbiidir. Çünki son illər ərzində bu məsələ ilə bağlı müxtəlif səpkidə disskusiyalar aparılır. Deyə bilərəm ki, bir anlayış, bir termin kimi, multikulturalizm nisbətən yeni bir ifadədir. Ancaq biz Azərbaycanda əsrlər boyu multikulturalizm şəraitində yaşamışıq. Həyatımız, xüsusilə son iyirmi il ərzində müstəqil ölkə kimi təcrübəmiz göstərir ki, multikulturalizmin gələcəyi vardır. Biz bunu tam əminliklə deyirik. ...Multikulturalizm başqa xalqın nümayəndəsinə hörmət, başqa dinə hörmətdir. Öz dininə hörmət başqa dinə hörmətdən başlayır. Multikulturalizm ayrı-seçkiliyə yol vermir, əksinə bütün xalqları birləşdirir. Eyni zamanda, hər bir ölkənin öz qaydaları, öz ənənələri vardır. Hər bir insan - həm ölkənin vətəndaşı, həm ölkəyə gələn qonaq, əlbəttə ki, o qaydalara, o ənənələrə hörmətlə yanaşmalıdır".

Müsəlman dünyasında əhali artımı özü-özlüyündə dünya iqtisadiyatının inkişafına təsir göstərir. Ümümiyyətlə, bütün pozitiv hallarda insanların çoxluğu iqtisadiyyatı genişləndirən amildir.

## 15.6. Dünya iqtisadiyyatının inkişaf perspektivləri

Dünya iqtisadiyyatının inkışaf perspektivləri ayrı-ayrı təhlil bucaqlarıdan müxtəlif qiymətləndirilir. Lakin ümumi qiymətləndirmələrdə uümumi olan təyinatlar vardır. Burada göstərilir ki, qloballaşma prosesində yaxın onilliklərdə ABŞ və Qərbin mövqeləri zəifləməsi ehtimalı artır. Bu çevrdə inkişaf etməkdə olan ölkələr önə keçəcəklər. Xüsusilə iki iri artan iqtisadiyyat - Hindistan və ÇXR iqtisadiyyatları böyük önəm alacaqdır.

Bir çoxları Çin modelini iqtisadi inkişafın Şərqi Asiya modelinin bir variantı hesab edir. Burada iqtisadi artımın yüksək sürəti iqtisadiyyatın ixracyönümlü olması, ucuz işçi qüvvəsindən istifadə, xarici investisiyaların cəlb edilməsi, ÜDM-də investisiyaların yüksək payı ilə bağlanılır.

Hindistan modelində isə inkişaf etmiş kapitalist, sosialist və inkişaf etməkdə olan ölkələrin, yəni planetin müasir xəritəsində təmsil olunan hər üç dünyanın (*birinci, ikinci və üçüncü*) mühüm cəhətləri çox unikal birləşir. Bu unikal birlik Hindistan inkişaf modelinin xüsusiyyətlərini müəyyən edir, ona müxtəlif hadisələrə adaptasiyada üstünlüklər verir və verəcəkdir. Uzun müddət Böyük Britaniyanın müstəmləkəsi olmuş bu ölkədə ingilis dili xüsusilə təhsilli hindlilər arasında geniş yayılmışdır. Bu da hind ali təhsilinin yüksək səviyyədə inkişafına, fundamental elmlərə diqqətə və yaxşı ixtisaslı mütəxəssislər hazırlamağa imkan verir.

Fərqli xüsusiyyətlərlə yanaşı, ÇXR və Hindistanın ümumi cəhətləri yetərincədir. Onları aşağıdakı kimi səciyyələndirmək olar:

1.Bir sıra ümumi vəzifə və problemlərin mövcudluğu.
2.Böyük demoqrafik resurslar.
3.ÜDM-də böyük yığım norması.
4.İqtisadiyyatda dövlətin və dövlət sektorunun böyük rolu.
5.Birbaşa xarici investisiyaların cəlb edilməsi.
6.İxracın artımı və onun beynəlxalq əmək bölgüsündə xüsusi yeri.
7.Texniki tərəqqiyə, innovasiyaların tətbiqinə və təhsilin yüksəlişinə səylər.

Hindistanla ÇXR arasındakı fərqlər:

1.ÇXR-də sənaye və mal ixracı, Hindistanda xidmətlər sektoru və xidmətlər ixracı üstündür.
2.ÇXR xarici ticarətdə müsbət saldoya, Hindistan isə mənfi saldoya malikdir.
3.Hindistanda özəl kapitalın və xırda biznesin rolu daha yüksəkdir.
4.Hindistanda səhmləri birjada kotirovka olunan şirkətlər daha çoxdur.

5.Uğurun vizit kartları olan inkişafı dəstəkləməyin ayrı-ayrı mexanizmləri mövcuddur (*ÇXR-də - xüsusi iqtisadi zonalar, Hindistanda texnoparklar*).

Ortamüddətli - şərti olaraq 2030-cu ilə qədər perspektivdə hər iki dövlət qarşısında həm geniş imkanlar, həm də adekvat təhlükələr açılır. Burada ÇXR daha böyük üstünlüklərə malikdir. Bununla belə, bu dövrdə baş verə biləcək müxtəlif böhranlar, sürətlə artan problemlər vəziyyəti dəyişdirə bilər.

2050-2060-cı illərə qədər uzunmüddətli perspektivdə daha çox demoqrafik vəziyyətdə olan dəyişikliklər önəmlidir. Belə ki, ÇXR-də əhalinin qocalması və Hindistanda, əksinə, hələlik tükənməmiş demoqrafik dividend vəsiyyətliyi gözlənilir. Bu çevrdə daha mühüm hətta orta illik artım sürəti deyil, sistemin möhkəmliyi, onun transformasiyalara qarşı qabiliyyətliliyi əsas olacaqdır.

Bütün bunlarla yanaşı proqnozlar yaxın onilliklərdə ÜDM-in həcminə görə ÇXR və Hindistanın dünyanın qabaqcıl iqtisadiyyatlar sırasında qalacağına yəqinlik verir. Bununla belə, hər iki ölkə heç də həmişə artım sürətinə görə irəlidə olmayacaqlar. ÇXR labüd olaraq öz inkişafını ən azı demoqrafik problemlər üzündən zəiflədəcəkdir. Uzunmüddətli perspektivdə yüksək inkişaf sürətini saxlamaq imkanlı Hindistan da bu sahədə öz yerini bəzi sürətlə inkişaf etməkdə olan ölkələrə verməyə məcbur olacaqdır.

Yaxın onilliklərdə dünyada qüvvələrin yerləşməsi xeyli və ya köklü surətdə dəyişməsi gözləniləndir. Bu isə, öz növbəsində, dünya iqtisadiyyatının inkişaf perspektivlərinin təyinatına təsir edir. Dünya iqtisadiyyatının inkişaf perspektivləri - yaxın orta perspektivdə daha çox ABŞ-ın və Qərbin rolunun azalması, inkişaf etməkdə olan ölkələrin rolunun isə artacağı proqnozu mütənasibdir. Bir cəhət də yaddan çıxarılmamıdır ki, məhz qloballaşma həmin bu meyilə - inkişaf etmiş ölkələrlə inkişaf etməkdə olan ölkələrin inkişaf səviyyələri arasında fərqin azalmasına təkan vermişdir. Proqnozlara görə, bu dövrdə ABŞ-da postindustrial cəmiyyətin sosial oriyentasiyalı inkişaf mərhələsi bitəcək və yeni - postkapitalist, humanitar-determinir cəmiyyət quruculuğu üçün zəruri şərait yaradılacaqdır. Bu zaman maddi istehsalda işçi qüvvəsinin 20%-dən də az olan hissəsi qalacaq, birinci sıraya insanın özünüreallaşdırma və inkişafı ilə bağlı humatitar tələbl çıxacaqdır. Amerikamərkəzçilik polimərkəzçilik - başlıca olaraq ABŞ-ın dünya iqtisadiyyatındakı xüsusi çəkisinin azalması, Qərbi Avropa inteqrasiyasının dərinləşməsi və dünya çoxqütblüyünün möhkəmlənməsi meyilinə qarşı duruş nümayiş etdirəcəkdir. Yaxın onilliklər ərzində həmçinin, Aİ ölkələri biliklər iqtisadiyyatının inkişafı və ÜmumAvropa həyat tərzinin saxlanılması üzrə səylərini artıracaqlar. Vurğulanmalıdır ki, Aİ-nin davamlı inkişaf artımı üçün təhlükə əhalinin qocalması meyilinin geclənməsi və onun institusional islahatları istiqamətindəki qeyri-müəyyənlikləridir. Bununla belə, ABŞ-ın zəifləməsi onları hər hansı müqayisə olunan funksiyalarda əvəz etmək qabiliyyətində yeni liderin meydana gəlməsinə gətirib çıxarmayacaqdır. Nə ÇXR və nə Hindistan iqtisadi amillər, təcrübə kifayətsizliyi, lazımi ittifaqların və müasir şəraitdə liderliyin üzərinə düşən yükün olmaması səbəblərindən liderliyi öz üzərinə götürə bilməyəcəkdir. Yaxın

onilliklərdə dünyada mütləq lider meydana gəlməsə də, liderlik edən bir sıra ölkə və qurumlar meydana gələcəkdir.

MDB-nin gələcək taleyində üç mümkün inkişaf variantı görünür. Birinci variantda hər şeyi olduğu kimi saxlamaq. Bu yolda MDB böyük uğurlara nail olmayacaq. Bu qərarların amorfluğu, onların yerinə yetirilməsinin zəruri olmaması və ümumilkdə birliyin statusunun qeyri-müəyyənliyi ilə izah olunur. İkinci optimist ssenari - gələcəkdə MDB-nin möhkəmlənməsi, qərarlarının reallaşması mexanizminin təkmilləşdirilməsi, onların təsirinin yüksəlməsidir. Rusiya məhz MDB-nin bu cür inkişafına can atır. Üçüncü inkişaf yolu - pessimistdir. MDB-nin inteqrasiya proseslərində rolu tədricən aşağı düşəcək o, sırf məsləhətçi orqana çevriləcək. Yeni müstəqil dövlətlər arasında əməkdaşlıq Avrasiya İqtisadi İttifaqı, GUAM və ya Mərkəzi-Asiya Birliyi kimi dar inteqrasiya birlikləri çərçivəsində həyata keçiriləcəkdir.

Rusiya MDB məkanına özünün strateji maraqları sferası kimi baxır. MDB ölkələri ilə əməkdaşlıq Rusiyanın əsas xarici siyasi prioritetidir. Birlik məkanında, o cümlədən Vahid İqtisadi Birlik, Avrasiya İqtisadi İttifaqı çərçivəsində inteqrasiyanın dərinləşməsi üzrə iş də önəmli olaraq qalır. Bu prioritet dünya bazarlarında konkret üstünlüklər əldə edilməsi ilə bağlıdır.

Dünya iqtisadiyyatının yaxın 10 ildə inkişaf ssenarisinə nəzər saldıqda görərik ki, 2025-ci ildə dünya əhalisinin sayı 8 milyard nəfəri ötəcəkdir. Bu dövrdə dünya iqtisadiyyatının nisbi inkişaf meyilləri əhalinin kiçik artımları müqabilində ÜDM-in kəskin artımı ilə müşayiət olunacaqdır. Proqnozlara görə 2015-2025-ci illər kəsiyində ÜDM artımı 3,5% təşkil edəcəkdir (*müqayisə üçün orta illik temp 2000-ci ildə 3,9%, 2010-cu ildə 2,4%*). Qiymətləndirməyə görə 2025-ci ildə 3,7 milyard sayda dünya əhalisi hissəsi ÜDM-in adambaşına düşən illik bölgüsündə 10ABŞ dolları min dollardan çox paya malik olacaqdır. Beynəlxalq təsərrüfatlararası əlaqələrin nəticəsində dünya iqtisadiyyatının sərəncamında olan ümumi investisiya potensialı (*dövlət və özəl kapital, beynəlxalq təşkilatların vəsaitləri*) illik həcmi 10 il ərzində 3 dəfə artacaqdır. Yaxın onillkdə dünya iqtisadiyyatının artımının mühüm amili kimi innovasiya prosesi çıxış edəcək. İnnovasiya aktivliyinin ağırlıq mərkəzi xidmətlər sferasına (*maliyyə, informasiya, səhiyyə*) və həmçinin, energetika (*xüsusən də enerjiqoruyuculuq sferasına*), təhlikəsizlik və ekologiyaya keçid edəcəkdir.

Bütün bunlarla yanışı bir sıra müvafiq aparıcı mənbələrdə dünyanın gələcəyi bağlı proqnozlarda aşağıdakılar da yer alır:

- ❖ planetin məskunlaşmasının təkamülündə urbanizasiya genişliyi müşahidə ediləcək, şəhər və kənd arasında əlaqəlik yenə də kommunikasiyaların inkişafının nəticələrindən asılı olacaqdır;
- ❖ yaxın 20-25 il ərzində dünya əhalisinin yarıdan çoxu şəhərlərdə yaşayacaq və 2025-ci ildə əhali sayı 20 milyonu ötəcək, 30 super şəhərdə cəmləşəcəkdir;
- ❖ gələcəkdə işçi qüvvəsi ilə bağlı problemlər kəskinləşəcək və 2025-ci ildə inkişaf etməkdə olan ölkələrdə işçi qüvvəsinin sayı 2,5 milyarda çatacaqdır.

Konsaltinq və audit sahəsində dünyanın aparıcı şirkətlərindən olan "PricewaterhouseCoopers - PwC" kompaniyasınınm qlobal iqtisadi artımla bağlı "Dünya 2050-ci ildə" nəşrində 2050-ci ilə qədər dünya iqtisadiyyatının inkişaf proqnozu əksini tapmışdır. Şirkətin apardığı tədqiqatının nəticələrinə görə iqtisadi artım sürətlə inkişaf edən ölkələrə keçir. Alıcılıq qabiliyyəti pariteti əsasında ÜDM-in qiymətini nəzərə almaqla, 2032-ci ilə qədər tez inkişaf etməkdə olan (*E7*) ölkələr (*ÇXR, Himdistan, Braziliya, Rusiya, Meksika, İndoneziya və Türkiyə*) böyük yeddiliyin inkişaf etmiş (*G7*) ölkələrini (*ABŞ, Yaponiya, AFR, Böyük Britaniya, Fransa, İtaliya, Kanada*) ötüb keçəcək və 2050-ci ildə onlardan 50% irəlidə olacaqlar. Həmin ildə həmçinin, ÇXR ABŞ-ı ötərək dünyanın iri iqtisadi qüdrətli dövlətinə çevriləcəkdir.

Aşağıdakı cədvəldə bu ssenari üzrə E7 ölkələrinin G7 ölkələrini ötə biləcəyi əsas tarixləri verilmişdir.

| **Ölkələr** | **IFC üzrə ÜDM-in qiymətləndirilməsi əsasında qüvvələrin yenidən bölgüsünün təxmini tarixləri** |
|---|---|
| ***G7 əvəzinə E7*** | 2032 |
| ***ABŞ əvəzinə ÇXR*** | 2032 |
| ***Yaponiya əvəzinə Hindistan*** | 2028 |
| ***AFR əvəzinə Rusiya*** | 2042 |
| ***Böyük Britaniya əvəzinə Braziliya*** | 2023 |
| ***Fransa əvəzinə Meksika*** | 2046 |
| ***İtaliya əvəzinə İndoneziya*** | 2039 |
| ***Kanada əvəzinə Türkiyə*** | 2035 |

**Cədvəl 22. E7 ölkələrinin G7 ölkələrini ötə biləcəyi əsas tarixlər**

Dünya iqtisadiyyatının əsas göstəricilərinin 2017-ci il üzrə rəqəmlərlə ifadəsi aşağıdakı kimidir:

- ❖ Dünya ÜDM-in alıcılıq qabiliyyəti pariteti üzrə həcmi - 75,8 trilyon ABŞ dolları;
- ❖ Dünya əhalisinə alıcılıq qabiliyyəti pariteti üzrə adambaşına ÜDM 10192,2 ABŞ dolları;
- ❖ Dünya iqtisadiyyatının müxtəlif sektorlarının dünya ÜDM-ində payı: kənd təsərrüfatı - 4,6%, sənaye - 29,3%, xidmət sahəsi - 66,1%;
- ❖ İnflyasiyanın sürəti: inkişaf etmiş ölkələr - 2%-dən 5%-ə qədər, inkişaf etməkdə olan ölkələr - 5%-dən 40%-ə qədər;
- ❖ İşsizliyin səviyyəsi: inkişaf etmiş ölkələrdə 4-12%, bir çox inkişaf etməkdə olan ölkələrdə 30%-ə qədər;

- Əsas ixracatçı ölkələr: ABŞ - 13,3%, ÇXR - 8,6%, AFR - 6,2%, Yaponiya - 3,2%;
- İxracın illik həcmi: 14,6 trilyon ABŞ dolları;
- Əsas idxalçı ölkələr: ÇXR - 14,1%, ABŞ - 8,7%, AFR- 7,7%, Fransa - 3,3%, Böyük Britaniya - 2,4%;
- İdxalın illik həcmi: 14,6 trilyon ABŞ dolları;
- Elektrik enerjisi istehsalı: illik 24,8 trilyon kVts;
- Neft hasilatı - gündəlik 75 milyon barrel;
- Təbii qaz hasilatı - illik - 3,7 trilyon $m^3$.

## 15.7. Qədim və yeni İpək yolu: “Bir qurşaq, bir yol” strategiyası və Azərbaycan

Vüsətlənən innovativ inkişaf, yüksək texnologiyaların, informasiya-kommunikasiya sistemlərinin iqtisadiyyata geniş tətbiqi bütün sferalarda əsaslı dəyişikliklər yaradaraq ayrı-ayrı ölkələrin və regionların iqtisadi əlaqlərinin daha intensiv xarakter almasına zəmin olmuşdur. Avroasiya qitəsində bu proseslər iki makroregionun - Avropa və Cənub-Şərqi Asiyanın timsalında xüsusi bir səciyyə daşıyır. Son onilliklərin sıçrayışlı inkişaf templəri ilə irəliləyən və iqtisadiyyatını başlıca olaraq ixracata yönəldən ÇXR bu məkanın iqtisadi favoriti rolunda çıxış edir. Reallıq belədir ki, yaşadığımız dövrdə dünyanın aparıcı korporasiyaları ÇXR-ə ən əlverişli perspektiv bazar olaraq yanaşırlar. O, xarici investisiya kapitalı müəssisələrinin sayı ilə də artıq ABŞ-a yaxınlaşmışdır. Vurğulandığı kimi, ÇXR yalnız iqtisadiyyatda deyil, elm və innovasiya sferasında, hərbdə, təhsil və səhiyyə, idmanda və sosial-mədəni həyatın bütün digər sahələrində dünyanın ən qabaqcıl ölkələrindən biri kimi tanınır. Bütün bunlar isə ona yaxın onilliklərdə dünya iqtisadiyyatının aparıcı və onu idarə edəcək gerçək bir ölkəyə çevriləcəyinə əsaslar yaradır. Bu meyillər ölkədə yaxşı dərk olunur və ona görə də inkişafın davamlılığı daim diqqət mərkəzində saxlanılır. Müasir mərhələdə ÇXR, tələbi yüksələn Avropa bazarlarının mənimsənilməsində əhəmiyyətli rol oynayır və bu istiqamətdə mühüm qlobal tutumlu strategiyalar hazırlayaraq həyata keçirir. Belə strategiyalardan biri də qədim “İpək Yolu”nun bərpası üzrə “Bir qurşaq, bir yol” layihəsi ilə bağlıdır. Əslində, o, heç də tamlıqla bir ticari bərpa layihəsi deyildir. Bu böyük bir coğrafiyada mühüm iqtisadi-sosial və mədəni-humanitar effektlər yaradacaq yeni strateji reallıqların tərənnümüdür. Burada əsas oyunçu rolunda ÇXR-in çıxış etməsi gerçək amil olsa da, faydalanma Şanxaydan, habelə ondan Şərq və Cənubdan Avropanın son Atlantik sahillərinə qədər bir nəqliyyat oxunda düzlənən bütün region ölkələrini əhatə edəcəkdir. Bu çoxsaylı ölkələr içərisində öz geopolitik və geostrateji mövqeyi ilə seçilən tarixi İpək Yolunun Şimal-Cənub nəqliyyat marşrutu ilə kəsişdiyi mühüm geostrateji məkanda qərarlaşan Azərbaycan Respublikası da özünün müvafiq nəqliyyat-infrastruktur və logistik imkanları məcmusunda mühüm tranzit üstünlükləri ilə fərqlənir. Belə üstünlüklər həm də Böyük ipək yolunun baş arteriyası - TRACECA-

nın mənzil qərargahının yerləşdiyi, Xəzərin ən böyük liman şəhəri paytaxt Bakını bütün mutimodal nəqliyyat sisteminin özündə birləşdirən effektli məkan-fider şəbəkəsində, yeni qlobal və regional nəqliyyat bölüşdürücü qovşaq-mərkəzə çevrilmə və ümumilikdə Azərbaycan-Çin yeni nəqliyyat əlaqələrinin genişlənməsi istiqamətlərində imkanını daha da artırır. Avropa ilə Asiyanı birləşdirərək yeni alternativ bağlantı Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin işə düşməsi, Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin yaradılması, Şimal-Cənub nəqliyyat dəhlizinin yenidən qurulması fonunda bu effektlər daha real görkəm alır. Bütün bu analitik şərh olunanlar, eyni zamanda elmi aktuallıq daşıyaraq qarşılıqlı əlaqəli olan ümumi kontekstdə bizim araşdırma predmetinin də leytmotivini təşkil edir.

Böyük ipək yolu (*hin dilində* - 絲綢之路 - sīchóuzhīlù - *Böyük ipək yolu*) qədim və orta əsrlərdə Şərqi Asiya ilə Aralıq dənizi hövzəsini birləşdirən karvan yoludur. B.e.ə. II əsrdə açılaraq Şərqi Asiyadan, xüsusən də Çindən Aralıq dənizi ölkələrinə istiqamətlənərək çarpaz şəkildə Avropa və Asiya qitələrindən keçən marşrutlar şəbəkəsini əks etdirən yol olaraq xarakterizə edilir. Adını Çin ipəyinin ixracından almışdır. Qədim dövrlərdə və orta əsrlərdə əhəmiyyətini artıran ticarət marşrutu olaraq indiki ÇXR, Yaponiya, Hindistan, Monqolustan İran, Özbəkistan, Tacikistan, Azərbaycan, Türkiyə və digər ölkələrinin ərazisini əhatə etmişdir. “Böyük İpək yolu”nun əsas hissəsi öz başlanğıcını Qədim Çinin paytaxtı Çanqandan (*Xian*) götürmüş və onun Sian, Lançjoudan, Dunxuanacan əyalət və şəhərlərindən keçməklə iki - şimal və cənub qollarına ayrılmışdır. Şimal qolu Qədim Uyğurstanın Turfan şəhərindən Pamir dağlarına, oradan da Fərqanəyə və Qazaxıstan çöllərinə istiqamətlənmişdir. Cənub qol isə Lob-Nor gölünü yandan aşmaqla Təklə-Məkan səhrasının cənub hissəsiylə Yarkənd və Pamir dağlarının cənub hissəsindən keçərək qədim Baktiriyaya, sonra Parfiyaya (*indiki İran*), oradan da cənubdan Hindistana, qərbdən Yaxın Şərq və indiki Türkiyə ərazisindən yönəlməklə Aralıq dənizinəcən uzanmışdır. “İpək yolu” və “İpək marşrutu” istilahları (*almanca - Seidenstraße* və *Seidenstraßen*) ilk dəfə 1868-1872-ci illərdə Çinə səyahət etmiş alman coğrafiyaşünası Ferdinand fon Rixthofen (*1833-1905*) tərəfindən dövriyyəyə gətirilmişdir. Bir xətti boyunca düzlənən məmləkətləri, mədəniyyətləri birləşdirən “Böyük ipək yolu” erkən sivilizasiya dövründən - I minilliyindən başlayaraq II minilliyin ortalarına - böyük coğrafi kəşflərin başlanğıcına qədər aktiv fəaliyyətdə olmuş, Amerikaya və Hindistana dəniz yolunun geniş açılması ilə XVI əsrdə əzəli əhəmiyyətini itirmişdir.

Qeyd olunmalıdır ki, “Böyük ipək yolu” möhtəşəm dövlətlərin, qüdrətli sərkərdələrin İsgəndər şahın, Çingiz xanın (*1155-1227*), əmr Teymurun siyasi-iqtisadi maraqlarının, ehtiraslarının toqquşduğu, böyük orduların keçdiyi bir coğrafiya olmuşdur. Çingizilərin erkən imperatorluqları dövründə isə bu əraziləri demək olar ki təmamilə onlar idarə etmişlər. “Böyük ipək yolu” ilə yüklər yalnız quru marşrutlarla deyil, su yolları ilə də daşınmışdır. Belə ki, çin, koreya və yapon gəmiləri vasitəsi ilə yüklər həm bu ölkələr arasında daşınmaları və həm də Hindistan, İran və Hind okeanın Afrika sahillərinə qədər ticarəti təmin etmişdir.




**Şəkil 19. Böyük İpək yolu xəritəsi**

Qədim İpək yolunda öncə üstün əmtəə ipək çıxış etsə də, sonradan bu transkontenital marşrutla Mərkəzi Asiyadan Çinə - orada çox qiymətli hesab edilən atlar daşınmış, hərbi sursat və ləvazimatlar, qızıl-gümüş, qiymətli metallar və daşlar, şüşə, çini, qab-qacaq, boya, dəri, yun, pambıq, xalçalar, çay, düyü, ekzotik meyvə və əşyalar, müxtəlif heyvanlar və bu kimi çeşidli məhsullar ticarət mübadiləsinin əsas predmetinə çevrilmişdir. "Böyük İpək yolu" xalqlar arasında iqtisadi, mədəni, konfessial əlaqələrin inkişafında, elm və texnologiyaların yayılmasında mühüm rol oynamışdır. Bu yol Çinlə bağlı olan dörd ixtiranın - kompas, barıt, kağız və kitab çapının Qərbə gətirilməsində əhəmiyyətini nümayiş etdirmişdir.

"Böyük İpək yolu"ndan yenidən istifadə imkanları başqa bir rakusda SSRİ dövlətinin yarandığı ilk onilliklərdə Yaponiya və Böyük Britaniya ilə konfliktlərində ÇXR-in müəyyən siyasi qüvvələrinin miqyaslı müdafiə etdiyi zamanlarda aktuallaşdı. Həmin vaxt SSRİ-də ÇXR-ə 3 min km-ə qədər uzunluğa malik avtomobil yolu çəkildi. 1960-cı illərdə isə SSRİ Transsibir dəmiryolu magistralı vasitəsi ilə Avropa və Asiya arasında transkontinental daşımalar bazarına çıxış əldə etdi. Lakin siyasi vəziyyət, logistika və relslərarası məsafə müxtəlifliyi ilə əlaqədar problemlər ondan tam istifadəyə imkan vermədi. Dəhlizdən istifadə özünün əhəmiyyətini Sovet İttifaqının süqutu ərəfəsində - 1990-cı illərdə, öncə SSRİ və ÇXR, sonra isə Qazaxıstanla ÇXR arasındakı birinci bağlantının işə salınması ilə əldə etdi. 2008-ci ildə isə ÇXR, Monqolustan, Rusiya, Belarus, Polşa və AFR bu xətdə Pekin və Hamburq arasında yük daşımaları

optimallaşdıran layihə üzrə saziş bağladılar. 2011-ci ildə bu dəhlizdə tranzit 15 milyon tonu keçdi. 2013-cü ildə Transsibirlə ÇXR dəmir yolları arasında ikinci bağlantı istismara verildi və burada TEU konteyner daşımaları həcmi 600 minə yüksəldi. Belə vəziyyət ÇXR-dən AFR-ə dəmir yolu ilə tranziti dəniz yollarına nisbətdə 20 gün azaldaraq 11-15 günə endirdi. Qeyd olunmalıdır ki, tarixi adı "Böyük Sibir Yolu" adlandırılan Transsibir dəmiryolu magistralı - Transsib (*Trans-Siberian Railway - Transsib*) Avroasiya üzərindən Rusiyanın Şərqi Sibir və Uzaq Şərqdəki nəhəng sənaye şəhərlərini paytaxt Moskva ilə birləşdirən dəmir yoludur. Buraxılış qabiliyyəti ildə 100 milyon ton yük nəzərdə tutulan bu magistralın (*Moskva-Vladivastok*) uzunluğu 9288,2 km-dir və o, dünyada ən uzun dəmiryolu xəttidir. İnşasına 1891-ci ildə başlanmış və 2002-ci ildə tam elektrikləşdirilmişdir. Bu magistral aşağı sürətli (*orta sutkalıq təxminən 300 km*) və bahalı tarifliyi ilə də fərqlənir. Sürətin aşağı olması, əsasən, relyef və yol infrastrukturunun köhnəliyi bağlıdır. Bundan başqa bu dəmir yolunun keçdiyi ərazilərdə relslərin oğurlanması və heyvan sürülərinin tez-tez qatarların qarşısına çıxması (*2014-cü ildə 130 belə hadisə baş vermişdir*) hallarının mövcudluğu da sürətin azalmasına səbəb olur. Transsibir dəmiryolu ilə ÇXR-dən Moskaya TEU konteyneri 45 gün və daha çox vaxt ərzində təxminən 6300 ABŞ dollarına daşınır.

"Böyük İpək yolu"nun Şimal qolunun dirçəldilməsi istiqamətində Rusiya bir sıra layihələr üzrə işlər aparır. Bu ölkə 2014-cü ildə özünün Uzaq Şərq regionunu inkişaf etdirmək məqsədi ilə "Razvitie" (*İnkişaf*) adlı Trans-Avropa qovşağı konsepsiyası irəli sürmüşdür. Hazırda həmin konsepsiya üzrə Transsibir və Baykal-Amur - BAM dəmir yolu mağistralları əsasında İnteqral Avroasiya nəqliyyat sistemi layıhəsi hazırlanır və Çin-Monqolustan-Rusiya dəmir yolu keçidi inşa olunur. Nəticədə Transsibir və BAM dəmir yolu xəttlərinin illik buraxılış qabiliyyəti hazırki 75 milyon tondan 141 milyon tona yüksələsək və burada çatdırılma sürəti də artırılacaqdır. Bundan başqa Rusiya 2016-cı ildə Qazaxıstn vasitəsi ilə ÇXR-ə sadələşdirilmiş tranzit mexanizmi əsasında yük avtomobillərinin hərəkətinə başlamışdır. Bununla bağlı həm də Qazaxıstan keçməklə Çin-Qərbi Avropa avtotrassı və Rusiya-Belarus avtomobil yolu rekonstruksiya olunur.

Daha müasir tarixdə "Böyük İpək yolu"nun bərpası istiqamətində ən mühüm layıhə kimi 1993-cü ildə təsis edilmiş Aİ-nin Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin - TRACECA-nın təşkili proqramı çıxış edir. Çox zaman TRACECA dəhlizi "Yeni ipək yolu" adlandırılır. Bundan başqa müasir zamanda, ümumiyyətlə İpək yolunu "Modern İpək Yolu" və ya "Orta dəhliz" də adlandırırlar. Onun böyük bərpası yönümündə yeni bir yaranışı bu istiqamətdə əsas yük bazası rolunu oynayan Çin nümayiş etdirir. Həmin yanaşma "Bir qurşaq, bir yol" (*çin dilində - 带-路 - bir qurşaq - bir yol*) "İpək Yolu İqtisadi Qurşağı" və "XXI əsrin Dəniz İpək Yolu" birləşmiş layihələrinin əhatə edən ÇXR dövləti tərəfindən irəli sürülən təşəbbüs və meqalayihədir. Bu meqalayihənin reallaşdırması barədə niyyət ilk dəfə ÇXR-in sədri Si Szinpin (*1953*) 2013-cü ildə Qazaxıstana səfəri zamanı Astana sammitində bəyan olunmuşdur. Çin ümumi adda

"Yeni ipək yolu" kimi tanınacaq bu strateji proqrama özünün geniş iştirakı əsasında regional əlaqələrinin möhkəmləndirilməsinin və beynəlxalq əməkdaşlığın inkişafının yeni modeli olaraq yanaşır. "Bir qurşaq, bir yol" layihəsinin quru zolaqda məqsədi Avrasiya ərazisində yeni körpülərin inşası və "Çin-Mərkəzi Asiya-Qərbi Asiya", "Çin-Monqolustan-Rusiya", "Çin-Pakistan", "Banqladeş-Çin-Hindistan-Myanma", "Çin-Çinimaçin yarımadası" kimi nəqliyyat dəhlizlərinin inkişaf etdirilməsi ilə bağlıdır. Dəniz hissəsində əsas məqsəd səmərəli və təhlükəsiz fəaliyyətlə "Yeni ipək yolu"nun ən böyük limanlarını birləşdirəcək nəqliyyat marşrutlarının yaradılması ilə bağlıdır. Böyük inkişafa nail olmaq üçün isə quru və dəniz arasında sıx əməkdaşlıq təmin olunmalıdır. Asiya, Avropa və Afrika olmaqla üç qitəni birləşdirəcək dünyanın ən böyük bu iqtisadi dəhlizini yol boyu ölkələrin qarşılıqlı faydalanması zəminində onların dünya iqtisadiyyatına inteqrasiyasını dərinləşdirəcək, mədəniyyətlərarası əlaqə və mübadiləni daha da genişləndirəcəkdir. Layihənin tam reallaşacağı təqdirdə Sakit okean hövzəsindən Atlantik okeanı hövzəsinə qısa müddətdə çatmaq mümkün olacaqdır. ÇXR-in rəsmi məlumatlarına görə meqalayihənin əhatə etdiyi zonada planetin 63% əhalisi yaşayır və ərazi miqyaslı təbii resurslarla zəngindir. Burada təxmin edilən iqtisadi miqyas isə 21 trilyon ABŞ dollarına bərabərdir. ÇXR 2014-cü ildə layihənin maliyyələşdirilməsinin bir hissəsi olaraq Asiya İnfrastruktur İnvestisiya Bankını təsis edərək ilkin maliyyə vəsaiti kimi 47 milyard dollar pul ayırıb. 2015-ci ildə isə ÇXR müəssisələri layihənin əhatə etdiyi 49 ölkəyə birbaşa investisiyalar yönəldiblər. Azərbaycan da daxil olmaqla, təxminən 30 ölkə "Bir qurşaq, bir yol" birgə layihəsinin həyata keçirilməsi ilə bağlı ÇXR əməkdaşlıq haqqında müqaviləni imzalayıb. Əməkdaşlıq etməyə hazır olan ölkələrin sayı isə 70-dən çoxdur.

Bütün bunlardan başqa, ÇXR hökuməti tarixi İpək Yolunun bərpası istiqamətində yalnız yük daşımaları deyil, həmçinin, sərnişin daşımalara da xüsusi diqqət ayırır. O, Qırğızıstan, Özbəkistan, Türkmənistan, İrandan keçməklə Türkiyəyə qədər uzanacaq Avrasiya Sürətli Qatar Yolu - ASQY adlı 6 min km-lik nəqliyyat xətti layihəsini həyata keçirir. Ölkənin Sincan Uyğur bölgəsindən start götürəcək bu layihə üzrə 150 milyard ABŞ dolları həcmində investisiyalar nəzərdə tutulmuşdur. ASQY-nin Qafqaz ərazisində BTQ dəmir yolu xətti ilə birləşəcəyi də nəzərdə tutulur. 2030-cu ilə qədər hazır olacağı gözlənilən dəmir yolu xəttində sərnişin qatarlarının sürətinin saatda 200 km, yük qatarlarının isə 160 km olacağı təxmin edilir.

İpək yolu nəhəng nəqliyyat marşrutunun Xəzər və Qara dənizləri arasındakı kontinental geosiyasi məkanı mərkəzində yerləşən Azərbaycan Avropa və Asiyanın qovuşmasında mühüm rol oynayır. Bu dəhlizin əsas qolunun Cənubi-Qafqazın "açar ölkəsi" olaraq onun ərazisindən dayanıqlı keçməsi xüsusi bir əhəmiyyət kəsb edir. Burada əhəmiyyətliliyi yalnız coğrafi mövqe deyil, böyük təbii sərvətlər, iqtisadi və insani resurslar potensialı, geniş tranzit imkan, nəqliyyat infrastrukturu kimi amillər də artırır. Azərbaycanın Şərq-Qərb və Şimal-Cənub marşurutlarının kəsişdiyi coğrafi mövqeyindən və bu çevrədə tranzit imkanlarından faydalanmasının yeni mərhələsi onun dövlət

müstəqilliyinin bərpası ilə bağlı olmuşdur. Belə ki, tarixi İpək Yolunun bərpası Ümummilli lider Heydər Əliyevin uzaqgörən uğurlu iqtisadi strategiyasının tərkib hissəsi kimi respublikamızın sosial-iqtisadi inkişafında, dövlətçiliyin möhkəmləndirilməsində yeni bir mərhələ olmuş və Azərbaycan Şərqlə Qərb arasında əlverişli tranzit, əhəmiyyətli dövlətlərdən birinə çevrilmişdir. Bu işlərin möhtəşəm davamı kimi Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev tərəfindən nəqliyyat sektorunun inkişafı, onun infrastrukturunun təkmilləşdirilməsi üzrə məqsədyönlü struktur islahatları aparılmış, irimiqyaslı layihələr, xüsusən də Trans-Avropa və Trans-Asiya dəmiryolu şəbəkələrinin birləşməsində çatışmayan bağlantı - Bakı-Tbilisi-Qars yeni dəmiryolu xətti və regionu böyük nəqliyyat və logistika mərkəzi - Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksi geniş miqyaslı fəaliyyəti reallığa çevrilmişdir. Bu işlər nəticəsində respublikanın regional və beynəlxalq nəqliyyat iqtisadi əlaqələri genişlənmiş, multimodal daşımalarda TRACECA nəqliyyat dəhlizinin iqtisadi potensialından səmərəli istifadə olunması, iqtisadi əməkdaşlığın möhkəmləndirilməsi, beynəlxalq ticarətin və daşımaların daha əlverişli şərtlərlə həyata keçirilməsi üçün etibarlı zəmin yaradılmışdır. Multimodal təyinatlı marşrut kimi TRACECA Rusiyadan yan keçməklə Xəzər dənizi və Bosfor boğazı vasitəsi ilə Çin-Avropa arasında yerləşir və onun bir hissəsi Gürcüstandan Qara dənizdə bərə daşımaları ilə Ukraynanın Odessa və Ruminiyanın Konstansa limanlarına kimi də yönəlir. Bunun üçün Via Carpatia adlı avtotras inşa edilir və Şərqi Avropanın Qara dənizdən Baltik dənizinədək dəmiryol tranzitini təmin edən "VIKING Train" adlı layihə həyata keçirilir.

Hazırda Xəzər dənizindən çıxarılan neftin və emal edilən neft məhsullarının təqribən 30%-i Azərbaycanın ərazisi ilə tranzit daşınmasında TRACECA dəhlizinin əhəmiyyəti danılmazdır. O da vurğulanmalıdır ki, Azərbaycanın ərazisindən keçən bu tranzit dəhlizinin potensialından hələ ki, tam istifadə edilməmişdir. Çünki yüklərin və sərnişinlərin dəhliz boyu axınının inkişaf etdirilməsində bir sıra maneələr vardır. Hazırda dəhlizin nisbi üstünlüyü, əsasən, qonşu ölkələrlə məhdudlaşır.

## 15.8. Azərbaycanın rəqabətqabiliyyətliliyini artıran və dünya iqtisadiyyatının inkişafına töhfələr verən strateji təyinatları

Hər bir xalqın, millətin xoşbəxtliyi, ilk növbədə, onun müstəqil və güclü dövlətə malik olması ilə müəyyən edilir. Dövlət müstəqilliyi, hər şeydən əvvəl, onu qazanmış xalqın özünütəsdiqi və milli özünüdərki üçün bir şansdır. Belə bir tarixi şansdan faydalanan və ondan səmərəli istifadə edən xalqlar həm milli inkişafa nail olur, həm də sahib olduqları dövlətin dayaqlarını möhkəmləndirə bilirlər.

Azərbaycanın müasir tarixində dövlətçiliyin qorunması ənənəsinin yaranması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Heç şübhəsiz, dövlət müstəqilliyinin qorunub saxlanılması onun qazanılmasından qat-qat çətindir. Bunu müstəqil Azərbaycanın keçdiyi inkişaf yolu da bir daha təsdiq edir. Qlobal çevrədən baxdıqda

beynəlxalq aləmin quru ərazisinin 0,06%-ni, bəşəri sayının 0,13%-ni təmsil edən Azərbaycan Respublikası son onilliklər ərzində böyük iqtisadi inkişaf yolu keçərək dünyanın 40 ən rəqabətqabiliyyətli iqtisadiyyata malik ölkələr sırasına daxil olmuşdur. Üç qitə arasında ən əlverişli bazarlar yaxınlığında qərar tutan əlverişli geostrateji mövqeyi, qlobal karbohidrogen ehtiyatları balansında 2%-ə qədərlik payı, iqtisadi fəal əhali sayı, zəngin təbii sərvətləri, tarixiliyi və perspektivliliyi onu beynəlxalq siyasətin uzunmüddətli hədəfinə çevirir. Respublikanın mövcud korbohidrogen ehtiyatları bazasında təbii qazın həcminin heç də yarıdan az olmaması onu gerçəkdən postindustrial dünyanın növbəti istəkli enerjidaşıyıcısı titulunu qazanmada şanslı edir. Bununla belə, neft-qaz ehtiyatlarının zənginliyinə baxmayaraq həyata keçirilən iqtisadiyyatın şaxələndirilməsi strategiyası qeyri-neft sektoru yeni inkişaf templəri ilə irəliləyir. Bu strategiya investisiyalar üçün əlavə imkanlar yaradaraq innovasiyalara təkan verir Azərbaycanın regional qüdrətini genişlənirir və onu qlobal oyunçuya çevirir.

Ölkədə iqtisadiyyatın tarazlı və dayanıqlı inkişafını təmin etmək, əhalinin rifahını yüksəltmək, habelə sosial-iqtisadi inkişafın cari, orta və uzunmüddətli dövrləri arasında üzvi bağlılıq və qarşılıqlı uzlaşma yaratmaqla, eləcə də cəmiyyətin bütün istiqamətlərdə tərəqqisini sürətləndirməklə, inkişafın keyfiyyətcə yeni modelini formalaşdırmaq Azərbaycan dövlətinin fəaliyyətində mərkəzi yer tutur. "Bütün planlarımızın həyata keçirilməsi üçün başlıca şərt iqtisadi potensialdır," - bu, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin səsləndirdiyi əsas tezislərdən biridir. Təsadüfi deyildir ki, hazırda Azərbaycanda dövlət idarəçiliyi əsas etibarilə "güclü iqtisadiyyat - güclü dövlət" prinsipinə əsaslanır. İqtisadi diplomatiyanın imkanlarından maksimum istifadə edilməsi də bu prinsipin reallaşdırılmasına xidmət edir. Hələ 2003-cü ildə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərinin icrasına başladığı çox qısa bir müddətdə İlham Əliyev ölkəmizin inkişaf prioritetlərini müəyyən edən "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" Fərman imzaladı, az sonra davamlı və tarazlı inkişafın təmin edilməsinə yönəldilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı"nı (*2004-2008-ci illər*) təsdiq etdi. Bu möhtəşəm işlər yeni dövlət proqramları, milli strategiyalar, kosepsiyalarla davam etdirilməkdədir. Müasir mərhələdə - 2011-ci ildə "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası (*İnkişaf Konsepsiyası*) və 2016-cı ildə qəbul edilmiş "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri" (*Strateji Yol Xəritəsi*) adlı konseptual sənədlər bu uğurlu işlərin əsasını təşkil etməkdəir. Hər iki dövlət sənədi demokratik prinsiplər gözlənilməklə açıq müzakirəyə verilmiş və maraqlı tərəflərin, o cümlədən vətəndaş cəmiyyəti təsisatlarının və vətəndaşların çoxsaylı rəy və təklifləri nəzərə alınmaqla ərsəyə gətirilmişdir.

"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası ölkənin yeni inkişaf mərhələsinə qədəm qoymasınının başlanğıcı olmuşdur. Burada Azərbaycanda qeyri-neft sektorunun inkişafına, biliklərə əsaslanan iqtisadiyyatın yaradılmasına xüsusi

diqqət ayrılaraq yüksək keyfiyyətli təhsil sisteminin yaradılması, sahibkarlığın inkişaf etdirilməsi, təbii sərvətlərdən istifadənin azaldılması, məşğulluğun səviyyəsinin yüksəldilməsi və digər məsələlər barədə əsaslı inkişaf proqramı ortaya qoyulmuşdur. Bütün sahələrlə yanaşı, insan kapitalının inkişafı, səmərəli sosial müdafiə sisteminin qurulması İnkişaf Konsepsiyasında əhəmiyyətli yer tutur. Burada əsas strateji yanaşma mövcud imkanlar və resurs perspektivləri nəzərə alınmaqla ölkədə sistemli inkişaf, davamlı iqtisadi artım, yüksək sosial rifahın təminatı, güclü və səmərəli dövlət idarəetmə aparatı, hüququn aliliyi, vətəndaş cəmiyyətinin qorunması və daha da inkişaf etdirilməsi ilə bağlıdır. İnkişaf Konsepsiyasında Azərbaycanın ən ucqar kəndlərində belə vətəndaşların rahat gündəlik həyatı üçün lazımi bütün kommunikasiyalar, səhiyyə və təhsil xidmətləri ilə təmin edilməsi, əhalinin gəlirlərinin yüksəlməsi, ekoloji mühitin sağlamlaşdırılması və hər bir vətəndaşı üçün geniş imkanlara malik həyat şəraitinin formalaşdırılması kimi silsilə tədbirlərin reallaşdırılması nəzərdə tutulmuşdur.

Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının davamı olaraq "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsinin başlıca istiqamətləri" proqram sənədi daha mötəbər və uzunmüddətli hədəflərə köklənmişdir. Strateji yol xəritələrinin icrasında başlıca məqsəd Azərbaycanda davamlı iqtisadi inkişaf əsasında iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin, inklüzivliyinin və sosial rifahın artırılmasının təmin edilməsindən ibarətdir. Nəzərdə tutulan layihələr neft-qaz, kənd təsərrüfatı, istehlak malları istehsalı, ağır sənaye və maşınqayırma, ixtisaslaşmış turizm, logistika və ticarət, əhalinin uyğun qiymətə mənzil təminatı, peşə təlimləri, maliyyə xidmətləri, telekommunikasiya və kommunal xidmətlər sahələrini əhatə edir.

Sənəd iqtisadiyyatın 11 sektorunu əhatə edən 12 yol xəritəsindən ibarətdir:

1. "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi";
2. "Azərbaycan Respublikasının neft və qaz sənayesinin (*kimya məhsulları daxil olmaqla*) inkişafına dair Strateji Yol Xəritəsi";
3. "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi";
4. "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi";
5. "Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi";
6. "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi";
7. "Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi";
8. "Azərbaycan Respublikasında uyğun qiymətə mənzil təminatının inkişafına dair Strateji Yol Xəritəsi";
9. "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi";

10. "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi";
11. "Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi"
12. "Azərbaycan Respublikasında kommunal xidmətlərin (*elektrik və istilik enerjisi, su və qaz*) inkişafına dair Strateji Yol Xəritəsi".

Strateji Yol Xəritəsi 2025-ci ilə qədər 450 mindən çox yeni iş yerinin yaradılmasını nəzərdə tutur. Yeni iş yerlərinin yaradılması ilə yanaşı burada həmçinin, mənzil təminatının yaxşılaşdırılması, müasir tələblərə uyğun təhsil və səhiyyə xidmətlərinin göstərilməsi, sosial infrastrukturun inkişafı, kommunal xidmətlərin təkmilləşdirilməsi və ünvanlı sosial yardım sistemindən reabilitasiyaya keçidin təmin edilməsi yolu ilə yoxsulluğun azaldılması kimi strateji planlar öz əksini tapmışdır. Strateji Yol Xəritəsində sahibkarların iqtisadi fəallığının artırılması, özəl təşəbbüslərə dəstək, sağlam rəqabət mühitinin formalaşdırmaq və dövlət əmlakının özəlləşdirilməsinin sürətləndirilməsi iqtisadi siyasətin mühüm istiqamətlərindən biri kimi təcəssümünü tapır. Burada insan kapitalının inkişaflna mühüm dəyər verilir. Bunun üçün təhsilin bütün pillələrində keyfiyyətin yüksəldilməsi, təlimlər vasitəsilə işçilərin bilik və bacarıqlarının inkişaf etdirilməsində fasiləsizliyin təmin edilməsi, ixtisaslı kadr hazırlığının əmək bazarının tələblərinə uyğunlaşdırılması, şirkətlərin araşdırma və təkmilləşdirmə sahəsinə investisiya qoyuluşunun stimullaşdırılması, mövcud insan kapitalından səmərəli istifadə edilməsi təklif olunur.

Strateji Yol Xəritəsində əsas diqqət çəkən məqam həm də məqsəd və hədəflərə çatmaq üçün aydın zaman çərçivəsinin müəyyənləşdirilməsidir. Belə ki, Strateji Yol Xəritəsi konkret olaraq üş qısa (*2020-ci ilədək*), orta (*2025-ci ilədək*) və uzunmüddətli (*2025-ci ildən sonrakı dövr*) dövrləri əhatə edir.

Sosial-iqtisadi inkişafla bağlı strteji yol xəritələri və ya onların bənzərləri olan dövlət strateji proqram sənədləri bir çox ölkələrdə reallaşdırılmaqdadır. Bu sırada Rusiya Federasiyasında insan kapitalının inkişafı, makroiqtisadi sabitliyin təmin edilməsi və xarici ticarətin liberallaşdırılması kimi kompleks tədbirlərin həyata keçirilməsi nəzərdə tutan "2020-ci ilə qədər Rusiya Federasiyasının uzunmüddətli sosial-iqtisadi inkişafına dair" Konsepsiyasını, Malayziyanın əhalinin yaşayış səviyyəsinin yüksəldilməsini, insan kapitalının inkişafını, infrastrukturun gücləndirilməsini kimi strateji təyinatları əhatə edən "2016-2020-ci illər üzrə Malayziyanın iqtisadi inkişaf planı"nı, Qazaxıstan Respublikasında davamlı sosial rifahın təmin edilməsinə, əlverişli investisiya mühitinin yaradılmasına, rəqabətqabiliyyətli iqtisadiyyatın qurulmasına hədəflənmiş "Qazaxıstan - 2050 Strategiyası"nı və digərləri misal gətirilə bilər. Bu sənədlərə baxdıqda və müqayisə etdikdə Strateji Yol Xəritəsində müəyyən olunmuş hədəflərin də yeni qlobal çağırışlarla adekvatlıq təşkil etdiyini, sistemli və əhatəli olduğunu görmək mümkündür. Bütün bunlar bir daha onu əsaslandırır ki, "Azərbaycan Respublikasının Milli İqtisadiyyat Perspektivi üzrə Strateji Yol Xəritəsi" və müvafiq sektorlar üzrə differensial strateji

yol xəritələri sosial-iqtisadi həyatın modernizasiyasında strateji əhəmiyyətli bir dövlət proqram və mexanizmidir. Bu baxımdan da Azərbaycanın rəqabətqabiliyyətliliyini artıran Strateji Yol Xəritəsində müəyyən olunan hədəflərin zamanında və səmərəli reallaşdırılması təmin edilməlidir.

*Əsas anlayışlar:*

**1. Dünya iqtisadiyyatının inkişafının tsiklliyi -** XVIII əsrdən başlayaraq XIX əsrlərin sənaye çevrilişlərinə qədər aqrar strukturda, XIX əsrin ikinci və XX əsrin birinci yarısında iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə sənayenin aparıcı rolunda və 1980-ci illərdə postindistrual inkişafla bağlı olmuşdur.

**2 Kondratyev dalğaları/tsiklləri** - rus sovet iqtisadçısı N.Kondratyevin adı ilə bağlı dünya iqtisadiyyatında elmi-texniki tərəqqinin tskliliyini səciyyələndirən texniki-iqtisadi inkişafın uzunmüddətli - təxminən 55 ili əhatə edən dalğavarı dövriliyidir.

**3. Müasir dünya iqtisadiyyatında xarakterik struktur dəyişikliklər** - qeyri-istehsal sahəsinin sürətlə inkişafı, resurstutumlu baza sahələrdən elmtutumlu sahələrə keçid, ÜDM-də kənd təsərrüfatının payı azalması və səmərəliliyinin artması, maddi istehsal sahəsində emal sahələrinin sənaye strukturunda əsas olması, yanacaq və xammaldan daha səmərəli istifadə ilə hasilat sənayesinin payının aşağı düşməsi və xarici ticarətin strukturunda emal sənayesi məhsullarının payı artması ilə bağlıdır.

**4. Dünya iqtisadiyyatının institututlar sisteminin perspektivləri** - qeyri-rəsmi strukturların sayının artımı və fəaliyyət fəallaşması, yeni iqtisadi-maliyyə mexanizmləri və idarəetmə sistemləri yaranması çağrışları ilə bağlıdır.

**5. Regionalizm** - iqtisadi, sosial, siyası və digər problemlərin həllinə baxılmasına bu və ya digər regionun istehlakçıları maraqlarından yanaşmadır.

**6. Qlokalizasiya** - qloballaşma ilə regionlaşmanın qarşılıqlı şərtliliyi: qlobal, lokal və ya regional olan siyasi-iqisadi, sosial-mədəni maraq və təməyüllərin uzlaşması.

**7. Qlobal modelləşdirmə** - bütün dünyanı əhatə edən daha üstün miqyaslı sosial, iqtisadi və ekoloji proseslərin işlənməsinə həsr eduilmiş tədqiqat sahəsidir.

**8. Sistemli yanaşma** - mürəkkəb obyektə çoxsaylı elementlərin bütövlüyü, onlar arasında əlaqəlik və münasibətlər məsmusunu kimi baxılmasını şərtləndirən elmi-tədqiqat metodologiyası istiqamətidir.

**9. Model** - orijinal obyekt və hadisənin bir sıra mühüm xassələrini saxlamaqla material və ya fikri təqdim edilən obyekt və hadisədir.

**10. Kibernetik sistem** - informasiyanı yaddaşlara salan, emal və mübadilə edən elementlər sistemi adlanan çoxsaylı qarşılıqlı obyektlərdir.

**11. Kibernetika** - idarətmə prosesinin ümumi qanunayğunluqları, informasiyalırn müxtəlif sistemlərə (*maşınlara, canlı orqanizmlərə və ya cəmiyyətə*) ötürülməsini tədqiq edən elmdir.

**12. Roma Klubu** - bəşəriyyət qarşısında dayanan çətin problemlərin aşkarlanması və həlli strategiyasını işləmək missiyasını yerinə yetirən 1968-ci ildə yaradılmış beynəlxalq ictimai təşkilatdır.

**13. Urbanizasiya** - cəmiyyətin inkişafında şəhərlərin rolunun artması prosesi olaraq kənd əhalisinin şəhərə axınını ifadə edir.

**14. Ruralizasiya** - iqtisadi, ilk növbədə isə ərzaq təminatı vəziyyətinin pisləşməsi ilə əlaqədar əhalinin şəhərdən kənd yerlərinə axınıdır.

**15. Kontrurbanizasiya, dezurbanizasiya** - şəhər əhalisinin artımının məhdudlaşdırmasına istiqamətlənmiş nəzəri konsepsiya və təcrübi tədbirdir.

**16. Suburbanizasiya** - mərkəz-şəhərlərdən, həmçinin, kənd yerlərindən əhalinin şəhərətrafı zonalara köçməsi ilə əlaqədar həmin şəhərətrafı zonalara artması və inkişafı prosesidir.

**17. Aqlomerasiya** - iri şəhərlərdə yaşayış məntəqələrinin intensiv əlaqəliliklə ictimai, istehsal, əmək, mədəni-məişət, rekreasiya və digər təsistlar sistemində təmərküzləşməsidir.

**18. Aqlomerasiya effekti** - şəhərlərdə və aqlomerasiya zonasında istehsalın və digər iqtisadi obyektlərin ərazi konsentrasiyasından iqtisadi faydalanmadır.

**19. Urbanizasiya effekti** - bir şirkətin istehsal xərclərinin şəhər ərazisində məcmui istehsal həcminin artması ilə əlaqədar aşağı düşməsi vəziyyətində yaranan istehsalın konsentrasiyası ilə bağlı effektdir.

**20. Urbanizasiyadan qənaət** - yaşayış məntəqəsinin sayının artırılması nəticəsində əmələ gələn və ayrıca bir insan üçün hər hansı bir xidmətin dəyərini azaltmağa imkan verən xərclərin azaldılması və ya mənfəət alınması ilə müşayiət edilən aqlomerasiyadan yaranan qənaət növüdür.

**21. Meqalopolis** - çoxlu sayda şəhər aqlomerasiyalarının artması nəticəsində yaranan daha iri məskunlaşma formasıdır.

**22. Ksenofobiya** - insanın əcnəbilərdən, tanımadığlarından, adət etmədikləri və özündən fərqli olan insanlardan qorxması və ya nifrətidir.

**23. İslamafobiya** - İslama və onunla bağlı ictimai hadisələrə ümumiləşdirilmiş halda müxtəlif neqativ formalarda reaksiyadır.

**24. Tolerantlıq** - dünyagörüşləri, inacları, baxışları, dəyərələri, əqidələri. davranışları ilə fərqlənən digər insanlara qarşı dözümlülükdür.

**25. Multikulturalizm** - ayrıca götürülmş bir ölkədə və ümumən dünyada mədəni müxtəlifliyin qorunması və inkişafına yönəlmiş siyasət və belə siyasəti əsaslandıran nəzəriyyə və ideologiyadir.

**26. Dünya iqtisadiyyatının inkişaf perspektivləri** - yaxın orta perspektivdə daha çox ABŞ-ın və Qərbin rolu azalması, inkişaf etməkdə olan ölkələrin rolunun isə artacağı proqnozu mütənasibdir.

**27. Böyük ipək yolu** - qədim və orta əsrlərdə Şərqi Asiya ilə Aralıq dənizi hövzəsini birləşdirən karvan yoludur.

**28. Transsibir dəmiryolu magistralı - Transsib** (*ingiliscə* - Trans-Siberian Railway - Transsib - *Transsibir dəmiryolu magistralı - Transsib*) Avroasiya üzərindən Rusiyanın Şərqi Sibir və Uzaq Şərqdəki nəhəng sənaye şəhərlərini paytaxt Moskva ilə birləşdirən dəmir yoludur.

**29. "Bir qurşaq, bir yol"** - "İpək Yolu İqtisadi Qurşağı" və "XXI əsrin Dəniz İpək Yolu" birləşmiş layihələrinin əhatə edən, Çin dövləti tərəfindən irəli sürülən təşəbbüs və meqalayıhədir.

**30. Azərbaycan 2020: "gələcəyə baxış" İnkişaf Konsepsiyası** - sistemli inkişafa davamlı iqtisadi artıma və sosial rifahın təminatının yüksəlişinə əsaslanan vətəndaş cəmiyyətinin qorunması və daha da inkişaf etdirilməsi ilə bağlı 2012-2020-ci illəri əhatə edən Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 29 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş konsepsiyadır.

**31. "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"** - Azərbaycanda davamlı iqtisadi inkişaf əsasında iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin, inklüzivliyinin və sosial rifahın artırılmasının təmin edilməsi üzrə iqtisadiyyatın 11 sektoru əhatə edən 12 yol xəritəsindən ibarət dövlət proqram sənədidir.

# QAYNAQLAR

# QAYNAQLAR

**Azərbaycan dilində**

1. Qurani Kərim.
2. Azərbaycan Respublikasının Konstitusiyası.
3. Abbasov İ.D. Azərbaycan və dünya ölkələrinin kənd təsərrüfatı. Bakı: "Şərq-Qərb" Nəşriyyat Evi, 2013, 712 s.
4. Abdullayev Z.S., Bağırova Z.Ə. Müəssisənin iqtisadiyyatı. Bakı: Biznes Universitetinin nəşriyyatı, 2003, 502 s.
5. Axundov M.Ə. Müəssisənin iqtisadiyyatı. Bakı: "Azərnəşr", 2002, 460 s.
6. Axundov B.Y. İnqilabdan əvvəlki Bakı neft sənayesində inhisarçı kapitalizm. Bakı: "Elm", 1959, 295 s.
7. Akademik Ziyad Səmədzadənin 70 illik yubiyeyinə həsr edilmiş "Azərbaycan iqtisadiyyatında keçid dövrünün başa çatması: təhlil və nəticələr. Respublika elmi-praktiki konfransının materialları Milli inkişaf modelinin formalaşması problemləri". AMEA-nın İqtisadiyyat İnstitutu, Azərbaycan İqtisadçılar İttifaqı, Beynəlxalq İqtisadçılar İttifaqı, Azərbaycan Dövlət İqtisad Universiteti. Bakı: "Şərq-Qərb", 2010, 982 s.
8. Anri Masse. İslam. Bakı: Azərbaycan Ensiklopediyasının baş redaksiyası, 1992, 256 s.
9. Atakişiyev M.C., Abbasov H.M., Abbasova N.H. Mikro və makroiqtisadiyyat. Bakı: "Azərnəşr", 2010, 508 s.
10. Ataşov B. İdarəetmə elmi və rəhbər əməyi. Bakı: "Elm", 2011, 180 s.
11. Aşurbəyli S.B. Bakı şəhərinin tarixi. Bakı: "Azərnəşr", 1998, 356 s.
12. Azərbaycan Respublikası. Milli atlas. Bakı: Kartoqrafiya Fabriki, 2014, 444 s.
13. Azərbaycan SSR atlası. Bakı-Moskva: 1963, 213 s.
14. Balayev R.Ə. Urbanizasiya: şəhər iqtisadiyyatı və ərzaq problemi. Bakı: "Elm", 2007, 295 s.
15. Balayeva E.Ə. İqtisadi təhlükəsizlik və inkişafın maliyyə problemləri. Bakı: "Elm", 2011, 396 s.
16. "Böyük İqtisadi Ensiklopediya". VII cilddə. / akademik Ziyad Səmədzadənin baş redaktorluğu ilə. Bakı: "Letterpres" nəşriyat evi, 2012-2015.
17. Bhaqavad-gita olduğu kimi. BHAKTİVENDATA BUK TRAST. 1991, 896 s.
18. Engels F. Təbiətin dialektikası. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1966, 360 s.
19. Əbu Əli Həsən İbn Əli Xoca Nizamülmülk. Siyasətnamə. Bakı: "Elm", 1989, 212 s.
20. Əhmədov H.Q. Politologiya. Bakı: "N.Tusi adına ADPU"-nin nəşriyyatı, 1997, 195 s.
21. Əlirzayev Ə.Q. Turizmin iqtisadiyyatı və idarə edilməsi. Bakı: İqtisad Universiteti, 2011, 493 s.

22. Əliquliyev R.M., İmamverdiyev Y.N., Abdullayev F.C. Sosial şəbəkələr. Bakı: “İnformasiya Texnologiyaları” nəşriyyatı, 2010, 287 s.
23. Əliyev A.Ə., Şəkərəliyev A.Ş. Bazar iqtisadiyyatına keçid: Dövlətin iqtisadi siyasəti. Bakı: “İqtisad Universiteti” nəşriyyatı, 2002, 440 s.
24. Əliyev H.Ə. Azərbaycan nefti dünya siyasətində. Bakı: 1997, 478 s.
25. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. I-XXI cildlər. Bakı: “Azərnəşr”, 1997-2008.
26. Əliyev H.Ə. Qayıdış. Bakı: 1997, 365 s.
27. Əliyev Ş.T. Azad İqtisadi Zonalar. Dərslik. Sumqayıt: Sumqayıt Dövlət Universiteti, 2013, 280 s.
28. Əliyev T.N., Babayev M.T. Neft-qazçıxarma sənayesi müəssisələrinin iqtisadi potensialı. Bakı: “Azərnəşr”, 2003, 264 s.
29. Hacıyev Ş.H, Bayramov Ə.İ. Dünya iqtisadiyyatının tarixi. Dərslik. Bakı: 2011, 531 s.
30. Hacızadə E.M. Azərbaycanın quruda neftqazçıxarma kompleksində iqtisadi islahatlar və səmərəlilik problemləri. Bakı: “Elm”, 1998, 144 s.
31. Hacızadə E.M. Azərbaycanın təbii qaz potensialı: reallıqlar və virtual cizgilər. Bakı: “Elm”, 2001, 186 s.
32. Hacızadə E.M., Bağırzadə E.R. Azərbaycan iqtisadiyyatının dünyadakı reytinqi. Bakı: “Elm”, 2011, 128 s.
33. Hacızadə E.M. Energetik kompleks yeni islahatlar ərəfəsində. Bakı: “Elm”, 2000, 257 s.
34. Hacızadə E.M., Paşayev T.Ə. Neft-qaz sənayesində yeni bazar mexanizmlərinin formalaşdırılması istiqamətləri. Bakı: “Elm”, 2000, 200 s.
35. Hacızadə E.M. Neftqazçıxarma kompleksinin iqtisadi inkişaf modeli. Bakı: “Elm”, 2002, 472 s.
36. Hacızadə E.M., Abdullayev Z.S. Neft təsərrüfatının iqtisadi strukturunun modernizasiyası. Bakı: “Elm”, 2003, 512 s.
37. Hacızadə E.M. Sosiallaşan iqtisadiyyat. Bakı: “Elm”, 2006, 509 s.
38. Həsənov R.T. Tənəzzüldən Stabilliyə, Stabillikdən tərəqqiyə doğru təkamülün xüsusiyyətləri və perspektivləri. “Heydər Əliyev və Azərbaycanın müasirləşmə strategiyası”. Bakı: “Azərnəşr”, 2011, 708 s.
39. Hüseynov T.Ə. Sənayenin iqtisadiyyatı. Bakı: 1998, 324 s.
40. İqtisadiyyat fəlsəfəsi. / i.e.d., prof. Ş.H.Hacıyevin ümumi rəhbərliyi ilə / Dərslik. Bakı: 2009, 369 s.
41. İncil. Stokholm: Bibliya tərcümə institutu. 1993, 612 s.
42. İsayev A.S. İstehsalın təşkilinin əsasları. Bakı: “Azərnəşr”, 2010, 164 s.
43. İsmayılov S.F. Azərbaycanın qeyri-neft sənaye sahələrinin inkişafında yeni mərhələ. Bakı: “Elm”, 2011, 136 s.
44. İsrafilov H.A. Qloballaşma şəraitində istehlak kooperasiyasının təkmilləşdirilməsi istiqamətləri. Bakı: “Elm”, 2010, 476 s.

45. Kərimli İ.A. İqtisad elmi: aktual problemlər və real yanaşmalar. Bakı: 2013, 504 s.
46. Kərimov İ. Orucov A., İsrafilov H. Dünya iqtisadiyyatı. Dərslik (İkinci nəşr). Bakı: “Nurlan nəşriyyatı”, 2007, 728 s.
47. Keynz C.M. Məşğulluq, mənfəət və pulun ümumi məruzəsi. Bakı: “Qanun”, 2001, 380 s.
48. Lenin V.İ. Əsərlərin tam külliyyatı. 55 cilddə. Bakı: 1976-1988.
49. Marks K. Fəlsəfə yoxsulluğu. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1975, 184 s.
50. Marks K. və Engels F. Seçilmiş əsərləri. III cilddə. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1978-1981.
51. Meybullayev M.X. İslam iqtisadiyyatı. Bakı: 2001, 666 s.
52. Meybullayev M.X. Mikroiqtisadiyyata giriş. Bakı: İqtisad Universiteti, 2010, 396 s.
53. Məhərrəmov A.M., Aslanov H.H. Məhərrəmov A.M. Xarici iqtisadi fəaliyyətin tənzimlənməsi. Dərslik. Bakı: 2008, 389 s.
54. Məhərrəmov A.M. Sahibkarlıq: nəzəriyyədən praktikaya. Bakı: “Nurlar” NPM, 2009, 360 s.
55. Məmmədov F.Ə. və başqaları. Vergitutmanın nəzəri və metodoloji əsasları. Bakı: “Ozan”, 2001, 416 s.
56. Mədətov Q.İ. Azərbaycan Böyük Vətən müharibəsi illərində. Bakı: 1976, 324 s.
57. Mirzəcanzadə A.X., Şıxəliyev F.Ə. İxtisasa giriş. Bakı: “Maarif”, 1985, 158 s.
58. Musayev A.F. İnnovasiya iqtisadiyyatı və vergi stimullaşdırılması. Bakı: “Azərbaycan Universiteti” nəşriyyatı, 2014, 184 s.
59. Nadirov A.A. Müasir Azərbaycan iqtisadiyyatının inkişaf mərhələləri. Bakı: “Elm”, 2001, 452 s.
60. Nadirov A.A. və başqaları. Azərbaycan iqtisadi və sosial coğrafiyası. Bakı: “Bakı Universiteti” Nəşriyyatı, 2010, 496 s.
61. Nəbiyev N.Ə. İqtisadiyyat, cəmiyyət və ekoloji mühit. Bakı: 2000, 696 s.
62. Nizami Gəncəvi. İsgəndərnamə. Bakı: “Yazıçı” nəşriyyatı, 1982, 672 s.
63. Nuriyev Ə.X. Azərbaycanda iqtisadi inkişaf və modernləşmə siyasətinin konseptual əsasları. Bakı: “AVROPA” nəşriyyatı, 2013, 417 s.
64. Quliyev T.Ə. Menecmentin (idarəetmənin) əsasları. Dərslik. Bakı: 2001, 513 s.
65. Qurtuluşdan tərəqqiyə. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı: 9№-li kiçik müəssisə, 2018, 763 s.
66. Rəsulzadə M.Ə. Azərbaycan Cumhuriyyəti. Bakı: 1990, 113 s.
67. Səmədzadə Ş.Ə. İqtisadi-riyazi metodlar və avtomatlaşdırılmış idarəetmə sistemləri. Bakı: “Maarif”, 1981, 249 s.
68. Səmədzadə Z.Ə. Azərbaycan SSR-də əmək məhsuldarlığı və əhalinin məşğuliyyətinin sahə quruluşu. Bakı: 1973, 253 s.

69. Səmədzadə Z.Ə. Çin qlobal dünya iqtisadiyyatında. Bakı, “Elm və təhsil”, 2009, 608 s.
70. Səmədzadə Z.Ə. Dağlıq Qarabağ: Naməlum həqiqətlər. Bakı: “Vətən” nəşriyyatı, 1995, 157 s.
71. Səmədzadə Z.Ə. Dünya iqtisadiyyatı. Çin “iqtisadi möcüzəsi”. Bakı: “Gənclik”, 2001, 323 s.
72. Səlimova H.S. Sosial sahənin iqtisadiyyatı. Bakı: “Ecoprint”, 2017, 284 s.
73. Səfərov Q.Ə., Dadaşova K.S. Neft-qaz kompleksində məhsulun keyfiyyəti və rəqabətqabiliyyətliliyi. Bakı: “Elm”, 2011, 224 s.
74. Tobçubaşov Ə.M. Azərbaycan təşəkkülü. Bakı: 1994, 116 s.
75. Yeni tərəqqi illəri 2003-2011. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı: “9 №-li kiçik müəssisə” 2011, 254 s.

**Türk dilində**
76. Karagül M. Tehdit ve Fırsatlarıyla Dünya Ekonomisi. Ankara: “Nobel”, 2010, 154 s.
77. Karluk R. Uluslararası Ekonomi: Teori ve Politika. İstanbul: 2009, 388 s.
78. Kayıhan Ş., Eski M. Uluslararası Ekonomi Hukuku. Ankara: “Seçkin”, 2010, 421 s.
79. Örnek İ., Taş S., Yıldırım M. Geçiş Ekonomileri. Bursa: “Ekin” Yayınevi, 2008, 367 s.
80. Seyidoğlu H. Uluslararası İktisat: Teori, Politika ve Uygulama. İstanbul: 2009, 279 s.
81. Walther T. Dünya Ekonomisi. İstanbul: “Alfa”, 2002, 413 s.

**İngilis dilində**
82. Appleyard D.R., Field A.J. International Economics. McGraw-Hill, Irwin, 2001, 321 p.
83. Drucker Peter. Management during large changes. NY: Truman Taiiey Books, 1995, 654 p.
84. Drucker Peter. Post-Capitalist Society, Routledge, 2012, 212 p.
85. Daniel Friedman. Morals and Markets. Palgrave Macmillan, 2008, 268 p.
86. Frederick P. Stutz, “The World Economy: Geography, Business, Development (6th edition)” 2011, 488 p.
87. İmanov G.C. Fuzzy Approach to the Estimation to the Ecological Sustainability index and investments distribution, A.M.S.E journals, Series D, Computer Science and statistics, 2011, 14 p.
88. Gerber J. International Economics. Person Education, Inc., 2005, 254 p.
89. Kenen P.B. The International Economy. Cambridge University Press. 2008, 425 p.
90. Krugman P., Obstfeld M. International Economics: Theory and Policy. Pearson - Addison Weasley, 2006, 335 p.

91. Maddison A. The World Economy: A Millenial Perspective. OECD, Paris, 2002, 412 p.
92. Masuda Y. The information Society as Post-industrial Society. Washington: 1981, 286 p.
93. Marrenwıjk C.V. International Economics. Oxford University Press, 2007, 461 p.
94. Miller R.C. International Political Economy: Contrasting World Views. Routledge 2008, 259 p.
95. Mushfiq Atakishiyev. Doctor of economics, professor. New oil policy and economic development in Azerbaijan. Baku: "Aspoligraf", 2007, 400 p.
96. Omaye Kenity. The The end of the national state. HY: Harper Collings. Publishers, 1994, 478 p.
97. Porat, Marc Uri. The Information Economy: Definition and Measurement. Washington: 1999, 315 p.
98. Ronald Fisher. McLeod "Massingham Parua Past and Present". 2011, 192 p.
99. Rostow W.W. Politics and the Stages of Growth // London: Cambridge University Press, 1971, 349 p.
100. Todaro M.P., Smith S.C. Economic Development. Pearson Education. 2009, 321p.
101. Urbanization in History: A Process of Dynamic Interactions. 2008, 383 p.
102. Williams M., Brien R. O. Global Political Economy. Palgrave Macmillian, 2007, 365 p.

**Rus dilində**

103. Аакер Дэвид. Стратегическое рыночное управление. СПб.: "Питер", 2002, 467 с.
104. Абалкин Л.И. Россия-2015: Оптимистический сценарии. М.: "ММВБ", 1999, 426 с.
105 . Абель Э., Бернанке Б. Макроэкономика. СПб.: "Питер", 2010, 768 с.
106. Адам Мец. Мусульманский ренессанс. М.: "Наука", 1973, 473 с.
107. Азербайджанская ССР в период Великой Отечественной Войны (1941-1945 гг), двух томах. Баку: Азербайджанское Государственное Издательство, 1971.
108. Акимова Т.А., Хаскин В.В. Экология. Учебное пособие. М.: "ДОНИТИ", 2005, 454 с.
109. Алиев И.Г. Каспийская нефть Азербайджана. М.: "Известия", 2003, 798 с.
110. Алияров С.С. Нефтяные монополии в Азербайджане в период I Мировой войны. Баку: 1974, 229 с.
111. Амиров А.Д. Добыча нефти. Баку: "Азернешр", 1963, 330 с.
112. Аникин Б.А. Аутсорсинг и аутстаффинг: высокие технологии менедж-

мента. М.: “ИНИОН”, 2006, 288 с.
113. Аристотель. Политика: Наука об управлении государством. М.: “Наука”, 2003, 124 с.
114. Асмус В.Ф. История античной философии. М.: 1965, 455 с.
115. Бартенев С.А. Экономические теории и школы. М.: “БЕК”, 1996, 322 с.
116. Бауэрсокс Доналд Дж. Клосс Дейвид Дж. Логистика: интегрированная цепь поставок. М.: ЗАО “Олимп-Бизнес”, 2005, 640 с.
117. Богомолов О.Т. Мировая экономика в век глобализации. М.: “Экономика”, 2007, 359 с.
118. Боулз С. Микроэкономика. Поведение, институты и эволюция. М.: “ИНФРА-М”, 2010, 576 с.
119. Бжезинский З. Великая шахматная доска: Господство Америки и его геостратегические императивы. М.: 1999, 230 с.
120. Блауг М. Методология экономической науки и как экономисты обясняет. М.: “Дело” ЛТД, 1994, 435 с.
121. Бутыркин А.Я. Естественные монополии: Теория и проблемы регулирования. М.: “Новый век”, 2003, 152 с.
122. Бьюкенен Д. Конституция экономической политики. М.: “МЫСЛЬ”, 2008.
123. Веснин В.Р., Цыпин И.С. Мировая экономика, М.: “Проспект”, 2009, 248 с.
124. Вернадский В.И. Научная мысль как планетарное явление. М.: “Наука”, 1977, 145 с.
125. Винер Роберт. Кибернетика. М.: “Наука”, 1983, 344 с.
126. Войтов А.Г. Экономическая теория. М.: “ИНФРА-М”, 2012, 392 с.
127. Гаджиев Ш.Г. Азербайджан на пути к мировому сообществу: стратегия внешнеэкономического развития. Киев: “Експрес-обява”, 2000, 504 с.
128. Гитман Л.Д., Джонс М.Д. Основы инвестирования. М: “Дело”, 1999, 1008 с.
129. Голуб А., Струкова Е. Экономика природных ресурсов. М: “Аспект-Прес”, 1998, 416 с.
130. Голиков Е.А. Маркетинг и логистика. М: Издательский дом “Дашков и Ко”, 1999, 412 с.
131. Грей Форест Добыча нефти. / Пер. с англ. М.: ЗАО “Олимп-Бизнес”, 2004, 416 с.
132. Гурова И.П. Мировая экономика. М.: “Омега-Л”, 2009, 400 с.
133. Гумбатов Г.Г., Гаджизаде Н.А., Керимов К.С. Некоторые аспекты управления нефтяной промышленности в современных условиях. Баку: “Элм”, 2000, 148 с.
134. Дафт Л.Р. Менеджмент. СПб.: “Питер”, 2000, 832 с.
135. Дергачев В.А. Геоэкономика. (Современная геополитика). Киев: “ВИРА-Р”, 2002, 512 с.

136. Джон Гэлбрейт. Новое индустриальное общество. М.-СПб.: Транзиткнига, 2004, 602 с.
137. Джонстон Даниел. Меджународной нефтяной бизнес: налоговые системы и соглашения о разделе.продукции. / Пер. с англ. М.: ЗАО "Олимп-Бизнес", 2003, 352 с.
138. Дрогобыцкий И.Н. Системный анализ в экономике. М.: "ИНФРА-М", 2011, 423 с.
139. Доминик Сальваторе. Международная экономика. М: Риа "ПК". 1998, 714 с.
140. Дугин А. Основы геополитики: Геополитические будуще России. М: "АРКТОГЕЯ-центр", 1999, 928 с.
141. Ергин Д., Густафсон Т. Россия: двадцать лет спустя. Четыре сценария. М: Международные отношения, 1995, 288 с.
142. Ергин Д. Добыча. Всемирная история борьбы за нефть, деньги и власть. М.: "Де Нова", 1999, 968 с.
143. Жан Тироль. Рынки и рыночная власть: теория организации промышленности. В 2 томах. М.: Экономическая школа, 2000.
144. Информатика: Учебник. / Под ред. Н.В. Макаровой. 3-е изд. М.: Финансы и статистика, 2011, 504 с.
145. Искандеров Р.К. Научно-технический прогресс и рынок нововведений. М.: "АТ и СО", 2000, 356 с.
146. Исмаилов С.Ф. Реформирование и развитие промышленных предприятий в условиях переходной экономики. Баку: "Элм", 2006, 340 с.
147. История Азербайджана. в трех томах. Баку: Издательство "АН Азерб. ССР", 1958-1963 гг.
148. Калюжнова Н.Я. Конкурентоспособность регионов в условиях глобализации. М.: "Теис", 2004, 195 с.
149. Каплан Роберт С., Нортон Дейвид П. Сбалансированная система показателей. От стратегии к действию. М.: ЗАО "Олимп- Бизнес", 2003, 318 с.
150. Костельс Мануель. Информационная эпоха. Экономика, общество и культура. М.: "ГУ ВШЭ", 2010, 608 с.
151. Кауз Р.Г. Природы фирмы. М.: 1995, 346 с.
152. Кемпбелл Р.Маконнел., Стенли Л.Брю. Экономикс. М.: "ИНФРА-М", 1999, 974 с.
153. Кларк Д.Б. Распределение богатства. М.: "Гелиос АРВ", 2000, 368 с.
154. Козьева И.А., Кузьбожев Э.Н. Экономическая география и регионалистика. М.: "КНОРУС", 2005, 336 с.
155. Колесов В.П., Кулаков М.В. Международная экономика. М.: "ИНФРА-М", 2004, 474 с.
156. Коллон М. Нефть, PR, война: Глобальный контроль над ресурсами планеты. М.: "Крымский мост-9Д", 2002, 414 с.

157. Комаров М.П. Инфраструктура регионов мира. Учебник. СПб: Издательство “Михайлова В.А.”, 2000, 347 с.
158. Корниенко О.В. Мировая экономика. СПб.: “Питер”, 2009, 256 с.
159. Корнаи Я. Социалистическая система: Политическая экономика коммунизма. М.: 2000, 469 с.
160. Кочергина Т.Е. Мировая экономика. Ростов н/Д: “Феникс”, 2009, 267 с.
161. Кудина М.В. Основы экономики. М.: “Кнорус”, 2009, 352 с.
162. Кузнецов Б.Т. Макроэкономика. М.: “Инфра-М”, 2011, 458 с.
163. Леонтев В.В. Межотреслевая экономика. М.: “Экономика”, 1997, 432 s.
164. Ломакин В.К. Мировая экономика. Практикум. М.: “ЮНИТИ”, 2007, 223 с.
165. Любушин Н.П. Экономический анализ. М.: “ИНФРА-М”, 2010, 575 с.
166. Майбурд Е.М. Введение в историю экономической мысли. От пророков до профессоров. М.: “Дело”, Вита-Пресс, 1996, 287 с.
167. Маркс К., Энгельс Ф. В двух томах. М.: “Наука”, 1982.
168. Маршал А. Принципы экономической науки. В трех томах. М.: “Дело”, 1993.
169. Мень А. История религии. В 7 томах. М.: “Наука”, 1992.
170. Мирзаджанзаде А.Х., Султанов Ч.А. Этюды нефтяной концепции Азербайджана. Баку: 1994, 100 с.
171. Мир-Бабаев М.Ф. Краткая история азербайджанской нефти. Баку: “Азернешр”, 2009, 376 с.
172. Мировая экономика (под редакцией проф. Ю.А.Щербина). М.: “ЮНИТИ-Д”, 2004, 318 с.
173. Мировая экономика (под редакцией проф. А.С.Булатова). М.: “Экономисть”, 2007, 860 с.
174. Мировая экономика и международные экономические отношения. Под. ред. Р.И.Хасбулатова. В 2 частях. М.: Изд. “Гардарики”, 2006, 720 с.
175. Мировая экономика и международный бизнес. (Учебник). Под ред. Полякова В.В., Щенина Р.К. М.: “Кнорус”, 2008, 688 с.
176. Мировая Экономика. Практиум (под редакцией И.П.Николаевой) М.: “Проспект”, 2009, 200 с.
177. Мюллер А. История ислама: От доисламской истории арабов до падения династии Аббасидов: М.: ООО “Издательство Астрель”: ООО “Издательство АСТ”, 2004, 911 с.
178. Орехов А.М. Методы экономических исследований. М.: “ИНФРА-М”, 2009, 392 с.
179. Осбринк Б. Империя Нобелей: история о заменитых шведах, Бакинской нефти и революция в России. М.: “Текст”, 2003, 409 с.
180. Пиндайк Р., Рабинфельд Д. Микроэкономика. СПб.: “Питер”, 2011, 608 с.
181. Поздняков В.Я., Казаков С.В. Экономика отрасли. М.: “ИНФРА-М”, 2010, 309 с.

182. Потапов М.А., Салицкий А.И., Шахматов А.В. Экономика современной Азии. М.: Международные отношения, 2008, 256 с.
183. Пономарева Е.С., Кривенцова Л.А. и др. Мировая экономика и международные экономические отношения. М.: “ИНФРА-М”, 2012, 287 с.
184. Победа была бы невозможна без Бакинской нефти. под редакцией академика Зияда Самедзаде. Баку: Специальный выпуск газеты “Игтисадиййат” и Союза экономистов Азербайджана, 2005, 145 с.
185. Потемкин А.П. Виртуальная экономика. М.: “ИНФРА-М”, 2000, 384 с.
186. Раджабова З.К. Мировая экономика. М.: “ИНФРА-М”, 2006, 336 с.
187. Райзберг Б.А., Лозовский Л.Ш., Стародубцева Е.Б. Современный экономический словарь. М.:” ИНФРА-М”, 1999, 319 с.
188. Самедзаде З.А. Структура и эффективность общественного производства. Баку: “Элм”, 1980, 322 с.
189. Самедзаде З.А. “Этапы большого пути - Экономика Азербайджана за полвека, её новые реалии и перспетивы”. Баку: Издтельско-Полиграфический Центр “НУРЛАР”, 2004, 936 с.
190. Самуеэлсон П., Нордхаус В. Экономика. 15 изд., М.: 1997, 711 с.
191. Спиридонов И.А. Мировая экономика. М.: “Феникс”, 2008, 272 с.
192. Симагин Ю.А Территориальная организация населения и хозяйства (под общ. ред проф. В.Г.Глушковой), М.: “КНОРУС”, 2005, 384 с.
193. Социально-экономическая география зарубежного мира. М.: “Дрофа”, 2005, 557 с.
194. Суэтин А.А Мировая экономика. Международные экономические отношения. Глобалистика. М.: “Кнорус”, 2008, 320 с.
195. Спиридонова Н.В. Теоретический анализ экономических систем. СПб.: “Питер”, 2013, 240 с.
196. Султанов Ч. Электроэнергетика Азербайджана. Баку: “Чашыоглы”, 2013, 223 с.
197. Тимми Боб А есть ли дефицит? Азбука нефтяной экономики. / Пер. с англ. М.: ЗАО “Олим-Бизнес”, 2005, 328 с.
198. Томпсон А.А., Стрикленд А.Дж. Стратегический менеджмент: концепции и ситуации. М.: “ИНФРА-М”, 2000, 253 с.
199. Уильямсон О. Природа фирмы. М.: “Дело”, 2001, 360 с.
200. Уроки мудрости: Сочинения. Конфуций М.: Издательство: “ЭКСМО”, 1998, 234 с.
201. Уткин А.И. Глобализация: процесс и осмысление. М.: “Логос”, 2002, 254 с.
202. Фишер С., Дорнбуш Р., Шмалензи Р. Экономика. М.: “ИНФРА-М”, 1999, 864 с.
203. Философия экономики. Антология. Под ред. Хаусмана Д.М.: “ИНФРА-М”, 2012. 520 с.

204. Фридмен М. Если-бы деньги заговорили. М.: "Дело", 1999, 345 с.
205. Фридмен М. Количественная теория денег. М.: 1996, 416 с.
206. Шеремет А.Д. Теория экономического анализа. М.: "ИНФРА-М", 2011, 352 с.
207. Экономическая теория. Под ред. Лобачевой Е.Н., М.: "ИНФРА-М", 2012, 506 с.
208. Энциклопедия стран мира. Под редакции Симония Н.А. М.: "Экономика", 2004, 1319 с.
209. Эрик Шмидт, Джаред Коэн. "Новый цифровой мир" М.: Издательство: "Манн, Иванов и Фербер", 2013, 312 с.
210. Эррера С., Браун.С.Л. Торговля фьючерсами и опционами на рынке энергоносителей. / Пер с англ. М.: ЗАО "Олим-Бизнес", 2003, 304 с.
211. Юзбашиева Г.З., Влияние Азербайджанского менталитета на экономическое развитие страны. Баку: "Авропа", 2010, 478 с.
212. Ядгаров Я.С. История экономических учений. М.: "Инфра-М", 2009, 480 с.

**Veb-saytlar**
213. www.president.az - Azərbaycan Respublikasının Prezidentinin rəsmi saytı.
214. http://lib.aliyevheritage.org/az/2541517.html - "Yeni Əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti". "Heydər Əliyev İrsi" Beynəlxalq Elekrton kitabxana. Bakı şəhəri 29 dekabr 2000-ci il.
215. https://azertag.az/xeber/Prezident_Ilham_Aliyevin_iqtisadi_inkisaf_strategiyasinin_esas_istiqametleri-1153387 - Ramiz Mehdiyev. Prezident İlham Əliyevin iqtisadi inkişaf strategiyasının əsas istiqamətləri.
216. www.cabmin.gov.az - Azərbaycan Respublikasının Nazirlər Kabineti.
217. www.economy.gov.az - Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi.
218. www.mie.gov.az - Azərbaycan Respublikasının Energetika Nazirliyi.
219. www.azstat.org - Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi.
220. www.heydar-aliyev-foundation.org - Heydər Əliyev Fondu.
221. www.socar.com - Azərbaycan Respublikası Dövlət Neft şirkəti
222. www.oilfund.az - Azərbaycan Respublikası Dövlət Neft Fondu.
222. www.e-qanun.az - Azərbaycan Respublikasının qanunvericilik aktları.
223. www.azerenerji.com - "Azərenerji" ASC.
224. www.chamber.az - Azərbaycan Ticarət və Sənaye Palatası.
225. www.un.org - Birləşmiş Millətlər Təşkilatı
226. www.weforum.org - Beynəlxalq İqtisadi Forum - Davos Forumu.
227. www.unesco.org - BMT-nin təhsil, elm və mədəniyyət üzrə təşkilatı.
228. www.unctad.org - BMT-nin Ticarət və İnkişaf Konfransı.
229. www.uncitral.org - Beynəlxalq ticarətə BMT komissiyası.
230. www.unido.org - BMT-nin sənayenin inkişafı üzrə təşkilatı.
231. www.ilo.org - BMT-nin Beynəlxalq Əmək Təşkilatı.

232. http://data.un.org - BMT-nin Statistika şöbəsi.
233. www.imf.org - Beynəlxalq Valyuta Fondu.
234. www.worldbank.org - Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı.
235. www.europa.eu.int - Avropa İttifaqı.
236. www.oecd.org - İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı.
237. www.wto.org - Dünya Ticarət Təşkilatı.
238. www.opec.org - Neft İxracatçısı Ölkələri Təşkilatı.
239. www.apecsec.org.sg - Asiya-Sakit okean iqtisadi əməkdaşlıq təşkilatı.
240. www.nafta-sec-alena.org - Şimali Amerika Azad Ticarət təşkilatı.
241. www.worldeconomy.ru - Kütləvi İnformasiya Vasitələri dünya iqtisadiyyatı haqqında.
242. http://www.iea.org - Beynəlxalq Enerji Agentliyi.
243. www.imemo.ru - Rusiya Elmlər Akademiyasının Beynəlxalq İqtisadi Münasibətlər İnstitutu.
244. www.iie.com - ABŞ-ın Beynəlxalq İqtisadiyyat İnstitutu.
245. www.ptpu.ru/issues - Roma Klubu.
246. www.ek-lit.agava.ru/smitsod.htm - Адам Смит. "Исследование о природе и причинах богатства народов".
247. www.ek-lit.agava.ru/ricsod.htm - Давид Рикардо. "Начала политической экономии и налогообложения".
248. www.gallery.economicus.ru - İqtisadçılar qalereyası.
249. www.elshanhajizadeh.com - prof. Elşən Hacızadənin saytı.
250. http://www.igaz.az - Akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun saytı.
251. http://www.aii.az/az/pages/43 - Azərbaycan İqtisadçılar İttifaqı - Elşad Səmədzadənin Beynəlxalq İqtisadçılar ittifaqında çıxışı 2016-cı il.
252. http://www.internetworldstats.com - Beynəlxalq internet statistikası veb-saytı.
253. http://www.worldometers.info/world-population/population-by-country/ - Əhali sayı haqqında sayt.
254. http://worldpopulationreview.com/countries/countries-in-world-by-area/ - Ərazi haqqında sayt.
255. https://tradingeconomics.com/country-list/inflation-rate - İnflyasiya haqqında sayt.
256. http://stattur.ru/journal/20180221/ - İşsizlik haqqında sayt.
257. https://www.indexmundi.com/g/r.aspx?v=69 - Yoxsulluq haqqında sayt.
258. https://data.worldbank.org/indicator/SL.TLF.CACT.ZS - İqtisadi aktiv əhali haqqında sayt.

# İXTİSARLA YAZILMIŞ SÖZLƏR

| | |
|---|---|
| **AEBA** | *Atom Enerjisi üzrə Beynəlxalq Agentlik* |
| **ABŞ** | *Amerika Birləşmiş Ştatları* |
| **ACK** | *Avropa Cəmiyyətləri Komissiyası* |
| **AES** | *Atom Elektrik Stansiyası* |
| **ALADI/LAIA** | *Latın Amerikan İnteqrasiya Assosiasiyası* |
| **AFR** | *Almaniya Federativ Respublikası* |
| **Aİ** | *Avropa İttifaqı* |
| **AİZ** | *Azad İqtisadi Zona* |
| **AMEA** | *Azərbaycan Milli Elmlər Akademiyası* |
| **ACTO** | *Amazon paktı* |
| **APEC** | *Asiya-Sakit okean İqtisadi Əməkdaşlığı* |
| **ASC** | *Açıq Səhmdar Cəmiyyət* |
| **ASEAN** | *Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyası* |
| **AŞ** | *Avropa Şurası* |
| **ATƏT** | *Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı* |
| **ATİB** | *Azərbaycan Türkiyə İş Adamları Birliyi* |
| **AYİB** | *Avropa Yenidənqurma və İnkişaf Bankı* |
| **AZPROMO** | *Azərbaycan İxracın və İnvestisiyaların Təşviqi Fondu* |
| **BTR** | *Zirehli döyüş maşını* |
| **B.e.ə.** | *Bizim eradan əvvəl* |
| **BƏƏ** | *Birləşmiş Ərəb Əmirlikləri* |
| **BƏT** | *Beynəlxalq Əmək Təşkilatı* |
| **BİA** | *Beynəlxalq İnkişaf Assosiasiyası* |
| **BMP** | *Piyadaların döyüş maşını* |
| **BMT** | *Birləşmiş Millətlər Təşkilatı* |
| **BP** | *Böyük Britaniyanın Britiş Petrolium neft şirkəti* |
| **Brent** | *Şimal dənizində hasil edilən neft çeşidlərinin etalon markası* |
| **BRICS** | *Dinamik inkişaf edən ölkələr qrupu* |
| **BTC** | *Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan ixrac neft boru kəməri* |
| **BTQ** | *Bakı-Tbilisi-Qars dəmir yolu xətti* |
| **BVF** | *Beynəlxalq Valyuta Fondu* |
| **BYİB** | *Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı* |
| **CAR** | *Cənubi Afrika Respublikası* |
| **CBSS** | *Baltik Dənizi Dövlətlərinin Şurası* |
| **CEFTA** | *Mərkəzi Avropa Azad Ticarət Assosiasiyası* |

| | |
|---|---|
| **CQBK** | *Cənubi Qafqaz Boru Kəməri (Bakı-Tbilisi-Ərzurum)* |
| **SOCAR** | *Azərbaycan Dövlət Neft Şirkəti - ARDNŞ* |
| **ÇXR - Çin** | *Çin Xalq Respublikası* |
| **DB** | *Dünya Bankı* |
| **DST** | *Dünya Səhiyyə Təşkilatı* |
| **DTT** | *Dünya Ticarət Təşkilatı* |
| **ETİ** | *Elmi-Texniki İnqilab* |
| **ETT** | *Elmi-TexnikiTərəqqi* |
| **ETTKİ** | *Elmi-Tədqiqat, Təcrübə-Konstruktor İşləri* |
| **FAO** | *BMT-nin  Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı* |
| **GATT** | *Tariflər və Ticarət üzrə Baş Saziş* |
| **GUAM** | *Demokratiya və İqtisadi İnkişaf Uğrunda Təşkilat* |
| **HSK** | *Hərbi-sənaye kompleksi* |
| **İCSID** | *İnvestisiya Mübahisələrinin Həlli üzrə Beynəlxalq Mərkəz* |
| **İES** | *İstilik Elektrik Stansiyası* |
| **İƏİT** | *İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı* |
| **İFC** | *Beynəlxalq Maliyyə Korporasiyası* |
| **ECO** | *İqtisadi Əməkdaşlıq Təşkilatı* |
| **İİB** | *İslam İnkişaf Bankı* |
| **İKT** | *İnformasiya və kommunikasiya texnologiyaları* |
| **İPE** | *Beynəlxalq neft birjası* |
| **İƏT** | *İslam Əməkdaşlıq Təşkilatı* |
| **İT** | *İnformasiya-texnologiyaları* |
| **İTER** | *Beynəlxalq Eksperimental İstilik-nüvə Reaktoru* |
| **KXDR** | *Koreya Xalq Demokratik Respublikası* |
| **KTMT** | *Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı* |
| **QHT** | *Qeyri-hökumət təşkilatları* |
| **QİÇS** | *Qazanılmış İmmun Çatışmazlığı Sindromu* |
| **QİƏT** | *Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı* |
| **QİYŞ** | *Qarşılıqlı İqtisadi Yardım Şurası* |
| **QSC** | *Qapalı Səhmdar Cəmiyyət* |
| **MAR** | *Mərkəzi Afrika Respublikası* |
| **MDB** | *Müstəqil Dövlətlər Birliyi* |
| **MERCOSUR** | *Cənubi Amerika ölkələrinin ümumi bazarı* |
| **MHS** | *Milli Hesablar Sistemi* |

| | |
|---|---|
| **MG** | *Milli gəlir* |
| **NAFTA** | *Azad Ticarət Haqqında Şimali Amerika sazişi* |
| **NATO** | *Şimali Atlantika hərbi siyasi bloku* |
| **NYMEX** | *Nyu-York əmtəə birjası* |
| **OAS** | *Amerika Dövlətləri Təşkilatı* |
| **OAPEK** | *Neft İxrac Edən Ərəb Ölkələri Təşkilatı* |
| **OPEK** | *Neft İxrac Edən Ölkələr Təşkilatı* |
| **RF** | *Rusiya Federasiyası* |
| **CBSS** | *Baltik Dənizi Dövlətlərinin Şurası* |
| **SC** | *Səhmdar Cəmiyyət* |
| **SES** | *Su Elektrik Stansiyası* |
| **SGX** | *Sinqapur birjası* |
| **SSRİ** | *Sovet Sosialist Respublikaları İttifaqı - Sovet İttifaqı* |
| **ŞƏT** | *Şanxay Əməkdaşlıq Təşkilatı* |
| **TAE** | *Trans-Asiya-Avropa beynəlxalq fiber-optik rabitə xətti* |
| **TANAP** | *Trans Anadolu Boru Kəməri* |
| **TAP** | *Trans-Adriatik Boru Kəməri* |
| **TASİM** | *Trans-Avrasiya Super İnternet Magistralı* |
| **TMB** | *Trasmilli banklar* |
| **TMŞ/TMK** | *Transmilli şirkət - Transmilli Korporasiya* |
| **TRACECA** | *Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizi* |
| **TÜRKPA** | *Türkdilli Ölkələrin Parlament Assambleyası* |
| **TÜRKSOY** | *Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı* |
| **TÜSİAB** | *Azərbaycan Türk Sənayeçi və İş adamları Beynəlxalq Cəmiyyəti* |
| **TŞ** | *Türkdilli Şurası* |
| **UNEP** | *Birləşmiş Millətlər Ətraf Mühit Proqramı* |
| **UNESCO** | *Elm, Təhsil və Mədəniyyət üzrə Birləşmiş Millətlər Təşkilatı* |
| **UNICEF** | *Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu* |
| **UNIDO** | *BMT-nin Sənayenin İnkişafı Təşkilatı* |
| **UNSİTRAL** | *BMT-nin Beynəlxalq Ticarət Hüququ Komissiyası* |
| **UNCTAD** | *BMT-nin Ticarət və İnkişaf üzrə Konfransı* |
| **ÜDM** | *Ümumi Daxili Məhsul* |
| **ÜMM** | *Ümumi Milli Məhsul* |
| **ÜMG** | *Ümumi Milli Gəlir* |
| **YEK** | *Yanacaq-enerji kompleksi* |
| **YEB** | *Yanacaq-enerji balansı* |
| **YSÖ** | *Yeni sənaye ölkələri* |
| **WTI** | *Qərbi-Texas nefti* |

**Доктор экономических наук, профессор**
**Эльшан Махмуд оглы Гаджизаде**

**Мировая экономика и Азербайджан. Учебник.**

**Аннотация**

В учебнике нашли свое отражение научные основы формирования и развития мировой экономики, широкие исследования практических задач, тенденции интернационализации и глобализации, международное движение капитала, особенности мирового рынка товара и услуг, процессы ценообразования, валютно-финансовые отношения, темпы и пропорции развития, а также другие актуальные проблемы.

В большом объеме в учебник включены многочисленные статистические и аналитические материалы, характеризующие особенности мирового хозяйства. По отдельным странам представлено широкое научное изложение вопросов природных ресурсов, научно-технического и человеческого потенциалов, современного состояния экономик, сравнения макроэкономических показателей, слабых и сильных сторон базовых и инфраструктурных сфер, экологических проблем, методов и форм государственного регулирования экономических процессов, углубления интеграции и направлений стратегического развития.

Специфика и важная особенность учебника связана с местом и ролью Азербайджанской Республики в системе международного разделения труда, анализом и представлением перспектив углубления ее интеграции в мировую экономику.

Учебник предназначен для студентов, докторантов, преподавателей, научных работников, специалистов и, в целом, интересующихся проблемами мировой экономики.

---

**Doctor of Economics, Professor**
**Elshan Mahmud oglu Hajizadeh**

**World economy and Azerbaijan. Textbook**

**Abstract**

Theoretical foundations of the formation and development of the world economy and study of its practical problems, as well as the internationalization and globalization trends, international capital flows, features of the world commodities and services market, pricing processes in this market, monetary and financial relations, development rates and proportions and other actual problems are reflected in the textbook.

Numerous statistical and analytical materials describing the features of the world economy are included in the textbook and issues on the natural resources, scientific, technical and human capacities, present situation of the economy, comparison of macroeconomic indicators, the strengths and weaknesses of basic and infrastructure sectors, environmental problems, forms and methods of the state regulation of economic processes, deepening of the integration and directions of the strategic development in the different countries are represented by a broad scientific exposition.

Specificity and important feature of the textbook is associated with the place and role of the Republic of Azerbaijan in the international labor division, analyzing and presenting the prospects of deepening its integration into the world economy.

The textbook is intended for the use of students, doctoral students, teachers, researchers, professionals and, in general, for those who are interested in the problems of the world economy.

**Elşən Hacızadə**

# DÜNYA İQTİSADİYYATI VƏ AZƏRBAYCAN

*Dərslik*

**Tərtibat**
**Elşən Əliyev**

**Kompüter dizaynı**
**Sevda Süleymanova**

**Korrektor**
**Afət Manafova**

9 789952 452914

**ISBN 978-9952-452-91-4**

Çapa imzalanmış: 28.09.2018.

Kağız formatı 70×100 1/16.
Fiziki çap vərəqi 57. Tiraj 500. Sifariş 35.

"Letterpress" nəşriyyat evində çap olunmuşdur. e-mail: office@letterpress.az